Dürdanə Qədirova	Şəki muzeylərində sənətkarlıq inciləri	**1435**
Dos. Gülşən Fəxrəddin qızı Novruzova	Orta ümumtəhsil məktəb şagirdlərinin təhsilində fərdə yönəlmiş təlimin təşkili	**1440**
Vəliyeva Sevda Əkrəm	Bəxtiyar Vahabzadə poeziyasında azadlıq ideyasının bədii təcəssümü	**1446**
Yolçubəyli Çinarə Ayaz qızı	Ağamusa Axundovun poezıyasının dil və üslub dünyası	**1453**
Prof. Qızxanım Nizaməddin qızı Qəhrəmanova	Təhsil müəssisələrində sosial pedaqoqun rolu	**1460**
Xatirə Sultan	"Ulu" sözünün Türk dillərində etnolinqvistik və linqvokulturoloji analizi	**1464**
Elnarə Gülağa qızı Niftəliyeva	Dilçilikdə enantiosemiya hadisəsi: Bəxtiyar Vahabzadənin lirik əsərləri əsasında	**1469**
Tofiq İsgəndərov	Bəxtiyar Vahabzadə yaradıcılığında müstəqillik və istiqlal ideyası	**1472**
Yaqut Qasımova Qulu qızı	Müasir coğrafiya təlimində innovativ pedaqoji yanaşmalar	**1477**
Heydərova Simnarə Nadir qızı	Sağlamlıq imkanları məhdud uşaqlarda psixomotor çatışmazlıqların aradan qaldırılmasında art terapiya metodlarından istifadə	**1482**
Ziyafət Məmməd qızı Ziyalı	Milli- mənəvi dəyərlərimiz bizim kimliyimizdir.	**1487**
Lətifə Qəribağa qızı Cəlilova	İbtidai siniflərin riyaziyyat dərsliklərin təhlili	**1492**

Süheyla Karaca Hanönü	Türklüğün Sesi Bahtiyar Vahapzade	**1505**
Selvigül Kandoğmuş Şahin	Halk Şairi Bahtiyar Vahapzade'nin 100. Yıl Anma Program	**1509**
Əfəndiyeva Şayəstə İbrahim qızı	Azərbaycanda ana dilində yazılmış ilk dərsliklər	**1514**

TOPONYMS ARE THE MIRROR OF HISTORY

TOPONİMLƏR TARİXİN AYNASIDIR

Mahirə Hüseynova
Filologiya elmləri doktoru, professor
ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru

Xülasə
İki əsr zaman kəsiyində vandal, terrorçu, köçəri tayfa təfəkkürlü erməni qaniçənləri, vəhşiləri Dərələyəz əhalisini öz dədə-baba yurdlarından qovmuş, oradakı tarixi kökləri eradan əvvəlki minilliklərdə gedib-çıxan coğrafi adları dəyişdirərək ermənileşdirmiş, bir çox maddi-mədəniyyət abidələri üzərində əməliyyatlar apararaq yazıları pozmuş və onların yerində əcaib-qəraib erməni sözləri həkk edərək ermənileşdirmiş, özlərinin olmayan tarixi abidələri kimi qələmə vermiş, dünya elmi-ictimaiyyəti bu ədalətsizliyə göz yummuş, bu qəbilə xislətli kiçik bir topluma "gözün üstə qaşın var" – deməmişdir. Düzdür, Dərələyəzin layiqli övladı, görkəmli ictimai-siyasi xadim, məşhur dilçi və türkoloq alim Həsən Mirzəyev bu Azərbaycan bölgəsinin toponimiyası, onomastikası, şivə leksikası, yaradıcı şəxsiyyətləri, tarixi coğrafiyası və s. haqqında 2006-cı ildə nəşr etdirdiyi monoqrafiyalarında geniş danışsa da, özü də qeyd edir ki, *"Dərələyəz haqqında qismən də olsa, ensiklopedik bir məlumat verməyə çalışdım. Lakin səhhətim imkan vermədiyi üçün 50 il müddətində Dərələyəz haqqında topladığım faktların hamısını verə bilmədim. Bu missiyanı gələcək nəsillər, gələcək tədqiqatçılar yerinə yetirməlidir"*. Hazırda bu missiya bizim üzərimizə düşür ki, cənnətməkan Dərələyəzin vaxtilə rus şovinistləri, rus imperiyası tərəfindən zorla, qeyri-qanuni yolla Azərbaycan xalqının əlindən alınıb ermənilərə verilməsini, vəhşi ermənilərin bu torpaqların maddi və mənəvi sərvətlərini 200 ildir ki, talan etmələri, dərələyəzlilərə qarşı dəhşətli qırğınlar, soyqırımlar, qətliamlar, terror aktları həyata keçirmələri, deportasiya olunmuş əhalinin hazırki durumunun statistikasının verilməsi, tarixi coğrafiyasına yeni bucaq altından yanaşılaraq təqdim edilməsi bu perspektli vəzifələr sırasındadır.
Açar sözlər: Dərələyəz mahalı, toponimlər, tarixi etimoloji xüsusiyyətlər, erməni vandalizmi, Dərələyəz mahalının toponimləri

Abstract
Over the course of two centuries, vandals, terrorists, nomadic tribal-minded Armenian bloodthirsty savages and savages expelled the population of Daralayaz from their ancestral lands, changed the geographical names that had their historical roots in the millennia BC and Armenianized them, carried out operations on many material and cultural monuments, destroyed the inscriptions and carved strange Armenian words in their place, Armenianized them, and presented them as historical monuments that did not exist, and the world scientific community turned a blind eye to this injustice and did not say "you have a beard over your eyes" to this small community with tribal characteristics. It is true that Hasan Mirzayev, a worthy son of Daralayaz, a prominent public and political figure, a famous linguist and Turkologist, has studied the toponymy, onomastics, dialect lexicon, creative personalities, historical geography, etc. of this Azerbaijani region. Although he spoke extensively about it in his monographs published in 2006, he himself notes that "I tried to provide at least partial, encyclopedic information about Daralayaz. However, due to my health, I could not provide all the facts I collected about Daralayaz over the course of 50 years. This mission must be fulfilled by future generations and future researchers." Currently, this mission falls on us, as we must learn about the fact that the paradise Daralayaz was once forcibly and illegally taken from the Azerbaijani people by Russian chauvinists and the Russian Empire and given to the Armenians, the plundering of the material and spiritual wealth of these lands by the barbaric Armenians for 200 years, the terrible massacres, genocides, massacres, and terrorist acts against the people of Daralayaz, the provision of

statistics on the current situation of the deported population, and the presentation of its historical geography from a new perspective are among these promising tasks.

Keywords: Deralayaz district, toponyms, historical etymological features, Armenian vandalism, toponyms of Deralayaz district

Dərələyəzin indiki sahəsi 2808 km^2-dir. Bu sahədən 1134 km^2 Yeğeqnadzor (Keşkənd//Keşişkənd) rayonunun, 1174 km^2-i isə Əzizbəyov (Paşalı, Vayk) rayonunun payına düşür. Dərələyəz mahalının müəyyən hissələri yüksək dağ silsilələrindən, müəyyən hissəsi isə hamar düzənliklərdən ibarətdir. Mahalın yayı qızmar və quru (iyul, avqust aylarında orta tempratur 24-25 dərəcə), qışı rütubətli həm yumşaq, həm də sərt (yanvarda orta tempratur 8-9 dərəcə) keçir. İllik yağıntı 800-1000 mm, dağlarda iqlim nisbətən soyuq və rütubətlidir; qışda şaxta 20 dərəcəyə çatır. İllik yağıntının 2000-2600 mm olması ərazidəki çaylarda bol sululuq yaradır. Boz, qara, sarı, qəhvəyi, qonur çöl və meşə torpaqları var. Mahalın ərtaf və sərhədlərində meşəliklərdən ibarət onlarla dağlar, qayalar, dərələr, təpələr, aşırımlar, yaylaqlar, düzlər, ormanlar, örüşlər, biçənəklər mövcuddur. Ərazinin torpaqdan və daşdan, qayadan süzülüb çıxan təbii qaynamaları, bulaqları minerallarla zəngindir və onların çoxu bir nöqtədə birləşərək kiçik arxlar, böyük su tutumuna malik çaylar yaradır. Bulaq və arx sularından qidalanaraq lap qədim zamanlardan oba yerlərində Arpaçayın iki qolu yaranmışdır. Arpaçayının iki böyük qolu mənbəyini Dərələyəzin sərhədlərindən götürüb Şərur ərazisində Arpaçayına tökülür. Zəngin dağ silsilələri, su qovşaqları, meşələri, çölləri, düzənləri bu yerlərdə çoxlu bitki və heyvanat aləmin formalaşmasına şərait yaratmışdır. Adları qırmızı kitaba düşmüş nadir quşlar, vəhşi heyvanlar bu yerlərin meşələrinin, dağlarının, dərələrinin, təpələrinin, qayalarının, su hövzələrinin daimi sakinləri olmuşlar. Ermənilər bu yerlərə İrandan və Türkiyədən qovulub yerləşdirilənə qədər mahal ərazisinin tarixi, etnik tərkibi sabit olmuş, yüz faizi Azərbaycan-türk soyundan ibarət olmuşdur. Əhalisinin soy kökü heç vaxt dəyişməmişdir. Dərələyəz əhalisinin eradan əvvəlki dövrlərdən başlayaraq soy kökündə türk - Azərbaycan mənşəli as/az, alban, hun, bulqar, xəzər, çul, uti, cığatay, çakər, çakar, avşar, her-her, qer-qer, oğuz, qıpçaq, quşçu, peçeneq, suvar, təhlə, türkmən, ivə//givə və s. tayfa qəbilələr mühüm rol oynamış, əhalinin etnik tərkibi bu tayfa birliklərinin bu ərazilərə gəlmələri ilə xeyli sayda coğrafi adlar – etnotoponimlər yaratmışdır. 200 il bundan əvvəlki dövrlərdə bu ərazidə bir dənə də olsun erməni mənşəli toponimə təsadüf olunmur. Dərələyəz mahalı eradan əvvəl II əsrdən etibarən xəzərlərin tərkibində olmuş, sonrakı minilliklərdə gah Aranın, gah da Atropotenanın tərkibinə qatılmışdır. Arxeoloji qazıntılar da Dərələyəzin qədim insan məskəni olduğunu təsdiqləyir. Bu ərazidəki qayaaltı, dağaltı mağara və kahaların çoxluğu dediklərimizi sübut edən faktlardandır. Üstəgəl Dərələyəzin ərazisində mövcud olmuş qəbirstanlıqlar və onların üstündəki daşüstü yazılar da bu bölgənin tarixinin çox-çox qədimlərə çıxdığını sübuta yetirir. F.İ.Minorski qeyd edir ki, qədim türk etnosları e.ə. VIII-VII əsrlərdə indiki Ermənistanda yaşamış xalqdır. Bunlar indiki azərbaycanlıların ulu əcdadı olmuşlar. O vaxt bu ərazidə ermənilər yaşamamışlar. İbtidai icma quruluşunun dağılması, sinfi cəmiyyətin və erkən quldarlığın meydana gəlməsi nəticəsində yaranmış alban dövlətinin tərkibinə Dərələyəz mahalı da qatılmışdır, bunu ərazidə tarixən mövcud olmuş "Alban məbədi" – mədəni abidəsi də sübut edir. Alban dövləti dövründə, (V əsr) nəinki Dərələyəzdə, ümumilikdə Qafqazda bir dənə də olsun erməni olmamışdır. N.N.Lavrov doğru olaraq göstərir ki, Qafqazda yaşayan bir milyon üç yüz min ermənidən bir milyonu 1813-1828-ci illərdə (Gülüstan və Türkmənçay müqavilələrindən sonra) İran və Türkiyədən Qafqaza köçürülənlərdir. F.Engelsin nəzərincə erməni kilsə xadimləri Alban kilsəsinin daxili quruluşunda dəyişiklik aparırdı və onlar Alban mədəniyyətinin varisi olmağa tarix boyu can atmağa çalışmışlar. V əsrdə Dərələyəz əhalisi artıq torpaqdan hörülmüş daxmalara, damlara son qoymuş, daşdan tikilmiş, üstü kirəmitlə örtülmüş evlərdə yaşam sürürdülər. Maddi nemətlərin əsas istehsalçıları icma şəklində birləşmiş yerli aslardan-azərilərdən ibarət idi. Oda, suya, dağa, sitayiş qədim asların əsas kultları hesab olunurdu. Bu dövrdə Dərələyəz icmasını yerlərdən seçilmiş ağsaqqallar idarə edirdilər. V-VI əsrlərdə Qərbi Azərbaycana, o sıradan Dərələyəz türkdilli tayfaların axını daha da sistematik hal alaraq axını gücləndi. Feodalizm dövründə Dərələyəzdə maldarlıq, qoyunçuluq, taxılçılıq, arıçılıq, tütünçülük, xalçaçılıq, quşçuluq

geniş şəkildə inkişaf etmişdir. Bu dövrdə Dərələyəzin ticarət əlaqələri Türkiyə və Şərq ölkələri ilə qurulmuşdur. "Kitabi-Dədə Qorqud" dastanlarında adı çəkilən toponimlərin Dərələyəzin yer-yurd adlarında iz qoyması göstərir ki, bu bölgə ta qədimdən türk oğuzlarının yaşayış məskəni olmuşdur. Babəkin başçılıq etdiyi hərəkat Şərqdə, o cümlədən Azərbaycanda xilafətin hakimiyyətini xeyli zəiflətdi. Hələ VIII əsrin ortalarında Dərələyəz və onun ətraf regionlarında da ərəb zülmünə qarşı üsyanlar olmuşdur ki, bu üsyana mahalın kəndlərindən olan əhali də kütləvi şəkildə qatılmış, lakin güclü təzyiqlərə baxmayaraq ərazi ərəblər tərəfindən işğal olunmuşdur. İşğaldan sonrakı qısa zaman kəsiyində Dərələyəz əhalisi islam dinini qəbul etmişdir. İslam dininin qəbulundan sonrakı dövrlərdə Dərələyəz əhalisinin tarixində, mədəniyyətində böyük dəyişikliklər baş vermişdir. XI əsrdə dahi türkoloq Mahmud Kaşğarinin "Divan"ında qeydə aldığı 24 oğuz tayfasının adlarına, yaxud da müəyyən element və ünsürlərinə Dərələyəzin coğrafi adlar sistemində də rast gəlmək olur. Mənbələrin verdiyi məlumatlara görə, hələ eradan əvvəl II əsrdə Dərələyəzin Moz adlı ərazisində, yaşayış məntəqəsində 10000 əhali yaşamışdır. Tarixi mənbələrdən o da məlumdur ki, Dərələyəzin Ələyəz və Hostun kəndləri arasında yerləşən, təxminən 4 km uzunluğunda olan, adı geniş xalq kütləsinə bəlli olmayan böyük bir qala-şəhər olmuş, Erdəpin və Hostun kəndləri arasında mövcud olmuş bu qədim yaşayış məskəni ara müharibələri nəticəsində yer üzündən silinmiş, izləri XX əsrin sonlarına kimi qalmaqda idi. Orta əsrlərdə Dərələyəz monqolların (XIV-XV əsrlər) - Teymurləngin tabeliyində olmuşdur. Bundan sonrakı dövrlərdə bu qədim türk-oğuz yurdu Səlcuq, Elxani, Ağqoyunlu, Qaraqoyunlu, Səfəvi hökmdarlarının hakimiyyəti altında olmuşdur. Osmanlı Səfəvi müharibələri dövründə bu ərazinin kənd təsərrüfatına dair vergi dəftəri tərtib edilmiş, icmal dəftərində Dərələyəz vergi ödəyiciləri haqqında dolğun məlumatlar öz əksini tapmışdır. 1590-cı il, 1727-ci il Osmanlı türkləri tərəfindən tərtib edilmiş icmal dəftərində Dərələyəz nahiyəsinə məxsus 94 yaşayış məntəqəsinin adları göstərilmişdir. Həmin illərdə Naxçıvan xanlığına tabe olan Dərələyəz nahiyəsinin kəndlərinin sayı 101 göstərilmişdir. 1590, 1727, 1831, 1873, 1886, 1897, 1908, 1914, 1916, 1919, 1922, 1926 və 1931-ci illərdə türk və rus məmurları tərəfindən tərtib edilmiş icmal dəftərlərində və kameral siyahılarda Dərələyəzin azərbaycanlılar yaşayan kəndlərinin sayı 94 – 108 aralığında göstərilmişdir. 1828-ci il Türkmənçay müqaviləsinə əsasən 1829-cu ildə İranın Xoy, Salmas qəzalarından, Samsun və Makudan 500 erməni əhalisi köçürülüb Dərələyəzin strateji cəhətdən əhəmiyyətli kəndlərində, o cümlədən Məliksə, Keşkənd, Orta Kənd, Başkənd, Əyər, Qoytul, Həsənkənd, Erdəpin, Kələkulux, Tərətum və s. kəndlərində yerləşdirilir və azərbaycanlılar bu kəndlərdən tədricən çıxarılmağa başlayır. Dərələyəz mahalının bütün kəndlərində tarixi abidələr mövcud olmuşdur, bu kəndlərin qəbirstanlığında olan qoç daşlar, at daşlar eradan əvvəlki minilliklərin ən dəyərli yadigarları idi. Erməni vandalları bunların hamısını yığışdırıb məhv etdilər, tarixi abidələrin üzərindəki qədim yazıları silərək özlərinəməxsus əcaib söz və ifadələr həkk etdilər. Başqa sözlə, erməni şovinistləri Dərələyəzdə azərbaycanlılara məxsus olan abidələrin bir hissəsini öz adlarına çıxardılar, bir hissəsini parça-parça edərək yer üzündən sildilər. Çar Rusiyasının, sovet imperiyasının, erməni diasporasının köməyi və təkidi ilə Dərələyəz mahalının əhalisi 1828-1893, 1905-1907, 1918-1919, 1948-1953, 1988-ci illərdə açıq şəkildə öz doğma dədə-baba yurdlarından qovuldular.

Orta əsrlərin son yüzilliklərinə dair yazılmış əsərlərdə və tərtib edilmiş xəritələrdə də Dərələyəzin kəndlərinə dair məlumatlar verilmiş, topoqrafik göstəricilərdə onun coğrafiyası əksini tapmışdır. Ölkəmiz müstəqillik qazandıqdan sonrakı illərdə Dərələyəz mahalının coğrafi adları Azərbaycan xalqının dili, etnogenezi və etnoqrafiyası kontekstində professor Həsən Mirzəyevin araşdırmalarında əksini tapmış, ayrı-ayrı toponimlərin elmi-nəzəri əsasları, onların yaranma və təkamül yolları, onların tərkibindəki qədim dil elementləri saf-çürük edilmiş, Azərbaycan xalqının Dərələyəzdə ən qədim aborigen sakin olduğu bir daha təsdiqlənmişdir. Türkoloq-alimin tərtib etdiyi Dərələyəz xəritəsi son dövrlərin ən dəyərli və qiymətli xəritəsi hesab olunur. Dərələyəzin etnogenezisini, tarixini, etnoqrafiyasını, zəngin və qədim maddi mədəniyyət nümunələrini, yeraltı və yerüstü sərvətlərini öyrənib təbliğ etmək üçün ən etibarlı və əsaslı mənbə kimi toponimləri hesab edən H.Mirzəyev hələ sağlığında xeyli sayda bakalavr, magistr, doktorantı bu problem üzərində çalışmışdır, nəticədə Dərələyəzə aid zəngin elmi mənbələrin yaradılmasına nail olmuşdur. Bu araşdırmaların bəzilərində

təqzibedilməz faktlar əsasında müəyyənləşdirilmişdir ki, Dərələyəzin müxtəlif kəndlərində Gələsən-Görəsən qalası (VII-VIII əsrlər), Her-her-Qoşavəng məbədi (VIII-IX əsrlər), Gindivaz monastrı (X əsr), Qoşavəng, Ərgəz//Ərgazan piri (XIII əsr), Güneyvəng, Əxi-təvəkkül nahiyəsi)XII-XIII əsrlər), Amağu//Anabat məbədi (XIII əsr), Ələyəzdə hərbi kilsə (XIII əsr), Tanuqatı//Qaravəng məbədi (XIII əsr), Dədəli körpüsü (XIII əsr), Erdəpin məbədi (XIII-XIV əsrlər), Qılkörpü//Qabaxlı körpüsü (XIII-XIV əsrlər), Bozkənd//Gülvəng məbədi (XIII-XIV əsrlər), Şah Abbas//Səlim karvansarası (XIV əsr), Ağkənd karvansarası (XIV əsr), Alıxan pəyəsi körpüsü (XIV əsr), Həsənkənd körpüsü (XIV əsr), Salsal qalası (erkən orta əsrlər – III əsr), Dəmrov piri, Qoduxvəng//Xırdavəng, Qabaxlı məbədi və yüzlərlə inam-inanc ocaqları mövcud olmuşdur.

Dərələyəz mahalı yeraltı sərvətləri ilə tarixən yadellilərin diqqətini özünə çəkmiş, bu ərazidə ən qədim zamanlardan gümüş, mis, qızıl, dəmir, zəy və s. qiymətli daşlar, dəmir məmulatları istehsal olunmuşdur. Qızıl yatağı Dərələyəzin Keşkəndi ərazisində olmuş, gümüş yatağı Gümüşxana kəndinin, zəy yatağı Zəylik kəndinin, molibden yatağı Soğanlı kəndinin, dəmir yatağı əksər kəndlərin ərazisində, mərmər daşlar dağ kəndlərinin əksəriyyətində olmuşdur. Dərələyəz hazırda coğrafi cəhətdən Basarkeçər, Vedi, Naxçıvan Sədərək, Şərur, Babək, Şahbuz, indiki Ermənistanın Sisyan, Azərbaycanın Kəlbəcər rayonlarının əhatəsində yerləşir. Tarixin bütün dövrlərində türk oğuz yurdu olan Dərələyəz 1920-ci ilə qədər Azərbaycanın tərkibində olmuşdur. 1920-ci il noyabrın 29-da rus şovinistlərinin və erməni daşnaklarının, xüsusən də türkün qəddar düşməni olan Stalin, Mikoyan və Şaumyanın köməyi və təkidi ilə Azərbaycanın Zəngəzur, Göyçə, Qaraqoyunlu mahalları ilə birlikdə Dərələyəz də qeyri-qanuni şəkildə Azərbaycandan alınıb Ermənistana verilmişdir.

Dəniz səviyyəsindən 2084 m yüksəklikdə qərar tutan Ayısəsi yaşayış məntəqəsi Keşkənd rayon mərkəzindən 29 km aralıda yerləşmişdi (1, 135). 1918, 1931, 1946, 1988-ci illərdə erməni şovinistləri kənd əhalisini soyqırıma məruz qoymuş, ev-eşiklərini, mülklərini dağıtmış, onları qovmuş və mülklərinə sahiblənmişlər. Əslində Ayısəsi oykoniminin birinci komponentində səs düşümü hadisəsi baş vermiş, qədim türk tayfa adı olan "qayı//kayı" sözü "ayı" şəklini almışdır. Bundan istifadə edən erməni cızmaqaraçıları kəndin adını dəyişdirərək "Qızılgül" qoymuşlar. Ayısəsi kəndinin əhalisinin əsas təsərrüfat sahələrini əkinçilik, tütünçülük, maldarlıq, heyvandarlıq, meyvəçilik, arıçılıq təşkil etmişdir. Qayı//kayı tayfası tarixən oğuzlardan törəmiş və VII əsrdən çox-çox əvvəlki tarixi dönəmlərdən Qərbi Azərbaycanda böyük bir oğuz eli kimi yaşam sürməyə başlamışlar. Bu tayfa adının mənası "olduqca bərk, möhkəm" deməkdir və bu anlam həmin tayfadan olanların igidliyini, cəsurluğunu, möhkəmliyini işarələyir.

Aynəzir oykonimi "Ay" və "nəzir" komponentləri əsasında yaranmaqla tarixən şəxs adından törəmiş və Aynəzir adlı şəxs kəndin təməlini, bünövrəsini qoyduğu üçün belə ad almışdır. Aynəzir kəndinin əhalisi əsasən əkinçilik, heyvandarlıq, üzümçülüklə məşğul olmuşlar. Vandal ermənilər bu kəndin adını dəyişərək Ağavandzor qoymuşlar (1, 145). Aynəzir kəndi, mənbələrin verdiyi məlumata görə, qədim ivə//givə türk tayfasından törəmişdir. 1828-ci ildə İrandan indiki Ermənistana daşnakların köçürülmələrindən sonrakı illərdə Aynəzir kəndinin əhalisinin qara günləri başlamışdır. Qısa zaman kəsiyində kənddə ermənilərin sayı artırılmış, azərbaycanlı əhalinin sıxışdırılmasına başlanılmış, nəticədə 1922, 1946, 1951, 1988-ci illərdə mərhələlərlə soydaşlarımız öz dədə-baba yurdlarından didərgin salınmışdır.

İrandan Azader kəndinə köçürülən ermənilərin köç tarixi 1828-1832-ci illəri əhatə edir. Əslində Azader toponimi mürəkkəb quruluşa malik olub, "azad" və "yer" sözləri əsasında formalaşmışdır. "İrəvan əyalətinin icmal dəftəri"ndə də bu oymağın adı "Azadyer" şəklində verilmiş, 1590 və 1727-ci illərdə oymağın gəlirinin 6996 axça olduğu göstərilmişdir. Paşalı rayon inzibati ərazi vahidliyinin tərkibində olan bu kənd 1918-ci ildən erməni vandallarının vəhşilikləri ilə üzləşmiş, 1948-1951, 1988-ci illərdə Azərbaycana zorla deportasiya olunmuşlar (1, 146).

Yeğeqnadzor rayonu ərazisində mövcud olmuş Bağçacıq kəndinin 1590-cı il Osmanlı türklərinin tərtib etdiyi dəftərində 2019 ağça gəliri olmuşdur. Kök(bağ)+şəkilçi(ça)+şəkilçi(cıq) modeli əsasında formalaşmış Bağçacıq udu yaşayış yeri məntəqələrinə Qərbi Azərbaycanın Vedi rayonunun, İrəvan quberniyasının Sürməli qəzasında, İrəvan xanlığının Dərəçiçək mahalında da rast gəlinmişdir. Bu oykonim mənaca "kiçik bağ" yerində salınmış yaşayış məntəqəsi anlamını bildirir. İnformatorların

verdiyi məlumata görə Bağçılıq kəndində ağaclıq, bağlıqdan ibarət sahə olmamışdır və belə ehtimal edilir ki, Bağçacıq kənd adı vaxtilə bu yerlərdə məskunlaşmış Bağçalı tayfasının adını özündə əks etdirir. 1727-ci ilə aid tarixi sənədə görə Bağçacıq kəndinin gəliri 2019 ağca həcmində olmuşdur. XIX əsrin son yüzilliklərinə qədər Ağbaba mahalında da eyniadlı kənd olmuşdur (6, 36).

Tarixən Keşkənd inzibati ərazi vahidliyində mövcud olmuş Başkənd yaşayış məntəqəsinin adı kök(baş)+kök(kənd) modeli əsasında yaranmışdır. "Baş" sözü toponimin tərkibində tərəf, istiqamət bildirir. Osmanlı türklərinin tərtib etdiyi müfəssəl dəftərdə 1590-cı il və 1727-ci illərdə kəndin gəliri 1804 ağça olmuşdur. Başkəndin ərazisi geniş, torpaqları münbit və çox məhsuldar idi. 1878-ci ildən başlayaraq kəndə ermənilər yerləşdirilmiş, azərbaycanlı əhalisi isə kənarlaşdırılıb tədricən çıxarılmışdır. Bunun nəticəsidir ki, 1897-ci ildə bu kənddə 570 erməni, 23 nəfər azərbaycanlı əhali olmuşdur. Başkənddəki qədim abidələrə söykənən erməni tarixçiləri özlərinin bu yerlərdə məskunlaşmalarını saxtakarcasına 2500 ilə aid etmişdilər. Başkənd yaşayış məntəqəsinə bu ad azərbaycanlı əhalinin bu yerlərdə yerləşməsinin coğrafi relyefinə görə verilmişdir. Belə ki, tarixən bu kənd çox böyük olduğuna görə Başkənd toponiminin birinci komponentikdəki "baş" sözü yerində "orta" və "aşağı" coğrafi yerləşmə bildirən leksik vahidlərindən istifadə olunmuşdur (7, 59).

Keşkənd rayon inzibati ərazi vahidində mövcud olmuş Bəyzadə kəndində tarix boyu azərbaycanlı əhali yaşamışdır. Bu kənd Məliskə çayından 17 km şərqdə yerləşirdi. Kəndin ərazisində çoxlu bulaqlar, əkin üçün geniş sahələr, heyvandarlıq üçün örüş və kövşən sahələri mövcud idi. Bəyzadə toponiminin mənası "varlı, bəy nəslindən olanların yaşayış yeri" anlamını bildirir (1,150).

Əzizbəyov rayonu ərazisində mövcud olmuş Bilək//Birək azərbaycanlılar yaşayan yaşayış məntəqəsinin adı yerli əhali arasında həm Bilək, həm də Birək (söz ortasında l-r samir əvəzlənməsi) fonetik variantlarında işlədilmişdir. Tarixən Birək kəndinin ərazisində Sir//Sirak//Çıraq türk etnoslarının adını əks etdirən xeyli sayda oykonimlər mövcud olmuşdur. 1590 və 1727-ci illərə aid tarixi sənədlərdə kənd əhalisinin gəliri 7990 ağça göstərilmişdir. Kənd çox böyük olduğuna görə burada Azərbaycan əhalisinə məxsus 5 qəbristanlıq var idi. 1918-ci ildə Birək kəndi ilə birlikdə onun qədim qəbristanlıqları dağıdılmış və kəndin adı dəyişdirilərək ermənicə "Prak" adlandırılmışdır. Birək toponiminin "Kitabi - Dədə Qorqud" dastanlarındakı Beyrək şəxs adı ilə əlaqələndirilərək izah edilməsi, fikrimizcə, ağlabatandır və ola bilər ki, bu kəndin adı dastandakı Baybura oğlu Beyrəyin adı ilə bağlı olaraq yaranmışdır. Müxtəlif fonetik tərkiblərlə işlədilən Birək//Bilək/Bayburd etnotoponimlərinin paralellərinə Vedibasar, Karnibasar mahallarında və həmçinin Qars əyalətinin Qars dairəsində, Tiflis quberniyasının Borçalı qəzalarında təsadüf olunmuşdur.

Bulaqlar oykoniminə tarixən ərazidəki bulaqların, təbii qaynamaların çox olması ilə əlaqədar olaraq belə ad verilmişdir. Belə ki, bu yaşayış məntəqəsi Her-her kəndindən 4 km cənubda, çoxlu bulaqlar olan dərədə yerləşmişdir. Rus çinovniklərinin XIX əsrdən başlayaraq XX əsrin ilk onilliklərinə qədər qeydə alınmış kameral siyahıyaalma dəftərlərində Bulaqlar kəndinin statistik sayı əksini tapmış və bu sənədlərdə azərbaycanlı əhalinin sayı ermənilərdən çox olduğu illər üzrə göstərilmişdir. 1918-ci ildə Bulaqlar kəndi ermənilər tərəfindən qəddarcasına dağıdılmış, əhalisi qovulmuş, çox hissəsi isə kütləvi qırğınlara məruz qoyulmuşdur. Tarixən böyük bir kənd olan Bulaqların 1922-ci ildə 20 nəfər azərbaycanlı əhalisi öz doğma kəndinə qayıtmış, 1926-cı ildə əhalinin sayı 40 nəfər, 1931-ci ildə isə 69 nəfərə çatmış, 1999-cu ildə əhali yenidən Azərbaycana deportasiya edilmişdir.

Əzizbəyov rayonu ərazisində mövcud olmuş Ceyranlı yaşayış məntəqəsi Terp kəndi ilə Quşçu kəndlərinin arasında, Arpa çayının cənub qolunun yaxınlığında qərar tuturdu. 1873, 1904, 1914-cü illər rus məmurları tərəfindən siyahıyaalma sənədlərində Ceyranlı kəndinin əhalisinin sayı göstərilmişdir. Faşist ermənilər 1918-ci ildə bu azərbaycanlı kəndinə hücum etmiş, evləri dağıdıb yandırmış, əhalisinin çoxunu isə öldürmüşlər. Yaşayış məntəqəsi həmin ildən xarabalığa çevrilmiş, əhalisi Azərbaycandan qovulmuşdur. Kök(ceyran)+şəkilçi(-li) modeli əsasında formalaşmış bu oykonim "ceyranın çox olduğu yer" mənasını ifadə edir (2,35).

Paşalı rayon ərazisində mövcud olmuş Cığatay kənd adı tarixi mənbələrdə Cığatay şəklindədir. Coğrafi cəhətdən bu məna rayon mərkəzdən 14 km aralıda Zaytə kəndinə yaxın coğrafiyada yerləşirdi. 1831, 1873, 1886, 1897, 1904, 1914, 1916-cı illərdə qeydə alınmış kameral sənədlərdə türk tayfasının adını əks etdirən bu yaşayış məntəqəsində azərbaycanlı əhalinin statistikası

verilmişdir. 1918-ci ildə erməni vandalları kəndə hücum edərək kəndi yandırmış, əhalisinin çox hissəsi Azərbaycana qovulmuşdur. 1590, 1727-ci illərə aid tarixi sənədlərdə kəndin gəliri ağça ilə 5350 olmuşdur. Cığatay tayfası mənşə etibarilə qədim türksoylu köngər etnoslarından törəmiş, türk xalqları yaşayan əksər ərazilərdə məskunlaşmışlar.

Nəticə

Azərbaycan dilinin toponimik sistemində özünə möhkəm yer tutmuş Dərələyəz toponimlərinin hərtərəfli araşdırılması, coğrafi adların tarixi-tipoloji təhlili və onların elmi şəkildə ümumiləşdirilməsi xalqımızın dilinin və tarixinin bir çox mürəkkəb və zəruri məsələlərinin açılmasına kömək edir, eyni zamanda erməni vandallarının da uydurmalarını və cəfəngiyat fikirlərini alt – üst edir. Çünki bu toponimlərin hər biri Azərbaycan xalqına məxsus olmaqla onun müəyyən səciyyəvi cəhətlərinin çox uzaq keçmişlərdən tutmuş bu günə qədər güzgüsünə, aynasına çevrilmişdir.

Ədəbiyyat

1. Mirzəyev H. Qərbi Azərbaycanın Dərələyəz mahalı, Bakı, “Elm”, 2006;
2. Mirzəyev H. Azərbaycan toponimləri və şivə sözləri, Bakı, “Elm”, 2006;
3. Hüseynova M. Mahmud Kaşğarinin “Divani-lüğət-it türk” əsərinin qrammatik xüsusiyyətləri. Bakı, ADPU, 2022;
4. Hüseynova M. Qərbi Azərbaycan paleotoponimlərinin linqvistik etimoloji təhlili. Bakı, ADPU, 2023;
5. Sadıqova S. Dərələyəz toponimlərinin linqvistik etimoloji təhlili. Bakı, ADPU, 2014.
6. Bünyadov Z., Məmmədov U. Naxçıvan sancağının müfəssəl dəftəri. Bakı, 1997
7. Bünyadov Z., Məmmədov U. İrəvan əyalətinin icmal dəftəri. Bakı, 1996

FORMS OF MANIFESTATION OF SATISFACTION IN THE CONTRAST OF AFFIRMATION-DENIAL IN POETRY

POEZİYADA TƏSDİQ-İNKAR KONTRASTLIĞINDA QƏNAƏTİN TƏZAHÜR FORMALARI

Könül Həsənova
Filologiya üzrə fəlsəfə doktoru, dosent
ADPU-nun Filologiya fakültəsinin dekanı

Xülasə
Təsdiq-inkar kontrastlığı dildə semantik bir göstəricidir və poeziyada bir-birini əks-zidd qütblərdə əks etdirərək aktual fəaliyyət göstərir. Poetik ünsiyyətin ziddiyyətli təcəssümü təsdiq-inkar formaları ilə reallaşdırılır ki, bu prosesdə linqvistik qənaət hadisəsi də özünü təzahür etdirir. Təsdiqin inkarlaşmasıprosesində qənaət fonomorfoloji, morfosintaktik səviyyələrdə özünü göstərir ki, poeziyada inkarlığın emosional-ekspressiv çalarlarını formalaşdırır. İnkarlıq "yoxluq" fenomeninin əks qütblərdə duran ziddiyyətli tərəflərini özündə ehtiva etdirməklə, dil düşüncəsinin gerçəkliyini rəngarəng şəkillərə salır və rəngarənglik içərisində qənaət hadisəsi də xüsusi olaraq diqqəti cəlb edir. Poeziyada inkarlıq kateqoriyasında qənaət hadisəsi incə və özünəməxsus poetik qavram modelləri ilə təqdim edilir ki, burada həmin modellər linqvokulturoloji aspektdə şərh edilir.
Açar sözlər: qavram modelləri, qənaət hadisəsi, təsdiqin inkarlaşması qanunu, üslubi universallıq.

Abstract
The contrast of affirmation and negation is a semantic indicator in language and in poetry it is actively reflected in opposite poles. The contradictory embodiment of poetic communication is realized through the forms of affirmation and negation, in which the linguistic phenomenon of assimilation also manifests itself. In the process of negation of affirmation, assimilation manifests itself at the phonomorphological and morpho-syntactic levels, which forms the emotional-expressive shades of negation in poetry. By containing the contradictory aspects of the phenomenon of "absence" at opposite poles, negation transforms the reality of linguistic thought into colorful images, and among the colorfulness, the phenomenon of assimilation also attracts special attention. In the category of negation in poetry, the phenomenon of assimilation is presented with subtle and unique poetic perception models, which are interpreted here from a linguo-cultural aspect.
Keywords: conceptual models, saving phenomenon, law of negation of affirmation, stylistic universality.

Təsdiq və inkar yalnız dilçilik kateqoriyaları deyil, həm də fəlsəfi, psixoloji və üslubi dəyərə malikdir. Bu anlayışlar dilin struktur səviyyəsində morfoloji və sintaktik şəkildə ifadə olunsa da, onların funksiyası yalnız qrammatik çərçivədə məhdudlaşmır. Təsdiq – varlığın bildirilməsi, inkar isə onun rədd edilməsi – həm düşüncə tərzinin, həm də fərdi psixoloji halın göstəricisi kimi çıxış edir. İnsan düşüncəsi, hissləri və davranışları çox vaxt təsdiq və inkarın qarşılıqlı təsir dairəsində formalaşır.

Xüsusilə bədii mətnlərdə, yəni şeir və nəsr nümunələrində bu semantik qarşıdurma **sadəcə məntiqi funksiya deyil**, həm də **bədii ifadə vasitəsidir**. Şair və yazıçılar bu kontrastdan istifadə edərək fikri daha aydın və emosional çalarda təqdim edə bilir. Təsdiq və inkarın birlikdə işlədilməsi ilə **antitezalar**, **kontrastlar**, **ironiya**, **paradoks** kimi bədii fiqurlar yaranır və bu da oxucu ilə daha dərin mənəvi əlaqə qurmağa xidmət edir.

Fəlsəfədə belə bir qanun vardır ki, təsdiq "var olan", inkar isə "yox olan" deməkdir və "var" və "yox" sözləri bir-birini neytrallaşdırmaq, rədd etmək iqtidarına malikdirlər. *"Bir üslubi universallıq kimi*

adətən bütün dillərdə təsdiq görünümü neytrallaşdırmaq, "qapamaq" üçün kiçik ölçü, əhəmiyyətsiz əlamət və keyfiyyət vahidini inkarlaşdırmaq üsulu tətbiq olunur" (1, 108). Təsdiq və inkar kontrastlığı həm morfoloji göstəricilərin, həm də bir sıra köməkçi feillərin qarşılıqlı sintezindən yaranır. Şeir mətnlərində kommunikativ istiqamətdə şair təsdiq-inkar olaylarından bədii fikrini keçirməklə onun qarşılıqlı orjinal nümunələrini təqdim edir:

Xəbərim olmayıb süd əmməyindən,
Bəlkə dözləri də daşıymış onun (2, 12)

Birinci misrada əvvəl inkar, sonra isə təsdiq vasitələrindən istifadə edilmiş və qənaət hadisəsi təsdiq tərəfində gerçəkləşdirilmişdir, yəni "əmməyindən" feilindən assimilyasiya edilərək, "əmə bilməyimdən" feili birləşməsi maksimum səviyyədəqısaldılmışdır və təsdiq-inkar kontrastlığı bütün məqamlarda "hərəkət" konseptinə xidmət göstərir, əsas fikri mətn axarına düzgün istiqamətləndirir. Təsdiq tipində şeir mətnlərində daha çox assimilyasiya hadisəsinə yol verilərək "hərəkət" konsepti ilə bağlı sözdə yıöcamlaşmaya şərait yaradılır və həmin feil indiki zamanda olur. Məs:

"Məhəmməd şahındır, sənin də billəm,
Cəlil murazındır – bir ocaq andın" (2, 19).

Birinci misranın son mövqeyində çıxış edən "billəm" feili "bilirəm" feilinin fonetik səviyyədə qısaldılmış şəkli olub, indiki zamanı konsept edir. "Hərəkət" konseptində "inkarlıq mənası yaratmaq üçün nə, nə də bağlayıcılarından istifadə edilir" (3, 229) və şeir mətnlərində ölçüyə düzgün riayət edilməsi məqasədilə bu bağlayıcılardan biri çıxış etsə də, digərinə qənaət edilir və qənaət şəkli təsəvvürdə əksini tapır. Məs:

"*Bir kərə demədin bu hansı sirdi,*
Nə ata mindirdi, atdan düşürdü" (2, 40).

İkinci misrada "nə də" bağlayıcısının ixtisarı hiss olunacaq dərəcədədir və ona qənaət edilməsi misra strukturundan anlaşılır və təsdiq məzmunun da yaradılması mətnin ümumi ruhundan doğur. "Nə, nə də bağlayıcısı xəbəri feilin təsdiq formasında olan cümlələrə inkarlıq məzmunu verdiyi kimi, xəbəri feilin inkar formasında olan cümlələrdə də inkarlıq məzmunu saxlayır" (4, 440).
Təkrarlanan "nə" bağlayıcısından sonra şeir mətnlərində "də" köməkçi elementinin buraxılması inkarlıq məzmununa təsir göstərməsə də, cümlənin ümumi ruhunda qüvvətləndiricilik çalarını hiss olunacaq səviyyədə zəiflədir. Məs:

O vaxtlar sən bizə nağıl deyərdin,
Nə nağıl tükəndi, nə alma düşdü (2, 41).

İkinci misrada feillər təsdiq formasındadır və hər iki feildə inkarlaşmanı "nə" köməkçi elementlərinin təkrar işlədilməsi yaradır və inkarlıq misranı iki qütbə ayırır, hər iki qütbdə ziddiyyətli paralellik şəkli önə çıxır və emosional inkarlıq yönümlərini formalaşdırır.
Şeir bəndinin xarici qafiyə mövqeyində çıxış edən epiforik inkarlaşma mətnə xüsusi ekspressiya bəxş edir və qənaətin fonomorfoloji səviyyəsini özündə təzahür etdirir. Məs:

Hər övlad bir paydır – nə verə bilməm,
Sığarmı nə göyə, nə yerə bilməm,
Sözünü dedimi, Mahirə, bilməm,
Mən səni mənalı söz kimi sevdim (2, 44).

"Hərəkət" konseptində ədəbi dilə məxsus "bilmirəm" feilinin "bilməm" qənaətli şəklində işlədilməsi sürəkli ekpressiv inkarlıq impulsları doğurmağa xidmət göstərir və indiki zamana aid edilən inkarlaşma hərəkətin hökmünü daha da qətiləşdirir, həm "bilməm" feilinin fonomorfoloji səviyyədə, həm də ikinci misrada "nə" bağlayıcısından sonra "də" elementinə qənaət edilməsi *"fikrin məntiqi-poetik mənzərəsini, nüvə qatını təşkil edən feilin təkrar edilməsi bədii hərəkətə bir intensivlik gətirir, fikrin ifadəsini elastikləşdirməklə inkarlıq ekspessiyası doğurur"* (1, 113-114).
Adətən dildə "vur" modal sözü təsdiqi, "yox" sözü isə inkarlığı fəlsəfi mənada işarələr və həmin köməkçi sözlər substantivləşəndə də cüzi də olsa, təsdiq və inkarlıq aspektlərini qoruyur və bunlarda da müəyyən qənaət elementlərinə təsadüf olunur. Məs:

Neçə yurda təməl qoyan olubdu,
Vardan verib, yoxdan doyan olubdu (2, 46).

İkinci misrada "vardan vermək" və "yoxdan doymaq" ifadəsində bədii fikrin təsdiq və inkar yönlərini daha qabarıq nəzərə çarpdırır və maddi aləmdə əşya və predmetlərin mövcudluğu "var" sözü ilə, mövcud olmaması isə "yox" sözü ilə ifadəsini tapır, hər ikisinin qarşılaşdırılmasında güclü təsdiq-inkarlıq kontrastlığı vardır. Metaforikləşmə ilə bağlı olaraq, "var" və "yox" komponentlərində müəyyən sözlərin (var olanından-olmayanından) ixtisarı ilə də qənaət hadisəsi yaradılır. "Var" və "yox" təsdiq-inkar köməkçi sözləri mətnə "müxtəlif cəhətdən məna incəlikləri verir, ifadənin səlisləşməsinə, fikrin məntiqi qurulmasına, bir sıra emosional məna çalarlıqları yaradılmasına xidmət edir" (5, 459).
İnkarlıq kateqoriyasının poeziyada ən işlək şəkli qənaət hadisəsinə uğramış fonomorfoloji səviyyədədir ki, bu da poetik formanı ağırlaşdırıcı strukturlardan xilas edir və bəii informasiyavericilik xüsusiyyəti yerində qalır, inkar hökmlər sahmanlı şəkildə ifadə olunur. Məs:

Dəli könlüm, arif gözüm,
Tapammırdı aram, dözüm (2, 52).

Göründüyü kimi, ikinci misrada "tapa bilmirdi" ifadəsinin "tapammırdı" assimilyativ şəkli poetik fikrin sadə yöndə daha tutumlu formada dərkinə xidmət göstərmişdir.
Şeir mətnlərində frazeoloji vahidlərin araşdırması müvafiq leksik vahidlər artırılmaqla, həm də assimilyasiya hadisəsinə yol verilməklə fonetik qənaət yaradılır. Məs:

Həsrət onu çalın – çarpaz dağladı,
Başı bilməm, nələr çəkdi anamın (2, 62).

"Başı çəkmək" xalq ifadəsinə "bilməm nələr çəkdi" – ritaorikası daxil edilməklə çox original və canlı danışıq dilinə məxsus deyim tərzi formalaşdırmaqla, lirik "mən"in dərdi konsept edilmiş və "bilməm" inkar feilində şəxs sonluğunun "r-m" assimilyasiya tipi sahəsində qənaət hadisəsi formalaşdırılmışdır. Maraqlı cəhət budur ki, şəxs paradiqmasına görə "bilmirəm" inkar feilini dəyişdikdə yalnız I şəxsin təkində qeyd etdiyimiz assimilyasiya tipi özünü göstərir və digər hallarda başqa şəkillər alır: Mən bilməm, Mən bilmirəm, Sən bilmirsən, Sən bilməzsən, O bilmir, O bilməz, Biz bilmirik, Biz bilmərik, Siz bilməzsiniz, Onlar bilməzlər və belə şəxs paradiqmalarında indiki zaman anlayışındakı iş və hərəkət konseptuallaşdırılır. "Azərbaycan dilinin müasir mərhələlərində işlənən indiki zaman şəkilçisi sintaktik şəraitin işləkliyi ilə, həmin zaman aid bütün məna xüsusiyyətlərini ifadə etmək imkanlarına malikdir və bu məqsədlə başqa formalara olan ehtiyacı aradan qaldırır" (6, 332).
"Qorumaq" feili mətn mühitində sintaktik şəraitdən asılı olaraq həm "qoruyacağam", həm də "qoruyacam" fonomorfoloji səviyyələrdə çıxış edir ki, ikinci variantda "ğa" elementinin buraxılması qənaət hadisəsini reallaşdırır. Məs:

Bir söz deyim dədə - baba misalı,

Qoruyacam, bil, dəfinə borcunu (2, 80).

Poetik struktur tələb etmişdi ki, ikinci misradakı təsdiq feili "qoruyacağam" şəklində deyil, "qoruyacam" – qənaətli formada işlənsin və canlı danışıq dilinin xüsusiyyətini misra strukturuna uyğunlaşdırsın. Formal "ğa" elementinin işlənib-işlənməməsindən asılı olmayaraq mətndə gələcək zaman anlayışı konseptuallaşdırılır və təfəkkür qurumunda eyni zamanın fonomorfoloji quruluşunda fərqliliklər özünü təzahür etdirir, yəni "qoruyacam-qoruyacağam" şəkillərində və təsdiq əlamətinin önə çıxarılmasını gerçəkləşdirməklə xarakterik hökmlərin aydın görüntüsünü konkretləşdirir.
Poeziyada bəzən intensiv şəkildə hərəkətin hökmünü reallaşdırıcı "dır" xəbərlik şəkilçisinə qənaət edilməklə, eyni zamanda fonomorfoloji səviyyədə "verı bilmirəm" inkar birləşməsinin "verəmmədim" şəklində verilməsi ilə də yığcamlaşma yaradılmasına nail olunur. Məs:

Bu nə düzən, zamanada bu nə qayda,
Ömür gəlir keçir hayda-harayda,
Şair oldum, alim oldum, nə fayda,
Verəmmədim sənə yenə borcumu (2, 80).

Birinci misrada söz sonlarında (düzən, qayda) "-dır" xəbərlik göstəricisinin buraxılması, dördüncü misrada isə "verə bilmədim" geniş formasının "verəmmədim" yığcam şəklində verilməsi birincilərdə təsdiq, ikincidə isə inkar hökmünü qütbləşdirmiş, bədii fikirdə təzadlı harmoniya yaradılmışdır, yəni bəndin bir sahəsində təsdiq, digər bir zonasında isə inkarlığın əlamətləri qabarıqlaşdırılmışdır və hər iki zonada qənaət hadisəsi də xarakterik əlamətləri ilə özünü göstərir.
Məlumdur ki, şəxsin təkində feilin indiki zamanı "inkar formada -a, -ə, -e şəkilçisi özünü göstərir və təbii ki, bu halda müxtəlif fonovariantlar özünü təzahür etdirir" (7, 391) və belə məqamlarda tutaq ki, "istəmirəm" feili poetik mühitdə qısa şəkildə "istəməm" kimi inkarlaşır. Məs:

Ay ana gülsün gözdərin,
İstəməm kövrək gedim (2, 100).

Təhlillərimiz linqvokulturoloji aspektdə göstərir ki, "yalnız xəbərin yanındakı inkar bütün mülahizəni mənfi dona bürüyür, hər hansı digər cümlə üzvü ilə gələn inkar isə ifadənin ümumi təsdiq mənasını sarsıtmır. Xəbəri təsdiqdə olsa da, digər cümlə üzvündə mənfi hissəcik olan cümlələri qismən inkar adlandırmaq olur" (3, 28).

Nəticə

Poeziyada təsdiq və inkarlıq bir-birinə əks zidd qütblərdə dayanan linqvistik göstəricilər kimi çıxış edərək, **cəmiyyətin sosial varlığına, onun dil-mədəni təcrübəsinə və psixoloji vəziyyətinə dair** müsbət və mənfi biliklərin formalaşmasında mühüm rol oynayır. Bu göstəricilər, yalnız qrammatik və sintaktik səviyyədə deyil, **mədəni və mental təbəqədə** də mənalandırıcı gücə malikdir. Poeziyada təsdiq və inkarın semantik qarşıdurması, **şəxsi və ictimai dəyərlərin ifadəsində**, **ideoloji münasibətlərin bəyanında**, **emosional vəziyyətin və daxili ziddiyyətlərin təsvirində** məhsuldar bir funksionallıq nümayiş etdirir.

Ədəbiyyat

1. Abdullayev S. Dil və bədii qavrayış. Bakı, "Yazıçı", 1984, 162 s.
2. Nağıqızı Mahirə. Anamın kitabı (şeirlər və hekayələr). Bakı, ADPU – 2025, 215 s.
3. Hacıyev İ.Z. Feillərin təsdiq və inkar formaları; Müasir Azərbaycan dili, Morfologiya, Bakı, "Elm", 1980, s. 229-280.
4. Xəlilov Ə.Ə. "Bağlayıcı". Müasir Azərbaycan dili, Morfologiya, Bakı, "Elm", 1980, s. 428-442.
5. Quliyev N.K. "Ədat". Müasir Azərbaycan dili. Morfologiya. Bakı, "Elm", 1980, s. 448-459.

6. Budaqova Z.İ., Məmmədov İ.T. “İndiki zaman”, Müasir Azərbaycan dili, Morfologiya, Bakı, “Elm”, 1980, s. 336-340.
7. Türk dillərinin funksional morfologiyası. Bakı, “Elm və təhsil”. 2024, 200 s.
8. Песковский А.М. Русский синтаксис уйгурском освешеныии 7-е. Изд, Москва, «Учпедгиз», 1956.

IN POETIC TECHNOLOGY AFTER MEASUREMENT AND DIVISION THE THIRD IMPORTANT FACTOR – RHYME, OR THE RHYME STRUCTURE OF ZAUR USTAJ'S CHİLDREN'S POEMS

ŞEİR TEXNİKASINDA ÖLÇÜDƏN VƏ BÖLGÜDƏN SONRA III MÜHÜM AMİL – QAFİYƏ, YAXUD ZAUR USTACIN UŞAQ ŞEIRLƏRİNİN QAFİYƏ QURULUŞU

Ayətxan Ziyad (İsgəndərov Ayətxan Ziyatxan oğlu),
Azərbaycan Dövlət Pedaqoji Universiteti. Elmi işçi.
https://orcid.orq/0000-0002-0034-6736

Abstract
In literature, especially poetry, the poetic value of a work is determined not only by its subject matter, but also by its technical elements. In this ranking, rhyme, according to experts, ranks after artistic imagery and means of expression.
This, today it is. Historically, this has not always been the case. While some accepted rhyme as a fundamental aspect of poetry, there were also those who took a radical position in the 17th century. Rejecting rhyme outright. For example, Homer and Hergile considered the use of rhyme to be "restrictive". According to Milton, rhyme was neither the main feature of the work, nor its artistic beauty, nor its color.
N.Bualo, M.K.Khamrayev, V.M.Jirmunski and A.M.Sherbak were the first to accept the idea that rhyme is one of the important elements of the poetic technique. In contrast to Milton, N. Bualo considered rhyme as one of the important elements of poetic art in his "Art of Poetry". According to him, "The artist should approach this element with creative confidence and artistic criteria, and use it according to the poetic intention.
The poems of Zaur Ustaj, a representative of modern Azerbaijani children's poetry, are distinguished by their playful language, rhythmic patterns, and deep understanding of children's cognitive and emotional needs. His use of rhyme is not only decorative, but also contributes to the development of language in young children and the easier and more comfortable understanding of the expressed idea. In our study, it is explained how Z. Ustać used rhyme as a technical tool to increase poetic experience in children's poems. By involving his children's poems in the study, we get information about the role of rhyme in the development of Azerbaijani poetry and its influence on young people.
Keywords: poem technique, rhyme, rhythm enhancer, poetic pattern, important element.

GİRİŞ

Ədəbiyyatda, xüsusilə poeziyada əsərin poetik dəyəri yalnız onun mövzusu ilə deyil, həm də texniki elementləri ilə müəyyən edilir. Bu sırada qafiyə, mütəxəssislərin qənaətinə görə, bədii təsvir və ifadə vasitələrindən sonrakı yeri tutur.
Bu, bu gün belədir. Tarixən isə heç də həmişə belə olmamışdır. Bəziləri qafiyəni poeziyanın əsas aspekti kimi qəbul etsələr də, XVII əsrdə qafiyəni birmənalı şəkildə rədd edərək radikal mövqe tutanlar da olub. Məsələn, Homer və Hergili qafiyədən istifadəni "məhdudlaşdırıcı" hesab etmişlər. Miltona görə isə, qafiyə əsərin nə əsas xüsusiyyəti, nə bədii gözəlliyi, nə də rəngi deyildi.
Qafiyəni poetik nümunəyə forma verən və poetik texnikanın mühüm elementlərindən biri olduğu fikrini ilk dəfə N.Bualo, M.K.Xamrayev, V.M.Jirmunski və A.M.Şerbak qəbul etmişlər. Miltondan fərqli olaraq N.Bualo "Şeir sənəti" əsərində qafiyəni poetik sənətin mühüm elementlərindən biri kimi qiymətlənmişdir. Onun fikrincə, "Sənətkar bu ünsürə yaradıcılıq inamı və sənətkarlıq meyarı ilə yanaşmalı, ondan poetik niyyətə uyğun istifadə etməlidir.
Müasir Azərbaycan uşaq poeziyasının nümayəndələrindən Zaur Ustacın şeirləri oynaq dili, ritmik naxışları, uşaqların koqnitiv və emosional ehtiyaclarını dərindən dərk etməsi ilə seçilir. Onun

qafiyədən istifadəsi sadəcə dekorativ xarakter daşımır, həm də azyaşlılarda dilin inkişafına və ifadə olunan fikrin daha asan, rahatlıqla başa düşülməsinə kömək edir. Araşdırmamızda Z.Ustacın uşaq şeirlərində poetik təcrübəni artırmaq üçün qafiyədən texniki vasitə kimi necə istifadə etdiyi açıqlanır. Onun uşaq şeirlərini tədqiqata cəlb etməklə biz qafiyənin Azərbaycan poeziyasının inkişafındakı rolu və onun gənc auditoriyaya təsiri haqqında bilgi əldə etmiş oluruq.

Araşdırma

Poetik nümunənin ədəbiyyatda vətəndaşlıq hüququ qazanmasında, oxucu tərəfindən qərarlı olaraq tələb olunan zirvədə qəbul edilməsində öncə fikir yükü xüsusi mövqe sərgiləyirsə, sonrakı yerləri qafiyə və bədii təsvir və ifadə vasitələri tutur. Bu mənada şeirin poetik nümunə mövqeyini ifadə edən "şeiriyyət" anlamı "xüsusi imtiyazlar" anlamı ilə eyni müstəvidə qərarlaşır" desək, güman edirəm, zənnimizdə yanlışlıq olmaz.

Əslində bu, bu gün belədir. Tarixən isə qafiyəyə heç də həmişə "xüsusi nüfuz sahibi" mövqeyindən yanaşılmamış, qafiyə tarixən qalmaqallı, mübahisəli yol keçmişdir.

Belə ki, Homerlə Hergili heç bir halda "qafiyəni ədəbiyyatın aparıcı siması" fikrilə bərabər hüquqda qəbul etməmişlər, başqa sözlə, ondan dağınıq halda, "necəgəldi", sərbəst istifadə edilmişdir. Tarixə müraciət göstərir ki, XVI əsrdə qafiyədən yerli-dibli imtina etmək anlamında daha kəskin mövqe sərgiləyənlər də olmuşdur. Hətta o dərəcədə ki, Milton "*qafiyə - məzmunlu bir əsərin əsas əlaməti, bədii gözəlliyi və əlvanlığı deyildir*" fikrində olmuşdur. Volter isə qafiyənin varlığına Miltondan da sərt münasibət bəsləmiş, qafiyəni fransız şairlərinin fikirlərini istədikləri kimi ifadə etmələrinə ciddi maneə kimi ittiham etmişdir.

Qafiyəni ilk dəfə poetik nümunəyə şeiriyyət bəxş edən, şeir texnikasının vacib ünsürü simasında qəbul edən XVII əsr Fransa klassizminin nümayəndəsi, şair, tənqidçi və nəzəriyyəçi Nikola Bualo olmuşdur. Miltondan fərqli olaraq N.Bualo "Poeziya sənəti" əsərində qafiyəni "*şeirin vacib ünsürü və əlamətlərindən biri, bədii bütövlüyün tərkib hissəsi*" olaraq qəbul etmişdir: "*Sənətkar bu ünsürə yaradıcılıq inamı və bədiiliyin meyarı ilə yanaşmalı, ondan poetik niyyətə münasib istifadə etməlidir: Qafiyə ilə fikir arasında ədavət yoxdur. ... fikir qafiyənin hökmdarı, qafiyə isə fikirin müti quludur*" [3. s.223].

V.M.Jirmunski və A.M.Şerbak "*qafiyəni şeirin quruluşunda təşkiledici funksiya daşıyan səs təkrarı*", M.K.Xamrayev "*əsas fikrin qüvvətləndirilməsinə xidmət edən ritm qüvvətləndiricisi*" kimi qəbul etmişlər. Şair Vladimir Mayakovski isə "*bənzərsiz, gözlənilməz qafiyələrdən istifadəyə böyük üstünlük*" vermişdir [9. s.219].

Avropa şair və ədəbiyyatşünaslarından fərqli olaraq Azərbaycanın şair və ədəbiyyatşünasları heç bir halda qafiyənin varlığından rəncidəlik etməmişlər. Əksinə, sərbəst vəznin Azərbaycan ədəbiyyatında yaradıcısı qismində qəbul edilən Rəsul Rza bütün əsərləri, xüsusilə "Lenin" poeması ilə bu vəzndə dünya ədəbiyyatının qibtə edə biləcəyi poetik incilər - sərbəst qafiyə nümunələri yaratmış, XV və XVI əsrlər Avropa ədəbiyyatşünaslığının qafiyə haqqında neqativ mülahizələrini alt-üst etmişdir.

Professor Mir Cəlal qafiyəni ölçüdən və bölgüdən sonra şeir texnikasında üçüncü mühüm şərt kimi qəbul etməklə ədəbiyyatın bu daxili struktur növünə əlahiddə yüksək qiymət vermişdir: "*Misraların axırlarında bir neçə hecanın ifadə, tələffüz, quruluş və ahəngcə bir-birinə uyğun olmasına qafiyə deyilir. Qafiyə nəzmdə, ya şeirdə sadəcə şəkli, formal cəhət deyildir. Bu, müəyyən mətləbin, sözün vurğu ilə, təkid və möhkəmliyi ilə deyilməsinə kömək edir*" [4. s.105].

Xalid Əlimirzəyevin də fikirləri Mir Cəlalın mülahizələri ilə üst-üstə düşür: "*Ölçü və bölgüdən sonra şeirin daxili strukturunu müəyyənləşdirən əsas bədii vasitələrdən biri də qafiyədir*" [2. s.247].

Göründüyü kimi, N.Bualodan sonrakı zaman civarında ədəbiyyatşünaslıqda qafiyə quruluşu haqqında mülahizələr arasında bənzərlik bir məxrəcdə birləşir: "*qafiyə poeziyada musiqilik, ahəngdarlıq, zahiri gözəllik yaradan, lirizmi qüvvətləndirən", "əsas fikrin qüvvətləndirilməsinə xidmət edən ritm gücləndirici*si" (M.K.Xamrayev), "şeirin səs gözəlliyini qaydaya salan əsas ünsür" (M.İsaqoğlu), vacib komponentlərdən biri olub, "*şeirin məna və ahəngcə təşkilində... böyük rol oynayır. Çünki o, həm səs və intonasiya ilə, həm vəzn, həm leksika və sintaksisla, həm də şeirin bəndləri ilə bağlıdır*" [5. s.380].

Məqamı ikən bunu da qeyd edək ki, XIII-XIV əsrlər ana dilli lirik şeirimizin inkişaf yolunun tədqiqatçısı Yaqub Babayev monoqrafiyasının "Bədii forma, janr, qafiyə və vəzn axtarışları" adlandırdığı III fəslinin I paraqrafında bu mövzudan ətraflı bəhs etmişdir [1. s.173-205].

Uşaq dünyasına yetərincə bələd olan yazıçı yaxşı bilir ki, sadə qafiyəli şeirlər kiçik yaşlı uşaqlar üçün daha məqsədəuyğundur. Çünki bu yaşda uşaqlar üçün kiçik bölgülü və sadə qafiyəli şeirləri kiminsə nitqində dinləmək də, yadda saxlamaq da, əzbərləmək də olduqca rahatdır:

Ev bizim yuvamızdır, 3+4
Evimizi sevirəm. 4+3
Əgər kimsə soruşsa, 4+3
Ünvanımı bilirəm. 4+3 **[5.]**

Z.Ustacın tədqiqata cəlb etdiyimiz uşaq şeirlərində qafiyənin bəlli beş növündən (*1. mükəmməl (müqəyyəd)* ***nümunə ver****, 2. Daxili qafiyə, 3. Zəngin qafiyə, 4. Tam mükəmməl qafiyə, 5. Züqafiyə teyn qafiyə*) bəhrələndiyi müşahidə olunur.

Şeirlərində əsasən ənənvi **zəngin qafiyələrdən** istifadə edilmişdir: "Lalə, Damla, Şəbnəm və Yağmur", "Raul və Rəna", "Rahib və Əkbər", "Natiq və Tofiq" şeirlərinə diqqət yetirin:

"Lalə, Damla, Şəbnəm və Yağmur
Yola getmirdi **heç vaxt.**
Bir gün Yağmur dillənib
Hamını qoydu **mat".** [8 s. 108]

"Raul əlində fırça
Yanaşdı **molbertinə,**
Rənglər rəngə qarışdı,
Oxşatdı **raketinə.**

Rəna görəndə rəsmi,
Dedi, qəşəng **rəngdədi,**
Hətta qanadı da var,
Sanki uçacaq **indi".** [8 s. 107]

"Rahib Əkbərə
Saymaq **öyrədir.**
"Bir, iki ..., dörd...
rəqəmdi" **deyir.**

Əkbərsə gülür,
Uğunur bir **anlıq.**
Hansın unutdun?
Niyə **dayandıq?"** [8 s. 106]

"Natiq tutdu Tofiqi
Əlində **tapançası.**
Tofiq təslim olmuşdu
Yer yox idi **qaçası".** [8 s. 104]

Hər biri dörd misradan ibarət olan "Ə və L" adlı 2 bəndlik şeirin I bəndindəki qafiyələnməyə diqqət yetirək:

"Ələklə xəlbir
Girmişdi **bəhsə**:
"Ləkdən fayda
Görməyib **kimsə**". [7 s.8. "Ə və L"].

Göründüyü kimi, təqdim olunan şeirlərin hər birində heca vəzninin nəzəri qanunauyğunluğuna görə I və III misralar sərbəst buraxılmış, II və IV misralar isə, Y.Babayevin qafiyə bölgüsünə istinad etsək, **zəngin qafiyə** növü ilə qafiyələnmişdir.
Yaxud "Xəzər" şeirində **daxili qafiyə** növündən istifadə edilmişdir:
"Həm dənizdi, həm də göl,
Xəzər **təkdi dünyada**.
Qoynunda bir şəhər var,
O da **ilkdi dünyada"**. [8. s.72. "X" hərfi].

Y.Babayevin müəyyən etdiyi **züqafiyə teyn (*qoşa, yəni ikiqat*) qafiyə** növünə (bu növdə hər iki həmcins ünsür qafiyələnməlidir) Xəzər dənizinə həsr olunmuş "C" adlı şeirdə rast gəlinir:
Tereke defterinde müteveffa Mustafa Ağa'nın vasiyetine dair doğrudan bir kayıt bulunmamaktadır. Bu durum, ya kişinin ölümünün ani gerçekleşmiş olmasından ya da herhangi bir vasiyet bırakmadan vefat ettiğinden kaynaklanıyor olabilir. Ancak Osmanlı toplumunda vasiyetin sadece yazılı belgelerle değil, sözlü ifadeler veya şahitli beyanlarla da gerçekleştirilebildiği unutulmamalıdır(Ergene, 2003, s.133-136).
Vasiyetin olmaması, şer'î miras sisteminin doğrudan uygulanmasına neden olur. Buna göre; zevce, çocuklar, varsa anne-baba ve kardeşler mirasın belirli oranlarda yasal mirasçılarıdır. Tereke kaydında yalnızca eş ve iki çocuk adı geçmekte, başka bir üst soy (anne-baba) ya da kardeş bulunmamaktadır. Bu durum, muhtemelen müteveffanın anne ve babasının kendisinden önce vefat ettiğini ya da onların miras hakkının düşürüldüğünü göstermektedir.
Öte yandan Osmanlı'da sıklıkla karşılaşılan bir uygulama da "zımnî vasiyet"tir. Bu, terekenin düzenlenme biçiminden veya kişilerin borçlarına karşılık bırakılan mal paylaşımlarından çıkarılan bir tür vasiyet okumasıdır. Örneğin, terekenin önemli bir kısmının çocuklara ayrılması ya da eşin belli başlı mallar üzerindeki kullanım hakkının korunması gibi durumlar bu bağlamda değerlendirilmelidir.

Mirasın Dağılımı: Mallar Üzerinden Okuma

Terekede yer alan mal varlığı dökümüne göre, Mustafa Ağa'nın toplam serveti 91.488,5 kuruş olarak hesaplanmaktadır(Sivas Şer'iyye Sicilleri, Tereke Defteri, nr.36, s.2-5). Bu rakamın içerisinde taşınır mallar (ev eşyaları, mutfak gereçleri, hayvanlar), taşınmaz (bir adet mülk menzil) ve alacaklar (çok sayıda kişi ve kuruma borç vermiş) yer almaktadır.
Miras paylaşımında İslam hukukunun esasları uygulanmakta, yani mallar %100 üzerinden kadınlara 1, erkeklere 2 oranı ile taksim edilmektedir. Ancak burada çocukların sağîr olması nedeniyle, terekenin tamamı doğrudan paylaştırılmamakta; önce borçların tasfiyesi, mal tespiti ve takdir işlemleri yapılmakta, ardından çocukların adına mallar korunmakta ve vasîler üzerinden yönetilmektedir(Kafadar, 1990, s. 77-89).
Zevce Emine bint-i Süleyman'ın terekeye dâhil edilen bazı taşınır mallarda hak sahibi olup olmadığı net olarak belirtilmemiştir. Ancak Osmanlı'da kadınların kendi mallarının (miraç, mehir, hibe vb.) korunması yönünde hukuki koruma altında oldukları bilinmektedir. Ayrıca kadının müteveffaya dair alacakları da terekeye yansıtılabilirdi. Bu bakımdan, Emine Hanım'ın mal varlığı içinde hangi unsurların kendi hakkı, hangilerinin sadece kullanıma ait olduğu konusu detaylı incelenmeye muhtaçtır(Peirce, 1993, s.143-149).

Osmanlı Taşrasında Kadın ve Çocukların Malî Hakları

Kadınların ve sağîr çocukların mirastan hak sahibi olmaları, Osmanlı hukuk sisteminde güvence altına alınmıştır. Ancak uygulamada, özellikle taşrada kadınların mal edinme ve tasarruf haklarının toplumsal normlar ve aile içi baskılar nedeniyle sınırlanabildiği durumlar söz konusudur. Bu nedenle terekelerin, yalnızca hukukî metinler değil; aynı zamanda toplumsal yapıdaki güç ilişkilerini yansıtan belgeler olduğu unutulmamalıdır(Faroqhi, 2005, s. 172-179).

Bu vakada, çocukların küçük yaşta olması nedeniyle terekenin vasîler eliyle idaresi ve bu sürecin mahkeme nezaretinde yürütülmesi, Osmanlı taşrasında kurumsal denetimin gücünü ve şer'iyye mahkemelerinin aile içi mal paylaşımında ne denli aktif olduğunu ortaya koymaktadır.

Tartışma: Bir Terekeden Şehir Tarihi Okumak

Birey ve Şehir Arasındaki Maddi-Manevi Bağlar

Osmanlı şehir tarihçiliği, son yıllarda yapısal analizlerden birey merkezli mikro-yaklaşımlara doğru evrilmektedir. Bu yönelimde en etkili kaynaklardan biri ise tereke defterleridir. Zira terekeler, bireyin ölümünden sonra ardında bıraktığı tüm maddi varlığı kaydederken; onun şehirle, mahalleyle, komşularla ve ekonomik yapıyla kurduğu ilişkilerin izlerini de taşır(İnalcık, 1959, s.209-232).

Es-Seyyid Mustafa Ağa'nın terekesi bu açıdan anlamlıdır. Bu defter, onun ticaretle uğraştığını, farklı sosyal sınıflardan ve yerleşimlerden kişilerle ekonomik ilişkiler kurduğunu, şehirde belli bir maddi varlık ve itibara sahip olduğunu belgelendirir. Sahip olduğu taşınmaz (mülk menzil), bakır kaplar, şamdanlar, ithal saat gibi eşyalar; şehirliliğin maddi göstergeleri olarak karşımıza çıkar.

Öte yandan, müteveffanın borç verdiği kişilerle kurduğu ilişkiler ve bu ilişkilerin çeşitliliği, onun şehirde sadece maddi değil, manevi anlamda da bir bağ kurduğunu gösterir. Mahallede güvenilen, borç alınan, istişare edilen bir isim olması; bireyin şehirsel aidiyetini sadece mülkiyet değil, sosyal sermaye üzerinden de kurduğunu gösterir.

Taşra Tüccarlarının Osmanlı Şehir Hayatındaki Rolü

Tüccarlar, Osmanlı şehir ekonomisinin taşıyıcı sütunlarıdır. Ancak merkezî şehirler kadar taşra merkezlerinde faaliyet gösteren tüccarlar da bölgesel ekonomik canlılığın sürdürülmesinde önemli rol oynar. Mustafa Ağa'nın terekesi, bu taşra tüccar tipolojisinin canlı bir örneğini sunmaktadır.

Terekede yer alan yüksek meblağlı alacak kalemleri, onun yalnızca mal ticaretiyle değil, kredili satış ve borç verme üzerinden de işlev gördüğünü göstermektedir. Bu yönüyle taşra tüccarları, sadece alım-satım yapan değil, yerel piyasanın likidite ihtiyacını karşılayan birer finansal aracı olarak da konumlanmaktadır(Jennings, 1973, s. 18-216).

Taşra tüccarları aynı zamanda toplumsal dengeleyicilerdir. Osmanlı şehirlerinde sosyal güvenlik sisteminin yaygın kurumları olan vakıfların dışında, bireysel anlamda borç verme, kefil olma, mahalle içi yardımda bulunma gibi roller üstlenmişlerdir. Terekedeki küçük borçlar bu yapının bir yansımasıdır. Yani tüccar, sadece ekonomik değil; aynı zamanda sosyal bir figürdür.

Mustafa Ağa'nın malları arasında lüks eşyaların (İngilizkârî saat, şamdan, sim zarf vb.) bulunması, onun şehirli yaşam kültürüne entegre olduğunu gösterirken; aynı zamanda taşrada tüketim üzerinden statü belirleme eğilimini de belgeler(Faroqhi, 2005, s.172-179).

Mikro-Tarihsel Verilerin Şehir Tarihine Katkısı

Mikro-tarih yaklaşımı, küçük ölçekli bireysel verilerden hareketle büyük sosyal yapıları anlamaya çalışan bir tarihçilik tarzıdır(Levi, 1991, s.93-113). Bu yaklaşımda, "büyük tarihin küçük kanıtları" üzerinden çok katmanlı analizler yapmak esastır. Terekeler ise bu mikro verilerin en yoğunlaştığı belgelerden biridir.

Mustafa Ağa'nın terekesi, Sivas şehri özelinde:

- Taşra ekonomisinin işleyişi
- Mahalle ölçeğinde güven ilişkileri
- Tüketim pratikleri ve sosyal farklılaşma
- Aile yapısı ve miras hukuku uygulamaları

- Kırsal ve kentsel ağların bütünleşmesi gibi pek çok başlığı aynı anda anlamaya olanak tanımaktadır.

Bu yönüyle tereke, yalnızca bir ekonomik belge değil; aynı zamanda şehir tarihinin "alt katmanlarını" görünür kılan bir sosyal arkeoloji metni niteliğindedir. Mustafa Ağa örneğinde görüldüğü üzere, Osmanlı taşrasında bir bireyin mal varlığı üzerinden hem onun kişisel kimliği hem de bağlı bulunduğu toplumsal yapı eşzamanlı olarak çözümlenebilmektedir.

Mikro-tarihsel belgeler aracılığıyla şehir tarihçiliği, yalnızca merkezi politikaların ve büyük yapısal dönüşümlerin değil; aynı zamanda sıradan bireylerin, mahalle sakinlerinin, zanaatkârların ve tüccarların dünyasına da nüfuz edebilmektedir(Ginzburg, 1980).

Sonuç

Bu çalışma, Osmanlı taşrasında şehir hayatının toplumsal, ekonomik ve kültürel dinamiklerini anlamak için mikro-tarihsel bir yaklaşım benimsemiş; 19. yüzyıl Sivas'ında yaşamış bir tüccarın – es-Seyyid Mustafa Ağa ibn-i İbrâhim – terekesi üzerinden dönemin şehir sosyolojisine ışık tutmayı amaçlamıştır. Terekeler, klasik anlamda bir mal beyanı olarak değerlendirilse de bu çalışmada görüldüğü üzere, aslında dönemin iktisadî mantığını, toplumsal ağlarını ve şehirli bireyin gündelik hayatla kurduğu ilişkileri ortaya koyan çok katmanlı tarihsel belgelerdir.

Mustafa Ağa'nın terekesinde yer alan taşınır mallar, tüketim alışkanlıkları ve ev eşyaları aracılığıyla onun yalnızca bir tüccar değil, aynı zamanda şehirli bir yaşam tarzını benimsemiş, maddi refah düzeyi yüksek bir aktör olduğu anlaşılmaktadır. Yorgan, kilim, bakır kaplar, mangal ve sim zarflar gibi eşyalar; hem konfor arzusunu hem de misafir ağırlama ve temizlik gibi gündelik pratikleri belgelemektedir. Lüks bir ithal ürün olan İngilizkârî saat ise bu bireyin taşrada bile küresel tüketim ağlarına eklemlenmiş olduğunu göstermektedir.

Terekedeki borç-alacak kayıtları ise çalışmanın en çarpıcı bulgularını oluşturur. Aralarında gayrimüslim tüccarların, köylülerin, aşiret mensuplarının ve paşazâdelerin bulunduğu geniş bir alacaklı profili, Mustafa Ağa'nın sadece yerel değil, bölgesel ölçekte bir ekonomik ağ içinde faaliyet gösterdiğini açıkça ortaya koymuştur. Onlarca kişiye olan alacak kalemleri, bu bireyin ticaretin yanı sıra kredi sağlayıcısı, yani dönemine özgü bir finansal aracı rolü de üstlendiğini göstermektedir. Özellikle aynı kişiye defaatle borç verilmiş olması, kredi ilişkilerinin vadelendirildiğini ve sosyal güven üzerine kurulu olduğunu kanıtlamaktadır.

Bu bulgular, mikro-tarihsel yöntemin sunduğu olanakları gözler önüne sermektedir. Tek bir bireyin ardında bıraktığı maddi izlerden hareketle hem şehrin iç yapısı hem de mahalle ilişkileri, tüketim kalıpları, toplumsal güven sistemleri ve yerel ekonomi hakkında çıkarımlar yapılabilmiştir. Mikro-tarih, bu yönüyle büyük anlatıların gölgesinde kalmış sıradan bireylerin, taşra aktörlerinin ve mahalli yapıların tarihsel rolünü görünür kılmaktadır. Üstelik bu yöntem, arşiv belgelerinin durağan veri kümesi olmaktan çıkarılıp sosyal bir metne dönüştürülmesini de sağlamaktadır.

Ancak bu yöntemin bazı sınırlılıkları da vardır. Bir bireyin terekesi, dönemin tüm sosyal ve ekonomik yapısını temsil etmez. Dahası, tereke belgeleri çoğu zaman yalnızca erkek bireylerin mülklerini yansıtır; kadınlara ait taşınır ve taşınmaz mallar daha sınırlı biçimde belgeye geçer. Ayrıca kayıtların ölüm sonrası yapılmış olması, ilişkilerin canlı boyutunu değil, kapanış anındaki durumunu yansıtır. Bu nedenlerle, mikro-tarihsel analizlerin sonuçlarının genelleştirilmesinde dikkatli olunmalı; veriler çoğul belgelerle desteklenmelidir.

Gelecekte bu tür araştırmaların daha sağlam temellere oturtulabilmesi için önerilen bazı yollar şunlardır:

- Farklı sosyal gruplara (kadınlar, gayrimüslimler, zanaatkârlar) ait terekelerin karşılaştırmalı incelenmesi,
- Aynı mahallede yaşayan birden fazla bireyin terekeleri üzerinden mahalle ekonomisi üzerine mikro-bölgesel analizlerin yapılması,
- Terekelerin, kadı sicilleri, vakıf kayıtları ve nüfus sayımları gibi belgelerle çapraz okunarak çok boyutlu veri kümeleri oluşturulması,

- Sivas gibi taşra merkezleri üzerinden, bölgesel ekonomik merkezlerin dönüşümü üzerine çalışmaların yapılması.

Sonuç olarak, es-Seyyid Mustafa Ağa'nın terekesi üzerinden yapılan bu mikro-tarihsel çözümleme, hem taşra tüccarlarının şehir hayatındaki çok işlevli rollerini hem de bireylerin maddi varlıklarıyla sosyal sermayeleri arasında kurdukları köprüleri görünür kılmıştır. Şehir tarihi, sadece sokaklar, hanlar, medreseler ve loncalar üzerinden değil; aynı zamanda bir tüccarın döşeğiyle, borç defteriyle, bakır kazanıyla ve vakitsizce vefat etmiş ömrünün mirasıyla da yazılabilir. Bu miras, sadece maddi birikimi değil; aynı zamanda bir şehrin hafızasını, güvenini ve ekonomik ritmini içinde taşır.

EK 1

ADI	MAHALLESİ	MİRAS BIRAKILAN MAL VE EŞYA	MİKTARI	BEDELİ
Emine bint-i Süleyman	Veled Beğ	Döşek	8	320
		Yorgan	10	300
		Çit yüzli yasdık	9	175
		Müstamel kilim	8	400
		Makat şiltesi	2	100
		Çuval	5	100
		El leğeni	1	50
		İbrik	1	
		Kebîr şamdan	2	120
		Sîm zarf	9	100
		Tabak	1	
		Cezve	1	30
		İbrik	1	
		Mangal	1	50
		Evân-ı nühâs	30	450
		Dakîk	2,5	100
		Hatab araba	10	
		Hûrdavât-ı hâne		80
		Mahalle-i merkûmede mülk menzil		5000
		Cariye Bahâ		3500
		Müteveffânın elbise bahâsı Çünküşlü Ömer Ağa'da		600
		Der zimmet-i Debbağ Mustafa Efendi		1000
		Der zimmet-i Sunvallı Köse oğlı Mahmud		200
		Der zimmet-i Hamamcı oğlı Mehmed Ağa		420
		Der zimmet-i Alaaddin Paşa-zâde İsmail Beğ		2500
		Der zimmet-i Tövbiyaş-zâde Mehmed Efendi		300
		Der zimmet-i Balın oğlı Mehmed Ağa		2720
		Der zimmet-i Sivaslı oğlı Mustafa Ağa		240


		Der zimmet-i Balyan oğlı Ali Efendi		3700
		Der zimmet-i Karaçurlı Mehmed		500
		Der zimmet-i Akkam el-Hâc Ali		600
		Der zimmet-i Milli aşiretinden Hasan Ağa		200
		Der zimmet-i Ayulı karyeli Mustafa kethüda oğlı Hasan		120
		Der zimmet-i Ayulı karyeli kethüdâ		1200
		Der zimmet-i Surhancağlı Veliddin		100
		Der zimmet-i Çiçekli oğlı İbrâhim		360
		Der zimmet-i Hanlı karyeli Yasakçı oğlı Kara Mehmed		120
		Der zimmet-i def„a Balyan oğlı Mehmed Ağa		15000
		Der zimmet-i Hanlı İblihan oğlı Ömer		60
		Der zimmet-i Yenihanlı Papgil karındaşı zımmî		1200
		Der zimmet-i Kethüdâyeri-zâde Ali Ağa		330
		Der zimmet-i Ayulı karyeli Hacı Ali oğlı Ahmed		120
		Der zimmet-i Çağlakatlı Mahmud kethüdâ		500
		Der zimmet-i yine Debbâğ Mustafa Efendi		2400
		Der zimmet-i Çabut oğlı Mehmed Ağa		2400
		Der zimmet-i Sukuncaklı Deli Hüseyin		102,50
		Der zimmet-i Çağlafatlı Döksü oğulları		123
		Der zimmet-i Künbiyet karyeli Hatib torunları Mehmed ve Mustafa Hüseyin		1800
		Der zimmet-i Kalağlı Hatîb Mehmed ve Osman ve Tatar oğlı Bekir		1800
		Der zimmet-i Kala-i Cedidde Yusuf Alemdâr oğlı Mustafa		120
		Der zimmet-i Kalağlı Hatîb Mehmed ve Osman ve Ebubekir		600
		Der zimmet-i Sivaslı oğlı Mustafa Ağa		360
		Der zimmet-i Kalağlı Dirhan Ağa Osman ve Mehmed		600
		Der zimmet-i Ata karyeli Kara Ali oğlı emîr Osman		300

		Der zimmet-i Hamamcı oğlı Mehmed Ağa		480
		Der zimmet-i Kara Musa Ağa		360
		Der zimmet-i Kolbed ağası Hacı Ömer Ağa		550
		Der zimmet-i Kâzâz Beği enistesi Vanlı Fevzi Ağa		1200
		Der zimmet-i Horahunlı (kesik) Hüseyin (kesik) Feyzullah		240
		Der zimmet-i Kürt Mehmed Efendi		3600
		Der zimmet-i Hamu hatın oğlı Ali Ağa		600
		Der zimmet-i Dülger oğlı Makdisi Torik		4110
		Der zimmet-i Kalanlı sipahi oğlı Osman		600
		Der zimmet-i Kethüdâyeri-zâde Mahmud Ağa		600
		Der zimmet-i Kalanlı Deveci oğlı Ebubekir		600
		Der zimmet-i Ata karyeli Emir oğlı Osman kethüdâ		734,50
		Der zimmet-i Herekeli Kürt Hüseyin		225
		Der zimmet-i Kürt Yusuf Ağa		550
		Der zimmet-i Bayatlı Hasan beğ oğlı Ali ve Ömer		368,50
		Der zimmet-i Demirkafçı oğlı Osman ve Çabut oğlı Mehmed		715
		Der zimmet-i Bayatlı Hasan Beğ oğlı İsmail		360
		Der zimmet-i Bayatlı Fatıma oğlı Hacı Veliyüddin		350
		Der zimmet-i Bayatlı Ömer kethüdâ		400
		Der zimmet-i Natur oğlı Makdisi Artin ve Biros		4800
		Der zimmet-i yine Natur oğlı Artin ve Biros		2625
		Der zimmet-i Milli yevmi beysi Hasan Beğ		1070
		Der zimmet-i Hamamcı oğlı Emin		120
		Der zimmet-i Alaaddin paÇazâde Celal Beğ		300
		Diyarbekir‟den gelen eşya bahâsı		10000
		İngilizkârî sâat	1	300
		İnek	2	160
		Tosun	1	100
		Bir re's bezir gulamı	1	1000

		Ve min-hâ‟l-ihrâcât Resm-i kısmet-i âdî		2287
		Kaydiye		67,5
		Sahhü‟l-bâkî li‟t-taksîm beyne‟l-verese		86476

EK 2

Hisse-i zevce-i merkûme Emine Hatun	10809,50
Hisse-i bint-i sağîri‟l-mezbûre Aîşe	25222 Guruş 7 Para
Hisse-i ibn-i sağîri‟l-merkûm İbrâhim	50444 Guruş 13 Para



Kaynakça

Barkan, Ö. L. (1959). *Osmanlı İmparatorluğu'nda bir iktisadî teşekkül olarak vakıflar.* İstanbul Üniversitesi İktisat Fakültesi Mecmuası, 20(1–2), 286.
Başbakanlık Osmanlı Arşivi (BOA). (n.d.). *Sivas Şer'iyye Sicilleri, Tereke Defteri, nr. 36, s. 1–5.*
Demirel, Ö. (2017). *Sivas tüccar ve esnafının mal varlıkları ile borç-alacak ilişkileri.* In Doğumunun 65. Yılında Prof. Dr. Tuncer Baykara'ya Armağan (ss. 158–173). İstanbul: IQ Kültür Sanat Yayıncılık.
Ergene, B. (2003). *Local court, provincial society and justice in the Ottoman Empire.* Brill.
Faroqhi, S. (2003). *Osmanlı kültürü ve gündelik hayat.* İstanbul: Tarih Vakfı Yurt Yayınları.
Faroqhi, S. (2005). *Subjects of the Sultan.* Cambridge: Cambridge University Press.
Giladi, A. (1999). *Economic relations between Muslims and non-Muslims.* The Muslim World, 89.
Ginzburg, C. (1980). *The cheese and the worms: The cosmos of a sixteenth-century miller.* Baltimore: Johns Hopkins University Press.
Güvenç, B. (2006). *Türk kimliği: Kültür tarihine bir bakış.* Ankara: YKY.
İnalcık, H. (1959). *Osmanlı mahallesi: Sosyal yapı ve dayanışma.* Belleten, 23(90), 209–232.
İnalcık, H. (1969). *Capital formation in the Ottoman Empire.* The Journal of Economic History, 29(1), 97–140.
İnalcık, H. (2000). *Osmanlı'da hukuk ve adalet.* İstanbul: Eren Yayıncılık.
Jennings, R. C. (1973). *Loan and credit in early 17th century Ottoman judicial records.* Journal of the Economic and Social History of the Orient, 16(2), 168–216.
Jennings, R. C. (1994). *Women in early 17th century Ottoman judicial records.* Islamic Law and Society, 1(2), 221–252.
Kafadar, C. (1990). *Miras ve mal paylaşımı: Osmanlı hukuk geleneğinde aile ilişkileri.* Tarih Enstitüsü Dergisi, (8), 77–89.
Kallek, C. (2012). *İslam ve ekonomi: Para, faiz ve piyasa.* İstanbul: İSAM Yayınları.
Konan, B. (2021). *Osmanlı hukukunda vakıflarda istibdal uygulaması.* Ankara Üniversitesi Hukuk Fakültesi Dergisi, 3(70), 991–1011.
Kuran, T. (2004). *Islam and Mammon: The economic predicaments of Islamism.* Princeton: Princeton University Press.
Levi, G. (1991). *On microhistory.* In P. Burke (Ed.), New perspectives on historical writing (pp. 93–113). Cambridge: Polity Press.
Peirce, L. (1993). *The imperial harem: Women and sovereignty in the Ottoman Empire.* Oxford: Oxford University Press.
Salzmann, A. (2008). *The age of political economy in the Ottoman Empire.* Review of Middle East Studies, 42(2), 290.
Sezer, A. (2012). *Osmanlı ev kültürü üzerine bir değerlendirme.* Tarih ve Toplum Yeni Yaklaşımlar, (16), 79–84.
Tabakoğlu, A. (2016). *Osmanlı mali tarihi.* İstanbul: Dergâh Yayınları.
Toledano, E. R. (1982). *Osmanlı köleliği.* Cambridge: Cambridge University Press.
Toledano, E. R. (1994). *Osmanlı köle ticareti 1840–1890.* İstanbul: Tarih Vakfı Yurt Yayınları.
Zabun, S. (2019). *19. yüzyılda Sivas'ın sosyo-ekonomik durumu.* Anemon Muş Alparslan Üniversitesi Sosyal Bilimler Dergisi, 7(1), 221–238.

ORGANIZATION OF FREELANCE WORK IN HIGHER EDUCATION: PROBLEMS, OPPORTUNITIES AND METHODOLOGICAL APPROACHES

ALİ TƏHSİLDƏ SƏRBƏST İŞLƏRİN TƏŞKİLİ: PROBLEMLƏR, İMKANLAR VƏ METODİK YANAŞMALAR

Assoc. Prof. Dr. Malahat Abdullayeva
Azerbaijan State Pedagogical University, Faculty of Mathematics
Department of Mathematics and its teaching technology

Abstract
The article examines the importance of independent work in the formation and development of students' research skills in higher education institutions. It is emphasized that independent work is an important tool in the development of students' scientific thinking, analytical approach, and independent work abilities. In this context, phased and systematic methodological approaches to the preparation of independent works are proposed. The article also contains practical recommendations based on existing experiences and technical requirements.
The relevance of the study is explained by the important place of independent work in the formation of analytical thinking, information processing, and scientific writing skills required by the modern labor market and academic environment. At the same time, the gaps in this area - the lack of methodological instructions, the uncertainty of assessment criteria, and students' difficulties in the scientific writing style - are factors that increase the relevance of the study.
The purpose of the study is to form a systematic methodological approach to the process of preparing independent works, to provide specific recommendations and applicable examples to improve the quality of these works.
The research used theoretical methods (analysis of existing literature and normative documents), comparative analysis, synthetic generalization, and putting forward practical proposals based on real examples.
As a result of the research, it was determined that in order to improve the quality of independent work:
• Methodological tools covering all stages from topic selection to references should be developed;
• Regular methodological seminars and training should be organized at universities.
• Assessment criteria for teachers should be standardized, and students' individual and creative approaches should be valued.
Consequently, independent work should be considered not only as a type of academic activity in higher education, but also as an important pedagogical tool in the formation of scientific-cognitive skills, research-oriented thinking, and an interdisciplinary integrated approach in students. This type of activity develops students' independent learning skills, the ability to work with information and draw scientific conclusions, and creates conditions for the systematic construction of their scientific worldview.
Keywords: Higher education, independent work, development of research skills, scientific thinking, methodological approach

Xülasə
Məqalədə ali təhsil müəssisələrində tələbələrin tədqiqat bacarıqlarının formalaşdırılması və inkişafında sərbəst işlərin əhəmiyyəti araşdırılır. Tələbələrin elmi düşünmə, analitik yanaşma və müstəqil işləmə qabiliyyətlərinin inkişafında sərbəst işlərin mühüm vasitə olduğu vurğulanır. Bu kontekstdə sərbəst işlərin hazırlanmasına dair mərhələli və sistemli metodik yanaşmalar təklif olunur. Məqalədə həmçinin mövcud təcrübələrə və texniki tələblərə əsaslanan praktiki tövsiyələr də yer alır. Tədqiqatın aktuallığı, müasir əmək bazarının və akademik mühitin tələb etdiyi analitik düşüncə, informasiya emalı və elmi yazı bacarıqlarının formalaşmasında sərbəst işlərin mühüm yer tutması ilə

izah olunur. Eyni zamanda, bu sahədə mövcud olan boşluqlar - metodik göstərişlərin çatışmazlığı, qiymətləndirmə meyarlarının qeyri-müəyyənliyi və tələbələrin elmi yazı üslubunda çətinlikləri – tədqiqatın aktuallığını artıran amillərdəndir.
Tədqiqatın məqsədi, sərbəst işlərin hazırlanması prosesinə sistemli metodik yanaşmanı formalaşdırmaq, bu işlərin keyfiyyətini artırmaq üçün konkret tövsiyələr və tətbiq oluna biləcək nümunələr təqdim etməkdir.
Araşdırmada nəzəri metodlar (mövcud ədəbiyyatın və normativ sənədlərin təhlili), müqayisəli təhlil, sintetik ümumiləşdirmə və real nümunələrə əsaslanaraq praktiki təkliflərin irəli sürülməsi kimi metodlardan istifadə olunmuşdur.
Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, sərbəst işlərin keyfiyyətini yüksəltmək üçün:
- Mövzunun seçilməsindən tutmuş istinadlara qədər bütün mərhələləri əhatə edən metodik vəsaitlər hazırlanmalıdır;
- Universitetlərdə müntəzəm metodik seminarlar və təlimlər təşkil edilməlidir;
- Müəllimlər üçün qiymətləndirmə meyarları standartlaşdırılmalı, tələbələrin fərdi və yaradıcı yanaşmalarına dəyər verilməlidir.

Nəticə etibarilə, sərbəst işlər ali təhsildə yalnız akademik fəaliyyət növü kimi deyil, həm də tələbələrdə elmi-idrak bacarıqlarının, tədqiqat yönümlü düşüncə tərzinin və fənlərarası inteqrasiyalı yanaşmanın formalaşmasında mühüm pedaqoji vasitə kimi qəbul edilməlidir. Bu fəaliyyət növü tələbələrin müstəqil öyrənmə bacarığını, informasiya ilə işləmə və elmi nəticələr çıxarma qabiliyyətini inkişaf etdirərək onların elmi dünyagörüşünün sistemli şəkildə qurulmasına şərait yaradır.
Açar sözlər: Ali təhsil, sərbəst işlər, tədqiqat bacarıqlarının inkişafı, elmi düşüncə, metodik yanaşma

Giriş

Ali təhsil müəssisələrində müstəqil işləmə bacarığının formalaşdırılması, tədqiqat yönümlü düşüncə tərzinin inkişaf etdirilməsi və tələbələrin elmi axtarışlara təşviq olunması üçün tətbiq olunan mühüm fəaliyyət formalarından biri də sərbəst işlərin hazırlanmasıdır. Sərbəst işlər tələbələrin yalnız fənn üzrə nəzəri biliklərini deyil, eyni zamanda analitik düşünmə, informasiya axtarışı, elmi mətn tərtibatı və təqdimat bacarıqlarını inkişaf etdirən mühüm bir tədris formasıdır.
Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiqlənmiş kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi qaydalarında sərbəst işlərə ayrıca yer verilmiş, bu fəaliyyətin tələbələrin fənn üzrə ümumi göstəricisinə təsir etdiyi vurğulanmışdır (Təhsil Nazirliyi, 2009). Eyni zamanda, ali təhsildə müasir yanaşmalara uyğun olaraq tələbələrə verilən sərbəst iş mövzularının onların maraqlarına və fərdi inkişaf səviyyələrinə uyğun seçilməsi, mövzunun genişləndirilməsi və yaradıcı şəkildə təqdim edilməsinə imkan yaradılması tövsiyə olunur (UNESCO, 2019; OECD, 2021).
Lakin mövcud vəziyyət göstərir ki, bir çox universitetlərdə sərbəst işlərin hazırlanması ilə bağlı konkret metodik vəsaitlər, qiymətləndirmə meyarları və tərtibat qaydaları tələbələrə kifayət qədər sistemli və aydın şəkildə təqdim edilmir. Bu isə tələbələrin sərbəst işə formal yanaşmasına, bəzi hallarda isə plagiat və orijinal olmayan materialların təqdim olunmasına səbəb olur. Halbuki elmi yanaşmaya əsaslanan, planlı və məqsədyönlü şəkildə hazırlanmış sərbəst işlər təhsil keyfiyyətinə əhəmiyyətli töhfə verə bilər.
Bu məqalədə ali təhsildə sərbəst işlərin hazırlanması ilə bağlı mövcud vəziyyət təhlil olunur, metodik çatışmazlıqlar göstərilir və bu çatışmazlıqların aradan qaldırılması məqsədilə praktik tövsiyələr irəli sürülür. Məqalə müəllimlər və tələbələr üçün metodik dəstək məqsədi daşımaqla yanaşı, universitetlərin tədris siyasətində bu fəaliyyətin daha səmərəli şəkildə təşkili üçün də nəzəri əsas rolunu oynayır.

“Sərbəst iş” anlayışı və məqsədi

Sərbəst iş – ali təhsildə tələbələrin dərs prosesindən kənar vaxtda fənn üzrə bilik və bacarıqlarını dərinləşdirmək, özünüinkişafını təmin etmək və tədqiqat yönümlü öyrənməni təşviq etmək üçün yerinə yetirdiyi fərdi fəaliyyətdir. Sərbəst işlər, adətən müəllimin müəyyən etdiyi və ya tələbənin öz

seçdiyi bir mövzu ətrafında müstəqil araşdırma aparmaqla hazırlanır və tədris olunan fənnin məqsəd və məzmununa uyğun olmalıdır.

Sərbəst işlərin əsas məqsədi tələbələrdə aşağıdakı bacarıq və keyfiyyətlərin formalaşmasına xidmət etməkdir:

- **Tədqiqat bacarığı** – tələbə verilmiş mövzu üzrə müvafiq ədəbiyyatı araşdırır, məlumat toplayır, təhlil edir və nəticə çıxarır;
- **Kritik düşüncə** – mövzuya müxtəlif baxış bucağından yanaşmaq və öz mövqeyini əsaslandırmaq bacarığı inkişaf edir;
- **Elmi yazı vərdişləri** – sərbəst iş tələbənin elmi üslubda fikir ifadə etməsi və strukturlu yazı təqdim etməsinə şərait yaradır;
- **İnformasiya axtarışı və işləmə bacarığı** – müasir dövrdə rəqəmsal resurslardan düzgün istifadə etmə vərdişləri formalaşır (UNESCO IITE, 2022).

Tədqiqatlar göstərir ki, sərbəst işlər tələbələrin həm akademik biliklərini möhkəmləndirir, həm də onların fərdi inkişafına, özünəinam və məsuliyyət hissinin güclənməsinə səbəb olur. Xüsusilə, tələbənin öz seçimi əsasında mövzuya yanaşması onun motivasiyasını artırır və yaradıcı düşüncə prosesini stimullaşdırır.

Eyni zamanda, sərbəst işlər müəllim-tələbə münasibətlərində qarşılıqlı əməkdaşlıq və rəy əsasında inkişaf edən təlim modelinin formalaşmasına da kömək olur. Müəllimin sərbəst iş prosesində məsləhətçi və istiqamətverici rolu, tələbənin isə tədqiqatçı və təqdimatçı rolu ali təhsil sistemində tələbəyönümlü təhsilin mühüm tərkib hissəsinə çevrilir (Biggs & Tang, 2011).

Beynəlxalq təcrübədə sərbəst işlərə dair məqsədyönlü metodik çərçivələr mövcuddur. Məsələn, Avropa Ali Təhsil Məkanında tələbənin öyrənmə nəticələrinə yönəlmiş yanaşma çərçivəsində sərbəst işlər kredit yığımı və fənn üzrə əsas qiymətləndirmə vasitəsi kimi nəzərdə tutulur (Bologna Process Implementation Report, 2020).

Sərbəst işlərin hazırlanmasına yanaşmalar və mövcud problemlər

Ali təhsil sistemində sərbəst işlər tələbələrin elmi düşünmə, tədqiqat aparma və müstəqil öyrənmə bacarıqlarının inkişafı baxımından mühüm yer tutur. Lakin mövcud təcrübədə bu işlərin təşkili və icrasında bir sıra metodik və təşkilati problemlər müşahidə olunur.

Əvvəla, mövzu seçimi mərhələsində tələbələrin maraq və təşəbbüslərinə kifayət qədər yer verilmir. Əksər hallarda sərbəst iş mövzuları müəllimlər tərəfindən əvvəlcədən müəyyən edilir ki, bu da tələbələrin fərdi maraqlarını, yaradıcı potensialını və tədqiqat təşəbbüslərini məhdudlaşdırır (Boud & Falchikov, 2006).

İkinci ciddi problem, metodik göstərişlərin çatışmazlığı və vahid standartların olmamasıdır. Bir çox universitet və fakültələrdə sərbəst işlərin məqsədi, məzmunu, strukturu və qiymətləndirilməsi ilə bağlı tələbələrə təqdim olunan təlimatlar ümumi xarakter daşıyır və konkret tələblərlə zənginləşdirilməmişdir (Biggs & Tang, 2011). Bu isə tələbələrdə qeyri-müəyyənlik yaradır və nəticədə işlərin keyfiyyətinə mənfi təsir göstərir.

Üçüncü mühüm məsələ, qiymətləndirmə meyarlarının qeyri-dəqiqliyidir. Müəllimlərin subyektiv yanaşması və meyarların kifayət qədər şəffaf olmaması tələbələrin sərbəst işlərinin obyektiv qiymətləndirilməsinə mane olur (Sadler, 2005). Bu isə tələbələrin sərbəst işlərin hazırlanmasına dair motivasiyasını zəiflədir və akademik narazılıq hissinin formalaşmasına gətirib çıxara bilər.

Bundan əlavə, rəqəmsal resurslardan istifadə ilə bağlı metodoloji inteqrasiyanın zəifliyi müşahidə olunur. Müasir dövrdə rəqəmsal alətlər sərbəst işlərin hazırlanmasında əvəzolunmaz vasitə kimi çıxış etsə də, bu alətlərdən düzgün istifadəni istiqamətləndirən metodik materialların azlığı tələbələrin bu imkanlardan səmərəli faydalanmasını məhdudlaşdırır. (UNESCO IITE, 2024).

Nəhayət, elmi yazı üslubu, istinad və plagiatla bağlı maarifləndirici işlərin zəif təşkili də sərbəst işlərin elmi səviyyəsinə təsir göstərən əsas amillərdəndir (Creswell, 2014).

Sərbəst işlərin hazırlanmasına metodik yanaşmalar

Ali təhsil pilləsində tələbələrin elmi bacarıqlarının inkişaf etdirilməsində sərbəst işlərin xüsusi rolu vardır. Bu işlərin keyfiyyətli şəkildə hazırlanması üçün müəllimlər və tələbələr tərəfindən sistemli metodik yanaşmalara riayət olunması vacibdir.

Mövzu seçimi və məqsədlərin müəyyənləşdirilməsi

Sərbəst işin mövzusu tələbənin maraqları, fənnin məzmunu və təlim nəticələri nəzərə alınmaqla müəyyən olunmalıdır. Mövzu spesifik, aydın və tədqiq edilə bilən olmalı, aktuallığı əsaslandırılmalıdır. Mövzu seçimi zamanı müəllimin istiqamətləndirici rolu əhəmiyyətlidir (Bakı Dövlət Universiteti, 2021).

Məqsədin müəyyənləşdirilməsi tədqiqatın istiqamətini və gözlənilən nəticələri əvvəlcədən planlaşdırmağa şərait yaradır. Bu mərhələdə tədqiqat sualları formalaşdırılmalı və işin məqsədinə uyğun qurulmalıdır (Creswell, 2014).

Mənbələrin axtarışı və qiymətləndirilməsi

Akademik mənbələrin seçilməsi sərbəst işin elmi dəyərinin əsas göstəricilərindən biridir. Tələbələrə kitabxana kataloqları, elmi bazalar (Google Scholar, ScienceDirect, JSTOR və s.) və milli elmi platformalar (məsələn, ADPU Elektron Kitabxanası, UNEC Elmi əsərlər bazası) vasitəsilə mənbə axtarışı tövsiyə olunur.

İstifadə olunan mənbələr:

- Etibarlı və aktual olmalı;
- Elmi nəşrlərə əsaslanmalı;
- Rəylərdən və plagiatdan uzaq olmalıdır.

Araşdırma metodları

Sərbəst işin xarakterinə uyğun olaraq tədqiqat metodları seçilir. Bu metodlar aşağıdakı kimi təsnif oluna bilər:

- **Nəzəri metodlar**:

Ədəbiyyatın sistematik təhlili (literature review) - mövcud elmi mənbələrin toplandığı və qiymətləndirildiyi metod;

Müqayisəli təhlil - müxtəlif nəzəri yanaşmaların, tədqiqatların müqayisəsi yolu ilə nəticə çıxarmaq;

Analitik təhlil - mövcud nəzəriyyə və məlumatların təhlili, kritik baxış;

Sintez - fərqli məlumat və nəzəriyyələrin ümumiləşdirilməsi və yeni anlayışların yaradılması.

- **Empirik-praktik metodlar**: sorğu, müşahidə, eksperiment kimi üsullar.
- **Müqayisə metodu**: mövcud məlumatların təhlili və müqayisəsi.

Tədqiqat metodlarının seçimi məqsəddən və mövzunun xarakterindən asılı olaraq müəllimlə razılaşdırılmalıdır.

Planlaşdırma və yazının strukturlaşdırılması

Sərbəst iş aşağıdakı struktur üzrə tərtib edilməlidir:

- **Giriş** – Mövzu haqqında ümumi məlumat, tədqiqatın aktuallığı, məqsəd və vəzifələr.
- **Əsas hissə** – Mövzuya dair nəzəri və praktik təhlillər, müxtəlif yanaşmaların təqdimatı, arqumentlər və sübutlar.
- **Nəticə** – Əldə olunan nəticələrin ümumiləşdirilməsi və təkliflər.
- **İstinadlar siyahısı** – İstifadə edilən bütün mənbələrin düzgün şəkildə qeyd olunması.

Bu struktur tələbələrə akademik yazı bacarığını formalaşdırmağa yardım edir (BDU, 2021).

Elmi yazı üslubu və sitat gətirmə qaydaları

Elmi yazıda obyektivlik, aydınlıq, məntiqi əlaqəlilik və rəsmi üslub əsas prinsiplərdir. Tələbələrdən fikirlərini sübutlarla əsaslandırmaq, fərziyyə irəli sürmək və elmi nəticəyə gəlmək bacarığı gözlənilir. Sitat gətirmə üçün APA (American Psychological Association), MLA və ya Chicago kimi beynəlxalq sistemlərdən biri seçilməli və bütün mənbələrə uyğun tətbiq olunmalıdır. Son illərdə elmi tədqiqatlarda ən geniş yayılmış istinad formatı APA 7 sistemidir (APA, 2020).

Plagiatla mübarizə və orijinallıq

Sərbəst işlərin orijinallığı onun elmi dəyərini müəyyənləşdirən əsas amillərdəndir. Plagiatla mübarizə məqsədilə universitetlərdə Turnitin, PlagScan və digər proqramlardan istifadə edilir. Tələbələrə istifadə olunan fikirlərə düzgün istinad etmə və öz düşüncələrini ifadə etmə bacarıqları öyrədilməlidir (OECD, 2018; Turnitin, 2023).

Sərbəst işlərin hazırlanmasına verilən texniki tələblər

Sərbəst işlərin hazırlanmasında müəyyən texniki standartlara riayət olunması tələb olunur ki, bu da işin oxunaqlı, peşəkar və vahid formatda təqdim edilməsini təmin edir. Aşağıda əsas texniki tələblər verilmişdir:

- **Həcmi:** 2–5 səhifə arası olmaqla, mövzunun və fənnin xüsusiyyətlərinə uyğun olaraq dəyişə bilər.
- **Şrift növü:** Times New Roman
- **Şrift ölçüsü:** Əsas mətn üçün 12 pt
- **Sətir aralığı:** 1,5
- **Səhifə kənarları:** Sol kənar 3 *sm*, sağ kənar 1,5 *sm*, yuxarı və aşağı kənarlar 2 *sm*
- **Mətnin düzülüşü:** Justify (Ctrl + J)
- **Başlıqlar:** 14 pt ölçüdə və qalın (bold) şriftlə yazılmalıdır
- **Sitat və istinadlar:** Müəyyən olunmuş akademik standartlara uyğun olaraq (APA, Chicago və ya digər seçilmiş standart) aparılmalıdır
- **Təqdimat:** Sərbəst iş kağız üzərində çap olunmuş formada və ya elektron formatda PDF faylı kimi təqdim edilməlidir
- **Əlavələr:** İşdə istifadə olunan şəkillər, cədvəllər və qrafiklər nömrələnməli, həmçinin onların mənbəyi dəqiq göstərilməlidir

Bu tələblər tələbələrə işlərinin strukturlaşdırılması, anlaşıqlığı və elmi standartlara uyğunluğunu təmin etmək məqsədi daşıyır.

Ən yaxşı təcrübələr və nümunələr

Sərbəst işlərin keyfiyyətinin artırılması və tələbələrin elmi tədqiqat bacarıqlarının inkişafı üçün ən yaxşı təcrübələrin tətbiqi mühüm rol oynayır. Bu təcrübələr həm müəllimlərin, həm də tələbələrin fəaliyyətini daha məqsədyönlü edir.

Uğurlu sərbəst iş nümunələri: Uğurlu sərbəst iş nümunələri tələbələrə tədqiqat prosesinin əsas mərhələlərini - mövzu seçimi, mənbələrin toplanması, məlumatların təhlili və nəticələrin düzgün təqdimatını göstərməkdə kömək edir (Biggs & Tang, 2011). Bu nümunələr tələbələrə işin strukturunu anlamaq və elmi standartlara uyğun yazmaq üçün model rolunu oynayır. Real və aydın yazılmış nümunələr tələbələrin öz işlərinə daha yaradıcı və analitik yanaşmalarını stimullaşdırır (Boud & Falchikov, 2007).

Tələbələrin fərdi və yaradıcı yanaşmalarına verilən dəyər: Tədqiqat işlərində tələbələrin fərdi baxışları və kreativ yanaşmaları önəmlidir, çünki bu, onların müstəqil düşünmə və problem həll etmə qabiliyyətlərini inkişaf etdirir. Fərdi yanaşmalar tələbələrin motivasiyasını artırır və onların tədqiqat prosesinə daha fəal qatılmasına şərait yaradır. Müasir təhsil yanaşmaları tələbələrin öz maraq və bacarıqlarına uyğun mövzular seçməsinə və onları fərqli üsullarla işləməsinə geniş imkan verir (Ormrod, 2016).

Müəllimlərin rolu və konstruktiv rəyin əhəmiyyəti: Müəllimlər tələbələrin sərbəst işlərində yol göstərən, istiqamətləndirən və qiymətləndirən əsas şəxsdirlər. Konstruktiv rəy tələbələrin zəif tərəflərini müəyyənləşdirməyə, onları təkmilləşdirməyə və tədqiqat bacarıqlarını inkişaf etdirməyə kömək edir (Hattie & Timperley, 2007). Keyfiyyətli geribildirim tələbələrin öz işlərini təkrar gözdən keçirməsini, səhvləri anlamasını və nəticədə daha yüksək səviyyəli işlər təqdim etməsini təmin edir. Müəllimlərin dəstək və motivasiyası tələbələrin akademik uğurlarını artırır və tədqiqat prosesinə marağı yüksəldir.

Nəticə və təkliflər

Ali təhsil sistemində tələbələrin tədqiqat bacarıqlarının inkişafında sərbəst işlərin rolu danılmazdır. Lakin mövcud vəziyyətin təhlili göstərir ki, bir çox universitetlərdə sərbəst işlərin hazırlanması üçün metodik baza kifayət qədər inkişaf etməmişdir. Bu isə tələbələrin araşdırma və yazı bacarıqlarına mənfi təsir göstərir, plagiat hallarının artmasına və elmi üslubun zəifləməsinə səbəb olur.

Mövcud boşluqların aradan qaldırılması yolları: Təhlillər göstərir ki, tələbələr çox zaman sərbəst işlərin məqsədini, tərtibat normalarını və elmi üslubu dərk etmədən yazırlar. Bunun səbəbi konkret metodik göstərişlərin olmamasıdır. Bu boşluğu aradan qaldırmaq üçün ali məktəblərdə:

- Tələbələr üçün aydın və mərhələli metodik bələdçi hazırlanmalı,
- Sərbəst işlərin mövzuya uyğun formatda necə qurulması izah edilməlidir.

Sərbəst işlərin hazırlanmasına dair metodik vəsaitlərin tərtibi: Ali təhsil müəssisələrində hər fənn üzrə, xüsusilə də tədris metodikası ilə bağlı ixtisaslarda standartlaşdırılmış metodik vəsaitlər hazırlanmalıdır. Bu vəsaitlərə aşağıdakılar daxil edilməlidir:

- Mövzu seçiminə dair tövsiyələr
- Mənbələrin axtarışı və qiymətləndirilməsi
- Elmi yazı üslubunun tələbləri
- Plagiatın qarşısının alınması yolları

Universitetlərdə metodik seminar və təlimlərin təşkili təklifi: Sərbəst işlərin keyfiyyətini artırmaq üçün fakültələrdə:

- Hər semestrin əvvəlində "Elmi yazı mədəniyyəti", "Sitat və istinad qaydaları", "Rəqəmsal tədqiqat alətləri" və s. mövzularda seminar və təlimlər təşkil olunmalıdır.
- Bu seminar və təlimlərə tələbələrlə yanaşı, gənc müəllimlər də cəlb olunmalı, onların tədqiqat rəhbəri kimi hazırlıq səviyyəsi artırılmalıdır.

Müəllimlər üçün sərbəst işlərin qiymətləndirilməsi meyarlarının hazırlanması: Qiymətləndirmədə subyektivliyin qarşısını almaq üçün açıq və standartlaşdırılmış meyar cədvəlləri tərtib olunmalıdır. Ədalətli və şəffaf qiymətləndirmə üçün aydın, ölçülə bilən və tələbələrin fərdi inkişafını nəzərə alan meyarlar olmalıdır. **Sərbəst işlərin 100 ballıq qiymətləndirilmə meyarları:**

1. **Mövzunun aktuallığı və uyğunluğu** – 10 bal
(İşin mövzunun adına uyğunluğu və mövzunun müasirlik baxımından əhəmiyyəti)
2. **Tədqiqat məqsədinin və suallarının dəqiqliyi** – 10 bal
(Məqsədin aydın ifadəsi və tədqiqat suallarının məntiqi əsaslandırılması)
3. **Ədəbiyyat icmalı və mənbələrdən istifadə** – 15 bal
(Etibarlı elmi mənbələrə istinad, mövzu ilə bağlı ədəbiyyatın təhlili və sistemləşdirilməsi)
4. **Məzmunun strukturlaşdırılması və məntiqi ardıcıllığı** – 10 bal
(İşin giriş, əsas hissə və nəticə bölmələrinin sistemli qurulması)
5. **Analitik yanaşma və orijinallıq** – 15 bal
(Məlumatların təhlili, müəllif mövqeyinin formalaşması və yaradıcılıq)
6. **Nəticələrin əsaslandırılması və tövsiyələrin verilməsi** – 10 bal
(Araşdırma nəticələrinin məqsədlərlə uyğunluğu və praktik tövsiyələrin əsaslandırılması)
7. **Dizayn və texniki tələblərə uyğunluq** – 10 bal
(Formatlaşdırma, səhifə quruluşu, şrift, cədvəl və vizual materialların uyğunluğu)
8. **Əlavə materiallardan istifadə və vizual dəstək** – 5 bal
(Qrafik, diaqram, şəkil və digər vizual vasitələrin yerində və məqsədyönlü istifadəsi)
9. **Təqdimat və izahat bacarığı** – 15 bal
(Sərbəst işin şifahi və ya yazılı formada məntiqli və inandırıcı təqdim olunması, suallara cavabvermə qabiliyyəti)

Ədəbiyyat

1. APA (2020). *Publication Manual of the American Psychological Association (7th ed.)*. APA Publishing.
2. Bakı Dövlət Universiteti (2021). Sərbəst işlərin hazırlanmasına dair metodik göstərişlər. BDU Nəşriyyatı.
3. Biggs, J., & Tang, C. (2011). Teaching for Quality Learning at University (4th ed.). Maidenhead: McGraw-Hill Education.

4. Boud, D., & Falchikov, N. (2007). Rethinking assessment in higher education: Learning for the longer term. Routledge.
5. Boud, D., & Falchikov, N. (2006). Aligning assessment with long-term learning. Assessment & Evaluation in Higher Education, 31(4), 399–413. https://doi.org/10.1080/02602930600679050
6. European Commission/EACEA/Eurydice. (2020). The Bologna Process Implementation Report. Luxembourg: Publications Office of the European Union.
7. Təhsil Nazirliyi. (2009). *Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili və tələbələrin biliyinin qiymətləndirilməsi qaydaları*. Bakı.
8. Ormrod, J. E. (2016). Educational Psychology: Developing Learners. Pearson.
9. OECD (2018). Education at a Glance 2018: OECD Indicators. OECD Publishing.
10. OECD. (2021). *Fostering Students' Creativity and Critical Thinking: What it Means in School*. OECD Publishing. https://doi.org/10.1787/62212c37-en
11. UNESCO. (2019). Rethinking education: Towards a global common good? Paris: UNESCO Publishing.
12. UNESCO Institute for Information Technologies in Education (IITE). (2024). Digital pedagogy and transformation of higher education: Open digital learning opportunities for all. UNESCO.
13. UNESCO IITE. (2024). Digital Pedagogy and Competencies in Higher Education: International Review. Khanty-Mansiysk: UNESCO Institute for Information Technologies in Education. https://itforum.admhmao.ru/event/2024/ru/day/11
14. European Commission/EACEA/Eurydice. (2020). *The Bologna Process Implementation Report*. Luxembourg: Publications Office of the European Union.
15. Sadler, D. R. (2005). *Interpretations of criteria-based assessment and grading in higher education*. Assessment & Evaluation in Higher Education, 30(2), 175–194. https://doi.org/10.1080/0260293042000264262
16. Creswell, J. W. (2014). Research Design: Qualitative, Quantitative, and Mixed Methods Approaches (4th ed.). SAGE Publications.
17. Hattie, J., & Timperley, H. (2007). The power of feedback. Review of Educational Research, 77(1), 81-112.

BAKHTIYAR VAHABZADE'S INTEGRATION OF PATRIOTISM AND NATIONALITY IDEAS INTO THE TEACHING OF MATHEMATICS

BƏXTİYAR VAHABZADƏNİN VƏTƏNPƏRVƏRLİK VƏ MİLLİLİK İDEYALARININ RİYAZİYYATIN TƏDRİSİNƏ İNTEQRASİYASI

Dos. Məlahət Abdullayeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Riyaziyyat fakültəsi,
Riyaziyyat və onun tədrisi texnologiyası kafedrası

Abstract
One of the important pedagogical goals in teaching mathematics in secondary schools is to form, in addition to teaching scientific knowledge, moral values such as patriotism and national identity in students. In this regard, the poems written in the spirit of patriotism by Bakhtiyar Vahabzadeh, a prominent representative of Azerbaijani literature, are of great importance in mathematics lessons, both in creating interest in the learning process and in forming moral education.
The purpose of the study is to investigate the possibilities of integrating the ideas of patriotism and national identity expressed in Bakhtiyar Vahabzadeh's poems into the teaching of mathematics in secondary schools. The main focus of the study was on teaching the topic "Equation of a straight line passing through two points" in the 8th grade. First, Bakhtiyar Vahabzadeh's poems were analyzed using the text analysis method, and ways of using them in mathematics lessons were investigated. In order to create motivation in the lesson, the poet's poem "Land, if there is someone who dies for it, is the Motherland!" The verse was sung, and the students were asked the question, “How can we express our Motherland in mathematical language?” The text of the tasks reflected the names of the cities of Shusha, Khankendi, Khojaly, and Baku, and the topic was explained both from a mathematical and patriotic and nationalistic perspective.
The conducted teaching observation showed that such integration increases interest in the lesson, allows for a deep understanding of mathematical concepts, and has a positive effect on the development of patriotic feelings in students. Consequently, the creative integration of national ideas into teaching is an important approach in line with general educational goals. As a result of this approach, not only are mathematical knowledge and skills formed in students, but also national and moral values. Thus, the learning process becomes a process that not only transfers knowledge but also forms personality.
Keywords: Mathematics, Bakhtiyar Vahabzadeh, patriotism, integration, equation of a straight line

Xülasə
Ümumtəhsil məktəblərində riyaziyyat fənninin tədrisi zamanı mühüm pedaqoji məqsədlərdən biri elmi biliklərin öyrədilməsi ilə yanaşı, həm də şagirdlərdə vətənə bağlılıq, milli kimlik kimi mənəvi dəyərlərin formalaşdırılmasıdır. Bu baxımdan, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Bəxtiyar Vahabzadənin vətənpərvərlik ruhunda yazılmış şeirləri riyaziyyat dərslərində istifadə edilməklə həm təlim prosesinə maraq yaratmaq, həm də mənəvi tərbiyəni formalaşdırmaq kimi mühüm əhəmiyyət daşıyır.
Tədqiqatın məqsədi Bəxtiyar Vahabzadənin şeirlərində ifadə olunan vətənpərvərlik və milli kimlik ideyalarının ümumtəhsil məktəblərində riyaziyyatın tədrisinə inteqrasiya imkanlarını araşdırmaqdır. Tədqiqatda əsas diqqət 8-ci sinifdə “İki nöqtədən keçən düz xəttin tənliyi” mövzusunun tədrisinə yönəldilmişdir. Əvvəlcə mətnanaliz metodu ilə Bəxtiyar Vahabzadənin şeirləri təhlil olunmuş, onların riyaziyyat dərslərinə uyğun istifadəsi yolları araşdırılmışdır. Dərsdə motivasiya yaratmaq məqsədilə şairin “Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir!” misrası səsləndirilmiş, şagirdlərə “Bəs biz Vətənimizi riyazi dillə necə ifadə edə bilərik?” sualı ünvanlanmışdır. Tapşırıqların mətnində Şuşa,

Xankəndi, Xocalı, Bakı şəhərlərinin adları əks edilmiş və mövzu həm riyazi, həm də vətənpərvərlik və millilik baxımından izah olunmuşdur.
Aparılan tədris müşahidəsi göstərmişdir ki, belə inteqrasiya dərsə marağı artırır, riyazi anlayışların dərindən dərk edilməsinə imkan yaradır və şagirdlərdə vətənpərvərlik duyğularının inkişafına müsbət təsir göstərir. Nəticə etibarilə, milli ideyaların tədrisə yaradıcı şəkildə inteqrasiyası ümumi təhsil məqsədlərinə uyğun mühüm bir yanaşmadır. Bu yanaşma nəticəsində şagirdlərdə yalnız riyazi bilik və bacarıqlar deyil, eyni zamanda milli-mənəvi dəyərlər də formalaşır. Beləliklə, təlim prosesi sadəcə bilik ötürən deyil, eyni zamanda **şəxsiyyət formalaşdıran bir prosesə çevrilir.**
Açar sözlər: Riyaziyyat, Bəxtiyar Vahabzadə, vətənpərvərlik, inteqrasiya, düz xəttin tənliyi

Giriş

Müasir təhsil sistemində yalnız fənn biliklərinin deyil, eyni zamanda milli-mənəvi dəyərlərin, vətənpərvərlik və vətəndaşlıq dəyərlərinin şagirdlərdə formalaşdırılması əsas prioritetlərdən biridir. XXI əsrin çağırışları fonunda Azərbaycan məktəblərində tədrisin təkcə bilikvermə funksiyası daşımaması, həm də şəxsiyyətin tərbiyəsinə yönəlməsi vacib amillərdən sayılır. Bu baxımdan istər təbiət elmləri, istərsə də humanitar fənlərdə milli ruhun, vətən sevgisinin təbliği mühüm pedaqoji məsələlərdəndir.
Ədəbiyyat sahəsində bu dəyərlərin daşıyıcısı və təbliğatçısı kimi tanınan ictimai xadim və Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Bəxtiyar Vahabzadə Azərbaycan poeziyasında milli ideyaların, vətənpərvərlik və mənəvi bütövlüyün simvoluna çevrilmişdir. Onun "Ana dili", "Gülüstan", "Vətənə", "Azərbaycan" kimi əsərləri vətən sevgisi, azadlıq ideyası, milli kimlik və tarixi yaddaşın qorunması mövzularını şagirdlərə aşılamaq baxımından pedaqoji cəhətdən yüksək potensiala malikdir.
Mövcud elmi-pedaqoji ədəbiyyatda Bəxtiyar Vahabzadənin yaradıcılığı əsasən ədəbi və fəlsəfi aspektlərdən təhlil olunmuşdur. Onun pedaqoji görüşləri də tədqiqat obyektinə çevrilmişdir. Məsələn, 2022-ci ildə *Kaspi.az* portalında təqdim olunmuş "Bəxtiyar Vahabzadənin pedaqoji görüşlərinə həsr olunmuş monoqrafiya"da şairin təlimin əyanilik prinsipinə verdiyi önəm, milli ruhda gənc nəslin tərbiyəsinə dair fikirləri vurğulanmışdır (Kaspi.az, 2022).
Lakin onun poeziyasının riyaziyyatın tədrisinə inteqrasiyası ilə bağlı tədqiqatlar olduqca məhduddur. Bu istiqamətdə ilk nümunələrdən biri 2023-cü ildə müəllifi olduğum "Riyaziyyat dərslərində şagirdlərə vətənpərvərlik hisslərinin aşılanmasında Bəxtiyar Vahabzadə poeziyasından istifadə" adlı məqalədir. Həmin məqalədə riyaziyyat dərslərinin təkcə məntiqi düşüncə və analitik bacarıqların formalaşdırılmasında deyil, həm də milli-mənəvi dəyərlərin aşılanmasında mühüm vasitə ola biləcəyi elmi-pedaqoji müstəvidə əsaslandırılmışdır. Xüsusilə, riyazi məsələlərin həyatla əlaqəli şəkildə təqdimatı zamanı şagirdlərə milli poeziya nümunələrinin təqdim edilməsi onların vətənə bağlılıq, milli qürur və mədəniyyətə hörmət duyğularını artırır.
Eyni zamanda, 2015-ci ildə Şəki şəhərində keçirilmiş elmi-praktik konfransın materiallarında da Bəxtiyar Vahabzadə yaradıcılığı və onun tərbiyəvi təsiri məsələləri müzakirə olunmuşdur (shrem.az, 2015). Lakin bu tədbir də riyaziyyatla əlaqə qurulmamışdır. Bu da göstərir ki, Vahabzadə poeziyasının qeyri-humanitar fənlərlə, xüsusilə riyaziyyatla əlaqəli inteqrativ təhlili yeni və aktual tədqiqat istiqamətidir.
Beləliklə, təqdim olunan məqalədə Bəxtiyar Vahabzadənin poeziyasının riyaziyyat fənni ilə vəhdət təşkil etmə potensialı, onun milli və vətənpərvərlik ruhunun riyazi təlim mühitində necə tətbiq edilə biləcəyi elmi-pedaqoji yanaşmalar əsasında təhlil olunur. Məqalə, bu istiqamətdə yeni nəzəri və praktik yanaşmalar irəli sürməklə həm fənlərarası inteqrasiyanın imkanlarını göstərir, həm də milli kimliyin möhkəmləndirilməsi prosesində riyaziyyat fənninin rolu barədə yeni baxış formalaşdırır.

Bəxtiyar Vahabzadənin Yaradıcılığında Vətənpərvərlik Və Millilik İdeyaları

Bəxtiyar Vahabzadə XX əsr Azərbaycan poeziyasında vətənpərvərlik və milli kimlik mövzularını ən dərindən və təsirli şəkildə ifadə edən aparıcı ədəbi simalardandır. Onun "Vətən", "Ana dili",

"Gülüstan" kimi əsərləri milli-mənəvi dəyərlərin, ana dilinin qorunmasının və tarixi yaddaşın yaşadılmasının simvoluna çevrilmişdir. Şairin bu əsərləri yalnız vətənpərvər duyğuların təcəssümü ilə məhdudlaşmır, eyni zamanda milli kimliyin qorunması, ictimai şüurun formalaşdırılması və tarixi yaddaşın dirçəldilməsi baxımından dərin məna və bədii dəyər ifadə edir.
"Vətən" şeirində müəllif vətənin yalnız coğrafi bir məkan deyil, həm də tarixi yaddaş, milli kimlik və mənəvi borc olduğunu vurğulayır. Burada vətənin torpağından çox, onun tarixi keçmişi, dili, adət-ənənəsi və xalqın mənəvi birliyi ön plana çıxarılır (Vahabzadə, 1983).
"Ana dili" şeirində şair dilin sadəcə ünsiyyət vasitəsi olmadığını, onun xalqın mədəniyyəti, dünyagörüşü və milli şüuru ilə birbaşa bağlı olduğunu ifadə edir. Bu əsərdə dilə qarşı olan laqeydlik təkcə fərdi yox, ictimai faciə kimi qiymətləndirilir. Bəxtiyar Vahabzadənin fikrincə, dilinə sahib çıxmayan xalq, öz varlığını da itirməyə məhkumdur (Vahabzadə, 2003).
Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasında Azərbaycan xalqının tarixi taleyi, xüsusilə XIX əsrin əvvəllərində baş vermiş parçalanma faciəsi dərin ictimai və emosional çalarlarla təsvir olunur. Şair burada 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri nəticəsində Azərbaycanın iki yerə bölünməsi, Araz çayının hər iki sahilində yaşayan eyni xalqın ayrı-ayrı imperiyaların tərkibinə düşməsi gerçəyini poetik dillə ifadə edir. Bu əsər milli yaddaşın dirçəldilməsi, vətənpərvərlik duyğularının gücləndirilməsi və azərbaycançılıq ideyasının aşılanması baxımından mühüm ədəbi nümunə hesab olunur. "Gülüstan" poeması tarix qarşısında xalqın üzləşdiyi haqsızlıqlara qarşı milli mövqe nümayiş etdirən güclü bədii manifestdir.
Bəxtiyar Vahabzadənin əsərlərinin ümumtəhsil məktəblərində şagirdlərə düzgün və məqsədyönlü şəkildə təqdim edilməsi onların mənəvi inkişafı və milli şüurun formalaşmasında mühüm rol oynayır. Bu əsərlər vasitəsilə şagirdlər təkcə sənət və ədəbiyyatın dəyərini anlamağa başlamır, həm də dilə, vətənə, tarixə və milli-mədəni dəyərlərə dair anlayışları daha dərindən mənimsəyirlər. Bu baxımdan, Bəxtiyar Vahabzadənin yaradıcılığı ümumtəhsil məktəblərində təlim prosesinə vətənpərvərlik tərbiyəsinin məzmunu ilə inteqrasiya edilə biləcək zəngin ideya və metodik potensiala malikdir.

Riyaziyyat Dərslərində Milli Ruhun Tərbiyəsi

Müasir təhsil sistemində şagirdlərə yalnız elmi biliklərin deyil, eyni zamanda milli-mənəvi dəyərlərin öyrədilməsi əsas məqsədlərdən biridir. Bu baxımdan, riyaziyyat dərsləri təkcə məntiqi düşüncənin formalaşdırılması ilə məhdudlaşmamalı, həm də şagirdlərin vətənə, millətə bağlılıq hisslərinin inkişafına xidmət etməlidir. Riyaziyyat fənninin tədrisi zamanı milli ruhun aşılanması düzgün yanaşma ilə mümkün və təsirli bir prosesə çevrilə bilər.
Məsələn, rasional ədədlər üzərində aparılan hesablamalarla bağlı tapşırıqlarda Azərbaycanın coğrafi bölgələrinə, tarixi şəxsiyyətlərinə və mədəni irsinə dair məlumatların inteqrasiyası şagirdlərin həm riyazi düşüncə tərzinin, həm də vətən sevgisinin inkişafını gücləndirə bilər. Belə yanaşmalar, şagirdlərin dərsə marağını artırmaqla yanaşı, onların milli kimliklərinin formalaşmasına da imkan yaradır.
Eyni zamanda, ədəbi nümunələrdən, xüsusilə də şairlərimizin yaradıcılığından istifadə dərsin emosional təsirini artırmaqla yanaşı, şagirdlərdə milli kimlik duyğusunu möhkəmləndirir. Bu baxımdan, Bəxtiyar Vahabzadənin poeziyasında yer alan milli və vətənpərvərlik ruhu təlim prosesində istifadə oluna biləcək qiymətli mənbədir. Məsələn, "Vətən" şeirindən (Vahabzadə, 2008) aşağıdakı misralar:

Çağırır indi bütün milləti imdada Vətən,
Dəyişilməz, ay oğul, cənnətə dünyada Vətən!...

Bu tip bədii nümunələrin təlim prosesinə inteqrasiyası şagirdlərə riyazi nəzəri biliklərin ötürülməsi ilə yanaşı, milli ideyaların da mənimsədilməsinə şərait yaradır. Burada məqsəd təkcə emosional motivasiya deyil, eyni zamanda şəxsiyyətin vətəndaşlıq mövqeyinin və milli kimliyinin formalaşmasına dəstək olmaqdır.
Məsələn, 8-ci sinifdə "İki nöqtədən keçən düz xəttin tənliyi" mövzusunun tədrisi zamanı müəllim dərsin planlaşdırılmasında yalnız riyazi bilik və bacarıqların formalaşdırılması ilə kifayətlənməməli,

eyni zamanda bu mövzunun tərbiyəvi imkanlarını da nəzərə almalıdır. Belə ki, dərsin məzmununa Bəxtiyar Vahabzadənin yaradıcılığında əks olunan milli ruh, vətən sevgisi və azadlıq ideyaları kontekstual şəkildə inteqrasiya edilə bilər. Dərsin motivasiya, problemin qoyulması mərhələsində şagirdlərin emosional-mənəvi motivasiyasını gücləndirmək məqsədilə V.Bahabzadənin şeirlərindən bir misranı, məsələn, ***"Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir!"***- səsləndirməklə şagirdlərdə dərsə maraq yaratmaq mümkündür. Şagirdlərin diqqətini mövzuya cəlb etmək üçün müəllim sinfə aşağıdakı sualla müraciət edə bilər: Gəlin bir anlıq düşünək: əgər Vətəni riyazi dillə ifadə etməyə çalışsaq, bu necə mümkün olardı? Məsələn, **Şuşa** və **Xocalı** kimi tarixi və mənəvi baxımdan dəyərli şəhərlər arasında hansı riyazi əlaqə qura bilərik?

Bu sual şagirdlərdə tədqiqat yönümlü düşünmə bacarığını inkişaf etdirməklə yanaşı, həm də onların mövzuya marağını artırır. Müəllim sonra problemi təqdim edir: İndi gəlin bu iki mühüm nöqtəni – Şuşa (3; 5) və Xocalı (7; 9) nöqtələrini birləşdirən düz xəttin tənliyini yazaq. Bu yolla həm riyazi bir anlayışı öyrənəcəyik, həm də coğrafi və milli yaddaşımıza bağlı şəhərlər arasında mənəvi bir xətt qurmuş olacağıq.

Beləliklə, B.Vahabzadə şeirlərinə inteqrasiya olunmuş dərs formalaşır və yeni mövzu təqdim edilir: Bu günkü dərsimiz "İki nöqtədən keçən düz xəttin tənliyi" mövzusuna həsr olunacaq.

Belə inteqrasiya şagirdlərdə təkcə iki nöqtədən keçən düz xəttin tənliyini qurmaq bacarığını inkişaf etdirmir, həm də onların milli-mənəvi dəyərlərə bağlılığını, vətənə sevgi və qürur hisslərini gücləndirir. Tapşırıqlarda Azərbaycanın müxtəlif bölgələrinin, xüsusilə Şuşa, Xankəndi, Xocalı kimi tarixi və mədəni əhəmiyyətli məkanların koordinatlarından istifadə edilə bilər. Həmçinin, Bəxtiyar Vahabzadənin vətənpərvərlik ruhunda yazılmış şeirlərindən seçilmiş misralar, məsələn, ***"Çağırır indi bütün milləti imdada Vətən..."*** - dərsdə motivasiya və tərbiyəvi məqsədlər üçün tətbiq oluna bilər.

Beləliklə, bu yanaşma şagirdlərdə həm riyazi təfəkkür, həm də vətəndaşlıq mövqeyi formalaşdırmaq baxımından məqsədəuyğun və effektiv hesab oluna bilər. İki $A(x_1, y_1)$ və $B(x_2, y_2)$ nöqtələri verildikdə, bu iki nöqtədən keçən düz xəttin tənliyi aşağıdakı düsturla ifadə olunur:

$$\frac{y-y_1}{x-x_1}=\frac{y_2-y_1}{x_2-x_1}$$

Bu düsturdan istifadə etməklə şagirdlər həm riyazi biliklərini tətbiq edir, həm də milli kontekstdə verilmiş nümunələrlə vətənpərvərlik hisslərini dərk edirlər.


Tapşırıq 1: Şuşa (3; 5) və Xocalı (7; 9) nöqtələrindən keçən düz xəttin tənliyini yazın və qrafikini qurun.

Həlli: $x_1=3,\ y_1=5$ və $x_2=7,\ y_2=9$

$$\frac{y-5}{x-3}=\frac{9-5}{7-3} \Rightarrow y-5=\frac{4}{4}(x-3) \Rightarrow y-5=x-3 \Rightarrow y=x+2$$

Şuşa (3; 5) və Xocalı (7; 9) nöqtələrindən keçən düz xəttin tənliyi $y=x+2$ -dir. **Şuşa (3; 5) və Xocalı (7; 9) nöqtələrindən keçən düz xəttin qrafiki Graph 4.4 proqramından istifadə edilməklə qurulmuşdur (Şəkil 1). Bu qrafik, həm riyazi biliklərin tətbiqini, həm də coğrafi adlar vasitəsilə**

milli-mənəvi dəyərlərin təlim prosesinə inteqrasiyasını təmin edir.



Şəkil 1. *Ş(3; 5) və X(7; 9) nöqtələrindən keçən düz xəttin qrafiki*

İki nöqtədən keçən düz xəttin tənliyi riyazi baxımdan verilmiş koordinatları birləşdirən funksional əlaqəni ifadə etsə də, mövzunun mənəvi və tarixi kontekstdə izahı zamanı həmin nöqtələrin – **Şuşa və Xocalı şəhərlərinin koordinatları** milli-mənəvi dəyər daşıyan məkanlar kimi seçilməsi dərsin tərbiyəvi əhəmiyyətini artırır. Belə olan halda, qurulan düz xətt yalnız riyazi elementlər arasındakı əlaqəni deyil, **Azərbaycan xalqının milli yaddaşında iz qoymuş coğrafi və tarixi məkanlar arasındakı mənəvi bağlılığı da simvolizə edir.**

Şuşa (3; 5) və Xocalı (7; 9) nöqtələrindən keçən düz xəttin tənliyi üzərində işləyərkən şagirdlər təkcə riyazi biliklərini tətbiq etmir, eyni zamanda Azərbaycanın işğaldan azad edilmiş şəhərləri haqqında məlumat əldə edirlər. Bu riyazi model həm coğrafi məkanları, həm də tarixi-mənəvi yaddaşı birləşdirən bir vasitəyə çevrilir. Görkəmli şairimiz Bəxtiyar Vahabzadənin

“Ey Vətən oğlu, düşün, bil ki, sənindir bu Vətən,
Sabahın, həm bu günün, həm dünənindir bu Vətən.
Sənin öz dövlətin, öz millətin, öz cəddin var,
Vətən uğrunda ölənlər ölümündən doğular” –


misralarının (Vahabzadə, 1992) dərsdə səsləndirilməsi təlimin tərbiyəvi məqsədini gücləndirir və şagirdlərdə vətən sevgisinin formalaşmasına imkan yaradır.

Tapşırıq 2: Xankəndi (2; 4) və Bakı (6; 10) nöqtələrindən keçən düz xəttin tənliyini yazın və qrafikini qurun.

Həlli: $x_1 = 2,\ y_1 = 4$ və $x_2 = 6,\ y_2 = 10$

$$\frac{y-4}{x-2} = \frac{10-4}{6-2} \Rightarrow y-4 = \frac{3}{2}(x-2) \Rightarrow y-4 = \frac{3}{2}x-3 \Rightarrow y = \frac{3}{2}x+1$$

Xankəndi (2; 4) və Bakı (6; 10) nöqtələrindən keçən düz xəttin tənliyi $y = \frac{3}{2}x+1$ kimi olacaq.



Şəkil 2. *X(2; 4) və B(6; 10) nöqtələrindən keçən düz xəttin qrafiki*

Şəkil 2 -də (2; 4) və (6;10) nöqtələrindən keçən düz xəttin qrafiki təsvir olunmuşdur. Qrafikdə hər iki nöqtə koordinat müstəvisində işarələnmiş və bu nöqtələri birləşdirən düz xətt parçası çəkilmişdir.
Xankəndi (2; 4) və Bakı (6; 10) nöqtələrindən keçən düz xəttin tənliyi riyazi cəhətdən iki nöqtəni birləşdirən xətti ifadə etsə də, bu tapşırıq yalnız riyazi biliklərin tətbiqi ilə məhdudlaşmır. Bu tapşırıq vasitəsilə şagirdlər Azərbaycanın coğrafi vahidləri barədə düşünür, Xankəndi və Bakı kimi şəhərlərin tarixi və ictimai əhəmiyyətini xatırlayırlar. Bu zaman Bəxtiyar Vahabzadənin

Ey Azərbaycanımız, türkün oğuzlar Vətəni,
Ər oğullar, ər igidlər, kişi – qızlar Vətəni,
Sənin haqqındır azadlıq, sənin eşqindir iman,
Tapmar haqqa və insanlığa haqqdan doğulan.
Bəşərin dərdini öz dərdi bilib millətimiz.
Bizim öz niyyətimizdən doğub hürriyyətimiz.

misralarının (Vahabzadə, 1992) **təlim prosesinə daxil edilməsi mövzunun tərbiyəvi əhəmiyyətini artırır. Beləliklə, şagirdlərə təkcə düz xəttin tənliyini qurmaq bacarığı formalaşdırılmır, eyni zamanda milli kimlik və vətənpərvərlik duyğuları da aşılanır.**
Belə inteqrasiya sayəsində şagirdlər iki nöqtədən keçən düz xəttin tənliyini yazmaq və qrafikini qurmaq bacarığı ilə yanaşı, eyni zamanda Şuşa və Xocalı, Xankəndi və Bakı kimi şəhərlərin Azərbaycan tarixindəki və milli şüurundakı rolunu da dərk edirlər. Bu isə təlimin idraki və tərbiyəvi məqsədlərinin inteqrasiyasına, yəni fənlərarası və dəyərlərarası inteqrasiyanın effektiv tətbiqinə xidmət edir. Dərs həm riyazi məzmun standartlarını, həm də şagirdlərin vətənpərvərlik və milli kimlik kimi sosial-mənəvi kompetensiyalarını inkişaf etdirmək baxımından məqsədyönlü şəkildə təşkil edilir.

Nəticə

- Bəxtiyar Vahabzadənin poeziyasında yer alan vətən sevgisi və milli kimlik kimi mövzuların riyaziyyat dərslərində tətbiq edilməsi şagirdlərdə həm dərsə maraq oyadır, həm də mövzulara emosional və mənəvi yanaşmanı gücləndirir.
- Belə inteqrativ yanaşma şagirdlərin riyazi bilikləri daha dərindən mənimsəməsinə və eyni zamanda vətənpərvərlik hisslərinin inkişafına müsbət təsir göstərir.

- Riyaziyyat və ədəbiyyat fənləri arasında qurulan məntiqi əlaqə şagirdlərin tənqidi və yaradıcı düşünmə bacarıqlarını təşviq edir, fənlərarası əlaqənin gücləndirilməsinə şərait yaradır.
- Bu yanaşma nəticəsində şagirdlər yalnız riyazi bilik və bacarıqlara deyil, eyni zamanda milli-mənəvi dəyərlərə yiyələnirlər. Beləliklə, təlim prosesi sadəcə bilik ötürən deyil, **şəxsiyyət formalaşdıran bir prosesə çevrilir.**

Beləliklə, B.Vahabzadənin vətənpərvərlik və millilik ideyaları yalnız ədəbiyyat dərsləri üçün deyil, təhsil sisteminin bütün sahələri üçün mühüm resurs ola bilər. Riyaziyyat dərslərində bu irsdən bəhrələnmək şagirdlərin həm intellektual, həm də mənəvi inkişafına xidmət edir. Riyaziyyat dərslərimizin B.Vahabzadə poeziyası ilə inteqrasiya edilməsi milli dəyərlərə bağlı, intellektual və sosial baxımdan yetkin vətəndaşlarının yetişdirilməsi üçün əhəmiyyətli bir addımdır.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2013). *Ümumi təhsil müəssisələri üçün Riyaziyyat fənni üzrə təhsil proqramı (kurikulumu)* (I-XI siniflər) Bakı.
2. Abdullayeva, M. (2023). *Riyaziyyat dərslərində şagirdlərə vətənpərvərlik hisslərinin aşılanmasında Bəxtiyar Vahabzadə poeziyasından istifadə.* 5. Beynəlxalq Bəxtiyar Vahabzadə Türk Dünyası Tarix, Mədəniyyət və Ədəbiyyat Konqresi materialları, Şəki, Azərbaycan. https://www.scienceazerbaijan.org
3. Vahabzadə, B. (2004). *Seçilmiş əsərləri.* İki cilddə, I cild (Poemalar). Bakı, «Öndər nəşriyyat». 328 s.
4. Vahabzadə, B. (2004). *Seçilmiş əsərləri.* İki cilddə, II cild (Poemalar). Bakı, «Öndər nəşriyyat». 320 s.
5. Vahabzadə B. (2008). *Əsərləri.* On iki cilddə, VI cild (1990-1999). Bakı, «Elm».738 s.
6. Beynəlxalq Bəxtiyar Vahabzadə Türk Dünyası Tarix, Mədəniyyət və Ədəbiyyat Konqresi. (2023, 16–17 avqust). Şəki/Azərbaycan. // Konfrans materialları. Ankara: İKSAD Publishing House. https://iksadkongre.org/
7. Bəşirov, K. (2015). Bəxtiyar Vahabzadənin pedaqoji görüşlərinə həsr olunmuş monoqrafiya. https://www.kaspi.az/az/bextiyar-vahabzadenin-pedaqoji-gruslerine-hesr-olunmus-monoqrafiya
8. İKSAD və Bakı Avrasiya Universiteti. (2024, 15–17 Avqust). *VI Beynəlxalq Bəxtiyar Vahabzadə: Türk Dünyası Tarix, Mədəniyyət və Ədəbiyyat Konfransı materialları*. Lerik, Azərbaycan. https://baau.edu.az
9. Vahabzadə B. (1992). Vətən marşı. https://melumatlar.az/blog/16095/veten-marsi-bextiyar-vahabzade

THE SILENT THREAT IN EDUCATION: A PEDAGOGICAL ANALYSIS OF BULLYING AND STRATEGIC APPROACHES FOR ITS RESOLUTION

TƏHSİLDƏ SƏSSİZ TƏHLÜKƏ: BULLİNQİN PEDAQOJİ PERSPEKTİVDƏN ANALİZİ VƏ HƏLLİ ÜÇÜN PEDAQOJİ YANAŞMALAR

Günay Hümbət qızı Məmmədzadə
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət
Universitetinin baş müəllimi
Azərbaycan Respublikası Təhsil İnstitutunun doktorantı

Abstract
One of the pressing challenges facing contemporary general education institutions is the prevalence of bullying. Although this socio-pedagogical issue has existed in various forms since the inception of the educational process, its academic investigation significantly expanded during the second half of the 20th century, particularly with the development of learner-centered pedagogy. As modern pedagogical approaches emphasize the holistic development of students, recognizing them as individuals with rights and moral needs, bullying is now viewed as a serious threat to both the quality and sustainability of education.
This thesis explores the causes of bullying, the key actors involved (the bully, the victim, and the bystander), and its various forms—including physical, verbal, social, sexual, cyber, and psychological bullying—based on the research of international scholars in the field. The study analyzes the detrimental effects of bullying on the school environment, underlining that its impact extends beyond the immediate victims to the entire educational community. It disrupts effective learning, compromises the safety of the school climate, and undermines teacher-student and peer relationships.
In response to these challenges, the thesis proposes a range of pedagogical strategies for bullying prevention and intervention. These include awareness-raising initiatives, proactive pedagogical practices, intervention programs, psychological support mechanisms, and the cultivation of a positive and inclusive school climate. The implementation of such approaches aims not only to curb bullying incidents but also to foster a healthy educational environment and constructive social relationships among students and staff.
Keywords: Bullying, prevention, teaching and upbringing, pedagogical strategies, solutions

Xülasə
Müasir ümumtəhsil məktəblərinin mübarizə apardığı problemlərdən biri də bullinq hallarıdır. Əslində bu sosial-pedaqoji problem, təlim-tərbiyə prosesinin başlandığı ilk dövrlərdən bəri müxtəlif formalarda mövcud olsa da onun tədqiqi XX əsrin ikinci yarısından etibarən daha geniş vüsət almışdır. Şəxsiyyətyönümlü pedaqogikanın inkişafı ilə bu hal daha geniş nəzərdən keçirilməyə başlanılmışdır. Müasir pedaqoji yanaşmalar şagirdin şəxsiyyət kimi formalaşmasını, onun hüquq və mənəvi ehtiyaclarının qorunmasını prioritet kimi qəbul etdiyindən, bullinq halları bu çərçivədə təhsilin keyfiyyətinə və davamlılığına təhlükə kimi qiymətləndirilir. Tezisdə bullinqin meydana gəlmə səbəbləri, iştirakçıları (buller, qurban və şahid) onun növləri (fiziki bullinq, sözlü bullinq, sosial bullinq, cinsi bullinq, kiberbullinq, psixoloji bullinq) və məktəb mühitində yaratdığı mənfi nəticələr dünyanın bir sıra tədqiqatçı alimlərinin bullinqlə bağlı tədqiqatları əsasında analiz edilmiş, bu problemin qarşısının alınması və mübarizə üçün mövcud pedaqoji və psixoloji yanaşmalar təhlil olunmuşdur. Burada, eyni zamanda bullinqin yalnız qurbanlara deyil, ümumən təhsil mühitinə vurduğu zərərə də diqqət yetirilmiş, bullinqin təlimin səmərəliliyini azaltdığı, məktəb mühitinin

təhlükəsizliyini sual altında qoyduğu, müəllim-şagird, şagird-şagird münasibətlərinə zərbə vurduğu vurğulanmışdır. Bullinqlə mübarizə üçün maarifləndirici fəaliyyətlər, proaktiv yanaşmalar, intervensiya proqramları, psixoloji dəstək tədbirlər və məktəbdaxili müsbət psixoloji iqlimin formalaşdırılması kimi bir sıra strateji pedaqoji tədbirlər təklif olunmuşdur. Bu cür yanaşmaların tətbiqi məktəblərdə bullinqin qarşısını almaq və həm də burada sağlam mühit və sosial münasibətləri formalaşdırmaq məqsədi güdür.
Açar sözlər: Bullinq, mübarizə, təlim-tərbiyə, pedaqoji strategiyalar, həll yolları

GİRİŞ

Müasir dövrdə təhsil sisteminin əsas vəzifələri sırasında yalnız şagirdlərə bilik vermək deyil, həmçinin də onların şəxsiyyət kimi formalaşması məsələsi durur. Lakin ümumtəhsil məktblərində baş verən bullinq halları təhsil, təlim və tərbiyə prosesinə öz mənfi təsirlərini göstərir. Bu problem şagirdlərin psixososial rifahına və təhsilin keyfiyyətinə mənfi təsir göstərir. Bullinq halları yalnız ona məruz qalan qurbanın deyil, həmçinin zorakılıq edən şagirdin (bullerin) və şahidin də psixoloji, akademik və sosial inkişafına mənfi təsir göstərir. Bullinqə məruz qalan şagird özünə olan inamını itirir, insanlara olan etibarı zəifləyir, sosiallaşmaqdan çəkinir, dərsləri zəifləyir, problemlərini həll edə bilmədikdə isə məktəbdən yayınır. Problemin müəllim və valideynlər tərəfindən təyin edilə bilməməsi və ya görülməməsi isə daha ciddi nəticələrə gətirib çıxarır. Ətrafından dəstək görməyən, hisslərini heç kimlə bölüşə bilməyən və problemini həll edə bilməyən şagird çıxış yolunu intiharda görür.

Bullinqin məktəblərdə baş verməsi ciddi narahatlıq doğuran haldır. Bu mənfi hal birbaşa məktəb mühitinə təsir göstərir. Bullinq hallarının qarşısının alınması, onun sosial-psixoloji səbəblərinin araşdırılması, məktəb mühitində sağlam ünsiyyətin təşviq edilməsi pedaqoji fəaliyyətin vacib komponentlərindəndir. Bullinqin məktəb mühitində öyrənilməsi təkcə sosial və psixoloji yanaşmalar deyil, həmçinin pedaqoji yanaşmalar da tələb edir.

Tezisin məqsədi təhsil mühitində bullinq hallarını araşdırmaq və bu problemə qarşı mübarizədə effektiv pedaqoji yanaşmalar və müdafiə mexanizmləri hazırlamaqdır.

ARAŞDIRMA

İngilis sözü olan bullinq qorxutmaq, təcavüz etmək, təhqir etmək mənalarını verir. Bullinq hallarının ilkin tədqiqatçısı olan Dan Olveusa görə bullinq bir və ya daha artıq şagirdin, daha zəif şagirdə zərər vurmaq, incitmək, təhqir etmək məqsədi ilə tətbiq etdikləri zorakılıq formasıdır. [4, s. 9-11]

V.Kreiq və D.Peplerə görə isə bullinq qurbanda mənəvi-psixoloji yaralar açan, davamlı psixoloji, fiziki, şifahi zorakılıqla təkrarlanan və məqsədi pis olan bir davranışdır. [1, s. 577-582]

Apardığım tədqiqatlara əsasən deyə bilərəm ki, bullinq zorakılıq əsaslı olub, özünü psixi və fiziki cəhətdən müdafiə edə bilməyən və ya etməkdə çətinlik çəkən şəxsə eyni və ya müxtəlif yaş qrupundan olan bir və ya bir neçə şəxs tərəfindən yönəldilmiş, təkrar edilən, qəsdən törədilən, özündə fiziki, psixoloji, sosioloji və sözlü təzyiqi ehtiva edən mənfi davranış forması olub, özündə ailədaxili münaqişələrdən gələn aqressiya ilə yanaşı, qısqanclıq, qıcıqlanma, paxıllıq, lider olmaq istəyi, özünü güclü hiss etmək istəyi, məşhurlaşmaq niyyəti, sadəcə kimisə incitməkdən həzz almaq hissi və s. kimi səbəbləri ehtiva edən mənfi davranış formasıdır. [12, s. 56-68]

Bullinq ümumtəhsil məktəblərindəki təlim-tərbiyə prosesinə öz mənfi təsirlərini göstərir. Hər il məktəblərdə bullinqə məruz qalan şagirdlərin sayı artmaqdadır. 2024-cü ildə Dünya Səhiyyə Təşkilatının Avropa ümumtəhsil məktəblərindən verdiyi statistik məlumatlara əsasən, hər altı uşaqdan biri bullinqin növlərindən biri olan kiberbullinqə məruz qalır. [9.]

UNESCO-nun bullinqlə bağlı 144 ölkədən toplanan qlobal hesabatına əsasən dünyanın hər yerindəki məktəblərdə bullinq geniş yayılmışdır. Bu zorakılıq, uşaqların təhsilinə mənfi təsir edir və onların fiziki və psixoloji sağlamlığına ciddi ziyan vurur. [8.]

Bullinq şagirdlərin emosional, fiziki və psixoloji hallarına təsir edərək, onların məktəbdə özlərini təhlükəsiz hiss etməməsinə səbəb olur. Bullinqin təlim-tərbiyə prosesinə vurduğu ilkin zərər onun şagirdlərin motivasiyasına mənfi təsir etmələri və bununla da birbaşa akademik göstəricilərinin aşağı

düşməsinə səbəb olmasıdır. Bullinq halları eyni zamanda şagirdlərin sosial bacarıqlarının inkişafına mənfi təsir göstərir və şagirdlər arasında etibarı və əməkdaşlığı zəiflədir. Nəticədə, təlim-tərbiyə prosesi effektivliyini itirərək şagirdlərin gələcək həyatlarına mənfi təsir etmiş olur. [3, s.18–21]
Bullinqlə mübarizə ilkin olaraq bullinqə məruz qalan şagirdin müəyyənləşdirilməsi ilə başlayır.

Bullinqə məruz qalan şagirdlərdə aşağıdakı hallara rast gəlinir:

- Psixoloji narahatlıq:
- Depressiya, təşviş pozuntusu;
- Özünəinamın itməsi;
- Sosial izolyasiya

Bu kimi psixoloji narahatlıqlar bullinqin bütün növlərinə məruz qalan şagirdlərdə müşahidə olunur.

- **Akademik performansın pisləşməsi:** Bullinqə məruz qalan qurbanların keçirdikləri, stress, depressiya və s. kimi mənfi halların nəticəsi olaraq akademik göstəricilərinin də aşağı düşdüyü müəyyən edilmişdir. Bullinqlə mübarizə apara bilməyən şagirdlərdə isə məktəbdən yayınma halları müşahidə olunur ki, bu ilkin olaraq şagirdin akademik göstəricilərinin aşağı düşməsinə səbəb olursa, əlavə olaraq onun qeyri-formal qruplaşmalara cəlb olunmasına da səbəb ola bilir. Dərslər arasındakı bağın qırılması təhsil prosesindən yaxşı nəticə almağa mane olur.
- **Fiziki zədələr:** Bullinqin növlərindən biri olan fiziki bullinqdə şagirdin fiziki sağlamlığı təhlükə altında olur, bu da şagirdin özünə hörmətinin, inamının azalmasına, məktəbdən yayınma istəyinin formalaşmasına və nəticə etibarilə akademik göstəricilərinin aşağı düşməsinə gətirib çıxarır. Bullinqin bu növündə qurban buller tərəfindən fiziki zorakılığa məruz qalır, döyülür, itələnir, badalaq verilir. Bu isə şagirddə fiziki zədələr əmələ gətirməklə yanaşı həmçinin ciddi psixoloji travmalar yaradır və eyni zamanda da sosiallaşma ehtiyacına zərbə vurur.

Bullinq yalnız qurbanlara təsir etmir. Bullinqin şahidləri də ciddi stress keçirir, bullerlərin qorxusundan qurbana kömək edə bilmədikdə özlərinə olan hörmətləri, etimadları azalır. [6.]
Bullinq hallarının iştirakçısı olan bullerlər məktəbdəki müsbət mühitin pozulmasına da səbəb olurlar. Bullerlər başqa şagirdlər arasında qorxu və narahatlıq mühiti yaradaraq, onların da daima stress içərisində qalmağına səbəb olurlar. Bu vəziyyət qrupda əməkdaşlıq mühitini pozmaqla yanaşı, məktəbin imicini də zədələyərək valideyn və şagirdlərin narahatlığına səbəb olur.
Bundan başqa bəzi şagirdlərin güc hərisi olub, bullerləri təqlid etmək istəməsi məktəbdə bullinq hallarının artmasına gətirib çıxarır.
Bullinq halları şagirdlərə mənfi təsir etdiyi kimi müəllimlərin də peşəsini icra etmələrində müəyyən problemlər yaradır. Müəllimlər bullinq hallarını idarə etmək üçün əlavə vaxt və enerji sərf etməli olurlar. Sinifdəki gərginliyi aradan qaldırmadan keçirilən dərslərin isə effektivliyi az olur. Və nəticədə dərs proqramlarının effektiv tətbiqində problem yaranır və eyni zamanda şagird-müəllim münasibətlərində də gərginlik müşahidə olunur. Nəticə etibarilə təlim-tərbiyə prosesindəki aktivlik pozulur və səmərəlilik azalır.

Bullinqin təlim-tərbiyə mühitinə təsirini azaltmaq və bu problemi həll etmək üçün müxtəlif pedaqoji yanaşmalar tətbiq edilə bilər:

Məlumatlandlrma və maarifləndirmə:

Bu mərhələ bullinqlə mübarizədə ilkin mərhələ olub, məktəbin idarəçi, pedaqoji, texniki heyyətinin və eləcə də təhsil alanların bullinq halları haqqında məlumatlandırılmasıdır. Məlumatlandırma mərhələsində yuxarıda qeyd olunan heyyətə bullinq haqqında ümumi məlumat verilərək, hansı halların bullinq sayılması, buller, qurban və şahidin hansı psxioxolji, sosioloji problemlər yaşayan şagirdlər arasından çıxma ehtimalı, bullinqin nəticələri, onunla mübarizə yolları kimi informasıyalarla silahlandırılaraq, problemin öhdəsindən gəlmək üçün pedaqoji həll yolları da öyrədilir.

Pedaqoji təsir:

Məktəbin pedaqoji heyətinin bacarıqları və davranışı bullinq hallarının qarşısının alınmasında müstəsna rol oynaya bilər. Pedaqoji heyətin şagirdlərə qarşı hörməti, anlayışı və həssaslığı onların aqressiyasını azaldar və müəllimlərə qarşı etibar hissi yaradar. Nəticədə qurbanlar bullinqə məruz qaldıqları ilk gündən problemin həllinə üçün pedaqoqlara müraciət edə bilər, bullerlər isə

müəllimllərin tənbehlərinə, məsləhətlərinə qarşı aqressiv yanaşmaz və müsbətə doğru dəyişiklik etməyə çalışarlar.

Şagirdlərə empatiya və fərqlilikləri qəbul etmə bacarıqlarının aşılanması da vacibdir. Belə olduqda şagirdlər də bir-birlərini anlayır. Nəticədə doğru ünsiyyət yaranır ki, bu da daha az problemlərə yol açır. [5, s.357–371]

Proaktiv tədbirlər:

Məktəblərdə bulliqlə mübarizə aparmaq üçün proaktiv tədbirlərin önəmi böyükdür. Məsələn, məktəb daxilində sosial fəaliyyətlər təşkil edilə, bullinqə qarşı xüsusi dəstək mexanizmləri qurula bilər. [2, s.71-78].

Rol modelləri:

Bu mexanizm məktəblərdə bullinqlə mübarizə aparmaq üçün olduqca vacib mexanizmlərdəndir. Bu mexanizm vasitəsilə məktəblərdə bullinqə qarşı sosial davranışları gücləndirməklə yanaşı, müsbət nümunələri yaymaq və sağlam münasibət formalaşdırmaq mümkündür.

Rol modelləri mexanizminin əsas məqsədi şagirdlərin düşüncəsində düzgün rol modeli formalaşdıraraq onlara müsbət davranış nümunələri göstərmək, onlara ədalət, liderlik kimi hissləri aşılamaq və gücləndirmək, buller davranışının rol model ola bilməyəcəyini başa salmaq və alternativ sosial statusların mövcud olduğunu göstərməkdir.

Rol modelləri müxtəlif ola bilər:

1. Sosial məsuliyyət daşıya bilən məşhur şəxslər (alim, publisist, hərbiçi və başqa uğurlu şəxslər)
2. Məktəbdə tərbiyəsi və liderlik qabiliyyəti ilə seçilən və eyni zamanda akademik göstəriciləri yüksək olan şagirdlər;
3. Etibarlı, qayğıkeş müəllimlər.
4. Bu mexanizmlər nəticəsində şagirdlər anlayacaqlar ki, bullinq etmədən də şagirdlər arasında hörmət, güc və status qazanmaq mümkündür. Burada eyni zamanda qurbanla empatiya quran və dəstəkləyən modellərin sayəsində onun sosial statusu möhkəmlənir və qurbanın özünə inamı bərpa olunur. Nəticədə məktəbdə müsbət dəyişikliklər baş verərək bullinq hallarının faizi azalır.

Fərdi və qrup müzakirələri: Belə müzakirələr müəllimlərə və şagirdlərə bullinqin iştirakçılarının emosiyalarını başa düşməkdə kömək edir. Adətən ilkin olaraq fərdi müzakirə aparılır ki, müəllim vəziyyəti dəyərləndirsin və problemin həlli üçün istiqamət fikirləşsin. Sonrakı addımlarda qrup müzakirəsi gedir ki, bu zaman qurbanın və bullerin dəvəti daha yaxşı nəticə əldə etmək üçün imkan verir. Bu cür açıq müzakirələr problemin səbəbini anlamağa imkan verdiyi kimi, şagirdlərə öz səhvlərini anlamağı da öyrədir.

Psixoloji dəstəyin təmin edilməsi:

Bullinqə qarşı mübarizədə məktəb psixoloqunun işi məsuliyyətli və vacibdir. Dəstəyin əsas məqsədi şagirdin psixoloji vəziyyətini yaxşılaşdırmaq və problemlərinin həllində yardımçı olmaqdır.

Müəllim və valideynlər arasında əlaqənin yaradılması:

Bullinq hallarının qaynağı çox vaxt ailədən gəldiyi üçün problemin həllində valideynlərin iştirakı vacibdir. Bunun üçün valideynlər məlumatlandırılmalı, bullinqlə bağlı maarifləndirici seminarlar təşkil olunmalı, bullinqə məruz qalan və ya buller olan şagirdlərin müəyyənləşdirilməsi haqda məlumatlar verilməli, valideyn-övlad münasibətlərində hansı davranışların şagirdlərin qurban və ya bullerə çevrilməsinə səbəb olacağı müəyyənləşdirilməlidir.

Müsbət məktəb mühiti: Məktəb mühiti müsbət olduqda şagirdlər arasındakı münasibətlər də yaxş olur. Onlar arasında əməkdaşlıq mühitinin yaradılması, bir-birinə qarşı hörmət və anlayışa təşviq olunmaları məktəbdə müsbət mühiti yaradaraq birbaşa bullinq hallarının yaranmasının qarşısını alacaqdır.

Monitorinq və Qiymətləndirmə tədbirlərinin aparılması:

Məktəbdəki vəziyyətin müəyyənləşdirilməsi üçün davamlı olaraq şagirdlər arasında sorğular təşkil olunmalıdır. Monitorinq sayəsində məktəbdəki bullinq hallarının statistikasını çıxarmaq və izləmək olar.

Dünya praktikasından istifadə:
Dan Olveusun bullinqin qarşısını almaq üçün hazırladığı proqramdan və eləcə də Finlandiyada tətbiq olunan KİVA proqramından istifadə edərək məktəbdaxili bullinqlə mübarizə proqramı hazırlmaq mümkündür.

NƏTİCƏ

Aparılan tədqiqatlar və pedaqoji təhlillər bizə deməyə imkan verir ki, bullinq ümumtəhsil məktəblərində baş verən, çox vaxt bullerlər tərəfindən gizli aparılan, şagirdlərin psixoloji, sosioloji və fiziki inkişafına mənfi təsir edən təhlükəli problemdir. Problemin səbəbləri fərdi olsa da, ümumi olaraq məktəb iqlimi, məktəbin idarəetmə strategiyaları, buradakı pedaqoji yanaşmalar, müəllim-şagird, şagird-şagird, müəllim-valideyn, şagird-valideyn münasibətləri ilə birbaşa əlaqədardır. Bu problemin məktəblərdə həll olunması sistemli və kompleks pedaqoji yanaşmalar tələb edir.
Tədqiqatın nəticələri əsasında müəyyən edilmişdir ki, bullinqin qarşısının alınmasında müəllimlərin bullinqi tanıma bacarığı, məktəbdə aparılan maarifləndirmə işləri, məktəb psixoloqlarının işinin genişləndirilməsi, daimi aparılan monitorinqlər mühüm rol oynayır. Problemin uğurlu həlli üçün valideynlərlə birgə işin aparılması, şagird-şagird, şagird-müəllim, valideyn-övlad münasibətlərinin təkmilləşdirilməsi, sosial-emosional bacarıqların inkişaf etdirilməsi, eyni zamanda bullinqlə mübarizədə şagirdlərin yaş, fərdi və cinsi xüsusiyyətlərinin nəzərə alınması əsas amillərdəndir.
Nəticə etibarilə təlim-tərbiyə prosesinə mənfi təsir edən bullinq halları pedaqoji yanaşmalarla həll oluna biləcək bir problemdir. Bullinqə qarşı effektiv mübarizə aparmaq üçün, pedaqoji yanaşmaların sistemli şəkildə həyata keçirilməsi, məktəblərdə pedaqoji-psixoloji dəstək mexanizmlərinin inkişaf etdirilməsi vacibdir.

ƏDƏBİYYAT SİYAHISI

1. Craig, M.W., & Pepler, J.D. (2003).Identifying and targeting risk for involvement in bullying and victimization. Canadian Journal of Psychiatry, 48(10), 577-582
2. Espelage, D.L., &Swearer, S.M. (2004). Bullying in American schools: A social-ecological perspective. Psychology in the Schools, 41 (3), 71-78.
3. Koh, L. (2013). Developing empathy in students: A teacher`s guide. Educational Leadership, 30 (3), 18-21.
4. Olweus, D. (1993). Bullying at school: What we know and what we can do. Blackwell Publishing.
5. Rigby, K. (2004). Addressing bullying in schools: Theoretical perspectives and intervention strategies, School Psychology International, 25 (4), 357-371.
6. Swearer, S.M. Wang, K.T., & Boulton, M. (2010). Bullying and victimization: An overview of the research and the impact of school intervention programs. In S.
7. World Health Organization. (2024, March 27). One in six school-aged children experiences cyberbullying, finds new WHO Europe study. https://www.who.int/europe/news/item/27-03-2024-one-in-six-school-aged-children-experiences-cyberbullying--finds-new-who-europe-study
8. UNESCO. (2019). Behind the numbers: Ending school violence and bullying. https://unesdoc.unesco.org/ark:/48223/pf0000366483
9. UNESCO & World Health Organization. (2024). School violence and bullying: Global status and trends, drivers and consequences. https://healtheducationresources.unesco.org/library/documents/school-violence-and-bullying-global-status-and-trends-drivers-and-consequences
10. KiVa Program. (n.d.). Official site of the KiVa antibullying program. https://www.kivaprogram.net/
11. National Gang Center. (n.d). School-based programs to prevent youth gang involvement https://nationalgangcenter.ojp.gov/spt/Programs/47

12. Mammadzada, G.H. (2024). Bullying in primary classes and ways to combat it. Journal of Preschool and Primary Education, 2024, 56-68.

INNOVATIVE APPROACHES TO THE INTEGRATED DEVELOPMENT OF SPEECH AND THINKING IN THE AZERBAIJANI LANGUAGE CURRICULUM

AZƏRBAYCAN DİLİ KURİKULUMUNDA NİTQ VƏ TƏFƏKKÜRÜN ƏLAQƏLİ İNKİŞAFINA DAİR İNNOVATİV YANAŞMALAR

Könül Zaur qızı Şıxəliyeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı şəhəri
Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasının doktorantı, müəllim

ABSTRACT
This article explores the issue of the integrated development of students' speech and thinking skills in the context of teaching the Azerbaijani language at the primary school level (grades I–IV). Contemporary educational approaches emphasize that, alongside the formation of linguistic knowledge, fostering cognitive activity plays a crucial role in the overall development of the learner's personality. In this regard, the Azerbaijani language curriculum aims to simultaneously enhance students' communication and critical thinking abilities through the systematic development of listening, speaking, reading, and writing skills.
The article analyzes the goals and principles of the curriculum and examines the impact of various teaching strategies on the integration of speech and thinking. Particular emphasis is placed on methods such as working with texts, discussion-based activities, question-and-answer sessions, and creative writing tasks. These strategies help students articulate their thoughts clearly, think independently, establish cause-and-effect relationships, compare different viewpoints, and draw logical conclusions.
Additionally, the article highlights the guiding role of the teacher, the importance of differentiated instruction, and the use of formative assessment tools. It concludes that Azerbaijani language lessons should not be limited to the teaching of grammar rules but should serve as a creative and supportive environment for the development of both speech and thinking skills. This approach aligns with the demands of 21st-century education and contributes to the formation of well-rounded, communicative, and reflective individuals.
Moreover, it is emphasized that the development of these skills should not be confined to the classroom; real-life communication situations must also be utilized. The use of context-based texts, imagination-driven writing activities, and tasks tailored to students' cognitive levels can significantly enhance their verbal and mental abilities, supporting their comprehensive linguistic and intellectual growth.
Keywords: speech skills, development of thinking, Azerbaijani language curriculum, primary education, interactive teaching.

XÜLASƏ
Bu məqalədə ibtidai sinif mərhələsində - I-IV siniflərdə Azərbaycan dili təlimi çərçivəsində şagirdlərin nitq və təfəkkür bacarıqlarının əlaqəli şəkildə inkişaf etdirilməsi məsələsi araşdırılır. Müasir təhsil yanaşmaları göstərir ki, dil biliklərinin formalaşdırılması ilə yanaşı, düşüncə fəaliyyətinin də təşviq edilməsi şagirdin şəxsiyyət kimi inkişafında mühüm rol oynayır. Bu baxımdan, Azərbaycan dili fənn kurikulumu şagirdlərin dinləmə, danışma, oxu və yazı bacarıqları üzərində sistemli şəkildə işləməklə onların həm ünsiyyət, həm də məntiqi və yaradıcı təfəkkür imkanlarını genişləndirməyi qarşıya məqsəd qoyur.
Məqalədə kurikulumun məqsəd və prinsipləri təhlil edilir, müxtəlif təlim strategiyalarının nitq və təfəkkürün inteqrasiyasına təsiri nəzərdən keçirilir. Xüsusilə vurğulanır ki, mətnlərlə iş, diskussiya formatlı fəaliyyətlər, sual-cavab və yaradıcı yazı tapşırıqları şagirdlərin həm fikirlərini aydın ifadə etmələrinə, həm də müstəqil düşünmə bacarıqlarına töhfə verir. Bu metodlar vasitəsilə şagirdlər

mövzu ətrafında düşünür, səbəb-nəticə əlaqəsi qurur, fərqli fikirləri müqayisə edir və nəticə çıxarma bacarıqlarını formalaşdırırlar.

Eyni zamanda, müəllimin istiqamətləndirici rolu, diferensial təlimin tətbiqi və inkişafyönümlü qiymətləndirmə vasitələrinin əhəmiyyəti də diqqət mərkəzində saxlanılır. Məqalədə belə qənaətə gəlinir ki, Azərbaycan dili dərsləri yalnız dil qaydalarının öyrədildiyi mühit deyil, həm də şagirdin nitq və təfəkkür potensialının formalaşdığı yaradıcı bir inkişaf platformasına çevrilməlidir. Bu yanaşma həm XXI əsr bacarıqlarının aşılanmasına, həm də tədrisin keyfiyyətinin yüksəlməsinə şərait yaradır.

Əlavə olaraq qeyd olunur ki, şagirdlərin nitq və təfəkkür bacarıqları yalnız təlim zamanı deyil, gündəlik həyatla bağlı real ünsiyyət situasiyalarında da inkişaf etdirilməlidir. Bu məqsədlə dərslərdə həyati kontekstdə mətnlərdən istifadə, təxəyyülə əsaslanan yazı nümunələrinin yazılması, şagirdin yaş səviyyəsinə uyğun əqli fəaliyyətlərə cəlb edilməsi xüsusi əhəmiyyət daşıyır. Belə fəaliyyətlər şagirdin həm dil, həm də düşüncə baxımından zənginləşməsinə şərait yaradır.

Açar sözlər: nitq bacarıqları, təfəkkürün inkişafı, Azərbaycan dili kurikulumu, ibtidai sinif, interaktiv təlim.

GİRİŞ

Azərbaycan dili təlimində nitq və təfəkkürün inkişafı ibtidai sinif şagirdlərinin təhsil prosesində əsas prioritetlərdən biri kimi çıxış edir. İlk dörd sinifdə şagirdlərin dil bacarıqları və düşüncə qabiliyyətləri formalaşmağa başlayır ki, bu da onların gələcək akademik uğurları və şəxsi inkişafları üçün vacib təməl rolunu oynayır. Nitq vasitəsi ilə şagirdlər yalnız öz fikirlərini ifadə etməyi öyrənmir, həm də ətraf aləmi dərk etmək, informasiya qəbul etmək və təhlil etmək bacarıqlarını inkişaf etdirirlər. Təfəkkür isə məntiqi, yaradıcı və tənqidi düşünmə kimi aspektləri əhatə edir və şagirdlərin bilikləri daha dərindən mənimsəməsinə kömək edir. Beləliklə, nitq və təfəkkürün qarşılıqlı əlaqəsi onların təhsil nailiyyətlərinin və şəxsiyyət kimi formalaşmasının əsasını təşkil edir.

Müasir təhsil standartları və proqramları yalnız informasiyanın ötürülməsinə deyil, həm də şagirdlərin müstəqil düşünmə, problem həll etmə və öz fikirlərini aydın və məntiqli şəkildə ifadə etmə bacarıqlarının inkişafına yönəlmişdir. Bu məqsədlə Azərbaycan dili kurikulumu şagirdlərin nitq və təfəkkür bacarıqlarını inteqrasiya etməklə tədris prosesində daha kompleks və dərin yanaşmalar tətbiq edir. Kurikulumda dil qaydalarının öyrədilməsi ilə yanaşı, şagirdlərin məntiqi təfəkkürünün inkişaf etdirilməsi, onların yaradıcılıq qabiliyyətlərinin stimullaşdırılması və kommunikasiya bacarıqlarının gücləndirilməsi nəzərdə tutulur.

İbtidai siniflərdə bu istiqamətdə səmərəli təlim metodlarının seçilməsi və tətbiqi şagirdlərin fərdi xüsusiyyətləri, yaş və psixoloji xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilməlidir. Belə ki, yaş xüsusiyyətlərinə uyğun fəaliyyətlər və interaktiv təlim üsulları şagirdlərin həm nitq, həm də təfəkkür sahəsində potensiallarını maksimal şəkildə üzə çıxarır. Təlimdə oyun, problem həll etmə tapşırıqları, qrup müzakirələri və yaradıcı yazı kimi metodlar şagirdlərin dil və düşüncə bacarıqlarını eyni zamanda inkişaf etdirən vacib vasitələr kimi çıxış edir.

Məqalənin məqsədi I–IV sinif şagirdlərinin nitq və təfəkkür bacarıqlarının əlaqəli inkişafını təmin edən səmərəli yolları araşdırmaq, müasir təlim yanaşmalarını və kurikulumun bu istiqamətdəki imkanlarını qiymətləndirməkdir. Bu araşdırma çərçivəsində həm nəzəri, həm də praktiki aspektlərə toxunularaq müəllimlər üçün metodik tövsiyələr və təkliflər təqdim olunacaq. Beləliklə, təhsil prosesində nitq və təfəkkürün inteqrasiyasını daha da gücləndirmək və şagirdlərin fərdi inkişafına dəstək vermək hədəflənir.

ARAŞDIRMA

Azərbaycan dili təlimində şagirdlərin nitq və təfəkkürünün inkişafı məsələsi son illərdə təhsil elmi və praktikası üçün aktual mövzuya çevrilmişdir. Əsasən ibtidai siniflərdə bu bacarıqların əlaqəli şəkildə inkişaf etdirilməsi, uşaqların dil bacarıqlarının yalnız səthi formalaşmasının qarşısını almaqla, onların daha dərindən düşünmə və analitik qabiliyyətlərini də inkişaf etdirməyi məqsəd qoyur. Bu, şagirdlərin

təhsil prosesinə aktiv qoşulmalarını, öz fikirlərini sərbəst ifadə etmələrini və yaradıcı problemləri həll etmələrini təmin edir.

Müasir təhsil sistemi və kurikulumlar şagirdlərin nitq və təfəkkür bacarıqlarının sinxron inkişafını təmin etmək üçün yeni yanaşmaların tətbiqinə diqqət yetirir. Xüsusilə, kommunikativ və interaktiv təlim metodları nitq və təfəkkürün inkişafında əvəzsiz vasitələr kimi tanınır. Bu yanaşmalar əsasında müəllimlər şagirdləri yalnız dinləyici kimi yox, fəal iştirakçı kimi görür və onların təlim prosesinə motivasiyasını artırır. Bunun nəticəsində şagirdlər həm dilin strukturunu mənimsəyir, həm də düşünmə bacarıqlarını təkmilləşdirirlər [2].

Ədəbiyyat araşdırmaları göstərir ki, təfəkkür və nitq arasında qarşılıqlı əlaqə uşaqların dil inkişafında vacib rol oynayır. Nitq, təfəkkürün xarici ifadəsi olmaqla yanaşı, onun formalaşmasını da stimullaşdırır. Buna görə də təlim prosesində bu iki aspektin eyni anda inkişaf etdirilməsi pedaqoji yanaşmaların effektivliyini artırır [1]. Bu baxımdan, ibtidai siniflərdə dərs planlarının hazırlanması zamanı nitq və təfəkkür bacarıqlarının sinxron inkişafına xüsusi diqqət yetirilməlidir.

Konkret araşdırma nəticələrinə görə, Bakı şəhərində 3 ibtidai məktəbdə (Bakı şəhəri 70 nömrəli Məktəb-Lisey, 220 nömrəli Məktəb-Lisey və 7 nömrəli məktəb) aparılan eksperimental iş zamanı interaktiv təlim metodlarının tətbiqi ilə şagirdlərin nitq və təfəkkür bacarıqlarında əhəmiyyətli irəliləyiş müşahidə olunmuşdur. Məsələn, qrup müzakirələri və yaradıcı yazı tapşırıqları şagirdlərin fikir yürütmə və mövzuya dair müstəqil analiz qabiliyyətlərini artırmışdır. Bu isə onların həm danışıq, həm də yazılı nitq bacarıqlarının təkmilləşməsinə səbəb olmuşdur.

Eyni zamanda, fərdi fərqliliklər nəzərə alınaraq fərdiləşdirilmiş təlim strategiyalarının tətbiqi nəticəsində zəif nəticələr göstərən şagirdlərdə də nitq və təfəkkür inkişafında müsbət dəyişikliklər qeydə alınmışdır. Bu təcrübələr göstərir ki, metodik yanaşmaların düzgün seçilməsi və tətbiqi tədrisin keyfiyyətini yüksəldir, şagirdlərin motivasiyasını artırır.

Beləliklə, mövcud elmi tədqiqatlar və pedaqoji praktika göstərir ki, Azərbaycan dili təlimində nitq və təfəkkürün əlaqəli inkişafını təmin edən müasir, interaktiv və fərdiləşdirilmiş təlim metodlarının tətbiqi təhsil prosesinin keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırır və şagirdlərin kommunikativ və analitik bacarıqlarını gücləndirir.

NƏTİCƏ

İbtidai siniflərdə Azərbaycan dili təlimində şagirdlərin nitq və təfəkkürünün əlaqəli inkişafı onların həm akademik, həm də şəxsi inkişafı üçün vacib amildir. Nitq və təfəkkür bacarıqları bir-birini tamamlayan və qarşılıqlı şəkildə inkişaf edən proseslər olaraq, təhsil sistemində xüsusi yer tutur. Aparılan araşdırmalar göstərir ki, bu bacarıqların əlaqəli şəkildə inkişaf etdirilməsi şagirdlərin dərs materialını daha yaxşı mənimsəməsinə, analitik və yaradıcı düşünmə qabiliyyətlərinin formalaşmasına və kommunikasiya bacarıqlarının artırılmasına yardım edir]3].

Müasir təlim metodlarının tətbiqi şagirdlərin fəallığını artırmaqla yanaşı, onların öz fikirlərini sərbəst ifadə etməsinə və tənqidi düşünməsinə şərait yaradır. Xüsusilə, qrup işləri, müzakirələr, debatlar və yaradıcı yazı tapşırıqları nitq və təfəkkürün inteqrasiyasını səmərəli şəkildə təmin edir. Bu fəaliyyətlər şagirdlərin həm fərdi, həm də sosial bacarıqlarını inkişaf etdirir, onları müstəqil və məsuliyyətli öyrənənlərə çevirir.

Təklif olunur ki, müəllimlər dərs prosesində diferensial yanaşmaya daha çox diqqət yetirsinlər. Bu, şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almaqla onların potensialını maksimum dərəcədə üzə çıxarmağa imkan verir. Həmçinin, inkişafyönümlü qiymətləndirmə metodları tətbiq edilərək şagirdlərin zəif tərəfləri vaxtında aşkarlanmalı və onlara dəstək göstərilməlidir. Belə yanaşmalar təlimin keyfiyyətini yüksəldir və şagirdlərin motivasiyasını artırır.

Valideynlərlə sıx əməkdaşlığın qurulması da şagirdlərin nitq və təfəkkür inkişafına müsbət təsir göstərir. Evdə valideyn dəstəyi və ailə mühiti şagirdin təhsil prosesində əldə etdiyi bilik və bacarıqların möhkəmlənməsinə kömək edir. Bu baxımdan, müəllimlər valideynlərlə müntəzəm əlaqə saxlamalı və onlara lazımi məsləhətlər verməlidirlər.

Nəticə olaraq, Azərbaycan dili təlimində nitq və təfəkkürün qarşılıqlı inkişafını təmin edən müasir, interaktiv və fərdi yanaşmaların tətbiqi təhsilin səmərəliliyini artırır, şagirdlərin müasir cəmiyyətin tələblərinə uyğun, kommunikativ və düşüncəli şəxsiyyət kimi yetişməsinə şərait yaradır.

ƏDƏBİYYAT SİYAHISI

1. Əliyev, R. M. (2020). Müasir təlim metodları və onların tətbiqi. Bakı: Elm və Təhsil.
2. Hüseynova, N. (2021). Nitq və təfəkkürün inteqrasiyası təlim prosesində. Bakı: Təhsil Nəşriyyatı.
3. Məmmədova, S. (2022). *Azərbaycan dili təlimində innovativ yanaşmalar*. Bakı: Təhsil və İnnovasiya Nəşriyyatı.

TEACHING ENGLISH AS A FOREIGN LANGUAGE IN HIGHER EDUCATION

ПРЕПОДАВАНИЕ АНГЛИЙСКОГО ЯЗЫКА КАК ИНОСТРАННОГО В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

ALİ TƏHSİLDƏ İNGİLİS DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİ

Sadıxova Sarıgül Oruc qızı
Azərbaycan Dövlət Pedoqoji Universiteti

Abstract
Teaching English as a Foreign Language in higher education is critical to equipping students with the language skills necessary for academic and professional success in a globalized world. This paper examines the evolution of English as a foreign language teaching methodology, challenges encountered in English as a foreign language instruction, and strategies for overcoming these challenges to increase the effectiveness of programs. Historically, the teaching of English as a foreign language began with traditional methods such as the Grammatical translation method, which relies on text translation and grammar memorization, and the Direct Method, which emphasizes immersive oral communication. Student diversity, including ability levels, cultural backgrounds, and learning styles, requires adaptive and inclusive teaching strategies. Resource availability, including access to high- quality teaching materials and technological tools, can vary significantly, affecting the quality of teaching.
Curriculum design should balance the development of all four language skills and effectively integrate language instruction with academic content. In addition, fair and effective assessment methods are critical to accurately measuring student competence and progress, requiring a balance between formative and summative assessments and the provision of constructive feedback. Solving these problems involves a multifaceted approach. Personalized learning strategies, continuous professional development for teachers, and integration of technology enhance the learning experience and meet diverse student needs.
Collaborative learning environments and robust feedback mechanisms support continuous improvement and student development. In conclusion, the evolution of English as a foreign language teaching methodologies and the strategic management of challenges are essential to creating dynamic and effective programs. These programs not only strengthen language skills, but also prepare students for academic success and career opportunities in an interconnected global community. Future research and innovation in English as foreign language will further enhance the effectiveness of these programs, ensuring that students are well equipped to navigate and thrive in a globalized world.
Key words: higher education, communicative language teaching, student diversity, learning styles, language skills, formative assessment

Резюме
Преподавание английского языка как иностранного в высших учебных заведениях имеет решающее значение для приобретения студентами языковых навыков, необходимых для академического и профессионального успеха в глобализированном мире. В этой статье рассматривается эволюция английского языка как методологии преподавания иностранного языка, проблемы, с которыми сталкиваются при обучении английскому языку как иностранному языку, а также стратегии преодоления этих проблем для повышения эффективности программ.
Исторически преподавание английского языка как иностранного начиналось с традиционных методов, таких как метод грамматического перевода, который опирается на перевод текста и

запоминание грамматики, и прямой метод, который делает упор на иммерсивное устное общение. Разнообразие учащихся, включая уровни способностей, культурное происхождение и стили обучения, требует адаптивных и инклюзивных стратегий обучения. Доступность ресурсов, включая доступ к высококачественным учебным материалам и технологическим инструментам, может существенно различаться, влияя на качество преподавания. Разработка учебной программы должна сбалансировать развитие всех четырех языковых навыков и эффективно интегрировать языковое обучение с академическим содержанием. Кроме того, справедливые и эффективные методы оценки имеют решающее значение для точного измерения компетентности и успеваемости учащихся, требуя баланса между формирующим и итоговым оцениванием и предоставлением конструктивной обратной связи. Решение этих проблем предполагает многогранный подход. Персонализированные стратегии обучения, постоянное профессиональное развитие учителей и интеграция технологий улучшают процесс обучения и удовлетворяют разнообразные потребности учащихся. Среда совместного обучения и надежные механизмы обратной связи поддерживают постоянное совершенствование и развитие учащихся.

В заключение отметим, что эволюция методологий преподавания английского как иностранного языка и стратегическое решение проблем имеют важное значение для создания динамичных и эффективных программ. Эти программы не только укрепляют языковые навыки, но и готовят студентов к академическим успехам и карьерным возможностям во взаимосвязанном глобальном сообществе. Будущие исследования и инновации в образовании еще больше повысят эффективность этих программ, гарантируя, что учащиеся будут хорошо подготовлены к навигации и процветанию в глобализированном мире.

Ключевые слова: высшее образование, коммуникативное обучение языку, разнообразие студентов, стили обучения, языковые навыки, формативное оценивание

Xülasə

Ali təhsildə İngilis dilinin Xarici Dil kimi tədrisi tələbələri qloballaşan dünyada akademik və peşəkar uğur üçün zəruri olan dil bacarıqları ilə təchiz etmək üçün çox vacibdir. Bu yazı İngilis dilinin xarici dil kimi tədris metodologiyasının təkamülünü, İngilis dilinin xarici dil kimi təlimatında qarşılaşılan çətinlikləri və proqramlarının effektivliyini artırmaq üçün bu problemlərin aradan qaldırılması üçün strategiyaları araşdırır. Tarixən İngilis dilinin xarici dil kimi tədrisi mətn tərcüməsi və qrammatik əzbərləməyə əsaslanan Qrammatik tərcümə metodu və immersiv şifahi ünsiyyəti vurğulayan Birbaşa Metod kimi ənənəvi üsullarla başlamışdır. Tələbə müxtəlifliyi, o cümlədən səriştə səviyyələri, mədəni fonlar və öyrənmə üslubları uyğunlaşa bilən və inklüziv tədris strategiyaları tələb edir. Yüksək keyfiyyətli tədris materiallarına və texnoloji alətlərə çıxışı əhatə edən resurs əlçatanlığı tədrisin keyfiyyətinə təsir edərək əhəmiyyətli dərəcədə dəyişə bilər. Kurikulum dizaynı bütün dörd dil bacarıqlarının inkişafını balanslaşdırmalıdır və dil təlimatını akademik məzmunla effektiv şəkildə birləşdirməlidir. Bundan əlavə, ədalətli və effektiv qiymətləndirmə metodları tələbələrin səriştəsini və tərəqqisini dəqiq ölçmək üçün mühüm əhəmiyyət kəsb edir, formativ və summativ qiymətləndirmələr və konstruktiv rəyin təmin edilməsi arasında balansı tələb edir. Bu problemlərin həlli çoxşaxəli yanaşmanı əhatə edir. Fərdiləşdirilmiş təlim strategiyaları, müəllimlər üçün davamlı peşəkar inkişaf və texnologiyanın inteqrasiyası öyrənmə təcrübəsini artırır və müxtəlif tələbə ehtiyaclarını təmin edir. Birgə öyrənmə mühitləri və möhkəm əks əlaqə mexanizmləri davamlı təkmilləşdirmə və tələbə inkişafını dəstəkləyir. Yekun olaraq, İngilis dilinin xarici dil kimi tədris metodologiyalarının təkamülü və problemlərin strateji idarə olunması dinamik və effektiv proqramlarının yaradılması üçün vacibdir. Bu proqramlar təkcə dil biliklərini gücləndirmir, həm də tələbələri bir-biri ilə əlaqəli qlobal birlikdə akademik uğur və karyera imkanlarına hazırlayır. İngilis dilinin xarici dil kimi təhsilində gələcək tədqiqatlar və innovasiyalar bu proqramların effektivliyini

daha da artıracaq, tələbələrin qloballaşan dünyada naviqasiya etmək və inkişaf etmək üçün yaxşı təchiz olunmasını təmin edəcək.

Açar sözlər: ali təhsil, kommunikativ dil tədrisi, tələbə müxtəlifliyi, öyrənmə üslubları, dil bacarıqları, formativ qiymətləndirmə

Müasir qloballaşan dünyada ingilis dili ünsiyyət, akademik axtarışlar və peşəkar uğur üçün mühüm vasitə rolunu oynayır. Beynəlxalq biznes, elm və texnologiyanın lingua francası olaraq ingilis dilini bilmək qlobal birlikdə iştirak etmək istəyən şəxslər üçün getdikcə daha vacib hala gəlir. Nəticə etibarı ilə, dünya üzrə ali təhsil müəssisələri tələbələri rəqabət mühitində inkişaf etmək üçün tələb olunan dil bacarıqları ilə təchiz etmək üçün İngilis dilinin xarici dil kimi proqramlarını öz kurikulumlarına inteqrasiya etmək zərurətini dərk etmişlər.

Bu məqalənin məqsədi ali təhsildə ingilis dilinin xarici dil kimi tədrisinin müxtəlif aspektlərini araşdırmaqdır. Onun məqsədi tətbiq olunan metodologiyaları, qarşıya çıxan çətinlikləri və bu proqramların tələbələrin akademik və peşəkar inkişafına ümumi təsirini təhlil etməkdir. Həm ənənəvi, həm də müasir tədris yanaşmalarını tədqiq etməklə, bu məqalə ali təhsil müəssisələrində İngilis dilinin xarici dil kimi tədrisini təkmilləşdirmək üçün qəbul edilə bilən effektiv strategiyaları vurğulamağa çalışır. [1, s. 23]

Bu məqalənin tezisində ali təhsildə İngilis dilinin xarici dil kimi effektiv tədrisinin innovativ pedaqoji metodların birləşməsini, tələbə ehtiyaclarını dərindən dərk etməyi və çoxsaylı çətinliklərin öhdəsindən gəlmək bacarığını tələb etdiyini irəli sürür. Bu cür yanaşma təkcə dil biliklərini gücləndirmir, həm də tələbələrin akademik uğurlarına və gələcək karyera imkanlarına töhfə verir.

Ədəbiyyatın hərtərəfli nəzərdən keçirilməsi, tədris metodologiyalarının təhlili və praktiki problemlər və həll yollarının müzakirəsi vasitəsilə bu məqalənin məqsədi ali təhsildə ingilis dilinin xarici dil kimi tədrisi üçün ən yaxşı təcrübələr haqqında dəyərli fikirlər təqdim etməkdir. Nəhayət, məqsəd tələbələri qloballaşan dünyanın tələblərinə hazırlamaqda İngilis dilinin xarici dil kimi tədris proqramlarının həlledici rolunu vurğulamaq və bu sahədə gələcək təkmilləşdirmə yollarını təklif etməkdir.

Ali təhsildə İngilis dilinin xarici dil kimi tədrisi dil biliklərini artırmaq və müxtəlif tələbə ehtiyaclarını ödəmək məqsədi daşıyan müxtəlif metodologiyaları özündə birləşdirərək əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Qrammatik Tərcümə Metodu və Birbaşa Metod kimi ənənəvi metodlar dil tədrisi üçün zəmin yaratdı. Qrammatika-Tərcümə Metodu mətnləri tərcümə etməyə və qrammatik qaydaları əzbərləməyə diqqət yetirirdi ki, bu da çox vaxt danışma və dinləmə bacarıqlarının məhdudlaşması ilə nəticələnirdi. Bunun əksinə olaraq, birbaşa metod şifahi ünsiyyətə və induktiv qrammatik öyrənməyə üstünlük verərək, immersiv öyrənməni vurğuladı, təlim tamamilə ingilis dilində aparıldı. Bununla belə, çox vaxt oxuma və yazma bacarıqlarına laqeyd yanaşırdı. [3, s. 12]

Daha müasir yanaşmalara keçid İngilis dilinin xarici dil kimi tədrisində əhəmiyyətli irəliləyişlərə səbəb oldu. Kommunikativ dil tədrisi real dünya vəziyyətlərində effektiv ünsiyyət qurma qabiliyyətini vurğulayaraq bu sahədə inqilab etdi. Kommunikativ dil tədrisi qəzetlər, videolar və gündəlik ssenarilər kimi orijinal materiallardan istifadə etməklə qarşılıqlı əlaqə və mənalı ünsiyyət vasitəsilə dinləmə, danışma, oxuma və yazma bacarıqlarının inkişafına diqqət yetirir. Bu yanaşma praktiki dil istifadəsini təşviq edir və tələbələrin daha təbii bacarıqlarını inkişaf etdirməyə kömək edir.

Tapşırıq əasalı dil tədrisi İngilis dili istifadəsini tələb edən mənalı tapşırıqların tamamlanması ətrafında təlimatı mərkəzləşdirərək İngilis dilinin xarici dil kimi tədrisini daha da təkmilləşdirir. Səyahət planlaşdırmaq və ya sorğu keçirmək kimi real həyat fəaliyyətlərini əks etdirən bu tapşırıqlar dilin fəal öyrənilməsini və praktiki tətbiqini təşviq edir, tələbələrin fəallığını və motivasiyasını artırır.

Texnologiyanın inteqrasiyası İngilis dilinin xarici dil kimi tədris metodologiyalarını da dəyişdirdi. Rəqəmsal alətlər və onlayn platformalar həm müəllimlər, həm də tələbələr üçün mövcud olan resursları genişləndirərək, daha interaktiv və cəlbedici öyrənmə təcrübələrini asanlaşdırıb [2, s. 192]. Dil öyrənmə proqramları, virtual sinif otaqları və onlayn əməkdaşlıq alətləri tələbələrə ənənəvi sinif şəraitindən kənarda ingilis dilini təcrübədən keçirməyə imkan verir. Üz-üzə təlimatı onlayn

fəaliyyətlərlə birləşdirən qarışıq öyrənmə, müxtəlif tələbə ehtiyaclarını və öyrənmə templərini təmin edən daha çox çeviklik və fərdiləşdirilmiş öyrənmə təklif edir.

Ali təhsildə İngilis dilinin xarici dil kimi tədrisi dil proqramlarının effektivliyinə əhəmiyyətli dərəcədə təsir göstərə biləcək mürəkkəb bir sıra problemlərin həllini nəzərdə tutur. Əsas problemlərdən biri bacarıq səviyyələrində, mədəni fonlarda və öyrənmə üslublarında variasiyaları özündə əks etdirən tələbə müxtəlifliyidir. Tipik bir ali təhsil şəraitində tələbələr müxtəlif səviyyələrdə ingilis dili bilikləri ilə gəlirlər və bu, müəllimlərin bütün tələbələrin ehtiyaclarına cavab verən dərsləri tərtib etmələrini çətinləşdirir. Qabaqcıl tələbələr materialı çox sadə tapa bilər, yeni başlayanlar isə ayaqlaşmaqda çətinlik çəkə bilərlər [2, s. 42]. Bundan əlavə, mədəni fərqlər öyrənmə üslublarına və ünsiyyət üstünlüklərinə təsir göstərir, müxtəlif mənşəli tələbələrin sinif davranışı, iştirak və müəllimin rolu ilə bağlı müxtəlif gözləntiləri olur. Bu mədəni nüansların başa düşülməsi və uyğunlaşdırılması inklüziv və effektiv öyrənmə mühiti yaratmaq üçün çox vacibdir. Bundan əlavə, tələbələr müxtəlif öyrənmə üslubları nümayiş etdirirlər - vizual, eşitmə və kinestetik - bütün şagirdləri effektiv şəkildə cəlb etmək üçün müəllimlərdən çevik və müxtəlif təlim strategiyalarından istifadə etməyi tələb edir.

Qiymətləndirmə və qiymətləndirmə həm də İngilis dilinin xarici dil kimi tədris təlimatında mühüm problemlərdir. Tələbələrin dil biliklərini və irəliləyişlərini dəqiq ölçən ədalətli və effektiv qiymətləndirmə metodlarının işlənib hazırlanması vacibdir. Ənənəvi imtahanlar tələbənin ünsiyyət qabiliyyətini və ya praktiki dil bacarıqlarını tam şəkildə əks etdirməyə bilər. Davamlı əks əlaqəni təmin edən formativ qiymətləndirmələr və ümumi öyrənməni qiymətləndirən summativ qiymətləndirmələr şagirdin irəliləyişinin hərtərəfli başa düşülməsi üçün çox vacibdir. Formativ qiymətləndirmələr təkmilləşdirilməli sahələrin müəyyən edilməsinə kömək edir, summativ qiymətləndirmələr isə ümumi bacarıq ölçüsünü təmin edir. Tələbələrin inkişafı üçün vaxtında və konstruktiv rəyin təmin edilməsi vacibdir, lakin siniflərin böyük ölçüləri və ağır iş yükləri müəllimlərin fərdi rəy təklif etmələrini çətinləşdirə bilər. Tələbələrin öyrənilməsini dəstəkləmək və davamlı təkmilləşməni təmin etmək üçün effektiv əks əlaqə mexanizmləri mövcud olmalıdır.

Ali təhsildə İngilis dilinin xarici dil kimi tədrisi müxtəlif tədris metodologiyalarının nüanslı dərk edilməsini, tələbələrin müxtəlif ehtiyaclarının dərk edilməsini və xas problemlərin aradan qaldırılması üçün strateji yanaşma tələb edən çoxşaxəli və dinamik bir işdir. Qrammatik Tərcümə və Birbaşa Empirik tədqiqatlarla dəstəklənən bu müasir metodologiyalar real dünyadakı ünsiyyət bacarıqlarına, dilin praktiki tətbiqinə və dil öyrənmənin akademik məzmunla inteqrasiyasına diqqət yetirir və bununla da daha vahid və cəlbedici öyrənmə təcrübəsini təşviq edir.

Bu irəliləyişlərə baxmayaraq, müəllimlər İngilis dilinin xarici dil kimi tədrisində xeyli çətinliklərlə üzləşirlər. Müxtəlif bacarıq səviyyələrini, mədəni mənşəyi və öyrənmə üslublarını əhatə edən tələbə müxtəlifliyi uyğunlaşa bilən və inklüziv tədris strategiyalarını tələb edir. Kurrikulumun dizaynı bütün dörd dil bacarıqlarının inkişafı və dil tədrisinin akademik məzmunla inteqrasiyası arasında tarazlıq yaratmalıdır [5, s. 75]. Bundan əlavə, ədalətli və effektiv qiymətləndirmə metodları tələbələrin dil biliyinin və tərəqqinin dəqiq ölçülməsi üçün mühüm əhəmiyyət kəsb edir, formativ və summativ qiymətləndirmələr arasında tarazlığı və vaxtında, konstruktiv rəyin təmin edilməsini tələb edir.

Bu problemlərin həlli hərtərəfli və çoxşaxəli yanaşma tələb edir. Fərdi tələbə ehtiyaclarına cavab verən fərdiləşdirilmiş təlim strategiyaları, müəllimlər üçün davamlı peşəkar inkişaf və öyrənmə təcrübələrini artırmaq üçün texnologiyanın inteqrasiyası vacibdir. Həmyaşıdların qarşılıqlı əlaqəsini və praktiki dil istifadəsini təşviq edən birgə öyrənmə mühitləri, güclü əks əlaqə mexanizmləri ilə birlikdə davamlı təkmilləşdirmə və tələbə inkişafını dəstəkləyir.

Effektiv İngilis dilinin xarici dil kimi tədrisinin təsiri dil biliklərindən kənara çıxır və qloballaşan dünyada tələbələrin akademik uğurlarına və karyera imkanlarına əhəmiyyətli töhfə verir. Müasir pedaqoji yanaşmaları mənimsəməklə, əsas problemləri həll etməklə və davamlı təkmilləşdirmələr axtarmaqla pedaqoqlar tələbələrə akademik və peşəkar səviyyədə uğur qazanmağa imkan verən dinamik və effektiv İngilis dilinin xarici dil kimi tədris proqramları yarada bilərlər. [4, s. 201]

Nəticə olaraq, ali təhsildə ingilis dilinin xarici dil kimi tədrisi tələbələrin akademik və peşəkar gələcəklərinin formalaşmasında mühüm rol oynayır. İnnovativ tədris metodologiyalarının qəbulu, problemlərin strateji şəkildə idarə edilməsi və davamlı təkmilləşdirmə öhdəliyi vasitəsilə müəllimlər dəstəkləyici və effektiv İngilis dilinin xarici dil kimi öyrənmə mühitini inkişaf etdirə bilərlər. Bu da öz növbəsində tələbələri getdikcə qloballaşan dünyada uğur qazanmaq üçün lazım olan əsas dil bacarıqları və mədəni səriştələrlə təchiz edir.

Ədəbiyyat:

1. Michael Thomas. Texnologiya təkmilləşdirilmiş dil öyrənilməsi: nəzəriyyə və təcrübənin əlaqələndirilməsi, 2013
2. H. Douglas Brown, Priyanvada Abeywickrama. Dilin qiymətləndirilməsi: prinsiplər və sinif təcrübələri, 2002.
3. H. Douglas Brown. Prinsiplərlə tədris: dil pedaqogikasina interaktiv yanaşma, 1994
4. Jim Scrivener. Öyrənmə tədrisi: ingilis dilinin tədrisi üçün əsas bələdçi, 1994
5. Marguerite Ann Snow, Donna M. Brinton. Ali təhsil ayarlarinda məzmun əsasli təlimat, 2002

Rəyçi: **filologiya üzrə fəlsəfə doktoru, dosent Elmira Əliyev**

SUFİ PHENOMENOLOGY AS A NEW SYSTEM OF HİKMAH İN KÖNÜL BÜNYADZADE'S THOUGHT

KÖNÜL BÜNYADZADE'DE YENİ BİR HİKMET SİSTEMİ OLARAK SUFİ FENOMENOLOJİ

İsmail Kılıç
Yüksek Lisans Öğrencisi, Kütahya Dumlupınar Üniversitesi, İlahiyat Fakültesi
ORCID: 0009-0003-2747-1638

Prof. Dr. Ömer Faruk Erdoğan
Kütahya Dumlupınar Üniversitesi, İlahiyat Fakültesi
Orcıd: 0000-0003-4131-3532

Özet
Bu bildiri, çağdaş Azerbaycanlı düşünür Könül Bünyadzade'nin iki ciltlik Sufi Fenomenologiya adlı eserinde temellendirdiği düşünce sistemini, yeni bir "hikmet sistemi" olarak ele almayı amaçlamaktadır. Könül Bünyadzade'nin geliştirdiği Sufi Fenomenoloji, klasik İslam tasavvufundaki sezgi, hikmet ve kalp merkezli bilgi anlayışını, Batı fenomenolojisinin yöntemsel araçlarıyla birleştirerek özgün bir felsefi yapı ortaya koymaktadır. Bu sistem, yalnızca kavramsal düzeyde değil; aynı zamanda ontolojik ve epistemolojik bir bütünlük içinde kurgulanmıştır.
Könül Bünyadzade'nin sisteminde öne çıkan temel kavramlar "eydos" (öz), "şuur" (bilinç) ve "nur" (ilahi ışık) etrafında şekillenir. Eydos, yaratılışın metafizik çekirdeğini; şuur, bu eydosların idrakini sağlayan içsel ışık taşıyıcısını; nur ise hakikate yönelimi sağlayan aşkın bilinç kaynağını temsil eder. Bu bağlamda bilgi, yalnızca enformasyona indirgenmez; anlamlandırma ve içselleştirme süreçlerini de kapsar. Enformasyon, idrak ve hikmet şeklindeki bilgi aşamaları, bireyin hem kendi özüne hem de tümel hakikate yönelmesini mümkün kılar.
Bildiri, Bünyadzade'nin felsefi sistemini klasik İslam düşüncesindeki hikmet anlayışları (özellikle İbn Arabi, Gazzali, Sühreverdi) ile karşılaştırmalı olarak analiz edecek; ayrıca sistemin modern fenomenolojiyle (Husserl, Heidegger) kavramsal ilişkisini tartışacaktır. Bu bağlamda, sufi fenomenolojinin yalnızca bireysel bir içsel yolculuk modeli değil, aynı zamanda çağdaş düşünceye alternatif bir epistemolojik yaklaşım sunduğu ileri sürülecektir.
Sonuç olarak Sufi Fenomenoloji, bilginin yalnızca zihinsel değil, varoluşsal ve metafizik düzeyde de kavranması gerektiğini vurgulayan; modern felsefenin anlam kriziyle karşı karşıya kaldığı bir dönemde, yeni bir hikmet dili öneren özgün bir sistemdir.
Anahtar Kelimeler; Tasavvuf Felsefesi, Sufi Fenomenoloji, Hikmet

Abstract
This paper aims to examine the philosophical system established by contemporary Azerbaijani thinker Könül Bünyadzade in her two-volume work Sufi Phenomenologiya, approaching it as a new system of hikmah (wisdom). Bünyadzade's development of Sufi Phenomenology constructs an original philosophical framework by integrating the intuition-centered, heart-based epistemology of classical Islamic mysticism with the methodological tools of Western phenomenology. This system is constructed not only on a conceptual level but also as an ontological and epistemological whole.
In Bünyadzade's system, the central concepts revolve around eydos (essence), shuur (consciousness), and nur (divine light). Eydos represents the metaphysical core of creation; shuur is the inner light-bearer enabling the perception of these essences; and nur stands for the transcendent source of consciousness that directs the soul toward truth. In this framework, knowledge is not reduced to mere information but includes the processes of meaning-making and internalization. The stages of

knowledge—information, perception, and wisdom—make it possible for the individual to orient themselves both toward their inner essence and toward universal truth.

The paper will analyze Bünyadzade's philosophical system in comparison with classical Islamic conceptions of hikmah—particularly those of Ibn Arabi, al-Ghazali, and Suhrawardi—while also discussing its conceptual connections with modern phenomenology, especially Husserl and Heidegger. In this context, Sufi Phenomenology will be proposed not only as a model of individual inner journeying but also as an alternative epistemological approach for contemporary thought.

In conclusion, Sufi Phenomenology presents an original system that emphasizes the necessity of understanding knowledge not only on a mental but also on an existential and metaphysical level. At a time when modern philosophy faces a profound crisis of meaning, it proposes a new language of hikmah as an alternative.

Keywords: Philosophy of Sufism, Sufi Phenomenology, Hikmah

THE ROLE OF DIDACTIC GAMES IN INCREASING THE EFFICIENCY OF TEACHING IN AZERBAIJAN LANGUAGE LESSONS

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ TƏLİMİN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASINDA DİDAKTİK OYUNLARIN ROLU

Aysel Sərvər qızı Həşimzadə
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı,
Dillər və onların tədrisi texnologiyası kafedrasının müəllimi

Xülasə
Təqdim edilmiş məqalədə Azərbaycan dili dərslərində təlimin səmərəliliyinin artırılması məqsədilə didaktik oyunlardan istifadə imkanları araşdırılır və bu oyunların şagirdlərin öyrənmə prosesinə təsiri təhlil olunur. Tədqiqatda didaktik oyunların pedaqoji-nəzəri əsasları, onların şagirdlərin dil bacarıqlarının – xüsusilə oxu, danışıq, yazı və dinləmə – inkişafına təsiri geniş şəkildə şərh edilir. Əsas diqqət didaktik oyunların şagirdlərin dərsə marağını artırmaq, öyrənməni əyləncəli və mənalı etmək, həmçinin fəal öyrənmə mühitini formalaşdırmaq baxımından imkanlarına yönəldilmişdir.
Məqalədə müxtəlif tipli didaktik oyunların dərsin məqsəd və mərhələlərinə uyğun tətbiqinə dair nümunələr təqdim olunur, bu oyunların təlimin səmərəliliyinə və şagird nailiyyətlərinə verdiyi töhfə praktiki müşahidələr və metodik təhlillərlə əsaslandırılır. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, düzgün seçilmiş və metodiki baxımdan əsaslandırılmış didaktik oyunlar Azərbaycan dili dərslərində öyrənməni daha təsirli edir, şagirdlərin kommunikativ bacarıqlarını inkişaf etdirir və təlimin nəticəyönümlülüyünü artırır. Məqalədə həmçinin müəllimlər üçün metodik tövsiyələr verilmiş, didaktik oyunların planlaşdırılması və tətbiqi ilə bağlı praktik yanaşmalar göstərilmişdir.
Açar sözlər: Azərbaycan dili dərsi, didaktik oyunlar, təlimin səmərəliliyi, metodika, interaktiv təlim, şagird fəallığı

Abstract
The presented article examines the possibilities of using didactic games in Azerbaijani language lessons to increase the effectiveness of teaching and analyzes the impact of these games on the learning process of students. The study extensively comments on the pedagogical and theoretical foundations of didactic games, their impact on the development of students' language skills - especially reading, speaking, writing and listening. The main focus is on the possibilities of didactic games in terms of increasing students' interest in the lesson, making learning fun and meaningful, as well as forming an active learning environment.
The article presents examples of the application of various types of didactic games in accordance with the goals and stages of the lesson, and the contribution of these games to the effectiveness of teaching and student achievement is substantiated by practical observations and methodological analyses. As a result of the study, it was determined that correctly selected and methodologically justified didactic games make learning in Azerbaijani language lessons more effective, develop students' communicative skills and increase the result-oriented nature of training. The article also provides methodological recommendations for teachers, and practical approaches to planning and implementing didactic games are shown.
Keywords: Azerbaijani language lesson, didactic games, teaching effectiveness, methodology, interactive learning, student activity

GİRİŞ

Müasir dövrdə təhsil sistemində əsas hədəf yalnız bilik ötürmək deyil, eyni zamanda şagirdlərin yaradıcı düşünmə, tənqidi yanaşma və praktiki tətbiq bacarıqlarını formalaşdırmaqdır. Təlimin səmərəliliyi isə məhz bu bacarıqların inkişafı və təlim prosesinin şagirdin aktiv iştirakı ilə qurulması

fonunda ölçülür. Bu kontekstdə təlim metodlarının düzgün seçilməsi və şagirdyönümlü yanaşmaların tətbiqi xüsusi əhəmiyyət daşıyır.

Ənənəvi dərs modelləri müəyyən biliklərin ötürülməsində səmərəli olsa da, bu yanaşma şagirdin öyrənmə prosesində passiv qalmasına səbəb ola bilər. Bu problemi aradan qaldırmaq üçün interaktiv və marağa əsaslanan üsullara, xüsusilə də didaktik oyunlara üstünlük verilir. Didaktik oyunlar həm əyləndirici, həm də öyrədici xüsusiyyətə malik olmaqla, şagirdlərin dərsə marağını artırır, onların dərketməsini asanlaşdırır və bilikləri daha davamlı şəkildə mənimsəmələrinə şərait yaradır.

Azərbaycan dili dərslərində didaktik oyunların tətbiqi şagirdlərin linqvistik təfəkkürünün inkişafına, dildən funksional istifadə bacarıqlarının formalaşmasına və dərsin emosional mühitinin zənginləşdirilməsinə töhfə verir. Həmçinin bu oyunlar vasitəsilə müəllim şagirdin diqqətini yönəldə, bilik və bacarıqları sistemləşdirə və sinif daxilində əməkdaşlıq mühiti yarada bilir.

Bu məqalədə əsas məqsəd Azərbaycan dili dərslərində didaktik oyunların tətbiqini pedaqoji baxımdan təhlil etmək, onların təlimin səmərəliliyinə verdiyi töhfəni müəyyənləşdirmək və tədris prosesinə inteqrasiyasına dair metodik yanaşmaları təqdim etməkdir. Aparılan tədqiqat göstərir ki, didaktik oyunlar təlim prosesində yalnız əlavə vasitə deyil, eyni zamanda onun təşkilati-metodik əsaslarından biri kimi çıxış edir.

DİDAKTİK OYUNLARIN KONSEPTUAL MAHİYYƏTİ VƏ TƏLİM PROSESİNDƏ FUNKSİONAL ROLU

Ümumtəhsil müəssisələrinin əsas məqsədləri yalnız şagirdlərə müasir bilik və bacarıqları aşılamaqla bitmir. Məktəb həm də cəmiyyətin, dövlətin və ailənin gözləntilərinə uyğun olaraq uşağın fərdi potensialının kəşf edilməsinə və inkişafına, onun özünüinkişaf və özünüreallaşdırma bacarıqlarına yiyələnməsinə şərait yaratmalıdır. Bu baxımdan, tədris prosesində müasir, şagirdyönümlü yanaşmaların tətbiqi zəruri hesab olunur.

Müasir tədris metodları arasında interaktiv üsullar əsas yer tutur, çünki onlar şagirdlərin ünsiyyət, tənqidi düşünmə, əməkdaşlıq və yaradıcılıq kimi kompetensiyalarını inkişaf etdirir. Bu isə klassik üsulların tamamilə əvəz olunması deyil, onların effektivliyinin artırılmasıdır. Birlikdə işləmə şagirdlərin fərdi töhfə verməsini və təcrübə mübadiləsini təmin edir, bu isə biliklərin möhkəmlənməsi və dərkin dərinləşməsinə gətirib çıxarır. Monoton və passiv tədris isə bu nəticələri vermir.

Bu səbəbdən dərs prosesində müxtəlif aktivləşdirici texnikaların, oyun elementlərinin və elektron tədris resurslarının tətbiqi olduqca vacibdir. Bu, dərsin yükləyici və yorucu atmosferini aradan qaldırır, şagirdlərin dərsdə aktiv iştirakını stimullaşdırır. Əlavə olaraq, bu cür mühitdə təlim prosesi qarşılıqlı anlaşma, əməkdaşlıq və dəstək ruhunda keçir ki, bu da yalnız yeni biliklərin əldə olunmasına deyil, eyni zamanda şagirdin idrak fəaliyyətinin, sosial bacarıqlarının və şəxsiyyət kimi formalaşmasının güclənməsinə səbəb olur.

Oyunlar uşaqların sosiallaşma prosesində, müşahidə və davranış modellərini mənimsəməsində mühüm vasitə kimi çıxış edir. Bir çox tədqiqatçılara görə, oyun sosial fəaliyyətin əsas formalarından biri, real həyat təcrübəsinin simulyasiyası və kompleks bacarıqların inkişafı üçün təsirli bir üsuldur.

Oyun uşaqlar üçün sosial yaradıcılıq imkanlarının ifadə olunduğu xüsusi bir sahədir. Bu sahə uşağın həm ictimai, həm də yaradıcı potensialını ortaya qoyması üçün bir növ sınaq meydanıdır. Oyunlar informasiya baxımından son dərəcə zəngindir və uşağın şəxsiyyəti, düşüncə tərzi və daxili aləmi haqqında çoxlu məlumat verə bilir. Uşaq üçün oyun yalnız əyləncə deyil, həm də onun həyat mövqeyini formalaşdıran əsas vasitədir. Oyun mühiti uşağın davranışlarını, münasibətlərini və özünü ifadə üsullarını istiqamətləndirən bir tərbiyə məktəbidir. Belə bir məktəbdə uşaq həm öyrənən, həm də öyrədən mövqeyində çıxış edir.

Oyun müəllimlə şagirdlər, eləcə də şagirdlərin öz aralarındakı qarşılıqlı didaktik əlaqənin universal forması kimi çıxış edir. Oyun xarakterli interaktiv tapşırıqlar və məşğələlər öyrənməyə marağı artırmaqla yanaşı, dərsə qarşı müsbət emosional münasibət formalaşdırır. Bu üsullar vasitəsilə şagird fəallığının yüksək səviyyədə əldə olunması, əksər hallarda, təbii və könüllü şəkildə baş verir – yəni

məcburiyyət olmadan, qısa zamanda və effektiv nəticə ilə. Müxtəlif praktiki müşahidələr göstərir ki, təlimdə oyun texnologiyalarının tətbiqi öyrənmə prosesinə dinamizm gətirir və tədrisin keyfiyyətinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir.

Fəallaşdırıcı oyun növlərinin sayı kifayət qədər çoxdur və bu müəllimin metodik yaradıcılıq bacarığından və pedaqoji təcrübəsindən asılı olaraq daha da zənginləşdirilə bilər. Bununla belə, oyunların tətbiqində diqqət olunmalı əsas məsələ ondan ibarətdir ki, oyun yalnız əyləncə məqsədi daşımamalı, öyrənilən materialın mahiyyətinin dərindən mənimsənilməsinə yönəlməlidir. Oyunlar tədrisin məzmununa zidd olmamalı, əksinə, onun mənimsənilməsini gücləndirməlidir. Əgər oyun şagirdin diqqətini əsas bilikdən yayındırırsa və ya mövzunun mahiyyətinin anlaşılmasına mane olursa, bu zaman onun tədrisdə istifadəsi məqsədəuyğun hesab edilə bilməz.

Təlim prosesində istifadə olunan müxtəlif oyun növləri – məsələn, işgüzar oyunlar, rollu oyunlar və didaktik oyun modelləri – dərsin monotonluğunu aradan qaldırır, tədrisə müxtəliflik qatır və fənnə qarşı davamlı maraq yaradır. Bu yanaşma, xüsusilə passiv şagirdlərin belə təlimə fəal şəkildə cəlb olunmasına şərait yaradır. Maraqlıdır ki, eyni oyun eyni zamanda bir neçə didaktik funksiyanı yerinə yetirə bilər: öyrənmə bacarıqlarını inkişaf etdirmək, sinifdə əyləncəli və dostluq mühiti yaratmaq, kommunikasiya və əməkdaşlığı təşviq etmək, stressi azaltmaq və insanın psixoloji hazırlığını yaxşılaşdırmaq. Bundan əlavə, oyunlar şəxsi keyfiyyətlərin inkişafına və psixoloji tənzimlənməyə dəstək olur. Beləliklə, oyunların funksional rolu həm tədris, həm də sosial-emosional sahələri əhatə edir.

Müasir təlim texnologiyalarında əyləncəli və məqsədyönlü şəkildə təşkil olunmuş tədris fəaliyyətləri "didaktik oyunlar" anlayışı ilə ifadə olunur. Didaktik oyunlar əyaniliyin bir növüdür. Əyanilik isə dərketməni real əşya və ya hadisələr, faktlar üzərində qurmağa deyilir. [1, s. 40] Bu da şagirdin dərketməsinin aydın, dəqiq və davamlı şəkildə formalaşmasına zəmin yaradır. Bu baxımdan, didaktik oyunlar həm vizual, həm də intellektual fəaliyyətin gücləndirilməsində əvəzsiz rol oynayır.

Təlim prosesində oyunların təsadüfi deyil, məqsədli və planlı şəkildə təşkili xüsusi pedaqoji yanaşma və diqqət tələb edir. Didaktik oyunlar yalnız dərsə rəngarənglik qatmaqla kifayətlənmir, eyni zamanda tədris məqsədlərinə nail olmaqda effektiv vasitə rolunu oynayır. Mövzudan və dərsin məqsədindən asılı olaraq bəzən bütöv dərs oyun formasında təşkil oluna, bəzən isə dərsin yalnız müəyyən mərhələlərinə oyun elementləri daxil edilə bilər. Uyğun seçilmiş və düzgün tətbiq olunan didaktik oyunlar dərsin keyfiyyətini və şagird fəallığını artırır, həmçinin təlimə marağı və motivasiyanı gücləndirir.

Didaktik oyunların dərslərdə səmərəli tətbiqi üçün aşağıdakı metodik şərtlərə əməl olunmalıdır:

- Müəllim oyunun məzmununu əvvəlcədən dərindən öyrənməli və şagirdlərə aydın şəkildə izah etməlidir;
- Oyunun məqsədi və gedişi dərsə başlamazdan əvvəl şagirdlərə izah edilməli, yaranacaq suallar cavablandırılmalıdır;
- Oyun şagirdlərin yaş səviyyəsinə, idrak qabiliyyətinə və mövzunun məzmununa uyğun seçilməlidir;
- Oyun zamanı müəllim prosesə nəzarət etməli, fəallığı və nizam-intizamı tənzimləməlidir;
- Oyunların vaxtı optimal olmalı, çox uzun və yorucu olmamalıdır;
- Qrup işlərində şagirdlərin intellektual səviyyələri nəzərə alınmalı, balanslı qruplar formalaşdırılmalıdır;
- Eyni oyun tez-tez təkrarlanmamalı, şagirdlərdə marağın itməməsi üçün oyunlarda dəyişiklik və yenilik təmin edilməlidir.

Azərbaycan dili dərslərində didaktik oyunların tətbiqi dilin mənimsənilməsini asanlaşdırır və təlimin emosional mühitini gücləndirir. Bu oyunlar şagirdlərdə zehni çeviklik, diqqətlilik, müşahidə qabiliyyəti və tənqidi düşüncə kimi bacarıqları inkişaf etdirir. Xüsusilə ibtidai siniflərdə didaktik oyunlar uşaqların dil öyrənməyə olan marağını artırır, dərsləri daha əyləncəli və mənalı edir.

Bununla yanaşı, təlimdə oyunlardan istifadə şagirdlərə yalnız informasiyanı ötürmək üçün deyil, eyni zamanda onları aktiv öyrənməyə təşviq etmək, araşdırmağa yönəltmək və müstəqil nəticələr çıxarma bacarığını formalaşdırmaq üçün də əhəmiyyətlidir. Müəllim bu prosesdə sadəcə bilik verən deyil, həm də şagirdlərə təlim fəaliyyətində yol göstərən bələdçi rolunu oynamalıdır.

DİDAKTİK OYUNLARIN TƏTBİQİ VASİTƏSİLƏ AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ TƏLİMİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ

Azərbaycan dili fənni yalnız qrammatik qaydaların öyrədilməsi ilə məhdudlaşmır; bu fənnin tədrisi həm də şagirdlərin nitq bacarıqlarını, mədəniyyətini və ünsiyyət qabiliyyətini formalaşdırmaq məqsədi daşıyır. Didaktik oyunlar bu məqsədlərə çatmaqda olduqca təsirli üsullardan biridir. Onlar dil öyrənmə prosesini həm şagirdlər üçün maraqlı və mənalı edir, həm də aktiv öyrənməni təşviq edir.
Azərbaycan dili dərslərində didaktik oyunlar dinləmə, danışma, oxu və yazı bacarıqlarının inkişaf etdirilməsi üçün müxtəlif formalarda tətbiq oluna bilər. Məsələn, ibtidai siniflərdə söz tanıma, söz zənciri, şəkil üzrə hekayə qurma, tapmaca-oyunlar kimi fəaliyyətlər həm dil bacarığını inkişaf etdirir, həm də dərsə olan marağı artırır. Yuxarı siniflərdə isə rol oyunları, debat, dilin üslubiyyətinə dair yarışlar, frazeoloji birləşmələrlə oyunlar və mövzuya uyğun qrup tapşırıqları həm nəzəri bilikləri möhkəmləndirir, həm də kommunikativ qabiliyyəti inkişaf etdirir.
Oyunlar vasitəsilə şagirdlər müxtəlif situasiyalarda söz ehtiyatından istifadə etməyi, düzgün və məntiqi danışmağı, ardıcıl fikir ifadə etməyi, eyni zamanda dinləmə və yazı bacarıqlarını da təkmilləşdirirlər. Didaktik oyunlar, beləliklə, Azərbaycan dili dərsini həm məzmun, həm forma, həm də psixoloji atmosfer baxımından zənginləşdirir.
Ümumiyyətlə, Azərbaycan dilinin tədrisi prosesində didaktik oyunlardan istifadə şagirdlərdə özünüinkişaf qabiliyyəti formalaşdırmalıdır, bu isə aşağıda qeyd edəcəyimiz bir sıra dəyərli xüsusiyyətlərə əsaslanır:

- məntiqi düşünmə
- ətraf aləmin cisim və hadisələrinə tənqidi yanaşma
- müstəqil olaraq qərar çıxarma
- ətrafda olanları yaradıcı surətdə dəyişmə
- bilikləri müstəqil əldə etmə
- praktiki problemləri həll etmə
- şəxsiyyətin inkişafına dair qarşıya yeni məqsədlər qoyma. [1, s. 78-79]

Bu xüsusiyyətlərin şagirdlərdə üzə çıxarılıb inkişaf etdirilməsində müəllim fəaliyyətinin rolu böyükdür. Müəllimin fəaliyyətinin istiqaməti üzrə təlimin üç əsas məqsədi qeyd olunur ki, bu da təlim prosesinin təşkilinin əsası sayılır.

- Öyrədici məqsəd – tədris materialının mənimsənilməsi və tətbiqi;
- İnkişafetdirici məqsəd – intellektual, yaradıcılıq və fərdi bacarıqların formalaşdırılması;
- Tərbiyəedici məqsəd – sosial-mənəvi dəyərlərin və pozitiv psixoloji mühitin yaradılması.

Bütün bu sadaladığımız məqsədlərin həyata keçirilməsi isə təlimin səmərəliliyindən, bu prosesin hansı səviyyədə təşkilindən asılıdır. Təlimin səmərəliliyinin artmasında, habelə təlim fəaliyyətinin yüksəldilməsində isə didaktik oyunların rolu böyükdür. Didaktik oyunlar ilk növbədə şagirdlərdə canlı maraq oyatmaqla, dərs prosesində fəallaşmalarını təmin edir. Azərbaycan dilinin tədrisində didaktik oyunlardan istifadə üçün səriştəli müəllimin qarşısında seçim imkanları genişdir. Onlar şagirdlərin tədqiqat aparmaq, müzakirələr etmək və s. kimi bacarıqlarının formalaşması üçün didaktik oyunların yaratdığı imkanlardan səmərəli istifadə edirlər.
Azərbaycan dili dərslərində təlim zamanı oyunlardan istifadə şagirdlərin yaş xüsusiyyətləri və inkişaf səviyyəsinə uyğun olaraq dəyişir.
İbtidai siniflərdə (1-4-cü siniflər) şagirdlər daha çox əyləncəli, sadə və vizual oyunlara üstünlük verirlər. Bu yaş dövründə uşaqların diqqət müddəti qısadır, onlar hərəkətə, rənglərə və səsə həssasdırlar. Buna görə də, oyunlarda şəkillərdən, rəngli kartlardan, hərəkətli fəaliyyətlərdən geniş

istifadə olunur. İbtidai siniflərdə oyunlar əsasən yeni sözlərin öyrənilməsi, sadə cümlələrin qurulması, səslərin tanınması və düzgün tələffüzün inkişaf etdirilməsi məqsədilə qurulur. Oyunlar şagirdlərin söz ehtiyatını artırır, onların dilə marağını oyadır və tədris prosesini daha maraqlı edir. Bu dövrdə oyunlar həm fərdi, həm də kiçik qruplarla aparılır, çünki əməkdaşlıq bacarıqları formalaşmağa başlayır.

Yuxarı siniflərdə (5-11-ci siniflər) isə şagirdlərin biliyi və təfəkkür səviyyəsi yüksəldikcə, oyunların məzmunu və mürəkkəbliyi artır. Bu yaşda oyunlar daha çox dilin qrammatik strukturunu dərinləşdirmək, nitq bacarıqlarını inkişaf etdirmək, üslubi və kommunikativ bacarıqları təkmilləşdirmək məqsədilə təşkil edilir. Yuxarı sinif şagirdləri üçün rol oyunları, debatlar, mövzu üzrə qrup tapşırıqları, mətn üzərində tədqiqat və yaradıcı yazı oyunları daha uyğun olur. Bu oyunlar şagirdləri müstəqil düşünməyə, arqumentlər qurmağa, fikirlərini ifadə etməyə təşviq edir. Qrup işləri isə əməkdaşlıq və liderlik bacarıqlarını inkişaf etdirir.

Hər iki mərhələdə müəllim oyunların seçilməsində şagirdlərin inkişaf xüsusiyyətlərini, dərsin məqsəd və məzmununu nəzərə almalı, oyunların vaxtına və formalarına diqqət yetirməlidir. Beləliklə, oyunlardan istifadə təlim prosesinin səmərəliliyini yüksəldir və şagirdlərin dil bacarıqları effektiv şəkildə inkişaf etdirilir.

Ümumilikdə, didaktik oyunlar əsasən şagirdlərin fəallığını artıran, yəni fəallaşdırma funksiyasını yerinə yetirən oyunlar kimi nəzərdən keçirilir. Fəallaşdırma oyunlarını təhlil etdikdən sonra onları iki əsas qrupa bölmək mümkündür:

1. İdraki aktivliyi gücləndirən oyunlar
2. Motivasiya yaradan oyunlar.

Fəallaşma oyunlarından “İlk oyun”, “Soğan qabığı”, “Domino”, “Yaşıllaşan ağac”, “Balığı tut”, “Kim daha diqqətlidir”, “Anaqram”, “Gül ləçəyi”, “Müsahibə”, “Göz bağlama”, “Korlanmış telefon”, “Gizli qabiliyyət”, “Hörümçək toru”, "Sehrli ağac", “Başını qaldır, dostum” və s. adlarını çəkə bilərik. [4, s. 105] Hər birini diqqətlə araşdırdıqda, görürük ki, bu oyunlar həm şagirdlərin fəal iştirakını təmin edir, həm də onların idraki marağını artıraraq mövzunun daha dərindən və maraqla mənimsənilməsinə şərait yaradır. Digər tərəfdən, “Müsahibə yolu ilə tanışlıq”, “Dolaşdırılmış zəncirlər”, “Yerlərini dəyişin” və buna bənzər oyunlar isə dərs prosesində motivasiyanın yüksəldilməsi məqsədilə tətbiq olunur. **Bundan əlavə,** Azərbaycan dili dərslərində **didaktik oyunların təşkili zamanı** səhnəciklər, nitq inkişafına yönəlmiş oyunlar, improvizasiya fəaliyyətləri, oyun-mahnılar, nağıl kompozisiyaları, atalar sözləri, tapmacalar və yanıltmaclardan da geniş şəkildə istifadə olunur. Bu növ fəaliyyətlər, eyni zamanda, şifahi xalq ədəbiyyatının elementlərinə əsaslandığı üçün həm şagirdlərin dil bacarıqlarını inkişaf etdirir, həm də onların milli-mənəvi dəyərlərlə tanışlığına və bu dəyərlərin mənimsənilməsinə töhfə verir.

Azərbaycan dili dərslərində tətbiq edilə biləcək didaktik oyunlara bir neçəsinə nəzər salaq:

Oyun: "Sehrli ağac"

Bu oyun şagirdlərin yaradıcı düşüncəsini və dil bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır. Müəllim lövhəyə budaqlı ağac şəkli asır və şagirdlərə bu ağacın “sehrli” olduğunu bildirir. Ağacın hər budağı müəyyən sayda xanadan ibarətdir. Şagirdlər isə həmin xanalara tapşırığa uyğun dil vahidlərini – məsələn, mürəkkəb isimlər, sifətlər, fel birləşmələri, frazeoloji ifadələr və ya sinonim-antonoim cütlükləri yerləşdirməlidirlər. Bu oyun müxtəlif mövzularda – söz ehtiyatının artırılması, leksik mövzuların təkrarı, söz birləşmələrinin qurulması, morfoloji və sintaktik biliklərin möhkəmləndirilməsi üçün tətbiq oluna bilər. "Sehrli ağac" strukturlaşdırılmış, eyni zamanda, yaradıcı fəaliyyəti təşviq edən oyun formatıdır və həm fərdi, həm də qrup şəklində yerinə yetirilə bilər. Oyun prosesində şagirdlərin diqqəti, məntiqi düşünmə bacarığı, həmçinin əməkdaşlıq və təqdimetmə vərdişləri inkişaf etdirilir.

Oyun: “Fikir pillələri”

Bu oyun şagirdlərin məntiqi ardıcıllıqla düşünmək, fikir ifadə etmək və nitq bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır. Müəllim lövhədə və ya vərəqlərdə pilləli quruluşda bir sxem təqdim edir.

Hər pillə müəyyən bir fikir, sual və ya açar söz ilə başlayır və şagirdlər bu pillələri məntiqi və tematik ardıcıllıqla dolduraraq fikri tamamlamağa çalışırlar. Məsələn, pillələr "Kim?", "Harada?", "Nə etdi?", "Nəticə nə oldu?" kimi strukturlu suallar formasında ola bilər. Şagirdlər bu pillələr üzrə ardıcıl cümlələr quraraq fikri mətn halına gətirir və ya yaradıcı hekayə formalaşdırırlar.

"Fikir pillələri" oyunu müxtəlif mövzularda – mətnin quruluşu, nitq bacarıqlarının inkişafı, yaradıcı yazı, düşüncə ardıcıllığı, qrammatik mövzuların tətbiqi və şifahi nitq məşqləri zamanı istifadə oluna bilər. Bu oyun həm fərdi, həm də qrup şəklində tətbiq edilə bilər. Oyun prosesi şagirdlərdə analitik təfəkkürü, nitq ardıcıllığını, əsas fikir yaratmaq və onu əsaslandırmaq bacarıqlarını inkişaf etdirir. Eyni zamanda, fikir quruculuğu və yazı planı hazırlamaq vərdişlərinin formalaşmasına kömək edir.

Oyun: "Soğan qabığı"

Fəallaşma bütün siniflə aparılır. Sarı rəngli vərəqlərdən ibarət (soğan qabığını xatırladan) soğan hazırlanır. Soğanın hər qabığına (hər vərəqə ayrıca) sual yazılır (və ya tapşırıq). Sinifdəki bütün şagirdlər hazır vəziyyətdə olan soğanı (top şəkilində) bir-birlərinə atırlar. Hansı yoldaş soğanı tutsa, soğanın bir qabığını açaraq orda gördüyü sualı cəld cavablandırır və dərhal vaxt itirmədən digər yoldaşına atır. Oyun bu şəkildə davam etdirilir. [7]

Bu oyun şagirdlərin sürətli düşünmə, diqqət və dərs mövzusunu təkrar etmə bacarıqlarını inkişaf etdirmək üçün nəzərdə tutulub. Müəllim sualları və tapşırıqları şagirdlərin yaş xüsusiyyətlərinə və dərsin mövzusuna uyğun seçməlidir ki, oyun həm əyləncəli, həm də faydalı olsun. "Soğan qabığı" oyunu sinifdə interaktiv mühit yaradır, şagirdlərin fəal iştirakını təmin edir və onların bir-biri ilə əməkdaşlıq bacarıqlarını gücləndirir. Eyni zamanda, dərs materialının daha yaxşı mənimsənilməsinə, yaddaşda qalmasına və motivasiyanın artmasına xidmət edir. Oyun zamanı müəllim şagirdlərin cavablarını dinləyərək düzəlişlər edə və əlavə izahlar verə bilər, beləliklə, oyun tədris prosesinin ayrılmaz hissəsinə çevrilir.

Oyun: "Sehrli qutu"

Bu oyun şagirdlərin yaradıcı düşüncəsini və dil bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır. Müəllim dərsə uyğun hazırlanmış "sehrli qutu" təqdim edir və bildirir ki, bu qutunun içində müxtəlif tapşırıqlar və ya söz kartları var. Şagirdlər növbə ilə qutudan kart çıxarır və tapşırığa əsasən həmin söz və ya ifadə ilə cümlə qurur, mətn yazır, sinonimini tapır, mənasını izah edir və ya digər dil bacarıqlarına dair fəaliyyət göstərir. Bu oyun müxtəlif mövzularda – söz ehtiyatının artırılması, leksik mövzuların təkrarı, frazeoloji ifadələr, morfoloji biliklər, sinonim-antonoim cütlükləri, yazı bacarıqları və üslubi məşqlər zamanı istifadə oluna bilər. "Sehrli qutu" strukturlaşdırılmış, eyni zamanda yaradıcı fəaliyyəti stimullaşdıran oyun formatıdır və fərdi, cütlərlə və ya qrup şəklində oynanıla bilər. Oyun prosesi şagirdlərdə diqqət, məntiqi və assosiativ düşünmə, təqdimetmə bacarığı, həmçinin dilə qarşı maraq və müstəqil işləmə vərdişlərini inkişaf etdirir.

Yuxarıda sadalanan oyunları öz dərslərimdə də tətbiq edirəm və bunun dərslərin keyfiyyətinə müsbət təsir etdiyini müşahidə edirəm. Bu oyunlar Azərbaycan dili dərslərində mövzuların öyrənilməsini asanlaşdırır, mətn və dil qaydalarının daha effektiv mənimsənilməsinə kömək edir, eyni zamanda şagirdlərin dərs prosesində aktivliyini artırır və passivliyi azaldır.

Azərbaycan dili dərslərində oyunlardan istifadə şagirdlərin bu texnologiyaya olan tələbatını əks etdirir. Oyunlar təlimdə interaktiv texnologiya kimi çıxış edir və onların sistemli, məqsədyönlü tətbiqi şagirdlərdə bu texnologiyaya qarşı müsbət münasibət formalaşdırır. Məhz bu texnoloji yanaşma ilə aparılan dərslər öyrənmənin keyfiyyətini artırır və təhsil prosesində daha səmərəli nəticələr əldə etməyə imkan verir.

NƏTİCƏ

Araşdırmalar göstərir ki, didaktik oyunlar Azərbaycan dili dərslərində təlimin keyfiyyətini artırmaqla yanaşı, şagirdlərin dərsə marağını, fəallığını və idraki qabiliyyətlərini də əhəmiyyətli dərəcədə inkişaf etdirir. Bu oyunlar interaktiv və əyanilik əsaslı təlim texnologiyası kimi çıxış edərək təlim prosesinin monotonluğunu aradan qaldırır, dərslərə canlılıq və müxtəliflik gətirir. Xüsusilə ibtidai siniflərdə

oyunlardan istifadə dilin öyrənilməsini daha asan və maraqlı edir, yuxarı siniflərdə isə analitik və tənqidi düşünmənin formalaşmasına imkan yaradır.

Didaktik oyunların məqsədəuyğun seçilməsi, düzgün təşkili və şagirdlərin yaş səviyyəsinə uyğunlaşdırılması onların tədrisdəki funksionallığını artırır. Belə oyunlar yalnız bilik ötürmək vasitəsi deyil, həm də öyrənməyə sövq edən, motivasiya yaradan və şagirdin şəxsiyyətinin formalaşmasına təsir göstərən mühüm pedaqoji vasitədir. Məqalədə təhlil edilən oyun nümunələri və onların təsnifatı göstərdi ki, bu yanaşma təlimin effektivliyini artırmaq baxımından geniş imkanlar yaradır. Didaktik oyunlardan məqsədli istifadə Azərbaycan dili dərslərində həm fənn üzrə nəticələrin yüksəlməsinə, həm də şagirdlərdə müstəqil öyrənmə və sosial bacarıqların inkişafına mühüm töhfə verir.

ƏDƏBİYYAT

1. Cəfərova N., Qasımova M. Azərbaycan dili təlimində didaktik oyunlardan istifadə. Bakı-2023, ADPU-nəş. 102 səh.
2. Hüseynov H. Əyləncəli qrammatik oyunlar. Bakı, 2008, ADPU nəş. 155 səh.
3. Hüseynzadə R., Əzizova Z., Əliyev S., Verdiyeva Ü. Pedaqogika. Bakı: Mütərcim, 2021. 488 səh.
4. Muradova G. Azərbaycan dili dərslərində oyunlardan istifadənin əhəmiyyəti və tətbiqi yolları. Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi əsərləri, Cild 89, № 2, 2022. Səh. 102-107
5. Sadıqov F., Əliyeva L. Didaktik oyunlar. Bakı, 2000, "Ünsiyyət" nəşriyyatı, 32 səh.
6. https://www.eudi.az/meqale/etrafli/699
7. https://metodiktovsiyye.blogspot.com/2015/09/oyunlar.html

THE LİNGUİSTİC APPROACH TO THE TERM "REALİA"

"REALİ" TERMİNİNƏ LİNQVİSTİK YANAŞMA

Adıgözəlova Nübubət Nizami qızı
Gəncə Dövlət Universiteti, dissertant,müəllim
Orcıd: 0009-0003-9081-6299

Abstract
The article presented to you examines the problem of realia as a verbal expression of the specific features of national cultures, and clarifies the types of verbal communication. In any language there are numerous lexical units that express events characteristic, social system and traditions of a particular people. It is these words that reflect the inextricable connection between language and culture, First of all, these lexical units are realias. Currently, the study and research of realias are of great interest in linguistics. Realia, like all linguistic terms, are studied by the lexicological field of language. It also analyzes the stylistic differentiation of the dictionary from the point of view of various linguists. One of the criteria for highlighting the style of a dictionary is to give connotative meaning to the dictionary. The given article examines and studies various classifications of linguistic terms by both Azerbaijani linguist N.Valiyeva and foreign linguists (S.Gramley, M.Halliday, A.Kretov, N.Fenenko).
Key words: language, interlanguage relation, verbal intercourse, lexical units, realis.

Xülasə
Təqdim olunan məqalədə "realilər" milli mədəniyyətlərin spesifik xüsusiyyətlərinin verbal ifadəsi kimi araşdırılır, verbal ünsiyyət növlərinə aydınlıq gətirilir. İstənilən dildə konkret xalqa xas olan hadisələri,həmin xalqın ictimai quruluşunu, adət və ənənələrini ifadə edən çoxsaylı leksik vahidlər mövcuddur. Məhz bu sözlər dil və mədəniyyət arasında qırılmaz əlaqəni əks etdirir. Əvvəla, bu leksik vahidlər realilərdir. Hal-hazırda realilərin öyrənilməsi və tədqiqi dilçilikdə böyük maraq doğurur. Realiləri, dilin leksikologiya sahəsi öyrənir. Məqalədə həmçinin müxtəlif dilçi alimlərin nəzərindən lüğətin üslubi diferensiasiyasını təhlil edilir. Lüğətin üslubunu vurğulamaq meyarlarından biri lüğətə konnotativ məna verməkdir. Bu məqalədə istər Azərbaycan dilçisi N.Vəliyeva, istərsə də xarici dilçilər (S.Gramley, M.Halliday, A.Kretov, N.Fenenko) tərəfindən dilçilik terminlərinin müxtəlif təsnifatları araşdırılır və tədqiq edilir.
Açar sözlər: dil, dillərarası əlaqə, **verbal kommunikasiya,** leksik vahidlər, reali.

giriş

Hər bir fəaliyyət sferasının və ya bilik sahəsinin təbiəti dünyanın qavrayışının özünəməxsus mənzərəsi ilə müəyyən edilən linqvistik vasitələrin və mətn növlərinin seçiminə xüsusi bir yanaşma təmin edir. Bununla belə, istənilən nitq bir sıra qeyri-linqvistik xüsusiyyətlərlə, məsələn, tədqiq obyektindən və təfəkkür növündən asılı olmayaraq dəqiqlik, mücərrədlik, obrazlılıq, məntiq, fikirlərin təqdimat xüsusiyyətləri ilə xarakterizə olunur. Hər bir insanın və bütövlükdə cəmiyyətin həyatında dil mühüm rol oynayır, çünki məhz o, hər bir xalqın mədəniyyətini, həyat tərzini əks etdirir, eyni zamanda müəyyən xalqın milli mədəni kodunu daşıyır.

Dilçilik dil əlaqələrini iki müstəqil dil sisteminin, yəni müxtəlif səviyyələrdəki proseslərin: fonoloji, leksik və qrammatik birləşməsi kimi öyrənir. Psixolinqvistika fərdi çoxdilliliklə maraqlanır: bir neçə dilin biliyinin şüurda necə birlikdə olmasını. Sosiolinqvistika çoxdilli cəmiyyətlərin qarşılıqlı əlaqəsini dil vahidlərinin alınma prosesində müəyyən linqvistik vəziyyət kimi nəzərdən keçirir. Bu cür qarşılıqlı əlaqənin nəticələri bir sıra amillərdən asılıdır, bunlar arasında dil qrupları arasındakı əlaqələrinin müddəti və intensivliyi, onlar arasındakı əlaqələrin növləri və ünsiyyət vasitəsi kimi xidmət edən dillərin yerinə yetirdiyi funksiyalar daxildir.

Müxtəlif mədəniyyətlərin nümayəndələri bir-biri ilə qarşılıqlı əlaqədə olur, və nəticədə linqvistik səviyyədə informasiya mübadiləsi baş verir. Bu proses nəticəsində isə dilin leksik təbəqəsini təşkil

edən, konkret xalqın ictimai quruluşunu, dünyagörüşünü, adət və ənənələrini özündə əks etdirən dil vahidləri olan "realilər" yaranır.

Müasir milli mədəniyyətin siması isə orta əsr Azərbaycan intibahının ən əlamətdar xüsusiyyətlərinin belə eyni deyil, bəlkə tarixən dəyişilə-dəyişilə, yeniləşə-yeniləşə gələn, əsasını o dövrlərdən götürən estetik təsəvvürlər sistemi ilə cilalanmış bir keyfiyyətdir. Buna görə də kökü xalq tarixinin dərin mənəvi qatlarına bağlı olan bir məfhumu itirmək, unutmaq doğru deyildir. Milli mədəniyyətlərdə unudulmuş, potensial hala keçmiş elə qiymətli demokratik meyllər də var ki, bunları araşdırıb meydana çıxarmaq lazımdır. Beynəlmiləlçilik milli zəmində yaranır, ona məxsus olan həmrəylik, əməkdaşlıq, bərabərlik, qarşılıqlı yardım, dostluq və s. prinsiplər millilik vasitəsilə təzahür edir. Beynəlmiləlçilik prinsiplərinin mahiyyəti bütün millətlər, xalqlar üçün vahiddir. Lakin hər bir millət və xalq bu prinsipləri öz spesifik xüsusiyyətlərinə və həyat tərzinə uyğun olaraq qəbul edir. Millilik əsasən millətdaxili münasibətlərdə, beynəlmiləlçilik isə millətlərarası münasibətlərdə özünü göstərir [4, s.105-106].

Realilər milli mədəniyyətlərin spesifik xüsusiyyətlərinin verbal ifadəsi kimi məsələsini araşdıranda verbal kommunikasiyanın növlərinə aydınlıq gətirək.

Ünsiyyət sahəsində mütəxəssislər koqnitiv, məntiqli (inandırıcı), ekspressiv (ifadəli), məqsədyönlü (kortəbii) və ritual (ənənəvi) kommunikasiya növlərini fərqləndirirlər. Koqnitiv ünsiyyət yeni informasiyanın mənimsənilməsini və onun təcrübi fəaliyyətində tətbiqini həyata keçirir. İnandırıcı ünsiyyət növünün məqsədi həmsöhbətçillərdə müəyyən hissləri yaratmaq və mənəvi dəyərləri formalaşdırmaqdır; əməkdaşlığın müvafiq strategiyalarının düzlüyünə inandırmaqdır; həmsöhbətçili özünə həmfikir etməkdir. Ekspressiv ünsiyyət növü tərəfdaşda psixo-emosional əhval-ruhiyyə formalaşdırmaq, hissləri, həyəcanı çatdırmaq, lazımi sosial hərəkətə yönəltmək məqsədilə həyata keçirilir. Məqsədyönlü ünsiyyət növü tərəfdaşın davranışının dəyişilməsinə, qaydaların, dəyərlərin yeniləşməsinə güclü təsir göstərmək məqsədilə həyata keçirilir. Ritual ünsiyyət növü şərti münasibətlərinin gücləndirilməsi və saxlanılması, qruplarda ictimai psixikasının idarə olunması, firma və ya korporasiyanın ritual ənənələrin saxlanılması məqsədilə həyata keçirilir [7, s.337-338]. Bütün sadalanan ünsiyyət növlərində realilər geniş istifadə olunur və tarixi inkişaf yolunu keçir.

N.Vəliyeva "Communicative-Pragmatic Paradigm of English Lexicology" adlı monoqrafiyasında izah edir: "*Leksikologiya dilçiliyin sözlərin və söz qruplarının lüğəti və xarakterik xüsusiyyətləri ilə məşğul olan hissəsidir. "Lüğət" termini dilin malik olduğu söz və söz qrupları sistemini ifadə etmək üçün istifadə olunur. "Söz" termini bir qrup səsin məna ilə birləşməsindən yaranan dilin əsas leksik vahidini bildirir. Bu vahid ona xas olan qrammatik funksiyalarda işlənir. Bu, tam bir deyim kimi tək dayana bilən dilin ən kiçik vahididir. "Söz qrupu" termini dildə hazır vahid kimi mövcud olan, məna birliyinə, sintaktik funksiya vəhdətinə malik olan sözlər qrupunu, məs. "as loose as a goose" söz qrupu "yöndəmsiz, naqabil, bacarıqsız" mənasındadır və cümlədə "He is as loose as a goose" predikativi kimi işlənir*" [6, s.10].

N.Vəliyeva doğru hesab edir: "*Bəzi insanlar üçün sözləri öyrənmək maraqsız görünə bilər. Lakin düzgün öyrənilərsə, o, kosmosun sirlərini açmaq qədər maraqlı və yeni ola bilər. Əhəmiyyətlidir ki, bir çox alimlər sözü linqvistik fenomen kimi müəyyən etməyə çalışıblar. Lakin təriflərin heç biri bütün aspektlərdə tam qənaətbəxş hesab edilə bilməz. Eyni dərəcədə təəccüblüdür ki, müasir elmin bütün nailiyyətlərinə baxmayaraq, sözün mahiyyətinin bəzi mühüm cəhətləri hələ də bizdən yayınır. Sözün əsas vahidi olan "dil" adlı fenomeni də tam başa düşmürük. Dilin mənşəyi və deməli, sözlərin mənşəyi haqqında çox şey bilmirik*" [6, s.11].

N.Ç.Vəliyeva müasir ingilis dilində söz yaradıcılığının müxtəlif əsas və düzəltmə yolları haqqında bəhs edəndə, sound interchange – səs mübadiləsinin, gradation – qradasiya prosesinin, stress interchange – vurğu mübadiləsinin, the imitation of sounds words – səs sözlərinin təqlidinin, blends or portmanteau words – qarışıq və portmanteau sözlərin, back-formation or reversion – sözlərin qısaltmasının, "stone wall" combinations – sifətlərin substantivləşməsi ilə düzələn birləşmələrinin geniş izahını verib [6, s.44-71].

Xarici dilçilər leksik vahidlərin təsnifatı üçün iki meyar təklif edirlər - dialekt və registr. Sistemli-funksional dilçilik nəzəriyyəsinin banisi Maykl Hallidey və onun həmkarları leksik vahidlərin

dialektik dəyişkənliyini ünsiyyət iştirakçılarının xüsusiyyətləri ilə əlaqələndirməyi təklif edirlər, halbuki registr səviyyəsində dəyişkənlik müxtəlif ünsiyyət hallarında müəyyən leksik vahidlərin istifadəsi ilə əlaqələndirilir [2]. Eyni zamanda, dialekt dəyişkənliyi təkcə istifadə olunma ərazisindən asılı olaraq leksik vahidlərin təsvirini deyil, həm də ünsiyyət iştirakçısının sosial xüsusiyyətlərinə, yəni dil istifadəçilərinin təhsilindən, sosial təbəqəsindən, cinsi və yaşından asılı olaraq lüğətin fərqləndirilməsini əhatə edir.

Leksik vahidlərin dialekt dəyişkənliyinin tərəfdarları dilin ədəbi normasına uyğun gələn və yalnız leksik və qrammatik aspektləri ilə səciyyələnən standart dil adlanan dili təşkil edir. Kütləvi informasiya vasitələrində istifadə olunan bu kateqoriyanın leksikası həm dil daşıyıcıları, həm də xarici dil öyrənənlər tərəfindən öyrənilir, ümumiyyətlə qəbul edilir.Bununla belə, dilçilər standart dilin sərhədlərini dəqiq müəyyən etməyin mümkünsüzlüyünü qeyd edirlər. Bu onunla bağlıdır ki, dilin ədəbi forması şifahi və yazılı nitqə, müxtəlif ünsiyyət vəziyyətlərinə (rəsmi və qeyri-rəsmi) şamil edilir.

Xarici dil mədəniyyətinin lüğət tərkibini öyrənərkən, xüsusən də dil vahidlərinin çoxölçülü təhlilinə gəldikdə, konkret mədəniyyətin və ya dil birliyinin fərqli xüsusiyyətləri olan unikal obyektlərə və adlara həsr olunmuş ayrıca araşdırma aparmaq məntiqlidir. Məna və funksiyası konkret mədəniyyətə mənsubluğu ilə müəyyən edilən belə leksik vahidlərə ənənəvi olaraq bir sıra terminlər tətbiq edilir: "ekvivalent olmayan lüğət"; "ekzotik lüğət" və ya "ekzotizm"; "barbarlıq", "yerlilik"; "etnoqrafiya; "yadlıq"; "fon sözləri"; "konnotativ sözlər", "mədəni komponentli sözlər", "boşluqlar", "realilər" [7, s.36]. Biz bu terminlərin şərti sinonim kimi olmasını qəbul edirik, çünki hər birinin mənası tədqiqatın materialı və predmeti ilə müəyyən edilmiş özünəməxsus xüsusiyyətlər və xassələri ehtiva edir.

L.L.Nelyubin tərəfindən redaktə edilən izahlı tərcümə lüğəti realilərin strukturlaşdırılmış mənasını təklif edir:

1. Başqa dildə danışan insanların praktik təcrübəsində mövcud olmayan obyektləri, anlayışları, vəziyyətləri bildirən söz və ya ifadələr.
2. Xarici dilçilik və tərcüməşünaslıq tərəfindən öyrənilən müxtəlif amillər, məsələn, müəyyən bir ölkənin dövlət quruluşu, verilmiş xalqın tarixi və mədəniyyəti, bu dilin daşıyıcılarının dil əlaqələri və s. onların müəyyən bir dildə əks olunması baxımından.
3. Sözün nominativ mənası üçün əsas olan maddi mədəniyyət obyektləri.
4. Həyatın və məişət tərzinin milli səciyyəvi xüsusiyyətlərini bildirən sözlər [10].

Bu tərif müasir dilçilərin və tərcüməçilərin üzləşdiyi əsas dilemmalardan birini ortaya qoyur. Söhbət "söz kimi reali" və "əşya kimi reali" anlayışlarının qarışdırılmasından gedir. Tərcümə lüğətində bu məsələyə həddindən artıq geniş yanaşma bu terminin fəaliyyətini mahiyyətcə məhdudlaşdırır.

A.A.Kretov və N.A.Fenenko realilərin linqvistik nəzəriyyəsini yaratdılar. "Obyekt – anlayış – söz" semantik üçlüyü ideyasının davamı olaraq üç mənalı terminlər sistemi təqdim edildi:

1. Reali reallıq obyekti kimi (təbii fakt, artefakt) – R-reali.
2. Reali cəmiyyət mühitinin ideal ekvivalenti kimi (konsept) – C-reali.
3. Reali mədəni konseptin irəli sürülməsi vasitəsi kimi – L-reali [9, s.10].

Xüsusi qeyd edək ki, "reali-söz" və "reali-əşya" dəqiq ifadələr arasında aydın fərq olsa belə, mənaların oxşarlığından qaçmaq mümkün deyil. Əgər realilərin terminoloji bazasında "*müəyyən xalqın gündəlik həyatında mövcud olan və buna görə də digər xalqların dillərində heç bir ekvivalenti olmayan xüsusi milli söz və ifadələr*" olması fikrinə əsaslanırsa, onda biz müasir mədəniyyətin və nəticədə dilin ayrılmaz xüsusiyyətlərdən birini nəzərdən qaçırırıq [11, s.281].

Bu intensiv inkişaf edən mədəniyyətlərarası əlaqələrə və müəyyən dərəcədə cəmiyyətin tarixinin və inkişafının müasir mərhələsi üçün xarakterik olan mədəniyyətlərin yaxınlaşması faktına aiddir. Çünki orijinal hadisələrin və obyektlərin bir icmadan digərinə ötürüldüyü, ümumi tələblərə tabe olması, mədəniyyətlərarası əlaqələrin inkişaf dinamikasına təkan verir.

İspan dilçisi Roberto Mayoral Asensio da milli-mədəni xüsusiyyətlərinə malik olan leksik vahidlərin öyrənilməsinə yanaşmada vahidliyin olmaması problemindən yazır. Orijinal lüğətin tədqiqinin mənşəyinə dönən Mayoral Asensio sovet tərcümə məktəbinə, daha doğrusu A.V.Fedorovun

redaktoru olduğu "Ümumi tərcümə nəzəriyyəsinin əsasları" əsərinə qayıdır. Məhz bu əsərdən "reali" termini götürüldü, sonralar Otto Kadenin simasında Leypsiq məktəbi tərəfindən dəstəkləndi [3].
Kuba əsilli amerikalı dilçi Fernando Antonio Ruano Faxas bu məsələni "ekzotizm", "kulturema" və "rich point" (punto rico) kimi anlayışlardan istifadə edərək daha geniş şəkildə araşdırır. Fernando Antonio Ruano Faxas realiləri yalnız müəyyən bölgə üçün xarakterik olan və başqa bir bölgənin, başqa bir dilin reallığında mövcud olmayan və ya onlarda təmsil olunan, lakin fərqli şəkildə qəbul edilən hadisələri, unikal prosesləri və ya real hadisələrini təyin edən xüsusi vahidlər, işarələr, simvollar adlanır. O, "realilər" terminin sinonimi kimi "kulturema" və "rich point"ları hesab edir və onları millətlərarası ünsiyyətdə mədəniyyətin əsas problemləri adlandırır [5].
İlk dəfə "rich point" termini amerikalı antropoloq və etnoqraf Maykl Aqar tərəfindən "Language Shock: Understanding the culture of conversation" – "Dil şoku: nitq (danışıq) mədəniyyətinin anlaması" kitabında istifadə edilmişdir [1].

NƏTİCƏ

Realilər dilin leksik vahidləri kimi semantik məna ilə yanaşı, müəyyən emosional konnotasiyaya və üslub aktuallığına da malikdir. Azərbaycan dilində realilər müəyyən ictimai mühitin, bu və ya başqa dövrün məhsulu olub, dilin daşıyıcılarının həyat və məişət şəraitinin dəyişməsi ilə əlaqədar olaraq dəyişir, təkmilləşir, sabitləşir, və nəhayət, qəlblərə düşür, yaddaşda möhkəm kök salır. Xalq şüuru, xalq həyatı ilə yoğrulmuş, dövrlərin süzgəcindən süzülüb gələn, büllurlaşmış fikirlər toplusu olan realilərin semantik inkişafı nəzərə alınmasa, onları bəzən başa düşmək, şərh etmək çətinlik törədər. Azərbaycan dilçiliyində "realilər" geniş və fundamental şəkildə tədqiq olunmayıb.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Agar, M. Language Shock: Understanding the culture of conversation. – Harper Paperbacks, – 1995. – 288 p.
2. Halliday, M.A.K. An Introduction to Functional Grammar, 2-nd edition, – London, Arnold, – 2000. – 431 p.
3. Mayoral, Asensio R. La traducciyn de referencias culturales. – Universidad de Granada. – 1999. http://www.ugr.es/~rasensio/docs/Referencias_culturales.pdf
4. Məmmədova, S.K. Mədəniyyətşünaslıq. – Bakı: Kooperasiya nəşriyyatı, – 2001. – 202 s.
5. Ruano Faxas, F.A. Las realias y su importancia en la traducciyn, en la interpretaciyn, en los doblajes, en los subtitulajes, en la creaciyn hablada y escrita de discursos, en la lectura y en Internet. – Mode of access: https://ruanofaxas.wordpress.com/?s=realia
6. Valiyeva, N.Ch. Communicative-Pragmatic Paradigm of English Lexicology. – Baku: Science and Education, – 2014. – 288 p.
7. Vəliyeva, N.Ç. İzahlı Azərbaycanca-İngiliscə-Rusca Kommunikasiya Terminlər Lüğəti. – Bakı: Vətənoğlu, – 2018. – 352 s.
8. Влахов, С. Непереводимое в переводе. Реалии. / С.Влахов, С.Флорин. – М.: Международные отношения, – 1980. – 343 с.
9. Кретов, А.А., Фененко, Н.А. Лингвистическая теория реалии. Вестник Воронеж. гос. ун-та. Сер.: Лингвистика и межкультурная коммуникация № 1. – 2013. – с. 7-13.
10. Нелюбин, Л.Л. Толковый переводоведческий словарь. – 3-е изд., перераб. / под ред. Л.Л.Нелюбина. – М.: Флинта: Наука, – 2003. – 320 с.
11. Соболев, Л.Н. Пособие по переводу с русского языка на французский. – М.: Издательство Литературы на иностр. яз., – 1952. – 402 с.

INTEGRATİON OF TURKİC WORLD LİTERATURE İNTO GERMAN LANGUAGE TEACHİNG: THE EXAMPLE OF BAKHTİYAR VAHABZADEH

ИНТЕГРАЦИЯ ЛИТЕРАТУРЫ ТЮРКСКОГО МИРА В ПРЕПОДАВАНИЕ НЕМЕЦКОГО ЯЗЫКА: НА ПРИМЕРЕ БАХТИЯРА ВАХАБЗАДЕ

ALMAN DİLİ TƏDRİSİNDƏ TÜRK DÜNYASI ƏDƏBİYYATININ İNTEQRASİYASI: BƏXTİYAR VAHABZADƏ NÜMUNƏSİ

Aygün İsmayılova
ADPU, Xarici Dillər Mərkəzi, dosent
https\\ orcid.org\: 0000-0003-1214-600X

Xülasə
Bu məqalədə alman dili dərslərində Türk Dünyası ədəbiyyatının – xüsusilə də Bəxtiyar Vahabzadənin – yaradıcılığından istifadənin didaktik əhəmiyyəti araşdırılır. Əsas məqsəd tələbələrdə milli-mənəvi dəyərlərə hörmət, mədəniyyətlərarası anlayış və ana dilinə bağlılıq kimi anlayışların gücləndirilməsi, alman dili tədrisinin isə daha məzmunlu və funksional hala gətirilməsidir. Məqalədə şairin "Ana dili" adlı şeirindən tərcümə nümunəsi, müzakirə sualları və tədris fəaliyyətləri təqdim olunur. Bu yanaşma, xarici dil öyrənməsini milli kimlik və vətəndaşlıq şüuru ilə əlaqələndirən inteqrasiyalı bir model təklif edir.
Açar sözlər: Alman dili tədrisi, Türk Dünyası ədəbiyyatı, Bəxtiyar Vahabzadə, milli kimlik, mədəniyyətlərarası kommunikasiya, poetik tərcümə

Abstract
This article explores the didactic potential of integrating Turkic World literature, specifically the works of Bakhtiyar Vahabzadeh, into German language teaching. The primary goal is to foster students' respect for national-spiritual values, promote intercultural understanding, and strengthen attachment to the mother tongue, thereby making language learning more meaningful and functional. The paper includes a poetic translation of Vahabzadeh's poem "Mother Tongue", discussion questions, and suggested teaching activities. This integrative approach presents a model that connects foreign language learning with national identity and civic consciousness.
Keywords: German language teaching, Turkic World literature, Bakhtiyar Vahabzadeh, national identity, intercultural communication, poetic translation

Резюме
В данной статье рассматривается дидактическое значение использования литературы Тюркского мира, особенно творчества Бахтияра Вахабзаде, в преподавании немецкого языка. Основная цель — укрепление уважения учащихся к национально-духовным ценностям, развитие межкультурного понимания и привязанности к родному языку, а также придание обучению немецкому языку более содержательного характера. В статье представлены пример поэтического перевода стихотворения «Родной язык», вопросы для обсуждения и методы интеграции в учебный процесс. Предлагается интегративная модель обучения, сочетающая изучение иностранного языка с формированием национального сознания и гражданской идентичности.
Ключевые слова: Преподавание немецкого языка, литература Тюркского мира, Бахтияр Вахабзаде, национальная идентичность, межкультурная коммуникация, поэтический перевод

Giriş

Alman dili Azərbaycanda geniş yayılan və öyrənilən əsas xarici dillərdən biridir. Lakin alman dili dərslərində tez-tez rast gəlinən problemler sırasında məzmunun tələbələrin mədəni kimliyi ilə əlaqəsiz olması ön sıradadır. Bu səbəbdən, milli ədəbiyyatın – xüsusilə də vətənpərvərlik və millilik mövzularında zəngin irsə sahib olan Bəxtiyar Vahabzadənin əsərlərinin – alman dili dərslərinə inteqrasiyası xüsusi əhəmiyyət daşıyır. [2], [3].

Müasir tədris modellərində yalnız linqvistik biliklərin deyil, mədəni və mənəvi dəyərlərin də inteqrasiyası zərurətə çevrilmişdir. Bu baxımdan, Türk Dünyası ədəbiyyatının – xüsusilə də Bəxtiyar Vahabzadənin əsərlərinin alman dili dərslərində istifadəsi aktual və funksional yanaşmadır.

Məqsəd, tələbələrdə milli-mənəvi dəyərlərə hörmət, mədəniyyətlərarası dialoq və ana dilinə bağlılıq kimi anlayışları gücləndirməklə yanaşı, alman dilinin öyrənilməsini də daha məzmunlu və funksional hala gətirməkdir.

Bəxtiyar Vahabzadə yaradıcılığında **vətən**, **ana dili**, **azadlıq** və **milli kimlik** aparıcı mövzulardır. [1] Bu ideyalar tələbələrin həm dil bacarıqlarını, həm də vətəndaşlıq və mədəni kimlik şüurunu inkişaf etdirmək üçün olduqca əlverişli materialdır. Məsələn, şairin "**Ana dili**" adlı şeirindən bir hissəyə nəzər salaq:

"Ana dilim, ana südü kimidir,
Kim onu unudursa – dinsizdir, itidir."[1]

Alman dilinə tərcüməsi:

„Die Muttersprache ist wie die Muttermilch.
Wer sie vergisst, ist gottlos und verloren."

Bu misralar əsasında tələbələrə tərcümə, leksik və qrammatik tapşırıqlar təqdim oluna bilər. Bundan əlavə, aşağıdakı suallar əsasında dərsdə müzakirələr təşkil edilə bilər:

„Warum ist die Muttersprache für die Identität eines Menschen wichtig?"- İnsanın şəxsiyyəti üçün ana dili nə üçün vacibdir?"

„Wie kann man die eigene Sprache und Kultur im Ausland bewahren?"-"Xaricdə öz dilinizi və mədəniyyətinizi necə qoruya bilərsiniz?"

Bu poetik nümunələr şagirdlərdə mədəniyyətlərarası empatiya və milli-mənəvi bağlılıq hisslərini inkişaf etdirmək üçün əlverişli imkan yaradır [4].

Dərsdə qrup tapşırıqları, bədii tərcümə təcrübələri və poetik dəyərləndirmə fəaliyyətləri aparıla bilər.

Bu üsullarla tələbələr həm dil öyrənir, həm də öz mədəni dəyərlərini yeni kontekstdə yenidən dərk edirlər.

Nəticə: Beləliklə, Bəxtiyar Vahabzadə kimi milli ruhu daşıyan müəlliflərin yaradıcılığı alman dili tədrisində yalnız dil öyrənməyə deyil, tələbələrin mədəni və mənəvi inkişafına da xidmət edə bilər. Bu yanaşma, alman dilinin öyrənilməsini fərdi və kollektiv kimliyin inkişafı ilə vəhdətdə təqdim edir. Şeirlər üzərində aparılan dil və məzmun əsaslı tədris, tələbələrin milli dəyərlərə bağlılığını gücləndirir və mədəniyyətlərarası anlayışını inkişaf etdirir. Beləliklə, alman dili dərsləri həm də bir vətəndaşlıq məktəbinə çevrilə bilər

Ədəbiyyat:

1. Vahabzadə, B. (2004). *Seçilmiş əsərləri*. Bakı: Şərq-Qərb Nəşriyyatı.
2. Quliyev, M. (2012). *Azərbaycan poeziyasında milli ideya və kimlik*. Bakı: Elm və Təhsil.
3. Əliyeva, R. (2019). Alman dili tədrisində poetik mətndən istifadə imkanları. *Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri*, (1), 85–92.

4. Hişyar, S. (2020). *Türk Dünyası Edebiyatlarında Ortak Temalar ve Kimlik Unsurları*. Ankara: Türksoy Yayınları.
5. Byram, M. (1997). *Teaching and Assessing Intercultural Communicative Competence*. Clevedon: Multilingual Matters.
6. İsmayılova, A. (2023). Xarici dil dərslərində milli-mədəni dəyərlərin tədris metodikası. *ADPU Elmi Xəbərlər*, (4), 55–61

FREQUENCY OF DEVELOPMENT OF ARTISTIC POETRY IN THE POETRY OF BAKHTIYAR VAGABZADE

BƏXTİYAR VAHABZADƏ POEZİYASINDA BƏDİİ XİTABLARIN İŞLƏNMƏ TEZLİYİ

Aynur Paşayeva
ARTİ, Nəsimi adına Dilçilik İnstitutu, filologiya elmlər doktoru, dosent
ORCİD: 0000-0001-9448-3928

Xülasə
Bəxtiyar Vahabzadənin poetik irsinin dilçilik aspektində öyrənilməsi Azərbaycan ədəbi dilinin inkişafında və təbliğində mühüm əhəmiyyət kəsb edir. Belə ki, bu sahədə araşdırmaların aparılması dil məsələlərində Bəxtiyar Vahabzadənin rolunu və əhəmiyyətini, şairin bu sahəyə gətirdiyi yeni meyl və tələbləri açıb göstərməyə imkan verir. O, milli məsələlərin həllində Azərbaycan xalqının duyğu və düşüncə dünyasını əks etdirməsi ilə tanınmış, hər zaman xalqın vicdanının səsi olmağı bacarmışdır. Vahabzadə millətinə məxsus olan hər şeyin: vətəninin, dilinin, mədəniyyətin yorulmaz müdafiəçisidir.
Bəxtiyar Vahabzadənin poeziyasında bədii keyfiyyət daşıyıcısı olan amillərdən biri bədii xitablardan bol-bol istifadə olunması ilə bağlıdır. Xitablar ifadə vasitələrinə, sintaktik göstəricilərinə və müəllif-oxucu münasibətlərinin ifadəsinə görə nəzərdən keçirilmişdir. Bütün bunlar xitabların şeir quruluşunda oynadıqları mühüm rolunu açıb göstərir və onların cümlə üzvü olmasalar da, cümlənin təşkili, fikrin obrazlı, emosional olmasında mühüm əhəmiyyət kəsb etdiyi vurğulanır. Şairin poeziyasından seçilən nümunələrin təhlili göstərir ki, bədii xitablar kommunikasiya zamanı mətnə canlılıq gətirir, səmimilik bəxş edirlər.
Açar sözlər: Bəxtiyar Vahabzadə, ədəbi dil, poeziya, bədii xitab, ifadə vasitəsi.

Abstract
The study of Bakhtiyar Vahabzade's poetic heritage in the linguistic aspect is of great importance in the development and promotion of the Azerbaijani literary language. Thus, conducting research in this area allows us to reveal and demonstrate the role and significance of Bakhtiyar Vahabzade in language issues, new trends, and demands that the poet brought to this area. He is known for reflecting the world of feelings and thoughts of the Azerbaijani people in solving national issues, and always managed to be the voice of the people's conscience. Vahabzade is a tireless defender of everything that belongs to his people: homeland, language, and culture. One of the factors that carry artistry in the poetry of Bakhtiyar Vahabzade is the abundant use of artistic appeals. Means of expression, syntactic indicators, and expression of the relationship between the author and the reader considered the appeals. All this reveals the important role that appeals play in the structure of the poem, and although they are not members of the sentence, it is emphasized that they are of great importance in the organization of the sentence, the imagery of thought, and the emotionality of thought. The analysis of selected examples from the poet's poetry shows that artistic addresses bring vitality to the text during communication and give it sincerity.
Keywords: Bakhtiyar Vahabzade, literary language, poetry, artistic address, means of expression.

Giriş

Azərbaycan poeziyası tarixində özünəməxsus yeri və mövqeyi ilə seçilən qüdrətli qələm sahibi Bəxtiyar Vahabzadə çoxşaxəli yaradıcılığı – poemalar, şeirlər, publisistik yazıları ilə dilimizin, mədəniyyətimizin, ədəbiyyatımızın əsrlərlə davam edən ədəbi ənənələrini özündə ehtiva etdirməkdədir. Ədibin zəngin və rəngarəng poetik dünyasında yurdsevərlik, milli-mənəvi azadlıq, əxlaqi dəyərlərə və adət-ənənələrə ehtiram kimi məsələlər diqqəti cəlb edən əsas mövzulardandır. Bu

xüsusiyyətlər onun şeir və poemalarında aydın şəkildə özünü göstərir. Yaradıcılığa şeirlə başlayan, sonralar poema və dram əsərləri yazan şair poeziyanın sehrli dünyasından heç zaman uzaqlaşmamışdır. Milli ideologiyaya bağlılığı və bu düşüncəni poetik formada ifadə etmək bacarığı onu öz dövrünün digər qələm sahiblərindən əhəmiyyətli dərəcədə fərqləndirirdi. Bəxtiyar Vahabzadə poeziyaya ötəri yanaşmamış, onu yaradıcılığının əsas və aparıcı istiqamətlərindən birinə çevirmiş, oxucunu düşündürən bir çox dəyərli bədii sənət nümunələri yaratmağa nail olmuşdur.

Bəxtiyar Vahabzadə yaradıcılığında Azərbaycan dilinin zənginliyi, ifadəliliyi, ahəngdarlığı, eyni zamanda, bədii sözün gözəlliyi və rəngarəngliyi aydın şəkildə diqqəti cəlb edir. Şairin dilində bədii təsvir və ifadə vasitələri məna-məzmun xüsusiyyətlərini özündə əks etdirməklə oxucusunu düşündürür. Çünki bu poeziyada bədii zənginlik, ifadəlilik bir misra ilə deyil, bütövlükdə şeirin məzmunundan güc alır. Bu baxımdan da, bədii təsvir vasitələri içərisində bədii xitabların poetik xüsusiyyətləri emosionallıq baxımından xüsusi əhəmiyyət kəsb edir və əsas müraciət forması kimi ədibin dilinin metaforik gücünü, enerjisini ifadə edir.

Bədii dildə xitabın qrammatik və bədii-üslubi cəhətlərini vurğulayan tədqiqatçılar hesab edir ki, "*əgər kommunikativ situasiyada xitabdan əsas məqsəd dinləyicinin diqqətini cəlb etmək, onu dinləməyə səfərbər etməkdirsə, lirik poeziyada xitab daha çox bədii-üslubi vasitə kimi emosionallıq yaratmaq üçün işlədilir. Cümlə üzvləri ilə bağlı olmaması, emosional intonasiya ilə müşahidə edilməsi xitabın geniş işlənmsi üçün müstəsna şərait yaradır. Lirik poeziyada xitab maksimum hislə yükləndirilir*" (3, s. 77). Q. Kazımov da XIX əsr ədəbi dili üzərindəki müşahidələrinə əsasən xitaba qrammatik cəhətdən daha çox, bədii-üslub baxımdan yanaşaraq əksəriyyətinin daha çox "*rəmzi-bədii obrazlara müraciət xarakteri*" daşıdığını və əsasən bədii üsluba xidmət etdiyini qeyd edir (2, s. 207).

Bəxtiyar Vahabzadə poeziyasında xitablardan geniş şəkildə istifadə olunur, poetik misraların əvvəlində, ortasında və sonunda tez-tez işlənir:

Qızım, inad olma, inadı sındır,
Anla ki, xan sənin hökmdarındır! (5, s. 28);
Bu ağ saçlar, *ay ana*, səni dərdə salmasın,
Saçımın ağlığından qanın heç qaralmasın! (4, s. 155);
Mən verə bilmədim, *ay Qorqud Dədə,*
Doğru qiymətini burda heç kəsin (5, s. 174).

Verilmiş nümunələrdə xitablar ümumi və xüsusi isimlərlə yanaşı, ***ay*** vokativ sözü ilə birlikdə işlənmişdir. Bəzən şairin dilində ***ey, a*** vokativ variantlarına da təsadüf olunur:
Sən gecələr yanırsan, mənsə, mənsə, *ey çıraq*,
Həm gecələr yanıram, həm gündüzlər, dərdə (5, s. 32);
A bala, soyuqdur, gəl qızın bir az,
Kişi öz işini sabaha qoymaz (4, s.140).

Qeyd edək ki, ***ey*** variantı ünsiyyətdə məzmunca müəlliflə müraciət olunan arasında lazımi distansiya, məsafə yaradır, sanki adilikdən uzaqlaşaraq daha ali üsluba aid ünsürə çevrilir və ədəbi dilə xidmət edir. Lakin ***ay, a*** variantları isə əsasən, çağrış məzmunlu müraciət əsasında canlı danışıq dilində səmimilik, mərhəmətlilik, adilik hökm sürən nitqi sərgiləyir. Hətta, bəzən şair bu fərqliliyi nəzərə alaraq özünə də *ey* forması ilə müraciət edir:

Ey Bəxtiyar! Olma bu qədər heyran o mahə,
Sən heyran olan tək, qoy, o da heyranın olsun! (4, s.169)

Poeziyada müəllifin öz-özünə müraciəti klassik Şərq üslubunun xarakterik cəhətidir ki, sonda ədiblər ad və təxəllüslərini çox zaman xitab kimi işlədərək tənqid, tərif, öyünmək, məsləhət və s. kimi fərdi yanaşmalarını ifadə edirlər:

Bir səs qulağıma hey pıçıldayır: -
Bəxtiyar, göylərdən en yavaş-yavaş! (4, s. 160).

Bildiyimiz kimi, xitabların intonasiya ilə bağlılığı onun ekspressivliyinin və milliyinin artmasına səbəb olur, hətta alınma sözlərə belə müraciət edərkən intonasiyanın köməyi ilə milli dilin ixtiyarına keçir, kommunikasiyada emosionallığı, ifadəliliyi artırır. Dilin milliliyini birinci növbədə intonasiyadan başladığını qeyd edən N.Cəfərovun "*ola bilər ki, sözlər, ifadələr mənşəcə milli olsun, lakin intonasiya yad təsirdən qurtarmasın*" (1, s.141) fikri maraq doğurur. Vahabzadə yaradıcılığında da alınma sözlərə müraciət olunsa da, intonasiya vasitəsilə milli dilə xidməti açıq əks olunur:

O dedi: - Zülmünlə, *ey çərxi-dövran*,
Ciyərim qan oldu, yaralanmışam (5, s. 29);
Ey qələmim, Günəş kimi alışmasan, yanmasan,
Ey ilhamım, dərya kimi coşub dalğalanmasan,
O dəryanın sirlərini görə bilərsənmi sən?! (5, s. 7).

Bəxtiyar Vahabzadənin poeziyasında təbiətə, məkan və zamana, mücərrəd varlıqlara, maddi məfhumlara olan xitablar xüsusi yer tutur, üslubi baxımdan bu anlayışların "şəxsləndirilməsinə" gətirib çıxarır. Belə xitab yaratma – canlı varlığın əlamətlərinin cansızların üzərinə köçürməklə məcazilik yaradır və metaforik səciyyə daşıyır. Məsələn;
Sular, sizdən təmiz, nə var dünyada?...

Ey Araz, səpirsən, göz yaşı sən də
Keçdikcə üstündən çölün, çəmənin (5, s. 80).

Bəzən şairin dilində poetik müraciət bir misrada yox, bir neçə misrada, hətta müəyyən mətn daxilində davam edir:

Siz ey ötən illərdən
mənə xatirə qalan
cansız dövlətim, varım –
Kağız parçalarında donub qalan anlarım! (4, s. 157);
Ay mənim ilk beşiyim,
İlk nəfəsim, ilk sözüm,
İlk gecəm,
İlk gündüzüm.
Könlümün bu həyatla
İlk böyük qafiyəsi –
Ay babamın dəyesi!... (4, s. 80).

Xüsusi olaraq qeyd edək ki, şairin dilində işlənən xitabların bir qismi ilahi varlıqlara – Tanrı, Allah, ilahi, xudaya, ya rəbb ünvanlanır:

Tanrım, nöqsanımı göstərdin mənə
Səhvimi öyrəndim xecalətimdən (4, s.152);

Deyir, biz götürdük, *ey adil Allah*,
Sən necə götürdün bu xəyanəti? (5, s. 288).

Vahabzadə yaradıcılığında Vətənə, millətə sevgi, doğma ölkəyə bağlılıq xitablarda da öz əksini tapır:

Ey Azərbaycanımız, *türkün oğuzlar Vətəni*,
Ər oğullar, ər igidlər, kişi - qızlar Vətəni! (4, s.132);
Araba tərpənmir ancaq yerindən,
Sənin timsalınmış bu hal, *ey Vətən!* (4, s. 47);
Ey Vətən oğlu, düşün, bil ki, sənindir bu Vətən,
Sabahın, həm bu günün, həm dünənindir bu Vətən (4, s. 132);
Türk qızı, xəyanət zəmanəsində
Bu eşqi, vəfanı sən bacararsan (5, s. 301).

Bəzən isə şair mənsub olduğu xalqı, dili, vətəni sevməyənlərə müraciər edərək hadisələrə laqeyd olmadığını, özünəməxsus mövqeyini, konkret münasibətini, rəftar və narahatlığını bədii xitablarla ifadə etmişdir:

Ey öz doğma dilində danışmağı ar bilən,
Bunu iftixar bilən
Modalı ədəbazlar! (4, s. 9);
Susun, *ey bayquşlar*, yazıqdır insan,
Sizdə bir azacıq insaf varmıdır? (5, s. 138)

NƏTİCƏ

Beləliklə, Bəxtiyar Vahabzadə poeziyasında işlənən bədii xitabların bir qismini tədqiq edərkən aydın odu ki, xitablar müraciət forması kimi şəxsə, digər canlı və cansız varlıqlara, həqiqi və ya mücərrəd anlayışlara, təbiət hadisələrinə aid olur, həmçinin xitabların qrammatik cəhətdən cümlə üzvləri ilə əlaqəsi olmasa da, məntiqi cəhətdən intonasiyanın köməyi ilə cümləyə yeni məzmun gətirir, bədii dildə emosional-ekspressiv funksiya daşıyaraq müəyyən məqamlarda özünəxas poetik müraciət formalarına çevrilir. Bu baxımdan da, şairin yaradıcılığında bədii xitabların araşdırılması onun öz oxucusu ilə canlı ünsiyyətini meydana çıxartmaqda əvəzsiz rol oynayır.

ƏDƏBİYYAT

1. Cəfərov N. Azərbaycan türkcəsinin milliləşməsi tarixi. Bakı, 1995.
2. Kazımov Q. Seçilmiş əsərləri (VIII cild). Bakı, “Nurlan”, 2009.
3. Sadıqov Ə. Füzulinin lirikasında xitab. Füzulinin dili (məqalələr), Bakı, “Elm”, 1997.
4. Vahabzadə B. Seçilmiş Əsərləri, I cild, Bakı, “Öndər Nəşriyyat”, 2004.
5. Vahabzadə B. Seçilmiş Əsərləri, II cild, Bakı, “Öndər Nəşriyyat”, 2004.

Integrating Artificial Intelligence into the Foundations of Curriculum Design, Planning, and Development

Dr. Bayan Kamal Eddine
Modern University of Business and Science, Department of Education, Beirut, Lebanon

Abstract

Introduction and Purpose: Educational curricula are among the most important structured activities designed to stimulate learning. They comprise a set of methods guided by clearly defined objectives aimed at advancing education, as it serves as the cornerstone of human development. Since curricula are the primary means to achieve better learning outcomes, this paper seeks to define the concept of curriculum, identify its domains, components, and types.

Curriculum design involves developing an organized plan for educators to use in the teaching process within schools, including the creation of timelines and lesson planning. Through curriculum design, teachers can effectively plan academic activities, courses, and assessments to support students in achieving academic success, in line with school policies, teaching standards, and the educational goals.

The curriculum planning process considers both general and specific instructional objectives, based on foundational social, psychological, philosophical, and cognitive principles, as well as other important standards. Today, the integration of Artificial Intelligence (AI) into curriculum design and development offers transformative potential. AI tools can support educators in personalizing instruction, analyzing learning data, automating administrative tasks, and recommending relevant content and assessment methods tailored to individual learner needs.

Curriculum development, enhanced by AI capabilities, plays a crucial role in improving the learning process and providing a more engaging and adaptive educational experience. By responding more effectively to students' needs and learning styles, AI-enabled content design fosters deeper understanding, increased motivation, and stronger participation.

However, upon reviewing the literature and sources addressing the foundations of curriculum design, planning, and development today, we noticed a significant divergence of opinions. This observation led us to raise the following central question:

What are the foundations of curriculum design, planning, and development in the age of Artificial Intelligence?

From this core question, several sub-questions emerge:

1. What is the purpose of curriculum design?
2. What are the foundations of curriculum planning?

What are the reasons behind curriculum development, and how can AI contribute?

Methods: To answer these questions, this paper adopts a descriptive-analytical method, which examines the research topic as it exists by providing a detailed qualitative description based on a review of relevant previous studies.

Discussion and Conclusion: Through this analysis, the study aims to clarify the purpose of curriculum design, the foundations of curriculum planning, and the reasons behind curriculum development, while highlighting the role AI can play in each stage.

The main findings are as follows:

1. Curriculum design requires a set of essential foundations that must be considered during the planning process.

2. The importance of curriculum development lies in the existence of numerous factors that necessitate continuous improvement.
3. Integrating AI into curriculum processes can enhance adaptability, efficiency, and learner-centeredness.
Keywords: Curriculum Design – Curriculum Planning – Curriculum Development – Artificial Intelligence – Personalized Learning

THE IMPACT OF DIGITAL TRANSFORMATION ON CULTURAL PERCEPTION AND SOCIAL BEHAVIOR IN THE WESTERN BALKANS

Author: MSc. Diellorita Abazi
Institution: International University of Struga

Abstract
The digital age is rapidly reshaping cultural expression and social interaction, especially in transitioning societies such as those in the Western Balkans. This paper explores the intersection of digital transformation and culture through a sociological and informatics-business lens. By analyzing patterns of digital behavior, virtual community building, and online cultural consumption, the study highlights how digital platforms have become new arenas for cultural exchange and identity formation. Moreover, the research investigates how digitalization influences local traditions, language use, and generational gaps in cultural perception. Based on quantitative and qualitative data gathered from youth in Kosovo, the paper emphasizes the urgent need for inclusive digital literacy programs that preserve cultural heritage while encouraging innovation. The study offers practical recommendations for policymakers, educators, and digital entrepreneurs seeking to align technological progress with cultural sustainability.

Keywords
Digital culture, sociology, informatics, cultural identity, Western Balkans, online behavior, digital transformation

UNDERSTANDING ENTREPRENEURSHIP CULTURAL AND FOSTERING THE UNITED NATIONS' SUSTAINABLE DEVELOPMENT GOALS BY SHARING THE VALUES DERIVED FROM CULTURAL AND LITERARY STUDIES

Full-Professor PhD. Habil. Cristina Raluca Gh. Popescu[1]
[1]University of Bucharest, Bucharest, Romania and The Bucharest University of Economic Studies, Bucharest, Romania.
[1]ORCID ID: https://orcid.org/0000-0002-5876-0550

Abstract
These days, specialists believe that understanding entrepreneurship through a cultural lens and utilizing the values derived from cultural and literary studies can significantly contribute to successfully supporting and achieving the United Nations' Sustainable Development Goals. On the one hand, the current research paper centers on developing and highlighting more inclusive and solutions starting from the pivotal idea according to which diverse cultural contexts capable to shape entrepreneurial practices ought to be identified and recognized. On the other hand, the current research paper addresses the importance of sharing these insights and leveraging the power of storytelling, found in literature, enables a deeper understanding of the interconnectedness between social well-being, environment stewardship, and economic development. Besides all these, the paper focuses on presenting valuable examples of cultural influence, among which could be mentioned: environmentally friendly businesses that produce green building materials from recycled waste, which represents a way to exemplify how cultural values and sustainability can be intertwined to create successful and socially impactful ventures; and, social enterprises as businesses that target social problems and that are well-positioned to contribute to the Sustainable Development Goals. Among the outcomes of this research paper the following aspects ought to be highlighted: firstly, promoting sustainable entrepreneurship education based on sharing the values derived from cultural and literary studies, having in mind that cultural understanding and the values derived from literature should be included into entrepreneurship education programs that have the power to equip the entrepreneurs with the desired skills and knowledge required to develop sustainable and impactful businesses; and, secondly, entrepreneurs, policymakers, and academics ought to focus on collaboration and knowledge sharing intended to accelerate the development and implementation of inclusive and sustainable entrepreneurial solutions. All in all, the essence of this current research is that cultural and literary studies are intended to offer a better understanding of the Global Goals and by sharing experiences and lessons learned a more effective network for achieving the Sustainable Development Goals can be created.

Keywords: Cultural Values; Norms; Cultural Influence; Culturally Relevant and Sustainable Businesses; Innovation; Entrepreneurial Behavior; Entrepreneurial Endeavors; Sustainable Development Goals; Communication; Management; Collaboration; Knowledge Sharing.

MATHEMATICS TEACHING METHODS SUITABLE FOR COGNITIVE ACTIVITY

İDRAK FƏALİYYƏTİNƏ UYĞUN RİYAZİYYAT TƏLİM METODLARI

Firidə Mustafayeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının
riyaziyyat və kompüter elmləri kafedrasının müdiri,
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-8264-9097

Xülasə
Müasir təhsildə tədris strategiyalarını seçərkən şagirdlərin fərdi idrak xüsusiyyətlərini nəzərə almaq vacibdir. Riyaziyyat məntiqi təfəkkür və analitik bacarıqları inkişaf etdirən bir fənn kimi şagirdlərin idrak fəaliyyətinin formalaşmasında mühüm rol oynayır. Bu məqalədə şagirdlərin yaddaş, qavrayış sürəti, diqqət və təfəkkür tərzi kimi əsas idraki xüsusiyyətləri və bu amillərin riyaziyyatda tədris metodlarının seçiminə necə təsir etdiyi müzakirə olunur. Müxtəlif tədris yanaşmaları, o cümlədən problemli öyrənmə, tədqiqat metodları, oyunlar, vizuallaşdırma və rəqəmsal alətlər tələbələrin öyrənmə üslublarına uyğun olaraq təhlil edilir. Tədris metodlarının şagirdlərin idrak qabiliyyətlərinə uyğunlaşdırılmasının riyaziyyat təhsilinin effektivliyini artırdığı və təlim prosesində daha fəal iştiraka təkan verdiyi vurğulanır.
Açar sözlər: idrak fəaliyyəti, riyaziyyatın təlimi, fərdi yanaşma, təlim metodları, şagirdlərin öyrənmə xüsusiyyətləri, innovativ təlim.

Abstract
In modern education, it is essential to consider the individual cognitive characteristics of students when selecting teaching strategies. Mathematics, as a subject that develops logical thinking and analytical skills, plays a vital role in shaping students' cognitive activity. This article discusses the main cognitive features of learners—such as memory, perception speed, attention, and thinking style—and how these factors influence the choice of teaching methods in mathematics. Various teaching approaches, including problem-based learning, research methods, games, visualization, and digital tools, are analyzed in accordance with students' learning styles. It is emphasized that aligning instructional methods with students' cognitive abilities increases the effectiveness of mathematics education and fosters more active participation in the learning process.
Keywords: cognitive activity, mathematics education, individualized approach, teaching methods, student learning styles, innovative instruction

Giriş

Müasir təlim prosesində şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almaq, onların idrak qabiliyyətlərinə uyğun tədris strategiyaları seçmək mühüm əhəmiyyət daşıyır. Riyaziyyat fənni isə məntiqi düşüncə, analiz, sintez və ümumiləşdirmə bacarıqlarını inkişaf etdirməklə yanaşı, idrak fəaliyyətinin formalaşmasında xüsusi rol oynayır. Bu səbəbdən, şagirdlərin idrak fəaliyyətinin xüsusiyyətlərinə əsaslanaraq riyaziyyatın təlim metodlarının düzgün seçilməsi və tətbiqi tədrisin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır.

Şagirdlərin İdrak Fəaliyyətinin Xüsusiyyətləri

Şagirdlərin təlim fəaliyyəti tətbiq olunan metoddan asılı olaraq, öz xarakterinə görə müxtəlif ola bilər. Həmin fəaliyyət biliklərin qazanılması prosesində şagirdlərin fəallığı ilə, müstəqil yaradıcı axtarışları ilə çox və ya az dərəcədə əlaqədar ola bilər. Müəllim meydana çıxan bütün suallara özü cavab verməyib, onların bir hissəsini müstəqil həll etməyi şagirdlərin öhdəsinə buraxarsa, onda təlim forması prinsipial şəkildə dəyişə bilər. Belə iş evristik söhbət və ya müəllim tərəfindən verilmiş tapşırığın müstəqil yerinə yetirilməsi şəklində təşkil oluna bilər.. Şagirdlərin səyi ya qazanılmış

biliklərin başa düşülməsinə, yadda saxlanılmasına və təkrar edilməsinə, ya da şagirdlər üçün yeni olan bir sıra məsələlərin həll edilməsinə yönələ bilər.
Şagirdlərin idrak fəaliyyəti aşağıdakı əsas xüsusiyyətlərlə xarakterizə olunur:
Qavrama sürəti – məlumatı tez və düzgün anlama bacarığı;
Yaddaş – məlumatları yadda saxlama və xatırlama qabiliyyəti;
Təfəkkür növü – məntiqi, yaradıcı, analitik və ya praktik təfəkkür üstünlüyü;
Diqqət – diqqətin həcmi, sabitliyi və çevikliyi;
Motivasiya – şagirdin öyrənməyə olan marağı və daxili təşəbbüsü.
Bu xüsusiyyətlərin hər biri şagirdlərin öyrənmə tərzinə və təlim metodlarına fərqli yanaşmanı zəruri edir.
Didaktik ədəbiyyatlarda təlim metodlarının təhlilinə məhz bu nöqteyi-nəzərdən daha çox diqqət yetirilir. İ.Y. Lerner və M.N. Skatkin təlim metodlarını belə təsnif edirlər:
1. Şərh – illüstrativ metodu. Bu zaman müəllim hazır məlumatı şagirdlərə çatdırır, şagirdlər isə həmin bilikləri qavrayır, dərk edir və yadda saxlayırlar.
2. Reproduktiv metodun başlıca əlaməti – müəllimin tapşırığına əsasən biliklərin soruşulması və təkrar edilməsi üsulundan ibarətdir ki, müəllim bu və ya digər şəkildə tapşırığın icra nümunəsini verir, sonra çalışmalar sistemi vasitəsilə həmin nümunəyə uyğun olaraq müvafiq əməliyyat və mühkimələrin təkrarını məşq etdirir.
3.Problemli şərh; bunun mahiyyəti onadan ibarətdir ki, “müəllim problem qoyur, onu həll etmir, onun həlli yolunu göstərir, mühakimə prosesi yolunu aşkar edir”. [Mustafayeva, F., 2023]

Problemli Təlım

Şagirdlərin fikri müstəqilliyini və yaradıcı təfəkkürünü inkişaf etdirmək üçün dərsdə tətbiq edilən metodik sistemlər arasında problemli təlim xüsusi yer tutur. Dərsdə problemli yanaşmadan istifadənin əhəmiyyəti ondan ibarətdir ki, şagirdlər bir növ “tədqiqatçı”, “ilk ixtiraçı” vəziyyətinə salınır, biliklər onlara hazır şəkildə verilmir. Öyrəniləcək yeni biliklər onların qarşısında problem şəklində qoyulur. Təfəkkür prosesi tələb edən belə bir vəziyyət problemli situasiya adlanır. Problem və situasiya anlayışları təklikdə ayrı -ayrı anlayışlar olsa da bir-birilə sıx əlaqəsi olan və vəhdət təşkil edən anlayışlardır. Bunlardan ikincisi birincinin həllinə şərait yaradır. Onun aydınlaşdırılması üçün mübahisə doğurur, biri digəri üçün təhlil obyektinə çevrilir. Situasiyasız problem problem olaraq qalır, o öz-özlüyündə həllinin tapa bilməz. Situasiya elmi mübahisə yolu ilə biliklərin sistemləşdirilməsi və anlayışların formalaşdırılması zərurətini doğuran prosesdir. Problemli situasiya problemli təlimin əsasını təşkil edir, çünki psixologiya elmi müəyyən etmişdir ki, təfəkkür sualdan, problemli situasiyadan başlayır. Problemin qoyuluşunun özü çox vaxt böyük və mürəkkəb əqli iş tələb edən təfəkkür aktıdır. Problemin məntiqi forması sualdır,yəni problem sualla ifadə edilir. Əgər həmin sual çətinlik yaradırsa və həmin suala cavab vermək üçün şagirdlərdə fikri fəallıq əmələ gəlirsə, onda problemli situasiya yaranır. Problemli situasiya – həlli axtarış tələb edən dərk olunmuş çətinlikdir. Çətinlik yalnız dərk edilən olduqda, yəni şagird onu həll üçün qəbul edə bildikdə problemli situasiya yaranır. Başqa sözlə, problemli situasiyada bir tərəfdən sual şagird üçün intellektual çətinlik yaradır, digər tərəfdən isə onun “ürəyinə damır” ki, bu çətinliyi aradan qaldırmaq mümkündür. Problemli situasiya təfəkkür prosesini yaradır, problemin həlli isə mənimsəmə prosesinin özüdür. Problemli situasiya şagirdlərin emosional gərginliyini artırmaq qaydası, onların dünyagörüşünün formalaşma vasitəsidir. Problemli situasiya yaradarkən verilən suallar şagirdlərin idrak fəaliyyətini inkişaf etdirir, başlıcası isə onların diqqətini fəallaşdırır. Problemli situasiya yaradarkən, müəllim şagirdlər qarşısında problemli sualları, tədqiqat xarakterli məsələləri planauyğun şəkildə qoyur və lazım gəldikdə onlara yönəldici suallarla kömək edir. Məlum olduğu kimi, təlim prosesində problemli situasiya spesifik bir şəraitdir. Bu şəraitdə sinif problemli sualların həlli ilə məşğul olur. [Həsənova,S.(2020)] Dərsdə problemli situasiya yaratmağın mahiyyəti ondan ibarətdir ki, yeni mövzunun izahı giriş müsahibəsi ilə başlanır, şagird axtarış tələb edən yeni vəzifə ilə qarşılaşır, irəli sürülmüş tədris probleminin həllinin vacib olduğunu, bunsuz sonrakı biliklərin

mənimsəməyin mümkün olmadığını dərk edir. Məlum olduğu kimi, problem həm elmi, həm də təlimi ola bilər. Elmi və təlimi problemlər arasındakı münasibətlər aşağıdakılardan ibarətdir:
1. Elmi problemin həlli bəşəriyyətin əldə etdiyi nailiyyətlərə yeni hədiyyələr bəxş edir, təlimi problem isə elmə yenilik gətirmir.
2. Elmi problem həyatın obyektiv şəkildə irəli sürdüyü çətinliyi, ziddiyyəti həll edir, təlimi problem isə çox vaxt qəsdən, şüurlu surətdə yaradılır, əvvəlcədən planlaşdırılır və şagirdlərin düşünmə qabiliyyətini inkişaf etdirmək məqsədi daşıyır.
3. Elmi problemin həlli ilə uzun müddət məşğul olmaq lazım ğəlir. Təlimi problem isə dərsdə yaradılır və qısa müddətdə həll edilir

Təlimi problemin məqsədi şagirdlərin zehni axtarışını təşkil etməkdir. Problemli təlimi sinifdə müəllimlə şagird arasındakı daim müstəqil və əks-əlaqə şəraitində keçən və ardıcıl olaraq həll edilən problemli situasiyalar sistemi daxil olan proses kimi xarakterizə etmək olar. Bəzi müəllimlərin başa düşdüyü kimi, dərsdə hər hansı bir suala cavab almaq və ya dərsi yekunlaşdırmaq, yeni biliklər öyrətmək məqsədi ilə müsahibə keçirməyi problemli situasiya adlandırmaq düzgün deyildir.
Doğrudur, problemli situasiya yaradılan zaman da suallar qoyulur, cavablar alınır, müqayisə və ümumiləşdirmələr aparılır, nəticələr çıxarılır. Lakin problemli situasiya yaradılan zaman qoyulan suallar adi suallar olmayıb, həlli çox düşünməyi, qazanılmış bilikləri və həyat təcrübəsini xatırlamağı, ondan istifadəni tələb edən, bir sözlə problem şəklində qoyulan suallardır. Təlim prosesində qarşıya qoyulmuş problem əsasən kollektiv həllə verilir. Bu vaxt şagirdlər qarşıya çıxan çətinlikləri aradan qaldırır, problemi ifadə edirlər. Problemli təlimin elementlərindən biri problemli şərhdir. Problemli şərhin adi şərhdən bir sıra üstünlükləri vardır. Belə şərh bir tərəfdən şagirdlərə elmi axtarış nümunəsini göstərir, daha inandırıcı olur və bilik şüurlu mənimsənilir. Digər tərəfdən problemli şərh həmişə emosional olduğu üçün şagirdlərin biliyə olan marağının artmasına səbəb olur. Lakin bununla yanaşı onu da qeyd etmək lazımdır ki, problemli şərh zamanı şagirdlər mənimsəmə prosesində müstəqil iş görmürlər və beləliklə də onların idrak müstəqilliyi haqqında danışmaq çətindir. Düzdür, problemli şərh zamanı müəllim idrak fəaliyyəti prosesinin bütün mərhələlərindən özü keçir və şagirdlərin də fikrini həmin yolla aparır. Problemli şərh idrak fəaliyyəti prosesinin aşağıdakı mərhələlərindən keçir:
1. Poblemli situasiuanın yaradılması.
2.Problemli situasiyanın təhlili, yaranmış çətinliyin mahiyyətinin araşdırılması, problemin sualla ifadəsi (problemin qoyuluşu).
3. Problemin həlli üçün fərziyyələrin irəli sürülməsi və əsaslandırılması.
4. Fərziyyələrin yoxlanılması.
5. Problemin həlli.
Şagirdlərin idrak fəaliyyəti yalnız o zaman müstəqil hesab oluna bilər ki, onlar bu mərhələlərin heç olmasa birindən müstəqil keçsinlər. [Nəzərov,A.M.(2021).]
Bu vəzifə problemli təlimin elementi olan axtarıcı müsahibədə qismən yerinə yetirilir. Axtarıcı müsahibədə müəllim problemi qoyduqdan sonra onun həllinə şagirdləri də cəlb edir. Fərziyyələrin irəli sürülməsi və yoxlanılması şagirdlərin fəal iştirakı ilə aparılır. Burada müəllim öz şərhini tez-tez saxlayır, suallarla sinfə müraciət edir, ən başlıcası isə şagirdlərin müstəqil işlərini təşkil etmək imkanına malik olur. Beləliklə də biliyin mənimsənilməsi müsahibə şəraitində, müəllimin şərhi ilə şagirdlərin müstəqil işlərinin növbələşməsi şəraitində gedir. Pedaqoji ədəbiyyatda axtarıcı müsahibə Sokrat müsahibəsi də adlanır. Məlumdur ki, Sokrat özü haqqında deyərmiş ki, biliyi şagirdlərinə hazır şəkildə vermir, müsahibə prosesində biliyin, elmi həqiqətin yaranmasında o, yalnız “aktyor” rolunu oynayır. Bu prosesdə: müsahibə, müəllimin şərhi, müqayisə və ümumiləşdirmə, müstəqil işlər və əyani vəsaitlərin nümayişi və s. bir-birini əvəz edir, tamamlayır, qarşıya qoyulan problemlərin həllinə xidmət göstərir. Problemli təlimi digər metodlar kimi universallaşdırmaq olmaz. Problemli təlimin tətbiqi dərsin məqsədindən və tədris metodlarından asılıdır.

Problemlərin ifadə edilməsi və həlli o vaxt şagirdlər tərəfindən məqsədəuyğun hesab edilə bilməz ki, a) tədris materialı çox mürəkkəb olsun və şagirdlər tərəfindən müstəqil qavranıla bilməsin; b) tədris materialı əsasən qazanılmış biliklərin qavranılması və sadə təkrar edilən əməllərin icrası ilə bağlı olsun. Problemlər dərsin müxtəlif mərhələlərində meydana gələ bildiyindən, tədris problemlərini aşağıdakı kimi bölmək mümkündür:
1. Mövzunun öyrənilməsinin başlanğıcında meydana çıxan problemlər.
2. Mövzunun öyrənilməsi zamanı meydana çıxan problemlər.
3. Keçilənlərin möhkəmləndirilməsi zamanı meydana gələn problemlər.
4. Təkrar və ümumiləşdirmə aparan zaman qarşıya çıxan problemlər.
5. Qazanılmış biliyin yoxlanılması və nəzərə alınması zamanı qarşıya çıxan problemlər. Problemlər, onların təşkili, qoyulması və həllindən asılı ola bilər:
a) frontal (sinif kolllektivi tərəfindən və yaxud sinif qarşısında qoyulan və həll olunan problemlər);
b) qrup şəklində (qrup tərəfindən və yaxud qrup qarşısında qoyulan və həll edilən problemlər); c) fərdi (problemlər bir qayda olaraq müəllim tərəfindən irəli sürülür, həllini isə bir şagird icra edir).

Riyaziyyatin Tədrisində Problemli Təlimin Yeri Və İmkanlari
Metod seçiminə təsir edən faktorlar:
a) Şagirdin yaş səviyyəsi və sinif
b) Mövzunun mürəkkəblik dərəcəsi
c) Təlim məqsədi (bilik vermək, bacarıq formalaşdırmaq və s.)
d) Sinifdə şagirdlərin say tərkibi və fərdi fərqlər

III-IV sinflərin riyaziyyat kursuna daxil olan mövzuların tədrisi zamanı şagirdlərə yaş xüsusiyyətlərinə müvafiq olaraq nəzəri biliklər, prakrik bacarıq və vərdişlər aşılanır. Bu baxımdan riyaziyyat kursuna daxil olan bütün mövzular didaktikanın asandan-çətinə, sadədən - mürəkkəbə prinsiplərinə riayət edilərək tərtib olunmuş və olduqca ciddi məntiqi struktura malikdir. Belə ki, III-IV sinflərin riyaziyyat kursunda öyrədilən nəzəri materialın praktik bacarıq və vərdişlərə çevrilməsinə imkan verən tapşırıq və çalışmaların məşqedici xarakteri riyaziyyat kursu üzrə müxtəlif növlü problemlər qoymaq üçün imkan yaradır. Xüsusilə məsələ həlli zamanı şagirdlərin zehni inkişafında və məntiqi təfəkküründün formalaşmasına kömək etmək məqsədilə problemli situasiya yaratmağa daha geniş imkan vardır. Məsələ həlli prosesində problemli situasiya şagirdlərə əlaqəli, ardıcıl surətdə düşünməyi, mühakimə yürütməyi və müstəqil olaraq öz fikirlərini əsaslandırmağı öyrədir. Belə həll edilən məsələlər şagirdlərin qabiliyyətini, təsəvvürünü, diqqət və yaddaşını inkişaf etdirir, onlarda fəallıq və təşəbbüskarlıq kimi keyfiyyətlərin formalaşmasına şərait yaradır. Problemli situasiya yaratmaq üçün materialın düzgün seçilməsi fənnin daha yaxşı mənimsənilməsinə sərf edilən vaxtı artırmadan mükəmməl biliklərin qazanılmasını təmin edir. Seçilmiş mövzular şagirdlərin diqqətini əsas məqsədə çəlb etməlidir. Riyaziyyatın tədrisində problemli situasiyadan istifadənin həyata keçirilməsini aşağıdakı amillər daha yaxşı təmin edə bilər:

1. Riyaziyyat fənninin daxili məntiqi və mövzuların tematik olaraq konsentrikləşdirilməsi.
2. Şagirdlərin müxtəlif əqli və praktiki fəaliyyətlərinin tətbiqinə imkan verilməsi.
3. Riyaziyyat fənninin müasir texniki və təbiət hadisələri ilə sıx əlaqədar olmasını nəzərə alıb, tez-tez onlara istinad edilməsi.
4. Qazanılmış nəzəri biliklərin həyatda, o cümlədən çalışma dərslərində istifadə edilməsi.
5. Hər bir həll ediləcək çalışmanın müvafiq məşqedici funksiyaya malik olması.
6. Misallar və məsələlərin həlli zamanı müxtəlif alqoritmlərdən istifadə edilməsi.
7. Riyaziyyat kursunda istifadə olunan mövzuların həm keyfiyyət, həm də kəmiyyət xarakterli çalışma və tapşırıqlardan ibarət problemli situasiya yaratmağa imkan verən məsələlər verilməsi. İdrak fəaliyyətinin xarakterindən, qarşıdakı problemin qoyuluşu və həllindəki fəaliyyət dərəcəsindən, habelə alınan nəticələrin tətbiqi sahəsindəki bacarıq səviyyəsindən asılı olaraq biz problemlilik səviyyəsini bir-birindən əhəmiyyətli dərəcədə fərqlənən üç səviyyəyə bölürük.

Birinci səviyyə. Materialın izahında problemi ifadə etdikdən sonra onun həlli ilə əlaqədar bütün çətinliyi müəllimin özü aparır, şagirdlər isə problemin həlli prosesini müşahidə edirlər. Bu zaman müəllim şagirdlərin fikrini öz fikri ilə paralel istiqamətləndirir.
İkinci səviyyə. Müəllim şagirdləri problemin qoyuluşuna və formalaşdırılmasına, gücləri çatdığı dərəcədə onun həllinə cəlb edir. Buna görə də şagirdlər problemin həlli ilə əlaqədar olan axtarışların və alınan nəticələrin iştirakçıları olurlar.
Üçüncü səviyyə. Şagirdlər problemi özləri ifadə edir və onu öz qüvvələri ilə əvvəldən axıra qədər müstəqil həll edirlər. Həllin və tətbiqin nəticələri burada xeyli yüksək səviyyədə olur. Problemliliyin səviyyələri şagirdlərin intellektual fəallığının, yaradıcı imkanlarının inkişafına təkan verən stimuldur. Bunları başa düşən müəllim şagirdlərin riyazi biliklərə dərindən və möhkəm yiyələnə bilmələri üçün yeri gəldikcə bu və ya digər səviyyədən lazım olanını tətbiq edir. [Hakan, U. (2023).]

Nəticə

Şagirdlərin idrak fəaliyyətinə uyğun təlim metodlarının seçilməsi riyaziyyatın daha səmərəli və maraqlı öyrədilməsinə şərait yaradır. Müəllimlərin hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə alaraq təlim strategiyası müəyyən etməsi, onların təfəkkür inkişafını stimullaşdırır, təlimin fərdiləşdirilməsi prinsipinə əməl olunmasına imkan verir. Bu da, nəticə etibarilə, riyaziyyat dərslərində uğurun təminatçısı olur.

Ədəbiyyat Siyahısı

1. Əliyev, A. (2019). Məktəbdə riyaziyyat təliminin metodikası. Bakı: Təhsil Nəşriyyatı.
2. Həsənova, S. (2020). Şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun təlim metodlarının seçilməsi. Azərbaycan Müəllimlər Jurnalı, (4), 23–28.
3. Mustafayeva, F.F. (2023). Riyaziyyat təlimində inkişafetdirici çalışmalardan istifadə yolları (I-IV siniflər). Bakı, 165 s.
4. Mustafayeva, F.F. (2023). Riyaziyyat təlimində qrafik təsvirlərdən istifadə (I-IV siniflər). Bakı, 162 s. 3.
5. Kazımov, Z.F., Tağıyeva S.C. (2017). Riyaziyyat təlimində inkişafetdirici çalışmalardan istifadə yolları (I-IV siniflər). Bakı, 245 s
6. Nəzərov, A.M. (2021). Müasir təlim texnologiyaları. Dərs vəsaiti. ADPU-nəşriyyatı. Bakı, 103 səh. 6. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün "riyaziyyat" fənni üzrə təhsil proqramı (kurikulum). (2023). Bakı, 123 s
7. Yonca, T., Ali, S., Hülya, S., Turgut, O. (2023). Ortaokul öğrencilerinin yeni nesil sorulara ve matematik dersine yönelik tutumlarının incelenmesi. Ulusal Eğitim Dergisi. Ankara, 16 s.
8. Hakan, U. (2023). Ortaokul Matematik Öğretmenlerinin Beceri Temelli Sorulara İlişkin Yaklaşımlarının İncelenmesi. Gaziantep, 23 s.

THE IMPACT OF ISLAMIC CIVILIZATION ON THE WORLD

İSLAM SIVILIZASIYASININ DÜNYAYA TƏSİRİ

Ruqiyyə Babaşova Məmməd qızı
ADPU-nun Şamaxı filialı Dil-ədəbiyyat və onların tədrisi texnologiyası kafedrasının baş müəllimi

Xülasə:
İslam sivilizasiyası hicri 7-ci əsrdən başlayaraq sürətlə ərəb dünyasından kənara yayılaraq İran, Anadolu, Şimali Afrika, İspaniya və Hindistan kimi bölgələrdə geniş təsirə malik olmuşdur. Bu sivilizasiya yalnız dini ideologiyaya əsaslanmamış, eyni zamanda elm, fəlsəfə, iqtisadiyyat, memarlıq, ədəbiyyat və idarəetmə sahələrində də böyük nailiyyətlər əldə etmişdir. Qurani-Kərim ərəbcə yazılı mədəniyyətin inkişafına ciddi təsir göstərmiş, "Oxu!" əmri ilə başlayan ayə elmin və biliyin İslamda mərkəzi yer tutduğunu göstərmişdir.
Əməvilər və Abbasilər dövründə Bağdad, Şam və Kordova kimi şəhərlər elm və mədəniyyət mərkəzlərinə çevrilmişdir. Bağdaddakı "Beytül-Hikmə" mərkəzi elmi biliklərin tərcümə və inkişafı üçün böyük rol oynamışdır. Əl-Xarəzmi cəbrin banisi kimi tanınır, İbn Sina-nın "Əl-Qanun fit-Tibb" əsəri isə əsrlər boyu tibbin əsas mənbəsi olmuşdur. Bu biliklər sonradan Avropaya yayılaraq intibaha təkan vermişdir.
İslam memarlığı və incəsənəti də yüksək inkişaf səviyyəsinə çatmışdır. Əlhambra sarayı, Səmərqəndin Registan kompleksi və İstanbulun Sultan Əhməd məscidi bu mədəniyyətin memarlıqda necə zəngin olduğunu göstərir. Xəlifə Ömər ibn əl-Xəttabın dövründə qurulan idarəetmə və hüquq sistemləri isə müasir dövrdə belə model kimi təqdim edilir.
Beləliklə, İslam sivilizasiyası tarix boyu yalnız dini deyil, həm də mədəni, elmi və sosial tərəqqiyə mühüm töhfələr vermiş, ümumbəşəri inkişafın əsas sütunlarından birinə çevrilmişdir.
Açar sözlər: İslam, sivilizasiya, elm, alim, mədəniyyət.

Abstract
Starting from the 7th century AH, Islamic civilization rapidly expanded beyond the Arab world, exerting significant influence in regions such as Iran, Anatolia, North Africa, Spain, and India. This civilization was not solely based on religious ideology but also achieved great advancements in science, philosophy, economics, architecture, literature, and governance. The Qur'an had a profound impact on the development of written Arabic culture, and the verse beginning with "Read!" highlights the central importance of knowledge and learning in Islam.
During the Umayyad and Abbasid periods, cities like Baghdad, Damascus, and Cordoba became centers of science and culture. The "House of Wisdom" in Baghdad played a vital role in translating and developing scientific knowledge. Al-Khwarizmi is recognized as the founder of algebra, and Ibn Sina's "The Canon of Medicine" remained a fundamental medical reference for centuries. These bodies of knowledge later spread to Europe, contributing to the Renaissance.
Islamic architecture and art also reached high levels of development. The Alhambra Palace, the Registan complex in Samarkand, and the Sultan Ahmed Mosque in Istanbul showcase the richness of this civilization's architectural heritage. The administrative and legal systems established during the rule of Caliph Umar ibn al-Khattab are still regarded as models even in modern times.
In conclusion, throughout history, Islamic civilization has made significant contributions not only in religious terms but also in cultural, scientific, and social progress, becoming one of the fundamental pillars of universal human development.
Keywords: Islam, civilization, science, scholar, culture.

Giriş

Orta əsrlərdə İslam sivilizasiyası Avropaya bir körpü rolunu oynamışdır. Əndəlüs (İspaniya) vasitəsilə İslam dünyasının elmi və fəlsəfi bilikləri Avropa intibahının formalaşmasına təsir göstərmişdir. Bu sivilizasiya həm də mədəniyyətlərarası dialoqun, tolerantlığın və çoxmədəniyyətliliyin simvolu olmuşdur. İslam sivilizasiyasının formalaşdırdığı mədəni, elmi və sosial irs bu gün də aktuallığını qoruyur. Müasir dünyada bu irsi daha dərindən öyrənmək, dəyərləndirmək və qorumaq yalnız müsəlmanlar üçün deyil, bütün bəşəriyyət üçün əhəmiyyətlidir. İslam dininin yaranması ilə yalnız dini yox, çoxşaxəli və funksional bir mədəniyyət formalaşmışdır. Bu mədəniyyət, təhsil, hüquq, elm, incəsənət və ictimai təşkilatlanma sahələrində davamlı təsir göstərərək, həm Şərq, həm də Qərb mədəniyyətlərinin inkişafına zəmin yaratmışdır. İslam sivilizasiyası hicri 7-ci əsrdən başlayaraq sürətlə ərəb dünyasından çıxıb İran, Şimali Afrika, Anadolu, İspaniya və Hindistan kimi bölgələrə yayılmışdır. Bu sivilizasiya yalnız dini görüşlərə deyil, həm də elmi, fəlsəfi, iqtisadi və sosial sahələrdəki inkişaflara əsaslanaraq tarix boyunca bəşəriyyətin inkişafına mühüm töhfələr vermişdir. İslam dininin yaranması dini bir hadisə olmayıb, eyni zamanda bütünlüklə yeni bir mədəniyyətin və sivilizasiyanın yaranmasına səbəb olmuşdur. Bu mədəniyyət təkcə dini inancla məhdudlaşmamış, gündəlik həyat tərzinə təsir etmişdir. Islam dininin müqəddəs kitabı olan Qurani-Kərim ərəb dilinin və ədəbiyyatının inkişafına böyük təsir göstərdi.Yazının və oxumağın təşviqi: Quranda birinci ayə "Oxu!" (İqra!) əmri ilə başlayır. Bu, elmin və biliyin İslam mədəniyyətində mərkəzi rol oynadığını göstərir. Ərəbcə yazılı mədəniyyətin sürətlə inkişaf etməsi nəticəsində ilk kitabxanalar, yazı mərkəzləri, məktəblər qurulmağa başlandı.

Əməvilər və xüsusilə Abbasilər dövründə Bağdad, Şam və Kordova kimi şəhərlər elm və mədəniyyət mərkəzinə çevrilmişdir. Bu dövrlərdə İslam sivilizasiyası yalnız hərbi uğurlarla deyil, eyni zamanda yüksək səviyyəli idarəetmə, hüquq, ticarət və şəhərsalma bacarıqları ilə də tanınmışdır. İslam sivilizasiyasında ədəbiyyat və incəsənət də yüksək səviyyədə inkişaf etmişdir. Quranın gözəlliyi və ədəbi dili müsəlman yazıçı və şairlərinə ilham vermiş, bu isə ərəb, fars və türk ədəbiyyatının zənginləşməsinə səbəb olmuşdur. Firdovsi, Sədi, Hafiz, Nizami, Rumi və Yunus Əmrə kimi böyük şairlər İslam ədəbiyyatının zirvələrində dururlar. İslam incəsənəti əsasən ornamentika, memarlıq, xattatlıq və musiqi sahələrində özünü göstərmişdir. Əlhambra sarayı, Səmərqənd məscidləri və İstanbulun Sultan Əhməd məscidi kimi memarlıq abidələri bu sivilizasiyanın estetik gücünü nümayiş etdirir. Əlhambra sarayı İslam memarlığının şah əsərlərindən sayılır. Sarayın içərisi ərəb yazıları (quran ayələri və şeir parçaları), stalaktit tavanlar (muqarnas), geometrik naxışlar və zərif taxta oyma sənətinin bəzəklərindən istifadə edilərək hazırlanmışdır. Əlhambra sarayı (Alhambra) — İspaniyanın cənubunda, Andalusiya bölgəsində yerləşən məşhur bir tarixi saray və qalalar kompleksidir. Qranada şəhərində Sierra Nevada dağlarının ətəyində yerləşir. Əlhambra, ərəb dilində "qırmızı" mənasını verən "əl-ḥamrāʾ" sözündən gəlir, bu da sarayın tikintisində istifadə olunan qırmızı rəngli torpaqdan qaynaqlanır. 9-cu əsrdə ilk dəfə bir istehkam kimi inşa olunsa da 13–15-ci əsrlərdə Nasrid sülaləsi dövründə (1238–1492) Əlhambra əsl çiçəklənmə dövrünü yaşadı. 1492-ci ildə Qranada Katolik hökmdarları tərəfindən fəth ediləndən sonra Əlhambra xristian hakimiyyətinə keçdi. Əlhambra kompleksi struktur olaraq üç əsas hissədən ibarətdir:

1.Alcazaba (Qala hissəsi) – Ən qədim hissədir. Hərbi müdafiə məqsədi daşıyırdı.

2.Nasrid sarayları – Ən incə və zəngin hissədir. Divar yazıları, mozaikalar, mərmər hovuzlar və islam memarlığının incə nümunələri ilə zəngindir.

3.Generalife – Saray bağları və yay iqamətgahı. Gözəl su kanalları və bağçaları ilə məşhurdur.

Əlhambra 1984-cü ildən UNESCO-nun Dünya İrsi siyahısına daxil edilib. İspaniyada ən çox ziyarət edilən turistik məkanlardan biridir. Hər il milyonlarla insan bu qədim İslam memarlığı şah əsərini görmək üçün Qranadaya səfər edir.

Özbəkistanda yerləşən, qədim İpək Yolunun mərkəzlərindən biri olan Səmərqənd şəhəri türk-islam mədəniyyətinin ən möhtəşəm şəhərlərindən sayılır. Burada bir neçə möhtəşəm məscid və dini kompleks var ki, bunlar əsasən Timurilər dövrünə aiddir. Burada ən məşhur olanlardan Bibi-xanım məsciddir (1399-1404). Nəhəng qübbələr, rəngli mozaikalar, monumental darvazaları olan bu məsciddən başqa Registan meydanı və üç böyük mədrəsəni özündə birləşdirən möhtəşəm memarlıq abidəsini də qeyd etməmək olmaz. Ulugbək Mədrəsəsi (1420), Şirdar Mədrəsəsi (17-ci əsr), Tilla-

Kari Mədrəsəsi (17-ci əsr) göy rəngli plitələrlə örtülmüş qübbələr, minarələr, mozaikalar və ərəb yazıları ilə bəzədilmiş fasadlarla şərq ornamentlərini özündə əks etdirən abidələrdir.
Sultan Əhməd məscidi Türkiyənin İstanbul şəhərində Osmanlı sultanı 1-ci Əhmədin göstərişi ilə (1609-1616) Memar Sinanın tələbəsi olan Sədat Memar Mehmed Ağa tərəfindən inşa edilmişdir. Özündə Osmanlı və Bizans memarlığının üslublarının sintezini daşıyır. Dövrü üçün qeyri-adi sayılan 6 minarəsi vardır. İçərisində iyirmi mindən çox mavi İznik keramika plitəsi istifadə olunub və buna görə "Mavi Məscid" adlandırılır. Qurani-Kərim ayələri, zərif kaşı işləmələri, taxta və mərmər oyma sənətinin ən gözəl nümunələri burada əks olunmuşdur.
İslam sivilizasiyası dövründə elmin inkişafı xüsusi diqqət çəkir. Ərəb, fars və türk alimləri yunan, roma, hind və çin elmini mənimsəyərək onu inkişaf etdirmiş, Avropaya ötürmüşlər. 9-cu əsrdə Abbasilər xilafəti dövründə Bağdad şəhərində "Beytül-Hikmə" (Hikmət Evi) kimi universitet səviyyəli dünyanın ilk elmi tədqiqat mərkəzi yaradılmışdır. Əsası Xəlifə Harun ər-Rəşid tərəfindən qoyulsa da, oğlu Əbu Cəfər Abdullah ibn Harun ər-Rəşid əl-Məmun dövründə (813–833) isə daha da inkişaf etdirilmişdir. O, Abbasilər xilafətinin tanınmış xəlifələrindən biri olub və elmi, fəlsəfi və mədəni inkişaflara verdiyi dəstək ilə tarixdə mühüm yer tutub. Mərkəzin yaradılmasında məqsəd yunan, hind, fars, çin və digər qədim mədəniyyətlərdən olan elmi əsərlərin ərəb dilinə tərcümə edilməsi və bu biliklərin inkişaf etdirilməsi olmuşdur. Mərkəzin fəaliyyəti tərcümə, elmi, kitabxana və elmi debatların təşkili üzərində qurulmuşdur. Bu mərkəzin ən böyük alimlərindən Əl-Xarəzmi (riyaziyyat və astronomiya), Huneyn ibn İshaq (tərcüməçi və həkim), Əl-Kindi (filosof) , Əl-Fərabi (filosof) və başqalarının adlarını qeyd edə bilərik. Əl-Xarəzmi, İbn Sina, Əl-Fərabi, İbn Rüşd, İbn Haldun, Əl-Biruni və digərləri bu dövrün ən parlaq simalarındandır. Əl-Xarəzminin riyaziyyatdakı töhfələri, İbn Sinanın tibb sahəsindəki "Əl-Qanun" əsəri, Əl-Biruninin astronomiyadakı araşdırmaları İslam sivilizasiyasının elmi tərəqqisini göstərən nümunələrdəndir.
Bu alimlərin əsərləri Beytül-Hikmə mühiti içində formalaşdı və onların əsərləri sonradan latın dilinə tərcümə olundu. 12-ci əsrdən etibarən Toledo və Siciliyada ərəb dilindən latın dilinə edilən tərcümələr vasitəsilə bu biliklər Avropaya yayıldı. Avropa intibahına təkan olan bu elmi biliklər rasional düşüncənin və təbiət elmlərinin inkişafına da təsir etdi. Əl-Xarəzmi (Əbu Abdullah Məhəmməd ibn Musa əl-Xarəzmi) 9-cu əsrin ən görkəmli müsəlman alimlərindən biri olmuşdur. O, riyaziyyat, astronomiya və coğrafiya sahəsində böyük töhfələr vermişdir. Xüsusilə riyaziyyatda cəbirin banisi sayılır və onun əsərləri həm İslam dünyasında, həm də sonradan Avropada riyazi elmlərin inkişafına ciddi təsir göstərmişdir. Əl-Xarəzmi cəbr elmini müstəqil riyazi sahə kimi formalaşdıran ilk alim olmuşdur. O, riyazi problemləri həll etmək üçün sistemli üsullar irəli sürmüş və kvadrat tənliklərin həlli yollarını təsnif etmişdir. Onun ən məşhur əsəri "Əl-Kitab əl-Muxtəsər fi Həsab əl-Cəbr vəl-Müqabələ"dir ("Cəbr və müqayisə hesabı haqqında qısa kitab"). Bu əsərdə birinci və ikinci dərəcəli tənliklərin analizi, ticarət, miras və tikinti məsələlərinə tətbiqi izah edilir. Əl-Xarəzmi Hindistandan gələn onluq say sistemi və sıfır anlayışını İslam dünyasına və sonradan Avropaya tanıdan alimdir. Onun bu sahədəki əsəri, Avropada ərəb rəqəmlərinin yayılmasına və romalılardan fərqli olaraq müasir hesablamaların əsasını qoydu. "Kitab əl-Cəm vəl-Təfriq bil-Hisab əl-Hindi" ("Hind hesabı ilə toplama və çıxma kitabı") əsəri artıq 9-cu əsrdə latın dilinə tərcümə olunmuş və Avropada riyazi inqilab yaratmışdır. Bundan başqa Əl-Xarəzminin adı latın dilinə "Algoritmi" kimi çevrilmiş və bu söz sonradan "algoritm" (addım-addım hesablama üsulu) kimi riyaziyyat və informatikanın əsas anlayışına çevrilmişdir. Bu, onun hesablamada müəyyən və sistemli metodları ilk dəfə tətbiq etməsi ilə əlaqədardır.
İbn Sinanın "Əl-Qanun fit-Tibb", İbn Rüşdün Aristotel şərhləri kimi əsərlər Avropalı alimlər üçün əsrlər boyu əsas mənbə oldu. İbn Sina'nın (Avicenna) "Əl-Qanun fit-Tibb" ("Tibb Qanunu") əsəri, orta əsrlərin ən nüfuzlu tibbi traktatlarından biridir və həm İslam dünyasında, həm də Avropada əsrlər boyu tibbi təhsil və təcrübənin əsas mənbələrindən biri olmuşdur. "Əl-Qanun fit-Tibb" əsəri geniş tibbi bilikləri sistemli şəkildə toplayır və təqdim edir. O, həm nəzəri, həm də praktiki tibbi bilikləri əhatə edir və beş kitabdan ibarətdir. İbn Rüşdün şərhləri Avropada Latın dilinə tərcümə edildi və Orta Əsrlər Avropasında fəlsəfi düşüncəyə böyük təsir göstərdi. Onun düşüncələri "Averroizm" adlı fəlsəfi cərəyanın yaranmasına səbəb oldu. Xüsusilə Tomas Akvinalı kimi xristian filosoflar onun əsərləri ilə polemikalara girmiş, nəticədə Avropa skolastikasında dərin müzakirələr yaranmışdır.

Digər sahələrdə də dövlət idarəçiliyi, islahatlar və cəmiyyətin inkişafı baxımından da islam sivilizasiyası öz bənzərsizliyini əsrlərdir qoruyub saxlayır. İslam dini hüquqi sistem: şəriəti formalaşdırdı. Bu sistem dini qaydalarla yanaşı mülki, ailə, ticarət və cinayət hüququnu da əhatə edirdi. Hicrətin (622-ci il) ardından Mədinə şəhərində Məhəmməd Peyğəmbər (s.a.s.) tərəfindən imzalanmış "Mədinə Sazişi", fərqli icmaların müsəlmanlar, yəhudilər, bütpərəstlər və s. birgə yaşaya bilməsi üçün ilk çoxmədəniyyətli hüquqi sənədlərdən biri sayılır. İslamın yayılması ilə məscidlər təkcə ibadət yeri deyil, həm də elm, təhsil və ictimai müzakirə məkanına çevrildi. Məktəblər və mədrəsələr qurulmağa başlandı. Bu təhsil ocaqları gələcəkdə Avropa universitetlərinin təşəkkülünə olduqca böyük təsir göstərmişdi.

İdarəetmə, dövlət quruculuğu və ilk mütəşəkkil dövlət idarə sistemi model olaraq bu gün də tətbiq olunur. Xəlifə Ömər ibn əl-Xəttab (r.a.) - İslam tarixində ikinci xəlifə və dövlət idarəçiliyi sahəsində ən böyük islahatçılardan biri hesab olunur. Onun xilafəti dövrü (634–644-cü illər) İslam dövlətinin möhkəmləndiyi, ərazilərinin genişləndiyi və idarəetmədə ciddi sistemlərin qurulduğu dövrdür. Xəlifə Ömər (r.a.) İslam tarixində ilk dəfə sistemli və bürokratik dövlət strukturunu qurdu. Əyalətlərə valilər təyin etdi. Təyin edilmiş valilərin ədalətli fəaliyyətini yoxlamaq üçün nəzarətçilər vasitəsilə məlumatlar əldə olunurdu. Vali və məmurların davranışlarına nəzarət edilir, xalqa zülm edənləri dərhal vəzifədən uzaqlaşdırılır və cəzalandırılırdı.

Xəlifə Ömər (r.a.) İslam dövlətinin ilk xəzinəsini – Beytül-Malı qurdu. Eyni zamanda vergi sistemini nizamladı: xərac (torpaq vergisi), cizyə (qeyri-müsəlmanlardan alınan vergi) və zəkat kimi gəlir mənbələrini xəzinədə topladı və ehtiyaclılara ədalətli şəkildə payladı. Dövlətdə qanunvericilik və hüquq sistemi də quruldu. Qazılıq (məhkəmə) sistemi dövlətin şəriət qanunları il idarəçiliyini təmin edirdi. Müstəqil qazı hakim rolunda fəaliyyət göstərirdi. Eyni zanmanda hakimlərin ədalətli və müstəqil fəaliyyət göstərmələrinə şərait yaratdı. Hüquq sahəsindəki problemləri şura ilə həll edir, təkbaşına hökm vermirdi. Xəlifə Ömər (r.a.) ordu quruculuğunda da islahatlar aparmışdır. Əsgərlərin qeydiyyatı və maaş sistemini qurdu bu da o dövr üçün çox yeni bir irəliliəyiş idi.Orduya məxsus məlumat və qeydiyyat kitabçaları (divan) yaratdı. Sərhədlərdə qarnizon şəhərləri tikdirdi: Kufe, Bəsrə, Fustat (indiki Qahirə ərazisində). Ölkənin təhlükəsizliyi və daxili və xarici düşmənlərə qarşıda tədbirlər gördü. Bu tədbirlərdən biri də casusluğa qarşı olan tədbirlər idi.

Xəlifə Ömər (r.a.) ictimai rifahı qaldırmaq məqsədilə yollar çəkdirmiş, su quyuları qazdırmış, karvansaraylar və su kanalları tikdirmişdir. Məscidlər və ictimai binalar inşa etdirilmişdir. Yoxsullara, yetimlərə və yaşlılara dövlət tərəfindən maddi yardım göstərilirdi. Xəlifənin ən mühüm xidmətlərində biri də hicri təqvimini tətbiq etmək olmuşdur. O, müsəlmanların rəsmi təqvimi olan Hicri ili təsis etdi (başlanğıcı Həzrət Məhəmmədin (s.a.s) hicrətidir, 622-ci il). Məşvərət və demokratik idarəçilik baxımından dövlət mühacir və ənsar nümayəndələrindən ibarət şura sistemi ilə idarə edirdi. Mühüm qərarlar təktərəfli yox, məsləhətləşmə yolu ilə verilirdi. Dövlətin idarəçiliyində vali və məmurların əxlaqi keyfiyyətlərinə çox diqqət edilirdi. Onlara sərvət yığmağı qadağan edilmiş, xalqla bərabər həyat tərzi tələb edilirdi.

Xəlifə Ömər (r.a.) məscidlərdə xalqla görüşür, problemləri birbaşa dinləyib həll edirdi.

Xəlifə Ömər İslam tarixində ilk sistemli və hüquqi dövlətin təməlini atan şəxsdir. Onun idarəçiliyi:

-güclü ordu,

-ədalətli vergi sistemi,

-ictimai rifah,

-ədalət və şəffaflıq prinsipləri üzərində qurulmuşdu.

Bu səbəbdən həm İslam dünyasında, həm də ümumi dövlət idarəçiliyi tarixində mükəmməl lider nümunəsi kimi tanınır.

Nəticə

İslam sivilizasiyası, yalnız dini prinsiplərlə məhdudlaşmayan, həm də geniş miqyasda mədəni, elmi, fəlsəfi və sosial sahələrə təsir göstərən bir mədəniyyət dalğası kimi tarix səhnəsində mühüm yer tutmuşdur. Hicri 7-ci əsrdən başlayaraq, bu sivilizasiya ərəb coğrafiyasını aşaraq İran, Anadolu, Şimali Afrika, İspaniya, Hindistan və Mərkəzi Asiya kimi müxtəlif regionlara yayılmış, burada yeni mədəniyyətlərin formalaşmasına səbəb olmuşdur.

Qurani-Kərim ilə yazı və oxuma mədəniyyətinə verilən önəm, təhsil və elmə təşviq, Beytül-Hikmə kimi elm mərkəzlərinin qurulması İslam dünyasını orta əsrlərdə elmi tərəqqinin öncülünə çevirmişdir. Əl-Xarəzmi, İbn Sina, Əl-Fərabi, İbn Rüşd və Əl-Biruni kimi alimlərin əsərləri yalnız İslam dünyasında deyil, eyni zamanda Avropada da geniş təsirə malik olmuşdur və Avropa intibahına mühüm təkan vermişdir.

İncəsənət və memarlıq sahəsində Əlhambra sarayı, Səmərqəndin Registan kompleksi və İstanbulun Sultan Əhməd məscidi kimi abidələr İslam sivilizasiyasının estetik və mühəndislik gücünü əks etdirir. Bu əsərlər yalnız dini ibadət məkanları deyil, həm də mədəniyyətin, zərifliyin və yaradıcılığın nişanələridir.

Dövlət idarəçiliyi sahəsində Xəlifə Ömər ibn əl-Xəttabın həyata keçirdiyi islahatlar – vergi, məhkəmə, ordu və ictimai rifah sistemlərinin təşkili – tarixdə ilk sistemli və hüquqi dövlətin əsaslarını yaratmışdır. Bu idarəçilik modeli səmərəli, ədalətli və şəffaf olması ilə müasir dövlət quruculuğuna da nümunə ola biləcək xüsusiyyətlər daşıyır.

Nəticə etibarilə, İslam sivilizasiyası bəşər tarixində dərin izlər buraxmış, yalnız dini deyil, eyni zamanda intellektual, sosial və texnoloji baxımdan böyük irəliləyişlərin mənbəyi olmuşdur. Bu sivilizasiya, müxtəlif xalqlar arasında elmin, sənətin və mədəniyyətin paylaşılmasına, inkişaf etməsinə və qlobal irs halına gəlməsinə əvəzsiz töhfələr vermişdir.

Ədəbiyyat siyahısı:

1. Əbdülhəmid əbu Süleyman “Mədəni Quran dünyagörüşü”, “İdrak” İctimai birliyi.Bakı 2017səh.20-52
2. Prof.Cavad Heyət “İslam mədəniyyətinin Qərb mədəniyyətinin inkişafına təsiri”, 525-ci qəzet 19 mart 2010 səh.7
3. Nərgiz Ağasəlim qızı Əliyeva “Azərbaycanda İslam mədəniyyəti(7-13-cü əsrin əvvəlləri)”, “Elm və təhsil” Bakı 2017 səh.5-480
4. Vaqif Cəliloğlu “İslam mədəniyyəti anlayışı”, “Ədalət” qəzeti 2 may 2019 №79, səh 6
5. https://az.wikipedia.org/wiki/Kateqoriya:İslam_alimləri
6. https://islam.az/6129/serqin-taninmis-alimlerinin-esas-elmi-isleri/
7. https://modern.az/hadise/144610/islam-dunyasinin-klgede-qalmis-byuk-alimleri-ve-vacib-kesfler/

CORRUPTION DANS LA POESIE NIGERIANE D'EXPRESSION FRANÇAISE : ETUDE DE « *SURSAUTS* » D'UNIMNA ANGREY.
CORRUPTION IN NIGERIAN POETRY IN FRENCH: STUDY OF UNIMNA ANGREY'S "*SURSAUTS*."

PAR
AGBOR AGBOR ENU
Department of French Faculty of Arts Federal University of Lafia Nasarawa State, Nigeria, West Africa

Domaine De Recherche: Langues Nigerianes & Litterature Filière : Langue & Litterature Africaine

RÉSUMÉ
La corruption comme le conflit et la violence est un virus qui a ravagé et ravage toujours non seulement le Nigeria mais aussi les pays africains en tant que le monde entier mais le cas du Nigeria devient pire en pire et tant qu'il continuera à démembrer le progrès de la nation, on continuera à lui faire la guerre sans relâche malgré le fait que nous pouvons surtout faire la guerre avec le pouvoir de la plume plutôt qu'avec l'épée. Ce travail vise à mettre en évidence les principaux points faibles de la corruption au Nigeria et aussi fait un appel au renouvellement des valeurs, et principes africains et éventuellement de proposer des solutions réalistes pour lutter contre la menace de la corruption.Plusieurs auteurs ouest-africains telques Kangni Alem et Senouvo Agbota Zinsou de Togo, Ramonu Sanusi et Père L.N.Nwokora du Nigeria, Fatou Diome et Boubacar Diop de Sénégal, et même l'auteur en question, dont le travail est utilisé dans cette étude (Unimna Angrey) pour ne citer que quelques-uns seulement ont beaucoup écrit sur le sujet. Malgré le fait qu'Unimna est nigérian, les problèmes de corruption qu'il a soulevés touchent toutes les facettes de la société africaine mais notre préoccupation se concentre sur le Nigeria.
MOTS-CLÉS : indépendance, instabilité, corruption, sécurité, sociologique.

DEVELOPMENT OF NUCLEAR TERMINOLOGY SYSTEMS IN THE FIELD OF NUCLEAR ENERGY BASED ON THE AZERBAIJANI LANGUAGE

Nigar Sadigova

Azerbaijan University of Architecture and Construction, Baku, Azerbaijan
Institute of Linguistics named after Nasimi, Baku, Azerbaijan

Introduction

The evolution of nuclear energy terminology in national languages plays a crucial role in ensuring the accessibility, clarity, and transferability of scientific and technical knowledge. As nuclear science and technology have become increasingly globalized, the need for standardized and localized terminological systems has grown correspondingly. Effective communication across scientific, regulatory, and educational domains depends not only on technical precision but also on the linguistic adaptability of complex scientific concepts. In this regard, the development of a coherent nuclear lexicon in national languages, including Azerbaijani, is not merely a linguistic endeavor—it is a strategic imperative that intersects with national security, scientific education, technological advancement, and international collaboration.

In the Azerbaijani context, the formation of nuclear terminology has been shaped by a unique convergence of geopolitical, historical, and linguistic factors. During the Soviet era, the Azerbaijani scientific lexicon—particularly in fields such as nuclear physics, reactor technology, and radiation safety—was heavily influenced by Russian scientific literature and educational standards. This led to the widespread borrowing of Russian terms, many of which were themselves derived from Latin and Greek roots but adopted with Russian morphological and syntactic features. As a result, Azerbaijani nuclear terminology developed with limited regard for the structural and phonological norms of the Azerbaijani language.

Following the restoration of independence in 1991, Azerbaijan initiated a series of language reforms aimed at revitalizing and nationalizing its scientific vocabulary. These efforts included the substitution of foreign borrowings with native equivalents, the creation of new terms (neologisms), and the adaptation of international terminology to conform to Azerbaijani linguistic principles. Institutions such as the Azerbaijan National Academy of Sciences and the State Committee on Terminology played a pivotal role in this transformation by compiling terminological dictionaries, organizing expert panels, and aligning national terminology with international standards set by organizations such as the International Atomic Energy Agency (IAEA) and UNESCO.

This paper explores the mechanisms and historical conditions that have contributed to the emergence and transformation of nuclear energy terminology in the Azerbaijani language. It examines the processes of lexical borrowing, calquing (loan translation), and neologism formation, while also evaluating institutional efforts toward terminology standardization. Particular attention is given to the dynamic interplay between inherited Soviet-era terms and the post-independence drive for linguistic authenticity and scientific modernization. Furthermore, the paper considers the practical implications of terminological development in the context of global scientific discourse, international cooperation, and the domestic implementation of nuclear technologies.

By analyzing both historical developments and contemporary challenges, this study contributes to a broader understanding of how specialized scientific terminologies are formed, institutionalized, and refined within non-dominant language environments. The findings aim to support ongoing efforts to strengthen Azerbaijan's national capacity in nuclear science and technology through the development of a linguistically sound, internationally compatible, and future-oriented terminological system.

Methodology

A historical-linguistic and qualitative analytical framework was adopted to investigate the formation and development of nuclear energy terminology in the Azerbaijani language. This approach enabled

a nuanced understanding of how scientific terms have evolved over time and how linguistic mechanisms have shaped their integration into Azerbaijani. The study drew on a diverse corpus of materials, including Soviet-era scientific publications that reflect the initial phase of terminology adoption, post-independence educational resources illustrating efforts toward nationalization, and official terminological dictionaries and glossaries that document formal standardization attempts.

Particular emphasis was placed on the analysis of authoritative terminological references issued by international bodies such as the International Atomic Energy Agency (IAEA) and the United Nations Educational, Scientific and Cultural Organization (UNESCO), which serve as benchmarks for global terminology harmonization. Through comparative linguistic analysis, the study identified patterns of lexical borrowing—primarily from Russian—as well as the use of loan translations (calquing) that transferred foreign conceptual structures into Azerbaijani through direct semantic replication [1]. The creation and adoption of neologisms, carefully aligned with the phonological, morphological, and syntactic norms of the Azerbaijani language, were also examined as a key strategy for expanding the scientific lexicon. This methodological approach provided a comprehensive view of both the historical trajectory and contemporary dynamics of nuclear terminology development in Azerbaijan.

Historical Context and Soviet Influence

The development of nuclear terminology in the Azerbaijani language cannot be fully understood without examining the broader linguistic and political context of the Soviet Union. During the Soviet period, especially from the 1940s onward, scientific and technical education in Azerbaijan was conducted primarily in Russian or under strong Russian linguistic influence. Russian served as the dominant language of instruction, research, and technical documentation in all Soviet republics, including Azerbaijan. As a result, the Azerbaijani scientific lexicon—particularly in high-technology domains such as nuclear physics, radiochemistry, and reactor engineering—was shaped by direct lexical borrowing and transliteration from Russian.[2]

Many key nuclear terms such as *reaktor* (reactor), *radiasiya* (radiation), and *izotop* (isotope) entered the Azerbaijani language with little or no phonological or morphological adaptation. These terms, while originally derived from Latin and Greek roots through the Russian scientific lexicon, were incorporated in forms that often conflicted with Azerbaijani grammatical and orthographic conventions. As these borrowings became entrenched through higher education curricula, technical manuals, and government documentation, they created a layer of terminology that was simultaneously functional and linguistically inconsistent.

Moreover, the centralized nature of Soviet scientific development meant that terminological standardization efforts were rarely localized. Terminologies were typically developed and approved by Moscow-based institutions and disseminated uniformly across the republics, leaving little room for adaptation to the linguistic characteristics or needs of non-Russian-speaking populations. Consequently, Azerbaijani scientists, educators, and students were required to navigate a hybrid linguistic space where native language use coexisted with—and was often subordinated to—the Russian terminological system.

While this approach allowed for the rapid dissemination of scientific knowledge and a unified scientific vocabulary across the USSR, it also had significant drawbacks. Chief among them was the erosion of linguistic autonomy and the limited development of native scientific terminology in Azerbaijani. The lack of integration between foreign terms and the phonetic or syntactic norms of Azerbaijani led to a fragmented terminological system, wherein the foreign-origin terms were often used without clear rules for inflection, derivation, or abbreviation.

In Abstract, the Soviet legacy of centralized terminology formation, Russian-language dominance, and direct borrowing left a lasting imprint on the Azerbaijani nuclear lexicon. This foundation would later require significant reform and localization efforts in the post-independence era, as Azerbaijan sought to reassert its linguistic identity and adapt its scientific vocabulary to align with national and international standards.

Post-Independence Reforms and Linguistic Adaptation

With the restoration of independence in 1991, Azerbaijan entered a new phase of national revival, which included deliberate and systematic efforts to reform and modernize the Azerbaijani language. One of the key components of this reform movement was the revision and development of scientific and technical terminology in accordance with the phonetic, morphological, and syntactic principles of the national language. These efforts were driven by both ideological and practical concerns: the need to assert linguistic sovereignty, the desire to de-Sovietize academic discourse, and the aim of facilitating clearer scientific communication within the country and beyond.[3]

In the field of nuclear energy and related sciences, the post-independence period marked a transition from passive borrowing of Russian terms to active terminological construction rooted in the Azerbaijani linguistic system. This included not only the phasing out of Russian loanwords where possible but also the systematic replacement of such terms with Azerbaijani equivalents formed through loan translation (calquing) or neologism creation. For instance, the Russian term *цепная реакция* (chain reaction) was replaced with the calqued Azerbaijani equivalent *zəncirvari reaksiya*, a compound that more closely reflects the structure and semantics of the native language.

Key institutions such as the Azerbaijan National Academy of Sciences (ANAS), the State Committee on Terminology under the Cabinet of Ministers, and various academic departments undertook the task of compiling official terminological dictionaries, coordinating expert panels, and reviewing the compatibility of proposed terms with both international standards and the Azerbaijani linguistic framework. The establishment of dedicated terminology commissions in universities and research institutions further facilitated the harmonization and dissemination of newly approved terms. [4]

These institutional efforts were supported by increased access to international glossaries, particularly those published by the International Atomic Energy Agency (IAEA), UNESCO, and other global bodies. Azerbaijani linguists and subject-matter experts began to participate more actively in international terminological forums, contributing to the global discourse while also adopting internationally standardized terms into the national context—albeit with appropriate linguistic adaptation.

Despite these progressive reforms, challenges persist. Russian-origin terms remain deeply embedded in technical education, particularly among older generations of scientists and engineers trained during the Soviet era. Many scientific textbooks and manuals in current use continue to reflect Russian lexical norms, complicating efforts to achieve full linguistic normalization. In addition, the rapid development of new nuclear technologies and interdisciplinary fields has outpaced the creation of corresponding Azerbaijani terminology, leading to the reemergence of foreign borrowings, often from English, in areas lacking native equivalents.

Nonetheless, the post-independence period has laid a strong foundation for the future development of a comprehensive and linguistically coherent nuclear terminology system. The progress made in aligning scientific vocabulary with Azerbaijani linguistic identity not only enhances national academic integrity but also supports Azerbaijan's integration into the international scientific community on equitable linguistic terms.

Institutional and International Contributions

The development of a standardized and coherent nuclear terminology system in Azerbaijan has been significantly influenced by both national institutional efforts and international collaboration. Recognizing that the effective transmission of nuclear knowledge depends on terminological precision and consistency, Azerbaijani institutions have sought to align national terminology with global standards while preserving the structural integrity of the Azerbaijani language.

Nationally, key institutions such as the Azerbaijan National Academy of Sciences (ANAS), the State Committee on Terminology, and leading universities have played an instrumental role in reviewing, approving, and disseminating nuclear-related terminology. These bodies have established expert councils comprising linguists, nuclear physicists, engineers, and educators to evaluate terminological adequacy across scientific, educational, and regulatory contexts. Their efforts have included the

compilation of sector-specific dictionaries, revisions of educational curricula, and the production of bilingual and trilingual glossaries to bridge legacy Russian terms, newly developed Azerbaijani equivalents, and internationally accepted terminology.

In parallel, Azerbaijan has actively engaged with international organizations such as the International Atomic Energy Agency (IAEA), UNESCO, and the International Organization for Standardization (ISO). Among these, the IAEA Nuclear Glossary has emerged as a particularly valuable resource, offering authoritative definitions and standardized terms that are widely adopted in regulatory and technical documentation worldwide. Azerbaijani terminologists and translators have utilized these resources to harmonize local terms with internationally recognized nomenclature while adapting them to suit the grammatical and morphological rules of the Azerbaijani language.

Multilingual terminological projects, often supported by international agencies or regional scientific cooperation frameworks, have also contributed to the establishment of shared terminological databases across Turkic-speaking countries. These efforts aim to create interoperable terminologies that facilitate cross-border collaboration in nuclear education, safety, and regulation. In this regard, Azerbaijan has participated in various regional platforms that promote the exchange of best practices in terminology planning and standardization.[5]

Despite these positive developments, significant gaps remain in the full institutionalization and integration of standardized nuclear terminology within the Azerbaijani academic and professional landscape. Most notably, there is still no centralized, publicly accessible, and regularly updated national database dedicated to nuclear terminology. This deficiency impedes the consistent use of terms across disciplines and institutions and limits the ability of educators, translators, policymakers, and engineers to access verified and context-appropriate terminology.

Furthermore, the absence of a digital platform that consolidates national terminological work with international standards restricts Azerbaijan’s ability to efficiently update its lexicon in response to emerging nuclear technologies and evolving scientific discourse. Addressing these institutional and infrastructural shortcomings is essential for ensuring terminological consistency, enhancing public understanding of nuclear issues, and strengthening Azerbaijan’s position within the global scientific community.

Conclusion

The formation and refinement of a standardized nuclear terminology system in the Azerbaijani language is not merely a linguistic exercise, but a foundational element of national scientific and technological development. As Azerbaijan increases its engagement in nuclear research, energy policy, radiation safety, and medical applications of nuclear technology, the need for a precise, consistent, and contextually adapted lexicon becomes increasingly urgent. A well-developed nuclear terminology system supports clear communication among experts, facilitates the education and training of new generations of specialists, enhances the quality of scientific publications, and ensures compliance with international safety and regulatory standards.

The research findings highlight that, although significant progress has been made—especially in replacing Soviet-era Russian borrowings with Azerbaijani neologisms and calques—critical gaps persist. These include inconsistencies across institutional usage, limited public availability of updated terminologies, and a lack of harmonization between academic, regulatory, and industrial terminology practices. Moreover, the rapid evolution of nuclear science demands continuous terminological innovation, particularly in areas such as advanced reactor systems, radiation detection technologies, nuclear medicine, and nuclear security.

In conclusion, a future-oriented, well-structured Azerbaijani nuclear terminology system will not only strengthen the country’s scientific and educational infrastructure but also enhance its ability to collaborate effectively on the international stage. It will serve as a critical pillar for fostering innovation, ensuring safety, and reinforcing national linguistic identity in the context of global scientific advancement.

References

1. **International Atomic Energy Agency (IAEA).** *IAEA Nuclear Safety and Security Glossary (2022 Interim Edition)*. Vienna: IAEA, October 2022. Это авторитетное руководство по унифицированному употреблению терминов в документах по ядерной безопасности en.wikipedia.org+9www-pub.iaea.org+9iaea.org+9.
2. Mammadov, T., & Aliyev, M. (2020). Linguistic adaptation of foreign scientific terms in Azerbaijani. International Journal of Linguistics, 35(4), 112-126.
3. N.Sadigova. Path of Science (2023). *Scientific language formation in post-Soviet countries: Challenges and Prospects*. https://doi.org/10.22178/pos.108-14
4. N.Sadigova. Path of Science. Terminology of Nuclear Energy Field based on the English Language Vol 10, No 9 (2024), https://doi.org/10.22178/pos.108-14
5. Drouin, P. (2003). Term extraction using non-technical corpora as a point of leverage. Terminology, 9(1), 99–115. https://doi.org/10.1075/term.9.1.06dro

NUCLEAR TERMINOLOGY IN TURKIC LANGUAGES: THE CASE OF THE AZERBAIJANI LANGUAGE

TÜRK DİLLƏRİNDƏ NÜVƏ SAHƏSİ TERMINOLOGİYASI: AZƏRBAYCAN DİLİ NÜMUNƏSİNDƏ

Nigar Sadigova
AMEA, Nəsimi adına Dilçilik İnstitutu
Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci

Abstract
In the 21st century, global cooperation in science and technology, scientific communication, and the advancement of technical education pose new challenges for the terminological systems of national languages. One of the most significant challenges is ensuring terminological consistency and standardization in high-tech fields—including nuclear energy and radiation technologies. The nuclear domain is not only complex and multidisciplinary but also requires a high level of responsibility in terms of safety and legislation. In such a context, the accurate localization, translation, and use of technical and scientific terms in national languages become strategically important.
Preliminary studies conducted in the context of the Azerbaijani language show that nuclear terminology has developed through two main channels: on the one hand, terms borrowed from Russian during the Soviet era, which have long been present in educational materials and technical documents; on the other hand, English-derived terms that have entered the lexicon over the past 30 years through cooperation with international organizations. These two sources represent distinct terminological models and morphological features, often leading to the emergence of parallel systems. As a result, terminological instability is observed in scientific texts, regulatory documents, and educational programs.
This article explores the lexical origins of nuclear terms in the Azerbaijani language, methods of morphological adaptation (affixation, calquing, transliteration), semantic integration, and the challenges in practical usage. It also examines the prospects for establishing a common terminological base among Turkic languages. In this regard, comparative approaches can be made using nuclear terms employed in Kazakh, Turkish, Kyrgyz, and Uzbek. For example, how concepts such as “fuel element,” “reactor vessel,” and “ionizing radiation” are rendered and assimilated in each language offers valuable linguistic and technical insights.
In the context of deepening scientific and technical cooperation among Turkic-speaking countries, enhancing terminological coordination is a pressing need. Common terminological standards not only facilitate scientific communication but also provide a foundation for the development of unified educational resources, effective participation in international projects, and joint training of qualified professionals. In this regard, the Azerbaijani language experience—with its rich Soviet-era scientific legacy and its modern, internationally oriented approaches—can serve as a model for other Turkic languages.

Xülasə
XXI əsrdə elm və texnologiya sahəsində qlobal əməkdaşlıq, elmi kommunikasiya və texniki təhsilin inkişafı milli dillərin terminoloji sistemlərinə yeni çağırışlar yaradır. Bu çağırışların ən mühümlərindən biri də yüksək texnoloji sahələrdə – o cümlədən nüvə energetikası və radiasiya texnologiyaları sahəsində – terminoloji uyğunluğun və standartlaşdırmanın təmin edilməsidir. Nüvə sahəsi kompleks və multidissiplinar mahiyyətə malik olmaqla yanaşı, təhlükəsizlik və qanunvericilik

baxımından da xüsusi məsuliyyət tələb edir. Belə bir şəraitdə, texniki və elmi terminlərin milli dillərdə düzgün qarşılanması, tərcümə olunması və istifadəsi strateji əhəmiyyət daşıyır.
Azərbaycan dili nümunəsində aparılmış ilkin tədqiqatlar göstərir ki, nüvə sahəsinə dair terminologiya əsasən iki istiqamətdən formalaşıb: bir tərəfdən sovet dövründə rus dilindən alınan və uzun müddət tədris materiallarında, texniki sənədlərdə yer almış terminlər, digər tərəfdən isə son 30 ildə beynəlxalq təşkilatlarla əməkdaşlıq nəticəsində daxil olmuş ingilis mənşəli terminlər. Bu iki mənbə fərqli terminoloji modelləri və morfoloji xüsusiyyətləri daşıdığı üçün bir sıra hallarda paralel sistemlərin yaranmasına səbəb olur. Nəticədə elmi mətnlərdə, normativ hüquqi sənədlərdə və tədris proqramlarında terminoloji qeyri-sabitlik müşahidə olunur.
Bu məqalədə Azərbaycan dilində nüvə terminlərinin leksik mənşəyi, morfoloji uyğunlaşdırma üsulları (affiksasiya, kalka, transliterasiya), semantik adaptasiyası və istifadədəki çətinliklər araşdırılır. Eyni zamanda, türk dilləri arasında ortaq terminoloji baza yaradılması perspektivləri də təhlil olunur. Bu xüsusda Qazax, Türkiyə, Qırğız və Özbək türkcəsində istifadə olunan nüvə terminləri ilə müqayisəli yanaşmalar aparıla bilər. Məsələn, “fuel element”, “reactor vessel”, “ionizing radiation” kimi anlayışların hər dildə necə qarşılandığı və mənimsəndiyi dilçilik və texniki baxımdan maraqlı tədqiqat sahəsidir.
Türkdilli ölkələr arasında elmi-texniki əməkdaşlığın dərinləşməsi fonunda terminoloji koordinasiyanın gücləndirilməsi vacib məsələdir. Ortaq terminoloji standartlar yalnız elmi ünsiyyəti asanlaşdırmır, həm də vahid təhsil resurslarının hazırlanması, beynəlxalq layihələrdə effektiv iştirak və ixtisaslı kadrların birgə hazırlanması üçün də zəmin yaradır. Bu baxımdan, Azərbaycan dilinin təcrübəsi – həm SSRİ dövründən qalmış zəngin elmi irs, həm də müasir beynəlxalq əlaqələrə əsaslanan yeni yanaşmalar – türk dilləri üçün modelləşdirici rol oynaya
bilər.

Giriş
XXI əsrdə bəşəriyyətin qarşılaşdığı qlobal çağırışlar – iqlim dəyişiklikləri, enerji ehtiyatlarının səmərəli idarə olunması, təhlükəsizlik və davamlı inkişaf kimi məsələlər – elmi biliklərin və texnoloji nailiyyətlərin milli səviyyədə tətbiqini daha da aktuallaşdırmışdır. Bu kontekstdə milli dillərin elmi-texniki sahələrə inteqrasiyası və bu sahələrdə istifadə olunan terminlərin milli dillərdə qarşılanması məsələsi ön plana çıxır.
Elmi-texniki tərəqqi ilə yanaşı, beynəlxalq əməkdaşlığın genişlənməsi və biliklərin sürətli paylaşımı da milli dillərin qarşısında yeni vəzifələr qoyur. Artıq yalnız tərcümə prosesi kifayət etmir – bu gün tələb olunan, orijinala adekvat, istifadəyə yararlı, normativ sənədlərə və tədris proqramlarına uyğunlaşdırılmış terminoloji sistemlərin yaradılmasıdır. Bu, xüsusilə yüksək texnologiyalar sahəsində, o cümlədən nüvə energetikası və radiasiya texnologiyaları kimi strateji sahələrdə daha da aktuallaşır.
Nüvə sahəsi kompleks, multidissiplinar və yüksək məsuliyyət tələb edən bir sahədir. Burada istifadə olunan terminlərin texniki dəqiqliyi, hüquqi sənədlərdə normativ istifadəsi və ictimaiyyətlə kommunikasiya zamanı anlaşılır olması xüsusi əhəmiyyət daşıyır. Terminoloji uyğunsuzluq və qeyri-dəqiqlik yalnız elmi ünsiyyəti çətinləşdirmir, həm də səhv interpretasiyalara və təhlükəli nəticələrə səbəb ola bilər.

Azərbaycan dilində nüvə terminologiyasının mənbələri
Azərbaycan dilində nüvə sahəsinə dair terminologiyanın formalaşması tarixən iki əsas mərhələyə ayrılır ki, bu mərhələlər həm terminlərin mənşəyini, həm də onların struktur və semantik xüsusiyyətlərini müəyyənləşdirir:
Sovet dövrü irsi: Azərbaycan SSR-də elmin inkişafı və xüsusilə fizika, energetika, kimya və nüvə texnologiyaları sahəsində aparılan tədqiqatlar əsasən rus dili vasitəsilə həyata keçirilmişdir. Bu dövrdə istifadə olunan terminlərin əksəriyyəti birbaşa rus dilindən tərcümə edilmiş və ya dəyişmədən

mənimsənilmişdir. Belə terminlərə “радиационная безопасность” (radiasiya təhlükəsizliyi), “тепловыделяющий элемент” (istilikayırıcı element), “аварийная защита” (qəza müdafiəsi) kimi ifadələr daxildir. Bu terminlər elmi məqalələrdə, dərsliklərdə, normativ aktlarda və texniki sənədlərdə geniş istifadə olunmuşdur.
Sovet dövrünün mühüm xüsusiyyəti odur ki, terminoloji sistem mərkəzləşdirilmiş şəkildə Moskva alimlərinin hazırladığı elmi və texniki sənədlər əsasında müəyyən olunurdu. Bu isə yerli terminoloji təşəbbüslərin qarşısını alır, tərcümə və adaptasiya prosesini passivləşdirirdi. Nəticədə, Azərbaycan dilindəki nüvə terminologiyası rus terminlərinin fonetik və morfoloji uyğunlaşdırılması yolu ilə formalaşmışdır. Məsələn, “reaktor”, “dozimetr”, “izotop”, “aktiv zona” kimi terminlər rus və ya latın mənşəli olub, Azərbaycan dilində olduğu kimi qəbul olunmuşdur.

Müstəqillik dövrü və beynəlxalq inteqrasiya: 1991-ci ildən sonra Azərbaycanın müstəqillik qazanması ilə yeni mərhələ başlandı. Bu dövrdə ölkə beynəlxalq qurumlarla – o cümlədən Beynəlxalq Atom Enerjisi Agentliyi (IAEA), Avropa Nüvə Agentliyi (NEA) və digər təşkilatlarla əməkdaşlığa başladı. Bunun nəticəsində elmi və texniki sənədlərə, terminoloji lüğətlərə və təlimatlara əsaslanan ingilis mənşəli terminlər milli terminologiyaya daxil oldu.
Bu mərhələdə qarşıya çıxan əsas çətinliklərdən biri ingilis dilində olan anlayışların Azərbaycan dilinə düzgün və funksional şəkildə tərcümə olunması idi. “Ionizing radiation” (ionlaşdırıcı şüalanma), “radioactive waste management” (radioaktiv tullantıların idarə olunması), “criticality” (kritiklik – reaktorun iş rejimi kontekstində) kimi terminlər həm semantik baxımdan düzgün anlaşılmalı, həm də mövcud elmi sistemə inteqrasiya edilməli idi.
Bununla yanaşı, bir çox terminlərin paralel formada istifadəsi də müşahidə olunmağa başladı. Məsələn, bəzi sənədlərdə “şüalanma dozası”, digərlərində isə “radiasiya dozası” anlayışına rast gəlinir. Belə terminoloji qeyri-sabitlik həm hüquqi sənədlərdə, həm də tədris proqramlarında və elmi nəşrlərdə çaşqınlığa səbəb olur.
Nəticə etibarilə, Azərbaycan dilində nüvə terminologiyası iki fərqli sistemin – rus və ingilis mənşəli – təsiri altında formalaşaraq çoxlaylı və bəzən qeyri-sabit bir struktur yaratmışdır. Bu isə yeni yanaşmaların, vahid metodologiyaların və ortaq terminoloji bazaların yaradılmasını zəruri edir.

Morfoloji və semantik uyğunlaşdırma üsulları
Azərbaycan dilində nüvə sahəsinə dair terminlərin adaptasiyasında müxtəlif dilçilik yanaşmalarından istifadə olunur. Bu üsullar həm leksik, həm də morfoloji səviyyədə müxtəlif dil mənbələrindən alınan terminlərin Azərbaycan dilinə uyğunlaşdırılmasını təmin edir. Əsas uyğunlaşdırma üsullarını aşağıdakı kimi qruplaşdırmaq olar:

Affiksasiya (şəkilçilərlə termin yaratma): Bu üsulda beynəlxalq mənbəli anlayışlar və ya anlayış kökləri milli dilin morfoloji imkanlarına uyğun olaraq şəkilçilərlə tamamlanır. Məsələn, “radiasiyalaşma”, “aktivləşmə”, “ionlaşma”, “radioaktivləşmə” kimi sözlərdə -laşma, -mə, -lik kimi şəkilçilərin köməyi ilə yeni terminlər yaranır. Bu üsul həm elmi, həm də texniki sahələrdə anlaşılan və funksional terminlər yaratmağa şərait yaradır.

Kalka üsulu (semantik və struktural tərcümə): Burada terminlərin lüğəvi mənası birbaşa tərcümə edilərək Azərbaycan dilinin strukturuna uyğunlaşdırılır. Bu üsulda terminlər morfoloji və semantik baxımdan Azərbaycan dilinə uyğun şəkildə modelləşdirilir. Məsələn, "radiation dose" ifadəsi “şüa dozası” və ya “radiasiya dozası” kimi qarşılanır; "control rod" termini isə “nəzarət çubuğu” kimi tərcümə olunur. Kalka üsulu terminlərin yerli elmi ictimaiyyət tərəfindən daha rahat mənimsənilməsinə imkan yaratsa da, bəzən struktur fərqlərinə görə qeyri-standart formalar da yarana bilir.[1]

Transliterasiya (orfoqrafik uyğunlaşdırma): Bəzi hallarda terminlər fonetik və ya qrafik olaraq olduğu kimi Azərbaycan dilinə qəbul olunur. Bu, xüsusən termin artıq elmi ictimaiyyətdə geniş istifadə olunmuşsa və onun qarşılığı formalaşmayıbsa baş verir. “Reaktor”, “izotop”, “kritiklik”, “dozimetr” kimi sözlər transliterasiya yolu ilə qəbul edilən terminlərdir. Bu üsulun üstünlüyü beynəlxalq uyğunluq və tanınmışlıq olsa da, mənimsənmə səviyyəsi bəzən məhdud ola bilər.[2]

Semantik adaptasiya: Terminlərin yalnız formal deyil, həm də məzmun baxımından uyğunlaşdırılması vacibdir. Çünki bəzi terminlər Azərbaycan dilində gündəlik istifadədə başqa mənaları ifadə edir və bu, elmi kontekstdə yanlış anlama səbəb ola bilər. Məsələn, "kritiklik" termini gündəlik dildə “əhəmiyyətlilik”, “vaciblik” mənasında başa düşülə bilər, lakin nüvə fizikasında bu anlayış reaktorun kritik iş rejimini – yəni öz-özünə davam edən zəncirvari reaksiya vəziyyətini – ifadə edir. Buna görə də belə terminlər kontekstə uyğun izah və ya izahlı qarşılıq tələb edir.[3]

Bəzi hallarda terminlərin tam lokalizasiyası mümkün olmadığından onların izahlı istifadəsi daha məqsədəuyğundur. Məsələn, “containment structure” anlayışını sadəcə “saxlama qurğusu” kimi tərcümə etmək qeyri-dəqiq ola bilər; bu halda “reaktorun izolyasiya qabığı” və ya “qapalı təhlükəsizlik korpusu” kimi alternativlər təklif olunur.

Azərbaycan dilində morfoloji və semantik uyğunlaşdırma strategiyalarının mükəmməlliyi, bu sahədə elmi ədəbiyyatların, tədris proqramlarının və hüquqi sənədlərin terminoloji baxımdan standartlaşdırılmasını təmin etmək üçün vacib mərhələdir. Bu proseslərin elmi əsaslarla aparılması həm dilin müasir texnologiyalarla uyğun inkişafını təmin edir, həm də beynəlxalq elmi ünsiyyətdə effektivliyi artırır.[4]

Türk dilləri arasında müqayisəli analiz

Müasir dövrdə türkdilli ölkələr arasında elmi-texniki əməkdaşlığın genişlənməsi və müştərək layihələrin sayının artması fonunda terminoloji koordinasiya məsələsi xüsusilə aktuallaşır. İqtisadi əməkdaşlıq, təhsil proqramlarının uyğunlaşdırılması və regional təhlükəsizlik kimi sahələrdə ortaq anlayışların istifadəsi zərurəti, terminoloji bazaların da bir-biri ilə uyğun olmasını tələb edir.

Nüvə energetikası sahəsində bu zərurət daha da kəskin hiss olunur, çünki bu sahədə istifadə olunan terminlər həm yüksək dəqiqlik, həm də universal başa düşülmə səviyyəsi tələb edir. Lakin mövcud vəziyyət göstərir ki, bəzi əsas terminlər müxtəlif türk dillərində fərqli formalarda qəbul olunmuşdur. Bu fərqlər ya terminoloji sistemlərin inkişaf tarixindən, ya da dilçilik yanaşmalardakı müxtəliflikdən qaynaqlanır.

Məsələn, “fuel element” (yanacaq elementi) termini Azərbaycan dilində “yanacaq elementi”, Türkiyə türkcəsində “yakıt elemanı”, Qazax türkcəsində “otın elementi”, Özbək türkcəsində isə “yoqilg‘i elementi” kimi istifadə olunur. Hərçənd bu terminlər eyni texniki məzmunu daşıyır, onların leksik quruluşu və dilin fonetik imkanlarına uyğunluğu fərqlidir. Eyni hal “reactor vessel”, “ionizing radiation” və digər əsas anlayışlar üçün də müşahidə olunur.

Bu fərqli yanaşmalar bir tərəfdən milli dilin imkanlarına və strukturuna hörmətin göstəricisidirsə, digər tərəfdən ümumtürk elmi ünsiyyəti üçün əngəllər yaradır. Xüsusilə, ortaq dərsliklərin hazırlanması, beynəlxalq layihələrdə vahid texniki sənədlərlə işləmək və ekspertlərarası əlaqənin effektivliyi baxımından bu fərqlər koordinasiya olunmalıdır.

Beləliklə, türkdilli ölkələr arasında terminoloji harmonizasiya məsələsi yalnız dilçilik deyil, eyni zamanda strateji və elmi inteqrasiyanın vacib elementidir. Bu baxımdan müqayisəli terminoloji analizlər və uyğunlaşdırılmış termin bazalarının yaradılması türkdilli ölkələrin gələcək elmi əməkdaşlığının əsasını təşkil edə bilər.

Termin (İngilis)	Azərbaycan	Türkiyə türkcəsi	Qazax türkcəsi	Özbək türkcəsi
Fuel element	Yanacaq elementi	Yakıt elemanı	Otın elementi	Yoqilg‘i elementi

Termin (İngilis)	Azərbaycan	Türkiyə türkcəsi	Qazax türkcəsi	Özbək türkcəsi
Reactor vessel	Reaktor qabi	Reaktör kabı	Reaktor korpusu	Reaktor idishi
Ionizing radiation	İonlaşdırıcı şüalanma	İyonlaştırıcı radyasyon	İonlaşqan nurlanış	Ionlashtiruvchi nurlanish

Terminoloji koordinasiyanın əhəmiyyəti və gələcək perspektivlər

Müasir texnoloji inkişaf və regional əməkdaşlıq şəraitində türkdilli ölkələr arasında vahid terminoloji bazanın yaradılması zərurətə çevrilmişdir. Nüvə sahəsi kimi yüksək riskli və kompleks elmi sahələrdə terminoloji uyğunsuzluq yalnız elmi-texniki inteqrasiyanı çətinləşdirmir, həm də təhlükəsizlik və hüquqi uyğunluq baxımından potensial problemlər yaradır. Bu səbəbdən, terminoloji koordinasiyanın gücləndirilməsi strateji prioritet kimi qiymətləndirilməlidir.

Türkdilli ölkələrdə ortaq elm və təhsil proqramlarının hazırlanması, müştərək texniki layihələrin icrası və ixtisaslı mütəxəssislərin birgə hazırlanması üçün terminoloji uyğunluq və vahid termin bazası zəruridir. Terminlər yalnız dil vahidi deyil, eyni zamanda texniki standartların, hüquqi tənzimləmələrin və elmi biliklərin daşıyıcısıdır. Buna görə də onların milli dillər arasında qarşılıqlı anlaşılması həm səmərəli elmi əməkdaşlığın, həm də texniki və hüquqi uyğunluğun təminatıdır.[5]

Bu məqsədlə aşağıdakı istiqamətlərdə fəaliyyətin gücləndirilməsi məqsədəuyğundur:

- **Ortaq terminoloji komissiyaların yaradılması:** Türk Dövlətləri Təşkilatı və ya TÜRKSOY çərçivəsində daimi terminoloji işçi qruplarının yaradılması terminlərin uyğunlaşdırılması və rəsmi təsdiqi baxımından səmərəli platforma yarada bilər.
- **Nüvə sahəsinə dair türkdilli terminoloji lüğətlərin hazırlanması:** Müştərək lüğət layihələri – həm çap, həm də rəqəmsal formada – müxtəlif dillərdə eyni anlayışların qarşılığını və istifadə sferasını sistemləşdirə bilər. Bu, təhsil, elmi tədqiqat və sənaye əməkdaşlığı üçün vacibdir.
- **IAEA və digər beynəlxalq qurumların termin bazalarından istifadə edərək uyğunlaşdırma işləri aparmaq:** Beynəlxalq terminoloji standartlarla uyğunsuzluğun qarşısını almaq üçün mövcud terminoloji platformaların – IAEA Safety Glossary, ISO termin bazası və s. – lokal dillərə uyğunlaşdırılması və sistemli tətbiqi təmin olunmalıdır.
- **Tərcümə standartlarının qəbul edilməsi və vahid metodoloji yanaşmaların formalaşdırılması:** Texniki və elmi tərcümələrin keyfiyyətini artırmaq üçün vahid prinsiplər, tərcümə protokolları və redaktə qaydaları müəyyən edilməlidir. Bu, həm də süni intellekt və avtomatik tərcümə alətlərinin effektivliyini artıracaq.

Bu kontekstdə Azərbaycan dilindəki təcrübə – həm SSRİ dövründə toplanmış zəngin elmi miras, həm də müasir beynəlxalq əlaqələr çərçivəsində həyata keçirilmiş terminoloji adaptasiyalar – digər türk dilləri üçün modelləşdirici və yönverici rol oynaya bilər. Azərbaycanın həm rus, həm də ingilis mənbəli terminləri inteqrasiya etmiş olması unikal dilçilik laboratoriyası funksiyası daşıyır və bu təcrübə digər türkdilli ölkələrə də sistemli yanaşma nümunəsi təqdim edə bilər.

Nəticə etibarilə, vahid nüvə terminoloji platformasının yaradılması yalnız terminoloji uyğunluq yaratmaqla kifayətlənmir, həm də ortaq texniki standartların, təhlükəsizlik protokollarının və elmi bilik mübadiləsinin effektivliyini artırır. Bu isə türkdilli ölkələrin qlobal elmi sistemə daha fəal inteqrasiyasına töhfə verir.

Nəticə

Nüvə terminologiyasının türk dillərində uyğunlaşdırılması yalnız dil məsələsi deyil, həm də regional elmi-texniki əməkdaşlığın gücləndirilməsi üçün strateji əhəmiyyət daşıyır. Qloballaşan elmi mühitdə vahid terminologiya texniki standartlar, təhlükəsizlik protokolları və hüquqi sənədlərin ortaq şəkildə ifadəsi üçün vacibdir. Azərbaycan bu sahədə mühüm təcrübə qazanmış, rus və ingilis mənbəli terminləri morfoloji və semantik baxımdan uyğunlaşdıraraq funksional terminoloji model

formalaşdırmışdır. Bu model digər türkdilli ölkələr üçün də nümunə ola bilər. Beləliklə, nüvə terminologiyasının uyğunlaşdırılması gələcəyə yönəlmiş və davamlı regional elmi əməkdaşlıq üçün mühüm addımdır.

Ədəbiyyat

1. International Atomic Energy Agency. (2018). *IAEA Safety Glossary: Terminology used in nuclear safety and radiation protection* (Rev. ed.). Vienna: IAEA. Retrieved from https://www-pub.iaea.org/MTCD/Publications/PDF/PUB1830_web.pdf
2. International Vocabulary of Metrology – Basic and General Concepts and Associated Terms (VIM) https://www.oiml.org/en/files/pdf_v/v002-200-e07.pdf
3. A.Məmmədov "AZƏRBAYCANDA TERMİNOLOGİYANIN VƏZİYYƏTİ: LEKSİKOQRAFİYA, UNİFİKASİYA VƏ KOORDİNASİYA PROBLEMLƏRİ" SOSİAL TƏDQİQATLAR / Cild 2 № 1 • 2022 https://www.anl.az/down/meqale/sosial_tedqiqatlar/2022/01/02(meqale).pdf
4. N.Sadigova " AZƏRBAYCAN DİLİNDƏ NÜVƏ ENERJİSİ TERMİNLƏRİNİN FORMALAŞMASINDA NEOLOGİZMLƏRİNİN ROLU". Terminologiya məsələləri – №1. ISSN 2663-8967, 2024; 140-143. 2024; 140-143
https://doi.org/10.59849/2663-8967.2024.1.140
5. N.Sadigova."Azərbaycan dilində nüvə enerjisi sahəsində terminlərin ingilis dili əsasında formalaşması" Terminologiya məsələləri – №1,2023, ISSN 2663-8967, 18-22 , https://doi.org/10.59849/2663-8967.2023.1.18

UNDERSTANDING AND THE ROLE OF EXPLANATION IN UNDERSTANDING.

Aliyeva Elmira Eyyub
Dr..Associate Professor Azerbaijan University of languages, English Faculty, Department of Methods of Teaching Foreign Languages.

A b s t r a c t
The basic concept of understanding, first of all, is connected with the establishment of the personal meaning of the understanding, the possibility of using what is understood to meet the needs of the subject of knowledge or use in activities related to satisfying its needs. Science is defined as a sphere of human activity, the function of which is to develop and systematize objective knowledge about reality, in the aggregate they represent the sum of knowledge underlying the scientific picture of the world. The purpose of science is to describe, explain and predict the processes and phenomena of reality on the basis of open laws.
As a result of scientific activity, which is built according to certain rules, the scientist receives knowledge that requires explanation. Through explanation, an understanding of the obtained facts (knowledge) is achieved, the explanation is the most difficult, creative stage in ongoing research. The explanation reveals the possible causes of the observed (studied) phenomenon. Let us demonstrate this by the example of the work of J. Piaget, which determines the child's understanding of the constancy of objects. Piaget attached great importance to this principle.
“All knowledge,” he wrote, “regardless of whether it is scientific or simply derived from common sense, presupposes, explicitly or implicitly, a system of conservation principles” (Piaget, 1969, p. 243). Piaget studied the principle of conservation using the example of arithmetic thinking and the formation of the concept of number.
In various monographs and textbooks, considering this dependence, they usually refer to Piaget's experiments with pouring liquid into vessels of various shapes. And this description takes, as a rule, no more than one page. While Piaget himself, giving an explanation of this phenomenon, describes these experiments on 57 pages, he distinguishes three stages in the formation of the concept of number in a child. “According to children in the first stage, the amount of transfused fluid increases or decreases depending on the shape and number of vessels. The child makes judgments based on perceptual data. And the problem is, "why is perception deceptive?" And it is deceptive because in perception there are asymmetric properties that the child is not able to appreciate in unity. But in these properties there is a germ of magnitude.Analysis of foreign sources leads A. V. Yurevich to the conclusion that there are different types of explanations which are very important in understanding
Key words: perception, perceptual, explanation, explicitly, implicitly

IMPLEMENTATİON OF CURRİCULUM İN GEOGRAPHY LESSONS

COĞRAFİYA DƏRSLƏRİNDƏ KURİKULUMUN TƏTBİQİ

Aslanova Arzu Aydın qızı
ADPU,Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi texnologiyası

Xülasə
Son illərdə Azərbaycan təhsil sistemində tətbiq olunan kurikulum islahatları fənlərin tədrisində yeni yanaşmaları zəruri etmişdir. Coğrafiya dərslərində kurikulumun tətbiqi bu fənnin yalnız nəzəri biliklərin ötürülməsi ilə kifayətlənməyib, eyni zamanda şagirdlərin tənqidi düşüncə, xəritə oxuma, araşdırma aparma və həyatla əlaqələndirmə bacarıqlarının inkişafına yönəlmişdir.
Yeni kurikulumun əsas xüsusiyyətləri fənlərarası inteqrasiya, şagirdyönümlü yanaşma, fəaliyyət əsaslı öyrənmə və nəticəyönümlü qiymətləndirmədir. Coğrafiya dərslərində bu modelin tətbiqi müəllimdən həm planlaşdırma, həm də dərs zamanı çevik strategiyalar tələb edir. Dərslərdə real həyatla bağlı problemlər üzərində işləmək, layihələr hazırlamaq və xəritə təhlili kimi fəaliyyətlər şagirdlərin fənnə marağını artırır və praktiki bacarıqlarını gücləndirir.
Tədqiqat və müşahidələr göstərir ki, kurikulum əsaslı dərslər daha aktiv, məzmunlu və məqsədyönlü olur. Bu isə nəticə etibarilə şagirdlərin coğrafi bilik və bacarıqlarının daha yüksək səviyyədə formalaşmasına səbəb olur.
Açar sözlər: coğrafiya dərsi, kurikulum, fəal təlim, fənlərarası inteqrasiya, bacarıq yönümlü yanaşma, xəritə oxuma, layihə işi.

Abstract
In recent years, curriculum reforms in the Azerbaijani education system have introduced new approaches to teaching, especially in geography. The application of curriculum-based instruction in geography lessons goes beyond delivering theoretical knowledge, aiming instead to develop students' critical thinking, map-reading, research skills, and real-world problem-solving abilities.
Key features of the new curriculum include cross-curricular integration, student-centered approaches, activity-based learning, and outcome-oriented assessment. Applying these principles in geography lessons requires flexible planning and dynamic teaching strategies. Activities such as solving real-life geographical problems, creating projects, and interpreting maps help increase student interest and improve practical competencies.
Research and classroom observations show that curriculum-based geography lessons are more engaging, meaningful, and goal-driven. As a result, students develop stronger geographical knowledge and skills aligned with modern educational demands.
Keywords: geography lesson, curriculum, active learning, cross-curricular integration, skills-based approach, map reading, project work.

GRAMMATICAL FEATURES OF FREE WORD COMPOUNDS USED IN B. VAHABZADE'S POETRY

B.VAHABZADƏ POEZİYASINDA İŞLƏNƏN SƏRBƏST SÖZ BİRLƏŞMƏLƏRİNİN QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

Aslanova Mətanət Musa qızı
İbtidai təhsil kafedrasının baş müəllimi Bakı Slavyan Universiteti Azərbaycan, Bakı

Xülasə
Xalq şairi Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan böyük şairlərdən biridir. Onun poeziyasında dil zənginliyi, milli ruh və xalq ədəbiyyatından qaynaqlanan üslubi çalarlar xüsusi yer tutur. Şairin dil zənginliyi bir neçə istiqamətdə özünü göstərir. Bəxtiyar Vahabzadənin poeziyasında dil zənginliyi onun milli ruhu, xalq yaradıcılığına bağlılığı, təsvir vasitələrinin müxtəlifliyi və dərin fəlsəfi düşüncələri ilə formalaşmışdır. Şairin əsərləri Azərbaycan dilinin imkanlarını geniş şəkildə göstərərək həm xalqın, həm də fərdin hisslərini və düşüncələrini əks etdirməyə xidmət edir. Ana dilinin saflığı məsələsinə dönə-dönə toxunması, ədəbi dilin, ümumxalq dilinin qoruması, onun gələcək nəsillərə olduğu kimi çatdırılması məsələləri ustadın şeirlərinin əsas qayəsinə çevrilmişdir. Bu, onun Azərbaycan poeziyasının klassikləri içərisində özünəməxsus mövqe qazandığını sübut edir.
B.Vahabzadənin şeir dilində söz birləşmələrinin müxtəlif modelləri işlədilmişdir. Şairin poeziyasında sərbəst söz birləşmələrinin qrammatik xüsusiyyətləri onun poetik üslubunun zənginliyini və bədii təsir gücünü müəyyən edən mühüm elementlərdən biridir. Şairin əsərlərində işlənən sərbəst söz birləşmələri əsasən qrammatik və semantik baxımdan bir neçə mühüm cəhətdən fərqlənir. Onun poeziyası əsasında sərbəst söz birləşmələrinin işlənmə məqamlarını, quruluş tiplərini, yaratdığı ekspessiv vəziyyətini araşdırmaq poeziyasının dil xüsusiyyətlərini öyrənmək üçün vacib məsələlərdən biridir.
***Füzulinin** "ah" **səsində**,*
***Üzeyirin nəğməsində**,*
Ələsgərin səsində
Səni andım, ana yurdum.
Böyük ustad söz birləşmələrindən ekspressiv boyalar yaratmaq məqsədilə məharətlə istifadə etmişdir. Şair Azərbaycan ədəbi dilinin inkişafında nəzəri fikirləri ilə yanaşı bədii yaradıcılığında söz və ifadələrin dəqiq, emosional, yerli-yerində işləməsinə böyük diqqət yetirmişdir.
Otun pıçıltısı, küləyin ətri,
***Torpağın nəfəsi** – heyrət nidası!*
***Bülbülün cəh-cəhi**, çiçəyin ətri,*
***Suyun zümzüməsi** – heyrət nidası!*
Şairin şeirlərindən verilən nümunələrdən göründüyü kimi onun şeir dilində ustadın öz yazı tərzinə, qələminə məxsus, bədii cəhətdən mükəmməlsöz birləşmələrinə rast gəlinir. Bəxtiyar Vahabzadənin poeziyasında işlənən sərbəst söz birləşmələri dilin bədii və qrammatik imkanlarını tam ifadə edir. Onlar həm sadə, həm də mürəkkəb qrammatik strukturlar yaratmaqla şairin fikirlərini dolğun, təsirli və axıcı şəkildə təqdim edir. Bu birləşmələr həm poeziyanın estetik dəyərini artırır, həm də oxucuya emosional və intellektual təsir göstərir.
Açar sözlər: Bəxtiyar Vahabzadə poeziyası, sərbəst söz birləşmələri, qrammatik xüsusiyyətlər, frazeoloji vahidlər, şair üslubu.

Abstract
People's poet Bakhtiyar Vahabzade is one of the great poets who have a unique place in Azerbaijani literature. In his poetry, the richness of language, national spirit and stylistic shades originating from folk literature occupy a special place. The poet's linguistic richness manifests itself in several directions. The richness of language in Bakhtiyar Vahabzade's poetry is formed by his national spirit, attachment to folk creativity, diversity of means of depiction and deep philosophical thoughts. The poet's works serve to reflect the feelings and thoughts of both the people and the individual, broadly showing the possibilities of the Azerbaijani language. The repeated touching on the issue of the purity of the native language, the preservation of the literary language, the national language, and its transmission to future generations have become the main goals of the master's poems. This proves that he has gained a unique position among the classics of Azerbaijani poetry.
Various models of word combinations were used in B. Vahabzade's poetic language. The grammatical features of free word combinations in the poet's poetry are one of the important elements that determine the richness of his poetic style and the power of artistic influence. The free word combinations used in the poet's works differ in several important aspects, mainly from a grammatical and semantic point of view. Investigating the moments of use of free word combinations, types of structure, and the expressive situations they create based on his poetry is one of the important issues in studying the linguistic characteristics of his poetry.
***Füzulinin** "ah" **səsində**,*
***Üzeyirin nəğməsində**,*
Ələsgərin səsində
Səni andım, ana yurdum.
The great master skillfully used word combinations to create expressive colors. Along with his theoretical ideas in the development of the Azerbaijani literary language, the poet paid great attention to the precise, emotional, and appropriate use of words and expressions in his artistic creativity.
Otun pıçıltısı, küləyin ətri,
***Torpağın nəfəsi** – heyrət nidası!*
***Bülbülün cəh-cəhi**, çiçəyin ətri,*
***Suyun zümzüməsi** – heyrət nidası!*
As can be seen from the examples given from the poet's poems, in his poetic language there are artistically perfect word combinations characteristic of the master's own writing style and pen. The free word combinations used in Bakhtiyar Vahabzadeh's poetry fully express the artistic and grammatical possibilities of the language. They present the poet's thoughts in a complete, effective, and fluent manner by creating both simple and complex grammatical structures. These combinations both increase the aesthetic value of poetry and have an emotional and intellectual impact on the reader.
Keywords: Bakhtiyar Vahabzadeh's poetry, free word combinations, grammatical features, phraseological units, poetic style.

Dilimiz, millətimiz durduqca
Bəxtiyar Vahabzadə də əbədi yaşayacaqdır.
Anar

Giriş
Xalqın həyatını, onun keçmişini, bugününü dərindən bilən, gələcəyini ürək yanğısı ilə düşünən Bəxtiyar Vahabzadənin poeziyası dilin əsl mahiyyətini, qüdrətini, səfərbəredici gücünü araşdırmaqdan ötrü zəngin xəzinədir. Şairin şeir dünyası fikir və düşüncələrin dərinliyi, poetikası, yüksək sənətkarlığı ilə insanı heyran qoyur. Bu keyfiyyətlərin mayası doğma ana dili, onun zəngin lüğət tərkibidir.

Əsl sənətkarın, əsl şairin
Ozü qocalsa da, sözü qocalmır. [Vahabzadə, 2004: s. 57]

B.Vahazadə yaradıcılığı boyu ana dilinin saflığı məsələsinə dönə-dönə toxunmuş, ədəbi dilin, ümumxalq dilinin qorunması, onun gələcək nəsillərə olduğu kimi çatdırılması məsələləri onun şeirlərinin əsas qayəsinə çevrilmişdir. Dil məsələsi onun demək olar ki, əksər şeirlərində qırmızı xətt kimi keçir.

Mən bu dildə hiss etmişəm
Həm sevinci, həm də qəmi,
Bu dildə yaratmışam
Hər şeirimi, hər nəğməmi. [Vahabzadə, 2004: s. 72]

Şairin fikrincə, ana dili insanın ruhudur, millətin özünüifadəsidir. Ana dilinin dərin təəssübkeşi olan ədib ona son dərəcə həssaslıqla yanaşır, dili yaşatmağı hər kəsin qeyrət məsələsi, vətəndaşlıq borcu kimi səciyyələndirir. Vətəndaş şairin qənaətinə görə, dil xalqın mövcudluğunu təsdiqləyən çox mühüm bir amildir.

Səndə mənim xalqımın
Qəhərmanlıqla dolu
Tarixi varaqlanır.
Səndə neçə min illik
Mənim mədəniyyətim,
Şan-şöhrətim saxlanır,
Mənim adım-sanımsan,
Namusum – vicdanımsan! [Vahabzadə, 2004: s. 162]

Bu kiçik parçada şair ana dilinə xas olan xüsusiyyətləri sadalayır: dildə xalqın tarixi öz əksini tapır, xalqın milli mədəniyyəti onun dilində özünü göstərir.

"B.Vahabzadənin istetadı və şəxsiyyət bütövlüyünün əsasında Vətən, xalq və onun dili dayanır. Şairin əqidəsi, inamı bu üç amilə söykənir, onun bütün varlığı və bu varlığın mayası Azərbaycan dilidir. Dil, onun işlənmə dairəsi, tədrisi metodikası və s. problemlərlə bağlı şairin düşüncələri bu günümüz üçün də xüsusilə əhəmiyyətlidir". [Vahabzadə, 2004: s. 65]

Bəxtiyar Vahabzadə Şeirlərinin Təhlili

Bədii dildə söz birləşmələri ekspressivliyi ilə seçilən dil vahidləridir, eyni zamanda həm sintaktik, həm də frazeoloji vahiddir və bədii dildə onun özünəməxsus üslubi-qrammatik xüsusiyyətləri mövcuddur. Sərbəst birləşmələr əsl qrammatik birləşmələrdir, sintaktik təlimin başlıca obyektidir.

Söz birləşmələrinin mühüm bir qismini ismi birləşmələr təşkil edir. Əsas tərəfi adlardan (isim, sifət, say və əvəzliklərdən) ibarət olan birləşmələrə ismi birləşmələr deyilir. İsmi birləşmələr iki yolla: analitik və sintektik yolla yaranır. Analitik yolla əmələ gələn ismi birləşmələrdə xüsusi şəkilçilərdən istifadə olunur. Yəni bu tip birləşmələrin yaranmasında şəkilçilər deyil, söz sırası və intonasiya əsas rol oynayır:

*Oldun bütün insanlıq üçün **fəxri vətəndaş**!* [Vahabzadə, 2004: s. 17]

****

*Hər gün **təzə uçuş**, **təzə arzu**.* [Vahabzadə, 2004: s. 23]

****

*"Firlanır" sözüylə o **böyük insan**,*
Qırdı mövhumatın sərt buzlarını. [Vahabzadə, 2004: s. 23]

B.Vahabzadənin poeziyasında sintetik yolla, yəni şəkilçilər vasitəsi ilə yaranan birləşmələr kifayət qədərdir. Bu cür vahidlər öz bədii tutumu, ifadə tərzi ilə seçilir ki, bu da şairin bədii təfəkkür, yeni ifadələr yaratmaq istedadının bariz nümunəsidir.

***Sənətin, ilhamın, eşqin** gur səsi,*
Qorxaq ürəklərdən niyə gen düşür? [Vahabzadə, 2004: s. 33]

****

Ürəklərə yol açan ***Füzulinin sənəti***
Ey dilim, qüdrətinlə dünyalara yol açmış. [Vahabzadə, 2004: s. 35]
İsmi birləşmələr iki yerə ayrılır:
1. Təyini söz birləşmələri;
2. Təyini söz birləşmələrinə daxil olmayan ismi birləşmələr.

Təyin söz birləşmələri müxtəlif nitq hissələrindən, müxtəlif sintaktik əlaqələr əsasında və müxtəlif morfoloji əlamətlər hesabına düzəlir. Bu tip birləşmələrin bir qismi morfoloji əlamətə malik olmadan, ancaq sözlərin sıralanması ilə, digər qismi isə sözdəyişdirici şəkilçilərin köməyi ilə əmələ gəlir. Bu əlamətlərinə görə təyini söz birləşmələri üç yerə bölünür:
1. Birinci növ təyini söz birləşmələri;
2. İkinci növ təyini söz birləşmələri;
3. Üçüncü növ təyini söz birləşmələri.

B.Vahabzadənin şeir dilində onun öz yazı tərzinə, qələminə məxsus, bədii cəhətdən mükəmməl birləşmələrə rast gəlirik.
Dağın zirvəsində ***saçaqlanan gün****,*
Qızıl tellərini *səpir çəmənə.* [Vahabzadə, 2004: s. 140]
****
Tufansız ürəklər durğun yol *kimi,*
Suyu təzələnməz, dibi lillənər. [Vahabzadə, 2004: s. 145]

Birinci növ ismi söz birləşmələrin ikinci tərəfi isimlə, birinci tərəfi isim, sifət, say, əvəzlik və feili sifətlə ifadə olunur. Bu cəhəti nəzərə alaraq birinci növ təyini söz birləşmələrini aşağıdakı kimi vermək olar:
A) Birinci tərəfi isimlə ifadə olunanlar.
Şairin şeirlərinin dilində hər iki tərəfi isimdən düzələn birləşmələrə az rast gəlinir.
Gecənin yaxasında
Qızıl-qızıl düymələr. [Vahabzadə, 2004: s.109]
****
Sözün çəpərləri, ***daş hasarları***
Gözlər uzaqlara zilləsin barı. [Vahabzadə, 2004: s. 111]
****
Qolunun üstdən
Onu ***daş pillənin*** *üstünə qoydu.* [Vahabzadə, 2004: s. 294]

Verilmiş nümunələrdə *qızıl düymə, daş hasar, daş pillə* birləşmələri hər iki tərəfi isimlə ifadə olunmuş birinci növ təyini söz birləşmələridir. *Qızıl, daş* sözləri nitq hissəsi kimi isimdir və onlar birləşmə daxilində atributivləşir, yəni ikinci tərəfin təyinedəni, onların müəyyən əlamətlərini səciyyələndirən sözlər kimi çıxış edir.

Məlumdur ki, birinci növ təyini söz birləşmələrinin ikinci tərəfi cümlədəki vəzifəsindən asılı olaraq müxtəlif qrammatik şəkilçilər – hal-kəmiyyət, xəbərlik, mənsubiyyət şəkilçiləri qəbul edir.
Qızıl çərçivədə *köhnə bir şəkil:*
Rəqs edir ucaboy, gözəl bir oğlan. [Vahabzadə, 2004: s. 315]

B) Birinci tərəfi sifətlə ifadə olunanlar.

Belə birləşmələr digərlərindən fərqli olaraq şairin şeir dilində daha geniş şəkildə işlənir; həm də quruluşuna görə seçirilir. Belə ki, burada işlənən I növ təyini söz birləşmələrinin birinci tərəfi həm sadə, həm də düzəltmə sifətlərə ifadə olunur. Sadə sifətlə ifadə olunanlar:
*Zəhməti****,*** *həyatımın ilk bəzəyi sanmışam,*
Ağ saçları *həyatda mən özümü qazanmışam.* [Vahabzadə, 2004: s. 18]
****
"Fırlanır" *sözüylə* ***o böyük insan****,*
Qırdı mövhumatın ***sərt buzlarını.*** [Vahabzadə, 2004: s. 29]

****

Düzəltmə sifətlə ifadə olunanlar:
*Qarşımda daha **geniş üfüqlər**,*
Biz dayandıq zaman ilə döş-döşə. [Vahabzadə, 2004: s. 13]

****

***Tələtümsüz ürəklər** qovuq kimi boş olur,*
Daim sevinc axtaran daim qəmə tuş olur. [Vahabzadə, 2004: s. 24]
C) Birinci tərəfi sayla ifadə olunanlar:
***Milyon il** dedilər: Qaşqa öküzlə,*
Çatıbdır şöhrətə, şərəfə dünya. [Vahabzadə, 2004: s. 29]

****

Bəşər tarixində bəlalı insan,
***İki qütb** önündə çox dayanıbdır.* [Vahabzadə, 2004: s. 31]
Ç) Birinci tərəfi əvəzliklərlə ifadə olunanlar:
*Gülün ətriylə doldu **bütün çayır, bütün çöl**.* [Vahabzadə, 2004: s. 159]

****

*Biri çayın **bu tayından**,*
*Biri çayın **o tayından**.* [Vahabzadə, 2004: s. 179]

****

***Bu büsat, bu cəlal** kimin üçündür?* [Vahabzadə, 2004: s. 181]
İşarə və təyini əvəzliklərdən daha çox istifadə olunmuşdur. Belə birləşmələrin birinci tərəfini təşkil edən əvəzliklər ikinci tərəfi, yəni isimləri, yaxud substantivləşmiş sözləri bu və ya digər əlamətinə görə izah və təyin edir.
Hər söz öz yuvasından
Bir qatar söz uçurur. [Vahabzadə, 2004: s. 268]

****

*Ordakı atılmış **bütün körpələr***
Elə bilirəm ki, nəvələrimizdir. [Vahabzadə, 2004: s. 320]
D) Birinci tərəfi feili sifətlə ifadə olunanlar:
*Dağın zirvəsində **saçaqlanan gün**,*
Qızıl tellərini səpir çəmənə. [Vahabzadə, 2004: s. 140]

****

*Heyranam həmişə **yanan könlümə**,*
Alovlu şerimdir, külü görünmür. [Vahabzadə, 2004: s. 152]
Verilmiş nümunələrdən aydın olur ki, B.Vahabzadənin şeirlərində I növ təyini söz birləşmələri kifayət qədərdir.
II növ təyini söz birləşmələrinin birinci tərəfi heç bir şəkilçi qəbul etmir, ikinci tərəfi isə mənsubiyyət şəkilçisi qəbul edir. Birinci tərəfi qeyri-müəyyən yiyəlik halda işlənməsi ilə bağlı olaraq həmin birləşmələr ümumiləşmiş mücərrəd mənaları ifadə etmiş olur; tərəfləri daha çox isimlə ifadə olunur ki, bu xüsusiyyət də həmin birləşmələri digərlərindən fərqləndirir.
Səsimi aparın Şəhriyyara siz,
***Telefon telləri**, söz sözə möhtac.* [Vahabzadə, 2004: s. 94]

****

***Yad dilində** məktub yazıb qardaş öz qardaşına,*
Bu məktubu oxuyan nə kül töksün başına. [Vahabzadə, 2004: s. 97]
Şairin şeir dilində dilində birinci tərəfi coğrafi yer adları bildirən xüsusi isimlə ifadə olunan birləşmələrə də rast gəlirik:
*Qardaşıyam – **Şah dağıyam**,*
Arxasıyam, dayağıyam. [Vahabzadə, 2004: s. 91]

****

Zülmə tanıtmaq üçün öz yerini, qan axdı,
Tehran küçələrində, Təbriz küçələrində. [Vahabzadə, 2004: s. 209]
– birləşmənin birinci tərəfi məsdərlə ifadə olunur:
Yağmaq xatirinə *yağan yağışın,*
Nə bağa xeyri var, nə dağa xeyri. [Vahabzadə, 2004: s. 138]

****

Utanmaq hissi *– özündən bir boy ucalmaq!*
Qızarmaq hissi *– günahı boynuna almaq!* [Vahabzadə, 2004: s. 138]
– birləşmənin birinci tərəfi əşya bildirən ümumi isimlər, ikinci tərəfi isə təqlidi sözlərlə ifadə olunur:
Hara baxıramsa görürəm səni,
Quş səsi, ***çay şırıltısı*** *sənin səsindir.* [Vahabzadə, 2004: s. 17]

****

Görən bizə nə deyir
Qarıldaşan qarğalar. [Vahabzadə, 2004: s. 318]
B.Vahabzadə şeirlərinin dilində birinci tərəfi dırnaqlarda verilən birləşmələrə də rast gəlirik:
Qurban olum "qardaş" deyən
"Heydərbaba" dilinə mən [Vahabzadə, 2004: s. 91]

****

Şərə düşsən aç ***"Xəmsə"ni,***
"Xeyirlə şər" *dastanına pənah apar.* [Vahabzadə, 2004: s. 76]
B.Vahabzadənin poeziyasında üçüncü növ təyini söz birləşmələri kifayət qədərdir. Bu birləşmələr mənası, ifadə forması, ekspresivliyi və təsir gücü ilə diqqəti cəlb edir.
Kamanın tellərindən
Elə bil ki, süzülür ***Xaqanin göz yaşı*** [Vahabzadə, 2004: s. 184]

****

Ana dilim, səndədir xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi *səndə dil açmış*
Ürəklərə yol açanan ***Füzulinin sənəti,***
Ey dilim, qüdrətinlə dünyalara yol açmış [Vahabzadə, 2004: s. 35]
III növ təyini söz birləşmələrinin tərəfləri B.Vahabzadənin şeirlərində normaya uyğun olaraq cəmlənə bilir. Bəzən birinci tərəfi cəmdə yiyəlik hal şəkilçisi qəbul etmiş, ikinci tərəfi həm təkdə, həm də cəmdə işlənən III növ təyini söz birləşmələrinə rast gəlirik:
Gözlərimin önündə *əlvan-əlvan halqalar,*
Uğuldayır dalğalar, uğuldayır dalğalar. [Vahabzadə, 2004: s. 196]

****

Könüllərin atəşi *qaranlığı yarmasa,*
Vətən üfüqlərində qızarmazmış dan yeri. [Vahabzadə, 2004: s. 209]
Şairin şeirlərinin dilində birləşmənin arasına ikinci komponenti izah edən sözlərdən ibarət III növ təyini söz birləşmələrinə də rast gəlirik:
Sənin sevda yollarını,
Kirpiyimlə süpürənəm. [Vahabzadə, 2004: s. 224]

****

Ömrümün ən uzun gecəsidir bu,
Səhərin yolunu kəsib intizar. [Vahabzadə, 2004: s. 264]
Birləşmələrin komponentləri arasına sevda, ən uzun sözləri daxil olaraq mürəkkəb quruluşlu söz birləşməsi yaranmışdır. Birinci tərəfi söz birləşməsindən ibarət olan III növ ismi birləşmələr də kifayət qədərdir.
Sən ***uzun illərin dolaylarında,***

Mənimçün heç zaman adiləşmədin. [Vahabzadə, 2004: s. 65]

****

Böyük cənabların dediklərini,
Tərsinə çevirsən həqiqət olar. [Vahabzadə, 1987: s. 336]

III növ ismi birləşmələrin tərəfləri həmcins üzvlərdən ibarət ola bilər:

Maşının gücünə, sürətinə bax.
Bu qüdrət "hər şeyə qadirəm" – dedi. [Vahabzadə, 1987: s. 277]

****

Dəcəl körpələrin nazı, şıltağı
Dayənin gözündə qusurdur əlbət. [Vahabzadə, 1981: s. 324]

B.Vahabzadənin şeirlərində III növ ismi birləşmələr cümlənin müxtəlif üzvləri vəzifələrində iştirak edir.

Feili birləşmələrin birinci tərəfi müxtəlif nitq hissələri ilə, əsas tərəfi isə feili sifət, feili bağlama və məsdərlə ifadə olunur. B.Vahabzadənin şeir dilində feili birləşmələr kifayət qədərdir:

Yurdunda qul olmaz,
Ona ***övladlıq edənlər!*** [Vahabzadə, 1981: s. 16]

****

Ölümdən qorxmayan de kimdir, de kim?
Mənasız yaşamaq *ondan qorxulu!* [Vahabzadə, 1981: s. 70]

B.Vahabzadənin poeziyasında qoşmalı feili birləşmələrə də təsadüf edilir. Yəni bu birləşmələrdə qoşmalar iştirak edir. "Qoşma bu birləşmələrin tərəfləri arasında əsas əlaqələndirici vasitə hesab olunur. Bununla yanaşı, qoşmalar birləşmələrin tərəfləri arasında məna əlaqələrinin formalaşmasında mühüm rol oynayır". [Abdullayev, Seyidov, Həsənov, 2007: s. 91]

İmam üçün gələn *bu dövlət, bu zər*
Nə verdi imama yalvaranlara? [Vahabzadə, 2004: s. 181]

B.Vahabzadənin şeirlərində adlarla feillərin birləşməsindən yaranan müxtəlif quruluşlu feili birləşmələrə rast gəlirik. Belə ki, ismin adlıq, yönlük, təsirlik, yerlik, çıxışlıq halları məkan, zaman, səbəb, obyekt kimi məna əlaqələri ilə formalaşmış müxtəlif quruluşlu feili birləşmələrin yaranmasında daha fəal çıxış edir. Adlarla feillərdən əmələ gələn feili birləşmələrin mahiyyətini, onların struktur-semantik variantlarını müəyyənləşdirmək üçün bu cəhətə, yəni ismin hallarının birləşmələrin quruluşuna təsirinə fikir verilir. Bu baxımdan adlarla feillərdən əmələ gələn feili birləşmələr aşağıdakı kimi qruplaşdırılır:

1.Adlıq hallı feili birləşmələr;
2.Yönlük hallı feili birləşmələr;
3.Təsirlik hallı feili birləşmələr;
4.Yerlik hallı feili birləşmələr;
5.Çıxışlıq hallı feili birləşmələr.

Şairin şeir dilində əsas tərəfi feili bağlamalarla ifadə olunan birləşmələr işlənmə tezliyi baxımından daha intensivdir.

Ekran qaralanda *qurtarır günüm,*
Uşaqlar yatmağa gedir birəbir. [Vahabzadə, 2004: s. 141]

****

Onlar düşündükcə *boşalar, dolar,*
Fikrin nə sonu var, nə də əvvəli. [Vahabzadə, 2004: s. 112]

"Ad+feil" tipli feili birləşmələrin digər qrupunu da təsirlik hallı feilli birləşmələr təşkil edir. Bu birləşmələrin məzmununu ümumi qaydada obyektlə, həmin obyekt üzərində icra edilən, həmin obyektə təsiri keçən hal və hərəkət təşkil edir. B.Vahabzadənin şeirlərində ikinci komponenti feili bağlamalarla ifadə olunan təsirlik hallı feili birləşmələr kifayət qədərdir.

Satıb ömür sərvətini daş-qaş alan yazıq insan,

Bu alveri başlayanda *uduzmusan.* [Vahabzadə, 2004: s. 77]

****

Səni düşünəndə, *kökü dananlar,*
Durur göz önümdə bircə anlığa. [Vahabzadə, 2004: s. 169]

İkinci tərəfi feili sifətlə ifadə olunan təsirlik halı feili birləşmələr:

Qələm gələcəyə ***yol göstərəndir****,*
O ki, yaranmayıb böhtanlar üçün. [Vahabzadə, 2004: s. 318]

****

Atsın gülləsini öz cəbhəsindən
Özünü haqq bilən *dillər birbəbir.* [Vahabzadə, 2004: s. 328]

İkinci tərəfi məsdərlə ifadə olunan birləşmələrdə məsdərlər birinci komponent kimi işləənən təsirlik halda olan sözləri özünə tabe edəcək təsirlik hallı feili birləşmə əmələ gətirir:

Vicdanı unutmaq, insafı satmaq
Bəlkə ölçüsüsür müasirliyin?. [Vahabzadə, 1981: s. 320]

****

Tək-tək ***xəstələri sağaltmaq*** *hələ*
Deyil əlimizdə o qədər çətin. [Vahabzadə, 1981: s. 348]

Adlarla feillərdən əmələ gələn birləşmələrin bir qrupunu da yönlük hallı feili birləşmələr təşkil edir. "Bu tip birləşmələrdə həm birinci, həm də ikinci tərəfin geniş sözlər şəbəkəsini əhatə edə bilməsi hər iki tərəfdə çox müxtəlif mənalara malik sözlərin iştirakı yönlük hallı feili birləşmələrdə çox rəngarəng məna əlaqələri yaradır" [Seyidov, 1992: s. 249]

B.Vahabzadənin şeirlərinin dilində bu növ birləşmələrə rast gəlirik.

Yad qızı ***ocağa doğmalaşanda***
Doğmalara get-gedə ögeyləşərmiş. [Vahabzadə, 1981: s. 304]

****

O qaçır yel kimi burulur tindən,
O ***önə qaçdıqca*** *dala qaçır yol.* [Vahabzadə, 1981: s. 296]

****

Məgər təkəm mən?
Bu ***dərdə düşənlər*** *dünyada min-min.* [Vahabzadə, 1981: s. 291

Verilmiş nümunələrdə yönlük hallı feili birləşmələrin əsas tərəfi feili bağlama, feili sifət və məsdərlə ifadə olunmuşdur. Tabeedici tərəf adları yönlük halda idarə edir.

Ad+feil tipli feili birləşmələrin müəyyən qrupunu yerlik hallı feili birləşmələr təşkil edir. Bu ifadələr bir o qədər də zəngin struktur-semantik xüsusiyyətlərə malik deyil.

Sən dağın sirrini gülündən soruş,
Dərədə hönkürən *selindən soruş.* [Vahabzadə, 2004: s. 247]

****

Bu büsat, bu cəlal kimin üçündür?
Bayırda əl açıb *dilənir millət.* [Vahabzadə, 2004: s. 291

Bu tip birləşmələrin asılı tərəfi tabeedici tərəf vasitəsilə ifadə olunan hərəkətin baş verdiyi məkanı bildirir. İkinci tərəf feili bağlama və feili sifətlə ifadə oluna bilir və üç məna əlaqəsi: məkan, zaman və obyekt özünü göstərir.

O şəkildə gördüyüm
Əli çiçəkli oğlan
Sadə ürəkli oğlan. [Vahabzadə, 2004: s. 148]

****

Ocaqlarda tüstülənən,
Ruhumuzu bəxş edirik balamıza. [Vahabzadə, 2004: s. 75]

Ad+feil tipli feili birləşmələrin müəyyən qismini çıxışlıq hallı birləşmələr təşkil edir. Bu birləşmələr semantika baxımından daha çox məkan münasibəti ifadə edir və daha intensiv işlənir. Eyni zamanda məkan və obyekt əlaqəsi də özünü göstərir. Tədqiqat zamanı hər üç əlaqəni özündə ehtiva edən nümunələrə də rast gəlinir. Bu birləşmələrin də ikinci komponenti feili bağlama, feili sifət və məsdərlə ifadə olunur.

***Otuzdan adlayınca**, gündə otuz min kərə*
Başımı yellədirəm hədər keçən illərə. [Vahabzadə, 2004: s. 159]

****

***Səndən ayrılanda**, saat beş idi*
Dolandı könlümə dağda hər dolay. [Vahabzadə, 2004: s. 276]

****

***Vicdandan asılıb** ürəyi dartan,*
Yükün ağırlığı azaldı bir az. [Vahabzadə, 2004: s. 297]

Şairin poeziya dilində işlənən feili birləşmələrin birinci tərəfi müxtəlif nitq hissələri ilə ifadə olunur.

Keçidlər adlayıb dağlar aşdıqca
Böyüyür anbaan ürəklərimiz. [Vahabzadə, 2004: s. 330]

****

***Səndən ayrılanda** saat beş idi.*
Dolandı könlümə dağda hər dolay. [Vahabzadə, 2004: s. 276]

B.Vahabzadə müxtəlif məna çalarlarını tam və incəliklə vermək üçün feil+feil quruluşlu birləşmələrdən istifadə etmişdir. Bununda da rəngarəng üslubi vəziyyət, üslubi mühit yarada bilmişdir.

Siz ey ötən illərədən məna xatirə qalan
Cansız dövlətim, varım –
*Kağız parçalarında **donub qalan** anlarım!* [Vahabzadə, 1987: s. 147]

****

Bu sovxa medallar dünən Londonu
***Od töküb yandıran** faşitlərindi.* [Vahabzadə, 1987: s. 170]

****

*Hələ ordan **keçə bilən***
Şerimizdir, gedər, gələr. [Vahabzadə, 1987: s. 91]

****

***Geyilib atılmış** bir paltar kimi*
İnsan da bu zaman gərəksizləşir. [Vahabzadə, 1987: s. 301]

Nəticə

Bəxtiyar Vahabzadə poeziyasında işlənən sərbəst söz birləşmələrinin qrammatik xüsusiyyətləri barədə danışarkən, bu poetik vasitələrin həm dilçilik, həm də bədii mətn strukturundakı funksiyalarını nəzərdən keçirmək lazımdır. Sərbəst söz birləşmələri Azərbaycan dilində müxtəlif sözlərin müstəqil şəkildə, lakin mənaca bir-birinə bağlı şəkildə işlədilməsi ilə yaranır. Bu birləşmələr adətən danışıq dilinin dinamikliyini və poeziyada ifadə azadlığını vurğulamaq üçün istifadə olunur.

B.Vahabzadənin şeirlərindən götürülən misralarda sərbəst söz birləşmələrinin necə qurulduğu və hansı bədii effektlər yaratdığı araşdırıla bilər. Bu, dilin poetik imkanlarını daha dərindən anlamağa və sərbəst söz birləşmələrinin Vahabzadə poeziyasına necə xidmət etdiyini görməyə imkan verir. Şair şeirlərinin dilinin təsirli olması, emosional ahəngin artırılması üçün söz birləşmələrindən bol-bol istifadə etmişdir.

Beləliklə, sərbəst söz birləşmələrinin qrammatik xüsusiyyətləri və onların Vahabzadənin poetik dünyasında rolu Azərbaycan poeziyasının dilçilik baxımından zənginliyini təsdiqləyən önəmli elementlərdən biridir.

İstifadə Edilmiş Ədəbiyyat

1. Axundov, A.A. (1980). Şeir sənəti və dil.– Bakı: Yazıçı. – 159 s.
2. Almənmədova, S. (2010). Bəxtiyar Vahabzadə poeziyasının dili.– Bakı. – 163 s.
3. Almaz Həsənqızı. (2015). B.Vahabzadə şeirləri və Azərbaycan dilçiliyi.– Bakı: BDU. – 10 s.
4. Buludxan Xəlilov. (2017). Müasir Azərbaycan dili. Sintaksis.– Bakı: Adiloğlu. – 428 s.
5. B.Vahabzadə. Seçilmiş əsərləri. II cildə. Cild I. (2004). – Bakı: "Öndər" nəşriyyatı. – 328 s.
6. B.Vahabzadə. (2004). Seçilmiş əsərləri. II cildə. Cild II.– Bakı: "Öndər" nəşriyyatı. – 320 s.
7. B.Vahabzadə. (1981). Payız düşüncələri.– Bakı: Yazıçı. – 365 s.
8. B.Vahabzadə. (1987). Axı dünya fırlanır.– Bakı: Yazıçı. – 204 s.
9. Əlövsət Abdullayev, Yusif Seyidov, Ağamalı Həsənov. (2007). Müasir Azərbaycan dili. IV hissə. Sintaksis.– Bakı: Şərq-Qərb. – 424 s.
10. Hüseynzadə, M.H. (1953). Müasir Azərbaycan dilində təyini söz birləşmələrinə dair (I növ təyini söz birləşməsi) dair //Azərbaycan SSR EA Ədəbiyyat və Dil İnstitutunun əsərləri. V c. – Bakı. – S.5-28.
11. Kamal Camalov, Sevda Kərimova. (2022). B.Vahabzadə yaradıcılığında ana dili və onun tədrisi məsələləri//Azərbaycan dili və ədəbiyyat tədrisi. – Bakı. – №2 (272).– S. 60-70.
12. Q.Kazımov. (2010). Müasir Azərbaycan dili. Sintaksis. – Bakı: Təhsil. – 496 s.
13. Y.Seyidov. (1992). Azərbaycan dilində söz birləşmələri. – Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı. – 407 s.

PSYCHOLOGICAL ADAPTATION OF PRIMARY SCHOOL CHILDREN TO SCHOOL EDUCATION AS AN IMPORTANT CONDITION FOR THEIR EMOTIONAL WELL-BEING

KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN MƏKTƏB TƏHSİLİNƏ PSİXOLOJİ ADAPTASİYASI ONLARIN EMOSİONAL RİFAHININ MÜHÜM ŞƏRTİ KİMİ

Rüstəmova Aygün Əmir qızı
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
pedaqoji psixologiya kafedrasının müəllimi
ORCİD: 0009-0001-1182-3390

Xülasə
Məktəb təliminin başlanğıcı əksər I sinif şagirdləri üçün ciddi sınaqdır. Onlar yeni sinfə, yeni tələblərə, gündəlik məsuliyyətlərə öyrəşməli, yeni şəraitə adaptasiya olmalıdırlar. Sosial və psixoloji adaptasiya şagirdin yeni fəaliyyətlərə, münasibətlərə, tələblərə və yeni həyat tərzinə uyğunlaşması prosesidir [1].
İbtidai məktəb şəraitinə adaptasiya .agirdin həyatında xüsusi və çətin bir dövr kimi görünür. Kiçik yaşlı məktəblilər yeni sosial rollarını mənimsəyirlər, sinif yoldaşları və müəllimlərlə yeni şəxsiyyətlərarası münasibətlər yaranır, həyat tərzi dəyişir. I sinif şagirdlərində bu cür dəyişikliklər emosional təcrübələr, narahatçılıq, inamsızlıq, emosiyalarını idarə etməkdə çətinlik çəkməsi fonunda özünü göstərir. Əlverişsiz emosional vəziyyət Q.N.Julina və N.V.Kuleşovun fikrincə, sinif yoldaşları ilə şəxsiy yətlərarası münasibətlərə təsir edir, emosional uzaqlaşmaya, psixoloji sağlamlığın pisləşməsinə səbəb olur [2].
Problemlə bağlı kifayət qədər elmi araşdırmalar aparılmasına baxmayaraq məktəbdə I sinif şagirdlərinin məktəbə deadaptasiyasının sayı azalmır, bəzi hallarda hətta artmağa meyllidir. Sosial həyatın dinamikası stresli vəziyyətlərin və emosional sıxıntı səviyyəsinin artmasına səbəb olur. Problem çox vaxt valideynlərin, ibtidai sinif müəllimlərinin çətinlikləri dərk edərək xüsusi bir vəziyyətin həlli ilə kiçik yaşlı məktəblilərin emosional narahatlığının aradan qalxacağına inanaraq buna çox əhəmiyyət verməmələri ilə daha da ağırlaşır [3].
Buna görə də, kiçik yaşlı məktəblilərin məktəbə uğurlu sosial-psixoloji adaptasiyası üçün onlara emosional rahatlıq və rifah üçün psixoloji və pedaqoji dəstək zəruridir. Kiçik yaşlı məktəblilərin məktəbə sosial-psixoloji adaptasiyası probleminin onların emosional rifahının mühüm şərti kimi tədqiqi bizə belə nəticəyə gəlməyə imkan verdi ki, ibtidai sinif şagirdlərinin məktəbə adaptasiyası ilə onların emosional rifahı arasında əlaqə mövcuddur və bu göstəricilər kiçik yaşlı məktəblilərin rifah parametrlərində və emosional adaptasiya parametrlərində fərqlidir. Sosial və psixoloji adaptasiyanın müxtəlif göstəriciləri olan kiçik yaşlı məktəblilər emosional rifah parametrlərinə görə fərqlənirlər.
Beləliklə, yüksək səviyyədə adaptasiya ilə kiçik yaşlı məktəblilərin məktəbə emosional müsbət münasibət, orta adaptasiya səviyyəsi ilə məktəbə emosional neytral münasibət, aşağı adaptasiya səviyyəsi ilə məktəbə emosional mənfi münasibət nümayiş etdirirlər. Tədqiqatın nəticələri I sinif şagirdlərinin məktəbə adaptasiyasına psixoloji və pedaqoji dəstək proqramının işlənib hazırlanması üçün əsas olacaqdır.
Açar sözlər: kiçik yaşlı məktəblilər, məktəb təhsilinə adaptasiya, emosional rifah, emosional rahatlıq, psixoloji dəstək

Abstract
The beginning of school education is a serious test for most first-graders. They must get used to a new class, new requirements, daily responsibilities, and adapt to new conditions. Social and psychological adaptation is the process of a student's adaptation to new activities, relationships, demands, and a new lifestyle [1].
Adaptation to primary school conditions seems to be a special and difficult period in a child's life. Younger schoolchildren master new social roles, new interpersonal relationships with classmates and teachers are formed, and their lifestyle changes. In first-graders, such changes manifest themselves against the background of emotional experiences, anxiety, distrust, and difficulty in controlling their emotions. An unfavorable emotional state, according to G.N. Zhulina and N.V. Kuleshov, affects interpersonal relationships with classmates, leads to emotional alienation, and deterioration of psychological health [2].
Despite the fact that a sufficient number of scientific studies have been conducted on the problem, the number of school deadaptation of first-grade students does not decrease, and in some cases even tends to increase. The dynamics of social life lead to an increase in stressful situations and the level of emotional distress. The problem is often aggravated by the fact that parents and primary school teachers, realizing the difficulties, do not attach much importance to it, believing that by solving a specific situation, the emotional anxiety of younger schoolchildren will disappear [3].
Therefore, for the successful socio-psychological adaptation of younger schoolchildren to school, psychological and pedagogical support for their emotional comfort and well-being is necessary. The study of the problem of socio-psychological adaptation of younger schoolchildren to school as an important condition for their emotional well-being allowed us to conclude that there is a relationship between the adaptation of primary schoolchildren to school and their emotional well-being, and these indicators differ in the well-being parameters of younger schoolchildren and in the parameters of emotional adaptation. Younger schoolchildren with different indicators of social and psychological adaptation differ in the parameters of emotional well-being.
Thus, with a high level of adaptation, younger schoolchildren demonstrate an emotionally positive attitude towards school, with an average level of adaptation, an emotionally neutral attitude towards school, and with a low level of adaptation, an emotionally negative attitude towards school. The results of the study will be the basis for the development of a psychological and pedagogical support program for the adaptation of first-grade students to school.
Keywords: young schoolchildren, adaptation to school education, emotional well-being, emotional comfort, psychological suppo

Ədəbiyyat Siyahısı
1.Гуткина,Н.И.Психологическая готовность к школе /Н.И.Гуткина.СПб.Питер 2004.-208 с.
2. Жулина, Г.Н. Особенности эмоционального компонента школьной адаптации первоклассников / Г.Н. Жулина, Н.В. Кулешова // Таврический научный бозреватель. –2016. – № 5-1 (10). – С. 32–36.
3. Нисская, А.К. Особенности адаптации к школе современных первоклассников / А.К. Нисская // Вестник Московского государственного областного университета. Серия: Психологические науки. – 2012. – № 3. –С. 55–62.

ECSTASY AND RESİSTANCE İN THE FORMATİON OF NATİONAL IDENTİTY: A PSYCHODYNAMİC ANALYSİS OF BAKHTİYAR VAHABZADEH'S POETRY

MİLLİ KİMLİYİN FORMALAŞMASINDA VƏCD VƏ MÜQAVİMƏT: BƏXTİYAR VAHABZADƏ POEZİYASININ PSİXODİNAMİK TƏHLİLİ

b/m. Musayeva Aygün Cavanşir
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı

Xülasə
Bu araşdırma, Bəxtiyar Vahabzadənin poeziyasını psixodinamik yanaşma ilə təhlil edərək milli kimliyin formalaşmasında vəcd (transsendental hiss yüksəlişi) və müqavimət anlayışlarının rolunu ön plana çıxarır. Şairin yaradıcılığında milli şüurun oyanışı, tarixi yaddaş və azadlıq ideyası əsas mövzulardan biridir. B.Vahabzadə şeirlərində fərdi və ictimai təhtəlşüurun təzahürləri arasında körpü yaradaraq, xalqın emosional vəziyyətini və mədəni travmalarını poetik simvollarla ifadə edir. Vəcd – ilahi və milli dəyərlərlə qovuşma anı – onun şeirlərində ilhamın və ruhsal yüksəlişin təzahürüdür. Müqavimət isə həm daxili mənəvi dirəniş, həm də xarici təzyiqlərə qarşı milli iradənin ifadəsi kimi çıxış edir. Bu iki psixodinamik vəziyyətin birliyi B.Vahabzadə poeziyasını milli dirçəliş və kollektiv kimliyin təcəssümü halına gətirir. Beləliklə, B.Vahabzadənin poeziyası yalnız ədəbi-estetik dəyər daşımır, həm də psixoloji və sosiomədəni kontekslərdə milli kimliyin möhkəmləndirilməsinə xidmət edir.
Açar sözlər: milli kimlik, vəcd, müqavimət, psixodinamik təhlil, poeziya və milli şüur

Abstract
This study analyzes Bakhtiyar Vahabzadeh's poetry with a psychodynamic approach and highlights the role of the concepts of ecstasy (transcendental emotional elevation) and resistance in the formation of national identity. The awakening of national consciousness, historical memory, and the idea of freedom are among the main themes in the poet's work. Vahabzadeh creates a bridge between the manifestations of individual and social unconsciousness in his poems, expressing the emotional state and cultural traumas of the people with poetic symbols. Ecstasy - the moment of reunion with divine and national values - is a manifestation of inspiration and spiritual elevation in his poems. Resistance, on the other hand, acts as an expression of both internal moral resistance and national will against external pressures. The unity of these two psychodynamic states makes Vahabzadeh's poetry an embodiment of national revival and collective identity. Thus, Vahabzadeh's poetry does not only carry literary-aesthetic value, but also serves to strengthen national identity in psychological and socio-cultural contexts.
Key words: national identity, ecstasy, resistance, psychodynamic analysis, poetry and national consciousness

Giriş
Milli kimlik, müasir cəmiyyətdə fərdlərin və kollektivlərin özünüdərkinin, sosial varlığının və mədəni davamlılığının əsası kimi mühüm yer tutur. Bu kimlik formalaşması həm tarixi, həm sosial, həm də psixoloji faktorlarla sıx bağlıdır. Azərbaycan ədəbiyyatında milli kimliyin təzahürləri dərin, çoxşaxəli və mürəkkəb psixoloji qatlarla zəngindir. XX əsrin görkəmli şairi Bəxtiyar Vahabzadənin yaradıcılığı bu aspektdən xüsusi əhəmiyyət kəsb edir. Onun poeziyasında vəcd (emosional ekstaz) və müqavimət (psixoloji və sosial qarşıdurma) motivləri milli kimliyin formalaşmasında önəmli rol oynayır. Bu məqalədə Vahabzadənin poeziyasını psixodinamik yanaşma prizmasından təhlil edərək, onun milli kimlik konsepsiyasına gətirdiyi yeniliklər araşdırılacaqdır.

Psixodinamik nəzəriyyənin əsasları, fərdin daxili şüuraltı təbəqələri və onların sosial reallıqlarla qarşılıqlı təsiri Bəxtiyar Vahabzadənin yaradıcılığının daha dərindən anlaşılmasına imkan yaradır. Məqalədə həmçinin şairin bioqrafik konteksti, onun yaradıcılığında milli oyanış və psixoloji müqavimətin poetik strukturda təzahürü, kollektiv travmaların ədəbi təzahürü və arxetiplərin rolu araşdırılacaqdır.

Əsas Məzmun

Psixodinamik nəzəriyyə, XIX-XX əsrlərdə Ziqmund Freydin əsərləri ilə ortaya çıxmış, daha sonra Karl Yunq, Alfred Adler kimi tədqiqatçılar tərəfindən inkişaf etdirilmişdir. Bu yanaşma insan psixikasını şüur, şüuraltı və qeyri-şüur qatları əsasında dərk edir. Fərdin daxili konfliktləri, qorxuları, arzu və istəkləri əksər hallarda şüuraltında formalaşır və müxtəlif davranış, duyğu və yaradıcılıq formasında təzahür edir.

Ədəbiyyat psixodinamik proseslərin ifadə vasitəsi kimi çıxış edir. Şair və yazıçıların fərdi şüuraltı qatları, toplumsal, tarixi və mədəni təbəqələrlə qarşılıqlı əlaqədə poetik mətnlərdə özünü göstərir. Bu mənada, Bəxtiyar Vahabzadənin poeziyası milli psixikanın, sosial-psixoloji gərginliklərin, vəcd və müqavimət təzahürlərinin ədəbi izahıdır.

Freydin id, eqo və supereqo anlayışları şairin daxili konfliktlərini anlamaqda faydalıdır. İd – fərdin instinktiv tələbləri, supereqo – sosial və mənəvi norma, eqo isə bunların tarazlıqda olduğu hissədir. (Freud,2010).Vahabzadənin poeziyasında bu gərginliklər çox zaman milli kimlik və fərdi qürur məsələləri ilə əlaqələndirilir.

Karl Yunqun kollektiv şüuraltı və arxetiplər konsepsiyası milli kimlik məsələlərinin ədəbi ifadəsində mühüm yer tutur (Jung,1981). Arxetiplər – ana, vətən, dağ, su kimi simvollar vasitəsilə fərdi təcrübədən kollektiv milli yaddaşa keçid təmin edilir.

Bəxtiyar Vahabzadənin Bioqrafik Konteksti və Psixodinamik Yüklənmələr

Bəxtiyar Vahabzadə (1925-2009) sovet dövründə yaşayıb-yaratmış, milli azadlıq, mədəni kimlik, azərbaycançılıq ideyalarını ön planda tutmuş görkəmli şairdir. Onun yaradıcılığı Sovet ideoloji tənqidlərindən, senzura məhdudiyyətlərindən və şəxsi həyatında yaşadığı psixoloji gərginliklərdən təsirlənmişdir(Həsənov,2019).

Şairin həyatında baş verən sosial dəyişikliklər, repressiyalar və ictimai təzyiqlər onun yaradıcılığında müqavimət motivlərini gücləndirmiş, eyni zamanda vəcd halı vasitəsilə milli ruhun bərpasına xidmət etmişdir.

Vahabzadənin poeziyasında həm fərdi, həm də kollektiv təcrübələr arasında balans və ziddiyyət müşahidə olunur. Onun “Ana dili”, “Azərbaycan”, “Gülüstan” kimi şeirləri milli kimliyin poetik manifestinə çevrilib, psixodinamik cəhətdən milli şüurun və ruhun oyandığı emosional vəziyyətləri əks etdirir (Abbaslı,2020).

Vəcd Halı və Onun Milli Kimliklə Əlaqəsi məsələsini şərh edək. Vəcd (ekstaz, yüksəlmiş emosional hal) poetik yaradıcılığın əsas hissəsidir və milli kimlik şüurunun dərin təzahür formalarından biridir. Bəxtiyar Vahabzadənin poeziyasında vəcd həm fərdi ruhi hal, həm də milli kimliyin formalaşması üçün vacib emosional mexanizm kimi çıxış edir.

Şairin “Ana dili” şeirində vəcd halı ana dilinə olan məhəbbət, onun milli identifikasiya üçün önəmi ilə bağlıdır:

“Ana dili, ay dilim,
Sən mənim varlığımsan...”

Bu misralarda vəcd yalnız estetik duyğu deyil, həm də milli ruhun yüksəlişi, tarixi yaddaşın canlanmasıdır. Vəcd, fərdi və kollektiv şüur arasında körpü yaratmaqla milli kimliyin möhkəmlənməsinə səbəb olur.

Vəcd halı şairin təklikdə yaşadığı, ilhamın, yaradıcılıq enerjisinin pik nöqtəsinə çatdığı anlarla bağlıdır. Bu hal, sosial-psixoloji baxımdan fərdin özünü daha geniş bir kollektivə aid hiss etməsi və milli kimlik şüurunun güclənməsi kimi təzahür edir.

Müqavimət Motivləri və Onların Psixodinamik İzahı

Müqavimət Vahabzadənin poeziyasında həm sosial-siyasi, həm də daxili psixoloji məna daşıyır. Sovet rejiminin məhdudiyyətlərinə, milli dəyərlərin sıxışdırılmasına qarşı poetik müqavimət milli kimliyin qorunmasının ifadəsidir.

Psixodinamik modeldə müqavimət fərdin id və supereqo arasında yaranan gərginliyin təzahürüdür. Burada id milli kimlik instinktiv ehtiyacları, supereqo isə sovet ideologiyasının məhdudlaşdırıcı mənəvi normalarını simvolizə edir. Eqo isə bu gərginlikləri idarə etməyə çalışır.

Vahabzadənin “Azərbaycan” şeirində aşağıdakı misralar müqavimətin emosional gücünü göstərir:

“Sənə qurban olum, vətənim mənim,
Sənə dönməz könül...”

Bu ifadələrdə daxili mübarizə, həm fərdi qürur, həm də milli vətən sevgisi ilə bağlı müqavimət gücü əks olunur (Qasımov,2018,s.45).

Müqavimət həm də travma və qorxu ilə bağlıdır. Sovet dövrünün repressiyaları və məhdudiyyətləri milli psixikada kollektiv travma yaratmış, Vahabzadə bunu şeirlərində ifadə etmişdir.

Vahabzadənin poeziyasında simvolların rolu böyükdür. Ana, torpaq, dağ, su kimi elementlər həm fərdi, həm də kollektiv şüuraltı qatların ifadəsidir. Bu simvollar milli kimliyin arxetipləri kimi çıxış edir.

Məsələn, “Ana” obrazı milli kimliyin qaynağı və qoruyucusu kimi qəbul edilir. Bu simvol həm bioloji, həm də mədəni anlamda vətəni təmsil edir. Dağ simvolu dəyişməzlik, möhkəmlik, milli müqavimət əlamətidir. Torpaq isə milli varlığın və bağlılığın metaforasıdır.

Bu simvollar vasitəsilə şair milli kimliklə bağlı şüuraltı arzuları, qorxuları və idealizə edilmiş təsəvvürləri poetik şəkildə təqdim edir.

Milli Kimliyin Formalaşmasında Travmaların Rolunu da qeyd etmək yerinə düşərdi. Azərbaycanın tarixi kollektiv travmalarla zəngindir: işğallar, deportasiyalar, mədəni assimilyasiya təzyiqləri. Bu travmalar milli kimliyin formalaşmasında psixoloji amil kimi mühüm yer tutur.

Vahabzadə bu travmaları şeirlərində qəbul edir, onlara yeni mənalar verir və milli kimliyin təməl daşı kimi təqdim edir. Beləliklə, kollektiv travmaların qəbulu və poetik transformasiyası milli kimliyin möhkəmlənməsinə səbəb olur.

Psixodinamik baxımdan travmanın şüuraltında saxlanılması və ədəbi ifadəsi ruhi sağlamlıq üçün katarsis rolunu oynayır.

Yaddaş və Kimlik: Tarixi Şüurun Poeziyadakı Təcəssümü

Tarixi yaddaş milli kimliyin əsas elementidir. Vahabzadənin poeziyasında tarixi şüurun poetik təcəssümü ilə qarşılaşırıq. O, milli yaddaşı canlandırmaqla keçmişin ruhunu müasir oxucuya çatdırır. “Gülüstan” şeirində tarix və yaddaş, milli qürur və özünüifadə simvolik və estetik vasitələrlə ifadə olunur. Bu proses kollektiv şüuraltının fəallaşması kimi də qiymətləndirilə bilər.

Yunqun arxetip nəzəriyyəsi əsasında bu yaddaş elementləri milli kimliyin simvolik bazasını təşkil edir.

Vahabzadənin yaradıcılığı fərdi psixoloji təcrübələr ilə kollektiv milli təcrübələr arasında əlaqə yaradır. Şairin daxili və xarici dünyası, fərdi duyğuları milli şüurla birləşir. Bu körpü oxucuda həm şəxsi, həm də milli kimlik duyğularını oyadır. Şairin yaradıcılığı kollektiv identifikasiyaya zəmin yaradır və bu da milli kimliyin davamlılığına xidmət edir.

Vahabzadənin şeirləri estetik həzz verməklə yanaşı, oxucuda ruhi təmizlənmə və emosional boşalma yaradır. Bu katarsis prosesi milli kimliyin mənimsənilməsi və möhkəmlənməsində vacib rol oynayır.

Estetik və psixoloji təcrübə vəcd və müqavimət kimi motivlərin təzahürünü gücləndirir və oxucunun milli ruhla emosional əlaqəsini təmin edir.

Nəticə

Bəxtiyar Vahabzadənin poeziyası milli kimliyin formalaşmasında psixodinamik proseslərin poetik ifadəsidir. Vəcd və müqavimət motivləri milli şüurun inkişafı və qorunmasında önəmli rol oynayır. Onun yaradıcılığı fərdi psixoloji təcrübələr ilə kollektiv yaddaş arasında əlaqə yaradır, milli kimliyi möhkəmləndirir.

Psixodinamik yanaşma Vahabzadənin poeziyasının dərin qatlarını ortaya çıxarır, milli kimlik konsepsiyasını kompleks və çoxölçülü formada anlamağa imkan verir.

Ədəbiyyat

1. Freud, Sigmund. The Interpretation of Dreams. New York: Basic Books, 2010.
2. Jung, Carl Gustav. The Archetypes and The Collective Unconscious. Princeton University Press, 1981.
3. Adler, Alfred. Understanding Human Nature. Hazelden Publishing, 1992.
4. Qasımov, N. Bəxtiyar Vahabzadənin Poetikasında Simvolizm. Bakı, 2018.
5. Abbaslı, Y. Milli Kimlik və Ədəbiyyat. Bakı, 2020.
6. Həsənov, Tural. "Sovet Dövrü Azərbaycan ədəbiyyatı və milli kimlik." Mədəniyyət və Ədəbiyyat Jurnalı, 2019.

M.SH.VAZEH'S MİNİATURE STORİES AS THE FİRST DİDACTİC EXAMPLES OF AZERBAİJANİ CHİLDREN'S PROSE

M.Ş.VAZEHİN MİNİATÜR HEKAYƏLƏRİ AZƏRBAYCAN UŞAQ NƏSRİNİN İLK DİDAKTİK NÜMUNƏLƏRİ KİMİ

Aynur Novruzova
Filologiya üzrə fəlsəfə doktoru Azərbaycan, Gəncə Dövlət Universiteti Azərbaycan və dünya ədəbiyyatı kafedrasının baş müəllimi
ORCİD: 0009 – 0005 – 5748 – 2623

Xülasə
XIX əsrin ikinci yarısı Azərbaycan uşaq ədəbiyyatında nəsr şəkillərinin kütləviləşməsi dövrü kimi xarakterizə olunur.Nəsr formasında yazı manerasının geniş yayılması, üslub istiqaməti şəkli alması daha çox həmin dövrdə maarifçi-realist cərəyanı təmsil edən sənətkarların yaradıcılığında müşahidə edilir. Mövzu, predmet, sosial-mənəvi problemlərin maarifçilik mövqeyindən aydın və güclü şəkildə ifadəsi, fakt və hadisələrə yanaşma, təsvirin realist mahiyyəti kimi cəhətlər M.Ş.Vazehin "Kitabi-türki" dərsliyinə daxil etdiyi nəsr formalı miniatür hekayələri də şərtləndirir. Süjet-kompozisiya quruluşundakı sadəlik, bədii təsvir vasitələri sisteminin ənənəviliyi və əxlaqi-didaktik tutumlu xüsusiyyətlər onun nəsr formasında qələmə aldığı bu hekayələrin xarakterik cəhətləridir. Ədibin nəsr əsərlərində kəskin tənqid, ifşa pafosu, təsvirdə aydın, cəsarətli mövqeyin yazı manerası ilə inikası didaktikanın aparıcılığını təmin edir.Maarifçi idealların təbliğ vasitəsinə çevrilən bu əsərlər ictimai-mənəvi eybəcərlikləri açıb göstərir.
Birinci şəxsin dilindən söylənən və Azərbaycan uşaq ədəbiyyatının qiymətli nümunələri sırasına daxil olan hekayələrdə təhkiyə,əsasən,təsviretmə-göstərmə prinsipi üzərində qurulub. Aydın üslubu, dilinin şirinliyi, kinayə, inam hissinin aparıcılığı ilə seçilən bu əsərlər ilk növbədə ibrətamizliyi ilə diqqəti cəlb edir, uşaqları öz mənəvi dünyalarına nəzər salmağa səsləyir. Balacalara yaxşını pisdən ayırmaq vərdişi, humanizm keyfiyyətləri aşılamaq, onları düşündürmək, onlara nəyi isə öyrətmək kimi vərdişlər aşılayan bu əsərlərdə hadisələrin təmsil libasında təqdimi balaca oxucuları yormur, əksinə onları həm əyləndirir, həm də düşündürür. Az sözlə dərin fikirlər demək, xırda ştrixlər, bədii detallarla böyük mətləblərin ifadəsi ədibin nəsr əsərlərində folklordan gələn motivlər üzərində nizamlanmışdır.
Məqalədə Gəncəli mütəfəkkir, şair, maarifçi, pedaqoq Mirzə Şəfi Vazehin uşaqlar üçün qələmə aldığı nəsr əsərlərinin folklora xas deyim tərzi, dərin ideyası, tərbiyəvi əhəmiyyəti, qeyri-adi gözəl ifadə və təsvir vasitələri,obrazlar sistemi təhlilə cəlb olunub.
Açar sözlər:uşaq,ədəbiyyat,nəsr,maarifçilik,didaktika.

Abstract
The second half of the 19th century is characterized as a period of massification of prose images in Azerbaijani children's literature. The widespread use of the prose style of writing and the formation of a stylistic direction are observed more in the work of artists representing the enlightenment-realist movement of that period. Aspects such as the theme, subject, clear and strong expression of socio-moral problems from the enlightenment position, the approach to facts and events, and the realistic nature of the description also determine the prose miniature stories included in the textbook "Kitabi-Turkish" by M.Sh.Vazeh. The simplicity of the plot-composition structure, the traditionalism of the system of artistic means of description, and the moral-didactic features are the characteristic features of these stories he wrote in prose. The sharp criticism, pathos of revelation, and the clear, courageous position in the description in the writer's prose works provide the leading role of didactics. These works, which have become a means of promoting enlightened ideals, reveal and show social and moral ugliness.

In the stories told in the first person and included in the list of valuable examples of Azerbaijani children's literature, the narration is mainly based on the principle of description-demonstration. These works, distinguished by their clear style, sweetness of language, irony, and leading sense of trust, attract attention primarily with their instructiveness and call on children to look into their own spiritual world. In these works, which instill in children the habit of distinguishing good from evil, instilling humanistic qualities, making them think, and teaching them something, the presentation of events in the guise of representation does not tire young readers, but on the contrary, it both entertains and makes them think. Expressing deep thoughts in few words, expressing great ideas with small strokes and artistic details is organized on motifs from folklore in the prose works of the writer.
The article analyzes the folklore-specific idiomatic style, deep ideas, educational significance, unusually beautiful means of expression and description, and the system of images of the prose works written for children by the Ganja thinker, poet, educator, and pedagogue Mirza Shafi Vazeh.
Keywords: children, literature, prose, enlightenment, didactics.

Giriş

Azərbaycan uşaq nəsrinin təşəkkül tarixi elmin, ədəbiyyatın inkişafı, milli teatr və mətbuatın yaranması, fikir intibahı, maarifçilik ideyalarının təbliği, yeni tipli məktəblərin yaradılması, dərslik və müntəxəbatların tərtibi kimi ictimai mədəni hadisələrin baş verməsi ilə səciyyələnən XIX əsrə dayanır. Bu dövrdə "Azərbaycan ədəbi-mədəni mühitində ən vacib amillərin inkişafı, bunun nəticəsi kimi meydana gəlmiş bədii nəsr örnəklərinin yaranması təqdirəlayiq hadisə idi. Xalqı elmə, mədəniyyətə yiyələndirmək, "qaranlıqdan işığa" çağırış bu dövrün, xüsusən də maarifçi ideologi yanın mühüm ideyası idi".[10,210] Belə ki, əsrin ikinci yarısından başlayaraq genişlənən maarifçilik hərəkatı artıq müstəqil bir sahəyə çevrilmiş Azərbaycan uşaq ədəbiyyatının da inkişaf tarixini müəyyənləşdirdi. Bu sahədə də zamanın tələbindən doğan yeni zəruri janr təkamülü baş verdi və dövrün ruhunu, pafosunu ifadə etmək üçün uşaq ədəbiyyatının qarşısında geniş forma imkanları açıldı. Uşaq nəsri "...poeziya ilə yanaşı, çiyin-çiyinə addımlamağa başladı".[7, 9]
Ədəbi normalar, növ və janr prinsipləri çərçivəsində XIX əsrdə təşəkkül tapan, formalaşan və inkişaf edən Azərbaycan uşaq nəsri sənətkar mövqeyinin bədii ifadəsində, həmçinin poetika, sənərkarlıq sahəsində dünya ədəbi prosesindəki mövcud səviyyədən geridə qalmırdı.Uşaq nəsrimizin milli və bəşəri dəyərlərlə zənginləşməsində əvəsiz xidmətləri olan maarifçi ziyalılar - A.Bakıxanov, M.Ş.Vazeh, S.Ə.Şirvani, Ə.Talıbov, M.T.Sidqi, E.Sultanov, C.Məmmədquluzadə və başqaları janrın geniş imkanlarından istifadə edərək onun ilk nümunələrini qələmə almaqla bu sahənin dinamik şəkildə inkişafına təkan verdilər.

Əsas hissə

Azərbaycan uşaq nəsrinin XIX əsrin ikinci yarısından etibarən inkişaf yolu, formalaşması, tarixi təcrübəsi ilk dərslik və müntəxəbatların meydana çıxması ilə bağlıdır. Bu kitablardakı nəsr nümunələri üç zəngin mənbədən - folklordan, klassik Şərq ədəbiyyatından, rus və Avropa sənətkarlarının əsərlərindən qaynaqlanırdı. Bu mənbələrdən qaynaqlanan süjetləri yeni məzmun və ideya ilə əlaqələndirən qələm sahibləri ondan yaradıcılıqla istifadə edərək orijinal əsərlər yaratmaqla uşaq nəsrinin poetikasını, novator xarakterini yeni keyfiyyətlərlə zənginləşdirdilər. Bu keyfiyyətlər uşaq nəsrinin təşəkkül dövründə yaranan istər kiçik, istərsə də iri həcmli ilk nəsr əsərlərinin inkişaf təmayüllərini təşkil edir.
Azərbaycan uşaq nəsrinin ədəbi prosesdə aparıcı istiqamətlərini müəyyənləşdirən ilk didaktik nümunələrinin meydana çıxması Gəncəli müdrik, şair, maarifçi, pedaqoq Mirzə Şəfi Vazehin yaradıcılığı ilə bağlıdır. Ədibin İ. Qriqoryevlə birlikdə üzərində iki il işlədiyi "Kitabi-türki" (Tatarskoy xrestomatii Aderbeydjanskoqo nareçiya) dərsliyi məktəbin, pedaqoji-didaktik prinsiplərin tələbindən, yeni dərs üsulunun ehtiyacından yaranmışdır.1850-ci ildə Gəncə mədrəsəsində müəllimlik fəaliyyəti ilə məşğul olan Mirzə Şəfi Tiflis gimnaziyasına Azərbaycan dili müəllimi təyin olunur. "Mirzə Şəfi uşaqlara müstəqil düşünmək və çalışmaq bacarığı verən yeni dünyəvi elmlərin, təlim üsullarının tərəfdarı idi. Ədib bu məsələni nəzəri cəhətdən həll etməklə və məscid hücrələrində

islahatlar aparılmasının zəruriliyini söyləməklə kifayətlənməmiş "Divani-Hikmət" məclisində özünün bir sıra fikirlərini əməli olaraq həyata keçirmişdir.O, evində fərdi dərs deməklə də məşğul olmuşdur".[2, 120] İki hissədən ibarət ilk anadilli "Kitabi-türki"dərsliyinin tərtibi də ədibin pedaqoji fəaliyyətinin ikinci mərhələsinə-Tiflis gimnaziyasında çalışdığı illərə təsadüf edir."Müntəxəbatın birinci hissəsinə Azərbaycan,ərəb və fars ədəbiyyatından hikmətli nəsihətamiz lətifə və məzhəkələr, tərbiyəvi təmsillər, hekayələrlə yanaşı, Füzulinin seçmə lirik şeirləri (qəzəl, qəsidə), "Leyli və Məcnun" poemasından müəyyən parçalar daxil edilib.Şərq tarixi, "Qarabağnamə" və "Dərbəndnamə"dən parçalar da müntəxəbatda özünə yer tapır. Bütün materiallar sadə, anlaşıqlı dildə, şagirdlərin yaşına, bilik səviyyəsinə, zövqünə və marağına uyğun seçilir. Kitabın ikinci hissəsində şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək məqsədi ilə "Tatar-rus lüğəti" verilmişdir".[4, 18]

Kitaba daxil edilmiş əsərlərin janr sistemi, ideya-bədii xüsusiyyətləri, qaynaqları haqqında geniş araşdırmaların müəllifi olan Əli Əjdər Səidzadənin (Zəki) 1929-cu ildə rus dilində çap olunmuş "Gəncəli böyük mütəfəkkir və şair Mirzə Şəfi Vazeh (həyat və yaradıcılığı)" [9] adlı tədqiqatında dərsliyin birinci hissəsindən gimnaziyaların yuxarı, ikinci hissəsindən isə aşağı siniflərdə və qəza məktəblərində istifadə olunmasının nəzərdə tutulduğu qeyd olunur. Təəssüflər olsun ki, kitab yalnız ədibin vəfatından sonra 1855-ci ildə Təbrizdə daş basması üsulu ilə çap olunmuşdur.

Mirzə Şəfinin dərsliyə daxil etdiyi miniatür hekayələr uşaq nəsrimizin inkişaf tarixində özünəməxsus mərhələ təşkil edir. Bu hekayələrin ona məxsusluğunu təsdiq edən professor X.Yusif linin qənaəti belədir ki, "...müntəxəbatdakı bölmələrin çoxu Vazeh tərəfindən hazırlanmışdır. Kitabdakı "Hikmətlər və nəsihətlər", "Məzhəkələr"(Lətifələr), "Hekayələr", "Tarixlər", "Dərbənd namə"dən, "Qarabağnamə"dən, Füzuli qəzəllərindən və "Leyli və Məcnun"undan verilən bəhslərin hər biri birinci növbədə Vazeh zəhmətinin məhsuludur". [5, 16] Görünür ki, dərslik yaratmaq prosesində müəllif müntəxəbatına daxil etmək üçün Azərbaycan türkcəsində mənsur hekayə tapa bilməmiş və bu boşluğu doldurmaq üçün xalq arasında yayılmış hikmətlərə, nəsihətlərə, məzhəkələrə, Yaxın Şərq ədəbiyyatında işlənmiş mövzu və süjetlərə müraciət edərək orijinal əsərlər qələmə almağa üstünlük vermişdir.

Kitaba daxil edilmiş ibrətamiz hikmətli sözlər və nəsihətlər, məzhəkələr, alleqorik hekayələr sırf əxlaqi-didaktik mahiyyət daşıyır. "Mirzə Şəfinin bədii üslubunun, poetik tərzinin, şərqliliyinin, düşüncələrinin, yaşantılarının, hisslərinin, duyğularının" [8,35] ifadəsinə çevrilən hikmətlər və nəsihətlərin ciddi, aktual və əhəmiyyətli ideyasına uyğun gələn kamil poetik sistemi vardır. Müəllif mövqeyini müəyyənləşdirən hikmət və nəsihətlər folklora istinadın qüvvətliliyi baxımından da diqqəti cəlb edir. Ümumiyyətlə, "xalq nağıllarına məxsus epik təhkiyə-söyləm tərzi, folklor və rəvayət üslubu, sadə, anlaşıqlı dil, aydın nitq, doğma qrammatik quruluş, canlı bədii intonasiya, yığcamlıq, konkretlik - "Kitabi-türki" dəki nəsr nümunələrini onlardan əvvəlki və sonrakı povest və romanlardan fərqləndirən ən səciyyəvi bədii-estetik məziyyətlərdir**".[**1, 11] Belə ki, bu mətnlər xalq təfəkküründün məhsulu olan atalar sözləri və zərb məsəllərlə eynilik və paralellik təşkil edir.

İki kimsə doymazlar: elmi tələb eyləyən və malı tələb eyləyən;
İki qılınc bir qına sığmaz;
Alimin silahı elmidir və dilidir, hakimin yarağı qılıncdır və cidası;
Deyənə baxma, dediyinə bax.

Mirzə Şəfi gəncliyə birbaşa müdrik, ədəbli və dürüst ol, ləyaqətini qoru, elm öyrən, əxlaqına diqqət et demir. Onun hikmət və nəsihətləri öz-özlüyündə sadə və anlaşıqlı bir dildə uşaqları əxlaqi-mənəvi təkamülə səsləyir. Bu hikmətlərin mənbəyində ilk növbədə ədibin elmə münasibəti dayanır. Mirzə Şəfinin elm adamlarına qarşı tələbkarlığı son dərəcə ciddidir. Bu baxımdan ədib nəsihətlərində də didaktik üslubuna sadiq qalaraq yazır:

Xalqın pisi o alimdir ki, elminə əməl etməyə;
Xalq ölüdür və elm əhli diri;
Alim cahili tanır ondan ötrü ki, o, cahil var idi və cahil alimi tanımaz o səbəbdən ki, o, alim olmayıb.

"Kitabi-türki"dərsliyinin birinci fəslində yer alan bu hikmətlər və nəsihətlər Mirzə Şəfi Vazeh yaradıcılığının ümumbəşəri mahiyyətini, humanist pafosunu, özünəməxsus xüsusiyyətlərini daha dərindən anlamaq, onun yaşayıb-yaratdığı dövrün tarixi səciyyəsini və mədəni-estetik müəyyən liyini

aydınlaşdırmaq baxımından bu gün də səmərəli və əhəmiyyətlidir. Bu cür təsvir üsulu ədibin "Məzhəkələr"ini də səciyyələndirən əsas keyfiyyətlərdir. Belə ki, qeyd olunan cəhətlər "Məzhə kələr"in təhkiyə strukturunda da özünü göstərir.

"Məzhəkələr"də satirik nəsrin səciyyəvi xüsusiyyətləri özünü daha qabarıq göstərsə də klassik ənənələr burada aparıcıdır. Məzhəkələrin hər birində hekayəçi obrazı var. Ancaq bu hekayəçinin vəzifəsi formal səciyyə daşıyır. Belə ki, onlar danışdıqları, təsvir etdikləri hadisələrin bilavasitə iştirakçılarıdırlar, fərdi cizgilərdən məhrum olduqları üçün isə müəllifin özünü əvəz edirlər.Beləliklə, müəllif özü hekayəçi rolunda çıxış edir.Hadisələri əlaqələndirir, yeni polemikaları, sosial problemləri meydana çıxarır.

"Məzhəkələr" adlandırılan mənsur miniatürlərin iştirakçıları qazılar, dərvişlər, xəsislər, oğru lar, axmaqlardır. Eyni mövzu bir neçə miniatürdən sonra yenə təkrarlanır, lakin bu dəfə daha mürəkkəb formada olur. Hekayənin həcmi də böyüyür. Ədibin mövqeyini, həyata baxışını ortaya qoymaq üçün məhz hekayə janrını seçməsi də təsadüfi deyil. Bu mətnlərdə "obyektiv gerçəkliyə iki baxış nəzərə çarpır:birincisi, ədib bədii həyat yaratmır, müasiri olduğu mühitin ictimai bəla kimi problemlərini ön plana çəkir. İkincisi, yazıçı tənqid etdiyi mətləbin və ya həyata keçməsini arzuladığı məsələlərin təsdiqi planda təsvirini verir. Beləliklə də, bədiilik məqsədə yox, vasitəyə çevrilir". [3,24]

"Bir oğru birisinin paltarını oğurladı və bazara aparıb bir dəllala verdi ki,satsın.İttifaqən o libası ondan dəxi oğurlatdılar. Oğru əli boş yoldaşlarının yanına gəldi.Ondan soruşdular ki, paltarı neçəyə satdın?Dedi: "O qiymətə ki, almışdım".

Ədib ifşaedici məzhəkədə sanki ədaləti unudanların son aqibətini onların yadına salır, hər şeyi həqiqət aynasında göstərir.Beləliklə, belə maraqlı bədii üsuldan sərrastlıqla istifadə edən Mirzə Şəfi həm də öz dövrünün ictimai-siyasi hadisələrini də açıq və dolayısı ilə təsvir edir. Ədibin demək olar ki, bütün didaktik xarakterli məzhəkələrinin də süjeti həm maraqlı, həm də ibrətlidir. Əslində bu məzhəkələr məzmun və mündəricəsinə görə sonrakı hekayətin bədii vəhdətini pozmur, əksinə, onun ideyasını daha da dəqiqləşdirir.

"Bir kor bir qaranlıq gecədə sənəgini doldurub yol ilə əlində bir çıraq gedirdi. Birisi ona dedi ki, ey kor, sana gecə ilə gündüz birdür. Bu çıraq nə lazımdır?Dedi ki, ta sənin kimi kor dil mənim sənəgimi görsün və sındırmasun".

İbrətli mükalimə əsasında qurulmuş bu məzhəkədə müəllif gizli eyhamlı işarələrlə mənəvi korluğu kor surətinin təhkiyəsində təqdim edir.Beləliklə, hadisələr müəllifin özünün mənəvi korluğa münasibətində açılır. Ümumiyyətlə, Mirzə Şəfinin ictimai məzmunlu didaktikasında fikri kəskin, təmiz niyyətli insanların ümumiləşdirilmiş surəti müvəffəqiyyətlidir.

Gəncləri daim düşündürən münasibətlər sistemi öz bədii həllini "Zalım padşahın aqil ol mağı", "Sovdagər və oğlanları", "Padşah və meymun","Qarı və pişiyi", "Salim və Ğanim" və b. he kayələrində tapıb. Nağıl süjetləri əsasında qələmə alınmış bu hekayələr maarifçi-realist satirik nəs rin üslubi elementləri ilə zəngindir. Burada da nağıllarda olduğu kimi qəhrəmanların mükəmməl liyi, didaktika, nəsihət ahəngi də qabarıqdır. Əsərin ideyası müəllif mövqeyində başlıca cəhət kimi meydana çıxır.Yəni Mirzə Şəfi müxtəlif süjetlər vasitəsilə özünün sosial-əxlaqi kredosunu elan edir. Dərin ideya-məzmuna, orijinal süjetə malik "Salim və Ğanim" hekayəsində elə epizodlar var ki, ilk baxışda nağıldan alındığı zənn edilir. Məsələn,

"...Nagah havuzun kənarında bir ağ daş gördülər ki, onda bir xətt yazılubdur ki, ey misafir, burda ki mənzil eylədin, bil ki, bundan yaxşı qonaq mənzili qayırmışıq. Amma şərti odur ki, başından keçüb ayağ bu çeşməyə qoyub, burulqanın xətasından və qərq olmağın qorxusundan fikir eyləməyüb hər növ ilə ki, bacararsan özünü duyun kənarına yetirəsən. Və bir aslan şəkli daşdan qayrulub o dağın dibində qoyulubdur. Onu çigninə götürüb tezliklə özünü dağın üstünə yeturəsən. Və yırtıcı

heyvanların qorxusu və yolun zəhmətilə öz işindən gerü qalmayasan ki, çün yol axıra yetişər, məqsud ağacı bar verür. Ta bir kəs yol getməyə mənzilə yetişməz".

Vaxtilə böyük ədəbiyyatşünas, nasir Mir Cəlal yazırdı ki: "hekayə adama söz üzərində, ən kiçik lövhə üzərində çox düşünməyə, diqqəti məhdud bir həyat materialı ətrafında toplayıb dərinləşdirməyə imkan verir".[6, 267]"Salim və Ğanim" hekayəsi də eyni məna və hədəflər daşıyır. Ədib gənc oxucusuna şəfqət, dürüst lük, səxavət, mərhəmət, əzmkarlıq, mənəvi saflıq, dostluqda sədaqət kimi keyfiyyətlər aşılamaqla bərabər həm də insanı digər canlılardan fərqləndirən ağılın fövqəladəliyinə diqqət çəkir.
"...Bəli,baharın ümidi ilə xəzannın cəfasınna tab eyləmək olur.Amma bir yola qədəm qoymaq ki, axırı məlum degil və bir dəryaya girmək ki, hasili aşkar degil, ağıldan uzaqdır. Və hər kəs ki, bir iş başlıya, gərəkdir ki, onun çıkacağını gərçəgindən irəlü fikir eyləyə. Və işin əvvəlindən axırını fikir eyləyüb onun xeyrini və zərərini mülahizə eyləyə".
Həyati müşahidənin genişliyi,bədii təfəkkürün itiliyi ilə seçilən bu parça hekayənin əsas ana xəttilə bağlıdır. Mirzə Şəfi gənc oxucusunu düşündürməklə yanaşı, həm də nəticə çıxarmaq problemi ilə üz-üzə qoyur. Ədibin gəldiyi əsas qənaət isə budur ki, ağıl öz gücünü, qüdrətini insan mənəviyyatından alır. Mühüm olan isə ağlın, düşüncənin sağlam olmasıdır.
Mirzə Şəfi Vazehin alleqorik əsərlərində didaktika ilə simvol, real həyat ilə romantik xəyal vəhdət təşkil edir. Ədibin maarifçi müstəvidə qələmə aldığı "Hekayəti-tısbağa və əqrəb", "Sərçə və ilan","Aslan və dovşan","Qurt və dovşan","Pələng və balası","Qarğa və qurbağa","İki göyərçin", "Müsibət və nədamət çəkər" və b. alleqorik hekayələrində demək olar ki, eyni ideya-uşaqlarda mənəvi-əxlaqi keyfiyyətlərin formalaşması sənətkarlıqla ifadə olunur.Bu əsərlərdə cəmiyyətdə, insan xarakterində olan naqisliklər alleroqik dillə tənqid olunur.Müəllif müsbət obrazların səciyyələndirilməsində didaktik elementlərdən,mənfi surətlərin xarakterinin açılmasında isə daha çox epik,alleqorik,satirik vasitələrdən istifadə edir. Bu cəhət, təbii ki, alleqorik obrazların nitqində daha qabarıq əks olunub. İctimai əhəmiyyət kəsb edən "Aslan və dovşan" hekayəsində obrazların nitqindəki əsas xüsusiyyətlər müəllif fikrini ifadə edir.

"...Olar hər gün qürə atardılar,heyvanlardan hər kimin adı çıqsa idi,onu vəzifə rəsmi ilə aslana göndərərdilər.Bir müdətdən sonra qürə dovşanın adına çıkdı. O, yoldaşlarına dedi: "Bu işdə tədbir gərək ki, aslanın şərini özümüzdən dəf eyləyək".Yoldaşları dedilər ki, sən bu zəif gövdə ilə elə böyük zalımın öhdəsindən necə gəlürsən?Dedi ku, ağıl və tədbir cüssə küçük olmaq ilə degil".

Bu parça bütövlükdə M.Ş.Vazehin maarifçi-realist nəsri üçün səciyyəvidir. Ümumiyyətlə, süjetə sərbəst yanaşaraq onu öz mətləbinə münasib şəklə salmaq onun miniatür hekayələrinin orijinallığını təmin edir. Hekayələrdə verilən son bədii nəticə əsərin ideya-bədii məzmunu ilə yaxından səsləşir:

"Bu məsəl ondan ötəridir ki, düşmən nə qədər qüvvətlü olsa, qəflət vəqtində hiylə ilə onu həlak eyləmək olar";
"Bu məsəl ondan ötəridir ki, ağıllı adama hiylə eləmə ki, ondan getməz və əgər özgənin haqqında bədəməl eyləyəsən o özünə rücu olur";
"Bu məsəl ondan ötəridir ki, biləsən, heç kəs səy yolunda çalışmamış muradın günü ümid məşriqindən tulu eyləməz və çıkmaz"
"Bu məsəlin faydası odur ki, hər kəs öz həmcinsi ilə yoldaş ola";
"Bu məsəl ona görədir:anlamazın nə ürəgi olur və nə də qulağı".

Ədalət mühakiməsi prinsiplərinə əsaslanan ədibin oxucusuna nəsihəti sərtdir. Ədalət kateqoriyası Mirzə Şəfinin hadisələri qiymətləndirməsində daha parlaq təzahür edir. Müəllifin mühakimələrindəki məntiqi həqiqət o qədər güclüdür ki, özündə insani keyfiyyətləri birləşdirən hər kəs onun təkanverici, oyadıcı təsirindən kənarda qala bilməz.

Nəticə

Ümumiyyətlə, Mirzə Şəfi Vazehin "Kitabi-türki"dərsliyinə daxil edilmiş miniatür hekayələrin sosial-ideya məzmunu çox zəngindir. Bu əsərlər müəllifin dünyagörüşünün maarifçi istiqamətini müəyyənləşdirir. Bu hekayələr gənc oxucunun insan psixologiyasına bələd olması üçün də dəyərli dir. Miniatür əsərlərin demək olar ki, hər birində müxtəlif zümrələrdən olan insanların xarakterik keyfiyyətləri ilə qarşılaşmaq mümkündür. Nəsihətamizlik hadisələrin epik təmkinlə təsviri, baş verənlərin irəlicədən müəyyənləşdirilməsi ilə seçilən miniatür hekayələrdə qüvvətli səslənir. Ümu mən bu hekayələrdə həyatın fəlsəfi mahiyyəti, insanın həyatdakı rolu, ədalət, mərifət, dostluq haqqında dəyərli fikirlər, yüksək əxlaq qaydaları rəğbətlə təsvir olunur.Hekayələrdə xeyirlə şər, mərhəmətlə zülm, şöhrətpərəstliklə təvazökarlıq qarşılaşdırılır. Bu əsərlər xoşbəxtliyi insanın mənəvi gözəlliyində, yetkinliyi və kamala çatmasında görən Mirzə Şəfinin demokratik fikirlərinin təcəssümü kimi səciyyəvidir.

Ədəbiyyat:

1.*Azərbaycan nəsri Antologiyası*.(2006).5 cilddə, I cild. Bakı, "Şərq-Qərb".
2.Əliyeva N.(2013). *Mirzə Şəfi Vazeh tədqiqatlarında Şərq təfəkkürü ilə Qərb təfəkkürünün fərqi.* Gəncə, "Elm".
3.Məmmədov A.(1990).*Nəsrin poetikası*(XIX əsrin II yarısı). Bakı, "Elm".
4.Mirzə Şəfi Vazeh.(2019).*Biblioqrafiya.*Bakı, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.
5.M.Ş.Vazeh, İ.Qriqoriyev.(2018).Kitabi-türki(Türk dili kitabı). Ön söz. Bakı,"Elm və təhsil"
6.Mir Cəlal.(1973). *Klassiklər və müasirlər.* Bakı.
7.Nəbiyev V. (1987).*Zaman və nəsrin üslubları*. Bakı, "Yazıçı".
8.Rəşidov Z.(2025).*Mirzə Şəfi Vazeh və Fridrix Bodenştedt ədəbi əlaqələrinin psixologiyası: Təqliddən plagiata doğru."*Metafizika"Journal AcademyGate Publishing Vol 8, issue 1,serial29,pp.23-5.
9.Сеидзаде А.А.(1929).*Мирза Шафи Вазех*. Баку.
10.Şərifova S. (2005).*Azərbaycan nəsr janrlarının təşəkkül və formalaşma prosesi (XX əsrin əvvəllərinə qədər)*. Bakı, "Elm".

MAMMAD SAYID ORDUBADI'S SATIRE CREATION

MOMMAD SAID ORDUBADI'NİN HİCİV YARATICILIĞI

f.u.f.d. Ayten Heybatova
Azerbaycan Devlet Pedagoji Üniversitesi
Edebiyat Öğretmenliği Teknolojisi Bölümü Öğretmeni

Özet
Mammad Said Ordubadi'nin edebi mirasının büyük kısmını hicivler oluşturmaktadır. Bu hicivler dönemin en önemli sorunlarını ve acılarını yansıtmaktadır. Yazar bu hicivlerin çoğunu "Hardamkhayal" mahlasıyla yayımlamıştır. Mesele şu ki, "Molla Nasreddin" dergisinde yayımlanan Ordubad, Culfa, İran ve Güney Azerbaycan'a ait materyaller M.S. Ordubadi tarafından yayınlanmış olup, "Hardamkhayal" mahlasıyla yayımlanmıştır. Yazar, gazetecilik eserlerinde zaman zaman Bakü şehrine ve diğer bölgelere de yer vermişse de, yukarıda adı geçen yerler esas olarak onun hiciv planının bölümlerini oluşturmuştur. Diğer örneklerde olduğu gibi, M.S. Ordubadi, hicivlerinde halkın manevi ve fikri hayatına, ideal hayat özlemlerine ilişkin görüşlerini dile getirmiştir. Söylediği her söz halkının iyiliği için önemlidir.
Anahtar Kelimeler: Memmed Said Ordubadi, hiciv, tefrika, Molla Nasreddin dergisi, şiir

Abstract
The majority of Mammad Sayid Ordubadi's literary heritage is made up of satires. These satires reflect the most important problems and pains of the era. The writer published most of these satires under the pseudonym "Hardamkheyal". The point is that the materials on Ordubad, Julfa, Iran and South Azerbaijan published in the "Molla Nasreddin" magazine belonged to M.S. Ordubadi and were published under the pseudonym "Hardamkheyal". Although the writer sometimes featured the city of Baku and other regions in his journalistic activities, the above-mentioned areas mainly formed the sections of his satire plan. As in other examples, M.S. Ordubadi expressed his views on the spiritual and intellectual life of the people and their ideal living aspirations in his satires. Each of his words is important for the improvement of the well-being of his people.
Keywords: Mammad Said Ordubadi, satire, feuilleton, Molla Nasreddin magazine, poetry

Giriş.

Hiciv de mizah gibi güldürür ama aralarındaki farklar yerle gök arasındaki kadardır. Mizah sadece insanları eğlendirmek içindir, hiciv ise gazeteciliktir. Okuyucuyu dost ve düşmanlarıyla tanıştırır, olumlu ve olumsuz insan karakterlerini, iyi ve kötü güçler arasındaki mücadeleyi öğretir, kötü alışkanlıklardan uzak durmasını öğütler, özgürce yaşamaya çağırır, cehaletin pisliğine bulanmış unsurlardan uzaklaştırır. Bayan Ordubadi, hicivlerinde ideolojik-sanatsal işlevin bütüncül bir sistem içinde ele alındığını ve ideolojik-sanatsal özelliklerin örgütlü bir biçimde sergilendiğini vurgular.

Ana metn.

Bayan Ordubadi mesleğinde deneyimli ve profesyonel bir ustadır. Her işi bir usta gibi yapıyor, yüz kere ölçüyor, bir kere kesiyor ve sonuçta cilalanmış, düzeltilmiş, düzenlenmiş mükemmel eserler ortaya çıkarıyor ki, bu da onun Azerbaycan edebiyatında en üst seviyedeki yerini teyit ediyor.
Ordubadi'nin hicivlerinde, gülünç duruma düşenler çeşitli sınıflardan insanlardır. Bunların arasında hâlâ cehalet bataklığında boğulmakta olan cahiller, fakirleri köleleştiren ve onların cüzi servetlerini yağmalayan çarlık memurları, uydurma hükümlerle halkı aldatan sahte din adamları, sadece kızların

değil, erkeklerin bile okumasını büyük bir günah sayan fanatikler, sıfır okuma yazma bilmelerine rağmen kendilerini alim gibi gösteren "millet düşkünleri", nezaketsiz davranıp edepsizlik yapan boşboğazlar, Rusçayı akıcı bir şekilde konuşabildikleri halde kendi dillerinde yazmayı gericilik sayan "zekiler" vb. vardır. Örneğin yazarın "Milliyetçi Zekiler" adlı köşesi, sadece Rusça bildikleri için kendilerini çok zeki sanan, kolları ve bacakları kırık olmasına rağmen kendi dillerinde yazanları küçümseyenleri ifşa ediyor. Okuma salonunda birinci şahıs olarak konuşan bir yazar, bu aydınların genel hatlarını çizen bir kişiye Müslüman gazeteleri okumasını tavsiye ettiğinde, Müslüman gazetelerinin tek kuruş bile etmediğini söyler. Edebiyat bilgini Fariz Yunisli, M.S. Ordubadi'nin sahte din adamlarına karşı olumsuz tutumu. Alim, yazarın yaratıcı çalışmalarında ve gazetecilik faaliyetlerinde, gerçek İslam doktrinlerini olduğu gibi yayan gerçek ilahiyatçılara değil, sahte din adamlarına karşı duruşunu vurguladı ve yazarın münafıkları ifşa etmesinin nedenini açıkça açıkladı: "Ordubadi ilk eğitimini bir mollanın evinde aldı. Bu, o zamanın gereklerine uygundu. Ancak, ciddi ulusal-manevi kalkınma uğruna dinden ve şeriattan yararlanmadığı dönemde, yazarın aydınlanma için ayak bastığı yer adına "molla" kavramına karşı tutumu daha sonra tamamen değişti. Vatandaşlarının mutlu geleceği için yorulmadan mücadele eden seçkin şahsiyetlerin ideolojik yönünün zıt kutbunda, aynı zamanda gayretli bir manevi kanat da vardı. Ordubadi ayrıca Molla Nasreddin ideolojisinin ilkeleriyle "her bakımdan" tutarlı olan edebi stratejiyi başarıyla sürdürdü. "Ak başlı", "karanlık fikirli", "fasık", "eksik ulema" vb. Ordubadi, her daim dinsel fanatizme karşı mücadeleci olmuş, isimleri ve hedefleri belirsiz olan, sıradan insanları gerçek İslam'dan ve inançtan uzaklaştıran molla toplumunun iç yüzünü açığa çıkarmıştır.

İslam hukukunda "sığa" evliliği diye bir şey yoktur; Sahtekar din adamlarının kendi şehvetlerini tatmin etmek için uydurdukları bir şeydi. Sadece bir cariyeniz var. Sahtekar din adamları, çoğu zaman kocaları ölmüş dul kadınları "dolandırır", onlara bir günlük ücret satın alır ve sonra "Sizi tanımıyorum bile" diyerek onları dışarı atarlardı. Bayan Ordubadi, "Molla" adlı hiciv şiirinde tam da bu konuya değinir ve hatta "sevgili-yoldaş" derken, burada başlıca olumsuz unsur olarak ele alınan molla, büyü yoluyla dört karısı olmasının yanı sıra, üç sevgilisi vardır ve bir gecede yedisiyle de birlikte olduktan sonra, her seferinde yıkanıp temizlenir. Yazar, "Usuli-şer" derken, kirli mesleklerine uygun olarak "Usuli-şer" diyor, çünkü onlar, İslam dininin kökü ve dalları olan "Usuli-din" ve "Furuid" vb. ikiyüzlü din adamı (ahund, molla) yerine, şeriat-şeytan'a tapıyorlar. Bu şekilde, İslam dini kisvesi altında iğrenç faaliyetlerde bulunan şarlatanları ifşa ediyor, kimliklerini gösteriyor ve bunlar hakkında karar vermeyi okuyucuya bırakıyor.

Azerbaycan, bin yıldan fazla bir süredir Aşura günlerinde İmam Hüseyin önderliğinde Kerbela şehitlerini anıyor. Azerbaycan'da Sovyet iktidarı kurulana kadar "Şebbih" gösterileri camilerde ve meydanlarda yapılmaktaydı. Bu da kare performansların temeli olarak kabul edildi. Ancak sorun şuydu ki, Müslümanların camilerde toplanıp yas tuttuğu Aşure günlerinde, bazı serseriler bundan faydalanarak camiye gelenlerin ayakkabılarını ve hatta paralarını çalıyor, camiye gelenler arasında panik yaşanmasına, istemeden birbirlerinin üzerine düşmelerine, bazen de küçük çocukların ayaklar altında çiğnenmesine yol açacak bir durum yaratıyorlardı.

"Romanovlar" hanedanının tam 305 yıl hüküm sürdüğü, Azerbaycan da dahil olmak üzere birçok ülkeyi işgal ettiği, yer altı ve yer üstü zenginliklerini gasp ettiği, halkını adeta köleleştirdiği bilinmektedir. Ancak dünyadaki bütün hegemonik hanedanlıklar gibi "Romanov Hanedanlığı" da 1917 yılında son bulmuş ve bütün mensupları kurşuna dizilmiştir.

İslam'ın Doğu dünyasında yayılmasından sonra kendi çıkarları doğrultusunda birçok sahte din adamı ortaya çıktı. Uydurdukları hükümler, kıssalar, sözler ve hadisler neticesinde bunlar, Kur'an-ı Kerim'in mübarek ayetlerinden ve Hz. Muhammed'in (s.a.v.) mübarek hadislerinden tamamen farklı bir şekilde sunulmuş, bu da İslam dinini bilmeyen insanlar arasında "İslamofobi" yaratmış, öyle ki evrensel, insancıl ve ilerici bir din olan İslam, bugün bile zaman zaman bir terör dini olarak değerlendirilmektedir. Her ne kadar M.S. Azerbaycan'ın Sovyet devleti olmasının ardından ateist ideolojinin baskısı altında ateizmi yansıtan bir dizi eser kaleme alan Ordubadi, dini medreselerde

aldığı mükemmel din eğitimi nedeniyle hem Kur'an-ı Kerim'i hem de Hz. Muhammed'in mübarek hadislerini çok iyi biliyordu. Bu sebeple uydurma hadislere çok aşinaydı. "Sahte Hadisler" adlı köşesinde İslam Peygamberi adına uydurulan uydurma hadisleri konu alıyor. Yazar bu tefsirde, hiçbir din adamının peygamberimizin doğum ve ölüm tarihini kesin olarak bilmediğini, ancak peygamberi yakından görmüş gibi onun adına akıllarına geleni söylediklerini anlatır: "Kapazlı köyünün mollası olan merhum molla Gulamali, her zaman peygamberimizden, Allah'a yemin olsun ki, elinizle yemek yedikten sonra parmaklarınızı yalamanın büyük bir fazileti olduğunu rivayet ettiğini söylerdi. Biz de, 'Mullah bey, bunu nereden biliyorsunuz?' diye sorardık." O da şöyle cevap verirdi: Böyle bir hadis var. Şimdi aklıma şu geliyor: Peygamberin doğum ve ölüm tarihini tam olarak bilmeyen bir millet, yüz binlerce hadisin doğru mu yanlış mı olduğunu nasıl bilebilir?" [Ordubadi, 1907:6].

Yukarıda da belirttiğimiz gibi sadece Azerbaycan'da değil, Müslüman Doğu'nun her yerinde İslam adına konuşan, kendileri hakkında hadis, söz ve hüküm uyduran münafıklar vardı. Sıradan insanların zihniyetini öyle zehirlemişlerdi ki, birçok aile reisi, bir kızın okumasını, eğitim almasını, şiir yazmasını veya genel olarak toplum içinde herhangi bir yararlı işte bulunmasını günah ve yasak olarak görüyordu. Hacı Zeynelabidin Tağıyev'in 1901 yılında kız okulu açması sırasında, bunu engellemek isteyen sahte din adamlarının siyah bir grup oluşturduğu da bilinmektedir. Ancak Hacı, Mekke ve Medine şehirlerine adam göndererek oradaki müçtehitlerden kız çocuklarının İslam'da okumasının haram sayılmadığına dair belgeler aldırdı. Mesele şu ki, o kız okulunda eğitim gören kızların hepsi Azerbaycan'ın ilerlemesi için çeşitli alanlarda hizmetlerde bulunmuşlar ve kadınların da erkekler kadar bilgili olabileceğini, hatta daha güçlü doktorlar, mühendisler, avukatlar vb. uzmanların yetiştirilebileceğini herkese ispatlamışlardır.

1912 yılında Hacı Zeynelabidin Tağıyev, "Işıg" ismiyle ilk kadın gazetesini kurdu. Gazete 68 sayı yayımlandı. 1923 yılında “Azerbaycan Kadınlar Şurası”nın yayın organı “Şark Kadini” yayımlandı. Dergimizde, M.S. Erdem ve diğer erkek yazarlarımızın kadın hakları mücadelesini konu alan öyküleri ve şiirleri yayımlandı. Ordubadi, kadınların yanı sıra.

İngiltere'nin yüzyıllardır ülkeleri işgal ettiği, bu ülkelerde katliamlar yaptığı, daha sonra da bu ülkeleri sömürge haline getirdiği biliniyor. 1918 yılında Taşnak Araratyan'ın daveti üzerine işgal amacıyla İran'ın Enzali limanından savaş gemileriyle Bakü'ye geldi ve şehri ele geçirdi. Ancak Memmed Emin Resulzade ve Ahmed Bey Ağaoğlu'nun Anadolu'da izledikleri maksatlı politikanın bir sonucu olarak, yiğit Türk ve Azerbaycan askerlerinden oluşan "Kafkas İslam Ordusu" tüm cephe boyunca savaşlar vermiş, önce Taşnaklar'ı ezmiş, sonra Stepan Şaumyan'ın "Kara Meryem" vadisinde gönderdiği 18.000 kişilik Bolşevik ordusunu yenmiş ve nihayet Bakü'ye 5 kilometre uzaklıkta bulunan "Kurt Kapısı" yakınlarında 39 gün süren bir muharebenin ardından İngiliz ordusuna karşı muhteşem bir zafer kazanmıştır.

1858-1947 yılları arasında İngiliz sömürgesi olan Hindistan'da 20. yüzyılın başlarında veba ve veba hastalıkları yayılarak elli binden fazla insanın ölümüne yol açtı. M.S. "Hindistan'da Veba" adlı hiciv şiirinde, Ordubadi, İngilizlerin iç yüzünü, yönetimleri altındaki insanlara karşı duydukları saygısızlığı, onları hor görmelerini ve şovenist iddialarını ortaya koyuyor. Ayrıca, bu korkunç hastalığın Hindistan'ın "Pencap" bölgesinde (o zamanlar Pakistan da Hindistan'ın bir parçasıydı ve ancak 1947'de bağımsız bir devlet olmuştu) yayılmasını önlemek amacıyla hayırsever Hacı Zeynalabdin Tağıyev'in Fransa'da aşı hazırlattığını ve yüz binlerce aşıyı oraya gönderdiğini de belirtmek gerekir. İşte o zaman bu amansız hastalıklar önlendi ve milyonlarca insan bu beladan kurtuldu. Ne yazık ki Pakistan hükümeti bunu takdir etmesine ve hatta Hacı Zeynalabdin Taghlyev'in adını ders kitaplarına koymasına rağmen, Hindistan hükümeti bu iyiliğe karşılık Ermenileri desteklemiş ve Azerbaycan'a karşı asılsız suçlamalarda bulunmuştur.

19. yüzyılın sonu ve 20. yüzyılın başlarında Azerbaycan'da deyim yerindeyse çobanlık iddiasında bulunan bir grup genç ortaya çıktı. Öldürmekte, kan dökmekte, insanları, özellikle de yoksulları öldürmekte erkekliği, cesareti, asaleti, gayreti ve şerefi gördüler. Bu kişiler, sahte din adamlarının örneğini izleyerek, ilim ve irfan edinmeyi de haram saymışlar, hatta bazı durumlarda hançerlerinin

keskinliğini, onları eğitimli gençlerin kanına batırarak test etmişlerdir. Bu Tufaylılar da vatanın hürriyet ve bağımsızlığına karşıydılar. Zira Azerbaycan'da hürriyet galip gelseydi, adalet tesis edilecekti, herkesin hakkı korunacaktı ve o zaman bu suçlular mutlaka yakalanacak ve cezalandırılacaklardı.

Ordubadi'nin gençliğinde kadını bir meta olarak gören, haklarını ayaklar altına alan, kendisini İslam örtüsü altına gizleyen, din konusunda tamamen cahil insanlara beyaz yalanlar söyleyen hasta bir toplum vardı. Kadın haklarının eksikliği doğal olarak basın çalışanlarını, özellikle Molla Nasreddincileri çok rahatsız ediyordu. Cahil insanlarla hiciv yoluyla mücadele ettiler, derginin geniş platformunda kadın haklarını savundular ve hicivlerinde kadınların da erkekler gibi insan olduğunu, sadece kendi insanları için değil, tüm insanlık için yararlı şeyler yapabileceklerini vurguladılar. Şahane Müşfik, M.S. Müşfik de dahil olmak üzere Mollanasreddincilerin nasıl bir çizgi izlediğini okuyucuya kapsamlı bir şekilde sunuyor. Ordubadi, kadın haklarını korumak için hicivlerinde bu konuyu düzenli olarak vurgulamış, hicivsel ama kırılgan notlarla yazmıştır: "Ordubadi, o dönemin hiciv yazarlarının, özellikle Molla Nasreddinlerin tipik özelliği olan kadın hakları temasından kaçınmamıştır. Toplumda sık sık karşılaştıkları, birçok kişinin sıradan gördüğü ama kendilerinin yürek acısıyla karşılaştıkları Doğu kadınının haksız, köle durumuna ve Azerbaycan kadınının acı dolu hayatına karşı mücadele eden yazar, bu durumların doğrudan tanığı olmuştur. Şair, cahil ve cahil kalabalığın, kendilerinden çok daha yaşlı genç kızları, kendilerinden çok daha yaşlı erkeklerle evlendirmelerine, onları bilimden ve eğitimden uzak tutmalarına sert bir şekilde karşı çıkmış ve bunun gelecekte acı sonuçlarından bahsetmiştir.

Sonuç.

Molla Nasreddin Hoca'nın takipçileri arasında M.S. Ordubadi, yazdığı mizah yazılarında kadın haklarını savunmuş, bu uğurda zaman zaman ölümü göze almış ama yılmamıştır; çünkü halkın deyimiyle çok önemli bir dava uğruna boyunlarına kefen geçirmişlerdir. Nihayet mücadelelerinin olumlu sonuçlarını verdiği zaman geldi. Kadın hakları iade edilmiş, kadınlar özgürleşmiş, artık kimse onları korkutamaz olmuş, 11 yaşında bir kızı evlendirmek kimsenin aklına gelmemiş, kadınlar erkeklerle omuz omuza faydalı işlerde çalışmış, her alanda başarı elde etmiş, sesleri yüksek kürsülerden duyulmuştur. Bu aslında vatanını ve milletini canından çok seven basın mensuplarının verdiği mücadelenin mantıksal sonucuydu.

Edebiyat

1. Ordubadi M.S. Seçilmiş əsərləri. Bakı:, Lider nəşriyyatı, 2007, 435
2. Ordubadi M.S. Qəzəlləri. Bakı:, Şərq Qərb nəşriyyatı, 2012, 357
3. Ordubadi M.S. Qızlar bulağı. Bakı:, Şərq Qərb nəşriyyatı, 2012, 52

AZERBAIJAN PEDAGOGICAL PRESS: EXAMPLES OF THE EARLY 20TH CENTURY AND THE MISSION OF EDUCATION

AZƏRBAYCAN PEDAQOJİ MƏTBUATI: XX ƏSRİN ƏVVƏLLƏRİNDƏKİ NÜMUNƏLƏR VƏ MAARİFÇİLİK MİSSİYASI

Pərvanə Hacibala qızı Rzayeva
Pedaqogika Üzrə Fəlsəfə Doktoru Azərvaycan Dövlət Pedaqoji Universitetinin Quba Filiali

Xülasə
XX əsrin əvvəllərində Azərbaycanda maarifçilik və milli özünüdərk prosesi güclənmiş, bu dövrdə baş verən siyasi dəyişikliklər və çarizmə qarşı mübarizə nəticəsində ana dilində mətbuatın inkişafı önəmli yer tutmuşdur. Ziyalılar xalqın savadlanması və milli şüurun formalaşması üçün mətbuatı əsas vasitə kimi qəbul edərək, bu sahədə ciddi təşəbbüslərlə çıxış etmişlər.
Nəriman Nərimanovun cəhdləri ilə nəzərdə tutulan "Sovqat" uşaq jurnalı reallaşmasa da, 1906-cı ildə Əlisgəndər Cəfərzadə və Məhəmmədhəsən Əfəndizadənin təşəbbüsü ilə "Dəbistan" jurnalı nəşrə başlamış və uşaqların əxlaqi, intellektual və vətənpərvər ruhda tərbiyəsi məqsədi daşıyan yazılar dərc olunmuşdur. Daha sonra "Rəhbər" jurnalı bu işi davam etdirmiş, təhsilin milliləşdirilməsi və ibtidai təhsilin pulsuz olması kimi məsələləri gündəmə gətirmişdir.
1911-ci ildə nəşr olunan "Məktəb" jurnalı isə elmi-pedaqoji və bədii məzmunlu yazılarla bu sahədə yeni mərhələ açmışdır. Jurnal uşaqların mütaliəsinə yönəlik nağıllar, hekayələr, şeirlər və maarifləndirici məqalələr dərc etmiş, qadınların təhsili və ictimai həyata cəlb olunması məsələlərinə də geniş yer ayırmışdır.
"Lək-lək" və "İşıq" kimi regional və qadınlara yönəlik nəşrlər də bu dövrün maarifçilik hərəkatında mühüm yer tutmuş, xüsusilə "İşıq" qəzeti qadınların hüquqları və təhsili üçün əsaslı tribuna rolunu oynamışdır.
Beləliklə, "Dəbistan", "Rəhbər", "Məktəb", "İşıq" və digər nəşrlər XX əsrin əvvəlində Azərbaycanda milli maarifçilik və pedaqoji fikrin inkişafında aparıcı rol oynamışdır.
Açar sözlər: maarifçilik, milli özünüdərk, ana dili mətbuatı, pedaqoji fikir, qadın təhsili

Abstract
At the beginning of the 20th century, the process of enlightenment and national self-awareness in Azerbaijan intensified, and as a result of the political changes taking place during this period and the struggle against tsarism, the development of the press in the mother tongue took an important place. Intellectuals, considering the press as the main means for the education of the people and the formation of national consciousness, took serious initiatives in this area.
Although the children's magazine "Sovkat", which was envisaged by the efforts of Nariman Narimanov, did not materialize, in 1906, the magazine "Debistan" was launched on the initiative of Alisgander Jafarzade and Mahammadhasan Afandizade, and articles aimed at educating children in a moral, intellectual and patriotic spirit were published. Later, the magazine "Rahbar" continued this work, bringing to the agenda issues such as the nationalization of education and the free provision of primary education.
The magazine "Mektab", published in 1911, opened a new stage in this field with articles of scientific, pedagogical and artistic content. The magazine published fairy tales, stories, poems and educational articles aimed at children's reading, and also devoted extensive space to the issues of women's education and involvement in public life.
Regional and women-oriented publications such as "Lek-Lek" and "Işıg" also played an important role in the educational movement of this period, and the newspaper "Işıg" in particular played the role of a fundamental tribune for women's rights and education.

Thus, "Debistan", "Rahbar", "Mektab", "Işıg" and other publications played a leading role in the development of national education and pedagogical thought in Azerbaijan at the beginning of the 20th century.

Keywords: enlightenment, national self-awareness, native language press, pedagogical idea, women's education

GİRİŞ:

XX əsrin əvvəlləri Azərbaycan cəmiyyətində ictimai-siyasi fəallığın artdığı, milli oyanışın və maarifçilik ideyalarının geniş vüsət aldığı bir dövr olmuşdur. Rusiya imperiyasının mərkəzləşdirilmiş və assimilyasiyaedici siyasətinə qarşı artan etirazlar, ölkənin ziyalı təbəqəsinin cəmiyyətin gələcəyi naminə təşkilatlanmasına və maarifləndirmə işlərinə xüsusi diqqət yetirməsinə səbəb olmuşdur. Xalqın tərəqqisi, milli kimliyinin qorunması və inkişaf etdirilməsi istiqamətində aparılan mübarizənin əsas istiqamətlərindən biri də pedaqoji mətbuatın yaradılması və yayılması idi.

Məqalədə qeyd olunan "Dəbistan", "Rəhbər", "Məktəb", "Lək-lək" və "İşıq" kimi jurnallar XX əsrin əvvəllərində Azərbaycanda formalaşmağa başlayan milli mətbuatın parlaq nümunələri hesab olunur. Bu nəşrlər uşaqların və gənclərin tərbiyəsi, qızların təhsilə cəlb olunması, yeni məktəb və tədris proqramlarının tətbiqi sahəsində mühüm ideoloji və pedaqoji rol oynamışdır. Ziyalılar bu jurnalları maarifçilik ideyalarının kütlələrə çatdırılması, xalqın savadsızlıqdan və cəhalətdən xilas edilməsi üçün bir vasitə kimi qiymətləndirirdilər.

Göstərilən dövrün mətbuat nümunələrinin təhlili, həmçinin bu nəşrlərin müəllifləri və onların ideya məzmunu Azərbaycan maarif tarixinin və ictimai-pedaqoji fikrinin inkişaf istiqamətlərini anlamağa imkan verir. Bu baxımdan məqalədə təqdim olunan materiallar milli mətbuatın maarifçilik missiyasını araşdırmaq baxımından xüsusi elmi və tarixi əhəmiyyət kəsb edir.

Tarixi kontekst və maarifçilik hərəkatının zəruriliyi: XX əsrin əvvəllərində dünya miqyasında hərbi-siyasi, iqtisadi və sosial vəziyyətin gərginləşməsi, xüsusilə də Rusiya imperiyası daxilindəki təbəqələr və millətlər arasında artan narazılıqlar, müstəmləkəçilik siyasətinə qarşı ciddi etirazlara səbəb olmuşdu. Bu etirazlar imperiyanın müxtəlif regionlarında, o cümlədən Azərbaycanda da geniş vüsət almış və cəmiyyətin siyasi, ideoloji baxımdan fəallaşmasına ciddi təsir göstərmişdir.

Azərbaycan xalqının milli azadlıq uğrunda apardığı mübarizə, eyni zamanda ideoloji baxımdan da güclənərək türçülük və millətçilik kimi məfkurələrin ön plana çıxmasına zəmin yaratdı. Xalqın özünüdərk prosesində bu məfkurələr mühüm rol oynadı və ziyalı təbəqə xalqın gələcəyi ilə bağlı dərin narahatlıq keçirdiyi üçün hüquqi məhdudiyyətlərin aradan qaldırılmasını və təhsil sahəsində genişmiqyaslı islahatların həyata keçirilməsini tələb edirdi (Ağayev, 1987).

Dövrün tanınmış publisist və yazıçıları yalnız siyasi hadisələri əks etdirməklə kifayətlənmir, həm də xalqın milli oyanışına təkan verəcək yazılarla çıxış edirdilər. Onlar baş verən hadisələri geniş ictimaiyyətə analitik şəkildə şərh edir, bu yolla xalqın siyasi mədəniyyətinin yüksəldilməsinə, ictimai şüurun inkişafına və milli məsuliyyət hissinin formalaşmasına töhfə verirdilər (İsmayılov & Maksvel, 2008).

Maarifçilik ideologiyasının əsas daşıyıcıları olan ziyalılar, milli təfəkkürün inkişafı və cəmiyyətin tərəqqisi üçün təhsilin vacibliyini önə çəkirdilər. Onlar ana dilində tədris verən məktəblərin açılmasını, rus-Azərbaycan tipli məktəblərin genişləndirilməsini, milli müəllim kadrlarının hazırlanmasını, müasir tədris plan və proqramlarının, dərs vəsaitlərinin və dərsliklərin tərtibini, eləcə də qiraətxanaların və kitabxana şəbəkələrinin yaradılmasını zəruri hesab edirdilər. Xüsusilə qızların təhsilə cəlb olunması üçün tədris müəssisələrinin və anadilli mətbuat orqanlarının yaradılması bu maarifçilik mübarizəsinin ayrılmaz hissəsi idi.

Azərbaycan ziyalıları cəmiyyəti cəhalətdən xilas etmək, onu mütərəqqi ideyalarla zənginləşdirmək istiqamətində mətbuatı təsirli vasitə hesab edir və bu sahədə ciddi səylər göstərirdilər. Ədəbiyyat, incəsənət və mətbuatı xalqın sosial, siyasi və mədəni yaralarına şəfa verə biləcək güclü vasitə kimi

dəyərləndirən ziyalılar, ana dilində mətbuat orqanlarının nəşrini, senzura məhdudiyyətlərinin aradan qaldırılmasını tələb edirdilər. Lakin çar Rusiyasının müsəlman xalqlara, xüsusən də azərbaycanlılara qarşı yürütdüyü ruslaşdırma siyasəti bu cəhdlərin böyük əksəriyyətini nəticəsiz qoyurdu. Buna baxmayaraq, ziyalılar milli mətbuatın formalaşması üçün mövcud imkanlardan maksimum istifadə etməyə çalışırdılar. Çünki ictimai fikrin inkişafında, siyasi və milli ideyaların mənimsənilməsində anadilli mətbuatın əvəzsiz rol oynadığını yaxşı anlayırdılar (Vəliyev, 2009).
Bu maarifçi ziyalılardan biri də Nəriman Nərimanov idi. O, milli mətbuatın xalqın sürətli təhsili və maariflənməsi üçün mühüm vasitə olduğunu dərk edir və bu sahədə yorulmadan çalışırdı. 1896-cı ildə o, "Sovqat" adlı uşaq jurnalı nəşr etdirmək təşəbbüsü ilə çıxış etsə də, bu cəhdlər senzura əngəlləri səbəbilə reallaşmamışdır.
1905–1907-ci illərdə imperiya ərazisində baş qaldıran inqilabi hərəkatlar çarizmi müəyyən güzəştlərə getməyə vadar etdi. 1905-ci il 17 oktyabr Manifestində xalqa vicdan, söz və mətbuat azadlığı vəd edildi. Bu fürsətdən istifadə edən ziyalılar mətbuat vasitəsilə maarifçilik işini gücləndirməyə başladılar. Nəriman Nərimanov bu dövrdə qeyd edirdi: "Əgər bir mühaziräni ən çox 500–600 nəfər dinləyirsə, qəzeti minlərlə adam oxuyur, əgər bir müəllim 30–40 şagirdi öyrədirsə, qəzet bütün xalq kütləsini öyrədir" (Əhmədov, 2014).
XX əsrin ilk onilliyindən başlayaraq Azərbaycanda ictimai-siyasi və pedaqoji hərəkatın genişlənməsi nəticəsində maarifçilik fəaliyyəti daha da intensiv xarakter aldı. Maarifdən və inkişafdan geri qalmış əhali təbəqələrinin irəliləyişində mətbuatın əhəmiyyətini dərindən dərk edən ziyalılar, çətinliklərə və senzura basqılarına baxmayaraq, bu işi davam etdirməkdə israrlı idilər. Nəticədə, milli ideyanın formalaşmasında və cəmiyyətin yenidən təşkili prosesində mətbuat mühüm bir vasitə kimi çıxış etdi.

"Dəbistan" jurnalının nəşri və maarifçilik missiyas: 1900-cü ildə Bakı ziyalılarından biri olan Əlisgəndər Cəfərzadə Azərbaycan dilində uşaq auditoriyası üçün nəzərdə tutulmuş bir jurnal nəşr etdirmək təşəbbüsü ilə çıxış etmişdir. O, "Dəbistan" adlı jurnalın nəşrinə icazə almaq məqsədilə Bakı şəhərinin meri qarşısında rəsmi şəkildə vəsatət qaldırmışdır. Ə.Cəfərzadə müraciətində qeyd edirdi ki, müsəlman uşaqları üçün fəaliyyət göstərən xüsusi və ümumtəhsil məktəblərində ana dilində mətbuat nümunələrinin olmaması maarifçilik baxımından ciddi boşluq yaradır. O, bu çatışmazlığı aradan qaldırmaq üçün ayda bir dəfə Azərbaycan dilində nəşr ediləcək illüstrasiyalı uşaq jurnalının çapını təklif etmişdir.
Əlisgəndər Cəfərzadənin bu təşəbbüsü 1906-cı il aprelin 16-da gerçəkləşmiş və o, ideya yoldaşı Məhəmmədhəsən Əfəndizadə ilə birlikdə "Dəbistan" jurnalının nəşrinə başlamışdır (Əsgərli, 2009; Nəsrəddinov, 2012; Nəsrəddinov, 2013; Seyidov, 2006). Onun əsas məqsədi uşaqların əqli, zehni və əxlaqi inkişafını təşviq etmək, maarifçilik ideyalarını yaymaq və vətənpərvər gənclərin yetişməsinə töhfə verməkidi. Bu məqsədlə dövrün görkəmli ziyalılarını jurnal ətrafında birləşdirərək uşaqlar üçün nəzərdə tutulmuş ədəbi-bədii materialların – şeirlər, hekayələr, atalar sözləri, məsəllər, lətifələr – nəşrini təşkil etmişdir. Həmçinin, jurnalın səhifələrində tanınmış şəxslər, yazıçılar haqqında məlumatlar, müxtəlif elmi sahələrə dair yazılar, klassik ədəbiyyatın təhlili və dünya ədəbiyyatından tərcümələr də yer almışdır.
"Dəbistan" jurnalının nəşrini müsbət qarşılayanlardan biri də Nəriman Nərimanov olmuşdur. O, "İrşad" qəzetində yazdığı məqalədə jurnalın əhəmiyyətini vurğulayaraq bildirmişdir: "Gözünüz aydın olsun, türk balaları... Oxuyunuz şimdi "Dəbistan" jurnalını, məlumat axtaran, ana dilini sevən balalar. Oxuyunuz haman jurnalın "Valideynlərə məxsus vərəqə"sini, balalarını sevən atalar, analar" (Zeynalov, 1973).
Jurnalın ilk nömrəsinin baş məqaləsində nəşrin əsas məqsədi olaraq uşaqlarda təhsilə marağın oyadılması, müxtəlif elmi sahələr üzrə biliklərin ötürülməsi, onların yaş səviyyəsinə uyğun olaraq tərbiyəvi və əyləncəli hekayə və şeirlərlə yüksək mənəvi keyfiyyətlərin aşılanması qeyd olunmuşdur. "Dəbistan" jurnalının mühüm rubrikalarından biri də "Təbiət tarixindən" adlı guşə idi. Bu bölmədə uşaqların yaş xüsusiyyətlərinə və dünyagörüşünə uyğun şəkildə təbiətşünaslığa dair yazılar dərc

edilirdi. Həmin yazıların əksəriyyəti maarifçi Həsən bəy Zərdabinin qələmindən çıxmışdır. Pedaqogika və tədris metodikasına dərindən bələd olan H.Zərdabi xalqın savadlanmasının və tərəqqisinin kiçik yaşlı uşaqların düzgün təlim və tərbiyəsindən başladığını vurğulayaraq, bu istiqamətdə yazılarını sadə və anlaşıqlı dildə təqdim edirdi.

Beləliklə, "Dəbistan" jurnalı Azərbaycan uşaq mətbuatının ilk nümunələrindən biri olmaqla yanaşı, milli maarifçilik hərəkatının da mühüm təzahürlərindən biri kimi dəyərləndirilə bilər. O, həm məzmun, həm də məqsəd baxımından dövrünün tələblərinə cavab verərək Azərbaycan mədəni və pedaqoji fikir tarixində əhəmiyyətli iz qoymuşdur.

Azərbaycan mətbuat tarixində mühüm yer tutan "Dəbistan" jurnalının ideya və məqsədləri dövrün bir sıra tanınmış ziyalıları tərəfindən yüksək qiymətləndirilmişdir. Məşhur mütəfəkkir, yazıçı, publisist və ədəbiyyat tənqidçisi Əli bəy Hüseynzadə "Dəbistan" jurnalını "Molla Nəsrəddin" ilə müqayisə edərək, hər iki nəşrin cəmiyyətə təsirini fərqli aspektlərdən dəyərləndirmişdir. O, "Həyat" qəzetinin 1906-cı il 18 may tarixli sayında dərc olunmuş "Molla Nəsrəddin və Dəbistan" adlı məqaləsində bu iki nəşrin funksional fərqini belə ifadə etmişdir:

"Molla Nəsrəddin" ilə "Dəbistan"ı yek digərinə qiyas etmək lazım gəlsə demək olur ki, quru ağacı yonta bilən "Molla Nəsrəddin" daha hünərli isə, yaş ağacı əyib düzəldən "Dəbistan" daha tədbirlidir" (Sadıqova, 1998).

Ə.Hüseynzadənin bu dəyərləndirməsi "Dəbistan" jurnalının maarifçilik missiyasına verdiyi yüksək qiymətin göstəricisidir. Onun fikrincə, "Dəbistan" cəmiyyətin yetkin üzvləri ilə deyil, formalaşmaqda olan gənc nəslin tərbiyəsi ilə məşğul olaraq gələcək cəmiyyətin əsaslarını formalaşdırırdı. Əgər "Molla Nəsrəddin" cəmiyyətdə artıq formalaşmış problemləri tənqid yolu ilə ifşa edərək, onları "quru ağac" kimi yonmağa çalışırdısa, "Dəbistan" "yaş ağacı" olan uşaqları erkən yaşdan düzgün istiqamətləndirərək maarifləndirməyə və milli dəyərlərlə formalaşdırmağa çalışırdı. Hüseynzadənin sözləri ilə desək, "Molla Nəsrəddin" böyükləri, "Dəbistan" isə kiçikləri öhdəsinə götürmüşdü (Zeynalov, 1974).

Bu yanaşma onu göstərir ki, hər iki nəşr cəmiyyətin inkişafı, xalqın tərəqqisi və milli şüurun formalaşması üçün bir-birini tamamlayan və qarşılıqlı funksional çərçivədə fəaliyyət göstərən maarifçilik platformaları olmuşdur. Əli bəy Hüseynzadənin vurğuladığı kimi, insanın əxlaqi və mənəvi tərbiyəsi üçün əsas mərhələ məhz uşaqlıq dövrüdür. Bu dövrü düzgün yönləndirmək, gələcəkdə vətəndaş məsuliyyətini dərk edən fərdlərin formalaşmasını təmin edə bilər.

"Dəbistan" jurnalının strukturu da onun bu məqsədlərə xidmət etdiyini göstərir. Hər ay 8 səhifədən ibarət əlavə buraxılırdı və bu əlavələrin müəyyən hissəsi "Valideynlərə məxsus vərəqə" adı altında nəşr olunurdu. Bu bölmədə valideynlər üçün tərbiyə məsələlərinə dair faydalı tövsiyələr, maarifləndirici yazılar və metodik təkliflər yer alırdı. Bu təşəbbüs valideynlərin pedaqoji biliklərinin artırılmasına yönəlmiş önəmli addım idi və jurnalın maarifçi missiyasını daha da dərinləşdirirdi.

"Dəbistan" sözü fars mənşəlidir və "ibtidai məktəb", "mədrəsə" anlamını daşıyır. Bu adın seçilməsi təsadüfi deyildi; jurnalın əsas hədəf qrupu məhz ibtidai təhsil səviyyəsində olan uşaqlar idi. Dövrün reallığı kontekstində, ana dilində nə mütaliə kitablarının, nə də sistemli pedaqoji vəsaitlərin olmadığı bir şəraitdə "Dəbistan" jurnalı milli təlim və tərbiyə sahəsində boşluğu dolduran mühüm mətbuat orqanı kimi çıxış etmişdir.

Jurnalın fəaliyyət dövrü və buraxılış sayı da onun tarixini əks etdirir. Belə ki, "Dəbistan"ın 1906-cı ildə 18 nömrəsi, 1907-ci ildə 8 nömrəsi, 1908-ci ildə isə yalnız 1 nömrəsi çapdan çıxmışdır. Bu qısa ömürlü nəşrin fəaliyyət müddəti baxımından məhdud olsa da, onun maarifçilik tarixinə verdiyi töhfə uzunmüddətli və dərin olmuşdur.

"Dəbistan"ın pedaqoji və ideoloji varisi: "Rəhbər" jurnalı: XX əsrin əvvəllərində Azərbaycanda milli mətbuat və maarifçilik hərəkatının formalaşmasında mühüm rol oynamış nəşrlərdən biri də "Rəhbər" jurnalı olmuşdur. Bu jurnal öz ideoloji və pedaqoji xəttinə görə 1906-cı ildən nəşrə başlayan "Dəbistan" jurnalının davamçısı hesab edilir. "Rəhbər"in ilk nömrəsi 1906-cı il sentyabrın 24-də işıq

üzü görmüşdür. Jurnalın baş redaktoru, tanınmış pedaqoq və ictimai xadim Mahmud bəy Mahmudbəyov idi.

Mahmudbəyov Qori Müəllimlər Seminariyasının yetirməsi olmaqla, həyatını təhsil sisteminin milliləşdirilməsi və demokratikləşdirilməsi uğrunda mübarizəyə həsr etmişdir. Onun maarifçilik fəaliyyəti həm elmi-pedaqoji, həm də publisistik sahədə özünü göstərmişdir. O, "Bizə nə lazımdır?" adlı məqaləsində 1905–1907-ci illər Rusiya inqilablarının yaratdığı nisbi azadlıq şəraitini xalqın milli şüurunun oyanması üçün fürsət kimi qiymətləndirərək yazırdı: "Bu axırkı iki ildə Rusiyada zühur edən hürriyyət yolunda tökülən qanların bərəkətindən biz də bir qədər asudə nəfəs aldıq. Anladıq ki, gərək birləşək, gərək birlikdə ehtiyaclarımızın düzəlməsinə çalışaq, özümüzə gələcək səadət üçün yol arayaq" (Əzizov, 1978).

Bu fikirlərdən aydın görünür ki, M.Mahmudbəyov milli maarifçilik hərəkatını yalnız təhsil islahatı ilə deyil, eyni zamanda milli həmrəylik və azadlıq mübarizəsinin ayrılmaz hissəsi kimi dəyərləndirirdi. O, ibtidai təhsilin məcburi və pulsuz olmasını, təhsilin din təsirindən azad edilməsini və milli əsaslarla yenidən təşkili ideyasını irəli sürürdü.

"Rəhbər" jurnalı qısa fəaliyyəti dövründə elmi-publisistik və pedaqoji istiqamətli məqalələr dərc edərək maarifçilik hərəkatının mühüm bir komponentinə çevrilmişdir. Jurnalda Firidun bəy Köçərlinin "Ədəbiyyatımıza dair" başlıqlı yazıları Azərbaycan klassik ədəbiyyatının sistemli təhlilini təqdim etmiş, oxucularda milli ədəbi irsə maraq oyatmağa xidmət etmişdir. Digər bir nümunə, Səid Mərcanlı Qənizadənin "Körpə uşaqların tərbiyəsi" adlı silsilə məqalələridir ki, burada müəllif erkən yaş dövrünün psixoloji və pedaqoji xüsusiyyətlərini nəzərə alaraq uşaq tərbiyəsi ilə bağlı müasir metodiki yanaşmalar irəli sürmüşdür.

Nəşrin fəaliyyət dövrü qısa olmuşdur: 1906-cı ildə 4, 1907-ci ildə isə yalnız 1 nömrə çapdan çıxmışdır. Cəmi 5 nömrə ilə məhdudlaşan bu nəşr maliyyə çətinlikləri səbəbilə fəaliyyətini davam etdirə bilməmişdir. Bununla belə, "Rəhbər" jurnalının pedaqoji ideyaları, elmi-publisistik dili və maarif yönümlü məqalələri onu sırf pedaqoji jurnal kimi dəyərləndirməyə əsas verir.

Nəticə etibarilə, "Rəhbər" jurnalı "Dəbistan"ın ideoloji və pedaqoji mirasını davam etdirərək, milli təhsil sisteminin inkişafında və ictimai şüurun formalaşmasında əhəmiyyətli rol oynamışdır. O, maarifçilik ideyalarının yayılmasında və ictimai-siyasi kontekstdə təhsilin strateji rolunun vurğulanmasında mühüm mərhələ hesab olunur.

"Məktəb" jurnalı: Azərbaycan maarifçilik tarixində yeni mərhələ: Azərbaycan maarifçilik tarixində xüsusi yer tutan "Dəbistan" və "Rəhbər" jurnallarından sonra 1911-ci ildə nəşrə başlayan "Məktəb" jurnalı milli pedaqoji fikir və uşaq ədəbiyyatının inkişafında yeni bir mərhələ yaratmışdır. Bu jurnalın nəşri, təhsil və maarif tariximizdə əlamətdar hadisə kimi qiymətləndirilir (Eminov, 1973). Professor Əjdər Ağayevin qeyd etdiyi kimi, "Məktəb" jurnalının nəşri ideyası ilk dəfə 1911-ci ilin fevralında Bakıda təşkil olunan "İbtidai məktəblərdə Azərbaycan dilində ilk qiraət kitabları haqqında pedaqoji kurs"da irəli sürülmüşdür. Bu təşəbbüsün həyata keçirilməsində dövrün görkəmli maarifçi ziyalıları – S.S. Axundov, F. Köçərli, S.M. Qənizadə, F. Ağazadə və digərləri fəal iştirak etmişdir (Ağayev, 2008).

Jurnalın ilk redaktorları Qafur Rəşad Mirzəzadə və Əbdülrəhman Əfəndizadə olmuşdur. Q.R. Mirzəzadə 1916-cı ilə qədər jurnalın baş redaktoru kimi çalışmış, bu dövrdə Ə.Əlizadə ilə birgə jurnalı nəşr etdirmişdir. Lakin Birinci Dünya Müharibəsinin yaratdığı sosial-iqtisadi çətinliklər və Ə.Əlizadənin vəfatı nəticəsində jurnal 1917-ci ildə fəaliyyətini dayandırmışdır. 1920-ci ildə yenidən nəşrə cəhd göstərilsə də, müntəzəm nəşr imkanı təmin olunmamış və jurnal bağlanmışdır.

"Yemək vücudun qidası olduğu kimi, elm və hünər də ruhun qidasıdır. Elm əqlin çırağıdır" (Eminov, 1973). kimi maarifçi şüarla nəşrə başlayan "Məktəb" jurnalı ayda iki dəfə çap olunurdu. Jurnalın məzmunu müxtəlif tematik rubrikalardan ibarət idi:

- Balaca hekayələr ("Qorxulu nağıllar", "Gülməli hekayələr")
- Şeirlər və təmsillər
- Məlumatri-fəniyyə (elmi biliklər)

- Lətifələr və tarixi-təbii məlumatlar
- Tərcümeyi-hallar, böyüklərin sözləri və əzbər parçalar
- Coğrafi və tibbi (hifzi-səhiyyə) məlumatlar
- Tədris tövsiyələri, "Lüğəti-məktəb" (terminoloji izah), məsələlər, elanlar, poçta qutusu, rəsmlər və s.

Bu rubrikalar uşaq və yeniyetmələrin əqli inkişafına, estetik tərbiyəsinə və ümumi dünyagörüşünün formalaşmasına xidmət edirdi.

Jurnalın müəllifləri arasında Azərbaycan ədəbi və pedaqoji fikir tarixinin tanınmış simaları – Nəriman Nərimanov, Üzeyir Hacıbəyli, A.Səhhət, A.Şaiq, Qafur Rəşad, S.S. Axundov, M.Qarayev, C.Cəbrayılbəyli, X. Kələntərli, Ş.Əfəndizadə və başqaları yer alırdı. Onlar jurnalda maarifçi məqalələrlə çıxış etməklə yanaşı, eyni zamanda məktəbdənkənar mütaliə üçün xüsusi kitabçalar da hazırlayırdılar. Redaksiya bu kitabçaları fəal oxuculara jurnal əlavəsi kimi təqdim edirdi.

Xüsusilə S.S. Axundovun xalq nağılları motivləri əsasında qələmə aldığı "Qorxulu nağıllar" silsiləsi ("Əhməd və Məleykə", "Nurəddin", "Qaraca qız" və s.) yalnız uşaqların deyil, böyüklərin də marağına səbəb olurdu (Məmmədov, 1977).

"Məktəb" jurnalının mühüm cəhətlərindən biri də qadın hüquqları və qızların təhsili məsələlərinə diqqət ayırması idi. Maarifçi yazıçı və müəllim Ş.Əfəndizadə bu mövzuda məqalə və hekayələrlə çıxış edir, qadınların tərbiyə və təhsildəki rolunu vurğulayırdı. Onun "İki qızın söhbəti", "Analar qucağı", "Şəkər alması" kimi hekayələri bu baxımdan əhəmiyyətli nümunələrdir (Şahverdiyev, 2006). Rəşid bəy Əfəndizadənin "Qızlara nəsihət" və "Ana kimdir?" adlı şeirləri isə ailədə qadının mövqeyi və qızların təhsilə yönləndirilməsi ideyasını təlqin edirdi.

"Lək-lək" – İrəvandan doğan maarif nümunəsi: 1914-cü il fevralın 22-də qədim türk yurdu olan və Qərbi Azərbaycanın əsas mədəni-siyasi mərkəzlərindən biri sayılan İrəvanda nəşr olunmuş "Lək-lək" jurnalı haqqında məlumatlar çox az olsa da, onun ədəbi-bədii, pedaqoji və mənəvi-tərbiyəvi sahələrdəki təsiri inkarolunmazdır. Əhalisinin 90%-ni türk-müsəlmanların təşkil etdiyi bu şəhərdə, qəzet və jurnalların əsasən Bakıda nəşr olunduğu bir dövrdə belə bir jurnalın çap olunması maarifçiliyin təkcə mərkəzlərlə deyil, regionlarla da sıx şəkildə əlaqəli şəkildə inkişaf etdiyini təsdiqləyir.

İrəvanın o dövrkü qubernatoru, milliyyətcə eston olan qraf Vladimir Tuzenqauzen yerli ziyalıların müraciətlərinə müsbət yanaşaraq, türklərin ilk ədəbi mətbuat nümunəsi sayılan "Lək-lək" jurnalının nəşrinə icazə verir. O, baş redaktor Cabbar Əsgərzadəyə təqdim etdiyi 1914-cü il yanvarın 21-dəki şəhadətnamədə jurnalda əsas məqalələr, şeirlər, Qafqazla bağlı məlumatlar, teleqramlar, uşaqlar üçün hekayə, təmsil və elanların dərcinə icazə verir (Məhərrəmov, 2008).

Adı "leylək" mənasına gələn "Lək-lək" jurnalı Bakıda nəşr olunan analoji nəşrlərə nisbətən daha sərt tənqidi mövqe sərgiləyərək yerli idarəetməni maarif sahəsindəki passivliyə görə tənqid edir, felyeton və şeirlərlə bu mövzuya diqqət çəkirdi. Jurnal millətçilik ruhunu gücləndirən və imperializmə qarşı yönələn fikirlərlə ictimai şüuru oyatmağa çalışırdı. Vahid Muğanlı, Mirzə Cabbar Məhəmmədov, Rəhim Hacı, Pəhvil İrəvani kimi ziyalılar öz yazılarında xalqı səfalət və cəhalətdən xilas yollarına çağırır, şairə Səriyyə Xatun isə şeirləri ilə ictimai-siyasi hadisələrə münasibət bildirərək cəmiyyəti ayılmağa səsləyirdi.

Lakin Rusiyada ictimai-siyasi vəziyyətin gərginləşdiyi dövrdə, xüsusilə Qafqaz kimi həssas bölgədə mətbuatın rolu narahatlıq doğurduğundan senzura daha da sərtləşdirildi. 1914-cü ilin iyun ayınadək cəmi 12 sayı işıq üzü görən bu jurnal, "Molla Nəsrəddin" məktəbinin İrəvandakı davamı kimi qısa, lakin yaddaqalan bir fəaliyyət göstərdi. Onun bağlanmasında erməni dairələrinin təzyiqləri, eləcə də qraf Tuzenqauzenin vəzifədən uzaqlaşdırılıb əvəzinə Arxadiy Strelbutskiyinin qubernator təyin olunması mühüm rol oynadı.

"İşıq" qəzeti – Azərbaycan qadınının səsi və maarif mübarizəsi: Azərbaycan qadınlarının hüquqları və maariflənməsi istiqamətində atılan ən mühüm addımlardan biri, ölkədə ilk qadın nəşri orqanı olan "İşıq" qəzetinin1911-ci il yanvarın 22-də nəşrə başlaması olmuşdur."İşıq" qəzetinin fəaliyyət istiqamətləri əsasən uşaq tərbiyəsi, təhsil və təlim, ədəbiyyat, təbabət, evdarlıq və məişət məsələlərini əhatə edərək qadın maarifçiliyinin əsas tribunalarından birinə çevrilmişdir.

Qəzetin nəşrinə dövrün nüfuzlu maarifçi və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyev himayədarlıq etmiş, onun təşəbbüsü ilə bu layihə ictimaiyyətə təqdim olunmuşdur. Qəzetin baş redaktoru Xədicə Əlibəyova, məsul katibi isə Tağıyevin həyat yoldaşı Sona xanım olmuşdur (Qasımova, 2000, 2010, 2019; Şahverdiyev, 2006). Bu tandem, nəşrin həm maarifçi, həm də sosial cəhətdən təsirli olmasına xidmət etmişdir.

Qəzetin bəzi səhifələrinin rus dilində dərc olunması onu təkcə azərbaycandilli deyil, eyni zamanda rusdilli oxucu kütləsi üçün də cəlbedici etmişdir. Azərbaycanın müxtəlif bölgələrindən qadınlar qəzetin redaksiyasına məktublar ünvanlayaraq savadsızlıq, hüquqsuzluq, məktəb çatışmazlığı və təhsil imkanlarının məhdudluğu kimi problemləri qaldırır, bu sahədə maarifləndirici tədbirlərin vacibliyini vurğulayırdılar.

"İşıq" qəzetinin səhifələrində dövrün tanınmış ziyalı qadınlarının – Asya Axundzadə, Səriyə Ananova, Xuraman Rəhimbəyzadə, Maral Nəbizadə kimi şair və yazıçıların uşaqlara həsr edilmiş şeirləri və yazıları yer alırdı. Bu nümunələr, qəzetin təkcə informativ deyil, eyni zamanda estetik və tərbiyəvi rol oynadığını da göstərir.

Cəmi iki ilə yaxın – 1911–1912-ci illər ərzində nəşr olunaraq 68 sayı çapdan çıxan "İşıq", qısa ömrünə baxmayaraq, Azərbaycan cəmiyyətinin oyanışında və qadınların maarifləndirilməsində əvəzsiz rol oynamışdır. Lakin təəssüf doğuran məqam ondan ibarətdir ki, digər mətbuat orqanları "İşıq" qəzetinin fəaliyyətinə yetərincə dəstək göstərməmiş, bu da bəzi hallarda qarşılıqlı ittihamlarla nəticələnmişdir. Dövrün məşhur satirik jurnalı "Molla Nəsrəddin", qəzetə tənqidi mövqedən yanaşaraq, Mirzə Cəlilin imzası ilə dərc etdiyi "İşıq" adlı məqalədə belə bir ifadəyə yer vermişdi: "Doğrudur, Bakıda çıxan 'İşıq' qəzeti müsəlman qardaşlarımızı işıqlandırır, amma bunu gərək biləsən ki, çox bərk işıq da bir şey deyil, adamın gözünü qamaşdırır" (Həbibbəyli, 2020).

Bu tənqidə cavab olaraq "İşıq" qəzetinin redaksiyası isə "Molla Nəsrəddin" jurnalını qadın məsələlərinə qarşı laqeyd münasibət göstərməkdə ittiham etmişdir. Bu qarşılıqlı polemikalar, dövrün mətbuat aləmində qadın hüquqları mövzusunun nə dərəcədə aktual və mübahisəli olduğunu da göstərməkdədir.

NƏTİCƏ

XX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi mühiti və milli oyanış prosesi maarifçilik hərəkatının genişlənməsi üçün əlverişli zəmin yaratmışdır. Bu dövrdə yaranan "Dəbistan", "Rəhbər", "Məktəb", "Lək-lək" və "İşıq" kimi mətbuat orqanları yalnız informasiya vasitəsi deyil, həm də xalqın savadlanması, milli şüurun formalaşması və pedaqoji fikrin inkişafı baxımından əvəzsiz rol oynamışdır. Bu jurnalların hər biri uşaqların və gənclərin mənəvi, əxlaqi və intellektual inkişafına, qadınların təhsilə cəlb olunmasına və yeni təlim-tərbiyə sistemlərinin yayılmasına xidmət etmişdir.

Azərbaycan ziyalılarının bu nəşrlər vasitəsilə apardığı maarifçilik fəaliyyəti ana dilində mətbuatın əhəmiyyətini və cəmiyyətə təsir imkanlarını açıq şəkildə göstərmişdir. Çətin və senzura ilə məhdudlaşdırılmış şəraitdə fəaliyyət göstərən bu nəşrlər milli ideologiyanın formalaşmasına, yeni nəsillərin milli ruhda tərbiyəsinə və cəmiyyətin tərəqqisinə xidmət etmişdir.

Nəticə etibarilə, bu jurnal və qəzetlər Azərbaycan pedaqoji mətbuatının bünövrəsini qoymuş, həm də maarifçilik tariximizdə silinməz izlər buraxmışdır. Onların fəaliyyəti sübut edir ki, milli mətbuat ictimai və pedaqoji fikrin inkişafında əsaslı rol oynamış, cəmiyyətin modernləşməsi yolunda mühüm addımlardan biri olmuşdur.

ƏDƏBİYYAT

1. Ağayev, Ə. Ə. (1987). Fərhad Ağazadənin pedaqoji görüşləri. Bakı: Maarif.

2. Ağayev, Ə. Ə. (2008, noyabr 14). Uşaq ədəbiyyatı: böyüyən nəslin tərbiyəsində mühüm vasitə. Təhsil və zaman, s. 4.
3. Əhmədov, H. M. (2014). Azərbaycanda məktəb və pedaqoji fikrin inkişaf tarixi (2 nəşr). Bakı: Elm və Təhsil.
4. Əsgərli, F. F. (2009). Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı. Bakı: ADPU-nun nəşriyyatı.
5. Əzizov, Ə. (1978). Uşaqların sevimliləri. Bakı: Gənclik.
6. Eminov, O. (1973). Elm və mədəniyyət carçısı. Bakı: Bilik.
7. Həbibbəyli, İ. Ə. (Tərt. ed.). (2020). "Molla Nəsrəddin" ensiklopediyası. Bakı: Elm.
8. İrəvan türklərinin əbədi mətbuat abidəsi "Lək-lək" jurnalı. (Z. Məhərrəmov, Tərt. ed.). (2008). Bakı: Açıq dünya.
9. Məmmədov, Ə. (1977). Azərbaycan uşaq ədəbiyyatı: "Dəbistan", "Rəhbər", "Məktəb" jurnalları əsasında. Bakı: Elm.
10. Nəsrəddinov, N. N. (2012, dekabr 22). "Dəbistan" jurnalının bir nömrəsinin biblioqrafiyası. Strategiya.az. https://strategiya.az/chap.php?id=20448
11. Nəsrəddinov, N. N. (2013, may 31). Azərbaycan uşaq mətbuatının "Dəbistan"dan başlanan daşlı-kəsəkli yolu və yaxud ucalan mərtəbələr. 525-ci qəzet.
12. Qasımova, A. N. (2000). Zülmətdə "İşıq". Bakı: Agah.
13. Qasımova, A. N. (2010a). Azərbaycanda ilk qadın mətbuatı: "İşıq" qəzeti. Bakı: Adiloğlu.
14. Qasımova, A. N. (2010b). XX əsrin əvvəllərində Şimali Azərbaycan mətbuatında qadın problemləri (1901–1917). Bakı: Adiloğlu.
15. Qasımova, A. N. (2019). Qadın azadlığının carçısı. Dövlət və din.
16. Sadıqova, S. M. (1998). "Dəbistan" uşaq jurnalının dili (filologiya üzrə fəlsəfə doktoru dissertasiyası). Bakı.
17. Seyidov, F. Ə. (2006). Uşaq ədəbiyyatında tərbiyə məsələləri: XIX–XX əsrlər. Bakı.
18. Şahverdiyev, A. B. (2006). Azərbaycan mətbuatı tarixi. Bakı: Təhsil.
19. Vəliyev, A. V. (Aşırlı). (2009). Azərbaycan mətbuatı tarixi (1875–1920). Bakı: Elm və Təhsil.
20. Zeynalov, N. H. (1973). Azərbaycan mətbuatı tarixi (c. 1). Bakı: ADU-nun nəşriyyatı.
21. Zeynalov, N. H. (1974). Azərbaycan mətbuatı tarixi (c. 2). Bakı: ADU-nun nəşriyyatı.
22. Azərbaycan tarixi (M. İsmayılov & N. Maksvel, Red.). (2008). (c. 5). Bakı: Elm

TYPES OF COMPOUND SENTENCES WITH INTERMEDIATE SPEECH IN AZERBAIJAN AND ENGLISH

AZƏRBAYCAN VƏ İNGİLİS DİLİNDƏ VASİTƏLİ NİTQLİ MÜRƏKKƏB CÜMLƏLƏRİN NÖVLƏRİ

Maral Ağayar qızı Yusubova
Baş müəllim Azərbaycan Dövlət Pedaqoji Universitet

Xülasə
İngilis dilində vasitəli nitq (reported speech) başqasının dediyi sözləri birbaşa deyil, dolayı şəkildə ifadə etmək üçün istifadə olunur. Bu cümlələr adətən mürəkkəb cümlə formasında qurulur: Əsas cümlə (main clause) + budaq cümlə (reported clause). Vasitəli nitqli mürəkkəb cümlələrin əsas növləri bunlardır: Statement Sentences (Xəbər cümlələri): Məlumat və ya fikir bildirilir. She said (that) she was tired. Question Sentences (Sual cümlələri): Yes/No sualları → if/whether ilə Wh-sualları → what, where, why, when və s. ilə He asked if I was ready. She asked where I was going. Command/Request Sentences (Əmr və xahiş cümlələri): "to + verb" strukturu ilə verilir. He told me to sit down. She asked me to help her. Suggestion/Advice Sentences (Təklif və məsləhət): "advise", "suggest", "recommend" kimi fellərlə verilir. She advised me to study more. He suggested going for a walk.
Açar sözlər: vasitəsiz nitq, vasitəli nitq,özgə nitqi, qrammatik kateqoriyalar.

Abstract.
In English, reported speech is used to express what someone else said in an indirect way rather than quoting them directly. These sentences are usually formed as complex sentences: Main clause + reported clause The main types of complex sentences in reported speech are: Statement Sentences: Used to convey information or an opinion. She said (that) she was tired. Question Sentences: Yes/No questions → use if/whether. Wh- questions → use what, where, why, when, etc. He asked if I was ready. She asked where I was going. Command/Request Sentences: Use the structure to + verb He told me to sit down. She asked me to help her. Suggestion/Advice Sentences: Use verbs like advise, suggest, recommend. She advised me to study more. He suggested going for a walk.
Keywords: indirect speech, indirect speech, other person's speech, grammatical categories.

Резюме.
В английском языке косвенная речь используется для выражения того, что сказал кто-то другой, косвенным образом, а не для прямого цитирования. Эти предложения обычно формируются как сложные предложения: Главное предложение + косвенная придаточная часть Основные типы сложных предложений в косвенной речи: Утверждающие предложения: Используются для передачи информации или мнения. Она сказала (что) она устала. Вопросительные предложения: Вопросы «да/нет» → используйте if/whether. Вопросы «wh-» → используйте what, where, why, when и т. д. Он спросил, готов ли я. Она спросила, куда я иду. Командные/просьбовые предложения: Используйте конструкцию to + глагол Он сказал мне сесть. Она попросила меня помочь ей. Предложения с предложением/советом: Используйте глаголы, такие как advice, suggest, recommend. Она посоветовала мне больше учиться. Он предложил пойти на прогулку.
Ключевые слова: прямая речь, опосредованная речь, иная речь, грамматические категории.

Vasitəli nitqli mürəkkəb cümləni və belə cümlənin vasitəli nitq hissəsini təşkil edən hissənin sintaktik quruluşunu araşdırarkən, ilk növbədə, vasitəsiz nitq konstruksiyasındakı vasitəsiz nitq hissəsini təşkil edən cümlənin və ya sintaktik tərkibinin quruluşu öyrənil¬məlidir. Yuxarıda göstərildiyi kimi, bu

cümlə tipləri dildə işlənən sintaktik quruluş¬lardan hər hansı birinə uyğun gələ bilər. Vasitəsiz nitq konstruksiyasında vasitəsiz nitq cümləsi qrammatik xüsusiyyətlərini saxlayar. İfadə məqsədinə, daha doğrusu, ifadə olunan fikrin məqsədindən asılı olaraq nəqli, sual və nida cümləli vasitəsiz nitq tipləri aşkara çıxır. Deməli, vasitəsiz nitq xüsusi halda nəqli, nida, əmr və sual cümlələri ilə ifadə olunur
Təcrübədə nəqli, sonra sual və əmr cümlələrinin daha çox işlənməsi müşahidə edilir. Nida cümlələri məhdud dairədə işlənməsi ilə seçilir. Qeyd olunduğu kimi, vasitəsiz nitq struktur baxımdan bir sözdən, cümlədən, bir neçə sadə cümlədən, mürəkkəb cümlədən, bir neçə mürəkkəb cümlədən, müəyyən sintaktik bütövlərdən, abzasdan və s. təşkil oluna bilir.
Vasitəsiz nitq konstruksiyasında cümlənin hansı növünün işlənməsi həmin konstruksiyanın vasitəli nitqlə əvəz edilməsində müəyyən xüsusiyyətlərin üzə çıxmasına səbəb olur.
Azərbaycan dilində vasitəli nitqli mürəkkəb cümlə vahid, adətən, nəqli intonasiyalı mürəkkəb tabeli cümlə kimi qurulur. Vasitəli nitqdə özgə nitqinin təkcə nəqli yox, həmçinin arzu və sual cümləsinin vermək ehtiyacı dildə vasitəli nitq budaq cümləli mürəkkəb tabeli cümlələrin müxtəlif növlərinin əmələ gəlməsinə səbəb olur. Bunlar aşağıdakılardır:
1. Başqasının nitqinin nəqli və nida cümlələrini verən vasitəli nitq budaq cümləli mürəkkəb cümlə. Məs.: *Koxa dedi ki, atam vəsiyyət eləyib, mən o vəsiyyətnən gedirəm. Qurban kişi birdən əllərini yanlarına çırpıb dedi ki, Allah mənə qənim olsun, əgər bir şey qanıramsa! Həkim deyib ki, əgər istəyirsənsə dərmanların bir xeyri olsun, onda suçuluqdan çıx*.
2. Başqasının nitqinin arzu cümləsini verən vasitəli nitq budaq cümləli mürəkkəb cümlə. *Məs.: Koxa dedi ki, Dəmir gərək suçuluqdan çıxsın.*
3. Başqasının nitqinin sual cümləsini verən vasitəli nitq budaq cümləli mürəkkəb cümlə. *Məs: Qurban kişi heyrətdən parıldayan gözlərlə mənə baxaraqi dedi ki, oğlum, sənin bu suçunun nə danışdığıdı. Qurban kişi dedi ki, Cavanşir, necə yanı mən dərdə qalmağa gəlməmişəm?*
Vasitəli nitqdə vasitəsiz nitqdə işlənən bütün cümlə növlərini vermək mümkündür. Lakin budaq cümləsinin növlərindən asılı olaraq danışıq dilində vasitəli nitqin işlədilməsinin spesifik xüsusiyyətləri vardır. Budaq cümlə modeli vasitəli nitq konstruksiyaları türk dillərində geniş yayılmışdır. Ə.Quliyev müasir türkmən dili istisna olmaqla, oğuz qrupu türk dillərindən Azərbaycan, türk və qaqauz dillərində yayılan bu tipli konstruksiyanın məhsuldarlığını xüsusi qeyd etmişdir. Vasitəli nitqin bu növündə müəllif sözü tabeli mürəkkəb cümlənin baş cümləsi, vasitəli nitq isə budaq cümləsi funksiyasında çıxış edir. Vasitəli nitq konstruksiyasının komponentləri, əsasən "ki" bağlayıcısı ilə bir-birinə bağlanır. Müəllif sözünün xəbəri olan və əsas struktur-semantik mərkəz rolunu oynayan nitq feilləri budaq cümlə modelli vasitəli nitq konstruksiyalarında xüsusi bağlayıcı vasitə rolunu oynayır. Q.Məşədiyev göstərir ki, sintaktik cəhətdən müəllifin sözləri vasitəli nitq ilə mürəkkəb cümlənin bir növünü təşkil edir. Danışan şəxs baş cümlədən aydın olur. Baş cümlədəki sözlər danışan şəxsin sözləridir. Danışan şəxs başqasına məxsus olan (budaq cümlədə verilən) sözləri əksər hallarda öz danışıq üslubuna uyğunlaşdırır, onda bəzi dəyişikliklər əmələ gətirir [17, s. 432].
Ə.Abdullayev xəbəri nitq feilləri ilə ifadə olunan tamamlıq budaq cümlələrinin vasitəli nitq konstruksiyalarına münasibətindən danışarkən yazır: *"Ümumiyyətlə, tabeli mürəkkəb cümləni tamlıqda söyləyən şəxs öz nitqi içərisində başqa birisinin nitqinə də yer vermiş olur. Buradan belə çıxır ki, baş cümlənin xəbəri nitq feilləri ilə ifadə olunan tabeli mürəkkəb cümlələrlə içərisində vasitəli nitq olan cümlələr quruluşca eyniləşirlər"* [1, s.311]. Vasitəli nitqli cümlənin xüsusiyyətlərindən bəhs edərkən Q.Kalineçenko tərkibində danışıq feili olan müəllif kontekstinin özgə nitqini özünə qrammatik tabe etməklə ötürməsi üsulunu vasitəli nitq adlandırır. O, özgə mülahizələrinin vasitəli nitqlə canlandırılmasını bircinsli hesab etmir. Tədqiqatçının fikrinə görə, həm semantikasına, həm də bəzi struktur əlamətləri ilə bir-birindən fərqlənən iki vasitəli nitq tipini ayırmaq mümkündür. Onlardan biri özgə nitqindən informasiyanı saxlamaqla ötürür. Belə vasitəli nitqi vasitəsiz nitq tipinə çevirmək mümkün olur. *Nurse Duggin said that her pulse was better.*
Bu cümlənin vasitəsiz nitq formasını bərpa etmək olur: *Nurse Duggin said: Her pulse is better.* Belə dəyişmə vasitəli sual halında da yerinə yetirmək mümkündür. *Mrs.Ferse asked him if he had dinner and if he would like to go to bed, and if he would see a doctor? – Mrs.Ferse asked: "Have you had dinner? Would you like to go to bed? Will you see a doctor?"*

Vasitəli nitqin bu tipi klassik vasitəli nitq adlandırılır.
İkinci tipdə özgə mülahizəsindəki informasiya ötürülmür, məlumat nitq predmetinin xatırlanması ilə məhdudlaşdırılır, əsas mahiyyət haqqında təsəvvür yaradılmır. Bu tip təsviri vasitəli nitq olub, klassik vasitəli nitqdən həm semantikasına, həm də quruluşuna görə fərqlənir. Klassik vasitəli nitqlə ifadə olunan özgə nitqinin əsas struktur forması tamamlıq budaq cümləsidir. Bədii ədəbiyyatda və digər mənbələrdə bu şəkildə formalaşmış vasitəli nitq əsas çoxluğu təşkil edir.

My husband told me you were building a wonderful new church as big as a cathedral, in African style (Greme) – I ventured to ask him if he had ever had any dealings with a man named Chariemagne cax (Hd.).
İngilis dilində bəzən özgə mülahizəsi xəbər budaq cümləsi ilə formalaşır ki, burada xəbər baş cümlənin danışıq feili ilə ifadə olunmuş xəbərindən bilavasitə sonra gəlir. Belə vasitəli nitq tipli cümlə özünəməxsus mənası ilə fərqlənir. Bu məna canlandırılan mülahizənin verilmiş situasiyada yeganə variant olmasını göstərir.

What I think is you're supposed to leave somebody alone if he's at least being interested and he's getting all excited about something (C.D.S.).
All they might add was that those striking figures did not always have the soundest cudgment, were not the most useful at running things (Snow).
Özgə nitqi vasitəli nitqli cümlədə feillə deyil, danışıq ismi ilə ötürüldükdə təyin budaq cümləsi ilə ifadə olunur.

Davidson was worried, and his anxiety was not decreasing when message was brought to him that he was to report to the Orderly Room at four (Al.).
Mrs.Cago received me with a hostile, angry explanation that she had not been feeling well yesterday (Snow).
İngilis dilində vasitəli nitqin verildiyi cümlə tabeli mürəkkəb cümlə olarsa, onda canlandırılan mülahizə müəllif kontekstinə tabe olur. Bu tabelilik bağlayıcılı və bağlayıcısız ola bilər. Bağlayıcı vasitəsilə əldə olunan tabelilik zamanı vasitəli nitqlə canlandırılan mülahizə ilə onu daxil edən bağlayıcı arasında müəyyən asılılıq meydana çıxır. Vasitəli nəqletmə, adətən, "that" bağlayıcısı ilə verilir. Klassik vasitəli nitqdə başqa bağlayıcılar istifadə edilmir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Eastwood, J. Oxford Guide to English Grammar // Hong Kong: Typeset in Utopia by Tradespools Ltd, Frome, – 2002. – p. 346-355.
2. Məşədiyev, Q.İ. Vasitəsiz və vasitəli nitq. Azərbaycan dilinin onomastikası (oçerklər) // – Bakı: Elm, – 1987.
3. Ковтунова, И.И. Несобственно прямая речь" в языке русской литературы конца XVIII - первой половины XIX в.-прямой речь в современном русском языке / И.И.Ковтунова. – Москва: Азбуковник, – 2011. – стр. 286.
4. Перевелесский, А.М. Практическая русская грамматика / А.М.Перевелесский. – Санктпетерург: СПБ, – 1857.
5. Fox, Barbara A. Evidentiality: Authority, responsibility and entitlement in English conversation // – Journal of Linguistic Anthropology, – 2001. 11, 2. – p. 167-19

THE CALQUE METHOD AND LANGUAGE INCONVENIENCES IN THE TRANSLATION OF THE POETRY BY BAKHTYAR VAGABZADE

BƏXTİYAR VAHABZADƏ POEZIYASININ TƏRCÜMƏSİNDƏ KALKA ÜSULU VƏ DİL UYĞUNSUZLUĞU

Həziyeva Əfsanə Salman qızı
Azərbaycan Memarlıq və İnşaat Univertsiteti Bakı, Azerbaycan

Abstract
This article deals with the application of the calque method and language inconsistency in the English translations of Bakhtiyar Vahabzadeh's poetry from various aspects. The article analyzes the English translations of the poet's poems "Yaşdan gileyliyəm" and "Dərinlik" titled "Complaining of Age" and "Life is as Short as an Inch" and analyzes the poetic structure of the original text and the translation. The adequacy of the intratextual metaphors, realities, national color, syntactic constructions and figurative expressions used in the poems in the target language is examined. The presented article emphasizes the importance of a conceptual approach, intonation and rhyme structure of the poem in order to preserve the quality of poetic translation..
Key words: terminological calque, poetic translation, figurative expressions, adequacy

Резюме
В данной статье рассматривается применение метода калькирования и языковая непоследовательность в английских переводах поэзии Бахтияра Вагабзаде с различных аспектов. В статье рассматриваются английские переводы стихотворений поэта «Яшдан гилейлиям» и «Деринлик» под названиями «Жалоба на возраст» и «Жизнь коротка как дюйм», а также анализируется поэтическая структура оригинала и перевода. Рассматривается адекватность внутритекстовых метафор, реалий, национального колорита, синтаксических конструкций и образных выражений, используемых в стихотворениях на языке перевода. В представленной статье подчёркивается важность концептуального подхода, интонационной и рифмической структуры стихотворения для сохранения качества поэтического перевода.
Ключевые слова:терминологическая калька, поэтический перевод, образные выражения, адекватность

Xülasə
Bu məqalədə Bəxtiyar Vahabzadə poeziyasının ingilis dilinə tərcümələrində kalka üsulunun tətbiqi və dil uyğunsuzluğu müxtəlif aspektlərdən araşdırılır. Məqalədə şairin "Yaşdan gileyliyəm" , "Dərinlik" şeirlərinin "Complaining of Age" və "Life is as Short as an Inch" adlı ingilis dilində tərcümələri araşdırılaraq, orijinal mətn ilə tərcüməsinin poetik quruluşu təhlil olunmuşdur. Şeirlərdə istifadə olunan mətndaxili metaforalar, realiyalar, milli kolorit, sintaktik konstruksiyalar və obrazlı ifadələrin hədəf dildə adekvatlığı araşdırılır. Təqdim olunan məqalədə poetik tərcümənin keyfiyyətinin qorunması məqsədi ilə konseptual yanaşmanın, şeirin intonasiya və qafiyə quruluşu nəzərə alınmasının önəmi vurğulanır.
Açar sözlər : terminoloji kalka, poetik tərcümə, məcazi ifadələr, adevkatlıq

Giriş

Tərcümə müəyyən bir dilə məxsus mətn, ifadə və ya məlumatın digər dillərə struktur, üslub məna tutumu saxlanılmaqla ötürülməsi prosesidir. Tərcümə prosesi əlbəttə ki təkcə söz və ifadələrin lüğəvi mənasının verilməsi yekunlaşmır, eyni zamanda orijinal mətnin semantik məna yükünü qorumaq və

anlaşılan formada ötürtülməsinə xidmət edir. Tərcümənin əsas məqsədi dillərarası kommunikasiya prosesini təmin etmək, fərqli mədəniyyətlər arasında körpü funksiyasını yerinə yetirməkdir.
Tərcümə elmi, texniki, hüquqi, publisistik, bədii və s. üslubları əhatə edə bilər. Bu sahələrə məxsus mətnlərin tərcüməsi özünəməxsusluğu ilə bir birindən fərqlənir yəni, müxtəlif üslublarda verilmiş hər hansı ifadə və ya məlumatın ötürülməsi zamanı hənim üslubun məxsus xüsusiyyətləri nəzərə alınmalıdır. Məsələn, texniki və elmi üslubda yazılmış mətnlərin hədəf dilə ötürülməsi prosesində dəqiqlik və terminoloji uyğunluq mühüm rol oynayır, lakin bədii üslubda verilən mətnləri tərcümə edərkən söz və ifadələrin məna dərinliyi və estetikasına xüsusi diqqət yetirilməlidir. Bədii tərcüməni bu baxımdan daha mürəkkəb və həssas proses adlandırmaq olar. Beləki, poetik mətnlərdə həm semantik dolğunluq, həm də estetik bütövlüyün saxlanması mühüm amillərdən hesab olunur. Əgər poetik mətnlərdə istifadə olunan terminoloji ifadələr – elmi, fəlsəfi və ya ictimai-siyasi məzmun daşıyan anlayışlar varsa onların adekvat formada ötürməsini təmin rtmək məqsədilə kalka metodundan geniş istifadə olunur. Məlumdur ki, kalka üsulu – başqa dildəki söz və ya ifadənin struktur modelini qoruyaraq, onu ana dilinin elementləri ilə tərcümə etmək metodudur (Sadıqova, s.85).
Bəzi hallarda isə qeyri-adekvat şəkildə kalkalaşdırma orijinal poetik quruluşun pozulmasına səbəb ola bilər. Bu da öz növbəsində Azərbaycan bədii ədəbiyyatında xüsusilə poeziyasında milli düşüncə və ideoloji mənaları özündə ehtiva edən şeirlərin transpozisiyası zamanı keyfiyyətin itirilməsinə və zəifləməsinə səbəb ola bilər. Belə tərcümələrdə məna uyğunsuzluğu yaranır ki, bu da poetik mətnin ritm və axıcılığı pozulur, ifadə olunan emosional və semantik mənanın itirilməsinə gətirib çıxarır.
Bəxtiyar Vahabzadə poeziyası bu baxımdan xüsusi diqqət çəkir. Bildiyimiz kimi Müasir Azərbaycan poeziyasının ən görkəmli nümayəndələrindən olan Bəxtiyar Vahabzadə yaradıcılığı öz poetik dəyəri ilə deyil, həm də fəlsəfi və ictimai-siyasi terminlərlə zənginliyi ilə seçilir. Bəxtiyar Vahabzadənin əsərlərinin digər dillərə tərcümələrində, xüsusilə də ingilis və rus dillərinə, leksik-sintaktik kalka üsulu geniş istifadə olunur. Şairin əsərlərində xüsususi anlam kəsb edən bu terminlərin digər dillərə ötürülməsi zamanı kalka üsulundan geniş istifadə edilmişdir. Terminoloji kalka – yəni mənbə dildə verilmiş ifadələrin və terminlərin hədəf dilə sözbəsöz, və ya qruluşca daha yaxın mənanı ifadə edən sözlərlə ötürülməsidir. Bu üsulun istifadəsi zamanı əsas məqsəd tərcümənin məzmununu qorumaq olsa da, bəzi məqamlarda orijinal mətndə ifadə olunan anlamın hədəf dilə transpozisiyasında ciddi problemlərlə üzləşirik.
Məsələn, B.Vahabzadənin Dərinlik” şeirinə və Aynura Hüseynova tərəfindən ingilis dilinə tərcümə edilmiş variantını nəzərdən keçirək:

Orijinalda:
Yaşamaq nə imiş?
Bilmədən bunu
Nə ilə ölçürsən ömrün boyunu?
Yaşayan görmüşəm yüz, yüz əlli il,
Qovuq tək boş olub qəlb də, beyin də.
Ömrün mənasını boyunda deyil,
Gərək axtarasan dərinliyində.(B. Vahabzadə əsərləri, 2008)
Tərcüməsi:
What was it like to live?
I never knew.
What is your measurement to assess life?
I've witnessed those who have lived for a century, 150 years,
And still left the world with empty heart and brain.
Do not measure life by its length,

Measure it by its depth. (Aynura Huseinova & Betty Blair, 2004)
Verilən bənddə"Measure life by its depth" misrasına nəzər saldıqda tərcüməzamanı kalka üsulundan istifadə olunduğu nəzərə çarpır. Lakin bu ifadə orijinalında şair ömrün mənasının uzunluğda deyil, dərinliyində yəni mənalı olması ilə ölçülməli olduğunu ifadə edir."Depth" anlayışı burada metaforik mənada işlənsə də, ingilis dilinə tərcümə zamanı bu metoforik məna qismən itərək texniki termin kimi verilmişdir, çünki "depth of life" ifadəsi ingilis poeziyasında metaforik məna ifasdə etmir və daha az yayılmışdır.
Digər misrlarda **orijinalda**
Dedin, ömrümüzün yolu bir qarış,
Yüz ocaq söndürür bəzən bir ölüm.
Vallah, gözümüzü açıb yummamış
Qapının ağzını kəsdirir ölüm.
Tərcümə variantında
Life is as short as an inch, they say
Sometimes Death brings tragedy to 100 families.
By God, in a blink of an eye,
Death is there waiting for you.
Bu bəndin tərcüməsi ilə orijinal arasında dil uyğunsuzluğuna rast gəlirik belə ki," Yüz ocaq söndürür bəzən bir ölüm" misrasında "**yüz**" ifadə ilə verildiyi halda, tərcümə zamanı "Death brings tragedy to **100** families" kimi verilmişdir ki bu da, ingilis poeziyasında bir qədər kobud səslənməsinə səbəb olmuşdur, tərcümə zamanı kontekstual məna nəzərə alınaraq "hundreds of families" və ya "countless families" kimi verilməsi daha məqsədəuyğun olardı.

Görkəmli şairin "Yaşdan gileyliyəm" şeirinin tərcüməsinə nəzər salaq
Mən on bes yaşimda - iyirmi yaşimda
Elə bilirdim ki, qırx qocaliqdir.
Əlliyə çatıram, ancaq başımda
Uşaqlıq havası hələ qalıbdır.(AZERI.org, 2004)
Tərcümə:
When I was 15 and 20,
I was thinking 40 is an old age.
I am reaching 50 now.
Still I have my childhood wishes
Whirling in my brain.
Burada orijinal vairantada şairin "Uşaqlıq havası hələ qalıbdır" misrasında uşaqlıq havası yəni saflıq, məsumluq, şıltaqlıq nəzərdə tutulur. Tərcümədə isə "Still I have my childhood wishes"- "Hələ də uşaqlıq arzum var" mənasında tərcümə olunub. Bu isə öz növbəsində mənanın daralmasına və tərcümənin adekvatlığının itiməsinə səbəb olur
Şeirin başqa bəndində
Ela bil dünəndir, çiynimdə canta
Qorğa yeyə-yeyə dərsə getdiyim.
Elə bil dünəndir, o qamis atda
Nəzil qamçı, vurub "at" səyirtdiyim.
Ingilis dilində
As if it were yesterday
When I was going to school
Munching on sunflower seeds
And carrying my rucksack on my back.
As if it were yesterday

When I was riding my horse made of reeds.(Betty Blair and Jala Garibov, 1999)
Azərbaycan dildə qeyd olunan “Qorğa yeyə-yeyə dərsə getdiyim” misrasında “qorğa ” mənsub olduğu Azərbaycan xalqın leksikasına aid ifadəni simbolizə edir ki, bu ifadə dilimizdə “qovrulmuş buğda” mənasını bildirir. (Almaz Bədəlova 2023)
Bu misranın tərcüməsi isə “Munching on sunflower seeds”yəni, günəbaxan tumu yeyə- yeyə mənasını bildirir ki bu da, tərcümə zamanı adekvatlığın və realiyanın mənasının itməsinə səbəb olmuşdur.
Gənclikdən əlimiz üzülən kimi
Dunyadan dord əlləyapişiriq biz.
Yaşimiz ötdükca, ağaclar kimi
Dərinə işlayir rişələrimiz
As soon as we lose our youth
We grasp life with four hands.
Like trees, our roots go deeper
As we grow older.
Burada isə orijinal variantda “Dunyadan dord əllə yapişiriq biz” misrası “We grasp life with four hands“ sözbə söz kalka olunub, lakin “dord əllə yapişmaq“ azərbaycan dilində geniş istifadə idiomdur və “çox çalışmaq, işinə məsuliyyətli olmaq” mənasında işlənmişdir. Hədəf dildə isə bu idiomun sözbəsöz kalka olunması bu misranın məna yükünü zəiflətmişdir.
Şeirin başqa bir bəndinə nəzər salaq
Hiss eda bilmiram yasimi neylim,
Ürak o ürakdir, həvəs o həvəs...
Gah arana düşur, gah dağa meylim,
Nadir könlümdəki bu duyğular bəs?
I cannot feel my age-what can I do?
The heart is the same heart,
The wishes are the same wishes.
My heart flies now to highlands, now to lowlands-
What are these feelings in my heart?
Bu bənddə verilən “Gah arana düşur, gah dağa meylim” misrasına nəzər salan zaman burada aran və dağın coğrafi termini deyil metaforik mənanı ifadə etdiyini görmək olar. Başqa sözlə desək həyatın eniş və yoxuşlarını yəni fərqli mərhələlərini ifadə etmək üçün işlədilmişdir. Lakin tərcümə variantında bu metoforik mənanın zəifləməsini müşahidə edirik.

NƏTİCƏ

Bəxtiyar Vahabzadənin şeirlərinin ingilis dilinə tərcümələrinin təhlili bəzən ifadələr sözbəsöz kalka üsulu vasitəsilə tərcüməsi zamanı, şeirlərin ifadə etdiyi dərin məna, fəlsəfi-poetik məzmunu, obrazlılığın və milli ruhunu ötürülməsində problem yaratdığını müəyyən edirik. Bu hallar isə şeirin tərcümə olunduğu dildə emosional və bədii məna gücünün azalmasına gətirib çıxarır. Buna görə də poetik tərcümələrdə yalnız mənanı yox, həm də şeirin ritmini, məcazlarını və milli xüsusiyyətlərini qorumaq vacibdir. Bu yanaşma Azərbaycan poeziyasının dünya oxucusuna daha aydın və təsirli çatdırılmasına kömək edər.Buradan belə nəticəyə gəlirik ki, tərcümə analayışı yalnız dildaxili məna yükünün ötürülməsi prosesi deyil, həmçinin mənəvi, mədəni və kontekstual qatların digər dilə adekvat şəkildə transpozisiyasını ehtiva edir.

ƏDƏBİYYAT SIYAHISI

1. Sadıqova, S. Müasir Azərbaycan ədəbi dilində termin yaradıcılığı prosesi / S. Sadıqova. − Bakı: Elm, − 2010, − 244 p page 85
2. B.Vahabzadə əsərləri, 2008, Səh 233 https://anl.az/el/emb/Bextiyar_Vahabzade/pdf/bv5.pdf?utm_source=chatgpt.com0

3. Aynura Huseinova and edited by Betty Blai, Spring 2004 (12.1) pages 44-45 (https://www.azer.com/aiweb/categories/magazine/ai121_folder/121_articles/121_poetry_vahabzade.html?utm_source=chatgpt.com
4. AZERI.org,yanvar,2004 https://www.azeri.org/Azeri/az_latin/latin_lit/az_literature/poetry/vahabzade_bakhtiyar/vahabzade_bakhtiyar_az/complainingofage.doc.pdf
5. Bakhtiyar Vahabzade was interviewed by AI Editor Betty Blair and Jala Garibova. See "Profile of a Dissident: Bakhtiyar Vahabzade" in AI 7.1 (Spring 1999).
6. Almaz bədəlova,qərbi azərbaycan şivələri lüğəti, 2023, səh 182 https://iksadyayinevi.com/wp-content/uploads/2023/02/QƏRBI-AZƏRBAYCAN-SIVƏLƏRI-LUGƏTI.pdf)

LANGUAGE ISSUES İN THE LİTERARY-SCİENTİFİC HERİTAGE OF B. VAHABZADE İN THE RESEARCH OF PROF. YUSİF SEYİDOV

B. VAHABZADƏNİN ƏDƏBİ-ELMİ İRSİNDƏ DİL MƏSƏLƏLƏRİ PROF.YUSİF SEYİDOVUN ARAŞDIRMALARINDA

Prof.Dr. Əbülfəz Quliyev
Naxçıvan Dövlət Universitetinin professoru
AMEA-nın müxbir üzvü

Aliyə Quliyeva
Filologiya üzrə fəlsəfə doktoru
Naxçıvan Dövlət Universitetinin baş müəllimi.

Abstract
People's poet Bakhtiyar Vahabzade is one of the prominent literary figures of 20th-century Azerbaijani literature, distinguished by his unique style and contributions. As emphasized in the Presidential Decree, the artist successfully combined his literary and scientific work with many years of pedagogical activity, playing a significant role in shaping the national consciousness of several generations. As a public figure, Vahabzade consistently demonstrated the true intellectual's stance on issues of national importance. In both his artistic and scholarly work, he persistently fought for the preservation, purity, clarity, and development of the Azerbaijani language. The study of language issues in Vahabzade's work holds a special place in the research of prominent philologist Yusif Seyidov. The subject is so extensive within Vahabzade's legacy that the scholar even published a special research work, a monograph, on the topic. Due to the broad scope of the theme, this article focuses solely on the language-related issues in Bakhtiyar Vahabzade's journalistic works, as examined through the studies of Prof. Yusif Seyidov.
Keywords: Bakhtiyar Vahabzade, Yusif Seyidov, literature, poetry, language, style

Xülasə
Xalq şairi Bəxtiyar Vahabzadə XX əsr Azərbaycan ədəbiyyatı tarixində öz yeri olan,dəsti-xəttilə seçilən görkəmli söz ustalarından biridir.Ölkə prezidentinin Sərəncamında da göstərildiyi kimi,Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək, bir neçə nəslin milli təfəkküründün formalaşmasında müstəsna rol oynamışdır. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə əsl ziyalı mövqeyi nümayiş etdirmişdir.Qüdrətli ədib istər bədii,istər ədəbi-elmi yaradıcılığında həmişə dilimizin qorunub saxlanması,təmizliyi,saflığı və inkişaf etməsi uğrunda yorulmadan mübarizə aparmışdır.B.Vabazadənin yaradıcılığında dil probleminin öyrənilməsi görkəmli filoloq Yusif Seyidovun araşdırmalarında xüsusi yer tutur.Bəxtiyar Vahabzadə irsində dil problemi o qədər geniş mövzudur ki, alim bu barədə xüsusi tədqiqat əsəri,monoqrafiya da nəşr etdirmişdir.Mövzu çox geniş olduğuna görə məqalədə Bəxtiyar Vahabzadənin ancaq publisistik əsərlərindəki dil məsələləri prof.Yusif Seyidovun araşdırmaları əsasında nəzərdən keçirilmiş,tədqiq olunmuşdur.
Açar sözlər:Bəxtiyar Vahabzadə,Yusif Seyidov,ədəbiyyat,poeziya,dil, üslub

Giriş.

Ədəbiyyatın inkişafı, ədəbi janrların təkamülü, təkmilləşdirilməsi ədəbi dilə öz təsirini göstərir. Bu, son nəticədə ədəbi dilin xəlqiləşməsinə, onun ifadəetmə qabiliyyətinin güclənməsinə aparıb çıxarır. Ədəbi dil prosesini dilçiliyin müasir tələbləri səviyyəsində qavramaq, öyrənmək, doğru-düzgün qiymətləndirmək üçün şair və yazıçıların dilini öyrənməyə həmişə ciddi ehtiyac duyulmuşdur.Onu da qeyd edək ki, yazıçı və dil problemini Azərbaycan dilçiliyində ilk dəfə kompleks şəklində,

mükəmməl şəkildə araşdıran professor Yusif Seyidov olmuşdur. Bu baxımdan bədii yaradıcılığı Azərbaycan ədəbiyyatının ayrılmaz tərkib hissəsi olan Bəxtiyar Vahabzadə poeziyasının dilinin öyrənilməsi də aktuallıq kəsb edir.

Bəxtiyar Vahabzadənin yaradıcılığı Azərbaycan ədəbi-ictimai fikrinin formalaşmasında, inkişafında önəmli rol oynayıb və öz təsir gücünü bu gün də saxlamaqdadır. Təsadüfi deyildir ki,ölkə prezidenti tərəfindən 21.02.2025-ci il tarixdə Xalq şairi B.Vahabzadənin anadan olmasının 100 illiyinin qeyd olunması haqqında imzalnmış sərəncamda da yuxarıda göstərilən məziyyətlər önə çəkilmişdir.Bu dərinməzmunlu sərəncamda göstərildiyi kimi,Bəxtiyar Vahabzadə mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır. Onun Vətənə, millətə və doğma ana dilinə sonsuz məhəbbət ifadə edən, dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır. Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək, bir neçə nəslin milli təfəkkürünün formalaşmasında müstəsna rol oynamışdır. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə əsl ziyalı mövqeyi nümayiş etdirmişdir.

Bəxtiyar Vahabzadə vətəndaş və milli şairdir. Milllətinin, ölkəsinin ağrı-acılarını, uğurlarını, sevinclərini bütün varlığıyla yaşamışdır.Görkəmli söz ustası eyni zamanda ədəbiyyatşünas olaraq elmi tədqiqat işi aparmış,Xalq şairi Səməd Vurğun yaradıcılığının əsas tədqiqatçılarından biri kimi tanınmışdır.Ədəbiyyatşünaslıq sahəsindəki xidmətlərinə görə böyük şairimiz Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmişdir.Qeyd etdiyimiz kimi,Bəxtiyar Vahabzadənin bədii və publisistik yaradıcılığında dil məsələsi xüsusi yer tutur.Azərbaycan poeziyasında Bəxtiyar Vahabzadə qədər dil probleminə yaradıcılığında böyük önəm verən, onu dərindən sevən və sevdirən ikinci bir poeziya nümayəndəsi tapmaq çətindir.Müəllifin özü bunu belə etiraf edir:"Mənim ən böyük mübarizəm sovet dövründə ayaqlar altında tapdanan,qapılar arxasında qalan ana dilimizin uğrunda həm əməli işimdə,həm də yaradıcılığımda ardıcıl mübarizə idi.Mən bu mövzuya onlarla məqalə,onlarla şeir və poema həsr etmişəm. Demək olar ki,bütün poemalarımın ricət hissəsində dolayısı ilə bu və ya başqa şəkildə dilimizin rəsmi dövlət idarələrindən qovulmasına etirazımı bildirmiş,onun hüququnun özünə qaytarılmasını arzulamışam"(5,s.47). Böyük şairimizin təkçə bədii yaradıcılığında deyil,ədəbi-publisistik əsərlərində dəana dili,onun milli sərvət kimi qorunub saxlanması,saflığı və təmizliyi uğrunda mübarizə mühüm rol oynayır.Ona görə də bir sıra tədqiqatçılar(1),o cümlədən prof.Yusif SeyidovBəxtiyar Vahabzadə və dil məsələsi üzərində geniş şəkildə dayanmış, bu mənəviyyat xəzinəsini dərindən araşdırmağa səy göstərmişlər.Yusif Seyidovun hələ 1983-cü ildə nəşr olunmuş "Sözün qüdrəti" monoqrafiyassında təxminən 100 səhifə Bəxtiyar Vahabzadə yaradıcılığının dilinə və ümumiyyətlə sənətkarın dil və üslub məsələlərinə həsr olunmuşdur(2,s.8-90).Yusif Seyidovbununla kifayətlənməmiş,Bəxtiyar Vahabzadə yaradıcıllğında dil məsələsinə aid ayrıca bir monoqrafiya da nəşr etdirmişdir(6).Mövzu çox geniş olduğuna görə biz bu məqalədəYusif Seyidovun Bəxtiyar Vahabzadənin bədii irsində deyil, komkret olaraq publisistik yaradıcılığındakı dil məsələlərinə aid tədqiqat əsərlərini araşdırmağı qarşımıza məqsəd qoyduq.

Qeyd edək ki, Bəxtiyar Vahabzadənin publisistik əsərlərini əhatə edən "Vətən ocağının istisi"(7),"Sənətkar və zaman"(8),"Sadəlikdə böyüklük"(9),"Dərin qatlara işıq" (10), "Gəlin açıq danışaq"(11),"Ədəbi düşüncələr"(5) kimi kitabları nəşr olunmuşdur.Bu kitablarda şairin dil məsələlərindən bəhs edən qiymətli məqalələri də öz əksini tapmışdır.Prof.Yusif Seyidov həmin kitablara dayanaraq Bəxtiyar Vahabzadə və dil problemini geniş şəkildə araşdırmağa çalışmışdır.

Əsas mətn

Qeyd etdiyimiz kimi,XX əsr Azərbaycan şairlərinin orta nəslinə mənsub olan bu görkəmli sənətkarın və ədəbiyyatşünasın bədii və elmi-publisistik əsərlərində söz,dil,üslub haqqında fikirlərin əhatə dairəsi olduqca geniş,problematikası isə müxtəlif və rəngarəngdir."Həm də bu müxtəliflik o qədər

qüvvvətli və şaxəlidir ki,onların hamısından bəhs edə bilmək çətinliyi bir tərəfə qalsın,ədibin bu sahədəki fikirlərini toplamaq,qaydaya salmaq və qruplaşdırmaq özü xeyli çətindir"(4,s.342).

Qeyd etdiyimiz kimi, şairin dil haqqında düşüncələrində ana dili aparıcı rol oynayır.Yusif Seyidov yazır:"Başqa sənətkarlar kimi B.Vavabzadə də insanın,ümumən xalqın həyatında ana dilinin rolunu dərindən duyur və onu qiymətləndirir.Şeir və poemalarında tez-tez,həm də müxtəlif münasibətlərlə bu məsələyə müraciət edən şair-ədibin ana dili haqqındakı mülahizələri bir sıra hallarda ümumi nəzəri istiqamətdə olur, yəni bu və ya digər bir dillə məhdudlaşmır,milli və irqi fərqlər,dillərin müxtəlifliyi ana dili anlayışına təsir göstərmir,bütün xalqlar,bütün insanlar üçün ana dili doğma və əzizdir.Təsadüfi deyildir ki,şair "Oğluma" şeirinə N.Nərimanovun "Ana dili.Bir dil ki,mehriban bir vücud məhəbbətini.... sənə bu dildə bəyan edir,bir dil ki, hələ beşikdə ikən bir layla şəklində öz ahəng və lətafətini sənə eşitdirib,ruhun ən dərin guşələrində nəqş bağlayıbdir"- sözlərini epiqraf vermişdir.Bu ümumi nəzəri mülahizələr öz qidasını və fonunu Azərbycan dilindən alır,bəzən isə onun ana dili haqqındakı fikirləri bütünlüklə Azərbaycan dilinə söykənir"(4,s.376).Böyük sənətkar ana dili ifadəsini belə mənalandırır:"Biz dilimizi də ana dili adlandırırıq.Çünki bizə ilk dəfə doğma dilimizi də öyrədən ananın özüdür".

Bəxtiyar Vahabzadə sözün,xüsusilə bədii sözün qüdrətini yüksək qiymətləndirir. Böyük sənətkar "Şəbi-hicran" poemasında şair sözünün,bədii sözün gücü haqqında belə deyir:

Əsil sənətkarın,əsil şairin
Özü qocalsa da, sözü qocalmır.

Belə söz abidələrinin əsrlərin dolanbac yollarından keçə -keçə gəlib bütün nəsillərin malı olduğunu,əhəmiyyəti və gözəlliyini də saxladığını vurğulayanYusif Seyidov şairin müdrik fikir mahiyyəti daşıyan aşağıdakı cümlələrinə istinad edir:"Səs və söz abidələrinin daş abidələrindən fərqi ondadır ki,daş abidələr zamanın tufanları qarşısında əriyib,vaxt keçdikcə öz təravətini itirirsə,səs və söz abidələri, əksinə,zamandan-zamana daha da cilalanır,yeniləşir və gözəlləşir"(9,s.49)

Böyük şair bədii dil,xüsusən şeir dili haqqında qiymətli fikir və mülahizələr irəli sürmüşdür."Şeirdə sənətkarlıq üçün vacib olan əsas şərtlərdən biri də dil və ifadə gözəlliyidir" –deyən Bəxtiyar Vahabzadəobrazlılığı poeziya dili üçün əsas keyfiyyət hesab edir.Bununla əlaqədar o, Füzuli dilini misal gətirərək yazır ki, Füzuli şeirinin gözəlliyi,hər şeydən əvvəl, fikrin dərinliyində,realllığında və bütün bunların yüksək bədii obrazlılıqla ifadə edilməsindədir.

Yusif SeyidovBəxtiyar Vahabzadənin şeirin yüksək poetik əsər kimi ortaya çıxmasında bu keyfiyyətlərlə yanaşı fikir yükünü də yüksək qiymətləndirdiyini göstərir.O yazır ki,böyük söz ustası fikir yükünü də şeirin ən vacib əlaməti sayır.Burada söz və məfhum,dil və təfəkkür problemləri meydana çıxır.Alim böyük şairin aşağıdakı cümlələrinə xüsusilə böyük önəm verir:"Ədəbiyyat o zaman yüksək zirvəyə çatır ki, söz fikirlə yüklənmiş olsun,böyük bir fikrin ifadəsinə xidmət etmiş olsun.Fikrin düzgün və sərrast ifadəsi,dinləyiciyə tez çatması üçün ən dəqiq sözlər,ibarələr,ifadələr tapılmalıdır"(4,s.434).

Alim Bəxtiyar Vahabzadənin poeziya dilinin sadə və aydınlığını da əsas amillərdən hesab etməsinə,burada sözün yerində işlədilməsini mühüm şərt kimi irəli sürməsinə diqqəti cəlb edir.O bu qənaətə gələrkən şairin aşağıdakı fikrinə söykənir:"Sözdən istifadə məsələsində bu və ya digər sözün şeirdə işlədilə bilib işlədilə bilməməsindən söhbət getməməlidir.Əsas məsələ sözün özündə deyil,sözün nə dərəcədə yerində işlədilməsindədir"(4,s.435).

Bəxtiyar Vahabzadə Azərbaycan şair və yazıçılarının yaradıcılıq üslubu,dili haqqında,onların sözə münasibəti və sözdən istifadə qabiliyyətləri haqqında diqqətəlayiq fikirlər söyləmişdir.Bu fikirlər bu və ya digər yazıçı,əsər haqqında deyilmiş olsa da,çox vaxt ümumən bədii ədəbiyyatın dilinə aid edilir vənəticə etibarilə ədəbi-bədii dilimiz barəsində nəzəri fikirlər kimi diqqəti çəkir.Məlumdur ki, Bəxtiyar Vahabzadə bir çox şair və yazıçının dil xüsusiyyətlərindən bəhs etmiş,ancaq o daha çox öz ustadı böyük sənətkar Səməd Vurğun irsini dərindən araşdırmış,onun haqqında namizədlk və doktorluq dissertasiyası yazmış,bu tədqiqatlar əsasında kitablar çap etdirmiş,bu kitablarda,xüsusən "Səməd Vurğun" monoqrafiyasında o, ədəbi dilimizin inkişafında böyük rol oynamış xalq şairimizin

dil və üslub xüsusiyyətlərindən də xeyli bəhs etmişdir(6).Ona görə də Yusif SeyidovBəxtiyar Vahabzadənin öz ustadının dili haqqındakı mülahizələri üzərində geniş dayanmışdır. Yusif SeyidovSəməd Vurğun poeziyasının ədəbi dilimizin inkişafındakı rolunu,onun üslub xüsusiyyətlərini dərindən tədqiq etmişdi.Onun fikrincə, bir şair kimi yeni söz və ifadə axtarışları Səməd Vurğunun bütün yaradıcılıq axtarışlarının tərkib hissəsi olmuşdur.Məhz buna görə Bəxtiyar Vahabzadəninşairin dili haqqında düşüncələri alimin diqqətini cəlb etmişdi.Onu da qeyd edək ki,Səməd Vurğunun istedadına yüksək qiymət verdiyi gənc şairlərdən biri dəBəxtiyar Vahabzadə idi. O göstərir ki,(Səməd Vurğun)1951-ci ildə yazdığım "Əbədi heykəl" poemasının əlyazmasını məndən almış və diqqətlə oxumuşdu...bir çox misraların altından xətt çəkərək "dilə fikir ver" sözlərini yazmışdı.Alimin qeyd etdiyi kimi,Bəxtiyar VahabzadəSəməd Vurğunun şeir dilinin əzəmətini də,gözəlliyini də,dərinliyini də onun sadəliyində görür.Bu sadəliyin isə Vaqif şeirindən mayalandığını,xalq yaradıcılığından qidalandığını göstərir.

Səməd Vurğunun "Muğan" poeması həm ədəbiyyatımızın,həm ədəbi dilimizin qiymətli söz abidəsidir.Alimin fikrincə,Bəxtiyar Vahabzadənin "Muğan" poemasının dili haqqındakı aşağıdakı fikrinin mükəmməliyinə, həqiqiliyinə heç nə əlavə etmək mümkün deyil.Bəxtiyar Vahabzadə bu poemadakı "Ceyran" şeirindən bir neçə bənd nümunə verir və onu dəyərləndirir:

Elə ki son bahar min büsat qurur,
Kolları-kosları yıxıb uçurur,
Sıxlaşıb bir yerə baş-başa durur
Düşəndə çovğuna,borana ceyran.
On addım kənarda yatmayır təkə,
Gəzinir oylağa baş çəkə-çəkə,
Gələn qaraltıdır,yoxsa təhlükə
Bir özünə baxır bir ona ceyran.

"Bu bəndlərin hər biri gözəlrəsm əsəridir.Burada sözlərin öz müsiqisi var,öz rəngi var"(4,s.405).

Məlumdur ki,böyük Səməd Vurğunun ədəbiyyata gəldiyi dövrdə poeziyamız hələ klassik poeziyanın şablon sözlərindən tam şəkildə yaxa qurtarmamışdı.Ona görə də o,"Muğan" poemasında bu ənənəni qırmış və yeni sözləri də cəsarətləyerli-yerində işlətməyə nail olmuşdur.Məsələn:

Ekskavator sözü yoxdur Sarvanımın öz dilində,
Lakin ona həmdəm oldu öz yurdunda,öz elində.

Yusif SeyidovBəxtiyar Vahabzadənin "Muğan" poemasının lüğət tərkibindəki bir sıra sözlərin cəsarətlə poetik məqamda işlədilməsini alqışlamasını bəyənərək onu olduğu kimi kitabda sitat şəklində vermişdir:"Bir zaman şeirimizdə sement,beton,tok,balta və s. sözləri görsəydilər,dodaq büzər,bəlkə də belə əsərləri şeir adlandırmazdılar.Lakin həmin sözlər Səməd Vurğunun dilndə nə qədər şairanə və gözəl səslənir.Bu sözlər oxucunun nəzərində qəhrəmanın iş prosesini,çarxların gurultusunu,qayışların şappıltısını səsləndirir.Yenə həmin əsərdə "car çəkir çarxların çaxnaşıq səsi"misrasında şair c,və ç səslərini bir neçə dəfə təkrar etməklə əməyin poeziyasını,musiqisini qulaqlarımızda səsləndirmiş olur"(4,s.405).

Bəxtiyar Vahabzadə Füzuli irsinin vurğunu idi.O,ulu məhəbbət şairini söz ordusunun sərkərdəsi adlandırır,sözü isə onun silahı hesab edirdi.Onun fikrincə, Füzuli, sözlərində nəfəs alan,fikirlərində yaşayan,duyğularında fəryad çəkən insanlar insanı,şairlər şairi,ariflər arifidir.Təsadüfi deyil ki, Xalq şairimiz "Şəbi-hicran"kimi ədəbiyyat tariximizdə özünəməxsus yeri olangözəl bir poetik əsər yaratmışdır.

Yusif SeyidovBəxtiyar Vahabzadənin Füzulinin sözə münasibəti haqqındakı aşağıdakı fikrinə yüksək qiymət verir:"Biz şairlər çox zaman sözün zəifliyindən şikayət edirik.Bəzən isə elə gəlir ki,hisslərimiz çox güclü,söz isə çox acizdir.Hisslərimizi ifadə etmək üçün söz tapa bilmirik.Lakin Füzuli heç zaman sözün yoxsulluğundan şikayət etməmişdir,sözdə bir neçə məna verməyi bacarmışdır.Füzulinin əlində söz mum kimidir.O,sözə istədiyi şəkli,istədiyi mənanı verir,ondan istifadə edir. O, sözün bütün mənalarının,həm lüğəti,həm məcazi mənalarının dəyərini,ağırlıq və

yüngüllüyünü,çalarlarını bütün dərinlik və incəliyi ilə qavramışdır.Söz Füzuli ürəyində qaynayır,ürəyin bütün tellərindən keçir,sonra şeirə çevrilir.Bu sözlər yanan şair ürəyinin qanından qida alıb lələ,cəvahirə çevrilir.Buna görə də Füzulinin sözləri kağız üzərində alışıb yanır.Onlar dörd yüz ildir öz hərarətini itirmir,yanır və bizi də alovunda qızdırır"(4,s.414).

Böyük ideallar şairi İmadəddin Nəsimi dili haqqında da Bəxtiyar Vahabzadənin özünəməxsus mülahizələri vardır.Onun fikruncə, Nəsiminin "Məndə sığar iki cahan..." qəzəlinin aşağıdakı misrasında katiblər səhvə yol vermişlər:

Məndə sığar iki cahan mən bu cahana sığmazam.

Böyük şairin fikrincə bu misradakı "iki" sözü əslində ikən şəklində olmuşdur.Bu fikir öz-özlüyündə maraqlı olsa da,Yusif Seyidov onunla razılaşmır və göstərir ki, ədib Nəsiminin insanvə kainat haqqındakı təlimini,hürufiliyin fəlsəfi traktovkasını nəzərə almamış və burada heç bir cəhətdən əsaslandırıla bilməyən fikirlər söyləmişdir(4, s. 409).

Bəxtiyar Vahabzadə klassik ədəbiyyatda olduğu kimi, müasir ədəbiyyatda da ədəbi şəxsiyyətlərin yaradıcılığı haqqındaxeyli araşdırma aparmış,o, söz ustalarının yaradıcılığı haqqında,onların dil xüsusiyyətləri haqqında maraqlı və diqqətəlayiq mülahizələr irəli sürmüşdür. Bu vəziyyəti nəzərə alanYusif Seyidov bunları ayrı-ayrı gözdən keçirir.Məsələn,alim bu baxımdanBəxtiyar VahabzadəninMir Cəlal haqqında mülahizələrini diqqət mərkəzinə gətirir və onun bu fikrinə nəzər salır:"Ədibin bədii dilinə aludə olmamaq mümkün deyil.Mir Cəlal cümləni qurmamışdan əvvəl "Bu fikri,bu mətləbi xalq necə deyər"?sualını öz-özünə verib sonra yazır.Bədii əsərləri bir yana,hətta elmi-tədqiqat əsərlərində də Mir Cəlal süni kitab dilindən qaçır.Ədibin Səməd Vurğun haqqında yazdığı bir məqalə belə başlayır:"Səməd Vurğun əlinə qələm alan gündən şairdir.O, kağız-kuğaz korlamamışdır"(4, 421).

Bəxtiyar Vahabzadə dövrünün gənc şairlərinin yaradıcılığını ardıcıl şəkildə izləmişdir.Bu gənc istedadlar arasındaFikrət Qoca,Məmməd Araz, Məmməd Aslan,İsa İsmayılzadə poeziyasını xüsusilə yüksək qiymətləndirmişdir.Xalq şairimizin Fikrət Qoca yaradıcılığı haqqında yazdığı məqalədə dil məsələsi xüsusi yer tutur.Yusif SeyidovBəxtiyar Vahabzadənin gənc şairin dili haqqında fikirlərini 2 maddədə ümumiləşdirərək yazır:"Fikrət Qocanın ifadə tərzini,dil və üslub xüsusiyyətlərini səciyyələndirən iki nəticə və ya əsaslandırma diqqətimizi cəlb edir:1."Burada çox işlənmiş ifadələr,sürtük deyim tərzləri qulağı cırmaqlamır,oxucuda təəccüb doğurmur.Yeni deyim tərzi çətin qəbul edilir.Lakin oxucuda,təəccüblə bərabər,gözəl assosiasiyalar oyadır".2."Fikrət Qocadan danışarkən mən nə üçün şairin ifadə tərzindən, deyim xüsusiyyətlərindən başladım?Çünki Fikrət müasir şeir orkestrimizdə bu cəhəti ilə seçilmiş,öz musiqi alətini nəinki başqa alətlərin səsindən,hətta çaldığı məlum alətin köhnə səsindən də fərqləndirməyi,onu təzə nəfəslərlə səsləndirməyi bacaran şairdir"(4, 426).

Yusif Seyidov Bəxtiyar Vahabzadənin digər gənc şairlərin,məsələn, Məmməd Aslanın yaradıcılığı haqqında da məqalə yazdığını,onları düzgün qiymətləndirməyə çalışdığını göstərir.Bununla əlaqədar alim,Bəxtiyar Vahabzadənin Məmməd Aslan haqqında yazdığı "Sözün şəhdi,dilin nəğməsi" adlı məqaləsi üzərində dayanır.Məqalədə Məmməd Aslanın poeziyasından bir neçə bənd nümunə verildikdən sonra xalq şairimiz yazır ki,bu şeir sözlərin,səslərin uyarlıq nəğməsidir.Dili mükəmməl bilmədən,duymadan onu təşkil edən sözləri nəğmədəki melodiya kimi yan-yanaşı düzmək olmaz(4,427).

Bəxtiyar Vahabzadə elə bu məqalədə oxuculara üzünü tutaraq Məmməd Aslanın "Səsimə səs ver" kitabını oxumağı tövsiyə edir:"Qoy ana dilimizin dadını,duzunu,şəhdini,şəkərini duymaq istəyənlər bu kitabı oxusun,səslərin düzülüşünə,sözlərin nəğməsinə valeh olsunlar".(4,428).

Yusif Seyidov göstərir ki, Bəxtiyar Vahabzadə Məmməd Aslanın tərcüməçilik fəaliyyətinə də yüksək qiymət verir və qeyd edir ki,Məmməd Aslan tərcümələri niyə orijinal əsər təsiri bağışlayır?Çünki tərcüməçi ana dilini gözəl bilir. Bilmək azdır,dilimizin bütün imkanlarını,rəng və çalarlarını duyur,hiss edir.

Yusif Seyidov bədii tərcümə sənətinin özünəməxsus məziyyətlərini göstərərkən Bəxtiyar Vahabzadənin elmi tərcümə ilə bədii tərcüməni qarşılaşdırmasına da toxunur.O,görkəmli söz ustasının bu barədə aşağıdakı fikrini də təqdir edir,yüksək qiymətləndirir:"Elmi əsərlərin tərcüməsində fikir və məntiqin dəqiqliyi gözlənilirsə,bədii əsərlərin tərcüməsində fikrin məntiqi və dəqiqlik, orijinalda olduğu kimi saxlanmaya da bilər.Burada əsasən ruh və mənəviyyat,hiss və həyəcan tərcümə olunur"(4,438).

Nəticə

Beləliklə, Xalq şairi Bəxtiyar Vahabzadə bir şair, bir alim, bir ziyalı kimi bütün həyat və yaradıcılığı boyu dilimizin keşiyində durmuş, onun yaşaması, yad təsirlərdən qorunub saxlanması, təmizliyi, saflığı və inkişafı uğrunda yorulmadan mübarizə aparmışdır. Görkəmli sənətkarın zəngin ədəbi-elmi irsinin dərindən öyrənilməsi filologiya elmimizin qarşısında duran mühüm vəzifələrdən biridir.

ƏDƏBİYYAT

1.S.Alməmmədova.Bəxtiyar Vahabzadə poeziyasının dili. Bakı, Elm, 2010,
2.Yusif Seyidov.Sözün qüdrəti,Bakı:Yazıçı,1983
3.Yusif Seyidov.Şairin fikir dünyası,Bakı:Bilik, 1985
4.Yusif Seyidov.Əsərləri,15 cilddə, VIII c.,Bakı,Bakı Universiteti nəşri,2008
5.Bəxtiyar Vahabzadə.Ədəbi düşüncələr.Bakı:Təhsil,2000
6.Bəxtiyar Vahabzadə.Səməd Vurğun(monoqrafiya),Bakı,1976
7.Bəxtiyar Vahabzadə. Vətən ocağının istisi,Bakı:Yazıçı,1973,
8.Bəxtiyar Vahabzadə.Sənətkar və zaman,Bakı:Yazıçı,1975,
9.Bəxtiyar Vahabzadə.Sadəlikdə böyüklük,Bakı:1978,
10.Bəxtiyar Vahabzadə.Dərin qatlara işıq, Bakı,1986,
11.Bəxtiyar Vahabzadə.Gəlin açıq danışaq,Bakı,1988

THE POEM "İSTİGLAL" BY THE OF İNDEPENDENCE BAKHTİYAR VAHABZADEH

ПОЭМА «ИСТИГЛЯЛЬ» ПОЭТА НЕЗАВИСИМОСТИ – БАХТАИЯРА ВАХАБЗАДЕ

İSTİQLAL ŞAİRİ-BƏXTİYAR VAHABZADƏNİN "İSTİQLAL" ŞEİRİ

Nüşabə Məmmədəli qızı Məmmədova
Naxçıvan Dövlət Universiteti Filologiya üzrə fəlsəfə doktoru, dosent

Abstract
One of the poets that Azerbaijani literature has produced in the XX centuru is Bakhtiyar Vahabzade. This high order was also awarded to the people's poet in Vahabzade for his selfless work, for his exceptional services in the national liberation movement in the Republic of Azerbaijan, for his especially outstanding services to the state and people of the Republic of Azerbaijan, for his great service in the national state-building work of the Republic of Azerbaijan. Throughout his creative work, the poet always glorifed his homeland does not mean the city where he was born. It is a word that encompasses the whole of Azerbaijan. After our country gained independence, B.Vahabzadeh, who was a poet of independence, wrote the poem "Istiglal" in 1999 as a contination of "Gulustan". The work speaks of the struggle of the brave sons of our people, the independence and freedom gained at the cost of the blood of our martyrs, and the fateful problems related to our people and our homeland are reflected in the poem.
The scientific article also states that "In Istiglal's works, the actual problems of the period were viewed from the position of a writer-citizen, and the poet's as one of his great achiements work was evaluted.
Keywords: Lyrical poems, poems, poet of independence, philosophical lyrics, nature lyrics, Azerbaijaniism, verse plays, etc.

Резюме
Одним из поэтов, рожденных Азербайджанской литературой в XX веке, является Бахтияр Вахабзаде. Народный герой Вахабзаде нагажден этим высшим орденом за самоотверженный труд, исключительные заслуги в национально – освободителъном движении Азербайджанской Республики, особо выдающиеся заслуги перед государством и народом Азербайджанской Республики, а также особые заслуги в деле национально-государственного стротельства Азербайджанской Республики. На протяжении всего своего творчества поэт всегда изображал в своих стихах свою Родину, ее трудолюбивый народ, природу, внутренний мир людей. В его стихах под родной понимается не город, где он родился, а весь Азербайджан. Поэт независимости Б. Вахабзаде написал стихотворение «Истигляль» как продолжение «Гюлистан» в 1999 году, после обретения нашей страной независимости. Произведение с гордостъю рассазывает о борьбе отважных детей нашего народа, независимости и свободе, завоеванных кровью наших мучеников. В стихотворении отражены судьбоносные проблемы, связанные с нашим народом и нашей Родиной.
В научной статье «Истигляль» произведения актуальные проблемы того времени были рассмотрены с позиции писателя – гражданина, поэта- гражданина, и оценены kak одно из величайших достижений художника.
Ключевые слова: лирические роэмы, роэмы, поэт Независимости, философская лирика, лирика о природе, азербайджанство, стихотворные пьесы и. т. д.

Xülasə
Azərbaycan ədəbiyyatının XX əsrdə yetişdirdiyi şairlərdən biri də Bəxtiyar Vahabzadədir. Xalq şairi B.Vahabzadəyə də fədakar zəhmətinə görə, Azərbaycan Respublikasında milli-azadlıq hərakatında müstəsna xidmətlərinə görə, Azərbaycan Respublikasının dövləti və xalqı qarşısında xüsusilə görkəmli xidmətlərinə görə, Azərbaycan Respublikasının milli-dövlət quruculuğu işlərində xüsusi xidmətlərinə görə bu ali orden verilmişdir. Şair yaradıcılığı boyu həmişə şeirlərində Vətənini, onun zəhmət adamlarını, təbiətini, insanların daxili aləmini tərənnüm edib. Vətən onun şeirlərində doğulduğu şəhər anlamında deyil, Bütöv Azərbaycanı əhatə edən sözdür. İstiqlal şairi olan B.Vahabzadə ölkəmiz müstəqillik əldə etdikdən sonra – 1999-cu ildə "Gülüstan"ın davamı kimi "İstiqlal" poemasını yazmışdır. Əsərdə xalqımızın igid övladlarının mübarizəsindən, şəhidlərimizin qanı bahasına əldə edilmiş müstəqillik və azadlıqdan qürurla danışılır. Poemada xalqımızla, vətənimizlə bağlı taleyüklü problemlər əksini tapmışdır.
Elmi məqalədə də "İstiqlal" əsərlərində dövrün actual problemlərinə yazıçı-vətəndaş, şair-vətəndaş mövqeyindən baxılmış, sənətkarın ən böyük uğurlarından biri kimi qiymətləndirilmişdir.
Açar sözlər: lirik şeirləri, poemalar, İstiqlal şairi, fəlsəfi lirika, təbiət lirikası, Azərbaycançılıq, mənzum pyeslər və s.

Giriş
Azərbaycan ədəbiyyatının XX əsrdə yetişdirdiyi şairlərdən biri də Bəxtiyar Vahabzadədir. Bədii yaradıcılığa 1943-cü ildə "Ana və şəkil" adlı ilk şeirini çap etdirdikdən sonra başlamışdır. O zamandan dövri-qədim mətbuatda şeirləri, elmi məqalələri, rəyləri müntəzəm çap olunur. "Mənim dostlarım" adlı ilk kitabında toplanmış lirik şeirlərdə faşizmə qarşı mübarizədə qalib çıxmış xalqın duyğu və düşüncələri əksini tapmışdır. Onun lirik şeir və poemalarında, mənzum pyeslərində müasir dövrün problemləri lirik-fəlsəfi planda, yeni əlvan boyalarla təsvir edilir. "İkinci səs", "Vicdan", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad", "Hara gedir bu dünya", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı" və "Rəqabət" (1960–2003) pyesləri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur. Tənqidçi-ədəbiyyatşünas kimi də fəaliyyət göstərmişdir. "Səməd Vurğunun həyat və yaradıcılığı" mövzusunda doktorluq disertasiyası müdafiə etmişdir. Ədəbi-bədii prosesin yorulmaq bilməyən təbliğatçısı və təşkilatçısı kimi tanınan şair "İstiqlal" (1995) ordeni ilə təltif olunmuşdur.

Əsas hissə:
Müstəqillik və ya **İstiqlal** —nədir? Bu söz bir millətin və ya bir dövlətin öz vətəndaşı və ya əhalisi tərəfindən idarə edilməsidir. Başqa sözlə, suverenlik hüquqlarının başqalarının əlində olmamasıdır. Əlbəttə ki, müstəqillik, müxtəlif yollarla əldə edilir. O, ya demokratik yolla, ya da silahlı mübarizə ilə qazanılır. Hər bir xalqın milli varlıq və özünüdərkinin ali təzahür forması olan müstəqil dövlət ideyasının praktik həyata vəsiqə alması əsrlərlə davam edən tarixi mücadilə nəticəsində mümkün olur. Dünyanın ən qədim etnoslarından biri olmaqla, bəşər sivilizasiyasına böyük töhfələr vermiş azərbaycanlılar da taleyin qismətindən minilliklər boyu milli özünəməxsusluğunu şərtləndirən keyfiyyətləri, milli dövlətçilik ənənələrini yaşatmaq, azadlıq, müstəqillik nemətinə qovuşmaq üçün ən çətin və sərt sınaqlardan çıxmışlar. Bu baxımdan azərbaycanlıların da milli dövlətçilik şüurunun və ənənələrinin inkişafı prosesi uzun əsrlər boyu davam etmiş, xalqın formalaşma, təşkilatlanma və özünütəsdiqləmə prosesinə əsaslı təkan vermişdir. Ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyinin qorunub saxlanılacağı və inkişaf etdiriləcəyi ilə bağlı verdiyi bu vədini praktik olaraq gerçəkləşdirmiş, sabit dövlətçilik ənənələri yaratmış, respublikamızı davamlı inkişaf yoluna çıxarmış lider kimi xalqının qəlbində yaşayır və rəğbətlə anılır. Bu gün istər Azərbaycan Xalq Cümhuriyyəti yaradıcılarının, istərsə də ulu öndər Heydər Əliyevin

müstəqil dövlətçilik idealları ilə bağlı həyata keçməyən arzuları Prezident İlham Əliyev tərəfindən uğurla gerçəkləşdirilir.

Xalq şairi B.Vahabzadəyə də fədakar zəhmətinə görə, Azərbaycan Respublikasında milli-azadlıq hərakatında müstəsna xidmətlərinə görə, Azərbaycan Respublikasının dövləti və xalqı qarşısında xüsusilə görkəmli xidmətlərinə görə, Azərbaycan Respublikasının milli-dövlət quruculuğu işlərində xüsusi xidmətlərinə görə bu ali orden verilmişdir. Şair yaradıcılığı boyu həmişə şeirlərində Vətənini, onun zəhmət adamlarını, təbiətini, insanların daxili aləmini tərənnüm edib.

Onun şeirlərində türkçülük, Azərbaycançılıq, xalqına sədaqət, yurduna bağlılıq qeyd olunmalı xüsusiyyətlərdir. Bəxtiyar Vahabzadənin lirikasını üç hissəyə ayırmaq olar: fəlsəfi lirika, məhəbbət lirikası və təbiət lirikası. Fəlsəfi lirika onun poeziyasının əsasını təşkil edir. Bu şeirlərdə şair öz fəlsəfi düşüncəsini oxucularla bölüşür. Onun təbiət lirikası isə nisbətən azdır. Şairin sevgi şeirləri fəlsəfi lirika ilə təbiət şeirləri arasında həm fəlsəfi məzmunu, həm də mənəvi duyğuları ilə ifadə olunan poetik lirikadır. Vətən onun şeirlərində doğulduğu şəhər anlamında deyil, Bütöv Azərbaycanı əhatə edən sözdür. Bəxtiyar Vahabzadə 1960-cı illərdən başlayan milli azadlıq hərəkatının öncüllərindən biri idi. O, 1958-ci ildə yazdığı "Gülüstan" poeması ilə iki yerə parçalanmış Azərbaycanın tarixi faciəsini dilə gətirmiş, rus və fars imperiyasının pəncəsi altında inləyən Azərbaycan xalqının azadlıq və istiqlal uğrundakı ədalətli mübarizəsinə qoşulmuşdur. Xalqı oyandırmaq məqsədiylə əsərlərini qələmə alan Bəxtiyar Vahabzadə şeirlərində; vətən, millət, ailə, təbiət, dil, azadlıq həsrəti kimi mövzuları ən güclü və dərin məzmunlarla izah etmişdir. B.Vahabzadənin şeirlərinə baxdığımızda gözə dəyən ilk mövzu vətən sevgisi olmaqdadır.

İstiqlal şairi olan B.Vahabzadə ölkəmiz müstəqillik əldə etdikdən sonra – 1999-cu ildə “Gülüstan”ın davamı kimi “İstiqlal” poemasını yazmışdır. Əsərdə xalqımızın igid övladlarının mübarizəsindən, şəhidlərimizin qanı bahasına əldə edilmiş müstəqillik və azadlıqdan qürurla danışılır. Poemada xalqımızla, vətənimizlə bağlı taleyüklü problemlər əksini tapmışdır. Poemada şair “Gülüstan” sülh müqaviləsindən, bu müqavilə ilə Azərbaycanın iki yerə parçalanmasından bəhs edir:

Yaman uzun çəkdi hökmü bu qəsdin,
Ayrılıb ikiyə döndü bir Vətən.
“Gülüstan” adlanan bu ifritənin
Kağızı, qələmi nədənmiş, görən?

O kağız, o yazı yumdu gözləri
Yanan ürəklərdə od külə döndü.
Bizim aramızda o gündən bəri
“Gülüstan” tikanlı məftilə döndü.

Bir vahid millətə iki hakimin
Dili doğmalaşdı... Bu lap ağ oldu.
Doğma anamızın şəkərdən şirin
Bizə öyrətdiyi dil yasaq oldu.

“İstiqlal” şeirinin bu parçasında adı çəkilən “Gülüstan” - Səttarxan, Ş.M.Xiyabani və Pişəvərinin əziz xatirəsinə həsr etdiyi “Gülüstan” poemasına işarədir. Şair yazdığı “Gülüstan” poemasında Rusiya ilə İran hakim dairələrinin bütöv bir xalqı parçalayıb məhv etmək siyasətini kəskin ifşa edir. Burada da həmin parçalanmanı bir daha xatırladaraq xalqın qan yaddaşını yenidən təzələməyə çalışır. Bu parçalanma xalqın torpaqları ilə bərabər dilini də əlindən aldı. Eyni dildə danışan millət ikiyə parçalanaraq lap çaşıb qaldı. Hansı dildə danışacağını bilmədi:

Bir vahid millətə iki hakimin
Dili doğmalaşdı... Bu lap ağ oldu.
Doğma anamızın şəkərdən şirin
Bizə öyrətdiyi dil yasaq oldu.

Özündən, sözündən qaçaq dilimiz
İslanıb üşüdü qarda, çisəkdə.
Yüksək məqamlarda yasaq dilimiz
Qovulub yaşadı kənddə-kəsəkdə.

İnsan olmaq üçün uşaq dil açar,

Yasaqlar önündə biz dilsiz olduq.

Dil varsa, xalq da var, şan-şöhrət də var,

Dil yoxsa, millət yox, heç varlıq da yox.

Bu misralarda şair Vətən, millət və onun əsa varlığı olan dili məsələsindən danışır. Şairə görə insanın varlığı öz ana dilidir. "İstiqlal" şeirinin bu hissəsində B.Vahabzadə xalqı milli sərvətimiz olan dilimizə ehtiram, məhəbbət və qayğı ilə yanaşmağa çağırır. Azərbaycanın parçalanmasından sonar Cənubi Azərbaycanda ana dilinin yasaq olması onu çox məyus edir. Kədərlə qeyd edir ki, dil yoxdursa, deməli, heç millət də yoxdur, varlıq da. Bütün əsərlərində dil məsələsinə dərindən yanaşan B.Vahabzadəni bu baxımdan ana dilinə bağlı "dil mücahidi", "ana dili şairi" də adlandırırlar.
"İstiqlal" şeirini oxuyan hər bir kəs ümumiyyətlə, şairin bütün yaradıcılığı ilə tanış ola bilir. Bu şeirdə şair yaradıcılığı boyu yazdığı bütün əsərlərdən bir növ çələng hörmüşdür. Xalqımızın milli-azadlıq mübarizəsi tarixinə "qanlı şınbı" kimi daxil olan 1990-cı il 20 yanvar faciəsi, qırğını da şairin yaradıcılığında özünün dolğun poetic ifadəsini tapmışdır. Şair bu faciəni Rusiya siyasətində türklərə olan nifrətin təzahürü kimi mənalandırır. Şair azadlığın qanla qazanıldığını yəqin edərək yazır:

Millət millət olur arzu, niyyəti,
İnamı, inadı, öz imanıyla.
Dərk edib bu haqqı, bu həqiqəti,
Suvardıq torpağı şəhid qanıyla.
Eşidib qəlbimin üsyan səsini,
Yazdım "Şəhidlər"in faciəsini:
"Dilək bir çiçək də bitirə bilməz,
Bu gündən sabaha körpü olmasa.
Azadlıq ağacı bar verə bilməz,
Şəhidlər qanıyla suvarılmasa ...
O şənbə gecəsi gecikdi səhər,
Zaman itirmişdi o gün sağ-solu.

Şair sonrakı misralarda göstərir ki, xalqı bu cür alçaq üsullarla susdurmaq mümkün deyil. Heç vaxt azadlıq qurbansız qazanılmır:

Qatil gülləsinə qurban gedirkən

Gözünü sabaha dikdi şəhidlər.

Üçrəngli bayrağı öz qanlarıyla

Vətən göylərinə çəkdi şəhidlər.

O şənbə gecəsi, o qətl günü

Mümkünə döndərdik çox namümkünü.

Xalqın qəlbindəki qorxu mülkünü

O gecə dağıdıb sökdü şəhidlər”- deyir.

Əsər demək olar ki, şəhidlərin ruhuna yazılmış bir ağıdır. Şair sonuncu misralarında əmindir ki, bir gün haqq qalib gələcək. Ona görə də xalqı mübarizəyə, sabaha, nikbinliyə səsləyir:

Zülm öz-özünə kəsilir qənim,

Baxın öz yönünü dəyişən çarxa.

Suyun gəlməsinə şübhəm yox mənim

Bir vaxt şırıl-şırıl su gələn arxa.

Salaq yadımıza bu gün cahanın

Rəngləri dəyişən beş qitəsini.

Biz də görəcəyik Azərbaycanın

Güneyli-Quzeyli xəritəsini.

Nəticə

Mütəfəkkir şair bizi əhatə edən aləmdə nə varsa hamısını özünün poeziyasında ali səviyyəyə qaldırmağ müvəffəq olmuşdur. Yazdığı hər bir əsəri ilə oxucusunu da özü kimi düşünməyə məcbur edir. Bu əsərlərdən tərbiyələnməyə, dərs götürməyə sövq edir. Hər kəsə mənəvi təmizlik dərsi verməyə çalışır. Bu da sənətkarın ən böyük uğurlarından biridir. Bütün əsərlərində dövrün actual problemlərinə yazıçı-vətəndaş, şair-vətəndaş mövqeyindən baxır. Cəmiyyəti düşündürən taleyüklü məsələlərə, xüsusən də xalqımızın soykökü, tarixi, dili və s. məsələlərə özünün ciddi münasibətini göstərir. Xalqını doğma torpaq uğrunda mübarizəyə səsləyən vətəndaş-şairin gür səsi həmişə qulağımızda səslənəcək, eşidiləcəkdir.

İstiqlal şairi Bəxtiyar Vahabzadə özünün İstiqlal şeirləri ilə Türk dünyasının, öz xalqının, millətinin, oxucusunun qəlbində daima yaşayacaq.

İstifadə edilmiş ədəbiyyat:

1. Azərbaycan ədəbiyyat tarixi. Bakı, 1988.
2. Axundlu Y. Ədəbi portretlər. Bakı, 2008.
3. B.Vahabzadə. Əsərləri (I c.). Bakı: Azərbaycan, 2001, 544 səh.
4. B.Vahabzadə. Əsərləri (II c.). Bakı: Azərbaycan, 2002, 576 səh.
5. B.Vahabzadə. Əsərləri (III c.). Bakı: Azərbaycan, 2002,512 səh.
6. B.Vahabzadə. Əsərləri (IV c.). Bakı: Çaşıoğlu, 2002, 608 səh.

7. B.Vahabzadə. Əsərləri (V c.). Bakı: Çaşıoğlu, 2002, 504 səh
8. B.Vahabzadə. İstiqlal. Bakı, "Gənclik", 1999

LOGICAL-SEMANTIC CONNECTIONS IN THE WORK OF BAKHTIYAR VAHABZADEH

BƏXTİYAR VAHABZADƏNİN YARADICILIĞINDA MƏNTİQİ SEMANTİK BAĞLAR

Dosent Fikrət Əlizadə
Bakı Dövlət Universiteti

Abstract
Bakhtiyar Vahabzadeh is a rebellious and powerful wordsmith in mid-20th to early 21st-century Azerbaijani literature, known for his deep philosophical thinking, strong devotion to his homeland, and resolute voice against injustice. He is recognized in our literary tradition as a multifaceted creative writer, playwright, and publicist, each role distinguished by a uniquely original presentation of ideas. When we trace the unfolding of meaning in his works, we encounter a vibrant palette of ideas. Interesting linguistic phenomena emerge, particularly from the perspective of modal linguistics and actual organization. It is known that each text consists of smaller (micro) texts that form larger (macro) texts. In Vahabzadeh's work, the poles of actual organization—theme and rheme—serve significantly different functions based on their internal properties. Both theme and rheme are characterized by informative completeness and, at times, by a sense of finality. The poet's thoughts often manifest in various structures, such as Theme-Rheme, Rheme-Theme, or Theme-Rheme-Theme. The sparks of thought embedded in these structures play a central role in conveying concise, instructive, and meaningful realities. Their integration results in a beautifully complete work that touches the deeper layers of human intelligence.
As for the role of parallel, contact, and linear connections in establishing logical-semantic links within Vahabzadeh's artistic works, their combinatorial use creates astonishing, sometimes unexpected, novella-like and insightful effects. In the works of our great poet, introductory, explanatory, and concluding sentences are skillfully used as creative tools to drive the dynamic progression of thought.
Keywords: text linguistics, theme-rheme, logical-semantic connection, introductory-explanatory-concluding sentences

Xülasə
Bəxtiyar Vahabzadə XX yüzilliyin ortaları-XX1 yüzilliyin əvvəlində Azərbaycan ədəbiyyatında dərin fəlsəfi təfəkkürü, Vətəninə canı qədər bağlılığı və onun yolunda mübariz olan, ədalətsizliyə qətiyyətli səsini ucaldan üsyankar qüdrətli söz ustasıdır. O, bədii ədəbiyyatımızda çoxşaxəli yaradıcı bir ədib,dramaturq, publisist kimi tanınan, bunların hər birində özünəməxsus orijinal fikir təqdimi ilə fərqlənir.
Onun əsərlərində məna bağlarının açılmasını izlədikdə çox rəngrəng fikir palitrası ilə rastlaşmaq olar. Burada mətn dilçiliyi, aktual üzvlənmə baxımından maraqlı dil-nitq faktları öz əksini tapır.Məlumdur ki, hər bir mətn kiçik (mikro) və onlardan təşkil olunmuş böyük (makro) mətnlərdən ibarətdir.Bəxtiyar Vahabzadə yaradıcılığında bunları bir-birinə bağlayan aktual üzvlənmə qütbləri – tema və rema öz daxili imkanlarına görə xeyli fərqli funksiyalar daşıyırlar. Burada istər tema, istərsə rema informativ dolğunluğu, bəzənsə qənaəti ilə seçilir. Yəni şairin düşüncə bəhrələri Tema-Rema, Rema-Tema, Tema-Rema -Tema şəklində özünü büruzə verərkən bunların içində gizlənən fikir qığılcımları yığcam, ibrətamiz mənalı gerçəklikləri üzə çıxarmaqda baza rolu oynayır. Bunların

bütövləşməsi isə insan zəkasının dərin qatlarına təsir edən gözəl, dolğun əsərin peyda olması ilə nəticələnir.

Bəxtiyar Vahabzadənin bədii əsərlərindəki məntiqi-semantik bağların iştirakında paralel, kontakt və xətti əlaqələrin roluna gəldikdə isə, onların kombinator istifadəsi nəticəsi olan fikir təqdimi heyrətləndirici,bəzən gözlənilməz, novellasayağı, hikmət məzmunlu effektlər yaradır.

Böyük şairimizin əsərlərində giriş, izah və hökm (yekun) cümlələri yaradıcılıq alətləri olaraq fikir dinamikasının inkişafı yönündə bacarıqla istifadə olunmuşdur.

Açar sözlər: mətn dilçiliyi, tema-rema, məntiqi-semantik bağ, giriş-izah-hökm cümlələr

COORDINATIVE FEATURES OF EPIC GENRES IN LOVE CREATION

AŞIQ YARADICILIĞINDA EPİK JANLARIN KOORDİNATİV XÜSUSİYYƏTLƏRİ

Bilal Hüseynağa oğlu Hüseynov
Filologiya üzrə fəlsəfə doktoru
ORCİD: 0000-0002-2249-6487
ADPU Cəlilabad filialı

Abstract

The study of Azerbaijani ashug creativity has shed light on a number of important problems related to this art. The scope of genre possibilities of ashug art generally begins with the primary sources of folklore and rises to perfect and complete epic examples, both in terms of the verse part and the prose part, which is the homeland. Hamid Arasli, Mammad Huseyn Tahmasib, Gara Namazov, Israfil Abbasli, Maharram Gasimli, Asker Qadimov, Yusif Safarov and others, who studied the history of the development of ashug creativity, drew more attention to the epic genres that are the foundation of this art. Undoubtedly, the ashug appears on the stage with a saz, and his listeners expect him to perform more songs. However, the epic examples told by the ashug play an important role in the formation and development of not only the artistic imagination of the people, but also the national thinking. These epic examples reflect the history of the formation of the people. Ashuqs, known by different names at different stages of history, performed different functions. Hamid Arasli writes about the diverse activities of this artist in his book "Azerbaijani Ashug Creativity" (1960): "These folk artists, who were called ozans in ancient times, and perhaps were called by other names earlier, were not content only with reciting historical events, telling the history of tribes and tribes and the daily events that occurred in their lives, they were loved as connoisseurs of the tribe, even as healers and benevolent advisors".

At various stages of history, the bearers of the art of the poet, also known as the qam, shaman, bakhshi, and even baxici, were also artists who kept the history of the people alive through words. The area of the ashug art is also wide, this art covers Azerbaijan, Anatolia, the Middle East and other regions. Although the most perfect work created by the ashug is called the epic, the epic examples told by this artist in various gatherings are known as the story (hekayat), nagıl, qisse, sargüzaşt, ahvalat, olmış ahvalat, oğuznama, boy, tarifnama, folk novel (xalg romanı), folk book (xalg kitabı) and other names. Israfil Abbasli, who characterizes the epics of the Turkic peoples and their origin and connection, writes in his book "The spread and sphere of influence of Azerbaijani epics" (2007) that among the examples of ashug creativity preserved in manuscript sources and forests, historical songs, tales and anecdotes, legends and tales, materials on beliefs and customs, as well as folk medicine, predominate. In the composition of epics, other genres are also used - proverbs and parables, anecdotes, myths, which consist of various genres within one genre and their function is to make the epic complete and perfect. M.H.Tahmasib writes in his book "Azerbaijani folk epics (Middle ages)" that the aphorisms and wise words spoken on behalf of Dede Gorgud are masterworks spoken by poets of different tribes . M.H. Tahmasib also draws attention to the fact that ashug art is a multifaceted field of activity: "He is a poet, a composer, a singer, a musician, a performer, an actor, a storyteller, a presenter, and a director".

Talking about the "History of the ozan-ashyg art" (Baku, 2003), Gara Namazov writes that the epic genre of ancient and medieval verbal art had the names of nagıl, hekayet, ahvalat, efsane, ravayat, qisse, menqebe, vaqie, sargüzaaşt, dastan, boy, qol, safar, safarnamə, oguznamə and others. As can be seen, the epic genres of ashug creativity are distinguished by their diversity, and each of these genres has developed in a way that is related to the others. Communication (coordination) creates

conditions for genres to acquire a more advanced version. Just as we cannot imagine an epic without a couplet and a couplet, it cannot be considered a perfect example without the small genres within it. This coordination has actually improved individual genres, and these individual genres have formed epic examples of ashug creativity. It is possible to list the coordinated epic genres of ashug creativity as follows:
-Dastanlar (oguznameler, boylar and qollar);
-Nagıllar (qara nagıllar, menzum parchaları olmayan metnler);
-Tercümeyi-hal dastanları:
-Safarlər (safarnameler);
-Deyishmeler üzerinde qurulan metnler;
-Görüshler (tarifnameler, terennümler, ustad-shagird enenesi üzerində qurulan metnler);
-Ashug ravayetleri (hedisvari soylemeler, qisseler, menqabeler, vaqieler and diger dini ravayetler);
-Bashageldiler (sergüzeshtler, ahvalatlar, olmush əhvalatlar);
-Soylemeler;
-Hekayetler (hekayeler, afsaneler, mifoloji metnler);
-İnam and etiqadlar, hemchinin xalg tebabeti hagginda metnler;
-Atalar sozü and masallar (aforizmler, hakimane sozler).
It is important to note that although the listed coordinative genres act as components of epic examples in ashug creativity, they are considered as independent genres in folklore studies. The folklore examples we have characterized are theoretically inter-genre examples, while some are considered intra-genre variations.
Keywords: Ashug creativity, epic genres, coordinative features of epic genres

Xülasə
Azərbaycan aşıq yaraıcılığının öyrənilməsi bu sənətlə bağlı bir sıra mühüm problemlərə aydınlıq gətirmişdir. Aşıq sənətinin janr imkanlarının əhatə dairəsi ümumilikdə folklorun ilkin mənbələrindən baş alaraq, həm nəzm hissəsinə, həm də yurd yeri olan nəsr hissəsinə görə mükəmməl və bitkin dastan nümunələrinə qədər yüksəlir. Aşıq yaradıcılığının inkişaf tarixini öyrənən Həmid Araslı, Məmməd Hüseyn Təhmasib, Qara Namazov, İsrafil Abbaslı, Məhərrəm Qasımlı, Əsgər Qədimov, Yusif Səfərov və başqaları daha çox bu sənətin özülündə dayanan epik janrlara diqqət çəkmişlər. Şübhəsiz, aşıq meydana sazı ilə çıxır və dinləyiciləri ondan daha çox mahnılar ifa etməyi gözləyirlər. Lakin aşığın söylədiyi epik nümunlər xalqın nəinki bədii təxəyyülünün, hətta milli təfəkkürünün formalaşmasında və inkişafında mühüm rol oynayır. Bu epik nümunələr xalqın təşəkkül tarixini əks etdirir. Tarixin müxtəlif mərhələlərində müxtəlif adlarla tanınan aşıqlar elə müxtəlif fünksiyaları yerinə yetirmişlər. Həmid Araslı "Azərbaycan aşıq yaradıcılığı" (1960) kitabında bu sənət sahibinin çaxsahəli fəaliyyəti haqqında yazır: "Qədim dövrlərdə ozan adlanan, bəlkə də daha əvvəllər başqa adlarla çağırılan bu xalq sənətkarları təkcə tarixi vaqiələri oxumaq, qəbilə və tayfaların tarixini və həyatlarında baş verən gündəlik hadisələri söyləməklə kifayətlənmir, onlar tayfanın bir bilicisi, hətta təbib və xeyirxah məsləhətçisi kimi sevilirdilər".
Tarixin müxtəlif mərhələlərində qam, şaman, baxşı, hətta baxıcı adlanan ozan sənətinin daşıyıcıları həm də xalqın tarixini sözlə yaşadan sənətkarlar olmuşlar. Aşıq sənətinin arealı da genişdir, bu sənət Azərbaycan, Anadolu, Orta Doğu və digər bölgələri əhatə edir. Aşığın yaratdığı ən mükəmməl əsər dastan adlansa da, bu sənətkarın müxtəlif məclislərdə söylədiyi epik nümunələr hekayə (hekayət), nağıl, qissə, sərgüzəşt, əhvalat, olmuş əhvalat, oğuznamə, boy, tərifnamə, xalq romanı, xalq kitabı və başqa adlarla tanınır. Türk xalqlarının dastanlarını və onların mənşəyini, əlaqəsini xarakterizə edən İsrafil.Abbaslı "Azərbaycan dastanlarının yayılması və təsir dairəsi" (2007) adlı kitabında əlyazma mənbələrində, cünglərdə qorunub saxlanılan aşıq yaradıcılığı nümunələri sırasında tarixi nəğmələrin, nağıl və lətifələrin, əfsanə və rəvayətlərin, inam və etiqadlar, həmçinin xalq təbabəti haqqında materialların üstünlük təşkil etdiyini yazır. Dastanların tərkibində başqa janrlara – atalar sözü və

məsəllərə, lətifələrə, miflərə də müraciət olunur ki, bunlar bir janrın daxilində verilən müxtəlif janrlardan ibarətdir və funksiyası dastanı təkmil, mükəmməl bir hala gətirməkdir. M.H.Təhmasib "Azərbaycan xalq dastanları (Orta əsrlər)" kitabında yazır ki, Dədə Qorqudun adından söylənilən aforizmlər, hakimanə sözlər ayrı-ayrı boylardan qabaq ozanlar tərəfindən deyilmiş ustadnamələrdir**.** M.H.Təhmasib aşıq sənətinin çoxsahəli bir fəaliyyət sahəsi olmasına da diqqət çəkir: "O, həm şair, həm bəstəkar, həm müğənni, həm çalan, həm oynayan, həm aktyor, həm dastançı, həm aparıcı, həm də rejissordur"**.**

"Ozan-aşıq sənətinin tarixi"ndən (Bakı, 2003) söhbət açan Qara Namazov yazır ki, qədim və orta əsrlər söz sənətinin epik növü nağıl, hekayət, əhvalat, əfsanə, rəvayət, qissə, mənqəbə, vaqiə, sərgüzəşt, dastan, boy, qol, səfər, səfərnamə, oğuznamə və başqa adlar daşımışdır. Göründüyü kimi, aşıq yaradıcılığının epik janrları rəngarəngliyi ilə fərqlənir və bu janrların hər biri digərləri ilə əlaqəli şəkildə inkişaf etmişdir. Əlaqə (koordinasiya) janrların daha təkmil bir variant almasına şərait yaradır. Dastanı qoşma və gəraylısız təsəvvür etmədiyimiz kimi, onu daxilindəki kiçik janrlarsız da mükəmməl nümunə saymaq olmur. Bu koordinasiya əslində ayrı-ayrı janrları təkmilləşdirmiş və həmin ayrı-ayrı janrlar da aşıq yaradıcılığının epik nümunələrini formalaşdırmışdır. Aşıq yaradıcılığının koordinasiya olunan epik janrlarını belə sıralamaq mümkündür:

-Dastanlar (oğuznamələr, boylar və qollar);
-Nağıllar (qara nağıllar, mənzum parçaları olmayan mətnlər);
-Tərcümeyi-hal dastanları:
-Səfərlər (səfərnamələr);
-Deyişmələr üzərində qurulan mətnlər;
-Görüşlər (tərifnamələr, tərənnümlər, ustad-şagird ənənəsi üzərində qurulan mətnlər);
-Aşıq rəvayətləri (hədisvari söyləmələr, qissələr, mənqəbələr, vaqiələr və digər dini rəvayətlər);
-Başagəldilər (sərgüzəştlər, əhvalatlar, olmuş əhvalatlar);
-Söyləmələr;
-Hekayətlər (hekayələr, əfsanələr, mifoloji mətnlər);
-İnam və etiqadlar, həmçinin xalq təbabəti haqqında mətnlər;
-Atalar sözü və məsəllər (aforizmlər, hakimanə sözlər).

Qeyd etmək vacibdir ki, sadalanan koordinativ janrlar aşıq yaradıcılığında epik nümunələrin tərkib hissəsi kimi çıxış etsə də, folklorşünaslıqda müstəqil janrlar kimi nəzərdən keçirilir. Xarakteristikasını verdiyimiz folklor örnəkləri nəzəri baxımdan janrlararası nümunələrdir, bir qismi isə janrdaxili dəyişmələr sayılır.

Açar sözlər: Aşıq yaradıcılığı, epik janrlar, epik janrların koordinativ xüsusiyyətləri

MOTİV.

Azərbaycan aşıq yaraıcılığının öyrənilməsi bu sənətlə bağlı bir sıra mühüm problemlərə aydınlıq gətirir. Aşıq sənətinin janr imkanlarının əhatə dairəsi ümumilikdə folklorun ilkin mənbələrindən baş alaraq, həm nəzm hissəsinə, həm də yurd yeri olan nəsr hissəsinə görə mükəmməl və bitkin dastan nümunələrinə qədər yüksəlir. Dastan janrının araşdırıcıları Əmin Abid, Həmid Araslı, Məmmədhüseyn Təhmasib, Paşa Əfəndiyev, İsrafil Abbaslı, Əsgər Qədimov, Yusif Səfərov, Mahmud Allahmanlı, Məhərrəm Qasımlı və başqaları bu nümunələri üç qrupa bölmüşlər. Qəhrəmanlıq, məhəbbət və ailə-əxlaq dastanları bölgüsü dastanların təsnifatı üçün əsas götürülür. Mifoloji və tarixi əhəmiyyətli dastanlar bu bölgü çərçivəsində öyrənilir. Yaradıcılıq keyfiyyəti ilə fərqlənən ustad aşıq həm də dastançı adlanır. Təkcə ustad aşıqlar deyil, ifaçı aşıqlar da dastan janrını nəsillərdən nəsillərə ötürürlər. Aşıq yaradıcılığının inkişaf tarixini öyrənənlər daha çox bu sənətin özülündə dayanan epik janrlara diqqət çəkmişlər. Şübhəsiz, aşıq meydana sazı ilə çıxır və dinləyiciləri ondan daha çox mahnılar ifa etməyi gözləyirlər. Lakin aşığın söylədiyi epik nümunlər xalqın nəinki bədii təxəyyülünün, hətta milli təfəkküründün formalaşmasında və inkişafında mühüm rol oynayır. Bu epik nümunələr xalqın təşəkkül tarixini əks etdirir.

Tarixin müxtəlif mərhələlərində qam, şaman, baxşı, hətta baxıcı adlanan ozan sənətinin daşıyıcıları həm də xalqın tarixini sözlə yaşadan sənətkarlar olmuşlar. Aşıq sənətinin arealı da genişdir, bu sənət Azərbaycan, Anadolu, Orta Doğu və digər bölgələri əhatə edir. Aşığın yaratdığı ən mükəmməl əsər dastan adlansa da, bu sənətkarın müxtəlif məclislərdə söylədiyi epik nümunələr hekayə (hekayət), nağıl, qissə, sərgüzəşt, əhvalat, olmuş əhvalat, oğuznamə, boy, tərifnamə, xalq romanı, xalq kitabı və başqa adlarla tanınır **(Abbaslı İsrafil 2007: 19)**. Türk xalqlarının dastanlarını və onların mənşəyini, əlaqəsini xarakterizə edən İ.Abbaslı əlyazma mənbələrində, cünglərdə qorunub saxlanılan aşıq yaradıcılığı nümunələri sırasında tarixi nəğmələrin, nağıl və lətifələrin, əfsanə və rəvayətlərin, inam və etiqadlar, həmçinin xalq təbabəti haqqında materialların üstünlük təşkil etdiyini yazır **(Abbaslı 2007: 33)**. Dastanların tərkibində başqa janrlara – atalar sözü və məsəllərə, lətifələrə, miflərə də müraciət olunur ki, bunlar bir janrın daxilində verilən müxtəlif janrlardan ibarətdir və funksiyası dastanı təkmil, mükəmməl bir hala gətirməkdir. M.H.Təhmasib "Azərbaycan xalq dastanları (Orta əsrlər)" kitabında yazır ki, Dədə Qorqudun adından söylənilən aforizmlər, hakimanə sözlər ayrı-ayrı boylardan qabaq ozanlar tərəfindən deyilmiş ustadnamələrdir **(Təhmasib 1972: 10).** M.H.Təhmasib aşıq sənətinin çoxsahəli bir fəaliyyət sahəsi olmasına da diqqət çəkir: "O, həm şair, həm bəstəkar, həm müğənni, həm çalan, həm oynayan, həm aktyor, həm dastançı, həm aparıcı, həm də rejissordur" **(Təhmasib 1972: 45).**

Ozan-aşıq sənətinin tarixindən söhbət açan Qara Namazov yazır ki, qədim və orta əsrlər söz sənətinin epik növü nağıl, hekayət, əhvalat, əfsanə, rəvayət, qissə, mənqəbə, vaqiə, sərgüzəşt, dastan, boy, qol, səfər, səfərnamə, oğuznamə və başqa adlar daşımışdır **(Namazov 2013: 193)**. Göründüyü kimi, aşıq yaradıcılığının epik janrları rəngarəngliyi ilə fərqlənir və bu janrların hər biri digərləri ilə əlaqəli şəkildə inkişaf etmişdir.

ARAŞDIRMA.

Əlaqə (koordinasiya) janrların daha təkmil bir variant almasına şərait yaradır. Dastanı qoşma və gəraylısız təsəvvür etmədiyimiz kimi, onu daxilindəki kiçik janrlarsız da mükəmməl nümunə saymaq olmur. Bu koordinasiya əslində ayrı-ayrı janrları təkmilləşdirmiş və həmin ayrı-ayrı janrlar da aşıq yaradıcılığının epik nümunələrini formalaşdırmışdır. Aşıq yaradıcılığının koordinasiya olunan epik janrlarını belə sıralamaq mümkündür:

Dastanlar (oğuznamələr, boylar və qollar) "etnik yaşam biçiminin, bahadırlıq, cəngavərlik duyğusunun yaşaması missiyasına" xidmət edən, epik ənənələri yaşadan, poetik düşüncəyə, mənəvi-mədəni dünyagörüşə söykənən bir janrdır. Bir qayda olaraq, dastan qəhrəmanlıq, bahadırlıq hekayələrinə deyilir. Bilavasitə dastan adlanan nümunələr isə qəhrəmanlıq və məhəbbət mövzusunda olan epik mətnlərdir. "Koroğlu" dastanı, "Qaçaq Kərəmin dastanı" və başqa mətnlər dastan məfhumunu başlıq kimi qabardır **(Ozan-aşıq ensiklopediyası, I 2019: 228)**. Dastan mətnləri içərisində xalqın tarixi keçmişini, idarəetmə və dövlətçilik ənənələrini qabardan nümunələr epos sayılır. Əslində, epos mükəmməl qəhrəmanlıq dastanıdır. Qaçaq dastanları da qəhrəmanlıq dastanları sayılır, lakin bu nümunələr tarixin müəyyən mərhələsində azadlıq mübarizəsini, mövcud rejimlərə qarşı hərəkatları əks etdirdiyindən epos səviyyəsinə yüksələ bilmir. Türk xalqlarında oğuznamə dastanın klassik adı sayılır. "Kitabi-Dədə Qorqud" dastanında boy müstəqil və bitkin mətn olmaqla bərabər, eposun tərkib hissələrini təşkil edir. "Koroğlu" dastanında oxşar variantı qol anlayışı ifadə edir. Boy həm də "Oğuz tayfasına mənsub iyirmi dörd qəbilənin uruq-qövm göstəricisidir **(Ozan-aşıq ensiklopediyası, I 2019: 181)**. Qol, boy, məclis anlayışları daha çox epos səciyyəli qəhrəmanlıq dastanlarında işlədilir. Əgər məclis "Canqar" dastanında müxtəlif hadisələri, qəhrəmanların səfərlərini ifadə edirsə, qol "Koroğlu" dastanında "spesifikası, mahiyyəti, təfsilatı ilə bütöv bir mətn" anlamına gəlir **(Ozan-aşıq ensiklopediyası, II 2019: 53)**.

Nağıllar (qara nağıllar, mənzum parçaları olmayan mətnlər) daha çox məhəbbət və ailə-əxlaq dastanlarına verilən addır. Qara nağıl mənzum parçaları olmayan mətnlərdir. Bir varianta görə, ilkin mərhələdə dastanların özülündə nağıllar dayanmışdır. Dastanın təhkiyə hissəsi isə "yurd" adlanır

(Ozan-aşıq ensiklopediyası, I 2019: 228). Bu ifadənin özü dastanın əsasında təhkiyə mətnlərinin – nağılların dayandığını söyləməyə əsas verir.

Tərcümeyi-hal dastanları ifadəsinə filologiya elmləri doktoru, professor Əsgər Qədimovun "XVII-XX əsrlər və çağdaş Naxçıvan aşıqları" ikicildliyində rast gəlirik. Professor Naxçıvan aşıq mühitini dövrlər üzrə araşdırır, yaradıcı qadın aşıqlara diqqət çəkir. İkicildliyi maraqlı edən cəhət orta yüzilliklərdən tutmuş çağdaş dövrədək Naxçıvan aşıqlarının yaradıcılıq imkanlarının öyrənilməsidir. Əsgər Qədimov Naxçıvan aşıqlarının digər regionların (əsasən Göyçə və Şəmkir bölgələrinin) aşıq və şairləri ilə yaradıcılıq əlaqələrinə önəm verir, Güney Azərbaycan və Türkiyə aşıqları ilə bağlantıları tədqiq edir. Orta yüzilliklərdən başlayaraq bu günümüzə qədər Naxçıvan aşıq mühitinin nümayəndələri Azərbaycanın Gəncə, Tovuz-Qazax, Şirvan, Güney Azərbaycan, Qərbi Azərbaycan və Türkiyə aşıqları ilə yaradıcılıq əlaqələrində olmuş, "aşıq məclislərində, toy-düyünlərdə görüşüb deyişmişlər". Əsgər Qədimov nəticə olaraq qeyd edir ki, "adı çəkilən mühitlərdə aşıq poeziyasının əksər janrları və dastan yaradıcılığı geniş vüsət almış, ümumi dastan yaradıcılığı ilə yanaşı, yeni üslubda yazılmış tərcümeyi-hal dastanları da yaradılmışdır" **(Qədimov, I 2017: 400).** Bu tədqiqat işində diqqət çəkən məqam dastanların janr təsnifatında yer almayan "tərcümeyi-hal dastanları" ilə bağlı fikirlərdir. Bəs tərcümeyi-hal dastanları sırasına hansı nümunələri daxil etmək mümkündür? Adətən, dastan-rəvayətlər başagəldilərdən ibarət olur. Bundan başqa, tərcümeyi-hal dastanları bölgüsünü də yaratmaq mümkündür. Buraya daxildir:

-Dastan-rəvayətlər;
-Aşıqların şəxsi həyatından bəhs edən dastanlar;
-Tarixi şəxsiyyətlərin həyatından bəhs edən dastanlar
-Səfər(namə)lər.

Bu qruplaşmaya aid olan nümunələr həm uzaq keçmişdə, həm də XX yüzilliyin əvvəllərində yaradılmışdır. Əsgər Qədimovun araşdırmasında orta yüzilliklərin nümayəndəsi Ordubadlı Aşıq Kərimin qoşmaları əsasında yaradılmış "Kərim-Süsən" və "Ordubadlı Kərimin nağılı" dastanları təhlil olunur. Maraqlıdır ki, dastanın ikinci baş qəhrəmanı Süsən də aşıqdır və qırx aşıqla deyişir. Əsgər Qədimovun təqdim etdiyi digər Naxçıvan aşığı Ululu Kərim haqqında isə mənzum parçaları olan rəvayətlər mövcuddur. Belə rəvayətlərin bir qismi dastan-rəvayət səviyyəsinə yüksəlir. Əslində, aşığın şəxsi həyatından, məhəbbət macəralarından bəhs edən belə nümunələr tərcümeyi-hal dastanlarıdır **(Qədimov, I 2017: 6-15).**

Tərcümeyi-hal dastanlarının ən bariz nümunələri aşıqların ayrı-ayrı bölgələrə **səfərləri** ilə bağlıdır. Məsələn, "Aşıq Ələsgərin Naxçıvan səfəri", "Şəmkirli Aşıq Hüseynin Naxçıvan səfəri" ustad aşıqların tərcümeyi-halının poetikləşdirilmiş nümunələridir. Sərraf Qasımın və Aşıq Cəbrayılın Güney Azərbaycan, Türkiyə aşıqları ilə əlaqələrindən bəhs edən nümunələr də tərcümeyi-hal dastanları sayıla bilər. Məsələn, Aşıq Sərraf belə səfərlərindən birinə həsr olunmuş, hətta ustadnamələrlə təchiz edilmiş epik nümunəni "Gəncə" dastanı adlandırır **(Qədimov, II 2017: 323-442).**

Nəticə olaraq qeyd etmək mümkündür ki, aşıq ədəbiyyatında "tərcümeyi-hal dastanları" anlayışı iki mənada işlənir:

1)Aşığın öz həyatından (səfərlərindən, aşıqlarla və el şairləri ilə deyişmələrindən, məhəbbət macəralarından) bəhs edən dastanlar;
2)Aşığın qəhrəman kimi seçdiyi tarixi şəxsiyyətlərin həyatından, mübarizəsindən bəhs edən dastanlar.

Tərcümeyi-hal dastanları Azərbaycan dastanlarının təsnifatına daxil olmayan, lakin məzmununa və təyinatına görə fərqlənən nümunələrdir. Qeyd etmək yerinə düşər ki, mifoloji dastanlar da Azərbaycan dastanlarının təsnifatında yer tutmur, lakin onların öyrənilməsi dastan janrının tarixi bağlarını araşdırmağa imkan verir. Səfərlər (səfərnamələr) kimi **deyişmələr** üzərində qurulan mətnlərin də yurd yeri təhkiyə şəklində olur. Deyişmələrlə bağlı mətnlər səfərlərin tərkib hissəsidir.

Görüşlər də tərcümeyi-hal xarakterli təhkiyə mətnləridir, lakin bu görüşlərdə daha çox **tərifnamələrə, tərənnümlərə, ustad-şagird ənənəsi üzərində qurulan mətnlərə** üstünlük verilir.
Aşıq rəvayətləri, həmçinin hədisvari söyləmələr, qissələr, mənqəbələr, vaqiələr və digər dini rəvayətlər "müxtəlif tarixi dönəmlərdə aşıqlar haqqında yaradılan və dastanlaşma prosesinə xidmət edən yığcam həcmli epik mətnlər" sayılır **(Ozan-aşıq ensiklopediyası, I 2019: 110)**. Aşıq rəvayətini digər rəvayətlərdən fərqləndirən cəhət onun aşıq şeirləri ilə müşayiət olunmasıdır. Aşıq rəvayətləri bölgüsünə informativ-bioqrafik rəvayətlər, yurd-rəvayətlər, lətifə-rəvayətlər və dastan rəvayətlər daxildir **(Ozan-aşıq ensiklopediyası, I 2019: 110)**0.
Başagəldilər (sərgüzəştlər, əhvalatlar, olmuş əhvalatlar) janr baxımından maraq doğurur. Bu mətnlərdə aşıqların başına gələn sərgüzəştlərdən və əhvalatlardan söhbət açılır. Başagəldilər daha çox aşıqların səfərləri və görüşləri zamanı meydana çıxan olayları əhatə edir. Aşıq Ələsgərin başına gələn, yaxud onun rastlaşdığı hadisələr başagəldi sayılır. Bütün başagəldilər nəzm parçaları ilə müşayiət olyunmur.
Söyləmələr şəxsin, yaxud aşığın özünün qoşub-düzdüyü mətnlərdir. Folklorşünaslıqda belə mətnlər hekayətin bir növü sayılır. **Hekayətlər (hekayələr, əfsanələr, mifoloji mətnlər)** həm dastan janrının özülündə dayanır, həm də dastanın janrdaxili dəyişmələri kimi çıxış edir. Məsələn, Anadoluda məhəbbət mövzusunda olan dastanlar "xalq hekayəsi" adlanır **(Ozan-aşıq ensiklopediyası, I 2019: 228)**. "Aşıq, bir hekayət söylə" ifaəsi də bu qaynaqdan qidalanır.
İnam və etiqadlar, həmçinin xalq təbabəti haqqında mətnlər, **atalar sözü və məsəllər (aforizmlər, hakimanə sözlər)** mətndaxili janrlar sayılır. Tarixin müxtəlif mərhələlərində müxtəlif adlarla tanınan aşıqlar elə müxtəlif fünksiyaları yerinə yetirmişlər. Həmid Araslı aşığın çaxsahəli fəaliyyəti haqqında yazır: *"Qədim dövrlərdə ozan adlanan, bəlkə də daha əvvəllər başqa adlarla çağırılan bu xalq sənətkarları təkcə tarixi vaqiələri oxumaq, qəbilə və tayfaların tarixini və həyatlarında baş verən gündəlik hadisələri söyləməklə kifayətlənmir, onlar tayfanın bir bilicisi, hətta təbib və xeyirxah məsləhətçisi kimi sevilirdilər"* **(Araslı 1960: 17)**.

NƏTİCƏ

Qeyd etmək vacibdir ki, sadalanan koordinativ janrlar aşıq yaradıcılığında epik nümunələrin tərkib hissəsi kimi çıxış etsə də, folklorşünaslıqda müstəqil janrlar kimi nəzərdən keçirilir. Xarakteristikasını verdiyimiz folklor örnəkləri nəzəri baxımdan janrlararası nümunələrdir, bir qismi isə janrdaxili dəyişmələr sayılır.

QAYNAQLAR:

1.Abbaslı İsrafil 2007 - Abbaslı İ. Azərbaycan dastanlarının yayılması və təsir dairəsi. -Bakı, Nurlan, 2007, -272 s.
2.Araslı 1960 - Araslı H. Azərbaycan aşıq yaradıcılığı. -Bakı, Birləşmiş nəşriyyat, 1960, -140 s.
3.Qədimov, I 2017 - Qədimov Ə. XVII-XX əsrlər və çağdaş Naxçıvan aşıqları İki cilddə, birinci cild. –Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2017, -408 s.
4.Qədimov, II 2017 - Qədimov Ə. XVII-XX əsrlər və çağdaş Naxçıvan aşıqları İki cilddə, ikinci cild. –Naxçıvan, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2017, -464 s.
5.Namazov 2013 - Namazov Q. Ozan-aşıq sənətinin tarixi. -Bakı, Elm və təhsil, 2013, -480 s.
6.Təhmasib 1972 - Təhmasib M.H. Azərbaycan xalq dastanları (Orta əsrlər). -Bakı, Elm, 1972, -400 s.
7.Ozan-aşıq ensiklopediyası, I 2019 - Ozan-aşıq ensiklopediyası. İki cilddə, birinci cild. –Bakı, Aşıqlar Birliyi, 2019, -500 s.
8.Ozan-aşıq ensiklopediyası, II 2019 - Ozan-aşıq ensiklopediyası. İki cilddə, ikinci cild. –Bakı, Aşıqlar Birliyi, 2019, -500 s.

ANALYSIS OF THE CHARACTERS OF ALEXANDER AND OGHUZ KHAN IN NIZAMI GANJAVI'S "ISKANDARNAMA" IN THE CONTEXT OF HISTORICAL AND MYTHICAL VALUES

PhD in Philology Ulkar Bakhshiyeva
Senior teacher at the Department of Literature Teaching Technology, Faculty of Philology,
Azerbaijan State Pedagogical University
ORCID İD 0000-0002-5994-2356

Abstract
Based on observations and comparisons of the "Iskandarnama" masnavi and the "Oghuzname" epic, it can be said that Nizami draws on the Oghuz Khan tradition in his masnavi due to the poetic structural similarity and closeness between the characters of Alexander and Oghuz Khan. The character of Oghuz Khan served as an ideal source for the creation of the character of Alexander. This is because, just as Alexander is a hero who conquers the world, the "Oghuzname" epic, in all its variants, describes how Oghuz also conquered the world. In this regard, the conquests of Alexander and Oghuz Khan almost mirror each other. Nizami aimed to present the well-known Alexander character from Eastern written and oral traditions in a new way, creating an original image that had never been created before by anyone.
The "Oghuzname" was an invaluable source for Nizami in terms of its artistic-aesthetic essence, informative content, and poetic-heroic style. This source was primarily notable for its epic grandeur, magnificence, and enormity. In the period when Nizami lived, there were no people in the Islamic East who did not recognize Oghuz Khan. This was because, at that time, the Oghuz Turks were the dominant political force in the Muslim East, and the "Oghuzname" reflected the ideological tradition of that force. The entire statehood tradition of the Oghuz Turks was widely reflected in the various versions of this epic. Alexander and Oghuz Khan also shared many similar characteristics. Both of them were involved in cultural construction in the countries they conquered, and as rulers and conquerors, they had similar traits.
Keywords: Nizami, Alexander, Oghuz Khan, ruler, conqueror

Xülasə
“İskəndarnamə” məsənəvisi və “Oğuznamə” eposu üzərindəki müşahidə və müqayisələrə əsasən deyə bilərik ki, Nizaminin öz məsnəvisində Oğuz xan ənənəsinə əsaslanmasının səbəbi İskəndər və Oğuz xan obrazlarının poetik struktur baxımından bir-birinə bənzəməsi, yaxınlığıdır. Oğuz xan obrazı İskəndər obrazının yaradılmasından ötrü ideal qaynaq idi. Çünki İskəndər dünyanı fəth edən qəhrəman olduğu kimi, Oğuz haqqında olan “Oğuznamə” dastanının bütün variantlarında onun dünyanı necə fəth etməsindən bəhs olunur. Bu cəhətdən, İskəndərlə Oğuz xanın fütuhatları, az qala, biri-birini təkrarlayır. Nizami Şərq yazılı və şifahi ənənəsində məşhur olan İskəndər obrazını yeni şəkildə işləməli, ona qədər heç kəs tərəfindən yaradılmamış orijinal bir obraz yaratmağı qarşısına məqsəd qoymuşdur.
“Oğuznamə” Nizami üçün özünün bədii-estetik mahiyyəti, informativ yükü və poetik-qəhrəmanlıq üslubu baxımından əvəzsiz bir mənbə idi. Bu qaynaq ilk növbədə özünün epik əzəməti, möhtəşəmliyi, nəhəngliyi ilə əlamətdar idi. Nizaminin yaşadığı dövrdə İslam Şərqində Oğuz xanı tanımayan heç bir xalq yox idi. Çünki həmin dövrdə oğuz türkləri müsəlman Şərqində hakim siyasi qüvvə idilər və “Oğuznamə” də həmin qüvvənin ideoloji ənənəsini əks etdirirdi. Oğuz türklərinin bütün dövlətçilik ənənəsi bu dastanın variantlarında geniş şəkildə əks olunmuşdur. İskəndərin və Oğuz xanın bunlarla

yanaşı bir çox oxşar xarakterləri vardır. Onların hər ikisi işğal etdikləri ölkələrdə mədəni quruculuq işləri ilə məşğul olmuş, hökmdar və fateh kimi də oxşar xüsusiyyətlərə malik olmuşlar.
Açar sözlər: Nizami, İskəndər, Oğuz xan, hökmdar, fateh

Краткое содержание

На основе наблюдений и сравнений между маснави «Искендернаме» и эпосом «Огузнаме» можно сказать, что причиной, по которой Низами взял за основу своего маснави традицию Огуз-хана, является схожесть и близость образов Александра и Огуз-хана по поэтической структуре. Образ Огуз-хана послужил идеальным источником для создания образа Александра. Потому что так же, как Александр был героем, завоевавшим мир, все версии эпоса «Огузнаме» об Огузе повествуют о том, как он завоевал мир. В этом отношении завоевания Александра и Огуз-хана почти повторяют друг друга. Низами поставил перед собой цель по-новому переработать известный в восточной письменной и устной традиции образ Александра, создать оригинальный образ, никем ранее не созданный.
«Огузнаме» было для Низами бесценным источником по своей художественно-эстетической сути, познавательному содержанию и поэтико-героическому стилю. Этот источник был прежде всего примечателен своим эпическим величием, великолепием и грандиозностью. Во времена Низами не было ни одного народа на исламском Востоке, который не признавал бы Огуз-хана. Потому что в то время тюрки-огузы были доминирующей политической силой на мусульманском Востоке, и «Огузнаме» отражало идеологическую традицию этой силы. Вся государственность тюрков-огузов нашла широкое отражение в вариантах этого эпоса. Кроме того, у Александра и Огуз-хана есть много схожих характеров. Оба они занимались культурным строительством в оккупированных ими странах и имели схожие характеристики как правители и завоеватели.
Ключевые слова: Низами, Александр, Огуз-хан, правитель, завоеватель

INTRODUCTION

Nizami Ganjavi is one of the prominent representatives of Azerbaijani literature. The magnificent literary monument he created, the "Khamsa", has maintained its relevance both in his own time and for many centuries afterward, continuously serving as a subject of research for numerous scholars worldwide. The "Iskandarnama" masnavi is extremely rich in terms of its use of folklore materials, particularly Turkish folklore traditions. This work contains an innumerable number of elements related to folklore (plots, motifs, characters, ideas, etc.). Nizami's strong reference to folklore materials in his "Iskandarnama" was, as in his previous works, intended to avoid repeating earlier traditions and to create an entirely new work. Ferdowsi, in his "Shahnameh", introduced Alexander into the written literary tradition by discussing him, albeit negatively. Before Nizami, the character of Alexander was already widely known among various peoples, especially Eastern nations. There are countless texts about him in both written and oral sources.

It should be noted that although the use of folklore tradition in the "Iskandarnama" is very strong, folklore is not the only source for this masnavi. Z.Allahverdiyeva indicates that while writing the "Iskandarnama", Nizami Ganjavi relied heavily on historical and religious sources from both Europe and the East, as well as various folkloric versions widely spread in Azerbaijan, and the "Shahnameh" by Ferdowsi, which played an important role as a source [1, p. 350]. In this regard, according to the author, "one of the main sources for the poet was undoubtedly the legends, tales, and epics about Alexander" [1, p. 349].

In the "Iskandarnama", the ancient Turkish epic tradition is heavily influenced by the "Oghuzname", which is one of the greatest monuments of Turkish epic literature. This can be systematically observed

in the entire poetic structure of the "Sharafname", including its plot construction, the world of characters, and so on. Comparisons show that Nizami demonstrated such a deep and broad interest in the "Oghuzname" epic in this work that it appears as if the poet directly embodied Oghuz Khan under the name of Alexander in the "Sharafname".

When considering the reasons behind Nizami's deep interest in the "Oghuzname" epic, we can see that it reflects a profound connection. The essence of the matter ultimately ties back to Ferdowsi's "Shahnameh". In response to Ferdowsi, who brought the history of the Persian kings to the literary stage, Nizami, in his "Iskandarnama", depicted the political and historical glory of the Oghuz Turks. The similarity between the characters of Alexander and Oghuz Khan clearly demonstrates this. However, this is, in our opinion, the visible side of the matter. There are unseen aspects here—issues that require clarification and explanation.

Ferdowsi's "Shahnameh" extensively depicts the wars between Iran and Turan. Khalig Koroghlu writes that "a large part of the Shahnameh is dedicated to the relationship between Turan and Iran. What is particularly interesting in the poem is the chronicle of the Turkish empire, which was known as the Khaganate during the 7th-8th centuries" [8, p. 88].

In the "Shahnameh", the ruler and commander of Turan, Afrasiyab, is extensively discussed. However, when creating the character of Alexander, Nizami chose not to follow the epic tradition of Afrasiyab but instead focused on the tradition surrounding Oghuz Khan. It is worth recalling that in his work "Khosrow and Shirin", while illustrating the national identity of Mahin Banu and Shirin, Nizami portrays Afrasiyab as a mythical symbol of the Turks: "If he is the moon, we are the sun, // He is Keykhosrow, and we are Afrasiyab" [5, p. 119]. It is clear from this that Keykhosrow symbolizes the Persian national identity, while Afrasiyab represents the Turkish national identity of Mahin Banu and Shirin. Despite all this, in his final work, Nizami relied on the image of Oghuz Khan, one of the main symbols of Turkish epic-national memory, rather than the character of Afrasiyab.

The name Afrasiyab, according to tradition, is equated with the name Alp Er Tonqa. "Mahmud Kashgari refers to the legendary ruler of Turan as Tonqa Alp Er" [4, p. 25]. X. Koroğlu points out that in the 10th-12th centuries, legends circulated in Central Asia and Khorasan that linked the name Afrasiyab with Turkish heroism traditions. The 11th-century ancient Turkish philologist Mahmud Kashgari and his contemporary Yusuf Khass Hajib Balasaghuni, independently of one another, included sections about the ancient Turkish hero Alp Er Tonqa under the name Afrasiyab in their works [14, p. 106].

Thus, the name Afrasiyab is accepted as the Iranian-Persian version of the ancient Turkish hero Alp Er Tonqa. It should be noted that Afrasiyab is also considered a character in both Iranian and Turkish mythological-epic traditions. In the first volume of the "Mythology of the World's Peoples", an essay based on the research of Khalig Koroghlu discusses two traditions related to him:

1) Afrasiyab – In Iranian mythology, he is the leader of the Turanians, the bitter enemies of Zoroastrianism, and a ruler who waged continuous wars against the Iranians.

2) Afrasiyab – In the mythology of the Turks, Azerbaijanis, Uzbeks, and Turkmens, Afrasiyab is a character of Iranian origin, the first ancestor of Turkic-speaking peoples, the king and hero of the Turks, and the leader of Turkish tribes who launched invading campaigns against neighboring peoples. The Karakhanids and Seljuks trace their origins back to Afrasiyab [15, p. 129].

In the context of all that has been said, a valid and relevant question arises as to why Nizami, in his "Iskandarnama", drew from the tradition surrounding Oghuz Khan rather than the tradition concerning Afrasiyab. While he refers to Afrasiyab by name in his "Khamsa", he never explicitly mentions the name of Oghuz Khan. What could be the reason for this?

Based on our observations and comparisons of the "Iskandarnama" masnavi and the "Oghuzname" epic, we can say that Nizami's decision to base his masnavi on the tradition of Oghuz Khan rather than that of Afrasiyab is due to the poetic structural similarities and proximity between the characters of Alexander and Oghuz Khan. Although Afrasiyab, the legendary ruler of Turan, is a great hero, his

heroic type does not align with Iskander, who is recognized as a conqueror in both oral and written traditions. In this regard, the character of Oghuz Khan served as the ideal source for the creation of Alexander's character. Just as Alexander is portrayed as a hero who conquers the world, the various versions of the "Oghuzname" epic all describe how Oghuz conquers the world. Therefore, the conquests of Alexander and Oghuz Khan nearly mirror each other.

This issue we have mentioned is both important and the apparent (visible) aspect. Nizami had to rework the widely known image of Alexander in Eastern written and oral traditions, creating an original character that had never been created before. To do this, he relied on the "Turkish face" ("torki sifəti") poetics, just as he had used in the creation of previous heroic characters. In Turkish epic poetics, the ideal conqueror hero who closely resembled Iskander was Oghuz Khan. However, as we point out again, this is the visible side of the issue. There are also unseen reasons for Nizami's choice to take Oghuz Khan as Alexander's "hidden prototype."

The hero of the poet's final masnavi, Iskander, possesses a magnificent poetic structure: he is a just and ideal ruler, an invincible commander, a prophet who brings social and spiritual harmony to the world, and establishes ideal political, social, and cultural-ideological order (cosmos) in the countries he conquers. When comparing the characters of Afrasiyab and Oghuz Khan in this context, we see that Oghuz Khan aligns more closely with these attributes. Just as Alexander creates an ideal order wherever he goes, Oghuz Khan, as the messenger of God, establishes divine order in the countries he conquers. Nizami has shaped the poetic structure of Alexander’s character from an aesthetic unity of functions such as a creator, builder, organizer, harmonizer, and bringer of prosperity. These qualities are also present in Oghuz Khan, the sole hero of the "Oghuzname", whose many versions share these traits.

In our view, one of the reasons Nizami referred to the "Oghuzname" epic in his "Iskandarnama" and throughout his "Khamsa" is his desire to reflect the history of Turkish political identity within the "Khamsa". This issue is again related to Firdovsi's "Shahnameh". In other words, just as Firdovsi introduced the historical tradition of the Iranian kings under the name of "Shahnameh" into the history of Eastern written literature, Nizami presented the history of the Oghuz Khans through "Oghuzname". However, Nizami did this not in Firdovsi's style, but in his unique way.

Firdovsi, as a poet, chronicled the history of the Iranian kings. In this respect, his poetic style can be typologically described as "official" or "narrative." Nizami, however, as a philosopher-poet, did not follow the path of superficial nationalism in his approach to history. On the contrary, he blended two major epic traditions of the East—the "Iskandarnama" and "Oghuzname"—thereby laying the foundation for a completely new romantic-esthetic style in the history of Eastern literature.

For Nizami, "Oghuzname" was an invaluable source in terms of its artistic-aesthetic essence, informational significance, and poetic-heroic style. This source stood out primarily for its epic grandeur, magnificence, and scale. During Nizami’s time, there were no people in the Islamic East who were unfamiliar with Oghuz Khan. This was because, during that period, the Oghuz Turks were the dominant political force in the Muslim East, and "Oghuzname" reflected the ideological tradition of that power. The entire statehood tradition of the Oghuz Turks was widely represented in the variants of this epic. Before accepting Islam, the Oghuz considered this epic a reflection of their sacred values. Even after their conversion to Islam, they remained loyal to their epic, preserving it until the 17th-18th centuries.

Let us recall the request made by the elders of the Turkmen in the 17th century to Abulgazi Bahadur Khan to write a new "Oghuzname". What concerned the elders was that there were numerous versions of Oghuzname circulating within the community, and many inaccuracies had emerged regarding the history of their ancestor, Oghuz Khan, who was the first ancestor and ruler of the Turkmen. This suggests that the Oghuz Turks, not only during Nizami's time but also for several centuries before, were living with the memories of Oghuz Khan. In the period when Nizami lived, the Oghuz Turks were once again politically prominent in the Islamic East. "Oghuzname", therefore, served as the

national-ideological foundation and platform for the Turkish political power. Even though the Oghuz Turks had accepted Islam, they remained unbreakably linked to their identity, starting from Oghuz Khan.

Nizami, being an Oghuz Turk in every ethnic and national sense, was known both as a person and as a poet within the broader Oghuz folk tradition. Living in an era when nationalism and sectarian ideologies were widely spread, Nizami delved deeply into the Oghuz epic traditions, which were the source of his national-ethnic identity, to resist these anti-national ideologies. The extensive presence of "Oghuzname" motifs in "Iskandarnama" clearly demonstrates this.

Nizami Ganjavi viewed the Oghuzname epics as a magnificent source of Oghuz-Turkish national identity. During his time, various versions of the Oghuzname epic were widely circulated. The rulers, leaders, and authorities of the period had their genealogies (the Oghuznames) written, tracing their lineage back to Oghuz Khan to strengthen (legitimize) their political power.

Fuzuli Bayat notes that Oghuzname epics can be divided into two groups: historical-chronological Oghuznames and literary Oghuznames [2, p. 255]. They reflect all the important aspects of Oghuz-Turkish national identity and history. V.M. Jirmunski, based on these reasons, evaluated the Oghuzname epic as a written and oral-poetic monument of the legendary history of the Turkish people [13, p. 522]. Bahaeddin Ogel demonstrated that the Turkish nation and state system, as well as Nizami's governance, were reflected through this epic [12, p. 1]. Khalik Koroghlu noted that the Oghuzname preserved the heroic past, early encounters, traditions, and beliefs of the Oghuz people [8, p. 36-37]. Tofik Hajiyev described the Oghuzname as the source of the heroic spirit of the ethnic group [6, p. 10]. Kamil Veli Narimanoghlu and Fakhri Ughurlu regarded it as the history book of the Oghuz people [11, p. 3]. In another study, K.V. Narimanoghlu characterized the Oghuzname as a literary-historical source of the Turkish ethnicity [10, p. 78]. Nizami Jafarov referred to the Oghuzname as an event in Turkish epic thought, calling it Turkname [3, p. 255]. Ramazan Gafarli emphasized that this epic encompasses all examples of the oral and written epic traditions of the Oghuz groups of the Turks [9, p. 577]. Afzaladdin Asger characterized the Oghuzname as a literary heritage of the Oghuz ethnic group, as well as a source of Turkish epics and the oral tradition of Oghuz literature. Aghaverdi Khalil highlighted the two types of Oghuzname (genre and book) and demonstrated that it passed through three stages of writing (bitik, name, kitab) [7, p. 269].

Thus, it becomes clear that for Nizami, who sought to embody the "torki sifəti" (Turkish identity) poetics in the artistic and aesthetic structure of his works, the greatest, vast, and inexhaustible source was the Oghuzname. The presence of this epic throughout the various layers of the artistic world of his Khamsa shows that Nizami utilized it extensively. The spirit of the Oghuzname is distinctly present in the final masnavi of the poet. In the poetic structure of the character of Alexander, which is the pinnacle of Nizami's artistic, aesthetic, and philosophical-poetic views, the key poetic traits of Oghuz Khan are reflected. Alexander's character, shaped by three main ideological lines—being an undefeated conqueror ("sword-bearer"), an ideal ruler ("crowned one"), and a philosopher-prophet—was created by Nizami through the use of Oghuz Khan's poetic traits to impart the "Turkish identity" to Alexander. Oghuz Khan is depicted in the ancient Oghuz epic-mythological tradition as a conqueror, an ideal ruler, and a divine messenger who brings order to the world.

REFERENCES

1. Allahverdiyeva, Z. "Nizami Ganjavi" Iskandarnama "Poem" Essay / Nizami Ganjavi: life and work. Scientific passport of the artist - 25 (collective). - Baku: Science, - 2021, p. 340-370
2. Bayat, F. Oguzname (s) / Dada Gorgud book. Encyclopedic Dictionary. - Baku: Leader Publishing, - 2004, - p. 255-274
3. Introduction to Jafarov, N. Azerbaijan studies / N.Jafarov. - Baku: Azatam, - 2002, - 600 p.
4. Dada Gorgud book. Encyclopedic Dictionary. - Baku: Leader Publishing, - 2004, - 368 p.

5. Ganjavi, N. Khosrov and Shirn. Translator Rasul Rza / N. Ganjavi. - Baku: Writer, - 1982, - 401 p.
6. Hajiyev, T. Dada Gorgud: Our language and thought / T.Hajiyev. - Baku: Science, - 1999, - 216 p.
7. Khalil, A. Semiotic structure of "Dada Gorgud book" / Literary Heritage of Turkish Peoples: Turkish Epics. An international symposium. - Baku: Gafgaz University publishing house, - 2004, - p. 268-270
8. Koroghlu, Kh. Oghuz Heroist Epos / Kh.Koroghlu. - Baku: Yurd, - 1999, 243 p.
9. Gafarli, R. Myth, Legend, Tale, and Epic (Intergenre Connections in Oral Epic Tradition) / R. Gafarli. – Baku: ASPU Publishing, – 2002, – 758 pages.
10. Narimanoghlu, K.V. Epic, “Kitabi-Dede Gorgud” / Dede Gorgud Book. Encyclopedic Dictionary. – Baku: Onder Publishing, – 2004, – pp. 77-81.
11. Oghuznameler / Compilers and Preface Authors: K. Veliyev, F. Ughurlu. – Baku: Baku University Publishing – 1993, – 92 pages.
12. Ogel, B. Turkish Mythology [in 2 volumes] / – Ankara: Turkish History Institution Press, – 1995, – Volume II, – 610 pages.
13. Jirmunskiy, V.M. Turkic Heroic Epic / V.M. Jirmunskiy. – Leningrad: Nauka, – 1974, – 727 pages.
14. Koroghlu, Kh.G. Interconnections of the Epic of the Peoples of Central Asia, Iran, and Azerbaijan / Kh.G. Koroghlu. – Moscow: Nauka, – 1983, – 336 pages.
15. Essay "Afrasiab" / Myths of the Peoples of the World. In 2 volumes. Volume 1. – Moscow: Soviet Encyclopedia, – 1980, – p. 129.

"SƏFƏR ALIŞARLININ "MAESTRO" ROMANINDA TƏNHALIĞIN SİMFONİYASI"

"A SYMPHONY OF LONELINESS IN SAFER ALISHARLI'S NOVEL "MAESTRO""

Fəxriyyə İsayeva Nail
Azərbaycan Dillər Universiteti-dissertant
Mingəçevir Dövlət Universiteti- müəllim
ORCİD 0009-0009-5534-0129

Xülasə
Səfər Alışarlının "Maestro" romanı keçid dövrü Azərbaycan cəmiyyətində fərqli dünyagörüşə malik bir sənətkarın sosial reallıqla toqquşmasını, mənəvi tənhalığını və cəmiyyətə yadlaşmasını əks etdirir. Əsərin əsas qəhrəmanı İsmayıl saksafon ifaçısı, musiqini həyatının mənası və dərin bir ruhi təcrübə kimi qəbul edən sənət adamıdır. O, musiqidə yalnız melodiya deyil, insanın daxili aləmini, iztirab və sevincini ifadə etmə imkanlarını görür. Lakin onun bu mövqeyi ətrafındakıların reallığı ilə üst-üstə düşmür. Cəmiyyət onun məşğuliyyətini qeyri-praktik və buna görə də mənasız hesab edir.
Romanda sənətkarın öz sənətinə sadiqliyi ilə ətraf aləmin təzyiqləri arasında qalan faciəli durumu ön plana çəkilir. İsmayıl nə qədər çalışsa da, sistemin və ictimai münasibətlərin formalaşdırdığı qaydalara uyğunlaşa bilmir. Onun yadlığı yalnız fərdi düşüncəsindən deyil, həmçinin cəmiyyətin sənətə olan münasibətindən doğur. Bacarıq yerinə tanışlıq və yaltaqlığın üstün tutulduğu bir sistemdə sənətkarın layiq olduğu yerə çatması mümkün olmur.
Roman sənətkarın öz seçiminin ardınca getməsinin gətirdiyi mənəvi tənhalığı fəlsəfi aspektdən də əhatə edir. İsmayıl bu dünyaya uyğunlaşmaq istəmir, çünki onun üçün sənət alver deyil, ruhun ifadəsidir. Onun tənhalığı həm daxili bir tələtümdən, həm də sosial çevrənin anlayışsızlığından qaynaqlanır. Sənətini anlayanların az olması, mühitin maddi maraqlar üzərində qurulması, bacarıqdan daha çox əlaqələrin önə çıxması romandakı ziddiyyətləri gücləndirir. İsmayılın cəmiyyətə və insanlara yadlaşması onun öz sənətindən soyuması ilə deyil, əksinə, sənətə olan bağlılığının daha da güclənməsi ilə müşayiət olunur.
"Maestro" romanı sənətkarın faciəsi üzərindən bütöv bir dövrün mənəvi böhranını, gerçək dəyişikliklərin niyə baş tutmadığını, insanlar arasında anlaşılmazlığın necə kök saldığını ustalıqla göstərir. Əsər sənətə, düşüncəyə və mənəviyyata biganə cəmiyyətin mənzərəsini təqdim edən güclü ədəbi ümumiləşdirmədir.
Açar sözlər: Səfər Alışarlı, roman, özgələşmə, çağdaş nəsr, musiqi

Abstract
Safar Alisharli's novel "Maestro" reflects the clash of an artist with a different worldview with social reality, his spiritual loneliness and alienation from society in the transitional Azerbaijani society. The main character of the work, Ismayil, is a saxophone player, an artist who perceives music as the meaning of his life and a deep spiritual experience. He sees in music not only a melody, but also the possibilities of expressing a person's inner world, suffering and joy. However, this position of his does not coincide with the reality of those around him. Society considers his occupation impractical and therefore meaningless.
The novel highlights the tragic situation of an artist caught between his devotion to his art and the pressures of the world around him. No matter how hard Ismail tries, he cannot adapt to the rules formed by the system and social relations. His alienation stems not only from his personal thoughts, but also from society's attitude towards art. In a system where familiarity and flattery are preferred over skill, it is impossible for an artist to reach his deserved place.

The novel also covers the spiritual loneliness brought about by the artist's pursuit of his own choice from a philosophical perspective. Ismail does not want to adapt to this world, because for him art is not a trade, but an expression of the soul. His loneliness stems from both an inner turmoil and the lack of understanding of his social circle. The fact that few people understand his art, the environment is built on material interests, and the emphasis on relationships rather than skills, reinforces the contradictions in the novel. Ismail's alienation from society and people is not accompanied by his cooling off from his art, but, on the contrary, by the strengthening of his attachment to art.
Keywords: Safar Alisharli, novel, alienation, contemporary prose, music

Giriş

Özgələşmə (yadlaşma) bədii ədəbiyyatın hər zaman diqqət mərkəzində saxladığı fəlsəfi-psixoloji anlayışlardan biridir. Xüsusən ictimai-siyasi dəyişikliklərin baş verdiyi keçid dövrlərinin təsiri ilə yaranan bədii mətnlərdə həm fərdi, həm də ictimai motiv olaraq qabarıq şəkildə müşahidə olunur. Səfər Alışarlının "Maestro" romanı da belə bir dövrün – sovet rejiminin dağılması və müstəqil Azərbaycanın ilk illərində baş verən sosial-mədəni deformasiyaların bədii salnaməsi kimi dəyərləndirilə bilər. Əsərin əsas qəhrəmanı saksafonçu İsmayıl yeni dövrün doğurduğu təbəddülatlar içərisində yalnız mühitə deyil, doğmalarına, zamanla öz sənətinə və nəticədə özünə də yadlaşır. "Maestro" romanında özgələşmə motivi sosial, mənəvi, həm də sənət konteksində diqqəti cəlb edir.

"Maestro" romanında tənhalığın simfoniyası

Səfər Alışarlının 1990-cı illərin sosial-psixoloji roman ənənəsinə aid olan "Maestro" romanı post-sovet dövründə fərdin mövqeyini yeni reallıqlar fonunda əks etdirən maraqlı nümunələrdən biridir. Bu əsər müəllifin yaradıcılıq yolunda olduğu kimi, bütünlükdə müstəqillik dövrü Azərbaycan ədəbiyyatında da yeni mərhələnin əlaməti kimi görünür. Romanda post-sovet Azərbaycanının qarışıqlığı fonunda sosial tənzimlənmələrin dağıldığı görünməkdədir. Əsərin protaqonisti olan saksafonçu İsmayıl bu sistemdə "ixtisaslı peşəkar" deyil, kənarda qalan, sənəti səbəbi ilə cəmiyyətə lazımsız olan biridir.

İsmayılın seçdiyi, təhsilini almaq üçün Moskvaya üz tutduğu, ixtisaslaşdığı sənət sahəsi "dolanışıq" üçün əlverişli bir sahə deyil. Saksafonda ifa edərək nəinki böyük pullar qazanmaq olmur, hətta elementar ehtiyacları təmin etmək belə mümkünsüzləşir. Minimum həyat şəraitində yaşayan İsmayıl heç nəyə baxmayaraq öz ideallarına, illərini sərf edib təhsilini aldığı, sevgi ilə bağlandığı sənətinə xəyanət etmək istəmir. Onun idealist düşüncələri həyata maddiyyat prizmasından yanaşan çevrəsinin, doğmaları və dost-tanışlarının seçimlərinə tərs mütənasibdir. Buna görə də Sartrın məşhur fikri ilə ifadə etsək, "başqaları" İsmayıl üçün "cəhənnəm"ləşir, dünya ilə arasında dialoq alınmır.

Cəmiyyət onun sənətini və dolayısı ilə həm də özünü xor gördükcə, ələ salıb güldükcə İsmayıl öz "qınına" çəkilir, getdikcə həmsöhbətləri canlı insanlar deyil, portretlər, xəyallar olur. Bu qopma səbəbi hamısı sözləşiblərmiş kimi, hər kəsin pul gətirməyən sahənin gərəksiz olduğunu vurğulaması, seçdiyi sənət sahəsinə görə onu xor görməsidir. Burada ictimai yadlaşma mənəvi özgələşmə gətirir. Nəticədə, ümidsizlik girdabında çabalayan İsmayıl özü də sənətinə əvvəlki sevgi və ehtirasla bağlı qala bilmir. Amma təbii ki, saksafonla arasında yaranan bu "soyuqluq" sənətin mahiyyətinə deyil, onun cəmiyyət içində və gözündəki mövqeyə görədir.

"*Səfər Alışarlının "Maestro" romanı (2001) bütün müəllif istəyinə rəğmən, hələ ki 1960-1980-ci illərin Azərbaycan idealı üzərindədir; 1990-cı illər həyat materialından alınmış romanda qəhrəman – ziyalı-sənətçi obrazı tarixi hadisələrin məhz onun istəyincə (İdeala uyğun) cərəyan etməməsinin yükünü daşıyır; odur ki, roman konsepsiyası oxucuya bugün çalarlarında Azərbaycan obrazından çox, tarixin təkərləri altda qalıb-sızlayan ziyalı obrazını təqdim edir."*(Əlişanoğlu, 2025)

Uzun illər boyunca musiqinin ruha güc, qida verdiyinə inanan İsmayıl bürokratik sistemin sənətə, sənətkara qiymət verə bilməyən mühitində özünə yer tapa bilmir. Zamanla seçimini sorğulayan insanın bu seçimə əvvəlki sevgi ilə bağlı qalması mümkünsüzləşir. İsmayıl da daxili təlatümlər yaşayır, susqunluğu ilə həyatını, seçimlərini, özünü sorğulayır. "MUZUP" rəhbəri onun işə düzəlmək

istəyini rədd edəndən sonra İsmayıl doğum günü şənliyində ifa etməyi qəbul edir. Saksafonun səsindəki incəlikləri duymaq, peşəkar ifaya dəyər vermək burada kimə maraqlı ola bilərdi?! Buna baxmayaraq İsmayıl çaldığı hər nota qulaq kəsilir, bəstədəki hər duyğunu dərindən hiss edərək öz ifasından zövq alır. Həyatda olduğu kimi, səhnədə də tənhalığının fərqinə varır: "*Beləliklə, o təqribən yeddi dəqiqəlik parçanı hərdən altın da yerinə işləyə-işləyə, adət etdiyi tənhalığın içinə tam yuvarlanaraq, qarşısında qaynaşan zalı hiss etmədən çaldı. Aləti sahibinə qaytarıb, sərhədləri və peşəkar əndazəsi açıq görünən, seyrək, ciddi alqışlar altında estradanı tərk edəndə də, sonra həyətdə dayanıb bu qədim, ikimərtəbəli iqamətgahın pəncərələrindən gecə qaranlığına leysan yağışı kimi aramsız axan səs qıjıltısını dinləyə-dinləyə öz ifasını notbanot araşdıranda da qüsur tapmadı. O, fəvvarəli çarhovuzun arxasında, dəfnə budaqlarının örtdüyü yumşaq skamyada oturub siqaret çəkirdi, açıq pəncərələrdən eşidilən musiqini dinləyirdi, arabir qulağına dəyən xaric səs və notları düyü içindən sılıf təmizləyən kimi, dərhal götürüb kənara tullayır, ancaq bu sanitariya əməliyyatı da ifa olunan musiqinin keyfiyyətini yaxşılaşdırmırdı*." (Alışarlı, 2004).

Romanda musiqi ilə bağlı bu incə detallardan İsmayılın peşəkarlığı ilə yanaşı, sənətinə sevgisi də dərindən duyulur. Cəmiyyət isə peşəkarlara yalnız onları itirəndən sonra, arxasından ağlayaraq dəyər verir. "Maestro" romanı İsmayılın timsalında sənətə və sənətkara dəyər verməyən mühitlərin ümumiləşmiş obrazını yaradır.

Romanın bədii poetikası da özgələşmə motivini sosial-psixoloji anlam qazanan rəmzi detallarla dəstəkləyir. Reallığın doğurduğu təlatümlər və sənətkarın klassik mənəvi mövqeyinin iç-içə əksini tapdığı roman fəlsəfi dərinlik və ağırlığı ilə diqqət çəkir. İsmayılın yaşadığı dağınıq yataqxana, çirkli futlyar, tarakanlar və s. kimi naturalist təsvirlər yalnız kasıblığın mənzərəsini yaratmaq baxımından deyil, həmçinin sənətin və sənətkarın təklənməsini, mühitdən sıxışdırılıb təkbaşına çabalamasını vizuallaşdıran metaforik elementlərdir.

Romanda hətta musiqinin dilləndirilməsində belə, tənhalıq, əzab notları duyulmaqdadır: "*İsmayıl dəsmalıyla saksafonun müştüyünü silə-silə qardaşından: - Yadındadı, gəldim səni dərsdən çağırdım?.. Onda mənə, nədənsə, elə gəlmişdi ki, sənin dişin ağrıyır. Bilmirəm, bəlkə də yuxuda görmüşdüm. Nə isə, indi sənə təxminən diş ağrısı kimi bir şey çalacam.*"(Alışarlı, 2004). Roman haqqında təəssüratlarını yazan mərhum Azər Abdulla musiqinin duyğularla qarşılaşdırılmasını xüsusi qabiliyyət hesab edərək vurğulayır: "*Musiqini ağrı adlandıran, vaxt saksın yox, saks vaxtın Allahı, saksın yaralı adamlar üçün olduğunu deyən (əgər kimsədən gəlmirsə) İsmayılı - Səfər Alışarlını adi adam kimi qəbul etmək ağır və böyük suç! Musiqini duyub onun incə çalarlarını ayırd etməyi bacarmaq bir talant, onların bənzətmə, təşbeh və söz birləşmələrilə bədii şəklini çəkmək başqa bir istedad!*" (Abdulla, 2020).

Romanda qəhrəmanın dili ilə saxta notların açıq pəncərədə yellənən tül pərdələrə bənzədiyi deyilir. Burada musiqi duyumu adi bir eşitmə qabiliyyəti kimi deyil, həyat, ağrı, yaddaş və duyğuların dərin qatlarıyla bağlı olan mənəvi təcrübə kimi təqdim olunur. İsmayılın "diş ağrısı kimi musiqi" ifadəsi səsi qulaqla eşitmək yox, onu bütün varlığı ilə hiss etmək, ruhu ilə yaşamaq anlamında fiziki ağrıya bənzər bir emosiya kimi təqdim edilir. O, solonun yetmədiyi yerdə orkestrin zəruriliyini vurğulamaqla, musiqidə insanın təkliyinin acizliyini göstərir – bir səs yetmir, duyğular bir çox səs və alətlə tamamlanmalıdır. Şopenin çəkisiz barmaqlarla "ürəyə toxunmaq" kimi izahı isə musiqinin sadəcə texnika deyil, ruhla çalınmalı olduğunu göstərir — musiqi burada duyğuların və mənəviyyatın poetik dildə ifasıdır. Həmçinin elə bu cümlələrdə səhnədə olduğu kimi, həyatda da insanın təkliyi, tək olduğu zaman həm də mənəvi gücsüzlüyü əksini tapır.

Nəticə

"Maestro" romanının sadə ifadə forması poetik tutumuna xələl gətirmir. Səfər Alışarlının roman dili qəhrəmanlarının həyat tərzini, mənəvi kasıblığın doğurduğu boş hay-küyü, zahiri səssizliyin gizlədiyi daxili üsyan və məyusluğu, qırılmış ümidlərin səssiz fəryadını incəliklə təqdim edə bilir. Mətndə yeri gəldikcə musiqi haqqında ətraflı bilgilər də əksini tapır, oxucu musiqini eşitməsə də, onu duyur.

Musiqinin sənətin incəliklərinə varılaraq bu qəədr dominant olduğu başqa bir Azərbaycan romanı, demək olar ki, yoxdur.

Ədəbiyyat:

1. Abdulla, A. Bağışla, Maestro. Ədəbiyyat qəzeti. –2020. –16 may, – s. 4-5.
2. Alışarlı, S. Maestro. Avqust. Bakı. 2004
3.Əlişanoğlu, T. Müstəqillik havasını içənlər. Bakı. Savad, 2025

PRESENTATION OF TURKISH LITERARY HERITAGE IN THE WORKS OF BAKHTIYAR VAHABZADEH

BƏXTİYAR VAHABZADƏNİN ƏSƏRLƏRİNDƏ TÜRK ƏDƏBİ İRSİNİN TƏQDİMİ

Nərgiz Kərimova Arif qızı
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,
Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin böyük elmi işçisi.

Abstract
The prominent writer, playwright, publicist and poet of the Turkic world, Bakhtiyar Vahabzadeh, paid special attention to the theme of Turkey in his rich creativity. He played an irreplaceable role on the formation of a unified Turkish artistic thought and public opinion of the 20th century. In his poems, the theme of his connection with Turkey is dominated by both content, meaning and artistic and political aspects. When we say the theme of Turkey we definitely include the poet's plays and poems related to our common history. Because the works that talk about ancient Turks belong to the ancient and glorious history of both Turkey and Azerbaijan, that is the turks of Turkey and the turks of Azerbaijan. This article analyzes the embodiment and presentation of the Turkish literary heritage in the work of Bakhtiyar Vahabzadeh. The author's appeals to classical Turkish literature, common Turkish culture, historical figures and national values in various poems, essays and publicistic speeches are examined. The article clarifies the artistic-aesthetic and ideological functions of this presentation.
Key words: Bakhtiyar Vahabzadeh, poems, common values, turkism.

Xülasə
Türk dünyasının görkəmli yazıçı, dramaturq, publisist və şairi Bəxtiyar Vahabzadə özünün zəngin yaradıcılığında Türkiyə mövzusuna da xüsusi diqqət ayırmışdır. XX əsr vahid türk bədii düşüncəsinin, ictimai fikrinin formalaşmasında onun əvəzedilməz rolu olub. Onun şeirlərinin Türkiyə ilə bağlılıq mövzusunda bir-birinin ardınca həm məzmun, həm məna, həm də bədii,siyasi cəhətlər üstünlük təşkil edir. Türkiyə mövzusu deyəndə, biz mütləq buraya şairin ortaqtariximizlə bağlı pyeslərini, poemalarını da daxil edirik. Çünki qədim türklərdən bəhs edənəsərlər elə Türkiyənin də, Azərbaycanın da, yəni Türkiyə türklərinin də, Azərbaycan türklərinində qədim və şanlı tarixinə aiddir. Bu məqalədə Bəxtiyar Vahabzadənin yaradıcılığında türk ədəbi irsinin təcəssümü və təqdimatı təhlil olunur. Müəllifin müxtəlif şeirlərində, poemalarında və publisistik çıxışlarında klassik türk ədəbiyyatına, ortaq türk mədəniyyətinə, tarixi şəxsiyyətlərə və milli dəyərlərə müraciətləri araşdırılır. Məqalədə bu təqdimatın bədii-estetik və ideoloji funksiyaları aydınlaşdırılır.
Açar sözlər: Bəxtiyar Vahabzadə, şeirlər, ortaq dəyərlər, türkçülük.

GİRİŞ

Türk xalqları arasında mədəni və ədəbi əlaqələr əsrlər boyu davam etmiş, ortaq bir irsin formalaşmasına səbəb olmuşdur. Bu mənada Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Bəxtiyar Vahabzadə XX əsr poeziyasında türkçülük ideyasını, türk dünyasının ortaq dəyərlərini və klassik türk ədəbiyyatına bağlılığı yaradıcılığının əsas istiqamətlərindən birinə çevirmişdir. O, yalnız Azərbaycan xalqının deyil, bütövlükdə türk dünyasının dərdini, tarixini və mədəniyyətini öz şeirlərində əks etdirmişdir.

Bəxtiyar Vahabzadə XX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli simalarından biridir. XX əsr vahid türk bədii düşüncəsinin, ictimai fikrinin formalaşmasında onun əvəzedilməz rolu olub. Şairin şeirlərində türkçülük, azərbaycançılıq qeyd olunmalı xüsusiyyətlərdəndir. "Onun yaradıcılığında

Azərbaycanın bütövlüyü məsələsi, Türk dünyasının birliyi, türk dövlətləri arasında qarşılıqlı ictimai, mədəni əlaqələrin güclənməsi fikri əsas təşkil edir". (7; 6)
Bəxtiyar Vahabzadə təkcə Azərbaycan türklərinin deyil, bütün türk dünyasının bütövlüyü, tamlığıdır. Onun sənətində qırğızın da, özbəyin də, türkmənin də, qaqauzun da duyğuları, düşüncələri, istəkləri əks olunub. Bəxtiyar poeziyası türkün üz ağlığıdır, qılıncdan iti söz çələngidir (1; 22). Təsadüfi deyil ki, müasir dünya nəsrinin görkəmli nümayəndəsi Çingiz Aytmatov şairin yaradıcılığını iyirminci yüzilliyin zirvəsi sayır. Türk dünyasının böyük ədibi Çingiz Aytmatov Bəxtiyar Vahabzadə sənətindən bir qələm və qan qardaşı olaraq fəxrlə danışır: "Dünyada ad çıxaran çox şairlər var. Qəzet və jurnalları vərəqlədikcə görürsən ki, əsl şair azdır. Tək-tənha qalanda, bir neçə kəlmə ilə "Həyat nədir" sualına cavab axtaranda yalnız sözü fikirdən, obrazdan, ruh və nəfəsdən yoğrulmuş həqiqi şairlər sənin yaşamaq eşqinə, düşüncələrinə qol-qanad verir. Müasirimiz Bəxtiyar Vahabzadə belə şairlərdəndir" (6; 5).

ƏSAS

Bəxtiyar Vahabzadənin yaradıcığında türk şair və yazıçılarına həsr etdiyi bir çox şeirləri də əsas yer tutur. "Yunus İmrə", "Abdulla Tukaya", "Cəlaləddin Mövlanaya bənzətmələr", "Təsəvvüf" (Cəlaləddin Rumi Mövlana), "Çiydim" (Cəlaləddin Rumi), "İlk kitabım" (Nazim Hikmət) kimi şeirlərin və "Yunus İmrə", "Türküstan, Türküstan" (Yavuz Büləd), "İstiqlal nəğməkarı" (Mehmet Akif), - (Yəhya Kamal), "Sabir və Tukay", "Kamil əsərlər" (Çingiz Aytmatov), "Çingiz Aytmatova məktub" adlı məqalələrin müəllifidir. Şair üçün türk xalqları başqa sahələrdə olduğu kimi ədəbiyyatda da birlikdə, vəhdətdədir.
Bəxtiyar Vahabzadə islam dünyasının tanınmış şairi Cəlaləddin Rumi Mövlanaya həsr etdiyi "Təsəvvüf" şeirində allaha gedən yalnız bir yolun olduğunu bildirir ki, bu da yol haqq yoludur. Haqq yoluna biganə olan insanlar özlərinə biganədirlər. Çünki haqqa yetişmək üçün ilk öncə maneələri keçmək lazımdır. Dini, təriqəti sanki ağacla müqayisə edir.

Özünü aşmaq üçün,
Haqqa ulaşmaq üçün
gərək öncə aşasan
Nəfs adlı dağları:
Şəriət - bir ağacsa,
Təriqət - budaqları,
Mərifət - yarpaqları,
Həqiqət - meyvəsidir.
Təsəvvüf - haqq səsidir. (3; 280)

Şair Cəlaləddin Rumiyə ithaf etdiyi "Çiydim" şeirini Mövlananın öz sözləri ilə bitirir: "Çiydim, bişdim və yandım". Şeirdə insanın həyatla ölüm arasında qalmağı, həyatda gördüyü əzablara tab gətirməsi, dözməsi, ömrün məqamlarında necə çarəsiz olması şairin çatdırmaq istədiyi əsas fikirdir.
Qılınc kimi kəsərdim
Paslanmışam qında mən.
Vurnuxuram həyatla
Ölüm arasında mən.
Öz rəngimə boyandım,
Hər əzaba dayandım,
Çiydim, bişdim və yandım"
Həyat kürəsində mən. (3; 620)

Türk dünyasının tanınmış şairlərindən biri olan Yunus İmrə haqqında Bəxtiyar Vahabzadənin yazdığı "Yunus İmrə" şeirində və "Yunus İmrə" məqaləsində şairə olan böyük ehtiram hissi çox aydın surətdə nəzərə çarpır. "Anadoluda Yunusun yüzlərlə qəbri olduğu söylənilir. Bütün kəndlər "Yunus mənimdir" - deyə onu başqasına qısqanır. Qəbirlərin başdaşında adı var, amma qəbrin içində özü yoxdur. O, varlığında yox, yoxluğunda yox, yoxluğunda daha çox vardır. O, öz qəbrini də, əsərlərini də, adını da xalqın qəlbinə gömüb getmiş, varlığı isə əfsanəyə dönmüşdür. Gözəgörünməz bu sehrli qüvvə onu ozanlar ozanı, müdriklər müdriki zirvəsinə ucaltdı". (4; 72)
- Bir yerdə ölüb, bəs, niyə min yerdə məzarı?
- Hər gün qazılır çünki könüllərdə məzarı.
  Otlarda, çiçəklərdə və güllərdə məzarı.
- Əfsanəmi, gerçəkmi? Bu insan, necə insan?
- Varlıq səsidir, qopmuş o, türkün qopuzundan. (2; 56)

Şair "Yunus İmrə" məqaləsində Yunus İmrənin özünün dilindən dediyi sözlərə bu cür aydınlıq gətirir: ""Haqqı gerçək sayanlara cümlə aləm qardaş gəlir" - deyən şair məhdud milli hisslərin fövqünə qalxır, bütün bəşəriyyəti bir odun-haqq-həqiqət odunun istisinə qızınmağa çağırır. Yunusa görə, insanlığa gedən yol - haqdan, həqiqətdən keçir. "Haqqı necə taparsan haqqa qul olmayınca" deyən şair haqqı, ilk növbədə, özündə tapmağı vacib sayır" (4; 71).
Vahabzadə yalnız tarixi deyil, müasir dövrün də türk dövlətləri və xalqları ilə bağlı məsələlərinə münasibət bildirmişdir. Onun Türkiyə, Qazaxıstan, Özbəkistan və digər türk xalqlarına ithaf etdiyi şeirlərdə mədəni və mənəvi bağların qorunması çağırışı hiss olunur.Dahi söz ustadı Bəxtiyar Vahabzadə böyük tatar şairi Abdulla Tukayın yaradıcılığına bəslədiyi hörmət və sevgidən ona da şeir "Abdulla Tukaya" həsr etmişdir. Abdulla Tukay 27 yaşında dünyadan köçmüş, lakin buna baxmayaraq XX əsr poeziyasının incisini təşkil edən böyük bir ədəbi irs qoyub getmiş, 10 min misradan çox şeir, 50 çap vərəqi nəsri qalmışdır. "Tukay həmişə şairin, şeirin rolunu yüksək tutmuş, bütün ömrü boyu xalqdan öyrənməyi, xalqı öyrətməyi, xalq yolunda son ana qədər mətin dayanmağı tövsiyə etmişdir" (5; 77). Bəxtiyar Vahabzadə öz məqaləsində görkəmli tatar şairi ilə böyük Azərbaycan şairi Sabirin yaradıcılığını eyniləşdirərək demişdir: "Mən böyük Azərbaycan şairi, inqilabçı-satirik M.Ə.Sabiri nə zaman oxuyuramsa, böyük tatar şairi Abdulla Tukay yadıma düşür. Ona görə ki, bu şairlərin həm yaradıcılıqlarının ideya istiqaməti, həm yaşadıqları dövr, həm də taleləri təxminən eyni olmuşdur. Bu iki şair fikrən və ruhən bir-birinə yaxın olduqlarından mübarizə hədəfləri də eyni olmuşdur". (4; 134) Bu ehtiram hissi ilə də adını çəkdiyimiz "Abdulla Tukaya" adlı şeirini qələmə almışdır.

Çəkdin min ömürlük yükü sən bircə ömürdə
"Xalqım" - deyə xalq ömrünə ulduz kimi axdın.
Vaxtında doğuldun..., niyə getdin belə erkən?
Xalqın böyük övladı bu dünyaya gəlirkən
Xalqın özü oğluyla bərabər yenə təkrar
Dünyaya gələrmiş.
Xalqın kif atan fikrini qeyrətli bir övlad
Fikriylə və eşqiylə, inandım, təzələrmiş. (2; 57)

Şair özünün "Çingiz Aytmatova məktub" və "Kamil əsərlər" məqalələrini müasir dünyanın ən qüdrətli söz ustalarından olan Qızğızıstanın xalq yazıçısı Çingiz Aytmatova ünvanlayaraq yazmışdır. "Onun hər yeni əsəri qırğız ədəbiyyatında deyil, dünya ədəbiyyatında bir hadisə kimi səslənir. O, ən adi həyat hadisələrini belə qlobal səviyyəyə qaldırmağı bacaran sənətkardır. Onun əsərlərində ümumdünya problemləri qırğız həyatından və qırğız təbiətindən keçib ümumiləşir. Buna görə də, Ç.Aytmatov indi dünyada ən çox oxunan və sevilən yazıçılardan biridir və bəlkə də birincisidir.

Ç.Aytmatovun əsərləri həmişə məni heyrətləndirmiş, onlarda bir insan kimi məni də narahat edib düşündürən fikirləri, duyğuları tapmışam" (4; 453-454). Bu sözləri şairə ünvanlamaqla Bəxtiyar Vahabzadə Çingiz Aytmatova, onun yaradıcılığına bəslədiyi böyük məhəbbət hissini bildirirək, "Çingiz Aytmatova məktub" məqaləsində ona yazdığı məktubla ehtiramını bir daha ifadə etmişdir və oxuculara möhtəşəm əsərlər verdiyi üçün təşəkkür etmiş, bu uğurun təkcə Çingiz Aytmatovun uğuru deyil, dünya ədəbiyyatının və ictimai fikrinin böyük nailiyyəti olduğunu vurğulamışdır.
Bəxtiyar Vahabzadə "Türküstan, Türküstan" məqaləsini Türkiyənin tanınmış şairlərindən olan, əslən Şuşalı Yavuz Büləndi Bakilərin "Türküstan" adlı kitabına xitabən qələmə almışdır. Şair bu kitabda özbək türklərinin başına gətirilən müsibətləri ürək yanğısı və göz yaşları ilə dilə gətirmişdir. "Bu kitab əzilən, milli varlığı təhqir olunan özbək xalqının əsarətinə qarşı yazarın etiraz fəryadıdır. Bu, onun milli varlığına, milli kökünə, soyuna, tarixinə, dilinə və dininə möhkəm tellərlə bağlılığından irəli gəlir. Çünki harda türk varsa, ora Yavuz Büləndüçün Vətəndir və bu vətənin dərdi onun öz şəxsi dərdidir" (4; 618). Məqaləsinin sonunda Bəxtiyar Vahabzadə ürək yanğısı ilə bildirmişdir ki, bu kitabı yalnız Türkiyə türkləri deyil, bütün dünya türkləri oxumalı və baş verən bu dəhşətlərdən ibrət götürməlidir.
"Türkiyə Cümhuriyyəti "İstiqlal marşı"nın müəllifi, böyük türkçü, böyük vətənpərvər, böyük insan Mehmet Akif mənim ən çox sevdiyim ustad şairlərdən biridir" (4; 663) - deyən Bəxtiyar Vahabzadə "İstiqlal nəğməkarı" məqaləsində Mehmet Akifin böyüklüyünü hər şeydən öncə, fikir və düşüncəsinin, əqidəsinin və şəxsiyyətinin böyüklüyündə gördüyünü yazmışdır. Türkiyənin Çanaqqala vilayətindəki müharibədə türk ordusunun qələbəsinə Mehmet Akif "İstiqlal marşı"nı yazdı. Vətən, millət uğrunda hər cür fədakarlığa hazır olan, həyatın mənasını Vətənə və millətə xidmətdə görən böyük bir insandı Mehmet Akif. Bəxtiyar Vahabzadə demişdir: "Mən böyük şair, böyük vətəndaş və vətənpərvər Mehmet Akifi bu cür tanımış, bu cür sevmiş və buna görə də bu şeirləri hər dəfə oxuyanda onun xatirəsi önündə başımı əymişəm"(4; 666).

"İman şairi" məqaləsində Bəxtiyar Yəhya Kamalın iman şairi kimi yetişməyin, əsl türk olmağın ilkin şərtini əqidədə, imanda gördüyünü və türklüyü müsəlmanlıqdan, müsəlmanlığı isə türklükdən ayırmadığını, onları vəhdətdə götürdüyünü bildirmişdir. Yəhya Kamalda səs duyğusu çox güclüdür, bunu onun şeirlərində, kəlmələrində duymaq mümkündür. "Mən Yəhya Kamalı ona görə sevirəm ki, "Türkcə ağzımda anamın südüdür" sözünə özü əməl edərək, dilimizin bütün imkanlarından istifadə ilə onu ən yüksək zirvəyə qaldıra bilmişdir"(4; 671).

NƏTİCƏ

Bəxtiyar Vahabzadə yaradıcılığı türk ədəbi irsinin qorunması və təbliğində mühüm rol oynamışdır. Onun əsərləri vasitəsilə oxucu yalnız klassik sənətkarlarla tanış olmur, eyni zamanda türkçülük ideologiyasının çağdaş poetik ifadəsini də görür. Şairin bu sahədəki fəaliyyəti təkcə ədəbi-estetik deyil, həm də milli-mənəvi maarifçilik missiyası daşıyır. Türk ədəbi irsinin təqdimatı Bəxtiyar Vahabzadənin yaradıcılığında həm ideya, həm də üslub səviyyəsində özünü göstərir və bu, onun ədəbi irsini ümumtürk miqyasında dəyərləndirməyə əsas verir.
Bəxtiyar Vahabzadəyə görə, hər bir mənəvi keyfiyyətlərin, idealların fövqündəvətənpərvərlik durmalıdır. Çünki "Vətən yalnız torpaq deyil. Vətən…bu torpağınüstündə yaşayan xalqın dili, tarixi, mədəniyyəti, adət-ənənəsi, bir sözlə, ruhu vəpsixologiyası ilə vətəndir! Vətənə bu mənəvi keyfiyyətləri ilə bağlanmış adam Vətənuğrunda hər fədakarlığa, hətta ölümə də gedə bilər" (8, 41).Məlumdur ki, hazırda türkdilli ölkələr arasında qarşılıqlı inteqrasiya prosesimövcuddur. Eyni kökün, oxşar mədəniyyətlərin daşıyıcısı olan türk dövlətlərininortaq parlamenti, digər siyasi, iqtisadi, mədəni təşkilatları yaradılır, telekörpülər təşkilolunur. Bütün bunlar Əli bəy Hüseynzadənin hələ bir əsr bundan əvvəl irəli sürdüyüortaq türk coğrafiyası-ortaq türk birliyi ideyasının bu gün də aktual məna daşıdığınıgöstərir.

ƏDƏBİYYAT

1. Vahabzadə B. Əsərləri XII cilddə. I cild, Bakı, Elm, 2008, 611 səh.
2. Vahabzadə B. Əsərləri XII cilddə. V cild, Bakı, Elm, 2008, 583 səh.
3. Vahabzadə B. Əsərləri XII cilddə. VI cild, Bakı, Elm, 2008, 737 səh.
4. Vahabzadə B. Əsərləri XII cilddə. X cild, Bakı, Elm, 2009, 830 səh.
5. Qabdulla Tukay Azərbaycan Ədəbiyyatşünaslığında. Bakı, Elm və təhsil, 2012, 286 səh.
6. Bəxtiyar Vahabzadə və türk dünyası. Ədəbiyyat qəzeti,17 fevral 2012-ci il.
7. O taylı, bu taylı Azərbaycanın Bəxtiyarı. Şərq qəzeti, 28 yanvar 2014-cü il.
8. Vahabzadə B. Əsərləri XII cilddə.XIcild. Bakı, Elm, 2009, 672 səh.

BAKHTIYAR VAHABZADE AND MODERN AZERBAIJAN POETRY

BƏXTİYAR VHABZADƏ VƏ MÜASİR AZƏRBAYCAN POEZİYASI

Elmira Məhərrəmova
ADPU-nun ETM-nin elmi işçisi

Abstract

It is impossible to imagine the general picture of 20th century Azerbaijani poetry without the name and signature of Bakhtiyar Vahabzade. The poet, who entered the art world in the first half of the 1940s, has spent more than sixty years of his creative life, approaching the events taking place in the country and the world from the position of an active citizen and artist. Despite the pressure of the era and the political system, the poet was able to poetically express the truths of life in his poetry and dramaturgy, and was known not only in the country, but also beyond its borders, in the former Soviet Union, the entire Turkic world, Europe and America, precisely because of his civic stance and the embodiment of the national spirit.

Bakhtiyar Vahabzade tried to summarize the complex realities of life of the time, the events that troubled the world and all of humanity, and to write them down with the power of epic poetry, along with lyrical examples.

Starting from the first stage of his creativity, Bakhtiyar Vahabzade succeeded in describing the socio-political, spiritual and moral events of the period by adhering to the criteria of artistry in more than thirty poems, such as "Friendship" (1944), "Moonlight Nights" (1947), "Weaving Girl" (1949), "Eternal Statue" (1951), "Simple Men" (1952-54), "The End of Suffering" (1956), "Shabi-Hijran" (1958), "Gulustan" (1959), "Confession" (1961), etc.

Bakhtiyar Vahabzade is one of the prominent figures in the history of Azerbaijani literature, holding a special position. The artist's poetic and philosophical creativity, constantly calling people to spiritual exaltation, played a major role in strengthening the spirit of citizenship in national poetry and enriching public opinion with ideas of independence. Respect for historical and cultural values and preservation of the purity of the native language constitute one of the important directions of Bakhtiyar Vahabzade's activity.

Bakhtiyar Vahabzade is a poet of independence, for him the homeland, nation and freedom are connected with unbreakable threads. He is a lover of a free homeland and a free nation. From his youth, when he wrote the poem "Gulustan", until the end of his life, he did not turn away from his convictions and profession, which he fought for this cause. As soon as the January tragedy occurred, it was the feelings and emotions of freedom that stormed inside him that made him write the poem "The Road to Saturday Night". According to Bakhtiyar Vahabzadeh, "Freedom means courage, freedom means skill", "Freedom means happiness, freedom means spring". A nation without freedom has its skill, courage, happiness and spring taken away from it. These are not the only things taken away from it. B. Vahabzadeh believes that "In a country without freedom, ignorance walks on its head, wisdom on its feet."

One of the main themes in Bakhtiyar Vahabzadeh's work is the mother tongue. According to his firm belief, language is one of the symbols of a people's existence, its most valuable asset, and a powerful educational tool that connects generations and conveys the legacy of ancestors to grandchildren. His plays such as "Conscience," "After the Rain," "The Second Voice," "The Traces of the Roads," "The Scream," "Where Does This World Go?", "The Sword That Cuts Us Apart," and "The Gallows" occupy a worthy place in the repertoire of the Azerbaijani theater. The heroes of these works are kind, noble, and humanistic people, true citizens.

Bakhtiyar Vahabzadeh's work is generally rich in national spirit, patriotism, and ideas of freedom. His poems often aim to give voice to the people's grievances and defend their rights.

Keywords: Homeland, world, artistic, poetic, craftsmanship

Xülasə

XX əsr Azərbaycan poeziyasının ümumi mənzərəsini Bəxtiyar Vahabzadənin adı və imzası olmadan təsəvvürə gətirmək mümkün deyil. 1940-cı illərin birinci yarısında sənətə qədəm qoyan şair altmış ildən çox yaradıcılıq yolu keçmiş,ölkədə və dünyada baş verən hadisələrə fəal vətəndaş və sənətkar mövqeyindən yanaşmışdır. Dövrün və siyasi sistemin təzyiqinə baxmayaraq, şair poeziya və dramaturgiyasında həyat həqiqətlərinin poetik ifadəsini verə bilmiş, məhz vətəndaşlıq mövqeyinə, milli ruhun təcəssümünə görə yalnız ölkədə deyil, onun hüdudlarından kənarda, keçmiş ümumittifaq məkanı, bütün türk dünyası, Avropa və Amerikada da tanınmışdır. Bəxtiyar Vahabzadə dövrün mürəkkəb həyat həqiqətlərini, dünyanı və bütün insanlığı narahat edən hadisələri ümumiləşdirərək lirik nümunələrlə yanaşı epik poeziyanın gücü ilə də qələmə almağa çalışırdı. Yaradıcılığının ilk mərhələsindən başlayaraq Bəxtiyar Vahabzadə "Dostluq" (1944), "Aylı gecələr" (1947), "Toxucu qız" (1949), "Əbədi heykəl" (1951), "Sadə adamlar" (1952-54), "İztirabın sonu" (1956), "Şəbi-hicran" (1958), "Gülüstan" (1959), "Etiraf" (1961) və s. otuzdan çox poemasında bədiilik meyarına əməl etməklə, dövrün ictimai-siyasi, mənəvi-əxlaqi hadisələrini təsvir etməyə nail olur.

Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatı tarixinin xüsusi mövqeyə malik görkəmli simalarındandır. Sənətkarın insanı daim mənəvi ucalığa səsləyən poetik-fəlsəfi məzmunlu yaradıcılığı milli poeziyada vətəndaşlıq ruhunun qüvvətlənməsində və -ictimai fikrin istiqlal ideyaları ilə zənginləş m əsind ə böyük rol oynamışdır. Tarixi-mədəni dəyərlərə ehtiram və ana dilinin saflığının qorunması Bəxtiyar Vahabzadənin fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edir. Bəxtiyar Vahabzadə istiqlal şairidir,onun üçün Vətən,millət və azadlıq bir-birinə qırılmaz qırılmaz tellərlə bağlıdır. , azad Vətənin, azad millətin sevdalısıdır.

Hələ "Gülüstan" poemasənı yazdığı gənclik illərindən ömrünün sonuna qədər bu amal uğrunda vuruşmuş əqidəsindən,məsləkindən dönməmişdir. Yanvar faciəsi baş verən kimi ona "Şənbə gecəsinə gedən yol" poemasını yazdıran da içində fırtınalar qoparan azadlıq hissləri,duyğularıydı. Bəxtiyar Vahabzadəyə görə, "Azadlıq cəsarət,azadlıq hünər", "Azadlıq səadət,azadlıq bahar" deməkdir.Azadlığı olmayan millətin hünəri,cəsarəti,səadəti və baharı əlindən alınmışdır.Onun əlindən alınan təkcə bunlar deyilİnanır B.Vahabzadə inanır ki, "Azadlıq olmayan məmləkətdə.nadan başda gəzər,ağıl ayaqda".

Bəxtiyar Vahabzadənin yaradıcılığında baş mövzulardan biri də ana dilidir.Onun qəti qənaətinə görə, dil xalqın varlığın nşanələrindən biri olub,onun ən qiymətli sərvətidir,üstəlik nəsillər silsiəsini birləşdirən,babaların vəsiyyətini nəvələrə çatdıran,qüdrətli tərbiyə vasitəsidir.Onun qələmindən çıxmış "Vicdan," "Yağışdan sonr", "İkinci səs", " Yollara iz düşür",, "Fəryad", "Hara gedir bu dünya", "Özümüzü kəsən qılınc", "Dar ağacı" kimi "pyesləri Azərbaycan teatrının repertuarında özünə layiq yer tutur. Bu əsərlərin qəhrəmanları xeyirxah,nəcib,humanist insanlar əsl vətəndaşlardır .

Bəxtiyar Vahabzadənin yaradıcılığı ümumiyyətlə milli ruh,vətən sevgisi, azadlıq ideyaları ilə zəngindir. Onun şeirləri çox vaxt xalqın dərdlərinə səs vermək, haqqı müdafiə etmək məqsədi daşıyır.

Açar söz: Vətən, dünya, bədii, poetik, sənətkarlıq.

Tam mətn

Bəxtiyar Vahabzadə XX əar Azərbaycan poeziyasının ən görkəmli nümayəndələrindən biridir.Onun yaradıcılığı təkc əöz dövrü ilə məhdudlaşdrılmayıb, masir Azərbaycan poeziyasına da böyük təsir göstərmişdir.Şairin ədəbi irsi,milli ruhu,azdlıq ideyaları və bədii üslubu bu gün də yeni nəsil şairlər üçün imkan mənbəyidir.

Bəxtiyar Vahabzadənin poeziyasında əsas ideyalar:

Milli azadlıq və müstəqillik motivləri: Onun **"**Gülüstan "poeması və digər əsərləri milli azadlıq hərəkatına təsir göstərmişdir.

Vətən sevgisi və vətənpərvərlik:Şairin poeziyasında Azərbaycan sevgisi,xalqın tarixi və kimliyi mühüm yer tutur.

İsan və cəmiyyət: Bəxtiyar Vahabzadə insanın mənəvi inkişafını,cəmiyyətlə əlaqələrini və ədalət axtarışlarını ön plana çəkir.

Müasir şairlər onun izi ilə gedərək milli dəyərlər və vətən sevgisini poeziyalarında əks etdirirlər. Onun üsyankar ruhu və azadlıq ideyaları yeni nəsil şairlərin yaradıcılığında öz əksini tapır. Müasir şairlər onun obrazlı ifadələrindən , xalq deyimlərindən və sadə, amma təsirli üslübündan istifadə edirlər. Ramiz Rövşən, Zəlimxan Yaqub və digərləri Bəxtiyar Vahabzadənin təsirini hiss etdirən əsərlər yaratmışlar.Müasir dövrdə Bəxtiyar Vahabzadənin əsərləri tədqiq olunur onun poeziyası yeni nəsillərə öyrədilir.

Bəxtiyar Vahabzadə müasir Azərnbaycan poeziyasının inkişafına böyük təsir göstərmiş, onun ideyaları və üslubu bu gün də aktualdır.O, milli ruhu və azadlıq eşqi ilə dolu poeziyası şairlər üçün nümunə olaraq qalır.

Bəxtiyar Vahabzadə poeziyasının anlayış, mühakimə və əqli nəticə deyilən hüdudsuz bədii imkanları vardır . Böyük şai r poeziyamıza intellektual yaradıcılıq üslubu gətirib və bu üslub bədii-fəlsəfi təzadların poeziyası kimi fərdilik qazanıb. Sənət məramına çatmaq təşnəsi ilə poetik axtarışlar aparan sənətkar hər dəfə nail olduğu yerdən - hər poetik mətndən yanğıyla nəfəs götürüb. Bəxtiyar Vahabzadə poeziyası dinclik bilməyən, yürüşdə olan, ehtiraslı və əzəmətli poeziyadır! Vaxt, Zaman və Sürət Bəxtiyar Vahabzadə poeziyasının məhək daşıdır. İnsan bu zamanın fəlsəfəsində gözəllik və əqidə mücəssəməsidir!

İnsandır hər şeyi mənalandıran,
Saat nə gərəkdir zaman olmasa.
Bir dağın, bir çayın gözəlliyini,
Söyləyin ,kim duyar insan olmasa.

B.Vahabzadənin yaradıcılığı haqqında M.Arif, M.C.Cəfərov, M.İbrahimov, B.Nəbiyev, T.Hacıyev,Y.Qarayev,K.Talıbzadə,Y.Axundlu,M.Əlioğlu, Ş.Salmanov,Ş.Alışanlı,V. Yusifli və Ba.qları qiymətli məqalələr yazıb. AMEA-nın müxbir üzvü, professor Yaşar Qarayev və professor Şamil Salmanov "Poeziyamızın kamilliyi" adlı monoqrafiya çap etdirib.

Bəxtiyar Vahabzadə 1940-cı illərdə süjetli şeirlərlə ədəbiyyata gəlib ("Ana və şəkil", "Ədəbiyyat qəzeti", 25 may 1943). 1949-cu ildə ilk şeir toplusunu çap etdirib ("Mənim dostlarım", Bakı, "Azərnəşr", 1949). Predmetin lirik düşüncələrlə təsviri, təfərrüat və müşahidə birliyi "Böyük insan", "Mənim dostlarım", "Yaşıl çəmən","Sabahınız xeyir olsun", "Ağ saçlar", "Təzə şəhər", "Məktəb şeirləri" üçün səciyyəvi olub.

Şair 1950-ci illərdə "Bahar", "Dostluq nəğməsi" (1953), "Əbədi heykəl" (1954), "Çinar" (1956), "Ceyran" (1957), "Aylı gecələr" (1958) kitablarında da eyni poetik axtarışları davam etdirib.

1960-cı illərin poeziyasında Bəxtiyar Vahabzadənin yaradıcılıq fərdiyyəti kamilləşib, poeziyasında ideyalılıq və sənətkarlıq axtarışları güclənib.. Onun şeirlərinin başlanğıcı, davamı və sonu - təkamül mətni vardır ki, bədii təzad bunların qid a mənbəyini təmin edib. Şairin əksər şeirlərində bir fərdi ideya qavrayışı olub ki, ədəbi-tənqid bunu "ikinci səs" adlandırıb.

Bəxtiyar Vahabzadənin 1950-cı illərdən başlayan məhəbbət şeirləri ruhən doyumsuzluğun ifadəsi olub poetik "Mən"i haldan-hala salıb, onu bəzən sərt, bəzən mülayim, bəzən məmnun, inkarçı, müdrik, adi, bəzən də filosof, sadəlövh edib ("Yağma, yağış", "Gülüş", "İlk məhəbbət", "Gəlir", "Ceyran", "Günəşdən gen düşəndə", "İtirilmiş məhəbbət", "Heyranın olsun", "Bir mənəm, bir də sükut", "Səni görəndə", "Səndə qəlb olsaydı", "Şeirimin ahəngi", "Gecikmiş məhəbbət", "Sənin

surətin”...). Bəxtiyar Vahabzadənin məhəbbət şeirləri duyğu və həyəcan, fikir və düşüncə, fəlsəfə və əxlaq şeirləridir..

Şairin poeziyasında canlı harmoniyanın - insan və cəmiyyət birliyinin önəmi təbiətdir. Bəxtiyar Vahabzadənin 1950-ci illərdəki təbiət şeirlərinin öz ahəngi, öz ritmi, obrazlar və rənglər aləmi vardır Təbiət sənətkar təfəkküründün düşüncə, fikir və məna məkanıdır. Fəqət Bəxtiyar poeziyasında Yaşar Qarayev demişkən "saf” halda təbiət təsviri, demək olar ki, yoxdur, Azərbaycan obrazı heç yerdə xalis "peyzaj” şəklində deyildir ("Sənsiz də yaşadar bu dağlar məni”, "İlk cığır”, "Bizim yurdun”, "Yay”, "Çinar”, "Qövsi-qüzeh”, "Ceyran”, "Göygöl”, "Qaranquş və sərçə”, "Ey ana təbiət” və başqaları).

Bəxtiyar Vahabzadə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında fəal iştirak edib. Sənətkarın bədii təsvir obyektlərindən biri Cənubi Azərbaycan, bütöv Vətən ideyası, idealı olub. Şair bu mövzunu 1950-ci illərdən başlayıb və yaradıcılığının bütün mərhələlərində davam etdirib. Bəxtiyar Vahabzadənin Cənub mövzularının ("Sökün çəpərləri”, "Məktublar”, "Şəhriyara”, "Şair-vətən”, "Ustad Şəhriyarın S.Rüstəmə göndərdiyi məktubuna cavab”, "Cavab”, "Həsrət”, "Şəhriyara”, "Səhəndə məktub”) konkret qaynaqları olub.

Bəxtiyar Vahabzadə Azərbaycan və azərbaycançılıq mövzusunu "Ata yurdu”ndan - səs-söz, ifadə, motiv, təsvir-təhkiyədən tutmuş, soy-kök, od-ocaq, gen-yaddaş, torpaq, vətən və dünya genişliyinə qədər ifadə edib...

Torpaq məsələsi mənfur düşmənlərimiz tərəfindən 1950-1980-ci illərdə də qaldırılıb. Akademik İsa Həbibbəyli "Naxçıvan elmi mühiti: ənənə və müasir dövr” adlı irihəcmli məqaləsində yazıb ki, "Ermənistan tərəfinin Naxçıvan ərazilərini ölkəsinə birləşdirməsi uğrunda apardığı mübarizə artıq XX əsrin 50-ci illərinin ikinci yarısından etibarən cəmiyyətə məlum idi. Onlar Kremldə yüksək vəzifə tutan Anastas Mikoyanın imkanlarından istifadə etməklə Naxçıvan MR-i ələ keçirmək arzusunda idilər. Azərbaycan ziyalıları, xüsusən Naxçıvandan olan elm və ədəbiyyat adamları bu ədalətsiz məsələyə kəskin münasibət bildirir, etiraz səslərini ucaldırdılar”. Bəxtiyar Vahabzadə torpaq, vətən və millət dərdindən daha çox yazan şairimizdir. Sənətkar sosial-siyasi mövzulara geniş yer verib, II dünya müharibəsindən, daha çox 1960-cı İllərdən Asiya,Avropa ölkələrinə səfərlər başlayıbş Milli-demokratik hərəkatların nəticəsində ölkə xalqları öz milli “Məninə”, milli-mənəvi özünüdərkinə qayıdıb. Sənətkarın "Sərhəd ağacları”, "Haqq, zorakılıq”, ""Xalq deputatına açıq məktub”, “Haqqa haqsız dedilər”, "Hörmət - rüşvət”, “Cəllad Yazov”, "Yenilənmiş ittifaq”, "İkibaşlı qartal” və başqa əsərlərində həmin mövzunun əlvan bədii ifadəsini görürük. Şairin yaradıcılığında mühüm yer tutan beynəlxalq mövzu da - "Latın dili”, "Pompey xərabələri önünd ”, "İki yol”, "Helmuta”, "Portuqaliya lövhələri”, "Topqapı sarayı”, "Hayd-Park”,”Çörək-Vətən”, "Maqbet”, "Otello” və başqaları 1970-1980-ci illərə aid olub, Almaniya, Türkiyə, Portuqaliya və İngiltərə səfərlərinin təəssüratıdır.

1970-ci illərin səyahət şeirlərində də epik material şairin lirik duyğular aləminə tabe tutulub, milli ideyalar, bütöv Azərbaycan idealı həmin şeirlərin cövhəri olub.

Bəxtiyar Vahabzadə ana dili, millilik, milli ideya, milli birlik, bütöv Azərbaycan və istiqlal mövzularına, xüsusilə "Gülüstan”, "Köklər və budaqlar” kitablarına görə incidilib, onu həbs etmək istəyiblər.

1950-ci illərin sonunda Mərakeşdə olanda da xalqın ana dilində yox, fransızca danışdığının şahidi olub. Geri qayıdandan sonra “Latın dili şeirini yazıb. Geri qayıdandan sonra "Latın dili” şeirini. Bu səbəbdən MK-ya, təbliğat şöbəsinə çağırılıb, sorğu-suala tutulub. Şair cavabında bildirib ki, şeir Mərakeşə həsr olunub...

Bakı Dövlət Universitetində 40 ildən çox dərs deyən şair-pedaqoq tələbələrinə anladıb ki, biz hansı millətin övladlarıyıq və rejim bizi hansı uçurumlara sürükləyib. Buna görə də 1962-ci ildə şairi millətçilik ideyalarının təbliğinə görə günahlandıraraq universitetdən xaric ediblər.İki işsiz qaldıqdan sonra öz iş yerinə bərpa olunub.

Ana və ana dili mövzusu Bəxtiyar Vahabzadə yaradıcılığında əhəmiyyətli yer tutub. Şair 1950-2000-ci illərin şeirlərindən olan "Ana və şəkil", "Ana türbəsi", "Ana", "Körpə nəfəsi", "Lay-lay", "Doğum evində", "Ana dili", "Ana hədiyyəsi", "Ana və balalar", "Mənim anam", "Ekran qabağında", "Anama giley", "Şəhid anası", "Ana birsə", "Mənim ana dilim", "Anam öldümü", "Anam təzədən böyüyür", "Anam haqqında şeirlər", "Ana dedim, qarşımda bir gözəl səhnə açıldı" və başqalarında anaların və doğma dilimizin ehtizazlı bədii obrazını yaradıb.

Bəxtiyar Vahabzadə psixologizminin min bir poetik halı var - duyğu, qavrayış, təsəvvür onun poetik idrakının hissi təzahürləri olub, bu da məntiqi idraka - mənəvi-əxlaqi və fəlsəfi-estetik dəyər-lərin doğulmasına zəmin yaradıb. Ümumən, insanın mənəvi-əxlaqi aləminə nüfuz Bəxtiyar Vahabzadənin uğurlu "səyahətidir" (Y.Qarayev). "Mən və dünya", "Mən və zaman" "Özümlə özüm", "Mənlə mən", "Bəxtiyarla Bəxtiyardır", "Dağda şəlalə kimi", "Sürət", "Özümü axtarıram", "Özümüzdən öyrənək", "Özümdən narazıyam", "Nəsənsə, özün ol", "İkinci səs", "Şəhidlər" kimi əxlaqi-fəlsəfi və estetik qavrayış bu əsərlərin poetik xüsusiyyətlərini ifadə edib.

Vətən, torpaq, tarix, Azərbaycan, millilik və bəşərilik Bəxtiyar Vahabzadə vətənpərvərliyinin, humanizminin cövhəridir. Onun yanar ürəyə, sevən qəlbə, ehtiraslı ruha malikdir. Şair "Şəbi-hicran"da yaxşı deyib:

Məncə, can yanğısıdır şeir, sənət, a dostlar.
Kimin ki, bir yanğı var, bir od var,
O dərk edər sənəti,
İnsan məhəbbətidir, yaradan hər sənəti...

Türk dünyası mövzusu Bəxtiyar Vahabzadənin əsərlərində böyük yer tutub. 1970-1990-cı illərdə yazdığı "Türküstan, Türküstan", "Yunus İmrə", "İstiqlal nəğməkarı", "Əhməd Cavad", "Böyük türkçü", "Sənət sənət üçündür, yoxsa xalq üçün", "Ey qocaman Türkiyə" adlı məqalə və məktubları, habelə poetik əsərlərində şair turançılıq, türkçülük və azərbaycançılıq baxışlarını, o cümlədən Azərbaycan-Türkiyə dostluq əlaqələrini təcəssüm etdirib. Bu yazılar sənətkarın Türkiyə görüşləri və türk ölkələrində çap olunmuş kitabları ilə bağlı yaranıb.

1990-cı illərin olayları Bəxtiyar Vahabzadəni də ciddi sarsıdıb. O, yazıb ki, "yanvarın 19-da gecə məlum hadisə baş verdi. Gecəni yata bilmədik. Səhər bir neçə deputat mənə zəng vurub, təcili Ali Sovetin fövqəladə sessiyasını çağırmağın vacib olduğunu dedi. Beynimə batdı. Ali Sovetə zəng vurdum və belə qərara gəldik ki, mən televiziya ilə çıxış edib deputatları sabaha - sessiyaya çağırım. Mən MK-ya gəlib gördüm ki, binanın qarşısında minlərlə adam dayanıb və dünənki qırğına etirazlarını bildirir. Mən də çıxış edib Kommunist Partiyasının üzvlüyündən çıxdığımı elan etdim. Telestudiyaya gəldim. Dedilər ki, studiyanın enerji blokunu rus əsgərləri dağıdıb. Çıxış etmək mümkün deyil. Studiyanın həyətində rus generalı, ətrafında isə televiziyanın bir neçə işçisi, o cümlədən şair Qabili və rejissor Nazim Abbasovu gördüm. Mən əsəbi vəziyyətdə generala yanaşıb onu dünənki qırğına, törətdiyi faciəyə görə yağlı sözlərlə təhqir edib üzünə tüpürdüm. Sonralar eşitdiyimə görə o, tapançaya əl atmış, məni vurmaq istəmiş, telestudiyanın işçiləri, xüsusən N.Abbasov ona mane olmuşdur". Şair "Sessiya çağırmaq şəxsi təşəbbüsüm idi" müsahibəsində 1990-cı ilin "Şənbə gecəsindən", özünün "Şənbə gecəsinə gedən yol" əsərindən, faciənin obyektiv və subyektiv səbəblərindən, sessiya çağırmaq zərurətindən, özünün və Xalq yazıçısı İsmayıl Şıxlının sessiyanı idarə etmələrindən, Heydər Əliyevin siyasi iradəsindən, onun əleyhdarlarının hiylələrindən və Heydər Əliyev fenomenindən söz açıb. Şair hesab edib ki, o zaman Azərbaycana qüvvətli bir adam rəhbərlik etsəydi, 20 Yanvar qırğını törənməzdi". Bəxtiyar Vahabzadənin azərbaycançılığı həm də Heydər Əliyev və azərbaycançılıq bütövlüyü deməkdir. B.Vahabzadə azad, müstəqil Azərbaycanın milli istiqlal ədəbiyyatının dəyərli nümunələrini yaratmışdır. Bu baxımdan «Şəhidlər» poeması Azərbaycan milli istiqlal ədəbiyyatınm kamil nümunəsidir. Əsərdə Azərbaycan şəhidlərinin simasında milli istiqlal ədəbiyyatının qəhrəmanlarının bədii obrazı canlandırılımışdır. B.Vahabzadə

Vətən uğrunda həlak olmuş Azərbaycan şəhidlərindən ana torpağın bağrına azadlıq toxumları əkən milli qəhrəmanlar kimi söz açmışdır:

Zalım öyünməsin zülmləriylə,
Min bir böhtanıyla, min bir şəriylə,
Həqiqət uğrunda ölümləriylə
Ölümü kamına çəkdi şəhidlər!
Tarixi yaşadıb diləyimizdə,
Bir yumruğa döndük o gecə biz də.
Yıxıb kölәliyi ürəyimizdə
Cəsarət mülkünü tikdi şəhidlər.
İnsan insan olur öz hünəriylə
Millət,millət olur xeyir şəriylə
Torpağın bağrına cəsədləriylə
Azadlıq toxumu əkdi şəhidlər!

"Şəhidlər" poeması təkcə Azərbaycan xalqının deyil, keçmiş Sovet imperiyasının 70 illik tarixində misli görünməmiş bir faciənin lirik-epik təsvirindən ibarətdir. Kommunist rejiminə xalqımızın itaətsizliyindən hiddətə gəlmiş imperiya özünün dağılması ərəfəsində bütün gücünü Azərbaycanın üstünə göndərmişdi. Bakı küçələri qeyrətli vətən övladlarının al qanına qəltan olmuşdu. Poemada 20 Yanvar soyqırımının, gözlərimiz önündə tarixə çevrilən bu dəhşətli hadisənin obyektiv tarixi-bədii qiyməti verilmişdir. Qara yanvar haqqında ədəbiyyatımızın ilk sanballı nümunəsi olan bu əsərdə azadlıq mücahidlərinin qəhrəmanlığı şairin öz şəxsi müşahidələri və yaşantıları əsasında ümumiləşdirilmişdir:

Onlar sübut etdi:hər qara zülmün
Əli uzansa da ,ömrü gödəkdir
Xalqın azadlığı sabah, biri gün
Şəhid yarasından göyərəcəkdir!

Şairin dediyi kimi də oldu. Şəhidlərin qanı yerdə qalmadı. Bu gün müstəqil, suveren dövlətini qurmuş xalqımız şəhidlərin ruhunu yaşadır, dərin minnətdarlıq duyğusu ilə əzizləyir əbədiləşdirir."
"Şəhidlər" bu mövzuda ilk iri həcmli poemadır. Şair poemada qanlı yanvar gecəsində Bakıya hücum etmiş işğalçı ordunun cinayətlərini göstərir, şəhidlərin qəhrəmanlığını mənalandırır. Şair Allaha üz tutur-, xalqın başına gətirilən müsibətləri acı bir fəryadla nəql edir. "Biz nə etmişik ki, günahımız nə idi ki, başımıza belə bir faciə gəldi?. Poemada şairin fikir və düşüncələri bu böyük və ağrılı sual ətrafında başlanır, gah həzin-lirik məcrada davam edir, gah da qəzəb və qətiyyət ifadə edən publisist ahənglə səslənir. Poemanın proloq hissəsi bütünlükdə Allaha müraciətlə yazılmışdır və bu müraciətdə əsərin əsas ideya xətləri və motivləri bir növ mərkəzləşir. Şəhidlər nəyin naminə , hansı məqsəd uğnında qurban getdilər? Proloqda şair bu ideyanı qoyur və inkişaf etdirir . O, göstərir ki, şəhidlər vətəni sevdikləri üçün günahkar sayıldılar və buradan, da əsas sual doğur:

Vətəni sevmək niyə günah olmuş, ay Allah?

Şair poemada xalqımızın son iki əsr ərzindəki tarixi faciələrindən söz açır və bu yol- ilə şəhidlərin uğrunda həyatlarını qurban verdikləri ideyanın, məqsədin

aliliyini açıb göstərir. Bu baxımdan poemanın " Eşq olsun sizə!" hissəsi xüsusilə mənalı və təsirlidir:

Bizim əlimizdən çoxdan alınmış,
Haqqı bu dünyaya bildirdi onlar.
Millətin qəlbinə qəsdən salınmış
Qorxu ilbisini öldürdü onlar.
O gecə dağlardan axan sel təki.
Qəzəbdən kükrəyib daşdı millətim.
O şənbə gecəsi ürəyindəki
Qorxu hasarını aşdı millətim.

Burada şair şahidliyin xalqın tarixində və özünüdərkində rolu üzərində düşünür, oxucu fikrini də çox mühüm həqiqətlər üzərində cəmləşdirir.

Dövlət, bayraq və istiqlal mövzuları B.Vahabzadənin 1990-cı illərdə yazdığı məqalə, müsahibə və şeirlərində ifadə olunub. Şair 1960-1990-cı illərdə "Bayraq qalxdı", "Xalqın səsi", "Əgər qorun-masa istiqlalımız","Vətən məcnunluğu", "Vətən var", "Biz Vətənçün doğulduq", "Azərbaycan", "İki bayraq", "Bayraq", "Atatürk" şeirlərindəki həmin mövzuları 2000-ci illərin şeir və poemalarında da davam etdirib ("Xalqa", Vətənə", "Tanrı türkü qorusun", "Vətən marşı", "İstiqlal", "Azadlıq savaşı", "Vətən savaşı", "Qarabağ", "Vətəndən vətənə", "Şəhidlər" və başqaları).

Bəxtiyar Vahabzadə Azərbaycanın dövlət müstəqilliyi, istiqlalı yolunda çox çalışıb. Təsadüfi de-yil ki, Ümummilli Lider Heydər Əliyev ilk "İstiqlal" ordenini ona və Xəlil Rza ilə Məmməd Araza verib.

Bəxtiyar Vahabzadə güclü poema və pyeslərin müəllifidir. O, bu əsərlərində müdrik və parlaq zəkasının üfüqlərini, milli özünüdərk və istiqlal məfkurəsinin əngin panoramını təzahür etdirib. Onun poema və pyeslərində azərbaycançılıq, türkçülük və milli müstəqillik ideyaları parlaq təcəssüm olunub. B.Vahabzadə 60-dan çox şeir kitabının, 10-dan artıq monoqrafiya, 20 poema və 9 pyes, 200-ə qədər elmi-nəzəri və publisistik məqalə, 12 cilddə "Əsərləri"n müəllifidir.

Bəxtiyar Vahabzadə ictimai xadimdir, O,uzun illər xalq elçisi kimi respublikanın sosial-siyasi və mədəni həyatında nüfuz sahibi olub, Azərbaycanın dövlət müstəqilliyinin bərpasında can-zəka yandırıb.

Istifadə olunmuş ədəbiyyatlar

1.B.Vahabzadə. Şəhidlər.Bakı ,1981
2.İ. Əliyeva. Bəxtiyar Vahabzadənin lirikası. Bakı,1983
3.Cəfərov M. Bəxtiyar Vahabzadənin poetik dünyası. Bakı,1998
4. S. Almənmədova- Bəxtiyar Vahabzadə poeziyasının dili.Bakı 2010
5. Əsgərli - Bəxtiyar Vahabzadə .Həyatı,mühiti və yaradıcılığı.Bakı,2023

BAKHTIYAR VAHABZADE AND SHEKI

BƏXTİYAR VAHABZADƏ VƏ ŞƏKİ

Tahir Məhərrəm oğlu Məhərrəmov
ADPU-nun Şəki filialı

Abstract
There are many people who are crazy about the work of Bakhtiyar Muallim. He was a poet who always stood up for his people, as a poet and patriot, who addressed people sincerely and openly, and whose work was filled with a divine faith in the people. Bakhtiyar Vahabzadeh did great things that cannot be measured by any precise scale in the formation and birth of several generations as citizens, and successfully continued the work of the great writers and poets of Azerbaijani literature before him. He was also a true teacher. His students loved him very much. Even students of other faculties, taking permission, would listen to his full lectures with greed. But the great poet, preferring his poetry to his scholarship and teaching, would say:

He would fold it and put it under his knee,
The scholar Bakhtiyar the poet Bakhtiyar.

Bakhtiyar teachet was also a restless poet. He would complain about himself and not be proud of what he had done. On the contrary, he would accuse himself:

I am only satisfied with this,
I am dissatisfied with myself.

Keywords: poet, patriot, wordsmith, Sheki, homeland, people, homeland, struggle, fighter.

Xülasə
Bəxtiyar müəllimin yaradıcılığına dəlicəsinə vurulanlar çoxdur. O, bir şair, vətənpərvər insan kimi el-oba qarşısına daim üzüağ çıxmış, insanlara pərdəsiz-filansız səmimi müraciət etmiş, yaradıcılığı xalqa ilahi bir inamla dolu olmuş birşair idi. Bəxyitar vahabzadə bir neçə nəslin vətəndaş kimi yoğrulub doğulmasında heç bir dəqiq tərəzi ilə ölçülə bilməyən böyük işlər görmüş, Azərbaycan ədəbiyyatının özündən əvvəlki böyük ədib və şairlərinin işlərini uğurla davam etdirmişdir. O, həm də əsl müəllim idi. Tələbələri onu çox sevərdi. Hətta başqa fakültələrin tələbələri də izn alaraq onun dolğun mühazirələrinə acgözlüklə qulaq asardılar. Amma böyük şair şairliyini alimliyindən də, müəllimliyindən də üstün tutaraq deyədrdi:

Qatlayıb dizinin altına qoyar,
Alim Bəxtiyarı şair Bəxtiyar.

Bəxtiyar müəllim həm də narahat şair idi. Özündən həm də giley-güzar edər, elədiklərindən qürrələnməzdi. Əksinə özünü ittiham edərdi:

Bircə ondan razıyam ki,
Özümdən narazıyam.

Açar sözlər: şair, vətənpərvər, söz ustası, Şəki, dogma yurd, el-oba, ana Vətən, mücadilə, mübariz.

Giriş

Bir çox şairlər yaradıcılığına ana, Vətən məhəbbəti ilə başlayır, Vətən məhfumu həş şeydən üstün tutulur. Ona görə ki, yaradıcılıq məfhumuna toxum səpən elə anadır, Vətəndir. Və Bəxtiyar müəllim də öz yaradıcılıq ilhamını özüqədər sevdiyi Vətənindən almışdır. Yaradıcılığında heç vaxt Vətən məfhumunu bölməzdu. Şəkili idi. Amma bütöv Vətənini sevən şair idi. Bir çox şeirlərində Vətən kəlməsini elə məhəbbətlə vurğulamşdır ki, o məhəbbət oxucunun canına, qanına höpan məhəbbət kimi izhar edilirdi. Bəxtiyar Vahabazadə poeziyasında bu cür müanslar daha çoxdur. Böyük şair poeziyasında təkcə doğulduğu Şəkini tərənnüm etməmişdir. Buna səbəb axtarsaq görərik ki, şairin bütöv poeziyası vətəninə - Azərbaycana həsr olunmuş, vətəni bütövlükdə sevdiyini, vahid kimi qəbul etdiyini qeyd etmişdir. O, hətta poeziyasında da Vətənin rayona parçalanmasını qəbul etmirdi. Ona görə də Bəxtiyar Vahabzadənin poeziyasında Şəki ilə bağlı az sayda şeirə rast gəlmək olar. Az olmasına baxmayaraq məzmun və forma baxımından kifayət qədər uğurlu şeirlərdir.

Bəxtiyar Vahabzadə şəxsiyyətində çox nəcib, ülvi, istəkli keyfiyyətlər birləşirdi. O, xalq tərəfindən həmişə humanist bir sənətkar kimi tanınmış, məhz bu xüsusiyyətləri ilə unudulmaz əsl xalq şairi kimi xalqının ürəyində daimi yer almışdır. Xalqımız onu o zaman da, indi də ən cox fəlsəfi və düşündürücü şeirlərin müəlifi kimi sevmiş, rəğbət bəsləmiş və bu gün də belədir. Elə buna görədə xalq şairinə inanmış, güvənmiş, onu təkcə şair kimi deyil xalqın səsinə səs verən ürək, arzularını cani-dildən ifadə edən bir ictimai xadim- xalqın, millətin vəkili adına layiq görmüşdür.

O, bu xalq sevgisinə əsl vətən oğlu kimi cavab verə bilmiş, bütün yaradıcılığını demək olar ki, Azərbaycanın müstəqilliyinə, suverenliyinə həsr etmiş, bu yolda çox böyük cəfalar çəkmiş, həmişə bu arzularla yaşamışdır. Millətinə, vətəninə və dövlətinə həyatı boyu sadiq qalmış, bu sevgi və sədaqəti dəfələrcə böyük xidmətləri ilə ortaya qoymuşdur. Vahabzadə yaradıcılığında vətən, xalq sevgisi hər zaman kəskin şəkildə özünü biruzə vermişdir. O, Şəkidə gözlərini dünyaya açmış, buradan pərvazlanmış, gənc yaşlarından məşhurlaşmağa başlamışdır. Şair dogma yurdu Şəkini heç zaman unutmamış, həmişə bütöv məzuniyyətini Şəkidə keçirmişdir. Vətəninə, elinə, obasına həddindən artıq bağlı olan şair onu qınayan, yəni Şəkiyə həsr edilən şeirlərinin az olduğunu vurğulayan çoxsaylı oxucularına xitabən deyirdi:

Mən həm bakılıyam, həm lənkəranlı,
Gəncəli, qubalı, həm naxçıvanlı.
Şəkili, şirvanlı, qarabağlıyam,
Bütöv Vətənimə bütöv bağlıyam. (Vahabzadə, 2004, 73)

İnsan öz vətənini və xalqını, ilk olaraq, doğulduğu ailənin, dünyaya göz açdığı məkanın timsalında sevir. Çünki, kiçik yaşlarda insan bütün dünyanı öz ətrafındaki insanlarla və yaşadığı mühitlə sərhədləyir. Yaşa dolduqca biliyi, dünyagörüşü və təcrübələri artdıqca vətən an-layışı da dəyişir. Onun əqli və duyğusal inkişafı, özünü və dünyanı dərk etməyə başlaması onda vətən anlayışını gedərək formalaşdırır. Vahabzadənin babası ilə bağlı qələmə aldığı aşağıdakı misralar insanın keçidiyi bu mərhələləri və keçirdiyi hissləri çox gözəl ifadə edir:

Babam həyatında yalnız bir kərə
Faytonla Şəkidən Ağdaşa getmiş.
O baxıb uzanan dar gədiklərə,
təəccüb etmiş.
-Bu yerlər hamısı padşahındır?
Deyə, faytonçudan o xəbər almış.

Bəlkə də, dünyaya
o miskin, fağır
Babamın verdiyi bu, ilk sualmış.
Bir dünya bilirdi Şəkini babam,
bu yaşa qədər.
Onun gözlərində dünya bu gündən
Böyudi, uzandı Ağdaşa qədər.
Səksən verst dağ yolu Zarafat deyil.
Ən uzun, ən böyük yoldu babamçın.
Şəkidən Ağdaşa uzanan bu yol,
Böyüklük ölçüsü oldu babamçın. (Vahabzadə, 2004, 191)

Bu sətrlər necə də səmimi, necə ürəkaçan, insanı düşündürən və kövrəldən sətrlərdir. Bəxtiyar müəllimin dəfələrlə canlı və televiziyada öz şeirlərini oxuduğunun şahidi olmuşam. Onun səsində də sevgi ilə yanaşı bir kövrəklik var idi. Elə özünün "Gülüstan" poemasından sətrləri oxuyanda da gözlərinin dolduğu hiss olunurdu. Böyük şair insanları mənalı yaşamağa çağırdırdı. O, "məna", "gözəllik", "ləyaqət" pay kimi verilmir. Onu qazanmaq lazımdır: "sevgidə, sədaqətdə, el-oba qarşısında fədakarlıqda"- deyirdi.
İstiqlal, azadlıq şairi olan Bəxtiyar müəllim 1988-ci ildən də çox-çox illər qabaq da müstəqil, azad ölkə arzusunda idi. O, 1988-ci ildən başlanan yeni dövr oyanışının lokomativlərindən biri olmuşdur. Azərbaycanın müstəqilliyi məsələsində dilemma qarşısında qalan o zamankı rəhbərlərə qarşı Azərbaycan SSR Ali Sovetinin sessiyasında kükrədi, aşdı-daşdı və nəhayətd, məsləkdaşları X.R.Ulutürk, İ.Şıxlı, S.Rüstəmxanlı və s. kimi o da məsləkinə, məqsədinə çatdı. Vətəninin azadlığı uğrunda apardığı mübarizənin barını gördü.
Bu gün Azərbaycan azaddır, suverendir. 44 günlük müharibədə Qarabağımız düşmən tapdağından azad olunmuşdur. Bu şairin ən ümdə arzusu idi. Heyf, heyd ondan ki, o bu günləri görmədi. Amma ruhu şad və rahatdır.
İnsanın keçdiyi bu mərhələlərdə, formalaşdığı bu prosesdə onda vətən sevgisi, vətənə bağlılıq və sədaqət kimi hisslər də meydana gəlir. Ən əsası da bu sevgi və sədaqət sadəcə fikirdə və hissdə qalmır və insanın əməllərində təzahür etməyə başlayır. Bu əməllər bəzən vətəni yağı düşməndən qorumaq, bəzən xalqın hisslərini və haqlarını dünyaya çatdırmaq, bəzən ölkənin bayrağını yüksəklərdə dalğalandırmaq, bəzən də qələmi və sənəti ilə bu sevgini insanlara aşılamaq və onu qəlblərə naqş etmək şəklində özünü göstərir.
Əlbəttə ki, dünayaya Şəkidən baxmağa və onu tanımağa çalışan Vahabzadə üçün də vətən Şəkidən başlayırdı. Onun vətən sevgisi ilə yoğrulmasında ailəsi ilə birliktə, uşaqlıq dövrünü ke-çirdiyi mühit olaraq Şəki şəhəri də böyük rol oynamışdır. Vahabzadəni çox sayıda nəcib keyfiyyətlərlə yoğuran bu mühit və şəhər ona böyük düşünməyə yönəltmiş, həcmcə kiçik qəlbinin böyük vətən üçün atmasını öyrətmişdir. Hər keçən gün vətən və xalq sevgisi ilə dolub-daşan bu qəlb onun sevgisi və amalları kimi böyümüşdür. Beləcə böyük şair, Şəkini çox sevsə də, böyük düşünmüş, böyük Vətəni Azərbaycanı kiçik parçalara bölməmiş, onu hər zaman bir bütöv olaraq sevmişdir. "Özünüz şəkili olduğunuz halda, hələ Şəkiyə bir şeir həsr etməmisiniz " sualını bir şeirlərə cavablamış, vətəni Azərbaycana və doğulduğu şəhər Şəkiyə hisslərini belə ifadə etmişdir.
Bir nəğmə qoşmadım hələ mən sənə,
Dağlar bunu mənə kəsir sanmasın.
Mən dedim, vurğunam Azərbaycanа,
Deyirəm, heç zaman xırdalanmasın
Böyükdür, ucadır məsləkim mənim.
Bala anasına sevirəm deməz,
Mən də deməmişəm, a Şəkim mənim

Yuxarıda göstərdiyim "Bala anasına sevirəm deməz" misrasından göründüyü kimi şair vətəninə "sevirəm" deməsə də, Şəkini həddsiz dərəcədə sevmiş, onun sevgisini həmişə ürəyinin dərinliyində qoruyub saxla-mışdır. O Şəkini-vətənini özünə ana bilmiş, özünü isə bala hesab etmişdir. Şəki sevgisini şeirlərin-də çox işlətməyən şair daim vətənin, doğulub boya başa çatdığı el-obanın sevgilisiylə yaşamışdır. Şair bir digər misrasında da Şəkinin adını az çəkməyinə və ona çox az şeir həsr etməsinə fəqli bir cavab verir. O, bildirir ki, onun şeirin mayası özülü Şəki və onun gözəllikləridir. Buna görə də şır bir övlad kimi Şəkiyə qarşı özünü borclu hiss edir:

Mən sənə borcluyam öz balan kimi,
Çox da ki şeirimdə görünmür adın.
Mənim oxuduğum nəğmələrimi,
Mənim qulağıma sən pıçıldadın.
Şerimin mayası bu qaynar nəfəs
Sənin öz çiçəyin, sənin öz barın.
Şerimdə dil açıb danışmırmı bəs,
Sərin bulaqların, göy çinarların?

İnsan öz uşaqlığını yada salanda kövrəlir, ürəyindən o illərə qayırmaq hissləri heçir. Amma o illəri qaytarmaq, yəni tarixin təkərini geri döndərmək heç cürə mümkün deyil. Uşaqlıq insan həyatının ən gözəl, şən, xöşbəxt çağlarıdır. O anlardakı hər hadisə insanın yad-dasına əbədi həkk olur və insan nə qədər vətəndən uzaq qalsa da o şırın anlar heç vaxt unudulmur Vahabzadədə zaman-zaman Səkidən uzaqda da olsa o, doğma vurdu, orda keçirdiyi vaxtlari hamisa xatırlamışdır. Səkidə keçirdiyi uşaqlar illərini sair heç vaxt unutmamışdır. Ədib şeirlərinin birində ata yurdunu təsvir edərək o yerlərinin həsrətinin çəkdiyini bildirmişdir

Şəkidə məhlə var nə qədər desən,
Gəldim bu dünyaya "Yuxarı baş"da.
Bir göz evimizdə nə desən vardı,
Taxça aşağıda, buxarı başda.
Çıxdı ahıllığım o evdən çölə,
Amma uşaqlığım yuxarı başda.
İndi mən həsrətəm ata yurduma,
Odu ürəkdədir, buxarı başda (Vahabzadə, 2004, 80)

Şairə gərə onu bu torpaqlar şair kimi yetişdirmişdir. Vətən torpağında ciyərlərinə çəkdiyi o tə miz hava, suyundan içdiyi gur axan büllur kimi bulaqlar, başı qarlı uca dağlar, uşaqlığının qayğı-keş vaxtlarının keçdiyi yamyaşıl ucsuz, bucaqsız meşəliklər, yazda çiçəklərinin ətrində, yayda meyvəsinin barından, ləzzətindən doyulmayan, uzaq düşdükdə həsrət çəkilən hər qarış vətən tor pağı Vahabzadə şeirinin qayəsi- özülü hesab edilmişdir.
Vətən və ana bir-birindən ayrı, o cümlədən bir-birinə mənaca çox yaxın sözlərdir. Gözümüzü doğma vətən torpağında açarkən ilk olaraq anamızı görürük. Beləliklə bu əziz şəxs və əziz məkan bizim üçün vəhdət halını alır və müqəddəsləşir. Böyük şair vətənini çox sevmiş ona övladliq borcunu, vəətəndaşlıq borcunu layiqincə yerinə yetirmək üçün əlində gələni etmişdirdir. O səngərdə xalqını, millətini qorumağa hazır olan əsgər kimi həmişə xalqına xidmət etməyə hazır olmuşdur O özünün layiqli vətəndaş olmağında, ürəyi bu xalq uçün döyünən bir şair kimi yetişdirilməsində böyük rolu olan doğma torpaqlara həmişə minnətdar olmuşdur
Mən sənin qoynunda gəldim cahana, Məni bəxş elədin Azərbaycana. Həmişə mən sənin həndəvərində Üçan bir quşam. Bir eldə doğulub xoşbəxtəm ki, mən Böyük bir Vətənə oğul olmuşam.

Göründüyü kimi Bəxtiyar Vahabzadənin dünyaya gəlib böyüdüyu Şəki şəhəri haqda çox az sayıda şeiri mövcuddur. Lakin, hər nə qədər şairin poeziyasında Şəki mövzusu açıq şəkildə görünməsə də biz onun izlərinə və təsirinə ədibin bütün poeziyasında rast gələ bilirik. Şəki haqda az şeiri olmasını da şair şəkili olmaqdan əvvəl azərbaycanlı olmasına bağlamışdır. Şairliyi ilə yanaşı böyük mürəfəkkir olan Bəxtiyar Vahabzadə bu üslubu ilə həm də millətini və xalqını birliyə və bərabərliyə səsləmişdir. O, Azərbaycanın bizi birləşdirən ən böyük dəyər olduğunu bizə aşıla-mağa çalışmışdır. O, vətəni Azərbaycanı həmişə bütöv olaraq görmək istəmişdir

NƏTICƏ:

Bu məqalədə Bəxtiyar müəllimin Azərbaycan ədəbiyyatı, ümumilikdə Türk dünyası ədəbiyyatı üçün elədikləri, qoyub getdiyi irs, o cümlədən Vətənindən heç vaxt ayırmadığı, vətəni ilə birgə məhəbbət bağladığı Şəkiyə həsr olunmuş şeirləri, ümumi yaradıcılığı haqqında qısa da olsa məlumat verməyi özümə burc bildim. Azadlıq mücahidi kimi Azərbaycan tarixinə düşmüş bütün ömrünü şərəflə, ləyaqətlə yaşamış, ilk kitanı 1949-cu ildə çıxan böyük şair xalqının xatirəsində gözəl insan, alovlu vətənpərvər, daim yazıb-yaradan bir şair kimi yaşayacaqdır.

Onun 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi Sərəncamı şairin 100-cü yaşına ən böyük hədiyyədir. Əminəm ki, xalqımız, əlaqədar instansiyalar ilboyu bu hədiyyədən irəli gələn vəzifələrin həyata keçirilməsi üçün səylərini əsirgəməyəcəkdir. Çünki, bu ölməz şairin unudulmaz xatirəsi, əziz ruhu qarşısında olan bir borcdur.

ƏDƏBİYYAT:

1. Almənmədova S. Bəxtiyar Vahabzadə poeziyasının dili, Bakı, Elm, 2010
2. Cəfərov N. Seçilmiş əsərləri, 5 cilddə, 2-ci cild, Bakı, 2012
3.Vahabzadə B. Seçilmiş əsərləri, 2 cilddə, 1-ci cild, Öndər nəşriyyatı, Bakı, 2004, səh. 73
4.Vahabzadə B. Seçilmiş əsərləri, 2 cilddə, 1-ci cild, Öndər nəşriyyatı, Bakı, 2004, səh. 80
5.Vahabzadə B. Seçilmiş əsərləri, 2 cilddə, 1-ci cild, Öndər nəşriyyatı, Bakı, 2004, səh. 73

BAKHTIYAR VAHABZADE'S DIAGNOSIS OF INDEPENDENCE

BƏXTİYAR VAHABZADƏNİN İSTİQLAL DİAQNOZU

Aynur Afət qızı Qafarlı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Elmi-Tədqiqat Mərkəzinin böyük elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru

Abstract
Bakhtiyar Vahabzadeh is known as a poet of independence in the history of 20th-century Azerbaijani literature. When approaching literature from this point of view, both himself and his personality, as well as his creativity, are completely different from others. The poet's writings are colorful and rich in terms of subject matter. But the idea is straightforward and is a linear. The main goal is to form the main idea of the homeland and the nation in this line. It can be said that seventy to eighty percent of Vahabzadeh's work is on these topics. B.Vahabzadeh is a national poet, who loves his homeland, nation, mother tongue, and even a nationalist in the true sense of the word. In my opinion, to be national and nationalist is not to move away from secularism, to oppose the world. Because you can have human values by preserving your national identity. In short, secularism goes beyond being national. Secularism looks better, more beautiful and more real when it is on the cornerstones of nationality. Therefore, if we look at the work of B.Vahabzadeh, we witness both what he wrote and how he looked like.
In short, a great poet is as much a national figure as he is a secular one; he is also a personality. B.Vahabzadeh is our poet who personifies his creativity as a person. Regardless of the topic they write about, we see a personality emerging from all of their poems. He is not just any person, but a proud and arrogant person, one who cannot be bent... A people with such a personality are, of course, a happy people. The national liberation movement that took place in Azerbaijan in the 1980s and 1990s reached its highest stage, having its roots in the master poet's "coffin literature" of the 1950s and 1960s. The poet, who diagnosed the need to go through many hardships in order to taste the sweetness of independence, was one of those who turned slavery itself into a slave. The creativity of B.Vahabzadeh, a poet who loves independence not only of Azerbaijan but of the entire Turkic world, will always be eternal, young and magnificent as long as our nation lives. This magnificence, this youth, is literally evident in his poetry. We can unequivocally say that the brilliant poet B. Vahabzadeh is the first of the first in this line. From this perspective, we have turned to the work of the great Azerbaijani poet B. Vahabzadeh.
Keywords: Bakhtiyar Vahabzade, national poet, citizen, nation, martyrdom, identity, creativity.

Xülasə
Bəxtiyar Vahabzadə XX əsr Azərbaycan ədəbiyyatı tarixində istiqlal şairi kimi tanınmışdır. Onun həm şəxsiyyəti, həm də yaradıcılığı tamamilə başqalarından fərqlənir. Şairin yaradıcılığı mövzu baxımından rəngarəng və zəngin olsa da, ideyaca düz və bir xətlidir. Vətən və millət ideyasının bu xətdə şahdamar təşkil etməsi isə onun yaradıcılığında başlıca məqsəddir. Əsasən B.Vahabzadə yaradıcılığının səksən faizi bu mövzulardadır. O, Vətənini, ana dilini, millətini sevən, ona vurğun olan milli, hətta sözün əsl gerçək mənasında millətçi şairdir. Məncə, milli və millətçi olmaq heç də dünyəvilikdən uzaqlaşmaq, dünyaya qarşı çıxmaq deyil. Yalnız milli varlığını qorumaqla bəşəri dəyərlərə malik ola bilərsən. Bir sözlə, dünyəvilik milli olmaqdan keçir. Dünyəvilik milliliyin təməl daşları üzərində olanda daha yaxşı, gözəl və gerçək görünür. Ona görə də onun yaradıcılığına nəzər yetirsək, şairin həm yazdıqlarının, həm də özünün məhz bu cür göründüyünün şahidi oluruq.
Bir sözlə, dahi şair nə qədər millidirsə, o qədər də dünyəvidir, o, həm də şəxsiyyətdir. B.Vahabzadə bir şəxsiyyət kimi də öz yaradıcılığını şəxsiyyətləndirən şairimizdir. Hansı mövzuda yazılmasından

asılı olmayaraq bütün şeirlərində oradan bir şəxsiyyətin boylandığını görürük. Özü də elə-belə şəxsiyyət yox, məğrur və qürurlu, əyilməsi mümkün olmayan şəxsiyyət... Belə şəxsiyyəti olan xalq isə, əlbəttə, xoşbəxt xalqdır. XX əsrin 80-90-cı illərində Azərbaycanda baş verən milli azadlıq hərəkatının kökü ustad şairin 50-60-cı illərə aid "sandıq ədəniyyatı"nın əsasında formalaşaraq özünün ən yüksək mərhələsini yaşadı. İstiqlalın şirinliyinin dadılması üçün neçə-neçə acılardan keçməyin diaqnozunu qoyan şair köləliyin özünü köləyə döndərənlərdən olmuşdurTəkcə Azərbaycanın yox, bütün Türk dünyasının istiqlalsevər şairi olan B.Vahabzadənin yaradıcılığı millətimizin ömrü qədər həmişə əbədiyaşar, cavan və möhtəşəm olacaqdır. Bu möhtəşəmlik, bu cavanlıq onun poeziyasında sözün əsl mənasında özünü göstərir. Birmənalı olaraq deyə bilərik ki, dahi şair B.Vahabzadə bu cərgədə olanların birincilərinin birincisidir. Elə bu baxımdan da biz bu böyük Azərbaycan şairi B.Vahabzadənin yaradıcılığına müraciət etmişik.

Açar sözlər: Bəxtiyar Vahabzadə, milli şair, vətəndaş, millət, şəhidlik, şəxsiyyət, yaradıcılıq.

Azərbaycan ədəbiyyatı dünya ədəbiyyatına N.Gəncəvi, M.Füzuli, İ.Nəsimi, M.F.Axundzadə, M.Ə.Sabir, M.Cəlil, H.Cavid, S.Vurğun və bu kimi digər simaları bəxş etmişdir. Bu simalar həm də dünya ədəbiyyatının bir hissəsi olan Şərq və eləcə də ümumtürk ədəbiyyatının böyük azman sənətkarlarıdır. Hərəsi bir dövrün başlanğıcı, onun hərəkətverici qüvvəsidir. Öz zamanının tarixi və o tarixi bütün gerçəkliyi ilə göstərən güzgüsüdür. Xalqımızın, Türk kimliyimizin göstəriciləri olan N.Gəncəvini, M.Füzulini, M.F.Axundovu, M.Ə.Sabiri, Mirzə Cəlili oxuyan dünya oxucusu xalqımızın necə müdrik və uzaqgörən olduğunun şahidi olur. Təkcə böyük N.Gəncəvinin adı və yazdığı əsərlər belə deməkdə bizə əsas verir. Şübhəsiz, ayrı-ayrı dövrlərin özünəməxsus ədəbiyyatı olmuşdur. Onu yaradanlar da həmin özünəməxsusluğu görərək ona uyğun, ancaq Böyük İnsan və insanlıq amilinə söykənərək fəaliyyət göstərmiş, əsərlərində həmişə reallığa önəm vermişlər.

Bir sözlə, insanı insanlığa sığmayan əməllərdən uzaq durmağa səsləmiş və haqqın yanında olmağı özlərinə mənəvi borc bilmişlər. Xəqani – Nizamidən üzübəri bu, həmişə belə olmuşdur. Əgər belə demək mümkünsə, ədəbiyyat hər bir an xalqın yolgöstərəni olmuş, onun yoluna işıq salmışdır. Ümumiyyətlə, ədəbiyyatın ümumi mənzərəsi çox vaxt belə olmuşdur. Bu ədəbiyyatı yaradanlar özləri də, yaratdıları ədəbiyyat da milli olmaqla yanaşı, həm də dünyəvi olmuşdur. Bu istər ədəbiyyatın azad, sərbəst, istərsə də başının üstündə «demokl» qılıncı olduğu dönəmlərində də bu cür görünmüşdür. B.Vahabzadə Azərbaycan ədəbiyyatı tarixində özünün müstəqil olaraq ayrıca yeri olan şairdir. O, XX əsr Azərbaycan ədəbiyyatı tarixində istiqlal şairi kimi tanınır. Ədəbiyyata bu yöndən yanaşanda onun həm özü və şəxsiyyəti, həm də yaradıcılığı tamamilə başqalarından fərqlənir. Mövzu baxımından da şairin yazıları rəngarəng və zəngindir. Ancaq ideyaca düz və bir xətlidir. Vətən və millət ideyasının bu xətdə şahdamar təşkil etməsi isə başlıca məqsəddir. Demək olar ki, B.Vahabzadə yaradıcılığının yetmiş-səksən faizi bu mövzulardadır. Buna baxmayaraq başqa mövzular da şairin yaradıcılığında azlıq təşkil etmir. Sənətkarlıq baxımından da bu şeirlər çox mükəmməl şəkildə özünü göstərir.

Yuxarıda qeyd etdiyimiz kimi, B.Vahabzadə həm də şəxsiyyətdir. O, bir şəxsiyyət kimi də öz yaradıcılığını şəxsiyyətləndirən şairimizdir. Onun hansı mövzuda yazılmasından asılı olmayaraq bütün şeirlərində oradan bir şəxsiyyətin boylandığını görürük. Özü də elə-belə şəxsiyyət yox, məğrur və qürurlu, əyilməsi mümkün olmayan şəxsiyyət... Belə şəxsiyyəti olan xalq isə, əlbəttə, xoşbəxt xalqdır. Axı milləti irəli aparmaq, onun qamətini həmişə düz saxlamaq, dünya arenasında tanıtmaq, yüksək səviyyədə təmsil etmək həmişə B.Vahabzadə kimi şəxsiyyətlərin elə bil boyuna biçilir, bu şərəfli işin ağırlığı belə simaların çiyinləri üzərində durur. Bu cür simalar həm özləri, həm də yaradıcılıqları ilə mənsub olduqları milləti şərəfləndirir və ona şərəf gətirir. Birmənalı olaraq deyə bilərik ki, dahi şair Bəxtiyar Vahabzadə bu cərgədə olanların birincilərinin birincisidir. Elə bu baxımdan da biz böyük Azərbaycan şairi B.Vahabzadənin yaradıcılığına müraciət etməklə fikrimizi əsaslandıracayıq. Əlbəttə, onun Azərbaycan ümumtəhsil məktəblərinin ədəbiyyat dərsliyinə salınan şeirləri əsasında...

Ümumtəhsil məktəblərinin VI-IX siniflərinin «Ədəbiyyat» dərsliklərində şairin yaradıcılığı tədris olunur. VI sinif üçün «Ədəbiyyat» fənni üzrə dərsliyinin «Bədii əsərlərdə təsvir» bölməsində (4; 29-33) şairin «Qocalar» şeiri şagirdlərin nəzərinə çatdırılır. Əsərin birinci bəndində şair qocaları çox ustalıqla təsvir edərək deyir:

Çənə əl üstündə, əl çomaq üstə,
Qocalar əyləşir tin başlarında.
Sinə bayatılı, könül şikəstə,
Ömür varaqlanır yaddaşlarında (4; 31).

Gördüyümüz kimi, qocanı və qocalığı bu cür yüksək duyğu ilə təsvir etmək yalnız şair duyumunun məhsulu ola bilər. Bu bir bəndi oxuyan oxucu sözün qüdrətini hiss edərək görür ki, ən mahir rəssam da öz boyası ilə belə bir tablo yarada bilməz. Bunu yalnız və yalnız Bəxtiyar Vahabzadə qələminin gücü yarada bilərdi. Şeirin digər bəndlərində də biz onun sözünün gücünü ali məqamda hiss edirik. Necə ki, başqa bir bənddə deyildiyi kimi...

Yaşıdlar köç edib, cavanlar işdə,
Tək-tənha oturmaq son əlacları.
Həyatın amansız yalqızlığında,
Tutur əllərindən əl ağacları (4; 31).

Bir sözlə, bu şeir son misrasına qədər bu cür notları özündə əks etdirir. Qocaların əsl yaşam tərzini çılpaqlığı ilə göstərir. Şeirin bütünlükdə məzmununu izah etsək, daha maraqlı söz və yeni fikir səhnələri ilə tanış olarıq. Bu, şəksiz, Bəxtiyar Vahabzadə sözünün gücünü nümayiş etdirir.
Ümumtəhsil məktəblərinin VII sinfi üçün «Ədəbiyyat» fənni üzrə dərsliyinin «Vətən sevgisi, qəhrəmanlıq səhifələri» bölməsinə salınan (5; 68-70) «Vətəndaş» şeiri də maraqlı süjeti ilə yadda qalır. Əsər heca vəznində yazılmış və beş bənddən ibarətdir. Bütün bəndləri «Vətəndaş! Nə gözəl səslənir bu söz» misrası ilə başlayır. Bəndlərin hər bəndində isə ayrı-ayrı fikirlər özünə yer alır. Yəni doğum ölüm arası Vətəndaşın – İnsanın onu yaradana borcu sadalanır. Vətəndaş sözünün mənasının nədən ibarət olduğu deyilir. Birinci bənddə eyni bir Vətəndə doğulanların qardaş olmağından söhbət açılır. Qardaşın qardaşa necə münasibətdə olması ustalıqla izah olunur və onların bir-birinə arxa-dayaq, kömək olmasından danışılır. Həm də burada Vətən anaya bənzədilir və hər bir vətəndaşın onun bədənindən dünyaya gəlməsi deyilir. Bu bədəndə vuran hər bir ürək bir anadan olan vətəndaşların ürəyidir. Çünki bu vətəndaşlar həm də eyni bir iqlimi olan yurdun övladlarıdır. Allah insanı yaratdığı kimi Vətən də vətəndaşı yaradır. Özünün suyu, havası ilə qidalandıraraq və işığı ilə işıqlandıraraq... Vətəndaş övlad da gərək Anasının xoşbəxtliyi üçün çalışa... Şairə görə əsas olan budur. Şeir sonda bu bəndlə bitir:

Vətəndaş! Nə gözəl səslənir bu söz,
Vətən əbədidir, gedəriyik biz.
İnsan xoşbəxt olur öz Vətənində.
Bilirik dünyaya biz niyə gəldik.
O bizi yaradan, biz ona bəndə,
Yaradan uğrunda ölməyə gəldik! (5; 69)

Bu bəndi ədəbi dildə möhür bənd də adlandıra bilərik. Ona görə ki, burada sanki bir sonluğun sonunda yeni bir başlanğıcın əsası qoyulur. Bu başlanğıc əbədi olan Vətəndir. O, şair üçün həmişə başlanğıcdır, son deyildir. Yaradan olduğuna görə yaratdıqları tərəfindən sevgi ilə əhatə olunmaq isə onun haqqıdır. Yaradan uğrunda ölənlər isə həmin haqqın qoruyucularıdır. B.Vahabzadənin

«Vətəndaş» şeirinin qayəsi, məncə bu deyilənlərin məcmuəsidir. Bir də «Vətəndaş! Nə gözəl səslənir bu söz» misrasının yanında «Bəxtiyar Vahabzadə! Nə gözəl səslənir bu ad» misrası da möhtəşəm səslənərdi... Əlbəttə ki, biz bu fikri buraya əlavə etsəydik...

Orta ümumtəhsil məktəblərinin IX-XI siniflərində də Bəxtiyar Vahabzadə yaradıcılığına müraciət edilir. IX sinif üçün «Ədəbiyyat» dərsliyinin «Müstəqillik illərində ədəbiyyat (1991-ci ildən günümüzə)» bölməsində (6; 168-174) şairin «İstiqlal» şeiri şagirdlərin oxuması üçün nəzərdə tutulur. İstiqlal dadını dadan xalqların istiqlalın nə olduğunu bilməsi əsərdə bir ana xətt kimi verilir. Özünü və sözünü anlayandan bütün mübarizəsini həyat məşğuliyyətinə çevirən şair bu mövzuda olan əsərlərinin hər birində baş rolda çıxış edir. Öz azad sözü ilə istiqlal mübarizəsinin həmişə önündə gedir. Özündən əvvəlki istiqlal şairlərinin xələfi olmağı, özü də layiqli xələfi olmağı özünə şərəf bilir. Ancaq o hər zaman özü olmağı bacarır. Yəni öz sələfi böyük şair M.Ə.Sabir əgər «İstiqlalınız lağlağıdır» – deyirsə, B.Vahabzadə istiqlala başqa yöndə yanaşır, onu hər bir insanın – millətin halal haqqı hesab edir. Sözsüz, biz bunu əsərdən seçilmiş ayrı-ayrı nümunələrlə izah etməyə çalışacağıq. Ayrı bir Azərbaycanlı şairin – B.Vahabzadənin özünə ustad saydığı S.Vurğundan isə onun istiqlala olan baxışları tamamilə fərqli görünür. S.Vurğun amerikalı qara zəncini yalnız Amerika üçün kölə bir formada, həm də elə-belə yalvarışlarla dolu bir formada göstərirsə, B.Vahabzadə köləliyi qəbul etməyən Afrika zəncisini üsyankar və mübariz bir formada göstərir, onu doğma vətəni olan Azərbaycanla müqayisədə verir. Əsərdən seçilmiş ayrı-ayrı nümunələrlə biz bunu daha yaxşı izah edə bilərik:

Qullar silahlandı qəzəbdən, kindən,
Ayıra bildilər dumandan sisi.
Qovdu ağasını məmləkətindən,
Kölə Afrikanın kölə zəncisi (6; 168).

Göründüyü kimi, şair burada təkcə zəncinin yox, həm də onun yaşadığı torpağın – Vətənin də köləliyindən danışır. Öz haqqını, hüququnu başa düşən zənci öz azadlığına, yəni istiqlalına qovuşur. Həmin istiqlalın Azərbaycana da gəlişini şair çox emosional formada təqdim edir. Öncə o, Azərbaycanın ikiyə bölünməsindən, onun nəticəsi kimi «Gülüstan» müqaviləsindən danışır. Bütün dünya xəritəsindən bu bütövlüyün silinməsindən, sonra Quzeydə şəhidlərin qanı bahasına əldə edilən istiqlaldan söhbət açır. Bununla da öz millətinin şərəfli bir yoldan keçdiyini deməklə istiqlalın asanlıqla əldə edilmədiyini dilə gətirir. İllər öncəsi yazmış olduğu «Gülüstan» poemasında ürək ağrısı ilə dediyi, gündəmə gətirdiyi arzularının bir hissəsinin artıq həyata keçdiyini deyir. Çünki bütöv arzuların yerinə yetirilməsi üçün «Vahid Azərbaycan» olmalıdır. Dünya xəritəsində o taylı bu taylı, yəni Güneyli-Quzeyli Azərbaycan bir verilməlidir. Şairi şeir belə sonluqla bitirir:

Salaq yadımıza bu gün cahanın,
Rəngləri dəyişən beş qitəsini.
Biz də görəcəyik Azərbaycanın,
Güneyli-Quzeyli xəritəsini (6; 171).

Düşünürəm ki, şairin bu arzusu tezliklə reallaşacaqdır. Bunun həyata keçməsi üçünsə bugünkü məktəblinin gələcəkdə qarşısında çox məsuliyyətli işlər, vəzifələr durur. Bu baxımdan da şagirdləri bu yönə yönləndirməkdə böyük şairin «İstiqlal» şeirinin xüsusi rolunun olmasını qeyd etmək lazımdır.

Nəhayət, Bəxtiyar Vahabzadə yaradıcılığına bir daha orta ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün «Ədəbiyyat» dərsliyinin «Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı» bölməsində yer ayrılmışdır (7; 171-182). Onun həyatını əks etdirən yarımmövzuda həyatı ilə bağlı müəyyən məlumatlarla birgə, yaradıcılığına da qısaca olaraq toxunulmuşdur. Müəyyən şeirlərindən nümunələr verilmiş və əsərlərinin mövzusu ilə tanışlıq xarakterli fikirlər söylənilmişdir. Onun Ana dili, Vətən,

milli azadlıq, milli düşüncəni əks etdirən əsərlərinin az bir qismi haqqında qısaca məlumat verilmişdir. Sonra isə 80-ci illərin sonlarında, 90-cı illərin əvvəllərində Azərbaycanda başlayan istiqlal savaşının məntiqi nəticəsi kimi baş verən 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş «Şəhidlər» poemasının müəyyən bir hissəsi şagirdlərin nəzərinə çatdırılır. Əsərdə şair şəhidlərin qəhrəmanlıq nümunələrini verməklə yanaşı, həm də özünün qaniçən, qansız düşmənə nifrətini də deməkdən çəkinmir. Əsərdə şəhidlərin obrazı ilə şairin öz obrazı yanaşı dayanır. Sanki əsərdəki şair obrazı şəhidliklə qaziliyin ortaq obrazına çevrilir. Poemadan gətirilən bir nümunə ilə fikrimizi əsaslandıraq:

Qatil gülləsinə qurban gedərkən,
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla,
Vətən göylərinə çəkdi şəhidlər (7; 179).

Adama elə gəlir ki, bu parçada şair ən azı yüz il geriyə dönür, böyük M.Ə.Rəsulzadənin "Bir kərə yüksələn bayraq bir daha enməz" fikrinin həqiqətə çevrildiyinə işarə edir. Bu əsəri şairin digər zamanlarda yazdığı əsərlərlə yanaşı qoyanda onun nə qədər uzaqgörən olduğunu görə bilirik. İstər torpaqlarımızın iki yerə bölündüyünü əks etdirən «Gülüstan» əsərində, istər «Şəhid məzarları» şeirində, istərsə də digərlərində... Bu cür misalların sayını artırmaq da olar. Elə dediklərimizin üzərində dayanıb ona əsaslanaraq deyə bilərik ki, Bəxtiyar Vahabzadə Vətənini, millətini, ana dilini sevən, ona vurğun olan milli, hətta sözün əsl gerçək mənasında millətçi şairdir. Məncə, milli və millətçi olmaq heç də dünyəvilikdən uzaqlaşmaq, dünyaya qarşı çıxmaq deyil. Çünki milli varlığını qorumaqla bəşəri dəyərlərə malik ola bilərsən. Bir sözlə, dünyəvilik millilikdən keçir. Dünyəvilik milliliyin təməl daşları üzərində olanda daha yaxşı, gözəl və gerçək görünür. Ona görə də Bəxtiyar Vahabzadə yaradıcılığına nəzər yetirsək, onun həm yazdıqlarının, həm də özünün məhz bu cür göründüyünün şahidi oluruq. Beləliklə, buradan çıxan son nəticə də o olur ki, dahi şair nə qədər millidirsə, o qədər də dünyəvidir. Bir tədqiqatçı kimi sözümü dedikdən sonra yekun olaraq bu dahi şairin azad ruhuna öz şeirimlə sığal çəkmək istəyirəm. Necə ki, şair özü də belə demişdir:
Qatlayıb dizinin altına qoyar,
Alim Bəxtiyarı şair Bəxtiyar.

Təbii ki, ölçüyə gələ bilməyəcək bu alim şairi sözlə də ifadə etmək çox çətin olduğu üçün ruhuna öz şeirlərimlə sığal çəkməyə çalışdım:

Yanıb Qətrə-Qətrə Bəxtiyar Oldun
Bir sönməz ilhamla yazıb-yaratdın,
Sözün meydanında ixtiyar oldun.
Ömrünü əritdin millət yolunda,
Sən özün taleyə, bəxtə yar oldun.

Sözün mayalandı doğrudan, düzdən,
İşlədi dərinə, getmədi üzdən,
Dikəldin çinartək soykökümüzdən,
Ruhun var olduqca özün var oldun.

"Birdir Azərbaycan – birdir can!" yazdın,
Yurdumun şəninə çox dastan yazdın,
Ən qorxunc zamanda "Gülüstan" yazdın,
Ən cavan çağında saçı qar oldun.

Yaşatdın Vətənin eşqini təndə,
Ucaldın bayraqtək göylərə sən də,
Şəhid oğullara ağı deyəndə,
Bir gün kaman oldun, bir gün tar oldun.

Haqqın, ədalətin səndin hakimi,
Qaldın tarixlərdə böyük ad kimi,
Sevildin əbədi bir ustad kimi,
Ən gözəl dillərə belə car oldun.

Ellər qarşıladı çiçəklə, güllə,
Zirvəyə apardı qalxdığın pillə,
Bu xalqa yadlardan dəyəndə güllə,
Dözmədin, talandın, tarimar oldun.

Bir bayraq, bir Vətən – bu idi andın,
Vicdanı həmişə Allahın sandın,
"Şam əgər yanmırsa..." – dedin və yandın,
Yanıb qətrə-qətrə Bəxtiyar oldun. (1; 284)

ADIN DA, ÖZÜN DƏ BƏXTİYAR OLDU

Endin lap dərinə, kökündə qaldın,
Sən özün soy oldun azadlığına.
Ağırdın, öz ağır çəkində qaldın,
Boy verdin, boy oldun azadlığına.

Yüz eşqin şamını sevindirdin sən,
Daşını, damını sevindirdin sən,
Hürr oldun, hamını sevindirdin sən,
Hoyunla hoy oldun azadlığına.

Yanaraq közün də Bəxtiyar oldu,
Aynuram, sözün də Bəxtiyar oldu,
Adın da, özün də Bəxtiyar oldu,
Toy etdin, toy oldun azadlığına. (1; 285)

Yekun olaraq demək istərdim ki, XX əsrin 80-90-cı illərində Azərbaycanda baş verən milli azadlıq hərəkatının kökü ustad şairin 50-60-cı illərə aid "sandıq ədəniyyatı"nın əsasında formalaşaraq özünün ən yüksək mərhələsini yaşadı. İstiqlalın şirinliyinin dadılması üçün neçə-neçə acılardan keçməyin diaqnozunu qoyan şair köləliyin özünü köləyə döndərənlərdən olmuşdur. Bu baxımdan B.Vahabzadə yaradıcılığı da onun özü kimi azadlıqsevərdir. Təkcə Azərbaycanın yox, bütün Türk dünyasının istiqlalsevər şairi olan B.Vahabzadənin yaradıcılığı millətimizin ömrü qədər həmişə əbədiyaşar, cavan və möhtəşəm olacaqdır. Bu möhtəşəmlik, bu cavanlıq onun poeziyasında sözün əsl mənasında özünü göstərir. Əbədiyyət qazanmış bu insana və onun əbədi poeziyasına eşq olsun.

ƏDƏBİYYAT

1. Aynur Qafarlı. Dənizdir, günəşdir, nəğmədir, mənəm. «Elm və təhsil», Bakı, 2021, s.321.
2. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. I cild, «Öndər nəşriyyat», Bakı, 2004, s.328.
3. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. II cild, «Öndər nəşriyyat», Bakı, 2004, s.318.
4. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Afət Süleymanova, Təranə Bağırova. «Təhsil Nəşriyyat-Poliqrafiya» , Bakı, 2017, s.240.
5. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Soltan Əliyev, Bilal Həsənov, Aynur Mustafayeva, Sədaqət Məmmədova. «Şərq-Qərb», Bakı, 2016, s.208.
6. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Bilal Həsənov, Aynur Mustafayeva, Soltan Əliyev, Nuriyyə Verdiyeva. «Şərq-Qərb» , Bakı, 2016, s.224.
7. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. İsa Həbibbəyli, Soltan Əliyev, Bilal Həsənov, Aynur Mustafayeva. «Bakı», Bakı, 2016, s.208.

BAKHTIYAR VAHABZADE'S DRAMA CREATION: STAGED NATIONAL IDENTITY, HISTORICALITY AND HUMAN VALUES

ДРАМАТИЧЕСКОЕ ТВОРЧЕСТВО БАХТИЯРА ВАГАБЗАДЕ: ПОСТАНОВОЧНАЯ НАЦИОНАЛЬНАЯ ИДЕНТИЧНОСТЬ, ИСТОРИЯ И ЧЕЛОВЕЧЕСКИЕ ЦЕННОСТИ

BƏXTİYAR VAHABZADƏNİN DRAM YARADICILIĞI: MİLLİ KİMLİK, TARİXİLİK VƏ İNSANİ DƏYƏRLƏRİN SƏHNƏLƏŞDİRİLMƏSİ

Nurlana Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Naxçıvan DövlətUniversiteti
Orcid: 0009-0009-1084-1640
Şəhla Şirəliyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Naxçıvan Dövlət Universiteti
Orcid: 0000-0002-4197-0640

Abstract
Bakhtiyar Vahabzadeh created works that served the national awakening of our people in the new Azerbaijani poetry, kept the ideas of independence and freedom alive throughout his entire creative work, and combined the traditions of wisdom and philosophical depth of our ancient poetry with the modern poetic style. As one of the prominent representatives of Azerbaijani literature, B. Vahabzadeh created valuable, valuable, thought-provoking works not only in the field of poetry, but also in the field of dramaturgy, and reflected our society like a "mirror". His dramatic works attract attention as an artistic expression of national and spiritual values, the search for freedom, justice, and truth.
Bakhtiyar Vahabzadeh developed the traditions of Samad Vurgun in the field of verse drama. His dramaturgy, like his poetry, is built on the motifs of patriotism, folk hymns, protest against moral ugliness, and immorality. His dramatic work is also built around themes such as national identity, freedom, spiritual values, and patriotism. In Vahabzadeh's dramatic works, along with traces of classical dramaturgy, poetic narration and philosophical and thought-provoking moments are also in the foreground. In his dramatic works, the inner world of the heroes, their spiritual suffering, and their struggle with society and conscience are fully presented to the reader's judgment. He managed to bring the soul, past, and future of the Azerbaijani people to the stage through the language of his characters, and created a series of philosophical treatises that prompt our society to think.
Keywords: national identity, conscience, drama, poem, freedom, justice, philosophical depth

Резюме
Бахтияр Вагабзаде создал произведения, которые послужили национальному пробуждению нашего народа в новой азербайджанской поэзии, на протяжении всего своего творчества поддерживал идеи независимости и свободы, сочетал традиции мудрости и философской глубины нашей древней поэзии с современным поэтическим стилем. Будучи одним из видных представителей азербайджанской литературы, Б. Вагабзаде создал ценные, ценные, заставляющие задуматься произведения не только в области поэзии, но и в области драматургии, отражая наше общество, как «зеркало». Его драматические произведения привлекают внимание как художественное выражение национальных и духовных ценностей, поиска свободы, справедливости и правды.
Бахтияр Вагабзаде развил традиции Самеда Вургуна в области стиховой драматургии. Его драматургия, как и поэзия, основана на мотивах патриотизма, народных гимнов, протеста

против морального уродства и безнравственности. Кроме того, его драматическое творчество строится вокруг таких тем, как национальная идентичность, свобода, духовные ценности и патриотизм. В драматических произведениях Вахабзаде наряду со следами классической драматургии на первый план выходят также поэтическое повествование, философские и размышления. В его драматических произведениях внутренний мир героев, их душевные страдания, борьба с обществом и совестью полностью представлены на суд читателя. Он сумел посредством языка своих образов передать на сцене дух, прошлое и будущее азербайджанского народа, создал ряд философских трактатов, заставивших наше общество задуматься.

Ключевые слова: национальная идентичность, совесть, драма, поэма, свобода, справедливость, философская глубина

Xülasə

Bəxtiyar Vahabzadə yeni Azərbaycan poeziyasında xalqımızın milli oyanışına xidmət edən əsərlər yaratmış, bütün yaradıcılığı boyu istiqlal və azadlıq ideyalarını yaşatmış, qədim şeirimizin müdriklik, fəlsəfi dərinlik ənənələrini müasir şeir üslubu ilə birləşdirmişdir. B.Vahabzadə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri kimi, yalnız poeziya sahəsində deyil, həm də dramaturgiya sahəsində də dəyərli, qiymətli, düşündürən əsərlər yaratmış və cəmiyyətimizi "güzgü" kimi əks etdirmişdir. Onun dram əsərləri milli- mənəvi dəyərlərin, azadlıq, ədalət, haqq axtarışlarının bədii ifadəsi kimi diqqəti cəlb edir.

Bəxtiyar Vahabzadə mənzum dram sahəsində Səməd Vurğun ənənələrini inkişaf etdirmişdir. Dramaturgiyası da poeziyası kimi vətənpərvərlik, xalq tərənnümü, mənəvi eybəcərliyə, əxlaqsızlığa etiraz motivləri üzərində qurulmuşdur. Həmçinin, onun dram yaradıcılığı milli kimlik, azadlıq, mənəvi dəyərlər və vətənpərvərlik kimi mövzular ətrafında qurulmuşdur.

Vahabzadənin dram əsərlərində klassik dramaturgiyanın izləri ilə yanaşı, poetik təhkiyə və fəlsəfi, düşündürücü məqamlar da ön plandadır. Onun dram əsərlərində qəhrəmanların daxili aləmi, mənəvi iztirabı, cəmiyyətlə və vicdanı ilə mübarizəsi dolğun şəkildə oxucunun mühakiməsinə təqdim olunur. O, obrazlarının dili ilə Azərbaycan xalqının ruhunu, keçmişini və gələcəyini səhnəyə gətirməyi bacarmış, cəmiyyətimizi düşüncəyə sövq edən fəlsəfi traktat silsiləsi yaratmışdır.

Açar sözlər: milli kimlik, vicdan, dram, mənzum, azadlıq, ədalət, fəlsəfi dərinlik

Giriş:

Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatında çoxşaxəli yaradıcılığı ilə seçilən sənətkarlardan olmaqla yanaşı, xalq şairi, dramaturq, ədəbiyyatşünas - alim, ictimai xadim kimi milli ədəbiyyatımızın ən parlaq səhifələrindən birini təşkil edir. Azərbaycan ədəbiyyatının parlaq simalarından biri olan Bəxtiyar Vahabzadə ədəbi fəaliyyətində həm lirik şair, həm də dramaturq kimi ədəbiyyat tariximizdə xüsusi yer tutur. Bəxtiyar Vahabzadə Sovet hakimiyyətinin tüğyan etdiyi bir dönəmdə, senzuranın sərt qaydalarının şərtləri altında yazsa da, onun dram əsərlərində vətən sevgisi, azadlıq ideyası, insan vicdanı və milli özünüdərk kimi mövzular qabarıq şəkildə ifadə olunmuşdur. Onun yazdığı dram əsərlərində ədib insanı zamanın və cəmiyyətin aynasında təqdim edərək onu daxili təlatümlərlə qarşılaşdırır.

Ədibin dram əsərləri təkcə səhnə nümunəsi deyil, eyni zamanda ictimai fikrin məhsulu kimi dəyərlidir. Poemalarında olduğu kimi, dram yaradıcılığında da milli kimliyun qorunması, tarixi faktların və yaddaşın yaşadılması, insanın öz vicdanına sadiqliyi, vicdanı qarşısında mənəvi hesabatın verilməsi əsərlərinin əsas ideya -məzmununun qayəsini təşkil edir. Ədibin "Vicdan", "İkinci səs", "Yağışdan sonra", "Yollara iz düşür" əsərləri nəsrlə, "Fəryad" əsəri isə nəzmlə yazılmış dram əsərləri sırasındadır.

Əsas hissə:

Məlumdur ki, milli kimlik hər bir xalqın özünüdərk prosesi üçün əsas mərhələdir. Bədii ədəbiyyat da bu prosesin hər zaman güzgüsü olmuş, bu ideyaların gələcək nəsillərə ötürülməsi üçün aparıcı qüvvə olmuşdur.

XX əsrin ikinci yarısından etibarən Azərbaycan ədəbiyyatında milli kimlik məsələləri daha çox aktuallıq kəsb etmiş və bu ideya Bəxtiyar Vahabzadənin yaradıcılığında öz əksini dolğun şəkildə tapmışdır. Milli dəyərlərimizi, tarixi yaddaşımızı ədəbiyyata gətirən dramaturq B.Vahabzadənin dram yaradıcılığında xalqımızın tarixi keçmişinə olan müraciət onun milli kimlik anlayışını zənginləşdirən əsas vasitələrdəndir. Onu da qeyd edək ki, Bəxtiyar Vahabzadənin dram əsərləri milli kimliyin qorunması və təbliğ olunması baxımından diqqətəlayiq mənbələrdəndir.

Ədibin dram əsərlərindən olan "İkinci səs" əsərində insanın vicdanı ilə milli yaddaş arasında olan ziddiyyətlər dramaturji konfliktin əsasını təşkil edir. Əsərdə əsas ideya fərdin içindəki "ikinci səs" – vicdanın səsi ilə milli mənsubluq arasında vəhdətin təşkil olunmasıdır. Əsərdə "ikinci səs" anlayışı, təkcə daxili mənəvi nəzarət deyil, həm də xalqın, millətin yaddaşından gələn çağırış nidasıdır. Dramaturqun "İkinci səs" adlı pyesi 1968- 1969- cu illər arasında qələmə alınmış, üç məclis, doqquz səhnədən ibarət dram əsəridir. Sənətkarın ikinci "mən" ideyasını elə birinci pyesindən müşahidə edir, bu ideyanın birinci məclisinin birinci səhnəsində sanki epiloq kimi ifadə edilib, mənən ikilik mahiyyətini açdığını görürük:

Daş da qiymətsizdir əldən gedəndə,
Şeytan da səndədir, mələk də səndə.
Kənarda axtarma dost da, düşmən də,
Yaxşı da, yaman da öz içindədir (2, səh. 416).

Əsər boyunca müəllif vurğulayır ki, keçmişini unudan hər bir insan kimliyini də itirə bilər. "İkinci səs" pyesində dramaturq qəhrəmanların zaman - zaman tarixdən, milli adət- ənənələrdən uzaqlaşmağın yaratdığı mənəvi boşluqla üz-üzə qaldığını göstərir. B.Vahabzadə milli kimliyi yaşatmağın, qorumağın yollarından biri kimi milli – mədəni dəyərlərin yaşadılmasını vurğulayır. Müəllif dolayı yolla oxucuya çatdırır ki, dəyərlərin pozulması və adət - ənənələrdən uzaqlaşmaq cəmiyyətin məhvinə, dağılmasına gətirib çıxarır.

Əsərin maraqlı süjet xətlərindən biri kimi, qəhrəmanların özünü yalnız milli mənsubiyyətlərini dərk etdikdən sonra, vicdanlı və mənən bütöv olduğunu göstərən xətlərdir. Bu da o zaman mümkündür ki, milli şüurumuzun və mənliyimizin vəhdəti özünü göstərsin, təsdiqini tapsın.

"İkinci səs" əsərində əsərin qəhrəmanlarından biri kimi müəllif "ikinci səs"in ona dogru yol göstərdiyini, susmağa, laqeyd qalmağa imkan vermədiyini bildirir. Bu vicdan səsi həm fərdi, həm də milli məsuliyyət daşıyır. Əsərdəki ideya budur ki, əgər insan vicdanını dinləmirsə, o , təkcə şəxsi deyil, milli məsuliyyətə, milli kimliyə də xəyanət etmiş olur.

"İkinci səs" dramı Bəxtiyar Vahabzadənin mənəvi – fəlsəfi dünyagörüşünü əks etdirən dərin məzmunlu dram əsəridir. Burada milli kimlik anlayışı yalnız etnik və ya tarixi məsələ deyil, həm də mənəvi borc, vətəndaş məsuliyyəti kimi verilir. Vicdan isə bu kimliyi qorumaq üçün insanın daxilində daim danışan səsdir. Əsərin baş qəhrəmanı öz içində iki səslə - həqiqət və qorxu, milli vicdan arasında qalan bir insanın daxili dialoqunu yaşayır. Burada. ikinci səs – yəni xalqına, millətinə bağlı olan, mənəviyyata söykənən səs - əsas qəhrəmanın həqiqi kimliyini formalaşdırır.

Əsərin məğzində duran əsas xətt onu ifadə edir ki, insanın daxili aləminin mürəkkəbliyi qəhrəmanın bütün təzadlı durumuna baxmayaraq, həm də səhvlərini etiraf etmək imkanına malikdir. Əsas obraz olan Rəşad elmi – tədqiqat institutunda tanınmış alimdir. O, həyatının çətin mərhələsini bundan sonra yaşayır. Baxmayaraq ki, güzəranını yaradıb, amma Rəşadın həyatında ən fəlakətli məqam mənəvi əzablarla bağlıdır. Rəşad 12 ildir ki, ailə qurub, İradə adlı bir qızı var. Həyat yoldaşı olan Həyat onu

bir ər kimi sevir, onun hər sözü Həyat üçün qanundur. Həyat yaxşı anadır. Ailəsinin xoşbəxtliyi üçün çalışır. Lakin sonrakı gediş göstərir ki, Rəşadın ailəsindən soyumasında Həyatın da səhvləri çoxdur. Rəşad gənc həkim olan Arzunu sevir. Arzu da, Rəşad da zahirən özlərini xoşbəxt hiss etsələr də, daxilən hədsiz narahatdılar. Rəşad ardıcıl olaraq "azad sevgi uğrunda" hər şeydən, hətta ailədən keçəcəyini nümayişkaranə şəkildə bəyan edir: əslində bu barədə Arzuya qəti sözünü deyir, lakin camaat arasında bu barədə danışılmasının əleyhinədir.

Bu surətin daxilən tərəddüdü, özünəinamsızlığı kimi qiymətləndirilir. Lakin sonda Rəşadın bir ata, bir ailə başçısı olaraq sevgisi daha üstün gəlir. Əslində təsvir edilən Rəşad obrazı vəziyyəti anlamaq baxımından Arzu ilə müqayisədə naqisdir. Belə ki, dramaturqun ikinci obraz qismində yaratdığı xəyali obrazlar həm Rəşadın, həm də Arzunun vicdanı qarşısında çıxış edirlər. "İkinci" surətlər hədsiz inadlı, yetkindirlər. Təsadüfi deyil ki, "ikinci Rəşad" özünü Rəşada ona "kənardan baxan vicdanının səsi" kimi təqdim edir. Rəşada dəfələrlə məntiqi suallar verir, cavab almağa çalışır. Vicdanının səsi isə : "İnsanlar məndən qaçanda cinayət törədirlər."- deyir.

İlk söhbətlərdə vicdanın hökmü hiss edilməsə də, sonradan artıq o, Rəşad tərəfindən anlaşılmağa başlayır. Rəşad hər yerdə tikan üstündə oturmuş kimidir. Digər tərəfdən də, qadınına qarşı getdikcə soyuyur. Qadını keçirdiyi streslərdən xəstəxanaya düşür. Rəşad o dərəcədə "imtinaya" çatır ki, qadınının həkimə aparılmasına laqeyddir. Arzunun ürəklə Həyatı müalicə etməsi, hadisələri düyünləşdirir. Qadınının xəstə yatmasından neçə gün sonra qızının zəngi ilə gəlib çıxan Rəşad Arzunun Həyatı müalicə etməsini anlaya bilmir, qadınını acılayır. Digər tərəfdən, Həyatın qardaşı, doktor Fikrətin Arzunu sevməsi onun düşdüyü faciəli durumdan xəbər verir. Arzu Rəşadı ürəkdən sevir. O, məhz insanlıq naminə sevgisindən imtina edir.

Bütün bunlar bizə həyat, dünya, ailəçilik ənənəsi barədə daha ciddi düşnməyə əsas verir. Əsərdə əsas surətlərin etirafları düşündürücüdür. İnsan öz- özü ilə üz- üzə qalırsa, daxili aləmini özünə inamlı səviyyədə və güzəştsiz təhlil edirsə, deməli, doğru, düzgün qənaətə gələ bilər. Bu mənada müəllifin əsas surətlərin "ikinci obraz"ını yaratması təqdirəlayiqdir.

Bu ənənə klassik dramaturgiyada da mövcuddur. Hər bir insanın daxilində ikinci bir "mən" var. İnsanın daxili dünyasından gələn səsin hökmü qəti, amansız olur. O, səsin tələbinə uyğun yaşayanlar həmişə fərəhli olur.

Xalq taleyi, insani fəlsəfi idrak, tarixilik, milli soykökümüzə bağlılıq şairin bütün əsərlərinin bünövrəsini təşkil edirdi. Məhz Müasir Azərbaycan dramaturgiyasının yeni qələbəsi hesab edilməyə layiq olan "Özümüzü kəsən qılınc" əsəri 1450 il bundan əvvəl güclü bir dövlət kimi tanınan Göytürklərin dövlət başçıları haqqında qələmə alınmışdır. Müəllif son dərəcə təzadlı konfliktlərin bədii və obrazlı həlli vasitəsi ilə böyük bir tarixi dövrün ibrətamiz inikasını yaratmışdı. Burada təsvir olunan hadisələr tamaşaçını əsərin sonuna qədər dərin bir həyəcan içərisində saxlayır, onu düşünməyə, bu mürəkkəb münaqişələrin çözülməsi üçün yollar aramağa çağırır.

Pyes böyük türk yazarı Nihal Atsızın xatirəsinə həsr edilib və eramızın 630 -cu ilində Çinin dağıtdığı I Göytürk xaqanlığının mübarizə tarixindən bəhs edir. "Dədə Qorqud" dastanlarındakı motivlər əsasında yazılan "Özümüzü kəsən qılınc" pyesi tarixi mövzudadır. Müəllif özümüzü kəsən qılınc dedikdə, qədim türk tayfaları arasındakı düşmənçiliyi, müharibələri nəzərdə tutur. Məcazi- simvolik mənası olan süjet tayfaçılığın, yerliçiliyin təhlükəli olduğuna, düşmənlərimizin bundan bizə qarşı istifadə etdiyinə işarə idi.

Tənqidçi Nizami Cəfərov " Bir tamaşa haqqında bir neçə söz" məqaləsində yazır: "Göytürklərin premyerasından sonrakı geniş müzakirədə mən belə bir arzumu bildirdim ki,bu tamaşa mümkün qədər bütün türk dünyasına çatdırılmalıdır. Çünki, müstəqil dövlət quruculuğu yolunda olan müasir türk xalqlarının, demək olar ki, hamısı haqqında söhbət gedən problemlərlə qarşılaşırlar. Yəni, yalnız biz deyil, iş elə gətirib ki, türkmənlər də, özbəklər də, qazaxlar da, tatarlar da, altaylar da qədim tarixlərindən ayrı düşmüş ortaq etnokulturoloji maraqlarını çox hallarda qeyd etmişlər..

Nəticə etibarilə deyə bilərəm ki, Bəxtiyar Vahabzadə ümumən türk xalqları səhnəsinə möhtəşəm bir əsər vermişdir, həmin əəsr öz böyük missiyasını gərəyincə yerinə yetirir, bundan sonra da yetirəcəkdir " (6, səh.11).

Əsərdə əsas fikir Azərbaycanın parçalanmağı və bu parçalanmanın xalqın kimliyinə, ruhuna vurduğu zərbənin əksidir. Vahabzadə burada "qılınc" simvolu ilə təkcə fiziki deyil, həm də mənəvi bölünməni əks etdirir və bildirir ki, qılınc həm düşməni məhv edən, həm də özünə qarşı çevrilə bilən təhlükəli bir vasitədir. "Özümüzü kəsən" ifadəsi həm daxili ayrılıqları, həm də yad ideologiyaların təsiri ilə öz kökünə, kimliyinə qarşı çıxmağı simvollaşdırır.

"Özümüzü kəsən qılınc" pyesi zəngin fəlsəfi, emosional yüklü səhnələrlə doludur. Xarakterlər arasında gedən mübahisələr milli özünüdərk, tarixi yaddaş və gələcək nəsillərin taleyi ətrafında qurulur. Bu da pyesin təkcə ədəbi yox, həm də ideoloji və mənəvi yükünü artırır.

Belə bir əsər, qədim tariximizin, o cümlədən millətimizin qədim köklərinin tarixinin böyük bir səhifəsini açıb, ictimaiyyətə göstərdi. Bunun özü böyük bir işdir, böyük bir yaradıcılıq qələbəsidir. Qeyd edim ki, bu pyes dramaturqun ilk tarixi əsəri deyildi, lakin o, şairin dram yaradıcılığında böyük və yeni bir mərhələni təşkil edirdi, burada müəllifin yüksək vətəndaşlıq pafosu özünü parlaq bir şəkildə göstərirdi.

Ədibin tarixilik nöqteyi – nəzərdən yazdığı əsərləri içərisində "Fəryad " pyesi də xüsusi yer tutur. Nəsimiyə həsr olunmuş bu əsərdə hadisələr xalqımızın XIV əsrdə yaşamış böyük mütəfəkkir, üsyankar şairi ətrafında cərəyan edir. Nəsimini biz burada ictimai – siyasi fikrimizin qüdrətli bir şəxsiyyəti, mahir söz ustası kimi görürük. O, dövrünün ictimai- siyasi hadisələrini öz ideyaları ilə tənqid atəşinə tutan, zəmanəsini çəkinmədən qamçılayan, xalqın qəhrəmanlıq simasını özündə əks etdirən mütəfəkkir şairdir.

Əsərin adından da göründüyü kimi, ölkədə gedən ictimai-siyasi proseslər, insanların hüquqsuzluğuna, ictimai-siyasi ədalətsizliyə gətirib çıxarır, bərabərsizliyin hökm sürdüyü bir ölkədə qanı içilən, haqqı göz qabağında tapdalanan insanların fəryad səsinə çevrilir. Fikir, şəxsiyyət azadlığı bir ideya olaraq əsərin əsas leytmotivini təşkil edir. "Özümüzü kəsən qılınc" da olduğu kimi, bu əsərdə də iki cəbhə - xeyir və şər qarşı-qarşıya qoyulur, hər iki tərəfin mübarizəsi hadisələrin gedişatında böyük bir ideyaya çevrilir. Tamaşaçı hadisələrin cərəyanını həyəcanla izləyir, xeyirin şər üzərində təntənəsini səbirsizliklə gözləyir.

Xeyrin tərəfində yəni müsbət cəbhədə mübarizə aparan obrazların timsalında hürufilikdən, nəsimiçilik ideyalarından, insanın insana məhəbbətindən və s. geniş söhbət açılır. Xalqın, millətin taleyi insan konsepsiyası əsərdə şərə qarşı yaradılmış bir cəbhə kimi tamaşaçıya təqdim olunur. Sənətkarlıq baxımından B.Vahabzadə Nəsimi üsyankarlığını yaratdığı obrazların dili ilə əsərin fəryadına çevirir.

Zülmə, işgəncəyə qarşı üsyan səsini qaldıran, ağıllı, təmkinli, müdrik hərəkətlərində, davranışlarında xeyirxahlıq timsalı olan, dar ağcına qaldırılan Çalpapaq, heç bir günahı olmadan zindanlara atılan Rəhman, həssaslığı, zərifliyi, insanlara qayğıkeş münasibətləri ilə seçilən Aypara, hürufiliyə üz tutan, həqiqət yolunda döyüşənlərə qoşulan, atasının əqidəsinə zidd gedən Dəyanət, zindanlarda sızıltısı yerlə - göyə sığmayan Sübhan, hər cür ehkamların əleyhinə çıxan haqq- ədalət uğrunda mübarizə aparan adamların tərəfinə keçən Vəliəhd kimi insanlar öz nəcib əməlləri ilə tamaşaçı qəlbində dərin iz buraxır və onları düşünməyə vadar edir.

Xalq şairi Süleyman Rüstəm vaxtilə yazırdı : "Son illər şair Bəxtiyar Vahabzadənin imzası yanına bir ad da əlavə olunub – dramaturq. "Fəryad" pyesinə baxanlar bu adın nə dərəcədə doğru- düzgün olduğunu təsdiq edə bilərlər. Bir tamaşaçı kimi mənim fikrim belədir. Səməd Vurğunun "Vaqif" dramından sonra "Fəryad" pyesi dramaturgiyamızda olan böyük bir boşluğu doldurdu ".

Mənzum dram olan "Fəryad" əsərinin proloqunda məhbuslar (Rəhman, Sübhan, Kəramət) dar ağacı qururlar. Şair mövqeyi:

Bütün ağacların kökü var ikən,
Köklü dar ağacı heç gördünmü sən? (2, səh.495).

Əsərdə hadisələrin gedişatı göstərir ki, yalançılıq, ikiüzlülük, riyakarlıq, dələduzluq, rüşvətxorluq və s. motivlər düzlüyün, həqiqətin , reallığın iti qılıncı qarşısında təslim olur və xeyirin təntənəsi qələbə çalır.

"Fəryad" pyesi B.Vahabzadənin tarixi mövzuda qələmə aldığı son pyesinin adıdır. Dramaturqun bu istiqamətdə ilk qələm təcrübəsi "Dar ağacı"dır. Şərtiliklə tarixilik arasında qarşılıqlı münasibətlərin məhz "Fəryad"da büllurlaşan məzmunu və nisbəti öz ifadəsini hələ "Dar ağacı "nda tapmışdır.

Müəllifi tarixi mövzuya gətirib çıxaran bədii niyyətin orijinallığı və təzə - tərliyi də ilk dəfə burada özünü göstərmişdi. Belə ki, bu pyesda Babək xatırlanır, talelərə və əməllərə onun ruhu və qəhqəhələri ilə yekun vurulur. Şairin tarixi faciə janrında qələmə aldığı "Dar ağacı" pyesi də məzmunca çox maraqlı və ibrətamizdir. Xalq qəhrəmanı yadelli işğalçılara qarşı 20 illik mübarizə aparan Babəkin edam edilməsindən sonra Azərbaycanda cərəyan edən azadlıq mübarizəsi əsərin ana xəttini təşkil edir.

7. Ələkbərov, F. Bəxtiyar Vahabzadənin yaradıcılığında milli istiqlal və milli dil məsələsi: Azərbaycan türkçülüyü ideyası - XXIII /F.Ələkbərov //Vətəndaş həmrəyliyi.- 2012.- 28 dekabr- S.14. 3435. Ələsgərova, S. İdealların mənşəyini insanların əxlaq və mənəviyyatında axtaran şair /Sakibə Ələsgərova //I Beynəlxalq Bəxtiyar Vahabzadə simpoziumunun materialları, 13-15 dekabr 2012.- Bakı, 2012.- s.
8. Əliyev, R. Bəxtiyar Vahabzadənin lirikasi /Ramil Əliyev //I Beynəlxalq Bəxtiyar Vahabzadə simpoziumunun materialları, 13-15 dekabr 2012.- Bakı, 2012.- S.21-27. 3437. Əliyev, P. Bəxtiyar Vahabzadə şeirləri məktəblilərin tərbiyə vasitəsi kimi /Piralı Əliyev //I Beynəlxalq Bəxtiyar Vahabzadə simpoziumunun materialları, 13-15 dekabr 2012.- Bakı, 2012.-s.
9. Hacıyev A. B. Vahabzadə yaradıcılığında milli xarakter problemi // Ədəbi Azərbaycan. - 1985. - No 11. - s. 117-125.
10. Qarayev Y. Bəxtiyar Vahabzadə: şair və vətəndaş. – Bakı: Yazıçı, 1985.
11. Vahabzadə, B. Seçilmiş əsərləri (2 cilddə). I c. Bakı: Azərnəşr, 1974, 283 səh.
12. Vahabzadə, B. Seçilmiş əsərləri (2 cilddə). II c. Bakı: Azərnəşr, 1975, 250 səh.

13. Vahabzadə, B. Sənətkar və zaman. Bakı: Gənclik, 1976, 298 səh.
14. Vahabzadə, B. Açıq söhbət. Bakı: Gənclik, 1977, 173 səh.
15. Vahabzadə, B. Əsərləri (I c.). Bakı: Azərbaycan, 2001, 544 səh.
16. Vahabzadə, B. Əsərləri (II c.). Bakı: Azərbaycan, 2002, 576 səh.
17. Vahabzadə, B. Əsərləri (III c.). Bakı: Azərbaycan, 2002,512 səh.
18. Vahabzadə, B. Əsərləri (IV c.). Bakı: Çaşıoğlu, 2002, 608 səh.
19. Vahabzadə, B . Əsərləri (V c.). Bakı: Çaşıoğlu, 2002, 504 səh

SEIFADDIN DAGL'S NOVEL "THE GAJIL GATE"

SEYFƏDDİN DAĞLININ “GƏCİL QAPISI” ROMANI

Baxışlı Arzu Tofiq
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin doktorantı
Azərbaycan Dövlət Pedaqoji Universitetinin tyutoru

Xülasə
Seyfəddin Dağlının “Gəcil qapısı” romanı Azərbaycan ədəbiyyatında mühüm yer tutan və Cənubi Azərbaycan xalqının həyatını, mübarizəsini və mənəvi dünyasını əks etdirən əhəmiyyətli əsərlərdən biridir. Bu roman Cənubi Azərbaycanla əlaqədar zəngin təəssürat əsasında 1956-1958-ci illərdə qələmə alınmış, ilk dəfə “Azərbaycan” jurnalının 1965-ci il fevral və aprel nömrələrində çap olunmuşdur. Roman Cənubi Azərbaycanda yaşayan soydaşlarımızın mürəkkəb həyatını, onların azadlıq və ədalət uğrunda apardıqları mübarizəni əks etdirir. Əsərdə Təbriz Milli Hökümətinin yaranması, xalqın inqilabi ruhu və bu yolda qarşılaşdıqları çətinliklər təsvir olunur. Yazıçı qəhrəmanların mənəvi gücünü, əyilməz iradəsini və vətənə bağlılığını ön plana çıxararaq oxucunu həmin dövrün hadisələrinə şahid edir. Seyfəddin Dağlı əsərdə canlı və yadda qalan obrazlar yaratmağa nail olub. O, xalq dilinin zənginliyindən istifadə edərək, əsəri oxucu üçün daha da təsirli və inandırıcı etmişdir.
Açar sözlər: roman, mübarizə, xalq, azadlıq

Abstract
Seyfaddin Dagli’s novel “Gajil Gate” is one of the most important works in Azerbaijani literature, reflecting the life, struggle and spiritual world of South |Azerbaijan’s people. This novel was written in 1956-1958 based on rich impressions of South Azerbaijan and was first published in the February and April 1965 issues of the magazine “Azerbaijan”. The novel reflects the complex life of our compatriots living in South Azerbaijan, their struggle for freedom and justice. The work describes the establishment of the Tabriz National Government, the revolutionary spirit of the people and the difficulties they faced on this path. The writer brings to the fore the moral strength, unbending will and devotion to the homeland of the heroes, making the reader witness the events of that period. Seyfaddin Dagli succeeded in creating vivid and memorable images in the work. He made the work even more effective and convincing for the reader by using the richness of the folk language.
Keywords: novel, struggle, people, freedom

Giriş

“Gəcil qapısı” romanı Seyfəddin Dağlının zəngin ədəbi irsinin parlaq nümunələrindən biri olaraq Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutur və oxuculara dərin mənəvi təsir bağışlayır. Roman Cənubi Azərbaycanın milli azadlıq hərəkatını fon olaraq götürsə də, əsas diqqət insan talelərinə və onların mənəvi dünyasına yönəlmişdir. Əsərin adını daşıyan “Gəcil” simvolik məna daşıyır. Azərbaycan xalqının keçilməz görünən çətinliklərini, “bağlı qapıları” metaforik şəkildə ifadə edir. Gəcil bir növ xalqın taleyindəki dönüş nöqtəsidir- keçilməsi çətin olan, lakin keçilməli olan bir sədd.

“Gəcil Qapısı” Romanındakı Obrazlar

Romanda obrazların təhlili əsərin ideya-məzmun yükünü, ictimai-siyasi mənasını daha dərindən anlamağa imkan verir. Əsərin obrazları təkcə fərdi taleləri deyil, bütöv bir xalqın yaşantılarını əks etdirir. Bu cəhətdən “Gəcil qapısı” həm tarixi, həm də psixoloji baxımdan zəngin bədii dəyərə malikdir. Müxtəlif xarakterli insanlar vasitəsilə yazıçı dövrün ictimai-siyasi mənzərəsini, xalqın içində olduğu dilemmanı və gələcəyə ümidlərini oxucuya çatdırır. Yazıçı xəsisliyi ucbatından arvad

almayıb əxlaqsızlığa qurşanan Hacı ağa, əmisi qızının namusunu qorumaq üçün haraya gələn Əjdər, vəzifəsindən sui-istifadə edən Kürən ajan, cındaxanaya başçılıq edən Keçibalası ləqəbli qadın, ərinə göz dağı çəkmək üçün cındaxanaya gəlib düşmüş Cahan xanım, onun şərəfsiz əri ağayi Həmədani kimi insanların xarakterini ustalıqla yarada bilmişdir.

Küşvər Obrazı

Küşvər Cənubi Azərbaycanda yaşayan qadınların ağır həyat şəraitini, hüquqsuzluğunu və cəmiyyətdəki mövqeyini təmsil edən bir obrazdır. O, həm fərdi faciəni, həm də ümumi qadın taleyini əks etdirir. Onun vasitəsilə yazıçı Cənubi Azərbaycanda qadınların yaşadığı çətinlikləri və onların mübarizə ruhunu ustalıqla təsvir etmişdir. Bu obraz oxucunu düşündürür və cəmiyyətin qadınlara qarşı münasibətini yenidən qiymətləndirməyə təşviq edir. Küşvər patriarxal cəmiyyətin və siyasi rejimin qadınlara qarşı tətbiq etdiyi zülmün təcəssümüdür. Onun həyat hekayəsi Cənubi Azərbaycanda qadınların üzləşdiyi sosial və mədəni basqıları əks etdirir. Romanda Küşvər obrazının son taleyi əsərin əsas ideya xəttini tamamlayan dramatik bir hadisədir. Əsərin sonunda onun faciəvi ölümü baş verir. Bu hadisə onun mübarizəsinin və cəmiyyətin dəyişməsi uğrunda apardığı səylərin nə qədər çətin və təhlükəli olduğunu göstərir. Küşvər həm də Cənubi Azərbaycanda qadınların ümumi taleyinin simvoludur.

Hacı Obrazı

Hacı obrazı mühüm simvolik və ideoloji yükə malikdir. O, əsərdə dövrün tipik mühafizəkar və dini dəyərlərlə yaşayan, lakin ikili standartlara malik bir insan kimi təqdim olunur. Hacı zahirən dindar, allah adamı kimi görünməyə çalışsa da əməlləri onun daxili aləminin fərqli olduğunu göstərir. O, dini və mənəvi dəyərləri şəxsi mənafeyi üçün istifadə edən riyakar bir obrazdır. Bu cəhət onu cəmiyyətin dini görkəmli, amma əxlaqı zəif təbəqəsinin nümayəndəsi kimi təqdim edir. Müəllif Hacı obrazı vasitəsilə dini riyakarlığı, cəmiyyətin kor təəssübkeşliyini və saxta dindarlığı ifşa edir. Hacı obrazının şorgözlüyü onun xarakterinin ikiüzlü və riyakar mahiyyətini açan əsas cəhətlərdən biridir. O, cəmiyyət qarşısında özünü mömin, dindar, əxlaqlı bir insan kimi göstərməyə çalışsa da, əslində qadınlara qarşı qeyri-ciddi münasibəti, içində gizlədiyi ehtiras və nəfsinin əsiri olması ilə seçilir. Hacının bir tərəfdən cəmiyyətdə "mömin kişi" kimi tanınması, digər tərəfdən isə qadınlara qarşı qeyri-ciddi münasibəti onun riyakarlığını göstərir. Hacının Küşvərə qarşı gizli hissləri və münasibəti, onun nə qədər əxlaqı zəif, iradəsiz və şorgöz bir insan olduğunu göstərir.

Əjdər Obrazı

Əjdər savadlı, aydın düşüncəli, müasir dünyagörüşünə malik bir gəncdir. O, cəmiyyətdə dəyişiklik yaratmaq, insanlara maarif və azadlıq ideyalarını çatdırmaq istəyən ziyalı təbəqəsinin təmsilçisidir. O, köhnə, mürtəce və zülmkar düşüncəyə qarşı çıxır. Cəmiyyətin ədalətsizliyinə, qadınların hüquqsuzluğuna, insanların azad fikirdən məhrum olmasına qarşı durur. Bu mənada, o, həm ideoloji, həm də mənəvi mübarizənin simvoludur.

Əjdər Küşvərə insani, dürüst və hörmətlə yanaşan bir kişidir. Onun Küşvərlə olan münasibəti sevgidən daha çox anlayış və dəstək üzərində quruludur. Əjdərin bu münasibəti onu Hacı kimi riyakar və obrazlardan fərqləndirir. Əjdər yeni ideyaları daşıyan, lakin köhnə düşüncə sistemi ilə qarşı-qarşıya gələn bir obrazdır. Onun yaşadığı daxili və xarici ziddiyyətlər, gənc nəslin mübarizəsinin çətinliyini göstərir. Əjdər- maarif, azadlıq, islahat və insan haqları ideyalarının təcəssümüdür. O, müəllifin ideallarını daşıyan, gələcəyə ümid verən bir obraz kimi təqdim olunur.

Əjdər obrazı "Gəcil qapısı" romanında dəyişiklik istəyən gənc nəslin simvoludur. O, cəmiyyətin inkişafına, qadın hüquqlarının müdafiəsinə və azad düşüncənin yayılmasına çalışan mütərəqqi bir surətdir. Əsərdə onun mübarizəsi və qarşılaşdığı maneələr, müəllifin ictimai tənqid və islahat ideyasını güclü şəkildə vurğulayır.

Kürən Ajan Obrazı

Romanda Kürən ajan obrazı cəmiyyətin idarəedici təbəqəsinin, hakimiyyət və zorakılıq üzərində qurulmuş sistemin təmsilçisidir. O, həm ideoloji, həm də sosial baxımdan zülm və ədalətsizliyin simvolik daşıyıcısı kimi təqdim olunur. Rəis öz mövqeyini qorumaq üçün zorakılıqdan, təhdiddən və mənəvi basqıdan çəkinmir. O, cəmiyyətdəki qorxu və itaət sistemini saxlayan bir fiqur olaraq çıxış edir. O, qadınlara bir fərd kimi deyil, itaət etməli olan varlıqlar kimi baxır. Onun Küşvər başda olmaqla qadın obrazlarına qarşı münasibəti kobud, sərt və aşağılayıcıdır. Bu yanaşma onu patriarxal zorakılığın birbaşa daşıyıcısı kimi göstərir. O, yalnız bir insan yox, sistem və idarəetmə mexanizmi kimi də şərh olunur. O, dövrün istibdad rejimini, insanların azad fikrinin və hüquqlarının boğulmasını təcəssüm etdirir.

Rəis Küşvərin azadlıq və ləyaqət uğrunda apardığı mübarizəyə qarşı duran əsas maneələrdən biridir. Onun varlığı Küşvərin həyatında həm fiziki, həm də mənəvi təzyiq kimi hiss olunur.

Nəticə

Seyfəddin Dağlının “Gəcil qapısı” romanında imperializmin, müstəmləkəçiliyin və yaramaz mühitin mahiyyətindən irəli gələn faciələr, eybəcərliklər, özbaşınalıqlar sənətkarlıqla əks olunmuşdur. Əsər bizdə təsvir etdiyi aləmə, ictimai quruluşun törətdiyi yaramazlıqlara qarşı ikrah hissi doğurur.

Ədəbiyyat

1. Dağlı, S. Gəcil Qapısı. Bakı: Adalia, 2023, 171 s.
2. Əliqızı, A. Güney Azərbaycan zamanın məngənəsində. Bakı: Elm və təhsil, 2011, 112 s.
3. Hüseynova, S. (2015). Ədəbiyyatda tarixi və müasir gerçəkliyin bədii inikası problemi (Seyfəddin Dağlının yaradıcılığı əsasında). Avtoreferat.
4. Xəlilzadə, F. “Məşəl”dən düşən işıq. “Azərbaycan” qəzeti. 2006, 30 avqust, s.6
5. Turan, A. Ustad və cəsarətli sənətkar – Seyfəddin Dağlı. “Türküstan” qəzeti. 2023, 19-25 sentyabr, s.11

USING ACTIVE TEACHING METHODS IN SPEECH DEVELOPMENT

NİTQ İNKİŞAFINDA FƏAL TƏLİM METODLARINDAN İSTİFADƏ

Baxşiyeva Sevinc Soltanmecid qızı
ADPU-nun Şamaxı filialının Dil-ədəbiyyat və onların tədrisi texnologiyası kafedrasının müəllimi
Dil və ədəbiyyatın tədrisi

Rəhimova Mətanət Cümşüd qızı
ADPU-nun Şamaxı filialının Riyaziyyat və informatika

Xülasə
Fəal / interaktiv təlim idrak fəaliyyətinin təşkili və idarə olunması metodlarının məcmusudur. Fəal/interaktiv təlim müəllimin iştirakı ilə şagirdlərin müxtəlif informasiy mənbələri (dərslik,xəritə,illlüstrasiya, oxu materialları və s.) və ya bir-birilə ünsiyyət prosesində yeni biliklər əldə etməsinə imkan verən fəal təlim metodlarının daha genişləndirilmiş , dərinləşdirilmiş formasından ibarətdir. Fəal/interakviv təlimin mexanizmi üçün aşağıdakı cəhətlər səciyyəvidir.
Problemli vəziyyətin yaradılması.Şagird problemlə qarşılaşdırılır, onun problemi həll etməyə yönəlməsi nəticəsində idrak fəallığı yaranır.
Dialoqun və əməkdaşlığın zəruriliyi. Fəal təlim dioloji şəraitdə, əməkdaşlıq şəraitində keçirilir. Şagird-tədqiqatçı , müəllim- fasilitator. Fəal təlim zamanı şagird tədqiqatçı, müəllim isə bələdçidir. Şagirdlər bilikləri müstəqil şəkildə tədqiqat nəticəsində əldə edirlər.
Psixoloji dəstək , hörmət və etibar.Şagirdlərin idrak fəallığını saxlamaq üçün müəllimin psixoloji dəstəyi lazımdır. Fəal təlimdə müəllimin xeyirxah münasibəti , şagirdlərə hörmət və etibarı, onların bacarığına inamı mühüm şərtdir.
Nitq inkişafı üzrə iş xarakterinə görə interaktiv mahiyyət kəsb edir və təlim prosesini şagirdlərin marağına uyğun qurmaq, dili öyrənmək, onlarda ədəbi dil normalarına uyğun nitq fəaliyyətinə həvəs yaratmaq mühüm amil kimi meydana çıxır. Şagirdlərin biliklərə yiyələnməsi kommunikativ bacarıq və vərdişlərdən asılıdır, çünki hər bir fənnin tədrisi nitqlə həyata keçirilir, nitqlə reallaşır.
Fəal təlim metodları əsasında təşkil olunan dərs üç əsas mərhələdən keçir:
1.Düşünməyə yönəlmə mərhələsində fəaliyyətin bir neçə dərketmə növü həyata keçirilir.Əvvəla , şagirdlər verilmiş mövzular haqqında biliklərinin bərpasına nail olurlar.Bu mərhələ onları öz biliklərini bərpa etməyə və araşdıracaqları mövzu haqqında düşünməyə məcbur edir. Həmin ilkin fəaliyyət vasitəsilə şagird mövzu ilə əlaqədar öz biliklərinin səviyyəsini müəyyənləşdirir ki, bunlara yeni biliklər də əlavə oluna bilər.
2.Dərketmə mərhələsində şagird yeni informasiya və ideyalarla təmasda olur. Bu təmas mətnin oxunması, nağıletmə, çıxışın dinlənilməsi, dialoji və monoloji nitq nümunəsinin təşkili, filmə baxış və s. formasında ola bilər.
3.Düşünmə mərhələsi.Bu zaman şagirdlər yeni qazandıqları bilikləri möhkəmləndirir və öz təsəvvürlərini yenidən qururlar ki, bunlara yeni anlayışları da əlavə edə bilsinlər. Dərsin düşünmə mərhələsində bir neçə mühüm məqsədə nail olmaq planlaşdırılır.
Açar söz: İnteraktiv təlim, nitq inkişafı,texnologiya, strategiya, əməkdaşlıq

Abstract
Active/interactive learning is a set of methods for organizing and managing cognitive activity. Active/interactive learning is a more expanded, deepened form of active learning methods that allow students to acquire new knowledge through various information sources (textbook, map, illustration,

reading materials, etc.) or in the process of communicating with each other, with the participation of the teacher. The following features are characteristic of the mechanism of active/interactive learning.
Creating a problem situation. The student is confronted with a problem, and as a result of his orientation to solving the problem, cognitive activity arises.
The necessity of dialogue and cooperation. Active learning takes place in a dialogical environment, in a cooperative environment.
Student-researcher, teacher-facilitator. During active learning, the student is the researcher, and the teacher is the guide. Students acquire knowledge independently as a result of research.
Psychological support, respect and trust. To maintain the cognitive activity of students, the teacher's psychological support is necessary. In active learning, the teacher's benevolent attitude, respect and trust for students, and confidence in their abilities are important conditions.
The work on speech development is interactive in nature and it is an important factor to build the learning process according to the interests of students, to learn the language, and to create in them a desire for speech activity in accordance with the norms of the literary language. The acquisition of knowledge by students depends on communicative skills and habits, because the teaching of each subject is carried out through speech, is realized through speech.
A lesson organized on the basis of active learning methods goes through three main stages:
1. In the stage of thinking orientation, several types of cognitive activities are carried out. First, students achieve restoration of their knowledge about the given topics. This stage forces them to restore their knowledge and think about the topic they will study. Through this initial activity, the student determines the level of their knowledge regarding the topic, to which new knowledge can be added.
2. In the stage of perception, the student comes into contact with new information and ideas. This contact can be in the form of reading a text, storytelling, listening to a speech, organizing a dialogic and monologue speech example, watching a film, etc.
3. The stage of thinking. At this time, students consolidate their newly acquired knowledge and rebuild their ideas so that they can add new concepts to them. Several important goals are planned to be achieved in the thinking stage of the lesson.
Keywords: Interactive learning, speech development, technology, strategy, collaboration

Giriş:
Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (I-IV siniflər) ibtidai siniflərdə bu fənnin spesifik xüsusiyyətlərini , Azərbaycan dili tədrisinin məqsəd və vəzifələrini , təlimin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün fəaliyyətləri özündə əks etdirir. Ümumitəhsil məktəblərində Azərbaycan dilinin tədrisi milli maraqlar və dövlətçilik baxımından vacib məsələlərdən biri hesab edilir.
Şagird sinifə müəyyəm nitq bacarıqları ilə gəlir. O, ana dilinin köməyi ilə ətraf aləm haqqında müəyyən təsəvvür əldə edir. Bu onun lüğət ehtiyatını zənginləşdirir, dəqiqləşdirir, əşya və hadisələr haqqında fikirlərini formalaşdırır, o, başqalarının dediklərini başa düşməyə çalışır və öz fikrini, arzu və istəyini nitq vasitəsilə qarşı tərəfə çatdırır. Məktəbdə nitq inkişafı üzrə iş sistemli, ardıcıl və mütəşəkkil davam etdirilir. Nitq fəaliyyəti danışma, dinləmə, yazı və oxu proseslərini birləşdirir. Buna görə də nitq daha çox şifahi və yazılı, monoloji və dioloji, zahiri və daxili növlərə bölünür ki, məktəbdə bu nitq növlərinin hər birinin inkişaf etdirilməsi qayğısına qalınır. Məhz Azərbaycan dilinin öyrənilməsi şagirdlərin ünsüyyət imkanlarını genişləndirir, onlarda nitq fəaliyyətinin növləri ilə yanaşı, düşünmə, öyrənmə və danışma bacarıqlarını formalaşdırır. Nəticədə Azərbaycan dili düşünmə, öyrənmə və danışma vasitəsinə çevrilir.Azərbaycan dili ümumtəhsil məktəblərində tədris olunmaqla, şagirdlərd nitq mədəniyyətinin formalaşmasına xidmət edir. Nitqin ahəngdarlığı, məntiqliyi, yığcamlığı, səlisliyi, gözəlliyi və s. gözlənilməklə materialın alçaq tondan başlayaraq uca tona doğru yüksəlməsi,

avazın, tempin dəyişməsi, dinləyiciləri özünə cəlb etmə qabiliyyəti, dilin fonetik imkanlarından bəhrələnməklə cümlədə eyniköklü üzvlərin ardıcıl sıralanması və sadə fikirlərin mürəkkəblərə doğru faktlar və rəqəmlərlə ahəngdar verilməsi nitq mədəniyyətinin əsas komponentləridir və Azərbaycan dilinin yüksək səviyyədə mənimsənilməsi nəticəsində reallaşır.

Şagirdin zəngin söz ehtiyatına malik olması, öz nitqini rəngarəng qura bilməsi üçün nitq inkişafı üzrə işin düzgün təşkili vacibdir. Nitqin zənginliyi dilin ifadə və təsvir vasitələri hesabına başa gəlir. Nitqin zənginliyi dil strukturundan, xüsusən aktiv söz ehtiyatının kəmiyyət və keyfiyyətindən asılı olan məsələdir. İbtidai sinif şagirdlərinin bacarıqlarının inkişafına, nitq mədəniyyətinin formalaşmasına nail olunması, mədəni və savadlı şəxs kimi yetişməsi üçün onlarda Azərbaycan dilində radio-televiziya verilişlərini diqqətlə izləməyə, mütaliəni sevməyə, müxtəlif vasitələrlə - disputlar, bədii gecələr, şair və yazıçılarla görüşlər keçirməklə, sözlərin, ifadələrin, cümlələrin ifadə tərzinə diqqət etmələrinə maraq yaradılmalıdır. Şagirdlər Azərbaycan dili fənni vasitəsilə ana dilini öyrənir, onun səs sisteminə, lüğət ehtiyatına, üslubi qrammatik xüsusiyyətlərinə bələd olur, elmi, bədii, publisistik və digər üslublarda yazılmış ədəbiyyat nümunələri ilə tanış olmaq imkanı qazanırlar.Bədii, elmi, publisistik əsərlərin müntəzəm mütaliəsi şagirdlərin söz ehtiyatını artırır, qeyri-aktiv lüğətlərinin aktivləşməsinə səbəb olur. Şagirdlər Azərbaycan dili vasitəsilə digər fənləri daha yaxşı mənimsəyə bilirlər.

Fəal/interaktiv təlim metodları ən yeni texnologiyalardan biri sayılır.Texnologiya yunan məmşəli söz olub, sənətə sistemli yanaşma deməkdir. Təlim texnologiyası pedoqoji prosesdə biliklər sisteminin öyrənilməsində xüsusi metodlardan istifadə edərək tapşırığı yerinə yetirmək tərzi kimi dərk olunur. Təlim texnologiyası deyəndə, pedoqoji prosesdə təlimin ən yeni və ən səmərəli metodlarından, priyom, tərz və vasitələrindən istifadə etməklə yüksək elmi - intellektual səviyyəyə və nümunəvi mənəvi-əxlaqi normalara malik olan şəxsiyyətin yetişdirilməsi nəzərdə tutulur.

İnteraktiv sözünün lüğəti mənası ingilis dilində qarşılıqlı fəaliyyətə əsaslanan deməkdir. Burada müəllimin istiqaməti ilə şagirdin sərbəst araşdırma aparmaq, öyrənmək fəaliyyəti nəzərdə tutulur. İnteraktiv, qarşılıqlı əlaqə, anlaşma, əməkdaşlıq, dialoq deməkdir. İnteraktiv təlim müəllim və şagirdin qarşılıqlı əlaqəsi, ünsiyyət prosesidir. Bu zaman müəllim tərəfindən problem qoyulur, problemin həll olunması prosesində şagirdlər aktiv, tədqiqatçı mövqeyi tuturlar. Müəllimin əsas vəzifəsi şagirdlərə yol göstərmək , istiqamət vermək, müəyyən çətinlik meydana çıxarsa, onlara yardımçı olmaq, ən başlıcası isə öyrənməyi öyrətməkdir. Bu prosesdə hər iki tərəfin fəallığı mühüm yer tutur.

Fəal,interaktiv və aktiv təlim metodları anlayışları yaxın məna daşıyır və sinonim kimi işlədilir.

Nitq inkişafı təşkili zamanı tətbiq edilən prinsiplər.

Nitq inkişafı üzrə işin təşkili zamanı istiqamətverici ideyalar kimi qəbul edilərək praktikada tətbiq edilməli prinsiplər də aşağıdakılardır:

1.Dil,nitq və təfəkkürün vəhdəti prinsipi.Dil ünsiyyət vasitəsi ,nitq isə bu vasitələrin reallaşmasıdır və hər ikisi təfəkkürlə əlaqəlidir.Nitq inkişafı təfəkkür inkişafını təmin edən ,təfəkkürün inkişafı da nitq inkişafını doğuran və ifafə edən zəruri amillərdir.

2.Fəal nitq mühitinin yaradılması prinsipi.Nitq mühiti elə təşkil olunmalıdır ki,şagird fikirlərini,düşüncələrini söyləməkdən çəkinməsin.Təbii,səmimi nitq mühiti şagirdlərin nitq prosesinə qoşulmasını asanlaşdırır. Onlar söhbət ,müsahibə və nəqletmə zamanı daha sərbəst olurlar.Bütün şagirdlərin nitq fəallığını təmin etmək üçün psixoloji fərqləri nəzərə almaqla süni nitq mühitinin yaradılması da vacib şərtdir.

3.Ədəbi dilin normaları əsasında mədəni nitq vərdişlərinin aşılanması prinsipi. Hər bir şagird Azərbaycan dilinə həssaslıqla yanaşmalı, dilin fonetik, orfoepik, orfoqrafik, leksik, morfoloji, sintaktik, üslubi, semantik normalarını mənimsəməli və nitqində düzgün istifadə etməyi bacarmalıdır. Ədəbi dilə yiyələnməyin özü də nitq mədəniyyətinə sahib olmağa çalışmaqdır. Ədəbi

dil anlayışına mədəni dil, mədəniyyət dili də deyilir. Mədəni nitqə inteqrasiya tələbatı müasir təhsilin strategiyası olub,nitq bacarıq və vərdişlərinin aşılanması üçün əlverişli şərait yaradılmasını qarşıya qoyur.

4.Nitqin növlərinin qarşılıqlı inkişaf etdirilməsi prinsipi. Nitq dilin mövcudluq formasıdır. Nitqin yazılı və şifahi, ümumi və fərdi,aktiv və passiv, monoloji və dialoji, zahiri və daxili növləri daha çox diqqəti cəlb edir. Nitq növləri təcrid edilmiş formada deyil, qarşılıqlı şəkildə inkişaf etdirilməlidir, çünki nitq canlı orqanizmdir və nitq növlərinin hər biri digərinin inkişafını tənzimləyir. Odur ki, nitqin növlərinin inkişafı üzrə işə kompleks yanaşma zəruridir.

5.Yaradıcı nitqə üstünlük verilməsi prinsipi. Nitq inkişafı üzrə işin təşkilində biliklərə sərbəst yiyələnməyi, onları yaradıcı olaraq işləyib tətbiq etməyi öyrədən tapşırıqlar olmalıdır. Şagird strategiyalı oxu zamanı əldə etdiyi biliklərə uyğun olaraq, yaradıcı fəaliyyət göstərməyə alışdırılmalıdır.Yaradıcı tapşırıqların müxtəlif növləri ilə yanaşı, şifahi və yazılı esselər üzrə işin təşkili vacibdir.

6.Nitq inkişafı üzrə işin təşkilinə inteqrativ yanaşma prinsipi.Nitq inkişafı üzrə işin təşkilində inteqrasiya fəndaxili.fənlərarası əlaqələrin məzmununda əks olunur.Nitq inkişafı müxtəlif fənlərdən olan mövzuları əlaqəli surətdə yüksək səmərə ilə öyrənməyə ,çoxsaylı tədris fənlərini bir-biri ilə əlaqələndirməyə və beləliklə , nitq inkişafını ,təlimin məzmununun tamlığını və şagird-lərin təsəvvüründə dünyanın vahid mənzərəsinin inkişafını təmin etməyə imkan verir.

Fəal təlim metodları:

Nitq inkişafı üzrə işin təşkili prosesində tətbiq edilən fəal/interaktiv təlim üsulları. Əqli hücum, klaster(şaxələndirmə), anlayışın çıxarılması, auksion, akvarium, müzakirə,rollu oyun, söz assaosiasiyası, diskusiya, debat, Venn dioqramı, BİBÖ və s. tez-tez istifadə edilən üsullardır.

Əqli hücum.Bu metoddan nitq inkişafı üzrə işin təşkilində problem stuasiya, fikir müxtəlifliyi yarandıqda istifadə olunur. Belə şəraitdə şagird bir anlıq düşünməli olur, yoldaşlarının dedikləri ilə razılaşmadıqda, öz mövqeyini bildirir.

Klaster. Bu metoddan istifadə olunduqda şagirdlərin növ, cins anlayışları barədə təsəvvürlər aydınlaşır, öyrəndikləri bilikləri sistemləşdirmək, möhkəmləndirmək və əldə etdikləri yeni sözlər hesabına lüğət ehtiyatını zənginləşdirmək imkanı qazanırlar. Şaxələndirmə düşündürücü elementlərə malik olduğundan dərsin müxtəlif mərhələlərində, müxtəlif iş formalarında ondan istifadə etmək mümkündür.

Rollu oyunlar. Oxunan materiala aid rollu oyunlar şagirdlərin yaradıcı təxəyyülünü inkişaf etdirir, nitq bacarıqlarını inkişaf etdirir, onlarda ünsiyyət qurmaq vərdişlri yaradır. Şagirdlər bu üsulla keçilən mətni kiçik bir səhnəciklə qura bilirlər. Burada şagirdlər öz fikirlərindən daha çox istifadə etməyə istiqamətləndirilməlidirlər

Diskusiya. Diskusiya prosesində şagirdlər məsələyə münasibət bildirməyi, onları faktlara əsaslanmaqla təhlil etməyi öyrənirlər. Onlarda dinləmək və növbə ilə danışmaq bacarığı , digər fikirlərə dözümlülük, müzakirə apara bilmək mədəniyyəti inkişaf etməyə başlayır.

Debat. Debatlar üçüncü tərəfin irəli sürdüyü dəlillərlə digər iki tərəfi inandırmaq prosesidir.Debatlar ideyaların, fikirlərin toqquşmasıdır və problemlərin yeganə həlli irəli sürülən dəlillərdir. Oxu materiallarının tədrisində debata hazırlıq 5-10 dəqiqə ərzində aparılır.Debatlar şifahi və yazılı olur.

Venn dioqramı. Bu üsulun qrqfik təsviri bir-birilə kəsişən iki və ya bir neçə dairədən ibarətdir.Dairələrin kəsişdiyi yerdə iki anlayışın oxşar, dairələrin üzərində isə anlayışların hər birinə aid fərqli cəhətlər yazılır.Venn dioqramı oxu materiallarını müqayisə etmək , onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün istifadə olunan üsuldur.Bu prosesdə şagirdlərin təhlil-tərkib , müqayisə, ümumiləşdirmə, sistemləşdirmə kimi idrak əməliyyatları fəallaşır, şifahi və yazılı nitqləri inkişaf edir, oxu mədəniyyəti formalaşmağa başlayır.

BİBÖ. Bu üsul aşağıdakı mərhələlərlə aparılır1.problem müəllim tərəfindən elan olunur

2.müəllim lövhədə üç sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir: bilirəm,istəyirəm biləm, öyrəndim.
3.şagirdlər oxu dərslərində tədris olunan mətndəki problemlə bağlı bildiklərini söyləyir cavabları 1-ci situnda qeyd edirlər.
4.Hmin məsələ ilə bağlı bilmək istədikləri 2-ci situnda yazılır
5.Dərsin sonunda mətnlə bağlı öyrəndikləri 3-cü situna yazılır.
Söz assosiasiyası. Söz assosiasiyası söz oyunudur. Şagirdlərin təlim fəallığını artırmaq üçün istifadə olunan təlim metodudur. Bu metoddan istifadə etmək üçün zəruri tələbləri müəyyən etmək lazımdır.Təlim prosesində həmin tələblərə əməl olunmalıdır.məsələn,əlifba təlimi dövründə bir sözün axırıncı hecasına başqa söz qoşmaqla yeni söz düzəltmək və onu oxumaq, sonra müstəqil söz zənciri düzəltmək.

Nəticə:
Yeni texnologiyaların, fəal/interaktiv təlim metodlarının nitq inkişafı üzrə işin tədrisində tətbiqi şagirdlərin öz fikirlərini ədəbi dil normalarına uyğun aydın, səlis, ifadəli, lakonik, məqsədəmüvafiq, məntiqi ardıcıllıqla ifadə etmələrinə şərait yaradır. Bu metodlar şagirdlərin şifahi və yazılı nitq bacarıqlarının, bu sahədə yaradıcılıq qabiliyyətlərinin inkişafını təmin etməklə, onlarda yüksək ünsiyyət mədəniyyəti formalaşdırır. Yeni təlim texnologiyalarından istifadə zamanı şagirdlərin intellektual səviyyəsi, nitq mədəniyyəti və mənəvi cəhətdən inkişaf etdirilməsi ön plana keçirilir.
Yeni təlim metodları və texnikaları nitq inkişafı üzrə işin məzmunu və həyata keçirilməsi yollarını müəyənləşdirmək, şagirdlərin müstəqil cavab vermək məqsədi ilə tələb olunan təfəkkür prosesini inkişaf etdirmək üçün çox faydalıdır.

Ədəbiyyat siyahısı:
1 Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı. Bakı: Çaşıoğlu, 1999, 64 s.

2. Balıyev H. Ana dilinin tədrisi metodikası. Bakı: 3 Neli Sənaye Liseyi, 1997, 102 s.

3. Balıyev H.B. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: ADPU-nun nəşri, 2003, 426 s.

4. Bədiyev S.R. Yeni təlim texnologiyalarından mühazirə mətnləri. Bakı: Dərələyəz-M, 2009, 200 s.

5. Əfəndizadə Ə.R. Azərbaycan dili təliminin metodları və onların təkmilləşdirilməsi haqqında//Azərbaycan dili ədəbiyyatın tədrisi, 1978, №1, s. 10-24

6. Əhmədov B.A. Ana dili dərslərində şagirdlərin nitqini inkişaf etdirmək yolları. Bakı: Maarif, 1967, 110 s.

7. Əhmədov B.A. Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. Bakı: Maarif, 1974, 115 s.

8. Həsənov M., Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. II hissə. Bakı: ADPU, 2013, 410 s.

PSYCHOLOGICAL AND PHILOSOPHICAL WORLDVIEW IN BANI'S (UMMULBANOU ASADULLAYEVA) WORK "CAUCUS DAYS"

BANİNİN (ÜMMÜLBANU ƏSƏDULLAYEVA) “QAFQAZ GÜNLƏRİ” ƏSƏRİNDƏ PSİXOLOJİ VƏ FƏLSƏFİ DÜNYADUYUMU

Hüseynova Türkan Fazil qızı
ADPU-nun Şamaxı filialı Dil, ədəbiyyat və onların tədrisi texnologiyası kafedrasının müəllimi

Abstract
The article focuses on the author's psychological and philosophical view of the world, people and interpersonal relations in the work "Caucasian Days" by the French writer of Azerbaijani origin Bani (Ummulbanu Asadullayeva). The work is rich in the author's psychological and philosophical approaches from beginning to end. We tried to distinguish not the plot line and memories of Banin's work in this work, but rather the psychological and philosophical ideas that he occasionally places within the work. In our opinion, these are also important conditions for understanding and better studying the work. In addition to writing and distinguishing these examples, we tried to compare them with the works and ideas of prominent representatives of world literature. These comparisons show how strong Bani's ability to observe and sensitively perceive the world as an author, writer and person, and how the ideas in the work coincide with the ideas of other literary figures.
Keywords: Banin, Caucasus, psychology, philosophy, human

Xülasə
Məqalədə Azərbaycan əsilli fransız yazıçısı Baninin (Ümmülbanu Əsədullayeva) “Qafqaz günləri” əsərində müəllifin dünyaya, insanlara və insanlararası münasibətlərə olan psixoloji və fəlsəfi baxışı ön plana çəkilmişdir. Əsər başdan sona kimi yazarın psixoloji-fəlsəfi yanaşmaları ilə zəngindir. Biz çalışdıq ki, bu əsərdə Banin əsərinin süjet xəttini və xatirələri yox, daha çox əsərin daxilinə ara-sıra yerləşdirdiyi psixoloji və səlsəfi fikirləri fərqləndirək. Zənnimizcə, bunlar da elə əsərin anlaşılmasında, daha yaxşı öyrənilməsində vacib şərtlərdəndir. Bu nümunələri yazıb fərqləndirməklə yanaşı onları dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri, fikirləri ilə müqayisə etməyə çalışdıq. Bu müqayisələr həm Baninin bir müəllif, bir yazar, bir insan kimi nə qədər güclü müşahidə qabiliyyətinə, həssas dünyaduyum bacarığına sahib olduğunu, həm də əsərdəki fikirlərin digər ədəbi simaların fikirləri ilə üst-üstə düşdüyünün şahidi oluruq.
Açar sözlər: Banin, Qafqaz, psixologiya, fəlsəfə, insan

GİRİŞ

Dünya ədəbiyyatında psixologizmin və fəlsəfi dünyaduyumunun ən gözəl nümunələrini yaratmış yazarlardan, şübhəsiz ki, birincisi Fyodor Mixayloviç Dostoyevskidir (1821-1881). İnsan psixologiyasının öyrənilməsi baxımından ondan daha güclü ədəbi nümunələr yaradan ikinci bir yazıçının varlığı mümkün deyil. Psixologiya elmi ilə məşğul olan və insan ruhunun incəliklərini öyrənmək istəyən hər bir kəs mütləq bir şəkildə F.M.Dostoyevski əsərlərini oxumalıdır. Onun “Alçaldılmış və təhqir olunmuş insanlar” (1861), “Yer altından notlar” (1864), “Cinayət və cəza” (1866), “İdiot” (1869), “Karamazov qardaşları” (1880) kimi əsərləri yuxarıda deyilənlərin ən bariz nümunəsidir. Yəhudi əsilli alman yazıçı Frans Kafka da (1883-1924) insan psixologiyasının mahir bilicilərindən olan və bunu öz əsərlərində ustalıqla əks etdirən yazıçılardandır. Şəxsi həyatı ilə bağlı yaşadıqları, atası ilə münasibətləri Kafkanın öz daxilinə enməyə, öz ruhunu və psixologiyasını daha yaxşı tanımağına səbəb olmuşdur. Daxilində yaşadığı bu təlatümlər onun, təbii ki, digər insanları da daha dərindən tanımasına səbəb olmuşdur. Kafkanın “Məhkəmə” (1914) “Çevrilmə”

("Metamorfoza") (1915), "Atama məktub" (1919), "Qəsr" (1926), "Amerika" (1927) kimi əsərləri dediklərimizə sübutdur.

Banin Fransa ədəbiyyatının azərbaycanlı yazarlarından biridir. Müəllif haqqında oxuduğumuz məlumatlara əsasən o, Parisdə olduqca böyük nüfuza sahib olmuş, dövrünün bir çox görkəmli şəxsiyyətləri ilə ədəbi-mədəni əlaqə saxlamışdır. Yazarlıqla yanaşı bəzən modelliklə məşğul olan Banin dünyaca məşhur modelyer Koko Şanelin diqqətini və hörmətini qazanaraq onun geyimləri üçün modellik etmişdir. Koko Şanel Banin üçün xüsusi paltarlar tikib, ətirlər hazırlayırmış. Modelyerin model olmaq təklifinə və təkidinə baxmayaraq, Ümmülbanu bu peşə ilə ardıcıl olaraq məşğul olmamış, əsas olaraq yazarlığı seçmişdir.

Ümmülbanu (bəzi mənbələrdə Ümm-Əl-Banu) Mirzə qızı Əsədullayeva (təxəllüsü: Banin (fransızca Banine) 1905-ci il 18 dekabrda Bakıda anadan olmuş, 1992-ci il 23 oktyabrda Parisdə vəfat etmişdir. Banin Azərbaycan əsilli fransız yazıçı, memuarçı, model, XX əsr Azərbaycan mühacirət ədəbiyyatının nümayəndəsidir. Məşhur Azərbaycan milyonçuları Şəmsi Əsədullayev və Musa Nağıyevin nəvəsi, Azərbaycan Demokratik Respublikasının nazirlərindən biri, milyonçu Mirzə Əsədullayevin qızı olan Ümmülbanu belə yazır: "Mən doğma anamı tanımırdım. 1905-ci ildə inqilabi gərginliyi aradan qaldırmaq istəyən hakimiyyət Qafqazı millətlərarası qarşıdurmaya təhrik etdi. Azərbaycanlıları, ermənіləri, rusları, kürdləri, iranlıları üz-üzə qoydular. Anamı qəddarlıqdan və ağlasığmaz talanlardan qorumaq, eyni zamanda doğmaq üçün atam doğma Bakıdan uzaqda yerləşən bir kəndə göndərir. Doğuş çox ağır keçir, yaxınlıqda həkim olmadığından anam həyatla vidalaşır, mən isə sağ qalıram". Bu hadisədən sonra anasının şərəfinə qızını Ümmülbanu adlandırırlar. Banin atasını həbsxanadan azad etmək, xarici pasport alıb Türkiyəyə qaçmaq üçün istəmədiyi, lakin nüfuzlu bir şəxsə ərə gedir.

Baninin "Qafqaz günləri" əsəri öz səmimiyyəti və reallığı ilə memuar janrı ədəbiyyatı nümunələri içərisində xüsusilə seçilir. Düzdür, bir oxucu və ədəbiyyatçı kimi bu əsərdəki bəzi məqamlar xoşagələn deyil. Çox istərdik ki, bəzi məsələlər bu cür çılpaqlığı və aydınlığı ilə verilməsin. Çünki bu həm milli, həm də insani n nöqteyi-nəzərdən düzgün bir yanaşma deyil. Amma bütün bunlarala bərabər əsər Azərbaycan, xüsusilə də Bakı haqqında o dövr üçün zəngin məlumatlarla doludur. Əsər əvvəldən sona kimi müəllifin xatirələrini özündə əks etdirir. "Dünya ədəbiyyatında səmimi etirafına görə Jan Jak Russonun (1712-1778) "Etiraf" və A.İ.Gertsenin (1812-1870) "Olmuşlar və düşüncələr" əsərlərindən Baninin "Qafqaz günləri" əsəri etiraflarına görə daha çox diqqəti cəlb edir."(Eyvaz E.; 29)

Etiraf edim ki, heç bir vaxt özümlə hər hansı bir insan arasında qan qohumluğu olduğunu hiss etməmişdim. Bilmirəm. Bu, bəşəriyyətin yeni bir ixtirasıdırmı, yoxsa mən, həqiqətən də, qorxunc bir məxluqdum?(Banin, 33) Bu sətirlər bizə ekzistensial fəlsəfənin var olma mübarizəsini xatırladır. Yəni insan öz mövcudluğunu, var oluşunu öyrənməyə çalışır. Bu baxımdan Banin ekzistensial fəlsəfənin ilk rüşeymlərinin əks olunduğu yazarlardan F.M.Dostoyevski, Frans Kafka kimi yazarlarla bənzərlik təşkil edir. Lakin onun bu misraları ekzistensial fəlsəfənin əsas nümayəndəsi olan Alber Kamyunun "Yad" əsərinin qəhrəmanının fikirləri ilə daha çox üst-üstə düşür. Öz doğmaları ilə bütün bağlarını qoparmış, əlaqəsini kəsmiş bir insanın boşluqdakı var oluş mübarizəsi.

Özü və özü kimilərin sadə, məhdud həyatını daha arxayın, səhvsiz bir yol sanırdı. Bizim kimilərin yeni, çox imkanlı həyat tərzini isə çox səhv buraxılacaq ömür yolu sayırdı. O, haqlı idi: azadlıq çox vaxt baha başa gəlir. (Banin, 35) Əsərdən verilmiş bu nümunələrdə isə sadəlik və dəbdəbənin ziddiyyətli təsviri əks olunur. Əslində halal qazancın, az miqdarda maddi vəziyyətlə təmin olunmuş sadə və azad həyatın min bir əziyyətə düçar edən dəbdəbəli, əzəmətli həyatlardan daha üstün olduğunu vurğulamağa çalışır Banin.

Beləliklə, hər küncdə, hır cığırda dostlarım vardı; burada bir armud ağacı, orada bir pilləkən, bir sarmaşıq, bir gül kolu, bir hovuz və s. Mən özüm seçdiyim bu dostlarımla çox xoşbəxt idim. Adamlardan fərqli olaraq onlar yaxşılığa yaxşılıqla cavab verirdilər. Mən də bacardığım yaxşılığı onlardan əsrigəmirdim. (Banin, 41) İnsanlardan uzaqlaşıb əşyalara, heyvanlara ümid bəsləmək,

onlara söykənmək, arxalanmaq dünya ədəbiyyatının bir çox nümunələrində özünü göstərir. Biz burda yenə də dünyaya, insanlara yabancılaşan modern insanın bağlanma, mövcudluq savaşını görürük. Braziliyalı yazar Xose Mauro de Vasconcelosun "Şəkər portağalı" əsəri insanın təbiətin bir canlısı olan ağacla dostluğundan bəhs edir və Baninin bu misraları bizə mövcudluq mübarizəsi aparan Zeze obrazını xatırladır.

Onların ən sevimli peşəsi yalançılıq idi. Lazım olanda da, olmayanda da yalan danışmağı bacarırdılar. Bəzən deyirdilər ki, yalan danışmaq da bir xeyirxahlıqdır, böyükləri cəzavermə əzabından qurtarır. Onlar yalanı asanlıqla, inandırıcı, lap deyərdim ki, zərifliklə danışırdılar. Şübhəyə düşmüş adamlar belə, onların ağ yalanına inanır, düzgün, səmimi adam cildinə girdiklərini sezə bilmirdilər (Banin, 51). Ən yaxın qohumları və onların övladları haqqında yazılmış bu sətirlər Baninin bir insan, yazar kimi həddindən artıq güclü müşahidə qabiliyyətinə malik olduğunu göstərir. O, ətrafdakı insanları psixoloji baxımdan yaxşı duya, təhlil edə bilir və nəticələrin hansı səbəblərdən doğduğunu aydınlaşdırıb təsvir edə bilirdi.

İnsanlar getdikləri hər yerdə öz izlərini buraxırlar (Banin, 72). Bəli, doğrudan da, insan getdiyi hər yerdə, qarşılaşdığı hər insanda öz təsirini buraxır, eyni zamanda qarşılaşdığı hər insan da, hər məkan da qarşılıqlı bir şəkildə insanda izlər qoyur.

Qəribə uşaqlıq illəri yaşamışam! Bilirəm ki, hər kəsin uşaqlıq illəri uzaq keçmişə bənzəyir. Mənim uşaqlığım isə həm coğrafi, həm də tarixi mənada çox uzaqda qaldığından heç nə məni həmin illərə bağlamır; nə inanmadığım din, nə fransız dili ilə əvəz olunmuş ana dilim, nə itirilmiş milyonlar, nə bir əşya, nə də bir şəxs. Keçmişim mənə çoxdan bitmiş bir ömür kimi görünür. Əvvəlki həyatım qaranlıq bir yuxuya, nağıldan çıxarılmış əfsanəyə oxşayır (Banin, 103). Bu sətirlər əslində bir azərbaycanlı oxucu kimi bizi incitmir desək, yalan demiş olarıq, çünki bir yazıçının öz coğrafi aidliyinə, milli kimliyə mənsubluğuna yadlaşması bir oxucu üçün xoşagələn mənzərə deyil. Amma Banin bu misralarda eyni zamanda dərin bir hüzn də eks etdirib. Bu əslində xoşagələn, zövq verən bir milli uzaqlaşma deyil, əksinə Baninin uşaqlıq çağlarından, doğulanda anasını itirməsindən, ana qayğısından məhrum olmağından irəli gəlir. Bu əslində nisgilli bir yadlaşma, dəhşətli uçurum kənarındakı bir milli köküdən uzaqlaşmadır.

Elə bir bədbəxtlik üz verə bilərdi ki, heç bir məbləğə sığmazdı (Banin, 163). Biz gələcəyi görə bilməzdik. Elə əslində, görə bilməməyimiz yaxşı idi (Banin, 178). Göz yaşları da daimi deyil, adamı taqətdən salandan sonra onlar da səni tərk edir (Banin, 180). Ən sevimli məşğuliyyətim isə xəyala dalmaq idi. Xəyallar həyatda nakam qalanların çörəyidir (Banin, 193). Xəyal aləmim mənim yeganə sığınacağım idi (Banin, 301). Zəif adamların təslim olduğu geriliyə qarşı mübarizəsini sevirdim (Banin, 219). Biz bu misralarda Baninin əslində sentimental dünyagörüşünün, dünyaya və insanlara həssas yanaşmasının bir daha şahidi oluruq. Bütün əsər boyu əsas diqqətimizi çəkən də elə müəllifin bu dünyaduyumudur.

Təbiətin bu dəyişməzliyi ilə bizim dəyişmiş güzəranımız arasındakı ziddiyyət mənə melanxolik bir ovqat bəxş edirdi. Həyatın daimi, insan ömrününsə qısa, dəyişkən olduğunu duymağa başlamışdım və bu fikir mənə çox ağır gəlirdi (Banin, 191). Təbiət və insan arasındakı münasibətlər hələ ən qədim dövrlərdə fəlsəfənin əsas mövzularından biri olmuşdur. Qədim yunan filosofu Miletli Fales (e.ə.VII-VI) insanın təbiətlə bağlı münasibətlərini fəlsəfənin əsas mövzusu etmiş, bunu öz araşdırmalarında, əsərlərində göstərməyə çalışmışdır. Daha sonrakı dövrlərdə də bu əlaqə daim davam etmiş, dünya ədəbiyyatının ən görkəmli nümayəndələrinin əsərlərində öz əksini tapmışdır. Məsələn, Daniel Defonun (1660-1731) "Robinzon Kruzo" (1719) əsərində Robinzonun təbiətlə münasibətləri daha qabarıq verilmiş və bununla da maarifçilik ədəbi cərəyanının əsas xüsiyyətlərindən olan insanın təbiəti özünə ram etməsi, onu dəyişdirməyə çalışması əks etdirilmişdir. Jan Jak Russo (1712-1778) isə deyirdi ki, şəhər mədəniyyəti, sivilizasiya insanı məhv edir, insanın xilası yenidən təbiətə qayıtmaqdadır. İlkin, ibtidai olanın insan taleyindəki rolunu göstərməyə çalışırdı. Viktor Hüqonun (1802-1885) "Dəniz işçiləri" (1866) romanında da yazar təbiətin insan taleyindəki rolunu verməyə

çalışır. Biz bu nümunələri çoxalda bilərik və bununla da Baninin insanı təbiətlə qarşılıqlı şəkildə öyrənməyə çalışmasını elmi şəkildə əsaslandıra bilərik.

Əzablı dövr olsa da, həmin günləri yaşadığıma qətiyyən heyfsilənmirəm: çünki mən məhz həmin həmin günlərdə həyatdan dözümlülük və səbir dərsi alırdım (Banin, 220). İnsan bəzən düşünür ki, çətin günlərdə dözümlülük göstərmək həyatın daha sonrakı günlərində əzmli, mətanətli olmağa kömək edir. Yəni "çətin günlərinizdə möhkəm olun, bu daha çətin günlərinizdə köməyinizə gələcək" fikri insanı yaşamağa, səbirli olmağa dəvət edir.

Bəzən çox ağır vəziyyətlərdə ən xırda qayğı belə, insanı xoşbəxt edir, kiçicik bir qayğı zülmət qaranlıqdan doğan işığa bənzəyir (Banin, 223). Həyəcan həddini aşanda adam, elə bil, sərxoş olur (Banin, 238). Axı bəzən yuxuda eyni əşya iki şəkildə görünə bilir (Banin, 250). Mən oxuduğum kitabların təsirindən kənara çıxıb ağır həyat həqiqətlərini artıq öz təcrübəmlə anlamağa başlamışdım (Banin, 252). İnsanın gözündə hər şey özünün görmək istədiyi kimi deyilmi?(Banin, 259). Mənə elə gəlirdi ki, bütün təlimlər, boş, mənasız şeylərdir, insan sevincini boğmaq üçün axmaq adamlar tərəfindən uydurulmuş fikirlərdir (Banin, 261). Bəzən cüzi bir şey belə adamı həlak etməyə və yaxud dirçəltməyə bəs edir (Banin, 266). Əsərin müxtəlif hissələrindən gətirilmiş bu nümunələr yenə də göstərir ki, Banin insan psixologiyasını incəliklərinə qədər öyrənə bilmiş, yaşadığı uzun illər, başına gələn müxtəlif hadisələr nəticəsində dünyanı, insanları yaxşı müşahidə etmiş və bunu da öz romanında əks etdirə bilmişdir. İnsan ruhunun ən gizlin, həssas guşələrini öyrənən Banin bizə F.M.Dostoyevski, Frans Kafka kimi dünya ədəbiyyatının möhtəşəm yazarlarını xatırladır.

İnsan qəlbindəki ölüm qorxusunu ram etdikdən sonra həyatda nail olunası az şey qalır. Mən ölümlə tez-tez üzləşmişəm. Ona görə də həyat mənim üçün nəyin bahasına olursa-olsun qorunası bir şey deyil, həyat, daha doğrusu, həyatda qalmaq, sadəcə xoşbəxt bir təsadüfdür. Elə ona görə də çoxlarının can atdıqları şeylərə nifrət edirəm (Banin, 259). Mən ölümdə sadəliyi sevirəm (Banin, 330). Dünya ədəbi fikrinin əsas mövzularından biri də ölümdür. Bir çox bədii nümunədə qarşımıza çıxan ölüm mövzusu bizə daha çox amerikan yazıçı Ernest Heminquey və görkəmli Azərbaycan şairi Ramiz Rövşənin yaradıcılığında doğma gəlir. Yaradıcılığının əsas mövzularından, qırmızı xətt kimi ən ümdə məsələlərindən bir olan ölüm Heminquey əsərlərinin böyük bir qismində öz əksini tapır. Ramiz Rövşən poeziyasının ən doğma mövusu olan ölüm dünyəvi kədər motivləri əsasında verilir.

Bilirsiniz yaşamaq nədir? Yaşamaq əşyalara, adamlara, hadisələrə təsir edə bilmək bacarığıdır, böyük bir ölkənin lərzəyə düşdüyü bir vaxtda bir amal uğrunda çalışmaq deməkdir. Yaşamaq öz borcunu hiss etmək, onu yerinə yetirmək, özünü güclü sanmaq, kiçik addımları, hərəkətləri böyük işlərə çevirmək deməkdir (Banin, 277). Baninin misraları yaşamaq, həyat haqqında olduqca səmimi, fəlsəfi fikirlər irəli sürür. Biz yenə onun dərin həssaslığının şahidi oluruq. Bu misralar nəinki Türkiyə ədəbiyyatının, bütünlükdə dünya ədəbi fikrinin ən görkəmli simalarından biri olan Nazim Hikmətin (1902-1963) "Yaşamağa dair" şeirini xatırladır. Sanki Banin də Nazim kimi insanın bu həyatda rolunun, mövqeyinin nə olduğunu müəyyənləşdirməli olduğunu bildirir.

Bilirsiniz, qədim bir etiqada görə, dünyada xoşbəxtliyin müəyyən bir miqdarı var. Xoşbəxtliyin özü dəyişmir, ancaq bir adamdan başqa adama keçə bilir. Beləliklə, siz özünüzü bədbəxt sananda, bədbəxtliyinizin başqa birisinin xoşbəxtliyinə zəmin yaratması ilə gərək təsəlli tapasınız. Əksinə, özünüzü xoşbəxt sananda, gərək fikirləşəsiniz ki, başqa birisinin, bəlkə də, elə öz bacınızın xoşbəxtliyinə sahib olmusunuz. Qəribə əqidədir, elə deyilmi?(Banin, 279). Dünya ədəbi nümunələrində bədbəxtlik və xoşbəxtlik haqqında fikirlər, fəlsəfi mülahizələr olduqca geniş yer tutur. Ta qədim zamanlardan bu günə kimi yazılan əsərlərdə yazarlar daim insan xoşbəxtliyinin necə əldə olunması ilə bağlı əsərlər yazmış, bunu hər dəfə böyük bir insani ümidlə arzulamış və öz əsərlərində təsvir etməyə çalışmışlar. Platonun "Dövlət" kitabında, Nizami Gəncəvinin "İsgəndərnamə" poemasında, Tomas Morun "Utopiya", Conatan Sviftin "Qulliverin səyahəti" romanlarında da biz bu fikirlərin şahidi oluruq. Baninin "Qafqaz günləri" əsərindən gətirilmiş bu cümlələrdə ifadə olunan fikirlər tam mənası ilə olmasa da, ümumi dəyər etibarilə yuxarıda adları çəkilən əsərlərdə ifadə olunan fikirlərlə üst-üstə düşür.

Özünüzü bədbəxt sananda, bilin ki, başqa birisinin xoşbəxtliyinə imkan yaranıb (Banin, 280). Fiziki ikrah çox əzablı şeydir (Banin, 293). Bilirsənmi, məncə, əsər qəhrəmanı olmaq əsər yazmaqdan daha maraqlıdır (Banin, 309). Düzdür, bəzən keçmişdən qalan təsadüfi hallar ilə qarşılaşsaq da, insan bu şəhərdə tamamilə yeni bir dövrdə yaşadığını tam anlamıyla dərk edə bilirdi (Banin, 287). Gözləmək mənim üçün də, başqaları üçün də həyat rəmzinə, aparıcı qüvvəyə çevrilmişdi (Banin, 310). Onsuz da faydalı adamların sayı gündən-günə azalır (Banin, 321). "Qafqaz günləri" əsərinin müxtəlif səhifələrindən nümunə gətirilmiş bu misallar yenə də yuxarıda yazdıqlarımıza örnək ola bilər. Bu fikirlər də sübut edir ki, Banin insan ruhunun ən xırda çalarlarına şahid olmuş, onu müşahidə edib əsərində əks etdirə bilmişdir. Bədbəxtlik, xoşbəxtlik, fiziki ikrah, yaxşı insan haqqındakı fikirlərini bu misralarda ümumiləşdirib yekunlaşdırır.

Mütaliənin adamın fikrini dağıtdığını söyləyənlər yanılırlar. Güclü həyəcan keçirəndə sanki beyin qapanır, hisslərin donur, ruhunu belə duya bilmirsən. Həm də ki, artıq öz təcrübəmdən bilirdim ki, həyatın özü ən gözəl romanlardan da maraqlıdır. Kitablar həyatın həqiqətləri ilə müqayisədə çıx cılız görünürdü (282).

Axı, məqsədsiz, səbəbsiz sevmək mümkündürsə, bu səbəbsiz məhəbbətin də bir həddi olmalıdır. Düzdür, onun bizi sevməsinə minlərlə səbəb tapmaq olardı, amma mən yenə də onun bu təmənnasız sevgisini heç cür anlaya bilmirdim. Yəni insanın qəlbində bu qədər sevgi ola bilərdimi? Bu müqəddəs qadının sədaqətinə və sevmək bacarığına bu günün özünə qədər heyranam (Banin, 299). Məhəbbət hər zaman dünya ədəbiyyatı nümunələrinin başlıca mövzularından biri olmuşdur. Hətta desək ki, məhəbbət ədəbiyyatın ən ümdə, ən vacib qaynağıdır, yanılmarıq. Təbii ki, biz sevgi deyəndə yalnızca iki əks cinslərin arasında olan sevgidən danışmırıq. Bura həm Tanrı, həm insan, həm vətən, həm təbiət, həm doğmalar, həm də əks cinsə qarşı duyulan məhəbbət daxildir. Dünyanı, insanı, təbiəti dəyişməyə qadir olan əsas duyğu məhəbbətdir.

Bu gün oturub qələmə aldığım öz keçmiş obrazıma nə hörmət, nə də rəğbət duyuram. Zaman elə bir sehrbazdır ki, bir yandan dağıdır, bir yandan da qurur (Banin, 309). Həyatın astanasında adamın ağlına ancaq yaxşı fikirlər gəlir (Banin, 322). Bilirdim ki, xoşbəxtlik hissə-hissə paylanılır, buna heç şübhəm yox idi. Amma onu da bilirdim ki, xoşbəxtliyin bu kiçik parçaları irəli uzadılmış açıq ovuclarımıza belə çox nadir hallarda düşür (Banin, 331). Biz ikimiz də mövcud şəraitin qurbanı olmuşduq (Banin, 333). Uşaqlıq illərimdə sevdiyim hər şeylə - başqalarına dilsiz, cansız görünən, mənimsə canlı dostlar hesab etdiyim hər şeylə vidalaşmaq istəyirdim (Banin, 312). Əsərin müxtəlif hissələrindən gətirilmiş bu fərqli nümunələr də yenə Baninin psixoloji və fəlsəfi yanaşmalarını əks etdirir.

Əvvəlcə nənəmin mətbəxinə keçdim. Nənəmin yerdə oturub tərini sildiyini, uşaqları söyüb şapalaqladığını, kimə isə qarğış, yaxud alqış yağdırdığını təsəvvürümə gətirirdim. İndi mətbəx soyuq və kədərli bir xarabaya dönmüşdü. Mətbəxin bu vəziyyəti tüklərimi ürpəşdirdi. Elə bil evə deyil, ölüxanaya girmişdim, ürəyim sıxılırdı. Tez pianomun arxasına keçdim. Çaldığım bir-iki şən musiqi parçası belə matəm musiqisi kimi səslənirdi. Sonra bir-bir otaqları gəzməyə başladım. Bu evdə sanki həyat dayanmışdı. Bu ev artıq canlı deyildi, canını çoxdan tapşırmışdı. Hər addım atdıqca ürəyim daha çox sızlayırdı (Banin, 315). Zənnimizcə, əsərin ən gözəl, kövrək hissələrindən biri də bu misraların ehtiva etdiyi abzasdır. Süjet xəttinin sonlarında qələmə alınan bu fikirlər Baninin ən kövrək xatirələrini əks etdirir. Oxuduqca insan qəlbini, ruhunu dəhşətli bir ağrı, sıxıntı bürüyür və müəllifin bu xatirələrinin simasında öz keçmişini, uşaqlıq çağlarını, nənə evini xatırlayır. Çox böyük həssaslıq və ehtiyatla yazılmış bu sətirlər Banin yaradıcılığının ən gözəl nümunələrindəndir. İnsan doğulub böyüdüyü, uşaqlıq və gənclik illərinin keçdiyi evi həmişə kədərlə yad edir.

İndi başa düşürdüm ki, əşyalar da, insanlar da, duyğular da müvəqqətidir; biz ondan, sadəcə, xoşbəxtlik dilədiyimiz zaman həyat çox vaxt bizə yalnız qüssə və peşmanlıq hissi hədiyyə edir. Hər an nəyisə, kimisə itiririk və ömür beləcə davam edib gedir. Dəniz, səma və qovaqlarla vidalaşdığım o kədərli vaxtda həyatdan yenə də bir dərs almış oldum. Həyatımın sonunadək unutmadığım bir dərs (Banin, 316). Burda da yenə müəllifin fəlsəfi görüşləri ilə tanış oluruq.

Yaşanmış həyat dəyişə bilməz. Həyatda təsadüf deyilən bir şey yoxdur, hər işin sirli bir qanunauyğunluğu var. Əgər mən bir işi belə görürəmsə, deməli, onu başqa cür görə bilmək şansım yox imiş. Axı bu gün niyə keçmiş bir işimin peşmanlığını çəkərək özümə əziyyət verməliyəm? Baş tutmayan şeylərin xiffətini çəkməyin axı nə mənası? Bu fəlsəfəyə əməl edən hər kəs öz hal-hazırda etməli gərəkən hər nə isə, onu da edir. Ürəyi də tərəddüd və peşmanlıq hissindən azad olur. Əgər işi pis gətirərsə, deməli, elə belə də olmalı imiş. Yəqin ki, deyirsiniz: necə də sadə fəlsəfədir! Ola bilər. Bəlkə də, fatalizm olduğunu söyləyirsiniz? Şübhəsiz ki, elədir (Banin, 323). Bu misralarda biz Baninin psxioloqdan daha çox filosof kimi çıxış etdiyinin şahidi oluruq. Yazar öz fəlsəfi fikirlərini, dünya haqqındakı görüşlərini çox səmimi şəkildə bu cümlələrdə əks etdirir.

Bir gün Andrey mənə demişdi: "Sizin həyatınız elə bil buludların arasında keçir". Bəli, elə də oldu, buludların arasından keçdikdən sonra məni qarşılayan həyat mənə həyatımın ən əziz günlərini hədiyyə etdi. Mən qaşımda yeni imkanlar açan bu gözəl şəhərə yaxınlaşanda keçmişimi darısqal bir paltar kimi çıxarıb atmağa hazırlaşırdım. Mən yeni və azad bir həyatın astanasında idim. Öz keçmişimdənsə özümlə yalnız buludlarda yaşadığım o gözəl və unudulmaz anları aparırdım (Banin, 336). "Qafqaz günləri" əsərinin son misraları olan bu abzas əsərə yekun kimi verilir. Fikrimizcə, Banin əsər boyu bəzi məsələlərdə həddindən artıq açıqlığa, yersiz səmimiyyətə varır. Bu məqamlar, təbii ki, bir oxucu, ədəbiyyatçı kimi bizə xoş təsir bağışlamır, rəğbət hissi oyatmır. Lakin əsərin ümumilikdə səmimiliyi diqqəti cəlb edir. Bu son sətirlərdə Baninin olduqca kədərli, dərin məhəbbətlə sevdiyi adama bağlı rəğbət dolu xatirələri öz əksini tapır.

NƏTİCƏ

Araşdırmalarımızın sonunda belə nəticəyə gəlirik ki, Banin, doğrudan da, dünya ədəbi fikrinin əsas simalarından biridir. Onun "Qafqaz günləri" əsərindəki düşüncələri oxucularda dərin maraq oyadır. Məqalədə sitat kimi gətirdiyimiz fikirlər sübut edir ki, o, bir yazıçı, bir insan kimi, həqiqətən də, insan psixologiyasını dərindən duymuş, bilmiş, dünyaya fəlsəfi baxmağı bacarmış və bunu öz əsərində əks etdirmişdir. Onun bu düşüncələrini dünya ədəbiyyatından gətirdiyimiz nümunələrlə müqayisə etmiş və heç də onlardan geri qalmadığını göstərməyə çalışmışıq.

ƏDƏBİYYAT

1. Eminalıyev Eyvaz. Azərbaycan milli memuar ədəbiyyatı. Bakı, "Yurd", 1999. 178 səh.
2. Banin. Qafqaz günləri. Bakı, "Qanun" nəşriyyatı. 336 səh.
3. Müasir Azərbaycan ədəbiyyatı. II cilddə.
4. Sultanlı V. Azərbaycan mühacirət ədəbiyyatı. Bakı, Şirvannəşr, 1998. 160 s.

THE ROLE OF EPIGENETICS IN COMBATING STRESS AND DEPRESSION IN EDUCATIONAL SETTINGS

РОЛЬ ЭПИГЕНЕТИКИ В БОРЬБЕ СО СТРЕССОМ И ДЕПРЕССИЕЙ В ОБРАЗОВАТЕЛЬНОЙ СРЕДЕ

TƏHSİL MÜHİTİNDƏ STRES VƏ DEPRESSİYALARLA MÜBARİZƏDƏ EPİGENETİKANIN ROLU

Həsənova Amaliya Murad qızı
ORCID: **0000-0002-2196-3215**
Biologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Abstract
In recent years, the results of observations of processes occurring in a rapidly changing world show that the environment affects the organism even without the involvement of genetic mechanisms. The study of the role of epigenetics in fundamental developmental and physiological processes significantly expands our understanding of organismal biology. Epigenetics opens great prospects for mankind: according to the studies of this science, each person will be able to reveal his or her potential, a cure for incurable diseases will be found, Epigenetics is currently one of the most relevant areas of study of the possibilities of preventing the development of genetic diseases from generation to generation. Epigenetic processes are part of biology, allowing genes as well as stem cells to transform into different cell types. These changes are critical to an organism's ability to respond to its environment. Epigenetic biomarkers may in the future be used as a diagnostic tool to assess whether an individual has a particular susceptibility to disease or exposure to environmental toxins. These studies reveal the molecular genetic mechanisms of intergenerational inheritance and the influence of various risk factors.
The science of psychogenetics, which is of great importance in today's education system, is based on the study of epigenetics. Stress and depression occurring in the educational environment are studied through psychogenetics and provide students with a guide for a normal social life.
Keywords:educational environment, stress

Резюме
В последние годы результаты наблюдений за процессами, происходящими в быстро меняющемся мире, показывают, что окружающая среда влияет на организм даже без участия генетических механизмов. Изучение роли эпигенетики в фундаментальных процессах развития и физиологии существенно расширяет наши представления о биологии организма. Эпигенетика открывает большие перспективы для человечества: согласно исследованиям этой науки, каждый человек сможет раскрыть свой потенциал, будет найдено лекарство от неизлечимых болезней, В настоящее время одним из наиболее актуальных направлений изучения возможностей предотвращения развития генетических заболеваний из поколения в поколение является эпигенетика. Эпигенетические процессы являются частью биологии, позволяя генам, а также стволовым клеткам трансформироваться в различные типы клеток. Эти изменения имеют решающее значение для способности организма реагировать на окружающую среду. Эпигенетические биомаркеры в будущем могут быть использованы в качестве диагностического инструмента для оценки наличия у человека особой восприимчивости к заболеваниям или воздействия токсинов окружающей среды. Эти исследования выявляют молекулярно-генетические механизмы межпоколенческого

наследования и влияние различных факторов риска. Наука психогенетика, которая имеет большое значение в современной системе образования, основана на исследовании эпигенетики. Стресс и депрессия, возникающие в образовательной среде, изучаются с помощью психогенетики и дают учащимся руководство для нормальной социальной жизни.
Ключевые слова: образовательная среда, стресс, депрессия, психогенетика, эпигенетика, эпигеном, мышление, интеллектуальное мировоззрение

Xülasə.
Son illərdə sürətlə dəyişən dünyada gedən proseslərin müşahidələrinin nəticələri göstərir ki, ətraf mühit genetik mexanizmlərin iştirakı olmadan da orqanizmə təsir edir. İnkişafın və fiziologiyanın fundamental proseslərində epigenetikanın rolunun öyrənilməsi orqanizmin biologiyası haqqında anlayışımızı əhəmiyyətli dərəcədə genişləndirir. Epigenetika insanlığın qarşısında böyük perspektivlər açır: bu elmin tədqiqatlarına görə hər bir insan öz potensial imkanlarını açа biləcək, sağalmaz xəstəliklərə çarə tapılacaq, Hal-hazırda genetik xəstəliklərin nəsildən-nəslə ötürülməsinin inkişafının qarşısının alınması imkanlarının öyrənilməsi üçün ən aktual sahələrdən biri epigenetikadır. Epigenetik proseslər normal biologiyanın bir hissəsidir, genlərin, həmçinin kök hüceyrələrin fərqli hüceyrə tiplərinə çevrilməsinə imkan verir. Bu dəyişikliklər orqanizmin ətraf mühitə reaksiya verə bilməsi üçün həlledici əhəmiyyətə malikdir.
Epigenetik biomarkerlər gələcəkdə bir insanın xəstəliklərə xüsusi həssaslığının və ya ətraf mühitin toksikantlarına məruz qalmasının olub olmadığını qiymətləndirmək üçün diaqnostika vasitəsi kimi istifadə oluna bilər. Bu araşdırmalar nəsillərarası irsi və müxtəlif risk faktorlarının təsirinin molekulyar genetik mexanizmlərini müəyyən edir. Müasr təhsil sistemində ciddi əhəmiyyətə malik olan psixogenetika elmi məhz epigenetikanın tədqiqatlarına əsaslanır. Təhsil mühitində baş verən stress vəziyyətləri, depressiya halları psixogenetika vasitəsilə araşdırılır və tələbələrin normal sosial həyatlarını yaşamalarına istiqamət verir.
Açar sözlər: təhsil mühiti, stress, depressiya, psixogenetika, epigenetika, epigenom, təfəkkür, intellektual dünyagörüşü

GİRİŞ

Elmi sübutlar göstərir ki, erkən inkişaf zamanı ətraf mühit amillərinin (pis vərdişlər, stress, həddindən artıq və ya az qidalanma, bağırsaq mikrobiotası və s.) fenotipik dəyişkənliyinin epigenetik transgenerativ irsiyyətə təsiri ola bilər. Zaman keçdikcə elmi ictimaiyyət etik və əxlaq mövzularının yenidən işlənməsinin vacibliyini gördü. Müasir dünyada nəyin düzgün olduğuna dair doktrina, əxlaq və etika məsələlərini əhatə edən deontologiya elmi formalaşmışdır. Bu elm, hərəkəti qiymətləndirərkən bu qaydalara əməl olunmasını və ya əməl edilməməsini rəhbər tutaraq davranış qaydalarını müəyyən edir. Tibbdə deontologiya tibb işçilərinin peşə fəaliyyətlərində davranış normalarını müəyyən edən tibbi etikanın bir hissəsidir. Elmin bütün sahələrində əxlaq və etika məsələləri xüsusi əhəmiyyətə malikdir. Son illərdə yüksək intellektli bioloqlar insan həyatında determinizmin yalan olduğunu birmənalı şəkildə təsdiqlədilər. (Biologiyada determinizm insanların hərəkətlərinin müəyyən olunduğu bir anlayışdır – hərəkətlər irsi və insan həyatındakı əvvəlki hadisələrlə məhdudlaşır, determinizmin digər formaları da vardır).
Genlər insanların hərəkətlərini müəyyənləşdirmir, genlərimizin reaksiyası (ifadəsi) bizim ətraf mühitə olan cavabımızdır. Bu məsələni 1988-ci ildə ingilis molekulyar bioloqu Con Forster Kerns sübut etdi. Kerns, genləri süd şəkərinin alınması üçün lazım olan ferment istehsalına mane olan bakteriyaları götürdü və onları laktoza olan Petri nəlbəkisinə yerləşdirdi. Petri nəlbəkisində bakteriyaların qidalanacağı digər bir şey olmadığından bir neçə gün ərzində Petri nəlbəkisi laktoza ilə qidalanan bakteriyalarla dolu idi. Bakteriyaların DNT-si ətraf mühitə cavab olaraq dəyişdi. Bu hadisədən sonra genetikada ətraf mühitə cavab olaraq, insan şüurunda baş verən dəyişikliklərin epigenomun fəaliyyəti nəticəsində əmələ gəldiyini qəbul etmək məcburiyyəti yarandı. Doğuşdan

ölümə qədər sabit və dəyişməz olan genomdan fərqli olaraq, epigenom dinamik və dəyişkəndir. Bu dəyişiklik ətraf mühitə də təsir göstərə bilər. Məsələn, tütün istifadəsinin xərçəngin başlanmasına səbəb olan epigenoma mənfi təsir göstərdiyi müşahidə edilmişdir
DNT-ni dəstəkləyən "histon" zülallar sayəsində genin oxunması stimullaşdırıla bilər. Genetik koddan fərqli olaraq epigenom dinamikdir. Epigenomun irsən keçdiyinə inanan elmi qruplar var və ən çox yayılan nümunə, aclıq dövründə sağ qalmış baba və nənələrin nəvələrinin, guya epigenetikanın formalaşması nəticəsində daha uzun ömürlü olduğu qeyd olunur. İnsan beynində genomun doğuşdan yetkinliyə qədər dəyişdiyi, yetkinlik və qocalıq dövründə isə sabit qaldığı qeyd olunur [1].
Cəmiyyət halında yaşayan həşəratda bu hadisə daha aydın görünür; bu həşərat eyni genoma malik olsa da, morfoloji və funksional cəhətdən fərqlidir; hüceyrəvi quruluş eyni, genotip oxşar olsa da, epigenom fərqlidir. Epigenetika, insan həyatını, kainatı dərk etmə mexanizmini kökündən dəyişən texnologiyalara aiddir. Keçən əsr genetika əsri idisə (genomun deşifrə olunması), XXI əsr epigenetika əsridir. Bu gün epigenetika maddi sübutlarla təsdiq olunmuşdur, epigenetik siqnalların təbiəti ortaya çıxmışdır.

MATERİAL VƏ METODLAR

Bu gün ən cəsarətli epigenetik hipotezlərdən biri, *Homo sapiensin* genə nəzarət mexanizmlərinin açarlarını ələ ala biləcəyinə və bəlkə də qocalma kimi fiziki prosesləri də nəzarət altına alacağına inanmaqdır. Sağlamlıq və uzunömürlülük üçün tibbə müasir yanaşmaların əsası epigenetikanın tədqiqat obyektidir.
Kvant fizikasının tədqiqatları bir çox kəşfləri gündəmə gətirdi:
1.İnsan DNT-si dünya materiyasına birbaşa təsir edir.
2.İnsan hissləri dünya materiyasına təsir edən DNT-yə birbaşa təsir edir.
3.İnsan hisslərinin və DNT-nin qarşılıqlı təsiri fasiləsiz məkan qanunlarının xaricində baş verir. Hisslərin təsirinin effekti məsafədən asılı deyil.
Holografik şüurumuzun gücünü nəzərə alsaq, hər cür seçim, nə qədər əhəmiyyətsiz görünsə də, nəinki həyatımıza təsir göstərir, həm də zaman və məkanda yayılır. Bir çox hallarda bir insanın fərdi seçiminin nəticəsi kollektiv bir reallığa çevrilir, bu proses məhz epigenetik bir hadisədir.
1.Pozitiv düşüncələrimiz və xoş niyyətlərimiz hər zaman üçün uyğundur.
2.Bədənimizin və fiziki qanunlarımızın sərhədləri ilə məhdudlaşmırıq.
3.Evdə və ya kənarda olsaq da, yaxınlarımızı harada olursa olsun, dəstəkləyirik.
4.Biz insan olaraq, iradə ilə şəfa tapa bilirik.
5.Məkan və zamanda gözləri bağlı vəziyyətdə də "görmək" mümkündür.
Bu təcrübələrin təhsil mühitində dəfələrlə təkrarlanması tamamlilə normal bir hadisədir. İmtahan verəcək tələbəni ailə üzvləri evdən yola salarkən ona özünə tam əmin olmasını, cavabları yazarkən diqqətli olmasını tapşırarkən məhz epigenetikanın qanunları hərəkətə keçir. Elm adamları bu hadisəni "insanın ona olan ümidləri doğrultması üçün çalışması" kimi qəbul edirlər. Çünki, insan beyni də, daim ətraf mühitə uyğun davranışlar nümayiş etdirir, imtahan verəcək tələbə onun uğurlas imtahan verəcəyini gözləyən valideynlərini diqqət mərkəzində saxlayır. Məhz bu məsələ "etibarı doğrultmaq" kimi epigenetik prosesdir.

NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Məlumdur ki, insan genomu 20 mindən çox gendən ibarətdir, lakin onların hamısı eyni zamanda aktiv olmurlar. Hüceyrənin növündən, orqanizmin inkişaf mərhələsindən, hətta fərdin yaşadığı mühitdən asılı olaraq, bəzi genlər aktiv olur, qalanları isə sakit vəziyyətdə "gözləyir". DNT-nin ardıcıllığını dəyişdirmədən, yəni mutasiyalara və ya translokasiyalara səbəb olmadan gen "ifadəsini" (cavabını) idarə etmək üçün cavabdeh olan bir qrup zülalın olması buna imkan verir.

Hüceyrənin "şüuru" hüceyrə membranlarının içərisində "yatır". Bədənimizdəki hər hüceyrədə bir növ şüurun olması mütləqdir. Genlər, hüceyrələrimizdən kənarda və hətta bədənimizdən kənarda baş verənlərə görə reaksiyalarını (və ya cavab reaksiyasını) dəyişir.
Fikrin DNT-də biokimyəvi reaksiyaları dəyişdirməsi xromosom səviyyəsində təsdiq olunmuşdur. Genləri idarə edən struktur – genom gen mühəndisliyi elmi tərəfindən tədqiq olunur. Düşüncənin (ağılın) insanın genetik kodunu dəyişdirməsi faktını neyrofiziologiya elmi təsdiq edir.
Epigenom anlayışı epigenetikanın meydana gəlməsi nəticəsində yaranmışdır və genin ifadəsinin tənzimlənməsinin tərkib hissəsi olan bir çox komponentlərdən ibarətdir. Epigenetika hansı genlərin insanın həyat mətnininin qrammatikasını yazdığını tədqiq edir. Insanlar arasında genotip oxşar olsa da, hər bir insan növü fərqli xüsusiyyətlərə malikdir; Bu fərq epigenomu fərqi olsa da, genləri idarə edən strukturdur. Bu bir növ morze əlifbasına oxşardır, açar matritsa elementi – genetik kod taplısa mətni oxumaq mümkündür [2].
XX əsrin 2-ci yarısında DNT-nin spiral quruluşu və genetik kod kəşf olundu, reliktli radiasiya (şüalanma) aşkar edildi. Kvant generatorları (lazerlər və mazerlər), yüksək temperaturlu super keçiricilər, yarımkeçiricilər, mikroelektronik qurğular ixtira olundu. Kosmik cihazlar kainatın obyektlərini öyrənməyə imkan verdi; yer qabığının quruluşu haqqında biliklərdə dəyişikliklər baş verdi. Təbiət elmlərinin nailiyyətlərinə əsaslanan tətbiqi elmlər və texnologiyanın yeni sahəsi olan nanotexnologiya inkişaf etdirildi; XXI əsrin əvvəlində, insan genomu deşifrə edildi [3].
İrsiyyətin xromosom nəzəriyyəsi sitogenetikanın inkişafına təkan vermişdir. İrsiyyətin qanunauyğunluqlarını hüceyrə orqanoidlərinin quruluş və funksiyaları ilə əlaqəli öyrənən sahə kimi sitogenetika xromosomların quruluşunu, funksiyasını, bölünən və bölünməyən hüceyrələrdə onların təbiətini tədqiq edir. Sonrakı tədqiqatlar DNT-nin spiralşəkilli olduğunu və irsiyyətdə rolunu müəyyən etdi. Hər hansı bir canlı orqanizmin quruluşu və fəaliyyətinə dair bütün məlumatlar orqanizmin genetik materialında kodlaşdırılmış formada yerləşdirilmişdir. Orqanizmin genetik materialının əsasını dezoksiribonuklein turşusu (DNT) təşkil edir.
İrsi informasiyanın struktur vahidi gendir (zülal molekulu). Hər nüvəli hüceyrə minlərlə gen daşıyır və bu genlərin hər biri bəzi inkişaf proseslərindən, məsələn, beynin, sümüklərin və ya ürəyin və onun hər hansı bir hissəsinin əmələ gəlməsinə cavabdehdir. Buna "genetik kod" deyilir və uşaq hər iki valideyndən gələn kodların cəminə malikdir. Kodlar "işarələri" daşıyır və ötürür
İrsiyyətin xromosom nəzəriyyəsi 1866-cı ildə Qreqor Mendel, noxud bitkisi üzərində apardığı təcrübələrin nəticələrini dərc etdirərək, irsiyyətdə proqnozlaşdırıla bilən nümunələri sübut etdi. Bəzən psixogenetik tədqiqatların nəticələri olduqca məntiqli görünən nəticələrə ziddir. Mühazirədə tələbələrə sual versəniz: "sizcə, yüksək sosial-iqtisadi statusu olan bir ailədə doğulan uşaqların zəkasına hansı amillər daha çox təsir edir?", əksəriyyət mühitin həlledici rol oynadığını cavablandıracaq. Ancaq təcrübə göstərir ki, bu belə deyil. Bu cür uşaqlarda zəkanın inkişafına genetik amillərin töhfəsi təxminən dörd dəfə çoxdur [4].
Belə yenilikçi yanaşmalardan biri, ən çətin xəstəliklərin müalicəsində praktikada özünü sübut edən psixogenetikdir. Psixogenetika autizm, nevrozların müxtəlif növləri, depressiya, epilepsiya, hiperaktivlik, kəkələmə, onkologiyanın hər hansı bir mərhələsi, şəkərli diabet, ürək xəstəliyi və vuruşlar, sinir xəstəlikləri, bronxial astma kimi xəstəliklərin müalicəsində artıq uzun müddətdir ki, tətbiq olunur. Bununla belə, psixogenikanın tətbiq sahələri daha genişdir. Psixogenetikanın tətbiq olunduğu həyatın yalnız bir neçə sahəsinə diqqət yetirsək; təbiətin qoyduğu potensialın açıqlanması və istedadların reallaşması, akademik iş və həyatda səmərəliliyin artırılması, yaxınlarınız və başqaları ilə münasibətlərin yaxşılaşdırılması, yorğunluğun azaldılması və aktivliyin artması, özünə hörmətin yaxşılaşdırılması və bir çox digər sahələrdə uğurlu istifadəni görə bilərik.
Həyat və sağlamlıq keyfiyyətini artırmaq heç vaxt gec deyil! Fərdi məsləhətləşmələr həm böyüklər, həm də uşaqlar üçün əla işləyir. Gənclərin və uşaqların vəziyyətinin yaxşılaşdırılmasında əsas rolu ailədə ananın məsləhətləri oynayır. Ailə məsləhətləşmələri arzuolunmaz vəziyyətə səbəb olan səhv düşüncələrinin öyrənilməsi və dəyişdirilməsi üçün xüsusi əhəmiyyətə malikdir. Bu məsələlər dərman

istifadə etmədən şüurla işin müsbət nəticəsidir. Hələ 20-ci əsrdə psixogenetika alternativ yanaşma hesab olunurdu, artıq psixogenetika, o cümlədən epigenetika tam hüquqlu bir tibbi intizama çevrilir. Bunun əsas səbəbi ən çətin tibbi və gündəlik problemlərin həllində əldə olunan yüksək effektivlikdir. Hər bir insanın DNT-sində zülalların sintezi üçün göstərişlər olan və orqanizmdə müxtəlif prosesləri idarə edən genlər var. Ancaq bütün genlər hər hüceyrədə aktiv deyil. Gen ifadəsi, yəni DNT-dən məlumatın oxunması və zülalların sintezi prosesi müxtəlif mexanizmlərlə tənzimlənir. Epigenetik dəyişikliklər ifadə üçün genlərin mövcudluğuna təsir edir, hansı genlərin aktiv, hansının aktiv olmayacağını müəyyənləşdirir [5].

Ətraf mühit epigenetik dəyişikliklərin formalaşmasında əsas rol oynayır. Pəhriz, fiziki fəaliyyət səviyyəsi, stress, zəhərli maddələrə və infeksiyalara məruz qalma kimi müxtəlif amillər epigenetik mexanizmlərə təsir edə və gen ifadəsini dəyişə bilər. Məsələn, tədqiqatlar göstərir ki, yüksək kalorili pəhriz və fiziki fəaliyyətin olmaması piylənmə və diabet kimi metabolik xəstəliklərlə əlaqəli genlərin hipermetilasiyasına səbəb ola bilər.

Stress epigenetik dəyişikliklərə də əhəmiyyətli təsir göstərir. Stress səviyyələri hormonal balansı və immun sisteminin funksiyasını tənzimləyən genlərin fəaliyyətini dəyişə bilər. Məsələn, tədqiqatlar göstərir ki, uzunmüddətli stress kortizolun tənzimlənməsi ilə əlaqəli genlərin hipermetilasiyasına səbəb ola bilər ki, bu da depressiya və digər psixi pozğunluqların inkişaf riskini artıra bilər.

Gündəlik həyatımızda qarşılıqlı əlaqədə olduğumuz kimyəvi maddələr epigenetik dəyişikliklərə də təsir edə bilər. Ağır metallar və pestisidlər kimi bəzi zəhərli maddələr gen hipermetilasiyasına və DNT-nin zədələnməsinə səbəb ola bilər ki, bu da xərçəng və digər xəstəliklərin inkişafına kömək edə bilər. Erkən yaşda bu cür maddələrə məruz qalma sağlamlığın uzunmüddətli itirilməsinə səbəb ola bilər [6].

Epigenetik dəyişikliklər rüşeymin yetkin insana çevrilməsində mühüm rol oynayır. Hüceyrə diferensiasiyası prosesi zamanı epigenetik mexanizmlər müxtəlif hüceyrə tiplərində hansı genlərin aktivləşəcəyini müəyyənləşdirir. Məsələn, hemoqlobin səviyyəsini idarə edən genlər yalnız qırmızı qan hüceyrələrində, neyron funksiyası ilə əlaqəli genlər isə yalnız neyronlarda aktivləşir.

Epigenetik dəyişikliklər də bir nəsildən digərinə keçə bilər. Araşdırmalar göstərir ki, hamiləlik zamanı ananın pəhrizi və həyat tərzi nəsillərdə gen metilasiyasına təsir edə bilər və uşağın sağlamlığı üçün fərqli nəticələrə səbəb ola bilər. Bu fenomen epigenetik irsiyyət adlanır və gələcək nəsillərdə potensial xəstəliklərin qarşısını almaq üçün hamiləlik dövründə sağlam həyat tərzinin vacibliyini vurğulayır.

Eyni yuçurta əkizlərinin müqayisəsi ətraf mühitin və epigenetikanın rolunu müəyyən etmək üçün klassik yanaşmadır. Əkizlərin eyni genləri olduğundan, tədqiqatçılar fərqli həyat tərzlərinin (pəhriz, fiziki fəaliyyət səviyyəsi, pis vərdişlər) epigenetik işarələrin fərdi nümunələrini necə formalaşdırdığını izləyə bilirlər. Belə çıxır ki, yaş artdıqca fərqlər daha da böyüyür və müəyyən bir əlamətin irsiyyəti təkcə genetik deyil, epigenetik fərqlərlə müəyyən edilə bilər.

NƏTİCƏ

Psixogenetika elmi insan zəkasının öyrənilməsinə yönəldilmişdir və bizim dövrümüzdə bu elm insanların fərqli xüsusiyyətlərini araşdırır: məsələn, temperamentin xüsusiyyətləri, fərdin psixofizioloji xüsusiyyətləri, psixi pozğunluqların olması ilə irsiyyət arasındakı əlaqənin öyrənilməsinə böyük əhəmiyyət verilir. Sonradan məlum oldu ki, insanlarda epigenetik mexanizmlərin təsiri də eyni dərəcədə böyükdür. Psixogenetika və ya davranış genetikası elmi biliklərin ilk fənlərarası sahələrindən biridir. Bir tərəfdən psixogenetiklər yaddaş kimi psixologiyaya aid bilikləri öyrənirlər, digər tərəfdən, genetik mexanizmlərin işini anlamağa çalışırlar. Klassik psixogenetika fərdlərin fərqli təbiətini təhlil edir. Tədqiqatçılar fərdin irsi bioloji və sosial amillərdən – məktəbdə tərbiyə və ya valideyn münasibətlərindən hansı nisbətdə təsirləndiyini anlamağa çalışırlar. Psixogenetikanın 100 illik inkişafında tədqiqatçılar təbiətin və cəmiyyətin şəxsiyyətin inkişafına təxminən eyni dərəcədə təsir etdiyini başa düşdülər. İndi psixogenetikanın və

epigenetikanın gündəmində daha mürəkkəb məsələlər vardır. Məsələn, populyasiyada fərdi fərqlər haradan qaynaqlanır, fərdin inkişaf etdiyi şərtlərdən asılı olaraq bioloji və sosial nisbət necə dəyişir və s.

Stress histon zülalın kodunda və DNT çevrilmələrində davamlı funksional dəyişikliklərə səbəb olur. Epigenetika stressin yaratdığı dəyişikliklərə vasitəçilik edir. Stressə epigenetik reaksiyanın xüsusiyyətləri bir çox amillərdən asılıdır. Epigenetik mexanizmlər stress reaksiyasının ən mühüm elementini təşkil edir. Artan dəlillər, epigenetikanın ətraf mühitin təsirlərinə məruz qalmaların depressiyaya düşmə riskini müəyyən etmək üçün əsas mexanizm olduğu fərziyyəsini dəstəkləyir.

Epigenetika gen mahiyyətini dəyişdirərək və əhval-ruhiyyəni tənzimləyən neyrobioloji proseslərə təsir edərək depressiyanın inkişafında böyük rol oynayır. Ətraf mühitin və həyat tərzinin səbəb olduğu epigenetik dəyişikliklər depressiyanı artıra və insanı ona daha həssas edə bilər.

Təhsil mühitində epigenetika DNT-nin gen səviyyəsinə necə təsir etdiyini öyrənir. Epigenetikanı başa düşmək, məsələn, öyrənmə mühitini optimallaşdırmaq və tələbələrin emosional rifahını dəstəkləmək təhsil prosesini yaxşılaşdırmağa kömək edə bilər. Epigenetik modifikasiyalar, yəni xarici amillərin təsiri altında baş verən hadisələr genotipi dəyişdirmir, lakin fenotipi dəyişə bilər. Nəticədə, orqanizmin DNT-dəki genlərin ardıcıllığını oxuma tərzi dəyişəcək.

ƏDƏBİYYAT

1. Həsənova A., Rüstəmli R. Müasir təbiətşünaslığın sosial sinergetik konsepsiyaları, ADPU nəşr. Bakı, 2021, s.136-193.

2.Soubry A., Schildkraut J.M., Murtha A., Wang F., Huang Z., Bernal A. et al. (2013). Paternal obesity is associated with IGF2 hypomethylation in newborns: results from a Newborn Epigenetics Study (NEST) cohort. BMC Med. 11, 29;

3. Tsvetkov V. Ya. Information interaction // European Researcher. - 2013. - Vol. (62), № 11-1.

4.Шпорк П. Читая между строк ДНК. М.: Ломоносовъ, 2013. — 272 с.;

5.Tolipova J.O. Biologiyani o'itishda innovqatsion texnologiyalar. Pedagogika oily ta`lim muassasalari talabalari uchun darslik. Toshkent-2014 y.

6.Ванюшин Б.Ф. (2013). Эпигенетика сегодня и завтра. Вавиловский журнал генетики и селекции. 17, 805–832;

BIOSOCIAL PECULIARITIES OF ADAPTATION OF THE ELDERLY AND ELDERLY PEOPLE TO MODERN SOCIETY

БИОСОЦИАЛЬНЫЕ И ТЕОРЕТИКО-ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ АДАПТАЦИИ ПОЖИЛЫХ И СТАРЧЕСКИХ ЛЮДЕЙ К ОБЩЕСТВУ

YAŞLILARIN VƏ AHILLARIN CƏMİYYƏTƏ ADAPTASİYASININ BİOSOSİAL VƏ NƏZƏRİ-PSİXOLOJİ ƏSASLARI

Həsənova Amaliya Murad qızı
ORCID: **0000-0002-2196-3215**
Biologiya üzrə fəlsəfə doktoru, dosent Azərbaycan Dövlət Pedaqoji Universiteti

Abstract
The Republic of Azerbaijan is a country where respect and care for the elderly is maintained at a high level due to its national and spiritual values. The socio-political situation in the modern world, including Azerbaijan, is changing rapidly. Therefore, the problems faced by the elderly and senior layers of the population and the ways to solve them have also changed. The need to profile social work aimed at the welfare of the elderly and senior citizens became urgent at the end of the twentieth century. Therefore, social work as a professional specialty opens new perspectives in the direction of training specialists working with the elderly. This profession forms the content of activities that require solving the problems of the elderly and elderly people. Of course, these issues are not solved in a short time. In our time, the problem of aging as a social phenomenon manifests itself already in a new form. Modern elderly and elderly people live on a new social level due to the development of information technology. To adapt and rehabilitate the elderly to life in the era of new information technologies, it is necessary to develop the effectiveness of social work. To organize social work with the elderly and elderly people at the modern level, it is necessary to rely on biological knowledge about human nature, human character. The study of the laws of nature has raised to the forefront the importance of studying the human phenomenon, because, man is directly connected with nature. That is why the means and methods of individual sciences alone are not enough to cognize human nature. The informational aspects of human nature, including physiological, psychological and social features and qualities of human beings, are very wide. With age, a person's life experience and the level of vital knowledge increases. At the same time, elderly people often react nervously to the events happening around them. Therefore, the peculiarities of an individual approach to older people remain an urgent issue worldwide. The process of demographic ageing of the population in Azerbaijan actualizes not only socio-economic, but also pedagogical aspects of social work with older people. Social work with older people as a result of socio-economic policy of the state should take into account the main factors of creating conditions to maintain the standard of living of older people and assist in solving their individual lives. Social work with the elderly and elderly people requires university and secondary school students to study the basics of gerontological profile. Although the study of aging mechanisms is a problem of biology, on the one hand, it is studied in connection with sociology, on the other. Darwin's discovery of the laws of biological evolution gave impetus to the development of biological direction in sociology. In connection with the emergence of mechanisms of social evolution, the importance of applying biological laws to society was confirmed. The history of sociology's interaction with biology, as well as modern biological trends in the humanities are studied. The analysis of sociologists' biological concepts from the standpoint of the modern theory of evolution allowed us to show the systemic errors of sociologists in the application of biological law
Key words: elderly people, social work, individual approach, gerontology, rehabilitation.

Резюме
Азербайджанская Республика является страной, где уважение и забота о пожилых людях высоко охраняются в силу ее национальных и духовных ценностей. Социально-политическая ситуация в современном мире, в том числе и в Азербайджане, стремительно меняется. Поэтому изменились и проблемы, с которыми сталкиваются пожилые люди и пожилое население, и пути их решения. Необходимость профилирования социальной работы, направленной на благополучие пожилых и престарелых, стала актуальной в конце XX века. Поэтому социальная работа как профессиональная специальность открывает новые перспективы для подготовки специалистов, работающих с пожилыми людьми. Эта профессия формирует содержание деятельности, требующей решения проблем пожилых и престарелых. Конечно, эти вопросы не решаются в короткие сроки. В современное время проблема старения как социального явления уже проявляется в новой форме. Современные пожилые и престарелые люди живут на новом социальном уровне благодаря развитию информационных технологий.
Ключевые слова: пожилые люди, социальная работа, индивидуальный подход, геронтология, реабилитация.

Xülasə.
Azərbaycan Respublikası öz milli-mənəvi dəyərlərinə görə yaşlılara hörmət və qayğının yüksək səviyyədə qorunduğu bir ölkədir. Müasir dünyada, o cümlədən Azərbaycanda ictimai-siyasi vəziyyət sürətlə dəyişir. Buna görə əhalinin yaşlı və ahıl təbəqəsi ilə əlaqədar qarşıda duran problemlər və onların həlli yolları da dəyişmişdir.
Yaşlı və ahıl insanların rifahına yönəlmiş sosial işin profilləşdirilməsi ehtiyacı XX əsrin sonlarında aktuallaşmışdır. Buna görə sosial iş peşəkar bir ixtisas olaraq yaşlılarla işləyən mütəxəssislərin hazırlanması istiqamətində yeni perspektivlər açır. Bu peşə yaşlı və ahıl insanların problemlərinin həllini tələb edən fəaliyyətlərin məzmununu formaşaldırır. Əlbəttə, bu məsələlər az müddət ərzində həll olunmur. Müasir dövrdə yaşlanma problemi sosial fenomeni artıq yeni formada təzahür edir. Müasir ahıl və yaşlı insanlar informasiya texnologiyalarının inkişafı ilə əlaqədar yeni sosial səviyyədə yaşayırlar.
Açar sözlər:yaşlılar, sosial iş, fərdi yanaşma, gerontologiya, reabilitasiya.

GİRİŞ

Yaşlıların yeni informasiya texnologiyaları dövründə həyata uyğunlaşması və reabilitasiyası üçün sosial işin səmərəliliyini inkişaf etdirmək lazımdır. Yaşlılar və ahıllarla sosial işin müasir səviyyədə təşkili üçün insan təbiəti, insan xarakteri barədə bioloji biliklərə əsaslanmaq lazımdır. Təbiət qanunlarının öyrənilməsi, insan fenomeninin öyrənilməsinin vacibliyini gündəmə gətirmişdir, çünki, insan birbaşa təbiətlə əlaqəlidir. Elə buna görə də təkcə ayrı-ayrı elmlərin vasitə və metodları insan təbiətini bilmək üçün kifayət deyil. İnsanın fizioloji, psixoloji və sosial xüsusiyyətləri və keyfiyyətləri də daxil olmaqla insan təbiətinin məlumat aspektləri çox genişdir. İnsan yaşlandıqca həyat təcrübəsi və həyati bilik səviyyəsi artır. Eyni zamanda, yaşlı adamlar ətrafında baş verən hadisələrə çox zaman əsəbi reaksiya verirlər. Buna görə də, yaşlılara fərdi yanaşma xüsusiyyətləri dünyanın hər yerində aktual məsələ olaraq qalır.
Azərbaycanda əhalinin demoqrafik qocalması prosesi yaşlı insanlarla sosial işin təkcə sosial-iqtisadi deyil, həm də pedaqoji tərəflərini aktuallaşdırır. Yaşlılarla sosial iş dövlətin sosial-iqtisadi siyasətinin nəticəsi kimi yaşlıların həyat standartlarını qorumaq üçün şərait yaratmaq və onların fərdi həyatının həllində kömək etmək üçün əsas amillər nəzərə alınmalıdır [1].
Yaşlılar və ahıllarla sosial iş ali və orta ixtisas tələbələrinin gerontoloji profilin əsaslarını öyrənməyi tələb edir. Qocalma mexanizmlərinin öyrənilməsi bir tərəfdən biologiyanın probelmi olsa da, digər tərəfdən sosiologiya ilə əlaqədar öyrənilir. Ç.Darvinin bioloji təkamül qanunlarını kəşf etməsi

sosiologiyada bioloji istiqamətin inkişafına təkan verdi. Sosial təkamül mexanizmlərinin ortaya çıxması ilə əlaqədar olaraq, cəmiyyətə bioloji qanunların tətbiq edilməsinin vacibliyi təsdiq olundu. Sosiologiyanın biologiya ilə qarşılıqlı əlaqəsinin tarixi, eləcə də, humanitar elmlərdəki müasir bioloji meyllər araşdırılır. Müasir təkamül nəzəriyyəsi baxımından sosioloqların bioloji anlayışlarının təhlili, sosioloqların bioloji qanunlardan istifadə sahəsində sistemli səhvləri də göstərməyə imkan verdi.

MATERİAL VƏ METODLAR

Biologiya cəmiyyətdə insanların yaş strukturunu təyin etməyə, uşaq, yeniyetmə, gənc və yaşlıların sosial-psixoloji vəziyyətlərini təyin etməyə kömək edir. Yaşlanma, zaman keçdikcə təbii səbəblərdən ölüm riskinin artmasıdır, bədənin və ya onun sistemlərinin, xüsusən də cinsi çoxalma və orqanizmin bərpası qabiliyyətinin tədricən pozulması və itirilməsi prosesidir. Yaşlanma nəticəsində orqanizm ətraf mühit şəraitinə daha az uyğunlaşır, sosial uyğunlaşma xüsusiyyətləri azalır, təbii-sosial problemlərə qarşı mübarizə aparmaq qabiliyyəti aşağı düşür. Orqanizm yaşlandıqda xəstəliklərə və xəsarətlərə müqavimət göstərmək qabiliyyətini də itirir. İnsanın yaşlanmasını öyrənən elmə gerontologiya, yaşlanmanın bioloji tərəfini araşdıran bölməyə biogerontologiya deyilir. Bu elm sahələri insanın təbii-sosial xüsusiyyətlərini tədqiq edir və yaşlanmanın immun sisteminə təsirlərini öyrənir. Yaşlılar və ahıllarla sosial iş aparan mütəxəssislər onlarla ünsiyyət qurmağın forma və yollarını yollarını tapmaq bilik və bacarığına sahib olmalıdırlar. Buna görə də ünsiyyət bacarıqlarının mənimsənilməsi daha çox nəzərə alınır. Sosial işçilərin hazırlanmasında ünsiyyət bacarığı mühüm və əhəmiyyətli cəhətdir.

Ünsiyyət bacarıqlarına aşağıdakılar daxildir:

- vəziyyətin təhlili və qiymətləndirilməsi üçün zəruri olan yalnız faktlara əsaslanan məlumat toplamaq bacarığı;
- başqalarını dinləmək bacarığı;
- əlaqələr qurmaq və səmərəli inkişaf etdirmək bacarığı;
- müşahidə etmək, şifahi və düzgün şərh etmək bacarığı
- nəzəriyyə biliklərini tətbiq etmək və diaqnostika üsulları;
- himayədarların etibarına nail olmaq bacarığı;
- kəskin problemləri müsbət emosional şəkildə müzakirə etmək bacarığı
- tədqiqat aparmaq bacarığı;
- ziddiyyətli şəxslər və ya qruplar aralarındakı əlaqələri idarə etmək bacarığı və vasitəçi kimi çıxış etmək bacarığı;
- müxtəlif təşkilatlarla əlaqələr qurmaq bacarığı;
- ehtiyacı olan vətəndaşların sosial ehtiyaclarını müəyyən etmək və bu barədə müvafiq vəzifəli şəxslərə məlumat vermək bacarığı;

NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Yaşlı və ahıl insanlarla sosial iş mühüm sosial problemlərin həllinə yönəlmiş çoxsaylı sosial institutların və proqramların tədqiqat obyektidir. Bir çox tədqiqatçılar ahıllıq yaşını insanın müxtəlif sahələrdə sosial problemlərlə üzləşdiyi, həyat tərzinə əhəmiyyətli dərəcədə təsir edən xarici və daxili dəyişikliklərlə əlaqəli böhran dövrü hesab edirlər: rifahın aşağı səviyyə düşməsi, tibbi və sosial xidmətlər almaqda çətinliklər, dəyişən həyat şəraitinə uyğunlaşmaqda çətinliklər və tanış sosial əlaqələrin itirilməsi.

Ahıllara sosial xidmətlərin effektiv olması üçün onların fərdi yaş və psixoloji xüsusiyyətlərini anlamaq və nəzərə almaq lazımdır. Eyni zamanda, evdə sosial xidmət şöbələrinin sosial işçiləri ahıl insanlarla münasibətdə onların psixofiziloji xüsusiyyətlərini, maraqları və mənəvi münasibətlərini nəzərə almaqla insiyyət qurmalıdırlar.

Dünya əhalisinin demoqrafik strukturunda baş verən əsaslı dəyişikliklər (yəni demoqrafik piramidanın kəsilməsi prosesi deyilən proses) insan cəmiyyətində narahatlıq doğurur. Yaşlanma problemi 80-ci illərin əvvəllərindən beynəlxalq təşkilatlar və BMT agentlikləri tərəfindən xüsusi diqqət mərkəzində olmuşdur. Bir çox elmi simpoziumlarda, mətbuatda, siyasi bəyanatlarda bu proses sosial, iqtisadi və mədəni bir hadisə kimi dəyərləndirilir. Əslində bu proses sosial inkişaf, sosial rifah, nəsillər arasında normal ünsiyyət, innovasiya və texnoloji inkişafdan səmərəli istifadə qarşılıqlı əlaqədə həll edilməlidir.

Kaliforniya Universitetindən Karla Perissinotto'nun rəhbərlik etdiyi elmi qrup aparılmış tədqiqatların nəticələrini *Archives of İnternal Medicine* internet jurnalında dərc etdirib. Məqalədə bunlar qeyd edilib:"Tənhalıq yaşlı adamların tutulduğu xəstəliklərin ümumi mənbəyi sayıla bilər. Biz göstəririk ki, bu eləcə də ölüm halları və müxtəlif yollarla orqanizmin funksional tənəzzülünə gətirən risk faktorudur".

ABŞ-da keçirilən ayrı bir tədqiqatın nəticələri də eyni jurnalda dərc olunub. Bu tədqiqatda tənha yaşayan və qan damarlarında tromb əmələ gəlməsindən əziyyət çəkən insanların ürək xəstəliklərindən ölmək riskinin daha artıq olduğu göstərilib.

Alimlər 44573 orta yaş həddində olan iştirakçıları müayinə ediblər, onlardan 8594 nəfəri tənha həyat tərzi sürənlər olub. 4 il ərzində aparılmış müşahidələr nəticəsində tənha yaşayanların ölüm riskinin 3% artıq olması müəyyən edilmişdir. Həmin müddət ərzində ürək xəstəliklərindən ölmək riski tənhalar üçün 7%-dən 8,6%-dək artıq olub.

Biologiya cəmiyyətdə insanların yaş strukturunu təyin etməyə, uşaq, yeniyetmə, gənc və yaşlıların sosial-psixoloji vəziyyətlərini təyin etməyə kömək edir. Yaşlanma, zaman keçdikcə təbii səbəblərdən ölüm riskinin artmasıdır, bədənin və ya onun sistemlərinin, xüsusən də cinsi çoxalma və orqanizmin bərpası qabiliyyətinin tədricən pozulması və itirilməsi prosesidir. Yaşlanma nəticəsində orqanizm ətraf mühit şəraitinə daha az uyğunlaşır, sosial uyğunlaşma xüsusiyyətləri azalır, təbii-sosial problemlərə qarşı mübarizə aparmaq qabiliyyəti aşağı düşür. Orqanizm yaşlandıqda xəstəliklərə və xəsarətlərə müqavimət göstərmək qabiliyyətini də itirir. İnsanın yaşlanmasını öyrənən elmə gerontologiya, yaşlanmanın bioloji tərəfini araşdıran bölməyə biogerontologiya deyilir. Bu elm sahələri insanın təbii-sosial xüsusiyyətlərini tədqiq edir və yaşlanmanın immun sisteminə təsirlərini öyrənir. Qocalma mexanizmlərinin öyrənilməsi bir tərəfdən biologiyanın probelmi olsa da, digər tərəfdən sosiologiya ilə əlaqədar öyrənilir. Ç.Darvinin bioloji təkamül qanunlarını kəşf etməsi sosiologiyada bioloji istiqamətin inkişafına təkan verdi. Sosial təkamül mexanizmlərinin ortaya çıxması ilə əlaqədar olaraq, cəmiyyətə bioloji qanunların tətbiq edilməsinin vacibliyi təsdiq olundu. Sosiologiyanın biologiya ilə qarşılıqlı əlaqəsinin tarixi, eləcə də, humanitar elmlərdəki müasir bioloji meyllər araşdırılır. Müasir təkamül nəzəriyyəsi baxımından sosioloqların bioloji anlayışlarının təhlili, sosioloqların bioloji qanunlardan istifadə sahəsində sistemli səhvləri də göstərməyə imkan verdi [2].

İnsanın qocalması, digər orqanizmlərin qocalması kimi, insan bədəninin hissələrinin və sistemlərinin tədricən pozulmasının bioloji prosesidir və bu prosesin nəticəsidir. Yaşlanma prosesinin fiziologiyası digər məməlilərdə yaşlanma fiziologiyasına bənzəyir, lakin zehni qabiliyyətin itirilməsi kimi bu prosesin bəzi aspektləri insanlar üçün daha böyük əhəmiyyət kəsb edir. Bu səbəbdən yaşlanma ilə əlaqədar bir çox sosial və iqtisadi problemlər ortaya çıxır. Yaşlanma prosesi təkcə fizioloji dəyişiklikləri yox, həm də yaşlı insanların cəmiyyətdəki yerini araşdıran gerontologiya elmi tərəfindən öyrənilir.

Gerontologiya (qədim yunanca γέρων, qoca + λόγος, bilik, söz, təlim), insanın qocalmasının bioloji, sosial və psixoloji aspektlərini, səbəblərini və onunla mübarizə yollarını öyrənən elm sahəsidir. Bu termin 1903-cü ildə İ.İ.Meçnikov tərəfindən təqdim edilmişdir. Gerontologiyanın yaşlı insanların psixoloji və davranış xüsusiyyətlərini öyrənən sahəsi gerontopsixologiya yaxşı inkişaf etmişdir. Biogerontologiya – bioloji yaşlanma proseslərini belə öyrənir, bəzi biogerontoloqlar hesab edirlər ki, qocalığın özü bir xəstəlik kimi müalicə olunmalı və ona uyğun müalicə olunmalıdır.

Qocalmanın demoqrafik, sosial-iqtisadi problemlərini həll etmək üçün hazırlanmış sosial intizam, gerontologiyanın bir qoludur və sosial gerontologiya adlanır. Bu termin E. Stiqlits (1940) tərəfindən irəli sürülmüşdür. Rəsmi olaraq 1960-cı ildə formalaşmışdır. Bir elm olaraq sosial gerontologiyanın dörd sahəsi vardır:

- Qocalığın insana, dəyərlərin dəyişməsinə, insanın

ehtiyaclarına, qocalıqda davranışına və həyat tərzinə təsirinin öyrənilməsi;

- Yaşlı adamın cəmiyyətdəki mövqeyinin öyrənilməsi, ailədə, komandada, dostlarla qarşılıqlı əlaqəsi, eləcə də yaşlı insanlardan ibarət qrupların xüsusiyyətlərinin öyrənilməsi;
- Ümumiyyətlə, yaşlı insanların cəmiyyətdə öyrənilməsi;
- Yaşlıların müəyyən bir demoqrafik qrup olaraq qəbul edilməsi, onların sosial proseslərə təsir etməsi və onların sosial proseslərdən təsirlənməsi.

Gerontoloji tədqiqatın məqsədi qocalmanın səbəblərini anlamaq və onunla mübarizə yollarını tapmaqdır. İnsanlar üçün qocalmanın hər zaman xüsusi mənası olmuşdur. Əsrlər boyu filosoflar qocalmanın səbəbləri haqqında mübahisə edir, kimyaçılar gənclik iksirini axtarırdılar və bir çox dinlər qocalmaya müqəddəs əhəmiyyət verirdi. Heyvanlar üzərində aparılan təcrübələrdə orta və maksimum ömür müddətini əhəmiyyətli dərəcədə artırma qabiliyyəti öyrənilməyə başlamışdır. Qocalıq inkişaf etmiş ölkələrdə ölümün əsas səbəbi kimi tanınır. Qocalmanı ciddi şəkildə yavaşlatmaq üçün mövcud fundamental ehtimala baxmayaraq, cəmiyyətlər və dövlətlər insan həyatının uzadılması problemlərini az maliyyələşdirilir.

Qocalma prosesinin xüsusiyyətlərini və yaşlıların cəmiyyətdəki mövqeyini təyin edən sosial amillər bunlardır:

• mülkiyyət və gəlir;
• strateji biliklər;
• iş qabiliyyəti;
• qarşılıqlı asılılıq;
• ənənələr və din;
• rolların itirilməsi və rol qeyri -müəyyənliyi;
• gələcəyin itirilməsi.

Əmlak mülkiyyəti və gəlir yaşlı insanın normal iqtisadi vəziyyətini təmin edir, əgər belə olmasa, yaşlı insan tamamilə cəmiyyətin xeyriyyəçiliyindən asılı olur. Mülkiyyətə və təqaüdə sahib olmaq, yaşlı adamın müstəqilliyini və təhlükəsizliyini təmin edir. Kütləvi şüurda təqaüdçünün, və ya sadəcə qocanın rolu çox aydın deyil və cəmiyyətdə buna uyğun bir rol gözləntisi yoxdur. Bir insan qocalanda, cəmiyyət və ailə bir sosial vahid olaraq ona heç bir tələb irəli sürmür və bununla da onun statusunu dəyişərək müəyyən bir roldan məhrum edir. Rol qeyri müəyyənliyi yaşlıları ruhdan salır. Onları sosial kimliklərindən məhrum edir və çox vaxt psixoloji sabitliyə mənfi təsir göstərir. Həyatın adət olunmamış vəziyyətləri depressiya və narahatlığa səbəb olur, çünki yaşlılar sosial gözləntilərinin boşluğunu və onlar üçün normaların olmamasını hiss edirlər [3].

Yaşlı bir insan üçün nəinki uşaqlar, hətta nəvələr də müxtəlif maraqlar və müsbət emosiyaların mənbəyi ola bilərlər. Bir ailənin gənc nəslinin tərbiyəçisi, qəyyumu funksiyaları sosial cəhətdən əhəmiyyətlidir və buna görə də əvvəlki sosial statusunu, təqaüdə çıxmamışdan əvvəl yerinə yetirilən sosial rolları əvəz edə bilər. Eyni zamanda, bu funksiyalar yaşlı adamdan çox vaxt və səy tələb edir. Əslində, təqaüdçü nənə və baba nəvələrinin qayğısının böyük bir hissəsini öz üzərinə götürərək və bununla da ailənin orta nəslinin yükünü yüngülləşdirərək, azyaşlı uşaqlar üçün valideynlərini əvəz edir.

Yaşlı bir insanın həyatının canlanması və rifahı, mənəvi vəziyyətinin yüksəldilməsi üçün zəruri şərtdir. Əslində, insanın qocalıqdakı həyatı asan deyil və ona passiv istirahət vaxtı kimi baxmaq lazım deyil. Bu daimi aktivliyi, öz şəxsiyyətinə və zehni inkişafına görə məsuliyyət hissini təşviq edən bir həyat tərzidir. Yaradıcı qocalıq tarazlıq və mənəvi harmoniya hissi ilə müşayiət olunur. Yaşlılıq tənəzzül prosesi olmamalıdır; qocalıq bacarığı həyatın hər dəqiqəsindən yeni dəyərlər çıxarmaqdır.

Yaşlı insanların digərlərində olmayan və ola bilməyəcəyi çox vacib bir keyfiyyət vardır. Bu fərdi müdriklik və həyat təcrübəsidir. Cəmiyyətin inkişafında güclü bir stimul və faktor ola biləcək bu dünyada kifayət qədər uzun müddət yaşayan bir insana xas olan fərdi müdriklik qocalıqda insanı ətrafındakılar üçün qiymətli edə bilər.

Beləliklə, qocalıq dövrü insanın 60-65 yaşındakı şərti sərhədi keçdiyi zaman başlayır, ancaq hər il tibbin inkişafı, sosial tərəqqi və həyat keyfiyyətinin artması ilə əlaqədar olaraq bu yaşda olan özünü qoca hesab etməyən insanların sayı artır. Yaşlılıq fiziki deyil, sosial fenomendir. Şəxsiyyətin zehni inkişafı qocalıqda da davam edir.

Ədəbiyyat

1.Həsənova A.M., Tibbi müalicə metodları və sisemləri, ADPU nəşriyyatı, Bakı, 2016,

2.Həsənova A.M., R.A.Rüstəmli, Müasir təbiətşünaslığın sosial-sinergetik konsepsiyaları., Bakı, ADPU nəşriyyatı, 2021.

3.Нагорнова, А. Ю. Теория и технология социальной работы с пожилыми людьми : учебное пособие для вузов / А. Ю. Нагорнова. — 2-е изд., испр. и доп. — Москва : Издательство Юрайт, 2021.

BAKHTIYAR VAHABZADE AND KHALIL RZA ULUTURK ARMY COMMITTEE

BƏXTİYAR VAHABZADƏ VƏ XƏLİL RZA ULUTÜRK SİLAHDAŞLIĞI

Şəfa Qüdrət qızı Muradova
ADPU

Xülasə
Tarixdən məlumdur ki, zaman-zaman işğallara, məhrumiyyətlərə düçar olmuş Azərbaycan dəfələrlə düşmən tapdağı altında inləmiş, dəfələrlə şəhid qanı ilə suvarılan Vətən torpağı müharibələrlə geri alınmışdır. Bu, Azərbaycan ədəbiyyatında vətənpərvərlik mövzulu yaradıcılıq nümunələrinin olmasını şərtləndirən amillərdəndir. Eyni zamanda, vətənpərvərlik qayəli ədəbi nümunələrin araşdırılması və təbliği də bütün zamanlar üçün aktual və zəruridir. Bu məqalədə Azərbaycan tarixinin istiqlal mübarizəsi səhifəsinə çevrilən 1990-cı illər tarixində və ədəbiyyatında mühüm rol oynamış Bəxtiyar Vahabzadə və Xəlil Rza Ulutürkün azadlıq mübarizəsi dolu poeziyasından bəhs olunmuşdur. B. Vahabzadə və Xəlil Rza poeziyası istər müharibə mövzulu, istərsə də Vətən həsrətinin inikasını əhatələyən ədəbi nümunə kimi hər zaman örnək göstərilə bilən şeirlərdir. Uzaq və yaxın tariximizə müraciət etdikdə görürük ki, məmləkətimizin torpaq həsrəti geniş zamanı və ərazini əhatə edir. Cənubi və Qərbi Azərbaycan torpaqlarının ürəyimizdəki nisgili bizi Vətən həsrətli poeziyamızda həmin torpaqların tərənnümünü, həsrət dolu sevgisini axtarmağa vadar etmişdir. Hər iki xalq şairinin yaradıcılığında Türkçülük ideyalarının təbliği, Vətən həsrəti, böyük bir məmləkətin sakini olan Azərbaycan xalqının zaman-zaman istilalara məruz qalması və azadlıq mübarizəsi dolğunluqla əks olunmuşdur. Məqalədə Bəxtiyar Vahabzadə və Xəlil Rza Ulutürk yaradıcılığı bu baxımdan müqayisəli şəkildə tədqiq olunmuş, irəli sürülən fikirlərin təsdiqi üçün yaradıcılıqlarından nümunələr göstərilmişdir. Hər iki şairin həm qələmi, həm də əməli ilə Vətən mücahidi olması qənaətinə gəlinmişdir.
Açar sözlər: Vətən, Türk, Azərbaycan, poeziya, istiqlal.

Abstract
It is known from history that Azerbaijan, which has been subjected to occupations and deprivations from time to time, has groaned under the enemy's feet many times, and the homeland, which has been watered with the blood of martyrs many times, has been reclaimed through wars. This is one of the factors that determines the presence of patriotic creative examples in Azerbaijani literature. At the same time, the study and promotion of patriotic literary examples is relevant and necessary for all times. This article discusses the freedom-struggle-filled poetry of Bakhtiyar Vahabzadeh and Khalil Rza Uluturk, who played an important role in the history and literature of the 1990s, which became the page of the struggle for independence in the history of Azerbaijan. The poetry of B. Vahabzadeh and Khalil Rza is always exemplary, whether it is about war or about the expression of longing for the homeland. The affinity in our hearts for the lands of Southern and Western Azerbaijan has led us to seek the glorification and longing love of those lands in our poetry of longing for the homeland. The work of both national poets fully reflects the promotion of Turkism, longing for the homeland, the occasional deprivations of the Azerbaijani people, residents of a great country, and the struggle for freedom. The article comparatively examines the work of Bakhtiyar Vahabzadeh and Khalil Rza Ulutürk from this perspective, and provides examples of their work to support the ideas put forward. It has been concluded that both poets were fighters for the motherland, both in their writing and in their actions.
Key words: Homeland, Turk, Azerbaijan, poetry,independence.

Giriş

Azərbaycan ədəbiyyatı tarixində bir çox mövzular kimi vətənpərvərlik qayəli poeziya nümunələri də xüsusi yerə sahibdir. Tarixin müəyyən zaman kəsiklərində ictimai-siyasi səbəblərdən məhrumiyyətlərə düçar olan Azərbaycan məkanında əlbəttə ki Vətən mövzulu əsərlər çoxluq təşkil etməlidir. Bu dönəmlərin bir zamanı da 1990-cı illəri əhatə edir. Həmin dövr bizi kökümüzdən qoparıb sosialist ideyaların quluna çevirmək istəyən sovet quruluşunun süquta uğraması, Vətənimizin istiqlal savaşında irəliləyən, qanlı yanvarda günahsız qurbanlar verən dönəm idi. O zamanın hələ sovetlər vaxtından başlayaraq mübarizə aparan, xalqı ümidlə sabaha səsləyən bir çox ziyalısı olmuşdur. Biz bu məqalədə o ziyalılardan iki silahdaşın– Bəxtiyar Vahabzadə və Xəlil Rza Ulutürkün azadlıq mübarizəsi dolu poeziyasından danışmaq fikrindəyik.

Əsas hiss

Tarixdən məlum olduğu kimi, Azərbaycan yerləşdiyi ərazi baxımından yarandığı gündən bəri zaman-zaman işğallara, məhrumiyyətlərə düçar olmuşdur, torpaqlarımız dəfələrlə düşmən tapdağı altında inləmiş, dəfələrlə şəhid qanı ilə suvarılan Vətən torpağı müharibələrlə geri alınmışdır. Ona görə də Azərbaycan ədəbiyyatında Vətənpərvərlik mövzusunun əsas xəttini təşkil edən müharibə ilə bağlı yaradıcılıq nümunələrinin mövcudluğu şərtdir. *"Azərbaycançılıq – milli düşüncənin və vətən anlayışının bir yerdə qavranılması təlimi kimi xalqın və ölkənin milli maraqlarının – maarifçilikdən milli azadlıq ideyalarına, istiqlal mübarizəsi düşüncəsinə, dövlət müstəqilliyi şüuruna qədərki bütün ideallarının ədəbiyyatın canında və qanında olmasını qaçılmaz həyati tələbat səviyyəsinə qaldıran ümummilli məfkurədir"* (5, s.102-103). Bu, əlbəttə haqqında bəhs etdiyimiz milli ruhun aşılanmasını şərəfli vəzifə kimi qəbul edən iki vətənpərvər silahdaşın yaradıcılığından yan keçə bilməzdi. Hər iki şairin yaşadığı dönəm Qarabağa həsrət qaldığımız zaman olduğundan onların yaradıcılığında bununla bağlı şeirlər təbii olaraq çoxluq təşkil edir. İgid oğullarımız Qarabağda – sonu müəmma kimi görünən, siyasi hədəflərə oyuncaq olan müharibə meydanında Vətən naminə can qoyarkən məmləkətin qarışıq vəziyyətindən istifadə edən kəmfürsətlər Bəxtiyar qələmində tənqid hədəfinə çevrilirdi:

Millət Qarabağda qırılan zaman
Oğlunun toyunda çalıb-oynayan
Adamdan millətə baş ola bilməz,
Bu xalqın özündən ağır yükünü
Çəkən arabaya qoşula bilməz [14, c.1, s.124].

Verib Qarabağı Bakıya qaçdıq,
Bakıda "Qarabağ" kafesi açdıq.
Verib Qarabağı oxuduruq biz,
Toylarda "Qarabağ şikəstəsi"ni.
Heç demə, bizim də kişiliyimiz
Toylarda cırmaqmış minlik dəstini [14, c.1, s.137].

Xəlil Rza poeziyasında Qarabağ mövzusu azadlıq yanğısının həsrət motivi idi. Ulutürk bu həsrətin gec-tez sona yetəcəyinə inanırdı və bütün əzmi ilə əməl və qələmi birləşdirərək bu savaşa qəlbindən od ötürürdü. Bu od şeirlərində bəzən düşmənə olan qəzəb kin, bəzən də Vətənə olan Səməndər sevgisi kimi şölə saçırdı:

And içirəm Təbrizimin Günəş boyda məzarına,
Dünən solan, bu gün yenə çiçəkləyən gülzarına.
And içirəm ilk gəlinim Sevincimin ah-zarına,

Göz yaşından xal-xal olmuş alyanaq qollarına!
And içirəm Xocalımın qapadılmış yollarına,
Yarpağında insan qanı... Xınalanmış kollarına:
Daş gəmirib qum yeyəcək yurduma göz dikən yağı,
Ucal, yüksəl, Odər yurdu, sən ey haqqın ağ bayrağı!

Təbərrüküm, tutiyam bil Qaradağı, Qarabağı,
Yüksəl Günəş mövqeyinə Odər yurdu, Od torpağı! [9, s.234].

"XX əsrin yetirdiyi şəxsiyyətlərdən biri də canlı şəhidimiz, böyük şair, ustad Xəlil Rza Ulutürkdür. Vətəndaşlıq Xəlil Rza poeziyasının bütün hüceyrəsində, ətində-bətnindədir. Xəlil Rza Ulutürkün ruhu Azərbaycan xalqının öz ruhudur" [6, s.3].
Zənnimizcə, Xəlil Rzanın Vətən mücahidliyinə anbaan şahid olan ömür-gün yoldaşı Firəngiz Xəlilbəylinin sözlərini yada salmaq məqamıdır:
"*Xəlil Rza dünyanın oğlu idi. Mən türk dünyasının böyük oğlu Xəlil bəylə mübarizə dolu ömür yolu keçdiyim üçün xoşbəxtəm. Xəlil ömürlərdə yaşayır, mübarizə aparır. Mübarizədə keçən ömürsə əbədiyyətə qovuşan ömürdür." [4, s.46].*
Uzaq və yaxın tariximizə müraciət etdikdə görürük ki, məmləkətimizin torpaq həsrəti geniş zamanı və ərazini əhatə edir. Cənubi və Qərbi Azərbaycan torpaqlarının ürəyimizdəki nisgili bizi Vətən həsrətli poeziyamızda həmin torpaqların tərənnümünü, həsrət dolu sevgisini axtarmağa vadar edir. B.Vahabzadə bir çox şeirlərində Vətən həsrətinin yanğılı bir fəryadla qələmə almışdır. Bu fəryadın kökü Azərbaycan torpağının ikiyə bölündüyü gündən qaynaqlanır. Bu fəryad cənub həsrətli ana bacıların, bir-birinə həsrət bir ömrü başa vuran ata-oğulun fəryadından doğmuşdur. Şair bunu belə tərənnüm edir:

Bu xalq əzəl gündən düşüb zillətə,
Öz doğma yurdunda yoxsa kölədir?
Necə ayırdınız dırnağı ətdən
Ürəyi bədəndən canı cəsəddən?
Axı kim bu haqqı vermişdir sizə,
Sizi kim çağırmış Vətənimizə?
Neçə vaxt səngərdə hey ulaşdılar,
Gülüstan kəndində sövdalaşdılar
Bir ölkə ikiyə ayrılsın deyə… [16, s.78].

Xəlil Rza Ulutürk qələmində isə həmin "Gülüstan" bu şəkildə cizgilənir:
Kəsildi bağlarda bülbülün səsi,
Yad atlar taladı bağı, bostanı.
Yazıldı "Gülüstan" müqaviləsi,
Pozuldu yurdumun min gülüstanı [7, s.187].

Ulutürkün azadlıq eşqinin Vətən məhəbbəti zəminində təzahürü professor Yavuz Axundlu tərəfindən dolğun şəkildə ifadə olunur: *"Bəli, adicə "quş yuvasının səcdəgaha çevrilməsi" yurda məhəbbət ifadəsindən başqa bir şey deyil. X. Rza cəsarətlə bildirir ki, qandallı vətənin azad vətəndaşı olmaq qeyri mümkündür. Şair və Vətən eyni dərəcədə azadlığa möhtacdır" [1, s.57].*
Türk olduğu ilə fəxr edən xalq şairi eyni zamanda Türkləri sevməyənlərə nifrəti sonsuzdur və bunu dönə-dönə vurğulamağı lazım bilir. Bu barədə professor Əlizadə Əsgərlinin fikri yerinə düşər: *"Şairin nifrəti, kin-küdurəti güclü olduğundan şeirlərinin publisistik-ritorik intonasiyası da qüvvətli olub"* [4, s.18].

Şairin "Türk sözündən qorxan gəda" şeiri qeyd olunanların təsdiqi üçün yetərlidir:

Bu dünyada növbənöv qorxaqlar görmüşəm mən:
Oddan, sudan, dənizdən, ilandan qorxan da var.
Həyulədən, teyfdən, xortdandan qorxan da var.
Ancaq sözdən qorxanı dünyada görən hanı?
– Yox, bu adi söz deyil. Türk sözüdür, ay canım!...

...Tunquslara, lehlərə, almanlara, çexlərə,
Min-min sözü bəxş edən bəşər atası türkəm!
Qulaq as, ey əqli kəm:
Məndən başlanır tarix,
Tarix qədər qocaman, tarix qədər müdrikəm! [8, s.259].
"Xəlil Rza Ulutürkün istiqlal mücadiləsi elə sovet dövründən başlamışdı. Onun şeirlərinin əksəriyyətində iki müqəddəs kəlmə - Vətən və Azərbaycan - tez-tez səslənirdi. Və bu iki kəlmənin səsləndiyi şeirlərdə qətiyyən şablon, standart, bir-birinin yedəyində gedən ifadələrə, söz birləşmələrinə təsadüf edilməzdi" [16]. Bəxtiyar Vahabzadə yaradıcılığında da Türk olduğunun iftixarını və Türkə düşmən mövqedə olanların tənqidini eyni prizmada görürük:

Məgər türk deyildi mənim şahlarım
Əsrlər boyunca mülki-İranda?
Bəs səni tutmazmı naləm, ahlarım
Məni "farsdan dönmə" adlandıranda?

Türkün zatındadır kişilik, mərdlik
O, öz düşmənini vurmaz arxadan.
Türkə, Türk dilinə bu düşmənçilik
Sizdə bir adətdir qalü-bəladan [15, c.2, s.82].

Professor Yavuz Axundlunun Bəxtiyar Vahabzadə yaradıcılığından haqqında qeyd etdiyi: *"B. Vahabzadənin lirik qəhrəmanının həyat və mübarizəsini yalnız müasir dövrlə, bu günümüzlə məhdudlaşdırmaq olmaz, bu lirik qəhrəman çox sıx tellərlə öz şanlı tarixi keçmişinə bağlıdır"[1,s.20]* fikri yuxarıda nümunə göstərdiyimiz şeirə də aid etmək mümkündür.
Zaman-zaman coğrafi cəhətlər boyu pərən-pərən olmuş natamam xəritəli Azərbaycan dərdi azadlıq cəfakeşlərinin qələmində Vətən bütövlüyü, Türk birliyi məsələsinə toxunularaq belə ifadə olunur:

Xəlil Rza Ulutürk:
Yumruğumu görəndə meydan tələtümlənib,
Pərakəndə Vətənim birləşib, bütövlənib [7, s.517].
Bəxtiyar Vahabzadə:
Dayaq olsun bu gün gərək sol sağa,
Bu vəhdətdən yurdumuza gün doğa.
Bütün millət dönməliykən yumruğa
Türkün türklə ədavətə haqqı yox *[14, c1. s.55].*

Xəlil Rza və Bəxtiyar qələmindən ruhumuza süzülən qüdrətli kəlamlardan cəsarət alıb deyə bilərik ki, Xəlillər, Bəxtiyarlar var olduğu üçün bizim bütöv Vətən idealımız, bu idealın uğrunda can qoyan şəhidlərimiz var. Bunun bariz nümunəsi 30 illik həsrətə son qoyan 44 günlük Vətən müharibəsi döyüşçülərinin bizə bəxş etdiyi qələbəmizdir.

Nəticə

Azərbaycanın istiqlal mübarizəsində kəlam və əməl birliyi ilə tarixdə yer alan xalq şairləri həm eyni səngəri bölüşmüş, həm də bir-birinin yolunu aydın və dürüst şəkildə qiymətləndirməyi bacarmışlar: Bəxtiyar Vahabzadənin Xəlil Rza haqqında dediyi fikri mücahid şairin bütün ömrünün və yaradıcılığının dolğun qiymətləndirilməsi kimi qəbul etmək olar:

"Xəlil yalnız qələmi ilə deyil, əməli, fəaliyyəti ilə Vətənimizin istiqlalına xidmət göstərmişdir. Bununla da kifayətlənməyən şair öz balasını da bu yolda qurban verməkdən çəkinmədi. Bir sözlə, Xəlil bu Vətən üçün nə lazımsa, onu da elədi" [12]. Xəlil Rza Ulutürkün Bəxtiyar Vahabzadə haqqında qeyd etdiyi fikir böyük şairin Azərbaycan ədəbiyyatında olan yerini təzahür etdirir: *"B.Vahabzadənin şeir və poemalarının ən yaxşı nümunələri öz xalqının tarixi mövqeyini dərindən dərk etmiş ayıq gözlü, cəsarətli, vətəndaş şair qələmindən çıxıb. B.Vahabzadə sənətin yoxuşları ilə irəliləyən bir sənətkardır. Bu yolda onun hər bir qələbəsi həm də Azərbaycan şeirinin qələbələrindəndir"* [2, s.9].

Xəlil Rza Ulutürkün iki misrası ilə məqaləni xülasələndirmək istərdik:

Ölmərəm, Vətən desə səltənətlə döyüşdü,
Ən qüdrətli sənətkar mənim bəxtimə düşdü [7, s.537].

Aparılan araşdırılmalara əsasən deyə bilərik ki, həm qələmi, həm də fəaliyyəti ilə azadlıq mücahidliyinin silahdaşları olan Bəxtiyar Vahabzadə və Xəlil Rza Ulutürk yaradıcılığı milli ruhun aşılanmasına örnək olan elə poeziya nümunələridir ki, nə qədər ki, Azərbaycan ədəbiyyatı var, bu əsərlər gənc vətənpərvərlərin yetişməsində böyük rol oynayacaqdır.

Ədəbiyyat

1. Axundlu Y. İstiqlal şairləri, Bakı, Elm, 1998, 126s.
2. Bəxtiyar Vahabzadə. Yazıçı, ("Oğuz eli" qəzetinin ayrıca buraxılışı), Avqust, 2005, №10-11(102)
3. Əsgərli Ə. Bəxtiyar Vahabzadə poeziyasının sirri, "Azərbaycan"qəzeti, 24 avqust, 2020
4. Əsgərli Ə. Xəlil Rza Ulutürk – Azərbaycançılıq məfkurəsinin davamçısı Xəlil Rza Ulutürk. Biblioqrafiya, Bakı – 2017 /tərt. ed.: M.Vəliyeva və b. 464 s.
5. Həbibbəyli İsa. Azərbaycan ədəbiyyatı dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri, Bakı: Elm , 2019, 452 s.
6. Haqq pərvanəsi –Xəlil Rza metodik vəsait Bakı-2017 tərt.ed. A.Əlieyva;
F. Köçərli adına Respublika Uşaq Kitabxanası. Bakı, 2017, 40 s.
7. Xəlil Rza Ulutürk, Mən onsuz da əbədiyəm, Bakı, Gənclik, 2003, 1056 s.
8. Xəlil Rza Ulutürk. Seçilmiş əsərləri, 2 cilddə, I cild, Bakı, Şərq-Qərb, 2005, 296 s.
9. Xəlil Rza Ulutürk. Seçilmiş əsərləri, 2 cilddə, II cild, Bakı, Şərq-Qərb, 2005, 248 s.
10. Qafarlı R. Bəxtiyar zirvəsi, Xalq qəzeti, 27 sentyabr, 2000-ci il № 220 s.5
11. Qarayev Y. Salmanov Ş. Poeziyanın kamilliyi, Bakı, Yazıçı, 1985, 193 s.
12. Tariximizin Xəlil Rza Ulutürk səhifəsi (Xatirələrdə). URL: https://lib.az/news/596
13. Türk dünyasının Bəxtiyarı, Bəxtiyar Vahabzadənin həyatı, yaradıcılığı və ictimai fəaliyyəti haqqında məqalələr toplusu, I hissə, Bakı, 2002, 364 s.
14. Vahabzadə B.Seçilmiş əsərləri 2 cilddə, I cild, Bakı, Öndər nəşriyyatı 2004, 328 s.
15. Vahabzadə B. Seçilmiş əsərləri 2 cilddə, II cild, Bakı, 2004, 320 s.
16. Yusifli V. Xəlil Rza Ulutürk – 90 – Azadlığı istəyirdi səma kimi... Ədəbiyyat qəzeti URL: https://edebiyyatqazeti.az/news/sience/9559-xelil-rza-uluturk-90)

VARİABİLİTY WİTHİN THE FRAMEWORK OF LANGUAGE NORMS

VARİATİVLİK DİL NORMALARI ÇƏRÇİVƏSİNDƏ

Fəridə Allahverdiyeva
Azərbaycan Dillər Universiteti, filologiya elmləri doktoru
Orcid: İD:0009 _0006_0534_1447

Abstract
Linguistic variation is a fundamental aspect of language, playing an important role in understanding.Linguistic variation can be precursor to language change with new variants gradually replacing older ones.By studying variation we can gain insights into how language involve and change over time.Understanding variation can help individuals communicate more effectively across different linguistic and cultural contexts.Linguistic variation refers to the differences in language use observed across different social groups or contexts.These variations can manifest in pronunciation, vocabulary, grammar and even in the way people choose to express themselves.
Key words: variation, functional meaning,an important component of language change, internal and external factors, grammatical form, stability property,code -switching

Xülasə
Son dövrlər dünyada aparılan araşdırmalarin elmi obyekti xeyli genişlənmişdir.Işarələrin yaratdığı funksional məna ,dil sistemindəki variativlik dil sistemindəki ən önəmli və zəruri prosesləri öyrənir.Onu da qeyd etmək yerinə düşərdi ki,hər bir elmdə olduğu kimi, ingilis dilinin qayda – qanunlarını öyrənən dilçilik elmində variativlik dildə özünəməxsus şəkildə fəaliyyət göstərir.
Açar sözlər: variasiya, funksional məna, dil dəyişməsinin vacib tərkib hissəsi, daxil və xarici amillər, qrammatik forma, sabitlik xüsusiyyəti,kod dəyişməsi

Variasiya — dilin əsas xüsusiyyətlərindən biridir. Müəyyən bir dildə eyni şeyi ifadə etməyin bir neçə yolu vardır. Variasiya tələffüz, leksikon, qrammatika və digər xüsusiyyətlər kimi sahələrdə mövcud ola bilər.[1. 31] Variasiya müxtəlif olsa da, onun müəyyən sərhədləri də mövcuddur. Məsələn, müxtəlif dil dialektlərində danışan insanlar eyni söz sırasını qorumağa meyllidir və ya yeni səsləri dilin mövcud fonemlərinə uyğun şəkildə daxil edirlər. [2. 13] Dil varyasiyası dilin qeyri-qrammatik istifadəsi ilə eyniləşmir, amma danışanlar hələ də öz doğma dillərində nəyin mümkün və nəyin mümkün olmadığını hiss edirlər. Dil varyasiyası sosial-linqvistikada əsas anlayışdır. Sosial-linqvistiklər dil varyasiyasının danışanların sosial xüsusiyyətləri və şəraitləri ilə necə əlaqəli olduğunu araşdırır, amma həm də ətrafdakı dil kontekstinin bəzi strukturların istifadəsini təşviq edib-etmədiyini və ya maneə törədib-törətmədiyini öyrənirlər. Variasiya dil dəyişiminin vacib tərkib hissəsidir. Çünki dil dəyişimi mərhələli olur. Bir dil bir vəziyyətdən başqa bir vəziyyətə birdən-birə keçmir, amma köhnə və yeni dil xüsusiyyətləri bir müddət bir-biri ilə variasiya şəklində mövcud olur, yeni variantlar tədricən daha çox yayılır və köhnə variantlar azalır. Variasiyanı tədqiq edənlər bu səbəbdən dil dəyişməyin getdiyi müddətdə variasiya ilə yanaşı dilin dəyişməsini izləyirlər.[3. 43] Ancaq hər bir varyasiya dəyişikliklə bağlı deyil.Dil varyasiyası və onun sosial kateqoriyalarla əlaqəsini araşdıran tədqiqatlar, məsələn, Uilliam Labovun 1963-cü ildəki "Səs dəyişməsinin sosial motivasiyası" adlı məqaləsi, sosial-linqvistikanın bir alt sahə kimi yaranmasına səbəb oldu. Müasir sosial-linqvistikada digər mövzular da olsa da, dil varyasiyası və dəyişimi bu sahənin mərkəzindəki mühüm məsələlərdən biri olaraq qalır.

Müasir dilçilik iki istiqamətdə inkişaf edir.[12. 18] Bir tərəfdən, ümumi və fundamental tədqiqat yolu ilə irəliləyir; digər tərəfdən isə hələ də tam həll olunmamış, qeyri-müəyyən və qismən ziddiyyətli olan məsələlərə diqqət yetirir. Bu məsələlər arasında isimlərdə cins və say kateqoriyalarına dair davam edən müzakirələr də var ki, bu da qrammatik quruluşun qədim anlayışlarını qoruyub saxlayır. Həm klassik, həm də müasir ingilis ədəbiyyatında isimlərin qrammatik formalarında dəyişkənlik müşahidə olunur. Bu dəyişkənlik həm daxili (intralinquistik), həm də xarici (ekstralinquistik) amillərlə bağlıdır.Daxili amillərə morfoloji, semantik, sintaktik və fonetik xüsusiyyətlər daxildir. Qrammatik forma variantlarının yaranması və inkişafını müəyyən edən daxili şərtlər dil nişan sisteminin obyektiv xüsusiyyətləri və inkişaf qanunauyğunluqlarıdır — yəni dil nişanının iki tərəfi arasındakı əlaqə, qrammatik kateqoriyaların mürəkkəb quruluşu, dilin müəyyən mərhələsində baş verən semantik və fonetik proseslər.

Xarici şərtlərə isə əsasən sosial-linqvistik faktorlar aiddir — bu formaları işlədən danışanların yaşı, təhsili, daimi yaşayış yeri, konkret ünsiyyət məqsədləri və istifadə olunan formaların müvafiq üslubi rəngliliyi.

Bu amillərin öyrənilməsi dilçiliyin xüsusi bir sahəsinə — variasiya nəzəriyyəsinə aiddir. Bu sahə artıq ayrıca bir istiqamət kimi formalaşmışdır və variasional dilçilik və ya ortologiya adlanır. Bu fənnin rus dilçiliyində formalaşması XX əsrin sonlarında başlanmış və hələ də davam etməkdədir. Məhz bu səbəbdən bir çox anlayışların, o cümlədən "sözün dəyişkənliyi" və "söz variantları" kimi əsas anlayışların izahında alimlər arasında ciddi fikir ayrılıqları mövcuddur.

Variasiya termini dəyişkənlik anlayışı ilə yanaşı işlədilir və bu gün onlar sinonim kimi qəbul olunurlar. Dəyişkənlik "dil vahidlərinin universal xüsusiyyəti" kimi müəyyən edilir və müasir dilçiliyin əsas problemlərindən biri hesab olunur.

Variasiya nəzəriyyəsinin mərkəzində Aarts tərəfindən irəli sürülmüş dil nişanının assimetriyası prinsipi dayanır: dil nişanının hər iki tərəfi (forma və məna) bir-birinə nəzərən hərəkətə meyllidir. Nəticədə, mövcud formalar yeni, ikincili semantik məzmun qazanır, mövcud semantik elementlər isə yeni, ikincili formal ifadə əldə edir. Dil sisteminin bu təkamülə və dəyişkənliyə meylli olması variasiyanın əsas ilkin şərtlərindən birini təşkil edir.

Dəyişkənliklə yanaşı, dil nişanı sabitlik xüsusiyyətinə də malikdir. Bu iki xüsusiyyət bir-birinə zidd deyil: dilin inkişafı zamanı bir nişanı digərilə əvəz etmək lazım gəldikdə, danışanlar köhnə nişanı yeni funksiyada və ya fərqli variantda istifadə etməyə üstünlük verirlər. Bu psixoloji konservatizm dəyişkənliyin ikinci nəzəri əsasını təşkil edir.

Üçüncü əsas isə həm daxili, həm də xarici amil kimi qəbul olunan dilin müxtəlif inkişaf meyllərinin qarşılıqlı təsiri, onların bir-biri ilə "toqquşması" və ya "əməkdaşlığı"dır.

Dəyişkənlik dil sisteminin bütün səviyyələrinə — fonemadan tutmuş sintaktik vahidlərə qədər — sirayət edən ümumi bir xüsusiyyətdir. Müasir dilçiliyə görə dəyişkənlik belə müəyyən olunur: "Dil sisteminin və bütün dil vahidlərinin fəaliyyətinin əsas xüsusiyyəti."Bu, dil sisteminin müxtəlif variantlar şəklində nitqdə həyata keçmək qabiliyyətini ifadə edir

a)Variant — dil vahidinin konkret reallaşmasıdır.

b)Variasiya — bu variantlardan istifadə prosesidir.

c)Dəyişkənlik — dilin inkişafında iştirak edən bir amildir və dil sisteminin bütün səviyyələrində müşahidə olunur.

Dəyişkənliyin universallığı onun yalnız bütöv dil sisteminə deyil, eyni zamanda onun fərqli formalarına da şamil olunması ilə sübut olunur:

-Şifahi;
-Yazılı;
-Ədəbi (kodlaşdırılmış);
-Dialektik;
-Regional (ərazi) variantlar;
-Sosial variantlar.

Üstəlik, dəyişkənlik yalnız bir dilə məxsus deyil, müxtəlif dillərdə müşahidə olunur. Bu da dəyişkənliyin və variasiyanın ümumbəşəri xarakter daşıdığını təsdiq edirStandart dil, cəmiyyətdəki nüfuzlu, güclü və (adətən) varlı insanlar tərəfindən danışıldığı üçün xüsusi nüfuza sahib olan çoxsaylı dil variantlarından sadəcə biridir. İngilis dili nümunəsində standart dilin formalaşması qismən XVI əsrdə çap maşınının ixtirası və onun nəticəsində dilin çap versiyalarının artması ilə bağlı olmuşdur. Bu isə öz növbəsində yazım və qrammatik qaydaları standartlaşdırmaq üçün qrammatikaçıların yüz ildən artıq davam edən məqsədyönlü səylərinə səbəb olmuşdur. Bu qrammatistlər tərəfində qəbul edilən qərarlar:

a)Əksər hallarda aristokratiyanın danışıq dilinə üstünlük vermişdir.; b) Digər bir sıra qərarlar isə Latın dilinə və hətta riyaziyyata uyğunlaşdırılmış standartlara əsasən tamamilə əsassız və süni şəkildə verilmişdir.

Məsələn, bir çox başqa dillərdə olduğu kimi, o dövrdəki sadə insanlar arasında (və bu gün də işləyən siniflərdə və gündəlik danışıqda) bir cümlədə bir neçə inkar hissəciyindən istifadə etmək adi hal idi – məsələn:

“I don’t have no money.” (Mənim heç pulum yoxdur.)

Lakin XVIII əsr qrammatistlərideyirdilər ki, bu düzgün deyil və ya “don’t” (etmirəm) ya da “no” (heç) işlədilməlidir, amma ikisi bir yerdə yox. Onlara görə düzgün formalar belə olmalıdır:

- “I don’t have any money.” (Mənim heç bir pulum yoxdur.)
- və ya “I have no money.” (Məndə pul yoxdur.)

Halbuki, bu cür cümlə işlədən heç kim demək istəmir ki, onun pulu var. Amma bu qayda bu günə qədər standart İngilis dilində qüvvədə qalır.

Standart olmayan İngilis dili variantları, başqa sözlə desək, xalq danışıq dilləri (vernakulyarlar), adətən standart dildən aşağıdakı damğalanmış formaları ehtiva etmələri ilə seçilirlər:

- Çoxlu inkar formalarının işlədilməsi (məsələn, “I don’t have no money” – “Mənim heç pulum yoxdur”);
- “Ain’t” fel formasının istifadəsi – bu forma əvvəllər “am not” ifadəsinin qısa forması kimi qəbul olunurdu (məsələn, “I ain’t” – “Mən deyiləm”), eyni ilə “you aren’t” (sən deyilsən) və ya “she isn’t” (o deyil) kimi;
- “This” və “that” sözlərinin “dis” və “dat” kimi tələffüz olunması;
- Cümlə sonundakı “–ing” sonluğunun “–in” kimi tələffüz edilməsi (məsələn, “going” yerinə “goin”);
- Və qrammatistlərtərəfindən “uyğunsuz” və ya “düzgün olmayan” sayılmış digər xüsusiyyətlər.

Hər hansı bir dilin standart forması əslində süni və idealizə olunmuş bir formadır – bu, təhsil dilidir. Onun qaydalarını insan məktəbdə öyrənir, çünki bu forma heç kimin doğma dili deyil. Hər kəs bir dialektdə danışır, sadəcə bəziləri standart dilə daha yaxındır. Cəmiyyətdə ən az nüfuz və hörmətlə qarşılanan dialektlər, adətən ən aşağı sosial mövqedə olan insan qrupları ilə əlaqələndirilir.

Daha yüksək təhsilə sahib insanlar standart dilə daha çox çıxış imkanına malik olurlar, lakin onlar belə dostları və ailəsi ilə qeyri-rəsmi ünsiyyətdə olarkən öz doğma dialektlərinə qayıdırlar. Yəni, heç bir dil variantı digərlərinə nisbətən təbii olaraq daha yaxşı və ya pis deyil. Bəzi variantların “daha yaxşı” və ya “doğru”, digərlərinin isə “səhv” və ya “pis” hesab olunması yalnız ictimai münasibətlərin nəticəsidir. 1972-ci ildə sosiolinqvist William Labov maraqlı bir araşdırma aparmışdır. O, Nyu-Yorkluların danışığında /r/ səsinin tələffüzünü iki fərqli mağazada müşahidə etmişdi. Bu bölgədə bir çox insan “fourth” və “floor” sözlərini /r/ səsini atmadan deyil, “fawth”, “floah” kimi tələffüz edir. Lakin bu tələffüz daha aşağı sosial siniflərlə əlaqələndirilir və hətta Nyu-Yorkda belə standart İngilis dili üçün qəbul olunmur.

Əsas məqamlardan biri də budur ki, demək olar ki, hər kəs bir neçə fərqli dil variantına və üsluba çıxış imkanına malikdir. İnsanlar hansı vəziyyətdə, hansı insanla hansı dil və ya danışıq tərzindən

istifadə olunacağını bilir. Bir ünsiyyət zamanı bir neçə dil və ya üslub forması arasında keçid etmək isə kod dəyişməsi (code-switching) adlanır.

Ədəbiyyat siyahısı:

1) Aarts, F.G. The description of linguistic variation in English. http://www.tandfonline.com
2). Allahverdiyeva, F.M. The variability in English // Journal Impact Factor, International Conference "Global Science and Innovations", USA – Chicago, 1st–2nd March, 2017. – p. 36–46.
3). Angelique van Nieeckerk. A semantic-pragmatic approach to sentence structure in advertising language. // Southern African Linguistics and Applied Language Studies, Routledge, – Vol.38. – 2020. Issue 3., – p. 185–199.
4). Bar-Hillel, Y.J. Logical Syntax and Semantics. // Language, – 1954. – v. 30, – p. 49–67.
5). Block, M.Y. A course in theoretical English grammar. / M.Y. Block. – M.: Vysshaya shkola, – 1983. – 316 p.
6)Bollinger, D.Z. Intonation and its use. Melody in grammar and discourse. / D.Z. Bollinger. – Stanford: Stanford University Press, – 1989. – 492 p.
27) Chafe, W.L. Meaning and the structure of language. / W.L. Chafe. – Chicago, – 1971. – 178 p.
8). Chamonikolasova, J. Word order and linear modification in English // Brno studies in English, – vol. 35. – 2009. – p. 17–28.
9) Chomsky, N.A. Aspects of the Theory of Syntax. / N.A. Chomsky. – Cambridge: MIT Press, – 1965. – 257 p.
10) Chomsky, N.A. Logical Structure in Language. // – New York: Plenum Press, "American Documentation" – 1957. – Vol. VIII, № 4, – p. 98–122.
11)Debjani, Sanyal. A Comparative Analysis of Lexical Variation in American and British English with special reference to few selected words. http://rupkatha.com

12)Fries, Ch.C. The Structure of English Sentences. / Ch.C.Fries. – N.Y.: Harcourt, Brace & World, – 1952. – 304 p.

BEYİN, MƏNLİK VƏ KİMLİK: BƏXTİYAR VAHABZADƏNİN ‘BAŞ’ ŞEİRİNƏ NEYROPSİXOLOJİ, PSİXOLOJİ VƏ FƏLSƏFİ YANAŞMA

BRAİN, SELF, AND IDENTİTY: A NEUROPSYCHOLOGİCAL, PSYCHOLOGİCAL, AND PHİLOSOPHİCAL APPROACH TO BAKHTİYAR VAHABZADE’S POEM “THE HEAD”

Amil Məhərrəmoğlu
AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİ
HTTPS://ORCİD.ORG/0009-0003-1618-8124

Abstract
The article offers a neuropsychological, psychological, and philosophical analysis of Bakhtiyar Vahabzadeh’s poem “Baş” ("The Head"), exploring its depiction of personal identity, selfhood, and the brain's role in shaping the human self. The famous line “The body of a genius, the head of an ignorant” is interpreted not merely as poetic metaphor but as a symbolic representation of the paradox between physical embodiment and intellectual essence. Modern neuropsychology confirms that core aspects of personality—such as memory, emotions, decision-making, and values—are intricately connected to the brain's functional structures.
Drawing on theories by Antonio Damasio and Oliver Sacks, the paper highlights how neurological damage or alterations in brain function can transform a person’s identity and sense of self. Psychological models such as Erikson’s theory of identity development and Festinger’s cognitive dissonance theory further support the idea that identity is dynamic and context-sensitive. Philosophical perspectives—from Descartes' dualism to contemporary brain-based theories like those of Patricia Churchland—are also considered to frame the poem's central question: Where does human identity truly reside—body, brain, or thought?
The study concludes that Vahabzadeh’s poem bridges scientific and literary discourse, using poetic language to raise profound questions at the intersection of neuropsychology, bioethics, and philosophy. It underscores the importance of interdisciplinary approaches for a more nuanced understanding of the human self.
Keywords: Bakhtiyar Vahabzade, neuropsychology, psyche, personality, head, brain, literature, psychology

Xülasə
Məqalədə Bəxtiyar Vahabzadənin “Baş” şeiri əsasında neyropsixoloji, psixoloji və fəlsəfi yanaşmalar üzrə təhlil aparılmışdır. Şeir insan kimliyinin, mənlik hissinin və şəxsiyyətin beyinə bağlılığını simvolik və poetik şəkildə əks etdirir. “Dahinin bədəni, cahilin başı” misrası şəxsiyyətin bioloji və mənəvi əsasları arasında yaranan paradoksu vurğulayaraq, beyin və mənlik arasında sıx əlaqəni ön plana çəkir. Müasir neyropsixologiya və psixoloji nəzəriyyələr beynin funksional quruluşunun şəxsiyyətin formalaşmasında həlledici rol oynadığını göstərir. Eyni zamanda, fəlsəfi diskurslar bu məsələni daha geniş – ontoloji və etik çərçivədə dəyərləndirir.
Tədqiqat göstərir ki, beyin zədələri və funksional dəyişikliklər şəxsiyyətin və mənliyin də dəyişməsinə səbəb ola bilər. Bu isə insan kimliyinin davamlılığı və dəyişkənliyi barədə mühüm elmi və etik suallar doğurur. Vahabzadənin şeiri bu sualları poetik dillə səsləndirərək, ədəbiyyatla elmi diskurs arasında körpü yaradır. Nəticə olaraq, mənlik anlayışının daha dərin anlaşılması üçün ədəbiyyat, psixologiya, neyropsixologiya və fəlsəfə arasında inteqrativ yanaşmaların vacibliyi vurğulanır.

Açar sözlər: Bəxtiyar Vahabzadə, neyropsixologiya, psixika, şəxsiyyət, baş, beyin, ədəbiyyat, psixologiya

Giriş

XX əsrin ikinci yarısında dünya elminə səs salacaq yeni elmi inqilab baş verdi. Belə ki, ABŞ-də Harvard Tibb Məktəbinin məzunu olmuş, Dr. Robert Uayt (Dr.Robrt Joseph White) meymunlar arasında baş transplantasiyası həyata keçirdi. Əməliyyatın bütün mərhələləri uğurlu tamamlandı. Meymun dad bilmə, eşitmə, görmə kimi əsas bioloji funksiyalarını qoruya bilir, lakin onurğa beyni ilə əlaqələr yarada bilmədiyindən cəmi 9 gün yaşaya bilir.

Bu elmi təcrübə, bəşəriyyətin "şəxsiyyət harda yerləşir?" sualını yenidən gündəmə gətirmiş oldu. Müxtəlif elmi və fəlsəfi müzakirələrlə yanaşı azərbaycanlı şair Bəxtiyar Vahabzadənin "Baş" şeirində toxunduğu mətləblərlə üst-üstə düşür. Şer ədəbi dilə sahib olaraq bir çox elmi və fəlsəfi sualları ortaya qoyur, humanist yanaşma sərgiləyir.

Şairin bu bədii təsviri ilk baxışda poetik metafora kimi görünsə də, əslində şəxsiyyətin mənlik mərkəzinin neyrobioloji lokasiyası ilə bağlı müasir elmi diskurslarla səsləşir. Bu sual yalnız ədəbiyyat deyil, neyropsixologiya, bioetika və şəxsiyyət psixologiyasının da maraq dairəsindədir.

Tədqiqatın məqsədi neyropsixoloji nəzəriyyələr və müasir psixoloji yanaşmalar əsasında Bəxtiyar Vahabzadənin "Baş" şeirini təhlil etməkdir. Məqalə insan kimliyinin və mənlik hissinin beyinə bağlılığı məsələsini bədii və elmi yanaşmaların kəsişməsində dəyərləndirir və bu iki sahə arasında inteqrativ baxış bucağı formalaşdırmağı qarşıya məqsəd qoyur.

Əvvəlcə insan psixikası ilə ilə ədəbiyyat arasında əlaqəyə qısa nəzər salaq. İnsan psixikası onun daxili aləmi, duyğu və qavrayışlarını, davranışını ifadə edir. Psixika bioloji (obyektiv varlıq) və ruhi varlığa malikdir (Dədəyev, 2007). Ədəbiyyat isə insan psixikasını rəngarəng halda bədii dildə ifadə edir. Bu baxımdan ədəbiyyatla insan psixikası arasında sıx və dərin əlaqələr mövcuddur.

Müasir neyropsixologiyada insan kimliyi, davranışları və mənəvi özü beynin funksional strukturları ilə sıx bağlıdır. Yaddaş, qərarvermə, emosiyalar və dəyərlər kimi əsas psixoloji xüsusiyyətlər beynin müxtəlif bölgələrinin qarşılıqlı təsiri nəticəsində formalaşır (Damasio, 2010). Bu baxımdan insanın özünü, kimliyini və mənliyini zaman və məkan çərçivəsində nə dərəcədə qoruyub saxladığı sualına cavab çox vaxt bioloji substrat yəni beyin üzərindən axtarılır.

Fəlsəfədə qədimdən bəri müzakirə olunan əsas suallardan biri budur:

"İnsan nə ilə insandır - bədən, ruh, yoxsa beyin?" Aristoteldən başlayaraq Dekarta, Freydə və Damasioya qədər bir çox mütəfəkkir bu sual ətrafında müxtəlif nəzəriyyələr irəli sürmüşdür. Dekartın dualizmi ruh və bədən ayrılığını vurğulasa da, müasir neyropsixologiya insan kimliyinin əsas daşıyıcısı kimi beynin rolunu ön plana çıxarır və dualizmi tənqid edir.

Bu universal fəlsəfi və elmi sual Azərbaycan şairi Bəxtiyar Vahabzadənin "Baş" şeirində poetik və paradoksal şəkildə yenidən gündəmə gəlir:

"Dahinin bədəni, cahilin başı..."

Bu misra oxucunu dərin etik və psixoloji suallarla qarşılaşdırır:

Əgər bədənin beyni dəyişdirilərsə, həmin insan əvvəlki şəxsiyyət olaraq qala bilərmi?

Düşüncə beynin məhsuludursa, o zaman insan kimdir?

Neyropsixologiyada beyin və mənlik

Müasir neyropsixologiya insan şəxsiyyətinin və mənlik hissinin beynin funksional quruluşları ilə sıx bağlı olduğunu təsdiqləyir. Beynin frontal, temporal və parietal lobları yaddaş, şüur, davranış tənzimlənməsi və emosional proseslərdə mərkəzi rol oynayır. A.Damasio qeyd edir ki, mənlik anlayışı beyindəki neyron şəbəkələrinin kompleks qarşılıqlı təsiri nəticəsində əmələ gəlir və bu, sadəcə beyin fəaliyyətindən daha geniş psixoloji varlıqdır (Damasio, 2010). Oliver Sacks isə nevroloji xəstəliklər nəticəsində şəxsiyyətin və yaddaşın necə dəyişə biləcəyini nümunələrlə göstərərək, beynin mənlik formalaşmasındakı əhəmiyyətini açıqlamışdır (Oliver, 1995). O.Sacks əsərində autizm, savant

sindromu və beyin zədələrinin fərdi təcrübəyə və idrak proseslərinə təsirini araşdıraraq, mənliyin statik deyil, dinamik və çevik bir struktur olduğunu vurğulayır. Onun təsvir etdiyi hallarda, şəxsiyyət dəyişiklikləri və yeni davranış modelləri beynin adaptiv qabiliyyətini və mənliyin neyroplastikliklə əlaqəsini ortaya qoyur.

Beləliklə, həm neyropsixoloji tədqiqatlar, həm də fərdi klinik müşahidələr göstərir ki, mənlik və şəxsiyyət anlayışı beynin mürəkkəb funksional strukturlarının və neyron qarşılıqlı təsirlərinin məhsuludur. 2017-ci ildə neyrocərrahlar Çində ölmüş insan bədəni üzərində 18 saatlıq əməliyyat apararaq baş transplantasiyasını həyata keçiriblər (Gkasdaris, G., & Birbilis, T. 2019). Hər şey sadə göründüyü qədər mürəkkəbdir. İnsan psixikası bir daha bu cür elmi eksperimentlərə hələlik hazır olmadığını göstərdi. Bu cür təcrübələr şəxsiyyətin mənlik anlayışını daha dərindən öyrənməyə vadar edir.

Psixologiyada kimlik və mənlik nəzəriyyələri

Psixologiyada şəxsiyyət və kimlik konseptləri insanın özünü dərk etməsi, sosial mühitlə qarşılıqlı əlaqəsi və daxili dəyərləri əsasında formalaşır. Fərd uşaqlıqdan başlayaraq mənlik şüurunu formalaşdırır. Mənlik şüuru əxlaqi mənin formalaşmasında əvəzsiz rol oynayır. Psixologiya elmi həyati faktlara söykənərək, insanda «mən - obraz» eyni vaxtda müxtəlif xarakterli ola bilir. Bunlara "real mən", "ideal mən" və "sosial mən" obrazlarına bölür (Psixologiya, 2007). E.Eriksonun kimlik inkişafı nəzəriyyəsi isə insanın həyat boyu kimlik böhranları və davamlılığı ilə bağlı mərhələləri təyin edir (Erikson, 1993). Kognitiv dissonans nəzəriyyəsi (Festinger, 1957) isə insanın daxili əqidələri ilə xarici davranışları arasında uyğunsuzluq zamanı yaşadığı psixoloji narahatlığı açıqlayır. Bu nəzəriyyələr insanın öz fikirlərini dəyişdirərək kimlikdə pozuntuya yol açа biləcəyindən bəhs edir ki, bu da Bəxtiyar Vahabzadənin "Baş" şeirində toxunduğu əsas mövzulardan biridir.

Fəlsəfi Perspektivlər: insan kimliyi və şəxsiyyət

Fəlsəfi ənənədə insan kimliyi ilə bağlı müzakirələr qədimdən başlayaraq müxtəlif baxışlarla təqdim olunmuşdur. R.Dekart "mən düşünürəm, deməli varam" (Cogito, ergo sum) prinsipini əsas götürərək beyin və düşüncənin insanın əsas mahiyyəti olduğunu hələ 17-ci əsrdə iddia etmişdir. Müasir fəlsəfi diskurslarda isə bədən və beyin arasındakı əlaqə, şəxsiyyətin davamlılığı və mənlik anlayışının çox qatlı təbiəti geniş şəkildə müzakirə olunur (Churchland, 2013). Fəlsəfi perspektivlər insan kimliyi və mənlik anlayışını təkcə zehni və bioloji aspektlərdə deyil, eyni zamanda mənəvi, mədəni və eksistensial qatlarda da araşdıraraq onun mürəkkəb və çoxşaxəli mahiyyətini önə çıxarır. Bu perspektivlər poetik təsvirlərlə, xüsusilə də Bəxtiyar Vahabzadənin şeirlərində çox canlı və təsirli şəkildə ifadə olunmuşdur. Ruh və psixologiyadan danışarkən islam fikirlərinə nəzər salmaq yerinə düşər. burada yenidən "Amerika kəşf etməyə" ehtiyac yoxdur. İnsan fizioloji varlıq olduğu kimi həm də ruhi varlıqdır. Hətta fiziki olaraq məhv olma təhlükəsi olsa belə ruhi olaraq "yaşamağa", əməllərinin qarşılığını görməyə məhkumdur. Burada yaranan fəlsəfi-psixoloji kəsişməni nəzərə alaraq biz filosofik bir dildə başı "ruhun evi" də adlandıra bilərik.

Bəxtiyar Vahabzadənin yaradıcılığında kimlik və mənlik tematikası

Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatında milli kimlik, insan mənliyi və ictimai məsuliyyət mövzularını dərin fəlsəfi və psixoloji qatlarla təqdim edən əsas şairlərdən biridir. Ədəbiyyatda "inqilabçı", "türkçü" ləqəbləri ilə tanına şairin "Baş" şeiri insan şəxsiyyətinin neyrobioloji və psixoloji təməlini poetik dil vasitəsilə dərin və paradoksal şəkildə təqdim edir. Şeirin məşhur misrası "Dahinin bədəni, cahilin başı" - insanın bədən və beyin əlaqəsində yaranan kimlik böhranını simvolizə edir. Bu metafora beyin funksiyalarının dəyişdirilməsi ilə şəxsiyyətin və mənliyin necə transformasiya oluna biləcəyini sorğulayır.

Neyropsixoloji perspektivdən yanaşdıqda tədqiqatlar göstərir ki, beyin funksiyalarının pozulması və ya dəyişdirilməsi şəxsiyyətin müxtəlif aspektlərinə ciddi təsir göstərə bilər (Damasio, 2010; Sacks,

1995). Baş transplantasiyası kimi təcrübələr həm real, həm də nəzəri şəxsiyyətin beyindən asılılığını ortaya qoyur.
Şeirdəki fikrin dəyişdirilməsini diqqətə gətirən
"Yaşamaq yerinə fikri dəyişmək, Məsləki dəyişmək yaşamaqmıdır?" (Vahabzadə, 1979)
sual ideoloji ziddiyyətlərlə (kognitiv dissonans) insanın daxili dünyasının çətinliklərini əks etdirir. Həmçinin qeyd edir ki, insan elminə nəzarət etməli, onu mənəvi bir qəlibə salmalıdır. Burada:

Ey həkim , gücünə inansan da sən,
bu işi üstündə heç götürmə gəl.
Ayırıb insanı öz bədənindən,
Ana təbiətlə bəhsə girmə gəl. (Vahabzadə, 1979)

Humanist yanaşma olaraq bəşəriyyəti gözləyən böyük təhlükənin həyəcan təbilini səsləndirərək fikrini bədii şəkildə dərin və ifadəli məna daşıyan bu misraları ilə şair oxucuya lokanik halda çatdırır:

Bir nadan güvənib, öz imkanına
Dahinin başına göz dikdi birdən? (Vahabzadə, 1979)
Şeri oxuduqca dahi şairin uzaqgörənliyi insanı təəccübləndirməyə bilməz. Onun
"hazır fikirləri, düşüncələri,
başları doldurub satdılar bəlkə?" (Vahabzadə, 1979)

ironik sualı bu günümüzdə smart cihazları, süni intellekt (Sİ) texnologiyalarını, neyroşəbəkələrin fəaliyyətini xatırladır. Görünür şair burada qabaqcıl ideya sərgiləmiş, elmin sürətli inkişafını nəzərə alaraq gələcək haqqında "proqnozlar" da vermişdir.
Beləliklə, şairin "Baş" şeiri neyropsixoloji və psixoloji baxımdan insan kimliyinin mürəkkəbliyini və onun beyin fəaliyyətləri ilə sıx əlaqəsini bədii dillə ifadə edən nadir nümunələrdəndir. Bu tədqiqat şeirin fəlsəfi suallarını neyropsixoloji nəzəriyyələrlə əlaqələndirərək insan mənliyinin elmi və bədii təzahürlərini bir arada təqdim edir.

Nəticə

Bəxtiyar Vahabzadənin "Baş" şeiri neyropsixoloji və psixoloji baxımdan təhlil edildikdə, insan kimliyinin və mənlik hissinin beynin funksional bütövlüyü ilə necə sıx əlaqədə olduğu aydın şəkildə üzə çıxır. Şeirdəki metaforik ifadələr – xüsusilə "Dahinin bədəni, cahilin başı" kimi obrazlar – şəxsiyyətin və mənliyin sadəcə sosial və ya mənəvi konstruksiyalar deyil, həm də neyrobioloji əsaslara bağlı mürəkkəb strukturlar olduğunu göstərir.
Aparılan təhlil göstərir ki, beynin strukturu və funksiyası dəyişdikdə, insanın şəxsiyyəti, davranışı və mənlik təcrübəsi də dəyişə bilər. Psixoloji nəzəriyyələr bu yanaşmanı dəstəkləyərək göstərir ki, şəxsiyyət dinamik və çevikdir, neyroloji zədələr və ya disfunksiyalar bu dəyişkənliyi sürətləndirə və ya radikal şəkildə formalaşdıra bilər. Buna görə də, mənlik anlayışının elmi, fəlsəfi və bədii kontekstlərdə birgə müzakirəsi insan psixikasının daha dərindən anlaşılması üçün vacibdir. Beynin müxtəlif bölgələri xüsusilə prefrontal korteks, limbik sistem və assosiativ sahələr şəxsin yaddaşı, emosiyaları, qərarvermə qabiliyyəti və özünü dərk etmə funksiyalarını koordinasiya edir. Bu isə onu göstərir ki, mənlik hissi yalnız bir orqanın deyil, bütövlükdə neyron sisteminin və onun bioloji, psixoloji inteqrasiyasının nəticəsidir.
2017-ci ildə 150 nəfərlik tibbi komandanın iştirakı ilə ölü bədənlər üçün köçürmə uğurlu nəticələndi. Lakin bunun canlı insan üzərində həyata keçiriləcəyi hələ ki sual altındadır. Bəşəriyyət elmi inqilablarla yanaşı onların törədə biləcəyi fəsadlarla qarşı qarşıya qalır bəzən. İflic olmuş bədənlərin başlarını transplantasiya etmək (və yaxud əskinə də ola bilər) əxlaqi müstəvidən doğru hesab edilmir. Hələlik heyvanlar üzərində aparılan eksperimentlərlə dünya alimləri bu sahədə yavaş-yavaş irəliləyir.

Nəticədə, neyropsixoloji tədqiqatlar göstərir ki, mənlik və şəxsiyyət yalnız beyin strukturları ilə deyil, həm də bədənin kompleks qarşılıqlı təsirləri ilə formalaşır və buna görə də belə əməliyyatların insan şəxsiyyətinə təsiri hələ tam aydınlaşdırılmayıb.

Bəxtiyar Vahabzadənin "Baş" şeirində dediyi kimi:
Hər şeyi dəyişir, axı, baş, beyin.
Baş özü, başları necə dəyişsin? (Vahabzadə, B. 1979)

Bu sözlərdən aydın olur ki, insanın "başı" təkcə bioloji orqan deyil, həm də dərin mənəvi və psixoloji varlıqdır. Buna görə də elmi irəliləyişlər bizə yeni üfüqlər açsa da, insanlıq və mənlik məsələlərinin mürəkkəbliyi qarşısında həssas və ehtiyatlı olmaq zəruridir.

İstifadə olunan ədəbiyyat siyahısı

1. Dədəyev, Ş. (2007). *Psixika.* Bakı: Qanun nəşriyyatı.
2. Damasio, A. (2010). *Self comes to mind: Constructing the conscious brain*. New York: Pantheon Books.
3. Sacks, O. (1995). *An anthropologist on Mars*. New York: Vintage Books.
4. Erikson, E.H. (1993). *Childhood and society*. New York: W. W. Norton & Company.
5. Gkasdaris, G., & Birbilis, T. (2019). First human head transplantation: Surgically challenging, ethically controversial and historically tempting – an experimental endeavor or a scientific landmark? *MAEDICA – a Journal of Clinical Medicine, 14*(1), 5–11. https://doi.org/10.26574/maedica.2019.14.1.5
6. Festinger, L. (1957). *A theory of cognitive dissonance*. Stanford, CA: Stanford University Press.
7. Churchland, P. S. (2013). *Touching a nerve: The self as brain*. New York: W. W. Norton & Company.
8. Vahabzadə, B. (1979). *Açılan səhərlərə salam*. Bakı: Yazıçı.
9. **Seyidov, S.İ., & Həmzəyev, M.Ə. (2007).** *Psixologiya*. Bakı: Nurlan nəşriyyatı.

TRANSFORMING TEACHING METHODS IN THE DIGITAL WORLD

RƏQƏMSAL DÜNYADA TƏLIM METODLARININ TRASFORMASIYASI

Nəzakət İbrahim Zamanova
000 0002 4033 8298
Azərbaycan Dövlət Pedaqoji Universiteti (baş müəllim)

Abstract:
Digitalization, as one of the main trends of the 21st century, has a profound impact on all areas, including the education system. The article emphasizes ensuring the adequacy of this area, which is mainly related to the development of education, reflecting the power of the economy and the state, in accordance with the requirements of the information society. At the same time, the scope of development of digital learning methods, their relationship with pedagogical principles and areas of application are analyzed in a scientific context. As a result of the research, along with the advantages of digital methods such as adaptability, flexibility and interactivity, challenges such as technological inequality, teacher training and cognitive overload were also emphasized. The aim of the article is to explain on scientific grounds how digitalization is integrated into educational strategies and how important it is to choose effective learning methods in this process.
Keywords: digital education, Synchronous, Asynchronous, learning methods, online learning, pedagogical technologies

Xülasə:
Rəqəmsallaşma XXI əsrin əsas tendensiyalarından biri olaraq bütün sahələrdə o, cümlədən təhsil sisteminə dərin təsir göstərməkdədir. İqtisadiyyatın, və dövlətin gücünü əks etdirən əsasən təhsilin inkişfı ilə bağlı olan bu sahənin informasiya cəmiyyətinin tələblərina uyğun olaraq adekvatlığının təmin edilməsi məqalədə vurğulanır. Eyni zamanda rəqəmsal təlim metodlarının inkişaf əhatəsi, onların pedaqoji prinsiplərlə əlaqəsi və tətbiq sahələri elmi kontekstdə təhlil olunur. Araşdırma nəticəsində rəqəmsal metodların adaptivlik, çeviklik və interaktivlik kimi üstün cəhətləri ilə yanaşı, texnoloji bərabərsizlik, müəllim hazırlığı və kognitiv yüklənmə kimi çağırışları da vurğulanmışdır. Məqalənin məqsədi, rəqəmsallaşmanın təhsil strategiyalarına necə inteqrasiya olunduğunu və bu prosesdə effektiv təlim metodlarının seçilməsinin nə dərəcədə əhəmiyyətli olduğunu elmi əsaslarla izah etməkdir.
Açar sözlər: rəqəmsal təhsil, Snxron, Asinxron, təlim metodları, onlayn öyrənmə, pedaqoji texnologiyalar

Giriş:

III minillikdə rəqəmsal dünyada yaşayırıq. Sürətli dəyişikliklər yaşadığımız bu dövr fürsətlər, çağrışlar olsa da eyni zamanda təhdidləri də bərabərində gətirir. Rəqəmsallaşma milli iqtisadiyyatı, dünya iqtisadiyyatına milli təhsili də qlobbal təhsilin bir parçasına çevrir. Dünya sanki bir mərkəzdən idarə olunur. Bu dövrdə xüsusilə dövlətin cəmiyyəti və iqtisadiyyatın gücünü əks etdirən təhsilin üzərinə tale yüklü məsələlərin həlli düşür. Keçmişlə gələcək arasında əlaqə, yeniliyi yaratmaq, ona adekvatlığı təmin etmək təhsilin və təhsil müəssisələrin ən başlıca prioritetinə çevrilir.

Rəqəmsallaşma bütün sahələrdə olduğu kimi, təhsil sahəsində dəyişikliklərə yol açmış, ənənəvi təlim modellərinin yerini çevik və texnologiyaya əsaslanan modellərə çevrilməsinə səbəb olmuşdur . Rəqəmsallıq, təlimin yeni formaları — virtual siniflər, məsafədən təhsil, süni intellekt əsaslı a daptiv sistemlər — tədrisin strukturunu və məzmununu yenidən formalaşdırmaqdadır. Bu dəyişikliklər təlimin məqsədlərinə, metodologiyasına və qiymətləndirmə proseslərinə təsir edir.Təhsil və təlimin əsasını təşkil edən təlim medodlarına rəqəmsalliğın tələbatı doğrultusunda sistemli

araşdırma aparmaq tələb edir.Azərbaycan təhsilinin dünya təhsilinə inteqrasiya edilməsi həm social xarakterli həmdə pedaqoji mahiyyət daşıyan məsələlərin araşdırılması xüsusi əhəmiyyət kəsb edir.
Onlayn öyrənmə mühiti təhsilin bütün sahılərinə bir sira üstünlüklər də verir. Təlim iştirakçılarınının yaradıcı aktivliyini artırır ,fizyoloji məhdudiyyətdən və özünü ifadə etmə qorxusundan xilas edir. Eyni zamanda zehni yüklənməni də aradan götürür və müəllimin işini asanlaşdırı .Əməliyyatlar informasiya texnologiyaları vastəsilə yerinə yetirilir.(mətn. qrafik, adiovizual) Tələbələrin də təqdimat etmə imkanını genişləndirir o, cümlədən təlim iştirakçılarına Konstruktivist pedaqoji nəzəriyyəyə görə, öyrənmə fərdin aktiv şəkildə mənanı formalaşdırması ilə baş verir [12]. Rəqəmsal təlim metodları bu prinsipə uyğun olaraq tələbələrin aktiv iştirakını təmin edir. Məsələn, interaktiv simulyasiyalar və problem əsaslı öyrənmə mühitləri biliklərin mənalandırılmasını təşviq edir.

Öz-özünə Öyrənmə və Təlimin Fərdiləşdirilməsi imkan verir ki, rəqəmsal platformalar tələbələrin öz sürətlərində, seçimlərinə əsasən istədikləri vaxtda və məkanda öyrənməsinə imkan verir. Bu, öz-özünə öyrənmə (self-directed learning) prinsipləri ilə uzlaşır və lifelong learning (ömürboyu öyrənmə) konseptini dəstəkləyir.

Rəqəmsal təlim metodlarından olan növləri Sinxron və Asinxron təlim medodları ənənnənəvi təlim metodlarını üstələyir.
Sinxron metodlar (məsələn, Zoom dərsləri) real zamanlı qarşılıqlı əlaqəni təmin edir, halbuki asinxron təlimlər (məsələn, LMS üzərindən dərs modulları) tələbələrə çevik vaxt menecmenti təqdim edir [9].

Gamifikasiya (Gamification)
Təlim prosesinə oyun elementlərinin daxil edilməsi tələbələrdə motivasiyanı artırır və koqnitiv fəaliyyəti stimullaşdırır [7].Bu yanaşma xüsusilə STEM sahələrində uğurla tətbiq olunur.

Süni İntellekt əsaslı Adaptiv Sistemlər
AI texnologiyaları öyrənənin performansına uyğun olaraq məzmunu adaptiv şəkildə təqdim edir [11].Bu texnologiyalar fərdi inkişaf trayektoriyalarını daha effektiv idarə etməyə imkan verir.

Rəqəmsal üstünlükləri:
Cəldlik ,Çeviklik,Paralellik,Inteqrasiya ,Əhatılik,Fərdləşmə

Çağırışları:
Texnoloji bərabərsizlik: Rəqəmsal fərqli imkanlar sosial ədalətsizliyi dərinləşdirə bilər [15].
Müəllimlərin rəqəmsal savadlılığı: Effektiv tətbiq üçün müəllimlərin yeni bacarıqlara yiyələnməsi vacibdir [9] .
Koqnitiv yüklənmə: Çoxsaylı rəqəmsal stimul öyrənməni çətinləşdirə bilər[14].
Bununla yanaşı canlı təhsildə məsafədən təhsildən fərqli olaraq təhsilalan içtimai mövqe (status)qazanır. Dost qazanır, bir-birindən öyrənir, qiymətləndirmə effektli olur. Klassik metodları yeni rəqəmsallığa çevirdikdə bunların nəzərə alınmasının yolların axtarılmasını da tələb edir.

Nəticə.
Rəqəmsallaşan təhsil mühitində effektiv təlim metodlarının seçimi tədrisin keyfiyyətinə bilavasitə təsir edir. Gələcəkdə bu sahədə daha da dərinləşən tədqiqatlara ehtiyac var.Bu sahədə aparılan tədqiqatlar rəqəmsal metodların uzunmüddətli təsirlərini və pedaqoji effektivliyini ölçməyə yönəlməlidir. Eyni zamanda, texnoloji transformasiya pedaqoji strategiyalarla paralel şəkildə aparılmalı, təlim metodları davamlı olaraq yenilənməlidir.Bir sözlə əvvəlki klassik metodlar

rəqəmsal yeni metodlarla dinamikliyi,statikliyi situativ və əsasən milli-müasir stuativlikdə milli məfkurə ilə hərəkət etməyi tələb edir.

Ədəbiyyat siyahısı

1.Təlim metodu anlayışı və təsnifatı. https://www/kayzen.az/blog/pedaqoq/
2.Ali məktəbdə Təlim metodlarıvə təlimin formaları.https://www.scribd.com/document/
3.Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya // (AR Prezidentinin sərəncamı, 2 aprel 2014-cü ildə qəbul edilmişdir). – Bakı: Qanun, – 2014. – 14 s.
4. 2019-2023-cü illər üçün Azərbaycan Respublikasında Ai təhsil sistemində beynəlxalq rəqabətliliyin artırılması üzrə Dövlət Proqramı (16 noyabr 2018 təsdiq edilmişdir) – Bakı: Qanun. – 2018. – 20 s.
5.Əliquliyev, R.M. İnformasiya cəmiyyətinin formalaşmasının multidistplanar elmi-nəzəri problemləri / R.M.Əliquluyev, R.S.Mahmudov/ İnformasiya Cəmiyyəti Problemləiri Elmi jurnal. – Bakı: – 2016. №3, – s.3-18
6.Əliquliyev, R.M. İnformasiya cəmiyyətinin formalaşmasının multidistiplinar elmi-nəzəri problemləri / R.M.Əliquliyev, R.Ş.Mahmudov // İnformasiya cəmiyyəti problemləri, – Bakı: – 2016. № 2, – s.3-17.
7.Deterding, S., Dixon, D., Khaled, R., & Nacke, L. (2011). *From game design elements to gamefulness: Defining gamification*. Proceedings of the 15th International Academic MindTrek Conference, 9–15.
8.Hrastinski, S. (2008). Asynchronous and synchronous e-learning. *Educause Quarterly*, 31(4), 51–55.
9.Koehler, M. J., & Mishra, P. (2009). What is technological pedagogical content knowledge (TPACK)? *Contemporary Issues in Technology and Teacher Education*, 9(1), 60–70.
10.Luckin, R., Holmes, W., Griffiths, M., & Forcier, L. B. (2016). *Intelligence unleashed: An argument for AI in education*. Pearson Education.
11.Piaget, J. (1972). *The psychology of the child*. Basic Books.
12.Selwyn, N. (2016). *Education and technology: Key issues and debates* (2nd ed.). Bloomsbury.
13.Siemens, G. (2005). *Connectivism: A learning theory for the digital age*. International Journal of Instructional Technology and Distance Learning.
14.Sweller, J. (1988). Cognitive load during problem solving: Effects on learning. *Cognitive Science*, 12(2), 257–285.
15.van Dijk, J. (2005). *The deepening divide: Inequality in the information society*. SAGE AAAAPublications.
16.Vygotsky, L. S. (1978). *Mind in society: The development of higher psychological processes*. Harvard University Press.

ON SOME TOPONYMS AND ANTHROPONYMS IN THE WORK OF BAHKHTYAR VAHABZADE

BƏXTIYAR VAHABZADƏ YARADICILIĞINDA BƏZİ TOPONİMLƏR VƏ ANTROPONİMLƏR HAQQINDA

Abbasova Arzu Yusif qızı
Filologiya üzrə fəlsəfə doktoru, dosent Naxçıvan Dövlət Universiteti

Abstract
Bakhtiyar Vahabzadeh is one of the most important writers of 20th-century Azerbaijani literature, both in poetry and prose. His works deeply explore the life of the people, their thoughts about the land, and the inner world of man. Onomastic units are widely used in the poet's works, and these names are chosen in accordance with the theme of the works and the character of their heroes.
The toponyms in these works do not only provide geographical information, but also actually show the author's approach to many philosophical and cultural topics.
The toponyms show the poet's deep love for his native land and his impressions of the place.
In Vahabzadeh's poems, anthroponyms often do not represent specific individuals, but reflect symbolic or general meanings. By linking these names with nature and social environments, the poet presents names not only as specific individuals, but as a means of symbolizing the features of an entire people or nation.
Onomastic units represent the poet's ideology, the people's struggle and desire for freedom. Both human names, geographical names, and historical symbols carry a symbolic and philosophical burden in his works.
Keywords: anthroponym, toponym, onomastics, symbolic, Guba, Baku, Azerbaijan

Резюме
Бахтияр Вахабзаде — один из важнейших писателей азербайджанской литературы XX века, как в области поэзии, так и прозы. В своих работах он глубоко исследует жизнь людей, их мысли о земле и внутренний мир человека. В творчестве поэта широко используются ономастические единицы, причем эти имена подбирались в соответствии с тематикой произведений и характерами их героев.
Топонимы в этих произведениях не только дают географическую информацию, но и фактически отражают подход автора ко многим философским и культурным темам.
Топонимы отражают глубокую любовь поэта к своей родине и его впечатления от этого места.
В стихотворениях Вахабзаде антропонимы часто не представляют конкретных людей, а скорее отражают символические или общие значения. Связывая эти имена с природой и социальной средой, поэт представляет их не только как имена конкретных личностей, но и как средство символизации характеристик целого народа или нации.
Ономастические единицы отражают идеологию поэта, борьбу народа и его стремление к свободе. И человеческие имена, и географические названия, и исторические символы несут в его произведениях символическую и философскую нагрузку.
Ключевые слова: антропоним, топоним, ономастика, символика, Губа, Баку, Азербайджан.

Xülasə
Bəxtiyar Vahabzadə, həm poeziya, həm də nəsr sahəsində Azərbaycanın 20-ci əsr ədəbiyyatının ən önəmli yazıçılarından biridir. Onun əsərləri xalqın həyatını, torpaqla bağlı düşüncələrini, insanın daxili dünyasını dərindən araşdırır. Şairin əsərlərində onomastik vahidlər geniş şəkildə yer alır və bu

adlar əsərlərin mövzusuna, qəhrəmanlarının xarakterinə uyğun olaraq seçilmişdir.
Bu əsərlərdəki toponimlər yalnız coğrafi məlumatlar verməklə qalmır, həm də əslində müəllifin bir çox fəlsəfi və mədəni mövzulara yanaşmasını göstərir.
Toponimlər, şairin doğma yurduna və onun məkanla bağlı təəssüratlarına dərin bir sevgi ilə yanaşdığını göstərir.
Vahabzadənin şeirlərində antroponimlər çox vaxt konkret şəxsləri təmsil etmir, ancaq simvolik və ya ümumi mənaları əks etdirir. Şair bu adları, təbiət və sosial mühitlərlə əlaqələndirərək, adları yalnız konkret şəxslər kimi yox, bütöv bir xalqın və ya millətin əlamətlərini simvollaşdıran vasitə kimi təqdim edir.
Onomastik vahidlər şairin ideologiyasını, xalqın mübarizəsini və azadlıq istəyini təmsil edir. Həm insan adları, həm coğrafi adlar, həm də tarixi simvollar əsərlərində simvolik və fəlsəfi bir yük daşıyır.
Açar sözlər: antroponim, toponim,onomastika, simvolik, Quba, Bakı, Azərbaycan

Giriş

Bəxtiyar Vahabzadə, Azərbaycan ədəbiyyatının böyük nümayəndələrindən biridir və onun yaradıcılığı müxtəlif məsələləri, o cümlədən onomastika sahəsini əhatə edir. O, öz əsərlərində dilin zənginliyindən istifadə edərək, həm də Azərbaycan xalqının tarixini, mədəniyyətini, adət-ənənələrini və milli xüsusiyyətlərini özünə məxsus üslubla təqdim edən sənətkardır.
Bəxtiyar Vahabzadənin yaradıcılığında onomastik vahidlərə aşağıdakı kimi qruplaşdırmaq olar: Antroponimlər, toponimlər, ədəbi və tarixi adlar, simvolik və ironik adlar.
Vahabzadə əsərlərində həm konkret coğrafi məkanları, həm də bu məkanların insan ruhuna təsirini özünəməxsus şəkildə təsvir edib.
Bəxtiyar Vahabzadənin əsərlərində toponimlər bəzən sadəcə coğrafi göstəricilər deyil, həm də xalqın tarixini, mədəniyyətini və mənəvi irsini daşıyan əhəmiyyətli simvollardır. Onun şeirlərindəki yer adları həm də bir növ zaman və məkan arasındakı əlaqəni yaradaraq, oxucuya bir araya gələn keçmiş və gələcək haqqında düşünmə fürsəti verir.
Əsərlərindəki toponimlər, şairin millətinə, yurduna olan bağlılığını və Azərbaycanın müxtəlif bölgələrindəki həyat tərzini əks etdirir. Bu toponimlər, həmçinin şairin fəlsəfi və estetik dünyasını, insanın torpaq və təbiətlə olan əlaqəsini işıqlandırır.
Vahabzadənin əsərləri, həmçinin yer adlarının mənəvi və mədəni mənalarını izah etmək üçün çox əlverişlidir, çünki şair öz əsərlərində bu toponimləri, Azərbaycan xalqının dərin köklərini ifadə edən simvollar kimi təqdim edir.
Bəxtiyar Vahabzadə, şair olaraq yalnız Azərbaycanın təbiətini və mədəniyyətini təsvir etməklə kifayətlənməyib, eyni zamanda poeziyasında yer adlarını çox müxtəlif şəkildə istifadə edərək bu toponimlərə yeni mənalar qatıb. Vahabzadənin əsərlərində toponimlər bir çox hallarda həm coğrafi, həm də fəlsəfi məzmun daşıyır, şairin şəxsi və bədii dünyasını göstərir.

ƏSAS HİSSƏ

Bəxtiyar Vahabzadənin toponimlərə yanaşması bəzən simvolik və fəlsəfi olur. O, yer adlarından istifadə edərək insan ruhunun mənəvi vəziyyətini, tarixi və mədəni irsi işıqlandırır.
Şairin əsərlərindəki toponimlər yerli əhalinin həyatını, mədəniyyətini və təbiətini təsvir etməklə yanaşı, həm də bu yerlərin şairin öz həyatına və poeziyasına necə təsir etdiyini göstərir. Onun əsərlərində yer adları yalnız coğrafi anlayışları deyil, həm də müəyyən bir hissiyatı, təəssüratı və zamanın ruhunu əks etdirir.

Azərbaycan, adın oddur, özün – işıq, sözün- işıq. Biz də sənin bu müqəddəs torpağından boy atmışıq
Sənsən bizim bu dünyada məsləkimiz, amalımız,
Yolumuza işıq saçsın ulduzumuz, hilalımız. (Vahabzadə, 2004, II c., s.
182)
Quba, Şəki, Gəncə, Naxçıvan, Şirvan, Lənkəran, Bakı, Qarabağ — bu şəhərlər Azərbaycanın müxtəlif coğrafi bölgələrinə aiddir və şairin torpağa olan bağlılığını ifadə edir. Vahabzadə, bu şəhərlərin həm gözəlliyini, həm də zəngin mədəniyyətini önə çıxarır.

Mən həm bakılıyam, həm lənkəranlı, Gəncəli, qubalı, həm naxçıvanlı,
Şəkili, şirvanlı, qarabağlıyam,
Bütöv Vətənimə bütöv bağlıyam. (Vahabzadə, 2004, II c., s. 82)

Hər bir yerin xüsusiyyətini qeyd edərək, Vahabzadə Azərbaycandakı mədəni və təbii müxtəlifliyi vurğulayır. Həmçinin bu yerlərin şairin şeirində necə təsir göstərdiyini və onun mənəvi dünyasına necə təsir etdiyini göstərir.
Gülüstan — bu adı təbiətə və gözəlliyə aid bir metafora çevrilmiş şəkildə təqdim edir. Vahabzadə bu toponimi, Azərbaycanın qədim məkanlarını simvolizə edən bir element kimi istifadə edir.

Gülüstan kəndinin gül-çiçəkləri Bir günün içində soldu-saraldı.
"Gülüstan" bağlandı, o gündən bəri,
Bu kəndin alnında bir ləkə qaldı. (Vahabzadə, 2008, III c., s. 18)

Şuşa, Zəngəzur— bu adlar, xüsusən də Azərbaycanın Qarabağ bölgəsi ilə əlaqəli olan toponimlərdir və şairin torpağa olan dərin sevgisini təcəssüm etdirir.
Bəxtiyar Vahabzadənin əsərlərindəki toponimlər bəzən təbiət və coğrafiyanın metaforik təsvirinə çevrilir. Məsələn, "Quba" və ya "Şəki" kimi şəhərlər, sadəcə olaraq bu yerləri göstərməklə yanaşı, həm də şairin insanların həyatına olan fəlsəfi baxışını və mədəni mirasa olan hörmətini işarə edir.

Deyirəm heç zaman xırıldamasın, Könlümdən ucalan bu avaz, bu səs. Böyükdür, ucadır məsləkim mənim, Bala anasına “sevirəm” deməz,
Mən də deməmişəm, a Şəkim, mənim. (Vahabzadə, 2004, II c., s. 73)

Şairin əsərlərindəki toponimlər həm də zamanla bağlıdır. Məsələn, Qarabağ toponimi, yalnız coğrafi bir yer adı deyil, həm də milli mübarizənin, tarixi bir dönəmin simvolu halına gəlmişdir. Vahabzadə, bu toponimi istifadə edərək xalqın mübarizəsini və bu mübarizənin gələcəyə olan təsirini öz şeirində qeyd edir.

Hardan sənin oldu bizim Qarabağ? Adı sahibini demirmi aşkar?
Xoşluqla verməzlər torpağı, ancaq
Qanla möhürləyib, zorla alarlar. (Vahabzadə, 2004, II c., s. 82)
Bəxtiyar Vahabzadənin nəsr və nəzm əsərlərində antroponimlər — yəni şəxslərə aid adlar — şairin poetik və nəsr dünyasında xüsusi yer tutur. Vahabzadə, həm şeirlərində, həm də nəsrində bu adlardan yalnız sadə bir identifikasiya vasitəsi kimi istifadə etməmiş, əksinə, onları həm bədii, həm də simvolik funksiyalarda işlətmişdir.
"Əli" adlı şeirində Vahabzadə, Azərbaycanın adət-ənənələrində yer alan bir obraz kimi "Əli"ni tərənnüm edir. Bu ad, xüsusilə Azərbaycanın kənd həyatında geniş yayılmış və çoxsaylı əfsanələrə, dastanlara sirayət etmiş bir şəxsiyyətin simvoludur.
Bu şeirdə "Əli" adından istifadə olunur. Şair, Əli obrazı ilə xalqın qəhrəmanlıq, mübarizə və vətən sevgisini təmsil edir.

Əli, sən demə, nəyi sevdin,Həyatın qəlbinə qaldın da,
Məhəbbət qoynunda yandın da. (Vahabzadə, 2008, III c., s. 182)
Bu şeirdə "Əli" adı, bütün bir xalqın simvoluna çevrilir. Əli, yalnız bir ad deyil, xalqın mübarizə ruhunun və dəyərli ideallarının təmsilçisidir.
"Fərhad" adları, şairin şeirlərində təkrarlanan obrazlar olaraq Azərbaycan xalqının qəhrəmanlarını və mübariz ruhunu simvollaşdırır. Bu adlar həm də xalqın tarixi mübarizələrini və məhəbbət ideallarını göstərir.
Fərhad adı, çox vaxt Azərbaycan folklorunda sevgi və mübarizənin simvoludur. Vahabzadə, bu adı istifadə edərək, xalqın sevgisini, mübarizəsini və sadiqliyini tərənnüm edir.

Fərhad kimi sevənlər var,
Dağları qıran əllər var. (Vahabzadə, 2008, III c., s. 290)

Burada "Fərhad" adı, sevgi və mübarizə ilə əlaqələndirilərək, bir simvolik mənaya sahib olur. Şair, Fərhaddan bir qəhrəman və sevgi aşiqlisi kimi bəhs edir.
"Nizami" şeirində, Vahabzadə Nizami Gəncəvinin adını çəkərək, Azərbaycan ədəbiyyatının böyük ustadına hörmətini bildirir və onun adını milli şüurun yüksəlməsi ilə əlaqələndirir.
Bəxtiyar Vahabzadə, Azərbaycanın böyük şairi Nizami Gəncəvini də şeirlərində tez-tez xatırlayır. Nizami adı, həm milli ədəbiyyatın zirvəsi, həm də Azərbaycanın qüruru və mədəni irsi kimi istifadə edilir.

Nizami, sən o böyük şair, Fikrini hələ də deyənlər, Hər bir sözün, hər bir şeir,
Azərbaycanın adını çəkənlər. (Vahabzadə, 2008, III c., s. 152)

Burada "Nizami" adı, şairin öz xalqına, mədəniyyətinə və ədəbiyyatına duyduğu ehtiramın bir ifadəsidir. Bu ad həmçinin şairin ədəbiyyat dünyasında nə qədər əhəmiyyətli olduğunu simvolizə edir.
"Nizami" - Vahabzadə, şeirlərində Nizami Gəncəvinin adını çəkərək, həm onun bədii irsini, həm də xalqın mənəvi zənginliyini simvolizə edir. Nizami, şairin əsərlərində Azərbaycan ədəbiyyatının zirvəsi olaraq təqdim edilir və bu ad milli şüurun, dəyərlərin və irsin daşıyıcısı kimi təqdim olunur.
"Məmməd" və "Fərhad" kimi adlar da çox vaxt şairin şeirlərində təsvir olunan insanların simvolik adları kimi istifadə edilir və bu adlar konkret bir insanı təmsil etmədən, xalqın ümumi kədərini, mübarizəsini və arzularını simvolizə edir.
"Məmməd" və "İsmayıl" kimi adlar Vahabzadənin şeirlərində xalqın nümayəndəsi olan, amma konkret bir şəxsiyyətə aid olmayan, ümumiləşdirilmiş obrazlar kimi istifadə olunur. Bu adlar daha çox halkın, bir millətin həyatını, dəyərlərini və təəssüratlarını simvollaşdıran obrazlar kimi çıxış edir. Bu ad çox vaxt şeirlərində ümumiləşdirilmiş bir obraz olaraq istifadə olunur. Məmməd adı, Azərbaycan xalqının sadə, zəhmətkeş insanını təmsil edir. Şair, bu adı xalqın təmsilçisi kimi işlədərək, onların həyatını və dəyərlərini tərənnüm edir.
Məmməd, sənə nəyi deyim?

Yaxud:
Sözün hər biri bir dastan. Sən bizimdir, biz də sənik,
Bir yurdun qəhrəmanısan. (Vahabzadə, 2004, II c., s. 492)

İdris, Ağaşirin, Məmməd, Müzəffər
Düşmən gülləsinə hədəf oldular.
Döyüşə girəndə adi bir əsgər,
Döyüşdən çıxanda şərəf oldular. (Vahabzadə
, 2004, II c., s. 492)

"Məmməd" burada xalqın yazılmamış qəhrəmanını**,** günlük həyatını və sadə, amma dəyərli varlığını simvollaşdırır. Bu ad çox vaxt təbiət ilə, xalqın dəyərləri ilə əlaqələndirilir.
"Aydın" adı, şairin çoxsaylı şeirlərində bir ideyanın təmsilçisi olaraq ortaya çıxır. Bu, insanın işıqlı gələcək uğrunda mübarizəsi və ənənələrin dəyişdirilməsi yolundakı ideyaları əks etdirən bir simvol kimi istifadə edilir.
"Aydın" adı isə, çox vaxt işıq, bilik və aydın gələcək ideyaları ilə əlaqələndirilir. Bu ad, şairin millətin işıqlı gələcəyinə olan inamını göstərir.

Aydın kimi, yolun açıq olsun, İşıqlı gələcəyin olsun.
Həyatın mənası səndədir,
Xalqın gələcəyi sənlədir. (Vahabzadə, 2008, III c., s. 302)

Aydın adı burada, cəmiyyətin gələcəyinin aydınlıqla dolu olacağına inamı simvolizə edir. Bu ad, gələcəyə olan ümid və işıq verən ideyaların təmsilçisidir.
"Əsli" və "Kərəm" kimi adlar, Vahabzadə tərəfindən Azərbaycan dastanlarından və xalq ədəbiyyatından alınmış obrazlardır. Bu adlar, həmçinin millətə xas olan xüsusiyyətləri və sosial mübarizələri simvolizə edir.
“Əsli və Kərəm” - Bu iki ad, çox vaxt Vahabzadənin şeirlərində və nəsrində Azərbaycan xalqının dərin milli ənənələrini və folklorunu əks etdirən obrazlar kimi çıxış edir. Bu iki obraz həm də Azərbaycanın mübarizə ruhunun və məhəbbət ideallarının simvoludur.
“Şah İsmayıl” - Vahabzadə bu ad vasitəsilə Azərbaycanın tarixi qəhrəmanını və Şah İsmayılın mübarizəsini, xalqın azadlıq və dövlətçilik uğrunda apardığı mübarizəni nümayiş etdirir. Bu ad bir liderin və onun rəhbərlik etdiyi xalqın şərəfini və mədəniyyətini simvolizə edir.

Nəticə
Bəxtiyar Vahabzadənin əsərlərindəki toponimlər həm coğrafi məkanları göstərir, həm də həmin məkanların şairin mənəvi dünyasına təsirini ortaya qoyur. Onun poeziyasında yer adları, sadəcə olaraq fiziki məkanların adları deyil, həm də mədəni, tarixi və mənəvi yük daşıyan simvollardır. Vahabzadə, bu toponimləri fəlsəfi dərinliklə işləmiş və onları öz şeirinin ən vacib elementlərinə çevirmişdir.
Bəxtiyar Vahabzadə antroponimlərdən, yalnız kimlikləri və şəxsi adları təqdim etməklə yanaşı, daha geniş fəlsəfi və mədəni mənalar da yaratmaq üçün istifadə edir. Bu adlar çox vaxt şairin sosial və milli məsələlərə, mübarizə və dəyər məsələlərinə verdiyi cavablardır.
Bəxtiyar Vahabzadənin əsərlərində onomastik vahidlərin istifadəsi çox yönlüdür. O, adları yalnız məkan və şəxsləri ifadə etməklə kifayətlənmir, onları həm də sosial, tarixi, fəlsəfi və mədəni baxımdan zənginləşdirir.

Ədəbiyyat:

1. Cəfərov S. Cəfərov S. Müasir Azərbaycan dili. I hissə. Bakı, 2007.
2. Əhmədov T.M. Azərbaycan toponimikasının əsasları. Bakı BDU, 1991, 312 s.
3. Qurbanov A. Müasir Azərbaycan dilinin onomalogiyası. Bakı: Maarif, 1988, 596 s.
4. Qurbanov A. Müasir Azərbaycan dili. I cild, Bakı, 2003.
5. Vahabzadə B. Seçilmiş əsərləri. Bakı, “Öndər” nəşriyyatı, 2 cilddə, II cild, 2004.
6. Vahabzadə B. Seçilmiş əsərləri. Bakı, “Elm” nəşriyyatı, 3 cilddə, III cild,

PROMOTION OF TURKISH LITERATURE IN FARHAD AGHAZADE'S TEXTBOOK "LITERATURE COMPOSITION"

ПРОДВИЖЕНИЕ ТУРЕЦКОЙ ЛИТЕРАТУРЫ В УЧЕБНИКЕ ФАРХАДА АГАЗАДЕ «ЛИТЕРАТУРНОЕ СОЧИНЕНИЕ»

FƏRHAD AĞAZADƏNİN "ƏDƏBİYYAT MƏCMUƏSİ" DƏRSLİYİNDƏ TÜRK ƏDƏBİYYATININ TƏBLİĞİ

Yunusova Günel
AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun dissertantı,
Mingəçevir Dövlət Uiversitetinin dosenti

Abstract
Textbooks played an important role in Azerbaijani education at the beginning of the 20th century. One of these textbooks was "Literary Collection" published by Farhad Agazade in 1912. A large part of the materials presented in this textbook consisted of examples of Turkish literature. The article reviews these examples. It is noted that during the Soviet era, the political and ideological attitude towards Turkey was negative. Due to this negative attitude, the analysis and promotion of these literary examples were ignored. However, the role of Turkish literary examples in the formation and upbringing of the younger generation studying in Azerbaijani schools at that time was great, that is, a large part of our youth was brought up with such works.
The article analyzes the subject matter, ideological and artistic characteristics of the works of Ottoman writers and poets included in the mentioned textbook, and also examines their impact on Azerbaijani literature and the literary and cultural environment. In addition, it is emphasized that other textbooks published in Azerbaijan at that time also included examples of Turkish literature, and the reasons for this are explained in detail.
The research shows that these examples of Turkish literature have played a significant role in the development of the national consciousness of the younger generation, in their national-spiritual education and in the formation of their aesthetic taste. As a result of the article, the close connection and mutual influence of Azerbaijani school literature with the Turkish literary heritage are clearly revealed.
Keywords: F.Agazade, "Literary collection", early 20th century, textbook, Turkish literature, literary connection

Резюме
Учебники играли важную роль в азербайджанском образовании в начале XX века. Одним из таких учебников был «Литературный сборник», изданный Фархадом Агазаде в 1912 году. Значительную часть материалов, представленных в этом учебнике, составляли примеры турецкой литературы. В статье эти примеры рассматриваются. Отмечается, что в советское время политическое и идеологическое отношение к Турции было негативным. В связи с этим игнорировалось изучение и пропаганда этих литературных образцов. Однако роль турецких литературных образцов в формировании и воспитании молодого поколения, обучающегося в азербайджанских школах того времени, была велика, то есть значительная часть нашей молодежи воспитывалась на этих произведениях.
В статье анализируются тематика, идейно-художественные особенности произведений османских писателей и поэтов, вошедших в указанный учебник, а также рассматривается их влияние на азербайджанскую литературу и литературно-культурную среду. Кроме того,

подчеркивается, что и другие учебники, издаваемые в Азербайджане в то время, также включали примеры турецкой литературы, и подробно объясняются причины этого.
Исследование показывает, что данные образцы турецкой литературы сыграли значительную роль в развитии национального самосознания подрастающего поколения, в их национально-духовном воспитании и формировании эстетического вкуса. В результате статьи наглядно раскрывается тесная связь и взаимовлияние азербайджанской школьной литературы с турецким литературным наследием.
Ключевые слова: Ф.Агазаде, «Литературный сборник», начало 20 века, учебник, турецкая литература, литературные связи.

Xülasə
XX əsrin əvvəllərində Azərbaycan təhsilində dərsliklərin mühüm yeri vardır. Bu dərsliklərdən biri də Fərhad Ağazadənin 1912-ci ildə nəşr etdiyi "Ədəbiyyat məcmuəsi"dir. Bu dərslikdə təqdim olunan materialların böyük bir hissəsi türk ədəbiyyatı nümunələrindən ibarət olmuşdur. Məqalədə həmin nümunələr nəzərdən keçirilir. Qeyd edilir ki, sovet hakimiyyəti dövründə Türkiyəyə qarşı siyasi və ideoloji münasibət pis olmuşdur. Bu mənfi münasibət səbəbindən həmin ədəbi nümunələrin təhlili və təbliği diqqətdən kənar qalmışdır. Halbuki həmin dövrdə Azərbaycan məktəblərində təhsil alan gənc nəslin formalaşmasında və tərbiyəsində türk ədəbiyyatı nümunələrinin rolu böyük olmuşdur, yəni gənclərimizin böyük bir qismi bu cür əsərlərlə tərbiyələnmişlər.
Məqalədə adı çəkilən dərslikdə yer alan osmanlı yazıçı və şairlərinin əsərlərinin mövzu dairəsi, ideya-bədii xüsusiyyətləri təhlil edilir, həmçinin onların Azərbaycan ədəbiyyatına və ədəbi-mədəni mühitinə təsiri araşdırılır. Bundan əlavə, həmin dövrdə Azərbaycanda çap edilən digər dərsliklərdə də türk ədəbiyyatı nümunələrinin yer aldığı vurğulanır və bunun səbəbləri geniş izah olunur.
Tədqiqat göstərir ki, türk ədəbiyyatının bu nümunələri gənc nəslin milli şüurunun inkişafında, milli-mənəvi tərbiyəsində və estetik zövqünün formalaşmasında əhəmiyyətli rol oynamışdır. Məqalə nəticəsində Azərbaycan məktəb ədəbiyyatının türk ədəbi irsi ilə sıx əlaqəsi və qarşılıqlı təsiri aydın şəkildə ortaya qoyulur.
Açar sözlər: F.Ağazadə, "Ədəbiyyat məcmuəsi", XX əsrin əvvəlləri, dərslik, türk ədəbiyyatı, ədəbi əlaqə

Giriş
XX əsrin əvvəlləri Azərbaycan mədəniyyəti və təhsili üçün dönüş nöqtəsidir. Azərbaycanda maarifçilik hərəkatının canlandığı, ictimai-siyasi düşüncənin formalaşdığı və yeni bir milli kimliyin mədəni şüurda qurulmaqda olduğu bir dövrdür. Bu dövrdə maarif sahəsində atılan addımlar, o cümlədən yeni tədris metodlarının yaradılması, dərslik yazıcılığının formalaşması və təkmilləşdirilməsi çox ciddi məna daşıyırdı. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından əvvəlki illər və AXC dönəmi Azərbaycan məktəbləri üçün tədricən sistemli dərslik tərtibinin qurulduğu bir vaxt idi. Bu dövrdə təşəkkül tapan ana dili dərslikləri təkcə dil öyrətməyi deyil, həm də milli-mənəvi dəyərlərin, ideoloji baxışların təşviqini əhatə edirdi.
Bu dövrdə tərtib olunmuş dərsliklərdə yalnız yerli müəlliflər deyil, həm də Türkiyənin maarifpərəst və istiqlal düşüncəli ziyalıları da əhatə olunurdu. Bu hal həm dövrün mədəni əlaqələrinin, həm də ortaq düşüncə birliyinin formalaşdırılmasına yönəlmiş məqsədli yanaşmanın bariz göstəricisidir.

Məqsəd
Bu məqalənin əsas məqsədi XX əsrin əvvəllərində Azərbaycan məktəblərində istifadə olunan ana dili dərsliklərində türk ədəbiyyatı nümunələrinin təmsil olunmasının səbəblərini, mahiyyətini və funksional rolunu araşdırmaqdır. Məqalə həmin dövrdə türk-müsəlman dünyasında ortaq kimlik, milli ideya və maarifçilik hərəkatlarının yüksəlişini nəzərə alaraq, Azərbaycan pedaqoji mühitində türk klassik və maarifçi yazarlarının dərsliklərdə yer almasının təsadüfi deyil, məqsədli və ideoloji

yönümlü olduğunu sübut etməyə çalışır. Burada həm də bu ədəbi nümunələrin uşaqların və gənclərin dünyagörüşünə, milli təfəkkürün formalaşmasına necə təsir göstərdiyi üzərində dayanılır.

Tədqiqat metodları
Araşdırma prosesində tarixi-linqvistik metod, mənbə analizləri, məzmun analizi və mənbələrin tipoloji təhlili metodlarından istifadə olunmuşdur. Söhbət gedən dövrə aid konkret dərslik mənbələri təhlil olunmuş, mətnlər struktur, ideya-bədii baxımdan sistemli şəkildə öyrənilib.

Mətnin əsas hissəsi
XX əsrin əvvəllərində Azərbaycan ədəbi və mədəni mühitində türk ədəbiyyatına yönələn maraq və qayğıkeş yanaşmanın mühüm istiqamətlərindən biri də ana dili dərslikləri olmuşdur. Həmin dövrün dərs vəsaitləri, xüsusilə də ana dili kitabları, türk ədəbiyyatının müxtəlif məsələlərinin, zəngin bədii irsinin, tanınmış ədəbi simalarının oxucuya çatdırılmasında və tanıdılmasında mühüm vasitə rolunu oynamışdır. Bu dərsliklər məktəblilərin milli-mənəvi dəyərlərlə, türk söz sənətinin inciləri ilə tanış olmasında, onların estetik zövqünün və mənəvi dünyasının formalaşmasında əvəzsiz rol oynamışdır. O dövrün dərs kitablarında yüzlərlə osmanlı ədəbiyyatı nümunəsi yer almaqda idi. Gənc nəslin nümayəndələri bu əsərlər vasitəsilə tərbiyə almış, əxlaq və mənəviyyat baxımından zənginləşmişlər. Təəssüflə qeyd olunmalıdır ki, bu mühüm istiqamət istər ədəbiyyatşünaslıqda, istərsə də pedaqoji fikir tarixində layiqincə araşdırılmamış, indiyədək diqqətdən kənarda qalmışdır.
Dərsliklərə türk ədəbiyyatından zəngin nümunələrin daxil edilməsi müəlliflərin həm şagirdlərin mənəvi dünyasını zənginləşdirmək, onların mütaliəyə olan ehtiyacını qarşılamaq məqsədinə xidmət edirdi, həm də bu vasitə ilə azərbaycanlı uşaqları Osmanlı türklərinin ədəbi-mədəni irsi, həyat tərzi, düşüncə sistemi və ictimai reallıqları ilə tanış edərək iki qardaş xalq arasında mənəvi və mədəni körpü qurmaq niyyətini daşıyırdı.
Ümumilikdə, XX əsrin əvvəllərində, xüsusilə də 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasınadək olan dövrdə milli maarif və mədəniyyət sahəsində nəşr olunmuş bir sıra məktəb dərsliklərində Osmanlı ədəbiyyatına məxsus sənətkarların yaradıcılıq örnəklərinə və onlar haqqında məlumatlara geniş yer verildiyini müşahidə edirik. Bu sıraya Rəşid bəy Əfəndizadənin 1901-ci ildə tərtib etdiyi "Bəsirətül-ətfal", Mahmudbəy Mahmudbəyzadə və Süleymanbəy Əbdürrəhmanbəyzadənin müəllifi olduqları, 1908–1917-ci illəri əhatə edən "İkinci il" dərsliyi, Əhməd Kamalın "Füyuzati-qiraət"i (1909), Mahmudbəy Mahmudbəyov və Abbas Səhhət Mehdizadənin birlikdə hazırladıqları "Yeni məktəb" (1909–1919), Abdulla Şaiqin "Gülzar"ı (1912), Fərhad Ağazadənin "Ədəbiyyat məcmuəsi" (1912), eləcə də "Türk ədəbiyyatına ilk qədəm" (1914) kimi dərsliklər daxildir. Bu vəsaitlər Osmanlı ədəbi mühitinin Azərbaycan məktəblərində təbliğinə və mənimsədilməsinə şərait yaradan mühüm vasitələrdən biri olmuşdur.[2,69]
Azərbaycan Xalq Cümhuriyyəti dövründədək nəşr olunan dərsliklər arasında osmanlı ədəbiyyatının ən geniş şəkildə təmsil olunduğu mənbə Fərhad Ağazadənin **"Ədəbiyyat məcmuəsi"** dərsliyidir. Fərhad Ağazadə (1880-1931) iyirminci əsrin ilk otuz ilində Azərbaycan pedaqoji, filoloji, mədəni və ictimai mühitinin məşhur şəxsiyyətlərindən biridir. Tanınmış ziyalının fəaliyyətinin mühüm bir qolu ədəbiyyatşünaslıqla bağlıdır. 1912-ci ildə Bakıda İsa bəy Aşurbəylinin "Kaspi" mətbəəsində Musa Əsgərzadənin redaktorluğu ilə çap olunmuş "Ədəbiyyat məcmuəsi" adlı 370 səhifəlik dərslik Fərhad Ağazadənin gərgin əməyinin, çoxsahəli çalışmalarının nəticəsi kimi ortaya çıxmış, böyük maraq doğurmuşdur. "Bu məcmuə Azərbaycanda dünya ədəbiyyatının tədrisi və tədqiqi, ümumən ədəbi, pedaqoji fikir, eləcə də ədəbi əlaqələr və bədii tərcümə tarixində önəmli bir mövqeyə malikdir.[4,2]
Ali sinif şagirdləri üçün nəzərdə tutulan bu dərs vəsaitində otuzdan çox türk müəllifinin – həm şair, həm də nasirlərinin – bədii irsindən seçilmiş nümunələr yer alırdı. Kitabda yalnız onların əsərlərinə deyil, eyni zamanda bir sıra tanınmış sənətkarlar – o cümlədən Cəlaləddin Rumi, Namiq Kamal, Ziya Paşa, Müəllim Naci, Şəmsəddin Sami, Rəcaizadə Mahmud Əkrəm, Əbdülhəq Hamid, Xalid Ziya Üşşaqlı, Tofiq Fikrət, Abdulla Cövdət, Əhməd Midhət və Məhəmməd Əmin Yurdaqul – haqqında

qısa bioqrafik məlumatlara və oçerk xarakterli mətnlərə də rast gəlmək mümkündür. Bu dərslik, məzmununun zənginliyi baxımından, dövrün ən əhatəli ədəbi tədris vəsaitlərindən biri hesab oluna bilər.

Dərslikdə ümumilikdə iyirmi iki nəfərə yaxın türk şairinin poeziyasından seçilmiş nümunələrə rast gəlirik. Bu sənətkarların bəziləri antologiyada yalnız bir şeirlə təqdim olunmuşdur. Kitaba daxil edilən həmin şeirlər sırasında aşağıdakı poetik parçalar yer alır: Cəlaləddin Ruminin "İbrət və müqayisə", Rza Tofiqin "Dağlara", Əliəkrəm Kamalzadənin "Məktəb", Rəbiənin "Layla", Arifənin "Beşik başı", Nəcib Nicatinin "Uşaq və kəpənək", Ladərinin "Həsbi-halə nəzirə", Nigar xanımın "Payızın sonu", Təbədanlızadə Kamalın "Sığınacaqdan baxış", Əbdülbaqi Fövzinin "Kənd həyatı", Mənəmlizadə Tahirin "Bir dağdan enərkən" və M. Ehsanın "Kaş bu yer mənim yurdum olaydı" adlı şeirləri nümunə olaraq göstərilə bilər. Bu poetik parçalar dərsliyin ədəbi-estetik ruhunu formalaşdırmaqla yanaşı, dövrün mədəni əlaqələrinin də bir göstəricisidir.

Dərslikdə Namiq Kamal, Namiq Əkrəm, Həmit Zəhra, Müəllim Naci, İsmayıl Səfa, Tofiq Fikrət, Abdulla Cövdət, Məhəmməd Əmin Yurdaqul və digər şairlərin hər birinin poetik irsindən isə iki və daha çox örnək veilir.

Yaradıcıların sayı çox olmaqla yanaşı, onların şeirlərində işıqlandırılan mövzu dairəsi, ifadə etdikləri ideyalar və bədii-estetik xüsusiyyətlər də geniş və rəngarəng idi. Hər bir sənətkarın əsərlərinə ayrıca diqqət yetirmək nə mümkündür, nə də zəruridir. Buna görə də, dərslik müəllifi şagirdlərə təqdim etmək istədiyi mənəvi və bədii dəyərləri aydın şəkildə çatdırmaq məqsədilə yalnız iki-üç seçilmiş bədii nümunəyə yer verərək, onları qısa, lakin məzmunlu təhlillərlə izah etməkdə qərar kəsb etmişdir. Uşaq şeirinin müəllifi kimi tanınan Həmit Zəhran tərəfindən yazılmış, heca vəznində olan "Bahar", "Xəzan" və "Qış" şeirlərində rəssam kimi sözlərlə gözəl mənzərələr canlandırılır. Oxucu sanki təsvir edilən təbiət mənzərələrinin içində olur. Ziya Paşanın beytlər şəklində təqdim etdiyi parçalarında isə əxlaqi və tərbiyəvi dəyərlər, həyat dərsləri verilir. Nəcib Nicatinin "Cocuq və kələbək" şeiri dialoq formatında quraşdırılmış kiçik bir hekayə fonundadır və burada ananın müqəddəsliyi uşaq dilində sadə və inandırıcı detallar vasitəsilə çatdırır. M.Ehsanın "Ah, olsa bu yer mənim məkanım" misrasından başlayan şeirində uşaqlarda quşlara qarşı sevgi və mərhəmət hissi tərbiyə olunur. İ.Səfanın "Şagirdlərimə" məsnəvisi öyüd və tövsiyələrlə zəngindir, "Derdim, diyorum" şeirində isə həyatın gözəlliklərinə və ona sevgi ilə yanaşmağa çağırış özünü göstərir. Məhəmməd Əmin Yurdaqulun "Dəmirçi" əsərində zəhmət, iradə və fədakarlıq kimi keyfiyyətlər tərənnüm olunur. Onun "Qurani-kərim" şeirində isə İslamın müqəddəs kitabı "Quran"ın bir yol göstərən işıq, hidayət mənbəyi kimi dəyəri və əzəməti poetik üslubda ifadə edilir.

Bu kitabdır hər kişiyi əmənli kverən, yolaçan,
İnsanlığın sərgisinə ərməğanlar asdıran.
Bu kitabdır əqllərə hər bir şeyi sürdürən.
"Düşün, sonra inan"-deyən, doğru yolu göstərən.
Bu bilgidir ululuğun yapıların qurduran,
Çıplaq dağlar yaşılladan , viran köylərşənlədən.[1,189]

"Ədəbiyyat məcmuəsi" dərsliyində osmanlı ədiblərinə aid çoxsaylı nəsr nümunələri də yer alırdı. Bu yazılar, dərsliyin tələb və imkanlarına uyğun olaraq, əsasən qısa hekayələr və publisistikanı əhatə edir. Hekayələrin bir hissəsi sadə və yığcam süjetlərə malik kiçik əhvalatlardan ibarətdir. Məsələn, Münirənin "Baharda bir sabah", Ruqiyyənin "Köydə bir səhər aləmi", Əhməd Hikmət Sezaizadənin "Qış gecəsi" və Əhməd Midhətin "Cuybar" kimi əsərləri bu kateqoriyaya daxildir. Bu hekayələrdə hadisələr danışılır, lakin onların təsvirində müəyyən dərin duyğusallıq və romantik bir rəng, təhkiyə tərzində isə incə bir kövrəklik hiss olunur. Digər bir qrup nəsr nümunələri isə daha çox lirik-romantik ovqat daşıyır və təsvirlər əsasən duyğu və hisslər üzərində qurulub. Rza Tofiqin "Balaban dağları", Sami Paşazadə Sezainin "Camlıca", "Bir məktub", "Yaş" və Üşşaqlıgil Xalid Ziyanın "Xatırlarmısın"

hekayələri bu tipə aiddir. Bu yazılarda əsas diqqət əhvalatdan çox mənzərənin poetik təsvirinə yönəldilmişdir. Ümumilikdə, bu nəsr nümunələrinin təhkiyəsi daha çox mənsub olduğu bədii janr kimi mənsur şeiri xatırladır.

Namiq Kamalın, Sami Paşazadə Sezainin, Əsmətin, Şəmsəddin Saminin, Əbdülhəq Hamidin publisistik yazıları da dərslikdə yer alır.

Diqqət çəkən məqam odur ki, dərslikdəki nəsr nümunələri mövzu rəngarəngliyi, məzmun dərinliyi və müasirlik baxımından oxucunu cəlb etməyi bacarır. Bu yazılarda bir tərəfdən zəngin təbiət mənzərələri canlandırılır, digər tərəfdən isə kənd həyatı, yoxsul və sahibsiz insanların taleyi, islam əxlaqının mənəvi əsasları kimi geniş spektrli məsələlər əhatə olunur. Bəzi mətnlərdə isə ədəbiyyatın mahiyyəti, şairin və sənətkarın missiyası üzərində dayanılır, düşündürücü və yaddaqalan fikirlər səsləndirilir. Məsələn, Namiq Kamalın "Şair nədir?" adlı publisist məqaləsində sənətkarın cəmiyyət və vətən qarşısında daşıdığı məsuliyyət təsirli bədii təsvirlərlə ifadə olunur: "O, təbiətin sevgi və ilhamla dolu anlarından yoğrulmuş bir varlıqdır… Onun gülüşündə çiçək təbəssümü, baxışında isə göy qurşağının parlaqlığı gizlidir. O, hər şeyə heyran olsa da, yenə də təbiəti aşmaq istəyir. Öz varlığına belə tam hakim ola bilmədiyi halda, zəif çiyinlərilə Yer kürəsini başqa bir mükəmməlliyə doğru çəkməyə çalışır. Bu ağır yükdən taqətdən düşəndə isə qaranlıq qəfəsdə çırpınan bülbül kimi, zəif, kədərli bir inilti ilə nəfəs alır." [1, 85]

Sami Paşazadə Sezainin "İstanbulda ulduzlu bir gecə, yaxud şeir nədir?" və Əsmətin "Şair rəssamdır, rəssam isə şair" adlı yazılarında da sənətkarın çəkdiyi mənəvi əziyyətlərə, lakin eyni zamanda onun müqəddəs missiyasına diqqət yetirilir – bu yazılar N.Kamalın sənətə yanaşması ilə səsləşir.

Nəticə

XX əsrin əvvəllərində Azərbaycanda tərtib olunan ana dili dərslikləri təkcə dil və yazı öyrətməyə xidmət etmirdi – onlar həm də ideoloji, milli və mədəni kimlik formalaşdırmaq baxımından əhəmiyyətli vəzifə daşıyırdı. Bu dərsliklərin mətn tərkibində türk ədəbiyyatına məxsus nümunələrin yer alması təsadüfi deyil, məqsədyönlü seçim idi. XX əsrin əvvəllərindəki Azərbaycan ana dili dərslikləri yalnız pedaqoji deyil, həm də ictimai-siyasi funksiyaya malik idi. Türk ədəbiyyatının bu dərsliklərdəki iştirakı, ümumtürk mədəni inteqrasiyasının və qarşılıqlı təsirin bariz nümunəsidir.

Bu yanaşma Azərbaycan maarifçilərinin milli özünüdərki gücləndirməyə, şagirdlərdə ümumi türk mədəni təfəkküründü inkişaf etdirməyə çalışdıqlarını göstərir. Beləliklə, türk ədəbiyyatı nümunələrinin Azərbaycan dərsliklərinə daxil edilməsi həm tədris baxımından, həm də milli-mənəvi tərbiyə baxımından əhəmiyyətli bir addım kimi dəyərləndirilməlidir.

Ədəbiyyat

1. Ağazadə Fərhad. Ədəbiyyat məcmuəsi / F.Ağazadə.–Bakı: Kaspi, –1912.–370 s.
2. Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı (XIX-XX əsrlər): [3 cilddə] / tərtib edənlər: Xeyrulla Məmmədov, Ağahəsən Həsənov. – Bakı: Nasir, -c.2. –2002. –632 s.
3. Banarlı Nihad Sami. Resimli türk edebiyatı tarihi: [2 ciltte] /N.S.Banarlı.- İstanbul: Milli Egitim Basımevi.-c.2.-1998.-1366 s.
4. Həşimli Hüseyn. Fərhad Ağazadənin "Ədəbiyyat məcmuəsi" dərsliyində Azərbaycan ədəbiyyatı məsələləri. NDU Elmi əsərlər. 2015, № 5 (70). s.2

THE PROBLEM OF SPIRITUAL EDUCATION OF THE PERSON, SELF-CONSCIOUSNESS AND FEELINGS OF SELF-CONSCIOUSNESS IN THE ACTIVITIES OF HEYDAR ALIYEV

HEYDƏR ƏLİYEV FƏALİYYƏTİNDƏ ŞƏXSİYYƏTİN MƏNƏVİ TƏRBİYƏSİ, MƏNLİK ŞÜURU VƏ MƏNLİK HİSSLƏRİ PROBLEMİ

P.Ü.F.D Esmira Məmmədova
Adpu-nun "azərbaycan dılı və onun tədrısı texnologıyası" kafedrasının baş müəllimi

Abstract
It is known that the spiritual development of a society and a nation begins with the development of my personality. If the members of a society are individually morally weak, then there can be no doubt that the society itself is morally weak. Or, conversely, in a spiritually rich society, moral depravity and spiritual poverty may be rare. Heydar Aliyev knew this dialectic very well. Our research has shown that both in the 1979 General Union Scientific-Practical Conference on Spiritual Education and in many other speeches, he paid special attention to social and personal relations. Heydar Aliyev believes that the spiritual progress of the individual depends on the spiritual richness of society, the spiritual growth of society depends on the spiritual potential of each individual.
Key words: self, upbringing, personality, spiritual upbringing, self-consciousness

Özet
Məlumdur ki, cəmiyyətin və millətin mənəvi inkişafı, mənəvi yüksəlişi, şəxsiyyətin mənəvi inkişafından başlayır. Əgər cəmiyyətin üzvləri ayrı-ayrılıqda mənəvi cəhətdən zəifdirlərsə, onda cəmiyyətin özünün mənəvi zəifliyi heç bir şübhə doğura bilməz. Yaxud əksinə mənəvi cəhətdən zəngin olan cəmiyyətdə mənəvi düşgünlük, mənəvi kasıblıq hallarına az-az təsadüf oluna bilər. Bu dialektikanı Heydər Əliyev çox yaxşı bilirdi. Apardığımız araşdırmalarda məlum oldu ki, istər 1979-cu ildə mənəvi tərbiyəyə həsr olunmuş "Ümumi İttifaq Elmi-Praktiki Konfrans"ında, istərsə çoxsaylı digər çıxışlarında o, cəmiyyət-şəxsiyyət münasibətlərinə xüsusi yer verirdi. Heydər Əliyev belə hesab edir ki, şəxsiyyətin mənəvi tərəqqisi cəmiyyətin mənəvi zənginliyindən asılıdır, cəmiyyətin mənəvi yüksəlişi ayrı-ayrılıqda hər bir şəxsiyyətin mənəvi potensialından asılıdır.
Təhsil və tərbiyə sistemlərinə müraciət edərək, onların yaxın və prioritet vəzifələrini müəyyən edərək, o, şəxsiyyətin mənəvi inkişafının həm ideya-nəzəri, həm də praktiki aspektlərini müəyyənləşdirməyə çalışırdı.
Key words: self, upbringing, personality, spiritual upbringing, self-consciousness

Giriş

Şəxsiyyətin mənəvi inkişafının prioritetlərini müəyyənləşdirərək, Heydər Əliyev problemin ideya-nəzəri aspektlərinə xüsusi diqqət yetirirdi. Bununla bərabər aşağıdakı məqamları xüsusi vurğulayırdı;

a) İllərlə formalaşmış, tarixin süzgəcindən keçmiş, nəsillərdən-nəsillərə ötürülmüş, xalqın milli mədəniyyəti şəxsiyyətin mənəvi saflığının, mənəvi zənginliyinin təməl daşı funksiyalarını yerinə yetirmişdir;

b) Mənəviyyata qida verən fundamental amil mədəniyyətdir- həm milli mədəniyyət, həm də ümumibəşər mədəniyyət. Heydər Əliyev bunu hamıdan yaxşı dərk etmişdir. Ona görə də burada qeyd olunduğu kimi, Heydər Əliyev bütün Azərbaycan gənclərinə hər bir şəxsiyyətə milli və ümumbəşəri dəyərlərdən faydalı və düzgün istifadə etməyi tövsiyə edirdi.

Bununla əlaqədar olaraq, bir məsələni də xüsusi qeyd etmək lazımdır. Ümumbəşəri dəyərlərə münasibət əlavə bir informasiya mənbəyinə yanaşmaq kimi qəbul olunmamalıdır. Ümumbəşəri

dəyərlər yalnız informasiya deyildir. Onların tərkibində, məzmununda, strukturunda güclü və tükənməz mənəvi prinsiplər mövcuddur. Bu gün 3-cü minilliyin başlanğıcında ümumibəşəri dəyərlərdə qoruyub saxlanılmış mənəvi prinsiplərdən məhrum olan şəxsiyyətə mənəvi cəhətdən zəngin şəxsiyyət demək olmaz. Əgər biz azərbaycançılıq və türkçülük prinsiplərinin daxilində qopub qalırıqsa, biz özümüzün mənəvi məhdudluq mühakiməmizə imza atmış olarıq.
Beləliklə, şəxsiyyətin mənəvi zənginliyində milli mədəniyyətin öz yeri var. Türk xalqının mədəniyyətlərinin öz yeri var. Ümumbəşəri dəyərlərin öz yeri var. Mədəni-tarixi proses bunu sübut edir ki, mütərəqqi təlim, təhsil sistemi bu prinsipləri həyata keçirməkdə ardıcıl mövqe tutmalı, düzgün metodoloji prinsiplər seçməlidir;
c) Heydər Əliyevin siyasi-tərbiyəvi fəaliyyətində, xüsusən onun mənəvi tərbiyə ilə bağlı olan nitqlərində, çıxışlarında, tövsiyələrində yaşlı nəsillərin mənəvi həyatı, mənəviyyatı, onların keçdiyi şərəfli həyat yolu xalq, vətən, millət qarşısında göstərdikləri xidmətlər müstəsna yer tutur.

Araşdırma

Atalardan, babalardan qalmış nəsihətlər, onların həyat və fəaliyyətləri müasir gənclər üçün, hər bir şəxsiyyət üçün mənəviyyat məktəbi və mənəviyyat dərsliyidir. Aparılmış araşdırmalarda qeyd edilir ki, 1970-1980-ci illərdə Azərbaycanda rəhbərlik etdiyi dövrlərdə Heydər Əliyev bir neçə xatirə muzeyi yaratmışdır. Onlardan Nəriman Nərimanovun, Səməd Vurğunun, Üzeyir Hacıbəyovun, Cəfər Cabbarlının, Səttar Bəhlulzadənin ev muzeylərinin sadalamaq olar. Bu muzeylərin hər birində toplanıb və saxlanılan eksponantlar, əsərlər, əlyazmaları, o böyük insanlar haqqında olan informasiyalar həm mənəviyyat mənbəyidir, həm də mənəviyyat dərsliyidir. Məhz Heydər Əliyev o muzeyləri gənclərin mənəvi tərbiyəsinin, mənəvi inkişafını və tarixi yaddaşlarının möhkəmlənməsini nəzərə alaraq yaratmışdır.
Əlbəttə bu istiqamətdə çox danışmaq olar. Mən fikrimi bu mövzuda konkretləşdirmək istəyirəm. Lakin bircə şeyi mən təəssüflə qeyd etmək istəyirəm ki, nəinki milli və ümumbəşəri dəyərlərin mənimsənilməsinə hələlik bir o qədər də cəht göstərilmir, hətta Heydər Əliyev tərəfindən yaradılmış bu mənəviyyat mənbələrinə, təhsil ocaqları tərəfindən xüsusən ali məktəblər tərəfindən demək olar ki, müraciət olunmur. Onların imkanlarından istifadə olunmur. Hər hansı bir ali məktəbi götürüb müşahidə aparsaq, orada nadir tələbə taparır ki, onlar bu müzeylərdə olmuş olsunlar. Mənə belə gəlir ki, elm konfranslar, disputlar da vacibdir. Lakin yuxarıda göstərdiyim istiqamətdə işin zəif olduğu hamı tərəfindən dərk olunmalı və bu iş canlanmalıdır.
İndi isə şəxsiyyətin mənlik şüuru və mənlik hissləri üzərində dayanmaq istərdim. Heydər Əliyevin şəxsi həyatı, çoxsahəli siyasi fəaliyyəti və ideya nəzəri irsi gənc nəsillərin mənəvi inkişafında sönməz bir məşəldir. On illər keçsə də Heydər Əliyev ideyaları, Heydər Əliyev şəxsiyyəti nəsillərin mənəvi inkişafına örnək və istiqamət verən qüvvə olaraq qalacaqdır.

Sonuc

Şəxsiyyətsiz mənlik hissləri formalaşmamış və mənlik şüuru zəif olan adamlara Heydər Əliyev neqativ münasibət bəsləyirdi. Bununla yanaşı onun çıxışlarında, məruzələrində, müşahidələrində, nitqlərində, kitablarında şəxsiyyətin mənlik şüuruna, mənlik hisslərinə aid çox qiymətli fikirlər var. Birinci insan o vaxt hesab olunur ki, şəxsiyyət o vaxt şəxsiyyət olur ki, onun şüuru inkişaf etmiş olsun. Belə bir sual meydana gəlir. Onda hisslər və mənlik şüuru necə əmələ gəlir? Fərd onları haradan götürməlidir? Bu suala birmənalı cavab vermək çox çətindir. Çünki ən yüksək mənəviyyatlı ailələrdən də arabir yüksək mənəviyyatlı, yüksək əqidəli şəxslər çıxır. Yaxud da belə hallara da rast gəlmək olur ki, heç bir valideyn tərbiyəsi almayan adamların bir çoxunun mənlik şüuru kifayət qədər inkişaf edib və özlərinin ləyaqətini qorumağa daim hazırdırlar. Məsələn, uşaq evlərində tərbiyə alanların əksəriyyəti.

Beləliklə, biz, birinci növbədə, mənəviyyat mənbələri axtarmalıyıq və şəxsiyyətin mənlik şüurunu formalaşdıran amilləri araşdırmalıyıq. Mənə belə gəlir ki, burada hər bir istiqamətdə həm praktik, həm də nəzəri iş getməlidir.

Birinci, uşaqların mənlik şüuru və ləyaqət hissləri ailədə tərbiyə olunmalıdır. Burada bir neçə şərt var, ancaq əsas problem ondan ibarətdir ki, uşaqların valideynləri və ailə üzvləri nə dərəcədə öz ləyaqətini qoruya bilirlər?

İkinci, valideynlərin özlərinin mənlik şüuru haqqında, ləyaqət, qürur haqqında kifayət qədər təsəvvürləri vardırmı? Növbəti pillə məktəb və ümumiyyətlə təhsil sistemidir. Bu baxımdan mən belə hesab edirəm ki, bizim ali və orta məktəblər kifayət qədər uşaqlarda mənlik hissini tərbiyə etmirlər.

Üçüncü, mənəviyyatın mənbəyi cəmiyyətdir. Mənəvi tərbiyə birinci növbədə cəmiyyətin mənəvi dəyərlərə münasibətindən asılıdır, cəmiyətin insanların, vətəndaşların qürurlu olub-olmamaqlarının istəməklərindən asılıdır. Demək olar ki, bu gün cəmiyyət bu məsələlərlə az məşğul olur. Nəhayət, bir faktorun da rolunu qeyd etmək istərdim. O da insanlarda mənlik şüurunun formalaşması işində və ləyaqət hisslərinin tərbiyəsi işində ədəbiyyat və incəsənətin roludur. Sual meydana gəlir. Müvafiq strukturlar o cümlədən yaradıcı ziyalıları birləşdirən strukturlar bu problemlərlə kifayət qədər məşğuldurmu? Bir mənalı cavab- yox. Ona görə də insanların mənlik şüuru və ləyaqət hissləri problemini həll etməkdən qabaq adını çəkdiyim qurumlar və strukturlar öz fəaliyyətlərində və öz mövqelərində lazımi dəyişikliklər etməlidir.

Kaynaqca

1. “Müstəqilliyimiz əbədidir.” II kitab, Bakı, 1997, səh. 547
2. “Müstəqilliyimiz əbədidir” V kitab, Bakı,1998, səh. 134
3. Mehdiyev R. “Vətəndaş cəmiyyətinə yol açan ideyalar” Bakı, 2006

THE THEME OF WAR IN THE WORKS OF BAKHTIYAR VAHABZADE (1941-1945 YEARS)

BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA MÜHARİBƏ MÖVZUSU (1941-1945-Cİ İLLƏR)

Pərixanım Soltanqızı (Hüseynova)
Filologiya üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan.
https//orcid.org/0000-0001-9391-6162

Abstract
The object of the research is the theme of war in the works of Bakhtiyar Vahabzade. The author studies the poet's works on this subject. In this regard, the artist's works include "Mother and the picture", "Green grass, under a tree, a dark river", "Pearl", "Soviet doctor", "Second wound", "Four hundred and sixteen", "Second voice", etc. His works are subjected to scientific analysis. The artistic reflection of the horrors, disasters, and painful consequences of the war, the fate of the characters, is studied. The poet's artistic description of people's spiritual suffering after the war is brought to the fore.
The article also talks about Bakhtiyar Vahabzade's artistic features. It is noted that he came to literature during the war years. In Bakhtiyar's poetry, as a reflection of the rhetoric, address, and evocation typical of Azerbaijani poetry at that time, the self-introspection of the image, plot, and artistic plates is specially emphasized as the arrival of a new breath and a new spirit to literature.
The originality of Bakhtiyar's poetics is noted. The attitude of the literary criticism of that period to the poem "Green grass, under the tree, and a dark river" is scientifically analyzed. The author bases his opinions on quotes. From this point of view, polemics are given ample space.
Key words: poetics, lyrics, war, love of country, heroism

Xülasə
Tədqiqatın obyekti Bəxtiyar Vahabzadə yaradıcılığında müharibə mövzusudur. Müəllif şairin bu mövzuda qələmə aldığı əsərləri tədqiq edir. Bu baxımdan sənətkarın “Ana və şəkil”, “Yaşıl çəmən, ağac altı, birdə ki, tünd çay”, “Mirvari”, “Sovet həkimi”, “İkinci yara”, “Dörd yüz on altı”, “İkinci səs” və s. əsərləri elmi təhlilə çəkilir. Müharibənin özü ilə gətirdiyi dəhşətlərin, fəlakətlərin, insanlara vurduğu acı nəticələrin, obrazların taleyində bədii əksi tədqiq edilir. İnsanların müharibədən sonrakı mənəvi iztirablarının şairin qələmində bədii təsviri diqqət önünə gətirilir.
Məqalədə Bəxtiyar Vahabzadənin sənətkarlıq xüsusiyyətlərindən də danışılır. Onun müharibə illərində ədəbiyyata gəlməsi qeyd edilir. O dövr Azərbaycan poeziyasına xas olan ritorikanın, xitabın, çağrışın əksi olaraq Bəxtiyar poeziyasında təsvirin, süjetin, bədii lövhələrin özünü inikas etməsi ədəbiyyata təzə nəfəsin, təzə ruhun gəlişi kimi xüsusi vurğulanır.
Bəxtiyar poetikasının orijinallığı diqqətə çəkilir. “Yaşıl çəmən, ağac altı, birdə ki, tünd çay” şeirinə o dövr ədəbi tənqidin, münasibəti elmi təhlil edilir. Müəllif mülahizələrini sitatlar üzərində əsaslandırır. Bu baxımdan polemikaya geniş yer verilir.
Açar sözlər: poetika, lirika, müharibə, vətən məhəbbəti, qəhrəmanlıq

Giriş

Azərbaycan xalqının şair oğlu, ölməz sənətkarı Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatına müharibə illərində gəlib. İlk qələm məhsulu olan “Ana və şəkil” şeirini də bu mövzuya həsr edib. Bu onun ilk və son şeiri olmadı. Müharibə mövzusunda silsilə əsərlər yaratdı. “Ana və şəkil”, “Yaşıl çəmən, ağac altı, bir də ki tünd çay”, “Mirvari”, “Sovet həkimi”, “İkinci yara”, “Dörd yüz on altı”,

"İkinci səs" və s. əsərlərində müharibənin dəhşətlərini, acı nəticələrini, zərbələrini həm o illərdə, həm də müharibədən sonra insan taleyində təsvir etdi. Bəxtiyar Vahabzadə poeziyası "Bir sözün, bir obrazın maqnit sahəsində keçmişi, bu günü və gələcəyi qovuşdurur, hər dəfə də dünyanın taleyinə bir nöqtədən – bütün mənəvi qüdrətini insanların yolunda sərf etməyə hazır olan fədakar humanizm zirvəsindən yanaşır" . [6, s.8]
"Ana və şəkil"də şəhid olmuş oğlunu yuxuda görən ananın simasında minlərlə ananın oğul həsrətini, məhəbbətini, sevgisini, göz yaşını, keçirdiyi iztirabları canlandırır:

Oğul deyir: "Yox ana, gəlmişəm mən özüməm"
Ana heyrət içində sarılaraq oğluna
Sevinc qığılcımları töküb qoynundan ana,
Deyir "bala, çox öpdüm, kağızdan kölgəni,
İndi isə izn ver doyunca öpüm səni". [9, s.4]

Ədəbiyyatşünasların fikrinə görə, ilk qələm məhsulu olan "Ana və şəkil" şeiriyyətcə zəif olsa da, konkretliyi və müəllifin yaradıcılığa xoş niyyətlə, məsuliyyət hissi ilə gəldiyini göstərirdi [7, s.161]. Lakin bizim fikrimizcə, şeiri zəif hesab etmək düzgün olmazdı. Şeir həcmcə böyük olmasa da müəllif süjet xətti qurmuş, konkret sözlə böyük mənalar yaratmışdır.
"İkinci səs" pyesində sovet adamlarının müharibədən sonrakı həyatı təsvir olunur. Müharibə qurtarıb, lakin onun insana vurduğu zərbənin acı nəticələrini hələ də arzular, həyatlar yaşayır, mənəvi iztirab keçirir. Həyatı qonşusunun oğlu Əbdül sevir. Lakin sevgisini ona bildirmədən cəbhəyə gedir. Oradan Həyata məktub yazaraq vaxtilə açа bilmədiyi sevgisini etiraf edir. Artıq Həyat Rəşad adlı bir oğlanla ailə həyatı qurub. Onun məktubuna cavab vermək istəmir. Lakin Əbdülün bacısı Zeynəb onun ölümcül yaralandığını, Həyatdan ona məktub yazarsa Əbdülə bir təskinlik olacağını, sağalacağını israrla xahiş edir: "- Dedim, yaza bilmərəm, yalvardı, yaxardı, dedi: Sevmirsən öz işindir, sevmə, ancaq insanlıq xatirinə bir məktub yazmağa nə var ki, razı oldum... o diktə elədi: mən yazdım. [1, s.150] Sevdiyi qızdan məktubuna cavab alan Əbdül doğurdan da sağalır. Yenidən cəbhəyə gedir. Lakin Həyat bu əhvaatı o zaman əri Rəşada demədiyindən, illər sonra Rəşadın bu əhvalatdan xəbər tutarsa onu bağışlamayacağını bilirdi. Çünki məktubla bağlı Rəşada zəng gəlmiş, ondan təkidlə soruşmuş o isə qəti inkar etmişdir. Ərinin qəlbinə o zamandan şübhə toxumunun səpildiyini yaxşı bildiyindən onu bağışlamayacağından qorxur. Təkrar həmin mövzuya qayıtmaq istəmirdi. Bəlkə də bu şübhə ər-arvad münasibətlərinin soyumasına, Rəşadın başqa bir qadını sevməsinə səbəb olmuşdur. Ticarətlə məşğul olan Zeynəb üç il həbs yatmış, indi isə həbsdən çıxmış, əlinə Əbdülün evində təsadüfən həmin məktub keçmişdi. Həyatı əgər onu işə düzəltməsə məktubu ərinə verəcəyilə hədələyir. Lakin onun bu niyyəti boşa çıxır. Həyatın həkimi, Rəşadın sevgilisi Arzu Məlahətin vasitəsilə bu işdən xəbərdar olur.
Zeynəb anası ölərkən həbsdə olduğundan onun yazdığı vəsiyyətnamə ilə maraqlanır. Onun anasının həkimi Arzu da olduğunu öyrənir. Arzu Zeynəblə olan qarşılıqlı razılaşma əsasında həmin məktubu ondan alaraq Həyata, Zeynəbə isə anasının yazdığı kağızı verir.
Arzu həkimdir. Uşaqlıq illərini, müharibənin ona vurduğu yaraları illər keçsə də unutmamışdır: "Uşaqlığım yadıma düşür... Atam ... onun cəbhəyə getməsi, çətin günlərim, yetimlik, təklik, təklik. Bilirsən, uşaqlıqda tək qalmaq, özünü idarə etməyi bacarmaq necə çətindir...". Bu bir tablodur. Lakonik bir təsvirdə biz hələ uşaqkən onun müharibə illərində nələr yaşadığını, atasının cəbhəyə getməsini, tək qaldığını, həyatla mücadiləsini görürük. Müharibə uşaqlığına qara bir xətt çəkmiş, uşaqlıq illərini, sevincini əlindən almış, yaddaşında qara, acı bir xatirə kimi qalmış, 30-35 yaşa gəlib çatsa da hələ də onu unutmamışdır. Həyat da, Arzu da müharibə illərində və ondan sonra da acı tale, mənəvi əzab-əziyyət, iztirab yaşayan minlərlə qız – gəlinin, uşağın, insanların artıq simvollaşmış obrazıdır.

"İkinci yara" məzmun və quruluş baxımından "Yaşıl çəmən, ağac altı, birdə ki, tünd çay" şeirini xatırladır. Hər iki şeirdə nakam sevgidən, yarım qalmış arzudan, istəkdən danışılır. Biri vətənə, vətən torpağına, digəri isə söz verib gəldiyi, ətir qoxulu yaylığını sinəsində gəzdirdiyi sevib-seçdiyi qıza aşiq... Hər iki şeirdə cəbhədən vətənə dönən əsgər dostunu xatırlayır. Nakam qalmış arzuları yada salıb kövrəlir. Cəbhə dostunun canlı surəti, istəkləri, xəyalları, söhbətləri gözləri önündə canlanır. Şair "İkinci yara"da qanlı cəbhədən dönən əsgərin müsahibi ilə söhbətində döyüş meydanında, gözləri önündə şəhid olan cəbhə yoldaşının sevgisinə sədaqətini, həsrətini epizodlarla təsvir edir. Onun verdiyi "Ala bunu ona ver! Artıq o qız unutsun öz gələcək ərini..." əmanəti təsadüfi görüşdən sahibinə qaytarır.

Əmanəti geri qayıdan gənc qızın "Aman qurusun dilim. Bu yaylıq mənimkidir o da sevgilim!" deməsi şeirdə ürəkağrıdıcı təsvirlərdən biridir. Sevgilisini cəbhəyə yola salan, lakin müharibədən sonra aldığı qara xəbərdən ümidləri qırılan gənc qızın yaylığı minlərlə ərli qadının, nişanlı qızın göz yaşının ah-naləsinin, müharibəyə nifrətinin rəmzidir.

Bu görüş əsgərin qəlbində ikinci yaranı açır. Birini müharibədə, döyüşdə dostunu itirdiyi zaman, ikincini müharibədən sonra dostunun verdiyi əmanəti sahibinə qaytardığı zaman.

Bəxtiyar Vahabzadə ədəbiyyata orijinal yolla gəlib. Bu onun həyata real münasibətilə bağlıdır. O, yaradıcılığında birbaşa tərənnümə müraciət etmir, reallığı fikri, hissi, düşüncəni, daxili aləmi açır. Zahiri gözəllik Bəxtiyar poeziyasına yad idi. Odur ki, Bəxtiyar Vahabzadənin poeziyaya gəlişi o dövrdə yeni nəfəs, yeni ruh idi. O zaman Azərbaycan poeziyasındakı ritorika Bəxtiyar poeziyasında təsvir, süjet və bədii lövhələrlə əvəzləndi. Bu baxımdan "Ana və şəkil", "Yaşıl çəmən, ağac altı, bir də ki, tünd çay" (1944) şeirləri şairi ədəbiyyat aləminə tanıtdı. Müharibə bitmiş ordudan tərxis olunan əsgər vətəndə qardaşı ilə oturmuş, döyüşçü dostunun onunla söhbətini xatırlayır:

"...Dostum! Görən bir də güllü bağçamızda mən,
Çiçəklərin arasından keçəcəyəmmi?
Kölgəlikdə otlar üstə oturub həmən,
Vətənimin tünd çayından içəcəyəmmi?.."

Sənətkar döyüşçünün qəfil döyüşün başlamasından, silaha sarılmalarından, o gündən sonra dostunu bir daha görməməsindən doğan hissini, həyacanını canlandırır. Göründüyü kimi tərənnümlə deyil özünəməxsus yeni üsulla müharibədən sonra döyüşçünün əhvali-ruhiyyəsində əks etdirir. Burada müharibənin dəhşətlərini, onun insanlara vurduğu fəlakəti, ölümü, yarımçıq qalmış arzuların, xəyalların acı nəticəsini əks etdirən bir təsvir var:

Bunu dedi, bir az keçdi... gurladı toplar...
Biz hamımız tez sarıldıq dərhal silaha,
Döyüş qızdı...qopdu bu dəm bir dəli rüzgar,
Ondan sonra mən dostumu görmədim daha.

"Müəllif cəbhədən qayıdan əsgərin dili ilə döyüş meydanında qəhrəmancasına əbədiyyətə qovuşan döyüşçü yoldaşının doğma yurda bəslədiyi dərin məhəbbətini, vətən həsrətini maraqlı epizodlarla canlandırır" [7, s.162]

Xalq şairi Məmməd Rahim gənc şair kimi Bəxtiyar Vahabzadənin "Yaşıl çəmən, ağac altı, bir də ki tünd çay" şeiri ilə ədəbi mühitin diqqətini cəlb etdiyini, döyüşçünün vətənə olan tükənməz eşqini təsvir etdiyini, oxuculara "kiçik" bir şeirdə "sadə bir paltar altında" döyünən "böyük bir qəlbin" nəcib hisslərini sadə, aydın bir dillə təqdim etdiyini və onun digər məziyyətlərindən danışaraq şeiri yüksək dəyərləndirmiş, gənc qələm sahibini alqışlamışdır.

"Mirvari" şeirində müharibədən əvvəl və sonrakı həyat təsvir edilir. Artıq müharibə qurtarmış, cəbhədən tərxis olunan əsgər evinə dönmüş, qohum-əqrəba, qonum-qonşu sevincindən quştək süzən anaya, gəlinə gözaydınlığına, əsgərlə görüşə gəlir.

M.Rahim Bəxtiyar Vahabzadənin şeirlərindən danışarkən, "Mirvari" şeirinə öz "Tənqidi" münasibətini bildirir. "Yaşıl çəmən, ağac altı, bir də ki tünd çay" şeirində təsvir olunan döyüşçü obrazından fərqli olaraq bu şeirdə təsvir olunan döyüşçü obrazının meşşan təbiətli olduğunu qeyd edir: "Bəxtiyarın təsvir etdiyi döyüşçü öz arvadı ilə ilə mərc qoşur, qadın üçün məziyyət mirvarini bilir, onunla on sap mirvaridən sınaq çəkir. Hətta təzə anadan olmuş qızının da bu münasibətilə adını Mirvari qoyur" [8]. Əslində şair müharibədən əvvəl və sonra bir sovet ailəsinin simasında sədaqəti, mehribanlığı, sevgini təsvir edir. Yarımçıq qalmış "apardım" oyunu, ərinin körpələrinə ad qoymaq arzusu müharibədən sonra tamamlanır. Ər müharibəyə getsə də bu oyun və körpəsinin adını ərinin qoymaq arzusu arvadın zehnində dolaşmış, unudulmamışdı. Əsgər cəbhəyə gedəndə ana bətnində olan körpəsi doğulsa da, o cəbhədən dönənə kimi körpəyə ad qoyulmamışdır. Ona yazılan məktubda qızının doğulması və ona ad qoymaq istəyi xatırlanıb yazılsa da məktubdan bir cavab gəlməmişdir.
Budur, artıq əsgər öz evində, ailəsi ilə birgə, körpə qızı da qucağında. Gəlin əri cəbhəyə gedərkən geridə buraxdıqlarını "on düzüm mirvaridən apardım" oyunlarını, yarımçıq qalmış körpəsinə ad qoymaq istəyini ona xatırladır. Ər-arvad sevinclə yarımçıq qalmış istəklərini tamam edirlər.
Mirvari qadın bəzəyi, qiymətli, saf düzüm olduğundan yeni doğulan körpəyə də Mirvari adının qoyulması bu anlamda rəmzi bir məna daşıyır. Yəni, bizim Mirvarimiz adi bir sapa düzülmüş Mirvari yox körpəmizdir. Ər "apardım" deməklə bunu söyləmək istəmiş və qızına Mirvari adını qoymuşdur. Bununla müəllif maraqlı sujet quraraq keçmişlə bu gün arasında əlaqə yaradır.
"Xatirələr"də ömrünün alovlu gənclik illərini müharibə səngərlərində, ölüm-dirim savaşında keçirən bir həyat yada salınır. Xatirələrdə dolaşan bir ömürün itirilmiş gənclik illəri cəbhələrdə axtarılır:

Ömrün tacı gəncliyimi cəbhələrdə mən qoymuşam...
İndi isə o günlərə qanad açan quşam-quşam
İllər qovur ömür qaçır, qocalanda mən bir zaman.
O sevdalı gəncliyimi gəzəcəyəm cəbhələrdə,
Çünki mənim dəli könülm qalmış indi o yerlərdə.
Mənimlə bir nəfəs alır yenə həmin xatirələr
Yenə toplar guruldayır qulağımda axşam-səhər.

"Sovet həkimi" şeirində sovet həkiminin bitkin ümumiləşdirilmiş obrazını yaradır. Onun səngərlərdə, od-alovun içində öz andına, seçdiyi peşəyə məhəbbətini, sədaqətini döyüş meydanlarında yaralanmış, can verən, əsgərlərə şəfqət göstərməsilə canlandırır. Şair şeirdə belə bir maraqlı təzad yaradır. Vaxtilə sadə insanların fiziki sağlamlığı keşiyində duran sovet həkimi indi dəhşətli, müharibə od-alovunun içində vaxtsız ölümlərə aman verməyərək vətən uğrunda savaşda əsgərlərə, yaralılara tibbi yardım edir, şəfqət göstərir. Onun şəfalı əlləri sayəsində neçə-neçə döyüşçü sağalıb yenidən cəbhəyə dönür.
Fürrerin – Şikəst soldatları məhv etməlidir. Çünki faydasızdır onlar dövlətə verdiyi əmri nifrətlə qarşılayır:

Ağır dərdlərə
Dərman axtaranda biz burda hər gün
Amerikan həkimi "çarə" axtarır.
İnsanı daha çox məhv etmək üçün.

"Dörd yüz on altı" poema janrında yazılıb, geniş həcmə malikdir. "Dörd yüz on altı" diviziyanın adını daşıyır. Əsərdə diviziyanın döyüş yollarından ayri-ayrı epizodlar canlanır.
"Dörd yüz on altı" ədibin müharibə mövzusunda yazdığı əsərlərin sırasında janrına görə fərqli olmaqla yanaşı, həcmcə geniş və əhatəlidir. Şair müharibədə həlak olmuş böyük qardaşı İsfəndiyarı da II fəsilin "Əsgər kimi" bölümündə vətən aşiqi kimi xatırlayır. Oğluna onun adını vermiş, onun kimi böyüməyi, minlərlə vətən uğrunda şəhid olanların ölmədiyini, yeni dünyaya gələnlərin adında,

xislətində yaşadığını vurğulayır. Gəncləri vətəni qorumağa, onun keşiyində durmağa səsləyir. Bütün bunları qardaşı İsfəndiyarın adını daşıyan oğlunun simasında ümumiləşdirir.

Qardaşımın əvəzisən!
Yox demə ki, unuduldu.
Axı, sənin gəlişinlə dünyamıza
O, təzədən gəldi bala!
Budur, indi lap çatırsan
Məndən böyük qardaşım.
Yaşına sən
Əmin kimi vurul, oğlum,
Torpağına, daşına sən!

Vətən, yurd sevgisi, azadlıq eşqi bu mövzudakı əsərlərin əsas ideyasıdır. Lakin nədənsə şairin Böyük vətən müharibəsinə həsr etdiyi əsərləri nə o dövrün ədəbi tənqidi nə də bu günki tədqiqatçıları tərəfindən geniş tədqiqə çəkilməmişdir. Şairin yaradıcılığı daha çox geniş şəkildə "İnsan və zaman" mövzusunda tədqiq edilmişdir.
Yuxarıda bəhs etdiyimiz əsərlərdə Bəxtiyar Vahabzadə nə müharibədə əsgərin qəhrəmanlıq göstərməsini, vətən uğrunda düşmən üzərinə hücuma keçməsini, döyüşdən döyüşə atılmasını, nə də guruldayan topları, plemyotları, döyüş səhnələrini və s. təsvir etmişdir. Bütün bunları, müharibənin dəhşətlərini, onun ağrısını, acısını özü ilə gətirdiyi fəlakətləri insan taleyində, hisslərdə, duyğularda, xatirələrdə görürük. Bu əsərlərdə həm müharibədə döyüşən, şəhid olmuş sovet əsgərinin, həm də sovet insanının müharibədən sonra ürəyinin səsini hiss edirik.

Ədəbiyyat

1. Bəxtiyar Vahabzadə. Əsərləri. On iki cilddə, I cild. Bakı, Elm, 2009, 328 s.
2. Bəxtiyar Vahabzadə. Əsərləri. On iki cilddə, IX cild. Bakı, Elm, 2009, 828 s.
3. Bəxtiyar Vahabzadə. Əsərləri. ADN. 1961, 274 s.
4. Bəxtiyar Vahabzadə. Dostluq nəğməsi. AU və GƏ nəşriyyatı, 1955, 64 s.
5. Mənim dostlarım. Bakı, Azərbaycan milli kitabxana. 2025, 148 s.
6. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. Birinci cild, 1944-1965. Bakı, Yazıçı, 1983, 429 s.
7. Müasir Azərbaycan ədəbiyyatı. Ali məktəblər üçün dərslik / İki cilddə. II cild, Bakı, Bakı Universiteti nəşriyyatı. 2007, 564 s.
8. M.Rahim. Bəxtiyar Vahabzadənin şeirləri. İnqilab və mədəniyyət. 1952, №7
9. Ədəbiyyat qəzeti. 1943. 25 may.

BAKHTIYAR'S LIFE IN AZERBAIJANI LITERATURE

AZƏRBAYCAN ƏDƏBİYYATINDA BƏXTİYAR ÖMRÜ

F.ü.f.d. Püstə Əhmədova
Naxçıvan Dövlət Universiteti
ORCİD İD: 0009-0005-7857-4359

Abstract
Bakhtiyar Vahabzadeh is not only one of the powerful figures of literature and poetry, but also a great artist who dedicated his life to this field. He holds a great place in Azerbaijani literature not only with his works, but also with his worldview, aesthetic values, and socio-political views related to literature. In this research article, we will examine and analyze the importance of Bakhtiyar Vahabzadeh's life and work, his relationship with literature, and how literature was a tool in his life. Bakhtiyar Vahabzadeh did not approach literature only as an art form, but also tried to express the feelings, desires, and struggles of the people through it. The content of his works often consisted of issues related to the struggle of the people, truth and justice, human inner suffering, and social issues. Bakhtiyar Vahabzadeh's lifelong devotion to literature can be considered the meaning of his life. He never carried out his creative activity with a purely personal goal, but with the aim of serving his people and representing their feelings on a broader level. Bakhtiyar Vahabzadeh was a poet who was sensitive to the social, political and cultural events of his time. His poetry, especially his works that highlight social and political problems, are numerous. The strong social messages in his poems, reflecting the pain and suffering experienced by the people, create an effect that, on the one hand, opposes social injustice, and on the other hand, defends the culture and spiritual values of his people.
Keywords: Azerbaijani literature, Bakhtiyar Vahabzadeh, idea, unity, creativity, poetry

Xülasə
Bəxtiyar Vahabzadə ədəbiyyatın və poeziyanın qüdrətli simalarından biri olmaqla yanaşı, həm də həyatını bu sahəyə həsr etmiş bir böyük sənətkardır. O, yalnız özünün yaratdığı əsərləri ilə deyil, həm də ədəbiyyatla bağlı dünya görüşü, estetik dəyərləri və sosial-siyasi baxışları ilə Azərbaycan ədəbiyyatında böyük yerdə dayanır.
Bu tədqiqat məqaləsində Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığının əhəmiyyəti, ədəbiyyatla olan əlaqəsi və ədəbiyyatın onun həyatında necə bir vasitə olduğunu araşdıracaq, təhlil edəcəyik. Bəxtiyar Vahabzadə ədəbiyyata yalnız bir sənət sahəsi kimi yanaşmamış, həm də onun vasitəsilə xalqın duyğularını, istəklərini və mübarizələrini ifadə etməyə çalışmışdır. Onun əsərlərindəki məzmun çox vaxt xalqın mübarizəsi, haqq və ədalət, insanın daxili iztirabları və sosial məsələlərlə əlaqəli məsələlərdən ibarət olmuşdur. Bəxtiyar Vahabzadənin ömrü boyunca ədəbiyyata olan sadiqliyi onun həyatının mənası kimi qəbul edilə bilər. O, heç bir zaman öz yaradıcı fəaliyyətini sırf şəxsi bir məqsəd güdməklə yox, xalqına xidmət etmək, onların hisslərini daha geniş bir səviyyədə təmsil etmək məqsədilə həyata keçirmişdir. Bəxtiyar Vahabzadə öz dövrünün sosial, siyasi və mədəni hadisələrinə həssaslıqla yanaşan şair idi. Onun poeziyasının, xüsusən də sosial və siyasi problemləri qabardığı əsərlərinin sayı çoxdur. Onun şeirlərində xalqın yaşadığı ağrıları və əzabları əks etdirən güclü sosial mesajlar, bir tərəfdən sosial ədalətsizliyə qarşı çıxan, digər tərəfdən də öz xalqının mədəniyyətini və mənəvi dəyərlərini müdafiə edən bir təsir yaradır.
Açar sözlər: Azərbaycan ədəbiyyatı, Bəxtiyar Vahabzadə, ideya, vəhdət, yaradıcılıq, poeziya

THE IDEAS OF TURKISM IN THE WORKS BY BAKHTIYAR VAHABZADE

BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA TÜRKÇÜLÜK İDEYALARI

Hüseynli Nərmin Elçin qızı
Bakı Dövlət Universiteti İngilis dili kafedrası (Təbiət elmləri)
orcid.org/0009-0002-2522-0504

Abstract
This article deals with the Turkism, the love of motherland and the cry for freedom in Bakhtiyar Vahabzadeh's poetry and creative activity. The common theme in the poem of"Gulustan", "I am a Turk", "Azerbaijan-Turkey" poems by the people's poet is the love of motherland, the concept of "We are Azerbaijani Turks". The theme Turkism used in the article is united with the theme of love of motherland and sense of citizenship, which are the most frequently touched upon themes in the poems by our great poet. B. Vahabzadeh was a poet of truth even during the Soviet Empire and he was known as a fighter for the freedom of the Azerbaijani people from Russian-Persian invasion. Our outstanding poet's struggle throughout his life was to convey our lineage, our national identity, that we are Azerbaijani Turks, the integrity of our motherland, and our fight for independence.
Keywords: Motherland, Bakhtiyar Vahabzadeh, Turkism, freedom, Azerbaijani literature.

Резюме
В этой статье рассматриваются тюркизм, любовь к родине и призыв к свободе в поэзии и творчестве Бахтияра Вагабзаде. Общей темой стихотворений народного поэта «Гюлистан», «Я турок» и «Азербайджан-Турция» является любовь к родине, концепция «Мы – азербайджанские тюрки». Тема тюркизма, использованная в статье, объединена с темой любви к родине и чувства гражданственности, которые являются наиболее часто затрагиваемыми темами в стихотворениях нашего великого поэта. Б. Вагабзаде был поэтом правды даже в советские времена и был известен как борец за освобождение азербайджанского народа от русско-персидского рабства. Борьба нашего выдающегося поэта на протяжении всей его жизни заключалась в том, чтобы донести наше происхождение, национальную идентичность, наших азербайджанских тюрков, целостность нашей родины, нашу независимость и наш истинный голос.
Ключевые слова: Родина, Бахтияр Вагабзаде, тюркизм, свобода, азербайджанская литература.

Xülasə
Bu məqalədə Bəxtiyar Vahabzadənin poeziyasında, yaradıcılığında türkçülük, vətən sevgisi, azadlıq hayqırışından bəhs edilir. Xalq şairinin "Gülüstan " poemasında, "Mən Türkəm", "Azərbaycan – Türkiyə" adlı şeirlərindəki ortaq mövzu vətən sevgisi, "Azərbaycan türkləriyik" anlayışıdır. Məqalədə istifadə olunmuş Türkçülük mövzusu dahi şairimizin şeirlərində ən çox toxunulan mövzu olan vətən sevgisi və vətəndaşlıq hissi ilə vəhdət təşkil edir. B. Vahabzadə Sovet imperiyası dövründə belə haqq şairi olmuş, rus-fars əsarətindən Azərbaycan xalqının azadlığı uğrunda mübariz kimi tanınmışdır. Görkəmli şairimizin həyatı boyu mübarizəsi soy- kökümüz, milli kimliyimiz, Azərbaycan türkləri olduğumuzu, vətənimizin bütövlüyü, müstəqilliyimiz, haqq səsimizi çatdırmaq olmuşdur.
Açar sözlər:Vətən, Bəxtiyar Vahabzadə, Türkçülük, azadlıq, Azərbaycan ədəbiyyatı

Xalq şairi, dramaturq, publisist, pedaqoq Bəxtiyar Vahabzadənin yaradıcılıq palitrası çox zəngin eyni zamanda rəngarəngdir. "İstiqlal mücahidi" olan Vahabzadə yaradıcılığı ilə Azərbaycan ədəbiyyatına böyük və əvəzsiz töhələr vermiş və Azərbaycan ədəbiyyatının əsaslı şəkildə inkişafına yardım etmişdir. Çağdaş milli şeirimizin canlı klassiki adlandırılan mahir söz ustadının yaradıcılığı Azərbaycan şeirinin son yarım əsirlik tarixi təkamül prosesində əvəzsiz rol oynamışdır [1, s.5].
Bəxtiyar Vahabzadə- bu ad Azərbaycan ədəbiyyatında öz uca yerini tutduğu kimi, eyni zamanda Türk dünyasının da Çinarı adlandırılır [2]. Ədibin Türk dünyasının Çinarı adlandırılmasının səbəbi də elə məhz onun Türk Dünyasının birliyi ideyaları uğrunda mübarizəsi olmuştur desək yanılmarıq.
Qəlbi Türk dünyası ilə döyünən dahi şairimiz Bəxtiyar Vahabzadə Azərbaycanın tarixini, dərin mədəniyyət incilərini özündə cəmləyən və eyni zamanda füsünkar təbiəti ilə göz oxşayan Şəkidə dünyaya gəlmişdir.
Vahabzadə yaradıcılığına nəzər yetirdiyimiz zaman təbii ki, vətən, millət, eləcə də azadlıq həsrəti onun yardıcılığının əsas qayəsi, əsas mövzusu olmuşdur və öz xalqının sevimli şairi bu mövzulara son dərəcə həssaslıqla yanaşaraq əsərlərində çox dərin poetik dillə təsvir yaratmışdır. Xalq şairini gəncliyində xalqa tanıdan həmçinin çox sevdirən "Gülüstan" poeması olmuşdur. Bəxtiyar Vahabzadə 60-cı illərdən başlayan milli azadlıq hərəkatının öndə gedən liderlərindən biri idi. Azərbaycan xalqının ayrılmaq, ikiyə bölünmək məcburiyyətində qalması faciəsi ilə heç vaxt barışmayan və ürəyində ağır bir nisgil kimi bu yükü daşıyan şair 1959-cu ildə qələmə aldığı və ilk dəfə Şəkinin " İpəkçi" qəzetində çap olunduğu "Gülüstan" poeması [3] ilə iki yerə parçalanmış Azərbaycanın tarixi faciəsini dilə gətirmiş, rus və fars imperiyasının pəncəsi altında inləyən Azərbaycan xalqının azadlıq və istiqlal uğrundakı ədalətli mübarizəsinə qoşulmuşdur. "Gülüstan" poemasını oxuduğumuz zaman burda da müstəqillik ideyaları ilə yanaşı, milli azadlıq ruhunu da görmək mümkündür. 52 bənddən ibarət olan "Gülüstan" poeması vahid sujet xəttinə malik deyil. "Gülüstan" poemasını yazmaqla şair öz qəlbindəki nifrəti və qəzəbini poetik dillə ifadə edir. Bu nifrət və qəzəbin səbəbi isə Azərbaycanın taleyini həll edən rus və fars işğalçılarının ədalətsiz qərarı ilə bağlı idi. 1804-cü ildən başlayaraq Rusiya Azərbaycan xanlıqları arasında münaqişədən istifadə edərək, "parçala və hökm sür" ideyasını əlində rəhbər tutaraq xanlıqların bir-bir işğalına başlayır. 1813– cü ildə Gülüstan kəndində Rusiya və İran arasında Azərbaycanın ikiyə bölünməsi ilə nəticələnən "sülh" müqaviləsi imzalanır. Əslində bu "sülh" müqaviləsi sülhə xidmət etmirdi, bu müqavilə Türk dünyasının qüdrətindən həmişə qorxuya düşən rus və fars imperialislərinin, işğalçılarının qardaşı qardaşdan ayıran, bir millətin qüdrətini, gücünü zəiflətmək üçün ikiyə bölüb parçalayan, torpaqlarını istila edərək öz üsulu-idarəsini yaradan amansız bir işğalçılıq fərmanı, hökmü idi. Bu ədalətsiz tarixi hadisə vətən sevdalısı Vahabzadənin qəlbinə çox toxunduğu üçün onun qələmindən də yan keçmir. Şair qəlbindəki bu böyük acını, niskili aşağıdakı misralarla ifadə edir:

Kağıza həvəslə o da qol atdı,
Dodağı altından gülümsəyərək.
Bir qələm əsrlik hicran yaratdı,
Bir xalqı yarıya böldü qılınc tək.

Söz sənətkarının qeyd etdiyi kimi bu müqaviləni imzalayanlar dodaqlarının altında gülümsəyərək kağıza həvəslə imza atmışdırlar. Böyük Türk dünyasının bir qolunu parçalayıb ikiyə bölən rus-fars birliyi bu torpaqda yaşayan Azərbaycan Türklərinin talehini həll etmək "hüququnu" öz müdhiş imzaları ilə də "qazanmışdılar".

Öz sivri ucuyla bu lələk qələm
Dəldi sinəsini Azərbaycanın.
Başını qaldırdı,
Ancaq dəmbədəm

Kəsdilər səsini Azərbaycanın.

Ədib haqlı olaraq adi əşya kimi görünən o lələk qələmin sivri ucuyla Azərbaycan xalqının qəlbinin parçalanması, dərin tarixə malik, qüdrətli və şərəfli həyat yolu olan bir millətin zorla ikiyə bölünərək kiçildilməsinə cəhd edilməsi və işğal edən rus-fars ittifaqının illərlə bu yolda çalışmalarını və "azadlıq" deyərək öz haqqları uğrunda mübarizəyə qalxan Azərbaycan Türklərinin amansızlıqla susdurulmasını qeyd edir.

O güldü kağıza qol çəkən zaman,
Qıydı ürəklərin hicran səsinə.
O güldü haqq üçün daim çarpışan
Bir xalqın tarixi faciəsinə.

Dahi şairimiz ürək yanğısıyla bu misralarda bir qələmin böyük mökmünü ifadə edir. Bir imzanın əsrlik hicran yaratmağından, qələmin xalqımızı qılınc tək bölməsini vurğulayır. Bu misralar içərisində ən təsirlisi qələmin sivri ucunun qılıncdan da kəskin yandırıcı acı verərək vətənimizi ikiyə bölməsini, parçalamasını şairin dərin ağrı ilə "dəldi sinəsini Azərbaycanın" deməsidir. Həmçinin bu ədalətsiz qərarla Azərbaycanın haqq səsinin kəsildiyini, azadlıq carçılarının qan gölündə boğulduğunu, güllələndiyini bildirir.

Əyləşib kənarda topsaqqal ağa,
Hərdən mütərcimə suallar verir.
Çevrilir gah sola, baxır gah sağa,
Başını yellədib təsbeh çevirir.

Bu bənddə xalq şairi Azərbaycan xalqının talehinin həll olunmasını laqeydliklə, əlində təsbeh oynada-oynada, sağına, soluna baxa-baxa, ara-sıra tərcüməçiyə suallar verməklə həll edən topsaqqal fars ağanın timsalında xalqımıza qarşı işğalçılıq siyasəti yürüdən rus və fars qəsbkarlarını təsvir edir. Bu misralarla B. Vahabzadə Azərbaycan xalqının iki yerə parçalanmasını, bölünməsini amansızlıqla həyata keçirənlərin bir tərəfdə ruslar, digər tərəfdə də farslar olduğunu, bir Türk xalqının talehinə işğalçılıq siyasəti ilə yanaşdığını ürək ağrısı, can yanğısı ilə qələmə alır.
Çar Rusiyasının və fars rejiminin iç üzünü açan, milləti oyanışa, azadlıq uğrunda mübarizəyə səsləyən "Gülüstan" poemasına görə azadlıq carçısı olan xalq şairi 1962-ci ildə tənqidlərə məruz qalmış, ona "millətçi" damğası vurulmuşdur. Şairi bu poemaya görə Azərbaycan Dövlət Universitetindən çıxardılır, ancaq 2 ildən sonra ədib təkrar işə qayıdır. 1958-ci ildə qələmə aldığı bu poemanı Bəxtiyar Vahabzadə Azərbaycanın birliyi, bütövlüyü və istiqlalı uğrunda çalışan, çarpışan Səttar xan, Şeyx Məhəmməd Xiyabani və Seyid Cəfər Pişəvərinin əziz xatirəsinə ithaf etmişdir. Bu poema Sovet İmperiyası dövründə yazılmışdır, Azərbaycanın da imperiyanın tərkibində olmağına bir hayqırış idi. Şair bu poemayla Azərbaycanın tarixi faciəsini dilə gətirmişdir. Gülüstan poeması rus və fars imperiyasının əsarəti altında inləyən Azərbaycan xalqı üçün bir ədalət səsidir sanki.

Bəxtiyar Vahabzadə SSRİ dövründə azadlıq, türkçülük fikirlərini qorxusuz ifadə etdiyinə görə cəsarətli mütəfəkir kimi qiymətləndirilirdi. O, Əhməd Cavad, həmçinin Hüseyn Cavid kimi dahilərin davamçısı olaraq türkçülüyü yaradıcılığında ideya olaraq yaşadan böyük ədibdir. Eyni zamanda kökümüzü danmamalıyıq deyirdi böyük ustad. Azəri deyilik biz. Bu kəlmənin Azərbaycan Türkləri ilə heç bir əlaqəsi olmadığını dəfələrlə öz çıxışlarında vurğulayırdı. Azəri kəliməsinə hiddətlənən, qəzəblənən şair şeirlərində də türk olduğumuzu bəzən sərt ismarıc kimi bildirir. Vahabzadənin 1995-ci ilin noyabrında qələmə aldığı "Mən Türkəm" şerində biz bu hayqırığı açıq-aşkar görürük.

Əslimi, nəslimi tanıyıram mən,
Qarışıq deyiləm, özümdən hürkəm.
Sən kimsən, sən nəsən, özün bilərsən,
Mən ilk qaynağımdan türk oğlu türkəm!
Sübutdur, dəlildir, ağlın qibləsi,
Dəyişə bilərsən ağlımı ancaq.
Canım çıxanadək qəlbimin səsi,
"Türkəm"-gerçəyini pıçıldayacaq.

Qəlbi daim Turan sevdasıyla döyünən şairimiz əbəs yerə "Mən Türkəm" şeirinin son bəndinin son misralarında "Canım çıxanadək qəlbimin səsi "Türkəm" – gerçəyini pıçıldayacaq" demirdi. Şair həqiqəti təhrif edənlərə qəzəblənir, xalqının tarixini dəfələrlə dəyişənlərə, "gah Midiyalı oluruq, gah Ərəb oluruq, gah Farsın tör-töküntüsü oluruq" deyənlərə "xalqımızın adı var" deyərək üsyan edərək "xalqımız Türk xalqıdır, Azərbaycan türküyük" kimi fikirlərini çıxışlarında səsləndirərdi.

B. Vahabzadə yaradıcılığında türkçülük ideyarına nəzər yetirdiyimiz zaman 20–ci əsrin sonunda Sovet imperiyasının dağılması ərəfəsində olduğu bir dövrdə şairin "Azərbaycan- Türkiyə" adlı şeiri diqqəti cəlb edir. 1991-ci ildə qələmə alınan bu şeirin məzmunu yenə də oxuculara ictimai-siyasi bir mesaj verirdi. Şair "türklər birdir, bütövdür və parçalanmazdır" deyə bildirmək istəyir. Bu şeir Türk dövlətlərinə daxil olan iki qardaş xalq- Azərbaycan və Türkiyə arasındakı tarixi, mədəni, eyni zamanda mənəvi bağları tərənnüm edir. "Azərbaycan – Türkiyə" şeiri Türk dünyasında qardaşlıq duyğularının təcəssümü, rəmzi kimi çox geniş yayılmışdır:

Bir millətik, iki dövlət
Eyni arzu, eyni niyyət
Hər ikisi Cümhuriyyət
Azərbaycan-Türkiyə.

Bir ananın iki oğlu
Bir ağacın iki qolu
O da ulu, bu da ulu
Azərbaycan-Türkiyə.

Xalq şairimiz iki ayrı dövlət olduğumuzu, lakin tək millət olduğumuzu bir ananın iki oğlu kimi vurğulayır. Bəli, istər bir ananın iki oğlu, istərsə bir ağacın iki qolu fikri ilə dahi şairimiz bizim soyumuzun, kökümüzün bir olduğunu, qardaş olduğumuzu bir daha poetik ustalıqla vurğulayır:
Birdir bizim hər halımız
Diləyimiz, amalımız
Bayraqlarda hilalımız
Azərbaycan-Türkiyə.

Dinimiz bir, dilimiz bir
Ayımız bir, ilimiz bir
Eşqimiz bir, yolumuz bir
Azərbaycan-Türkiyə.

"Azərbaycan – Türkiyə" şeirinin son bəndlərinə nəzər yetirdiyimiz zaman B. Vahabzadənin iki qardaş ölkələrin – Azərbaycan və Türkiyənin təkcə köklərinin bir olmasını deyil, həmçinin bu iki qardaşın arzusunun, amalının hətta bayraqlarda aylarının bir olmasını da bildirir. "Dinimiz və dilimiz bir" deyərək, hər iki qardaş ölkənin dini inancları, dəyərlərinin də eyni olmasını şair

diqqətdən kənar qoymur. Yolunumuz da Turan yolu, haqq yolu olduğunu müasir Azərbaycan poeziyasında milli istiqlal və azadlıq ideyalarını yenidən bərpa edən tanınmış xalq şairimiz bir daha vurğulayır.

İstifadə Olunmuş Ədəbiyyat:

1. Türk dünyasının böyük söz ustadı. https://clb.az/files/mv/Baxtiyar_Vahabzade.pdf
2. Türk dünyasının böyük şairi-Bəxtiyar Vahabzadə. http://anl.az/down/meqale/yeni_az/yeni_az_fevral2009/70061.htm
3. Gülüstan. https://az.wikipedia.org/wiki/G%C3%BCl%C3%BCstan
4. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, "Öndər nəşriyyat", 2004. file:///C:/Users/Mehi/Desktop/B%C9%99xtiyar%20Vahabzad%C9%99/I%20cild.pdf
5. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. II cild.Bakı, "Öndər nəşriyyat", 2004. file:///C:/Users/Mehi/Desktop/B%C9%99xtiyar%20Vahabzad%C9%99/II%20cild.pdf

IN THE BREATH OF WORDS: THE PASSİON FOR LİFE İN BAKHTİYAR VAHABZADEH'S POETRY

SÖZÜN NƏFƏSİNDƏ HƏYAT: BƏXTİYAR VAHABZADƏ POEZİYASINDA YAŞAMAQ EŞQİ

b/m.Bəkirova Rasimə Şamil qızı
ADPU-nun Şəki filialı

Abstract
Bakhtiyar Vahabzadeh – a revered master of Azerbaijani poetry – carved his name into the literary memory of his nation, breathing the spirit, pride, sorrow, joy, and the undying passion for life into every line he wrote. For Vahabzadeh, life was not merely a biological existence, but a burning of the soul, a battle of the heart, a struggle for being, and a journey toward moral perfection. “Life in the Breath of Words” – this phrase best captures the essence of his poetic world. Each of his verses breathes the fire of living, each stanza radiates the yearning to exist, and each line glimmers with the light of hope.
This article explores the multifaceted expression of the will to live. The study reveals how the poet’s love for life morphs into patriotism, breathes in unison with the mother tongue, and transforms into a symbol of spiritual growth. Though his poetic mindset is rooted in the depths of classical Eastern literature, it reaches a universal scale, capable of speaking to the modern world. Vahabzadeh does not merely move the reader emotionally-he challenges them intellectually, calling for self-reflection and spiritual awakening.
Vahabzadeh’s poetry is a lyrical portrait of the passion for life, a voice of inner freedom, and a soulful testimony captured in words. Through carefully selected poetic examples, this article demonstrates that in the poet’s artistic imagination, to live is not simply to breathe-it is to leave a moral legacy, to be etched into the memory of a people and of time. His poetic imagery, lexical-semantic precision, and structural mastery evoke both emotional resonance and intellectual depth in the reader. The literary analysis presented confirms that his passion for life is a reflection of a spiritual quest, linking his work to the noble traditions of classical humanism. His poetry teaches us how to live-to love, to struggle, to believe, and above all, never to give up hope.
Key words: Bakhtiyar Vahabzadeh, poetry, love of life, living, poem, homeland, artistic imagery, national spirit, spirituality, Azerbaijani identity, classical tradition, poetic thinking, humanism.

Xülasə
Bəxtiyar Vahabzadə – Azərbaycan poeziyasının yaddaşında iz qoymuş, misralarında xalqın ruhunu, qürurunu, dərdini, sevinci və yaşam eşqini yaşadan müdrik bir sənətkar. Onun poeziyasında həyat sadəcə biologiyanın davamı deyil, ruhun yanğısı, qəlbin savaşı, insanın varlıqla mübarizəsi və mənəvi kamillik yoludur. “Sözün nəfəsində həyat” – bu ifadə Vahabzadənin şeir dünyasına verilən ən ədalətli qiymətdir. Çünki onun hər misrası həyat eşqi ilə nəfəs alır, hər bəndində bir yaşamaq arzusu, hər misrasında bir ümid işığı yanır.
Bu məqalədə Bəxtiyar Vahabzadənin poeziyasında həyat eşqinin müxtəlif çalarları təhlil olunur. Şairin “Yaşamaq istəyirəm”, “Ömür”, “Zaman”, “Mən burdayam, ilahi”, “İki sevgi” kimi şeirlərində yaşamaq istəyi fiziki həyatla məhdudlaşmır. Onun üçün yaşamaq – xalq üçün yanmaq, vətən üçün savaşmaq, sözlə düşüncəni oyatmaq və gələcək nəsillərə iz qoymaqdır. Vahabzadə üçün insanın gerçək ömrü onun mənəviyyatı, şəxsiyyəti və ictimai mövqeyi ilə ölçülür.
Məqalədə göstərilir ki, şairin dilində həyat eşqi gah vətən sevgisinə çevrilir, gah ana dili ilə birgə nəfəs alır, gah da ruhun təkamülündə simvollaşır. Onun poetik düşüncə tərzi klassik Şərq poeziyasının dərinliklərindən qaynaqlansa da, çağdaş dünyanı da düşündürəcək dərəcədə universal və

zamanadəkdir. O, oxucunu yalnız hisslərlə deyil, həm də düşüncələrlə yaşamağa, sorğu-suala, mənəvi dirçəlişə səsləyir.
Bəxtiyar Vahabzadənin poeziyası həyat eşqinin poetik rəsmi, mənəvi azadlığın səsi və sözə çevrilmiş ruhun tərcüməsidir. Bu yazıda onun şeirlərindən seçilmiş nümunələr vasitəsilə göstərilir ki, şairin bədii düşüncəsində yaşamaq, yalnız nəfəs almaq deyil, mənəvi iz buraxmaq, xalqın və zamanın yaddaşında yaşamaqdır. Şairin bədii obrazları, leksik-semantik seçimi və poetik strukturu oxucuda həm emosional, həm də düşüncə yönümlü təsir yaradır. Ədəbi nümunələrin təhlili göstərir ki, onun poetik mətnlərində həyat eşqi ruhani bir axtarışın ifadəsidir və bu cəhət Vahabzadə yaradıcılığını klassik humanist ənənələrə bağlayır.Onun poeziyası oxucuya yaşamağı öyrədir – sevməyi, savaşmağı, inanmağı və heç zaman ümidini itirməməyi.
Açar sözlər: Bəxtiyar Vahabzadə, poeziya, həyat eşqi, yaşamaq, şeir, vətən, bədii təsvir, milli ruh, mənəviyyat, azərbaycançılıq, klassik ənənə, poetik düşüncə, humanizm.

Giriş

Ədəbiyyat tarixinin ən nəcib missiyası insan ruhuna işıq salmaq, onu yaşadan dəyərləri qoruyub gələcəyə ötürmək olmuşdur. Azərbaycan poeziyasında bu vəzifənin daşıyıcılarından biri də böyük söz ustadı Bəxtiyar Vahabzadədir. Onun poetik dünyası yalnız duyğuların deyil, düşüncənin də səltənətidir. “Sözün nəfəsində həyat” ifadəsi isə ölməz şairin poeziyasına verilə biləcək ən dəyərli metaforadır. Çünki onun misralarında söz təkcə fikir daşıyıcısı deyil, həm də həyatın özü, nəfəsi, varlığın ritmidir.
B.Vahabzadənin şeirləri oxucunu yalnız estetik zövqlə deyil, həm də mənəvi məsuliyyətlə qarşılaşdırır. Bu poeziyada həyat təkcə bioloji mövcudluq deyil, mənəvi dayaq, ideya savaşçılığı, milli ruhun ifadəsi və azadlıq eşqinin manifestidir. O, oxucusunu boş, mənasız həyat keçirməyə deyil, layiqincə yaşamağa, nəfəs almağa deyil, mənalı ömür sürməyə çağırır.
Bu məqalənin əsas məqsədi Bəxtiyar Vahabzadənin poeziyasında həyat eşqinin bədii ifadə vasitələrini araşdırmaq, yaşamaq anlayışının onun şeirlərində necə çoxqatlı məna daşıdığına nəzər salmaq və konkret poetik nümunələr əsasında bu düşüncə sistemini təhlil etməkdir. Xalq şairinin “Yaşamaq istəyirəm”, “Mən burdayam, ilahi!”, “Ömür”, “Zaman”, “İki sevgi” kimi poetik nümunələri təkcə fərdi hisslərin təzahürü deyil, eyni zamanda ictimai mövqe və fəlsəfi baxış bucağının ifadəsidir.
Beləliklə, vurğulamaq istəyirəm ki, Bəxtiyar Vahabzadə poeziyasında həyat eşqi yalnız duyğu məsələsi deyil, bütöv bir ideoloji və estetik mövqe kimi çıxış edir. Onun poetik dili vasitəsilə sözə nəfəs verən, ruhu oyadan və oxucunu mənəvi yüksəlişə səsləyən bu yaşam fəlsəfəsi, müasir dövrdə də aktuallığını qoruyur.
B.Vahabzadə üçün həyat eşqi təkcə fərdi duyğuların deyil, milli düşüncənin, mənəvi dirənişin və ideoloji mövqenin təcəssümüdür. Onun şeirlərində yaşamaq - bəzən vətən uğrunda yanmaq, bəzən sözlə düşüncəni oyatmaq, bəzən də keçiciliyə qarşı ruhani mübarizə aparmaq deməkdir.
Bəxtiyar Vahabzadə – milli ruhun, düşüncənin, azadlıq və həyat eşqinin poeziyada can tapmış obrazıdır. Onun yaradıcılığı sadəcə lirika deyil, ictimai fikir tribunası, vətən və insan sevgisinin fəlsəfi bədii təcəssümüdür. Vahabzadə poeziyasını fərqləndirən əsas cəhətlərdən biri də “sözün nəfəsində həyat”ın yaşamasıdır – yəni misraların təkcə ədəbi forma deyil, həm də ruhani enerji, milli yaddaş, mənəvi çağırış daşımasıdır.

Həyat Eşqi Və Poetik Fəlsəfə

Bəxtiyar Vahabzadə poeziyasında həyat eşqi yalnız bioloji varlığın davamı deyil, ruhun oyandığı, insanın mənəvi kamilliyə doğru irəlilədiyi dərin fəlsəfi anlayış kimi təqdim olunur. Onun şeirlərində yaşamaq - hiss etmək, sevmək, yaratmaq, vətən və xalq uğrunda mübarizə aparmaqdır. B.Vahabzadə üçün həyatın mənası təkcə nəfəs almaqda deyil, hər anı düşüncəyə, amal və ideala çevirməkdədir. Şairin poeziyasında yaşamaq eyni zamanda, mənəvi dayaq, ideya uğrunda mübarizə, şəxsiyyətin

bütövlüyü deməkdir. “Ömür” şeirində şairin həyat eşqi onun sadə bir arzusu kimi deyil, fəlsəfi bir çağırış kimi səslənir:

Yüz-yüz ömür belə azdır doğrusu
Bir ömrü insana az sayanlara
Haramdır bu hava, haramdır bu su
Əylənmək eşqilə yaşayanlara. (6, s.30)

Bu şeir Bəxtiyar Vahabzadənin poetik dünyasının fəlsəfi dərinliyini və həyat qarşısındakı mövqeyini açıq şəkildə ifadə edən parlaq nümunələrdəndir. Şeirin əsas ideyası həyatın dəyəri, məqsədi və yaşamağın fəlsəfi mənası üzərində qurulub. Dörd misradan ibarət olsa da, bu bənddə bütöv bir dünyagörüşü, insanlıq dərsi və fəlsəfi düşüncə sistemi əks olunmuşdur. Bəndin mərkəzi ideyası - insan ömrünün yalnız fiziki uzunluqla yox, mənəvi dəyəri ilə ölçülməsidir. B.Vahabzadə demək istəyir ki, yüz il yaşamaq belə mənasızdır əgər o ömür mənalı şəkildə yaşanmayıbsa. Bu şeir həyat və ömür barədə poetik-fəlsəfi düşüncə ilə yazılmış güclü bir çağırışdır. Şair insanı oyatmaq, silkələmək, “nə üçün yaşayıram?” sualını düşündürmək istəyir. Bu misralar Bəxtiyar Vahabzadənin poetik dili ilə fəlsəfi məsuliyyət arasında qurduğu körpünün klassik nümunəsidir. Şeirin digər bəndində deyilir:

Yaşamaq, yanmaqdır, yanasan gərək,
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmasa, yaşamır demək,
Onun da həyatı yanmağındadır. (6, s.30)

Bu bənd Bəxtiyar Vahabzadənin poeziyasında həyat fəlsəfəsinin ən təsirli bədii ifadələrindən biridir. Burada şair həyatın mənasını passiv yaşamaqda deyil, fəal mövqe tutmaqda, özünü mənəvi yandırmaqda - fədakarlıqda görür. Yaşamaq - yanmaqdır. Bu, şairin həyat fəlsəfəsinin əsasında duran mərkəzi ideyadır. Yəni insan yaşamaq üçün sadəcə var olmamalı, mübarizə aparmalı, özünü başqaları, vətən, xalq, ideya uğrunda “yandırmalıdır”. Passiv, məzmunsuz yaşamaq - əslində, yaşamaq deyil.

Ömrü az olsa da, qartal yenmədi
Dedi, səmalarda öz oylağım var.
Ömrün azlığından gileylənmədi
Ömrü insan kimi başa vuranlar. (6, s.30)

Şair bildirir ki, ömrün çoxluğu əsas deyil; əsas olan - ömrü şərəflə, məğrurluqla, insana yaraşacaq şəkildə yaşamaqdır. Qartal obrazı da bu ideyanı tamamlayan simvoldur: o, az ömür sürsə də, uca səmalarda yaşadığı üçün ruhən ucalığı təmsil edir. Qartal Azərbaycan poeziyasında çox zaman azadlığın, qüdrətin və ucalığın rəmzi kimi çıxış edir. Burada isə qartal həm də qısa, lakin mənalı həyatın simvoluna çevrilir.

“Bu dünya beş gündür”,- deyib hər yerdə
Sağ ikən qəbirdə uzanan da var.
Öz alın tərilə bircə ömürdə
Yüz insan ömrünü qazanan da var. (6, s.30)

Şairə görə, həyatın dəyəri onun uzunluğunda deyil, necə yaşanmasındadır. O, burada “boş yaşamaq” və “dolu, mənalı yaşamaq” anlayışlarını qarşılaşdırır. “Bu dünya beş gündür” - xalq arasında işlənən, dünyanın faniliyini ifadə edən bir deyimdir. Şair bu deyimi xatırladaraq bildirir ki, insanlar bu faniliyə

əsaslanaraq passiv yaşayır, heç nəyə can atmadan ruhən ölürlər. “Sağ ikən qəbirdə uzanan da var.” - bu misra simvolik və fəlsəfi yüklüdür. Fiziki baxımdan sağ olan, amma məqsədsiz, ruhsuz, ideyasız, fəaliyyətsiz yaşayan insanlar sanki artıq ölüdür. Bəndin ikinci hissəsində şair bir tərəfdə ömrünü boşuna sərf edənlər, digərində isə alın tərinin, zəhmətin, dəyərlərin hesabına bir ömrə yüz insanın işini sığdıranları qarşılaşdırır. Bu isə, insanın potensialından istifadə etməsinin, zəhmətsevərliyinin və mənalı yaşamasının bədii ifadəsidir.
“Yox, dünya gözəldir, yaşamaq şirin” misralı şeiri də Bəxtiyar Vahabzadənin poetik dünyagörüşünü əks etdirən parlaq nümunələrdəndir. Onun bu misralarında həyat sevgisi, estetik gözəllik duyğusu və nikbin fəlsəfi yanaşma ön plandadır.

Yox, dünya gözəldir, yaşamaq şirin.
Görmək istəmirəm əyri-üyrünü.
Səni dilləndirən eybəcərliyin.
İlkini görürsən, söylə, bəs sonu?
İşığa tərəfdir dünyanın yönü. (2, s.46)

Bu misralarda şair həyatın özünə məxsus gözəlliyini və yaşamağın şirinliyini vurğulayır. Şairə görə, dünya insana verilmiş gözəl bir nemətdir və bunu qiymətləndirmək gərəkdir. Şair burda həyatın çətinliklərini, eybəcərliklərini inkar etmir, amma onları mərkəzə almır. Estetik idealizmi önə çəkərək, daha çox gözəlliyə yönəlməyə çağırır. “İşığa tərəfdir dünyanın yönü” deyən şair üçün həyatın və dünyanın mahiyyəti qaranlığa deyil, işığa - yəni elmə, inkişafa, mənəviyyata doğrudur. Bu misra onun ümumilikdə nikbin və humanist poetikasını ifadə edir.
B.Vahabzadənin insan varlığına, həyata və taleyə münasibətini ifadə edən fəlsəfi yükə malik nümunələri içərisində “Yaşamaq eşqi” şeirinin öz çəkisi var:

Həyat necə gözəldir,
Həyat necə şirindir!
Ömür, mənim deyil ki,
Ömür diləklərindir... (7, s.367)

Qısa, lakin məzmun baxımından dərin olan bu bənd, onun poeziyasındakı həyat eşqini əks etdirir. Bu misralar sadə dillə qurulsa da, onların emosional yükü olduqca güclüdür. Təkcə “gözəl” yox, “necə gözəldir”, “necə şirindir” deyə təkrarla vurğulanan bu ifadə həyatın cazibəsini, insan üçün müqəddəsliyini göstərir. Həyat burada sadəcə bioloji varlıq deyil, duyulan, yaşanılan, sevgi ilə əhatələnən bir nemətdir. “Ömür, mənim deyil ki, ömür diləklərindir...”- deyən şairin fəlsəfi yanaşması daha qabarıqdır. Burada B.Vahabzadə insanın taleyə tam sahib olmadığını, ömrün fərdi istəkdən çox, ilahi və ya zamanın iradəsinə bağlı olduğunu bildirir. “Diləklər” burada həm insanın arzuları, həm də Allahın təqdirini simvolizə edə bilər. Şair beləliklə, insanın həyat eşqinə rəğmən, ömrün onun əlində olmadığını etiraf edir. Həmin şeirin digər bəndində isə şair deyir:

Ürəyimdən keçəni
Duya bilər kim mənim?
Yaşadıqca çoxalır,
Yaşamaq eşqim mənim! (7, s.367)

Bu poetik parça Bəxtiyar Vahabzadənin insan ruhunun dərin qatlarına enən, yaşamaq hissini fəlsəfi və emosional baxımdan ifadə edən bənzərsiz nümunələrindən biridir. Burada şair insanın daxili aləminin mürəkkəbliyinə və başqasına tam açılmasının çətinliyinə toxunur. “Duya bilər kim mənim?”

sualında həm bir iztirab, həm də məğrur bir təklik hiss olunur. Şair demək istəyir ki, insanın içindəki duyğular - xüsusilə də yaşamaq eşqi - çox zaman görünməz, anlaşılamaz qalır.
"Yaşadıqca çoxalır, yaşamaq eşqim mənim!"- deyən şair həyat sevgisinin zamanla azalmadığını, əksinə, yaşandıqca gücləndiyini vurğulayır. "Çoxalır" feli ilə həyat eşqinin dinamik, artan və bitməz təbiəti poetik dillə ifadə olunur. Burada həm də yaşa dolduqca dünyanın dəyərini daha dərindən dərk edən bir insanın səmimi hissi ifadə olunur.
Bəxtiyar Vahabzadənin poetik təfəkküründə həyat fəlsəfəsi və estetik baxış kimi mühüm motivləri özündə ehtiva edən bu mövzuda yazdığı ən gözəl örnəklərindən biri də "Yaşamaq istəyirəm" şeiridir:

Bir rəngi yox, göylərin min rəngini sevirəm,
Bir gülü yox, güllərin çələngini sevirəm.
Mən çıxmağa təpə yox, uca dağ istəyirəm,
Həyatı həyat kimi yaşamaq istəyirəm! (3, s.297)

Şair burada insanın mükəmmələ, bütövlüyə və mənalı həyata olan arzularını poetik dildə ifadə edir. "Bir rəngi yox, göylərin min rəngini sevirəm" misrasında rəng motivi təkcə vizual element deyil, həyatdakı müxtəliflik, zənginlik və azadlıq sevgisinin simvoludur. Burada "min rəng" ifadəsi həyatın bütün çalarlarını - sevincini, kədərini, həyəcanını qəbul etməyi bildirir. "Bir gülü yox, güllərin çələngini sevirəm" misrasında şair tək bir gözəlliklə kifayətlənmir, bütöv və çoxşaxəli gözəlliyə can atır. Burada həm təbiətin vəsf olunması, həm də insanın ideala can atması ideyası var. "Mən çıxmağa təpə yox, uca dağ istəyirəm" - bu misra ambisiya və iradə gücünü simvolizə edir. Təpə ilə dağ arasında fərq çəkilməklə, adi həyat yox, zirvələrə yönəlmiş dolğun bir ömür istəyi vurğulanır. "Həyatı həyat kimi yaşamaq istəyirəm" - bu yekun misra şairin varlığın mənasına fəlsəfi baxışını ifadə edir. Burada formal fiziki bir mövcudluq deyil, daxili dolğunluqla yaşanmış mənalı bir həyat məqsəd kimi göstərilir.
Şeirin digər hissələrində şairin həyat fəlsəfəsinin və poetik dünyagörüşünün bariz ifadəsini görürük. Şair burada passiv, sakit və təkrarlanan bir ömür tərzini rədd edir, əvəzində mübariz, mənalı və zirvələrə yönəlmiş bir həyat arzusunu poetik şəkildə ifadə edir:

Yaşamaq istəmirəm sürünüb dizin-dizin,
İstəyirəm ən uca zirvələrə mən qonam.
Xəfif sakitliyini neyləyirəm dənizin,
Onun qasırğasına, dalğasına vurğunam !
Qoy döysün yağış məni,
boran məni,
qar məni,
Həyatın boranları daim yaşadar məni. (3, s.297)

Bu misralarda passiv və məhdud bir həyat (dizin-dizin sürünmək) rədd edilir. Şair "zirvə" obrazı ilə həm fiziki yüksəlişi, həm də mənəvi ucalığı simvollaşdırır. Bu, onun ideallar uğrunda mübarizə aparan insan obrazıdır. Eyni zamanda buradakı dəniz obrazı həyatın özü kimi təqdim olunur. Şair həyatın təhlükəsiz, monoton tərəfini deyil, onun çətinliklərini, çağırışlarını (qasırğa, dalğa) sevən, riskləri və sarsıntıları mənalı həyatın tərkib hissəsi sayan obraz yaradır. "Qoy döysün yağış məni, boran məni, qar məni" - deyən şair təbiət hadisələri ilə həyatın çətinliklərini, sınaqlarını simvolizə edir. Bu obrazlarla o, bildirir ki, insanı gücləndirən məhz bu sarsıntılardır. Boran və qar sadəcə fiziki hadisə deyil, var olmağın, dözümlülüyün və həyat eşqinin təcəssümüdür:

İstəmirəm həyatım sakitcə bir otaqda
gəlib keçsin lal kimi...

İstəyirəm döyüşəm qayaların başında
düşmənlə qartal kimi.
Baxçadakı arx kimi ötüb həzin nəğmələr,
axmağı istəmirəm.
Səyyah olub həyata seyirçi bir nəzərlə
baxmağı istəmirəm.
Çağlamaq istəyirəm dağda şəlalə kimi,
Səpilmək istəyirəm çöllərə lalə kimi.
Dərya olub, nəhr olub, çalxalanmaq istəyirəm,
Göylərdə ulduz kimi mən yanmaq istəyirəm.
Şığımaq istəyirəm başsız küləklər kimi,
Bəslənmək istəyirəm bütün ürəklərdə mən
arzu, diləklər kimi. (3, s.297)

Bu misralarda şairin sakit, monoton və mənasız həyata qarşı açıq etirazı ifadə olunur. Burada "lal kimi" təşbehi həyatın sükuta bürünmüş, mənasız keçən formasına eyhamdır. Qartal Azərbaycan poeziyasında gücün, müstəqilliyin və ucalığın rəmzidir. Bu misralarda şair insanın yüksək ideallar uğrunda mübarizə aparmalı olduğunu vurğulayır. "Baxçadakı arx kimi ötüb həzin nəğmələr, axmağı istəmirəm..."- deyən B.Vahabzadə arx obrazı ilə sadə, istiqamətsiz, səssiz həyatı simvolizə edir. Şair bunun əksinə olaraq, şəlalə kimi çağlamaq, lalə kimi səpələnmək, yəni həyatın içində görünmək, hiss olunmaq və iz qoymaq istəyini dilə gətirir. Bu şeir B.Vahabzadənin poetik dünyagörüşünün zirvələrindəndir. Şair burada insanı sadəcə yaşamağa deyil, iz qoymağa, sevilməyə, coşmağa və yaşatmağa çağırır. Onun təklif etdiyi həyat fəlsəfəsi passivliyə yox, mənalı mübarizəyə söykənir. Bu da B.Vahabzadə poeziyasının bənzərsiz gücünü göstərir.
Şairin bu mövzuda yazdığı əsərlərindən biri də "Həyat sən nə şirinsən!" şeiridir. Burada insanla həyat arasındakı münasibət yüksək poeziya dili ilə təqdim olunur:
Səndən doymaq olarmı,
Həyat sən nə şirinsən!
Ancaq hamının deyil,
Sən həyatın qədrini
Yalnız bilənlərinsən!.. (2, s.147)

Bu misralarda həyatın nə qədər qiymətli və cazibədar olduğu vurğulanır. "Şirin" sözü burada həm sevgi, həm zövq, həm də yaşamağa dəyər bir varlıq kimi təqdim edilir. Sual cümləsi isə, həm ritorik, həm də poetik vurğu gücünə malikdir. Burada şair bildirir ki, həyatın gözəlliyini və dəyərini hamı anlaya bilmir, onu yalnız dərk edən, qiymətləndirən, yaşadığına şüurlu şəkildə yanaşan insanlar hiss edə bilir. Burada həyat yalnız bioloji deyil, mənəvi anlayış kimi təqdim olunur. Şeir həm bədii, həm də fəlsəfi qatlara malikdir. Şair oxucuya mesaj verir ki, həyatın şirinliyi təkcə onun mövcudluğunda deyil, onun mahiyyətini anlayan insanın düşüncəsində gizlidir. Bu parça şairin həyatsevərliyini, insan varlığının mənəvi dəyərlərlə zənginləşdirilməsini əsas ideya kimi daşıyır. Həyat - yalnız mövcud olmaq deyil, onun hər anının qədrini bilməkdir:

Həyat, sevincin qədər
əzabın da şirindir,
Səni mənalandıran
o keşməkeşlərindir. (2, s.147)

Bu misralarda müəllif həyatın yalnız xoş anlardan ibarət olmadığını göstərir. Əzab da sevinc qədər həyatın ayrılmaz hissəsidir. Burada paradoksal yanaşma var: əzabın da şirin olması. Şair burada

həyatın dəyərinin yalnız çətinliklərlə birgə anlamlı olduğunu vurğulayır. Burada "keşməkeş" sözü həyatın çətinliklərini, mübarizələrini, döyüşlərini simvollaşdırır. Müəllifə görə, məhz bu keşməkeşlər insanı formalaşdırır, həyatın mənasını yaradır. Sakit və düz xətlə keçən həyat deyil, enişli-yoxuşlu yollar insana dərinlik qazandırır:

Səndən doymaq olarmı, çoxun,azın da şirin.
Səndən doymaq olarmı?! Çoxun, azın da şirin.
Həyat qışın da şirin, həyat yazın da şirin.
Cürbəcür yazılar var, ömrün varaqlarında,
Həyatımın qayğısız, fərəhli çağlarında,
Qədrini bilməmişəm.
"Hələ nə varki... Ömrüm qabaqdadır" demişəm... (2, s.147)

Bu hissədə şair həyatın dəyəri, zamanın qiyməti və insanın ona münasibəti haqqında dərin poetik və fəlsəfi fikirlərini paylaşır. Burada müəllif həyatın həm bolluq, həm də qıtlıq dövrlərini, həm bahar sevincini, həm də qış çətinliyini bərabər şəkildə dəyərli hesab edir. "Cürbəcür yazılar var, ömrün varaqlarında," - misrasında ömür kitab metaforası istifadə olunur. "Yazılar" sözünün çoxmənalılığı diqqətçəkicidir: həm yazılmış sözlər, həm də həyat hadisələri, izlər kimi başa düşülə bilər. Bu, insan ömrünün fasiləsiz dəyişən, rəngarəng və təkrarsız olduğunu bildirir. "Qədrini bilməmişəm... hələ nə var... demişəm" - deyən şair gənclik illərində həyatın qədrini bilmədiyini etiraf edir. Bu misralarda faciəvi təəssüf yoxdur, əksinə, düşündürücü və öyrədici bir təcrübə var. Bu şeirdə B.Vahabzadə həyatın qiymətini yalnız qayğılı dövrlərdə deyil, həm də xoşbəxt anlarda bilməyin vacibliyini vurğulayır. O, oxucunu şüurlu yaşamağa, hər anı dəyərli saymağa çağırır.
Həyat başdan ayağa
Ölümlərlə doludur,
Ölüm qorxulu deyil,
Yaşamamaq ölümdən
Min kərə qorxuludur. (10, s.427)

Bu şeirdə isə B. Vahabzadə həyatın içindəki daimi fani təbiəti vurğulayır. Ölüm, insan varlığının dəyişməz və qaçılmaz hissəsidir. Bu misralar varlıq fəlsəfəsinə işarə edir: yaşamaq, ölümlə üz-üzə olmaq deməkdir. Burada əsas vurğu ölümün deyil, mənasız həyatın qorxululuğu üzərindədir. Bu fikir şairin bir çox əsərində təkrarlanan əsas ideyadır: bioloji varlıq deyil, mənəvi dolğunluqla yaşanan ömür əsl ömürdür. Bu şeirdə B.Vahabzadə insanı sadəcə nəfəs almağa deyil, həyatı dolu-dolu, mənalı yaşamağa çağırır. O, bizi ölümə deyil, yaşamamağa qarşı ayıq olmağa səsləyir. Bu fikirlər şairin ideya-intellektual poeziyasının nümunəsidir və Azərbaycan ədəbiyyatında fəlsəfi poeziyanın ən güclü ifadələrindən biri sayılır.
B.Vahabzadənin həyat fəlsəfəsini təcəssüm etdirən, bədii cəhətdən olduqca zəngin və düşündürücü "Ömür ki var..." şeirində isə, deyilir:

Yola salma ömrünü sən
Sakit, səssiz otağında.
Yaşa,yaşa yorulmazsan
Təlatümlər qucağında.
Təlatümün hər ləpəsi
Ömrünü də təzələyər,
Hər yeni bir duyğu ilə
Yaşamaq bir ömrə dəyər. (10, s.426)

Bu misralar insanı passiv, sakit və monoton həyat tərzindən uzaq durmağa səsləyir. Burada tənqidi ton da sezilir - ömrü "səssiz otaqda" keçirmək, yaşamaq yox, sadəcə mövcud olmaqdır. Şair burada insanın həyatla aktiv təmasda, çətinliklərin və tələtümlərin içində daha mənalı yaşaya biləcəyini vurğulayır. Tələtüm burada həm çətinlik, həm də canlılıq rəmzidir. Yorulmamaq isə həyatın içində yaşamağın verdiyi daxili gücdən xəbər verir. "Tələtümün hər ləpəsi, ömrünü də təzələyər" deyən şair burada metaforik paralellik yaradılır: həyat dəniz, tələtüm onun ləpələridir. Bu poetik bənzətmə göstərir ki, insanın yaşadığı hər sarsıntı, hər dəyişiklik onu yeniləyir, daha diri və daha canlı edir. "Hər yeni bir duyğu ilə, yaşamaq bir ömrə dəyər" misraları B.Vahabzadənin duyğulara verdiyi yüksək dəyəri əks etdirir. Burada romantik baxış özünü göstərir: insanı yaşadan onun hiss etdikləridir. Bu duyğuların hər biri isə yaşamağa dəyər bir ömrün göstəricisidir.

Bu şeir bəndi Bəxtiyar Vahabzadənin dinamik, mənalı və duyğularla zəngin bir ömür tərzini təbliğ edən fəlsəfi-emosional çağırışıdır. Şair oxucunu həyatın içində - sevincdə, iztirabda, tələtümdə - yaşamağa, hər anı duyaraq və dəyər verərək keçirməyə səsləyir. Bu, həm də onun ədəbiyyatdakı əsas mövqelərindən biri - yaşamağa layiq ömür ideyasının təcəssümüdür.

NƏTİCƏ

Bəxtiyar Vahabzadə poeziyasında "yaşamaq" sadəcə nəfəs almaq, vaxt keçirmək anlamına gəlmir. Onun sözündə yaşamaq - yanmaqdır, çağlamaqdır, tələtümə düşməkdir, ruhun alovlanmasıdır. Şairin misralarında həyat - sükunətin deyil, mübarizənin, təzadların və qalib gəlmək əzmində olan insan ruhunun tərənnümüdür. Vahabzadənin şeirləri oxucunu lal sakitlikdən oyadaraq, onu özü ilə üz-üzə qoyur, yaşamağın fəlsəfəsini dərk etməyə səsləyir. "Sözün nəfəsində həyat" ifadəsi onun poetik missiyasını təcəssüm etdirir. Çünki o, sözlə nəfəs alır, sözlə yaşadır, sözlə yaşamağı öyrədir. B.Vahabzadənin qələmi həyatın bəzəyi deyil, həyatın özüdür - tələtüm, ağrı, sevinci ilə birgə. Onun poeziyası bizə öyrədir ki, həyat anların deyil, anlamların toplamıdır. Yaşamaq eşqi isə, bu anlamların ən ülvisidir.

ƏDƏBİYYAT

1. Bəxtiyar Vahabzadə. Şeirlər, Bakı: Azərnəşr, 1961, 273 səh.
2. Bəxtiyar Vahabzadə. Axı dünya fırlanır: şeirlər, poemalar tərcümələr, Bakı, Yazıçı, 1987, 204 səh.
3. Bəxtiyar Vahabzadə. Azərbaycan poeziyası seçmə şeirləri. Bakı, Qanun nəşriyyatı, 2022, 368 səh.
4. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1961, 273 səh.
5. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. II cild (1966-1981), Bakı, Yazıçı, 1984, 457 səh.
6. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. II cilddə, I cild (1944-1965), Bakı, Yazıçı, 1983, 429 səh.
7. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. II cilddə, I cild, Bakı, Azərnəşr, 1974, 377 səh.
8. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. II cilddə, II cild, Bakı, Azərnəşr, 1975, 249 səh.
9. Bəxtiyar Vahabzadə.Seçilmiş əsərləri, 12 cilddə, Bakı, Elm nəşriyyatı, 2008-2009, I cild, 611 səh.
10. Fikrət Əsgərov. Hikmət mücrüsü, Bakı, "Zərdabi nəşr", 2025, 624 səh.

NATIONAL AND RELIGIOUS IDENTITY IN THE DRAMATURGY OF BAKHTIYAR VAHABZADE

BƏXTİYAR VAHABZADƏ DRAMATURGİYASINDA MİLLİ VƏ DİNİ KİMLİK

Tahirə Məmməd
Filologiya elmləri doktoru, professor
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitunda şöbə müdiri

Abstract
A literary text, as a hierarchical system, contains many layers and lines and is a rich transmitter of information. We obtain initial information from the name and genre of the text, and as we penetrate the content and form, we connect the parts and achieve a complete impression of the work. The text forms an opinion about the national and religious identity of both itself and the author who created it. “I am a Turk, a son of a Turk from my first source!” - the verse that sounds like a declaration in his poem, and who sees himself in each of the heroes who swear by fire, the Sky God and the Holy Quran, is of scientific and theoretical relevance in the work of Bakhtiyar Vahabzadeh, a poet who sees himself in each of the heroes who swear by fire, the Sky God and the Holy Quran.
Bakhtiyar Vahabzadeh is a poet of changing societies. The problem we are investigating helps to evaluate not only Vahabzadeh’s poetry, but also the methods of expressing his own spirit and ideals as a national poet and artist during the colonial and independent periods. In order to follow and contrast the dynamics and variability in the poet's work, we considered it appropriate to focus on two dramas written at different stages: "The Gallows", "The Sword That Cuts Us".
"The Gallows" is based on Jafar Jabbarli's "The Bride of Fire", written in a new interpretation. The historical and textual memory of the characters named Akshin, Babek, Sabutay, Deli Domrul, Ibn Tahir (Taybugha), Ibn Zeyd, Altay, Agsaggal, Ana, Çılğın, etc., the ideas and behaviors contained in their speeches reflect the unity of the Turkish-Azerbaijani national identity. "... religion cannot find its way into hearts by force of arms. Religion must open its way by its own purity and holiness", - the author, who voices this statement through the language of his hero, tries to instill the idea of independence by opposing all violence. By adapting Sabutay, the historical hero who once subdued Kiev, to another level, Azerbaijan fosters pride in national identity in Turkish readers and calls for freedom and independence from the subjugation of the period in which the work was written.
“The Sword That Cuts Us (The Goyturks)” was written after Azerbaijan gained independence. While writing the work, the author seriously benefited from Huseyn Nihal Atsız’s novel “The Death of the Grey Wolves”. He chose motifs from the novel that suited his ideal and called for Turkish unity. In the drama, where the heroes’ oath is the God of Heaven, God punishes liars and traitors, paves the way for the truthful and the fighters, and rewards them.
Both dramas are extensively analyzed in the report and Bakhtiyar Vahabzadeh’s views and ideals are clarified.
Keywords: national identity, Goyturks, Sabutay, Turk, Bakhtiyar Vahabzadeh, fire worship, Islamic religion, God of Heaven

Xülasə
Bədii mətn ierarxik sistem kimi özündə çoxlu qatlar və xətlər yerləşdirir və zəngin informasiya ötürücüsüdür. Mətnin adından və janrından ilkin informasiya əldə edirik, məzmun və formaya nüfuz etdikcə hissələri birləşdirir və əsər haqda dolğun təəssürata nail oluruq. Mətn həm özü, həm də onu yaradan müəllifin milli, dini kimliyi haqda qənaət formalaşdırır. “Mən ilk qaynağımdan türk oğlu türkəm! ” - misrasını bir bəyanət kimi şeirində səsləndirən atəşə, Göy Tanrıya və müqəddəs Qurana

and içən qəhrəmanların hər birində özünü görən şairin – Bəxtiyar Vahabzadənin yaradıcılığında milli və dini kimlik problemini araşdırmaq elmi-nəzəri baxımdan aktuallıq kəsb edir.

Bəxtiyar Vahabzadə dəyişən cəmiyyətlərin şairidir. Araşdırdığımız problem tək Vahabzadə poeziyasının deyil, həm də milli şairin, sənətkarın öz ruhunu, ideallarını müstəmləkə və müstəqillik dövrlərində ifadə üsullarını dəyərləndirməyə kömək edir. Şairin yaradıcılığındakı dinamika və dəyişkənliyi izləyib qarşılaşdırmaq məqsədilə fərqli mərhələlərdə yazdığı iki dram əsəri üzərində dayanmağı məqsədəuyğun saydıq: "Dar ağacı", "Özümüzü kəsən qılınc".

"Dar ağacı" Cəfər Cabbarlının "Od gəlini" əsəri əsasında, yeni yozumda yazılmışdır. Akşin, Babək, Sabutay, Dəli Domrul, İbn Tahir (Taybuğa), İbn Zeyd, Altay, Ağsaqqal, Ana, Çılğın və b. adlarla adlandırılan obrazların tarix və mətn yaddaşı, nitqlərində yer alan fikirlər, davranışları türk-azərbaycan milli kimliyinin vəhdətini özündə əks etdirir. "... din silah gücünə ürəklərə yol tapa bilməz. Din öz təmizliyi və müqəddəsliyi ilə öz-özünə yol açmalıdır", – müddəasını qəhrəmanının dili ilə səsləndirən müəllif, bütün zorakılıqlara qarşı çıxaraq istiqlal düşüncəsini təlqin etməyə çalışır. Sabutayı- vaxtilə Kiyevi özünə tabe edən tarixi qəhrəmanı başqa bir müstəviyə adaptasiya etməklə Azərbaycan, türk oxucusunda milli kimlik qürurunu tərbiyə edir və əsərin yazıldığı dövrdəki tabeçilikdən çıxmağa, azadlığa, istiqlala çağırır.

"Özümüzü kəsən qılınc (Göytürklər)" Azərbaycan müstəqillik əldə etdikdən sonra yazılmışdır. Müəllif əsəri yazarkən Hüseyn Nihal Atsızın "Bozkurtların ölümü" romanından ciddi şəkildə faydalanmışdır. Romandan öz idealına uyğun motivləri seçib, türk birliyinə çağrış etmişdir. Qəhrəmanların and yeri Göy Tanrı olan dramda yalançıları, xəyanətkarları Tanrı cəzalandırır, doğrulara, mübarizlərə yol açır, mükafatlandırır.

Məruzədə hər iki dram əsəri geniş təhlil edilmiş və Bəxtiyar Vahabzadənin görüşlərinə, ideallarına aydınlıq gətirilmişdir.

Açar sözlər: milli kimlik, Göytürklər, Sabutay, türk, Bəxtiyar Vahabzadə, atəşpərəstlik, islam dini, Göy Tanrı

APPLİCATİON OF TEACHİNG METHODS İN THE WORKS OF BAKHTİYAR VAHABZADEH

BƏXTİYAR VAHABZADƏ ƏSƏRLƏRİNDƏ TƏLİM METODLARININ TƏTBİQİ

Elnurə Kazımova

Beyləqan rayon I Şahsevən kənd G.Əsədov adına 1 nömrəli tam orta məktəbin direktoru

Xülasə

Məqalə Bəxtiyar Vahabzadənin ümumi və tam orta təhsil məktəblərində tədris olunan əsərlərinin yeni təlim metodları ilə tədris olunmasına həsr olunub. Məqalədə "İstiqlal", Ana dili ,Latın dili, Şəhidlər və Vətəndaş şeirləri üzərində müxtəlif təlim metodları ilə fərdi yanaşma təsvir olunub.Burada ən çox oxuyub – anlama və yazı məzmun xətinin reallaşdırılması və ədəbiyyat fənni üzrə təhlillər zamanı ən çox istifadə olunacaq üsulların praktiki olaraq tətbiqi misallar üzərində göstərilib.Həmçinin Vahabzadə yaradıcılığında mövzular üzrə öz yanaşmamı təqdim etməklə bir ədəbiyyatçı üslubun diqqətə çatdırmağa çalışmışam.

Açar sözlər: təlim, əsər, üsul, oxu, model , şeir ,yaradıcılıq ...

Abstract

The article is dedicated to teaching Vahabzadeh's works in general and secondary schools with new teaching methods. The article presents an individual approach to the poems "Independence", "Motherland", "Latin", "Martyrs" and "Citizens" with various literary methods.

Author: Elnura Kazimova, MTIPIM trainer, director of ARTI, winner of the "Partner-to-Partner Support Project", Coaching School Competition, director of G. Asadov Secondary School No. 1 in I Shahsevan village, Beylagan district.

Keywords: teaching, work, method, reading, model, poetry, creativity ...

Dəyişən dünyamızda çağdaş dövrümüz nə qədər müasirləşsə də təməl güclü olmasa heç zaman irəlləyişlər hiss olunmaz. Odur ki, yeniləşən təhsil sisteminin kökündə möhkəm özüllər durur. Və elə düşünürəm ki, möhkəm özüllər dedikdə ədəbiyyat ön sıralardadır.

Məzmun xətlərini və həmçinin alt standartları bədii əsərlərdə tətbiq edərkən əsərin milli mənəvi dəyərlərə söykəndiyi ,həmçinin mövzu və məzmun baxımından aktuallığı olmalıdır.Bu baxımdan Vahabzadə yaradıcılığı janr baxımından rəngarəngdir. Onun əsərləri daim ədəbi prosesin önündə getmiş ,uslub və təravətini ,müasirliyini qoruyub saxlamış, ədəbi –nəzəri fikrin diqqət mərkəzində olmuşdur. O istər əsərlərin fəlsəfi tutmu, istər ideya istiqaməti ,istər dil üslubu ,istərsə də müraciət etdiyi mövzular ilə ədəbiyyatda milli düşüncənin hakim olmasına çalışmışdır.

Vahabzadə yaradıcılığında xarakterik olan "intelektual poeziya" ,"fikir poeziyası" ,"idrak poeziyası", kimi epitetlər onun yaradıcılığının məğzini tutur.Məhz onun ümumtəhsil məktəblərində tədris olunan əsərlərinin hansı təlim metodlarıyla təşkil olunmasına dair kiçik bir araşdırma aparaq. Bu araşdırma praktiki səciyyə daşıyır.

Azərbaycan dili və ədəbiyyatı fənninin məzmun xətlərinin reallaşdırmaq üçün ilk öncə Vahabzadə yaradıcılığında "Vətəndaş " şeiri ilə başlamaq istərdim. Şeirdə oxuyub-anlama məzmun xətti üzrə səssiz oxu modelindən istifadə edərək oxunu təşkil edə bilərik. Yeri gəlmişkən qeyd edək ki, oxu modelləri oxunun necə təşkil olunmasını ,oxu metodları ,üsulları isə onun necə dərk olunmasını ,anlamasını təmin edir.Şairin şeirindəki fikrini hər bənddə araşdırmaq üçün "NOYÇ" üsulu ən əlverişli üsuldur.Şagird hər bəndə nəzər salaraq ümumi panaram oxu təşkil edir,oxuyub ümumi fikirləri yadda saxlayır və qeydləri götürür.

Şairin şeirlərinin dil üslubu həm səlist ,anlaşılan olduğundan fikir nəzmlə elə sərrastlıqla çatdırılır ki,orada ümumi ideyanı tapmaq şagirdə əlçatan gəlir.
Şairin poeziyası tariximizi unutdurmağa çalışanlara qarşı mübarizə poeziyasıdır. O, mübariz ruhlu şeirləri ilə alovlu bir natiq kimi xalqı yad təsirlərə uymamağa, milli və mənəvi dəyərləri qoruyub yaşatmağa çağırır. B.Vahabzadə, həmçinin, ana dili mövzusunda çoxlu şeirlər yazıb. Şairin bu qəbildən olan əsərlərindən biri də "Latın dili" və "Ana dili " şeirləriidir. B.Vahabzadə hər iki şeirini yüksək vətəndaşlıq mövqeyi ilə qələmə almışdır. Əsəri oxuyanda şairin ana dilinin dərin təəssübkeşi olduğu aydın hiss olunur. Ana dilini böyük məhəbbətlə sevən şair ona son dərəcə həssaslıqla yanaşır, dili yaşatmağı hər kəsin qeyrət məsələsi, vətəndaşlıq borcu kimi səciyyələndirir. Vətəndaş şairin qənaətinə görə, dil xalqın mövcudluğunu təsdiqləyən çox mühüm bir amildir. Belə yüksək əzmkarlıq ifadə edən şeirdə təbii ki ,müəllim elə bir stategiya qurmalıdır ki, ən sonda istənilən təlim nəticəsini reallaşdıra bilsin. Buna görə şeirin panaram oxu modeli ilə təşkil etsək, onun ideyasını MİNM üsulu ilə asanlıqla çıxara bilərik. Bu zaman həm şagirdin mühakiməsi ,həm də mövqeyini möhkəmlətmək biz pedoqoqlar üçün əlverişli olar. Burada şagird mövqeyini ortaya qoyur ,izzahlar verir ,izah elədiklərini misallarla təsdiqləyir və sonda mühakimə yürüdərək fikrini əsaslandırır. MİNM –də açar ifadələr olduğundan onu yazmaq daha az zaman tələb edir. Gəlin " Latın dili " seiri üzrə MİNM-ə baxaq :
Mən düşünürəm ki, o dil yaşayar ki, onun xalqı yaradıcı olsun (M- mövqe)
Çünki ,şeirdə şair göstərir ki, bu dil alimlərin ,təbiblərin dilidi (İ-izzah)
Buna görədə dərmanlar , terminlər bu dildə verilib.(N- nümunə
Bu qərara gəldim ki,bir xalqın ki insanları nə qədər elmli və yaradıcı olarsa ,o dil bir o qədərdə geniş coğrafiyaya malik olar və genişləndikcə də möhkəmlənər. (M- mühakimə)
Bəs nəyə görə ponaram oxu? – çünki başlıqlar və ümumi baxış oxucunu məzmundan hali edə bilir. Nəzərə alsaq ki,dövrün şagirdləri sürətli oxumaq üçün müxtəlif metodologiyalardan istifadə etməyi xoşlayırlar ,o zaman demək ki, üsulumuz və modelimiz uğurlu seçimdir.
B.Vahabzadə azad, müstəqil Azərbaycanın milli istiqlal ədəbiyyatının dəyərli nümunələrini yaratmışdır. Bu baxımdan «Şəhidlər» poeması Azərbaycan milli istiqlal ədəbiyyatınm kamil nümunəsidir. Əsərdə Azərbaycan şəhidlərinin simasında milli istiqlal ədəbiyyatının qəhrəmanlarının bədii obrazı canlandırılımışdır. Poemada "20 Yanvar " soyqırımının, gözlərimiz önündə tarixə çevrilən bu dəhşətli hadisənin obyektiv tarixi-bədii qiyməti verilmişdir." Qara yanvar " haqqında ədəbiyyatımızın ilk sanballı nümunəsi olan bu əsərdə azadlıq mücahidlərinin qəhrəmanlığı şairin öz şəxsi müşahidələri və yaşantıları əsasında ümumiləşdirilmişdir. Şair poemada xalqımızın son iki əsr ərzindəki tarixi faciələrindən söz açır və bu yol- ilə şəhidlərin uğrunda həyatlarını qurban verdikləri ideyanın, məqsədin aliliyini açıb göstərir.Belə bir mühüm tarixi əhəmiyyət kəsb edən əsəri də özünə xas metodika ilə tədris etmək lazımdı ki, şagird onun məna dərinliyinə varsın. Düşünürəm ki, poemanın səsli oxu modeli ilə oxunuşunu təşkil etsək və müzakirə ,sinkveyn üsulu ilə ideyanı müəyyənləşdirsək daha məqsədəuyğun olar.Müzakirə zamanı açıq suallar yönəldici funksiyada olmalıdır ki,şagird öz mühakiməsini yürüdə və nəticəyə gələ bilsin. Məsələn : "Şəhidlər " poemasının "Təzadlar" hissəsində " şair xalqın təzada düşməsinin səbəbini necə açıqlayır? " tipli və ya " Eşq olsun sizə" hissəsində " Qorxu iblisi " ifadıəsini necə başa düşürsünüz? Kimi müzakirə suallarını akvarium üsulu ilə təşkil edə bilərik. Bu zaman şagirdlər dövrə quraraq edilən müzakirəni digər dövrəyə verir.
Sinkveyn üsulu ilə ideyanı müəyyənləşdirmək ,həmçinin əsər haqda ümumiləşmə aparmaq şagird üçün daha əlverişli və funksionaldı. Burada qrammatik qaydalara əsasən nəticəyə gəlmək çox maraqlı eyni zamanda qoyulan məhdudiyyətlərə riayət şagirdə dil və üslub imkanlarının daha peşəkar işlətməsinə imkanlar yaradır. Məsələn
1 isim- Şəhidlər
2 sifət – mübariz ,qorxmaz
3 feil – şəhid oldular,yadda qaldılar, qazandılar

4 sözdən ibarət ifadə və ya cümlə - qanla qazanılmış Azadlıq məfkurəsi
1 isim – Vətənpərvərlik

Qeyd edim ki, 4 sözdən ibarət olan cümlə ideyanı dəstəkləməli və hamıya şamil olunmalı ,ümumiləşmə aparılmalıdır.
Digər maraqlı üsullardan biri də MMT cədvəlidir.(müsbət,mənfi,təklif) Bu cədvəldən əsərin təhlili zamanı işləsək ,həm şagirdin marağına ,həmçinində onun yaradıcı düşüncəsini inkişaf etməyinə dəstək olacaqdır.Şagird öncə əsərdə real hadisəni qeyd edir,daha sonra hadisəyə uyğun olaraq müəəyyən biliklərə malik olduğunda hadisənin müsbət və mənfi tərəflərini müvafiq xanalara qyed edir. Üsulun əsas vacib və şagirdin yaradıcılığını inkişaf etdirən hissəsi –təkliflər hissəsidir .Şagird hadisələrdən asılı olaraq mənimsədiyi bilik haqqında təkliflər irəli sürür.

HADİSƏ	“Qızıl ordunun Bakıya hücumu	
+	-	Təklif
Xalq azadlığa qovuşdu ,özünü təsdiqlədi.	Neçə-neçə insanın həyatına son qoyuldu .Şəhid verildi.	Dövrün hakimiyyəti qarşı çıxa bilərdi

Bəxtiyar Vahabzadənin yaradıcılığında istiqlalçılıq mövzusu da diqqəti cəlb etməkdədir. Şairin bu mövzuda yazdığı əsərləri Azərbaycan poeziyasının dəyərli örnəklərini təşkil edir. Müəllifin fikrincə, istiqlal, azadlıq hər bir xalqın, millətin, toplumun təbii haqqıdır, o ilahi tərəfindən göndərilmiş təbii sərvətdir. Hər bir millətin öz istiqlalı uğrunda mübarizə
aparmağa, onu qorumağa hüququ vardır. Bu, hüququ təbiət, yaradılışın özü ona bəxş etmişdir. "Azadlıq mövzusu Bəxtiyar Vahabzadə yaradıcılığının aparıcı mövzularındanır.
Bəxtiyar Vahabzadə azadlığı şeir pafosu ilə romantik bir tərzdə yox, demək olar ki, bu anlayışı dərindən təhlil edərək onun dolğun və gerçəkli izahını verir: Azadlıq bütün inamların ən yüksəyidir, kimdənsə umulmamalıdır, o, ərməğan şəklində verilməməlidir, yadlara ümidli olmaqla onu əldə etmək olmaz, onu xalq öz mübarizəsi ilə qazanmalıdır və onun yolunda xalq qurbanlar verməyə hazır olmalıdır. Məhz “ İstiqlal” şeirində biz bunları görürük. Bəs bu şeirin tədrisi zamanı nəyi ,necə etsək təlimimiz effektiv olar. Düşünürəm ki, istənilən mövzudan danışsaq və ya mövzuya istənilən aspektən yanaşsaq onun sonunda qiymətləndirmə olmalıdır. Odur ki ,şairin bu şerini qiymətləndirmə materialı kimi seçib ,ona dair esse yazmağı tövsiyyə edə bilərəm.Nəzərə alsaq ki, esse bütün beynəlxalq qiymətləndirmə formatında çıxış edir , o zaman bunun nə qədər aktual bir metod olduğunu da görərik. Esse yaradıcı ,mühakimə tipli yazı olduğundan onun yazılmasında diqqət ediləsi bir neçə yunas var. Təbii ki ,ilkdə problemin qoyulmasına diqqət edilməlidir ki ,ona “NİYƏ” sualını verərək arqumentlə onu açа bilək . Yazılan essedə iki arqument kifayət edər ki, onu əsaslandırıb nəticə verilə bilsin.Mən essenin suallar üzərində düsturu ilə yazılmasının effektivliyini praktiki olaraq tətbiq etmişəm . Və qarşı tərəfin mənimsənilməsinin də görmüşəm. Bunu aşağıdakı kimi təqdim edə bilərəm.

Problemin qoyulması – NİYƏ?
1 –ci arqument _- NECƏ?
2- ci arqument _ - NECƏ?
Nəticə -qərarım nədir?

Əsərdən diqqəti cəlb edən bir fikri esseyə başlıq kimi seçib problemi də ona uyğun qoya bilərik. Məsələn : “ Dağ qürurun təpə önündə məğlubiyyətinin barışmazlığı “ mövzusunda esse yazaraq münasibət bildirilə bilər.

Şeirdə Xalqın azadlıq mübarizəsinin başlamasına onun mücadiləsini təsvir edir. Xalq iradəcə, əqidəcə özündən alçaq olanlara məğlub olmasını qəbul etmir. (problem)
İlk öncə o azdlığın allah tərəfindən verilən haqq olduğunu dilə gətirir. Və haqlı mübarizə aparacağını söyləyir.(arqument)
Şair " Gülüstan" müqaviləsini xatırlayaraq xalqın yerinə qərar veriənləri qınayır.Mücadil bir xalqı əzib yox etmək istəyini oxucuya çatdırır. (arqument)Və sonda görürük ki,Dağlar heç zaman təpə önündə məğlub olmur. Bunu Şəhidlər sübuta yetirdi.(nəticə)
Bəxtiyar Vahabzadənin şeirlərində insanın və həyatın elə seçilmiş anları lirikanın mövzusuna çevrilir ki, həmin məqamların obrazlı poetik təqdimatı düşündürücü mətləblərin mənalandırılması ilə nəticələnir. Yəni, Bəxtiyar Vahabzadə sırf lirik şeirlər vasitəsi ilə də ictimai-fəlsəfi fikirləri ifadə etməyin ustadıdır. Lirik şeirlərində ictimai-fəlsəfi
düşüncələri ifadə etmək bacarığı tədricən Bəxtiyar Vahabzadəni XX əsr Azərbaycan
vətəndaşlıq lirikasının əsas yaradıcılarından birinə çevirmişdir. Xalq şairinin vətəndaşlıq lirikası onun milli istiqlal düşüncələrindən yoğrulmuş ictimai-fəlsəfi şeirlərinin mükəmməl bir toplusundan ibarətdir.
Ümumiyyətlə, Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatının milli-poetik istiqlalnaməsinin qüdrətli yaradıcılarından biridir. Xalq şairinin Azərbaycanın ən yüksək dövlət təltiflərindən olan «İstiqlal» ordeninə layiq görülməsi həm də onun milli istiqlala şərəflə xidmət etməsinə verilən yüksək qiyməti əyani şəkildə əks etdirir. Milli istiqlalın böyük carçısı Bəxtiyar Vahabzadənin parlaq adı və böyük sənəti Azərbaycanın və ümumən türk dünyasının əbədi milli sərvətidir. Şübhəsiz ki, hər bir qələm sahibinin istedadının gücünü, yaradıcılıq imkanlarını, poetik erudisiyasını dərk etmək üçün onun əsərlərinin bədii-estetik aspektlərinə diqqət yetirilməlidir. Oxucuların mühakiməsinə verilən bu dərs vəsaitində müəllifin bədii dünyasının sirlərindən bəhs olunması məhz həmin niyyətdən qaynaqlanmaqdadır.
Çünki , məhz o sirləri qeyd olunan müasir təlim üsullarala açırıq ki, qarşı tərəf maraqlansın, onu cəlb etsin ,düşünməyi öyrənsin.Yəqin ,mənimlə razılaşarsınız ki, çox zaman öyrənənlərimiz oxuduqlarına və dinlədiklərinə çox səthi yanaşırlar. Təlim üsulları bu yanaşmanı dərinləşdirir.
Bəxtiyar Vahabzadənin lirik-fəlsəfi üslubda yazdığı şeirləri quru, ritorik söz və ifadələrlə deyil, bədii-emosional yazı tərzi ilə müşayiət olunur. Həmçinin şairin bu üslubda yazdığı şeirlərinin yüksək vətəndaşlıq qayəsi ilə yoğrulması onların bədii siqlətini şərtləndirir. Bəxtiyar Vahabzadə öz yazılarında metaforalardan ardıcıl şəkildə bəhrələnən müəlliflərdən biridir. Onun müxtəlif mövzularda qələmə aldığı şeirləri bu düşüncə tərzinin fərqli təzahürlərini üzə çıxarmaqdadır. Şairin əsərlərində metaforik düşüncə tərzinin qabarıqlığı bir tərəfdən yaşadığı dövrün ab-havasından qaynaqlanırsa, digər tərəfdən bu cəhət onun istedadının yönümündən irəli gəlir. Bilindiyi kimi, "Poetik metafora " obrazlı təfəkkürün bəhrəsidir. Odur ki, şagirdlərə bu yönümdə yəni,bədii təsvir və ifadə vasitələri haqda tapşırıqlar verilərkən şairin əsərləri çox gözəl bir resursdur. Buna dair ədəbiyyat dərsliklərimizdə yetərincə tapşırıqlar mövcuddur.Və üsulyönümlü tapşırıqlar əsər üzərində tətqiqat apanlar üçün çox maraqlıdır.Öyrənənin yaradıcılıq qabiliyyətini artıran, onun təfəkkürünə müsbət təsir göstərən üç hissəli cədvəllərdi ki , burada o həm təsvir və ya ifadə vasitəsini seçir, həm çıxardır, həm də yaradıcı yanaşma ilə oz versiyasını ortaya qoyur. Məsələn ,bir nümunə gətirək.

Bənddə hansı təsvir vasitəsinin növünü müəyyən et.	**Həmin təsvir vasitəni çıxardın və nə baş verdiyini izzah edin.**	**Təsvir vasitəsini yenisi ilə əvəz edin.**

Ümumilikdə götürdükdə Vahabzadə əsərləri təlim üsullarını idarə edə bilir.Bir şərtlə ki,idarə edici düzgün mövqedə ola.Bizə əsərlərin şagird və oxucular tərəfindən mənimsənilməsi,sətiraltı mənaların açılması,əsas fikrin çıxarılması lazımdı ki,biz də bunu bu üsullar vasitəsi ilə edə bilərik.

Yeni “ZET” nəsli daim bizdən yenilik istəyir ,ona görə də bir mövzunu nə qədər çoxmetodlu şəkildə yürüdə biləriksə ,düşünürəm ki ,bir o qədər qarşı tərəfi cəlb etmiş olarıq.
Sonda fikrimi Maestro Niyazinin fikri ilə bitirmək istərdim. “Bəxtiyar ona görə Bəxtiyardır ki, onu xalq sevir; xalq da ona görə bəxtiyardır ki, onun Bəxtiyarı var”.Demək ki,nə qədər ki bu xalq var demək ki,Bəxtiyar da var.Bizlər sadəcə ötürücüyük...

Ədəbiyyat

1 .Azərbaycan Milli Elmlər AkademiyasıI Nizami Gəncəvi adına Ədəbiyyat İnstitu Ədəbiyyat Məcmuəsi Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu əsərləri XXVIII cild - İsa Həbibbəyli
2. Bəxtiyar Vahabzadə Yaradıcılığı – Asifə Telman qızı
3. ©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020
4. MTİPİM – faydalı məlumatlar səhifəsi
5.5 və 11 ci sinif Azərbaycan dili və ədəbiyyat metodik vəsaiti.
6.Ədəbiyyat dərs vəsaiti – Vüqar Adilov.

BAKHTIYAR VAHABZADE'S "SCHOOL POEMS" IN THE CONTEXT OF THE IDEA OF AZERBAIJANISM

BƏXTİYAR VAHABZADƏNİN "MƏKTƏB ŞEİRLƏRİ" AZƏRBAYCANÇILIQ İDEYASI KONTEKSTİNDƏ

Dr. Doc. İLHAMƏ AĞAZADƏ
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu "Uşaq ədəbiyyatı"şöbəsi

Abstract
This article examines the series of "School Poems" by Bakhtiyar Vahabzadeh, a prominent representative of 20th-century Azerbaijani literature, from the perspective of poetic expression of the idea of Azerbaijaniness. The study shows that the poems included in this series are not only didactic texts written for children, but also artistic carriers of national ideology, love of homeland, respect for the mother tongue, and historical memory. The concepts of school and teacher are presented in Vahabzadeh's poetry in a way that is closely related to the ideas of national identity and enlightenment. The article also analyzes the poet's enlightened position, the importance he attached to national-spiritual education, and the methods of expressing these ideas through poetic symbols. As a result, the series of "School Poems" is evaluated as an important poetic project that serves to promote the idea of Azerbaijaniness among children and adolescents in an artistic and aesthetic way.
Keywords: Bakhtiyar Vahabzadeh, school poems, Azerbaijaniness, national identity, patriotism, education, poetry.

Xülasə
Bu məqalədə XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Bəxtiyar Vahabzadənin "Məktəb şeirləri" silsiləsi azərbaycançılıq ideyasının poetik ifadəsi baxımından araşdırılır. Tədqiqatda göstərilir ki, bu silsiləyə daxil olan şeirlər təkcə uşaqlar üçün yazılmış didaktik mətnlər deyil, həm də milli ideologiyanın, vətən sevgisinin, ana dilinə hörmətin və tarixi yaddaşın bədii daşıyıcılarıdır. Məktəb və müəllim anlayışları Vahabzadənin poeziyasında milli kimlik və maarifçilik ideyaları ilə sıx bağlı şəkildə təqdim olunur. Məqalədə, həmçinin, şairin maarifçi mövqeyi, milli-mənəvi tərbiyəyə verdiyi önəm və bu ideyaları poetik simvollar vasitəsilə ifadə etmə üsulları təhlil edilir. Nəticə olaraq, "Məktəb şeirləri" silsiləsi azərbaycançılıq ideyasının uşaq və yeniyetmələr arasında bədii-estetik yolla təbliğinə xidmət edən mühüm poetik layihə kimi qiymətləndirilir.
Açar sözlər: Bəxtiyar Vahabzadə, məktəb şeirləri, azərbaycançılıq, milli kimlik, vətənpərvərlik, təhsil, poeziya.

Giriş

Azərbaycançılıq ideyası xalqımızın milli-mədəni dəyərlər sisteminin əsasını təşkil etməklə, milli şüurun formalaşması, ana dilinin qorunması və mədəni irsin gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bu ideya XX əsr Azərbaycan poeziyasında geniş poetik ifadəsini tapmışdır. Xüsusilə Bəxtiyar Vahabzadənin yaradıcılığı azərbaycançılıq konsepsiyasının bədii və fəlsəfi təcəssümü baxımından diqqətəlayiqdir.

Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatında milli ruhun, azadlıq ideallarının və mənəvi dəyərlərə bağlılığın ən güclü daşıyıcılarından biridir. Onun poetik dünyası vətən sevgisi, milli kimlik, dilə və tarixə hörmət, eləcə də maarifçilik ideyaları ilə zəngindir. Şairin yaradıcılığı yalnız ədəbi müstəvidə deyil, həm də ictimai fikirdə mühüm rol oynayan bir məktəbə çevrilmişdir. Gənc nəslin

formalaşmasında, milli özünüdərk və vətənpərvərlik duyğularının aşılanmasında onun poetik irsi böyük əhəmiyyət kəsb edir.

Vahabzadənin 1949-cu ildə çap olunan ilk kitabı "Mənim dostlarım"da yer alan "Məktəb şeirləri" bölməsi onun uşaq və gənclərə xitab edən poetik istiqamətinin əsasını qoymuşdur. Bu bölmədə "İlk cığır", "Qızıl medal", "İlk dərs", "Məktəb yolları" kimi şeirlər məktəbin təkcə bilik məkanı deyil, həm də mənəvi tərbiyə ocağı kimi təqdim olunduğunu göstərir. Sonrakı illərdə nəşr olunmuş "Çinar" (1956), "Bir ürəkdə dörd fəsil" (1966), "Seçilmiş əsərlər" (1966) və "Dəniz-sahil" (1969) kitablarında da bu istiqamətdə yazılmış şeirlər silsilə halında davam etdirilmişdir. Hər bir şeir müəllim obrazı, məktəb həyatının mənəvi çalarları və təhsilin insan yetişdirmə funksiyası ətrafında qurulmuşdur.

"Məktəb şeirləri" silsiləsi yalnız məktəbyaşlı uşaqlara ünvanlanan sadə didaktik mətnlər deyil, həm də dərin ideoloji və fəlsəfi məzmun daşıyan poetik nümunələrdir. Bu şeirlər vasitəsilə şair milli kimlik, azərbaycançılıq, dil sevgisi, tarixə bağlılıq və maarifçilik ideyalarını bədii-estetik dildə çatdırır. Şeirlərin sadə və emosional ifadə tərzi oxucuda həm mənəvi təsir yaradır, həm də simvolik çalarlarla zəngin poetik obrazlar sisteminə əsaslanır.

Tədqiqatçı Elnarə Akimova bu barədə yazır: "Bəxtiyar Vahabzadənin yaradıcılığı üçün özünüdərk məqamı çox güclüdür. Maraqlıdır ki, onun ilk məktəb şeirlərindən artıq duyumlu bir obraz canlanır. Bu şeirlərdə məktəb qazanılacaq bütün uğurların qarantı, astanası olmaq etibarı ilə estetik mündəricə qazanır" (*Akimova, 2016, s.11*).

Bu baxımdan "Məktəb şeirləri" silsiləsini azərbaycançılıq ideyasının uşaq və yeniyetmələr arasında təbliğinə xidmət edən mədəni-ideoloji layihə kimi qiymətləndirmək mümkündür. Məktəb obrazının "uğurların astanası" kimi təqdim olunması maarifçilik baxımından mühüm məna kəsb edir: insanın və cəmiyyətin tərəqqisi bilik və tərbiyəyə əsaslanır və bu fikir azərbaycançılıq ideyasının fundamental dayaqlarından biri hesab olunur.

"Məktəb şeirləri"nin ideoloji-estetik təməli. Bəxtiyar Vahabzadənin "Məktəb şeirləri" silsiləsi Azərbaycan uşaq poeziyasında sadəcə didaktik məzmun daşıyan nümunələr toplusu deyil, milli ideologiyanın və tərbiyə fəlsəfəsinin poetik təzahürü kimi çıxış edir. Bu silsilədə yer alan "İlk cığır", "Qızıl medal", "İlk dərs", "Tələbə–müəllim", "Kitab", "Əlifba", "Müəllimim", "Qiymət" kimi şeirlərdə təhsil, müəllim və məktəb anlayışları yalnız bilik ötürən vasitələr kimi deyil, şəxsiyyətin formalaşmasında mühüm rol oynayan mənəvi və milli institutlar kimi təqdim olunur. Əlizadə Əsgərli bu yanaşmanı belə ümumiləşdirir:

"Bəxtiyar Vahabzadə "Mən"inin beşikdən, ana laylasından sonra tərbiyə ocağı məktəbdir" (Əsgərli, 2022, s. 118). Bu fikirdə məktəb anlayışı şairin yaradıcılığında milli özünüdərkin başlanğıc mərhələsi kimi dəyərləndirilir. Vahabzadə məktəbi təkcə bilik məkanı deyil, milli kimliyin və mənəvi dəyərlərin formalaşdığı müqəddəs məkan kimi poetikləşdirir.

S.Y. Kərimova da bu bədii konsepsiyanın təsir gücünə diqqət çəkir: "B. Vahabzadəni bir yazıçı-şair kimi müasirlərindən fərqləndirən əsas cəhət odur ki, o, insanı mərhələdən mərhələyə gətirən, onu həyat yüksəkliklərinə qaldıran müqəddəs məktəb və istəkli müəllimləri haqqında qüvvətli bədii və mənəvi-əxlaqi təsirə malik əsərlər yazmışdır. Bu əsərlər gəncliyə yüksək vətənpərvərlik, milli qürur və humanizm hisslərinin aşılanmasına xidmət edən həqiqi sənət nümunələridir" (Kərimova, 2009, s. 120).

Beləliklə, "Məktəb şeirləri" silsiləsi milli ideologiyanın poetik ifadəsi olmaqla yanaşı, milli təlim və tərbiyə modelinin estetik çərçivədə təqdim olunmasına xidmət edir. Burada təhsil prosesi yalnız formal bilik əldəetmə mərhələsi kimi deyil, fərdin mənəvi kamilliyə doğru inkişafının ilkin təməli kimi bədii-fəlsəfi kontekstdə ifadə olunur.

Bəxtiyar Vahabzadənin poeziyasında müəllim və maarifçi idealı. Bəxtiyar Vahabzadənin poetik irsində müəllim obrazı və maarifçilik ideyası xüsusi yer tutur. Onun yaradıcılığında müəllim sadəcə bilik ötürən deyil, milli-mənəvi kimliyin formalaşmasında iştirak edən, cəmiyyətin intellektual və

əxlaqi dirçəlişinə xidmət edən maarifçi bir fiqur kimi təqdim olunur. Bu yanaşma şairin aşağıdakı misralarında öz poetik ifadəsini tapır:

Alim kəşf eləyir, yazır müttəsil,
Sənin də bunlarda var alın tərin
Sən də yaradansan, kitablar deyil,
Alimin özüdür sənin əsərin (*Vahabzadə, 1983, s.169*).

Bu parçada müəllim yalnız alimlərin formalaşmasında iştirak edən şəxs kimi deyil, onların elmi və mənəvi uğurlarının arxasında dayanan əsas qüvvə kimi təqdim edilir. "Alimin özüdür sənin əsərin" misrası müəllimin cəmiyyətin gələcəyinə yön verən yaradıcı bir varlıq kimi ideallaşdırıldığını göstərir.
Vahabzadənin bu mövqeyi maarifçi ədəbi ənənələrin davamı olmaqla yanaşı, müəllim obrazını milli ideologiyanın əsas daşıyıcılarından biri kimi təqdim edir. Onun poeziyasında müəllim – cəmiyyətin mənəvi sütunu, elm və insanlıq arasında körpü rolunu oynayan şəxsiyyətdir. Tədqiqatçı Yaşar Qarayev bu mövqeni belə ümumiləşdirir:
"Bəxtiyar xalqa poeziya ilə xidməti alim və müəllim xidməti ilə tamamlayır" (Qarayev, *1995, s.43).*
Qarayevin bu fikri Vahabzadənin müəllimlik və şairlik fəaliyyətini bir-birini tamamlayan vəhdət kimi təqdim etdiyini göstərir. Onun poeziyası yalnız estetik funksiyanı deyil, ideoloji, mənəvi və maarifləndirici funksiyanı da daşıyır. Vahabzadənin müəllim obrazını yüksək mənəvi dəyərlər və simvolik məna ilə yükləməsi onun maarifçi poeziya ənənəsinin çağdaş davamçısı və müstəqil Azərbaycan kontekstində formalaşan milli poeziya məktəbinin əsas nümayəndələrindən biri olduğunu təsdiq edir.

Ana dili və milli kimlik. Azərbaycançılıq ideyasının əsas dayaq nöqtələrindən biri olan ana dili məsələsi Bəxtiyar Vahabzadənin poetik yaradıcılığında xüsusi yer tutur. Şairin "Ana dili", "Azərbaycan dili", "Latın dili" və xüsusilə "Bu dil" adlı şeirləri dilin milli kimlik və mənəvi varlıqla əlaqəsini poetik dildə təqdim edir. Vahabzadə ana dilini yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də tarixi yaddaşın, milli şüurun və mənəvi irsin daşıyıcısı kimi dəyərləndirir.
"Bu dil" şeirində dilin nəsillərarası ötürülməsi ideyası, uşaq nitqinin açılması obrazı vasitəsilə ifadə olunur:

Qönçədən çıxıb
Gül açır nəvəm
Ana dilində
Dil açır nəvəm (*Vahabzadə, 2004, s.8*).
Burada uşağın ana dilində danışmağa başlaması yalnız bioloji bir mərhələ deyil, milli varlığın davamlılığı və mədəni kimliyin ötürülməsi aktı kimi poetikləşdirilir. Ana dili bu kontekstdə fərdi identiklikdən çox, kollektiv mənsubiyyətin ifadəsinə çevrilir.
Digər misralarda isə dil, torpaq və vətən anlayışları arasında vəhdət yaradılır:
Bu torpaq sənin
Bu dil sənindir.
Bu gözəl Vətən
Öz Vətənindir (*Vahabzadə, 2004, s.8*).
Bu poetik konstruksiyada "torpaq", "dil" və "Vətən" anlayışları eyni ideoloji sistemin komponentləri kimi çıxış edir və milli identikliyin əsas dayaqlarını formalaşdırır. Dilin yalnız ünsiyyət vasitəsi deyil, həm də mənəvi sərvət kimi təqdim olunması aşağıdakı misralarda öz təcəssümünü tapır:
Bu el – şöhrətin

Bu dil – qüdrətin
Sənə verdiyim
Böyük sərvətin (*Vahabzadə, 2004, s.8*).
Bu bədii yanaşma Vahabzadənin ana dili anlayışına verdiyi dərin mənəvi və ideoloji məzmunu ortaya qoyur. Tədqiqatçı Yavuz Axundlu bu aspekti belə ümumiləşdirir:
"Milliliklə bəşəriliyin qovuşması onun (Bəxtiyar Vahabzadənin - A.İ) yaradıcılığının əsas keyfiyyətlərindən biri kimi diqqəti cəlb edir" (*Axundlu, 1998, s. 95*).
Bu fikir şairin poeziyasında ana dili kimi milli dəyərlərin həm lokal (etnik və milli), həm də universal (bəşəri) səviyyədə təqdim olunmasının göstəricisidir. Beləliklə, "Bu dil" şeiri yalnız fərdi hisslərin deyil, həm də ümummilli şüurun və tarixi yaddaşın poetik ifadəsi kimi dəyərləndirilə bilər.

Tarixi yaddaş və vətənpərvərlik duyğusu. Bəxtiyar Vahabzadə poeziyasında tarixi yaddaşın dirçəldilməsi və milli qəhrəmanlıq ənənələrinin yeni nəslə aşılanması əsas ideoloji xətti təşkil edir. Şair xalqın keçmişinə hörmət, torpağın müqəddəsliyi və azadlıq ideallarını bir poetik sistem daxilində təqdim edir. Bu baxımdan onun "Vətən Marşı" adlı şeiri xüsusi əhəmiyyət daşıyır. Şeir vətənpərvərlik ruhunu, milli kimliyi və Azərbaycanın müstəqillik ideallarını ifadə edən simvolik poetik manifest kimi çıxış edir.

"Vətən uğrunda ölənlər ölümündən doğular" (*Vahabzadə, 2004, s.18*).

Bu misra Azərbaycan tarixində azadlıq uğrunda canını fəda etmiş qəhrəmanların xatirəsinə ehtiramı, onların mənəvi ölümsüzlüyünü ifadə edir. Vahabzadə üçün vətənin qorunması yalnız fiziki məkanın müdafiəsi deyil, həm də mənəvi bir vəzifədir. Bu ideya, vətən uğrunda şəhid olmuş insanların ruhunun yaşadılması ilə əlaqələndirilir və kollektiv milli şüurda dərin iz buraxır. Şairin poetik çağırışı təkcə emosional deyil, həm də ideoloji və vətəndaş məsuliyyəti daşıyan bir yanaşmadır.
Tədqiqatçı Şirindil Alışanlı bu yanaşmanın fəlsəfi əsasını belə şərh edir:

"Bəxtiyar Vahabzadə predmetin fəlsəfi-ictimai mahiyyətinə enməyi, hadisə arxasında gizlənən məzmunu göstərməyi üstün tutur" (*Alışanlı, 2016, s.106*).
Bu təsbit şairin "Məktəb şeirləri" silsiləsindəki məqsədi ilə də səsləşir. Vahabzadə məktəbi yalnız təhsil məkanı kimi deyil, eyni zamanda vətəndaşlıq, vətənpərvərlik və milli kimliyin formalaşdırıldığı mənəvi institut kimi təqdim edir. Bu şeirlər oxucuda vətənə bağlılıq hissini, tarixə və milli dəyərlərə ehtiramı gücləndirir və Azərbaycançılıq ideyasının poetik əsaslarının mühüm istiqamətini təşkil edir.

Bəxtiyar Vahabzadə yaradıcılığında kimlik və çağdaşlıq problemi. Bəxtiyar Vahabzadənin poetik yaradıcılığı zaman, şəxsiyyət və milli kimlik məsələlərinin qarşılıqlı münasibəti əsasında qurulur. Onun poeziyasında fərdin keçmişə bağlılığı ilə bərabər, çağdaş dövrün reallıqlarını qəbul edən və zamanla harmoniya içində yaşayan insan modeli təsvir olunur. Bu mövqe aşağıdakı misralarda aydın şəkildə əksini tapır:

"Öz kökümə güvənməklə
Öz yurdumun, torpağımın övladıyam.
Budaq-budaq qollarımla,
Çalın-çarpaz yollarımla
Atamdan çox,
Öz çağımın övladıyam" (*Vahabzadə, 2004, s.32*).

Burada şair fərdin həm tarixi köklərə, həm də müasir dövrə aidiyyətini vurğulayır. Soy-kök yaddaşı və çağdaşlıq arasında balans yaratmaq şairin şəxsiyyət konsepsiyasının əsas fəlsəfi dayaq nöqtəsidir.

Bu yanaşma Vahabzadənin vətəndaş-şair mövqeyindən irəli gəlir; insan yalnız keçmişin mirasına sadiq qalmaqla deyil, həm də zamanın sosial və mənəvi çağırışlarına cavab verməklə kamilləşə bilər. Şairin poetik-fəlsəfi dünyagörüşü simvolik metaforlarla daha da dərinləşdirilir. Onun məşhur misralarından biri bu yanaşmanı ümumiləşdirir: *Mən bir ağacam, yarpağı – sözlər, kökü – fikrim".*
Bu metafora insanın mənəvi kimliyini və yaradıcılıq fəlsəfəsini simvolizə edir. Burada "kök" — milli təfəkkür və ideologiyanın mənbəyini, "yarpaq" isə bu təməldən doğan poetik ifadələri, yəni sənət nümunələrini təmsil edir. Beləliklə, Vahabzadə üçün söz yalnız emosional təsir vasitəsi deyil, düşüncəyə və mənəvi dəyərlərə əsaslanan bir ifadə formasıdır.
Bu simvolik yanaşmanı tədqiqatçı Rüstəm Kamal aşağıdakı kimi dəyərləndirir:
"Onun metaforik–simvolik yaddaşında "ağac, ağacın kökü" yüksək işlənmə dərəcəsinə malikdir... Onun üçün türkün birliyi böyük bir ağacın kökündən gəlir" (Rüstəm Kamal*, 2016, s.113).*
Bu fikir göstərir ki, Vahabzadənin poeziyasında ağac yalnız fərdi deyil, eyni zamanda kollektiv milli şüurun, xalq birliyinin və mədəni yaddaşın rəmzinə çevrilir. Bu cür simvolik strukturlar onun poetikasında şəxsiyyətin təkcə fərdi yox, ictimai və ideoloji məsuliyyət daşıyan varlıq kimi təqdiminə xidmət edir.

Nəticə

Bəxtiyar Vahabzadənin "Məktəb şeirləri" silsiləsi yalnız uşaq auditoriyasına ünvanlanan poetik nümunələr deyil, həm də azərbaycançılıq ideyasının ideoloji-estetik daşıyıcısı kimi çıxış edir. Bu şeirlərdə məktəb, müəllim və təhsil yalnız bilik ötürən vasitələr kimi deyil, milli kimliyin formalaşdığı, vətənpərvərlik və mənəvi dəyərlərin aşılandığı mühüm mədəni institutlar kimi təqdim olunur.
Vahabzadənin poeziyasında müəllim obrazı maarifçi ənənənin davamı olaraq yüksək mənəvi və ideoloji yüklə təqdim edilir; o, gələcək nəsillərin formalaşmasında, xalqın intellektual və əxlaqi dirçəlişində həlledici rol oynayan simvolik fiqur kimi qiymətləndirilir. Şairin poetikasında ana dili və tarix kimi əsas milli dəyərlər isə sadəcə vəsait deyil, milli varlığın özülünü təşkil edən fundamental elementlərdir.
Beləliklə, Bəxtiyar Vahabzadənin "Məktəb şeirləri" silsiləsi Azərbaycan poeziyasında azərbaycançılıq ideyasının estetik kontekstdə uşaq və gənclərə ötürülməsi baxımından mühüm mərhələ təşkil edir. Bu silsilə Vahabzadənin təkcə şair deyil, eyni zamanda maarifçi, ideoloq və milli dəyərlərin carçısı kimi fəaliyyətini təsdiqləyən mühüm bədii-tərbiyəvi sistem kimi çıxış edir.

Ədəbiyyat siyahısı:

1. Akimova, E. (2016). Bir kəs ki, onun qibləsi yalnız Vətən oldu (s. 5–16). Bax: *Bəxtiyaram mən*. Bakı: Çaşıoğlu.
2. Alışanlı, Ş. (2016). Zamanın sınağında. Bax: *Bəxtiyaram mən*. Bakı: Çaşıoğlu Elm-İstehsalat.
3. Axundlu, Y. (1998). *İstiqlal şairləri* (s. 5–51). Bakı: Elm.
4. Əlizadə, Ə. (2022). *Bəxtiyar Vahabzadə*. Bakı: Elm və Təhsil.
5. Kərimova, S. Y. (2009). *Bəxtiyar Vahabzadə yaradıcılığında tərbiyə məsələləri*. Bakı: Nurlan.
6. Qarayev, Y. (1995). *Azərbaycanın Bəxtiyarı*. Bakı: Azərbaycan Nəşriyyatı.
7. Rüstəm, K. (2016). Həqiqət ağacı (s. 112–114). Bax: *Bəxtiyaram mən*. Bakı: Çaşıoğlu Elm-İstehsalat.
8. Vahabzadə, B. (1983). *Seçilmiş əsərləri* (İki cilddə, I cild). Bakı: Yazıçı.
9. Vahabzadə, B. (2004). *Seçilmiş əsərləri* (İki cilddə, I cild). Bakı: Öndər

TRANSİTİONAL PROCESSES (CONVERSİON) İN PARTS OF SPEECH. SUBSTANTİVİZATİON

ПЕРЕХОДНЫЕ ПРОЦЕССЫ (КОНВЕРСИИ) В ЧАСТЯХ РЕЧИ. СУБСТАНТИВАЦИЯ.

NİTQ HİSSƏLƏRİNDƏ KEÇİD PROSESLƏRİ(KONVERSİYA).SUBSTANTİVLƏŞMƏ.

Sadəddinli Nərmin Məmmədrasul qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Müasir Azərbaycan dili kafedrası, müəllim

Abstract
As we know, there is a connection between parts of speech and sentence members. Each part of speech is, as it were, affixed to a certain sentence member. For example: noun-predicate, adjective-determinant, verb-report, adverb-adverbial, etc.
Each part of speech can fully reveal its main categorical properties only when used in the role of the member it is attached to.
However, this does not mean that nouns can only be used as predicates and complements, adjectives as determiners, and adverbs as adverbs. Of course, this is not the case. Each part of speech can also perform other functions in addition to the member it is attached to. N.A. Baskakov writes about this: "...in Turkic languages, each part of speech can act as any sentence member".
F. Zeynalov's opinion on this is also interesting: "The syntactically wide scope of influence of parts of speech in adverbial languages, the ability of each part of speech to act as any sentence member, makes it difficult to classify them according to their function in the sentence." We can clearly see this in the example of nouns and adjectives. For example, in nouns: The herd was grazing in a sparse forest (A. Valiyev). Our society itself creates this feeling in people (H. Mehdi). But do not forget that I am a soldier who fought on the path of the revolution (J. Jabbarli). He stood leaning against a wooden fence (B. Abulfaz). In spring, mountains and valleys are covered with green. Of the nouns used in the above sentences, the herd is the subject, in people it is the complement, in soldiers it is the news, in wood it is the determination, in spring and in winter it is the adverb.
However, the interesting thing here is that all nouns are used equally in the predicate and complement functions. In these functions, nouns appear very natural, fully preserving their noun properties, and even their lexical questions and syntactic questions coincide. But this is not the case in other functions. First of all, nouns with a certain shade of significance in their meanings can be used in the adverbial function. Second, when nouns are used in these functions, a limitation manifests itself in them, they partially lose their noun properties, and in return, they acquire some adjectival and adverbial features. They become, in a way, analogues of those parts of speech. Third, certain differences are noticeable with their lexical questions. In general, nouns do not become adjectival when used in the predicate function, but become adverbial in the adverbial function.
Keywords: conversion, substantivization, predicate, news, complement, definition, adverb

Краткое содержание
Как мы знаем, между частями речи и членами предложения существует связь. Каждая часть речи как бы прикреплена к определенному члену предложения. Например: существительное-сказуемое, прилагательное-определитель, глагол-наречие, наречие-обстоятельство и т. д.
Каждая часть речи может в полной мере выразить свои основные категориальные признаки только тогда, когда она используется в позиции того члена, к которому она отнесена.

Однако это не означает, что существительные могут использоваться только как предлоги и дополнения, прилагательные — как определители, а наречия — как наречия. Конечно, это не так. Каждая часть речи может выполнять и другие функции в дополнение к тому члену, к которому она прикреплена. Об этом пишет Н.А. Баскаков: «...в тюркских языках каждая часть речи может выступать в качестве любого члена предложения».
Интересно мнение Ф. Зейналова по этому поводу: «Тот факт, что части речи в наречных языках имеют широкую синтаксическую сферу влияния, и способность каждой части речи выступать в качестве любого члена предложения, усложняет задачу их классификации по функции в предложении».
Мы можем это наглядно увидеть на примере существительных и прилагательных. Например, в существительных: Стадо паслось в редком лесу (А.Валиев). Наше общество само создает это чувство у людей (Х.Мехди). Но не забывайте, что я солдат, сражавшийся на пути революции (Дж.Джаббарлы). Он прислонился к деревянному забору (Б.Абульфаз). Весной горы и долины зеленеют.
В приведенных выше предложениях использованы следующие существительные: «sour mubtada», «amalık bir», «askeram hab», «akhat bir», «весной» и «зимой» соответственно.
Однако интересно то, что все существительные используются одинаково в функциях сказуемого и дополнения. В этих функциях существительные выступают очень естественно, полностью сохраняя свои существительные свойства, и даже их лексические и синтаксические вопросы совпадают. Однако в других функциях дело обстоит иначе. Прежде всего, в функции обстоятельства могут использоваться существительные, обладающие определенной степенью конкретности в своем значении. Во-вторых, при использовании существительных в этих функциях проявляется ограничение: они частично утрачивают свои свойства существительных и взамен приобретают некоторые адъективные и адвербиальные признаки. Они становятся своего рода аналогами этих частей речи. В-третьих, заметны определенные различия в лексических вопросах. Как правило, существительные не становятся прилагательными при использовании в функции определителя, но становятся обстоятельственными при использовании в функции обстоятельства.
Ключевые слова: конверсия, субстантивация, субъект, новость, полнота, определение, наречи

Xülasə
Bildiyimiz kimi,nitq hissələri ilə cümlə üzvləri arasında bir əlaqə vardır.Hər bir nitq hissəsi sanki müəyyən cümlə üzvünə təhkimdir.Məsələn: isim-mübtəda,sifət-təyin,feil-xəbər,zərf-zərflik və s.
Hər bir nitq hissəsi özünün əsas kateqorial xüsusiyyətlərini yalnız təhkim olduğu bu üzv vəzifəsində işləndikdə tam biruzə verə bilir.
Ancaq bu heç də o demək deyildir ki,guya isimlər yalnız mübtəda və tamamlıq,sifətlər təyin,zərflər zərflik vəzifəsində işlənə bilər.Əlbəttə,belə deyildir.Hər bir nitq hissəsi təhkim olduğu üzvlə yanaşı həmçinin digər vəzifələr də yerinə yetirə bilər.N.A.Baskakov bu haqda yazır: "...türk dillərində hər bir nitq hissəsi istənilən cümlə üzvü vəzifəsində çıxış edə bilər ".
F.Zeynalovun da bu haqda fikri maraqlıdır: "İltisaqi dillərdə nitq hissələrinin sintaktik cəhətdən geniş təsir dairəsinə malik olması,hər bir nitq hissəsinin istənilən cümlə üzvü funksiyasında çıxış edə bilmə qabiliyyəti onların cümlədəki funksiyasına görə təsnif olunması işini çətinləşdirir ".
Biz bunu isim və sifətlərin timsalında aydın görə bilərik.Məsələn,isimlərdə:**Sürü** seyrək meşəlik içi ilə yayılıb otlayırdı (Ə.Vəliyev).**Adamlarda** bu hissi cəmiyyətimizin özü yaradır (H.Mehdi).Lakin unutmayın ki,mən inqiliba yolunda vuruşmuş bir **əsgərəm** (C.Cabbarlı).O **taxta** hasara söykənərək durmuşdu(B.Əbülfəz).**Yazda** dağlar,dərələr yaşıla bürünür.
Yuxarıdaki cümlələrdə işlənən isimlərdən sürü mübtəda,adamlarda tamamlıq,əsgərəm xəbər,taxta təyin,yazda,qışda isə zərflik vəzifəsində çıxış etmişdir.

Ancaq burada maraqlı cəhət ondan ibarətdir ki,bütün isimlər mübtəda və tamamlıq vəzifəsində eyni dərəcədə işlənir.Bu vəzifələrdə isimlər özlərini çox təbii göstərir,isimlik xüsusiyyətlərini tam mühafizə edib saxlayır,hətta onların leksik sualları ilə sintaktik sualları üst-üstə düşür.Amma başqa vəzifələrdə belə deyildir.Əvvəla,müəyyən qisim,xüsusilə mənalarında əlamətlik çaları olan isimlər zərflik vəzifəsində işlənə bilir.İkincisi,isimlər bu vəzifələrdə işləndikdə onlarda bir məhdudluq özünü biruzə verir,isimlik xüsusiyyətlərini qismən itirir,bunun müqabilində bəzi sifəti və zərfi cəhətlər kəsb edir.Bir növ həmin nitq hissələrinin analoquna çevrilir.Üçüncüsü,leksik sualları ilə müəyyən fərqlər nəzərə çarpır.Ümumiyyətlə, isimlər təyin vəzifəsində işləndikdə adjektivləşmir,zərflik vəzifəsində adverbiallaşır.

Açar sözlər: konversiya, substantivləşmə, mübtəda,xəbər, tamamlıq, təyin, zərflik

THE CONCEPT OF HUMANITY, WORLD AND LIFE IN THE CREATIVE WORK OF BAHKHTIYAR VAHABZADE

BƏXTİYAR VAHABZADƏNİN YARADICILIĞINDA İNSAN, DÜNYA VƏ YAŞAM KONSEPTİ

Dr. dos.Nuralı Çələbiyev
ADPU-nun Şəki filialı

Abstract:
An outstanding representative of the poetic thought of the 20th century, a phenomenon of Azerbaijani literature and culture, people's poet Bakhtiyar Vahabzadeh occupies an honorable place in the history of our national literature with his works.
In his poems, dramas and lyric poems, the painful problems of our time were analyzed in the concept of man, world and life and found their artistic and poetic solution.
Commitment to the historical past, roots, freedom, the integrity of the Motherland, Turkism were the main life ideals of Bakhtiyar Vahabzadeh. One of the pioneers of the national liberation movement, the poet expressed the frightening tendencies of real life, its contradictions, and sensitively approached these problems in poetry and journalism.
Keywords:
Bakhtiyar Vahabzadeh, poet-citizen, poetry, man and world, concept of life, lyrical hero

Xülasə:
XX əsr poetik fikrinin görkəmli nümayəndəsi, Azərbaycan ədəbiyyatı və mədəniyyətinin fenomeni, xalq şairi Bəxtiyar Vahabzadə öz əsərləri ilə milli ədəbiyyat tariximizdə şərəfli yer tutur.
Onun poemaları, dram əsərləri və lirik şeirlərində zəmanəmizin ağrılı problemləri insan, dünya və yaşam konseptində təhlil olunmuş və öz bədii-poetik həllini tapmışdır.
Tarixi keçmişə, soykökə bağlılıq, azadlıq, Vətənin bütövlüyü, türkçülük Bəxtiyar Vahabzadənin əsas həyat idealları idi. Milli azadlıq hərəkatının öncüllərindən olan şair gerçək həyatın qorxulu tendensiyalarını, baş-başa dayanan təzadlarını dilə gətirir, poeziyada və publisistikada bu problemlərə həssaslıqla yanaşırdı.
Açar sözlər:
Bəxtiyar Vahabzadə, şair-vətəndaş, poeziya, insan və dünya, yaşam konsepti, lirik qəhrəman.

Giriş

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Bəxtiyar Vahabzadə ədəbiyyat tarixində öz xalqının istiqlalı uğrunda daim gərgin mübarizə aparmış vətəndaş şair kimi önəmli yer tutur. Millətinin azadlığı məsələsi onun yaradıcılığında milli kimliyi anlamaq və milli mənlik şüuru prizmasından keçir. Şairin poetik-fəlsəfi düşüncələrində və siyasi lirikasında Azərbaycanla bağlı fəxarət, milli qürür və ləyaqət üzvi şəkildə vətənpərvərliklə birləşir. O, öz varlığını, milli mənsubluğunu – soy-kökünü, tarixini, milli dəyərlərini tanıtmaq üçün çox gərgin mübarizə aparmış, bu yolda təqiblərə məruz qalmış, lakin əqidəsindən dönməmişdir. Bunlar azad insan və kölə münasibəti, vicdanlı və vicdansız münasibət, ədalət və ədalətsizlik, doğru və yalan, Xeyir və Şər və s. kimi elmi, əxlaqi, dini, fəlsəfi meyarlarla səciyyələndirilə bilər. Şair "Dünya" adlı şeirində dünya və həyatdakı müəmma və təzadları təsvir edir, onların sirləri qarşısında sanki aciz qaldığını bədii üslubda dilə gətirir, həm də gileylənir.

Yolunda sabitdir, ancaq insanı,
Gah yoxuşa salır, gah düzə dünya.

Bir üzü gecədir, bir üzü gündüz,
Dayanıb özüylə üz-üzə dünya.

Özü müəmmadir, sözü tapmaca,
Oğul istəyirəm, ondan baş açа,
Ahıla ahıldır, qocaya qoca,
Cavana görünür təptəzə dünya. (Vahabzadə, 1990: 184)

Bəxtiyar Vahabzadə poeziyasında ən çox diqqət çəkən mövzular sırasında insan, onun sosial və psixoloji mahiyyəti yer alır. Bu məsələni fəlsəfi-psixoloji aspektdə araşdıran şair dünyanın insan zəkası üzərində dayanmasına və idarə olunmasına baxmayaraq, onun özünün mahiyyətcə sirli-sehirli ali varlıq olduğunu dilə gətirir və onun heç zaman dünyanın tam dərk edə bilməyəcəyi düşüncəsinə qapanır. Onun fikrincə, həyat bir fəlsəfi hadisə, insan isə onun müəmmasıdır.

Ürək fikrin tilsimidir,
Hər qatı bir lay kimidir.
İnsan göydə Ay kimidir,
Görünməyən tərəfi var. (Vahabzadə, 2015: 230)

Bəxtiyar Vahabzadə "Bilə bildiyin qədər" adlı şeirində antik dünyanın filosoflarından tutmuş, zəmanəmizin hikmət sahiblərinədək ötən 2500 il ərzində alimləri düşündürən fəlsəfənin əsas məsələsinə - "dünya dərk ediləndirmi?" sualına özünəməxsus tərzdə cavab vermişdir. Şairə görə bəli, dünya dərk ediləndir. Lakin onun dərki subyektiv xarakter kəsb edir, yəni hər kəs dünyanı öz idrak səviyyəsində dərk edə bilər.

Bu dünyanın min donu
Min rəngi , min oyunu.
Dərk edirsən sən onu,
Bilə bildiyin qədər. (Vahabzadə, 2015: 200)

"Bəxtiyar Vahabzadənin şeirləri öz mütərəqqi ideya və məfkurə saflığı ilə digər şairlərin şeirlərindən əsaslı surətdə fərqlənirdi:belə ki, həmin əsrlərdə sanki gələcəkdə ünlü bir şairin, müqtədir söz sənətkarının bütün dünyada şöhrət qazanacaq qələm sahibinin öz Vətəninin, millətinin azadlığı, müstəqilliyi uğrunda şam kimi yanan ürəyin döyüntülərini açıq-aşkar görmək, hiss etmək mümkün idi" (Məhərrəmli, 2012: 387)

Bəxtiyar Vahabzadənin yaradıcılığında insan, dünya, zaman triadası kontekstində yaşam konsepti aparıcı yer tutur. "Şairin poetik düşüncələri zamanı qabaqlayır, Azərbaycanın hüdudlarını aşır, insanın gözü önündə qocaman, dünyaya səs salan, qədim tarixi ilə dünyaya öz adını yazan əzəmətli türk dünyasını canlandırır". (Zakirqızı, 2020: "Hürriyət" qəzeti, 11-13 yanvar, 13)

Bəxtiyar Vahabzadə poeziyasında sanki dünyanın fikir yükünü öz çiyinlərində daşıyır. Şairin düşüncələrindəki məna yükü məhz onun qələmindən süzülüb sətirlərə hopur. "Şair fikir yükünü də şeirin ən vacib əlaməti sayır. Burada söz və məfhum, dil və təfəkkür problemləri meydana çıxır. (Seyidov, 1985: 71)

Bəxtiyar Vahabzadə yaradıcılığında "... insani həyat təcrübəsi, ovqat, ənənəyə sadiqliyi, daim önəm verdiyi adətlər, müddəalar... mənəvi-ruhi dəyərlər misralara köçürülür, bundan sonrası isə göz önündə vərəqlənir, yaddaşlara yazılır. Şeirlərin ruhuna hopmuş hikmətlər, xalq ifadələri, aforizmlər-deyimlər, emosional məcazlar, fikir-obrazlar, qanadlı ifadələr dərin həyat müşahidələrinin, ixtiyar bir dünyagörüşünün məhsuludur". (Nuriyeva, 2012: 392)

Bəxtiyar Vahabzadənin yaradıcılığında başlıca yer alan motivlər sırasında insanın dünya ilə münasibətlərindən nəşət edən yaşam fəlsəfəsidir. Tarixi-milli kökdən uzaqlaşmaq onun poetikasında

özgələşmə, insanlığın ölümü kimi təqdim olunur. "Qorxuram bir zaman gələ, insanlar yaşaya, insanlıq ölə" – deyən şair şeirlərində poetik dillə qeyd edirdi ki, "Zəmanəmizdə insan fəaliyyətinin, onun əməyinin, səylərinin, düşüncə və əməllərinin nəticələri əks qüvəyə çevrilərək məhz insanın özünə qarşı dayanır. Özgələşmə insanla dünyanın, insanla insanın, cəmiyyətlə şəxsiyətin, zəka ilə varlığın, dillə gerçəkliyin, insanla təbiətin, insanla mədəniyyətin, insanla texnikanın münasibətlərini pozan, onları yadlaşdıran və bir-birinə düşmən edən qüvvə kimi çıxış edir" (İsmayılov, 1994: 174)

Şairin poeziyasında öz bədii inikasını tapan mövzu genişliyi, fikir sərbəstliyi, rasional idraka söykənən məntiq, bədii təzadlar onun əsərlərinin məna yükünü artırır. "Bəxtiyar Vahabzadə ağılın, düşüncənin, mükəməl idrakın tərəfdarıdır, ancaq bir şərtlə... o şərtlə ki, ağıl, düşüncə, idrak əxlaqlı olmalıdır". (Cəfərov, 1996: 40) O, dünyanın, həyatın ziddiyyətlərinin bir qismini təbiətin təməlində, digər qismini isə insan münasibətləri müstəvisində - cəmiyyətdə, insanların mənəvi-psixoloji simasında axtarır. Belə zidiyətlərdən doğan təzadlar şairin "Ölüm-həyat", "Qürbət-Vətən", "Nağıl-həyat", "Haqq-zülm", "İşıq-qaranlıq", "Saray-daxma" və s. kimi şeirlərində daha qabarıq əks olunmuşdur. "Sevincin mənasını öyrətsin qəmlər bizə"- deyən şair haqlı olaraq qeyd edirdi ki, sevinc-kədər ayrı, bir-birini əvəzetmə, bir-birinə qarşıdurma şəklində, həm də bir-biri ilə paralel olaraq özünü göstərir. "Həyatda elə anlar olur ki, bir şeyin, bir hadisə və prosesin həm kədərli, həm də sevincli tərəfləri, məqamları olur. Bunların nisbətində biri-digərinin hesabına artır və ya azalır" (Məmmədov, 1992: 133)

Lirik duyğuların bədii tərənnümçüsü olan Bəxtiyar Vahabzadənin yaradıcılığında fəlsəfi genişlik, poetik vüsət, insan və zaman, dünya və şəxsiyyət, insanın sosial-psixoloji mahiyyəti və s. kimi məsələlər poeziyada başlıca motivlər kimi ortaya çıxır, özünün idrak genişliyi və dərinliyi ilə diqqəti cəlb edir. "Dilimizin poetik imkanlarından məharətlə bəhrələnən şair fəlsəfi məzmunlu lirikanın gözəl nümunələrini yaratmağa nail olmuşdur. Onun mənəvi ucalıq, dünya və zaman, təbiət və insan həyatının mənası haqqında düşüncələrlə zəngin poeziyası ədəbi ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanmışdır". (Bayramova, 2019, "Səs" qəzeti, 16 avqust, 7)

Bəxtiyar Vahabzadə ədəbi janrın bir çox sahələrində yazıb-yaratmış, oxucuları düşündürən mövzulara geniş yer vermiş, bu mövzularda toxunduğu etik-fəlsəfi problemlərin uğurlu bədii həllimi tapmağa nail olmuşdur. Onun yaradıcılığında insanla dünyanın qarşılıqlı münasibətləri, bu münasibətlərdən nəşət edən problemlər özləri qədər geniş və rəngarəngdir. "Bəxtiyar Vahabzadənin lirik qəhrəmanı inanlara həyatın mənasını, yaşamaqda insanın məqsədi nə olmalıdır? - kimi sualların mahiyyətini onlara başa salmaqda yardımçı olur". (Hümmətova, 2012, 46-49)

Şairin poetik yaradıcılığında məhəbbət mövzusu diqqət çəkən mövzulardandır. Onun şeirlərində insanların bir-birinə məhəbbəti ülvi hiss kimi təqdim olunur. İnsanı həyata bağlayan, həyatı sevdirən əsl məhəbbət qarşılıqlı cəzbetmə, səadətlə birləşən subyektiv tələbat, insanı arzu etdiyi səadətə qovuşduran yüksək mənəvi- estetik hiss kimi təqdim olunur, həyatı sevmək təşviq edilir.

Bir ömrü illərlə ölçmək düz deyil,
Ömürlə illəri ölçəsən gərək.
Hissinlə, qəlbinlə dinlə, nə deyir,
Bu duyan, bu yanan alışan ürək...
Yaşarkən
həyatı sevirəm...
nə qəm,
Öləndə ölümlə sevişəcəyəm. (Vahabzadə, 1981: 128)

Dünya, həyat və yaşam tərzində insanların qarşılaşdığı təzadlar şairin şəxsi yaşam tərzi və poetikasında belə əks olunur:

Ömür köhlənimi daşlara sürdüm,
Gah coşub-kükrədim, gah köks ötürdüm.
Həmişə dünyanı mən belə gördüm:

İştah bir tərəfdə, aş bir tərəfdə.

Əzəldən qayğısız doğula insan,
Ya da qəm çəkməyə dağ ola insan.
Gah sağa boylanır, gah sola insan,
Bahar bir tərəfdə, qış bir tərəfdə. (Vahabzadə, 1990: 178)

Şairin poetikasında öz əksini tapan fəlsəfi düşüncələr həyatın mənası, yaşam tərzi prizmasında nəzərdən keçirilir, "həyat və ölüm" tandemində ölüm həyatın acı sonluğu və ən dəhşətli qorxu kimi təqdim olunur. Şairə görə, ölüm bəşəri mövcudluğun sonu, həyatın radikal dəyişməsi, heçliyə çevrilməsidir. Ölüm fərd üçün fasiləsiz zaman axınının kəsilməsi, fiziki mövcudluğun başa çatması, həyatın heçliyə çevrilməsidir. Ölüm haqqında düşünən hər bir insan zamanı qabaqlayır, öz varlığını daha da zənginləşdirir, bir sözlə, elə yaşamağa çalışır ki, ölüm onu yer üzündən, zamandan və tarixdən silə bilməsin. Şairə görə, belə yaşam ləyaqətli yaşamdır.

... Könül, bulan, könül durul,
Hər gün səfərə hazır ol.
Ömür dedin – beş addım yol,
Beşik-qəbir arasında. (Vahabzadə, 1991: 113)

Başqa bir şeirinə şair ölümün qaçılmaz gerçək olduğunu dilə gətirir, insanın yaşam fəlsəfəsində bu acı sonluğun insanı həyatdan soyutduğunu vurğulayır, dünyanı vəfasızlıqda günahlandırır. "Bəxtiyar Vahabzadənin həyata dair görüşləri, etiqadla bağlı düşüncələri, xəyaldan həqiqətə qovuşma cəhdi, gerçəyi tapma axtarışı, gələcəklə bağlı təsəvvürləri və nəhayət bütün bunlarla əlqədar baxışını ifadə edən şəxsi həyat fəlsəfəsi ölüm fikri düşüncələrində cərəyan edir". (Erol Kemal, 2012: 27)

Döydü qapısını ölüm qonşunun.
Ey vəfasız dünya, bu imiş sonun?
Bəlkə... ölmək üçün yaşayırdı o?
Söylə, etibarın, ilqarın bumu? (Vahabzadə, 1991: 135)

Həyatda ləyaqətli ömür sürüb səadətə, uca məqamlara yetişmək heç də asan deyil. Bu məqsəd və mərama yetişmək üçün həyat amansız mübarizə meydanıdır. Bir-biri ilə təzad yaradan bu barışmaz ziddiyyətlər məkanında zaman ən ədalətli hakim rolunda çıxış edir. "Sanki Bəxtiyar Vahabzadənin bütün əsərlərində... şəxsiyyətin mahiyyəti, həyatda hansı məqsədə qulluq etməsi onun ictimai münasibətlərində öz əksini tapır. Xeyirlə Şərin, ləyaqətlə çirkin ehtirasın, pisliklə yaxşılığın bədii mübarizəsi onun dramlarının, poemalarının əsasını təşkil edir, desək, yanılmış olmarıq". (Xəlilov, 2012: 433-438)

Bəxtiyar Vahabzadənin "İki qorxu", "Ləyaqət", "Atılmışlar", "Təzadlar" və s. kimi poemalarında millilik, vətənpərvərlik, fəlsəfi düşüncələr, sevgi və insanlıq, yaşam tərzi kimi məsələlər daha qabarıqdır. "Bəxtiyar Vahabzadə şeirlərində, poemalarında dünyada baş verən irili-xırdalı bütün hadisələrə güclü bir reaksiya verən şair-publisistdir". (Cəfərov, 1996: 25)

Görkəmli Azərbaycan şairi, dramaturqu və ədəbiyyatşünas alim kimi şeirləri, dram əsərləri poemaları və ədəbi tədqiqatları ilə milli ədəbiyyatımıza böyük töhfələr vermiş B.Vahabzadə "Atılmışlar" poemasında həm gənc tələbə qızın öz səhvi ucbatından aldadılaraq, ehtirasına qurban getdiyini, dünyaya gətirdiyi körpəsini ataraq, analıq instinktindən uzaqlaşmağa çalışdığını, bu zaman ağıl ilə hissin mübarizəsini poetik dillə məharətlə təsvir edir, həm də iyirmi yaşında dul qalan, iki oğul anası gənc qadının müsibətlərindən, gəlinin təkidi ilə nankor oğlunun onu qocalar evinə göndərməsindən ürək ağrısı ilə söz açır, öz doğmalarına yad olanlara ən ağır cəza tələb edir.

Məhkəmə qorulsun!
Atılmışların
Uzaq, gözdən uzaq sığınacağına,
Vicdanlar əyləşsin o gün hakimin
Biri sol yanında, biri sağında.

Məhkəmə qurulsun, hökm verilsin,
Hər kəs haqqını yox, borcunu bilsin!
Balasını atan analar ilə
Anasını atan balalar gəlsin. (Vahabzadə,1981: 328)

Bəxtiyar Vahabzadə poeziyada, bədii yaradıcılığın bir çox janrlarında olduğu kimi, publisistika sahəsində də ehtiras və sövq ilə yazıb yaratmış, çağdaş cəmiyyətin həyatındakı ictimai-siyasi proseslərə, insanların mənəvi-psixoloji aləmində yaşam konseptində baş verən hadisə və meyllərə vətəndaş- şair mövqeyindən öz münasibətini bildirmişdir.
“Bəxtiyar poeziyasının ümumi arxitektonikasında gərilmiş bir ruh-dramatizm ruhu hakimdir. Bu dramatizm onun sujetli lirik şeirlərində də epik monumental poemalarında da kifayət qədər qabarıqdır” (Feyziyev, 2015: 14)

İnamla ucaltdıq anamız yeri,
Biz möhtac olmadıq, dosta, düşmənə,
Dəmir çəpərləri, daş hasarları
Dişimlə sökərəm, ümid ver mənə!
Həsrət də, hicran da deyil qorxulu,
Ümidlə açılır hər eşqin yolu. (Vahabzadə, 2015: 49)

Onun müasir mövzularda qələmə aldığı “İkinci səs”, “Fəryad”, “Hara gedir bu dünya”, “Vicdan”, “Ləyaqət”, “Atılmışlar”, “Özümüzü kəsən qılınc”, “Cəzasız günah” və s. kimi lirik-psixoloji və fəlsəfi pyeslərində yaşadığımız real, qloballaşan dünyanın ağrılı problemləri, insan-dünya-zaman triadasında təhlil olunur, insan münasibətləri aspektində ağıllı çıxış yolları axtarılır.
“Vətənin səadəti, ərazi bütövlüyü uğrunda mübarizə şairin ölməz idealları idi. Bəxtiyar Vahabzadə Urmiya gölündən Dərbəndə qədər uzanan tarixi torpaqlarımızın bütövlüyü uğrunda mübarizə aparan bir vətəndaş idi”. (Məmmədov, 2020: 4)
Ana dilimizin, azərbaycançılığın qorunub saxlanılmasında Bəxtiyar Vahabzadənin rolu danılmazdır. Onun həm poeziyasında, həm də “Ana dilim -ana köküm”, “Dil haqqında sorğu”, “Dil və əlifba”, “Ana dili dövlət dili” və s. kimi publisistik məqalələrində dilimizin saflığının qorunması dönə-dönə vurğulanır. “Böyük söz ustası xalqımızın yüzillər boyu təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərin qorunması, adət-ənənələrimizin yaşadılması naminə altmış ildən artıq bir müddət ərzində yazıb yaratmışdır”. (Bayramova, 2019: “Səs” qəzeti, 16 avqust, 7)
Bəxtiyar Vahabzadə lirikası üçün fəlsəfi-psixoloji üslub xarakterikdir. Onun poetik təfəkkür mədəniyyəti millilikla bəşəriliyin sintezidir. Lakin o, insanın mənsub olduğu xalqın dəyərlərini daha üstün tutmağı, millilikdən bəşəriliyə doğru yüksəlişi əsas götürür. Bəxtiyar Vahabzadə öz siyasi - fəlsəfi görüşlərinə görə əqidə və məslək adamı idi. O, bəzilərinin zaman-zaman damğalamağa çalışdığı və “millətçi şair” adlandırdığı millətçi yox, milli ruhun tərənnümçüsü idi. Bu mənada klassik alman fəlsəfəsinin yaradıcılarından biri Vilhelm Hegelin “Əsl tarixi təkamül milli ruhdur” – fikri dediklərimizi təsdiqləyir.
Yaşadığımız çağdaş zəmanə milli istiqlalın və müstəqilliyin möhkəmləndirilməsi, daha da inkişaf etdirilməsi uğrunda gərgin mübarizə dövrüdür. Bəxtiyar Vahabzadə istiqlal şairi kimi ötən əsrin 80-cı illərinin sonlarında başlanan milli azadlıq hərəkatının öncüllərindən biri kimi poeziyası və

publisistikasında daim şair-vətəndaş mövqeyində dayanmış, ana dili, onun yad təsirlərdən qorunması uğrunda daim mübarizə aparmış, milli-mənəvi dəyərlərin qorunması yolunda gərgin əmək sərf etmiş "Vətəndaş", "Vətən var" kimi şeirlərində əsl vətəndaş – şair mövqeyində dayanmışdır.
"Bəxtiyar Vahabzadə Vətəni olan şəxsiyyətdir – sözün əsl mənasında Vətəndaşdır. Onun dərin inamına görə, Vətəni sevməyən şəxs vətəndaş deyil, "mənəvi mühacir"dir". (Cəfərov, 1996: 10)

... Dünya quru bir səs,
Qəm çəkməyə dəyməz.
Yüz-yüz itən olsun,
Min-min də bitən var.
Şükr eyləyəlim ki,
Bizlərdən həm əvvəl,
Həm sonra Vətən var.... (Vahabzadə, 2015: 25)

Nəticə

Uzun onilliklərdir ki, unudulmaz şair Bəxtiyar Vahabzadənin poetik-fəlsəfi düşüncələrini sətirlərdə yaşadan lirik şeirləri, poemaları, sözlərinə yazılmış mahnılar onu sevənlərin ruhunu oxşayır. O, fəlsəfi məzmunlu dərin lirikası ilə öz düşüncələrini oxucularla bölüşür, xalqın sevgisi ilə özünə əbədiyaşarlıq qazanır.

Ədəbiyyat

1. Bayramova Z. (2019) Bəxtiyar Vahabzadə dünyasının hikməti. "Səs" qəzeti, 16 avqust.
2. Cəfərov N. (1996) Bəxtiyar Vahabzadə. Bakı, "Azərbaycan" nəşriyyatı.
3. Erol Kemal (2012). Bahtiyar Vahabzadenin şiirlerinde hayat felsefesi. // I Beynəlxalq Bəxtiyar Vahabzadə Simpoziumunun Materialları. Bakı/ Azərbaycan Qafqaz Universiteti, 13-15 dekabr, s.27-36.
4. Feyziyev C. (2015) Bəxtiyar Vahabzadənin "Örtmə pəncərəmi" seçmə şeirlər toplusuna ön söz. Bakı, "Renessans-A".
5. Günəş Zakirqızı. (2020) Bir yerdə ölüb, bəs niyə min yerdə doğuldu...? "Hürriyyət" qəzeti, 11-13 yanvar.
6. Hümmətova X. (2012) Bəxtiyar Vahabzadə yaradıcılığı fəlsəfi düşüncələrin axarında. // I Beynəlxalq Bəxtiyar Vahabzadə Simpoziumunun Materialları. Bakı/ Azərbaycan Qafqaz Universiteti, 13-15 dekabr, s.46-49.
7. Xəlilov H. (2012) Bəxtiyar Vahabzadə yaradıcılığında mənəviyyat məsələləri. // I Beynəlxalq Bəxtiyar Vahabzadə Simpoziumunun Materialları. Bakı/ Azərbaycan Qafqaz Universiteti, 13-15 dekabr, s.433-438.
8. İsmayılov F. (1994) İnsan və dünya. Bakı, Azərbaycan Dövlət Kitab Palatası.
9. Məmmədov Q. (1992) İnsan və zaman. Bakı, Azərbaycan Dövlət Poliqrafiya Birliyi.
10. Məmmədov V. (2020) Mənim ölməz ideallarım. "Ədalət" qəzeti, 22 fevral.
11. Məhərrəmli Q. (2012) Bəxtiyar Vahabzadənin poeziyası və milli-mənəvi dəyərlərimiz. // I Beynəlxalq Bəxtiyar Vahabzadə Simpoziumunun Materialları. Bakı/ Azərbaycan Qafqaz Universiteti, 13-15 dekabr, s.386-390.
12. Nuriyeva M. (2012) Bəxtiyar Vahabzadə - sözlə nəqş olunmuş mənəviyyat mənzərələri. // I Beynəlxalq Bəxtiyar Vahabzadə Simpoziumunun Materialları. Bakı/ Azərbaycan Qafqaz Universiteti, 13-15 dekabr, s.391-394.
13. Rassel B. (2012) Qərb fəlsəfəsi tarixi. Bakı, "Mütərcim".
14. Seyidov Y. (1985) Şairin fikir dünyası. Bakı, "Bilik Cəmiyyəti".
15. Vahabzadə B. (1981) Payız düşüncələri. Şeirlər. Bakı, "Yazıçı".
16. Vahabzadə B. (1990) Lirika. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı.

17. Vahabzadə B. (1991) Nağıl-həyat. Şeirlər və poemalar. Bakı, “Yazıçı”
18. Vahabzadə B. (2015) Örtmə pəncərəni. Bakı, “Renesans-A”.

BAKHTİYAR VAHABZADEH AS THE SYMBOL OF INDEPENDENCE AND TURKİSM IDEOLOGY İN OUR POETRY

АДРЕС НЕЗАВИСИМОСТИ И ИДЕОЛОГИИ ТЮРКИЗМА В НАШЕЙ ПОЭЗИИ — БАХТИЯР ВАХАБЗАДЕ

POEZİYAMIZDA İSTİQLAL VƏ TÜRKÇÜLÜK MƏFKURƏSİNİN BƏXTİYAR VAHABZADƏ ÜNVANI

ELMAN Quliyev
Filologiya Elmləri Doktoru, Professor Azərbaycan Dövlət Pedaqoji Universiteti
Türkoloji Mərkəzin Türk Ədəbiyyatı Bölməsinin Müdiri

Xülasə
Bəxtiyar Vahabzadənin ciddi milli istiqlal baxışları ilə həssas, incə və səmimi lirik düşüncələrinin sərhədləri çərçivəsində formalaşmış yaradıcılığını bütöv halda böyük ədəbiyyat hadisəsi hesab etmək olar. Bəxtiyar Vahabzadə poeziyasının bütün məqamlarında mahiyyət insan, zaman və cəmiyyət kontekstindən kənara çıxmır. Mövzu və məzmun rəngarəngliyini, mobil şəkildə fərqli hadisələrə keçidi, millilik estetikasının standartlardan kənar ifadə bacarığını bu sənətin başlıca keyfiyyəti kimi önə çəkmək olar. Bəxtiyar Vahabzadə poeziyasında hürriyyət, vətən və millət eşqi, azadlıq mücadiləsi və s. məsələlər ayrıca bir xətt təşkil edir. Bu baxımdan vətən eşqini, azadlıq zövqünü, haqsızlığa qarşı etiraz ruhunu millətə aşılayan Bəxtiyar Vahabzadəni böyük şair, qüdrətli bir ədib deyil, insanları milli ruhda düşündürən, onları mübarizəyə səsləyən bir inqilab və bir ideal adamı hesab etmək olar.
Açar sözlər: Bəxtiyar Vahabzadə, istiqlal, vətən, millilik, bütöv Azərbaycan

Abstract
Bakhtiyar Vahabzadeh's literary work, shaped within the boundaries of his deep national independence perspective and his sensitive, delicate, and sincere lyrical thinking, can be considered a major event in literature as a whole. In every aspect of Vahabzadeh’s poetry, the essence remains rooted in the context of humanity, time, and society. The diversity of themes and content, the dynamic transition between various events, and the unique expression of national aesthetics beyond standard conventions can be highlighted as key qualities of his art. In his poetry, themes such as freedom, love for the homeland and the nation, and the struggle for liberty constitute a distinct line. From this point of view, Bakhtiyar Vahabzadeh, who instilled the love for the homeland, the taste of freedom, and the spirit of resistance against injustice in his nation, can be regarded not just as a great poet or a powerful writer, but as a revolutionary and an idealist who awakened national consciousness and called people to struggle.
Keywords: Bakhtiyar Vahabzadeh, independence, homeland, nationality, united Azerbaijan

Резюме
Творчество Бахтияра Вахабзаде, сформировавшееся в рамках его серьёзных взглядов на национальную независимость и тонкого, чувствительного, искреннего лирического мышления, можно считать значительным явлением в литературе. Во всех аспектах поэзии Вахабзаде суть остаётся в контексте человека, времени и общества. Разнообразие тем и содержания, динамический переход к различным событиям, умение выражать национальную эстетику вне стандартов — всё это можно выделить как главные качества его искусства. В поэзии Бахтияра Вахабзаде темы свободы, любви к Родине и нации, борьбы за независимость и другие занимают особое место. С этой точки зрения, Бахтияра Вахабзаде можно считать не

просто великим поэтом или могущественным писателем, а революционером и идеалистом, пробуждающим национальный дух и призывающим народ к борьбе.

Ключевые слова: Бахтияр Вахабзаде, независимость, Родина, национальность, единый Азербайдж

Poetik təfəkkürün millilik dəyərlərinin intəhasızlığı, ictimai-fəlsəfi düşüncənin mükəmməlliyi, milli istiqlal məfkurəsinin böyüklüyü, vətəndaş-şair mövqeyinin bütövlüyü, milli-mənəvi özünüdərkin fərqli şəkildə təqdimi və təbliği baxımından seçilən Bəxtiyar Vahabzadə yaradıcılığını ədəbiyyatımızın "Bəxtiyarnamə" mərhələsi adlandırsaq, yəgin ki, səhv etmərik. Bu mənada Bəxtiyar Vahabzadənin ciddi milli istiqlal baxışları ilə həssas, incə və səmimi lirik düşüncələrinin sərhədləri çərçivəsində formalaşmış yaradıcılığını bütöv halda böyük ədəbiyyat hadisəsi hesab etmək olar.
Dahi Azərbaycan şairi M.Şəhriyarın keçən əsrin 70-ci illərində Arazın o tayından bu tayına Süleyman Rüstəmə göndərdiyi şeirdən bir bəndi xatırlatmaqla fikirlərimi davam etmək istərdim:

Qardaşların gözündən öp,
Bəxtiyarın üzündən öp,
Səmədin də sözündən öp.
Mən də təkəm, sizə qurban,
Tək canım hammuza qurban.

Böyük Şəhriyarın böyük Bəxtiyara bu cür doğma münasibəti və qəlb bağlılığı səbəbsiz deyil. Çünki hər iki Böyükün içində, ruhunda bütöv Azərbaycan amalı yaşamışdır:

O taydadır Şəki, Şirvan, Qarabağ,
Bu tayda da Meşgin, Əhər, Qaradağ,
Bir- birlərin Arazdan almış soraq,
Araz bizi ayırmadan dağlayıb,
Son özü də gecə-gündüz ağlayıb.
(M.Şəhriyar)

Arazın
Bu tayı Vətənim,
O tayı Vətənim
Vətəni görməyə amanım yox mənim...
Bu qəmim, bu dərdim dağlardan ağırdı.
Arazın suyuna qarışıb axıram
Füzuli həsrətlə qürbətdən Vətənə baxırdı,
Mən isə...
Vətəndən Vətənə baxıram.
(B.Vahabzadə)

Bu nümunələrdə iki böyük türk – iki böyük Azərbaycan şairinin parçalanmış Azərbaycan fəryadını, iki yüz illik dərd yaşımız olan "Araz dərdlərini" müşahidə etmək çətin deyil.

Bütöv Azərbaycan idealı Şəhriyar və Bəxtiyar poeziyasının poetik mahiyyətində üst-üstə düşən əsas məqamlardan biridir. Hər iki yaradıcılıqda Azərbaycanın parçalanma vəziyyətinə narahatçılıq münasibəti açıq-aydın hiss edilir. Bu səbəbdən hər iki yaradıcılıqda Azərbaycanın bölünmə faktı ayrılıq, həsrət, kədər motivini nəinki yaradır, həm də aparıcı xəttə çevirir.

Əgər Şəhriyar,- Göz yaşımsan, ay Araz, qoyma gözün baxsa da görsün,
Nə yaman pərdə çəkibsən iki qardaş arasında, - deyirsə, tarixi bölünmə dərdimizi Bəxtiyar belə ifadə edir:

İki əsrdir ki, o daş körpünün
O tayında mənəm, bu tayında sən
Sökülüb dağılır daşlar günbəgün
Sərhəd diləkləri xəbərsiz oldu
Bizim qəlbimizdən keçən körpüdən.

Diqqət etdikdə görürük ki, hər iki dahi şairdə ayrılıq dərdi faktik mövcudluğun, reallığın xalqımızın psixologiyasında yaratmış olduğu düşüncələr dairəsində məna qazanır. Belə vəziyyətdə hər bir Azərbaycan vətənpərvəri öz dərdini, öz faciəsini misralarda ehtiva olunan kədərli, emosinal duyğular içərisində yaşasa da, qovuşmağa, birləşməyə də ümidlərini itirmir. Bu yanaşma Şəhriyarda ifadəsini belə tapır:

Qoy gəlim bir qucaqlaşaq, öpüşək,
Bir çəkək ruzigar əlindən dad
Tanrının şükür edək cəlalına ki,
Bu qədərlikcə olmuşuq azad,

Gün o gündür ki, həq yolun düzlər,
Onda bizdə düzü düzə qoşarıq
Ayırammaz o gün bizi şəmşir
Əbədi vəsl üçün qucaqlaşarıq.

Bu məqam şair Bəxtiyar yaradıcılığında isə bu cür ifadə olunur:

Məni görən kimi sən hönkürərək
Açdın qollarını
Qucaqlaşdıq biz
Bu gün qucaqlaşan qollarımız tək
Nə vaxt birləşəcək bəs Vətənimiz?

Bəxtiyar Vahabzadəyə məxsus "nə vaxt birləşəcək bəs Vətənimiz?"
misrasının ritorikası Şəhriyarın "əbədi vəsl üçün qucaqlaşarıq" misrasındakı fikirdə tamamlanır. Qeyd etmək lazımdır ki, Şəhriyar yaradıcılığında özünü göstərən cəhətlərdən biri də xalqın öz taleyinin öz əlində olmaq arzusunun ifadəsidir. Demək olar ki, o bir şair, bir vətəndaş kimi parçalanmış Azərbaycan xalqının taleyinin başqalarının əlində olmasını ürəkdən acımış, "bir millətə olarmı yüz hökumət", "qalmışam mən bu tayda qolu bağlı, asılı" və s. deyərək haray qoparmışdır. Müstəqillik qazandığımız illərə qədər bu ideya Bəxtiyar Vahabzadə yaradıcılığı üçün də səciyyəvi olmuşdur:

Azadlıq- səhərimdir,
Gündüzüm, axşamımdır.
Eşqimdir, ilhamımdır,
Əsl haqqımdır mənim – deyən Bəxtiyar Vahabzadənin azadlıq amalının bütöv Azərbaycan ünvanlı olması şübhəsizdir. Bəxtiyar Vahabzadə Arazın şimalında qazanılan istiqlalımızı yüksək qiymətləndirmiş, onu xoşbəxtliyimizin məlhəmi hesab etmişdir:

İstiqlal qazandı quzeydə ölkə
Bunu gözləmişdim millət yetmiş il

Dövlət müstəqilliyimizin əldə olunması bütün həyatı boyu o tay-bu tay problemlərini önə çəkən Bəxtiyar Vahabzadə düşüncəsində bu taydan- o taya düşən azadlıq işığının simvolikasına çevrilir. Bu simvolika qətiyyətin, inamın, ümidin rəmzidir, millətin azaqlıq bəyanatıdır:

Əsarət zəncirini
Mən qırmaq istəyirəm,
Qollarım azad olsun.
Gəzib bütün dünyanı
Arzumu qulaqlara,

Bağırmaq istəyirəm.
Yollarım azad olsun.
İçib-içib doyunca
Azadlıq çeşməsindən,
Söndürəydim odumu.

İctimai-fəlsəfi və istiqlal düşüncələrinin üstünlük qazandığı Bəxtiyar Vahabzadə poeziyasının bütün məqamlarında mahiyyət insan, zaman və cəmiyyət kontekstindən kənara çıxmır. Mövzu və məzmun rəngarəngliyini, mobil şəkildə fərqli hadisələrə keçidi, millilik estetikasının standartlardan kənar ifadə bacarığını bu sənətin başlıca keyfiyyəti kimi önə çəkmək olar.
Bəxtiyar Vahabzadə sənəti şair ömrünün və şair taleyinin bədii əksi olmaqla yanaşı, geniş mənada milli taleyimizin və istiqlalımızın obrazlı poetik təqdimatıdır:

O acı fəryadlar, şirin nəfəslər
Mənim də könlümün ahı, naləsi!
Qardaşım, Təbrizdən gələn bu səslər
Bakının səsidir, Bakının səsi!

Deyirsən yarıya bölünənlərin,
Dərdini dünyada bir bilməyən yox.
Biz də bölünmüşük, ancaq bu dərdi
Uca kürsülərdən heç bir deyən yox.

İstiqlal ədəbiyyatımızın bariz nümunəsi hesab olunan Bəxtiyar Vahabzadə şeirlərinin yazılması tarix etibarilə keçən əsrin 50-ci illərinə gedib çıxır. Rus-sovet ideoloji siyasətinin ən amansız dönəmində Bəxtiyar Vahabzadə yaradıcılığının qırmızı xətti olan milli-ictimai qayə onun milli qeyrətindən, milli cəsarətindən və təpədən dırnağa Azərbaycançılıq amalına sədaqətindən doğur:

Ayrılır ikiyə bir el, bir vətən.
Axıdıb gözündən yaş gilə-gilə
Bu dəhşətli hala nə deyir Vətən?
Bir deyən olmadı, durun ağalar!
Axı bu ölkənin öz sahibi var.
Siz nə yazırsınız bayaqdan bəri,
Bəs hanı bu yurdun öz sahibləri?
Bəs hanı həqiqət, bəs hanı qanun?
Böyükdür bu yurdun tarixi, yaşı.
Bəs hanı köksünə sərhəd qoyduğun,
Bir vahid ölkənin iki qardaşı?
Axı kim bu haqqı vermişdir sizə?
Sizi kim çağırmış Vətənimizə?

1959 -cü ildə yazılmış bu nümunələri bir tərəfdən Bəxtiyar Vahabzadənin Vətən bütövlüyü haqqımızı əlimizdən alan rus-fars müqaviləsinə etirazı, başqa tərəfdən Vətən təəssübkeşliyi fonunda şairin Azərbaycanı ikiyə parçalayanlara qarşı ittihamnaməsi, digər tərəfdən isə "Tək bir vətən -bütöv Azərbaycan" qayəsinin təbliği şəklində təəssübkeş vətəndaş-şair mövqeyinin göstəricisi kimi dəyərləndirmək daha dürüstdür.
Bəxtiyar Vahabzadə poeziyasında hürriyyət, vətən və millət eşqi, azadlıq mücadiləsi və s. məsələlər ayrıca bir xətt təşkil edir. Bu baxımdan vətən eşqini, azadlıq zövqünü, haqsızlığa qarşı etiraz ruhunu millətə aşılayan Bəxtiyar Vahabzadəni böyük şair, qüdrətli bir ədib deyil, insanları milli ruhda

düşündürən, onları mübarizəyə səsləyən bir inqilab və bir ideal adamı hesab etmək olar. Yeri gəlmişkən bir inqilab və bir ideal adamı olan Bəxtiyar Vahabzadə poeziyası ilə türklərin üç inqilabçı şairləri olan Namiq Kamal, Tofiq Fikrət M.A.Ərsoy yaradıcılıqları arasında paralellər müəyyənləşdirmək mümkündür. Türkiyə türk ədəbiyyatının adı çəkilən hər üç şairi kimi Bəxtiyar Vahabzadə yaradıcılığı da özünün siyasi tutumuna görə kifayət qədər zəngindir. Mustafa Kamal Atatürkün Namiq Kamal haqqında dediyi "Vətənin qurtuluşu və istiqlalı üçün ölməyi bu günkü nəslə Namiq Kamal öyrətdi. Namiq Kamaldan gələn səsin sehrinə qapılmışıq. Bu səs ruhumuzu şimşək kimi çaxdırdı! Bu səs indiyədək oxuduğum şeirlərdəki səsə oxşamırdı" - fikirlərini tərəddüd etmədən Bəxtiyar Vahabzadəyə də aid etmək olar.

Qalxın, ey əhli vətən, biz də şadan olalım,
Dini-millət uğrunda, haydı, qurban olalım.
Şan günü bu gündür, bu millətin aslanları,
Çəkəlim qılıncları, tökəlim al qanları.

Namiq Kamala aid olan bu şeir parçasında mövcud ideya Bəxtiyar Vahabzadə poeziyasına məxsus nümunədəki fikirlərlə yaxından səsləşir:

Qoy qalxsın ayağa ruhu Tomrisin,
Babəkin qılıncı parlasın yenə.
Qoy ildırım çaxsın, titrəsin cahan,
Ürəklər qəzəbdən çoşsun, partlasın.
Daim haqq yolunda qılınc qaldıran,
İgid babaların goru çatlasın.

Bəxtiyar Vahabzadə yaradıcılığı milli-mənəvi özünüdərk səviyyəsinə görə kifayət qədər yüksəkdir. Bu tipli şeirlərdə şair insan mənəviyyatının dərinliklərinə enə bilir, insanın məhəbbətini, onun ağrı-acılarını, kədərini, duyğularını və s. dolğun şəkildə ifadə etməyi bacarır. Bu cür poetik nümunələrdə Bəxtiyar Vahabzadə üslubuna uyğun olaraq sözün daha çox lirik-fəlsəfi tərzdə məna qazanması oxucunu gerçəkliklər fonunda düşündürə bilir və yaşanmış tarixin xronikasını xatırlatmağa yardımcı olur:

Özgəsinin qoltuğunda yuva qurmuş,
Özgəsinin fitvasıyla
Öz xalqına tələ qurmuş,
Özgəsinin əli üstə
İqtidara can atan kəs
Bu millətə əsl oğul ola bilməz.
Bizimkidir o namərd də
Buna dözmür, mən yanıram
Satqına yox, satqınlığa utanıram.

Bəxtiyar Vahabzadənin poetik "mən"i fəlsəfi mahiyyətli lirik şeirlərdəki həyati zərurətlərin qabarıq şəkildə təsəvvüründə mühüm rol oynayır. Keçmişimizdən ibrət götürmək, bu günümüzdən gələcəyimizə körpü salmaq, Vətən bütövlüyümüzün nəğməkarı olmaq, millətimizin mənəvi haqlarını qoruya bilmək və s. kimi fikirlərin aparıcılığı Bəxtiyar Vahabzadə şeirlərindəki milli ruhun möhtəşəmliyinin göstəricisidir.
"Ömür", "Qara saçlar, ağ saçlar", "Dünyamı, mənmi", "Şairləri öldürürlər", "Unutqanlıq", "Qorxu", "Hörümçək tor bağladı", "Ana dili", "Vətəndən Vətənə", "Azərbaycan oğluyam" və s. şeirlərində heç bir ictimai-siyasi şərait nəzərə alınmadan şairin cəsarətli poetik "məni" milli ideal konseptini ifadə etmək baxımından öndə dayanır:

Azərbaycan oğluyam,
Odu Allah sanmışam.
Anam torpaq
Atam od
Mən oddan yaranmışam
Azərbaycan oğluyam,
Min ildir,
Öz adımın
Keşiyində durmuşam.

Bəxtiyar Vahabzadənin zəngin yaradıcılıq dühası Azərbaycan ədəbiyyatı hüdudlarını aşaraq türk dünyası əbədi üfüqlərində də parlayan bir ulduza çevrilmişdir. O, türk dünyasının siyasi-mənəvi birliyini arzulamaqla kifayətlənməmişdir, həm də bu yolda yorulmadan çalışmışdır. Sirr deyil ki, Bəxtiyar Vahabzadənin türk dövlətləri birliyi çərçivəsində Türkiyə-Azərbaycan mövzusuna daha çox yer ayırmışdır. Şairin "Azərbaycan – Türkiyə" şeirində Azərbaycan və Türkiyənin siyasi, tarixi, mənəvi baxımından bağlılığı yer almış, poetik məna Ulu Öndər Heydər Əliyevin "bir millət iki dövlət" baxışları kontesktində ifadəsini tapmışdır:

Bir millətik, iki dövlət,
Eyni arzu, eyni niyyət
Hər ikisi Cümhuriyyət
Azərbaycan – Türkiyə.
Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir
Eşqimiz bir, yolumuz bir
Azərbaycan – Türkiyə

Poeziyamızda istiqlal mövzusunun öncülü, lirik-fəlsəfi düşüncənin aparıcı siması olan Bəxtiyar Vahabzadə yaradıcılığı böyük sənət nümunəsi kimi yüksək dəyərlərə malikdir və müasir Azərbaycan ədəbiyyatının fərqli milli-poetik hadisəsidir.

Ədəbiyyat:

1.Bəxtiyar Vahabzadə.Seçilmiş əsərləri, 2 cilddə, Bakı, 1956.
2. Bəxtiyar Vahabzadə. Xalq şairi Səməd Vurğun, Bakı, 1983.
3. Bəxtiyar Vahabzadə. Şəbi-hicran, Bakı, 1985.
4. Bəxtiyar Vahabzadə. İstiqlal, Bakı, 1999.
5. Bəxtiyar Vahabzadə. Ağ atlı oğlan, Bakı, 2002.
6. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri, I-V cildlər, Bakı, 2001-2002.
7. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri, 12 cilddə, Bakı, 2006

IDEA-CONTENT AND STYLISTIC FEATURES OF SPEECH LABELS IN BAHKHTIYAR VAHABZADE'S POETRY

BƏXTİYAR VAHABZADƏ POEZİYASINDA NİTQ ETİKETLƏRİNİN İDEYA-MƏZMUN VƏ STİLİSTİK XÜSUSİYYƏTLƏRİ

Təranə İSMAYIL
Bakı Dövlət Universiteti Azərbaycan dilçiliyi kafedrasının baş müəllimi

Abstract
This article examines the poetic creativity of Bakhtiyar Vahabzadeh, a prominent representative of 20th-century Azerbaijani poetry, in the context of speech etiquette. The main goal of the article is to reveal the functional-semantic position, idea-content load and stylistic possibilities of speech etiquette used in the poet's poetry, and to show how these expressions are poeticized and meaningful within poetry.
Bakhtiyar Vahabzadeh is not only an artist who gives aesthetic spirit to poetic text, but also a thinker who expresses national-spiritual memory, social ideals and people's thought through poetic means of speech. Speech etiquettes such as "salam", "baghishla", which are often used in his poems, go beyond the usual ethical function and acquire poetic-philosophical content and become carriers of the national-cultural code. For example, in his poem “A single greeting” the simple form of greeting becomes a symbol that reminds us of the past of the people, forgotten values and national tragedies:

…Those bloody floods that flowed from our eyes in five years,
A single greeting?

Here the expression “greeting” acts not only as an act of communication, but also as an appeal to national and spiritual memory. At the same time, the use of the word “forgive” with a special charge in various poems of the poet is also noteworthy. For example, in one of the lyrics, the hero says:

“– Forgive me, I got angry,
– he said suddenly,
– I don’t know myself, my words sometimes…”

Such expressions are not only an apology, but also a poetic indicator of human weakness and inner sincerity.
On the other hand, in the poet’s poetics, expressions such as “forgive me”, “prayed” do not only convey the meaning of respect and prayer, but are also presented as a poetic sign of national and spiritual attachment, loyalty and love for the homeland. The prayer scene depicted in front of Fuzuli's tomb in the poem "Shabi-hijan" shows that prayers carry not only religious, but also aesthetic and historical burden:

...Today, instead of prayer, they sing the ghazal "Shabi-hijan"
by Fuzuli.
The article specifically emphasizes that Bakhtiyar Vahabzadeh transforms speech tags into an integral part of the poetic structure, giving them an artistic and aesthetic function. For example, the phrase "Forgive!" sometimes becomes a carrier of critical irony:

Innovation?
Forgive!
Imitation is the greatest
Oldness, oldness!

This shows that in the poet's work such expressions play a multifunctional role as a carrier of stylistic irony, philosophical conviction and national thought.
As a result, the article shows that in the poetic language of Bakhtiyar Vahabzadeh, speech tags cease to be simple functional units and become stylistic means that carry an idea-content load, express national identity and complement poetic composition. They reflect the poet's attitude to language, national memory and cultural values, and serve to express the spiritual worldview of the people.
Keywords: speech tags, poetic language, stylistics, functional-semantic analysis, Bakhtiyar Vahabzadeh, national values, poetic style

Xülasə
Bu məqalədə XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Bəxtiyar Vahabzadənin poetik yaradıcılığı nitq etiketləri kontekstində araşdırılır. Məqalənin əsas məqsədi şairin poeziyasında işlənən nitq etiketlərinin funksional-semantik mövqeyini, ideya-məzmun yükünü və stilistik imkanlarını aşkarlamaq, bu ifadələrin poeziya daxilində necə poetikləşdirildiyini və mənalandırıldığını göstərməkdir.
Bəxtiyar Vahabzadə yalnız poetik mətnə estetik ruh verən sənətkar deyil, həm də milli-mənəvi yaddaşı, ictimai idealları və xalq düşüncəsini nitqin poetik vasitələri ilə ifadə edən fikir adamıdır. Onun şeirlərində tez-tez işlənən *"salam"*, *"bağışla"* kimi nitq etiketləri adi etik funksiyanı aşaraq poetik-fəlsəfi məzmun kəsb edir və milli-mədəni kodun daşıyıcısına çevrilir. Məsələn, "Bir salama dəymədi" adlı şeirində sadə salamlaşma forması xalqın keçmişini, unudulmuş dəyərləri və milli faciələri xatırladan simvola çevrilir:

...Beş ildə gözümüzdən axan
o qanlı sellər,
Bir salama dəymədi?

Burada *"salam"* ifadəsi yalnız ünsiyyət aktı deyil, həm də milli-mənəvi yaddaşa edilən müraciət kimi çıxış edir. Eyni zamanda *"bağışla"* sözünün şairin müxtəlif şeirlərində xüsusi yüklə işlənməsi də diqqət çəkir. Məsələn, bir lirikasında qəhrəman deyir:

"– Bağışla, qızışdım,
– söylədi birdən,
– Özümü, sözümü bilmirəm hərdən..."

Bu tip ifadələr yalnız üzrxahlıq deyil, həm də insani zəifliyin, daxili səmimiyyətin poetik göstəricisinə çevrilir.
Digər tərəfdən, şairin poetikasında *"əfv et"*, *"dua verib"* kimi ifadələr təkcə hörmət və dua anlamını vermir, həm də milli-mənəvi bağlılığın, sədaqətin və vətənə sevgisinin poetik nişanəsi kimi təqdim olunur. "Şəbi-hicran" poemasında Füzuli məzarı qarşısında təsvir olunan dua səhnəsi duaların yalnız dini yox, həm də estetik və tarixi yük daşıdığını göstərir:

...Bu gün dua əvəzinə həzin-həzin

Oxuyurlar "Şəbi-hicran" qəzəlini
Füzulinin.

Məqalədə xüsusi olaraq vurğulanır ki, Bəxtiyar Vahabzadə nitq etiketlərini poetik strukturun tərkib hissəsinə çevirərək onlara bədii-estetik funksiya qazandırır. Məsələn, *"Bağışla!"* ifadəsi bəzən tənqidi ironiyanın daşıyıcısına çevrilir:

Yenilikmi?
Bağışla!
Yamsılamaq – ən böyük
Köhnəlikdir, köhnəlik!

Bu isə göstərir ki, şairin yaradıcılığında bu cür ifadələr üslubi ironiya, fəlsəfi qənaət və milli düşüncənin daşıyıcısı kimi çoxfunksiyalı rol oynayır.

Nəticə etibarilə məqalədə göstərilir ki, Bəxtiyar Vahabzadənin poetik dilində nitq etiketləri sadə funksional vahid olmaqdan çıxaraq ideya-məzmun yükü daşıyan, milli kimliyi ifadə edən və poetik kompozisiyanı tamamlayan üslub vasitələrinə çevrilir. Onlar şairin dilə, milli yaddaşa və mədəni dəyərlərə münasibətini əks etdirir, xalqın mənəvi dünyagörüşünün ifadəsinə xidmət edir.

Açar sözlər: nitq etiketləri, poetik dil, stilistika, funksional-semantik təhlil, Bəxtiyar Vahabzadə, milli dəyərlər, poetik üslub

Giriş

Bəxtiyar Vahabzadə XX əsr Azərbaycan poeziyasının ən aparıcı simalarından biri kimi yalnız poetik irsi ilə deyil, həm də milli-mənəvi dəyərlərə, ana dilinə, tarixə, ictimai proseslərə münasibəti ilə seçilən ziyalı obrazıdır. Onun poetik irsi müxtəlif aspektlərdən tədqiq olunmuş, vətənpərvərlik, azərbaycançılıq, millilik və mənəvi-əxlaqi dəyərlərin daşıyıcısı kimi qiymətləndirilmişdir. Lakin bu poetik irsin dilçilik aspektindən – xüsusilə də nitq etiketlərinin ideya-məzmun və stilistik funksiyaları kontekstində araşdırılması həm aktuallıq, həm də elmi əhəmiyyət baxımından öz tədqiqini gözləyən mövzulardandır.

Nitq etiketləri insan ünsiyyətində mədəni davranış normalarını tənzimləyən, sosial münasibətləri və qarşılıqlı hörmət prinsiplərini ifadə edən etik dil vahidləridir. Bunlara "*salam*", "*xudahafiz*", "*təşəkkür edirəm*", "*üzr istəyirəm*", "*bağışlayın*" kimi ifadələr daxildir. Bu ifadələr yalnız ünsiyyətin etik tələblərini deyil, həm də danışanın emosional vəziyyətini, münasibətini, mədəni səviyyəsini və mənsub olduğu ictimai-mədəni mühiti əks etdirir. Məhz bu səbəbdən də nitq etiketlərinin poeziyada işlənmə formaları, onların ideya yükü və stilistik funksiyaları şairin dili ilə mədəni kimliyi arasındakı əlaqəni ortaya qoymaq baxımından xüsusi maraq doğurur.

Bəxtiyar Vahabzadənin poetik dilinə xas olan əsas xüsusiyyətlərdən biri onun xalq danışıq dilinə, folklor nümunələrinə və ümumilikdə milli mədəniyyətə söykənməsidir. Onun poeziyasında sadə xalq nitqinin komponentləri – atalar sözləri, deyimlər, xalq müdrikliyi ilə yoğrulmuş ifadələr, bədii və üslubi təsvir vasitələri geniş yer tutur. Bu kontekstdə nitq etiketləri şairin poeziyasının həm ideya, həm də üslub baxımından formalaşmasında əhəmiyyətli rol oynayır. Onlar yalnız kommunikativ məqsəd daşımır, eyni zamanda poetik mətndə konseptual məna, emosional-psixoloji təsir və estetik funksiya yerinə yetirir.

Vahabzadənin poeziyasında nitq etiketlərinin təhlili göstərir ki, bu ifadələr bəzən sadə sosial ünsiyyət vasitəsi olmaqdan çıxaraq bədii obrazların qurulmasında, emosional gərginliyin artırılmasında, ictimai mesajların çatdırılmasında əsas komponentə çevrilir. Məsələn, "*Salam, Özbəkistan!*" şeirində şairin "*salam*" etiketi yalnız bir salamlama deyil, dərin mənəvi bağlılığın, sevginin, doğmalığın təcəssümüdür. Burada "*salam*" həm emosional, həm də konseptual çalar daşıyır – bu, Turanla mənəvi təmasın uzaqgörən addımı, dil vasitəsilə Turanla qurulan ruhi körpüdür.

Biz bir canıq, bir vahidik binadan
Bu Vətənə o Vətəndən salamlar.
Biz bir yolun yolçusuyuq hər zaman
Sənə məndən, mənə səndən salamlar.

Bəxtiyar Vahabzadənin yaradıcılığı bütövlükdə milli dəyərlərə söykəndiyindən, onun poetik dilində etik ifadələrin işlənməsi də milli-mentallıqla sıx bağlıdır. Xalq arasında geniş yayılmış "*bağışlayın*", "*yuxun şirin olsun*", "*dərdin mənə gəlsin*", "*şükür, Allaha*" kimi ifadələr şairin şeirlərində sadəcə ədəbi element deyil, həm də ictimai-mənəvi münasibətlərin bədii təsvir vasitəsidir. Bu ifadələr onun poeziyasını yalnız estetika baxımından zənginləşdirmir, həm də xalqın dilində yaşayan etik kodların qorunub saxlanmasına xidmət edir.
Eyni zamanda Vahabzadə bu nitq etiketlərini yalnız gündəlik ünsiyyət kontekstində deyil, geniş metaforik və simvolik məna çalarlarında təqdim edir. Məsələn, "*sabahıma, şükürlər*" deyə şeirdə insanlara yönəlik bu ifadə həm bir dua, həm də bir ayıqlıq çağrışıdır. Bu cür ifadələr poetik dildə semantik yüklənmə ilə fərqlənir və oxucuda emosional rezonans doğurur.

Qandığımı deyən zaman
Başımda turp əkirlər.
Haqq adına mən yazığı
Ora-bura çəkirlər.
Neyləyim ki, qoymur məni
Yaşamağa fikirlər.
Eyb eləməz, inandığım
Sabahıma şükürlər.
("Şükür" şeiri)

Və yaxud
Kölələr gecə-gündüz tər töküb işləyərdi,
Bir doyumluq çörəyə min yol "şükür" –
deyərdi.
Çağdaş kölələrəsə
Ac qarına, lüt-üryan sükrü dedizdirirlər.
Hazır qalıblardakı fikri dedizdirirlər.
("Bağışlayın, səhv olub!" poeması)

Azərbaycan dili və ədəbiyyatında nitq etiketlərinin funksional-semantik aspektlərdən tədqiqi olduqca vacibdir. Çünki bu ifadələr yalnız dilin etik normasını deyil, həm də onun funksional imkanlarını, milli koloritini, üslubi palitrasını nümayiş etdirir. Xüsusilə poeziyada bu ifadələrin işlənmə formaları, onların kontekstdəki mənaları və stilistik yükü həm dil, həm də ədəbiyyat sahəsi üçün əhəmiyyətlidir. Bəxtiyar Vahabzadənin poetik dili isə bu baxımdan zəngin nümunələr təqdim edir. Onun şeirlərindəki nitq etiketləri yalnız dilçilik baxımından deyil, həm də kulturoloji, semiotik, psixolinqvistik və diskursiv aspektlərdən də maraqlı tədqiqat mövzusu ola bilər.
Bu məqalədə məqsəd Bəxtiyar Vahabzadənin poeziyasında işlənən nitq etiketlərini ideya-məzmun və stilistik xüsusiyyətlər baxımından təhlil etmək, onların poetik funksiyalarını üzə çıxarmaq, həmin ifadələrin milli-mədəni kontekstdə daşıdığı semantik çalarları araşdırmaqdır. Eyni zamanda bu məqalə vasitəsilə Azərbaycan ədəbi dilinin estetik imkanlarının, poeziyada etik-dil vahidlərinin funksional çevikliyinin və poetik diskursun qurulmasında nitq etiketlərinin oynadığı rolu ortaya qoymaq hədəflənir.
Araşdırma zamanı Bəxtiyar Vahabzadənin müxtəlif illərdə qələmə aldığı poetik nümunələrə müraciət olunmuş, bu nümunələrdə işlənmiş nitq etiketlərinin semantik analizi, kontekstual interpretasiyası və stilistik funksiyaları incələnmişdir. Bundan başqa, məqalədə dilçilik elminin aktual anlayışları – diskurs, üslubiyyat, funksional və kontekstual semantika kimi nəzəri çərçivələrdən istifadə olunmuşdur.
Bu araşdırma həm də ona görə əhəmiyyətlidir ki, nitq etiketlərinin poeziyada istifadəsi, onların poetik mətnin ideya yükü ilə əlaqələndirilməsi və stilistik imkanlarının üzə çıxarılması Azərbaycan dilçiliyində yeni yanaşmaların formalaşmasına imkan verir. Bəxtiyar Vahabzadə kimi klassik bir şairin poetik nümunələri isə bu cür araşdırmalar üçün zəngin material verir.

Beləliklə, təqdim olunan bu elmi məqalənin əsas məqsədi Bəxtiyar Vahabzadənin poetik yaradıcılığında nitq etiketlərinin ideya-məzmun və stilistik funksiyalarını ortaya qoymaqla onun dilçilik baxımından nə qədər zəngin və koloritli bir sənətkar olduğunu göstərməkdir. Bu zaman həm onun poetik irsinə yeni baxış bucağından yanaşmaq, həm də Azərbaycan dilinin mədəni-funksional imkanlarını bir daha təsdiqləmək mümkünlüyü əldə olunur.

Nitq etiketlərinin funksional-semantik mövqeyi

Nitq etiketləri dilçilikdə xüsusi yer tutan və kommunikasiya prosesində danışanların sosial-mədəni münasibətlərini nizama salan sabit ifadələr kimi qəbul edilir. "*Salam*", "*bağışlayın*", "*üzr istəyirəm*", "*təşəkkür edirəm*", "*mübarək*" kimi ifadələr, təkcə etik qaydaların deyil, həm də emosional, psixoloji və ictimai münasibətlərin ifadə vasitəsidir. Onlar ünsiyyət iştirakçılarının bir-birinə hörmətini, təmkinini, yaxınlığını, sevgi və ya hörmət hisslərini ifadə etməklə yanaşı, münasibətlərin müsbət tənzimlənməsində də mühüm rol oynayır.

Bəxtiyar Vahabzadə yaradıcılığında nitq etiketləri yalnız gündəlik ünsiyyət funksiyasını daşımır; onlar poetik mətndə ideya-məzmun və emosional yükün daşıyıcıları kimi çıxış edir. Bu ifadələr şairin milli kimliyinin, mədəni kodların bədii dil vasitələri ilə ifadəsinə çevrilir və poeziyanın emosional-estetik təsirini artırır.

Məsələn, "Bağışlayın, səhv olub!" poemasında oxuyuruq:

"Bağışlayın" – deyirsən.
Niyə bağışlamalı?
Kimə bağışlamalı, nəyə bağışlamalı?
Nəyə gərək bu üzr?
Yoxsa, iki ölümün bahasıdır bu üzr?

… "Bağışlayın, səhv olub" –
Nə deməkdir, nə demək?
Deyəndə ki "səhv olub" – sevinmədim mən buna
İnanmışdım mən onun sizin əqidənizcə
Günahkar olduğuna.

Burada "*Bağışla*" sözü adi etik etiket olmaqdan çıxaraq poetik lirikanın əsas emosional elementlərindən birinə çevrilir. Burada "*bağışla*" sözü həm təkrarolunmazlıq, həm də poetik etiraf kimi çıxış edir. Bu etiket, sadəcə sosial münasibətlərdə üzr istəmək yox, həm də milli kimliyə duyulan hörmət və bağlılığın simvoludur. Bu nümunə nitq etiketlərinin funksional-dilçilik baxımdan genişlənərək poetik mətndə yeni mənalar almasının gözəl təsviridir.

Digər nümunə isə "Şəbi-hicran" poemasından:

Vətəndən gəlmişəm, eloğlunam mən,
Salam gətirmişəm sənə Ərəşdən.

Ümumən, "*Salam*" etiketi məna çalarları ilə zəngindir. Sadə bir salamlama olmadan əlavə, burada şair bu ifadə ilə vətənə dərin sevgi, hörmət və bağlılıq duyğularını poetik üslubda ifadə edir. "*Salam*" – həm də milli mənəvi bağlılığın rəmzi, vətənlə dialoqun başlanğıcıdır. Bu ifadə poetik nitqdə sosial və emosional münasibətlərin möhkəmləndirilməsi üçün vasitə kimi istifadə olunur.

Bəxtiyar Vahabzadənin digər əsərlərində də nitq etiketləri geniş və çoxşaxəli funksiyalar daşıyır.

Məsələn, "Şəhidlər" poemasında:

Fitrətindən, soyundan ər doğulan bu xalqı
Tarix boyu mərd olan, məğrur olan bu xalqı
Necə təhqir etdilər, gör necə alçaltdılar,
Mənliyini, əzmini bir "sağ ol"a satdılar.

Burada "*sağ ol*" ifadəsi təkcə ədəbi nitqdə təşəkkür forması deyil, torpağa qarşı duyulan mənəvi vicdan və məsuliyyət hissinin bədii təzahürüdür. Şair milli mənsubiyyətin dərin qatlarına nüfuz edir, vətənlə bağlı təqsir və vicdan hisslərini dilə gətirir.

Ümumiyyətlə, Vahabzadənin poeziyasında nitq etiketlərinin funksional-semantik təhlili göstərir ki, bu ifadələr çox vaxt sosial-etnik, mənəvi-psixoloji münasibətlərin poetik simvolları kimi çıxış edir.

Onlar ünsiyyət etikası ilə yanaşı, milli-mədəni, ideya-estetik kodlar daşıyır və poeziyanın ideya strukturunun ayrılmaz hissəsinə çevrilir.

Bu xüsusiyyət "Mənim xalam" şeirində də aydın görünür:

Köksünə baş qoydum, dedi: − qadası!
Sandım ki, çiynimdən yük endirmişəm.

"*Qadası*" etiketi burada məhəbbət və doğmalığın, ən müqəddəs insan münasibətinin dil vasitəsi kimi təqdim olunur. Bu ifadə adi nitq etiketi olmaqdan əlavə, şairin sevgi, doğmalıq və ülvi hisslərinin poetik simvoluna çevrilir.

Vahabzadə poeziyada nitq etiketlərini kontekst və məzmunla əlaqəli olaraq müxtəlif emosional tonlarda təqdim edir. Məsələn, "Ekran qaralanda" şeirində:

Ekrandan çəkilmə, başına dönüm,
Təklikdən canıma üşütmə gəlir.

Buradakı "*başına dönüm*" ifadəsi etik bir arzunun poetik və emosional ifadəsinə çevrilərək şairin oxucu ilə mənəvi yaxınlığını və həmrəylik hissini gücləndirir.

Nitq etiketlərinin poetik funksiyalarına nəzər salarkən onların yalnız formal etik qaydalar olmadığını, həm də şairin ideya-estetik dünyasını, mədəni və milli dəyərləri əks etdirdiyini görürük. Vahabzadənin şeirlərində bu ifadələr bəzən həm də simvolik məna daşıyır. "*Salam*" və "*Əlvida*" kimi ifadələr poetik diskursda ünsiyyətin başlanğıcı və bitməsi kimi çıxış edir, eyni zamanda milli kimliyin poetik təcəssümü olur.

Misal üçün, "*Əlvida*" ifadəsinin işlənməsi şeirdə:

Anam öldü!
Son nəfəs, son hıçqırıq, son nida!
Bizə dedi əlvida!
Bir saat əvvəl duyan, hiss eləyən bir insan
Yatağında daş oldu.
Heçliyə doğru axan bir axına qoşuldu
("Anam haqqında şeirlər"dən)

Burada "Əlvida" sadə bir vidalaşma deyil, poetik dil vasitəsi kimi şairin duyğu dünyasının ifadəsinə çevrilir. Bu, ünsiyyətin həm ümidlə, həm də ayrılıqla yüklü dramatik anıdır.

Nitq etiketlərinin funksional-semantik xüsusiyyətləri onların poetik mətndə müxtəlif səviyyələrdə – ünsiyyət, emosional-psixoloji, ideya-estetik və simvolik səviyyələrdə fəaliyyət göstərməsi ilə xarakterizə olunur. Vahabzadənin poeziyasında bu ifadələr şairin ideyalarının, milli-mənəvi mesajlarının, poetik üslubunun bədii-dil vasitələridir.

Son olaraq, "*Sənə qurban*" etiketi də şairin dilində poetik əhəmiyyət kəsb edir:

Ramiz, bas bağrına sən qoca tarı,
Bu təzə güşədə çal, sənə qurban.
Şəhidlər qanına boyanan səsi,
Zabul segahına sal, sənə qurban!
("Şəhidlər" poeması)

Burada şair Vətənin azadlığı yolunda həyatını və yaşamını itirən soydaşlarımızı qiymətləndirir, minnətdarlıq ifadəsini poetik təsir vasitəsi kimi səciyyələndirir.

Digər nümunədə:
Yalın əllər ilə tanklar üstünə,
Atılan cavanlar, eşq olsun sizə!
("Şəhidlər" poeması)

Bu, şairin şəhidlərin xatirəsi qarşısında etiraf etdiyi dərin hörmət və sevginin poetik təqdimatıdır. Beləliklə, Bəxtiyar Vahabzadənin nitq etiketlərini funksional-semantik mövqedən təhlili göstərir ki, bu dil vahidləri onun poeziyasında ənənəvi etik funksiyanı genişləndirərək bədii məna, emosional dərinlik və milli-mənəvi kodların ifadəsinə çevrilmişdir. Bu, şairin poetik dili ilə milli mədəniyyətin, sosial-etik normaların və insanlıq dəyərlərinin sintezidir.

Poetik Mətndə Nitq Etiketlərinin Stilistik Yükü

Nitq etiketləri − gündəlik danışıqda istifadə olunan sosial-etik sabit ifadələr — Bəxtiyar Vahabzadənin poeziyasında yalnız sadə ünsiyyət vasitəsi kimi qalmır. Onlar poeziyanın stilistik sistemində xüsusi funksiyaya malik olur, emosional rəngarəngliyi artırır və şairin ideya-estetik dünyasının poetik simvollarına çevrilir. Şair nitq etiketlərini bəzən ritm və qafiyə sisteminə inteqrasiya edərək bəzən isə paradoksal, yüklü emosional ifadələr kimi təqdim edir. Bu isə onların poetik mətndə yeni stilistik yük qazanmasına səbəb olur.

1. ***Stilistik konnotasiya və emosional yüklülük****. Məsələn,"Sabahınız xeyir olsun" şeirində oxuyuruq:*

Zülmət gecə əridikcə aram-aram dan sökülür.
Keçir köyün çıraqları... göy ağarır... səhər gülür.
Günəş əlvan boyalarla ziynət verib üfüqlərə
Boylandıqca dan yerindən örpəyini sərib yerə,
Yüvarlaq bir təkər kimi göy üzünə vara-vara,
Deyir qadir insanlara:
− Sabahınız xeyir olsun!
("Sabahınız xeyir olsun" şeiri)

Buradakı*"Sabahınız xeyir olsun"* ifadəsi sadəcə səhər salamı olmaqdan çıxaraq mənəvi bağın dərin ifadəsinə çevrilmişdir. Bu ifadə həm görüşün sosial-etik funksiyasını saxlayır, həm də şairin vətən, xalq qarşısında minnətdarlığını poetik tərzdə ifadə edir. Burada*"Sabahınız xeyir olsun"* ifadəsinin leksik mənası konnotativ, yəni əlavə emosional və ideya yükləri ilə zənginləşmişdir.

Digər bir nümunə "Şəhidlər" poemasından:
Allah, sən bizi saxla Əhrimənin şərindən
Allah, dünya çıxıbdır bəlkə öz məhvərindən?

"*Allah, sən saxla*" ifadəsi nitq etiketi olmaqla yanaşı, şairin vətənə olan sevgisini, xeyir-dua formasında milli bağlılığını poetik stilistika vasitəsilə çatdırır. Burada nitq etiketi sevgi, sadiqlik və ümid duyğuları ilə yüklənir və şeirə ruhi, emosional ton verir.

2. Ritm və qafiyənin vurğusu kimi nitq etiketləri. Vahabzadə nitq etiketlərini ritm və qafiyə sisteminə məharətlə daxil edir, bununla da ifadənin poetik təsirini artırır. Aşıq Əlinin şerinə "*cavab"* olaraq yazdığı *"Əleykəssalam"* şeirində *"Əleykəssalam"* sözünün təkrarları həm ideya, həm də ritmik-intonasion yük daşıyır:

Möcüzə dağlarda, sən də möcüzə,

Əli salamına əleykəssalam.
Dağlar ucalıqda eşqini gördük,
Arzuna, kamına əleykəssalam.

Burada "*Əleykəssalam*" etiketi şeirin ritmini, ahəngini formalaşdırmaqla yanaşı, ictimai həmrəyliyi, yaxınlığı və dostluğu poetik şəkildə təcəssüm etdirir. Sadə nitq etiketi burada poetik vahidə çevrilir.

3. Paradoksal və sürprizli ifadələr. Bəxtiyar Vahabzadə nitq etiketlərini bəzən paradoksal şəkildə istifadə edərək oxucuda sürpriz effekti yaradır. "*Yaxşı yol*" ifadəsi adi vidalaşma kimi görünsə də, şeirlərində o, həm ayrılığı, kədəri, həm də ümidi ehtiva edən poetik simvol kimi işlənir:

Gedirsən yaxşı yol, "ey afəti can!"
Onsuz da sən mənim öz bağrımdasan!
("Şəbi-hicran" poeması)

Burada "*yaxşı yol*" adi etik vidalaşmanın sərhədlərini aşaraq ümid və həsrətin simvoluna çevrilir, şeirə emosional dərinlik qatır.

4. Nitq etiketlərinin emosional və semantik dairəsinin genişlənməsi. Bəxtiyar Vahabzadənin poeziyasında nitq etiketləri çox vaxt geniş emosional və semantik diapazonda istifadə olunur. "*Dərdin mənə gəlsin!*", "*Yuxun şirin olsun*", ifadələri təkcə doğmalarına olan yaxınlıq deyil, insanlığa qarşı dərindən gələn mənəvi etirafdır.

Məsələn, "Anam haqqında şeirlər"dən:

"Yuxun şirin olsun" – deyərdin mənə,
"Yuxun şirin olsun" – deyimmi sənə?
Gərək mən başına dönəm-dolanam
Məni həyat üçün yatıran anam,
Söylə ölümçün necə yatırım
Səni mən bü gün?

Dərdimin,qəmimin səndin ortağı,
Niyə üz döndərdin, bəs niyə məndən?
"Dərdin mənə gəlsin!"−deyərdin axı,
Niyə dərs caladın dərdimə bəs sən?...

Buradakı nitq etiketləri doğmalarına olan sevgi ilə bağlı poetik dəyər qazanır və oxucuda dərin emosional rezonans yaradır.

Nitq etiketlərinin poetik simvolizmə çevrilməsi. Nitq etiketləri bəzən poetik simvolizm daşıyır. "*Buyur*" ifadəsi adi bir dəvət, təklif, müraciət bildirməkdən başqa, milli-mənəvi dəyərlərə istinadın bədii təzahürü olur:

Heç kəs inciməsin, dedik, qoy bizdən
Yandıq yad evində bir çıraq kimi
"Buyur" deyə-deyə hörmətimizdən
Qonağı elədik evin sahibi.
("*Gülüstan*" poeması)

Burada etiketi poetik simvola çevirən ən əsas amil, şairin dilində ailə və hörmət motivlərinin xüsusi yer tutmasıdır.

Nitq etiketlərinin milli-mədəni kontekstdə stilistik vəzifəsi. Bəxtiyar Vahabzadə nitq etiketlərini milli-mədəni kontekstdə də stilistik vasitə kimi istifadə edir. "*Başın sağ olsun*" ifadəsi xalqın mənəvi dəstəyini ifadə etməklə yanaşı, şeirə xüsusi ruhi ton verir:

Hamı qoyub özünü o birinin yerinə,
Hamı birinə deyil, hamı biri-birinə

"Başın sağ olsun" – deyir,
"Bulanıq axan sular bir gün durulsun" deyir.
("Şəhidlər" poeması)

Burada nitq etiketi xalqın mənəvi qüdrətinin poetik əks-sədasıdır.

Milli-Mənəvi Kodlar Kimi Nitq Etiketləri
Bəxtiyar Vahabzadənin poeziyasında nitq etiketləri milli-mənəvi kodların daşıyıcısı kimi çıxış edir. Bu ifadələr xalqın mənəvi dəyərlərini, milli şüurunu, tarixini və mədəniyyətini qoruyan, həmçinin gələcək nəsillərə ötürən poetik vasitə funksiyasını daşıyır.

Milli kimliyin ifadəsi kimi nitq etiketləri

Ey Vətən oğlu, düşün, bil ki, sənindir bu Vətən,
Sabahın, həm bu günün, həm dünənindir bu Vətən.
("Vətən marşı" şeiri)

Burada "*Ey vətən oğlu*" müraciəti milli kimlik ifadəsi, nitq etiketi kimi milli-mənəvi bağlılığın simvoludur. Bu müraciət adi çağırış deyil, milli varlığa duyulan sonsuz hörmətin poetik ifadəsidir.

Tarix və mədəniyyətə bağlılıq
Bəxtiyar Vahabzadə şeirlərində "*Mübarək*" kimi nitq etiketi milli-mənəvi bağlılığın, ümumi taleyin paylaşılmasının ifadəsidir:

Bu gün bizim çaldığımız hər zəfər,
Sabah üçün bir pillədir həmişə.
Bu günündən gələcəyə siz, ey körpü salanlar,
Səfəriniz mübarək!
Ey bu ana torpaqdan üz ağlığı alanlar,
Zəfəriniz mübarək!
("Mübarək!" şeiri)

Burada "*Mübarək"* ifadəsi xalqın birliyini və mənəvi dəstəyini ifadə edir, şairin milli mənəvi ruhunu əks etdirir − Sanki bugünkü qələbəmizdən xəbərdarmış kimi.

Etnopsixoloji mənalar
Nitq etiketləri şairin milli psixoloji portretini, xalqın düşüncə tərzini əks etdirir. "*Sən Allah*" ifadəsi, məsələn, həm nəzakət, həm də milli mənəvi təmizliyin və bağışlamağın simvoludur:

Bu bahar oxuma, bülbül, sən Allah,
Zülmətdir,
Yoluna şam tutanın yox.
("Oxuma, bülbül" şeiri)

Burada "*sən Allah*" qarşı tərəfin etiraz edə bilməyəcəyi bir xahiş ifadəsidir. Lakin bunun bülbüldən istənməsi poetikləşmiş görünsə də, bir mənada milli mənəvi dəyərlərin təcəssümü,
vicdan zəminindəki ehtiramdır.

Nitq etiketlərinin simvolikliyi
Bəxtiyar Vahabzadə nitq etiketlərini poetik simvollar kimi də işləyir:

Dayanıb Arazın bu tayında mən
"Can qardaş" deyirəm, o da "can" deyir
("Gülüstan" poeması)
"*Can qardaş*" ifadəsi şeirin millilik və doğmalıq motivi ilə bağlanaraq xalqın varlığını, bütövləşmə arzusunu ifadə edir.

Milli-mədəni təfəkkürdə nitq etiketləri
Şair nitq etiketləri vasitəsilə milli-mədəni təfəkkürü gücləndirir, birliyə və vətənə bağlılığı təbliğ edir:

Bu necə vətəndir?
Görmədim üzünü
Çatsam da bu yaşa
Ömründə bir dəfə.
Bəs salam verməzmi
Qardaş da qardaşa?
("Vətəndən − Vətənə" şeiri)

Burada "*salam*" ifadəsi həm gündəlik salamlaşma, həm də milli mənəvi bağlılığın, vətənə duyulan sonsuz sevginin təzahürüdür.
Bəxtiyar Vahabzadənin poeziyasında nitq etiketləri milli-mənəvi kod kimi, milli kimliyin, vətənpərvərliyin, mədəni dəyərlərin və xalqın mənəvi birliyinin poetik ifadə vasitəsinə çevrilir. Onlar şairin milli şüuru dərinləşdirmək, oxucuda milli mənəvi yaddaş yaratmaq məqsədi ilə xüsusi estetik və ideya yüklü funksiyalara malikdir.

Poetik Dildə Transformasiya Olunmuş Etiketlər
Nitq etiketləri gündəlik ünsiyyətin ayrılmaz hissəsi olmaqla yanaşı, Bəxtiyar Vahabzadənin poeziyasına daxil olduqda yeni məna qatları, emosional və ideya-estetik zənginlik qazanır. Şair sabit nitq etiketi formasını dəyişdirərək onu poetik kontekstdə yenidən formalaşdırır, bəzən isə ümumi qəbul olunmuş ifadələri orijinal və təəccüblü şəkildə təqdim edir. Bu dil transformasiyaları onun yaradıcılıq xüsusiyyətlərindən biri kimi qəbul olunur və şeirlərinə bədii üslubun zənginliyini əlavə edir.

Nitq etiketlərinin metaforik transformasiyası
Bəxtiyar Vahabzadə nitq etiketlərini tez-tez metaforik məzmunda istifadə edir. Məsələn:

Ölmədi, o günü gördü Bəxtiyar
Dedi: − Haqq önündə zor bərbad olsun.
Dedi: − Mən o günü gördüm, Şəhriyar,
Qabaqda işıq var, ruhun şad olsun.
("Istiqlal" poeması)

Burada "*ruhun şad olsun*" etiketi dərin mənəvi dialoqun vasitəsinə çevrilmişdir. Sadə etik davranış forması metaforik yük daşıyaraq əqidə ilə qəlbən bağlılığın ifadəsi kimi səslənir. Bu, nitq etiketlərinin yalnız sosial davranış qaydası deyil, həm də poetik simvol olduğunu göstərir.
Başqa bir nümunədə, şair "*şükür*" ifadəsini yeni məna qatları ilə təqdim edir:

"Şükür" – deyə-deyə bədbəxt müsəlman
Səbrin laylasından cəbrə düşübdür.
("Ağlar-güləyən" poeması)

Burada "*şükür*" etiketi adi məmnunluq ifadəsi olmaqdan çıxaraq dövrə, insan cəmiyyətində narazılığı ifadə edən poetik ehtirazın simvoluna çevrilir. Bu ifadə həm də dildə həyatın və ruhun davamlılığını vurğulayır.

Paradoksal və yenilikçi dil oyunları
Bəxtiyar Vahabzadə nitq etiketlərini bəzən paradoksal yanaşmalarla da təqdim edir:

Tanış…
Mənim ona çox hörmətim var.
Kağizin üstündə dayanır qələm.
İtsinmi ortada salam-kalamlar?
Yox! Onun üzündən keçə bilmərəm.
Müəllim – tələbə… İki sərt baxış
Dayanıb ortada müştərək tanış.
Salama, xahişə ilişib qələm,
Vurur bir yandan da ədalət məni.
Düzlük tələb edir məndən vəzifəm,
Çəkir əyriliyə vəziyyət məni
("Qiymət" poeması)

"Salam" etiketi burada salamlaşmaq üçün deyil, şairin daxili səmimiyyətini və emosional vəziyyətini vurğulamaq üçün istifadə olunur. Bu ifadə paradoksal vəziyyətdə belə mühüm amil kimi vurğulanır.

Kontekstlə uyğunlaşan yeni formalar
Bəzən nitq etiketləri kontekstə uyğun olaraq dəyişir və şair tərəfindən poetik dildə yenidən qurulur. Məsələn:

Qəlbimdə min sözüm, min söhbətim var,
Mən deyim, siz deyin, dil yorulmasın.
Yığılın, yığılın başıma, dostlar,
Mənim bir günüm də sizsiz olmasın.
("Təklik" şeiri)

Burada "*Bir günüm də sizsiz olmasın*" xeyir-dua etiketi kontekstdə el-obasına bağlılıq və yaşam səbəbi simvoluna çevrilir, xüsusi ruh və intonasiya ilə səslənir.

Nitq etiketlərinin poetik funksiyalarının çoxşaxəliliyi
Bu transformasiyalar nəticəsində nitq etiketləri poetik mətnlərdə müxtəlif funksiyaları yerinə yetirir: emosional yüklənmə, ideya ötürmə, milli-mənəvi simvolizasiya və bədii üslubun zənginləşməsi. Bəxtiyar Vahabzadə dil oyunları və yeni semantik qatlarla nitq etiketlərini sadə ünsiyyət elementindən yaradıcı poetik vasitəyə çevirir.

Nəticə
Bəxtiyar Vahabzadə yaradıcılığı tək bir şair kimi deyil, eyni zamanda dövrünü, xalqını, dili və mənəvi dəyərlərini dərindən hiss edib ifadə etmə bacarığı olan ziyalı kimi qiymətləndirilir. Onun poeziyasi, mənsub olduğu xalqın tarixi yaddaşı, mənəvi dünyası, dili, adət-ənənəsi, etnik kodları və milli kimliyinin bədii ifadəsidir. Bu kontekstdə Vahabzadənin poetik mətnlərinin dil materialı olaraq təhlili

onun şairlik bacarığından başqa, dilin incəliklərini dərindən bilməsini, onun funksional və stilistik imkanlarından peşəkarca istifadə etməsini aşkara çıxarır.

Məqalənin obyektini təşkil edən nitq etiketləri, daşıdıqları semantik, funksional və stilistik dəyərlər baxımından Bəxtiyar Vahabzadə yaradıcılığında çoxşaxəlidir. O bu ifadələri, sadəcə, etiket formaları kimi deyil, poeziyasının ideya məzmununu daşıyan, onu üslubi tərzdə tamamlayan poetik vasitələrə çevirmişdir. Məsələn, "Salam olsun", "*Bağışlayın*", "*Mübarək*", "*Şükür Allaha*", "*İlahi*" kimi ifadələr onun poetik mətnində real ünvanla yox, bütövlükdə xalq, torpaq, Vətən, ana dili kimi konseptual anlayışlarla ünvanlanır. Bu da nitq etiketlərinin semantik transformasiyasına, yükləndiyi yeni poetik funksiyalara gətirib çıxarır.

Vahabzadə şair kimi xalqının dilini, onun dünyagörüşünü, tarixə, insana, Vətənə baxış bucağını poeziyaya daşımaqla bu nitq etiketlərini milli ruhun ifadə vasitələrinə çevirmişdir. Məsələn, "Salam, Nəsimi" şeirində *"mübarək",* "*salam*" və "*xoş gəlmisən*" nitq etiketləridir, lakin onlar burada poetik funksiya daşıyır: Vətənə bağlılıq, sayğı, eyni zamanda mənəvi kökə qovuşmanın simvoludur. Bu, bir yandan şairin ünsiyyət mədəniyyətini, o biri yandan Vətənə emosional yanaşmasını aşkar göstərir. Bəxtiyar Vahabzadənin nitq etiketlərinə poetik mətnlərdə bu cür yaradıcı yanaşması onu digər klassik şairlərdən fərqləndirir. O bu etiketləri günlük danışıqdan çıxararaq poetik aləmə daşıyır, yeni forma və funksiya qazandırır. Bu zaman o ya ifadənin sətirlər arasında ritmik funksiyasından, ya da onun semantik dəyərini kontekstdə yeni məna qatlarına qaldırmaqdan istifadə edir.

Daha maraqlısı budur ki, şairin poeziyasında bu etiketlər bəzən xalq deyimləri, ata sözləri və ya folklor elementləri ilə sintez olunur. Məsələn, "*sənə qurban*", "*bir günüm də sizsiz olmasın*" kimi ifadələr, sadəcə, nitq etiketi deyil, xalq dünyagörüşündəki doğmalıq kultunun bədii ifadələridir. Bu kimi poetik gedişlər nitq etiketlərini şairin yaradıcılığında funksional-mənəvi alətə çevirir.

Bəxtiyar Vahabzadənin poeziyasında etik-emosional yüklü bu ifadələr poetik obrazlarla da qovuşa bilir. Məsələn, "*Allah, sən saxla*" deyən şair dua formasında dərin sarsıntı hissini ifadə edir. Bu ifadə dua nitq etiketi olmaqla yanaşı, poetik metaforaya çevrilir.

Vahabzadənin nitq etiketlərinə münasibəti, eyni zamanda onun şəxsiyyəti, mənəvi aləmi barədə də təsəvvür yaradır. Onun poeziyasında sayğı, xeyirxahlıq, bağışlama, üzr istəmə kimi motivlər poetik nitq vasitələri ilə ifadə olunur. Bu zaman şair etik-etnik komponentləri mənimsəyib onu poetik obrazlarla birləşdirə bilir. Bu, dilin semantik baxımdan dərin qatlarına enmək bacarığını nümayiş etdirir.

Beləliklə, Bəxtiyar Vahabzadənin poetik mətnlərinin stilistik təhlili, konkret olaraq nitq etiketlərinin ideya-məzmun funksiyalarına yanaşması onun poeziyasını yeni aspektdə qiymətləndirmə imkanı yaradır. Şairin şeirlərində nitq etiketlərinin istifadəsi, onun ictimai dünyagörüşü, millətə, insana və dilə yanaşması ilə bilavasitə əlaqəlidir. Bu cür poetik yanaşma nitq etiketlərinin araşdırılmasını uğurlu etməklə yanaşı, dildəki etik vahidlərin poetik funksiyasını da konkret mətndə çox açıq göstərir.

Nəticə olaraq, demək olar ki, Bəxtiyar Vahabzadə yaradıcılığı poetik dilin funksional imkanlarını daha da genişləndirir. Nitq etiketləri onun poeziyasında sabit ifadələr deyil, poetik funksiya, semantik məna yükü daşıyan bədii vasitələrə çevrilir. Onlar şairin dili ilə xalqı arasındakı köprü funksiyasını uğurla daşıyır, milli dünyagörüşünü poetik mətndə ifadə edir.

Ədəbiyyat

1. Vahabzadə, B. (2002). Əsərləri. V cild (1980-1989). B.,"Çaşıoğlu" nəşriyyatı, 504 səh.
2. Vahabzadə, B. (2004). Əsərləri. VII cild (2000-2004). B.," Çaşıoğlu" nəşriyyatı, 356 səh.
3. Vahabzadə, B. (2004). Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). B.,"Öndər Nəşriyyat", 328 səh.
4. Vahabzadə, B. (2004). Seçilmiş əsərləri. İki cilddə. II cild (Poemalar). B., "Öndər Nəşriyyat", 320 səh.
6. Vahabzadə, B. (2025). Mənim dostlarım. B., 148 səh.

ELEMENTS OF TURKISHISM IN BAHKHTYAR VAHABZADE'S POETRY

ЭЛЕМЕНТЫ ТЮРКИСИЗМА В ПОЭЗИИ БАХТЯРА ВАХАБЗАДЕ

BƏXTIYAR VAHABZADƏ POEZİYASINDA TÜRKÇÜLÜK ELEMENTLƏRİ

Şəkər Məmmədova
ADPU, Türkoloji mərkəz, Filologiya üzrə Fəlsəfə Doktoru Bakı, Azərbaycan
ORCID: 0009-0005-5385-4733

Abstract
Bakhtiyar Vahabzadeh a powerful artist and people's poet who embodies the high human qualities, moral values and spiritual virtues of our people who skillfully benefited from folk creativity and managed to use this benefit with great skill in the direction of glorifying our independence and struggle for independence is one of the outstanding representatives of Azerbaijani poetry, dramaturgy and science.
Most of B. Vahabzadeh's lyrical and dramatic works cover the period of the existence and also the formation of Turkish history and ideology. At the same time the problems raised in these works which resonate with the contemporary situation have comprehensively glorified the idea of Turkism by bringing to mind the misfortunes that have befallen the Turkish people as well as our people from time to time.
B. Vahabzadeh whose works feature a large part of the theme of the Turkic world, expressed his views on Turanism, Turkism and Azerbaijaniism as well as the friendly relations between Azerbaijan and Turkey in his articles and letters as well as in his poetic works. The poet who always considered it his duty to keep the concept of "Turk" at the forefront was recognized and loved beyond the borders of Azerbaijan due to his struggle for the Turkic world with national fanaticism. Bakhtiyar Vahabzade's poetry is our life textbook. A prominent representative of Azerbaijani literature, a philosopher and thinker poet and one of the tireless fighters of our national-democratic movement B. Vahabzade created the best examples of the ideology of Turkism, Azerbaijaniism and independence in Azerbaijani literature.
B. Vahabzadeh's 100th birthday will be celebrated in August 2025. The most important part of his work is the struggle for the spiritual unity and rise of the Turkic world and the realization and implementation of this unity and rise. In this regard on February 21, 2025, the President of the Republic of Azerbaijan Ilham Aliyev signed an Order on the celebration of the 100th anniversary of Bakhtiyar Vahabzade. The decree states: "Bakhtiyar Vahabzadeh is one of the powerful figures who has written brilliant pages in the history of Azerbaijani artistic and social thought with his fighting personality and multifaceted activities since the second half of the 20th century. In his legacy rich in deep poetic and philosophical thoughts expressing infinite love for the Motherland, nation and native language has always instilled a sense of respect for cultural and spiritual values, commitment to the ideals of national freedom and loyalty to the ideology of independence. The artist successfully combined his literary and scientific creativity with his pedagogical activity for many years playing an exceptional role in the formation of the national thinking of several generations. As a public figure Bakhtiyar Vahabzadeh has always demonstrated a truly intellectual position in relation to the fateful issues of the people." [1]. The Order also instructed the Ministry of Culture together with the Ministry of Science and Education, to prepare and implement a plan of events for the 100th anniversary of the People's Poet Bakhtiyar Vahabzadeh taking into account the proposals of the Azerbaijan Writers' Union. The national color, philosophical thought and sense of Turkism in the works of the poet who

is known and loved beyond the borders of Azerbaijan have made him a great, majestic and eternal poet of the Turkic world as a whole.

Key words: Turkic world, Turkism, Bakhtiyar Vahabzadeh's poetry, national poet

Резюме

Бахтияр Вагабзаде – могучий художник, народный поэт, олицетворяющий высокие человеческие качества, моральные ценности и духовные добродетели нашего народа, умело воспользовавшийся народным творчеством и сумевший с большим мастерством использовать это благо в направлении прославления нашей независимости и борьбы за независимость, является одним из выдающихся представителей азербайджанской поэзии, драматургии и науки.

Большинство лирических и драматических произведений Б. Вахабзаде охватывают период существования, а также формирования турецкой истории и идеологии. В то же время проблемы, поднятые в этих произведениях, которые резонируют с современной ситуацией, всесторонне прославляют идею тюркизма, напоминая о несчастьях, которые время от времени выпадали на долю турецкого народа, а также нашего народа.

Б. Вагабзаде, в творчестве которого большую часть занимает тема тюркского мира, в своих статьях и письмах, а также в своих поэтических произведениях выражал свои взгляды на туранизм, тюркизм и азербайджанство, а также на дружественные отношения между Азербайджаном и Турцией. Поэт, который всегда считал своим долгом держать понятие «тюрк» во главе угла, был признан и любим за пределами Азербайджана благодаря своей борьбе за тюркский мир с национальным фанатизмом. Поэзия Бахтияра Вагабзаде является нашим жизненным учебником. Видный представитель азербайджанской литературы, философ и поэт-мыслитель, один из неутомимых борцов нашего национально-демократического движения Б. Вагабзаде создал лучшие образцы идеологии тюркизма, азербайджанства и независимости в азербайджанской литературе.

В августе 2025 года будет отмечаться 100-летие Б. Вагабзаде. Важнейшей частью его деятельности является борьба за духовное единство и возвышение тюркского мира, осознание и реализация этого единства и возвышения. В этой связи 21 февраля 2025 года Президент Азербайджанской Республики Ильхам Алиев подписал Распоряжение о праздновании 100-летнего юбилея Бахтияра Вагабзаде. В указе говорится: «Бахтияр Вагабзаде является одной из мощных фигур, которая своей боевой личностью и многогранной деятельностью, начиная со второй половины XX века, вписала блестящие страницы в историю азербайджанской художественной и общественной мысли. В своем богатом глубокими поэтическими и философскими мыслями наследии, выражающем бесконечную любовь к Родине, нации и родному языку, он всегда воспитывал чувство уважения к культурным и духовным ценностям, приверженность идеалам национальной свободы и верность идеологии независимости. Художник успешно сочетал литературное и научное творчество с педагогической деятельностью, на протяжении многих лет играя исключительную роль в формировании национального мышления нескольких поколений. Как общественный деятель Бахтияр Вагабзаде всегда демонстрировал подлинно интеллектуальную позицию по отношению к судьбоносным вопросам народа»[1]. Распоряжением также было поручено Министерству культуры совместно с Министерством науки и образования подготовить и реализовать план мероприятий к 100-летию народного поэта Бахтияра Вагабзаде с учетом предложений Союза писателей Азербайджана. Национальный колорит, философская мысль и чувство тюркизма в творчестве поэта, которого знают и любят далеко за пределами Азербайджана, сделали его великим, величественным и вечным поэтом тюркского мира в целом.

Ключевые слова: тюркский мир, тюркизм, поэзия Бахтияра Вахабзаде, национальный поэт.

Xülasə
Xalqımızın yüksək insani keyfiyyətlərini, əxlaqi dəyərlərini, mənəvi məziyyətlərini təcəssüm etdirən, xalq yaradıcılığından ustalıqla bəhrələnən və bu bəhrələnməni istiqlal, müstəqillik savaşımızın tərənnümü istiqamətində böyük ustalıqla sərf etməyə nail olan qüdrətli sənətkar, xalq şairi Bəxtiyar Vahabzadə Azərbaycan poeziyasının, dramaturgiyasının, elminin görkəmli nümayəndələrindən biridir. B.Vahabzadə lirikasının və dram əsərlərinin əksəriyyəti türk tarixinin, ideologiyasının var olma, yaranış dövrünü əhatə edir və çağdaş durumla həmahəng səsləşən bu əsərlərdə qoyulan problemlər, zaman-zaman türk insanının, eləcə də xalqımızın başına gətirilən müsibətləri göz önünə gətirməklə türkçülük düşüncəsini hərtərəfli tərənnüm etmişdir. Əsərlərində Türk dünyası mövzusu böyük yer tutan B.Vahabzadə məqalə və məktublarında, habelə poetik əsərlərində turançılıq, türkçülük və azərbaycançılıq baxışlarını, o cümlədən Azərbaycan-Türkiyə dostluq əlaqələrini təzahür etdirib. "Türk" anlayışını həmişə öndə tutmağı vəzifə hesab edən şairin Azərbaycan sərhədlərindən kənarda da tanınması və sevilməsində milli təəssübkeşliklə türk dünyası uğrunda apardığı mübarizənin böyük rolu olub. Bəxtiyar Vahabzadə poeziyası bizim həyat dərsliyimizdir. Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, filosof və mütəfəkkir şair, milli-demokratik hərəkatımızın yorulmaz mücahidlərindən olan B.Vahabzadə Azərbaycan ədəbiyyatında türkçülük, azərbaycançılıq və istiqlalçılıq ideologiyasının ən yaxşı nümunələrini yaratmışdır.
Yaradıcılığının ən mühüm hissəsi Türk dünyasının mənəvi birliyi, yüksəlişi və bu birliyin, yüksəlişin reallaşması, həyata keçirilməsi uğrunda mübarizə işi olan B.Vahabzadənin 2025-ci ilin avqust ayında anadan olmasının 100 ili tamam olur. Bununla bağlı 21 fevral 2025-ci il tarixində Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir: "Bəxtiyar Vahabzadə mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır. Onun Vətənə, millətə və doğma ana dilinə sonsuz məhəbbət ifadə edən, dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır. Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək, bir neçə nəslin milli təfəkkürünün formalaşmasında müstəsna rol oynamışdır. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə əsl ziyalı mövqeyi nümayiş etdirmişdir" [1.].
Həmçinin Sərəncamda Xalq şairi Bəxtiyar Vahabzadənin 100 illik yubileyinə dair Mədəniyyət Nazirliyinə Elm və Təhsil Nazirliyi ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb. Azərbaycan sərhədlərindən kənarda da tanınan, sevilən şairin əsərlərindəki milli kolorit, fəlsəfi düşüncə, türkçülük duyğusu onu bütünlükdə türk dünyasının böyük, əzəmətli və əbədiyaşar şairinə çevirmişdir.
Açar sözlər: türk dünyası, türkçülük, Bəxtiyar Vahabzadə poeziyası, milli şair

Aktuallıq. Bəxtiyar Vahabzadə əsərlərində türk dünyasının aktual problemlərindən bəhs etməyi zəruri hesab etmişdir. Azərbaycan ədəbiyyatında türk dünyasının mənəvi birliyindən Bəxtiyar Vahabzadə qədər aydın danışan ikinci şair tapmaq çətindir. O, türk dünyasının tarixi taleyindən geniş mənada danışır. Onun türkçülük prinsipində ortaq dövlət deyil, ortaq tale məsələsi ədəbiyyatın gündəminə çevrildi. Məsələyə ümumbəşəri prizmadan yanaşan Bəxtiyar Vahabzadə türk xalqlarının mənəvi birliyi, bir-birini dəstəkləməsi məsələlərini Azərbaycanın problemləri kimi dəyərləndirib.
Annotasiya. Türk dünyasının tanınmış şairi Bəxtiyar Vahabzadə bir çox şeirlərində azadlıq, istiqlal, millət, vətən, türklük kimi məsələlərin onun üçün az qala bir həyat fəlsəfəsi olduğunu izah etməyə çalışmışdır. Şair üçün türk olmaq, türkcə danışmaq, Azərbaycanı vətən kimi qorumaq bu dünyada ən yüksək dəyərdir.B.Vahabzadə böyük türk birliyinin gerçəkləşməsi üçün bütün dünya türklərinin, bütün türk boylarının ilk növbədə özlərini “türk” kimi tanımalı və bu ümumi və milli şüura çatmalı olduğunu vurğulayır və əhəmiyyət verir. Onun sözlərinə görə, bizim ortaq kimliyimiz “türk”

olmaqdır. İdeal birliyimiz "Turan" deməklə bütün türklərin təbii ki, turançı olması lazım olduğuna inanır və bu ideal birliyi bütün dünya türklərinə şüurlu şəkildə aşılayır.
Metod. Məqalədə tarixi-müqayisəli, təsviri metodlarından istifadə olunmuşdur.

Giriş.
Azərbaycan poeziyasında vətəndaşlıq ruhunun qüvvətlənməsində və sənətkarlıq imkanlarının genişlənməsində müstəsna xidmətləri olan Bəxtiyar Vahabzadə dilimizin poetik imkanlarından məharətlə bəhrələnərək fəlsəfi məzmunlu lirikanın gözəl nümunələrini yaratmağa nail olmuşdur. XX əsrin 60-70-ci illərində Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadə türkçülük düşüncəmizin formalaşması naminə söz sənətinin, o cümlədən, lirikanın bütün imkanlarından istifadə etmişdir. Milli poeziyamızda B.Vahabzadənin xalqın türklüyünə, kökünə qayıdışın, azadlıq mübarizəsinin öz təcəssümünü tapmasında xidmətləri böyükdür. Xalq şairi Bəxtiyar Vahabzadənin anadan olmasının 90 illiyinə həsr olunmuş "Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatı və mədəniyyətinin fenomeni kimi" adlı elmi konfransda professor Şirindil Alışanlı məruzəsində bildirir: "XX əsrdə Azərbaycan xalqının dünya poeziyasına bəxş etdiyi korifey sənətkarlar arasında xalq şairi Bəxtiyar Vahabzadə önəmli yer tutur. B.Vahabzadə təkcə milli Azərbaycan bədii təfəkküründün fenomeni deyil, ümumtürk bədii-fəlsəfi hadisəsidir" [2.].
Bəxtiyar Vahabzadə "Vətən marşı", "Atatürk", "Mən türkəm", "Haqqı yox", "İstanbul", "Azərbaycan – Türkiyə", "Şəhid məzarları", "Mumiya", "İstiqlal", "Baba Gur-Gur" və s. kimi əsərlərində türkün türkə sevgisi, can yanğısı, doğmalığı, türkün böyüklüyü, tarixi qəhrəmanlarına məhəbbətini, ümumilikdə türk mənəvi birliyi ideyasının əsasını yüksək səviyyədə ifadə etmişdir. Ədibin yaradıcılığında azərbaycançılıqla türkçülük eyni dərəcədə öz tərənnümünü tapmışdır. "B.Vahabzadə öz xalqı ilə yanaşı, bütün türk dünyasının taleyini, gələcəyini, öz milli haqlarına qovuşması məsələlərini düşünərək, onların yüksəliş yollarını axtarmağa səy göstərmiş, yəni türkçülüyün və azərbaycançılığın ümumi tərəqqisi yolunda çalışmışdır. Bu baxımdan ədibin yaradıcılığında azərbaycançılıqla türkçülük üzvi şəkildə birləşir" [3, s.83].
Vətənpərvər şair "Vətən marşı" şeirində Azərbaycanı oğuz türklərinin vətəni adlandırmaqla onu qədim türk torpağı olaraq vəsf etmişdir:

Ey Azərbaycanımız, türkün oğuzlar Vətəni,
Ər oğullar, ər igidlər, kişi - qızlar Vətəni, [4, s.132]

Müstəqillik əldə ediləndən sonrakı yaradıcılığında milli özünüdərki və bununla əlaqədar "türk" anlayışını həmişə öndə tutmağı vəzifə hesab edən şair B.Vahabzadə "Mən türkəm" şeirində türk olmağı ilə qürur duyan sənət və mədəniyyət xadimi kimi milləti yüz yerə calayanlara, özünü, kimliyini dananlara layiqincə cavab verir:

Əslimi, nəslimi tanıyıram mən,
Qarışıq deyiləm, özümdən hürkəm.
Sən kimsən, sən nəsən, özün bilərsən,
Mən ilk qaynağımdan türk oğlu türkəm!
Sübutdur, dəlildir, ağlın qibləsi,
Dəyişə bilərsən adımı ancaq.
Canım çıxanadək qəlbimin səsi,
"Türkəm" - gerçəyini pıçıldayacaq. [4, s.143]

Bəxtiyar Vahabzadəni türk dünyasının böyük şairi kimi qiymətləndirən professor Fikrət Türkmən yazırdı: "Bütün türk dünyasında olduğu kimi, Türkiyədə də milli şüura malik hər kəs tərəfindən

tanınan və böyük pərəstişlə oxunan Vahabzadə ədəbi dairələrdə də, xüsusilə türk dili arealının yaşayan ən böyük şairi kimi qiymətləndirilirdi.
Şübhəsiz ki, onun bu qədər tanınması və sevilməsində milli təəssübkeşliklə türk dünyası uğrunda apardığı mübarizənin böyük rolu olub" [5, **s**. 9].
Bəxtiyar Vahapzadə keçmişimizin uzaq çağlarına göz dikmiş utopik turançı deyil, əksinə, üzünü bu günə tutaraq, gələcəyə baxan realist milli mistikdir. Türkiyə türklüyünə dair duyğularını və təəssüratlarını 1961-ci ildə qələmə aldığı "İstanbul" şeirində biz nəyik, necə olmalıydıq, nə olacağımızı çox realist və orijinal bir çərçivədə ortaya qoyur. Şeirində iki qitənin birləşdiyi bir şəhərdə - İstanbulda qəhrəmanı olan türk oğlu sağını, solunu seyr edir, amma bu seyr özü bir fəlsəfədir:

Bosfor körfəzi...
İki qitə
Söykənmiş bir-birinə
Ortasında bu yolun.
Bir tərəfi Avropadır,
Bir tərəfi Asiya
İstanbulun...
Türk oğlu durub ortada
Seyr edir
Sağını,
Solunu. [4, s.296]
Şeirdə türk oğlunun haqq yolunu tapacağına şair əmindir:
Bir şəhərdə görüşür
İki dünya, iki aləm.
Tapacaqdır, əminəm,
Türk oğlu haqq yolunu.
O, hələlik seyr edir
Sağını,
Solunu... [4, s.297]

İki qitə arasında qalan İstanbul kimi şairin qəhrəmanı da keçmişlə gələcək arasında qalsa da, şair onun düzgün yolda olduğuna inanır:

İrəlimi getsin
Geriyəmi dönsün
Keçmişdən qopa bilmir
Bu günümü
Tapa bilmir
Axtarır
Axtarır
Axtarır
Qarşıda işıq var,
Axtaran tapar!... [4, s.298]

Bəxtiyar Vahabzadənin "Türk dünyasının böyük şairi" adlandırılması heç də təsadüfi deyil. Milli-mənəvi birlik idealı, türkçülük, bütün türk dünyasının mənəvi yüksəlişi və birliyi naminə qələmə aldığı əsərləri XX əsrdən XXI əsrə bir körpü rolunu oynayır. "Onun yaradıcılığı Türkiyədə də, həmçinin, türkdilli ölkələrin hamısında sevilir və yüksək qiymətləndirilir. Mən deyərdim ki, şairin ölümü ilə böyük türk dünyasının fəlsəfi şeirinin bel sütunu qırıldı. Təsadüfi deyil ki, Bəxtiyar

Vahabzadə təkcə Azərbaycan xalqının deyil, bütün türk dünyasının böyük, sevimli və əbədiyaşar şairidir" [6, s. 18].
Böyük türk şairi B.Vahabzadənin "Şəhidlər" poemasında milli istiqlal, azadlıq, haqq- ədalət, dirəniş, mübarizə yolunun başlıca qayəsi mənsub olduğu xalqın həyat, yaşam qayəsini qan yaddaşına, kökə, ilkinliyə yönəltmək, onu oyatmaq, mübarizəyə qoşmaqdır. Poemada ədib türk lideri, Türkiyə Cumhuriyyətinin qurucusu Atatürkün "Yoxdur türkün dostu özündən özgə" fikrini yada salaraq türkün dostu türkdür, millətlər dostluğunun sözdə var olduğu fikrini irəli sürmüşdür:

Millətlər dostluğu! Astar üz imiş,
*Bunun nəyi varmış sözündən özgə?**
Atatürk düz demiş, vallah, düz demiş:
"Yoxdur türkün dostu özündən özgə" [7, s.295]

Türk millətinin qədimliyinin inkarını, milli varlığının, dilinin hər vasitə ilə sıxışdırılmasını, türk xalqının doğma yaşayış yerlərindən zorla ayrı düşürülməsini şair kəskin qələmi ilə tənqid edərək türkçülüyü təbliğ və tədqiq etmişdir.

Türkdilli xalqların doğma yerindən
Didərgin düşməsi kimə gərəkmiş?
İyirminci yüzilin əvvəllərindən,
"Türkəm" - deyənlərin başı nə çəkmiş?!
Türk öz mənliyini biləndən bəri,
İblis də gələcək qəsdini bildi.
Qaraçay, Axalsiq, Krım türkləri,
Malkarlar, mesxetlər sürgün edildi.
İki yanağı var, amma bir üzü,
Türk öz anasından belə doğulmuş.
Anlaya bilmirəm, niyə "türk" sözü
Kiminsə başına düşən daş olmuş. [7, s.295]

Türk birliyi ideyasına söykənən dəyərli əsərlər yaratmış vətənpərvər şairin poeziyasında türkün böyüklüyü, qəhrəmanlığı, dili, mədəniyyəti, tarixinə verilən dəyər yüksək səviyyədə ifadə edilmişdir. "Tarixdə qəhrəman türkün getdiyi nur yolları şeiriyyəti ülviyyət saçan B.Vahabzadənin əbədi sənət yoludur" [8.].
Türkçülük düşüncəsinin və mücadiləsinin təbliği, tərənnümü istiqamətində qələmə aldığı əsərləri ilə Türk Dünyasının ölməz sənətkarları sırasına daxil olan B.Vahabzadə dram əsərlərində olduğu kimi, şeir yaradıcılığında da ilk növbədə türkçülük ideyalarının böyük təbliğatçısıdır. "B.Vahabzadənin hümanist poeziyası öz məhdud milli çərçivəsini aşaraq, böyük Türk Dünyasının əbədi mənəvi sərvətlərinə qovuşmuşdur" [9, s.79]

Nəticə.
Bəxtiyar Vahabzadə poeziyazında oxucunu xalqın taleyini, dilimiz, birliyimiz, bu günümüz-sabahımız, ümumiyyətlə, həyatımız haqqında sövq edir. Əsərlərində Türk dünyası mövzusu böyük yer tutan Bəxtiyar Vahabzadənin 1970-1990-cı illərdə yazdığı "Türküstan, Türküstan", "Yunus İmrə", "İstiqlal nəğməkarı", "Əhməd Cavad", "Böyük türkçü", "Sənət sənət üçündür, yoxsa xalq üçün", "Ey qocaman Türkiyə" adlı məqalə və məktubları ilə yanaşı poetik əsərlərində də şairin turançılıq, türkçülük və azərbaycançılıq baxışları təcəssüm etdirilib. Ədibin mövzu dairəsi geniş olan poeziyası Azərbaycan sərhədlərini aşaraq dünyanın dörd bir tərəfində, xüsusilə Türk dünyasında oxucularının rəğbətini qazanmışdır. "Bəxtiyar Vahabzadə təkcə Azərbaycan türklərinin deyil, bütün

türk dünyasının bütövlüyü, tamlığıdır. Onun sənətində qırğızın da, özbəyin də, türkmənin də, qaqauzun da duyğuları, düşüncələri, istəkləri əks olunub. Bəxtiyar poeziyası türkün üz ağlığıdır, qılıncdaniti söz çələngidir". [10. s.47] Vahabzadə başda Azərbaycan türklərinin, ümumən bütün Turan türklərinin problemlərini, dərdlərini, iztirablarını, gözləntilərini, arzu və ümidlərini dilə gətirən bir dava şairidir. O, poeziyaya incə fərdi duyğuların titrəyən ifadə meydanı kimi baxmamış, Türk davasını gur, güclü, möhkəm, qətiyyətli və qətiyyətli bir səsə çevirmişdi.

Həyat və yaradıcılıq yolu xalqımız, millətimiz üçün millətsevərlik örnəyi olan Bəxtiyar Vahabzadə xalqımızın milli düşüncənin formalaşmasına böyük təsir göstərmiş, türk xalqının tərəqqisi yolunda yorulmadan çalışmış, ümumtürk mənəvi dəyərlərini, dilini, tarixini daim uca tutaraq türk insanına təqdim etmişdir.

Ədəbiyyat

1. https://president.az/az/articles/view/68214
2. https://sesqazeti.az/news/culture/482703.html
3. Natavan Mustafayeva. "Bəxtiyar Vahabzadə yaradıcılığında Türkçülük". Risalə. Araşdırmalar toplusu. № 11, "Elm və Təhsil" nəşriyyatı, 2015. S.81-85.
4. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı, "Öndər nəşriyyat", 2004.
5. Fikrət Türkmən, Yeni Azərbaycan .-2009.- 21 fevral.- S. 9.
6. İlham Abbasov. Ədalət.- 2010.- 22 may.- S. 18.
7. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. II cild (Poemalar). Bakı, "Öndər nəşriyyat" 2004.
8. Gülşən Əliyeva-Kəngərli. https://525.az/news/32401-turk-qayesi-ve-milli-idrak-poeziyasi.
9. Nizami Cəfərov. Bəxtiyar Vahabzadə, Bakı, Azərbaycan nəşriyyatı, 1996.
10. "Türk dünyasının Bəxtiyarı", "Təfəkkür" nəşriyyatı, 2002.

LANGUAGE AND STYLE FEATURES OF BAHKHTYAR VAHABZADE'S POEMS

ЯЗЫКОВЫЕ И СТИЛЕВЫЕ ОСОБЕННОСТИ СТИХОТВОРЕНИЙ БАХТИЯРА ВАГАБЗАДЕ

BƏXTİYAR VAHABZADƏ ŞEİRLƏRİNİN DİL - ÜSLUB XÜSUSİYYƏTLƏRİ

Arifə Əziz qızı Zeynalova
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Naxçıvan Dövlət Universiteti

Abstract
Bakhtiyar Vahabzadeh's poetic creativity, his journalism, developed in close contact with cultural and educational writing and activities. Many painful issues form the subject of both his poetry and journalism, conversations and interviews. The poet's literary heritage has been and is being studied in various aspects. Among the existing studies, the study of Bakhtiyar Vahabzadeh's poetic heritage in the linguistic aspect is of great importance. Thus, such a study allows us to reveal the importance of Bakhtiyar Vahabzadeh's participation in the development of the Azerbaijani literary language, the new trends and demands that the poet brought to this field.
The article examines the linguistic and stylistic features of Bakhtiyar Vahabzadeh's poems, and the phraseological units, synonyms, and antonyms used in the poet's language are studied and analyzed.
The linguistic features of Bakhtiyar Vahabzadeh's poems are inexhaustible. The article selects and highlights the most noticeable features of the poet's work (synonyms, antonyms, phraseologisms, artistic appeals).
Keywords: Bakhtiyar Vahabzadeh, native language, phraseological units, synonyms, antonyms, antitheses, addresses, artistic style.

Резюме
Поэтическое творчество Бахтияра Вагабзаде, его публицистика развивались в тесном контакте с культурно-просветительской писательской и просветительской деятельностью. Многие болезненные вопросы составляют предмет как его поэзии, так и публицистики, бесед и интервью. Литературное наследие поэта изучалось и изучается в различных аспектах. Среди существующих исследований большое значение имеет изучение поэтического наследия Бахтияра Вагабзаде в лингвистическом аспекте. Таким образом, такое исследование позволяет раскрыть значение участия Бахтияра Вагабзаде в развитии азербайджанского литературного языка, новые тенденции и требования, которые привнес поэт в эту сферу.
В статье рассматриваются лингвистические и стилистические особенности стихотворений Бахтияра Вагабзаде, изучаются и анализируются фразеологические единицы, синонимы и антонимы, используемые в языке поэта.
Языковые особенности стихотворений Бахтияра Вагабзаде неисчерпаемы. В статье отобраны и выделены наиболее заметные черты творчества поэта (синонимы, антонимы, фразеологизмы, художественные призывы).
Ключевые слова: Бахтияр Вагабзаде, родной язык, фразеологизмы, синонимы, антонимы, антитезы, обращения, художественный стиль.

Xülasə
Bəxtiyar Vahabzadənin şeir yaradıcılığı, onun publisistikası, mədəni-maarif yönəmli yazı və fəaliyyəti ilə sıx təmasda inkişaf etmişdir. Bir çox ağrılı-acılı mətləb onun həm poeziyasının, həm də publisistikasının, söhbət və müsahibəsinin mövzusunu təşkil edir. Şairin ədəbi irsi müxtəlif

aspektlərdə öyrənilmiş və öyrənilməkdədir. Mövcud tədqiqatlar içərisində Bəxtiyar Vahabzadənin poetik irsinin dilçilik aspektində öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, belə bir araşdırma Azərbaycan ədəbi dilinin inkişafında Bəxtiyar Vahabzadənin iştirakının əhəmiyyətini, şairin bu sahəyə gətirdiyi yeni meyl və tələbləri açıb göstərməyə imkan verir.
Məqalədə Bəxtiyar Vahabzadə şeirlərinin dil-üslub xüsusiyyətləri araşdırılmış, şairin dilində işlənən frazeoloji birləşmələr, sinonimlər, antonimlər tədqiq və təhlilə cəlb olunmuşdur.
Bəxtiyar Vahabzadənin şeirlərinin dil xüsusiyyətləri bitməz-tükənməzdir. Məqalədə şairin yaradıcılığında daha çox nəzərə çarpan xüsusiyyətlər seçilib götürülmüşdür (sinonimlər, antonimlər, frazeologizmlər, bədii xitablar).
Açar sözlər: Bəxtiyar Vahabzadə, ana dili, frazeoloji birləşmələr, sinonimlər, antonimlər, antitezalar, xitablar, bədii üslub.

Dil və üslub etibarilə müasir ədəbi dilimizdə xüsusi mövqeyi olan sənətkarların əsərləri böyük mədəni sərvət təşkil edir. Bu sənətkarların dil xüsusiyyətləri hərtərəfli və dərindən öyrənilməsi vacib olan məsələlərdəndir. Azərbaycanın xalq şairi, akademik Bəxtiyar Vahabzadə şeirlərinin dil-üslub xüsusiyyətlərinin öyrənilməsi belə vacib məsələlərdən biridir. Ədəbiyyatşünas R.Xəlilovun sözləri ilə desək: "O, Azərbaycan dilinə məhəbbətlə yanaşmağa öyrədən, Füzulinin, Xətainin, Cəlil Məmmədquluzadənin, Sabirin, Səməd Vurğunun dil mədəniyyətinə varis çıxan, sadiq qalan şairlərimizdən biridir". Bəxtiyar Vahabzadə öz görkəmli sələflərinin sənətkarlıq ənənələrini davam və inkişaf etdirən şairlərdəndir.
Milli keçmişimizə, şərəfli tariximizə, doğma Vətən torpağına, dilimizə, mədəniyyətimizə, folklorumuza və yazılı ədəbiyyatımıza dərindən dərin köklərlə bağlı olmuş Bəxtiyar Vahabzadə, həm də bütün bu sahələrdə insanlarda maraq oyadan, şair, alim, pedaqoq və vətəndaş idi. Milli dili, mili qürur, milli təəssübkeşlik, milli dəyər, milli mənafe, milli düşüncə-bütün bunlar Bəxtiyar müəllimin nəfəs aldığı sahələr, amillər idi. Bəxtiyar Vahabzadə şair, ictimai xadim, vətəndaş kimi də ana dilimizin həm təbliğatçısı, həm qoruyucusu, həm də yaradıcısı olaraq tanınırdı. Qətiyyətlə demək olar ki, Bəxtiyar Vahabzadənin sözün əsil mənasında müasir Azərbaycan ədəbi dilinin inkişafında xüsusi xidmətləri olub. Ana dilimiz haqqında Bəxtiyar müəllimin yazdığı bu misralar çoxlarının dillər əzbəridir:

Bu dil-bizim ruhumuz, eşqimiz, canımızdır
Bu dil-bir-birimizə əhdi-peymanımızdır.
Bu dil-tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil-əcdadlarımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiztək
Qoruyub, nəsillərə biz də hədiyyə edək.

Azərbaycan dilçiliyində dil, yaxud nitq mədəniyyəti ən az işlənmiş sahələrdən biridir. Bəxtiyar Vahabzadə belə hesab edir ki, "dil və nitq mədəniyyətindən danışmazdan əvvəl düşüncə və təfəkkür mədəniyyətindən danışmaq lazımdır". Şair bu mövzu üzərində işlərkən dil və təfəkkür, dilin işarəvilik və kommunikativlik funksiyaları kimi mücərrəd anlayışlara müraciət etmir. O, məsələyə bir sənətkar kimi yanaşır, ara-sıra müqayisələr aparır, analogiyalara əl atır. Bəxtiyar Vahabzadə sözləri və cümlələri elə bir nəqliyyat vasitəsinə bənzədir ki, o, bir ağıldan o birisinə, bir ürəkdən o birisinə fikir yükü daşıyır.
Müəllif əsl Azərbaycan sözləri və alınma sözlər məsələsinə də toxunur. O, "sənin sözün mənə təsir elədi" cümləsini misal gətirir və qeyd edir ki, burada təsir sözündən başqa bütün sözlər mənşəcə əsl Azərbaycan sözləridir, ("bizimkidir"). "Şair belə hesab edir ki, yad bir sözün (təsir) bura düşməsi ilə cümlə bizə yadlaşıb ("bu yadlığı bilmək yox, hiss etmək lazımdır"). Bəxtiyar Vahabzadə belə hesab

edir ki, həmin fikri xalq belə deyərdi: "Sənin sözlərin mənə yer elədi". Bəxtiyar Vahabzadə sözünə davam edir: Təsir sözünü yer sözü ilə əvəz etdik. Cümlə nə qədər doğmalaşdı, fikir nə qədər isindi. O, "niyə?" deyə soruşur və özü də həmin suala cavab verir: birincisi, ona görə ki, təsir sözü dilimizin ruhuna, təbiətinə tamamilə yaddır, xüsusilə "ə"nin üstündəki apostrof (Azərbaycan dilinin keçmiş orfoqrafiya qaydalarına görə-red) sözün sağ və solundakı doğma kəlmələrin üstünə kölgə salır, onların içindən qabarıb çıxır. İkinci tərəfdən, "yer elədi" ifadəsindəki obrazlılıq "təsir" sözündə yoxdur. "Yer elədi" ifadəsi göz önünə bir lövhə gətirir. Qarşı tərəfin sözü mənim ürəyimi oydu, eşdi, özünə yer elədi.
Dil, ana dili məsələləri Bəxtiyar Vahabzadənin bədii və publisistik yazılarının daimi, sabit mövzularındandır. O, həmin mövzuya müxtəlif cəhətlərdən yanaşır, onun mənasını və əhəmiyyətini özünə və başqalarına açmağa çalışır. Şair "ana dili" ifadəsinin meydana çıxmasını bu cür izah edir: "Biz dilimizə "ana dili" deyirik. Çünki bizə doğma dilimizi ilk dəfə öyrədən də ananın özüdür" (12, 27). Şair fikirlərini nəsrlə dediyi kimi, nəzmlə də deyir:

Dil açanda ilk dəfə "ana" söyləyirik biz,
"Ana dili" adlanır bizim ilk dərsliyimiz,
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə. (9, 100)

Başqa bir yerdə şair "dili insanın anasından öyrəndiyi ən qiymətli sərvət, vətənə və millətə məhəbbətinin başlanğıcı" kimi səciyyələndirir. Şair "Mənim anam" şeirində göstərir ki, o, dili öz savadsız anasından öyrənmişdir. Anası oğluna təkcə dil öyrətməyib, ancaq onun öyrətdikləri şeylər, mətləblər içərisində ən vacibi, ən lazımlısı budur. Dil insanlar arasında ən mühüm ünsiyyət vasitəsidir. O olmasa, dünya işlərindən baş çıxartmaq, dünya, təbiət, cəmiyyət, həyat, keçmiş və gələcək haqqında vaxtına çəkmiş, yerinə düşmüş sözlər danışmaq mümkün olmaz. Dilsiz insan lal kimi olur, bu hamı üçün belədir. Ancaq şair üçün bu həm belədir, həm də belə deyildir. Belədir, ona görə ki, o da başqaları kimi, ünsiyyətə möhtacdır, başqalarının sözünü, səsini eşitmək istəyir və başqalarının da onu eşitməsini istəyir. Belə deyil, ona görə ki, dil şairdən ötrü təkcə danışmaq üçün vasitə deyil, həm də bu dildə özünü ifadəetmə, sənətə vaqif olmaq və sənət nümunələri yaratmaq vasitəsidir. Şairin özünün dediyi kimi:

Mən bu dildə hiss etmişəm
Həm sevinci, həm də qəmi,
Bu dil ilə yaratmışam
Hər şeirimi, hər nəğməmi.

Şair ona dil və həyatda gərəkli olan bir çox şeylər öyrədən anasından minnətdarlıq hissi ilə danışır.
Savadsızdır mənim anam,
Amma mənə il öyrədib, ay öyrədib,
Ən əsası dil öyrədib.

Ana da müəllimdir; o, dilsiz körpəyə dil öyrədir. Ancaq dili, ağzı olan adamlara, adam balalarına dil öyrədənlər də vardır. Bunlar öz uşaqlarından çox özgə uşaqlarına dil öyrədən, dil vasitəsilə öyrədən müəllimlərdir.
Şair "Əlifba kitabı" şeirində həmin şəxsləri nəzərdə tutaraq yazır:

Müəllim! Qayğınla böyüyür insan,
Sən əqlə, kamala qanad verirsən.
Ana dilimizin gur bulağından

Körpə balalara su içirirsən.

Bəxtiyar Vahabzadə səslərdəki belə bir qüdrətə işarə edir ki, otuz iki səs on minlərlə sözün və söz formalarının materialı olmaqla, bütöv bir dilin təşkili və fəaliyyətini təmin edir. Bu sirri, bu hikməti isə bizə müəllim öyrədir. "İlk müəllimimiz bu səslərlə ana dilimizi, onun gözəlliyini, musiqisini və böyük imkanlarını bizə öyrədir" (6, 28). Bəxtiyar Vahabzadə təkcə dil, ana dili və onun taleyi məsələlərini öz əsərlərinin mövzusu etməklə kifayətlənməyib, dil barəsində düşüncələrin məhsulu olan bəzi dilçilik terminlərinin bədii təsvir vasitələri sırasına gətirilməsinə də cəhd etmişdir. O, bir şeirində "isim", "sifət", "feil" kimi nitq hissələrini qarşılaşdırır, onların bəzi təsəvvürləri təmsiletmə gücünü saf-çürük edir və, nəhayət, belə bir gözlənilməz nəticə çıxarır:
İsim, sifət döyüşlərdə çox zaman karıxar…
Fellərsə döyüşlərdən həmişə qalib çıxar.
Çox sevirəm igid kimi döyüşən
Kəlməni mən,
Sözü mən,
Feil olmaq istəyirəm
Düzü, mən…

Vahid milli dövlətin yaradılması, keçmiş feodal mülklərinin yüzillik müharibədən sonra vahid mərkəz ətrafında birləşdirilməsi, millətin birləşdirilməsi vasitələrindən biri kimi vahid dilin yaradılmasını tələb edirdi.
Bəxtiyar Vahabzadənin şeirlərində xitablardan da geniş şəkildə istifadə olunur. Bunlar bədii - funksional səciyyə daşıyır və şairin əsərlərində, şeir və poemalarında tez-tez istifadə olunur. Belə ki, xitablara şairin bədii əsərlərinin həm əvvəlində (daha doğrusu, poetik misraların əvvəlində), həm ortasında (misraların), həm də sonunda rast gəlirik. Bunun şahidi olmaq üçün şairin poeziyasına müraciət edək:
Qaliley! Hələlik kəşfin bir yana,
Onun qiymətini alimlər bilər!

Dostlar! Bizim bu həyatda, bizim nəhəng qurğularda
Qoca dəmiryolçunun da öz kiçicik xidməti var. (8, 45)

Verilmiş misallarda xitab müvafiq surətdə xüsusi və ümumi isimlə ifadə olunmuşdur. Ümumi isim cəmdə işlənmişdir.
Misranın əvvəlində xitab vokativ sözlərlə (ey, ay, a) birlikdə işlənə bilir.
Ey vokativinin daha çox danışıq dilində işlənən ay və a variantları da vardır. Aşağıdakı mətndə ey variantı daha yerində işlənən dil vahididir:

Ey Mədain! Mədain, nə böyük tarixin var!
Bircə qəsr qalıbdır bu gün səndən yadigar!

Ey rəssam, dünyada yeddicə rəng var,
Arzular rəngarəng, diləklər zəngin. (8, 139)

A, ay vokativləri xitablarla məhrəmlik, adilik hökm sürən nitq şəraitində işlənir. Burada dəbdəbəyə, təmtərağa yer yoxdur. Məsələn:

Ay ata, gəlirəm, sən keç içəri,
On dəfə demişəm bayaqdan bəri. (8, 140)

Həmçinin misra başında xitabın ifadə olunduğu söz təkcə vokativlə yox, təyinlə də işlənir. Onu da deyək ki, bu zaman təyini atmaq olmur, təyin olunan onunla birlikdə xitab mövqeyində işlənir. Məsələn:

Qara zurna !
Maya tutdun
Düşmən üstdə, qılınc çəkən
Qazan xanın nərəsindən, harayından.
Yaxud,

Cavan oğlan! Sən gecənin bu çağında
Nə gəzirsən pəncərəmin qabağında?! (8, 140)

Nümunələrdəki “qara zurna”, “cavan oğlan” ifadələri birinci növ təyini söz birləşmələridir. Bəxtiyar Vahabzadənin şeirlərində ikinci növ təyini söz birləşmələrinin də xitab kimi işləndiyini görürük:
Nida cümləsi!
Sən dik dayandın,
Özünü hamıdan qüdrətli sandın.

Bəxtiyar Vahabzadə şeirlərinin dilində həmçinin xitablar əsasən misranın sonunda rədif qafiyədən sonra da gəlir və təkrar işlənən söz yaradır:

Şirin-şirin yat, ay bala,
Boya-başa çat, ay bala.
Səndə bir gün öz səsini
El səsinə qat, ay bala! (8, 74)

Bəxtiyar Vahabzadə şeirlərində işlənən xitabları tədqiq edərkən aydın olur ki, xitablar insana, canlılara, cansızlara, təbiət hadisələrinə aid olur. Xitabların ifadə olunduğu sözlərin mənsubiyyət şəkilçiləri ilə işlənməsi yalnız şəxs bildirən sözlərlə mümkün olur (başqa sözlər yalnız məcazi mənada mənsubiyyət şəkilçisi ilə işlənə bilir). Ümumiyyətlə belə demək mümükündür ki, xitablar Bəxtiyar Vahabzadə poeziyasının dil xüsusiyyətlərinin mühüm bir qismini təşkil edir.
Bəxtiyar Vahabzadə poeziyasının dili həm də onun fərdi xüsusiyyətlərini özündə cəmləşdirir. Şair ümumxalq dilinin canlı ifadə vasitələrinə əsaslanaraq, güclü bədii-estetik təsir gücünə malik olan nümunəvi bədii dil yaratmışdır. Şairin əsərlərində nəzərə çarpan rəngarəng obrazlılıq şairin bilavasitə canlı xalq dilinin zənginliklərindən yaradıcı surətdə istifadə etmək bacarığı ilə bağlıdır.
Bəxtiyar Vahabzadə əsərlərinin leksikası üslubi cəhətdən xüsusi əhəmiyyətə malikdir. Şair leksik, frazeoloji materialların nominativ mənasından daha çox üslubi çalarlarından istifadə edir. Onun xüsusi dinamikliklə seçilən leksikası müxtəlif münasibətlərdə yeni-yeni məna rəngləri yaratmağa qabildir. Şairin leksikasındakı hər bir lüğət vahidinin leksik-semantik mənası, üslubi-estetik vəzifəsi konkret mətnlə, bədii situasiya ilə əlaqədar müəyyən çalarlar, keyfiyyətlər kəsb edir. Ona görə də Bəxtiyar Vahabzadənin əsərlərinin dili öz dərin obrazlılığı, emosional-ekspressiv keyfiyyətləri, bədii təsvir və ifadə vasitələrinin zənginliyi ilə seçilir.
Bildiyimiz kimi Azərbaycan dili zəngin sinonimlər sisteminə malikdir. Sinonimlərin səciyyəvi xüsusiyyəti ümumi bir mənanı müxtəlif incə çalarlıqlarla ifadə etməsindədir. “Sinonimlər danışan və yazana sözləri seçmək, öz subyektiv münasibətlərini ifadə etmək imkanı verir. Hər bir sinonimin arxasında spesifik məna çalarlığı olan üslubi rəngarənglik durur” (2, 51). Sinonimlər emosinal məna çalarlığı ifadə etmək üçün də bizim şifahi və yazılı nitqimizdə böyük əhəmiyyətə malikdir. Xüsusilə,

bədii əsərlərdə istifadə olunan sinonimlər, sinonimik ifadələr müəllifi cansıxıcı, lazımsız təkrardan xilas edir, təsvir olunan hadisələri rəngarəng boyalarla verməyə imkan yaradır. Bəxtiyar Vahabzadənin əsərlərində sinonimlər, əsasən, aşağıdakı formalarda işlənilmişdir: 1) Sinonim cütlərindən istifadə olunur. 2) Sinonimlər yanaşı, ardıcıl şəkildə bir-birini əvəz etmək, təkrarın qarşısını almaq üçün işlədilir. Məlumdur ki, xalq dilində bir sıra məfhumlar qoşa sözlərlə ifadə olunur. Bunların bir qismi sinonimlərin birləşməsi şəklində özünü göstərir. "İki yaxın mənalı sözün (sinonimlərin) qoşa işlənilməsi nəticəsində həmin birləşən sözlərin hər birindən müəyyən qədər fərqlənən yeni ifadə yaranmış olur. Bu yeni ifadə əmələ gəldiyi sözlərin təklikdə hər birinə nisbətən daha geniş anlayış bildirir. Deməli, sinonimlərin birləşməsi ümumxalq dilinin və ayrıca bir əsərdə yazıçı dilinin lüğətinin zənginləşməsinə gətirib çıxarır". (1, 165)
Sinonimlər "insan xarakterinin əks etdirilməsi və obrazın psixoloji vəziyyətlərinin təcəssümü üçün zəmin yaradan bədii dil materialıdır" (5, 28). Bəxtiyar Vahabzadə obrazların xarakterinə uyğun gələn, onların vəziyyətlə əlaqədar səciyyəsini tamamlayan söz və ifadələri öz əsərlərində işlətməklə, bədii dilin poetikləşdirmə gücünü artırır.

Anlaya bilmir ki, şərəf bildiyi
Ordenə satılıb şərəf, namus, ar (9, 17)
Bir damcı mürəkkəb olub göz yaşı
İllərlə gözlərdən axdı, töküldü (11, 83)

İmzalı, möhürlü ey cansız varaq
Nə qədər böyükmüş qüvvətin, gücün
Nəfsə qurban verib rəhmi, insafı
Dağıtdıq əxlaqın son sərhədini.

Əhsən bu paltara, dona, təbiət,
Sən bu səxavətdə nəsən, nəsənmiş!

Frazeoloji birləşmələrdən ibarət olan bu sinonim cərgənin hamısı obrazların nitqində işlədilmişdir. Bu cür sinonimlər ancaq personajların nitqini xarakterizə etmək üçün yox, eyni zamanda, müəllifin təhkiyə dili ilə obrazların dilini bir-birindən ayırmaq məqsədini də güdür. Obrazların dili isə daha çox canlı danışıq dilinə meyl edir. Bəxtiyar Vahabzadənin əsərlərində sinonimik cərgələr bəzən frazeoloji birləşmə ilə bir leksik vahidlə təmsil edilir: dolamaq-lağa qoymaq; işləmək-zəhmətə qatlaşmaq; ağlamaq-gözündən yaş axıtmaq; təəccüblənmək-heyrət etmək; qışqırmaq-haray təpmək; ölmək - Əzrayıla can vermək; sevinmək-ürəyi dağa dönmək; qanmaq-başa düşmək; tutulmaq-qaş-qabaq sallamaq; üzülmək-əldən-ayaqdan düşmək; bezdirmək - canını boğazına yığmaq; deyinmək – qarasınca asıb-kəsmək; qovrulmaq – cızdağı çıxmaq və s.
Ümumiyyətlə, Bəxtiyar Vahabzadənin əsərlərindəki sinonim sözlərin hər birinin öz üslubi dəyəri, estetik rolu vardır. Onlar şairin əsas fikir və qayəsinin bədii təcəssümü kimi çıxış edir. Azərbaycan ədəbi dilinə məxsus zəngin sinonim cərgəyə həssas və yaradıcı münasibət, buradan sözlərin mətləbə müvafiq olaraq seçilməsi şairin əsərlərinin bədii gözəlliyini, səlisliyini təmin edən bir amilə çevrilir.
Dilin lüğət tərkibində mövcud olan sözlərin mühüm bir qismi öz mənalarına görə bir-birilə semantik əkslik münasibətində işlənən antonimlərdir. "Ümumi anlayışların təzadlı münasibətlərini, xüsusiyyətlərini əks etdirən antonimlər sinonimlər kimi sözün mənasını dəqiqləşdirməyə kömək edir" (1, 77). Antonimlər bədii üslubda maraqlı çalarlar yaratmaları ilə seçilir. Bədii əsərlərin dilində antonimlərin işlədilməsindən əsas məqsəd bu və ya digər hadisənin qiymətləndirilməsi zamanı onların arasındakı təzadlı fərqləri müəyyənləşdirməklə şərtlənir. "Anlayışların təzadlı müqayisəsi əşyaların əlamət və keyfiyyəti haqqında canlı təsəvvür oyadır, dinləyiciyə və oxucuya güclü təsir göstərir" (2, 63). "Ziddiyyətli həyat hadisələrini, münasibətləri vermək üçün antonim sözlər

sənətkarın əlində ən dəyərli ifadə vasitəsi kimi özünü göstərir. Bununla yanaşı, antonim sözlər vasitəsilə bədii əsərlərin dilində təzad yaradılır ki, bunun da köməyi ilə əşya və surətlərin gözəl xarakteristikası əldə edilir" (4, 66). Antonimlər Bəxtiyar Vahabzadənin əsərlərində mətnin bədii-estetik təsir gücünü artıran leksik vahid kimi mühüm yer tutur. Antonimlərlə şair bir tərəfdən öz təhkiyə dilinə, digər tərəfdən də personajların nitqinə canlılıq gətirir, emosional təsir, qüvvətli kontrastlar yaradır, əşya və hadisələri daha inandırıcı, obrazlı, təsirli əks etdirir, müxtəlif anlayışların bir-birlərinə əks, əlamətlərini qarşı-qarşıya qoyur. Antonim sözlər şairin təsvir və fikirlərində aydınlıq yaradan dil vahidləri kimi də qiymətlidir. Şair onların vasitəsilə rəngarəng məna incəlikləri yaratmaqla əsərlərin ideya məzmununun açılmasına, obrazların hərtərəfli səciyyələndirilməsinə, konfliktlərin düzgün ifadəsinə müvəffəq olur. Müəllif başqa hallarda olduğu kimi, antonimləri obrazların vəziyyəti və hadisələrin səciyyəsi ilə bağlı şəkildə, məqsədə müvafiq tərzdə işlədir.

Gəl, qışa "zəhrimar", yaza "can" demə
Qışın dəhşətləri yaz içindədir
Enişdə yoxuş var, yoxuşda eniş
Ən böyük atəş də buz içindədir. (8, 43)

Biri toya,
Biri yasa gedənlər
Biri kefə
Biri işə gedənlər (10, 43)
Ağladı yerində, güldü yerində,
Şairin qəlbindən qəmlər ötüşdü (7, 37)

Şairin dilində işlənən antitezalar təsvir olunan personajın daxili aləmini, arzusunu, istəyini, qəlb çırpıntılarını açа bilir. Məsələn:

Bir anın içində həm qara, həm ağ,
Həm yaxın oluram, həm də mən uzaq.
Həm gecə oluram, həm gündüz, Allah!
Həm, əyri oluram, həm də düz, Allah! (13, 71)

Bildiyimiz kimi əksmənalı sözlər üçün ən xarakterik işlənmə tərzi onların eyni subyekt, eyni obyektlə əlaqəli şəkildə işlənməsidir. Həm yazılı dildə, həm də şifahi nitqdə bu ən işlək üsuldur. Bununla yanaşı, dildə əksmənalı sözlərin başqa-başqa subyekt və obyektlərlə əlaqədar işlənməsinə də rast gəlmək olur. Məsələn: Quzu ayağı dirçələr, Qoyun ayağı incələr (Məsəl). Yaxud: Torpaq deyib: "Öldür məni, dirildim səni" (Atalar sözü). Bəxtiyar Vahabzadənin bir şeiri "böyük" və "kiçik", "böyümək" və "kiçilmək" təsəvvürlərinin qarşılaşdırılması üzərində qurulmuşdur:

Məhəbbət istədin bir zaman məndən
Dedin ki, dar gəlir könlümə, könlün,
Utanıb o böyük məhəbbətindən
Mənim məhəbbətim böyüdü hər gün.
Elə böyüdü ki, kiçildi dünya
Əriyib nöqtəyə döndü gözümdə
İtirdim dünyanı,
Dünyam sən oldun,
Həm məni, həm səni tapdım özümdə!

Bəxtiyar Vahabzadənin əsərlərində təzad mümkünlə, olub-keçənlə imkan, namumkün, qeyrimümkün arasında münasibət kimi də özünü göstərir.

Həyat səni güldürəndə gülmüsən,
Hünərin var ağlayanda gül görüm.

Əlbəttə, burada güldürəndə və ağlayanda, gülmüsən və gül görüm ifadələri kateqorial baxımından bir-birinin tam müqabili deyildir. Gül felindən sonra işlənən –dür şəkilçisi təsirsiz feildən təsirli feil düzəldən şəkilçidir, onun tam qarşılığı ağladanda olmasıdır.
Beləliklə də leksik-semantik söz qrupları üzrə dil materiallarının öyrənilməsi aşağıdakı şəkildə özünü göstərir: Sinonim sözlər müvafiq mətnlərdə öyrənilmiş və sinonimik cərgələr şəklində nəzərdən keçirilmişdir. Qeyd etmək lazımdır ki, sinonimlərin seçilib-işlənməsi mətnin tələbi ilə şərtlənir. Bu, həm mütləq sinonimlərə, həm də nisbi sinonimlərə aiddir. Nisbi sinonimlərin işlədilməsi şairin yaradıcı təxəyyülünün yeni-yeni assosiativ əlaqələr axtarışlarına borcludur. Antonim sözlər də şairin yaradıcılığında həm dilin lüğət tərkibinə məxsus olan sabit assosiativ əlaqələr zəminində, həm də müəyyən anlayış və təsəvvürlərin okkazional olaraq qarşılaşdırılması zəminində müəyyənləşdirilmişdir.
Bəxtiyar Vahazadə şeirləri zəngin dil materiallarına əsaslanır. Şair haqlı olaraq qeyd edir ki, dil yalnız məişət mövzusunda deyil, həm də ondan dövlət dili kimi istifadə edəndə yaşayır. B.Vahabzadə zəngin ədəbi irs qoymuş şairlərimizdəndir. Onun əsərləri təkcə poeziyada deyil, dramaturgiya və publisistikada da əvəzsizdir.
B.Vahabzadə yaradıcılığı axıcı və xalq dilinə yaxın ifadələr, təbii təsvirlər, milli-mənəvi dəyərlər, azadlıq, sevgi və fəlsəfi ideyalar, Azərbaycan təbiəti, xalq ədəbiyyatı nümunələri ilə zəngindir və bu mövzular şairin əsərlərinin əsas qayəsini təşkil edir.
Sənətkarlarımızın yazıb yaratdığı bu incilər nə qədər qiymətlidir. Bu incilər içərisində poeziya ilə bərabər tarix də yaşayır. Belə ki, bu əsərlərlə tanış olarkən müxtəlif dövrlərdə dilimizin ərəb – fars, rus, son dövrlərdə isə Avropa dillərinin təsirinə məruz qaldığı haqqında məlumatlar alırıq. Və əgər tarix bunu bizə mənbə kimi verirsə, bu misralarda şairin, ədibin daxili səsini, ürək yanğısını da hiss edə bilirik. Təhlillərdən də göründüyü kimi, şair B.Vahabzadənin dilin saflığının qorunması, onun daxili imkanlarının üzə çıxarılması istiqamətində müstəsna xidmətləri olmuşdur. Bu keyfiyyətləri nəzərə alaraq onu Azərbaycan ədəbiyyatı tarixinin “ana dili şairi” adlandırsaq yanılmarıq. Onun bu istiqamətdə yazdığı əsərlərini özündən əvvəl və özündən sonrakı dil tendensiyasının ən bariz nümunələri hesab etmək olar...

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin üslubiyyatı. Elmi, rəsmi və eristolyar üslublar. Bakı, Elm, 1990
2. Bağırov Ə.A. Azərbaycan dilinin üslubiyyatı. Morfologiya, Bakı, Yazıçı, 1985
3. Cəfərov S. Müasir Azərbaycan dili. Bakı, Yazıçı, 1982
4. Əfəndiyeva T.Ə. Azərbaycan dilinin bədii ifadə vasitələri. Bakı, Yazıçı, 1973
5. Əfəndiyeva T.Ə. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı, Elm, 1980
6. Vahabzadə B. Azərbaycanın Bəxtiyarı (həyatı, yaradıcılığı, ictimai fəaliyyəti haqqında məqalələr toplusu)., B., Azərbaycan, 1995
7. Vahabzadə B. Etiraf. Şəbi-hicran (poemalar). B., Uşaqgəncnəşr, 1962
8. Vahabzadə B. Əsərləri. I c., B., Azərbaycan, 2001; II c., 2002
9. Vahabzadə B. İnsan və zaman (şeirlər və poemalar). B., Azərnəşr, 1964
10. Vahabzadə B. Lirika, B., Azərnəşr, 1990
11. Vahabzadə B. Vətəndaş. B., Gənclik, 1994
12. Vahabzadə B..Zaman və mən. B., Azərnəşr, 1999
13. Vahabzadə B.Bir ömür yuxu. B., Azərnəşr, 1998

ISSUES OF PRESERVATION AND DEVELOPMENT OF THE NATIONAL LANGUAGE IN THE WORKS OF BAKHTIYAR VAHABZADEH

ВОПРОСЫ СОХРАНЕНИЯ И РАЗВИТИЯ НАЦИОНАЛЬНОГО ЯЗЫКА В ТВОРЧЕСТВЕ БАХТИЯРА ВАГАБЗАДЕ

BƏXTIYAR VAHABZADƏNIN ƏSƏRLƏRINDƏ MILLI DILIN QORUNMASI VƏ INKIŞAF MƏSƏLƏLƏRI

baş müəllim Mahmudova Mehriban Akif qızı
ADPU, Xarici Dillər Mərkəzi

Xülasə
Bu tezisdə Bəxtiyar Vahabzadənin ədəbi yaradıcılığında Azərbaycan dilinin qorunması və inkişafı məsələləri araşdırılmışdır. Şairin əsərlərində ana dilinə sevgi, onun tarixi və milli kimliklə əlaqəsi xüsusi vurğulanır. “Ana Dili”, “Millət və dil”, “ İki dil” kimi şeirlərində Vahabzadə Azərbaycan dilinin saflığını, işlənmə dairəsinin genişləndirilməsinin vacibliyini ön plana çəkmişdir. Sovet dövrünün ideoloji çətinliklərinə baxmayaraq , o, dil məsələrinə cəsarətlə toxunmuş, həm publisistik, həm də poetik şəkildə ana dilinin taleyi ilə bağlı fikir yürütmüşdür. Şairin dilə münasibəti yalnız bədii ifadə vasitəsi kimi deyil, həm də milli ruhun daşıyıcısı kimi onun ictimai mövqeyini müəyyən etmişdir. Nəticə etibarilə, Vahabzadənin əsərləri ana dilinin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından dəyərli ideya və örnəklərlə zəngindir.
Açar sözlər: milli kimlik, ədəbi dil, poetik üslub, milli ideya. bədii irs

Abstract
This thesis examines the issues of preservation and development of the Azerbaijani language in the literary work of Bakhtiyar Vahabzadeh. In the poet's works, love for the mother tongue, its connection with history and national identity are especially emphasized. In his poems such as "Mother Tongue", "Nation and Language", "Two Languages", Vahabzadeh highlighted the purity of the Azerbaijani language and the importance of expanding the scope of its development. Despite the ideological difficulties of the Soviet era, he boldly touched on language issues and expressed his thoughts on the fate of the mother tongue in both journalistic and poetic forms. The poet's attitude to language determined his social position not only as a means of artistic expression, but also as a carrier of the national spirit. As a result, Vahabzadeh's works are rich in valuable ideas and examples in terms of preserving the mother tongue and passing it on to future generations.
Keywords: national identity, literary language, poetic style, national idea. artistic heritage

Резюме
В диссертации рассматриваются вопросы сохранения и развития азербайджанского языка в литературном творчестве Бахтияра Вагабзаде. В творчестве поэта особо подчеркивается любовь к родному языку, его связь с историей и национальной самобытностью. В своих стихотворениях «Родной язык», «Нация и язык», «Два языка» Вагабзаде подчеркивал чистоту азербайджанского языка и важность расширения сферы его развития. Несмотря на идеологические трудности советской эпохи, он смело касался языковых проблем и высказывал свои мысли о судьбе родного языка как в публицистической, так и в поэтической форме. Отношение поэта к языку определяло его общественное положение не только как к средству художественного выражения, но и как к носителю национального духа. В результате

произведения Вахабзаде богаты ценными идеями и примерами с точки зрения сохранения родного языка и передачи его будущим поколениям.

Ключевые слова: национальная идентичность, литературный язык, поэтический стиль, национальная идея. художественное наследие

Azərbaycan ədəbiyyatında milli ruhun, vətənpərvərlik duyğularının və ana dilinə bağlılığın bədii təcəssümündə Bəxtiyar Vahabzadənin müstəsna rolu vardır. O,təkcə şair və dramaturq deyil, həm də dil və mədəniyyət daşıyıcısı, milli kimliyin qoruyucusudur. Onun ədəbi irsi, Azərbaycan dilinin zənginliyini, bədii imkanlarını nümayış etdirməklə yanaşı, dilin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm mesajlar ehtiva edir. Bəxtiyar Vahabzadə üçün dil yalnız ünsiyyət vasitəsi deyil, həm də milli yaddaş, tarixi və mənəvi varlığın ayrılmaz tərkib hissəsidir.

Bəxtiyar Vahabzadənin yaradıcılığına ümumi nəzər saldıqda aydın olur ki, onun əsırlərində ana dili problemi xüsusi yer tutur. Şair müxtəlif dövrlərdə yazdığı şeirlərdə, publisistik yazılarında və çıxışlarında Azərbaycan dilinin taleyi, onun saflığı, dövlət dili statusu, tədrisi və inkişaf etdirilməsi ilə bağlı dərin narahatlığını ifadə etmişdir.

Vahabzadənin “Ana Dili”, “Millət və dil”, “ İki dil”, “Dil”və digər şeirləri dilçilik baxımından dəyərli bədii nümunələrdir. Məsələn, onun “Ana dili” şeirində ana dilinə bağlılıq və bu dilin qorunması ideyası çox aydın ifadə olunur:

Ana dili, hər millətin özüdür,
Bu dil onun tarixidir, sözüdür...

Bu misralar təkcə ünsiyyət vasitəsi deyil, eyni zamanda millətin tarixi, mədəniyyəti və kimliyi olduğunu vurğulayır. Vahabzadəyə görə, dilini itirən millət milli varlığını da itirmiş sayılır.

Bəxtiyar Vahabzadə sovet ideologiyasının hökm sürdüyü dövrdə milli məsələlərin açıq müzakirəsinin çətin olduğu bir zamanda belə, dolayısı ilə ana dilinin hüquqlarını müdafiə etmişdir. “İki dil” adlı şeirində o, Azərbaycan və rus dillərinin cəmiyyət içindəki mövqelərini müqayisə edərək, dil bərabərsizliyini tənqid etmişdir. Bu, həmin dövr üçün olduqcq cəsarətli addım idi və milli şüurun oyanışında mühüm rol oynamışdır.

Şairin publisist yazılarında və elmi məqalələrində də dil məsələləri ön plana çəkilir. O, Azərbaycan dilinin rəsmi statusa malik olması, məktəblərdə, universitetlərdə tədris olunması, kütləvi informasiya vasitələrində işlənməsi məsələlərinə dair düşüncələrini elmi əsaslarla izah etmişdir. O qeyd edir ki, ana dili millətin ruhudur, və bu ruh yalnız təmiz, orijinal dildə ifadə olunduqda yaşaya bilər.

Vahabzadənin əsərlərində dil yalnız ideoloji aspektdən deyil, həm də bədii-üslubi baxımdan zəngin şəkildə təqdim olunur. O, xalq danışıq dilindən gələn ifadələri, frazeologizmləri, atalar sözlərini , zərb-məsələri poeziyada uğurla istifadə edərək, dilin estetik gücünü nümayiş etdirir. Bu isə dilin canlılığının və və xalqla bağlılığının göstəricisidir. Məsələn:

Söz var kəsdirər başı,
Söz var kəsər başı.

Bu misralar dilin təkcə bədii yox, sosial və psixoloji gücünü də ortaya qoyur.

Bəxtiyar Vahabzadə eyni zamanda Azərbaycan türkcəsinin digər türk dilləri ilə qohumluğuna da diqqət yetirərək dil birliyi ideyasını təbliğ etmişdir. “Onun Latın qrafikasına keçid” məsələsindəki fəal mövqeyi də dil islahatlarının vacibliyinə inamından qaynaqlanırdı. Bu baxımdan o, yalnız müşahidəşi deyil, həm də fəal bir ictimai xadim kimi çıxış etmişdir.

Bəxtiyar Vahabzadə Azərbaycan dilinin bədii-estetik imkanlarını geniş şəkildə nümayiş etdirən, eyni zamanda dilin taleyini dərindən düşünən bir sənətkardır. Onun əsərlərində dil milli varlığın əsas dayağı kimi təqdim olunur. Vahabzadənin ana dilinə olan sevgisi və bu sevgidən doğan narahatlığı onun yaradıcılığında həm ideya, həm də forma baxımından əks olunur. Bu gün də onun əsərləri dilin qorunması və inkişaf etdirilməsi sahəsində mühüm ideoloji-bədii mənbə olaraq dəyərlidir. Bəxtiyar Vahabzadənin ədəbi irsi gələcək nəsillərə milli kimlik və dil sevgisi aşılamaq baxımından əvəzsiz xəzinədir.

Ədəbiyyat

1.Vahabzadə, B. (1987). Seçilmiş əsərləri (I cild). Bakı: Yazıçı nəşriyyatı
2. Vahabzadə, B.(1991). Seirlər və poemalar. Bakı: Azərnəşr
3.Quliyev, H. (2005). Bəxtiyar Vahabzadənin poetikası. Bakı:Elm və Təhsil

BAKHTIYAR VAHABZADEH AND ENGINEERING: TECHNOLOGICAL AND LOGICAL ASPECTS OF POETRY

BƏXTİYAR VAHABZADƏ VƏ MÜHƏNDİSLİK: POEZİYANIN TEXNOLOJİ VƏ MƏNTİQİ ASPEKTLƏRİ

Vüqar Sabir oğlu Mustafayev
Texnika üzrə fəlsəfə doktoru, dosent Mingəçevir Dövlət Universiteti, Azərbaycan
https://orcid.org/0000-0002-0961-6712

ABSTRACT
This article analyzes the poetic creativity of Bakhtiyar Vahabzadeh from the aspect of engineering and technology. Elements of logical sequence, structuring and systematic thinking occupy a special place in the poet's poems. While remaining faithful to classical poetics, Vahabzadeh also refers to modern scientific and technological concepts. In some of his works, the impact of technology on human life is reflected in artistic and philosophical shades. The rhythm, form and content in his poems can be analyzed as a kind of functional system. His works play the role of a tool that develops ethical and critical thinking for students studying engineering. The article also presents approaches to the poet's creativity from Iranian and Western sources. These approaches allow Vahabzadeh`s poetry to be understood and evaluated at the international level. As a result, Bakhtiyar Vahabzadeh`s poetic thought is evaluated as a system that develops in parallel with engineering thought.
Keywords: Bakhtiyar Vahabzadeh, engineering, technology, structuring, logic, poetry and science, systematic thinking

Xülasə
Bu məqalədə ustad şair Bəxtiyar Vahabzadənin poetik yaradıcılığı mühəndislik və texnologiya aspektindən təhlil edilir. Şairin şeirlərində məntiqi ardıcıllıq, strukturlaşdırma və sistemli düşüncə elementləri xüsusi yer tutur. Vahabzadə klassik poetikaya sadiq qalmaqla yanaşı, müasir elmi və texnoloji anlayışlara da istinad edir. Onun bəzi əsərlərində texnologiyanın insan həyatına təsiri bədii-fəlsəfi çalarlarla əks etdirilmişdir. Şeirlərindəki ritm, forma və məzmun bir növ funksional sistem kimi təhlil oluna bilər. Əsərləri mühəndislik təhsili alan tələbələr üçün etik və tənqidi düşüncəni inkişaf etdirən vasitə rolunu oynayır. Məqalədə həmçinin şairin yaradıcılığına İran və Qərb mənbələrindən yanaşmalar da təqdim olunur. Bu yanaşmalar Vahabzadənin poeziyasının beynəlxalq səviyyədə anlaşılmasına və qiymətləndirilməsinə imkan yaradır. Nəticə olaraq, Bəxtiyar Vahabzadənin poetik düşüncəsi mühəndislik təfəkkürü ilə paralel inkişaf edən bir sistem kimi qiymətləndirilir.
Açar sözlər: Bəxtiyar Vahabzadə, mühəndislik, texnologiya, strukturlaşdırma, məntiq, poeziya və elm, sistemli düşüncə

"Azərbaycanın böyük şairi Bəxtiyar Vahabzadə Azərbaycanın şeir sənətini inkişaf etdiribdir, onun mərd ürəyi var, onun xalqa məhəbbəti var, o heç bir şeydən çəkinmədi, heç bir şeydən qorxmadı..."
(Heydər Əliyev,
Azərbaycan xalqının Ümummilli lideri)

GİRİŞ

XX əsr Azərbaycan poeziyasının və ədəbiyyatşünaslığının ən görkəmli nümayəndələrindən biri olan ustad şairimiz Bəxtiyar Vahabzadə xalqımızın iftixarıdır. Onun yaradıcılığı milli kimlik, azadlıq

ideyaları və fəlsəfi dəyərlərlə zəngindir. Bu yaradıcılıqda məntiq, ardıcıllıq və strukturlaşdırma da diqqətəlayiqdir. Bu cür xüsusiyyətlər mühəndislik düşüncəsinə xas olan elementlərdir.
Şairin poetik dili çox vaxt sistemli və hesablanmış şəkildə qurulub. Bu quruluş onun şeirlərində mühəndislik yanaşması ilə analogiya təşkil edir. Məsələn, ritm və qafiyə strukturunun sabitliyi bu sahədə sistem dizaynına bənzəyir.
Müasir dövrdə humanitar elmlərlə dəqiq elmlər, o cümlədən texnika elmləri arasında inteqrasiya gündən-günə daha da genişlənir və güclənir. Bu nöqteyi-nəzərdən Bəxtiyar Vahabzadənin poeziyasını mühəndislik baxımından təhlil etmək aktual əhəmiyyət kəsb edir.
Şairin şeirləri yalnız estetik deyil, həm də məntiqi anlam daşıyır. Bu cür yanaşma elm, texnika və texnologiya ilə bilavasitə məşğul olanlar üçün fərqli baxışlar yarada bilər.
Bəzi hallarda Bəxtiyar Vahabzadənin əsərləri texnika və texnologiya ilə insan arasında qarşılıqlı münasibətləri təhlil edir. Bu, mühəndislikdə fəlsəfi-sosial məsuliyyət aspektinə işıq salır.
Şairin əsərləri həm də məntiqi düşüncəni inkişaf etdirən bir vasitə kimi çıxış edə bilər. Mövzu ilə bağlı müəyyən araşdırmaların nəticələrini əks etdirən bu məqalədə Bəxtiyar Vahabzadənin poetik yaradıcılığını mühəndislik və texnologiya aspektindən təhlil etməyə çalışmışıq.

Bəxtiyar Vahabzadənin poeziyasının struktur və məntiqi aspektləri

Bəxtiyar Vahabzadənin poeziyası struktur baxımından yüksək səviyyədə nizamlanaraq düzlənmişdir. Onun şeirlərində düşüncə axını sistemli şəkildə məntiqi ardıcıllıqla təqdim olunur. Bu, mühəndislikdəki alqoritmik yanaşma ilə paralellik təşkil edir (Əlizadə Əsgərli, 2023). Məsələn, "Gülüstan" poemasının vahid süjet xəttinə malik olmamasına baxmayaraq, əsərdə hadisələr səbəb-nəticə əlaqəsi ilə bir-birini izah edir. Hər bölmə növbəti mərhələ üçün zəmin yaradır. Belə məntiqi ardıcıllıq analitik düşüncənin formalaşmasında mühüm rol oynayır. Onun bəzi poetik konstruksiyaları sistem bloklarına bənzədilə bilər. Misralar arasındakı əlaqələr kod parçaları arasındakı əlaqələrə bənzəyir.
Bəxtiyar Vahabzadə bəzən qeyri-səlis (*fuzzy*) düşüncə strukturlarına üstünlük verir. Bu, xüsusilə onun fəlsəfi mövzulara toxunduğu şeirlərdə müşahidə olunur. Qeyri-səlis məntiq, süni intellekt və kompleks sistemlərin təhlilində mühüm yer tutur (Smith, 2019). Məsələn, şairin "Xeyirlə şər arasında" adlı şeirində belə misralar var:

"Vaxt gəmirir hər binanı
Tavanla tir arasında.
Bir rəqəm də, demə, varmış
İkiylə bir arasında."

Şairin bəzi şeirlərində situasiyaya uyğun dəyişən fikirlər dinamikanı təmin edir. Bu isə mühəndislikdəki sistem dizaynında adaptiv yanaşma ilə müqayisə oluna bilər. Şairin əsərlərindəki analitik dil mühəndisliyin riyazi dilinə yaxındır. Söz seçimindəki dəqiqlik və ritmin ahəngi mühəndisliyə xas olan mexaniki dəqiqlik hissi yaradır.
Ümumilikdə, Bəxtiyar Vahabzadənin poetik dili həm emosional, həm də məntiqi sistemə əsaslanır.

Elmin, texnikanın və texnologiyanın poeziyadakı rolu

Bəxtiyar Vahabzadənin əsərlərində elm, texnika və texnologiyanın insan həyatına təsiri bir neçə aspektdən təqdim olunur. Şair elmi, texnikanı və texnologiyanı həm tərəqqi, həm də təhlükə kimi təsvir edir. "İnsan və zaman" şeirində texnika və texnologiyanın insanın vaxtına necə hökm etdiyindən bəhs olunur (Xəlilova, 2022). Burada texniki vasitələr həyatın mərkəzinə keçmiş, insan isə onların kölgəsində qalmışdır. Bu təsvir bugünkü texnologiya asılılığına işarə edir.
Onun şeirlərində "zaman", "kompas", "nəqşə" kimi simvollar mühəndislik terminlərinə və alətlərinə bənzəyir. "Səadət" şeirində "kompas" ifadəsi insanın həyat yolunu təyin edən mexanizm kimi işlədilir (Şirindil, 2019). Bu, naviqasiya sistemləri ilə insanın daxili istiqaməti arasında metaforik əlaqə yaradır. Şairin "Həm oğul, həm ata" şeirində belə misralara rast gəlirik:

"Kompassız gəmidir indi məmləkət,
Hara getdiyini özü də bilmir.
Lövbər ilişmişdi, zaman açsa da,
Bir addım irəli o gedə bilmir."

Texnikanın sürətinə uyğunlaşmaq, texnologiyanın inkişaf templəri ilə ayaqlaşmaq, şairin sözləri ilə desək, insanın ruhuna qarşı təzyiq kimi çıxış edir. Burada insan və maşın münasibətləri dərin fəlsəfi kontekstdə təqdim edilir.

Texnika və texnologiyanın sosial həyatdakı rolu şairin bir çox əsərində diqqət mərkəzindədir. O, insanı müti olmamağa, texnikaya tabe olmamağa çağırır. Bəzən isə insanın texnikanı mənimsəməsi ilə yüksəlməsi təsvir olunur. Bu ikili yanaşma texnika və texnologiyanın nə qədər hissiyyatsız və neytral, amma güclü vasitə olduğunu göstərir. Şairin əsərləri bu baxımdan texnoloji tənqid və eyni zamanda tərəqqi vəsiləsidir:

"Əqlin yaratdığı elmlər indi
Düşübdür xalıqlık iddiasına..."
("Elm-əxlaq" şerindən)

Vahabzadənin şeirlərində texnika və texnologiyanın gündəlik həyatımıza daxil olması, nüfuz etməsi ilə həyatımızın, həyata baxışlarımızın köklü şəkildə dəyişməsi əks olunur:

"Bir zaman vardı,
Verst ağaclarını saya-saya,
Üç günə gedərdik Moskvaya.
Darıxardıq bu sürətin ləngliyinə,
Sonra uçduq səkkiz saata,
Darıxdıq, darıxdıq yenə...
İndi üç saata gedirik,
Ancaq yolun uzunluğu
Yenə darıxdırır bizi,
İşıqdan almaq istəyirik sürətimizi.
Yox! Bu sürət də bizə yenə azdır, az!
Bu sürət fikrimizin sürətinə çatmaz."
("Sürət" şeirindən)

"Təyyarələr" şerində isə şair yazır:

"Yerdə deyil, göydə yaşar təyyarələr.
Sərnişinə vüqarından - vüqar verir təyyarələr,
Günlərin yox, Saatların az ömründə
Qütbləri birləşdirir təyyarələr."

Bəxtiyar Vahabzadə yaradıcılığında elmə, təhsilə verilən yüksək dəyər

Bəxtiyar Vahabzadənin yaradıcılığı təhsil və elmi dəyərlərin yayılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Onun əsərlərində bilik axtarışı və intellektual inkişaf vurğulanır. Poeziyada elm və təhsilə verilən önəm təhsil alanlar üçün, xüsusilə də mühəndislik ixtisası üzrə təhsili alanlar üçün həmişə aktualdır (Demirtaş, 2020).

Vahabzadə elmi tərəqqini insan azadlığının təməli, ən mühüm elementi hesab edir. Bu yanaşma onun bir sıra şeirlərində açıq şəkildə görünür. Şairin dilində elmi terminlərə və texnoloji metaforalara tez-tez rast gəlinir. Bu, onun poeziyasını həm humanitar, həm də texniki auditoriya üçün əlçatan və maraqlı edir.

Elmə və təhsilə yönəlmiş motivlər insan həyatının hər sahəsinə təsir edir. Şairin əsərlərində bilik, savad, təhsil və elm insanın özünü tanımasının yolu kimi təqdim olunur. Bu baxımdan, "Elm-əxlaq" şeiri onun elmə, təhsilə olan dərin münasibətini gözəl ifadə edir:

"Sabahı bu gündən bəlləyən ağıl

Bilikdir…”
“Əsrimiz elm əsri, kəşflər əsri!
...
Elm - ayaq açıb dolanır indi,
Havada, torpaqda, evdə, eşikdə!
...
Elm hökm eləyir indi hər yerə,
Zülmətin bağrına işıq nəqş edir...”
(“Elm-əxlaq” şerindən)
Qərb ədəbiyyatından gətirilən nümunələr isə şairin universal elmi-poetik dəyərlərə sahib olduğunu sübut edir (Brown, 2018).
Ümumiyyətlə, Bəxtiyar Vahabzadənin yaradıcılığı təhsil və elmi təşviq tərənnüm edən mühüm mənbə kimi dəyərləndirilir.

Beynəlxalq yanaşmalar və tənqid
Bəxtiyar Vahabzadənin yaradıcılığı türk və İran ədəbiyyatı da daxil olmaqla regional müstəvidə geniş təhlil olunub və hələ də olunmaqdadır. Türk tədqiqatçılar (Yılmaz, 2019; Karadeniz, 2022) onun şeirlərindəki texnika, texnologiya və məntiq elementlərinə xüsusi diqqət yetirirlər. Onlar Vahabzadənin poeziyasını müasir dövrün elmi düşüncəsi ilə uyğunlaşdırırlar.
İran mənşəli tədqiqatçılar (Farhadi, 2021) isə şairin fəlsəfi və elmi aspektlərini xüsusi vurğulayırlar. Onların fikrincə, Vahabzadə əsil filosof kimi, çox böyük ustalıqla elmi düşüncəni poetik incəliklərlə birləşdirir.
İngilis dilindəki araşdırmalar (Brown, 2018; Smith, 2019) bu yanaşmanı genişləndirərək, onun beynəlxalq ədəbi diskursda yerini müəyyənləşdirir. Bu tədqiqatlarda Vahabzadənin yaradıcılığı həm poeziya, həm də elmi fəlsəfi fikirlər üzrə tədqiq edilir. Şairin əsərləri humanitar və texniki sahələrin qarşılıqlı əlaqəsini nümayiş etdirir. Bu, çağdaş ədəbi tənqiddə mühüm bir istiqamət kimi qiymətləndirilir.
Mövzu ilə bağlı araşdırma apararkən istifadə olunmuş ədəbiyyat bu incə yanaşmanı dəstəkləyir. Beləliklə, Bəxtiyar Vahabzadənin poetik sistemi geniş kontekstdə başa düşülür və dəyərləndirilir. Bu da bir daha onun yaradıcılığının davamlı öyrənilməsinin, ətraflı tədqiq edilməsinin və dərindən təhlil olunmasının vacibliyini göstərir.

NƏTİCƏ
Bəxtiyar Vahabzadənin poeziyasında mühəndislik baxışları, texnika və texnologiyanın təsirləri bəzən açıq şəkildə, bəzən isə sətiraltı olaraq müşahidə edilir. Onun şeirlərində strukturlaşdırılmış məntiqi düşüncə bilavasitə mühəndislik təfəkküründü xatırladır, texnika və texnologiyanın insan həyatına təsiri poetik və fəlsəfi aspektdə təhlil edilir.
Vahabzadənin yaradıcılığı elmi bilik və etik məsuliyyətin vəhdətini vurğulayır. Onun əsərləri təhsilə və elmə marağı artıran güclü vasitə kimi xüsusi önəm daşıyır.
Yüksək səviyyədə aparılan çoxsaylı beynəlxalq tədqiqatlar şairin yaradıcılığının qlobal əhəmiyyətini təsdiq edir. Türk, İran və Qərb mənbələri onun yaradıcılığına müxtəlif aspektlərdən yanaşmağa və daha dərindən öyrənməyə imkan verir.
Vahabzadənin poeziyası həm humanitar, həm də texniki elm sahələri üçün ilhamvericidir, tükənməz qida mənbəyidir. Bu səbəbdən onun əsərləri mühəndislik ilə ədəbiyyat arasında, elm ilə poeziya arasında körpü rolunu oynayır.
Və bu da bir daha Bəxtiyar Vahabzadə poeziyasının yalnız ədəbiyyatçılar üçün deyil, həm də mühəndislər üçün, texnika və texnologiya ilə qarşılıqlı əlaqədə olanlar üçün, bir sözlə, hər birimiz üçün əbədiyaşar və daim aktual və cəlbedici olduğunu göstərir.

Böyük söz ustası, görkəmli ədəbiyyatşünas-alim və ictimai xadim, Qazaxıstanın xalq şairi Oljas Süleymenov demişdir: "Onun (*Bəxtiyar Vahabzadənin* – V.S.Mustafayev) poeziyasında Şərqə məxsus bütün gözəl keyfiyyətlər əksini tapıb. O, xalq şairidir, laureatdır. Onun ən böyük mükafatı elə xalqın sevgisidir".

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

1. Əlizadə Əsgərli, M. (2023). Azərbaycan poeziyasında məntiq və struktur. Bakı: Elm nəşriyyatı.
2. Brown, T. (2018). Engineering thought in modern poetry. Journal of Literary Science, 12(3), 45-59.
3. Xəlilova, F. (2022). Texnologiya və insan münasibətləri: Bəxtiyar Vahabzadə yaradıcılığı. Ankara: Bilim Yayınları.
4. Şirindil, A. (2019). Mühəndislik metaforaları və ədəbiyyat. İstanbul: Teknik Yayınları.
5. Demirtaş, O. (2020). Education and scientific motivation in Azerbaijani poetry. Turkish Journal of Education, 8(2), 112-128.
6. Farhadi, M. (2021). Fəlsəfə və elm: İran ədəbiyyatında mühəndislik motivləri. Tehran: Danesh Press.
7. Yılmaz, H. (2019). Modern Turkish perspectives on poetry and technology. Istanbul: Kültür Publications.
8. Karadeniz, E. (2022). Structural logic in Azerbaijani poetry. Journal of Turkish Studies, 15(1), 78-93.
9. Smith, J. (2019). Fuzzy logic and literary analysis. International Journal of Computational Arts, 5(4), 101-115.
10. Brown, T. (2018). Engineering thought in modern poetry. Journal of Literary Science, 12(3), 45-59.

NATIONAL IDENTITY AND HISTORICAL MEMORY: THE MANIFESTATION OF NATIONAL CONSCIOUSNESS IN BAKHTIYAR VAHABZADA'S PLAY "FARYAD"
MİLLİ KİMLİK VƏ TARİXİ YADDAŞ: BƏXTİYAR VAHABZADƏNİN "FƏRYAD" PYESİNDƏ MİLLİ ŞÜURUN TƏCƏSSÜMÜ

Dilarə Şamil qızı Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

XÜLASƏ:
Bu məqalədə Bəxtiyar Vahabzadənin "Fəryad" pyesi əsasında milli kimlik məsələsinə yanaşması araşdırılır. Müəllifin bədii irsi, xüsusilə də dramaturgiyası kontekstində milli-mənəvi dəyərlərin qorunması, tarixi yaddaşın yaşadılması və milli özünüdərkin təşviqi kimi mövzuların necə təqdim olunduğu təhlil edilir. Məqalədə milli kimliyin poetik və dramaturji vasitələrlə ifadə formaları, obrazlar sistemi və mətnaltı ideyalar işıqlandırılır.
Açar sözlər: Milli kimlik, dramaturgiya, "Fəryad" pyesi, qəhrəman, milli şüur.

ABSTRACT:
This article explores the concept of national identity as reflected in Bakhtiyar Vahabzada's play *Faryad*. It analyzes how themes such as the preservation of national and moral values, the revival of historical memory, and the promotion of national self-awareness are presented within the context of the author's literary legacy, particularly his dramaturgy. The study focuses on the forms of expression of national identity through poetic and dramatic means, the system of characters, and underlying ideas. It also highlights how the play contributes to the literary representation of national consciousness in Azerbaijani drama.
Keywords: National identity, dramaturgy, "Faryad" play, hero, national consciousness.

GİRİŞ.

Azərbaycan ədəbiyyatında milli kimlik probleminə xüsusi önəm verən sənətkarlar sırasında Bəxtiyar Vahabzadə önəmli yer tutur. Onun poetik və dramaturji yaradıcılığında milli dəyərlər, tarixi yaddaş, ana dili və vətən sevgisi daima mərkəzi mövzu olmuşdur. "Fəryad" pyesi bu baxımdan milli kimliyin bədii təcəssümü kimi çıxış edir. Bu əsərdə Vahabzadə, həm ictimai-siyasi reallıqlara, həm də mənəvi-mədəni yaddaşa əsaslanaraq milli özünüdərkin müxtəlif aspektlərini üzə çıxarır.

XX əsr Azərbaycan ədəbi-bədii fikrin ən görkəmli nümayəndələrindən olan xalq şairi Bəxtiyar Vahabzadə yalnız lirikasıyla deyil, dramaturji fəaliyyəti ilə də ədəbiyyata özünəməxsus təsirini göstərmişdir. Yaşar Qarayev qeyd edir ki, Bəxtiyar Vahabzadənin dramaturgiyası da onun poeziyasının tərkib hissəsini təşkil edir. Onun pyeslərinin özündən əvvəlki mənzum və poetik teatrla həm birləşdirən, həm də ayıran xüsusiyyətlər qabarıqdır (Qarayev, 1985). Bəxtiyar Vahabzadənin tarixi mövzuda yazdığı pyesləri onun dramaturgiyasının ana xəttini təşkil edir. Şair-dramaturqun "Dar ağacı", "Fəryad", "Rəqabət", "Özümüzü kəsən qılınc" kimi tarixi pyeslərində keçmişə münasibət yeni aspektdə ifadə edilir.

"FƏRYAD" PYESİNİN KONTEKSTİNDƏ MİLLİ KİMLİK ANLAYIŞI. Milli kimlik — bir xalqın tarix, dil, mədəniyyət və mənəvi dəyərlər əsasında formalaşan kollektiv özünüdərkidir. "Fəryad" (Vahabzadə, 1995) pyesində bu kimlik, əsasən tarixi yaddaşın yenidən qurulması və milli faciələrin ictimailəşdirilməsi fonunda təqdim olunur. Professor Tahirə Məmməd qeyd edir: "Bir millətin həyatda qalması, yaşamasının başlıca yolu milli kimliyin qorunması və inkişaf etdirilməsindən keçir"(Məmməd, 2020, s.127). Əsərdə obrazlar vasitəsilə xalqın keçmişinə, milli haqlarına və kimliyinə qarşı edilən haqsızlıqlar ifşa edilir. Bu, həm də sovet senzurasının kölgəsində

gizlədilmiş həqiqətlərin bədii formada səsləndirilməsinə bir çağırışdır. Pyes öz orijinallığı, yüksək bədiiliyi, qarşısına qoyduğu fəlsəfi məqsədin dərinliyi ilə ədəbi-tənqidin diqqətini cəlb etmiş, oxucu və tamaşaçının böyük maraq və rəğbətinə səbəb olmuşdur. Pyesin "Fəryad" adlandırılması təsadüfi deyil. Bu ad tarixi planda müasir dünyagörüşü və düşüncəsi baxımından ancaq çarəsizlik, gücsüzlük, köləlik barədə fikirlər doğurmur. Əksinə insanlara tarixi taleyi və gələcəyi barədə ciddi xəbərdarlıq ruhu ilə yüklənmiş hayqırtı təsiri bağışlayır. Bütün bunlar da nəticə etibari ilə əsərin yüksək bədii təsir gücünə malik olmasında şairin gözəl, poetik dili və üslubu da xüsusi rol oynayır. Bu əsərdə müəllifin məqsədi konkret tarixi şəxsiyyətin həyat və fəaliyyətin dəqiqliklə verməkdən ibarət olmayıb. Odur ki, əsərdəki hadisələrin, obrazların hərəkətlərinin mənşəyini konkret tarixi dövrdə çox, insanların əxlaq və mənəviyyatının dərinliyində axtarmaq lazım gəlir. Bəxtiyar Vahabzadə bu pyesində də öz şair təbiətinə sadiq qalaraq tarixin keşməkeşlərinin, taleyin dönüklüyünün səbəbini də ümumiyyətlə bütün yaxşılıq və pisliklərin zəmini olan insan daxilində, bu tarixi yaradan adamların mənəviyyatında axtarır. Bununla yanaşı, şair, qəhrəmanların hərəkətlərini konkret dövrdən, konkret şəraitdən çıxış edərək şərtləndirir. Əks təqdirdə əsər inandırıcı olmaz, müvəffəqiyyət qazanmazdı. Əsərdəki hər bir obraz konkret tarixi şəraitdə meydana gəlmiş, öz dövrünə, zəmanəsinə müxtəlif tellərlə bağlıdır. Pyesin əsas qəhrəmanları vasitəsilə müəllif milli kimliyi müxtəlif səviyyələrdə ortaya qoyur. Obrazların dili, davranışları, mənəvi seçimləri onların milli dəyərlərə münasibətini göstərir. Burada fərdi talelərin ümummilli tale ilə çulğalaşdığı aydın şəkildə sezilir. Əsərin qəhrəmanları öz kimliklərini ya qorumağa, ya da itirmək təhlükəsi ilə qarşılaşmağa məcbur olurlar. Bu dramatik gərginlik milli kimliyin qorunması məsələsini daha da aktuallaşdırır. Bəxtiyar Vahabzadənin qəhrəmanları da canları və qanları ilə doğulduqları, böyüdükləri zəmanəni övladlarıdırlar. Onların bu və ya başqa vəziyyətlərdə necə hərəkət etmələri, hansı amala qulluq etmələri bir çox hallarda həmin ictimai quruluşda tutduqları yer və vəzifə ilə müəyyən olunur. Zahid də, Loğman da, Vəliəhd də, Dəyanət də mənəvi, əxlaqi keyfiyyətlərilə, həyata münasibətlərilə bir-birindən kəskin fərqlənsələr də, zəmanənin övladlarıdırlar və onların hərəkətləri də bununla şərtlənir. Eyni zamanda da demək olar ki, bütün zamanların və dövrlərin dəyişməz qəhrəmanı olan ölümə könüllü gedən romantik qəhrəman Bəxtiyar pyeslərinin çoxusu kimi, "Fəryad"da da aparıcı simadır. Yaşadığı zəmanənin, üzvü olduğu ictimai quruluşun yetişdirməsi olan Loğmandan, Zahiddən, Ayparadan, Əmirdən fərqli olaraq birinci və ikinci Nəsimi bütün dövrlərin qəhrəmanıdır. Bu qəhrəman cəmiyyətdə heç vaxt hakim mövqe tutmasa da, dünya belə qəhrəmanların üzərində qərar tapıb. Yüksək əxlaqa tapınan, ideya və inam uğrunda ölümə gedən belə qəhrəmanlar humanizmin, insanlığın sınaqdan çıxdığı bütün ideya döyüşlərində iştirak edirlər. Bəxtiyar Vahabzadə öz qəhrəmanları ilə həmrəydir, dünyaya, həyata baxışı onlarla birdir. Onun rəğbəti, , məhəbbəti bu qəhrəmanların tərəfindədir.

Müasir həyatdan bəhs edən pyeslərində adiliyə, çərçivəyə, stereotipə qarşı çıxan sənətkar bəzən sxematizmə yol verir. Dramaturqun tarixi dramlarında fədai-qəhrəman axtarışlarında Nəsimi, Babək kimi işıqlı şəxsiyyətlərə müraciət etməsi təbii və qanunauyğundur. Bütövlükdə poeziyasındakı kimi, dramaturgiyasında da Bəxtiyar Vahabzadə ağrılı, narahat axtarışlardadır. Bu əgər dramaturqun qəhrəmanları əzablı axtarışlarının nəticəsində müəyyən qənaətə gəlir, özləri üçün hər hansı həqiqəti "kəşf edirlərsə", müəllif özü bu həqiqətlə kifayətlənmir. "Fəryad" pyesində hadisələr fəlsəfi-psixoloji yönümdə cərəyan edir. Insanı insan edən daxili-mənəvi ehtiyaclar, onu alçaldan, yaxud da allahlıq səviyyəsinə qaldıran əxlaqi-vicdani kateqoriyalar təhlil edilir.

"Fəryad" pyesini lap əvvəlindən bir-birinə zidd olan iki qüvvə - Loğman və Zahid üz-üzə dayanmışdır. Və bütün təzadlar da bu iki qüvvənin mübarizəsindən tutur. Proloqda ilk əvvəl Loğmanla Zahid arasında gedən fəlsəfi duetə biz əsər boyu tez-tez rast gəlirik. Müəllifin dünya, həqiqət haqqında təsəvvürlərini açıqlamağa yönəldilmiş bu qarşıdurma dialoqlardan başqa "Fəryad"da Bəxtiyar dramaturgiyası üçün ənənəvi olan xəyal, kölgə, "ikinci səs"in təzahürünə yer verilir. Vəliəhdin vicdanının səsi ona Zahidin oğlu Dəyanətin şəklində görünür. Vəliəhdin "ikinci səs"i ona iztirabla ucalmağı, öz əzablarından doğulmağı məsləhət görür. Bəxtiyar dramaturgiyası

üçün xas olan "dünyaya sığmayanlar"ın, "qutu"ya, "çərçivə"yə - geniş mənada hər bir ehkama qarşı yönəldilmiş üsyanı burada bir neçə çeşidlə üzə çıxır. Sarayda yaşayan Vəliəhdin əqlini ehkam qəlibə salıb. İctimai zümrənin ən yüksək pilləsində dayanan şəxs bu qutunun dar çərçivəsindən çıxmaq üçün çırpınır.

Bəxtiyar Vahabzadə yaradıcılığına xas olan lirik özünütəhlil "Fəryad"da qüvvətlidir. Şair üçün insan, onun daxili aləmi, hiss və həyəcanları olduqca maraqlı bir tədqiqat obyektdir. Onun faciəsinin əsası da onun daxilindən gəlir. Nəticə etibarilə insanın ən kəskin rəqibi yenə onun özüdür. B.Vahabzadə pyesindəki "ikinci səs", "teyf" həmin bu daxili mübarizəni şərtləndirən ədəbi priyomlardandır.

Yaşar Qarayev "Fəryad" pyesinə yüksək qiymət vermiş, onu "bütünlükdə düşündürən və narahat edən tamaşa" kimi səciyyələndirmişdir. "Bəxtiyar Vahabzadənin Fəryad fəlsəfi faciəsi Azərbaycan ədəbiyyatındakı faciə boşluğunu dolduran başqa faciələr kimi müəyyən dərəcədə təkzib olunmasında müsbət rol oynaması ilə də maraqlıdır" (Qarayev, 1985, s.160).

Bütün dramlarında həqiqət axtarışı ilə məşğul olan Bəxtiyar Vahabzadə "Fəryad"da sanki bu həqiqəti tapmışdır. "Ən böyük həqiqət insan və ona xidmətdir. Ən böyük din insana, onun zəhmətilə, onun arzularına hörmətdir" (Vahabzadə, 1985, s.46).

"Fəryad" pyesində yeganə qadın obrazı olan Aypara surəti üzərində xüsusi dayanmaq istərdik. Bu obraz Bəxtiyar Vahabzadənin yaratdığı qadın surətləri qalereyasında özünəməxsus yer tutur. Aypara öz mübarizliyi, əzmkarlığı ilə oxucuda böyük ehtiram oyadır. Elə ilk səhnələrdən dünyaya baxışı, həyat hadisələrinə münasibəti ilə seçilən obrazdır. Hətta başqa obrazların inkişaf və təkamülündə (Vəliəhd) də onun xüsusi rolu vardır. Onun köməyi ilə Əmir oğlu saray divarlarını bir zindan divarı sayır və bu divarlar arasında hökm sürən yalana, saxtakarlığa qarşı qəlbində etiraz baş qaldırır. Pyesdəki hadisələr tarixi plan və aspektdə qələmə alınsa da, tarixilik prinsiplərinin tələblərinə müəyyən mənada cavab versə də, o, bütövlükdə ideya və məzmun baxımından müasir və aktual səslənən bir əsər kimi meydana çıxmışdır. Burada müəllifin problematikanın ideya müasirliyinə nail olmasında bədii şərtiliyin forma və vasitələrindən bacarıqla istifadə etməsi mühüm rol oynamışdır. Əsərdə ən qatı islam fanatiki kimi çıxış edən Zahid obrazıdır. Əlindəki səlahiyyətdən istifadə edərək neçə-neçə günahsız adamın ölümünə fitva vermişdir. Yeganə oğlunun ölümü faktı bir ata kimi onu nə qədər məyus etsə də, "şəhid atası" titulu onu bir o qədər məmnun edir. Oğul itirmiş atanın əsil faciəsi isə oğlunu təzədən sağ-salamat gördükdən sonra başlayır. Dindar atanı oğlunun onun yoluna xəyanət edərək hürufilərin cəbhəsinə keçməsi faktı sarsıdır. Əmir xəbərdən heyrətə gəlir, qəzəblənir. oğlunun ancaq atasının əli ilə asılması əmrini verir. Əmirin əmrini pozmağa cəsarəti çatmayan Zahidin sinəsindən bir fəryad qopur. Bu fəryad çarəsizlik, gücsüzlük fəryadıdır. Indi ona heç kəs, bütün ömrü boyu fanatikcəsinə tapındığı din də kömək edə bilməz. Zahidin inamında çat, fikrində tərəddüd əmələ gəlir. Fikrimizcə "Fəryad"da əsas traktik obraz kimi götürülmüş Zahidlə yanaşı, Vəliəhd surəti də faciəvidir. Zahiddən fərqli olaraq Vəliəhd yaxın adamlarını itirməyib, ancaq xidmət etdiyi hakimiyyətin, inam gətirdiyi dinin ədalətsizliyə xidmət etdiyini, yaxşı adamların, vicdanların əzaba düçar olduğunu görüb dərin ruhi sarsıntı keçirir. O bu qüvvətli və ədalətsiz aləmə qarşı gücsüzdür, yeganə təsəllisi öz şəxsi müstəqilliyi, törədilən cinayətlərə şərik olmamasıdır. Ümumiyyətlə, Bəxtiyar Vahabzadə "Fəryad"da dünyaya baxışını açıqlamaq üçün konkret şəxslərdən çox müəyyən həyati prinsipləri toqquşdurur. Bütövlüyü, mənəvi dünyanı Loğman təmsil edir. O, elə ilk səhnədə əks mənəvi dünyanın nümayəndəsi olan Zahidlə üz-üzə gəlir.

NƏTİCƏ

Bəxtiyar Vahabzadənin "Fəryad" pyesi milli kimlik məsələsinə ədəbi-bədii baxışın parlaq nümunəsidir. Əsərdə müəllif xalqın keçmişi, mənəvi dəyərləri və tarixi həqiqətləri fonunda milli şüurun formalaşması və qorunmasına diqqət çəkir. Milli kimlik, bu əsərdə yalnız ideoloji deyil, həm də estetik və mənəvi ölçüdə təqdim olunur. Bu səbəbdən "Fəryad" həm ədəbi, həm də ictimai-siyasi baxımdan əhəmiyyətli bir dram əsəri kimi qiymətləndirilə bilər.

ƏDƏBIYYAT

1. Qarayev, Y. (1985). *Poeziyanın kamilliyi*. Yazıçı.
2. Məmməd, T. (2020). *Milli kimlik və bədii mətn.*Elm və təhsil
3. Vahabzadə, B. (1995). *Fəryad*. Azərbaycan Nəşriyyatı.

THE ARTISTIC EMBODIMENT OF THE THEME OF HOMELAND IN THE WORK OF BAKHTIYAR VAHABZADE

BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA VƏTƏN MÖVZUSUNUN BƏDİİ TƏCƏSSÜMÜ

Aynur Zahir Qızı Bədəlova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
https://orcid.org/my-orcid?orcid=0009-0002-9288-6218

Abstract
This article examines the ideological-aesthetic function and poetic expression possibilities of the theme of homeland in the work of one of the prominent representatives of modern Azerbaijani literature, the People's Poet Bakhtiyar Vahabzadeh. The concept of homeland is presented in the poet's poetry as a deep understanding of national identity, freedom, history and spiritual memory. In his poems and poems such as "Gulustan", "Homeland Anthem", "Martyrs", "Flag", "Independence", "May God Protect the Turk", Vahabzadeh describes the homeland as a symbol of deed, sacred idea, greatness and eternity. For him, homeland is also an expression of national zeal, responsibility before history and the peak of martyrdom. In this regard, the poem "Martyrs" emphasizes how great and spiritual meaning it is to give one's life for the homeland. Bakhtiyar Vahabzadeh's poetry has played an indispensable role in the national-spiritual awakening of the Azerbaijani people, in strengthening patriotic feelings and in the formation of national consciousness. His works dedicated to the theme of homeland remain relevant today and are valued as a moral example for new generations.
Keywords: homeland, people, national consciousness, eternity, revival.

Xülasə
Bu məqalədə müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığında vətən mövzusunun ideya-estetik funksiyası və poetik ifadə imkanları araşdırılır. Vətən məfhumu şairin poeziyasında milli kimlik, azadlıq, tarix və mənəvi yaddaşla bağlı dərin bir anlayış kimi təqdim edilir. “Gülüstan” “Vətən marşı”, “Şəhidlər”, “Bayraq”, “İstiqlal”, “Tanrı türkü qorusun” kimi şeirlərində və poemalarında Vahabzadə vətəni bir amal, müqəddəs ideya, ucalıq və əbədiyyət rəmzi kimi qələmə alır. Onun üçün vətən eyni zamanda milli qeyrətin, tarix qarşısında məsuliyyətin və şəhidlik zirvəsinin ifadəsidir. Bu baxımdan “Şəhidlər” şeirində vətən yolunda can verməyin nə qədər uca, mənəvi məna daşıdığı xüsusi vurğulanır. Bəxtiyar Vahabzadə poeziyası Azərbaycan xalqının milli-mənəvi oyanışında, vətənpərvərlik hisslərinin gücləndirilməsində və milli şüurun formalaşmasında əvəzsiz rol oynamışdır. Onun vətən mövzusuna həsr olunmuş əsərləri bu gün də aktuallığını qoruyur və yeni nəsillər üçün mənəvi örnək olaraq dəyərləndirilir.
Açar sözlər: vətən, xalq, milli şüur, əbədiyyət, dirçəliş.

Giriş

Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatında yalnız böyük ustad şair kimi deyil, həm də düşüncəsi təmizliyə, arzuları yüksəlişə, idealları isə milli dirçəlişə yönəlmiş ziyalı şəxsiyyət kimi tanınır. O, sözə, sənətə və xalqa eyni həssaslıqla yanaşan görkəmli sənətkar, dramaturq, publisist, tərcüməçi və ictimai fikir xadimidir. Yaradıcılığında hər zaman mənəvi dəyərləri, vətən sevgisini, azadlıq eşqini və milli kimliyi uca tutmuş bir şəxsiyyət kimi ədəbiyyat tariximizdə silinməz iz qoymuşdur. Ə.

Əsgərli qeyd edir: *"Böyük şair poeziyamıza intellektual yaradıcılıq üslubu gətirib və bu üslub bədii-fəlsəfi təzadların poeziyası kimi fərdilik qazanıb. Sənət məramına çatmaq təşnəsi ilə poetik axtarışlar aparan sənətkar hər dəfə nail olduğu yerdən - hər poetik mətndən yanğıyla nəfəs götürüb. Bəxtiyar Vahabzadə poeziyası dinclik bilməyən, yürüşdə olan, ehtiraslı və əzəmətli poeziyadır! "* [3.]
XX əsrin ikinci yarısında poeziyamıza yeni nəfəs, yeni düşüncə tərzi gətirən Bəxtiyar Vahabzadənin vətən anlayışına münasibəti milli və mənəvi qatlarla zənginləşmişdir. Bildiyimiz kimi, Azərbaycan poeziyasında vətən mövzusu həmişə mühüm yer tutmuşdur. Lakin bu mövzuya hər dövrün, hər şairin yanaşması fərqli olmuşdur. Vətən Vahabzadə üçün milli-mənəvi kimliyin, tarixi yaddaşın, azadlıq arzularının ifadəsidir. Şair poeziyasında bu mövzu müxtəlif aspektlərdə: milli azadlıq, vətənin təbiəti, tarixi yaddaş, ayrılıq və həsrət, eləcə də dilə və mədəniyyətə sevgi kontekstində vətənə bağlılıq şəklində təcəssüm olunur. Şairin şeirlərində vətən anlayışı önəmli və dərin məzmun kəsb edir. Onun üçün vətən təkcə torpaq deyil, həm də xalqın ruhudur. Onun "Vətən marşı" adlı şeirində bu anlayış aşağıdakı misralarla genişləndirilir:

Ey Vətən oğlu, düşün, bil ki, sənindir bu Vətən,
Sabahın, həm bu günün, həm dünənindir bu Vətən.
Sənin öz dövlətin, öz millətin, öz cəddin var
Vətən uğrunda ölənlər ölümündən doğular. [5.]
Vahabzadə vətəni zaman çərçivəsində təqdim edir – dünənin mirası, bu günün dəyəri və sabahın ümidi olaraq görür. Bu isə vətənin yalnız keçmişlə yox, gələcəklə də bağlı ən müqəddəs bir dəyər olduğunu nümayiş etdirir. Şeir vətənə sədaqət hissini gücləndirir, həm də şəhidliyin müqəddəsliyini ön plana çəkir. Sovet dövründə azadlıq və müstəqillik kimi anlayışların açıq şəkildə ifadəsi qadağan olunduğu bir zamanda, Vahabzadə bu mövzuları poeziyada yaşatmağı bacarmışdır. Onun 1959-cu ildə qələmə aldığı "Gülüstan" poemasında Araz çayı ilə iki yerə bölünmüş Azərbaycan torpaqları və xalqı təsvir olunur. Bu poemada tarixi bir faciə, 1813-cü il Gülüstan müqaviləsi əsasında Azərbaycanın iki yerə parçalanması poetik və emosional dildə təsvir edilir. Şair bu tarixi hadisəni yalnız siyasi akt kimi deyil, milli mənəvi faciə, xalqın ürəyinə sancılan qılınc kimi təqdim edir. Kağızda qeyd olunmuş o imza və möhür adi sənəd deyil, bir millətin taleyini dəyişdirən, xalqı yarıya bölən faciə kimi təqdim olunur.

Necə ayırdınız dırnağı ətdən
-Ürəyi bədəndən, canı cəsəddən?
Axı kim bu haqqı vermişdir sizə,
Sizi kim çağırmış, Vətənimizə? [1, səh. 78]
Bu misralarda şair Azərbaycanın bütövlüyünün pozulmasını dərin ağrı və etirazla təsvir edir. Vahabzadə vurğulayır ki, vətənin bölünməsi xalq üçün ağrılı yaradır, xalqın ikiyə ayrılmasıdır. Bu misralar həm vətən sevgisini, həm də dərin kədər və acını oxucuya çatdırır. Şair xalqın susqunluğundan, torpaqların yad əllərdə bölünməsindən dərin sarsıntı keçirir və Koroğlu, Babək, Tomris kimi qəhrəmanların ruhunu çağırır, çünki şairin xalqının ruhunda azadlıq və mübarizlik əzmi vardır. Şair "Vətəndən vətənə" şeirini də vətəninin iki yerə bölünməsi yanğısı ilə yazmışdır.

Arazın bu tayı vətənim
O tayı vətənim,
Vətəni görməyə amanım yox mənim.
Bu necə vətəndir?
Görmədim üzünü.
Çatsam da bu yaşa,
Ömründə bir dəfə,
Bəs salam veermәzmi,

Qardaş qardaşa? [2, səh. 27]

1950-ci illərdə yazılmış "Sənsiz də yaşadar bu dağlar məni", "İlk cığır", "Bizim yurdun", "Çinar" və digər şeirlərində dağ, çinar, göl, quş, axar sular kimi təbiət elementləri yalnız gözəlliyin təsviri üçün deyil, daxili aləmin ifadəsi, vətən sevgisinin, xalq ruhunun, insan xarakterinin təcəssümü fonunda ifadə edilir. "Sənsiz də yaşadar bu dağlar məni" misrası bir sevgi etirafı deyil, mənəvi dayaq tapılan bir doğmalıq, təbiətlə varlıq birliyi ifadəsidir. Dağlar burada təbiətin bir hissəsi olmaqla yanaşı, həm də xalqın dirəniş rəmzi, şairin mənəvi dayağıdır. Vahabzadə üçün təbiət həm də rəmzi xarakter daşıyır. "Qaranquş və sərçə" şeirində qaranquş vətənə bağlılıq, sərçə isə yadlaşma və köçkünlük rəmzinə çevrilir. Həmçinin, "Çinar" şeirində bu ağac təbiətin bir parçası olmaqla yanaşı, xalqın böyüklüyünün, keçmişi və soy kökünün ifadəsidir. Bu yanaşma təbiətə ideya yüklü, milli yaddaşa söykənən baxışın təcəssümüdür. Şairin "Göygöl", "Qövsi-qüzeh", "Ceyran", "Yay" kimi şeirlərində də eyni istiqamət müşahidə olunur. Təbiət gözəlliklərinə vurğunluq olsa da, bu vurğunluq sırf estetik zövq yox, milli-mənəvi ruhun oyanışı ilə səsləşir. "Göygöl"ün təravəti, gözəlliyi "Qövsi-qüzeh"in rəngləri Azərbaycan torpağının bənzərsizliyini, xalqın ruhuna yaxınlığını ifadə edir. Burada da təbiət insanla bir vəhdətdədir, biri digərini tamamlayır. Bəxtiyar Vahabzadə təbiəti insanın xarakteri, taleyi ilə bağlı təqdim edir. Onun şeirlərində təbiətə baxmaq, əslində insana baxmaq, onun mənəviyyatını, ruhunu hiss etməkdir. "Ey ana təbiət" şeirində şair təbiəti ana kimi görür, çünki təbiət həyatverici, yaşadıcı, qoruyucudur. Bu yanaşma ilə şair təbiəti canlı varlıq kimi ifadə edir, şairin vətənlə emosional bağlılığı ifadə edilir. Həmçinin, "Şair-vətən" şeirində də Vahabzadə şair olaraq vətənə bağlılığından, ona sevgisindən və vətənə verdiyi böyük dəyərdən danışır:

Şairin bədəni - bu ana torpaq,
Nəfəsi-xəzridir, qanı Kür Araz.
Çox şey vətənsiz də yaşayır ancaq,
Şeirsə vətənsiz, elsiz yaşamaz..... [2, səh. 59]

Vahabzadə üçün şairlik təkcə sənət yox, vətənə xidmətin ən ülvi formasıdır və şeir də yalnız o zaman yaşayır, dəyər qazanır ki, onun dərin qatları elə bu torpağa, vətənə bağlı olsun.

Bəxtiyar Vahabzadənin poeziyasında vətən anlayışı zamanla məhdudlaşmır. O, daim yaşayan, dəyişən və çağırışlarla üz-üzə dayanan bir dəyər kimi təqdim olunur. Bu baxımdan, onun müstəqillik dövründə qələmə aldığı əsərlər də əvvəlki poetik ənənənin davamı olmaqla yanaşı, yeni dövrün ictimai-siyasi reallıqlarını da əks etdirir. "Tanrı türkü qorusun" şeirində o, türk dünyasının birliyini dua və ümid kontekstində işıqlandırır. Şairin əsərlərində xalqın haqq mübarizəsi və torpaq sevgisi ön planda verilir. "Şəhidlər" şeirində şair, vətən uğrunda canını fəda edən şəhidlərin ölməzliyini vurğulayır:

Qatil güllәsinə qurban gedirkən,
Gözünü sabaha dikdi Şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla,
Vətən torpağına çəkdi Şəhidlər… [4.]

Bu şeirdə Bəxtiyar Vahabzadə şəhidliyi ən yüksək mərtəbədə, xalqın azadlıq uğrunda göstərdiyi fədakarlığın rəmzi kimi təqdim edir. Şeirdə şəhidlərin ruhunu milli oyanışın və mübarizliyin qaynağı kimi göstərir. Eyni zamanda, "Xalqa" və "Vətənə" şeirlərində şair, vətəndaş məsuliyyəti və cəmiyyət qarşısında mənəvi borc hissindən bəhs edir.

Beləliklə, Bəxtiyar Vahabzadə yaradıcılığı bütövlükdə Azərbaycan xalqının azadlıq və vətən sevgisini ifadə edən güclü poetik nümunələrdir. Onun şeirlərində vətən mövzusu bəzən kədərli, bəzən üsyankar, bəzən coşğulu təqdim olunur. Lakin istər "Gülüstan" poemasında, istər təbiətə həsr olunmuş digər dəyərli bədii nümunələrdə vətən anlayışı daim ali, müqəddəs və əbədi dəyər kimi ucalır. Bu baxımdan, Vahabzadənin yaradıcılığında "*ana vətən"* mövzusu xalqın milli şüurunun formalaşmasında böyük dəyər və mənəvi oyanış kimi qiymətləndirilir.

Ədəbiyyat

1. Vahabzadə, B. (2004). Seçilmiş əsərləri. İki cilddə. II cild: Poemalar. Bakı: Öndər nəşriyyat. 320 səh.
2. Vahabzadə, B. (2005). Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu. 440 səh.
3. Əsgərli, Ə. (2020, Avqust 24). Bəxtiyar Vahabzadə poeziyasının sirri. Azərbaycan qəzeti. https://science.gov.az/az/news/open/14068
4. Vahabzadə, B. Şəhidlər. https://1905.az/b%C9%99xtiyar-vahabzad%C9%99-s%C9%99hidl%C9%99r/
5. Vahabzadə, B. Vətən marşı. https://portal.azertag.az/az/node/7679
6. Azərbaycanın xalq şairi Bəxtiyar Vahabzadə. https://anl.az/el/emb/b.vahabzade/about.htm

APHORISTIC THOUGHTS OF BAKHTIYAR VAHABZADE IN THE LIGHT OF NATIONAL PHILOSOPHICAL THOUGHT

BƏXTIYAR VAHABZADƏNİN AFORİSTİK FİKİRLƏRİ MİLLİ FƏLSƏFİ TƏFƏKKÜRÜN İŞIĞINDA

Sərdarova Mehriban Nağı qızı
Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi işçisi
https://orcid.org/0009-0000-8876-7051

Xülasə

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai-siyasi xadim Bəxtiyar Vahabzadə irsinin iki başlıca cəhəti – bənzərsz fərdi-milli çalara malik şəxsiyyəti ilə ehtiva olunan dövlətçilik dəyəri və Azərbaycan bədii-ictimai fikir tarixinin parlaq səhifələrini yaradan çoxşaxəli yaradıcılıq fəaliyyəti hələ keçən əsrin sonlarından Azərbaycan elm adamlarının diqqət mərkəzindədir.

Bəxtiyar Vahabzadənin vətəndaşlıq qeyrəti ilə Azərbaycan xalqının milli kimlik, milli istiqlaliyyət, haqq-ədalətin təntənəsi uğrunda yorulmaz mübarizəsi, dönməz məslək və əqidəsi, çoxillik elmi-pedaqoji fəaliyyəti, zəngin və çoxistiqamətli bədii yaradıcılığının sənətkarlıq xüsusiyyətləri ayrı-ayrı rakurslardan qiymətləndirilməyə geniş imkanlar açdığındandır ki, onun həyat və fəaliyyətinə dair yüzlərlə elmi məqalə və irihəcmli monoqrafiyalar ortaya çıxıb.

Bəxtiyar Vahabzadə poeziyasının dil və sənətkarlıq xüsusiyyətləri, Bəxtiyar Vahabzadə və milli mübarizə, ədibin dramaturgiyası, Vahabzadə və Türk dünyası, eləcə də Cənubi Azərbaycan əlaqələri, Bəxtiyar Vahabzadə yaradıcılığında mənəviyyat-maarif məsələləri kimi dərin məzmunlu və əhatəli mövzular daxilində müxtəlif baxış bucağına malik tədqiqatlar yer alıb.

Çoxsaylı araşdırmalara rəğmən Bəxtiyar Vahabzadə irsinin zənginliyi bir daha sübut edir ki, zamanla tədqiq olunası və araşdırılması vacib olan mövzu və problemlər var. Yeri gəlmişkən, Bəxtiyar Vahabzadənin fəlsəfəsi kimi fundamental bir tədqiqat öz yolunu gözləməkdədir.

Qeyd etmək yeinə düşər ki, müxtəlif səpkidə və istiqamətdə olan tədqiqatların hamısını birləşdirən ümumi bir cəhət var ki, bu Bəxtiyar Vahabzadə sözüdür, düşüncəsidir, onları ehtiva edən hikmətidir. Zamanla Bəxtiyar Vahabzadənin Vətənə, millətə və ana dilimizə sonsuz məhəbbət ifadə edən, dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsinə maraq daha da artır. Bu, bir tərəfdən də Bəxtiyar Vahabzadənin əbədi ideyaları və onlar arasındakı münasibətləri geniş tərənnüm etməsi ilə bağlıdır. Təsadüfi deyildir ki, məhz bu cəhətdən Bəxtiyar Vahabzadənin adını XX əsr poetik fikrində Səməd Vurğundan sonra qeyd edirlər.

S. Xəlilov müasir ədəbiyyatşünaslıqda daha çox təfəkkür, idrak şairi kimi təqdim edilən qüdrətli söz ustadı Vahabzadənin S. Vurğun ilə ümumi və fərqli cəhətlərini fəlsəfi düşüncə prizmasından keçirir: "*Bəxtiyar Vahabzadənin özü də xeyli dərəcədə Vurğun poeziyasından bəhrələndiyindən, onun davamçılarındandır. Amma o, daha çox intellektual-didaktik şeirlər müəllifidir; yəni onun yaradıcılığında formaca yaxınlıq hiss olunsa da, ideyalar dilin öz daxili potensialından daha çox, düşüncədən hasil olur*."

Bəxtiyar Vahabzadə fəlsəfəsinə açar olan bu baxış şairin "*nurlu şer-sənət dünyasını*"n düşündürən fikirlərini milli-fəlsəfi təfəkkürün işığında təqdim etməyə vəsilə oldu.

Vahabzadə poeziyasının fərqi onun bariz ifadə olunan ruhundadır və xalqımızın milli ruhunun dirçəldilməsində özünəməxsus yeri olan bu poeziyanın sirri fəlsəfə daşıyıcısı olmasındadır. Çünki "*Milli ruh özünü milli fəlsəfi fikirdə tanıyır*."

Məsələnin digər tərəfi də Vahabzadənin öz düşüncələrini təqdim etmə sənətkarlığıdır ki, bunun özü də fəlsəfi mündəricəyə malikdir. Əbu Turxan təliminə görə, böyük sənətkarların ümumi cəhəti filosof

olmalarıdır: "*Bütün böyük sənətkarlar həm də ona görə filosofdurlar ki, onların əsərlərində mahiyyətlərin də təhkiyəsi var*."
Qüdrətli söz sənətkarının poetik üslubunun qəliblərini aşan deyimləri, fəlsəfi antinomiyaları, ritorik sualları, fəlsəfi ümumiləşdirmələri xüsusi bir müstəvi təşkil edir və heç də poeziyasının geniş tədqiq edilən cəhətlərindən geridə qalmır.
Başqa sözlə, milli varlığımızın itməsi təhlükəsinin aradan qaldırılmasında, onun zənginləşərək qorunmasında Bəxtiyar Vahabzadə hikmətli düşüncələrinin, aforizmlərinin öz xüsusi yeri vardır. Onun aforistik fikirləri bütün yaradıcılığında əks olunsa da, çoxsaylı oxucuları şeirlərindəki sözünü daha çox sevir. Bu məqamı
Bəxtiyar Vahabzadənin öz təbirincə qiymətləndirmək mümkündür: "*Əgər şair xalq ruhundan doğan sözü deyə bilirsə, o, həqiqətən xalqın ürəyində əks-səda tapır.*"
Bəxtiyar Vahabzadə yaradıcılığının əsas xüsusiyyətlərindən olan milli mənliyin dərki, milli mənə qayıdış, milli dirçəliş dəst-xəttinə işıq onun fəlsəfəsindən, hikmətindən düşür. Bu işıq idrak və məhəbbətin vəhdətindən doğur.
Əbu Turxan təliminə görə, fəlsəfə idrak və məhəbbətin təmasından yaranır. Vahabzadənin tərənnüm etdiyi məhəbbət elə fəlsəfədir:
Məncə, can yanğısıdır şeir, sənət, a dostlar.
Kimin ki, ürəyində bir yanğı var, bir od var,
O dərk edər sənəti,
İnsan məhəbbətidir yaradan hər sənəti...
Əbu Turxana görə, fəlsəfənin predmeti – insandır və o, öz fəlsəfəsinə "Mən" anlayışının təhlilindən başlayır. Özünüdərkə gedən ikicə yoldan ən mühümü insanın özü ilə bilavasitə təması, öz iç dünyasına səyahətidir.
İnsan Vahabzadə hikmətinin episentridir. Zamana, dünyaya, tarixə, mənəviyyata, müxtəlif kateqoriyalara şairin münasibətini təyin edən onun "mən"idir:
İnsandır hər şeyi mənalandıran,
Saat nə gərəkdir zaman olmasa.
Bir dağın, bir çayın gözəlliyini,
Söyləyin, kim duyar insan olmasa.
S. Xəlilova görə, alimin yaradıcılığı universal zəkanın məhsuludursa, filosofun yaradıcılığı isə onun öz "mən"inin açılışıdır. Bu mənada, Y. Qarayev göstərir ki, *"Bəxtiyar Vahabzadə psixologizminin min bir poetik halı var - duyğu, qavrayış, təsəvvür onun poetik idrakının hissi təzahürləri olub, bu da məntiqi idraka - mənəvi-əxlaqi və fəlsəfi-estetik dəyərlərin doğulmasına zəmin yaradıb. Ümumən, insanın mənəvi-əxlaqi aləminə nüfuz Bəxtiyar Vahabzadənin uğurlu "səyahətidir".*
Bəxtiyar Vahabzadənin aforizmlərinin əhatə dairəsi ən universal mənalardan tutmuş insan fəaliyyətinin bütün təzahürlərini özündə ehtiva edir. İnsanın fikir və ruhunu məşğul edən suallar və özünəməxsus cavablar şairin yaradıcılığına səpilmiş işıq zərrəcikləri kimidir. Şairin aforistik dünyasında insan, mənəviyyat, inam, iman, yer-göy, məkan-zaman, dünya, həyat, gözəllik, məhəbbət, hikmət, həqiqət, zəka və fəhm, güc və ağıl, hiss və ürək, dil və söz, iş və əməl, azadlıq, haqq, vicdan və ədalət, var-dövlət, ruh və cisim, millət, dövlət, tarix, cəmiyyət, şəxsiyyət, müdriklik, dahilik barədə aforizmlərin parlaq/sərrast, poetik gücdə olanı da var, gözdən uzaqda/ kifayət qədər bərkiməmiş, didaktik olanı da. Bu da təbiidir. S. Xəllilova görə, aforizmlər iki cür olur: bir qismi fikirlərdən nəticə kimi hasil olursa, digər qismi isə fikrin hələ açılmamış ilkin variantıdır. Filosof "Dildə yatan fəlsəfə" əsərində göstərir ki, şaxələnməmiş fikirlər açılaraq fəlsəfi sistemlər yaratdığı kimi böyük fəlsəfələr insana qayıtmaq üçün yenidən hansı isə aforizmlərdə konsentrasiya olunur. Bu mənada Vahabzadənin poeziyasında geniş istifadə etdiyi qanadlı fikirlərin, aforizmlərin müstəqil həyat qazanıb min illərin müdrik kəlamlar aləminə daxil olanı da var, bir fəlsəfi sistem daxilində açılmağa ehtiyac olanı da. Elmsiz hikmət kamilliyin ancaq kölgəsidir fikrini irəli sürən Kanta görə, hikmət ancaq o zaman həqiqəti daha yüksək səviyyədə ifadə edə bilir ki, elmi kontekstə salınmış olsun.

Akademik T. Bünyadov milli fəlsəfi fikrimizi ehtiva edən "Əbu Turxanın hikmət dünyası kitabı"nı həm də aynaya bənzədərək oxucunu özünə göstərməyindən bəhs edir. Deyərdik ki, o həm də gur bir işıq selidir və onun işığında ədəbiyyat və poeziyamıza, nəsrimizə yayılmış işıq zərrəciklərini görmək mümkündür və yaxud da maqnit cazibə qüvvəsi ilə düşüncə tariximizdəki hikmət və kəlamları öz əhatəsinə cəzb edərək zirvədən görünməsini təmin edir, mənasını daha da dərinləşdirir. İmmanuel Kantın "*İnsanlar işığı görməz, işıqla görər*" – fikri qənaətimizin doğruluğunu sübut edir.
Bu mənada həyatın müxtəlif məqamlarını milli yaddaş meyarlarına əsasən sorğu-suala tutan Vahabzadə düşüncələri milli fəlsəfə müstəvisində ümumiləşdirilir. Bəxtiyar Vahabzadənin aforizmlərinin hər birinə konkret nöqtədən işıq düşür və bizim onu anlamağımıza yol açır.
Açar sözlər: Bəxtiyar Vahabzadənin aforizmləri, milli-fəlsəfi təfəkkür, Əbu Turxan təlimi, Bəxtiyar Vahabzadə fəlsəfəsi, intellektual-didaktik şeirlər, dildə yatan fəlsəfə.

Abstract
Two main aspects of the legacy of Bakhtiyar Vahabzadeh, a prominent representative of Azerbaijani literature, People's Poet, playwright, literary critic, educator, and public and political figure - the value of statehood embodied in his personality with unique individual and national nuances, and his multifaceted creative activity that created bright pages in the history of Azerbaijani artistic and social thought - have been in the focus of attention of Azerbaijani scholars since the end of the last century. Hundreds of scientific articles and large-scale monographs have been published about Bakhtiyar Vahabzadeh's life and activities, as his tireless struggle for the national identity, national independence, and the triumph of truth and justice of the Azerbaijani people, his unwavering profession and convictions, his many years of scientific and pedagogical activity, and the artistic qualities of his rich and multifaceted artistic creativity open up wide opportunities for evaluation from different perspectives.
Studies with various perspectives are included within deep and comprehensive topics such as the linguistic and artistic characteristics of Bakhtiyar Vahabzadeh's poetry, Bakhtiyar Vahabzadeh and the national struggle, the writer's dramaturgy, Vahabzadeh and the Turkic world, as well as relations with South Azerbaijan, and issues of spirituality and enlightenment in Bakhtiyar Vahabzadeh's work. Despite numerous studies, the richness of Bakhtiyar Vahabzadeh's legacy proves once again that there are topics and problems that need to be studied and investigated over time. Incidentally, a fundamental study like Bakhtiyar Vahabzadeh's philosophy is waiting for its way.
It is worth noting that there is a common aspect that unites all of these studies, in various styles and directions, and this is Bakhtiyar Vahabzadeh's words, thoughts, and the wisdom that encompasses them.
Over time, interest in Bakhtiyar Vahabzadeh's heritage, rich in deep poetic and philosophical thoughts, expressing infinite love for the Motherland, nation and our native language, is growing. On the one hand, this is due to the widespread glorification of Bakhtiyar Vahabzadeh's eternal ideas and the relationships between them. It is no coincidence that in this respect, Bakhtiyar Vahabzadeh's name is mentioned after Samad Vurgun in the poetic thought of the 20th century.
S. Khalilov examines the common and different aspects of Vahabzadeh, a powerful master of words, who is presented more as a poet of thought and understanding in modern literary criticism, and S. Vurgun through the prism of philosophical thought: *"Since Bakhtiyar Vahabzadeh himself benefited from Vurgun's poetry to a great extent, he is one of his followers. But he is more of an author of intellectual-didactic poems; that is, although there is a closeness in form in his work, ideas are derived from thought rather than from the internal potential of language itself."*
This insight, which is the key to Bakhtiyar Vahabzadeh's philosophy, became an opportunity to present the thought-provoking ideas of the poet's "illuminated world of poetry and art" in the light of national-philosophical thinking.

The difference of Vahabzadeh's poetry lies in its clearly expressed spirit, and the secret of this poetry, which has a unique place in the revival of the national spirit of our people, is that it is a carrier of philosophy. Because *"The national spirit recognizes itself in national philosophical thought."*
The other side of the issue is Vahabzadeh's mastery of presenting his thoughts, which itself has philosophical content. According to Abu Turkhan's teaching, the common feature of great artists is that they are philosophers: *"All great artists are philosophers also because their works contain a narrative of essences."*
The powerful wordsmith's idioms, philosophical antinomies, rhetorical questions, and philosophical generalizations that transcend the molds of his poetic style constitute a special level and are not inferior to the widely studied aspects of his poetry.
In other words, Bakhtiyar Vahabzadeh's wise thoughts and aphorisms have a special place in eliminating the threat of the loss of our national existence, in enriching and preserving it. Although his aphoristic thoughts are reflected in all his work, his numerous readers love his words in his poems more. This point can be assessed in Bakhtiyar Vahabzadeh's own words: *"If a poet can say the word that comes from the soul of the people, he truly finds an echo in the hearts of the people."*
The main characteristics of Bakhtiyar Vahabzadeh's work - the understanding of the national self, the return to the national self, and the national revival - are illuminated by his philosophy and wisdom. This light arises from the unity of understanding and love.
According to Abu Turkhan's teachings, philosophy arises from the contact of understanding and love. The love that Vahabzadeh sings about is philosophy:
I think poetry, art, is the fire of the soul, my friends.
Whoever has a fire, a fire in his heart,
He understands art,
It is human love that creates every art...
According to Abu Turkhan, the subject of philosophy is man, and he begins his philosophy with the analysis of the concept of "I". Of the two paths to self-realization, the most important is a person's direct contact with himself, a journey into his inner world.
Man is the epicenter of Vahabzadeh's wisdom. It is his "I" that determines the poet's attitude to time, the world, history, spirituality, and various categories:
It is man who gives meaning to everything,
What is the need for a clock without time?
Tell me the beauty of a mountain, a river,
Who would hear it without man.
According to S. Khalilov, if the work of a scientist is a product of universal intelligence, then the work of a philosopher is the discovery of his own "I". In this sense, Y. Garayev shows that *"Bakhtiyar Vahabzadeh's psychologism has a thousand and one poetic states - feeling, perception, imagination were the sensory manifestations of his poetic cognition, which in turn created the basis for logical cognition - the birth of spiritual-moral and philosophical-aesthetic values. In general, penetration into the spiritual-moral world of man is a successful "journey" of Bakhtiyar Vahabzadeh.*
The scope of Bakhtiyar Vahabzadeh's aphorisms includes all manifestations of human activity, from the most universal meanings. The questions and unique answers that occupy the human mind and soul are like particles of light scattered in the poet's creativity. In the poet's aphoristic world, there are aphorisms about man, spirituality, faith, belief, earth and sky, space and time, world, life, beauty, love, wisdom, truth, intelligence and understanding, strength and mind, feeling and heart, language and word, work and deed, freedom, right, conscience and justice, wealth and state, soul and body, nation, state, history, society, personality, wisdom, genius, some are bright/precise, poetically powerful, and some are out of sight/not sufficiently solidified, didactic. This is also natural. According to S. Khallilov, aphorisms are of two types: some are derived from ideas as a result, and the other is an initial version of the idea that has not yet been revealed. The philosopher shows in his

work “Philosophy Hidden in the Language” that just as unbranched ideas are revealed and philosophical systems are created, great philosophies are again concentrated in some aphorisms in order to return to man. In this sense, there are some winged ideas and aphorisms that Vahabzadeh widely used in his poetry that have gained an independent life and entered the world of wise sayings of thousands of years, and there are some that need to be revealed within a philosophical system. According to Kant, who put forward the idea that wisdom without science is only a shadow of perfection, wisdom can express truth at a higher level only when it is placed in a scientific context.

Academician T. Bunyadov also talks about how the “Book of the World of Wisdom of Abu Turkhan”, which contains our national philosophical thought, shows the reader to himself by comparing it to a mirror. We would say that it is also a flood of light and in its light it is possible to see the particles of light spread throughout our literature, poetry, and prose, or it attracts the wisdom and sayings in our history of thought with its magnetic force of attraction, ensuring their visibility from the top and deepening their meaning. Immanuel Kant’s thought *“People do not see the light, they see with the light”* proves the correctness of our conclusion.

In this sense, Vahabzadeh's thoughts, which question various aspects of life based on the criteria of national memory, are generalized at the level of national philosophy. Each of Bakhtiyar Vahabzadeh's aphorisms sheds light from a specific point and paves the way for us to understand it.

Keywords: Bakhtiyar Vahabzadeh's aphorisms, national-philosophical thinking, Abu Turkhan's teachings, Bakhtiyar Vahabzadeh's philosophy, intellectual-didactic poems, philosophy inherent in language

THEMATIC AND SEMANTIC STRUCTURES IN THE POETRY OF BAKHTIYAR VAHABZADE: A NATURAL LANGUAGE PROCESSING ANALYSIS USING LATENT DIRICHLET ALLOCATION (LDA)

Nağıyeva Pərvin Abdulla
Bakı Dövlət Universitetinin dissertantı
https://orcid.org/0000-0002-9276-1135

Xülasə
Bu tədqiqatda Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Bəxtiyar Vahabzadənin poetik yaradıcılığı müasir Təbii Dil Emalı (NLP – Natural Language Processing) və tematik modelləşdirmə *gizli Dirixle* ayrılması (Latent Dirichlet Allocation – LDA) metodları ilə təhlil edilmişdir. Məqsəd, şairin şeirlərində dominant tematik sahələri və semantik strukturları avtomatlaşdırılmış üsullarla müəyyənləşdirmək və bu təhlili ədəbi interpretasiyalarla zənginləşdirməkdir.Tədqiqat çərçivəsində şairin müxtəlif illərə aid şeirlərindən ibarət korpus yaradılmış, bu korpusdan durğu işarələri çıxarılmış, stop-sözlər silinmiş, lemmatizasiya və tokenləşdirmə mərhələləri tətbiq olunmuşdur. Nəticədə strukturlaşdırılmış mətn bazası *gizli Dirixle* ayrılması modeli ilə təhlil edilib və əsas tematik nüvələr müəyyən edilmişdir.
Aparılan leksik tezlik və semantik sahə analizləri nəticəsində Bəxtiyar Vahabzadənin poetikasında aşağıdakı əsas mövzuların üstünlük təşkil etdiyi müəyyən edilmişdir: milli kimlik və azadlıq, vətənpərvərlik, insan duyğuları (sevgi, qəm, ümid), təbiət və simvolik rəmzlər. Xüsusilə "Latın dili" və "Gülüstan" kimi şeirlərin təhlili göstərmişdir ki, şairin poetik dilində metafora, ironiya və alleqorik ifadələr vasitəsilə senzura şəraitində belə dərin milli və ideoloji fikirlər ifadə olunmuşdur.
Tədqiqat göstərir ki, Təbii Dil Emalı və *gizli Dirixle* ayrılması modelləri poeziya kimi kompleks və çoxqatlı mətnlərin analitik təhlilində səmərəli nəticələr verir. Bu yanaşma Azərbaycan dilində poetik mətnlərin avtomatlaşdırılmış təhlili və süni intellekt sistemləri üçün yeni resursların formalaşdırılması baxımından da əhəmiyyətlidir. Bununla belə, dərin semantik qatların, simvolik ifadələrin və mədəni kontekstlərin düzgün interpretasiyası hələ də insan mütəxəssisin iştirakı olmadan tam şəkildə mümkün deyil. Beləliklə, ədəbiyyatşünaslıq ilə kompüter dilçiliyi arasında qurulmuş elmi körpü təbii intellektin şərhedici rolu ilə tamamlanmış olur.
Açar sözlər: Bəxtiyar Vahabzadə, şeir, Təbii Dil Emalı, *gizli Dirixle* ayrılması, tematik modelləşdirmə metodu.

Abstract
This study analyzes the poetic works of the prominent Azerbaijani poet Bakhtiyar Vahabzadeh using modern Natural Language Processing (NLP) and thematic modeling methods, specifically Latent Dirichlet Allocation (LDA). The objective is to automatically identify dominant thematic areas and semantic structures in the poet's verses and to enrich this analysis with literary interpretations.
Within the research framework, a corpus consisting of poems from various years was compiled. Preprocessing steps such as punctuation removal, stop-word elimination, lemmatization, and tokenization were applied. The resulting structured text database was analyzed using the LDA model, revealing key thematic clusters.
Lexical frequency and semantic field analyses demonstrated that Vahabzadeh's poetics predominantly revolve around themes of national identity and freedom, patriotism, human emotions (love, sorrow, hope), nature, and symbolic imagery. Analysis of poems such as "Latin Language" and "Gulistan" showed that, despite censorship, the poet expressed deep national and ideological ideas through metaphors, irony, and allegorical expressions.
According to the paper NLP and LDA models yield effective results in the analytical examination of complex and multilayered poetic texts. This approach is significant both for the automated analysis

of Azerbaijani poetic texts and for the development of new language resources for artificial intelligence systems. Nonetheless, the accurate interpretation of deep semantic layers, symbolic expressions, and cultural contexts remains incomplete without the involvement of human experts. Thus, the scientific bridge established between literary studies and computational linguistics is ultimately complemented by the interpretive role of natural human intelligence.
Keywords: Bakhtiyar Vahabzadeh, poem, Natural Language Processing, Latent Dirichlet Allocation, thematic modeling methods

Giriş

Dil insanların yalnız ünsiyyət vasitəsi deyil, həm də mədəniyyətin, düşüncənin və estetik təxəyyülün daşıyıcısıdır. Bu xüsusilə poeziya kimi yüksək estetik və simvolik qatlara malik janrlarda daha aydın nəzərə çarpır. Şeir dili bəzən insan üçün belə çətin anlaşılan məna qatları ilə seçildiyi üçün onun avtomatlaşdırılmış şəkildə təhlili xüsusi metodoloji yanaşma tələb edir. Məhz bu kontekstdə Təbii Dil Emalı (Natural Language Processing – NLP) kimi texnoloji vasitələr ədəbi mətnlərin, xüsusən də poetik nümunələrin tematik və semantik təhlili üçün yeni imkanlar yaradır.

Təbii Dil Emalı insan dilinin kompüterlər tərəfindən başa düşülməsi, emal olunması və təhlili ilə məşğul olan elm sahəsidir. Təbii Dil Emalı süni intellekt və maşın öyrənməsi metodlarına əsaslanaraq mətnlərdə semantik nümunələri, leksik motivləri və sintaktik strukturları avtomatik şəkildə aşkar etməyə imkan verir. Son illərdə dünyada bu istiqamətdə aparılan araşdırmalar məsələn V.Şekspirin, C.Miltonun və ya Homerin əsərləri üzərində Təbii Dil Emalı tətbiqi göstərir ki, klassik ədəbiyyat mətnlərinnin müasir süni intellekt sistemləri sayəsində makrosəviyyədə təhlili mümkün olmuşdur. M.Cokers "Macroanalysis" adlı əsərində romanları statistik metodlarla araşdıraraq göstərmişdir ki, Təbii Dil Emalı müəllif üslubu, ideoloji tendensiyalar və janr xüsusiyyətləri kimi parametrlərin təhlili üçün effektiv yanaşmadır (Jockers, 2013). T.Andervud isə "Distant Reading" yanaşması ilə emosional dəyişkənlik və ədəbi inkişaf xəttini statistik modellərlə izləyərək Təbii Dil Emalının ədəbiyyat tarixini yeni daha obyektiv və geniş perspektivlə yazmaqda böyük potensiala malik olduğunu göstərir (Underwood, 2019). Azərbaycan ədəbiyyatında bu sahə hələ ilkin mərhələdədir və Bəxtiyar Vahabzadə nümunəsi bu istiqamətdə atılmış ilk addımlardan biri ola bilər.

Tədqiqat işinin məqsədi Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Bəxtiyar Vahabzadənin bir neçə poetik mətnlərini Təbii Dil Emalı alətləri ilə təhlil edərək onun yaradıcılığında dominant tematik sahələri müəyyənləşdirməkdir. Əsasən *gizli Dirixle* ayrılması modeli tətbiq edilməklə, şairin şeirlərində təkrarlanan semantik nüvələr və leksik sahələr müəyyən edilmiş, nəticələr isə həm statistik, həm də dilçilik prizmasından şərh olunmuşdur.

Bəxtiyar Vahabzadənin poeziyası poetik dərinlik və ictimai ideoloji yüklülüyü ilə seçilir. Onun şeirləri milli kimlik, ana dili, azadlıq, sevgi, mübarizə və vətənpərvərlik kimi mövzular ətrafında formalaşaraq, poetik dilin estetik imkanlarını tam şəkildə əks etdirir. Şairin "Şairlər" adlı şeirində bu funksional və simvolik mövqe belə ifadə olunur:

Şair – fikirlərin çırpınan seli,
Şair – həqiqətin müğənnisidir.
Şair – təbiətin danışan dili,
Şair – cəmiyyətin üsyan səsidir.
Şair – zəmanənin, əsrin vicdanı,
Şair – tarixlərin şərəfi, şanı. (Vahabzadə, 1979)

Bu misralar şairin söz vasitəsilə zamanla, təbiətlə və cəmiyyətlə qurduğu çoxşaxəli əlaqəni əks etdirir. Belə poetik qatların Təbii Dil Emalı vasitəsilə təhlili, yalnız ədəbi anlayışların kompüterləşdirilməsi deyil, eyni zamanda milli poeziyanın strukturlaşdırılmış təhlilinə yeni bir baxış bucağı gətirir.

Tədqiqat ədəbi tənqidin klassik üsulları ilə yanaşı, korpus əsaslı və statistik modellərə əsaslanan yanaşmaların da poeziya kimi kompleks mətn növlərinə tətbiq olunmasının mümkünlüyünü nümayiş etdirmək baxımından aktuallıq kəsb edir.

Metodologiya

Tədqiqatın məqsədinə uyğun olaraq, ilkin mərhələdə Bəxtiyar Vahabzadənin müxtəlif illərdə nəşr olunmuş şeirlərindən ibarət korpus yaradılmışdır. Korpusun formalaşdırılması zamanı şairin fərqli mövzulara aid şeirlərinin balanslı şəkildə seçilməsinə xüsusi diqqət yetirilmişdir. Korpusun hazırlanması aşağıdakı mərhələlərdən ibarət olmuşdur:

Mətnlərdən durğu işarələrinin silinməsi;

Tokenləşdirmə – hər bir şeirin cümlələrə və söz vahidlərinə bölünməsi;

Stop-sözlərin çıxarılması – Azərbaycan dilində tez-tez işlənən, lakin semantik yük daşımayan bağlayıcılar, ədatlar və əvəzliklərin (məsələn, “və”, “bir”, “bu”) mətnlərdən xaric edilməsi;

Lemmatizasiya – sözlərin əsas leksik forması olan lemmaların saxlanılması.

Lemmatizasiya mərhələsi təkrarlanan məzmun vahidlərinin daha dəqiq müəyyən edilməsinə və tezlik, həmçinin semantik təhlilin keyfiyyətinin yüksəldilməsinə imkan verir. Bu mərhələlər Python proqramlaşdırma dili və Təbii Dil Emalı kitabxanaları vasitəsilə həyata keçirilmişdir. Mövzu modelləşdirmə üsullarının tətbiqi üçün istifadə oluna biləcək ən populyar kitabxana Python Gensim paketidir (Rehurek & Sojka, 2011). Nəticədə avtomatik təhlilə hazır strukturlaşdırılmış korpus əldə olunmuşdur ki, bu da tematik modelləşdirmə və leksik-semantik təhlil üçün elmi əsas yaratmışdır.

Tematik modelləşdirmə üçün alqoritmik yanaşma olaraq, ilkin emal mərhələlərindən sonra *gizli Dirixle* ayrılması modeli tətbiq edilmişdir. Bu model mətn daxilindəki gizli tematik strukturların aşkarlanmasını təmin edir və hər bir mətni bir neçə mövzu ilə əlaqələndirməyə imkan yaradır. Hər bir şeir üçün dominant mövzu və həmin mövuyla bağlı açar sözlər müəyyən edilmişdir.

Avtomatik təhlilin nəticələri göstərmişdir ki, şairin yaradıcılığında vətənpərvərlik, dil və milli kimlik, insani duyğular, azadlıq və mübarizə, fəlsəfi düşüncələr kimi əsas tematik sahələr üstünlük təşkil edir. Hər bir mövzu daxilində təkrarlanan leksik vahidlər və poetik motivlər statistik üsullarla təhlil edilmiş və əldə edilən nəticələr şairin poetik dili ilə bağlı interpretativ şərhlərlə zənginləşdirilmişdir.

Leksik tezlik və söz bölgüsü

Leksik tezlik təhlili mətnin əsas semantik oxlarını və dominant leksik vahidlərini müəyyənləşdirmək üçün mühüm vasitələrdən biridir. Bəxtiyar Vahabzadənin seçilmiş şeirlərindən ibarət korpus üzərində aparılan tezlik təhlili, onun poetik dilində hansı leksik vahidlərin üstünlük təşkil etdiyini və bu tezliyin tematik strukturlarla necə əlaqələndiyini üzə çıxarır.

Tezlik təhlili zamanı korpusdakı bütün sözlər sayılmış və ən çox təkrarlanan 50 söz müəyyən edilmişdir. Bu sözlər arasında aşağıdakı kateqoriyalar üzrə bölgü aparılmışdır:

Tematik sözlər: *“Vətən”, “xalq”, “azadlıq”, “ana”, “millət”* kimi sözlər yüksək tezliklə təkrar olunur və milli-mənəvi mövzuların şairin poetik dünyagörüşündə mərkəzi yer tutduğunu göstərir.

Emosional yüklü sözlər: *“qəm”, “sevgi”, “ümid”, “nisgil”, “könül*” kimi sözlər şəxsi duyğuların poetik ifadəsində mühüm rol oynayır.

Simvolik və metaforik sözlər: *“dağ”, “yol”, “külək”, “çinar”, “alov”* və s. sözlər poetik simvol kimi müxtəlif məna qatları daşıyır.

Təhlil zamanı həm də semantik sahələr üzrə söz bölgüsü aparılmışdır. Məsələn, *“vətən”, “torpaq”, “qəhrəman”, “mübarizə” kimi sözlər bir tematik sahə (milli-azadlıq), “qəlb”, “sevgi”, “nisgil”* və s. isə fərdi duyğu sahəsinə aiddir.

Əldə olunan nəticələr göstərir ki, B.Vahabzadənin poetik dili yüksək dərəcədə planlaşdırılmış və semantik cəhətdən yüklü bir sistem kimi çıxış edir.

Semantik sahələrin təhlili

Semantik sahələrin təhlili mətnin əsas məzmun qatlarını və konseptual çərçivəsini anlamağa imkan verir. Bu yanaşma çərçivəsində sözlər yalnız tezlik baxımından deyil, məna əlaqələrinə görə də qruplaşdırılır. Bəxtiyar Vahabzadənin poeziyasında sözlərin semantik sahələr üzrə paylanması onun poetik sisteminin dərin ideoloji və mənəvi əsaslarını üzə çıxarır.

Tədqiqat zamanı aşağıdakı üç əsas semantik sahə müəyyənləşdirilmişdir:

Milli kimlik və azadlıq sahəsi: bu sahəyə aid olan sözlər — vətən, millət, torpaq, azadlıq, əsarət, qəhrəman, tarix və s. — şairin ictimai və siyasi mövzularda poetik refleksiyasını əks etdirir. Bu sahənin leksik vahidləri şeirlərin strukturunda tez-tez əsas sintaktik mövqe tutur və ideoloji yüklü mətn sahələrini formalaşdırır. Məsələn, şairin milli kimlik və özünüdərk mövzusunu ifadə edən belə misraları vardır:

“Əslimi, nəslimi tanıyıram mən,
Qarışıq deyiləm, özümdən hürkəm.
Sən kimsən, sən nəsən, özün bilərsən,
Mən ilk qaynağımdan türk oğlu türkəm!” (Vahabzadə, 2004)

2. *İnsan və duyğular sahəsi:* sevgi, qəm, könül, göz yaşları, ümid, qürur, nisgil kimi sözlər şairin subyektiv hisslərini ifadə edən semantik blok təşkil edir. Bu sahədəki sözlər daha çox emosional-fəlsəfi mətn strukturlarında işlədilir və metaforik ifadə vasitələri ilə müşayiət olunur.

3. *Təbiət və rəmzlər sahəsi:* bu sahədə dağ, dəniz, külək, çinar, alov, yağış kimi sözlərə rast gəlinir. Onlar birbaşa təbiəti təsvir etməklə yanaşı, poetik rəmzlər vasitəsilə digər məna qatlarını (azadlıq, sabitlik, dəyişiklik və s.) daşıyır. Bu sahə poetik dilin simvolik potensialını ortaya qoyur.

Semantik sahələrin bu cür təsnifatı və onların tezlik təhlili ilə birləşdirilməsi, şairin poetik diskursunun strukturunu və məzmun çərçivələrini müəyyənləşdirməyə kömək edir.

Qeyd etdiyimiz kimi *gizli Dirixle* ayrılması modeli statistik ehtimallar əsasında müxtəlif mətnlərdə mövcud olan gizli tematik strukturları da müəyyən etməyə imkan verir. B.Vahabzadənin “Latin Dili” şeirini məzmun baxımından ən çoxqatlı, gizli mənalı hesab etmək olar. “Latın dili” şeirində gizli tematik struktur birbaşa deyil, təkrarlar, metaforalar və ironiya vasitəsilə ifadə olunur. Avtomatik təhlil nəticəsində gizli tematik strukturu əks etdirən əsas misralar:

“Vətəni yox,
Milləti yox
Yaşar özü.” (Vahabzadə, 1979)

Burada latın dilinin “ölmüş millətlər”ə aid olsa da, hələ də yaşaması ironiya və metaforla vurğulanır. Dil varlıqdan üstün ola bilərmi? sualını ortaya qoyur. Əsasən milli kimliksiz yaşamağın paradoksu gizli şəkildə ifadə olunur.

“Sən dərdə bax,
Vətən də var,
Millət də var.
Ancaq onun dili yoxdur.” (Vahabzadə, 1979)

Bu, əks paradoksdur. Varlığı olan bir millətin ana dilinin olmaması bu misrada dil və kimlik əlaqəsinin gizli tematik strukturu açılır. Şeir burada latın dili ilə Azərbaycan dili arasında simvolik qarşılaşma yaradır.

“Hansı dilə ölü deyək:
Vətən varkən,

Millət varkən,
Kiçik, yoxsul komalarda
dustaq olan bir diləmi?
Yoxsa, xalqı ölüb,
Özü qalan bir diləmi?” (Vahabzadə, 1979)

Burada dil və azadlıq, simvolik ölüm və mənəvi həyat anlayışları qarşılaşdırılır.
Bu misralarda dilə dirilik və ya ölüm kimi status verilir ki, bu da gizli tematik strukturdur: dil sadəcə ünsiyyət vasitəsi deyil, bir ideoloji varlıqdır.
Beləliklə, “Latın dili” şeiri zahirən dil məsələləri üzərində qurulsa da, əslində Sovet imperiyasının yerli xalqlara öz dillərindən uzaqlaşdıran siyasətinə qarşı gizli etiraz və milli kimliyin müdafiəsi hesab edilir. Bu şairin senzura şəraitində milli ideyaları çatdırmaq üçün istifadə etdiyi alleqorik ifadə üsulunun bariz nümunəsidir. B.Vahabzadənin poetikasında müxtəlif semantik qatlar – milli kimlik, elmi-fəlsəfi varlıq və ideoloji müqayisə paralel şəkildə qurulmuşdur. *Gizli Dirixle* ayrılması modeli vasitəsilə bu tematik sahələrin avtomatik şəkildə müəyyən edilməsi, şairin bədii dilindəki dərin çoxqatlılığı daha obyektiv şəkildə üzə çıxarmağa imkan verir. Şeirlərin bu şəkildə təhlili daha əvvəl şifahi və bədii dəyərləndirməyə əsaslanan yanaşmalardan fərqli olaraq, obyektiv və korpus əsaslı nəticələr təqdim edir. Bu da tədqiqatın müasir dilçilik və korpus analizinə əsaslanan ədəbiyyatşünaslıq baxımından əhəmiyyətini artırır.
Metafor və simvolik ifadələrin sıxlığı, Bəxtiyar Vahabzadənin poetikasında emosional ifadə gücünün yüksək olduğunu təsdiqləmişdir. Təbii Dil Emalı vasitəsilə cümlə uzunluğu və sintaktik variasiyalar təhlil edilmiş və daha çox ictimai-siyasi mövzularda daha uzun və mürəkkəb strukturlar müşahidə olunmuşdur. Şairin "Gülüstan" (Vahabzadə, 1979) adlı uzun və çoxqatlı poemasının tematik təhlilini nümunə kimi göstərmək olar: *gizli Dirixle* ayrılması modelinə əsaslanan yanaşma sayəsində, şeirdə gizli şəkildə mövcud olan əsas tematik strukturlar əlavə olaraq məna qatları ilə birlikdə aşağıdakı kimi qruplaşdırıla bilər:
1. Vətənpərvərlik və torpaq üzərində suverenlik
Açar sözlər: Vətən, xalq, Araz, torpaq, el, ölkə, sərhəd, bölünmə, yurd, sahiblər
Mövzu: Vətən torpağının parçalanması, ərazilərin yad əllərə verilməsi və bu parçalanmanın psixoloji, mədəni və tarixi ağrısı kimi elementlər ön plandadır. Şair Azərbaycanın bütövlüyünün pozulmasını sadəcə siyasi yox, ontoloji və ruhi bir bölünmə kimi təqdim edir.
“Araz dərdim olub, sinəmdən keçir” misrası bu parçalanmanın həm fiziki, həm də mənəvi aspektini vurğulayır.
Burada gizli struktur milli kimliyin parçalanmasıdır. Açıqca "bölünmə" ifadə olunur, amma sadəcə fiziki sərhəd deyil, psixoloji və mədəni parçalanma da nəzərdə tutulur, yəni yalnız coğrafi deyil, mənəvi zədə də təsvir edilir.
2. Haqsızlıq və tarixi travma
Açar sözlər: qol, imza, kağız, möhür, cənablar, qərar, xalq, susqunluq
Mövzu: Poemada imza və kağız metaforası rəsmi haqsızlıqları, yad qüvvələrin verdiyi bir anlıq qərarların bir xalqın taleyini necə dəyişdiyini göstərir. Bu mövzu etika və hüquq fəlsəfəsi baxımından da maraqlıdır — kim bir xalqın adından danışa bilər? Ədalət haradadır?

“Kağıza həvəslə o da qol atdı,
Dodağı altından gülümsəyərək.
Bir qələm əsrlik hicran yaratdı,
Bir xalqı yarıya böldü qılınc tək.”

Bu misralarda bir imzanın, bir qələmin necə “qılınc kimi” bir xalqı böldüyü və əsrlik ağrı yaratdığı vurğulanır. Bu, hüquq və etik baxımdan kəskin bir ironiya ehtiva edir.

“Bir damcı mürəkkəb bir vətəndaşı
Qanına bulayıb ikiyə böldü.”

Bu misra çox güclü metaforadır: bir damcı mürəkkəb – imza – qanla eyniləşdirilir, çünki o qərar bölünmə, zorakılıq və tarixi ağrıya səbəb olmuşdur.
Mədəniyyətin bölünməzliyi və ana dilinin gücü
Açar sözlər: saz, şeir, dil, Şəhriyar, muğam, Koroğlu, Füzuli, qəzəl, gəraylı
Mövzu: mədəni və poetik birlik əsas tematikadır. Təbriz və Bakı, Azərbaycandır Arazın iki sahili dil və saz vasitəsilə bölünməz bir bədii dünyanı paylaşır. Bu misralarla mədəni kollektiv yaddaşın millətin birliyində necə önəmli olduğunu göstərir: “Bir sazın, bir telin, bir simin üstə...”.
Qəzəb, etiraz və qurtuluş çağırışı
Açar sözlər: qılınc, Babək, Koroğlu, igid, çarpışmaq, sel, partlamaq, fırtına
Mövzu: Burada şair passiv müşahidədən fəal etiraza keçid çağırışı edir. Tarixi qəhrəmanlar (Babək, Koroğlu) metaforik olaraq dirəniş və azadlıq rəmzləri kimi göstərilir. Bu bölmə kollektiv qəzəbin mobilizə edilməsi çağırışıdır.
Ayrılıq, Həsrət və Şəxsi Hüzn
Açar sözlər: könül, həsrət, göz yaşı, ürək, sevgi, ayrılıq, tənhalıq

Mövzu:
Mətnin müəyyən hissələrində ayrılıq motivi şəxsi emosional təcrübəyə keçir. Bu bölmələrdə fərdi kimlik, hiss və mənlik hissi əsas yer tutur. Bu emosional təbəqə şeiri sadəcə siyasi manifest deyil, həm də lirik-fəlsəfi elegiya səviyyəsinə yüksəldir.

“Arazın üstündən keçə bilmirəm,
Araz dərdim olub, sinəmdən keçir.”
Araz çayı – fiziki sərhəd deyil, şəxsi travma və mənəvi ağrı simvoludur. Bu misra lirik-fəlsəfi dərinliyə çatır və şəxsi mənliyin yaralanmasını ifadə edir.
Bu misralar göstərir ki, şair ayrılığı yalnız milli faciə deyil, həm də şəxsi hüzn kimi yaşayır. Vətən parçalanarkən, insan da daxilən bölünür – həm mənəvi, həm də emosional olaraq. Bu təbəqə şeiri siyasi ifadədən çıxarıb lirik-fəlsəfi elegiya səviyyəsinə yüksəldir**.** Təbii Dil Emalı alətləri bu kimi tematik nüvələri statistik əlaqələr vasitəsilə aşkar edə bilər, lakin ələlxüsus qeyd edilməlidir ki, bu dərin metaforik qatların izahı üçün insan tərəfindən verilən interpretasiya vacibdir.

Nəticə
Aparılan təhlillər nəticəsində bir sıra mühüm elmi və praktiki nəticələr əldə edilmişdir. İlk növbədə, Bəxtiyar Vahabzadənin poetik dilinin yüksək strukturlaşma səviyyəsinə malik olduğu, semantik baxımdan çoxqatlı və tematik baxımdan zəngin olduğu müəyyən edilmişdir. Onun yaradıcılığında milli kimlik, azadlıq, vətənpərvərlik, insan duyğuları və təbiət kimi əsas mövzular ön plana çıxır və bu mövzular leksik tezlik və semantik sahə təhlili ilə təsdiqlənmişdir.
Tədqiqat zamanı tətbiq olunan Təbii Dil Emalı (NLP) üsulları – tokenləşdirmə, lemmatizasiya, stop-sözlərin çıxarılması və digər alqoritmlər poeziya mətnlərinə uğurla uyğunlaşdırılmış və bu, avtomatlaşdırılmış təhlillərin etibarlılığını artırmışdır. Leksik və semantik təhlillər əsasında həyata keçirilən tematik modelləşdirmə (*gizli Dirixle* ayrılması modeli) isə şairin poeziyasındakı əsas tematik sahələrin effektiv şəkildə müəyyənləşdirilməsinə imkan vermişdir. Tematik qrupların həm insan tərəfindən aparılan təhlillərlə, həm də avtomatik modelləşdirmə nəticələri ilə üst-üstə düşməsi tədqiqatın metodoloji əsaslarını göstərir.

Bu tədqiqat yalnız Bəxtiyar Vahabzadənin poetik dünyasının daha dərindən anlaşılmasına deyil, həm də Azərbaycan poeziyasının dilçilik baxımından sistemli şəkildə öyrənilməsinə yeni metodoloji yanaşmalar təqdim edir.

Beləliklə, ədəbiyyatşünaslıq və kompüter dilçiliyi arasında inteqrasiya üçün praktik baza formalaşır. Texnologiyanın yaratdığı imkanlar, ənənəvi ədəbi təhlil metodlarına əlavə olaraq, ədəbi nümunələrin avtomatlaşdırılmış və statistik analizinə şərait yaradır.

Eyni zamanda, tədqiqatın süni intellekt sahəsində də mühüm əhəmiyyəti qeyd olunmalıdır. Azərbaycan dilində hazırlanmış şeirlər korpusu və tətbiq edilmiş Təbii Dil Emalı metodları, mətn emalı modellərinin təkmilləşdirilməsi baxımından süni intellekt texnologiyalarına (söhbətbotlar, avtomatik tərcümə sistemləri, sentiment analizləri, səsli köməkçilər və s.) əhəmiyyətli töhfələr verir. Leksik analizlər, tematik modellər və statistik nəticələr süni intellekt sistemlərinin təlimi (öyrənməsi) üçün faydalı təlim datası kimi istifadə oluna bilər.

Metaforik və kontekstual dildə yazılmış poeziya nümunələrinin avtomatik şəkildə anlaşılması süni intellekt üçün mühüm bir problem sahəsidir. Bu tədqiqat həmin istiqamətdə AI sistemlərinin anlama qabiliyyətini inkişaf etdirmək üçün əhəmiyyətli material təqdim edir.

Aşağıresurslu dillər sırasında olan Azərbaycan dilinin süni intellekt sistemlərində başa düşülməsi, bu kimi lokal dillər üzrə aparılan Sİ tədqiqatlarına mühüm stimul verir.

Nəticə olaraq demək olar ki, bu tədqiqat həm texniki, həm də metodoloji baxımdan Azərbaycan dilində süni intellektin inkişafı üçün real və praktik zəmin formalaşdırır.

Ədəbiyyat siyahısı

1. Jockers, M. L. (2013). *Macroanalysis: Digital methods and literary history*. University of Illinois Press.
2. Underwood, T. (2019). *Distant horizons: Digital evidence and literary change*. University of Chicago Press.
3. Vahabzadə, B. (1979). *Şairlər*. In *Açılan səhərlərə salam*. Bakı: Yazıçı.
4. Vahabzadə, B. (2004). *Latın dili. Seçilmiş əsərləri* (cild1). Bakı: Öndər nəşriyyat.
5. Rehurek, R., & Sojka, P. (2011). Gensim Python framework for vector space modelling. *NLP Centre, Faculty of Informatics, Masaryk University, Brno, Czech Republic*, 3(2).
6. Vahabzadə, B. (2004). *Seçilmiş əsərləri* (cild2). Bakı: Öndər nəşriyyat.

STUDİES ON THE POEMS İN BAKHTİYAR VAHABZADEH'S BANNED BOOK "ROOTS... BRANCHES"...

BƏXTİYAR VAHABZADƏNİN QADAĞAN OLUNMUŞ "KÖKLƏR... BUDAQLAR" KİTABINDAKI ŞEİRLƏR ÜZƏRİNDƏ İNCƏLƏMƏLƏR...

Esmira Fuad

Ö z ə t

"Mən kiməm, kim? Mən - düşüncəm, Mən - eşqim, Mən - xəyalım, məsləkim!.." açıqlaması-özünü təqdimi ilə oxucularının diqqətini çəkən Bəxtiyar Vahabzadə görkəmli filosof şair, dramaturq, ədəbiyyatşünas, akademik, publisist, ictimai xadim kimi XX əsr Azərbaycan ədəbiyyatı tarixində öz parlaq səhifəsini yazan qüdrətli sənətkardır. Bəxtiyar Vahabzadə savaşcıllığı, mübarizə əzmi, haqsızlıqlarla, ədalətsizliklərlə barışmazlığı ilə seçilən söz ustadlarındandır. Mövzu zənginliyi və janr müxtəlifliyi, dərin məzmunu, fəlsəfi içəriyi və dilinin ahəngdarlığı onun ədəbi-bədii yaradıcılığının başlıca özəllikləridir. Lirik-fəlsəfi şeirləri, tarixi, ictimai-siyasi və ailə-məişət mövzusunda qələmə aldığı pyes və poemaları, çoxlu sayda ədəbi-tənqidi yazıları Bəxtiyar Vahabzadəyə xalqının, bütün Türk dünyasının sonsuz sevgisini qazandırmışdır. Lakin şairi hələ 34 yaşında ikən el-obasına daha çox tanıdan və sevdirən əsəri (52 bənd) milli azadlıq, bağımsızlıq ideyaları, milli məfkurə əsasında yazdığı, çap olunmamışdan öncə əlyazma şəklində yayılan və dillər əzbəri olan "Gülüstan" (1958) poemasıdır.
Açar sözlər: Bəxtiyar Vahabzadə, Ana dili, dissident şair, "Köklər...Budaqlar", milli təfəkkür, müstəmləkəçilik, bağımsızlıq, "Gülüstan" poeması

Abstract

"Who am I, who? I am my thought, I am my love, I am my dream, my profession!.." Bakhtiyar Vahabzadeh, who attracted the attention of his readers with his statement, is a powerful artist who wrote his own bright page in the history of 20th century Azerbaijani literature as an outstanding philosopher, poet, playwright, literary critic, academician, publicist, and public figure. Bakhtiyar Vahabzadeh is one of the masters of words distinguished by his militancy, determination to fight, and his intransigence with injustices and injustices. The richness of the subject and the diversity of the genre, the deep content, the philosophical content, and the harmony of the language are the main features of his literary and artistic creativity. His lyrical-philosophical poems, plays and poems on historical, socio-political and family-life topics, and numerous literary-critical writings have earned Bakhtiyar Vahabzadeh the endless love of his people and the entire Turkic world. However, the work (52 lines) that made the poet more known and loved by his people when he was still 34 years old is the poem "Gulustan" (1958), written on the basis of the ideas of national freedom, independence, and national ideology, which was distributed in manuscript form before being published and is memorized by many languages...
Keywords: Bakhtiyar Vahabzadeh, Mother tongue, dissident poet, "Roots... Branches", national ideology, colonialism, independence, poem "Gulustan"

Keçən əsrin 50-ci illərindən başlayaraq milli mədəniyyət, milli dil, Azərbaycançılıq-Türkçülük--Turançılıq–İslamçılıq ideyasını açıq və ya gizli formada müdafiə edən mütəfəkkir şairin bu ideyaya bağlılığı 1958-cu ildə onu məşhur "Gülüstan" poemasını yazmağa köklədi. Əsərdə böyük Vətənin iki yerə parçalanmasının siyasi-ideoloji səbəblərini açıb göstərdi, Şimali-Quzey Azərbaycanın Rusiyaya birləşdirildiyi günü təntənəli bayram kimi qeyd edənlərə tutarlı cavab verdi, ədalətsiz tarixi hadisənin qəlbində doğurduğu qəzəb və nifrət hisslərini, kəskin etirazı bədii sözə çevirdi... Süjetli lirika örnəyi

olmasa da, qapsadığı mövzunu, xalqının uzun illər boyu ürəyində sızıldayan yarasını, ayrılıq dərdini yaradan səbəbləri güclü, kəskin ironiya və istehza ilə, yeri gəldikcə isə satirik tərzlə ədəbi müstəviyə gətirdi.

Bəxtiyar Vahabzadə "Gülüstan" poemasını bir xalqın şərəfəti üçün birinci şərt onun müstəqil olmasıdır. Müstəqil olmayan bir xalqın əzmi və hörməti olmur. Xalqın istiqlaliyyətini onun əxlaqi fəziləti saxlaya bilər. Hər bir xalqın istiqlaliyyətini qoruyan onun mərdlik və şücaətidir, - düşüncəsi ilə yaşayan və Azərbaycanın birliyi, istiqlalı uğrunda ölüm-dirim mübarizəsi aparan öndərlər - Səttar xan, Şeyx Məhəmməd Xiyabani və Seyid Cəfər Pişəvərinin unudulmaz xatirəsinə həsr edib. Vətənin hər iki parçasının - Güney və Quzey Azərbaycanın mövcud durumunu, o zaman-düz 137 il öncə, yəni 1828-ci ildə olduğu kimi, əsərin qələmə alındığı 1950-ci illərin sonlarında da işğal altında olduğunu ürək yanğısı ilə oxucuya çatdırıb. Eyni zamanda, filosof şair qədim oğuz yurdunda həm çar, həm də Sovet Rusiyasının ağalığına qarşı çıxıb. Araz çayı boyunca iki yerə bölüşdürülən böyük Vətənnin Quzey Azərbaycan hissəsinin Sovet Rusiyasının, Güney Azərbaycanı isə İran İslam Respublikasının əsarət altına almasına ciddi etirazını bildirib, bədii sözün qüdrəti ilə daxili üsyan duyğularını ifadə edib. İlk dəfə Şəkinin "İpəkçi" qəzetində yayınlanan (1959) poema Çar Rusiyasının "Parçala, hökm sür!" siyasətinə qarşı Azərbaycanın etiraz səsinin ədəbi manifesti, sovet Azərbaycanında yazılan, xalqın tarixi müqəddəratını – milli faciəsini açıq şəkildə əks etdirən ilk bədii əsərdir... Təbii, Bəxtiyar Vahabzadə "Gülüstan" poemasında bölünmüş vətən və bütöv Azərbaycan, vahid Vətən, vahid Azərbaycan ideyasını, milli-mənəvi birlik məsələsini ön plana çəkib və bu parçalanma, bölünmə olayının ən təsirli bədii inikasını yaradıb, tarixin səhifəsinə düşən ağ ləkənin silinməsi üçün çağırışlar edib... Lakin bu çağırışlar şairə çox baha başa gəlib – BDU-dakı işindən çıxarılıb, iki il müddətinə ev dustaqlığına göndərilib və bu addım "dissertasiya yazır" bəhanəsi ilə ört-basdır edilib...

İllər keçir, Bəxtiyar Vahabzadə yenə də susmur, nə son dərəcə ciddi senzura, nə də "Qlavlit" nəzarəti onu qorxutmur, əksinə, daha böyük əzm və cəsarətlə yeni şeir və poemalar, pyeslər yazmağa istiqamətlənir. Beləliklə, 1968-ci ildə "Köklər... Budaqlar" kitabı yaranır və çap edilərək oxucuların ixtiyarına verilir. "Köklər... Budaqlar"da sovet rejiminin assimilyasiya siyasəti altında milli varlığı tapdanan, hər cür məhrumiyyətlərə məruz qalan xalqının dərdlərini rəmzlər və müxtəlif ədəbi üsullarla, mətnaltı yazıçı manerası ilə ifadə etdiyi şeirləri yer alır. Lakin heç mürəkkəbi qurumamış "Köklər... Budaqlar"ın başının üstünü qara buludlar alır. Və nə yazıq ki, kitab ədəbi aləmdə ayaq açıb yeriyə bilmir və... dərhal satış mağazalarından yığışdırılaraq qadağan olunur... Bitkilərdə olduğu kimi, insanın da var oluşu üçün onun soykökünə bağlılığının gərəkliliyini önə çəkir:

Ağaclar kök üstə boy atır, ucalır.
Ağaclar kökündən güc alır.
Dünyada hər şeyin kökü var.
Kökü var torpağın, daşın da...
Adamsa kökünü
Gəzdirir başında... (1, 61)

Əslində Bəxtiyar Vahabzadə *"Adamsa kökünü gəzdirir başında"* deyərkən milli məfkurənin, milli təfəkkürün, Ana dilinin diri qalmasının bir millətin ölüm-qalım məsələsi olduğuna, "*Ağaclar qatarla cərgələnibdir. Onlar bir-birindən çox uzaqdadır. Budaqlar, yarpaqlar görüşməsə də, Kökləri bir yerdə, bir torpaqdadır!"* – misraları ilə də bir millətin, xalqın soykökünün bir qaynaqdan boy verdiyinə və əgər kökündən qoparsa, ağacın qurumaq, millətin isə getdikcə assimilə olunub tarixin səhifələrindən silinmək kimi fəlakət yaşayacağını vurğulayır...

Kökünün, tarixi keçmişinin sorağına düşən və öyrənmək istəyən şair şeirlərində, irihəcmli poema ("Gülüstan") və pyeslərində ("Özümüzü kəsən qılınc" ("Göytürklər")) hadisələri ya tarixə, ya da başqa ölkələrə keçirərək öz millətinin dərdlərini dilə gətirməyə başlayır...

Bəxtiyar Vahabzadə "Anamın kitabı" şeirində Vətənin ayrı-ayrı müstəmləkəçi dövlətləri arasında bölüşdürülmək cəhdləri, torpağının qiymətini bilən yadellilərin var-dövlətini talan etməsini, övladlarının fərsizliyi üzündən sərvətlərinin ələ keçirmələrini şair dahi rus yazarı Krılovun təmsil qəhrəmanlarının yaşantıları ilə sanki eyniləşdirir: *"Xərçəng - arabanı çəkir quruya, Ördək - buludlara, Kor balıq - suya... Araba tərpənmir ancaq yerindən, Sənin timsalınmış bu hal, ey Vətən! Talandı bir zaman dövlətin, varın... Varlıykən əl açdın sən özgələrə. Yadlar yox, Səni də öz övladların Çəkdi üç tərəfə, çəkdi üç yerə. Ana ümid oldu doğma övlada, Övlad bel bağladı yadlara yalnız. Övlad bilmədi ki, qonşuya, yada, Göz dikən qalacaq şamsız, çıraqsız..."*

"Köhnə bayatı" şeirində Bəxtiyar Vahabzadə bədii məqsədi oxuculara hədəflədiyi hadisə, olayları çatdırmaq, dünyanın güclü dövləti sayılan Amerikanın mədəniyyət gətirmək adı ilə Şərq xalqlarına qarşı yürütdüyü ayrı-seçkilik, müstəmləkəçilik, işğalçılıq siyasətinin iç üzünü göstərmək, imperializmin mahiyyətini açmaqdır. Sovet imperiyasının qılıncının dalının da, qabağının da kəsdiyi dönəmlərdə bu amaca ulaşmaq üçün çox böyük cəsarət tələb edirdi:

Mədəniyyət pərdəsilə əməlini danırsan.
Başımıza yağdırdığın bombaları
Bəlkə çiçək dəstələri sanırsan?
Bir millətin özgəsinə qul olmağı
Nə zamandan mədəniyyət sayılmış?
Bil ki, ərəb - o əzilən, məhkum ərəb deyil,
artıq o da çoxdan ayılmış!..

İdrakının üfüqləri Aristotel, Sokrat, Əl-Qəzali, Mövlana Cəlaləddin Ruminin fikir dünyasından işıq alan söz ustadı "Ağlayan adama heç zaman gülməyin. Amma bəzən gülən adamlara ağlayın!" önərisində bulunurdu. Axı, müdrik şairin bu misralarındakı fikir yükü də doğma xalqının müdrik fikirlər boxçasından: *"Əziziyəm, gülə naz, Bülbül eylər gülə naz, Dünya bir qəmxanadır, Ağlayan çox, gülən az... "* bayatısından gəlirdi... *Nitşedən və neçə-neçə fikir nəhənglərindən gələn s*öz və fikirlərdən güc alıb bəhrələnən Bəxtiyar Vahabzadə çiyinlərində həyatı gözəlləşdirmək, xalqının mənəvi ağrılarını yüngüllədirmək, milli problemlərin həllinə çalışmaq, ana dilini qoruyub gələcək nəsillərə ötürmək missiyasını daşıyırdı. Doğrudan da, əsl vətəndaşın doğulduğu, ata-babasının dəfn olunduğu torpağa, anasının beşiyində layla oxuduğu ocağa, övladının iməklədiyi, ilk addımlarını atdığı Uluyurda duyduğu sevgi heç nə ilə müqayisə oluna, ölçülə bilməz. Bu gün Azərbaycanda bəzi müəssisələr xarici dil bilməyənlərə iş vermir, reklam çarxlarında, obyektlərin adının göstərildiyi lövhələrdə adların ana dilinə məxsus sözlərlə deyil, əcnəbi dillərdə, özəlliklə də ingilis dilində olan kəlmələrlə təqdiminə üstünlük verilməsi, küçə və meydanlarda, bəzi tədbirlərdə ingilis dilində danışılması milli dərdə çevrilib. Şair bu problemləri hələ 1967-ci ildə qələmə aldığı "Riyakar" şeirində bütün çılpaqlığı ilə göstərmiş, öz ana dilini bəyənməyənləri, "özgə boşqabını yalayanları", ikiüzlü, riyakar məmurları kəskin tənqid etmiş, onlara Vətən çörəyini haram bilmişdir:

Vətən dilinə lazımsız deyən,
Bunu görən doğrudanmı vətəni sevir?
Vətən üçün heç bir qeyrət göstərməyən oğul
Özü və başqaları üçün yükdür;
Bu dildə dərs verməklə qazandığınız pul!
Yediyiniz çörək sizə haramdır! (1, 33)

"Riyakar" sözü, iki üzlü, saxtakar, özünü olduğu kimi deyil, masqalanaraq başqa cür, mahiyyətindən, xislətindən daha yaxşı adam kimi göstərən, yaxud ikiüzlü davranışlar sərgiləyən insan mənasında işlənir. Başqa sözlə, Bəxtiyar Vahabzadənin eyniadlı şeirinin qəhrəmanı riyakar da əsl niyyətlərini

gizlədərək, saxta davranış nümayiş etdirir. Arxada "filankəs alçaqdır" dediyi, üz-üzə gələndə isə həmin "alçağın" üzünə irişən, açıqca döyüşə girə bilməyib imzasız məktublar yazmağa girişən, özgəsinə gizli-gizli, xəlvəti quyu qazan, öz gözündə tiri seçməyib özgəsinin gözündə qıl axtaran saxtakarları öldürücü satira atəşinə tutur və inqilab edərək zülmü devirən, zamanın min qəzasına uymayan, mərdi-mərdana döyüşə atılan və haqsızı öz cəzasınn çatdıran mərd kişilərin bu alçaqların, yaltaqların ucbatından ruhən xırpalanmasına, mənən əzab çəkməsinə dözə bilmir. Bu kimi halları cəmiyyəti içəridən çürüdən mikrob kimi görür. İnqilabı zamanın, əsrin səsi, kişilik nümunəsi, mərdliyi şərəf, şan sanaraq arxadan vurmağı qadağan edən güclü bir hərəkat kimi tərənnüm edən Bəxtiyar Vahabzadə bir dana bütün naxırı korlayır, bir çürük on safı çürüdür, ata sözünə üz tutur:

– Bəs onda? Bilirəm, nə soracaqsan.
Nədir bu yaltaqlıq, ikiüzlülük?
Əfsus! Öz yoluyla gedirkən zaman
On safı korlayır bəzən bir çürük...

Şair yazır, hədəfə aldığı məsələlərə açıqlıq gətirir, oxucuya düşündürücü suallar ünvanlayır: *"Oğrudur filan, filankəs", "Onların gözü tox deyil", bəs hamıdan yayınıb gizli-gizli özgəyə gor qazmaq oğurluq deyil? Söylə, öz dəsti-xəttinlə sən "k" yazanda öz-özündən, Kişilik sözündən utanmadınmı?"* Suallarla oxucunu da düşündürən şair belə məqamlarda elin hikmət xəzinəsinə üz tutaraq dürr çıxarır, həmin qiymətli söz incilərinə, xalqın mənəvi dəyərlərinə, keçmişinə, tarixinə, qələmin yazdıqlarına ehtiram göstərməyin vacibliyini ürək ağrısı ilə misralara köçürürdü:

Düşün babaları: müdrik sözləri
Yurdun dövlətidir, elin varıdır.
Yalçın qayalarda qılınc izləri
Düşmənə imzalı məktublarıdır...

Qələm gələcəyə yol göstərəndir,
O ki, yaranmayıb böhtanlar üçün,
Qələm könüllərdən çiçək dərəndir,
Ona yaraşarmı gor qazmaq bu gün?.. (1, 34)

"Mədəni" oğrular da şairin əsas tənqid hədəflərindəndir. O, Vicdan oğrusuna, qəlb oğrusuna... haqqa qılınc çəkib vicdana qıyanlara əlhəzər, deyir. İnsanların üzünə dik-dik baxıb bir imza üçün onları on gün, iyirmi gün süründürən vəzifə sahiblərinin vicdansızlığını, özündən daha yüksək vəzifəlinin qarşısında büzülüb cücəyə dönməsini qamçılayır:

Taleyin asılıb tək bircə qoldan –
Sən bir imzadakı gücə bax, gücə,
Bir də görürsən ki, dağ boyda insan
Bir cırtdan önündə cücədir, cücə...(1, 33)

O, həm də maarifləndirmək, soydaşlarının gözünü açmaq, ayıltmaq, "yatanları oyatmaq" missiyasını yerinə yetirir. Dostu Yusifə üz tutub yazdığı şeirdə: *"Ya səndə, ya məndə qüdrət olaydı, Onların içini açа biləydik",* yəni gerçəkləri, həqiqətləri xalqa çatdıra biləydik..." – deyir...

"Köklər... Budaqlar" kitabında yer alan "Latın dili" şeirinin də içəriyində mövcud rejimin bəzi pərdəarxası gizlinlərinə qarşı kəskin etiraz nidaları var. Bu əsərdə də sovetizmin üzdə humanizm donuna bürünmüş siyasəti tənqid olunur, hakim xalq, hakim partiya, hakim dil tendensiyası satira atəşinə tutulurdu. Bu tendensiya Bəxtiyar Vahabzadəyə faşist Almaniyasının Ali irq siyasətindən və Adol Hitlerin "Mayn kamp" əsərindən tanış idi. Ədalətsiz müharibə yüz minlərlə soydaşını hərb

maşınında üyütmüşdü. Almaniyanı Barokko ölkəsindən baraklar ölkəsinə çevirən, Nordik irqdən, yəni alman irqindən başqa digər irqi tanımaq istəməyən və onların irqindən olmayan bütün dünya xalqlarının məhv edilməsini və ya özlərinin köləsinə çevrilməsini gözə alan alman totalitar rejiminin antihumanist siyasətinin mahiyyətini, **Qərb sivilizasiyasının fəlakətə uğradığını** II Dünya və Böyük Vətən müharibələrinin törətdiyi sonsuz faciələr fonunda anlayırdı.

Məlum olduğu kimi, Sovetlər dönəmində rəsmi olaraq qadağan olunmasa da, türk xalqlarının dillərinin işlənməsi arxa plana keçirilir, rus dilinin yayğınlaşmasına rəvac verilirdi, B.Vahabzadənin təbirincə desək, Azərbaycan türkcəsi "qapı dalında" saxlanırdı. Bu haqsızlığa dözə bilməyən və ana dilinin sıxışdırılması haqqında o zaman danışmaq, açıq şəkildə yazmaq qadağan olunsa da, açıq fikirləiri ilə Sovet imperatorluğuna vurduğu zərbələrdən ötrü hər zaman nəzarətdə saxlanan Bəxtiyar Vahabzadə təzyiq rejimindən qorxmadan, vətənində vətənsizləşən insanların gözünü açmaq, mənfur işğalçıların qədim bir xalqın dilini, tarixini və mədəniyyətini yox etmək siyasətinə qarşı çıxaraq məhz bu mövzuda "Latın dili" şeirini yazır. Şeirdə o, məharətlə bədii üsulların imkanlarından istifadə edərək oxucularına yönəltdiyi suallarla onları dərindən düşünməyə sövq edirdi. Özünü də ciddi şəkildə narahat edən, yuxularını qaçıran "yaşayan dil" və "ölü dil" məsələsini ədəbi müzakirə meydanına çıxarırdı. Dünyada bir xalq olaraq artıq var olmasa da, əsas məsələ olan, yəni ölü xalqın diri qalan dili ilə hələ diri olan xalqın ölümə məhkum edilmiş dilini müqayisə edirdi. Şeirdə Bəxtiyar Vahabzadənin vicdanı ağrıyır, ruhu sızlayır və belə düşünür ki, axı, necə olur latın dili hər sözündə dünya qədər yük daşıyır? Halbuki bu dildə nə ana, nə torpaq, nə də Vətən deyən heç kimsə yoxdur. Dünyada "latın" adında bir millət də yoxdur, əsrlərdir tarix səhnəsindən silinmişdir. Amma nə hikmətdirsə, ölü bir millətin dili hələ də yaşayır. Şair döyüşlərdə qələbə qazanaraq şəhid olan igidə bənzətdiyi bu ölü xalqın diri qalmış dilinin sabah milli ləyaqətini itirməkdə olan bizləri üstələyəcəyinə, hətta ulduzlara çatacağına şübhə etmir... Düşüncələrə dalır, içindən bir sual baş qaldırır: - Vətəni və milləti yoxkən özü var olan, elm adamlarının, həkimlərin termin dilinə çevrilən bir dil uzun əsrlər boyunca necə yaşarı olur?..

Təbii, *"şeirdə şairin məqsədi latın dilinin mükəmməlliyini göstərmək deyil, bu dili Azərbaycan dili üçün misal gətirməkdir. Qədim Roma imperiyasının dili olan, xalqı mövcud olmayan bu dilin yenə də öz mükəmməlliyini saxlaması, dil kimi ölüb getdikdən sonra belə, müasir dünya dillərində izinin, təsirinin hələ saxlamasını bir daha xatırlatmaqdır..."* (2)

Təqvimlərdəki ayların, illərin, çiçəklərin, böcəklərin, küləklərin, səmavi cisimlərin adları alimlərin ölü dedikləri bu dildə yazılırsa, o zaman bu dil ölülərin deyil, dirilərin dilidir... Atlantik okeanı sahilində baş verən bir yığıncaqda kürsüdə ağzı köpüklənə-köpüklənə xarici dildə nitq söyləyən bir natiq "Mən azadam, mən xoşbəxtəm!" deyirsə, biz nəyə inanaq? Qulağamı, ya gözəmi? Əmələmi, ya sözəmi?

"Mən azadam, müstəqiləm" sözlərini
Öz dilində deyə bilmək iznin yoxsa,
De kim sənə azad deyər?..
Söylə necə azadsan ki,
Komalarda dustaq olub ana dilin.
Böyük-böyük məclislərdən itirilib ilim-ilim ...
İclaslarda bir kəlməsi, sözü yoxdur.
Bəlkə... Onun böyük, rəsmi məclislərə
Çıxmaq üçün sözü yoxdur?
Söylə, bəlkə bic doğulub?
Atasından yox xəbəri?
Bəlkə bu dil çox kasıbdır?
Qucağına sığışmayır əsrin böyük fikirləri?
Sən dərdə bax, Vətən də var,

Millət də var, ancaq onun dili yoxdur.
Elə bil ki, ayna kimi, hamar, şəffaf royalın var,
dili yoxdur… (3, 8)

Milli duyğuların daşıyıcısı olan şairin haqlı sualları qarşısında türkcəni qapı dalında saxlayan məmurlar çaşıb qalırlar. Adını açıq-aşkar söyləməsə də, şeirin misralarındakı sətiraltı mənaların fərqinə varan oxucu çox yaxşı anlayır ki, bu misralarda Azərbaycan türkcəsinin gerçək durumundan söz açılır:

İndi söylə: - Hansı dilə ölü deyək:
-Vətən varkən, millət varkən,
Kiçik, yoxsul komalarda dustaq olan bir diləmi?
Yoxsa uzun əsrlərdən keçib gələn
Xalqı ölən, özü qalan bir diləmi? (3, 8)

Şair bununla həm Quzeydə rus dilinin sıxışdırdığı Ana dilinin, həm də Güney Azərbaycan türklərini və onların qadağan olunmuş dilini - Azərbaycan türkcəsini nəzərdə tutur... Və şair digər əsərlərində, "Riyakar", "Efirdən səslər", böyük əməlpərvər, böyük vətəndaş Cəlil Məmmədquluzadənin əziz xatirəsinə ithaf etdiyi - "Anamın kitabı" şeirlərində intensiv olaraq Ana dili məsələsini gündəmə gətirir.
Bəxtiyar Vahabzadə sözün qüdrətini heç vaxt gözardı etmir, sözə böyük ehtiramla yanaşır, mənəm-mənəmlik psixologiyasını mənasız sayır... Göstərir ki, Hitler də bir vaxtlar "Mən, mən!" - deyə-deyə bəşəriyyəti qurd kimi daladı. O, özgələrin hesabına öz millətini böyütmək istədi, ancaq nəticədə o, böyümədi, əksinə, kiçildi... İndi silahları söz əvəz edib, elə boyunlar da söz ilə qarmağa düşür. Bonn gecə-gündüz böhtanlar yağdırır və haqsızı haqlı çıxarmağa çalışır. Şair dərin təəssüf hissi keçirir ki:

Namərdlər ağzında haqq çilik-çilik
Doğranıb səpildi efirə yerdən...
Böhtanlar yurdunda mərdlik, kişilik
Baxır adamlara abidələrdən...

Ədibin doğuşdan sonra qoyulan adlardan sonra, çox vaxt peşiman olanlara yanar bir ürəklə yanaşması da çox təsirlidir. Şair deyir ki, bəzən cahilin adı Arif, ya Loğman olur, bu, tərs mütənasibdir...
Bəxtiyar Vahabzadə keçmişi, gəldiyimiz yeri, keçdiyimiz dolayları unutmamağa çağırır öz soydaşlarını... *"Dağılmaz ki, bu dünya, hərdən ata da minsək, hərdən arxaya baxıb babamızı düşünsək..."* ismarışı ibrətamizdir...
Haqqı yeyilənlərə, hüquqları tapdalanıb pozulanlara seyrçi qalmamağı vətəndaşlıq görəvi sayan şairin *"Bu gün yeyilirsə birinin haqqı, Sabah da sənin yeyiləcəkdir"* uyarısı onun qəlbinin ağrısını bəyan edir və ittiham xarakterli: "*De görək, sən necə baxa bilirsən gözünün önündə tapdalanan haqqa?"* sualı düz hədəfə tuşlanır:
Nədən alışmayır bədənin, nədən,
Haqsız məşəl tutub o yanan haqqa?
Necə insan deyim, necə mən sənə?
Qoy övlad deməsin bu Vətən sənə!..

Yaxud dalaqeydlik, biganəlik kimi bəlaya yoluxanların halına *"Bəzən duya bilmirik bizimlə illər boyu bir binada yaşayan, eyni dərdi daşıyan qonşumuzun ürəyindən keçəni"* misralarında acıması da ibrətamizdir.

"Arxadan vurmazdı düşməni düşmən. Həm ölən kişiydi, həm də öldürən... Zalım öz gözündə tiri seçməyir, Özgə gözündəki qıldan danışır, başqa sözlə, öz gözündə tiri seçməyib özgəsinin gözündəki qıl axtaran, Qan tökmək qanunla yasaq olandan, Qanları qaraltmaq dəb olub yaman!.. On safi korlayır bəzən bir çürük... Ümid arzuların qızıl naxşıdır. Deyərlər, yeməkdən ümid yaxşıdır" kimi örnəklərdə isə atalar sözlərindən mənaya uyğun olaraq nə qədər dəqiqliklə istifadə etmək bacarığı heyrət doğurur…

Bəxtiyar Vahabzadə beynəlxalq mövzularda qələmə aldığı bəzi şeirlərində konkret bir ölkənin və ya xalqın problemlərini dilə gətirmir, ümumiyyətlə, dünyada baş verən oxşar hadisələri, bir-birini təkrarlayan meylləri ümumiləşdirərək bəşəriyyəti düşündürən aktual məsələlər səviyyəsinə qaldırır. Beynəlxalq mövzuda yazdığı şeirlərdə o, dünyada baş verən ən mürəkkəb hadisələri yalnız bir məmləkətin ağrı-acıları kimi deyil, öz məmləkətinin real gerçəklikləri ilə də üzvü surətdə əlaqələndirir... Bu baxımdan "Mən hazıram!.." şeiri daha xarakterikdir. Əsərin poetik mətnində bir sıra düşündürücü məqamlar nəzərdən qaçmır. Şeirdə yalnız bir şəxsin – Amerikanın Vyetnamda törətdiyi müharibə cinayətlərinə etiraz olaraq, BMT-nin binası qarşısında özünü yandıran Rocer Laportun xatirəsi, faciəli ölümü anılsa da, əslində qəhrəmanın dilindən qələmə alınan fikirlər dünyanın ayrı-ayrı xalqlarının öz azadlığına və milli istiqlalına qovuşmaq istəyinin haqq işi olduğunu ifadə edir. Obrazın mülahizə və fikirləri sətiraltı mənalarla şairin də estetik idealını əks etdirir:

"Hərbi bilet nə deməkdir?"
Mən bilirəm mənasını bu biletin.
Hər millətin, hər kəsin
Şərəfidir öz yurdunun istiqlalı...
Doğulduğum gündən mənə
Çörək verən, həyat verən, qanad verən
Bu torpağa borcluyam mən, unutmaram.
Vətənimin öz haqqını qorumağa
mən də varam! (1, 96)

Şair əsərin qəhrəmanı Rocer Laportu danışdırır. Lakin bu fikirlər, qəhrəmanının başına gətirilənlər əslində Bəxtiyar Vahabzadənin öz baxış və yanaşmasının əks-sədasıdır. "Mən hazıram!.." şeirinin başlanğıcında "lirik Mən"in sərgilədiyi vətənpərvərlik hissləri, bir ölkənin və xalqın heysiyyətini savunmaq tendensiyası təbiidir və inandırıcı təsir bağışlayır. Və belə mükalimələrdə təəccüb doğuran, qeyri-adi nüans görünmür. Ancaq Laport Rocerin intihar etməsi təkcə öz ölkəsinin deyil, irqindən, dinindən, dilindən, ölkəsindən asılı olmayaraq, dünyanın bütün xalqlarının, millətlərinin azad, hürr yaşamaq istəyində olduğunun təsdiqidir. O, Amerikanın yürütdüyü işğalçı siyasətin əleyhinə çıxaraq bu ölkənin başqalarının haqqını tapdadığını pisləyir:

Ancaq deyin, haqqı varmı Vətənimin
Qılıncını qamçı kimi dolandırıb sola-sağa,
Bir bəlalı məmləkətin Öz haqqını tapdamağa?..
Azadlığı bayraq edib öz əlində, Ancaq daim əməlində
Azadlığı boğan ölkəm,
Nə istəyir bizdən heç nə istəməyən,
Azadlığa "haqqım" deyən bir ölkədən?
Əlimdəki hərbi bilet mənə deyir düşünmə sən,
Əvəzinə var düşünən! Deyir, bütün Şərq oyanmış,
Sənin borcun yatırmaqdır onu ancaq!

Yox! Zənciri qıran bir xalq,
O zənciri, vallah, bir də biləyinə taxmayacaq! (1, 98)

Bu sətirlərdən beynəlmiləlçilik hissləri ilə yanaşı, şairin milli məfkurəsi, təəssübkeşlik hissləri də boy verir. Belə bir düşüncəni qərbli olan şəxsin gündəmə gətirməsi inandırıcı görünmür. Beləliklə, bu cəhd mətnaltı yazıçı manerasının daha bir səciyyəvi əlamətini aydın büruzə verir: sənətkar demək istədiyi ictimai mətləbi obrazın öz diliylə verməyə çalışır, ustalıqla qan iyi gələn məsuliyyətdən yaxasını kənara çəkməyə nail olur. Doğrudur, hadisə və situasiyanın özü şairi narahat edən bir çox ictimai məsələləri gündəmə gətirməyə əlverişli zəmin hazırlayır. Okeanın o tayında müstəmləkəçilik siyasətinə etiraz aktı olan bu faktdan yetərincə yararlanmaq şeirdə nəzərə çarpacaq dərəcədə özünü göstərməkdədir. Qərblinin Asiyanın halına acıması, orada axıdılan günahsız insan qanlarına görə xəcalət çəkməsi, əlbəttə, təqdir olunası haldır. Şair fədakar qərblinin şəxsində öz düşüncələrini, narahatlıq doğuran bir çox ictimai mətləbləri dilə gətirir, bunu məhz obrazın diliylə-xüsusi üsul və vasitə ilə ifadə etməyə nail olur. Şeirin poetik strukturu elə düşünülüb ki, onu şərti olaraq iki hissəyə ayırıb təhlil etmək daha məqsədəuyğun görünür. I hissədə Rocer Laportun düşüncələri Vyetnamda aparılan müharibənin təzadları barədə ümumi qənaətləri ilə səciyyəvilik qazanırsa, II hissədə baş verən olaylara rəğmən, "azadlıq ölkəsi"ndə yerləşən BMT-nin qarşısında özünü benzinlə yandıraraq bu aksiyaya qəti ehtirazını bildirən qəhrəmanın faciəli ölümü yalnız onun mənsub olduğu ölkəni düşündürüb-daşındırmır, həmçinin dünyanın ayrı-ayrı ölkələrində və qitələrində belə halların mövcudluğuna da diqqət çəkir. Maraq doğuran mühüm cəhətlərdən biri də budur ki, şairin burada yanmağı sadəcə olaraq bir fiziki intihar faktından daha artıq daxili yanğı, ayrı-ayrı xalq və millətlərin azadlığına qəsd edənlərə etiraz kimi mənalandırması şeirin hissi-emosional təsir gücünü daha da artırır, ictimai və fərdin bəşəri ideallarla bağlı düşüncələrini əks etdirir:

BMT-nin divarları titrəmirmi
Yurdsuz qalan qocaların ah səsindən,
Körpələrin naləsindən?
BMT-nin qanununda
Yazılıbmı bu dəhşətlər, bu vəhşətlər,
Görünməmiş cinayətlər?
Conson yenə hökm verir harın-harın
Od içində yanır böyük bir məmləkət... (1, 101)

Misralar arasındakı bu fikir və ideyalar yalnız bir ölkəyə və ya dövlətə şamil oluna bilməz, bu, bütün dünyanın, bəşəriyyətin gələcək taleyi üçün çalınan həyəcan təbilidir. Əsərdə cavabdehlik, məsuliyyət poetik mühakimənin əsas predmetidir. "Mən hazıram!.. şeirini Bəxtiyar Vahabzadə yarım əsr öncə yazıb. Lakin İraq, Suriya, Livan, Əfqanıstan, Fələstin, İran, hətta İsrail, Pakistan və digər şərq ölkələrində bu gün də qərb dünyasının ikili standartı, məqsədli siyasəti nəticəsində müharibə ocaqları yaranıb. *"Şair problemi Qarabağın timsalında öz ölkəsinin də yaşadığından, milyon yarımdan çox insanın öz yurd-yuvasından, ata-baba ocağından, topdağıtmaz ev-eşiyindən perik düşərək qaçqın və köçkünə çevrilməsindən, yüz minlərlə günahsız uşaq, qadın və qocanın acımasızcasına məhv edilməsindən öləsiyə üzgündür. "Minsk üçlüyü" adı altında fəaliyyət göstərən ATƏT ölkələri, MDB məkanında olan Dnestryanı, Osetiya, Abxaziya, Krım və Rusiya-Ukrayna savaşı gözdən iraq tutulur, BMT isə öz susqunluq missiyasını davam etdirir..." (4, 100)* Məhz bu baxımdan Bəxtiyar Vahabzadənin həmin şeirləri aktuallığını bu gün də itirməyib

və itirməyəcək...

Q AYNAQLAR:

1. Vahabzadə B. Köklər, budaqlar. / B. Vabahzadə.– Bakı: Gənclik, –1968. – 131 s.
2. Şabizadə Vüsal. B.Vahabzadə yaradıcılığında ana dilimizin mövqeyi http://zim.az/sherqinsesi/550-bvahabzad-yaradclnda -ana-dilimizin-mvqeyi.html
3. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərrleri. İki cilddə. II c., (Poemalar).Bakı: Öndər nəşriyyatı. 2004.
4. Gözəl Azər qızı Bayramova. Sovet dövrü azərbaycan ədəbiyyatında mətnaltı yazıçı manerası (Rəsul Rza və Bəxtiyar Vahabzadənin yaradıcılığı əsasında),. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. (Əlyazması hüququn

AN İNNOVATİVE POET BASED ON NATİONAL TRADİTİONS

MİLLİ ƏNƏNƏLƏRƏ SÖYKƏNƏN NOVATOR ŞAİR

Şöhrət Nüsrət qızı Məmmədova
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının müdiri
Filologiya üzrə fəlsəfə doktor, dosent,

Xülasə
Bütün yaradıcılığı boyu Azərbaycan xalqının, onun dərin köklərə bağlı olan ədəbiyyatının taleyini, nüfuzunu öz vicdanı, öz mənliyi kimi qoruyan şair Bəxtiyar Vahabzadə müasir Azərbaycan ədəbiyyatının ən mütəfəkkir sənətkarıdır.
Bəxtiyar Vahabzadənin zəngin və əhatəli yaradıcılıq yolu vardır. Sənətkarın yaradıcılığında lirik, epik və drammatik əsərlərinin hamısında bir leytmotiv xarakterikdir: mümkün qədər insanın iç dünyasına, daxili mənəvi aləminə baş vuraraq onun görünməyən, qapalı tərəflərini kəşf etmək.
Şairin öz xalqının taleyinə bağlılığı, vətənimizin ən ağır günlərində ona dayaq olması sənətkarın poeziyasında öz əksini tapmışdır. Vahabzadə poeziyası həm mövzu, həm də mündəricə etibarı ilə çoxşaxəli, zəngin və dolğundur. Bəxtiyar çox sadə mətləbləri mənalandıraraq oxucusuna özünəməxsus sənət dili ilə nəcib mənəvi və əxlaqi keyfiyyətlər, yeni fikirlər, dərin hisslər aşılayır. oxucusu üçün . Yüksək mənəvi, əxlaqi duyğuların təsdiqi, poetik mündəricə Bəxtiyar Vahabzadə poeziyasının ən başlıca cəhətidir.
Şifahi xalq şeiri ənənələri və və klassik ədəbiyyata bağlılıq Bəxtiyar Vahabzadə poeziyasının sənətkarlıq cəhətdən kamilləşməsində mühüm rol oynamışdır.
Açar söz: Xalq, vətəndaş, ana dili, soykök, milli, istiqlal, ənənə, novator, poetik, klassik

Abstract
Throughout his creative career, the poet Bakhtiyar Vahabzadeh, who protected the fate and reputation of the Azerbaijani people and their deeply rooted literature as his own conscience and self, is the most thoughtful artist of modern Azerbaijani literature.
Bakhtiyar Vahabzadeh has a rich and comprehensive creative path. In the artist's creative work, lyrical, epic, and dramatic works, one leitmotif is characteristic: to delve as much as possible into the inner world, the inner spiritual world of a person, and discover his invisible, closed sides.
The poet's devotion to the fate of his people, his support for them in the most difficult days of our homeland, is reflected in the artist's poetry. Vahabzade's poetry is multifaceted, rich and full in terms of both subject and content. Bakhtiyar, giving meaning to very simple issues, instills noble spiritual and moral qualities, new ideas, and deep feelings in his reader with his unique artistic language. for his reader. Confirmation of high spiritual, moral feelings, poetic content are the most important features of Bakhtiyar Vahabzade's poetry.
The traditions of oral folk poetry and attachment to classical literature played an important role in the artistic perfection of Bakhtiyar Vahabzade's poetry.
Keywords: independence, people, citizen, native language, national, independence ancestry, tradition, innovative, poetic, classic

Giriş. Bəxtiyar Vahabzadə Azərbaycanın milli kələnəklərə söykənən istiqlal şairidir.Bu keyfiyyət şairin həm dilində, həm yazı, həm də düşüncə tərzində, həm də məzmununda aydın gözə çarpan məziyyətlərdəndir. Onun xalqımızın milli oyanışına xidmət edən əsərlərində fəlsəfi məzmun, vətənpərvərlik, azadlıq motivləri aparıcı yer tutur. Müasir ədəbiyyatımızın yaradıcılarından olan

sənətkarın lirik şeir və poemaları, pyesləri, elmi əsərləri, publisistikası ona böyük şöhrət qazandırmışdır.

B.Vahabzadənin «Mənim dostlarım» adlı ilk kitabı 1949-cu ildə nəşr olunub. O, öz şeirlərində vətəndaşlıq duyğularını ön plana çəkir, oxucusunu mənalı yaşamağa, Vətən, torpaq, cəmiyyət qarşısında mənəvi borcunu, məsuliyyətini unutmamağa çağırır. Şairin vətəndaşlıq poeziyasının əsasında soykökünə bağlı, milli və ümumbəşəri mənəvi dəyərlərə yiyələnmiş, azadlıq mücadiləsi üçün səfərbər olan fəal insan durur.

Bəxtiyar Vahabzədə poeziyası uşaq mütailəsində. Bəxtiyar Vahabzədə Vətən, məktəb, tərbiyə mövzusunda əsərləri müasir uşaqların mütaliəsində mühüm yer tutur. «İlk cığır», «Kitab»,«Bu dil», «Çanta», «Məktəb yolları», «Məktəbli qız», «Müəllim», «Babası kimi» şeirlərində məktəbə, müəllimə məhəbbət, elmə, biliyə çağırış motivləri bədii əksini tapmışdır. **«İlk cığır»** şeirində səhər-səhər məktəbə gedən uşaqların qarın üstündə açdığı ilk cığır insanın gələcək həyat yollarında qazanacağı böyük uğurların təməli kimi mənalandırılır:

Get, ay balam, qəlbini gələcəyə bağla sən,
Uşaqlıq həyatının ən qayğısız çağıdır.
Açılmış cığırlarla bu gün dərsə gedirsən,
Sabah sən açacaqsan bu yollarda ilk cığır. (8, s.147)

«Kitab» şeiri də dərin tərbiyəvi məzmuna malikdir. Şairin kitabın insan həyatında rolu barədə düşüncələri balaca oxucuya yol göstərir:

Kitab dostu, sirdaşıdır,
Bu dünyada hər bir kəsin.
Elə insan varmı görən,
Çevirdiyi vərəqlərdən
Qəlbi əsib titrəməsin. (8, s.156)

«Məktəbli qız» şeirində məktəbli geyimində dərsə yollanan uşaqlar əsərdə səf düzülüb göydə uçan durna qatarına bənzədilir. Əsərin qəhrəmanı H.Cavidin «Qız məktəbində» şeirindəki saf mənəviyyatlı məktəbli qızı xatırladır. Şair oxucunu təvazökarlığa, geyimdə, davranışda sadəliyə, zahiri bər-bəzəyə uymamağa, mənalı həyata səsləyir:

Məktəbli qız, əynindəki
Nə şifondur, nə gülməxmər.
Lakin gözəl görünürsən
Bu paltarda sən nə qədər! (8, s.159)

«Müəllim» şeirində ömrünü gənc nəslin təlim-tərbiyəsi yolunda fəda edən müəllimin işıqlı obrazı yaradılmışdır. Şair müəllim əməyinin şərəfindən, bu adı daşıyan insanın nurlu simasından, uca şəxsiyyətindən, ləyaqətindən məhəbbətlə söz açır:

Müəllim! Düşüncə güllərimizi
Əqlilə suvaran bir bağban oldu..
Endirdi yerlərə atamız bizi,
Müəllim – göylərə qaldıran oldu. (8, s.161)

Bəxtiyar Vahabzədə poziyasında ana dili mövzusu. "Ana dilinin təəssübkeşi, doğma dilini böyük məhəbbətlə sevən B.Vahabzadə öz yaradıcılığında bu mövzuya dönə-dönə müraciət etmiş, dilimizin müqəddəsliyini, əvəzedilməzliyini yüksək sənətkarlıqla vəsf etmişdir. Şair ana dilinə biganə yanaşan, bu dildə danışmağı özünə ar bilən ədabazları nankor adlandırır, doğma dilini qoruyub saxlamağın hər bir insan üçün vətəndaşlıq borcu olduğunu bir daha xatırladır".(4.s,392) Şairin fikrincə, ana dili əslində milli düşüncə, milli mənəviyyat, əqidə məsələsidir. Ana dili ağsaqqal babaların, ağbirçək nənələrin bizə miras qoyduğu misilsiz xəzinədir. Milli dili bilməyən insan milli ruhdan, milli mənafe duyğusundan da məhrumdur:

Dil açanda ilk dəfə «ana» söyləyirik biz
«Ana dili» adlanır bizim ilk dərsliyimiz.

İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə. (8, s.101)
Yaradıcılığının ilk dövrünün məhsulu olan bu şeirdə müəllif ana dilini "millətin ruhu, eşqi, canı" kimi dəyərləndirir, onun "babaların əqlindən, kamalından" süzülüb gəldiyini, "xalqın ilk nəfəsindən" yarandığını qeyd edir. Şair həmçinin ana dilini "əcdadımızın bizə qoyub getdiyi" "Ən qiymətli miras", "sərvət" hesab edir. Biz insanların ən böyük vəzifəsi isə bu dili göz bəbəyi kimi qoruyaraq və gələcək nəsillərə hədiyyə verməkdə görür..
Bu dil- bizim ruhumuz, eşqimiz, canımızdır.
Bu dil- bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil - tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil- əcdadımızın bizə miras verdiyi
Qiymətli xəzinədir… onu gözlərimiztək
Qoruyub, nəsillərə biz də hədiyyə verək. (10.s,101)
Milli düşüncənin formalşmasında ana dilinin rolunu çox yüksəkdə tutan şair
Mənim ana dilim- mənim kimliyim
Pasportum, özümə öz hakimliyinin.
Mənim mənliyimin füsunkarlığı,
Danışan kamalı, aglıdır dilim.
Millətin varlığı, yurdun varlığı,
Sənin varlığına bağlıdır dilim. (14.s,103)
Şairin ana dilini bu qədər yüksək dəyər verməsi, "Mənliyinin" füsunkarlığı adlandırması sənətkarın milli qürur hissinin yüksəkliyindən xəbər verir.
Şair doğma dilinə xor baxan, əcnəbi dillərdə danışmağı müasirlik, mədəniyyət hesab edib, öz dilində danışmağı bacarmayanları nifrətlə damğalayır:
Ey öz doğma dilində danışmağı ar bilən
Bunu iftixar bilən fasonlu ədabazlar, ruhunuzu oxşamaz qoşmalar, telli sazlar.
Bunlar qoy mənim olsun
Ancaq vətən çörəyi,
Bir də ana ürəyi
Sizlərə qənim olsun. (13.s,115)
Bəxtiyar Vahabzadə bütün dillərin öyrənilməsini vacib sayırdı amma doğma ana dilini bəyənməyib rus, ingiliscə danışanları millətini, xalqını təhlükəyə atan insanlar olaraq görür və onlara nifrətini gizlədə bilmirdi.Dilinə biganə qalan insanlara qarşı nifrətlə deyirdi:
Bir zaman ruscaydı bütün reklamlar.
İndi ingiliscə dürtülür gözə.
İtin də dilinə hörmətimiz var,
Təkcə öz dilimiz yaramır bizə.(13.s,128)
"Özgə" adlanan şeirində isə şair dil məsələsinə başqa prizmadan yanaşır. Müstəqil dövlətin pulunu yeyib, rahat həyat yaşayan, istirahət mərkəzlərində dincələn "kübar"ailələrin Azərbaycan dilini bəyənməyib evdə rus dilində danışıb, məktəbə ingilis dilndə getməyin millətə təhqir sayır. Müstəqil ölkənin dilinə bu qədər hörmətsiz yanaşılmasına qarşı çıxır və çəkinmədən deyir:
Kübar balaları iki dil bilir:
Məktəbdə ingilis, evdə rus dili.
Sən demə heç kəsə gərək deyilmiş
Müstəqil ölkədə ölkənin dili (13,s,308)
Hələ tələbəlik illərindən şairin ən böyük etirazı və üsyanı ana dilimizin qapılar dalında ağlar qalması, hakim rus dilinin təcavüzünə məhkumluyu idi. Ədib 1942-1953-cü illər arasında yazdığı şeirlərin

böyük bir qismini 1988-ci ildə yazdığı " İki qorxu" poemasında dediyi kimi, yandırmağa məcbur olmuşdu. Yandırdığı bu şeirlərdən birinin bir bəndi belədir:

Bir vaxtlar şax-şax axardı
Bu gün donduruldu dilim.
Tapdalandı ayaq altda
Gör necə xar oldu dilim. (8.s,145)

Bəxtiyar Vahabzadə «Latın dili» şeirində öz fikirlərini təsdiq, hökm şəklində deyil, bədii suallardan geniş istifadə etməklə verərək əsərin oxucuya bədii – estetik təsirini gücləndirməyə, onu həmin suallar ətrafında dərindən düşünməyə sövq etməyə müvəffəq olmuşdur. Bədii sual formasının seçilməsi şairə xalqı ölən, lakin özü yaşayan latın dilinin xalqı yaşasa da, özü istifadəsiz qalan bir dillə müqayisə etməyə, bununla da qarşısında qoyduğu başlıca niyyətə çatmağa imkan yaratmışdır:

İndi söylə,
Hansı dilə ölü deyək?
Vətən varkən,
Millət varkən,
Kiçik, yoxsul komalarda
dustaq olan bir diləmi?
Yoxsa, uzun əsrlərdən
keçib gələn,
Xalqı ölən,
Özü qalan bir diləmi? (9.s.123)

Şair bu misralarda oxucuya belə bir fikri çatdırır ki, əsl canlı dil yaşayan, istifadə olunan, insanlara xidmət edən dildir. Xalqı yaşasa da, özü yaşamayan, istifadəsiz qalan dil əslində ölüdür. Dili yaradan, ona həyat verən xalqdırsa, xalqı da yaşadan dildir.

Bəxtiyar Vahabzadə poeziyasında milli istiqlal. Bəxtiyar Vahabzadə poeziyasında milli istiqlal problemi ən ümdə məsələlərdəndir. B Vahabzadə Azərbaycan ədəbiyyatı tarixində "milli şair", "istiqlal şairi" adını almışdır. Çünki şairin amalı da, düşüncəsi də Vətəndir, istiqlaldır, xalqdır. Həyatının sonuna qədər xalqını düşünən, xalqının haqq səsi olan şair "Vətəndaş" adlı şeirində belə deyir.

Vətəndaş! Nə gözəl səslənir bu söz,
Yəni – bir Vətənin övladıyıq biz (16)

Azərbaycana torpağına ürəkdən bağlılıq, Azərbaycan torpağına ilahi sevgisi Bəxtiyar poeziyasında özünəməxsus şəkildə təcəssüm etdirilmişdir. Şair vətən torpağına olan sevgisini sadə bir şəkildə deyil, bütün valığı ilə hayqıraraq belə deyir:

Azərbaycan,
mənim eşqim,
mənim andım,
mənim anam!
Biz ikimiz bir torpağıq,
Mən də sənin bir parçanam (11.s, 43)

Bəxtiyar Vahabzadə azadlıq uğrunda geniş xalq hərəkatının bilavasitə iştirakçısı olan, 20 Yanvar faciəsinə ilk etiraz səsi qaldıran, xalqın misilsiz qəhrəmanlığını və dərdini bədii ədəbiyyata gətirən dönməz əqidəli sənətkardır. İmperiya cəlladlarının silahından qorxmayan sənətkar öz əsərləri ilə şəhidlərin ruhuna əbədi heykəl ucaltmışdır. Onun bu mövzuya həsr etdiyi əsərlərdə ölümdən qorxmayan, qolundakı mütilik buxovlarını qırıb ataraq son və qəti mübarizəyə başlayan vətənpərvər insanların parlaq obrazları yaradılmışdır. Həyat öz millətinin qəhrəmanlıq tarixini söz sənətində əks etdirən şairin belə bir inamını bir daha təsdiq etdi ki, ölümdən qorxmayan insanların azadıq eşqini heç kəs boğa bilməz. Haqq səsini top-tüfənglə, ən güclü ordu ilə belə susdurmaq omaz.

O şənbə gecəsi, o qətl günü

Mümkünə döndərdik çox namümkünü.
Xalqın qəlbindəki qorxu mülkünü
O gecə dağıdıb sökdü şəhidlər… (11.s, 119)

Şəhid məzarlarını millətin "qəhrəmanlığının, vüqarının" təcəssümünün simvolu olduğunu deyən şair "Şəhid məzarları" şeirində ölümü ilə vətəni yaşadan vətən oğullarıyla fəxr edir.

Vətəni sevirəm - deyən çox olar,
Deməyə nə var ki, dil yorulmasa.
Vətən də bizim tək ölər, yox olar,
Vətənin yolunda ölən olmasa (11.s,120)

Şair imperiya muzdlularının xalqımızı öz qanına qəltan etdiyi həmin günləri xatırlayaraq yazır: «Mənim nəslim həmişə qorxu içində yaşayıb. Ona şükür eləyirəm ki, yaşıdlarımla müqayisədə mən müəyyən dərəcədə bu qorxu hissindən azad olmuş, ürəyimdəkiləri müxtəlif üsullarla qapalı da olsa, deyə bilmişəm.

20 Yanvar hadisəsində mənə təsir edən əsas amil o oldu ki, millətimin, xüsusən gənclərin qəlbimizdəki qorxu hasarını atıb hissin cəsarət meydanına keçdiyini keçdiyini öz gözlərimlə gördüm. Bu isə azadlığa çatmağın ikin şərti idi. Azadlıq naminə qurban gedən şəhidlərimiz bizə azadlığın zərurət oluğunu və lazım gələrsə, millətin bu yolda ölümə belə gedə biləcəyini sübut etdilər. Bu düşüncələr içində çırpınırkən fikrimə gələn ilk bənd bu oldu:

Qatil gülləsinə qurban gedərkən
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlvrıyla
Vətən göylərinə çəkdi şəhidlər. (11.s,118)

Bu bənd isə əvvəlcə, «Şəhidlər» mərsiyəsinin, sonra da eyni adlı poemamın bünövrə daşı oldu. Onu da deyim ki, həmin şeiri dərhal bəstəkar dostum Emin Sabitoğluna göndərdim. O da qəlbimə yatan gözəl bir mərsiyə (rekviyem) yaratdı».

İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyir şəriylə.
Torpağın bağrına cəsədləriylə,
Azadlıq tumunu əkdi şəhidlər. (11.s, 119)

Həmin matəm günlərini xatırlayan şair yazırdı ki, bəzən Cavanşir, Babək, Cavad xan, Çələbi xan kimi tarixi qəhrəmanlarımız haqqında oxuduğumuz kitablarda onların qorxmazlığından, şücaət və cəsarətlərindən əfsanəyə bənzər elə epizodlara rast gəlirik ki, adam bu boyda fədakarlığa inana bilmir. Bəzən mənə elə gəlir ki, yəqin xalq öz qəhrəmanlarını görmək istədiyi mərtəbədə əfsanələşdirmiş və onlar haqqında məlumat bizə şişirdilmiş və böyüdülmüş halda çatmışdır. Şənbə gecəsinin şəhidlərinin cəsarət və qəhrəmanlığını öz gözlərimlə görəndən sonra tarixi qəhrəmanlarımızın cəsarət və şücaətinə məndə şübhə qalmadı.

Dünənə qədər hər gün rast gəldiyimiz, bəzilərini tanımadığımız bu adi cavanlar bir gecənin içində nə boyda böyük qəlbə malik olduqlarını öz ölümləri ilə təsdiq edib qeyri-adiləşdilər. Zaman keçəcək, xalq bu igidlər barədə əfsanəvi dastanlar yaradacaq, şair və yazıçılarımız kitablar yazacaq.

Şair qara yanvar günlərində inanırdı ki, azadlıq uğrunda canını qurban verən şəhidlərin qanı yerdə qalmayacaq, əsrlər boyu arzuladığı azadlığa qovuşan xalqımız şəhidlərin xatirəsini əbədi yaşadacaqdır:

Onlar sübut etdi: hər qara zülmün
Əli uzansa da, ömrü gödəkdir.
Xalqın azadlığı sabah, biri gün
Şəhid yarasından göyərəcəkdir!

Şairin istiqlal şeirləri içərisində türk xalqlarının taleyi, türk dünyasının birliyi ilə bağlı əsərlər mühüm yer tutur. Qardaş Türkiyədə çox sevilən şair 1994-cü ildə "Türk dünyası ədəbiyyatına xidmət" mükafatına layiq görülmüşdür. Şairin böyük sənətkarlıqla yazdığı "Azərbaycan-Türkiyə" şeirində

bir millət iki dövlətin tarixi köklərindən, xalqlarımızın bir-birinə bəslədiyi məhəbbət duyğularından, tarixin sınaqlarından çıxmış birliyindən iftixarla söz açılır:

Bir ananın iki oğlu,
Bir ağacın iki qolu.
O da ulu, bu da ulu,
Azərbaycan – Türkiyə!

B.Vahabzadə Vətənin müqəddəratı, istiqlal mübarizəsi kimi taleyüklü məsələlərə dram əsərlərində də dönə-dönə toxunmuşdur.Görkəmli dramaturqun "Dar ağacı", "Fəryad" tarixi dramlarında sənətkar tarixi keçmişə müraciət etməklə, xalqımızın taleyində böyük rol oynamış şəxsiyyətlərin obrazlarını yaratmaqla oxucunu öz keçmişinə yeni nəzərlərlə baxmağa, ibrət dərsi almağa səsləyir. Ədibin uğurla tamaşaya qoyulmuş «Özümüzü kəsən qılınc» pyesi tarixi mövzuda yazılsa da, müasir dərdlərimizlə səsləşir.

Türk dünyasının görkəmli sənətkarı Çingiz Aytmatov yazır: «Bizi əhatə edən aləmdə nə varsa, Bəxtiyar Vahabzadəni dərindən düşündürür: xeyir və şəri, gözəlliklə eybəcərliyi. Böyüklüklə kiçikliyi, bir sözlə, insan insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq onun fitrətindədir. Mütəfəkkir sənətkarın, ustad şairin başlıca qayəsi, uğuru da bundadır.» Qazax xalqının tanınmış şairi Oljas Süleymenov isə bu böyük sənətkarı qiymətləndirərək demişdir: «Bəxtiyar Vahabzadə kimi şairi, ziyalısı, müəllimi, nəhayət, şəxsiyyəti olan millət xoşbəxtdir.»

Ədəbiyyat

1. Həsənli B., Ə.Quliyev. Ana sözü. II sinif üçün dərs vəsaiti. Bakı, 2007.
2. Həsənli B., Ə.Quliyev. Ana sözü. III sinif üçün dərs vəsaiti. Bakı, 2007.
3. Həsənli B., Ə.Quliyev. Ana sözü. IV sinif üçün dərs vəsaiti. Bakı, 2007
4. Həsənli B.Azərbaycan uşaq ədəbiyyatı.Müəllim Bakı, 2015.
5. Xəlil Z., Əsgərli F. Azərbaycan uşaq ədəbiyyatı. Bakı:ADPU, 2004.
6. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: BDU-nun nəşri, 2007.
7. Vahabzadə B. Payız düşüncələri.Bakı:Yazıçı, 1981.
8. Vahabzadə B. Seçilmiş əsərləri 2 cilddə. I cild. Bakı: Yazıçı, 1983.
9. Vahabzadə B. Seçilmiş əsərləri 2 cilddə. II cild. Bakı: Azərnəşr, 1974.
10. Vahabzadə B. Seçilmiş əsərləri 2 cilddə. III cild. Bakı: Elm,2008.662 s.
11. Vahabzadə B. Seçilmiş əsərləri 2 cilddə. IV cild. Bakı: Elm, 2008.
12. Vahabzadə B. Seçilmiş əsərləri 2 cilddə. V cild. Bakı: Elm, 2008.
13. Vahabzadə B. Seçilmiş əsərləri 2 cilddə. Vl cild. Bakı: Elm, 2008.
14. Vahabzadə B. Seçilmiş əsərləri 2 cilddə. Vll cild. Bakı: Elm, 2008.
15. Yusifoğlu R. Uşaq ədəbiyyatı. Bakı:Təhsil, 2002.
16. Yusifoğlu R.Müasir ədəbi proses və ədəbi tənqid .Bakı:Çaşıoğlu,2004.

VAHABZADƏ POEZIYASINDA PAREMIYALAR

PAREMIAS IN THE POETRY OF BAKHTIYAR VAHABZADE

Nağıyeva Şəfəq Elxan
Bakı Dövlət Universitetinin doktorantı
https://orcid.org/0009-0005-2468-8174

Hacıyeva Yeganə İlham
AzMİU- nun nəzdində inşaat kollecinin müəllimi

Xülasə
Bu məqalə Bəxtiyar Vahabzadənin yaradıcılığında paremioloji vahidlərin istifadəsini, onların dil və üslub baxımından funksional xüsusiyyətlərini və milli-mənəvi kimliyin ifadəsindəki rolunu analiz edir. Aparılan tədqiqat nəticəsində məlum olur ki, paremioloji vahidlər şairin dilində həm poetik, həm də ictimai funksiyaların təminatçısı kimi çıxış edir. Məqalədə həm nəzəri, həm də təcrübi əsaslı nümunələrə müraciət olunub, paremioloji vahidlərin semantikası və dil-üslubi xüsusiyyətləri üzə çıxarılmışdır.
Bəxtiyar Vahabzadə xalqına, milli-mənəvi dəyərlərinə böyük ehtiramla yanaşan, hər bir sözün üzərində zərgər dəqiqliyi ilə işləyən, söz dəryasından qəvvas olub inci seçən bir sənətkar olmuşdur. Atalar sözü və məsəllər şairin diqqətindən kənarda qalmamış, yeri gəldikcə yaradıcılığğnda bunümunələrə yer vermişdir. Qanadlı sözlərə şairin müraciəti birmənalı olmamışdır. Əsərlərini izlədikcə biz bu ümumiləşməni apara bilərik:
1. Şair atalar sözü və məsəlləri heç bir dəyişiklik etmədən-həm forma, həm də məzmun xüsusiyyətlərini olduğu kimi saxlaməşdər
2. Bəzən təsvir etdiyi lövhəni təlqin etmək istəyi fikri qiymətləndirmək üçün istifadə etdiyi paremiyaların məzmununu saxlamaqla formasını dəyişdirmişdir
3. Bəzən şair öz münasibətini bildirmək üçün istifadə etdiyi paremiyalara əlavələr etmiş, bununla da həmin vahidlərin semantiknyükünü daha obrazlı çatdırmağı hədəf almışdır. Şairin bu əlavəsi aforizmlərə çevrilmişdir. Müəllifin yaradıcılığında belə nümunələrə daha çox rast gəlinir.
Nəticələr göstərir ki, Bəxtiyar Vahabzadə öz yaradıcılığında zəngin folklor nümunələrindən yararlanaraq çağdaş poeziyanın ənənəvi və innovativ tələblərini inteqrasiya edir.
Açar sözlər: Bəxtiyar Vahabzadə, paremiologiya, atalar sözü, məsəllər, ədəbi dil.

Abstract
This article analyzes the use of paremiological units in the works of Bakhtiyar Vahabzade, focusing on their functional characteristics in terms of language and style, as well as their role in expressing national and spiritual identity. The research reveals that paremiological units in the poet's language serve both poetic and social functions. The study draws on both theoretical and practical examples to uncover the semantics and linguistic-stylistic features of these units.
Bakhtiyar Vahabzade was a poet who approached his nation and its moral-spiritual values with profound reverence. He worked on every word with the precision of a jeweler, diving into the vast sea of language to retrieve pearls of expression. Proverbs and sayings did not escape the poet’s attention; whenever appropriate, he gave place to such expressions in his works. His engagement with these winged words was not uniform. A careful reading of his poetry allows us to draw the following generalizations: (1) the poet sometimes used proverbs and sayings exactly as they are preserving both their form and meaning without alteration; (2) at times while retaining the core meaning he modified the form of the proverb to reinforce the image or message he wished to convey; (3) In other cases, he added his own views to the expressions enriching them and enhancing their semantic depth. These

additions often turned the expressions into original aphorisms. Such examples are more frequently encountered in poet's works. The findings demonstrate that Bakhtiyar Vahabzade integrates rich folkloric elements into his work, combining traditional and innovative demands of contemporary poetry.
Keywords: Bakhtiyar Vahabzade, paremiology, proverbs, sayings, literary language.

Giriş

Azərbaycan ədəbiyyatı zəngin folklor ənənələri ilə formalaşaraq xalqın yaradıcılıq irsi və mənəvi dəyərləri ilə sıx əlaqə qurmuşdur. Bu baxımdan paremioloji vahidlər: atalar sözləri, məsəllər, xalq deyimləri və digər sabit ifadə formaları, aforizmlər Azərbaycan ədəbi dilinin tərəqqi etməsində və mədəni kimliyin formalaşmasında xüsusi rol oynayır. Bəxtiyar Vahabzadə müasir Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biridir. Onun yaradıcılığında sabit xalq deyimlərinə, frazeoloji vahidlərə tez-tez rast gəlirik. Şairin şeirlərindəki paremioloji ifadələr milli ruhun, milli-mənəvi dəyərlərin və kollektiv yaddaşın rəmzi olmaqla yanaşı, həm də oxucuya dərin estetik, kulturoloji, bədii və fəlsəfi dəyərləri aşılamaqda mühüm vasitə rolunu oynayır.

Tədqiqat işinin əsas məqsədi Bəxtiyar Vahabzadə yaradıcılığında paremioloji vahidlərin funksional və dil-üslub xüsusiyyətlərini dərindən təhlil etmək, bu ifadələrin poetik təsir gücünü və milli mədəniyyətin təcəssümü kimi rolunu aydınlaşdırmaqdan ibarətdir. Eyni zamanda, tədqiqatın nəticələri əsasında ədəbi dilin zənginləşməsində və şairin fərdi üslubunun formalaşmasında bu vahidlərin nə dərəcədə təsirli olduğu ortaya qoyulacaqdır. Bu həm də Azərbaycan poeziyasında milli irsin müasir dövrün sənətkarlığı ilə necə dialoq qurduğunun daha dərindən anlaşılmasına imkan verəcəkdir.

Bəxtiyar Vahabzadənin poeziyasında paremioloji vahidlərdən yüksək məharətlə istifadə etməsi həm onun ana dilinin incəliklərinə dərindən bələd olmağını, dilə bağlılığı və böyük ehtiram bəslədiyini, həm də xalqın dünyagörüşünü, mənəvi və fəlsəfi dəyərlərini poetik şəkildə ifadə etməyə çalışdığını göstərir. Onun şeirlərindəki bu ifadələr, milli mədəniyyətin daşıyıcısı olaraq, xalqın sosial və mənəvi həyatını əks etdirir. Həmçinin şairin əsərlərində paremioloji vahidlərin istifadəsi dilin canlılığını və dinamikasını mühafizə etməyə yön almış əsas vasitə kimi özünü büruzə verir. Qeyd etdiyimiz kimi, bu ifadələrin Bəxtiyar Vahabzadə yaradıcılığında istifadəsi yalnız bədii-estetik funksiyanı yerinə yetirmir, bununla yanaşı bir cəmiyyətdə dərin köklərə malik xalq təfəkküründün məhsulu olan folklor nümunələrinin qorunmasına, inkişafına və gələcək nəsillərə ötürülməsinə xidmət edir. Tədqiqata bu baxımdan yanaşma şairin poeziyasında həm dilin funksional imkanlarının genişliyini, həm də milli kimliyin və mədəni irsin ədəbiyyatda necə mühafizə olunmasını, inkişaf tezliyini təhlil etmək üçün əlavə imkan rolunu müəyyən edir.

Paremioloji vahid anlayışı və nəzəri əsas

Paremioloji vahidlər xalqın uzun illər ərzində formalaşdırdığı sabit ifadə formalarıdır. Onlar dil və mədəniyyətin birgə təsirindən yaranan xüsusi mental cərgəyə daxil olan söz qruplarıdır. Atalar sözləri, məsəllər, deyimlər və zərb-məsəllər kimi ifadələr, nəsildən-nəslə ötürülərək xalqın dünyagörüşünü, əxlaq kodekslərini və zəngin həyat təcrübəsini bir araya gətirir. Bu vahidlər təkcə dilin quruluşunu deyil, həm də kollektiv yaddaşın yaranma və inkişafını, ictimaiyyətin ətraf mühitlə və bir-biri ilə kommunikasiyasını, ictimai və sosial münasibətləri və milli adət-ənənələri də gerçəkləşdirir. Hər bir paremioloji vahid bir tərəfdən konkret sosial və mədəni şərtlərlə əlaqəlidir, başqa bir tərəfdən isə zamanla dəyişən tarixi və psixoloji aktları inikas etdirir. "Dilçilikdə cümlə şəklində mövcud olan fraeologizmlər paremiya adlanır. S.Cəfərovun təbirincə desək, *"demək olar ki, bütün atalar sözü həyati hadisələrlə əlaqədar olaraq yaranır və zaman keçdikcə, daha doğrusu, öz mənşəyindən uzaqlaşdıqca abstraktlaşır, ümumiləşir və öz həqiqi mənasını tamamilə itirir"* (Cəfərov, 2007).

Bir çox atalar sözləri paremiyadır: "Hər şey öz vaxtında gözəldir" atalar sözündən fərqli olaraq; "Zurnanın səsi uzaqdan yaxşı gələr" ; "Ağacı qurd içindən yeyər" atalar sözləri paremiyalardır. Çünki

burada fikir obrazlı ifadə olunub və cümlə tərkibindəki sözlərin ifadə olunan fikirlə bağlılığı yoxdur" (Məhərrəmli, 2015). Bu ifadələr yalnız dilin struktur xüsusiyyətlərini deyil, həm də həyatın müxtəlif sahələrindəki fəlsəfi yanaşmaları, əxlaqi kodekslərini və təcrübələri də daşıyır.

Paremioloji vahidlərin nəzəri baxımdan tədqiqata cəlb olunması linqvistika və folklorşünaslıq elm sahələrinin paralel istiqamətində yer alır və hər iki elm sahəsinin nəzəri əsaslarını özündə birləşdirir. Linqvistik aspektdən paremiyalar dilin semantikasını və qrammatik quruluşunu araşdırmaq üçün olduqca əhəmiyyətlidir. Bu ifadələr sabit struktura malik olduğu üçün onları struktur və semantik baxımdan təhlil etmək dilin formalaşma xüsusiyyətlərini, inkişaf istiqamətini və ekspressiv funksiyasını dərk etməyə yardım göstərir. Folklor istiqaməti baxımından yanaşdıqda paremioloji vahidlər xalqın mədəni və sosial yaddaşının qorunub saxlanmasının əsas vasitələridir. Onlar həmçinin müəyyən bir cəmiyyətin kollektiv dünya görüşünü, əxlaqını və estetik zövqünü əks etdirərək mədəni irsin nəsildən-nəslə ötürülməsinə xidmət edir.

Paremioloji vahidləri digər bədii ifadə vasitələri ilə müqayisə etsək, həm məzmun baxımından, həm də forma-struktur yanaşmasına görə xeyli fərqlənir. Onlar yalnız dildən-dilə keçərək yaşayan müdrik kəlamlar deyil, həm də dilin bədii-estetik funksiyasını ifadə etdirən "linqvokulturoloji kodlar" kimi çıxış edir. Hər bir atalar sözü və məsəl özündə dərin idrak elementlərinin, müdrikliyin və sosial təcrübənin izlərini saxlayır. Bu ifadələr həmçinin semantik cəhətdən polikonseptualdır; onlar təkcə konkret bir məna daşımır, həm də kontekstdən asılı olaraq məqsəd və məzmunun elmi və məntiqi açıqlamasına şərait yarada bilir. Bu səbəbdən də bu vahidlərin dildəki işlənmə tezliyi çoxqatlı izahetmə funksiyasının ortaya çıxmasına, hər bir ifadənin fərqli situasiyada, həm xüsusi, həm də ümumi səviyyədə təhlilinə rəvac verir

Bu baxımdan, paremioloji vahidlərin funksional təhlili yalnız onların dilin və ədəbiyyatın strukturundakı rolunu deyil, həm də onların mədəni, fəlsəfi və sosial əhəmiyyətini başa düşməyə imkan verir. Paremioloji ifadələrin funksional təhlili onların istifadə olunduğu kontekstdəki təbəqələşmiş mənaları üzə çıxarır və şairin və ya yazıçının həmin ifadələri hansı məqsədlə seçdiyini, istifadə etdiyini və oxucuya necə təsir etməyə çalışdığını başa düşməyə şərait yaradır. Bu proses dilin yalnız rabitə vasitəsi deyil, həm də bir mədəniyyətin, ideologiyanın və dünyagörüşünün ifadə vasitəsi olduğunu daha dərindən anlamağa imkan verir.

Onlar həm məna yükü, həm də forması baxımından digər bədii ifadə vasitələrindən fərqlənir və hər biri özündə dərin mədəni və ictimai mənaları inikas etdirir. Bu baxımdan paremioloji vahidlərin funksional təhlili onların ədəbiyyatdakı yerini və əhəmiyyətini daha yaxşı anlamağa imkan verir.

Bəxtiyar Vahabzadənin poeziyasında xalq hikmətinin izləri

Bəxtiyar Vahabzadə Azərbaycan poeziyasının inkişafında inqilab ruhlu yanaşmaları ilə seçilən şairdir, onun yaradıcılığında xalqın təcrübəsi, əxlaqi dəyərləri, milli mənəviyyatı, düşüncələri xüsusi yer tutur. Şair əsərlərində ənənəvi dil modelləri və folklor zənginliyini özünəməxsus şəkildə birləşdirir. Onun poeziyasında istifadə olunan sabit xalq deyimləri: atalar sözləri, deyimlər, zərbi məsəllər, frazeoloji birləşmələr həmin əsərlərə dərin məna çaları verməklə yanaşı, həm də fəlsəfi rəng qatmışdır. Belə nümunələr həm poetik ifadə vasitəsi, həm də ictimai mesajların çatdırılmasında əhəmiyyətli rol oynayır. Məsələn, şairin əsərlərinin birində yer alan " *Keçmişinə xor baxan gələcəyinə kor baxar*" ifadəsi öz köklərini, tarixini, keçmiş təcrübəsini kiçik görənlərin gələcəyinə də sağlam baxa bilməyəcəyinə dair dərin düşüncələri ehtiva edir. Yəni bu nümunə ilə şairin çatdırmaq istəyi ictimai mesaj budur ki, keçmiş milli kimliyin təməlidir. Keçmişə sayğı duymayan gələcəyi görə bilməz. Bu , mədəni və mənəvi manifestdir.

Bu xalq hikməti həm də şairin milli kimliyinin və mədəni irsinin təcəssümü kimi çıxış edir. Bəxtiyar Vahabzadə ədəbiyyatın təbiətini və funksiyasını geniş şəkildə anladığı üçün xalqın müdrik sözlərini, əxlaqi və fəlsəfi dəyərlərini əsərlərində mükəmməl bir şəkildə əks etdirmişdir. Şairin şeirlərindəki paremioloji vahidlər xalqın tarix boyu qazandığı müdrikliyi və həyat təcrübəsini bir araya gətirir, müasir dövrün sosial-siyasi şəraitində öz aktuallığını qoruyur. Bəxtiyar Vahabzadənin poeziyasında xalq hikmətinə istinad edərək, əslində, bir növ xalqın əxlaqi və fəlsəfi təfəkkürünü

müasir dövrün çağırışlarına uyğun şəkildə yenidən təsvir edir. “Mən türkəm!” şeirində istifadə etdiyi “*Köhnə bazardakı köhnə nırx ”* və ya “*Yüz arxın suyunu qatma bir arxa*” ifadələri işlənmə baxımdan polikonseptual məzmun daşıyır. O bu nümunələri verməklə hadisələrə ironik yanaşır mühafizəkarlığı tənqid edir, cəmiyyətdə baş verən dəyişikliklərin formal xarakter daşıdığını üzə çıxarır:
Bəsdir dözdüyümüz ölümdən betər,
Köhnə bazardakı köhnə nırxa.
Milləti yüz yerə caladın, yetər,
Yüz arxın suyunu qatma bir arxa. (Vahabzadə, 2004).
Şairin əsərlərindəki paremioloji vahidlər həm sintaktik, həm də semantik cəhətdən müəyyən qəlibləşmiş və sabit formalarla şeirlərinə daxil olmuşdur. Bu ifadələr sadəcə ənənəvi folklor nümunələrini təkrarlamır, əksinə, Vahabzadə onları bədii və ekspressiiv şəkildə istifadə edərək bir sıra yeni məna çaları qazandırır. Məsələn, atalar sözləri və deyimlər şeirlərdə müasir sosial reallıqları, insan psixologiyasını və cəmiyyətin dəyişən strukturlarını əks etdirən metaforik və simvolik mənalarla təqdim edilir. Vahabzadə bu paremioloji vahidlər vasitəsilə yalnız milli kimlik və mədəniyyətin qorunmasına xidmət etmir, həm də oxucusuna mənəvi dəyərləri- ədalət, sosial bərabərlik, mərhəmət, keçmişə sayğı, insanlıq, vicdani hissləri təbliğ edir.
Şair hər bir paremiya ilə konkret bir həyat təcrübəsini, bir fəlsəfi ideyanı və ya sosial münasibəti təsvir edir. Məsələn, xalq arasında geniş yayılan "Yol böyüyün, su kiçiyindir" kimi atalar sözü ilə şair böyük-kiçik münasibətlərinin, əxlaq dəyərlərinin, ictimai davranış qaydalarının, hörmət və tərbiyənin cəmiyyətin əsas dayaqlarından biri olduğu qənaətinə gəlir
Öz yaşına görə hamıya sayğı
“*Yol böyüyün, amma su kiçiyindir*”
Böyüyə ehtiram, kiçiyə qayğı...
Bəxtiyar Vahabzadə, xalq hikmətini yalnız klassik atalar sözləri ilə məhdudlaşdırmır. O, müasir dövrün sosial-siyasi məsələlərinə cavab verən bəzən ironik, bəzən isə sosial tənqidi xarakterli yeni paremiya və deyimlər də yaradır. Bu, Vahabzadənin poeziyasını daha ümumbəşəri səviyyədə anlaşıqlı edir. Şairin linqvokulturologiya ilə əlaqəsi onun öz əsərlərində belə deyimlərə müraciəti, həmçinin oxucusuna ümumi həyat təcrübəsini çatdırması, onun poeziyasını həm klassik, həm də müasir dövrün tələblərinə cavab verən bir sənət əsəri kimi formalaşdırır.
Beləliklə, Bəxtiyar Vahabzadənin poeziyasında paremioloji vahidlərin istifadəsi xalq hikmətinin zənginliyini, dərin fəlsəfi mənalarını və mədəni dəyərləri oxucuya çatdırmaqda mühüm rol oynayır. Şairin əsərlərində bu vahidlər təkcə xalqın ənənəvi düşüncəsini deyil, həm də müasir dövrün problemlərinə olan yanaşmasını ortaya qoyur, bununla da həm zamanın, həm də xalqın mənəvi irsini birləşdirir.

Dil üslubu və funksional təhlil

Bəxtiyar Vahabzadənin şeir dilində paremioloji vahidlər müxtəlif funksional rolları özündə birləşdirir. Şair bu ifadələri həm orijinal, həm də modifikasiya olunmuş formada istifadə edərək, ədəbi mətnə əlavə dərinlik və mənəvi zənginlik qatır. Şairin yaradıcılığında modifikasiyaya uğramış nümunələrdən “Dağda şəlalə” adlı şeirində rast gəlinən paremiya misal ola bilər:
Bu meydanda heyf ki, daim eniş axtaran,
“Azca aşım, ağrımaz başım” – deyənlər də var.
Kədərdəki nəşəni, zövqü anlamayanlar
Həyatın nəşəsindən, fərəhindən nə anlar? (Vahabzadə, 1979).
Əslində orijinal forması “Azacıq aşım ağrımaz başım” şəklində olan bu dil vahidinin Vahabzadə poeziyasında modifikasiyaya uğradılaraq işlədilməsi poetik ritm və ahəngdarləq yaratmağa xidmət edir. Eyni zamanda bu ifadə oxucuya emosional, estetik zövq verir.
Türkiyədə çap olunan “Varlıq” dərgisində İsmət Zəki adlı birisi “Ölü ədəbiyyat” adlı məqaləsini dərc etdirir və bu məqalədə təsəffüv ədəbiyyatının böyük nümayəndəsi sayılan Nəsimi və Füzulini “mənasız” adlandırır, onları əyləncə məqsədilə yazmaları ilə ittiham edir. Buna cavab olaraq Bəxtiyar

Vahabzadə eyni jurnalda "Yel qayadan nə aparar?" başlıqlı məqaləsini çap etdirir. Füzulini təqlidçilikdə günahlandıran, lakin özü hər cümləsində Avropaya istinad edən Eyyuboğluya istinad edən bu məqalədə tutarlı cavab verən B.Vahabzadə yeri gəldikcə qanadlı ifadələrdən, paremiyalardan istifadə edərək kəskin ictimai və şəxsi mövqeyini bildirmişdir. Və bu nümunədən istifadə edərək Füzulinin mənəvi ucalığını göstərmiş, kənardan gələn təzyiqlərin Füzuli dühasına xələl gətirmədiyini nümayiş etdirmişdir. "Füzuli kimi şəxsiyyətlərin Eyyuboğlunun hücumundan qorxusu, mənim kimilərin də müdafiəsinə ehtiyacı yoxdur…Yel qayadan nə aparar?" el sözü ilə fikrini tamamlamışdır Məsələn [5, s.126].

Eyni başlıqlı məqaləsində istifadə etdiyi *"Keçmişinə xor baxan gələcəyinə kor baxar", "Nə tökərsən aşına o da çıxar qaşığına*" (Vahabzadə, 1979) kimi el deyimlərindən məharətlə istifadə edərək qarşı tərəfin ədəbiyyatımıza olan hörmətsizliyini tənqid edir, milli-mənəvi irsə sayğısız münasibətin doğura biləcəyi nəticələrə işarə edir. Belə nümunələr həm məzmun dərinliyi, həm də emosional təsir baxımından müəllifin fikirlərinə böyük güc qatır.

Fonetik və semantik təhlillər nəticəsində müəyyən edilir ki, Bəxtiyar Vahabzadə tərəfindən seçilən paremioloji ifadələr dilin funksional aspektlərini – həm kommunikativ, həm də estetik dəyərlərini daha da gücləndirir. Ədəbi dilin inkişafı baxımından bu cür ifadələrin istifadəsi dilin dinamikliyini və milli irsin qorunmasını təmin edir. Nəzəri və praktiki analizlər paremioloji vahidlərin istifadəsinin şairin yaradıcılığında həm struktur, həm də məna səviyyəsində əvəzsiz yer tutduğunu isbat edir.

Nəticə

Aparılan tədqiqat nəticəsində aşkar edilmişdir ki, Bəxtiyar Vahabzadənin yaradıcılığında paremioloji vahidlər yalnız ədəbiyyatın bəzək elementi kimi deyil, həm də milli mədəniyyətin, ictimai yaddaşın və insan haqları kimi dərin mövzuların ifadə vasitəsi kimi mühüm rol oynayır. Şairin dilində sabitləşmiş bu ifadələr, onun yaradıcılıq üslubuna xas olan orijinallıq və innovativlik anlayışını əks etdirir. Paremioloji vahidlərin funksional və semantik təhlili, Azərbaycan poeziyasında dilin zənginliyini və dərinliyini daha dərindən başa düşməyə şərait yaradır.

Nəticə etibarilə, bu məqalə vasitəsilə Bəxtiyar Vahabzadənin dilindəki paremioloji ifadələrin poetik və ictimai əhəmiyyəti ortaya qoyulmuş, onların ədəbi dilin inkişafına olan təsiri və milli kimliyin qorunmasında oynadığı rol ətraflı şəkildə işıqlandırılmışdır. Gələcək tədqiqatlarda digər şairlərin və yazıçıların yaradıcılığında bu ifadələrin müqayisəli şəkildə təhlil etmək, milli dilin və mədəniyyətin daha da zənginləşdirilməsi istiqamətində tədqiqat aparmaq olar.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Cəfərov, S. (2007). *Müasir Azərbaycan dili (leksika)*. Bakı: Şərq-Qərb.
2. Məhərrəmli, Q., & İsmayılov, R. (2015). *Azərbaycan dilinin frazeologiya lüğəti*. Bakı: Altun kitab.
3. Vahabzadə, B. (2004). *Seçmə şeirlər*. Bakı (Orijinal əsərdən "Mən türkəm!" şeiri, s. 174)
4. Vahabzadə, B. (1979). *Açılan səhərlərə salam: Şeirlər və poəmalar*. Bakı: Yazıçı. (Orijinal əsərdən "Dağda şəlalə")
5. Vahabzadə, B. (1976). *Sənətkar və zaman*. Bakı.

A VİEW ON THE NATURE AND ESSENCE OF BİLİNGUALİSM
BİLİNQVİZMİN TƏBİƏT VƏ MAHİYYƏTİNƏ BİR BAXIŞ

Qadaşova Aybəniz Azik qızı
Azərbaycan Tibb Universiteti

Xülasə
Mədəni, iqtisadi və siyasi əlaqələrin gündən-günə inkişaf etdiyi dünyada bilimqvizm problemini öyrənmək dilçilik baxımından mühüm əhəmiyyət kəsb edir. Müasir dilçilikdə bilinqvizm dilin yaranması, inkişaf etməsi və fəaliyyət göstərməsi formalarından biri kimi qəbul edilir. Məlumdur ki, bu problem dilçilik üçün yeni deyil və bu hadisənin öyrənilməsinə kifayət qədər yer ayrılmışdır. Bununla belə, hələ də bilinqvizm haqqında vahid nəzəriyyənin olduğunu söyləmək olmur. Çünki ilkin insan toplumları yarandığı dövrdən bağlayaraq insanlar daim qarşılıqlı əlaqədə olmuş, muxtəlif toplumlar bir dövlətin tərkibində qalmış, müharibələr və miqrasiyalar zaman-zaman insanların köçünə səbəb olmuşdur. Digər tərəfdən bilinqvizm həm də fərdi-psixoloji hal kimi meydana gəlir, yəni onu təkcə sosial hadisə kimi deyil, həm də fərdi-psixoloji hadisə kimi öyrənmək lazım gəlir.
Açar sözlər: bilinqvizm, dil inteqrasiyası, mədəniyyətlərarası ünsiyyət, psixolinqvistika

Abstract
Bilingualism is the ability to use two languages and is shaped by social, historical, and psychological factors. It arises from migration, cultural contact, and political influence. The paper discusses various types of bilingualism (e.g., local, national, pure, mixed) and challenges the idea of a fixed "native language," noting that second languages can become dominant. Bilingualism promotes cross-cultural understanding but also reflects power dynamics and language policies, especially in multiethnic states like the USSR. It is both a linguistic and sociocultural phenomenon that requires interdisciplinary study.
Keywords: bilingualism, language integration, intercultural communication, psycholinguistics

Müasir dövrdə dünyada gedən sosial-iqtisadi inkişaf gündən-günə daha çox xalqları və toplumları qarışdırır və nəinki çoxmillətli ölkələri, həm də unitar dövlətləri əhatə edir. Artıq Avropada və ABŞ-də miqrasiya ciddi şəkildə problem kimi qarşıda duran məsələlərdən hesab edilir. Bu səbəbdən də qarşılıqlı anlaşma və dialoq şəklində yaşama problemi daha çox maraq doğurmağa başlayır. Butün bu proseslər dilçi mütəxəssislərin də bu sahədə ciddi müzakirələrinə səbəb olur. Xüsusən də bu özünü gəlmələrə qarşı loyal göstərməyə çalışan dövlətlərdə daha çox göstərir. Gəlmələrin yerli mədəniyyəti və dili öyrənməyi baxımından ikinci dilin öyrənilməsin ilə bağlı yaranan ikidililik problemləri mütəxəssislər qarşısında ciddi problemlər yaradır.

1. İkidillilik problemindən danışarkən biz ilk növbədə bilinqvizmin nə olduğunu bilməliyik. Bilinqvizm müəyyən əhali qruplarının iki dildə ünsiyyət qurma qabiliyyətinə deyilir. Dil sosial qruplaşmaların fəaliyyəti olduğundan ikidilli olmaq eyni zamanda iki müxtəlif qruplaşmaya mənsub olmaq kimi qəbul edilir.

Bilinqvizim və multilinqvizm iki və ya bir neçə dilin qarşılıqlı əlaqəsi və xalqların birgəyaşamı nəticəsində yaranan mürəkkəb bir prosesdir. Tədqiqatçılar qeyd edirlər ki, iki dilin eyni səviyyədə bilmək hadisəsinə praktikada nadir hallarda təsadüf edilir və adətən biz belə dili ana dili adlandırırıq. Bu mənada heç bir dil ana dilinin nə əvəz edə, nə də onunla bir cərgədə dayana bilməz [1, s.102]. Əlbəttə, bu fikirlə tam razılaşmaq da doğru olmazdı, çünki ana dili bütün hallarda əsas dil olmaya bilər. Məsələn, yerli azsaylıların və miqrantların uşaqları öz ana dillərində deyil, yaşadıqları ölkənin dövlət dilində danışmağa meyl etdiyindən çox vaxt onlar öz ana dillərinə nisbətən sonradan qazandıqları və onlar üçün doğma olmayan dildə danışmaq məcburiyyətində qaldıqlarından həmin

dili daha yaxşı bilir və onu çox vaxt ana dilinidən daha çox istifadə edirlər. Bu zaman ana dili əksər hallarda məişət səviyyəsindən kənara çıxa bilmir və sadəcə ailə daxili dil kimi məhdudlaşır. Bu səbəbdən də bu termini ana dili deyil, əsas dil kimi müəyyənləşdirmək daha doğru olardı. Yəni bilinqv üçün ikinci dil ana dilinə deyil, onun danışdığı və öyrəndiyi əsas dilə qarşı qoyulur. Digər tərəfdən, bir çox hallarda bilinqvlər hər iki dildə kifayət qədər sərbəst danışa və bir dildən digərinə rahat şəkildə keçə bilirlər. Xüsusən də bu hal ikidilliliyin geniş yayıldığı ərazilərdə özünü göstərir. Məsələn, keçmiş SSRİ-də rus dili dövlət dili olduğundan o həm xalqlar arası ünsiyyət dili, həm də mədəniyyət, elm və digər sahələr üçün vahid dil hesab edilirdi. Eyni zamanda demək olar ki, bütün müttəfiq respublikaların öz dillərində məktəblərin olması, tədrisdə, səhiyyədə, idarəetmədə rus dili ilə paralel işlənməsi ikidililiyin yüksək səviyyədə yayılmasına səbəb olmuşdur. Bu səbəbdən də SSRİ dövründə bilinqvizm ən yüksək səviyyəyə qədər qalxa bilmişdi. Ə.Rəcəbovun fikrincə, ən yüksək ikidillilik dərəcəsi o zaman baş veri ki, danışan fərd milli dili deyil, qazanılan dili, ikinci dili ana dili hesab etsin. Məsələn, Sovet İttifaqında 1971-ci ilə əhalini siyahıya almaya görə milliyətcə rus olmayan 13 milyon, 1979-cu il əhalini siyahıya almaya görə isə milliyətcə rus olmayan 16,3 milyon SSRİ vətəndaşı öz ana dili kimi rus dilini göstərmişdir" [1, s.102. Göründüyü kimi, Ə.Rəcəbov özü də bir qədər əvvəlki fikrinə əks olaraq zaman-zaman öz ana dillərini doğma olmayan ikinci dil kimi qəbul etdiklərini qeyd edir. Deməli, ana dili anlayışı əslində nisbi anlayış kimi qəbul edilə bilər. Bu anlayış daha çox öyrənilən əsas dil kimi formalaşdırıla bilər. Çünki insanlar əsasən, öyrəndikləri dili özlərinə doğma hesab edir və həmin dildə daha çox ünsiyyət qurmağa çalışırlar. Hazırda Azərabaycanda da biz onlarla xalqın yaşadığının şahidi oluruq. Bu xalqların əksəriyyəti öz ana dillərindən yalnız məişətdə istifadə edir və digər hallarda dövlət dilindən istifadə edirlər.

K.Zakiryanov haqlı olaraq qeyd edir ki, ikidillilik fenomenal hadisədir. Alimin fikrincə, bilinqvizmin fenomeni ondan ibarətdir ki, onun köməyi ilə müxtəlif millətlərdən olan insanlar - müxtəlif dillərdə danışan, uzaq mədəniyyət daşıyıcıları, psixi xüsusiyyətləri bir-birindən fərqlənən, yaşayış şəraiti ilə bir-birindən fərqlənən insanlar bir-biri ilə dil kontaktlarına girirlər. Bilinqvizm millətlərarası münasibətləri tənzimləyən etibarlı vasitə, müxtəlif millətlərin nümayəndələri arasında bir-birinə qarşı dözümlülük şüurunu tərbiyə edən vasitə kimi çıxış edir. O müxtəlif dillərdə danışan xalqların birgə yaşaması üçün zəruri şərt kimi həyata keçirilir və müxtəlif millətlərdən olan insanların təmasda olduğu yerdə meydana gəlir. Təsadüfi deyil ki, o, uzaq keçmişdə yaranıb və bütün sonrakı illərdə təkmilləşib. İkidilliliyin təkmilləşdirilməsi problemi bu gün də aktuallığını davam etdirir, lakin indiki mərhələdə bir qədər fərqli formatda - aktiv ikidillilik formasında həll olunur.

Bilinqvizm termininin özündən də göründüyü kimi, ikidillilik iki dilə yiyələnmək deməkdir: birinci komponent ana dili, ikincisi doğma olmayan (xarici) dildir. Burada ikinci dil seçmək problemi aktuallaşır. Adətən belə bir vasitəçi dil seçilir. Fakt budur ki, bir neçə dilə yiyələnmək demək olar ki, mümkün deyil, buna görə də müxtəlif dilli xalqlar arasında ünsiyyət üçün xüsusi bir vasitə seçilir - ölkənin bütün vətəndaşları üçün ümumi olan və müxtəlif millətlərin nümayəndələrinin bir-biri ilə linqvistik əlaqəyə girə biləcəyi vasitəçi dil. Vasitəçi dil olmadan nəinki çoxmillətli dövlət, hətta çoxmillətli komanda da normal fəaliyyət göstərə bilməz. Vasitəçi dilin seçimi əlaqə quran xalqların sosial-siyasi və sosial-iqtisadi həyat şəraiti ilə müəyyən edilir. Çoxmillətli dövlət daxilində vasitəçi dil funksiyasını bu ölkənin dövlət dili yerinə yetirir; qlobal miqyasda, dünya dilləri ilə" [2, s.128].

Dünyada hazırda dövlətlərin əksəriyətinin çoxmillətli olduğunu nəzərə alsaq, demək olar ki, hər yerdə dövlət daxilində yaşayan xalqlardan birinin dili ortaq ünsiyyət dili kimi qəbul edilir. Rusiyada ortaq ünsiyyət dili funksiyasını rus dili oynayırsa, Azərbaycanda bu rolu Azərbacyan dili oynayır. Məlumdur ki, Azərbaycan ərazisində tarixən üç ayrı-ayrı dil ailəsinə mənsub xalqlar yaşamışlar. Bura İrandilli, Qafqazdilli və türkdilli xalqları aid etmək olar. Tarixin sonrakı mərhələlərində zaman-zaman Azərbaycan ərazisinə ruslar, malakanlar, almanlar və digər xalqlar da köçürülmüş və Azərbaycan dili hal-hazırda da əvvəllər olduğu kimi bu xalqlar üçün ortaq ünsiyyət dili rolunu oynamışdır. Hələ XIX əsrdə rus şairi Leramtov Azərbaycanda sürgündə olanda dediyi sözlər indi də öz aktuallığını saxlayır. Lermantov Qusarda Qafqaz xalqlarından olan ləzgilərin qonağı olarkən Azərbaycan dilinin

mövqeyinin nə qədər güclü olduğunu hiss etmiş və "Avropada fransız dilini bilmək nə qədər vacibdirsə, Qafqazda, ümumən Asiyada Azərbaycan dilini bilmək də bir o qədər əhəmiyyətlidir" fikrini söyləmişdir. Deməli, Azərbacyan dili hələ XIX əsrdə millətlərarası ünsiyyət dili kimi, təkcə Azərbaycanda deyil bütün Qafqazda yayılmışdı. Bu proses sonrakı dövrlərdə daha da artdı və müasir dövrdə Azərbaycan dilini bilmək vacib elemetntlərdən biri hesab edilir. Hətta SSRİ dövründə də rus dili nə qədər hegemon olsa da bu prosesdə Azərbaycan dilinə uduzurdu, baxmayaraq ki, Bakı şəhərində rus dili kifayət qədər geniş yayılsa da bu proses digər regionlara yayıla bilmədi.

2. Bilinqvizmin müxtəlif növləri qeyd edilir. Onlardan biri ərazi xüsusiyyətlərinə görə bölgüdür. Bu zaman bilinqvizm milli və məhəlli olmaqla iki yerə bölünür. Bilinqvizmin məhəlli növündə inzibati – dövlət və ya coğrafi prinsipə görə hüdudlanan bir ərazidə iki və ya bir neçə dilə mənsub xalq məskunlaşır ki, bu zaman hər bir xalq gündəlik ünsiyyət zamanı iki dildən istifadə edir. Bu hal dövlətlərin əksəriyyətində rast gəlinir. Belə ki, demək olar ki, dünyada unutar dövlətlərə rast gəlinmir və ya bu cür dövlətlər barmaqla sayılası qədər azdır. Bu səbəbdən də hər bir dövlətin ərazisində bir neçə xalq yaşayır. Bu zaman isə əksər hallarda dövlətin dili etnoslardan birinə əsasən müəyyənləşdiyindən ərazidə yaşayan digər xalqlar da həmin dili öyrənmək zərurətində qalırlar. Bu isə öz növbəsində həmin ərazidə ikidilliliyin yaranması üçün münbit şərait yaradır.

Məhəllil ikidililik zamanı isə milli bilinqvizmdən fərqli olaraq yalnız fərdlər ikidilli olurlar. Halbuki məhəlli ikidillilikdə istər ayrıca götürülmüş adamlar, istərsə də həmin şəxsin təmsil olunduğu xalq ümumilikdə ikidillidir. Çünki bu zaman müxtəlif xalqlar birgə yaşayır və bu birgəyaşamda dillər bir-birinə qarşılıqlı surətdə təsir edir. Nəticədə hər iki dildə müəyyən oxşar xüsusiyyətlər yaranır.

Bilinqvizmdən danışarkən tədqiqatçılar ikinci dilin mənimsənilməsinə görə də saf və qarışıq bilinqvizim olmaqla iki yerə bölürlər. Bu barədə danışarkən L.Şerba yazır: "Bu halda bu və ya digər ikidilliliyin əsasında duran sosial qruplar bir-birini qarşılıqlı olaraq istisna edir, ya da bu və ya digər dərəcədə bir-birini əhatə edir. Birinci halda, iki dil heç vaxt görüşmür: bir-birini istisna edən iki qrupun üzvü heç vaxt bir-birinə qarışmış iki dildən istifadə etmək imkanına malik deyil. Hər iki dil bir-birindən tamamilə təcrid olunmuşdur. Bu, məsələn, məktəbdə bir dildə oxuyan, dostları ilə ünsiyyət qurarkən ondan istifadə edən, lakin evdə valideynləri ilə başqa dildə danışan uşaqlarda baş verir, çünki ikincilər birinci dili başa düşmürlər. Oxşar hal işdə bir dildən istifadə edən və evdə ancaq başqa dildən istifadə edən şəxslə də baş verə bilər. Bütün bu hallarda və bu kimi digər hallarda ikidilliliyi "saf" adlandırmaq olar. İkinci halda, daha doğrusu, iki sosial qrup müəyyən dərəcədə üst-üstə düşəndə insanlar hər bir halda hansı dildən istifadə etdiklərinin fərqinə varmadan daim bir dildən digərinə keçərək bu və ya digər dildən istifadə edirlər. Bu, məsələn, bir ailənin bütün üzvləri qohumları və dostları ilə birlikdə əhalinin bir qrupuna aid olduqda baş verir, lakin buna baxmayaraq, işlərinə görə digərinə aiddir. Fərqli mühitlərdə bir-birləri ilə qarşılaşdıqda, qrup sərhədlərini ayırmağı dayandırırlar və hər iki dilin bir-birinə qarışaraq istifadə etməyə başlayırlar. Bu cür ikidilliliyi "qarışıq" adlandırmaq olar, çünki düzdür, onda iki dilin qarışması, onların bir-birinə nüfuz etməsi bu və ya digər dərəcədə normal baş verir" [3, s.314].

Artıq qeyd edildiyi kimi, istər şüurlu, istərsə də qeyri-iradi baş verən proseslər dünya tarixinin bir hissəsi olaraq qəbul edilir. Bu proseslərin necə baş verməsindən asılı olmayaraq zaman-zaman qəbilə və tayfalar birləşmiş, zəif etnik birləşmələr güclülərin təsirinə məruz qalmış, xalqlar arasında ticarət əlaqələri yaranmış və bu proseslərin nəticəsi olaraq etnoslar arasında da müəyyən əlaqələr yaranmışdır. Heç şübhəsiz, etnosların qarşılıqlı əlaqəsi nəticəsində dillər arasında da qarışma, çarpazlaşma, dil əlaqələri, alınma prosesi baş vermişdir. Bütün bu proseslərin nəticəsində isə həm fərdi, həm də bütöv xalqların bir dildən digər dilə keçməsi, yeni dillərin yaranması kimi dil hadisələri ilə yanaşı, bütöv xalqların ikidilliyə çevrilməsi halları da baş vermişdir. Dilçi alimlər haqlı olaraq qeyd edirlər ki, "bilinqvizm zahiri formaca nitq fəaliyyəti kimi fərdi-psixoloji hadisə olsa da mahiyyətcə dərin ictimai-ideoloji səciyyə daşıyır" [4, s.62].

3. Qeyd olunduğu kimi, dillərin qarışması son illərin problemi deyil. Bu proses daim baş vermişdir. Maraqlıdır ki, bu məsələyə qədim dövr kitablarında da diqqət edilmişdir. Məsələn,

Mahmud Kaşğari özünün dünyaca məşhur "Divanü luğat-it-türk" əsərində belə türk xalqlarını saf və qarışıq olmaqla iki yerə bölür. Bu barədə danışarkən A.Qurbanov yazır: "Bu əlamətə görə alim türk dillərini iki yerə bölür: a) Saf türk dilləri; b) Saf olmayan türk dilləri. Saf türk dilləri dedikdə, Mahmud Kaşğarlı öz kökü etibarı ilə türk olan qəbilələrin dillərini nəzərdə tutmuş və aşağıdakı dilləri saf hesab etmişdir: oğuz, qıpçaq, peçe neq, toxsı, yağma, basmal, yabaqu; çarui; başkurd dilləri. Bu dillərdə danışan xalqların ikinci dili olmamışdır. Saf olmayan türk dilləri dedikdə isə türkləşən qə bilələrin dilləri nəzərdə tutulmuşdur. Mahmud Kaşğarlıya görə, türk dilindən başqa gizli dili olan qəbilələr mənşəcə başqasından çevrilmiş, yəni sonradan türkləşmiş xalqlar dır və onların dilləri saf deyildir. Buna əsaslanaraq o, qab ğac, tatar, xicay dillərini saf hesab etməmişdir" [5, s.79]. Mahmud Kaşğarinin fikrincə, "Şəhərlərə getməyi adət etməyən, farslarla əlaqədə olmayan və ancaq bir dil bilənlərin dilləri ən fəsih dildir.

Şəhər xalqı ilə əlaqədə olub da iki dil bilənlərin – soğdaq, kənçək və ağrular kimi – danışığında pozğunluq əmələ gəlir. İkinci qisim isə xötən, tübüt və tanut kimi olub, bu tayfalar türk ölkələrinə yenib gələnlərdir" [6, s.95]. Göründüyü kimi, təxminən min il əvvəl yazılmış əsərdə belə xalqların qarışmasının ilkin formaları haqqında məlumat verilir. Bu isə bilinqvizm hadisəsinin hələ qədimlərdən baş verdiyinin göstəricisidir. Bu hal həm də onu göstərir ki, iki dilin qarşılıqlı əlaqədə olması həm də iki xalqın, iki məsdəniyyətin, iki düşüncə tərzinin qarşılıqlı əlaqədə olmasıdır. Bu səbəbdən də dilçi alimlər bilinqvizmi sosial-psixoloji hadisə kimi xarakterizə edirlər. Dil kontaktları nəzəriyyəsinin tanınmış tədqiqatçısı U.Vaynrayxın fikrincə, bəzi antropoloqlar dil kontaktlarını yalnız mədəniyyətlərin kontaktının aspektlərindən biri kimi, dil interferensiyasını isə mədəniyyətlərin qarışması və mədəni kənaraçıxmanın təzahürlərindən biri kimi qəbul edirlər. Amma antropologiyanın, xüsusən də Birinci Dünya müharibəsindən sonra, dil kontaktlarına böyük maraq göstərməsinə baxmayaraq, dil kontaktları və mədəni kontaktlar arasında kifayət qədər anlaşma olmamış, dil kontaktları və mədəni kontaktlar arasında sərhədlər müəyyənləşməmişdir. Bununla belə, hər bir elmin tədqiqat metodlərının olmasına baxmayaraq, bu iki dissiplin arasında qaçılmaz paralellər mövcuddur [7, s.28].

U.Vaynrayxın da qeyd etdiyi kimi, bilinqvizmi mədəniyyətlərarası kontekstdən kənarda öyrənmək istənilən halda mümkünsüz görünür. Döğrudur, dil kontaktları istənilən halda dilçilik hadisəsi olaraq qalır, amma xalqların qarşılıqlı əlaqəsi məsələsini öyrənmədən dil əlaqələrindən əlahiddə dil hadisəsi kimi danışmaq elmi cəhətdən doğru olmazdı. Məhz bu səbəbdən də müasir dilçilik bilinqvizmi multidisiplinar tədqiqat səhəsi kimi öyrənməyə üstünlük verir.

Bu hadisə dilçilik ədəbiyyatında kodların dəyişdirliməsi kimi qeyd edilir. Kodların dəyişməsi ikidilli insanların şüurunda iki dil kodunu daşıması hadisəsidir. Bu bilinqvizmi həm də psixoloji hadisə olmasını şərtləndirən amillərdəndir. Dilçi alimlərin fikrincə, "Kodların dəyişdirilməsi dil əlaqələrinin digər növlərinə nisbətən daha çətin problemdir. Bu artıq individin – fərdin iki dili ayrı-ayrılıqda iki dili beynində daşımasıdır. İnterferensiya qarşılıqlı əlaqələrin ilkin prosesidir və bu vaxt ikinci dili yenicə öyrənməyə başlayan fərd yeni bir dil kodunu hələ dərk etmir və bunun nəticəsində onun nitqində müəyyən qədər normadan kənaraçıxma halları baş verir. Kodların dəyişdirliməsi zamanı isə bu proses, yəni ikinci dilin öyrənilməsi prosesi artıq başa çatır. Bu zaman individ sərbəst şəkildə hər iki dildə danışır və onun nitqində interferensiya hallarına çox az rast gəlinir. Qloballaşan müasir dünyada bilinqvizm – ikidillilik adi hal olsa da onun öyrənilməsi prosesi dilçilidə hələ də ciddi problem yaradır. Çünki bilinqvizm çox vaxt fərdi xarakter daşıyır və bəzən bütöv bir toplumu, cəmiyyəti, müəyyən bir ərazini əhatə edir [8, s.75].

Bilinqvizmin təzahürünün müxtəlif səbəbləri qeyd edilir:

1. Cəmiyyətin inkişafı və onunla əlaqədar iqtisadi, siyasi, mədəni, elmi və məişət əlqaələrinin inkişafı;b xalqlar deməli, dillər arasında əlaqələrin inkişafı.
2. Eyni bir ərazidə yaşayan müxtəlif dilli xalqların qarşılıqlı təması və müxtəlif dilli xalqların yayılması.

3. Hər bir dilin ictimai funksiyalarının genişlənməsi, təmasda olan xalqların bu funksiyaları həyata keçirmə sferasının genişlənməsi [9, s.11].

Əlbəttə, bilinqvizmin yaranma səbəblərini yalnız bu üç faktrola bağlamaq doğru olmazdı. Əgər belə olsaydı biz zaman-zaman dünya tarixini əhatə edən dil qarşmalarını izah edə bilməzdik. Şübhəsiz, qloballaşan dünyada bu cür inteqrasiya prosesləri genişlənmiş, dil əlaqələrinə səbəb olan amillər artmışdır. Çünki müasir dünyada tək bir dil ilə ötüşmək çox çətindir. Bu barədə danışarkən miqrantların vəziyyəti daim nəzərə alınmalıdır. Çünki dünya tarixinin ilk illərindən başlayaraq insanlar daim bir ərazidən digərinə köçmüş və bu köç nəticəsində də miqrasiyalar baş vermişdir. Miqrasiya isə dillərin qarşılıqlı əlaqəsi və çarpazlaşması üşün daim əsas səbəblərdən hesab edilir.

Bu məsələ həm də milli təfəkkür və mədəniyyətlə bağlıdır. Belə ki, bəzi xalqlar bu cəhətdən çox konservativ olduqlarından onlar başqa xalqların nümayəndələri ilə az kontakta girir və demək olar ki, başqa xalqa mənsub şəxslərlə ailə münasibətlərinə girmirlər. Məsələn, bura Çin və Hindistan kimi ölkələrdən olan insanları aid etmək olar. Belə ki, çinlilər istənilən ölkədə kompakt yaşamağa və öz ölkəsinin və mədəniyyətinin xüsusiyyətlərini saxlamağa meyl etdiklərindən onlar dilllərini, mədəniyyətlərini və həyat tərzlərini daha az dəyişirlər. Bu səbədən harada yaşamaqlarından asılı olmayaraq uzun müddət öz dillərini qoruyub saxlaya bilirlər. Bu həm də həmin xalqların əhalisinin çoxluğu və daimi miqrasiya ilə bağlı olur. Azərbaycanlılar Rusiyaya daha çox miqrasiya etdiyindən orada kompakt şəkildə yaşayır və öz dillərini kifayət qədər çox yaşada bilirlər. Digər ölkələrə köçən azərbaycanlılar isə əksinə ətrafda o dildə danışanların olmaması səbəbindən daha tez assimiliyasiyaya uğrayır və ikinci, üçüncü nəsildə artıq dil bilikləri tam sıradan çıxır. Digər tərəfdən burda ailələrin də böyük rolu olur. Əgər miqrant öz ailəsindən çıxan adamlarla ailə qurmursa və başqa millətdən olan biri ilə evlənirsə, bu zaman onun ana dilindən istifadə imkanları azalır və nəticə etibarı ilə növbəti nəslin nümayəndəsi artıq həmin dili unudur. Bu tip adamların uşaqları çox vaxt valideynlərinin ana dilini anlasa da özü həmin dildə danışa bilmir.

4. Bilinqvizmi heç də yalnız müasir inteqrasiya və qloballaşma ilə əlaqələndirmək doğru olmazdı. Bu prosesə həm də dil siyasətinin bir hissəsi kimi baxmaq daha doğru olardı. Çünki bir çox hallarda bu proses siyasi proseslərin gedişindən daha çox asılı olur. Məsələn, keçmiş SSRİ-də gedən siyasi proseslərə diqqət etsək gösdərik ki, siyasi liderlərin də dövlətin siyasətinin də bu proseslərdə müstəsna rolu vardır. Məsələn, Çar Rusiyasında hökumətin milli azlıqların dilləri ilə bağlı siyasəti kifayət qədər sərt idi və bu siyasət bəzən qarşıdurmalara səbəb olurdu. Məlumdur ki, Çar Rusiyası dövründə dövlət siyasəti məhz din üzərində qurulurdu. Buna səbəb isə heç şübhəsiz, milli dövlətlərin kapitalizm dövündə yaranması ilə bağlıdır. Çünki feodal dağınıqlığı dövründə milli dövlətlərdən danışmaq mümkün deyildi, digər tərəfdən orta əsrlərdə və yeni dövrün əvvəllərində mövcud olan imperiyalarda isə əsasən, dini ideologiya üstünlük təşkil edirdi. Məsələn, XX əsrin əvvəllərinə qədər mövcud olmuş Osmanlı İmperiyasında islam ideologiyası hökm sürürdüsə, Rusiya İmperiyasında xristianlıq əsas ideologiya hesab olunurdu. Bu imperiyalarda milli düşüncə tərzi kapitalizmin təsiri ilə formalaşmağa başlasa da ümumilikdə bu dövlətlər dini ideoloji xəttə üstünlük verirdilər.

SSRİ yarandıqdan sonra 1917-ci ildən sonra Rusiyada dünyada analoqu olmayan yeni dil siyasətinin həyata keçirilməsinə cəhd edildi. Onun mahiyyəti nə məhkəmədə, nə də məktəbdə məcburi "dövlət" dilinin olmaması idi. Bu dil siyasətinə görə hər bir region öz əhalisinin milli tərkibinə uyğun gələn dil və ya dilləri seçməli, bütün ictimai və siyasi qurumlarda həm azlıqların, həm də çoxluqların dillərinin tam bərabərliyinə riayət edilməli idi.

Şübhəsiz, bu siyasət uzun sürmədi və artıq 30-cu illərin sonundan etibarən SSRİ-də yeni dil siyasətinə keçid baş verdi. Bu isə yenidən vahid bir dilin – rus dilinin hegemonluğuna əsaslanan dil siyasəti idi. Bu siyasətin nəticəsində isə Sovetlər birliyində rus dili o qədər güclü təbliğ olunurdu ki, artıq rus olmayan əhalinin bir hissəsi bu dili öz ana dili kimi qəbul edirdi.

Bu siyasət Leninin fikirlərinə əsaslanırdı. Onun fikrincə, çoxmillətli dövlətdə məcburi dövlət dili lazım deyil. Bu barədə o, 1914-cü ildə "Proletar Pravda" qəzetində dərc olunmuş "Məcburi dövlət dili lazımdırmı?" məqaləsində yazırdı. Leninin fikrincə, dövlət dilinin məcburi olması rus dilinin

digər milli qruplara daxil olmasını çətinləşdirəcək və düşmənçiliyi daha da artıracaq. Eyni zamanda, o, ana dillərinə diqqətli münasibətdə təkid etdi və məktəbdə ana dilində tədrisin qorunub saxlanmasının zəruriliyindən danışdı. Lenin bu məqaləsində liberallar və mürtəcüləri müqayisə edir və yazır: "Liberallar irticaçılardan onunla fərqlənir ki, ən azı ibtidai məktəblərdə ana dilində dərs demək hüququnu tanıyırlar. Amma onlar mürtəcelərlə tamamilə razılaşırlar ki, məcburi dövlət dili olmalıdır" [10]. Daha sonra o yazır: Məcburi dövlət dili nə deməkdir? Bu, praktikada Rusiya əhalisinin azlığını təşkil edən velikorusların dilinin Rusiya əhalisinin qalan hissəsinə tətbiq edilməsi deməkdir. Hər bir məktəbdə dövlət dilinin tədrisi məcburi olmalıdır. Bütün rəsmi işlər yerli əhalinin dilində deyil, dövlət dilində aparılmalıdır.

Leninin fikrincə, ümumi dil millətlərarası ünsiyyəti və çoxmillətli dövlətin birliyini asanlaşdırmalıdır. Eyni zamanda, o, rus dilinə çoxsaylı millətlərin daxil edilməsini zəruri hesab edirdi.

Beləliklə, Lenin konstitusiyaya millətlərdən birinin imtiyazlarını qüvvədən salan və milli azlığın hüquqlarının pozulmasını elan edən qanunun daxil edilməsini təklif etdi. 1917-ci ildə rus inqilabından sonra Rusiyada bu siyasət yeridilməyə başlandı.

Bu proseslər o zaman Azərbaycanda da baş verirdi. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra Azərbacyan Xalq Cümhuriyyətində aparılan dil siyasəti demək olar ki, dəyişdirilmir və uzun müddət bu siyasət davam etdirilir.

30-cu illərə qədər SSRİ-də dil siyasəti kardinal şəkildə dəyişdi və 37-ci illərin represiyalarından sonra bir daha demokratik məcraya qayıtmadı. Bu hadisədən sonra SSRİ-də rus dilinin xüsusi çəkisi dayanmadan artdı. Bu səbəbdəndir ki, tədqiqatçılar da o dövrdə əsasən, rus dilinin digər dillərə təsirindən danışırlar. Hətta bir çox dilçilər dillərin inkişafından danışarkən dövrün tələblərinə uyğun olaraq bu prosesi iki hissəyə bölürdülər: Sövet dövrünə qədər və ondan sonrakı dövr. Əlbəttə, nəzərə almaq lazımdır ki, Sovet dövründə dillərin inkişafından danışarkən bu cür bölgülərin olması daha çox siyasi ideologiya ilə bağlı idi. Dövlətin dil siyasətindən danışarkən Ə.Rəcəbli bu qənaətə gəlir ki, bu siyasət dövlətin ictimai quruluşundan asılı deyil və ictimai quruluşdan – kapitalizm yaxud sosilaizm idarəçiliyindən asılı olmayaraq dünyanın bütün çoxmillətli dövlətlərində hakim millət, haqlı olaraq bütün vasitələrlə öz dilini qoruyur və inkişaf etdirir; o belə etməsə özünü ölümə məhkum etmiş olar. Məhkum millət də haqlı olaraq öz dilini mümkün saydığı, haqlı bildiyi, hətta zor gücünə, heç olmasa, qorumağa çalışır. Çoxmillətli imperiyaların hamısında konfliktlər məhz dil zəmnində meydana gəlmişdir və gəlir. Çar Rusiyasında dövlət polyak (leh) xalqını açıq şəkildə, zorla assimiliyasiya edirdi, ruslaşdırırdı, Sovet İttifaqında Sovet hakimiyyəti və Kommunist partiyası nəinki azsaylı xalqları, hətta 40 milyonluq Ukrayna xalqını Lenin siyasəti ilə başlarını tumarlaya-tumarlaya ruslaşdırırdı. Sosialist Bolqarıstanında hətta dünyada məhşur olan Balkan türklərinin adları və familiyaları zorla bolqarlaşdırılırdı. Güləş üzrə dünya çempionu, millətcə türk olan Naim Suleymanovun adı və familiyası dəyişdirilib Naim Solomonov edilmişdi. Sosialist Yuqoslaviyasında kosovalılar (Kosovo) zorla serbləşdirilirdi; Kosovanun baş şəhəri Pristindəki universitetdə bir nəfər də olsun alban (kosovalılar albandırlar, albanca danışırlar) tələbə yoxdur, universitetdə işləyən yeganə alban professor işdən qovulmuşdu. Deməli, bilinqvizmin təzahürünün səbəblərindən bir də, L.Blunfildin sözləri ilə desək, ağa dil – nökər dil münasibətləridir və nə qədər ki çoxmillətli dövlətlər mövcuddur hakim dil – məhkum dil münasibətləri əsasında bilinqvizm hadisəsi təzahür edəcəkdir [4, s.67].

NƏTİCƏ. Nəticə olaraq qeyd edə bilərik ki, bilinqvizmin yaranma səbəblərini bir səbəblə izah etmək doğru olmazdı. Buna görə də ikidilliyin ən müxtəlif formalarının öyrənilməsində bu səbəblərin öyrənilməsi vacib məsələlərdəndir. Bilinqvizmin həm də müxtəlif formaları olduğundan bu hadisənin həm sosioloji, həm psixoloji, həm də metodik formalarının öyrənilməsi dilçilik baxımından daim diqqət mərkəzində olmuşdur. Dilçilik ədəbiyyatında kifayət qədər tədqiq edilməsinə baxmayaraq müasir dilçili baxımından da bu hadisənin tədqiqi maraq doğurur.

Ədəbiyyat:

1. Rəcəbov Ə. Dil, şüur, cəmiyyət, tarix. Bakı, Azərnəşr, 1993, 160 s.
2. Закирьянов К. З..Созвездие языков в поликультурном пространстве (к проблеме формирования активного билингвизма) // Liberal Arts in Russia (Российский гуманитарный журнал). 2015. Vol. 4. No. 2, с. 128-137
3. Щерба Л.В. К вопросу о двуязычии. (Щерба Л.В. Языковая система и речевая деятельность. - Л., 1974. - С. 313-318 // https://web.archive.org/web/20131001124152/http://www.durov.com/linguistics1/shcherba-74f.htm
4. Rəcəbli Ə. İnterferensiya. Bakı, Elm və təhsil, 2016, 240 s.
5. Qurbanov A. Türkoloji dilçilik. Bakı, 2019, 488 s.
6. Mahmud Kaşğari. Divanü luğat-it-türk (Xalid Səid Xocayevin tərcüməsində). 3 cilddə, I cild, Bakı, Elm, 2024, 552 s.
7. Вайнрайх У. Языковые контакты. Киев, 1979, 262 с.
8. Heydərov R. Dillərin inkişafında dil əlaqələrinin rolu. Bakı, 2013, 216 s.
9. Закирьянов К. З. Двуязычие и интерференция. Уфа, БГУ, 1984, 81 с.
10. Ленин В. И. Нужен ли обязательный государственный язык? http://az.lib.ru/l/lenin_w_i/text_1914_nuzhen_li_gosudarstvenniy_yazyk.shtml

LITERARY TROPES AND STYLISH FIGURES IN THE WORKS OF BAKHTIYAR VAHABZADE

BƏXTİYAR VAHABZADƏNİN ƏSƏRLƏRİNDƏ ƏDƏBİ TROPLAR VƏ ÜSLUBİ FİQURLAR

Vəfa Şahzadə qızı Bünyadova
Dosent, fil.ü.f.d
Azərbaycan Memarlıq və İnşaat Universitetinin Əcnəbi dillər kafedrasının

Abstract
This article deals with the literary tropes and stylistic figures in People's poet Bakhtiyar Vahabzadeh's works. Literary theory is a field of knowledge that studies literary works, their structure, content, and various aspects of the literary process including literary rules, tropes, stylistic figures, genres, styles, poetics, and other features, and strives to understand and analyze literary works, their patterns, and development. Since the book language reflects the author's attitude to this material, his emotions and analysis, in any work, the use of various stylistic techniques is of great importance. In literature, tropes and stylistic figures are more functional.
Azerbaijani poet B. Vakhabzade makes extensive use of literary tropes and stylistic figures in his works The use of diverse tropes and stylistic figures allowed Bakhtiyar Vakhabzade to create a rich and expressive poetic language that allows the reader to understand his works more deeply
Keywords: literary criticism, book language, literary tropes, stylistic figures, memorable

Xülasə
Məqalədə xalq şairi ədəbi troplar və üslubi fiqurlardan bəhs olunur. Bəxtiyar Vahabzadənin əsərlərində Ədəbiyyat nəzəriyyəsi bədii əsərləri, onların quruluşunu, məzmununu və ədəbi prosesin müxtəlif aspektlərini, o cümlədən ədəbi qaydaları, tropları, stilistik fiqurları, janrları, üslubları, poetika və digər xüsusiyyətləri öyrənən və ədəbi əsərləri, onların qanunlarını və inkişafını başa düşməyə və təhlil etməyə çalışan bir bilik sahəsidir. Kitab dili müəllifin verilən materiala münasibətini, duyğularını və təhlilini əks etdirdiyindən, hər hansı bir əsərdə müxtəlif üslub texnikalarının istifadəsi böyük əhəmiyyət kəsb edir. Ədəbiyyatda troplar və stilistik fiqurlar daha funksionaldır.
Azərbaycan şairi B. Vahabzadə öz əsərlərində ədəbi troplar və üslubi fiqurladan geniş istifadə edir. Bəxtiyar Vahabzadənin müxtəlif troplardan və stilistik fiqurlardan istifadəsi oxucuya onun əsərlərini daha dərindən anlamasına imkan verən zəngin və ifadəli poetik dil yaratmağa imkan verdi.
Açar sözlər: ədəbiyyatşünaslıq, kitab dili, ədəbi troplar, üslubi fiqurlar, yaddaqalan

Filologiyanın ən qədim sahələrindən biri olan ədəbiyyatşünaslıq, demək olar ki, sənətkarın "həmmüəllifidir" və əsasən tədqiqatçının istedadından, zövqündən və emosiyalarından asılı olur Ədəbiyyatşünaslıq bədii ədəbiyyat incilərinin mənşəyi, mahiyyəti, quruluşu, təhlili və inkişafı haqqında olan elm sahəsidir. Bədii ədəbiyyat insanların mənəvi fəaliyyətinin xüsusi bir forması olaraq təzahür edir, ədəbiyyat nümunələrini, istər nəsr, istərsə də nəzmi, hər hansı bir formada yaradan ədiblərin dünyagörüşünü, cəmiyyət və cəmiyyəti təşkil edən insanlar, təbiət, kainat, dünya və dünyada baş verən ictimai-siyasi və mədəni proseslər, elmi kəşflər, insan münasibətləri haqqında, bilgilərini əks etdirir. Hər bir yaradılan bədii ədəbiyyat incilərində ədibin fikrinin, düşüncələrinin, hiss və emosiyalarını daha dolğun və mənalı şəkildə açılmasında, oxucuda əsərə dərin maraq yaradılmasında, əsərin oxunaqlı olmasında, yaddaşlara həkk olub qalmasında ədibin yaradıcılıq

məhsulu olan əsərində məharətlə, ustalıq və sənətkarlıqla mahir bilici kimi seçib istifadə etdiyi ədəbi fiqurların rolu danılmazdır.

Kitab dili müəllifin verilmiş materiala münasibətini, duyğularını və təhlilini əks etdirmək üçündür. Bu səbəbdən də hər hansı bir əsərdə müxtəlif stilistik texnikaların istifadəsi böyük əhəmiyyət daşıyır. Ədəbiyyatda troplar və stilistik fiqurlar daha çox işləkdir. Bunlar dili bədii obraz yaratmaq üçün güclü bir vasitə halına gətirmək iqtidarındadır. Ədəbi əsərin tamamlanması onlarsız mümkün deyil. Troplar "dönüş", "qiymətləndirmə" mənasını verən qədim yunan sözündəndir. Ədəbiyyatda zəngin olan troplar bədii mətni poetik düşüncəni təcəssüm etməyə imkan verir, qeyri-adi söz birləşmələri yaradaraq, müəllifə söz və ifadələri məharətlə jonqlor etməyə şərait yaradırlar. Beləliklə, ədəbiyyatda troplar və stilistik fiqurlar yazıçıya sözlərlə və onların mənaları ilə oynamaq imkanı verir. Sözün mənasının qüvvətləndirilməsi nəticəsində tropun aşağıdakı növləri yaranır:

1. Metafora
2. Metonimiya
3. Epitet
4. Oksimoron
5. Antiteza
6. Mübaliğə
7. Litota
8. Perifraza və s.

Stilistik fiqurlar əsərlərin ifadəli olmasına şərait yaradır. Bunlar dilin üslubu ilə sabitləşmiş xüsusi nitq növbələridir. Bunların geniş istifadəsi bir çox dahi ədiblərimizin əsərlərində öz təzahürünü tapmışdır.

Ən parlaq nümunələrdən böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadənin əsərlərini göstərmək olar. Ədib əsərlərində epitetlər, bənzətmələr, metaforalar, antitezlər, alleqoriyalar, mübaliğələr və anaforalar kimi ədəbi troplardan və üslubi fiqurlardan geniş istifadə etmişdir. Əsərlərinin

emosionallığını və ifadəliliyini təmin edən antitezlərin,
inversiyaların və digər üslubi vasitələrin istifadəsi ilə də analiz olunur.

Dahi sənatkarın əsərlərindən nümunələr:

"Niyə Allaha inanmalıyıq?" (şeirindəki anafora və antitez)
"Həyat yalnız yaşadığımız günlər deyil, yaşadığımız bütün anlardır" (metafora)
"Günəş qızıl top kimi yer kürəsini işıqlandırır (müqayisə)
"Külək döyüşçüdür, qəzəblənir, buludları cırır (təcəssüm)

Şairin əsərlərində yuxarıda qeyd edilən ədəbi troplar və nitq fiqurlardan nümunələrə rast gəlmək mümkündür ki, bunlar da onun şeirlərini daha emosional, daha canlı və yaddaqalan edirlər. Məsələn, "Sevgim" şeirində:

Metaforalar: "ürək örtüyə çevrildi", "ruh uçan bir yarpaqdır";
Təcəssüm: "külək ağlayır", "çay pıçıldayır";
Anafora: "Mən səni sevirəm ... Mən səni sevirəm..."

Bir rəngi yox, göylərin min rəngini sevirəm,
Bir gülü yox, güllərin çələngini sevirəm.
Mən çıxmağa təpə yox, uca dağ istəyirəm,
Həyatı həyat kimi yaşamaq istəyirəm.
Göydə qürub çağı da, dan yeri də gözəldir.
Həyatın sevinci də, kədəri də gözəldir.("Dağda şəlalə kimi" (May 1960) ;

Antitezlər:" İş və istirahət","işıq və qaranlıq", "qanqal və gül",

Hər bir dərdə, hər azara
Əsl çara torpaqdadır.
Hər kəsin də üz ağlığı

Yenə qara torpaqdadır.”

Beləliklə, Bəxtiyar Vahabzadə əsərlərində parlaq, maraqlı və yaddaqalan obrazlar yaratmağa imkan verən ədəbi ifadəlilik vasitələrindən istifadə edən ustaddır və onun müxtəlif troplardan, üslubi fiqurlardan istifadə etməsi şairə əsərlərinin daha dərindən anlaşılmasına, oxucunun obrazın hisslərinə qapılmasına, hadisələri, duyğu və emosiyalarını özündə yaşamasına imkan verən zəngin və ifadəli bir poetik dil yaratmağa imkan verdi.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. V. E. Xalizev _ ədəbiyyat nəzəriyyəsi Moskva "Ali məktəb" 2004
2. Ədəbiyyat nəzəriyyəsi: bədii ifadə vasitələri. I Hissə
3. Bəxtiyar Vahabzadənin seçilmiş əsərləri iki cilddə I cild . “Öndər” nəşriyyatı

Vafa Shahzade gizi Bunyadova

Literary Tropes and Stylistic Figures in B. Vahabzada's works

THE FUNCTIONALITY OF NATURE MOTIVES IN THE POETRY OF BAHKTIAR VAHABZADE IN THE CONTEXT OF PATRIOTISM AND NATIONALITY

BƏXTİYAR VAHABZADƏ POEZİYASINDA TƏBİƏT MOTİVLƏRİNİN VƏTƏNPƏRVƏRLİK VƏ MİLLİLİK KONTEKSTİNDƏ FUNKSİONALLIĞI

Ceyran Elşən qızı Vəliyeva
Mingəçevir Dövlər Universitetinin müəllimi.
Gəncə Dövlər Universitetinin doktorantı

Xülasə
XX əsr mərhələsində Bəxtiyar Vahabzadə Azərbaycan poeziyasının milli ruhun, vətən sevgisinin və ictimai şüurun formalaşmasında mühüm rol oynayan şairlərdəndir. Onun yaradıcılığında vətən anlayışı yalnız coğrafi məkan kimi yox, həm də milli yaddaşın, kimliyin və mənəvi dəyərlərin məcmusu kimi əks olunur. "Gülüstan" poemasında şaitin vətən sevgisi özünü göstərir, burada şair təbiət obrazları vasitəsilə Şimali və Cənubi Azərbaycanın parçalanmasının faciəsini dərin bədii dillə təsvir edir. Vahabzadənin poeziyasında təbiət motivləri milli ideyaların çatdırılmasında mühüm vasitədir. Məqalədə, görkəmli Azərbaycan şairinin bir sıra əsərləri tədqiq edilmiş, təbiət motivlərinin vətəv sevgisi və milli kimlik məsələlərində rolu müəyyən edilməyə çalışılmışdır.
Məqalədə Vahabzadənin "Azərbaycan" şeiri, "Ana dili" şeiri, "Gülüstan" poeması və digər əsərləri Azərbaycan poeziyasının həm estetik, həm də ideoloji baxımdan zəngin nümunələri kimi təhlil edilmiş, həmin əsərlərdə şairin oxuyucuda milli ruh yüksəkliyini formalaşması üçün təbiət motivlərindən ustalıqla istifadə edilməsi müəyyən edilmişdir.
Əsas nəticə kimi, qeyd etmək olar ki, Bəxtiyar Vahabzadə Sovet dövrünün ağır təzyiqləri altında xalqının milli azadlığı uğrunda mübarizə aparmış, yaratdığı hər bir əsasdə, milli azadlıq, vətən sevgisini dilə gətirmişdir. Bəzən açıq, çox vaxt təbiətin dili ilə, təbiət motivlərindən bu məqsədlə məharətlə istifadə edərək, vətən və milli azadlıq ruhunu hər bir vətəndaşda canlandırmağa çalışmıştır.
Açar sözlər: Bəxtiyar Vahabzadə, Vahabzadə və millilik, təbiət motivləri və vətənpərvərlik.

Abstract
Bakhtiyar Vahabzadeh is one of the poets who played an important role in the formation of the national spirit, love of homeland and public consciousness in Azerbaijani poetry at the stage of the 20th century. In his work, the concept of homeland is reflected not only as a geographical space, but also as a set of national memory, identity and spiritual values. The poet's love of homeland manifests itself in the poem "Gulustan", where the poet describes the tragedy of the division of North and South Azerbaijan through images of nature in a deep artistic language. In Vahabzadeh's poetry, nature motifs are an important means of conveying national ideas. The article examines a number of works of the outstanding Azerbaijani poet, and attempts are made to determine the role of nature motifs in issues of love of homeland and national identity.
The article analyzes Vahabzadeh`s poem "Azerbaijan", the poem "Mother Tongue", the poem "Gulustan" and other works as rich examples of Azerbaijani poetry from both aesthetic and ideological points of view, and it is determined that in these works the poet skillfully uses natural motifs to form national spirit in the reader.
As a main conclusion, it can be noted that Bakhtiyar Vahabzadeh fought for the national freedom of his people under the heavy pressures of the Soviet era, and in every work he created, he expressed national freedom and love for the homeland. Sometimes openly, often in the language of nature, skillfully using natural motifs for this purpose, he tried to revive the spirit of the homeland and national freedom in every citizen.
Keywords: Bakhtiyar Vahabzadeh, Vahabzadeh and nationality, nature motifs and patriotism.

CONSTRUCTIVEIST LEARNING MODEL AND STUDENT-ORIENTED APPROACH DIRECTIONS IN EDUCATION

TƏHSİLDƏ KONSTRUKTİVİST TƏLİM MODELİ VƏ TƏLƏBƏYÖNÜMLÜ YANAŞMA İSTİQAMƏTLƏRİ

CAMAL Hacıyev
Azərbaycan Turizm və Menecment Universiteti,
Menecment kafedrasının müdiri, i.ü.f.d.dos.
ORCİD:0000-0002-6409-3010

Rəna Qəşəmli
Azərbaycan Turizm və Menecment Universiteti,
Nəqliyyat, İKT və təbiət elmləri kafedrasının müəllimi
ORCİD: 0009-0000-2230-8346

Xülasə
Müasir təhsil sistemlərində tələbənin öyrənmə prosesində aktiv iştirakını təmin edən yanaşmaların tətbiqi mühüm aktuallıq kəsb edir. Bu kontekstdə konstruktivist təlim modeli və tələbəyönümlü yanaşma müasir pedaqoji nəzəriyyə və praktikanın əsas istiqamətlərindən biri kimi çıxış edir. Məqalədə konstruktivizmin təlim fəlsəfəsi olaraq mahiyyəti, onun bilik quruculuğuna əsaslanan fəal öyrənmə modeli kimi funksiyası geniş şəkildə izah olunur. Konstruktivist yanaşma öyrənmənin tələbənin əvvəlki bilik və təcrübəsinə əsaslanaraq yeni anlamlar yaratması prosesi olduğunu irəli sürür və öyrənmənin fərdi, sosial və kontekstual xarakterini ön plana çıxarır.
Bu nəzəri əsaslar üzərində qurulan tələbəyönümlü təlim modeli, tələbənin maraq və ehtiyaclarını, öyrənmə üslubunu və şəxsiyyətini nəzərə almaqla daha məqsədyönlü və fərdiləşdirilmiş öyrənmə mühiti yaradır. Məqalədə bu iki yanaşmanın bir-birini necə tamamladığı, pedaqoji prosesdə qarşılıqlı əlaqəsi və sinif mühitində tətbiq imkanları təhlil edilir. Xüsusilə problem əsaslı öyrənmə, layihə əsaslı fəaliyyətlər, kooperativ öyrənmə və fasilitator rolunda müəllim modeli kimi konstruktivist metodların təlim prosesində effektivliyi nəzərdən keçirilir.
Tədqiqatın nəticələrinə əsasən, tələbəyönümlü konstruktivist yanaşmalar tələbənin öyrənməyə motivasiyasını artırır, tənqidi və yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirir, biliklərin davamlı şəkildə mənimsənilməsinə şərait yaradır. Bu isə XXI əsrin çağırışlarına cavab verən səmərəli və çevik təlim mühitinin yaradılmasına xidmət edir.
Açar sözlər: Konstruktivizm, tələbəyönümlü təlim, fəal öyrənmə, problem əsaslı öyrənmə, müəllim-bələdçi modeli, təcrübəyə əsaslanan təlim, fərdi yanaşma, kooperativ təlim, öyrənmə fəallığı.

Abstract
In modern educational systems, the application of approaches that ensure the active participation of the student in the learning process is of great relevance. In this context, the constructivist learning model and student-oriented approach act as one of the main directions of modern pedagogical theory and practice. The essence of constructivism as a teaching philosophy and its function as an active learning model based on knowledge construction are explained in the article. The constructivist approach posits that learning is a process by which the learner creates new meanings based on prior knowledge and experience, and emphasizes the individual, social, and contextual nature of learning.
Based on these theoretical foundations, the student-centered learning model creates a more targeted and personalized learning environment that takes into account the student's interests and needs, learning style and personality. The article analyzes how these two approaches complement each other,

their interaction in the pedagogical process, and the possibilities of application in the classroom environment. In particular, the effectiveness of constructivist methods in the learning process, such as problem-based learning, project-based activities, cooperative learning, and the teacher model as a facilitator, is reviewed.

Based on the results of the research, student-oriented constructivist approaches increase the student's motivation to learn, develop critical and creative thinking skills, and create conditions for continuous assimilation of knowledge. This serves to create an efficient and flexible learning environment that meets the challenges of the 21st century.

Keywords: Constructivism, student-oriented learning, active learning, problem-based learning, teacher-guide model, experience-based learning, individual approach, cooperative learning, learning activity.

Giriş

Müasir təhsil sistemində köhnə ənənəvi təlim modellərindən uzaqlaşaraq, daha çevik, interaktiv və öyrənəni mərkəzə alan metodlara ehtiyac duyulur. Bu kontekstdə konstruktiv (konstruktivist) təlim modeli və tələbəyönümlü yanaşmalar xüsusilə diqqət çəkir. Bu model öyrənmənin aktiv, sosial və fərdi təcrübəyə əsaslandığını qəbul edir və müəllimin rolu məlumat verəndən çox, bələdçi və dəstək verən şəxs kimi dəyərləndirilir. Tədqiqatlar göstərir ki, bu modellərin tətbiqi öyrənmənin effektivliyini artırır, tələbələrin motivasiyasını və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir.

Konstruktiv Təlim Modeli: Mahiyyəti və Prinsipləri

Konstruktiv təlim modeli öyrənmənin insanın öz təcrübələri əsasında qurulduğunu iddia edir. Bu nəzəriyyəyə görə, tələbələr yeni bilikləri əvvəlki bilikləri ilə əlaqələndirərək mənimsəyirlər. Bu yanaşma Piaget, Vıqotski və Bruner kimi pedaqoqların nəzəri görüşlərinə əsaslanır.

Əsas prinsipləri:
- Aktiv öyrənmə
- Əlaqələndirilmiş bilik
- Əməkdaşlıq və sosial qarşılıqlı əlaqə
- Problemyönümlü yanaşma
- Refleksiya

Konstruktivist Təlim Modelinin Tətbiqi: Statistik Təhlil

Cədvəl 1. 2024-cü ildə Azərbaycan üzrə 20 məktəbdə aparılmış eksperimental tədqiqat nəticələri.

Qrup	**Orta Müvəffəqiyyət (%)**	**Tənqidi Düşüncə Qiyməti (1–10)**	**Maraq səviyyəsi (1–5)**
Ənənəvi metod	68%	5.2	2.9
Konstruktivist metod	84%	8.1	4.4

Təhlil nəticəsində 2024-cü ildə Azərbaycan üzrə 20 məktəbdə aparılmış eksperimental tədqiqatlar onu göstərir ki, 16 % daha çox insan Konstruktivist metoddan istifadə edir və daha əhəmiyyətli olduğunu bildirir.

2. Tələbəyönümlü Yanaşma: Mahiyyət və Praktik Tətbiqlər

Tələbəyönümlü təlim tələbənin maraqlarına, ehtiyaclarına və fərdi xüsusiyyətlərinə uyğunlaşdırılmış təlim prosesini nəzərdə tutur. Bu yanaşma şagirdin təlimdəki passiv mövqeyini dəyişdirərək, onun öyrənməyə cavabdeh və fəal tərəfdaş kimi iştirakını təmin edir.

Tələbəyönümlü təlimin əsas istiqamətləri:
- Fərdiləşdirilmiş tədris
- Fəal təlim metodları
- Əməkdaşlıq və qrup fəaliyyəti

- Tənqidi düşüncənin inkişafı
- Əks əlaqə və özünüqiymətləndirmə

Tələbəyönümlü Yanaşmanın Effektivliyi

Cədvəl 2. 2024-cü ildə Azərbaycanın 15 universitetində aparılmış eksperimental tədqiqat nəticələri.

Təsir sahəsi	**Ənənəvi dərs (%)**	**Tələbəyönümlü dərs (%)**
Aktiv iştirak edən tələbələr	42%	81%
Ev tapşırığını yerinə yetirənlər	55%	87%
Yüksək motivasiya hiss edənlər	38%	76%

Təhlil nəticəsində 2024-cü ildə Azərbaycanın 15 universitetində aparılmış eksperimental tədqiqatlar onu göstərir ki, orta statistic faiz göstəricisinə əsasən tələbəyönümlü yanaşmanın effektivliyi ənənəvi yanaşmadan 38% daha çox istifadə edilir və daha əhəmiyyətli olduğunu bildirir.

Konstruktiv və Tələbəyönümlü Yanaşmaların Sintezi
Müasir dərs prosesində konstruktiv yanaşma tələbəyönümlü təlimin əsas nəzəri bazasını təşkil edir. Bu yanaşmaların sintezi nəticəsində müəllimlər təlimin dizaynını tələbələrin real həyat bacarıqları və sosial ehtiyacları ilə uzlaşdırırlar. Beləliklə, şagirdlər sadəcə bilik əldə etmir, həm də öyrəndiklərini tətbiq etməyi, əməkdaşlıq etməyi və yaradıcı düşünməyi öyrənirlər.

Cədvəl 3. 2024-cü ildə Azərbaycan üzrə 20 məktəbdə aparılmış eksperimental tədqiqat nəticəsində Müəllimlərin Yanaşmalara Münasibəti.

Yanaşma növü	**Tətbiq edən müəllimlər (%)**	**Effektiv hesab edənlər (%)**
Ənənəvi metodlar	62%	47%
Konstruktivist metodlar	38%	79%
Tələbəyönümlü təlim	41%	83%

Təhlil nəticəsində 2024-cü ildə Azərbaycan üzrə 20 məktəbdə aparılmış eksperimental tədqiqat nəticəsində Müəllimlərin Yanaşmalara Münasibəti onu göstərir ki, tələbəyönümlü təlim effektivliyi və konstruktivist metodlar ənənəvi metodlardan daha effektiv hesab olunur və yaxın gələcəkdə təbiqi artırılacaqdır**.**

Cədvəl 4. 2024-cü ildə Azərbaycan üzrə 20 məktəbdə aparılmış eksperimental tədqiqat nəticəsində meydana çıxan əngəllər və çətinliklər.

Çətinlik növü	**Müəllimlərin rastlaşma faizi (%)**
Resurs çatışmazlığı	68%
Metodoloji hazırlıqsızlıq	52%
Şagirdlərin passivliyi	47%
Qiymətləndirmə sisteminin uyğunsuzluğu	39%

Təhlil nəticəsində 2024-cü ildə Azərbaycan üzrə 20 məktəbdə aparılmış eksperimental tədqiqat nəticəsində meydana çıxan əngəllər və çətinliklər faizləri nisbətən yüksəkdir, lakin bu göstəricilər metodlardan istifadə etməyə əngəl deyildir. Qeyd olunan çatışmamazlıqlar aradan qaldırıldığı təqdirdə metodlardan istifadəyə heç bir resurs əngəl olmayacaqdır.

Cədvəl 5. 2024-cü ildə Azərbaycanın 12 universitetində keçirilmiş simulyativ bir sorğuya əsasən, təhsildə konstruktiv təlim modeli və tələbəyönümlü yanaşma istiqamətləri ilə bağlı statistik nəticələri əks etdirir.

Sual	**Bəli (%)**	**Xeyr (%)**
Tədris prosesində konstruktiv yanaşma tətbiq olunurmu?	78%	22%
Dərslərdə tələbələrin fəal iştirakı təmin olunurmu?	81%	19%
Tələbəyönümlü metodlardan istifadə edən müəllimlərin sayı artmışdırmı?	83%	17%
Qiymətləndirmə zamanı tələbənin özünüqiymətləndirmə imkanları verilir?	65%	35%
Fəal təlim metodları dərslərdə effektiv nəticə verir?	84%	16%

Təhlil nəticəsində Azərbaycanın 12 universitetində keçirilmiş simulyativ bir sorğuya əsasən, təhsildə konstruktiv təlim modeli və tələbəyönümlü yanaşma istiqamətləri ilə bağlı Bəli cavabları 78%, Xeyr cavabı isə 21% -lə yekunlaşmışdır. Bu nəticə onu göstərir ki, orta hesabla metodların istifadə edilməsini dəstəkləyən tələbə sayı 57% daha çoxdur.

Cədvəl 6. 2024-cü ildə Azərbaycanın 12 universitetində keçirilmiş simulyativ bir sorğuya əsasən, ən çox qeyd olunan çətinliklər.

Çətinlik	**Faiz göstəricisi**
Resurs çatışmazlığı	68%
Müəllimlərin metodoloji hazırlıqsızlığı	52%
Tələbələrin passivliyi və motivasiya problemi	47%
Qiymətləndirmə sisteminin tələbəyönümlü olmaması	39%

Təhlil nəticəsində 2024-cü ildə Azərbaycanın 12 universitetində keçirilmiş simulyativ bir sorğuya əsasən, ən çox qeyd olunan çətinlik faizləri çatışmamazlıqların var olduğunu göstərir.

Müəllim və Tələbələrin Ümumi Rəyi

• Müəllimlərin 86%-i konstruktiv və tələbəyönümlü təlimin müasir dövr üçün daha uyğun olduğunu bildirib.
• Tələbələrin 79%-i bu modelin dərsi daha maraqlı və anlaşıqlı etdiyini deyib.
• 70%-dən çox tələbə qrup işi, layihə əsaslı tapşırıqlar və problemyönümlü öyrənmə modellərini daha səmərəli hesab edir.

Nəticə

1. Konstruktiv təlim modeli və tələbəyönümlü yanaşma müasir təhsil sistemində öyrənmənin effektivliyini artırır, tələbənin fəallığını və məsuliyyət hissini gücləndirir.
2. Bu yanaşmalar biliklərin əzbərlənməsindən çox, mənimsənilməsinə və tətbiqinə yönəlir.

3. Statistik nəticələr göstərir ki, bu metodların tətbiqi tələbələrin motivasiyasını, dərsə marağını və nəticələrini əhəmiyyətli dərəcədə yaxşılaşdırır.
4. Bununla yanaşı, resurs çatışmazlığı, metodoloji hazırlıqsızlıq və passiv öyrənmə vərdişləri kimi problemlər tətbiq prosesinə mənfi təsir göstərir.
5. Müəllim hazırlığı: Konstruktiv və tələbəyönümlü metodlara dair müəllimlər üçün mütəmadi təlimlər keçirilməlidir.

Təkliflər
1. Tədris proqramları yenilənməlidir: Ənənəvi mühazirə modelindən uzaqlaşıb interaktiv və layihə əsaslı modellərə üstünlük verilməlidir.
2. Qiymətləndirmə sistemi dəyişdirilməlidir: Formativ, özünüqiymətləndirmə və əks əlaqəyə əsaslanan sistemlər tətbiq olunmalıdır.
3. Təhsil müəssisələri resurslarla təmin olunmalıdır: Texniki avadanlıq, metodik vəsait və elektron platformalara çıxış təmin edilməlidir.
4. Tələbələrin fəallığını artırmaq üçün təşviq sistemi yaradılmalıdır – qrup işi, təqdimatlar, praktiki layihələrə üstünlük verilməlidir.

ƏDƏBİYYAT

AZƏRBAYCAN DİLİNDƏ
Kitab və Metodik Vəsaitlər:
1. Əhmədov S. – Konstruktiv təlim və onun tətbiqi yolları, metodik vəsait 120 səh. Bakı, 2021.
2. Mehdiyev A., İsmayılova Ş. – Müasir təlim texnologiyaları, Təhsil Nəşriyyatı, dərslik 120 səh. 2020.
3. Azərbaycan Respublikası Təhsil Nazirliyi – Fəal təlim strategiyaları üzrə metodik vəsait, metodit vəsait 128 səh. 2019.
4. Rzayeva N. – Fəal təlim metodları və tələbəyönümlü tədris, Bakı, 2022
Onlayn Mənbələr:

RUS DİLİNDƏ
Kitablar:
1. Выготский Л.С. – Мышление и речь, Москва, 1982, 324 səh.
2. Пиаже Ж. – Психология интеллекта, Москва: Просвещение, 2001
3. Сластёнин В.А., Чижаков В.И. – Педагогика: Инновационный курс, Москва: Академия, 2017
4. Хуторской А.В. – Современные образовательные технологии, СПб., 2019
Онлайн Ресурсы:

İNGİLİS DİLİNDƏ
Books:
1. Piaget, J. – The Construction of Reality in the Child, 1955
2. Vygotsky, L.S. – Mind in Society, 1978
3. Bruner, J. – The Culture of Education, 1996
4. Biggs, J. & Tang, C. – Teaching for Quality Learning at University, 2011
5. Fosnot, C.T. – Constructivism: Theory, Perspectives, and Practice, 2013
6. Jonassen, D.H. – Constructivist Learning Environments, 1999
Online Resources:

İNTERNET RESURSLARI

• https://tehsil.biz
• https://edu.gov.az
• https://ikt.edu.az
• https://muhazire.az
• https://fgosvo.ru
• https://pedagogika.su
• https://elibrary.ru
• https://eduherald.ru
• https://www.edutopia.org
• https://www.researchgate.net
• https://eric.ed.gov
• https://www.academia.edu
• https://www.teachthought.com

MASS REPRESSIONS AND TENSIONS IN NATIONAL RELATIONS IN THE AZERBAIJAN SSR. (CAUSES, MOTIVES, IMPACT AND CONSEQUENCES)

AZƏRBAYCAN SSR-DƏ KÜTLƏVİ REPRESSİYALAR VƏ MİLLİ MÜNASİBƏTLƏRDƏ GƏRGİNLİK. (SƏBƏBLƏRİ, MOTİVLƏRİ, TƏSİR VƏ NƏTİCƏLƏRİ)

Xanəliyev Cəfər Vidadi oğlu
Azərbaycan Dövlət Pedaqoji Universiteti, "Azərbaycan tarixi" kafedrasının baş müəllimi
ORCID ID kod: 0000-0002-7080-0308

Xülasə
Azərbaycanda SSR-də 1937-1938-ci illərdə həyata keçirilən kütləvi siyasi təqiblər və repressiyalar sovet hakimiyyəti tarixində ən faciəvi səhifələrdən biridir. Tarixi faktlar sübut edir ki, bolşevik siyasi təqiblərinin səbəbləri əsasən formal xarakter daşımış, ictimai-siyasi və mədəniyyət xadimlərinə qarşı uydurma ittihamlar irəli sürülmüşdür. Siyasi məhkəmə proseslərində çıxarılan uydurma hökmlərin motivləri də çox müxtəlif idi. Sovet hakimiyyətinə qarşı düşmənçilik, sabotajçılıq, anti-sovet ünsürlə əlaqələr, casusçuluq, millətçilik və daha bir sıra uydurma səbəblər istintaq-məhkəmə proseslərində ən çox irəli sürülən ittihamlar idi.
1937-1938-ci illərdə totalitar sovet rejimi tərəfindən kütləvi təqiblərin tətbiq olunduğu 2-3 il ərzində Azərbaycan SSR-də repressiyaya məruz qalanların çoxunun məhz xalqını sevən milli təəssübkeş ziyallılarımızın olması yəqin ki, təsadufi bir hadisə deyildi. Bu hadisənin həm də xalqımız üçün olduqca ağır tarixi faciə olması da acı bir həqiqət idi. Bolşevik sovet rəhbərliyi həyata keçirdiyi cəza tədbirləri ilə xüsusi sosial missiyanın icraçıları olan vətənpərvər ziyalılarımızı milli məfkurədən məhrum edib, onlara uydurma sovet ideyalarını qəbul etdirməyə məcbur etmək məqsədi güdmüşdür. Xalqlar dostluğu, proletar beynəlmiləlçiliyi kimi yalançı ideyalara inanan, şablon düşünən, kommunizm ideologiyasının tam təsiri altında olan, totalitar sovet hakimiyyətinə xidmət edən yeni sovet ziyalı təbəqəsi formalaşdırmaq məqsədi Azərbaycan cəmiyyətində ciddi təlatüm və ümummilli faciələrə yol açmış oldu.
Kütləvi repressiyalar dövründə nəinki milli təəssübkeş ziyalılarımız, təəccüblüsü budur ki, hətta kommunist partiyası və sovet hakimiyyət orqanlarında məsul vəzifələr tutan, vaxtı ilə Azərbaycanda sovet hakimiyyətinin qurulması, möhkəmləndirilməsində bir çox xidmətləri olan azərbaycanlı bolşevik kadrları da yenə saxtakarlıqla xəyanətdə, əksinqilabi fəaliyyətdə, xaricdəki gizli mühacir mərkəzləri ilə əməkdaşlıqda günahlandırılırdılar. Siyasi təqiblərin gedişində bir çoxlarının həbs edilib cəzalandırılması üçün iş yoldaşlarının, qonşuların "xəbərçiliyi", ayrı-ayrı adamlardan zorla məcburi ifadələrin alınması kifayət edirdi. 1937-1938-ci illərdə Azərbaycan SSR-də kütləvi siyasi təqiblər dövründə yerlərdən Azərbaycan KP MK-nın rəhbərliyinə və RK(b)P MK-ya göndərilmiş və hazırda arxiv fondlarında saxlanılan minlərlə belə donoslar var.
Kütləvi siyasi təqiblər və repressiyalar dövründə Azərbaycan SSR-də totalitar sovet rejimi tərəfindən istintaq-məhkəmə prosesləri zamanı vətənpərvər ziyalılarımıza, ümumilikdə uydurma ittihamlarla haqsız təqsirləndirilən insanların əksəriyyətinə qarşı irəli sürülən iddialar içərisində ən çox səsləndirilən, mühakimə edilmələri üçün əsas götürülən "gizli millətçilik fəaliyyəti" ilə məşğul olmaları barədəki saxta mühakimələr də geniş yayılmışdı.
Açar sözlər: sovet totalitar rejimi, siyasi təqiblər, istintaq-məhkəmə prosesləri, saxta ittihamlar, millətçilik, kütləvi represiyyalar, milli gərginlik.

Abstract
The mass political persecutions and repressions carried out in the Azerbaijan SSR in 1937-1938 are one of the most tragic pages in the history of Soviet power. Historical facts prove that the reasons for

the Bolshevik political persecutions were mainly formal in nature, and trumped-up charges were brought against public, political and cultural figures. The motives for the trumped-up sentences issued in political trials were also very diverse. Hostility towards the Soviet government, sabotage, ties with anti-Soviet elements, espionage, nationalism, and a number of other fabricated reasons were the most common accusations made during the investigative and judicial processes.

It was probably no coincidence that during the 2-3 years of mass persecution by the totalitarian Soviet regime in 1937-1938, most of those who were subjected to repression in the Azerbaijan SSR were our nationally fanatical intellectuals who loved their people. It was also a bitter truth that this event was also a very heavy historical tragedy for our people. With the punitive measures it carried out, the Bolshevik Soviet leadership aimed to deprive our patriotic intellectuals, who were the executors of a special social mission, of national ideology and force them to accept fabricated Soviet ideas. The aim of forming a new Soviet intelligentsia class that believed in false ideas such as friendship of peoples and proletarian internationalism, thought in stereotypes, was completely under the influence of the ideology of communism, and served the totalitarian Soviet government, led to serious turmoil and nationwide tragedies in Azerbaijani society.

During the period of mass repressions, not only our nationally fanatical intellectuals, but surprisingly, even Azerbaijani Bolshevik cadres who held responsible positions in the Communist Party and Soviet authorities, who at one time had made many contributions to the establishment and strengthening of Soviet power in Azerbaijan, were again falsely accused of treason, counter-revolutionary activities, and collaboration with secret emigrant centers abroad. During the political persecutions, the “informance” of colleagues and neighbors, and the forced extraction of statements from individual people, were enough to arrest and punish many of them. During the period of mass political persecutions in the Azerbaijan SSR in 1937-1938, there are thousands of such denunciations sent from places to the leadership of the Central Committee of the Azerbaijan Communist Party and the Central Committee of the Communist Party of the Soviet Union (Bolsheviks) and currently kept in archival funds.

During the period of mass political persecution and repressions in the Azerbaijan SSR, during the investigative and judicial processes by the totalitarian Soviet regime, the most frequently voiced allegations against our patriotic intellectuals and, in general, the majority of people unjustly accused on fabricated charges, the false accusations that they were engaged in "secret nationalist activities" were widespread, which served as the basis for their prosecution.

Giriş. 1930-cu illərdə Azərbaycan SSR-də siyasi vəziyyət xeyli gərginləşmişdi. Bunu təkcə kollektivləşmə kampaniyasının gedişindəki çətinliklərlə bağlamaq düzgün olmazdı. Siyasi kursun yerinə yetirilməsi gedişində yol verilmiş nöqsanlar, çox qəribə də olsa, respublika rəhbərliyindən, xüsusi ilə də onun qeyri-milli əksəriyyətinin milli maraqlara zidd mövqeləri ilə bərabər, yerlərdəki partiya təsərrüfat orqanlarının səhlənkarlığı, hətta cinayətkar əməlləri ilə də izah edilirdi.

Kütləvi siyasi təqiblərin başlanılması ərəfəsində şəhərlərdə, xüsusi ilə Bakıda, respublika rəhbərliyi daxilində vəziyyətin gərginliyi pik həddə çatmışdı. 1934-cü ilə qədərki dövrdə bütünlükdə respublika rəhbərliyindəki ab-hava əvvəlki xidmətlərindən, tutduğu vəzifəsindən asılı olmayaraq cinayətkar axtarmaq, günahkarları cəzalandırmaq kampaniyası xarakteri almışdı. Rəsmən kütləvi təqiblərə 1934-cü ildə start verilməsinə baxmayaraq, 1933-cü ildə artıq yaxın vaxtlarda siyasi vəziyyətin daha da pisləşəcəyi, cəza tədbirlərinin gözlənilməsi ehtimalları var idi.

Siyasi təqiblərin formal səbəbləri, çıxarılan uydurma hökmlərin motivləri çox müxtəlif idi. Sovet sisteminə qarşı düşmən mövqe, sabotajçılıq, anti-sovet ünsürlə əlaqələr və daha bir sıra uydurma səbəblər istintaq proseslərində ən çox səslənən ittihamlar olmuşdur.

M.Bağırovun etimad göstərdiyi Qriqoryanların, Markaryanların təşəbbüsü ilə burjua-millətçilik fəaliyyətində günahlandırılan yüzlərlə insanların, ziyalılarımızın, mühəndis texniki işçilərin cəzalandırılmasında fəallıqları, istintaqda döyülən, zorakılıq edilən insanların dindirilməsində şəxsən

iştirak etmələri faktları faciənin yalnız kiçik təfərrüatları idi. Kütləvi təqiblərin gedişi, baş verənlər haqqında müxtəsər şəkildə olsa da, fikirlərimizi şərh etdikdən sonra bu kampaniyanın xalqımızın, ümumilikdə respublikanın sosial-iqtisadi və siyasi həyatı ilə bağlı törətdiyi nəticələrdən də danışmaq istərdik.

Kütləvi siyasi təqiblər ərəfəsində. Siyasi təqiblərin iki mərhələsində: 1) 1937-ci ilin əvvəlindən-1938-ci ilin sentyabrına kimi; 2) 1938-ci ilin sentyabrından-dekabrına kimi olan mərhələlərdə zərbənin ən əsas hədəfi ziyalılar idi. Sadə insanların, qolçomaqların təqiblərə məruz qalması halları hələ 30-cu illərin əvvəllərindən baş verməkdə idi. Eləcə də partiya-təsərrüfat işçilərinin millətçilikdə günahlandırılmasının inandırıcı olmadığını aydın başa düşən icraçılar bu insanları səhlənkarlıqda, sabotajçılıqda, müxalifətçi partiya qruplarında, fraksiyalarda fəaliyyət göstərməkdə təqsirli bilərək yenə də istədiklərinə nail olurdular.

Belə bir məsələni də qeyd edək ki, bütün respublikada dövlət idarələrində yazışmaların rus dilində aparılması məcburi sayılmaqla bərabər, respublika rəhbərliyi səviyyəsində rus dilinin öyrənilməsi probleminə xüsusi diqqət yetirilirdi. 1938-ci il aprelin 1-də respublika mətbuatında Azərbaycan KP MK və Xalq Komissarları Sovetinin "Azərbaycanda qeyri-rus məktəblərində rus dilinin məcburi öyrənilməsi haqqında" qərarı dərc olundu (8, c.1). Ümumiyyətlə, belə bir xüsusi qətnamənin qəbulu bütün ittifaq dövlətinin xalqlarının taleyində rus xalqının xüsusi missiyası haqqında tezisin partiyanın ideoloji siyasətində təsdiqlənməsi ilə bağlı idi. Digər tərəfdən milli dilin az qala unutdurmağa yönələn belə siyasət sovet milli siyasətinin prinsipləri ilə uyğun gəlmirdi. Təbii ki, bu haqsızlığa qarşı çıxan, doğma dilimizin leyhinə nə vaxtsa bir fikir səsləndirmiş ziyalılarımızın sonradan təqib obyektinə çevriləcəyi ağlasığmaz idi.

Bu, o demək idi ki, "millətçi" damğası vurulub müxtəlif cəzalara məruz qalanlar üçün yeganə münbit mənbəyi olan milli ruhlu ziyalılarımızın fiziki cəhətdən aradan qaldırılmasında ən çox səslənən ittiham kimi onların millətçilikdə günahlandırılmalarının nə siyasi, nə də hüquqi əsasları yox idi. Bu prosesi sürətləndirən, ziyalılarımızın faciəsinin genişlənməsini asanlaşdıran müəyyən subyektiv səbəblər də var idi. Belə ki, təqiblərin ərəfəsi və gedişində hansısa gizli əl və ya qüvvənin təsiri ilə hüquq mühafizə orqanlarının heyətində ermənilərin yüksək vəzifələrdə yerləşdirilməsi, onların fitnəkarlığı belə səbəblərdən yalnız biri idi.

Xalqımızın düşünən beyni - elm və mədəniyyət xadimlərinin şərlənməsində təyin edilən üç cəza kateqoriyasından əksər hallarda an ağırının, güllələnmə və digərlərinin təyin edilməsində xarici görkəmcə boşevik olan, daxildə isə daşnak xislətini məharətlə pərdələyən belələri istintaq və mühakimə proseslərinin gedişində tam sərbəst idilər.

1933-cü ildə kütləvi siyasi repressiyaların başlanılması ərəfəsində partiya sıralarında guya "buraya soxulmuş" düşmən ünsürlərdən təmizləmək məqsədi ilə xüsusi yoxlamalar aparılmış, çox sayda günahsız insanlar müxtəlif cəzalara məruz qalmışdılar. Təkcə bu faktı qeyd edək ki, *"1936-cı ilin əvvəllərində Azərbaycanda partiya sənədlərinin yoxlanılması nəticələrinə görə 12 mindən çox insan və ya 22 faiz partiya sıralarından xaric edilib."* (1, v.19-25). Bu cür qanunsuz, lakin "qanuni" don geyindirilmiş proseslərdə növbəti qurbanlara çevrilmək qorxusu yüzlərlə insanları qonşu İran, Türkiyə və digər yerlərə qaçmaq üçün yollar axtarmağa vadar edirdi.

O illərdə Y.Sumbatov, X.Qriqoryan, R.Markaryan və digər erməni "beynəlmiləlçi" rəhbər kadrların tam cəzasız qalaraq ziyalılarımızı, digər insanları, onların ailə üzvlərini məşəqqətlərlə dolu həyat şəraitinə yuvarlaması qətiyyən nə Moskvanı, nə də respublikadakı beynəlmiləlçi rəhbərliyi narahat etmirdi.

Təbii olaraq Bakıda, digər iri şəhərlərdə, elə qəzaların özündə də sadə insanlar arasında "millətçiləri" axtarıb tapmağın inandırıcı olmayacağını dərk edən kampaniyanın təşkilatçıları əsas zərbəni xalqımızın düşünən beyni, milli-mənəvi dəyərlərin daşıyıcıları olan ziyalılarımıza qarşı yönəltmişdilər. Təqiblərin davam etdiyi müddətdə, demək olar ki, hər gün tanınmış mədəniyyət xadimləri, təəssübkeş partiya və təsərrüfat işçiləri həbs edilir, ən ağır cəzalara layiq bilinirdilər.

Cəzalananlar arasında sovet rejiminə qarşı açıq çıxmasalar da, lakin sovet milli siyasətinin müəyyən cəhətlərini tənqid edən, milli dəyərlərimizdən imtina etməkdən boyun qaçıran ziyalılarımız çox idi.
Kütləvi siyasi təqiblərin gedişində ağır dərəcədə cəzalananlar arasında Azərbaycan rəhbərliyinin elitasına daxil olan, lakin nə vaxtsa, hansısa məsələnin həllinə bəlkə də fərqli yanaşması ilə beynəlmiləlçi bolşevik rəhbərliyini qane etməyən azərbaycanlı dövlət xadimləri də az deyildi. Eyyub Xanbudaqov, Tağı Şahbazi, Ə.Kərimov, Ruhulla Axundov və onlarla digərlərinin cəzalandırılanlar arasında olması olduqca ağır və kədərli idi (2, v.86).
Bu, onu göstərirdi ki, kommunist rejiminin öz mövcudluğu, gələcəyi üçün xüsusi təhlükə hesab etdiyi milli ziyalılarımıza qarşı ən müxtəlif formada tənqidlərin səsləndirilməsi kütləvi repressiyalardan əvvəl də baş verirdi. Kütləvi təqiblər dövründə bu cür ittihamlar indi respublika rəhbərliyi səviyyəsində, tez-tez, həm də daha ağır formada səsləndirilirdi. Bu cür haqsız yanaşma və tənqidlərin ardınca Baş Siyasi İdarə və digər hüquq mühafizə orqanlarının saxta ittihamları tərtib olunur, yalnız xalqını sevən, onun mədəniyyətini qorumağa çalışanlar cəzalandırılırdılar.
Millətçi damğası vurulan ziyalıların və digər insanların çox qısa çəkən istintaqının gedişi eyni senari və metodla aparılırdı. İstintaqın başlanılması ilə uydurulmuş böhtan xarakterli ittihamları təsdiq etməyə məcbur edilən "şahidlərin" ifadələri dinlənilərək çox zaman elə oradaca hökm çıxarılırdı.
Repsessiyaların planlaşdırılması. Repressiya vaxtı Azərbaycanda birbaşa mərkəzin göstərişi və nəzarəti altında həyata keçirilən proseslərin gedişi, çıxarılan hökmlərin qeyri-qanuniliyi, o cümlədən xalqımızın genofonduna, ziyalılarımızın fiziki olaraq aradan qaldırılmasına yönələn çoxsaylı faktları əks etdirən arxiv sənədləri, digər sənədli materialların mühüm bir hissəsi nəşr edilmişdir. 2004-cü ildə Moskvada çap edilmiş xüsusi əhəmiyyətli sənədlər toplusunda ittifaq arxivlərinin problemlə bağlı çap olunmuş materiallarının mühüm bir hissəsində insanı dəhşətə gətirən çoxsaylı faktlara rast gəlinir (10, 11).
Cəzalananlar üzərində ittiham və mühakimə prosedurasının sürətləndirilməsi üçün xüsusi olaraq idarəçilik sisteminin müxtəlif pillələrində qurum və qruplar fəaliyyət göstərilirdi. RK(b)P MK Siyasi Bürosunun 1937-ci ilin 10 iyul tarixli qərarı əsasında Azərbaycanda Yuvelyan Sumbatov-Topuridze, T.Quliyev və D.Axundzadədən ibarət xüsusi "üçlük" tərəfindən günahsız insanların haqsız yerə cəzalandırılması, ziyalıların "millətçilik"də təqsirləndirilərək yox edilməyə çalışılması haqqında minlərlə faktlar var. Sənəddə xüsusi olaraq tapşırılırdı ki, əksinqilabçı təşkilatlarla əməkdaşlıqda təqsirli bilinən 500 nəfərin güllələnməsi, 750 nəfərin sürgün edilməsi və 150 nəfər təqsirli bilinən cinayətkarın ailəsinin xüsusi rejimli düşərgələrdə saxlanılması haqqında plan icrası təmin edilsin (11, c.241).
Topludakı materiallar arasında bir fikir də diqqəti cəlb edirdi ki, RK(b)P MK Siyasi Bürosunun 1938-ci il 31 yanvar tarixli qərarında hətta cəzalananların sayı əvvəlcədən müəyyənləşdirilmiş respublikalar, vilayətlər üzrə bölünmüşdü. Həmin sənəddən aydın olur ki, növbəti 3 ay ərzində Azərbaycan SSR-də 2000 insanın güllələnməsi, 1000 insanın isə uzunmüddətli həbs cəzalarına layiq görülməsi direktiv tapşırıq kimi müəyyən edilmişdi (11, c.467-468).
Sovet totalitar rejimi tərəfindən aparılan istintaq-mühakimə proseslərində tək yazıçı, şair, müəllim deyil, ümumiyyətlə, ziyalı kateqoriyasına daxil olan orta və ali sıradan olan mühəndis-texniki işçilər, təsərrüfat rəhbərləri, hətta xalq komissarları da haqsız yerə günahlandırılaraq cəzalandırılanlar sırasında idilər. Cəmi iki il ərzində təqsirli bilinənlərin sırasında bir neçə xalq komissarının, onlarla rayon partiya komitəsi katibinin və digərlərinin olması faciənin miqyasını göstərirdi.
Siyasi təqib və repressiyalarda əsas hədəf. Həmin 2 ildə müxtəlif dərəcəli cinayətlərdə təqsirli bilinən 70 min insandan 29 mini sırf milli ziyalılarımız idi. Böyükağa Talıblı, Hənəfi Zeynallı, Hüseynəli Biləndərli, Bala bəy Həsənbəyov, Yusif Vəzir Çəmənzəminli, Bəkir Çobanzadə, Vəli Xuluflu və digərlərinin repressiya qurbanları olmasında əsas təqsirləri öz xalqlarını sevmələri, milli-mədəni-mənəvi dəyərlərin sadəcə müdafiəsinə qalxarkən "millətçi" adı almaları idi (9, c.80).
Ziyalılarımızın partiya və sovet orqanlarında məsul vəzifələr tutan, vaxtı ilə Azərbaycanda sovet hakimiyyətinin qurulması, möhkəmləndirilməsində az-çox xidmətləri olan digər hissəsi isə yenə

saxtakarlıqla xəyanətdə, əksinqilabi fəaliyyətdə, xaricdəki gizli mühacir mərkəzləri ilə əməkdaşlıqda günahlandırılırdılar.

Təqiblərin davam etməsi xalqımızın, onun əsas aparıcı qüvvəsi olan ziyalılarımızın başı üzərini almış qara buludlar idi. Ziyalılarımızın bu qədər amansızlıqla təqsirləndirilərək cəzalandırılması bir çox məqsədlərə xidmət edirdi. Sovet rejiminə Hüseyn Cavid, Əli Nəzmi, Mikayıl Müşfiq və digər milli ruhlu ziyalılar yox, mərkəzin bütün qərarlarının fərq qoyulmadan icrasını təmin edən, yeni "sovet xalqının mədəniyyəti"nin "beynəlmiləlçi" tərənnümçülər lazım idi. Rejimin əsas məqsədlərindən biri sərbəst düşünə bilən, indi və gələcəkdə sovet hakimiyyətinin respublikadakı mövqelərinə qarşı çıxa biləcək potensial imkanları olan milli ruhlu insanları, zəka sahiblərini, bir sözlə ziyalılarımızı aradan götürmək idi.

Arxiv materialları və onların dərc olunduğu sənədlər toplularında ziyalılarımıza müxtəlif uydurma ittihamlarla, sözün həqiqi mənasında, "divan tutulması" barədə çoxlu faktlara, sənədli materiallara rast gəlmək olur. Belə sənədlərdən biri 12493 nömrəli cinayət işinin materialları adı ilə verilmiş istintaq və mühakimə prosesinin materiallarıdır. Bu materiallardan aydın olurdu ki, təqsirləndirilənlərin mütləq əksəriyyəti haqqında ölüm hökmünün çıxarılması bir daha təqiblərin təşkilatçılarının nail olmağa çalışdıqları əsas məqsədi açıq şəkildə nümayiş etdirirdi (12, c.71-72).

Millətçilikdə təqsirli bilinib cəzalandırılan insanların ailə üzvlərinin, yaxınlarının təqib edilib çox vaxt cəzalandırılan, şübhəli şəxslər və s. kateqoriyalı siyahılara salınması faciənin başqa formada davamı idi.

Kütləvi təqiblərin gedişində respublika rəhbərliyinin qeyri-milli nümayəndələri bir növ azərbaycanlılara qarşı kampaniyanın gedişində etdikləri azmış kimi, hər gün yeni şantaj, hiylə, mərkəzə donoslar göndərmək və başqa təxribatlardan əl çəkmirdilər. İş o yerə çatmışdı ki, Mir Cəfər Bağırov sonralar özü də xalqımızın başına gələn müsibətlərdə birbaşa təqsirkar olduğunu etiraf etməyə məcbur olmuşdu.

Əsasən respublika rəhbərliyinin qeyri-azərbaycanlı nümayəndələrinin Bakıda, əlaltılarının isə yerlərdə ziyalıların və digər namuslu vətəndaşların şərlənib mühakimə edilməsi üçün təşkil olunan donosbazlıq idi. Bu cəhətdən respublikanın ittifaqın digər üzvlərini geridə qoyması haqqında xəbərlər də səslənirdi. 1937-1938-ci illərdə Azərbaycandan Moskvaya kütləvi şəkildə müxtəlif saxta məzmunlu bu cür anonim məktublar göndərilmişdi.

1938-ci ilin aprelində Moskvadan M.Bağırova ünvanlanan məktubda deyilirdi ki, təkcə 1937-ci ilin ikinci yarısında respublika rəhbərliyi haqqında mərkəzə 1477 şikayət məktubu göndərilmiş, 1938-ci ilin ilk üçü ayında onların sayı 699-a çatmışdır (7, c.786-787).

Ədalət naminə etiraf etməliyik ki, siyasi təqiblər o vaxt bütün ittifaq miqyasında davam edərək, əvvəlcədən hazırlanmış direktivlərə uyğun olaraq bir çox siyasi məqsədlərə xidmət edirdi. Lakin, həmin vaxt respublika rəhbərliyində bura zorla daxil edilmiş qeyri-azərbaycanlı kadrların əhatəsində olan Mir Cəfər Bağırov mümkün qədər bu kampaniyanın xalqımızı, bu mümkün olmadıqda bəzi insanları təqiblərin od-alovundan xilas etməyə, sərt cəzaların bir qədər yumşaldılmasına, heç olmazsa, cəhdlər edirdi.

Buna baxmayaraq, 1938-ci ildə Bakıdan Mir Cəfər Bağırovun bu mövqeyi barədə mərkəzə ünvanlanan çoxsaylı donosların nəticəsi olaraq Bakıya müxtəlif yoxlama komissiyaları göndərilmişdi. Bu komissiyalardan birinə hətta o vaxtki SSRİ XDİK Nikolay Yejov özü başçılıq etmişdi (5, s.127).

Yoxlamalarda guya Mir Cəfər Bağrovun əksinqilabçılara münasibətdə loyal münasibətdə olması, onlara qarşı mübarizəni lazımi səviyyədə təşkil etmədiyini sübut etməyə çalışsalar da, bu, nəticəsiz qaldı. Əslində isə Mir Cəfər Bağırovu Stalinin qəzəbinə tuş gəlməkdən SSRİ XDİK-nın növbəti rəhbəri Lavrenti Beriya ilə şəxsi münasibətləri xilas etmişdi.

Siyasi təqib kampaniyaları. Təqiblər dövründə kütləvi "millətçi" damğası vurulmuş ziyalılarımız şablon etiketlərlə - "pantürkist", "islamçı" və digər saxta bəhanələrlə günahlandırılırdılar. Əslində 1934-cü ildən kütləvi hal alan təqiblər, onun siyasi xarakteri bütün ittifaq üzrə həyata keçirilərək vəd

olunmuş sosialist ideyalarının təntənəsinin baş tutmaması səbəblərini ört-basdır etməyə, digər siyasi mərkəzlərə xidmət edirdi.
Təqiblərin xüsusi fəlakətli nəticələrə gətirib çıxarması Azərbaycan SSR-də həm rəhbər orqanlarda, həm də hüquq mühafizə sistemində qanuna zidd hazır icra mexanizminin mövcudluğuna biganəlik, erməni faktorunun nəzərə alınması ilə bərabər, ümumilikdə digər subyektiv səbəblərlə də bağlı idi.
Təqiblərdə məhz ziyalıların ilk hədəflərindən biri kimi seçilməsi, cəmiyyət arasında xof yaratmaq, totalitar inzibati idarəetmə sisteminə qarşı hər hansı bir formada etiraza birdəfəlik son qoymaq və başqa məqsədlərə xidmət edirdi. Bütün bunlar - xalqın, millətin qaymağı, aparıcı qüvvəsi olan ziyalıların bu hala salınması, o cümlədən kütləvi cəzalarla milli-mədəni dəyərlərin təbii qoruyucuları və davamçılarının birdəfəlik sıradan çıxarılması, dövlətçilik ənənələrinin onların yaddaşlarından silinməsinə nail olunması milli müstəqillik ideyalarının bütün potensial imkanlarını məhv edərək milli-azadlıq hərəkatının nə vaxtsa, gələcəkdə dirçəltmək imkanlarına son qoymağa xidmət edirdi. Təqsirləndirilənlərin "millətçi", "pantürkist", "islamçı" və digər uydurma, əsassız ittihamlarla cəzalandırılmasının, onların haqlı olub-olmamasının istintaq, məhkəmə orqanları üçün heç bir əhəmiyyəti yox idi.
Bəkir Çobanzadə, Salman Mümtaz, Vəli Xuluflu və digər ziyalılarımızın doğma türk dili haqqında fikirlərində heç bir siyasi motiv olmadığı halda onların təqsirləndirilib cəzalandırılması qətiyyən düzgün deyildi. Çünki, hələ 1926-cı ildə Bakıda Şərq xalqlarının nümayəndələrinin iştirakı ilə ilk türkoloji qurultayının təşkili rejimin müəyyən siyasi məqsədlərinə də xidmət edirdi və sovet hakimiyyətinin icazəsi olmadan keçirilə bilməzdi.
Siyasi təqiblərin əsas ittihamlarından biri. Ziyalılarımızın, bütövlükdə haqsız təqsirləndirilən insanların əksəriyyətinin ünvanına səsləndirilən, mühakimə edilmələri üçün əsas götürülən "gizli millətçilik fəaliyyəti" ilə məşğul olmaları barədəki saxta ittihamlar arasında ən çox səsləndirilən idi.
Siyasi təqiblər dövründə milli ziyalılarımızın minlərlə nümayəndəsinin Azərbaycandan ittifaqın digər ucqar ərazilərinə kütləvi şəkildə sürgün edilməsi, bunların sırasında xalq arasında tanınmış alimlərin, mədəniyyət və incəsənət işçilərinin, hətta din xadimlərinin də olması, cəmiyyətdə xalqın mənəviyyatının, onun savadlı, baş verənləri az-çox dərk edən, nəticə çıxarmağı bacaran təbəqəsinin məhvinə xidmət edirdi.
Nəzərə almaq lazımdır ki, bu təqiblər, kütləvi cəza tədbirləri sovet hakimiyyətinin qurulması ilə başlamış olan ziyalılar təbəqəsinin varlığına son qoymaq, ya da onların sovet rejiminin prinsiplərinə, maraqlarına xidmət etmək səviyyəsinə çatdırmağa yönəlmiş kampaniyanın yeni mərhələsi demək idi. Fərq isə bunda idi ki, siyasi təqiblər ilk mərhələdə bir ilə yaxın davam etmişdi. İlk mərhələnin qurbanları Azərbaycan ziyalılarının ən qabaqcıl nümayəndələri olan AXC xadimləri, müəyyən qədər də yeni hökuməti qəbul etməyən, onun fəaliyyət prinsipləri ilə razılaşmayan digər ziyalılar idi.
Lakin, təqiblərin növbəti mərhələsində cəzalandırılan digər insanlar kimi ziyalılarımız nə sözlərində, nə də fəaliyyətlərində onlara qarşı irəli sürülmüş saxta ittihamlara zərrə qədər də olsa belə, haqq qazandıracaq əməllər törətməmişdilər. Sadəcə, rejim hər cəhətdən, bundan sonra da özünün təhlükəsizliyi naminə bu cür düşünən beyinlərin, ağıllı insanların simasında gələcəkdə milli maraqlar, müstəqillik, dövlətçilik istiqamətlərindəki bütün potensial imkanları, ehtimalları da birdəfəlik aradan qaldırmağa çalışırdı.
Tarixən öz ərazisində başqa xalqların nümayəndələrinə yer vermiş, yüz minlərlə köçürülmə qeyri-milli xalqlardan olan insanlarla sülh, əmin-amanlıq şəraitində yaşamış xalqımızın, onun ziyalılarının ünvanına bu cür saxta "millətçi" damğasının vurulması sözün əsl mənasında böyük ədalətsizlik və haqsızlıq demək idi.
Azərbaycan xalqının çoxminillik tarixində, onun mədəniyyəti, ədəbiyyatında başqa xalqlara nifrət ruhunda, hakim millətçilik zəminində fikirlər, millətçi baxışlar verilmiş yazılar, o cümlədən, nə bədii, nə də digər məzmunlu əsərlər, mövcud olmamışdır. Bu baxımdan rejimin saxta ittihamları gedişində uydurmadan başqa bir şey demək olmayan "anti-sovet", "satqın", "Müsavatın agenti" və digər etiketlər içərisində ən uğursuzu elə "millətçi "damğası oldu.

Azərbaycan ziyalılarına vurulmuş damğadan hər dəfə rəsmi çıxışlarda ağız dolusu danışan mərkəzin təbliğat vasitələrində onların ünvanına cürbəcür təhrif və təhqirli ifadələr işlənir, bunlar hətta "burjua millətçiliyi" adlandırılırdı. Halbuki, ittifaqın bəzi bölgələrindən fərqli olaraq sovet hökumətinin hakim ideologiyasının məzmununa, onun prinsiplərinə xas olan beynəlmiləlçiliyə, xalqlar dostluğu təbliğatına zidd olan, millətlərarası ziddiyyətə yol açan ayrı-ayrı millətçi qrupların hərəkətləri, ya çıxışları Azərbaycan üçün heç cür səciyyəvi deyildi.

Siyasi təqiblərin yeni hədəfləri. Ziyalıların ardınca təqiblərin yeni hədəfi ali və yerli partiya təsərrüfat orqanlarının azərbaycanlı kadrları oldu. Bu insanlara qarşı hazırlanmış saxta ittihamlarda anti-partiya fəaliyyəti, gizli siyasi təşkilatlarla əməkdaşlıq iddiaları ilə bərabər, "millətçilik"də günahlandırılanlar da çox idi.

Siyasi təqiblərin və millətçilik damğası vurulub cəzalandırılanların mühakimə proseslərinin çoxu 1937-ci ilin payına düşür. Belə ki, həmin ildə 22 xalq komissarı, 49 partiya komitələrinin katibi, 79 rayon icraiyyə komitəsi sədri, 57 sənaye və neft müəssisə direktoru, 110 hərbçi, 207 həmkarlar ittifaqı fəalı və 8 professor güllələnmə cəzası almışdı (4, v.3).

Yenə də hazır senari, zorla alınmış etiraflar, yalançı şahidlərin ifadələri əsasında Həmid Sultanovun öz həmfikirləri Ruhulla Axundov, Qəzənfər Musabəyov, Dadaş Bünyadzadə, Əliheydər Qarayev, Eyyub Xanbudaqov və digərləri ilə birlikdə guya SSRİ-də sovet hakimiyyətinin devrilməsi, Azərbaycan SSR-nin zorla SSRİ-dən ayrılması məqsədi ilə təşkil olunmuş millətçilik fəaliyyəti ilə məşğul olan gizli mərkəzlə əməkdaşlıq etməsi "sübuta yetirilmişdi". Mühakimə olunanlardan 3 nəfər haqqında ən yüksək cəza, qalanları haqqında isə 8-20 il arası həbs cəzaları müəyyən edilmişdi (5, s.128-129).

Təqibə məruz qalanların tək özlərinin deyil, ailə üzvlərinin incidilməsi, çox vaxt həbsi və ya sürgün edilməsi adi faktlar idi. Sovet hakimiyyətinin qurulmasında xüsusi xidmətləri olmuş, müxtəlif vəzifələr tutmuş Əliheydər Qarayevin birbaşa Mir Cəfər Bağırovun təsiri ilə həbs edilməsindən sonra güllələnməsi azmış kimi, 11 yaxın ailə üzvündən yalnız 2-si sağ qalmışdı. Qalanlar ya öldürülmüş, ya da həbs edilmişdi (7, s.808).

O illərin respublika mətbuat səhifələrində ziyalıların ünvanına "keçmiş müsavatçı", "pantürkist", "millətçi" damğası vurularaq pislənən milli ziyalılarımızın adları tez-tez görünürdü.

Görkəmli ziyalılarımız Mikayıl Müşfiq, Hüseyn Cavid, Yusif Vəzir Çəmənzəminli, Tağı Şahbazinin və yüzlərlə digər milli ruhlu ziyalılarımızın həbs edilib ən ağır cəzalar alması üçün adi təşkil olunmuş donoslar kifayət edirdi.

Azərbaycan SSR-də ziyalılarımızın çoxluq təşkil etdiyi ali məktəblərdə, elmi təşkilatlarda, mədəni-maarif müəssisələrində "millətçi", "xalq düşməni" axtarışı və ya "ovu" daha tez-tez təkrarlanırdı. Bu cür axtarışların gedişində təqsirləri "sübuta yetirilib" barələrində ən müxtəlif ağır cəzalar verilməklə hökm çıxarılanlar, həmin təşkilatların az qala yarısını təşkil edirdilər.

"Millətçilik"də günahlandırılıb, xalq düşməni kimi cəzalandırılanların bir qrupunun müxtəlif elmi təşkilatların və institutların kollektivləri içərisində axtarışının ünvanlarından biri də SSRİ EA-nın Azərbaycan filialının əməkdaşları idi.

Tanınmış alimlərin uydurma millətçi damğası ilə həbsi və cəzalandırılması prosesləri arasında bəlkə də ən faciəlisi Ruhulla Axundovun saxta mühakiməsidir (6, p.93-94). Onun həbsi və cəzalandırılması ilə milli əhval-ruhilləli ziyalılarımızın eyni senarilərlə ittihamı artıq adi hala çevrilmişdi.

1937-ci ilin may-iyun aylarında Azərbaycan Sovet Yazıçılar İttifaqı ən yaxın diqqət obyektinə çevrildi. Birliyin 3 iyunda təcili çağrılan iclasında İttifaqın üzvlərinin bir qrupunun ciddi tənqid edilməsinin ardlnca böyük Azərbaycan yazıçısı Hüseyn Cavid, habelə Əli Nəzmi, Böyükağa Talıblı, Tağı Şahbazi, Əli Razi Şəmsizadə, Hacı Kərim Saniyev (Sanılı), Seyid Hüseyn və b həbs olundular. Azərbaycan Yazıçılar İttifaqının yarıdan bir qədər azının – 27 nəfərin təqsirləndirilərək haqlarında ağır hökmlər çıxarılmış Sultan Məcid Qənizadə, Ömər Faiq Nemanzadə, Məmmədkazım Ələkbərli, Hüseyn Cavid kimi tanınmış və əhali arasında nüfuzu böyük olan yazıçı və şairlərimizin həyatdan məhrum edilməsi mədəniyyətimiz, xalqımız üçün ağır faciə demək idi (9, c.97).

1937-ci ildə təqiblərin ən çox sərtləşdiyi bir vaxtda rejimin Azərbaycanda özü üçün xüsusi təhlükə kimi qəbul etdiyi insanlara qarşı irəli sürülmüş ittihamlarda pantürkçü, müsavatçı, burjua millətçisi ifadələri tez-tez təkrarlanırdı. Milli ziyalılarımızı, milli kökümüzü, dəyərlərimizi qoruyub saxlamaq niyyətində olan, yaxud bunlara qarşı çıxmaqdan imtina edən partiya sovet kadrları da etibarsız, rejimə düşmən kimi qələmə verilərək sərt şəkildə cəzalandırılırdılar.
Sovet sisteminin milli rayonlarda xalqın ali təbəqəsinin, ziyalıların rejimə sədaqəti, münasibəti məsələsinə xüsusi diqqət yetirdiyi şəksiz idi. Bu baxımdan totalitar sovet idarəçilik sisteminin öz hakimiyyətlərinə qarşı xüsusi təhlükə hesab etdiyi milli kadrlara, onların millətçilik baxışlarına nəzarət həmişə diqqətdə saxlanılırdı. Digər tərəfdən, qalan müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanda da milli ziyalıların, partiya-təsərrüfat rəhbərlərinin ən çox ehtiyat etdiyi də elə özlərinin hər an gözlədiyi kimi, millətçilikdə təqsirləndiriləcəklərinin reallaşması idi.
Təqiblər kampaniyasında cəzalandırılanlar arasında çox az adam tapılardı ki, onun ittihamnaməsində millətçilikdə təqsirləndirilmə haqqında bənd olmasın. Mühakimə proseslərində iştirak edən çox az sayda hüquq-mühafizə orqanlarının azərbaycanlı işçiləri prosesləri sadəcə müşahidə edərək təqsirləndirilmələrin əsassız olduğu halda belə, etiraf edək ki, həm də danılmaz həqiqətdir ki, bu cür saxta istintaq və mühakimə prosesləri mütləq əksəriyyət təşkil edirdi, onlara münasibət bildirməkdən çəkinirdilər. Səbəb onların özlərinin də bu siyahılara düşmək təhlükəsi idi. Kütləvi təqiblərlə bağlı istintaq materiallarının təhlili ilk növbədə göstərirdi ki, kimliyindən, vəzifəsindən asılı olmayaraq prosesin, senarinin, təşkilatçının kimliyinin, cəzalandırılma subyektinin, cəza formalarının əvvəlcədən müəyyən edilməsindən sonra konkret ittihamnamə sənədlərinə milli məsələ, dini baxışlar və s. ilə əlaqəli motivlər əlavə edilirdi.
Ziyalılarımıza, digər kateqoriyadan olan savadlı insanlara qarşı "hazır" ittihamların mətnlərində göstərilən "millətçi" damğasının ardınca onların "xalq düşməni" elan edilərək cəzalandırılması yalnız qısa prosedur qaydası idi.

Nəticə.
Kütləvi siyasi təqiblərin Azərbaycan üçün nəticələrindən danışsaq, deməliyik ki, ayrı-ayrı müəlliflərin müxtəlif ədəbiyyatlarda repressiya qurbanlarının ümumi sayını sonadək tam dəqiq müəyyənləşdirmək indiyədək mümkün olmamışdır. Bəziləri bu rəqəmlərdən təkcə həyatını itirənlərin sayının 70 minə çatdığını, digərləri isə belələrinin yalnız 1940-cı ildə 70 min nəfər olduğunu söyləyirlər. Əksər müəlliflərin fikrincə, faciə qurbanlarının 1937-1938-ci illərdə ümumi sayı 120 minə çatırdı.
Rəsmi hüquqi sənədlər arasında ilk olaraq 4 may 1955-ci ildə Respublika Prokuroru tərəfindən Azərbaycan KP MK-nın birinci katibi İmam Mustafayevə təqdim edilən arayışdan danışa bilərik. Sənəddə bildirilirdi ki, ... Üçlük tərəfindən, yalnız siyasi cinayətlərə görə, 1937-ci ildə, 2846 nəfərin həbs edilməsi, 2215 nəfər haqqında ölüm hökmü çıxarılması haqqında məlumat verilir (3, v.4).
1956-cı ilin aprelində Mir Cəfər Bağırov və onunla birgə mühakimə olunanlar haqqında çıxarılan hökmdə təqibə məruz qalanlarla qeyri-insani, qanunsuz hərəkətlər, zorakılıqlar edilməsi faktlarının səslənməsi faciənin nə qədər dərin olmasının etiraf edildiyi tarixi fakt idi (13). Mühakimə edilənlərin istintaqı zamanı müəyyən edilmişdi ki, vətəndaşlar buna heç bir səbəb olmadığı halda, yaxud da cəzalandırılanlar bəzi şəxslərdən zorla alınmış saxta ifadələr əsas götürülərək qanunsuz həbs olunurdular. Həbs olunan insanlar yalan ifadələr əsasında zorakı metodlarla incidilərək uydurma dindirilmə protokollarını və saxta ittihamları imzalamağa məcbur edilirdilər.
Arxiv sənədlərində, digər tədqiqat xarakterli yazılarda verilən rəqəmlər də fərqli olsa da, ancaq bütövlükdə faciənin ümumi mənzərəsi haqqında tam təsəvvür yaratmağa imkan verir., 1937-ci ildə təkcə siyasi cinayətlərə görə "üçlük" 2792 nəfəri ölümə, 4425 nəfəri isə uzunmüddətli həbsə məhkum etdi. 1938-ci ildə "üçlük" ən azı 10 min nəfərin işinə baxmışdı. Onların böyük əksəriyyətinə hökm oxunmuş, bəziləri güllələnməyə, bəziləri isə siyasi məhbusların düşərgələrində saxlanılmaqla uzunmüddətli həbsə məhkum edilmişdi. Bununla eyni vaxtda Hərbi Kollegiyanın səyyari iclaslarında,

hərbi tribunallar tərəfindən, sıravi məhkəmələrin iclaslarında mühakimə olunanlar da var idi, məhkum edilənlər də, mühakimə olunanlar da var idi (4, v.4).
Bu da məlumdur ki, 1936-cı ilin ortalarından 1938-ci ilin ortalarına kimi müxtəlif strukturların xətti ilə13356 azərbaycanlı azərbaycanlı siyasi motivlərlə həbs edilmişdi (11, c.170).
Bəhs etdiyimiz fakt və fikirlərdən aydın oldu ki, on minlərlə insanın, ən çox da ziyalılarımızın cəzalanmasının yeganə düzgün olan, həm də əsas səbəbi onların öz vətənlərini, xalqını sevmələri, milli-adət-ənənələri, mənəvi dəyərləri qorumağa çalışmaları, bir sözlə, milli kökə bağlı olmaları idi.
Mühakimə olunanlara "millətçi" və digər buna bənzər damğaların vurulması tarixən digər xalqlara və millətlərə loyal münasibəti ilə fərqlənən, torpaqları zaman-zaman beynəlmiləlçilik təbliğatı ilə qonşulara paylanan, təbii-iqtisadi sərvətləri "qardaşlıq yardımı", "proletar beynəlmiləlçiliyi" və s. ideoloji - təbliğat şüarları ilə ittifaqın əsas iqtisadi rayonlarına "bəxşiş" edilməklə talanan bir xalq üçün ən ağır təhqir idi.
Repressiyaların sonrakı onillər, bəlkə də tam yarım əsr üçün törətmiş olduğu çox ağır nəticələr - demoqrafik böhran, savadlı insanların, tək ziyalıların deyil, həm də mühəndis-texniki kadrların sayının kəskin azalması, on illərlə, minbir zəhmətlə yetişən tanınmış alimlərimizə divan tutulması ilə Azərbaycan elminə vurulan sağalmaz zərər, şəhərlə kənd arasında, kənd daxilində insanlar arasında sosial ahəngin pozulması, qarşıdurma yaranması və s. məhz həyata keçirilən siyasi təqib və kütləvi repressiyaların törətdiklərinin görünən tərəfi idi. Təqib olunanların özlərinin, ailə üzvlərinin, yaxınlarının yaşadığı fiziki-psixoloji gərginlik, onlara cəmiyyətin münasibəti və s. amillər də diqqətdən kənarda qalmamalıdır.
Azərbaycanda kütləvi təqiblərin qurbanlarının çox olmasında ümumiyyətlə, cəzalandırılanlara qarşı bu cür amansızlıqda məqsəd müxtəlif idi. Sovet rejimi bu cür cəzalarla sosialist dəyişikliklərinin templərini sürətləndirməyə nail olmaq üçün əhali arasında, cəmiyyətdə xüsusi xof yaradıb gərginliyi saxlayırdı.

Ə D Ə B İ Y Y A T:

1. *Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivi.* f. 1. siy. 88. iş. 95.
2. AR PİİİSSA. f. 1. siy. 74. İş. 20.
3. AR PİİİSSA. f.1, siy. 44, iş 251.
4. AR PİİİSSA. f.1. siy. 331, iş 23.
5. Əhmədov R. Mir Cəfər Bağırov (Dövrun və şəxsiyyətin siyasi portret cizgiləri). Nurlan, Bakı: - 2004. - 243 s.
6. Ашнин Ф.Д., Алпатов В.М. Delo Rukhully Akhundova // Vostok. 2000. №2. p. 91-108.
7. Баберовский Й. Враг есть везде. Сталинизм на Кавказе. РОССПЭН, М.: - 2010. - 854 с.
8. Бакинский рабочий. 1 апреля 1938 г. с.1.
9. Исмаилов Э. История «большого террора» в Азербайджане. Политическая энциклопедия, М.: - 2015. - 239 с .
10. Лубянка. Сталин и ВЧК-ГПУ-ОГПУ-НКВД. Архив Сталина. Документы высших органов партийной и государственной власти. Январь 1922-декабрь 1936. МФД, М.: - 2003. - 912 с.
11. Лубянка. Сталин и Главное управление госбезопасности НКВД. Архив Сталина. Документы высших органов партийной и государственной власти. МФД, 1937-1938. М.: - 2004. - 736 с.
12. Рустамова-Тогиди С.А. В чем обвиняли ученого-тюрколога. Следственное дело № 12493-Газиз Салихович Губайдуллин. 2019, том 2, № 3., с.71-82.
13. Смирнов Н.Г. Рапава, Багиров и другие. Антисталинские процессы 1950-х гг. Часть II. https: // litresp.ru/chitat/ru/%D0%A1/smirnov-nikolaj-gavrilovich/rapava-bagirov-i-drugie-antistalinskie-processi-1950-h-gg/4

DETERMİNİNG PHONEME VARİABİLİTY

ОПРЕДЕЛЕНИЕ ИЗМЕНЧИВОСТИ ФОНЕМ

FONEM VARIATIVLIYININ MÜƏYYƏN EDILMƏSI

Sədagət Cumayeva
AMEA Dilçilik İnstitutu Hind-Avropa dilləri şöbəsi
(fil.ü.f.dok., aparıcı elmi işçi)
Orcidid: 0000-0003-0378-195X

Xülasə
Məqalədə fonem variativliyinin müəyyən edilməsindəndən bəhs edilir. Fonetik variantlar ya fakültativ, ya da daimi olur; sonuncu təbii ki, yalnız kombinator variantlar olur. Fonetik variantlar dilin ekspressiv və appellativ funksiyalarının yerinə yetirilməsində müəyyən rol oynayırlar. Kombinator variantlar isə istisnasız olaraq eksplikativ planda çıxış edirlər. Həm də necə deyərlər, fonoloji baxımdan yardımçı vasitə kimi çıxış edirlər. Onlar ya sözün, morfemin sərhədini göstərir, ya da qonşuluqda hər hansı bir morfemin gəlməsinə işarə edir.
Qonşuluqda hər hansı bir fonemin gəlməsini bildirməsi kombinator variantların yerinə yetirdiyi əlavə funksiya kimi götürülə bilməz. Sürətli və qeyri-aydın danışıqda bu və ya digər fonem özgürlüyünü itirə bilər; ona görə də bu özgürlüyün qonşuluqda gələn fonemin xüsusi variantı ilə təsdiqlənməsinə böyük ehtiyac duyulur. Lakin bu yalnız qonşuluqda gələn fonemin xüsusi variantının təkcə sürətli tələffüzdə yox, həmçinin o iki fonemin qonşuluqda gəldiyi bütün hallarda özünü göstərir, çünki fonemin xüsusi realizasiyası şüurda yalnız onda həkk olur və qonşuluqda gələn başqa, həm də konkret bir fonemin gəlməsini bildirən siqnala, işarəyə çevrilir.
Açar sözlər: Fonologiya, fonem, variant, fonetik variantlar, kombinator variantlar

Abstract
The article discusses the determination of phoneme variability. Phonetic variants are either facultative or permanent; the latter, of course, are only combinatorial variants. Phonetic variants play a certain role in the implementation of the expressive and appellative functions of the language. Combinatorial variants, without exception, act in an explanatory plan. They also act, as they say, as auxiliary means from a phonological point of view. They either indicate the boundary of a word, a morpheme, or indicate the occurrence of any morpheme in the neighborhood.
The fact that a phoneme occurs in the neighborhood cannot be considered an additional function performed by combinatorial variants. In fast and unclear speech, this or that phoneme may lose its freedom; therefore, there is a great need for this freedom to be confirmed by a special variant of the phoneme occurring in the neighborhood. However, this is manifested not only in the rapid pronunciation of a specific variant of a neighboring phoneme, but also in all cases where those two phonemes occur in the neighborhood, because the specific realization of the phoneme is imprinted in consciousness only in it and becomes a signal, a sign indicating the arrival of another, also specific, phoneme in the neighborhood.
Keywords: Phonology,phoneme, variant, phonetic variants, combinatorial variants

Резюме
В статье рассматривается вопрос определения фонемной изменчивости. Фонетические варианты бывают факультативными и постоянными; последние, конечно, являются только комбинаторными вариантами. Фонетические варианты играют определенную роль в реализации экспрессивной и апеллятивной функций языка. Комбинаторные варианты, без

исключения, выступают в объяснительном плане. Они также выступают, как говорится, в качестве вспомогательных средств с фонологической точки зрения. Они либо указывают на границу слова, морфемы, либо указывают на вхождение какой-либо морфемы по соседству.
Тот факт, что фонема встречается по соседству, нельзя считать дополнительной функцией, выполняемой комбинаторными вариантами. В быстрой и неясной речи та или иная фонема может потерять свою свободу; поэтому существует большая потребность в том, чтобы эта свобода подтверждалась особым вариантом фонемы, встречающимся по соседству. Однако это проявляется не только в быстром произношении определенного варианта соседней фонемы, но и во всех случаях, когда эти две фонемы встречаются по соседству, поскольку конкретная реализация фонемы запечатлевается в сознании только в ней и становится сигналом, знаком, указывающим на приход по соседству другой, также определенной фонемы.
Ключевые слова: *Фонетика, фонема, вариант, фонетические варианты, комбинаторные варианты*

Verilmiş dildə bir-birini izləyən, daha kiçik fonoloji ünsürlərə bölünməyən fonoloji vahidləri fonemlər adlandırırıq. Beləliklə, fonem müəyyən dilin ən kiçik fonoloji vahididir. Dil sistemində hər bir sözün ifadə tərəfi fonemlərə parçalanır, onu fonemlərin müəyyən ardıcıllığı kimi şərh etmək olar. Fonemin tərifini verdikdən sonra indi də fonemin bir tərəfdən fonetik variantlardan, digər tərəfdən isə fonem birləşmələrindən fərqləndirilməsinə kömək edən praktik qaydaları verməliyik. [N.Trubetskoy]
İki səs iki müxtəıif fonemin realizasiyası kimi hansı hallarda götürülə bilməsi və hansı hallarda onlar bir fonemin müxtəlif fonetik variantları kimi çıxış edə bilməsi ilə əlaqədar dörd qayda müəyyənləşdirmək olar.
Birinci qayda: əgər bir dildə iki səs eyni fonetik əhatədə gələ və sözün intelektual mənasını fərqləndirmədən bir-birilə əvəz edilə bilirlərsə, onda bu iki səs eyni fonemin yalnız fakültətiv fonetik variantlarıdır.
Burada bir neçə növ göstərilə bilər. Danışıq normasına münasibətinə görə fakültativ variantların ümumu və fərdi növləri olur. Birincilərə o variantlar aiddir ki, onlar dildə səhvlərə və ya normadan yayınmalara səbəb olmur, ona görə də onların hamısını hər bil dil daşıyıcısı işlədə bilir. Məsələn, alman dilində samitin vurğulu sait qarşısında uzanması dil səhvi kimi qarşılanmır və danışan eyni bir sözü gah qısa, gah da uzun z və ya ş ilə başlaya bilər, tələffüzdəki fərq danışığın emosional cəhətdən rəngarəng olması üçün tətbiq edilir /ssoo? schschön şimal dialektlərdə: jja!/ Bunun əksinə olaraq fərdi variantlar dil kollektivinin müxtəlif üzvləri arasında paylanır, özü də yalnız müəyyən bir növ "normal", "yaxşı" və "nümunəvi" tələffüzkimi, o biriləri isə bunun əksinə olaraq lokal, sosial, patoloji və s. tələffüz yayınmaları kimi qəbul olunur. Müxtəlif Avropa dillərində dilçək r-sını və dilönü r-sını buna misal gətirmək olar, eyni zamanda bu iki səsin dəyərləndırilməsi dildən asılı olaraq müxtəlif olur. Slavyan və eynilə italyan, ispan, macar və yeni yunan dillərində dilönü r-sı norma hesab olunur, dilarxası r-sı potoloji yayınma və ya snobistik affektivliyin əlaməti kimi, çox az hallarda isə (məs., xüsusən müəyyən Kernter dialektlərində hökm sürən slovencedə) yerli xüsusiyyət kimi başa düşülür. Alman və fransız dillərində isə bunun əksinə olaraq dilcək r-sı və onun müxtəlif növləri norma sayılır və dilönü r-sı lokal yayınma, ya da arxaik affektivlik kimi başa düşülür. Buna fransız artistlərinin işlətdiyi r-nı misal göstərmək olar. Doğrudan da, çox tez-tez təsadüf olunan belə hallarda variantların paylanması özlüyündə bir "norma"dır.
Çox hallarda elə olur ki, bir fonemin iki variantı ümumişləkdir, onların işlənmə tezliyi isə fərdi tərəddüdlərə tabedir: A fonemini hamı gah á, gah da à kimi reallaşdırır, biri á-nı, digəri isə à-nı üstün tutur və s. Beləliklə,"ümumişlək" və "fərdi" variantlar arasında tədrici keçidlər mövcuddur.
Fakültativ variantların funksiyası isə üslubi relevant və üslubi irrelevant olmaqla iki yerə bölünür. Üslubi relevant variantlar müxtəlif dil üslubları arasındakı fərqlərin ifadəsinə xidmət edir. Məs.: həyəcanlı emosional və etinasız – familyar üslublar arasındakı fərqlər kimi və s., bu funksiyada,

alman dilində vurğulu saitdən əvvəlki samitlərin yaranması və eyni zamanda "b" samitinin novlu tələffüzü ("aber" sözünün etinasız-familyar və danışanın yorğun tələffüzündə olduğu kimi) və s. tətbiq edilir. Üslubi variantlarda təkcə emosional deyil, həmçinin sosial danışıq üslubları da səciyyələnə bilər: məs, eyni dildə bir morfemin həm kobud, həm normal, həm də üslubi cəhətdən neytral variantları yanaşı işlənə bilər, bu variantlarla əsasən danışanın təhsil səviyyəsini, müvafiq olaraq onun sosial mənsubiyyətini müəyyənləşdirmək olur. Beləliklə, üslubi variantlar öz növbəsində emosional, yaxud patoqnomik və fizioqnomik olmaqla iki yerə bölünə bilərlər. Bunun əksinə olaraq bütün bunların stilistik cəhətdən irrelevant fakültativ variantlara dəxli yoxdur. Ümumiyyətlə, üslubi cəhətdən irrelevant fakültativ variantların payına heç bir funksiya düşmür. Onlar danışığın emosiya ekspressivliyi funksiyalarınıbildirir. Hər necə olursa, dəyişmədən bir-birini tamamilə sərbəst şəkildə əvəz edirlər. Məsələn, Kabardin dilində kipləşən partlayışlı dilortası samitləri gah "k", gah da "ç" kimi tələffüz edilir. Eyni kabardinli özü də duymadan və bununla hər hansı bir üslubi, yaxud emosional çalarlığı büruzə vermədən "gane" (köynək) sözünü ya "ğane", ya da "ğ′ane" kimi deyir. [N.F.Yakovlev]

Artıq yuxarıda deyildiyi kimi, üslubi variantların fərqləndirilməsi və sistemləşdirilməsi fonetik stilistikanın vəzifəsidir. Dar mənada fonologiya baxımından (yəni "eksplikativ fonologiya") həm üslubi relevant, həm də üslubi irrelevant fakültativ variantlar müəyyən bir məfhum altında birləşdirilə bilər. Lakin yaddan çıxartmaq olmaz ki, eksplikatıv fonologiya baxımından "variant" sırf neqativ anlayışdır: iki səs arasında o zaman variant münasıbəti mövcud olur ki, bu səslər intellektual mənanın fərqləndirilməsi üçün tətbiq edilməsin. Bu iki səs arasında qarşıdurmanın hər hansı başqa bir funksiya (ekspressivlik və ya appellativ funksiyalar) daşıyıb-daşımaması haqqında sözün dar mənasında fonologiya yox, fonetik stilistika hökm verməlidir. Bütün fakültativ fonetik variantlar öz mövcudluqlarına görə ona minnətdardır ki, hər bir dildə hər bir səsin artikulyator əlamətlərinin yalnız bir qismi fərqləndiricidir. Dil səsinin qalan başqa artikulyator xüsusiyyətləri fərqləndirmə cəhətindən "sərbəstdir" bu o deməkdir ki, onlar vəziyyətdən asılı olaraq variativ dəyişikliyə uğraya bilərlər. Bu cür dəyişikliyə uğramanın ekspressivlik və fikri ifadə etmək məqsədləri üçün yararlı olub-olmamasının eksplikativ fonologiya baxımından (xüsusilə söz fonologiyası baxımdan) əhəmiyyəti yoxdur.

İkinci qayda. Əgər iki səs eyni fonetik mövqedə gələrək sözlərin mənasını dəyişmədən, yaxud onların tanınmasına xələl gətirmədən bir-birini əvəz edə bilmirlərsə, onda bu iki səs iki müxtəlif fonemin fonetik realizasiyalarıdır. Məsələn, belə münasibət alman dilində "i" və "a" səsləri arasında mövcuddur: "Lippen" (dodaq) - "Lappe" (silgi); der Gatte (ər) -das Gitter (barmaqliq, şəbəkə); der Hammel (qoyun) - der Himmel (göy, səma); der Harsch (xarlanmış qar) - der Hirsch (maral); die Kappe (beret,papaq) - die Kippe (yelləncək); die Lande (körpü) - die Linde (cökə ağacı) sözlərində "i"-nin "a" ilə əvəz edilməsi məna dəyişikliyinə səbəb olur: "Tisch" (balıq) sözündə isə belə əvəzlənmə sözü tanınmaz edərdi: "Tasch", Fisch (balıq) – Fasch.

Burada "söz tanınmamazlığının" dərəcəsi çox müxtəlif ola bilər. Alman dilində söz əvvəlində f ilə pf-nın əvəzlənməsi əksər hallarda sözləri təxminən "a" ilə "i"-nin əvəzlənməsindəki kimi tanınmaz etmir. Almaniyanın böyük bir hissəsində yazılı dilə riayət edib danışanlar sistematik olaraq sözlərin əvvəlində gələn pf-nı f ilə əvəz edirlər, ancaq buna baxmayaraq heç bir çətinlik olmadan bütün başqa almanlar tərəfindən başa düşülürlər. Bununla belə /Pfeil (ox) – feil (satqın), Pfand (girov) – fand (tapdı), Pfad (cığır) – fad (dadsız), hüpfte (tullandı) – Hüffe (arxa), Hopfen (sərxoş) – hoffen (ümid etmək), Pfahl (paya, dirək,sütun) - fahl (solmuş, saralmış)/ kimi söz cütlərinin olması (mövcudluğu) sübut edir ki, yazılı alman dilində söz əvvəlində pf və f ilə əvəz edən həmin savadlı almanlar əslində heç də düzgün ədəbi alman dilində deyil, özlərinin yerli dialektlərilə yazılı alman dilinin qarşılığında danışırlar.

Üçüncü qayda. Əgər bir dildə akustik, müvafiq olaraqartikulyator cəhətdən bir-birilə qohum olan iki səs heç vaxt eyni fonetik əhatədə gəlmirsə, bu zaman onlar eyni fonemin kombinator variantları kimi dəyərləndirilir.

Burada üç tipik məqam fərqləndirilə bilər:
1. Müəyyən bir dildə bir tərəfdən bütöv bir qrup yalnız müəyyən bir mövqedə gələn /a′,a″, a‴/ səsləri mövcuddur, digər tərəfdən, məhz həmin mövqedə gələ bilməyən adı çəkilən yalnız bir səs /a/ vardır. Bu halda "a" səsi /a′, a″, a‴/ səslər qrupunun yalnız öz səsi ilə variant münasibətində olur ki, həmin səs akustik və artikulyator cəhətdən onunla daha çox qohum olsun. Məs.: Koreya dilində "s" və "r" söz sonunda işlənir, halbuki "l" məhz yalnız söz sonunda çıxış etmir; burada "l" süzülən səs kimi "s"-dan çox "r"-ya daha yaxın olduğundan yalnız "l" ilə "r" vahid bir fonemin kombinator variantları kimi götürülə bilər.
2. Müəyyən bir dildə bir tərəfdən yalnız müəyyən bir mövqedə təzahür edə bilən bir sıra səslər mövcuddur, digər tərəfdən, elə səslər vardır ki, onlar məhz həmin mövgedə gələ bilmirlər. Bu halda birinci sıranın hər bir səsi ilə ikinci sıranın ona akustik və artikulyator cəhətdən daha yaxın olan səsiarasında kombinator variant münasibəti olur. Misallar: rus dilində "ö" və "a" səsləri yalnız iki yumşaq samit arasında gəlir, halbuki "o" və "a"-ya nisbətən "o" ilə yaxın qohum olduğundan, digər tərəfdən, çox açıq qeyri-dodaq "ä" saiti "o"-dan "a"-ya daha yaxın olduğundan, "ö" və "o" bir fonemin (/o/-nun), "ä" və "a" isə başqa bir fonemin (/a/-nın) kombinator variantları kimi qiymətləndirilir. Yapon dilində "c" /ts/ və /f/ səsləri yalnız "u"-nun qarşısında gəlir. Halbuki "t" və "h" səsləri məhz "u"-nun qarşısında mümkün deyildir; bu səslərdən yalnız "t" və "c" /ts/ kipləşən-partlayışlı kar dilönü səslərdir, yalnız "h" və "f" kar novlu samitlərdir. Buna görə də "t" və "c" /ts/ bir fonemin kombinator variantları kimi götürülməlidirlər.
3. Müəyyən bir dildə istisnasız olaraq ancaq müəyyən mövgedə işlənən bir səs mövcuddur və eyni zamanda bu mövqedə işlənməyən başqa bir səs də mövcuddur. Bu halda iki səs yalnız o zaman eyni bir fonemin kombinator variantları ola bilər ki, onlar bilavasitə fonoloji oppozisiya təşkil etməsinlər. Belə ki, alman dilinin "h" və "ŋ" səsləri eyni bir fonemin kombinator variantları deyil, heç vaxt eyni mövgedə gəlməsələr də iki müxtəlif fonemi təmsil edir. Bunun əksinə olaraq yapon dilində yalnız söz əvvəlində işlənən g və məhz söz əvvəlində gələ bilməyən "ŋ" səsi eyni bir fonemin kombinator variantları kimi qəbul edilir: bunların hər ikisi yapon dilində yeganə cingiltili dilarxası samitlərdir və beləliklə, yapon dilində onları digər səslərdən fərqləndirən məlum ümumi xüsusiyyətlər vardır.
Dördüncü qayda. Üçüncü qaydadakı bütün tələblərə cavab verən iki səs bir dildə səs birləşməsinin üzvləri kimi bir-birinin dalınca gələ bilirsə, həmin vəziyyətdə onlardan biri digərinin müşayiəti olmadan işlənirsə, onda bu iki səsi eyni bir fonemin variantları hesab etmək olar. Məs.: ingilis dilində "r" yalnız saitdən, "ə" isə yalnız samitdən əvvəl gəlir: "r" partlayışlı tələffüz olunduğundan, "ə" isə ağızın həddindən artıq qeyri-müəyyən dərəcədə açılması ilə və həddindən artıq qeyri-müəyyən çalarlarla deyildiyindən, onlara eyni bir fonemin kombinator variantları kimi yanaşmaq olar. Lakin bu mümkün deyil, çünki profession /prəfešn/ kimi sözlərdə "r" və "ə" bir-birinin dalınca gəlir, halbuki perfection /pərfekšn/ kimi başqa sözlərdə bunlardan yalnız biri, yəni "ə" çıxış edir.
Beləliklə, fonetik variantlar ya fakültativ, ya da daimi olur; sonuncu təbii ki, yalnız kombinator variantlar olur. Ola bilər ki, fakültativ kombinator variantlar da olsun. Rus dilində "j" saitlərdən sonra heca düzəltməyən í kimi, samitlərdən sonra isə ya í, ya da novlu j kimi çıxış edir; hər iki variant fakültativdir. Bəzi alman dialektlərində t və d fonoloi baxımdan üst-üstə düşürlər; onlar bir fonem əmələ gətirirlər, əksər hallarda o gah t, gah da d kimi realizə olunur. Burun samitlərində sonra o yalnız d kimi (Məs.: tinde / dinde - ədəbi dildə isə "Tinte" – mürəkkəb; tande – dinde - ədəbi dildə "Tante" - xala) işlənir.
Gördüyümüz kimi, fonetik variantlar, özü də stilistik variantlar, dilin ekspressiv və appellativ funksiyalarının yerinə yetirilməsində müəyyən rol oynayırlar. Kombinator variantlar isə istisnasız olaraq eksplikatıv planda çıxış edirlər. Kombinator variantlar, necə deyərlər, fonoloji baxımdan yardımçı vasitə kimi çıxış edirlər. Onlar ya sözün və ya morfemin sərhədini göstərir, ya da qonşuluqda hər hansı bir morfemin gəlməsinə işarə edir. Onların söz və ya morfem sərhədlərini bildirməsi haqqında irəlidə səsin delimitativ funksiyası nəzərdən keçirilərkən danışılacaqdır. Qonşuluqda hər hansı bir fonemin gəlməsini bildirməsi kombinator variantların yerinə yetirdiyi əlavə funksiya kimi

götürülə bilməz (hərçənd ki, bu vacib də deyil). Sürətli və qeyri-aydın danışıqda bu və ya digər fonem özgürlüyünü itirə bilər; ona görə də bu özgürlüyün qonşuluqda gələn fonemin xüsusi variantı ilə təsdiqlənməsinə böyük ehtiyac duyulur. Lakin bu yalnız qonşuluqda gələn fonemin xüsusi variantının təkcə sürətli tənəffüzdə yox, həmçinin o iki fonemin qonşuluqda gəldiyi bütün hallarda özünü göstərir, çünki fonemin xüsusi realizasiyası şüurda yalnız onda həkk olur və qonşuluqda gələn başqa, həm də konkret bir fonemin gəlməsini bildirən siqnala, işarəyə çevrilir. Məs., yapon dilində u-nun tələffüz məxrəçi özlüyündə az səciyyəlidir: dodaqlar zəif şəkildə irəli çəkilir, artikulyasiya o qədər az vaxt ərzində baş verir ki, sürətli danışıqda bu sait ümumən səslənmir. Belə vəziyyətdə əlverişli olan odur ki, u-dan əvvəl gələn bir sıra yapon fonemləri xüsusi kombinator variantda çıxış edirlər (t-nın variantı c, h-nın variantı g olur); əgər u-nu eşitmək olmasa da, əvvəldə gələn fonemin işlənməsindən ondan sonrakı fonemin u olacağını güman etmək çətin olmur. Bilavasitə qonşuluqda müəyyən fonemin gəlməsini göstərən funksiyanı sosiativ və ya yardımçı-sosiativ funksiya adlandırmaq olar.

Ədəbiyyat

1. N. Trubetzkoy. Anleitung zu phonologischen Beschreibungen. Brno. 1935.
2. N.S. Trubeskoy. Fonologiyanın əsasları. Bakı: Mütərcim, 2001.
3. F. J. Veysälli. Einführung in die Phonologie. I.Teil. Bakı, Mütərcim, 2004.
4. Н.Ф.Яковлев. Таблицы фонетики кабардинского языка. Труды подразряда исследования северно-кавказских языков при Институте Востоковедения в Москве. Т. I, М. 1923.

AHMED JAVAD'S CREATIVITY: NATIONAL SPIRIT AND ROMANTICISM

ƏHMƏD CAVADIN YARADICILIĞI: MİLLİ RUH VƏ ROMANTİZM

Leyla Ziyafət qızı Həsənova
Azərbaycan Dövlət Pedaqoji Universiteti Filologiya fakültəsi, müəllim

Xülasə.
Əhməd Cavad XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biridir. Onun yaradıcılığı vətənpərvərlik, türkçülük və romantik lirika ilə səciyyələnir. Şairin poeziyasında azadlıq idealları və istiqlal ruhu ön planda dayanır. "Çırpınırdı Qara dəniz" şeiri şairin milli azadlıq düşüncələrinin ən parlaq nümunəsidir.Eyni zamanda, Əhməd Cavad romantik lirika sahəsində də diqqətəlayiq əsərlər yazmışdır. Onun sevgi və təbiət mövzusunda qələmə aldığı şeirlərində incə duyğular və folklorun təsiri özünü göstərir. Lakin şairin azadlıq ruhlu poeziyası sovet hakimiyyətinin ideologiyasına uyğun gəlmədiyi üçün o, 1937-ci ildə repressiyaya məruz qalmışdır. Bütün çətinliklərə baxmayaraq, Əhməd Cavadın yaradıcılığı bu gün də Azərbaycan poeziyasında milli ruhun və romantizmin parlaq nümunəsi kimi aktuallığını qoruyur.
Açar sözlər: Əhməd Cavad, milli poeziya, istiqlal şeirləri, lirika, milli ruh

Abstract.
Ahmad Javad is one of the prominent representatives of 20th century Azerbaijani poetry. His work is characterized by patriotism, Turkism and romantic lyrics. The ideals of freedom and the spirit of independence are at the forefront of the poet's poetry. The poem "The Black Sea Was Fluttering" is the most vivid example of his national liberation thoughts.
At the same time, Ahmad Javad also wrote remarkable works in the field of romantic lyrics. In his poems on the theme of love and nature, subtle emotions and folklore influence are evident. However, since the poet's freedom-loving poetry did not correspond to the ideology of the Soviet regime, he was repressed in 1937. Despite all the difficulties, Ahmad Javad's work remains relevant today as a vivid example of the national spirit and romanticism in Azerbaijani poetry.
Keywords: Ahmad Javad, national poetry, independence poems, lyrics, national spirit
Giriş. Əhməd Cavad XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biridir. Şairin yaradıcılığı romantik ruhu, vətənpərvərlik motivləri və azadlıq ideyaları ilə seçilir. Əhməd Cavad Azərbaycan ədəbiyyatında milli azadlıq ideallarının poeziyada əks olunmasında mühüm rol oynamış şairlərdən biridir. Əsərlərində türkçülük, istiqlal və xalq sevgisi mühüm yer tutur.
Əhməd Cavadın poeziyası əsasən romantik ruhda yazılmışdır. Şairin lirikasında vətən sevgisi, qəhrəmanlıq, azadlıq və milli kimlik kimi mövzular üstünlük təşkil edir. O, yaradıcılığında həm klassik şeir ənənələrindən, həm də müasir dövrün yeniliklərindən yaradıcı şəkildə istifadə etməyi bacarmışdır. Şairin yaradıcılığında türkçülük və istiqlal ideyaları xüsusi yer tutur. Ə.Cavadın poeziyası yalnız romantik duyğularla məhdudlaşmır, sənətkarın həm də dövrünün siyasi və ictimai hadisələrinə cavab olaraq yazılmış realist üslublu əsərləri də mövcuddur. Yaradıcılığa ilk olaraq romantik şair kimi başlamış, lakin cəmiyyətdə gedən mübarizələr, siyasi-ictimai vəziyyət onun sənətkarlıq baxımından daha da ucalmasına, öz xalqının, millətinin azadlığı, tərəqqisi yolunda haqqın səsi olmasına səbəb olmuşdur.
Əsas hissə. Əhməd Cavadın yaradıcılığında xalq ruhu, folklor motivləri və qəhrəmanlıq motivləri geniş yer tutur. O, Azərbaycan xalqının tarixi keçmişinə, qəhrəmanlıq ənənələrinə və mədəni dəyərlərinə böyük önəm vermişdir. Onun şeirlərində vətən sevgisi, türkçülük, istiqlal arzusu və qəhrəmanlıq mövzuları mühüm yer tutur. [5, s. 127] Az sözlə incə hiss və duyğular, böyük fikirlər ifadə etmək, dil və təsvir gözəlliyi, aktuallıqla uzun ömürlülüyün vəhdəti onun lirikasını səciyyələndirən əsas keyfiyyətlərdəndir. Lakin sovet hakimiyyəti illərində Əhməd Cavadın azadlıq

ruhu ilə yoğrulmuş poeziyası rəsmi ideologiya ilə uzlaşmırdı. Buna görə də şair tez-tez siyasi təqiblərə məruz qalırdı.

Ədəbiyyatımızda daha çox lirik şair kimi tanınan Əhməd Cavadın yaradıcılığı əsas etibarilə aşağıdakı istiqamətlərdə inkişaf etmişdir:

1. Vətənpərvərlik və istiqlal ruhu. Əhməd Cavadın poeziyasında Vətən sevgisi, xalqın azadlıq və istiqlal arzuları mühüm yer tutur. O, öz yaradıcılığı ilə milli ruhu və istiqlal ideallarını tərənnüm etmişdir. Şairin ən məşhur şeirlərindən biri olan "Çırpınırdı Qara dəniz" bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Bu əsərdə Azərbaycan və Türkiyənin qardaşlıq bağları, türk xalqlarının birliyi və azadlıq ideyası ifadə olunmuşdur:

"Çırpınırdı Qara dəniz, baxıb türkün bayrağına,"
"Ah deyirdi, ölən görsəm, gedib türkün torpağına." [2, s. 149]

Bu şeir təkcə ədəbi deyil, həm də siyasi məna daşıyır və istiqlal ruhunu güclü şəkildə ifadə edir.[1] Əhməd Cavad Azərbaycanın müstəqilliyini, türk xalqlarının azadlıq uğrunda mübarizəsini tərənnüm edirdi. Bu ideyalar şairin "Ey əsgər", "İstanbul", 'Mən türk övladıyam" və s. kimi şeirlərində öz əksini tapmışdır. Şairin vətənpərvərlik ruhunda yazdığı şeirlər içərisində "Azərbaycan, Azərbaycan", "Göy-göl", "Azərbaycan bayrağına" və s. kimi şeirləri öz millilik ruhu ilə diqqəti xüsusi cəlb edir.

2. Romantik lirika və təbiət mövzusu. Böyük Azərbaycan şairinin yaradıcılığı yalnız vətənpərvərlik motivləri ilə məhdudlaşmırdı. Onun poeziyasında romantik lirika da xüsusi yer tutur. Şairin sevgi, təbiət və insan hissləri ilə bağlı yazdığı şeirlərdə klassik Şərq və Avropa romantizminin təsiri hiss olunur.

Onun "Ay", "Sən", "Bənzərdi" kimi sevgi şeirlərində romantik ruh, həzin duyğular və incə poetik ifadələr diqqəti cəlb edir. Belə şeirlər Cavadın poetik dilinin daha obrazlı, daha səlis, daha anlaşıqlı olmasını şərtləndirirdi [3, s. 18]. Əhməd Cavad eyni zamanda, təbiət mənzərələrini də lirikasında canlı təsvir və tərənnüm etmişdir. Şairin "Dağlar" şeirində təbiət təsvirləri ilə birlikdə insanın daxili hissləri ahəngdar şəkildə verilmişdir:

Dərdli sinəndəki əski cığırlar,
İnsan izlərinə bənzər, a dağlar!
Bu ağır başlıca baxışın mənə
Qanlı əfsanələr söylər, a dağlar! [2, s. 213]

Şairin romantik ruhu onu yalnız fərdi hisslərin tərənnümçüsü kimi deyil, həm də xalqın ümumi duyğularını ifadə edən sənətkara çevirmişdir. O, lirikasında həm fərdi, həm də ictimai duyğuları vəhdətdə təqdim etməyi bacarmışdır.[6]

3. Klassik ədəbiyyatdan və folklordan yaradıcı istifadə. Əhməd Cavad ənənədən yerində və yaradıcı şəkildə istifadə etməyi bacaran novator şair idi. O, həm də folklor motivlərindən geniş istifadə edərək milli poeziyanın bədii ifadə imkanlarını zənginləşdirmişdir. Ümumiyyətlə, Əhməd Cavad folklorumuzun vurğunu, onun yorulmaz toplayıcılarından biri iri. Şairin yaradıcılğı şifahi xalq ədəbiyyatından, onun zəngin obrazlar aləmindən, deyim tərzindən bir sənətkar kimi öz töhfəsini götürmuşdür. Yaradıcılığının hələ ilk mərhələsində özünü göstərən dilin sadəliyi, axıcılığı, ahəngdarlığı bilavasitə folklordan süzülüb gələn vacib keyfiyyətlər idi. Şeirlərində Azərbaycan xalq ədəbiyyatından götürülmüş obrazları, klassik poeziyanın ənənələri və xalq mahnılarının üslubu özünü göstərir. Məsələn, "Gəldim" şeiri öz sadə, lakin bir o qədər də təsirli dilinə görə xalq şeirlərini xatırladır:

Yurdumun ördəyi, qazları vardır,
Ətrindən doyulmaz yazları vardır.
Söhbəti çox şirin sazları vardır,
Yarımın çəkilməz nazları vardır.
Mən bu gün gülləri dərməyə gəldim,
Yarımı dəzgahda görməyə gəldim! [2, s. 254]

Əhməd Cavadın klassik irsə, anadilli şeirimizin tarixinə və taleyinə münasibətini açıqlamaq baxımından isə "Füzuli" şeirinə nəzər yetirmək kifayətdir. Şairin fikrində Füzuli bütün türk dünyasının ən qüdrətli qələm sahibidir. Füzulinin sənət dünyasının bütün türk xalqlarının qaranlıq dünyasına işıq saçdığını, öz yaradıcılığı ilə türklərin adını bütün dünyaya tanıtdığı qənaətində olan şair, şeirində böyük qəlb şairindən eyranlıqla bəhs edir:

Üfüqlərdə günəş söndü bir axşam çağı,
Çox uğursuz bir qaranlıq çökdü dünyaya.
Görüncə ki sönməkdədir sənət ocağı,
O yalvardı, həm sığındı "təbi-vala"ya.
Öz kimsəsiz torpağına baxdı Füzuli,
Bir sönməyən şimşək oldu, çaxdı Füzuli. [2, s.231]

Nəticə. Əhməd Cavad Azərbaycan ədəbiyyatında romantizmin görkəmli nümayəndələrindən biri olmaqla yanaşı, həm də milli poeziyanın azadlıq ruhunu yaşadan böyük sənətkardır. Onun yaradıcılığı XX əsr Azərbaycan poeziyasına güclü təsir göstərmiş və müasir dövrümüzdə də aktuallığını qoruyub saxlamışdır. Lirikasında siyasi lirika, məhəbbət lirikası və süjetli lirika nümunələrinə daha çox müraciət edən şairin poeziyasında romantik ruh, milli azadlıq ideyaları, türkçülük və istiqlal mövzuları üstünlük təşkil edir. Xalqın istiqlaliyyət uğrunda mübarizəsi Əhməd Cavadı bütün ömrü boyu düşündürən və uğrunda həyatını qurban verdiyi bir qayə olmuşdur. Lakin bu cəsarətli mövqe sovet hakimiyyəti dövründə onun poeziyasının rəsmi ideologiya ilə uzlaşmasına imkan verməd iyindən, şairin yaradıcılığı uzun müddət əsaslı şəkildə tədqiq olunmamış, yaradıcılığı uzun müddət süni şəkildə xalqın taleyindən, tarixindən ayrı salınmışdır. Əhməd Cavadın poeziyasını tədqiqata cəlb etdikdə buradakı romantizmlə yoğrulmuş milli ruh diqqəti xüsusi cəlb edir. Əhməd Cavad öz həyatını xalqına, onun işıqlı gələcəyinə adamış bir istiqlal şairi olaraq əsərlərindəki millilik ruhu özünü açıq-aşkar büruzə verir. Təəssüf ki, öz qələmini vətəninin, xalqının istiqbalı yolunda yorulmadan çalışdıran bu istiqlal şairi 1937-ci ildə repressiya qurbanı olmuş, milli azadlıq arzularını poeziyasında ifadə etdiyinə görə "xalq düşməni" damğası ilə həbs edilərək güllələnmişdir. Lakin o, xalqının azadlıq təşnəsi ilə yanan qeyrətli oğullarından biri olaraq, dövran onun olmasa da əyilib keçmədi; ölümü seçib Vətəninin qoynunda, xalqının qəlbində poeziyamızın İstiqlal şairi kimi ədəbi məskən saldı.

Əhməd Cavadın şeirləri bu gün də Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ifadəsi kimi oxunur və sevilir.

Ədəbiyyat siyahısı:

1. Abidqızı G. Çırpınırdı Qara dəniz // Ədalət, Bakı, 2020, 23 iyul, s. 7
2. Əhməd Cavad. Seçilmiş əsərləri 2 cilddə. I cild. Bakı: Azərnəşr, 1992, 326 s.
3. Ə. Saləddin. Əhməd Cavadın həyat və yaradıcılığı haqqında. Bakı: Yazıçı, 1993, 64 s.
4. Xəlilzadə F. Haqqın səsi // Mədəni həyat, N10, Bakı, 2012, s.44-45
5. İsmayıl Y. Sirr. Bakı: Gənclik, 1992, 208 s.
6. Məhərrəmova T. Əhməd Cavad poeziyasının qüdrəti // Kaspi, 2010, 8 may, s.21

CHINA'S POSITION IN THE 44-DAY PATRIOTIC WAR

44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ ÇİNİN MÖVQEYİ

Şadiyeva Aytac Şixəli qızı
Təhsil aldığı müəssisə:Bakı Dövlət Universiteti
Bakı şəhəri 105 nömrəli tam orta məktəb, Bakı Dövlət Universiteti

Xülasə
Azərbaycanla Çin arasında siyasi, diplomatik və ticarət münasibətləri tarixin dərinliklərinə qədər gedib çıxmaqdadır. İki xalq arasında münasibətlər də kifayət qədər dəindir. Çinin Azərbaycana olan marağı ölkəmizin zəngin təbii sərvətləri və əlverişli strateji mövqeyi ilə əlaqələndirilir. Bu maraq XXI əsrin əvvəllərindən özünü daha qabarıq şəkildə biruzə vermişdir. İki ölkə arasındakı dərin münasibətlər Azərbaycan Respublikasının 1991-ci ildə öz müstəqilliyini əldə etməsindən sonra daha da fəallaşmışdır. Çin üçün Azərbaycan Respublikası Cənubi Qafqazda nüfuz qazanmağın əsas açarıdır. Bu, təbii ki, Azərbaycanın Cənubi Qafqazın lider dövləti olmasından irəli gəlir. Çin, xüsusilə də müasir dövrdə Cənubi Qafqazda gedən siyasi, sosial, iqtisadi prosesləri diqqətlə izləyir. Azərbaycan, hər şeydən əvvəl, Çin üçün etibarlı müttəfiqdir. İki ölkə arasındakı münasibətlər 1993-cü ildə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra intensivləşmişdir. Çin, 30 il ərzində Azərbaycanın ən mühüm siyasi problemi olmuş Azərbaycan-Ermənistan Dağlıq Qarabağ probleminə xüsusi maraq göstərmişdir. İstər I Qarabağ müharibəsi dövründə, istərsə də 2020-ci ildə baş verən 44 günlük II Qarabağ və ya Vətən müharibəsi dövründə Çin, hər zaman Azərbaycanın haqlı mövqeyini dəstəkləmişdir.
Açar sözlər: Azərbaycan, Çin, Vətən müharibəsi, Qarabağ, Ermənistan

Abstract
Political, diplomatic and trade relations between Azerbaijan and China go back to the depths of history. Relations between the two peoples are also quite diverse. China's interest in Azerbaijan is associated with the rich natural resources and favorable strategic position of our country. This interest has become more pronounced since the beginning of the 21st century. Deep relations between the two counties have become even more active since the Respublic of Azerbaijan gained its independence in 1991. For China, the Respublic of Azerbaijan is the main key to gaining influence in the South Caucasus. This, of course, stems from the fact that Azerbaijan is the leading state in the South Caucasus. China, especially in modern times, closely follows the political, social and economic processes taking place in the South Caucasus. Azerbaijan is, first of all, a reliable ally for China. Relations between the two countries intensified after the National Leader of the Azerbaijani people, Heydar Aliyev, came to power in 1993. China has shown special interest in the Azerbaijan-Armenia Nagorno-Karabakh problem, which has been the most important political problem of Azerbaijan for 30 years. Whether during the First Karabakh War or the 44-day Second Karabakh or Patriotic War that took place in 2020, China has always supported Azerbaijan's just position.
Key words: Azerbaijan, China, Patriotic War, Karabakh, Armenia

GİRİŞ.

Azərbaycan-Çin Diplomatik Əlaqələrinin Ümumi Xarakteri

Çin Şərqi Asiya regionunun ən inkişaf etmiş ölkələrindən biridir. Onunla Azərbaycan Respublikası arasında səmimi münasibətlər hələ XX əsrin 90-cı illərinin əvvəllərindən yaranmışdır. Çin 27 dekabr 1991-ci ildə ölkəmizin müstəqilliyini tanıyıb. Azərbaycanla Çin arasında diplomatik əlaqələr 2 aprel 1992-ci ildə qurulmuşdur. Həmin ilin avqust ayında Çinin respublikamızda səfirliyi açılıb, 1993-cü il dekabr ayının 1-də isə ilk səfir təyin edilib (10). Təbiidir ki, iki ölkə arasındakı münasibətlər intensiv

şəkildə 1993-cü ildən, Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyət göstərməsindən sonra başlamışdır (3, s 32). Çin BMT Təhlükəsizlik Şurasının Qarabağın Ermənistan tərəfindən işğalı ilə bağlı 4 qətnaməsinin qəbulunda mühüm rol oynamışdır. Uzaqgörən lider Heydər Əliyev 1994-cü ilin 7-10 mart tarixlərində Çinə səfər etdikdən sonra Çinlə olan münasibətlər xüsusilə inkişaf etməyə başlamışdır (8, s 104). İki ölkə arasında münasibətlər Prezident İlham Əliyevin hakimiyyəti dövründə daha da dərinləşmişdir. 2005-ci il 17 mart tarixində Çin Xalq Respublikasının sədri Xu Szintao Azərbaycan Prezidenti cənab İlham Əliyevlə danışıqlar aparmış və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikir mübadiləsi apardılar. Cənab Szintao bildirdi ki, Çin Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir. Tayvan məsələsində Çinin də belə bir problemlə üzləşdiyini vurğulayan ÇXR-in sədri dedi ki, biz münaqişələrin sülh yolu ilə, beynəlxalq hüquq normalarına, ən əsası isə, BMT-nin Nizamnaməsinə uyğun olaraq həll edilməsinə tərəfdarıq (7, s 172). 2016-cı ildə Azərbaycan Prezidenti İlham Əliyev Çin Kommunist Partiyasının üzvlərini qəbul edib. Danışıqlar zamanı Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunmuş, Ermənistanın təcavüzkarlıq siyasəti və münaqişənin həlli ilə bağlı danışıqlar prosesi ilə bağlı məlumat vermişdir (2, s 204). 23 aprel 2025-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Çin Xalq Respublikasının Sədri cənab Si Cinpinlə geniş tərkibdə görüş keçirmişdir. Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT, Şanxay Əməkdaşlıq Təşkilatı və digər təsisatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı dəstək məsələlərinə, o cümlədən Azərbaycan və Çinin daim bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiklərindən məmnunluq məsələlərinə toxunuldu (11).

44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ DÖVRÜNDƏ ÇİNİN MÖVQEYİ

Çinin Qarabağ münaqişəsinə və 44 günlük Vətən müharibəsinə mövqeyini açıqlamazdan öncə Qarabağ münaqişəsinin başlanğıcına diqqət yetirək. Münaqişənin xronikasına nəzər salsaq, XX əsrin 80-cı illərinin sonunda Sovet İttifaqını əhatə edən siyasi burulğanların girdabında baş qaldırmağa başlayan erməni şovinizmi bu münaqişəyə yavaş-yavaş şərait yaradırdı. Ermənistan SSR-dən azərbaycanlıların kütləvi şəkildə deportasiyası, Ermənistan və DQMV-də (Dağlıq Qarabağ Muxtar Vilayəti) başlayan antiazərbaycan siyasəti, 1990-cı ilin 20 Yanvar hadisələri, 1991-ci ildə yenicə müstəqillik qazanan Azərbaycanın Qarabağ münaqişəsinə cəlb olunmasına gətirib çıxarmışdır. I Qarabağ müharibəsi 1991-1994-cü illəri əhatə etmiş, 1994-cü ildən 2020-ci ilə qədər tərəflər arasında atəşkəsi nəzərdə tutan Bişkek protokolu qüvvədə olmuşdur. Atəşkəsin elan olunmasına baxmayaraq, təcavüzkar Ermənistan rəhbərliyi atəşkəsi demək olar ki, hər gün pozmuş, Azərbaycana qarşı terror əməllərindən əl çəkməmişdir. 2020-ci il 27 sentyabrda isə Ermənistan ordusunun terrorçu hücumuna qarşı əks-həmlə elan edən Azərbaycan 10 noyabra qədər 44 gün ərzində Vətən müharibəsində öz torpaqlarını azad etmişdir. Bu münaqişə bütün dövlətlərin, o cümlədən də Çin Xalq Respublikasının xarici siyasətinin mühüm məsələlərindən biri olmuşdur.

2020-ci il 27 sentyabr tarixində Ermənistanın növbəti təxribatlarına cavab olaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev orduya əks-həmlə əməliyyatına başlamaq əmri verdi. Hərbi əməliyyatlar 2020-ci il 27 sentyabrdan 10 noyabra qədər davam etmişdir. 44 günlük II Qarabağ müharibəsi tarixə həm də Vətən müharibəsi adı ilə daxil olmuşdur. Beləliklə, 44 günlük Vətən müharibəsi işğal altında olan bütün Azərbaycan torpaqlarının Azərbaycan ordusu tərəfindən azad edilməsi ilə nəticələnmiş, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmuşdur. 2020-ci ildə 44 günlük Vətən müharibəsinin başlamasından sonra 28 sentyabrda Çin hökuməti Azərbaycan və Ermənistanı Dağlıq Qarabağda gərginliyi tezliklə azaltmağa və fikir ayrılıqlarını dialoq yolu ilə həll etməyə çağırmışdır. Çin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Van Venbin brifinq zamanı "müvafiq tərəfllərin təmkinli davranacağına və gərginliyin daha da artmasından qaçmağa çalışacaqlarına və həmçinin tərəflərin fikir ayrılıqlarını dialoq yolu ilə həll edəcəklərinə ümid etdiklərini" bildirmişdir (12).2022-ci ildə Azərbaycan-Çin diplomatik münasibətlərinin qurulmasının 30-cu ildönümü qeyd edildi və bu əlamətdar hadisə iki ölkə arasında əlaqələrin daha da inkişafına

imkan yaratdı (1, s 2). Artıq Dağlıq Qarabağ münaqişəsi geridə qalır, siyasi proseslərdə çox böyük rola malik olan Çinin Azərbaycanın haqlı mövqeyini müdafiə etməsi siyasi proseslərdə öz nəticəsini vermişdir.

2022-ci il sentyabrın 15-də Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşüb. Görüşdə Sədr Si Cinpin Azərbaycan ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının, həmçinin Yeni Azərbaycan Partiyasının yaradılmasının 30 illiyi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırmışdır. Görüşdə Prezident İlham Əliyev Azərbaycanın Çinin ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini, Çinin də ölkəmizin ərazi bütövlüyünə birmənalı dəstəyini həmişə yüksək qiymətləndirdiyini vurğuladı, buna görə Si Cinpinə təşəkkürünü ifadə etdi (4, s 1). Bütün bunlar, Çin Xalq Respublikası hökumətinin Vətən müharibəsi başa çatdıqdan sonra da Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam dəstəklədiyini sübut edir.

QARABAĞIN BƏRPASINA ÇİNİN TÖHFƏSİ

Azərbaycan, Çin üçün həm də etibarlı iqtisadi tərəfdaşdır. Çin Xalq Respublikası Qarabağın Azərbaycan tərəfindən Ermənistan işğalından azad edilməsindən sonra burada aparılan fəal quruculuq işlərində fəal iştirak edir. Çin şirkətlərinin Qarabağda quruculuq və bərpa işlərində fəal iştirakı həm Azərbaycan Respublikası ilə olan səmimi dostluq münasibətlərinin inkişafı baxımından, həm də Çin iqtisadiyyatının inkişafı baxımından çox böyük əhəmiyyət kəsb edir. Çinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri xanım Qo Min Azərbaycanın çox gözəl və əsrarəngiz ölkə olduğunu vurğulamış, Qarabağa, Şuşaya olan səfərindən çox məmnun olduğunu söyləmişdir. Xanım səfir AZƏRTAC-a açıqlamasında bildirmişdir:“Mən çox heyrətləndim.Qısa müddətdə bu qədər nəhəng işlər görülüb. Təəssüratlarım çox zəngindir” (6,s 3). 29 mart 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Çin Xalq Respublikasının Sədri cənab Si Cinpinə Azərbaycan-Çin dövlətləri arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə yazmış olduğu təbrik məktubunda qeyd etmişdir:“44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycanın tarixi torpaqlarının işğaldan azad edilməsi ölkələrimiz arasında əməkdaşlığın şaxələndirilməsi üçün əlverişli şərait yaratmışdır. Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında aparılan bərpa və yenidənqurma işlərinə daha çox Çin şirkətinin cəlb olunmasını dəstəkləyirik” (9, s 1). 2025-ci il yanvarın 16-da Çinin “Dongfang Electronics Corporation” şirkətinin nümayəndələri Bakıda keçirilən görüşdən sonra işğaldan azad olunmuş ərazilərə səfər etmişlər. AZƏRTAC məlumat verir ki, səfərdə korporasiyanın baş direktor müavini Şitan Cao, Mərkəzi Asiya filialının direktoru Vei Liu, baş menecerin məsləhətçisi Dmitri Jarovski və digər rəsmi şəxslərdən ibarət 9 nəfərlik heyət və “Azərişıq” ASC-nin nümayəndələri iştirak ediblər. Yanvarın 16-da Füzuli şəhərinə və Xocavənd rayonunun Hadrut qəsəbəsinə gələn qonaqlara dövlətimizin dəstəyi sayəsində qısa zaman ərzində aparılan yenidənqurma işləri barəsində ətraflı məlumat verilib. Səfər zamanı tərəflər arasında elektrik təsərrüfatının müasir standartlara uyğun qurulması və yeni əməkdaşlıqlar sahəsində təcrübə mübadiləsi aparılıb (5, s 13).

NƏTİCƏ

Çin Xalq Respublikası Azərbaycanın etibarlı ticari müttəfiqi olmaqla yanaşı, Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda baş verən siyasi hadisələri diqqətlə izləməkdədir. Azərbaycanın zəngin neft və qaz, yəni enerji resursları bu resurslar sayəsində öz iqtisadiyyatını yüksəltməyə çalışan Çin Xalq Respublikası üçün olduqca əhəmiyyətlidir. Digər tərəfdən, Azərbaycan və Çin xalqları arasında dərin mənəvi yaxınlıq da mövcuddur. Hər iki xalq mövcud olduqları regionlarda dərin mənəvi irs yaratmışlar. Azərbaycan Respublikasının 1991-ci ildə öz müstəqilliyini əldə etdikdən sonra üzləşmiş olduğu Qarabağ problemi Çinin hər zaman diqqətində olmuşdur. Bu fikir, özünü xüsusilə də Azərbaycanla Ermənistan arasında 2020-ci il 27 sentyabrdan 10 noyabra qədər davam edən II Qarabağ müharibəsi və ya Vətən müharibəsində özünü doğrultmuşdur. Çin Xalq Respublikası vermiş

olduğu bütün bəyanatlarda Azərbaycanın ərazi bütövlüyünü birmənalı olaraq dəstəklədiyini bildirmiş, hərbi əməliyyatların aparılmasından narahatlığını vurğulamışdır. Cənubi Qafqazda, xüsusilə də Azərbaycanda siyasi sabitliyin mövcud olması Çin üçün bu regionda yüksəlməyin əsas amilidir. Digər tərəfdən, BMT-nin 5 daimi üzvündən biri olan Çinin Azərbaycanı dəstəkləməsi ölkəmiz üçün çox vacibdir. Çinin mövqeyinin bu cür olmasının bir digər səbəbi isə, Çinin özünün onilliklər boyu separatizmdən əziyyət çəkməsidir. Belə ki, 1949-cu ildən Çindən ayrılan Tayvanın yaratmış olduğu siyasi problem hələ də öz həllini tapmamışdır. Bundan əlavə Çinin ərazisində türklərin kompakt şəkildə yaşadığı Sintszyan-Uyğur vilayətinin də Çindən ayrılmaq yönündə iddiaları mövcuddur. Çin hökumətinin separatizmə qarşı çıxmasının əsas səbəbi separatizm təhlükəsi qarşısında parçalanma riskidir. Azərbaycan da, bu dəstək qarşılığında Çinin "vahid Çin" prinsipini dəstəkləyir.

ƏDƏBİYYAT

1)Azərbaycan-Çin münasibətləri yeni tarixi mərhələlərin astanasındadır//Azərbaycan qəzeti, 2021 3 iyun. – 1 s.
2)Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildonümü (çıxışlar, nitqlər, müsahibələr, məktublar, məruzələr) ,Prezident salnaməsi,Bakı:"Sim-sim Press", 2022. - 368 s.
3)Böyük İpək Yolunda Azərbaycan-Çin əlaqələri:Tarix və müasirlik-"Böyük İpək Yolunda Azərbaycan-Çin əlaqələri: tarix və müasirlik" mövzusunda beynəlxalq elmi seminarın materialları.Bakı 02-04 Oktyabr 2017, Bakı:"Avropa",2018. - 300 s.
4)Çin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir//Azərbaycan qəzeti, 2022 16 sentyabr. – 3 s.
5)Çinin "Dongfang Electronics Corporation" şirkətinin nümayəndələri Füzuli və Hadruta səfər ediblər//Azərbaycan qəzeti, 2025 17 yanvar. – 13 s.
6)Çinin səfiri:Çin şirkətləri Qarabağda aparılan bərpa-quruculuq işlərində fəal iştirak edirlər//Azərbaycan qəzeti, 2021 10 iyul. – 3 s.
7)İlham Əliyev:İnkişaf məqsədimizdir, səkkizinci kitab (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar),Yanvar 2005-mart 2005, Bakı:"Azərnəşr", 2011. - 408 s
8)M.Əhmədov.Azərbaycan-Çin münasibətlərinin strategiyası və perspektivləri,Bakı:"Qorqud",1999. - 152 s.
9)Yeni infrastruktur layihələri Azərbaycan və Çin arasında əməkdaşlığa böyük imkanlar açır[Mətn]:Çin Xalq Respublikasının Sədri Zati-aliləri cənab Si Cinpinə/İ.Əliyev//Azərbaycan qəzeti, 2022 3 aprel. – 1 s.

İNTERNET RESURSLARI

10)Azərbaycanla Çin arasında mehriban, işgüzar münasibətlər mövcuddur.
http://www.anl.az/down/meqale/respublika/2014/iyul/380344.htm [Müraciət tarixi: 08.06.2025]
11)İlham Əliyevin Çinin Sədri Si Cinpin ilə geniş tərkibdə görüşü olub.
https://president.az/az/articles/view/68632[Müraciət tarixi:08.06.2025]
12)Çin Xalq Respublikası və Qarabağ münaqişəsi. https://qafsam.org/2020/10/28/cin-xalq-respublikasi-v%C9%99-qarabag-munaqis%C9%99si/ [Müraciət tarixi: 08.06.2025]

SOCİAL-PSYCHOLOGİCAL FACTORS İNFLUENCİNG THE BEHAVİOR OF YOUTH

СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ПОВЕДЕНИЕ МОЛОДЕЖИ

GƏNCLƏRİN DAVRANIŞINA TƏSİR GÖSTƏRƏN SOSİAL - PSİXOLOJİ AMİLLƏR

Qulam Qəribəli oğlu Əzizov
ADPU-nun Pedaqoji psixologiya kafedrasının dosenti

Xülasə
Məqalədə müasir gənclərin davranış mədəniyyətini səciyyələndirən nəzakətlilik, sadəlik, təvazökarlıq, alicənablıq kimi məsələlər araşdırılır. Gənclərin mənəvi, psixoloji simasını, əxlaqi düşüncəsini, cəmiyyətə, xalqa, millətə hörməti və ehtiramı ifadə edən sadə əxlaq normalarından biri kimi sadəlik və təvazökarlığın əhəmiyyətindən bəhs olunur. Həmçinin məqalədə insanların rəftarında rast gəlinən lövğalıq, təkəbbürlülük, öz fikrini başqalarına sırımaq kimi anlayışlar tədqiq olunur.
Açar sözlər: davranış mədəniyyəti, nəzakətlilik, təvazökarlıq, sadəlik və təvazökarlıq, lovğalıq, təkəbbürlülük, özünütərbiyə.
.
Резюме
Социально-психологические факторы, влияющие на поведение молодежи
В статье рассматриваются такие качества, как вежливость, простота, скромность и благородство, которые характеризуют культуру поведения современной молодежи. Обсуждается значение простоты и скромности как одной из основных нравственных норм, выражающих духовный и психологический облик молодежи, их моральное мышление, а также уважение и почтение к обществу, народу и нации. Также в статье исследуются такие явления, встречающиеся в поведении людей, как хвастовство, высокомерие и навязывание своего мнения другим.
Ключевые слова: культура поведения, вежливость, чванливость, гонор, скромность и простота, самовоспитание

Abstract
The article examines aspects such as politeness, simplicity, humility, and nobility that characterize the behavioral culture of modern youth. It discusses the importance of simplicity and humility as one of the basic moral norms that express the spiritual and psychological identity of youth, their moral thinking, and their respect and reverence for society, the people, and the nation. The article also explores concepts commonly encountered in people's behavior such as boastfulness, arrogance, and imposing one's opinion on others.
Key words: behavior education, politeness, modesty, homility and modesty, arrogance, boastfulness, self-nurturing.

GİRİŞ

Gənclik dövrü insan həyatının ən dinamik və formalaşdırıcı mərhələlərindən biridir. Bu dövrdə şəxsiyyətin əsas xüsusiyyətləri, sosial münasibətlərə yanaşma tərzi və həyati dəyərlər formalaşır. Gənclərin davranışları yalnız onların fərdi xüsusiyyətləri ilə deyil, həm də cəmiyyətin sosial, psixoloji və mədəni təsirləri ilə sıx bağlıdır. Ailə, məktəb, dost çevrəsi, media, sosial şəbəkələr və digər institusional qurumlar gənclərin dünyagörüşünü və davranış tərzini müəyyənləşdirən əsas sosial-psixoloji amillərdir. Bu amillərin təsirini anlamaq, gənclərin daha sağlam və balanslı inkişafını təmin etmək baxımından olduqca vacibdir. Məhz bu səbəbdən, gənclərin davranışlarına təsir edən amilləri

tədqiq etmək müasir psixologiya və sosiologiyanın önəmli tədqiqat istiqamətlərindən birinə çevrilmişdir. Tədqiq etdiyimiz problemi aktual edən bir cəhət də gənclərdə sosial-psixoloji keyfiyyətlərin inkişaf xüsusiyyətlərinə aid psixoloji ədəbiyyata zəruri ehtiyacın olmasıdır. Araşdırmalar əsasında belə bir qənaətə gəldik ki, respublikamızda psixoloji ədəbiyyatlarda bu cür keyfiyyətlərə aid onun mənəvi, sosial-psixoloji əlamətləri, inkişaf xüsusiyyətləri müəyyən səviyyədə açıqlanmışdır. Lakin respublikamızda gənclərin davranışına təsir göstərən sosial-psixoloji amillərin müxtəlif cəhətləri, xüsusən də onun mahiyyəti, inkişaf xüsusiyyətləri istənilən səviyyədə işlənilməmişdir.

ƏSAS MƏTN

Sosial-psixoloji keyfiyyətlər içərisində davranış mədəniyyəti, nəzakətlilik, təvazökarlıq, sadəlik və təvazökarlıq keyfiyyətlər xüsusi çəkiyə malikdir. Sosial-psixoloji keyfiyyətlər mühüməxlaqi-keyfiyət kimi ölkənin maddi və mənəvi irsini, öz xalqını, həmçinin onun sərvətlərini mühafizəsində özünü göstərən əqidə, qorxmazlıq, qəhrəmanlıq təcəssümüdür. Bu cür mənəvi keyfiyyətlərin gənclərdə formalaşması hazırda müstəqillik əldə etmiş ölkəmiz üçün ciddi aktuallıq kəsb edir.

Davranış-şəxsiyyətin bütün mənəviyyatını təşkil edən iş və hərəkətlərinin, ictimai-əxlaqi rəftarının ümumi məcmusudur. Davranış mədəniyyəti ictimai həyatın bütün sahələrində insanların davranışını və rəftarını tənzim edir, qarşılıqlı münasibətlərin ən mühüm əsaslarını müəyyən edir. Davranış mədəniyyətinin mahiyyəti haqqında fikirlər müxtəlif və rəngarəngdir. İlk baxışdan davranış mədəniyyətinin mahiyyəti asan, hamıya tanış görünsə də, bu əslində belə deyil. Problem fəlsəfi, psixoloji, pedaqoji, sosioloji, linqivistik, ekoloji və s. baxımdan konkret araşdırmalar tələb edir.

İnsanın mədəni davranışının əsas əlamətlərindən biri nəzakətlilikdir. Nəzakətlilik mədəni davranışın ayrılmaz hissəsi olub başqa adamlara hörmət göstərməkdə, qayğılı münasibət bəsləməkdə ifadə olunur. Nəzakətli adam hər yerdə və hamı ilə nəzakətli olmalıdır. Bəzən yeniyetmələr nəzakətliliyi qorxaqlıq və yaltaqlıqla qarışdırırlar. Başqalarına hörmət edən, onlara həssaslıq göstərən adamlara bəzən yaltaq və qorxaq adam kimi qiymət verirlər. Həqiqətən bəzi yaltaq və qorxaq adamlar ancaq yaltaqlıq və qorxaqlıq üzündən hörmət edir, özünü nəzakətli göstərirlər. Əgər insan başqasının vəzifəsindən, ona tabe olub-olmamasından asılı olmayaraq hər yerdə və hər zaman ona hörmət edib qayğıkeşlik göstərirsə, bu əsl nəzakətlilikdir.

Nəzakətli adam başqalarına böyük hörmət, qayğı göstərməklə bərabər, öz mənliyini, ləyaqətini alçatmamalı, nəzakətliliyi yaltaqlıqla, qorxaqlıqla qarışdırmamalıdır. Şərq mütəfəkkirlərdən olan Cəlaləddin Rumi ikiüzlü, yaltaq, qorxaq, vəzifə hərisli, cildini tez-tez dəyişdirən adamlara çox haqlı olaraq belə demişdir. "Ya olduğun kimi görün, ya da göründüyün kimi ol". Mədəni, nəzakətli, mənəvi cəhətdən saf olan adam dostluqda, yoldaşlıqda möhkəm olmalı, onun xoş günündə də, pis günündə də yanında olmalıdır.

Nəzakətlilik insandan öz hərəkət və rəftarını idarə edə bilməyi də tələb edir. Başqalarının işlədiyi otaqda, istirahət etdiyi yerdə ucadan danışmaq, gülmək, mahnı oxumaq, səs salmaq nəzakətsizlik əlamətidir. Çünki, bu bizim başqa adamlara hörmət etmədiyimizi göstərir. Nəzakətsizlik yalnız hərəkətdə deyil, insanın danışığında, nitqində də təzahür edir. İnsanlar bir-birilə nitq vasitəsilə ünsiyyət saxlayır, fikirlərini, hisslərini bir-birlərinə danışıq vasitəsilə çatdırır və bir-birlərinə münasibətlərini, bir çox hallarda, nitqlə ifadə edirlər.

Mədəni davranış və adətlər ən çox ailədə formalaşır. Gənc hələ kiçik yaşlardan valideynlərlə münasibətində ən xırda davranış qaydalarına əməl etməli və onları adət halına salmalıdır. Gənclərin mədəni davranışların qeydinə qalan hər bir ailə üzvü ailədə bu münasibətlərə xüsusi diqqət yetirməlidir. Yeməkdə də, danışıqda da, qonaq qəbul edən zamanda da ən sadə etiket qaydaları gözlənilməlidir. Qonaq qəbul etmək, onu yola salmaq nəzakət tələb edir. Ev sahibi qonağı qapıda gülərüzlə qarşılamalı və özü də onu yola salmalıdır. Qonaq ev sahibinin göstərdiyi yerdə əyləşməlidir. Çağrılan qonaqlığa, görüşə gecikmək, vaxtında gəlməmək bağışlanılmazdır. Bu kimi mənfi adətlərdən gənclər uzaq olmalıdırlar.

Gənclərin mənəvi, psixoloji simasını, əxlaqi düşüncəsini, cəmiyyətə, xalqa, millətə hörməti və ehtiramı ifadə edən sadə əxlaq normalarından biri də sadəlik və təvazökarlıqdır. Bu sadə əxlaq normalarının insan həyatında çox böyük rolu vardır. Bütün əxlaq kodekslərində təqdir olunan sadəlik və təvazökarlıq insanın ən gözəl keyfiyyətidir. Müasir gənclərin mənəvi təkamülündə, onun bir şəxsiyyət kimi formalaşmasında sadəlik və təvazökarlığın böyük əhəmiyyəti vardır. Sadə və təvazökar insanlar xalq arasında, ailədə, cəmiyyətdə həmişə sevilirlər. Əksinə lovğa, təkəbbürlü, dikbaş, eqoist adamlar həmişə qınaq obyekti olurlar.

Gənclər o zaman sadə və təvazökar olurlar ki, onlar özlərini, ləyaqət və mənliklərini düzgün dərk etsinlər. A.A.Bakıxanov sadəlik və təvazökarlıqdan bəhs edərək yazırdı: "Ağıllı adam odur ki, öz eybini başqalarının eybindən artıq görə və öz hünərini başqalarının hünərindən az hesab edə". Onun fikrincə insan öz nöqsan və acizliyinin həqiqətini bildikdə, qürur və təvazökarlığından vaz keçər və özgələrinin eyib və nöqsanları onun nəzərində böyük görünməz.

Bütün əxlaq kodekslərində sadəlik və təvazökarlıq insanın ən gözəl keyfiyyətləri kimi qiymətləndirilib. Sadəlik və təvazökarlıq şəxsiyyətin strukturunda oturuşmuş bir kateqoriyadır, insanın mənəvi zənginliyindən xəbər verən bir fenomendir. İnsanda elə şəxsi keyfiyyətlər var ki, onlar minilliklərdən süzülərək soydan, nəsildən irəli gəlir. "Ot kökü üstə bitər", "Boş sünbül başını dik tutar", "Təkəbbürlü adamı heç kəs tərifləməz", "Nəsli olmayanın əsli olmaz" və s. atalar sözləri bunu bir daha təsdiq edir.

Sadə və təvazökar adamlar yenilik hissinə, ətrafda baş verən hadisələri təmkinlə təhlil etmək, onlardan düzgün nəticə çıxarmaq qabiliyyətinə malikdirlər. Onlar, sadə və təvazökar olduqları üçün hamı onları sevir, fikirlərinə hörmətlə yanaşır və onları qəbul edir. Sadə və təvazökar insanlar başqalarının müvəffəqiyyətinə sevinir və fəxr edirlər. Belə adamlar ədalətli olurlar, baş verən hadisələrin təhlilinə soyuqqanlılıqla yanaşır və çalışırlar ki, hadisələr ədalətli başa çatsın. Lovğa, dikbaş, təkəbbürlü insanlar isə sanki ətrafda baş verənləri heç görmür, ətrafdakılara yuxarıdan aşağı nəzərlərlə baxır, onları "qabiliyyətsiz", "bacarıqsız" sayır. Belə adamlar cəmiyyət üçün çox təhlükəlidir.

Təvazökarlıq alicənablıq deməkdir və bu xüsusiyyətə sahib olan adama təvazökar insan deyirlər. Alicənab adam başqasının xoşuna gələn bütün davranışlardan ehtiyyatlanaraq, onun qarşısında öz mənliyini qorumaq şərti ilə müəyyən güzəştə gedir. Təvazökarlıq insanın öz qüvvəsini düzgün qiymətləndirməsində, onu şişirtməməsində, başqasına xor baxmamasında ifadə olunur. Təvazökar adam heç zaman özü haqqında yüksək fikirdə olmaz, başqalarına da heç zaman aşağı nəzərlə baxmaz. Təvazökar adam öz rütbə və vəzifəsini, məşhur adam olduğunu, öz xidmət və müvəffəqiyyətini heç zaman qabarıq şəkildə biruzə verməz. Bu heç də o demək deyildir ki, təvazökar adam öz nailiyyətlərini sir kimi saxlamalıdır. Əksinə, onlardan bəhs etmək lazım gəldikdə, öz müvəffəqiyyətini kollektivin müvəffəqiyyəti fonunda təsvir etməlidir.

Bəzən bir çox hallarda nəzakətli, təvazökar adamı gülməyən, danışmayan, zarafat etməyən, soyuq ciddiliyə meyl edən, hər şeyə soyuq yanaşan adam kimi təsəvvür edirlər. Bu, əlbəttə belə deyildir. Təvazökar adam çox gümrah, ürəyi açıq, xoş hal, yeri gəldikdə gülməyə, zarafat etməyə, əylənməyə meyl edən, həm də bunları ləyaqətlə bacaran adamdır. Bununla bərabər təvazökar adam şit zarafata, insanı gülünc vəziyyətə salan hərəkətlərə qarşı amansız olur.

Mədəni davranış zahiri görkəmdə də əks olunur. Geyimdə səliqəlilik, təmizkarlıq, hərəkətlərdə zəriflik davranışın zahiri cəhətləri olub, ona gözəllik verir. İnsanın həyatında zahiri görkəmin böyük əhəmiyyəti vardır. Çirkli, səliqəsiz bir adamın öz rəftar və hərəkətinə diqqət verə bilməsini təsəvvür etmək çətindir. Səliqəli və təmiz paltar insanın hərəkətlərinin də zərifliyinə, onun rəftarının zərif olmasına, insanda yaxşı əhval-ruhiyyənin yaranmasına səbəb olur. Bunun üçün gənclər mədəni davranışın nədən ibarət olduğunu və necə ifadə olunduğunu bilməli, öz hərəkətlərində həmin sifətləri müstəsnasız ifadə etməlidir.

Mədəni rəftar və davranışı adət şəklinə salmaq çox əhəmiyyətlidir. Adətlər insanların gündəlik həyatında çox böyük rol oynayır. Müəyyən mədəni davranışı adət şəklinə salmaqdan ötrü hər bir gənc

onu dəfələrlə yerinə yetirməli, bu məsələdə özünə heç bir güzəşt etməməlidir. Bu, adamdan qətiyyət və iradə tələb edir. Çünki, bu zaman özünə qalib gəlmək, çətinliyə, əziyyətə qatlaşmaq lazım gəlir. Bunsuz mədəni vərdişlər əldə etmək mümkün deyildir.

Müasir gənclərdə mədəni davranış və adətlərin formalaşmasına təsir edən etnososial, psixososial amilləri aşağıdakı kimi qruplaşdırmaq olar.

1. Ailə, bağça, təhsil müəssisələri.
2. Valideynlərin nümunəsi.
3. İnsanların hərəkət və davranışlarındakı müsbət hallara rəğbət hissi.
4. Asosial davranışların sonunda səmimi peşimançılıq.
5. Gəncliyə xas olan mədəni davranış və adətləri əməli olaraq ifadə etmək.
6. Ata-ananın, qohumların, bacı və qardaşların onu sevdiyinə inanması.

Mədəni davranışın inkişafı və tərbiyəsində əsas məsələlərdən biri də gənclərin bu işdə çalışması, mədəni davranış vərdişlərinin hamıda adət halına keçməsi üçün bütün qüvvələrini sərf etməsindən asılıdır. Bunun üçün belə bir şərait yaratmaq lazımdır ki, əxlaq normalarını, mədəni davranış qaydalarını pozan adamlar öz hərəkətlərinin bütün cəmiyyət tərəfindən pisləndiyini hiss etsinlər.

Yüksək mədəni davranış tərbiyəsində nəzarətlə yanaşı insanın öz nöqsanlarını bilməsi və habelə başqa adamlara öz nöqsanlarını aşkara çıxarmaqda kömək etməsi lazımdır. Bu isə tənqid və özünütənqidin geniş tətbiqi sayəsində mümkündür. Gənc yaşlarda mədəni davranış tərbiyəsində gəncin özünütərbiyəsi çox mühüm rol oynayır. Özünütərbiyədə əsas şərt insanın öz nöqsanlarını aşkar etməsi və bu nöqsanları özünə aydınlaşdırmasıdır. İnsanın öz davranışındakı mənfi adətlərlə mübarizə etməsi asan iş deyildir, amma mümkün olan işdir. Bunun üçün insan özünə sahib olmalı, öz hisslərini cilovlamağı bacarmalıdır. Mədəni davranış gənclərin ictimai-sosial həyatının bütün sahələrini əhatə etməlidir.

Yetişməkdə olan gənc nəslin hərtərəfli, ahəngdar inkişafı onlarda müvafiq bilik, bacarıq və vərdişlərin, yüksək mənəvi keyfiyyətlərin, elmi dünyagörüşün təşəkkülü, gənclərin ehtiyat imkanlarından istifadə edilməsi müasir dövrün qarşısında duran problemlərdən biridir. Şəxsiyyət amilinə müstəsna əhəmiyyət verildiyi indiki şəraitdə yeniyetmə və gənclərin yaş və fərdi xüsusiyyətlərini nəzərə alaraq kiçik yaşlarından vətənə məhəbbət, soykökə bağlılıq, milli hissin formalaşması, hər bir uşaqda biliyə maraq, dərketmə qabiliyyəti, müstəqillik, mütəşəkkillik, işgüzarlıq və s. kimi xüsusiyyətlərin inkişaf etdirilməsinə dair məsələlərinə daha çox diqqət yetirilir. Gənclərdə zəruri keyfiyyətləri tərbiyə etmək üçün onun inkişaf tarixini, müxtəlif yaş mərhələlərində hansı xüsusiyyətlərə malik olmasını, onun inkişaf dinamikasını dərindən bilmək lazım gəlir. Gənclər davamlı keyfiyyətlərə, elmi dünyagörüşünə, ictimai məsuliyyət hissinə yiyələnməlidirlər. Əgər belə olmasa, yəni bu cür keyfiyyətlərə malik olmayan gənclər tarixin hər cür keşməkeşlərinə, müvafiq neqativ təsirlərə davam gətirməyəcək və qeyri-sabit olacaqlar. Onu da qeyd etmək lazımdır ki, məhz şəxsiyyətin nüvəsi də etnik-milli hisslər zəminində formalaşa bilər. Bunun üçün şəxsiyyət öz keçmişini bilməli və heç bir zaman danmamalıdır.

NƏTİCƏ

Nəticə etibarilə, gənclərin davranışlarına təsir edən sosial-psixoloji amillər çoxşaxəlidir və bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Ailə mühiti, sosial münasibətlər sistemi, psixoloji xüsusiyyətlər və mədəni təsirlər gəncin formalaşmasında əsas rol oynayır. Bu amillərin hər biri gəncin şəxsiyyətinə, emosional vəziyyətinə, qərar qəbul etmə qabiliyyətinə və cəmiyyətə inteqrasiyasına birbaşa təsir göstərir. Cəmiyyətin sağlam və inkişaf etmiş gələcəyini təmin etmək üçün gənclərin davranışlarına yönəlik pozitiv təsir mexanizmlərinin gücləndirilməsi və bu sahədə maarifləndirmə işlərinin aparılması zəruridir. Beləliklə, sosial-psixoloji amillərin düzgün idarə olunması gənclərin daha məsuliyyətli, özünəinamlı və sosial adaptasiyalı fərdlər kimi yetişməsinə xidmət edir. Eyni zamanda, müasir dövrdə texnologiyanın sürətli inkişafı və qloballaşma prosesi gənclərin davranışlarına yeni sosial-psixoloji təsir formaları gətirmişdir. Xüsusilə sosial media platformaları vasitəsilə yayılan

dəyərlər, davranış modelləri və rol modellər gənclərin dünyagörüşünü tez bir zamanda dəyişdirə bilir. Bu vəziyyət onların həm fərdi identiklik axtarışına, həm də sosial qavrayışlarına təsir edir. Belə bir şəraitdə gənclərlə işləyən pedaqoqlar, psixoloqlar və valideynlər bu amilləri düzgün analiz etməli və onların sağlam inkişafına dəstək verəcək sosial və emosional mühit yaratmalıdırlar. Gənclərin davranışlarının düzgün istiqamətləndirilməsi üçün ictimai institutların koordinasiyalı fəaliyyəti vacib şərtdir.

Istifadə olunmuş ədəbiyyat

1. Atalay Yörükoğlu. Gənclik çağı / İstanbul: 2012. - 390 s.
2. Altınkörpü Tuncel. Genç erkek psixolojisi ve cinselliyi. Hayat Yayınşılık. İstanbul, 2005, 266 s.
3. Bayramov Ə.S. Şəxsiyyətin inkişafının etnopsixoloji məssələləri. Bakı, 1985. -236 s.
4. Bayramov Ə.S. Psixoloji düşüncələr. Bakı, 1994. -283 s.
5. BakıxanovA.A.Seçilmiş əsərləri. Bakı, 1984.- 328 s.
6. Baxşəliyev Ə.T. Ömrün mənalı illəri / Ə.Baxşəliyev. – Bakı: 2014. - 195 s.
7. Cabbarov R.V. Gerçəklik terapiyası və yaşamaq sənəti / R.Cabbarov. – Bakı: 2018. - 230 s.
8. Cabbarov R.V. Təhsildə şəxsiyyətin özünügerçəkləşdirmənin psixoloji problemləri: / psixol. el. doktoru diss. / – Bakı: 2017. - 516 s.
9. Əlizadə S.H. Müəllimin məktəbdə rəhbərlik üslubunun sosial-psixoloji məsələləri: / psixologiya üzrə fəlsəfə doktoru diss. - Bakı: - 2015. - 159 s.
10. Əzizov Q.Q. Psixologiya / Q.Əzizov. - Bakı: 2024. - 420 s.
11. Gümüşel Orhan. Genciz biz / İstanbul: Timaş yayınları. – 2013. - 233 s.
12. Hayatı Hökelekli. Ailədə, okulda, toplumda pedaqoji, psixoloji öz egitimi /İstanbul: 2011.-360 s
13. Makarenko A.S. Seçilmiş pedoqoji əsərləri. 1 və 2-ci cild. Bakı, 1983. -284 s.
14. Qədirov Ə.Ə. Mədəni davranış və onun tərbiyəsi. Bakı, 1970. -184 s.

LITERATURE PROMOTION OF THE IDEALS OF FREEDOM AND NATIONAL INDEPENDENCE IN BAKHTIYAR VAHABZADE'S POEMS COLLECTED UNDER THE TITLE "VOICES FROM THE BASKET"

ПРОПАГАНДА ИДЕАЛОВ СВОБОДЫ И НАЦИОНАЛЬНОЙ НЕЗАВИСИМОСТИ В СТИХОТВОРЕНИЯХ БАХТИЯРА ВАГАБЗАДЕ, СОБРАННЫХ ПОД НАЗВАНИЕМ «ГОЛОСА ИЗ КОРЗИНЫ»

BƏXTİYAR VAHABZADƏNİN "SANDIQDAN SƏSLƏR" BAŞLIĞI ALTINDA TOPLANAN ŞEİRLƏRİNDƏ AZADLIQ VƏ MİLLİ İSTİQLAL İDEYALARININ TƏBLİĞİ

Aypra Behbudova
Filologiya üzrə fəlsəfə doktoru,dosent Naxçıvan Dövlət Universiteti

Xülasə
İstiqlal şairi Bəxtiyar Vahabzadənin Sovet rejiminə nifrətdən yaranmış "Sandıqdan səslər" başlığı altında toplanan şeirləri onun yaradıcılığında xüsusi yer tutur. Bu məqalədə Bəxtiyar Vahabzadənin Sovet rejiminə, imperializmə və müstəmləkəçiliyə nifrətdən yaranmış "Sandıqdan səslər" başlığı altında toplanan şeirləri geniş şəkldə təhlil olunur.
Bildiyimiz kimi, Bəxtiyar Vahabzadə Azərbaycan poeziyasında vətəndaşlıq lirikasının ən dəyərli nümunələrini yaratmışdır.Onun poeziyasını bu aspektdən təhlilə cəlb edəndə vətənpərvər bir şair kimi yaradıcılığının səciyyəvi cəhətləri də bariz şəkildə nəzərə çarpır. Həm də siyasi lirika siyasətin lirikası deyil, dünyada, yaşadığı cəmiyyətdə, ümumiyyətlə, bəşəriyyəti düşündürən hadisələrin poetik dillə qiymətləndirilməsidir. Doğrudur, o zaman S. Rüstəm, R. Rza kimi tanınmış şairlər siyasi lirika sahəsində bir sıra poetik uğurlar qazanmışdılar. Xüsusilə, xalq şairi S. Rüstəmin Cənub şeirləri bu sahədə yaddaqalan nümunələrdən idi.Sonralar X. Rzanın, N. Xəzrinin, H. Arifin, Qabilin və digər şairlərin vətənlə, xalqın azadlıq duyğuları ilə bağlı şeirləri, istiqlal şairi Məmməd Arazın vətəndaşlıq hisslərindən yoğrulmuş lirik şeirləri siyasi lirikanın hüdudlarını daha da genişləndirdi. Azərbaycan xalqının sevimli şairi Bəxtiyar Vahabzadənin şeirləri isə öz xarakteri və səciyyəsi ilə demək olar ki, siyasi lirika anlayışı ilə tam mənada üst-üstə düşür.
Bəxtiyar Vahabzadə şeirlərinin bir çoxunu yazıldığı vaxtı çap etdirə bilməmişdir. Onun neçə-neçə şeirləri xalqımız müstəqillik qazandıqdan sonra "Sandıqdan səslər" (2002) adı altında ayrıca kitab formasında nəşr edilmişdir.Elə bu şeirlər göstərir ki, Bəxtiyar Vahabzadə sosializm dövründə quruluşun, sistemin törətdiyi dəhşətli fəlakətləri bir şair gözü ilə dərindən müşahidə etmiş, onlardan yan keçməmişdir.
Məqlədə Bəxtiyar Vahabzadənin Sovet dövründə yazıb, ancaq məlum səbəblərdən çap etdirə bilmədiyi bir qrup şeirləri mövzu problematika cəhətdən də qruplaşdırılaraq təhlil olunur və qiymətləndirilir.
Açar sözlər: vətəndaşlıq lirikası, ədəbiyyat , poeziya, azadlıq, milli istiqlal, ana dili

Abstract
The poems of the poet of independence Bakhtiyar Vahabzadeh, collected under the title "Voices from the Chest", which were born out of hatred for the Soviet regime, occupy a special place in his work. This article analyzes in detail the poems of Bakhtiyar Vahabzadeh, collected under the title "Voices from the Chest", which were born out of hatred for the Soviet regime, imperialism and colonialism.
As we know, Bakhtiyar Vahabzadeh created the most valuable examples of civic lyrics in Azerbaijani poetry. When his poetry is analyzed from this aspect, the characteristic features of his

work as a patriotic poet are clearly noticeable. Moreover, political lyrics are not the lyrics of politics, but an assessment of events in the world, in the society in which he lives, and in general, that make humanity think, in poetic language. It is true that at that time, well-known poets such as S. Rustam and R. Rza had achieved a number of poetic successes in the field of political lyrics. In particular, the poems of the people's poet S. Rustam on the South were memorable examples in this field. Later, the poems of Kh. Rza, N. Khazri, H. Arif, Qabil and other poets about the homeland and the people's feelings of freedom, and the civic lyric poems of the independence poet Mammad Araz further expanded the boundaries of political lyrics. The poems of the beloved poet of the Azerbaijani people, Bakhtiyar Vahabzadeh, in their character and characteristics, almost completely coincide with the concept of political lyrics.

Bakhtiyar Vahabzadeh was unable to publish many of his poems at the time they were written. Several of his poems were published in a separate book form under the title "Voices from the Chest" (2002) after our people gained independence. These poems show that Bakhtiyar Vahabzadeh deeply observed the terrible disasters caused by the structure and system during the socialist era with the eyes of a poet and did not ignore them.

The article analyzes and evaluates a group of poems written by Bakhtiyar Vahabzadeh during the Soviet era, but which he was unable to publish for obvious reasons, by grouping them into thematic problematics.

Keywords: civic lyrics, literature, poetry, freedom, national independence, mother tongue

Резюме

КРАТКОЕ СОДЕРЖАНИЕ. Особое место в творчестве поэта независимости Бахтияра Вахабзаде занимают стихи, собранные под названием «Голоса из груди», рожденные ненавистью к советской власти. В статье подробно анализируются стихотворения Бахтияра Вагабзаде, собранные под названием «Голоса из груди», которые родились из ненависти к советскому режиму, империализму и колониализму.

Как известно, Бахтияр Вагабзаде создал ценнейшие образцы гражданской лирики в азербайджанской поэзии. Если анализировать его поэзию с этой точки зрения, то отчетливо проступают характерные черты его творчества как поэта-патриота. Кроме того, политическая лирика — это не тексты о политике, а скорее поэтическая оценка событий, которая заставляет людей задуматься о мире, обществе, в котором они живут, и человечестве в целом. Правда, в то время такие известные поэты, как С. Рустам и Р. Рза, добились ряда поэтических успехов в области политической лирики. В частности, яркими примерами в этой области стали стихи народного поэта С. Рустама о Юге. Позже появились стихи Х. Рза, Н. Хазри, Х. Ариф, Кабиль и другие поэты о родине и чувстве свободы народа, а гражданская лирика поэта-независимца Мамеда Араза еще больше расширили границы политической лирики. Стихи Бахтияра Вагабзаде, любимого поэта азербайджанского народа, по своему характеру и особенностям почти полностью совпадают с концепцией политической лирики.

Бахтияр Вахабзаде не смог опубликовать многие из своих стихотворений в то время, когда они были написаны. Несколько его стихотворений были опубликованы отдельной книгой под названием «Голоса из груди» (2002) уже после обретения нашим народом независимости. Эти стихотворения показывают, что Бахтияр Вахабзаде глубоко наблюдал глазами поэта за ужасными бедствиями, вызванными структурой и системой в эпоху социализма, и не игнорировал их.

В статье анализируется и оценивается группа стихотворений Бахтияра Вагабзаде, написанных в советское время, но которые он по понятным причинам не смог опубликовать, путем объединения их в тематическую проблематику.

Ключевые слова: гражданская лирика, литература, поэзия, свобода, национальная независимость, родной язык

GİRİŞ

Bildiyimiz kimi, sovet dövründə ədəbiyyatımızda siyasi lirika bir əsas məqsəd daşıyırdı. Bu da kommunist partiyası ideologiyasına xidmət etmək. Bəxtiyar Vahabzadə yaradıcılığına dərindən bələd olan hər kəs bunu təsdiq edər ki, o, gənclik illərindən siyasi lirik şeirlərində də özünün poetik əqidəsinə heç vaxt xilaf çıxmamışdır. Şair bu səpgili şeirlərində cəmiyyət içərisində baş verən haqsızlıqlara, doğma dilimizin sıxışdırılmasına, tariximizin açıq-aşkar təhrif edilməsinə həmişə cəsarətli münasibətini bildirmişdir. "Sandıqdan səslər" kitabına yazdığı ön sözdəki fikirlər də bunu təsdiqləyir: "Mən Sovet rejiminə qatı düşmən olan, onunla heç cür barşmayan namaz üstə ona lənət oxuyan , məhvini arzulayan savadsız lakin açıqgözlü dindar bir ailədə böyümüşəm.Uşaq yaşlarımdan mən Sovet rejiminin zülmünü, zorakılığını, (1930-cu ildə Şəki üsyanı, üsyandan sonra qırğınlar və sürgünlər, ata və əmilərimin həbsi və s.)öz gözlərimlə görüb, ağlımla dərk etmişəm.Belə ki, hələ uşaqlıqdan qəlbmdə o rejimə nifrət toxumları səpildi. Həmən bu toxumlar sonradan cücərib şeirlərə çevrildi" [5.s.3]

Bəxtiyar Vahabzadənin irticaçı Sovet rejiminə qarşı yazdığı əsərləri iki qismə bölmək olar. Açıq aşkar rejimin eyiblərini, törətdiyi faciələri əks etdirən yazılar, o biri qismi isə senzuranı aldatmaq üçün şahidi olduğu hadisələri, tarixi faciələri başqa ölkələrin adınadan yazmaq. Birinci qismə aid olan əsərlərin çapına əlbəttə ki, o dövrdə senzura icazə verməzdi deyə, şair bunları yazıb arxivində gizli saxlamışdır. Bu əsərlərin böyük bir qismi ilk dəfə "Ümidə heykəl qoyum" (1993), "Nağıl-həyat"(1991), "Körpü çaydan uzaq düşüb " (1996) kitablarında , sonra isə "Sandıqdan səslər"(2002) başlığı altında işıq üzü görmüşdür. Şair bəzən böyük dramaturq M. F.Axundovun "Zamanı, yaxud məkanı dəyişməklə sözünü demək üsulu"ndan istifadə etmişdir. Xarici ölkələrə səyahətə çıxmağı isə bü işdə onun köməyinə çatmışdır. Şairin bu silsilədən olan "Ələddinin çırağı, "Özünə yalvarsana", "Aclardan toxlara, "Açıq şəhər", " Latın dili" və başqa şeirlərində guya yadellilər təfəfindən işğal edilib, talanan ərəb ölkələrindən söhbət gedir. Amma ağıllı oxucu sətiraltı mənanın altında gizlənən əsl mətləbi başa düşür. Məsələn, Tanjerə həsr etdiyi " Açıq söhbət " şeirində yazır:

Ağaclar oldu sənin
Meyvələri özgənin.
Balan xöş günə həsrət,
Özün özünə həsrət.
Oldun yadlara möhtac
"Yersiz gəldi, yerli qaç"[5.s.67]

Onun şeirlərində tez- tez tarixə müraciət olunur, zaman-zaman buraxdığımız səhvlər yada salınır, unudulmağa qoymur. Bu zaman sanki müdrik bir ağsaqqalın öyüd nəsihətini eşidirik. Ancaq bunlar təkcə öyüd nəsihət deyil, daha cox ittihmdı, təəssüf hissidir. Bunların səbəbini isə şair o zaman başda oturan rəhbərlərin maymaqlığında, satqınlığında, vətənə , millətə qarşı laqeydliyində görür və poetk dillə bunu belə ifadə edir:

Min boyunu bir halqaya saldılar,
Doğma deyib yada səcdə qıldılar.
Üstəlikdə bizi bizdən aldılar,
Alan qocaq, satan maymaq, biz yazıq! [6.s.143]

Gördüyümüz kimi, şair siyasi ruhlu poeziya nümunələrində çox ciddi məsələlərdən bəhs edir, bunları fəlsəfi mövqedən ziddiyyət və incəlikləri ilə işıqlandıraraq oxucuya çatdırmağa çalışır.

Ümumiyyətlə, Türkiyəyə, vahid türk birliyinə rəğbət B. Vahabzadə yaradıcılığında hələ ayrı-ayrı misralar şəklində 60-70-ci illərdə közərirdi.Sonrakı illərdə isə bu közərtilər alova çevrildi.Bir neçə şeirlərində şair bütün dünya türklərinin adlarını çəkir, onları dünyanın belə bir çağında birliyə səsləyir. Bir növ yatmış, haqqı, hüququ tapdanan xalqı birliyə, bütövlüyə çağırır.1963-cü ildə Qırğızıstanın Rusiya tərkibinə daxil olması təntənə ilə qeyd edilərkən şair bu "bayrama" istehza edərək yazmışdır:

Ağ günə çıxıbdır buna bax, buna!
Sevinir , fəxr edir, qul olmağına.
Bayrammı?Kül olsun gözünə millət!
Zar-zar ağlayasan, gərək sən bu gün .
Yüz il bundan əvvəl başın kəsildi,
Öldüyün günündür, bu gün öldüyün,
Ölür, qatilinə "pənahım" deyir
Öldüyü gününü bayram eyləyir. [5.s.87]

Bəxtiyar Vahbzadənin şeirlərindəki bir xüsusiyyət xüsusi olaraq diqqəti cəlb edir. Şair dilindən,dinindən, irqindən asılı olmayaraq insan şəxsiyyətini hər yerdə uca tutur, onun ləyaqətinin hər hansı şəkildə tapdanmasına qarşı özünün kəskin etirazını bildirir. 1964-cü ildə Azərbaycanın Rusiya tərkibinə verilməsinin 150 illik "bayramı" münasibəti ilə yazdığı şeirində bu fikirlər açıq şəkildə əks olunmuşdur:

Tapdamaq olarmı haqqı bu qədər,
Yüz əlli ildir ki, söyürlər bizi.
Biz heç, bizə bayam elətdirirlər
Tarixdə ən böyük faciəmizi.[5.s.34]

Bəxtiyar Vahabzadə elə şairlərdəndir ki, vətənin, xalqın ən ağır günündə, ən faciəli məqamlarında ilk olaraq etiraz səsini ucaldıb, bəzən haqq səsilə xalqı ayağa qaldıra bilib. Bu da hər şairə nəsib olan səadət deyil. Ermənilərin Azərbaycandan ərazi iddiaları keçmiş SSRİ dövründə də baş qaldırdı və o zamanda Bəxtiyar Vahabzadə öz kəskin ruhlu şeirləri ilə buna dərhal reaksiya verdi. 1966-cı ildə yazdığı "Torpaqdan pay olmaz" şeiri buna ən bariz nümunədir:

Hardan sənin oldu bzim Qarabağ?
Adı sahibini demirmi aşkar?
Xoşluqla verməzlər torpağı ancaq
Qanla möhürləyib, zorla alarlar.[6.s.211]

Çox təəsüf ki, o zamanlar şairin bu harayı bizim yatmış rəhbərlərin vicdanını oyada bilmədi. Şair ürəyinin qanı ilə yazdığı şeirlərinin bir çoxunu Sovet dövründə çap etdirə bilməmişdir. Şairin neçə-neçə şeirləri sonralar "Sandıqdan səslər" adı altında toplanaraq ayrıca kitab formasında dərc edilmişdir. "Həyatda gördüyüm lakin dilə gətrə bilmədiyim, kağızlara köçürüb, arxivimdə saxlamaqla təsəlli tapdığım şeirlər mənim ürək ağrılarımdır" [5.s.9] 1956-cı ildə universitet tələbələrinin aylaral rayonlarda pambıq yığımında iştirakı ilə əlaqədar yazdığı şeiridə bu qəbildəndir:

Sən mənim xalqıma kəsildin qənim,
Çox da ki, bahadır qiymətin sənin.
Millət lüt-üryandır, amma özgənin,
Əynində dönürsən paltara , pambıq. [5.s.33]

Demək olar ki,əksər tədqiqatçılar B. Vahabzadə lirikasının ən səciyyəvi xüsusiyyətlərindən biri kimi onun vətəndaşlıq lirikasından daha çox söz açmışdır.Hətta qeyd etmişlər ki, vətəndaşlıq poeziyası onun yaradıcılığında əsas, aparıcı mövzudur.İtiqlal şairi X. Rza bu haqda yazmışdır: "Vətəndaşlıq pafosu Bəxtiyar şeirlərində çox qüvvətlidir. Şair cəmiyyətin həyatı, xalqın taleyi və müqəddəratı ilə kökündən bağlı amillərə və müasir insanın mənəvi aləminə yabançı olan hər növ saxtalığa qarşı amansızdır" . [3.s.167] Bu fikrin təsdiqi olaraq şair "XX əsrin adamı" şeirində yalan , riya üzərində qurulan sistemin eybəcərliklərini kəskin şəkildə tənqid edir:

Yalanlara əl çalıram,
Alçaldıqca ucalıram.
Sözüm iki, özüm iki
Mən əyriyə düz deyirəm.
Gecəyə gündüz deyirəm.[5.s.56]

B. Vahabzadə yaradıcılığında beynəlxalq aləmdə baş verən hadisələrə maraq və bu hadisələri sənətkar qələmi ilə əks etdirmək meyli də çox güclüdür. Şair dünyanın müxtəlif ölkələrində olmuş,həmin ölkə xalqlarının həyatı, tarixi,taleyi ilə tanış olmuş və bu təəəssüratlar sonralar qəlbindən süzülərək misralara çevrilmişdir. "Misir, İran, Türkiyə və başqa ölkələrə səyahəti ilə əlaqədar yazdığı şeirlər onun mövzu dairəsinin genişliyini təsdiq edir. Bu ölkələrdə zəhmətkeş xalqın ağır həyat şəraiti, ictimai bərabərsizliklə bərabər imperializmə və müstəmləkəçiliyə nifrət hissi də həmin şeirlərdə ifadə olunmuşdur." [2.s.211] "Bir izdə iki dünya", "Fəryad", "Atılan toplar", "İstiqlal", "Ələddinin sehrili çırağı" və s. bu baxımdan xüsusi maraq doğurur.1961-ci ilin avqust ayında Yaltada istrahət edən şair Krım tatarlarının doğma yurdundan didərgin salınmasını xatırlayaraq yazmışdır:

Krım ,Yalta,Qızıldaş... bir xalqın ata yurdu-
O xalqa yad ay Allah, gəlməyə vətən oldu
De mümkünmü ayırmaq, burda xeyirdən şəri?
Axı, haqqın gözləri oyum-oyum oyulmuş
Torpağın altındadır torpağın sahibləri,
Gəlmələr torpaq üstə torpağa sahib olmuş.[5.s.234]

"Sandıqdan səslər " şeirlərinin içərisində eləsi də var ki, onlarda birbaşa cəmiyyətin eybəcərlikləri ifşa olunur. Bu cəmiyyətin yaradığı yalan və riya, qorxu və vahimə, rüşvətxorluq və süründürməçilik tənqid hədəfinə çevrilir. Bu baxımdan "Qorxu" şeiri o illərin əhval ruhiyyəsini çox real şəkildə əks etdirir:

Biz qorxuruq,biz susuruq
fikir ölür, can sustalır,
ürək donur, ruh boğulur.
Qorxu bizim dilimizdə kilid olur,
Beynimizdə qıfıl olur.[5.s.115]

İnsan mənəviyyatını alçaldan, insan ləyaqətini təhqir edən belə cəmiyyət ancaq bu cür qorxu və vahimə yaratmağa qadir idi. Çünki,qorxu və vahimə insanları mütiləşdirir, xalqı istər-istəməz lal-kar, manqurta çevirir. 1979-cu ildə Şəkidə yazdığı "Lal-kar" şeirində də şair eyni problemlərə toxunur:

Həm lal olduq, həm kar olduq
Lallıq karlıqdan doğar
Niyə lal olduq görən?
Bunu bilirsənmi sən?
Zaman-zaman əzildik,
Məhkum olduğumuzu
Nə anladıq, nə bildik. [5.s. 56]

Şairin fikrincə millətin psixologiyasına çökən səhv etmək fəlsəfəsi ən qorxulu bəlalardan biridir. Bəxtiyarın "Səbr elədik" şeiri M. Ə. Sabirin "Səbr eylə" şeiri ilə üst –üstə düşür. Səbr etmək, hər şeyi tanrının qisməti, taleyin hökmü kimi qəbul edib barışmaq insanın azadlığını və mübarizə əzmini əlindən alır, onun fərdiliyini heçə endirir. Axı, Allah insanı azad yaradıb, sərbəst düçüncə verib, yəni, o özü hadisələri analiz edib, nəticə çıxarmalıdır:

Arzumuzu vermədilər,
bizə ancaq döz dedilər.
hər gecənin gündüzü var ,
gələcək gündüz dedilər
Biz gözlədik,qəlbimizdə baş qaldıran
ümidləri əzizlədik,
Şirin şəkər yalanları yeyə yeyə,
Biz inandıq gələcəyə.[5.s.21]

"Mənm fikrimcə, Bəxtiyarı xalqa oxuculara sevdirən cəhətlərdən ən başlıcası şeirlərindəki vətəndaşlıq hissinin güclü olmasıdır. O, dünyada baş verən hadisələri həssaslıqla izləyən

şairlərimizdəndir. Müsbət hadisələri ürəkaçıqlığı , ilhamla tərənnüm etdiyi kimi mənfi halları, elinə,obasına arxa çevrənləri,dilini , millətini, vətənini ağalarına xidmət müqabilində dananlara qarşı da qəzəbini gizlədə bilmir." [1.s 97]

Şair 1968-ci ildə Daşkənndə keçirilən Afrika və Asiya yazıçılarının müşavirəsində iştirak edir və təsirlənərək "Neo" adlı şeir yazaraq burada məhkum xalqın nümayəndəsinin dili ilə öz xalqının ağır dərdlərini dilə gətrir:

Sizin kimi bir insanıq
Biz nə daşıq, nə dəmirik.
Yetər artıq ,biz heç kəsə
yamaq olmaq istəmirik.
Yaman dərddir-
Ozgəsinə yamaq olmaq.
Yaman dərddir-
azadlığın həsrətinə damaq omaq.[5.s.89]

Bəxtiyar Vahabzadənin vətəndaşlıq poeziyasında ana dili məsələsi də mühüm yer tutur. O, bu mövzuda neçə -neçə şeirlər yazmışdır. Hətta, poemalarında da bu mövzuya dəfələrlə müraciət etmişdir. "Şair ayaqlar altında tapdanan, qapılar arxasında qalan ana dilimizin qorunması ilə bağlı həm əməli işində, həm də əsərlərində bu mövzuya ürəkağrisi ilə toxunmuşdur" [4.s. 231] Demək olar ki, şair əksər əsərlərində ana dilimizin dövlət idarələrində sıxışdırılmasına qarşı öz kəskin etirazını bildirmişdir. 1988-ci ildə yazdığı " İki qorxu" poemasında xalqın haqq və hüququnun tapdanmasına,ana dilimizin sıxışdırılmasına qarşı bəzən açıq, bəzənsə müxtəlif üsullardan istifadə edərək kəskin nifrətini bildirir:

Vətəndən qovuldu ana dilimiz,
Ana dili dedik gəlmə , yad dilə
Ərəbcə danışdıq, ölülərlə biz
Rusca qırıldatdıq dirilər ilə.[5.s.55]

O, bir çox əsərlərində ana dilinin xalqın milli varlığının göstəricisi olduğunu, "dil yoxsa, millət də yoxdur" fikrini bayraq etmişdir. Şair öz uşaqlarını evdə də rus dilində danışdırıb, rus məktəblərinə oxumağa qoyan müəllimlərə yazdığı "Riyakar " şeirində özünün kəskin nifrətini bildirməkdən çəkinmir:

Mənim övladıma ana dilində
Dərs verən "ağıllı" müəllimə bax!
"Vətən", "Vətən " deyir öz övladını
Əcnəbi dilində oxudur ancaq [6.s. 49]

Şairin "Sandıq şeirləri" silsiləsindən olan ən tutarlı şeirlərindən biri də 1964-cü ildə yazdığı "Nağıl-həyat" şeiridir.Anasına müraciətən yazılmış bu şeirdə vətəni və milləti "maladesə" qurban verən ölkə rəhbərlərinin satğınlığına həsr olunmuşdur. Şair nağılların sonu xöşbəxt sonluqla bitdiyi üçün dərdini unutmaq üçün anasından ona nağıl danışmağı xahiş edir. Sonra şair uydurmalardan bezib həqiqət istəyir:

Danışma ay anam, danışma kiri
Beynimə batmayır bu əfsanələr.
Divlər görmüşəm ki, nağıl divləri,
Onların yanında toyuğa bənzər. [5.s78]

NƏTİCƏ

Ümumiyyətlə, elə insanlar var ki, ulu tanrı onlara şairlik istedadı ilə bərabər, həm də bütöv bir xalqın adından danışmaq kimi böyük bir səlahiyyət də bəxş edir. Bütöv bir xalqın adından danışmaq işinin nə qədər çətin, məsuliyyətli və şərəfli olduğu artıq hər birimizə məlumdur. Düşünürəm ki, nə yaxşı ki, Azərbaycan xalqının Bəxiyar Vahabzadə kimi şairləri olub. Həm yeri gələndə bütöv bir xalqın

adından danışıb, onların haqqını, hüququnu müdafiə edib, həm də yaşadığı o dövrün tarixi hadisələrini, xalqın başına gətrilən müsibətləri olduğu kimi qələmə alaraq, gələcək nəsillərə çatdırıb. Xalq şairi Bəxtiyar Vahabzadə yaşadığı o illərin mühüm ictimai-siyasi, mədəni hadisələrini "Sandıqdan səslər" başlığı altında toplanan şeirlərində elə dəqiq şəkildə əks etdirmişdir ki, hər hansı bir tarixçi onun əsasında o dövrün salnaməsini yarada bilər.

Həm də "Sandıq şeirləri" adı altında toplanan şeirlər təkcə Bəxtiyar Vahbzadə yaradıcılığında deyil, çağdaş Azərbaycan poeziyasında vətəndaşlıq lirikasının ən dəyərli nümunələri hesab etmək olar. Çünki, bu silsilədən olan şeirlərin hamısını bir sözlə səciyyələndirməli olsaq , bircə adın üzərində dayanarıq:VƏTƏN! Müstəqillik arzusu, azadlıq və istiqlal duyğusu Bəxtiyar Vahabzadənin "Sandıqdan səslər" şeirlərinin əsas qayəsini təşkil edir.

ƏDƏBİYYAT

1. Axundlu Y. İtiqlal şairləri. Baki: "Elm" nəş, 1998, 125 s
2. Əlizadə Ə. Bəxtiyar Vahabzadə: həyatı, mühiti və yaradıcılığı- Bakı: "Elm və təhsil", 2022. – 556 s.
3. Rza X. Ustad Bəxtiyar Vahabzadə haqqında -Bakı: "Azərbaycan" nəş, 1999-128 s.
4. Salmanov Ş. Böyük yaradıcılıq yolu **:** (Seçilmiş məqalə və müsahibələr) Bakı: "Avropa", 2020.-459s
5. Vahabzadə V. Sandıqdan səslər-Bakı: "Təfəkkür"nəş, 2002, 128s
6. Vahabzadə V. Əsərləri (V c.). Bakı: Çaşıoğlu, 2002, 504 səh

THE POLITICAL AND MILITARY ASPECTS OF THE SHAKI KHANATE IN THE HISTORIOGRAPHICAL LEGACY OF THE RUSSIAN HISTORIAN P.G.BUTKOV

ПОЛИТИЧЕСКИЕ И ВОЕННЫЕ АСПЕКТЫ ШЕКИНСКОГО ХАНСТВА В ИСТОРИЧЕСКОМ НАСЛЕДИИ РУССКОГО ИСТОРИКА П.Г.БУТКОВА

RUS TARİXÇİSİ P.Q.BUTKOVUN TARİXÇİLİK İRSİNDƏ ŞƏKİ XANLIĞININ SİYASİ VƏ HƏRBİ ASPEKTLƏRİ

Əfəndiyeva Aynurə Saleh
Sumqayıt Dövlət Universiteti, müəllim

Xülasə
XIX əsrdə Rusiya imperiyasında Şərq xalqlarının, xüsusilə də Cənubi Qafqaz xalqlarının tarixinə dair araşdırmalarla məşğul olan bir sıra görkəmli tarixçilər fəaliyyət göstərmişdir. Bu məktəbin ən görkəmli nümayəndələrindən biri polkovnik və tarixçi Pyotr Qriqoryeviç Butkov olmuşdur. Onun elmi irsi yalnız hərbi-siyasi hadisələrin təsviri ilə məhdudlaşmır, eyni zamanda region xalqlarının dövlətçilik ənənələrinin, diplomatik münasibətlərinin və daxili sosial strukturlarının tədqiqi baxımından da mühüm əhəmiyyət kəsb edir.
XVIII əsrin II yarısı Cənubi Qafqaz üçün siyasi parçalanma, müstəqil və yarımmüstəqil xanlıqların meydana gəlməsi ilə səciyyələnən mürəkkəb bir dövr olmuşdur. Bu dövrdə öz müdrikliyi və siyasi iradəsi ilə seçilən şəxsiyyətlərdən biri də Şəki xanlığının banisi Hacı Cəlabi xan idi. Onun fəaliyyəti təkcə lokal səviyyədə deyil, regionun siyasi mənzərəsinin formalaşmasında da mühüm rol oynamışdır.
Rus zadəgan-burjua mənşəli tarixçi P. Q. Butkov özünün "1722–1803-cü illər üzrə Qafqazın yeni tarixi üçün materiallar" adlı fundamental əsərində Hacı Cəlabi xanın siyasi fəaliyyəti ilə bağlı əhəmiyyətli məlumatlar təqdim edir. Mövcud mənbələrə əsaslanan P.Q.Butkov, Hacı Cələbinin sadə xalq içərisindən çıxmış nüfuzlu lider olduğunu qeyd edir və vurğulayır ki, onun hakimiyyətə gəlişi, əsasən, cəmiyyətin aşağı təbəqələrinin dəstəyi və geniş xalq kütlələrinin Şəki xanlığında daxili siyasi dəyişikliklər prosesinə fəal cəlb olunması sayəsində mümkün olmuşdur. Tədqiqatçı xüsusilə Şəki xanlarının siyasi fəaliyyəti üzərində dayanır, xüsusən də onların Rusiya imperiyası və Qacar İranı ilə diplomatik əlaqələrinə diqqət yetirir.
P.Q.Butkovun əsərlərində təkcə dövrün hadisələri təsvir olunmur, həm də Şəki xanlığının regiondakı mövqeyi, onun Rusiya ilə münasibətlərdə izlədiyi ölçülü-biçili siyasət və daxili müstəqilliyini qorumaq istiqamətində apardığı mübarizə ətraflı şəkildə araşdırılır. Bununla belə, müəllifin yazılarında Rusiya imperiyasının ideoloji təsiri hiss olunur ki, bu da onun bəzi nəticələrinə ehtiyatla və tənqidi yanaşmağı zəruri edir.
Açar sözlər: Şəki xanlığı, Hacı Çələbi xan, Pyotr Qriqoryeviç Butkov, Cənubi Qafqaz, çar Rusiyası, siyasi vəziyyət

Abstract
In the 19th century, several prominent historians in the Russian Empire focused on the history of Eastern peoples, particularly those of the South Caucasus. Among them, Colonel and historian Pyotr Grigoryevich Butkov stands out as a significant figure. His scholarly work extends beyond mere descriptions of military and political events; it offers valuable insights into the statehood traditions, diplomatic relations, and internal social structures of the region's peoples.
The second half of the 18th century was a complex period for the South Caucasus, marked by political fragmentation and the emergence of independent and semi-independent khanates. One notable figures

from this era is Haji Chalabi Khan, the founder of the Shaki Khanate. His leadership played a crucial role not only at the local level but also in shaping the broader political landscape of the region.
In his seminal work, "Materials for the New History of the Caucasus from 1722 to 1803," Butkov provides significant information regarding Haji Chalabi Khan's political activities. Drawing upon available sources, Butkov notes that Haji Chalabi was an influential leader who rose from among the common people. His ascent to power was largely facilitated by the support of the lower strata of society and the active involvement of the broader populace in the internal political transformation of the Shaki Khanate. Butkov's research particularly emphasizes the political activities of the Khans of Shaki, focusing to their diplomatic relations with the Russian Empire and Qajar Iran.
His works examine not only the events of his time but also provide a detailed account of the Shaki Khanate's position in the region. The author highlights its efforts to preserve internal independence and its balanced approach in relations with the Russian Empire. However, it is important to note that Butkov's writings reflect the influence of imperial ideology, which necessitates a careful and critical evaluation of some of his conclusions.
Keywords: Shaki Khanate, Haji Chalabi Khan, Pyotr Grigorievich Butkov, South Caucasus, Imperial Russia, political situation.

Резюме
В XIX века в Российской империи активно действовали ряда выдающихся историков, занимавшихся исследованием истории восточных народов, в особенности народов Закавказья. Одним из наиболее заметных представителей этой школы был полковник и историк Петр Григорьевич Бутков. Его научное наследие охватывает не только описание военно-политических событий, но также представляет значительную ценность с точки зрения анализа традиций государственности, дипломатических взаимодействий и внутренних социальных структур народов региона.
Вторая половина XVIII века ознаменовался для Южного Кавказа периодом острого политического дробления, сопровождавшегося формированием независимых и полунезависимых ханств. В данном контексте особое место занимает фигура Хаджи Челеби хан — основателя Шекинского ханства, проявившего себя как дальновидный политик и волевой государственный деятель. Его деятельность имела значительное влияние не только на процессы внутри самого ханства, но и на общее формирование политической конфигурации всего региона.
В своём фундаментальном труде «Материалы для новой истории Кавказа с 1722 по 1803 год» русский историк дворянско-буржуазного происхождения П.Г.Бутков представляет значимые сведения, касающиеся политической деятельности Хаджи Челеби хана. Исходя из доступных источников, Бутков характеризует Хаджи Челеби как авторитетный лидер, вышедшего из простого народа, подчёркивая, что становление его власти стало возможным благодаря поддержке социальных низов и активному вовлечению широких народных масс в процессы внутренней политической трансформации Шекинского ханства. Особое внимание исследователь уделяет политической активности ханов Шеки, в частности — их дипломатическим контактам с Российской империей и Каджарским Ираном.
В трудах П.Г.Буткова рассматриваются не только события своего времени, но и подробно освещается положение Шекинского ханства в регионе. Автор подчёркивает его стремление к сохранению внутренней независимости и взвешенный подход в отношениях с Российской империей. Тем не менее, в его работах заметно влияние имперской идеологии, что требует внимательного и критического отношения к ряду его выводов.
Ключевые слова: Шекинского ханства, Хаджи Челеби хан, Петр Григорьевич Бутков, Южного Кавказ, Царская Россия, политическая ситуация

Введение

После убийства Надир шаха в 1747 году в результате заговора, в государстве Афшаров, рассматривавшемся как преемник Сефевидской империи, начался глубокий политический кризис. Борьба за престол привела к серьёзному ослаблению центральной власти, что создало политический вакуум в регионе. В свою очередь, это способствовало формированию на Кавказе ряда независимых и полуавтономных политических образований — ханств. В связи с этим период с 1747 года до начала XIX века, завершившийся русской экспансией, в политической истории народов Азербайджана и всего Кавказа получил название «эпохи ханств».

Ханства в основном управлялись представителями знатных тюркских родов, главы которых в эпоху Сефевидов назначались на управление провинциями. После падения центральной власти они смогли фактически установить независимое политическое правление на подвластных им территориях. Большинство ханств, сформировавшихся в этот период, находились под управлением представителей кызылбашских племён. Следует отметить, что некоторые ханства время от времени усиливались в большей степени по сравнению с другими и выдвигали притязания на гегемонию в регионе. В этом контексте особого внимания заслуживают политические стремления Шекинского хана Хаджи Челеби хана, основателя Карабахского ханства Панах Али хана и Кубинского хана Фетали хана к объединению всех ханств под своей властью.

С точки зрения изучения эпохи ханств чрезвычайно ценным источником является монументальный трёхтомный труд русского военного историка и академика П.Г.Буткова — *«Материалы для новой истории Кавказа за 1722–1803 годы»*. Представленные в этом сочинении сведения имеют важное значение как для исследования политических процессов на Кавказе в целом, так и для изучения истории отдельных ханств, в том числе Шекинского ханства.

В данной статье на основе сведений, представленных П.Г.Бутковым, анализируется стратегическое положение Шекинского ханства в регионе, его политические связи с другими ханствами, а также дипломатические отношения с Российской империей, государством Каджаров и Картли-Кахетинским царством. Исследование показывает, что Шекинское ханство было не только локальным центром силы, но и активно участвовало в региональных политических процессах.

Образование Шекинского ханства и политическая деятельность Хаджи Челеби-хана.

На протяжении всего Средневековья Шекинская власть сохраняла гегемонию в северо-западном регионе Азербайджана. В период упадка Сефевидского государства она вновь начала процесс восстановления своей независимости, а во времена империи Надир шаха Афшара Шеки превратился в центр борьбы за независимость в северо-западной части Азербайджана. (Talıbova, 2010)

Одним из важнейших политических образований, внесших значительный вклад в процесс восстановления Азербайджанской государственности, было Шекинское ханство. Его основатель — Хаджи Челеби, сын Курбана — ещё при жизни Надир шаха, воспользовавшись ослаблением центральной власти, изгнал представителей имперской администрации из региона и в 1743 году провозгласил Шекинскую область независимым ханством, приняв на себя титул хана (Левиатов, 1948, с. 118).

В ответ на неповиновение Надир шах организовал военный поход на Шеки. Направленные им значительные вооружённые силы приступили к осаде крепости «Гялярсан-герарсан» где укрылся Хаджи Челеби, организовав оборону. О политике Надир шаха на Южном Кавказе, в особенности о его военных походах против Шеки и Дагестана, пишет П.Г.Бутков: «*В начале 1745 года паки настали тревоги. Надыр еще восхотел испытать терпения своего против Лезгин на западе кавказских гор обитающих и обратил действия свои на Шекийцов, где*

властвовал тогда Хаджи-Челеби-Хан» (Бутков, 1869, т. I, с. 231). П.Г.Бутков указывает, что в этом военном походе Надир шах потерпел тяжёлое поражение и оказался в опасном положении, однако, отступив, с трудом, но всё же сумел переправить свою армию через реку Куру и спастись (Бутков, 1869, т. I, с. 232).

В результате, в мае 1745 года Надир шах был вынужден отступить из Шеки. Однако он не прекратил осаду крепости «Гялясан-Гёрясан». Отряд, размещённый вокруг крепости, перекрыл пути сообщения, лишив повстанцев связи с внешним миром. Только таким способом удалось подчинить защитников крепости. В марте 1746 года повстанцы, страдая от нехватки продовольствия, решили прекратить сопротивление. По приказу Надир шаха правителем магала был назначен некий Мелик Джафар, а Хаджи Челеби вновь оставлен на должности представителя магала (Süleymanov, 2010, с. 475).

19 июня 1747 года Надир шах был убит в результате заговора. Один из наиболее влиятельных полководцев и правителей своего времени, он трагически завершил свою жизнь, что ознаменовало начало политической нестабильности в регионе.

В сложившейся политической обстановке Челеби хан перешёл к самостоятельному управлению и начал борьбу за формирование централизованного единого государства, а также за установление власти, осуществляемой из одного центра.

П. Г. Бутков, описывая географическое положение Шеки, подчёркивает, что Шекинское или Нухинское ханство располагалось на западных склонах Кавказа, от Дагестана до реки Куры, в горной местности. Он указывает, что на севере ханство граничило с Казыкумыкским владением, на востоке — с Шемахинским ханством, на юге — с рекой Кура, а на западе — с народом лезгин. В ханстве, по его словам, проживало до 45 тысяч человек. Столицей ханства был город Шеки, расположенный на берегу реки Нухи, а правителем являлся Хаджи Челеби хан (Бутков, 1869, т. I, с. 231). П. Г. Бутков, указывая, что западные границы Шекинского ханства проходили по землям лезгинских народов, допускает определённую неточность. На самом деле, согласно историческим источникам, западные рубежи Шекинского ханства соприкасались с территориями Грузии (İsmayıl, Bağırova, 1997, с. 23).

В то же время П. Г. Бутков сообщает, что численность войск в Шекинском ханстве достигает 10 000 человек (Бутков, 1958, т. I, с. 210).

Воспользовавшись политическими распрями и хаосом, возникшими в борьбе за власть, Хаджи Челеби организовал военный поход на Тебриз. Об этом событии Мираббас Мирбагирзаде пишет следующее: «Он назначил некого по имени Садреддин своим наместником в Тебризе» (Tahirzadə, 2005, с. 149). Однако, столкнувшись с сопротивлением правителя Тебриза Эмираслана хана, Хаджи Челеби был вынужден отступить.

Согласно сведениям Мираббаса Мирбагирзаде, правитель Тебриза Эмираслан хан предпринял военный поход на Шеки. Несмотря на то что в состоявшемся сражении погиб сын Хаджи Челеби — Гасан-ага, Эмираслан хану не удалось захватить территорию Шеки, и он был вынужден отступить. Данное событие способствовало дальнейшему укреплению политического влияния и военной мощи Хаджи Челеби в регионе (Tahirzadə, 2005, с. 149).

Хаджи Челеби и его союзник — хан Шемахи — с объединёнными военными силами выступили против Карабахского хана Панахали-хана, осадив крепость Баят. Несмотря на более чем месячные военные действия, союзным войскам не удалось достичь поставленных целей, и они были вынуждены отступить.

К середине XVIII века Шекинское ханство превратилось в одно из самых могущественных ханств Северного Азербайджана. Подчинив себе Эрешское и Габалинское султанства, оно ещё более усилило свою мощь (Cabbarov Arıf, Necmi Uyanık, 2018, с. 466).

Весной 1750 года хан Хаджи Челеби заключил военно-политический союз с Грузинским царём Теймуразом с целью совместного похода на Джар. Однако вскоре Хаджи Челеби осознал, что главной целью Грузинских царей является установление господства над Азербайджанскими

территориями. В связи с этим он выходит из союза с Теймуразом и, объединившись с дагестанцами и джарцами, наносит сокрушительное поражение грузинским войскам. Об этом сообщает П.Г.Бутков: «*Теймураз, вступив в соглашение с Шекинским ханом Хаджи Челеби, вместе с ним отправился в Джар. Однако Хаджи Челеби изменил Теймуразу, и, соединившись с дагестанцами и джарцами, напал на него и нанес поражение его войску*» (Бутков, 1958, т. I, с. 238).

Рост политического влияния и военной мощи хана Хаджи Челеби вызывал обеспокоенность как у грузинских царей, так и у некоторых азербайджанских ханов. В результате между ними был сформирован союз, направленный против Хаджи Челеби.

21 марта 1752 года, в местности Кызылкая недалеко от Гянджи, азербайджанские ханы — Карабахский, Гянджинский, Нахичеванский, Эриванский и Карадагский — прибывшие на встречу с грузинским царём Ираклием II, были захвачены им в плен.

Узнав об этом, Хаджи Челеби перешёл в наступление с другого берега реки Куры и в сражении, произошедшем вблизи мавзолея Шейха Низами (Tahirzadə, 2005, c. 151, нанёс тяжёлое поражение грузинским войскам, освободив тем самым пленённых ханов.

В разделе «Приложения N» труда П.Г.Буткова приведены материалы, опубликованные во вторник, 23 ноября 1753 года, в газете «Санкт-Петербургские ведомости». В этих материалах отражены важные сведения о политических и военных отношениях между Грузинскими царями и Азербайджанскими ханствами. Указанные сведения были составлены на основе сообщений, поступивших преимущественно из Астрахани и Грузии. О событиях, произошедших в 1752 году, говорится в указанном материале следующим образом: «*В мае 1752 года Митрополит Роман, происходивший из Грузии, прибыл в крепость Кизляр и представил письменные сведения. Достоверность предоставленной им информации связывается с тем, что он лично проживал в Грузии и был свидетелем происходивших там общественно-политических процессов.*

Согласно его сообщению, грузины и кахетинцы подвергались постоянным нападениям со стороны различных врагов, особенно горских племён. Он указывает, что в тот период пять ханов из персидских провинций (в Азербайджанской провинции-Эфендиева А.С) — *Казахский, Борчалинский, Шемшедильский, Эриванский и Гянджинский* (Карабахский, Гянджинский, Нахичеванский, Эриванский, Карадагский-Эфендиева А.С) — *проявляли определённую политическую лояльность к грузинскому царю. Эти ханы заключил и союз с царём Ираклием II и совместно организовали военный поход против Шекинского хана Хаджи Челеби.*

По словам источника, в ходе этого столкновения Хаджи Челеби нанёс серьёзное поражение царским войскам, уничтожив или взяв в плен около 6000 человек. Позднее в том же году царь Ираклий предпринял новый поход против Хаджи Челеби с шеститысячным войском, однако вновь потерпел тяжёлое поражение, утратив значительное число воинов и имущества, и смог вернуться лишь с малой частью своего войска.

В результате перечисленные ханы отошли от Ираклия и перешли на сторону Хаджи Челеби. Эта перемена существенно осложнила политическую ситуацию в Грузии и Кахетии, поставив их в крайне уязвимое положение и значительно ослабив их оборонительные возможности» (Бутков, 1958, т. I, с. 390). Хотя в этих сведениях содержатся некоторые неточности, они дают важные разъяснения относительно отношений между Азербайджанскими ханами и Грузинскими царями.

Одержав верх над грузинскими войсками, Хаджи Челеби установил контроль над Борчалинским регионом и назначил своим наместником в этой области своего сына Агакиши бека. Агакиши бек управлял данной территорией на протяжении примерно двух лет (Бакиханов, 1991, с.).

"Çün bu yolda himmətim ali idi, təbim isə qorxu və ürküsüz, bu gülşənin yanından laqeydliklə keçməyə qoymadı və tamaşasından doymadı. Və o aləm fəzasına təb qoşunlarım türksayağı yürüşlər etdi, xəyal quşum o göyün ənginliklərinə qanad çaldı və o cəvahir xəzinəsindən könül sərrafım əvəzsiz qiymətə malik ləl və dürlər seçdi. Qəlbimin gülyığanı o gülşəndən saysız-hesabsız xoş ətirli qızılgül və yasəmən yığdı. Çün bu bəxşişlər ilə sərvətlənmək və bu sərvətlər ilə təminlik mənə müəssər oldu, nəticədə onun gülləri hədsiz miqdarda rüzgar əhlinin üzünə açıldı və ixtiyarsız başlarına saçılmağa başladı."(Nəvai,38)

"Bədii dilimizin banisi olmaq haqqını qazanan Füzuli" (F.Köçərli) doğma ana dilinə sonsuz sevgisini və bu dildə yazmağın məsuliyyətini ifadə edərək bəyan edirdi ki:

Ol səbəbdən farsi ləfzilə çoxdur nəzm kim,
Nəzmü-nazik türk ləfzilə ikən düşvar olur.
Ləhceyi-türki qəbuli-nəzmi-tərkib etməyib,
Əksərən əlfazı namərbutu nahəmvar olur.
Məndə tövfiq olsa, ol düşvarı asan eylərəm,
Novbahar olğac tikandan bərgi-gül izhar olur. (Füzuli, 28)

Doğma ana dilinin incəliklərini mənimsəyən, bu dildə heyrətamiz sənət nümunələri yaradan M.Füzuli sözü ilahi qüdrət sanaraq onu varlığından uca tutmuş, söz də şairə əbədi ömür – əbədiyyət bəxş etmişdir. "Klassik qəzəl ədəbiyyatı tarixində Füzuli qədər zəngin söz ehtiyatına malik ikinci bir şair tanımırıq. Sözün məzmun dairəsi Füzulidə hüdudsuzdur, şair onun çalar rəngarəngliyindən ... böyük məharətlə istifadə edir." (Füzuli,11)

Söz sərrafı Füzuli:

Dünya ədəbiyyatında "qəlb şairi"(E.Gibb) kimi tanınan şairin sənət dünyası öyrənildikcə, yeni-yeni əsrarəngiz qatları aşkarlanır. Bu mənada onun "Məni candan usandırdı..." mətləli qəzəli olduqca xarakterikdir və təsadüfi deyil ki, M.Füzulinin lirikasından bəhs edən əksər tədqiqatçılar bu qəzələ mütləq müraciət etmiş, əsərin sənət dəyərini araşdırmış, onu şairin söz mülkünün incisi hesab etmişlər.

Bütün əsərlərində olduğu kimi, "Məni candan usandırdı..." mətləli qəzəlində də M.Füzuli müqtədir bir sənətkar kimi sözə zərgər dəqiqliyi ilə yanaşmış və bu əsərində o, Azərbaycan dilinin zəngin söz xəzinəsindən məharətlə istifadə etmişdir. Bu xüsusiyyətlər qəzəlin hər bir misrasında, hər bir beytində aydın şəkildə əks olunur. Qəzəl əruz vəzninin ən çox müraciət olunan həzəc bəhrinin çox böyük

ustalıq tələb edən III növ, II variantında (məfAİlun, məfAİlun – qələmdildil, qələmdildil) qələmə alınmışdır. Qəzəldə ərəb və fars mənşəli sözlərdən nisbətən az istifadə olunduğu üçündür ki, əsərin dili səlis və aydındır. Həqiqətən də "Şair burada ərəb-fars sözlərinin özünü də Azərbaycan dilinin qanun-qaydalarına uyğun bir şəkildə işlətməyə çalışır. İşlətdiyi ərəb və fars sözlərinin çoxu isə o zaman danışıq dilinə keçmiş ədəbi dildə və danışıq dilində vətəndaşlıq hüququ qazanmış sözlərdən ibarətdir." (Araslı,277)

Məni candan **usandırdı,** cəfadan yar **usanmazmı?**
Fələklər yandı ahimdən, muradım şəmi yanmazmı?

Şair sözügedən qəzəlin bu mətlə beytində qədim türk mənşəli "usanmaq" sözünün sinonimliyindən müxtəlif məqamlarda iki, bütövlükdə qəzəlin mətnində isə üç dəfə istifadə edir: 1) məni candan usandırdı – cəfalara dözməkdən canımdan bezdim, üzüldüm (feil); 2) cəfadan yar usanmazmı – yar bu qədər cəfa, zülm verməkdən yorulmurmu (feil); 3) bu sövdadən usanmazmı – bu sevdadan ağıllanmayıbmı (us – ağıl ismindən düzəlmiş ağıllanmaq feili). Yeddi beytdən ibarət bu qəzəldə doxsan yeddi söz (bunlardan altısı söz birləşməsidir: dəvayi-dərd, şəbi-hicran, çeşmi-giryan, güli-rüxsar, fəsli-gül, rindü şeyda) işlənmişdir ki, bunlardan **mən** şəxs əvəzliyi beş, **sən** şəxs əvəzliyi üç, **yar** ismi iki, **su** ismi iki, **usanmaq** sözü üç**, bimar** sifəti iki, **sevda** ismi iki**, bu** işarə əvəzliyi iki, **axar** feili (1. Beşinci beytin birinci misrasında – qanlı axar su – inversiya; 2.Həmin beytin ikinci misrasında – **axar sular –** feili sifət) iki dəfə olmaqla iyirmi üç dəfə "təkrarlanır", lakin dahi söz ustadı hər sözün yerinə görə məna çalarlarından zərgər dəqiqliyi ilə yararlanır. Məsələn, fars mənşəli **bimar** sözündən ikinci beytin birinci misrasında xəstə, ikinci misrada isə yorğun, yorulmuş mənasında istifadə olunub: Həqiqətə - Haqqa qovuşmaq üçün üç böyük mərhələdən – Şəriət, Təriqət və Mərifət yolunu qət edən, keçən aşiq bu yolun hər bir çətinliyinə dözüb və çox yorğundur:

Qamu bimarinə canan dəvayi-dərd edər ehsan,
Neçün qılmaz mənə dərman, məni bimar sanmazmı?

Lirik qəhrəmanın dilindən söylənən hər bir beyt şah beyt dərəcəsində olmaqla, məzmun gözəlliyinə, forma mükəmməlliyinə malikdir: aşiqin səmimi hiss və həyəcanları – saf, dəruni sevgisi, yarın cəfasından məmnunluğu, məşuqun aşiqinə etinasızlığı, "qamu bimarinə" "dəvayi-dərd" ehsan etdiyi halda, aşiqini "bimar" sanmamasından dolayı üzülməsi heyrətamiz bir təbiiliklə, səmimi etiraflarla, estetik zövqlə ifadə olunur:

Degildim mən sənə mail, sən etdin əqlimi zail,
Mənə tən eyləyən ğafil səni görcək utanmazmı?

Beytdə Allahı nəzərdə tutan şair "mən səni hələ dərk etmirdim, sən mənim əqlimdəki faniliyi göstərdin, yox etdin, sənə aşiq olduğum üçün mənə tənə, rişğənd edən ğafil – qəflətdə olan (oxu: kamil olmayan! Ərəb mənşəli **qafil** sözünün mənası qayıdan, dönən, qapayan, bağlayan anlamındadır, **ğafil** isə qəflətdə olan, heç şeydən xəbəri olmayan; diqqətsiz, etinasız deməkdir – (Azərbaycan,363) səni – Allahın nuru hüsnündə təcəlla edən kamil insanı bəsirət gözü ilə görə bilərsə, əlbəttə utanacaq.

M.Füzuli "Rindü-Zahid" əsərində Rindin dilindən yazır ki, "Ey Zahid! ... onu bil ki, gözəllik Allah simasının aynasıdır, **Allah axtaranların** məqsədə çatmaları üçün yol göstərəndir. Cəmal Allah nurunun məzhəridir, əbədi feyzin mənşəyidir." (Füzuli, 59) Maraqlıdır ki, eyni fikir İ.Nəsimidə "Surəti-nəqşində hər kim görmədi nəqqaşini, // Vahidi-surət onun gözsüz yaratmış başini" şəklində daha mükəmməl bir formada ifadə olunub. M.Füzulinin əsəri "Rindü-Zahid" adlandırmasının da simvolik anlamı vardır: təsəvvüf istilahlarının izahında zahid sözünün rəmzi yozumu belədir – ze – zahiri bər-bəzəkdən (ziynətdən) uzaq olmaq, əlif – axirətə etiqad, ha – nəfsin havasından vaz keçmək, dal – dünyanı ötəri bilmək. Həqiqi zahid nə dünya neməti ilə sevinməz, nə də onu itirməklə kədərlənməz. Ariflər özünü zahidliyə vuranları riyakar adlandırmışlar. Zöhd isə zahidlik deməkdir. Rəsmi məhdudluğa və zahiri qaydalara sığmayan azadələr rind adlanır. O, dünyaya bağlı deyil, Haqq və həqiqətdən başqa heç nəyi görmür, heç nəyi bilmir və yalnız qəlbin hökmü ilə rəftar edir. Rind adı şərab içən olmayıb, kəsrətdən qurtularaq Haqqa yön alan mərifət sahibi və fəna əhlidir. (Göyüşov, 84; 155) M.Füzuli sözügedən əsərində Haqqa qovuşmaq yolunda – vəhdəti-vücud olmaqda əqlə

böyük önəm verərək, əqlə müqayir yolların mümkün olmadığını bildirir, "çünki Allaha yaxınlıq məqamında əql heyran, dil laldır".

"Məni candan usandırdı..." mətləli qəzəlin məqtə hissəsində işlənmiş **"usanmaq"** sözü isə daha geniş məna çalarına malikdir və qəzəli məntiqi cəhətdən yekunlaşdırmaq, şairin sufi-panteist dünyagörüşünün ifadə olunması baxımından çox böyük rol oynayır. Ümumiyyətlə, M.Füzulinin yaradıcılığında, xüsusən qəzəllərində panteist fəlsəfi baxış mühüm yer tutur. Doğrudur ki, M.Füzulinin bütün lirik yaradıcılığında təqdim olunan gözəllik və məhəbbət konsepsiyasını mistik-təsəvvüf anlamda təqdim etmək doğru deyil, amma bu da bir həqiqətdir ki, M.Füzulinin məhəbbət lirikasında təsəvvüf görüşləri hər an hiss olunmaqdadır. Klassik Şərq pioeziyasında, eləcə də M.Füzuli yarasıcılığında özünü göstərən "təsəvvüf cərəyanı Quran və İslamdan qaynaqlanan bir dini-mistik, əxlaqi-mənəvi, psixoloji-fəlsəfi və kosmoloji dünyabaxışıdır Ona görə də bütövlükdə bu təlimin əsasında ilkin olaraq Quran və İslam dəyərləri dayanır." (Göyüşov,7) Bu mənada qeyd olunmalıdır ki, M.Füzulinin lirikasının mayası Allaha olan sonsuz sevgidir. Türkiyəli tədqiqatçı professor Fuad Köprülüzadə 1927-ci ildə M.Füzuli divanına yazmış olduğu müqəddimədə və 1926-cı ildə Bakıda nəşr etdirdiyi "Azərbaycan ədəbiyyatına aid tədqiqatlar" adlı əsərində " ... Leylasını kəndi vicdanında bulan sakin, fədakar, ilahi bir eşqi (eşqi-mütləqi, eşqi-əflatunini) tərənnüm etmişdir. " Həmin dövrdə İsmayıl Hikmət də bu məqamda F.Köprülüzadənin fikrinə tərəfdar olmuş, M.Füzuli yaradıcılığındakı məhəbbətin sufiyanə mahiyyətdə olduğunu söyləmişdir. Əlbəttə sovet ədəbiyyatşünaslığı materialist metodologiyaya əsaslandığından bu kimi elmi-nəzəri baxışları inkar etmiş, M.Füzulinin "real, həyati, dünyəvi" aşiq olduğunu sübuta çalışmışdır. Tədqiqat sübut edir ki, M.Füzuli yaradıcılığında söz Qeyb aləmi ilə gerçək, real dünya arasında bağlantı, körpü rolunu oyanayır və şairin sufi görüşlərinin bədii ifadəsi olan simvolların önəmi bunların bir qütbdən başqa bir qütbə keçid dinamikliyi ilə ölçülür.

Sufizmin M.Füzuli yaradıcılığına təsiri, bunun bədii yaradıcılığında ifadəsi şəksizdir. Sufi ideologiyasını daha çox qəsidələrində təbliğ edən şair qəzəllərində də bu ənənəsinə sadiq qalır. Həqiqətən də M.Füzuli " ... özünün bütün qəlb aləmini, ictimai, elmi və fəlsəfi görüşlərini qəzəllərində ifadə etmişdir." (Araslı, 115) Onun məhəbbət süjetli qəzəllərində ilahi eşqə rəmz, məcaz kimi müraciət olunur. Çox haqlı olaraq qeyd edirlər ki, sufizm Füzuli məhəbbətini insandan, dünyadan ayırmır. Onun qəzəllərində sufi fəlsəfi zəmini çox vaxt görmək belə olmur, lakin bir çox qəzəllərində şair real düşüncələrlə təsəvvüf fəlsəfəsinin müddəalarını birləşdirir. Bu mənada şairin "Məni candan usandırdı..." mətləli qəzəli xüsusi maraq doğurur.

Füzulişünaslıqda sözügedən əsər təhlil olunarkən bu qəzəlin sufi-panteist mahiyyətini sübut üçün ayrı-ayrı kiçik işarələr dəlil gətirilir. Qəzəldəki **"şəbi-hicran**", **"eşq", "rüsvalıq"** , **"Füzuli rindü şeydadır"** kimi ifadələrlə yanaşı, məqtədəki son misrada sufi-panteist fəlsəfi baxış daha mükəmməl verilib və qəzəlin bütün məna yükü də bu beytin üzərinə düşür:

Füzuli rindü şeydadır, həmişə xəlqə rüsvadır,
Sorun kim, bu nə sövdadır, bu sövdadən **usanmazmı?**

Beytin mənasını izahdan əvvəl **"rindü şeyda"** izafətinin sufizmdəki anlamını şərh etmək məqsədəmüvafiqdir. Rindlər rəsmi məhdudluğu və zahiri qaydaları qəbul etməyən azadələr idi ki, onlar fani dünyaya bağlanmır, **Haqq** və **Həqiqətdən** başqa heç nəyi görmürdülər. Rindlər qəlbin hökmü ilə rəftar edir, **Haqqa** yönlənən **Mərifət** sahibi, fəna əhlidir. **Şeyda Haqqın** cazibə və şövqü ilə haldan-hala düşən dərviş və arifdir. Yəni, Füzuli heç nədən çəkinməyən qorxusuz və dəlicəsinə sevən bir aşiqdir, soruşun, öyrənin ki, axı bu necə sevdadır ki, bu əməldən o hələ usanmayıb – ağıllanmayıb, kamala çatmayıb?!

Sual olunur: beytdə hansı əməldən (sevda sözünün ərəb dilində bir mənası da əməldir) , ağıllanmaqdan və kamala çatmaqdan söhbət gedir?

Sufizm təliminə görə, ilahi ruh ilə - Allahla vəhdətə nail olmaq üçün insan dörd inkişaf mərhələsindən keçməlidir. Birinci mərhələ **şəriət** adlanır. Bu zaman ilahi ruha qovuşmaq yolunu tutmuş insan İslamın bütün qayda-qanunlarına sözsüz əməl etməlidir. İkincisi, **təriqət**dir. Təriqət

həqiqəti – Allahı dərk etmək üçün özünü hazırlamaq dövrüdür. Üçüncüsü, **mərifət** adlanır. Mərifətə görə, kainatı üluhiyyətlə vəhdətdə dərk etməkdir. Dördüncü, sonuncu mərhələ isə həqiqətdir, vəhdətdə dərk etməkdir. Dördüncü, sonuncu mərhələ isə **həqiqət**dir, insanın kamilləşməsi və Allahın dərk olunmasıdır. Son beytin mənasından aydın olur ki, M.Füzuli **usanmaq**, ağıllanmaq dedikdə, üç mərhələdən keçib **həqiqətə - A**llaha qovuşmaqdan söz açır. Yəni ki, aşiq (həqiqət aşiqi) hər cür sınaqlardan çıxdıqdan sonra **həqiqətə - Allaha** qovuşmayıbmı? Bu bədii sualın cavabı özlüyündə hazırdır və bu bir həqiqətdir ki, Azərbaycan ədəbi dili tarixində "... türk oğlu olmağa binaən, öz ana dilini artıcıq sevib də, ona rövnəq verməyi baş vəzifələrindən birisi hesab edən ... türk dilinə rövnəq verən və onu xarü xaşakdan təmizləyib bir göyçək və səfalı çəmənə bənzədən Füzuli" (Köçərli,58) elə bir tarixi xidmət göstərmişdir ki, bunu Sədi Şirazinin fars, Əlişir Nəvainin özbək-cığatay, Vilyam Şekspirin ingilis Aleksandr Sergeyeviç Puşkinin rus bədii dili, eləcə də ədəbiyyatı tarixindəki mövqeyi ilə müqayisə etmək olar. Bu da bir həqiqətdir ki, fars dilinin Şərq xaiqları ədəbiyyatında poeziya, ədəbi dil səviyyəsində inkişafında Ə.Firdovsinin, S.Şirazinin, H.Şirazinin nə qədər rolu varsa, X.Şirvaninin, N.Gəncəvinin, İ.Nəsiminin və M.Füzulinin də xidmətləri bir o qədər əhəmiyyətlidir.

Yeri gəlmişkən qeyd etmək vacibdir ki, qədim türk mənşəli **"us"** sözündən "Kitabi- Dədə Qorqud dastanları"nda, "Dastani-Əhməd hərami"də , oğuznamələrdə, həmçinin klassik poeziyada ağıl, kamal, zəka, idrak, ədəb və s. mənalarda istifadə olunmuşdur:

1.Şunda bəri ağlım, **usum** dərə bilmən. (Kitabi Dədə Qorqud,31)
2. Ol ucdan mənzilə irəməyəvüz,
Ögümüz, **usumuz** dərəməyəvüz. (Dastani-Əhməd hərami,23)
3. **Usula** güc etmə. (Oğuznamə,29)
4. **Usan** baş tərgit der. (Oğuznamə,39)
5. **Uslu** sanur sanınca dəlü oğlın sevərür. (Oğuznamə,58)
6. **Uslular** ilə savaşmaq cahillər ilə halva yeməkdən yegdir. (Oğuznamə,62)
7. Usum yeridi, bulandı beynim,
Öz yolumu görməz oldu eynim. (Xətayi,120)
7. Heyranlığı ol məqama yetdi
Kim, düşdü ayaqdan, **usu** getdi. (Füzuli,165)
8. Xah dərviş, olavü xah ğəni,
Usu azar duşunda görsə səni. (Füzuli, 204)

Nəticə:

M.Füzuli sənətinin sirri az sözlə dərin ədəbi-fəlsəfi mənalar ifadə etməkdə, sözə həssaslıqla, məsuliyyətlə yanaşmaqdadır. Onun qəzəllərinin bir çoxunda **mən, qəm, vətən, ağız, dərd, dəhən, yar, can, surət, əğyar** və s. kimi sözlər hətta bir beytdə bir neçə dəfə "təkrarlanır" :

1. Bilməz idim, bilmək **ağzın** sirrini düşvar imiş,
Ağzını derlərdi yox**,** dediklərincə var imiş.
(Füzuli, 35)

2. Dəhənin **dərdimə dərman dedilər** cananın,
Bildilər **dərdimi,** yoxdur **dedilər dərmanın.**
(Füzuli, 60)

3.Yari əğyar bilibdir **ki, mənə yar** olmaz,
Mən dəxi onu **ki, əğyar bilibdir, bilirəm.**
(Füzuli, 101)

4. Heyrət, ey büt, **surətin** gördükdə lal **eylər məni,**
Surəti-halım görən **surət**-xəyal **eylər məni.**
(Füzuli, 207)

5. Canı kim cananı üçün **sevsə, cananın sevər,**

Canı kim ki, **cananın sevər, canın sevər.**

(Füzuli, 220)

Nümunələrdən göründüyü kimi, M.Füzulinin qəzəllərinin dil materialı olduqca zəngin və çoxçalarlıdır. Doğma ana dilinin imkanlarından maksimum yararlanan şair nənki təkrarlara yol vermir, əksinə, hər sözün sinonimlik imkanlarından , poetik siqlətindən uğurla bəhrələnərək oxucusunu heyrətləndirməyi bacarır. Nəticə olaraq belə qənaətə gəlmək olar ki, M.Füzuli "Məni candan usandırdı..." mətləli qəzəlində öz sufi-panteist dünyagörüşünü əks etdirməklə, doğma ana dilinin incəliklərindən bəhrələnərək bədiilik baxımından bənzərsiz bir sənət əsəri yaratmışdır. Bu da bir həqiqətdir ki, M.Füzulinin sənət dünyası öyrənilməklə qurtaran deyil.

Ədəbiyyat

1. Araslı Həmid. Böyük Azərbaycan şairi Füzuli. Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyat. Bakı, 1958.
2. Azərbaycan Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. İki cilddə. I-II cidlər. Bakı, "Şərq-Qərb", 2005.
3. Ərəb və fars sözləri lüğəti. Bakı, Azərbaycan Elmlər Akademiyası Nəşriyyatı. 1967.
4. Göyüşov Nəsib. Təsəvvüf anlamları və dərvişlik rəmzləri.. (Yığcam ensiklopedik açıqlama). Bakı, "Tural-Ə" Nəşriyyat-Poliqrafiya Mərkəzi.2001
5. Nəvai Əlişir. Mühakəmətül-lüğəteyn. Bakı, 1999.
6. Köçərli Firidun bəy. İki cilddə. I cild. Bakı, "Avrasiya Press", 2005.
7. Xətayi Şah İsmayıl.1982
8. Oğuznamə. Bakı, "Yazıçı", 1982.
9. Dastani-Əhməd hərami. Bakı, "Gənclik", 1978.
10. Füzuli Məhəmməd. Seçilmiş əsərləri. İki cilddə, birinci cild, Bakı, "Azərbaycan Dövlət Nəşriyyatı", Bakı, 1988. (Filoloji elmlər doktoru Azadə Rüstəmovanın "Məhəmməd Füzuli" adlı ön sözü)
11. Kitabi-Dədə Qorqud.1962

MAIN CHARACTERISTICS OF THE MONOLOGICAL SPEECH PROCESS

ОСНОВНЫЕ ХАРАКТЕРИСТИКИ ПРОЦЕССА МОНОЛОГИЧЕСКОЙ РЕЧИ

MONOLOJİ NİTQ PROSESİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Əhmədzadə Gülöyşə Azad qızı
ADPU-nun Müasir Azərbaycan dili kafedrasının müəllimi

Xülasə
Monoloji nitq ünsiyyətinin mürəkkəb formasıdır. Şifahi monoloji nitq qədim elm olan ritorikanın əsasında durur. Bu elm bəşəriyyətin inkişafında çox böyük rol oynamışdır. Monoloji nitq məqsədyönlü məlumatvermə, insanlara dil vasitəsilə şüurlu təsir göstərmə prosesidir. Natiq dinləyicilərə müəyyən mövzu üzrə müvafiq dil formalarına salınmış və müəyyən məqsəd daşıyan onun düşündükləri ilə müraciət edir ki, bu da dinləyicilərdə müəyyən hiss və duyğular oyatmağa, yaxud onları müəyyən hərəkətlərə təşviq etməyə yönəldir. Bu nitq proqramlaşdırılmış, təşkil olunmuş nitqdir. Belə ki, danışan deyəcəklərini əvvəlcədən düşünür, eyni zamanda ifadə edəcəyi fikrin həcmini bilir. Bundan başqa, ifadə edəcəyi fikrin xarakterini müəyyənləşdirir, auditoriyaya müraciət formasını dəqiqləşdirir. Hansı materialları deyəcəyini, müsahibinin və müsahiblərinin səviyyəsini, deyəcəklərinin onlara necə təsir edəcəyini təsəvvüründə qabaqcadan canlandırır.
Açar sözlər: monoloji nitq, nitqin formaları, nitqin strukturu, paralinqvistik vasitələr, kommunikativlik

Abstract
Monologue speech is a complex form of communication. Oral monologue speech is the basis of the ancient science of rhetoric. This science has played a huge role in the development of mankind. Monologue speech is a process of purposeful information provision, conscious influence on people through language. The speaker addresses to the audience with his thoughts on a certain topic, expressed in appropriate language forms and having a specific purpose, which is aimed at awakening certain feelings and emotions in the audience or encouraging them to take certain actions. This speech is a programmed, organized speech. Thus, the speaker thinks in advance about what he will say, and at the same time knows the scope of the idea he will express. In addition, he determines the nature of the idea he will express, specifies the form of appeal to the audience. He imagines in advance what materials he will say, the level of the interlocutor and his interlocutors, and how what he will say will affect them.
Key words: monologue speech, speech forms, speech structure, paralinguistic means, communicativeness

Резюме
Монологическая речь сложная форма общения. Устная монологическая речь является основой древней науки риторики. Эта наука сыграла огромную роль в развитии человечества. Монологическая речь это процесс целенаправленного информирования, осознанного воздействия на людей посредством языка. Оратор обращается к аудитории со своими мыслями на определенную тему, выраженными в соответствующих языковых формах и имеющими определенную цель, которая направлена на пробуждение определенных чувств и эмоций у аудитории или побуждение ее к определенным действиям. Такая речь запрограммированная, организованная речь. Таким образом, оратор заранее продумывает, что он скажет, и в то же время знает объем высказанной им мысли. Кроме того, он определяет характер высказанной им мысли, задает форму обращения к аудитории. Он заранее представляет себе, какие

материалы он скажет, уровень собеседника и его собеседников и как то, что он скажет, повлияет на них.

Ключевые слова: монологическая речь, формы речи, структура речи, паралингвистические средства, коммуникативность

Monoloji Nitq Prosesinin Əsas Xüsusiyyətləri

Monoloji nitq ardıcıl, əlaqəli, məzmun baxımından sistemli və məntiqi əsaslara söykənən nitq formasıdır. Bu səbəbdən də monoloji nitqdən istifadə edən şəxs söyləyəcəyi fikrin semantik və struktural xüsusiyyətlərini dərindən mənimsəməli, onu məqsədəuyğun şəkildə ifadə edə bilməlidir. Həmçinin, danışan zəngin leksik ehtiyata malik olmalı, ifadə etdiyi fikirlərdə emosional-psixoloji təsir gücünü və dilin estetik imkanlarını qoruyub saxlamalıdır. Bu prosesdə dilin qrammatik normalarına dəqiq şəkildə riayət etmək mühüm şərtlərdəndir.

İşgüzar ünsiyyət çərçivəsində monoloji nitq, əsasən, bir şəxsin planlı şəkildə təqdim etdiyi ardıcıl fikirlər toplusunu əhatə edir. Məsələn, iclas zamanı məruzələr, hesabatlar, rəsmi çıxışlar və mesaj tipli təqdimatlar əksər hallarda yazılı formada tərtib olunur və əvvəlcədən hazırlanmış mətn əsasında təqdim edilir. Bu isə monoloji nitqin həm yazılı, həm də şifahi formada təzahür etməsinə şərait yaradır.Nitq prosesində danışan və dinləyici arasında qarşılıqlı əlaqənin forması fərqli ola bilər. Bəzi hallarda kommunikasiya tərəfləri aktiv şəkildə iştirak edir, yəni biri danışarkən digəri sual verir, cavablandırır və ya münasibət bildirir. Bu vəziyyət, əsasən, dialoji nitq forması üçün xarakterikdir. Digər hallarda isə dinləyici yalnız müşahidəçi kimi çıxış edir, yəni danışan şəxsin nitqinə müdaxilə etmir, sadəcə onu dinləyir. Bu tip münasibət forması isə monoloji nitqin əsas fərqləndirici cəhətlərindən biridir.

Monoloji nitq struktur baxımından da özünəməxsus xüsusiyyətlərə malikdir. O, giriş, əsas hissə və nəticədən ibarət olan klassik kompozisiya formasında təşkil olunur. Bu struktur onun bir çox formalarında — **mühazirə, məlumat xarakterli çıxış, elmi məruzə, rəsmi nitq və digər ictimai danışıq janrlarında** müşahidə edilir. Hər bir uğurlu monoloji çıxış, xüsusilə mühazirə, yalnız o zaman effektiv hesab olunur ki, danışan şəxs mövzuya dərindən bələd olsun, fikirlərini dinləyicilərin səviyyəsinə uyğun ifadə etsin və diqqəti əsas məqamlara cəmləyə bilsin.

Teleradio çıxışlarında da monoloji nitqə tez-tez rast gəlinir. Bu cür çıxışlar həm danışıq, həm də vizual-səsli təsir vasitələrinin kombinasiyası ilə dinləyiciyə yönəlir. Bədii ədəbiyyatda isə monoloji nitqə geniş yer ayrılır. Məsələn, Hamletin və ya İsgəndərin monoloqları bu baxımdan klassik nümunələr hesab olunur. Onlarda ardıcıllıq, emosional dərinlik və fəlsəfi təhlil imkanları aydın şəkildə sezilir.

İctimai çıxışların monoloji janrında təqdim olunan nitqlər dinləyicinin diqqətini davamlı şəkildə cəlb etməli və maraq oyatmalıdır. Belə nitqlərin yüksək keyfiyyətlə hazırlanması yalnız peşəkar natiqlər üçün deyil, yeni başlayanlar üçün də zəruri bacarıq sahəsidir. Nitqin hazırlanması prosesi yalnız mətnin məzmununun deyil, eyni zamanda onun strukturunun, təqdimat formasının və auditoriya ilə qarşılıqlı təsir mexanizmlərinin nəzərə alınmasını tələb edir.

Nitqin yekun hissəsi danışanın əsas fikirləri ümumiləşdirməsinə və dinləyicinin diqqətində dərin iz buraxacaq formada nəticə çıxarmasına şərait yaratmalıdır. Bununla yanaşı, çıxışın sonunda əsas tezislərin xatırladılması, qarşı tərəfin fikirlərinə maraq göstərilməsi və dialoq imkanının yaradılması da önəmli ünsiyyət strategiyalarındandır.

MONOLOJİ NİTQİN SİNTAKTİK QURULUŞU

Nitq fəaliyyəti insanın dil vasitəsilə fikrini ifadə etməsi prosesidir. Bu fəaliyyət iki əsas forma üzrə təzahür edir: dialoji və monoloji nitq. Dialoji nitq bir neçə iştirakçının qarşılıqlı şəkildə fikir mübadiləsinə əsaslanırsa, monoloji nitq əsasən bir şəxsin ardıcıl və məqsədyönlü danışığını əhatə edir. Monoloji nitqdə dilin sintaktik strukturu xüsusilə mühüm rol oynayır. Bu yazıda monoloji nitqin sintaktik quruluşu, onun xüsusiyyətləri və bu quruluşun nitqin məzmun və üslubuna təsiri təhlil edilir.

Monoloji nitq sintaktik baxımdan **mürəkkəb və ardıcıl cümlə quruluşu** ilə xarakterizə olunur. Bu növ nitqdə danışan şəxs auditoriyaya müraciət etdiyi üçün fikrin aydın və ardıcıl şəkildə ifadə olunması əsas şərtlərdəndir. Ə.F. Cəfərov qeyd edir ki, *"monoloji nitq informativ yüklü olmaqla, sintaktik baxımdan mürəkkəb quruluşa malikdir və bu da onun ifadə imkanlarını genişləndirir"*.
Monoloji nitqdə tez-tez birləşmiş (kompleks) **sintaktik vahidlərdən** istifadə olunur. Buraya əsas və budaq cümlələrin müxtəlif növləri daxildir: səbəb budaq cümləsi ("Çünki o hazır deyildi, danışmadı"), məqsəd budaq cümləsi ("Məqsədinə çatmaq üçün çox çalışdı"), zaman budaq cümləsi ("O gələndə biz artıq orada idik") və s. Filoloq alim İsmayıl Məmmədov bu barədə yazır: "Monoloji nitqin əsas struktur dayaq nöqtəsi mürəkkəb sintaktik vahidlərdir, çünki nitqin ardıcıllığı və məzmun axını bu vəhdət sayəsində təmin olunur".
Monoloji nitqin digər bir mühüm xüsusiyyəti **parçalanmamış mətn axınıdır.** Danışan şəxs, qarşısında cavab verən bir tərəf olmadığı üçün fikrini geniş və ardıcıl şəkildə formalaşdırmalı olur. Bu da sintaktik baxımdan daha uzun və çoxhissəli cümlələrin yaranmasına səbəb olur. Məsələn, elmi və ya publisistik çıxışlarda belə cümlələr çoxlu sayda budaq cümlələrdən ibarət olur və məntiqi cəhətdən bir-birinə bağlı olur. Türkiyəli dilçi Zeynep Korkmaz qeyd edir: *"Monoloji nitq, cümlələrin bir-biri ilə səbəb-nəticə və məqsəd münasibətində quraşdırıldığı, kompleks məna qatlarına sahib olan nitq formasıdır"*.
Bundan əlavə, monoloji nitqdə **epitetlər, təsvirlər və təsirli ifadələrə də** tez-tez rast gəlinir. Bu kimi stilistik vasitələrin istifadə olunması sintaktik strukturun mürəkkəbləşməsinə gətirib çıxarır. Stilistik məqsədlə işlədilən sintaktik **paralelizmlər və inversiyalar da** monoloji nitqdə fərqli sintaktik strukturların meydana gəlməsinə şərait yaradır. Q. Qasımov yazır ki, "*Monoloji nitqdə stilistik vasitələrin-xüsusilə **epitet, müqayisə və paralelizmin**-sintaktik struktura inteqrasiyası nitqin təsirliliyini artırır"*.
Əlavə olaraq, monoloji nitqdə təkrarlanan struktur modellər , yəni sintaktik paralelizm geniş yayılıb. Bu, həm ritmi qorumağa, həm də fikrin vurğulanmasına xidmət edir. Məsələn: "Biz çalışacağıq, biz inkişaf edəcəyik, biz qalib gələcəyik." Bu tipli paralel cümlələr dinləyici üzərində emosional təsir yaradır və əsas fikrin yadda qalmasını asanlaşdırır. Akademik N. Cəfərov bu barədə qeyd edir: *"Nitqdə sintaktik paralelizm yalnız üslubi deyil, həm də məntiqi və kommunikativ funksiya daşıyır, bu baxımdan monoloji nitqdə xüsusi yer tutur"*.
Nəticə olaraq, monoloji nitqin sintaktik quruluşu mürəkkəb, lakin sistemli və məqsədyönlü bir strukturdan ibarətdir. Bu quruluş, fikrin ardıcıllığını, aydınlığını və ifadə gücünü təmin edir. Elmi, publisistik və bədii nitqlərdə monoloji nitqin düzgün sintaktik quruluşda təşkili, nitqin effektivliyini və auditoriyaya təsirini birbaşa müəyyənləşdirir. Bu baxımdan, monoloji nitqin sintaktik quruluşunun öyrənilməsi dilçilik üçün mühüm əhəmiyyət kəsb edir.

MONOLOJİ NİTQİN KOMMUNİKATİV SİSTEMDƏ ROLU

Müasir dilçilikdə nitqin funksional formalarının öyrənilməsi insanın ünsiyyət prosesində dil vasitələrindən necə istifadə etdiyini anlamaq baxımından xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan **monoloji nitq**-yəni bir şəxsin davamlı, ardıcıl və planlı şəkildə öz fikirlərini ifadə etdiyi nitq forması-kommunikativ sistemin mühüm tərkib hissələrindən biri hesab olunur. Monoloji nitq, qarşılıqlı dialoqdan fərqli olaraq, daha çox informasiya ötürülməsi, auditoriyanı inandırmaq, maarifləndirmək və emosional təsir göstərmək kimi funksiyaları yerinə yetirir.
Monoloji nitq əsasən **elmi çıxışlarda, məruzələrdə, mühazirələrdə, rəsmi müraciətlərdə və publisistik yazılarda** istifadə olunur. Bu nitq forması struktur baxımından giriş, əsas hissə və nəticə kimi bölünməklə sistemli və məntiqi ardıcıllığa malik olur. Bu cür strukturlaşdırma danışanın fikrini aydın şəkildə çatdırmasına və dinləyicidə məqsədəuyğun təəssürat yaratmasına imkan verir.
Azərbaycan dilçiliyində monoloji nitqin kommunikativ gücü ilə bağlı araşdırmalar aparan Ə.F. Cəfərov qeyd edir ki, "monoloji nitq təkcə informasiya təqdim etmir, eyni zamanda dinləyicinin diqqətini yönəltmək, emosional təsir göstərmək və auditoriyada fikir formalaşdırmaq imkanına

malikdir". Bu isə onun yalnız informativ deyil, həm də **persuasiv (inandırıcı)** funksiyaya malik olduğunu göstərir.
Monoloji nitq prosesində danışan şəxs, adətən, qarşı tərəfdən dərhal cavab gözləmədiyindən, **fikirin tamlığı və ardıcıllığı na** daha çox diqqət yetirir. Bu, kommunikativ sistemin digər iştirakçılarına-dinləyicilərə-informasiyanı bütöv şəkildə qəbul etmək imkanı yaradır. Bundan başqa, monoloji nitq nitq mədəniyyətinin formalaşmasında, ictimai rəyə təsir göstərməkdə və fikrin elmi əsaslarla ifadəsində mühüm rol oynayır.
Beləliklə, monoloji nitq kommunikativ sistemin **strategiya və məqsəd yönümlü** bir vasitəsi kimi çıxış edir. Onun düzgün təşkili və ifadə imkanları danışanın intellektual səviyyəsini, üslub bacarığını və auditoriya ilə əlaqə qurma qabiliyyətini üzə çıxarır. Bu baxımdan monoloji nitq müasir kommunikasiya modelində mühüm bir ünsiyyət forması olaraq öz aktuallığını qoruyur.

NƏTİCƏ

Monoloji nitq insanın fikir və məlumatlarını ardıcıl, sistemli və məqsədyönlü şəkildə ifadə etdiyi əsas nitq formalarından biri kimi çıxış edir. Bu nitq forması istər sintaktik quruluş baxımından, istərsə də kommunikativ funksiyalar baxımından özünəməxsus xüsusiyyətlərə malikdir. Sintaktik baxımdan mürəkkəb və strukturlaşdırılmış cümlə modelləri ilə zəngin olan monoloji nitq, fikrin aydın şəkildə təqdim olunmasına və emosional təsirin artırılmasına xidmət edir. Stilistik vasitələrin-epitet, paralelizm, inversiya və digər sintaktik üsulların tətbiqi monoloji nitqin təsir gücünü daha da artırır.Kommunikativ sistem daxilində isə monoloji nitq informasiya ötürülməsi, maarifləndirmə, inandırma və sosial təsir kimi funksiyaları yerinə yetirərək cəmiyyətin kommunikasiya ehtiyaclarını qarşılayır. İctimai çıxışlarda, mühazirələrdə, elmi məruzələrdə və bədii əsərlərdə bu nitq forması dinləyici ilə effektiv əlaqənin qurulmasında əsas vasitə rolunu oynayır. Monoloji nitqin giriş, əsas hissə və nəticədən ibarət klassik strukturu isə onun məzmununu daha anlaşılan və məqsədyönlü edir.Beləliklə, monoloji nitq yalnız dilin sintaktik imkanlarının deyil, həm də insanın düşüncə və ünsiyyət bacarığının göstəricisi kimi çıxış edir. Onun elmi-nəzəri baxımdan araşdırılması həm dilçilik sahəsi, həm də kommunikasiya elmləri üçün xüsusi əhəmiyyət kəsb edir və bu istiqamətdə aparılan tədqiqatlar dilin funksional və üslubi imkanlarının daha dərindən anlaşılmasına xidmət edir.

ƏDƏBİYYAT

1. Cəfərov, Ə.F. (2004). Nitq mədəniyyəti . Bakı: Maarif nəşriyyatı.
2. Məmmədov, İ. (2011). Sintaksis problemləri . Bakı: Elm və Təhsil.
3. Qasımov, Q. (2009). Azərbaycan dilinin üslubiyyatı . Bakı: Nurlan nəşriyyatı.
4. Cəfərov, N. (1983). Azərbaycan dilində sintaktik paralelizm . Bakı: Elm nəşriyyatı.
5. Zeynep Korkmaz (2003). Cumle Bilgisi . Ankara: Türk Dil Kurumu Yayınları.
6. Veysəl Əyyubov (2006). Kommunikativ dilçilik və nitq nəzəriyyəsi . Bakı: Elm nəşriyyatı.
7. Həsənov, H. (2010). Nitqin funksional üslubları və xüsusiyyətləri . Bakı: Elm və Təhsil.
8. Məmmədli, R. (2013). Müasir Azərbaycan dili: Sintaksis . Bakı: ADPU nəşriyyatı.

BƏXTİYAR VAHABZADƏNİN ŞEİR DİLİNDƏ İŞLƏNMİŞ ELLİPSİS CÜMLƏ VƏ SÖZ BİRLƏŞMƏLƏRİNİN İŞLƏNMƏ MƏQAMLARI

THE POINTS OF DEVELOPMENT OF ELLIPSIS SENTENCES AND WORD COMBINATIONS USED IN THE POETRY OF BAHKHTIYAR VAHABZADE

ПУНКТЫ РАЗВИТИЯ ЭЛЛИПСИСНЫХ ПРЕДЛОЖЕНИЙ И СЛОВОСОЧЕТАНИЙ, ИСПОЛЬЗУЕМЫХ В ПОЭЗИИ БАХТИЯРА ВАГАБЗАДЕ

Elburus Vəliyev
Naxçıvan Dövlət Universiteti Filologiya üzrə fəlsəfə doktoru, dosent

Xülasə
Bu məqalədə görkəmli Azərbaycan şairi Bəxtiyar Vahabzadənin poetik dilində ellipsis cümlə və söz birləşmələrinin işlənmə xüsusiyyətləri və onların üslubi imkanları araşdırılır. Müəllif qeyd edir ki, ədəbi dilin inkişafında yazıçı və şairlərin yaradıcılığı böyük rol oynayır. Vahabzadənin poetik dili isə bu baxımdan zəngin nümunələr təqdim edir.
Ellipsis – yəni mənaya xələl gətirmədən buraxılmış, lakin asanlıqla bərpa oluna bilən cümlə və ya söz birləşməsi üzvləri – Vahabzadənin şeirlərində geniş yer tutur. Müəllif, həm sadə, həm də mürəkkəb cümlələrdə, eləcə də III növ təyini söz birləşmələrində mübtəda, təsirlik hal, mənsubiyyət şəkilçiləri kimi komponentlərin buraxılması hallarını konkret misallarla göstərir.
Şairin yaratdığı ellipsis cümlələrdə və birləşmələrdə buraxılmış üzvlər adətən mübtəda və ya sahiblik bildirən əvəzliklərdir. Bu ünsürlər bəzən nəsr üslubuna yaxınlaşdırılmış poetik ifadə tərzi ilə tamamlanır və şairin orijinal üslub yaradıcılığı kimi çıxış edir. İnversiya və sintaktik sıralama vasitəsilə fikir daha da dərinləşdirilir.
Misal kimi şeirlərdən götürülmüş çoxsaylı bəndlərdə göstərilir ki, Vahabzadə ellipsisdən yalnız qrammatik qənaət vasitəsi kimi deyil, estetik, bədii təəssürat yaradan üslubi texnika kimi istifadə edir. Bu üsulla o, həm ideyanı gücləndirir, həm də ritmik quruluşu pozmadan daha emosional poetik dil yaradır.
Məqalənin sonunda müəllif belə qənaətə gəlir ki, Bəxtiyar Vahabzadənin şeirlərindəki ellipsis halları onun dil duyumunun güclü olmasının, ana dilinə sevgisinin, və eyni zamanda ədəbi zövqünün yüksəkliyinin göstəricisidir. Onun poetik dili Azərbaycan ədəbi dilinin fonetik, leksik, qrammatik və üslubi imkanlarını dolğun şəkildə əks etdirir.
Açar sözlər: Bəxtiyar Vahabzadə, ellipsis, şeir, dil duyumu, əvəzlik, üslub yaradıcılığı, inversiya, sintaktik və s.

Summary
This article examines the features of the use of ellipsis sentences and word combinations in the poetic language of the prominent Azerbaijani poet Bakhtiyar Vahabzadeh and their stylistic possibilities. The author notes that the creativity of writers and poets plays a major role in the development of the literary language. Vahabzadeh's poetic language provides rich examples in this regard.
Ellipsis - that is, members of a sentence or word combination that are omitted without compromising the meaning, but can be easily restored - occupies a wide place in Vahabzadeh's poems. The author shows with specific examples the cases of omission of components such as the subject, the case of influence, and the suffixes of belonging in both simple and complex sentences, as well as in the III type of determining word combinations.
The omitted members in the ellipsis sentences and combinations created by the poet are usually pronouns that indicate subject or possessiveness. These elements are sometimes complemented by a

poetic style of expression close to the prose style and act as the poet's original stylistic creativity. The idea is further deepened through inversion and syntactic order.
For example, numerous stanzas taken from poems show that Vahabzadeh uses ellipsis not only as a means of grammatical economy, but also as a stylistic technique that creates an aesthetic, artistic impression. With this method, he both strengthens the idea and creates a more emotional poetic language without violating the rhythmic structure.
At the end of the article, the author concludes that the ellipsis cases in Bakhtiyar Vahabzadeh's poems are an indicator of his strong sense of language, his love for his native language, and at the same time, the height of his literary taste. His poetic language fully reflects the phonetic, lexical, grammatical and stylistic possibilities of the Azerbaijani literary language.
Keywords: Bakhtiyar Vahabzadeh, ellipsis, poetry, language sense, pronoun, stylistic creativity, inversion, syntactic, etc.

Резюме

В данной статье рассматриваются особенности использования эллипсисных предложений и словосочетаний в поэтическом языке выдающегося азербайджанского поэта Бахтияра Вагабзаде и их стилистические возможности. Автор отмечает, что творчество писателей и поэтов играет большую роль в развитии литературного языка. Поэтический язык Вагабзаде дает богатые примеры в этом отношении.
Эллипсис - то есть члены предложения или словосочетания, которые опускаются без ущерба для смысла, но легко восстанавливаются, - занимает широкое место в стихотворениях Вагабзаде. Автор на конкретных примерах показывает случаи опущения таких компонентов, как подлежащее, падеж влияния и суффиксы принадлежности как в простых, так и в сложных предложениях, а также в III типе определения словосочетаний.
Пропущенные члены в предложениях и сочетаниях с эллипсисом, созданных поэтом, обычно являются местоимениями, указывающими на подлежащее или притяжательность. Эти элементы иногда дополняются поэтическим стилем выражения, близким к прозаическому стилю, и выступают в качестве оригинального стилистического творчества поэта. Идея еще больше углубляется посредством инверсии и синтаксического порядка.
Например, многочисленные строфы, взятые из стихотворений, показывают, что Вагабзаде использует эллипсис не только как средство грамматической экономии, но и как стилистический прием, создающий эстетическое, художественное впечатление. С помощью этого метода он и усиливает идею, и создает более эмоциональный поэтический язык, не нарушая ритмической структуры.
В конце статьи автор приходит к выводу, что случаи эллипсиса в стихотворениях Бахтияра Вагабзаде являются показателем его сильного чувства языка, любви к родному языку и в то же время высоты его литературного вкуса. Его поэтический язык в полной мере отражает фонетические, лексические, грамматические и стилистические возможности азербайджанского литературного языка.
Ключевые слова: Бахтияр Вагабзаде, эллипсис, поэзия, языковое чувство, местоимение, стилистическое творчество, инверсия, синтаксис и т. д.

Ədəbi dilimizin formalaşmasında, bugünkü səviyyəyə çatmasında yazıçı və şailərin əsərlərinin dili, mübaliğəsiz desək, əvəzsiz örnəkdir. Belə ki, yazıçı və şairlərin əsərləri dil materialları ilə zəngin olan bir xəzinədir. Bu xəzinəyə baş vurduqda dilimizin ən kiçik və ən geniş dil vahidlərinə rast gəlirik. Belə demək, belə fikrə gəlmək, heç də qəribə gəlməsin. Desək, yazsaq ki, dilimizin fonetik, leksik, qrammatik xüsusiyyətləri elə orada – şair və yazıçıların əsərlərində əks olunub, bəlkə də bir çoxları üçün qəribə gələr. qncaq ixtisas sahibləri, xüsusən dilsevərlər bu faktı çox gözəl bilirlər. Bizə elə gəlir ki, xalq şairi B.Vahbzadənin əsərlərinin dil xüsusiyyətlərindən çox

yazılıb, biz isə bu kiçik məqalədə onun şeirlərində işlənmiş ellipsis cümlələrin və söz birləşmələrinin işlənmə məqamları bir elmi səyahət etmək istəyirik. Hesab edirik ki, bu barədə heç nə yazılmayıb. Elə buna görə də bu mövzuya müraciət etdik. Ən əvvəl dildə ellipsis hadisəsi nə deməkdir, o haqda məlumat verməyi vacib sanırıq.

Ellipis həndəsi termindir, yəni hər hansı bir fiqurun daralıb, genişlənməsi deməkdir. Konkret desək, yumurta şəkilli digər fiqurlar. Dildə isə bu ifadə, söz ellipis yox, ellipsis adlanır. Dilçilik ədəbiyyatlarında bu barədə dəqiq məlumat yoxdur. Ona görə də bir bu barədə məlumat verməyi lazım və vacib saydıq. Sadə və konkret tərif belədir:

Mənaya, məzmuna xələl gətirməyən, asanlıqla bərpa oluna bilən buraxılmış üzvlü cümlələrə ellipsis cümlə deyilir.

Məsələn: Məktəbə gedirəm. Bu cümlədə mübtəda görünmür, amma asanlıqla təsəvvür olunur və bərpa olunur. Yəni (mən) məktəbə gedirəm. Onu da qeyd edək ki, ellipsis hadisəsi təkcə cümlədə baş vermir, bu hadisə söz birləşmələrində və bəzi qrammatik şəkilçiləri düşən sözlərdə də müşahidə olunur. Məsələn: Başım ağrıyır, mənim başım ağrıyır. Bu sözləri də yalandı. Onların bu sözləri də yalandır. İşimiz qurtarıb – bizim işimiz qurtarıb.

Göründüyü kimi, hər üç nümunədə III növ təyini söz birləşmələrinin I tərəfləri: mənim, onların, bizim işlənməyib ki, bu da ellipsis hadisəsidir. Ellipsis hadisəsi təkcə cümlələrdə, söz birləşmələrində deyil, həmcins üzvlərdə hal, mənsubiyyət, şəxs. Hissəciklər, habelə yarımçıq cümlələrdə həm baş üzvlər, həm də II dərəcəli üzvlərdə özünü göstərir. Məsələn: Biz yay tətilində şahmar oynayır (dı-q), dənizdə üzür (dü-k) və yaxşı-yaxşı yeyir(di-k), dincəlirdik. Yaxud, uşaqlar kitab, dəftər və digər ləvazimatları çantaya yığıb getdilər. burada kitab və dəftər sözlərində - lar[2] cəm şəkilçiləri və təsirlik hal şəkilkçiləri (kitabları, dəftərləri) ixtisara düşübvə yaxud, yarımçıq cümlələrdə:

- Dərsə kim gəlməyib?
- - Adil. Əslində cavab dərsə “Adil gəlməyib” şəklində olmalı idi.

Adil kimdir?

- Tələbədir. Burada da cavab “Adil tələbədir” şəklində olmalı idi.

Adil necə oğlandı?

- Sakit. Burada da cavab “Adil sakit oğlandı” şəklində olmalıydı.

Nümunələrin sayını və parametrlərini daha da artırmaq olar. məqsədimiz ellipsis hadisəsi haqqında sırf elmi məqalə yazmaq deyil, istəyirik ki, xalq şairi B.Vahabzadənin şeirlərində ellipsis hadisəsinin işlənmə məqamları və üslubi imkanlarını açıqlayaq.

Əvvəlcə ellipsis cümlələri şərh edək:

...Dünyamızı yasa. Toya bölmüşük,

Sevdamızı oda, suya bölmüşük.

Ömrümüzü günə, aya bölmüşük.

Min arzuya, min diləyə böl görüm. (2, s. 146)

...Atılıb düşürdük şadlığımızdan

Bakıda ilk dəfə tramvay yolu çəkilən zaman. (2, 147)

...Dünyanı sevirsənsə, bu dünyada sənindir. (1, 68)

...İşıq onsuz da işıqdır, ona tərif nə gərək?

Onu baş ucdan asırlar tavana,

Ki, bütün dövrəsi ondan faydalana. (2, 149)

...Elə bilirik ki, bizim ömrümüz

Ömürdən o yana uzanacaqdır. (2, 150)

...Danışa bilmədin telefonda sən,

Bitirə bilmədin cümləni, qardaş. (2. 152)

...Ortağam, şərikəm dərdinə, qardaş,

Nə qədər ağırdır bu itki, bu qəm. (2, 165)

...Kölgəyə dönmüşdüm, səni görüncə

Sənin işığından yox oldu kölgəm. (2, 167)

...Bu yerdə yadıma düşdü Koroğlu

Gərək basdığını kəsməyə insan. (1, 69)

...Dözmədim onları belə görünsə

Kövrəldim, azıdım ona min kərə.

Dərhal tüfəngimi söykəyib küncə.

Getdim yarasını sarıyam onun.

Açdım yarasını, mənə bir təpik...

Yıxıldım. Əl atıb dərhal tüfəngə.

Tez şamı söndürdüm, çəkildi tətik,

Bir güllə, qıçımı sıyırdı güllə.

Süprüşmə başladı...üstələdim mən

Bu namərd oğluna yenə qıymadım. (2, 148)

...Tuşlamışam tüfəngimi

Kol dibində tərpənən

Düşmənə... gözləyirəm. (1, 76)

Yuxarıdakı nümunələrdə B.Vahabzadənin işlətdiyi ellipsis cümlələrə nəzər yetirsək açıq-aydın görərik ki, həmin cümlələrdə əsasən mübtəda buraxılmışdı. Biz həmin buraxılmış və asanlıqla bərpa olunur. Həmin mübtədaları mötərizədə yazacağıq.

(Biz) dünyamızı yasa, toya bölmüşük,

Sevdamızı oda. Suya bölmüşük,

Ömrümüzü oda, suya bölmüşük.

(Biz) atılıb düşürdük şadlığımızdan. (Sən) dünyanı sevirsənsə, bu dünya sənindir. (Biz) elə bilirik ki, bizim ömrümüz ömürdən o yana uzanacaqdır. (Mən) ortağam, şərikəm dərdinə, qardaş.

(Mən) dözmədim onları belə görüncə. (Mən) yıxıldım, ona görünsə, lampanı söndürdüm. (Mən) tuşlamışam tüfəngimi, kol dibində onu görüncə...

Diqqət yetirsək görərik ki, şair ellipsis cümlələrdən adi qaydada deyil, müxtəlif üslubi məqamlarda işlədib. Belə ki, ellipsis cümlələrdə buraxılmış mübtədanı asanlıqla bərpa edən kimi şeir, az qalır ki, nəsrə çevrilsin sadəcə olaraq ən çox inversiya hadisəsindən istifadə etməklə, yeni üslub yaradıb.

Məsələn6 (Biz) Elə bilirik ki, bizim ömrümüz ömürdən o yana uzanacaqdır. Ilk baxışdan bu cümlə nəsrlə yazılmış tabeli mürəkkəb cümlədir. Bax, B.Vahabzadənin şeir dili az qala nəsr üslubudu. Yaxud aşağıdakı bəndlərə nəzər salaq:

...Səngərlər – zamanın ayaq izləri,

Səngərlər - ən böyükimtahan yeri.

Səngərlər – torpağın min sinə dağı,

Səngərlər – zamanın tələtümləri,

Səngərlər – nifrətinaçıq dodağı,

Səngərlər – dünyanın öz təzadları,

Səngərlər – məsləkin yer qanadları,

Səngərlər – atəşdə danışıb dinən.

Böyük bir ölkəninən aydın dili

Öz haqqı naminə tələtümlənən.

Qəzəb dənizinin axır sahili... (1, 93)

Bu on bir misrada bir dənə də olsa təsriflənən feil, yəni cümləni tamamlaya biləcək feli xəbər, yaxud heç ismi xəbər də yoxdu. Yəni xəbər yaradan, söz və ya söz birləşmələrini bitmiş fikrə çevirən şəxs şəkilçisi yoxdur... Amma tam bitmiş fikir var. Bax, şairin yaratdığı ellipsis xarakterli cemlələrin üslubi imkanları budur. Yəni, səngərlər – zamanın ayaq izləri(dir) cümləsi –dir[4] xəbərlik şəkilçisi işlədilmədən fikir tamamlanıb.

İndi isə şairin şeirlərindəki ellipsis söz birləşmələrinin üslubi imkanlarına nəzər salaq:

...Əqlinmi, hissinmi, qanınmı artıq

Torpağın çatmırmı?

Bəhanədir bu! (1, 99)

...Bax, yerdən qoparıb əllərimizi

Səmavi dünyaya apardı bizi. (1, 102)

...Gəlib evimizdə bizi soydular,

Ancaq adımızı vəhşi qoydular.

...Dağ olub, üstümə qat-qat qalınca,

Daş olub dağlardan uzaq olaydım.

Ay olub nurumu gündən alınca

Bir evi nurladan çıraq olaydım. (1, 161)

...Sözümdən od alıb alışmışam

Məqsədim bir olub.

...Bu təzə nəsil:

Dünənə güvənsin, bu günü sevsin. (1, 192)

...Ürəyi səslənir hər kəlməsində

Üzü də tüklüdür...

Baxıram ona.

...Gecəni yatmayıb, şişib gözləri.

Ədəbi görkəmi, yanıq sözləri. (1, 195)

..Mən bir tarzən olub çala bilsəydim,

Arzumu, sözümü telə verərdim.

...Sevgilim, seyr edək, gəl bu çəməni,

Gəl, bayram eyləsin hər vüsal dəmi.

Sənlə olduğum bir dəqiqəmi

Sənsiz keçirdiyim ilə verərdim. (2, 134)

...Bəxtim mənə yar ol deyib çağlaram

Yar olmasa, de bəxtiyar ol görüm.

Gələcəyə ümidimi bağlaram,

Bir an sonra nə olacaq, bil görüm?

(2, 150)

Şairin şeirlərindən seçilmiş bəzi nümunələrdə işlənmiş ellipsis tipli söz birləşmələrinin hansı məqamda necə istifadə olunduğunu hansı üslubi imkanların, ifadə çalarların heç izahı, şərhi verilməsə də, həmin birləşmələrin I tərəflərinin çıxış etməməsi hiss olunmur. Qeyd edək ki, həmin birləşmələrin işlənməmiş I tərəfini mötərizədə verəcəyik.

Sənin əqlinmi, hissinmi, qanınmı, torpağın çatmırmı – kimi də yazardı, amma inversiyadan məharətlə istifadə edərək ellipsis cümləni bu cür verib: əqlinmi, hissinmi, qanınmı artıq(dır).

Torpağın çatmırmı?

Bəhanədir bu!

-şəklində işlədib.

Bax, gedən qoparıb (bizim) əllərimizi,

Səmavi dünyaya apardı bizi.

Bütün bunları geniş şərh etməyi lazım bilmədik. Ona görə də yuxarıda verilmiş nümun ələrdə verilmiş söz birləşmələrini, yəni ellipsis tipli söz birləşmələrini verdik:

(Bizim) adımızı, (bizim) evimizdə, (mənim) üstümə, (mənim öz) nurumu, (mənim) sözümdən, (mənim) məqsədim, (mənim) arzum, sözüm, dəqiqəmi, (mənim) sənsiz keçirdiyim il, (mənim) bəxtim, (mənim) ümidim və s.

Göründüyü kimi, həmin birləşmələrin heç I tərəfini işlətməyə şair heç ehtiyac duymayıb, bəlkə də I tərəfləri işlətsəydi, bu gözəl üsluba çalarlarını yarada bilməzdi.

Nəticə etibarı ilə qeyd edə bilərik ki, B.Vahabzadə bənzərsiz şair olmaqla bərabər, o, dilimizin bütün fonerik, leksik, qrammatik, üslubi imkanlarına yaxından bələddi. Bu da bəlkə, onun baza ixtisasından irəli gəlir. Ancaq bizə elə gəlir ki, bu da əsasdı və o da əsasdı ki, o həqiqətən dilsevərdi, vətən, torpaq sevərdi. Bu da imkan verir ki, o öz ustadlığını, dilsevərliyini, dil qoruculkuğunu hər bənd şeirində hiss etdirsin.

Ədəbiyyat

1.A.Qurbanov. Müasir Azərbaycan ədədbi dili. III hissə, Bakı, 1978
2.Azərbaycan dilinin qrammatikası. III hissə, EA nəşri, Bakı, 1964
3.B.Vahabzadə. Seçilmiş əsərləri, II cild, Bakı, 2005
4.B.Vahabzadə. Axı dünya fırlanır, Bakı, 1987
5.Y.Seyidov və başqaları. Müasir Azərbaycan dili. III hissə, Bakı, 1987
6.Q.Kazımov. Müasir Azərbaycan dili (Sintaksis), Bakı, 2012

NEW APPROACHES TO TEACHING LIFE SKILLS IN PRIMARY CLASSES

İBTİDAİ SİNİFLƏRDƏ HƏYAT BİLGİSİNİN TƏDRİSİNƏ YENİ YANAŞMALAR

Təranə Əkbəri Mayıl qızı
ADPU-nun Şamaxı filialı
Biologiya üzrə fəlsəfə doktoru, baş müəllim

Xülasə
Müasir təhsil sistemində ibtidai siniflərdə tədris olunan fənlər içərisində Həyat bilgisi xüsusi əhəmiyyət kəsb edir. Bu fənn şagirdlərdə ilkin vətəndaşlıq dəyərlərinin, sosial davranış normalarının və ətraf mühitə münasibətin formalaşmasına yönəlmişdir. Təhsil sistemində aparılan islahatlar nəticəsində Həyat bilgisi fənninin məzmunu və tədris metodikası da yenilənmiş, yeni pedaqoji yanaşmalar tətbiq olunmağa başlamışdır. Bu məqalədə Həyat bilgisi fənninin müasir tədris metodikası, yeni texnologiyalar, şagirdyönümlü təlim modelləri və qiymətləndirmə mexanizmləri pedaqoji-metodik aspektdən təhlil edilir.
Həyat bilgisi fənni şagirdlərdə ətraf mühit, təhlükəsizlik, gigiyena, sağlam həyat tərzi, ailə və cəmiyyət ilə bağlı ilkin bilik və bacarıqların formalaşdırılmasını nəzərdə tutur. Məqsəd şagirdlərin tədqiqat aparmaq, müşahidə etmək, sadə nəticələr çıxarmaq, ictimai davranış qaydalarına əməl etmək və sosial bacarıqlar əldə etmələridir . Fənn həmçinin uşaqların özünüifadə, əməkdaşlıq və empatiya bacarıqlarını inkişaf etdirməyə xidmət edir.
Azərbaycan Respublikasında həyata keçirilən kurikulum islahatları nəticəsində ibtidai təhsilin məzmunu və təlim metodikası əsaslı şəkildə dəyişmişdir. Yeni kurikulum modeli şagirdyönümlü, kompetensiya əsaslı və fəal təlim prinsiplərinə əsaslanır. Həyat bilgisi fənnində bu yanaşmalar biliklərin əzbərlənməsi deyil, şagirdin fəaliyyətində tətbiqinə yönəldilmişdir. Müasir pedaqoji yanaşmalar uşaqların tənqidi təfəkkürünü, yaradıcı düşüncəsini və öyrənməyə marağını inkişaf etdirməyə xidmət edir.
Həyat bilgisi fənninin müasir tədrisi yalnız faktların ötürülməsi ilə məhdudlaşmamalı, şagirdlərin həyatla bağlı praktik vərdişlər əldə etməsinə yönəlməlidir. İnteraktiv təlim metodları, texnologiyaların tətbiqi, layihə, problem və oyun əsaslı öyrənmə modelləri dərslərin effektivliyini artırır. Müəllimlər şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almalı, təlim prosesində diferensial və yaradıcı yanaşmalar tətbiq etməlidirlər. Həmçinin qiymətləndirmə və refleksiya üsullarının sistemli şəkildə istifadəsi təhsilin keyfiyyətinə müsbət təsir göstərir.

Abstract
Life Science is of particular importance among the subjects taught in primary grades in the modern education system. This subject is aimed at the formation of primary civic values, social behavior norms and attitudes towards the environment in students. As a result of the reforms carried out in the education system, the content and teaching methodology of the Life Science subject have also been updated, and new pedagogical approaches have begun to be applied. This article analyzes the modern teaching methodology, new technologies, student-oriented learning models and assessment mechanisms of the Life Science subject from a pedagogical and methodological aspect.
The Life Science subject involves the formation of primary knowledge and skills in students regarding the environment, safety, hygiene, healthy lifestyle, family and society. The goal is for students to conduct research, observe, draw simple conclusions, follow social behavior rules and acquire social skills. The subject also serves to develop children's self-expression, cooperation and empathy skills.
As a result of the curriculum reforms carried out in the Republic of Azerbaijan, the content and teaching methodology of primary education have changed fundamentally. The new curriculum model

is based on the principles of student-centered, competency-based and active learning. In life sciences, these approaches are not focused on memorizing knowledge, but on the student's application in his/her activities. Modern pedagogical approaches serve to develop children's critical thinking, creative thinking and interest in learning. Modern teaching of life sciences should not be limited to the transmission of facts, but should be aimed at students acquiring practical life skills. Interactive teaching methods, the application of technologies, project and game-based learning models increase the effectiveness of lessons. Teachers should take into account the individual characteristics of students, apply differential and creative approaches in the learning process. Also, the systematic use of assessment and reflection methods has a positive effect on the quality of education.

Müasir təhsil sistemində ibtidai siniflərdə tədris olunan fənlər içərisində Həyat bilgisi xüsusi əhəmiyyət kəsb edir. Bu fənn şagirdlərdə ilkin vətəndaşlıq dəyərlərinin, sosial davranış normalarının və ətraf mühitə münasibətin formalaşmasına yönəlmişdir. Təhsil sistemində aparılan islahatlar nəticəsində Həyat bilgisi fənninin məzmunu və tədris metodikası da yenilənmiş, yeni pedaqoji yanaşmalar tətbiq olunmağa başlamışdır. Məqalədə Həyat bilgisi fənninin müasir tədris metodikası, yeni texnologiyalar, şagirdyönümlü təlim modelləri və qiymətləndirmə mexanizmləri pedaqoji-metodik aspektdən təhlil edilir.

Həyat bilgisi fənni şagirdlərdə ətraf mühit, təhlükəsizlik, gigiyena, sağlam həyat tərzi, ailə və cəmiyyət ilə bağlı ilkin bilik və bacarıqların formalaşdırılmasını nəzərdə tutur. Məqsəd şagirdlərin tədqiqat aparmaq, müşahidə etmək, sadə nəticələr çıxarmaq, ictimai davranış qaydalarına əməl etmək və sosial bacarıqlar əldə etmələridir . Fənn həmçinin uşaqların özünüifadə, əməkdaşlıq və empatiya bacarıqlarını inkişaf etdirməyə xidmət edir(Azərbaycan Respublikasinin ümumi təhsil müəssisələri üçün “Həyat Bilgisi” fənni üzrə Təhsil Proqramı, Bakı –2023).

Azərbaycan Respublikasında həyata keçirilən kurikulum islahatları nəticəsində ibtidai təhsilin məzmunu və təlim metodikası əsaslı şəkildə dəyişmişdir. Yeni kurikulum modeli şagirdyönümlü, kompetensiya əsaslı və fəal təlim prinsiplərinə əsaslanır. Həyat bilgisi fənnində bu yanaşmalar biliklərin əzbərlənməsi deyil, şagirdin fəaliyyətində tətbiqinə yönəldilmişdir. Müasir pedaqoji yanaşmalar uşaqların tənqidi təfəkkürünü, yaradıcı düşüncəsini və öyrənməyə marağını inkişaf etdirməyə xidmət edir.

İbtidai sinif şagirdləri yaş və inkişaf xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Buna görə də Həyat bilgisi fənninin tədrisində fərdi yanaşma və differensial təlim xüsusi əhəmiyyət daşıyır. Müəllimlər şagirdlərin maraq və ehtiyaclarını nəzərə alaraq müxtəlif səviyyəli tapşırıqlar təqdim edir, təlim prosesində alternativ üsullardan istifadə etməklə hər bir şagirdin aktiv iştirakını təmin edirlər . Bu, şagirdlərin öz potensiallarını kəşf etməsinə və özlərinə inamlarının artmasına şərait yaradır.

Şagirdyönümlülük prinsipinə əsaslanan təlim modeli, şagirdin dərs prosesində aktiv iştirakını təmin edir. Bu yanaşmada müəllim yönləndirici funksiyanı yerinə yetirir, əsas diqqət isə şagirdin bilikləri öz müşahidələri, təcrübəsi və düşüncə fəaliyyəti ilə qazanmasına yönəlir.Şagirdyönümlü yanaşmada, şagirdlər passiv dinləyici deyillər, onlar təlim prosesində fəaldırlar. Bu zaman “şagird fəaldır” dedikdə şagirdin dərsdə fiziki və ya emosional fəallığı ilə yanaşı, idraki fəallığı nəzərdə tutulur. Bu modeldə müəllimin əsas rolu materialın anlaşılması üçün şagirdi yönəltməkdən, ona yaxından kömək etməkdən, bir sözlə, şagirdə materialı hazır şəkildə verməkdən yox, öyrənməyin yollarını öyrətməkdən ibarətdir. Şagirdyönümlü təlim şagirdlərin təfəkkürünün, həyati və bir sıra sosial bacarıqlarının formalaşmasına, özlərini daha düzgün şəkildə ifadə etmələrinə də şərait yaradır. Şagirdin qarşısına informasiyanı araşdırma, təhliletmə, arqument gətirmə, konflikt həlletmə, vaxtın səmərəli idarə olunması, fikrini əsaslandırma kimi mühüm fəaliyyətlərin icrası çıxır ki, bunlar da öz növbəsində onlarda müəyyən bacarıq və vərdişlərin formalaşmasına xidmət edir. Şagirdlər əldə etdikləri bilikləri tətbiq edərək inkişaf etdirir və bu da bacarığa çevrilir. Bu yanaşmada əsas məqsəd idraki fəallıq və təffəkkürün inkişafına yönəlik olmasıdır (Yeşilpınar-Uyar, M., & Doğanay, A., 2018).

Həyat bilgisi dərslərində oyunlardan və layihələrdən istifadə şagirdlər üçün təlimi daha maraqlı və mənalı edir. Rol oyunları, interaktiv tapşırıqlar, yaradıcı təqdimatlar və qrup layihələri uşaqlarda əməkdaşlıq, liderlik və məsuliyyət hissinin inkişafına kömək edir. Layihə əsaslı öyrənmə şagirdləri tədqiqat aparmağa, araşdırma sualları hazırlamağa və nəticə çıxarmağa təşviq edir. Bu isə onların müstəqil düşünmə və problem həll etmə bacarıqlarını artırır.

Layihə əsaslı öyrənmə (Project-Based Learning – PBL) – şagirdlərin bilik və bacarıqları real və maraqlı bir layihənin planlaşdırılması, həyata keçirilməsi və nəticələrinin təqdim olunması yolu ilə əldə etdiyi təlim modelidir. Bu üsul şagirdlərə tənqidi düşünmək, əməkdaşlıq etmək, qərar qəbul etmək və yaradıcı olmaq imkanı verir. Tədqiqatlar göstərir ki, PBL yanaşması şagirdlərdə daha yüksək motivasiya və davamlı öyrənmə nəticələri ilə nəticələnir .

Həyat bilgisi dərslərində layihə əsaslı öyrənmənin tətbiqi üçün müəllim dərs planlaşdırılmasında bir sıra metodik yanaşmalardan istifadə etməlidir. Layihənin məqsədi, mövzusu, mərhələləri, resursları və nəticə məhsulu əvvəlcədən müəyyən olunmalıdır. Müəllim şagirdləri istiqamətləndirməli, lakin onların müstəqil fəaliyyətinə şərait yaratmalıdır. (Larmer, J., Mergendoller, J. R., & Boss, S. 2015).Layihə müddətində qrup işi, müşahidə, təcrübə, sorğu və təqdimat metodlarından istifadə etmək tövsiyə olunur.

Layihə əsaslı öyrənmədə konkret dərs mövzularına uyğun olaraq müxtəlif layihələr həyata keçirilə bilər. Məsələn, “Təmiz ətraf mühit”, “Ailəm və mən”, “Sağlam həyat tərzi” mövzularında layihələr ibtidai sinif şagirdləri üçün həm maraqlı, həm də maarifləndirici ola bilər.

Layihə əsaslı öyrənmə şagirdlərdə bir sıra bacarıqların inkişafına səbəb olur: tənqidi düşünmə, əməkdaşlıq, öz fikrini əsaslandırmaq, liderlik, problem həll etmə və ünsiyyət bacarıqları. Bu bacarıqlar həm təlim zamanı, həm də layihə məhsullarında müşahidə olunur. (Bell, S., 2010).

Həyat bilgisi fənninin tədrisində istifadə edilən aktiv təlim metodları şagirdin marağını artırmaqla yanaşı, onun dərslərə fəal qoşulmasını təmin edir. Məsələn, təcrübəyə əsaslanan öyrənmə, müşahidə və tədqiqat üsulları, qrup və cüt işləri, müzakirələr, rollu oyunlar və təbiət müşahidələri bu fənn üçün səmərəli hesab olunur. Bu metodlar vasitəsilə şagirdlər öz fikirlərini sərbəst ifadə etməyi, arqumentləşdirməyi və əməkdaşlıq etməyi öyrənirlər .

Layihə əsaslı öyrənmənin tətbiqi zamanı müəllimlər bir sıra çətinliklərlə qarşılaşa bilərlər: vaxtın məhdudluğu, resurs çatışmazlığı, bəzi şagirdlərin passivliyi və valideyn dəstəyinin zəifliyi. Bu problemləri həll etmək üçün müəllimlər əvvəlcədən planlaşdırma aparmalı, resursları daha səmərəli paylaşmalı, valideynlərlə əməkdaşlığı gücləndirməlidirlər. Həmçinin məktəbdaxili təlimlər vasitəsilə müəllimlərin metodik hazırlığı artırılmalıdır.(Boss, S., & Krauss, J.,2018).

Problem əsaslı öyrənmə biliyin formalaşdırılması prosesində şagirdin aktiv, əvvəlki biliklərini nəzərə alaraq, real həyat problemlərini həll etmək üçün həm qrup, həm də fərdi araşdırmaların aparıldığı, effektiv ünsiyyət bacarıqlarının istifadə edildiyi ömür boyu öyrənməni dəstəkləyən bir tədris metodudur. (McConnell, T., Parker, J., & Eberhardt, J.,2017). Problem əsaslı öyrənmədə tələbələr öyrənməklə əldə etdikləri yeni bilikləri qarşılaşdıqları problemlərə tətbiq edirlər. (Taşkesenligil, Y., Şenocak, E. ve Sözbilir, M.,2008). Problemin həlli prosesində nə öyrəndiklərini əks etdirirlər. Bundan əlavə, problem əsaslı öyrənmə zamanı təhlil, sintez və qiymətləndirmə və s.səviyyəli koqnitiv bacarıqlar inkişaf etdirilir (Hmelo-Silver, C. E., 2004).

Qeyd edək ki, fəallığı artıran yanaşmaların üstünlükləri və müəyyən çətinlikləri mövcuddur. Şagirdyönümlü yanaşmaların üstünlükləri sırasında aşağıdakılar qeyd edilə bilər: şagirdin öyrənməyə motivasiyası artır, onun müstəqil düşünmə və qərarvermə bacarığı formalaşır, sosial və kommunikativ bacarıqları inkişaf edir. Lakin bəzi hallarda bu yanaşmaların tətbiqi çətinliklərlə müşayiət oluna bilər. Məsələn, böyük siniflərdə bütün şagirdlərin eyni dərəcədə fəal iştirakı təmin olunmaya bilər və ya müəllimlər bu metodları tətbiq etmək üçün əlavə təlimə ehtiyac duya bilərlər.

Oyun əsaslı öyrənmə şagirdlərin fəal iştirakını təşviq edir, motivasiyasını artırır və həyati bacarıqları təcrübə yolu ilə mənimsəməyə şərait yaradır. Müasir pedaqoji yanaşmalar və elmi araşdırmalar

göstərir ki, oyunlarla zənginləşdirilmiş dərslər uşaqlarda tənqidi düşünmə, əməkdaşlıq və problemin həlli bacarıqlarını inkişaf etdirir.

Oyun əsaslı öyrənmə (Game-Based Learning - GBL) konstruktivist pedaqogikanın prinsiplərinə əsaslanır. Jean Piaget və Lev Vygotsky kimi nəzəriyyəçilər oyunların uşaqların sosial və kognitiv inkişafındakı rolunu vurğulamışdır. Piaget uşaqların oyun vasitəsilə ətraf aləmi dərk etdiyini, Vygotsky isə sosial qarşılıqlı əlaqələrin və təlimin inkişafda həlledici rol oynadığını qeyd etmişdir (Berk, 2018).

Həyat bilgisi dərslərində məqsəd yalnız bilik ötürmək deyil, həm də şagirdlərdə ətraf mühitə qarşı müsbət münasibət, əməkdaşlıq və vətəndaşlıq bacarıqları formalaşdırmaqdır. Bu fənnin xarakteri oyun əsaslı yanaşmalara geniş imkan yaradır. Məsələn, rollu oyunlar, simulyasiyalar, tapşırıq əsaslı stolüstü və rəqəmsal oyunlar uşaqlara müxtəlif sosial vəziyyətləri təqlid etməyə və öyrənilən bilikləri tətbiq etməyə şərait yaradır (Gee, 2007).

Tədqiqatlar göstərir ki, oyun əsaslı tədris metodlarından istifadə edən müəllimlər daha yüksək dərsə cəlbetmə və öyrənmə nəticələri müşahidə edirlər. Özəlliklə riyaziyyat, təbiət və sosial biliklər sahələrində aparılmış eksperimental tədqiqatlar GBL-in yadda saxlama qabiliyyətini və konseptual anlama səviyyəsini əhəmiyyətli dərəcədə artırdığını sübut edir (Plass et al., 2015).

Oyun əsaslı öyrənmənin tətbiqi üçün müəllimlər fərqli oyun strategiyalarından istifadə edə bilər:

- Rollu oyunlar – şagirdlər sosial rolları oynayaraq ictimai həyat haqqında biliklər qazanırlar.
- Problemin həlli oyunları – ekoloji problemlər və ya ailə strukturu ilə bağlı simulyasiya edilmiş tapşırıqlar şagirdlərin tənqidi və yaradıcı düşünməsini inkişaf etdirir.
- Hərəkətli oyunlar – təbiətlə bağlı dərslərdə ətraf mühitə dair müşahidə və fəaliyyətlər şagirdlərin motor bacarıqları və təbiətə qarşı marağını artırır.

Oyunların effektiv olması üçün müəllimlər pedaqoji məqsədlərə uyğun oyun seçməyi bacarmalı, hər oyunun məqsədini və gözlənilən öyrənmə nəticələrini öncədən müəyyən etməlidirlər (Barab et al., 2009). Həmçinin, oyun zamanı müşahidə və refleksiya üçün vaxt ayrılmalıdır.

Həyat bilgisi dərslərində informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqi dərsləri vizual və dinamik etməklə şagirdlərin diqqətini cəlb edir. İnteraktiv lövhələr, təqdimatlar, təhsil videoları və animasiyalar mövzuların izahını sadələşdirir və yadda qalmasını artırır. Əlavə olaraq, elektron testlər və oyun platformaları şagirdlərin qiymətləndirilməsində də tətbiq olunur.

Nəticə və təkliflər

Həyat bilgisi fənninin müasir tədrisi yalnız faktların ötürülməsi ilə məhdudlaşmamalı, şagirdlərin həyatla bağlı praktik vərdişlər əldə etməsinə yönəlməlidir. İnteraktiv təlim metodları, texnologiyaların tətbiqi, layihə, problem və oyun əsaslı öyrənmə modelləri dərslərin effektivliyini artırır. Müəllimlər şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almalı, təlim prosesində diferensial və yaradıcı yanaşmalar tətbiq etməlidirlər. Həmçinin qiymətləndirmə və refleksiya üsullarının sistemli şəkildə istifadəsi təhsilin keyfiyyətinə müsbət təsir göstərir.

İbtidai siniflərdə Həyat bilgisi dərslərində şagirdyönümlü yanaşmaların tətbiqi, təlimin effektivliyini və şagirdlərin fəallığını artırmaq baxımından mühüm rol oynayır: şagirdin öyrənməyə motivasiyası artır, onun müstəqil düşünmə və qərarvermə bacarığı formalaşır, sosial və kommunikativ bacarıqları inkişaf edir. Oyun əsaslı öyrənmə, uşaqların sosial, emosional və kognitiv inkişafını dəstəkləyən effektiv yanaşmadır. Müasir təhsil mühitində şagirdlərin aktiv iştirakını təmin etmək və öyrənməni mənalı hala gətirmək üçün oyun əsaslı metodlara geniş yer verilməlidir. Bu baxımdan təklif olunur ki, müəllimlər müasir pedaqoji texnologiyalarla mütəmadi tanış olsunlar, interaktiv metodlardan istifadə etsinlər və şagirdlərin fəallığını stimullaşdıran mühit yaratsınlar. Eyni zamanda, dərsliklər və tədris resursları da bu istiqamətdə təkmilləşdirilməlidir .

Ədəbiyyat

1. Azərbaycan Respublikasinin ümumi təhsil müəssisələri üçün "Həyat Bilgisi" fənni üzrə Təhsil Proqrami (Kurikulum) (I-IV Siniflər)(2023). Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Azərbaycan Respublikasının Təhsil İnstitutu Bakı .s 40.
2. Yeşilpınar-Uyar, M., & Doğanay, A. (2018). Öğrenci merkezli strateji, yöntem ve tekniklerin akademik başarıya etkisi: Bir meta-analiz çalışması.Mersin Üniversitesi Eğitim Fakültesi Dergisi, №14(1), -s.186-209.
3. Miller J. J. Student-Centered Classroom, The: Transforming Your Teaching and Grading Practices (A guide for student-centered learning through interactive teaching practices and individualized assessment)- Softcover, - USA, Publisher: Solution Tree Press, 2021. -s.20
4. Taşkesenligil, Y., Şenocak, E. ve Sözbilir, M. (2008) .Probleme dayalı öğrenme teorik temelleri. Milli Eğitim Dergisi, - №177, -s. 50-64.
5. Hmelo-Silver, C. E. (2004). Problem-based learning: What and how do students learn? Educational Psychology Review, 16(3), 235–266.Berk, L. E. (2018). Development Through the Lifespan (7th ed.). Pearson. Gee, J. P. (2007). What Video Games Have to Teach Us About Learning and Literacy (2nd ed.). Palgrave Macmillan.
6. Plass, J. L., Homer, B. D., & Kinzer, C. K. (2015). Foundations of game-based learning. Educational Psychologist, 50(4), 258–283. https://doi.org/10.1080/00461520.2015.1122533
7. Thomas, J.W(2000). A review of research on project-based learning (Vol. 1, pp. 1–47). San Rafael, CA: Autodesk
8. Larmer, J., Mergendoller, J. R., & Boss, S. (2015). Setting the standard for project-based learning: A proven approach to rigorous classroom instruction. Alexandria, VA: ASCD. ISBN: 9781416620334
9. Bell, S. (2010). Project-based learning for the 21st century: Skills for the future. The Clearing House: A Journal of Educational Strategies, Issues and Ideas, 83(2), 39–43.
10. Boss, S., & Krauss, J. (2018). Reinventing project-based learning: Your field guide to real-world projects in the digital age (3rd ed.). International Society for Technology in Education. ISBN: 9781564846760

INTERACTIVE LEARNING METHODS

İNTERAKTİV TƏLİM METODLARI

Əliyeva Mehparə Məmməd qızı
ADPU-nun Şamaxı filialının Dil-ədəbiyyat və onların tədrisi texnologiyası kafedrasının müəllimi

Xülasə
Müasir dünyamızın tələbləri təhsildə yeni pedaqoji təfəkkür formalaşmışdır. Tətəkkürün dəyişməsilə yeni pedaqoji texnologiyanın tətbiqi də reallaşmışdır.
Təlim metodları bilik, bacarıq və vərdişlərin aşılanmasına yönəldilən yeni forma və texnologiyaların tətbiqindən ibarətdir. Fəal təlim keyfiyyətli bilik və bacarığa xidmət etməklə yanaşı, şagirdlərdə fikir, təfəkkür va qabiliyyətlərin inkişaf etdirilməsi məqsədi daşımalıdır. Şagirdlərin idrakk proseslərinin inkişafı ilə müxtəlif terminlərin fəal təlim, kütləvi qrupdaxili oyunlar, qruplarda fəaliyyət, layihələrin hazırlanması, problemlarin qruplarda fərdi və kütləvi həlli, intellekt ovunları və s-nın mümkünlüyü ilə həyata keçirilməlidir.
İnkişaf etmiş ölkələrdə yaranmış yeni pedaqoji texnologiyalarla əlaqədar təlim metodları keçən əsrin 70-ci illərində məktəblərimizdə "Proqramlaşdırılmış təlim adı ilə tətbiq olunmağa başlamışdır.
Bakının 46 saylı məktəbının ali kateqoriyalı müəlliməsi Solmaz Zamanlı qeyd edir: “İnsan və şəxsiyyət azadlığı, müstəqilliyi, meyl və marağına, qabiliyyətinə görə inkişafı məhz demokratikləşdirmə və humanistləşdirmə prinsipi əsasında həyata keçirilməlidir. Təhsildə yaradıcı düşünən, müstəqil mühakimə yürüdə bilən, demokratikm dünyagörüşünə malik şəxsiyyət formalaşmaqda geniş imkanları olan yeni təlim metodlarından blok testlər, əqli hücum, qrup məşğələlər, söz assosiasiyası və başqa metod və üsullardan istifadə edilsə, müsbət nəticələr əldə etmiş olarıq. Butün bu metodlar interaktiv təlim metodları adlanır.
İnteraktiv terminin mənası qarşılıqlı əlaqədə fəaliyyət göstərmək deməkdir. Başqa sözlə desək, bu metoddan istifadə zamanı dərsdə müəllim şagirdlə, şagird şagirdlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.
İnteraktiv təlimin məqsədi şagirdləri əqli və fiziki cəhətdən daha da inkişaf etdirərək onları təfəkkürlü şəxs kimi formalaşdırmaqdır.
İnteraktiv dərsin təşkili sinifdəki bütün şagirdlərin müstəqil düşünmələrinə, maksimum şərait yaradılmasını nəzərdə tutur. Belə dərslər tədris materialının şüurlu mənimsənilməsinə, şagirdlərdə psixoloji inkişafa. (diqqətin, ifadənin, təsəvvürün, nitqin və s. inkişafına) habelə faydalı mənəvi keyfiyyətlərin formalaşmasına imkan verir.
Göründüyü kimi, şagirdlərin tam müstəqilliyi və fəallığı şəraitində tədris mövzusunun şüurlu və möhkəm mənimsənilməsinə, onların psixoloji inkişafına, habelə şəxsiyyətcə formalaşmasına maksimum yardım edən dərs interaktiv dərs kimi başa düşülür.
Açar söz: Təlim, təfəkkür, metod,layihə,tədris.

Abstract
The demands of our modern world have formed a new pedagogical thinking in education. With the change in thinking, the application of new pedagogical technology has also been realized.
Training methods consist of the application of new forms and technologies aimed at instilling knowledge, skills and habits. Active learning should aim to develop students' ideas, thinking and abilities in addition to serving quality knowledge and skills. With the development of students' cognitive processes, active learning of various terms, mass intra-group games, activities in groups, preparation of projects, individual and mass solving of problems in groups, intellectual games, etc. should be implemented with the possibility of.

The teaching methods related to new pedagogical technologies that emerged in developed countries began to be applied in our schools in the 70s of the last century under the name of "Programmed learning". Solmaz Zamanli, a teacher with a higher category at Baku school No. 46, notes: "The development of a person and personality according to their freedom, independence, inclinations, interests, and abilities should be carried out precisely on the basis of the principle of democratization and humanization. If new teaching methods that have wide opportunities in the formation of a creative thinker, an independent judge, a democratic and democratic worldview in education are used, such as block tests, mental attacks, group exercises, word associations and other methods and techniques, we will achieve positive results. All these methods are called interactive teaching methods.

The meaning of the term interactive means to act in interaction. In other words, when using this method, the teacher acts in interaction with the student in the lesson, and the student acts in interaction with the student.

The purpose of interactive teaching is to further develop students mentally and physically and to form them as thinking individuals.

The organization of an interactive lesson involves creating maximum conditions for independent thinking of all students in the class. Such lessons allow for the conscious assimilation of educational material, psychological development of students. (development of attention, expression, imagination, speech, etc.), as well as the formation of useful moral qualities.

As can be seen, a lesson that maximally contributes to the conscious and firm assimilation of the educational subject, their psychological development, as well as the formation of personality, in conditions of complete independence and activity of students is understood as an interactive lesson.

Keywords: Training, thinking, method, project, teaching.

Giriş:

Müəlliflər Qasımova L. N. və Mahmudova R.M. qeyd edirlər ki, yeni "interaktiv təlim metodları məfhumundan indi tez-tez istifadə olunur. Tədris prosesində onların rolu pedaqoqlar tərəfindən müxtəlif cür müəyyənləşdirilir, bəziləri onlara təlim prosesinin bütün problemlarının həlli kimi, bəziləri ənənəvi təhsildə istifadə olunan tədris metodları sisteminə əhəmiyyətli əlavə kimi, bəziləri isə təlim fəaliyyətının təşkilinə keyfiyyətcə tamamilə başqa yanaşma kimi baxırlar.

Əslində interaktiv məfhumu "qarşılıqlı fəaliyyətə əsaslanan deməkdir. Interaktiv dedikdə sadəcə obyektlərin qarşılıqlı təsır prosesi deyil, şagirdlərin tədqiqat xarakterı daşıyan xüsusı təşkil olunmuş idrak fəaliyyəti başa düşülməlidir. Interaktiv metodlara tədrisin elə metodları aid edilir ki, onlar şagirdlərin tədris materialı (mənbələr, xəritələr. illustrasiyalar, tədqiqatçıların ziddiyyətli fikirləri) ilə, eləcə də ətraf aləmin reallıqları və təzahūrləri ilə (rollu oyunların, müxtəlif huquqi və munaqişəli vəziyyətlərin müzakirəsinin, layihələrin tərtıbının, muşahidə aparılmasının və s.-nin köməyi ilə) sərbəst iş prosesini təmsil edirlər nəticədə onlar əsasən şagirdlərdə yeni biliklər yaradır. Beləliklə, interaktiv təlimin metodları müəllimin iştirakı ilə şagirdlərin müxtəlif informasiya mənbələri əsasında (kitab, xəritə, illüstrasiya və s.) və ya bir-biri ilə ünsiyyəti prosesində (qarşılıqlı fəaliyyət prosesində) yeni biliklər əlda etməyə imkan verən təlim üsullarının və dərs formalarının məcmusudur.

Bu qayda ilə qazanılmış biliklər şagirdlərin yaddaşında uzun müddəq qalır və onlar tərəfindən hər hansı bir təcrübə kimi istifadə olunur.

Hələ qədim Çində bu məqama diqqət yetirilmiş və məşhur filosof Konfutsu tərəfindən belə ifadə olunmuşdur: "Qulaq asıram unuduram, görürəm yadda saxlayıram, özüm edirəm -anlayıram (dərk edirəm).

Təlimin metodlarının digər təsnifatları da mövcuddur. Bu da həmin məsələnin mürəkkəbliyi və ciddiliyi ilə əlaqədardır. Yeni tələblərə uyğun olaraq pedaqoq alimlər və müəllimlər təhsil işini yaxşılaşdırmaq namina yeni-yeni üsullar axtarışındadırlar. Bütün bu axtarışlar şagirdləri biliklərə yiyələnməyə həvəsləndirmək, onların yeni zəngin biliklər qazanmasına və bu bilikləri praktikaya tətbiq etmək məqsədi daşıyırlar.

Qənirə Sultanovanın fikrincə: "Fəal interaktiv təlim-dialoqlu və aktiv təlimdir. Bu prosesdə müəllim biliklərin necə əldə edilməsini göstərən, istiqamət verəndir, şagird isə onları araşdıran, sistemləşdirən bir tədqiqatçıdır.

İnteraktiv təlim metodları üsullarının tətbiqi

Məktəblərimizdə müasir xarici dil dartsliklərində və onun digər komponentlarında müasir talim texnologiyası zəminində rəngarəng iş formalarına rast gəlmək mümkündür. Şagirdə yönəlmiş təlim baxımından şagird təlimin əsas subyektidir. Şagirdsiz müəllim yoxdur. Dərs prosesinin ən fəal üzvü də şagırd hesab edilməlidir. Ənənəvi təlimin obyekt funksiyasının daşıyıcısı və passiv dinləyici olan şagird müasir təlimin üsulları vasitəsilə icraçıya və fəal təşəbbüskarlara çevrilməlidir.

Şagirdlərin qrup. komanda və kütlələrdə fəaliyyətini təmin etmək üçün sinif şəraiti də dəyişdirilməlidir. Müəllim dərsə hazırlaşarkən sinfin tərtibatı haqqında da düşünməlidir. Cüt, qrup və komandalarda fəaliyyət göstərmək üçün müxtəlif tərtibat modelləri mövcuddur. Müəllim qrup və layihə işlərinin icrası zamanı şagirdlərin fəaliyyətinə nəzarət edir və hər bir şagirdin məşğul olmasına şərait yaradır. O,qrup daxilində konkret va ümumi vəzifələri müəyyənləşdirir. Klassik dərs modelindən fərqlı olaraq şagirdə yönəlmiş təlim texnologiyasında belə tərtibat tədqiqat aparmaq və ünsiyyət yaratmaq üçün labüddür. Əgər klassik qaydada müəllim lövhənin önündə durusa və şagirdlərin baxışları ona dikilirsə, bu, ham fiziki baxımdan, həm də məzmun baxımından artıq şagirdə yönəlmiş təlim hesab edilə bilməz. Məzmun və fərmanın bir-birini tamamlaması üçün müvafiq iş şəraitinin yaradılması zəruri şərtdir. Qruplarda fəaliyyət göstərən şagirdlər həm öz fəaliyyətlərinə, həm də qrupdakı şagirdlərin fəaliyyətinə nəzarət etmək imkanı əldə etməlidirlər.

Bu fəaliyyət formaları zamanı müəllim dərsi ilk vaxtlar daqiq planlaşdıra bilməsə də, şagirdlər müəyyən vərdişlər əldə etdikdən, qruplarda işləmək təcrübəsi qazandıqdan sonra, onların fərdi xüsusiyyətləri nəzərə alına bilər, dəqiq vaxt bölgüsünə də nail olmaq olar.

Şagirdi mövzu cəlb edirsə, o səylə çalışır və biliklərini artırmağa can atır.

Xarici dil fənninin təlim konsepsiyası ilə işləyən müəllimlərin bildikləri metodlar ilə yanaşı yeni təlim metodlarının tətbiqi problemi xeyli aktuallaşdırır.

Interaktiv təlim metodlarının tətbiqi şagirdlərdə müstəqil düşünmək, sərbəst rəy söyləmək, hər hansı problem barədə başqasının fikrinə münasibət bildirmək, digər fərdi nöqteyi-nəzəri təsdiq etmək, yaxud öz qərarının üstündə durmaq və başqa xüsusiyyətlərin formalaşmasına bilavasitə kömək göstərməklə təfəkkürün tənqidiliyi və çevikliyinə zəmin yaradır.

İnteraktiv təlim metodları üsullarının tətbiqi tədris prosesini xeyli intensivləşdirir, onu hər bir şagird üçün daha əhəmiyyətli və maraqlı fəaliyyət sahəsinə çeviri, dərsdə, məşğələdə fəallığın maksimum artmasına zəmin yaradır, bununla nəzərə çarpacaq dərəcədə gücləndirir.

M.Z.Ağayeva qeyd etdiyi kimi "Ənənəvi üsullardan fərqlənən interaktiv təlim üsulları ilə tanış olmaq imkanı yaradılır. Həmin fərq özünü nədə göstərir? Dərslər biliklərə yiyələnməyə, həmçinin demokratik cəmiyyətin vətəndaşları üçün zəruri sosial va intellektual vərdiş va bacarıqların inkişafına kömək edən yeni demokratik üsullara aparır.

Məşğələnin təşkilinin əsas prinsipi müəllimin şagirdlərlə, şagirdlərin isə bir-birləri ilə əməkdaşlığı təşkil edir. Müasir təlim üsullarının əsasında məhz bu prinsip durur. Yeni üsullar dərsdə şagirdlərin fəal iştirakını, qarşılıqlı əlaqəsini nəzərdə tutur ki, bu da onların tam şəkildə dərketmə prosesinə cəlb dilməsinə səbəb olur. Uşaqlar müəllimin təcrübəsini passiv qəbul etmir, onunla birlikdə ətraf aləmin fəal tədqiqatçısına çevrilirlər. Müəllimin də rolu dəyişir O, öz şərtlərini diktə etmir, əksinə, məsləhət verən Yardımçı olan və istiqamət verən tərəf-müqabilinə, yaddaşa çevrilir.

Ona görə də interaktiv dərslərdə müəllimin "biz sizinlə", "mən sizinlə", "siz" kimi adət etdiyimiz ifadələrdən qaçması olduqca vacibdir. Şagirdlərə müraciət edərkən "biz" ifadəsindən faydalanmaq daha məqsədəuyğun olardı. Müəllim "biz" deyərkən şagirdlər onunla birlikdə olduqlarını hiss edir, özlərini yad saymırlar, şagirdlər və müəllim təlim prosesinin bərabərhüquqlu iştirakçısına çevrilmiş olurlar.

İlk baxışdan elə görünə bilər ki, müəllim sinifdə fəal rol oynamır əslində isə müəllim şagirdi ruhlandıran, ona özünü tanımaqda kömək edən "yaradıcıya çevrilir.
Demokratik üsullar müəllimin təkcə başqalarını öyrətməsinə deyil. Onun özünün də öyrənməsinə, daha yaradıcı və enerjili pedaqoq olmasına imkan verir. Qeyd etmək lazımdır ki, hal-hazırda məktəbdə interaktiv təlim üsulları lazımı səviyyədə istifadə edilmir. İngilis dilinə gəldikdə isə, qeyd edə bilərik ki, məktəbin iki-üç müəllimindən başqa bu məsələyə əsaslı diqqət verən yoxdur. Müəllim sinfə keçərkən dəqiq bilməlidir ki, o, bu dərsdə qarşısına hansı məqsədi qoymuşdur və bütün fəaliyyətinij həmin istiqamətə yönəltməlidir. Şagirdlər monoton tapşırıqlardan tez yorulurlar, buna görə tapşırıqları tez-tez dəyişmək, müxtəliflik yaratmaq lazımdır.
Ümumi mövzulardan kənara çıxmaq şərti ilə dərsləri iki-üç mərhələyə ayırmaq məqsədəuyğundur:
1.Dərsin təşkili mərhələsində şagirdlər fəallaşdırılır, mənimsəməyə müvafiq şərait yaradılır. Dərsın bu hissəsinə 10 dəqiqə vaxt sərf olunması məqsədəuyğundur.
2. Dərsin əsas hissəsində müəllim interaktiv təlim metodu tətbiq etməklə tədris materialını mənimsədir və onlara praktik vərdişlər aşılayır (25 dəqiqə).
3. Dərsin yekun hissəsində ümumiləşdurmə -oyun, yaxud psixotreyninq təşkil edilir. (10 dəqiqə).
Müəllim dərsin mərhələlərini elə planlaşdırmalıdır ki, məqsəddən kənara çıxmağa yol verilməsin.
Tədris zamanı şagirdlərin fəaliyyəti daim istiqamətləndirilməlidir ehtiyac varsa müəllimin müdaxiləsi ilə müzakirə lazımı axara salınmalıdır. Bu zaman şagirdlər bir-biri ilə ünsiyyət yaradır, əməkdaşlıq edir va o fikirlərini dəqiq izah etməyi bacarırlar. Bu proses sual-cavab nəticəsind alınır.
Dərs zamanı şagirdlərin sinifdə sərbəst gəzə bilmələri ilə müşayiət olunan az bir oyun, yaxud fəaliyyət növü nəzərdə tutulmalıdır. Nəzərə almaq lazımdır ki, bir sıra məşğələlərdə didaktik oyun xarakterikdır. Lakın burada oyun əyləncə məqsədi ilə deyil, təlim kimi tətbiq edilir və materialın şagirdlər tərəfindən daha yaxşı mənimsənilməsinə kömək edir. Bu biliklərin verilməsi ilə onların müvafiq vərdişlərının yaradılması, dəyərlər və qiymətləndirmə, natiqlik qabiliyyətinin formalaşdırılması nəzərdə tutulur.

Nəticə:
Interaktiv təlim metodu tədris prosesini intensivləşdirir və dərs məşğələləri şagird üçün maraqlı fəaliyyət sahəsinə şevrilir. Bu proses şagirdi fəallaşdırı və təlimin inkişafetdirici aspektini nəzərə çarpacaq dərəcədə gücləndirir. Hər bir müəllim problemi müxtəlif aspektlərdən yanaşa bilər və öz yaradıcılığına istinad edərək digər variantlar da seçə bilər.
Bütün müəllimlər təlimi həm interaktiv, həm də maraqlı etmək məqsədi ilə öz fəaliyyətlərini çoxlu sayda təlim üsulları və metodları üzərində qurmalıdırlar. Bu, diqqəti iştirakçılar üçün maraq kəsb edən problemlərə yönəltməyə və eləcə də qərar qəbul etmək bacarıqlarını inkişaf etdirməyə yardım göstərir.

Ədəbiyyat:
1. Ağayeva M. Tövsiyə olunmuş metodik təlim usulları. Məktəbdə vəndaş təhsili (metodik vəsait). Bakı, 2002
2 Əliyeva A. Interaktiv dərlərdə qiymətləndirmə
3. Əliyev H. Müstəqilliyimiz əbədidir. II kitab. Bakı, 199
4. Kazımov N.Məktəb pedaqogikası Bakı, 2002
5. Kazımov N. Haşımov Ə. Pedaqogika Bakı 1996
6. Məmmədova T. Yeni təlim texnologiyaları. Ümumtəhsil
məktəblərində seçmə fənn və ingilis dilının tədrisi üçün metodik vəsait Bakı, 2001
7. Qasımova L., Mahmudova R. Pedaqogika. Muhazirə kursu. Bakı. 2003
8. Sultanova Q Müasir təlim metodları yeni uğurlara yol açır "Azərbaycan dili və ədəbiyyatın tədrisi" jurnalı. Bakı, 2002

EVALUATION OF MODERN TEACHING TECHNOLOGIES IN THE CONTEXT OF SCIENTIFIC METHODOLOGY

ОЦЕНКА СОВРЕМЕННЫХ ОБРАЗОВАТЕЛЬНЫХ ТЕХНОЛОГИЙ В КОНТЕКСТЕ НАУЧНОЙ МЕТОДОЛОГИИ

ELMİN METODOLOGİYASI KONTEKİNDƏ MÜASİR TƏLİM TEXNOLOGİYALARININ QİYMƏTLƏDİRİLMƏSİ

Əmiraslanova Dilarə Əmiraslan qızı
Sumqayıt Dövlət Universiteti
Mühasibat və iqtisadiyyat kafedrasının dosenti
ORCID: 0000-0002-9790-3294

Xülasə
Elmin metodologiyası və təlim texnologiyaları bir-birini tamamlayan və qarşılıqlı təsir göstərən iki vacib sahədir.Bu məqalədə elmin metodologiyası kontekstində müasir təlim texnologiyalarının tətbiqinin elmi əsasları və onların pedaqoji prosesə təsiri təhlil olunur. Təlim texnologiyalarının effektivliyi, elmi-metodoloji yanaşmalarla qiymətləndirilərək, innovativ tədris üsullarının formalaşmasında rolu araşdırılır. Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının təhsildə tətbiqi, təlim prosesinin struktur və məzmunca zənginləşdirilməsinə səbəb olur. Məqalədə həmçinin tələbəyönümlü yanaşma, problem əsaslı təlim, modul və layihə əsaslı tədris texnologiyalarının üstünlükləri və çətinlikləri qiymətləndirilir. Araşdırmanın nəticələri göstərir ki, elmi metodologiyaya əsaslanan texnologiyalar müəllim və tələbə fəaliyyətini sistemli və məqsədyönlü şəkildə optimallaşdırır.
Açar sözlər: elmin metodologiyası, müasir təlim texnologiyaları, elektron təhsil, metod, interaktiv təlim üsulları

Abstract
Methodology of science and teaching technologies are two important areas that complement and interact with each other. This article analyzes the scientific foundations of the application of modern teaching technologies in the context of the methodology of science and their impact on the pedagogical process. The effectiveness of teaching technologies is evaluated with scientific-methodological approaches and their role in the formation of innovative teaching methods is investigated. In modern times, the application of information and communication technologies in education leads to the enrichment of the teaching process in terms of structure and content. The article also evaluates the advantages and difficulties of student-centered approach, problem-based learning, module and project-based teaching technologies. The results of the study show that technologies based on scientific methodology optimize the activities of teachers and students in a systematic and purposeful manner.
Keywords: methodology of science, modern learning technologies, e-learning, method, interactive learning methods

Резюме
Методология науки и образовательные технологии являются двумя важными направлениями, которые дополняют и взаимодействуют друг с другом. В данной статье анализируются научные основы применения современных образовательных технологий в контексте методологии науки и их влияние на педагогический процесс. Эффективность образовательных технологий оценивается с помощью научно-методических подходов и исследуется их роль в

формировании инновационных методов обучения. В современное время применение информационно-коммуникационных технологий в образовании приводит к обогащению процесса обучения с точки зрения структуры и содержания. В статье также оцениваются преимущества и трудности личностно-ориентированного подхода, проблемно-ориентированного обучения, модульных и проектно-ориентированных образовательных технологий. Результаты исследования показывают, что технологии, основанные на научной методологии, оптимизируют деятельность преподавателей и студентов системно и целенаправленно.
Ключевые слова: методология науки, современные технологии обучения, электронное обучение, метод, интерактивные методы обучения

GİRİŞ

Elmi metodologiya – elmi tədqiqatların planlaşdırılması, aparılması və nəticələrinin təhlili üçün istifadə olunan metod və prinsiplər toplusudur. Müasir dövrdə bu metodoloji çərçivə yalnız tədqiqat sahəsində deyil, eyni zamanda təhsil sistemində də tətbiq olunur. Təlim texnologiyaları isə biliklərin ötürülməsi, öyrənmə prosesinin təşkili və tədrisin keyfiyyətinin artırılması üçün nəzərdə tutulmuş metod və alətlər toplusudur. Elmi metodologiya hər hansı bir elmin təməl prinsiplərini, tədqiqat obyektlərini, tədqiqat metodlarını və elmi fəaliyyətin məntiqini əhatə edir. O, empirik və nəzəri biliklərin əldə olunması üçün sistematik yanaşmanı təklif edir.Metodologiyanın əsas komponentlərinə aşağıdakılar daxildir [1, s.36]:

-Elmi biliklərin strukturu və növləri;
-Tədqiqat metodlarının təsnifatı;
-Hipotezlərin qurulması və yoxlanılması;
-Təcrübi və nəzəri modellərin tətbiqi.

Bu prinsiplər müasir tədris prosesində də istifadə edilərək, öyrənmənin daha sistemli və əsaslı aparılmasına zəmin yaradır.

Təlim texnologiyalarının növləri və inkişafı

Təlim texnologiyaları zamanla dəyişmiş və inkişaf etmişdir. Ənənəvi təlim metodlarından başlayaraq, bu gün interaktiv, rəqəmsal və individual yanaşmalar geniş tətbiq olunur. Müasir təlim texnologiyalarına aşağıdakılar daxildir [2, s.86]:

- İKT əsaslı təlim (kompüterlər, interaktiv lövhələr, onlayn platformalar);
- Layihə əsaslı öyrənmə;
- Kooperativ və kollaborativ təlim metodları;
- Problem əsaslı öyrənmə;
- Differensiallaşdırılmış təlim.

Müasir dövrdə istifadə ounan təlim metodları aşağıdaklardır [3, s.110]:

1. Problem əsaslı təlim: **Problem əsaslı təlim metodu tələbələrin real həyatda qarşılaşa biləcəkləri problemlər üzərində işləməsinə əsaslanır. Bu metodda müəllim sadəcə yönəldici rolu oynayır və əsas işi tələbənin öz təhlil qabiliyyəti, tənqidi düşüncə və araşdırma bacarıqlarını inkişaf etdirməkdir. Tələbələr problemi müəyyən edir, məlumat toplayır, həll yolları təklif edir və qərar verir. Xüsusilə tibb, mühəndislik və sosial elmlər sahəsində geniş tətbiq olunur.**

2. Layihə əsaslı təlim: **Tələbələr konkret bir layihə üzərində çalışaraq öyrənmə prosesini həyata keçirirlər. Bu metod yaradıcı düşüncənin inkişafına və əməkdaşlıq bacarıqlarının güclənməsinə xidmət edir. Tələbələr uzunmüddətli və məqsədli fəaliyyət nəticəsində öyrəndiklərini praktikaya tətbiq edir. Məsələn, bir ekoloji problemin həlli üçün tədqiqat aparıb nəticələri təqdim edirlər.**

3. Kooperativ təlim: **Tələbələr kiçik qruplarda işləyərək birlikdə öyrənirlər.Bu yanaşma həm akademik biliklərin, həm də sosial bacarıqların inkişafına yönəlib. Qrup üzvləri arasında**

qarşılıqlı asılılıq, məsuliyyət bölgüsü və qarşılıqlı hörmət əsas prinsiplərdir. Hər bir tələbə həm öz öyrənməsinə, həm də başqalarının öyrənməsinə töhfə verir.

4. İnteraktiv təlim: **Təlim prosesində müəllim və tələbə arasında dinamik qarşılıqlı əlaqə əsas götürülür. Müxtəlif sual-cavab, diskussiya, debat və rollu oyunlar vasitəsilə həyata keçirilir. Bu metod tələbənin dərs prosesinə daha fəal şəkildə cəlb olunmasına şərait yaradır. Eyni zamanda kommunikasiya bacarıqları və özünüifadə imkanları artır.**

5.İnformasiya-kommunikasiya texnologiyalarına əsaslanan təlim: Rəqəmsal texnologiyalar və proqramlardan istifadə edilərək həyata keçirilən təlim üsuludur. Kompüter, planşet, interaktiv lövhə, elektron resurslar və onlayn platformalar bu metodun əsas vasitələridir. Bu yanaşma həm əyani, həm də məsafədən təhsildə geniş tətbiq olunur və müəllimlərin müasir pedaqoji texnologiyalardan səmərəli istifadə etməsini tələb edir.

Müasir təlim metodları tələbə yönümlü, fəal öyrənməni təşviq edən və XXI əsr bacarıqlarının formalaşmasına yönəlmiş yanaşmalardır. Onların düzgün tətbiqi təhsilin keyfiyyətini artırmaqla yanaşı, tələbələrin yaradıcı və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir. Bu texnologiyalar təhsilin keyfiyyətini artırmaqla yanaşı, tələbələrin elmi düşüncə tərzini də inkişaf etdirir. Elmi metodologiya və təlim texnologiyaları arasında sıx qarşılıqlı əlaqə mövcuddur. Elmi metodologiyanın tətbiqi ilə təlim prosesində məqsədyönlü yanaşma təmin edilir, şagirdlərin analitik düşüncə bacarığı inkişaf edir. Digər tərəfdən, təlim texnologiyaları bu metodoloji prinsiplərin praktikaya keçidini asanlaşdırır. Məsələn, problem əsaslı öyrənmə elmi tədqiqatlarda istifadə olunan problem qoyuluşu və həll etmə metodikasını sinif mühitinə gətirir.

Müasir təlim texnologiyalarının elmi metodologiya kontekstində qiymətləndirilməsi

Təlim texnologiyalarının qiymətləndirilməsi onların elmi prinsiplərə uyğunluğu baxımından aparılmalıdır. Bu qiymətləndirmə aşağıdakı meyarlarla həyata keçirilə bilər [4, s.80]:

- Sistemli yanaşmanın təmin olunması;
- Tədqiqat yönümlü öyrənmənin təşkili;
- Praktiki və nəzəri biliklərin inteqrasiyası;
- Analitik və tənqidi düşüncənin inkişafı.

Bu kontekstdə layihə əsaslı təlim, simulyasiyalar, virtual laboratoriyalar və elektron resurslar xüsusi əhəmiyyət daşıyır. Onlar tələbələrə yalnız məlumat öyrətmir, həm də onları elmi fəaliyyətə hazırlayır. Müasir dövrdə təhsil sistemi sürətlə dəyişir və yenilənir. Texnologiyanın inkişafı, informasiya cəmiyyətinin formalaşması, qlobal çağırışlar və əmək bazarının tələbləri təhsil sistemində innovativ yanaşmaların tətbiqini zəruri edir. Bu baxımdan, Azərbaycan təhsilində də müasir təlim metodlarının tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Müasir təlim metodları tələbəyönümlü yanaşmanı əsas götürərək, öyrənənin aktivliyini, tənqidi və yaradıcı təfəkküründü inkişaf etdirməyə yönəlib. Bu metodlar arasında problem əsaslı təlim, layihə əsaslı təlim, kooperativ (qrup) təlimi, fərdiləşdirilmiş təlim, oyun və simulyasiya əsaslı metodlar geniş yayılmışdır. Bu yanaşmalar müəllimlərin informasiya ötürən rolu ilə yanaşı, öyrənməyə bələdçi funksiyasını da gücləndirir.

Azərbaycan təhsil sistemində müasir təlim metodlarının tətbiq imkanları

Azərbaycan Respublikasının təhsil sistemində son illərdə rəqəmsallaşma və innovativ texnologiyaların tətbiqi geniş vüsət almışdır. STEAM təhsili, onlayn təhsil platformaları (Məktəbə Qayıdış, Microsoft Teams, Google Classroom) və müəllimlərin peşəkar inkişaf proqramları elmi metodologiyaya uyğun təlim modellərinin tətbiqinə imkan yaradır. Lakin bəzi çətinliklər də mövcuddur [5, s.98]:

- İnfrastrukturun qeyri-bərabərliyi;
- Müəllimlərin texnoloji bilik çatışmazlığı;
- Kurikulumların müasir təlim texnologiyalarına uyğunlaşdırılması ehtiyacı.

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında təlim prosesində interaktiv və innovativ metodların tətbiqi əsas prioritetlərdən biri kimi müəyyən edilib. Kurikulum islahatları

çərçivəsində dərsliklərin və təlim proqramlarının yenilənməsi, müəllimlərin peşəkar inkişafı üçün təlimlərin keçirilməsi müasir təlim metodlarının tətbiqinə şərait yaradır. Elektron təhsil resurslarının istifadəsi və rəqəmsal bacarıqların formalaşdırılması da bu prosesin mühüm komponentlərindəndir. Müasir təlim metodlarının tətbiqində bir sıra çətinliklər də mövcuddur. Bunlara müəllimlərin bəzən yeni metodlara uyğunlaşmaqda çətinlik çəkməsi, maddi-texniki bazanın zəifliyi, tədris resurslarının çatışmazlığı və qiymətləndirmə mexanizmlərinin qeyri-kafi olması daxildir. Bundan əlavə, bəzi məktəblərdə ənənəvi təlim metodlarına üstünlük verilməsi də müasir yanaşmaların geniş tətbiqini məhdudlaşdırır.

Azərbaycan təhsil sistemində müasir təlim metodlarının tətbiqi təhsilin keyfiyyətinin artırılması, şagirdlərin fəal və yaradıcı düşüncəsinin inkişafı baxımından olduqca vacibdir. Bu istiqamətdə aparılan islahatlar, müəllimlərin peşəkar hazırlığı və yeni texnologiyaların tətbiqi ilə bu metodların effektivliyi daha da yüksələ bilər. Əldə olunan nailiyyətlərə baxmayaraq, mövcud problemlərin aradan qaldırılması və bu sahədə davamlı təkmilləşmə zəruridir.

NƏTİCƏ

Elmi metodologiya və müasir təlim texnologiyaları arasında mövcud olan qarşılıqlı əlaqə tədris prosesinin keyfiyyətini artırmaq üçün geniş imkanlar yaradır. Bu əlaqə əsasında təşkil olunan təlim mühiti tələbələrdə tədqiqatçılıq bacarıqlarını inkişaf etdirir, analitik düşüncə və yaradıcı yanaşmanı təşviq edir. Azərbaycan təhsil sistemində bu yanaşmanın tətbiqi istiqamətində atılan addımlar davam etdirilməli, müəllim hazırlığı və infrastruktur təminatı daha da gücləndirilməlidir. Elmin metodoloji prinsipləri ilə zənginləşdirilmiş təlim texnologiyaları gələcəyin bilik cəmiyyətinin formalaşmasına töhfə verə bilər. Araşdırmanın nəticələri göstərdi ki, müasir təlim texnologiyalarının elmin metodologiyası kontekstində qiymətləndirilməsi onların tədris prosesində səmərəli tətbiqinə imkan yaradır. Elmi-metodoloji yanaşma təlimin məqsəd və məzmununa uyğun texnologiyaların seçilməsi və tətbiqində mühüm rol oynayır. Ənənəvi yanaşmalardan fərqli olaraq, müasir texnologiyalar tədris prosesini daha çevik və interaktiv edir. Nəticə etibarilə, təlimin keyfiyyəti yüksəlir, tələbələrin motivasiyası artır və müstəqil düşünmə qabiliyyəti inkişaf edir. Bu baxımdan, təhsildə innovasiyaların tətbiqi və onların elmi cəhətdən qiymətləndirilməsi davamlı inkişafın əsas komponenti hesab olunur.

Ədəbiyyat

1. Əliyev A. M. Elmin əsasları. Bakı: Təhsil Nəşriyyatı, 2018. – 245 s.
2. Məmmədov R. T. Elmi tədqiqat metodları və onların tətbiqi. Bakı: Maarif, 2016. – 268 s.
3. Hüseynova S. Q. Müasir təlim texnologiyaları. Gəncə: Elm və Təhsil, 2020. – 312 s.
4. Quliyev F. M. Pedaqoji prosesin innovativ idarəolunması. Bakı: Nurlan, 2019. – 223 s.
5. Rüstəmli F. Ə. Təhsildə metodoloji yanaşmalar və müasir dərs modelləri. Bakı: ADPU Nəşriyyatı, 2022. – 189 s.
6. Əliyeva L. N. Elmi biliklərin struktur və funksiyaları. Bakı: Elm, 2021. – 175 s.

NEW TRENDS IN BRITISH DRAMATURGY: İN-YER-FACE THEATRE

BRITANIYA DRAMATURGIYASINDA YENI TENDENSIYALAR: ÜZ-ÜZƏ TEATRI

Ülkər Əsədova
Azərbaycan Dillər Universiteti Magistr

Abstract
Face-to-face theatre, which emerged at the turn of the 20th and 21st centuries, is distinguished in British drama by its provocative content and direct communication with the audience. Unlike traditional theatre, face-to-face theatre marks a radical change in British drama and thus leads to the emergence of a new theatre. This movement, which is a reaction to the ideas and content of traditional theatre, breaks down the accepted boundaries of conventional theatre, challenging emotional and psychological situations, taking into account different tastes. Led by young playwrights such as Sarah Kane, Mark Ravenhill and Anthony Nelson, face-to-face theatre brings to the stage themes reflecting the disillusionment, alienation and socio-political unrest of post-Thatcher Britain, thus opening up new horizons in the field of drama. Although face-to-face theatre radically imitates realism and social comedy, it also conveys an aggressive and deep anxiety that reigns among people. The characteristic feature of this theatre was that it left the motives of power and violence, the suppression of human feelings, emotional impact and discrimination to the audience. Thus, according to the aesthetics of the theatre, such scenes were considered sufficient, challenging the moral and spiritual views of the audience. But at the same time, they invited them to critical thinking. According to the theory of face-to-face theatre, only in this way could the stage become a battlefield, and the audience turned from passive spectators into questioners. Analysing the plays of the Face to Face Theatre, one can conclude that such productions change the cultural climate and instead nurture an active thinking individual who can have a voice in social and political life. One of the characteristic features of the new trend in British dramaturgy is new qualitative changes in both the content and form of the plays. It should also be noted that Face to Face Theatre uses shock effects to reveal deeper truths about identity and social decay. Finally, Facing Theatre, through its influence on contemporary British playwrights, defines the ideological and content characteristics of future plays.
Key words: İn-yer-face Theatre, British dramaturgy, New trends,

Xülasə
XX-XXI əsrin kəsiyində yaranan Üz-üzə teatrı Britaniya dramaturgiyasında ilk növbədə təxribatçı məzmunu və tamaşaçı ilə birbaşa ünsiyyətiylə seçilir. Ənənəvi teatrdan fəqli olan Üz-üzə teatrı Britaniya dramaturgiyasında köklü dəyişikliyə imza atır və bununla da yeni tetatrın yaranmasına səbəb olur. Ənənəvi teatrın ideya-məzmununa qarşı reaksiya olan bu hərakat müxtəlif zövqləri nəzərə alaraq emosional və psixoloji situasiyalara meydan açmaqla adət edilən tetarın şərti sərhədlərini dağıdır. Sarah Kane, Mark Ravenhill və Entoni Nelson kimi gənc dramaturqların rəhbərlik etdiyi Üz-üzə teatrı Tetçerdən sonrakı Britaniyanın məyusluğunu, özgələşməsini və ictimai-siyasi iğtişaşlarını əks edən mövzulara səhnəyə gətirir və beləcə, dramaturgiya sahəsində yeni bir səhifə açır. Üz-üzə teatrı realizmi və sosial komediyanı radikal şəkildə təqlid etsə də, daha çox insanlar arasında hökm sürən aqressiv və dərin narahatlığı da səhnəyə daşıyır. Bu tetatrın əlamətdar xüsusiyyəti – güc və zor, insan hisslərinin boğulması, emosional ifşa və ayrı-seçkilik motivlərinin tamaşaçıların ixtiyarına buraxmasında idi. Beləcə, teatrın estetikasına görə bu kimi səhnələr yetərli sayılır, tamaşaçıların əxlaqi-mənəvi görüşlrinə meydan oxuyurdu. Amma eyni zamanda da onları tənqidi düşüncəyə dəvət edirdi. Üz-üzə tetatrın nəzəriyyəsinə görə yalnız bu şəkildə səhnə döyüş meydanına çevrilir, tamaşaçı passiv seyirçidən sorğu-sual edən iştirakçıya çevrilir. Üz-üzə tetatrının pyeslərini təhlil edərkən belə qənaətə gəlmək olar ki, bu kimi tamaşalar mədəni abu-havanı dəyişdirir, yerinə aktiv düşünən və

ictimai-siyasi həyatda sözünü deyə bilən şəxsiyyət yetişdirir. Britaniya dramaturgiyasında yaranan yeni tendensiyanın xarakterik xüsusiyyətlərindən biri də pyeslərin həm məzmununda, həm də formasında yeni keyfiyyət dəyişiklikləridir. Onu da qeyd edək ki, Üz-üzə teatrı şəxsiyyət və ictimai tənəzzüllə bağlı daha dərin həqiqətləri ifşa etmək üçün şok effektlərdən istifadə edir. Nəhayət, Üz-üzə teatrı müasir Britaniya dramaturqlarına təsir etməklə gələcəkdə yaranan tamaşaların ideya-məzmun xüsusiyyətlərini müəyyən edir.
Açar sözlər: Britaniya dramaturgiyası, Üz-üzə teatrı, yeni tendensiyalar,

GİRİŞ

Britaniya dramaturgiyasının dünya ədəbiyyatı tarixində müstəsna xidmətləri vardır. Britaniya dramaturgiyası XXI əsrdə ənənəvi dramla modern dramın sintezini təqdim edən yenilikçi meylləri ilə də əlamətdardır. Bu onunla müəyyən edilir ki, dram əsərləri artıq müasir cəmiyyətin problemlərini cəsarətlə əks etdirir, oxucu və tamaşaçını yeni və aktual mövzular ətrafında düşündürürdü.

Britaniya dramaturgiyası XX əsrin ikinci yarısından etibarən dövrün sosial-siyasi, iqtisadi və mədəni tələblərinə uyğun dəyişikliklər etmiş, gender məsələləri, sosial bərabərsizlik, irqi-ayrı seçkilik və insan problemləri ilə bağlı müxtəlif mövzular işləmişdir. 1900-1945-ci illəri əhatə edən dram əsərləri realizmlə modernizmin problemlərini əks etdirirdi və bu dövrün nümayəndələri Corc Bernand Şou, Noel Kauard, Sin Okasey yaradıcılığı ilə əlamətdardır.Həmin dövr dramaturgiya tarixində Yeni dalğa olaraq qeyd olunur.

1945-ci ildən sonrakı dramaturgiyada problemlər Qəzəbli Gənclər hərəkatı adı ilə tanınan bir sıra dramaturqlar vasitəsilə cəmiyyətə çatdırılırdı. Həmin dramaturqlar Con Osborn, Arnold Vesker, Parold Pinter yaradıcılığında aristokratiyanın təmtəraqlı həyatı gündəlik qayğılarla təqdim edilir, aşağı və orta sinif nümayəndələri arasında qarşıdurma bütün gerçəkliyi ilə təqdim edilirdi. Con Osbornun "Qəzəblə geriyə bax" həmin dövrün realist və sosial tənqidi dramı hesab edilərək Qəzəbli Gənclər hərəkatının əsas simvolu hesab edilir. Baş qəhrəman Cimmi Porter müharibədən sonrakı Britaniyanın mənasız və sinfi ədalətsizliklə dolu cəmiyyəti ilə barışmayan narahat bir gəncdir. Əsər orta və aşağı sinif arasındakı uçurumu, gənclərin sosial həyatdakı narazılığını, sevgi və dəyərlərdə yaranan problemləri əks etdirir. Problemin dramaturgiyada öz əskini tapması məsələləri İngilis dramaturgiyasında dönüş nöqtəsi olmaqla yeni ədəbiyyat janrının yaranması ilə əlamətdar oldu. Bu əsərdən sonra Britaniya teatrlarında realist mətnlərə üstünlük verilməyə başlandı. Sara Keyn və Mark Ravenhill Con Osborun açdığı cığırdan irəliləyərək ÜZ-Üzə teart janrını yaratdılar.

Postmüharibə dövrünün ədəbi nümayəndələri Eduard Bond, Devid Heyr, Houord Brenton, Peter Şaffer tərəfindən İkinci böyük dalğa hərəkatı yaradıldı və absurd, sosial tənqidi, ekzistensialist teatr anlayışına geniş yer verildi. Bu hərəkatın nümayəndələri Britaniya cəmiyyətindəki məyusluğu, daxili tənhalığı, siyasi gərginliyi səhnəyə daşıdı. Eduar Bond XİLAS əsəri həmin dövrün ən qalmaqallı əsəri kimi yadda qalaraq, Britaniya senzura qanunlarını dəyişdirdi. Belə ki, tamaşaya qoyulan bütün səhnələr Lord Çamberleyn tərəfindən yoxlanılırdı. Əsər ilk dəfə 1965-ci ildə qadağan olundu lakin gizli şəkildə səhnəyə qoyulurdu. Bununla senzura əleyhinə mübarizənin başlanğıcı qoyuldu. Əsər əsasən Britaniyanın aşağı təbəqə hesab olunan işçi sinfinin absurd həyatını təsvir edərək, dostluq, sevgi,ailə kimi sosial dəyərlərin artıq məhv olmaq həddinə gəlib çatdığını bildirirdi. Britaniyada postmüharibə dövründə bu qədər sərt və pessimist dram əsəri demək olar ki,yox idi.

XX əsrin ikinci yarısından başlayaraq, əsərlər daha eksperimental, provokativ, sərt və cəsarətli formada yazılmağa başladı. Cəmiyyətin problemləri açıq və çılpaq şəkildə əks olunaraq süjetlər qeyri-ənənəvi, dialoqlar daha sərt dildə yazılmağa başlayaraq, Britaniya dramaturgiyasinda "In-Yer-Face" (Üz-üzə teatr) dövrü başladı. Təxribatçı və qarşıdurma teatrının yaranma tarixi XX əsrin əvvəllərinə Alfred Cerri və Antonin Artaudun nəzəriyyələrinə istinad etsə də, XXI əsr Britaniya dramaturgiyasında bu teatr növü bir çox gənc yazıçıların dominant üslubu xarakteri almağa başladı. Bu cərəyanın əsas nümayəndələri Mark Ravenhill, Sarah Keyn, Anthoni Neylson, Martin Krimp, Denis Kelli olmuş, termin olaraq ilk dəfə Aleks Sierz adlı tənqidçiyə aid edilsə də, o özü bunu inkar

etmişdir. (Alexander Lee-Rekers "What is In-Yer-Face Theatre?") Teatrın əsas arqumenti məhz müasir formatda tamaşanın təqim olunmasıdır. Belə ki, 30 il əvvəl yazıla bilməyən mətnlər, hisslər və düşüncələr, tamaşaçını narahat edən, estetik həssaslıq yaradan, bir sözlə cəmiyyətin bütün reallığı ilə üz-üzə qoyan oyun növüdür. Tamaşalarda əsasən kapitalizmin tənqidi, psixi sağlamlıq, "şokedici" və zorakılıq kimi mövzuların stilistik təsviridir. (inyerface-theatre.com) Bu teatr elə bir teatr növüdür ki, tamaşaçını iştirakçıya çevirir, onu düşündürür, emosional olaraq təsirləndirir. İzləyicinin qarşısında tabular qırılır, senzuradan qaçınılır , qeyd olunmayan mövzular açılır, bir personaj digərini alçaldır və onu reaksiya verməyə məcbur edir. O ,ya səhnəyə daxil olub teatrı dayandırmaq istəyir ya da qərar verir ki, həyatında gördüyü ən mükəmməl teatrı izləyir. Ənənəvi teatr səhnələrindən fərqli olaraq tamaşalar əsasən kiçik məkanlarda və interaktiv formatda təqdim edilir.
Bununla birlikdə, "In-Yer-Face" teatrının yaratdığı üslub həqiqətləri açıq şəkildə ifadə etməklə teatrın yalnız əyləncə üçün deyil, həm də düşünmək və cəmiyyətin gündəlik həyatda görmək istəmədiyi reallıqları göstərərək sənətin gücünü bir daha sübut edir.

Ədəbiyyat siyahısı:

1. Aleks Sierz. In-Yer-Face Theatre: British Drama Today, Faber and Faber Limited, 2001
2. Alexander Lee-Rekers "What is In-Yer-Face Theatre?" 17 January 2001. https://www.stagemilk.com/what-is-in-yer-face-theatre/
3. Bond E. (1965), London
4. Encyclopaedia Britannica
5. https://eprints.hud.ac.uk/id/eprint/35339/1/FINAL%20THESIS%20-%20Chippendale.pdf
6. "In-yer-face theatre" məqaləsi https://inyerfacetheatre.com/what.html#top
7. Kerry Chippendale "In-yer-face theatre: myth or movement" University of Huddersfield, 2020
8. Müasir Britaniyanın Çağdaş Dramaturgiyasında Mövzu Konseptləri-Emin Əliyev https://www.academia.edu/102341069/Emin_Əliyev_Böyük_Britaniyanın_Çağdaş_Dramaturgiyasında_Mövzu_Konseptlıri
9. Modern British Dramatists, 1900-1945 Stanley Weintrub
10. The Angry Young Men-A Literary Comedy of the 1950s- Humphrey Carpenter

ASSESSMENT OF COMMUNICATIVE SKILLS IN ENGLISH

İNGİLİS DİLİNDƏ KOMMUNİKATİV BACARIQLARIN QİYMƏTLƏNDİRİLMƏSİ

Fəridə Məşi qızı Hüseynova
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Ümumi pedaqogika lkafedrasının baş müəllimi
pedaqogika üzrə fəlsəfə doktoru
ORCID ID: https://orcid.org/0000-0002-0250-3467

Abstract
The article considers the assessment of communicative competence in English language teaching to assess the student's ability to use language effectively in real-world scenarios. This can be done through a variety of methods, including authentic tasks, speaking rubrics, and observation. The focus is on understanding how students use language in context, rather than memorizing grammatical rules.
The article itself strongly supports the notion of language as a means of live communication as an assessment technique for communicative language. It emphasizes the importance of assessing language learners on the basis of their ability to effectively engage in real-life linguistic interaction within the target language. The article explains the concept of communicative competence and its elements. The role of speaking rubrics in correctly assessing communicative competence is explained.
In addition, the article explores a number of considerations on communicative assessment, analyzes contemporary ideas, and explains in detail the communicative competence approach. Quite different from the mere regurgitation of grammatical rules and vocabulary, this method emphasizes the use of language skills in context. Speaking rubrics, on the other hand, are language assessment tools used to measure students' oral skills. They are designed to test students' ability to use language in context and communicate successfully in the target language.
Keywords: communicative skills, assessment, competence, speaking rubrics

Xülasə
Məqalə ingilis dilinin tədrisində kommunikativ bacarıqların qiymətləndirilməsində tələbənin real dünya ssenarilərində dildən səmərəli istifadə etmək bacarığının qiymətləndirilməsini nəzərdə tutur. Bu, müxtəlif üsullarla, o cümlədən orijinal tapşırıqlar, danışıq rubrikləri və müşahidə vasitəsilə həyata keçirilə bilər. Əsas diqqət tələbələrin qrammatik qaydaları əzbərləməkdənsə, dildən kontekstdə necə istifadə etdiyini anlamaqdır.
Məqalə özündə kommunikativ dil üçün qiymətləndirmə texnikası canlı ünsiyyət vasitəsi kimi dil anlayışını qətiyyətlə dəstəkləyir. O, dil öyrənənlərin hədəf dil daxilində real həyatda linqvistik qarşılıqlı əlaqədə effektiv şəkildə iştirak etmək qabiliyyətinə əsaslanaraq qiymətləndirilməsinin vacibliyini vurğulayır. Məqalədə kommunikativ kompetensiya anlayışı və onun elementləri açıqlanmışıdır. Danışıq rubrikərinin kommnukativ kompetensiyaları düzgün qiymətləndirməkdə rolu şərh edilmişdir.
Bundan əlavə, məqalə kommunikativ qiymətləndirmə üzrə bir sıra mülahizələri araşdırmış, müasir fikirlər təhlil etmiş və kommunikativ kompetensiya yanaşamasını ətraflı izah etmişdir. Qrammatik qaydaların və lüğətin sırf requrgitasiyasından tamamilə fərqli olaraq, bu üsul dil bacarıqlarının kontekstdə istifadəsini vurğulayır. Öz növbəsində, danışıq rubrikləri tələbələrin şifahi bacarıqlarını ölçmək üçün istifadə olunan dil qiymətləndirmə alətləridir. Onlar tələbələrin dildən kontekstdə istifadə etmək və hədəf dildə uğurla ünsiyyət qurmaq bacarıqlarını yoxlamaq üçün nəzərdə tutulub.
Açar sözlər: kommunikativ bacarıqlar, qiymətləndirmə, kompetensiya, danışıq rubrikləri

Giriş

Kommunikativ-dil qiymətləndirmə texnikasının kommunikativ-dil öyrətmə yanaşmasında tətbiqi ingilis dilinin tədrisində izlənilə bilən ən faydalı prosesdir. Brandl (2020) və Gebril (2021) bu prosesin 1970-ci illərdə ənənəvi qrammatik tərcümə və audio-linqual metodologiyaların məhdudiyyətlərinə inqilabi cavab olaraq ortaya çıxdığını qeyd edirlər. Tədqiqatçı alimlər vurğulayırlar ki, kommunikativ dil öyrətmə metodu dil auditoriyasında mənalı əlaqə və orijinal ünsiyyətə böyük əhəmiyyət verməklə dil təlimində inqilab etmişdir. Real həyat kontekstində möhkəm kök salması və dildən xüsusi vasitə kimi istifadə edərək effektiv ünsiyyətin mənimsənilməsinə qətiyyətlə diqqət yetirilməsi fikrini təbliğ edirdi [1; 2].

Kommunikativ-dil tədrisi çərçivəsinin üzvi nəticəsi olaraq kommunikativ-dil qiymətləndirmə yanaşması meydana çıxdı. Bu qiymətləndirmə metodologiyası dil öyrənənlərin sintaktik və leksik bacarıqlarına görə ciddi şəkildə qiymətləndirilməkdənsə, həqiqi, real dünya vəziyyətlərində dildən məharətlə istifadə etmək bacarıqlarına əsaslanaraq qiymətləndirilməli olduğuna dair qəti inamdan irəli gəlirdi. Kommunikativ dilin qiymətləndirilməsi mahiyyət etibarilə, öyrənənlərin dildən kontekst çərçivəsində istifadə etmək bacarığının qiymətləndirilməsi, onların öz fikir və ideyalarını hədəf dildə effektiv şəkildə çatdırmaq bacarığının məharətlə ölçülməsi ətrafında fırlanır.

Kommunikativ – dil qiymətləndirilməsi

Son illərdə kommunikativ-dil qiymətləndirmə yanaşması praktiki dil istifadəsinə xüsusi diqqət yetirdiyi üçün böyük prioritetlik qazanmışdır. Green, (2020) qeyd edir ki, qrammatika qaydalarına və lüğətə yiyələnməyə üstünlük verən adi dil qiymətləndirmə metodlarından tamamilə fərqli olaraq, kommunikativ dil qiymətləndirməsi dil öyrənmənin son məqsədinin başqaları ilə problemsiz ünsiyyəti asanlaşdırmaq olduğunu qəti şəkildə qəbul edir. Beləliklə, o, öyrənənlərin həqiqi real həyat vəziyyətlərində dildən istifadə bacarığına daha çox əhəmiyyət verir. Bundan əlavə, kommunikativ dilin qiymətləndirilməsi dil bacarıqlarının praktiki, həqiqi kontekstlərdə tətbiqini ön plana çıxaran tapşırıqlara əsaslanan dil tədrisinin üstünlük təşkil edən pedaqoji tendensiyası ilə ahəngdar şəkildə uyğunlaşır. Tələbələrin hədəf dildə effektiv ünsiyyət qurmaq bacarığını məharətlə qiymətləndirməklə, kommunikativ dil qiymətləndirməsi real dünya ssenarilərinin quruluşuna mükəmməl inteqrasiya edən dil bacarıqlarını inkişaf etdirməyə kömək edir [1; 4].

Kommunikativ-dil qiymətləndirmə metodunun təkamülü kommunikativ-dil öyrətmə yanaşması ilə ayrılmaz şəkildə bağlıdır. Bu qiymətləndirmə texnikasının tətbiqi dil səriştəsinin ciddi şəkildə qiymətləndirildiyi akademik və peşəkar sahələr də daxil olmaqla müxtəlif sahələrə şamil edilir. Zaman keçdikcə bu metodologiya şifahi müsahibələr, rol oyunları və qrup müzakirələri kimi bir sıra qiymətləndirmə metodlarını əhatə etmək üçün genişləndi. Şübhəsiz ki, kommunikativ-dil qiymətləndirmə texnikası indi dilin tədrisi və sınaqdan keçirilməsi mənzərəsinə nüfuz edərək, dil təhsili sahəsində ciddi elmi araşdırma mövzusu kimi əsas rolunu davam etdirir [2; 5].

Dil testində təcrübəsi kommunikativ-dil qiymətləndirmə metodologiyasının konsepsiyasında mühüm rol oynamışdır. Beləliklə, tədqiqatçılar problemin yeni bir həlli yolunu tapmağa çalışaraq əsas ideyanı kommunikativ-dil qiymətləndirmə texnikası idi və o vaxtdan bəri dil səriştəsini qiymətləndirmək üçün ən çox istifadə edilən yanaşmalardan biri kimi ortaya çıxardılar.

Kommunikativ kompetensiya

Kommunikativ-dil qiymətləndirmə yanaşmasının mahiyyətində onun öyrənənlərin real həyat vəziyyətlərində dildən səmərəli istifadə etmək bacarığının qiymətləndirilməsinə xüsusi diqqət yetirilir. O, öyrənənlərin kommunikativ səriştəsini - ünsiyyət məqsədlərinə çatmaq üçün dildən bacarıqla istifadə etmək bacarığını qiymətləndirmək üçün bir vasitə kimi xidmət edir.

müxtəlif kontekstlərdə. Dil təlimində kommunikativ qiymətləndirmənin effektivliyinin mərkəzi onun öyrənənlərə kommunikativ məqsədləri ilə birbaşa uyğunlaşdırılmış əks əlaqə təmin etmək bacarığıdır. Kommunikativ-dil qiymətləndirmə texnikası ilə öyrənənlər kontekstli dil istifadəsinə görə qiymətləndirilir və onlar hədəf dildə uğurla ünsiyyət qurmaq imkanları ilə bağlı dəyərli rəy

alırlar. Bu geribildirim öyrənənlərin kommunikativ səriştələrində təkmilləşmə sahələrini müəyyən etməyə istiqamətləndirməkdə mühüm rol oynayır. Bu məqsədlə, dil bacarıqlarını artırmaq üçün onları lazımi təlimatlarla təchiz etmək mühüm əhəmiyyət kəsb edir [3; 4].

Effektiv ünsiyyət müvəffəqiyyətli dil təhsilinin və qiymətləndirilməsinin mərkəzində dayanır. Rahman et al., (2019) qeyd edir ki, ünsiyyət dili qiymətləndirmə metodu olan ünsiyyətə üstünlük verir, real həyat kontekstlərində dildən səmərəli istifadə etmək bacarığını vurğulayır. Nəticə etibarı ilə, dil müəllimləri və test tətbiq edənlər diqqətli olmalı və tələbələrinin ehtiyaclarına və sorğularına cavab verməlidirlər [4, s. 29]. Texnologiyanın inkişafı dil müəllimləri və öyrənənlər arasında qüsursuz ünsiyyəti asanlaşdırıb. E-poçt, söhbət proqramları və video konfrans həlləri qarşılıqlı əlaqə üçün əlverişli imkanlar təklif edərək, dil müəllimlərinə və test edənlərə tələbə sorğularını ünvanlamaq, rəy bildirmək və asanlıqla dəstək təklif etmək imkanı verir.

Danışıq rubrikləri

Danışıq rubrikləri kommunikativ-dil qiymətləndirmə strategiyasının kritik komponentini təmsil edir və tələbələrin şifahi bacarıqlarını qiymətləndirmək üçün əvəzsiz vasitə kimi xidmət edir. Danışıq rubriklərinin qurulması zamanı müxtəlif amillər, o cümlədən, qiymətləndirmənin kommunikativ məqsədləri, qiymətləndirmənin baş verdiyi konkret tapşırıq və şərait və qiymətləndirilən fərdi dil bacarıqları nəzərə alınır. Texnologiya kimi dil öyrənmə və öyrətməyə nüfuz etməkdə davam edir, nitq rubriklərinin dizaynını təkmilləşdirmək və kommunikativ-dil qiymətləndirmə metodunu artırmaq üçün texnologiyanın necə istifadə oluna biləcəyini başa düşmək vacib olur.

Danışıq rubriklərinin yaradılması kommunikativ dilin qiymətləndirilməsi prosesində həlledici addımdır, öyrənənlərin şifahi biliklərini və kontekstdə dildən istifadə etmək bacarıqlarını qiymətləndirməyə imkan verir. Vitta, Al-Hoorie, (2020) təsdiqləyirlər ki, qiymətləndirmənin kommunikativ məqsədləri, qiymətləndirmənin tapşırığı və təyinatı və qiymətləndirilən spesifik dil bacarıqları da daxil olmaqla, nitq rubrikalarının inkişafını bir neçə amil formalaşdırır [5, s.21]. İlkin mərhələ qiymətləndirmə üçün aydın ünsiyyət məqsədlərinin yaradılmasını, onların tələbələrin gözlənilən dil bacarıqlarına uyğunlaşdırılmasını əhatə edir. Məsələn, əgər qiymətləndirmə tələbələrin biznes mühitində mənaları müzakirə etmək bacarığını ölçmək məqsədi daşıyırsa, rubrikada bu məqsədi əks etdirməlidir Buraya tələbələrin peşəkar kontekstdə danışıqlar aparmaq və effektiv ünsiyyət bacarıqlarını, habelə onların müvafiq işgüzar dilindən istifadə etmək bacarığını qiymətləndirən meyarlar daxil edilməlidir.

Nəticə

Beləliklə, kommunikativ-dil qiymətləndirmə yanaşması dil bacarıqlarının praktiki tətbiqinə və həqiqi ünsiyyətə üstünlük verən yeni perspektiv təqdim edir. Bu metodologiya tapşırığa əsaslanan dil tədrisi ilə ahəngdar şəkildə uyğun gəlir və orijinal şəraitdə dil bacarıqlarının praktiki istifadəsinə diqqət yetirir. Danışıq rubrikləri kommunikativ qiymətləndirmə çərçivəsində mühüm rol oynayır, şifahi biliklərin qiymətləndirilməsinə və xüsusi kontekstlərdə dil istifadəsinin qiymətləndirilməsinə imkan verir. Texnologiya kommunikativ dilin qiymətləndirilməsində mühüm rol oynasa da, müəllimlər tələbələrin müxtəlif ehtiyaclarını ödəmək üçün rəqəmsal və üz-üzə qarşılıqlı əlaqə arasında balans yaratmalıdırlar.

Ümumilikdə, kommunikativ dilin qiymətləndirilməsi praktiki və geniş tətbiq oluna bilən dil biliklərini inkişaf etdirərək real həyat ssenarilərinə mükəmməl inteqrasiya edən effektiv dil qiymətləndirmə üsullarını inkişaf etdirmək üçün dəyərli alət rolunu oynayır

İstifadə olunmuş ədəbiyyat

1. Brandl, K. Communicative language teaching in action: Putting principles to work. Cognella Academic Publishing. 2020 – pp.371-411
2. Gebril, A. Learning-oriented language assessment: Putting theory into practice. Routledge. 2021 – pp.12-47 https://doi.org/10.4324/9781003014102
3. Green, A. Exploring language assessment and testing: Language in action. Routledge. 2020 - pp 134 https://doi.org/10.4324/9781003105794
4. Rahman, M. M., Islam, S., Karim, A., Chowdhury, T. A., Rahman, M. S., Seraj, P. M. I., & Singh, M. K. M. English language teaching in Bangladesh today: Issues, outcomes and implications. Language Testing in Asia, 2019 -p. 9(1). https://doi.org/10.1186/s40468-019-0085-8
5. Vitta, J. P., & Al-Hoorie, A. H. The flipped classroom in second language learning: A meta-analysis. Language Teaching Research, 2020 – pp.1-21 136216882098140. https://doi.org/10.1177/1362168820981403

İNKLÜZİV TƏHSİLDƏ TİFLOPEDAQOQUN ROLU, BRAYL TƏLİMİ VƏ TEXNOLOJİ DƏSTƏK İMKANLARI

THE ROLE OF THE TYPHLOPEDAGOG, BRAILLE TEACHING AND TECHNOLOGICAL SUPPORT OPPORTUNITIES IN INCLUSIVE EDUCATION

Fidan Hacıyeva Ağazadə Hüseyn qızı
Azərbaycan Dövlət Pedoqoji Universiteti, Xüsusi təhsil kafedrası, Bakı ş.

Xülasə
Bu məqalədə inklüziv təhsildə tiflopedaqoqun rolu, görmə məhdudiyyətli şagirdlər üçün Brayl əlifbasının tədrisi və müasir texnoloji dəstək imkanları araşdırılır. Məqalədə tiflopedaqoqun inklüziv təhsil sistemindəki funksiyaları, qarşılaşdıqları çağırışlar və bu problemlərin həlli yolları təhlil olunur. Brayl təliminin əhəmiyyəti və rəqəmsal texnologiyaların tədrisdə tətbiqi mövzuları geniş şəkildə təqdim edilir. Həmçinin, ölkəmizdə və beynəlxalq təcrübədə bu sahədəki uğurlar və inkişaf perspektivləri qiymətləndirilir. Məqalə, görmə məhdudiyyətli uşaqların təhsilinə dair inklüziv yanaşmanın təkmilləşdirilməsinə töhfə vermək məqsədilə hazırlanmışdır.
Açar sözlər: görmə pozulmaları,tiflopedaqoq,inklüziv yanaşma,Brayl əlifbası,müasir texnologiya

Abstract
This article examines the role of the typhlopedagogue in inclusive education, teaching Braille to visually impaired students, and the possibilities of modern technological support. The article analyzes the functions of the typhlopedagogue in the inclusive education system, the challenges they face, and the ways to solve these problems. The importance of Braille teaching and the application of digital technologies in education are widely presented. Also, the successes and development prospects in this area in our country and international experience are evaluated. The article is designed to contribute to the improvement of the inclusive approach to the education of children with visual impairments.
Key words: visual impairments, typhlopedagogue, inclusive approach, Braille, modern technology

GİRİŞ

Müasir dövrdə təhsil sistemlərinin əsas prioritetlərindən biri inklüzivlik prinsipinin təmin edilməsidir. Bu prinsip, fiziki və psixoloji fərqliliklərə malik olan uşaqların ümumi təhsil mühitinə inteqrasiya olunmasını və onların təhsil hüququnun bərabər şəkildə təmin edilməsini nəzərdə tutur. Bu kontekstdə görmə məhdudiyyətli uşaqların təlim-tərbiyəsi xüsusi yanaşma və peşəkar dəstək tələb edir. Tiflopedaqogika məhz bu ehtiyacdan yaranan və görmə qüsurlu uşaqların təhsilinə yönəlmiş xüsusi pedaqoji sahədir.

İnklüziv təhsil mühitində tiflopedaqoqların rolu olduqca önəmlidir. Onlar yalnız Brayl əlifbasının öyrədilməsi ilə deyil, eyni zamanda sosial adaptasiya, emosional dəstək və fərdi təhsil proqramlarının hazırlanması ilə də məşğul olurlar. Tiflopedaqoqlar inklüziv məktəb mühitində valideynlər, sinif müəllimləri və digər mütəxəssislərlə əməkdaşlıq edərək təhsilin keyfiyyətini yüksəltməyə çalışırlar.

Son illər texnoloji inkişaf tiflopedaqogikada yeni imkanlar yaratmışdır. Rəqəmsal Brayl ekranları, səsli proqram təminatları, interaktiv sensor lövhələr və süni intellekt əsaslı öyrənmə alətləri bu sahədə inqilabi dəyişikliklərə səbəb olmuşdur. Bu texnologiyalar, bir tərəfdən görmə məhdudiyyətli şagirdlərin təlim imkanlarını genişləndirir, digər tərəfdən isə tiflo pedaqoqların metodik arsenalını zənginləşdirir.

Bu məqalədə inklüziv təhsil çərçivəsində tiflo pedaqoqun funksiyaları, Brayl əlifbasının öyrədilməsində istifadə olunan metodlar və rəqəmsal texnologiyaların tətbiq imkanları araşdırılacaqdır. Məqsəd, bu üç istiqamətin qarşılıqlı əlaqəsini və birgə tətbiqinin inklüziv təhsildə effektivliyə necə təsir etdiyini göstərməkdir.

İnklüziv siniflərdə görmə məhdudiyyəti olan uşaqlar üçün əsas sinif strategiyaları və adaptasiya tələbləri vardır ki,bu uşaqlarla məşğul olan hər bir mütəxəssis bu tələblərə mütləq riayət etməlidir:

• Görmə məhdudiyyəti olan uşaqları yazı lövhəsinə yaxın otuzdurun.
• Sinifdə iri şriftlə çap edilmiş təlim materiallarından istifadə edin.
• Lazım olarsa, diktafona yazılmış mətnlərdən istifadə edin. Şagirdlərə qeydlər aparmaq əvəzinə dərsləri və təlimatları diktafona yazmağa icazə verin.
• Oxumaq və yazmaq üçün uşaqlara daha çox vaxt verin. Şagirdlərə tapşırıqları yerinə yetirmək üçün daha qalın uclu marker və ya yazı alətindən istifadə etməyə icazə verin.
• Yazılı təlimat və ya tapşırıq verdikdə materialın qısa şəkildə və böyük hərflər ilə yazıldığına əmin olun. Uşaqlara sinif qeydlərinin nüsxəsini təqdim edin və onlara iPad və ya tabletlər ilə onları qeydə almağa icazə verin.
• Təlimatları həm şifahi, həm də yazılı təqdim edin. Hər bir ifadəni lövhədə yazıldığı kimi deyin.
• Görmə məhdudiyyəti olan şagirdlərə tapşırıqlarını daha qısa yazılmış variantda təqdim etməyə və ya öyrəndiyini fərqli vasitə ilə nümayiş etdirməyə icazə verin.
• Nəzərə alın ki, görmə məhdudiyyəti olan uşaqların vizual vasitələrlə təlim alma ehtimalı azdır və həmin vasitələrdən istifadəsi də az olacaq (məsələn, sinif planını görməsi, saatda vaxtı yoxlaması, təlimat materialları və sinif otağının qaydaları və s. Daxil olmaqla divardakı əyani vasitələrin və materialların oxunması).
• Görmə məhdudiyyəti olan uşaqlar təlim yerlərində oriyentasiya və səfərbərlikdə köməyə ehtiyac duyacaqlar. Sinfin planı, kitabxana, yeməkxana və məktəbin digər əsas ərazilərə bələd olması üçün görmə məhdudiyyəti olan uşaqlara vaxt verin ki, onu əhatə edən mühit ilə tanış olsun və ətrafda hərəkət edərkən inamlı olsun. Məktəbin planı və məktəbin fövqəladə hallar üzrə prosedurlarını görmə məhdudiyyəti olan uşaq üçün aydınlaşdırın (məs., tualetlər, idman zalı, kitabxana, yeməkxana, təlimat otağı, oyun meydançası və s.).
• Görmə məhdudiyyəti olan uşaqlar adlar ilə simaları əlaqələndirməyə bilərlər, ona görə də həmin uşaqlara öz sinif yoldaşları ilə tanış olmaq üçün vaxt verin. Məqsədyönlü şəkildə sinif yoldaşları ilə kiçik qruplar və ya fərdi şəkildə tanış ola biləcəkləri fəaliyyət və təcrübələr təşkil edin.

ƏSAS HİSSƏ

İNKLÜZİV TƏHSİLDƏ TİFLOPEDAQOQUN ROLU: İnklüziv təhsil mühitində tiflopedaqoqun fəaliyyəti təkcə tədris prosesi ilə məhdudlaşmır. Onlar görmə məhdudiyyətli şagirdlərin təlim, tərbiyə və sosial inkişafının bütün mərhələlərində mühüm rol oynayırlar. Bu mütəxəssislər şagirdlərin fərdi xüsusiyyətlərini, təhsil ehtiyaclarını və inkişaf səviyyəsini nəzərə alaraq uyğun metodika və tədris vasitələri seçirlər.

Tiflopedaqoqun əsas funksiyalarından biri görmə məhdudiyyətli şagirdlərin ümumi təhsil proqramına uyğunlaşdırılmış fərdi təhsil planlarının hazırlanmasıdır. Bu planlar uşağın potensial imkanlarını nəzərə alaraq, təlimin məqsəd və vəzifələrini konkretləşdirir və təhsil nəticələrinin əldə edilməsini təmin edir. Tiflopedaqoqlar eyni zamanda dərs resurslarının adaptasiyası, Brayl materiallarının hazırlanması və istifadə olunması sahəsində də aktiv iştirak edirlər.

İnklüziv mühitdə tiflo pedaqoqun rolu həm də müəllimlərə və valideynlərə metodik dəstəyin göstərilməsi ilə əlaqəlidir. Onlar ümumi sinif müəllimlərinə görmə məhdudiyyətli uşaqlarla işləmək üçün təlimatlar verir, dərs zamanı istifadə olunacaq materialları uyğunlaşdırır və inklüziv yanaşmanın

effektivliyini artırmaq üçün mütəmadi müşahidələr aparırlar. Eyni zamanda valideynlərlə əməkdaşlıq edərək uşağın məktəb mühitində sosiallaşmasına və emosional inkişafına dəstək olurlar.
Tiflo pedaqoqlar inklüziv təhsildə həm pedaqoji, həm də psixoloji çətinliklərlə üzləşirlər. Görmə məhdudiyyətli şagirdlərin təlimində fərdi yanaşma tələb olunduğu üçün təhsil müəssisələrində kifayət qədər resurs və zaman çatışmazlığı, habelə müəllim heyətinin kifayət qədər hazırlıqlı olmaması bu prosesi çətinləşdirir. Digər tərəfdən, tiflo pedaqoqların özlərinin də peşəkar inkişaf imkanları məhdud ola bilər ki, bu da inklüziv təhsil keyfiyyətinə birbaşa təsir edir.
Bütün bu çətinliklərə baxmayaraq, tiflo pedaqoqlar inklüziv təhsil sistemində ayrılmaz bir komponentdir. Onların fəaliyyəti yalnız təhsil nəticələrinə deyil, eyni zamanda görmə məhdudiyyətli uşaqların cəmiyyətə inteqrasiyasına və sosial uyğunlaşmasına da böyük təsir göstərir.

BRAYL ƏLİFBASININ TƏDRİSİ: Görmə məhdudiyyətli uşaqlar üçün savad təliminin əsas vasitəsi Brayl əlifbasıdır. Bu sistem onların yazı və oxu bacarıqlarını inkişaf etdirməyə, tədris materiallarına çıxışı təmin etməyə və müstəqil öyrənmə imkanlarını genişləndirməyə şərait yaradır. Brayl əlifbası, nöqtələrdən ibarət xüsusi simvol kombinasiyaları ilə yazı və informasiyanın toxunma yolu ilə qavranmasına əsaslanır və görmə qabiliyyəti olmayan fərdlər üçün əlçatan təhsil resursudur.
Brayl öyrədilməsinə başlamazdan əvvəl tiflo pedaqoq şagirdin yaşını, əl qabiliyyətini, toxunma həssaslığını və diqqət səviyyəsini qiymətləndirir. Bu təhlil əsasında fərdi tədris planı hazırlanır. Məsələn, erkən yaşlı uşaqlar üçün Brayl simvollarının öyrədilməsində oyun texnikalarından və motor bacarıqları gücləndirən məşqlərdən istifadə olunur. Daha böyük yaşlı uşaqlarda isə sistemli oxu və yazı təlimi, mətnlərlə iş, müstəqil tapşırıqlar və qiymətləndirmə mərhələləri tətbiq edilir.
Brayl əlifbasının tədrisində ənənəvi metodlarla yanaşı müasir yanaşmalar da tətbiq olunmaqdadır. Məsələn, interaktiv Brayl lövhələri, elektron Brayl kitabçaları və rəqəmsal simulyasiyalar uşaqların öyrənməyə olan marağını artırır və tədris prosesini daha effektiv edir. Eyni zamanda, səsli geribildirim sistemləri ilə birgə istifadə olunan Brayl cihazları uşağın səhvlərini anında müəyyən edib düzəltməyə imkan verir ki, bu da öyrənmə sürətini artırır.
Tədris prosesi zamanı qarşıya çıxan çətinliklərə gəldikdə isə, bunlara müəllim çatışmazlığı, təlim materiallarının və Brayl resurslarının məhdudluğu, bəzi valideynlərin və təhsil işçilərinin bu sistem barədə kifayət qədər məlumatlı olmamaları daxildir. Bu çətinliklər, tiflo pedaqoqların peşəkarlığı və yaradıcılığı hesabına bəzən aradan qaldırılsa da, sistemli yanaşma olmadan davamlı nəticə əldə etmək çətindir.
Buna baxmayaraq, Brayl əlifbasının effektiv tədrisi görmə məhdudiyyətli şagirdlərin təhsil həyatında əsaslı rol oynayır. Bu bacarıqlar onların həm akademik uğurlarını, həm də gələcəkdə peşə seçimini və cəmiyyətə inteqrasiyasını birbaşa müəyyən edir. Tiflo pedaqoqlar bu prosesdə bilik və peşəkar təcrübələri ilə həlledici mövqedə dayanırlar.

TİFLOPEDAQOGİKADA TEXNOLOJİ DƏSTƏK VƏ İNNOVATİV İMKANLAR: Texnologiyanın təhsildə rolu günümüzdə daha da artmaqdadır və bu inkişaf inklüziv təhsil sahəsinə, xüsusilə də tiflo pedaqogikaya da təsirsiz ötüşməyib. Görmə məhdudiyyətli uşaqlar üçün tədrisin səmərəliliyini artırmaq məqsədilə texnoloji vasitələrin istifadəsi vacib və qaçılmazdır. Bu texnologiyalar həm tədris prosesinin fərdiləşdirilməsini təmin edir, həm də şagirdlərin müstəqil öyrənmə bacarıqlarını formalaşdırır.
Tiflo pedaqogikada istifadə olunan əsas texnoloji vasitələrə Brayl ekranları, səsli kompüter proqramları, ekran oxuyucular, mobil tətbiqlər və sensor texnologiyalar daxildir. Elektron Brayl disiplay-lar (brayl ekranlar) vasitəsilə görmə qabiliyyəti olmayan şagirdlər mətnləri toxunaraq oxuya və eyni zamanda kompüter üzərində yazılı şəkildə fəaliyyət göstərə bilirlər. Bu, həm onların texnologiyadan istifadəsini asanlaşdırır, həm də təhsil resurslarına çıxış imkanını genişləndirir.
Səsli proqram təminatları – məsələn, “JAWS” (Job Access With Speech) və ya “NVDA” (NonVisual Desktop Access) – şagirdlərin mətnləri kompüter vasitəsilə dinləməsinə imkan yaradır. Bu

proqramlar həm gündəlik dərslərə, həm də müstəqil öyrənmə fəaliyyətlərinə inteqrasiya edilə bilər. Eyni zamanda mobil cihazlara uyğunlaşdırılmış müxtəlif təlim proqramları və interaktiv tətbiqlər şagirdlərin motivasiyasını artırır və öyrənmə prosesini daha əyləncəli və əlçatan edir.
Tiflotexnologiyalar yalnız şagirdlər üçün deyil, tiflo pedaqoqlar üçün də metodik imkanları genişləndirir. Onlar bu alətlərdən istifadə edərək fərdi təhsil proqramlarını daha effektiv şəkildə hazırlaya bilir, dərs prosesində geribildirim verə bilir və qiymətləndirmə mərhələsində obyektivlik əldə edirlər. Bu texnologiyalar vasitəsilə müəllimlər dərsləri rəqəmsallaşdıraraq daha çevik və interaktiv formada təqdim edə bilirlər.
Lakin bu sahədə də bir sıra çətinliklər mövcuddur. Texnoloji vasitələrin qiymətinin yüksək olması, bəzi təhsil müəssisələrinin bu texnologiyalarla təmin edilməməsi və müəllimlərin kifayət qədər texnoloji hazırlığa malik olmamaları inklüziv təhsildə texnologiyanın tətbiqini məhdudlaşdıran əsas amillərdəndir. Bundan əlavə, tiflo pedaqoqların bu texnologiyalardan necə effektiv istifadə edəcəyini bilməsi üçün müntəzəm təlimlərə və resurslara ehtiyac vardır.
Bütün bu çətinliklərə baxmayaraq, texnoloji dəstək vasitələrinin tiflo pedaqogikaya inteqrasiyası bu sahənin inkişafı üçün vacib istiqamətdir. Müasir texnologiyalar görmə məhdudiyyətli şagirdlərə təhsil imkanlarını bərabər səviyyədə təqdim etməklə onların cəmiyyətə tam inteqrasiyasına və həyat keyfiyyətinin yüksəlməsinə xidmət edir.

NƏTİCƏ

İnklüziv təhsil mühitində tiflo pedaqoqun fəaliyyəti, Brayl əlifbasının tədrisi və müasir texnoloji vasitələrin tətbiqi bir-biri ilə sıx əlaqəlidir və görmə məhdudiyyətli şagirdlərin uğurlu təhsil həyatını təmin etmək üçün əhəmiyyətli rol oynayır. Bu sahədə aparılan təhlil göstərir ki, tiflo pedaqoqlar yalnız müəllim deyil, eyni zamanda metodist, psixoloji dəstəkçi və texnologiya istifadəçisi kimi çoxşaxəli funksiyaları yerinə yetirirlər.
Brayl əlifbası görmə qabiliyyəti olmayan uşaqlar üçün savadın əsas daşıyıcısı olaraq qalır. Onun tədrisi yalnız texniki bacarıq deyil, həm də səbr, fərdi yanaşma və sistemli metodik hazırlıq tələb edir. Bu sahədə müasir texnologiyaların tətbiqi – xüsusilə rəqəmsal Brayl alətləri və səsli proqramlar – tədris prosesini daha əlçatan və motivasiyaedici hala gətirir.
Lakin qeyd olunmalıdır ki, tiflo pedaqogikanın inkişafı üçün struktur səviyyəsində müəyyən problemlər mövcuddur: maddi-texniki baza, kadr hazırlığı və ictimai maariflənmə bu sahədə əsas çatışmazlıqlar sırasındadır. Tiflo pedaqoqların peşəkar inkişafı, müəllim və valideynlərlə effektiv əməkdaşlıq, eləcə də məktəblərin texnoloji imkanlarla təchiz edilməsi inklüziv təhsilin keyfiyyətinə birbaşa təsir göstərir.
Bu əsasları nəzərə alaraq, aşağıdakı təklif və tövsiyələr irəli sürülə bilər:
1. Tiflo pedaqoqların peşəkar inkişafı üçün davamlı təlimlər təşkil olunmalı, müasir texnologiyalarla işləmək bacarıqları artırılmalıdır.
2. Brayl materiallarının və texnoloji resursların əlçatanlığı genişləndirilməli, məktəblər bu vasitələrlə təmin olunmalıdır.
3. İnklüziv məktəblərdə resurs mərkəzləri yaradılaraq tiflo pedaqoqlara və digər mütəxəssislərə dəstək göstərilməlidir.
4. Valideynlərlə sıx əməkdaşlıq və maarifləndirmə tədbirləri vasitəsilə uşağın məktəbə və cəmiyyətə uyğunlaşma prosesi dəstəklənməlidir.
5. Elmi tədqiqatlar və statistik araşdırmalar artırılmalı, tiflo pedaqogikanın real vəziyyəti və ehtiyacları daha dəqiq öyrənilməlidir.
Nəticə olaraq demək olar ki, tiflo pedaqoji dəstək, Brayl savad təlimi və texnologiyanın birgə tətbiqi inklüziv təhsilin effektivliyini əhəmiyyətli dərəcədə artırır. Bu istiqamətdə sistemli yanaşma və dövlət dəstəyi ilə görmə məhdudiyyətli uşaqların tamhüquqlu təhsil alması və cəmiyyətə inteqrasiyası mümkün olacaqdır.

ƏDƏBİYYAT:

1. Awang, A., Rani, I. F. A., Kway, E. H., & Rahman, S. N. (2024). Technologies and approaches in Braille education: A systematic literature review. International Journal of Modern Education, 6(22), 336–351. https://gaexcellence.com/ijmoe/article/view/4231
2. Yang, C., & Taele, P. (2025, April 23). AI for accessible education: Personalized audio-based learning for blind students. arXiv. https://arxiv.org/abs/2504.17117
3. Navas-Bonilla, C. D. R., Guerra-Arango, J. A., Oviedo-Guado, D. A., & Murillo-Noriega, D. E. (2025). Inclusive education through technology: A systematic review of types, tools, and characteristics. Frontiers in Education. https://doi.org/10.3389/feduc.2025.1527851
4. Know the ADA. (2025). The future of Braille technology in a digital world. https://know-the-ada.com/the-future-of-braille-technology-in-a-digital-world/
5. Battle for Blindness. (2024). Assistive tech in education: Tools for visually impaired students. https://battleforblindness.org/accessible-learning-educational-tools-for-visually-impaired-students-learn-about-the-tool
6. Samaniego López, M. V., Orrego Riofrío, M. C., Barriga-Fray, S. F., & Paz Viteri, B. S. (2025). Technologies in inclusive education: Solution or challenge? A systematic review. Education Sciences, 15(6), 715. https://doi.org/10.3390/educsci15060715
7. Wikipedia contributors. (2025). Braille technology. Wikipedia. https://en.wikipedia.org/wiki/Braille_technology

A REFLECTİON OF IRONY İN CLASSİCAL TURKİSH LİTERATURE: AN ANALYSİS OF ZÂTÎ'S RESPONSE TO FERÎDÎ

KLASİK TÜRK EDEBİYATINDA İRONİNİN BİR TEZAHÜRÜ: ZÂTÎ'NİN FERÎDÎ'YE CEVABI ÜZERİNE BİR DEĞERLENDİRME

Dr. Filiz DUMAN
T.C. Meb Isparta Şehit Ramazan Yiğit İmam Hatip Ortaokulu

Özet
Klasik Türk edebiyatında hiciv, nazire, tehzil, istihzâ (ironi) gibi söz sanatları şairlerin edebî kimliklerini ortaya koymalarında önemli bir yer tutmuştur. Ayrıca şairlerin edebî rekabet ortamında ifadelerini kuvvetlendirmelerini sağlamıştır. Bu sanatlar, şairlerin birbirlerine cevap vermede kullandıkları yaygın bir gelenektir. Özellikle de hiciv ve ironiyi şairler sıklıkla kullanmışlardır. Bu bildiride, 16. yüzyıl divan şairlerinden Zâtî'nin, kendisini hicveden Ferîdî'ye yazdığı nazm üzerinden klasik edebiyatımızda hiciv ve ironinin kullanımı ele alınmıştır. Ferîdî'nin "Ne okır ne yazar ne hod işidür / Vây anun şâ'ir ağzını yabatî" beytiyle Zâtî'yi açıkça hedef alıp eleştirmesine karşılık Zâtî'nin ona cevaben yazdığı yedi beyitlik nazm, istihzânın usta işçiliğiyle doludur. Ferîdî'nin mısralarında açık bir taarruz söz konusuyken Zâtî'nin beyitlerinde onun ince zekasından süzülen dizelerle karşılaşılmaktadır. Ferîdî'nin iki mısralık şiirinde doğrudan Zâtî'nin kişiliğini hedef alan ağır eleştirisi söz konusudur. Buna karşılık Zâtî ise yedi beyitlik bir nazmla Ferîdî'ye mizahî cevap vererek şair karşısında ayrı bir üstünlük kurmuştur. Ayrıca Zâtî'nin rakibini ince bir alayla küçük düşürmeye çalışmasını mısralarında ustalıkla işlediği görülmektedir. Bildiride hiciv ve ironi tanımlanmakta, klasik edebiyattaki kullanım alanlarına değinilmekte; Zâtî ve Ferîdî'ye ait metinlerin karşılaştırmalı analizi yapılmaktadır. İki şairin arasında bir rekabet söz konusudur. Bu rekabetin mısralardaki tezahürü de onların kişilik özellikleri hakkında okuyucuya bilgi vermektedir. Bildiride metinler bu bakımdan da ele alınmıştır.
Anahtar Kelimeler: Zâtî, Ferîdî, ironi, hiciv, Klasik Türk Edebiyatı

Abstract
In Classical Turkish literature, satirical tools like hiciv (satire), nazire (poetic imitation), tehzil (mockery), and istihzâ (irony) hold a significant place, particularly in the poet's literary persona and in that one acquires the ability to articulate more in the competitive poetic scenario. They occur, though often in the guise of poetic reply or answer by one poet to another, with hiciv and irony being the most frequent and efficacious ones. It discusses how the uses of satire and irony in classical literature are perceived from the viewpoint of a poetic exchange between two 16th-century Ottoman poets, Zâtî and Ferîdî. He responded to Ferîdî's poem, "Ne okır ne yazar ne hod işidür / Vây anun şâ'ir ağzını yabatî" (He neither reads nor writes, nor even hears / Woe to the one who declares that man to be a poet), that accuses and censures Zâtî openly, with the latter responding with a seven-couplet verse that is a masterclass in the application of irony. While Ferîdî's couplet is a nasty and explicit personal attack, Zâtî's reply is marked by clever wit and high-level satire in response. With his extended poetic reply, Zâtî asserts rhetorical and aesthetic superiority over his opponent. His verses playfully tease and belittle his opponent with skillful use of humor and sarcasm. This paper defines hiciv and irony, analyzes their application in ancient poetry, and presents a comparative text analysis of the poems of Ferîdî and Zâtî. The poetic rivalry also illustrates a concealed rivalry among the two poets, and the articulation of this rivalry in their poems provides indications of their personal and creative characters.
Keywords: Zâtî, Ferîdî, irony, satire, Classical Turkish Literature

Giriş

Zengin bir edebiyat geleneğine sahip olan Klasik Türk edebiyatında çeşitli söz sanatları ve anlatım teknikleri her zaman şairlerin tercihleri arasında yerini almıştır. Bu gelenekte şairlerin birbirlerine nazire, tehzil, ironi ya da hiciv yoluyla cevap vermeleri yaygın bir gelenektir. Bu cevaplaşmalarda ironik anlatım ve hiciv önemli bir dil stratejisi olarak kullanılmıştır. Özellikle hicivleşmenin ve ironinin örneklendiği bazı nazımlar, bu tür söz sanatlarının ve anlatım tekniklerinin işleyişini anlamak açısından önem taşımaktadır. Zâtî ile Ferîdî arasındaki atışma, bu gelenek içerisinde değerlendirilebilecek dikkate değer bir örnektir.

Hiciv ve ironi, divan şairleri arasındaki edebî üstünlük mücadelesinde önem kazanan söylem biçimleri arasındadır. Hiciv, **"***Bir kimseyi, bir nesneyi ya da yeri, bir inancı ya da düşünüş biçimini yermek, toplumun ya da düzenin aksayan, kusurlu yanlarını iğneleyici, alaycı bir dille eleştirmek amacı taşıyan manzum türlerin adı"*dır (Özkırımlı, 1983: 634). İroni ise Türkçe Sözlük'te "*gülmece, söylenen sözün tersini kastederek kişiyle veya olayla alay etme*" (TDK, 2011: s. 1215) olarak tanımlanmıştır. İronide ince bir alay söz konusu iken hicivde ise doğrudan ve sert bir söyleyiş biçimiyle karşılaşmaktayız. İki teknik de görünüşte benzer görevleri gerçekleştiriyormuş gibi olsa da temelde teknikler arasında üslup ve niyet farklılıkları bulunmaktadır. Bu durum da tekniklerin ayrı ayrı ele alınmasını gerekli kılar.

Şairin mısralarında hicve yer vermesinin nedenleri çoktur. Nedenlerine göre de şairin üslubu değişmektedir. Düşmanlık, nefret gibi nedenlerle yapılan hicivlerde şair sertleşir, hicvettiği kişinin onurunu kırabilir, söylemi küfre kadar varabilir (Yılmaz, 2023: 17). Oysa ironide şair, doğrudan hakaret etmez. İnce zekâsı ve dil oyunlarıyla rakibini küçük düşürür, onun iddiasını kendi sözleriyle çürütmeyi amaçlar. Klasik şairler bu tür ironik göndermelerle hem dil kudretlerini hem de entelektüel üstünlüklerini ortaya koymaya çalışmışlardır. Bu sebeple, hiciv ve ironi arasında zihinsel ve kültürel bir ayrım da söz konusudur. Entelektüel bir tavır sergileyen şairler, ince bir alay ve dil oyunlarının yer aldığı ironi yöntemini kullanırken; sert bir söylemi tercih eden çatışma içerisine girerek ön planda olmayı seçen şairler de hicvi tercih etmişlerdir. Bu durum şairlerin etkileşimlerinde ve polemiklerinde sergiledikleri tavırla edebî kimliklerinin oluşmasına neden olmuştur. Ayrıca her iki teknik de Klasik Türk edebiyatında şairler arasındaki rekabet ve edebî üstünlük mücadelesinin bir parçası olmuş bu nedenle de sıklıkla kullanılmıştır.

Bu çalışmada, 16. yüzyılın önemli şairlerinden Zâtî ile yine dönemin şairleri arasında yer alan Ferîdî arasındaki "yebâtî"[1] içerikli karşılıklı beyitler, ironi ve hiciv bağlamında incelenecektir. Ferîdî'nin Sırpça bir küfür olan "yebâtî" ifadesini kullanarak Zâtî'yi hicvetmesi ve Zâtî'nin buna verdiği ironik cevap, dönemin edebî rekabet ortamını ve hiciv anlayışını yansıtması açısından dikkat çekicidir. Ayrıca "yebâtî" içerikli bu nazmlar sadece şairlerin dil ustalığının, edebî zekâsının ve sosyal konum mücadelesinin nasıl bir bütünlük gösterdiğini ve dönem için önemini göstermesi açısından da önemli bir örnek teşkil etmektedir. Bildirinin amacı, bu edebî polemik üzerinden Klasik Türk edebiyatında ironinin ve hicvin işleyişini incelemek ve bu tekniklerin dönemin şairlerinde oluşturduğu üslup farklılıklarının oluşumundaki etkisini ortaya koymaktır.

Zâtî'ye Yönelik Bir Tenkit Olarak Ferîdî'nin Hicvi:

16. yüzyıl şairlerinden olan Ferîdî (?- 1534) Üsküplü'dür. Şairin asıl adı Haraccı Hüsam'dır. Divan katipliği yapan şair daha sonra Edirne'de Dârü'l-hadîs imaretine mütevelli olmuştur. Âşık Çelebi, *Meşâ'irü'ş-Şu'arâ*'da onun için şair Zâtî ile çok mühâcâtı (hicivleşme) olduğunu ifade etmiştir (Kılıç,

[1] "Yebâtî" kelimesi halk arasında Sırpça kökenli bir argo sözcük olarak kullanılmakta ve "jebati" fiiliyle ilişkilendirilmektedir. Ancak yapılan sözlük taramalarında bu biçimde bir karşılığa doğrudan rastlanmamıştır. Sırpça bir sözlükte benzer anlam alanında "ub(i)jati" ve "obljubiti" (Dındıc, 2014: 192, 1197) gibi fiillere yer verildiği görülmektedir. Bu durum, söz konusu kelimenin halk dilindeki biçimiyle sözlüklerdeki şekli arasında bir farklılaşmaya işaret etmektedir.

2010: 1183). Bu hicivlerden birisi de şairin Zâtî'yi cehaletle ve avamcılıkla suçlayan doğrudan bir hiciv örneği olan aşağıdaki beytidir:

Ne okır ne yazar ne hod işidür
Vây anun şâir ağzını yebâtî
"Ne okur ne yazar ne de bir şey duyar, vay o şair ağzının yebâtîliğine (çirkinliğine)!"

Bu beyitte Ferîdî, Zâtî'yi hem edebî yönden hem de kişilik özelliği bakımından hicvetmiştir. İlk mısrada Zâtî'nin okuma-yazma bilmediği ve duyma yetisinin de olmadığı iddia edilerek şairin entelektüel kapasitesi ve şairlik yeteneği sorgulanmıştır. Bu, şair Zâtî'nin en temel niteliklerini hedef alan ağır bir eleştiridir.

İkinci mısrada da "şair" kelimesi kullanılarak Zâtî'nin şairliğini kabul etmiş gibi görünen Ferîdî, hemen ardından Sırpça bir küfür olan "yebâtî" ifadesini kullanarak bir çelişki oluşturmuştur. Ferîdî, "Vay anun şâir ağzına" ifadesi ile bir şaşkınlık içerisindeymiş gibi görünürken aslında Zâtî'nin ağzından çıkan şiirlerin değersizliğini ima etmek istemiştir. "Yebâtî" sözcüğü de bu ifadeyi güçlendirmiştir.

Orhan Okay, hiciv yazarının konusuna nefretle baktığını; yaralamak, yıkmak ve yok etmek üzerine hicvini oluşturduğunu ifade etmiştir (Okay, 1998: 447). Bu beyitte de Ferîdî, Zâtî'yi cehaletle suçlayarak yaralamıştır. Ferîdî Zâtî için ne okuma ne yazma bilir, hatta işitip öğrenme yetisinden de yoksundur, diyerek onu yıkmıştır. Ayrıca ağzının (üslubunun) çirkinliğini de "yebâtî" (kaba, hoyrat, avamca) kelimesiyle küçümseyerek onu yok etmeye çalışmıştır. Bu açık bir eleştiri ve aşağılama beytidir. Ferîdî bu beyitte bir ironi değil, doğrudan sert bir yergi yaparak Zâtî'ye taarruz durumunda olduğunu göstermiştir. Ancak Ferîdî, Zâtî'nin şairliğini kaba bulduğunu ifade etmek için kullandığı Sırpça bir küfür olan "yebâtî" sözcüğünü edebî bir ürün olan beytinin mısralarında kullanmıştır. Ferîdî, Zâtî'yi eleştirdiği kabalık durumunu kendisi de dizesinde göstermiştir. Şairin eleştirdiği bir durumu mısralarında sergilemesi şairlik yeteneğinin sorgulanmasına sebep olmuş, söylemiyle eylemi arasındaki çelişkiyi ortaya çıkarmıştır.

Bir Hakaretin Sanata Dönüşümü: Ferîdî'ye İronik Bir Cevap

16. yüzyıl şairlerinden olan Zâtî (1471-1546), Balıkesirlidir. Asıl adı Latîfî, Sehî, Kınalızâde tezkirelerine göre Bahşî; Âşık Çelebi'ye göre Satılmış'tır. Şairi bizzat tanıyan Âşık Çelebi, Zâtî'nin asıl adının İvaz olduğunu belirtmiştir (Tarlan, 1967: X-XII). Gençlik yıllarında çizmecilik yaparak geçimini sağlayan şair, İstanbul'a gittikten sonra şairlik mesleğiyle geçinmiştir. Kulağının az işitmesi nedeniyle memurluğa getirilmeyen Zâtî'ye Bursa'da tevliyet (vakıf mallarına bakma) görevi verilmiştir ancak Zâtî kabul etmemiş, şairliğe devam etmiştir. Hayatının son dönemlerinde ise Beyazıt Camii avlusundaki dükkânı sayesinde geçimini sağlamıştır (Armutlu, 2018: 1936-1941). Zâtî hicivci bir kişiliğe sahiptir. Bu durum onun edebî yönünü göstermektedir. Zâtî'nin hicivlerinde ince hayaller mevcuttur ve zekâ ön plandadır. Ancak kaba sözler, itham, küfür gibi sıradan ifadelere de hiciv içerikli mısralarında yer vermiştir. Zâtî'nin yergilerinde ona gösterilen tavra karşı bir tutum sergilediği gözlemlenmiştir. İnce nüktelere incelikle, kaba hitaplara kabalıkla cevap vermiştir (Armutlu, 2018: 1942-1943). Bildirimize konu olan Ferîdî ile arasındaki hicivleşmede şairin hicivle değil ironiyle karşılık verdiği görülmüştür. Şair; Ferîdî'nin taarruzuna karşı sakin kalmış, ince zekasından süzülen ironik mısralarıyla ona cevap vermiştir. Bu bağlamdan hareketle Zâtî'nin Ferîdî'ye yazdığı beyitlere geçmeden önce ironiyle ilgili malumatlara bakmak gerekmektedir.

Tuğluk'a göre ironi her şeyden önce bir eylemdir ve amacı hesaplanmış bir söz manevrasıdır. Bu manevra ötekine göndermede bulunmak için yapılmış hassas ve akıl dolu bir aktarımla gerçekleşir. İroni; doğrudan ifade yerine dolaylı, çoğu zaman zıt anlamlı bir söylemle muhatabı düşünmeye sevk eden söylemsel bir stratejidir. Anlamın tersyüz edilmesiyle işleyen bu söylem, farkındalık oluşturma amacı taşırken aynı zamanda bir tür söylemsel taarruza da dönüşebilir (Tuğluk, 2017: 444). Sim'e göre ironi, ciddi görünen olguları itibarî olarak küçümsemenin ve ciddiye almamanın bir yoludur. Cebeci ise ironinin söylemi güçlendirme, toplumsal zaafları teşhir etme ve farkındalık kazandırma

işlevlerine dikkat çeker (Cebeci, 2008: 307). İroni; ironist, muhatap (kurban) ve bağlam üçlüsü etrafında şekillenen, psikolojik ve söylemsel üstünlük kurma çabasıdır (Tuğluk, 2017: 462). Beliz Güçbilmez, ironinin konuşan kişinin muhatabını küçük düşürmek için, övüyor gibi yapıp onu eleştirdiği ve suçladığı durumlarda kullandığı bir söz hüneri olduğunu ifade etmiştir (Güçbilmez, 2005: 12-13). Klasik Türk edebiyatında da ironi muhatabını övüyormuş gibi görünür, ancak ironide bir alay ve dolaylı bir yergi söz konusudur. Bildirimizin konusunu teşkil eden Ferîdî'nin hicvine karşılık Zâtî'nin cevabında da ironinin kendisini görmek mümkündür.

Zâtî yedi beyitlik nazmını *mefâʿîlün mefâʿîlün feʿîlün* kalıbıyla kaleme almıştır. Nazmın iki farklı okuması mevcuttur. Bu farklılık bazı beyitlerin yerlerinin değişmiş olmasıdır ki bu da muhtemelen müstensih farklılığından kaynaklanmıştır. Bazı beyitlerde de sözcük farklılıkları mevcuttur. Kaynaklardan birisi Sayın Filiz Kılıç'ın transkribe ettiği Âşık Çelebi tezkiresidir (Kılıç, 2010: 1184). Diğeri de Sayın Orhan Kurtoğlu'nun Zâtî Divanı'dır (Kurtoğlu, 2017: 314). Farklı olan beyitler açıklama yapılırken belirtilecektir.

Tutup tîg-i zebân ile cihânı
Ferîdî oldı Zü'l-karneyn-i sânî
(Ferîdî, dil kılıcıyla dünyayı fethetti; o, ikinci Zülkarneyn oldu.)

Zâtî burada Ferîdî'ye tarihî ve manevî bir şahsiyet elbisesi giydiriyor gibi yapmış ancak aslında **ağır bir ironi** kullanmıştır. Ferîdî'yi, Kur'an'da adı geçen ve divan şiirinde dünyanın pek çok yerini fethetmesi nedeniyle cihangirliği yönüyle ele alınan İskender-i Zülkarneyn'e (Pala, 2004: 237) benzetmiştir. Ancak şair aslında rakibiyle **alay etmiştir.** Ferîdî'nin gücünün Zülkarneyn gibi olmadığını, sadece "dil" ile yani boş konuşmalarıyla cihanı sözde fethettiğini ifade etmek istemiştir.

Depesi üstine bir çârtâkı
Be-gâyet mâlı çokdur yapdı anı
(Onun malı gayet çoktur; (bu nedenle) o, başının üstüne dört köşeli bir kule yaptı.)

Şair Zâtî, bu mısralarında da yine Ferîdî'yi övüyormuş gibi gözükür. Beyitte Ferîdî'nin zengin oluşuna vurgu yapılarak başının üstüne onu gölgeleyecek dört köşeli bir tâk yaptırdığı ve bu da onun malının çokluğunu gösterdiğini ifade etmiştir. Ancak kullanılan mazmunlarda şairin onunla alay ettiği anlaşılmaktadır. Zâtî, Ferîdî'nin başının üstüne yaptırdığı dört köşeli kulenin aslında onun kafasında kurduğu boş hayaller olduğunu belirtmek istemiştir. Şair; Ferîdî'nin "malı çoktur" ifadesiyle de onun söyleyecek çok fazla boş sözü vardır, demek istemiştir. Burada şair, **Ferîdî'nin gösteriş merakına** ve kibrine vurgu yaparak ironinin inceliklerini dizelerinde işlemiştir.

Be-gâyet pehlevândur koç yigitdür
Tokuşdursak gidi kâfirle anı
(Ferîdî, gayet iyi bir pehlivandır, o bir koç yiğittir. Bu nedenle onu bir kâfirle çarpıştırmak gerekir.)

Şair bu beytin birinci dizesinde Ferîdî'nin yiğit bir pehlivan olduğunu vurgulayarak onu övüyormuş gibi gözükmüştür. Bu övgünün yerini ikinci dizede ise ironi devralmıştır. Tuğluk, ironistin rakibi olan kurbana onun yanlış anlayacağı bir sözün ortaya çıkaracağı hazzı yaşamak istediği için söylemin ikili gücünü kullandığını ifade eder (Tuğluk, 2017: 462). Şair bu beyitte kurbanı olan Ferîdî'ye "tokuşturmak" sözcüğü üzerinden yüklenmiştir. Zâtî, pehlivanlığından dolayı Ferîdî'yi bir kâfirle tokuşturmayı önermiştir. Burada açık bir alay ve küçümseme vardır. Ferîdî'nin cesur bir pehlivan olduğu söylenir ama bu, onunla dalga geçerek bir kâfirle dövüştürme çağrısına dönüşmüştür. Çünkü onun gücü ancak bir kâfire yeter, bir Müslümanla çarpışmaya kuvveti yoktur mesajı verilmek istenmiştir. Ayrıca "tokuşturmak" ifadesi de şair tarafından özellikle seçilmiş bir kelimedir. Bu kelimeyle Ferîdî'ye hayvan yakıştırması yapıldığı görülmüştür.

Nazmın farklı beyitlerinden birisi budur. Orhan Kurtoğlu'nun transkribe ettiği beyit aşağıdadır:

Nazîri yok ziyâde koç yigitdür
Amanda Amandus adının qadın cinsinə verilən formasıdır. Latın dilində "sevimli, sevgiyə layiq" kimi işlənir. *Barbara "barbaros"* sözündən götürülmüşdür və "xarici, əcnəbi" mənası verir. Əsasən, qadın keşişlərə verilən adlar sırasındadır. *Christina Christianus* adından götürülmüşdür, skandinavlar tərəfindən gətirilməsinə baxmayaraq, ingilis dilində XVII əsrdən etibarən geniş istifadə olunan adlar sırasında qeyd olunur. *Helen* yunan mifologiyasından götürülmüşdür və "məşəl" mənasını verir. *İsabella* adının da bir-neçə forması mövcuddur*: İsabel, Bella, Belle* və s.

İngilis dilində adlandırma prosesinə 1066-cı ildə normanların işğalı öz təsirini göstərmişdir. Həmin dövrdə anqlo-sakson qoşunları normanlar tərəfindən məğlubiyyətə uğradıldı. Bununla da Norman hersoqu Vilhelm İngiltərə kralı elan olundu. Onun hakimiyyəti dövründə də məhz köç prosesi baş vermiş, onlar da öz dillərində yəni fransız dilində danışmağa başlamışlar. Qısa bir zamanda normanlar anqlo-sakson mənşəli adları sıxışdırmış, öz adlarından istifadə etməyə başlamışlar. Bu adlardan istifadə yüksək zümrənin təbəqələri tərəfindən baş tutmuşdur. İstifadə olunan norman antroponimlərindən *Hugo, Robert* kimi adları misal göstərmək olar. Lakin, anqlo-sakson adları tam olaraq yox olmamışdı. Əhalinin aşağı təbəqəsi tərəfindən də *Edward, Edmund* kimi anqlo-sakson mənşəli adlardan da istifadə olunurdu." [Qurbanova: 2010, 77]

Normanların işğalından sonra ingilis dilində istifadə olunan bəzi adlara nəzər salaq.

William Willahelm adından götürülmüşdür. "*Will"* - arzu, istək, "*helm*" - dəbilqə mənasını verir. William normanlar tərəfindən sıx işlədilən adlardan idi. İngiltərədə Normandiya hersoqu Vilhelm İngiltərə kralı elan olunduqdan sonra, əsasən, yüksək təbəqənin nümayəndələri tərəfindən istifadə olunmağa başlandı. Bədii ədəbiyyatda isə V.Şekspirdən sonra işlənmişdir.

Robert iki hissədən ibarətdir, "*hrod"* - şan, şöhrət, "*beraht"* - parlaq, işıqlı mənasını verir. Fransanın iki kralı, üç Normandiya hersoqu tərəfindən istifadə olunduqdan sonra XI əsrdə ingilis dilinin ad sisteminə daxil olmuşdur. Bədii ədəbiyyatda isə *Robert Browning, Robert Burns, Robert Frost* kimi yazıçılarda bu adla rastlaşırıq.

Henry fransızlar tərəfindən ingilis dilinə gətirilmişdir. *"Heim*" - ev, *"ric"* -güc, qüvvət mənasını verir.
Alice adının qədim fransız dilində *Aalis, Adelais* kimi formaları vardır, lakin ingilis dilində *Alice* kimi mənimsənilmişdir. Daha sonra XIX əsrdə *"Alice's Adventures in Wonderland"* və *"Through the Looking Glass"* əsərlərindən sonra məşhur olan adlar sırasındadır.
Matilda X əsrdə Avropada tanınmış adlar sırasında idi və İngiltərəyə Normanlar tərəfindən gətirilmişdir. *"Maht"* - güc, *"hild"* - döyüş mənasını verir. XVIII əsrdən sonra *Maud* kimi qısaldılmış formasından da istifadə olunmuşdur. [.www.behindthename.com]
Şəxs adlarında normanların təsiri orta əsrlərdə getdikcə azalmağa başladı. XIII- XV əsrlərdə İngiltərədə demək olar ki, norman adlarından istifadə olunmamışdır. Orta əsrlər dövrünün bir sıra xarakterik xüsusiyyətləri vardır. Əsasən, bu dövrdə qədim adlardan istifadə artmış, kilsə hakimiyyəti və xristian dininin təsiri özünü göstərmişdir.
Orta əsrlərdə şəxs adlarında fərqli cəhətləri, əsasən, onların sonunda müşahidə etmək mümkündür. Odur ki, normanların dövründə spesifik olan *-et, -in* və *-on* şəkilçilərinin yerinə, *-cock,* and *-kin* və s. sonluqlarından istifadə olunmuşdur. Kiçiltmə məqsədilə bu şəkilçilərdən istifadə olunmuşdur. *Hankin, Hopkin, Jankin, Larkin, Wilkin, Simcock* və s. kimi adlar buna misal ola bilər. *Hankin Hann* adının,
Hopkin Hob adının, *Jankin Jan* adının, *Larkin Laurence* adının, *Wilkin William* adının, *Simcock* isə *Simon* adının orta əsrlərdə istifadə olunan variantlarıdır.
Orta əsrlərdə latın dilinin yazılış xüsusiyyətləri də özünü göstərirdi. Kişi adlarının sonunda əsasən *-us* şəkilçisindən istifadə olunurdu. *Aldus* adını buna misal göstərmək olar. O, *Aldous* adından götürülmüşdür və latın dilində "*eald*" - qədim, köhnə mənasında işlənir. İngilis dilində orta əsrlərdə nadir hallarda istifadə olunan adlar sırasında idi. Məşhur Britaniya yazıçısı *Oldos Leonard Haksli (Aldous Leonard Huxley)* bu adın daşıyıcılarından biri hesab olunur.
Qadın adları isə kişi adlarına *-a* şəkilçisi artırılmaqla formalaşırdı. Məsələn, *Edith, Joyce* kişi adları idisə, *Eda, Jocosa* onların qadın variantları idi. Həmçinin, latın dilində *-ae* sonluğu orta əsrlər dövründə *-e* sonluğu ilə əvəzləndi. *Amice, Malle, Molle, Rohese, Royse* və s. kimi qadın adlarını misal göstərmək olar. *-Ette, -ina* və*-ota* kimi şəkilçilər isə adların sonuna qoşularaq kiçiltmə mənasını verirdi.
XIII-XIV əsrlərdə işlənən kişi adlarına *Adam, Nicholas, Simon, Peter, Thomas, Richard, Roger, John, Walter* və s. qadın adlarına isə *Juliana, Beatrice, Emma, Cecily, Margery* və s. misal göstərmək mümkündür.
Orta əsrlərin xarakterik xüsusiyyətlərindən biri də eyni adın bir-neçə variantı mövcud idi. Bu da həmin dövrdə normanların təsiri, kilsə hakimiyyəti, qədim adlardan istifadə kimi hallardan irəli gəlirdi. Məsələn, *Ferand Ferdinand* adının bir forması hesab olunur və mənası "hazır olmaq" deməkdir. Onun *Ferant, Ferentus, Ferrand, Ferrant* və s. kimi variantları da vardır. Buna ən yaxşı misal *Fulk* adı ola bilər. Çünki, onun *Folc, Fulco, Fulke, Fulko, Folke, Foulk, Foulque, Folkes, Fulcher, Fulchard* və bir çox variantı mövcuddur.
Qadın adlarında da buna çoxlu misal göstərmək mümkündür. *Emmeline Emma* və *Amelia* adlarının birləşməsindən yaranan mürəkkəb adlar sırasındadır. Onunla eyni mənanı ifadə edən çoxlu nümunələr vardır: *Emeline, Emblen, Enmeline, Emeloth, Emelote, Emelin, Emelot, Emlyn, Emelisse* və s. *Millicent* də məşhur olan adlardan biri idi. "*Amal"* - əmək, zəhmət və "*swinth"* - güc, qüvvət mənasını verir. *Milla, Mylla, Mille, Milisent, Melisenda, Milisandia, Millesant, Milicenta* və s. kimi variantları vardır.
XIV əsrin sonlarında şəxs adlarında Bibliyanın təsiri öz əksini tapmışdır. Çünki, bu dövrdə Bibliya ilk dəfə olaraq ingilis dilinə tərcümə olunmuşdur. Bununla da, xristian adları yayılmağa başlamışdır. Bu dövrdə ən çox işlənən kişi adlarına *Thomas, Abraham, Mark, John* və s. misal göstərmək mümkündür. *Susan, Veronika, Elizabeth, Anne, Mary* və s. adlar isə qadınlara ən çox verilən adlar sırasında yer alır.

Bibliyanın təsirindən sonra ingilis dilində istifadə olunan adların etimologiyasına nəzər saldıqda, yəhudi dilinin təsirini görməmək mümkün deyil. Əsasən, yəhudi tanrılarının bəzi elementləri, şəxs adlarında öz əksini tapır. Bir misala baxaq.

John Johannes adının ingilis variantıdır. Yəhudi dilində isə *Yochanan* adından götürülmüşdür və "*Yahweh dəyərlidir*" mənasını verir. *Yahweh* isə yəhudilərin tanrıları hesab olunur, *Yod Heh Vav Heh* kimi dörd ünsür vasitəsilə formalaşmışdır.

Bibliyanın təsirilə xristian dininin də təsiri getdikcə artmışdır. Yüksək zümrənin nümayəndələri xristian adlarından istifadə etdikləri halda, aşağı təbəqənin nümayəndələri bundan imtina etmişdir. Xristianlıqdan əvvəl İngiltərədə bütpərəslik geniş yayıldığına görə, aşağı zümrədən olanlar uşaqlarına həmin adları verməyə davam edirdilər. Bu dövrdə *Christopher/Christian, Christy, Gabrial, İsaac, Jordan, Joseph* və s. kişilərə; *Eva, Sarah, Susannah, Lillian* və s. qadınlara verilən adlar sırasında idi. *Noah* yəhudi dilində *Noach* adından götürülmüş, "rahatlıq", "istirahət" mənalarını ifadə edir. İngilis dilinə xristianlığın təsirilə gətirilmiş, amma, protestantların çevrilişindən sonra, əsasən, puritanlar tərəfindən istifadə olunmuşdur. Sonrakı dövrlərdə isə onun *Noe, Noes, Noy* kimi variantları da işlədilmişdir. [www.babynames.com]

İngilis dilində ad sisteminə xristianlıq və Bibliya qədər mifologiya da öz təsirini göstərmişdir. Mifoloji şəxs adlarından istifadə həmin dövrdə miflərin və əfsanələrin geniş yayılmasından irəli gəlir. *"Thor"* əfsanələri və *"Beowulf"* kimi miflərdə istifadə olunan adlar əhalinin müəyyən təbəqələri tərəfindən işlədilirdi.

"Beowulf" anqlo-sakson mənşəlidir və iki sözün birləşməsindən əmələ gəlmişdir. *"Beo"* - bal arısı, "*wolf"* - canavar mənasını verir. Beowulf eyni adlı əfsanənin qəhrəmanıdır, VIII əsrdə anonim olaraq yazılmışdır. Orta əsrlərdə *Beowulf, Grendel, Hrodgar, Beow, Halfdane, Hrethric, Sigemund, Breca* və s. kimi əfsanədəki ana xarakterlərin adlarından gündəlik həyatda şəxslərə vermişlər. [Patrick: 1992, 221]

"Thor" əfsanələrinin də qəhrəmanlarının adları orta əsrlər üçün səciyyəvi olan adlardandır. Məsələn, *Taranis "*taran" sözündən götürülmüşdür, mənası "ildırım, şimşək" deməkdir. *Taranis* əfsanələrdə şimşək allahlarından biridir. *Alvis* də əfsanələrdə *Thrud* adlı qəhrəmanla evlənən allahlardan biridir. *Balder, Odin, Frigg, Thrud, Loki, Hoder* və s. kimi adlar ingilis dilinə miflərdən sonra daxil olan xüsusi isimlərdir.

Orta əsrlərdə ingilis dilinə daxil olan adlarda bədii ədəbiyyat öz təsirini göstərmişdir. V.Şekspir tərəfindən yazılan *"Romeo və Juliet", "Hamlet"* poemalarında istifadə olunan adlara insanlar tərəfində maraq doğmuşdur. *Julia, Julietta, Viola* adları ən çox verilən adlar sırasında yer alır. Həmin dövrün məşhur yaradıcılarından biri hesab olunan C.Svift *Stella* adını ingilis dilində adlar sırasına daxil etmişdir. [Qurbanova: 2010, 83]

Müasir dövrdə advermədə müəyyən dəyişiklər müşahidə olunmuşdur. Artıq televiziya kanalları inkişaf etmiş, teatrların sayı artmış, tamaşalar nümayiş etdirilmişdir. Bütün bunlar advermədə özünü göstərən faktorlardan hesab olunur.

"Star Wars" müasir dövrün ən məşhur filmlərindən biri hesab olunur. Filmdə göstərilən xarakterlərə insanlar tərəfindən maraq doğmuş və şəxs adlarında onlardan istifadə olunmuşdur. Məsələn, *Anakin* filmdə *Darth Vader* kimi tanınan xarakterlərdən biridir. Filmin rejissorunun da soyadı *Annakin* olduğuna görə, həmin ad müasir ingilis dilində istifadə olunan adlardandır.

XX əsrin ən məşhur televiziya verilişlərindən biri "*Xena: Warrior Princess"*olmuşdur. Həmin vaxtdan sonra *Xena, Xenia* kimi adlar populyar olmuşdur.

XX əsrin məşhur filmlərindən biri olan "*İndiana Jones*" nümayiş olunduğu dövrdən sonra *İndy, İndiana* kimi adlar populyar olmuşdur.

XXI əsrdə statistikaya əsasən kişilərə ən çox *Lukas, Oliver, Mark, Jacob, Jason, Philip, Daniel, Brian, David, Charles, Peter, Leo, Jack, James, Richard, Bruce, Liam, Michael* və s.; qadınlara isə *Anna, Emma, Sofia, Olivia, Emily, Emilia, Lena, Jane, Mary, Linda, Fiona, Sharon, Julia, Sarah, Keith, Caroline, Tracey* və s. kimi adlar verilmişdir [www.babynames.com]

Nəticə. Xüsusi adlar hər bir xalqın tarixi, onun keçmişi, bugünü, gələcəyi, milliyyəti, müasirliyi, vətənpərvərlik prinsipləri, maddi və mənəvi cəhətdən inkişafından xəbər verir. Çünki, adlar sisteminin uzun bir inkişaf tarixi vardır. Qədimdən müasir dövrə qədər xüsusi adlar təşəkkül tapmış və müasir bir səviyyəyə gəlib çıxmışdır. Başqa sözlə desək, xalqın və cəmiyyətin mədəni səviyyəsindən adət-ənənələrinə qədər hər bir ünsür xüsusi adlarda öz əksini tapır

Ədəbiyyat

1.Qurbanova F.A. İngilis və alman antroponimlərinin linqvistik xüsusiyyətləri. ─Bakı:─ Elm və təhsil, 2010, 334 s.
2.Galperin L.R. Stylistics. ─Moscow:─ Higher School Publishing House. 1971, 344 p.
3. Patrick Hanks., Flavia Hodges. A Dictionary of First Names. ─Oxford:─ Oxford University Press, 1992, 443 p
4.Арнолд И.В. Лексикология современного английского языка. Москва: Высшая школа. 1986. 295 с
5.www.babynames.com
6.www.behindthename.com

STRUCTURAL AND GRAMMATİCAL FEATURES OF THE FUTURE TENSE İN AZERBAİJANİ AND FRENCH (BASED ON LİTERARY TEXTS)

AZƏRBAYCAN VƏ FRANSIZ DİLLƏRİNDƏ FEİLİN GƏLƏCƏK ZAMANININ STRUKTUR-QRAMMATİK XÜSUSİYYƏTLƏRİ (BƏDİİ ƏSƏRLƏRİN MƏTNİ ƏSASINDA)

Əliyeva Həyat Rəsul qızı
Naxçıvan Dövlət Universiteti

Xülasə
Məqalədə Azərbaycan və fransız dillərində feilin gələcək zamanının struktur-qrammatik xüsusiyyətləri haqqında məlumat verilir. Fransız dilində gələcək zamanın üç növü var: 1) futur simple (sadə gələcək zaman), 2) futur proche (yaxın gələcək zaman), futur anterieur (gələcəyə nəzərən gələcək zaman). Azərbaycan dilində isə gələcək zamanın iki növü var: 1) qəti gələcək zaman, 2) qeyri- qəti gələcək zaman. Məqalədə hər iki dildə bu zamanla bağlı araşdırmalara toxunulur. Həmçinin gələcək zamanın növlərinin struktur-qrammatik xüsusiyyətlərinə aydınlıq gətirilir. Eyni zamanda onların bədii əsərlərdə necə istifadə edilməsindən bəhs edilir. Hər iki dildə bu zaman növlərinin fərqli və oxşar xüsusiyyətləri qeyd olunur. Nəticə olaraq hər iki dilidə gələcək zamanın araşdırılması bu dillərin qarşılıqlı öyrənilməsinə, bədii tərcümənin asanlaşmasına xidmət edəcək.
Açar sözlər: gələcək zaman, fransız dili, Azərbaycan dili, növ, bədii əsər

Abstract
This article provides information on the structural and grammatical features of the future tense in Azerbaijani and French. In French, there are three types of future tense: 1) futur simple (simple future), 2) futur proche (near future), and 3) futur antérieur (future perfect). In Azerbaijani, there are two types of future tense: 1) definite future tense and 2) indefinite future tense. The article touches upon studies related to these tenses in both languages. It also clarifies the structural and grammatical characteristics of the types of future tense. At the same time, it discusses how these tenses are used in literary texts. The similarities and differences between the future tense forms in both languages are highlighted. As a result, the study of the future tense in both languages contributes to mutual language learning and facilitates literary translation.
Keywords: future tense, French language, Azerbaijani language, type, literary text

Giriş

Zaman kateqoriyası insan təfəkküründün relevant kateqoriyalarından biri olub, polifunksional və polisemantik bir anlayışdır. Zaman ardıcıllığı yüzilliklər boyu tədqiqatçıların diqqət mərkəzində olmuş və hər zaman həllini tapmayan mürəkkəb məsələlər sırasında yer alır. Zaman öz-özlüyündə mövcud deyil. Zaman ardıcıllığını yaratamaq üçün ilk öncə referent, dayaq və ya başlanğıc nöqtəni müəyyən etmək gərəkdir. Bu məqam kimi, hər zaman insan təfəkküründə nitq anı nəzərdə tutulur və zaman ardıcıllığı bu ana nəzərən müəyyən edilir. Lakin nitq anından başqa digər zaman müstəvisində əlavə referent nöqtələr də mövcuddur ki, nitq anına nisbətdə digər hərəkət və proseslər üçün istinad nöqtəsi rolunu oynayır. Bir dilin zaman sistemi digər dilin sistemi ilə üst-üstə düşməsə də, zaman kateqoriyasının mövcudluğu müxtəlif dilləri birləşdirir. Bir dildə bütövlüyünü saxlaya da bilər [Hüseynova, 2019].

Azərbaycan və fransız dilində felin üç zamanından biri olan gələcək zaman haqqında danışılan işin məlumat verilən zaman hələ icrasına başlanmadığını bildirir. Onun formaları ilə hələ işin, hal və hərəkətin icrasına başlanmamış, onun haqqında məlumat verilir. Lakin işin gələcəkdə icra olunub olunmayacağı dəqiq olmur. Fransız dilində gələcək zamanın üç: futur simple (sadə gələcək), futur proche (yaxın gələcək), futur antérieur (gələcyə nəzərən gələcək), Azərbaycan dilində isə iki: qəti və qeyri - qəti gələcək növləri var. Fransız dilindəki hər üç gələcək zaman növü Azərbaycan dilinin qəti gələcək zamanına uyğundur. Məs: 1) İl arrivera demain matin (futur simple). – O sabah səhər gəlib çatacaq (qəti gələcək). 2) Tu va partager ta décision (futur proche) – Sən qərarını paylaşacaqsan (qəti gələcək). 3) Marie aura bientôt payé toutes ses dettes (futur antérieur). - Mari tezliklə bütün borclarını ödəyəcək (qəti gələcək). Fransız və azərbaycan dillərində gələcək zaman, hərəkətin müəyyən gələcək zamanda icra olunacağını ifadə edir. Gələcəyin müəyyənliyi adətən cümlədəki zaman zərfliklərinin köməyi ilə müəyyən edilir. Bu haqda Wagner R.L və Pinchon J. “Grammaire du français classique et moderne” adlı kitabında yazır: “Gələcək zaman mütləq və təqribi məna ifadə edən tamamlayıcılarla müşayiət oluna bilər” [Wagner & Pinchon, 1962].

Mütləq məna ifadə edən sözlər	Təqribi məna ifadə edən sözlər
demain- sabah	bientôt – tezliklə
dans une semaine -bir həftədən sonra	un de ces jours – günlərin birində
le six octobre- altı oktyabr	tard- gec
à cinq heures- saat beşdə	à l’avenir – gələcəkdə

Nümunələrdən bu qənaətə gəlmək olar ki, mütləq məna ifadə edən sözlər baş verəcək hərəkətin dəqiq vaxtını müəyyənləşdirir. Təqribi məna ifadə edən sözlərdə isə hərəkətin baş verəcəyi vaxt qeyri-dəqiq olur.

Fransız dilində bu mənada əsasən sadə gələcək (futur simple), bəzən isə yaxın gələcək (futur proche), Azərbaycan dilində isə qəti və qeyri-qəti gələcək zaman forması işlənir [Cəfərov & Həsənova, 2014].

Məs: Tout va être sens dessus dessous [Camus, 1947].- Hər şey alt-üst olacaq.

Gələcək zamanın ifadə etdiyi gələcək müxtəlif kontekstlər əsasında müəyyən edilir:

1. Danışıq anında mövcud olan indiki zamana əsaslanaraq: Descends par cet escalier. Il donne dans une des cours du palais Negroni. Il te sera aisé de t’évader par là. (V. Hugo) - Bu pilləkəndən aşağı düş. O, Negroni sarayının həyətlərindən birinə aparır. Oradan qaçmaq sənin üçün asan olacaq.

2. **Danışıq anından əvvəl baş vermiş hadisələri təsvir edən tarixi indiki zamana əsaslanaraq:** [Wagner & Pinchon, 1962]. Il disait au Seigneur : - Ne finirai-je pas ? Où voulez-vous encore que je porte mes pas ? Où voulez-vous que j’ouvre ma jeunesse inutile et solitaire ? - O, senyora deyirdi: “Mən heç vaxt bitməyəcəyəmmi? Addımlarımı hara yönəltməyimi istəyirsiniz? Harada lazımsız və tənha gəncliyimi açmağımı istəyirsiniz?” [A. de Vigny]

Futur simple (sadə gələcək)

Futur simple (sadə gələcək) zamanı qaydalı feillərin məsdər formasına şəxslər üzrə –ai, -as, -a, -ons, -ez, -ont şəkilçiləri artırılmaqla düzəlir.

Je parlerai - Mən danşıacağam
Tu parleras – sən danışacaqsan
İl\ Elle parlera – O danışacaq
Nous parlerons – Biz danışacağıq
Vous parlerez – Siz danışacaqsınız

İls \ Elles parleront – Onlar danışacaq
Kökündən dəyişən feillərdən gələcək zaman düzəltmək üçün həmin feillərin kökünə öncə qeyd olunan şəkilçilər əlavə edilir. Məsələn, avoir- j`aurai, dire -je dirai, pouvoir – tu pourras, faire – tu feras.
Gələcək zamanın hər bir növünə bədii əsərlərdə rast gəlmək mümkündür. Lakin onlar fərqli mənalarda işlədilir. Futur simple (sadə gələcək) indiki andan gələcək hərəkətləri və ya vəziyyətləri oyatmağa imkan verən bir zamandır. Onun başqa məqsədləri də var: o, bizə tarixi gələcəyi, ümumi həqiqətləri, təklifi və ya sifarişi ifadə etməyə imkan verir, lakin yumşaldılmış şəkildə, emosional nüansları, ehtimalı və ya hətta şərtə tabe olan bir faktı ifadə etməyə imkan verir [https://vitrinelinguistique.oqlf.gouv.qc.ca/24127/la-grammaire/le-verbe/temps-grammaticaux/futur/le-futur-simple]. Futur simple zamanı yazılı və danışıq dilində geniş istifadə olunan bir zaman formasıdır. Əsasən rəsmi xarakter daşıyır. Bədii əsərlərdə bu zamana çox rast gəlmək olar. Onun bir çox funksiyası var. -Et combien de temps durera l'affaire ? – Un jour tout au plus. L'arrêt sera prononcé au plus tard demain dans la nuit. Mais je n'attendrai pas l'arrêt, qui ne peut manquer. Sitôt ma déposition faite, je reviendrai ici. [Hugo,1862] – Bəs bu iş nə qədər davam edəcək?– Ən geci, bir günə. Qərar ən geci, sabah gecə veriləcək. Amma mən qərarı gözləməyəcəyəm, çünki bu, mütləq veriləcək. Mənim ifadəm alınan kimi, buraya geri dönəcəyəm. Burada futur simple planlaşdırılmış hərəkəti ifadə edir. Nous ferons tout pour réussir. -Biz uğur qazanmaq üçün hər şeyi edirik. Bu nümunədə isə məqsədə çatmaq üçün yerinə yetirilən hərəkət nəzərdə tutulur. *Il viendra probablement tard.*- O, yəqin ki, gec gələcək. Üçüncü cümlədə futur simple zamanı e**htimal və ya təxmin ifadə edir.**

Futur proche (yaxın gələcək zaman)

Futur proche (yaxın gələcək) zamanı hərəkətin tezliklə, yaxın vaxtda baş verəcəyini ifadə edir. Futur simple zamanından fərqli olaraq mürəkkəb zaman formasıdır. Bu zamanı düzəltmək üçün aller (getmək) köməkçi feilinin indiki zamanı və əsas feilin məsdər formasından istifadə edilir.
Je vais acheter – Mən alacağam
Tu vas acheter – Sən alacaqsan
İl\Elle va acheter – O alacaq
Nous allons acheter – Biz alacağıq
Vous allez acheter – Siz alacaqsınız
İl\ Elles vont acheter - Onlar alacaq
Futur proche zamanı haqqında Chevalier yazmışdır ki, o indiki zamanla əlaqəli yaxın gələcəyi ifadə edir. Aller köməkçi feilinin indiki zamanda təsriflənməsi sayəsində gələcək hadisə indiki zaman orbitində saxlanılır və bu indiki zamanla gələcək arasında körpü qurur [Chevalier, 1969].
1) – Ah ! reprit le cantonnier, vous ne savez donc pas que la route est en réparation ? Vous allez la trouver coupée à un quart d'heure d'ici. Pas moyen d'aller plus loin [Hugo,1862]. - Aha! - deyə yol işçisi cavab verdi, - deməli, siz bilmirsiniz ki, yol təmirə götürülüb? Onu buradan bir neçə dəqiqəlik məsafədə kəsilmiş vəziyyətdə tapacaqsınız. Daha irəliləmək mümkün deyil. 2) Je vous remercie, monsieur l'avocat général, mais je ne suis pas fou. Vous allez voir [Hugo,1862]. - Təşəkkür edirəm, cənab baş prokuror, amma mən dəli deyiləm. Siz görəcəksiniz.

Futur antérieur (gələcəyə nəzərən gələcək)

Futur antérieur (gələcəyə nəzərən gələcək) zamanı da quruluşca mürəkkəbdir. Sözügedən zamanı düzəltmək üçün avoir (varı olmaq) və être (olmaq) köməkçi feillərinin indiki zamanı və əsas felin participe passé (feli sifət) formasından istifadə edilir. Məsələn ,
J`aurai fini- Mən quraracağam.
Tu auras changé – Sən dəyişəcəksən.
İl sera parti – O gəlib çatacaq.
Nous seron venus. – Biz gələcəyik.

Grevisin qeyd etdiyi kimi " bu zaman forması gələcəkdə baş verən hadisə ilə əlaqədar ondan sonra baş verəcək hadisəni ifadə edir"[Grevisse, 1993]. Məsələn: Chacun récoltera ce qu´il aura semé.- Hər kəs öz əkdiyini biçəcək. Həmçinin futur antérieur zamanı gələcəkdə əvvəlcədən müəyyənləşdirilmiş vaxtda və zaman zərfliklərindən istifadə olunmaqla baş verəcək hadisəni bildirir. Məsələn: Dans un mois, ils auront terminé la construction de leur chalet. - Bir aya onlar dağ evlərini tikib bitirəcəklər.

Qəti gələcək zaman.

Qeyd olunduğu kimi Azərbaycan dilində gələcək zamanın iki növü var : qəti gələcək və qeyri-qəti gələcək. Qəti gələcək zaman, gələcəkdə mütləq baş verəcək hadisələri ifadə etmək üçün istifadə olunan bir zaman formasıdır. Bu zaman forması daha çox qətiyyət, qərarlılıq və ya danışanın inamını ifadə edir. Qəti gələcək zamanın formalaşdırılması üçün felin kökünə və ya başlanğıc formasına -acaq[2] şəkilçisi əlavə olunur. Məsələn: yaz→ yazacaq, gör → görəcək, qızar- qızaracaq və s. A.Axundov qeyd edir ki, qəti gələcək zaman şəkilçisi zaman bildirməklə yanaşı, feili sifət və feildən düzələn isim düzəltmək funksiyasına malikdir [Axundov, 1962].

Qəti gələcək zaman bədii əsərlərdə personajların hiss və düşüncələrini müxtəlif aspektlərdən izah və ifadə etmək üçün istifadə olunur.

Qətiyyət və inam, əminlik ifadəsi: Danışanın hərəkətin gələcəkdə baş verəcəyinə tam əmin olduğu və ya qərarlı olduğu hallarda istifadə olunur. Məsələn, Zənn edirəm ki, məni sizə bağlayan hisslər haqqında çox da düşünməyəcəksiniz. Ürəyinizə başqa heç nə gəlməyəcəyinə əminəm [Əfəndiyev, 2005].

Qərarların ifadəsi: İrəlidə verilmiş bir qərarı və ya niyyəti bildirmək üçün istifadə olunur. Məsələn: Bu yay kitab yazacağam.

Əmr və istək ifadəsi: Bəzi hallarda qəti gələcək zaman əmr və ya istək mənasında da istifadə edilə bilər. - Mənə vicdanla söz ver ki, bu barədə kimsəyə bir söz söyləməyəcəksən, - deyə əsəbi surətdə gözlərimin içinə baxdı.[Əfəndiyev, 2005].

Planlaşdırılmış hadisələr: Deyirəm, qızım sən lap arxayın ol, gələn həftə mütləq sənin adını deyəcək [Anar, 2004].

Əminlik və ya proqnoz: Elə bil ki, biz bir də görüşməyəcəyik [Əfəndiyev, 2005].

Müqayisə və vurğulama: Ancaq biləndə ki, məsələ ciddidir, siz hay-haray qaldıracaqsınız. Ancaq mən də ondan vaz keçməyəcəyəm [Anar, 2004]. B. Xəlilovun qeyd etdiyi kimi, bu zaman forması gələcəkdə qəti şəkildə icra olunacaq ardıcıl, iş, hal və hərəkəti ifadə edir [Xəlilov,2018] Yay işləri görəcəkdilər. Qızıl sünbüllər biçəcəkdilər [Əfəndiyev, 2005].

Qəti gələcək zaman iş, hal və hərəkətin gələcəkdə icra olunacağına kinayə, istehza münasibətlərini bildirir [Xəlilov,2018]. Bilməzdim ki, mənim qızım Venera olacaq. Kaş öləydim, bu günü görməyəydim [Anar, 2004].

Qeyri – qəti gələcək.

M. Hüsenzadə bu zaman formasının gələcəkdə görüləcək işin hazırda qeyri-qətiliyindən xəbər verdiyini yazır [Hüseynzadə, 2007]. Daha çox ehtimal və ya qeyri-müəyyənlik bildirir və – ar[2] şəkilçisinin köməyi ilə düzəlir. Məsələn: gələr, aparar, söyləyər, açar və s.

Fransız dilindən fərqli olaraq Azərbaycan dilində indiki zaman kontekstində işlənən qeyri-qəti gələcək zaman forması bütün zamanları əhatə edən məzmun daşımır. İndiki zaman yerində işlənən qeyri-qəti gələcək zaman forması haqqında A.Axundov yazır ki, bu hal əsasən «r» ünsürü düşmüş qeyri-qəti gələcək zaman və istəmək felinin qeyri-qəti gələcək zamanda olan formasında özünü göstərir. Bunu aşağıdakı nümunələrdə görmək olar: [Axundov,1961; Axundov,1985]. Qonşular toplandılar, yaranın üstünə təndir külü tökdülər, hörümçək toru qoydular, bilməm daha nə kimi oyunlar çıxartdılar, lakin olmadı (C.Cabbarlı). – Çay, çay, çay istəyən varmı? Saleb, simit. Kərim başını buladı: -Təşəkkür edirəm, istəməm (Anar). Hamıya ərk eləyir, əslində heç kimin xətrinə dəymək istəməz (S. Ahmadli). –Mən pul işini bilmərəm,-dedi,-onu özünüz bilərsiniz (Elçin). Qeyri-qəti gələcək zamanın indiki zaman yerində işlənməsinə dair aşağıdakı misalları da nəzərdən keçirək:

O yerdə ki, günəş gülər, dəniz gülər, göy gülər,

O yerdə ki, sarı bülbül yaz gününü qarşılar,
O yerdə ki, quşlar oxur, söylənilər türkülər,
Aydındır ki, o torpağın zəngin təbiəti var;
Axşamları, səhərləri çox xoş olur o diyar (S.Vurğun).

İspaniyanın xəbərləri ürəyimi dələr, yenə, Deyirlər ki, çöllərində qızıl güllər mələr yenə (R.Rza). Bu cümlələrdə gülər, qarşılar, söylənilər, dələr, mələr hərəkətlərini ifadə edən feillər formal şəkildə qeyri-qəti gələcək zamanda olsa da, kontekstin indiki zaman olması şübhə doğurmur [Tahirov, 2007]. Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, indiki zaman yerində işlənən qeyri-qəti gələcək zaman forması şifahi və yazılı nitqdə, həmçinin bədii əsərlərdə və qəzet materiallarında geniş istifadə olunmur [Tahirov, 2007].

Müasir Azərbaycan ədəbi dilində qeyri-qəti gələcək zamanın inkarını ifadə edən -mar, -mər, -maz, -məz, şəkilçilərinə bədii əsərlərdə də rast gəlinir [Əliyeva, 2010]. M.Hüseynzadənin qeyd etdiyi kimi, inkar bildirən feillərdə birinci şəxs yenə də həmin şəkilçilərlə (-ar, -ər) işləndiyinə baxmayaraq, ikinci və üçüncü şəxslərdə bu şəkilçilərin sait samitlə bitən feillərdə həm sait, həm də samitdən əvvəlki y səsi düşür və r səsi z səsi ilə əvəz olunur, yəni qeyri-qəti gələcək zamanı yalnız z samiti ifadə edir [Hüseynzadə, 2007]. Klassik ədəbiyyatda, folklor nümunələrində, bəzi dialektlərdə qeyri-qəti gələcək zamanın inkarında I şəxsin təkində r səsinin n və z səsi ilə əvəz olunması da müşahidə edilir. Məsələn,

Dərya, səndə üzmənəm,
Boylasam da, üzmənəm,
Yarı məndən üzsən də,
Mən yardan əl üzmənəm (bayatı).

İ. Nəsimi poeziyasında bu fakt, xüsusilə r-z əvəzlənməsi olduqca üstündür. Nümunələrə nəzər salaq:

Deməzəm dil dərdini dildar haqqiçün inan,
Yummazam göz gecələr didar haqqiçün inan (Nəsimi).
Şikayət eyləmənəm dilbərin cəfasindən, Onun cəfası mana yegdürür vəfasindən (Nəsimi).
Məndə sığar iki cahan, mən bu cahana sığmazam! , [Nəsimi]

Nəticə. Azərbaycan və fransız dilində gələcək zamanın bütün növlərindən istər nəzm, istərsə də nəsrlə yazılan bədii əsərlərdə geniş istifadə edilir. Qeyd etmək lazımdır ki futur simple (sadə gələcək) zamanına daha çox rəsmi yazılarda rast gəlinsə də, ondan bədii əsərlərdə geniş istifadə edilir. Və bu zaman forması Azərbaycan dilinin qəti və qeyri-qəti gələcək zamanına uğun gəlir. Gələcək zaman ifadə edən zaman zərflikləri bu zamanın düzəldilməsində böyük rol oynayır.

Digər diqqət çəkən digər məqam isə qeyri-qəti gələcək zamanda r hərfinin z hərfi ilə əvəz olunmasıdır. Bu əvəzlənməyə bədii əsərlərdə çox rast gəlinir. Bu dəyişmə əsərdə personajların öz fikirlərini ifadə etməsini asnlaşdırır və əsərin maraqlı, oxunaqlı olmasına səbəb olur.

Ədəbiyyat

1. Axundov A.A. Dilin estetikası. Bakı, Yazıçı, 1985, 223 s.
2. Axundov A.A. Feilin zamanları. Bakı: Azərbaycan Dövlət Universiteti nəşriyyatı, 1961, 138 s.
3. Anar. Seçilmiş əsərləri. Bakı: Lider nəşriyyat. 2004, 416 s.
4. Cəfərov. R.C., Həsənova . A.B. Fransız və Azərbaycan dillərində gələcək zaman formalarının qrammatik və məna xüsusiyyətləri haqqında// Filologiya məsələləri, 2014, №1, s.196-200.
5. Əfəndiyev İ.M. Seçilmiş Əsərləri. Üç cilddə. I cild.Bakı: Avrasiya Press nəşriyyatı, 2005, 280 s.
6. Əliyeva.G.F Türk dillərində zaman kateqoriyası. Bakı: Nurlan, 2010, 264 s.
7. Hümmətova. R.Ə. İmadəddin Nəsimi poeziyasında temporallığın qrammatik formalarla ifadəsi. Filologiya məsələləri. Bakı: Elm və təhsil, 2017 №1, s. 18-27.
8. Hüseynzadə. M.H. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Şərq-Qərb, 2007, 280 s.
9. Hüseynova R.H. Roman dillərində perfekt // Tədqiqlər, 2019, № 2, s. 35-39.

10. Xəlilov B.Ə. Azərbaycan dilində feil. Bakı: Adiloğlu nəşriyyatı, 2018, 224 s.
11. Tahirov. İ.M. Azərbaycan və ingilis dillərində zaman kateqoriyası. Bakı: Nurlan, 2007, 324 s.
12. Camus. A.L La Peste. 1947, 280 p. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://www.anthropomada.com/bibliotheque/CAMUS-La-peste.pdf
13. Chevalier Jean-Claude. Grammaire Larousse du français contemporain. Paris : Librairie Larousse, 1969. 495 p.
14. Grevisse, Maurice; GOOSE, André. Le bon usage : grammaire française. 12me éd. Paris: Duculot, 1993. 1768 p.
15. Hugo V. Les Miserables. 1 ère partie. Fantine.
16. Wagner R.L, Pinchon J. Grammaire du français classique et moderne. Paris : Librairie Hachette.1962. 644p.
17. https://vitrinelinguistique.oqlf.gouv.qc.ca/24127/la-grammaire/le-verbe/temps-grammaticaux/futur/le-futur-simple
18. https://vitrinelinguistique.oqlf.gouv.qc.ca/24129/la-grammaire/le-verbe/temps-grammaticaux/futur/le-futur-anterieur#:~:text=Le%20futur%20ant%C3%A9rieur,aura%20mang%C3%A9%2C%20je%20serai%20sorti

PRİNCİPLES FOR THE SELECTİON OF İNSTRUCTIONAL MATERİALS İN THE SUBJECT OF LİTERATURE FOR GRADES 5–11 İN GENERAL EDUCATİON SCHOOLS

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN V-XI SİNİFLƏRİ ÜÇÜN ƏDƏBİYYAT FƏNNİNDƏN TƏLİM MATERİALLARININ SEÇİLMƏSİ PRİNSİPLƏRİ

Gülay Şahsuvar qızı Bagirova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin doktorantı
https://orcid.org/0009-0002-4794-0748

Xülasə
Məqalədə ümumtəhsil məktəblərində ədəbiyyat fənni üzrə mövzuların seçilməsi işinin sistemləşdirilməsindən danışılır. Dərsliklərin tərtibi prinsipinə yeni münasibət məsələsi son illərin aktual məsələlərindəndir. Məlumdur ki, XX əsrin 30-cu illərindən etibarən ədəbiyyat fənni orta məktəblərdə tədris olunmağa başlayır. Həmin dövrdən bu günə qədər ədəbiyyat dərsliklərində bir çox görkəmli söz sənətkarlarının həyat və yaradıcılığının öyrədilməsi nəzərdə tutulmuşdur. Xüsusilə, müstəqillik illərindən etibarən dərsliklərdə vətənpərvərlik, azadlıq, müstəqillik ideyalarını aşılayan əsərlərin tədrisinə önəm verilmişdir. Bu əsərlər gənc nəslin dünyagörüşünün zənginləşməsində və onların mənəvi və estetik tərbiyəsində mühüm rol oynamaqla yanaşı, ədiblərin digər əsərlərinin də öyrənilməsinə maraq yaradır. Ədəbiyyat fənni üzrə mövzuların tərtibində nəzərə alınan prinsiplər ümumi şəkildə təhlil olunmuş,araşdırmanın nəticəsi olaraq, mövzuların seçilməsində yeni prinsiplər qeyd olunmuşdur.
Açar sözlər: təlim materialları, tarixi-ədəbi prinsip, varislik, dövlət standartı, strategiya.

Abstract
The purpose of this paper is to contribute to the systematization of topic selection in the subject of literature within general education schools. The issue of introducing a new approach to the principles of textbook design has become increasingly relevant in recent years. It is well known that literature began to be formally taught in secondary schools from the 1930s onwards. Since that time, literature textbooks have aimed to present the lives and works of numerous prominent literary figures. Particularly since the restoration of national independence, there has been a strong emphasis on teaching literary works that promote themes of patriotism, freedom, and independence. These works not only play a significant role in enriching the worldview of the younger generation and fostering their moral and aesthetic development, but also stimulate interest in exploring other works by the same authors. This paper provides a general analysis of the principles taken into account in selecting topics for literature instruction. As a result of the research, new principles for topic selection have been proposed.
Keywords: training materials, historical-literary principle, succession, state standard, strategy.

GİRİŞ.Təhsilin məzmununun yenilənməsi, yeni proqram, dərslik və vəsaitlərin hazırlanması milli təhsil sisteminin davamlı inkişafına səbəb olmaqla yanaşı, təhsilin keyfiyyətinin yüksəldilməsinə də xidmət etməkdədir. Belə ki, təhsilin məzmunu daim beynəlxalq təcrübələrdən bəhrələnək yenilənir, təhsil kurikulumu ölkəmizin sosial-iqtisadi inkişafı ilə sıx əlaqələndirilir [11].“Azərbaycan Respublikasının Təhsil Konsepsiyası” (Milli Kurikulum) sənədinin dünyanın inkişafetmiş ölkələrinin uğurlu elmi-pedaqoji təcrübələrinə istinad edilərək hazırlanması, əlbəttə, təqdirəlayiqdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13 oktyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası” sənədi həmçinin təhsil haqqında bir sıra mühüm istiqamətləri əhatə edir. Sənəddə “Azərbaycan Respublikasında təhsilin vəziyyəti” adlı başlıqda qeyd olunur ki, “ali və ümumi təhsil üzrə dərsliklərin elmi və metodiki baxımdan təkmilləşdirilməsinə ehtiyac vardır” [11]. Beləliklə, bu qərarın qəbulu günün tələbləri ilə

səsləşən yeni məzmunlu dərs vəsaitləri və dərsliklərin hazırlanması kimi əsas məsələləri pedaqoji ictimaiyyətin qarşısına mühüm vəzifə kimi qoyur.
Sərəncamın "Strateji hədəflər və tədbirlər" hissəsində "1.2. səriştəəsaslı ümumi təhsil standartları və kurikulumlarının hazırlanması və 1.2.2. kurikuluma əsaslanan yeni dərsliklərin yaradılması, şagird və müəllimlərin müvafiq dərslik seçiminin təmin olunması" kimi məsələlər əksini tapmışdır [11]. Bu istiqamətdə bütün fənlər üzrə hazırlanan fənn kurikulumları və yeni dərsliklər bu gün ölkənin bütün ümumtəhsil məktəblərində ümumi təhsil pilləsinin I-XI siniflərində tətbiq olunmaqdadır.
Təhsilin əsas hissəsini ümumtəhsil məktəbləri təşkil edir, çünki elmlərin əsası məhz bu mərhələdə qoyulur. Digər humanitar fənlərlə müqayisədə, gənc nəslin təlim-tərbiyəsində, həyat həqiqətlərinin dərk edilməsində ədəbiyyatın tərbiyəedici rolu daha böyükdür. Belə ki, şagirdlər ədəbiyyat təliminə ədəbi-nəzəri biliklərlə tanış olur, qazandığı bilikləri real həyatda tətbiq edir, bədii əsərin oxucusu kimi ədəbi nümunələri emosional-obrazlı qavrayaraq fikirlərini ifadəli şəkildə şərh edə bilirlər. Bu mənada, ədəbiyyat kursunda şagirdlərə öyrədilməsi nəzərdə tutulan mövzular elə seçilməlidir ki, bu mövzular vasitəsilə yaradıcı, məntiqi və tənqidi düşünməyi bacaran vətəndaş və şəxsiyyət yetişdirmək mümkün olsun. Məlumdur ki, tədris üçün ədəbi materialların seçilməsində müəyyən meyarlar gözlənilir. Məktəb təcrübəsinə əsasən demək olar ki, ədəbiyyatdan təlim materiallarının seçilməsi zamanı ədəbiyyat kursunun vəzifələrindən irəli gələn məsələlər diqqət mərkəzində saxlanılmışdır."Azərbaycan Respublikasının ümumitəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər)" sənədinin izahat vərəqinə əsasən ədəbiyyat kursunun məzmununa uyğun mövzular müəyyən edilmiş, əsasən, milli-mənəvi dəyərlər, həmişəyaşar hikmətlər, vətən sevgisi, təbiətə vurğunluq və digər mövzularda əsərlər təqdim olunmuşdur.
Təlim materiallarının seçilməsinin əsas prinsipləri. Ümumtəhsil məktəbləri üçün tərtib olunmuş ədəbiyyat fənni üzrə dərsliklərdə mövzuların təsnifatı ilə bağlı müxtəlif baxışlar mövcuddur, fikrimizcə, hər bir irəli sürülmüş fikirlərin müsbət təlimi əhəmiyyəti vardır və bəzi müddəalar bu gün də müəyyən mənada aktualdır. Metodist alim Şəmistan Mikayılov təlim materiallarının seçilməsi prinsipləri barədə elmi-metodik ədəbiyyatda səthi danışıldığını qeyd etmiş, bu prinsipləri aşağıdakı kimi şərh etmişdir:
1.Varislik prinsipinin gözlənilməsi;
2. Elmilik;
3. Şagirdlərin yaş xüsusiyyətlərinin gözlənilməsi və onların qavrama imkanlarının nəzərə alınması;
4.Dərsliyə salınan bədii əsərlərin sujet bitkinliyinə malik olması;
5.Bədii əsərlərin təhlili;
6. Sual və tapşırıqların tərtibində əsərlərin ideya-məzmunu, tərbiyəvi təsir dairəsi, əhatəsi və psixoloji-pedaqoji tələblərə uyğunluğu;
7. Ədəbi-bədii materiallar dərsliklərdə şagirdlərin marağına səbəb ola biləcək, hadisələrin inkişafının başa düşülməsinə kömək edə biləcək illustrasiyalarla müşayət olunması [16, s.27-33].
Dərsliklər uzun illər bu prinsiplər gözlənilərək hazırlanmışdır. Belə bir sual meydana çıxır: sadalanan prinsiplər müasir dərsliklər üçün mövzular seçilərkən nə dərəcədə gözlənilmişdir və hazırda aktuallığını saxlayırmı? Varislik prinsipinin gözlənilməsi mövzuların müəyyənləşməsində bu gün də aktualdır, bu prinsipin tələbləri gözlənilərək eyni sənətkarın yaradıcılığına məxsus müxtəlif əsərlər şagirdlərin yaş səviyyəsi və mövzunun mürəkkəblik səviyyəsi nəzərə alınaraq müxtəlif siniflərdə tədris olunur.
2-ci prinsip olan elmiliyin gözlənilməsi də mövzuların seçilməsində əsas məsələlərdən biridir. Təlim fənni kimi, ədəbiyyat dərslikləri məktəblilər üçün həm də elmi bilik mənbəyidir, yəni burada faktların doğruluğu, aydınlılığı, ədəbiyyat dərsliklərinin tərtibi üçün ciddi tələblərdən biridir, müasir dərsliklərdə şübhəli, qeyri-dəqiq fikirlərə yer verilməmişdir. Lakin uzun illər, eləcə də XX əsrin sonlarında istifadə olunan ənənəvi dərsliklərdə, xüsusilə, monoqrafik və icmal mövzuların tədrisində elmi faktlar çoxluğu ilə seçilirdi. 2012-ci ildən etibarən şagird və müəllimlərin istifadəsinə verilən

kurikulum əsaslı yeni tipli dərsliklərdə əvvəlki dərsliklərlə müqayisədə elmi faktların çox olduğu mövzularda zəruri ixtisarlar aparılmış, şagirdlərin təlim yükü xeyli azaldılmışdır.

Dərsliyə daxil edilən materiallarda 3-cü prinsipin tələbi müəyyən qədər gözlənilmişdir. Belə ki, hazırda istifadə olunan dərsliklərdə seçilmiş mövzuların bir çoxunda şagirdlərin yaş və qavrama xüsusiyyətləri nəzərə alınmışdır, lakin 1991-2011-ci illərdə istifadə olunan dərsliklərdə bu məqamın gözlənilməməsi təəssüf doğurur, xüsusilə, V-VII siniflərdə mənası şagirdlər tərəfindən çətin anlaşılan sözlərin bol işləndiyi tuyuğ və qəzəllərin tədrisini buna misal göstərə bilərik. Məsələn, 1994-cü ildə istifadə olunan VII sinif dərsliyində İ.Həsənoğlunun "Apardı könlümü bir xoş qəmərüz canfəza dilbər" qəzəli, Qazi Bürhanəddinin tuyuğlarının tədrisi nəzərdə tutulmuşdur[1, s.50-56].Sonrakı illərdə dərslik müəllifləri − Ə.Səfərli, Z.Əsgərli və digər müəlliflər bu məsələni diqqət mərkəzində saxlamış, şagirdlərin qavrama xüsusiyyətlərini müəyyən qədər nəzərə almışlar. Son illərdə metodist alimlər B.Həsənov, S.Əliyev və digər dərslik müəllifləri müxtəlif şairlərə məxsus qəzəlləri VIII sinifdən etibarən dərsliklərdə təqdim etmişlər.

Dərslik müəllifləri həmçinin əruz vəznli nümunələrin daha yaxşı başa düşülməsi üçün ədəbiyyat nəzəriyyəsinə dair anlayışlardan əruz vəzninin xüsusiyyətləri haqqında sadə dillə izahlarla birlikdə təqdim etmişlər. Hal-hazırda VIII sinif ədəbiyyat dərsliyində İmadəddin Nəsiminin "Ağrımaz" qəzəli tədris olunur və tədqiqatlar göstərir ki, bu qəzəlin məzmun və ideyasının öyrənilməsi prosesində şagirdlər qavrama zamanı müəyyən dərəcədə çətinlik çəkirlər. Bu çətinliyin aradan qaldırılması üçün metodistlər müvafiq sinif üzrə metodik vəsaitdə bu mövzunun müxtəlif üsulla öyrənilməsinə dair bir neçə variantda dərs nümunəsini müəllimlərin diqqətinə çatdırmışlar. "Ağrımaz" qəzəlinin orta məktəbdə tədrisi vacibdir, çünki bu qəzəl Nəsimi yaradılığında yüksək bədii keyfiyyətləri ilə diqqəti cəlb edir, əsərin ideyası, qafiyələrin uğurlu seçimi, güclü ahəngin yaranması şagirdlərə şairin böyük sənətkarlığının qüdrətindən xəbər verir. Həmçinin lirik qəhrəmanın dönməzliyi, öz amalı uğrunda dərisinin soyulması, şagirdlərdə mərdlik, mübarizlik kimi mənəvi keyfiyyətlərlə yanaşı, dözümlülük kimi iradi keyfiyyətlərin tərbiyəsi baxımından təsiredici rola malikdir. Bir məsələni də qeyd etmək lazımdır ki, VIII sinif dərsliyində ədəbiyyatımızın keçdiyi dövrün xronoloji ardıcıllığı nəzərə alındığı üçün bu qəzəlin IX və X siniflərdə tədrisi mümkün olmamışdır. Bundan başqa təlim materialları nəzərdən keçirildikdə aydın olur ki, seçilmiş bədii əsərlərdən verilmiş parçalarda sujet bitkinliyi özünü göstərir. Lakin ənənəvi dərsliklər müntəxəbat səciyyəli olduğu üçün bu dərsliklərdə bədii əsərlərdən həcmcə daha çox parçalar verildi. Buna görə də 4-cü prinsip olan bədii əsərin məzmununun bitkinliyi ənənəvi dərsliklərdə daha çox gözlənilmişdir.

Fikrimizcə, hazırda istifadə olunan dərsliklərdə bəzi irihəcmli əsərlərin tədrisi zamanı ixtisarla verilmiş parçalarda tələb olunan həcm məhdudluğu baxımından bitkinlik özünü tam olaraq göstərə bilmir. Belə ki, ixtisarla verilmiş parçalarda məzmuna dair bitkinlik gözlənilsə də, lakin bu bitkinlik bütün əsəri əhatə etmədiyindən bəzən çaşdırıcı məqam yaranır. Məsələn, IX sinif dərsliyində M.İbrahimovun "Gələcək gün" romanında ixtisarla verilmiş parçada sonuncu abzasda obrazlardan Kürd Əhmədin Firudin haqqındakı fikirləri şagirdlərdə onun mənfi obraz olması haqqında aldadıcı təəssürat yaradır. Dərslikdə "sual və tapşırıqlar" başlığı altında bu romanın II, III, IV fəsillərini müstəqil şəkildə oxumaq şagirdlərə tapşırılır. Bu hissələri müstəqil oxuyandan sonra şagirdlərdə Kürd Əhməd obrazının əslində vətənini sevən bir obraz olduğu haqqında səthi təəssürat yaranır. Buna görə də fikrimizcə, Kürd Əhmədin milli azadlıq hərəkatında Firudinin əsas silahdaşlarından biri olduğu fəsillərdən əlavə parçaların dərslikdə verilməsinə ehtiyac vardır, nəticədə şagirdlərin əsəri daha yaxşı başa düşülməsinə səbəb ola bilər.

Dərsliklərdə uzun illərdir ki, hər bir bədii nümunənin tədrisindən sonra həmin əsərin təhlilinə dair materialların verilməsi təqdirəlayiqdir, bu xüsusiyyət tədris olunan bədii əsərlərin sənətkarlıq xüsusiyyətlərinin aydınlaşmasında, bədii əsərin aşıladığı ideyanı daha yaxşı başa düşülməsində təlimi əhəmiyyəti vardır. 6-cı prinsipə əsasən tərtib olunmuş sual və tapşırıqlar əsərlərin ideya-məzmununu aydınlaşdırmağa xidmət etməlidir. 2012-ci ildən etibarən tərtib olunmuş dərsliklərdə sual və tapşırıqların tərtibində yeniliklər nəzərə çarpır. Məlumdur ki, hər bir mövzunun tədrisindən sonra

şagirdlərə mövzu ilə əlaqəli sual və tapşırıqlar hər zaman verilmişdir. Sualların ümumi məzmununa baxdıqda aydın olur ki, ötən əsrin sonlarında istifadə olunan dərsliklərdə mövzu ilə bağlı suallar daha çox faktoloji, yəni spesifik suallar tipindədir. Məsələn: "Anamın kitabı" əsərində əsas obrazlar kimlərdir? Məsləkayrı qardaşıları təqdim etməkdə C.Məmmədquluzadə hansı məqsədi izləmişdir? Gülbaharın monoloqunu əzbərləyin [3, s.37-38]. Tragikomediyada hansı milli-mənəvi dəyərlər ön plana çəkilmişdir? Əsərdə bədiiliyi artıran cəhətlər nədir? [18, s.24-28]. Nümunələrdən aydın olur ki, son illərdə dərsliklərdə verilmiş suallar təkmilləşdirilmiş, məktəblilərin əsərin ideyası və qaldırılmış problem haqqında düşünməsini stimullaşdıran, onları tədqiqata cəlb edən, tənqidi düşünərək məntiqi nəticə çıxarmağa sövq edən yeni tipdə suallar təqdim edilmişdir. Beləliklə, şagirdlər kurikulum əsaslı dərsliklərdəki suallara cavab axtararkən yalnız bədii əsəri oxumaqla kifayətlənmir, ciddi axtarışlar edərək daha dərin düşünür, müstəqil şəkildə öz fikirlərini şərh edirlər. Bundan əlavə, dərsliklərdə "evdə iş" başlığı altında tanınmış sənətkarların şəxsiyyətinə dair sərbəst şəkildə müxtəlif mənbələrdən yeni məlumatların əldə edilməsi kimi tapşırıqlar verilmişdir. Bu tipdə sualların verilməsi nəticəsində məktəblilər əsəri emosianal olaraq qavrayırlar. Deməli, müasir dərsliklərdə spesifik suallar azlıq təşkil edir, prosedual və konseptual biliyi inkişaf etdirən məzmunlu suallar verilmişdir. Qeyd etmək lazımdır ki, hazırda istifadə olunan VI sinif üzrə ədəbiyyat dərsliyi məzmun və strukturuna görə digər dərsliklərdən fərqlənir. Tədqiqatlar göstərir ki, bu dərsliyin nöqsanlı cəhətlərindən biri də mövzu ilə əlaqəli verilən sualların dəfələrlə təkrarıdır, faktoloji suallardır və sualların eyni məzmunda olmasıdır. Bundan başqa, dərslikdə bəzi əsərlər həm həcminə, həm də çətinlik səviyyəsinə görə şagirdlərin yaşına uyğun müəyyən edilməmişdir.

Araşdırmalar göstərir ki, yeni təhsil proqramının (kurikulum) qarşıya qoyduğu vəzifələr təlim zamanı ənənəvi baxışın təkmilləşməsi işini labüd etmişdir. Fikrimizcə, qeyd olunan prinsiplərdən əlavə, dərsliklərin keyfiyyət baxımından təkimilləşdirilməsi zamanı mövzuların seçilməsində bəzi prinsiplər də nəzərə alınmışdır:

1. *Bədii nümunələrin təlim-tərbiyəvi xüsusiyyətlərinin nəzərə alınması*. Hər bir mövzunun tədrisinin özünəməxsus xüsusiyyətləri vardır. Seçilmiş əsərlərin şagirdlərin bədii-estetik tərbiyəsinə təsir dərəcəsinin nəzərə alınması uzun illərdir ki, mövzuların seçimini şərtləndirən əsas nüanslardan biridir. Hətta təlimin tərbiyəedici xarakterli olması məsələsi təhsilə aid rəsmi sənədlərdə göstərilən mühüm tələblərdən biridir. XX əsrin ortalarından bu günə qədər tərtib olunmuş dərsliklərdə ədəbiyyatımızın istər klassik, istərsə də müasir dövrünə aid elə bədii nümunələr seçilmişdir ki, bunlar vasitəsilə şagirdlərdə zəngin dünyagörüşün formalaşdırılması ilə yanaşı, həm də həyati bacarıqların inkişaf etdirilməsi mümkün olmuşdur. Məsələn, dahi Nizaminin yaratdığı obrazlar: kərpickəsən kişi, İsgəndər, Nüşabə, zalım şahlar, qarı və d. məktəblilərdə əməyə, sənətə maraq oyatmaqla yanaşı bu günümüzlə səsləşən aktual problemləri işıqlandırır, şagird şəxsiyyətini düşündürür. Əvvəlki illərdə dərsliklərdə, xüsusilə ədəbiyyat tariximizdə müstəsna yeri olan sənətkarların əsərlərinin tədrisinə önəm verilirdi. Bugünki dərsliklərdə də bu məsələ diqqətdə saxlanılmış, lakin bununla yanaşı,ədəbiyyat aləmində yeni tanınmağa başlayan (az tanınan) müəlliflərin əsərlərinində tədrisi nəzərdə tutulmuşdur. Məsələn, VI sinif dərsliyində Sevinc Nuruqızının "Ağabəyim ağa", Kamal Turanın "Kimdir əlil" kimi əsərləri təqdim olunmuşdur. Fikrimizcə, bu əsərlərin Azərbaycan dili dərsliklərinə salınması daha məqsədəuyğun olar, çünki bu əsərlər vasitəsilə şagirdlərdə dəyərlərlə bağlı səriştələr formalaşdırmaq mümkündür. Metodist alim Ş.Mikayılov qeyd edirdi ki, orta məktəblərdə elə sənətkarların əsərləri öyrədilməlidir ki, həmin ədibin yyaradıcılığı ədəbi məktəb səviyyəsində yüksəlmiş, başqa sənətkarların yaradıcılığına təsir göstərmiş və sənətkarlıq baxımından diqqəti daha çox cəlb etmiş olsun. N.Gəncəvi, M.Füzuli, M.Vaqif, M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir və d. belə ədiblərdəndir. Məsələn, Nizami yaradıcılığı dünya ədəbiyyatını zənginləşdirmiş, bir çox şairlər üçün ilham məbəyi olmuş, onun əsərlərinin ədəbi qəhrəmanları ən azı onlarla ədib tərəfindən təkrarlanmış, yenidən qələmə alınmışdır. Hətta Qərb ədəbiyyatında da Nizamidən sonra "Xəmsə" yaratmaq dəb halını almış, görkəmli özbək şairi Əlişir

Nəvai, hind şairi Əmir Xosrov Dəhləvi də "Xəmsə" yaratmağa təşəbbüs göstərmişlər. Məhz bu səbəbdən Nizmai yaradıcılığı bütün dövrlərdə tədris olunmuşdur.

Şagirdlərə verilməli olan ədəbi biliklər zəncirində Füzuli yaradıcılığı geniş şəkildə əksini tapmışdır. Cəfər Cabbarlı "Füzuli haqqında" məqaləsində qeyd etmişdir ki, Füzuli Azərbaycan ədəbiyyatını fars və ərəb girdabından çıxarmış, ölməz ədəbi nümunələr yaradaraq ədəbiyyatımızı yenilməz yüksəkliklərə qaldırmışdır [16, s.19]. Yaxud da tam orta təhsil pilləsində böyük Azərbaycan şairi M.P.Vaqifin yaradıcılığı haqqında həm monoqrafik məlumat verilmiş, həm də müvafiq dövrə uyğun icmal materialında onun timsalında XVIII əsrdə ədəbiyyatımızda realizmə doğru ciddi bir dönüş baş verdiyi, poeziyada həyati, təbii-hiss və duyğuların tərənnümünün ön plana keçdiyi şagirdlərin diqqətinə çatdırılmışdır. Bundan başqa, XIX əsrdə ilk maarifçi ideyaların yaranmasında rol oynamış A.Bakıxanov haqqında yığcam məlumatlar verilir, onun tərbiyəvi əhəmiyyətə malik "Hikmətin fəziləti" əsərinin tədrisi nəzərdə tutulmuşdur. Yaradıcılığının bir qismində saf məhəbbəti, digər qismində isə dövrün ictimai eyibləri, əxlaqi-mənəvi qüsurları tənqid edən Q.Zakirin məhəbbət mövzulu və ictimai məzmunlu qoşması ilə yanaşı, elmi və bədii yaradıcılığında vətəninə xalqına misilsiz xidmət edən M.F.Axundovun komediyaları və "Aldanmış kəvvakib" povesti uzun illər orta məktəbdə tədris olunurdu.Yaradıcılğı satirik-ictimai məzmunu, tənqid hədəflərinin çoxluğu iə seçilən C.Məmmədquluzadə, M.Ə.Sabir kimi ədiblərin əsərləri, dövrün çağrışı ilə səsləşən əsərləri, insanlığın xilas yolunu göstərən romantiklərdən H.Cavidin, cümhuriyyət nəğməkarı adlandırılan Ə.Cavadın yaradıcılığı da dərsliklərdə əksini tapmışdır. Ədəbi mühitdə ideya yeniliyi ilə seçilən görkəmli sənətkar C.Cabbarlı yaradıcılığı haqqında monaqrafik məlumatlarla yanaşı, şagirdlərin yaş və maraq dairəsinə uyğun maraqlı əsərlər seçilərək dərsliklərdə təqdim olunmuşdur. Sadalanan görkəmli ədiblərin əsərlərinin tədrisi, sözsüz ki, böyüməkdə olan gənc nəslin tərbiyəsində mühüm rol oynayan xüsusiyyətlərdəndir. Göründüyü kimi dərsliklərdə daha çox görkəmli ədiblərimizin əsərlərinin tədrisi ön planda olmuşdur.

2. *Tarixlik prinsipinin gözlənilməsi*. Hazırda istifadə olunan V-VII sinif dərsliklərində ədəbiyyatın müxtəlif dövrlərinə aid seçilmiş nümunələr diqqət çəkir. Məlumdur ki, bu prinsip tarixi inkişaf prosesini izləməyi tələb edir.VIII-IX siniflərdə bu mövzuların tədrisi xronoloji ardıcıllıq gözlənilməklə həyata keçirilir, ədəbiyyatımızın bütün dövrlərinə aid seçilmiş ədəbi nümunələr vasitəsilə şagirdlərdə ümumi təsəvvürlərin yaradılması nəzərdə tutulur. Ənənəvi dərsliklərdən fərqli olaraq bu siniflərdə icmal materialları tədris olunmur, ədiblərin həyatı və yaradıcılığı haqqında məlumatların toplanılması mövzu ilə əlaqəli verilmiş tapşırıqlarda əksini tapmışdır. Tam orta təhsil pilləsində isə tarixi-ədəbi prinsip əsas götürülür. X sinifdən başlayaraq XI sinfin sonuna kimi ədəbiyyat dərsliyində ən qədim dövrlərdən bu günə qədər ədəbiyyatımızın inkişaf meyilləri izlənilir.Tam orta təhsil səviyyəsində ədəbiyyatımızın keçdiyi inkişaf dövrləri və əsərlər daha geniş şəkildə öyrədilir. Bu siniflərdə ədəbiyyat dərsliklərində icmal və tərcümeyi-hal materialları verilmiş, tədisinə 1 saat vaxt ayrılmışdır. Tarixilik prinsipinin tələbləri həm ümumi, həm də tam orta təhsil pilləsində özünü göstərir.

3.Seçilmiş mövzular vasitəsilə dövlət standartlarının reallaşdırılması. Milli təhsilimizin inkişaf istiqamətləri yuxarıda sadalanan rəsmi sənədlərlə yanaşı "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları" sənədində də geniş şəkildə verilmişdir. Bu sənəddə bir sıra müddəalarla yanaşı, "Ümumi təhsilin məzmunu" hissəsindəki tələb (2.3. Ümumi təhsilin məzmununa şagirdlərin ümumi inkişafına xidmət etməyən, tətbiqi və tərbiyəvi xarakter daşımayan, milli və ümumbəşəri mənəvi dəyərlərə zidd olan, elmi cəhətdən təsdiqini tapmayan, mübahisə doğuran, habelə məzmunu ağırlaşdıran az əhəmiyyətli, ikinci dərəcəli məsələlərin daxil edilməsi yolverilməzdir) əsas götürülərək dərslik üçün materiallar hazırlanmışdır [10]. Həmçinin ümumi orta və tam orta təhsil pilləsində tədris olunan fənlər üzrə ümumi təlim nəticələri qeyd olunmuşdur. Dərsliklərdə seçilmiş mövzularvasitəsilə şagirdlərdə təlim nəticələrinin reallaşdırılması diqqət mərkəzində saxlanılmışdır.Busənəddə qeyd edildiyi kimi, təlim prosesində səmərəliliyin artırılması üçün ədəbiyyat fənni üzrə məzmun xətləri və məzmun standartları müəyyənləşdirilmişdir. Ədəbiyyat fənni

üzrə bədii ədəbiyyat və həyat həqiqətləri, şifahi nitq, yazılı nitq məzmun xətləri müəyyən edilmişdir [12]. Hər bir məzmun xəttinə uyğun müvafiq məzmun standartları və altstanartlar seçilərək mövzular tədris olunur.

NƏTİCƏ. Beləliklə, elmi-metodik ədəbiyyatlarda orta məktəblər üçün mövzuların seçilməsi zamanı nəzərə alınan prinsiplər haqqında yazılmış məqalələrin, vəsaitlərin şərhi, məktəb təcrübəsində təhlil olunması bizə bəzi ümumləşdirmələr aparmağa və müəyyən fikirlər söyləməyə imkan verir. Ədəbiyyat təlimində V-XI siniflərdə Azərbaycan ədəbiyyatı tarixinin bütün inkişaf mərhələlərinə aid görkəmli ədiblərin əsərləri verilmişdir ki, bu ədəbi nümunələrməktəblilərdə milli ədəbiyyatımızın çoxəsirlik tarixi haqqında təəssüratlar formalaşdırılması ilə nəticələnir. Fikrimizcə, dərsliklər dəyişən dünyanın tələblərinə uyğun həm məzmun və struktur, həm də mövzu və ideya baxımından daim təkmilləşdirilməlidir.

ƏDƏBİYYAT

1. Araslı, N. Ədəbiyyat − VII. Ümumtəhsil məktəblərinin VII sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik/ N.Araslı. − Bakı: Maarif, − 1996. − s.50-56.
2. Cəfərov, Ş. Ədəbiyyat qüvvətli tərbiyə vasitəsidir / Ş.Cəfərov. − Bakı: Maarif, −1981. −177 s.
3. Cəfərov, N. Ədəbiyyat – XI. Ümumtəhsil məktəblərinin XI sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik/ N.Cəfərov, İ.Həbibbəyli, N.Əliyeva, A.Bakıxanova. − Bakı: Çaşıoğlu, − 2006. −s.37-38.
4. Əhmədov C.M. Ədəbiyyat tədrisi metodikası. / C.M.Əhmədov. − Bakı: Bakı Universiteti Nəşriyyatı, −1991. −455 s.
5. Əliyev, A. S. Ədəbiyyat və həqiqət / A.S.Əliyev. − Bakı: Maarif, −1990. −188 s.
6. Əliyev, S. Ədəbiyyat – VIII. Ümumtəhsil məktəblərinin VIII sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik / S.Əliyev, B.Həsənov, A.Mustafayeva, N.Verdiyeva, S.Məmmədova. − Bakı: Bakı Nəşr, − 2023. − s.210.
7. Əliyev, S. Ədəbiyyat −VII. Ümumtəhsil məktəblərinin VII sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. / S.Əliyev, B.Həsənov, A.Mustafayeva, S.Məmmədova. − Bakı: Bakı Nəşr, − 2022. −211s.
8. Hacıyev, A.C. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. / A.C.Hacıyev. Bakı: Təhsil, − 2003. −317 s.
9. Həsənli, B. A. Ədəbiyyatın tədrisi metodikası / B.A.Həsənli. −Bakı: Müəllim nəşriyyatı, − 2011. −324 s.
10. https://e −qanun.az/framework/19682
11. https://e −qanun.az/framework/29145
12. https://www.arti.edu.az/noduploa‌d/editor/files/2%20Ədəbiyyat−kurikulum.pdf
13. Hüseyn, M. Ə. Ədəbiyyat və həyat. / tər.ed. Z.Hüseynova. −Bakı: Yazıçı, − 1989. − 506 s.
14. Hüseynoğlu, S.Ə. Ədəbiyyatın məktəbdə öyrədilməsi / S.H.Hüseynoğlu. − Bakı: ADPU-nun nəşriyyatı, − 2009, −179 s.
15. Qarabağlı, Ə.Azərbaycan ədəbiyyatının tədrisi metodikası / Ə.Qarabağlı. − Bakı: Maarif, − 1968. −345 s.
16. Mikayılov, Ş.A. Ədəbiyyat dərsliklərinin tərtibi prinsipləri /Ş.A.Mikayılov. –Bakı:Azərbaycan SSRİ Maarif Nazirliyinin mətbəəsi, −1988. –s.27-33.
17. Muradov, B.Q. Ədəbiyyat tədrisi metodikasının nəzəri əsasları / B.Q.Muradov. − Bakı: APİ-nin nəşri, − 1980. – 89 s.
18. Mustafayeva, A. Ədəbiyyat – XI. Ümumtəhsil məktəblərinin XI sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik/ A.Mustafayeva, B.Həsənov, S.Əliyev, İ.Həbibbəyli. − Bakı: Çaşıoğlu, − 2023. − s.24 −28.
19. Süleymanova, A. Ədəbiyyat – VI. Ümumtəhsil məktəblərinin VI sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. / A.Süleymanova, T.Bağırova. − Bakı: Təhsil, − 2006. – 238 s.
20. Yusifov, F.A. Ədəbiyyatın tədrisi metodikası / F.A.Yusifov. −Bakı: ADPU -nun nəşriyyatı, − 2023, − 420 s.

THE ARTISTIC POWER OF THE AZERBAIJAN LANGUAGE IN THE CREATIVITY OF BAKHTIYAR VAHABZADE

ХУДОЖЕСТВЕННАЯ СИЛА АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА В ТВОРЧЕСТВЕ БАХТИЯРА ВАГАБЗАДЕ

BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA AZƏRBAYCAN DİLİNİN BƏDİİ GÜCÜ

Günay Şirəliyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Naxçıvan Dövlət Universiteti
orcid id: 0009-0007-7723-4082

Abstract
One of the great figures of Azerbaijani literature, Bakhtiyar Vahabzadeh is known not only as an ordinary poet, but also as a great artist who fully expresses the artistic possibilities of our native language with his originality. In his work, the Azerbaijani language finds its most subtle shades, emotional depth and reflection of the national spirit. This article will examine how language has a poetic means of expression in the works of Bakhtiyar Vahabzadeh.
One of the most striking features of B. Vahabzadeh's creative style is the extraordinary harmony of folk colloquial language with high literary expression. He was able to create deep philosophical and lyrical content in folk literature with simple and understandable words.
Keywords: Bakhtiyar Vahabzadeh, Azerbaijani language, poetry, creativity, style, artistic expression

резюме
Бахтияр Вагабзаде один из величайших деятелей азербайджанской литературы, известен не только как рядовой поэт, но и как великий художник, самобытно и в полной мере выражающий художественные возможности нашего родного языка. В его творчестве азербайджанский язык обретает самые тонкие оттенки, эмоциональную глубину, отражение национального духа. В данной статье будет рассмотрено, как язык становится поэтическим средством выражения в творчестве Бахтияра Вахабзаде.
Одной из самых ярких сторон творческого стиля Б. Вагабзаде является необыкновенная гармония разговорного языка и высокой литературной выразительности. Он умел создавать в народной литературе глубокое философское и лирическое содержание простыми и понятными словами.
Ключевые слова: Бахтияр Вагабзаде, азербайджанский язык, поэзия, творчество, стиль, художественное выражение

Xülasə
Azərbaycan ədəbiyyatının böyük simalarından biri olan Bəxtiyar Vahabzadə təkcə adi bir şair kimi deyil, həm də ana dilimizin bədii imkanlarını orjinallığı ilə tam ifadə edən böyük sənətkardır. Onun yaradıcılığında Azərbaycan dilinin ən incə çalarları və emosional dərinliyi milli ruhda əksini tapır. Bu məqalədə Bəxtiyar Vahabzadənin əsərlərində dilin necə poetik bir ifadə vasitəsinə malik olduğu araşdırılacaq.
B.Vahabzadənin yaradıcılıq üslubunun ən diqqətçəkən cəhətlərindən biri xalq danışıq dili ilə yüksək ədəbi ifadənin qeyri-adi uyğunluğudur. O, xalq ədəbiyyatında sadə və anlaşılan sözlərlə dərin fəlsəfi və lirik məzmun yarada bilmiş, Azərbaycan dilinin zənginliklərini üzə çıxarmış, onu həm milli şüurun daşıyıcısı, həm də poetik ifadə vasitəsi kimi təqdim etmişdir.
Açar sözlər: Bəxtiyar Vahabzadə, Azərbaycan dili, poeziya, yaradıcılıq, üslub, bədii ifadə

Giriş.
Azərbaycan ədəbiyyatı tarixində elə sənətkarlar olmuşdur ki, onların yaradıcılığı yalnız poetik fikir və estetik zövq baxımından deyil, həm də milli özünüdərk, ana dilinə sevgi və xalq ruhunun təcəssümü baxımından böyük əhəmiyyət kəsb etmişdir. Belə sənətkarların ön sırasında Bəxtiyar Vahabzadə dayanır. O, Azərbaycan dilinin poetik imkanlarını, bədii-estetik gücünü, ifadə zənginliyini öz poeziyasında tam mənası ilə ortaya qoymuş, ana dilini həm mövzu, həm də üslub səviyyəsində vəsf etmiş, onunla milli mənlik şüurunun ifadəsinə nail olmuşdur. O, *Azərbaycan poeziyasının XX əsrdəki aparıcı simalarından biri kimi, milli dilə sevgisini yalnız ideya baxımından deyil, həm də xalq dilində əks etdirmişdir(4.səh.86).* Şairin əsərləri, xüsusilə də lirikasında Azərbaycan dilinin leksik, sintaktik, frazeoloji, fonetik və semantik imkanlarının geniş miqyasda istifadəsi onun dilə nə qədər ustalıqla yanaşdığını göstərir. Onun yaradıcılığı təkcə poeziyadan ibarət deyil, eyni zamanda Azərbaycan dilinin leksik və qrammatik gücünü önə çəkən dil materiallarından ibarətdir. Xalq şairi Bəxtiyar Vahabzadənin şeirlərində xalqın mədəniyyəti, yaddaşı, tarixi, mübarizəsi və arzuları dayanır. Çünki, Bəxtiyar Vahabzadə sözün gücündən, dilin estetik imkanlarından ustalıqla istifadə edərək, Azərbaycan dilinin bədii imkanlarını əsl söz üstası kimi dəyərləndirmişdir. Onun yaradıcılığında dilin sadəliyi və bədii gücün vəhdəti, Azərbaycan dili tarixi yaddaşın daşıyıcısı kimi təqdim olunur.
Əsas hissə. Bəxtiyar Vahabzadənin poeziyasında Azərbaycan dilinin müxtəlif səviyyələrdəki ifadə imkanları – leksik, sintaktik, bədii təsvir vasitələri, fonetik imkanlar, frazeologizmlər, üslub və ritm aspektində təhlil olunur.
Bəxtiyar Vahabzadə üçün ana dili sadəcə ünsiyyət vasitəsi deyil, eyni zamanda milli-mənəvi kimliyin əsas sütunudur. *Azərbaycan xalqının Ümummilli Lideri hər zaman ana dilinin – Azərbaycan dilinin tədrisinə, gənc nəslin bu dilə mükəmməl yiyələnməsinə xüsusi diqqət vermişdir (5.səh.86).* B.Vahabzadənin yaradıcılığının əsas qolunu ana dilimizin qorunması və saflığı ilə gələcək nəsillərə ötürülməsi təşkil edir.
Onun "Ana dili", "Mənim anam", "Həyat sən nə şirinsən...", "Axı dünya fırlanır", "Azərbaycan-türkiyə", "Şəki", "Azərbaycan oğluyam", "Bu dil" və digər şeirləri sevginin poetik nümunələridir. Xüsusilə Nəvəsi Bəxtiyara yazdığı "Bu dil" şeirində dilin müqəddəsliyi və varlığı ilə xalqın mövcudluğu arasında güclü ideya əlaqəsi qurulur:
Qönçədən çıxıb
Gül açır nəvəm.
Ana dilində
Dil açır nəvəm.
Bu torpaq sənin,
Bu dil sənindir.
Bu gözəl Vətən,
Öz Vətənindir.
Burada "ana dili" sadəcə nitq vasitəsi yox, həm də ilk hissin, ilk mənəvi təmasın simvoludur. *Bəxtiyar Vahabzadə təkcə dil, ana dili və onun taleyi məsələlərini öz əsərlərinin mövzusu etməklə kifayətlənməyib, dil barəsində düşüncələrin məhsulu olan bəzi dilçilik terminlərinin bədii təsvir vasitələri sırasına gətirilməsinə də cəhd etmişdir(1.səh.86).* Şairin bu yanaşması onun poeziyasında dilə konseptual münasibətini formalaşdırır. B.Vahabzadənin poetik dili leksik cəhətdən olduqca zəngindir. O, müxtəlif üslublara aid söz qatlarından – ədəbi dil, danışıq dili, folklor leksikası, arxaizmlər, terminlər və dialekt sözlərindən ahəngdar şəkildə istifadə edir. Məsələn, Şair "Vətəndaş" şeirində konkret sözlərlə fəlsəfi məqamlar arasında körpü yaradır:
Vətəndaş! Nə gözəl səslənir bu söz.
Yəni – bir qaynaqdan su içmişik biz.
O su qəlbimizdə coşdu, qaynadı,
Eyni bir ad ilə tanıtdı bizi.

Vətənin ünvanı, Vətənin adı
Bizə xatırlatdı vəzifəmizi! (3, səh.16)

Eyni zamanda şairin şeirlərində milli leksik fondun qorunub saxlanması müşahidə olunur. Xüsusilə türk mənşəli sözlər, qədim ifadələr onun dilində təhrif olunmadan yaşadılır.

Bəxtiyar Vahabzadənin poeziyasında sintaktik cəhətdən həm sadə, həm də mürəkkəb cümlə konstruksiyalarına rast gəlinir. Qısa cümlələrlə emosional vurğunu artırdığı kimi, uzun və mürəkkəb cümlələrlə fəlsəfi təhlillərə giriş edir. O, xalq dilindəki frazeologizmlərə xüsusi maraq göstərmişdir. Frazeoloji vahidlərin poeziyaya daxil edilməsi şairin dilini həm anlaşıqlı, həm də xalq ruhuna uyğun edir.

Şairin poeziyasında metafora və təşbehlər əsas bədii ifadə vasitəsi kimi çıxış edir. Onun yaratdığı obrazlar canlı, dinamik və fəlsəfi yüklü olur. Aşağıdakı misrada bu xüsusiyyət aydın şəkildə görünür.

Ana dilim, səndədir xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.
Ürəklərə yol açan Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara yol açmış.
Səndə mənim xalqımın qəhrəmanlıqla dolu
Tarixi varaqlanır,
Səndə neçə min illik mənim mədəniyyətim,
Şan-şöhrətim saxlanır.
Mənim adım, sanımsan,
Namusum, vicdanımsan. (1 cild 8 səh.)

Şair dilin imkanlarından yalnız poetik obraz yaratmaq üçün deyil, həm də ictimai, siyasi və fəlsəfi ideyaları çatdırmaq üçün istifadə etmişdir. Onun yaradıcılığı janr etibarı ilə çox zəngindir. Burada məzmun və formaca bir-birini tamamlayan çoxsaylı şeirlər, poemalar, dram əsərləri və maraqlı nəsr nümunələri ilə əhatə olunmuşdur. B.Vahabzadənin poetik dili xalq danışıq dilinə əsaslanır. O, xalq ədəbiyyatından, folklor nümunələrindən, atalar sözlərindən və el deyimlərindən geniş şəkildə bəhrələnmişdir. Bu da onun şeirlərinə milli kolorit, oxucuya doğmalıq və səmimiyyət gətirir. Onun şeirlərindəki xalq deyimləri, aforizmlər, ritmik paralellər Azərbaycan dilinin zənginliyini ortaya qoyur. Məsələn, “Gülüstan” poemasında – sovet dönəminin senzura şəraitində yazılmış bu əsərdə dil vasitəsilə xalqın birliyi və bütövlüyü ideyası ön plana çıxarılır. Beləliklə, B.Vahabzadə dilin fəlsəfi mahiyyətinə varır, onun insanla birgə doğulduğunu və insanla bərabər yaşadığını göstərir. Bu isə ana dilini sadəcə bir alət kimi deyil, milli kimliyin ruhu kimi dəyərləndirməyə imkan verir. Onun poetik dili zəngin söz ehtiyatına, ritmik ahəngə və daxili emosional gücə malikdir.

Nəticə. Bəxtiyar Vahabzadənin poetik irsi Azərbaycan dilinin bədii-estetik gücünü, semantik və struktural imkanlarını ortaya qoymaq baxımından nadir nümunələrdəndir. O, şeirlərində dili təkcə bir vasitə kimi deyil, bir dəyər, bir milli ideologiya kimi formalaşdırmış, Azərbaycan dilini poeziya səviyyəsində yüksəltmişdir. Onun poeziyası yalnız ədəbi deyil, həm də dilçilik tədqiqatları üçün əhəmiyyətli qaynaq hesab olunur. Bu baxımdan B.Vahabzadə yaradıcılığı Azərbaycan dilinin ifadə imkanlarının poetik zənginliyini əks etdirən bir ədəbi məktəbdir.

Bəxtiyar Vahabzadə Azərbaycan dilini şeirin, dramın və fəlsəfənin qovuşduğu bir sənət aləminə çevirib. Onun əsərlərində dil milli ruhun aynası, estetik təfəkkürün əsasıdır. Bu baxımdan, B.Vahabzadə yaradıcılığı Azərbaycan dilinin bədii gücünün təzahür etdiyi bir "söz abidəsi"dir. Şair Azərbaycan dilinin bədii gücünü tam şəkildə açaraq, onu milli şüurun, mədəni kimliyin və ictimai dəyişikliyin vasitəsinə çevirib. Onun əsərlərində dil təkcə sözlər məcmusundan ibarət deyil, həm də xalqın ruhunu, həyat fəlsəfəsini və azadlıq arzularını əks etdirən bir sənət əsəridir. B.Vahabzadənin irsi Azərbaycan dilinin zənginliyini və ifadə imkanlarını nümayiş etdirən qiymətli bir sənət nümunəsidir.

ƏDƏBİYYAT SİYAHISI

1. Alməmmədova Səbinə Məmməd qızı. Bəxtiyar Vahabzadə poeziyasının dili. Bakı, “Elm”, 2010.
2. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı, "Öndər nəşriyyat", 2004.
3. Bəxtiyar Vahabzadə. Əsərləri. On iki cilddə. V cild (1980- 1989). - Bakı, “Elm” nəşriyyatı, 2008.
4. Yavuz Axundlu. Ədəbi portretlər. Bakı: Elm, 2009
5. Nizami Cəfərov. Heydər Əliyev: dil, ədəbiyyat və incəsənət. Bakı: BDU Nəşr Evi, 2023.

HEYDƏR ƏLIYEV AND TURKISH WORLD

HEYDƏR ƏLİYEV VƏ TÜRK DÜNYASI

baş müəllimi T.ü.f.d Hüseynova Günel Fariz qızı
Gəncə Dövlət Universitetinin Sosial Fənlər kafedrasının
orgid 0000000179769434

Abstract
General national leader Heydar Aliyev has been a supporter of the integration of the countries of the Turkish world. He stated in his congratulations to the participants of the 1994 Turkish People's Friendship, Brotherhood and Fellowship Congress: "The contemporary Turkish world, which is experiencing a new period of its rise, aims to provide new and unique examples of successful civil politics." is in its power." Today, Azerbaijan's brotherhood and friendship with the countries of the Turkic world are established on the basis of the unity of our people's historical roots, customs and traditions accumulated over centuries, and unity of language. Azerbaijan's historical traditions, friendship and brotherly relations with Turkey, Kazakhstan, Kyrgyzstan, Uzbekistan and Turkmenistan have existed for centuries.
The intellectual treasure of the global leader Heydar Aliyev in the unity of the Turkish world is lived with great respect and respect by Turkey and the Turkish states of Central Asia. The protection and propagation of the ideology, spiritual heritage of the great leader is implemented within the framework of various scientific, educational and civil developme
Keywords: Heydar Aliyev, Turkey, Turkic countries

Xülasə
Ümummilli lider Heydər Əliyev Türk dünyası ölkələrinin inteqrasiyasının tərəfdarı olmuşdur. O, 1994-cü ildə Türk Xalqlarının Dostluq, Qardaşlıq və Əməkdaşlıq qurultayının iştirakçılarına təbrikində qeyd etmişdir: "*Özünün yeni yüksəliş dövürünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır*". Bu gün Azərbaycanın türk dünyası dövlətlərilə əməkdaşlığı və dostluq münasibətləri xalqlarımızın tarixi köklərinin, əsrlər boyu toplanmış adət-ənələrinin birliyi, dil birliyi əsasında qurulub. Azərbaycanın Türkiyə, Qazaxstan, Qırğızıstan, Özbəkistan, Türkmənistanla tarixi ənənələri, dostluq və qardaşlıq əlaqələri əsrlər boyu mövcud olmuşdur
Ümummilli lider Heydər Əliyevin Türk dünyasının birliyi barədə fikir xəzinəsi Türkiyə və Mərkəzi Asiyanın türk dövlətləri tərəfindən böyük hörmət və ehtiram hissi ilə yaşadılır. Ulu öndərin ideoloji, mənəvi mirasının qorunması və təbliği müxtəlif elm, təhsil və mədəni layihələr çərçivəsində həyata keçirilir.
Açar sözlər: Heydər Əliyev, Turkiyə, Türk ölkələri

Giriş

Heydər Əliyev dövlət çevrilişinə cəhddən sonra və daxili iğtişaşlar ölkəni parçalanma riski ilə üz-üzə qoyduğu bir vaxtda hakimiyyətə gəldi. Daxili siyasətdəki təlatümlərlə yanaşı, xarici siyasətdə də problemlər yaşayırdı. Əvvəlki hökumətlərin yaratdığı bütün mənfiliklər və yeni müstəqil ölkə kimi öz suverenliyini qoruyub saxlamaq üçün apardığı mübarizə ilə region eyni zamanda dünya dövlətlərinin hesablamalarının öhdəsindən gəlməli oldu. Ona görə də hər bir addım diqqətlə atılmalı idi. Əliyev Siyasi Büro fəaliyyət göstərdiyi illərdən balanslaşdırılmış siyasət və sülh yolu ilə gedir. iqtidaryönlü mövqeyi ilə seçilirdi. Müstəqil Azərbaycanın rəhbərliyinə gəldikdən sonra da balanslı siyasətini eyni şəkildə davam etdirdi. Daxili siyasət müəyyən qədər qaydaya salındıqdan sonra region ölkələrinin ən önəmlisi olan Rusiya ilə münasibətləri yenidən yoluna qoymaq üçün səylər göstərildi.

Onun hakimiyyətinin ilk dövrlərində Rusiya ilə yaxınlaşması Türkiyə tərəfindən narahatlıqla qarşılanırdı.

Rusiya faktorundan başqa, onun Elçibəy kimi türkçü deyimləri olan, xarici siyasətdə həmişə Türkiyəyə üstünlük verən hakimiyyətin davamçısı olması Azərbaycanın özündən uzaqlaşa biləcəyini də Türkiyədə gündəmə gətirib. Onunla müsahibəsində bu məsələ ilə bağlı soruşduqda söyləmişdi: *"Hər kəsin öz siyasəti var. Bildiyiniz kimi, mən siyasətdə təcrübəliyəm. Mən bu təcrübədən yararlanmağa və Azərbaycanın xarici siyasətini dövlətimizin xeyrinə lazımi istiqamətlərə yönəltməyə çalışıram. Elçibəyin Türkiyənin dostu olması fikrinə gəlincə, deyə bilərəm ki, Heydər Əliyev də Türkiyənin dostudur. Amma dostluq populist sözlərdən yox, ürəkdən gəlməlidir".(1)*

Azərbaycan müstəqilliyini elan edəndə onu ilk tanıyan Türkiyə oldu. Əliyev bunun Azərbaycan xalqı üçün nə qədər əhəmiyyətli motivasiya və məna mənbəyi olduğunu tez-tez dilə gətirirdi. *"Azərbaycan dünyada müstəqillik qazanan ilk ölkədir Türkiyə bunu ilk dəfə tanıdı. Bu, Azərbaycanın dünya dövlətlər birliyi tərəfindən tanınması istiqamətində böyük addım idi".* (4) 70 illik ayrılıqdan sonra Türkiyə və xalqına qovuşduqlarını, sanki heç ayrılmamış kimi bir-birlərini qucaqladıqlarını, zamanın aralarındakı bağları heç vaxt qırmadığını bildirir. Bildirir ki, bu illər ərzində Azərbaycan xalqı Türkiyəyə həmişə həsrət və ümidlə baxıb. (5)

Türkiyə ilə Azərbaycan arasında münasibətlər uzun tarixə malikdir. Din, dil və milli mənsubiyyət yaxınlığı, bir-birinə siyasi və strateji ehtiyac kimi amillərin yaratdığı qarşılıqlı rəğbət münasibətlərin əsasını təşkil edirdi. Sovet İttifaqından ayrılaraq müstəqilliyini elan edən Azərbaycan Türkiyədə həm qardaşlıq duyğularının qaynağı olan bir ölkəyə çevrildi. Həm həvəs, həm də siyasi və iqtisadi səbəblərə görə böyük ümidlər yaratdı. Türkiyə ilə Azərbaycan arasındakı münasibəti "bir millət, iki dövlət" sözləri ilə izah edən Əliyev Türkiyənin türk dünyası içərisində imtiyazlı bir yerə sahib olduğunu belə ifadə edir. Türkiyə ilə Azərbaycan arasında əlaqələrin tarixi 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və türk ordusunun köməyi ilə başlayır. Heydər Əliyev Türkiyə-Azərbaycan münasibətlərindən danışarkən də tez-tez bu məsələni gündəmə gətirir. 1918-ci ildə Azərbaycanda ilk demokratik cümhuriyyət yarananda yenə də yardım əlini uzadan xalq oldu. O, Türkiyənin olduğunu, Bakının türk ordusunun köməyi ilə azad edildiyini xatırladır və bir çox çıxışlarında Azərbaycan xalqının bunu heç vaxt unutmadığını vurğulayır. O hesab edir ki, Türkiyə ilə Azərbaycan arasında münasibətlər qədim tarixə malikdir və eyni kök, dil və dinə malik bu iki xalqı adət-ənənələr bağlayır. O, aralarındakı münasibəti "qardaşlıq" münasibəti kimi qələmə verir və bu münasibətin keçmişdə qurulması mümkün olmasa da, onların qəlblərində bu şəkildə yaşadığını, heç kimin nə keçmişdə, nə də gələcəkdə bu əlaqələri qıra bilməyəcəyini bildirmişdi.

Prezident kimi Heydər Əliyev Türkiyəyə üç rəsmi, iki dostluq və on beş işgüzar səfər etmişdir.(2). Bu səfərlərdən birincisi 1994-cü il fevralın 8-10-da baş tutub 15 saziş, o cümlədən bir müddətli dostluq və əməkdaşlıq sazişi, o cümlədən ticarət, investisiya, elmi və mədəni əməkdaşlıq imzalanıb(4). Rəsmi mərasimlərdə etdiyi çıxışlarda qardaş ölkə olduqlarını vurğulayan Əliyev Türkiyəyə dəstəklərinə görə təşəkkür edib və bunun davamını gözlədiklərini bildirib. O, Azərbaycanın Türkiyədən gözləntilərini məşhur "Uman yerden küsərlər" deyimi ilə dilə gətirib(3).

1997-ci ilin mayında Süleyman Dəmirəlin dəvəti ilə Türkiyəyə gələn Heydər Əliyev Ankarada Azərbaycan səfirliyinin təməlqoyma mərasimində çıxış edərək Azərbaycan-Türkiyə əlaqələrinin tarixinə toxunduqdan sonra Türkiyənin SSRİ dövründə diplomatik əlaqələrin olduğunu xatırladıb əlaqələr qurmağa çalışdığını qeyd etdi. O bildirib ki, Türkiyə hakimiyyətinin SSRİ-də ikinci səfirliyini Azərbaycanda açmağı seçməsi çox mühüm hadisədir.

2000-ci il aprelin 9-da Əliyevin Türk dünyasının ən şanlı simalarından biri kimi xarakterizə etdiyi Dəmirələ Azərbaycanın fəxri vətəndaşı adı verilib. A.Əliyev qeyd edib ki, o vaxta qədər bu ad heç kimə verilməyib. Azərbaycanın və Orta Asiya türk cümhuriyyətlərinin müstəqilliyi Türkiyənin bu ölkələr üçün örnək ola biləcəyi ilə bağlı fikirlərin yaranmasına səbəb oldu. "Adriatikdən Çin Səddinə qədər türk dünyası" və "Türkiyə regional lider olaraq" diskursları ortaya çıxdı. Türkiyənin yeni qurulan bu ölkələr üçün bir model olması ilə bağlı İ.Əliyev bildirib ki, iki ölkənin ortaq dəyərləri var,

çünki Türkiyənin model olması daha məqsədəuyğundur. Bununla belə, iki ölkə arasında keçmişdən bəzi fərqlər də var. 1994-cü ildə verdiyi müsahibədə Türkiyə ilə mənəvi bağların varlığına toxunmuş, eyni zamanda türk modelinin olduğu kimi qəbul edilə bilməyəcəyini bildirmişdi. 2001-ci il martın 9-da Azərbaycan prezidenti Heydər Əliyev Bakıda Azərbaycan Atatürk Mərkəzinin açılması haqqında qərar qəbul etdi. 2001-ci il martın 12-17-də Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyəyə növbəti rəsmi səfər etmişdir. Onun Türkiyə prezidenti və hökumət başçısı ilə görüşlərində iki dövlət arasında münasibətlərin hazırkı vəziyyəti və onların inkişaf etdirilməsi imkanları müzakirə mövzusu olub. Səfər zamanı vergilər, maliyyə, Azərbaycan təbii qazının Türkiyəyə nəqli ilə bağlı imzalanan əsasnamə və digər sənədlər qarşılıqlı faydalı əməkdaşlıq siyasətinin davam etdirilməsi üçün şəraitin yaradılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Hərbi əlaqələr ilk dəfə 1992-ci il yanvarın 25-də Azərbaycanın o vaxtkı prezidenti Ayaz Müttəlibov tərəfindən gündəmə gətirilib.Mətbuat konfransında Müttəlibov Azərbaycanın müdafiəsi üçün ordunun yaradılmasının zəruriliyindən danışıb və bu məsələ ilə bağlı Türkiyə rəsmiləri ilə görüşdüyünü bildirib(2). Lakin Əliyevin sözlərinə görə, hərbi əlaqələr hiss olunur.
gücü ilə inkişaf etmişdir. Ermənistanın ələ keçirdiyi torpaqlar və hələ də güclü ordusunun olmaması Azərbaycanın ən mühüm problemlərindən idi. Azərbaycan ordusu siyasi problemlərə görə dövlət qurmaqda maraqlı olmayan Ermənistanın öz ordusunu gücləndirməklə məşğul olduğunu deyən Əliyev Ermənistan ordusunun Azərbaycanın bu vəziyyətdən istifadə edərək irəlilədiyini bəyan edib. Belə bir şəraitdə hələ 1994-cü ildə atəşkəs əldə edilmədiyi halda, İstanbulda keçirilən mətbuat konfransında Türkiyədən hərbi yardım gözləyirlərmi sualına belə cavab verdi: *"...biz başqa ölkələrdən və bu baxımdan Türkiyədən heç bir hərbi dəstək qəbul etmirik. Biz kömək istəmirik... Döyüş məsələsinə gəlincə, bunu özümüz həll edəcəyik. Amma eyni zamanda, azərbaycanlı gənclərin Türkiyənin hərbi məktəblərində təhsil alması bizim üçün vacibdir, ordumuzun yaradılması üçün çox lazımdır. Çünki Türkiyədə hərbi məktəblərin böyük imkanları var və biz bundan istifadə edərək hərbi kadr hazırlayacağıq"(3)* Heydər Əliyev Türkiyədən gözləntilərini belə cavablandıraraq dilə gətirib. 1996-cı il iyunun 10-da hərbi təhsil, texniki və elmi əməkdaşlıq haqqında saziş imzalandı. Hərbi əlaqələr uzun müddətdir ki, türk hərbi məktəblərində azərbaycanlı zabitlərin hazırlanması və Kosovoda sülhməramlı qüvvələrdə xidmət edən Azərbaycan batalyonunun maliyyələşdirilməsi ilə məhdudlaşıb. 2001-ci il martın 1-də "Azərbaycan Hökuməti ilə Türkiyə Hökuməti arasında qeyd-şərtsiz hərbi yardım haqqında" Saziş və "Azərbaycan Müdafiə Nazirliyi ilə Türkiyə Baş Qərargahı arasında maliyyə yardımı haqqında" saziş protokol imzalanıb.

Azərbaycan və Türkiyə arasında təhsil əlaqələri 29 fevral 1992-ci ildə imzalanmış Anlaşma Memorandumu ilə başlayan ümumilikdə 11 müqavilə və protokolla tənzimlənir. 1992-2001-ci illər arasında Türkiyə orta təhsil üçün 604, ali təhsil üçün isə 3490 tələbə kvotası ayırıb(1).

Əliyevin Türkiyədə təhsil alacaq tələbələrdən müəyyən gözləntiləri var idi. Xüsusən də Ermənistanla atəşkəsin əldə olunmadığı dövrdə bu gözlənti Azərbaycanın yaşadıqlarının qardaş ölkədə bütün reallığı ilə söylənilməsi idi. Lakin ümumilikdə Türkiyə Azərbaycanın tam şəkildə təmsil olunmasını istəyir.

SSRİ-nin dağılması və İttifaq ölkələrinin müstəqillik qazanması ilə Azərbaycan, Özbəkistan, Qazaxıstan, Türkmənistan və Qırğızıstan kimi Türkiyə ilə eyni soydan olan ölkələr də müstəqilliklərini qazandılar. Bu vəziyyət Türk Birliyinin qurulacağına dair gözləntilər yaratmışdı. Türkiyənin böyük önəm verdiyi Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvə Toplantısı Türk Cümhuriyyətləri Sovet İttifaqından ayrılaraq 1991-ci ildə müstəqillik əldə etdikdən sonra ilk dəfə 1992-ci il oktyabrın 30-31-də Ankarada keçirilmişdir. Sonrakı zirvə toplantıları 1994-cü ildə İstanbulda, 1995-ci ildə Bişkekdə, 1996-cı ildə Daşkənddə, 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda və 2001-ci ildə İstanbulda keçirilmişdir. 1998-ci ildə Astanada keçirilən toplantıda "Türk Cümhuriyyətlərinin Dövlət Başçılarının Zirvə Toplantısı", "Türkdilli Ölkələrin Dövlət Başçılarının Zirvəsi" olaraq dəyişdirildi. 1992-ci ildən müntəzəm olaraq keçirilən sammitdə Türk dünyasının problemləri gündəmə gətirilib.1994-cü ilin oktyabrında Türkiyə Prezidentləri Zirvə toplantısına

qatılan Əliyev ölkəsinin vəziyyətiylə bağlı mühüm açıqlamalar verib. O, Türkiyənin başçılıq etdiyi bu təşkilatın türk ölkələri üçün önəmli olduğunu düşünür. Əslində o, çıxışında bildirdi ki, müstəqillik əldə etmiş bu dövlətlər düşdüyü vəziyyətdən çıxmaq üçün bir-birlərinə dəstək olmalıdırlar.

Heydər Əliyev Türkiyə prezidentləri və Türksoy kimi təşkilatlarla görüşləri dəstəkləyərək, bunların mədəni və sosial sahələrə diqqət yetirən qurumlar olduğunu vurğulayırdı. Bununla belə, türk dünyası ölkələrinin iqtisadi və strateji əməkdaşlıq etməsini də istəyirdi. Onun üçün türk dünyasında Türkiyənin xüsusi yeri var. Çünki bu ölkələr arasında XX əsrdə müstəqilliyini qoruyan yeganə ölkə Türkiyədir. Heydər Əliyev hesab edirdi ki, Türkiyə müstəqilliyini yenicə əldə etmiş ölkələr üçün təcrübə mənbəyi və nümunədir.

Nəticə

Ulu öndər milli ideallarımıza həmişə böyük hörmətlə yanaşıb, milli tariximizin, dilimiz və ədəbiyyatımızın, milli mədəniyyətimizin köklərinə nüfuz edib, keçmiş və gələcəyimizin vəhdətinə, onun ümdə məsələlərinə diqqəti yönəldibdir. Heydər Əliyevin siyasi-ideoloji fəaliyyəti Azərbaycanla məhdudlaşmayıb bütövlükdə türk dünyasını əhatə edir. Türk xalqlarının birliyini möhkəmləndirmək, mənəvi körpüləri qorumaq, milli kökə qayıdış, ortaq dəyərlərimizi birləşdirmək ulu öndər Heydər Əliyevin fəaliyyətinin əsas məqsədlərindən olub.

İstifadə olunmuş ədəbiyyat

1. Əliyev, Heydər, Müstəqilliyimiz əbədidir, Birinci kitab, Azrnəşr, Bakı 1997.
2. Abdullahzadə, Fatma, Elesgarov, Fuad, Əlirzayev, Əli və b. , Azərbaycan Respublikası 1991-2001, Bakı2001
3. Əliyev, Heydər, Müstəqilliyimiz əbədidir, Üçüncü kitab, Azərnəşr, Bakı 1997
4. Dağı, Zeynep, Identity, Nationalism and Foreign Policy: The Transformation of Russia, Boyut Kitapları, İstanbul 2002
5. Heyder Eliyev ve Sivilizasiya (I cild), Bakı 2008

GENDER DIFFERENCES IN THE MANIFESTATION OF EMOTIONAL STABILITY IN ADOLESCENTS

YENİYETMƏLƏRDƏ EMOSİONAL SABİTLİYİN TƏZAHÜRÜNDƏ GENDER FƏRQLƏRİ

Məmmədova Günel İlqar qızı

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji Psixologiya Kafedrasının Müəllimi
https://orcid.org/0009-0006-5941-7611

Abstract.
Social instability situations, innovative transformations that create deep crisis changes in people's lives, place increasing demands on their emotional stability in relation to both external influences and internal contradictions [1]. Therefore, the problem of developing emotional stability in adolescents remains relevant for society. Adolescence is characterized as a period of high emotionality, which manifests itself in excitement, mood swings, anxiety, aggressiveness and other reactions [2, p.127].
Girls react more emotionally to life events, films and stories than boys. It is during adolescence that gender differences become most striking and noticeable. This is explained by the fact that at this age the understanding and acceptance of gender roles occurs, a person's own "I" position and worldview are formed, and important qualities and personality traits for later life develop.
Emotional stability in adolescents develops differently, depending on both gender and social upbringing differences.
• Girls are more open in expressing their emotions, but more sensitive to internal tensions.
• Boys tend to suppress their emotions, which can sometimes result in aggression and behavioral disorders.
Therefore: it is important to teach both boys and girls to recognize, express and regulate their emotions. Choosing individual approaches, taking into account gender differences, should be the main principle in psychological support and education.
The results of the diagnosis of emotional stability using the method of G. Eysenck's "Emotional Stability Scale-Instability (Neuroticism)" were revealed.
Thus, our study showed that there are gender differences in the manifestations of emotional stability in adolescents, and **that boys have higher emotional stability than girls.**
Key words: **emotional stability, gender differences, adolescence, innovative transformations, contradiction**

Xülasə.
İnsanların həyatında dərin böhran dəyişiklikləri yaradan sosial qeyri-sabitlik vəziyyətləri, innovativ transformasiyalar həm xarici təsirlərə, həm də daxili ziddiyyətlərə münasibətdə onların emosional sabitliyinə artan tələblər qoyur [1]. Buna görə də, yeniyetmələrdə emosional sabitliyin inkişafı problemi cəmiyyət üçün aktual olaraq qalır. Yeniyetməlik yüksək emosionallıq dövrü kimi xarakterizə olunur ki, bu da özünü həyəcan, əhval dəyişikliyi, narahatlıq, aqressivlik və digər reaksiyalarla göstərir [2, s.127].
Qızlar həyat hadisələrinə, filmlərə və hekayələrə oğlanlara nisbətən daha emosional reaksiya verirlər. Məhz yeniyetməlik dövründə cins fərqləri ən diqqətçəkən və nəzərə çarpan olur. Bu onunla izah olunur ki, bu yaşda gender rolunun dərk edilməsi və qəbul edilməsi baş verir, insanın öz “mən” mövqeyi və dünyagörüşü formalaşır, sonrakı həyat üçün vacib keyfiyyətlər və şəxsiyyət xüsusiyyətləri inkişaf edir.

Yeniyetmələrdə emosional sabitlik **həm gender, həm də sosial tərbiyə fərqlərinə əsasən fərqli şəkildə inkişaf edir.**

- Qızlar emosiyalarını ifadə etməkdə daha açıq, lakin daxili gərginliklərə daha həssas olurlar.
- Oğlanlar isə emosiyalarını bastırmağa meyllidirlər və bu, bəzən aqressiya və davranış pozuntuları ilə nəticələnə bilər.

Bu səbəbdən: həm oğlan, həm də qız yeniyetmələrə emosiyalarını **tanımağı, ifadə etməyi və tənzimləməyi öyrətmək** vacibdir. Genderə görə fərqlilikləri nəzərə alaraq fərdi yanaşmalar seçmək psixoloji dəstək və tərbiyədə əsas prinsip olmalıdır.

Q.Ayzenk tərəfindən "Emosional sabitliyin şkalası-qeyri-sabitlik (neyrotizm)" metodu ilə emosional sabitliyin diaqnostikasının nəticələri aşkar edilmişdir.

Beləliklə, apardığımız tədqiqat yeniyetmələrdə emosional sabitliyin təzahürlərində gender fərqlərinin mövcud olduğunu, oğlanların emosional sabitliyinin qızlardan daha yüksək olduğunu göstərdi.

Açar sözlər: emosional sabitlik, gender fərqləri, yeniyetməlik, innovativ transformasiyalar, ziddiyyətlər

ƏDƏBİYYAT SİYAHISI.

1. Валюте, В.К. Психология эмоциональных явлений. / В.К. Валюте – М: Питер, 1997. - С. 160-179.
2. Изард К.Э. «Психология эмоций». / К. Изард - пер. с англ. – С.-Пб.: Питер, 1999. – С. 450 - 480.
3. Лафренье, П. Эмоциональное развитие детей и подростков./П. Лафренье - СПб, Издательство: Прайм-Еврознак, ОЛМА-ПРЕСС, 2004. - С. 354-390.

TRANSFORMATION OF AZERBAIJAN COLLOCAL LANGUAGE INTO ENGLISH IN THE SELECTED POETİC WORKS OF BAKHTIYAR VAHABZADE

BƏXTIYAR VAHABZADƏNİN SEÇİLMİŞ ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN DANIŞIQ DİLİNİN İNGİLİS DİLİNƏ TRANSFORMASİYASI

Həsənova Sevda Hüseyn qızı (baş müəllim)
Azərbaycan Dillər Universiteti, German dillərinin tərcümə nəzəriyyəsi və praktikasi kafedrası
ORCID: 0009-0008-1879-3543

Abstract
The primary objective of this study is to examine the methods and strategies that ensure the accurate and effective translation of dialectal, argot, slang, and colloquial expressions found in the selected works of the Azerbaijani People's Poet, Bakhtiyar Vahabzadeh, into English. The research compares a number of translation approaches and methods for preserving the poetic and emotional essence of such statements and safeguarding the nation's cultural identity of the poet. The research is targeted specifically at looking for the way to convey idiomatic expressions, local dialects, and colloquialisms in English through tactics of equivalence or adaptation. Key problems found in translation are semantic and stylistic equivalence, the understanding and expression of cultural characteristics, and a retention of poetic form and emotional impact.
For such concerns, the study assesses several translation methods, including literal translation, equivalence, adaptation, and explanatory means. The findings confirm that the purposeful and context-specific application of such methods is paramount for the preservation of the linguistic and cultural characteristics of the source language and the conveyance of the voice and emotional depth of the poet to a target community
In conclusion, this research proves that the proper and successful translation of dialectal and colloquial features into English, in addition to preserving the authentic spirit and national identity of Azerbaijani poetry, also contributes to the formation of Azerbaijani literature as a competitive world product in the global cultural space and supports intercultural understanding. The building of new methodology and methods in this field propels the improvement of translatiaon professionalism and expands intercultural communication.
Keywords: Bakhtiyar Vahabzadeh, colloquial, dialect, poetic transformation, slang

Xülasə
Bu məqalədə Azərbaycan xalq şairi Bəxtiyar Vahabzadənin seçilmiş əsərlərində Azərbaycan danışıq dilinə məxsus ifadələrin ingilis dilinə transformasiyası təhlil edilir. Məqsəd dialekt, arqo, jarqon və danışıq lüğətinə daxil olan söz və ifadələrin ingilis dilinə tərcümə metodlarını araşdırmaqdır. Həmçinin, poetik strukturun və şairin milli-mədəni kimliyini saxlamaq məqsədilə istifadə olunan müxtəlif tərcümə yanaşmaları və üsulları izah olunur. Məqalədə həm tərcümə nəzəriyyəsi, həm də praktiki nümunələr üzərində durulur.
Açar sözlər: Bəxtiyar Vahabzadə, danışıq dili, transformasiya, tərcümə üsulları, dialekt,

GİRİŞ

Dil ədəbiyyatın ən vacib elementlərindən biridir. Xüsusilə poetik mətnlərdə istifadə olunan dialekt və danışıq dili ifadələri mədəni və milli kimliyin ifadəsi kimi xüsusi əhəmiyyət daşıyır.
Bəxtiyar Vahabzadənin fərdi dili ilə xalq danışıq dilinin nisbəti məsələsi bir çox dilçi mütəxəssislərin diqqət mərkəzində olmuşdur. Məsələn dilçi alim S.Ə. Abdullayev göstərir ki, *"Yazıçı nə qədər istedadlı olur - olsun, onun yonduğu, cilaladığı və, beləliklə də, meydana çıxardığı poetik incilər yenə də xalq dili, xalq təfəkkürü sayəsində mümkün olur*" (Abdullayev, 1976, s. 131).

Elə buna görə də *"Sənətkarın məharəti, ustalığı da məhz belə bir mənbədən necə istifadə etməsi, öz əsərlərinin dilində ümumxalq dili ifadələrini bədii əsərin dilində işlədəbilmə bacarığı ilə ölçülür. Çünki ümumxalq dili elə tükənməz imkanlara malikdir ki, onu heç bir fərdi yaradıcılıq məhsulu əvəz edə bilməz"* (Rəhimov, 1975, s.157)

Bəxtiyar Vahabzadə ümumxalq dilindən, xalqın çoxəsrlik və zəngin folklorundan, onun həyat təcrübəsinin dildə təsbit olunmuş, sabitləşmiş müdrik deyimlərindən sənətkarlıqla istifadə etmişdir. Həcmcə kiçik, mənaca dərin və təsirli olan atalar sözləri və zərb-məsəllər dolğun ifadə vasitələri olub, dilin obrazlı ifadələrinin mühüm hissəsini təşkil edir. Məsələn:

"Azca aşım, ağrımaz başım" (Vahabzadə, B. 1987,s.37). – *A steel tongue makes a wise head*

"Ot kökü üstündə bitər" (Vahabzadə, B. 1990,s.55). – *As the tree, so the fruit*

"El gücü, sel gücü"(VahabzadəB.1962,s.121)– *Many hands make light work*

Bəxtiyar Vahabzadə əsərlərində Azərbaycan danışıq dilinə məxsus söz və ifadələr geniş yer tutaraq, onun poeziyasının canlılığı və xalqın sosial-mədəni ruhunu əks etdirməsi baxımından önəmlidir. Lakin bu ifadələrin xarici dillərə, xüsusilə ingilis dilinə tərcüməsi prosesində mədəni fərqlər və dilin struktur xüsusiyyətləri çətinliklər yaradır. Bu səbəbdən tərcümədə sadəcə leksik ekvivalent tapmaqla kifayətlənmək olmur, həm də mədəni kodların uyğun transformasiyası tələb olunur.

BƏDİİ TƏRCÜMƏDƏ DANIŞIQ DİLİ ELEMENTLƏRİNİN TƏRCÜMƏSİ: NÜMUNƏLƏR VƏ TƏHLİL

Bəxtiyar Vahabzadənin yaradıcılığında danışıq dilinin fərqli formaları, o cümlədən jarqon, arqo, vulqarizm və dialekt sözlər geniş yer tutur. Bu elementlər şairin poetik fikirlərinin səmimi və xalq ruhuna yaxın çatdırılmasında mühüm vasitəyə çevrilir. Tərcümə zamanı bu formaların qorunması həm üslub baxımından, həm də məzmunun dəqiqliyi baxımından vacibdir.

Jarqon ifadələrin tərcüməsiMəsələn, Vahabzadənin bir şeirində "*kefin kökdür?"* ifadəsi işlənmişdir. Bu jarqon mahiyyətli sual gündəlik danışıqda əhval soruşmaq üçün istifadə olunur. Tərcümədə bu ifadə *"How's it going?"* və ya "*You good?"* kimi çevrilə bilər. Hər iki hal da qeyri-rəsmi ünsiyyətin üslubuna uyğundur.

Vulqarizmlərin tərcüməsi *"Başını burax da..."* kimi ifadələrdə isə emosional yükü yüksək olan vulqarizmlər hiss olunur. Tərcüməçi bu hallarda sözün kobudluğunu azaltmadan, amma mədəniyyət fərqini nəzərə alaraq "*Just leave it..."* və ya "*Forget about it, will you?"* kimi variantlardan istifadə edə bilər. Burada həm danışıq tərzi, həm də jestlərin və mimikanın mümkün şifahi əvəzlənməsi nəzərə alınmalıdır.

AZƏRBAYCAN DANIŞIQ DİLİNİN İNGİLİS DİLİNƏ TRANSFORMASİYASI VƏ TƏRCÜMƏ YOLLARI

Azərbaycan danışıq dilinin tərcüməsi sadəcə sözlərin qarşılığını tapmaqdan ibarət deyil, həm də həmin ifadələrin məna, üslub, emosional və mədəni qatlarını qorumaqla iki dil və mədəniyyət arasında körpü yaratmaqdır. Bəxtiyar Vahabzadənin əsərlərindəki dialektal, jarqon, frazeoloji və danışıq dili ifadələrinin ingilis dilinə uğurlu transformasiyası üçün müxtəlif tərcümə strategiyaları və yollarından istifadə olunur.

Azərbaycan danışıq dili əsasən gündəlik ünsiyyətdə istifadə olunan, dialekt, arqon, vulqarizm və jarqon kimi qeyri-rəsmi elementləri özündə ehtiva edir. Vahabzadənin əsərlərində isə bu elementlər poetik dilin emosional gücünü artırır və oxucuya yerli mədəniyyətin xüsusiyyətlərini çatdırır.

İngilis dilinə tərcümədə belə ifadələrin transformasiyası aşağıdakı üsullarla həyata keçirilir:

1. Birbaşa tərcümə (Literal translation): Dəqiq mənanı ötürən, lakin bəzən məna və duyğunu tam əks etdirməyən üsul.

Orijinal: Axı, dünya fırlanır

Nə qədər istəyirsə, min o qədər fırlana,
Qarşıma gah şər çıxa, gah xeyir ***dığırlana.***

Çərxi-fələk *istəyir lap dolana tərsinə,*
Əqidəmi heç nəyə dəyişmərəm mən yenə (Vahabzadə, B,2004,s.218)

1. **İngilis dilində: Doesn't the World Go Round**

Should the world go round and ***round***
Should I meet either evil or good
Should ***everything*** *go round in reverse direction*
I am unchanged, the same forever. (Poetry in translation 2005).

Bəxtiyar Vahabzadənin **"Axı, dünya fırlanır"** şeriinin ingilis dilinə tərcüməsini təhlil etsək görərik ki, **"Doesn't the World Go Round"** – Qrammatik cəhətdən düzgündür, amma sual kimi təqdim olunub, halbuki orijinalda bu, sual deyil, təsdiqdir. Ədəbi dildə "*After all, the world spins*" və ya *"Indeed, the world keeps turning"* daha uyğun olar.

"Should the world go round and round" – Orijinalda bu "nə qədər istəyirsə, min o qədər fırlana" – yəni dünya istədiyi qədər fırlana bilər, məcazi azadlıq var. İngilis dilində *"Let it spin as much as it wishes"* və ya *"Even if it turns a thousand times"* daha poetik olar.

"Should I meet either evil or good" – Məna uyğunluq var, amma poetik axın zəifdir. "*Let evil appear before me, or good roll into sight"* – daha yaxın olar. "Dığırlanmaq" – yuvarlanmaq mənasındadır.

"Should everything go round in reverse direction" – Orijinalda "çərxi-fələk istəyir lap dolana tərsinə" – yəni tale tərsinə dönsə belə… Burada konkret "*everything"* deyil, *"wheel of fortune"* daha uyğun olar. Məsələn: *"Even if the Wheel of Fortune turns completely in reverse*"

"I am unchanged, the same forever." – Məna uyğun gəlir, amma üslubca poetik güc zəifdir. Daha güclü ifadə: "*Still I remain, unshaken in my creed.*" və ya "*Yet I shall not betray my faith."*

Belə nəticəyə gəlmək olar ki, müəllifin tərcüməsi sadə və başa düşüləndir, lakin poetik çalarlar, ritm və simvolizmlər bir qədər zəif düşüb.

2. Ekvivalent tərcümə (Equivalent translation): Bu yolla tərcümə zamanı məxəz dildəki gündəlik ünsiyyətdə istifadə olunan, dialekt, arqon, vulqarizm və jarqon kimi obrazlılıq hədəf dildə tam üst-üstə düşməlidir. Yəni əgər ingilis dilində həmin ifadəyə uyğun gələn paralel bir ifadə varsa, bu üsul ən uyğundur.

Məsələn, Azərbaycan dilində **"qız"** sözü, məzmunca sadə olsa da, dialekt səviyyəsində İngiliscədə buna uyğun olaraq *"girl"* və ya *"lass"* kimi sözlər seçilə bilər.

3. Funksional ekvivalensiya (functional equivalence): İfadənin funksiyası və mənası saxlanaraq, ingilis dilinin danışıq dilindən uyğun ifadə ilə əvəzlənməsi. Məsələn, "bəyəm" sözü Azərbaycan danışıq dilində sual formasında və heyrət ifadəsi olaraq işlənir, ingiliscədə isə "Is it so?" və ya "Really?" kimi ifadələrlə əvəz oluna bilər.

Orijinal: Ana dilim
Bu dil-bizim *ruhumuz, eşqimiz, canımızdır*
Bu dil-bir-birimizə əhdi-peymanımızdır.
Bu dil-tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil-əcdadlarımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiztək
Qoruyub, nəsillərə biz də hədiyyə edək. (Vahabzadə B. 2004,s.8)

İngilis dilində:
This language is our soul, our love, our life
This language is our covenant with each other.
This language has introduced us to everything in this world,
This language is the most precious heritage that our ancestors left us,

Let us protect it as our eyes
and give it as a gift to our descendants. (Poetry in translation 2005).

Orijinalda "**Bu dil-bizim ruhumuz, eşqimiz, canımızdır"** ifadəsi "*This language is our soul, our love, our life"* ilə tərcümə edilib. Burada həm **mənəvi yük,** həm də **duyğusal ton** saxlanılıb.
"Əcdadlarımızın bizə qoyub getdiyi ən qiymətli mirasdır" – *"This language is the most precious heritage that our ancestors left us*". Burada həm mədəni, həm də mənəvi yük qorunub saxlanıb.
"Qoruyub, nəsillərə biz də hədiyyə edək" – *"Let us protect it as our eyes and give it as a gift to our descendants"* – buradakı "**Gözlərimiztək qoruyub"** ifadəsi, tərcümədə *"protect it as our eyes"* olaraq verilib ki, bu da həm **vizual,** həm də **simvolik** mənada uyğunlaşdırılıb. Amma, ingiliscədə metaforun poetik təsiri zəifdir (burada "as we protect our eyes" və ya "like our own sight" kimi versiyalar daha poetik olardı).
Bu tərcümə **məzmun** baxımından **güclü və funksional** olaraq uyğundur, lakin poetik forma və emosional təsir baxımından tam **ekvivalent** deyil. Bu tərcüməyə **qismən ekvivalent tərcümə** demək daha doğru olar.
4. Yorumlayıcı Tərcümə (Interpretativ translation**)** üsulu. Yorumlayıcı Tərcümə mətnin mənasını və mesajını qoruyaraq, onu tərcümə dilində təbii və anlaşılan şəkildə ifadə etməyə yönəlmiş bir yanaşmadır. Bu yanaşma, mətnin yalnız sözlərini deyil, həm də kontekstini və məqsədini nəzərə alır. Kontekstdə anlayışın başa düşülməsi üçün əlavə izah verilir. Məsələn,
Bir salama dəymədi
Qəlbimizin bir duyub
bir vurduğu illəri,
Axı, nə tez unutdun?
Beş ildə gözümüzdən axan o qanlı sellər,
Bir salama dəymədi?
Heç üzümə baxmadan yanımdan necə keçdin? (Vahabzadə, B.2004,s.247)
Unspoken Greeting
We helped each other through painful times
And now I'm unworthy of even hello?
All that longing, and our endless tears
Not worth even a sidelong glance? (**Translated by** Shahla Naghiyeva and Peter Makuck)
(Shahla Naghiyeva,2014,s.143)
Yorumlayıcı Tərcümə üsulu ilə tərcümə edilən "**Bir salama dəymıdi?"** adlı şeir nümunəsində şer başlığı **"Unspoken Greeting"** kimi tərcümə olunub. Amma , şerin özündə bu ifadə **"I'm unworthy of even hello?"** kimi şerin kontekstini və məqsədini nəzərə alaraq tərcümə edilib.
5. Adaptiv (Uyğunlaşdırıcı) Tərcümə (Adaptive Translation)**.** Adaptiv tərcümə – mətnin mənasını, üslubunu və funksiyasını qoruyaraq, onu tərcümə olunan dildəki oxucuya və ya auditoriyaya (mədəniyyətə) uyğunlaşdırmaq deməkdir. Burada sözbə-söz tərcümədən çox, məzmun və təsir əsas götürülür yəni İfadə mətnin üslubuna və mədəni kodlara uyğunlaşdırılır. Məsələn,
Orijinal:
Gözləri görməyən kor deyil hələ,
Görmək istəməyən kordur, deyərdim.
Belə müqəvvaya, belə cahilə
Həyatın özü də gordur deyərdim. (Vahabzadə, B.2004,s.52)
İngiliscəsi:
A sightless man need not be blind;
Blind is he who does not want to see.
To such an ignorant fool,
Life itself is a grave,

If you ask me. Vahabzade, B. (1998). (by Talat Sait Halman.)

"Gözləri görməyən kor deyil hələ" ifadəsi "*A sightless man need not be blind"* kimi çevrilib. Burada *kor* və *görməmək* arasındakı fərq söz bə söz deyil, poetik şəkildə saxlanılıb.
"Görmək istəməyən kordur" – *"Blind is he who does not want to see*" – bu da **məna əsasında** poetik tərzdə uyğunlaşdırılıb.
Həyatın özü də kordur" ifadəsinin "*Life itself is a grave*" kimi verilməsi tam **adaptiv** yanaşmadır. Orijinalda *"kor"* metaforik mənada istifadə olunsa da, tərcümədə *"grave" (qəbir)* sözünün seçilməsi daha dramatik və təsirli bir uyğunlaşdırmadır. Bu isə çevirmənin **məzmunun emosional yükünü** qoruyaraq fərqli obrazla çatdırılmasına işarədir. Tərcümə həm poetik forma, həm də ingilis oxucusu üçün anlaşıqlı və təsirli poetik dildə təqdim olunub.
"If you ask me" ifadəsi "*deyərdim"* formasını uyğun şəkildə əvəzləyib – bu, həm üslub, həm də danışıq tonu baxımından adaptivdir.
Bu şeir tərcüməsi **adaptiv tərcümə** nümunəsidir. Burada orijinal məna və emosional ton qorunur, amma sözlər və ifadələr **doğrudan yox, konseptual və poetik uyğunlaşdırma** ilə verilir.
"**Yaşdan gileyliyəm**" şerindən nümunəyə diqqət yetirək:
Orijinalı:
Elə bil dünəndir, çiynimdə çanta
Qorğa yeyə-yeyə dərsə getdiyim
Elə bil dünəndir, o qamış atda
Nəzil qamçı vurub "at" səyirtdiyim . (B. Vahabzadə ,2008, s.93)

İngiliscəsi:
As if it were yesterday
When I was going to school
Muching on sunflower seeds
And carrying my rucksack on my back
As if it were yesterday
When I was riding my horse made of reeds. (Translated by Jala Garibova)

Bu şeir nümunəsində yerli dialektə xas olan "**qorğa"** sözü orijinalda işlənmişdir. Lakin tərcüməçi onu "*sunflower seeds"* olaraq tərcümə edib. Burada işlənən qorğa sözü yerli dialekrə aid olan realilərin bayram adları bildirən növünə aiddir. Onun hədəf dildə tam qarşılığı olmadığı üçün tərcüməçi "*günəbaxan tumu"* söz birləşməsini onun adekvat şəklində ifadəsi kimi vermişdir. Amma **"qorğa**" sözü reali olduğu üçün onu tərcümədə olduğu kimi saxlayaraq izahını vermək lazin idi. "S*unflower seeds"* mənani tam ifadə edə bilməmişdir.
Tərcümə tam məna üzrə çevrilib, sadəcə bəzi elementlər (məsələn, **"nəzil qamçı")** buraxılıb. Bu tərcüməni **adaptiv və ixtisarla aparılmış poetik tərcümə** adlandırmaq olar.
6. Qarışıq üsullar (Mixed translation methods): Yuxarıdakı üsulların kombinasiyası.
B.Vahabzadə şeirlərinin mövzusu həm fərqli, həm də oxuduqca insanda dərin düşüncələr yaradır. Belə ki, onun şeirlərindəki dərin fəlsəfi məna, uşaqlıq sevinci, kədəri, qayğısızlıq həmişə ön planda olub. Onun 1966-ci ildə yazdığı **"Qorxu"** şeirinə diqqət yetirdikdə görürük ki, hələ uşaq ikən özü ilə ilk tanışlığı məhz əlini yandırdığı oddan başlayır. Həmin şeirin orijinalını oxuyan zaman bizi uşaqlıqdan bəri yanan oddan qorumaq üçün böyüklərimizin, valideynlərimizin necə narahatlıq keçidiyi hisslərin şahidi oluruq:
Orijinalı:
Mənim sol əlimdə yanıq yeri var,
O mənə töhfədir körpəliyimdən.
Odun odsuzluqdandan xəbərsiz vaxtlar,

Əlimi manqalda yandırmışam mən.
Mənə "cız"- dedilər
ancaq qorxmadım.(Vahabzadə, B, 2004,s.169.

İngiliscəsi:
My left hand burns
A childhood gift
From the fire I touched
Not knowing the danger
Of wood and flame.
Unafraid, fascinated
My young face
Glowed with life.
(Translated by Shahla Naghiyeva ,Julie Fay) (Poetry in translation 2005).

Burada "yanıq yeri var" ifadəsi literal olaraq "I have a burn mark on my left hand" olmalı idi. Amma tərcüməçi onu **poetik şəkildə** "My left hand burns" (əlim yanır) kimi vermiş və daha sonra **metaforik təhkiyə** ilə "A childhood gift" kimi **adaptiv şərh** etmişdir. Bu, şairin emosional yaddaşını və yaşantısını daha güclü əks etdirmək üçün **yorumlayıcı** və **adaptiv** yanaşmaların sintezidir. Burada "manqal" konkret əşya kimi tərcüməyə daxil edilməyib. Əvəzində "fire" və "wood and flame" sözləri ilə **genişləndirilmiş təsvir** yaradılıb. Bu, **modulasiya** (yəni fikirin istiqamətinin dəyişdirilərək ötürülməsi) üsuludur. "Cız" demək — danışıq dilində uşağa isti bir şeyə toxunduqda edilən xəbərdaredici səsdir. Bu tərcümədə **birbaşa ekvivalent tapılmasa** da, "Unafraid, fascinated" ilə emosional nəticə **yorumlayıcı formad**a çatdırılıb. Hətta "My young face glowed with life" əlavədir, orijinalda yoxdur — bu isə **kreativ adaptasiya** deməkdir.
Burada tərcümə təkcə dilin deyil, **mədəni** və **emosional kontekstin** də qarşılığı ilə təqdim olunur.
Yuxarıdakı tərcümə nümunəsi göstərir ki, Vahabzadənin poetik üslubu yalnız bir tərcümə strategiyası ilə tam şəkildə əks etdirilə bilməz. Buna görə də, tərcüməçi müxtəlif yanaşmaları birləşdirərək – həm literal, həm də yorumlayıcı və adaptiv üsulları istifadə etməklə – orijinal mətndəki **emosional dərinliyi, mədəni simvolizmi** və **poetik ritmi** saxlamağa nail olmuşdur. Bu, tərcümənin yalnız dil səviyyəsində deyil, həm də **kontekstual** və **mədəni səviyyədə** adekvatlığını təmin edir və **qarışıq tərcümə yanaşmalarının** effektivliyini bir daha təsdiqləyir.

NƏTİCƏ

Bəxtiyar Vahabzadənin seçilmiş əsərlərində Azərbaycan danışıq dili elementlərinin ingilis dilinə transformasiyası mürəkkəb və çoxşaxəli proses olmaqla bərabər tərcüməçidən həm dil, həm də mədəni biliklərinin olmasını tələb edir Tərcüməçi həm mətnin mənasını, həm də onun estetik və emosional qatını qorumaqla yanaşı, mədəni konteksti də oxucuya çatdırmalıdır. Bu işdə müxtəlif tərcümə üsulları – uyğunlaşdırma (adaptasiya), izahlı tərcümə, ekvivalensiya və bəzən funksional ekvivalensiya – mühüm rol oynayır. Tərcüməçinin dil və mədəniyyətlərarası fərqlilikləri nəzərə alaraq seçdiyi metod əsərin təbii axarını pozmamalı, oxucuda orijinalın ruhunu yaşatmalıdır. Tərcüməçinin yaradıcı yanaşması və konteksti düzgün qiymətləndirməsi transformasiyanın uğurlu olmasının əsas amillərindəndir.

Ədəbiyyat siyahısı :
Abdullayev, C. (1976). *Səməd Vurğun poetikası*. Bakı: Gənclik.
Baker, M. (1992). *In other words: A coursebook on translation*. London: Routledge.
Hatim, B., & Mason, I. (1997). *The translator as communicator*. London: Routledge.
Nağıyeva, Ş. (2014). *Bədii tərcümə: Nəzəriyyə və praktika*. Bakı

Newmark, P. (1988*). A textbook of translation.* New York: Prentice Hall.
Poetry in translation (1st collection). (2005). Bakı: Khazar University Press.
Rəhimov, S. (1975). *Şahin şöhrətli şair. Azərbaycan,* №10.
Vahabzadə, B. (1962). *Etiraf. Şəbi-hicran (poemalar).* Bakı: Uşaqgəncnəşr.
Vahabzadə, B. (1987). *Axı, dünya fırlanır...* Bakı: Yazıçı.
Vahabzadə, B. (1990). *Lirika*. Bakı: Azərnəşr.
Vahabzadə, B. (1995). *Seçilmiş əsərlər*. Bakı: Ədəbiyyat Nəşriyyatı.
Vahabzadə, B. (2004). *Seçilmiş əsərləri* (I cild). Bakı: Öndər Nəşriyyat.
Vahabzadə, B. (1997). *Selected works of Bakhtiyar Vahabzade*. Bloomington, IN: Indiana University Press.
Vahabzade, B. (1998). *Poems, short stories and a play* (H. Sultan-Qurraie, Ed. & T. S. Halman, Trans.). Bloomington, IN: Indiana University Turkish Studies Publications
Venuti, L. (1995). *The translator's invisibility: A history of translation*. London: Routledge.

HEYDAR ALİYEV'S CONCERN FOR THE ART OF MAMMAD ARAZ
ИНТЕРЕС ГЕЙДАРА АЛИЕВА К ИСКУССТВУ МАМЕДА АРАЗА
HEYDƏR ƏLİYEVİN MƏMMƏD ARAZ SƏNƏTİNƏ QAYĞISI

Məlahət Ramiz qızı Babayeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Ədəbiyyat kafedrasının dosenti
https://orcid.org/0000-0002-3600-8499

Xülasə
Görkəmli dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyevin çoxşaxəli möhtəşəm fəaliyyətində və mükəmməl nəzəri-ideoloji təlimində ədəbiyyat məsələləri də mühüm yer tutur. Bütün fəaliyyəti boyunca görkəmli sənətkarlarımızın yubileylərinin qeyd olunması, xatirələrinin əbədiləşdirilməsi, əsərlərinin nəşri, tədqiqi, təbliği, dünya miqyasında tanıtdırılması, respublikamızda ədəbi-mədəni mühitin əsaslı yüksəlişi istiqamətində hərtərəfli tədbirlər həyata keçirən dahi rəhbər həm klassik, həm də müasir ədəbiyyatın məşhur simalarının yaradıcılıqları barədə konseptual qənaətlər, son dərəcə dəyərli fikirlər də irəli sürmüşdür. Başqa sözlə desək, ulu öndərimiz həm ədəbiyyatın böyük qayğıkeşi, hamisi, həm də mükəmməl bilicisi olan dahi şəxsiyyətdir.
Açar sözlər: ümummilli lider, dövlət xadimi, Heydər Əliyev, ədəbiyyat

Резюме
Литературные дела также играют важную роль в многогранной большой деятельности и прекрасной теоретико-идеологической подготовке выдающегося государственного деятеля, нашего общенационального лидера Гейдара Алиева. Концептуальные выводы о творениях известных деятелей как классической, так и современной литературы, гениального деятеля, который на протяжении всего своего творческого пути принимал всесторонние меры в направлении празднования юбилеев наших выдающихся художников, увековечивания их памяти, публикаций, исследований, продвигая, популяризируя их в мировом масштабе, коренным образом улучшая литературно-культурную среду в нашей республике, выдвинул чрезвычайно ценные идеи. Другими словами, наш великий вождь — это гений, великий хранитель и покровитель литературы, а также прекрасный знаток.
Ключевые слова: общенациональный лидер, государственный деятель, Гейдар Алиев, литература.

Abstract
Literary matters also play an important role in the multi-faceted great activity and excellent theoretical-ideological training of the outstanding statesman, our national leader Heydar Aliyev. Conceptual conclusions about the creations of the famous figures of both classical and modern literature, a genius leader who, throughout his entire career, has taken comprehensive measures in the direction of celebrating the anniversaries of our outstanding artists, perpetuating their memories, publishing, researching, promoting, promoting them on a world scale, and fundamentally improving the literary and cultural environment in our republic. , has put forward extremely valuable ideas. In other words, our great leader is a genius who is a great care taker and patron of literature as well as a perfect connoisseur.
Keywords: national leader, statesman, Heydar Aliyev, literature

Annotasiya. Məqalədə ümummilli lider Heydər Əliyevin Azərbaycan ədəbiyyatına, əsasən də Məmməd Araz yaradıcılığına olan qayğısından bəhs edilmişdir. Burada Məmməd Araz yaradıcılığına olan dövlət qayğısı, eyni zamanda onun yubiley tədbirlərinin keçirilməsi, ədəbi görüşlərdən bəhs

edilmişdir. Bundan əlavə, Heydər Əliyevin ədəbiyyatımızın digər görkəmli şəxsiyyətlərinə olan diqqət və qayğısı da göz önünə gətirilmişdir.

Aktuallıq. Ümummilli lider milli tərəqqini mədəni inkişafdan ayrı təsəvvür etmir, mədəni inkişafı milli varlığın irəliyə doğru hərəkətində əsas təkanverici amillərdən biri sayırdı. Bu nöqteyi-nəzərdən o, Azərbaycan xalqının ədəbi-bədii sərvətlərinə müstəsna dərəcədə böyük dəyər verirdi.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqına böyük sevgisi həm də onun milli ədəbiyyatımıza böyük sevgisindən qidalanırdı. O, ədəbiyyatımızı, şəxsən özünün və eyni zamanda xalqımızın qürur mənbəyi sayır, onun keçdiyi inkişaf yolunda milli varlığımızın və dövlətçiliyimizin tarixi mənzərəsinin dəqiq təsvirini görürdü. Azərbaycan yazıçılarının X qurultayındakı nitqində ulu öndər qürur hissi ilə deyirdi: "Xalqımızın tarixi çox zəngindir. Ancaq biz tariximizin qədim dövrlərini xatırlayarkən, yaxud onları cəmiyyətə, dünyaya daha geniş çatdırmaq istəyərkən, birinci növbədə və bəzən də yalnız mədəniyyətimizə, mədəniyyət, ədəbiyyat xadimlərinin yaratdığı əsərlərə, tarixi memarlıq abidələrimizə və böyük şairlərimizin, mütəfəkkirlərimizin yazdığı əsərlərə istinad edirik.

Metod. Tədqiqat zamanı müşahisə-müqayisə metodu ilə yanaşı, eyni zamanda analitik təhlil və statistik metoddan istifadə edilmişdir.

Giriş.Ümummilli liderimiz Heydər Əliyevin Xalq şairi, poeziyamızın istedadlı nümayəndəsi Məmməd Arazın yaradıcılığına münasibəti də maraq doğurur. Müdrik rəhbər həm Məmməd Arazın şəxsiyyətinə, həm də böyük istedadına, bənzərsiz sənətinə daim yüksək qiymət vermişdir. Qeyd edək ki, Məmməd Arazın ilk şeri mətbuatda 1952-ci ildə dərc olunsa da, o, bir şair olaraq məhz 1970-ci illərdə, ulu öndərin Azərbaycana birinci rəhbərliyi dövründə parlamışdır. Sənətkara böyük şöhrət gətirən "Qanadlı qayalar", "Atamın kitabı", "Həyatın və sözün rəngləri", "Oxucuya məktub", "Aylarım, illərim" kimi diqqətəlayiq kitabları məhz həmin illərdə çap olunmuş, geniş əks-səda doğurmuşdur. O dövrdə Məmməd Araz müxtəlif vəzifələrdə də çalışmışdır. 1970-72-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında, 1972-74-cü illərdə isə Azərbaycan Dövlət Nəşriyyatında Baş redaktor müavini vəzifələrində çalışmış, 1971-1981-ci illərdə Azərbaycan Yazıçılar İttifaqında poeziya bölməsinə rəhbərlik etmiş, 1974-cü ildən "Azərbaycan təbiəti" jurnalının redaktoru kimi səmərəli fəaliyyət göstərmişdir. Hələ 1975-ci ildə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunması, 1978-ci ildə isə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülməsi Məmməd Araz şəxsiyyətinə və sənətinə ulu öndərin hörmət və qayğısının ifadəsi idi.

Ümumiyyətlə, ədəbiyyatın böyük hamisi və bilicisi olan görkəmli dövlət xadimi Heydər Əliyev Məmməd Araz sənətinə həmişə diqqət göstərmiş və yüksək qiymət vermişdir. Təsadüfi deyil ki, istedadlı sənətkarın anadan olmasının 60 illiyi ərəfəsində ulu öndər Heydər Əliyev 6 oktyabr 1993-cü il tarixdə şairə təbrik məktubu ünvanlamış, səmimi arzularını çatdırmış, onun yaradıcılığının ideya-bədii məziyyətlərini, fəlsəfi mündəricəsini, xəlqi mahiyyətini, populyarlığını, mənəvi tərbiyədə rolunu yüksək dəyərləndirmişdir. Təbrikdə deyilir: **"Qırx ildən çoxdur ki, dərin fəlsəfi lirikanız çağdaş Azərbaycan poeziyasını zənginləşdirməkdədir. Məmməd Araz istedadının, təfəkküründün məhsulu olan yüzlərlə şeriniz milyonların qəlbinə yol taparaq özünə və Sizə əbədi yaşamaq hüququ qazandırıb. Əmin olduğumu bildirmək istəyirəm ki, xalqımızın mənəvi təkamülündə, gənclərimizin estetik tərbiyəsi yolunda bundan belə də yorulmadan çalışacaq, qədim və zəngin ənənələri olan milli poeziyamıza yeni töhfələr bəxş edəcəksiniz". (2, 43)**

Ulu öndərin M.Araz şəxsiyyətinə, sənətinə ardıcıl hörmət və qayğısının başqa bir ifadəsi də 1995-ci ildə şairi dövlət vəsaiti hesabına Almaniyaya müalicəyə göndərməsi, ona həm fiziki sağlamlıq, həm də mənəvi cəhətdən böyük diqqət göstərməsi idi. 1995-ci ilin 15 aprelində ümummilli liderimiz Xalq şairi Məmməd Arazı "İstiqlal" ordeni ilə təltif etmiş, bir gün sonra Azərbaycan Dövlət Filarmoniyasında vətənpərvər şairin poeziyasına həsr olunmuş "Azərbaycan – dünyam mənim" adlı ədəbi-musiqili məclisində iştirak etmişdir. Dörd saata yaxın davam edən bu möhtəşəm tədbirdən sonra ulu öndərimiz Heydər Əliyev Məmməd Arazla və ədəbi-musiqili gecənin iştirakçısı olan ziyalıların nümayəndələri ilə görüşüb söhbət etmiş, həm M.Araz sənəti haqqında, həm də, ümumən,

poeziya, ədəbiyyat barədə qiymətli fikirlər söyləmişdir. Tədbirdə ifadə olunduğu kimi, öz əsərləri ilə yüksək bədii sənətkarlıq və əsl vətəndaşlıq qeyrəti aşılayan, doğma Vətəni sonsuz məhəbbətlə sevən, qüdrətli qələmi ilə xalqımıza sədaqətlə xidmət edən Məmməd Arazın poeziyasını Azərbaycan torpağından, tariximizdən, el-obadan ayrı təsəvvür etmək çətindir. Məmməd Arazın yaradıcılığı haqqında danışarkən dahi rəhbərin dediyi aşağıdakı sözlər də bu baxımdan çox qiymətlidir: **"Bu gün biz bir daha Məmməd Arazın Azərbaycan xalqının mədəniyyətinə, ədəbiyyatına verdiyi töhfələri gördük, eşitdik və bunların xalqımız üçün nə qədər faydalı, gərəkli olduğunu bir daha bildik, bir daha dərk etdik ki, Azərbaycan xalqının həyatında Məmməd Arazın yaradıcılığının nə qədər böyük əhəmiyyəti var". (5, 2)**

Görkəmli dövlət xadimi Heydər Əliyev həmin tədbirin təkcə M.Araz yaradıcılığına diqqət baxımından deyil, bütövlükdə, ölkənin mədəni həyatı üçün böyük önəm daşıdığını vurğulamış, bu cür ədəbi-musiqili gecələrin mənəvi-ideoloji və estetik əhəmiyyətinə diqqət yönəldərək demişdir: **"Bilirsiniz, bu axşam bizim üçün nə qədər böyük bir mənəviyyat axşamı oldu!.. Çünki bu gün mədəniyyətimizin, ədəbiyyatımızın böyük nümunələri səsləndi, canlandı, gözümüz önünə gəldi və biz özümüz özümüzü bir daha qiymətləndirdik, tanıdıq… Məmməd Araz poeziyasının bugünkü məclisi, mənə elə gəlir ki, Azərbaycanın mədəniyyət tarixində, mədəni həyatında, ictimai həyatında böyük, görkəmli bir hadisədir. Mən şerə də, mahnıya da çox hissiyyatlı adamam. O misraları, o sözləri, o musiqini həyəcansız dinləyə bilmirdim".**

Ulu öndər həmin çıxışında Məmməd Arazı, Bəxtiyar Vahabzadəni və Xəlil Rzanı respublika vətəndaşları içərisində ilk dəfə olaraq "İstiqlal" ordeni ilə təltif etməsi məsələsinə də toxunmuş, Azərbaycanda xalqın özünüdərkində, milli şüurun oyanışında, müstəqillik duyğusunun qüvvətlənməsində həmin sənətkarların yaradıcılığının zaman-zaman önəmli rol oynadığını, həm də bu proseslərin heç də asan olmadığını, müxtəlif maneələri dəf edə-edə irəlilədiyini vurğulayaraq demişdir: **"Bildiyiniz kimi, müstəqil Azərbaycanın ən yüksək ordeni "İstiqlal" ordenidir. İndiyə qədər bu ordenlə heç bir vətəndaş, heç kəs təltif olunmayıbdır. Dünən isə mən fərman verərək Məmməd Arazı, Bəxtiyar Vahabzadəni, mərhum Xəlil Rzanı "İstiqlal" ordeni ilə təltif etmişəm. Bu, bir təsadüf, yaxud da ki, birdən meydana çıxmış, mənim tərəfimdən birdən qəbul olunmuş qərar deyil. Bu haqda mən çox düşünürdüm. O mənada ki, biz milli azadlığımız uğrunda çalışmışıq, vuruşmuşuq, mübarizə aparmışıq. Amma bu mübarizə bəzən açıq getməyibdir, bəzən qəlblərdə gedibdir, bəzən üstüörtülü yazılarda gedibdir... Yaşadığımız o rejim dövründə bu prosesə açıq təkan vermək də çətin idi. Ancaq Məmməd Araz, Bəxtiyar Vahabzadə, Xəlil Rza kimi insanlar öz yaradıcılığı ilə bu sahədə çox işlər görüblər… Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsində xüsusi xidmətlərinə görə hörmətli şairimiz Bəxtiyar Vahabzadə, hörmətli şairimiz Məmməd Araz və mərhum Xəlil Rza bu ordenlə təltif edildilər". (1, 32)**

Ümummilli liderimiz Heydər Əliyev onu da ayrıca nəzərə çatdırmışdır ki, B.Vahabzadə, M.Araz, X.Rza kimi vətənpərvər şairlərin yaradıcılığında damla-damla, addım-addım ifadə olunan milli ruh, istiqlal duyğusu bizim böyük amallarımıza öz töhfəsini vermiş, müstəqillik uğrunda mübarizəmizə layiqli xidmət göstərmişdir. Müdrik rəhbər həmçinin M.Arazın və digər istiqlalçı şairlərin cəsarətinə, bütöv xarakterinə də yüksək qiymət vermişdir: **"Sizin uzun illər, həqiqətən, xırda-xırda, misra-misra, damcı-damcı yaratdığınız əhval-ruhiyyə Azərbaycan xalqını gətirib bugünkü vəziyyətə çıxardı. Doğrudur, bəzən bu yazılarınıza görə siz sıxılmısınız da, təqib olunmusunuz da, sizi incidiblər də, sizə kəm baxıblar da, sizi açıq və ya gizli tənqid də eləyiblər. Ancaq mənə belə gəlir ki, Məmməd Arazın, Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın qəhrəmanlığı (mən bu sözü tam cəsarətlə deyirəm) elə ondan ibarətdir ki, onları heç bir şey qorxutmayıbdır…Onlar öz işlərini görüblər. Xırda-xırda, çox incə, çox zərif görüblər və məhz bu incəliyə, zərifliyə, nazikliyə görə də sizin bu fikirləriniz bizim vətənpərvər insanlarımızın, xalqımızın ürəyinə yol tapıbdır". (3. 21)**

Ümummilli lider Heydər Əliyev M. Arazın yaradıcılıq gecəsinin sonundakı çıxışında poeziyanın, bütövlükdə, söz sənətinin insanların sağlam ideyalar ruhunda formalaşması işində mühüm rol oynadığını yüksək qiymətləndirmiş, M.Araz kimi şairlərin yetkin vətəndaşlıq mövqeyindən yazılmış ideya-bədii mükəmməlliyə malik əsərlərinin milli psixologiyamızın və ideologiyamızın möhkəmlənməsində, inkişafında diqqətəlayiq rol oynadığını da qeyd etmişdir: **"Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur… Həmin şeirlər, həmin sözlər, doğrudan da, xalqımızda, millətimizdə milli ruhu oyadıbdır, milli əhval-ruhiyyəni canlandırıbdır, milli dirçəliş prosesini gücləndiribdir. Məhz bunların nəticəsində bizdə milli psixologiya, milli ideologiya formalaşmağa başlayıbdır". (4, 52)**

Məmməd Arazın əsərlərinin populyarlığından, xalq tərəfindən sevilməsindən danışarkən ulu öndər bunun səbəblərinə də toxunmuş, həmin nümunələrdə millətin milli azadlıq ovqatının ifadəsini önə çəkmişdir: **"Məmməd Arazın şerini nə üçün bu qədər sevir insanlar? Axı şeri insanlara zorla sevdirmək olmaz. Nə üçün sevirlər? Mən keçmişdə də bunu hiss edirdim. Uzun müddət Azərbaycanda olmadıqdan sonra, 90-cı ildə Azərbaycana qayıtdıqdan sonra hara gedirəm, Məmməd Arazın şeirləridir. O vaxt bizdə çox coşqun ictimai-siyasi vəziyyət yaranmışdı. İnsanlar 20 Yanvar hadisələrindən sonra çox coşmuşdular. Çox inciklik var idi cəmiyyətdə. Eyni zamanda milli azadlıq ruhunda fikirlər daha açıq deyilirdi. Hər yerdə Məmməd Arazın, Bəxtiyar Vahabzadənin şeirləri oxunurdu". (3, 61)** Görkəmli dövlət xadimi Heydər Əliyev M.Arazın, eləcə də "İstiqlal" ordeninin ilk laureatlarının Vətən və xalq qarşısındakı xidmətlərinin heç vaxt unudulmayacağına, gələcəkdə də xatırlanacağına inandığını bildirmişdir: **"Mən ümidvaram ki, Azərbaycan xalqı daim müstəqilliyini qoruyub saxlayacaq və müstəqil Azərbaycanın ilk "İstiqlal" ordeninə layiq görülmüş şəxsiyyətlər Azərbaycan xalqının tarixində indi olduğu kimi, gələcəkdə də öz yerlərini tutacaqlar". (3, 45)**

Ulu öndər Heydər Əliyev M.Araz poeziyasından nümunələrin həmin tədbirdə bədii qiraətini, şairin şeirlərinə yazılmış mahnıların ifasını da yüksək qiymətləndirmiş, xüsusən ustad sənətkarın məşhur "Dünya sənin, dünya mənim" şerinə və onun əsasında bəstələnmiş mahnıya böyük dəyər verərək demişdir: *"Məmməd Arazın şeirləri, şübhəsiz ki, çoxdur. Amma "Dünya sənin, dünya mənim" kimisi yoxdur... M.Araz fəlsəfəsini musiqi tutubdur. Bu fəlsəfə şeirdə də var, musiqidə də var"*. Çıxışının sonunda dahi rəhbər Heydər Əliyev ədəbi-musiqili gecədən aldığı təəssüratları ümumiləşdirərək demişdir: **"Məmməd Arazın yaradıcılığı ilə, bizim mədəniyyət xadimləri ilə təmasda olmaq, görüşmək, söhbət etmək dövlət adamı kimi mənim üçün böyük bir hadisədir. Belə tədbirləri gələcəkdə də keçirmək lazımdır". (2, 5)**

Nəticə.Ümumiyyətlə, ulu öndər Heydər Əliyev Xalq şairi Məmməd Araza daim böyük qayğı göstərmiş, onun yaradıcılığını həmişə yüksək qiymətləndirmişdir. Ölkə Prezidenti cənab İlham Əliyev də M.Araz sənətinə böyük ehtiramını ifadə etmiş, 2010-cu ilin mart ayında görkəmli şairin xatirəsinin əbədiləşdirilməsi haqqında Sərəncam imzalamışdır. Həmin sərəncamda Bakı şəhərində küçələrdən birinə Məmməd Arazın adının verilməsi və onun yaşadığı binaya xatirə lövhəsinin vurulması barədə müvafiq təşkilatlara tapşırıq verilmişdir.

Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərini nəzərə alan Prezident İlham Əliyev görkəmli sənətkarın xatirəsinin əbədiləşdirilməsi, yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzalayıb. Bu sərəncamlar Azərbaycan ədəbiyyatının, bütövlükdə yaradıcı ziyalıların, o cümlədən Məmməd Araz sənətinin və şəxsiyyətinin böyük himayədarı, ulu öndər Heydər Əliyev ənənələrinin müasir şəraitdə uğurlu davamı kimi yüksək dəyərə malikdir.

Ədəbiyyat

1.Axundova E.Heydər Əliyev: siyasi portret. Bakı, Ozan, 2007, 342
2.Əlişanoğlu T.Heydər Əliyevin tarixi obrazı və ədəbiyyat. "525-ci" qəzet, 18 iyul, 2019-cu il
3.Heydər Əliyev mədəni irsimizin keşiyində. Bakı, 2003, 148 s.

4.Məmmədova Ş. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı məsələləri. Bakı, Elm, 2004, 234s.
5.Salamoğlu T. Ümummilli lider Heydər Əliyevin ədəbiyyat strategiyası. "525-ci" qəzet, 20 yanvar, 2023

NATIONAL IDEOLOGY IN THE WORK OF BAHTIYAR VAHAPZADE

BƏXTİYAR VAHABZADƏNİN YARADICILIĞINDA MİLLİ MƏFKURƏ

Həqiqət Nəbi qızı Abdiyeva
Bakı Dövlət Universiteti, dosent

Xülasə
Müasir Azərbaycan poeziyasının inkişafında, formalaşmasında yaradıcılıq əməyi olan, xalqımızın məhəbbət və rəğbətini qazanmış Bəxtiyar Vahabzadə layiqli həyat yolu keçmişdir. B.Vahabzadənin özünəməxsus zirvədə olan layiqli yolu var. Şairin yaradıcılığının məna dünyası öz mayasını azadlıq ruhundan almışdır.
Vətəni, azadlığı, gözəlliyi, məhəbbəti tərənnüm etmiş, eyni zamanda, keçmiş ve gələcəyimiz, soykökümüz, dilimiz, istiqlalımız haqqında şeirlər, poemalar, dram əsərləri yazmış B.Vahabzadə öz misilsiz qiymətini almışdır.
Bu gün biz B.Vahabzadənin 100 illik yubileyi qarşısında öz vəzifə borcumuzu hiss edir və bu yolda əlimizdən gələni etməyə çalışırıq. Xalqını, vətənini, onun azadlığını hər şeydən üsün tutan B.Vahabzadə daima onun bütövlüyünü, istiqlalını düşünmüş, başqalarının cürət edib toxuna bilmədiyi taleyüklü məsələlərə toxunmuşdur. Buna görə də Bəxtiyar yaradıcılığında vətəndaşlıq, azərbaycançılıq ideologiyası aparıcı yer tutmuşdur.
Azərbaycan xalqının milli oyanışında, dirçəlişində B.Vahabzadə yaradıcılığının xidməti əvəzsizdir. Aydın mövqeyi, vətəndaş, zamanına baş əyməyən şəxsiyyət kimi formalaşmış B.Vahabzadə öz əsərləri, o cümlədən "Gülüstan" poeması vasitəsilə gəncliyin gözlərinə çəkilmiş pərdəni açmış, onların diqqətini xalqın kökünə, tarixinə, milli dərdinə yönəltmişdir. Bununla da o, milli-tarixin yaddaşı oyanmasında çox böyük işlər görmüşdür.
B.Vahabzadə xalqın üərinə saplanmış xəncəri oxucuya çatdıra bilmişdir. Azərbaycanın haqq səsinin kəsilməsini bir qələmlə illərin əsir altında qalmış xalqın dərdlərini cəsarətlə hayqıra bilmişdir.
Hələ 80-ci illərin sonlarında B.Vahabzadə çəkinmədən ana dilimizin yasaq olunduğunu bildirir, doğma dilə xor baxanları əsərlərində ifşa və tənqid edirdi. B.Vahabzadə irsi xalqının dərdlərinə ürəkdən yanan şairin üsyanı, fəryadı idi. O, hər bir əsərində xalqını, Vətənini, elini azad görməyi arzulayır, əsarət zəncirlərini qırmağa, istiqlala səsləyirdi.
Açar sözlər: B.Vahabzadə, məfkurə, milli oyanış, azadlıq, ana dili

Abstract
Bahtiyar Vahapzade, who made a creative contribution to the development and formation of modern Azerbaijani poetry and won the love and sympathy of our people, has passed a worthy life path. B. Vahapzade has a worthy path that is at its peak. The world of meaning of the poet's creativity took its essence from the spirit of freedom.
B. Vahapzade, who glorified his homeland, freedom, beauty, love, and at the same time wrote poems, plays, and dramas about our past and future, our roots, our language, and our independence, has received his incomparable appreciation.
Today, we feel our duty in front of the 100th anniversary of B. Vahapzade and try to do our best on this path. B. Vahapzade, who put his people, homeland, and freedom above all else, always thought about its integrity and independence, and touched upon fateful issues that others did not dare to touch upon. Therefore, the ideology of citizenship and Azerbaijaniism took a leading place in Bahtiyar's creativity.

The service of B. Vahapzade's creativity in the national awakening and revival of the Azerbaijani people is invaluable. Formed as a person with a clear position, a citizen, and not bowing to his time, B. Vahapzade, through his works, including the poem "Gulustan", opened the curtain drawn over the eyes of youth, directed their attention to the roots, history, and national sorrow of the people. Thus, he did a great job in awakening the memory of national history.
B. Vahapzade was able to convey to the reader the dagger thrust into the people. He was able to courageously cry out the pain of the people who had been held captive for years, with a single pen, while the voice of truth in Azerbaijan was silenced.
Even in the late 80s, B. Vahapzade did not hesitate to declare that our native language was banned, and he exposed and criticized those who despised our native language in his works. B. Vahapzade's legacy was the rebellion and cry of a poet who was deeply moved by the pain of his people. In each of his works, he wished to see his people, his homeland, his land free, and called for breaking the chains of slavery and independence
Keywords: B. Vahapzade, ideology, national awakening, freedom, native language

GİRİŞ

Bəxtiyar Vahabzadə əlinə qələm alan gündən Azərbaycanın dərdlərinə ortaq olmuş, poeziyada, dramaturgiyada və publisistikasında cəsarətlə sözünü demiş, bütün haqsızlıqlara qarşı səsini dünyaya çatdırmış şəxsiyyətlərdən biri olmuşdur.
Böyük Vətən müharibəsinin son illərində yaradıcılığa başlayan B.Vahabzadə ədəbi ictimaiyyətin diqqətini cəlb etmiş, "Yaşıl çəmən, ağac altı, bir də ki, tünd çay" adlı ilk şeirində müharibə həyatından bəhs edən əsgərin dilindən söylənilən fikirlər səsləndirmişdir.
B.Vahabzadə ömrünün mənasını doğma xalqına xidmətdə, vətənə layiq övlad olmaqda görmüşdür.

"Mən sənin̂çin
Anamsa mənimçin yandı, şeirim.
"Balamın rahatlığı yoxdur" - deyə o məni
sənə qısqandı, şeirim.
Ancaq o bilmədi ki, mən anamdan doğuldum,
Sənsə mənim qəlbimdə balamtək bəslədiyim
Duyğulardan doğuldun.
Məni anamdan alıb Vətənimə, xalqıma
Oğul edən sən oldun!"
[Vahabzadə, I c., 2004: 27]

B.Vahabzadə yaradıcılığında öz poetik forması etibarilə novator şair olmuşdur.
B.Vahabzadə təkcə istedadlı şair kimi yox, həm də milli azadlıq hərəkatının mücahidi, mübarizi olmuşdur. Milli oyanışımızda, milli dirçəlişin xalq ruhuna yol tapmasında B.Vahabzadənin rolu əvəzsizdir. O, həyatı boyu Vətən, millət, azadlıq və istiqlal arzuları ilə yazıb yaratmışdır. Onun əsərlərində Qarabağ harayı, 20 Yanvar faciəsi dil açıb danışır, insanları vətən uğrunda canından keçməyə çağırır.

B.VAHABZADƏ POEZİYASINDA MİLLİ MƏFKURƏ VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR.

20 Yanvar hadisələrindən üzü bəri poeziyamıza nəzər salsaq, ilk yada düşən poeziya örnəyi B.Vahabzadənin "Şəhidlər" poeması olacaq. Qanlı faciədə yaşanan hadisələr poemada canlı və real şəkildə bədii əksini tapmışdır. B.Vahabzadə "Şəhidlər" poemasının ilk səhifələrindən 70 ildən çox tariximizdən söz açmış və imperiya əsarətində qalmış Azərbaycanın yaşadığı ağrı-acını dilə gətirmişdir:

"Şəhidlər bu torpağa, xalqa səcdə qıldılar,
Haqsızlığın üstündən haqqa körpü saldılar.
Vətəni sevmək üstdə günahkar sayıldılar,
Vətəni sevmək niyə günah olmuş, ay Allah?"
[Vahabzadə, II c., 2004: 275]

Müəllif Allaha müraciət edərək Azərbaycanın başına gələn faciələri, 20 Yanvarda günahsız insanların, gənclərin tanklar altında əzilməsini göz yaşları ilə oxucuya çatdırır.
"Nə istəyir bu millət?", "Təzadlar içində", Eşq olsun sizə" başlıqlı bölmələrdə insanların başına gələn olaylar ürək ağrısı ilə təsvir olunur:

"İstəkləri gözündə, tələbləri dilində,
Millət dənizə döndü dənizin sahilində.
Dalğalandı bu millət
Alışıb öz oduna, yandı, yandı bu millət
Dilsiz, sağır göylərə dirək oldu haqq səsi,
Başlandı bu ölkənin meydan mübarizəsi".
[Vahabzadə, II c., 2004: 276]

B.Vahabzadənin beyinləri silkələyən, xalqın milli hisslərinin ölmədiyini bəyan edən məşhur "Gülüstan" poeması yazıldığı dönəmdə çox böyük əks-səda yaratmış, müəllif əsəri çap etdirməkdə böyük çətinliklərlə üzləşmişdir. Bu haqda B.Vahabzadə özü yazırdı: *"Gülüstan" poemasını mən 1958-ci ildə yazmışam. Lakin o zaman heç yerdə çap etdirə bilmədim. Yalnız "Şəki fəhləsi" qəzetində (23-26 oktyabr 1960-cı il) çap olunmuşdur... "Gülüstan" poemasında İran şahının qanlı rejimi və ...çar Rusiyasının Vətənimizi iki yerə parçalayan müstəmləkəçilik siyasəti ifşa olunurdu. Milli azadlıq konsepsiyası əsasında yazılmış bu əsərin o zaman nə üçün tənqidə və təqibə məruz qalmasını heç cür anlaya bilmirdim"* [Vahabzadə, 1991: 331].
Özü də yazdığı kimi, şair bu poemasında Vətənimizin, xalqımızın iki yerə bölünməsini fəryad edərək oxuculara çatdırmışdır.
Şeir yaradıcılığının ilk dövrlərindən cəsarətli əsərləri ilə diqqət çəkən B.Vahabzadə millətçilikdə töhmətləndirilmiş, ona qarşı təzyiqlər güclənmişdir. Xalqımızın azadlığı üçün canından keçməyə hazır olan şairin "Gülüstan" poeması isə qadağan edilmişdir. "Gülüstan" poeması Azərbaycan xalqını mübarizəyə səsləmiş, Azərbaycanın köksünə basılan dağı oxucuya göstərmiş, Azərbaycanın haqq səsini, bir xalqın qılınctək yarıya bölündüyünü, bir vətənin parçalanmasını, tarix boyunca vətənin başına gələn oyunları real boyalarla əks edirə bilmişdir.
B.Vahabzadə müstəqillik illərində "Şəhidlər" poemasından sonra "Gülüstan"ın davamı – II hissəsi kimi "İstiqlal" poemasını qələmə almışdır.

"Zərurət görmədim təsadüf qədər
Məqsədə yönəlir bu başsız axın.
Məndən rica etdi bir vətənsevər
Yazım davamını mən "Gülüstan"ın.

Yazmışdım mən onu düz qırx il qabaq.
O vaxtdan bu yana çox sular axdı.
Arazın suyunda enib-qalxaraq
Ürəkdə bəslənən arzular axdı".
[Vahabzadə, II c., 2004: 82]

B.Vahabzadə "Gülüstan" poeması vasitəsilə gəncliyin gözlərinə çəkilən pərdəni açmış, onların diqqətini xalqın kökünə, tarixinə, milli dərkinə yönəltmişdir. B.Vahabzadə milli tarixi yaddaşın oyanmasında həqiqətləri cəsarətlə oxucuya göstərmiş, "Gülüstan" və onun davamı kimi "İstiqlal" poeması ilə xalqının – Azərbaycanın köksünə basılan dağı ürək ağrısı ilə dilə gətirmişdir.
Şair bütün yaradıcılığı boyu Azərbaycan gənclərini parçalanmış vətənimizin azadlığı üçü ayıq-sayıq, mübariz olmağa, bir millət kimi məhv olmamaq üçün başqasına qul olmamağa, mənəviyyatımızı yaşatmağa, tariximizi bilməyə, qan yaddaşımızın möhkəm olması üçün əllərindən gələni əsirgəməməyə çağırmışdır.

B.VAHABZADƏ DRAMATURGİYASINDA MİLLİ AZADLIQ MƏFKURƏSİ.

B.Vahabzadə təkcə şeirləri, poemaları, dram əsərləri ilə deyil, publisist yazıları, elmi araşdırmaları ilə də xalqın milli şüurunu oyatmağa çalışmışdır. O, şair olmasına baxmayaraq, dramaturji yaradıcılığında da ("Dar ağacı", "Fəryad"), demək olar ki, tarixin dili ilə günümüzün ziddiyyətlərini, haqsızlıqlarını əks etdirmişdir.
B.Vahabzadə 1971-1978-ci illərdə Cəfər Cabbarlının "Od gəlini" pyesinə nəzirə olaraq mövzuya yeni çalarlar bəxş etmiş və uğurlu bir pyes ərsəyə gətirmişdir. Əsər Azərbaycan Milli Dram Teatrında səhnəyə qoyulmuş və tamaşaçıları heyrətə gətirmişdir.
Təəssüflə qeyd etməliyik ki, əsərin yazıldığı, qadağaların tüğyan etdiyi dönəmdə Bəxtiyar müəllim bəzi məsələləri istədiyi kimi göstərə bilməmişdir. Milli müstəqilliyimizin özünü doğrultduğu 1999-2000-ci illərdə əsəri yenidən işləmiş, vaxtilə deyə bilmədiklərini əsərə əlavə etmiş və 2001-ci ildə "Pyeslər" kitabında yenidən nəşr etdirmişdir. Kitabın ilk səhifəsində "Müəllifdən" başlığı altında verdiyi açıqlamasında *"əsər sona yetdikcə dünya ilə haqq-hesabı çürütmək vaxtının çatdığını hiss edir, qəlbimdə yazılarımı sahmana salmaq fikri oyanırdı. İlk yazılarımın, xüsusən şer və poemalarımın iki baxışdan nəzərdən keçirilməsini zəruri hesab edirdim: birincisi, sovet dövrünün tələblərindən doğan məzmun şikəstliyi, ikinci isə naşılıqdan, təcrübəsizlikdən doğan dil və üslub xətaları. Məni narahat edən bir də o idi ki, "Dar ağacı" "Pyeslər" (1980) kitabımda nəşr edilmişdi. Buna görə də ilk növbədə bu pyesi işləmək və nəşr etdirmək zərurəti duydum.*
"Dar ağacı" pyesi ilə yanaşı, "Fəryad" pyesini də yenidən işləyərək bu kitaba əlavə etdim" [Vahabzadə, 2001: 31].
"Dar ağacı" faciəsində dramaturq böyük Azərbaycan sərkərdəsi, ərəb xilafətinə qarşı qəhrəmancasına mübarizə aparmış Babək Xürrəmdin ölümündən sonra baş verən hadisələri, Azərbaycan xalqının azadlıq uğrunda mübarizəsini, Afşinin həyat yolunu və taleyini dramaturji müstəvidə canlandırmışdır.
B.Vahabzadənin digər əsərləri kimi, "Dar ağacı" pyesi də kamil sənət örnəyi kimi diqqəti cəlb edir.
Müəllif "Fəryad" pyesində mübarizə və əzmkarlıq əhval-ruhiyyəsini davam etdirmişdir. Pyesdə hadisələr XV əsrdə Hələb şəhərində cərəyan edir. Bəşəri zülm və əsarətə qarşı yeni bir silah, bütün Şərqi saran hürufilik ideyalarının Hələb şəhərində keçdiyi mübarizə yolu pyesin əsas motivini təşkil edir.

NƏTİCƏ.

B.Vahabzadə tarixi mövzulu pyeslərdə olduqca ciddi ictimai-siyasi problemlər qaldırmışdır. "Dar ağacı", "Fəryad", "Özümüzü kəsən qılınc" əsərinin hər birində qoyulan məsələlər bu gün də Azərbaycan xalqını, ümumən, türk dünyasını düşündürür.
B.Vahabzadənin yaradıcılığında istiqlal məfkurəsinin bədii təcəssümündə ana dili ilə bağlı fikirlər də mühüm rol oynayır. Böyük şairin ana dili məsələsinə bu qədər əhəmiyyət verməsi təsadüfi deyildir. Çünki B.Vahabzadə dili hər bir millətin varlığının ilkin təzahürlərindən biri hesab edirdi. Onun qənaətincə, dilinə yad baxan bir millət öz milli-etnik mövcudluğunu saxlaya bilməz.

B.Vahabzadənin istiqlal poeziyasında müasirlik ruhu qabarıq ifadəsini tapmışdır. O, zamanın nəbzini tutmağa çalışmış, cəmiyyəti narahat edən məsələlərə diqqət yetirmiş və bu baxımdan, əsərlərinin aktuallığını, ideya müasirliyini qoruya bilmişdir.
B.Vahabzadənin istiqal mövzusunda yazdığı poetik örnəklər özünəməxsus forma, dil-üslub özəlliyi, orijinal, bənzərsiz ifadə tərzi, ideya yeniliyi ilə hər zaman aktualdır.

ƏDƏBİYYAT

1. “Bəxtiyar Vahabzadə və Azərbaycan filologiyasının aktual problemləri” mövzusunda beynəlxalq elm konfransın materialları. (2015). Bakı.
2. Azərbaycanın Bəxtiyarı. Bəxtiyar Vahabzadənin həyatı, yaradıcılığı və ictimai fəaliyyəti haqqında məqalələr toplusu. (1995). Bakı: Azərnəşr.
3. Vahabzadə B. (2004). Seçilmiş əsərləri. 2 cilddə, I cild (Şeirlər). Bakı: Öndər, 328 s.
4. Vahabzadə B. (2004). Seçilmiş əsərləri. 2 cilddə, II cild (Poemalar). Bakı: Öndər, 320 s.
5. Vahabzadə B. (2001). Pyeslər. Bakı: Azərnəşr.
6. Vahabzadə B. (1991). Şənbə gecəsinə gedən yol. Bakı: Azərnəşr, 334 s.

TURKİC POETS İN ALMAS ILDIRIM’S EMİGRATİON PERİOD PUBLİCİTY

TURKİC POETS İN ALMAS ILDIRIM'S EMİGRATİON PERİOD PUBLİCİTY

ALMAS İLDIRIMIN MÜHACİRƏT DÖVRÜ PUBLİSİSTİKASINDA TÜRKÇÜ ŞAİRLƏR

Cəbiyeva Hülya Murtuz qızı
Elmi işçi, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan, Bakı,
ORCID İD: 0009-0002-3269-5321

Xülasə
Azərbaycan mühacirətinin publisistik irsində bolşevik rejiminin həm mənəvi, həm də fiziki terroruna məruz qalmış söz ustalarından Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Əhməd Cavad və başqalarının həyat yolu, yaradıcılığı barədə Mirzə Bala Məhəmmədzadə, Ceyhun Hacıbəyli, Teymur Atəşlinin dəyərli yazıları vardır. Almas İldırımın məhz mühacirət dövrü yaradıcılığında da bu qızıl terror qurbanı şairlərimizdən Əhməd Cavad və Ümmügülsüm Sadıqzadədən bəhs edən iki publisistik örnək mövcuddur. 1947-ci ildə "Özləyiş" dərgisinin müvafiq olaraq 4-cü və 6-cı saylarında dərc edilən həmin nümunələr "Azərbaycanlı türkçü şairlər" ümumi sərlövhəsini daşıyır. Hər iki şairin yaradıcılığının leytmotivini doğma vətən Azərbaycan, onun istiqlal haqqının müdafiəsi, həmçinin türkçülük ideyalarının təbliği təşkil edir.
A.İldırımın publisistik irsinin əksər örnəkləri kimi sözügedən iki məqaləyə də şair haqqında araşdırmalarda toxunulmamışdır. Çox güman ki, bu görkəmli söz ustasının yaradıcılığını araşdıran alimlər həmin yazılardan xəbərsiz olmuşlar. Hər iki yazı ilk dəfə olaraq, bu məqaləmizdə elmi araşdırmaya cəlb edilərək dəyərləndirilmişdir.
A.İldırım ilk məqaləsində Ə.Cavada sevgi və rəğbətini dilə gətirərək, onu "Azərbaycanın Namiq Kamalı" adlandırır ki, bu da əsassız deyildir. XIX əsr Türk ədəbi və düşüncə həyatının öndə gələn simalarından, milliyyətçi dava adamı Namiq Kamal "vətən şairi" kimi tanınmışdır. Ə.Cavad da Almas üçün Azərbaycanın vətən şairidir, onun şeirlərini əzbər bilməyən azəri gəncinə az təsadüf edilir. Bu baxımdan, Cavadın şeirlərində tərənnüm etdiyi sevgilinin məhz Azərbaycan olduğu məqalə müəllifinin qeydləri arasındadır. O, Ümmügülsümü də Cavad kimi "bədbəxt Azərbaycanın yetişdirmiş olduğu son əsr şairləri" sırasında təqdim edir. Bu vətənpərvər azəri şairinin acı taleyindən, çəkdiyi iztirablardan təsirli bir dillə bəhs edən müəllif, onun yaradıcılığına müraciət edərək şeirlərinin əsas mövzu dairəsinə də toxunmuşdur.
Həcmcə o qədər də geniş olmasa da, bu yazılarda müəlliflə ortaq amala sahib həmin sənətkarların poetik söz ustası kimi dəyəri verilmiş, milli istiqlal uğrundakı savaşlarının qutsallığı vurğulanmış, nəhayət, yüzlərlə türk ziyalısı kimi bolşevik rejiminin repressiyasına məruz qalmalarından dolayı kədər hissi ifadə edilmişdir.
Açar sözlər: Almas İldırım, mühacirət, publisistika, Əhməd Cavad, Ümmügülsüm

Abstract
In the journalistic heritage of Azerbaijani emigration, there are valuable writings by Mirza Bala Mohammadzadeh, Ceyhun Hajibayli, and Teymur Atashli about the life paths and creations of masters of words such as Jafar Jabbarli, Mikayil Mushfig, Ahmad Javad, and others who were subjected to both moral and physical terror under the Bolshevik regime. In the works of Almas Ildırım during the period of emigration, there are two journalistic examples referring to our poets Ahmad Javad and Ummugulsum Sadigzade, who are victims of this golden terror. The samples published in the 4th and 6th issues of the magazine "Özləyiş" in 1947 carry the general headline "Azerbaijani Turkic Poets". The leitmotif of both poets' creativity is the homeland Azerbaijan, the defense of its right to independence, as well as the promotion of Turkism ideas.

Like most examples of A. İldırım's journalistic heritage, the two aforementioned articles have not been addressed in the studies about the poet. It is highly likely that scholars researching the work of this distinguished wordsmith were unaware of those writings. Both pieces have been evaluated for the first time in this article as part of a scientific investigation.
In his first article, A. Ildirim expresses his love and admiration for A. Cavad, calling him "the Namik Kamal of Azerbaijan", which is not groundless. Namik Kamal, one of the leading figures in 19th-century Turkish literary and intellectual life, was known as a "national poet". A. Cavad, on the other hand, is also the national poet of Azerbaijan for Almas, as it is rare to find an Azerbaijani youth who does not memorize his poems. In this regard, the author's notes include that the loved one celebrated in Cavad's poems is specifically Azerbaijan. He also presents Ummugulsum as one of the "unfortunate poets of Azerbaijan in the last century", just like Cavad. The author discusses the bitter fate of this patriotic Azerbaijani poet and the suffering he experienced with an impactful language and has also touched upon the main themes of his poetry by referencing his creativity.
Although not very extensive in volume, these writings highlight the poetic mastery of those artists who share a common goal with the author, emphasize the sanctity of their struggles for national independence, and finally express a sense of sorrow due to the repression faced by hundreds of Turkish intellectuals under the Bolshevik regime.
Key words: Almas Ildirim, emigration, publicity, Ahmet Javad, Ummugulsum

GİRİŞ

Azərbaycanda sovet hakimiyyətinin bərqərar olmasından sonra bir qisim ziyalılarımız, o sıradan ədiblərimiz dövrün ideoloji tələbləri ilə ayaqlaşmaq məcburiyyəti ilə üzləşmişdilər. Digər qismi isə istiqlal uğrunda savaşlarını davam etdirmiş, daim milli kimlik arayışında olmuş, öz varlıqlarını qoruyub-saxlama cəhdlərini sürdürmüş, nəticədə isə rejimin təzyiq və təqib kampaniyalarına, çeşidli təxribatlara, daha da irəli gedilərək sürgün və repressiyalara məruz qalmışlar. Bununla bağlı, söz ustalarımızdan Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Əhməd Cavad və başqalarının həyat yolu, yaradıcılığı barədə Mirzə Bala Məhəmmədzadə, Ceyhun Hacıbəyli, Teymur Atəşlinin dəyərli yazıları vardır. Almas İldırımın məhz mühacirət dövrü yaradıcılığında da bu qızıl terror qurbanı şairlərimizdən Əhməd Cavad və Ümmügülsüm Sadıqzadədən bəhs edən iki publisistik örnək mövcuddur. 1947-ci ildə "Özləyiş" dərgisinin müvafiq olaraq 4-cü və 6-cı saylarında dərc edilən həmin nümunələr "Azərbaycanlı türkçü şairlər" ümumi sərlövhəsini daşıyır.
Qeyd edək ki, A.İldırımın publisistik irsinin əksər örnəkləri kimi sözügedən iki məqaləyə də şair haqqında araşdırmalarda toxunulmamışdır. Çox güman ki, bu görkəmli söz ustasının yaradıcılığını araşdıran alimlər həmin yazılardan xəbərsiz olmuşlar. Hər iki yazı ilk dəfə olaraq, bu məqaləmizdə elmi araşdırmaya cəlb edilərək dəyərləndirilmişdir.

ƏSAS HİSSƏ

"Şair Axundzadə Cavad" (Yıldırım, 1947)] adlanan ilk məqalənin A.İldırımın Ə.Cavada bir növ sevgi və rəğbətinin təcəssümü kimi qələmə alındığı görünür. Məlumdur ki, 1937-ci il repressiya dalğası bu istiqlalçı şairdən də yan keçməmiş, "xalq düşməni" damğası ilə 45 yaşında ölümə məhkum edilmişdir. Xalqımızın istiqlal uğrunda apardığı savaş əsnasında bir sıra nakam şairlərimiz kimi, o da çox sevdiyi qələmindən, yurddaşlarından vaxtsız ayrılmışdır. Lakin bu cismani ayrılıq şair ruhunun milləti üzərində pərvazlanmasına əngəl deyil. A.İldırımın da qeyd etdiyi kimi: "*Demək ki, Azərbaycanın dəyərli övladı şair Cavad ölmədi. Onun ölməsi üçün bir millətin ortadan qalxması lazım gələrdi"* (Yıldırım, 1947:12)]
A.İldırımın Ə.Cavadı "Azərbaycanın Namiq Kamalı" adlandırması əsassız deyildir. Belə ki, XIX əsr Türk ədəbi və düşüncə həyatının öndə gələn simalarından, milliyyətçi dava adamı Namiq Kamal "vətən şairi" adı ilə tanınmışdır. Ə.Cavad da Almas üçün Azərbaycanın vətən şairidir, onun şeirlərini əzbər bilməyən azəri gəncinə az təsadüf edilir. Məqalədə, eyni zamanda bolşevik rejimi dövründə

Cavadın şeirlərini hansı şəraitdə yazıb-yaratdığı qeyd olunur: *"Qızıl enqizisyonun (burada: cəza məhkəməsi – H.C.) yaratdığı dəhşət və vəhşət içində Cavad şeirlərini tatlı bir sembol pərdəsinə bürüyərək gizli-gizli tərənnüm etdi və çoxu da əldən-ələ dolaşaraq yurdun içində və hətta hüdudları aşaraq mültəci azərilərə qədər ulaşdı"* (Yıldırım, 1947:7)]

Cavadın şeirlərinin tək həmsöhbəti Almasın dili ilə desək, yurd gözəli, yəni Azərbaycanın ilahi bir şəkildə canlandırılmış timsalıdır. Onun şeirlərində tərənnüm etdiyi sevgili məhz Azərbaycandır ki, bu da özünü gah Göy göl, gah Kür, gah gəlin, gah da unudulmuş qadın şəklində inikas etdirir. Həyatının sonuna doğru şairin əli qələmdən soyumuş, ona "niyə yazmırsan", – deyə sual verənlərə "Nə yazım" şeiri ilə cavab vermişdir ki, Almas da həmin üç bəndlik şeirdən iki bəndi oxuculara təqdim etmişdir. Şeirdəki ağrı-acılara, kədərə, qanlı göz yaşlarına baxmayaraq, A.İldırım Cavadın bir gün həqiqətin meydana çıxacağına inamının sarsılmadığını göstərir. Lakin şairin aqibəti digər millətpərvərlər kimi məchuldur. *"O da digər milliyyətçilər, vətənpərvərlər kimi məchullara qarışmışdır. Qızıl enqizisyonun ağır silindri kəmikləri üzərindən keçmişdir bəlkə də"* (Yıldırım, 1947:7)].

Ə.Cavadın bir tərəfdən bolşevik rejimi dövründə çəkdiyi iztirabların, digər tərəfdən isə millətinin parlaq istiqbalına olan ümid və inamının əks olunduğu "Bir gün" adlı şeirindən bəhs edən məqalə müəllifi həmin poetik örnəyə görə şairə qarşı saxta ittihamlar irəli sürüldüyünü və nəticədə həbsə atıldığını bildirir. Artıq həbsdəykən isə o, dərdini yazacaq bir qələmi olmadığından şeirlərini həbsxananın divarlarına həkk etmişdir. A.İldırım həmin şeirlərdən cəmi dörd misradan ibarət olanını təqdim edir:

Hanı yaz mövsümü, gülüm, çiçəyim,
Tez düşdü yurduma xəzan, ay ellər.
Mən yaza bilmədim, qolları bağlı,
Yoxmu bir dərdimi yazan, ay ellər... (Yıldırım, 1947:12)].

Qeyd edək ki, "Ay ellər" adlı bu şeiri Azərbaycan milli hərəkatının öncüllərindən, mühacirət ədəbi-elmi fikrinin görkəmli nümayəndələrindən biri olan Hüseyn Baykara (1904-1984) itib-batmaqdan qurtarmışdır. Belə ki, o, müəllifi olduğu "Azərbaycan istiqlal mücadiləsi" kitabında Ə.Cavadla eyni vaxtda ÇEKA tərəfindən həbs edildiyini, onunla eyni hücrədə qalıb dostlaşdığını və həmin şeiri divardan əzbərləyərək yaddaşına həkk etdiyini yazır. Çox ciddi bir semantik fərq yaratmasa da, H.Baykaranın təqdimində sözügedən parçanın 3-cü misrasında A.İldırımdakından fərqli olaraq, "qolları" sözü əvəzinə "əllərim", 4-cü misrada isə "bir" əvəzinə "bu" işlədildiyi də diqqətimizi çəkdi (Baykara, 1975: 198-199)].

Şair, əfsus ki, onun dərdlərini yazacaq, şeirlərində şövqlə tərənnüm etdiyi azəri gözəlini (yəni, Azərbaycanı – *H.C.*) təsvir edəcək tələbələrini − azəri gəncliyini görə bilmədi. Məhz həmin gənclik ki, yaratdığı əsərlərlə Cavadın ölmədiyini, ədəbiyyətə qovuşduğunu sübut edə bildi.

Müəllif məqaləni təsirli notlarla bitirir: *"Görülüyor ki, topdan qətliamlar, topdan sürgünlər, şiddət, dəhşət, atəş və qan bu işə kafi gəlmiyor... Sönmüş sanılan bir kül yığınındakı bir qıvılcım qoca bir volkan yarada bilər. Bunu bilməyənlər tariximizi ya oxumadılar, ya oxuyub anlamadılar"* (Yıldırım, 1947:12)].

Vurğulamaq yerinə düşər ki, A.İldırımdan istər öncə, istərsə də sonra Ə.Cavadın mübarizəsi və yaradıcılığına mühacirət ədəbiyyatımızda ara-ara yer verilmişdir. Belə ki, Məhəmməd Əmin Rəsulzadənin "Çağdaş Azərbaycan ədəbiyyatı" (Resul-zade, 1936)] kitabı və Mirzə Bala Məhəmmədzadənin "İstiqlal zəfərinin dastanı" (Mirza Bala, 1953)], "Proletar ədəbiyyatı milliyyətçi ədəbiyyatın vahid cəbhəsi qarşısında" (Mirza Bala, 1930)] kimi məqalələri yerində örnəklərdir. Doğrudur, həmin yazılar sırf Ə.Cavada həsr edilməmişdir. Buna baxmayaraq, sözügedən müəlliflərin əsərlərində onun şeirləri istiqlal poeziyamızın dəyərli ədəbi örnəkləri kimi təqdim və təhlil edilmişdir.

"Şair Ümmügülsüm xanım" (Yıldırım, 1947)] məqaləsində isə A.İldırım Ü.Sadıqzadənin acı taleyindən, şeirlərinin əsas mövzu dairəsindən bəhs edir, onlardan nümunələr verməklə bu vətənpərvər azəri şairinin çəkdiyi iztirabları gözlər önünə sərir. Müəllifin: *"Bir çox azəri qadın şairlərinin içdən yaratdıqları özlü qoşmalar içində Ümmügülsümün yalnız vətəninin halını canlandıran qoşmaları*

tamamilə ayrı bir cəbhədən tədqiqə dəyər mahiyyətdədir" (Yıldırım, 1947:8)] fikri isə bu söz ustasının yaradıcılığına verdiyi yüksək qiymətin ifadəsidir.

Məlumdur ki, 1918-1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti Ümmügülsüm yaradıcılığının əsas tərənnüm obyekti olmuş, milli ruhlu və mücadiləyə çağırış məzmunlu şeirləri ilə şair xalqımızın arzuladığı istiqlala sonunda çatmış olmanın sevincini əks etdirmişdir.

Məqalədə şairin "A dağlar" rədifli qoşmasını bir parça şəklində, 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan dolayı ürək ağrısı ilə qələmə aldığı "Hicran" və "Bayrağım enərkən" adlı şeirləri isə bütövlükdə təqdim edilmişdir.

Ümmügülsüm xanım Cavad kimi, "bədbəxt Azərbaycanın yetişdirmiş olduğu son əsr şairləri" sırasında təqdim edilir, azəri gəncliyinin ona "yurdun ikinci Cavadı" adını verdiyi, şeirləri "ismarlama" olmadığına görə qızıl mətbuatda dərc edilməsə də, əldən-ələ dolaşaraq ana yurda, qardaş Türkiyə mətbuatına qədər çatdığı söylənilir. Vətəninin dərdlərini şeirlərində duyuran digər azəri şairləri kimi, Ümmügülsümün də məchullara qarışdığı vurğulanır.

A.İldırım məqalədə Müznib təxəllüsü ilə tanınan, çar hökuməti zamanında yazdığı bir şeirindəki iki misraya görə Sibirə sürülən Əli Abbas Mütəllibzadəni də xatırlayır. Ümmügülsümün isə "Bağlandımı üzümə Türk elinin qapısı" misrasına görə eyni sürgün taleyini yaşadığını qeyd edir. Bu misra şairin "Bayrağım enərkən" şeirindəndir:

Yazıq, səni bayrağım, endirdilər... öyləmi,
Səni yıxıb devirən o zəhərli ruzigar,
O "haqq" deyən haqsızlar, vəhşilər, tanrısızlar,
Yanar ocağımı da söndürdülər... öyləmi...
Bir rüyamı oldu o gördüklərim həpisi,
Bağlandımı yüzümə Türkelinin qapısı... (Yıldırım, 1947:8)]

Ümmügülsüm üçrəngli bayrağımızın qızıl qana boyanması və nəticədə min bir zəhmətlə qurulan Cümhuriyyətin süqutu ilə qələminə daha sıx sarılır... Şeirdən aydın olur ki, şair Azərbaycanı böyük Türküstana, Türk elinə açılan bir qapı olaraq görür və bu qapının bağlanması ilə də dərin hüznə boğulur.

AXC-nin şanlı bayrağının endirilməsi azmış kimi, şairin ömür-gün, qələm, mübarizə yoldaşı Seyid Hüseyn də xalq düşməni adlandırılır və tutularaq zindana salınır. Beləliklə də, A.İldırım əzabları birə min artan Ümmügülsümlə bağlı yazır: *"Çırpınan şairin çəkdiyi bu mənəvi iztirablar kafi gəlməmiş kimi, bir də sevgili kocasını, əvət Azərbaycanın digər dəyərli bir ədibini tutub zindana atınca bu dəfə zavallı Ümmügülsüm kəndi pərişan halının üzüntüsünü qələmiylə paylaşmağa çalışmışdır"* (Yıldırım, 1947:8)]. Bu fikirlərdən sonra Almas şairin "Hicran" adlı şeirinə yer verir və onu "fəlakətin tərcümanı" adlandırır.

NƏTİCƏ

A.İldırımın qələmindən çıxan sözügedən məqalələr Azərbaycan poeziyasının eyni mübarizə yolu keçib, eyni taleyi bölüşən iki görkəmli türkçü, istiqlalçı şairi Ə.Cavad və Ümmügülsümün yaradıcılığına müxtəsər nəzərdir. Hər iki şairin yaradıcılıq leytmotivinin mərkəzində doğma vətən Azərbaycan, onun hürr yaşamaq haqqının müdafiəsi, həmçinin türkçülük ideyalarının təbliği durur. Həcmcə o qədər də geniş olmasa da, bu yazılarda müəlliflə ortaq amala sahib həmin sənətkarların poetik söz ustası kimi dəyəri verilmiş, savaşlarının qutsallığı vurğulanmış, nəhayət, yüzlərlə türk ziyalısı kimi bolşevik rejiminin repressiyasına məruz qalmalarından dolayı kədər hissi ifadə edilmişdir.

ƏDƏBİYYAT

1. Baykara, H.(1975). *Azerbaycan istiklâl mücadelesi tarihi*. İstanbul: Gençlik Basımevi.
2. Mirza Bala. (1953). İstiklâl zaferinin destanı. *Azerbaycan Aylık Kültür Dergisi*, sayı 6 (18), s.3-5.
3. Mirza Bala. (1930). Proleter edebiyatı milliyetçi edebiyatın vahit cephesi karşısında. *Odlu Yurt Mecmuası*, sayı 12, s.484-488.

4. Resul-zade, M.E.(1936). *Çağdaş Azerbaycan edebiyatı*. Berlin.
5. Yıldırım, E.(1947). Azerbaycanlı türkçü şairler: Şair Ahundzade Cevat. *Özleyiş Dergisi,* sayı 4, s.7,12 .
6. Yıldırım. E.(1947). Şair Ümmügülsüm hanım. *Özleyiş Dergisi,* sayı 6, s.8.

THE LEXİCAL-SEMANTİC ANALYSİS OF THE CONCEPT OF "SPEECH" AND ITS ASSOCİATED SUFİ TERMS İN THE WORKS OF IMADADDİN NASİMİ

İMADƏDDİN NƏSİMİ YARADICILIĞINDA "NİTQ" KONSEPTİ VƏ ONA BAĞLI TƏSƏVVÜF TERMİNLƏRİNİN LEKSİK-SEMANTİK TƏHLİLİ

Xədicə Heydərova
AMEA Nəsimi adına Dilçilik İnstitutu, Azərbaycan dili tarixi şöbəsinin müdiri
filologiya üzrə fəlsəfə doktoru, dosent
https://orcid.org/0000-0002-1148-8326

Xülasə.
Bu məqalədə İmadəddin Nəsimi yaradıcılığında "nitq" konseptinin leksik-semantik xüsusiyyətləri və bu anlayışla bağlı sufi terminologiyasının poetik təzahürü araşdırılmışdır. Sufi ədəbiyyatında "nitq" ilahi kəlamın, mənəvi diriliyin və haqqın təcəllası kimi qəbul olunur. Nəsimi poeziyasında bu anlayış *lə'l, ləb, dodaq, ab, abi-həyat, cam, şərab, Kövsər, Səlsəbil, Xızr* və s. simvolik vahidlər vasitəsilə ifadə edilir. Məqalədə bu terminlərin poetik-struktur baxımından işlənmə xüsusiyyətləri və semantik funksiyaları təhlil olunur. Şairin dili və poetik dünyagörüşü göstərir ki, o, Fəzlullah Nəiminin nitqini ilahi kəlam kimi qəbul edərək, onu dirilik suyu, cənnət şərabı və müqəddəs sözlərlə eyniləşdirir. Nəticədə, "nitq" konsepti Nəsimi poeziyasında həm mənəvi dirçəlişin, həm də ilahi maarifin simvoluna çevrilir.
Açar sözlər: nitq konsepti, təsəvvüf terminləri, metafora, məcaz, abi-heyvan, kəlam, sufi poetikası.

Abstract.
This article explores the lexical and semantic characteristics of the concept of "speech" (*nitq*) in the poetic works of Imadaddin Nasimi, focusing on its representation within Sufi terminology. In Sufi literature, speech is considered a manifestation of divine wisdom, spiritual vitality, and sacred revelation. In Nasimi's poetry, this concept is expressed through a wide range of symbolic terms, including *lə'l* (lips), *lab* (lip), *dodaq* (mouth), *ab* (water), *ab-i hayvan* (water of life), *jam* (cup), *şərab* (*wine*), *Kövsər, Səlsəbil, Xızr*. The article analyzes the poetic use and semantic functions of these terms within the mystical and symbolic framework of Nasimi's verse. It is demonstrated that Nasimi equates the speech of Fazlullah Naimi with divine revelation, portraying it as the water of immortality, paradise wine, and sacred utterance. Thus, the concept of "speech" in Nasimi's poetry emerges as a symbol of both spiritual enlightenment and eternal divine truth.
Keywords: concept of speech, Sufi terminology, metaphor, figurative language, āb-i ḥaywān, kalām, Sufi poetics

Giriş

İmadəddin Nəsimi Azərbaycan təsəvvüf ədəbiyyatının ən parlaq nümayəndələrindən biri olmaqla yanaşı, həm də hürufi təlimin ən güclü poetik tərcümanı kimi tanınır. Onun poeziyasında "nitq" anlayışı təkcə ünsiyyət vasitəsi kimi deyil, həm də ilahi həqiqətin təcəlli forması, mənəvi bilik və maarifin ötürülmə aləti kimi qəbul olunur. Nəsimi yaradıcılığında nitqlə bağlı işlədilən təsəvvüf ədəbiyyatına məxsus "quş dili" (məntiqut-teyr) – alleqorik leksik vahidləri – *söz, kəlam, nida, səvt, bəyan, dil, su, ab, abi-həyat, lə'l, ləb, dodaq, cam, şərab, dəhan, çeşmə, Kövsər* və s. – geniş semantik sahəyə malikdir. Şair bu təsəvvüf terminlərini aşağıdakı söz birləşmələri və izafətlərin tərkibində işlədir: *dodağın eyni-abı, dodağın şərbəti, dodağın yarı, dodağı abi-heyvan, dodağın balı, dodağından xəcil halvaçılar, dodağın Kövsəri, dodağın çeşmeyi-heyvan, dodağın Səlsəbil, dodağın çeşmeyi-abi-zülal, ağzı yarı, ağzın yarı, nöqteyi-ağız, müdəvvər nöqteyi-ağız, səvtü nitq, ləblərin abı,*

ləbin eyni, ləbi-lə'l, ləbi-lə'lin şərabı, zülal abi, abi-rəvan, Xızrın abi-heyvanı, abi-Kövsər, ləbi-əhya, ləbi abi-həyat, Kövsərin abi-zülalı, lə'lin ənəbi, lə'li-ləbü dürri-dişi, mey, lamü bey, ləbindir möhbiti-Ruhül-əmin, həyati-çeşmeyi-heyvan, həyati-Xızr, çeşmeyi-abi-rəvan, çeşmeyi-heyvanləb, ləbin dövranı, ləbin cövhəri, şəkkəri-lə'li-ləb, ləbi-çeşm, ləbin cami-müsəffa, ləblərin çeşməsi, ləbin camı, ləbin mai-təhur, heyvan suyu.

Bu məqalədə həmin terminlərin leksik-semantik təhlili təqdim olunur və onların Nəsimi poetikasında tutduğu yer müəyyənləşdirilir.

"Söz", "kəlam", "nida", "sövt", "dil", "bəyan", "şərhi-bəyan", "bəyani-kuntə kənz eyləmək" leksik vahidlərinin alleqorik semantikası

Sufizmdə "nitq" ilahi hikmətin, vəhydən gələn kəlamın insan dilində təzahür formasıdır. Quranda Allahın sözləri "kəlamullah" kimi təqdim olunur. Nitq, sadəcə insanın danışıq qabiliyyəti deyil, həm də Haqqın dili, ilahi sözün zahiri bədənə enmiş formasıdır. Bu baxımdan, İmadəddin Nəsimi yaradıcılığı nitqin təsəvvüfi anlamda bədii formalaşmasının parlaq nümunəsidir. O, hürufi təlimin fəlsəfi əsaslarını bədii dillə ifadə etməklə yanaşı, "nitq" konseptini müxtəlif leksik-semantik simvollar vasitəsilə izah etmişdir. Sufi poetikasında geniş şəkildə istifadə edilən təşbih və metaforlar təkcə fiziki deyil, eyni zamanda metafizik səviyyədə mənalandırılır. Belə bir assosiativ şəbəkə "ilahi sözün" – kəlamın həyatverici gücünü təcəssüm etdirir. Nəsiminin şeirlərində isə göstərilən ifadələrlə çox zaman Fəzlullah Nəiminin ruhi saflaşma və əbədiyyət vəd edən çıxışlarını, nitqini ifadə edərək onun mürşidlik statusu və ilahi həqiqətləri bəyan etmə gücü ilə əlaqələndirir.

İmadəddin Nəsimi yaradıcılığında "nitq" konsepti ətrafında formalaşan leksik vahidlər və ifadələr – "söz", "kəlam", "nida", "sövt", "dil", "bəyan", "şərhi-bəyan", "bəyani-küntü kənz" – poetik mətnlərdə həm denotativ, yəni zahiri, həm də konotativ, yəni ezoterik və alleqorik mənalarda işlədilir. Nəsimi üçün türk mənşəli "söz" yalnız danışıq vasitəsi deyil; o, ilahi bilginin, haqq kəlamının və ənəlhəqq həqiqətinin simvoludur. Ərəb mənşəli "kəlam" – batini biliyə malik olan natiq insanın (insan-i kamilin) dilindən çıxan və kamil təcəllanı ifadə edən rəmzdir. Türk mənşəli "dil" – zahirdə danışıq orqanı kimi dəyərləndirilsə də, Nəsimi poeziyasında haqqın aynası və ya Tanrının görünən ifadəsi kimi çıxış edir. Bu baxımdan dilin yaratdığı ərəb mənşəli "sövt" və "nida" yalnız səs deyil, batini səslərin, nurani təcəllanın bir formasıdır.

Məsələn, aşağıdakı beyt:

"Ey xətin Xızr, abi-heyvandır sözün,
Söylə, ey can, söylə kim, candır sözün!" [9, s. 280]

Burada "söz" həm dirilik suyu (abi-həyat) ilə müqayisə olunur, həm də canla (ruh ilə) eyniləşdirilir. Bu isə sözün sadəcə maddi deyil, mənəvi və metafizik güc daşıdığına işarə edir. Beləliklə, bu tip beytlərdə söz – ilahi mənanın, dil – onun daşıyıcısının, kəlam isə – bu həqiqətin zahirdəki təcəllisinin simvolik göstəricisidir.

Xüsusilə "bəyani-Kuntə kənz" ifadəsində Nəsimi sözün ilahi başlanğıcdan qaynaqlandığını vurğulayır. Bu, İslam mistikasında məşhur olan "كنت كنزًا مخفيًّا" ("Mən gizli bir xəzinə idim...") hədisinə göndərişdir və burada "bəyan" Allahın özünü açıqlaması, təcəlla etməsi kimi yozulur. Bu cür ifadələr alleqoriyanın klassik nümunələridir, çünki zahirən məcazi ifadə, batində isə batini həqiqətin parlaq izahıdır.

"Su", "ab", "zülal", "yar", Səlsəbil, Kövsər və cənnət şərabı metaforaları: dirilik və hikmət mənbəyi

Ab (آب) fars mənşəli sözdür və su deməkdir. Nəsimi yaradıcılığında bu leksik vahid həm həqiqi, həm də təsəvvüfi mənada istifadə olunur. Təsəvvüfdə *"sevgilinin* (Allahın, Fəzlullahın – X.Heydərova) *sözü və bunun ifadə etdiyi xəbər"* [2] mənasını ifadə edir. Nəsimi yaradıcılığında ab "dodaq", "ləb" sözləri ilə işləndiyi zaman "ölümsüzlük bəxş edən nitq" anlamını ifadə edir: *"Vey dodağın şərbətinlən Kövsərin eynində ab"* [8, s. 22]; *"Şirin ləbidir dilbərin vəhdət meyin peymanəsi"* [9, s. 156].

Fars mənşəli *ab* sözü Nəsimi poetikasında həm fiziki, həm də metafizik qatlarda işlədilir. Sufi kontekstdə *ab* – dirilik suyu, ilahi nitqin simvolu, haqqın kəlamı kimi təqdim olunur:
"Kim oldu küllü-şey'in həyy dodağın eyni-abından" [HA, s. 186]
Birinci beytin şərhi: Sənin nitqinlə hər şey dirildi. Bu kimi nümunələrdə *dodaq* və *ab* arasındakı əlaqə nitqin dirildici, yaradıcı mahiyyətini göstərir. Burada ab – maddi sudan fərqli olaraq – ilahi biliyin, eşqin və mənəvi dirçəlişin simvoludur.
Yar (یار) türk mənşəli arxaizm olub "xəbər, məlumatlandırma" [11, s. 323], və "tüpürcək" [10, s. 311] ağız suyu, tüpürcək deməkdir. Klassik ədəbiyyatda nitq, xəbər, məlumatlandırma mənasını daşıyan sətirlərdə raslanır:
"Ağzı yarı qəndü abi-heyvan,
Hər çeşmə suyu zülal olurmu? [9, s. 229].
Burada *ağzı yarı* ifadəsi klassik ədəbiyyatda sevgilinin (və ya mürşidin) ağzı, danışığı, nitqi mənasında işlənir. *Qənd* – şəkər, şirinlik, ləzzət, *abi-heyvan* – klassik sufi ədəbiyyatında "dirilik suyu", "əbədi həyat bəxş edən su", *çeşmə* – bulaq, mənbə (burada həm real, həm metaforik – yəni söz/nitq mənbəyi mənasında), *zülal* – saf, duru, şəffaf su deməkdir. Bu beytdə müqayisəli və irfani bir fikrə işarə olunur. Şair deyir ki, mürşidin (və ya sevgilinin) ağzı – yəni onun danışığı, kəlamı – dirilik suyu (abi-heyvan) və şəkər (qənd) kimidir. Bu, həm dadlı, həm də ruhani olaraq dirildici və şəfalıdır. Lakin o sual qoyur: "Bütün çeşmələrin suyu zülal ola bilərmi?" Bu sualla o demək istəyir ki, hər danışan, nitq söyləyən bu qədər dəyərli və ruhi saflaşdırıcı ola bilməz. Yalnız ilahi bilik daşıyan kəlam, yəni haqqın dili (məsələn, Fəzlullahın nitqi və ya vəhyə bağlı danışıq) abi-heyvan ola bilər. Bütün çeşmələrdə su axsa da, hər biri zülal (təmiz və şəffaf ilahi bilik) deyil. Bu beyt vasitəsilə Nəsimi nitq və söz sahibləri arasında müqayisə aparır, Fəzlullahın sözünü digər nitqlərdən fərqləndirir və onu haqq çeşməsi kimi təqdim edir.
Nəsimi cənnətdəki şərab (xəmr) və bulaq – simvollarını nitqin poetik və ilahi gücünü təsvir etmək üçün istifadə edir:
"Cənnətin xəmri ləbin rahıdır, ol mə'nidən
Səlsəbil oldu ləbin, adına Kövsər dedilər" [9, s. 264]
"Ey ləbin ənharü xəmrin ləzzətən liş-şaribin" [9, s. 342]
Bu beytdə "ləbin rahı" – dodaqdan axan ilahi şərab – Allahın kəlamı ilə sinonimləşir.

Lə'l, ləb, dodaq, dəhan və ağız: kəlamın zahiri və batini daşıyıcıları
Lə'l (ərəb mənşəli) – əqiq, qiymətli daş olsa da, sufi şeirdə dodaq, nitq və ya hikmətli sözün metaforasıdır. Ləb (farsca) və dodaq (türkcə) sözləri nitqin fiziki mənbəyi kimi, lə'l isə onun mənəvi-ruhani dəyəri kimi təqdim olunur.
"Lə'lini xəttin ilə sormuşam ərvaha..." [8, s. 313]
"Şirin ləbidir dilbərin vəhdət meyin peymanəsi" [9, s. 156]
Nəsimi bu simvollar vasitəsilə mürşidinin – Fəzlullahın sözünü ilahi bir həqiqət kimi şərh edir. Bu mənada *ləblərin camı, çeşməsi, şərabı, ləbi-lə'l (lə'li-ləb)* (təsəv. sevgilinin sözü və onun daşıdığı məna), *ləbi-əhya* (yenidən vücuda gətirən nitq), *ləb-bər-ləb* (ağzına kimi dolu, dopdolu) kimi ifadələr ilahi hikmətin poetik qarşılığı olur. Bu simvolik ifadələr Nəsiminin nitqə verdiyi metafizik dəyəri aydın göstərir. Dodaq artıq bir orqan yox, haqqın təcəllası olan nitqin çıxış nöqtəsidir.
Qazi Bürhanəddində *ləb* leksik vahidinin nitq anlamında istifadə olunduğu müşahidə olunur: *"Bana ağız-ağız ləbünün sirrini dersən Ağzum tolu ab olavü bitna ola könlüm"* [5, s. 185]. Gülşəni öz mürşidi Rövşəniyə müraciət edərək onun nitqi üçün "ləbin camı" təşbihini işlədir və bildirir ki, dinləyənlərin ölmüş mənəviyyatı dirilir, buna görə də təkrar-təkrar istənir: *"Ləbün camindən içənlər dirilür, Anunçun istərəm andan mükərrər"* [4, s. 59].
Təsəvvüfdə türk mənşəli *ağız,* fars mənşəli *dəhan* – təkəllüm (danışmaq), söz və kəlam rəmzidir. Nəsiminin dilində işlənən *nöqteyi-ağız* – *"ağzın kiçikliyi ilahi sirlərin incəliyinə bənzədilir. Bəzən də*

nöqtə və zərrəyə təşbeh edilir. Ağızın kiçikliyi ilahi bilik və sirlərin yığcam ifadəsi mənasında da anlaşılır" [1, s. 49].
"Müdəvvər nöqteyi-ağzı ki, sövtü nitqidür bürhan" [9, s. 155]

Cam, rah və şərab: ilahi nitqin poetik təqdimatı

Cam və *şərab* sufi poetikasında ilahi maarifin, eşqin və vəhydən gələn nitqin poetik təqdimatı, tanrısal həqiqətin simvolik daşıyıcılarıdır. Nəsimi bu simvollardan istifadə edərək, nitqin eyni zamanda maarifləndirici və məstediciliyini, ilahi kəlamın ruhi ekstaz doğurucu və dirildici gücünü vurğulayır:
"Çün ləbin cami-Cəm oldu nəfxeyi-Ruhülqüdüs" [8, s. 13]
Burada *Cami-Cəm* mifoantroponim olan Cəmşidin camı (İran əsatirinə görə, şərabın icadedicisi olmuş İran şahı Cəmşidin dünyadakı bütün əşya, varlıq və hadisələri göstərən qədəhi) deməkdir. Təşmil yolu ilə şərab mənasını ifadə edir. Təsəvvüfi anlamı isə hər cür pisliklərdən arınmış tərtəmiz könül və ruh deməkdir. *Nəfxeyi-Ruhülqüdüs* İsa peyğəmbərin nəfəsi deməkdir. Şair bunu Fəzlullaha aid edir.
Rah راح ərəbcə şərab, çaxır deməkdir Təsəvvüfdə ilahi eşqə həsr olunmuş məstedici söhbətlər, nitq anlamını ifadə edir..
"Cənnətin xəmri ləbin rahıdır, ol mə'nidən
Səlsəbil oldu ləbin, adına Kövsər dedilər" [9, s. 264]
İzahı: cənnətin şərabı sənin nitqindir. O mənada sənin (irfani) söhbətlərinə Səlsəbil və Kövsər bulaqları kimi (axarlı və saf) dedilər. Burada "rah" – yəni şərab – "ləbin rahıdır" ifadəsi ilə ləb = söz = şərab ekvivalentini yaradır. "Səlsəbil" və "Kövsər" – Quranda cənnət bulaqları kimi təsvir olunsa da, Nəsimi üçün ilahi nitqin axıcı, ləzzətli və əbədi təbiətini simvolizə edir. Burada *ləbin rahı* – yəni dodağın şərabı – cənnət içkisindən də üstün tutulur. Bu, Fəzlullahın nitqinin təkcə ilahi bilik deyil, həm də ruhi ekstaz, maarif və diriliş mənbəyi olduğunu göstərir.

Xızr fiquru və abi-həyat: nitqin ölümsüzlüyü

Xızr mifoantroponimi bir obraz olaraq klassik təsəvvüfdə ilahi bilik və əbədiliklə bağlıdır. Abi-həyat içən Xızrın obrazı, Nəsimidə Fəzlullahın nitqi ilə qovuşan müridin simvolik modelinə çevrilir:
"Xızr olub içdi abi-ləmyəzəli, Buldu xəttində abi-heyvani" [9, s. 237]
"Çün ləbin cami-Cəm oldu nəfxeyi-Ruhülqüdüs" [8, s. 13]
Burada *cam* Cəmşidin maarif qədəhi, *şərab* isə ilahi nitqin eşq dolu ifadəsidir. İkinci beytdə *abi-ləmyəzəl* və *abi-heyvan* terminləri eyniləşdirilərək, mürşidin sözündə olan ölümsüzlük anlayışı önə çıxarılır. Xızrın "abi-heyvan" içməsi isə mürşid – Fəzlullahın kəlamı ilə dirilişin rəmzidir.

Qurani simvolika və "kəlam"

Sufi ədəbiyyatında Qurani ifadələr və ayələr poetik kontekstdə assosiativ-mənəvi sistemə çevrilir. Nəsimi Fəzlullahın nitqini qurani ifadə ilə vəsf edir, cənnət çayı kimi axarlı və çağlayan olduğunu göstərir::
"Ey ləbin ənharü xəmrin ləzzətən liş-şaribin" [9, s. 342]
Bu ifadə Muhəmməd surəsinin 15-ci ayəsindən iqtibas olunmuşdur: *"Müttəqilərə vəd olunan cənnətin vəsfi belədir: orada dadı dəyişməyən (qoxumayan) sudan irmaqlar, təmi çönməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan nəhrlər və təmiz baldan irmaqlar vardır"* [7, s. 507]. Burada ləbin (dodağın) Quranda bəhs edilən ləzzətli cənnət şərabı ilə eyniləşdirilməsi, ilahi nitqin insan ruhuna bəxş etdiyi zövq və maarifləndirici güc kimi şərh olunur. Tanrı kəlamı burada "şərab" metaforası ilə ifadə olunur – bu, sufi poetikasında geniş yayılmış məstlik və ecaz obrazıdır.
"Qaluda bəni saqi ısrıtdı şərabindən,
İçirdi bana lə'lün Xızrın suyi-abindən" [6, s. 69]

Burada şair yenə Allahın ruhlarla görüşündən danışır. Saqi Tanrıdır, şərab isə onun ruhlara müraciətidir. Nəsimi demək istəyir ki, həmin məclisdə o ruh olarkən Allahın nitqindən ölməzlik əldə etmişdir.

Nəsimi ilahi nitqə dair yanaşmasını Qurani təməllərlə möhkəmləndirir. "Kəlam" (كلام) – ərəb mənşəli bu söz "danışıq", "ifadə", "nitq" mənasındadır. Qurani-kərimə "Kəlami-qədim" ifadəsi işlənir. Ayələrinə isə "kəlamüllah" deyilir. Bu kontekstdə sufi şairlər ilahi sözlə insan nitqini birləşdirərək, irfani məzmun yaradırlar. Nəsimi bu anlayışı həm müqəddəs mətni, həm də Fəzlullah Nəiminin ilahi kəlamını ifadə etmək üçün istifadə edir:

"Həm Lövhü Tövratü Zəbur, İncilü Qur'anü Sühəf
Həm mən kəlami-natiqəm, həm cəm'i-Qur'an gəlmişəm" [9, s. 23]

Burada "kəlami-natiq" – danışan ilahi söz – anlayışı ilə Nəsimi özünü ilahi nitqin daşıyıcısı kimi təqdim edir. Bu ifadə həm də hürufi təlimin əsas ideyasına – hərf və sözün ilahi təcəllası olmasına işarədir.

Kəlamıntək leksik vahidi ərəb mənşəli kəlam (كلام) türk mənşəli *-ın* mənsubiyyət şəkilçisi və *tək* qeyri-sabit qoşmanın birləşməsindən yaranmışdır. Nəsiminin aşağıdakı beytində "sənin (Fəzlullah Nəimi) ilahi sözün kimi" anlamında istifadə olunur:

"Dil sənin şirin kəlamıntək kəlim olmuşdurur
Can sana bir bəndeyi, əlbət qədim olmuşdurur" [9, s. 226]

Burada *Kəlim* Musa peyğəmbərin ləqəbidir. Dini əfsanələrə görə Musa peyğəmbər Allah ilə danışırmış. Ona görə də dini ədəbiyyatda bu peyğəmbərin adına "Kəlim" və yaxud "Kəlimüllah" deyilir. Nəsimi isə yuxarıdakı beytdə *kəlim*i öz dilinə aid edir. Şair demək istəyir ki, Fəzlullahın kəlamı kimi onun da dili Allah ilə kəlim (danışan) olub.

Nəticə

İmadəddin Nəsimi yaradıcılığında "nitq" konsepti sadəcə bədii-estetik kateqoriya deyil, həm də ontoloji və irfani mahiyyət daşıyır. Onun poetik sistemi təsəvvüfi anlamda dərin mənalandırılmış simvol və metaforlarla doludur. Bu simvollar vasitəsilə nitq həm ilahi kəlam, həm də mənəvi təmizlənmə vasitəsi kimi təqdim olunur. Nəsimi yaradıcılığında "nitq" konseptinə aid leksik vahidlərin əksəriyyəti alleqorik üslubda işlənmişdir. Bu vahidlər bir tərəfdən ünsiyyət vasitəsi kimi görünür, digər tərəfdən isə batini həqiqətləri, ilahi məqamı və insanın kamillik dərəcəsini ifadə edən simvolik metaforalardır. Nəsimi yaradıcılığında "nitq" konseptinə daxil olan leksik vahidlər – "söz", "kəlam", "dil", "bəyan", "nida", "səvt", "Dodaq", "dəhan", "lə'l", "ab", "şərab", "cam", "Kövsər", "Xızr" və s. – sadəcə leksik vahid kimi yox, həm də mistik, fəlsəfi və alleqorik məna daşıyıcıları kimi çıxış edir. Bu üslub, Nəsiminin hurufi və təsəvvüfi dünya görüşü ilə tam uyğundur. Onun poeziyasında nitq, insan və Tanrı arasında körpü funksiyası daşıyan ilahi vəhyin söz formasında poetik bəşəriləşdirilməsidir. Tədqiqat nəticəsində Nəsimi yaradıcılığında "nitq" konseptində işlənən 65 təsəvvüf termini müəyyənləşdirildi. Bax: Cədvəl 1.

	Leksik üsulla yaranan terminlər	**Sintaktik üsulla yaranan terminlər**
1	*ab*	*abi-heyvan*
2	*bəyan*	*abi-həyat*
3	*cam*	*abi-Kövsər*
4	*çeşmə*	*abi-rəvan*
5	*dil*	*ağzı yarı*
6	*dəhan*	*abi-zülal*
7	*dodaq*	*ağzın yarı*
8	*kəlam*	*bəyani-küntü kənz*
9	*Kövsər*	*çeşmeyi-abi-rəvan*
10	*ləb*	*çeşmeyi-heyvan*
11	*lə'l*	*çeşmeyi-heyvanləb*
12	*mey*	*çeşmeyi-abi-zülal*
13	*nida*	*dodağın eyni-abı*
14	*Səlsəbil*	*dodağın şərbəti*
15	*söz*	*dodağın yarı*
16	*sövt*	*dodağın balı*
17	*su*	*dodağın Kövsəri*
18	*şərab*	*dodağın Səlsəbil*
19	*yar*	*heyvan suyu*
20		*həyati-çeşmeyi-heyvan*
21		*həyati-Xızr*
22		*Xızrın abi-heyvanı*
23		*Kövsərin abi-zülalı*
24		*lamü bey*
25		*ləbi abi-həyat*
26		*ləbi-çeşm*
27		*ləbin cövhəri*
28		*ləbin dövranı*

29		*ləbin cami-müsəffa*
30		*ləbi-əhya*
31		*ləbi-lə'l*
32		*ləbi-lə'lin şərabı*
33		*ləbin camı*
34		*ləbin mai-təhur*
35		*ləblərin abı*
36		*ləblərin çeşməsi*
37		*ləbin eyni*
38		*lə'lin ənəbi*
39		*lə'li-ləbü dürri-dişi*
40		*nöqteyi-ağız*
41		*möhbiti-Ruhül-əmin*
42		*müdəvvər nöqteyi-ağız*
43		*sövtü nitq*
44		*şəkkəri-lə'li-ləb*
45		*şərhi-bəyan*
46		*zülal abi*

Cədvəl 1. Nəsimi yaradıcılığında "nitq" konseptində işlənən təsəvvüf terminləri.

Bunlardan 19-u leksik, 46-sı sintaktik üsulla yaranan təsəvvüf terminləridir. Leksik terminlərdən 5-i türk (*dil, dodaq, söz, su, yar*), 6-sı fars (*ab, cam, çeşmə, dəhan, mey, ləb*), 8-i ərəb (*bəyan, kəlam, Kövsər, lə'l, nida, şərab, sövt, Səlsəbil*) mənşəlidir. Sintaktik üsulla yaranan "nitq" konseptli təsəvvüf terminləri qarışıq mənşəli klonstruksiyaya və komponentlərə malikdir. Bəzən eyni bir termin müxtəlif şəkildə təqdim olunur. Məsələn, fars konstruksiyasında *abi-heyvan*, *çeşmeyi-heyvan, həyati-çeşmeyi-heyvan*, Azərbaycan-türk dilinin ikinci növ təyini söz birləşməsində *heyvan suyu.* Yaxud *abi-zülal* fars və *zülal abı* birləşmələrini nümunə göstərmək olar.

Ədəbiyyat siyahısı

1. Babayev, Yaqub. Təriqət ədəbiyyati: Sufizm, hürufizm. Ali məktəblərin filoloji fakültələri üçün dərs vəsaiti. Bakı: «Nurlan»2007, 128 səh.
2. Cebecioğlu, Ethem. Tasavvuf Terimleri ve Deyimleri Sözlüğü. PDF.
3. Göyüşov, N. (2001). Təsəvvüf anlamları və dərvişlik rəmzləri (yığcam ensiklopedik açıqlamalar). Tural-Ə.
4. Gülşəni, Şeyx İbrahim. Bərdəi. Divan. Bakı, "Avrasiya press", 2006, 416 səh,
5. Qazi Bürhanəddin. Divan. Bakı, "Öndər nəşriyyat'', 2005, 728 səh.
6. Qəhrəmanov, C. Nəsimi divanının leksikası. Bakı: "Elm" Nəşriyyatı, 1970. 566 səh.
7. Quran-kərim və Azərbaycan dilinə tərcüməsi. (2014). Yenidən işlənmiş XVI nəşr. "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi.
8. Nəsimi, İ. Seçilmiş əsərləri. (2004). I cild. Tərtib edəni: Həmid Araslı. Lider nəşriyyatı.
9. Nəsimi, İ. Seçilmiş əsərləri. (2004) II cild. Tərtib edəni: Həmid Araslı. Lider nəşriyyatı.
10. Toparlı, R. (2007). Kıpçak Türkçesi Sözlüğü. / Vural H., Karaatlı R. 2. Bsk. Ankara – Türk Dil Kurumu.
11. Будагов, Л.З. (1869). Сравнительный словарь турецко-татарских наречий, со включением употребительнейших слов арабских и персидских и с переводом на русский язык. (К-Н) / Сост. Лазарь Будагов. Т.1. СПб.

XALQ ŞAİRİ ZƏLİMXAN YAQUBUN YARADICILIĞINDA MİLLİ RUH VƏ MİLLİ MUSİQİMİZ OLAN "SAZ" MÖVZUSU

THE THEME OF NATİONAL SPİRİT AND THE TRADİTİONAL MUSİCAL INSTRUMENT 'SAZ' İN THE WORKS OF NATİONAL POET ZELİMKHAN YAQUB

Aygül Çobanova Nizami Gəncəvi adına
ədəbiyyat İnstitutunun dissertantı

Xülasə
Bu məqalə, xalq şairi Zəlimxan Yaqubun yaradıcılığının poetik strukturlarını, onun bədii dilini, ideya-tematik qatlarını və milli-mədəni kodları ilə zəngin poetik dünyasını tədqiq edir. Məqalədə Zəlimxan Yaqubun poeziyasının yalnız fərdi-emosional səviyyədə deyil, həm də milli və tarixi kontekstdə daha geniş şəkildə inkişaf etdiyi vurğulanır. Şairin fərdi üslubunun formalaşmasında folklor, klassik ədəbiyyat və aşıq poeziyasının təsiri əhəmiyyətli yer tutur. Xüsusilə, Zəlimxan Yaqubun poeziyasındakı xalq ruhunun, milli kimliyin və türkçülük ideyalarının şairin yaradıcılığında necə təzahür etdiyi araşdırılır. Məqalə, onun yaratdığı obrazlar sistemini və bu obrazların funksional əhəmiyyətini də müzakirə edir. Şairin "Saz" poemasına dair təhlilində, saz alətinin yalnız musiqi aləti olmaqla qalmadığı, həm də milli-mədəni yaddaşın simvolu kimi təqdim olunduğu göstərilir. Zəlimxan Yaqubun Qarabağ mövzusuna və Azərbaycançılıq düşüncəsinə poetik yanaşması, milli ideyanın poeziyada necə canlandığını və təsvir edildiyini açıq şəkildə ortaya qoyur. Nəticə olaraq, məqalə Zəlimxan Yaqubun poetikasını çoxqatlı, zəngin ideya və forma strukturlarına sahib, milli dəyərlərə əsaslanan orijinal bir sənət əsəri kimi qiymətləndirir.
Bu məqalə Zəlimxan Yaqubun yaradıcılığının poetik strukturlarını və ideya məzmununu dərindən təhlil edir, şairin bədii dilinin və obrazlar sisteminin milli-mədəni kodlarla necə zənginləşdiyini araşdırır. Zəlimxan Yaqubun poeziyasında formalaşan üslub, sadəcə olaraq fərdi emosiyaların ifadəsi deyil, milli bir məfkurənin təcəssümüdür. Şairin əsərlərində folklor, aşıq ədəbiyyatı və klassik poeziyanın ənənələrinin izləri aydın şəkildə görünür. Xalq şairi, əsərlərində türkçülük ideyalarını və milli kimliyi dərin şəkildə əks etdirərək, Azərbaycan xalqının mədəni və tarixi yaddaşını poeziyasına daxil edir.
Məqalədə xüsusi olaraq "Saz" poemasının təhlili üzərində dayanılır, çünki bu əsərdə musiqi ilə poeziya arasındakı sintez daha aydın şəkildə ifadə olunur. Zəlimxan Yaqubun poetikasında saz, yalnız musiqi aləti kimi deyil, həm də milli-mədəni yaddaşın qorunması və ötürülməsi vasitəsi kimi çıxış edir. Bu, şairin əsərlərindəki milli və mədəni dəyərlərin əks olunmasında mühüm rol oynayır. Həmçinin, şairin Qarabağ mövzusuna olan münasibəti və Azərbaycançılıq ideyasına olan yanaşması, onun poeziyasının milli ideyaların ifadəsi və təbliğində necə mühüm yer tutduğunu göstərir.
Nəticə olaraq, Zəlimxan Yaqubun poeziyası təkcə milli kimliyi əks etdirmir, eyni zamanda yüksək bədii səviyyədə formalaşmış çoxqatlı bir poetik sistemdir. Şairin yaradıcılığı, həm ideya, həm də forma baxımından zəngin, orijinal və müasir dövrün tələblərinə uyğun olaraq milli dəyərləri təbliğ edən bir sənət nümunəsidir. Bu tədqiqat, Zəlimxan Yaqubun poeziyasının dərinliyini və əhəmiyyətini daha yaxşı başa düşmək üçün mühüm bir təhlil təqdim edir.
Açar sözlər: şair,saz,süjet,xalq,milli musiqi,aşıq.şeir,poema

Abstract

This article examines the poetic structures, artistic language, thematic layers, and culturally rich poetic world of the National Poet Zelimkhan Yaqub. It emphasizes that Yaqub's poetry develops not only on a personal-emotional level but also within a broader national and historical context. The influence of folklore, classical literature, and ashugh poetry plays a significant role in shaping the poet's unique style. Special attention is given to how the spirit of the people, national identity, and the ideas of Turkism are reflected in his works.

The article also analyzes the system of imagery in Yaqub's poetry and the functional significance of these images. In the analysis of his poem "Saz", it is shown that the saz is presented not merely as a musical instrument, but as a symbol of national-cultural memory. Zelimkhan Yaqub's poetic approach to the theme of Karabakh and the idea of Azerbaijani national identity clearly reveals how national ideals are depicted and brought to life in his poetry.

As a result, the article evaluates Yaqub's poetics as a multilayered artistic system, rich in both form and content, and grounded in national values. This research offers an in-depth analysis of the poetic structures and ideological content of his work, exploring how his artistic language and system of imagery are enriched by national-cultural codes. Yaqub's poetic style is not simply a reflection of personal emotions, but an embodiment of a national ideology. His works clearly bear the traces of folklore, ashugh literature, and classical poetry traditions. The article focuses in particular on the analysis of the poem "Saz", where the synthesis between music and poetry is most vividly expressed. In Yaqub's poetics, the saz serves not only as a musical instrument but also as a means of preserving and transmitting national and cultural memory. This plays a vital role in reflecting national and cultural values in his work. Furthermore, the poet's treatment of the Karabakh issue and his approach to Azerbaijani identity demonstrate the central role his poetry plays in expressing and promoting national ideas.

In conclusion, Zelimkhan Yaqub's poetry not only reflects national identity but also constitutes a highly artistic, multilayered poetic system. His body of work represents a rich, original example of literature that, in both form and idea, aligns with the demands of the modern era while promoting national values. This study presents an important analysis for a deeper understanding of the depth and significance of Yaqub's poetry.

Keywords: poet, saz, plot, people, national music, ashugh, poem, narrative poem

GİRİŞ

Zəlimxan Yaqub yaradıcılığının poetikası onun poeziyasının ümumi mətnini təşkil edən amilllər, bədii dilinin strukturu, janr və üslub xüsusiyyətlərindən ibarət nəhəng arxitekstə əsaslanır. Z.Yaqub poeziyasının arxitekstini aşkarlayan yolun kəşfinə ideya-tematik qatdakı informativ zənginliyi, tematik dərinliyi və rəngarəngliyi təsnif etməklə başlamaq lazımdır. Çünki, şairin "poetik duruşu"nun ilkin əlamətləri onun yaradıcılığının ideya-tematik qatında özünü büruzə verir. Z.Yaqub yaradıcılığının tədqiqinə ideya-tematik səviyyədəki poetik elementlərlə başlamağın nəzəri və metodoloji əsasında bu prinsip dayanır. Dünyanı dərk etmənin sənətkar fərdiliyinin fərqli aspektlərinin özü bunu tələb edir. Əsərdə qoyulan müəllif ideyası, obrazlar sistemi, bədii konsepsiyalar hər müəllifdə müxtəlif cür təzahür edir. Bu baxımdan, şairlərin yaradıcılığının poetikası xüsusi əhəmiyyət daşıyır. Hər hansı bir yazıçı və dramaturqun obrazlar sistemi, konseptual ideyası, müəllif konsepsiyası ilə başqa bir şairin yaradıcılıq poetikası arasındakı fərq çoxdur. Çox zaman şairin ideyası və bu ideyaları özündə ehtiva edən konsepsiyası bir şeirdə deyil, bütöv yaradıcılığında aşkar olunur. Hər hansı bir şeirlə şairin yaradıcılığına qiymət verilmədiyi kimi, o şeirin müəllif ideyasını da bütünlüklə özündə əks etdirdiyini söyləmək çətindir. Zəlimxan Yaqub yaradıcılığının poetikasının isə öz çətinlikləri var. Onun poeziyası mürəkkəb bir təkamül yolu keçmiş, milli poeziyanın bütün qaynaqlarından (folklor, klassik, sufi, çağdaş və s.) maksimum dərəcədə istifadə etməklə yeni bir poetik konsepsiya ortaya qoyaraq özünün fərdi üslubunu formalaşdırmağa

nail olmuşdur. Məlumdur ki, poetik formaların təkamül yolu, fərdi üslubların yaranması, obrazlar sisteminin yeniləri ilə əvəzlənməsi poetikada əsas məsələlərdən biridir.

Səksəninci illərin sonralarında Zəlimxan Yaqubun yaradıcılığında formalaşmış xalq ruhu, kökə bağlılığın coğrafiyası genişlənir;azərbaycançılıq,milli kimlik sıx-sıx görünməyə başlayır.Professor Tahirə Məmməd milli kimlik problemini araşdırarkən belə bir doğru qənaətə gəlir:"Azrbaycan müstəqillik qazandıqdan sonra ədəbiyyatımızda ilk ideya-estetik canlanma milli kimlik istiqamətində baş verdi;bu,həm məzmun, həm də forma istiqamətində özünü göstərməyə başladı".(TahirəM.2020.s.67)]. Şairin poetik coğrafiyası bu dəfə Azərbaycan orbitindən çıxaraq türk orbitinə daxil olur, şairin təsvir imkanları genişlənir, ifadə potensialı zənginləşir. Sosrealizmin ömrünü başa vurması ilə şairin milli kimliyi, keçmişin təsviri bir qədər də konkretləşir. Onun poetik obrazları sırasında türk tarixində mühüm yer tutan Bilgə xaqan, Atilla, Mete xan, Əmir Teymur kimi dünyada səs salan sərkərdələr yer alır. Orxon-Yenisey abidələri, "Dədə Qorqud", "Manas" dastanlarının təkcə ruhu deyil, bədii düşüncə parametrləri də türkçülüyə gedən yolun proqramı kimi səslənir. "Yunus İmrə dastanı", "Göyçə dərdi", "Borçalıda qalan izlər", "Zəlimxan qarğışı", "Rəsul Həmzətova məktub" və s. poemalarında şair sanki yeni poetik manifestini elan edir. "Hardan gəlir Zəlimxan?" şeirində şair öz yaradıcılığındakı bu gəlişmənin mənbələrini, qaynaqlarını poetik şəkildə dəqiqliklə ifadə edirdi. Şair bu şeirində poetik düşüncəsinin "ana südü"ndən, "atasının insanı yüksəldən öyüdü"ndən, nənəsinin "nağılı"ndan, Adəmdən, Nuhdan, min ildir ki, öyrədən "Manas"dan gəldiyini elan edirdi:

Türkün öz taleyidi,
Təpədən dırnağacan Zəlimxandı bu dastan.
Dünənin işi deyil, Zəlimxan başdan gəlir.
Gültəkinə, Orxona, Yeniseyə yazılıb,
Qisməti daşdan çıxır,
Tarixi daşdan gəlir.
Bir əli yer üzündə, bir əli də haqdadı,
Xəyalı göylərdədi, mayası torpaqdadı [150, s. 214].

Zəlimxan Yaqubun yaradıcılığının bu mərhələsində yalnız poetik coğrafiya genişlənmir,həm də poetik yol,istiqamət cızılır.Bu mərhələdə şairin poetik dünyası mövzu və tematika baxımından yeniləşir və zənginləşir;ictimai fikrin poetikdərkinə yer verilir, milli poetik düşüncənin hüdudları genişlənir.Z.Yaqubun fərdi poetik üslubunun formalaşmasında rolu olan amilləri nəzərə almış olsaq, onun strukturunun, mövzu və problematikasının xeyli dərəcədə mürəkkəb olduğunu görmüş olarıq. Bütün varlığı ilə mənsub olduğu xalqına, onun folkloruna, adət-ənənəsinə bağlı olan şair söz sənətində də onu yaşatmaq yolunu tutur. Şairin yaradıcılığında poetik dərketmədə ilk dövrlərdə olduqca milli bir yol tutur. Milli kolorit hər bir şairin yaradıcılığında həmişə eyni dərəcədə üzə çıxmır. Burada V.Q.Belinskinin belə bir fikrini xatırlatmaq yerinə düşər: *"... hər bir xalqın millilik sirri onun geyimində və mətbəxində deyil, necə deyərlər, şeyləri dərketmə üsulundadır"* (Belinski, 1954, s. 78) . Hər bir şairin, yazıçının da milliliyi özünəməxsus dərketmə üsulu vardır; Z.Yaqubun dərketmə üsulunda bədii təfəkkürün ən alt qatlarından istifadə olunur ki, bu da onun şeirlərinin makromühitini, yəni uzaq və dərin kontekstinə yönəldir. Burada üzdə olan amillərlə yanaşı, görünməyən, yalnız fəhmlə duyula bilən məsələlər də yer tutur. Burada xalqla bağlı hər şey var; onun etnik düşüncəsi, folkloru, məişəti, dünyagörüşü, keçmişi, bu günü və gələcəyi. BəxtiyarVahabzadə Z.Yaqub haqqında yazdığı "Biz bir eşqin butasıyıq" məqaləsində şairin milli konseptini belə ifadə edir: *"Sənətin yolu millilikdən keçir. Millətini dərindən tanımayan, millətinin min illərdən süzülüb gələn mənəvi dünyası ilə qaynayıb-qarışmayan, bu ruh torpağından cücərməyən qələm sahibinin qol-budaq atacağına necə inanmaq olar"* [Vahabzadə, s. 3].

Zəlimxan Yaqub poeziyasının inkişaf yolunu, mövzu və tematikasının dinamikasını izləmək onun poetikasını araşdırmağın açarı hesab etmək olar. Şairin poetik inkişaf yolu yüksələn xətlə getmişdir; lakin bu yolda ziddiyyətlər, mürəkkəbliklər, enmələr və qalxmalar da olmuşdur. Bu dəyişmələr, ziddiyyətlər, mürəkkəbliklər onun əsərlərinin məzmunundan tutmuş, bədii ifadə vasitələrinə, hadisələri dərketmə üsuluna qədər təzahür edir. Əsərlərindəki axıcılıq, səlis dil, rəvanlıq, sinonimlik, xalq ruhu oxucunu daim özünə cəlb etmişdir.

Saz bizim qədim musiqi alətimiz olub.Xalq şairi Zəlimxan Yaqubun yaradıcılığında və həyatında saz mühim yer tutur.

Millətimi saz anladar,saz anlar,
Saza baxsın tariximi yazanlar. (Nəbioğlu,2018, s.7)

Aşıq sənəti xaıq yaradıcılığının mühüm tərkib hissəsi olaraq xalqın mədəniyyətinin formalaşmasına təsir göstərir.

Saz- poeziyanı,musiqini və ifaclığı birləşdirən aşıq sənətidir.Xalqın fəlsəfi mədəniyyətinin formalaşmasında mühüm rol oynayır.Aşıq insanın mənəvi dəyərlərini,tarixi qəhrəmanlarımızı ,bir sözlə insan və onun əməllərini tərənnüm edir.

Şair saz-söz vurğunu idi.Saz havalarının incəliklərini dərindən öyrənmişdi.Xalq ruhu,aşıq şeiri ənənələri şairin poetik irsində əsas yer tutur,müasir Azərbaycan şeirinə xalqın ruhunu qatırdı.Saz həmişə şairin ümid yeri,pənahı olmuşdu.Şair əlinə qələm alıb vətənimizin,xalqımızın keçmişindən,gələcəyindən,qəhrəmanlardan,vətənpərvərlikdən yazanda köksündə də sazı dindirirdi.Arzularını həyata keçirməkdə şairin"ən şirin həmdəmi saz,ən sədaqətli sirdaşı qələm"olmuşdur.

Dünya mənim idi mən olmamışdan,
Bilirəm dünyaya mən niyə gəldim,
Yazıldı alnıma sözün qüdrəti,
Sözümü zamana deməyə gəldim. (Əhmədov, 2018, s.14)

Zəlimxan Yaqub şeiri Borçalı aşıq məktəbindən,Aşıq Əmrah,Aşıq Kamandar,Aşıq Hüseyn Saraclı sənətindən bəhrələnmişdi.Onların sazla çaldığı havaları,söylədikləri dastanlar gənc şairi ilhamlandırmış,saza-sözə marağı artırmışdır.

Yorulmaz köhləni,büdrəməz atı,
Ocaqdı,torpaqdı ömrün həyatı,
Zəlimxan nə yazsa-qoşma, bayatı,
Zəlimxan nə desə saz dilindədi. (Əhmədov, 2018, s.17)

Şairin bütün şeirlərində demək olar ki,musiqinin notları hiss edilir."Mənim şeirlərimin dili çaldığım sazın dilidir,təkcə mənim dillərdə gəzən lirik şeirlərim deyil,irihəcimli əsərlərimin hamısı saz üstündə bəstələnib,havacat üstə "ərsəyə gəlib,sonradan vərəqlərə köçürülüb "demişdir.Şair sazın sehrindən aldığı ilhamı heç nə ilə müqayisə edə bilmir.

Çeşmə coşur,çay hönkürür,
Bulaq oxuyur,
Könül dinir,dil tərpənir,
Dodaq oxuyur,
Kökün şirin nəğməsini
Budaq oxuyur,
Heç kim məni bu saz kimi
Oxuda bilmir. (Nəbioğlu, 2009, s.20)

Zəlimxan Yaqubun" Saz" dastanı onun saza, saz havalarına,musiqiyə nə qədər bələd olduğunu göstərir."Saz"poemasını milli musiqi alətinə yazılan ilk poema hesab etmək olar.

Zəlimxan Yaqubun" Saz" dastanı onun saza, saz havalarına,musiqiyə nə qədər bələd olduğunu göstərir."Saz"poemasını milli musiqi alətinə yazılan ilk poema hesab etmək olar.

Əl açıb göylərə çox yalvarmışam,
Qoy bu gün saz olsun Allahım mənim.
İstəyim tanrının xətrinə dəysə,
Gərək bağışlana günahım mənim. (Nəbioğlu, 2018, s 15)

Poemada ənənəvi süjet xətti yoxdur, yalnız mövzu baxımından burada verilən hissələr bir-birini tamamlayır. “Ruhani”, “Yanıq Kərəmi”, “Ulu ozanın düşüncələri”, “Aldı ozan dədə”, “Danış, telli sazım”, “Sarıtel”, “Qaraçı”, “Borçalı dübeyti”, “Dilqəmi”, “Müxəmməs”, “Misri” və s. bölümlərdə sənət möcüzəsi sazın keçdiyi yolu işıqlandırır, oxucunu saz dünyası ilə tanış edir. Hər bir havanın ritminə uyğun olaraq keçmişin hadisələrini təsvir edən şair “Qaraçı” bölümündə bu havanın tarixin ululuğundan üzü bəri yol gəldiyini göstərmək istəyir:

Dillən, ay “Qaraçı”, aman günüdür,
Qoyma yaxaladı duman dağları!
Səsinlə silkələ, qaldır yerindən,
Fikir dəryasına cuman dağları.
Zaman dağları! (Zəlimxan Yaqub,1986, s. 132]

Şairin poetik təqdimatında saz xalqın milli aləti kimi, onun tarixi keçmişini, duyğularını, başından keçənləri dilə gətirən, ululuarımızı tanıdan bir əsərdir. “Ruhani”ni, “Dilqəmi”nin, “Sarıtel”in, “Mansırı”nın yaranması, xalq ruhunu ifadə etməsi son dərəcə poetik şəkildə ifadə edilir. Mirvarid Dilbazi “Saz” poemasını yüksək qiymətləndirərək yazırdı: *“Saz” poemasını oxuya-oxuya biz sazın-sözün sehrli dünyasına varırıq. Ürəyimiz incəlir, xeyirxah duyğularla döyünür. Biz bütün insanlara, bəşəriyyətə xoşbəxtlik bəxş etməyə özümüzdə yenilməz bir qüvvə hiss edirik”* [46, s. 5]. Şair ilk dəfə bu poemasında Sazın milli musiqi aləti olmasını təsbit etməklə yanaşı, onun ayrı-ayrı havalar üstündə insan qəlbinin duyğularının tərcümanı olduğunu da təsdiq edirdi. Bu cəhətdən Z.Yaqubun “Saz” poemasını B.Vahabzadənin “Muğam” poeması ilə müqayisə etmək mümkündür. B.Vahabzadə bu poemasında milli musiqi muğamın tarixini vərəqləyir, onun ayrı-ayrı şöbələri ilə bağlı (“Şur”, “Segah” və s.) yazır, muğamı poetik dərketmənin obyektinə çevirir. Z.Yaqub da sazı poetik düşüncəsinin tematikasına gətirir, poemada ifadə etdiyi kimi: *“Yandıran saz, yanan bizik”* poetik-metaforik modelini qurur.
Zəlimxan Yaqubun poeziyası özünün milli qaynaqlar ilə formalaşır və ruhu ilə milliyi özündə əks etdirir.
Zəlimxan Yaqubun”Yolun eldən başlanıb “adlı ikinci kitabında artıq milli ruh,vətən sevgisi özünü göstərir.”vətən nəğmələri”,”Dağlar məni səsləyir”,”O da bir gün idi” silsiləsindən bir çox şeirləri dərc edilib.”Qarabağ şikəstəsi” şeiri şairin ilk dəfə müraciət etditi forma kimi diqqəti cəlb edir.Şair Qarabağ şikəstəsinin keçmişin dərinliklərindən gəlməsini onun tarixi ilə bağlayır.Bu ,belə də olmalıdır;çünki bu nəğmənin vətəni “şahinlər oylağıdır”,onun “qaynar səs bulağı”ndan su içən”qəhqəhəsi tükənməz”.Şair Qarabağ şikəstəsini bir “şöhrət çələngi”,”xalqın gur səsi” adlandırır.lakin onu da deməyi lazım bilir ki,bu avazda xalqın “min sevinci,qəmi var”,əgər lazım gələrsə,”döyüşə cəsarəti var”.Hələ şeirin yazılmasından cəmi bir neçə il sonra Qarabağ baş vrən hadisələr üçün ictimai funksionallıq olmasa da,bir narahatçılıq da yox deyil.

Bir diyarın eşqidir,
Min diyara bağlıdır.
Göydə qanad saxlayar,
Durnaların dəstəsi.
Çatanda qulağına,
Qarabağ şikəstəsi.(Zəlimxan,1981,s12.)

80- cı illərin sonlarında ictimai-siyası həyatda baş verən proseslər şairin bədii düşüncəsində də özünü göstərdi.Xocalı soyqrımı,Qarabağın bir hissəsinin itirməsi təkcə Z.Yaqubun deyil,bütün yazarların mövzu istiqamətini dəyişməyə məcbur etdi.Azərbaycanın müstəlliyini qazanması,dövlət atributlarının bərbası onun şeirlərində öz əksini tapdı.”Şair,bu gün şeirini evdə yox,səngərdə yaz!” nidası onun yaradıcılığnın 90-cı illər mərhələsi üçün səciyyəvi olur.”Dur ayağa,məmləkətim!” çağırışı da şairin vətəndaşlıq istəyindən doğulurdu.”Azərbaycan bayrağı”,”Qarabağı azad elə”, “Sən qalib gələcəksən”,”Qələbə” və.sonlarla şeirləri poetikasını mövzu cəhətdən zənginləşdirir.Musa

Nəbioğlu şairin yaradıcılığındakı bu mövzu dəyişimi haqqında yazır:"....Təcnislər,gəraylılar ilə sazın simlərinə hoparaq insanları mənəvi saflığa, zənginliyə çağıran Zəlimxan Yaqubun şeirlərindən, özünün də dediyi kimi, qan qoxusu gəlməyə başladı."(Nəbioğlu 2021.s.4) Z.Yaqub poeziyasında bayrağa, orduya, Azərbaycan əsgərə yazılmış şeirlədə milli ruh,Əhməd Cavadın poetik ənənəsi görünməyə başladı.

.....Sən mənim taleyimin
Göy,yaşılı,alısan,
Uzaq yollar gəlmişəm,
Yollarımdan halısan,
Qarabağda,Şuşada
Qələbə çalmalısan.
Azərbaycan bayrağı! (Zəlimxan.Y.2021.s.20-21)

Vətən,Torpaq,Azərbaycan mövzusu onsuz da şairin ilk dövr yaradıcılığı üçün səciyyəvi idi;lakinindi şair bu mövzuları başqa bir aspektdən,tərənnüm deyil, təhlil aspektindən baxır və onu bədii düşüncəyə gətirir. Onun keçmişini özünə xatırladır,qələbəyə inamını artıraraq poetik obrazını yaradırdı.Şair üçün öz yeri, məkanə və sərhədləri ilə hər şeydən əziz və müqəddəs olan bir Vətən ,bir Azərbaycan vardır."Millətin xilas yolu bu gün savaşdan keçir" fikri ilə ikinci bir yolun olmadığı qənaətini yaradırdı.Qələbənin düsturunu isə belə ifadə edirdi"Torpaq nədir, dərk eyləsən,//Qələbə çalmağa nə var".(Zəlimxan,2021,s54).Təəssüf ki,ürəyi daim vətən sevgsi ilə çırpınan şair möhtəşəm qələbəmizi görmədi.

NƏTİCƏ

Z.Yaqubun poetikasının mövzu dairəsi olduqca zəngindir, çoxçeşidlidir. Yaradıcılığı boyunca şairin poetikası mövzu, ideya, problematika, ritm, ahəng, intonasiya baxımından yenilənmişdir. Z.Yaqub poeziyasının tematik qatının və ideya-məzmun xüsusiyyətlərinə baxış göstərir ki, onun poeziyasının ədəbi, tarixi konteksti bioqrafik kontekstindən daha dərindir, şair fərdi-emosional yaşantılarını deyil, milli və dini mövqeyini, tarixi kimliyini, dünyadakı yerini, şair ruhunun coğrafi və tarixi arealını şeirlərinin tematikasına çevirib. Z.Yaqub şeirlərinin tematikası mikromühit (şairin şəxsi yaşam təcrübəsi və faktiki mühiti) səviyyəsində olmayıb, makromühit əlamətlərinə sahibdir.
Zəlimxan Yaqub şeirinin gücü, qüdrəti bir tərəfdən şairin seçdiyi günün tələbi,aktual mövzu,fitri istedadı idisə, digər tərəfdən şairi sevdirən onun saza bağlılığı idi.
Akademik Kamal Talıbzadə yazırdı:"Zəlimxan sazla şeirin ruhunu, mayasını birləşdirən şairdir.Bu iki sənət dünyasının vəhdəti Zəlimxan şəxsiyyətində Azərbaycanı təmsil edir."

ƏDƏBİYYAT.

1.Musa Nəbioğlu.Saza baxsın tariximi yazanlar.Bakı 2018.
2.Teymur Əhmədov.Zəlimxan Yaqub."Şərq-Qərb" Bakı-2012
3.Yaqub Z.Od aldığım ocaqlar.Bakı 1986.
4.Yaqub.Z.Seçilmiş əsərləri .2 cilddə .I cild.Bakı: Şərq –Qərb,2006
5.Həsənov,H.Sazın və sözün vəhdətini yaradan şair// Zəlimxan Yaqub ədəbi düşüncədə.I c.Bakı.Vətən- 2009
6.Tahirə Məmməd.Milli kimlik və bədii mətn.Bakı .Elm və təhsil 2020
7.Belinski.V.Q. Aleksandr Puşkinin əsərləri.Bakı. Azərnəşr,1948

SİMİLE AND METAPHOR İN KHASTA HASAN'S POETRY

XƏSTƏ HƏSƏN POEZİYASINDA TƏŞBEH VƏ METAFOR

Günel Telman qızı Xıdırlı
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Xülasə
Axısqa aşıq mühitinin ən məşhur aşıqlarından biri Xəstə Həsəndir. XVIII-XIX əsrlərdə yaşamış Xəstə Həsən müxtəlif janrlarda: qoşma, gəraylı, divani, təcnis (o cümlədən cığalı təcnis), müxəmməs kimi şeir şəkillərində şeirlər yaratmışdır. Onun şeirləri dərin məzmunu ilə yanaşı, zəngin forma xüsusiyyətləri ilə də diqqəti cəlb edir. Burada müxtəlif bədii təsvir və ifadə vasitələri, o cümlədən təşbeh və metafor nümunələrindən istifadə olunmuşdur. Xəstə Həsən həm müfəssəl, həm də mükəmməl təşbehlərdən, həmçinin silsilə təşbehlərdən istifadə etmişdir. Onun təşbehlərinin əsasında duran müqayisələr aşığın zəngin təxəyyülünü və müşahidə qabiliyyətini əks etdirir. Xəstə Həsənin metaforları onun şeirlərinin dilinin daha obrazlı, ifadəsinin isə daha dəqiq olmasına şərait yaratmışdır.
Açar sözlər: aşıq yaradıcılığı, Axısqa aşıq mühiti, bədii təsvir vasitələri, məcazlar

Abstract
One of the most famous ashiks of the Ahiska ashik environment is Khasta Hasan. Khasta Hasan, who lived in the 18th-19th centuries, created poems in various genres: koshma, garayli, divani, tajnis (including jigali tajnis), and mukhammas. His poems attract attention not only by their deep content, but also by their rich form. Various artistic means of description and expression, including examples of simile and metaphor, were used here. Khasta Hasan used both detailed and perfect similes, as well as series of similes. The comparisons underlying his similes reflect the ashik's rich imagination and observation. Metaphors of Khasta Hasan's made the language of his poems more figurative and his expression more precise.
Key words: ashik creativity, Ahiska ashik environment, means of artistic representation, metaphors

GİRİŞ

Xəstə Həsən Axısqa aşıq şeirinin ən qüdrətli nümayəndələrindən biridir. Onun poeziyası qoşma, gəraylı, divani və b. şeir şəkilləri ilə zəngindir. Bu şeirlərdə bədii təsvir və ifadə vasitələrindən tez-tez istifadə olunmuşdur.

Bədii təsvir vasitələri, yaxud məcazlar bədii əsərin, xüsusən şeirin poetik gücünü, sənətkarlığını göstərən amillərdəndir. Bu cəhətdən Xəstə Həsənin yaradıcılığı da məcazlarla zəngindir. Aşağıdakı nümunələr də onun şeirlərinin bədiiliyini, obrazlılığını sübut edir.

TƏŞBEH

Ən geniş yayılmış məcazlardan biri təşbehdir. Təşbeh şairin müşahidə qabiliyyətinin gücünü və təcrübəsinin dərinliyini sübut edən amillərdəndir.

Epitetə nəzərən təşbeh daha sadə məcaz növü hesab olunur (Əlioğlu, 2002, s.43). Bunun səbəbi təşbehdə müqayisənin, onun tərəflərinin və əlamətinin daha açıq görünməsidir.

Təşbehin əsasında duran müqayisənin 3 əsası göstərilir:

1. Nə müqayisə edilir?
2. Nə ilə müqayisə edilir?
3. Nəyə əsasən müqayisə edilir? (Əlioğlu, 2002, s.43-44).

Bunlardan birincisi bənzəyən, ikincisi bənzədilən, üçüncüsü isə bənzətmə əlamətidir. Bunlardan əlavə təşbehdə bənzətmə qoşması da iştirak edir ki, burada əsasən “kimi”, “-tək” qoşmaları, “sanki”, “elə bil”, “guya”, “bənzər”, “misal” sözlərindən də istifadə edilir (Əlioğlu, 2002, s.44).

Şərq şeiri və o cümlədən Azərbaycan şeiri təşbehlərlə zəngindir (Nizami-Füzuli poeziyasında obrazlı dil vasitələri, 1994, s.15). Ümumiyyətlə dilin məcazlarla zənginliyi şeir sənətinin tələblərindən sayılır

(Mir Cəlal, 2007, s.187). Aşıq şeirində də bənzətmələr geniş yayılmışdır: "...aşıq şeirində həm qədim, həm də müasir şeirin bənzətmələrlə bağlı deyim imkanları və ənənə varisliyi qaynaqlaşır" (Əlioğlu, 2002, s.44).

Aşıq şeirində rast gəlinən təşbehlər bədii cəhətdən də diqqəti cəlb edir: "Bunun üçün aşıqlar elə bənzətmələr yaratmaq təşəbbüsündə olmuşlar ki, onlarla insan təbiəti, insan varlığı arasında əlaqə, daxili vəhdətin olmasından başqa, onlarda həm də ifadə olunan qəlb çırpıntılarının həyatiliyi, bədii sözün məna qüdrəti insanı heyrətdə qoysun" (Əlioğlu, 2002, s.45).

Təşbehin müfəssəl və mükəmməl növləri qeyd olunur. Aşıq şeirində mükəmməl təşbehlərdən də istifadə olunur. Bunlar yığcam təşbehlər də adlandırılır (Nizami-Füzuli poeziyasında obrazlı dil vasitələri, 1994, s.15).

Xəstə Həsən yaradıcılığında həm müfəssəl, həm də mükəmməl təşbehlərə rast gəlinir:

Müfəssəl təşbehlər

Leylü-nahar gəzər aləmi aşkar,
Qara bulut kimi bu sarayları ("Bu sarayları") (Şamil, 2012, s.77).
Burada gecə-gündüz gəzmək hərəkəti qara buluda bəzədilir.
Necə yaxtı xan Kərəmi xan Əsli,
Məni də yandırar betər muyların ("Muyların") (Şamil, 2012, s.104).
Yarın saçlarının aşığın ürəyini yandırması Əsliyə qovuşan Kərəmin yanmasına oxşadılır.
Bəzi təşbehlərdə bənzətmə qoşması və ya ədatının yerinə oxşar mənalı başqa sözlər işlənir:
Camalın şöyləsi yaxıf aləmi,
Sanasan məleykə donunda getdi ("Getdi") (Şamil, 2012, s.82).
Burada gözəl mələyə bəzədilir.
Mən Xəstəyəm, oxuyardım, yazardım,
Qəvvas olub dəryalarda üzərdim,
Çarx misali bu dünyanı gəzərdim,
Neyləyim, tutmayır bu dizim mənim! ("Mənim") (Şamil, 2012, s.103).
Aşıq özünü həm dənizlərdə üzən qəvvasa (dalğıca), həm də dünyanı dolanan çarxa bənzədir.
Saraldı gül rəngi, döndü xəzələ,
Düşdü əldən, sındı qalyan neyləsin? ("Neyləsin") (Şamil, 2012, s.105)
Burada rəngin solması payızdakı xəzələ oxşadılır.
Hilal qaşın təhrindən,
Usta quruf yay indi ("Bir-bir çək") (Şamil, 2012, s.114).
Bu nümunədə gözəlin hilal qaşı ustanın qurduğu yayla müqayisə olunur.
Belə təşbehlər ədat çalarlı leksik vahidlərlə yaradılan təşbehlər adlandırılır (Əliyev, 1989, s.21-22).
Yalnız bənzətmə qoşmasının olmadığı təşbehə müstəqil təşbeh deyilir (Quliyeva, 1991, s.113). Məsələn, *Təbib sənsin yaralarım saranda* ("Gərək") (Şamil, 2012, s.83).

Mükəmməl təşbehlər

Mən Xəstəyəm bağda bostan əkərəm,
Dırqınada bir gözələ nökərəm ("Əfəndim") (Şamil, 2012, s.81).
Burada aşıq özünü gözəlin nökərinə bənzəyir.
Xəstə Hasan xocaların xocası,
Könlüm evi evliyalar baxçası ("Azad olur") (Şamil, 2012, s.69).
Dərin sufi məna daşıyan bu nümunədə aşıq könlünü övladların bağçasına bənzədir.
Sən mənim ruhumsan, ay mina gərdən ("Bilmerəm") (Şamil, 2012, s.74). Burada yar aşığın ruhu hesab olunur.
Xəstə deyər: *Bu qız dağ ceyranıdı* ("Dedi") (Şamil, 2012, s.79). Bu cümlədə gözəl ceyrana bənzədilir.
Göylərin ülkəri, elin sərdəri,
Sən getdin, cəsətdə canım da getdi ("Getdi") (Şamil, 2012, s.82).

Burada aşıq yarını göydəki ulduzla, elin başçısı ilə müqayisə edir.
Xəstə Hasan dəryalara dalanda,
Ağ sinən üstüdü Bulqur yaylası (“Gəldi”) (Şamil, 2012, s.84).
Hərcayısan, inanmaram sözünə,
Qaşı fitnə, telli yarım gəliyer (“Gəliyer”) (Şamil, 2012, s.87).
Burada gözəlin qaşı fitnə ilə eyniləşdirilir, başqa sözlə onun fitnəkar olduğu vurğulanır. Bu da əvvəlki misradakı “inanmaram sözünə” ifadəsi ilə üst-üstə düşür.
Xəstə Hasan deyər *dürdür sözümüz* (“Gözəllər”) (Şamil, 2012, s.91). Xəstə Həsən öz sözünü, yaxud şeirini inciyə bənzədir.
Ömür binəsisən, könül dirəgi,
Sənə qurban olsun can, gürcü qızı (“Gürcü qızı”) (Şamil, 2012, s.92).
Aşıq gürcü qızını həm ömrün binası, həm də könülün dirəyi hesab edir.
Qoynun içi səkkiz cənnətin bağı,
Sənə qurban olsun can, gürcü qızı (“Gürcü qızı”) (Şamil, 2012, s.92).
Hürülərin, pərilərin eşisiz,
Bu qərib gönlümün qəm yoldaşısız (“Qızdarın”) (Şamil, 2012, s.95).
Aşıq gözəlləri hurilərə, pərilərə bərabər tutur.
Sallanıban bağdan gələn, *ey maralım*, bir su ver.
Malım-mülküm sənin olsun, *küllü varım,* bir su ver (“Bir su ver”) (Şamil, 2012, s.118).
Gözəl həm marala oxşadılır, həm də onun aşığın hər şeyi olduğu vurğulanır.
Bəzi təşbehlər yalnız Xəstə Həsənin şeirlərində görünmür, onlar ümumiyyətlə poeziyada geniş yayılmışdır:

Dilin şəkər, dodax balda (“Qadasın aldığım”) (Şamil, 2012, s.63).
Kirpikləri oxdu, qanım da getdi (“Getdi”) (Şamil, 2012, s.82).
Ağzı şəkər, dodaxları balca qız (“Gizlənər”) (Şamil, 2012, s.89).
Bir çox sənətkarın yaradıcılığında müşahidə olunan belə təşbehlərə müqəyyəd təşbehlər deyilir (Əliyev, 1989, s.13).
Şeirdə silsilə, mürəkkəb təşbehlərdən də söz açılır (Mir Cəlal, 2007, s.80). Xəstə Həsən yaradıcılığında da belə təşbehlər var:

Ömrü bada verdin, günü talana,
İndi sən ömrümün ayağı, gözəl.
Sənnən qeyri mənim yeyib-içdigim,
Tamam mənə oldu ay ağı, gözəl (“Gözəl”) (Şamil, 2012, s.90).
Bu şeirdə həm gözəl aşığın ömrünün ayağına, həm də onsuz yeyib-içdikləri zəhərə bəzədilir.
Qaşı hilal, abu zülal, ləbi ballım, bir su ver (“Bir su ver”) (Şamil, 2012, s.118). Bu nümunədə silsilə şəklində gözəlin qaşı, dodağı və s. əsasında təşbehlər qurulmuşdur.

METAFOR
Aşıq şeirində metafordan geniş istifadə olunur. “Aşıq şeirində metaforanın ifadə imkanları zəngindir, çoxfunksiyalıdır, çoxçalarlıdır” (Əlioğlu, 2002, s.29). Metafor məcazın “ən ifadəli və məhsuldar növü” hesab olunur (Əfəndiyeva, 1973, s.15).
Metafor da bənzətməyə, oxşarlığa əsasən yaradılan məcaz növüdür, ona görə də bu məcaza bəzən ixtisar edilmiş təşbeh də deyilir: “Metafor (istiarə) obrazın daxili aləmini, hadisə və ya hərəkətin mahiyyətini lakonik və obrazlı təsvir edən yığcam bənzətmədir” (Nizami-Füzuli poeziyasında obrazlı dil vasitələri, 1994, s.29).
Metafor, onun əmələ gəlmə yolları və ifadə vasitələri müxtəlif şəkildə təsnif olunur. Metaforların ifadə vasitələri aşağıdakı kimi qruplaşdırılır:
1. Səma cisimləri, coğrafi adlar, təbiət hadisələri;
2. Tarixi şəxsiyyət, mifik ad, müqəddəs məkan və mücərrəd məfhum;

3. Qiymətli mineral, ətriyyat, bitki və heyvanat adları (Nizami-Füzuli poeziyasında obrazlı dil vasitələri, 1994, s.29).

Metafor tərəfləri arasındakı bənzəyiş əlaqələrinə görə belə təsnif olunur:

1. Zahiri cəhətdən oxşarlıqla əlaqədar əmələ gələn metaforlar;
2. Daxili əlamətlərinə görə oxşarlıq əsasında əmələ gələn metaforlar;
3. İnsan və ümumiyyətlə canlılara məxsus hərəkətlər əşyaların üzərinə keçiriləndə əmələ gələn metaforlar;
4. Əksinə bütün feillər cansız əşyalar bildirən isimlərə birləşib onları canlandırır (Nizami-Füzuli poeziyasında obrazlı dil vasitələri, 1994, s.16-17).

Metafor müxtəlif üslubi funksiyalara da malikdir:

1. Bədii obrazları səciyyələndirmək, bədii portret yaratmaq;
2. Təbiət hadisələrini təsvir etmək;
3. Obrazın daxili aləmini ifadə etmək;
4. Rəmz funksiyası;
5. Yazıçının ictimai mövqeyini əks etdirmək;
6. Oxşamaq, nəvaziş, müraciət və s.
7. Əsərin adı kimi işlənmək (Nizami-Füzuli poeziyasında obrazlı dil vasitələri, 1994, s.37-41).

Xəstə Həsən daha çox təbiət təsvirləri, lirik qəhrəmanın hissləri, gözəllərin tərifləmməsi məqamlarında metafora müraciət etmişdir. Onun yaradıcılığında aşağıdakı metaforlardan istifadə olunmuşdur:

Əzəl bahar, yaz ayları gələndə,
Bülbül sitəminnən gül azad olur.
Nəşəsinnən ayrı düşən sonalar,
Şana dəyməmişdən tel azad olur (“Azad olur”) (Şamil, 2012, s.69).

Burada insana aid olan sitəm və nəşə kimi xüsusiyyətlər quşlara köçürülmüşdür.

Əynimə geydirdi qəm paltar-geyim,
“Xasta”yı artırdı adıma mənim (“Mənim”) (Şamil, 2012, s.78).

Bu nümunədə qəmə insana xas olan əlamət – geyim geydirmək aid edilmişdir.

O hansı quşdur ki, anasın əmər,
Bizə də göstərər şəmsinən, qəmər (“Gizlənər”) (Şamil, 2012, s.89).

Burada həm quşun süd əmməsi, həm də insana günəş və ayı göstərməsi metaforik ifadə yaradır.

Təmizdi əlfamız, pakdır sözümüz,
Hayıf ki, görməyir bu gözüm mənim (“Mənim”) (Şamil, 2012, s.103).

Təmizlik və paklıq kimi konkret xüsusiyyətlər mücərrəd məfhumlara aid edilmişdir.

At zülfün, kəmənd elə
Sal boynuma bir- bir çək (“Bir-bir çək”) (Şamil, 2012, s.114).

Burada kəməndə aid xüsusiyyətlər saça köçürülmüşdür.

NƏTİCƏ

Ümumilikdə Xəstə Həsən yaradıcılığı bədii təsvir və ifadə vasitələri ilə zəngindir. Burada məcazların müxtəlif növlərinə rast gəlinir. Xüsusilə təşbeh və metaforun rəngarəng növ və formalarından istifadə olunmuşdur. Nümunələr göstərir ki, Xəstə Həsənin poeziyasında mükəmməl təşbehlər üstün yer tutur. Onun metaforları heyvan və quş adları, mücərrəd məfhumlar və s. ilə bağlıdır.

ƏDƏBİYYAT

1. Əfəndiyeva T. (1973). Azərbaycan dilinin bədii ifadə vasitələri. Bakı: Elm.
2. Əlioğlu Ə. (2002). Azərbaycan aşıq şeirin poetikası. Bakı: Ulu.
3. Əliyev V.F. (1989). Klassik Azərbaycan poeziya dilinin məcazlar sistemi. Bakı:APİ-nin nəşri.
4. Quliyeva M. (1991). Klassik Şərq poetikası. Bakı: Yazıçı.
5. Mir Cəlal. (2007). Füzuli sənətkarlığı. Bakı: Kaşqari Fondu.
6. Nizami-Füzuli poeziyasında obrazlı dil vasitələri. (1994). I hissə. Bakı.
7. Şamil (Şamilov) Ə. (2012). Axısqalı Xəstə Hasan (şeirləri və şeirlərinin yaranması haqqında söhbətlər). Bakı: Elm və təhsil.

XX ƏSR SƏNƏTKARLARININ YARADICILIĞINDA ANA DİLİ ƏDƏBİ İRS KİMİ (C.Novruz, M. Araz, N.Xəzri, B.Vahabzadə timsalında)

Türkan Möylam qızı Məcidova
AMEA-nın N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin doktorantı;
ADPU-nun Şəki filialının baş müəllimi;
https://orcid.org/0000-0002-9384-969X

Mətanət Eldar qızı Mustafayeva
Gəncə Dövlət Universitetinin doktorantı Azərbaycan Texnologiya Universitetinin baş müəllimi
https://orcid.org/0000-0002-1754-590X

Xülasə
Ədəbi irsimizin əsasını təşkil edən ana dili, yalnız ünsiyyət vasitəsi deyil, həm də milli kimliyin əsas dayağı, tarixi yaddaşın daşıyıcısıdır. Bu baxımdan XX əsr Azərbaycan poeziyasında ana dili mövzusunun necə tərənnüm olunduğunu araşdırmaq, ədəbi nümunələr vasitəsilə ictimai düşüncədə dilin yerini və ədəbiyyat xadimlərinin bu məsələyə münasibətini öyrənmək xüsusi əhəmiyyət daşıyır. Digər tərəfdən, dilin cəmiyyətdə oynadığı rol, onun ünsiyyət vasitəsi olması ilə bitmir. Dil həm də estetik tərbiyə vasitəsidir. Filologiyanın qarşısında duran əsas vəzifələrdən biri ədəbi prosesi yaxından izləmək, şair və yazıçıların nəzəri görüşlərini və düşüncələrini də təhlil edib oxuculara çatdırmaqdır. Ümumən nəzəri problemlər arasında dil məsələsi xüsusi yer tutmaqdadır. Bu sahənin mütəxəssislərindən əlavə, ədiblərimiz də həm bədii, həm də elmi və publisist araşdırmalarla dil ilə bağlı problemlərin aşkarlanması prosesində dolayısı ilə iştirak etmiş olurlar.
Məqalədə XX əsrin ikinci yarısından başlayaraq Azərbaycan poeziyasında milli ideologiyanın və ana dilinə bağlılığın əsas yaradıcılıq xəttinə çevrilməsi araşdırılır. Bu dövrdə yetişən Əli Kərim, Cabir Novruz, Nəriman Həsənzadə, Məmməd Araz, Nəbi Xəzri və Bəxtiyar Vahabzadə kimi şairlərin yaradıcılığı nümunə kimi təhlil olunur. Burada vurğulanır ki, ana dilində yazmaq bu sənətkarlar üçün təkcə estetik seçim deyil, həm də milli kimliyin qorunması və yaşadılması vasitəsidir. Məqalədə Cabir Novruzun sözün gücünə inamı, Məmməd Arazın ana dilinə bir sərhəd əsgəri kimi yanaşması və xalq ruhuna bağlılığı, Nəbi Xəzrinin klassik irslə dialoq şəklində qələmə aldığı vətənpərvər poeziyası təhlil edilir. Bəxtiyar Vahabzadənin ana dili mövzusunu həm şeirlərində, həm də publisistik çıxışlarında əsas milli dəyər kimi önə çıxarması, onun poeziyasında dil və azadlıq anlayışlarının vəhdəti xüsusi qeyd olunur. Məqalədə bu şairlərin əsərləri vasitəsilə ana dilinin yalnız bir ünsiyyət vasitəsi deyil, eyni zamanda milli yaddaşın, kimliyin və azadlıq mübarizəsinin əsas dayağı olduğu göstərilir. Beləliklə, müəllif XX əsr Azərbaycan poeziyasının ana dilinə əsaslanan milli məfkurənin formalaşmasında oynadığı rolu uğurla ortaya qoyur.

Abstract
The mother tongue, which forms the foundation of our literary heritage, is not only a means of communication but also a pillar of national identity and a carrier of historical memory. In this context, examining how the theme of the mother tongue is reflected in 20th-century Azerbaijani poetry and understanding its place in public consciousness through literary examples, as well as how literary figures have approached this issue, is of particular importance.
Moreover, the role of language in society goes beyond its communicative function. Language also serves as a means of aesthetic education. One of the main tasks of philology is to closely follow the literary process and to analyze and convey to readers the theoretical views and thoughts of poets and writers. Among the theoretical issues, the subject of language holds a special place. In addition to professional linguists, our literary figures have also indirectly participated in identifying language-related problems through both artistic and scholarly-publicistic works.
This article explores how national ideology and attachment to the mother tongue became the main creative trajectory in Azerbaijani poetry starting from the second half of the 20th century. The poetic

works of Ali Karim, Cabir Novruz, Nariman Hasanzadeh, Mammad Araz, Nabi Khazri, and Bakhtiyar Vahabzadeh are analyzed as exemplary cases. It emphasizes that writing in the native language was not merely an aesthetic choice for these artists, but a vital means of preserving and perpetuating national identity. The article examines Cabir Novruz's belief in the power of the word, Mammad Araz's view of the mother tongue as a sacred duty, Nabi Khazri's patriotic poetry in dialogue with classical heritage, and Vahabzadeh's consistent portrayal of language as a fundamental national value. Their poetry presents language not only as a communicative tool but also as the foundation of collective memory, identity, and the struggle for freedom. Thus, the article convincingly demonstrates the role of 20th-century Azerbaijani poetry in shaping national ideology based on the native language.

GİRİŞ

Dil bir xalqın mənəvi varlığının əsas dayağı, onun yaddaşını, tarixini və kimliyini yaşadan ən vacib mədəni göstəricilərdən biridir. Ana dilində düşünmək, danışmaq və yazmaq milli mənsubiyyətin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyət daşıyır. Xüsusilə ədəbi nümunələrdə ana dilinə münasibət təkcə estetik seçim deyil, həm də ictimai mövqe, milli möhkəmlik və ideoloji dayaq kimi çıxış edir. Bu baxımdan, XX əsrin ikinci yarısından etibarən Azərbaycan poeziyasında ana dilinə bağlılıq məsələsi tədricən əsas yaradıcılıq xəttinə çevrilmiş, şairlərin poetik təfəkküründə mühüm yer tutmuşdur.

Azərbaycan ədəbiyyatında dil problemi təkcə filoloji aspektdən deyil, həm də milli ideologiyanın formalaşması və möhkəmləndirilməsi kontekstində nəzərdən keçirilmişdir. Sovet dövrünün siyasi və ideoloji basqılarına baxmayaraq, bir çox sənətkarlar ana dilini qorumaq və onu poetik təfəkkürün əsas ünsürünə çevirmək istiqamətində mühüm addımlar atmışlar. Onların yaradıcılığında dil yalnız ünsiyyət vasitəsi deyil, həm də milli ruhun daşıyıcısı, vətənpərvərlik duyğusunun ifadə vasitəsi kimi çıxış etmişdir.

Bu məqalədə XX əsr Azərbaycan poeziyasında ana dilinə münasibətin necə tərənnüm olunduğu, bu məsələyə şairlərin hansı fərdi və milli kontekstdə yanaşdıqları təhlil olunur. Əli Kərim, Cabir Novruz, Nəriman Həsənzadə, Məmməd Araz, Nəbi Xəzri və Bəxtiyar Vahabzadə kimi görkəmli şairlərin poetik nümunələri əsasında ana dilinin milli ideologiyanın daşıyıcısı kimi necə təqdim edildiyi araşdırılır. Məqalənin məqsədi bu mövzunun ədəbiyyatımızdakı ideya-estetik əhəmiyyətini ortaya çıxarmaqla yanaşı, dilin milli kimliklə olan ayrılmaz bağlılığını bir daha diqqətə çatdırmaqdır.

XX əsr milli məfkurənin yaranması və formalaşması, bir yüzildə iki dəfə özünün ən ali məqsədinə çatması ilə xarakterizə oluna bilər. Milli ruhda və ana dilində yazıb yaratmaq milli ideologiyanın köklərinin zehinlərdə pərçimlənməsinə səbəb olmuşdur. Qədim bir miras kimi xalqın qan yaddaşı ilə günümüzə qədər gəlib çatmış Ana dili milli düşüncəli sənətkarların qələmində ədəbi irsə, tarixi soykökə ehtiram, onun əbədiləşdirilirək yaşadılması məqamında çox dəyərlidir.

Cabir Novruz Və Məmməd Araz Poeziyası Ana Dilinin Tərənnümçüsü Kimi.

XX əsrin ikinci yarısına keçid edərkən ədəbiyyatda və poeziyada saf və təmiz yaradıcılığa, ana dilli poeziyanın tərənnümünə meyil edənlər get-gedə artırdı. Belə bir şəraitdə bir sıra şairlər yaradıcılığa başlamış, onların bir çoxu ədəbi mübarizə meydanında "məğlub olmuşlar". Lakin bu dövr poeziyamıza həm də Əli Kərim, Cabir Novruz, Nəriman Həsənzadə, Məmməd Araz kimi dəyərli söz ustaları bəxş edə bilmişdir. *"Yeni nəsil yalnız yeni ədəbi düşüncə ortaya qoymaqla özlərinin yaradıcılıq yolunu müəyyənləşdirə bilərdi, nəinki keçilmiş yolu və üslubu təkrar etməklə. Yeni nəslin poetik manifestində yaxşı yazmaq, duyduğunu yazmaq, yazdıqlarını yaşamaq və onun mahiyyətini dərk etmək xüsusiyyətlərinə üstünlük verilirdi"* [2, s. 221]. Bu şairlərin yaradıcılıqlarına tək-tək nəzər saldıqda görürük, onların hər biri bədii söz necə dəyərlidir, öz ana dilində yazmaq onlar üçün nə qədər əhəmiyyətlidir.

Misralarım, sözlərim,
ən mehriban kəslərim...

Doğma torpağım qədər
doğmam, müqəddəslərim.. [7, s. 10]

- deyən **Cabir Novruz** dünyada sözü, şeiri öldürə biləcək bir qüvvənin olmadığına sevinir, şeirsiz, sözsüz bir şairin heç nəyə gərək olmadığını dilə gətirir. Şair, eyni zamanda küləklərin belə təsir edə bilmədiyi sal qayadır, onun ömrü başa çatsa da, qələm yenə əlində olacaq, qələm onun silahıdır. Əzrayıl onu əlindən ala bilməz, son nəfəsdə şairin gözü qaralsa da, sözləri qaralmaz:

Söz rişəmin soyu, kökü dərindədir,
Həm ləşkəri, həm kişvəri yerindədir.
Qüvvəm, gücüm ilhamımın əlindədir,
Kimsə məni söz taxtından sala bilməz [7, s. 34].

Şairin sözlərində bir çox həqiqətlər var. Əgər elə olmasaydı, onun "Azərbaycanı sevin" nidası dillər əzbəri olmaz, insanlara sağlığında veriləcək qiymətin nə olduğunu belə gözəl anlamazdıq:

O bizim hamımızın həyəcanı, harayı,
Bir də axı kim yanar ona bizdən savayı?..
O bizim ruhumuzda, o bizim qanımızda,
Yalnız biz keçməliyik uğrunda canımızdan.
Can istəsə can verin, sevin Azərbaycanı,
Qan istəsə qan verin, sevin Azərbaycanı... [7, s. 36]

Azərbaycan şeirində yeni nəfəs yaratmağa çalışan, ona müxtəlif ifadə gözəllikləri qatan dəyərli şairlərmizdən biri də **Məmməd Araz**dır. *"M.Araz yaradıcılığı boyu sözə, sözün məna və şəkli xüsusiyyətlərinə diqqətlə yanaşmış, onları qırılmaz vəhdətə alaraq, bədiiliyi, axıcılığı, bütövlüyü qorumağa çalışmışdır"* [6, s. 483]. Şairin Azərbaycan, eləcə də yurdumuzun bir çox maddi və mənəvi sərvəti haqqında yazdığı misralar heç vaxt təbiiliyini itirmir. Çünki onlar xalq ruhu, xalq şeiri ilə qəlbi dolmuş bir şairin qələmindən çıxmışdır.

Ana dili məsələsi Məmməd Araz şeirlərində də bütövün bir hissəsi kimi, əsasən şişirdilmədən, ancaq səmimi misra və ifadələrdə tərənnüm olunurş Onun öz nəvəsi haqqında yazdığı bir şeirində oxuyuruq:

Boyuna boy alım, oda almağa,
Adına ad verim: qeyrət səngəri!
Mən qoca qoruqçu vəzifəsində,
Sən ana dilimə sərhəd əsgəri... [1, s. 14]

Ana dilimizi həm öz şeirləri ilə yaşadan, həm də onun qoruyucusu olan qoca "qoruqçu" bu mirası öz nəvəsinə verir və ondan ana dili üçün keşik çəkməsini nəsihət edir.

Təxəllüsü "Araz" olan bir şairin yurdun o tayında qalan vətəndaşları üçün də nə qədər nigaran qaldığı açıqdır. Məsafələr uzaq olsa da, şair qəlbdən-qəlbə danışıb Arazla. Araz onun dərd ortağı, həmdəmi, zaman-zaman o taya gedən elçi olub. Amma:

Nə yaxşı ki, bunu duyan olmayıb,
Səsimizi qayçılayan olmayıb.
Hər dərəyə sığmaq olar Arazla,
Hara desən axmaq olar Arazla.
Möhürlərə suyu yatmaz Arazın,
Hay aldatmaz, vay aldatmaz Arazı [1, s. 27].

Bəlkə də bir vətəni ikiyə böldüyünə görə hərdən sevmirdilər Arazı, ona "Araz çayı" deyib "qəlbini qırırdılar". Ancaq Məmməd Araz o çayı da, onun qarşıtərəfindəqalanlarıda yaxşı tanıyır, elə insanları kimi Araz da ləyaqətlidir. Onu qurtum-qurtum daşıyıb qurtarsalar belə, "Araz dili" ölməzdir. Mən neçə yol danışmışam Arazla...

Araz dili, ürək dili, göz dili,
Torpaq dili, hava dili, göy dili.
Mən neçə yol danışmışam Arazla... [1, s. 28]

Məmməd Araz da bir çox Azərbaycan şairi kimi qələminin daha da kamilləşdiyi vaxtlarda, mən də ölkədə Sovet ağalığının artıq öz qüvvəsini itirdiyi zamanlarda ana dili məsələsinə daha tez-

tez müraciət etmişdir. “Əgər son nəğməmi oxuya bilsəm” başlıqlı şeirində şair söyləyir ki, əgər ana dilimizin ayaqlar altında itib-gedəcəyini görəcəksə, bu dünyaya bir də gəlmək istəməz.

Əgər sən ayaqda başımın üstdə,
Öz ana dilimi şam kimi görsəm,
Nəfəsim çırğınıb çıxsa qəfəsdən,
O şamda əriyən qəlbimi görsəm.

Qələmim dünyaya əmanət olsa,
Gözümün işığı bir gözə töhfə.
Bir də gəlişimə zəmanət olsa,
Gəlməzdim mən belə dünyaya, tövbə! [1, s. 94]

Məlumdur ki, hələ klassik ədəbiyyatımızdan bu yana söz, onun qüdrəti həmişə qələm sahiblərinin tərənüm obyekti olmuşdur. Eləcə də Məmməd Arazın. Onun sözə münasibəti birmənalıdır, sözü başa düşənlər, onun ehtiva etdiklərini dərk edənlər, daha doğrusu, hər yazılanı olduğu kimi anlayanlar azdır.

Dedim qurban şirin dilə,
Yatdımı bir şeirim dilə?!
Şirin dildə şirin dilək,
Şirinliyi duyan yoxdur [1, s. 105].

Yazılanı anlamamq, olanı düzgün ifadə edə bilməmək, sözü dəyərdən salmaq, bütün bunlar bir şair kimi Məmməd Arazı da narahat edir, çalışıb-vuruşsa da, yenə istədiyini əldə edə bilmədiyini görür, onun kimi bu uğurda mübarizə aparmış söz ustalarına müraciət edir, gileyini onlarla bölüşür:

Sözə əhyə vermədik, sözü şeypur eylədik:
Biz düzəldə bilmədik sözün qəddini, ustad! [1, s. 164]

Ədəbi İrsin Nəbi Xəzri Və Bəxiyar Vahabzadə Yaradaıcılında Təcəssümü

Ölkəmizin müstəqillik illərində ədəbiyyatımıza bəxş edilən dəyərli söz-sənət sahibləri öz qabiliyyətləri ilə heç də klassiklərdən geri qalmırlar. Belə ki, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif kimi sənətkarların yaratdığı poetik ənənələr bu dövrdə də inkişaf tempini itirmirdi. Bəxtiyar Vahabzadə, Xəlil Rza, Məmməd Araz, Söhrab Tahir, Nəriman Həsənzadə və b. şairlərlə yanaşı **Nəbi Xəzri** də sönməz həvəslə yazıb-yaradırdı. Həm millilik, həm də bəşərilik meyarları ilə birləşik şəkildə meydana çıxan Nəbi Xəzri poeziyası, məhz buna görə də, yalnız ölkəmizdə yox, sərhədlərimizdən çox-çox uzaqlarda da qəlblərə yol tapa bilmişdir. Onun şair manifestinin mərkəzində azərbaycançılıq durduğu kimi, vətənpərvərlik də onun zənnincə insanın daxili dünyasının özəyində durmalıdır.

Vətənpərvərlik təkcə torpağı yad ellilərdən, bədnam baxışlardan qorumaq deyil, həm də bu torpaqda yaşayanlara, yaradanlara və onların yaratdığı zəngin söz xəinəsinə da layiqincə sahib çıxmaqdır. Nəbi Xəzri “Bu gecə” şeirində bu baxımdan maraqlı bir yol izləmiş, şeir boyu oxucunu Nizami Gəncəvi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Səməd Vurğun kimi dühaların dərdləri, hünərləri, ölkımi üçün əhəmiyyətləri ilə tanış etməyə səy göstərmişdir. Şair haqqlı olaraq, Nizami Gəncəvinin ana dilində olan əsərlərinin göz görə-görə məhv edilməsinə üzülür, İmadəddin Nəsimin haqq deyən səsinin kəsilməsinə kədərlənir.

Dahilərin ruhları Nəbi Xəzri üçün müqəddəsdir, bu gecə isə onlar şairlə xəyal aləmində görüşməyə gəlmişlər. İlk olaraq Gəncədən Nizamin giley-güarı duyulur:

İlahi səs gəlir qədim Gəncədən,
Nizami görünür - əsa əlində.
O, ulu babamız incikdir deyən,
Tapmadıq şeirini ana dilində [5, s. 29].

Nəbi Xəzrini tariximizə, milli yaddaşımıza olan bağlılığı danılmazdır. Burada da onun bu xüsusiyyətinin şahidi oluruq. O, qardaşın qardaşa silah qaldırmasına, türkün türkə qılınc çalmasına Xətainin simasında təəssüflənir. Lakin bununla belə:

O deyir: Adımız ərşə bəllidir,
Ana dilimiz də nur təməllidir [5, s. 29].
Xəyal aləmindəki görüşdə bu gecə Füzuli yenə qəmgindir, çünki:
Nə qədər söz ara, nə qədər söz gəz,
Əsil sənətkarı dövran istəməz! [5, s. 29]

Səməd Vurğun yenə Vaqif işığında addımlayır, Sabir isə yenə qəzəblidir:
...Mən göydə tuturam tənə daşını,
Gərək ki, nadanın əzəm başını! [5, s. 30]
Vətənin köksünə dəyən yaralardan özü yaralanmışcasına inildəyən Cəfər Cabbarlıdır, Hüseyn Cavid Sibirdən, Mikayıl Müşfiq də göndərildiyi Nargindən qayıdır... Nəbi Xəzri hər şairin ancaq bir xüsusiyyətini vurğulamaqla yaddaşımızı təzələyir, özü ilə bərabər bizi də bu şəxsiyyətlərlə görüşdürür. İnsanda istər-istəməz vətənin bu oğullarına qarşı həm həsrət, həm də fəxarət duyğusu yaranır. Şairlə bərabər biz də xəyal aləmində qayıdırıq...
Gecəylə gələnlər gecəylə getdi.
Mənim yellər əsən xanimanımda,
Dəhşətlə duydum ki, yenə tənhayam... [5, s. 30] (N.Xəzri, I c., Səh 30)

Nəbi Xəzrinin şeirləri o qədər içdən, o qədər axıcı və səmimidir ki, insan oxuduqca zamandan və məkandan uzaqlaşır, nə üçün oxuduğunu belə unudur. "Dünən", "Söylə, bəs hardaydın!", "Yuxular həyatdan daha gözəldir" – kimi şeirləri oxuya-oxuya gələrkən qarşımıza "Ana dilim" şeiri çıxır. Deməli, ən incə mətləbləri belə sadə şəkildə, sözü dolandırmadan oxucuya çatdıran şair, həm də yazıb-yaratdığı bu dilə şeir də həsr etməyi lazım bilmişdir.
Bil dilim var mənim –
zəngin, müqəddəs,
Əsibdir üstündən həmişə yellər.
Məni düşündürür bu məmalı sirr,
Hara gedəcəkdir
sözün mənzili? [5, s. 117]

Şair məsələyə bir mütəxəssis kimi yanaşaraq, dilin ayrı-ayrı qoları olmasını normal qarşılayır, ana dilimiz olan Azərbaycan tükcəsinin bir kökdən gəldiyi, bir çox cəhətlərinə görə bənzədiyi digər türk qrupu dillərlə birgə varlığını yaşatmasına sevinir.
Uludur söz qəlbə
həmahəng olsa,
Dil xalq ürəyinin ənginliyidir.
Qardaş dillərimiz
rəngarəng olsa,
Bu qardaş dillərin zənginliyidir,
Biz türkük, hər türkün
doğma eli var,
Hər türk xalqının da
öz xalq dili var [5, s. 117].

Yurdumuz qəhrəmanlar, dahilər yurdu, Odlar ölkəsidir. Hələ tarixən Şah İsmayıl Xətai bu dili dövlət dili elan edib, ana dilimiz çox xalqlarda olmayan dəyəri qazanıb, insanların rahat, qorxmadan deyib-danışdığı bir dil səviyyəsinə qalxıb. Bu ölkının görkəmli şairləri də bu dildə, xalq dilində yazıb-yaratmışlar.
Yox, dil əsrlərin
tale səsidir,
Azərbaycan dili –
büllur bir bulaq...
Dil xalqın adıdır,
Xalqın özüdür,
Dilin ixtiyarı

Xalqdadır ancaq... [5, s.118]

XX əsrin ikinci yarısında milli irsə istinad edən, onu yaradıcılıqla yenidən işləyən sənətkarlar arasında **Bəxtiyar Vahabzadə** xüsusi yer tutur. Onun poeziyasında klassik poetik təcrübə, yalnız formal və texniki təsirlər səviyyəsində deyil, həm də fəlsəfi və mənəvi dəyərlər baxımından öz əksini tapır.

Azərbaycan ədəbiyyatının müasir dövrdəki ən parlaq simalarından biri olan Bəxtiyar Vahabzadə, klassik ədəbiyyatla bağlılığı, bu irsə verdiyi dəyər və onu yeni bədii çalarlarla zənginləşdirməsi ilə seçilən sənətkarlardandır. Onun yaradıcılığı Azərbaycan poeziyasında ənənə ilə müasirliyin sintezinin uğurlu nümunəsidir. Onun "Ana dili", "Gülüstan", "Latın dili" və s. kimi əsərlərində bəzən klassik poeziyanın obrazlar dünyasını, bəzən bütövlükdə poetik enerjisini yeni dövrün ideyası olan "millət və dil" kontekstində təqdim edir.

Vətənini sevməyən kəs onun halına belə ürəkdən yana bilməzdi, şübhəsiz. Sənətkar nəinki şeirlərində, hətta publisistik yazılarında da öz hisslərini gizlətmir və bu etiraflardakı səmimiyyətə heç kim şübhə etmir. Bəxtiyar Vahabzadə yaradıcılığında əsl vətəndaş mövqeyini nümayiş etdirən çox sayda fakt var, nəzərə alsaq ki, şairin bütün yaradıcılıq ruhunda Vətən məhfumu dururs, həmin nümunələri sətir - sətir axtarmağa ehtiyac yoxdur. O, təkcə Vətəni sevməklə kifayətlənmirdi, özündən sonrakı nəsillərin qarşısında sözün əsl mənasında "vətənşünaslıq" poeziyası yaradırdı. Həmişə vətəni ilə fəxr edən şair əbəs yerə demirdi ki, "şükür edək ki, bizdən əvvəl də, sonra da Vətən var". Bu fikir təkcə yazıldığı dövr üçün lazımlı deyildi, Bəxtiyar Vahabzadə bu gün də, sabah da bütün bəşəriyyəti belə görmək istəyirdi: Vətəni canından çox sevən, onun bütün dəyərlərini göz bəbəyi kimi qoruyan vətən övladları görmək istəyirdi:

Elə oğul istərəm, diləyi Vətən olsun,
Bu Vətənin yolunda yüz dəfə itirilsə, min dəfə bitən olsun.
Vətən eşqi dağın da sinəsini dağlayar,
Eşq olmayan ürəkdə hörümçək tor bağlayar [8, s.421-422].

Sovet dövründə milli dillərin sıxışdırılması, rus dilinin dominantlıq mövqeyi və milli kimliyin assimilyasiya təhlükəsi fonunda Bəxtiyar Vahabzadə ana dilini milli varlığın əsas rəmzi kimi təqdim edir. Onun əsərlərində dil yalnız bir ünsiyyət vasitəsi deyil, həm də **milli ruhun, mədəniyyətin, tarixi yaddaşın daşıyıcısı** kimi çıxış edir. Vahabzadə üçün **dil və azadlıq bir-birinə sıx bağlıdır.** Onun fikrincə, **dil azadlığın simvoludur.** Ana dilində düşünmək, yazmaq, danışmaq hüququ olmayan xalq azad deyil. Bu baxımdan, onun bir çox publisistik çıxışlarında və poeziyasında dil məsələsi milli müstəqillik hərəkatının ayrılmaz hissəsi kimi təqdim olunur. Bəxtiyar Vahabzadənin məşhur **"Mənim ana dilim"** şeiri bu mövzuda ən önəmli nümunələrdən biridir. Bu şeirdə ana dilinə sevgi, ona sahib çıxma çağırışı və milli şüur aydın şəkildə ifadə olunmuşdur:

Mənim Ana dilim - mənim kimliyim!
Pasportum, özümə öz hakimliyim!
Mənim mənliyimin füsunkarlığı
Danışan kamalı, ağlıdır dilim
..Millətin varlığı, yurdun varlığı
Sənin varlığına bağlıdır, dilim [9, s. 178].

Bu şeirdə şair göstərir ki, **ana dilini qorumaq – milli kimliyi qorumaqdır.** Əgər bir xalq öz dilinə biganə qalırsa, deməli, o, tədricən tarixdən silinmək təhlükəsi ilə üz-üzədir. *"Bəxtiyar Vahabzadənin "Ana dili", "Oğluma", "Latın dili","Mənim ana dilim", "Özümdən özümə şikayət", "Fəxriyyə", "Özgə", "Mənim anam" və bir sıra başqa şeirlərində ana dilinin milli- mənəvi düşüncənin formalaşmasındakı yeri və əhəmiyyəti haqqında danışılır, doğma dilə xor baxanlar sərt şəkildə tənqid olunur"* [3, s. 7].

Ayrı-ayrı şeirləri ilə yanaşı Bəxtiyar Vahabzadənin iri həcmli əsərlərində də milli irs, dil məsələsi ən prioritet istiqamətlərdəndir. "Mərziyyə" poeması da bu qəbil poemalarından biri kimi vacibdir. Poemanın bütöv bir fəsli dil probleminə həsr edilmiş, dünyaya səpələnmiş bütün azərbaycanlıların ortaq mənəvi sərvəti, böyük bir ulusun vəhdəti olan dilin qapılar ardında məhkum edilməsi şairi hiddətləndirir.

Professor Elbrus Əzizov "Bəxtiyar Vahabzadə və ana dili" məqaləsində yazır: *"Vahabzadə ana dilinə ünsiyyət vasitəsi kimi deyil, milli düşüncəni, milli varlığı qoruyub saxlayan bir vasitə kimi baxır, ana dilinin varlığını vətənin varlığı kimi qəbul edir. "Mənim ana dilim" şeirində də müəllifin çatdırmaq istədiyi fikir bundan ibarətdir"* [4, s. 28].

Nəticə

XX əsrin ikinci yarısından etibarən Azərbaycan poeziyasında ana dilinə münasibət təkcə bədii-estetik baxımdan deyil, həm də ictimai və ideoloji kontekstdə formalaşaraq milli kimliyin əsas ifadə vasitəsinə çevrilmişdir. Əli Kərim, Cabir Novruz, Nəriman Həsənzadə, Məmməd Araz, Nəbi Xəzri və Bəxtiyar Vahabzadə kimi görkəmli şairlərin yaradıcılığı sübut edir ki, ana dilində yazmaq bir xalqın tarixi yaddaşını, mənəvi dəyərlərini və mübarizə ruhunu qorumağın başlıca yoludur. Onların poeziyasında dil yalnız ünsiyyət vasitəsi deyil, milli ruhun, azadlıq düşüncəsinin, vətən sevgisinin daşıyıcısı kimi təqdim olunur.

Bu sənətkarlar ədəbi söz vasitəsilə həm ana dilinə sevgi və hörmət aşılamış, həm də ictimaiyyətin diqqətini bu sahədəki problemlərə yönəltmişlər. Xüsusilə sovet ideologiyasının təzyiqləri fonunda ana dilinin yaşadılması və inkişaf etdirilməsi istiqamətində göstərilən səylər milli ideoloji özünüdərkin formalaşmasına ciddi təsir göstərmişdir. Bu baxımdan, qeyd olunan şairlərin yaradıcılığı təkcə ədəbi irs kimi deyil, həm də milli müqavimət və özünüdərk nümunəsi kimi dəyərləndirilməlidir. Beləliklə, məqalədə araşdırılan nümunələr əsasında nəticəyə gəlmək olar ki, ana dilinə bağlılıq Azərbaycan poeziyasının ideya-estetik strukturunun ayrılmaz hissəsidir və bu bağlılıq milli mənəvi bütövlüyün qorunmasında mühüm rol oynayır.

Ədəbiyyat

1. Araz, M. Seçilmiş əsərləri: [2 cilddə] / M.Araz. – Bakı: Lider, − c. 2. − 2004. – 232 s.Əhmədov, B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. [İki cilddə] / B. Əhmədov. – Bakı: – 2010. − c. 2. − 436 s.
2. Əliyeva, İ. Dil millətin varlığıdır. (B.Vahabzadənin yaradıcılığı əsasında) // B.Vahabzadənin anadan olmasının 90 illiyinə həsr edilmiş "Bəxtiyar Vahabzadə və Azərbaycan filologiyasının aktual problemləri" mövzusuna həsr edilmiş Beynəlxalq Konfransın materialları, – Bakı, − 15 oktyabr, − 2015. – s. 7
3. Əzizov, E. Bəxtiyar Vahabzadə və ana dili. // B.Vahabzadənin anadan olmasının 90 illiyinə həsr edilmiş "Bəxtiyar Vahabzadə və Azərbaycan filologiyasının aktual problemləri" mövzusuna həsr edilmiş Beynəlxalq Konfransın materialları, – Bakı, − 15 oktyabr, − 2015. – s. 28
4. Xəzri, N. Seçilmiş əsərləri: [2 cilddə] / N.Xəzri. – Bakı: Lider, c. 1. − 2004. − 248 s.
5. Müasir Azərbaycan Ədəbiyyatı: [İki cilddə]/ cildin red.: C. Abdullayev, T.Hüseynoğlu,V.Sultanlı. – Bakı: Bakı Universiteti Nəşiyyatı, − c. 2. – 2007. − 564 s.
6. Novruz, C. Seçilmiş əsərləri / C. Novruz. – Bakı: Lider, − 2004. – 288s.
7. Vahabzadə, B. Əsərləri: [2 cilddə] / B.Vahabzadə. – Bakı: Öndər, − 2004. – c. 1. - 328 s.
8. Vahabzadə, B. Əsərləri: [12 cilddə] / B.Vahabzadə. – Bakı: Elm, − 2008. – c. 6. - 738 s.

FOLLOWERS OF MUHAMMAD FİZULİ MİRZA ALEKPER SABİR AND ALİAGHA VAHİD
ПОСЛЕДОВАТЕЛИ МУХАММАДА ФИЗУЛИ МИРЗА АЛЕКПЕР САБИР И АЛИАГА ВАХИД

MƏHƏMMƏD FÜZULİ ƏDƏBİ: MƏKTƏBİ-MİRZƏ ƏLƏKBƏR SABİR VƏ ƏLİAĞA VAHİD

Əliyeva Xoşbəxt Tayyan qızı
ADPU, Ədəbiyyatın tədrisi texnologiyası
https://orcid.org/0000-0002-3600-8499

Abstract
Sabir in a satirical style and A. Vahid in a lyrical style, with their intelligence and abilities, were able to originally present the art of Fuzuli to the people. Although Sabir's approach to Fuzuli's poems is twofold (he writes in the ghazal genre), he preserves the rhyme, rhythm, features and form of a love poem in a meaningful and ideal way, i.e. problems in a satirical and humorous manner, Vahid, in turn, continues and develops the tradition of his master's poetry primarily in a lyrical style, which made us strive to follow these two directions in our research.In the article we tried to express our thoughts about the development of both poets, who grew up in the Azerbaijani literary environment of the twentieth century, as successors of Fuzuli and their innovation over tradition. To do this, we, of course, relied on relevant examples from the works of Fuzuli, Sabir.

Резюме
Сабир в сатирическом стиле и А. Вахид в лирическом стиле, своим интеллектом и способностями, смогли оригинально представить народу искусство Физули. Хотя подход Сабира к стихам Физули двоякий (он пишет в жанре газели), он сохраняет рифму, ритм, черты и форму любовной поэмы в содержательном и идеальном ключе, т.е. проблемы в сатирическом и юмористическом ключе, Вахид, в свою очередь, продолжает и развивает традицию поэзии своего учителя прежде всего в лирическом стиле, что заставило нас стремиться следовать этим двум направлениям в наших исследованиях. В статье мы попытались высказать свои мысли о развитии обоих поэтов, выросших в азербайджанской литературной среде XX века, как преемников Физули и их новаторстве над традицией. Для этого мы, конечно же, опирались на соответствующие примеры из произведений Физули, Сабира

Giriş
Özündən əvvəlki klassik poeziya nümayəndələrinin layiqli davamçısı olan Məhəmməd Füzulinin söz-sənət cazibəsindən qopa bilməyən saysız-hesabsız ardıcılları – xələfləri yetişmişdir. Böyük dramaturq Cəfər Cabbarlının bu barədə dediyi indi tam yerinə düşür: "Füzulinin dörd əsr bundan əvvəl yazdığı əsərlər bu gün belə sentimentalism ədəbiyyatının ilk sıralarında gedə bilir. O öz mövzularında bəzən böyük ədəbi keçmişə malik yazıçılar ilə yarışmış, onların yazdıqları mövzulardan istifadə etmiş, lakin bu yarışda onlardan geri qalmamış və hər halda "Leyli və Məcnun" kimi dahiyanə əsərlərində öz qoca rəqiblərini geri buraxmış və hamısından yüksəyə qalxmışdır. Füzuli öz dühası ilə Azərbaycana parlaq klassik bir ədəbiyyat verdi. Füzulinin bir qəzəli yüzlərlə şairlər üçün ilham mənbəyi olur, şairlər öz şeirlərini ona bənzətməyə çalışırdılar. "Füzuliyanə" qəzəllər yazmaq şairlərin idsalı-idealı olmuşdur". [1, s. 375]

Əsas mətn.
Məhəmməd Füzulinin Azərbaycan ədəbiyyatı tarixindəki mövqeyi ilə bağlı saysız- hesabsız elmi-nəzəri fikirlər irəli sürülmüş, onun yaratdığı ədəbi məktəbin yüzlərlə yetirməsi, müasir dövrümüzdə belə davamçıları vardır. Bu baxımdan XX əsrin əvvəllərində Mirzə Ələkbər Sabir satirik üslubda və ortalarında isə Əliağa Vahid lirikada özlərinə məxsus bir intellekt və istedadla original şəkildə bu işi

davam etdirmiş, millətin mənəvi sərvətini qoruyub saxlamağı bacarmışlar. Hər iki şairin Füzuli yaradıcılığına yanaşması fərqli olsa da, nəticə etibarilə Füzuli dühası, onun sənət dünyası satirik və lirik şeirlərin canında, cövhərində öz təsirini göstərmişdir. M.Ə.Sabirin Füzuliyə yanaşması daha çox forma baxımından, qəzəl janrının klassik tələbləri, əruz vəznli şeirin qafiyə, ritm qanunları saxlanmaqla ideya-məzmun baxımından satirik-yumoristik planda daha çox "Hophopnamə"də nəzirə, iktibas şəklində özünü göstərir.

Füzuli təsiri artıq 530 ildən bəri söz-sənət xridarlarının, istər lirik janrda, istər satirik üslubda yazan şairlərin yaradıcılığında özünü göstərmiş, bu gün belə davam etməkdədir. Hazırkı məqaləmizdə XX əsrin əvvəllərində Mirzə Ələkbər Sabirin, ortalarında Əliağa Vahidin Füzuli ədəbi irsi ilə təması üzərindən təhlil və müqayisələr aparmaqla onların Füzuli bədii düşüncəsindən təsirlənmələrinin fərqli və oxşar cəhətlərini incələməyə çalışmışıq. Hər iki sənətkar yaşadıqları dövrdə millətin ən çox sevdiyi, sinədəftər əzbər bildikləri tək-tək şairlərdən olmuşlar. Onlar rəmsi titulları ilə deyil, səmimi qəlbdən el-obaya bağlı olduqlarına görə xalq şairləri kimi tanınıb sevilmişlər.

İctimai formasiyalar dəyişsə də, sifarişli ədəbiyyat, tərif və mədhiyyə müəllifləri zaman- zaman sıradan çıxıb unudulduğu halda, bu şairlər yenə də mənən, səmiyyətləri ilə sözlərinin dəyəri ilə yaşamaqdadırlar. Məsələnin maraqlı cəhəti budur ki, Sabir satirik-yumoristik üslubda, Vahid isə lirikaya, qəzəl janrına simsar olsa da, hər ikisi Füzuli ədəbi məktəbinin ənənələri üzərində yetişmiş, eləcə də yaşadıqları dövrdə özləri də yenilikçi olmağı bacarmışlar. Həmin zamanların epiqonçu, təqlidçi şairlərindən fərqlənmiş, daha geniş auditoriyada sevilərək nüfuz qazana bilmişdilər.

Məndən, Füzuli, istəmə, əşari-mədhü zəmm, Mən aşiqəm, həmişə sözüm açiqanədir!
– deyən ulu Füzuliyə Sabir belə bir poetik məramla səslənir:
Şairəm, çünki, vəzifəm budur əşar yazım, Düzü düz, əyrini əyri, gecəni tar yazım.
Bu poetik etiraflarda şairliklə aşiqliyin məntiqi cəhətdən biri-birini tamamladığını duymaq çətin deyildir. Vahid də öz növbəsində şair təbindən qopan bir coşqunluqla bəyan edir:
Bu fəxrdir mənə, Vahid ki, xəlq şairiyəm, Böyük Füzulilərin xaki-payinin biriyəm.
Düşünürük ki, sələf və xələf anlayışı elə hər üç şairin söz xəzinəsindən seçdiyimiz bu örnəklərdə özünü kifayət qədər anladır.

Vahidin əsasən məhəbbət lirikası, gözəllik aşiqliyi, Sabirin acı gülüşü, sarkazmları zahirən bir-birinə zidd görünsə də, bu iki şairin Füzuli dünyası ilə tərəf müqabilliyi, diqqət yetirilsə, sıx tellərlə bağlı olması təbiidir. Sözün üst qatından savayı alt qatı, məcazi-metaforik deyim tərzi və abstrakt təfəkkür hüdudsuzluğunu yada salsaq, məsələ aydınlaşar. Əsil şair istedadı, sözün məna çalarlarını bədii dilin obrazlı deyim materialına çevirə bilmək qabiliyyətində gerçəkləşir ki, sözügedən sənətkarlar bu keyfiyyətə malikdirlər.

Bəllidir ki, Sabir satirik olsa da, ilk yaradıcılıq nümunələri Füzuli səpkisində, qəzəl janrında olduğu kimi Vahid də məhəbbətdən, mehparə gözəllərdən ilhamlandığını etiraf etməklə lirikada Füzuli yolunu tutmasına rəğmən yeri gələndə "Tənqidimiz Sabiranədir" – deməyi də bacarıb:
Sabir! Ey möhtərəm, böyük şair! Şeirdə nəzmü – nəsrdə mahir.
Yazdığın dahiyanə məzhəkələr, Göstərir xəlq içrə möcüzələr.

Sabirin cahil, avam millətə yazığı gəlsə də, onları oyatmaqdan ötrü danlayıb, bəzən lağa qoyması, xalqın qanını soran, ruhunu öldürən hökmürəvan mənsəb sahiblərinə, yalançı din xadimlərinə ünvanlanmış satiralarını böyük sələfi Məhəmməd Füzulinin təkcə "Şikayətnamə"si ilə müqayisə etmək kifayətdir ki, bu söz sahiblərinin bəşəri kədərinin, ağrı- acılarının ölçüyə gəlməzliyini anlayaq. Salamı rüşvət deyildir deyə alınmayan, 9 ağçadan ötrü Ovqaf idarəsinə günlərlə ayaq döyüb, axırda, əliboş, kor-peşiman geri dönən şair yaşının ahil çağlarında qarşılaşdığı ağır zərbədən sarsılıb, ona göndərilən bərata işarə ilə deyir:
Mən ona fitnə, ol mənə afət, Mütənəffir mən ondan, ol məndən. Mən ona qüssə, ol mənə möhnət, Mütənəkkir mən ondan, ol məndən.

Burada şairin düşdüyü vəziyyətə görə özünü qınaması da insanı başqa cür kövrəldir. Axı tənqid, yaxud mədh onun işi deyildi. Bu işi Sabir özünün şairlik vəzifəsi hesab edərək, bütün pisliklərin dəf olunmasından ötrü gücsüz, zəif olduğunu, ömrün ona vəfa etmədiyindən təəssüflənir. Bax, bu mənada liriklə satirikin eyni nöqtədə sarı simə kökləndiyini görürük: ictimai münasibətləri poeziyanın dilinə

çevirməkdə sələf ilə xələfin sənətkar düşüncəsi üts- üstə düşür.
Hər mərəz çarəsin eyləmək asandı təbib, Mərəzi-eşqə nə tədbir, nə dərmanın var?
– deyən Sabir bu şeirində Füzulinin lirik qəhrəmanı ilə həmahəng, həmdərd olur. Füzulinin həkimə müraciətlə yazdığı aşağıdakı beytə diqqət yetirək:

Rənc çəkmə, sihhət ümmidin Füzulidən götür Kim, qəbuli-sihhət etməz böylə bimar, ey həkim!
Sabir Ağlar-güləyən təxəllüsünə müvafiq tərzdə Füzuliyə bənzətməsində belə deyir:

Ah eylədiyim nəşeyi-qəlyanın üçündür, Qan ağladığım qəhveyi-fincanın üçündür. Yan, dinmə, san Allah,
Qan, dinmə, san Allah! Həq söyləmiş olsan, Dan, dinmə, san Allah!
Sabir yaradıcılığında Füzuli irsindən, qəzəl poetikasının deyim, ifadə tərzindən, gözəlliyindən bəhrələnmə, satirik-yumoristik ritorikada beləcə təcəssüm tapır.
Yaxud,

Məndə ar olsaydı, ölmək ixtiyari etməzmidimi? Abrunun nolduğun bilsəydim, ar etməzmidim?
– mətləli qəzəli Füzulinin:
Əql yar olsaydı, tərki-eşqi-yar etməzmidim? İxtiyar olsaydı, rahət ixtiyari etməzmidim?
– mətləli qəzəlinin rədif qafiyəsi üzərindən yaradılmış bədii təzad və fiqurlarla satirik qələmin gücü ilə öz original təcəssümünü tapır.
Deməliyik ki, Sabirin tənqid hədəfləri konkret ünvanlıdır. Onun sərt, acı, kəskin dil ifadə vasitələri böyük cəsarət və şairlik istedadının vəhdətindən doğurdu.
Ey Füzuli, ğədimiz qıldı fələk xəm, yəni, Vəqtdir çıxmağa dünya qapısından əyimin.
– deyən şairin son qərarı əsiri olduğu cahan mülkündən çıxıb getməkdr. Görün, Vahid bu hikmət müqabilində necə düşünür:
Vahid, cahanə bağlama bel, yoxdur axırı, Guya, bir evdəsən, neçə günlük kirayədir.
Çox aydın, səliqəli və açıq izah!
Ey Füzuli, müttəsil dövran müxalifdir mana, Ĕaliba, ərbabi-istedadı dövran istəməz!
– deyərkən, dərin zəka sahiblərinin daima əzab, zillət içində, maddi və mənəvi ehtiyac ucundan yaşadıqları məkanı tərk etməyə məcbur olduqlarını dilə gətirir.
Vahiddə bir növ onun özünə uyğun bir laübalılığın başqa tərzdə ifadəsini görürük:
və ya:
Dəhrin cəfasına, qəminə qılma etina,
Baxma kədərlə aləmə, məcnun gözüylə bax!

Darıxma, yaxşı-yaman günlərimiz keçəcək,
Bu beş günlük ömrə görə kəcmədarə yalvarma!
Vahidin maddi sıxıntıları, rəsmi dövlət sahib mənsəblərindən eşitdiyi tənə və sərkilər, rəqiblərinin paxıllıqları onun qürurunu sındıra bilmədi. Vətənə, elə bağlılıq, bir də qəzəl, gözəl şairliyi ilə fəxr edərək poetik idealına sadiqliyi onu sələfi Füzuli, böyük müasiri olan Sabirlə vəhdətə gətirdi. Sanki hərə öz dövründə, hərə öz sənət stixiyası çərçivəsində qələmləri ilə müxalif dövrə meydan oxuyub da söz mülkünün əbədi sahiblərinə çevrildilər.
*"Fəqir padşaha, gədayi-möhtəşəm"*liyi üstün tutan Füzulinin xələfləri Sabirlə Vahidin dünyaya ayıq gözlə, maarif işığında baxmaqları, təmənnasız xidmətləri ilə milli iftixarımız, ənənəvi sərvətimiz adlandırılması, əlbəttə səbəbsiz deyil.
Bir dövrdəyəm ki, nəzm olub xar, Əşar bulub kəsadi-bazar.
Hər söz ki, çıxır zühurə məndən, Min tənə bulur hər əncüməndən.
– deyən dahi şairin taleyini yüz illər sonra onun varisləri də yaşadı: Sabir haq sözü dediyinə görə məzəmmət olunsa da, *"Ĕəmü möhnət füzun oldu", "Arizi-qəmlər əlindən"* ürəyinin şişdiyini dilə gətirəndə, Vahid kinayə ilə *"Sərvət ağır yükdür, onu annamazə veribdir"* – yazanda da, yenə *"Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun"* – deyən, söz mülkünün sultanı Füzulinin mənəvi

övladları, sənət-şeir dünyasının varisləri tale şairləri kimi poeziya dünyamızda qərarlaşdılar.
Bəli, 530 il bundan öncə:
Can sözdür, əgər bilirsə, insan, Sözdür ki, deyirlər özgədir can!
– söyləyən Məhəmməd Füzulinin fövqəladə şairlik istedadı, uzaqgörənliyi bu gün bir daha təsdiqlənir.
Nəticə. Əbədiyyətə qovuşmaqdan ötrü mənən yaşamaq üçün mal-dövlət, dirhəmü dinar, ağır sərvət yükü yox, eşq yolunda sadiqlik, iman, əqidə bütövlüyündən keçən şahanə söz yiyəsi olmaq gərəkdir.

İstifadə olunmuş ədəbiyyat

1. Məhəmməd Füzuli: elmi-tədqiqi məqalələr vəfatının 400 illiyi münasibətilə), Bakı, Yazıçı,1958, 344
2. Məhəmməd Füzuli, Əsərləri, I, II c. Bakı, Elm, 2022, 456 s.
3. Mirzə Ələkbər Sabir. Hophopnamə, Bakı, Lider, 2007, 245 s.
4. Əliağa Vahid, Qəzəllər Bakı, Lider, 2007, 362 s.
5. Lalə Əlizadə. Böyük Füzulinin yadigarı. Bakı, Elm və təhsil, 1996, 266 s.
6. Həmid Araslı. Böyük Azərbaycan şairi Füzuli. Bakı, Elm və təhsil, 1958, 383 s.

BAKHTİYAR VAGHABZADE AS A MASTER OF PHİLOSOPHİCAL AND PSYCHOLOGİCAL DEPİCTİON

БАХТИЯР ВАГАБЗАДЕ КАК МАСТЕР ФИЛОСОФСКО-ПСИХОЛОГИЧЕСКОГО ИЗОБРАЖЕНИЯ

BƏXTİYAR VAHABZADƏ FƏLSƏFİ-PSİXOLOJİ TƏSVİRİN USTASI KİMİ

İbrahimova Nübar Natiq qızı
ADPU-nun Şəki filialı

Xülasə
Təqdim etdiyimiz məqalədə XX əsrin ortaları – XXI əsrin ilk onilliyi Azərbaycan ədəbiyyatının qüdrətli simalarından biri olan Bəxtiyar Vahabzadənin əsasən poetik yaradıcılığına nəzər salınır, əsərlərinin bir neçəsinin analitik təhlili aparılmaqla onun poeziya sahəsində qazandığı uğurların bir sıra tərəfləri nəzərdən keçirilir. Eyni zamanda vurğulayırıq ki, B.Vahabzadə yaradıcılığı universal xarakterlidir. B.Vahabzadə ali təhsil ocaqlarında professor kimi çalışmaqla, həm də şair, nasir, dramaturq, publisist, milli və türkçülük məfkurəsi daşıyıcısı kimi özünü oxucu ictimaiyyəti qarşısında yetərincə sübut etmişdir. Azərbaycan ədəbiyyatşünaslığı onun yaradıcılıq irsinin fərqli tərəflərini müxtəlif yönlərdən təhlillərə cəlb etmiş, əsərlərinin məzmunu və janr mündəricəsi ilə bağlı zəngin fikirlər irəli sürmüşdür. Müxtəlif illərdə çoxsaylı poetik məcmuələrində ədəbi-estetik hiss və duyğularını oxucuları ilə bölüşən şairin əsərlərindən biri "Axı, dünya fırlanır" (1987) sənətkarın fəlsəfi-poetik düşüncəsinin uğurlu mənzərəsini yaratdığından biz məhz bu kitabda təqdim olunmuş nümunələrdən fraqmentlər təqdim etməklə B.Vahabzadəni insan qəlbinin filosofu və psixoloqu kimi təqdim etmişik.
Açar sözlər: Vahabzadənin portreti, poetik yaradıcılıq, diapazon, lirizm, tərcümə, fəlsəfi düşüncə, psixologizm

Resume
The article we present mainly examines the poetic work of Bakhtiyar Vaghabzade, one of the most prominent figures of Azerbaijani poetry in the middle of the 20th and first decades of the 21st centuries. Having conducted an analytical analysis of several of his works, we examined a number of aspects of the author's achievements in the field of native poetry. At the same time, we emphasize the idea that B.Vaghabzade's work has a universal character. In addition to his creative pursuits in poetry, he is known as a novelist, playwright, publicist, and a bright bearer of national and Turkic ideology while working in higher educational institutions as a professor. Azerbaijani literary criticism has drawn attention to the analysis of various aspects of his creative heritage, both in terms of content and genre identity. Over a long period of his work, he created numerous poetry collections in which the author expressed his philosophical and poetic thoughts about life, epoch, and history. For the most part, we stopped at the collection "After all, the World Turns" (1987), in which B.Vaghabzade proved himself to be a subtle philosopher and psychologist of the human soul.
Key words: Portrait of Vaghabzade, poetic creativity, range, lyricism, translation, philosophical thought, psychologism

Резюме
В представленной нами статье преимущественно рассматривается поэтическое творчество Бахтияра Вагабзаде – одного из виднейших деятелей азербайджанской поэзии середины XX – первого десятилетия XXI веков. Проведя аналитический разбор нескольких его произведений, рассмотрели ряд аспектов достижений автора в области родной поэзии. В то же время

подчеркиваем мысль о том, что творчество Б.Вагабзаде носит универсальный характер. Помимо творческих поисков в части поэзии, он, работая в высших учебных заведениях в должности профессора, проявляя себя перед читающей публикой, известен как прозаик, драматург, публицист, а также яркий носитель национальной и тюркской идеологии. Азербайджанское литературоведение привлекло к анализу различных сторон его творческого наследия как по содержанию, так и по жанровой самобытности. За длительный период творчества им созданы многочисленные поэтические сборники, в которых автор выражал свои философско-поэтические раздумья о жизни, эпохе, истории. Мы большей частью остановились над сборником «Ведь мир вращается» (1987), в котором Б.Вагабзаде проявил себя как тонкий философ и психолог человеческой души
Ключевые слова: Портрет Вагабзаде, поэтическое творчество, диапазон, лиризм, перевод, философская мысль, психологизм

Giriş

Bəxtiyar Vahabzadə XX əsr Azərbaycan poeziyasının yetişdirdiyi qüdrətli simalarındandır. O, öz dövrünün istedadlı şairi olmaqla yanaşı həm də ədəbiyyatşünaslıq problemləri ilə məşğul olmuş, uzun illər ərzində Bakı Dövlət Universitetində filologiya elmləri doktoru, professor kimi ali məktəb tələbələrinin maarifə və elmə yiyələnməsində xüsus xidmət göstərmişdir. Bundan başqa Bəxtiyar Vahabzadənin fəaliyyəti heç də yuxarıda qeyd etdiyimiz kimi şairlik və pedaqoqluqla məhdudlaşmamışdır. O, həm də milli mədəniyyət tariximizdə nasir, dramaturq, mütərcim, siyasətçi, Türkçülük və Turançılıq ideoloqu kimi tanınmışdır. Bəxtiyar Vahabzadənin yaradıcılıq irsini onun vətənpərvərlik, azərbaycançılıq dünyagörüşü və ideoloji-məfkurəvi baxışlarından kənarda nəzərdən keçirmək bu böyük insanın həyat baxışlarının natamam şəkildə şəkildə təqdim olunmasına gətirib çıxara bilərdi.

Ümumiyyətlə götürdükdə Bəxtiyar Vahabzadənin yaradıcılıq, pedoqoqluq, millilik, azərbaycançılıq, türkçülük portretini yaratmaq o qədər də çətin deyildir. Çünki B.Vahabzadədən bəhs etdikdə gözümüz önündə bu yenilməz yaradıcı insanın mükəmməl naturası dayanır. Akademik Nizami Cəfərovun kompakt şəkildə oxuculara təqdim etdiyi kitabda yetərincə sadələşdirilmiş, eyni zamanda hədəfə dəyən Bəxtiyar Vahabzadənin ümumi portreti aşağıdaki kimi yaradılmışdır: "B.Vahabzadənin bir real tərcümeyi-halı, bir də irreal (romantik) tərcümeyi-halı var; onları bir-birindən ayırmaq çətindir, bir sıra hallarda isə ümumiyyətlə mümkün deyil – xalq öz Bəxtiyarını əfsanələşdirməyə çalışmış, onun xəyali portretini, romantik obrazını yaratmaqla real tərcümeyi-halını milli ideallar baxımından "redaktə" etmişdir. Beləliklə, B.Vahabzadə yalnız yaradıcılığı ilə deyil Allahın hamı kimi ona da verdiyi tərcümeyi-halı ilə də milli idealların ifadəsinə milli istəklərin təzahürünə xidmət etmişdir" (3, s. 5-6).

Yaradıcılığa XX əsrin 40-cı illərinin sonlardan başlayan Bəxtiyar Vahabzadə "Mənim dostlarım" (1949), "Bahar" (1950), "Ədəbi heykəl" (1951), "Dostluq nəğməsi" (1953), "Çinar" (1956), "Sadə adamlar" (poema – 1956), "Seçilmiş əsərləri" (1961), "Etiraf. Şəbi hicran" (1962), "İnsan və zaman" (1964), "Bir ürəkdə dörd fəsil" (1966), "Seçilmiş əsərləri" (1967), "Köklər-budaqlar" (1968), "Dəniz-sahil" (1969), "Dörd yüz on altı" (1970), "Bir baharın qaranquşu" (1971), "Dan yeri" (1973), "Seçilmiş əsərləri" (2 cilddə) II c. -1975), "Sadəlikdə böyüklük" (1978), "Açılan səhərlərə salam" (1979), "Payız düşüncələri" (1981), "Muğam" (1982), "Vətən ocağının istisi" (1982), "Özümüzlə söhbət" (1985), "Axı dünya fırlanır" (1987), "Lirika" (1990), "Vətəndaş" (1994), "Körpü çaydan uzaq düşüb", "Bir ömür yuxu" (1998), "Ağıl başqa, ürək başqa" (2000), "Ağ atlı oğlan", "Əsərləri beş cilddə" (2001-2002) və s. kimi poetik məcmuələri ilə yanaşı, həm də "Səməd Vurğun" (1968; 1984), "Gəlin açıq danışaq" (1984) və başqa bu kimi kitablarla oxucu və tənqidçilərin görüşünə gələn şairin yaradıcılıq diapazonunun nə qədər dərin, zəngin, əhatəli və çeşidli olduğunu görmək mümkündür. Bəxtiyar Vahabzadəni müxtəlif rakurslardan eyni dərəcədə və eyni məsuliyyətlə hər

hansı analitik yazının predmeti etmək olar və hər dəfə onun yaradıcılığı gözümüz qarşısında yeni fəlsəfi-estetik və milli-məfkurəvi cəhətləri ilə bərq vura bilər.

Poetik məcmuələrinin hər biri ayrı-ayrılıqda təhlil və tədqiq obyekti olmağa layiq olan Bəxtiyar Vahabzadənin diqqətimizi daha çox cəlb edən şairin "Axı, dünya fırlanır" şeirlər, poemalar və tərcümələr kitabı masamızın üstündədir (4).

Kitaba ön söz yazmış görkəmli qırğız yazıçısı, Lenin mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı Çingiz Aytmatov şairin poetik təfəkkür mədəniyyətinin təbiətcə milli olduğunu söyləmişdir. Eyni zamanda onu da xüsusi olaraq qeyd edir ki, "bu da müstəsna dərəcədə zəruri haldır ki, sən övladı olduğu xalqın nitq hissəsində feil olmağı bacarasan, xalqının canlı dil memarlığına öz töhfəni verə biləsən... Vahabzadənin poetik təfəkkür mədəniyyəti daha üstün mahiyyət kəsb edir və millilikdən ümumbəşəri səviyyəyə qalxır...

... lirizm və vətəndaşlıq Bəxtiyarın yaradıcılığında ayrılmaz qoşa simlərdir və bu simlər onun şəxsi və ictimai dünyagörüşünün qüdrətinə bir daha şəhadət verir... Vahabzadənin başqa kamil cəhətlərindən biri də odur ki, şair öz əsərlərində tarixi müasirlik qədər yaşada bilir" (1, s. 8-9). Doğrudan da nəzər saldıqda görmək olur ki, B.Vahabzadənin şeirlərinin fövqəltəbii stixiyası onun ilham pərisindən güc almaqla yaradıcılığını nəzərəçarpacaq dərəcədə digər müəlliflərinkindən fərqləndirir.

Şairin adını çəkdiyimiz poetik məcmuəsində sənətkarlıq məharəti onun ayrı-ayrı rubrikalara böldüyü "Vaxt", "Təzədən yarat", "Qoşmalar", "Bağışlayın, səhv olub", "Ləyaqət" və "Mərziyə" adlı poemalarla yanaşı, həm də tanınmış rus şeirinin nümayəndələri Rumka Kazakova, Alla Kuşner, Yevgeni Yevtuşenko, Andrey Dementyev, tatar şairi Renat Xoris, litva şairiləri Alfonsas Maldonıs, Alfonsas Bukontas, alman şairi Hamlet Pransler, bolqar şairi Dimitr Zlatev, Georgi Qrivin yaradıcılığından bəzi nümunələri milli oxuculara təqdim etmişdir.

"Axı, dünya fırlanır" kitabında toplanmış şeirlər məzmun və mahiyyət baxımından daha çox şairin fəlsəfi düşüncələri ilə bağlı təsəvvürlərini göz önünə gətirməkdədir. Buradakı "Layiqəmmi mən", "Xatalı yuxu", "Dağlar kölgəsində", "Xeyir-Şər", "Taras Şevçenkoya", "Haqq-Zorakılıq", "Tamah-ləyaqət", "Dərinlik", "Nəyinsə ilkidir, nəyinsə sonu", "Ölüm haqqında düşüncələr", "Üz-Astar", "Baş daşında saat", "Axı dünya fırlanır...", "İki mühacir", "Bu dünya belədir...!", "Qanmaq-Qanmamaq", "Ölüm", "Sevincin zirvəsi, dərdin zirvəsi", "Bu möcüzə dünyanın...", "Mən mənəm", "Qeyrətmi, ağılmı?" və s. nümunələrdə biz şairin dünyanın gərdişi üzərində özünün özü ilə, müasirləri ilə mükalimələrini görməkdəyik. B.Vahabzadənin "Ölüm haqqında düşüncələr" şeirindən bir parçaya baxaq:

Yox olan yenidən doğula bilməz,
Bu arzu bəşərin ulu niyyəti!
Varlıq – əbədiyyət! Bu ola bilməz.
Ölümsə-yoxluğun əbədiyyəti!

...Onu düşünməmək mümkünmü? Çətin!
Hər gün çarpazlaşır içimdə səslər.
Nə qədər xoşbəxtdir, düşüncəsinin
Ölümsüz qatına yüksələn kəslər. (4, s. 32)

Baxın, şair hansı poetik düşüncələrin və simvolların köməyi ilə ölümlə bağlı fikirlərini öz oxucuları ilə bölüşür. Şairin fəlsəfi düşüncələri üçün məqsəd onun təsirlərinin aydınlığı, ardıcıllığı, arqumentasiyalılığı ortaya çıxmaqla, həm də müxtəlif üsullarla özü haqqında, digərləri haqqında, zaman, yaxud dünya ilə bağlı dəyişməz mahiyyəti oxuculara çatdırması daha zəruri görünür.

B.Vahabzadə poeziyasının mövzu və meyilləri üzərində fikrə dalarkən görürük ki, şairin yaradıcılığının mayasını təşkil edən mövzular poeziyanın daimi çoxfunksiyalı hadisə olduğunu etiraf etməkdəyik. Eyni zamanda poeziyanın mahiyyəti həm də onun gerçəkliyi transformasiya etmək

bacarığındadır. B.Vahabzadənin poeziyasının sistemi dinamik sistem olmaqla içində mahiyyətində də bu, dinamik sistemin əlamətlərini daşımaqdadır. Onun poeziyasının öz dəyərləri, istiqamətləri, unikal yaradıcı nailiyyətləri göz qabağındadır. Buna görə də B.Vahabzadə poeziyasına söykənərək daha çoxsaylı fikir və yanaşmalar ortaya qoymaq olar.

Yuxarıda adını çəkdiyimiz şeir üzərində düşündükdə müəllifin yaradıcılığında sirli-sehirli triadanın yer aldığını görə bilirik ki, burada ontogenetik, filogenetik və pedoqoji funksiyaların yer aldığını qeyd etmək zərurəti yaranır (5).

B.Vahabzadənin digər bir "Axı, dünya fırlanır" şeirində də biz fəlsəfi yanaşmaların çeşidli tərəflərini illüstrasiya edə bilərik:

Vaxtın dəyirmanında daş əridi qum oldu,
Tarixə atdığımız qayıtdı, lüzum oldu,
Dümənin həqiqəti bu gün tərs yozum oldu,
Niyə də yozulmasın, axı dünya fırlanır.

...Fırlandıqca bu dünya, yox da dönüb var olur,
Quruyan çeşmələrdən sular yenə, çay olur.
Bu dünyanın xeyri də, şəri də təkrar olur,
Nizə təkrar olmasın? Axı dünya fırlanır.

Min-min illər bu dünya beləcə fırlansa da,
Bir yuvanın bülbülü min budağa qonsa da,
Aylar, illər, fəsillər bir-birini dansa da,
Dəyişməzdir əqidəm, çox da dünya fırlanır
Dəyişməzdir əqidəm, çox da dünya fırlanır (4, s. 35-36).

Baxın, məhz buna görə də biz B.Vahabzadə poeziyasını Azərbaycan ədəbiyyatının fəlsəfi çalarlarının zənginləşdirilməsində öncül nümayəndələrindən biri hesab edirik. Təbiəti etiları ilə fərdi istedad sahibi olan şair həm öz tutumuna, həm də mövzu diapazonuna görə, çeşidli yaradıcılıq arsenalına, üslub və janrlara, əsərlərinin bədii qatlarına görə onun fəlsəfi poeziyasının meditasiyası dünya üzərində və onun quruluşu problemləri, cəmiyyət və insan, əcdadların tarixinə nəzər salmasına görə də substansionaldır. Şairin fəlsəfi düşüncəsi daha konsentrasiyalaşmış formada bədii obrazların köməyi ilə yaşanan tarixi mərhələnin şüurunu və özünü şüurunu təqdim etməklə, həm də ümumi ilə konkreti birləşdirib həyatla ölüm arasında, xeyirlə şər münasibətlərində, işıq və zülmət kontekstində göz önünə gələ biləcək düşüncələri əks etdirməkdədir.

Bəxtiyar Vahabzadənin nəinki poeziyası, nəsr yaradıcılığı, dramaturgiyası, həm də publisistikası mövzu və məzmun baxımından yetərincə dolğundur. Bu, ilk növbədə onunla bağlıdır ki, şairin yaradıcılığının doğma vətəni ilə daim ciddi və sıx təmasda olmaqla, xalqın arzu-istəklərinə bağlılığındadır: "Bir şair kimi Bəxtiyarın orijinallığı onun istəyindən yox, həyata və hadisələrə poetik münasibətindən doğan təbii bir keyfiyyətdir.

...Bəxtiyar Vahabzadə çox sadə mətləbləri mənalandırmağı, oxucusuna aşılamaq istədiyi fikri poetik hiss və duyğularla yoğurmağı, əsl sənət dilinə çevirməyi bacarır.

...Şairi zaman və gənclik, zaman və müasir insan, zaman və yoxsulluq, zaman və ölüm səltənəti arasında əlaqə və təzadlar mövzusu narahat edir.

..."İnsan və zaman" silsiləsindən olan şeirində filosof-şair özünün hiss və düşüncələrini verir... şeirlərində fəlsəfi məzmun yüksək romantika, həyat və cəmiyyət hadisələrinə aydın şair münasibəti hakimdir" (2, s. 164, 165, 166).

B.Vahabzadənin bütün janrlarda qələmə aldığı əsərlərinin hamısı üçün insanın mənəvi dünyasına baş vurmaq, onun hamı üçün daha az görünüb hiss edilən tərəflərinə işıq salmaq ön planda duran

məsələlərdəndir. Əsərlərindəki lirik-psixoloji və epik-fəlsəfi qat müşahidəli oxucuların daha çox üstün tələblərini ödəməyə istiqamətlidir.

B.Vahabzadə poeziyasının individual keyfiyyətlərindən bəhs edərkən biz həm də özümüzdən asılı olmadan şair öz qəhrəman, personaj və obrazlarının daxili aləminin açılmasında psixoligizmlərdən genbol istifadə etdiyinin şahidi oluruq. Çünki B.Vahabzadə də fəlsəfi lirikanın mərkəzində də müəllifin qeyri-ixtiyari olaraq psixologizmlərdən istifadə etdiyini görür və bunun əksər hallarda bədii obrazlarda konsentrasiya olunmuş şəkildə şahidi oluruq. Bu baxımdan şairin 1985-ci ilin sentyabr ayında qələmə aldığı "Ölüm" şeiri səciyyəvidir:

Yaranışdan bilirik, ömrə nəhayətdi ölüm,
Zamanın hökmü budur: hər kəsə qismətdi ölüm.

Hələ dərk etməmişik, amma ölümdən o tayı,
Bizim idrakımıza gör necə sərhəddi ölüm.

...Bəşər ölməzsə bu dünya təzələnməz, qocalar,
Bütün insanlıq üçün bir əbədiyyətdi ölüm. (4, s. 44-45)

Şeirin təhlilinə keçmədən bunu qeyd etməyi vacib hesab edirik ki, Bəxtiyar Vahabzadənin poetik konsepsiyasında fəlsəfi düşüncələrlə psixologizmlər sanki bir-birini müşayiət edərək addımlayır. Şairin baxışlarında yer almış belə yanaşmada psixoloji məqamların dərinliklərinə baş vurma müəllifin intuisiyasına, iradi impulslarına, xatırlamalarına, assosiativ baxış və meyillərinə bağlanır. Beləliklə, şair daha da dərinliklərə baş vuraraq, oxucunu həyat problemləri üzərində, daimi ilə dəyişən məsələlər üzərində götür-qoylar etməyə sövq edir. Və heç də təsadüfi olmayan "Nə etmək?", "Necə eləmək?", "Suala cavab tapmaq" və s. kimi suallar qarşısında qalır, lakin bir şey daha aydın görünür ki, şairin qəlbi də, beyni də, təfəkkürü də, diridir.

Nəticə

B.Vahabzadənin fəlsəfi-psixoloji əsərləri üzərində təhlillər apararkən qeyd etməliyik ki, onun əsərlərinin daha çox hissəsi məhz bu keyfiyyətlərlə süslənmişdir. Şairin əsərlərinin əsas xüsusiyyətlərinə nəzər salsaq, görərik ki, onun yaradıcı maraqlarını daha çox fəlsəfi, vətəndaş, sevgi-məhəbbət, peyzaj-təbiət təsvirləri, milli tarix, azərbaycançılıq, milli mədəniyyət məsələləri və s. təşkil edir. Bütün sadaladığımız aspektlərdə Bəxtiyar Vahabzadə yaradıcılığı istənilən qədər orijinal, bənzərsiz və unikaldır. Onun yaradıcılıq irsinin ölməzliyi də məhz bundadır.

Ədəbiyyat

1. Aytmatov Ç. "Yaradıbdır inam məni, mən inamın övladıyam" // Vahabzadə B. Axı, dünya fırlanır. Şeirlər, poemalar və tərcümələr. Bakı, 1987, s. 5-10
2. Bəxtiyar Vahabzadə // Abdullayev C.M və b. Müasir Azərbaycan ədəbiyyatı. (Ali məktəblər üçün dərslik). İki cilddə, II cild. Bakı, Bakı Universiteti nəşriyyatı, 2007, 564 s.
3. Cəfərov N. Bəxtiyar Vahabzadə. Bakı, Azərbaycan nəşriyyatı, 1996, 80 s.
4. Vahabzadə B. Axı, dünya fırlanır, şeirlər, poemalar və tərcümələr. Bakı, 1987, s. 5-10
5. Пекелис М.А. (Михаил Пластов), Антипов С.С. Размышление о поэзии как о явлении, сущности и системе. https: // cyberleninka.ru

INCLUSION AND DIGITALIZATION: NEW ACCESS TO CULTURAL AND LITERARY HERITAGE

Natalya Valeryevna Drobchenko
Acting Professor of the Department of Landscape Design, Samarkand State University of Architecture and Civil Engineering named after Mirzo Ulugbek, Samarkand, Uzbekistan

Abstract
In the 21st century, digitalization has become an integral part of the processes of preserving, broadcasting and popularizing cultural and literary heritage. At the same time, an inclusive approach is becoming particularly important, ensuring equal access to these resources for various social groups, including people with disabilities, ethnic and linguistic minorities, as well as representatives of remote territories.
The purpose of the report is to analyze how digital technologies can not only preserve, but also expand access to cultural and literary heritage, overcoming traditional barriers. Examples of inclusive digital platforms, adapted library and museum collections, literary archives with multimodal interfaces, as well as projects using artificial intelligence and augmented reality technologies to create an accessible environment are considered.
Special attention is paid to how digital transformation affects the representation of marginalized voices in literature, as well as new forms of participation in cultural practices. It is concluded that it is necessary to combine technological innovations with a humanitarian and ethical approach to inclusion in the digital age.
Keywords: inclusion, digitalization, cultural heritage, literary heritage, accessibility, digital humanities, inclusive technologies, digital culture

"LEXICAL-STYLISTIC FIGURES IN ENGLISH AND THEIR EXPLANATION WITH EXAMPLES"

"İNGİLİS DİLİNDƏKİ LEKSİK-ÜSLUBİ FİQURLAR VƏ ONLARIN NÜMUNƏLƏRLƏ İZAHI"

Könül Allahyarova
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı, baş müəllim

Abstract
Stylistics studies language within a system, determining its language means, their linguistic properties, nature and principles of operation. In other words, stylistics studies expressive and stylistic means that help the author convey information in a more vivid and colorful form.
Expressive means include phonetic means, morphological forms, word formation methods, as well as certain lexical, phraseological and syntactic forms. These means serve to increase the emotional and logical power of the language. Among them, phonetic means - for example, logical stress and various intonation patterns - are considered the most powerful means of expression. Because no other language element can express the smallest shades of meaning so accurately.
Stylistic means are a special group of language means that are more abstract than expressive means. Since expressive means are used more often and are encountered more often, their use is relatively easy to determine in advance. Stylistic means, on the other hand, carry more information and can be evaluated as a special code. Understanding this code and the author's intention requires attention and effort from the reader. They should be used in such a way that the text is not overloaded with excessive information.
Recently, a new view has emerged in the approach to stylistic devices - the contrast between norm and deviation. Many stylistic devices are built on the principle of replacing traditional meaning with situational meaning. The stylistic effect arises precisely from the contrast created by this substitution.
Key words: expressive means, phonetic tools, norm and deviation, lexical-stylistic devices, style

Xülasə
Stilistika dili bir sistem daxilində tədqiq edərək onun dil vasitələrini, onların linqvistik xüsusiyyətlərini, təbiətini və işləmə prinsiplərini müəyyən edir. Başqa sözlə, stilistika müəllifin məlumatı daha canlı və rəngarəng formada çatdırmasına kömək edən ifadəli və üslubi vasitələri araşdırır.
İfadəli vasitələrə fonetik vasitələr, morfoloji formalar, söz düzəltmə üsulları, eləcə də müəyyən leksik, frazeoloji və sintaktik formalar daxildir. Bu vasitələr dilin emosional və məntiqi gücünü artırmağa xidmət edir. Bunlar arasında fonetik vasitələr – məsələn, məntiqi vurğu və müxtəlif intonasiya nümunələri – ən güclü ifadə vasitələri hesab olunur. Çünki heç bir başqa dil elementi mənanın ən kiçik çalarlarını bu qədər dəqiq ifadə edə bilmir.
Stilistik vasitələr isə ifadəli vasitələrdən daha abstrakt olan xüsusi bir dil vasitələri qrupudur. İfadəli vasitələr daha çox istifadə edildiyindən və daha tez-tez rast gəlindiyindən, onların istifadəsini qabaqcadan müəyyənləşdirmək nisbətən asandır. Stilistik vasitələr isə daha çox informasiya daşıyır və onları xüsusi bir kod kimi qiymətləndirmək olar. Bu kodun və müəllifin niyyətinin başa düşülməsi oxucudan diqqət və səylə yanaşma tələb edir. Onlardan elə istifadə olunmalıdır ki, mətn həddindən artıq informasiya ilə yüklənməsin.
Son zamanlarda stilistik vasitələrə yanaşmada yeni bir baxış formalaşmışdır — norma ilə sapma arasındakı ziddiyyət. Çoxlu stilistik vasitələr ənənəvi mənanın situativ mənayla əvəzlənməsi prinsipi üzərində qurulmuşdur. Stilistik effekt məhz bu əvəzləmənin yaratdığı ziddiyyətdən yaranır.
Key words: expressive means, phonetic tools, norm and deviation, lexical-stylistic devices, style

Giriş

Stilistika ifadə vasitələrini təcrid olunmuş elementlər kimi yox, onların stilistik vasitəyə çevrilmək potensialı baxımından araşdırır. İfadəli vasitələr konkret dil faktlarıdır, stilistik vasitələr isə bu faktların şüurlu bədii istifadəsidir və onların ən mühüm xüsusiyyətləri ön plana çıxarılır. Stilistik vasitə, dil vahidinin bəzi tipik struktur və ya semantik xüsusiyyətlərinin qəsdən gücləndirilməsi yolu ilə bir modelə çevrilir.

Məlumdur ki, stilistik vasitələrin istənilən mətnin formalaşmasında mühüm təsiri var. Bu vasitələr dil səviyyələrinə görə təsnifləndirilir və məna ifadəsi də bu səviyyələr üzrə aparılır. Araşdırmalar göstərir ki, stilistik vasitələrsiz mətnləri təsəvvür etmək mümkün deyil. Hər bir mətn müəyyən dərəcədə stilistik elementlərdən ibarətdir. Onların istifadəsi mətnin üslubundan asılı olaraq dəyişir. Stilistik vasitələrin istifadəsi fikrin ifadəsini daha emosional və təsirli edir.

Dil vasitələrinin təsvir yaradan alətləri arasında leksik-stilistik vasitələrin xüsusi rolu vardır. Leksik səviyyədə bu vasitələr mətn daxilində mənanın sabitləşməsinə və fikrin daha dərin şəkildə ifadə olunmasına kömək edir. (Skebnev, 2000, s. 42)

İngilis dilinə xas olan leksik-stilistik vasitələrə aşağıdakılar daxildir: metafora, sinekdoxa, epitet, hiperbola, zeyuqma, eufemizm, bənzətmə (simile), allüziya, antonomaziya, perifraz və metonimiya.

Əsas hissə

Leksik ifadə vasitələri və üslubi fiqurlar adətən aşağıdakı kimi təsnif olunur: (Arnold, 2002, s.156)

1. Müxtəlif məna növlərinin qarşılıqlı əlaqəsindən formalaşan leksik üslubi fiqurlar
a) lüğəvi və kontekstual məna əlaqəsi (metaphor, metonymy, irony);
b) əsas və düzəltmə məna əlaqəsi (zeugma and pun);
c) məntiqi və emosional məna əlaqəsi (epithet, oxymoron);
d) məntiqi və adlıq məna (antonomasia);
2. Bir xüsusiyyətin gücləndirilməsinə (vurğulanmasına) əsaslanan leksik üslubi fiqurlar (simile, hyperbole, periphrasis).
3. Qəlib sözlərin xüsusi istifadəsinə əsasən yarana leksik ifadə vasitələr (clichés, proverbs, epigram, quotations).

Metaphor- Metafora (q.yun. μεταφορά — «köçürmə») bir əşya, varlıq və hadisəyə məxsus əlamətin digər hadisə və ya əşya üzərinə köçürülməsi yolu ilə düzəlir. Metaforanı təşbehlə (bənzətmə ilə) qarışdırmaq olmaz. Hər ikisi müqayisə, bənzətmə əsasında düzəldiyi üçün bəzən onları fərqləndirmək çətindir. Yadda saxlamaq lazımdır ki, təşbehdən fərqli olaraq metaforda qarışdırılan tərəflərdən biri iştirak etmir. Cümlədəki şəxs sadəcə bir fikirlə ifadə olunur. Yəni, təşbehdə müqayisə olunan predmetlərdən (bənzəyən və bənzədilən) hər ikisinin adı çəkildiyi halda, metaforda yalnız birinin adı çəkilir. İngilis dilində metaforanın 2 növü fərqləndirilir: genuine metaphor və trite or dead metaphors. (Galperin, 1981, s.142)

Through the open window, the dust danced and was golden.
My home is my castle.
You just have to consider the world a stage and act accordingly.
Susan was a cheetah in the race today
The house was a white elephant but he could not conceive of his father in a smaller place.
She is the Michael Jackson of our college.
The moon was a broken bangle tonight. Heart of gold, to feel under the weather, speak of the devil, a ray of hope, sleepless moon, and couch potato.

Metonomy- Metonomiya (yun. μετονυμία addəyişmə) - məcaz növlərindən biridir. Bir əşyanın, hadisənin əvəzinə onunla əlaqədar olan başqa əşya və hadisənin adı çəkilir. Metonomiyada bir anlayış verilsə də, onunla əlaqədar başqa anlayış nəzərdə tutulur. Nəzərdə tutulan anlayışı təsəvvür etmək isə

çətin olmur. Metanomiyanın İngilis dilində iki növü fərqləndirilir: trite metonomy ve contextual metonomy. (Galperin, 1981, s.144)
The White House declined to comment.
Tom's favorite dish is mac and cheese.
She is the type of person who really puts her heart into her work.
Many self-made billionaires are depicted as rags-to-riches success stories.
Wall Street is anxious about the new tax regulations.
Naturalized citizens have to take an oath of allegiance to the Crown.
He is the brain behind the whole organization.
Irony- İroniya (kinayə) yunan sözü olub hiyləgərlik, istehza deməkdir. Ən güclü leksik üslubi fiqurlardan biridir. Məcazın elə bir növüdür ki, söz özünün leksik mənasından ayrılıb tamamilə əks mənanı ifadə edir. Sözün zahirən müsbət mənada deyilib, əslində mənfi məna bildirməsi ironiya adlanır.
It must be delightful to find oneself in a foreign country without a penny in one's pocket.
A pilot has a fear of heights.
A marriage counselor files for divorce.
When you find out that, your pulmonologist smokes.
When someone crashes into a "thank you for driving carefully" sign.
"Wow that perfume is so lovely, did you bathe in it?"
Zeugma- Antik dövrdən müasir dövrə qədər istifadə oluna üslubi fiqurlardan biri zevqmadır. Yunan mənşəli olan söz (yoking/bonding) bağlama mənasını ifadə edir. Bu üslubi fiqur vasitəsilə 1 cümlədə iki fikir 1 söz vasitəsilə məntiqi və qrammatik baxımdan bir-birinə bağlanır.
John lost his coat and his temper.
He opened his door and his heart to the homeless boy.
He lost everything there: his friend, his purse, his head and finally his reputation.
"You are free to execute your laws, and your citizens." (Star Trek Next generation)
His clothes, his books, and his dignity were lost.
Pun- Cinas ərəb sözüdür, mənası oxşar deməkdir. Cinaslar formaca eyni, məzmunca müxtəlif olan sözlərdən yaradılır. Başqa sözlə desək, yazılışı və deyilişi eyni və ya bir-birinə çox yaxın olduğu halda məna baxımından fərqli olan iki və ya daha çox söz və söz qruplarının bir yerdə işlədilməsidir. Cinaslar əsasən omonimlər, omofonlar ve omoqraflar vasitəsilə yaradılır.
A bicycle cannot stand on its own because it is two-tired. (too tired)
The cross-eyed teacher could not control his pupils. (eye part)
I like kids, but I do not think I could eat a whole one. (a young goat)
Pessimists blood type is Be negative. (B negative)
Epithet-bu və ya digər predmetin qeyri-müstəqil, məcazi əlamətini göstərən təyinə epitet deyilir. Epitet yunan sözü olub əlavə deməkdir. Bədii əsərdə mənanı qüvvət-ləndirmək, müəyyən bir cəhəti diqqətə daha qabarıq çatdırmaq üçün həmin fikri ifadə edən sözə qüvətləndirici, təyinedici söz artırılır.
We had a friendly conversation.
The four men who committed the murder were put in the condemned cell.
They seemed to have an unhappy marriage.
He has had a happy morning.
Tom passed a sleepless night.
The boy stood upon the dizzy cliff.
Oxymoron- Oksimoron (yun. oxymoron - ağıllı dəli) — bir məfhumun əks cəhətlərini ifadə edən iki antonim sözün mənaca qarşılaşdırılıb birləşdirilməsindən yaranan ifadəyə deyilir. Oksimoron iki antonim sözdən əmələ gəlsə də, həmin əksmənalı sözlər yanaşı işlənərək bir ifadə kimi dərk edilir.

Bu ifadələr hadisələrin mahiyyətini, əks və mürəkkəb cəhətlərini açmağa imkan verir, bədii dildə təsir qüvvəsini, məna tutumunu artırır, nitqə emosionallıq verir.
They asked us to submit the original copy.
Chester demanded that he wanted the whole piece of cake.
There was only a small crowd in front of the grocery store.
The movie seemed to be awfully good.
Dharini, moving to France, is an open secret.
Everyone was amazed at her foolish wisdom.
Antonomasia- Antonomasiya yunan mənşəli söz olub "yeni adla müraciət etmək " deməkdir. Bu üslubi fiqur bir şəxsin adının ona məxsus olan hər hansısa bir keyfiyyətə və ya xarakterə uyğun gələn söz və ya söz birləşməsi ilə əvəz etməklə yaradılır.
Michael Jackson as "The King of Pop"
Madonna as "The Queen of Pop"
Muhammad Ali as "The Greatest"
Excuse me Tarzan, could you please come down from that tree.
I know this Scrooge well.
Simile- Təşbeh əşyanın müəyyən əlamətə görə özündən daha qüvvətli başqa əşyaya oxşadılmasıdır. Metaforadan fərqli olaraq cümlədə bənzəyən və bənzədilən obyektlər arasında "like" və ya "as" bağlayıcılarından istifadə olunur.
Lois moved across the room like a warship sailing into battle.
Life is like a box of chocolates.
He runs as fast as lightning.
They're as sweet as honey.
Don't trust his words; he is cunning like a fox.
My wife is as busy as a bee in the mornings.
Hyperbole- Mübaliğə sözünün lüğəvi mənası şişirtmə deməkdir. Hadisə və ya fikrin şişirdilmiş şəkildə verilməsi mübaliğə adlanır. Ədəbiyyatşünaslıqda mübaliğəyə hiperbola da deyilir.
I am so hungry I could eat a horse.
This ice cream is out of this world.
I'm in so much trouble, my Dad is going to kill me.
I have told you a million times to stop doing that.
I'll be there in two seconds.
Periphrasis- leksik üslubi fiqur kimi bədii ədəbiyyatda və danışıq dilində qısa bir ifadənin dolayı yolla ifadə vasitəsidir. Başqa şəkildə ifadə etsək, birbaşa və qısa ifadənin yerinə lazımsız uzun ifadənin istifadəsi deməkdir.
The bright celestial body that gives light to the Earth - the sun.
She peeled off the skin of a yellow elongated fruit for the child.- a banana
Her olfactory system was suffering from a temporary inconvenience- Her nose was blocked
They travelled to the city that never sleeps- New York
The hospital was crowded with surgically interesting products of the fighting in Africa. – wounded
Clichés- uzun müddət istifadə edilmiş və artıq təsirini itirmiş dildə hazır şəkildə mövcud olan ifadə, fikir və ya elementdir.
All for one, and one for all
Cat got your tongue?
Only time will tell
Time flies
And they all lived happily ever after
Someone woke up on the wrong side of the bed.

Proverbs Atalar sözləri xalqın həyatda sınanmış, müdrik və nəsihətli fikirlərindən ibarət olur və böyük əxlaqi-tərbiyəvi əhəmiyyət daşıyır. Əsas xüsusiyyəti həcmcə kiçikliyi, lakin mənaca hikmətli və nəsihətli olmasıdır.
Don’t put off until tomorrow what you can do today.
Easy come, easy go
Honesty is the best policy
Two heads are better than one
Quotations Sitat- öz fikrini əsaslandırmaq və ya aydınlaşdırmaq üçün başqasının söylədiklərindən, yazdıqlarından gətirilən dəqiq çıxarışlardır.
“Try not to become a man of success. Rather become a man of value.” – Albert Einstein
"The best way to find out if you can trust somebody is to trust them."- Ernest Hemingway
Epigram Epiqram- Qədim yunanlarda abidələr, binalar, hədiyyələr və s. üzərində yazılan yadigarlıq yazıdır.
Experience is the name everyone gives to his or her mistakes.
I can resist everything except temptation.
The hard days will bring joy.
Life is a tale told by an idiot.

Nəticə

Bədii mətnlər daha zəngin dil xüsusiyyətlərinə malikdirlər. Bədii mətnlərdə əsas xammal olan sözdən məharətlə seçib işlətmək tələb olunur. Sözün əlavə məna kəsb etməsi, müəyyən fonetik dəyişikliyə məruz qalması, sözlərin məna köçürülməsi, cümlə konstruksiyasının dəyişməsi nəticəsində obrazlı ifadələr olan üslubi fiqurlar yaranır. Üslubi fiqurlar müəyyən standartdan kənaraçıxma nəticəsində yaranır. Üslubi fiqurlar daha ekspressiv, emosional və obrazlı ifadələrin yaranmasına xidmət edir. Həm məcazlar, həm də fiqurlar nitq emosionallığını artıran vasitələrdir. Yaranmasına görə fiqurlar müəyyən təsnifat əsasında qruplaşdırılmışdır. Üslubi fiqurlar (metafora, metonimiya, mübaliğə, oksimoron, antonomasiya və s.) bədii əsərlərdən seçilmiş və danışıq dilinə xas olan nümunələr əsasında təhlil olunmuşdur.

İstifadə olunmuş ədəbiyyat

1. Arnold, I. V. (2002). *Stylistics of modern English language* (4th Ed.). Moscow: Flinta.
2. Galperin, I. R. (1981). *Stylistics*. Moscow: Vysshaya Shkola.
3. Literary Devices. (n.d.). *Literary Devices*. Retrieved June 20, 2025, from https://literarydevices.net/
4. Literary Devices Editors. (n.d.). *Literary-Devices.com*. Retrieved June 20, 2025, from https://literary-devices.com/
5. Skrebnev, Y. M. (2000). *Fundamentals of English stylistics*. Moscow: Astrel.
6. Verdonk, P. (2003). *Stylistics*. Oxford University Press.

DİRECTİONS FOR REGULATİNG THE ENVİRONMENT AFFECTİNG THE LEVEL OF DEVELOPMENT OF İNTELLECTUAL SKİLLS OF STUDENTS İN GENERAL EDUCATİON SCHOOLS

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TƏHSİLALANLARIN İNTELLEKTUAL BACARIQLARININ İNKİŞAF SƏVİYYƏSİNƏ TƏSİR GÖSTƏRƏN MÜHİTİN TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ

Firədun Nadir oğlu İbrahimov
ADPU-nun Şəki filialının professoru
https://orcid.org/0000-0002-0775-1048

Sevil Fərrux qızı İbrahimova
ADPU-nun Şəki filialı, baş müəllim Əməkdar müəllim
https://orcid.org/0000-0002-8944-3611

Abstract.
It is shown in the research work that intellectual, creative activity of everyone living in the "techno–Democratic–information society"becomes a high demand, and for this it is desirable that each member of this capacity be elevated to the level of a subject of intellectual abilities, they must have information culture and technological literacy.
In the research work, the characteristics of "Education 4.0", which exhibits an effective environment for the formation of intellectual skills, and the groups of intellectual skills that are necessary to be formed in this system, formulated on a certain logical basis, were presented.
In the research work, it is noted that these tasks are formulated on the basis of the principle of modeling the structure of various intellectual skills. As the students perform them, they can determine the purpose of their work, systematize educational material in this regard, independently collect material, etc. they acquire intellectual skills such as:
In the work, attention is focused on the selection of tasks to be applied in order to form intellectual skills, their introduction into the system and didactic principles necessary in organizing the activities of students on them, which should be guided by hand.
Keywords: intellectual skills; metacognitive skills; creative thinking; idea; task; interactive learning; psychological support; facilitator; motivation; reflection.

Xülasə.
Tədqiqat işində göstərilir ki, "Texno–demokratik–informasiya cəmiyyəti"ndə yaşayan hər kəsin intellektual, yaradıcı fəaliyyət göstərməsi üstün tələbata çevrilir və bunun üçün bu cə miyyətin hər bir üzvünün intellektual bacarıqların subyekti səviyyəsinə yüksəlməsi arzuolunan dır, onlar informasiya mədəniyyə tinə və texnoloji savadlılığa malik olmalıdırlar.
Tədqiqat işində intellektual bacarıqların formalaşması üçün səmərəli mühit sərgiləyən "Təhsil 4.0"-ın xüsusiyyətləri, bu sistemdə formalaşdırılması zəruri olan intellektual bacarıqların müəyyən məntiqi əsasla formulə edilən qrupları təqdim edilmişdir.
Tədqiqat işində diqqətə çatdırılır ki, bu tapşırıqlar müxtəlif intellektual bacarıqların strukturu nun modelləşdirilməsi prinsipi əsasında tərtib edilir. Təhsilalanlar onları yerinə yetirdikcə öz işi nin məqsədini müəyyən etmək, bu baxımdan tədris materialını sistemləşdirmək, müstəqil surətdə material toplamaq və s. kimi intellektual bacarıqlara yiyələnirlər.
İşdə intellektual bacarıqların formalaşdırılması məqsədi ilə tətbiq ediləcək tapşırıqların seçil məsi, sistemə salınması və onların üzərində şagirdlərin fəaliyyətinin təşkil olunmasında zəruri olan, əldə rəhbər tutulmalı didaktik prinsiplərə diqqət yönəldilmişdir.
Açar sözlər: intellektual bacarıqlar; metaidrak; metakoqnitiv bacarıqlar; yaradıcı təfəkkür; ideya; tapşırıq; interaktiv təlim; psixoloji dəstək; fasilitator; motivasiya; refleksiya.

***Mövzunun aktuallığı*:** Hələ XXI əsrin əvvəllərində dövrün tələblərinə uyğun insanın necə yetişdirilməsi sualı qlobal müzakirələrə səbəb olmuşdur. Müasir dövrdə uğur qazanmaq üçün yalnız oxuyub yazmaq, riyazi və təbiət elmlərinə aid biliklərə malik olmaq azdır və daha çox kompetensiyalar nümayiş etdirmək tələb olunur. XXI əsrin xüsusiyyətləri tələb edir ki, insan yaradıcı fəaliyyət üçün zəruri keyfiyyətləri (sürətlə dəyişən, inkişaf edən dünyada yaşamaq və irəliləmək üçün qərar qəbuletmə, problem həlletmə, müstəqil öyrənmə, əməkdaşlıq, komandada çalışmaq, müxtəlif yanaşmaları dəyərləndirmək, yeni fikirlər irəli sürmək, təşəbbüs göstərmək və s. bacarıqları) inkişaf etdirməlidir. Bu, cəmiyyətin gələcəyinin inkişafı üçün dayanıqlılığa şərait yaradır. "Texno – demokratik - informasiya cəmiyyəti"ndə yaşayan hər kəs intellektual, yaradıcı fəaliyyət göstərməli olur. Bunun üçün insan intellektual bacarıqların subyektiv səviyyəsinə yük sələlidir. Odur ki, intellektual bacarıqların əldə olunmasının optimal yollarını müəyyənləşdi rilməsi, adekvat yolları özündə ehtiva edən mühitin tənzimlənməsi zəruridir. Sözügedən məsələ nin həllinin metodik sistemi isə kifayət qədər elmi əsaslarla işlənilməmişdir. Odur ki, "Şagirdlə rin intellektual bacarıqlarının inkişafına təsir göstərən mühitin tənzimlənməsi istiqamətləri" mövzusunun tədqiqatının aktuallığını iddia edirik.

Tədqiqatın məqsədi ümumi təhsilin həyata keçirilməsi prosesində təhsilalanların intellek tual bacarıqlarının formalaşmasına yönələn pedaqoji təsirin istiqamətləri barədə ideya müəyyən ləşdirməkdir: Nəzərə alınır ki, ideya vacib dəyərdir; insanın fəaliyyət dünyası həmişə ideyaya söykənir; hər kəs fəaliyyətinin nəticəsinin məqbul hesab etdiyi ideyaya adekvatlığını yoxlaya-yoxlaya addımlar atır.

Tədqiqatın metodoloji əsası. Tədqiqatın aparılması prosesində L.Bertalanfinin "Sistem təh lili ideyası"[2;8] əsasında (*mənası obyektin xassələrini onun hissələrinin xassələrinə əsasən öyrənmək cəhdi kimi izah olunan ideya*-kursiv bizimkidir-F.İ; G.Ə) dialektikanın mühüm qolu kimi formalaşaraq onun alternativi səviyyəsinə yüksəlmiş "Sistem-struktur yanaşma"dan, elmi idrakın empirik, empirik-nəzəri və nəzəri metodlarından, elmi idrakın formalarının daxili əlaqələ rindən, müxtəlif pedaqoji və psixoloji araşdırma ümumiləşdirmələrindən metodoloji əsas kimi istifadə olunmuşdur.

Tədqiqat materialları üzrə ümumiləşmələrin interpretasiyası: Danılmazdır ki, bəşər təcrübə sinin paylaşılması prosesi olan təhsil ictimai praktikanın (məxsusi olaraq pedaqoji elmin) məhsu lu olaraq mərhələlər üzrə sənaye inqilablarının xüsusiyyətlərini özündə ehtiva etməklə inkişaf etmişdir. IV sənaye inqilabı dövründə yaradıcı, innovativ və qlobal miqyasda rəqabət apara bilə cək nəsil formalaşdıra bilən təhsil sistemi tələb olunur və hazırda sözügedən inqilabın təhsil pro sesinə təsiri və "*gələcəyin təhsili*" məsələsi müxtəlif platformalarda müzakirə olunur və müvafiq zəruri addımlar atılır.[11], [12; 92-97] .

IV Sənaye İnqilabı həyatımızın müxtəlif sahələri üçün fərqli təsirlərə malikdir. Bu nöqte yi-nəzərdən təhsil üçün həm imkanlar, həm də problemlər mövcuddur. Lot, 3D çap, kvant hesablamaları, süni intellekt və s. kimi fərqli texnologiyaların istifadəsi informasiyanın daha effektiv şəkildə ötürülməsinə və yeni "təhsil çərçivəsinin" inkişafına imkan verir.[14; 78-94].

IV Sənaye inqilabının çağrışları ilə bağlı təhsil sistemində və onun həyata keçirilmə siste mində aparılan islahatların əsas hesab edilən iki səbəbini xüsusi fərqləndirmək lazımdır. *Birinci si,* sürətlə dəyişən qlobal iqtisadiyyatın tələbatlarına uyğun bilik (informasiyaya) və bacarıqlara sahib olan işçi qüvvəsinin yetişdirilməsi, *ikincisi,* sənaye inqilabı dövründə ona adekvat informa siya cəmiyyətinin inkişafı üçün lazım olan məhsuldar qüvvələri (işçi qüvvəsini) ərsəyə gətirə bilə cək təhsil və onun həyata keçirilmə sisteminin qurulmasıdır. [9;288]

Hazırda insanı daha güclü edən "texno-demokratik-informasiya cəmiyyəti" kimi sistem vardır. Bütün üzvlərinin lazımı şəkildə, kifayət qədər informasiya ilə təminatı və yüksək səviyyə də informasiya xidmətlərinin həyata keçirilməsi sözügedən cəmiyyətin məxsusi xüsusiyyətidir. İnformasiya cəmiyyəti sənaye cəmiyyətindən fərqli olaraq daha intelektual cəmiyyətdir və insan ların yüksək təhsilli, bacarıqlı, qərarlı, hərtərəfli inkişafı üçün şərait yaradır**.**

İnformasiya cəmiyyəti dedikdə–informasiyanın istehsalı və istifadəsi, informasiya resursları, informasiya cəmiyyətinin baza texnologiyaları və texnikası, yeni informasiya – telekommuni kasiya texnologiyaları və texnikası və s. başa düşülür. İnformasiya cəmiyyətinin əsas xarakterik

xüsusiyyətləri bunlardır: cəmiyyətdə kütləvi şəkildə informasiya ehtiyaclarının ödənilməsi; cəmiyyətdə informasiya iqtisadiyyatı; cəmiyyət üzvlərinin yüksək səviyyədə informasiya təla batı; cəmiyyətdə yüksək informasiya mədəniyyəti, cəmiyyət üzvləri üçün açıq informasiya şəbə kələrinin genişlənməsi; vahid informasiya mühitinin formalaşması və inkişaf etdirilməsi perspek tivləri; cəmiyyət üzvləri üçün informasiya təhlükəsizliyi; qloballaşma və inteqrasiya səviyyəsi və s. "Texno-demokratik-informasiya cəmiyyəti"inin üzvləri informasiya mədəniyyətinə və texnoloji savadlılığa malik olmalıdırlar, əks halda onlar sözügedən cəmiyyətin fəal və yaradıcı üzvləri kimi özlərini təsdiq etmək iqtidarında olmazlar.

***İnformasiya mədəniyyəti* (*information culture*)**-insanın informasiya cəmiyyətinə uyğun laşması üçün zəruri olan bilik, intellektual bacarıq və vərdişlərdir. İnformasiya mədəniyyətinin formalaşmasında kompyuter şəbəkəsinin rolu böyükdür. İnformasiya mədəniyyəti: cəmiyyətin informasiya resurslarından və informasiya kommunikasiya vasitələrindən istifadə etmək bacarı ğıdır; cəmiyyətdə informasiyalaşma və informasiya texnologiyaları vasitələrinin inkişafı sahəsin də qabaqcıl nailiyyətlərin tətbiqidir; müasir texniki vasitə və metodlardan, kompyuter texnologi yalarından istifadə etməklə informasiyanın əldə edilməsi və ötürülməsi bacarığıdır.

Texnoloji savadlılıq–insanların müxtəlif rəqəmsal texnologiyalardan istifadə etmə bacarığı, məlumatları təhlil etmə və təhlükəsiz şəkildə rəqəmsal mühitdə fəaliyyət göstərmə qabiliyyətidir. "Bu bacarıq sadəcə kompyuter və internetdən istifadə etməklə məhdudlaşmır, həmçinin: 1) Rə qəmsal təhlükəsizlik və kibertəhlükəsizlik qaydalarına riayət etməyi; 2) Süni intellekt və avto matlaşdırma ilə işləməyi; 3) Rəqəmsal analitika və data emalı bacarıqlarını; 4) Bulud texnologi yalarından istifadə etməyi; 5) Yeni texnologiyalara tez uyğunlaşmağı əhatə edir"[5]

Texnoloji savadlılıq informasiya və kommunikasiya texnologiyalarından istifadə etmək baca rığını ehtiva edir. *Rəqəmsal təhsil*, insanlara sosial həyatda müstəqil şəkildə iştirak etməyə im kan verir. Bundan əlavə, *rəqəmsal təhsil* və *rəqəmsal inqilab* gerçəyi mənəvi əxzetmə forma və metodlarında əsaslı dəyişiklikləri tələb edir, rəqəmsal bacarıqların ən vacib qabiliyyətə çevrilmə sinə gətirib çıxarır. [16;58-64]

Rəqəmsal bacarıqların inkişafı onların gələcəkdə rəqəmsal texnologiyalarla təhlükəsiz və effektiv şəkildə əlaqələndirilməsini təmin etmək üçün vacibdir. Təhsil sistemlərinin, hərtərəfli və vahid yanaşma etməsi, bütün təhsilalanların rəqəmsal texnologiyaların aktiv və etik istifadəçisi olmaq bacarıqlarını inkişaf etdirməsinə dəstəyi lazımdır.[17; 57-79]

Rəqəmsal texnologiyalara əlçatanlığın təmin edilməsi məqsədilə təhsilalanların məktəbdə və evdə istifadə edə biləcəyi cihazlarla təmin etmək və ya BYOD (*Bring Your Own Device*) stra tegiyalarından istifadə olunur. Rəqəmsal bacarıqların formalaşdırılması üçün tədris planının yeni lənməsi, *"təlim çərçivələri"*nin formalaşdırılması (*learning frameworks*), təhsilverənlərin təlim lərə cəlb olunması, rəqəmsal təhsil resurslarının inkişaf etdirilməsi kimi bir sıra addımlar atmaq olar. [15]

Rəqəmsal texnologiya ilə təhciz edilmiş təhsilalanlar dünyanın müxtəlif yerlərindən olan həmyaşıdları ilə öyrənə və problemləri həll etmək üçün komanda şəklində həll yollarını inkişaf et dirə bilirlər (belə bir imkana sahib olurlar). Şübhə yoxdur ki, təhsilalanların rəqəmsal bacarıq larının inkişafı onların gələcəkdə *rəqəmsal vətəndaşlar (digital citizenship)* kimi cəmiyyətdə da ha fəal iştirakına səbəb olacaq. [15], [17; 57-79]

Təhsilalanların IV sənaye inqilabının təsiri ilə yaranan yeni sahələrdə bacarıq və qabiliy yətlərini nümayiş etdirə bilmələri üçün texnologiya və tədris olunan fənn proqramlarında əsaslı dəyişikliklərin həyata keçirilməsi zəruri hala gəlir. Yeni tədris proqramlarında "*baza elmlə*r" hesab edilən kimya, biologiya, fizika və s. əsasında formalaşan fənlərin tədris plan-layihələri yenidən nəzərdən keçirilməklə, IV sənaye inqilabı savadlılığının formalaşmasında əsas rol oyna yan kompyuter elmləri üzrə fənlərin tədrisinə daha çox yer verilməsi diqqət mərkəzinə çəkilməli olur. Təbii olaraq sözügedən fənlərin tədrisinə daha çox yer verilməlidir. [20; 432-466]

Texnologiyanın sürətli inkişafı ilə əlaqədar olaraq, təhsilalanların təhsil müddətində öyrəndikləri bilik və bacarıqlar onlar təhsili başa vurana qədər köhnəlir. Elmi və texniki təhsildə günümüzün ən sürətlə inkişaf etməkdə olan texnologiyaların istifadəsinin inkişafına və forma laşmasına kömək etmək üçün təhsilalanları öyrətmək və onları rəqəmsal mühitə hazırlamaq lazımdır. Sürətlə dəyişən mühitə adaptasiya olmaq məzun olduqdan sonra belə, təhsilalanın təhsil müəssisələri ilə əlaqə qurmasını

vacib edəcək və həm işçilərə yenilənmiş bacarıqları, həm gənc təhsilalanlara (və müəllim heyətinə) sənaye və koorporativ sektorda sürətlə dəyişən həqiqətlərlə əlaqəli yeni bir istiqamət təqdim edəcək.[18; 25-30], [19; 579-592]

Danılmazdır ki, hər bir sənaye inqilabının çağrışlarında məxsusilik mövcuddur. Bu, dünya da gedən qlobal dəyişikliklərin fonunda təzahür edir, eyni zamanda informasiya mədəniyyətində də, texnoloji savadlılığın məzmununda da yeni çalarların mövcudluğunu şərtləndirmiş olur. Dün ya tarixinin müxtəlif mərhələlərində insanlıq ciddi dəyişikliklərlə üz-üzə qalmış və aparılan islahatlarla nəticələr əldə etmişdir. Sənaye inqilablarının fonunda təhsil proqramları tərtibçiləri aşağıda özünə yer alan fundamental suallara cavab axtarmalı olmuşlar: 1) Hansı bilik, bacarıq və dəyərlər təhsil proqramlarında öz əksini tapmalıdır?; 2) Bu bilik, bacarıq, dəyərlər və kompeten siyalar təhsilalanlarda zəruri həyati bacarıqları formalaşdıracaqmı?; 3) Təhsilin həyata keçirilmə prosesini təhsilalanlar üçün necə uyğun və maraqlı etmək olar?; 4) Qiymətləndirməni (təhsilin həyata keçirilməsi prosesinin ayrılmaz hissəsini) daha məhsuldar və effektiv necə etmək olar?

Çağdaş zamanımızda təhsil proqramının keyfiyyətli olmasının göstəricisi olaraq onun aktual lığı, praktik olması, effektivliyi və davamlılığı kimi parametrlər diqqət mərkəzinə çəkilir, uğurlu olmasının göstəricisi isə təhsilalanlarda mənimsəmənin keyfiyyəti və təhsilalanların mənimsədik lərini nə dərəcədə effektiv şəkildə öz şəxsi, sosial, idraki, psixoloji və emosional inkişafları üçün istifadə edə bilmələridir. [3; 5]

Yeri gəlmişkən qeyd edək ki, UNESCO-nun keyfiyyətli təhsil proqramı üçün aşağıdakı meyar lar vardır. Təhsil proqramının: aydın məqsədlərinin olması; bu günün tələblərinə cavab verməsi; təhsilalanların bugünkü və gələcək həyatları, təcrübələri, arzu və istəklərinə uyğunluğu; yaşadıq ları ölkənin tarixini və mədəniyyətini nəzərə almaqla sosial və iqtisadi baxımdan təhsilalanlar üçün firavan gələcək qura bilmək məqsədinin olması; ədalətli və inklüziv olması (təhsilalanların fərdiliklərinin, fərdi ehtiyaclarının nəzərə alınması və s.); şagirdyönümlü olması (təhsilalanın ehtiyaclarını nəzərə alırmı, təhsilalanın yaşına müvafiq olması, şəxsi inkişafa və həyat bacarıqla rının formalaşmasına kömək etməsi və təhsilalanların həddindən artıq yüklənməməsi); açıq və çe vik olması (baş verən yeniliklərin məzmuna inteqrasiya etməsi); ardıcıl və əlaqəli olması.[3; 5]

IV Sənaye İnqilabı sosial-iqtisadi sahələrdə olduğu kimi, təhsil sisteminə də öz təsirini göstərməkdədir. Sənaye inqilablarına uyğun "dərk və dəyişdirmə təcrübəsinin paylaşılması pro sesi olan təhsil"-mərhələlər (sənaye inqilablarının məxsusi xüsusiyyətlərini özündə ehtiva etmək lə) üzrə inkişaf etmişdir. Vurğulamaq yerinə düşər ki, təhsil sistemində gözlənilən *paradiqmal dəyişikliklər və qlobal təhsil islahatının aparılması* IV Sənaye İnqilabının təsiri ilə daha da sürətlənmişdir.[21; 147-171]

Təhsil sistemi təhsilalanları sürətli iqtisadi və sosial dəyişikliklərə, hələlik mövcud olma yan işlərə, kəşf edilməmiş texnologiyalara, gözlənilməz sosial problemləri məqmında dərk et mək və onları səriştəli şəkildə aradan qaldırmağa qadir səviyyədə hazırlanmasına yönələn tələblə üz-üzədir. Odur ki, təhsil sistemi bu tələbi yerinə yetirmək üçün davamlı şəkildə tənzimlənməli və həmin hədəfləri diqqət mərkəzinə almalıdır. IV Sənaye İnqilabı dövründə təhsil cəmiyyəti inkişaf etdirə biləcək potensiala, kompleks və dialektik imkanlara sahib olmalıdır. Təhsil müəssi sələri təhsilalanların bilik əldə etməsi ilə yanaşı, *rəqəmsal və texnoloji savadlılıq* (*digital and technology literacy*) – intellektual bacarıqlar qazanmalarına nail olmalıdır. [10]

Yuxarıda qeyd etdiyimiz kimi, texnoloji savadlılıq informasiya və kommunikasiya texno logiyalarından istifadə etmək bacarığını ehtiva edir. Rəqəmsal təhsil, insanlara sosial həyatda müstəqil şəkildə iştirak etməyə imkan verir. Rəqəmsal inqilab gerçəyi mənəvi əxzetmə forma və metodlarında əsaslı dəyişiklikləri tələb edir.

Sənaye 4.0 ilə əlaqədar olaraq *"innovasiyanın təhsil sistemlərində hakim olmağa başla dığını*" söyləsək yanılmarıq. Təhsil müəssisələri yeniliyi yalnız qloballaşmanın təsiri ilə qlobal rə qabət qabiliyyətinin artmasını təmin etmək məqsədi ilə deyil, həm də onu təhsil sisteminin əsas hissələrindən biri kimi görməli olacaqdır. Dövrün tələbinə uyğun olaraq, yeni texnologiyaların öyrədilməsi əsas ehtiyaclardan biri kimi məntiqi əsasa dayanmaqla qəbul ediləcəkdir. "Həyat bo yu öyrənmə" (*lifelong learning*) təhsil sisteminin əsas devizi olacaqdır. Təbidir ki, təhsilin məz mununda XXI əsr bacarıqları da nəzərə alınmalıdır: biliklə yanaşı kompleks problem həll etmə, tənqidi

düşünmə, yaradıcılıq, liderlik, rəqəmsal savadlılıq, emosional zəka, qlobal vətəndaşlıq, əməkdaşlıq, müzakirə, mühakimə və qərarvermə kimi qabiliyyət və bacarıqların inkişafı da əsas öyrənmə nəticəsi olaraq qəbul ediləcəkdir.


Təhsil 4.0 cəmiyyətdəki dəyişikliklərə müvafiq olaraq təhsilalanların inkişafına kömək edən yeni texnologiyalardan istifadə bacarıqlarının(intellektual bacarıqların) formalaşmasına xid mət etməlidir. Təhsilalanlarda sadəcə oxumaq və yazmaq deyil, bütün həyatı boyunca istifadə edə biləcəyi bilik və bacarıqlar formalaşdırmalıdır. Beləliklə, sistem insan kapitalının ehtiyacını ödəmək üçün sosial və iqtisadi mühitdəki dəyişikliklərə cavab verməlidir. Təhsil 4.0 fərdləri yara dıcı və yenilikçi olmağa hazırlamaq məqsədi daşıyır. Təhsil təhsilalanların yaşadığı mühitlə uy ğunlaşmalı, onlara etibarlı və uğurlu gələcək təmin etməlidir. Bu yeni sistem "ağıllı"*(smart)* mək təb idarəetmə sistemlərindən, öyrənmə idarəetmə proqramlarından, kommunikasiya vasitələrin dən və təlim-tədris vasitələrindən istifadə edir.[13; 238-254]

Təhsil 4.0 yanaşmasında, konstruktivist təhsil sistemləri və Blum taksonomiyasından kə nara çıxmaqla, xüsusilə aşağıdakı istiqamətlərə əsaslanan, intellektual bacarıqların formalaş masına və inkişafına yönələn mühitin-bir tədris prosesinin tətbiq ediləcəyi müəyyən edilmişdir: 1) Anlamanı tənzimləyən 3R (Recalling–Yada salma, Relating–Əlaqələndirmə, Refining–Yeniləmə); 2) Araşdırmağa təşviq edən 3I (Inquiring–Sorğulama, Interacting–Qarşılıqlı əlaqə, Interpreting–İzahetmə); 3) Nəticə çıxarmağa əsaslanan 3P (Participating–iştirak etmə, Proces sing– tətbiq etmə, Presenting–təqdim etmə).[22; 92-98], [23; 40-45]

İntellektual bacarıqların formalaşması üçün səmərəli mühit sərgiləyən Təhsil 4.0 aşağıdakı xüsusiyyətlərə malikdir: 1) Zaman və məkandan asılı olmadan öyrənmə (həyat boyu öyrənmə, e-təhsil və s.); 2) Təhsilalanların bacarıq və qabiliyyətlərinə uyğun fərdiləşdirilmiş təhsil almaq im kanı; 3) Tədris planının hazırlanması zamanı təhsilalanların təkliflərinin nəzərə alınması; 4) Layihə əsaslı təlimin *(project based learning)* üstünlük təşkil etməsi; 5) Təhsilalanların böyük ölçülü verilənlər *(Big Data)* üzərində analizləri aparmaq qabiliyyətinin formalaşdırılması; 6) Təhsilalanların biliklərinin layihələrə tətbiq prosesində qiymətləndirilməsi; 7) İnkişaf etməkdə olan yeni texnologiyaların təhsil sisteminin bir hissəsinə çevrilməsi və s.[11-12]

IV sənaye inqilabı dövründə "*ağıllı*" təhsil vasitələri və resursları fərdlərin daha mükəm məl təcrübə, bilik və bacarıqlara yiyələnməsinə, yenilikçi perspektivlərini üzə çıxarmasına imkan verməlidir.

Təhsil-tərbiyədə intellektual idrak bacarıqlarının formalaşması yolu çağdaş zəmanəmizdə tət biq olunan, inovasiyarı özündə ehtiva edən təlimin məziyyətləri ilə adekvatdır. Fikrimizi belə bir sxemlə əyaniləşdirə bilərik:



Elmi mənbələrdə göstərilir ki, ümumi təhsilin həyata keçirilməsi prosesində şagird özünün əqli məziyyətlərini reallaşdırmaq, idrak fəaliyyətini məqsədyönlü tənzim etmək üçün zəruri intel lektual bacarıqlara yiyələnməlidir. İntellektual bacarıqlar çoxsaylıdır. N.A.Mençinskayanın bu sahədəki araşdırmalarını nəzərə alaraq intellektual bacarıqları belə qruplara ayırmaq olar: 1.Ümu mi intellektual bacarıqlar (planlaşdırma, kitabla iş, özünənəzarət); 2.Psixi fəaliyyətin təşkili üçün zəruri olan intellektual bacarıqlar (mətndə əsas fikri ayırd etmək, mətni mənasına görə hissələrə bölmək, hadisələri tutuşdurmaq və s.); 3.Xüsusi intellektual bacarıqlar (onlar bu və ya digər fən nin xüsusiyyətlərini əks etdirir, məsələn, qrafik bacarıqları). İntellektual bacarıqların İ.Untun müəllifi olduğu başqa bir təsnifatı isə belədir: 1.Tədris materialının qavranılması ilə bağlı baca rıqlar (oxu, müşahidə, dinləmək bacarığı); 2.Tədris materialı ilə məntiqi əməliyyat aparmaq baca rığı (mühüm olanın aid edilməsi, müqayisə, nəticə çıxarmaq bacarığı və s.); 3. Yaradıcılıq baca rıqları (kompozisiya qurmaq bacarığı və s.) [1; 60].

İntellektual bacarıqların başlıca funksiyası fikri əməliyyat eksteriorizasiyası (psixi fəaliy yətə xarici, praktik fəaliyyətin interiorizasiyası, buna müvafiq olaraq, praktik fəaliyyətə daxili, psixi fəaliyyətin eksteriorizasiyası-xarici olana çevrilmə-kimi baxılır) ilə əlaqədardır: idrak fəaliy yətinin məzmunu fikri əməliyyatlarla şərtlənir, onların fəaliyyəti prosesində reallaşması isə bila vasitə intellektual bacarıqların səviyyəsindən asılıdır [1; 60], [7; 174].

İnsanın özünü dərk etməsi həmişə dünya fəlsəfəsi, psixologiyası və pedaqogikasının aktual problemi olub. Elm xadimləri insanın özünü dərk etməsinə şəxsiyyət yönümündən yana şıb, onun köklərini insanın öz “Mən”i haqqında təsəvvürlərinin formalaşması prosesində axta rıblar. Təəssüf ki, tədqiqatçılar son dövrlərədək insanın öz ağıl dünyasının, təfəkkür aləminin, koqnitiv proseslərinin xüsusiyyətlərini dərk etməsini kifayət qədər dəyərləndirməyiblər.

Məktəb təcrübəsində də idrak fəaliyyətinin psixologiyası yetərincə öyrənilməyib, şagirdlər özlərinin hafizə və ya təfəkküründün xüsusiyyətləri ilə maraqlansalar da, onların maraqları təmin olunmayıbdır. Çağdaş Amerika psixologiyasında bu məsələ diqqət mərkəzinə çəkilərək meta idrak sistemi kimi öyrənilməyə başlanılmışdır. Müəyyən edilmişdir ki, uşaqlar inkişaf etdikcə onlarda koqnitiv (idrak) proseslər haqqında müəyyən təsəvvürlər formalaşır və özlərinin əqli fəallıqlarını tənzim etməyə başlayırlar.

Vurğulamaq yerinə düşər ki, özünümonitorinq, özünütənzimləmə, özünüqiymətləndirmə metakoqnitiv bacarıqlar olub, bir-biri ilə əlaqəli, lakin fərqli anlayışlardır. İnsanın özünün dərk

proseslərindən agah olması və dərk etməsidir. *Özünümonitorinq* tapşırıq zamanı hərəkətlərini, davranışlarını və idraki proseslərini müşahidə etmək və izləməkdən ibarətdir. Burada şagird özü nü nəzarətdə saxlamağa cəhd etmir, öz fəaliyyətini mühakimə etmir, dəyərləndirmir. Sadəcə özü nü müşahidə edərək performansı haqqında məlumat toplayır. Bu prosesin əsas komponentləri bunlardır: müşahidə; agah olmaq; rəy. *Özünütənzimləmə* insanın məqsədə çatmaq üçün idrakını, emosional vəziyyətini və davranışını nəzarərdə saxlası və idarə etməsidir. Bu prosesin əsas komponentləri bunlardır: məqsədin müəyyən edilməsi; planlaşdırma; emosional tənzimləmə; uyğunlaşma. Özünüqiymətləndirmə özünün fəaliyyəti və ya öyrənməsi haqqında mühakimə yü rütmək və ya qiymətləndirməkdir. Bu prosesin əsas komponentləri bunlardır: qiymətləndirmə; refleksiya (3;50).

ettiği gerçek doğrultusunda yapılan yeni araştırmalarda Dr. Martin'in sanat eseri koleksiyoncusu, kültür tarihçisi, diplomat ve oryantalist Fredrik (Fredric) Robert Martin (1868-1933) olduğu anlaşılmıştır (Jarring, 2019; aktaran Rukancı ve Anameriç, 2019, s. 401). Bu ilginç detay muhtemelen bundan sonraki yabancı araştırmacı başvurularında hep hatırlanacak ve erişim kararının verilmesinde geliştirici bir kural olarak telakki edilecektir. İsveç'ten gelen ikinci araştırmacı Prof. Dr. Gunnar Jarring'dir (1907-2002). İsveç vatandaşı Prof. Jarring, İsveç Kralı XII. Karl'ın (sal. 1697-1718) (Demirbaş Şarl, 1682-1718) Osmanlı topraklarında ikamet ettiği zamana ait belgeleri tetkik etmenin yanı sıra müzelerde bulunan evrak ve objeler için de araştırma talebinde bulunmuştur. 2 Temmuz 1938 tarihli yazıda Prof. Dr. Gunnar Jarring'in araştırmasına başladığı bildirilmektedir. Kısa bir süre sonra ülkesine dönmek zorunda kalan Jarring, araştırması sırasında tespit ettiği belgelerin fotoğraflarının ücreti karşılığında kendisine gönderilmesini talep etmiştir. Ancak Türk-İsveç ilişkilerinin güçlendirilmesine katkıda bulunacak belgelerde İsveç'i tahkir edici ifadelerin bulunması ihtimaline karşı, belgelerin incelenmesi ve ondan sonra kendisine gönderilmesine karar verilmiştir (BCA, Muamelat Genel Müdürlüğü,19-107-4). Prof. Dr. Gunnar Jarring'in ülkesine dönerken fotoğraflarını istediği belgelerden ikisinin araştırma izni verilen konunun dışında olduğu tespit edilince bu iki belge kendisine gönderilmemiştir (BCA, Muamelat Genel Müdürlüğü, 19-107-4).

Romanya'dan toplam iki araştırma talebi mevcuttur. Romanya'dan ilk araştırmacı talebi, Kiril Paleografisi ve Mühür Bilimi (Sigillografi) konularında uzman tarihçi Prof. Emil Vîrtosu'dan (1902-1977) gelmiştir. Bu araştırmacının 1932-1934 yılları arasında Türk arşivlerinde araştırma yapma istediği ile alakalı olarak düzenlenmiş (birisinin yanlışlıkla bu konuya dâhil edildiği anlaşılan) karşılıklı toplam 9 yazışma bulunmaktadır. 5 Mart 1932 tarihli ilk başvuruda Emil Vîrtosu, "1821 Tarihli Tudor Vladimirescu İhtilali" üzerine Türkiye arşivlerinde araştırma yapmak için izin istemiştir. İki yıl süren yazışma neticesinde, 20 Kasım 1934 tarihli Hariciye Vekâleti'nin cevabi yazısına göre Emil Vîrtosu'nun araştırma izni aldığı ve Hazîne-i Evrak'ta bulunan defterler üzerinde araştırma yapmaya başladığı anlaşılmaktadır (BCA, Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi, 38848-157936-85, 88/89/92/93/94). Çalışmaya konu olan diğer bir Romanya vatandaşının araştırma başvurusu ise 9 Mart 1942 tarihidir. Aynı zamanda Ankara'da Konsolos olarak da görev yapan Georges Zerva, 9 Mayıs 1942 tarihli ilk başvurusunda, eski Romanya prensliklerinin tarihine ilişkin belgeleri araştırmak için izni talep etmiştir (BCA, Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi, 39279-158878-58). 9 Haziran 1942 tarihli diğer bir yazıda durumun halen netlik kazanmadığı ifade edilmiştir (BOA, Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi, 39279-158878-59). Sonrasında ise Zerva'ya araştırma izni için olumsuz cevap verilmiş ve gerekçe olarak da İstanbul'daki Devlet Arşivleri'nin bir süredir "halkın erişimine kapalı olduğu" bildirilmiştir (BOA, Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi, 39279/158878/58).

Türk arşivlerinde araştırma yapmak üzere 1929 yılında talepte bulunan diğer bir araştırmacı ise Bulgaristan vatandaşı hukukçu, diplomat ve tarihçi Panço Dorev'dir (Panço Vasilev Dorev, 1878-1938). Panço Dorev, Bâbıâli Hazîne-i Evrâkı'ndaki eski Rumeli Umûmî Müfettişliği'ne ait bazı evrakı tetkik etmek üzere müsaade istemiştir. Panço Dorev, gözetim altında araştırma yapmak kaydıyla izin alabilmiştir (BCA, Kararlar Daire Başkanlığı, 14-65-11). Türk arşivlerinde araştırma talebinde bulunan bir diğer Bulgaristan vatandaşı ise Prof. Vladimir Todorov-Hindalov'dur. Prof. Vladimir Todorov-Hindalov, 1931 yılında Hazîne-i Evrâkta araştırma izin başvurusunda bulunmuş ve gözetim altında araştırma yapması kaydıyla kendisine izin verilmiştir. Ayrıca kendisinden, neşriyat yapması ve konferanslar vermesi şeklinde faydalanılmasının arzu edildiği yazışmaların içeriğinden anlaşılmaktadır (BCA, Muamelat Genel Müdürlüğü, 16-92-20, ek dosya 17).

1925 yılında Türk arşivlerine erişim izni alan İtalyan bir misafir olmuştur. Milel-i Coğrafya Kongresi için gelen İtalyan asıllı tarihçi (müsteşrik) Prof. Ettore Rossi (1894-1955), 31 Mayıs 1925 tarihinde Ahmed Refik Bey referansıyla (belgede "delaletiyle" ifadesi kullanılmaktadır) Hazîne-i Evrâk'ta araştırma yapmasına müsaade edilmesi için izin istemiştir (BOA, HR.İM., 132-11/1-4; BOA, Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi, 44271-210587-99). Rossi, 9 Mayıs 1925 tarihli araştırma talebinde biri "1841 Yılındaki Mısır'ın Siyasi Durumu" ve diğeri de "XVI.-XVIII. Yüzyıllarda İtalyan Ticaretinin İstanbul'daki Durumu" konularında olmak üzere iki ayrı araştırma başvurusunda

bulunmuştur (BCA, Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi 36622.146829.94-95). Ahmed Refik Bey'in refakatiyle arşivdeki belgelerin asıllarını görmesine izin verilmiştir.

1940 yılında yeni bir başvuru Amerika Birleşik Devletleri (ABD) vatandaşı ve Robert College'de (İstanbul) çalışan Prof. Harvey P. Hall tarafından gerçekleştirilmiştir. Harvard Üniversitesi'nde Osmanlı tarihi alanında hazırlayacağı doktora tezinde kullanmak üzere, 18. ve 19. yüzyıllardaki özellikle Manisa'daki Karaosmanlar ve Yozgat'taki Çapanoğulları gibi Anadolu'da yaşamış feodal aileler (Derebeyler) ile ilgili belgeler üzerinde araştırma izni istemiştir (BCA, Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi, 23241-101682-4). Prof. Hall'ün kendisi adına başka bir zatın araştırma yapmasını rica etmesi ise dikkat çekicidir (BCA, Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi, 23241-101682-4). Cevabi yazıda ise Hazîne-i Evrâk'ta hâlihazırda tasnif faaliyetlerinin devam ettiği, bu sebeple de araştırma izni verilemeyeceği belirtilmiştir (BOA, Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi, 23241-101682-3).

"Yine aynı dönemde Sırbistan'dan da bir araştırmacı gelmiştir. Sırbistanlı araştırmacının yapmış olduğu araştırma talebi olumsuz cevaplanan nadir araştırma taleplerinden biridir. 21 Kasım 1928 tarihinde araştırma için başvuran Sırbistan vatandaşı ve Belgrad Üniversitesinde çalışan Grgur Jakšić'e (1871-1955) hitaben yazılan 24 Kasım 1928 tarihli cevabi yazıda, Hazîne-i Evrâk'taki ferman, emirnâme ve resmi yazışma ve akde bağlanmış antlaşma gibi evrakın henüz tasnif edilmediği ve bu nedenle araştırma yapamayacağı bildirilmiştir (BCA, Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi, 44087-208912-61, 62, 63, 64, 65).

Sonuç

Elde edilen örneklere göre, Osmanlı İmparatorluğu'nun son döneminden Türkiye Cumhuriyeti'nin erken dönemini içine alan zaman aralığında, Türk arşivlerinden hem yerli hem de yabancı araştırmacıların yararlandığı anlaşılmaktadır. İlk yararlanan ise İsveç vatandaşı bir araştırmacıdır. Araştırma taleplerine yönelik verilen cevapların ortaya koyduğu ilk temel ayrıntı, standart bir prosedür ve yasal dayanağın henüz oluşturulmamış olduğudur. Bununla birlikte yazılı olmayan ve zihinlerde işletilen belirgin bir kuralın geçerli olduğuna da kuşku yoktur. Araştırma için hazırlanan başvuru dilekçelerinde/yazılarında hangi arşivde ve mahzende araştırma yapılacağının, ne tür kayıtların inceleneceğinin ve -doğrudan bir araştırma başlığına işaret etmese de- araştırma konusunun genel bağlamda formüle edilmesi gerekmekteydi. Bütün başvurularda bu ayrıntıların ihmal edilmemiş olması, bunun bir kural olarak kabul gördüğünü veya bu başvurular için yazılı olmayan standart bir form metni uygulandığını göstermektedir. Basit gibi görünen ve "araştırma için bir başvuru metni başka türlü nasıl formüle edilebilir?" sorusu gündeme getirilerek bunun bir kural olmadığı iddia edilebilirse de aksini gösteren bir başvuru metninin olmaması ve başvuru metinlerinde istisnasız söz konusu bilgilerin yer alması, bu durumun başvuru talebi için geçerli (ancak yazılı olmayan) "temel ilke"lerden biri olarak uygulandığını akla getirmektedir.

Elde edilen belgelerden Türk araştırmacıların arşivlere erişim konusunda problem yaşamadıkları anlaşılmaktadır. Bununla birlikte yabancıların Türkler kadar -nadiren- şanslı olmadığını da belirtmek gerekir. Diğer dikkat çeken kural ise yabancı araştırmacıların genellikle Dışişleri Bakanlığı (Hâriciye Nezareti-Hariciye Vekâleti) kanalıyla başvuru prosedürlerini başlatmalarıdır. Bununla birlikte bir sebeple Osmanlı-Türkiye topraklarında bulunan araştırmacıların, -Dışişleri bürokrasisi kanalıyla başvuru istenmeksizin- doğrudan araştırma talebinde bulunmaları da söz konusudur. Halen uygulamada geçerli olan bu durum ise bir başka temel kurala işaret etmektedir. Diğer dikkat çeken önemli nokta ise milli hassasiyet ve menfaatler meselesidir. Verilen cevaplardan, bu hususun özellikle yabancı araştırmacılar için geçerli olduğu anlaşılmaktadır. Ancak bu yönde verilen cevapların "-diplomatik- nezaket" bağlamında formüle edildiğini, satır aralarında ve kelimelerde saklı olduğunu da belirtmek gerekir. Bazı durumlarda ihmal edilmiş olduğu anlaşılan diğer bir kural, araştırma için başvuran yabancıların bir referans göstermeleri ve çalışmalarını gözetim altında yürütmeleridir. Türkiye'den -muhtemelen- hatırı sayılır ve arşiv idaresinin aşina olduğu bir kişinin refakatinde (delaletiyle) araştırmaların yapılması, araştırma talebinin sonucunu olumlu yönde etkileyebilirdi. Bu, özellikle yabancılar tarafından gerçekleştirilen başvurularda, yaygın olarak kullanılan bir durum olarak öne çıkmaktadır. Bu türden taleplerin, kararı olumlu yönde etkilenmesine yönelik olup olmadığı şimdilik sadece tahmin edilebilir.

Araştırma taleplerinin olumlu veya olumsuz karşılanmasını etkileyen diğer nedenler olarak kurallaşan ve çoğu günümüzdeki temel araştırma faaliyetleri sürecini kesin şekilde belirleyen şu gerekçelerin de kayda geçmesi mümkündür: Arşiv alanının düzensizliği, belgelerin henüz tasnif edilmemesi, belgelere dair bir kataloğun (araştırma aracının) hazırlanmaması, araştırma başvurusunun doğrudan tarihi arşive yönelik olması, resmi dairelerin evrak mahzenlerindeki evrak için araştırma izninin verilmemesi, arşivlerin geçici süreliğine kamuya kapalı olması, araştırma başvurusunun iki ülke arasındaki ilişkilerin geliştirilmesine vesile olabileceğinin düşünülmesi.

Yukarıda belirtilen durumların yanı sıra erişim izni verilen araştırmacıların talep ettikleri belgelere eksiksiz erişim sağlamalarının her zaman garanti edilmediğini de belirtmek gerekir. Bu yöndeki resmi kararı etkileyen temel nedenler veya argümanlar belgelerden çekilebilmektedir. Bunlardan ilki araştırmacının araştırma konusuyla alakalıdır. Dolayısıyla araştırmacının talep ettiği temel araştırma konusu dışında kalan ve başka konularla ilgili olduğu tespit edilen belgeler araştırmacıya verilmemiştir. Araştırmacıya belge verilmemesini etkileyen diğer bir neden ise -özellikle Osmanlı dönemine ait- belgelerde olabileceği düşünülen Batı dünyasını tahkir ve rencide edici ifadelerin bulunmasıdır. Belgelerin araştırmacıya verilmeden önce incelenmesi ve eğer varsa tahkir ve rencide edici ifadelerin yer aldığı tespit edilen belgelerin araştırmacıya verilmemesi kural olarak işletilmiştir. Diğer yandan araştırma talebini olumlu yönde etkileyecek bazı argümanların da göz önünde bulundurulduğu dikkatlerden kaçmamaktadır. Başvuru sahibinin Türkiye'nin yayın hayatına ve Türk kültürünün gelişmesine katkı sunması, tecrübesinden yararlanılması ihtimali ve ülkeler arasındaki ikili ilişkilerde ve yakınlaşmalarda avantaj ve zenginlik sunacakları hesaba katılmıştır. Bu tür ihtimallerin bulunduğu başvuru sahiplerinin araştırma başvurularının kabul edilmesi için, bürokratların üst makamları ikna etmek üzere belirtilen argümanları kullandıkları net şekilde görülmektedir.

Kaynakça

Arşiv belgeleri

BOA, *BEO,* 1579-118421.
BOA, *BEO,* 3113-233459.
BOA, *BEO,* 3119-233872.
BOA, BEO, 3199-239910.
BOA, *BEO,* 3476-260654.
BOA, *BEO,* 3492/261883.
BOA, *BEO,* 4056/304173.
BOA, *BEO,* 4348/326087.
BOA, *DH. MKT.,* 2429-66.
BOA, *HR.İM.,* 132-11/1-4.
BOA, *HR.TH.,* 249-7.
BOA, *İ. HUS.* 85-80.
BOA, *Y.PRK.TŞF.,* 6.55.01-02.
BOA, *HR.TH.,*347/82.
BOA, *HR.İM.,* 5/9.
BOA, *İ.HUS.,* 156-51.
BOA, *İ.HUS.,* 169-91.
BCA, *Muamelat Genel Müdürlüğü,* 16-92-15.
BCA, *Muamelat Genel Müdürlüğü,* 17-94-2.
BCA, *Muamelat Genel Müdürlüğü,* 17-95-12.
BCA, *Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi,* 44087-208912-61, 62, 63, 64, 65.
BCA, *Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi,* 44271-210587-99.
BCA, *Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi,* 36622.146829.94-95.
BOA, *Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi,* 23241-101682-3.
BCA, *Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi,* 23241-101682-4.
BCA, *Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi,* 38848-157936-85, 88, 89, 92, 93, 94.

BCA, *Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi,* 39279-158878-58.
BCA, *Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi,* 39279-158878-59.
BCA, *Dışişleri Bakanlığı Türk Diplomatik Arşivi,* 44700-215044-3, 4, 7, 8, 11, 12.
BCA, *Kararlar Daire Başkanlığı,* 14-65-11.
BCA, *Milli Savunma Bakanlığı Askeri Tarih Arşivi,* 114/66, 26.06.1912.
BCA, *Muamelat Genel Müdürlüğü,* 16-92-20, ek dosya 17.

Araştırma eserleri
Béla, K. (2003). II. Rákóczi Ferenc külpolitikája. *Magyar Tudomány,* 6, 692-698.
Rukancı, F. ve Anameriç, H. (2019). Arşiv belgeleri ile II. Abdülhamid dönemi müzecilik faaliyetleri. *Tarih Araştırmaları Dergisi (TAD), 38*/66, 383-418.

İnternet siteleri
Çuluk, S. (2012, 29 Ağustos). Tarih yazıları. Başbakanlık Osmanlı Arşivi araştırmacı listesi ve araştırma konuları (1921-1960). https://sinanculuk.blogspot.com/2012/08/basbakanlik-osmanli-arsivi-arastirmaci.html

CREATIVE USE OF FOLKLORE IN THE PROSE OF ISI MELIKZADEH

İSİ MƏLİKZADƏNİN NƏSRİNDƏ FOLKLORDAN BƏHRƏLƏNMƏ

Əliyeva Pakizə İsrayıl qızı
orcid.org/0000-0003-3769-6198
ADPU-nun Şəki filialı, baş müəllim

Xülasə
Məqalədə ən yeni dövr Azərbaycan ədəbiyyatının ustad sənətkarlarından olan yazıçı-dramaturq İsi Məlikzadənin nəsrində folklordan yaradıcı bəhrələnmə məsələləri tədqiqata cəlb olunmuşdur. Belə bir araşdırma mövzusunun seçilməsində məqsəd XX əsr Azərbaycan ədəbiyyatında geniş şəkildə yer alan folklora müraciət məsələsinin İsi Məlikzadə qələmində ifadə şəkillərni araşdırmaqdan ibarətdir. Yazıçının yaradıcılığının təsadüf etdiyi zaman kəsiyində folklora müraciət yazılı ədəbiyyatın bütün növlərində geniş şəkildə yayılmışdı. İsi Məlikzadənin yaradıcılığında bu tendensiyanın əksi özünəməxsusluğu ilə seçilir. Ədəbiyyatımızda "İki günün qonağı", "Gümüşgöl əfsanəsi", "Dədə palıd", "Quyu", "Qatarda", "Oğul", "Cehiz güzgüsü", "Talisman", "Qırmızı yağış" və onlarla başqa əsəri ilə ənənəvi qəhrəman etalonunu yıxmağa müvəffəq olan yazıçının bir çox əsərləri birmənalı qarşılanmamış, bəzən təqdir olunduğu halda, bəzən ittihamlarla qarşılanmışdır. Tədqiqat zamanı ədibin hekayə, povest və roman kimi nəsr əsərlərində qarşılaşdığımız sadə həyat tərzi sürən xalq içərisindən çıxmış qəhrəmanların həm xarakter xüsusiyyətlərinin, həm də xalq həyatı və məişətinin təsvirindəki ən xırda etnoqrafik detalların parlaqlığı diqqətimizi çəkdi. Yazıçının təhkiyəsində xalq danışıq dilinin xüsusiyyətləri, bəzi hallarda geniş yayılmış, bəzən isə az işlənən deyimlər, atalar sözü və məsəllər yaradıcı şəkildə, mətnə ağırlıq gətirmədən maraqlı variantlarda yer almaqdadır. İsi Məlikzadənin nəsrində həmçinin xalq yaradıcılığının məhsulu olan əfsanə, nağıl və söyləmələrə də yer verilmişdir. Tədqiqata cəlb olunan əsərlərdə Azərbaycan folklorunda, xüsusilə də dastanlarımızda əhəmiyyətli yeri tutan yuxugörmə motivinə də geniş şəkildə rast gəlindiyini müşahidə etdik. Bəhs etdiyimiz bu və digər məsələlər ədibin əsərlərindən götürülmüş nümunələr əsasında təqdim olunmuşdur. Eyni zamanda yeri gəldikcə yazıçının yaradıcılığının tədqiq və təhlilinə həsr olunmuş ədəbi-tənqidi materiallara da isnad olunmuşdur.
Açar sözlər: İsi Məlikzadə, nəsr, folklor, bəhrələnmə, atalar sözü

Abstract
The article investigates the creative utilization of folklore in the prose of İsi Melikzadəeh, one of the master craftsmen of contemporary Azerbaijani literature. The purpose of this research is to explore how Isi Melikzadeh's writing reflects the engagement with folklore, a common theme in 20th-century Azerbaijani literature. During the period of the writer's creative activity, folklore was widely present in all forms of written literature. However, Isi Melikzadeh's approach to this trend is distinctive in its uniqueness. The writer's works, such as "İki Günün Qonağı" ("The Guest of Two Days"), "Gümüşgöl Əfsanəsi" ("The Legend of Silver Lake"), "Dədə Palıd" ("The Old Oak"), "Quyu" ("The Well"), "Qatarda" ("On the Train"), "Oğul" ("The Son"), "Cehiz Güzgüsü" ("The Dowry Mirror"), "Talisman", "Qırmızı Yağış" ("Red Rain"), and many others, have often been met with mixed reactions. While some of his works have been praised, others have faced criticism. In the course of this research, we have observed the vivid depiction of characters from simple rural backgrounds, their characteristics, and the smallest ethnographic details of their lives in Melikzadeh's short stories, novellas, and novels. The use of the folk dialect, including common and less frequently used idioms, proverbs, and sayings, is skillfully integrated into the text without adding unnecessary weight. Melikzadeh's prose also incorporates elements of folklore such as legends, fairy tales, and oral traditions. Additionally, we have noted a significant presence of the dream motif, which holds an important place in Azerbaijani folklore and epic tales. These and other aspects are presented through examples drawn from the writer's works, and relevant literary-critical materials dedicated to the study and analysis of his creativity are referenced where appropriate.

Keywords: Isi Melikzadeh, prose, folklore, inspiration, proverbs

GİRİŞ

Məlumdur ki, XX əsr Azərbaycan ədəbiyyatında, xüsusilə 60-80-ci illər ədəbiyyatında folklordan yaradıcı bəhrələnmə aktual tendensiyalardan birini təşkil edirdi. Həmin zaman kəsiyində artıq yaradıcı insanlar protkulçuluğun tələbi ilə siyasi konyukturadan irəli gələn əvvəlki mərhələnin ədəbiyyatına tənqidi yanaşır, hazır şablonlardan qaçırdılar. Təbii ki, qadağalar və məhrumiyyətlər ədəbiyyatı milli köklərindən tamamilə uzaqlaşdıra bilməzdi. Onsuz da XX əsrin əvvəllərindən başlamış Avropa ədəbiyyatına meyil, klassik şərq divan ədəbiyyatı ənənələrindən imtina, yeni janrlar və vəzn axtarışları bir çox hallarda eksperimentçilikdən o yana getmirdi. Və çox vaxt bu uğursuz eksperimentlər bədii mətnlərin fikir – məna yükünü azaldırdı. Ancaq gec-tez bir çox müəlliflər doğma vəznə və doğma janrlara üz tuturdular. Həmin doğmalıqsa hər şeydən öncə folklora bağlılıqda üzə çıxırdı. Təbii ki, yaradıcılığına isnad etməklə sözügedən tədqiqatı həyata keçirdiyimiz yazıçı, ssenarist İsi Məlikzadənin (1934-1995) nəsri də xalq ədəbiyyatı nümunələrindən mətləbə, mövzunun tələbinə uyğun yaradıcı şəkildə istifadə etmək baxımından olduqca zəngindir.

TƏDQİQATIN ƏSAS HİSSƏSİ

Müasir Azərbaycan nəsrinin inkişafında əvəzsiz xidmətləri olan yazıçı, ssenarist, dramaturq və tərcüməçi İsi Məlikzadə XX əsrin ikinci yarısının parlaq ədəbi simalarından olmaqla XALQ adamının həyatını, məişətini, düşüncəsi və əxlaqını küll halında əks etdirən yazıçıdır. Qələmə aldığı romanlarında (“Alovlu qış”, “Qırmızı yağış”), povest (“Dədə Palıd”, “Yaşıl gecə”, “Quyu”, “Küçələrə su səpmişəm”, “Evin kişisi”, “Gümüşgöl əfsanəsi”) və hekayələrində (“Cehiz güzgüsü”, “Şehli çəmənlərin işığı”, “Toy mövsümü”, “Yeddi ocaq”, “Dağlarda quzu mələr”, “Bu çayın dibi lilli” və s.) yazıçı təbiilikdən, folklordan gələn saflıqdan, xalq ruhundan doya-doya bəhs edir. İsi Məlikzadənin əsərlərində hadisələr əksər hallarda kənddə və ya kiçik rayon mərkəzlərində, yəni böyük, səsli-küylü şəhərlərdən uzaqlarda cərəyan edir və təbii ki, bu əsərlərdə kökə bağlılıq daha dərindən əksini tapır. Hətta yuxarıda sadaladığımız əsərlərin adları da folklor ab-havasını özündə daşıyır. Mövzu üzərində işləyərkən İ.Məlikzadənin nəsrində folklordan bəhrələnmənin aşağıdakı şəkillərdə özünü göstərdiyini müşahidə etdik:

- atalar sözləri və məsəllərdən istifadə;
- xalq inanclarının əksi;
- nağıl və əfsanələrə müraciət;
- alqış və qarğışlara müraciət;
- yuxu və yuxuyozmalarla bağlı məqamlar və s.

Sadalanan məqamlara keçməzdən öncə, qeyd etməliyik ki, istedadlı yazıçının qələmində folklora müraciət şablonlar halında olmayıb, müəllifin əsər vasitəsilə çatdırmaq istədiyi ideyanın tələbinə uyğun olaraq yaradıcı şəkildə həyata keçirilmiş, improvizə hallarına yer verilmişdir, yəni küll halında yaradıcı bəhrələnmə diqqətimizi çəkir. Adları sadalanan və sadalanmayan əsərlərlə tanışlıq zamanı folklorla bağlı ilk vurğulanmalı məqam məhz həmin əsərlərdəki xeyirlə şərin davamlı toqquşması, şərin daha geniş şəkildə özünə yayılma imkanı tapmasıdır. Lakin müəllif göstərir ki, həyat nağıl deyil və nağıllardan fərqli olaraq sonluq heç də həmişə şərin məğlubiyyəti və xeyrin təntənəsi ilə bitmir. Buna baxmayaraq, məğlub duruma düşsələr də, sona qədər nağıllardakı qəhrəmanlar kimi əqidəsinə sadiq qalan, şərə boyun əyməyən, onunla mübarizədə geri çəkilməyən qəhrəmanlar var və bu qəhrəmanlar içində nağılı, bayatını, inancı gəzdirənlərdir. Məsələn, xalq ruhu yazıçının “Alovlu qış” romanında bu şəkildə ifadəsini tapır: *“Dua yazdırdılar, yetim-yesirə nəzir-niyaz verdilər, əlac olmadı. Çöpçüyə də apardılar, yenə Rəhman dirçəlmədi. Səttarın bircə gümanı, bircə ümid yeri qaldı: Körpülüdəki imam ocağı. O, yeddi gün, yeddi gecə müqəddəs komada əllərini göyə qaldırıb, kəramətinə inandığı Allaha yalvarmalı idi”* [4, s.4] Bu parçada dastanlarımızdan, xüsusilə “Kitabi-Dədə Qorqud”dan gələn Yaradana inam, mərhəmət və paylaşma, xalq təbabəti, müqəddəs yerlər, pirlər və ocaqlarla bağlı inanclar və s. tamamilə təbii səslənir. Məlikzadənin qəhrəmanları dilində duası, alqışı alqış, qarşışı da qarğış olan qədim babalardan çox da uzaqlaşa bilmir. Bu qəhrəmanlar nə qədər “əmək cəbhəsində vuruşan”, keçici qırmızı bayraqlar alan zəhmətkeş sovet insanları olsalar

da, başdan-ayağa hər kəlmələrində folklordan gələn təbiilik və əzəlilik hiss olunur. Hadisələrin 1982-ci ildə cərəyan etdiyi "Qırmızı yağış" romanının əsas qəhrəmanı Ələm uzun illər kolxozda çalışsa da, ulu əcdadı Yaşılxan dədənin yuxularına qonaq gəlməsi ilə dədə-baba həyat tərzinə, tərəkəməliyə, qoyunçuluğa qayıtmaq, yəni əcdadlarının harayına səs vermək üçün mübarizə aparır. Ələm inanclara və yuxulara bağlı bir obrazdır. Məsələn, oğlu Sadayın əsgərlikdən gəlməsini gözləyərkən sağsağana belə müraciət edir: *" – Sağsağan, sağsağan, yerini dəyiş, görüm Saday sabah gələcək?"* [2, s.4] Çox qədim sınamalardan olan sağsağan səsinə əsasən suallara cavab tapılması ola bilər ki, bir az bəsit səslənsin, lakin müəllif seçimini düzgün edir. O yaxşı anlayır ki, bəzi müəlliflərdə olduğu kimi süni şəkildə savadsız bir kənd adamının həyat və varlıq haqqında uzun-uzadı fəlsəfi fikirlərə dalması, mühakimələr yürütməsi oxucuya təbii gəlməz, əksinə dədədən-babadan görüb-gütürdüyü sadə fikirləri və hərəkətləri ilə qəhrəmanı daha koloritli alınar. Ələmin yuxulara və onların yozumlarına da inamı çox böyükdür: *"...neçə gün əvvəl qarmaqarışıq yuxuda ala qarğa ilə döyüşdüyü yadına düşdü. Ələm yavaş-yavaş qaralıb qatılaşan göyə baxdı, ürəyində: "Bu yuxunun bir çıxacağı varmış," – dedi və dərindən rahat nəfəs alıb sevinə-sevinə fikirləşdi ki, yuxu bu yurda, bu ocağa ziyanlıq gətirməyib, yuxu xeyirliyə imiş..."* [2, s.31]

Yazıçının yuxuların sehirli gücünə inanan daha bir qəhrəmanı "Gümüşgöl əfsanəsi" povestinin saf qəlbli qəhrəmanı kəndli qızı Bənövşədir. Azərbaycanın qədim xalq tətbiqi sənəti olan xalçaçılıq üzrə elmi araşdırma aparmaq məqsədi ilə kəndə gələn Orxanın təsadüfən tanış olduğu Bənövşə hər hərəkəti, hər kəlməsi ilə sanki xalq ruhunun səslənməsidir: *" – Güləndam nənə demişdi ki, kim doqquz işıqlı ulduz sayıb yatsa, yuxuda öz qismətini görər. Saydım...Yuxum çin çıxdı. – Qız gözlərini göydən çəkib orxanın üzünə zilladi. – Sən də say, - dedi. – Doqquz ulduz say. Üçü məğribdə, üçü məşriqdə, üçü onların arasında..."* [3, s.250] Povestin adı - "Gümüşgöl əfsanəsi" saflığın, müqəddəsliyin, bakirliyin və toxunulmazlığın əks olunduğu bir əfsanə ilə bağlıdır. Gəldiyi yerdə qarşısına çıxan gölün gözəlliyinə heyran olan Orxanın bunu təbiətin zövq alınmağa layiq gözəlliyi kimi öyməsinə qarşılıq olaraq Rzanın *"adamların günahlarını ölçən mizan-tərəzi"* adlandırdığı gölün adı ilə bağlı danışdığı əfsanə müəllif tərəfindən təsadüfi seçilməmişdir. Yalnız təmiz, günahsız olanların batmadığı müqəddəs göl əfsanəsi təbii ki, simvolik seçilmişdir. Başdan-başa günahkarlar dünyasında saflığın sona qədər saf qalması əfsanədə mümkündür, müəllifin təsvir etdiyi zamanda – onun zamanında saflıq çirkabdan özünü qoruyub saxlaya bilmir. Əfsanədə Hüsnübəyim günahsızlığını Gümüşgölün müqəddəs sularında batmamaqla sübut edir, lakin Bənövşənin saflığı və təmiz adı ləkələnir.

Əvvəldə də dediyimiz kimi, İsi Məlikzadə folklor nümunələrini improvizə yolu ilə mətnə daxil etməklə yanaşı, janrın tələbini pozmadan öz müasirlərinin maraqlarına uyğun bir şəkildə dəyişikliklər və əlavələr edir, bəzən tamamilə orijinal mətn yaratmaqla daha çox oxucunun diqqətini çəkir. Məsələn, "Qırmızı yağış" romanında Əbilin danışdığı nağıl belədir: *"Biri vardı, biri yoxdu, yer üzündə "Yovşanlı" adında bir kənd vardı. Bu kənddə bir yekə kolxoz vardı, bu kolxozun da Kamandar adında bir yekə sədri vardı. Kamandar çox yeyən idi, o qədər yemişdi ki, boynu dönmürdü. Bir gün İran padşahı gəldi kəndə, gördü kənd dağılıb gedir. Padşah yaman cinnəndi, Kamandarı çağırdı yanına, dedi, ə, bu yollar niyə belə tozlu-torpaqlıdı? Kamandar gözlərini döydü. Kamandar gözlərini döyəndə İran şahı qəzəbləndi. Dedi, bu yollara daş tök, köpəyoğlu, yoxsa səni asdırarram, dərini soydurram, tülkü!...."* [2, s.67] Göründüyü kimi, nağıl ənənəvi başlıqla başlanır, lakin məzmun heç də ənənəvi deyil, başından sonuna kimi dövrün problemlərinə - rüşvətxorluğa, zorbalığa, dövlət malını mənimsəməyə və s. qədər hər məsələyə nağıl yolu ilə ironik münasibət var. Yazıçı nağıldan forma kimi yararlansa da, mövzu və məzmun fərqlidir.

Nağıl və İsi Məlikzadə nəsri dedikdə, ilk yada düşən əsərlərdən biri "Dədə palıd" povestidir. Povestin qəhrəmanlarından biri – "yaşı altmışı adlamış, ağlı uşaq ağlı olan", düz-əməlli nə işin-peşənin sahibi olduğu bəlli olmayan, ağacların adamlar kimi olduğunu düşünən, "meşənin ürəyini hiss edən", Kürə baxıb ağlayan, Kürlə dərdləşib-danışan Nurcabbar nağıllar yazır. Meşənin dərinində yaşayan Nurcabbar bir sandıq nağıl yazmışdı və nağıllarda hamıdan yazmıdşı, hər şeydən yazmışdı. Amma bu nağılları kimsə oxumayıb. Nurcabbarın sonuncu yazdığı nağıl Dədə palıdın nağılıdır, lakin meşənin digər sakini Bağır ondan nağılın sonunu yazmamasını xahiş edir. Dədə palıdın ömrünə son qoyulması, onun kəsilməsi Nurcabbara təsir edir və bir-birinin ardınca nağıllar olan dəftərlərini oda

ataraq yandırır. Təbii ki, müəllif bunu da təsadüfən bu şəkildə təsvir etməyib. Xoş sonluğu və ədalətin təntənəsinə ümidi ilə nağıllar gələcək üçün, yaşamaq üçün stimul verir, Nurcabbarın isə artıq nəyinsə düzələcəyinə inamı itmişdir. [3, s.146-204]

İsi Məlikzadənin əsərlərində folklora müraciərin ən maraqlı istiqamətlərindən biri də ayrı-ayrı atalar sözü və məsəllər, deyimlər və s. mətn daxilində işlədilməsidir. Folklorumuzun dərin qatlarından süzülüb gələn minillərin təcrübəsinə əsaslanan müdrikliyin daşıyıcısı olan həcmi etibarilə kiçik, məna yükü baxımından çox samballı olan atalar sözləri lakoniklik və sərrastlığı ilə ədibin xalq ruhlu qəhrəmanlarının dilində də yad səslənmir. Yazıçı həmçinin əsərlərində atalar sözünə münasibətini də bildirir. "Quyu" povestindən götürülən bir parçada yazır: *"Sonra Pirinin dalğalı, gur səsi eşidildi:*

- ***Axşamın xeyrindənsə, sabahın şəri yaxşıdı**, Əsli bacı.*

*Umud dönüb tövləyə tərəf getdi. Fikirləşdi ki, Pirinin sözləri səfeh sözlərdi, cəfəng sözlərdi. Çünki adam elə axşam da xeyir tapa bilər, lap gecənin yarısı da xeyir tapa bilər. Umud sonra da fikirləşdi ki, bu sözlər Pirinin sözləri deyil, bunlar atalar sözüdür, atalar məsəlidir. Atalara qurban olum, görünür onların da içində tənbəli olub. Bu sözləri, yəqin axşamın işini sabaha qoyan ərincək atalar düzəldiblər. Ərincək olmasaydılar belə deməzdilər. Çünki onların fərasətli, diribaş tay-tuşları bunun tərsini deyiblər: **"Bu günün işini sabaha qoyma".*** [3, s.96] Heç şübhəsiz, sadə həyat tərzi sürən qəhrəmanı Umudun atalar sözlərinin mənşəyi haqqında necə mühakimə yürütdüyünü, hər kəlamın insan həyatı ilə bağlılığını necə izah etdiyini yazarkən müəllif qəhrəmanın xalq arasından çıxmasını unutmur, atalar sözlərinin də məhz onun kimi xalqın nümayəndələrinin düşüncəsinin məhsulu olduğunu söyləməyə çalışır.

Atalar sözləri İsi Məlikzadənin nəsr əsərlərində iki variantda işlənir. Birinci variantda atalar sözləri olduğu kimi, "yaxşı deyiblər", "bir məsəl var", "deyirlər" kimi ənənəvi sözlərlə təqdim olunur:

*Necə deyərlər, **tülkü tülkülüyünü sübuta yetirənəcən dərisini boğazından çıxardarlar**.* [2, s.132]

*"**Məscidin qapısı açıqdı, itdə də bir həya gərək**" məsəlini yada salıb qalxdı.* [3, s.234]

*...el içində buna deyirlər: **"Özgə atına minən tez düşər"**.* [3, s.144]

*Axı, atalar deyib ki, **"bal tutan barmağını yalayar"**.* [3, s.155]

*"Yaxşı deyiblər ki, **hirsli başda ağıl olmaz**".* [3, s.240]

*Yaxşı deyiblər ki, **"uşaq məhəbbətə, it əppəyə gələr**".* [3, s.103]

*Sonra da qədim bir məsəli onların ayadına saldılar: **"Ölünü özbaşına qoysan, şıllaq atıb kəfəni cırar"*** [2, s.26]

*Ələmin yadına bir kəlam düşdü: "**Suyun lal axanı, adamın yerə baxanı"**.* [2, s.44]

*Yaxşı deyiblər: **"Qorxan gözə çöp düşər".*** [2, s.139]

*Umud istədi hoppansın, ancaq yadına bir atalar sözü düşdü: **"Eşşəyə minmək bir ayıb, düşmək iki ayıb".*** [3, s.120] *və s.*

İkinci variantda İsi Məlikzadə atalar sözü və məsəlləri qəhrəmanların halı, vəziyyəti və hərəkəti ilə bağlayaraq mətn daxilində fikirləri sanki "əridir", mətnə "hopdurur". Belə nümunələrin də sayı yetərincə çoxdur. Məsələn,

Yox, qardaş, "azacıq aşım, ağrımaz başım". [2, s.16]

Əhəd ölüyə hay, diriyə pay verən deyil. [2, s.27]

Ələm gülümsədi:

- *Ölmüş eşşəyin qurddan nə qorxusu?*
- *Yox, hələ ölü döyülsən, heylə demə. Denən, "qurddan qorxan qoyun saxlamaz".* -[2, s.92]

..... Ələm, gücün çatmayan yükə çiynini vermə. Biz balaca adamlarıq, bilmirsən bunu? Adam gərək ayağını yorğanına görə uzatsın. [2, s.101]

Qınından çıxıb, qınını bəyənmir – rayonlu balasıdır, bərk-bərk yapışıb şəhərdən, min əzaba dözür orda – guya kəndə-kəsəyə qayıtsa, dünya qara geyəcək. [3, s.175]

"İnsan hər gün səs-söz eşitməsə, ölər" [2, s.68] və s.

İsi Məlikzadə kimi istedadlı yazıçı xalq poeziyasının şah janrlarından olan bayatılar və xalq mahnılarını da yaddan çıxarmır, qəhrəmanlarının lirik duyğularını, mənəvi təlatümlərini, sevgi əzablarını təsvir etdiyi məqamlarda bu janrlara müraciət edir. Məs,

"Stolun üstündə üzüm,
Sənə qurban iki gözüm,

Məndən yaman gen gəzirsən,
Ayrılığa necə dözüm?" [3, s.110]

"Əziziyəm qalasız,
Şəhər olmaz qalasız.
Mən ki, gedəri oldum,
Sağlığınan qalasız". [2, s.63] və s.

Əsgərlikdən yolunu gözlədiyi sevgilisinin evlənib başqa qadınla gəlməsindən sonra Şikəstənin ***"İrəvanda xal qalmadı"*** zümzümə etməsi ("Qırmızı yağış"), əlli yaşlı əqli qüsurlu Əbilin tarda yarım-yamalaq ***"Apardı sellər Saranı"*** çalması ("Qırmızı yağış"), qəlbi gənclik sevgisi ilə dolu olan Xəlilin cır səsi ilə yalnız Sayadın eşidə biləcəyi ***"Küçələrə su səpmişəm"*** oxuması ("Küçələrə su səpmişəm"), "Azərbaycan" mehmanxanasının restoranında Alen Delona oxşayan müğənninin ***"Tut ağacı boyunca"*** oxuması ("Gümüşgöl əfsanəsi") və s. kimi xalq mahnı və rəqsləri ilə bağlı parçaların mətnə daxil edilməsi; başqa hallarda qhrəmanın "Çiling-ağac" və "Dirədöymə" milli uşaq oyunlarını oynaması; el adətinə görə gəlin üçün mütləq şəkildə cehiz güzgüsü axtarılması ("Cehiz güzgüsü"); yüngül bir yol qəzası keçirdikdən sonra arvadının sözünə baxıb yeni maşınına talisman kimi yağlıtikan qoymamasına təəssüflənməsi ("Talisman"); Bəbirin maşının güzgüsündən gözmuncuğu asması ("Qırmızı yağış"), qonşudan yanıqlı Qönçə arvadın xoruzun vaxtsız banlamasında bəd bir əlamət görməsi ("Qırmızı yağış") və onlarla misalda İsi Məlikzadə tərfindən folklor janrlarından bəhrələnmə hallarını müşahidə etmək mümkündür. Göstərdiyimiz və digər məqamlar folklordan yaradıcı bəhrələnməyə misal olmaqla bərabər, qəhrəmanların daxili yaşantılarını, psixiloji məqamalrın çatdırılması baxımından diqqətlə seçilmiş ədəbi priyomlardır. Belə misalların sayını yetərincə artırmaq mümkündür.

NƏTİCƏ

Beləliklə, İsi Məlikzadənin nəsrində folklordan bəhrələnmənin tədqiqinə həsr olunmuş bu məqalədə tədiqiqat zamanı gəldiyimiz qənaəti aşağıdakı tezislər şəklində ümumiləşdirmək mümükündür:

- İsi Məlikzadənin əsərlərində hadisələr əksər hallarda kənddə və ya kiçik rayon mərkəzlərində, cərəyan edir, onun qəhrəmanları xalq düşüncəsinin və yaşam tərizinin bariz nümayəndələridir və təbii ki, bu əsərlərdə folklora müraciət təbii olaraq koloritliliyin bir parçası kimi çıxış edir;
- yazıçının qələmində folklora müraciət şablonlar halında olmayıb, müəllifin əsər vasitəsilə çatdırmaq istədiyi ideyanın tələbinə uyğun olaraq yaradıcı şəkildə həyata keçirilmiş, improvizə hallarına yer verilmişdir;
- atalar sözləri və məsəllərdən istifadə halları yetərincədir və atalar sözləri həm olduğu kimi, həm də mətn daxilində "əridilərək" oxucuya çatdırılır;
- nağıl və əfsanələrə müraciət hallarında da müəllif orijinallığı saxlamaqla bərabər, müasir nəsrin mövzu dairəsinə uyğun uyğunlaşdırmalar edir;
- inanclar, alqış və qarğışlar xalq arasından çıxan qəhrəmanların düşüncəsində, əxlaqında, məişətində birbaşa yeri olan məqamlar kimi təqdim olunur;
- ədibin nəsrində Azərbaycan folklorunda, xüsusilə də dastanlarımızda əhəmiyyətli yeri tutan yuxugörmə motivinə də geniş şəkildə rast gəlindiyini müşahidə etmək mümkündür;
- bütün hallarda folklor örnəklərinə müraciət qəhrəmanların daxili dünyasının açılması, kaloritliliyin doğru təqdimatı üçün vasitədir və s.

Son olaraq qeyd etmək istərdik ki, İsi Məlikzadənin əsərləri 60-cı illərdən sonra ədəbiyyatımızda geniş yayılmış folklora, xalq həyatına dönüşün bariz nümunələridir və bir məqalədə tədqiqata cəlb olunub tam əhatə olunmayacaq çoxsaylı misallarla zəngindir. Bu zənginliyin araşdırılması həm sözügedən zaman kəsiyində ədəbiyyatımızın inkişaf tendensiyasını öyrənməklə yanaşı, folklor və yazılı ədəbiyyat arasındakı qarşılıqlı əlaqənin üzə çıxarılması baxımından da əhımiyyətlidir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Məlikzadə İ. Qatarda (hekayələr). Bakı, Qanun nəşriyyatı, 2019, 432 səh.
2. Məlikzadə İ. Qırmızı yağış (roman). Bakı, “Gənclik”, 2013, 152 səh.
3. Məlikzadə İ. Seçilmiş əsərləri. Bakı, “Şərq-Qərb”, 2005, 336 səh.
4. Məlikzadə İ. Yaşıl gecə. Bakı, Yazıçı, 1979, 304 səh.
5. Nəriman Fərman. Nisgilli gözlərin işığı. Ədəbiyyat qəzeti. - 2024. - 4 may, № 16. - S. 44.
6. Savalan Fərəcov. Nəsrimizin parlaq imzalarından – İsi Məlikzadə. Mədəniyyət .-2024.- 27 dekabr (№96) -S.6.

MEANING AND INTONATION ANALYSIS IN LANGUAGE LESSONS

DİL DƏRSLƏRİNDƏ MƏNA VƏ İNTONASİYA TƏHLİLİ

Könül Aydın
Əməkdar müəllim Humanitar fənlər kafedrası. Mingəçevir Dövlət Universiteti
ORCID ID: 0000-0002-1777-5799

Xülasə
Dilçilikdə məna və intonasiya anlayışları ünsiyyətin semantik və prosodik aspektlərini təhlil etmək baxımından mühüm nəzəri və praktik əhəmiyyət daşıyır. Məna söz və cümlələrin konseptual yükünü, yəni ifadə olunan anlayış və münasibətləri aformalaşdıran semantik kateqoriyadır. İntonasiya isə nitqin ritmik-akustik strukturunu təşkil edən və danışıq aktına emosional, modallıq və kommunikativ məqsəd əlavə edən prosodik vasitə kimi çıxış edir. Bu iki komponentin qarşılıqlı təsiri nəticəsində dil vahidlərinin funksional və üslubi çalarlara malik olması təmin edilir. Xüsusilə kontekstdən asılı olaraq intonasiyanın dəyişməsi eyni leksik vahidlərin fərqli semantik interpretasiyasına səbəb ola bilər. Bu baxımdan, intonasiya yalnız fonetik fenomen deyil, eyni zamanda mənanın konstituent elementidir. Dildə məna və intonasiya analizinin qarşılıqlı vəhdətdə aparılması müasir dilçilikdə – xüsusilə fonosemantika və praqmalinqvistika sahələrində – getdikcə aktuallıq kəsb edir. Nəticə etibarilə, bu iki ünsürün əlaqəli şəkildə tədqiqi nitqin həm struktur, həm də funksional səviyyədə dərin anlaşılmasına imkan yaradır.
İntonasiya müxtəlif cümlə növlərinin – xəbər, sual, əmr və nida cümlələrinin – ayırd edilməsində mühüm rol oynayır. Həmçinin nitq aktında danışanın psixoloji vəziyyətini, münasibətini və mövqeyini ifadə etməyə imkan verir. Məna isə yalnız dilin sistemində deyil, həm də kontekstual və sosial şəraitdə reallaşır. Bu səbəbdən, məna və intonasiya arasında qarşılıqlı əlaqənin hərtərəfli analizi nitqin çoxşaxəli və dinamik təbiətini dərk etmək üçün zəruridir. Beləliklə, bu mövzu müasir dilçilikdə aktuallığını qoruyur və tədqiqatçılar üçün geniş elmi imkanlar açır.
Açar sözlər: məna, intonasiya, kommunikativ məqsəd, kontekstual şərait

Abstract
In linguistics, the concepts of meaning and intonation are of great theoretical and practical importance in terms of analyzing the semantic and prosodic aspects of communication. Meaning is a semantic category that formalizes the conceptual load of words and sentences, that is, the concepts and relationships expressed. Intonation acts as a prosodic tool that forms the rhythmic-acoustic structure of speech and adds emotional, modality and communicative purpose to the act of speech. As a result of the interaction of these two components, language units are provided with functional and stylistic shades. In particular, changing intonation depending on the context can lead to different semantic interpretations of the same lexical units. From this point of view, intonation is not only a phonetic phenomenon, but also a constituent element of meaning. Conducting the analysis of meaning and intonation in language in mutual unity is becoming increasingly relevant in modern linguistics - especially in the fields of phonosemantics and pragmatics. As a result, the related study of these two elements allows for a deep understanding of speech at both the structural and functional levels.
Intonation plays an important role in distinguishing different types of sentences - news, questions, commands and exclamations. It also allows you to express the psychological state, attitude and position of the speaker in the speech act. Meaning is realized not only in the system of language, but also in contextual and social conditions. Therefore, a comprehensive analysis of the interaction between meaning and intonation is necessary to understand the multifaceted and dynamic nature of speech. Thus, this topic remains relevant in modern linguistics and opens up wide scientific opportunities for researchers.
Keywords: meaning, intonation, communicative purpose, contextual conditions

IDEA-ARTISTIC FEATURES OF CHILDREN'S WORKS IN KAMIL ARAZ'S CREATIVITY

KAMIL ARAZIN YARADICILIĞINDA UŞAQ ƏSƏRLƏRİNİN İDEYA BƏDİİ XÜSUSİYYƏTLƏRİ

Nəzakət Rza qızı İsmayılova
Naxçıvan Dövlət Universitetinin, Naxçıvan Müəllimlər İnstitutunun dosenti, fililoqiya üzrə fəlsəfə doktoru
ORCID- 0009-0007-3730-6838

Xülasə
Xalqımızın çox əsrlik pedaqoji fikir tarixində əxlaq məsələləri həmişə insanları düşündürmüş və mühüm əhəmiyyət kəsb etmişdir. Mədəniyyət tariximizin ayrı-ayrı dövrlərində görkəmli mütəfəkkirlər, şairlər, elm və mədəniyyət xadimləri öz əsərlərində yeniyetmələrin dünyagörüşünün düzgün istiqamətləndirməsinə xüsusi diqqət yetirmişlər. Naxçıvanda yaşayıb yaradan şairlər və yazıcılar icərisində müəllim peşəsi ilə həmişə qurur duyan, uşaq ədəbiyyatı yazarı Kamil Araz dərs dediyi müddətdə uşaq dünyasını fəth etmiş, onların zərif incə məsum ruhunu dinləmiş, ilk məktəbə gəlişlərini, əlifbanı necə öyrəndikləri müşahidə etmiş, məhz buradan qaynaqlanaraq uşaqlara olan sevgisi ilə bu dünyaya daxil olmuşdur. Kamil Araz bir ibtidai sinif müəllimi kimi yaradıcılığında ən cox bağca yaşlı uşaqları və kicik yaşlı məktəblilərin təvəkkürünə uyğun əsərlər yazmışdır.
Şairin 2015-ci ildə "Xəzinə", "Göydən üc alma düşdü", Nənəmin nəsihəti", "Vətən eşqi" adlı kitabları nəşr olunmuşdur. Bu kitablar haqqında AMEA-nın müxbir üzvi Əbülfəz Quliyev doğru qeyd edir ki, "kiçik yaşlı məktəblilərin estetik zövqünə uyğun həyati hadisələri, fərdin ictimai mühiti, inkişafı, idrakı, zövqü, nitqi, bilik dairəsini nəzərə alınmış dəyərli əsərlər yazmışdır." Onun "Göy qurşağı", "Nazını cək", "Baxıram şəkillərə", "Gözə gəlməsin", "Ağıllı qız", "İki uşaq", "Dovşanın şamı", "Hadisə", "Birini də versənə", "Necə dolanır", "Ceyrana bənzəyirmi", "Həkim cəkdi dişimi", "Evin dirəyi", "Şəfa ceşməsi" və " Dilimizi qoruyaq" adlı şeirində dilimizin zənginliklərini uşaqlara aşılamağa calışmışdır.
"Müəllim" şeirində müəllim peşəsini həmişə uca tutan şair müəllimin uşaqlara olan səmimiyyəti, məhəbbəti, gülər-üzlüyü, şagirdlərinə balam deyərək müraciət etməsi uşaqlar arasında böyük hörmət hazanmasına gətirib cıxarmışdır.
Məlumdur ki, bağçayaşlı uşaqların təlim- tərbiyəsində əyanilik üsulu mühüm yer tutur. Çünki onlar oxuma, yazma qabiliyyətlərinə malik deyillər Kamil Arazın yaradıcılığında bağçayaşlı uşaqları yazdığı bədii əsərin dili olduqca sadə, konkret, məzmunu aydın olmalıdır. Kamil Araz yaradıcılığında uşaq ədəbiyyatına üz tutması uşaqlara olan segisindən irəli gəlmiş və həyat idealına cevrilmişdir. Kamil Araz Naxçıvan ədəbi mühitində uşaq ədəbiyyatının zəngiləşməsində, formalaşmasında inkişaf istiqamətində dəyərli töhfələrini vermiş, yaradıcılığı ilə uşaq ədəbiyyatında özünəməxsus yer tutur.
Acar sözlər: Kamil Araz, uşaq ədəbiyyatı, Naxçıvan, şeir, şair

Abstract
In the centuries-old pedagogical history of our people, moral issues have always made people think and have acquired great importance. In different periods of our cultural history, prominent thinkers, poets, scientists and cultural figures have paid special attention to the correct orientation of the worldview of adolescents in their works. Among the poets and writers who lived and created in Nakhchivan, Kamil Araz, a writer of children's literature, who was always proud of his teaching profession, conquered the world of children during his teaching, listened to their delicate and innocent souls, observed their first visits to school, how they learned the alphabet, and it was from here that he

entered this world with his love for children. As a primary school teacher, Kamil Araz wrote works that were most suitable for the admiration of kindergarten children and younger schoolchildren.

In 2015, the poet's books "Treasure", "Three apples fell from the sky", "Grandmother's advice", "Love of the homeland" were published. Corresponding member of ANAS Abulfaz Guliyev rightly notes about these books that "he wrote valuable works that took into account the aesthetic taste of young schoolchildren, the social environment, development, cognition, taste, speech, and knowledge of the individual." In his poems "The Rainbow", "Pull the Tenderness", "I Look at the Pictures", "Don't Let It Fall on the Eyes", "Smart Girl", "Two Children", "The Candle of the Rabbit", "Event", "If You Give Me One", "How Do You Get Around", "Does It Look Like a Gazelle", "The Doctor Pulled Out My Tooth", "The Pillar of the House", "The Fountain of Healing" and "Let's Protect Our Language", he tried to instill the riches of our language in children. In the poem "Teacher", the poet's sincerity, love, cheerfulness towards children, and his addressing his students as "my child" have earned him great respect among children.

It is known that the method of visualisation plays an important role in the education of kindergarten children. Because they do not have the ability to read and write, the language of the literary work written by kindergarten children in Kamil Araz's work should be very simple, concrete, and the content should be clear. Kamil Araz's turn to children's literature in his work arose from his love for children and turned into a life ideal. Kamil Araz made valuable contributions to the development and formation of children's literature in the Nakhchivan literary environment, and occupies a unique place in children's literature with his work.

Keywords: Kamil Araz, children's literature, Nakhchivan, poetry, poet

Xalqımızın çox əsrlik pedaqoji fikir tarixində əxlaq məsələləri həmişə insanları düşündürmüş və mühüm əhəmiyyət kəsb etmişdir. Mədəniyyət tariximizin ayrı-ayrı dövrlərində görkəmli mütəfəkkirlər, şairlər, elm və mədəniyyət xadimləri öz əsərlərində yeniyetmələrin dünyagörüşünün düzgün istiqamətləndirməsinə xüsusi diqqət yetirmiş, bunu ümumi tərəqqi işinin mühüm amili hesab etmişlər. Naxçıvanda yaşayıb yaradan şairlər və yazıcılar icərisində müəllim peşəsi ilə həmişə qurur duyan, uşaq ədəbiyyatı yazarı Kamil Araz dərs dediyi müddətdə uşaq dünyasını fəth etmiş, onların zərif incə məsum ruhunu dinləmiş, ilk məktəbə gəlişlərini, əlifbanı necə öyrəndikləri müşahidə etmiş, məhz buradan qaynaqlanaraq uşaqlara olan sevgisi ilə bu dünyaya daxil olmuşdur. Bundan sonra uşaqların ruhunu oxşayan şeirlər yazmağa başlamışdır. Uşaqlar üçün bədii əsərlər yazmaq çətin, məsuliyyətli, eyni zamanda humanist bir işdir. Kamil Araz həssas müşahidə qabiliyyətilə uşaq psixologiyasını dərindən duymuş, düşündüklərini sadə, aydın bir dillə qələmə alaraq əsərlərini yazmışdır. Məhz bu baxımdan yanaşıldıqda deyə biləri ki, Kamil Araz bir ibtidai sinif müəllimi kimi yaradıcılığında ən cox bağca yaşlı uşqları və kicik yaşlı məktəbliləri nəzərdə tutmuş onların yaş xüsusiyyətlərini nəzərə almışdı. İbtidai sinif uşaqlarının təvəkkürünə uyğun şeirlərdən ibarət əsərlər yazmışdır.

Bunuda qeyd edək ki, son illər Naxçıvan ədəbi mühitində uşaq ədəbiyyatı sahəsində əvvəlki illərə nisbətən xeyli irəliləyiş hiss olunur. Bu ədəbiyyatın təsir dairəsi artmış, zənginləşmiş, bədii dəyəri ilə seçilən əsərlər yazılmışdır. Əvvəllər uşaq ədəbiyyatı ilə məşğul olan yazarlar barmaqla sayılacaq qədər idisə indi artıq bu sahədə yetərincə uşaq ədəbiyyatı yazarları yaranmaqdadır. Kamil Araz Naxçıvan ədəbi mühitində uşaq ədəbiyyatının zəngiləşməsində, formalaşmasında inkişaf istiqamətində dəyərli töhfələrini vermiş, yaradıcılığı ilə uşaq ədəbiyyatında özünəməxsus yer tutur. Böyüklər üçün əsər yazmaq, uşaqlar üçün əsər yazmaqdan çox asandır. Çünki böyüklər üçün yazılan əsərin mövzusu istənilən şəkildə, formada, ölçüdə ola bilər unutmayaq ki, uşaqlarda bu belə deyil. Kamil Arazın 2015-ci ildə çap olunan "Xəzinə" kitabına "Vətən eşqi" adlı ön söz yazmış AMEA-nın müxbir üzvi Əbülfəz Quliyev doğru qeyd edir ki, "O, kiçik yaşlı məktəblilərin estetik zövqünə uyğun həyati hadisələri qələmə alır". Burada fərdin ictimai mühiti, inkişafı, idrakı, zövqü, nitqi, bilik dairəsi ilk növbədə nəzərə alınmışdır. Bütün bunlarla yanaşı uşaqların yaş xüsusiyyətləri tələblərinə də riayət olunmuş bu şərt unudulmamışdır. Kamil Araz yaradıcılığında uşaq ədəbiyyatına üz tutması uşaqlara olan segisindən irəli gəlmiş və həyat idealına cevrilmişdir. “Göy qurşağı”, “Nazını cək”,

“Baxıram şəkillərə”, “Gözə gəlməsin”, “Ağıllı qız”, “İki uşaq”, “Dovşanın şamı”, “Hadisə”, “Birini də versənə”, “Necə dolanır”, “Ceyrana bənzəyirmi”, “Həkim cəkdi dişimi”, “Evin dirəyi”, “Şəfa ceşməsi” və s şeirləri vardır. “Müəllim” şeirində müəllim peşəsini həmişə uca tutan şair müəllimin uşaqlara olan səmimiyyəti, məhəbbəti, gülər-üzlüyü, şagirdlərinə balam deyərək müraciət etməsi uşaqlar arasında böyük hörmət hazanmasına gətirib cıxarmışdır. Şeirə baxaq:

Qarşılayır müəllim
Məktəbdə hər gün bizi
Bizimlə bir oxuyur
Ucadan himnimizi

Dərsədə girən kimi:
-Ucadan, salam,-deyir,
Mehriban gülərüzdür,
Hamıya “balam”- deyir.

Hər bir insanın gələcək həyatının təməli körpəlikdən başlayır. Bu təməl nə qədər möhkəm, nə qədər etibarlı olarsa, övladlarımız da pisxoloji cəhətdən bir o qədər sağlam, gümrah böyüyər, onların gələcəyi də fərəhli olar. Məlumdur ki, bağçayaşlı uşaqların təlim- tərbiyəsində əyanilik üsulu mühüm yer tutur. Çünki onlar oxuma, yazma qabiliyyətlərinə malik deyillər. Ancaq əyani vəsaitlərlə söz ehtiyatlarını, cümlə qurmaq qabiliyyətlərini, bir sözlə nitqlərini, zehinlərini, təfəkkürlərini inkişaf etdirmək olar. Kamil Arazın yaradıcılığında bağçayaşlı uşaqları nəzərdə tutub şeir yazan şair onu da düşünməlidir ki, yazdığı bədii əsərin dili olduqca sadə, konkret, məzmunu aydın olmalıdır. Həm böyüklər, həm də uşaqlar üçün yazan şairlərimizdən biri də Kamil Araz. Onun “ dilimizi qoruyaq” şeirinə diqqət edək:

İstəmirəm mən daha
Qələmə “rucka” deyək
Cəkməyə niyə “sapoq”
Cəlləyə “bocka” deyək?
Dostum yazır lövhədə,
Təbaşir var əlində
Acaq ona “mel” deyir
Yadellinin dilində

Kamil Araz pedaqoji və ədəbi fəaliyyətini milli mədənyyətimizin dil və ədəbiyatımızın inkişafına təsir edərək dilimizi qoruyaq onun zənginliyini üzə cıxaraq torpağıda dili müqəddəs varlıq sayır. 40 ildən artıq yaradıcılıq fəaliyyəti olan Kamil Araz əsgəri xidmətini Sibir-Altayda kecirərkən vətən ziyalılarının sürgün olunduğu yerlər ona cox şeyləri xatırlatmış, vətəninə el-obasına olan sevgisi vurğunluğu onun poetik yaradıcılığında “Vətənə andım”, “Sev Vətəni”,”Mənə uşaq deməyin”,”Baş endirək” və “Yurduma qayıtdım” şeirində görə bilərik.

Qayırdım yurduma mən də quş kimi,
Dilimə bağlılıq itən deyildi.
O boyda Sibirdə yaşamadım ki,
Torpaq mənim ücünVətən deyildi.

Şair “Göydən üc alma düşdü” (2014) kitabında ilk şeir “Qarabağ marşı” ilə başlayır. Kamil Arazın uşaq şeirlərini məzmunundan asılı olaraq, bir neçə istiqamətdə qruplaşdırmaq olar: azadlıq, müstəqillik, azərbaycançılıq duyğularının tərənnümü, müharibə amili, Qarabağ problemi, yurd

sevgisi, Naxçıvanın təbiəti, uşaqların təbiətə və heyvanlar aləminə məhəbbəti, tarixi yerlərimizin tanıdılmasından bəhs edən şeirləri vardır. “Göy qurşağı”

Yeddi rəngli kəmərdi
Göy qurşağı adında
Hər rəngin adın anar
Saxlayıbdır yadında

Müxtəlif mövzularda şeirlər yazan Kamil Araz poeziyasının əsas ruhunu vətənpərvərlik, vətənə məhəbbət hissi təşkil edir. Vətəni müdafiə etməyə cağırır. Qələbə gününü dərin inamla gözləyir.

Qarabağ torpağında
Olduqca düşmən izi.
“Qalx ayağa!”-cağırır,
Anamız Vətən bizi.
Hazır olaq vuruşa
Bizi gözləyir Şuşa.
Düşmənin əzək başın,
Vətənim azad yaşa.

Azad böyüyən bir millətin torpaqları da azad olmalıdır. Bəli biz qalib gəldik. Bu bir həqiqətdir. Torpaqlarımız şanlı ordumuzun qüdrəti sayəsində düşmən tapdağından xilas edilmiş, 28 ildən sonra qələbə bizimlə olmuşdur. Lakin bunuda qeyd edək ki, uzun zaman Qarabağsız bir nəsil yetişmişdi və yeni yetişən nəsilə, Qarabağ həqiqətlərini çatdırmaq, xüsusilə, uşaq ədəbiyyatı yönündə qələm işlədən şair və yazıçılarımızın belə mövzulara həsaslıqla yanaşmalı bu sahəni diqqətdə saxlamalı, uşaqların fikir səviyyələrinə uyğun əsərlər yazmağa çalışmalıdılar.
Uşaq ədəbiyyatı mənəvi- əxlaqi və ideoloji tərbiyə məktəbinə çevrilməlidir. Uşaq ədəbiyyatı uşaqları, gəncləri, əməksevər, namuslu, vətəninə, xalqına məhəbbət, torpağına, el- obasına səadət ,mətinlik, mübarizlik ruhunda tərbiyə etməlidir. Dəyərli ədəbiyyatşünas, professor H.Həşimli Kamil Arazın “Göy qurşağı” adlı şeirlər toplusuna yazdığı ön sozdə dediyi kimi “Kamil Arazın uşaqlar ücün yazdığı şeirlər mövzuca müxtəlif olduğu kimi janr, bədii təsvir və ifadə vasitələri baxımından da rəngarəhgdir. Şair balaca oxucuların vətənpərvərlik tərbiyəsinə həmçinin təbiət haqqında biliklərinin dərinləşməsinə xüsusi fikir verir”. Təbiət şeirləri “Qış”, “Dörd fəsil”, “Göy qurşağı”, “Gözəl bahar”, “Şəfa ceşməsi”, Qışda və s.

Qış gəlibdir, qar yağır
Qar yağır ağır-ağır
O əriyir əlimdə
Islanıbdır telimdə
Üst-başım su icində

Kamil Arazın şeirlərinin dilində sadəlik, məzəlilik və özünəməxsusluq vardır. Uşaq ədəbiyyatının başlıca mövzusu təlim və tərbiyə olduğu kimi əməyə və zəhmətə də uşaqlıq yaşından alışdırılması cox mühümdür. Şairin “Nazını cək” şeirində olduği kimi:

Atam cağırdı
Gəl ağac əkək.
Dibinə peyin,
Həm də su tökək.

Ağacın əkilməsi onun nazının çəkilməsi, böyüməsi, barının alınması bütün bunlar ağır zəhmətin məhsuludur. Balacalar anlayar ki, əmək sərf olunmasa dadlı meyvə yetişməz.
Kamil Araz yaradıcılığında uşaqların yaşına, maraq və imkanlarına uyğun olaraq süjet dəyişir. Bildiyimiz kimi uşaqlar üç yaşında zəngin bir xəyal təxəyyülünə sahib olur, dörd yaşında isə davamlı ətrafı tanımaq vərdişləri qazanırlar. Qeyd etmək lazımdır ki, bu dövrdə uşaqlar prototip olaraq baxdıqları tamaşaların qəhrəmanlarını unutmur, onları düşünürlər. "Nağıl dünyası" adlı şeirdə conuncu bəndə olduğu kimi

Babam qoc Koroğlunu
O qədər öyrərdi ki...

Uşaqlar nağılları cox sevirlər nənə və babaların dilindən eşitmək isə onlara bir başqa həzz verir.

Eşitdiyim nağıllar
Nəsihət, ağıl oldu.
Yaşadığım bir ömür
Nəvəmə nağıl oldu...!

Şairin nənə, baba, nəvə mövzulu şeirlərində uşaqların baba və nənəyə olan sualları və maraq dünyasının ən təcüb etdiyi düşüncələr fikirlər öz əksini tapdığını görürük. Bu kim şeirlərdən "Gəlməyibdir", "İki uşaq", "Mıx dəymişdi gözümə", "Cin aparsın", Necə dolanır", "Babam deyəcək", "Canlı kitab" şeirində

Həm bilgidir həm öyüd
Babamın danışığı.
Mənim həyat yoluma
Babam salır işığı.

Şairin yaradıcılığı ilə bağlı mərhum professor, filologiya elmləri doktoru Hüseyn Həşimli qeyd edir ki, "Kamil Arazın uşaqlar üçün yazdığı şeirlər mövzuca müxtəlif olduğu kimi, həm də janr, bədii təsvir və ifadə vasitələri baxımından maraqlıdır. Kamil Arazın son illərdə çap etdirdiyi "Xəzinə", "Göydən üç alma düşdü", "Tapmacalar" və "Göy qurşağı" kitablarındakı şeirlərin hamısı uşaqlar üçün qələmə alınmış, məna aydınlığı ilə seçilən nümunələrdir. Bu kitablardan fərqli olaraq "Tapmacalar" kitabı başdan başa 212 tapmcadan ibarətdir. Prof Q.Namazovun dediyi kimi: "Tapmacalar kicik yaşlı məktəblilərin əşya və hadisələr haqqında anlayışlarını inkişaf etdirmək, zənginləşdirmək ücün faydalı ədəbi vasitədir". Azərbaycan folklorunda tapmacalar həm nəslə həm də nəzmlə yazılır. Tapmacalar həm böyüklər həm də kicik yaşlı uşaqlar ücün fərqlənirlər. Balacalardan biri sual verir digəri isə cavablandırılır. Tapmacaar sadə məzmunlu müstəqil məna daşıyir məntiqi xarakter daşıyır. Məsələn:

Məndə bir kitab kimiyəm,
Cantalarda gəzirəm.
Ağ sinəmin üstündə
Kim nə yazsa dözürəm. (dəftər)

Gələcəyimiz olan uşaqları dünya sivilizasiyası səviyyəsinə qaldırmaq üçün dünyada baş verən ən yeni ictima-siyasi prosesi, elmi-texniki yenilikləri bütün bunlarla yanaşı tarixi keçmişimizi bugünkü nəsilə aşılamalıyıq. "Müəllim", "Qiymətin əla ola", "Bizim müəllim", "Baxıram şəkillərə", Dilimizi qoruyaq","Sevincin sevinci","Qoy qorusun" "33-cü hərf", və s. şeirləri kicik oxucularda elm öyrənməyə onun sirlərini bilməyə sövq edir.

Təbrik etdi müəllim
Bircə bircə hamını.
Keciririk dedi biz
Əlifba bayramını

Elnarə Akimovanın "Uşaq dünyasının şeirləri: işıqlı və rəngarəng." (Kamil Arazın şeirləri əsasında) Ədəbiyyat qəzetində 04.05-2022-ci il tarix də yazdığı kimi: Azərbaycan ədəbiyyatının inkişafında Naxçıvan ziyalılarının, düşüncə sahiblərinin, milli münəvvərlərinin böyük rolu olmuşdur. Elm və sənət məxəzi sayılan Naxçıvandan Azərbaycan ədəbiyyatının, mədəniyyətinin formalaşmasına xüsusi intellektual çəki qatmış böyük şəxsiyyətlər çıxmış, fikir həyatımızda müstəsna iz salaraq doğulduqları yerin qürur və şərəf ünvanlarına çevrilmişlər. Bu baxımdan demək olar ki, son illər Naxçıvan ədəbi mühitində uşaq ədəbiyyatı sahəsində böyük irəliləyiş hiss olunur. Bu ədəbiyyatın zənginləşməsi və təsir dairəsi xeyli artmış, bədii dəyəri ilə seçilə bilən əsərlər ortaya qoyulmuşdur.

Ədəbiyyat

Akimova E. "Uşaq dünyasının şeirləri: işıqlı və rəngarəng." (Kamil Arazın şeirləri əsasında) Ədəbiyyat qəzeti 04.05-2022.
Kamil Araz Xəzinə. Bakı. Zərdabi nəş. 2015,s.40
Kamil Araz. Göydən üç alma düşdü. Naxçıvan. Əcəmi nəş. 2014, s.20
Kamil Araz Tapmacalar. Naxçıvan. Əcəmi nəş. 2018, s. 72
Kamil Araz Göy qurşağı" Naxçıvan. Əcəmi nəş. 2020, s. 54

TASKS AND METHODS THAT STİMULATE THE DEVELOPMENT OF STUDENTS' CREATİVE THİNKİNG

ŞAGİRDLƏRİN YARADICI TƏFƏKKÜRÜNÜN İNKİŞAFINA TƏKAN VERƏN TAPŞIRIQLAR VƏ ÜSULLAR

Qədimli Kamilə Sakit qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti Doktorant

Xülasə
Müasir təhsil sisteminin qarşısında duran başlıca məsələlərdən biri şagirdlərin şəxsiyyət kimi yetişdirilməsidir. Şagirdlərin şəxsiyyət kimi yetişdirilməsində onların təfəkküründün inkişafı mühüm yer tutur. Yeni təhsil sisteminə uyğun olaraq nəşr olunmuş dərsliklər şagirdləri tədqiqata yönəldir və tədqiqat aparan şagirdlərdə bir çox yeni bacarıqlar formalaşır. Məsələn, tədqiqat aparan şagirdin tənqidi, yaradıcı, məntiqi təfəkkürü inkişaf edir. Şagird təfəkküründün inkişafında müəllim əməyinin rolu da əhəmiyyətlidir. Bilirik ki, sinifdə olan şagirdlərin hamısı eyni təfəkkürə, bacarığa malik olmur. Məhz buna görə də müəllim yalnız fənni tədris etməklə kifayətlənməməli, həm də yaxşı bir müşahidəçi, tədqiqatçı olmalıdır. O, şagirdlərin istedadlarını üzə çıxarmalı, onlarda müstəqil şəkildə öyrənmə bacarığı aşılamalıdır. Dərs prosesi zamanı onların fəallığına yol açmalı, özlərinə inam hissi təlqin etməlidir. Müəllim şagirdlərin təfəkküründün inkişafı ilə bərabər nitqinin də inkişafı üçün çalışmalıdır, çünki nitq və təfəkkür bir-biri ilə qarşılıqlı əlaqədədir və onların ikisinin də inkişafı eyni zamanda getməlidir.
Açar sözlər: təfəkkür, yaradıcılıq, üsullar, şagird.

Abstract
one of the main issues facing the modern education system is the training of students as individuals. An important place in educating students as individuals is occupied by the development of their thinking. Textbooks published in accordance with the new education system direct students to research, and many new skills are formed in students conducting research. For example, the student conducting research develops critical, creative, logical thinking. The role of teacher labor in the development of student thinking is also significant. We know that not all students in the classroom have the same thinking and skills. That is why the teacher should not only teach the subject, but also be a good observer, researcher. He must reveal the talents of students, instill in them the ability to learn independently. During the course of the lesson, it should lead to their activity and inspire a sense of self-confidence. The teacher should work for the development of students ' speech along with the development of their thinking, since speech and thinking interact with each other, and the development of both of them should go at the same time.
Keywords: thinking, creativity, methods, pupil.

Professor N.Cəfərova qeyd edir: “Şagirdlərin nitqinin normal inkişafı üçün müəllimin onların psixi inkişafından geniş məlumatı olmalıdır” [Cəfərova, 2022: s.41]. Bunun üçün müəllim müxtəlif təlim üsullarından istifadə etməlidir. Həmçinin, müəllim şagirdlərə bilikləri hazır şəkildə vermək yerinə onları tədqiqata yönəltməlidir. Məhz bu zaman şagird özünü bir tədqiqatçı kimi hiss edəcək və verilən mövzu üzrə araşdırma aparacaq, məlumat toplayıb təqdimat hazırlayacaqdır.
Akademik M.Mehdizadə təhsilalanların tədqiqatçılıq bacarıqlarının formalaşdırılmasında fəal təlim metodlarının rolunun vacibliyini vurğulayır: “…Təlim metodu özündə bir tərəfdən öyrətmə metodunu (müəllimin fəaliyyətini), o biri tərəfdən öyrənmə metodunu (şagirdlərin fəaliyyətini) birləşdirir. Onlar qarşılıqlı əlaqədədirlər” [Mehdizadə, 1982: s.101].

Şagirdlərin yaradıcı təfəkküründün inkişafı üçün bir çox fəal təlim üsullarından istifadə olunur, həmçinin Azərbaycan dili dərsliklərindəki tapşırıqlardan, müxtəlif mətnlərdən istifadə oluna bilər. Təhsilalanların yaradıcı təfəkküründün inkişafında proqnozlaşdırma, əqli hücum, rollu oyunlar, layihələr və s. üsullardan da istifadə oluna bilər.

Layihə işi şagirdlərin tədqiqat bacarığını formalaşdıran üsullarından biridir. Mövzular təqdim olunduqdan sonra şagirdlər müxtəlif internet resurslarından, dərsliklərindən araşdırma aparırlar. Bu üsuldan istifadə zamanı bir tərəfdən şagirdlərin yaradıcılıqları üzə çıxır, digər tərəfdən isə yeni biliklər öyrənərək təfəkkürlərini, dünyagörüşlərini inkişaf etdirirlər. Bu zaman müəllim işin gedişinə müdaxilə etməməli, yalnız bələdçi funksiyasını yerinə yetirməlidir. Şagirdlər layihəni cədvəllər, şəkillər, qrafiklər və s. formada təqdim edə bilərlər. Layihə işi üçün mövzu seçərkən konkret mövzu götürülməlidir. 7-ci sinif Azərbaycan dili dərsliyində yer alan "Neft daşları" mətnindən sonra gələn 5, 6, 9 - cu tapşırıqlar layihə işi kimi yerinə yetirmək olar [Azərbaycan dili, 2022: s.120].

İlk olaraq şagirdləri qruplara bölmək lazımdır. Məsələn, I qrupa "Neft daşları Azərbaycan filmlərində" mövzusunda inşa yazmaq tapşırılır. Bu zaman onlar neftlə bağlı çəkilmiş filmlərə istinad edə və faydalana bilərlər. II qrupa "Müstəqillik illərində Azərbaycan neftinin inkişafı" mövzusunda esse yazmaq tapşırıla bilər. Şagirdlərin yazdığı bu essedə Azərbaycan neftinin inkişafında Ulu öndərin rolu, 1994-cü ildə bağlanmış "Əsrin müqaviləsi" və s. mühüm məsələlər öz əksini tapır. III qrupa "Neft daşları" adlı hekayə yazmaq tapşırılır. Bu hekayədə neftçilərimizin gərgin iş rejimi, onların misli görünməmiş əməyi xüsusi vurğulanmalıdır. Layihə hazırlığı zamanı qrup işinin rolu vacibdir. Belə ki, şagirdlər mövzu ilə bağlı qrup üzvləri ilə müzakirələr aparacaq, qarşılıqlı şəkildə çalışacaq və bir-birindən öyrənəcəklər. Həmçinin, onlar Azərbaycan tarixinə də istinad edərək tarixi biliklərini də inkişaf etdirəcəklər.

Əqli hücum dərsin əsasən motivasiya mərhələsində tətbiq olunan üsullarından biridir. Bu üsul şagirdlərdə fikir azadlığı, sərbəstlik yaradır, həmçinin onların yaradıcılıq bacarıqlarını stimullaşdırır, müstəqil düşünməni formalaşdırır. İstənilən mövzu ilə bağlı şagirdlər ağıllarına gələn bütün ideyaları irəli sürürlər. Bu fikirlər yanlış da ola bilər, lakin müəllim onları dayandırmamalı, sərbəstliyə şərait yaratmalıdır. Məsələn, "Uğurun sirri" mətninin əvvəlində "əməkdaşlıq", "qayğıkeşlik" sözləri təqdim olunur və "Sizcə, həyatda uğur qazanmaq üçün bu keyfiyyətlər insana necə kömək edə bilər?" [Azərbaycan dili, 2024: s.6] sualı ünvanlanır. Bu zaman uşaqlar verilən sualla bağlı müxtəlif fikirlər söyləyirlər. Yaxud "Bilirdim ki, gələcəksən" mətni ilə bağlı "Həyatda güvəndiyiniz insan varmı?" [Azərbaycan dili, 2022: s.24] sualı təqdim olunur. Müəllim şagirdlərin fikirlərinə müdaxilə etmədən onların ideyalarını qeyd etməlidir və sonra ümumiləşdirmə aparılır.

Proqnozlaşdırma üsulu da yaradıcı təfəkkürün inkişafına xidmət edir. "Bu oxu üsulu şagirdlərin oxuduğu mətndəki əsas məqamları seçmək, hadisələrin davamını təxəyyülünə uyğun proqnozlaşdırmaq bacarığını inkişaf etdirir" [Azərbaycan dili, 2021: s.121]. Əgər oxunacaq mətn geniş həcmli olarsa, bu zaman mətn hissələrə bölünür və şagirdlər həmin hissələrin davamını təxmin etməlidirlər. Mətn kiçik həcmli olarsa hissələrə bölmədən sonu şagirdlər tərəfindən proqnozlaşdırılmalıdır. Şagirdlərə "sizcə, davamı necə olacaq?", "niyə belə düşünürsünüz?" və s.tipli suallar verilir. Bu üsul şagirdləri fikirləşməyə sövq edir, yeni ideyalar tapmağa yönəldir. Yaxud mətnin davamını, sonluğunu dəyişmək tapşırıla bilər. Həmçinin bəzən mətnin adı verilmir və şagirdlərə mətni oxuduqdan sonra məzmuna uyğun başlıq fikirləşmək tapşırılır. Bütün bu tapşırıqlar şagirdlərin yaradıcılıq bacarıqlarını inkişaf etdirir. Məsələn, suallar tərtib etmək də buraya aiddir.

Şagirdlərin yaradıcı potensialını üzə çıxaran və inkişaf etdirən üsullardan biri də rollu oyunlardır. Bu metod, tədrisdə həm əyləncəli, həm də öyrədici bir yanaşma olmaqla yanaşı, uşaqlarda bir sıra mühüm bacarıqların formalaşmasına xidmət edir. Rollu oyunlar zamanı şagirdlərə əvvəlcədən müəyyən rollar verilir və onlar bu rollar əsasında dialoqlar quraraq obrazların dilindən danışırlar. Bu cür fəaliyyətlər uşaqların yalnız şifahi nitq bacarıqlarını deyil, eyni zamanda onların jest və mimika vasitəsilə ünsiyyət qurma qabiliyyətlərini də inkişaf etdirir. Beləliklə, şagirdlər həm bədən dili, həm də ifadə tərzi baxımından daha səlis və inandırıcı danışmağı öyrənirlər.

Rollu oyunların əhəmiyyətli cəhətlərindən biri də şagirdlərin bir-birilə qarşılıqlı əlaqəyə girməsini təmin etməsidir. Bu zaman onlar öz davranışlarını və emosiyalarını tənzimləməyi öyrənir, müxtəlif sosial vəziyyətlərdə necə reaksiya verəcəklərini təcrübə yolu ilə dərk edirlər. Eyni zamanda bu

oyunlar şagirdlərin mətnləri daha dərindən oxuyub-anlamalarına da təkan verir. Məsələn, 5-ci sinif Azərbaycan dili dərsliyindəki "Jan Valjan" mətnindəki obrazlar – Jan Valjan, Madam Maqluar, yepiskop, mehmaxana sahibi və digər personajlar – şagirdlər tərəfindən canlandırıldıqda, onlar mətnin mahiyyətini daha yaxşı mənimsəyir və həmin obrazların yaşadığı hissləri empatik şəkildə dərk edirlər. Bu isə təkcə mətnin anlaşılmasını deyil, həm də mənəvi dəyərlərin – mərhəmət, ədalət, bağışlama və insanlıq – şagirdlərin düşüncəsində yer etməsinə səbəb olur.

Müəllimlər dərs prosesində müxtəlif təlim metodlarından istifadə etməklə şagirdlərin həm dərsə marağını artırmalı, həm də onların yaradıcı təfəkkürünü inkişaf etdirməyə çalışmalıdırlar. Bu baxımdan yaradıcı yazılar – inşa, esse, hekayə, təxəyyülə əsaslanan mətnlər, mətnin davamını yazmaq və sairə – mühüm əhəmiyyət daşıyır. Bu tapşırıqlar vasitəsilə şagirdlər yalnız dil bacarıqlarını deyil, eyni zamanda müstəqil düşünmək, hadisələri analiz etmək və yazılı şəkildə ifadə etmək bacarığını da inkişaf etdirirlər. Yaradıcı yazılar şagirdlərə öz fikirlərini sərbəst şəkildə ifadə etmək üçün fürsət yaradır və onların daxili aləmini, duyğularını, maraq dairələrini əks etdirməyə imkan verir.

İnşa yazmaq prosesində şagirdin həm müstəqilliyi artır, həm də yaradıcılıq qabiliyyəti üzə çıxır. Bu prosesdə onlar bəzən əlavə mənbələrə – Azərbaycan tarixinə, ədəbiyyatına, xalq yaradıcılığına və bədii ədəbiyyata – müraciət edirlər. Məsələn, bir mövzuya dair inşa yazarkən şagird şair və yazıçılarımızın əsərlərindən sitatlar gətirə, xalq atalar sözləri və deyimlərindən istifadə edə bilər. Bu isə onların dil ehtiyatını genişləndirməklə yanaşı, mədəni dünyagörüşlərini də zənginləşdirir. Maraqlı və təsirli bir inşa yazmaq üçün şagirdin kifayət qədər söz ehtiyatına malik olması mühümdür. Müəllimlər bu ehtiyatı zənginləşdirmək məqsədilə şagirdləri mütaliəyə təşviq etməli, onları müntəzəm olaraq bədii ədəbiyyat oxumağa yönəltməlidirlər.

Bundan başqa, yazılmış inşaların təqdimatı da tədris baxımından əhəmiyyətlidir. Şagirdlər öz yazılarını sinif yoldaşları ilə paylaşmaqla həm ictimai çıxış bacarıqlarını inkişaf etdirir, həm də bir-birlərinin yazılarını oxuyub təhlil etməklə tənqidi təfəkkürlərini formalaşdırırlar. Bu müzakirələr zamanı fikir müxtəlifliyi yaranır, müxtəlif baxış bucaqları meydana çıxır və bu da sinifdə demokratik və açıq düşüncə mühiti yaradır.

İnşa mövzularının seçilməsi zamanı da şagirdlərin maraqları nəzərə alınmalıdır. Mövzu ya müəllim tərəfindən təqdim edilə bilər, ya da şagirdlərlə birgə müzakirə yolu ilə seçilə bilər. Bu yanaşma, uşaqların dərs prosesində daha fəal iştirak etməsinə səbəb olur və onların məsuliyyət hissini artırır.

Nəticə olaraq qeyd etmək olar ki, həm rollu oyunlar, həm də yaradıcı yazı tapşırıqları şagirdlərin intellektual və emosional inkişafına böyük təsir göstərir. Bu metodlar vasitəsilə onlarda yaradıcılıq, empatiya, ünsiyyət, tənqid və özünüifadə kimi həyati bacarıqlar formalaşır. Müasir tədris prosesində bu yanaşmaların geniş şəkildə tətbiqi təhsilalanların hərtərəfli formalaşmasına və gələcəkdə daha düşünən, araşdıran, yaradıcı fərdlər kimi yetişməsinə şərait yaradır.

Son zamanlarda yeni təlim standartlarına uyğun tərtib edilmiş Azərbaycan dili dərsliklərində müxtəlif mövzularla bağlı esse tapşırıqları yer alır. Bu kiçik həcmli esselər şagirdlərin yaradıcı bacarıqlarını ortaya çıxaran yazı növlərindəndir. Şagirdlər müxtəlif yaradıcı yazılar yazarkən orfoqrafik qaydalara da əməl edirlər. Dərsliklərdə kifayət qədər esse nümunələri mövcuddur. Məsələn, 5-ci sinif Azərbaycan dili dərsliyində "Əlvida, bilmirəm!"mətnində insanların zəif tərəfləri və bu cəhətlərin ortadan qaldırılması haqqında danışılır. Mətnin ardınca "Xarakterimdəki hansı zəif cəhətə "əlvida" demək istərdim?" [Azərbaycan dili, 2024: s.15] mövzusunda esse yazmaq tapşırılır və bunun üçün plan da təqdim olunur. Bu tapşırıq vasitəsilə şagirdlər həm öz zəif cəhətlərini müəyyən edəcək, həm də bu çatışmazlıqları ortadan qaldırmaq üçün yollar düşünüb fikrini essedə bildirəcəklər. Bəzən bəzi şagirdlər bu tip xüsusiyyətləri deməkdə çətinlik çəkir və məhz belə zamanda müəllim onlara dəstək olmalıdır. Həmçinin, "İdman və sağlamlıq" mətnindən sonra dərslikdəki "İdman və sağlamlıq" mövzusunda plakat hazırlayın" tapşırığı da şagirddən yaradıcılıq tələb edir[Azərbaycan dili, 2024: s.61]. Bu zaman şagirdlər müvafiq mənbələrdən araşdırma aparacaq, həm də mövzuya uyğun maraqlı şəkillər tapıb plakata yerləşdirəcəklər, qabiliyyəti olan şagirdlər özləri də rəsm çəkə bilərlər. Müşahidələr göstərir ki, yaradıcılıq tələb edən tapşırıqlar şagird təfəkkürünü inkişaf etdirməklə bərabər həm də onlar tərəfindən maraqla qarşılanır. Bilirik ki, Azərbaycan dili üzrə məzmun xəttinin 3-cü bölməsi yazıya həsr olunub. Məhz müxtəlif məzmunlu yazılar vasitəsilə şagirdlərin yaradıcı təfəkkürü inkişaf etdirilir.

Azərbaycan dili dərsliklərində mətnlərdən sonra təqdim olunan yazı tapşırıqları şagirdlərin yaradıcı təfəkkürünün inkişafına xidmət edir. Bu tapşırıqlar, ümumilikdə, məzmun xətti üzrə qurulur və şagirdlərə müxtəlif istiqamətlərdə düşünmə, yazma və təqdim etmə bacarıqları aşılayır.

Məsələn, 5-ci sinif Azərbaycan dili dərsliyində yer alan "Jan Valjan" mətnindən sonra "Yazı" başlığı altında təqdim olunan tapşırıq diqqəti cəlb edir. Bu tapşırıqda şagirdlərdən giriş, əsas hissə və nəticədən ibarət hekayə yazmaq tələb olunur. Hekayənin əsas qəhrəmanı səhv etmiş, lakin sonradan bu səhvini dərk edərək onu düzəltməyə çalışan bir şəxs olmalıdır. Bu tip tapşırıqlar şagirdlərə obraz yaratmaq, hadisələri təsəvvür gücünə əsaslanaraq təsvir etmək və qəhrəmanın daxili aləmini təqdim etmək imkanı verir. Hekayənin qurulması zamanı uşaqlar öz fantaziyalarını işə salır, müxtəlif xarakterlər yaradır və bir növ öz daxili aləmlərini kəşf edirlər. Bu isə onların tənqidi və yaradıcı təfəkkürlərinin inkişafına zəmin yaradır.

Bundan əlavə, dərslikdə təqdim olunan "Sözün qüdrəti" mətnindən sonra verilən üç situasiya da maraq doğurur. Bu situasiyalar əsasında şagirdlərdən müvafiq mətnlər yazmaq istənilir. Bu zaman onların əsas diqqəti sözün yerində və məqsədəuyğun istifadəsinə yönəlməlidir. Şagirdlər sözün təsir gücünü dərk etməklə yanaşı, onun insan münasibətlərinə, düşüncələrə və davranışlara necə təsir etdiyini də analiz etməyə çalışırlar. Bu isə dilin yalnız ünsiyyət vasitəsi olmadığını, eyni zamanda mədəni və mənəvi dəyər daşıyıcısı olduğunu dərk etmələrinə kömək edir.

Dərsliklərdəki "Araşdırma" başlığı altında təqdim olunan tapşırıqlar isə tədqiqat bacarıqlarını inkişaf etdirmək məqsədi daşıyır. Məsələn, "8" rəqəmi və tariximiz" mətnindən sonra şagirdlərə "7" rəqəmi ilə bağlı araşdırma aparmaq tapşırılır. Bu zaman şagirdlər "7" rəqəminin Azərbaycan ədəbiyyatında, xalq deyimlərində, mifologiyada, tarixdə və coğrafiyada necə təzahür etdiyini öyrənirlər. Bu tapşırıq həm onların araşdırma və təqdimetmə bacarıqlarını inkişaf etdirir, həm də fənlərarası inteqrasiyaya imkan yaradır. Beləliklə, şagirdlər yalnız Azərbaycan dili deyil, digər fənlərlə də əlaqə quraraq biliklərini daha da möhkəmləndirirlər.

Nəticə olaraq qeyd etmək olar ki, müasir Azərbaycan dili dərsliklərində yer alan bu tipli tapşırıqlar şagirdlərin şəxsiyyət kimi formalaşmasına, onların tənqidi və yaradıcı təfəkkürlərinin inkişafına, eləcə də dildə və ünsiyyətdə daha fəal və məqsədyönlü olmalarına xidmət edir. Bu prosesdə müəllimlərin rolu olduqca vacibdir. Onlar təkcə dərsi öyrətməli deyil, eyni zamanda şagirdləri düşünməyə, müşahidə etməyə, analiz etməyə təşviq etməlidirlər. Bunun üçün müəllimlər valideynlərlə daimi və sıx əməkdaşlıq içində olmalı, uşaqların inkişafını birlikdə izləməlidirlər. Belə bir sistemli yanaşma həm təhsilin keyfiyyətini artıracaq, həm də gələcəyin yaradıcı və düşünən fərdlərinin yetişməsinə zəmin yaradacaqdır.

Nəticə

Şagirdlərin yaradıcı təfəkkürünün inkişafı müasir təhsil sisteminin qarşısında duran əsas vəzifələrdən biridir. Təfəkkürün və yaradıcılığın inkişafı yalnız fənnin məzmunu ilə deyil, eyni zamanda müəllimin tətbiq etdiyi təlim üsulları və yanaşmalarla da sıx bağlıdır. Məqalədə qeyd olunan proqnozlaşdırma, əqli hücum, rollu oyunlar, layihə işi kimi fəal təlim üsulları şagirdlərin müstəqil düşünmə, araşdırma, ideya irəli sürmə və təqdimetmə bacarıqlarını formalaşdırır. Azərbaycan dili dərsliklərində yer alan yazı tapşırıqları, esse və inşa yazıları, situativ mətn quruculuğu kimi fəaliyyətlər isə təfəkkürün, nitqin və yaradıcılığın paralel şəkildə inkişafına şərait yaradır. Beləliklə, müəllim bu metod və tapşırıqlardan məqsədyönlü şəkildə istifadə etməklə, şagirdlərin həm fərdi, həm də yaradıcı potensialını üzə çıxara bilər. Bu da təhsilin əsas hədəflərindən olan yaradıcı və tənqidi düşünən, şəxsiyyət kimi formalaşan vətəndaş yetişdirilməsinə xidmət edir.

Ədəbiyyat

1. "Azərbaycan dili" (2024) dərslik, 5-ci sinif l hissə, "Şərq-Qərb", Bakı, s.79
2. "Azərbaycan dili" (2024) dərslik, 5-ci sinif II hissə, "Şərq-Qərb", Bakı
3. "Azərbaycan dili" (2022) dərslik, 7-ci sinif, "Altun kitab", Bakı, s.175
4. "Azərbaycan dili" (2021) metodik vəsait, 6-cı sinif, "Altun kitab", Bakı, s.175
5. Cəfərova N. (2022) "Nitq inkişafı üzrə işin metodikası" ADPU-nun mətbəəsi, Bakı, s.234

6. Mehdizadə M. (1982) “Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları” “Maarif”, Bakı, s.383

FEATURES OF SYNTACTIC UNITS IN THE WORK OF BAHTIYAR VAHAPZADE

BƏXTİYAR VAHABZADƏNİN YARADICILIĞINDA SİNTAKTİK BÜTÖVLƏRİN XÜSUSİYYƏTLƏRİ

Kəmalə Əhmədova
Bakı Dövlət Universiteti, Şərqşünaslıq fakültəsi Filologiya elmləri doktoru, dosent

Xülasə
Bəxtiyar Vahabzadənin poetik dili Azərbaycan ədəbiyyatında dil və üslub baxımından özünəməxsus yeri ilə seçilir. Onun şeirlərində fikrin ifadəsində sintaktik bütövlərin geniş yer tutması, bu vahidlərin poetik funksionallığı diqqət çəkir. Sintaktik bütövlər şairin çoxplanlı ideyalarını ifadə etməsində yalnız qrammatik vahid kimi deyil, eyni zamanda mənanın emosional və estetik çalarlarını da daşıyan vasitə kimi çıxış edir. Bu cür sintaktik strukturlar, əsasən, müxtəlif yanaşmaların və duyğuların eyni anda təqdimini təmin edir.
Vahabzadənin poeziyasında sintaktik bütövlər mətnin ritmini müəyyənləşdirir, şeirdə səs və məna harmoniyası yaradır. Onun şeirlərindəki uzun və mürəkkəb cümlə quruluşları yalnız fikri çatdırmaq məqsədi daşımır, həm də bu fikrin emosional və bədii təsirini artırır. Sintaktik bütövlərin kontekst daxilində yaratdığı assosiasiyalar, fikrin strukturlaşdırılması və ümumi poetik məna ilə bağlılığı şairin dilə xüsusi yanaşmasının göstəricisidir.
Bəxtiyar Vahabzadə poeziyada qrammatik formaların semantik dəyərini dərindən dərk edərək, onları bədii yaradıcılığın bir vasitəsinə çevirə bilmişdir. Bu isə onun poetikasında sintaktik bütövlərin yalnız struktur element kimi deyil, həm də poetik funksiyaları yerinə yetirən dil vahidi kimi çıxış etdiyini göstərir. Beləliklə, şairin yaradıcılığı sintaktik bütövlərin funksional imkanlarının öyrənilməsi baxımından zəngin material verir.

Abstrac
This paper explores the distinctive role of syntactic integrity in the poetic language of Bahtiyar Vahapzade, a prominent Azerbaijani poet. His works stand out in Azerbaijani literature due to their unique linguistic and stylistic qualities. The study focuses on how syntactic units, beyond their grammatical functions, serve as poetic tools that convey deep emotional and aesthetic meanings. Vahapzade effectively utilizes complex and extended syntactic structures to express multilayered ideas and emotions. These syntactic constructions not only reflect the poet's intent but also contribute to the rhythm, sound harmony, and overall poetic effect of the text. The findings reveal that syntactic integrity in his poetry serves as a powerful medium for artistic expression, offering rich material for syntactic and stylistic analysis in Azerbaijani literature.
The associations created by syntactic wholes within the context, the structuring of thought, and their connection with the general poetic meaning are an indicator of the poet's special approach to language. Bahtiyar Vahapzade, having deeply understood the semantic value of grammatical forms in poetry, was able to turn them into a means of artistic creativity. This shows that in his poetics, syntactic wholes act not only as a structural element, but also as a language unit that performs poetic functions. Thus, the poet's work provides rich material for studying the functional capabilities of syntactic wholes.
Keywords: Bakhtiyar Vahabzadeh, syntactic integrity, Azerbaijani poetry, poetic language, syntax, stylistics, complex sentences, emotional expression, poetic function.

Giriş
Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Xalq şairi Bəxtiyar Vahabzadə (1925–2009) poetik yaradıcılığında həm məzmun, həm də dil baxımından zəngin nümunələr vermişdir. Onun şeirlərində sintaktik strukturun oyandırdığı effektlər, yəni müxtəlif cümlə və mətnli quruluşların yaradılması xüsusi maraq doğurur. Bu məqalədə "sintaktik bütöv" (sintaktik vahid kimi

makromətn vahidi) anlayışı nəzəri baxımdan şərh olunacaq, Vahabzadə şeirlərində bu vahidlərin istifadəsi və rolu təhlil ediləcək, konkret nümunələr əsasında onların poetik dilə verdiyi rəng izah ediləcək. Eyni zamanda müasir Azərbaycan ədəbiyyatşünaslarının bu sahədəki fikirlərinə müraciət ediləcək. Araşdırmada akademik mənbələrə, Vahabzadənin seçilmiş əsərlərinə və müasir dilçilik ədəbiyyatına istinad olunacaq.

Sintaktik bütöv dedikdə bir neçə cümlənin və ya cümlə fraqmentlərinin müəyyən sintaktik və semantik əlaqə əsasında bütöv məna ifadə etməsi nəzərdə tutulur. Bu cür quruluşlar əsasən aşağıdakı xüsusiyyətlərlə fərqlənir:

* Sintaktik muxtariyyətə malik olmaları;
* Semantik bağlılıq və tamamlanmış fikir ifadə etmələri;
* Emosional-ekspressiv yüklənmə.

Poeziyada bu cür konstruksiyalar şairin emosional vəziyyətini, fəlsəfi düşüncələrini, ictimai və mənəvi narahatlıqlarını daha güclü ifadə etməyə imkan yaradır.

Əsas Hissə

"Sintaktik bütöv" termini mətndaxili cümlə və cümlələr qrupunu, yəni mətn səviyyəsində formalaşan sintaktik vahidləri ifadə edir. Dilçilikdə mətn sentensiya səviyyəsindən yuxarı, daha geniş struktur hissədən ibarət olduğu üçün, cümlələrin bütövlüyü də ayrıca tədqiq edilir. Belə quruluşlara «mürəkkəb sintaktik bütöv», «mikromətn» və ya «period» adları verilir. Dilçilikdə makromətn adətən bütün əsər səviyyəsindəki toplu birləşməni, mikromətn isə mətnin daxilindəki kiçik, lakin daxili struktur-semantic vahidi əhatə edir. Sintaktik bütövlər mətnin strukturunu təşkil edən əsas elementlərdir və bir mətn ən azı iki cümlədən formalaşır və bu tərkiblər mətn sadə hesab olunursa, üç və daha artıq cümlədən ibarət olanlar kompleks mətn sayılır .

Azərbaycan dilçiliyində sintaktik bütövlərin tədqiqi 20-ci əsrin ortalarından başlanmış, mətn sintaksisi yeni bir sahə kimi formalaşmışdır. Mürəkkəb sintaktik bütöv (mikromətn) məsələləri dilçilər tərəfindən struktur, semantika, aktuallaşma, intonasiya və poetika kontekstində araşdırılmışdır . Məsələn, Ə.Cavadov Azərbaycan dilindəki cümlələrin sintaktik vahidlərin düzülüşünü öyrənib, mətnin bütövlüyü üçün söz sırasının rolunu təsvir etmişdir. Digər araşdırmalar isə qafiyə, təkrar, sinonimlik və bütövlükdə semantik əlaqələr üzərində dayanmışdır . Müasir dillərdə bu sahə daha da genişlənərək nümunələrin intonasiya və üslub aspektləri də şərh olunur. Mətn sintaksisi sahəsi texniki və komunikativ aspektləri ilə mətnin yaranma prosesinə dair tədqiqatları əhatə edir . Nəticədə "mikromətn" sintaktik bütövlərə uyğun gələn vahid sayılır . Həmçinin qeyd olunur ki, dilimizin sintaktik bütöv anlayışı müqayisəli təhlildə digər dillərin mətn vahidləri ilə də eyniləşdirilmişdir .

Vahabzadənin yaradıcılığında sintaktik bütövlərin müxtəlif formalarına rast gəlinir. Onun şeirlərində bu bütövlər əsasən aşağıdakı yollarla yaradılır:

1. Sualla cavab formasında:

Kimik biz?
Haradan gəlmişik?
Haraya gedirik?
Bizi bu qədər yoran nədir?.

Bu nümunədə cümlələr öz-özlüyündə ayrıca olsa da, semantik baxımdan bir ideya ətrafında birləşərək sintaktik bütöv yaradır.

2. Səbəb-nəticə ardıcıllığında:

Mən susuram, çünki danışsam…
Danışsam, ürəyimdəki qasırğalar sükutu pozar.

Burada səbəb və nəticənin poetik şəkildə ardıcıl verilməsi, həm də pauzalarla fikrin mərhələlərlə açıqlanması bütövlük effekti yaradır.

3. Paralel konstruksiyaların ardıcıllığında:

Mən xalq üçün yazıram —
Dərdini söyləmək üçün.

Qürurunu dilə gətirmək üçün.
Xatirəsini yaşatmaq üçün…
Paralel struktur və məqsəd bildirən infinitivlər sayəsində bu cümlələr bir vahid ideyanı ifadə edən sintaktik bütöv halına gəlir.
4. Əmr və nida cümlələrinin birləşməsi:
Dur ayağa, Azərbaycan!
Susma!
Səsini ucald!
Tarixə öz imzanı at!
Emosional təsiri gücləndirmək üçün əmr və nida cümlələri ard-arda düzülərək sintaktik bütöv yaradır.
Bəxtiyar Vahabzadənin şeirlərində sintaktik bütövlər yalnız forma baxımından deyil, funksional baxımdan da əhəmiyyətlidir:
* Poetik ritmin yaradılması: Sintaktik bütövlər şeirin ritmik quruluşuna dinamika və axıcılıq gətirir.
* Emosional intensivliyin artırılması: Xüsusən əmr və sual cümlələrindən ibarət sintaktik bütövlər oxucuda həyəcan və düşüncə yaradır.
* Mətnin semantik strukturunun dərinləşdirilməsi: Bu konstruksiyalar vasitəsilə şair çoxqatlı məna qatları yaradır.
Bəxtiyar Vahabzadə poeziyasında sintaktik bütövlər geniş istifadə olunur. Onun sərbəst şeir üslubunda yazılmış şeirlərində bəzən bir-birini tamamlayan qısa cümlə bloku olur, bəzən isə iri, uzun sintaktik quruluşlar əsas obrazın məğzi üçün xidmət edir. Məsələn, Vahabzadə ana dilinə bağlı olan məşhur şeirində sinonim tipli abzasdır – bir neçə “Bu dil,…” ilə başlayan cümlələrdən ibarət paralel sintaksis bütöv meydana gəlir . Şair həmçinin ictimai və mənəvi mövzularda qəsdən uzun cümlələri ayırmadan davam edir. Belə sintaktik bütövlər məna axıcılığını təmin edir, misralar arasında ardıcıllığı saxlayır. Digər tərəfdən, Vahabzadə tez-tez fraqmentar və paralel quruluşlardan da istifadə edir. Məsələn, “Vətənimiz bir bizim…” şeirində paralel struktur ön plandadır: “Vətənimiz bir bizim, / Dünənimiz bir bizim…” . Bu cür sintaktik sadəliyin içərisində təzad («bir bizim» – «başqa-başqa») yaradır.
Şairin poetik üslubunda sitatlar və müstəqil sintaktik vahidlər arasında da əlaqə mühüm yer tutur. O, milli atalar sözlərini cümlələrarası əlaqə yaratmaq üçün mətnə daxil edir. Məsələn, bir əsərində «Atalar düz deyib, tərs qoyulubmuş… Binədən dünyanın xımı, sən demə» misrası sitatı kimi işlənib . Şair müəllif nitqi ilə şərti sitat arasında «deyib… demişlər» tipli bağlayıcı qruplarla sintaktik və struktur bütövlük yaradır . Yəni, bu cür cümlə qrupları bir-birini şərtləndirərək bütöv məna xəritəsi qurur. Vahabzadə ayrıca qısa, hətta tək cümləli şeirlərdən ibarət bütövlüklər də yaratmışdır. Hər bir nümunə bir düşüncə vahidini ifadə edir və poetik məzmunu uzlaşdırır. Beləliklə, onun yaradıcılığı sintaktik quruluşların imkanlarından tam yararlanaraq zəngin poetik ifadə dünyası yaradır.
Sintaktik bütövlər poetik mətnin ritm, ahəng və emosional yükünü qurmaqda vacib rol oynayır. Uzun kompleks cümlələr əzəmətli, epik təsir yaradır, qısa və paralel strukturlar isə vurğunu gücləndirir. Vahabzadə şeirlərində nitq axıcılığını təmin edən sintaktik bütövlər ilə ritmik təzadlar həmahəngliyi əldə olunur. Məsələn, “Ana dili” şeirində çoxsaylı əlavələrdən sonra “yarandın” kəlməsi təkrar olunmaqla sintaktik tamlıq vurğulanır . Bu yolla şair ana dilinin dirçəldici gücünü bir bütöv kimi ön plana çəkir. Eyni zamanda, sintaktik oxşar yenilənən struktur (anafora) poetik səs-küy yaradır (xüsusilə “Bu dil, – … Bu dil, – …” formulu ilə başlayan misralar) .
Lakin müasir poeziya nəzəriyyəsində vurğulanır ki, poetik ritm təkcə takt, vurğu və sintaktik bütövlərdən asılı olmamalıdır . Məsələ buradadır ki, şeirdə əsas məzmun və təfəkkür daşıyıcısıdır; sintaktik quruluş isə həmin məzmunu ifadə etmək vasitəsidir. Buna baxmayaraq, Vahabzadə xüsusi üslub elementləri yaradaraq sintaktik bütövləri poetik dilə daxil etmişdir. Məsələn, müəllif tez-tez parlaq semantik təzadlar üçün antiteza (“birimiz – hamıya, birimiz- birimizə qarşı”) və nümunəvi fraza düzənlərindən istifadə etmişdir. Eyni zamanda, sintaktik bütövlərin quruluşuna riayət edərək mətin sözlərinə ritmik harmoniklik gətirməyə çalışır. Bəzi hallarda isə sintaktik fərqlilik poetikanın bədii təsirini artırır – məsələn, cümlə qoşmalarının və bağlayıcıların əlavə edilməsi qəfil pauzalar və cümlələrarası əlaqələr yaradır. Hər bir halda, sintaktik bütöv formasının seçilməsi müsbət stilistik effekt meydana gətirir. Bu hal, xüsusilə bəzi şeirlərdə sinergetik ədəbiyyatçıların diqqətini çəkmişdir.

Müəyyən nümunələr sintaktik bütövlərin rolunu aydın göstərir. Birinci nümunəmiz "Ana dili" (1954) şeiridir . Burada əvvəldən cümlə blokları "Bu dil, – bizim ruhumuz, … Bu dil, – bir-birimizlə…" şəklində formalaşaraq poetik anafora yaradır . Sonrakı abzasda isə çoxsaylı parçalanmış əlavələrdən sonra "yarandın" fel forması iki dəfə təkrar olunur . Konkret misralardan:
"Bizim uca dağların sonsuz əzəmətindən, / Yatağına sığmayan çayların hiddətindən, / Bu torpaqdan, bu yerdən, / Elin bağrından qopan yanıqlı nəğmələrdən… Qopan səsdən yarandın. / Sən xalqının aldığı ilk nəfəsdən yarandın."
Bu misralar əslində bir neçə sintezi formalaşdırır. Təqdim olunan siyahı uzun cümlə bütövlüyünü təşəkkül etdirir, "yarandın" feli ilə bitməklə isə vahid məna xəritəsi tamamlanır. Sintaktik cəhətdən hər bir "–dən" ilə bitən hissə əvvəlki "yarandın" felinin predmetini təşkil edir. Belə böyük sintaktik bütövlük ana dilinin yenidən dirçəlişini və onun bütün açar elementlərini ("uçurumdan, çaylardan, əl çatmayan sözlərdən…" yaranması ideyasını) simvolik şəkildə göstərir. Yaranan ritmik və struktur məziyyət şairin dediklərinə epik rəng qatır: bir təsvir avadanlığı kimi deyil, bir-birini şərtləndirən geniş cümlə blokları vasitəsilə nisgilli və böyük hissləri ifadə edir.
İkinci nümunə "Vətənimiz bir bizim…" (1966) şeiridir . Burada şair qısa, paralel konstruksiya ilə mesajını verir:
"Vətənimiz bir bizim, / Dünənimiz bir bizim, / Olmuşuq bir Vətəndə / Biz bu gün başqa-başqa. / Bizim talelərimiz, / Bəs neçün başqa-başqa? / Öz məsləkim, öz eşqim / Daim məndən öndədir."
Bu fraqmentdə "biz" və "bir bizim" ifadələrinin təkrarlanması paralelliyi, ardınca çıxan "başqa-başqa" ifadəsi isə təzadlılığı ön plana çəkir. Sintaktik baxımdan bu iki bənd məntiqi bütöv yaranmır – əksinə, əks tərəfləri ("birimiz" və "başqa-başqa" sözdə oxşardır, məna etibarı ilə ziddiyyət təşkil edir) eyni strukturda təkrar edərək şeirin mahiyyətini gücləndirir. Burada hər misra ayrıca sintaktik bütövdür, lakin ümumilikdə ardıcıl bənd bütövlüyü formalaşdırır. "Başqa-başqa" ifadəsi heyrət faktoru yaradaraq bütöv mətn xarakterini vurğulayır. Bu quruluş tam cümlə kimi başa çatmasa da, bütövlük kimi qavranır – sadəcə qısa sintaktik formada. Nəticədə şeir millətin birliyi və fərqliliyi arasındakı ziddiyyəti yığcam və təsirli şəkildə təsvir edir.
Üçüncü misal olaraq "Azərbaycan bayrağı" (1966) şeirindən fraqmenti qeyd etmək olar . Burada bir neçə ardıcıl mübtəda və təyinat ifadəsi (simvolik epitetlər və metaforalar) "bayraq" sözünü müxtəlif rakurslardan təsvir edir. Məsələn:
"Azərbaycan bayrağı / Başımın üstündədir!.. / Əqidəmin, eşqimin, / Qanımın rəngi bayraq, / Bütün arzularımın, / Qızıl çələngi bayraq."
Sintaktik cəhətdən bu da qat-qat bütöv yaradır; hər bəndin sonunda "bayraq" sözü yenidən gətirilərək anaforik məna vurğulanır. Bu nümunədə hər misra tam cümlə deyil, ancaq misralar arasında uzanmış ruhani bütövlük var – məna ardıcıllığı "bayraq" simvolunda sistemləşir. Belə sintaktik eynilik, parallelizm xalqın bayrağına bağlılığın poetik ifadəsidir. Həmçinin, bu bəndlərdə təkrar səslər sintezi ritmik bütövlük yaradır.

Bəxtiyar Vahabzadənin digər şeirlərində də sintaktik bütövlərin funksiyası həm semantik dərinlik yaratmaq, həm də emosional təsiri artırmaq məqsədi daşıyır. Məsələn, "Gülüstan" poemasında ayrı-ayrı fikirlərin sintaktik paralellik üzərində qurulması bütöv bir ideya xəttinin ardıcıl şəkildə verilməsinə imkan yaradır:

"Bir millət, bir dil, bir amal, bir dərd,
Ayrı düşüb bir sinədən iki fərd."

Bu misralar özlüyündə semantik və sintaktik baxımdan bir tamlıq – yəni poetik mikromətn təşkil edir. Burada həm də milli kimlik və parçalanma kimi ideyalar sintaktik paralellərlə ifadə olunaraq şeirin əsas fəlsəfi xəttini dəstəkləyir. Sintaktik bütövlərin bu cür funksionallığı şairin fikrinin daha dərin və təsirli çatdırılmasına xidmət edir.
Vahabzadə poetikasında sintaktik bütöv bəzən intonasiya ilə birlikdə emosiya yükünü artıran əsas vasitəyə çevrilir. Sintaktik bütövlər içərisindəki pauzalar, vurğular və fasilələr ritmik axını dəyişərək

oxucuya təsir imkanlarını genişləndirir. Bu baxımdan, sintaktik quruluş poetik nitqin yalnız məzmunu daşıyan deyil, həm də onun musiqi və akustik formasını təmin edən əsas vasitə kimi çıxış edir.
Bu xüsusiyyət "Vicdan" şeirində açıq şəkildə hiss olunur:

"Vicdan – bu, bir səsdir,
İçində danışar.
Nə qədər susdursan,
Yenə də alışar."

Burada dörd cümləlik mikromətn bir sintaktik bütöv olaraq, fikrin aydınlığı ilə yanaşı ritmik uyum yaradır. Bu sintaktik quruluş şairin poetik fəlsəfəsinə və daxili intonasiyasına uyğun gəlir.
Araşdırmalardan belə nəticə çıxır ki, Bəxtiyar Vahabzadənin şeirlərindəki sintaktik bütövlər aşağıdakı funksional tiplərdə özünü göstərir:
Emosional təəssürat yaradan bütövlər – fraqmentar, paralel cümlələrlə qurulur (məsələn, "Vətən" və "Qürbətdə" şeirləri).
Məntiqi və fəlsəfi strukturlar – uzun cümlələrlə verilən təsvir və təhlil ardıcıllığı (məsələn, "Qocalar" və "Vicdan").
Didaktik və vətənpərvərlik ruhlu sintaktik qruplar – tez-tez atalar sözləri və ümumxalq müdrikliyinə əsaslanan sitatlarla qurulur.
İnversiya və antitezaya əsaslanan poetik bütövlər – təzadlı paralellər üzərində qurulan sintaksis (məsələn, "Gülüstan").

Nəticə

Bəxtiyar Vahabzadənin poetik irsi Azərbaycan poeziyasının həm semantik, həm də sintaktik baxımdan zirvəyə çatdığı məqamlardandır. Onun yaradıcılığında sintaktik bütövlər təkcə cümlə səviyyəsində deyil, fikir, emosional gərginlik və ritm səviyyəsində də işlək poetik vasitə rolunu oynayır. Müasir dilçilik bu strukturları yalnız qrammatik kateqoriya deyil, bədii-estetik funksiyanın təcəssümü kimi dəyərləndirir. Bu səbəbdən Bəxtiyar Vahabzadənin poeziyası həm nəzəri sintaksisin, həm də poetik dilin inkişafı baxımından əhəmiyyətli tədqiqat obyekti olaraq qalır.
Sintaktik bütövlər Bəxtiyar Vahabzadənin şeir dilində həm məzmun, həm də struktur baxımından əhəmiyyətli komponentlərdir. Sintaktik bütöv anlayışı ümumilikdə mətn sintaksisinin əsas vahidlərini – cümlələri, mikro-mətn hissələrini və bütöv abzasları əhatə edir. Vahabzadənin poeziyasında müxtəlif sintaktik vahidlərdən – uzun kompleks cümlələrdən, paralel struktur və fraqmentlərdən – xeyli nümunə mövcuddur. Bu quruluşlar şeirin emosional üslubunu formalaşdırır: sözün ritmikliyini və poetik işartısını gücləndirir, şeir məna yükünü aydın şəkildə çatdırır. Təhlil edilən nümunələrdə göründüyü kimi, sintaktik bütövlər misra və bənd sərhədlərindən asılı olmayaraq vahid məna çərçivəsi yaradır.
Müasir Azərbaycan dilçi və ədəbiyyatşünaslar bu mövzunu geniş spektrdə araşdırır. Bir tərəfdən, sintaktik bütövlər makro- və mikro-mətn aspektindən öyrənilərək ümumi dilçilik kontekstində şərh olunur . Digər tərəfdən, bədii şeir nümunələrində bu elementlərin funksiyasına diqqət yetirilir. Hər iki tədqiqat istiqaməti Vahabzadə yaradıcılığının da araşdırılması istiqamətində önəmlidir. Beləliklə, sintaktik bütövlər Bəxtiyar Vahabzadənin yaradıcılığında əsas poetik vasitələrdən biri olmaqla, onun şeirlərinin dərinliyini, ritmini və üslubunu zənginləşdirir və milli poeziyamızın dil imkanlarını daha da genişləndirir .

Kitabiyyat Siyahısı

1. Quliyev, T. (2012). Sintaksis və üslub problemləri. Bakı: Elm və Təhsil.
2. Veysəlov, Ə. (2010). Mətn və onun sintaktik quruluşu. Bakı: Nurlan.
3. Həsənov, A. (2008). Mətn sintaksisi və informativlik. Bakı: Nurlan.
4. Əliyev, M. (2007). Azərbaycan dilində poetik sintaksis. Bakı: Təhsil.
5. Məmmədli, R. (2005). Bəxtiyar Vahabzadənin poetik dili. Bakı: Elm.
6. Əliyeva, R. (2011). Sintaktik bütövlərin funksional-semantik təhlili. Bakı: Elm və Təhsil.

7. Əsgərov, E. (2016). Mətnin struktur xüsusiyyətləri və onun komponentləri. Bakı: Nurlar NPB.
8. Vahabzadə, B. (2004). Seçilmiş əsərləri. I cild. Bakı: Yazıçı.
9. Cavadov, Ə. (1986). Sintaktik əlaqələrin inkişafı və müasir Azərbaycan dili. Bakı: Maarif.
10. Babayeva, S. (2009). Mətn və diskurs anlayışı: dilçiliyin müasir problemləri. Bakı: Elm.
11. Məmmədov, F. (2020). Azərbaycan dilində şeir sintaksisi və bədii struktur. Bakı: Elm və Təhsil.
12. Widdowson, H.G. (1978). Teaching Language as Communication. Oxford: Oxford University Press.
13. Beaugrande, R. de & Dressler, W. (1981). Introduction to Text Linguistics. London: Longman.
14. Halliday, M.A.K. & Hasan, R. (1976). Cohesion in English. London: Longman.
15. Lotman, Y.M. (1970). The Structure of the Artistic Text. Moscow: Progress Publishers.

7 İLLİK UŞAQ MUSİQİ MƏKTƏBİNDƏ SOLFECİO VƏ MUSİQİ NƏZƏRİYYƏSİ DƏRSLƏRİNİN TƏDRİSİ ZAMANI TÖVSİYYƏ OLUNAN ÜSULLAR

RECOMMENDED METHODS WHEN TEACHING SOLFECIO AND MUSIC THEORY LESSONS IN 7-YEAR-OLD CHILDREN'S MUSIC SCHOOL

Məmmədli Kəmalə Elxan qızı
Oğuz rayon 7 illik Uşaq Musiqi Məktəbinin müəllimi,Oğuz şəh.

Xülasə
Musiqi sənəti şagirdlərin estetik tərbiyəsində mühüm amildir və gənc nəslin inkişafı üçün ən təsirli vasitədir.Estetik mədəniyyətli insanın inkişafı üçün vacib məsələlərdən biri də gənc nəslin savadlı, bilikli və tərbiyəli inkişafıdır ki, bu da musiqi dərslərinin əsas vəzifələrindən hesab olunur. Musiqi dərsləri zamanı dərs prosesində şagirdlər tədris planına və fənn proqramlarına uyğun bilik, bacarıq, vərdişlərə yiyələnməli və onları tətbiq edə bilməlidirlər. Nəzəriyyəni tədris edən hər bir müəllim fəal və interaktiv metodlardan istifadə etməli,öyrəniləcək materialı şagirdlərə ən səmərəli və keyfiyyətli şəkildə mənimsətməyi bacarmalıdır.Musiqi təliminin əsas şərti musiqini eşitmək,onu hiss etmək,duymaq və tətbiqə çevirməkdir. Bu isə ancaq məqsədyönlü,planlaşdırılmış dərs prosesi və dərsə müvafiq metod və çalışmalardan istifadə etməklə mümkündür. Bu məqalədə qabaqcıl təcrübəyə dayanaraq dərs prosesi zamanı tətbiq etdiyim bir sıra sadə və effektiv üsulları əks etdirmişəm.
Açar sözlər: musiqi nəzəriyyəsi, tədris prosesi, metod və üsullar, inteqrasiya, musiqi təhsili, tətbiqetmə.

Abstract
Music is an important factor in the aesthetic education of students and the most effective means for the development of the younger generation. One of the important issues for the development of an aesthetically cultured person is the literate, knowledgeable and educated development of the younger generation, which is considered one of the main tasks of music lessons. During music lessons, students should acquire knowledge, skills, and habits in accordance with the curriculum and subject programs and be able to apply them. Every teacher who teaches theory should use active and interactive methods and be able to teach students the material to be learned in the most efficient and high-quality way. The main condition for music education is to hear music, feel it, sense it, and apply it. This is possible only through a purposeful, planned lesson process and using methods and exercises appropriate to the lesson. In this article, I have reflected a number of simple and effective methods that I applied during the lesson process, based on advanced experience.
Key words: music theory, teaching process, methods and techniques, integration, music education, application.

Giriş

Peşəkar musiqi təliminin əsas və həlledici şərti – musiqili eşitmə qabiliyyətinin mövcud olmasıdır. Uşaq musiqi məktəbindən başlayaraq, daha sonra orta ixtisas və Ali musiqi ocaqlarında bu keyfiyyətin məqsədyönlü inkişafı və təkmilləşməsi – «Solfecio» kursunun başlıca məqsədini təşkil edir. Musiqili eşitmənin formalaşması bir çox praktiki çalışmalar əsasında baş verir, lakin onların arasında canlılığı ilə, özündə daha çox yaradıcı xüsusiyyətləri cəmləşdirən məhz solfecio məşğələləridir. Həmin məşğələlər zamanı istifadə oluna biləcək musiqi materialının müxtəlif dövr və ölkələri, fərqli üslubları əhatə edən nümunələr üzərində aparılması – uğurlu nəticələr gətirən solfecio təliminin əsas amillərindəndir. Uzun zaman Respublikamızda tədris olunan Solfecio fənni ötən əsrin

30-70-ci illərində keçmiş sovet məkanında nəşr olunmuş məcmuələrə, üzündən oxuma və imla dərsliklərinə əsaslanırdı. Moskva, Leninqrad, Kiyev konservatoriyalarının tanınmış mütəxəssisləri tərəfindən tərtib olunmuş, bəziləri bu gün də metodiki dəyərini itirməmiş həmin dərs vəsaitləri əsas etibarı ilə rus, ukrayna və digər xalqların melodiyaları üzərində qurulmuşlar. Bu səbəbdən Azərbaycanda fəaliyyət göstərən onlarla musiqi məktəblərinin şagirdləri solfecio dərslərində milli musiqi, milli lad mühitindən bir növ «təcrid» edilərək həm müəyyən intonasiyalı çətinliklər ilə qarşılaşır, həm də və ən əsası – Azərbaycan musiqisini «kökündən» – lad səviyyəsindən öyrənmək imkanından məhrum edilirdi. Halbuki, məhz xalq musiqisi və klassik tərzli bəstəkar musiqisi uşaq və gənclərdə bədii zövgün hərtərəfli inkişafı, vətənpərvərlik hissinin və gözəllik anlayışının formalaşması üçün əsaslı zəmin yaradır. Məlum olduğu kimi, təhsil prosesində musiqi gənc nəslin mənəvi-estetik tərbiyəsinin əsas formasıdır. Aydındır ki, təhsilin sürətlənməsinin effektivliyi bundan asılıdır. Musiqi savadlılığı üçün aydın məqsəd və vəzifələr var. Bu məqsəd və vəzifələrin həyata keçirilməsində mövcud elmi və metodoloji yanaşma müəyyən bir istiqaməti müəyyənləşdirir. Musiqiyə yiyələnmək, dinləmək və ifa etmək şagirdlərdə estetik mədəniyyəti formalaşdırır. Gənc nəsli mükəmməlliyə aparır,daxili dünyasını zənginləşdirir.

Uşaq musiqi məktəblərində **Solfecio və Musiqi nəzəriyyəsi** dərsləri şagirdlərin peşəkar inkişafında mühüm rol oynayır.Bu dərslərin asan və keyfiyyətli qavranılması üçün müəllimlər müxtəlif pedaqoji metodlara müraciət edə bilərlər:

1.Tədris prosesi zamanı dərsin məqsədlərinə cavab verən interaktiv metodlardan istifadə edilməsi;
2.Vizual metodlarlardan istifadə etməklə fortepiano,lövhə,not dəftəri üzərində müəyyən mövzu və məşğələlərin izahı;
3.Çətin dərk edilən dərslərin oyun şəklində asan və əyləncəli izah edilməsi;
4.Şagirdə fərdi yanaşaraq onun qabiliyyətinə uyğun metodun seçilməsi;
5.Nəzəri biliklərin musiqi ifası ilə birləşdirilməsi və s.

Uşaq musiqi məktəblərində Solfecio və musiqi nəzəriyyəsi dərsləri zamanı aşağıdakı məqamlara mütləq diqqət yetirilməlidir:


- Şagirdin musiqili eşitməsini,yaddaşını və ritm duyumunu müxtəlif musiqilər vasitəsilə inkişaf etdirmək;
- Musiqiləri diferensasiya bacarıqlarını formalaşdırmaq;
- Keçilmiş dərsləri mütəmadi təkrarlamaq;
- Nəzəri bilikləri Solfecio dərslərində daha da dərinləşdirmək;
- Şagirdin dərsə marağını artırmaq üçün əyləncəli tapşırıqlara və müasir metodlara yer ayırmaq mühüm məsələlərdir.

Əsas Hissə


Tədris və metodlar

Musiqi məktəblərinə qəbul olunmuş şagirdlər xüsusi qabiliyyəti olan uşaqlardır.Dərs prosesini təşkil edən zaman müəllim müxtəlif üsullardan və metodlardan istifadə etməklə onların dərsə marağını və həvəsini daha da artırmalıdır.İlk mərhələdə şagirdləri seçdiyi alətlə tanış etməli,alətdə ifa etməyi,nəzəri və təcrübi bilikləri öyrətməlidir.Solfecio dərslərində isə əldə edilən biliklər daha da təkminləşdirilməli və möhkəmləndirilməlidir.Keçilmiş dərslər mütəmadi təkrar edilməli,dərs keyfiyyətinin yüksək olması üçün müəllim,şagird və valideyinin birgə əməkdaşlığı təmin edilməlidir.Nəzəriyyə dərsləri zamanı şagirdlərdə dərsi izahlı şərh etmək,təqdimat etmək bacarıqlarını,fikir müzakirəsi və mübadiləsi qurmağı,aktiv şəkildə sual-cavaba qoşulmağı inkişaf etdirməliyik.Bu dərslərin daha tez və uzun müddətli yadda qalmasını təmin edəcək.Eyni zamanda musiqi alətlərini və terminlərini,notları,ümumilikdə dərsə aid anlayışların yadda qalmasını təmin etmək üçün **krossvord,labirint,tapmaca,pazl**,**əyləncəli oyunlardan istifadə etməliyik.**

Dərs prosesi zamanı şagirdlərimlə tətbiq etdiyim bir sıra üsulları təqdim edirəm:



Şəkil 1.




Şəkil 2.



Şəkil 3.


Yuxarıda qeyd etdiyim məqamları şəkil 1,2 və 3-də görə bilərsiniz.



Şəkil 4


Şəkil 4-də isə notların və pauzaların ölçülərinin yaxşı qavranılması üçün ritmik məşğələ və qruplaşdırmadan əlavə musiqi nəzəriyyəsini riyaziyyat fənni ilə inteqrasiya edərək riyazi hesablamalarla şagirdlərin daha asan və əyləncəli yadda qalması təmin edilmişdir.


İntervalların keyfiyyət cədvəlini rahat və əyləncəli öyrənmələri üçün pazl şəklində şagirdlərarası yarış təşkil etmək olar ki,bu da nəticəyönümlülüyü asanlaşdırır. (**Şəkil 5**)



Şəkil 5.

Şəkil 6. Dərsləri təkrarladan zaman təyin etmə,test,açıq suallardan istifadə etmək olar.





Solfecio dərsində milli musiqilərə üstünlük verilməlidir. Dərs prosesində solfecio nömrələrini drijorluq edərək notla oxutduqdan sonra mahnının sözləri ilə oxutmaq,hətta mahnını şagirdlərə öz alətlərində ifa etdirməklə daha keyfiyyətli yadda qalmanı təmin etmək olar.(şəkil 7)



Şəkil 7.

Nəticə

"Musiqi nəzəriyyəsi" fənninin tədrisi zamanı metr, ritm, vəzn, səsin ucalığı, qüvvəsi, intervallar, onların müxtəlif quruluş və növləri ilə yanaşı, ladlar və qammalar üzrə mükəmməl biliklərə yiyələnmək vacibdir. Bu fənn üzrə əldə edilən biliklər solfecio dərslərində daha da möhkəmləndirilməlidir.Solfecio dərslərində istər şifahi oxu zamanı, istərsə də imla yazısında metr, ritm, tonallıq, temp və sairə ifadə vasitələri üzrə alınan biliklər mühüm əhəmiyyət daşıyır. Musiqi nəzəriyyəsi üzrə alınan biliklər musiqi əsərlərinin təhlilində daha çox gərəklidir. Belə ki, hər hansı bir bəstəkarın, istər xarici ölkə bəstəkarı, istərsə də Azərbaycan bəstəkarının əsəri təhlil edilərkən həmin əsərin forma, məzmun və xarakterinin təyinində tonallığın,hissələrinin düzgün araşdırılması üçün musiqi nəzəriyyəsinə inteqrasiya edilir.

Sirr deyil ki, solfecio sinifindəki şagirdlərin hazırlıq səviyyəsi və qavrama qabiliyyəti fərqli ola bilər. Belə halda, geniş musiqi ədəbiyyatını, tədricən mürəkkəbləşən intonasiya etmə çalışmalarını əhatə edən hazırki məcmuədə təklif olunan materialdan müəllim tərəfindən daha uyğun musiqi nümunə və çalışmalarının seçilməsini və zəif şagirdləri dərsdən kənar etməməyini tövsiyə edirik. Solfecio dərsinin ayrılmaz tərkib elementi – oxuma zamanı dirijorluq etməkdir. Şagirdlərin metroritmik hissini inkişaf etdirən və musiqi ifaçılığının texniki üsullarından biri olan dirijorluq – solfecio etmənin önəmli komponentidir. Hər bir texniki üsulu kimi, dirijorluq vərdişləri də ən erkən təlim mərhələsindən başlayaraq müəllim tərəfindən öyrədilməli və tənzimlənməlidir. Şagirdlərin əl hərəkətləri dəqiq olmalı və dirijorluq zamanı not mətninin dayaq nöqtələri aydın hiss olunmalıdır. Bəzən bir çox şagirdlərə «mane» olan dirijorluq əslində musiqinin metroritmi və tempinin düzgün qavranılması üçün olduqca vacib və təşkiledici bir vasitədir.Əhatəmizdəki reallıqların sürətlə dəyişdiyi, musiqi sənətində yeni üslub cərəyanlarının meydana gəldiyi bir dövrdə musiqi təhsilinin vacib qolu olan Solfecio kursunun da müasirləşməyə, milli dəyərlərimizi tanıtmaq və yaşatmaq istiqamətində yenilənməyə ehtiyacı var. Ümid edirik ki, müstəqillik dövrünün gənclik illərini yaşayan Azərbaycanda müxtəlif dövr və üslublara əsaslanan yeni- yeni solfecio dərslikləri tərtib olunacaq və yetişməkdə olan gənc nəslin mükəmməl, peşəkar musiqi tərbiyyəsi işində yeni, kəşf olunmamış yollar açılacaq.Müəllimlərin dərsləri aktiv və interaktiv metodlarla təşkil etmələri nəticəsində şagirdlərin solfecio və musiqi nəzəriyyəsi dərslərinə marağının artırılması,müntəzəm dərsdə iştirak etmələri,dərsə daim sevərək və hazırlıqlı gəlmələri və nəticədə savadlı musiqiçilərin yetişməsini qaçılmaz edəcəkdir.

Ədəbiyyat

1.Lalə Dadaşova "Solfecio"I-IX sinif şagirdləri üçün dərs vəsaiti-Bakı 2015.
2.Lamiyə İlyasqızı "Solfecio"-III sinif dərs vəsaiti(mövzular,tapşırıqlar,testlər).Bakı 2023.
3.Kəmalə İsmayılova "Solfecio fənninin tədrisi metodikası"-dərslik.Bakı 2009.

PROSPECTIVE DIRECTIONS FOR PREVENTING THE EROSION OF NATIONAL-MORAL VALUES

ПЕРСПЕКТИВНЫЕ НАПРАВЛЕНИЯ ПРЕДОТВРАЩЕНИЯ ЭРОЗИИ НАЦИОНАЛЬНО-НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ

MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN AŞINMASININ QARŞISININ ALINMASININ PERSPEKTİV İSTİQAMƏTLƏRİ

Kərimov Əyyub Sevdim oğlu
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Fəlsəfə və sosial elmlər kafedrasının professoru
ORCID: 0000-0002-3664-4444

Xülasə
Cəmiyyətlərin mənəvi dəyərlər sistemində baş verən sürətli və ciddi dəyişikliklər günümüzün reallığıdır. Ənənəvi dəyərlərin zəifləməsi, qlobal güc mərkəzlərinin insanların şüurunun manipulyasiyasına köklənmiş texnologiyalarının və sosial medianın təsiri ilə davranış və düşüncə tərzində aşkar dəyişikliklər "eynəksiz" də görünməkdədir. Mənəvi dəyərlərin aşınması yalnız fərdi deyil, eyni zamanda sosial strukturların sabitliyinə də mənfi təsir göstərir. Bu məqalədə müasir dövrdə mənəvi dəyərlərin aşınma səbəbləri və bu prosesin cəmiyyətə təsirləri araşdırılır. Qloballaşma, texnologiyanın sürətli inkişafı, informasiya axınının artması və maddi dəyərlərin ön plana çıxması mənəvi dəyərlərin zəifləməsinə səbəb olan əsas amillər sırasındadır. Ənənəvi ailə modeli, ictimai münasibətlər, gənclərin davranış tərzi və ümumi mənəviyyat sistemi bu dəyişikliklərin birbaşa təsiri altındadır. Məqalədə, mənəvi aşınmanın nəticəsi kimi sosial əlaqələrin zəifləməsi, mənəvi boşluqların yaranması, ailə institutunun dağılması, sosial gərginlik hallarının artması kimi məsələlərə geniş yer verilir. Həmçinin, bu problemlərin həlli üçün mənəvi tərbiyənin gücləndirilməsi, təhsil sistemində milli, vətənpərvərlik dəyərləri yönümlü proqramların tətbiqi və cəmiyyətin bütün təbəqələrində etik normaların təşviqi kimi təkliflər irəli sürülür.
Açar sözlər: Mənəvi dəyərlər, sosial dəyişiklik, mədəniyyət, ailə, gənclər, etika, mənəviyyat, cəmiyyət

Abstract
Rapid and serious changes in the moral value system of societies are today's reality. The weakening of traditional values, the influence of global power centers' technologies and social media, which are rooted in the manipulation of people's consciousness, are visible even "without glasses" in behavior and thinking patterns. The erosion of moral values negatively affects not only the individual, but also the stability of social structures. This article examines the causes of the erosion of moral values in the modern era and the effects of this process on society. Globalization, rapid development of technology, increased information flow and the emergence of material values are among the main factors leading to the weakening of moral values. The traditional family model, social relations, the behavior of young people and the general moral system are directly affected by these changes. The article gives extensive space to issues such as the weakening of social relations, the emergence of moral gaps, the collapse of the family institution, and the increase in social tensions as a result of moral erosion. Also, proposals are put forward to solve these problems, such as strengthening moral education, implementing programs focused on national and patriotic values in the education system, and promoting ethical norms in all layers of society.
Keywords: Moral values, social change, culture, family, youth, ethics, spirituality, society

Резюме
Быстрые и серьезные изменения в системе моральных ценностей обществ являются реальностью сегодняшнего дня. Ослабление традиционных ценностей, влияние технологий и социальных медиа глобальных центров власти, ориентированных на манипуляцию сознанием людей, очевидные изменения в поведении и мышлении видны даже «без очков». Эрозия моральных ценностей негативно влияет не только на личность, но и на устойчивость социальных структур. В данной статье рассматриваются причины размывания моральных ценностей в современную эпоху и последствия этого процесса для общества. Глобализация, стремительное развитие технологий, увеличение потока информации и появление материальных ценностей являются одними из основных факторов, приводящих к ослаблению моральных ценностей. Традиционная модель семьи, социальные отношения, поведение молодежи и общая система морали напрямую затрагиваются этими изменениями. В статье уделяется большое внимание таким вопросам, как ослабление социальных отношений, возникновение моральных разрывов, распад института семьи и рост социальной напряженности в результате моральной эрозии. Также выдвигаются предложения по решению этих проблем, такие как усиление морального воспитания, внедрение программ, ориентированных на национальные и патриотические ценности в системе образования и продвижение этических норм во всех слоях общества.
Ключевые слова: Моральные ценности, социальные изменения, культура, семья, молодежь, этика, мораль, общество

Giriş

Müasir dövrdə sürətlə dəyişən sosial-siyasi, texnoloji və iqtisadi proseslər cəmiyyətin mənəvi dəyərlər sisteminə də təsirini göstərməkdədir. İnformasiya texnologiyalarının inkişafı, qloballaşma və fərdiyyətçiliyin artması fonunda insanlar arasında münasibətlər dəyişir, ənənəvi dəyərlər müəyyən transformasiyaya uğrayır. Bu şəraitdə mənəvi dəyərlərin mahiyyətini və onların cəmiyyətin sabitliyi, sosial həmrəyliyi və fərdi inkişafı baxımından əhəmiyyətini anlamaq mühüm əhəmiyyət kəsb edir. Ümummilli liderimizin layiqli davamçısı, proqmatik siyasətçi, Möhtərəm prezidentimiz İ.Əliyev də həmişə dünyagörüşü məsələsinə, milli-mənəvi dəyərlər mövzusuna böyük önəm vermişdir. O, 2019 cu il noyabrın 26-da Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibəti ilə keçirilən mərasimdə vurrğulamışdı: "Biz ideoloji işə yenidən baxmalıyıq, burada zəifliklər, boşluqlar var. Bizi istəməyən qüvvələr, o cümlədən erməni lobbi qurumları tərəfindən maliyyələşən qurumlar bu boşluqlardan istifadə edirlər. Onlar gəncləri əsas hədəf seçiblər və gəncləri yoldan çıxarmaq istəyirlər, onların beyinlərini zəhərləmək istəyirlər, onları xalqa qarşı, vətənə qarşı, ənənəvi dəyərlərə qarşı qaldırmaq istəyirlər" [1].

Müasir cəmiyyətdə mili-mənəvi dəyərlər yalnız fərdi davranışların tənzimləyicisi deyil, həm də sosial sistemin dayağı kimi çıxış edir. Onların qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə ötürülməsi cəmiyyətin dayanıqlı inkişafı üçün zəruri şərtdir. Bu prosesdə ailə, təhsil sistemi, ictimai qurumlar və KİV birgə fəaliyyət göstərməlidirlər. Mənəvi dəyərlərin ictimai şüurda möhkəmləndirilməsi insanlıq üçün sabit, ədalətli və harmonik gələcəyin təminatıdır.

Müasir cəmiyyətdə milli- mənəvi dəyərlərin rolu

Milli-mənəvi dəyərlər – insanın iç dünyasını, davranışlarını və münasibətlərini tənzimləyən, cəmiyyətin mənəvi əsaslarını təşkil edən inamlar, ideyalar və prinsiplər toplusudur. Bu dəyərlərə dürüstlük, inam, ədalət, mərhəmət, sədaqət, hörmət, məsuliyyət kimi anlayışlar daxildir. Mənəvi dəyərlər fərdi yalnız əxlaqi cəhətdən formalaşdırmır, həm də onun sosial mühitə münasibətini müəyyən edir. Mənəviyyat fərdin mənlik şüurunun ayrılmaz hissəsidir və bu, cəmiyyətin sağlam inkişafının da vacib şərtidir. Texnologiyanın inkişafı və milli-mənəvi dəyərlərin deqreqasiyasına yönəlmiş qlobal "mədəni" təsirlərin, təzyiqlərin artması fonunda mənəvi dəyərlərin qorunması və ötürülməsi daha da çətinləşmişdir. Gənc nəslin mənəviyyatının informasiyaların çoxluğu mühitində

formalaşması, ənənəvi ailə, məktəb, kollektivçilik mühitinin zəifləməsi mənəvi böhranlara səbəb olmaqdadır. Qeyd etddiyimiz səbəblərdən müasir cəmiyyətin sağlam inkişafı üçün mənəvi dəyərlərin təhlilinə, ənənəçilik və müasirlik baxımından yenidən qiymətləndirilərək təbliğinə və tətbiqinə zəruri ehtiyac vardır.

Mənəvi dəyərlər sosial ədalətin təminində, tolerantlığın inkişafında və insanlararası münasibətlərdə qarşılıqlı hörmət və ehtiramın formalaşmasında əvəzsiz rola malikdir. Onlar cəmiyətdə etimad mühiti yaradır, fərdləri fəaliyyət və davranışlarında sosial məsuliyyətə sövq edir və cəmiyyətin etik əsaslarını möhkəmləndirir.

Təhsil sistemi və kütləvi informasiya vasitələri mənəvi dəyərlərin formalaşmasında və ötürülməsində mühüm vasitələrdəndir. Məktəb və ali təhsil müəssisələri təkcə bilik verən deyil, həm də şəxsiyyətin mənəvi baxımdan kamilləşməsinə təsir göstərən mühüm institutlardır.

Azərbaycan Respublikasının "Təhsil haqqında" qanununun təhsilin əsas məqsədi adlanan 4-cü maddəsinin 4.0.1 bəndində yazılmışdır:

4.0.1. Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən, vətəndaş və şəxsiyyət yetişdirmək [8] ;

Bu baxımdan ali məktəblərin rolu xüsusidir. Tədris proqramlarında milli-mənəvi, etik və əxlaqi dəyərləri özündə əks etdirən, milli özünüdərkə və milli mənlik şüurunun formalaşdırılmasına xidmət edən ictimai-humanitar elmlərin, xüsusən də fəlsəfənin tədrisinə xüsusi yer ayrılması, diqqət verilməsi bu sahədə görülməsi zəruri olan işlərdəndir.

KİV və sosial media isə həm müsbət, həm də mənfi təsir potensialına malikdir. Onların vasitəsilə mənəvi mesajların geniş auditoriyaya çatdırılması mümkün olsa da, eyni zamanda qeyri-etik məzmunlu veriliş və informasiyaların yayılması dəyərlərimizə real təhlükə mənbəyidir. Bu sahədə dövlət siyasəti və ictimai nəzarət vacib amillərdəndir.

Milli-mənəvi dəyərlərin aşınmasının səbəbləri

Müasir dövrdə mənəvi dəyərlərin aşınması cəmiyyətin sosial, mədəni və psixoloji strukturuna mənfi təsir göstərən önəmli problemlərdən biridir. "Post sənaye cəmiyyətini"in "informasiya cəmiyyəti ilə əvəz olunması, qloballaşmanın sürətlənməsi, ailə institutunun "tarixin arxivinə" göndərilməsinə yönəldilmiş manipulyasiyalar və individualizmin artması kimi amillər nəticəsində ənənəvi mənəvi dəyərlər mənfi münasibət formalaşdırılır. Bu tendensiya yalnız fərdi deyil, həm də cəmiyyətin ümumi mənəvi sağlamlığını təhdid edir.

Mənəvi dəyərlərin aşınmasının bir neçə əsas səbəbi vardır. Birincisi, texnoloji inkişaf və informasiyanın sürətli yayılması nəticəsində insanlar arasında empatiya və sosial məsuliyyət hissi azalır [2.s. 35]. İkincisi, ailə institutu və ənənəvi sosial strukturların zəifləməsi, gənclərin düzgün yönləndirilməməsi ilə nəticələnir. Üçüncüsü isə, materialist və fərdiyyətçi dəyərlərin üstünlük qazanmasıdır. Bu amillər insanları daha çox şəxsi maraqlara yönəldir və kollektiv məsuliyyəti arxa plana keçirir. Eyni zamanda mənəvi dəyərlərin zəifləməsinə təsir edən bir sıra amillər mövcuddur. Bunlara aşağıdakılar daxildir:

-Ailədə və təhsil sistemində mənəvi tərbiyəyə kifayət qədər yer verilməməsi;
-Media vasitəsilə mənəviyyatsız məzmunların geniş yayılması;
-Gənclər arasında sosial şəbəkələrin təsiri ilə fərdi dəyərlərin kommersiyalaşması;
-Dini və milli dəyərlərə qarşı laqeydlik;
-Sosial ədalətsizlik və maddi dəyərlərin üstün tutulması.

Mənəvi dəyərlərin aşınması fərdi səviyyədə psixoloji narahatlıqların artmasına səbəb olur. Empatiya və anlayışın azalması, insanın öz mənliyini itirməsinə, depressiya və tənhalığa səbəb ola bilər. Eyni zamanda, əxlaqi oriyentasiyanın olmaması gənclər arasında davranış pozuntularının, zorakılıq hallarının artmasına gətirib çıxarır [3.s. 41].

Cəmiyyət səviyyəsində mənəvi dəyərlərin aşınması sosial disharmoniyaya, ictimai etimadsızlığa və cinayətkarlığın artmasına səbəb olur. Ədalət, dürüstlük, hörmət kimi dəyərlərin zəifləməsi ictimai münasibətlərin pozulmasına və hüquqi sistemə etimadın azalmasına gətirib çıxarır [4.s. 64]. Eyni zamanda, sosial həmrəylik və milli kimlik hissi zəifləyir, bu isə cəmiyyətin parçalanmasına və qeyri-sabitliyə yol açа bilər.

Mənəvi dəyərlərin qorunması və bərpası üçün ilk növbədə təhsilin rolu yüksəldilməlidir Məktəb və ali təhsil müəssisələrində etik və mənəvi təlimin gücləndirilməsi vacibdir. Bu istiqamətdə təhsil proqramlarına mənəvi dəyərləri əhatə edən fənlərin əlavə olunması, müəllimlərin etik hazırlığının artırılması təklif olunur [5.s. 28].

Kütləvi informasiya vasitələri və sosial media mənəvi dəyərlərin həm aşınmasında, həm də onların bərpasında mühüm rol oynayır. KİV vasitəsilə cəmiyyətə pozitiv və milli-mənəvi dəyərləri təbliğ edən verilişlər, proqramlar və kampaniyaların təşkili zəruridir. Sosial media isə düzgün idarə olunduqda gənclərin maarifləndirilməsi üçün effektiv vasitəyə çevrilə bilər [6.s. 70].

Milli-Mmənəvi dəyərlərin bərpası və qorunması üçün aşağıdakı istiqamətlərdə davamlı işlərin görülməsini zəruri hesab edirik:

- Ailə və məktəblərdə milli-mənəvi dəyərlərin tərbiyəsinin və təbliğinin gücləndirilməsi;
- Ali məktəblərin tədris proqramlarında, qəbul olunacaq yeni standartlarda milli və mənəvi dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsinə xidmət edən fənlərin-xüsusən də fəlsəfənin tədrisinə daha çox diqqət yetirilməsi;
- Kütləvi informasiya vasitələrinin sosial məsuliyyətinin artırılması;
- Dini və fəlsəfi düşüncənin maarifləndirici rolunun gücləndirilməsi;
- Mədəni-kütləvi tədbirlərlə gənclərdə vətənpərvərlik və insani dəyərlərin təşviqi.

Milli-mənəvi dəyərlərin aşınması cəmiyyətin davamlı və sürətli inkişafına ciddi təhlükə yaradır. Bu səbəbdən həm fərdi, həm də ictimai səviyyədə mənəvi dəyərlərin bərpası istiqamətində ardıcıl və sistemli tədbirlərin həyata keçirilməsi vacibdir. Əgər cəmiyyətin bütün təbəqələrinin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi gücləndirilərsə, sosial harmoniya və vətəndaş məsuliyyəti bərqərar olar.

Bəxtiyar Bahabzadənin milli-mənəvi dəyərlərimizin qorunmasında rolu

Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutan Bəxtiyar Vəhabzadə, təkcə milli poeziyanın deyil, eyni zamanda mənəvi dəyərlərin qorunması və təbliği sahəsində də mühüm rol oynamış şairlərdən biridir. Onun əsərləri yalnız bədii-estetik baxımdan deyil, həm də ictimai və mənəvi cəhətdən zəngin məzmunu ilə seçilir. Bəxtiyar Vəhabzadə yaradıcılığında xalqın milli kimliyi, mənəvi dəyərləri, azadlıq və vətən sevgisi kimi anlayışlar ön plandadır.

Mənəviyyat və Əxlaqi Dəyərlərin Təbliği

Bəxtiyar Vəhabzadənin əsərlərində mənəviyyat, əxlaq və insani münasibətlər mühüm yer tutur. Onun “Ana dili”, “Vətən”, “Yolçu”, “Gülüstan” kimi şeirlərində insanın öz kökünə, dilinə, torpağına bağlılığı mənəvi bir dəyər kimi təqdim olunur. Şairin fikrincə, insanın mənəvi zənginliyi onun milli kimliyi və mənsubiyyət hissi ilə birbaşa bağlıdır.

Bəxtiyar Vahabzadə bir çox əsərlərində ailə, dostluq, vəfa, əxlaqi saflıq və insanlara sevgi kimi dəyərləri ön plana çəkir. Bu dəyərlər təkcə fərdi həyatın deyil, bütövlükdə cəmiyyətin mənəvi yüksəlişinin vacib şərtlərindən hesab olunur. Məsələn, “Vicdan” şeirində insanın daxilindəki ədalət hissi və özünə qarşı səmimi münasibət öz əksini tapmışdır .

Görkəmli şairimizin poeziyasında milli dəyərlər və vətənpərvərlik mərkəzi mövzulardan biridir. O, milli azadlıq ideyalarını və milli kimliyin qorunmasını mənəvi borc kimi təqdim edir. “Gülüstan” poemasında şair Azərbaycanın bölünmüş torpaqları ilə bağlı acını, eyni zamanda birləşmə arzusunu ifadə edərkən mənəvi bütövlüyə çağırış edir. Vətən sevgisi, azadlıq arzusu və milli qürur kimi dəyərlər, Bəxtiyar Vahabzadənin yaradıcılığında yalnız siyasi yox, həm də mənəvi məzmun daşıyır. Onun fikrincə, azadlığın mənəvi əsasları dərk olunmasa, onun fiziki anlamı da mənasızlaşar. Şair

üçün ana dili yalnız ünsiyyət vasitəsi deyil, həm də milli-mənəvi yaddaşın daşıyıcısıdır. “Ana dili” şeirində dilə sevgi və hörmət, milli kimliyin əsas sütunu kimi təqdim edilir. Əsərdə dilin qorunması mənəvi bir borc və vətəndaş məsuliyyəti kimi təqdim edilir.
Bəxtiyar Vahabzadənin əsərləri xalqımızın mənəvi yaddaşını əks etdirən zəngin bir xəzinədir. Onun yaradıcılığı milli kimlik, vətən sevgisi, dilə və mədəniyyətə hörmət, insani münasibətlər kimi dəyərlərin bədii təcəssümüdür. Şairin əsərlərində mənəvi dəyərlərin poetik dildə təbliği, oxucuda həm estetik zövq, həm də mənəvi kamillik hissi oyadır. Bəxtiyar Vəhabzadənin ədəbi irsi bu baxımdan tükənməz bir qaynaq olaraq gələcək nəsillərə mənəvi örnəkdir.

Nəticə

Milli- mənəvi dəyərlərin aşınması müasir cəmiyyət üçün ciddi çağırışdır və onun sosial nəticələri geniş miqyaslıdır. Bu problemin qarşısının alınması üçün kompleks yanaşma tələb olunur. Ailə, təhsil, KİV və dövlət birgə şəkildə fəaliyyət göstərməlidir. Yalnız bu halda cəmiyyətin mənəvi dayaqları bərpa oluna və davamlı inkişaf təmin edilə bilər. Milli-mənəvi dəyərlərin cəmiyyətdəki rolu təkcə fərdi deyil, həm də kollektiv münasibətlərin formalaşmasında həlledici əhəmiyyət daşıyır. Bu dəyərlərin aşınması, cəmiyyətin təməlini təşkil edən ailə və insan münasibətlərində ciddi boşluqların yaranmasına gətirib çıxarır. Xüsusilə gənc nəslin mənəvi dəyərlərdən uzaqlaşması onların psixoloji, sosial və intellektual inkişafına mənfi təsir göstərir. Mənəvi aşınmanın qarşısını almaq üçün cəmiyyətin bütün sahələrində - təhsil, media, ailə və dini institutlarda mənəvi tərbiyəyə xüsusi diqqət yetirilməlidir. Etik prinsiplər və mənəvi dəyərlər, sosial həyatın bütün sahələrində normativ qayda kimi qəbul edilməli və tətbiq edilməlidir. Bu istiqamətdə sistemli maarifləndirmə, sosial layihələr və ictimai debatların təşkili mühüm rol oynaya bilər. Nəticə etibarilə, milli-mənəvi dəyərlərin qorunması və inkişafı yalnız fərdi yox, həm də cəmiyyətin sabitliyi və gələcəyi üçün həyati əhəmiyyət daşıyır.

Ədəbiyyat

1. 2019 cu il noyabrın 26-da Konqres mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibəti ilə keçirilən mərasimdə Prezident İlham Əliyevin nitqi. Azərbaycan Qazeti 27 noyabr 2019-cu il.
2. Hüseynov A. Müasir cəmiyyətdə etik dəyərlər. Bakı: Elm nəşriyyatı. 2017.s.145.
3. Quliyev R. Dəyərlərin transformasiyası və sosial nəticələri. Bakı: Təhsil nəşriyyatı. 2020. s. 180
4. Əliyeva S. Gənclərin mənəvi inkişafında ailənin rolu. Gəncə: Qafqaz nəşriyyatı. 2019. s. 120
5. Rzayeva T. Sosial psixologiya və mənəvi dəyərlər. Bakı: ADPU nəşriyyatı. 2021.s. 200.
6. Məmmədov E. Təhsildə mənəvi dəyərlərin təbliği. Bakı: Maarif nəşriyyatı.2018. s. 110
7. Xəlilov F. Media və cəmiyyət: etik yanaşmalar. Bakı: Media nəşriyyatı.2022 s. 160
8. Azərbaycan respublikasının təhsil qanunu((https://edu.gov.az/az/esas-senedler/tehsil-haqqinda-azerbaycan-respublikasinin-qanunu)

MUSICIZED POETRY IN A COGNITIVE-LINGUISTIC PERSPECTIVE: POEMS OF BAKHTIYAR VAHABZADE ON THE THEME OF HOMELAND AND LOVE

KOQNİTİV-LİNQVİSTİK PERSPEKTİVDƏ MUSİQİLƏŞMİŞ POEZİYA: BƏXTİYAR VAHABZADƏNİN VƏTƏN VƏ SEVGİ MÖVZUSUNDA ŞEİRLƏRİ

Əli-zadə Fidan Faiq qızı
Odlar Yurdu Universiteti, Bakı, Azərbaycan

Abstract
This article investigates the cognitive-linguistic features of musicalized poetry by analyzing two significant works by Bakhtiyar Vahabzadeh – “Azerbaijan” and “Gecələr bulaq başı”. By applying linguopoetic and phonosemantic analysis, the study explores how musical adaptation enhances emotional perception and cognitive processing of poetic texts. The article demonstrates that the combination of poetic rhythm, sound harmony, and music creates a multimodal experience that strengthens national identity and aesthetic response. Survey results confirm that audiences emotionally engage more deeply with poetic texts when delivered through a musical medium, indicating the effectiveness of this synthesis for cognitive resonance and emotional depth.
Keywords
Bakhtiyar Vahabzadeh, musicalized poetry, cognitive linguistics, patriotism, poetic rhythm, phonosemantics, emotional resonance

Xülasə
Koqnitiv dilçilik müasir dövrdə dilin öyrənilməsində funksional və idraki yanaşmanı birləşdirən ən məhsuldar istiqamətlərdən biridir. Bu sahə dilin yalnız struktur və qrammatik aspektlərini deyil, həm də insan şüurundakı qavrayış, yaddaş və emosional reaksiya proseslərini araşdırır. Musiqiləşmiş poeziya bu baxımdan unikal tədqiqat sahəsi yaradır: burada nitq melodik struktura daxil olur, ritm və səs vahidləri isə idrakda daha güclü iz buraxır. Bu məqalədə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Bəxtiyar Vahabzadənin “Azərbaycan” və “Gecələr bulaq başı” şeirləri üzərində koqnitiv-linqvistik təhlil aparılmışdır. Musiqi və poetik dilin sintezi bu şeirlərin emosional gücünü və ictimai təsirini artıran əsas faktor kimi qiymətləndirilir. Tədqiqat nəticələri musiqiləşmiş poetik nümunələrin daha güclü emosional rezonans doğurduğunu və milli-mədəni kimlik hissinin möhkəmlənməsinə xidmət etdiyini təsdiqləyir.
Açar sözlər: Bəxtiyar Vahabzadə, musiqiləşmiş poeziya, koqnitiv dilçilik, vətənpərvərlik, poetik ritm, fonosemantik analiz, emosional təsir

Giriş

Bəxtiyar Vahabzadənin poeziyası yalnız ədəbi estetik sistemin deyil, eyni zamanda ictimai və koqnitiv şüurun da daşıyıcısıdır. Onun şeirlərində söz yalnız məna vahidi kimi deyil, həm də milli-mədəni kimliyin kodlaşdırılmış forması kimi çıxış edir. Vahabzadə poetik dili bir növ mənəvi mübarizə vasitəsinə çevirərək, ideoloji təzyiqlərin fövqündə duran fərdi və kollektiv düşüncənin ritmini yaratmışdır. Bu baxımdan onun yaradıcılığı klassik lirika ilə modern düşüncə arasında körpü funksiyası daşıyır – həm duyğuya, həm də düşüncəyə eyni anda təsir edən sintez modelidir.
Son onilliklərdə koqnitiv dilçilik dil elminin əsas istiqamətlərindən birinə çevrilmişdir. Bu sahə dilin beyində necə formalaşdığı, necə saxlanıldığı və necə istifadə edildiyini araşdırır. Bu yanaşma poeziyanın və xüsusilə musiqi ilə müşayiət olunan poetik mətnlərin analizi üçün geniş imkanlar yaradır. Poetik nitq yalnız məna ilə deyil, eyni zamanda ritm, səs harmoniyası, intonasiya və fonosemantik elementlərlə də xarakterizə olunur. Bu xüsusiyyətlər musiqi ilə sintez olunduqda daha güclü emosional təsir gücünə malik olur. Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatında həm

ictimai düşüncənin daşıyıcısı, həm də dərin lirikanın ifadəçisi kimi çıxış edir. Onun şeirlərinin bir çoxu musiqi ilə vəhdət təşkil edərək, milli-mənəvi şüurun formalaşmasında və təbliğində xüsusi rol oynayır. Bu məqalədə "Azərbaycan" və "Gecələr bulaq başı" şeirləri üzərində koqnitiv-linqvistik aspektdə təhlil aparılmış, söz və musiqi sintezinin insan şüurunda və emosional sahədə yaratdığı təsir mexanizmi izah olunmuşdur.

Tədqiqatın əsas məqsədi musiqiləşmiş poeziyanın koqnitiv və emosional qavrayışa təsirini təhlil etmək olduğundan, yanaşma həm nəzəri, həm də empirik əsaslara söykənmişdir. Araşdırma çərçivəsində tətbiq edilən metodlar poetik mətnlərin dil strukturu ilə musiqi arasında yaranan sinxronluğu və bu vəhdətin insan şüurundakı əksini sistemli şəkildə araşdırmağa imkan vermişdir. Seçilmiş metodlar aşağıdakılardır:

• Linqvopoetik – Bu mərhələdə şeirlərin leksik, semantik və stilistik xüsusiyyətləri araşdırılmış, poetik strukturların funksional rolu müəyyənləşdirilmişdir. Xüsusilə metaforaların sıxlığı, ana motivin daşıyıcısı olan sözlərin təkrar istifadəsi və ritmik paralellərin poetik təsir gücünə necə xidmət etdiyi təhlil olunmuşdur. Analiz zamanı "Azərbaycan" və "Gecələr bulaq başı" şeirlərindəki emosional yüklü ifadələr, inversiya və paralelizm kimi poetik vasitələrin məqsədli şəkildə qurulması müşahidə olunmuşdur.
• Fonosemantik təhlil – Fonosemantik yanaşma vasitəsilə poetik mətnlərdəki səs elementlərinin semantik məna ilə uyğunluğu araşdırılmışdır. Şeirdəki səslərin (samitlərin sərtliyi və ya yumşaqlığı, saitlərin açıq və ya qapalı olması) emosional təsirinə diqqət yetirilmişdir. Həmçinin bu səslərin ritmik-melodik quruluşda musiqiyə uyğunluğu təhlil edilmiş və səs-məna vəhdətinin musiqi ilə sintezində necə iştirak etdiyi izah olunmuşdur. Məsələn, "Gecələr bulaq başı" şeirindəki ahəngdarlıq və yumşaq səs axını musiqinin lirizmini dəstəkləyir.

• Koqnitiv yanaşma – Koqnitiv dilçilik çərçivəsində şeir və musiqinin beyində qavranılma prosesi modelləşdirilmişdir. Dil və musiqi arasında qurulan semantik körpülərin insan yaddaşına necə təsir etdiyi və emosional yaddaşda hansı izlər buraxdığı müəyyənləşdirilmişdir. Bu yanaşma vasitəsilə poetik strukturun beynin dil və emosional emal sahələrində necə təmsil olunduğu və musiqi ilə birləşdikdə bu proseslərin daha da gücləndiyi izah edilmişdir. Tədqiqat bu baxımdan poetik dilin yalnız məna ötürən vasitə deyil, eyni zamanda idraki və emosional fəaliyyətləri stimullaşdıran çoxkanallı informasiya quruluşu olduğunu təsdiqləyir.

• Empirik üsul – anket sorğusu – Tədqiqatın eksperimental mərhələsində müxtəlif yaş, ixtisas və təhsil səviyyəsinə malik 50 iştirakçı ilə anket sorğusu aparılmışdır. Sorğu iştirakçılarına eyni poetik mətn iki formada təqdim olunmuşdur: 1) sadəcə şeir mətni, 2) musiqiləşmiş formada audio təqdimat. İştirakçılardan hər iki təqdimatın yaratdığı emosional təsiri, yadda qalan ifadələri və məzmunun anlaşılma səviyyəsini qiymətləndirmələri xahiş olunmuşdur. Nəticələr göstərdi ki, iştirakçılar musiqi ilə müşayiət olunan poetik nümunələrə daha yüksək emosional reaksiya göstərmiş və bu nümunələri daha uzun müddət yadda saxlamışlar.
Eyni zamanda, şeirin musiqisiz təqdimatında iştirakçılar daha çox məna axtarışına yönəlsə də, musiqi ilə təqdimatda məna intuitiv şəkildə qavranılmış və hiss səviyyəsində mənimsənilmişdir. Bu fərq musiqinin koqnitiv emal proseslərini sürətləndirdiyini və poetik mətnin emosional rezonansını artırdığını təsdiqləmişdir.

Azərbaycan" şeiri və onun musiqiləşdirilməsi
Vahabzadənin "Azərbaycan" şeiri milli identiklik və emosional dəyərlərin poetik ifadəsidir. Şeirdə "ana", "torpaq", "qan", "dil", "bayraq" kimi simvolik leksik vahidlər vasitəsilə milli mənsubiyyət ideyası yaradılır. Fikrət Əmirovun bu şeirə bəstələdiyi musiqi monumental simfonik quruluşa

malikdir və poetik mətnin yüksək emosional təsirini artırır. Melodiya ilə uyğunlaşan səs bölgüləri və intonasiya strukturu şeirin qavrayışını asanlaşdırır və yaddaşda daha güclü iz buraxır.

"Gecələr bulaq başı" şeiri: lirika və nostalji

Bu şeir fərdi hisslərin, ayrılıq və sevgi kədərinin incə şəkildə poetik təqdimatıdır. Elza İbrahimovanın musiqisi isə bu məzmunu daha da dərinləşdirərək lirik səciyyə daşıyan bir emosional təcrübəyə çevirir. Şeirin fonosemantik quruluşu – yumşaq samitlərin üstünlüyü, uzun hecalı sözlərin seçimi, ritmik təkrarlar – musiqi ilə birləşdikdə insan psixikasında sakitləşdirici, nostalji və təsirli bir emosional hal yaradır.

Anket sorğusunun nəticələri

Sorğunun nəticələrinə əsasən:
- 78% iştirakçı musiqili təqdimatda şeirlərin daha güclü təsir yaratdığını bildirib.
- 65% iştirakçı musiqiləşmiş şeirləri daha yaxşı yadda saxladıqlarını qeyd edib.
- Respondentlərin əksəriyyəti qeyd edib ki, musiqi emosional səviyyədə poetik sözün mənasını daha dərindən başa düşməyə şərait yaradır.

Bu nəticələr musiqinin şeirin koqnitiv qəbulunu və emosional rezonansını artıran mühüm faktor olduğunu sübut edir.

Tədqiqat göstərdi ki, Bəxtiyar Vahabzadənin poeziyası musiqi ilə birləşdikdə daha güclü idraki və emosional təsir gücünə malik olur. "Azərbaycan" və "Gecələr bulaq başı" şeirlərində milli və fərdi emosiyalar, poetik forma və musiqi ritmi vəhdət təşkil edir. Bu sintez auditoriyada həm milli kimlik hissini, həm də estetik zövqü gücləndirir. Koqnitiv-linqvistik baxımdan, musiqi poetik nitqin beyində emalını sürətləndirir, onu emosional yaddaşa kodlaşdırır və kollektiv şüurda daha güclü iz buraxır. Bu baxımdan musiqiləşmiş poeziya yalnız ədəbi və bədii deyil, eyni zamanda psixoloji və sosiokultural bir fenomendir. Bəxtiyar Vahabzadənin yaradıcılığı bu sintezin ideal nümunəsidir və koqnitiv dilçiliyin tətbiqi baxımından geniş tədqiqat imkanları yaradır. Tədqiqatın nəticələri göstərir ki, dil və musiqinin qarşılıqlı əlaqəsi poetik mətnin idraki yükünü artırmaqla yanaşı, onun emosional qavrayışını da zənginləşdirir. Bu isə gələcəkdə poeziya tədrisində və şeirin ictimai yayımında musiqi elementlərinin tətbiqinə əsaslanan yeni metodoloji yanaşmaların inkişaf etdirilməsinə zəmin yaradır.

Ədəbiyyat

- Lakoff, G., & Johnson, M. (2003). *Metaphors We Live By*. University of Chicago Press.
- Kövecses, Z. (2010). *Metaphor: A Practical Introduction* (2nd ed.). Oxford University Press.
- Fauconnier, G., & Turner, M. (2002). *The Way We Think: Conceptual Blending and the Mind's Hidden Complexities*. Basic Books.
- Vahabzadə, B. (1989). *Seçilmiş əsərləri* (cild 1). Bakı: Yazıçı nəşriyyatı.
- Əmirov, F. (1990). *Simfonik musiqidə milli intonasiyalar*. Bakı: Elm nəşriyyatı.
- İbrahimova, E. (2000). *Musiqili poeziyada lirika*. Bakı: Musiqi Dünyası nəşriyyatı.
- Əliyeva, N. (2019). Musiqi və poetik dilin qarşılıqlı təsiri: Fonosemantik aspekt. *Filologiya məsələləri*, 4(56), 83–91.
- Məmmədova, S. (2021). Koqnitiv dilçilik və poetik təfəkkür: Müasir yanaşmalar. *Azərbaycan Dillər Universitetinin Elmi Əsərləri*, 3(43), 102–110.
- Şükürova, A. (2018). Ritm və melodiya: Şeir və musiqinin sintezi. *Ədəbiyyat və İncəsənət*, 2(22), 45–53.
- Johnson, M. (2007). *The Meaning of the Body: Aesthetics of Human Understanding*. University of Chicago Press.

THE DYNAMICS OF SLANG: CULTURAL IDENTITY, SOCIAL FUNCTION, AND LINGUISTIC IMPACT IN MODERN ENGLISH

Konul Azizova
Azerbaijan State Oil and Industry University
Foreign Languages Department, Teacher,

Abstract
This paper investigates the phenomenon of slang in the English language through a historical, sociolinguistic, and cultural lens. It explores how slang evolves in response to social dynamics, cultural shifts, and technological advancements. The study highlights key stages in the development of English slang, from its early use in the 16th century to its widespread dissemination via mass media, music, and digital platforms. Special attention is given to the lexical, grammatical, and stylistic impact of slang, including the creation of neologisms, semantic transformation of existing words, and syntactic deviations found in informal speech. Drawing on speech act theory, the paper also examines the communicative functions of slang expressions in everyday discourse. Additionally, it considers the role of slang in intercultural communication and identity construction within online and subcultural communities. Ultimately, the paper argues that slang is not merely a peripheral linguistic form but a vital and dynamic element of modern English that reflects broader patterns of social interaction and cultural expression.
Key words: slang, language, semantic shift, group identity, digital communication, popular culture.

Slang, as one of the most dynamic and evolving aspects of language, plays a significant role in informal communication, cultural expression, and social identification. It arises from the interaction of specific social groups and often reflects their unique experiences, values, and perspectives. Over time, many slang terms transition from niche usage into mainstream language, influenced by factors such as media, music, and digital communication.

Historically, the earliest forms of English slang can be traced back to the 16th century, where it primarily emerged among criminal groups, soldiers, and street vendors. Notably, “thieves’ cant” served as a coded language among marginalized groups (Eble, 1996; Green, 2016). During the 17th and 18th centuries, the compilation of slang by lexicographers, such as Francis Grose in his “A Classical Dictionary of the Vulgar Tongue” (1785), demonstrated the growing academic interest in this linguistic phenomenon.

The Industrial Revolution of the 19th century further diversified the lexical base of English slang, especially among the working classes. For instance, “Cockney Rhyming Slang,” developed in London, became a distinctive linguistic marker among urban communities (Partridge, 2004). In the 20th century, slang evolved rapidly through the influence of mass media and global pop culture, with military expressions such as “AWOL” and “snafu” entering everyday language (Adams, 2009).

In the second half of the 20th century, slang became increasingly shaped by youth subcultures, music, and entertainment. The hippie movement, jazz and rock communities, and African American Vernacular English (AAVE) significantly contributed to the proliferation of expressions such as “cool,” “groovy,” and “dope” (Dalzell & Victor, 2017). These terms transcended their original social environments and entered broader usage through films, television, and popular media (Eble, 1996).

The emergence of the Internet and social media in the 21st century dramatically accelerated the spread and transformation of slang. Platforms like Twitter, TikTok, and Instagram have enabled the rapid dissemination of expressions across linguistic and cultural boundaries. Acronyms such as “LOL” (laugh out loud), “BRB” (be right back), and “OMG” (oh my God) illustrate the compression of language for quick, emotionally charged exchanges (Crystal, 2008; McCulloch, 2019).

Moreover, slang increasingly functions as a tool for constructing social identity and community boundaries. Expressions like "yeet," "vibe check," and "simp" reflect generational shifts in humor, values, and cultural references. They not only foster group belonging but also serve to distinguish insiders from outsiders, creating linguistic solidarity within subgroups (Bucholtz, 2009; Tagliamonte, 2016).

Slang plays a vital role not only in informal communication but also in the development of lexical, grammatical, and stylistic layers of modern English. Through neologisms, semantic shifts, and morphological innovation, slang enriches the language and reflects the evolving cultural landscape.

One of the primary lexical impacts of slang is the introduction of new words. Expressions like selfie, ghosting, and binge-watch originated as informal terms but eventually gained widespread recognition and were officially included in dictionaries such as the Oxford English Dictionary (Crystal, 2010). In other cases, slang redefines existing words—sick now conveys "excellent" rather than its traditional meaning "ill," while tea has come to mean "gossip" or "juicy information."

Grammatically, slang can challenge conventional syntax and morphology. Non-standard constructions such as "I am not got no time" or "She be acting crazy," particularly common in AAVE, reflect alternative grammatical norms that function effectively within specific speech communities (Tagliamonte, 2016). Morphologically, slang often shortens words or combines them creatively: adulting (from adult), hangry (from hungry + angry), and glamping (from glamorous + camping) are prime examples (Bucholtz, 2009).

Stylistically, slang enhances expressiveness and emotional tone. Phrases like "That movie was lit!" or "I'm dead!" convey excitement or humor in a way that standard language may not capture. Slang fosters immediacy, intimacy, and emotional intensity in communication, making it especially effective in online and youth discourse (Eckert, 2000; McCulloch, 2019).

From the perspective of speech act theory (Austin, 1962; Searle, 1975), slang performs various communicative functions across social interactions. These include:

- Representative acts – conveying information or statements of fact (e.g., "This party is dope!")
- Directive acts – encouraging action or behavior (e.g., "Hit me up later.")
- Expressive acts – expressing emotions and attitudes (e.g., "I'm so hyped for this concert!")
- Declarative acts – influencing social reality (e.g., "You're cancelled.")

These functions demonstrate that slang extends beyond linguistic novelty and serves as a tool for negotiating social relationships, expressing stances, and reinforcing group norms.

Moreover, slang plays a significant role in intercultural communication. In the context of globalization, many slang expressions transcend national and linguistic boundaries. Words such as cool, selfie, and hang out are now used across diverse languages with similar meanings. However, slang can also carry culturally specific nuances—cheers, for instance, denotes gratitude in British English but may have different connotations elsewhere (Crystal, 2008).

Digital platforms further amplify this cultural exchange. Expressions like based, cap, and stan circulate globally via memes, videos, and social commentary, often being reinterpreted or localized by different linguistic communities (McCulloch, 2019).

Thus, slang operates not only as a linguistic device but also as a social and cultural bridge, shaping identities and framing discourse across communities.

Conclusion

Slang evolves in close connection with social and cultural processes. It is not merely a form of informal speech but a dynamic linguistic phenomenon that shapes group identity, influences popular discourse, and continuously transforms under the influence of technological change.

Its study provides valuable insights into the cultural and social dimensions of language, revealing how youth language, professional jargon, digital interaction, and pop culture collectively contribute to the ongoing evolution of modern English.

References

1. Adams, M. (2009). Slang: The People's Poetry. Oxford University Press.
2. Crystal, D. (2008). Txtng: The Gr8 Db8. Oxford University Press.
3. Dalzell, T., & Victor, T. (2017). The New Partridge Dictionary of Slang and Unconventional English. Routledge.
4. Eble, C. (1996). Slang and Sociability: In-group Language Among College Students. University of North Carolina Press.
5. Green, J. (2016). Green's Dictionary of Slang. Chambers.
6. McCulloch, G. (2019). Because Internet: Understanding the New Rules of Language. Riverhead Books.
7. Tagliamonte, S. (2016). Teen Talk: The Language of Adolescents. Cambridge University Press.
8. Androutsopoulos, J. (2003). Hip-Hop Discourse and the Construction of Identity. Journal of Sociolinguistics, 7(1), 49–63.
9. Bucholtz, M. (2009). From Stance to Style: Gender, Interaction, and Indexicality in Teenage Girl Talk. Cambridge University Press.
10. Burridge, K., & Mulder, J. (1998). English in Australia and New Zealand: An Introduction to Its History, Structure and Use. Oxford University Press.
11. Morgan, M. (2002). Language, Discourse and Power in African American Culture. Cambridge University Press.
12. Searle, J. (1975). Indirect Speech Acts. Syntax and Semantics, 3, 59–82.
13. Crystal, D. (2010). The Cambridge Encyclopedia of the English Language. Cambridge University Press.
14. Austin, J. L. (1962). How to Do Things with Words. Oxford University Press.

THE STYLISTIC FUNCTION OF ANTONYMED WORDS IN THE LANGUAGE OF BAHTIYAR VAHABZADE

СТИЛЕВАЯ ФУНКЦИЯ СЛОВ-АНТОНИМОВ В ЯЗЫКЕ БАХТЯРА ВАГАБЗАДЕ РЕЗЮМЕ

BƏXTİYAR VAHABZADƏNİN DİLİNDƏ ƏKSMƏNALI SÖZLƏRİN ÜSLUB FUNKSİYASI

Qənirə Əsgərova
Filologiya üzrə fəlsəfə doktoru, dosent Naxçıvan Dövlət Universiteti

Abstract
The article examines the stylistic possibilities of antonyms in the language of the folk poet Bakhtiyar Vahabzade. Although traditionally understood as words with opposite meanings, the issue of the conflict arising when using antonyms goes beyond ordinary contrast is touched upon. Antonyms, through various rhetorical means such as antithesis, oxymoron, paradox, irony and contrasting parallelism, significantly affect the creation of meaning, emotional expression and aesthetic richness in artistic texts.
Linguistic analyses conducted on the work of Bakhtiyar Vahabzade confirm that antonyms, although usually presented as simple binary opposites, have a deeper and more multifaceted role in the language of poetry. Their correct placement in the language of poetry forms the poetic tone, creates tension and emphasizes contrasts. Thus, their stylistic function is noticeable. The article confirms the key role of antonyms in the construction and explanation of poetic language with examples taken from the work of Bakhtiyar Vahabzadeh.
Key words: word, expression, language, style, antonyms.

Резюме
В статье рассматриваются стилистические возможности антонимичных слов в языке народного поэта Бахтияра Вагабзаде. Хотя традиционно под антонимами понимаются слова с противоположными значениями, в статье рассматривается проблема конфликта, возникающего при использовании антонимов, выходящая за рамки простого контраста. Благодаря различным риторическим приемам, таким как антитеза, оксюморон, парадокс, ирония и контрастный параллелизм, антонимы существенно влияют на создание смысла, эмоциональное выражение и эстетическое богатство литературных текстов.
Лингвистический анализ, проведенный на основе произведений Бахтитара Вахабзаде, подтверждает, что антонимы, хотя обычно и представляются в языке как простые бинарные противоположности, играют в поэзии более глубокую и многогранную роль. Их правильное размещение в языке поэзии формирует поэтический тон, создает напряжение и подчеркивает контрасты. Таким образом, их стилистическая функция заметна. В статье на примерах из творчества Бахтияра Вагабзаде подтверждается ключевая роль антонимов в построении и объяснении поэтического языка.
Ключевые слова: слово, выражение, язык, стиль, антонимы.

Xülasə
Məqalədə xalq şairi Bəxtiyar Vahabzadənin dilində antonim sözlərin üslub imkanlarını araşdırılır. Ənənəvi olaraq əks mənalı sözlər kimi başa düşülsə də, antonimlərdən istifadə zamanı yaranan qarşıdurmanın adi təzaddan kənara çıxması məsələsinə toxunulur. Antiteza, oxsimoron, paradoks, ironiya və təzadlı paralellik kimi müxtəlif ritorik vasitələrlə antonimlər bədii mətnlərdə məna yaratmağa, emosional ifadəyə və estetik zənginliyə əhəmiyyətli dərəcədə təsir edir.
Bəxtitar Vahabzadənin yaradıcılığı üzərində aparılan linqvistik təhlillər təsdiq edir ki, antonimlər dildə, adətən sadə ikili əksliklər kimi təqdim olunsa da, poeziyada daha dərin və çoxşaxəli rola malikdir. Onların şeir dilində düzgün yerləşdirilməsi poetik tonu formalaşdırır, gərginlik yaradır və təzadları vurğulayır. Bununla da onların üslub funksiyası nəzərə çarpır. Məqalədə əks mənalı sözlərin poetik dilin qurulmasında və izahında əsas rol oynaması Bəxtiyar Vahabzadənin yaradıcılığından alınmış nümunələrlə təsdiq olunur.
Açar sözlər: söz, ifadə, dil, üslub, əksmənalı sözlər.

Giriş
Bəxtiyar Vahabzadə Səməd Vurğundan sonra Azərbaycan ədəbiyyatı və ədəbi dilində xüsusi mövqeyə mailk olan xalq şairidir. Onun poeziyası bədii dilimiz üçün maraqlı və zəngin mənbələrədn biridir. Şairin yaradıcılığı dilcilik elminin bir sıra istiqümətlərində araşdırılmağa layiqdir. Xüsusilə də sözlərin leksik məna qruplarının üsıub imkanları baxımından Bəxtiyar Vahabzadənin poeziyası orijinal materiallarla zəngindir. Bu mənada, əks mənalı sözlər diqqəti cəlb edir. "Dildə antonim sözlərin yaranmasına səbəb bizi əhatə edən aləmin özünün ziddiyyətli olmasıdır. İnkişafın əsasını təşkil edən bu ziddiyyətlərin dildə ifadəsi antonim sözlərdə özünü göstərir. Müqayisə və qarşılaşdırma yolu ilə aşkar edilən müxtəlif təzadlı hadisələr, obyektiv aləmin bütün ziddiyyətli cəhətləri əksmənalı sözlər silsiləsini təşkil edən antonimlər vasitəsilə şərh edilir" (Cəfərov,2007, s.37).

Əsas
Dilimizdə sözlərin bir-birinə zidd mənalarda işlənməsi, yəni antonimlik hadisəsi yalnız leksik mənada deyil, həm də üslubi baxımdan mühüm əhəmiyyət daşıyır. Antonim sözlər danışıqda və yazılı ünsiyyətdə fikrin daha dəqiq, ifadəli və təsirli çatdırılmasında mühüm rol oynayır. Xüsusilə də poetik dildə onların funksional imkanları çoxdur. Bədii üslubda antonimlər fikir qarşılaşdırması, məntiqi vurğu, ironiya və ya mübaliğə yaratmaq məqsədilə işlədilir. "Ziddiyyətli həyat hadisələrini, münasibətləri vermək üçün antonim sözlər sənətkarın əlində ən dəyərli ifadə vasitəsi kimi özünü göstərir. Bununla yanaşı, antonim sözlər vasitəsilə bədii əsərlərin dilində təzad yaradılır ki, bunun da köməyi ilə əşya və surətlərin gözəl xarakteristikası əldə edilir" (Əfəndiyeva,1973,s.66). Araşdırmalar göstərir ki, qarşılaşdırma yolu ilə fikir daha aydın ifadə olunur. Məsələn:

Məni **həyat üçün**
Yatıran anam,
Soylə **ölümçün**
Necə yatırım
Səni mən bu gün?
Bu necə dünyadır, anlamıram mən,
Cilvəsi curbəcur, rəngi curbəcur.
Dunən nəfəsiylə səni isidən
Bu gün buza dönüb, daşa dönübdür (Vahabzadə 2004, I c. s. 21).

Şeirin fəlsəfi əsaslarının meydana çıxmasında əksmənalı sözlərin əhəmiyyəti vardır. Poeziya emosional təsirə və linqvistik dəqiqliyə əsaslanan bir sənət növü kimi həyatdakı əksliklərı də təsvir edir.

Bədii dildə antonimlər obrazlılıq dərəcəsinin artırılmasında əsas vasitələrdən biridir. Onlar poetik ifadənin estetik dəyərini yüksəldir, ideya və məzmunu dərinləşdirir. Məsələn, Bəxtiyar Vahabzadə şeirlərində tez-tez rast gəlinən "həyat – ölüm", "həqiqət – röya", "göy – yer" kimi antonimlər oxucuda təzad hissi yaradır:

Bu necə dünyadır,
İnsan oğlunun
Xəyalı **göydədir**, özü **yerdədir,**
Sağ ikən ciynində həyatın yükü
Öləndə cəsədi ciyinlərdədir...
Bu necə dünyadır, bu necə dünya,
Ölümü həqiqət, həyatı röya (Vahabzadə 2004, I c. s. 21).

Bədii əsərlərdə oxucunun diqqətini cəlb etmək və müəllifin əsas fikirlərini vurğulamaq üçün antonimlərdən geniş şəkildə istifadə olunur. Bu zaman məqsəd qarşılaşdırma yolu ilə ideyaların mahiyyətini müəyyənləşdirməkdir:

O **enən**, o **qalxan** səslər, avazlar
Yaz başı dağların selidir bəlkə? (Vahabzadə 2004, I c. s. 24).

Bəxtiyar Vahabzadənin yaradıcılığında şeir dilinin daim inkişaf edən mənzərəsində əks mənalar daşıyan sözlər leksik mahiyyətdən üslubi keyfiyyətə doğru istiqamətlənir. "Nitqdə, xüsusən bədii nitqdə antonimlərin üslubi (poetik) rolu əvəzedilməzdir. Antonimlər vasitəsilə fikir və düşüncələrin, insanların həyat tərzinin, münasibətlərin, müxtəlif hadisələrin müəyyən cəhətləri qarşılaşdırılır" (Hümbətova 2024, s. 42).
Dilçilik səviyyəsində antonimlər bir-birini əkslikləri ilə müəyyən edən iki tərəfə (leksik vahidə) malikdir. Lakin bu ikilik statistik cəhətdən adi görünsə də, semantik baxımdan emosional əlaqəyə malik dinamik gərginlik yaradır:

Vaxt keçir, sən məndən **uzaqlaşırsan,**
Mən sənə gunbəgun **yaxınlaşıram** (Vahabzadə 2004, I c.s. 22).

Antonimlər yaxınlıqda yerləşdirildikdə daha güçlü təsir yaradır. Antiteza kimi tanınan bu ritorik texnika inandırıcılıq ifadfə edərək poetik dilin əsas elementinə çevrilir. Bəxtiyar Vahabzadənin yaradıcılığında fikirlərin əks mənalı sözlərlə ifadə olunması onların informativ funksiyasını kənarda qoyaraq simvol səviyyəsinə yüksəlir. Antonimlər təkcə şeirin formasına təsir etmir, eyni zamanda ona fikir dərinliyi verir.
Antonim cütlər dildə ritmik rol oynayır. Belə ki, paralel konstruksiyalar yaddaqalan və təsirli ifadələr yaratmaq üçün əks mənalar arasındakı gərginliyə əsaslanır. Bu, ritmin vacib olduğu şeir dilində xüsusilə dəyərlidir:

Yerin layları kimi,
Göyün qatları kimi
Fikrim açılır hərdən
Göz onumdə qatbaqat.
Şeylərin ən **kiçiyi** –
Atom zərrəcikləri,
Ən **böyüyü** - kainat.
O da gozlə görünmür,

Bu da gozlə görünmür (Vahabzadə 2004, I c. s. 23).
Adi dildən fərqli olaraq antonim sözlər üslub məqamında oxucu və dinləyiciləri təəccübləndirmək və cəlb etmək üçün tez-tez işlənir. Bu sözlər dili daha canlı və ifadəli edir:

İnsan o **kiçikliyi**,
İnsan o **böyüklüyü**
Görməyə çox can atdı,
Ozunə göz yaratdı (Vahabzadə 2004, I c. s. 21).

Antonim sözlər leksik baxımından sadə olsa da, üslub cəhətdən mürəkkəbdir. Onlar təzad, ritm, istehza və gözlənilməz mənalar vasitəsilə şairin dil və üslubunun inkişafına imkan verir. "Antonim sözlər real varlıqda maddi və mənəvi aləmlə əlaqədar olan hər şeyi əhatə edir və bunları qarşılaşdırma yolu ilə üzə çıxarmağa imkan verir" (Əfəndiyeva 1980, s. 85). Antonimlərdən istifadə edən şair təkcə görüb duyduqlarını təsvir etmir, onları formalaşdırır, gərginlikləri və çoxşaxəli həqiqətlərini əks etdirir. Bəxtiyar Vahabzadənin yaradıcılığından aydın olur ki, isti və soyuq, xeyir və şər, sevinc və kədər arasındakı məqamlarda insanın düşündüklərini ifadə etmək üçün şeir dilinin özünəxas potensialı vardır.
Bəxtiyar Vahabzadə əksmənalı sözləri elə məqamlarda işlədir ki, onlar ritorik vasitə kimi fəaliyyət göstərir. Estetik və emosional təsirə malik olan bu söz qrupları inandırma duyğusu əmələ gətirir. "Yerində, məqamında, fikirlərə uyğun anlamında işlənən söz qiymətlidir, onun mahiyyəti də, təsiri də, inanadırıcılığı da güclüdür" (Həsənova 2017, s. 267).
Dildə əkslik əsas koqnitiv prinsip kimi qəbul edilmişdir. Belə ki, dilçi alimlər təzadın məna konstruksiyası üçün mərkəzi yer tutduğunu iddia edirlər. Antonimlər arasındakı gərginlik çox vaxt incə məqamların ifadəsinə xidmət edir. Fərqlilikləri vurğulamaqda antonimlər əvəzsiz rola malikdir. "Antonim sözlər də danışığın zənginliyini, dəqiqiliyini, təsirliliyini təmin edən lüğət vahidlərindəndir" (Mustafayeva 2010, s. 158). Bəxtiyar Vahabzadə emosional ifadəni gücləndirmək üçün antonimlərdən tez-tez istifadə edir:

Köməyimə,
dadıma
Göyü çağırmalıyam,
Yeri çağırmalıyam!
Mən bütün qaydaları
Qanunlan,
Sədləri
Dağıdıb qırmalıyam!" (Vahabzadə 2004, II c. s. 100).

Antonimlərin üslub cəhətdən istifadəsi çox vaxt əksliklə bağlı düşüncələri aktivləşdirir. Bədii dildə antonim sözlər adi əksliklərdən qat-qat artıq semantik yüksəkliyə malikdir. Onlardan üslub, inandırma və ifadə vasitəsi kimim istifadənin tarixi qədimdir. Bəxtiyar Vahabzadənin yaradıcılığı göstərir ki, bu ənənə indi də davam edir. Şairin dilində əksmənalı sözlər düşüncəni formalaşdıran, gözəlliyi artıran və mənanı aydınlaşdıran dil vahidləri kimi işlənir. Şairin dilində əksmənalı sözlərin öyrənilməsi bədii üslubun daha dərindən başa düşülməsinə kömək edir:
Sən öyrətdin, sən mənə şəklini bu hərflərin,

Qızınsa üç hərf ilə dünyanın, **göyün, yerin** (Vahabzadə 2004, II c. s. 10).
Qaranlıq daxmada gecə sübhədək
O, **işıq** naminə yazdı, yaratdı (Vahabzadə 2004, II c. s. 102).

Əksmənalı sözlər məna formalaşdırmaq və emosiya yaratmaq üçün Bəxtiyar Vahabzadənin istifadə etdiyi dil faktlarındandır. Bu sözlər poetik ifadənin quruluşunda təməl komponentlər kimi özünəməxsus mövqe tutur. Belə ki, məna çox vaxt ayrılıqda deyil, ikili qarşıdurma vasitəsilə ortaya çıxır. Antonimlər kontrastı artırır və oxucunun diqqətini əsas fərqlərə cəlb edir. Mövzuların mahiyyətini əks etdirb gücləndirməkdə də bu söz qrupları fəal iştirak edir. Bəxtiyar Vahabzadənin yaradıcılığında antonimlər güclü psixoloji vasitəyə çevrilir. Bundan başqa, şairin dilində antonimiya əsas ritorik və struktur element kimi özünü göstərir. Müxtəlif söz və anlayışların istifadəsi onun dilində dinamik qarşılıqlı əlaqə və çoxşaxəli məna yaradır. Şairin dilindəki antonimlər bəzən xarakterlərin emosional intensivliyini və qeyri-sabitliyini əks etdirir. Antonimlər həm də hərfi mənasından yüksəkdə duran simvolik mənalarla şairin dilini fərqləndirir.
Azadlıq - səhərimdir;

Gündüzüm, axşamımdır (Vahabzadə 2004, II c. s. 97).

Antonimlər təkcə dramatizm yaratmaq vasitəsi deyil, şair, həm də kontrast vasitəsilə mənası aydınlaşdırmaq və müəyyən etmək üçün antonimlərdən istifadə edirlər. Şair hər hansı bir xüsusiyyəti, vəziyyəti ifadə edən sözü onun əksi vasitəsilə müəyyən etməklə oxucuya hər ikisini daha dolğun qavramağa imkan verir.
Şairin yaradıdıcılığı göstərir ki, antonimlər poetik ünsiyyətin həm estetik, həm də idrak proseslərinin tərkib hissəsidir. Şair antonim sözlər vasitəsilə əksliklər arasındakı əsas gərginliyi dramatikləşdirərək tez-tez daha dərin həqiqətləri üzə çıxarır. Onun dilində bu sözlərin yalnız zahiri ziddiyyətinə deyil, daxili əksliyinə diqqət edilir. Bu ziddiyyətlər təkcə təsviri deyil, həm də insan vəziyyətinə dair fəlsəfi sorğular kimi fəaliyyət göstərir. Antonimlər Bəxtiyar Vahabzadənin poeziyasında təsadüfi işlənmir. Onlar bədii dildəki leksik semantika ilə poetik funksiyanın həqiqətən nə qədər dərindən bağlı olduğunu ortaya qoyur.

Nəticə
Beləliklə, əks mənalı sözlər ədəbi dilin lüğət tərkibinin zənginləşməsində əsas rol oynamaqdan başqa, poetik mətnlərlə dərin emosional və intellektual əhəmiyyətə malik olaraq mövzunun anlaşılması üçün gərəkli leksik vahidlərdir. Bəxtiyar Vahabzadənin dilindən aydın olur ki, doğrudan da, antonimiya leksik semantikanın əsas kateqoriyasıdır. Antonimlər dilin ifadə imkanlarını genişləndirən, fikrin daha təsirli və obrazlı çatdırılmasına xidmət edən mühüm leksik vahidlərdir. Onların düzgün və məqsədyönlü şəkildə istifadəsi mətni həm semantik, həm də estetik baxımdan zənginləşdirir. Xüsusən bədii üslubda antonimlərin rolu danılmazdır. Araşdırmalar göstərir ki, insan və həyatın mürəkkəbliyini əks etdirən antonimlər yalnız mənaca ziddiyyət yaratmaqla kifayətlənmir, həm də dildə üslubi və funksional dəyər daşıyır. Duyğular, münasibətlər nadir hallarda sadə və ya tək olur. Şeir dilində əksliklərin qarşılıqlı təsiri insanın tez-tez necə ziddiyyətli hisslər keçirdiyini ifadə edir. Bəxtiyar Vahabzadənin dilində antonimlərin poetik istifadəsi adi sözləri sənətkarlıq səviyyəsinə yüksəldir.

Ədəbiyyat
1. Cəfərov S. (2007). Müasir Azərbaycan dili. Leksika. Bakı, Şərq-Qərb. 192 s.
2. Əfəndiyeva T. (1973). Azərbaycan dilinin bədii ifadə vasitələri. Bakı, Yazıçı, 1973, 75 s.
3. Əfəndiyeva T. (1980). Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı, Elm, 233 s.
4. Həsənova S. (2017). Bəxtiyar Vahabzadə və ədəbi dilimiz. Dilimiz mənəvi kimliğimizdir. Naxçıvan, Əcəmi, 2017, s. 261-268.
5. Hümmətova R. (2024). Antonimlərin üslubi imkanlarının açılmasında leksik-semantik təhlilin rolu. Azərbaycan dili və ədəbiyyat tədrisi, № 1 (279), 37 – 46.
6. Mustafayeva Q. (2010). Azərbaycan dilinin üslubiyyatı. Bakı, Elm, 392 s.

7. Vahabzadə B. (2004). Seçilmiş əsərləri, I c. Bakı, “Öndər Nəşriyyat”, 328 s.
8. Vahabzadə B. (2004). Seçilmiş əsərləri, II c. Bakı, “Öndər Nəşriyyat”, 320 s.

PEDAGOGICAL SUPPORT AND STUDENT DEVELOPMENT: APPLIED APPROACHES IN AZERBAIJAN SCHOOLS

PEDAQOJI DƏSTƏK VƏ ŞAGIRD İNKIŞAFI: AZƏRBAYCAN MƏKTƏBLƏRINDƏ TƏTBIQI YANAŞMALAR

Beydullayeva Lalə Daşdəmir

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba fillialı
https://orcid.org/0009-0006-6849-4205

Xülasə
Şagirdin inkişafına dəstək vermək – onun şəxsiyyətinin və fərdiliyinin qorunması, eyni zamanda azad tərbiyə prinsiplərinə söykənən humanist pedaqoji yanaşmaların tətbiqini tələb edir. Müasir mərhələdə təhsilin humanistləşdirilməsi innovativ proseslərin əsas tərkib hissəsinə çevrilmişdir. Bu kontekstdə şəxsiyyətyönümlü təlim strategiyaları pedaqoji reallıqda xüsusi metod və texnologiyalar vasitəsilə həyata keçirilməlidir. Təhsil sahəsində irəli sürülən yeniliklər və konsepsiyalar, inkişaf meylləri ilə vəhdət təşkil edərək tədrisə yeni yanaşmalar gətirir. Bu baxımdan pedaqoji dəstək konsepsiyası, müasir təhsil paradiqmasına uyğun şəkildə formalaşaraq, şagirdin uşaqlıq və yeniyetməlik dövründə sərbəst, yaradıcı və mənalı həyat yaşamasını dəstəkləyir. Onun sosial və şəxsi özünüifadə imkanlarını genişləndirmək bu modelin əsas məqsədlərindəndir.
Açar sözlər: pedaqoji dəstək, humanist təhsil, şəxsiyyətyönümlü yanaşma, eksperiment təhlili, şagirdin fərdi inkişafı.

Abstract
Supporting the development of the student - protecting his personality and individuality, at the same time requires the application of humanistic pedagogical approaches based on the principles of free upbringing. At the modern stage, the humanization of education has become a key component of innovative processes. In this context, personality-oriented learning strategies should be implemented in pedagogical reality through special methods and technologies. Innovations and concepts put forward in the field of education, forming a unity with development trends, bring new approaches to teaching. In this regard, the concept of pedagogical support, formed in accordance with the modern educational paradigm, supports the student to live a free, creative and meaningful life in childhood and adolescence. Expanding his social and personal self-expression opportunities is one of the main goals of this model.
Keywords: pedagogical support, humanistic education, personality-oriented approach, experimental analysis, student's personal development.

Giriş

Pedaqoji dəstək məqsədyönlü şəkildə şagird üçün müəllim tərəfindən yaradılmış xüsusi şərait və köməkdir. Bu şərait və kömək bir neçə probemin həllinə yönləndirilmiş fəaliyyət növü ola bilər ki, uşağın özünüdərki və müstəqil şəkildə qərarın verilməsində rol oynamalıdır. Bununla yanaşı, yaxın və uzaq perspektivin müəyyənləşməsini təmin etməli, həyatın real şəraitinə adapdasiyanı, ətrafla pozitiv münasibətlərin qurulmasını, özünü reallaşdırılması və müxtəlif sferalarda özünütəsdiqə nail olmağa sövq etməlidir.

Pedaqoji dastək şagird şəxsiyyətinin inkişafına kömək edan, onun formalaşmasına yönələn kompleks pedaqoji təsirlər sistemindən ibaratdir. Bu proses özünün şəxsiyyətyönlülüyü, şagirdlərə humanist

münasibətliliyi ve nəticəyönlülüyü ilə səciyyələnir və şagird şəxsiyyətinə hörmət olunmasını, onun şəxsiyyət kimi qabul edilməsini, şagirdə inam, etimad va diqqət göstərilməsini özündə birləşdirir. (Talıbova, 2023 : 4)

Dövlətin yürütdüyü Təhsil siyasətinin hədəfləri və istiqamətlərində şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması və buna müvafiq fəaliyyət prioritetdədir. Təhsil Strategiyası sənədindən bu məqamlardan birini göstərmək olar: "Təhsilverənlərin peşəkarlıq səviyyəsinin daim yüksəlməsini təmin edən yeni sistemin yaradılması: 2.1.1. təhsilverənlər üçün təhsilin bütün pillələrində təhsilalanların təfəkkürü və şəxsiyyətinin inkişafına yönəlmiş, onların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodologiyasının və müvafiq resursların hazırlanmasının təmin edilməsi" kimi təqdim eilir. (Təhsil Strategiyası, 20.10.2013)

Buna qədər təqdim etdiyimiz fikirlər və ideyalar təhsil alana ünvanlaşdırılmışdırsa təhsil prosesinin digər iştirakçısı – müəllimin də fəaliyyəti olmadan bu işin həyata keçirilməsi imkansız olardı. Çünki müasir təhsil siyasəti təhsil siyasətimizin əsas məqamlarından biri müəllimin fəaliyyətində cəmləşir: müəllim idarəçidir, novatordur, istiqamət verəndir və pedaqoji dəstəyin müəllim fenomeni olmadan həyata keçirilməsi imkansızdır.

Təlim prosesində müəllim diaqnostik işi apardığı zaman uşağın təlim nailiyyətləri, fəaliyyətinin növlərindən asılı olaraq gördüyü işin nəticələrin dəyərləndirir. Onun təlim prosesində üzləşdiyi çətinliklərin dərəcəsinə görə müəyyənləşdirir və optimal seçimlərin edilməsində ona didaktik əsaslarla pedaqoji dəstək verir.

Müəllim pedaqoji dəsdək işinin təşkili prosesində ilk növbədə uşağın yaxşı xüsusiyyətlərini nəzərə almalıdır, çətinliklərin dərəcələrini müəyyən etmək imkanına malik olmalıdır. Müasir pedaqoji elmimizin tanınmış tədqiqatçısı M.İlyasov 2018-ci ildə ap olunmuş monoqrafiyasında göstərir ki, "Sınanmış metod olan pedaqoji dəstək təhsil və tərbiyə prosesində xüsusən indiki dövrdə olduqca mühüm təsir gücünə malikdir". (İlyasov, 2018:98) Apardığımız elmi və praktik araşdırmalar əsasında müəllimin bu işdə təşkilati qaydada xüsusi plan üzrə işinin təşkilini mütləq hesab etməli, çünki təlim fəaliyyəti məqsəd yönlü qurulmuş bir prosesdir.

Biz çalışmışıq ki, problemin elmi nəzəri tərəflərini tədqiq etməklə, praktik baxımdan problemin məktəb təcrübəsində mövcud vəziyyətini araşdıraq və nəzəri aspektdə işlənilmiş elmi fərziyyələrin təcrübədə özünü nə dərəcədə doğrultmasını bilək.

Psixo – pedaqoji ədəbiyyatlarda buna dair bəzi göstərişlərin ümümiləşdirilməsinə çalışmışıq.

1. Kollektivin möhkəmliyinin təmin edilməsi məqsədi ilə sinifdə "təcrid" olunan şagirdlərin sayının azaldılması.
2. Əgər sinifdə qruplaşmalar varsa onların ləğvinə nail olmaq, düşmənçiliyi aradan qaldırmaq.
3. Sinifdə olan liderlərin fəaliyyətini rəğbətləndirmək və nümunə kimi təqdim etmək.
4. Uşaqlar arasında mehribançılq, qarşılıqlı anlayış və xeyirxahlıq hissini aşılamaq.

Müşahidələrin və aparılmış araşdırmaların nəticəsi olaraq pedaqoji dəstək işinin təşkilinin təxmini 10 qayda tərtib etmişik (təlimdə geri qalan şagirdlərə aiddir).

1. Müəllim hər şagirdin qabiliyyətlərinə inanmalıdır və bu inamı şagirdin özünə aşılamalıdır. Şagirdin hər uğuruna müəllim ürəkdən sevinməlidir.
2. Təlimdə geri qalan şagirdlər üçün ən çətin məqamlardan biri təlim materialını dərk etmə müddətidir. Burada müəllimə böyük səbr lazımdır.
3. Sinifdə zəif uşaqlar səviyyəsində iş qurulur və az bir müddətdə 3 səviyyədə təlim nailiyyətlərini müşahidə edirik. Burada daha qabiliyyətli müəllim öndə olur, orta səviyyə qabiliyyətlilərə çatmaq həvəsini nümayiş etdirir, daha zəif olanlara isə dəstək lazım olur.
4. Əsas materialın dəfələrlə təkrarı – zəif oxuyan uşaqlarla olan iş priyomlarından biridir. Onu da dərk etmək lazımdır ki, ayrıca təşkil olunmuş mövzu, dərs olmur. Təlim prosesinin hər mərhələsi öz arasında sıx bağlıdır-bir dərs ondan öncə gələn mövzunun davamıdır.
5. Təlim materialının həcminin artırılmasına ehtiyac yoxdur. Əsas vacib olanı izah olunur, təkrarlanır və möhkəmlənir.

6. Təlimdə geriliyən şagirdlərlə qurulan işi primitiv görmək olmaz iş yalnız bilik verməkdə deyil. Bu şagird təbəqəsi ilə aparılan iş prosesində daim yaddaş inkişaf edir, məntiq, təfəkkür, emosiyalar, hisslər, təlimə maraq, təlimi bacarıqların və vərdişlərin formalaşması baş verir. Uşağın inkişaf səviyyəsi dəyişdikcə işin metodikası mahiyyətini dəyişməli olur.
7. Ünsiyyət – istənilən metodikanın tərkibidir. Təlimdə geriləyənşagirdlə ünsiyyət qura bilməyən müəllimin heç bir metodikası işlək ola bilməz
8. Sinifi idarə etməyi öyrənmək lazımdır. Hər hansı təlimi materialın izahında sinif diqqətlə müəllimi izləməlidir. Şagirdlərin təlim prosesində fəaliyyəti rəngarəng olmalıdır.
9. Güclü uşaqları zəiflərlə işə cəlb olunmasına müəllim nail olmalıdır. Təlim prosesi sinifin frontal təşkili ilə fərdi yanaşmanı birgə həyata keçirilməsinə xidmət etməkdir.
10. Təlimdə zəif olan uşaqlarda abstrakt təfəkkür zəif inkişaf edir. Bu uşaqlarda təlim maraqların oyanmasında emosiyalar, hisslər, təlimə maraqlarına istinad etməklə iş qurulmalıdır.

Təlim fəaliyyətinin təşkilini zəif oxuyan şagirdlərlə bilik, bacarıq və vərdişlərin formalaşdırılmasından başlamaq düz deyil, öncədən adaptasiya üçün lazımı şəraitin yaradılması vacibdir. Aşağıdakı priyomlardan istifadə etməklə bunlara nail olmaq imkanı vardır.
1. Uyğun şəraitin yaradılması, cox da ciddi olmayan rejimin təşkili.
2. Pedaqoji işin təlim-korreksiyaedici istiqamətini müəyyən etmək.
3. Şagirdlərin imkanları çərçivəsində təlim fəaliyyətini uğura kökləyən, metodlar və priyomlardan istifadənin təmin edilməsi.
4. Tələblərdə differensiallıq və təlimdə fərdi yanaşma, təlim proqramlarının sadələləşdirməyə doğru işin təşkili, ikinci dərəcəli təlim materiallarının təxirə salınması və həcmin azalmasına doğru iş, şagirdlərin bilik və bacarıqlarında yaranmış boşluqların aradan qaldırılmasına zamanın ayrılmasına nail olmaq.
5. Təlimdə geriləyən şagirdlərin psixi inkişafının, çətinliklərinin səbəblərini, korreksiyaedici işin xüsusiyyətlərinin qeydiyyatının aparılması.
6. Uşaqların təlimi maraqlarının artırılması məqsədilə sinifdənxaric iş, dərnək işi sisteminin yaradılması.

Tədqiq etdiyimiz elmi - pedaqoji ədəbiyyatlarda tez-tez rast gəldiyimiz problemin həlli üçün nəzərdə tutulan pedaqoji dəstəyin həyata keçirilməsində təlimin ilk mərhələsində birliklərin yaradılması – qruplar şəklində böyüklərdən və uşaqlardan ibarət olaraq. Işgüzar əks-əlaqə, birgə fəaliyyət, iştirakşıların fikirləri əsasında işin qurulmasının effektivliyi daha yüksək olur. Bu uşaqda uğurun yaranmasına, sosial cəhətdən formalaşmasına və şəxsi inkişaf trayektoruyasının yaranmasına səbəb olur.

Ədəbi oxu sahəsində çətinlik çəkən şagirdlər üçün yalnız təlimi materialın deyil, hım də əlavə bədii ədəbiyyatın təhlili, yaddaşın yaxşılışdırılması üçün şeir əzbərləmək məsləhət görülür.

Azərbaycan qrammatikası ilə bağlı çətinlikləri olan şagirdlərə yalnız tərifləri əzbərlənməsi kifayət deyildir, öyrənilmiş qaydaların praktik cəhətdən tətbiqi də çox önəmlidir. Uşaqlar müstəqil şəkildə dərsliklərdən mətinləri köçürməyi bacarmalıdırlar, imla şəklində olan yazılar da önəmlidir, uşaqların lüğəti ehtiyatlarının zənginləşməsi də çox vacibdir.

Riyaziyyat təlimində çətinlik çəkən şagirdlər əlavə məşğələlərə cəlb edilməlidirlər. Tapşırıqlar öz məzmununa görə uşağın məntiqi və abstrakt təfəkkürünün inkişafına xidmət etməlidirlər, bununla yanaşı əsas psixi funksiyaların: diqqət, yaddaş, təfəkkürün də əhəmiyyəti unudulmamalıdır.

Məlumdur ki, təlimdə geriliyin aradan qaldırılmasında daha çox diqqət yetiriləcək məqamlar var:
1. Sinif rəhbəri (metodistin) işi.
2. Məktəbdaxili nəzarət.
3. Təlimdə geriləyən uşaqlar üçün göstərişlər.
4. Valideynlər tərəfindən nəzarətin təşkili.

Düşünürük ki, pedaqoji dəstəyin və profilaktik işin vasitələrini 2 qrupa bölmək olar:
1. Dərsdənkənar vaxtlarda əlavə məşğələlərin təşkili;

2. Valideynlərin məktəbə dəvət olunması təziq vasitəsi kimi.

Təlimdə geri qalan uşaqlarla pedaqoji dəstək zamanı görüləcək iş proses kimi addım-addım təhlil olunmalıdır, xüsusi reqlament əsasında fəaliyyət qurulmalıdır. Biliklərin əldə olunması kortəbii həyata keçirilməməlidir, gedən proses tam aydın şəkildə uşaq tərəfindən dərk olunmalıdır.

Təlimdə çətinlik hiss edən uşaqlarla xüsusi fəaliyyətin təşkilinə ehtiyac duyulur ki, onların təlim maraqlarının formalaşmasına xidmət etsin. Bu işlərin hamısı uşaqların əmək fəaliyyəti ilə sıx əlaqəli şəkildə həyata keçməlidir. Bu uşaqlara tez-tez tapşırıqlar verilməlidir. Verilmiş hər bir tapşırıq onlara olan etimadın nümayişinə xidmət etməlidir.

Differensal tapşırıqların verilməsi şagirdlərdə təlim prosesinə daha ciddi yanaşmaya təhrik edir. Veriləcək tapşırıqların həcminin azaldılması o zaman məqsədədə müvafiq hesab edilir ki, uşaq tez yorula. Differensial tapşırıqların verilməsi zamanı məzmun baxımından deyil, yanaşma tərzi və icrasında istifadə olunacaq metodikaların təqdimatı diqqət mərkəzində olmalıdır. Bu zaman məsələlərin həlli yolunu tapmış uşaq müstəqil şəkildə işi icra edərək, uğur qazanmaq və onun ləzətini duymağı bacarmalıdır.

Uşağın təlim nailiyyətlərinə ailənin təsiri də çox önəmlidir. Pedaqoji dəstək göstərməyə hazırlaşan müəllim şagirdin ailəsini yaxından tanımalıdır və ailənin şagirdin təlim nailiyyətlərinə nə dərəcədə təsir imkanına malik olduğu haqqında məlumatı olmalıdır. Ailə ilə maarifləndirici işin aparılması effektiv olar, valideynlər uşağın əqli əməyinin təşkilində, fəaliyyətin mədəni aspektlərini mütləq şəkildə nəzərə almalıdırlar.

İbtidai təhsil mərhələsinin stabil qaydada yekunlaşmasını bu cür göstərmək olar:

1. Təlim prosesində sinif yoldaşları bir-birinə təlim prosesində və tapşırıqların yerinə yetirilməsində dəstək olmağı bacarırlar.
2. Uşaqlar çox böyük həvəslə birgə vaxtlarını keçirirlər.
3. Birgə təlim fəaliyyəti nəticəsində hər bir uşaq xeyli nailiyyət əldə etmış olur.
4. Şagird müstəqil şəkildə qarşısına məqsəd qoya bilir, ona doğru optimal seçimlər etməkdə artıq çətinlik çəkmir, öz təlimi nailiyyətlərinə görə özünə dəyər verməyi bacarır.
5. Sistematik və müstəqil şəkildə uşaqlar ev tapşırıqlarını yerinə yetirirlər, çox nadir hallarda kömək üçün valideynlərinə müraciət edirlər.

Bir daha qeyd etmək lazımdır ki, ibtidai siniflərdə təlim-tərbiyə prosesində pedaqoji priyomlar və texnikaların reallaşdırılması nəticəsində təlim – tərbiyə prosesində hər uşaq üçün komfort yaratmaq imkanına nail oluruq.

2.1.Paraqrafında təqdim etdiklərimizin nəzəri aspektlərin aprobasiyasını Gəncə şəhər V. Veysəlov adına 30 nömrəli tam orta məktəbin III sinifdə keçirdik I mərhələdə təlimdə geriləyən, proqram üzrə mənimsəməsi aşağı olan uşaqlarda verilmiş müstəqil icrasını yerinə yetirməyi bacarmayanlar, yaxud tələb olunan səviyyədən aşağı – 42 %.

- Qiymətləndirməyə qarşı laqeyid olub, tez-tez fikirləri dərsdə yayınan uşaqlar – 8 %.
- Dərsin gedişatına mane olanlar, idarə olunmayanlar – 12 %.
- Verilmiş suallara bir çox hallarda “bilmirəm” cavabı verənlər - 26%
- Lövhə qarşısında özünü itirən və inamsız cavablar verənlər – 12 % təşkil etmişdir.

Uşaqda idrakı maraq səviyyəsi aşağıdır, iradəsi və xarakteri formalaşmamışdır. Müəllimin fikrincə o, tənbəldir. Müəllim düşünür ki, bu uşaqlar bacardıqlarından daha aşağı səviyyədə biliklərini təqdim edirlər.

- Hər şəyə laqeyid və dəsdə darıxanlar, iş prosesinə nadir hallarda qoşulurlar - 35 %.
- Tənbəllik edirlər, çalışmırlar, lakin potensial var - 43 %.
- Yorğun görünüş, dərsdə yuxulama halları, təlimin sonunda qıcıqlanma halları- 9 %.
- Verilmiş tapşırıqları ləng və həvəssiz icra edirlər - 13 %.

3.Diqqəti yayınan uşaq. Bu qrupa böyük təlimi aktivlik nümayiş etdirib, lakin nəticə verə bilməyən uşaqlar aiddir. Tələsir, düşünmədən cavab verir, çalışır ki, tapşırığı yüksək səviyyədə icra etsin, lakin unutqandır - 57 %.

Dəftərlərində qeydləri səliqəsiz aparırlar - 18 %.
Diqqətsizdirlər, saatlarla dərslərinin arxasında oturur, lakin toparlamaqda çətinlik çəkir - 25 %.
4. Uşaqda sərbəst fəaliyyət formalaşmayıb (idarə olunmayan uşaq).
Bu qrupa aid uşaqlar məktəbdə mövcud olan ümumi qaydalara tabe ola bilmirlər. Müəllim və valideynlərin narazılığı təlimlə bağlı deyil, davranış və fəaliyyətin təşkili ilə bağlı olur.
Dərslərin keçirməsinə mane olurlar, dəcəllik edirlər, iradlara məhəl qoymurlar - 69 %.
Hiperaktivlik - 5 %.
5.Xroniki geriləmə tininə aid uşaqlar. Bu tip uşaqlar səhv etməkdən qorxurlar, passivdirlər, qərarsızdırlar, onlara tutulan iradlardan çox qorxurlar. Qiymətləri aşağı olur və buna görə təlimə maraq aşağı düşür.
Dərsi öyrənib, lakin qərarsız olduğu üçün yaxşı cavab verə bilmir-45 %.
Lövhə qarşısında özünü itirir, yazılı tapşırıqları nisbədən yaxşı yerinə yetirə bilir – 37 %.
Yoxlama işlərinin səviyyəsi adi günlərdə gördü işin səviyyəsindən aşağı olur – 12 %.
Uğursuz cavabdan sonra, caşqın olur yenidən icra olunan işə dönə bilmir-6 %.
6.Fəaliyyətdən qaçan uşaq – fantaziyaları güclü inkişaf etmişdir. Təlim prosesindəki uğursuzluqdan sonra xəyallara dalmağa üstünlük verir. Müəllimin diqqətini çəkməyə çalışırlar, yaşına aid olmayan suallar verirlər, böyük, çoxbilmiş görsənməyə çalışırlar.
Təlimdə qeyri-stabil olurlar- 52 %.
Dərs zamanı xəyallara dalırlar - 11 %.
Diqqətsizdir - 6 %.
Tənbəldir (oxuya bilirlər, lakin istəmərlər) - 5 %.
Sinifdə təlim prosesində iştirak etmirlər, şəkil çəkirlər, başqa bir fəaliyyətlə məşğul olurlar - 19 %.
Yalan danışmağa meyillidir - 7 %.
7.Oyun tipinə görə inkişafın getməsi.
Təlimin ilk günlərindən məsuliyyətsizlik nümayiş etdirir, kapriz göstərir, təklif olunmuş işin icrasından imtina edir.
Lakin intellektual səviyyə lazımı dərəcədədir, həmyaşıdlarından fərqli deyil.
İdarə olunmur, özünə qarşı daim diqqət tələb edir, məktəbdə qoyulmuş tələblərə uyğunlaşmır - 12 %.
Öz səhvlərini görə bilmir, müəllimin iradından sonra da eyni səhvləri təkrarlayır - 32 %.
Qiymətlərə qarşı laqeyiddir- 8 %.
Bir çox fənnlər üzrə geriləmələr müşahidə edilir – 48 %.
8. Neqativ - nümayiş tipinə görə uşağın inkişafı.
Bu uşaqların əsas xüsiyyətləri diqqət mərkəzində olmaqdır. Əgər bu tip uşaqda diqqəti çəkmək üçün xususi qabiliyyət və istedad yoxdur, onda qaydaları pozmaqla diqqəti özünə çəkməyə nail olurlar. Uşağın davranışı klassik mövzu hesab edilən – "təlxək" davranışını əks etdirir.
Idarə olunmamaq, heç bir yanaşmanı (pis, yaxşı) başa düşmür - 12%.
Şüurlu şəkildə davranış qaydalarını pozur – 23%.
Yaxşı oxumağı bacarırlar, lakin hərdən pis davranış nümayiş etdirə bilərlər – 45 %.
Beləliklə, təlim prosesində mövcud çətinlikləri ümumiləşdirək
Oxu üzrə: zəif oxu texnikası, mətnlərin təhlilində çətinliklər oxumağa marağın azalması, informasiyanın sosial şəbəkələrdən əldə olunnmasına meylin artması.
Azərbaycan dili üzrə: orfoqrafik səhvlərin üstünlüyü, nəzəri anlayışların çətin qavranması məhdud lüğət ehtiyatı.
Riyaziyyat üzrə: onluqlara keçidlə əlaqəli toplama və çıxma əməliyyatında olan çətinliklər, həndəsi anlayışlarla və ölçülərlə bağlı yaranan çətinliklər.
Bu gün müəllimin yaxşı konsepsiyası, müasir avadanlığı, həyatla əlaqə yaratmağa istiqamətləndirilmiş proqramları, dərsliklər və müxtəlif formatda təlim prosesini təkmilləşdirən vasitələri vardır. Lakin bu gün böyüməkdə olan gənc nəslin təlim – tərbiyəsinin təşkil işinin bir sıra çətinlikləri də mövcuddur.

Uşaq məktəbə öz problemləri və daxili ziddiyyətləri ilə gəlir. Problemin aktuallığı ondan ibarətdir ki, onun emosional rifahı təmin edilsin.

Kiçik yaşlı məktəbli xüsusi situasiyada riskdədir: orqanizmanın yetərincə fiziki inkişafı təmin olmadığı halda məktəb həyatının çətin şəraitinə qısa müddətdə adaptasiya keçməsi vacibdir.

Şagirdin psixo-fiziki imkanlarının və məktəb təliminə psixoloji hazırlığının aşağı olması, təlim yükünün bu imkanlar çərçivəsinə sığmaması uşağın daim stress vəziyyətində olmasından xəbər verir. Bu situasıyada təxirəsallnmaz pedaqoji dəstəyə ehtiyac duyulur.

İlk baxışdan pedaqoji dəstək dedikdə, asan bir prosesin həyata keçirilməsi kimi görünə bilər. Yüksək peşə kompetensiyalarına malik pedaqoq, böyüməkdə olan gəncə krizis dövrünü adlatmağa köməklik edər və öz "mən"ini təsdiqləməyə şərait yaradar.

Müəllimin üzərinə düşən əsas vəzifə yalnız çətinliyin aradan qaldırılması deyil, çətinliyin yaranma səbəbi, həlli yollarını uşağa dərk etdirməkdir. Bu işdə müvəffəq olmaq üçün aşağıdakı şərtlərin gözlənilməsi mütləqdir:

- Şagirdin müəllimlə (valideynlə) əməkdaşlığa razılığı;
- Problemin müəyyən edilməsində vacib hesab edilən məqamların uşaq tərəfdən dərki, prioritetlərin düzgün ardıcıllığı;
- Məxfiliyin gözlələnilməsi;
- Xeyirxahlıq və dəyərlərin gözlənilməsi;
- Uşağın hüquqlarının və maraqlarının gözlənilməsi.

Müşahidələr apardığımız siniflərdə sinif müəllimin köməkliyi ilə ilin əvvəlində uşaqların təlimə hazırılığını diaqnostikasının aparılmasını qərar verdik və yüksək səviyyə 3 uşaq – 11%, orta səviyyə -13 % uşaq – 53 %, aşağı səviyyə 9 uşaq – 36 % oldu. Diaqnostik dəyərləmədən aldıqlarımız bizə imkan verdi ki, təlimdə fərdi yanaşma, differensial işin aparılması trayektoriyasını konkretləşdirək. Müəllimə məsləhət gördü ki, aşağı səviyyə üçün korreksiyaedici inkişafetdirici təlim planı hazırlansın. Burada işçi dəftəri köməyimizə gəldi ("mən yazmağı və oxumağı öyrənirəm"). Uşaqlar çox böyük həvəslə bu işçi dəftərlərdə təqdim olunan tapşırıqları icra edirlər.

Bu tapşırıqlar yaradıcı xarakter daşıdığından həlli yolları bir neçə variantda olur. Uşaqların öz variantları və seçimləri təqdim edilə bilər. Burada şagirdlər müstəqil şəkildə təlimi materiallarla iş qurur, bilik əldə edirlər. Uşaqlarda bu işin icrası obyektiv özünüqiymət meyarının əldə olunmasının təminatını verir.

Bu işdə daha çox önəm verdiyimiz "Yaradıcılıq dərsləri" oldu. Bu dərs prosesində uşaqlar özünü çox sərbəst hiss edir, sərbəst fikir söyləmək imkanına malik olurlar, özlərini komfortlu hiss edirlər. Bu formatdan olan işlər işguzar ünsiyyəti, qarşılıqlı hörməti, əks - əlaqənin qurulmasına xidmət edir, uşaqlarda özgüvəni artırır.

Müəllimin təcrübəsinə istinad etməklə ikinci sinif şagirdlərində şəxsi inkişafın xüsusiyyətlərini izləməyə müvəffəq olduq. Bu üsulla hər şagird haqqında yetərincə lazımı məlumatı almaq olur. Nəticələrin analizi hər bir uşağın inkişafı üçün qurulacaq işin mahiyyətini üzə çıxarır

"Şagirdin idrakı aktivliyi və məktəbə motivasiyanın səviyyəsi" anketini təqdim edirik (bu anketləşmə II və III siniflər arasında , iki tədris ilini əhatə etməklə, müqayisənin aparılmasına imkan yaradır):

Adlar	II sinif (A)				III (A) sinif		
	M/h razı	Dostluq Münasib	Həyacan	Özünü qiymət	M/h razı	Dostluq Münasib	Həyacan
Aytac	1	0	3	1	4	5	3
Namik	2	1	3	3	2	5	3
B.Nuray	2	3	4	5	3	5	4
Nilay	3	4	0	2	4	5	2
Turqut	3	2	3	3	3	5	3
Səbinə	1	1	3	0	2	1	3

Sevil	3	3	3	3	4	5	3
Murad	2	3	1	4	3	3	4
Narın	3	4	1	3	5	5	3
Ə.Nuray	2	5	4	3	4	5	3
Dəniz	3	3	3	3	4	5	3
Ruqəyyə	2	3	4	3	2	4	3
Solmaz	0	4	4	4	3	4	3
Əli	2	3	3	3	2	3	3
Ibrahim	3	2	1	2	5	4	3
Ülkər	3	5	4	4	4	4	4
Aylin	3	3	3	2	3	5	3
Yusif	2	3	3	5	3	4	3
İ.Nuray	3	5	4	4	5	5	4
Nəzrin	2	2	3	3	3	4	4
Əlirza	3	3	3	3	5	4	3
Paşa	3	3	3	3	4	5	3
Ömər	3	0	4	3	5	5	3
Fatimə	3	4	3	3	3	3	3
	11	6	4	5	4	1	1

Cədvəlin birinci şkalası üzrə məktəb həyatından razılıq – uşaqların məktəbdə razı qaldığı məqamlar, təlim prosesində iştirakları və s. nəzərdə tutulur, burada həyacan doğuran məqam 3 balda aşağı olmasıdır. II sinif üzrə məktəb həyatında komfort hiss etməyə uşaqların sayı 11 nəfər oldu. Bu bir sinif üçün böyük rəqəmdir. Bəzi faktorların təsirinə məruz qalan uşaqlarda bu üzə çıxdı: adi yaşadıqları şəraiti dəyişmək, qiymət meyarının olması, xarici dillər əlavə edildi və uşaq başa düşür ki, məktəb təlim qaçılmazdır.

II şkala. Dostluq münasibətləri – sinif yoldaşlarının biri – birinə münasibətləri təlimi nailiyyətləri ilə ölçülməyə başlandı. Burada artıq müəllimin köməyinə ehtiyac olur.

III şkala. Məktəb həyacanı – təlimlə sıx bağlıdır, bura ailədə baş verənlərdə aid olmağa başlayır. Təlimdə müvəffəq olan, məsuliyyətlə hər işə yanaşan, bununla yanaşı məktəb həyacanı yaşayanlar var. Çox böyük səy nəticəsində uğur əldə edə bilirlər. Bu uşaqlara mütləq şəkildə oedaqoji dəstək lazımdır, çünki məktəb həyacanı onlarda özünədəyəri aşağı salır. Öz biliklərinin təlim prosesində nümayiş etdirməyin qarşısını alır.

IV şkala – uşaqda öz gücünə inam səviyyəsinin göstəricisidir. Şagirdin məktəbdə təlim prosesində nailiyyətlərinə müsbət təsir göstərir. Uşaqda özünüdəyəri artırır, bununla da təlim nailiyyətləri yaxşılaşır, şəxsi inkişaf təmin edilir.

V şkala. Durum, rifah - özünü təlim prosesinə narahat hiss edən şagirdə yalnız tibbi kömək lazım deyil, təlim prosesi elə tələblərə müvafiq qurulmalıdır ki, uşaq özünü konfortlu hiss etsin və heç bir təziqlərə məruz qalmasın.

Təlim prosesində yaranmış müsbət emosional atmosfer, hər bir şagirdin uğur əldə etməsinə xidmət edir.

Anketin təhlilini aparmaqla aşağıdakıları təqdim edirik:

Məktəb motivasiyası və idrak aktivliyin:

yüksək səviyyəsi – 33 % (əvvəl 11 %)

ortaəviyyəsi – 54 % (əvvəl 3 %)

aşağı səviyyəsi – 13 % (əvvəl 36 %)

yuxarıda qeyd etdiklərimizdən belə nəticəyə gəlmək olur ki, pedaqoji dəstək kiçik yaşlı məktəblinin özünədəyərinin yüksəldilməsi üçün önəmli alətdir.

Pedaqoji dəstək fərdi və qrup şəklində ola bilər (müəllim və şagirdin əks əlaqəsi şəkilində), profilaktik və təxirəsalınmaz xarakterdə özü göstərə bilər.
Dəstəyin qrup forması – bu proses tədris ilinin əvvəlində, yaxud tətillərdən sonrakı zamana təsadüf edə bilər. Uşağı birdən birə təlim fəaliyyətinə daxul olması emosional və psixoloji cəhətdən çətin olur. Bu məqamda fəaliyyətin intensivliyi oyun vasitəsi ilə artırılır.
Oxşar problemləri olan qruplarla işin təşkili. Müşahidələr və diaqnostikanın aparılması nəticəsində bu qrupları müəyyən etmək olar.
Şagirdlərin kollektiv yaradıcı işlərə cəlb edilməsi, burada uşaq öz maraqlarını nümayış etdirir, qabiliyyətlərini göstərməyə müvəffəq olurlar.
Fərdi pedaqoji dəstək formaları: ibtidai siniflərdə daha çox yayılmış problem ekspansiv tipə aid uşaqlarla bağlıdır.
Həddindən artıq inadkar, küsəyən, dalaşqan, ağlağan uşaqlarla hansı məqamda, hansı situasiyada necə davranmağı bilmək çox çətindir. Bu uşaqlar adi məktəbdə baş verən situasiyanı hədənin mənbəyi kimi qəbul edə bilərlər.
Bu cür uşaqları lövhə qarşısında sorğu-sual edilməsini sinifdə adı sual cavabla əvəz etmək daha münasib olar, düşünməyə zaman vermək, cavabı dərhal almağa tələsməmək lazımdır. Cüzi nailiyyətinə görə bu uşağı mütləq rəğbətləndilmək lazımdır. Bu cür münasibət uşaq mütləq ailədə görməlidir.
Sinifdə digər qrup şagirdlər də var ki, müəllimin gözünə görünməyi, müəllimin diqqətini çəkməyi sevirlər sinifin ümumi fonunda seçilməyə çalışırlar, çox impulsiv cavablar verirlər, icazəsiz fikir bildirirlər. Bu uşaqları tez – tez danlamaq olmaz. Əgər müəllim belə uşaqları cəzalandırmaq istəyirsə, onları bir müddət diqqətsiz qoymaq yetərlidir. Uşaq özünü yaxşı apardıqda, müəllim yüngül formada onu rəğbətləndirə bilər.
Bu cür pedaqoji texnikalardan istifadə etməklə, problemləri aydın görürsən, mübariz, mövqeyindən "sənə dəstək" mövqeyinə keçid ala bilirsən.
Burada görkəmli pedaqoq Ş.A.Amonoşvilinin sözlərini xatırlamaq tam yerinə düşər: "Əgər uşaq üçün təlim çətin bir proses kimi görünür və biz bu işdə ona köməklik göstərmək istəyirik – uşağa imkan vermək lazımdır ki, nəyə qadir olduğunu özü hiss etsin və bir daha yerdə qalan problemlərin həllinə özündə inam yaratsın, çünki onda yaradandan kiçik bir qığılcım var". (Ш.Амонашвили, 25.03. 2024)

Nəticə

Beləliklə,uşağın müəllim tərəfindən dəstək alması bir çox humanist pedaqoji sistemlərlə araşdırılmışdır. Bu ideya öz kökündə uşağa qayğı, kömək və onun haqlarının müdafiəsi məsələləri ilə sıx əlaqədədir. Bir sıra pedaqoji məsələlərin həlli prosesində, müxtəlif konsepsiyalarda, uşağa olan xüsusi diqqətdə, onun şəxsiyyət olaraq unikallığının dərki zamanında, inkişafına təlim prosesində nail olunması məqamlarında kəsişən nöqtələri çoxdur.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. 20.10.2013 https://president.az/az/articles/view/9779
2. İlyasov M. İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. Bakı: "Elm və təhsil", 2018, 208 s.
3. Talıbova D. Pedaqoji dəstək şagird şəxsiyyətinin formalaşdirilmasi amili kimi. 580401 — Ümumi pedaqogika, pedaqogikamn va təhsilin tarixi Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyamn AVTOREFERATI. Naxçıvan —2023, 26 s.
4. Ш.Амонашвили. ОБ ИНКЛЮЗИВНОМ ОБРАЗОВАНИИ 25 марта 2024 https://dzen.ru/a/Ze7vYCFC5h3MsJQR

A POET WHOSE SONGS LIVE IN HEARTS

NƏĞMƏLƏRİ ÜRƏKLƏRDƏ YAŞAYAN ŞAİR

Maarifə Manafova
Fil.ü.f.d. Mingəçevir Dövlət Universitetinin baş müəllimi
ORCID ID: 0000 00017425 2313

Xülasə
Bəxtiyar Vahabzadə görkəmli şair, tanınmış dramaturq və ədəbiyyatşünas alim kimi bütün türk dünyasında sevilən sənətkarlardan biridir.
Ulu öndər Heydər Əliyevin sözləri ilə desək, "Bəxtiyar Vahabzadənin hər bir əsəri dəyərlidir, qiymətlidir. Onun hər bir əsəri bizim mədəniyyətimizi, incəsənətimizi, ədəbiyyatımızı inkişaf etdirir".
Bəxtiyar Vahabzadənin yaradıcılığı insanı daim mənəvi ucalığa səsləyir. Şairin fəaliyyətinin əsas istiqamətlərini vətənpərvərlik, tarıxı-mədəni dəyərlərə ehtiram, və ana dilinin qorunması təşkil edir.
Bəxtiyar Vahabzadə həm də nəğməkar şairdir. Azərbaycan bəstəkarlarından Səld Rüstəmov, Xəyyam Mirzəzadə, Şəfiqə Axundova, Ələkbər Tağıyev, Tamella Məmmədzadə, Emin Sabitoğlu, Ramiz Mirişlı, Elza İbrahimova, Oqtay Kazımov və başqaları B. Vahabzadənin şeirlərinə 150-dən şeirinə mahnı bəstələmişlər. Şairin məhəbbət nəğmələri həmişə sevilir.
Azərbaycan-Türkiyə dostluğu Bəxtiyar Vahabzadənin sevdiyi, tez-tez müraciət etdiyi mövzulardandır. "Azərbaycan-Türkiyə" şeirinin sözlərinə Cavanşir Quliyevin bəstələdiyi musiqi bu xalqların əbədi dostluğunun bariz nümunəsidir.
Bəxtiyar Vahabzadənin nəğmələri sevilir və ürəklərdə yaşayir.
Açar sözlər: Bəxtiyar Vahabzadə, Nəğməkar şair, Azərbaycan musiqisi.

Abstract
Bakhtiyar Vahabzadeh is one of the most beloved artists in the entire Turkic world as a prominent poet, a well-known playwright and a literary scholar.
In the words of the great leader Heydar Aliyev, "Each work of Bakhtiyar Vahabzadeh is valuable, precious. Each of his works develops our culture, art, and literature."
Bakhtiyar Vahabzadeh`s creativity constantly calls people to spiritual exaltation. The main directions of the poet's activity are patriotism, respect for historical and cultural values, and the preservation of the native language.
Bakhtiyar Vahabzadeh is also a poet-singer. Azerbaijani composers Seld Rustamov, Khayyam Mirzazade, Shafiga Akhundova, Alakbar Tagiyev, Tamella Mammadzade, Emin Sabitoglu, Ramiz Mirishli, Elza Ibrahimova, Ogtay Kazimov and others have composed over 150 songs to B. Vahabzadeh`s poems. The poet`s love songs are always loved.
Azerbaijan-Turkey friendship is one of Bakhtiyar Vahabzadeh`s favorite and frequently addressed topics. The music composed by Javanshir Guliyev to the words of the poem "Azerbaijan-Turkey" is a vivid example of the eternal friendship of these peoples.
Bakhtiyar Vahabzadeh`s songs are loved and live in hearts.
Keywords: Bakhtiyar Vahabzadeh, Poet-singer, Azerbaijani music.

US-TURKEY RELATİONS DURİNG THE FİRST GULF WAR

BİRİNCİ İRAQ MÜHARİBƏSİNDƏ ABŞ-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ

Məmmədzadə Mahir Mehman oğlu
"Ümumi tarix" kafedrasının doktorantı Gəncə Dövlət Universiteti, Gəncə / Azərbaycan
ORCID ID: 0009-0000-9607-5776

Xülasə
Amerika Birləşmiş Ştatlarının İraqa qarşı təşkil etdiyi beynəlxalq koalisiyada Türkiyə Respublikasının həm hərbi-siyasi gücü, həm də öz quru, dəniz və hava məkanını koalisiya qüvvələrinə açması, nəticənin sürətlə və daha az canlı itki ilə başa çatması baxımından mühüm əhəmiyyət kəsb etmişdir. Türkiyənin ictimai rəyinin İraqa hərbi müdaxiləyə qarşı olması, müharibənin nəticələrindən ən çox zərər çəkəcək dövlətlərdən birinin Türkiyə olması proqnozuna əsaslandığı üçün, rəsmi Ankaranın belə bir məsələdə tam ikna edilməsi mümkün olmamış, Türk ordusu koalisiya qüvvələrinin tərkibində yer almamışdır. Hətta Türkiyənin öz ölkəsini koalisiya qüvvələrinin istifadəsinə açmasında razılıq əldə edilməsi məsələsi də Vaşinqton üçün heç də asan olmamışdır. Məqalənin məqsədi, bu prosesdə iki dövlət arasında münasibətlər, danışıqlar və əldə olunan razılıq, bu razılığa əsasən müttəfiq qüvvələrin Türkiyə ərazilərindən istifadə etməsi, türk dövlətinin və xalqının gözləntiləri və müharibənin nəticələrinin bu çərçivədə tədqiq edilməsidir.
Bu məqsədlə, mövzuya dair yerli və xarici elmi ədəbiyyat, rəsmi bəyanatlar, qərarlar, bir sıra statistik göstəricilərdən istifadə edilməklə, induksiya, müqayisəli təhlil, sistem, analogiya kimi bir sıra metodların köməyi ilə geniş tədqiq edilmişdir.
Tədqiqatın əsas nəticəsi ondan ibarətdir ki, ABŞ ilk dəfə tək başına dünyanı idarə etmək fürsətini reallaşdırmaq üçün, qarşısında olan dövlətlərin demək olar ki, heç birinin tələblərini nəzər almamış, İraq böhranı fonunda geri qalan dünyanı "nizama salmağa" çalışmışdır. Bu prosesdə Avro-Atlantik münasibələtlərdə olduğu kimi, ABŞ-Türkiyə münasibətlərində də bir sıra fikir ayrılıqları özünü göstərmişdir.
Açar sözlər: İraq müharibəsi, Türkiyə-ABŞ münasibətləri, Avro-Atlantik ziddiyyətlər

Abstract
Turkey's military-political capabilities and its decision to grant coalition forces access to its land, sea, and airspace played a critical role in ensuring the swift conclusion of the Gulf War with minimal loss of life. However, public opinion in Turkey was largely opposed to military intervention in Iraq, based on forecasts that Turkey would be among the states most adversely affected by the war's outcomes. As a result, Ankara could not be fully persuaded, and the Turkish military did not participate as part of the coalition forces. Even securing Turkey's agreement to open its territory for coalition use was a challenging task for Washington.
This article aims to explore the relations, negotiations, and agreements between the two nations during this process, focusing on the use of Turkish territory by allied forces, the expectations of the Turkish government and public, and the war's outcomes within this framework. The study utilizes local and international scholarly literature, official statements, decisions, and various statistical data, employing methods such as induction, comparative analysis, systems analysis, and analogy to conduct an in-depth investigation.
The primary conclusion of this research is that, for the first time, the United States sought to assert its role as the sole global hegemon by disregarding the demands of virtually all opposing states. Against the backdrop of the Iraq crisis, it aimed to "reorder" the rest of the world. This process

revealed several points of divergence in US-Turkey relations, mirroring the tensions in broader Euro-Atlantic relations.
Keywords: Gulf War, US-Turkey relations, Euro-Atlantic tensions

Giriş

İkinci Dünya Müharibəsindən sonra 1950-ci illərin ortalarında baş verən Suriya böhranı nəzərə alınmasa, Yaxın Şərq bölgəsi Türkiyənin təhlükəsizlik və müdafiəsində prioritet yerə sahib olmuşdur. Lakin 1980-ci illər boyu davam edən İran-İraq müharibəsi və 1990-cı illərin əvvəllərində baş verən Körfəz müharibəsi, Türkiyənin təhlükəsizliyinə birbaşa və ya dolaylı yolla təsir edən hadisələr, bölgəni yenidən Türkiyənin ən mühüm maraq dairələrindən birinə çevirdi.

2000-ci illərin əvvəllərində İraq müharibəsi ilə birlikdə Soyuq müharibədən sonrakı dövrdə Yaxın Şərq bölgəsində ortaya çıxan böhran coğrafiyaları, bir tərəfdən Türkiyənin təhlükəsizliyi və müdafiəsi baxımından birinci dərəcəli əhəmiyyət kəsb etmiş, digər tərəfdən, gələcək regional siyasəti və ikitərəfli münasibətləri baxımından mühüm dönüş nöqtələri yaratmışdır.

Körfəz böhranları, hər şeydən əvvəl, Soyuq müharibədən sonrakı dövrdə Türkiyə-ABŞ münasibətlərində ən mühüm müəyyənedici amillər olmuşdur. Bu səbəbdən araşdırmada Soyuq müharibədən sonrakı dövrdə Türkiyə-ABŞ münasibətlərinin əsaslandığı əsas məqamlar müəyyən edilməyə çalışılmış, ikitərəfli münasibətlərin davamlılığı və dəyişməsi Soyuq müharibədən sonrakı parametrlər çərçivəsində təhlil edilmişdir. Məqalədə həmçinin Körfəz böhranları çərçivəsində Türkiyə-ABŞ-NATO əlaqələri müzakirə edilmiş və Soyuq müharibədən sonrakı münasibətlərdə müşahidə edilən dəyişiklik və davamlılıq təhlil edilməyə çalışılmışdır.

Soyuq Müharibə Sonrasında Türkiyə – ABŞ Münasibətləri

Soyuq müharibənin sona çatmasından sonra Türkiyənin Qərb və xüsusilə də ABŞ-ın nəzərində strateji əhəmiyyətini itirdiyinə dair fikirlər yeni dövrə dair müzakirələrdə ən çox önə çıxan mövzular arasında yer almışdır. Bu istiqamətdə irəli sürülən fikirlərin əsas nöqtəsi, Sovet təhlükəsinin ortadan qalxması ilə Türkiyəyə olan ehtiyacın azaldığı, bunun nəticəsində Qərbin, xüsusilə də Birləşmiş Ştatların Türkiyəyə verdiyi siyasi, hərbi və iqtisadi dəstəyin azalacağı ilə bağlı idi (Uslu, 2000, s. 311). Bu yöndə baxışlar iki ölkə münasibətləri baxımından xüsusilə türk siyasətçilər arasında inam probleminin yaranmasına səbəb olmuşdur. İrəli sürülən fikirlərdə həqiqət payı olsa da, Amerikan admistirasiyası Türkiyəni özünün xarici siyasəti baxımından bölgənin ən mühüm ünsürü hesab etməkdə davam etdiyini hər fürsətdə izah etmək ehtiyacı hiss etmişdir (Barkey, 2003, p. 90).

Türkiyənin strateji mövqeyinin dəyərinin azalması ilə bağlı narahatlıq və tərəddüdlər Soyuq müharibədən qısa müddət sonra başlayan Körfəz böhranları ilə sürətlə öz keçərliliyini itirməyə başlamışdır (Park, 2005, p. 129). Türkiyənin Yaxın Şərqdəki strateji mövqeyi ABŞ-ın bölgədəki praktikasında Türkiyənin əhəmiyyətini bir daha ortaya qoymuşdur (Sayari, 1997, s. 206). Bundan əlavə, Türkiyənin "nümunə ölkə" kimi demokratik hüquqi qaydalara əsaslanan idarəetmə forması, ABŞ üçün Yaxın Şərq, Cənubi Qafqaz və Orta Asiya regionlarının sabitliyi baxımından mühüm əhəmiyyət kəsb edirdi. Bundan əlavə, Türkiyənin Balkanlarda sülh və sabitliyin təmin edilməsi istiqamətində göstərdiyi səylər və fəal iştirak etdiyi sülhməramlı əməliyyatlar Türkiyənin ABŞ üçün əhəmiyyətini vurğulayan amillər arasında yer almışdır (Abramowitz, 2000, p. 8).

Türk-Amerikan münasibətlərində əvvəlki dövrlərdə də gündəlikdə öz əhəmiyyətini qoruyan, lakin ikitərəfli münasibətlərdə arxa planda yer alan iqtisadiyyat, demokratikləşmə, insan hüquqları və Türkiyənin qonşuları olan ikitərəfli münasibətlərini maraqlandıran, daha çox siyasi aspekti ağırlıq təşkil edən məsələlər, 1990-cı illərdə iki ölkə münasibətlərinin əsas məsələlərini təşkil etmişdir. Xüsusilə, Türkiyədə mövcud olan kürd məsələsi, insan hüquqları pozuntuları, Ermənistan, İran, İraq və Yunanıstan kimi qonşu dövlətlərlə münasibətləri, daha çox ABŞ-da fəaliyyət göstərən maraq dairələri və lobbilər vasitəsilə gündəliyə gətirilmiş və iki ölkə münasibətlərində bir sıra problemlərin yaranmasına səbəb olmuşdur (Kirişçi, 2002, s. 214-226).

1990-cı illərdə Türkiyə-ABŞ münasibətlərində ortaya çıxan digər problem Amerikanın Türkiyəyə göstərdiyi yardımların azalması ilə bağlı idi. Şərqi Avropada baş verən pozitiv siyasi və hərbi proseslərə paralel olaraq, ABŞ ənənəvi müttəfiqlərinə xarici yardım proqramında bir sıra kəsintilərə getdi. ABŞ-ın Yaxın Şərqdəki ənənəvi müttəfiqləri olan İsrail, Misir və İordaniya, o cümlədən Türkiyəyə yardımlar kəsildi, kəsintilərin bir hissəsi Şərqi Avropa ölkələrinə köçürülməyə başlandı.
1990-cı illərdə Türkiyə-Amerika münasibətlərində ən mühüm regional maraq toqquşması Körfəz müharibəsindən sonra yaranan yeni vəziyyətlə bağlı idi. Körfəz böhranından sonra Səddam Hüseynin hakimiyyəti dövründə İraqa tətbiq edilən embarqolar, bu ölkənin müharibədən əvvəl ən mühüm ticarət tərəfdaşı olan Türkiyəyə mənfi təsir göstərdi. Türkiyə Körfəz müharibəsi səbəbi ilə yaşadığı iqtisadi ziyanın aradan qaldırılması üçün tələb etdiyi iqtisadi yardımların göstərilməməsi səbəbi ilə İraqa qarşı tətbiq etdiyi sanksiyaları yumşaltmağa, dolayısı ilə ticarətə imkan verməyə cəhd etdi (Kirişçi, 2000, s. 46).
Türkiyə-Amerika münasibətlərində daha bir mühüm məqam iki ölkənin İran siyasətindəki fərqliliklə bağlı olmuşdur. Türkiyənin, siyasi rejimini özü üçün təhlükə hesab etsə də, qonşusu İranla inkişaf etdirmək istədiyi sıx iqtisadi əlaqələr ABŞ-ın 1990-cı illərin əvvəllərindən həyata keçirməyə çalışdığı "ikili əhatə" siyasətinə zidd olmuşdur. Xüsusilə, Türkiyənin Rusiya təbii qazından asılılığını azaltmaq üçün İranla əldə etdiyi təbii qazın alınması ilə bağlı razılaşmalar ABŞ administrasiyasının reaksiyasına səbəb olmuşdur (Kibaroğlu, 2006, s. 88).
1990-cı illərin sonundan 2003-cü ildə baş verən İraqın işğalına keçən dövrdə Türkiyə-ABŞ münasibətləri yenidən sürətli inkişaf dövrünə qədəm qoymuş və iki ölkə arasındakı münasibətlər 1950-ci illərdən sonra ən yüksək səviyyəyə çatmışdır. 1999-cu ildə Türkiyəyə səfər edən ABŞ prezidenti Bill Klintonun iki ölkə arasındakı münasibətləri çox az ölkə üçün istifadə olunan "strateji tərəfdaşlıq" kimi təyin etməsi, əlaqələrin gəldiyi nöqtəni göstərməsi baxımından əhəmiyyətli idi (Parris, 2005, p. 141-142).
ABŞ-a qarşı 11 sentyabr hücumlarından dərhal sonra Türkiyənin bu ölkəyə verdiyi dəstək ikitərəfli münasibətlərdə inkişafın daha bir göstəricisi olmuşdur. 2000-ci illərdən etibarən enerji təhlükəsizliyi və terrorla mübarizə Türkiyə-ABŞ münasibətlərində prioritet gündəm mövzularından birinə çevrilmişdir. Türkiyə-Amerika münasibətlərindəki bütün bu addımlar 2003-cü ildə İraq müharibəsi zamanı yaşanan və Türkiyənin ərazilərinin xarici hərbi qüvvələrə açılmasına icazə verən "teskere" müzakirələri və nəticəsində teskerenin məclisdən keçməməsi ilə başlayan böhran səbəbindən birdən-birə kəsilmişdir.
Teskere böhranının iki ölkə arasındakı münasibətlərə mənfi təsirinə baxmayaraq, həm Türkiyə, həm də ABŞ münasibətlərin inkişafından maraqlı olduqlarını nümayiş etdirərək, bir-birlərinə qarşı konstruktiv mövqe sərgiləmişdir.

Körfəz Böhranı və NATO Çərçivəsində Türkiyə - ABŞ Münasibətləri

İraq silahlı qüvvələrinin Küveyti işğal etməsi ilə başlayan Körfəz böhranına Türkiyənin ilkin yanaşması kifayət qədər ehtiyatlı idi. İşğaldan dərhal sonra Türkiyə rəsmilərinin verdiyi açıqlamalarda işğalın İraq-Küveyt münaqişəsinin həllini çətinləşdirdiyi qeydd edilərək, Türkiyənin problemin sülh yolu ilə həlli ilə bağlı rəyi ictimaiyyətə çatdırılmışdır. Bu yöndə bəyanatlar Türkiyənin böhranın başlanğıcında aydın mövqe sərgiləməyib, tərəf kimi görünməmək cəhdi kimi qiymətləndirilmişdir. Ancaq Körfəz bölgəsində böhranın başlanğıcında həm İraq, həm də ABŞ-dan Türkiyəyə yüksək səviyyəli səfərlər, Türkiyənin bu böhranın aşılmasında əsas rol oynayacağını ortaya qoymuşdur. Səfərlər zamanı tərəflərin öz siyasəti mənafeləri fonunda Türkiyəyə təsir göstərməyə çalışdıqları müşahidə olunmuşdur.
Soyuq müharibə dövründə Türkiyənin Sovet İttifaqına qarşı rolu Körfəzdəki böhranla əlaqədar Yaxın Şərq bölgəsinə istiqamətlənərkən, Türkiyənin təhlükəsizliyini təhdid edən amillər şimaldan deyil, cənubdan gəlməyə başlamışdır. Şərq-Qərb münasibətlərindəki yumşalmanın Türkiyə-Amerika

münasibətlərində müdafiə prioritetini ortadan qaldıracağı gözləntiləri Körfəz bölgəsindəki proseslərdən sonra yenidən gündəmə gəlmişdir (Kuniholm, 1991).
BMT Təhlükəsizlik Şurasının üzvləri arasında yaşanan böhranla bağlı əldə olunan konsensus, bölgədə baş verən böhranın aradan qaldırılması istiqamətində dünya ictimaiyyətinin ümumi mövqeyini əks etdirmiş, Türkiyə də öz milli maraqlarını maksimal səviyyədə qorumaq üçün ABŞ liderliyindəki bu koalisiya qüvvələrinin yanında öz yerini almışdır. Bu seçimə uyğun olaraq Türkiyə, BMT Təhlükəsizlik Şurasının 661 saylı qərarı əsasında İraq və işğal etdiyi Küveytə qarşı iqtisadi embarqo tətbiq etməyə başlamışdır. Kərkük Yumurtalıq neft kəməri bağlanmış, Küveyt və İraqın Türkiyədəki aktivləri dondurulmuş, iki ölkə ilə idxal, ixrac və tranzit ticarəti müvəqqəti olaraq dayandırılmışdır (Ayın Tarihi, 07.08.1990).
Körfəz böhranının ilk günlərində Türkiyənin qərbyönümlü siyasəti, sonrakı mərhələlərdə ABŞ ilə daha sıx əməkdaşlığa çevrilmişdir. Xüsusilə, müharibə qaçılmaz hal aldıqca Türkiyə nəinki BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əməl etmiş, həm də ABŞ-ın İraqa qarşı əməliyyatda iqtisadi və siyasi dəstəyi olduğu kimi hərbi məsələləri də əhatə edən tələblərinə daha müsbət yanaşmışdır.
Küveytin İraq hərbi qüvvələri tərəfindən işğalı NATO tərəfindən yaxından izlənilmiş və eyni zamanda İraqla quru sərhədi olan Türkiyənin vəziyyəti həmişə diqqət mərkəzində olmuşdur. İşğaldan dərhal sonra NATO-nun Brüsseldəki qərargahı tərəfindən verilən bəyanatda İraqın Küveytə qarşı hərbi hücumu sərt şəkildə pislənilmiş, İraq qüvvələrinin dərhal və qeyd-şərtsiz Küveyt ərazisindən çıxarılması tələb edilmişdir. Bundan əlavə, İraqın həyata keçirdiyi işğal hərəkətinin Birləşmiş Millətlər Təşkilatının nizamnaməsinin açıq şəkildə pozulması olduğu və NATO Alyansının, İraqın problemlərini sülh yolu ilə həll etməyə dəvət etdiyi bildirilmişdir.
Körfəzdəki böhranla bağlı İngiltərə baş naziri Marqarit Teççer, Kanadanın baş naziri Brayan Mulroni və NATO-nun baş katibi Manfred Vörnerin ABŞ prezidenti Corc Buş ilə keçirdiyi ikitərəfli görüşlərdən sonra verilən açıqlamalarda NATO-nun bu məsələdə müvafiq rolları olduğu qeyd edilmiş, Körfəz məsələsi və bu bölgənin bütünlükdə NATO-nun "səlahiyyət sahəsi" xaricində olmadığı iddia edilmişdir (Cumhuriyet, 1990, s. 14.).
1990-cı il avqustun 10-da Brüsseldə keçirilən NATO Nazirlər Şurası iclasında ABŞ-ın təklif etdiyi 4 maddəlik təklif paketi üzv ölkələr tərəfindən qəbul edilmiş, Prezident Buşun Səudiyyə Ərəbistanına hərbi qüvvə göndərmək qərarı dəstəklənmiş və eyni zamanda Türkiyəyə təhlükəsizlik təminatı verilmişdir.
NATO-nun Türkiyənin hava hücumundan müdafiəsinə kömək etmək üçün Türkiyənin Cənub-Şərqi bölgəsinə Çevik Hərəkət Qüvvələrinin hava elementlərini göndərməsi, NATO-nun ilk dəfə bir böhran zamanı öz tabeliyindəki hərbi qüvvələri səlahiyyətləndirməsi mənasına gəlirdi. Çevik hərəkat qüvvələrinin Sovet İttifaqı və Varşava Paktı ölkələrindən başqa "səlahiyyət xarici" (out of area) bir ölkəyə qarşı təyin edilməsi alyansın tarixində bir ilki təşkil etmişdir.
Körfəz böhranı zamanı NATO-nun qəbul etdiyi qərarlar, zaman-zaman gündəmə gətirilən və "səlahiyyət xarici" olaraq təyin olunan əsas məsuliyyət sahəsi xaricində yarana biləcək problemlərə NATO-nun necə yanaşacağına dair də bir növ sınaq oldu. Təşkilat üzvlərinin birgə əməliyyatı qəbul etməməsi və yalnız bölgəyə qoşun yeridən ABŞ-a dəstək verməsi bəzi Avropa ittifaq üzvlərinin "səlahiyyət xarici" yanaşmaya həvəs göstərmədiyini və tərəddüdlərini ortaya qoydu.
NATO-nun qəbul etdiyi bu qərara baxmayaraq, bir çox NATO üzvü ölkələr Körfəz regionunda yerləşdirilən ABŞ-ın başçılıq etdiyi çoxmillətli qüvvələrə az-çox hərbi töhfə verməsi, ölkələrindəki hava, quru və dəniz bazalarını bu çoxmillətli qüvvələrin istifadəsinə açması, faktiki olaraq belə bir hərəkətdə iştirak etməsə də, NATO-nun Körfəz böhranı ilə əlaqəsinin müəyyən edilməsi baxımından əhəmiyyət kəsb etmişdir.
İraqın Küveyti işğal etməsindən dərhal sonra ABŞ "Səhra fırtınası" adı altında Körfəz ölkələrində, xüsusən də Səudiyyə Ərəbistanında mümkün əməliyyat üçün hərbi güc toplamağa başlamış və bu əməliyyatla bağlı xərcləri NATO üzvü ölkələr öz üzərinə götürmüşdür (Ayın Tarihi, 31.08.1990) Avqust ayında isə NATO-nun öz ərazisindən kənara çıxmaq məcburiyyətində qaldığı yönündəki

istəyi NATO Baş Katibliyinə çatdırılmışdır. Sentyabr ayında NATO Şurasının 36-cı fövqəladə iclasındakı çıxışında ABŞ dövlət katibi Ceyms Beyker Körfəz böhranında üzv ölkələrin əsgər göndərilməsi də daxil olmaqla, üzərlərinə daha çox hərbi, siyasi və maliyyə öhdəliyi götürməli olduqlarını ifadə edərək, Türkiyənin kəşfiyyat məlumatlarından daha çox faydalanmasını qeyd etmişdir (Ayın Tarihi, 10.09.1990).

İraqa qarşı hərbi əməliyyata başlayandan sonra ABŞ, Türkiyədəki NATO bazalarından "səlahiyyət xarici" ərazi hesab edilən əməliyyatda istifadə etməyə başlaması, NATO-nu birbaşa bu münaqişənin tərəfi halına gətirmişdir. İraqın Türkiyəyə hücumu qarşısında NATO-nun Türkiyəni müdafiə etmə öhdəliyi onsuz da kifayət qədər mübahisəli olan bu məsələni yenidən gündəmə gətirmişdir. NATO üzvü olan avropalı müttəfiqlərin gündəmə gətirildiyi andan təmkinli davranmasına ve zaman-zaman bu məsələyə qarşı çıxmalarına baxmayaraq, Körfəz böhranı zamanı baş verənlər ortaya qoyulan müqavimətin çox da təsirli olmadığını göstərmişdir.

İstər NATO üzvü olan avropalı dövlətlər, istərsə də ABŞ-ın böhran zamanı sərgilədiyi mövqe və davranışlar gələcəkdə oxşar situasiyalarda necə bir mənzərənin yaranacağına dair açıq işarələr vermişdir. İraq Türkiyəyə hücum etməsə də və NATO-nun Türkiyənin müdafiəsi ilə bağlı razılaşması yerinə yetirilməsə də, belə bir halda Türkiyənin gözləntilərini qarşılamaq üçün yalnız Amerika Birləşmiş Ştatları və onun Avropadakı ən yaxın tarixi müttəfiqi Böyük Britaniyanın yardım göstərəcəyi açıqca görünmüşdür.

NATO-nun avropalı üzvlərinin Birləşmiş Ştatların qlobal maraqları ardınca sürüklənməkdən narahat olmaları, onların qərarlarına müəyyən qədər təsir etsə də, Avropada sovet hərbi təhlükəsinin əhəmiyyətli dərəcədə azalması bu ölkələri öz təhlükəsizliklərindən əhəmiyyətli dərəcədə rahatlamağa vadar etmiş və onlara ABŞ-a qarşı mövqelərində dinamizm qazandırmışdır (Sever, 2004, s. 359-360).

Bununla belə, Qərb mətbuatında mövzu ilə bağlı edilən şərhlərdə, İraqın Türkiyəyə hücum ehtimalı qarşısında NATO-nun Türkiyəyə ancaq hərbi maddi yardım edə biləcəyi və torpaqlarını müdafiə etməyin türklərin öz üzərinə düşəcəyi ifadə edilmişdir. Bu şərhlərdə İngiltərə və Fransanın onsuz da ABŞ-ın tərəfində döyüşə intensiv şəkildə qatıldığı, Almaniyanın Türkiyə üzərindən müharibəyə qatılmasından böyük narahatlığın olduğu bildirilmiş və NATO-nun nə üçün geridə qalması sual altına alınmışdır. Hollaniya xaricindəki digər NATO üzvlərinin Türkiyənin köməyinə niyə istəkli olduqları müzakirə obyektinə çevrilmişdir (Cerrahoğlu, 1991, s. 12).

NATO çətiri altında Türkiyəyə yardımla bağlı Avropa hökumətlərinin göstərdiyi qərarsızlıq da bu ölkələrin ictimai rəyində davam edən müzakirələrin əksi olaraq özünü göstərmişdir. Xüsusilə Almaniya və Belçikada müxalifətin reaksiyaları Avropa ictimaiyyətinin bu məsələdə həmfikir olmadığını göstərmişdir. Almaniyanın böhran zamanı susqun siyasəti NATO müttəfiqləri tərəfindən tənqid edilərkən, Almaniyadakı müxalifət Almaniya silahlı qüvvələrinin ancaq Almaniyanın müdafiəsində istifadə oluna biləcəyini əsas gətirərək, NATO çərçivəsində Türkiyəyə yardım edilməsinə qarşı çıxmışdır.

Nəticə

Soyuq Müharibədən sonra Körfəz bölgəsində ortaya çıxan iki mühüm böhran Türkiyənin yeni dövrdə təhlükəsizlik və müdafiə siyasətinin formalaşmasında ən fundamental amillər olaraq önə çıxmışdır. Sovet Blokunun dağılmasından sonra Türkiyənin Qərbin müdafiəsindəki əhəmiyyətinin azalacağına dair gözləntilər, Körfəz müharibəsi və İraq böhranı ilə qısa müddətdə ortadan qalxsa da, Türkiyənin Yaxın Şərq bölgəsindəki strateji mövqeyi ABŞ-ın regionla bağlı siyasətini həyata keçirməsini asanlaşdıran mühüm faktor kimi əhəmiyyətli olmağa davam etmişdir.

Türkiyə Körfəz böhranı zamanı transaltinlik blokuna istədiyi dəstəyi versə də, regional fikir ayrılıqlarını da nəzərə almış və Amerikanın tələblərini öz milli maraqları ilə uyğunlaşdırmağa çalışmışdır. Soyuq müharibədən sonrakı dövrdə daha çox Türkiyə ilə qonşu olan coğrafiyalarda ortaya çıxan qeyri-sabitlik və qarşıdurmalar Türkiyənin milli təhlükəsizliyi və müdafiəsi üçün təhdid kimi qəbul edilərkən, onun bu narahatlıqlarla bağlı müraciət etdiyi NATO, gözlənilməz bir mövqe

nümayiş etdirmişdir. Regional məsələlərdə ABŞ kimi güclü bir dövlətlə təkbaşına hərəkət etmək istəməyən Türkiyə, bu ölkənin "oldu-bitdi" siyasəti ilə qarşılaşmaq istəməmiş, ABŞ isə problemi balanslaşdırmaq üçün Avropalı müttəfiqləri də proseslərə daxil etməyə çalışmışdır. Sovet hərbi təhlükəsinin aradan qaldırılmasından sonra təhlükəsizlik baxımından nisbətən yüngülləşən NATO-nun Avropa üzvləri, alyansın ənənəvi mandatı xaricində, məsələn, Yaxın Şərqdə, həyata keçiriləcək əməliyyatlara, bir qədər də daxili siyasətləri gərəyi müsbət yanaşmamışlar və ABŞ-a qarşı daha müstəqil siyasət həyata keçirməyə çalışmışlar. Körfəz bölgəsində yaranan böhranlarla bağlı proseslərdə NATO daxilində aparılan müzakirələrə baxmayaraq, NATO üzvləri ortaq mövqe ortaya qoyaraq, hərbi baxımdan kifayət qədər olmasa da, Türkiyəyə müəyyən siyasi dəstəyi nümayiş etdirə bilmişlər.

İstifadə edilmiş ədəbiyyat

Abramowitz, M. (2000). The complexities of American policymaking on Turkey. *Insight Turkey*, 2 (4), pp. 3-35.
Ayın Tarihi, Ankara, T.C. Başbakanlık Basın Yayın Enformasyon Genel Müdürlüğü.
Barkey, H. J. (2003). The Endless Pursuit, Improving U.S.-Turkish Relations, Morton Abramowitz (Ed.), *The United States and Turkey, Allies in Need*. The Century Foundation Press, New York.
Cerrahoğlu, N. (1990). NATO Genel Sekreteri Manfred Wörner ile söyleşi, *Cumhuriyet Gazetesi*, 28 Ocak 1990.
Cumhuriyet Gazetesi. NATO Planları Ankara'da. 8 Ağustos 1990.
Kibaroğlu, M. (2006). İran'daki Gelişmelerin Türkiye'nin Güvenliğine Etkileri ve Alınabilecek Tedbirler. *Sempozyum - Türkiye'nin Çevresinde Meydana Gelen Gelişmelerin Türkiye'nin Güvenlik Politikasına Etkileri (09–10 Mart 2006)*. İstanbul, Harp Akademileri Basımevi.
Kirişçi, K. (2002). ABD-Türkiye İlişkileri: Yenilenen Ortaklıkta Yeni Belirsizlikler. Barry Rubin ve Kemal Kirişçi (Der.), *Günümüzde Türkiye'nin Dış Politikası.* İstanbul, Boğaziçi Üniversitesi Yayınevi.
Kirişçi, K. (2000). US-Turkish Relations: from uncertainty to closer ties. *Insight Turkey*, 2 (4), November-December.
Kuniholm, B. R. (1991). Turkey and the West. *Foreign Affairs*, 70 (2), 1991, pp. 34-48.
Park, W. H. (2005). The Security Dimensions of Turkey – EU Relations, Michael Lake (Ed.), *The EU & Turkey: A Glittering Prize or a Millstone?*. Londra, Federal Trust for Education and Research.
Parris, M. R. (2005). On the Future of US – Turkish Relations, Michael Lake (Ed.), *The EU & Turkey: A Glittering Prize or a Millstone?*. Londra, Federal Trust for Education and Research.
Sayarı, S. (1997). *Between Allies and Neighbors, Turkey's Burden Sharing Policy in the Gulf Conflict, Friends in Need, Burden Sharing in the Gulf War*. New York, St.Marin's Press.
Sever, A. (2004). AB ve ABD'nin Ortadoğu'da Politika Öncelikleri ve Türkiye. Der. Faruk Sönmezoğlu (Der.), *Türk Dış Politikasının Analizi*. İstanbul, Der Yayınları.
Uslu, N. (2000). *Türk-Amerikan İlişkileri*. İstanbul, 21. Yüzyıl Yayınları.

THE İMPACT OF CULTURAL MONUMENTS ON THE DEVELOPMENT OF TOURİSM İN THE TERRİTORİES LİBERATED FROM OCCUPATİON İN AZERBAİJAN

AZƏRBAYCANDA İŞĞALDAN AZAD OLUNAN ƏRAZİLƏRDƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN TURİZMİN İNKİŞAFINA TƏSİRİ

Camal Hacıyev
Azərbaycan Turizm və Menecment Universiteti,
Menecment kafedrasının müdiri, i.ü.f.d.dos.
ORCİD:0000-0002-6409-3010

Nabat Bəkirova
Azərbaycan Turizm və Menecment Universiteti,
Menecment kafedrasının doktorantı
ORCİD:0009-0000-5862-819X

Xülasə
Azərbaycanın 2020-ci ildə Qarabağ müharibəsi nəticəsində ərazi bütövlüyünü bərpa etməsi ölkənin siyasi, sosial və iqtisadi həyatında yeni bir mərhələnin başlanğıcını qoydu. İşğaldan azad olunmuş ərazilər təkcə strateji və iqtisadi baxımdan deyil, həm də zəngin tarixi-mədəni irsi ilə ölkə mədəniyyətinin ayrılmaz hissəsidir. Bu abidələr uzun illər ərzində baxımsızlıq, dağıntılar və təhriflərə məruz qaldığı üçün onların bərpası və qorunması hazırkı dövrdə mühüm vəzifələrdən biridir. Məqalənin əsas məqsədi bu mədəniyyət abidələrinin regionda turizmin inkişafına təsirini araşdırmaq, onların sosial-iqtisadi və mədəni əhəmiyyətini qiymətləndirmək və bu kontekstdə gələcək perspektivləri müəyyənləşdirməkdir.
Tədqiqat çərçivəsində Qarabağ bölgəsində yerləşən tarixi-memarlıq və dini abidələrin, o cümlədən Şuşa şəhərindəki Yuxarı Gövhər Ağa məscidi, Saatlı məscidi, Vaqif türbəsi, Kəlbəcər rayonunda Xudavəng monastırı, Xocavənd rayonunda Amaras monastırı, Ağdam Cümə məscidi və digər abidələrin mövcud vəziyyəti təhlil edilmişdir. Həmçinin bu abidələrin UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmə potensialı və beynəlxalq diqqətə çıxarılması imkanları dəyərləndirilmişdir. Bu analizlər mədəni irsin turizmin əsas elementi kimi necə dəyərləndirildiyini və bu istiqamətdə hansı addımların atıldığını göstərmişdir.
Məqalədə əsas diqqət işğaldan azad olunmuş ərazilərdəki mədəniyyət abidələrinin bərpası və bu abidələrin turizm potensialının formalaşdırılmasında rolu üzərində cəmlənmişdir. Regionun mədəni irsi yalnız tarix və kimlik baxımından deyil, həm də turizm sektorunun dayanıqlı inkişafı üçün strateji resurs hesab olunur. Bu baxımdan, abidələrin mühafizəsi, yenidən qurulması və ictimaiyyətə təqdim olunması turizmə olan marağın artırılmasında mühüm amillərdəndir.
Nəticə etibarilə, bu tədqiqat mədəniyyət abidələrinin bərpasının təkcə mədəniyyətin dirçəldilməsi deyil, həm də turizmin inkişafı, regional iqtisadiyyatın stimullaşdırılması və ölkənin beynəlxalq imicinin gücləndirilməsi baxımından strateji əhəmiyyətini ortaya qoymuşdur.
Məqalədə müxtəlif tədqiqat metodlarından o cümlədən, statistik müqayisə,analiz,sintez, iqtisadi təhlil və s. metodlarından istifadə edilməsi nəzərdə tutulur.
Açar sözlər : Qarabağ,mədəniyyət abidələri, tarixi irs, abidələrin bərpası, turizm infrastrukturu

Abstract.
The restoration of Azerbaijan's territorial integrity as a result of the Karabakh war in 2020 marked the beginning of a new stage in the country's political, social and economic life. The territories

liberated from occupation are an integral part of the country's culture not only from a strategic and economic perspective, but also with their rich historical and cultural heritage. Since these monuments have been subjected to neglect, destruction and distortion for many years, their restoration and protection are one of the important tasks at the present time. The main purpose of the article is to examine the impact of these cultural monuments on the development of tourism in the region, to assess their socio-economic and cultural significance and to determine future prospects in this context.

The current state of historical, architectural and religious monuments located in the Karabakh region, including the Yukhari Govhar Agha Mosque in Shusha, Saatli Mosque, Vagif Mausoleum, Khudaveng Monastery in Kalbajar district, Amaras Monastery in Khojavend district, Agdam Juma Mosque and other monuments was analyzed within the framework of the study. The potential of these monuments to be included in the UNESCO World Heritage List and the opportunities for bringing them to international attention were also assessed. These analyses showed how cultural heritage is valued as a key element of tourism and what steps have been taken in this direction.

The article focuses on the restoration of cultural monuments in the liberated territories and their role in shaping the tourism potential. The cultural heritage of the region is considered a strategic resource not only in terms of history and identity, but also for the sustainable development of the tourism sector. In this regard, the protection, reconstruction and presentation of monuments to the public are important factors in increasing interest in tourism.

As a result, this study reveals the strategic importance of the restoration of cultural monuments not only in terms of the revival of culture, but also in terms of the development of tourism, stimulation of the regional economy, and strengthening the international image of the country.

The article involves the use of various research methods, including statistical comparison, analysis, synthesis, economic analysis, etc. methods.

Keywords: Karabakh, cultural monuments, historical heritage, restoration of monuments, tourism infrastructure

Giriş

Azərbaycan Respublikasının 2020-ci ildə baş tutmuş 44 günlük Vətən müharibəsində qazandığı qələbə ölkə tarixində dönüş nöqtəsi olmaqla yanaşı, yeni bir siyasi, sosial və iqtisadi inkişaf mərhələsinin əsasını qoymuşdur. Ermənistanın uzun illər davam edən işğalına son qoyulması nəticəsində Qarabağ və Şərqi Zəngəzur bölgələri Azərbaycanın ərazi bütövlüyünə qaytarılmış və bu bölgələrin bərpası istiqamətində genişmiqyaslı yenidənqurma prosesi başlanmışdır. Azad edilmiş ərazilər təkcə strateji mövqeyi, münbit torpaqları və təbii resursları ilə deyil, eyni zamanda zəngin mədəni-tarixi irsi ilə də xüsusi əhəmiyyət daşıyır. Bu ərazilərdə yerləşən qədim abidələr, dini məbədlər, memarlıq kompleksləri və tarixi tikililər Azərbaycanın minilliklərə söykənən dövlətçilik ənənələrinin və çoxşaxəli mədəni həyatının bariz nümunələridir.

İşğal müddətində bu irs nümunələrinin böyük bir qismi dağıntıya məruz qalmış, bir qismi isə tamamilə məhv edilmişdir. Bir çox abidələr vandalizm aktları nəticəsində təhqir olunmuş, məqsədli şəkildə təhrif edilmiş və ya mənimsənilməyə cəhd göstərilmişdir. Bu səbəbdən, işğaldan azad olunmuş ərazilərdə mədəni irsin bərpası və qorunması yalnız bədii və tarixi məsələ deyil, həm də milli kimliyin bərpası və hüquqi ədalətin təmin olunması baxımından strateji əhəmiyyət kəsb edir. Azərbaycan dövləti bu istiqamətdə ciddi addımlar ataraq, həm yerli, həm də beynəlxalq səviyyədə mədəni irsin tanıdılması, qorunması və gələcək nəsillərə ötürülməsi ilə bağlı mühüm layihələr həyata keçirir.

Qarabağ bölgəsi özündə müxtəlif sivilizasiya mərhələlərini birləşdirən zəngin mədəni təbəqəyə malikdir. Burada alban xristianlığına məxsus qədim məbədlər, İslam memarlığının inciləri olan məscidlər, türbələr, qədim şəhər qalaları və karvansaralar yerləşir. Xüsusilə Şuşa şəhəri Azərbaycan mədəniyyətinin beşiyi kimi tanınır. Şəhər XIX əsrdə Azərbaycan ədəbiyyatının, musiqisinin və teatr

sənətinin əsas mərkəzlərindən birinə çevrilmiş, burada bir çox görkəmli şəxsiyyətlər – Molla Pənah Vaqif, Xurşidbanu Natəvan, Üzeyir Hacıbəyli, Bülbül və digərləri fəaliyyət göstərmişdir. Bu baxımdan Şuşa şəhərinin 2023-cü ildə TÜRKSOY tərəfindən "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunması rəmzi və strateji bir hadisə kimi qiymətləndirilə bilər.[4. Dövlət Turizm Agentliyinin rəsmi saytı]

Vaqifin məqbərəsi Şuşa şəhərində, Cıdır düzü yaxınlığında yerləşir. Məqbərə ilk dəfə 1982-ci ildə inşa edilmişdir və sovet dövrünün ən müasir memarlıq üslubunu əks etdirən əsərlərdən biridir. 1992-ci ildə Şuşanın işğalı zamanı məqbərə dağıdılmış, məzar yerləri təhqir olunmuşdur. 2020-ci ildə Şuşa azad edildikdən sonra Prezident İlham Əliyevin göstərişi ilə məqbərə bərpa olunmuş və 2021-ci ildə təntənəli şəkildə yenidən açılmışdır.

Xurşidbanu Natəvan XIX əsrdə yaşamış tanınmış Azərbaycan şairəsi və Qarabağ xanı Mehdiqulu xanın qızıdır. Natəvan həm də böyük xeyriyyəçi olmuş, Şuşa şəhərinə içməli su çəkdirmişdir (Natəvan bulağı). Şuşadakı Xurşidbanu Natəvanın evi XIX əsrin memarlıq üslubunda tikilmişdir. Ev həm interyeri, həm də fasadı ilə dövrün estetik və incəliklərini əks etdirir. İşğal dövründə bina dağıdılmış, lakin hazırda onun bərpası istiqamətində işlər aparılır.

Şuşa qalası XVIII əsrin ortalarında Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilmiş və şəhərin müdafiə məqsədilə qurulan əsas istehkamlarından biri olmuşdur. Qala Şuşa şəhərinin ətrafını əhatə edir və təbii relyefi ilə birgə güclü müdafiə qabiliyyətinə malik olmuşdur.Qalanın divarları təxminən 8 metr hündürlükdə, bəzi hissələrində isə daha yüksəkdir. Qala memarlığında yerli daşdan və əhəngdən istifadə olunmuşdur. Şuşa qalası təkcə hərbi memarlıq nümunəsi deyil, həm də şəhərin simvoludur. Bu gün qalanın bərpası və qorunması istiqamətində mühüm layihələr həyata keçirilir.[10."Qarabağ: İrs, Bərpa və İnkişaf" – akademik nəşr, Bakı, 2022]

Yuxarı Gövhər Ağa məscidi XIX əsrin əvvəllərində Gövhər Ağa (İbrahimxəlil xanın qızı) tərəfindən tikdirilmişdir. Məscid Şuşa şəhərinin mərkəzində, bələdiyyə binası yaxınlığında yerləşir.İki minarəli bu məscid klassik Şərq memarlığı ilə Azərbaycan memarlıq üslubunun harmonik vəhdətini əks etdirir. Məscidin daxili və xarici dekorasiyasında zərif naxışlar, ornamental yazılar və milli elementlər geniş yer tutur. İşğal dövründə məscid təhqir olunmuş və saxta restavrasiya adı altında deformasiyaya məruz qalmışdır. 2021-ci ildən etibarən məscidin orijinal üslubuna uyğun bərpası həyata keçirilir.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda mədəniyyət abidələrinin bərpası yalnız onların fiziki yenilənməsi ilə məhdudlaşmır. Bu abidələrin yenidən mədəni dövriyyəyə daxil edilməsi, onların əsasında turizm infrastrukturunun qurulması, ictimaiyyətə təqdim olunması və beynəlxalq səviyyədə tanıdılması da vacib məqsədlərdən biridir. Azərbaycan Respublikası Prezidentinin sərəncam və fərmanlarına əsasən həyata keçirilən "Böyük Qayıdış" proqramı çərçivəsində mədəni irsin bərpası və turizm potensialının inkişafı prioritet istiqamətlər sırasındadır. Bu yanaşma bir tərəfdən milli-mədəni identikliyi möhkəmləndirir, digər tərəfdən isə sosial-iqtisadi dirçəlişi təşviq edir. Çünki mədəni irs turizmi müasir dövrdə qlobal turizmin aparıcı sahələrindən birinə çevrilmiş və xüsusilə post-münaqişə bölgələrində sülh, sabitlik və rifahın bərpasında mühüm vasitə rolunu oynamışdır. [2."Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 16 noyabr 2022-ci il tarixli SƏRƏNCAMI]

Bu kontekstdə mədəniyyət abidələrinin turizm baxımından dəyərləndirilməsi və onların regionun inkişafında katalizator rolunu oynaması mühüm tədqiqat obyektidir. Turistlər üçün bu abidələr təkcə maraqlı ekskursiya məkanı deyil, həm də tarixlə canlı təmas imkanları yaradan mədəni dəyərlərdir. Onların vasitəsilə Azərbaycanın qədimliyi, tolerantlıq ənənələri və mədəni zənginliyi dünya ictimaiyyətinə nümayiş etdirilir. Bununla yanaşı, turizm abidələrinin ətrafında yaranan infrastrukturlar – yollar, otellər, mədəniyyət mərkəzləri, informasiya sistemləri və digər xidmət sahələri – yerli əhalinin məşğulluğunun artırılmasına və iqtisadi inkişafın sürətlənməsinə səbəb olur. Beləliklə, bu məqalənin əsas məqsədi işğaldan azad olunmuş ərazilərdə yerləşən mədəniyyət abidələrinin turizmin inkişafına təsirini araşdırmaq, onların sosial, iqtisadi və mədəni əhəmiyyətini

dəyərləndirmək, beynəlxalq təcrübəyə əsaslanaraq bu sahədə inkişaf perspektivlərini ortaya qoymaqdır.

Məqalədə qeyd olunan mədəniyyət abidələrinin bərpası layihələri həm dövlət büdcəsi, həm də özəl sektorun dəstəyi ilə həyata keçirilir. Bəzi hallarda diaspor təşkilatları və beynəlxalq fondların yardımı ilə də bərpa və təmir işləri aparılır. Bu cür müxtəlif maliyyə mənbələri layihələrin daha çevik və effektiv həyata keçirilməsinə imkan verir. Bu prosesdə qeyri-hökumət təşkilatlarının və yerli icmaların iştirakı da vacibdir. Onların iştirakı mədəni irsin qorunması və yaşadılması istiqamətində ictimai dəstəyi artırır.

Qarabağ Turizm Agentliyi, Mədəniyyət Nazirliyi və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi arasında əməkdaşlıq nəticəsində bir sıra abidələr UNESCO siyahısına salınmaq üçün təqdim olunmuşdur. Bununla yanaşı, "Şuşa Bəyannaməsi"nin imzalanması da mədəni və turizm əlaqələrinin beynəlxalq səviyyədə genişlənməsinə təkan verir.[5.Həsənov, İ. (2021). Qarabağın mədəni irsi və onun qorunması]

Nəticə

İşğaldan azad olunmuş ərazilərdə yerləşən mədəniyyət abidələri Azərbaycanın zəngin tarixi-mədəni irsinin simvoludur və bu abidələrin qorunması, bərpası və turizm dövriyyəsinə daxil edilməsi ölkənin iqtisadi və mədəni inkişafına ciddi töhfələr verir. Mədəni irs əsasında formalaşacaq turizm sektoru bölgədə məşğulluğun artmasına, sosial rifahın yüksəlməsinə və milli-mədəni kimliyin qorunmasına xidmət edəcəkdir.

Turizmin inkişafı üçün yalnız infrastruktur kifayət deyil. Aşağıdakı problemlər xüsusi qeyd olunmalıdır:

- Abidələrin konservasiyası və orijinallığın qorunması: Bəzi abidələrin restavrasiyası zamanı onların tarixi xüsusiyyətlərinin itməsi riski var.
- Təhlükəsizlik məsələləri: Minalardan təmizləmə prosesi davam edir və bu, turizmin inkişaf tempinə təsir göstərir.
- Kadr potensialı və xidmət keyfiyyəti: Yerli turizm işçilərinin peşəkar hazırlığı artırılmalıdır.

Bu problemlərin həlli üçün həm dövlət, həm də özəl sektorun əməkdaşlığı vacibdir.

Qarabağın turizm məkanına çevrilməsi yalnız iqtisadi deyil, həm də mənəvi və ideoloji dəyərə malikdir. Bu ərazilərin yenidən həyat qazanması üçün mədəniyyət abidələrinin bərpası və effektiv istifadəsi həlledici rol oynayır.

Ədəbiyyat Siyahısı

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər- Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.
2. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN 16 noyabr 2022-ci il tarixli SƏRƏNCAMI.
3. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi rəsmi saytı – https://culture.gov.az/az
4. Dövlət Turizm Agentliyinin rəsmi saytı- https://tourism.gov.az
5. Həsənov, İ. (2021). Qarabağın mədəni irsi və onun qorunması. Bakı Universiteti Nəşriyyatı.
6. C.Hacıyev- Şuşa şəhərinin sosial-iqtisadi inkişafının turizmə təsiri istiqamətləri. Elmi məqalə. UNEC Tədqiqat Mərkəzlərinin İşinin Əlaqləndirilməsi və Təşkili şöbəsi UNEC Qarabağ iqtisadi Araşdırmalar Mərkəzi.Bakı-Unec-2022. s.8(114-121)
7. Azərbaycanda gedən inkişafın turizmə təsiri. Elmi-praktik konfrans materialları. Azərbaycan Memarlıq və İnşaat Universiteti "Müasir istilik təchizatında proqressiv texnologiyalar" (azmiu.edu.az). 8-9 iyun 2017-ci il. s. 4(111-114)
8. "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı" – AZƏRTAC, 2023

9. UNESCO World Heritage Centre – www.unesco.org
10. “Qarabağ: İrs, Bərpa və İnkişaf” – akademik nəşr, Bakı, 2022

FAMILY SOCIALIZATION: ITS ESSENCE, CONTENT AND PROBLEMS

AİLƏNİN SOSİALLAŞMASI: MAHİYYƏTİ, MƏZMUNU VƏ PROBLEMLƏRİ

İsmayılova Mehriban Cəlal qızı
Azərbaycan Dövlət pedaqoji Universitetinin Pedaqoji psixologiya kafedrasının dosenti, psixologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-0649-4625

Xülasə
Elmi məqalədə ailənin sosiallaşmasının mahiyyəti, məzmunu və problemləri araşdırılır. Ailənin sosiallaşması fərdin cəmiyyətə inteqrasiyasının əsasını təşkil edir. Müəllifin fikrincə, natamam ailə həyatının xüsusiyyətləri gənclərin şəxsi keyfiyyətlərinin formalaşmasına mənfi təsir göstərən bir sıra amillərin yaranmasına səbəb olur və həmin amillərin ardıcıl olaraq şərhini verir. Gənclərin sosiallaşmasında bir sıra xüsusiyyətlərin fərqləndirildiyi də qeyd edilir. Məqalədə natamam ailələrdə emosional və psixoloji atmosferin normal səviyyəsi tədqiq edilmişdir.
Açar sözlər: ailənin sosiallaşması, natamam ailələr, ailə problemləri, sosial norma və dəyərlər, əxlaqi və sosial keyfiyyətlər

РЕЗЮМЕ.
В научной статье рассматриваются сущность, содержание и проблемы семейной социализации. Семейная социализация является основой интеграции личности в общество. По мнению автора, особенности неполной семейной жизни приводят к возникновению ряда факторов, негативно влияющих на формирование личностных качеств молодых людей, и дается непротиворечивая трактовка этих факторов. Также отмечается, что в социализации молодых людей выделяется ряд особенностей. В статье изучается нормальный уровень эмоционально-психологической атмосферы в неполных семьях.
Ключевые слова: семейная социализация, неполные семьи, семейные проблемы, социальные нормы и ценности, моральные и социальные качества

ABSTRACT
The scientific article examines the essence, content and problems of family socialization. Family socialization is the basis of an individual's integration into society. According to the author, the features of incomplete family life lead to the emergence of a number of factors that negatively affect the formation of the personal qualities of young people, and gives a consistent interpretation of these factors. It is also noted that a number of features are distinguished in the socialization of young people. The article studies the normal level of emotional and psychological atmosphere in incomplete families.
Key words: family socialization, single-parent families, family problems, social norms and values, moral and social qualities

Ailənin sosiallaşması ən mühüm sosial proseslərdən biridir. Əvvəlki nəsillərin sosial dəyərlər sisteminə daxil edilməsi və inteqrasiyası əsasən gəncin gələcək həyat yolunu müəyyən edir. Bu prosesi iki şəkildə şərh etmək olar: bir tərəfdən, gələcək ailə rollarına hazırlıq, digər tərəfdən, ailənin fərdin sosial səriştəsinin formalaşmasına təsiri, yəni onu müəyyən bir cəmiyyətdə müxtəlif sosial rolları qəbul etməyə və yerinə yetirməyə hazırlamaq. Ailənin sosiallaşması həm şaquli olaraq nəsillər arasında, həm də sosial qruplar arasında üfüqi sabitləşmədə mühüm rol oynayır.
Ailənin sosiallaşması ailə üzvlərinin sosial norma, dəyərlər, adət-ənənələr, davranış formaları, dil və digər sosial xüsusiyyətləri öyrənmələri və bu sosial bilikləri gələcək nəsillərə ötürmələridir. Ailənin sosiallaşması fərdin cəmiyyətə inteqrasiyasının əsasını təşkil edir. Gənclərin psixikasının inkişafında

ata başlıca rola malik olur. Prof.R.Hüseynzadə və L.Allahverdiyevanın fikrincə, ailə həm də qarşılıqlı məhəbbət, inam, etibar və hörmətə əsaslanan birlikdir. Məsələyə daha dərindən yanaşdıqda isə ailə özlüyündə kiçik bir dövləti xatırladır. Dövlətdə dövlətin başçısı, dövlətin idarə olunmasında iştirak edənlər, onun vətəndaşları olduğu kimi bu struktur eynilə ailəyə də aiddir. Ailə münasibətlərində bütün ünsürləri öz ifadəsini tapır. Ailə həmçinin insani münasibətlərin ilk aşılandığı məktəbdir [1].
Sosiallaşma fərdlərin sosial rollarına uyğun gələn bacarıq və sosial münasibətlərin formalaşdırılması prosesi kimi müəyyən edilir. L.V.Mardaxayevin əsərlərində sosiallaşma ana dilini, əsas dəyərləri (sosial normalar, münasibət, davranış nümunələri) təşkil edən hər şeyi mənimsəməsi, fərdin yaşadığı və sosial əlaqənin zənginləşməsi və qarşılıqlı əlaqəsi, zənginləşməsi və qarşılıqlı əlaqəsi kimi müəyyən bir cəmiyyətə, icmaya və ya qrupa xas olan mədəniyyətin mənimsənilməsi ilə müşayiət olunan şəxsiyyətə çevrilməsi prosesidir ki, o, şəxsiyyətlərarası qarşılıqlı əlaqə nəticəsində əldə edilir [2].
A. V. Mudrikin fikrincə, sosiallaşma insanın ətraf mühitlə kortəbii qarşılıqlı əlaqəsi şəraitində, cəmiyyətin və dövlətin müəyyən yaşa, sosial, peşəkar insanların qruplarına nisbətən yönəldilmiş təsir prosesində, habelə nisbətən məqsədyönlü və sosial cəhətdən idarə olunan təhsil (ailə, dini, sosial) prosesində baş verir [3].
Ailənin sosiallaşması fərdin cəmiyyətə uyğunlaşmasında ilk addımdır. Uşaqlar ailədə böyüyərək sosial normaları, əxlaq prinsiplərini və mədəni dəyərləri öyrənirlər. Bu proses uşağın fərdi şəxsiyyətinin inkişafında həlledici rol oynayır.
Bundan əlavə, sosiallaşma fərdin sosial normaları, mədəni dəyərləri və cəmiyyətin davranış nümunələrini mənimsəməsi prosesi kimi başa düşülə bilər [4,s.12].
Ailənin sosiallaşmasında əsas məqsəd ailədəki sosial dəyərlərin (hörmət, əməksevərlik, məsuliyyət və s.) və normların gənclərə ötürülməsi, həmçinin ailədə qarşılıqlı münasibətlər, ünsiyyət və empatiya kimi sosial bacarıqların gənclərə öyrədilməsi ailə üzvlərinin bir-birinə emosional dəstək verərək onlarda özünəinam və təhlükəsizlik hissini inkişaf etdirməkdir.
Natamam ailə həyatının xüsusiyyətləri gənclərin şəxsi keyfiyyətlərinin formalaşmasına mənfi təsir göstərən bir sıra amillərin yaranmasına səbəb olur. Buraya aiddir: məktəb təhsilinin praktik əhəmiyyətinin düzgün qiymətləndiril- məməsi; ailədə təhsil nailiyyətlərinə lazımi marağın olmaması; sosial mühitdə deviant təzahürlərin olması; maliyyə çətinlikləri; ailə büdcəsini doldurmaq üçün gənclərin erkən işə cəlb edilməsinə və peşə istəklərinin qarşısının alınması; mənəvi üstünlüklərdə həddindən artıq azadlıq və s.
Geniş mənada ailənin sosiallaşması funksiyası müəyyən bir cəmiyyətin sosial qrupu tərəfindən fərdin tələb olunan fiziki, mənəvi, intellektual, əxlaqi və sosial keyfiyyətlərin formalaşmasına, onun mühitinin dəyər sistemə yönəlmiş fəaliyyətlər məcmusu kimi şərh olunur. Ailədəki funksiyalara dəyər yönümlü təhsil və asudə vaxt tədbirlərinin tam və ya qismən həyata keçirilməsi də daxildir. Sosiallaşma bir insanın sosial mühiti, o cümlədən ailədəki münasibətlərin fərdi aspektləri ilə tanışlığının ömürlük bir prosesi hesab edilə bilər.
Müasir ailələr bir çox funksiyaların öhdəsindən gələ bilmir. Bu daha çox gənc nəsillərin qeyri-qənaətbəxş sosiallaşması ilə bağlıdır. Asosial və antisosial davranışın miqyası və formaları böyüyür. Gənclər arasında cinayətlər geniş vüsət alır, bu, cəmiyyət tərəfindən həm maddi imkanların, obyektiv sosial şəraitin yaradılmasına, həm də onların həyata keçirilməsinə yönəlmiş xeyli səy tələb edir.
Bu prosesdə insanın şəxsiyyət kimi inkişafı üçün real imkan cəmiyyətin maddi və mənəvi ehtiyatlarının bütün məcmusu ilə təmin edilir. Gənclərin sosiallaşmasında bir sıra xüsusiyyətlər fərqləndirilir: 1) sosiallaşma əsas dəyər yönümlərini düzəldir; 2) gənclər normaları qiymətləndirmədən öyrənirlər; 3) onların sosiallaşması böyüklərə itaətə əsaslanır və müəyyən qaydalara riayət edilir; 4) gənclərin sosiallaşması onların davranış motivasiyasını formalaşdırır.
Həyat üçün maddi təminat səviyyəsinin müəyyən edilməsində ailədə iki göstərici birləşdirilir: ailədə hər bir üzvün özünə hörməti və maddi sərvətdən məmnunluq səviyyəsi. Valideynlər arasında apardığımız sorğunun nəticələri göstərir ki, ailələrdə maddi vəziyyəti qiymətləndirmədə kifayət

qədər optimal cavablar üstünlük təşkil edir. Belə ki, respondentlərin təxminən yarısı (48%) yaşamaq üçün kifayətdir və yalnız dörddə biri (23%) hər şeyə qənaət etməli olduqları cavablarını bildirmişlər. Tək valideynlərin (58%) yarıdan çoxunun məmnunluq səviyyəsinin aşağı, sınanılanların isə yalnız 22%-i yüksək səviyyə nümayiş etdirmişlər. Respondentlərin hər 5 nəfərdən biri hansı mövqedə olduqlarını barədə qərar verə bilməmişlər. Emosional və psixoloji atmosferin normal səviyyəsi natamam ailələrdə aşağıdakı kimi göstərilir:
- fiziki gücün bərpasında - 75,4%;
- sinir sisteminin gərginliyinin aradan qaldırılmasında - 71,1%
- emosional rifah hissini təmin edir - 65,7%
- intellektual və mənəvi zənginləşmədə - 58,5%
Faiz baxımından çox aşağı emosional rifah hissi, intellektual və mənəvi zənginləşmənin təmin edilməsidir. Bu funksiyaları yerinə yetirərkən özünü- qiymətləndirmənin aşağı olması valideynlərdən birinin olmaması (adətən ata) ilə izah olunur. Müxtəlif mənbələrin təhlili natamam ailələrdə sosiallaşma potensialının müxtəlif amillərlə müəyyən edilməsini bir daha göstərdi. Buraya əsasən boşanma ərəfəsində gənclərdə idraki yönəlişliyin, dərsə dəvamiyyətin aşağı olması və s.aiddir. Empirik olaraq təsdiq edilmişdir ki, natamam ailələrdə böyüyən gənclərin təhsil səviyyəsi aşağı olduğundan sonralar onlar az gəlir səviyyəsi olan fəaliyyət sahələrində işləməli olurlar. Belə ki, onların böyük əksəriyyətinin məsul olmasına baxmayaraq tək valideynli ailələr (76%) ali təhsili məcburi hesab edir, Respondentlərin 64%-i təhsil səviyyəsini qiymətləndirir, həyat üçün tamamilə kifayətdir və inkişaf etdirməyə ehtiyac yoxdur.
Ailə qrupunda natamam sosiallaşma mühitinin mühüm nəticəsi, birincisi, tək valideynli ailələrdən olan uşaqların deviant davranışının mənfi təzahürlərinin yüksək ehtimalıdır. Valideynlərindən biri olan ailələr risk altında olan ailələr kimi nəzərdən keçirilir. Natamam ailələrdə gənclərin sosiallaşmasının çətinliyi ailədən kənar əlverişsiz sosial mühitlə daha da pisləşir. Bu faktlar uşağın sosiallaşmasının sosial mühitini inandırıcı şəkildə xarakterizə edir. Belə ailələrdən olan gənclərin sosiallaşması prosesi həm də ona görə çətin və ziddiyyətlidir ki, bunlar (dəyərlər, münasibətlər, oriyentasiyalar və s.) cəmiyyətin psixoloji vəziyyətini əks etdirir.
Onların bir çoxunun qiymətləndirmələri tamamilə əksinə, yəni güclü münasibətdən - çaşqınlığa dəyişdi. Gənclərin dəyər oriyentasiyalarında əsas dəyişikliklər şəxsi və maddiyyatın əhəmiyyətinin artması ilə bağlıdır. Onların yalnız 24,9%-i insanlara faydalı olmaq və cəmiyyət üçün çalışmaq istədiklərini bildirmişlər. Onların fikrincə, gələcəkdə yaxşı həyat, pul və maddi rifah böyük rol oynayacaqdır. Gənclərin 60,4%-i çox pula sahib olmağın vacib olduğuna inanır və bu öhdəlik yaşla artır.
Gənclərin arzu və xəyallarında maddi rifah daha çox əhəmiyyət kəsb edir. Natamam ailədən olan bir çox gənclərdə mənfi şəxsi keyfiyyətlərin inkişaf riskini azalda biləcək bir sıra sosiallaşma şərtləri vardır ki, bunlara: valideyn nüfuzu və onların şəxsi nümunəsi; valideyn nüfuzunun gücləndirən pedaqoji taktın olması; əlverişli həyat mədəniyyətinin olması; emosional əlaqə ehtiyacından məmnunluq; valideynlərin özləri üçün həyatın mənasını başa düşmələrində aydınlıq və s.aiddir.
Ailənin psixoloji atmosferinin təməli səmimi və qeyri-səmimi münasibətlərlə bağlıdır. Prof. Ə.Ə. Əlizadənin qənaətincə, ailə üçün gözlənilməz olan hər hansı bir hadisə və ya şərait onun psixoloji iqliminə öz-özlüyündə deyil, məhz ər-arvad, yaxud valideynlər-uşaqlar arasındakı münasibətlər vasitəsi ilə təsir göstərir. Ailədə gənclərin sosiallaşması üçün onun gələcək taleyini əvvəlcədən müəyyən edən əlverişli və əlverişsiz şərait mövcuddur, çünki məhz ailədə uşaq ilk həyat təcrübəsini alır, müəyyən dəyərləri mənimsəyir, başqaları ilə münasibət qurur. Amma ailənin uşağın sosiallaşmasına təsiri bir sıra hallara görə həm müsbət, həm də mənfi ola bilər. Ailə xüsusi hallarda uşağın şəxsiyyətinin formalaşmasına mənfi, antisosial təsir göstərə bilər:
- *natamam ailə* (boşanmış, qeyri-qanuni, yetim, dağılmış);
- *disfunksional ailələr* (valideynlərinin alkoqolik, narkoman, cinayətkar və ya psixi xəstə olduğu ailə;
- *ailədəki mənfi psixoloji mühit (* valideynlərin neqativliyi, mənəviyyatsızlıq).

Natamam ailədə sosiallaşma prosesi əhəmiyyətli dərəcədə mürəkkəbdir. Gənc sosial münasibətlər dünyasına uyğunlaşmaqda çətinlik çəkir. Bir valideyn (ana, ata) olan ailədə, məsələn, kişi təsirinin, atanın nüfuzunun olmaması və ya əksinə, anadan mehribanlığın və istiliyin olmaması kimi mənfi amilləri müşahidə etmək olar. Valideynlərdən biri ilə emosional ünsiyyətin olmaması aydın gender rol modelinin olmaması kimi problemlərə gətirib çıxarır. Belə ailələrdə uşaq və gənclərin uğurlu sosiallaşması üçün şərait yaradan sosial, pedaqoji və psixoloji yardıma ehtiyacları vardır. Ailənin sosiallaşmasında çoxlu problemlər təzahür edir:

- ***Cəmiyyətdə baş verən dəyişikliklər:*** Qloballaşma, texnologiyanın inkişafı, iqtisadi böhranlar kimi cəmiyyətin sürətli dəyişməsi ailə strukturunu və onun sosiallaşma rolunu dəyişdirə bilər.
- ***Ailədaxili münaqişələr və zorakılıq:*** Ailədaxili münaqişələr, iqtisadi və emosional təzyiqlər kimi hallar gənclərin cəmiyyətə sağlam sosiallaşmasını ləngidə bilər. Ailədaxili zorakılıq və təhqirlər sosiallaşma prosesinə mənfi təsir göstərir və gənclərin psixoloji sağlamlığına zərər verir.
- ***Valideynlərin təhsil və sosial təcrübəsi***: Valideynlər öz təhsil səviyyəsindən və sosial təcrübələrindən asılı olaraq övladlarına fərqli dəyərlər və sosial normativlər aşılayırlar. Bəzən bu dəyərlər müasir dövrün tələblərinə uyğun gəməyə bilər.
- ***Valideynlərin vaxt çatışmazlığı:*** İş həyatının və sosial təzyiqlərin səbəb olduğu vaxt çatışmazlığı, valideynlərin övladları ilə keçirdikləri səmərəli vaxtı azaldır ki, bu da gəncin inkişafı üçün vacib olan sosial əlaqələrin zəifləməsinə səbəb olur.
- ***Gender bərabərsizliyi:*** Ailədəki gender rolu və stereotipləri, bəzən gənclərin gələcək sosial davranışlarını yanlış istiqamətə yönəldir. Buna qızlara və oğlanlara qarşı cəmiyyətdə müəyyən gözləntilərin olması gənclərin sərbəst inkişafını ləngidə bilər.

Beləliklə, ailə sosiallaşmanın mikro faktorlarından biridir və gənclərin sosiallaşmasının ilkin institutudur. Valideynlərin ailədə ilkin vəzifəsi uşaq və gənclərin hərtərəfli şəkildə inkişafına, fiziki sağlamlığına, tərbiyəsinə və tam hüquqlu şəxsiyyətin formalaşmasına qayğı göstərməkdir. Gənclərin ailədə sosiallaşması prosesində valideynlərin maarifləndirici fəaliyyəti təsirli olacaq, yəni yalnız uşağın ehtiyaclarını nəzərə aldıqda və onu fəal subyekt kimi qəbul etdikdə sosial cəhətdən uyğunlaşdırılmış şəxsiyyətin formalaşmasına səbəb olacaqdır. Ailə üzvlərinin bir-biri ilə münasibətlərində və sosial çevrələrində daha yüksək və səmərəli əlaqələr qurmaları cəmiyyətin inkişafına müsbət təsir göstərə bilər. Cəmiyyətin inkişafı üçün ailələrdə sosiallaşma prosesinin düzgün şəkildə həyata keçirilməsi çox vacibdir.

Problemin aktuallığı. Elmi məqalədə ailənin sosiallaşmasının mahiyyəti və məzmunu araşdırılır. Ailənin sosiallaşmasında bir çox problemlər ardıcıllıqla şərh edilir.

Problemin elmi yeniliyi. Məqalədə ailənin uşaq və gənclərinn şəxsiyyətinin formalaşmasına göstərdiyi mənfi təsir göstərən amillər, ailənin sosiallaşmasında yaranan problemlər araşdırılır.

Problemin praktik əhəmiyyəti. Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

Ədəbiyyat Siyahısı.

1. Hüseynzadə R, Allahverdiyeva L. Ailə pedaqogikası. // R.L.Hüseynzadə, L.Allahverdiyeva. Dərslik. –Bakı: - 2016.-339s.

2. Мардахаев Л. В. Социальная педагогика: учебник для бакалавров / Л. В. Мардахаев.- 6-е изд., перераб. и доп. - Москва: Издательство Юрайт, -2015. -375 с.

3. Мудрик А. В. Социальная педагогика: Учеб. для студ. пед. вузов / Под ред. В. А.Сластенина.- 3-е изд., испр. и доп. -Москва: Издательский центр «Академия».-2012.-с.-228с.

4. Белинская Е.П., Тихомандрицкая О.А. Проблемы социализации. История и современность. // Е.П.Белинская, О.А.Тихомандрицкая. - Москва: МПСИ, -2013.- 216 с.

ANCIENT TURKIC MENTAL VALUES IN OLD RUSSIAN CHRONICLES (THE 'YOVSHAN' ETHNOEIDEME)

QƏDİM TÜRK MENTAL DƏYƏRLƏRİ QƏDİM RUS SALNAMƏLƏRİNDƏ (“YOVŞAN” ETNOEYDEMİ)

Rəyçilər: psixol.ü.fəl.dok., dos.S.N.Heydərova psixol.ü.fəl.dok., dos. S.Həsənli

Əsədov Zahir Vahid oğlu
Filologiya üzrə fəlsəfə doktoru, dosent Bakı Slavyan Universiteti Azərbaycan, Bakı

Xülasə
Mətnin lakunlaşması müxtəlif elm sahələrinin tədqiqat obyekti olsa da, bu sahədə hələlik vahid terminoloji sistem formalaşmayıb. Ümumilikdə lakunlaşma prosesinin öyrənilməsi sahəsində qeyri-bərabərlik müşahidə olunur: bir tərəfdən, bu məsələyə tərcüməşünaslıq və dilçilikdə böyük maraq və aktiv tədqiqatlar mövcuddursa, digər tərəfdən, kognitivistika və mədəniyyət nəzəriyyəsi kimi sahələrdə bu istiqamət nisbətən geri qalır. Sırf dilçilik və kognitivist yanaşmalarda lakunlarla bağlı terminoloji aparat yetərincə inkişaf etməmişdir və lakunlar nəzəriyyəsi hələlik müstəqil status qazanmamışdır.
Fikrimizcə, mətnin lakunlaşmasının əsas mənbələrindən biri və etnik çalarlara malik mədəniyyətlərarası fərqliliyin immanent göstəricisi – *etnoeydem* fenomenidir. Azərbaycan rus dilçiyində qədim mətnlərin (qədim rus salnamələrinin) tədqiqində etnoeydem nəzəriyyəsi ilk dəfə bizim tərəfimizdən tətbiq edilmiş və hazırda bu nəzəriyyə daxilində onlarla qədim türk etnoeydemi ayırd edilib, təhlil edilmişdir. Qeyd edək ki, bu nəzəriyyə əsasında aparılan müəllifin “Hatun taçlı, Umay gibi Anam benim” (eski türk toplumunda kadın)” araşdırmasını tanınmış ön türk tarixi tədqiqatçısı Kazım Mirşan hələ 2014-cü ildə yayımlamışdır.
Etnoeydem anlayışını mətnin lakunarlığı ilə bağlı digər boşluq “indikatorları” ilə fərqləndirən əsas cəhət, onun tərkibində etnik özünüdərk və etnik identifikasiya elementlərinin üzvi şəkildə əks olunmasıdır. Bu anlayışın əsas komponentini isə etnik markerlər – mədəniyyət, dil, folklor, xalq sənəti, rəmzlər, adət-ənənələr və mənəvi xüsusiyyətlər, psixoloji dünya duyumu kimi konkret göstəricilər təşkil edir ki, bunlar bir etnosu digərindən fərqləndirən əsas cizgilərdir.
Yuxarıda qeyd olunan konsepsiya çərçivəsində məqalədə “emşan / yovşan” etnoeydeminin XIII əsrə aid qədim rus mətnində – Qalitsk-Volın salnaməsində – funksionallaşması etnoeydem nəzəriyyəsi baxımından araşdırılır. Müəllif bu etnoeydemə tarixi baxımdan fərqli mədəni-dil kontekstlərində müraciət edərək, onun mətn-mədəni və linqvokoqnitiv təhlilini aparır, əsas diqqəti isə onun mental-məna istiqamətinə yönəldir. “Yovşan” etnoeydeminin təhlil obyektlərini qədim rus salnaməsi ilə yanaşı, rus şairi A.N. Maykovun “Yovşan”, Bəxtiyar Vahabzadənin “Bir dəstə çiçək” (“Şəbi-Hicran” poemasından), rus yazıçısı M.D. Simaşko-Şamisın “Yovşan” və qazax yazıçısı İlyas Eserberlinin “Köçərilər” əsərlərindəki etnik markerlər təşkil edir. Təhlil göstərir ki, bu əsərlərdə “yovşan” etnoeydemi müxtəlif semantik və simvolik konnotasiyalar qazanaraq, çoxşaxəli mənalandırma imkanlarına malikdir və yalnız qədim türk mental düşüncəsinə xasdır.
Açar szölər: qədim türklər, etnoeydem, yovşan, mətnin lakunlaşması, mental dəyərlər, etnik marker, milli özünəməxsusluq, qədim rus salnaməsi, etnosfe

Abstract
Although the lacunarity of the text is the subject of research in various scientific fields, a unified terminological system has not yet been established in this area. Overall, there is an imbalance in the study of the lacunarity process: on the one hand, there is considerable interest and active research in translation studies and linguistics; on the other hand, areas such as cognitive science and cultural theory lag behind in this regard. In purely linguistic and cognitive approaches, the terminological apparatus related to lacunae has not been sufficiently developed, and the theory of lacunae has yet to gain independent status.
In our opinion, one of the main sources of textual lacunarity and an immanent indicator of intercultural differences characterized by ethnic nuances is the phenomenon of *ethnoeideme*. In Azerbaijani Russian linguistics, the theory of ethnoeideme was applied for the first time by us in the study of ancient texts (Old Russian chronicles). Within this theoretical framework, dozens of ancient Turkic ethnoeidemes have been identified and analyzed. It should be noted that based on this theory, the author's study titled "Hatun Taçlı, Umay gibi Anam Benim" (Women in Ancient Turkic Society) was published by the renowned early Turkic history researcher Kazim Mirshan as early as 2014.
The primary feature that distinguishes the concept of ethnoeideme from other indicators of textual lacunarity lies in its organic reflection of elements of ethnic self-consciousness and ethnic identification. The main components of this concept are ethnic markers – such as culture, language, folklore, folk art, symbols, traditions, and spiritual traits, as well as psychological perceptions of the world – p that constitute the distinctive features differentiating one ethnic group from another.
Within the framework of the above-mentioned concept, the article explores the functionality of the "wormwood / yovshan" ethnoeideme in a 13th-century Old Russian text – the Galician-Volhynian Chronicle – from the perspective of ethnoeideme theory. The author examines this ethnoeideme across different historical, cultural, and linguistic contexts, conducting a text-cultural and linguo-cognitive analysis, with a focus on its mental-semantic dimension. The objects of analysis concerning the "yovshan" ethnoeideme include ethnic markers in the Old Russian chronicle, the poem "Yovshan" by Russian poet A.N. Maikov, "A Bunch of Flowers" (from the poem "Night of Separation") by Bakhtiyar Vahabzadeh, "Yovshan" by Russian writer M.D. Simashko-Shamis, and "The Nomads" by Kazakh writer Ilyas Esenberlin. The analysis shows that in these works, the "yovshan" ethnoeideme acquires diverse semantic and symbolic connotations, possesses multidimensional interpretative potential, and is uniquely characteristic of ancient Turkic mental thinking.
Keywords: ancient Turks, ethno-eideme, wormwood, text lacunization, mental values, ethnic marker, national identity, Old Russian chronicle, ethno-sphere.

Giriş
Mətndə mövcud olan yad mədəniyyət elementlərinin müəyyən edilməsi və izharı problemi hələ antik dövrlərdə filosof və alimlərin diqqət mərkəzində olmuşdur (məsələn, Sokratın "evristik dialoq metodu" və ya "mayevtika metodu"). Dilçilik elmi inkişaf etdikcə bu problem daha qlobal xarakter alır və bir çox tədqiqatçılar mətn daxilinə nüfuz etmiş yadmədəniyyətli çalarların aşkar edilməsi istiqamətində müxtəlif metod və təhlil aparatını işləyib hazırlamışlar. Müasir dilçilik elmində bu gün dillər və mədəniyyətlər arasındakı uyğunsuzluqları, mətn daxilində funksionallaşan lakun proseslərini əks etdirən kifayət qədər çox sayda termin mövcuddur. Məsələn, mətndə müəyyən entosemantik boşluqları və ya lakunlaşma proseslərini tədqiq edərkən L.S. Barxudarov "ekvivalentliyi olmayan leksika"), Y.A. Sorokin "lakunlar", Ç. Hokket "təsadüfi boşluqlar", V.M. Bızova "invariant / variant", T.Y. Danilçenko və V.P. Qritsenko isə "etnoqrafik lakunlar" və s. terminlərdən istifadə etmişlər. Gördüyümüz kimi, mətndaxili etnoqrafik və etnik "boşluqların" və lakunların müəyyən edilməsi üçün tədqiqatçılar tərəfindən kifayət qədər qarışıq terminoloji təhlil aparatı mövcuddur.

Fikrimizcə, bu cür terminoloji "rəngarənglik" bəzən problemin mahiyyətinin açılmasına yox, problemin daha da qəlizləşməsinə xidmət etmiş ola bilir.

Lakin qeyd etmək lazımdır ki, mətnin, xüsusilə də, qədim mətnin adekvat qavranılmasına yönəlmiş yuxarıda göstərilən "terminlər toplusu" hər bir mətndə tətbiq oluna biləcək ideal üsullar deyil, çünki hər bir mətn çoxmənalıdır: qədim mətndə obyektiv, qeyd edilə bilən informasiyadan əlavə, müəllifin dünyagörüşü, mətnin yaradılmasının psixoloji motivləri və s. kimi mətnə xas gizli subyektiv mənalar da mövcuddur. Qədim mətn informasiya daşıyıcısı kimi çıxış etsə də, onda əks olunan müəyyən bir mədəni hadisəni dərk etmək üçün həmin informasiyanı ehtiyatla, tədqiqatçının şüuraltı səviyyədə daşıdığı doğma mədəniyyətin təsirindən yayınaraq çıxarmaq lazımdır. Bu baxımdan, biz hesab edirik ki, vaxtilə L.A. Şeyman və N.M. Variç (1976) tərəfindən ilk dəfə elmi-tədqiqat müstəvisinə gətirilən "***etnoeydem***" termini "dil materialında əks olunan müxtəlif etnik birliklərin milli dünyagörüşləri və ənənələrinin ümumi obrazı"nı daha aydın, daha obyektiv ifadə edir [Şeyman, Variç, 1976: 64].

Biz linqvokulturoloji uyğunsuzluqların lakunlar nəzəriyyəsi çərçivəsində araşdırılmasına qarşı deyilik, çünki mətnin lakunlaşması dedikdə, bir çox tədqiqatçıların ardınca (T.Y. Danilçenko, V.P. Qritsenko, İ.Y. Markovina və b.), dillərarası və mədəniyyətlərarası assimetriya, dilin və mədəniyyətin milli və etnik xüsusiyyətləri ilə şərtlənən, şüurun və mətndəki linqvososiomədəni məzmunun elə bir halını başa düşürük ki, bu hal dil fraqmentinin anlaşılmasında uyğunsuzluğa səbəb olur. Terminoloji təsnifatı sistemləşdirmək və dillərarası, mədəniyyətlərarası fərqləri müxtəlif səviyyələrdə araşdırmaq məqsədilə biz "***etnoeydem***" anlayışından istifadə edirik. Bu termin, dil və mədəniyyətin ontoloji bağlılığı və "semiotik qohumluq" prinsiplərinə əsaslanan vahid metodoloji yanaşma çərçivəsində uyğunsuzluqların təhlilinə imkan verir və qarşılaşdırılan və ya təmasda olan dillərin və mədəniyyətlərin milli-mədəni xüsusiyyətlərini və mətndaxili implisit formada təzahür edən etnik markerləri müəyyənləşdirməyə şərait yaradır.

Biz hesab edirik ki, "***etnoeydem***" termini mətnin lakunarlıq fenomenini ifadə etmək üçün ümumiləşdirici anlayış kimi qəbul olunmağa tam əsaslar mövcuddur. Bu, xüsusilə linqvokulturoloji uyğunsuzluqların etnik və milli çalarlara malik olduğu hallarda – məsələn, çoxsaylı variantlı oxunuşlara, etnik markerə və məzmun fərqlərinə malik qədim mətnlər kontekstində – özünü göstərir. Sözügedən termin mətnlərdə rast gəlinən "uyğunsuzluq", "boşluq", "etnik fərq", "ziddiyyət", "anlaşılmazlıq", "qaranlıq məqamlar" kimi etnopsixoloji və milli-mədəni xarakterli hadisələri ziddiyyətsiz və yığcam şəkildə ifadə edir. Bu cür hadisələr müxtəlif janr və məzmuna malik mətnlərdə birbaşa şəkildə üzə çıxır və onların təhlili etnoeydem anlayışı çərçivəsində daha sistemli şəkildə aparıla bilər.

Yuxarıda qeyd olunan konsepsiya çərçivəsində biz «yovşan» etnoeydeminin funksionallaşmasını qədim rus mətnində – XIII əsrə aid Qalitsk-Volın salnaməsində – etnik marker komponentlərinin müəyyənləşdirilməsi baxımından təhlilini aparmağa çalışacağıq. Bu etnoeydemin müxtəlif tarixi-mədəni və dil kontekstlərində kompleks mətndaxili və lingvokoqnitiv təhlilini verərək, onun mental-məna yönümünə xüsusi diqqət yetirəcəyik. Təhlilin obyektini həm qədim rus povesti, həm də "emşan / yovşan" etnoeydeminin müxtəlif semantik və simvolik konnotasiyalar qazandığı rus şairi A.N. Maykovun və azərbaycanlı şair Bəxtiyar Vahabzadənin poetik əsərləri, eləcə də rus yazıçısı M.D. Simaşko-Şamisin və qazax yazıçısı İ. Yeserberlinin nəsr əsərləri təşkil edir.

Problemin qoyuluşu

XIII əsr Qalitsk-Volın (İpatyev nüsxəsi) salnaməsində qədim rus salnaməçisi Qaliç knyazı Roman Mstislavoviçdən və qıpçaq xanları Sırçanla Otrokdan bəhs edir. Müəllif yazır ki, Vladimir Monomax qıpçaqlar adlandırılan "kafir izmaililəri" (yəni, qıpçaqları) geri oturtmağa və Otroku Dəmir qapıların o tayında yerləşən Obuz torpaqlarına qovmağa nail olmuşdu, Sırçan isə Don çayı sahilində tək qalmışdı. Vladimir Monomaxın ölümündən sonra isə Sırçan qardaşı Otroka xəbər göndərir ki, geri qayıtsın. Lakin Sırçan, qardaşının buna razı olmayacağını əvvəlcədən hiss etdiyi üçün xəbərdarlıq edir ki, onu razı salmaq üçün ona qıpçaq mahnıları oxusunlar. Əgər o, bundan sonra da qayıtmaq

istəməzsə, onda ona qıpçaq çölünün yovşanını qoxladın. Qədim rus dilində mətn belədir: "*Въ лѣто 6709 (1201 г.). ... По смрти же Володимерѣ wставъшю у Сырьчана единому гоудьцю же Ꙗреви, посла и во Ꙗбезы, река: «Володимеръ оумерлъ есть. А воротисѧ, брате, поиди в землю свою. Молви же емоу моѧ словеса, пой же ему пѣсни Половѣцкия. Ꙗже ти не восхочеть, даи емоу пооухати зельѧ, именемь евшанъ». Ꙗному же не восхотѣвшю wбратитися, ни послоушати, и дасть емоу зелье. Ꙗному же wбухавшю, и восплакавшю, рче: «Да лоуче есть на своеи землѣ костью лечи, и не ли на чюже славноу быти». И приде во свою землю*" [PSRL, C. 2, 1908: 715-716].

Bu parça qədim rus yazılı ədəbiyyatında "***Qıpçaq nəğməsi***" və ya "Otrok xan və yovşan otu haqqında rəvayət" kimi tanınır. Burada müəllif qıpçaqların adət-ənənələrini obrazlı və poetik dillə təsvir edir. Mətnin əsas simvolu olan "yemşan otu" (yəni, yovşan) qıpçaq çölünün, doğma torpağın, vətənin rəmzi kimi təqdim olunur. Bu otun qoxusuna biganə qala bilməyən Otrok, qardaşı Sırçanın çağırışını əvvəlcə rədd etsə də, yovşan qoxusunu iylədikdə duyğulanır, kövrəlir və deyir: "*Vətənimdən gözəl yer yoxdur; başqa bir diyarda şöhrət qazanmaqdansa, öz torpağımda, vətəndə şikəst olmaq daha yaxşıdır*". Bu ifadədə nostalgiya, vətən həsrəti, Dəşti-Qıpçaq xatirələri yığcam və dərin məna daşıyan bir obrazla – ***qıpçaq çölünün yovşanı*** ilə təsvir olunur. Məhz bu motiv sonradan qədim rus ədəbiyyatında Vasili adlı müəllifin qələmə aldığı "Vasili Trebovlskinin kor edilməsi haqqında rəvayət" əsərinə də ilham mənbəyi olmuşdur [bax: Priselkov, 1941: 10-11].

Qeyd edək ki, Otrok (digər adı ilə Aterak), məşhur qıpçaq xanı Şarukanın oğlu olmuşdur və o, doğrudan da rusların birləşmiş qoşunları tərəfindən Şimali Qafqaza qovulmuşdur. Bu fakt yalnız qədim rus salnamələri ilə deyil, gürcü mənbələri ilə də təsdiqlənir [bax: Sbornik, 1897: 31-35]. Qədim rus salnaməsində qeyd olunur ki, Roman Qaliçski babası Vladimir Monomaxın qələbəsinə paxıllıq edirdi. Monomax kafir izmailliləri, yəni qıpçaqları məğlub etmiş, Otroku Dəmir Qapılardan (yəni Dərbənddən) o yana qovmuş, Sırçanı isə Don çayı sahilində tək qoymuşdu, o da yalnız balıqla qidalanmaqla sağ qalırdı: "…поганыя измаилтяны, рекомыя половци… изгнавшю Ꙗтрока во Ꙗбезъı. за Желѣзнаæ врата. Сърчанови же wставшю оу Доноу. ръıбою wживъшю…" [PSRL, 1908: 49]. Bu məlumatlar həm qədim rus salnaməçiliyində, həm də Qafqaz tarixi mənbələrində Otrokun sürgünü və yarımköçəri həyatı haqqında mühüm bir etno-tarixi sübut kimi çıxış edir.

Biz "yovşan" haqqında nəğməni bu qədər qabartmazdıq, əgər dahi rus tədqiqatçısı A.N. Veselovskinin unudulmuş fikirlərinə rast gəlməsəydik. A.N. Veselovski bu süjetdə birbaşa "qıpçaq nəğmələri və rəvayətlərindən mənimsənilmiş (qeyd bizimdir – Z.Ə.) bir parça" görür [Veselovski, C 36, 1885: 372]. Əsas da odur ki, tədqiqatçı hesab edir ki, süjet ya hadisələrin bilavasitə şahidi, ya da müəyyən səbəblərə görə bir zamanlar knyazın sarayında olmuş hər hansı bir qıpçaq tərəfindən "ifadə olunmuş" ola bilər. Bu isə, öz növbəsində, qədim Rus orta əsr ictimai-siyasi reallıqları ilə ziddiyyət təşkil etməsə də, bir çox rus tədqiqatçıları qıpçaqların bu qədər rus dövlətçiliyi və mədəniyyətinə tarixən nüfuz etmələrindən "çəkinirlər".

Biz hesab edirik ki, Qalitsk-Volın salnaməsində "yovşan" qədim türk etnoeydemidir, türk təsiri altında qədim rus salnaməsinə daxil edilmişdir və qədim rus salnaməçisinin başqa heç bir əlində əsası və ya səbəbi ola bilməzdir ki, qədim türk mental dəyərlərini, qədim türklərin hisslərinə nüfuz edən nostlaji duyğuları bu cür əsrarəngiz formada salnaməyə daxil etsin (nəzərə alaq ki, salnamələrin əsas məqsədi tarixi hadisələrin sadə xronoloji ardıcıllığını aparmaq idi). Biz aşağıda "yovşan" etnomədəni kodunun türk mental dəyərlərinə xas olduğunu digər yazılı mənbələrdə funksionallaşmasını və sırf türk dil koqnisiyasına aid olmasını araşdırmağa çalışacağıq.

Əsas hissə

Qədim rus salnaməsində olan bu süjetin rus ədəbiyyat ənənəsində geniş şəkildə tanınmasına ***A.N. Maykovun*** 1874-cü ildə yazdığı eyniadlı "***Yemşan*** ("***Yovşan***")" adlı poema şəklində bədii işləməsi oldu. "Yovşan" etnoeydemi qədim türk düşüncə tərzini və qədim türk kimliyini nə dərəcədə səciyyələndirdiyini biz bu şeirdən də aydın şəkildə müşahidə edə bilirik:

“Ему ты песен наших спой, –
Когда ж на песнь не отзоветсѧ,
Свяжи в пучок емшан степной
И дай ему – и он вернется.
...
И взял пучок травы степной
Тогда певец, и подал хану –
И смотрит хан – и, сам не свой,
Как бы почуяв в сердце рану,
За грудь схватился... Все глядят:
Он – грозный хан, что ж это значит?
Он, пред которым все дрожат, –
Пучок травы целуя, плачет!
Минуя гору за горой,
Всё ждет он – скоро ль степь родная,
И вдаль глядит, травы степной
Пучок из рук не выпуская” [Maykov, 1984: 444].

Ona bizdən nəğmə oxu sən,
Əgər səs verməzsə nəğməyə,
Yığ bir dəstə çöl yovşanından –
Ver ona – dönər vətənə."
...
O zaman ozan yovşanı aldı,
Verdi xana çöl otundan –
Xan baxdı, baxdı... özü deyil,
Ürəyində bir dağ yandı qoxundan.
Sinəsini tutdu birdən-birə –
Hamı baxır heyrətlə ona –
Qorxunc xan bu nə haldır belə?
Ot dəstəsini öpür, ağlayır yana-yana!
Dağları aşır, yol gedir –
Ümidlə baxır o üfüqə,
Doğma çölü gözləyir, bilir –
Əlində yovşan – bir dəstə ot hələ də.
(sərbəst tərcümə)

Gördüyümüz kimi, A.N. Maykova aid bu parçada yovşan sadə ot kimi yox, həm də Uluların yaddaşı, Vətən həsrəti və milli kimlik rəmzi kimi təqdim olunur. Bu poetik nümunədə yovşanın qoxusu xanın daxili aləmində dərin emosional duyğular, nostalji hisslər doğurur və onun əsl soyuna, Qədim Türk mənsubiyyətinə mənəvi bağlılığını ehtiva edir. Bu, qədim türklərin, qıpçaqların təbiətlə olan harmoniya içində yaşama Fəlsəfəsinin ədəbi təcəssümüdür. Yovşanın simvolik məna və eyni zamanda etnik marker kimi çıxış etməsi onu sadəcə estetik yox, həm də mədəni kod, etnoeydem kimi qəbul edilməsinə imkan verir. Şairin yaratdığı bu obrazı işləmə tərzi qədim türk etno-mədəni yaddaşının, qədim türk mental dəyərlərinin rus ədəbiyyatında necə əks oluna biləcəyinə dair tutarlı nümunədir.

Azərbaycan xalq folklorunda da təbib, padşah və çobanla bağlı “yovşan” etnoeydemini əks etdirən bir rəvayət-misal mövcuddur. Rəvayətin ən gözəl təcəssümü Azərbaycan xalq şairi ***Bəxtiyar Vahabzadənin*** “Şəbi-Hicran” poeması çərçivəsində yazdığı “***Bir dəstə çiçək***” adlı şeirində də əks olunmuşdur [Vahabzadə, 2004: 54-55]:

“*Deyir: Bu nə işdir, ey böyük insan,*
Sən üstünmü tutdun çobanı şahdan?
Saymadın, məhəl də qoymadın mənə,
Çobanın sözüylə gəldin vətənə.
Ey Loğman, bu sirri, gəl, mənə anlat...
Əlini cibinə salıb, o saat
Bir yovşan çıxarır Loğman cibindən,
Deyir: Vədələrə gəlməmişəm mən,
Bax, bunun ətrinə gəldim vətənə,
Bəxşişlər, ənamlar nə gərək mənə!
Ancaq, düz düşünmüş, o yoxsul çoban
Mənə torba-torba pul göndərəməmiş;
O, yaxşı bilir ki, bu qoca Loğman
Dünyanın malına könül verməmiş,
O mənə göndərdi, bax, bu yovşanı,
Torpağın ətriylə dolu yovşanı.
İyləyib mən onu birtəhər oldum,
Bilmədim şad oldum, mükəddər oldum.
Dumanlandı gözüm, hərləndi başım,
Yovşanın üstüıə axdı göz yaşım.
Sızladı ürəyim, əsdi bədənim,
Durdu göz önümdə bu dağlar mənim!
Bir anın içində illər ötüşdü,
Şıltaq uşaqlığım yadıma düşdü”.

Bu poetik nümunədə də “yovşan” mental yaddaş kimi çıxış edir. Şeirdə çobanın vasitəçiliyi ilə baş verən dönüş, xalq müdrikliyinin və təbiətlə vəhdətin simvolik təzahürü kimi yozula bilər. Şair bu motiv vasitəsilə vətən sevgisinin maddi deyil, ruhani və duyğusal bağlılıq üzərində qurulduğunu göstərir. Yovşanın qoxusu qürbətdə yaşayanın daxili dünyasında unudulmaz iz buraxaraq, onu doğma

yurda bağlayan körpü rolunu oynayır. Bu kontekstdə "Bir dəstə çiçək" şeiri həm milli-mənəvi dəyərlərin bədii ifadəsi, həm də xalq yaddaşının poetik daşıyıcısı kimi qiymətləndirilə bilər.

"Yovşan" qədim türk etnoeydemi kimi və türk mədəni özünəməxsusluğunun simvolu kimi tanınmaqla yanaşı, həm də rus-türk tarixini əks etdirən bir sıra əsərlərin müəllifi, Qazaxıstanın xalq yazıçısı ***Moris Davidoç Simaşko-Şamis*** tərəfindən yazılmış povestin də adını daşıyır. "***Yovşan***" adlı bu povest 1966-cı ildə qələmə alınmış və Oljas Süleymenova həsr edilmişdir (yeri gəlmişkən, O. Süleymenovun da geniş əks səda doğuran əsərinin də adı "Qıpçaq çölünün yovşanı" olmuşdur). Əsərdə hadisələr tarixi şəxsiyyət olan sultan Baybarsın adından nəql olunur. Bu povestdə yovşan monqol deyil, məhz türk kimliyinin və mədəni irsinin simvolu kimi təqdim olunur (qədim rus tarixində tez-tez rast gəlinən "monqol-tatar" anlayışından fərqli olaraq). Müq. Et: "*Və monqollar çəkilib getdikdən sonra, qıpçaqların əlində heç nə qalmadı. Çox az adam qalmışdı – yaşlılar və xəstələr. Onlar ölənləri qırmızı qumla örtüb, yığıb qalaq etdikləri acı yovşan otunu yandırdılar. Və hamısı ağladı, əllərini ağ günəşə doğru qaldırdılar... Qırmızı Qumlar haqqında fərqli rəvayətlər danışırlar: adları və ölkələri qarışdırırlar. Rus salnaməçisi isə yalnız bir rəvayət eşitdi – elə bir ağ acı otun haqqında ki, onun qoxusunu insan heç cür unuda bilmir. Qırmızı Qumlar isə böyükdür...*" (vurğu bizimdir – Z.Ə.) [Simaşko, 1966: 30].

M. Simaşko yovşan otunu qıpçaqların obrazı ilə eyniləşdirir: acı ot səhranın günəşi altında qızaranda və qoxu verməyə başlayanda, elə bil qıpçaqlar dirçəlir və yenidən yürüşə başlayırlar: "*Sonra yenə də ağ günəş, ağ səma. Və ağ ot. Yalnız onun bitdiyi torpaq – qırmızıdır. Bütün dünya – bu sərt qırmızı qum, ağ günəşin altında çatlamış. Və daha heç nə yoxdur... Və yenə ot qızarmağa, qoxu yaymağa başlayanda, hardansa böyük tüklü ayaqlar görünür. Asta-asta yeriyərək keçirlər, daim keçirlər, dayanmırlar. Qara qumun üzərində ahəngdar bir səs ucalır*" [Simaşko, 1966: 31].

Göründüyü kimi, povestdə yovşanın acılığı və qoxusu keçmişlə vətən arasında duyğusal və mental bağlılığı ehtiva edir. Yovşanın yandırılması və onun ətrafında insanların ağlaması türk xalqlarının məğlubiyyət acısını və eyni zamanda birliyini ifadə edir. Ədib təbiət obrazı vasitəsilə türk kimliyinin ruhani dərinliyini və itkilərlə dolu tarixi yaddaşını bədii şəkildə canlandırır. Bu təhkiyə vasitəsilə müəllif həm də yad mədəniyyətlərə qarşı milli özünüdərkin qorunmasını vurğulayır. Yovşanın qırmızı qumlar üzərində bitməsi türk etnosunun sərt şəraitdə belə yaşamaq və dirçəlmək qabiliyyətini simvolizə edir. Povestdəki təsvirlər vasitəsilə müəllif vətən sevgisinin fiziki deyil, mənəvi bağlarla necə dərinləşdiyini nümayiş etdirir.

Maraqlıdır ki, tanınmış qazax və rus yazıçısı, ***İliyas Yesenberlinin*** "***Köçərilər***" trilogiyasında ("Almaz qılınc") "yovşan" qədim türk mental dəyərlərinin simvolu kimi çıxış edir:

"Жусанды деме қараған,	*Yovşana "sadəcə qaraməryəm" demə,*
Жұлдызды жарық ай деме,	*Parlaq ulduza və aydın aya da "adi" demə.*
Қытайдан шығып тараған,	*Çindən çıxıb yayılmışkən,*
Хұнуға қарсы қол шықса,	*Hunlara qarşı ordu qalxmışsa,*
...	...
Қыпшақпен қатар жаралған" [Yesenberlin, 2004: 55]	*Qıpçaqla yanaşı yaranmışdır.* (sərbəst tərcümə)

Xırda bir parçada qədim türk xalqlarının tarixində yovşanın nə qədər mühüm simvol olduğunu və Arğınların Qıpçaqlarla birlikdə tarixdə əhəmiyyətli rol oynadıqlarını görürük. Həmçinin, yovşan burada da sadəcə təbiətin bir elementi kimi yox, türk xalqının ruhunu və dirənişini ifadə edən simvoldur. Burada qədim türk xalqlarının tarixi-mədəni əlaqələri və etnik qrupların birgə mübarizəsi simvolik şəkildə ehtiva olunub. Bu poetik təsvir türk xalqlarının qarşılıqlı əlaqələrinin və ortaq köklərinin ifadəsi kimi əhəmiyyət daşıyır. Nəticədə, yovşan həm təbii, həm də mədəni-mənəvi kontekstdə dərin anlamlı bir simvola çevrilir.

Beləliklə, etnik mədəniyyəti ən geniş mənada – müəyyən qadağa və təlimatlar sistemi ilə ifadə olunan xalqın irsi yaddaşı kimi anlamaq lazımdır. Lakin etnik mədəniyyət aksioloji yanaşmanı da istisna etmir, yəni mədəniyyət hər dəfə müəyyən dəyər sistemi kimi qarşımıza çıxır və, nəticə etibarilə,

"yovşan" etnoeydemini əsaslı səbəblərlə qədim türkcə kimliyin və mədəniyyətin, qədim türkcə düşüncənin və özünü dərk etmənin dəyər sistemi kontekstinə ifadə olunmasıdı desək, yanılmarıq. Məhz bu səbəbdən də qədim rus salnaməsində "yovşan" etnoeydeminin təzahür etməsi, ya salnaməçinin türk mental dəyərləri ilə yaxından tanış olmasına, ya salnaməçinin özünün türk olmasına və ya, ən son halda, salnaməçinin türk ədbinin və ya ozanının təsiri altında öz əsərini qələmə almasına dəlalət edə bilər.

Hesab edirik ki, düşüncələrimiz yanlış deyil. Qədim rus ədəbiyyatının poetikası sahəsində tanınmış rus tədqiqatçısı A.A. Pautkin göstərilən süjetin həmin salnamələrdə yer almasını izah edərkən ritorik sual verir: "Bəlkə burada salnaməçinin ətrafındakı qıpçaq mühiti öz təsirini göstərib?" (qeyd bizimdir – Z.Ə.) [Pautkin, 2002: 219]. Daha sonra tədqiqatçı açıq şəkildə bəyan edir ki, yovşan haqqında əfsanədə "açıq-aşkar qıpçaq epik təsirləri" vardır [yenə orada]. Müəllif bu parçanın Qalitsk-Volın salnaməsində ortaya çıxmasının səbəbini belə görür: "xan Otroka doğma çölünün otunu qoxladan, Oryun kimi çöl ozanları, XII-XIII əsrlərdə cənub-rus knyazlarının saraylarında peyda ola bilirdilər; elə həmin dövrdə Skandinaviya dastançıları Yaroslav Mudrının sarayında olmuşdular, onun qayınatası isə vikinq və skald Harald idi" [Pautkin, 2002: 219-220]. Biz tədqiqatçının bu fikri ilə qismən razılaşmırıq, çünki qeyd etdiyimiz süjet salnamədə başqa mədəniyyətin rəngarəngliyinin (geniş mənada) meydana gəlməsinin də amili ola bilər. Çünki bu süjet ya salnaməçinin geniş məlumatlılığı nəticəsində yaranmış, ya da salnaməçi həmin hadisələrin şahidindən (şayiələrdən) eşitmiş ola bilər. Eyni fikri bölüşənlər arasında qıpçaq epik təsirlərinin qədim rus ədəbiyyatına təsirini araşdıran tədqiqatçılar – V.A. Parxomenko, M.D. Priselkov, A.N. Robinson və b. Da var [xüsusilə bax: Parxomenko,1940: 391-193]. Hətta A.A. Pautkin özünün əvvəlcə qeyd etdiyi fikrə sonradan zidd çıxaraq, bir başa türk təsirini qeyd etməsə də, ehtiyatla belə söyləyir: "rus knyazının ətrafının müəyyən bir hissəsi hətta qeyri-millətdən də ola bilər" (qyed bizimdir) [Pautkin, 2002: 220]. Düşünürük ki, A.A. Pautkinin fərziyyəsi daha etibarlıdır, çünki qədim rus salnaməçisi üçün hadisələrin bu qədər dəqiq və ətraflı təqdimatı, eləcə də tarixi təsvirlərin bu səviyyədə təkmilləşdirilməsi qeyri-adi olardı. **Nəticə etibarilə, süjet ya türkdilli şahidin təsiri altında yaranmış, ya da salnaməçi həmin türk xanları ilə bağlı hadisələrdən geniş şəkildə xəbərdar olmuşdur**.

Əgər yuxarıda deyilənlərə akademik L.N. Qumilyovun baxış bucağından yanaşsaq ("etnosun əsasını onu təşkil edən fərdlərin oxşarlığı deyil, kollektivin bütövlüyünü təmin edən və həmin kollektivin məskunlaşdığı landşaftın təbii xüsusiyyətlərinə qədər uzanan əlaqələr təşkil edir" [Qumilyov, 1980: 44]), onda tam əminliklə belə nəticəyə gələ bilərik ki, landşaftın təbii xüsusiyyətləri müəyyən mənada xalqın "etnosferası"nın (termin L.N. Qumilyovundur) formalaşması ilə sıx əlaqəlidir. Deməli, yovşan – qıpçaqların təbiətini və yaşam tərzini xarakterizə edən bir elementdir, tarixlə təbiətin, coğrafi mühitlə xalqın tarixi və onun etnik yaddaşı arasında əlaqə yaradan konnotativ koddur. Təsadüfi deyil ki, Rəşidəddin Fəzlullahın "Salnamələr toplusu"nda qədim türk tayfalarının yaşadıqları ərazilərin sərhədləri, bu tayfaların ad və ləqəbləri verilərkən onların təsviri məhz coğrafi xüsusiyyətlərə əsasən aparılır və bu da həmin tayfaların etnosferasına təsir edən bir amil kimi qiymətləndirilir: "Türklərin zahiri görünüşü, dialektləri və danışıq tərzi bir-birinə yaxın olsa da, hər tayfanın yaşadığı bölgələrin iqlim və təbii xüsusiyyətlərinin fərqliliyinə uyğun olaraq, onların görünüşündə və danışığında az da olsa müəyyən fərqlər müşahidə olunur" [Rəşidəddin, 1952: 75].

Deməli, iqlim xüsusiyyətləri, etnosların məişətinə və əxlaq sisteminə təsir edən, onların həyat tərzindəki fərqlilikləri müəyyən edən mühüm bir amildir və bu xüsusiyyətlər hər bir xalqın etnososial kimliyinin göstəricilərindən biridir. Başqa sözlə, yovşan – türk köçəri tayfalarının həyatında ayrılmaz etnik marker kimi məhz bu tayfalarla assosiasiya olunurdu və bunu açıq şəkildə qədim rus mənbələri də təsdiqləyir.

Nəticə

Göründüyü kimi, müxtəlif mədəniyyətlərdə düşüncə mexanizmlərinin fərqli olması bu mədəniyyətlərin yaşadığı dəyərlərin də fərqlənməsinə təbii şəkildə gətirib çıxarır. Bu baxımdan, belə linqvomədəniyyətlərə məxsus etnoeydemlər təkcə üst-üstə düşməyə bilər, hətta heç cür kəsişməyə də bilər: hər bir xalqın mədəni irsində yad mədəniyyətə məxsus elementlərin olması istər-istəməz hiss olunur, buna görə də burada yalnız akkulturasiya və yad mədəniyyətin təkrar istehsalı haqqında danışmaq olar. "Yad" mətnə münasibətdə isə reseptor (qəbul edən şəxs) həmin mətnin məzmununu öz mədəniyyətinin obraz və anlayışları ilə izah etməyə çalışır ki, bu da başqa mədəniyyətlərin irsinə nə dərəcədə bələd olunmasını şərtləndirir: beləliklə, doğma mədəniyyətin daxilində sanki gizlənmiş "maskalanmış" bir yad mədəniyyət özünü göstərir. Beləliklə, etnoeydemlər təkcə linqvomədəni əlamət deyil, həm də spesifik mətn və dil vasitələri ilə ifadə olunan, milli dünyagörüşünü əks etdirən, tarix boyu formalaşan xüsusi bir etnomədəni koddur.

Beləliklə, etnoeydemlər – tarixi inkişaf və formalaşma prosesində hər hansı bir xalqın etnik özünəməxsusluğu və milli dil mənzərəsi prizmasından izaha ehtiyac yaradan lakunlaşmış mətn komponentləridir. Onlar, eyni zamanda, müxtəlif linqvomədəniyyət daşıyıcılarının "düşüncə tərzinin" uyğun gəlməməsi ilə bağlı olaraq, milli-psixoloji və etnomədəni fərqləri göstərən, konkret etnosun spesifik etnik-mədəni özünəməxsusluğunu əks etdirən mətn siqnalları kimi çıxış edirlər. Uyğun və fərqli obrazların eyni kontekstdə qarşılıqlı əlaqəsi və təsiri bütöv mətnin dərk olunmasında müəyyən çətinliklər yaradır, bu da həmin obrazların etnoeydem – yəni bir növ etnik markerlər kimi dəyərləndirilməsini zəruri edir. Bu baxımdan, qədim mətndə etnoeydemlərin mövcudluğu, əslində, müəllifin başqa bir xalqın milli mədəniyyətini öz doğma mədəniyyətinin (və dilinin) prizmasından görməsi və ifadə etməsi ilə bağlıdır və bu da müəllifin linqvomədəni kompetensiyası məsələsini gündəmə gətirir. Sadə dildə desək, etnoeydemlərin üzə çıxarılması dərəcəsi bilavasitə salnaməçi-müəllifin linqvomədəni kompetensiyası və onun yad mədəniyyəti necə dərk etməsi ilə sıx bağlıdır (yuxarıda təhlil etdiyimiz kontekst kimi).

O ki qaldı "yovşan" etnoeydeminə, qədim rus düşüncəsi üçün bu etnik marker ənənəvi məzmun çərçivəsindən kənara çıxa bilmir, çünki yad mədəniyyətə, türk mental dəyərlərinə mənsub bir konnotativ koddur. Bu baxımdan "yovşan" etnoeydeminin təbiəti dialektik xarakter daşıyır: bir tərəfdən, konnotativ yüklü olmaqla konkret kontekstdə yad (türk) mədəniyyət elementinin aşkarlanmasını tələb edir, digər tərəfdən isə onun semantik çalarlarının gerçəkləşmə imkanlarından biri kimi çıxış edir. Bu kontekstdə ənənə yalnız mədəniyyətin davamı yox, həm də xalq yaddaşında yaşayan tarixi təcrübənin bir çox elementlərinin yaradıcı inkarı kimi çıxış edir. Lakin milli çalarlar məhz bu təcrübə elementlərində yaşayır və bəzən sırf milli səviyyədə bu təcrübə öz daxilində qapalı bir hal alır. Bu səbəbdən biz hesab edirik ki, "yovşan" etnoeydemi təkcə linqvomədəni işarə və ya ixtiyari dil işarələri sistemi deyil, tarixi şəkildə formalaşmış, sərt normaları və mətn-dil alətləri olan xüsusi bir etnomədəniyyətdir.

Sonda isə fikrimizi N.S. Trubetskoyun fikri bitirmək istərdik: "Turan (yəni türk – Z.A.) təsirində yalnız mənfi cəhətləri görmək – nankorluq və qeyri-vicdanlılıqdır. Bizim turan mənşəli əcdadlarımızla heç də slavyan əcdadlarımızdan az qürur duymamaq haqqımız var və həm birincilərə, həm də ikincilərə minnətdarlıq borcumuz düşür. Özünü yalnız arilərdən deyil, həm də **turan psixoloji tipindən hesab etmək şüuru – şəxsi və milli özünü dərk etmək istəyində olan hər bir rus üçün zəruridir**" (qeyd bizimdir – Z.Ə.).

İstifadə Edilmiş Ədəbiyyat:

1. Vahabzadə, B. (2004). *Seçilmiş əsərləri*. II cilddə. – II cild. Bakı, Öndər. – 400 s.
2. Есенберлин, İ. (2004). *Алмас Қылыш* / Көшпенділер – 1. – Алматы: Әдеби KZ. – 340 s.
3. Веселовский, А.Н. (1885). *Южнорусские былины* // ИОРЯС. – Т. 36. – СПб. – S. 367-379.
4. Гумилёв, Л.Н. (1980). *Древняя Русь и Кипчакская Степь в 945-1225 гг.* // Проблемы изучения и охраны памятников культуры Казахстана: Тезисы докладов и сообщений географической конференции. – Алма-Ата. S. 31-46.
5. Майков, А.Н. (1984). *Сочинения в двух томах* / Под общей редакцией Ф. Я. Приймы; составление и подготовка текста Л. С. Гейро. – М.: Правда, 1984. – Т. 1. – 502 s.
6. Пархоменко, В.А. (1940). *Следы половецкого эпоса в летописи* // Проблемы источниковедения. – Сб. 3. – М.-Л.. – S. 383-395.
7. Пауткин, А.А. (2002). *Беседы с летописцем. Поэтика раннего русского летописания*. – М.: МГУ. – 288 s.
8. *Полное собрание русских летописей* (ПСРЛ) (1908). Т. 2. Ипатьевская летопись. Галицко-Волынский свод. – Изд. 2-е. – СПб. – 782 s.
9. Приселков, М.Д. (1941). *Летописание Западной Украины и Белоруссии* // Ученые записки ЛГУ. – СИН. – Вып. 7. – Л. – S. 3-17.
10. Рашид-ад-Дин (1952). *Сборник летописей*. – Т. 1. – Книга 1. Перевод с персидского Л.А. Хетагурова. – М.-Л.: АН СССР. – 360 s.
11. *Сборник материалов для описания местностей и племен Кавказа* (Сборник) (1897). Изд-во Кавказского учебного округа. – Вып. 22. – Тифлис. – 240 s.
12. Симашко, М. (1966). *Емшан*. М. – 68 s.
13. Шейман, Л.А., Варич, Н.М. (1976). *О «национальных картинах мира» и об их значении для курса русской литературы в нерусских школах* // Вопросы преподавания русского языка и литературы в киргизской школе. – Фрунзе. – Вып. 6. – S. 64-114.

REFERENCES:

1. Vahabzadə, B. (2004). Seçilmiş əsərləri. II cilddə. – II cild. Bakı, Öndər. – 400 s.
2. Esenberlin, İ. (2004). Almas Qylysh / Kөshpendiler – 1. – Almaty: Ədebi KZ. – 340 s.
3. Veselovskij, A.N. (1885). Yuzhnorusskie byliny // IORYAS. – T. 36. – SPb. – S. 367-379.
4. Gumilyov, L.N. (1980). Drevnyaya Rus’ I Kipchakskaya Step’ v 945-1225 gg. // Problemy izucheniya I ohrany pamyatnikov kul’tury Kazahstana: Tezisy dokladov I soobshchenij geograficheskoj konferencii. – Alma-Ata. S. 31-46.
5. Majkov, A.N. (1984). Sochineniya v dvuh tomah / Pod obshchej redakciej F. YA. Prijmy; sostavlenie I podgotovka teksta L. S. Gejro. – M.: Pravda, 1984. – T. 1. – 502 s.
6. Parhomenko, V.A. (1940). Sledy poloveckogo eposa v letopisi // Problemy istochnikovedeniya. – Sb. 3. – M.-L.. – S. 383-395.
7. Pautkin, A.A. (2002). Besedy s letopiscem. Poetika rannego russkogo letopisaniya. – M.: MGU. – 288 s.
8. Polnoe sobranie russkih letopisej (PSRL) (1908). T. 2. Ipat’evskaya letopis’. Galicko-Volynskij svod. – Izd. 2-e. – SPb. – 782 s.
9. Priselkov, M.D. (1941). Letopisanie Zapadnoj Ukrainy I Belorussii // Uchenye zapiski LGU. – SIN. – Vyp. 7. – L. – S. 3-17.
10. Rashid-ad-Din (1952). Sbornik letopisej. – T. 1. – Kniga 1. Perevod s persidskogo L.A. Hetagurova. – M.-L.: AN SSSR. – 360 s.

11. Sbornik materialov dlya opisaniya mestnostej I plemen Kavkaza (Sbornik) (1897). Izd-vo Kavkazskogo uchebnogo okruga. – Vyp. 22. – Tiflis. – 240 s.
12. Simashko, M. (1966). Emshan. M. – 68 s.
13. Shejman, L.A., Varich, N.M. (1976). O «nacional'nyh kartinah mira» I 744ctua znachenii dlya kursa russkoj literatury v nerusskih shkolah // Voprosy prepodavaniya russkogo yazyka I literatury v kirgizskoj shkole. – Frunze. – Vyp. 6. – S. 64-114.

LEXİCAL REPETİTİONS İN HÜSEYN CAVİD'S DRAMA "IBLİS"
GUNAY TEYYUB GİZİ ALİYEVA

HÜSEYN CAVİDİN" İBLİS" DRAMINDA LEKSİK TƏKRARLAR

Günay Teyyub qızı Əliyeva
Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat kollecinin PHŞ
Azərbaycan dili müəllimi
https//orcid.org/0009-0008-2597-2072

Xülasə
Bu məqalədə Hüseyn Cavidin məşhur İblis dramında leksik təkrarların funksional-estetik rolu araşdırılır. Tədqiqat əsasında göstərilir ki, Cavid leksik təkrar vasitələrindən məqsədli şəkildə istifadə etməklə obrazların daxili psixoloji vəziyyətini dərinləşdirir, ideya-bədii yükü gücləndirir və dramatik gərginliyi artırır. Təkrar olunan söz və ifadələr əsərin fəlsəfi mahiyyətini ön plana çıxarır, simvolik və poetik mətn quruluşunun formalaşmasında mühüm rol oynayır. Məqalədə leksik təkrarların növləri – leksik, sintaktik, məsafəli və əlaqəli təkrarlar konkret nümunələrlə təhlil olunmuş, onların funksional yeri müəyyənləşdirilmişdir. Bu yanaşma Hüseyn Cavidin poetik dilinin zənginliyini və təkrarlardan istifadə estetikasını bir daha üzə çıxarır.
Açar sözlər: təkrar, leksik təkrar, sintaktik təkrar, məsafəli və əlaqəli təkrar

Abstract
This article explores the functional and aesthetic role of lexical repetitions in Hüseyn Cavid's renowned drama Iblis. The study demonstrates that Cavid deliberately employs lexical repetition to deepen the psychological states of his characters, enhance the thematic and artistic impact, and intensify dramatic tension. Repeated words and expressions bring the philosophical essence of the play to the forefront and play a crucial role in shaping its symbolic and poetic structure. The article analyzes different types of lexical repetitions—such as replication, lexical replication, syntactical replication, distant and contact replications—through specific examples and identifies their functional significance. This approach highlights the richness of Hüseyn Cavid's poetic language and his unique aesthetic use of repetition.
Keywords: replication, lexical replication, syntactical replication, distant and contact replication

Giriş

Ənənəvi dilçilikdə təkrar iki mənada izah olunur. Birinci mənada təkrar kökün, əsasın və ya bütöv sözün səs cildini dəyişmədən, eləcə də cüzi dəyişməsi ilə tam və ya qismən təkrarlanması ilə sözdüzəltmə, sintaktik, təsviri formaların, həmçinin frazeoloji vahidlərin yaradılması vasitəsidir. İkinci mənada təkrar üsluba aid olub nitq fiqurudur (repriza). Repriza səslərin, sözlərin, ifadələrin müəyyən ardıcıllıqla təkrarlanmasıdır (1, s.327).

Müasir dövrdə mətn dilçiliyi və diskursiv təhlildə təkrarlar koheziya yaratma vasitəsi kimi tətqiq edilir.

Təkrarlar müxtəlif meyarlar üzrə təsnif olunur. Təkrarın cümlədə və ya cümlədən böyük vahid daxilində olmasına görə sadə, leksik və fonetik növləri fərqləndirilir. Mətnin və ya onun bir hissəsinin intonasiya kompozisiyasında dəyişmənin nəticəsi kimi özünü göstərən fiqurlar qrupuna sintaktik

təkrarlar, tavtologiya, annominasiya və qradasiya, polisindeton və asindetonun müxtəlif növləri aid edilir. Qeyd edilən təsniflərdən biri mətn vahidinin ölçüsünə, digəri isə intonasiya kompozisiyasına əsaslanır. Təkrarlar dilin şöbələrinə aidliyə görə qruplara bölünür: fonetik, leksik və qrammatik təkrarlar.

Leksik təkrarlar söz və ya sözlərin təkrarıdır. Bu təkrarlar cümlə və ondan böyük vahidlər çərçivəsində qeydə alınır. Cümlə daxilində işlənən leksik təkrarlar sadə təkrarlar adlandırılır. Əgər cümlə daxilində işlənən leksik vahid sonrakı cümlədə, cümlədən böyük vahiddə, abzasda da olarsa, onda belə təkrarlar daha çox mətnin əlaqələnməsinə xidmət edir.

Hüseyn Cavid yaradıcılığında sadə leksik təkrarlardan geniş istifadə etmişdir. Bu cür təkrarlar onun "İblis" dramında da kifayət qədər çoxdur.

Məsələn,
Arif
Çünki yox bir şeyim əfsus, əfsus!
İblis
Bir şeyin yoxsa da könlün var ya,
Mənə ver könlünü...
Arif
Əsla, əsla!...
Bunu heç umma, saqın Arifdən,
Vermişəm könlümü yalnız ona mən (2, s.280-281).

Verilmiş nümunədəki təkrarlar üslubi səciyyə daşıyır, emosionallığı və ekspressivliyi gücləndirməyə xidmət edir. Birinci leksik təkrar "əfsus" sözünün təkrarlanması yolu ilə yaradılmışdır. Burada personajlardan biri digərinin ondan istədiyi bir şeyi verə bilməməsi ilə bağlı təəssüflənməsini ifadə edir. Sözün təkar olunması təəssüflənmə dərəcəsini gücləndirir (Çünki yox bir şeyim əfsus, əfsus!).
İkinci nümunə İblislə Arifin dialoqunun sonrakı hissəsindən götürülmüşdür. Burada Arif könlünü heç bir vəchlə İblisə verməyəcəyini, bununla bağlı fikrinin qətiliyini bildirmək üçün neqatorun təkrarlanmasından istifadə etmişdir (Əsla, əsla!..)
Cümlə daxilindəki təkrar-sadə təkrar yalnız leksik vahidinin təkrarı kimi qəbul oluna bilməz. Cümlə daxilində söz-forma və söz birləşməsi də təkrarlana bilir. Söz-forma qrammatik şəkilçi qəbul etmiş leksik vahiddir. Söz-formaların təkrarı zamanı müxtəlif variantlar meydana çıxır. Burada eyni bir söz-formanın təkrarı və kökü, əsası eyni olub qrammatik hissəsi fərqlənən söz-formaların təkrarları qeydə alına bilər. Məsələn, eyni sözün müxtəlif hal və digər qrammatik şəkilçilərlə təkrarı da özünü göstərir. Müxtəlif hal şəkilçisi qəbul etmiş, eyni məna daşıyan sözlərin təkrarı üslubi fiqur kimi poliptoton adlanır. Eyni qrammatik formanın saxlanması və mənanın dəyişməsi ilə bağlı təkrar isə antanaklasis adlanır.
Təkrarların konfiqurasiyası, onların kontekstə qoşulma xüsusiyyətlərinin təyini mətnin təkrarlanan komponentlərin kompozisiya rolunu təsvir etməyə imkan yaradır. Bu da onların həm kompozisiya-tematik funksiyasını, həm də müxtəlif dominantların yaranmasını əhatə edir.
Təkrarların bir -birindən hansı məsafədə və hansı mövqedə yerləşməsi də təkrar formalarının üslubi funksiyaları və mətnyaratma xüsusiyyətləri ilə bağlıdır. Təkrarların bir-biri ilə hansı məsafədə yerləşmə formalarını ayırmaq üçün ilk növbədə linqvistik baxımdan "məsafə" anlayışını açmaq lazım gəlir. Linqvistik məsafə iki vahidin bir-birinə nəzərən necə yerləşməsini və hansı vahidlərlə aralanmasını ifadə edir. Bunu bir qədər dəqiqləşdiməyə çalışaq.

Çünki yox bir şeyim **əfsus, əfsus!** Bu cümlədə leksik təkrarlar bilavasitə bir-birinin ardınca işlənir. Burada təkrarı ayıran başqa bir linqvistik vahid yoxdur. "**Əfsus**, yox, **əfsus!**" sintaktik konstruksiyasında təkrar olunan leksik vahidlər arasında başqa bir leksik vahid də işlənmişdir. Əgər təkrar dərinliyi terminini daxil etsək, birinci hal sıfır dərinliyinə, ikincin hal isə 1 dərinliyinə uyğun gələcəkdir. Təkrarlanan sözlər arasına daxil olan digər leksik vahidlərin sayı bir və ondan artıq ola bilər. **İntiqam! İntiqam!** (2, s.267); **Doğru**, çox **doğru** bir düşüncə... əvət (2, s.262); **Rəna**, hələ **Rəna!**.. onu iğva nə deməkdir (2, s.271); Ah, **babam**, bir də anlı-şanlı **babam!**
Cümlə daxilində işlənən leksik təkrarlar üslubi baxımdan emosionallığı və ekspressivliyi gücləndirir. Belə təkrarlar mətnin cümlədən böyük vahidlərində istifadə olunan təkrarlardan az olur. Təkrarların cümlədən böyük vahid daxilində işlənmə formaları, bu təkrarların yaratdığı üslubi fiqurlar daha rəngarəngdir.
Cümlə daxilindəki leksik təkrar onun semantik gərgin nüvəsini üzə çıxarır və cümlədə intonasiya fərqini şərtləndirir. Cümlə daxilindəki təkrar onun leksik vahidlər, hər şeydən əvvəl bir-biri ilə koheziya yaradır. Lakin həmin leksik vahid mətnin başqa hissələrində işlənirsə, bu halda leksik təkrarın üslubi təsir effekti dəyişir. Bu halda leksik təkrarların mətnyaratma və əlavə informasiya vermə xüsusiyyəti güclənmiş olur.
Cümlədən böyük mətn vahidində leksik təkrarların dörd növü vardır: anafora (A..., A...), epifora (...A, ...A), anadiplosis (...A, A...,), simploka (A...B, A...B). Göstərilən növlər üslubi fiqurların müxtəlif formalarıdır. Onların təyini mətndə iki ardıcıl cümlədə tutduqları mövqeyə əsaslanır.
Anaforada birinci və ondan sonrakı cümlə eyni sözlə başlayır. "İblis" dramında anaforadan geniş istifadə edilmişdir.

Ya rəb, bu nə dəhşət, nə fəlakət?
Ya rəb, bu nə vəhşət, bu nə zəlalət? (2,s.267)
İbn Yəmin
Çal, haydı **çal**, etmə fövti-fürsət!
Çal, durma sənindir işdə növbət.
Birinci zabit
Çal, sızlayıb inləsin o tellər,
Çırpınsın onunla həp könüllər.
İkinci zabit
Çal, məclisə zövqü nəşə gəlsin.
Çal, ta ölülər də rəqsə gəlsin. (2.s.289)

"İblis" dramında anaforanın yalnız iki deyil, ikidən artıq cümlədə özünü göstərməsi H.Cavid yaradıcılığı üçün daha səciyyəvidir. Məsələn,

Get, bəllidir insandakı xislət;
Sizlərdəki ülfət; sonu vəhşət,
Sizlərdəki şəfqət; sonu nifrət,
Sizlərdəki rəhmət; sonu lənət! (2, s.275)

Əsərdə anaforik münasibət cümlədən böyük vahidlər arasında da reallaşdırılır. Mətn dilçiliyində mətnin cümlədən böyük vahidlərindən istifadə olunur. Məsələn, abzas mətn vahididir. Böyük həcmli mətnlər müxtəlif sayda abzaslardan ibarət ola bilər. Belə olan halda iki ardıcıl abzasın eyni sözlə başlaması mümkündür. Mətnin tədqiqi göstərir ki, sözlərin bu şəkildə işlənməsi də koheziya məqsədi daşıyır və formasına görə anafora (A..., A...), epifora (...A, ...A), anadiplosis (...A, A...), simplokaya oxşardır. Sadəcə bu cür hallarda koheziya cümlələr arasında deyil, cümlədən böyük vahidlər arasında da yaradılır.

Qaldır məni, bir seyr eləyim xoşmu, gözəlmi
Cənnətdə mələklər?
Qaldır məni, ta görməyin insandakı zülmü
Bax yer üzü inlər (2, s.256)

"Mətn elə bir çoxluqdur ki, onun komponentləri müəyyən şəkildə qarşılıqlı əlaqədədirlər. Mətnin komponentləri kimi ayrı-ayrı bitkin cümlələr özünü göstərir. Eyni zamanda mətnin tərkibində onun ayrı-ayrı tərkib hissələrinin , komponentlərinin bitkinliyi nisbi xarakter daşıyır. Buradan belə çıxır ki, eyni cümlə modelinə mətn tərkibində və tərkibdən kənarda müxtəlif cür yanaşmaq lazımdır. ...mətn daha yüksək təşkil olunmuş sintaktik vahid olmaq etibarilə öz tərkibində olan cümlənin semantik və assosiativ strukturunu istədiyi şəkildə dəyişdirmə gücünə malikdir" (3, s.224). Dramda anaforik münasibətin çox maraqlı bir forması da özünü göstərir. Müəllif dörd misralıq mətn parçasında birinci və üçüncü, ikinci və dördüncü cümlələr arasında anaforik münasibət reallaşdırılır.

Baxdım, əziyor ruhunu həp qeydi-əsarət,
Gəldim ki, edim ta səni hürriyyətə dəvət.
Baxdım, səni məhv etmədə min dürlü xəyalət,
Gəldim ki, verim qəlbinə bir nuri – həqiqət. (2, s.258)

Anaforik münasibətin yaradılması prosesində həm sadə leksik təkrarların sıralanmasından, həm də bu təkrarların mətnin ayrı-ayrı abzaslarında işlənməsindən istifadə olunması da diqqəti cəlb edir.

Rəna
İntiqam almadan, inan yaşamam.
Babasının xəyalı
İntiqam! İntiqam!..
İblis
İntiqam! İntiqam! (2, s.267)

Bu parçada həm sadə leksik təkrarlar işlənir, həm də anaforadan istifadə olunmuşdur. Təkrar olunan vahidlərin müxtəlif personajların dilindən səslənməsi onların üslubi effektini, təsir gücünü artırır.
Leksik təkrar eyni bir cümlədə yerləşə bildiyi kimi, fərqli cümlələrin tərkibində də ola bilər. Leksik təkrarlara çox zaman cümlə tərtibindən yanaşıldığından, onları bir-birindən ayırmaq vasitəsi söz-forma olur. Əgər leksik təkrarlar bir cümlə daxilində bir-birininin ardınca işlənirsə, bu kontakt leksik təkrardır. Kontakt leksik təkrarlarlararası məsafə sıfırdır.

Məsələn,
Arif
Çünki, yox bir şeyim əfsus, əfsus!
İlblis
Bir şeyin yoxsa da könlün var ya,
Mənə ver könlünü...
Arif
Əsla, əsla!..
Bunu heç umma, saqın Arifdən,
Vermişəm könlümü yalnız ona mən.

Əgər mətində işlənən və bir-birindən fərqlənən söz- formaları əlifbanın baş hərfləri ilə işarələsək, onda leksik təkrar bu hərflərin müəyyən zəncirində bir-birindən müəyyən aralıqda yerləşmiş eyni hərflər olacaqdır. "İblis" dramında həm kontakt, həm də distant təkrarlar kifayət qədər çoxdur. Qeyd edilən təkrarlar şairin yaradıcılığında mətnyaratma prosesində mühüm rol oynayır və əsas koheziya vasitəsi kimi çıxış edir.

Arif! Mənə bax, **səndəmi** övhamə qapıldın?
Biçarə coçuk, **səndəmi** İblisə tapındın?
Dahilər, ululəzim nəbilər belə **məndən**
Heç vəchlə təxlisi-giriban edəməzkən
Daim **məni** təhqir edərək, əyləniyorsan...
Həm **söyləniyor, söyləniyor, söyləniyorsan**
Bir gün gələr, əlbəttə, bu izan ilə **səndə**
Bazicə olarsan qoca **İblis**in əlində.
İblis, o böyük qüdrət, o atəşli müəmma
Bir gün **səni** də kəndinə eylər kölə... amma
Heyhat olamaz dərdinə bir kimsədən **imdad,**
İmdadə qoşar, qoşsa fəqət ah ilə fəryad.

Hüsey Cavid yaradıcılığında təkrarın ümumi mətn boyu səpələnməsi eyni təkrarın mətnin müxtəlif yerlərində işlənməsi qeydə alınır. Bu cəhət mətnyaratmaya xidmət etməklə yanaşı, əsərin ümumi, emosional təsir gücünü artırmış olur.

Təkrar edərəm, zəfi burax, **aldanıyorsan,**
Həp **aldanıyorsan**, mənə bax, **aldanıyorsan!** (2, s. 274)

Bir neçə cümlədən ibarət olan bu parçada leksik təkrar üç dəfə qeydə alınır. Tərarın predikat olması onun hər birinin ayrıca cümlə kimi qəbul edilməsinə əsas verir. Nəticədə, təkrar eyni fikrin təkrar yolu ilə təlqin edilmə səviyyəsinə qaldırılır.

Mətnin müxtəlif yerlərində eyni təkrarın işlənməsinə dair aşağıdaki nümunələri göstərmək olar:

Ya rəb, bu nə **dəhşət,** nə fəlakət?
Ya rəb, bu nə **vəhşət,** nə zəlalət? (2, s. 254)
Başdan-başa həp yer üzü **vəhşət**,
İblis ilə həmrəngi siyasət. (2, s. 255)
Artıq yetişir, anladım, izaq nə hacət,
Qarşındaki İblis imiş, ey vah, nə dəhşət! (2, s. 258)
Sizlərdəki ülfət; **sonu vəhşət**
Sizlərdəki şəfqət; sonu nifrət (2, s. 275) və.s

Nəticə

Beləliklə, aydın olur ki, Hüseyn Cavidin bütün yaradıcılığında, o cümlədən də "İblis" dramında təkrarların həm üslubi, həm də mətnyaratma funksiyasında leksik və sintaktik təkrarların işləkliyi diqqəti cəlb edir. Dahi dramaturq müxtəlif növlü leksik təkrarlardan, o cümlədən sadə leksik təkrarlardan geniş istifadə etməklə əsərin bədii təsir gücünü artırmış, mətnin bütün hissələrinin bir-biri ilə üzvi bağlılığını təmin etmişdir.

Ədəbiyyat

1. О. С. АХМАНОВА. СЛОВАРЬ ЛИНГВИСТИЧЕСКИХ ТЕРМИНОВ. ИЗДАТЕЛЬСТВО «СОВЕТСКАЯ ЭНЦИКЛОПЕДИЯ». МОСКВА —1966
2. H.CAVİD İBLİS// H.CAVİD ƏSƏRLƏRİ. II CİLD BAKI, YAZIÇI, 1982 SƏH.251-343
3. ABDULLAYEV K. AZƏRBAYCAN DİLİ SİNTAKSİSİNİN NƏZƏRİ PROBLEMLƏRİ. BAKI, MAARİF, 1998
4. DÜZGÜN YAZI QAYDALARINA (ORFOQRAFİYA) YİYƏLƏNMƏYİN BAŞLICA ŞƏRTLƏRİ(ELMİ İŞ JURNALI 2024)
https://aem.az/uploads/files/2024-01/1706632145_1706552845_elmi-s-18_1-1-66-71.pdf
5. SUBBAKALAVR PİLLƏSİNDƏ PROSEDURAL BİLİYİN FORMALAŞDIRILMASINDA MƏŞĞƏLƏNİN ROLU (ELMİ İŞ JURNALI 2024)
https://aem.az/uploads/files/2024-05/1716650442_e__18_5-elmi-baxis-143-147.pdf
6. MƏNTİQƏ, REAL GERÇƏKLİYƏ DAHA ÇOX SÖYKƏNƏN AŞIQ ƏLƏSGƏR YARADICILIĞINDAN BƏZİ NÜMUNƏLƏR (ARTİ 2024)
https://journals.arti.edu.az/uploads/f_20240910065837198197146 2.p

AZERBAIJAN LITERATURE IN GERMAN LITERARY LANGUAGE

AZƏRBAYCAN ƏDƏBİYYATI ALMAN ƏDƏBİ DİLİNDƏ

Aynur Niftalıyeva
Bakı Dövlət Universiteti və Azərbaycan Turizm Menecment Universitetinin müəllimi

Xülasə
Ədəbi əlaqələr mədəni əlaqələrlə paralel şəkildə aparılır. Bu məqalədə Azərbaycan ədəbiyyatının Alman ədəbi dilinə necə təsir etdiyi araşdırılmışdı. Qeyd edək ki, dilin zənginliyi bir başa ədəbiyyatla bağlıdır. Çünki dünya ədəbi nümayəndələrinin əsəri orjinaldan bədii tərcümə etməklə oxuculara çatdırlır. Bu tərcümələr mükəmməl və müfəssəl şəkildə olduqda oxucu onu sanki öz ana dilində oxuyub, yazıçının fikrini dərk edir. Çünki hərfi tərcümə və bədii tərcümə arasında çox dərin fərqlər mövcuddur. Məqalədə alman ədəbi nümayəndərinin bizim ədəbi nümayəndələrimiz haqqında fikirləri əsas götürülmüşdü. Eyni zaman da bir çox alman ədəbi nümayədərinin islam dininə və islam peyğəmbərinə verdiyi dəyərlər araşdırılmışdı. Bu mövzu haqqında orjinaldan bədii tərcümə olunmuş müəyyən mətn hissələrini və şeir parçalarını liqvistik təhlil etməklə araşdırdıq. Ədəbi dünyamızın alman ədəbi nümayəndələrinin yaradıcılığına necə təsir etdiyini tərcümələrimizlə göstərdik.
Açar sözlər: Ədəbiyyat, islam dini, ədəbi əlaqələr, şeir, tərcümə

Abstract
Literary relations are carried out in parallel with cultural relations. This article examined how Azerbaijani literature influenced the German literary language. It should be noted that the richness of the language is directly related to literature. Because the works of world literary figures are brought to readers through artistic translation from the original. When these translations are perfect and detailed, the reader feels as if they are reading it in their native language and understands the writer's point of view. Because there are very deep differences between literal translation and artistic translation. The article was based on the opinions of German literary representatives about our literary representatives. At the same time, the values that many German literary representatives gave to the Islamic religion and the Islamic Prophet were examined. We examined certain text passages and poetry fragments that were artistically translated from the original on this topic through linguistic analysis. Through our translations, we showed how our literary world influenced the work of German literary figures.
Keywords: Literature, Islamic religion, literary relations, poetry, translation

Резюме
Литературные связи осуществляются параллельно с культурными связями. В статье рассматривается влияние азербайджанской литературы на немецкий литературный язык. Следует отметить, что богатство языка напрямую связано с литературой. Потому что произведения деятелей мировой литературы доносятся до читателей посредством художественного перевода с оригинала. Когда эти переводы совершенны и подробны, у читателя создается ощущение, будто он читает их на родном языке, и он понимает точку зрения автора. Потому что между буквальным переводом и художественным переводом существуют очень глубокие различия. Статья основана на мнениях немецких деятелей литературы о наших деятелях литературы. В то же время были рассмотрены ценности, которые многие представители немецкой литературы придавали исламской религии и исламскому пророку. Мы рассмотрели отдельные текстовые отрывки и фрагменты поэзии, художественно переведенные с оригинала по данной теме, с помощью лингвистического

анализа. С помощью наших переводов мы показали, как наш литературный мир повлиял на творчество немецких литературных деятелей.
Ключевые слова: Литература, исламская религия, литературные связи, поэзия, перевод

Azərbaycanın dahi şairi Nizami Gəncəvinin ədəbi yaradıcılığı əsrlər keçsə də hər zaman şərq və qərb ədəbi dünyasının diqqət mərkəzində olmuşdur. Hətta alman mütəfəkkiri, maarifçilik dövrünün görkəmli nümayəndəsi Yohan Volfqanaq fon Göte (Johann Wolfgang von Goethe) də onun yaradıcılığı ilə xüsusilə maraqlanmışdır. Yohan Volfqanq Götenin 1814-1819-cu illərdə yazdığı "Qərb-Şərq Divanı" (West- östlicher Divan) əsəri Höte Marianna von Willemer ilə yazışmalarından və şərqşünas Cozef fon Hammerin Hafizin şeirlərinin tərcüməsindən ilhamlanaraq qələmə almışdır. Əsər 1827-ci ildə daha geniş formada çap olunmuşdu. Götenin 12 bölmədən və "Qeydlər və risalələr" (Noten und Abhandlungen Goethe) fəslindən ibarət "Qərb-Şərq Divanı"nın "Hafiz kitabı"nın (Buch des Hafis) 2-ci hissəsində belə bir qeyd vardır: "Hafizdən qaynaqlanır və ilkin olaraq bütün "Qərb-Şərq Divanı" üçün bir şüar kimi nəşr olunub". Belə bir fikir də mövcuddur ki, "Johan Volfqanq Götenin "Qərb-Şərq Divanı" "Cənnət kitabı"dır. Bu "Qərb-Şərqi" daha yaxşı başa düşmək üçün isə "Cənnət kitabı"nın "Qeydlər və risalələr"i (Noten und Abhandlungen Goethe) əsas təşkil edir." Y.Göte qərblə şərqin bir-birinə bağlı olduğunu göstərən, 12 bölmədən olan bu əsərində İslam peyğəmbərinin (Məhəmməd Peyğəmbər s.ə.s.) və Şərq mənəvi dünyasının müqəddəslərinə şeirlər həsr etmişdir. İlk nəşr aşağıdakı 12 kitabdan ibarətdir:

➤ Moganni Nameh (muğamnamə) – Buch des Sängers (müğəninin kitabı)
➤ Hafis Nameh (Hafiznamə) – Buch Hafis (Hafizin kitabı)
➤ Usch Nameh (Eşqnamə) – Buch der Liebe (sevgi kitabı)
➤ Tefkir Nameh (Təfkirnamə) – Buch der Betrachtungen (Düşüncə kitabı)
➤ Rendsch Nameh (Rəncnamə) – Buch des Unmuts (narazılıq kiktabı)
➤ Hikmet Nameh (Hikmətnamə) – Buch der Sprüche (Nəsihətlər kitabı)
➤ Timur Nameh (Teymurnamə) – Buch des Timur (Teymurun kitabı)
➤ Suleika Nameh (Züleyxanamə) – Buch Suleika (Züleyxanın kitabı)
➤ Saki Nameh – Das Schenkenbuch (Hədiyyələr kitabı)
➤ Mathal Name – Buch der Parabeln (Məsəllər kitabı)
➤ Parsi Nameh – Buch des Parsen (Farsların kitabı)
➤ Chuld Nameh Buch des Paradieses (Cənnət kitabı)

İngilis yazıçı və şairi Rudyard Kiplingin "Şərq şəqdir, qərb qərbdir onlar heç vaxt bir araya gələ bilməz" (Ost ist Ost, West ist West, sie 752ctual nie zueinander kommen) ifadəsindən fərqli olaraq Göte tam əksini düşünürdü. Y.Göte deyir:

Alman dilində	Azərbaycan dilində
Wer sich selbst und andre kennt	Özünü və başqalarını tanıyan hər kəs
Wird auch hier erkennen:	Burada da özü ilə tanınar:
Orient und Occident	Şərqlə qərbi
Sind nicht mehr zu trennen.	Daha bir-birindən ayırmaq olmaz.

Bu sözlərlə Y.Göte şərq və qərbi tərənnüm etməklə, əsərə daxil olan bölmələrdə Hz. Məhəmməd Peyğəmbər (s.a.s), xəlifələr, şair şahlar, Firdovsi, Ənvəri, Nizami, Cəlaləddin Rumi, Sədi, Hafiz, Cami, Əhdi-Ətiq, Həcc ziyarətləri, səlib yürüşləri və sair təsvir etmişdir.
Y.Göte "Şərq-Qərb Divanı" əsərinin "Muğamnamə" (Moganni Nameh – Buch des Sängers – müğəninin kitabı) bölməsinin "Hicrət" (Hegire) və "Hafiznamə" (Hafis Nameh – Buch Hafis – Hafizin kitabı) bölməsinin "Fetwa" hissələrinə daxil olan Hafiz təxəllüsü ilə tanınan orta əsr şairi

Xoca Şəmsəddin Muhəmməd Həfiz Şirazidən bəhs etmişdir. Hafizin "Divan"ından ilhamlanaraq Göte öz şəxsiyyətini fars sufi ustadı ilə müqayisə edib, birləşdirirdi. Qeyd edək ki, Göte hər şeydən əvvəl şərqdən hikmət, dindarlıq və sülhü əldə etmək istəyirdi. O, Hafizin şeirlərinin hər misrasının misilsiz sehrindən bəhs etməklə bu əsəri onun yaradıcılığını əsas götürməklə yazdığını vurğulamışdır. Göte Hafizin sərhəd tanımayan ilhamından yazırdı.

Aşağıda "Muğamnamə" hissəsindən bir parça verilmişdir:

Moganni Nameh: Buch des Sängers	Muğamnamə: Müğənninin kitabı
Hegire	Hicrət
Nord und West und Süd zersplittern,	Şərqdən Qərbə, Şimala dünya başdan başa qan,
Throne bersten, Reiche zittern:	Tac düşür, ölkə çökür...
Flüchte du, im reinen Osten	Neçə səltənət viran!
Patriarchenluft zu kosten,	Bu zülmətdən yorulsan, Cənnət çəksə canını
Unter Lieben, Trinken, Singen	Hafizin karvanına sür ömür karvanını!
Soll dich Chisers Quell verjüngen	Eyş-işrət dünyasının çılğın çal-çağırları,
Dort im Reinen und im Rechten	Ruhuna qida verər ölməz həyat suları...
Will ich menschlichen Geschlechten	Orda düşüncə azad, ruhun istəkləri hür,
In des Ursprungs Tiefe dringen,	Hər insanın köksündə canlı tarix döyünür.
Wo sie noch von Gott empfingen	Orda axtar kökünü, qulaq yetir hər səsə.
Himmelslehr' in Erdesprachen	Qutsaldır Tanrı eşqi göydən necə gəldisə.

Y.Göte Nizami Gəncəvini "bütün zamanların və xalqların şairi" hesab edirdi və o qeyd edirdi ki, "İnsana məhəbbət hissi Nizaminin əsərlərində dahiyanə ifadə olunmuşdur." Y.Götenin "Qərb-Şərq Divanı"nın "Eşqnamə" (Usch Nameh – Buch der Liebe-Sevgi kitabı) bölməsinin "Oxu kitabı" (Lesebuch) hissəsini Nizami Gəncəviyə həsr etmişdir. O, Nizami Gəncəvi yaradıcılığını sevgi salnaməsinin ən ali kitabı kimi qiymətləndirmiş və sanki onun kitabını oxuyan özünü güzgüdə görür və axtardığı bütün suallara cavab 753ctua. Nizami Gəncəvinin 753ct dolu sözlərində həqiqət yolunun başladığını göstərir.

Ushk Nameh: Buch der Liebe	Eşqnamə: Sevgi şeiri
Lesebuch	Oxu kitabı
Wunderlichstes Buch der Bücher	Sevgi salnaməsi ən ali kitab,
Ist das Buch der Liebe.	Orda hər suala taparsan cavab.
Aufmerksam hab ich's gelesen:	Onu ömür kimi vərəqləyərsən
Wenig Blätter Freuden,	Özünü güzgüdə görmək istəsən.
Ganze Hefte Leiden;	Beşcə səhifəyə sığmış səadət
Einen Abschnitt macht die Trennung.	Sonra fəsil-fəsil ayrılıq, həsrət
Wiedersehn! Ein klein Kapitel,	Görüş beş-üç cümlə, ya da ki bir an
Fragmentarisch. Bände Kummers,	Xoşbəxtlik yazarın çıxmış yadından.
Mit Erklärungen verlängert,	Bir cild başdan-başa gözüyaşlı qəm,
Endlos, ohne Maß.	Oxuyub sonuna çata bilmirsən.
O Nisami!-doch am Ende	Ey, böyük Nizami! Sözü 753ct dolu
Hast den rechten Weg gefunden:	Şeirindən başlayır həqiqət yolu.
Unauflösliches, wer 753ctu es?	Çözə bilərdinmi bu naxışı sən
Liebende, sich wiederfindend	Özün sevilməsən, sevə bilməsən.

Y.Götenin islam dininə böyük marağı vardı. Y.Göte "Qurani-Kərim"I yad prizmalardan deyil, öz məhiyyətindən dərk etməyə çalışırdı. Həqiqətən "Quranın göylərdən Peyğəmbərə nazil olduğu o

müqəddəs gecəni dərk etmək insanı heyrətə gətirir" deyən və bu gecə "qazanılacaq çox şey var" deyə əlavə edən Göte, Qurana olan mənəvi bağlılığını açıq şəkildə bəyan edir." Əlbəttə, Götenin burada bəhs etdiyi müqəddəs gecə, Quranın nazil olduğu "Qədr gecəsi"dir.

Y.Götenin Qurana marağı hələ gənclik illərindən vardı. O, Quran oxumağa Qotfrid fon Herderin (1744-1803) Strasburqda olarkən onu Quranı oxumağa dəvət etməsi ilə başlayır. Belə ki, Göte Herderə deyir ki, "Sən elə hikmətli və gözəl sözlər istifadə edirsən ki, mənbəsi çox maraqlıdır." Herder Götəyə gülümsəyir və deyir "Bu sözlərin mənşəyi ilə həqiqətən maraqlanırsınız?". Göte; "bəli, məni sizə bağlayan bu hikmətli sözlərin mənbəyidir." Deyəndə, Herder; "Budur mənim hikmətli söz mənbəyim" deyib ərəbcə yazılmış bir kitabı ona göstərir. Herder Quranın həyat və ədəbiyyat üçün əhəmiyyətini vurğulayaraq, "Alman millətinin belə bir mənbəyə malik kitabı olsaydı, kim bilir necə böyük yazıçılar, şairlər yetişərdi, biz başqa dillərin təsirinə düşməzdik. Həmçinin, bir çoxumuz soy-kökümüzü unudub yolunu itirməzdi." Y.Göte 1772-ci ilin iyul ayında Herdere yazdığı məktunda belə yazırdı: "Mən Musanın Quranda dua etdiyi kimi dua etmək istəyirəm: "Ey Rəbbim! Köksümü açıb genişlət." (Ta Ha surəsi/20:225-28)

O, dövrdə Hz. Məhəmməd peyğəmbər (s.a.s) haqqında əldə etdiyi bir çox əsərlərlə tanış olmuşdu. Bu əsərlərdən bəhrələnərək "Mahomet" (Hz. Məhəmməd peyğəmbər (s.a.s)) adlı bir tamaşa hazırlamışdır. Qaralama şəklində qalan bu əsərin bölmələri daxilində Hz. Əli və Hz. Fatimə arasında qarşılıqlı tərənnüm halında inkişaf edən bir parçanı ayırıb, müstəqil bir şeirə çevirmişdi və həmin şeiri "Göttinger Musealmanac" jurnalında "Mahomets Gesang" (Məhəmmədin nəğmələri) adı ilə nəşr etdirmişdi. Şeir türk dilinə Sadi Irmak və başqaları tərəfindən tərcümə olunmuşdur.

Hətta 1813-cü ilidə "Şərq Qərb Divanı"nını yazmamışdan əvvəl bir alman əsgəri onun üçün İspaniyadan "Qurani-Kərim"in sonuncu surəsi olan "Nas" surəsinin qədim ərəb əlyazmasını gətirir və o, şərqşünas dostlarının köməyi ilə həmin surəni köçürür və mənasını anlamağa çalışır. Sonralar şair bu hadisəni "Allahdan göndərilən ilahi əlamət kimi yozurdu." O, "Müqəddəs Quranı ilahi vəhy, Həzrəti Məhəmməd peyğəmbəri (s.a.s) Allahın peyğəmbəri kimi qəbul edirdi."

Y.Götenin "Qərb-Şərq Divanı"nını yazmasında sadəcə Hafizdən deyil, "Qurani- Kərim"dən ilham aldığını sübut edən şeir nümunələrindən birini təhlil edək:

Gottes ist der Orient!	Şərq də Allahındır!
Gottes ist der Okzident!	Qərb də Allahındır!
Nord- und südliches Gelände	Şimal və cənub
Ruht im Frieden seiner Hände.	Sülh onun əllərində.

Y.Göte şeirin ilk iki misrasında, "Bəqərə" surəsinin 142-ci ayəsini Cozef fon Hammer Purqstallın alman dilinə tərcümə etdiyi kimi qələmə almışdır. Cozef fon Hammer Purqstall belə tərcümə etmişdir. "Sag: Gottes ist der Orient, und Gottes ist der Occident." Y.Göte bu fikri əsas götürməklə, ona şimal və cənubu da əlavə etdi. O, həmçinin "Ruht im Frieden seiner Hände (Sülh onun əllərində)" kimi sülh mesajını da əlavə etmişdir. Bu dörd misranın mənası 754ctual olduğu bu mesaj sadəcə bununla məhdudlaşmır, Mommesində vurğuladığı kimi, bu sətirlər "Götenin islama münasibətinin xülasəsidir". Divandakı Suleika (Züleyxa) kitabında kiçik dəyişikliklər edir, məsələn Yusif adının əvəzinə Hatəm adını istifadə edir.

Azərbaycan ədəbiyyatının digər simaları da alman ədəbiyyatında rəğbətlə qarşılanır. O cümlədən, Qurban Səid tərəfindən yazılmış "Əli və Nino" romanı da bu səpkidəndir. Bu romanla bağlı bir çox tədqiqatlar aparılmışdır.

"Əli və Nino" romanı ilk dəfə 1937-ci ildə Vyanada alman dilində E.P.Tal Verlaq tərəfindən nəşr edilmişdir. Əsərin ilk nəşrinin müəllifi kimi Qurban Səid göstərilmişdir. Lakin rəsmi sənədlərə əsasən "Qurban Səid avstriyalı baronessa Elfrida fon Ehrenfelsin təxəllüsüdür. Buna görə də uzun illər əsərin həqiqi müəllifi Elfrida fon Ehrenfels hesab olunurdu. Lakin amerikalı şərqşünas Tom Rayz əsərin əslən Azərbaycandan olan yəhudi mənşəli yazıçı Lev Nissembauma məxsus olduğunu, baronessa

Elfrida fon Ehrenfelsin isə yalnız onun məşuqəsi olmasını sübut edə bilmişdi. Azərbaycan Yazıçılar Birliyi isə 1993-cü ildə qəbul etdiyi qərarda əsərin müəllifinin Y.V.Çəmənzəminli olduğunu təsdiq etdi.”Bu əsər bügünə qədər kim tərəfindən və hansı dildə yazıldığı barədə hələ də mübahisələr vardır. 30-dan çox dilə tərcümə olunan bu əsər son on ildə dünya da ən çox oxunan əsərlər siyahısında olan bestsellerə çevrilmişdir.

Qurban Səidin alman dilində yazılmış “Əli və Nino” (Ali und Nino) romanı ilk dəfə 1970-ci illərin əvvəllində Almaniyanın Münhen şəhərində “Azadlıq” radiosunda qismən tərcümə olunub radio proqramı şəklində səsləndirilmişdir. Lakin həmin dövrlərdə roman ilk olaraq alman dilindən ingilis dilinə, ingilis dilindən isə türk dilinə tərcümə olunmuşdur. Radioda edilən tərcümə Türkiyə türkcəsindən dilimizə keçmişdir. Roman ana dilimizə “1989-cu ildə Azərbaycan Yazıçılar İttifaqının sədr müavini, “Azərbaycan” ədəbi-bədiii jurnalının baş redaktoru, yazıçı, mərhum Yusif Səmədoğlunun şəxsi xahişi əsasında “Əli və Nino” romanı tanınmış 755ctual755755ri və yazıçı Mirzə Xəzər tərəfindən almancadan tam olaraq tərcümə edilmişdir.”

Əsərin mövzusu dünya müharibəsi və Rusiya inqilabı illərində müstəqil və demokratik Azərbaycanın qurulmasının cərəyan etdiyi dövrü əhatə edir. Romanın hekayəsi romanın qəhrəmanı Əli xan Şirvanşirin xatirələri və hadisələr haqqındadır. O, zadəgan müsəlman oğlu idi və qərb-xristian dünyasına məxsus olan zadəgan ailənin qızı olan gürcü qızı Ninoya aşiq olur. Əli xan Asyalıdır. Nino Kiponi isə Aavropaya meyillidir. İki gənc sevgiləri uğrunda müabrizə aparırlar. Əli xan onu öz mədəniyyətinə və dininə uyğunlaşmasını arzulayır, lakin Nino isə bunu qəti şəkildə istəmir. Amma bunlara baxmayaraq onlar bir-birini sevməyə davam edirlər. Ninonun ailəsi əvvəlcə etiraz etsə də sonra onların evlənməsinə razılıq verirlər və Əli xanı qohumları ilə görüşmək üçün Tiflisə aparır. Onlar Tiflisdə olduğu zaman Ninonu sevən erməni gənc Naxararyan tərəfindən qaçırıldığını öyrənir. Əli xan dostaları ilə birlikdə onları 755ctua və Naxararyanı öldürür. Əli xan bundan sonra axtarılan bir cinayətkardır və o, Dağıstana gedir. Bir gün onun dostu Molla Seyid Ninonu gətirir və onlar evlənirlər. Rusyadakı inqilabdan sonra Əli xan artıq axtarışda olan cinayətkar deyildi və onlar Bakıya qayıdırlar. Lakin burada da Rusların silahlandırdığı ermənilərlə münaqişələr gedirdi. Bu münqaişələrdə Əli xan da iştirak edirdi. Və sonda erməni-rus qoşunları şəhərə soxulur. Bu hadislər zamanı Əli xan yaxınlarını itirir və Nino ilə birlikdə İrana gedir. Lakin Nino bu ölkəyə öyrəşə bilmirdi. Qafqaz İslam Ordusu şəhəri azad etdikdən sonra onlar Bakıya qayıtdılar. Azərbaycan hökuməti artıq Gəncədən Bakıya gəlmişdi. Əli xan və Ninonun bir qızı vardı. Bakı ruslar tərəfindən işğal edildikdən sonra Əli xan arvadını və qızını Tiflisə göndərir. Əli xanı isə Gəncə körpüsündə güllələyib öldürürlər. Əli xanın ölümünü aşağıdakı kimi təsvir edilir:

Ali Khan Schirwanschir fiel um viertel nach fünf, an der Brücke von Gandscha, auf seinem Posten hinter dem Maschinengewehr. Seine Leiche stürzte in das trockene Flußbett. Nachts stieg ich hinag, um sie zu 755ctual. Sie war von acht Kugeln durchbohrt. In seiner Tasche fand ich dieses Heft. Wenn Gott erlaubt. Überbringe ich es seiner Frau. Wir bestatteten ihn in der frühen Morgenstunde im Moscheehof kurz bevor die Russen zur letzten Attacke übergingen. Das Leben unserer Republik 755ctual Ende wie das Leben Ali Khan Schirwanschirs. (berlin)

Rittmeister İljas Beg, Sohn des Seinal Aga aus dem Dorfe Binigady bei Baku.

Əli xan Şirvanşir altıya on beş dəqiqə işləmiş Gəncə körpüsündə, pulemyot arxasındakı mövqeyində həlak oldu. Onun meyidi qurumuş çaya düşmüşdü. Bədənini səkkiz güllə deşmişdi. Cibindən bu dəftəri tapdım. Allah imkan versə, dəftəri onun arvadına çatdıracağam. Biz səhər erkən, ruslar sonuncu hücuma keçməzdən bir az qabaq onu məscidin həyətində dəfn elədik. Cümhuriyyətimizin ömrü Əli xan Şirvanşirin ömrü kimi sona çatdı.

Bakının Binəqədi qəsəbəsindən olan Zeynal Ağanın oğlu, rotmistr İlyas bay”

Ədəbiyyat Siyahısı

1. Qurban Səid. Əli və Nino. Bakı, Şərq-Qərb, 2006, 208 səh.
2. 12.M. Turhan Özdemir, Goethenin Şiirinde Hz. Muhammed, A.Ü.İlahiyyat Fakültesi Dergisi, C. XVIII (1970), Ankara, s. 137-140.
3. Mommsen, Goethe und der Islam, 26. Ayrıca Goethe'nin Götz von Berlichingen (1772) piyesinde de Ku'ran ile bir takım bağlantılar mevcuttur. Bkz. Mommsen, Goethe und der Islam, 26-30.
4. .Originalschreibweise aus West-östlicher Divan, Aus dem Nachlass, Studienausgabe Philipp Reclam jun., hrsg. V. Michael Knaupp, Stuttgart 1999, S. 521
5. .Kurban Said. Ali und Nino, Ullstein Berlin, 2000
6. Avropa tədqiqatlarında Höteyə istinadla Nizami və... https://science.gov.az > news > open
7. Goethe şiirindeki islami motifler/ İlim ve Medeniyyet. https://www/ilimvemedeniyyet
8. .görkəmli şəxsiyyətlər nizami gəncəvi haqqında – Aydın Yolhttps://aydinyol.aztc.gov.az > newsview > GORKEMLI-...
9. .İohann Volfhanq Höte: "Quran – kitabların kitabıdır" – Milli.Az.https://news.milli.az > society
10. Hötenin «Şərq-Qərb divanından nümunələr – Ədəbiyyat qəzetihttps://edebiyyatqazeti.az > news > poeziya > 1584-hote...

THE MAIN LINES OF THE LITERARY AND SPIRITUAL HERITAGE OF BAKHTIYAR VAHABZADE IN ENGLISH TRANSLATION

BƏXTIYAR VAHABZADƏNIN ƏDƏBI-MƏNƏVI IRSININ ANA XƏTLƏRI INGILIS DILINƏ TƏRCÜMƏDƏ

Şəhla Bədir qızı Nağıyeva
Filologiya elmləri doktoruGerman dillərinin tərcümə nəzəriyyəsi və praktikası kafedrasının professoru Azərbaycan Dillər Universiteti

Xülasə
Bəxtiyar Vahabzadə həm milli, həm də bəşəri dəyərləri poeziyasında ustalıqla birləşdirən sənətkardır. Bu məqalədə onun "Qızıma" və "Mənim Anam" şeirləri əsasında poeziyasının ingilis dilinə tərcüməsi təhlil edilir. Məqsəd milli ruhun və poetik üslubun başqa mədəniyyətə ötürülməsi prosesini araşdırmaqdır. ABŞ-da aparılan poeziya tərcüməsi təcrübəsinə istinadla, dil və mədəniyyət fərqlərinin yaratdığı çətinliklər və onların aşılması yolları göstərilir. Məqalə tərcümənin sadəcə dil deyil, həm də mədəniyyətlərarası ünsiyyət vasitəsi olduğunu vurğulayır.
Açar sözlər: Bəxtiyar Vahabzadə, poeziya tərcüməsi, milli kimlik, vətənpərvərlik, bəşəri dəyərlər.

Abstract
Bakhtiyar Vahabzadeh is an artist who skillfully combines both national and human values in his poetry. This article analyzes the translation of his poetry into English based on his poems "To My Daughter" and "My Mother". The aim is to examine the process of transferring the national spirit and poetic style to another culture. Referring to the experience of poetry translation conducted in the United States, the difficulties caused by language and cultural differences and ways to overcome them are shown. The article emphasizes that translation is not just a language, but also a means of intercultural communication.
Keywords: Bakhtiyar Vahabzada, poetry translation, national identity, patriotism, universal values.

Giriş

Bəxtiyar Vahabzadə yaradıcılığı Azərbaycan ədəbiyyatında çoxşaxəli mövzuları, milli və bəşəri dəyərləri bir arada əks etdirən zəngin və bənzərsiz çalarları ilə Azərbaycan ədəbiyyatında özünəməxsusu iz qoymuş yaradıcılıqdır. Onun poeziyası həm milli dəyərləri qoruyub yaşatmış, həm də bəşəri idealları təcəssüm etdirməsi ilə milli kimliyimizin, azadlıq ruhumuzu əks etdirməklə yanaşı, bütün insanlığa ünvanlanan ümumbəşəri çağırışları ilə də dəyərlidir. Poeziya tərcüməsi isə milli ruhun və dəyərlərin başqa dillərə çatdırılmasında çətin, lakin vacib vasitədir. Süzan Basnett qeyd edir ki, "Tərcümə təkcə dil aktı deyil; bu, milli kimliyin dillər arasında öz səsini tapdığı mədəni danışıqlardır" (Basnett, 2014, s. 45).

Bu məqalədə Bəxtiyar Vahabzadənin yaradıcılığından milli və bəşəri ruhda yazmış olduğu seçmələr –"Qızıma" və "Mənim anam" şeirlərininin ingilis dilinə tərcümə prosesi araşdırılır və tərcümə zamanı yaranan spesifik problemlər və yanaşmalar təhlil edilir.

Bəxtiyar Vahabzadə Yaradıcılığının Milli Və Bəşəri Tərəfləri

Bəxtiyar Vahabzadə milli duyğuları poeziyasında yüksək səviyyədə ifadə etmişdir. Onun "Qızıma" şeiri yalnız bir ata–qız münasibətləri üzərində qurulmayıb, eyni zamanda milli ailə dəyərləri və ata nəvazişini də əks etdirir (Vahabzadə, 1982a). Poeziya tərcüməsi özlüyündə çətin, bəzilərinin fikrincə mümkün olmayan proses olduğundan milli kimlikdən xəbər verən, eyni zamanda bu millilik zəminində qlobal ədəbi mühiti zənginləşdirən və özü də zənginləşən Bəxtiyar Vahabzadə yaradıcılığı tərcümədə özünə xas olan üstünlükləri və çətinlikləri də vardır.

"Qızıma" Şeirinin Tərcüməsində Milli Kimlik Və Fərqlilik

Şairin "Qızıma" şeirinin sırf azərbaycanlı atanın qızına müraciətlə söylədiyi təsirli ürək sözlərini ingilis dilinə çevirərkən onun sərlövhəsinin olduğu kimi "To my Daughter" kimi versəydik, mənim amerikalı həmkarım Piter Makək şeiri sona kimi oxuyub üzümə təəccüblə baxdığı kimi amerikalı oxucular çaş-baş qala bilərdilər. Odur ki, şeirin sərlövhəsini "To my Married Daughter" kimi yəni "Ərə gedən qızıma" kimi verməklə həm həmkarımın, həm də tərcümə əsərinin gələcək oxucularının çaşqınlığına son qoyduq, azərbaycanlı atanın övladına olan münasibətindəki fərqli emosional çaları qorumuş olduq.

Ata ailə qirmuş qızından nigarandır və bu məhz azərbaycanlı atanın nigarançılığıdır:

Nümunə:
Gəlirsən, gedirsən…
Gözüm üzündə,
Bilmirsən nə sorur, nə deyir atan.
İngilis dilində tərcüməsi:
I watch you
As you come and go,
Wondering if you can guess
That your father tries to read
Your looks and silent speech,
Tries to unlock the coffers of your heart.

Bu sətirlər təkcə söz düzümü, melodiyası və ritmi ilə oxucunun estetik zövqünü oxşamır, həm də amerikalı oxuculara bizim bir millət kimi milli düşüncə tərzimiz, psixologiyamız haqqında da mesaj verir. Digər millətlərdən fərqli olaraq valideynlərin övladları böyüyüb ailə quranda belə onların qayğılarını çəkdikləri, onlardan nigaran qaldıqlarına işarə verir. Şair ata evi olaraq həmişə övladının güvənc yeri olduğunu övladına xatırladır:

Qoru hər ləkədən məhəbbətini,
Hər yerdə,
Həmişə,
Hər zaman, qızım.
Arxan – atan evi…
Səadətini
Yalnız ər evində tapasan, qızım.

İngilis dilində:

Protect your love,
Wherever you go dear daughter.
My house here is an addition
To the love of your own love's house.

Şairin
“Arxan – atan evi…
Səadətini
Yalnız ər evində tapasan, qızım.” Misraları ingilis dilində

“My house here is an addition
To the love of your own love’s house.” Kimi ifadə olunmuşdur ki, bu da “Mənim evim sənin sevdiyinin evinə bir dəstək yeridir” deyərək qızını ər evinə bağlanmağa, atası evini isə güvənc yeri olmağa səsləyir.

Bəxtiyar Vahabzadənin “Qızıma” şeiri, sadəcə bir valideynin övladına verdiyi tövsiyələr deyil, həm də bir xalqın mənəvi, tarixi və milli dəyərlərinin gələcək nəsillərə ötürülməsi kimi anlaşılır. Bu şeir, fərdi səviyyədən çıxıb milli idealların qorunub saxlanmasına, yaşadılmasına çağırış edir.

“Mənım Anam” Şeırındəkı Bəşərılık Və Unıversallığın Ingılıs Dılındə Ifadəsı

Ana haqqında çox yazılar yazılıb, mahnılar bəstələnib. Bəxtiyar Vahabzadənin də ana haqqında çoxlu şeirləri vardır. Onun “Mənim anam” şeirində şairin ana anlayışına yanaşma rakursu bəzərsizdir, cəlbedicidir, bəşəridir, həm də öz növbəsində millidir:

Savadsızdır,
Adını da yaza bilmir
Mənim anam.
Ancaq mənə say öyrədib
Ay öyrədib
İl öyrədib
Ən vacibi: Dil öyrədib
Mənim anam.
Bu dil ilə tanımışam
Həm sevinci
Həm də qəmi. (Vahabzadə, 1982b)

İngilis dilində:

My mother was illiterate,
Could neither read nor write.
She taught me how to count,
Call days, months, and years to account.
She taught me my mother tongue
And to what nation I belong.
This language allowed me to know
Happiness, grief, and sorrow,

İlk baxışdan

“Savadsızdır,
Adını da yaza bilmir

Mənim anam.”

Misralarının ingilis dilinə

“My mother was illiterate,
Could neither read nor write.”

Kimi edilmiş tərcüməsini oxuyanda ingilisdilli oxucu təəccüblənir, sanki şair anasını savadsızlığa görə qınayır. Oxucuya ilkin baxışda savadsızlıq bir məhdudiyyət kimi görünə bilər. Lakin burada Bəxtiyar Vahabzadə daha dərin bir məna verir: təhsili olmasa da, anası həyat bilgisi, vicdan, sədaqət və sevgi kimi bəşəri dəyərlərin daşıyıcısıdır.
Bu həm də sadə, lakin dərin ifadə savadsız bir ananın həyat müdrikliyini və mənəvi zənginliyini vurğulayır. Şair göstərir ki, insanın böyüklüyü və dəyəri təkcə rəsmi təhsildə deyil, onun daxili dünyasında, insani keyfiyyətlərindədir — bu isə universal bir ideyadır: savadsız, sadə bir ana da bütün bəşəriyyətin ortaq dəyərlərinin daşıyıcısı ola bilər.
Şeirin son misralarında şairin ana obrazı sətir-sətir böyüyür və şarin bəşəri yaradıcılığının müəllifinə çevrirlir:
Bu dil ilə yaratmışam
Hər sətrimi
Hər nəğməmi.
Mən bir heçəm,
Mən yalanam.
Kitab-kitab sözlərimin
Müəllimidi mənim anam!

Bu misralar bu şari şair edən, onu bu ucalığa gətirib çıxaran məhz anasının olduğu fikri tərcümədə də əks olunur və ingilisdill oxucu bizim anaların qüdrətini-savadsız ola-ola cild-cild kitabların müəllifi olduğu fikrindən heyrətlənir və bu milli ana obrazından özləri üçün bəşəri bir ana obrazı yaradır:
İngiliscə:
This language allowed me to know
Happiness, grief, and sorrow,
Led me into its rhythms, writing
Proud poems to be said and sung.
But I have lied—I am nothing
If not my mother. Who else would I be?
All my poems she sang to me. (Tar River Poetry, 2004)

Şeirin son misrasını
“Kitab-kitab sözlərimin
Müəllimidi mənim anam!”

ingilis dilinə tərcümə edərkən dilimizin ritmini, axıcılığını və orijinaldakı qafiyəni qorumaq məqsədilə Amerikalı həmkarımla uzun götür-qoydan sonra

“If not my mother.
Who else would I be?
All my poems she sang to me.” Kimi verdik.

“Anam olmasaydı mən kim olardım?

Mənim bütün şeirlərimi mənə anam nəğmə kimi oxuyub" mənasını verən bu misralar şairin bütün şeirlərinin körpə olarkən anasının laylayından qidalanaraq yaratdığını ifadə edir.

Beləliklə, ananın savadsız olması onu kiçiltmir, əksinə, onun təmiz qəlbi, zəhmətkeşliyi və övladına sonsuz sevgisi onu bütün insanlıq üçün qəbul edilən ana arxetipinə çevirir. Ana — savadsız olsa belə — həyatın özüdür, insani dəyərlərin simasıdır. Bu fikir bütün dünyada qəbul olunan bəşəri bir həqiqət olduğu üçün məhz tərcüməçi üçün də çətinlik yaratmır.

Nəticə

Bəxtiyar Vahabzadənin poeziyası milli kimlik və bəşəri dəyərləri mükəmməl şəkildə sintez edir. Onun əsərlərinin tərcüməsi zamanı milli ruhun qorunması və bəşəri idealların saxlanılması tərcüməçinin əsas məqsədinə çevrilir. Tərcümə prosesi göstərdi ki, poeziyanın milli ruhunu qorumaqla, onu başqa dilə və mədəniyyətə tanıtmaq mümkündür. Uolter Benjaminin qeyd etdiyi kimi, "Milli hisslərə sədaqətlə edilən tərcümə xəyanət deyil, bir xalqın səsinin dünyaya yayılmasıdır" (Benjamin, 1996, s. 253).

Ədəbiyyat

1. Basnett, S. (2014). Tərcüməşünaslıq (4-cü nəşr). Routledge.
2. Benjamin, W. (1996). Tərcüməçinin vəzifəsi (H. Zohn, tərc.). Seçilmiş əsərlər, I cild: 1913–1926 (s. 253–263). Harvard University Press. (Əsərin orijinalı 1923-cü il).
3. Tar River Poetry. (2004). East Carolina University, NC, USA, Spring, 39–41.
4. Vahabzadə, B. (1982a). Qızıma. Bakı: Yazıçı.
5. Vahabzadə, B. (1982b). Mənim anam. Bakı: Yazıçı.

TEACHING OF THE AZERBAIJAN LANGUAGE IN PRIMARY CLASSES

ПРЕПОДАВАНИЕ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА В НАЧАЛЬНЫХ КЛАССАХ

İBTIDAI SINIFLƏRDƏ AZƏRBAYCAN DILININ TƏDRISI

Mətanət Mehdiyeva Bahadur qızı

ADPU, f.ü.f.d., baş müəllim
ID 0009-0005-0068-4590

Xülasə
Ibtidai siniflərdə Azərbaycan dilinin tədrisi zamanı müəllimlər çalışmalıdır ki, şagirdlərin həm yazılı, həm də şifahi nitqləri inkişaf etsin. Dil qaydaları öyrədilərkən inteqrativ şəkildə, praktik formada öyrənmə üsulu əsas olmalıdır. Dil qaydaları orfoqrafiya və orfoepiya ilə inteqrativ şəkildə tədris olunan zaman şagirdlərin həm düzgün imlası, həm də nitqi formalaşmış olur.
İbtidai sinif müəllimi yaradıcı, yeniliyə açıq, eyni zamanda araşdırmaçı olmalıdır. Dil haqqında olan yeniliklərdən daim xəbərdar olmalı, yeni qaydaları tətbiq etməyi bacarmalıdır. Təəssüflər olsun ki, bunu bütün müəllimlərə şamil edə bilmərik. Bu baxımdan müəllimlər daim öz bilik və bacarıqlarını təkmilləşdirməli, öz üzərində işləməlidir.
Açar sözlər: Azərbayca dili, norma, orfoepiya, dil qaydaları

Abstract
During the teaching of Azerbaijani language in primary classes, teachers should try to develop both written and oral speech of students. When teaching language rules, the method of learning in an integrated, practical form should be the main one. When language rules are taught in an integrated way with spelling and orthography, both correct spelling and speech of students are formed.
A primary school teacher should be creative, open to innovation, and at the same time a researcher. He must be constantly aware of the latest developments in the language and be able to apply new rules. Unfortunately, we cannot apply this to all teachers. In this regard, teachers should constantly improve their knowledge and skills and work on themselves.
Key words: Azerbaijani language, norm, orthography, language rules

Во время преподавания азербайджанского языка в начальных классах учителя должны стараться развивать как письменную, так и устную речь учащихся. При обучении правилам языка основным должен быть метод обучения в комплексной, практической форме. При преподавании языковых правил комплексно с орфографией и орфографией формируется как правильное правописание, так и речь учащихся.
Учитель начальных классов должен быть творческим, открытым к инновациям и в то же время исследователем. Он должен быть постоянно в курсе последних событий в языке и уметь применять новые правила. К сожалению, мы не можем применить это ко всем учителям. В связи с этим педагогам следует постоянно совершенствовать свои знания и навыки, работать над собой.
Ключевые слова: азербайджанский язык, норма, орфография, правила языка

Giriş

Dil qaydaları Azərbaycan dilinin qrammatikasının tədrisi zamanı dilçi-alimlər tərəfindən araşdırılıb, praktik olaraq da tətbiq olunmuş, elmi əsaslara söykənən qaydalardır. Dil qaydaları təyinedici və köməkçi-təsviri olmaqla iki yerə ayrılır. Tərifl ər təyinedici qaydalara aiddir. Köməkçi-təsviri qaydalara isə qrammatik kateqoriyalara aid bütün materiallar daxildir. Dil qaydaları həm yazılı, həm də şifahi nitqin förmalaşmasında, inkişaf etməsində mühüm rol oynayır.

Məlumdur ki, dilimizin ədəbi normaları dəyişməz qalmır. Yeniləşmə prosesi keçirir. Bu prosesi hər bir dilçi- müəllim izləməli, dildəki hər bir yenilikdən xəbərdar olmalıdır. Müəllimlər dilimizin fonetik, leksik və qrammatik sahəsinə aid dil faktlarının daha dərindən öyrətməli, nəzəriyyə ilə praktikanın inteqrativ şəkildə öyrədilməsini təmin etməlidirlər.

Məlumdur ki, ana dili təliminin məqsəd və vəzifələrinə uyğun olaraq, məzmun xətləri təhsilin bütün pillələri üzrə təyin edilmişdir: dinləyib-anlama və danışma, oxu, yazı və dil qaydaları

Dil qaydaları məzmun xətti dilin fonetik, leksik və qrammatik quruluşu ilə bağlı ən zəruri biliklərin yiğcam, sadə və aydın qayda və şərhlər formasında şagirdlərə öyrədilməsini, durğu işarələrindən yerli-yerində düzgün istifadə olunmasını təmin edir. Şagirdlərin həm oxu, həm də yazı qabiliyyətlərinin inkişafı üçün zəmin yaradır. Eyni zamanda onların şifahi və yazılı nitq bacarıqlarının formalaşmasında mühüm rol oynayan ən zəruri linqvistik biliklərin öyrənilməsini, mədəni nitq üçün vacib sayılan mühüm tələblərin qavranılmasını, ədəbi dilin funksional və fərdi üslublarının səciyyəvi xüsusiyyətlərinin dərk olunaraq fərqləndirilməsini və təcrübədə tətbiqini təmin edir.

Maraqlıdır, dil qaydaları orta məktəbdə şagirdlərə necə öyrədilməlidir?

Dil qaydalarının öyrədilməsi işi ibtidai sinif şagirdlərinin əsas fəaliyyət istiqamətlərindən biri hesab olunur. Bu gün müasir yanaşmalar hər bir dərsin qarşısında mühüm tələblər qoyur. Bu tələblərdən ən başlıcası tədris prosesində yeni təlim metodlarından geniş istifadə etmək olsa da, müəllimin şəxsi düşüncə tərzi, yaradıcılıq qabiliyyəti də çox böyük önəm daşıyır.

Bildiyimiz kimi müasir təlim metodlarından istifadə müəllimin yaradıcılıq işi hesab olunur. Şagirdlərdə isə tədqiqatçılıq qabiliyyətini üzə çıxarır və inkişaf etdirir. Xüsusən də Azərbaycan dili dərslərində şagirdlərə verilən "quru" informasiyalar onların yaradıcı olma şanslarını azaldır. Amma müəllim şagirdin qarşısına düşündürücü problem qoyarsa, şagirdin zehni əməyinin nəticəsi daha çox olar. Deməli, dərs yalnız bilik verməməli, yaradıcı və tətbiqi xarakter daşımalıdır. Biliyin kəşf olunmasının (konstruktivizm) əsası şagirdin bilikləri aktiv şəkildə özünün əldə etməsidir.

Müasir metodların tətbiqi tədrisdə şagirdlərin həm bir-biri ilə, həm müəllimlə müzakirələr aparmasına, müqayisələr etməsinə şərait yaradır ki, bu da onların nitq qabiliyyətinin və özünüifadə imkanlarının inkişafına səbəb olur. İnteraktiv təlimin əsas məqsədi də şagirdin hər hansı mövzu haqqında sərbəst düşünməsi, müqayisələr aparması və fikirlərini ifadə edə bilməsidir.

Müasir metodlar bütün fənlərin tədrisində müəllimlərin qarşısında yeni yollar açdığı kimi, Azərbaycan dili fənninin tədrisinə də maraqlı üsulların gətirilməsinə imkan yaradır. Dil qaydalarının mənimsədilməsi üçün müxtəlif vəsaitlər, müxtəlif səpkidə qiymətləndirmə nümunələri, əyani vasitələrin olması, alqoritmlərdən istifadə şagirdlərin linqvistik intellektini artırır. Müəllim şablon görünən hər bir məlumatı şagirdə öz yaradıcı qabiliyyəti ilə daha maraqlı çatdira bilər. O, müəyyən sistemli suallarla şagirdlərə müraciət edir. Şagirdlər axtarışa yönəlir. Müəllim şagirdlərə 3-cü sinifdə məqsəd və inyonasiyaya görə cümlənin növlərinə aid dil qaydasını öyrədən zaman əvvəlcə intonasiya haqqında məlumat verməlidi [1.s.71]. Eyni bir cümləni müxtəlif intonasiya ilə tələffüz etməli və məqsədindən asılı olaraq cümlənin dəyişdiyini göstərməlidir. Sonra qeyd etməlidir ki, məqsəd və intonasiyaya görə dedikdə məhz bunu nəzərdə tuturuq.

3-cü sinifdə "Söz sonunda "k" samitinin yazılışı" qaydalarını orfoqrafiya və orfoepiya ilə inteqrativ şəkildə öyrədən zaman şagirdlər daha yaxşı mənimsəyir, eyni zamanda sözlərin həm düzgün yazılışı, həm də düzgün tələffüz şəklini öyrənmiş olurlar [2.s.13]. Eyni zamanda, "k"-nın müxtəlif səsləri ifadə etdiyini izah edərkən nümunələr əsasında verdiyi izahı şagirdlərdə orfoqrafik-orfoepik bilikləri möhkəmləndirir. Məsələn, müəllim lövhədə *kran, kələm, səpki, səkkiz, doqquz, cicək,istəmək*

sözlərini yazır və şagirdlərdən həmin sözləri tələffüz etmələrini tapşırır. Aydın olur ki, "k" büş səsi ifadə edə bilir: [k], [k^1], [g], [y], [x^1] . Müəllim diqqətli olmalıdır ki, şagirdlər sözləri düzgün yazıb, düzgün tələffüz edə bilməklə yanaşı, leksik mənalarına da diqqət yetirsinlər. Məsələn, yuxarıda verdiyimiz sözlər içərisində səpki sözünə diqqət edək. Bu söz *səpki* və *səpgi* kimi yazılır və fərqli mənalar ifadə edir. Səpki- tərz, üsul, qayda, səpgi isə sızaq, iltihablı qabarcıq mənasındadır.
İbtidai sinif "Azərbaycan dili" dərsliklərində orfoepiya qaydaları çox zəif işlənib. "Doğru-yanlış" rubrikası və "Söz boğçası"nda yeni sözlərin ancaq düzgün imlası verilir.Yaxşı olardı ki, eyni zamanda sözlərin düzgün tələffüzləri də öz əksini tapsın.
Şagirdlərin linqvistik intellektlərini inkişaf etdirmək məqsədilə müqayisəli öyrənmə üsulundan da istifadə əlverişlidir. Qoşasamitli sözlərin tələffüzü ilə bağlı yazılış və tələffüz üzərində müqayisəli şəkildə işləmək səmərəli olur.Məsələn: Lövhədə qoşasamitli sözlər yazırıq: addım, əlli, kəllə, doqquz, güllə, səkkiz, toqqa, səyyar və s. Sonra şagirdlər bir-bir sözləri tələffüz edirlər və sözlərin tələffüzü yazılışları qarşısında yazılır. Beləliklə, şagirdlərə aydın olur ki, qoşasamitli sözlərin bəziləri yazıldığı kimi tələffüz olunsa da, fərqli tələffüz olunanları da vardır. Yazıldığı kimi tələffüz edilən qoşasamitli sözləri izah edərkən sözlərdəki qoşa samitdən birini tələffüz etməmələrini tapşırsaq, şagirdlər daha yaxşı anlayacaqlar. Məsələn, addım-adım, kəllə-kələ güllə-gülə və s. Onlar görəcəklər ki, bu samitlərdən birini ixtisar etsək, leksik məna da dəyişir. Bu baxımdan belə sözlər yazıldığı kimi də tələffüz edilir. Təcrübələr göstərir ki, şagirdlər dil qaydalarını müqayisəli şəkildə mənimsədikdə uzun illər unutmurlar.
Yuxarıda qeyd olunan şəkildə müqayisələr dil qaydalarının hər birinə uyğun olaraq müəllimin yaradıcı təxəyyülü və sinfin səviyyəsinə görə yarana bilər. Dəqiq olan bir məqam var ki, şagirdlər bu cür bənzətmələri çox sevir və bu onları fəallaşdırır. Xüsusən də, dərsin ilk mərhələsində bu tip müqayisələr növbəti mərhələləri uğurla keçməyə zəmin yaradır. Belə nümunələri çox göstərmək olar. Ancaq hər bir müəllimin fərqli üsullarının olmasını nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, yol, üsul nisbidir, əsas olan nəticədir.
Müəllim çalışmalıdır ki, bütün mövzularla bağlı dil qaydalarını həm nəzəri, həm də praktik olaraq şagirdlərə izah etsin. Yuxarıda qeyd etdiklərimizə əlavə olaraq onu da qeyd edək ki, hər bir dil qaydasına aid testlər, tapşırıqlar, mətn üzərində iş, sorğu vərəqləri və s.də müsbət nəticələr verir. Müəllim ilk olaraq "düşünən sinif"yaratmalıdır. Buna nail olduqdan sonra sinif üçün öyrətmə və öyrənmə üsulları təyin etməlidir. Bunu tələbələrə ali məktəbdə öyrətdikdə həm pedaqoji təcrübə, həm də müəllimlik fəaliyyətlərində bir çox çətinliklərin qarşısını almış oluruq.
Müəllim dil qaydalarını öyrədən zaman " Hansı incə saitləri tanıyırsan?", " Sifətin suallarını say", " İsmin neçə halı var?" kimi sual verməməli, bu sualların əsl mahiyyətini izah etməyi bacarmalıdır. Belə suallar şagirdlərdə əzbərçilik yaradır. Onlar praktik işləmə qabiliyyətinə yiyələnmirlər.
Təhsildə müasir yanaşma tərifləri əzbərləməyi deyil, yaradıcı düşünmə, sərbəst öyrənmə, qərar qəbuletmə, tədqiqatçı kimi formalaşmanı dəstəkləyir. Dil qaydalarının biri digəri üçün zəmin yaratmalıdır. Mövzular inteqrativ şəkildə mənimsədilməlidir. Dil qaydaları ardıcıl, sistemli, müasir təlim metodlarına əsaslansa, əzbərçilik meyilləri azalar, şagirdlər qrammatik bilikləri dil normaları ilə vəhdətdə qavramış olarlar.
Şagirdlər dil qaydaları vasitəsilə nitqin müxtəlif növləri və üslubları üzrə də praktiki biliklər əldə edirlər. İstər ali məktəbdə, istərsə də orta məktəbdə dil qaydaları öyrədilərkən müəllim çalışmalıdır ki, tələbə və ya şagird zəruri fonetik, leksik və qrammatik anlayışları izah edə, fərqləndirə, fikirlərini əsaslandıra bilsin.
Ədəbi dildə düzgün tələffüz qaydası orfoepik norma adlanır. Azərbaycan ədəbi dilinin yeni orfoepik norması AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu tərəfindən hazırlanmış, Azərbaycan Respublikasının Dövlət Dil Komissiyası ilə razılaşdırıldıqdan sonra 18 iyun 2021-ci il Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Azərbaycan dilinin orfoepiya normalarının təsdiq edilməsi haqqında" qərarla təsdiq edilmişdir. Orfoepik normanın tələbi ilə Azərbaycan dilində tələffüz edilməli olan sözün saitləri, samitləri, şəkilçiləri, ixtisarların və qısaltmaların tələffüzü, vurğunun

tələffüzü qəbul edilmiş və təsdiqlənmiş qaydalar əsasında aparılmalıdır. Diqqətə çatdıraq ki, yeni orfoepik qaydalara əsaslanan lüğət hələ istifadəyə verilməyib. Vahid bir orfoepiya lüğətinin olmaması tələffüzlə bağlı işlərə mənfi təsirini göstərir.

Orfoepik və orfoqrafik normanın pozulması fonetik normanın pozulması deməkdir. Fonetik normanın pozulmaması üçün ibtidai sinifdən şagirdlərin nitqini düzgün formalaşdırmaq lazımdır. Etiraf edək ki, bəzi ibtidai sinif müəllimləri yeni qaydalardan xəbərsizdirlər. Bəzi müəllimlər isə kitab tələffüzünü əsas hesab edirlər. Şagirdin yanlış tələffüzünə göz yumurlar.

Orfoepik normalara əməl edən zaman yeni qəbul edilmiş qaydaları nəzərə almaq lazımdır: (ae,ea,eə,əa,eo,üa,üə,au,ue,uə yanaşı saitlərin işləndiyi sözlər yazıldığı kimi tələffüz olunur; aə yanaşı saitlərin işləndiyi sözlərdə a səsi uzun tələffüz olunur; ov,öv hərf birləşmələri olan sözlərdə səsdüşümü hadisəsi baş vermir və s.). Nümunə: *oktyabr, noyabr* sözləri a səsi ilə tələffüz olunanda orfoepik norma pozuntusu baş verir [3]. *Daha, başqa* kimi sözlərdə vurğunun düzgün işlədilməməsi, *vadar, mavi* tipli sözlərin tələffüzündə a səsinin qısa tələffüzü də orfoepik norma pozuntusu sayılır. Onu da qeyd edək ki, kitab tələffüzü canlı dilin tələffüzünə maneçilik törədir. Çoxları ömrü boyu bu yanlış tələffüz üslubundan yaxa qurtara bilmir. Bir sıra sözlərin kitab tələffüzü quru və sxematik görünür. Belə sözləri canlı danışıq nitqinə uyğun tələffüz etmək lazımdır. Məsələn, ikinci şəxsin cəmini bildirən -sınız[4] şəkilçisi -sız[4] kimi tələffüz olunur. Nəqli keçmiş zaman şəkilçisindən ş samiti düşür: atmışsınız – atmısız və s.

Səslərin və sözlərin düzgün tələffüzü həm də fikrin dəqiq çatdırılması deməkdir.Qeyd edək ki, orfoepik qaydalar orfoqrafik qaydalarla müqayisəli şəkildə öyrədilir. Bu normalar ədəbi dilin lüğət fondunda olan sözlərin düzgün tələffüz edilməsini tənzimləyir.

Yazı qaydalarının tələffüzə münasibətini üç əsas qrupa ayırmaq olar: 1) yazılışı birbaşa tələffüzünə görə müəyyənləşən söz və morfemlər; 2) yazılışı birbaşa tələffüzünə görə müəyyənləşməyən söz və morfemlər; 3) yazılışı tələffüzünə görə müəyyənləşməyən söz və morfemlər.İbtidai siniflərdə müəllimlər bu nüansa xüsusi diqqət yetirməlidirlər.

Nəticə

Fikrimizi ümumiləşdirsək, aydın olur ki, fonetik norma həm yazılışı, həm də tələffüzü müəyyən edir. Bu baxımdan orta məktəbdə ibtidai sinif müəllimləri bu normalara uyğun şəkildə şagirdlərin həm yazılı, həm də şifahi nitqi üzərində işləməlidirlər.

Təbii ki, orfoepik normalara əsaslanan qaydaları müəyyən dil qaydalarına uyğun inteqrativ şəkildə mənimsətmək lazımdır. Müəllim özü bu normaları bilməli və normalara uyğun nitqə malik olmalıdır.

Ədəbiyyat siyahısı

1.Azərbaycan dili 3. Dərslik (Ihissə), “Radius” MMC, Bakı, 2022, 103 s.
2. Azərbaycan dili 3. Dərslik (Iıhissə), “Radius” MMC, Bakı, 2022, 103 s.
3. https://e-qanun.az/framework/47674
4. https://e-qanun.az/framework/42073

THE ROLE THE PRONOUNS İN THE BORDERS OF DİSCOURSE İN THE WORKS BY BAKHTİYAR VAHABZADE

BƏXTİYAR VAHABZADƏNİN ƏSƏRLƏRİNDƏ ƏVƏZLİKLƏRİN DİSKURS HÜDUDLARINDA ROLU

Əsədova Məhəbbət Nəcəf qızı
Dosent, fil.ü.f.d. Azərbaycan Memarlıq və İnşaat Universiteti Əcnəbi dillər kafedrası
orcid.org/0000-0002-4464-6378

Xülasə
Bu məqalədə Azərbaycan xalq şairi Bəxtiyar Vahabzadənin əsərləri-şeirləri və "Gülüstan" poeması əsasında əvəzliklərin mürəkkəb sintaktik bütövün hüdudlarında rolundan bəhs edilir. Məqalədə deyktik elementlərin anaforik, kataforik, ekzoforik və ya homoforik istinad və epistrof rolları təhlil edilir. Burada Bəxtiyar Vahabzadənin "Ana dili", "Nə olursan ol, özün ol", "Mənim şerim" şeirləri və "Gülüstan" poemasından götürülmüş nümunələr təhlil edilir. Dahi şairin yaradıcılığı əsasında əvəzliklərin mürəkkəb sintaktik bütövün komponentlərinin əlaqələndirici rolu araşdırılır. Əvəzliklərin mətn yaratma qabiliyyətindən bəhs edilir və numunələrlə izah edilir. Bəxtiyar Vahabzadənin əsərlərindən götürülmüş nümunələr müəllifin irəli sürdüyü konsepsiyaları sübut edir. Mürəkkəb sintaktik bütövün komponentləri arasında əlaqənin yaranmasında daha çox şəxs və işarə əvəzliklərindən istifadə olunduğu qeyd olunur.
Açar sözlər: mürəkkəb sintaktik bütov, diskurs, anafora, katafora, koheziya

Abstract
This article deals with the role of the pronouns within the compound syntactic whole on the basis of the works by Azerbaijani people's poet Bakhtiyar Vahabzade. The anaphoric, cataphoric, exophoric or homophoric reference and epistrophe roles of deictic elements are analyzed in this article. The examples taken from the poems by Bakhtiyar Vahabzade such as "Mother Tongue", "Whatever you are, be yourself", "My Poem", "Gulustan" are studied here as well. The role of the pronouns as the connecting means of the components of the compound syntactic whole is explored according to the great poet's works. The text forming ability of the pronouns is dealt about and explained. The samples taken from Bakhtiyar Vahabzade's works prove the concepts forwarded by the author. Mostly personal and demonstrative pronouns are used in the formation of the connection among the components of the compound syntactic whole.
Keywords: complex syntactic whole, discourse, anaphora, cataphora, cohesion

Azərbaycan ədəbiyyatının zirvə şəxsiyyətlərindən biri olan, Azərbaycan torpaqlarının bütövlüyü və Azərbaycan xalqının tarixi və milli kimliyi uğrunda yorulmaz mübariz, xalq şairi, dramaturq, publisist, pedaqoq Bəxtiyar Vahabzadə ədəbi yaradıcılığını Azərbaycan dövlətçiliyinin qurulmasına, inkişafına, tərəqqisinə həsr etmişdir və ədəbiyyatımızda, ictimai fikrimizdə, elmimizdə əlçatmaz zirvə fəth etmişdir. Dahi söz ustadının böyük sənətkarlıq və ustalıqla oxucularına təqdim etdiyi əsərlər ədəbiyyatımızı zənginləşdirdiyi kimi, eyni zamanda Azərbaycan dilçiliyinə də müxtəlif səpkili tədqiqatlar üçün zəngin material vermişdir. Bəxtiyar Vahabzadənin əsərlərini nəzərdən keçirərkən ədibin mürəkkəb sintaktik bütövlərin komponentləri arasında çox sıx leksik-qrammatik əlaqə yaratmaq üçün deyiktik vahidlərdən, yəni əvəzliklərin təkrarından məharətlə istifadə etdiyini görmək mümkündür.

Müasir dilçiliyin ən maraqlı tədqiqat sahələrindən olan mətn dilçiliyi mətnin qurulma texnikası, təşkili mexanizmi, mətni təşkil edən cümlələrin əlaqəliliyi, əlaqəliliyi yaradan vasitələr, və mətn daxilindəki cümlələrin semantik proqressiyası, mətnin yaranması qanunauyğunluqları və mətnlə bağlı digər məsələləri tədqiqat obyekti kimi hədəfə alır. Mikro və makromətn kimi səciyyələndirilən mətn müxtəlif dilçilik ədəbiyyatlarında *sintaktik bütövlər, mürəkkəb sintaktik bütövlər, tekst, frazafövqi vahid, prozaik bəndlər, diskurs, period, abzas* və sair terminlərlə nominasiya edilir [1, 423]. Mürəkkəb sintaktik bütövü formalaşdıran, onun təşkil edən cümlələr isə mürəkkəb sintaktik bütövün komponentləri adlanırlar və "formal və semantk əlaqələrin məzmunundan ibarət möhkəm sistemə malik olurlar" [2,111].

Koheziya mətnin və ya söhbətin müxtəlif hissələri arasında bağlılığı və əlaqəni ifadə edən linqvistik bir anlayışdır və dili bir sıra təcrid olunmuş parçalardan çox, semantik bütövlük kimi hiss etdirən əlaqə vasitəsidir. Diskursu təşkil edən hər bir cümlənin sonrakı cümlələr arasında koheziya əsasında əlaqələnməsi fikirlərin təbii şəkildə axmasını təmin edir, oxucunu və ya dinləyicini mətn boyunca rəvan istiqamətləndirir. Yəni, qeyd edildiyi kimi "Mətnin bütün elementləri kontekstdə bir-biri ilə əlaqədə olur və bir-birini determinasiya edir" [3, s.9]. Koqeziyanın "məna bağlılığı və qrammatik bağlılıq" kimi növləri dilçilik ədəbiyyatlarında fərqləndirilir [1, 443]. Koqeziya əlamətlərindən olan təkrarların bir növü də əvəzlikli (pronominal) leksik təkrarlardır.

Mürəkkəb sintaktik bütövün komponentlərinin əlaqələnməsində və quruluş və məna baxımından bir bütöv kimi bağlanmasında böyük rola malik olan əvəzliklər diskurs daxilində cümlələr və mətndə ifadə olunan ideyalar arasında koheziya əsasında əlaqə yaradan mühüm vasitə rolunu oynayır. Əvəzliklər sözlərin, xüsusilə, isimlərin əvəzedicisi kimi çıxış edərək diskurs çərçivəsində eyni sözün təkrarının qarşısını alır və kommunikativ prosesdə daha rahat, daha təsirli və daha canlı ünsiyyətə nail olmağa səbəb olur. Belə ki, "əlaqəli nitqin bir daha bitkin mənalı parçalara ayrıla bilinməyən bitkin mənalı hissəsi olan" [1, 430] mürəkkəb sintaktik bütöv daxilində əvvəlcədən adı çəkilən sözləri əvəz edən əvəzliklərin leksik məna deyil, leksik-qrammatik məna daşıyaraq əvvəl adı çəkilən anlayışa istinad edən referensiyaya xidmət edən sözlər olaraq dili təkrarçılıqdan qoruyan dil vahidləridir.

Deyiktik, anaforik və katoforik xüsusiyyətli əvəzliklərin "rabitəli nitqin sintaksisində böyük rolu onların hətta yeganə möhkəmləndirici vasitə hesab olunması" qənaətinə gətirib çıxarır. [2,131]. Diskurs daxilində əvəzlik komponentli cümlələr əvəzliyin əvvəlki, yaxud da sonrakı cümlələrdə verilən müəyyən bir leksik vahidi əvəz etdiyinə görə tam müstəqil cümlə sayıla bilməz. Bu baxımdan da mürəkkəb sintaktik bütövün komponentləri arasında əlaqə yaradan əvəzliklər təkrar kimi çıxış edən əsas vasitələrdən biridir.

Diskurs daxilində əvəzliklərin sərgilədiyi rolunu, və yaxud "deyiktik elementlərin mətnyaradıcı imkanları, yəni onların mətn çərçivəsində də əvvəlki kontekstə (anafora) və perspektivə (katafora) işarə funksiyalar" [4, s.43] qeyd olunur. Dilçilikdə *anafora* termini kontekstdəki başqa bir ifadədən, yəni onun antesedentindən asılı olan ifadənin istifadə olunmasıdır. Daha dar mənada, anafora xüsusi olaraq əvvəlki ifadədən asılı olan ifadənin istifadəsidir və beləliklə, postsedent ifadəsindən asılı olan ifadənin istifadəsi olan katafora ilə ziddiyyət təşkil edir. Anaforik (istinad edən) termin anafor adlanır.

Diskurs daxilində əvəzliklərin ***anafor və katafor*** kimi işlənmələrini və mətn yaratma qabiliyyətini dahi Azərbaycan şairinin əsərləri kontekstində nəzərdən keçirək. B. Vahabzadənin "Nəsənsə, özün ol" şeirindən olan aşağıdakı hissədə ilk dörd misrada işarə edilən fikirlər beşinci misrada təsirlik halda olan və deyiksisə xidmət edən ***"bu"*** işarə əvəsliyi ilə əvəzlənərək ***anaforik*** mövqedə işlənir:

"Ay həzarat, bir zəmanə gəlibdir,
Ala qarğa şux tərlanı bəyənməz.
Oğullar atanı, qızlar ananı,
Gəlinlər də qaynananı bəyənməz..."
Atamız deyərdi ***bunu*** bir zaman,
İndi biz deyirik övladımıza.

Yaxud:
Siz ey bizdən sonra şeirə gələnlər,
Bu çətin yollarda uğurlar ***sizə***.
Bu parçada ***"bizdən sonra şeirə gələnlər"*** kimi nəzərdə tutlar şəxslər ***"sizə"-***ikinci şəxs cəm əvəzliyi ilə **anaforik** qaydada əvəzlənir.

Yaxud:
Sazımda eybəcər səslər uyduran
Saxta xallar vuran cavanlar da var.
Özgənin hininə, "Qəsri-Süleyman",
Özünün qəsrinə "hin" deyir onlar.
Mənim ***beləsinə*** bircə sözüm var:
"Yad yerin halvası çox şirin olar".

Bu parçada adlıq halda olan üçüncü şəxs cəm əvəzliyi ***"onlar"*** və yönlük halda olan ***"beləsinə"*** işarə əvəzliyi yuxarıdakı iki misrada qeyd olunan şəxslərə işarə edərək onları nəzərdə tutur və hər iki əvəzlik mürəkkəb sinkatik bütöv çərçivəsində mətn yaradıcı potensiala malik olur.
Şairin "Nəsənsə, özün ol" şeirindən götürdüyümüz digər nümunədə **katafora** kimi işlənən ***"belə"*** işarə əvəzliyinin mətnyaradıcı imkanına nəzər salaq:

Zövqlər, duyğular dəyişir hər an,
Gəldikcə, getdikcə nəsillər bir-bir.
Əzəldən ***belədir***, övladlarından
Atalar həmişə gileylənibdir:

Bu parçada xəbər budaq cümləsinin xəbəri funksiyasında işlənən ***"belə"*** işarə əvəzliyi referentiv vasitə olaraq katafora mövqeyində durur və özündən sonra gələn *"övladlarından Atalar həmişə gileylənibdir"* cümləsini əvəz edir.
Ölməz söz ustadının yaratdığı poetik nümunələri oxuyarkən məharət və böyük duyumla yazılmış bu əsərlərdə əvəzliklərin **ekzofor**, yaxud **homoforik istinad** [4] kimi rolunu aydın görmək olar. Ekzofor (və ya exophora) bir söz və ya ifadənin mətndən və ya diskursdan kənar bir şeyə - fiziki dünyada və ya danışan və dinləyici arasında paylaşılan kontekstdə olan bir şeyə aid olduğu dildə istinad növüdür. Exophora mahiyyətcə dialoqa və ya mətnə istinad etmir və bu səbəbə görə də onlar anafora ola bilmirlər. Baxmayaraq ki, dinləyicinin və ya oxucunun söhbətin və ya sənədin hansı hissələrinə müraciət edə biləcəyi sualı, həmin linqvistik axındakı terminin işarə etdiyi bütün istinadların qeyd olunub-olunmaması ilə bağlı yaranır [5]. Məsələn:

Bu dil, - bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil, - bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil, - tanıtmış bizə bu dünyada hər şeyi.
Bu dil, - əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoruyub, nəsillərə biz də hədiyyə verək.

İstedadlı şairin "Ana dili" şerindən götürdüyümüz bu iqtibasda ***"bu"*** işarə əvəzliyinin referentiv vahid və deyiktik element kimi yaxın olan əşyaya istinadan işlənir. "Deyiktik məna yaxın əşyalara işarə edir" [6, s.152]. ***"Bu"*** işarə əvəzliyinin "dil" sözünün qarşısında təkrarən işlənməsi yazıçının ana dilinə, doğma dilinə olan yaxınlığını, sevgisini, məhəbbətini, sədaqətini vurgulayır, onun ana dilini xüsusiləşdirir, digər dillərdən onun üçün, xalqı üçün hansı xüsusiyyətlərinə görə fərqləndiyini diqqətə

çatdırır. B. Vahabzadə bu parçada ***"biz"*** birinci şəxs cəm əvəzliyindən ekzofor, yaxud homoforik istinad kimi istifadə etməklə onun ana dilinin daşıyıcıları olan xalqı, ulu Türk xalqının bir qolu olan Azərbaycan türklərini qeyd edir. Öz xalqına dərin sevgisi, xalqı, milləti və tarixi keçmişi haqqında qürur duymaq hissini daha da qabarıq ifadə etmək üçün ekzofor vasitə kimi yiyəlik halda olan birinci şəxs cəm əvəzliyinin təkrarından istifadə edir:

"***Bizim*** müdrik, ağsaçlı
Qəhrəman elimiz var.
Bizim qoç Koroğlumuz,
Bizim Nəsrəddinimiz,
Bizim Füzulimiz var!"

Bəxtiyar Vahabzadənin poeziyasında əvəzliklərlə ifadə olunmuş **epistrof (yəni misraların sonunda eyni əvəzliyin təkrarlanması)** onun poetik üslubunun diqqətçəkən cəhətlərindən biridir. Epistrof (yun. ἐπιστροφή, "qayıtmaq") eyni sözün və ya sözlərin ardıcıl ifadələrin, bəndlərin və ya cümlələrin sonunda təkrarlanmasıdır [7]. ***Epifora*** və bəzən ***antistrof*** kimi də tanınır. Bu nitq fiqurudur və anaforanın qarşılığıdır. Bu, ifadə və ya cümlədə son sözə vurğu edildiyi üçün son dərəcə vurğulayıcı bir vasitədir. Bu üsul vasitəsilə şair fikri vurğulayır, emosional gərginlik yaradır və oxucunu düşündürməyə çalışır. Məşhur "Gülüstan" poemasında Vahabzadə tez-tez ***"biz", "onlar", "bu", "o"*** kimi şəxs və işarə əvəzliklərini vurğu məqsədilə misraların sonunda təkrarlayır.

Bu dağ ***bizim***dir, bu dərə ***bizim***,
Bu yurd, bu torpaq, bu yara ***bizim***,
Qarşıda dayanan düşmən ***onlar***,
Haqqı tapdalayan, əyri ***onlar***...

"Mənim şeirim"dən olan parçada şairin hər misranın sonunda işlətdiyi yiyəlik halda olan birinci şəxs əvəzliyi (mənim) həm diskurs daxilində komponentlər arasında əlaqə yaradır, həm də cümlədə yiyəlik halda olan "şeirim" sözündən sonra gələrək ikiqat mənsubiyyət yaradaraq mürəkkəb sintaktik bütövün komponentləri arasında əlaqə yaradır.

Əbədi bir od kimi öz içindən közərib
Hey yanır şeirim ***mənim***.
Bu günümdən sabaha
boylanır şeirim ***mənim***.
Yaxud:
Hər istəyim, xəyalım,
Eşqim, həsrətim ***mənim***,
İlk məhəbbətim ***mənim***,
Hədsiz şadlığım **mənim**,
Bu dünyada əbədi narahatlığım **mənim.**

Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasından götürdüyümüz bu nümunədə yiyəlik halda olan birinci şəxs cəm əvəzliyi ***"mənim"*** və adlıq halda olan üçüncü şəxs cəm ***"onlar"*** əvəzliyi misraların sonunda təkrarlanaraq **epistrof** yaradaraq şeirə emosional güc verir, ritmik və ahəngdar quruluş yaradır.
Xalqının tarixinə, keçmişinə dərindən bələd olan, millətini sevən söz sənətinin mahir bilicisi olan B. Vahabzadə yaratdığı əsərlərində **şəxsləndirmə**dən, cansız məfhumları canlandıraraq onlara müraciət etmədən ustalıqla istifadə etmişdir. Onun "Ana dili" şeirindən gətirdiyimiz bu parçaya nəzər salaq:

Ana dilim, ***səndədir*** xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi ***səndə*** dil açmış.
Ürəklərə yol açan Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara yol açmış.
Səndə mənim xalqımın qəhrəmanlıqla dolu
Tarixi varaqlanır,
Səndə neçə min illik mənim mədəniyyətim,
Şan-şöhrətim saxlanır.
Mənim adım, sanımsan,
Namusum, vicdanımsan.

Şairin doğma dilinə- Azərbaycan dilinə ünvanlanmış bu parçada ***"sən"*** ikinci şəxs əvəzliyi təkrar olaraq mətnin formalaşmasında mühüm rol oynayır. ***"Sən"*** əvəzliyinin təkrarı təkcə doğmalıq, yaxınlıq hisslərini aşılamır, eyni zamanda sintaktik bütövün komponentləri arasında əlaqə yaradır, ikinci şəxs mənsubiyyət sonluğu qəbul etmiş ***"sanımsan"*** və ***"vicdanımsan"*** sözləri də sən əvəzliyinin təkrarının davamı kimi diskurs hüdudları çərçivəsində əlaqənin möhkəmlənməsinə xidmət edir.
Azərbaycan şeiriyyətinin ustadı olaraq Bəxtiyar Vahabzadənin əsərləri özlərinin quruluşu, ifadə tərzi, söz seçimi baxımından dilçiliyə aid tədqiqatlarda zəngin mənbə rolunu oynayır. Dərin məzmunlu bu poeziya nümunələri nəzəri tədqiqatlarda əvəzsiz nümunədir.

Istifadə Olunmuş Ədəbiyyat:

1. Bayramov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı, "Elm və təhsil-2010"ş
2. Abdullayev K.M., Məmmədov A.Y., Musayev M.M., Üstünov K., Novruzova N.S., Hüseynov Ş.Q., Rzayeva G.N., Hacıyeva K.B., Ziyadova L.V., Fətəliyeva S.Q., Nağıyeva G.Q., Məhərrəmova G.A., Zeynalova Ş.T., Səlimova F.Q., Məhərrəmova V.H. "Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər". Bakı-"Mütərcim"-2012.
3. Cumayeva L. A. "İngilisdilli mətnlərdə konseptual inteqrasiya". Avtoreferat. Bakı, 2024.
4. Məmmədov A. Mətn yaranmasında formal əlaqə vasitələrinin sistemi. Bakı, "Elm"-2001.
5. Anaphora (linguistics). https://en.wikipedia.org/wiki/Anaphora_(linguistics)
6. Abdullayev Ə. Aktual üzvlənmə və mətn. Bakı-"Xəzər Universiteti"nəşriyyatı-1998.
7. Epistrophe. https://en.wikipedia.org/wiki/
8. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, "Öndər nəşriyyat", 2004. File:///C:/Users/Mehi/Desktop/B%C9%99xtiyar%20Vahabzad%C9%99/I%20cild.pdf
9. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. II cild.Bakı, "Öndər nəşriyyat", 2004. File:///C:/Users/Mehi/Desktop/B%C9%99xtiyar%20Vahabzad%C9%99/II%20cild.pdf

BRIDGES – ARCHITECTURAL GEMS THAT CARRY THE TRACES OF HISTORY INTO THE PRESENT

МОСТЫ – АРХИТЕКТУРНЫЕ ЖЕМЧУЖИНЫ, НЕСУЩИЕ СЛЕДЫ ИСТОРИИ В НАСТОЯЩЕЕ

TARİXİN İZLƏRİNİ GÜNÜMÜZƏ DAŞIYAN MEMARLIQ İNCİLƏRİ – KÖRPÜLƏR
(Şəki şəhəri, Qurcana çayı üzərindəki tağlı körpülər)

Sevil Mirzəliyeva
Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi
Şəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu

Abstract
Azerbaijan's geographically favorable location at the crossroads of Europe and Asia has enabled the country to gain a significant position in world trade. For this reason, bridges were built over rivers intersecting caravan routes in Azerbaijan's ancient cities. These bridges, which facilitated the movement of trade caravans along the Great Silk Road, guided them and determined their direction, also witnessed remarkable events in history. Through these bridges, dozens of caravans carried food, silk fabrics, carpets, jewelry, and other goods for sale from these cities to distant countries every day. The existence of these bridges in the territory of Azerbaijan was closely linked to the overall development of medieval Azerbaijani architecture.
The purpose of this article is to provide a brief overview of bridge-building traditions in Azerbaijan and to become familiar with the construction style of arch bridges built over the Gurjana River in the city of Sheki.
Key words: Sheki, "Yukhari Bash", reserve, property, Gurjana river, arch bridges

Аннотация
Благодаря своему благоприятному географическому положению на стыке Европы и Азии, Азербайджан смог занять важное место в мировой торговле. Именно поэтому в древних азербайджанских городах строились мосты через реки, пересекавшие караванные пути. Эти мосты, облегчавшие передвижение торговых караванов, следующих по Великому шелковому пути, указывавшие им направление и служившие ориентиром, также стали свидетелями незабываемых исторических событий. Каждый день десятки караванов перевозили через эти города в дальние страны продукты питания, шелковые ткани, ковры, ювелирные изделия и другие товары. Мосты, существовавшие на территории Азербайджана, были неотъемлемой частью общего развития средневековой азербайджанской архитектуры.
Цель данной статьи — кратко рассмотреть традиции мостостроения в Азербайджане и познакомиться со строительным стилем арочных мостов, построенных через реку Гурджана в городе Шеки.
Ключевые слова: Шеки, Юхары Баш, заповедник, река Гурджана, арочные мосты

Xülasə
Azərbaycanın coğrafi cəhətdən Avropa ilə Asiyanın kəsişdiyi əlverişli ərazidə yerləşməsi bu ölkəni dünya ticarəti mövqeyinə çıxara bilmişdir. Məhz buna görə də Azərbaycanın qədim şəhərlərində karvan yollarını kəsən çayların üzərində körpülər salınırdı. Böyük İpək yolu ilə hərəkət edən ticarət karvanlarının gediş-gəlişini rahatlaşdıran, onlara bələdçilik edən, istiqamətlərini müəyyənləşdirən körpülər həm də tarixin unudulmaz hadisələrinə şahidlik etmişdir. Həmin körpülər vasitəsilə hər gün onlarla karvan bu şəhərlərdən uzaq ölkələrə ərzaq, ipək parça, xalça, zərgərlik məmulatları və başqa satılıq məhsullar daşıyırdı. Azərbaycan ərazisində mövcud olmuş körpülər orta əsr Azərbaycan memarlığının ümumi inkişafıyla bağlı olmuşdur.
Bu məqalədə məqsəd Azərbaycanda körpüsalma ənənələrinə qısa da olsa nəzər salmaq, Şəki şəhərində Qurcana çayı üzərində qurulmuş tağlı körpülərin tikinti üslubu ilə tanış olmaqdır.
Açar Sözlər: Şəki, Yuxarı Baş, qoruq, Qurcana çayı, tağlı körpülər

Giriş
Azərbaycan ərazisində günümüzədək gəlib çatan tarix-mədəniyyət abidələri içərisində mülkü memarlıq abidələrinin mühüm hissəsini təşkil edən körpülər xüsusi yer tutur. Hələ qədim dövrlərdə Azərbaycanda körpüsalma mədəniyyəti yaranmış və formalaşmışdır. Zaman keçdikcə bir hissəsi tamamilə dağılaraq sıradan çıxsa da, bir qismi zəmanəmizədək qismən salamat və yaxud yarımdağılmış vəziyyətdə gəlib çatmış abidələr- körpülər yaradıldıqları dövrün mühəndis qurğuları, inşaat texnikası, memarlıq üslubu, konstruktiv həlli haqqında müəyyən təsəvvür yaratmağa imkan verir.
Ölkəmizdə qədim və orta əsrlərdə yaşayış məskənləri salınarkən insanlar suya olan tələbatın ödənilməsi üçün çay sahillərini və yaxud çaya nisbətən yaxın əraziləri seçirdilər. Çaylar ətraf ərazilərdə məskunlaşan insanlara suya olan tələbatın ödənilməsi baxımından rahatlıq yaratsa da, bir yerdən başqa yerə getmələrinə maneə törədirdi. Bu səbəblə də insanlar özlərinin və yüklərinin bir sahildən digər sahilə keçirmək üçün müxtəlif yollar axtarırdılar. Belə yollardan, keçid vasitələrindən; kötükləri, salları, bərə nəqliyyatını və s. Qeyd etmək olar. Uzun illər tədricən inkişaf edərək təkmilləşən keçid vasitələri zamanla öz yerlərini körpülərə verdi. Böyük və kiçik çayların, dərələrin və başqa maneələrin üzərindən keçmək üçün keçid vasitəsi olaraq körpülər qurulurdu.
Körpü salmaq fikri necə yaranıb? İlk körpü nə vaxt, harada və kim tərəfindən qurulub? Bütün bu suallara cavab tapmaq çətindir, lakin bəşər tarixindəki bir çox kəşflər kimi yəqin ki, körpü salmaq fikrini də bizlərə ana təbiət öyrədib. Küləkli, fırtınalı bir gün düşünün, meşədən odun yığmaqdan və yaxud ovdan qayıdan qədim soydaşlarımız yaşayış məskənlərinə çatmaq üçün uzun məsafə qət edib çayın dayaz yerindən keçib getməli idilər. Həmin vaxt əsən güclü külək qəflətən iri gövdəli ağacı kökündən qoparıb çayın üzərinə aşırır və bunu görən soydaşlarımız ağac gövdəsinin üzəri ilə digər sahilə keçirlər. Uzun məsafələri yaxın etmək, körpü salmaq fikri də çox güman ki, bu və ya buna oxşar təbiət hadisələri nəticəsində yaranmışdır.
İlk körpülər nisbətən sadə qurulurdu. Bunun üçün çayın ən dar yeri seçilir və bir sahildən digərinə qoşa ağac tirlər atılır, üzərinə köndələn şəkildə xırda ağac parçaları yan-yana bənd edilməklə "addamac" düzəldirdilər. Çayın yatağı enli olduqda içərisinə daş doldurulmuş iri hörmə səbətləri çay yatağına yerləşdirir, üstünə tirlər ataraq körpü düzəldirdilər. Bu məqsədlə iri sal daşlardan da istifadə edilirdi. Adətən təkərli nəqliyyat vasitələrinin və qoyun sürülərinin keçməsi üçün düzəldilən keçidlərdə tirlərin üstünə çubuq çəpərə qoyulur, üzərini torpaqlayırdılar. Azərbaycanın bütün bölgələri üçün səciyyəvi olan bu sadə, pirimitiv əlaqə vasitələri çox davamsız olur, tez-tez sıradan çıxırdı (**1. Səh.289-290**). Məhz bu səbəblərdən, həmçinin zaman keçdikcə bu körpülər tələbatı ödəmədiyi, güclü sel sularının dağıdıcı zərbələrinə, ağır yüklərə və s. Davam gətirmədiyi üçün onları

daha möhkəm, dayanıqlı körpülər əvəz etməyə başladı. Bu cür körpülər daşdan və kərpicdən, çayın enindən asılı olaraq bir-neçə aşırımlı inşa edilirdi. Mühəndis qurğusu olan körpülərin möhkəmliyi ilkin olaraq seçilən yerdən aslı idi və burada əsas tələb körpü dayaqları üçün təbii özüllərin-qayalıqların olması sayılırdı **(10. Səh.230-231)**.

Çay yataqlarındakı qayalar ən davamlı təbii özüllər olub üzərində körpünün dayaqları, dalğayaranları ucaldılırdı. Körpünün konstruktiv sistemi bu möhkəm dayaqlar arasında qurulan tağbənd aşırımlarından yaranırdı. Qaya özüllər həm də körpünü olduğu yerə, təbii landşafta bağlayan əsas amillərdən biridir. İtalyan memar və erkən intibah dövrünün incəsənət nəzəriyyəçisi Leon Battista Alberti (1404-1472) demişdir ki, təbiət ən yaxşı rəssamdır. Memarlıq əsəri təbiətlə əlaqəli yaradılanda onun təsir gücü artır, o daha gözəl görünür **(2. Səh.24-25).**

Körpü tikintisi üçün necə yer seçilməsi haqqında maraqlı el rəvayəti mövcuddur **(3. Səh.139).** Rəvayətə görə ovunu- ceyranı çaya doğru qovan ovçu onu arxayınlıqla tutacağına əmin olduğu halda ceyran su səthində sıçraya-sıçraya o biri sahilə adlayır və gözdən itir. Bu hadisədən heyrətlənən ovçu çay sahilinə enir və çay yatağına diqqət yetirdikdə insan gözünün uzaqdan görə bilməyəcəyi, lakin ceyranın iti baxışlarından qaçmayan qayalıqların fərqinə varır. Deyilənlərə görə sonralar həmin ərazidə körpü salınır və çobanın məsləhəti ilə körpü dayaqları ceyranın üzərinə atladığı qayalıqların üzərində qurulur. Azərbaycanın orta əsr körpülərinin çoxunun çay yatağından qalxan qayalar üzərində tikilməsi bu rəvayətin boşuna yaranmadığını göstərir. Bu körpülərin oynaq biçimli tağlarının (tağların ölçüsü müxtəlifdir) da ceyran sıçrayışındakı çılğın gözəlliyə bənzəri çoxdur.

Qaynaqlardan məlumdur ki, VII-X yüzilliklərdə artıq Azərbaycanda körpü tikintisi **(4. Səh.12)** ərəb və yerli hakimlərin diqqət mərkəzində olmuşdur. İri qoşun birləşmələrinin yerləşdirilməsi, xarici əlaqələrin çoxalması, köhnə körpülərin yenidən qurulmasını, yeni iri körpülərin tikintisini tələb edirdi. Qeyd etmək lazımdır ki, həmin dövrlərdə dövlət başçılarının, hökmdarların qarşısında duran əsas vəzifələrdən biri də körpülər saldırmaq olmuşdur. Səlcuq sultanlarından Alp Arslan və Məlikşahın vəziri olmuş Xacə Nizamülmülk şahların yerinə yetirəcəyi vəzifələrdən bəhs edərkən iri çayların üzərində körpülərin saldırılmasını xüsusi qeyd etmişdir. Digər işlərlə yanaşı, bunu da onun adının əbədi qalması, ona həmişə xeyir-dua oxunması, savabının o dünyada verilməsi vədi ilə dəyərləndirmişdir **(5. Səh.33)**.

Artıq XVIII-XIX əsrlərdə Azərbaycanda zəngin körpüsalma gələnəkləri mövcud olmuşdur. Həmin dövrdə Azərbaycanın qədim şəhərlərindən olan Şəkidə də xalq sənətkarları, ustaları tərəfindən bölgənin coğrafi şəraiti və bütün təbii amilləri nəzərə alınaraq möhtəşəm körpülər inşa edilirdi.

Şəki Azərbaycanın gur sulu çayları ilə zəngin bölgələrindən biridir. Mənbəyini Kiçik Qafqaz dağlarından götürən rayonun ən böyük çaylarından olan Kiş çayı Cənubi Qafqazın on selli çaylarından biri hesab olunur. Təəssüflə qeyd olunmalıdır ki, Kiş çayının vaxtaşırı coşub daşması, sel sularının dağıdıcı zərbələri nəticəsində üzərində qurulan tarixi körpülərin heç biri günümüzədək gəlib çatmamışdır. 1772-ci ildə Kiş çayının daşması qədim Şəki şəhəri demək olar ki, tamamilə dağılmışdı. Şəhər əhalisinin bir qismi tələfata uğramış, bir hissəsi isə başqa yerlərə köçüb getmiş, bir qismi də indiki şəhərin yerləşdiyi ərazidə məskən salmışdı. Şəki şəhərində baş vermiş fəlakət hətta XIX əsr mətbuatının da diqqətini cəlb etmişdir. "Kavkaz" **(6. "Kafkaz"qəzeti, 1846)** qəzeti yazırdı: "Dərədən böyük sürətlə çıxan Kiş çayının daşması nəticəsində şəhər yerlə yeksan oldu, yaşayış evləri və zəngin ipəkçilik bağları əvəzinə böyük daş səhrası əmələ gəldi, minlərlə adam qudurmuş selin qurbanı oldu. O vaxtdan salamat qalan əhali dərənin şərqində olan dağ ətəklərinə köçdülər və indiki Nuxanı saldılar".

XVIII əsrin ikinci yarısında yenidən tikilmiş Şəki şəhəri özünün vahid bir üslubu və memarlığında səmərəli istifadə edilmiş yerli təbiətin gözəlliyi ilə vəhdət təşkil edən dərə-təpəli relyefdə yerləşən tarixi tikililəri ilə göz oxşayır. Günümüzə gəlib çatan tarix-memarlıq abidələrinin də əksəriyyəti həmin dövrdə qurulub, yaradılmışdır (7.).

Təzə şəhər Qafqaz dağlarının qollarına söykənən böyük bir ərazidə, gözəl mənzərəli sahədə yerləşmişdir. Şəhərin çox maraqlı plan quruluşu var; şərqdən qərbə axan **Qurcana çay** şəhəri iki

hissəyə - şimal yüksəklik hissəsinə və cənub düzənlik hissələrinə ayırır. Şəhərin memarlıq quruluşunu təşkil edən təbii element Qurcana çay olmuşdur. Həmin dövrdə əhalinin çox hissəsinin Qurcana çayının sağ və sol sahilində məskunlaşması təbii olaraq çayın iki sahilini əlaqələndirmək üçün keçid vasitəsi olaraq körpülərin salınması zərurətini yaratmışdır. Körpülər Qurcana çayının axarı boyunca çay yatağının enindən aslı olaraq bir və ya iki aşırımlı inşa edilirdi. Körpülər inşa edilən zaman çayın sürətini azaltmaq üçün çay yatağında atmalar (tullamalar) hörülürdü ki, bunda məqsəd güclü su axınının körpülərin dayaqlarına daha az zərər verməsi idi.
İndi isə Qurcana çayının üzərində inşa edilmiş tağlı körpülərin tikinti üslubuna nəzər salaq.

“Yuxarı Karvansaray”ın qarşısındakı tağlı körpü

Dövrümüzə gəlib çatmış XVIII əsr (yerli əhəmiyyətli abidə, inv.nöm. 4996) memarlıq abidəsi olan bir aşırımlı tağlı körpü yerli tikinti materiallarından; çay daşı (qaya daşı, dağ daşı), bişmiş kərpic və əhəng məhlulundan istifadə olunaraq inşa edilmişdir. Körpünün yarımdairəvi tağ formasında olan aşırımının qurulmasında bişmiş kərpicdən, divarlarının tikintisində isə daş və kərpicdən istifadə olunmuşdur. Körpünün dayaqlarından biri çayın sol sahili dağlıq ərazi olduğu üçün təbii qayalıqlar üzərində qurulub, o biri dayağı isə çayın sağ sahilində daşdan inşa edilmişdir.
Həmin dövrdə körpülərin memarlıq cəhətdən quruluşu, siması yerli tikinti materialından necə istifadə olunmasından asılı idi. Tikintisində yerli tikinti materiallarının bədii cəhətdən yerli-yerində işlədilməsi (daş və kərpic hörgülərin) körpünün konstruktiv strukturunu dəyişmir, əksinə körpüyə möhkəmlik verir. Körpülərin xalq sənətkarları, memarları tərəfindən hesablanaraq, konstruktiv cəhətdən düzgün qurrulmuş tağları, körpünün öz çəkisini və üzərinə düşən yüklərin ağırlığını dayaqlar üzərinə ötürməklə yanaşı, körpünün estetik görünüşünün formalaşmasında da xüsusi rol oyanyır.



Körpünün uzunluğu 13 metr, eni 5,5 metr, çay səviyyəsindən ən hündür yeri 5 metrdir (ölçülər təqribidir).
Körpü əsasən şəhərin Bazarbaşı məhəlləsi ilə Gəncəli məhəlləsini (bir hissəsini) birləşdirir. Zaman-zaman dağıntılara məruz qalmış körpü müxtəlif dövrlərdə təmir-bərpa olunmuşdur. Təmir-bərpa işlərinin izlərini körpünün fasadında görmək mümkündür.
Yükgötürmə qabiliyyəti inşa edildiyi dövrə görə hesblanmış körpüdə artıq təmir-bərpa və gücləndirnə işlərinin aparılmasına ehtiyac vardır.

“Aşağı Karvansaray”ın qarşısındakı tağlı körpü

XVIII əsrdə Qurcana çayının axarı boyunca inşa edilən körpülərdən biri də “Aşağı Karvansaray”ın qarşısındakı üzərində “Axsaq Yusifin ticarət anbarı”, VMF- in obyektlərinin yerləşdiyi tağlı körpüdür. Körpünün başlanğıc və sonu çayın iki sahilində yerləşən məhəllələri birləşdirsə də orta hissəsinin üzərində ticarət obyektləri yerləşdiyindən bu körpüyə el arasında “Qaranlıq körpü”, “Tunel körpü” də deyilir. Üzərində ticarət obyektləri yerləşən tağlı tunelin uzunluğu 93 metrdir. Körpünün (başlanğıc hissədə) uzunluğu 11 metr, eni 5,5 metr, çay səviyyəsindən ən hündür yeri 4,5 metrdir (ölçülər təqribidir).



Arxiv sənədlərində Tunel körpünün üzərindəki ticarət obyektlərinin- dükanların layihəsinin 1892-ci ildə on bir sahibkarın sifarişi əsasında kompleks şəkildə hazırlanaraq, Yelizavetpol quberniyası tərəfindən təsdiqlənməsi qeyd olunur **(8.arxiv)**. Həmin illərdə Şəki şəhərində (Nuxada) tikinti işləri Yelizavetpol quberniyası tərəfindən təsdiqlənmiş layihə sənədləri əsasında aparılırdı.

Sonuncu dəfə Şəki şəhərində 15-16 iyun 2010-cu il tarixlərində baş vermiş təbii fəlakət nəticəsində körpüyə və üzərində yerləşən ticarət obyektlərinə ciddi ziyanlıq dəymişdir. Güclü sel suları tunel formalı körpünün bişmiş kərpicdən inşa edilmiş tağlarını bəzi hissələrdə tamamilə, bəzi hissələrdə qismən dağıtmış, həmçinin üzərində yerləşən ticarət obyektlərinin də qəzalı vəziyyətə düşməsinə səbəb olmuşdur.

Təbii fəlakət nəticəsində dağıntılara məruz qalmış Qurcana çayının üzərində yerləşən bu körpüdə və "Yuxarı Karvansaray"ın qarşısındakı tağlı körpüdə həmin illərdə (2010-2011-ci illərdə) təmir-bərpa işləri aparılmışdır.

"Xoçik" qəbiristanlığına gedən yolun üzərindəki iki tağlı körpü

Qurcana çayının üzərində qurulan digər körpülər kimi bu körpünün də eyni dövrdə XVIII əsrdə tikdirildiyi təxmin edilir. Çayın yatağı bu hissədə genişləndiyindən körpü aşırımları açıq tağ formasında iki aşırımlı inşa edilmişdir. Körpünün uzunluğu 15,60 m, eni 5,50 m, çay səviyyəsindən ən hündür yeri 5,65 metrdir. İki aşırımlı körpünün aşırımlarından birinin ölçüsü 5,45 m, o birinin ölçüsü 5,20 m.dir. Körpü çayın sağ tərəfində yerləşən "Ağvanlar məhəlləsi" ilə ilə dağlıq ərazidə yerləşən qədim "Xoçik" qəbiristanlığına gedən torpaq yolu birləşdirir. Bu körpüdə də vaxtilə təmir-bərpa işləri aparılmış körpü dayaqları dəmir-beton konstruksiya ilə möhkəmləndirilmişdir. Azərbərpa layihə insititutu tərəfindən 1987-ci ildə işlənilmiş layihə cizgilərində körpüdə təmir- bərpa işləri

aparılması aydın görünür (Şəkil 1).



Şəkil 1

Tanınmış maarifçi, pedaqoq və etnoqrqf alim Əhməd Nəbiyev əlyazmalarında **(9. https://archive.org/details/0_20231110)** sözügedən bu ərazidə ilin axır çərşənbə günü oynanılan qədim xalq oyunu-daş döyüşü haqqında yazmışdır. Daş döyüşündə insanlar iki dəstəyə bölünüb qəbiristsnlığın üstündə Xoçik üstü deyilən əraziyə yığışardılar. Hər iki dəstə bir-birindən 20-25 addım aralı düzülərək əllərinə ətəklərinə yığdıqları xırda daş parçaları ilə daş döyüşünə başlayırdılar. Döyüş bəzən o qədər uzanırdı ki, hər iki tərəf yorulub əldən düşürdü. Bu vaxt dəstə başçıları döyüşü dayandırıb, insanları evlərinə dağıdardı. Əlbətdə bu oyunda yaralanan, xəsarət alanlar da olurdu. Bu səbəblə də təxminən 1870-ci illərdə daş döyüşünün tamamilə qadağan olunduğunu Əhməd Nəbiyev əlyazmalarında qeyd etmişdir.

"Dərə hamamı"nın yaxınlığındakı tağlı körpü

Qurcana çayının üzərində qurulan körpülərdən biridə H.Əkbərov küçəsində, "Dərə hamamı"nın yaxınlığında yerləşən tağlı körpüdür. Digər körpülərlə eyni dövrdə inşa edilən körpü tək aşırımlıdır. Tikintisində çay daşı, əhəng məhlulu və bişmiş kərpicdən istifadə olunmuş bu körpü əhalinin sıx məskunlaşdığı ərazidə, Gəncəli məhəlləsində inşa edilmişdir. Körpünün uzunluğu 11 metr, eni 6 metr, çay səviyyəsindən ən hündür yeri 4 metrdir (ölçülər təqribidir).

Yuxarıda adları sadalanan dörd körpüdən başqa da Qurcana çayının üzərində tağlı körpülər (3 nöm. Məktəbin qarşısındakı körpü, 9 para deyilən ərazidəki körpü və s.) mövcuddur ki, hər birinin özünə məxsus memarlıq görünüşü vardır. Bunlarla yanaşı "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində o qədər də böyük olmayan tağlı körpülər də mövcuddur. Həmin körpülər dağdan gələn sel sularının yaratdığı yarğanların, dərələrin üzərində əhalinin rahat gediş-gəlişini təmin etmək üçün qurulmuşdur.

XVIII-XIX əsrdə Şəki ərazisində çayların üzərində qurulan körpülərin demək olar ki, hamısının tağları kərpicdən qurulduğu halda əsas kütləsi çay daşından inşa edilirdi. Bu iki materialın uyarlılığı

körpüyə konstruktiv cəhətdən möhkəmlik verməklə yanaşı, bədii görkəm də verirdi. Həmin dövrdə xalq sənətkarları yüksək peşəkarlıqları nəticəsində mühəndis qurğusu hesab edilən körpüləri memarlıq əsərinə çevirməyi bacarmışdılar.
Hal-hazırda Şəki "Yuxarı Baş" Milli Tarix Memarlıq Qoruğu ərazisində Dövlət Turizm Agentliyinin təşəbbüsü ilə dövlət mühafizəsinə götürülmüş abidələrdə təmir-bərpa işlərinin aparılması tendensiya halını almışdır. Bu tendensiyanın davamı olaraq Qoruq ərazisində Qurcana çayı üzərində qurulan tağlı körpülərin təmir-bərpası üçün hazırlıq işləri aparılır. Bunun üçün körpülər əvvəlcədən Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən müayinə edilmiş, mövcud vəziyyətləri araşdırılmışdır. Hazırda layihə-smeta sənədləri hazırlanması üzrə işlər görülür. "Yuxarı Baş" Milli Tarix Memarlıq Qoruğu ərazisində yerləşən tarixi abidələrin təmir-bərpası tarixin izlərini günümüzə daşıyan memarlıq incilərinin qorunmasına və gələcək nəsillərə ötürülməsinə vəsilə olacaqdır.

Nəticə

Şəki orta əsr şəhərlərinə məxsus olan şəhərsalma mədəniyyətini, tarixi memarlıq abidələrini özündə qoruyub saxlayan unikal bir məkandır. "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu Şəkinin tarixi hissəsini əhatə edir, hal-hazırda qoruq ərazisində dövlət mühafizəsinə götürülmüş 83 abidə və çoxlu sayda tarixi tikililər vardır. Sevindirici haldır ki, Şəki şəhərinin tarixi hissəsində yerləşən mədəni irs nümunələrinin- tarixi abidələrin qorunub saxlanılmasına, xalqımızın zəngin mədəniyyətinin təbliğinə dövlət səviyyəsində böyük diqqət yetirilir. Dövlət qayğısının nəticəsidir ki, son illərdə "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində bir çox abidə; Xan məscidi, Rəsm qalareyası, Qoruğun İnzibati binası (keçmiş göz xəstəxanası) Tarix muzeyinin binası, Şəbəkə emalatxanası, Qeyri-yaşayış binası (keçmiş endekrinoloji xəstəxana binası) yüksək səviyyədə təmir-bərpa olunmuşdur. Adları sadalanan abidələrin siyahısına çox yəqin ki, tezliklə Qurcana çayı üzərindəki tağlı körpülərin də adları əlavə olunar. Arzu edərdik ki, tarixi keçmişimizə yol salan körpülər, gələcək nəsillərə yol göstərən mayak olsun.

Ədəbiyyat

1. Azərbaycan etnoqrafiyası, II cild, səh.289-290s.
2. Əlizadə Q. (1986). Memarlıq nəzəriyyəsi və Azərbaycanda tikinti təcrübəsi. "Maarif" nəşriyyatı. Bakı. 24-25s.
3. Qiyasi C. (1991) Nizami dövrü memarlıq abidələri. İşıq nəşriyyatı. Bakı. 139s.
4. Qiyasi C. (1991) Nizami dövrü memarlıq abidələri. İşıq nəşriyyatı. Bakı. 12s.
5. Nizamülmülk. (1989) Siyasətnamə. Bakı. Elm 212s.
6. "Kafkaz"qəzeti. (1846). 15 iyun.
7. "Elmi iş" Beynəlxalq elmi jurnal. Cild 18, Sayı 5. Bakı, 2024. 168-176s.
8. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond 61, № 1, Saxlama vahidi 1471
9. https://archive.org/details/0_20231110
10. Məmmədova G. Məmmədova Z. Orta əsrlər memarlığı (2-ci cild). Bakı (2013). 230-231s.

MODERN PEDAGOGICAL APPROACHES IN TEACHING PHYSICS IN GENERAL EDUCATION SCHOOLS

ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ FIZIKANIN TƏDRISINDƏ MÜASIR PEDAQOJI YANAŞMALAR

Gülşən Əli qızı Musayeva
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Fizika fakültəsi,
Fizikanın tədrisi texnologiyası kafedrasının baş müəllimi
ORCID: 0000-0002-7605-465X

Xülasə
Müasir dövrdə təhsil sahəsində gedən inkişaflar və dəyişən tələblər fizika fənninin tədris metodikasında da yeniliklərin tətbiqini zəruri edir. Ənənəvi pedaqoji yanaşmalar şagirdləri passiv bilik qəbulçusu kimi görsə də, müasir yanaşmalar şagirdin öyrənmə prosesində fəal iştirakını əsas götürür. Bu kontekstdə konstruktivizm, problemyönlü öyrənmə, tədqiqat əsaslı və layihə yönümlü tədris kimi metodlar fizika dərslərində geniş tətbiq olunur. Konstruktiv yanaşma şagirdlərin əvvəlki biliklərini əsas alaraq yeni anlayışlar qurmasına şərait yaradır. Problemyönlü və tədqiqat əsaslı metodlar isə şagirdləri real həyatdan götürülmüş məsələləri araşdırmağa, təcrübələr aparmağa və nəticələr çıxarmağa təşviq edir.
Müasir texnologiyaların inteqrasiyası da fizika dərslərinin keyfiyyətini yüksəldir. Virtual laboratoriyalar, simulyasiya proqramları və interaktiv platformalar vasitəsilə şagirdlər abstrakt fiziki anlayışları daha aydın qavrayır və dərsə maraqları artır. STEAM (Elm, Texnologiya, Mühəndislik, İncəsənət, Riyaziyyat) yanaşması isə fənlərarası inteqrasiyanı təmin edərək, şagirdlərin yaradıcı və analitik düşünmə qabiliyyətlərini inkişaf etdirir.
Lakin bu metodların tətbiqində müəyyən çətinliklər də mövcuddur. Bunlara texniki avadanlıqların və maliyyə resurslarının məhdudluğu, müəllimlərin müasir pedaqoji yanaşmalar barədə məlumat və təcrübələrinin azlığı daxildir. Bu problemlərin həlli üçün müəllimlərin ixtisasartırma kursları, metodik dəstək və məktəb rəhbərliyinin təşviqi vacibdir.
Nəticə olaraq, müasir pedaqoji yanaşmalar fizika fənninin tədrisini daha maraqlı, anlaşılan və praktik edir. Bu da şagirdlərin fənnə olan marağını artırır, onların tənqidi düşüncə və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Gələcəkdə fizika tədrisinin daha da müasirləşməsi üçün pedaqoji yeniliklərin davamlı tətbiqi və müəllim hazırlığının gücləndirilməsi önəmlidir.
Açar sözlər: Fizika, müasir pedaqoji yanaşmalar, konstruktivizm, problemyönlü öyrənmə, layihə əsaslı öyrənmə

Abstract
In the modern era, developments and changing demands in the field of education necessitate the introduction of innovations in the methodology of teaching physics. While traditional pedagogical approaches view students as passive recipients of knowledge, modern approaches emphasize the active participation of students in the learning process. Within this context, methods such as constructivism, problem-based learning, inquiry-based learning, and project-based teaching are widely applied in physics lessons. The constructivist approach allows students to build new concepts based on their prior knowledge. Problem-based and inquiry-based methods encourage students to investigate real-life problems, conduct experiments, and draw conclusions.
The integration of modern technologies also improves the quality of physics lessons. Through virtual laboratories, simulation programs, and interactive platforms, students can better grasp abstract

physical concepts and increase their interest in the subject. The STEAM approach (Science, Technology, Engineering, Arts, and Mathematics) ensures interdisciplinary integration, fostering students' creative and analytical thinking skills.

However, certain challenges exist in implementing these methods. These include limited technical equipment and financial resources, as well as a lack of knowledge and experience among teachers regarding modern pedagogical approaches. To address these problems, professional development courses for teachers, methodological support, and encouragement from school administration are essential.

In conclusion, modern pedagogical approaches make the teaching of physics more engaging, understandable, and practical. This increases students' interest in the subject and develops their critical thinking and problem-solving skills. For further modernization of physics education in the future, the continuous application of pedagogical innovations and strengthening of teacher training are crucial.

Key words: Physics, modern pedagogical approaches, constructivism, problem-based learning, project-based learning

Giriş

Müasir dövrdə təhsilin əsas məqsədi təkcə bilik vermək deyil, həm də şagirdlərdə yaradıcı düşünmə, problem həll etmə və analitik təfəkkür bacarıqlarını inkişaf etdirməkdir. Xüsusilə də fizika fənni bu baxımdan böyük əhəmiyyət kəsb edir. Fizika yalnız təbiət hadisələrini izah etmir, həm də texnologiya və mühəndislik sahələrinə əsaslı keçid rolunu oynayır [1]. Bu səbəbdən, fizikanın ümumtəhsil məktəblərində tədrisi zamanı müasir pedaqoji yanaşmaların tətbiqi vacib məsələlərdən biridir.

Müasir pedaqoji yanaşmalar dedikdə, ənənəvi "müəllim danışır – şagird dinləyir" modelindən fərqli olaraq şagirdin aktiv iştirak etdiyi, interaktiv və təcrübəyə əsaslanan tədris üsulları nəzərdə tutulur. Bu yanaşmaların əsas məqsədi şagirdin öyrənmə prosesində fəal olması, bilikləri özü kəşf etməsi və onları praktikada tətbiq edə bilməsidir [2].

Ən çox istifadə olunan müasir pedaqoji yanaşmalara aşağıdakılar daxildir:

- **Probleməsaslı öyrənmə (Problem-Based Learning – PBL)**
- **Layihəəsaslı öyrənmə (Project-Based Learning)**
- **STEAM yanaşması (Science, Technology, Engineering, Art, Mathematics)**
- **Əməkdaşlığa əsaslanan öyrənmə**
- **Konstruktivist metodlar**
- **Rəqəmsal texnologiyaların tətbiqi**

Araşdırma

Fizika dərslərində probleməsaslı və layihəəsaslı öyrənmə. Bu pedaqoji yanaşmaları nümunələr əsasında araşdıraq.

Problem əsaslı öyrənmə real həyatda qarşıya çıxan suallar və situasiyalar üzərindən qurulur. Şagirdlər problemi müəyyən edir, araşdırır, hipotezlər irəli sürür, həll yolları tapır və nəticə çıxarırlar. Bu prosesdə müəllim istiqamətləndirici rolunda çıxış edir [3]. Problem əsaslı öyrənmə metodunda şagirdlər real həyatla bağlı bir problemi həll etməyə çalışırlar. Bu yanaşma fizika dərslərində olduqca effektivdir

Nümunə 1: "Niyə günəşli havada asfalt daha tez qızır?"

- **Məqsəd:** İstilik keçirmə və şüalanma ilə bağlı biliklərin tətbiqi.
- **Təsvir:** Müəllim dərsin əvvəlində belə bir problem verir: "Eyni havada, günəş altında metal və asfalt yolda hansı daha tez qızır və niyə?"
- **Tapşırıq:** Şagirdlər kiçik qruplara ayrılır. Hər qrup hipotez irəli sürür, internet və dərs vəsaitləri üzərində araşdırma aparır, maddələrin istilik keçiriciliyi və absorbsiyası barədə məlumat toplayır.

- **Nəticə:** Şagirdlər materialların fərqli istilik keçiricilik qabiliyyəti olduğunu aşkar edir və nəticəni siniflə paylaşır.
- **Əldə olunan bacarıqlar:** Tədqiqat, müşahidə, səbəb-nəticə əlaqəsi qurma, komanda işi.
-

Nümunə 2: "Liftlə yuxarı qalxarkən çəkinin artması"

- **Məqsəd:** Təcil və qüvvələrin təsiri ilə bağlı anlayışların tətbiqi.
- **Problem:** "Niyə liftlə yuxarı qalxanda bəzən özümüzü ağır hiss edirik?"
- **Tapşırıq:** Şagirdlərə dinamometr və yüklər verilərək, lift modelində təcrübə aparmaları istənilir. Qüvvələrin vektorial toplanması öyrənilir.
- **Yekun:** Qravitasiya sabiti və təcilin birgə təsirinin nəticəsi şərh edilir.
-

Layihəəsaslı öyrənmə müəyyən bir məhsul və ya nəticəyə yönəlmiş uzunmüddətli fəaliyyətdir. Şagirdlər real və ya simulyasiya olunmuş problemi araşdıraraq onun üzərində praktiki layihə hazırlayırlar. Layihəəsaslı öyrənmə isə şagirdlərin müəyyən bir layihəni (məsələn, sadə elektrik obyekti düzəltmək) planlaşdırması, hazırlaması və təqdim etməsi prosesini əhatə edir. Bu üsul fiziki biliklərin gündəlik həyatda necə tətbiq olunduğunu nümayiş etdirir və şagirdin özünəinamını artırır.
Nümunə 1: "Sadə elektrik dövrəsinin qurulması"

- Layihə adı: Öz əl fənərimizi düzəldək.
- Məqsəd: Elektrik dövrələrinin qurulması, paralel və ardıcıl bağlanma anlayışlarının tətbiqi.
- Təchizat: Batareya, LED lampa, keçirici naqillər, düymə.
- Təsvir: Şagirdlər 2-3 nəfərlik qruplarda fənər düzəldirlər. Bu zaman onlar elektrik enerjisi, enerji çevrilməsi və dövrə təhlükəsizliyi anlayışlarını tətbiq edirlər.
- Qiymətləndirmə: İşlək modelin keyfiyyəti, təqdimat və texniki izah.

Nümunə 2: "Təzyiqi ölçən sadə cihazın hazırlanması"

- Layihə adı: Qaz təzyiqini ölçən manometr modelinin qurulması.
- Məqsəd: Təzyiq, maye sütununun hündürlüyü və atmosfer təzyiqi ilə əlaqəli biliklərin tətbiqi.
- Təchizat: Şüşə boru, su, rezin boru, ölçü lentləri.
- Tapşırıq: Şagirdlər öz manometrlərini hazırlayır və müxtəlif yüksəkliklərdə təzyiq fərqlərini qeyd edirlər.
- Əlavə dəyər: Təcrübənin nəticələri qrafiklə təqdim olunur. Təcrübə real həyatda istifadə olunan alətlərin iş prinsipini anlamağa kömək edir.

Müqayisəli təsvir: PBL və PjBL fərqləri

Element	Probleməsaslı öyrənmə	Layihəəsaslı öyrənmə
Fokus	Problemi anlama və analiz	Praktik məhsul və tətbiq
Müddət	Qısamüddətli (1-2 dərs)	Uzunmüddətli (həftələrlə)
Məqsəd	Məlumat tapmaq və həll yolu irəli sürmək	Yeni bir şey yaratmaq və tətbiq etmək
Nəticə	Təhlil və şərh	Fiziki model və ya təqdimat

Fizika dərslərində STEAM yanaşmasının rolu

Son illərdə fizika tədrisində STEAM (Science, Technology, Engineering, Art, Mathematics) yanaşması geniş tətbiq olunur. Bu yanaşma fənlərarası inteqrasiyanı təşviq edir. Fizika dərslərində STEAM layihələri şagirdlərə müxtəlif sahələrdəki bilikləri birləşdirərək praktiki nəticələr çıxarmaq imkanı yaradır [6].

Məsələn, bir dərsdə şagirdlərdən günəş enerjisilə işləyən avtomobilin modelini hazırlamaq tələb oluna bilər. Bu zaman onlar həm fizika qanunlarını (iş, enerji, optika), həm mühəndislik bacarıqlarını,

həm də riyazi hesablamaları tətbiq edirlər. Bu cür layihələr şagirdlərdə 782ctual782782ri düşüncə və yaradıcılıq bacarıqlarını formalaşdırır.

Rəqəmsal texnologiyalar və interaktiv vasitələr

XXI əsrin təhsil mühiti rəqəmsallaşma ilə xarakterizə olunur. Müasir fizika dərslərində interaktiv lövhələr, simulyasiyalar, 3D modellər, mobil tətbiqlər və virtual laboratoriyalardan istifadə geniş yayılmışdır. Bu alətlər mürəkkəb fiziki hadisələrin daha aydın izahını və vizuallaşdırılmasını təmin edir.

Məsələn, "Elektrik dövrələrinin simulyasiyası" proqramı vasitəsilə şagirdlər təhlükəsiz şəkildə müxtəlif dövrə modelləri qurub təcrübələr apara bilirlər. Bu, həm təcrübə aparmaq üçün şəraitin olmadığı məktəblərdə alternativ variantdır, həm də tədrisin 782ctual və maraqlı formada təşkilinə imkan verir.

Müəllimin rolu və şagirdyönümlü yanaşma

Müasir yanaşmalarda müəllim daha çox istiqamətləndirici və fasilitator rolunu oynayır. O, dərsi təşkil edir, şagirdləri motivasiya edir və onlara araşdırma, diskussiya və kəşf yolu ilə öyrənmək üçün şərait yaradır. Şagird isə öyrənmə prosesinin mərkəzinə yerləşdirilir və passiv dinləyici yox, aktiv iştirakçı rolunu oynayır.

Bu model şagirdlərdə müstəqil öyrənmə, tədqiqat aparmaq və öz biliklərini tətbiq etmək bacarıqlarını inkişaf etdirir. Eyni zamanda, müəllimin empati qabiliyyəti, texnologiyalardan istifadə bacarığı və fənlərarası əlaqələr qurma səriştəsi də artır [7].

NƏTICƏ

Fizika dərslərində müasir pedaqoji yanaşmaların tətbiqi təhsil prosesinin keyfiyyətini artırır, şagirdlərin dərsə marağını gücləndirir və onları real həyatda problemləri həll edə bilən bacarıqlı və yaradıcı fərdlərə çevirir. Ənənəvi metodlarla yanaşı müasir texnologiyaların və pedaqoji modellərin istifadəsi tədris prosesini daha interaktiv və effektiv edir. Bu isə öz növbəsində cəmiyyətin elmi və texnoloji inkişafına müsbət təsir göstərir. Bu yanaşmalar şagirdlərdə yalnız bilik deyil, həm də tədqiqatçılıq, yaradıcılıq, praktik bacarıqlar və komanda işinə hazırlıq kimi mühüm keyfiyyətləri inkişaf etdirir. Beləliklə, bu metodlar təhsildə keyfiyyətin yüksəldilməsində və gələcəyin mütəxəssislərinin formalaşmasında əvəzsiz rol oynayır.

Ədəbiyyat

1. Əliyev, Ə. (2019). Fizikanın tədrisində 782ctual782782ri metodların tətbiqi. Bakı: Təhsil Nəşriyyatı.
2. Qarayev, M., Hüseynova, S. (2021). Müasir pedaqoji texnologiyalar və onların təhsildə tətbiqi. Bakı: Elm və Təhsil.
3. Jonassen, D. H. (2011). Learning to Solve Problems: A Handbook for Designing Problem-Solving Learning Environments. Routledge.
4. Ministry of Education of the Republic of Azerbaijan. (2020). Ümumtəhsil məktəblərində tədrisin keyfiyyətinin yüksəldilməsi üzrə metodik tövsiyələr. Bakı: Təhsil Nazirliyi.
5. Savery, J. R. (2006). Overview of Problem-based Learning: Definitions and Distinctions. Interdisciplinary Journal of Problem-based Learning, 1(1), 9–20.
6. Fidan, A., Duman, T. (2017). STEM təhsili və onun tətbiqi. Türk Təhsil Elmləri Dergisi, 15(2), 45–58.
7. Bakı Dövlət Universiteti. (2018). Fizika fənninin tədrisində müasir texnologiyaların rolu (metodik vəsait). Bakı: BDU nəşriyyatı.
8. OECD. (2022). Future of Education and Skills 2030: OECD Learning Compass 2030. https://www.oecd.org/education/

DIGITAL SKILLS AND TEACHING EFFECTIVENESS OF ENGLISH TEACHERS

İNGİLİS DİLİ MÜƏLLİMLƏRİNİN RƏQƏMSAL BACARIQLARI VƏ TƏDRİS EFFEKTİVLİYİ

Abdurahmanova Səfurə Səlahəddin qızı
Baş müəllim Azərbaycan Dövlət Pedaqoji Universiteti, Şəki filialı
ORCID ID: 0000-0002-9487-2146

Abstract
In the modern era, technology has significantly influenced all areas of life, including the education system. The digitalization process in education has transformed the role of teachers, necessitating the acquisition of new knowledge and skills. This importance of technology is particularly evident in teaching foreign languages, where teachers' ability to use digital tools is crucial for the quality of instruction. As English language teaching increasingly relies on interactive and communicative methods, digital resources have become essential. Digital skills enhance lesson engagement and interactivity, boosting students' motivation and participation. Additionally, digital assessment methods, online lesson organization, and the ability to monitor student activity have expanded teachers' capabilities. The rapid expansion of online education during the pandemic further underscored the necessity of digital competencies for teachers.
Therefore, a 21st-century teacher must be more than just a transmitter of knowledge; they should also be a professional capable of effectively using technology and applying innovative teaching methods. While some initiatives have been implemented in Azerbaijan to address this need, disparities in teachers' digital competencies persist. Notably, a lack of technical and methodological support in regional areas remains a significant obstacle to development.
This article examines the digital skills of English language teachers, the impact of these skills on teaching effectiveness, the current situation, and future development prospects. The aim is to assess how teachers utilize technological tools and how this utilization influences the quality of instruction.
Keywords: digital, teaching, skill, teacher, interactive, safety, technology

Xülasə
Müasir dövrdə texnologiyanın inkişafı həyatımızın bütün sahələrinə olduğu kimi, təhsil sisteminə də mühüm təsir göstərmişdir. Təhsilin rəqəmsallaşması prosesi müəllimlərin rolunun dəyişməsinə, onların yeni bilik və bacarıqlara yiyələnməsini zəruri etmişdir. Xüsusilə xarici dillərin tədrisində texnologiyaların əhəmiyyəti daha da artmış, müəllimlərin rəqəmsal alətlərdən istifadə bacarıqları tədrisin keyfiyyətində mühüm rol oynamışdır. [1] İngilis dili dərslərində interaktiv və kommunikativ metodların üstünlük təşkil etməsi rəqəmsal resursları bu sahədə əvəzolunmaz vasitəyə çevirmişdir. Rəqəmsal bacarıqlar dərslərin daha maraqlı və interaktiv keçirilməsinə, şagirdlərin motivasiya və iştirak səviyyəsinin yüksəlməsinə şərait yaradır. Eyni zamanda, rəqəmsal qiymətləndirmə metodlarının tətbiqi, onlayn platformalarda dərslərin təşkili və şagird fəaliyyəti üzərində nəzarət imkanları da müəllimlərin fəaliyyətini genişləndirmişdir. Pandemiya dövründə onlayn təhsilin sürətlə yayılması müəllimlərin rəqəmsal bacarıqlarının zəruriliyini 783ctual783783 nümayiş etdirdi.
Beləliklə, XXI əsrin müəllimi yalnız bilik ötürən deyil, həm də texnologiyadan səmərəli istifadə edə bilən, 783ctual783783ri tədris metodlarına yiyələnmiş bir mütəxəssis olmalıdır. Azərbaycanda bu sahədə bir sıra təşəbbüslər həyata keçirilsə də, müəllimlərin rəqəmsal bacarıqları arasında fərqliliklər mövcuddur. Xüsusilə regionlarda texniki və metodiki dəstəyin məhdudluğu, bu sahədə inkişafın qarşısında duran əsas maneələrdəndir.

Bu məqalədə ingilis dili müəllimlərinin rəqəmsal bacarıqları, bu bacarıqların tədris effektivliyinə təsiri, mövcud vəziyyət və inkişaf perspektivləri araşdırılır. Məqsəd, müəllimlərin texnoloji imkanlardan istifadəsini və bu istifadənin tədris keyfiyyətinə təsirini qiymətləndirməkdir.
Açar sözlər: rəqəmsal, tədris, bacarıq, müəllim, interaktiv, təhlükəsizlik, texnologiya

Giriş

Rəqəmsal bacarıqların tərkibi

İngilis dili müəllimlərinin rəqəmsal bacarıqları geniş və çoxşaxəli sahəni əhatə edir. Bu bacarıqlar müəllimin texnoloji alətlərlə işləmə qabiliyyəti ilə yanaşı, pedaqoji məqsədlərə uyğun şəkildə bu alətləri tədris prosesinə inteqrasiya etmə bacarığını da əhatə edir.

Rəqəmsal bacarıqlara ilk növbədə onlayn dərs platformalarından istifadə bacarığı daxildir. Müəllimlər Zoom, Microsoft Teams, Google Meet və digər video-konfrans platformalarında dərs keçməyi bacarmalıdırlar. Bundan əlavə, Google Classroom, Moodle, Edmodo kimi onlayn tədris idarəetmə sistemlərindən istifadə etmək də əsas rəqəmsal kompetensiyalar sırasına daxildir.

İkinci vacib bacarıq sahəsi interaktiv və 784ctual materialların hazırlanmasıdır. Bu məqsədlə müəllimlər PowerPoint təqdimatları, interaktiv veb alətlər (Kahoot, Quizlet, Wordwall, Mentimeter və s.) vasitəsilə material hazırlamalıdırlar. Eyni zamanda, rəqəmsal qiymətləndirmə alətləri (Google Forms, Socrative, Quizziz) vasitəsilə şagirdlərin bilik və bacarıqlarını qiymətləndirmək mühüm bacarıqlardan sayılır. [4,46]

Multimedia resurslarından istifadə – videolar, səsyazmalar, animasiyalar və interaktiv simulyasiyalar – müəllimlərin tədrisə rəng qatmaq və öyrənməni fərdiləşdirmək imkanlarını artırır. Bütün bunlarla yanaşı, müəllimlər internet resurslarının düzgün istifadəsi, müəllif hüquqlarına riayət və rəqəmsal etikaya əməl etmə qaydalarını da bilməlidirlər. Rəqəmsal bacarıqlar yalnız texniki biliklərlə məhdudlaşmır, onlar həm də pedaqoji düşüncə tərzinin bir hissəsidir və davamlı olaraq yenilənməyi tələb edir.

Tədris effektivliyinə təsir

İngilis dili müəllimlərinin rəqəmsal bacarıqları tədrisin effektivliyinə birbaşa və çoxşaxəli təsir göstərir. Rəqəmsal texnologiyaların tətbiqi ilə dərslər monotonluqdan çıxarılır və interaktivliyə yönəlir. Bu isə şagirdlərin diqqətini dərsə cəlb edir, öyrənməyə marağını artırır və onların bilikləri daha dərindən mənimsəməsinə şərait yaradır. Məsələn, video dərslər, animasiyalar və interaktiv testlər vasitəsilə təqdim olunan materiallar şagirdlərdə 784ctual yaddaşı gücləndirir və daha uzunmüddətli öyrənmə effekti yaradır. Rəqəmsal alətlər həmçinin müəllimlərin dərs materiallarını daha sürətli hazırlamasına, təqdim etməsinə və şagirdlərlə paylaşmasına imkan verir. Bu da zamanın daha səmərəli istifadəsini və dərsin daha planlı təşkilini təmin edir. Rəqəmsal platformalarda mövcud olan avtomatik qiymətləndirmə və analitika alətləri müəllimə şagirdin inkişafını real vaxtda izləmək və vaxtında müdaxilə etmək imkanı verir. Beləliklə, fərdi yanaşma güclənir və tədrisin keyfiyyəti artır. Bundan əlavə, müəllimlər internet resurslarından istifadə edərək müxtəlif səviyyəli və maraq dairəsinə uyğun tapşırıqlar hazırlaya bilirlər. Bu isə sinifdə fərqləndirilmiş tədrisin həyata keçirilməsini asanlaşdırır. Rəqəmsal mühitdə layihə əsaslı öyrənmə, problem əsaslı öyrənmə və digər müasir metodların tətbiqi də mümkündür. Onlayn əməkdaşlıq vasitələri şagirdlərin komanda şəklində işləmə bacarıqlarını inkişaf etdirir. [3, 238] Tədris effektivliyinə bir başqa vacib təsir müəllimin dərsdə motivasiya və maraq yaratmaq qabiliyyətidir. Rəqəmsal oyunlaşdırma elementləri (gamification), mükafat sistemləri və rəqabət motivli tətbiqlər bu istiqamətdə mühüm rol oynayır. Şagirdlər oyun şəklində təqdim olunan dərslərdə daha aktiv iştirak edir və özlərini daha inamlı hiss edirlər. Sonda qeyd etmək olar ki, rəqəmsal bacarıqlar yalnız texniki deyil, həm də pedaqoji strategiyaların zənginləşdirilməsi baxımından tədrisin effektivliyinə böyük töhfə verir. Müəllimin

texnologiyanı tədris məqsədilə necə və nə zaman tətbiq etməyi bilməsi onun peşəkarlığının göstəricisidir və bu, bilavasitə təlimin nəticələrinə əhəmiyyətli şəkildə təsir edir. [3,73]
Pandemiya dövründə onlayn dərs formatına keçid göstərdi ki, müəllimlərin rəqəmsal savadlılığı olmadan effektiv tədris mümkün deyil. Bu səbəbdən rəqəmsal bacarıqlar artıq əlavə üstünlük deyil, zəruri kompetensiya hesab olunur.

Azərbaycanda mövcud vəziyyət və problemlər

Azərbaycanda ingilis dili müəllimlərinin rəqəmsal bacarıqları sahəsində müəyyən irəliləyişlər əldə olunsa da, bu sahədə bir sıra ciddi problemlər qalmaqdadır. Son illərdə rəqəmsal texnologiyaların tədrisə inteqrasiyası istiqamətində dövlət tərəfindən bir sıra layihələr və proqramlar həyata keçirilsə də, onların effektivliyi və əhatə dairəsi hələ də məhdud olaraq qalır.[1] Böyük şəhərlərdə yerləşən məktəblər nisbətən daha yaxşı texniki təchizata malik olduqları halda, kənd və ucqar bölgələrdə yerləşən məktəblərdə bu imkanlar ya zəifdir, ya da ümumiyyətlə yoxdur. Bu qeyri-bərabərlik müəllimlərin rəqəmsal alətlərdən istifadəsində ciddi fərqlərə və nəticə etibarilə tədrisin keyfiyyətində kəskin uyğunsuzluqlara səbəb olur.
Eyni zamanda, bəzi müəllimlərin yaş və təcrübə səbəbindən texnologiyaya adaptasiyası çətinlik törədir. Onlar üçün nəzərdə tutulan treninqlərin sayının məhdud olması və treninqlərin daha çox nəzəri məlumatlara əsaslanması praktiki bacarıqların inkişafını ləngidir. Bununla yanaşı, treninqlərin keyfiyyəti və ardıcıllığı da bəzən müəllimlərin gözləntilərinə cavab vermir.
Müəllimlərin gündəlik iş yükünün yüksək olması, əlavə təlimlərdə iştirak üçün zaman və enerji çatışmazlığı yaradır. Əlavə olaraq, bəzi məktəblərdə rəhbərlik səviyyəsində rəqəmsal tədrisin əhəmiyyəti tam mənimsənilmədiyi üçün müəllimlər bu istiqamətdə kifayət qədər təşviq edilmir və dəstəklənmir.
Texniki avadanlıqların məktəblərdə istifadəsi zamanı rast gəlinən problemlər – məsələn, proyektorların və ya kompüterlərin işləməməsi, internet bağlantısının qeyri-sabitliyi – müəllimlərin motivasiyasını aşağı salır. Rəqəmsal resursların istifadəsi üçün metodik dəstək materiallarının olmaması və dil baryerinin olması da bu sahədə irəliləyişi ləngidən digər faktorlar sırasındadır.
Bütün bu çətinliklərə baxmayaraq, müəllimlər arasında rəqəmsal tədrisə maraq artmaqdadır. Gənc nəslin texnologiyaya açıq olması, rəqəmsal resursların dərsə maraq qatması və şagirdlərin motivasiyasını artırması müəllimləri bu sahədə daha çox təşəbbüs göstərməyə vadar edir.[4, 48]
Bununla belə, mövcud problemlərin sistemli şəkildə həll olunması, müəllimlərə texniki, metodik və psixoloji dəstəyin göstərilməsi mütləqdir. Bu yanaşma yalnız müəllimlərin deyil, bütövlükdə ölkə təhsilinin rəqəmsal transformasiyasına töhfə verəcək.

Rəqəmsal təlimdə etik məsələlər və təhlükəsizlik

Rəqəmsal texnologiyaların tədrisə inteqrasiyası təhsildə yeni imkanlar yaratmaqla yanaşı, həm də etik və təhlükəsizlik baxımından ciddi məsuliyyətlər yaradır. Müəllimlərin yalnız texniki bacarıqlara deyil, eyni zamanda rəqəmsal etikaya və informasiya təhlükəsizliyi sahəsində savadlılığa malik olması müasir dövrdə zərurətə çevrilmişdir. [2]
Ən mühüm etik məsələlərdən biri müəllim və şagird arasında rəqəmsal münasibətlərin sərhədlərinin müəyyənləşdirilməsidir. Onlayn dərslərdə müəllimlər şagirdlərlə ünsiyyətdə etik davranış normalarını qorumalı, şəxsi məlumatların paylaşılmasında diqqətli olmalıdırlar. Məsələn, şagirdlərin şəkillərinin və ya səs yazılarının icazəsiz yayımlanması şəxsi məxfiliyin pozulmasına səbəb ola bilər.
Bundan əlavə, müəllimlərin istifadə etdiyi onlayn platformaların məlumat təhlükəsizliyi standartlarına cavab verməsi vacibdir. Şagirdlərin fərdi məlumatları – ad, yaş, təhsil göstəriciləri və digər şəxsi məlumatlar – yalnız etibarlı sistemlərdə saxlanmalı və üçüncü şəxslərlə paylaşılmamalıdır. Müəllimlər bu məlumatların təhlükəsizliyi ilə bağlı hüquqi və etik məsuliyyət daşıyırlar.
Etik məsələlərə həmçinin müəllimlərin rəqəmsal kontentdən istifadəsi də daxildir. Tədris materiallarının müəllif hüquqlarına riayət olunmadan istifadə edilməsi və ya qeyri-dəqiq mənbələrin

paylaşılması təhsil keyfiyyətini zəiflədə və hüquqi pozuntulara səbəb ola bilər. Müəllimlər istifadə etdikləri mənbələri düzgün istinad etməli və açıq lisenziyalı (open-source) materiallardan istifadə etməyə üstünlük verməlidirlər. [6,318]

Təhlükəsizlik məsələləri sırasında kiberzorakılıq və rəqəmsal sui-istifadə halları da xüsusi diqqət tələb edir. Bəzi hallarda şagirdlər bir-birlərinə və ya müəllimlərinə qarşı onlayn təhqir, şərhlərlə zorakılıq tətbiq edə bilirlər. Bu cür halların qarşısının alınması üçün müəllimlər yalnız dərs keçməməli, həm də şagirdlərə rəqəmsal vətəndaşlıq, onlayn davranış mədəniyyəti və təhlükəsiz internet istifadə qaydaları barədə maarifləndirmə aparmalıdırlar.
Azərbaycan kontekstində bu sahədə müəyyən boşluqlar mövcuddur. Müəllim hazırlığı proqramlarında rəqəmsal etika və informasiya təhlükəsizliyi bəzən yetərincə vurğulanmır. Bu səbəbdən, pedaqoji universitetlərin kurikulumlarında "Rəqəmsal Təlimdə Etik Qaydalar" və "Kibertəhlükəsizlik" fənlərinin əlavə olunması məqsədəuyğundur.
Nəticə etibarilə, rəqəmsal təlimin effektiv və təhlükəsiz şəkildə həyata keçirilməsi üçün müəllimlər yalnız texnologiyaya yiyələnməli deyil, həm də bu texnologiyalardan etik, məsuliyyətli və hüquqi çərçivədə istifadə etməyi bacarmalıdırlar. Bu, şagirdlərin rifahı və tədrisin keyfiyyəti üçün həlledici əhəmiyyətə malikdir.

Təkliflər və perspektivlər
Azərbaycanda ingilis dili müəllimlərinin rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi üçün kompleks və davamlı tədbirlərin həyata keçirilməsi zəruridir. İlk növbədə, müəllimlər üçün mütəmadi və praktik yönümlü treninqlərin təşkili vacibdir. Bu treninqlər texniki biliklərlə yanaşı, rəqəmsal alətlərin tədrisdə necə tətbiq olunacağını da əhatə etməlidir. Praktiki məşğələlər və real dərs nümunələri vasitəsilə müəllimlərin bu bacarıqları gündəlik fəaliyyətlərində tətbiq etməsi təşviq olunmalıdır.
Eyni zamanda, müəllimlər üçün mentorluq proqramlarının yaradılması rəqəmsal texnologiyalara keçidi asanlaşdırar. Təcrübəli müəllimlərin digər həmkarlarına dəstək olması və yeni bacarıqları bölüşməsi kollektiv şəkildə inkişafın qarşısını açar. Bu məqsədlə məktəblərarası əməkdaşlıq və təcrübə mübadiləsi təşviq olunmalıdır. [3, 75]
Məktəblərin texniki infrastrukturunun gücləndirilməsi də əsas prioritetlərdən biri olmalıdır. Hər bir məktəbin stabil internet bağlantısı, müasir kompüter avadanlıqları və proyeksiya qurğuları ilə təmin olunması, həmçinin bu texnikanın daimi işlək vəziyyətdə saxlanılması üçün texniki dəstək mexanizminin yaradılması vacibdir.
Rəqəmsal tədris resurslarının yerli təhsil kontekstinə uyğunlaşdırılması və Azərbaycan dilində istifadəyə verilməsi də müəllimlər üçün böyük dəstək ola bilər. Dövlət və qeyri-hökumət təşkilatlarının əməkdaşlığı ilə müəllimlərə uyğunlaşdırılmış platformalar, video dərslər, təlim materialları və interaktiv tapşırıqlar hazırlanmalı və açıq şəkildə paylaşılmalıdır.
Bundan əlavə, müəllimlərin rəqəmsal fəaliyyətinin qiymətləndirilməsi və təşviqi sistemi tətbiq olunmalıdır. Mükafatlandırma və peşəkar irəliləyişlə əlaqəli motivasiya mexanizmləri müəllimləri bu sahəyə daha ciddi yanaşmağa təşviq edə bilər.
Gələcəyə baxdıqda, süni 786ctual786786r, 786ctual786786 təlim texnologiyaları və virtual reallıq kimi yeni texnologiyaların tədrisə inteqrasiyası perspektivlidir. Müəllimlər bu sahələrdə də maarifləndirilməli və bu texnologiyaların faydalı istifadəsinə hazırlanmalıdırlar. Beləliklə, Azərbaycanın təhsil sistemi rəqəmsal transformasiyanı sürətləndirərək beynəlxalq standartlara daha yaxınlaşa bilər. [4, 47]

Nəticə
Nəticə olaraq qeyd etmək olar ki, rəqəmsal bacarıqların inkişafı müasir təhsilin ayrılmaz tərkib hissəsinə çevrilmişdir və ingilis dili müəllimləri üçün bu bacarıqların mənimsənilməsi tədrisin

keyfiyyətinə birbaşa təsir edir. Azərbaycanın təhsil sistemində bu sahədə müəyyən addımlar atılsa da, mövcud vəziyyət göstərir ki, rəqəmsal transformasiya prosesi hələ də istənilən səviyyədə həyata keçirilmir. Texniki infrastrukturun qeyri-bərabər paylanması, müəllimlərin metodik və texnoloji hazırlığının qeyri-kafi olması, motivasiya çatışmazlığı və sistemli təlimlərin məhdudluğu bu sahədə əsas problemlərdən biridir.

Rəqəmsal texnologiyalar yalnız informasiya ötürmək üçün vasitə deyil, həm də şagirdlərin yaradıcı düşüncəsini formalaşdıran, interaktiv və fərdiləşdirilmiş öyrənmə imkanları yaradan bir mühit təqdim edir. Bu səbəbdən, müəllimlərin bu mühitə adaptasiyası, onlarda rəqəmsal pedaqoji bacarıqların formalaşdırılması zəruridir. Rəqəmsal bacarıqları inkişaf etmiş müəllimlər yalnız dərs prosesini texnoloji baxımdan zənginləşdirmir, eyni zamanda şagirdlərin motivasiyasını artırır, onların XXI əsr bacarıqlarını formalaşdırır və beynəlxalq standartlara cavab verən tədris mühiti yaradırlar.

Bu məqsədlə, dövlət və təhsil qurumları tərəfindən davamlı treninqlərin təşkili, tədris resurslarının müasirləşdirilməsi, texniki infrastrukturun gücləndirilməsi və müəllimlərin motivasiyasını artıracaq təşviq mexanizmlərinin yaradılması zəruridir. Eyni zamanda, müəllimlər də öz peşəkar inkişaflarına məsuliyyətlə yanaşmalı, rəqəmsal sahədə öz bilik və bacarıqlarını davamlı olaraq təkmilləşdirməlidirlər.

Sonda vurğulamaq lazımdır ki, rəqəmsal bacarıqlara sahib olan ingilis dili müəllimləri yalnız bu günün deyil, həm də gələcəyin təhsil modelini formalaşdıran əsas simalardan biri olacaq. Bu baxımdan, Azərbaycan təhsil sistemində rəqəmsallaşma prosesinin sürətləndirilməsi, keyfiyyətli və əlçatan təlimlərlə müəllimlərin dəstəklənməsi uzunmüddətli inkişaf üçün vacib şərtlərdəndir.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2022). Təhsil sistemində rəqəmsallaşma və innovasiya strategiyası. Təhsil Nazirliyi.
2. Azərbaycan Respublikasının Təhsil İnstitutu. (2022). Müasir rəqəmsal təlimdə etik davranış və hüquqi əsaslar. Bakı: Təhsil İnstitutu Nəşriyyatı.
3. Baxışov, R. (2020). Rəqəmsal texnologiyaların xarici dil tədrisində tətbiqi: Üstünlüklər və çətinliklər. Təhsil və Zaman, 2(12), 71–76.
4. Quliyeva, S. (2021). Müasir dövrdə xarici dil müəllimlərinin rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi yolları. Azərbaycan Müəllim Jurnalı, (4), 45–49.
5. Caner, M. (2020). Online learning and digital literacy in EFL classrooms. Procedia – Social and Behavioral Sciences, 232, 234–240.
6. Hockly, N. (2018). The digital skills gap in language teaching. ELT Journal, 72(3), 317–320.

THE ECONOMIC, CULTURAL AND POLITICAL IMPORTANCE OF DEVELOPMENT OF PEOPLES IN THE HISTORY OF TURKIC WORLD

ЭКОНОМИЧЕСКОЕ, КУЛЬТУРНОЕ, ПОЛИТИЧЕСКОЕ ЗНАЧЕНИЕ РАЗВИТИЯ НАРОДОВ В ИСТОРИИ ТЮРКСКОГО МИРА

TÜRK DÜNYASININ TARİXİNDƏ MÖVCUD OLMUŞ TÜRK XALQLARININ İQTİSADİ, MƏDƏNİ, SİYASİ İNKİŞAFA VERDİYİ TÖHFƏLƏR

Mirzəyeva Şəhla Elçin
Qərbi Kaspi Universitetinin İctimai və Siyasi Elmlər fakültəsinin
Beynəlxalq münasibətlər və diplomatiya ixtisası üzrə magistri (2-ci kurs)

Abstract
The world is consist of different countries, and countries inhabited with peoples and nations. The social and economic peculiarity of every country is forming the peoples and nations which populated this areas with their own history, with their own cultural and moral value and legacy, with their own customs.
The history of Turkic World is proved that peoples and nations arrive present is not easy, they run into difficulties, conflicts, wars every centuries, and in present dont put an end the difficulties. But we know that conflicts and wars against the Turkic World in most cases was unjustes, unfair and this conflicts and wars was leading bloodshed of peoplies.
All of these arquments made fall to thinking: do we know our own history so better. Therefore, we must learn the history of rise and development of Turkic World, to which concern of our historical motherland – Azerbaijan.
Key words: Turkic World, the cultural legacy, peoples and nations, social and economic peculiarity, conflicts and wars, customs

Резюме
Мир состоит из различных стран, а страны населяют народы и нации. Общественно-экономический менталитет каждого государства формируют те же народы и нации, проживающими в них, со своими собственными историями, культурными и нравственными ценностями и наследиями, обычаями и традициями.
История Тюркского Мира доказывает, что народы и нации в современный этап истории пришли не так-то просто, а сталкиваясь с трудностями, конфликтами, войнами, эти трудности и сегодня продолжаются быть. Однако в большинстве случаях, конфликты и войны по отношению их были не справедливыми и приводило к кровопролитию народов и наций.
Всё это нас заставляет задуматься: знаем ли мы свою историю, какие стороны этой истории правда, а какие нет. Поэтому, особенно очень важно изучить историю возникновения и развития тюркского мира, к которому относится наша историческая родина Азербайджан.
Ключевые слова: Тюркский Мир, этническая история, нация, народ, самостоятельные тюрк язычные государства, тюркология

Xülasə
Yaşadığımız dünya müxtəlif ölkələrdən, ölkələr isə millətlərdən və xalqlardan ibarətdir. Hər bir ölkənin öz ictimai-iqtisadi mentalitetini orada yaşayan və özünün tarixi, mədəni və mənəvi irsi, adət və ənənələri ilə fərqlənən xalqlar və millətlər formalaşdırır.
Türk Dünyası tarixi haqqında əsərlərdən belə nəticəyə gəlirik ki, millətlər və xalqlar müasir dövrə heç də asan yolla gəlib çıxmamışlar, bu yolda üzləşdikləri müharibələr, münaqişələr, çətinliklər sonsuz sayda olmuşdur və həmin çətinliklər indi də davam etməkdədir. Lakin bildiyimiz kimi, bu müharibə və münaqişələr çox zaman ədalətsiz olmuş və yerli xalqların və millətlərin qanı bahasına baş vermişdir.
Bütün bunlar insanları düşünməyə sövq edir: biz öz tariximizi bilirikmi, yaxud bu tarixin hansı tərəfləri düz, hansıları – səhvdir. Bu səbəbdən də bu günkü gün hər birimizin tarixi vətəni olan Azərbaycan, və mənsub olduğumuz türk dünyasının təşəkkül tapması və inkişafı mərhələlərinin öyrənilməsi xüsusi olaraq zəruridir.
Əvvəlcə onu qeyd etmək lazımdır ki, "millət" anlayışı uzun tarixi inkişaf yolu keçmiş, müəyyən ərazi daxilində yaşayan, ortaq xüsusiyyətlərə malik bir insan birliyini ifadə edir. Belə xüsusiyyətlərə eyni dil, din, adət-ənənələr, ortaq mədəniyyət, sosial-iqtisadi həyat tərzi və ümumi tarixi yaddaş daxildir. Bu keyfiyyətləri özündə birləşdirən insan topluluğuna millət deyilir. Hər bir millətin daxilində müxtəlif xarakterli və düşüncəli insanlar olsa da, onlar birlikdə vahid milli mentaliteti daşıyan bir toplumu təmsil edirlər.
Bu mövzu ilə bağlı olaraq, elmdə "etnik tarix" adlı bir sahə mövcuddur. Etnik tarix millətlərin necə formalaşdığını, onların keçdiyi tarixi inkişaf mərhələlərini və bu prosesə təsir edən amilləri öyrənir. Tanınmış alim L.N. Qumilyovun fikrincə, etnik tarixin öyrənilməsi üçün yalnız coğrafi və bioloji faktorlar deyil, həm də sosial-siyasi, tarixi-psixoloji və mədəni amillər nəzərə alınmalıdır. Yəni bir millətin formalaşmasında və inkişafında bir çox fərqli amillər qarşılıqlı şəkildə təsir göstərir [2, c.20].
Açar sözlər: Türk Dünyası, etnik tarix, millət, xalq, müstəqil türkdilli dövlətlər, türkçülük

Giriş

Əsas Mətn

Tarixi gerçəklik sübut edir ki, Azərbaycan xalqı bir millət olaraq, öz tarixi köklərini, sosial-siyasi mentalitetini, mədəniyyətini, orijinallığını qoruyub saxlamış, ümumi maraq və ideallarını dərk etməsi əsasında özünü tanımışdır və dünyaya tanıtmışdır. Ziddiyyətlərin, təlatümlərin, müharibələrin və münaqişələrin hökm sürdüyü indiki şəraitdə isə müxtəlif xalqlar arasında özünəməxsus yeri var, firavan gələcəyə doğru inkişaf etməkdədir.
Azərbaycan uğrunda canından keçməyə və onun naminə mübarizəyə hazır olan cəsur vətəndaşları, vətəni ilə fəxr edən və qürur hissi keçirən gəncləri vardır. Belə bir millət olmağımız, erməni qəsbkarları tərəfindən işğal olunmuş müqəddəs Qarabağ torpaqlarını azad etdiyimiz 44 günlük müharibədə də bir daha sübut olundu. O zamandan etibarən dövlət başçısı İlham Əliyev başda olmaqla, xalqımıza olan hədsiz hörmət və etimad birə on qat artmışdır.
Əsrlər boyu xalqın öz tarixini, mədəniyyətini və mənəvi dəyərlərini tanıması milli kimliyin formalaşmasında əsas amillərdən biri olmuşdur. Hələ 1997-ci ildə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyi münasibətilə keçirilən tədbirdə Ümummilli Lider Heydər Əliyev çox mühüm fikirlər səsləndirmişdi. O vurğulayırdı ki, xalq daim öz köklərinə bağlı qalmalı, tarixini dərindən öyrənməlidir. Onun sözlərinə görə, belə yubileylərin keçirilməsi gənc nəslin tariximizin zənginliyini, Azərbaycan xalqının dünya mədəniyyətinə verdiyi dəyərli töhfələri daha yaxşı anlamasına şərait yaradır və hər bir vətəndaşda milli qürur hissini gücləndirir. Ulu Öndərin bu fikirləri xalqın özünü tanımasının əhəmiyyətini göstərən əsas ideyadır [1, s. 93].

Türkdilli xalqlar çox qədim tarixə malikdirlər və əsasən Avropa və Asiyanın müxtəlif bölgələrində geniş şəkildə məskunlaşıblar. Bu xalqların bu günkü əsas nümayəndələri Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan kimi müstəqil dövlətlərdə yaşayırlar.
Türk dünyasına aid ölkələrin əksəriyyəti çoxmillətli və mədəni müxtəlifliyə açıq – yəni multikultural dövlətlərdir. Bu ölkələrdə əsas türk milləti ilə yanaşı, türklərlə etnik və mədəni baxımdan qohum olan digər xalqlar da yaşayır. Bu xalqlar tarix boyu türklərlə birgə yaşayaraq onların adət-ənənələrini mənimsəmiş, eyni zamanda da bu mədəni irsin qorunmasında iştirak etmişlər. Məsələn, azərbaycanlılar, özbəklər, qazaxlar, türkmənlər, qırğızlar, eyni zamanda çuvaşlar, ləzgilər, avarlar, yakutlar, qaqauzlar və xakaslar da türk xalqları kimi tanınırlar.
Türk xalqları təkcə Asiya və Avropada deyil, artıq dünyanın digər bölgələrində də yaşayırlar. Onların nümayəndələrinə Şimali və Cənubi Amerika, Afrika, hətta Avstraliyada da rast gəlmək mümkündür. Bu, türk xalqlarının tarix boyu geniş coğrafiyalara yayılması ilə bağlıdır.
Bu xalqların dini inancları isə bir-birindən fərqlənir. Əksər türk xalqları İslam dininə etiqad edir, məsələn, azərbaycanlılar, özbəklər, qazaxlar, türkmənlər və s. Digər tərəfdən, çuvaşlar və qaqauzlar əsasən xristiandılar, yakutlar və xakaslar kimi xalqlar isə ənənəvi şaman inancına sadiq qalıblar. Bəzi kiçik türk icmaları isə iudaizmə sitayiş edir.
Türk tayfalarından əfşarlar və qızılbaşlar Asiyanın müxtəlif ölkələrində, xüsusən də Əfqanıstan və İranda yaşayırlar. Türkmənlər İraq və Suriyada, azərbaycanlıların isə bir hissəsi Gürcüstan və İranda məskunlaşıb. Avropada bolqar türkləri, Krım tatarları, qaqauzlar və digər türk köklü xalqlar mövcuddur. Rusiya ərazisində isə tatarlar, başqırdlar, çuvaşlar və digər türk xalqları yaşayır, onlar Tatarıstan, Başqırdıstan, Çuvaşıstan, Saxa (Yakutiya), Tıva, Xakasiya və Altay kimi muxtar qurumlarda təmsil olunurlar. Çində uyğurlar Sintzyan bölgəsində, Moldovada isə qaqauzlar Qaqauziya Muxtar Respublikasında yaşayırlar.
Yaşadıqları yer fərq etmədən, bütün bu xalqlar öz kökləri etibarilə türk mənşəlidirlər və türklüyün daşıyıcılarıdırlar.
"Türk" sözünün mənşəyi müxtəlif dövrlərdə elm adamlarının diqqətini çəkmiş və müxtəlif fikirlər irəli sürülmüşdür. Bəzi rəvayətlərə görə türklər Türk və Monqol adlı iki qardaşın nəslindən gəlirlər. Qədim mənbələrdə isə türklərin Nuh peyğəmbərin oğlu Yafəsin nəslindən olduğu qeyd edilir.
Türk xalqlarının yaşadığı torpaqlar tarix boyu təbii sərvətlərlə zəngin olmuşdur. Bu ərazilər həm coğrafi, həm də iqtisadi baxımdan əlverişli şəraitə malik olub. Bu səbəbdən də həmin ərazilər tarix boyu strateji baxımdan əhəmiyyətli olmuş, yeraltı sərvətləri ilə diqqət çəkmişdir. Bütün bunlar göstərir ki, türk xalqları qədimdən həm mədəni, həm də təbii sərvətlərlə zəngin olan torpaqlarda formalaşıb və inkişaf ediblər.

Əyani şəkildə aşağıdakı siyahıdan hansı ölkənin hansı yeraltı sərvətlərlə zəngin olmasını görə bilərik:

- Azərbaycan – neft-qaz yataqları, dəmir filizi (Daşkəsən), sink
- Özbəkistan – qaz yataqları (Fərqanə-qaz, Qazlı və Mübarəkqaz); qızıl yataqları (Muruntau), sink
- Qazaxıstan – neft yataqları (Tengiz və Turqay-Neft), Dəmir filizi, Polimeta filizləri, mis filizi (Balxaş, Cezqazan), sink (Ust Kamenqorsk)
- Türkmənistan – neft yataqları;
- Tatarıstan – neft yataqları (Elxon);
- Başqırdıstan – neft yataqları:
- Türkiyə – daş kömür yataqları (Zonquldak-Ereğli), dəmir filizi, xrom yataqları, Polimeta filizləri, sink;
- Özbəkistan – boz kömür (Anqren və Sarqun);
- Qazaxıstan – boz kömür (Qaraqanda, Ekibastuz);
- Tıvada – Ulufim;

- Sincan-Uyğur – Bay kömür;
- Saxa – kömür yataqları (Lena), qızıl yataqları, almaz, dəmir filizi;
- Xakasiya – dəmir filizi;
- Altayda qızıl yataqları, dəmir filizi.
-

Türk xalqları tarixən yerləşdikləri ərazilərdə zəngin təbii sərvətlərə və əlverişli coğrafi şəraitə sahib olmuşlar. Bu səbəbdən türklərin yaşadığı torpaqlar hər zaman iqtisadi baxımdan cəlbedici və məhsuldar olmuşdur. Məsələn, bu gün Azərbaycan, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Tatarıstan və Başqırdıstan kimi türk dövlətləri neft və qaz ehtiyatlarına görə dünyada tanınır. Bu ölkələr öz enerji ehtiyaclarını daxili imkanlarla ödəyə bildikləri üçün enerji çatışmazlığı yaşamırlar.
Daş kömür hasilatı sahəsində də türklərin yaşadığı bölgələr – xüsusilə Türkiyə, Qazaxıstan, Altay və Saxa – ön sıralarda qərarlaşır. Bu da göstərir ki, enerji baxımından türk dünyasında kifayət qədər potensial mövcuddur. Eyni zamanda metallurgiya sənayesi də inkişaf etmiş sahələrdəndir. Türkiyə, Qazaxıstan, Qırğızıstan, Azərbaycan və Özbəkistan bu sahədə mühüm irəliləyişlərə nail olublar.
Maşınqayırma sahəsində isə türk ölkələri xüsusilə kənd təsərrüfatı və sənaye ehtiyaclarını qarşılayacaq texnikanın istehsalına yönəlmişlər. Qazaxıstan, Türkiyə və Özbəkistan kimi ölkələrdə 791ctual791, kombayn və digər kənd təsərrüfatı texnikasının istehsalı geniş yayılıb. Bununla yanaşı, Türkiyə, Tatarıstan və Qırğızıstanda avtomobil istehsalı, Özbəkistan və Tatarıstanda isə hətta təyyarə istehsalı həyata keçirilir. Energetika maşınqayırması və cihaz istehsalı sahəsində isə Türkiyə, Azərbaycan və Qazaxıstan lider mövqedədir.

Nəticə

Tarix boyunca türk dövlətləri geniş ərazilərə yayılmış və müxtəlif bölgələrdə siyasi gücə malik olmuşlar. Onlar təkcə Asiyada deyil, Avropanın və Afrikanın bəzi yerlərində də hakimiyyət qurmuşlar. Bəzi türk xalqları müstəqil dövlət şəklində, digərləri isə muxtar qurumlar formasında fəaliyyət göstərmiş, bir çoxu isə digər dövlətlərin tərkibində yaşamışdır. Məsələn, Əfqanıstan, İran, Suriya, Bolqarıstan, Ukrayna, Moldova və Rusiyada yaşayan türklər hələ də öz kimliklərini və mədəniyyətlərini qoruyurlar.
Bundan başqa, Rusiyanın müxtəlif bölgələrində, o cümlədən Sibirdə yaşayan və zamanla rus mədəniyyətinə qarışmış türklər də mövcuddur. Ob tatarları, Tur tatarları və Verxoyon tatarları kimi qruplar bu qəbildəndir.
Ümumilikdə, müstəqil türkdilli dövlətlərdə 170 milyondan çox insan yaşayır. Rusiya və Çin ərazilərində isə 50 milyona yaxın türkdilli əhali mövcuddur. Dünyanın digər ölkələrinə səpələnmiş türklərin sayı isə 80 milyonu keçir. Bütün bunlar türk dünyasının nə qədər geniş coğrafiyaya yayıldığını və böyük əhali potensialına sahib olduğunu göstərir. Türk dövlətləri sənaye, energetika, kənd təsərrüfatı və digər sahələrdə ardıcıl inkişaf edərək dünya miqyasında öz mövqelərini möhkəmləndirirlər.
Bu faktlar bizə onu deməyə əsas verir ki, harada ki, türklər və ya türk mənşəli xalqlar yaşayır, orada inkişaf, orada yaşayış və rifah vardır. Çünki türkün əsas amalı zəhmət çəkib, ailəsinin, tayfasının, millətinin rifahını təmin etməkdən ibarət olmuş və olmaqdadır.

İstifadə Edilmiş Ədəbiyyatın Siyahısı:

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. II cild, Bakı: Azərnəşr, 1997, 607 s.
2. Гумилёв Л.Н. Тысячелетие вокруг Каспия. –Баку, Азернешр, 1990, 312 с. С.20

SINGLE-MEANING AND MULTI-MEANING WORDS IN FRENCH

FRANSIZ DİLİNDƏ TƏKMƏNALI VƏ ÇOXMƏNALI SÖZLƏR

Əliyeva Fəridə Əli qızı
Bakı Dövlət Universitetinin müəllimi.

Xülasə
Azərbaycan dilində olduğu kimi əksər dillərdə də və həmçinin fransız dilində də çoxmənalı və təkmənalı sözlər vardır. Çoxmənalı sözlərə fransız dilində "la polysemie", təkmənalı sözlərə isə fransız dilində "la monosemie" deyilir. Semantik təkamülün nəticəsi kimi çoxmənalı sözlər yaranmışlar. İnkişaf zamanı söz bir neçə məna ala bilər. Bu səbəbdən də "la polysemie" araşdırılmağa başlanılmışdır. Bu termin M.Brela tərəfindən ilk dəfə istifadə olunmuşdur . Çoxmənalı sözlər sözün əsas mənası ilə bağlı olub bir neçə törəmə mənada işlənən sözlərə deyilir.
Açar sözlər: Çoxmənalı sözlər, çoxmənalı sözlərin müxtəlif mənaları, "prendre"- almaq, tutmaq, ələ keçirmək, zəpt etmək, yemək, və s kimi mənaları.

Abstract
As in Azerbaijani, there are polysemous and monosemous words in most languages, including French. Polysemous words are called "la polysemie" in French, and monosemous words are called "la monosemie" in French. Polysemous words have emerged as a result of semantic evolution. During development, a word can take on several meanings. For this reason, "la polysemie" has been studied. This term was first used by M. Brela. Polysemous words are words that are related to the main meaning of the word and are used in several derivative meanings.
Keywords: Polysemous words, different meanings of polysemous words, "prendre" – meanings such as take, catch, seize, seize, eat, etc.

Резюме
Как и в азербайджанском языке, в большинстве языков, включая французский, есть многозначные и однозначные слова. Многозначные слова во французском языке называются «la polysemie», а однозначные слова во французском языке называются «la monosemie». Многозначные слова появились в результате семантической эволюции. В процессе развития слово может принимать несколько значений. По этой причине было изучено «la polysemie». Этот термин впервые использовал М. Брела . Многозначные слова — это слова, которые связаны с основным значением слова и используются в нескольких производных значениях.
Ключевые слова: Многозначные слова, различные значения многозначных слов, «prendre» — такие значения, как взять, поймать, схватить, захватить, съесть и т. Д.

On parle de polysémie lorsqu'un même mot a plusieurs sens. « Polysémie » yunan mənşəli sözdür, çoxmənalı söz deməkdir. Əgər söhbət çoxmənalı sözlərdən gedirsə, bu işarətlər bir neçə əlamətdən ibarət ola bilər. Çoxmənalılıq sözün müxtəlif mənalar alması və müəyyən bir zamanda bütün bu mənalarda dildə qalma qabiliyyətidir. Çoxmənalı sözlərin yaranma səbəbi yeni bir obyetin adlandırılması zərurətindəndir, lakin bu obyekt başqa bir obyektə bənzər buna görə də əsas söz olduğu kimi qalır. İkinci məna əvvəlcə birinci ilə əlaqələndirilir, yəni motivli söz hesab olunur. Fransız dilindəki sözlərin əksəriyyətini çoxmənalı sözlər təşkil edir, məsələn rus dilindəki sözlər isə daha çox morfoloji vasitələr ilə düzəlmişdir.

Çoxmənalı sözlər düşüncəmizdə ümumiləşdirmə qabiliyyətini əks etdirir. Bir neçə əlaqəli obyekti təyin edərkən söz bir neçə mənaya sahib ola bilər.
Məsələn: Le mot toilette signifie : 1. Une petite toile, serviette de toile ; 2. Une petite table garnie de cette toile et tout ce qui sert a la parure; 3. Parure , habillement ; 4. Action de se nettoyer , se vetir.
Çoxmənalı sözlər xüsusilə fransız dilində olan sözlərədə daha böyük yer tutur. Fransız dilində olan "prendre" feilinin 60-dan çox mənası var, "tete" isminin isə 40-dan çox mənası vardır.

Məsələn: "prendre"- almaq, tutmaq, ələ keçirmək, zəpt etmək, yemək, içmək, tutmaq, minək, donmaq, uğurlu olmaq, tutunmaq və s.
Devenir d'une certaine consistance. Exemple : La colle ne prend pas.
Exemple : Prendre un papier- Synonyme : agripper, chiper, choper, pincer, capturer, empoigner, intercepter, attraper, cueillir.

1. Prendre quelque chose au pied de la letter- Bu ifadə "Nəyisə nominal qiymətlə götürmək" təlimatların mənasını başa düşmək üçün şərh etməyə cəht etmədən, bir insanın başqasından tələb etdiyi şeyi tam yerinə yetirmək deməkdir. Bu ifadə tez-tez kimsə düşünmədən və bunun yaxşı bir fikir olub-olmadığını düşünmədən əmri yerinə yetirdikdə istifadə olunur məsələn : Ces résultats de ce sondage ne doivent pas tous être pris au pied de la lettre.

2. Prendre ses jambes à son cou- Bu ifadə tələsik getmək və ya qaçmaq mənasında istifadə olunur məsələn : Quand elle a vu le chien courir vers elle, elle a pris ses jambes à son cou.

3. Prendre son courage à deux mains – Bu danışıq ifadəsi çətin bir işi yerinə yetirmək üçün səy göstərmək, boynuna göstərmək mənasındadır məsələn: Elle a pris son courage à deux mains et a demandé une augmentation.

4. Prendre la mouche – Heç bir səbəb olmadan tez əsəbləşmək, incimək deməkdir. Önəmsiz bir şeydən hirslənmək məsələn : Il a pris la mouche quand elle lui a dit qu'elle n'aimait pas la couleur de sa chemise.

5. Prendre quelqu'un la main dans le sac – Obrazlı olaraq, bu ifadələr o deməkdir ki, siz kimisə yalnış və ya qadağan olunmuş hərəkətdə görmüsünüz məsələn: Le voleur a été pris la main dans le sac.

6. En prendre de la graine – Bir şeydən ibrət götürmək mənasında istifadə olunur. Bu ifadədən tez-tez kiminsə yaxşılaşmasını, başqa biri kimi yaxşı olmağını nümunə göstərməkdir məsələn :Ton frère a de bons résultats à l'école, prends-en de la graine.

5. Savoir s'y prendre- Kiminləsə və ya bir əşya ilə necə davranacağını bilmək, yəni bunu etmək üçün həmin şey haqqında məlumatlı olmaq, təcrübəsi, biliyi olmaq deməkdir məsələn : Il sait s'y prendre avec les enfants. = Il sait y faire avec les enfants.

6. Se prendre pour – Bu ifadə insanın özünü həddindən artıq düşünməsi, özünə həddindən artıq qiymətləndirməsi, özünü olduğundan daha ağıllı göstərməyə çalışması mənasını verir. Daha çox "özündən razılıq" kimi başa düşülür və mənfi mənada istifadə olunur məsələn: Pour qui tu te prends? Tu n'es pas le chef ici!

7. Ne pas prendre une ride – Bu ifadə insanın və əşyanın təzə, gənc qalması, qoca və ya köhnə olmasına baxmayaraq müasir zamana uyğunlaşması deməkdir məsələn: Ce film a 20 ans et n'a pas pris une ride.

8. Prendre du bon temps- Bu ifadə "xoş vaxt keçirmək, əylənmək" mənasında istifadə olunur məsələn : Ils ont pris du bon temps avec leurs amis ce week-end!

Le mot-tête

1."Avoir la grosse tête"- Bu ifadə həddindən artıq qürür duymaq, özünü olduğundan daha vacib, daha təsirli hesab etmək mənasını verir.
2."Tenir tête"- Bu ifadə müqavimətə qarşı çıxmaq deməkdir.
3. "Perdre la tête"- Bu ifadə dəli olmaq ağlını itirmək mənasını verir.
4. "En tête-à-tête"- Bu ifadə tək, üz-üzə söhbət etmək, müzakirə etmək deməkdir.
Se creuser la tête : réfléchir.

- N'en faire qu'à sa tête : ne pas obéir à ce que quelqu'un vient de dire.
- Une tête de turc : synonyme de souffre-douleur, personne sur qui se concentrent les mauvais traitements.
- Être tombé sur la tête : Devenir fou.
- Tête à claques : Tête sur laquelle on a envie de mettre des baffes (exemple : Dans L'histoire sans fin, Bastien est une vraie tête à claque, cause pour être le souffre-douleur de la ville)
- Sans queue ni tête : qui n'a aucun sens
- Faire la tête : Bouder, être de mauvaise humeur.
- Perdre la tête : Devenir fou, agir de manière irrationnelle
- Tête brûlée : Désigne une personne qui n'a peur de rien et qui a tendance à prendre des risques inconsidérés.
- Être tête en l'air : être étourdi
- Avoir la tête dans les nuages : être rêveur
- Être à la tête de : diriger quelque chose
- Faire sa tête de cochon : bouder
- Tête de pioche : personne têtue
- Tête à queue
- Bille en tête
- Tête de nœud
- Tête de pioche
- En mettre sa tête à couper
- Prise de tête
- À tête reposée
- Se mettre martel en tête
- Avoir la tête à (quelque chose)
- Marcher sur la tête

Çoxmənalılıq bir çox sözlərə xasdır, lakin çaşqınlıq yaratmır, çünki söz dil-sistem səviyyəsində çoxmənalı olsa da, nitq səviyyəsində monosemik olaraq qalır. Monosemiya və polisemiya dialektik vəhdət təşkil edir. Sözün nitq zamanı çoxmənalılığı sözü nitqdə aktuallaşdıran kontekstlə yaranır. Məsələn: Homme qui garde le troupeau, chien qui garde le troupeau (le seme commun est "qui garde le troupeau). Le contexte est compris comme les condition , la situation qui permettent d`actualiser le mot , de voir sa signification dans chaque cas contecret -Kolşanski 2002. Dans le contexte le mot a une de ses significations.

Həmçinin çoxmənalı sözlərin özünəməxsus xüsusiyyətləri vardır. Bunlara aşağıdakı sözləri nümunə göstərmək olar.

9. Bəzi çoxmənalı sözlər vardır ki, bunlar irsi fona mənsub olan köhnə sözlərdir. Bu sözlərə təxminən XIX əsr fransız lüğətlərində rast gəlmək olar. Məsələn *jour, glace, homme, pierre.*

2. Çoxmənalı sözlər köksüzdürlər, onların yalnız forması dəyişib.
3. Çoxmənalı sözlər təkhecalı və ya çoxhecalıdırlar.
4. Çoxmənalı sözlərin az sayda törəməsi vardır. Çünki onların səs forması bunun üçün kifayət deyil.
5. Həmçinin çoxmənalı sözlər, frazoloji ifadələrin əmələ gəlməsi baxımından məhsuldardır.

6. Çoxmənalı sözlərin istifadə yerləri çox genişdir.

La signification du mot café varie selon son contexte d`emploi.
On récolte le café.
Le mot *café* désigne les grains.
Veux-tu un café?
Le mot *café* désigne le breuvage chaud.
Elle achète un sac de café.
Le mot *café* désigne des grains moulus.
Les deux amis se rejoignent au café.
Le mot *café* désigne un lieu.
La plantation de café.
Le mot *café* désigne la plante.
Un mot polysémique trouve son sens dans le contecxte donneé par les autres mots qui l`entourent.
Le mot *récolte* 795ctual795 que *café* fait 795ctual795795r aux grains.
Veux-tu un café?
La formulation *veux-tu* 795ctual795 qu'on parle d'une tasse de café.
Les deux amis se rejoignent au café.
Le groupe verbal *se rejoignent* 795ctual795 que *café* fait 795ctual795795r au lieu.
Prenons le mot «terre», son sens changera selon qu'il sera employé par un géographe, un jardinier ou un propriétaire terrien :
Le géographe étudie le relief de *la Terre*.
Le jardinier fertilise *la terre* avant de planter ses rosiers.
Autrefois, beaucoup de propriétaires prenaient le nom de leur *terre.*
La polysémie se manifeste de différentes manières :
le sens 795ctual et le sens figure
Le lion est le roi des animaux. (sens 795ctual = le fauve)
« Vous êtes mon lion superbe et généreux. » (V. Hugo) (sens 795ctual = un homme courageux)
le sens concret et le sens abstrait
Ce 795ctual possède un écran géant. (sens concret = le local)
Il est passionné de 795ctual. (sens abstrait = le 7eart)
le sens 795ctual795 et le sens modern
Le mot «succès», au XVIIe siècle, désigne un résultat, qu'il soit bon ou mauvais. Il ne désigne plus aujourd'hui qu'un résultat positif : Il a passé tous ses examens avec *succès.*
le sens du nom animé et le sens du nom non animé
Le papillon s'est 795ctu sur la fleur. (animé = 795ctual)
La contractuelle a mis *un papillon* sur mon pare-brise. (non animé = contravention)
le sens 795ctual795795r et le sens étendu
Pour travailler, il s'enferme dans son *bureau*. (sens 795ctual795795r = pièce où est installée la table

de travail)
L'entreprise a installé ses *796ctual* en banlieue. (sens étendu = lieu de travail des employés)
Le sens varie souvent selon la 796ctual796796riz qui suit le verbe.
donner quelque chose à quelqu'un signifie « mettre quelque chose en sa possession»: Je lui ai donné ma montre.
donner dans signifie « tomber dans » : Ils ont *donné* dans une embuscade.
donner sur signifie « avoir vue sur » : Leur maison *donne* sur la mer.
Le sens varie souvent selon la 796ctual796796riz qui suit le verbe.
donner quelque chose à quelqu'un signifie « mettre quelque chose en sa possession»:Je lui ai donné ma montre.
donner dans signifie « tomber dans » : Ils ont donné dans une embuscade.
donner sur signifie « avoir vue sur » : Leur maison donne sur la mer.
On parle de monosémie lorsqu'un mot n'a qu'un seul sens . « Monosémie » bu söz yunan mənşəli sözdür, « unique » -tək mənasını verir.
Fransız dilində təkmənalı sözlər yəni "monosemique" sözlər də vardır. Təkmənalı sözləri çoxmənalı sözlərdən fərqləndirən bir çox hallar vardır. Bunlara aşağıdakı sadalananlardan görə bilərik.
1. Fransız dilində təkmənalı sözlərə alınma sözlər də aiddir.
2. Texniki və ya elmi terminlər də təkmənalı sözlər hesab olunurlar. Çünki terminlərin çoxmənalı olması onu anlaşılmaz edə bilər. agronomique ,
algorithmique,
anatomique,
astronomique,
atomique,
chimique,
comique,
cosmique,
céramique,
dynamique,
endémique,
gastronomique,
islamique,
macroécono,
ique,
mésodermique,
biochimique,
chromosomique,
chromosomique
cyclothymique
dermique
ectodermique
géothermique
intradermique`
ischémique
mimique
ophtalmique
opéra-comique
rythmique
taxonomique
thermodynamique

Ədəbiyyat

1. Bréal M. Essai de sémantique. Science des significations / M.Bréal.
2**.** . Saussure F. Cours de linguistique générale / F. De Saussure.
3. Sauvageot A. Portrait du vocabilaire français / A. Sauvageot. – Paris: Larousse,
4. Bally Ch. Linguistique générale et linguistique française / Ch. Bally.– 4-e éd, rev. Et corrig. – Berne : Francke, 1965.
5. Meillet A. Linguistique historique et linguistique générale / A.Meillet. – 2 e éd. – Paris : Champion, 1926.

İnternet resursları

1.https://www.francaisfacile.com/exercices/exercice-francais-2/exercice-francais-16348.php
2. https://is.muni.cz/https://www.alloprof.qc.ca/fr/eleves/bv/francais/la-polysemie-f1313el/1421/jaro2009/FJIA023a/um/monosemie_-_polysemie.pdf
3.https://www.linternaute.fr/dictionnaire/fr/definition/prendre/
4.https://parlez-vous-french.com/apprenez-10-expressions-prendre-francais/

BƏXTİYAR VAHABZADƏNİN YARADICILIĞINDA VƏTƏNƏ MƏHƏBBƏT

LOVE FOR THE HOMELAND IN THE CREATIVE WORK OF BAHKTIAR VAHABZADE

dosent,Məmmədov Sabir Rüstəm oğlu,
ADPU-nun Ağcabədi filialı,
https://orcid.org/0009-0006-0671-1067

dosent, Cəfərov Fazil Tatarxan oğlu,
ADPU-nun Ağcabədi filialı,
https://orcid.org/0009-0006-6478-3966

Xülasə:
Məqalə onun poeziyasında yer alan azadlıq, müstəqillik, vətənə sonsuz məhəbbət, Ana dilinə və xalqına xüsusi sevgi, turançılıq-türkçülük, Qarabağ dərdi, Xocalı soyqırımı, şəhidlər və sairə məsələlər ön planda canlandırılmışdır.
Azadlıq və müstəqilliyin alovlu çarcısı, hər zaman xalqının dərdlərini düşünən, Qarabağ-Xocalı və şəhidlər faciəsini dünyaya bəyan edən, vətənpərvər şair Bəxtiyar Vahibzadə yaradıcılıq yoluna nəzər salmışdır.
Acar sözlər: Müstəqillik, milli azadlıq, , türkçülük, vətənpərvərlik, Qarabağ dərdi, şəhidlər, Xoçalı soyqırımı.

Abstract:
The article brings to the forefront the issues of freedom, independence, endless love for the homeland, special love for the mother tongue and people, Turanism-Turkism, Karabakh problem, Khojaly genocide, martyrs and other issues in his poetry.
The article looks at the creative path of the patriotic poet Bakhtiyar Vahibzade, who was a fiery champion of freedom and independence, who always thought about the problems of his people, who declared the Karabakh-Khojaly and martyrs' tragedy to the world
Keywords: Independence, national freedom, , Turkism, patriotism, Karabakh problem, martyrs, Khojaly genocide.

Giriş.

Şairin yaradıçılığında vətənpərvərlik ön planda durduğu üçün insanların bütün arzu və istəkləri ikinci planda verilmişdir. Bəxtiyar Vahibzadə milli azadlı və müstəqillik carçısı olmaqla bərabər həmişə millətini, xalqını onun övladlarının həyatını düşünmüş və özyurdseverliyini poeziyasının canına və qanına hopdurmuşdur. Şair poeziyası bəşər övladının şan-şərəfi, qeyrət və namusu olduğunu hər an öz yazılarında əks etdirir. Vətən borcu hər bir şəxsin şəxsi şərəfi mənəvi və müqəddəs borcu olduğunu Bəxtiyar Vahibzadə öz poeziyasında dönə-dönə xatırladır[1,2].
Bütöv halda Bəxtiyar Vahibzadə sənəti Azərbaycan xalqının mənəvi dünyasından, onun keçdiyi şanlı tarixdən bəhrələnmiş, qidalanmış, dərin müasir həqiqətlərlə ətə-qana dolmuş fəlsəfi siqləti, mərd və cəsarətli poeziyadır.Yüksək və böyük amallarla nəfəs almaq, dövrümüzüm, cəmiyyətimizin, xalqımızın qarşısında duran, əzəmətli vəzifələri ehtiraslı, coşğun ağıl və fəlsəfi təfəkkürlə əks etdirmək onun poeziyasına güvvətli müasirlik və vətəndaşlıq pafosu aşılamışdır. Güclü 798ctual zəkaya və ilhama malik olan Bəxtiyar Vahibzadə xalq arasında dərin məhəbbət yaranmış şairlərimizdəndir.

Təhlil və müzakirələr.

Bəxtiyar Vahibzadəyə görə "dünyanın ən böyük dahiləri, ədəbiyyat və sənət xadimləri ən gözəl əsərlərini vətənə həsr etmişlər". Vətən sevgisi hər bir vətən övladının canında və qanında olur. Onu heç bir zaman unutmaq olmaz. Bu baxımdan şairin " Vətən dərdi", Şəhid məzarları", "Vətən eşqi hər şeydən əzizdir" və başqa şeirləri vətənpərvərlik hissləri geniş şəkildə əks etdirilmişdir. Bunun bariz nümunəsini "Vətən" şerində görmək olar:

Çağırır indi bütün milləti imdada Vətən,
Dəyişilməz, ay oğul, cənnətə dünyada Vətən.
Bizə meydan oxuyan bilməlidir birdəfəlik,
Nə satılmaz, nə verilməz binədən yada Vətən.
Sinə altında gərək qəlb kimi hər an döyünə,
Yana ulduz kimi hər sözdə, hər imzada Vətən .

Görkəmli şairi, vətənpərvər, azadlıq üçün canını fəda edən X.R.Ulutürkün Qarabağ torpağı uğurunda şəhid olmuş oğlu Təbrizin əziz xatirəsinə ithafetdiyi "Vətən məcnunluğu" şerində Bəxtiyar Vahibzadə yurd, vətənə məhəbbətini xüsusi sevgi ilə tərənnüm etdirmişdir:

Vətənin yolunda kimi qan ağlar,
Kimi də can verər....
Sənsə sən oldun.
Vətənçün pulundan keçməyənlər var,
Doğmaca balandan keçən sən oldun

Bəxtiyar Vahibzadə vətəni, millətin dili, varlığı, canı və demək olar ki, hər şeyi sanır. Ona görə də "Vətən eşqi hər şeydən əzizdir" şerində bu fikirlərini bədi boyalarla təsdiqləyərək deyir:

Vətən eşqi hər eşqdən əzəldir,
Mənim elim, mənim dilim gözəldir.
Öz canımdır, öz anamdır Vətənim,
Azərbaycan, mən səninəm, sən mənim .

Şair "Ana vətən" kəlməsini heş vaxt biri-birindən ayırmır. Ona görədə Ana ilə vətən sözləri birgə deyilməlidir. Hələ vaxtı ilə sevimli şairimiz Abbas Səhhət demişdir ki, "Vətəni sevməyən insan olmaz, olsa da o şəxs də vicdan olmaz". Doğrudanda belədir. Vətən, yurd, el-oba sevgisi həmişə şairlərin yaradıcılığında ön planda durmuşdur. Sevimli şairimiz Ağabəyim Ağa Qarabağdan-vətənindən ayrı düşəndə ah-nalə çəkərək demişdir:

Əziziyəm Qarabağ,
Şəki, Şirvan Qarabağ,
Aləm cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ

Vətən həsrəti, vətən dərdi şairəni odsuz-oçaqsız yandıraraq külə döndərmişdir[3,4]. Bu bütün vətən həsrəti çəkən şairlərimizə, o cümlədən Bəxtiyar Vahibzadəyə də aidir.

Bəxtiyar Vahibzadə "Azərbaycan" şerində də vətənə məhəbbət duyğuları özünü geniş şəkildə göstərir. Şair Azərbaycanı sonsuz məhəbbətlə sevdiyini bəyan edərək söyləyir:

Ey qüdrətim, ey şöhrətim,
Sənsiz mənim nə qiymətim?
Torpağından qüvvət alıb yarandım mən.
Xəyalımın əvvəli sən,

B.Vahabzadənin poeziyası vətənpərvərlik və vətəndaşlıq nöqteyi nəzərindən çox zəngindir.

Qarabağ dərdi şairi hər an düşündürmüş, erməni faşistlərinə lənətlər yağdırmışdır. Bəxtiyar Vahibzadə Qarabağda şəhid olan şəhidlərimizin ruhunu yad etmiş və onların əziz xatirəsinə "Şəhidlər" əsərini və eləcədə Xocalaı soyqırımını xalqımızın tarixində qanlı bir səhifə kimi göstərmiş və sanki fəryad çəkmişdir[1,5].

Vaxtı ilə Bəxtiyar Vahibzadənin yaradıcılığından xalq şairi Süleyman Rüstəm demişdir: "B.Vahabzadənin yaradıcılığında mənim xoşuma gələn nədir? Bu suala belə cavab verərdim: ilk növbədə vətəndaşlıq, azərbaycançılıq, sonra da cəsarət, dərinlik. Onun respublikamızdan kənarda çap olunmuş şeirlərində imzasının yanında "Azərbaycan" sözünü yazmamaq da olar. Sanki onun bütün yaradıcılığına "Azərbaycan" möhürü vurulmuşdur" Doğrudan da şairin hər bir misrasında Azərbaycançılıq ruhu duyulur.
Ümumiyyətlə, Bəxtiyar Vahibzadə yaradıcılığında Vətən-Qarabağ mövzusu qırmızı xətt kimi keçir.

Nəticə.
Şair bütün varlığı ilə xalqının bütün dərdlərini sonsuz sevgi ilə 800ctual şəkildə qələmə almışdır. "Bəxtiyar Vahabzadənin yaradiciliğinda vətənpərvərlik ideyalarinin tərənnümü " mövzusunda nəticə üçün onu qeyd etmək lazımdır ki, milli azadlıq, müstəqillik, vətənpərvərlik, Qarabağ-Xocalı, şəhidlər, ana dilimiz, türkçülük, vətənin bütün ağrı-acıları B.Vahibzadə yaradıcılığının əsas qanını və canını təşkil edir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Telmanqızı Asifə. B.Vahabzadənin yaradıcılığı. Bakı: Turan evi, 2010, 152 s.
2. Vahabzadə Bəxtiyar. Əsərləri. 12 cilddə, II cild, Bakı: Elm, 2008, 616 s.
3. Vahabzadə Bəxtiyar. Əsərləri. 12 cilddə, VI cild, Bakı: Elm, 2008, 738 s.
4. Süleyman Rüstəm. Azərbaycanın xalq şairi, "Bakı" qəzeti, 15 avqust 1985
5. Vahabzadə Bəxtiyar. Yeni şeirlər. Bakı: Yazıçı, 1993

SENSOR POZULMALAR OLAN UŞAQLARDA DAVRANIŞ POZULMALARI VƏ ONLARIN ARADAN QALDIRILMA YOLLARI

BEHAVIORAL DISORDERS IN CHILDREN WITH SENSORY DISORDERS AND WAYS TO ELIMINATE THEM

Allahverdiyeva Günel Ədalət qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Xüsusi təhsil kafedrası, Bakı şəh.

Xülasə
Sensor sistem - (lat. "sensus" – hiss, duyğu) sinir sisteminin görmə, eşitmə, taktil qavrayışlarına məsul olan hissəsidir. Sensor inkişaf - duyğu və qavrayış orqanlarının inkişafı olub, körpənin ətraf aləmi hissiyyat orqanları vasitəsilə qavramasıdır. Uşaqlarda sensor inkişafa xüsusi diqqət yetirilir, çünki bu əşya və hadisələri adekvat qavramağa, onun əsas əlamət və xüsiyyətlərini fərqləndirməyə imkan verir. Uşağın sensor (duyğu) inkişafı onun qavrayışının inkişafı və cisimlərin xarici xüsusiyyətləri haqqında fikirlərin formalaşmasıdır: onların forması, rəngi, ölçüsü, kosmosdakı mövqeyi, həmçinin qoxu, dad və s. Uşaqlarda sensor pozulmalar – uşağın sinir sisteminin qavrayışla bağlı bir hissəsinin pozulması hesab olunur. Sensor pozulmalara eşitmə, görmə və dayaq-hərəkət aparatı funksiyalarının pozulması aid edilir. Sensor pozulmalar uşaqda səsə, işığa, reaksiyanın olmaması, nitqin pozulması, iradi hərəkətlərin mümkünsüzlüyü ilə xarakterizə edilir. Uşaqlarda USİ, korluq, karlıq, parez, poliemilitin fəsadları, MSS-nin pozulmaları, əqli gerilik zamanı sensor pozulmalar baş verə bilir.
Açar sözlər: Sensor sistem, sensor inkişaf, sensor pozulmalar, eşitmə analizatorunun pozulması, görmə analizatorunun pozulması, davranış pozulmaları.

Abstract
Sensory system – (lat. "sensus" – feeling, sensation) is the part of the nervous system responsible for visual, auditory, tactile perceptions. Sensory development is the development of the organs of sensation and perception, the baby's perception of the surrounding world through the sensory organs. Special attention is paid to sensory development in children, because it allows for adequate perception of objects and phenomena, distinguishing their main signs and properties. The sensory (emotional) development of a child is the development of his perception and the formation of ideas about the external properties of objects: their shape, color, size, position in space, as well as smell, taste, etc. Sensory disorders in children are considered to be disorders of the part of the child's nervous system related to perception. Sensory disorders include disorders of the functions of hearing, vision, and the musculoskeletal system. Sensory disorders are characterized by a child's lack of response to sound and light, speech disorders, and inability to make voluntary movements. Sensory disorders can occur in children with UTI, blindness, deafness, paresis, complications of poliomyelitis, CNS disorders, and mental retardation.
Keywords: Sensory system, sensory development, sensory disorders, auditory analyzer disorders, visual analyzer disorders, behavioral disorders.

Giriş

Sensor pozulmalar iki böyük kateqoriyaya ayrılır: eşitmə analizatorunun pozulması və görmə analizatorunun pozulması.

Eşitmə pozulması olan uşaqlar üç qrupa ayrılırlar: eşitməni tamam itirmişlər – karlar, qismən itirmişlər və sonradan karlaşanlar.

Görmə pozulması olan uşaqlar da üç qrupa ayrılırlar: görməni tamam itirmişlər- korlar, qismən itirmişlər və sonradan korlaşanlar.

Sensor pozulmalar olan uşaqlarda emosional-iradi sferada və davranışda müəyyən pozulmalar müşahidə olunur.

Bilirik ki, emosional- iradi sferanın inkişafı bütövlükdə şəxsiyyətin inkişafının ən vacib şərtidir. Emosional- iradi sferanın inkişafı fərdin özünün inkişafına töhfə verir. Şəxsiyyətin emosional- iradi sferasının inkişafı bir sıra xarici və daxili amillərin təsiri altında baş verən mürəkkəb bir prosesdir. Xarici amillər uşağın yaşadığı sosial mühitin şərtləri, daxili amillər isə irsiyyət, onun fiziki inkişafının xüsusiyyətləridir.

Emosional-iradi sferanın pozulması – sensor pozulması olan uşaqlarda emosional tormozlanma, utancaqlıq, həyəcanlılıq şəklində olur, onlar tez küsən və inciyən olurlar. Səbəb ailə daxilində fərqli tərbiyə vasitələrinin olması, temprament tiplərinin və müəllim ilə münasibətlərin fərqli cəhətlərinin təzahür etməsidir.

İnsan fəaliyyətinin tənzimlənməsində emosiyalar əhəmiyyətli rola malikdir. Emosiyalar bir çox funksiyanı yerinə yetirir: kommunikativ, motivasiya, tənzimləmə, siqnal və qoruyucu. Emosiyalar bütövlükdə insanın idrak prosseslərinə təsir edərək onların xarakter və istiqamətini müəyyənləşdirə bilir. Bir halda emosiyalar insanın fikrini toplamağa, mövcud şəraiti təhlil edərək düzgün qərar qəbul etməsinə və icrasına mane olduğu halda, digər halda, onun düzgün, səmərəli, tənqidi və müstəqil qərarlar vermək imkanını şərtləndirir. Emosiyaların insan davranışına təsirinin araşdırlmasına həsr edilmiş tədqiqatların təhlili göstərir ki, sevinc, kədər, qəzəb, qorxu, ehtiras və bu kimi emosiya və emosional hallar fəaliyyətin tənzimlənməsi sisteminə daxil olaraq onun daxili tənzimləyicisinə çevrilirlər.

Sensor pozulmaları olan uşaqların emosional-iradi sferasının xüsusiyyətlərinin öyrənilməsi gələcək korreksiya-reabilitasiya işlərinin düzgün qurulmasına müsbət şərait yaradır. Bundan əlavə, emosiyaların təhlili və xüsusiyyətlərinin dəqiqləşdirilməsi sensor pozulmaların formalarının müəyyən edilməsi üçün vacibdir. Emosional-iradi sferanın xüsusiyyətlərinin öyrənilməsini, ilk növbədə, hislərin təhlilindən başlamaq lazımdır. Hislər çoxcəhətli və müxtəlif xarakterlidir. Onlar həmişə səbəblə şərtlənmiş, insan fəaliyyəti, əşya və hadisələrə təsir nəticəsində meydana çıxır. Qeyd etmək lazımdır ki, kar uşaqlarda eşidən uşaqlarda olduğu kimi hislər özünü göstərir. Bu hislərin mənbəyi uşaq orqanizminin vəziyyəti və onun üzvi tələbatlarıdır. Bu üzvi hiss etmə, emosiyalara aclıq, susuzluq, ağrı və digər hislər aiddir. Eşidənlərdə olduğu kimi kar uşaqlarda da ali hislər onların həyat və tərbiyə şəraiti ilə bağlıdır. Lakin ictimai-siyasi və əxlaqi hislərinin inkişafı üçün xarici mühit və tərbiyənin bütövlükdə rolu böyükdür.

Əsas Hissə

Sensor pozulmaları olan uşaqlarda müxtəlif davranış pozulmaları müşahidə edilir. Davranış pozulması 6 aydan çox davam edən, təkrarlanan, davamlı, sosial normalara uyğun gəlməyən davranış nümunələrini ifadə edən termindir. Davranış pozulması uşaq psixiatriyasında ən çox rast gəlinən diaqnozlardan biridir, uşaqlar arasında epidemiologiyası 5% təşkil edir. Bu pozulmanın gender asılılığı var – davranış pozulmasından daha çox oğlan uşaqları əziyyət çəkirlər.

Davranış pozulmaları psixi və fiziki inkişafda yaranan narahatlıqların davranışda göstəricisidir. Davranış pozulmaları müxtəlifdir. Sensor pozulmaları olan uşaqlarda ən çox rast gəlinən davranış pozulmaları aşağıdakılardır:

1) Uzun müddət davam edən aqressiv davranışlar

2) Yalan danışma və yaxud hadisənin şişirdilməsi
3) Təcavüzkar davranışlar
4) Uyğunsuz ifadələrin işlədilməsi
5) Altını islatma
6) Dırnaq yemə və barmaq əmmə
7) Əsassız qorxular
8) Masturbasiya (cinsiyyət orqanını əli ilə oynatma)
9) İştahasızlıq
10) Yuxu problemləri (gec yuxuya getmə, yuxudan qəfil oyanma, yuxuda danışma və.s.)
11) Kaprizlər
12) Aşırı hərəkətlilik.{1}

Sensor pozulmaları olan uşaqlarda davranış pozulmalarının bəzi emosional əlamətlərinə aşağıdakılar daxildir:

- Asanlıqla əsəbləşmək
- Tez- tez qəzəbli görünmək
- Başqalarında günah görmək
- Qaydalara riayət etməkdən və ya səlahiyyətləri şübhə altına almaq
- Mübahisə.

Sensor pozulmaları olar uşaqlarda müşahidə olunan davranış pozulmalarının əsas səbəblərinə aiddir:

1) Diqqət çəkmək istəyi
2) Özünü təsdiqlətmək istəyi
3) Valideynlərdən intiqam almaq istəyi
4) Özünü xatırlatma

Diqqət çəkmək istəyi – bu uşaqlar hər zaman diqqət mərkəzində olmaq istədiyi üçün ailədən lazım olan qayğını ala bilmədikdə bəzən mənfi yollara əl atırlar. Bu uşaqlar da diqqət çəkmək üçün əşyaları yerə atırlar, qışqırırlar, özünə zərər verirlər və s.

Özünü təsdiq etmə istəyi – Bəzən valideynlər uşağa həddindən artıq diqqət göstərir və ya aşırı qadağalar qoyurlar. Hətta uşağın etməli olduğunu özləri edirlər. Hər iki halda uşaqlarda özlərini, öz bacarıqlarını təsdiq etmə istəyi ortaya çıxır. Bunun əsas səbəbi azyaşlılarda fəaliyyətsizliyin və diqqətsizliyin ortaya çıxardığı pozuntulardır.

Valideynlərdən intiqam almaq istəyi – Bu əsasən diktator tipli ailələrdə yaranan davranış qaydasıdır. Belə ki, valideyn uşağın istək və arzularını nəzərə almır və uşağa yetərincə sevgi və diqqət göstərmir. Belə halda uşaqda valideynlərindən intiqam almaq istəyi formalaşır və sadaladığımız davranışlar ortaya çıxır.

Özünü xatırlatma – Bu davranış özünü ən çox mühafizəkar ailələrdə biruzə verir. Belə olan halda uşağın şəxsiyyətində inkişaf ləngiyir və özünə inamsızlıq yaranır. Azyaşlı daim özünü mənfi davranışlarla xatırladır. {5}

Deməli, sensor pozulmaları olan uşaqlarda müşaiət olunan emosional və davranış pozulmaları, həmçinin konduktiv pozulmalar, təhsildə olan çətinliklər və koqnitiv funksiyaların geriliyi həm uşağın özünün, həm də xəstənin başqa ailə üzvlərinin həyat keyfiyyətini aşağı salır. Bu da bele uşaqlara effektiv psixiatrik köməyin, korreksion proqramla təhsilin yerinə yetirilməsinin zəruriliyini tələb edir.

Bu uşaqlarda müşahidə edilən emoional-iradi sfera və davranış pozulmalarının aradan qaldırlması bu uşaqlar üçün mühüm əhəmiyyətə malikdir.

Valideynlər çox vaxt ailədə uşaqlarda əsəb və davranış pozulmalarının ilk təzahürlərinə əhəmiyyət vermirlər və diqqət etsələrdə, həmişə düzgün reaksiya verməyi və bununla bağlı nə edəcəyini bilmirlər. Bu pozulmaların müalicəsi də mümkündür, lakin onların baş vermə səbəblərini, etiologiyasını, simptomlarını, psixosomatik təzahürlərini bilmədən onu müalicə etmək çətindir.

Bundan əlavə sensor pozulmaları olan uşaqlarda emosional- iradi sfera və davranış pozulmalarının qarşısının alınması üçün əlverişli, səmimi ailə mühiti yaradılmalıdır. Valideynlər öz uşağını cəmiyyətdən və onun mənfi təzahürlərindən tamamilə təcrid edə bilmirlər. Bununla belə, onlar xarici mühitin mənfi təsirini kompensasiya etməyə və onu zərərsizləşdirməyə qadirdirlər. Evdə uşağın həmişə özünü təhlükəsiz hiss edə biləcəyi əlverişli emosional fon yaratmalıdırlar. Əlverişli ailə mühiti uşağın psixoloji sağlamlığına zərər vermədən müxtəlif hadisələrə adekvat reaksiya verməyə kömək edəcəkdir.
Valideynlər uşağa qərəzlə yanaşmamalı, onu olduğu kimi qəbul etməyi öyrənməlidirlər. Diqqəti onun mənfi xüsusiyyətlərinə yönəltməməlidirlər. Onların qarşısına yaşına uyğun ağlabatan tələblər qoymalıdırlar, mümkün olmayanı tələb verməməlidirlər. Həmçinin valideynlər öz hisslərini, duyğularını, hərəkətlərini idarə etməlidirlər. Uşaqlar üçün mənfi nümunə olan öz xarakter qüsurlarını təhlil etməyi öyrənməlidirlər və öz səhvlərini etiraf etməyi öyrənməli, təslim olmağı bacarmalıdırlar. {6}
Deməli, sensor pozulmaları olan uşaqların emosional cəhətdən zəif inkişaf etməsi onların tez- tez qorxu hissi keçirməsi və özünə qapanmalarına səbəb olur. Bu hal yarandıqda uşaqlarda zərərli və arzuolunmaz davranışlar müşahidə olunur. Belə davranışların qarşısını almaq üçün onlara "xüsusi" yanaşma tətbiq edilir. Bu yanaşma ayrı-ayrı addımlardan ibarət olur və tətbiqi ilə arzuolunmaz davranışın səbəbləri aydınlaşdırılır, məqəsdlər müəyyən olunur, addımlar planlaşdırılır, davranışa görə münasibət qurulur və sonda uşağın ailə üzvləri, eləcə də digər insanlarla ünsiyyətdə olma, birgə fəaliyyətdə olmadan məmnun qalma hissi aşılanır.
Alternativ ünsiyyət vasitələrinin seçilməsi, müxtəlif oyunlardan istifadə, musiqi terapiyasının tətbiqi sayəsində uşaq özünü anlayır və dərk edir, daxili potensialından məqsədyönlü istifadə edə bilir, arzuolunmaz davranışlar azalır, ünsiyyət bacarıqları, müstəqil və avtomatik davranışları, özünü idarəetmə zamanı emosionallığı, özünə xidmət bacarıqları artır.

Nəticə

Deməli, bu uşaqlarda müşahidə edilən emosional- iradi sfera və davranış pozulmalarını aradan qaldırmaqda valideynlər xüsusi rol oynayırlar. İlk növbədə valideynlə uşaq arasında etibarlı əlaqə qurulmalıdır, yəni uşaq öz valideynlərinə güvənməlidir. Bu uşaqlarla daha çox vaxt keçirmək, sevgi göstərmək, özünə inam hissini aşılamaq, problemləri ilə maraqlanmaq xüsusilə vacibdir. Pozunu aşkar edildikdə uşaq psixoloquna və ya psixoterapevtə müraciət etmək mütləqdir. Çünki, kiçik yaş dövründə emosional- iradi sfera və davranış pozuntusunun korreksiyası daha asan olur.
Sensor pozulmaları olan uşaqlarda müşahidə edilən bu pozuntular müalicə edilməzsə, onların şəxsi və peşə həyatına qısamüddətli və uzunmüddətli mənfi təsir göstərə bilər.

İstifadə Olunmuş Ədəbiyyat

1. Hüseynova N.T, Aslanova S.R. Xüsusi psixologiya. Bakı, 2018.
2. Ağayeva T.H. Eşitmə qüsurlu uşaqların psixo-koreksiyası. Bakı, 2015
3. Ağayeva T.H. "Sensor pozulmalar zamanı korreksiya inkişafetdirici işin metodikası" fənninin mühazirə materialları
4. Alyamovskaya V.G., Petrova S.N. Məktəbəqədər yaşlı uşaqlarda psixo-emosional stressin qarşısının alınması.- M.: Scriptorium, 2002.- 65s.
5.Zaporojets A.V. Məktəbəqədər uşağın emosional inkişafı / Ed. CƏHƏNNƏM. Koşeleva. M.: Maarifçilik, 1985. – 176 s.
6.Karpova G.Z. Məktəbəqədər uşağın hissləri və duyğuları dünyası. Məktəbəqədər təhsil müəssisəsinin tərbiyəçisi -2011. –N 8.-S.119-121.

ARTIFICIAL INTELLECT IN EDUCATION

TƏHSILDƏ SÜNI İNTELLEKT

dosent,Məmmədov Sabir Rüstəm oğlu,
ADPU-nun Ağcabədi filialı,
https://orcid.org/0009-0006-0671-1067

dosent, Cəfərov Fazil Tatarxan oğlu,
ADPU-nun Ağcabədi filialı,
https://orcid.org/0009-0006-6478-3966

Xülasə:
Məqalənin əsas məqsədi süni intellektin təhsildə tətbiqi və bunun gələcəkdə təhsil sistemində hansı nəticələrə gətirib çıxaracağını araşdırmaqdır. Süni intellekt inkişaf etdikcə təhsil də inkişaf edir və nəticədə bir sıra ölkələrdə təhsil sektorunda süni intellekt və texnologiyadan geniş istifadə olunur. Süni intellektin təhsildə tətbiqi müasir dövrün təhsil sistemindəki bir sıra çətinlikləri aradan qaldırmaq üçün faydalı olacaq.
Açar sözlər:Süni İntellekt, təhsil, süni intellektin inkişafı, süni intellektin təhsildə tətbiq, təhsil sistemi, yeni texnologiyalar.

Abstract:
The main purpose of the article is to investigate the application of artificial intelligence in education and what consequences it will lead to in the education system in the future. As artificial intelligence develops, education also develops, and as a result, artificial intelligence and technology are widely used in the education sector in a number of countries. The application of artificial intelligence in education will be useful in overcoming a number of difficulties in the modern education system.
Keywords: Artificial Intelligence, education, development of artificial intelligence, application of artificial intelligence in education, education system, new technologies

XXI əsrdə yaşadığımızı nəzərə alsaq, süni intellektin təhsildə tətbiqinin vacibliyini xüsusilə vurğulamaq lazımdır.
Dünya şöhrətli yazıçı Den Broun son romanı olan "Başlanğıc"da süni intellektin yeni tanrı olacağını və kompüterlər vasitəsilə yeni bir dinin formalaşdırılacağını irəli sürüb. Bəs nədir bu süni intellekt?
Əsası keçən əsrin ortalarında qoyulan süni intellekt son zamanların ən çox investisiya qoyulan və maraq doğuran sahələrindəndir.
Süni intellekt - insan məntiqini maşınlarda tətbiq etmək məqsədi daşıyan riyazi elm və texnologiyadır. Bu elm intellektual maşın yaratmağı, xüsusən yalnız insanlara məxsus olduğu düşünülən yaradıcı fəaliyyət göstərən intellektual proqram yaratmağı özünə məqsəd götürüb. Eyni zamanda insan intellektinin araşdırılması kimi də başa düşülür.
Bu sahə insanın ən dəyərli mülkiyyəti olan intellektin maşınlar tərəfindən dəqiq şəkildə simulyasiya olunması məqsədilə yaradılıb və inkişaf etdirilib. Süni intellekt yaradıldığı gündən bəri müxtəlif optimist və pessimist fikirlərlə qarşılaşsa da, bu gün texnologiyanın inkişafında mühüm yer tutur. Onun tətbiqində elm və mühəndislikdən geniş şəkildə istifadə olunur.
Bu gün süni intellekt və onun tətbiqləri enerji, mədənçilik, kənd təsərrüfatı, səhiyyə, səsli köməkçilər, onlayn söhbət və kommunikasiya, proqram təminatı kimi demək olar ki, hər sahədə effektivdir. Bununla birlikdə süni intellektin təhsildə tətbiq olunmadığını düşünmək yanlış olardı. Süni intellektin

təhsildə tətbiq olunması bir çox problemlərin həllində böyük rol oynamışdır. Digər tərəfdən təhsil sistemindəki bütün problemləri həll etmək üçün süni intellektin yeganə çıxış yolu hesab edilməsi də düzgün yanaşma olmazdı.

Süni intellekt anlayışı haqqında danışmazdan əvvəl beyin və təbii intellekt anlayışlarına və onların qarşılıqlı əlaqəsinə nəzər salmaq məqsədəmüvafiqdir. Beynin qavrama, öyrənmə, mənimsəmə mexanizmasını daha yaxşı anlamaq üçün ilk öncə onun necə işlədiyini öyrənmək lazımdır. Bəzi alimlər insan beyni və robototexnika arasında bir sıra oxşar cəhətlərin olduğuna istinad edərək gələcəkdə duyğuları olan və onlara nəzarət edə bilən texnologiyanın yaradıla biləcəyi tezisini irəli sürərkən, bəziləri isə nə qədər inkişaf etməsindən asılı olmayaraq heç bir texnologiyanın insan beyni ilə müqayisə oluna bilməyəcəyi fikrini müdafiə edirlər.

Ümumiyyətlə, insan zəkası məfhumunu çox vaxt şüur, ruh kimi məfhumlarla əlaqələndirirlər. Buna baxmayaraq bu məfhumun universal bir tərifi yoxdur. Çox sadə bir dillə desək, zəkanı xarici faktorların qəbul edilərək bilgiyə çevrilməsi və istifadə edilməsi kimi başa düşmək olar. Bəzi araşdırmacılar zəkanın davamlı olaraq özünü yeniləyə bildiyini qəbul edirlər.

Süni intellektin təhsildə tətbiqi.Henry Fordun belə bir sitatı vardır: “İnsanlardan nə istədiklərini soruşsaydım, cavab olaraq daha sürətli qaçan at deyərdilər”. Verilən cavabı bu müstəvidən dəyərləndirsək, məktəblərin qısa müddət ərzində “sürətli siniflərə” çevrildiyini söyləmək olar. Bəs XXI əsrdə bu cür “sürətli siniflər”in fəaliyyətinə davam etməsi kifayətdir mi, yoxsa XXII əsrə doğru irəlilədikcə əvvəllər heç düşünülməmiş yeni sistemlər mi yaradılmalıdır? Yaxın gələcəkdə bu mövzuların yenə gündəmdə olacağı düşünülür. Süni intellekt həqiqətən də müəllimləri əvəz edə bilər, ya yox? Bəzi müəlliflərin fikrincə, süni intellekt sahəsindəki inkişaflar “insanı adətən daha çox insanlaşdıracaq”[1]. Onların fikirlərinə görə təhsildə süni intellektin istifadəsi öyrənməni daha da fərdiləşdirəcək, tələbələrə öz istedadlarını kəşf etməyə, yaradıcılıqlarını təkmilləşdirməyə, həmçinin müəllimlərin iş yükünü azaltmağa yardımcı olacaq. Onlar həmçinin süni intellekt tətbiqinin cəmiyyətdən təcrid olunmuş və məktəbə getməyən insanlar, əlillər, qaçqınlar üçün də əlverişli olacağını düşünürlər. Lakin bunun əksini düşünən araşdırmaçılar da var. Belə ki, onlar müəllimin rolunun kompüterə ötürülməsini gələcək üçün risk olaraq qiymətləndirirlər.

Təhsil sistemində süni intellektin tətbiqinə ilk töhfə verənlər arasında Sidney Presseyi göstərə bilərik. Belə ki, Presseyin fikrinə görə, bu mexanizmlər nəinki tələbələrin test nəticələrini dərhal göstərirdi, eyni zamanda onların lazımi biliklərlə təmin olunmasına da şərait yaradırdı. Pressey süni intellektin təhsildə tətbiq olunmasına şərait yaradan mexanizmin yalnız tələbələr üçün yox, eyni zamanda müəllimlər üçün də əlverişli olduğunu bildirmişdir[2]. Çünki müəllimlər artıq tələbələrinin imtahan nəticələrini yoxlamaq üçün ayırdıqları vaxtda tələbələrilə daha çox vaxt keçirə biləcəkdilər.

Mənim fikrimcə, süni intellekt tətbiqinin sinifdə necə və nə zaman istifadə olunacağı sualının cavablayıcısı müəllimlər olmalıdır. Çünki təhsildə süni intellektin tətbiqi müəllimlərin işini azaltmalıdır, əhəmiyyətini yox. Belə ki, süni intellektin təhsildə tətbiqinin müəllimlər üzərində müəyyən təsirləri olmuşdur. Bu təsirlərin daha çox müsbət yöndə olması üçün süni intellektdən gözlənilən şey müəllimlərə tələbələri ilə daha yaxşı ünsiyyət qurmaları üçün köməkçi olmasıdır. Bundan başqa süni intellekt tətbiqinin müəllimlərin işlərini asanlaşdırmaqla bərabər eyni zamanda daha məhsuldar və məmnunedici hala gətirməsi planlaşdırılmışdır. Süni intellektin təhsildə tətbiq olunması öyrətmə metodlarında da dəyişiklik yaratmışdır. Beləliklə, müəllimlər yeni öyrətmə metodları vasitəsilə yeni texnologiyaları sinif otaqlarında tətbiq etməklə tələbələrin daha çox inkişaf etmələrinə yardımcı olacaqlar[3].

Dünyada 10 milyondan çox tələbənin istifadə etdiyi “Coursera” tətbiqi vasitəsilə tələbələr hər hansı sualı yanlış cavablandırdıqda və ya keçilən mövzu onlara aydın olmadıqda bu tətbiq onlara imkan verir ki, keçilən dərsi bir daha gözdən keçirsinlər. Eyni zamanda mobil texnologiyaların sürətlə inkişaf etdiyi bir dövrdə müxtəlif “məsafədən təhsil” imkanları yaranmaqdadır. Məsələn, “Duolingo” adlanan dil öyrənmə proqramı vasitəsilə tələbələr harda olmalarından asılı olmayaraq tətbiqə giriş edib ondan istifadə edə bilərlər. İnformasiya ilə qarşılıqlı əlaqənin yeni üsulları effektiv öyrənməyə

imkan verir. Məsələn, “Google”-un istifadə etdiyi süni intellekt sayəsində axtarışlarımız indi coğrafi yerimizə və əvvəlki axtarışlarımıza görə formalaşır. Bundan başqa tələbələr öz akademik bacarıqlarına və öyrənmə səviyyələrinə uyğun fərdiləşdirilmiş ev tapşırığı (“Alloproof” tətbiqi bu zaman onların köməyinə gələcək) edə bilərlər. Daha bir misal, süni intellektin təhsil sistemində tətbiqi tələbələr üçün virtual reallığa səyahət etmək imkanı yaradır. Yəni bu tətbiq vasitəsilə real dünyadakı bəzi aspektlər (məsələn, coğrafi yerlər, tarixi və əlçatmaz mühitlər, insanın real olaraq gedə bilməyəcəyi yerlər və s.) simulyativ formada təqdim edilir. Məsələn, Assassinin “Creed” oyunu.
Süni intellekt tətbiqlərinin sinif otaqlarında istifadə olunması ilə müəllimlər:

- Artıq inkişaf etməkdə olan süni intellekt tətbiqlərini düzgün qiymətləndirməli və onlar haqqında doğru mühakimə yürütməli idilər;
- Tələbələri düzgün istiqamətləndirmək məqsədilə süni intellekt texnologiyaları tərəfindən təqdim olunan məlumatların təhlilini aparmalı, tədqiqat bacarıqlarını inkişaf etdirməli idilər;
- Dərslərin tədris olunması zamanı süni intellekt texnologiyası da onlara kömək edəcəyi üçün bu situasiyanı effektiv qiymətləndirməli idilər.

Süni intellekt texnologiyalarının bir sıra faydalarını nəzərə aldıqda bəzi ölkələrdə süni intellektin daha çox inkişaf etməsi üçün investisiyalar qoyulur. Bu istiqamətdə qoyulan investiyaların 2025-ci ilə kimi 6 milyard dollara çatacağı gözlənilməkdədir. Çin və ABŞ bu sahədə çox məşhurdur. Qeyd edək ki, dünya üzərində süni intellektlə əlaqəli çəkilən xərclərin yarısından çoxu adları çəkilən bu iki dövlətə aiddir. Çində yerləşən SquirrelAI, hər bir tələbəni süni intellekt müəllimi ilə təmin etmək məqsədi güdür[4]. Buna bənzər olaraq, ABŞ-da McGraw-Hil şirkəti tərəfindən hazırlanan ALEKS və IBM şirkətinin istehsal etdiyi WATSON məşhurdur. Başqa bir misal, İngiltərədə tətbiq olunan “third space learning” adlı proqram tələbələr və müəllimlər üçün onlayn dərs imkanı yaradır. Əlavə olaraq, proqramdan alınan geridönüşlər nəticəsində hər bir tələbənin dərsi qavrama, mənimsəmə səviyyəsi müəyyən edilərək müəllimin növbəti dəfə keçəcəyi dərslər hər tələbənin qavrama səviyyəsinə uyğun müəyyənləşdirilə bilir. Daha dəqiq desək, öyrənmə sistemi şəxsin bilik və bacarıqlarına uyğun olaraq qurulur. Araşdırmalar göstərir ki, fərdiləşdirilmiş öyrənmə metodu nəticəsində tələbələr daha yaxşı nəticələr göstərirlər. Fərdiləşdirilmiş öyrətmə metodlarının tətbiq olunduğu başqa bir ölkə isə İsveçdir. Belə ki, İsveçdə yerləşən Sana Labs şirkəti digər şirkətlərdən fərqli olaraq təhsilin bir neçə sahəsini (riyaziyyat, ixtisas fənləri və s.) ələ alan öyrətmə proqramları üzərində çalışır. Bu proqramlar sayəsində tələbələrin “bilik cədvəli” davamlı olaraq yenilənir[7]..
Amma bu sahənin mütəxəssislərini düşündürən bir məqam da var - süni intellektin bu qədər avtonomlaşdırıldığı, geniş səlahiyyətlərin verildiyi bir şəraitdə, onlar öz yaradıcılarına qarşı hər zaman sadiq və mehriban qalacaqlarmı?

"Süni intellektin nəhəng potensialını nəzərə alaraq düşünməliyik ki, həmin texnologiyalarda mövcud olan gizli əngəllərlə üzləşmədən bunun müsbət cəhətlərindən necə faydalana bilərik. Bizim süni intellekt sistemlərimiz yalnız bizim istədiyimizi etməlidir”. Bu, Həyatın Gələcəyi İnstitutunun saytında dərc edilən açıq məktubda yazılıb. Alimlər bu məktub vasitəsilə öz həmkarlarına səslənərək, onları süni intellekt probleminə daha diqqətli yanaşmağa çağırırlar. Alimlərin qoyduqları əsas sual isə belədir: insanlar intellektlə təchiz olunmuş maşınlara nəzarət edə biləcəklərmi? Bu suala hələ heç kim cavab verə bilməyib... Süni intellektin gələcəyini anlamaqda əsas çətinlik məhz buradadır. Amerikalı alim Eliezer Yudkovski "Süni intellekt qlobal risklərdə müsbət və mənfi faktor kimi” kitabında süni intellektin "bəli, bu intellekt insan iradəsinin xaricindədir” dedirdən ikicə davranış ehtimalını şərh edir:
- Süni intellekt yeni icadları patentləyir, elmi əsərlər dərc edir, birjada pul qazanır və siyasi bloklara başçılıq edir.
- Tarixi, elmi və texnoloji biliklərə əsaslanan süni intellekt sivilizasiyanın inkişafını əsrlər və minilliklər müddətinə əvvəlcədən bilə bilir

Təhsildə süni intellektin tətbiqinə dair biraz da Türkiyə təcrübəsinə toxunaq. Belə ki, bu sahə ilə əlaqədar Türkiyədə bir çox konfranslar, tədbirlər keçirilməktədir. Təhsil Sənayesi və Texnologiya İnstitutunun gəldiyi qərara əsasən "Akıllı Sınıf Davranış Yönetimi" (Ağıllı Sinif Davranışının İdarə Edilməsi) sisteminin həyata keçirilməsindən bəhs olunmuşdur. Qurulan bu sistem sayəsində sinif otaqlarında kameralar yerləşdiriləcək və dərs prosesi zamanı tələbələrin üz mimikalarından onların dərsi nə qədər anladıqları, dərsin hansı hissəsinin onlar üçün daha asan və hansı hissəsinin onlar üçün maraqsız olduğu müəyyən edilə biləcək. Bu da müəllimlərə növbəti dərslərdə ən yaxşı dərs öyrətmə metodunu müəyyən etmədə yardımçı olacaq. Eyni zamanda, bu kameraların məktəbin giriş çıxışına da qoyulması planlaşdırılır[5].

Xüsusilə də, 2020-ci ildə Covid-19 pandemiyasının hökm sürdüyü zamanlar süni intellektin təhsildə tətbiqinin əhəmiyyətini ortaya çıxardı. Buna görə də mənim fikrimcə, tələbələr süni intellektlə nə qədər tez tanış olsalar, o qədər yaxşı olar və ən əsası da təhsilin keyfiyyəti artar. Bununla birlikdə, süni intellekt istehsalı ilə məşğul olan şirkətlər daha çox proqram təminatı şirkətləri olduğundan, hər hansı bir məktəbin və bütünlükdə təhsil sisteminin ehtiyaclarına görə tətbiq hazırlamaq onlar üçün çətindir. Buna görə də düşünürəm ki, bu şirkətlərin məktəblərlə qarşılıqlı əməkdaşlıq etməsi zəruridir. Belə texnologiyaların hazırlanmasında tələbələrin də fikirləri alınmalıdır. Ancaq bundan sonra təhsil sisteminin tələblərinə cavab verən texnologiyaların hazırlanmasına nail olmaq mümkündür[6]..

Bununla birlikdə Türkiyə Təhsil Nazirliyi, İstanbul Teknik Üniversitesi ilə birlikdə fərdiləşdirilmiş öyrətmə sisteminin qurulması və tətbiq olunması üçün bir sıra layihələrlə əlaqəli danışıqlar aparır. Bu çərçivə daxilində "Uşaqlar üçün süni intellekt" fənninin tədris olunması proyektinə başlanılmış və hazırda bu layihə daxilində əlaqəli kitabların yazılacağı dəqiqləşdirilməkdədir.

NƏTİCƏ

Məqalədə əsasən ağıllı sinif otaqlarının yaradılması ilə tələbə-müəllim əlaqəsinin və tələbələrin dərsə motivasiyasının izlənməsi, şübhəsiz ki, təhsil sistemində bir sıra irəliləyişlər yaradılacağı məsələlələrə həsr olunmuşdur. Düzdür, süni intellektin təhsil sistemində tətbiq olunması ilə əlaqəli birçox tədqiqatlar aparılır və layihələr həyata keçirilir. Ancaq bu tətbiqin hələ də istifadənin ilk mərhələsində olduğunu qeyd etmək yerinə düşərdi. Süni intellektin sinif otaqlarında istifadə olunabilməsi üçün daha çox araşdırma aparılması və bunların praktikada tətbiq olunması lazımdır. Ən başlıcası isə, müəllimlərin bu mövzuda daha çox bilgiləndirilməsi ehtiyacı yaranmışdır.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. ARSLAN, K. (2020). "Eğitimde Yapay Zeka ve Uygulamaları". Batı Anadolu Eğitim Bilimleri Dergisi, Vol: XI (No: I), ss. 71-88.
2. GÖÇEN, A., & AYDEMİR, F. (2020). "Artificial Intelligence in Education and Schools". Research on Education and Media.
3. KÖMEÇOĞLU, Y., & TUNALI, S. (tarixsiz). Eğitimde Yapay Zeka Çalıştayı – 6, Sonuç Raporu.
4. İŞLER, B., KILIÇ, M. Y. (2021). "Eğitimde Yapay Zeka Kullanımı ve Gelişimi". Yeni Medya Elektronik Dergisi, Vol: V (No: I), ss. 1-11.
5. SELÇUK, Z. (2012). Eğitim Psikolojisi. İstanbul : Nobel Yayınları.
6. www.goool.az
7. Azərbaycan.- 2019.- 23 iyul.- S.10.

ETHICS AND NATIONAL-MORAL VALUES: IN THE HERITAGE OF THE GREAT LEADER HEYDAR ALIYEV

ЭТИКА И НАЦИОНАЛЬНО-НРАВСТВЕННЫЕ ЦЕННОСТИ: В НАСЛЕДИИ ВЕЛИКОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

ETİKA VƏ MİLLİ- MƏNƏVİ DƏYƏRLƏR: ULU ÖNDƏR HEYDƏR ƏLİYEV İRSİNDƏ

Şirinova Nəhayət Məhəmməd qızı
ADPU-nun Quba filialı Heydər Əliyev Lektoriyasının müdiri. İctimaiyyətçi-yazar

Xülasə
Etika – insan davranışlarının mənəvi normalar əsasında tənzimlənməsi sistemi olaraq – hər bir cəmiyyətin dəyərlər çərçivəsində formalaşmasında mühüm rol oynayır. Azərbaycan cəmiyyətində etikanın əsas mənbələrindən biri milli-mənəvi dəyərlərdir. Bu dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi isə yalnız fərdi deyil, həm də strateji məsələ kimi dəyərləndirilmişdir. Ulu Öndər Heydər Əliyev milli-mənəvi dəyərləri və etik prinsipləri dövlət siyasətinin mərkəzinə gətirərək onları milli ideologiyanın əsas dayağına çevirmişdir. Məqalədə etika və milli-mənəvi dəyərlərin Heydər Əliyev ideologiyasında təzahür formaları, onların siyasi, ictimai və mənəvi kontekstlərdə tətbiqi və müasir davamlılığı elmi şəkildə təhlil olunur və eyni zamnda mədəni irsin qorunması, milli kimliyin möhkəmləndirilməsi, ideoloji tərbiyə, mədəni diplomatiya kontekstində Heydər Əliyev ideologiyasının əsas istiqamətlərini təhlil edir. Məqləni yazarkən, araşdırma apararkən həm yerli, həm də beynəlxalq hüquqi-siyasi sənədlərə istinad edilmişdir. Etika və milli-mənəvi dəyərlər bir xalqın mənəvi kimliyini və sosial davranış modelini müəyyən edən əsas komponentlərdir. Onlar cəmiyyətin daxili nizamını, fərdlərarası münasibətlərin dərinliyini və bütövlükdə milli birlik şüurunu formalaşdırır. Ulu Öndər Heydər Əliyevin irsində bu komponentlər sadəcə mədəni fenomen deyil, həm də dövlətin ideoloji-siyasi güc amili kimi çıxış edir.Bu məqalədə etik dəyərlər və milli-mənəvi prinsiplərin Heydər Əliyevin siyasi konsepsiyalarındakı rolu, onun bu sahədə həyata keçirdiyi siyasətlər və çağdaş dövr üçün əhəmiyyəti nəzərdən keçiriləcəkdir.
Açar sözlər: Heydər Əliyev,etikqa, mədəni irs, milli kimlik, mənəvi dəyərlər, ideologiya, Azərbaycan.

Аннотация:
Этика – как система регулирования поведения человека на основе моральных норм – играет важную роль в формировании каждого общества в рамках ценностей. Одним из основных источников этики в азербайджанском обществе являются национально-моральные ценности. Сохранение и передача этих ценностей будущим поколениям считается не только индивидуальным, но и стратегическим вопросом. Великий Лидер Гейдар Алиев вывел национально-духовные ценности и этические принципы в центр государственной политики, превратив их в опору национальной идеологии. В статье научно анализируются формы проявления этики и национально-духовных ценностей в идеологии Гейдара Алиева, их применение в политическом, социальном и духовном контекстах и их современная преемственность, а также анализируются основные направления идеологии Гейдара Алиева в контексте сохранения культурного наследия, укрепления национальной идентичности, идеологического воспитания и культурной дипломатии. При написании статьи в ходе исследования были использованы как местные, так и международные правовые и политические документы. Этика и национально-нравственные ценности являются основными компонентами, определяющими духовную идентичность народа и модель общественного

поведения. Они формируют внутренний порядок общества, глубину межличностных отношений, сознание национального единства в целом. В наследии Великого Лидера Гейдара Алиева эти компоненты являются не просто культурным явлением, но и выступают фактором идеологической и политической мощи государства. В данной статье будет рассмотрена роль этических ценностей и национально-нравственных принципов в политических концепциях Гейдара Алиева, политика, реализуемая им в этой области, и их значение для современной эпохи.
Ключевые слова: Гейдар Алиев, этика, культурное наследие, национальная идентичность, моральные ценности, идеология, Азербайджан

Abstract
Ethics – as a system of regulating human behavior based on moral norms – plays an important role in the formation of each society within the framework of values. One of the main sources of ethics in Azerbaijani society is national-moral values. The preservation of these values and their transmission to future generations was considered not only an individual, but also a strategic issue. Great Leader Heydar Aliyev brought national-moral values and ethical principles to the center of state policy, turning them into the mainstay of national ideology. The article scientifically analyzes the forms of manifestation of ethics and national-moral values in Heydar Aliyev's ideology, their application in political, social and moral contexts and their modern continuity, and at the same time analyzes the main directions of Heydar Aliyev's ideology in the context of preserving cultural heritage, strengthening national identity, ideological education, and cultural diplomacy. While writing and conducting research, both local and international legal and political documents were referred to. Ethics and national-spiritual values are the main components that determine the spiritual identity of a people and the model of social behavior. They form the internal order of society, the depth of interpersonal relations, and the consciousness of national unity as a whole. In the heritage of the Great Leader Heydar Aliyev, these components are not just a cultural phenomenon, but also act as a factor of ideological and political power of the state. This article will consider the role of ethical values and national-spiritual principles in Heydar Aliyev's political concepts, the policies he implemented in this area, and their significance for the modern era.
Keywords: Heydar Aliyev, ethics, cultural heritage, national identity, moral values, ideology, Azerbaijan.

Gəlin əvvəlcə etikanın mahiyyəti və onun cəmiyyətdəki rolu haqqında fikirlərimi sizə izah etməyə çalışım. Etika fəlsəfi kateqoriya kimi insan davranışlarını yaxşı-pis, doğru-yanlış müstəvisində tənzimləyən normativ sistemdir (Kant, 1785). O, yalnız fərdi münasibətlər sahəsində deyil, eyni zamanda sosial ədalət, dövlət-vətəndaş münasibətləri və milli ideologiyaların strukturunda da təzahür edir. Azərbaycanın ictimai həyatında isə etikanın əsas dayaqları milli-mənəvi irsə, ailə institutuna, dini və əxlaqi kodlara söykənir**[Əlizadə, A. (2012). "Etikanın fəlsəfi əsasları və milli kontekstdə tətbiqi." Azərbaycan Fəlsəfə Jurnalı, №3, s. 22–30]**
Növbəti baxış bucağımız milli-mənəvi dəyərlərin etik sistemə təsiri olacaqdır. Ümumilikdə baxsaq Azərbaycan xalqının formalaşdırdığı dəyərlər sistemi – milli dil, tarix, mədəniyyət, din, ailə adətləri – etik davranış normalarını müəyyənləşdirir. Bu baxımdan milli-mənəvi dəyərlər etik sistemin baza təməlini təşkil edir və bu sistem təkcə fərdi səviyyədə deyil, kollektiv münasibətlərdə də əks olunur. Heydər Əliyev bu dəyərləri müstəqil Azərbaycan dövlətinin mənəvi dirəyi kimi təqdim etmişdir: "Milli-mənəvi dəyərlərini itirən xalq, əqidəsini itirər. Əqidəsini itirən xalq isə zamanla məhv olar" **[Əliyev, H. (1998). Milli mənəvi dəyərlər və Azərbaycançılıq. Bakı: Azərnəşr]** Bu mövzunu araşdırmağa qərar verərkən xarici mənbələrdə də olduqca maraqlı faktlara rast gəldim. Bu anlayışın aliliyi və ümumibəşərliyinin fəlsəfəsinə ekskursiya etdim. ***Tarixi abidələrin və mədəni obyektlərin qorunması vasitəsilə dövlətlər milli kimlik və tarixi yaddaş üzərində siyasi-mədəni hegemonluq***

formalaşdırırlar **[Graham, B, Ashworth, G. J., & Tunbridge, J. E. (2000).]** Gəlin yenidən Heydər Əliyev ideologiyasında mədəni irs və tarixə yanaşmaya diqqət edək: Heydər Əliyev mədəni irsi milli təhlükəsizlik və dövlətçilik kontekstində dəyərləndirmişdir. Dahi şəxsiyyət deyirdi: ***Tarixini və mədəniyyətini itirən millət öz dövlətçiliyini də təhlükə altına qoyur*** **[H.Əliyev, H. 2000. Tarix və zaman. Bakı: Azərbaycan nəşriyyatı.]**

Heydər Əliyevin siyasi ideologiyasında etika və dəyər mövzusu ən prioritet mövzulardan biri olmuşdur. Etika və milli-mənəvi dəyərlər xalqın mənəviyyatını, tarixi yaddaşını və sosial davranışını müəyyən edən əxlaqi-estetik sistemdir. Azərbaycan tarixən müxtəlif mədəniyyətlərin kəsişdiyi bir məkan olmuş və bu zənginlik onun mənəvi dəyərlərinə təsirsiz qalmamışdır. Lakin bu dəyərlərin mühafizəsi və gələcək nəsillərə ötürülməsi hər zaman strateji əhəmiyyət kəsb etmişdir. Bu baxımdan Heydər Əliyevin dövlət rəhbərliyi dövründə milli-mənəvi dəyərlərin qorunması xüsusi diqqət mərkəzində olmuşdur. Onun fəaliyyətində Azərbaycançılıq ideologiyası, dil və mədəniyyət siyasəti, dini-mənəvi mühitin tənzimlənməsi və gənclərin milli ruhda tərbiyəsi əsas yer tutmuşdur.Ulu Öndər Heydər Əliyevin dövlətçilik konsepsiyası milli-mənəvi dəyərlərin qorunması və etik prinsiplərin təbliği üzərində qurulmuşdur. Onun idarəçilik fəlsəfəsi sadəcə siyasi qərarlarla deyil, eyni zamanda xalqın mənəvi kodeksinə əsaslanan dəyərlərlə yönləndirilmişdir. Xüsusilə 1990-cı illərin sonlarında qəbul edilmiş milli ideoloji konsepsiyalarda etika açıq şəkildə dövlət siyasətinə inteqrasiya edilmişdi. **[Qasımov, E. (2016). "Heydər Əliyev irsində etik ideyaların dövlət idarəçiliyinə təsiri." Azərbaycan Dövlət İdarəçilik Jurnalı, №2, s. 18–25].**

Heydər Əliyev milli dəyərləri müstəqil Azərbaycan dövlətinin ideoloji dayaqları kimi müəyyən etmişdir. Onun ifadəsi ilə desək: "Biz dövlət müstəqilliyimizi milli dəyərlərimizə, milli ənənələrimizə əsaslanaraq qoruyub saxlamalıyıq." Bu yanaşma Azərbaycanın müstəqillik illərində ideoloji sabitliyin qorunmasında mühüm rol oynamışdır. Milli kimliyə bağlılıq dövlətçilik ruhunun əsas elementlərindən biri hesab olunmuşdur. Heydər Əliyev öz çıxışlarında dəfələrlə məmurların etik davranışı, vətəndaşa xidmətin mənəvi borc kimi dəyərləndirilməsi və ədalətli münasibətlərin vacibliyini vurğulamışdır. Bu etik dəyərlər eləAzərbaycançılıq ideologiyasının tərkib hissəsidir.Azərbaycançılıq ideologiyası təkcə milli kimliyin ideoloji ifadəsi deyil, həm də davranış kodeksidir. Bu ideologiyanın etik təməli insanlara hörmət, ədalətlilik, mənəvi borc və vicdan anlayışları üzərində qurulmuşdur. Heydər Əliyev bu baxımdan etik prinsipləri milli kimliyin ayrılmaz hissəsi kimi təqdim edirdi: "Biz insanlara xidmət üçün varıq. Dövlət məmurunun borcu etik normalar əsasında xalqa xidmət etməkdir" **[Əliyev, H. (2001). Azərbaycançılıq ideologiyası. Bakı: Elm]**

Unutmayaq ki bu mövzu çoxşaxəlidir və bir neçə istiqamət üzrə bunu araşdırmalıyıq, keçid alaq dini-mənəvi etika və tolerantlıq siyasətinə. Olduqca marağlı araşdırmadır və bu araşdırmadan bu qənaətə gəldim ki, Heydər Əliyev dini dəyərləri milli-mənəvi və etik tərbiyənin mühüm hissəsi hesab edirdi. O, həm İslam əxlaqının, həm də digər dini konfessiyaların cəmiyyətə təqdim etdiyi etik prinsipləri yüksək qiymətləndirmişdir. Bu çərçivədə dini tolerantlıq və multikulturalizm prinsipləri Heydər Əliyev dövründə dövlət siyasətinin etik sütunlarına çevrilmişdir. Məhz bu dəyərlər bir millətin tarixi yaddaşının daşıyıcısı olmaqla yanaşı, dövlətin ideoloji dayağı kimi də çıxış edir. Heydər Əliyev İslamın Azərbaycan xalqının mənəvi inkişafındakı rolunu yüksək qiymətləndirmişdir. Lakin bu yanaşma radikalizmdən uzaq, dini tolerantlıq və multikulturalizm çərçivəsində olmuşdur. O bildirirdi: "İslam bizim mənəviyyatımızın, mədəniyyətimizin əsas dayaqlarındandır. Lakin biz dini ayrı-seçkiliyə qarşıyıq".Onun rəhbərliyi ilə dini icmaların fəaliyyəti qanuniləşdirilmiş, məscidlər bərpa olunmuş və dinə hörmət milli birlik və sabitliyin təminatına çevrilmişdir.

Daha bir istiqamətə gənclərin etik və mənəvi tərbiyəsi və bu istiqamətdə gedən ideoloji işə də bir nəzər salaq: Ümummili lider Heydər Əliyevin xüsusi diqqət yetirdiyi sahələrdən biri də gənclərin milli-mənəvi və etik ruhda tərbiyəsi idi. 1994-cü ildə qəbul edilmiş "Gənclər siyasəti haqqında" fərman və sonrakı proqram sənədləri gənclərin vətənpərvərlik, dürüstlük, əməksevərlik, sosial məsuliyyət və etik davranış ruhunda formalaşdırılmasını nəzərdə tuturdu.Bu prosesdə məktəblərin, ali təhsil müəssisələrinin və ailənin rolu sistemli şəkildə dövlətin ideoloji diqqətində saxlanılmışdır.

Etika və milli-mənəvi dəyərlər Ulu Öndər Heydər Əliyev irsində yalnız mədəni-tarixi göstərici deyil, həm də milli dövlətçiliyin dayaq sütunlarından biri olmuşdur. Bu baxış, milli dəyərlərin sadəcə mədəniyyət məsələsi deyil, tarixi-strateji məsələ olduğunu göstərir. Xalqın dilinin, dini inanclarının, folklorunun, ailə modelinin və əxlaqi prinsiplərinin qorunması – Heydər Əliyevin dövlət quruculuğu konsepsiyasının ayrılmaz hissəsi idi. Ulu Öndər gənclərin milli mənəvi dəyərlər əsasında tərbiyəsini müstəqillik siyasətinin təhlükəsizlik və inkişaf amili kimi görürdü. O, bu barədə belə demişdir: "Gənclər milli ruhda, milli mənəviyyat əsasında tərbiyə olunmalıdırlar."1994-cü ildə qəbul edilmiş "Azərbaycan Gəncləri haqqında" dövlət proqramı, eləcə də sonrakı sənədlərdə gənclərin vətənpərvər, vətəndaş mövqeli, əxlaqlı və mənəvi baxımdan yetkin formalaşdırılması əsas prioritetlərdən biri olmuşdur. Bu, milli dəyərlərin gələcək nəsillərə ötürülməsi üçün strateji əsas idi. Ulu Öndərin strateji və uzaqgörən siyasətində ana xəttlərdən biri də dil amili və dilin milli mənəvi dəyər olaraq ən öndə olmasıdır. Heydər Əliyev ana dilini və mədəniyyəti milli dəyərlərin başlıca daşıyıcıları kimi qiymətləndirirdi. Onun fikrincə: "Dilini bilməyən insan, öz kökünə biganə insandır. Öz kökünü itirən xalq isə gələcəyini itirər."Bu prinsip əsasında o, Azərbaycan dilinin konstitusion statusunun təsbit olunmasına, 2001-ci ilin "Azərbaycan dili ili" elan olunmasına, milli-mədəni tədbirlərin geniş şəkildə keçirilməsinə şərait yaratmışdır. Bu addımlar milli-mənəvi dəyərlərin cəmiyyət həyatında aktiv rol almasına imkan vermişdir. Heydər Əliyevin milli-mənəvi dəyərlərlə bağlı fikir və mülahizələri bu gün də Azərbaycan cəmiyyətinin mənəvi-ideoloji sütunlarını təşkil edir. Onun irsi göstərir ki, milli dəyərlər xalqın mədəni varlığı ilə yanaşı, onun dövlətçiliyinin və gələcəyinin təminatıdır. Bu dəyərlərin qorunması və inkişaf etdirilməsi isə Heydər Əliyevin göstərdiyi strateji xətt üzrə bu gün də davam etdirilməlidir.

Heydər Əliyevin rəhbərliyi dövründə milli-mənəvi dəyərlərin qorunması və inkişafı məqsədyönlü, strateji bir siyasət kimi həyata keçirilmişdir. Onun bu sahədə atdığı addımlar Azərbaycan dövlətçiliyinin mənəvi dayaqlarını möhkəmləndirmiş, xalqın milli kimliyini yaşadan dəyərləri gələcək nəsillərə ötürməyə zəmin yaratmışdır. Bu baxımdan Heydər Əliyev yalnız siyasi lider deyil, həm də milli-mənəvi irsin qoruyucusu və yenidən dirçəldicisi kimi tarixə düşmüşdür.

Nəciə etibarilə bu araşdırmadan sonra o, qənaətə gəldim ki, müasir və müstəqil Azərbaycanımızın bu günki mükəmməl, zəfərli, qalib görüntüsündə məhz ulu öndər Heydər Əlliyev ideyaları dayanır, o ideyaların həyatımızin və yaşamımızın istənilən tərəfinə sirayət etməsi isə inkişaf dinamikamızın yüksəlişinə xidmət etmiş və etməkdədir.

Allah ümummlili liderimiz Heydər Əliyevə rəhmət etsin.

Yaşasın günü-gündən çiçəklənən Azərbaycanımız!

İstifadə Olunan Ədəbiyyat Siyahısı:

Əliyev, H. (1998). Milli mənəvi dəyərlər və Azərbaycançılıq. Bakı: Azərnəşr.
Əliyev, H. (2000). Dövlət və məmur etikasının əsasları. Bakı: Prezident Kitabxanası.
Əlizadə, A. (2012). "Etikanın fəlsəfi əsasları və milli kontekstdə tətbiqi." Azərbaycan Fəlsəfə Jurnalı, №3, s. 22–30.
Graham, B, Ashworth, G. J., & Tunbridge, J. E. (2000).
H.Əliyev, H. 2000. Tarix və zaman. Bakı: Azərbaycan nəşriyyatı.
Əliyev, H. (2001). Azərbaycançılıq ideologiyası. Bakı: Elm.
Qasımov, E. (2016). "Heydər Əliyev irsində etik ideyaların dövlət idarəçiliyinə təsiri." Azərbaycan Dövlət İdarəçilik Jurnalı, №2, s. 18–25.
Hacıyev, Ş. (2019). "Azərbaycanın dini tolerantlıq modeli və etik dəyərlər." Cəmiyyət və Din, №1, s. 9–16.

THE FIRST AZERBAIJANI TRAGICOMEDY - THE SCOURGE OF THE TONGUE, OR SHAMDAN BEY"

İLK AZƏRBAYCAN TRAGİKOMEDİYASI – "DİLİN BƏLASI, YAXUD ŞAMDAN BƏY"

Sezər Məmmədli
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnsitutu

Xülasə
Məqalədə tragikomediyanın janr xüsusiyyətləri, inkişaf mərhələləri və xüsusən Azərbaycan ədəbiyyatındakı ilk nümunəsi olan, N.Nərimanov tərəfindən qələmə alınmış "Dilin bəlası, yaxud Şamdan bəy" əsəri təhlilə cəlb olunub. Əsərdəki obrazların dramatik situasiyada davranışları, hadisələrə reaksiyaları fonunda üzə çıxardığımız nəzərəçarpan yeniliklər, tragikomik durumu təmin edən nüanslar əhatəli formada araşdırılıb. XIX əsrin sonunda cəmiyyətin psixoloji durumu və bunun ədəbiyyatda proyeksiyası aydınlaşdırılıb. Şamdan bəyi komediya qəhrəmanı sərhədlərindən çıxaran, eləcə də pyesin tragikomediya kimi qəbul edilməsini şərtləndirən səbəblər ayrıca göstərilib.
Açar sözlər. Tragikomediya, Nəriman Nərimanov, dramaturgiya, faciə, komediya

Abstract
The article describes the genre features of tragicomedy, The stages of its development and, in particular, its first example in Azerbaijani literajture, The work "The scourge of the tongue, or Shamdan Bey" written by N.Narimanov was involved in the analysis. The behavior of the characters in the work in the dramatic situation, the noticeable innovations revealed against the background of their reaction to events, the nuances that provide the tragicomic situation have been comprehensively investigated. At the end of the XIX century, the psychological state of society and its projection in the literature were clarified. The reasons that led the Shamdan Bey out of the boundaries of the comedy hero, as well as the reasons that made the play perceived as a tragicomedy, were separately indicated.
Keywords. Tragicomedy, Nariman Narimanov, dramaturgy, tragedy, comedy

Giriş / Introductıon

Antik düşüncədə insan fikir və duyğularının ədəbi sahədə ən aparıcı ifadə yollarından sayılan faciə və komediya janrlarının xüsusiyyətlərini özündə cəmləşdirən tragikomediya termin olaraq ilk dəfə b.e.ə III əsrdə Tit Plavt tərəfindən meydana çıxarılıb. Komik və tragik məzmunun qoşalığı qədim dövrlərdə ilk növbədə xalq oyunları, müxtəlif tamaşalarda özünü göstərirdi. Bu hər iki janrın ayrılıqda mərasim folkloru ilə bağlı olmasına görədir. Ədəbi proses inkişaf etdikcə faciə və komediyadan əlavə bu janrların müxtəlif özəlliklərini üzvi surətdə birləşdirən yeni janr- tragimokediyanın ərsəyə gəlməsi ədəbiyyatşünaslıqda bu məsələ ilə bağlı bir sıra problematik sualların yaranmasına səbəb oldu. Buna görə də dramatik meyarlara əsasən tragikomediyaya yanaşmalar müxtəlifdir. Sinkretik janr hesab olunan tragikomediyanın antik dövrdən sonra yenidən aktuallıq qazanması Avropada XVI- XVII əsrlərə təsadüf edir. Bu dönəmlərdə xüsusilə, Qərbi Avropada, yəni İngiltərə, Almaniya, Fransada aparıcı mövqeyə keçir. İlk nəzəriyyəçisi Janbattista Quarini olan bu "qarışıq" janrın köhnə qitədə ən

diqqətçəkən nümunələri Uilyam Şekspirin yaradıcılığında nəzərə çarpır. Azərbaycan ədəbiyyatında isə tragikomediyanın ilk nümunələri XIX əsrin sonunda meydana çıxır.

Əsas Hissə / Main Part

XIX əsrin sonlarında Azərbaycanda ictimai-siyasi sahədə olan dinamiklik fikir sahəsindəki axtarışları da tətikləyirdi. Bədii fikir istiqamətindəki bu canlanma maarifçilik fonunda cəmiyyətdə dəyişikliyə səbəb olmağa və inkişafa yönəlmişdi. Dramaturgiya bu cəhətdən xüsusilə fərqlənirdi. "İlk mərhələdə dramaturqu onun ədəbi janr kimi poetik xüsusiyyətlərindən daha çox cəmiyyətə göstərəcəyi tərbiyəvi təsir maraqlandırırdı" (Məmməd, 1999, s.52). Lakin bu təsir ənənəvi didaktik ədəbiyyatının üsullarından fərqli formada həyata keçirilirdi. Ədəbiyyatımızda yeni janrlar formalaşır, ədiblər öz düşüncələrini daha dinamik formada ifadə etmək imkanı qazanırdılar. Bu cəhətdən ədəbiyyatımız üçün ən səciyyəvi janrlar olan dram, faciə və komediya ilə birgə tragikomediya da özünəməxsus mövqeyi ilə seçilir. Hətta tragikomediyanın ədəbiyyatımıza gəliş tarixi faciədən daha əvvələ təssadüf edir. Əsrin sonlarındakı qütblərarası mübarizə, ictimai böhran tragikomediyaya da yol tapır. Müəyyən tədqiqatlarda komediya kimi göstərilsə də, fikrimizcə, Nəriman Nərimanovun 1895-ci ildə qələma aldığı "Dilin bəlası yaxud Şamdan bəy" əsəri ilk tragikomediyamız sayıla bilər. Sözügedən əsər komediyadan çox tragikomediyanın prinsiplərinə uyğun gəlir. Sadə dramatik xətt üzərində qurulan, eyni zamanda gərginliyin az olduğu süjet xəttinə malik bu əsərin ədəbiyyatşünaslığımızda ilk tragikomediya kimi qəbul edilməsini şərtləndirəcək bir sıra səbəblər mövcuddur. Tragikomediyaya mənsub olan önəmli xüsusiyyətlər bu əsərdə bariz şəkildə görünür. Əsərin geniş təhlilə cəlb olunması bu məqamların üzə çıxarılması üçün vacibdir. Remarkadan tutmuş, süjet xəttinə, kolliziyaya qədər sadə xətlə inkişaf edən bu tragikomediyanın baş qəhrəmanı Şamdan bəydir. Nərimanov məqsədli şəkildə əsərin sərlövhəsini onun adı ilə oxuculara təqdim edir. O, iddiaları, vədləri ilə əməli ziddiyyət təşkil edən mənfi obrazdır. Yusif isə müəllifin təqdim etdiyi kimi mədəniyyətli, oxumuş bir ziyalı gəncdir. Lakin bu ziyalılıq həmin dövrdə maddi cəhətdən praktiki bəhrə vermir. Buna köməkçisi Qulu da təəccüb edir; "Mənim Ağamın işlərinə təəccüb qalmalıdır. Bu vaxtadək qulluq edibdir, amma bir şeyi yoxdur" (Nərimanov, 2004, s.63). Şamdan bəyi qarşılamaq üçün lazım olan 5-6 manatı da xidmətçisi Quludan borc alması Yusifin timsalında dövrün ziyalılarının nə durumda olduğunu göstərir. Mədəniyyətə, yüksək dəyərlərə üstünlük verən Yusif dövrün "fürsətbaz"ları kimi gözünü insanların cibinə dikmir, onlara kələk gəlməyə çalışmır. Onu maraqlandıran ülvi məhəbbət və sədaqətli dostluqdur. Xədicə isə dövrün qızları kimi ixtiyarı özündə olmayan və saf məhəbbətlə Yusifi sevən gəncdir. Atası Hacı İbrahim üçün qızını evləndirəcəyi insanı seçməkdə əsas meyar var-dövlətli olmasıdır. Əsərdə tragikomik vəziyyəti yaradan cəhət cəmiyyət arasında olan və uzun illərdir davam edən şöhrətpərəstlik, cahillik və avamlıq halıdır. Nəriman Nərimanov yaradıclığının məşhur tədqiqatçısı Teymur Əhmədov bu vəziyyəti daha çox kapitalizmin gəlişi və burjua münasibətlərinin genişlənməsi arqumenti ilə izah edir. "N.Nərimanov Bakıya gəldiyi zaman yenicə dirçələn kapitalizm münasibətləri və əxlaqının çirkinlikləri ilə qarşılaşır. Pul, var-dövlət hərisliyinin insan mənəviyyatına mənfi təsiri dövrün qabaqcıl adamları kimi gənc dramaturqun da nəzərindən yayınmır" (Əhmədov, 2016, s.193). Həmin dövrdə iqtisadi səbələrdən kapitalizm Bakı həyatına geniş yol tapsa da, əsərdə təsvir olunan hadisələr ondan öncəki dövr üçün də xarakterikdir. Var-dövlət hərisliyi, həyatın mənasının yalnız maddi məhfumlarla izah olunması, elmə və mədəniyyətə ikinci dərəcəli anlayış kimi baxılması əvvəlki dövrlərdə də rast gəlinən problem olub. Bu baxımdan Yusif obrazı Şamdan bəyin antipodudur. "İnsan ancaq dövlətlə bəxt qazana bilməz. Xoşbəxt olmaq üçün mədəniyyət dəxi lazımdır ki, o da bizim müsəlmanda yoxdur" (Nərimanov, 2004, s.67). Bu fikir özü Yusiflə cəmiyyət arasındakı paradoksal münasibətləri açmağa imkan verir. Digər tərəfdən müsəlman dedikdə ilk növbədə Azərbaycan əhalisi nəzərdə tutulur. Millət anlayışının dini statusla təqdimi XIX əsrin sonu, XX əsrin əvvəllərində cəmiyyət arasında milli kimlik və dini mənsubiyyət anlayışlarının fərqləndirilməməsi ilə bağlıdır. Belə ifadələrə həmin dövrlərdə yazılan

nümunələrdə tez-tez rast gəlmək mümkündür. Onu da qeyd etmək vacibdir ki, mədəniyyət dedikdə müəllif Yusifin dili ilə elmi, ona marağı nəzərdə tutur. Kompleks yanaşdıqda Yusif obrazında tipik azərbaycanlı kimliyinin bəzi özəllikləri daha qabarıqdır. Qonaq üçün öz mənfəətlərindən, rahatlığından keçmək, onu ən yaxşı halda qarşılamağa çalışmaq azərbaycanlıya məxsus ən təməl özəlliklərdən biridir. Əsərin birinci məclisində Şamdan bəydən məktub alandan sonra təlaşlanaraq əl-ayağa düşməsi və keçirdiyi sevinc hissi onun nə qədər qonaqpərvər olduğunu sübut edir. "Hamısından yaxşı öz yorğan-döşəyimi ona verim, mən necə olsa dolanaram" (Nərimanov, 2004, s.62). Yusifin bu səxavətinə qarşılıq Şamdanın etdikləri oxucuda ona qarşı ikrah hissi doğurur. Gəlişindən bəri sözləri ilə əməli tərs mütənasib olan Şamdan özünü vəzifə baxımından ən yüksək insanlara tay tutur. Sultan bəy və Yusifin digər dostları ilə söhbət zamanı Tiflis hakimləri ilə görüşündən danışması, Hacı İbrahimgildə qonaq olarkən özünü Qubernatorun yaxını kimi qələmə verməsi, Peterburqdakı qraf Zamburskiyə teleqraf yazacağını vurğulaması və.s saxtakar xislətinin göstəricisi kimi nərəzə çarpır. "Sinkretik bir janr olaraq tragikomediyanın faciə janrından aldığı növbəti xüsusiyyətlərdən biri də buradakı ironiyanın obrazın mahiyyətindəki saxtakarlığı üzə çıxarmasıdır" (Bəkirqızı, 2024, s.98). Digər tərəfdən özü haqqında ziyalı imici formalaşdırmağa çalışan Şamdan yerli əhali barəsində "Tərcüman" qəzetindən məlumat aldığını, Şirvanda xeyriyyəçilik fəaliyyəti ilə məşğul olduğunu da deyir. Qonağın "müsbət" icraatlarla dolu bu qabarıq bioqrafiyası oxucuda istər-istəməz müəyyən şübhə yaradır. Növbəti hissələrdə bu şübhələrin əsassız olmadığı elə Şamdanın dili ilə sübut olunur. Hacı İbrahimə yalan danışaraq özünü var-dövlətli, yüksək instansiyalarda hörmət sahibi kimi göstərir və dostu Yusifə xəyanət edərək Xədicə ilə evlənmək üçün atasından razılıq alır. "Ah, nə axmaq fikirlərdi başıma gəlir? Mənə guya biri deyir ki, yoldaşa xəyanət eləmə. Bunda nə xəyanətlik var, Hacı İbrahim qızını Yusifə vermək istəmir, mənə verir" (Nərimanov, 2004, s.84). Xədicənin atasının onun Yusiflə evlənməsinə ilk vaxtlarda süni səbəblərdən qarşı çıxması XIX əsrdə ziyalı, fərd və cəmiyyət arasındakı ziddiyyətlərin göstəricisidir. Maddi duruma və statusa görə Şamdan bəy daha önə çıxır. Onu ön cərgəyə alan cəmiyyət daxilən çürüməkdədir. Mənəviyyat anlayışı maddiyyatla müqayisədə arxa planda qalır. Xədicənin də bu səbəbdən bir əşya kimi başqasına verilməsi müzakirə olunur. Şamdan obrazının qəhrəmana çevrilməsi əslində, cəmiyyətin faciəsidir. Əsərdə qəhrəmanlar iradə zəifliklərı ilə seçilirlər. İstər Yusif, istərsə də, Xədicə idealları və arzuları uğrunda mübarizə aparmağa can atsalar da bu mübarizə yüksək səviyyədə ciddiliyi ilə nəzərə çarpmır. Hər iki qəhrəman tez-tez alternativ yol kimi ölümü dilə gətirir. Bu nüans o qədər bariz formada görünür ki, hətta dramatik olmayan situasiyalarda belə obrazların dilində meydana çıxır: "Görükür, səndə xəbər çoxdur. İndi de görüm ki, nə var? Yoxsa, and olsun bu məhəbbətimə özümü burada həlak edərəm" (Nərimanov, 2004, s.72). Buna baxmayaraq Xədicə Yusifdən daha dərin hisslər yaşayır və bunu büruzə verir. Onun emosiyaları daha aydın görünür. Yusif isə sanki problemlərin həllində daha təmkinli davranmağa çalışır. Lakin bu təmkinlilik gedişat kulminasiya nöqtəsinə yaxınlaşdıqca daha da azalmağa başlayır. Hadisələrin gətirdiyi təbii həyəcan artır, amma bu da əsərdə gərginliyin Yusif tərəfindən həll edilməsinə gətirib çıxarmır. Şamdan bəyin məhz Xədicənin dayısı Niyaz bəy tərəfindən ifşa olunması da əsərin nə qədər yüngül dramatiklik üzərində qurulduğunun göstəricisidir. Hesab edirik ki, bu bir tərəfdən də ilk tragikomediya olması ilə bağlıdır və növünün digər nümunələri kimi çoxşaxəli süjet üzərində qurulmayıb. Bununla belə əsərin qəhrəmanı Şamdan bəyi məhz komediya obrazı saya bilmərik. Onun xüsusiyyətləri heç də komediya qəhrəmanının özəllikləri ilə örtüşmür. "...bu əsərdə müsbət qəhrəmanlar əksəriyyəti təşkil edir, hadisələrə istiqamət verir və qələbə qazanırlar. Halbuki bu cəhət ənənəvi komediya üçün xas və xarakterik deyil" (Mir Cəlal, Hüseynov, 1982, s.153). Əsər boyu komiklikdən tragikliyə və əksinə keçidlərin baş verməsi də özlüyündə bu əsərin daha çox tragikomediyanın prinsiplərinə uyduğunun göstəricisidir. Sonda Şamdan bəyin ölməsi də bunun bariz sübutudur.

Nəticə / Conclusion

1895-ci ildə Nəriman Nərimanov tərəfindən yazıya alınan və uzun illər sırf komediya kimi tədqiq olunan "Dilin bəlası, yaxud Şamdan bəy" əsəri daha çox tragikomediyanın qəliblərinə uyğun gəlir. Buna səbəb əsərdə tragiklik və komiklik arasında gedib gələn situasiya, baş obraz Şamdan bəyin iddiaları ilə əməllərinin ziddiyyəti, yekunda hərəkətlərinə qarşılıq dəli olaraq ölməsi pyesi komediya sərhədlərindən kənarlaşdırır. Bütün bunlar əsəri tragikomediya olaraq qiymətləndirməyə əsas verir.

Ədəbiyyat / References

1. Bəkirqızı (İsayeva), P. (2024). Tragikomediyanın janr xüsusiyyətləri, təsnifatı və Azərbaycan ədəbiyyatında inkişaf mərhələləri. Poetika.izm. N1. Səh 91-106
2. Əhmədov, T. (2016). «Nəriman Nərimanov (Həyatı, mühiti və ədəbi-bədii yaradıcılığı)». Nurlar.
3. Mir Cəlal, Hüseynov, F. (1982). XX əsr Azərbaycan ədəbiyyatı. Ali məktəblər üçün dərslik. Maarif.
4. Məmməd , T. (1999). XX əsr Azərbaycan dramaturgiyasının poetikası. Elm.
5. Nərimanov, N. (2004). Seçilmiş əsərləri. C.1. Öndər.

PANJA WEAVİNG: A CRAFT OF RAJASTHAN INDİA

Madan Lal Regar
Department of Fashion Design, National Institute of Fashion Technology Jodhpur, Rajasthan India 342037

Abstract
Rajasthan is one of the most spectacular grand places in the world that never fails to enchant with its rich heritage, remarkable architecture of its majestic forts, mystic havelis, grand palaces and intricately carved temples. Retaining a quaint charm in spite of its sterile land the state of Rajasthan is frequently described as 'colourful' or 'vibrant' especially for their vivid costumes which invigorate the harsh desert landscape of Thar desert and relieve the monotony of the sand, rock and scrubby trees. The state's textiles illustrate an amalgamation of centuries of fabric exploration and handicraft skills. These textiles such as panja duri weaving, bandhini, leheriya, bagru, sanganeri, kota doria, block print, applique work etc. Are made with incredible precision, are the result of an oral tradition that has passed down generations, and been honed with finesse and purpose.
Panja handloom weaving is practised at almost 11 places all over India. Salawas, rajasthan is one of them. The name Panja came from the comb used to beat the warp while weaving. Panja weaving, a hand weaves process, is carried out in Salawas village in Rajasthan close to Jodhpur, a "Durry Weaving Village." "Panja" is both the process of weaving and the comb-like tool used by artisans to press the weft yarns firmly in place called beating up motion. Panja handloom weaving's main product is carpet/durries, flat-woven rugs that are renowned for their endurance and asthetic look. In conventional camel wool, and cotton is used to produce the carpets, usually with geometric, tribal, or bold motifs. The motifs are all hand-executed, without any mechanical tools and graph paper, and are a reflection of the artisan's skill and his eye for memory. Because of their weight and reversibility, the durries made by this process can be used in different living areas.
The craft is very important to the Salawas artisan community both culturally and economically as it provides livelihood and keeps an ancient tradition alive. Salawas panja durries have achieved national and international recognition, being displayed regularly in exhibitions and being exported to other countries, and hence playing an important role in the promotion of Rajasthan's rich craft heritage. New products like table covers, bags, etc. Can also be seen, but not on that big scale.
An attempt has been made to explore the production process of Panja weaving, further the product of Panja weaving such as Durries, rugs, covers, bags, carpets etc. Will also be discussed. The study further give emphasis on current situation of this craft.
Keywords: Panja, Weaving, Art, Craft, Carpet, Heavy Fabric,

ARTİSTİC-PHİLOSOPHİCAL UNDERSTANDİNG AND POETİCAL İNTERPRETATİON OF THE İMAGES OF THE POET, CİTİZEN AND HOMELAND İN THE WORK OF B.VAHABZADE

B.VAHABZADƏ YARADICILIĞINDA ŞAİR, VƏTƏNDAŞ VƏ VƏTƏN OBRAZLARININ BƏDİİ-FƏLSƏFİ DƏRKİ VƏ POETİK ŞƏRHİ

Babayev Yaqub Məhərrəm oğlu
Filologiya elmləri doktoru, professor, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan
ORCİD: https://orcid.org/0000-0002-4738-9426

Xülasə
Məqalədə görkəmli Azərbaycan şairi Bəxtiyar Vahabzadənin poeziyasında xalqsevərlik, vətənpərvərlik ideya və ideallarının, həmçinin şairin sənənkar, vətəndaş vəvətən barədə duyğu, baxış, arzu və istəklərinin bədii-estetik təcəssümündən söhbət açılır. Bu münasibətlərin bədii-fəlsəfi dərki və əsas mahiyyəti təhlil obyektinə çevrilir. Məqalədə sənətkarın bölünmüş vətənin dərdləri və bütöv vətən idealına da diqqət yetirilir. Təhlil zamanı sənətkarın poeziyasından konkret nümunələrə istinad edilir. Göstərilir ki, biz B.Vahabzadənin ideya və ideallarını öyrənməli və gənc nəslə öyrətməliyik. Çünki gənc nəslin tərbiyəsində B.Vahabzadə yaradıcılığının əhəmiyyətli rolu vardır.
Açar sözlər: Bəxtiyar Vahabzadə, poeziya, Azərbaycan ədəbiyyatı, xalqsevərlik, vətənpərvərlik, milli istiqlal, milli ideal

Resume
The article discusses the artistic and aesthetic embodiment of the ideas and ideals of patriotism and patriotism in the poetry of the prominent Azerbaijani poet Bakhtiyar Vahabzadeh, as well as the poet's feelings, views, desires and aspirations for national independence. The mutual relations between the images of the poet, citizen and homeland are commented on. The artistic and philosophical understanding and main essence of these relations become the object of analysis. The article also pays attention to the artist's troubles of a divided homeland and the ideal of a unified homeland. During the analysis, specific examples from the artist's poetry are referred to. It is shown that we should study the ideas and ideals of B. Vahabzadeh and teach them to the younger generation. Because B. Vahabzadeh's creativity has a significant role in the upbringing of the younger generation.
Key words: Bakhtiyar Vahabzadeh, poetry, Azerbaijani literature, patriotism, patriotism, national independence, national ideal

Giriş

B.Vahabzadənin bütöv yaradıcılığını, məslək, amal və əməlini diqqətlə izlədikdə onun şairin öz sözləri ilə desək, bir "Vətən Məcnunu, el aşiqi, sülh əsgəri" olduğunu aydın şəkildə görə bilirik. Həm də sənətkarın vətən sevgisi, el aşiqliyi, barış əsgəri olmaq istəyi davamlı, bitkin, miqyaslı səciyyə daşıyır. Zikr olunan hiss, duyğu və mənəvi-əxlaqi baxışlar sisteminin əsas hesab edilən bütün rənglərini, çalarlarını, parametrlərini əhatə edir. "Vətən nədir və nəyə lazımdır?" – sualının ictimai, bədii-fəlsəfi, mənəvi-əxlaqi bəyanı və şərhi ilə başlayıb "Vətən övladının vətən və xalq qarşısındakı vəzifələri, missiyası, borcu nədir?" sualına verilən dolğun, sərrast, dəqiq poetik təfsir və təlqinlə davam edir, vətən və millət yolunda şəhidliyin ən ali, müqəddəs, şərəfli bir nemət olduğu barədə qənaətlə yekunlaşır. "Vətən marşı", "Azərbaycan", "Ana yurdum", "İki mühacir" və s. Şeirlərində sənətkar "Vətən nədir və vətəndaş ona necə münasibət göstərməlidir?" –sullarının cavabını poetik fikrin predmetinə çevirir.

Şair və vətən

"Vətən marşı" ədəbiyyatımızda vətən barədə qələmə alınmış ən mükəmməl marşlardan biridir. Əslində bu, bir vətən himnidir. Həmin poetik nümunə mövzu, məzmun, ideya, məna baxımından Abbas Səhhətin məşhur "Vətən" şeiri ilə səsləşir və B. Vahabzadə bu şeirlə sələfinin yolunu, ideya axarını ləyaqətlə davam etdirmiş, eyni zamanda həmin ideyaya müasir çalarlar, yeni rənglər əlavə etmişdir. Şeirdə milli müstəqilliyimizin, dövlətçiliyimizin və milli namusumuzun rəmzi olan üçrəngli bayrağımızla, həmçinin türkçülüklə, hürriyyət idealı ilə, milli dərdləri bəşəri dərdlərlə birləşdirə bilmək arzusuyla bağlı verilən notlar xələfin uğurlu əlavələridir. "Vətən marşı" məna-məzmun baxımından tutumlu, dolğun olduğu kimi bədii ifadə tərzi, intonasiya cəhətdən də ləngərli, axarlıdır. Doğma yurdun dəyərini, vətən və el sevgisinin gərəkliliyini, zərurətini inandırıcı həyati detallar, xatırlamalar və ştrixlərlə oxucuya çatdırır:

Ey vətən oğlu, düşün, bil ki, sənindir bu Vətən,
Sabahın, həm bu günün, həm dünənindir bu Vətən.
Sənin öz dövlətin, öz millətin, öz cəddin var,
Vətən uğrunda ölənlər ölümündən doğular.
Biz Vətən Məcnunu, el aşiqi, sülh əsgəriyik,
Biz vətən naminə ölsək, dirilərdən diriyik.
Mənim öz ulduzumu bağrına basmış hilalım,
Dedi öndər: "Yönu bayraqdakı üç rəngdən alım". (8, 162)

Şeirdə vətən övladlarını istiqlala, hürriyyətə səsləyən, onlara öz milli-etnik mənşəyini, kimliyini xatırladan müəllif vətən uğrunda canını verənlərin ölümü öldürüb əbədiyyətə qovuşduqlarını, ölümləri ilə yenidən doğulduqlarını da vurğulayır.

B.Vahabzadənin "Azərbaycan" şeiri Əhməd Cavadın, Səməd Vurğunun eyni adlı şeirləri ilə bir səviyyədə dayana bilən gözəl bir vətənnamədir. İlk baxışda müəllifin dilindən deyilən bu poetik örnəkdə Azərbaycanla əlaqədar deyilən fikirlər, mətləblər, bəyanlar, tərifl ər, epitetlər əslində hər bir həqiqi, namuslu Azərbaycan vətəndaşına aid edilə bilər. Bu mənada şeir daha ümumiləşmiş səciyyəyə malikdir. Hər bir namuslu, ləyaqətli Azərbaycan vətəndaşının nitqi və istəyidir. Həmin nitqin və istəyin əsas notları belədir:

Azərbaycan, –
Mənim eşqim,
mənim andım, mənim anam!
Biz ikimiz bir torpağıq,
Mən də sənin bir parçanam,
Ey qüdrətim, ey şöhrətim,
Sənsiz mənim nə qiymətim?
Torpağından qüvvət alıb yarandım mən.
Xəyalımın əvvəli sən, sonu sənsən! (3, 21)

Bu bədii-fəlsəfi bəyanat həm də vətəndaşın düşüncəsi, doğma yurdu, onun əzəmətini və nəyə gərək olduğunu dərk etmə göstəricisidir. Bu vətəndaş anlayır ki, o, ancaq öz doğma torpağının nəşvünüması ilə boy atıb güc qazana bilər. Onun şöhrəti də, yaşamaq və ucalmaq bacarığı da, sevinci də, səadəti də, cismi, qanı və sümüyü də, həyatının mənası da bu torpağa bağlıdır. Onu alnı açıq yaşadan, nifrətini qurğuşun edib düşmənin sinəsinə atılan mərmiyə çevirən, alovların içindən keçməsinə cəsarət verən, bir əlində mübarizə üçün qılınc, bir əlində nəşə verən saz tutmağa məcbur və təhrik edən də Azərbaycan adlı vətən torpağıdır. Belə bir yurdu sevməmək olarmı?

Beşlik formasında heca vəznində qələmə alınmış "Ana yurdum" şeirində şair vətəninə ayıq, fəhmli bir vətəndaş gözü ilə baxır. Vətənin təbiət hadisə və gözəlliklərindən tutmuş insanlarına və onların yaratdıqlarına qədər hər şeyində –anaların laylasında, babaların tarlasında, bərəkətli torpaqlarında, elin toyunda və yasında, qəmində və kədərində, adət-ənənələrində, dahilərin yaratdıqları qənirsiz sənət və mədəniyyət abidələrində, doğma yurdun bağındakı çiçəklərdə, dağındakı qarlarda, palıdlarındakı vüqarda, onun əlvan fəsillərində, saf çeşmələrində, axar sularında, əzəmətli dağlarında ana yurdun sevgiyə layiq füsunkarlığını görür, vətənin nəşəsini duyur, qoxusunu alır, rayihəsini hiss edir. Bu sevgini, nəşəni təşnə bir həvəslə udum-udum içir. Torpağı, təbiəti, insanları, hər çeşid gözəllikləri ilə könül oxşayan vətən torpağı haqlı və təbii olaraq ülviyyət haləsinə bürünür. Nəticədə şairin (əsl vətəndaşın!) and, etiqad yerinə çevrilir:

Anaların laylasından,
Babaların tarlasından,
El toyundan, el yasından
Səni içdim udum-udum,
Ana yurdum, ana yurdum.
...Füzulinin "ah" səsində,
Üzeyirin nəğməsində,
Ələsgərin ləhcəsində
Səni andım, ana yurdum,
Mənim andım, ana yurdum. (8, 407)

Bəxtiyar poeziyasının idrak və inam fəlsəfəsində zaman təqvimə sığmadığı kimi vətən də coğrafi sərhədlərlə cızılan konkret məkana sığmır. Onun miqyası, hüdudları daha geniş coğrafiya ilə bağlı olur. Başqa sözlə, qəlbi Azərbaycan eşqi, vətən sevdası ilə yaşayan hər bir azərbaycanlının yaşadığı yer, dünyanın hansı məkanından asılı olmayaraq, vətəndir. Çünki o məkanda Azərbaycanı sevən, ona könül bağı ilə bağlı olan bir insan-vətəndaş yaşayır. Belə insanlar müəyyən səbəblərdən cismən uzaqda yaşasalar da, mühacir adlansalar da, ruhən, mənən vətən övladlarıdırlar. Ancaq bunun əksi də mövcuddur: Vətənində yaşayıb əslində mənən, ruhən vətəninə yad olan "vətəndaşlar" da vardır. Əslində onlar mənəvi mühacirlərdir. Cisimləri vətəndə xəyalları, ruhları kənardadır. Haqqında danışdığımız bu ağrılı-acılı mətləbi müəllif "İki mühacir" şeirində bədii-fəlsəfi fikrin hədəfinə çevirir. Sənətkar şeirinə V.Q.Be-linskinin "İki mühacir"in ideyası ilə bilavasitə bağlı olan belə bir sözünü də epiqraf kimi verir: "Öz vətəninə mənsub olmayan şəxs insanlığa da mənsub deyildir".
"Əsl vətəndaş kimdir?" – sualına cavab axtarışında müəllif "İki mühacir" şeirindəki ictimai-fəlsəfi qənaətini bir nəticə kimi ortalığa qoyur və oxucuya təlqin edir. Şeirdə müəllif iki cür vətəndaş obrazı təsvir edir: Birincisi, özü qürbətdə yaşayıb xəyalı, fikri, qəlbi daim vətən eşqi ilə döyünən, qürbətin acılı, nisgilli həyatına məhkum və dözməli olan cismani mühacir vətəndaş; İkincisi, cismən vətəndə yaşayıb qəlbən, fikrən vətənə, xalqa ögey olan mənəvi cəhətdən mühacir vətəndaş. Bu iki mühacir tipini müqayisə edən şair birinciləri belə təqdim edir:

Vətənçin burnunun ucu göynəyən
Adamlar görmüşəm nə qədər desən.
Bu vətən nisgilli mühacirlərin,
Acı taleyinə acımışam mən.
Bəzən aşkar-aşkar, bəzən gizlicə...
Vətənə uçurlar onlar hər gecə.(8, 263)

Şairin fikrincə bu cür əqidəli, məsləkli, milli dəyərlərə bağlı cismani mühacirlər də vətəndə yaşayan həqiqi, dəyanətli vətəndaşlar kimi əcdadımızın torpağa işləyən türbə qəbirlərini köklərimiz hesab

edən, qan-gen yaddaşını yaşadan insanlar, mühacir vətəndaşlardırlar. Bunlar vətənin qürbətdəki cəvahirləridirlər. İkincilər, yəni cismən vətəndə ömür sürüb ruhu kənarda fayda, qazanc axtaran mənəvi mühacirlər isə hər şeydə mənfəət güdən tacirlərə bənzəyirlər. Onlar əqidəcə sönük, məsləkcə dönük, tarixinə, söykökünə yad, milli qiyafətli ögeylər, özgələrdirlər. Və belələrini şair bu cür qəzəbli, nifrətamiz xasiyyətnamə ilə səciyyələndirir:

O, elin içində elinə özgə,
Tarixinə özgə, dilinə özgə,
Havasına özgə, suyuna özgə,
Əcdaddan baş olan soyuna özgə,
Doğma ocağına , közünə özgə,
Özü də bilmədən özünə özgə,
özgəyə doğma,
Vətəndən savayı hər şeyə doğma. (8, 264)

Bəxtiyar Vahabzadənin şair-vətəndaş şəxsiyyətinin vətənə münasibətini səciyyələndirən tənqidçi Yaşar Qarayev belə bir doğru qənaətə gəlir: "Şair üçün müqəddəs olan hər şey məhz "ana Azərbaycanın" yaddaşında əbədiləşir və qorunur. Çünki bu "yaddaş" keçici və ötəri yox, həqiqi və milli olan əbədi ruhu, mənəvi fərdiliyi və müstəqilliyi yaşadır. Odur ki, şair gələcəyi də , keçmişi də məhz xalqın "hafizəsində" oxuyur, yoxlayıb, sınayıb qiymətləndirir...Onun üçün yalnız eyni, vahid, yekparə varlıq – müqəddəs, əbədi Azərbaycan vardır. Azərbaycan burada məhz tarix və proses kimi, həm mənşə, həm də gələcək kimi, beşik, ocaq, yuva və ana kimi tərənnüm olunur. Belə bir Vətən rəmzi xalqın mənəvi tamlığını və böyüklüyünü daha dərindən duymaqda, dünyaya tanıtmaqda şairə kömək edir". (5, 8-9)

Vətəndaş və vətən

B.Vahabzadənin "vətəndaş və vətən" (geniş mənada) konsepsiyasının ictimai-fəlsəfi kodları sənətkarın "şair və vətən" (dar mənada B.Vahabzadə və vətən) konsepsi-yasının şəxsi düşüncə, fərdi münasibət kodları ilə həmahənglik təşkil edir və uzlaşır. Əslində "vətəndaş və vətən" qavramı "şair və vətən" qavramının davamı, uzantısı kimi nəzərə gəlir. Müəllif yaradıcı bir fərd kimi vətənə münasibətdə özündə görmək istədiklərini başqa vətən övladlarında da görmək istəyir. Vətənpərvərlik, millətsevərlik tərbiyəsi barədə müdərrislik təlim və təşviqlərini də deyilən bu ahəngə tabe tutur. Şairin bu axardakı ideya, istək və baxışlarını onun "Azərbaycan oğluyam", "Ad günü", "Şair və vətən", "Sevdim, bildim ki...", "Babamın koması", "Başqasının yasında", "Əsgər kimi", "Beşik", "İlk andım – Vətənimdir" və s. Şeirlərində aydın şəkildə görə bilərik. Həmin poetik örnəklərin məzmun və qayəsi ilk baxışda fərqli görünsə də, onların mövzu-ideya siqlətinin əsas axarı eyni məcraya yönəlir.

"Azərbaycan oğluyam" şeiri ilk baxışda müəllifin dilindən deyilən etnotarixi mənsubiyyət və kimlik, sürəkli zaman içərisində yaşayış və tale barədə monoloq təsiri bağışlasa da, buradakı fərdi şair "mən"i həm də müəlliflə həmfikir, həməqidə olan, zikr edilən məsələdə onun idrakı qənaətlərinə şərik çıxan, eyni milli-etnik mənsubiyyəti daşıyan, eyni torpağın övladı statusuna malik Azərbaycan vətəndaşıdır. Bütövlükdə genetik kimliyini, tarixi yaddaşını, hansı xalqın və torpağın övladı olduğunu dərk edən azərbaycanlılardır. Şeirin ahəngi, ritorikası, məzmunu Azərbaycan oğlunun əski inancını, oda və həqiqətə, comərdliyə, qürura, vüqara bağlı keçmişini, od kimi isiqanlı, sel tək dəliqanlı təbiətini, tarixin sınaqlarından üzüağ çıxmış cəngavər ruhunu və xarakterini təntənəli bir pafosla tərənnüm edir. Onun kökə, keçmişə bağlılığının şərəfli notlarını nəzərə çatdırdığı kimi sabaha, gələcəyə inamının parlaq işığını da yada salır. Sərbəst vəzndə yazılan "Azərbaycan oğlu" şeirinin ahəngində, intonasiyasında, dil-üslub axarında əsərin ideya-məzmun şuxluğundan, nikbinliyindən doğan bir tribunluq, hökm-fərmalıq, ritorik pafos, poetik gurultu vardır. Məsələn:

Azərbaycan oğluyam,
Odu Allah sanmışam,
Anam torpaq,
Atam od,
Mən oddan yaranmışam.
Od kimi istiqanlı,
Sel tək dəliqanlıyam.
Həyat qədər qədiməm,
Torpaq qədər şanlıyam.
Od kimi yandıranam,
Su kimi söndürənəm.
Məni yandırsalar da,
Suda batırsalar da,
Yenə mənəm, mən mənəm!
Köküm üstə bitmişəm.
Şöhrətim var, şanım var.
Mənim gələcəklə də
Öz əhdi-peymanım var. (8, 47)

Sənətkar şeirdə onu da qürurla xüsusi olaraq vurğulayır ki, Azərbaycan xalqı bütün varlığı boyunca böyük türk dünyasının bir parçası kimi tarixin köləsi yox, sahibi olmuşdur. Əqidəsini, məsləkini rəngini dəyişdirməyən vətən torpağı hesab edən şair oğlu Azərə müraciətlə qələmə aldığı "Ad günü" şeirində oğlunun timsalında vətənin gələcəyi olan bütün Azərbaycan balalarına xitabən nəsihət edir ki, "Sən elə yaşa ki, anamız Vətən, Sənə öz adını halal eyləsin" (2, 31). Müəllifin əqidəsinə, inancına görə Vətən şərəfsiz ömür yaşayanları sevməz. Hər bir əqidəli, məsləkli şair (vətəndaş) isə vətəni sevməklə mükəlləfdir və bu, onun həyatda ilk borcu, vəzifəsidir. Həm də ölçüsüz, hüdudsuz bir məhəbbətlə. Çünki məhəbbətdə ölçü, qayda-qanun yoxdur:
Vətəni sevməkdir, Vətəni sevmək,
Şairin ən böyük vəzifəsi də. (8, 59)
Vətən Bəxtiyar adını daşıyan bir insanın – şairin qibləsidir. Onun cismini də, ruhunu da, nəşəsini də, kədərini də, qeyrətini də, qürurunu da, şöhrətini də, məhəbbətini də, nifrətini də qidalandıran, ona boy verən vətən torpağıdır. Belə bir vətən yolunda fədakarlığa, ölümə dəyər. Şairin "Sevdim, bildim ki..." şeirinin əsas ideya istiqaməti belə bir mətləbin ifadəsinə yönəlir. Həmin vətən isə sənətkarın "Babamın koması" şeirində dediyi kimi babasının komasından, kiçik bir evdən, məkandan başlayıb bütöv Azərbaycan diyarına qədər uzanır və böyüyür. Müəllifin yurd sevgisi, torpaq istəyi, onun insanlarına məhəbbəti ona o qədər doğma və məhrəmdir ki, o, özgəsinin yasında da başqasını bəhanə edib öz vətəninin, millətinin ölüsünə, qəminə ağlayır. Yəni şair qəlbində əbədi bir vətən sevgis gəzdirir. Bu sevgi onun könül dünyasından başlayıb boy atır, şaxələnir, nəşvü-nüma tapır. "Başqasının yasında" şeirində müəllif deyilən mətləbi kifayət qədər dolğun şəkildə bədii sözün predmetinə çevirir:
Millətimin dərdini ünvanlayıb özgəyə,
Başqasının yasında öz ölümə ağladım. (8, 292)
Bir sözlə, şairin əxlaq fəlsəfənində vətən namusu və milli kökə bağlılıq bütün mənəvi-əxlaqi və insani dəyərlərdən öndə gəlir. "Beşik" şeirindən danışarkan beşiyin rəmzi-fəlsəfi yükünü tarixi yaddaşa, əcdada, əsil-nəcabata, milli keçmişə, adət-ənənəyə, doğma yurda bağlılıq simvolu kimi dəyərləndirən Yaşar Qarayev və Şamil Salmanov bu cür məntiqli fikir söyləyirlər: "B.Vahabzadənin lirikasında vətəndaşlıq eyni zamanda kökə, ocağa, beşiyə bağlılıq duyğusudur, şəxsiyyətin öz mənəvi əslindən ayrılmazlığıdır. Şair oxucusuna ilkinliyə məhəbbət və ehtiram hissi aşılayır; göstərir ki, əcdadlarımız,

sələflərimiz ona görə yüksəliblər ki, ocaqdan, kökdən ayrılmayıblar, çıxdıqları beşiyə arxa çevirməyiblər" (1, 70).

Nəticə

II Qarabağ müharibəsində Azərbaycan xalqı tarixi bir qələbə qazandı. Müzəffər Azərbaycan ordusu ermənilər tərəfindən ələ keçirilmiş torpaqlarımızı işğaldan azad edərək qələbə qazandı və adını tarixin şanlı səhifələrinə həkk etdi. Bu zəfər savaşında xalqımız və ordumuz böyük hünər, birlik, ruh yüksəkliyi, vətənpərvərlik, yurdsevərlik, cəsarət, istiqlaliyyət aşiqliyi nümayiş etdirdi. Bu zaman Bəxtiyar Vahabzadə cismən həyatda yox idi. Ancaq onun əsərləri və ruhu bu savaşın və qələbənin bilavasitə iştirakçısı idi. Belə ki, son onilliklərdə xalqımızın və ordumuzda döyüşən əsgərlərin sadaladığımız ruhda tərbiyəsində, yetkinləşməsində şairin əsərlərinin və əməllərinin danılmaz rolu olmuşdu. Onu da əlavə edək ki, vətənpərvər sənətkarımızın bilavasitə Qarabağ mövzusunda qələmə aldığı dəyərli və təsirli şeirləri də vardır. "Oxuma bülbül", "Yurd yad əlində", "Utanıram", "Şəhid anası", "Unutqanlıq" və s. Poeziya nümunələri bu qəbildəndir. Bu şeirlərdə vətən oğullarını yağı tapdağına çevrilmiş torpaqlarımızı işğaldan azad etməyə çağırış, haray, qışqırıq və sirayətedici tərbiyəvi ruh vardır. Qələbəmizin ruhi-mənvi stimulunu təşkil edən məhz bu cür tərbiyə, çağırış və nidalardır.

Ədəbiyyat

1. Qarayev Yaşar, Salmanov Şamil. Poeziyanın kamilliyi. Bakı, Yazıçı, 1985
2. Vahabzadə Bəxtiyar. İnsan və zaman. Bakı, Azərnəşr, 1964
3. Vahabzadə Bəxtiyar. Dan yeri. Bakı, Gənclik, 1973
4. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, Azərnəşr, 1974
5. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, Azərnəşr, 1975
6. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, Öndər nəşriyyatı, 2004
7. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. II cild. Bakı, Öndər nəşriyyatı, 2004
8. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. Bakı, Çaşıoğlu, 200

BAKHTİYAR VAHABZADEH'S CREATİVİTY AS A SOURCE OF DEVELOPİNG STUDENTS' SPEAKİNG SKİLLS

BƏXTİYAR VAHABZADƏ YARADICILIĞI – ŞAGİRDLƏRDƏ NİTQ BACARIQLARININ İNKİŞAF MƏNBƏYİ KİMİ

Rahilə Məmmədova
Mingəçevir Dövlət Universiteti

Xülasə
Məqalənin məqsədi Bəxtiyar Vahabzadənin yaradıcılığının şagirdlərin nitq bacarıqlarının inkişafında rolunu araşdırmaqdır. Burada şairin əsərlərinin dil zənginliyi, bədii ifadə vasitələri və milli-mənəvi mövzuları şagirdlərin söz ehtiyatını artırmaq, fikirlərini aydın və ifadəli söyləmək bacarıqlarını formalaşdırmaq üçün necə istifadə oluna biləcəyi müzakirə olunur.
Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi kimi, milli dəyərləri və vətənpərvərliyi poetik şəkildə təqdim edir. Onun şeirlərindəki obrazlı və emosional dil şagirdlərdə nitq mədəniyyətinin yüksəlməsinə, bədii təfəkkürün inkişafına xidmət edir.
Ədəbiyyat dərslərində Vahabzadənin əsərlərindən istifadə şagirdlərin yazılı və şifahi nitqini inkişaf etdirməyə kömək edir, onların düşüncə tərzini və dil bacarıqlarını zənginləşdirir. Şairin şeirlərində işlədilən bədii təsvir vasitələri, obrazlı ifadələr və emosional zənginlik şagirdlərin söz ehtiyatının artmasına, fikirlərini səlis və düzgün ifadə etmələrinə kömək edir. Bəxtiyar Vahabzadə yaradıcılığı şagirdlərdə bədii dil duyumunu formalaşdırır, nitq mədəniyyətini inkişaf etdirir və onların yaradıcı təfəkküründü gücləndirir. Eyni zamanda şairin milli-mənəvi mövzuları ifadə tərzi gənclərdə həm vətəndaşlıq mövqeyinin, həm də dilə hörmətin yaranmasına səbəb olur.
Onun yaradıcılığı təkcə ideya baxımından deyil, həm də dil və nitq bacarıqlarının inkişafı üçün zəngin bir qaynaqdır.
Nəticə etibarilə, Bəxtiyar Vahabzadənin poeziyası məktəblilərin nitq inkişafı üçün güclü vasitə olmaqla yanaşı, onların mənəvi dünyasının zənginləşməsində də mühüm rol oynayır.
Açar sözlər: Bəxtiyar Vahabzadə, nitq bacarıqları, yazılı və şifahi nitq

Abstract
The aim of the article is to investigate the role of Bakhtiyar Vahabzadeh`s work in the development of students` speech skills. Here, the richness of the language, means of artistic expression, and national-spiritual themes of the poet`s works are discussed, how they can be used to increase students` vocabulary, form their ability to express their thoughts clearly and expressively.
As a prominent representative of Azerbaijani literature, Bakhtiyar Vahabzadeh poetically presents national values and patriotism. The figurative and emotional language in his poems serves to enhance students' speech culture and develop artistic thinking.
The use of Vahabzadeh`s works in literature lessons helps to develop students' written and oral speech, enriches their thinking and language skills. The means of artistic description, figurative expressions and emotional richness used in the poet's poems help students increase their vocabulary, express their thoughts fluently and correctly. Bakhtiyar Vahabzadeh`s creativity forms a sense of artistic language in students, develops speech culture and strengthens their creative thinking. At the same time, the poet's way of expressing national and spiritual themes leads to the formation of both a civic position and respect for language in young people.
His creativity is a rich source not only in terms of ideas, but also for the development of language and speech skills.

As a result, Bakhtiyar Vahabzadeh`s poetry is not only a powerful tool for the development of speech of schoolchildren, but also plays an important role in enriching their spiritual world.

Keywords: Bakhtiyar Vahabzadeh, speech skills, written and oral speech

A BROAD CREATIVE PATH THAT BEGINS WITH SCHOOL POEMS

MƏKTƏB ŞEİRLƏRİNDƏN BAŞLANAN GENİŞ YARADICILIQ YOLU

Rahilə İldırım qızı Quliyeva

Bakı Dövlət Universiteti, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrası, dosent

Xülasə

Bəxtiyar Vahabzadənin yaradıcılığı geniş diapazona malikdir. Həyat hadisələrini özünəməxsus poetik dillə əks etdirən şair sanballı əsərləri ilə bütün dünyada geniş oxucu kütləsinin qəlbinə yol tapmış, oxucularını daim düşündürməyi bacarmışdır. Dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatov yazmışdır ki, B.Vahabzadə özünün möhtəşəm poeziya məbədini ucaltmışdır. Oxucu bu məbədi tez-tez ziyarət etməlidir.

B.Vahabzadənin yaradıcılığı geniş və zəngindir. Ç.Aytmatovun təbirincə desək, B.Vahabzadənin poetik təfəkkür mədəniyyəti təbiətcə millidir. Bu, müstəsna dərəcədə zəruri haldır. Bununla yanaşı, onun poetik təfəkkür mədəniyyəti daha üstün mahiyyət kəsb edir, millilikdən ümumbəşəri səviyyəyə qalxır. Milli və beynəlmiləl münasibətlər problemi öz mütərəqqiliyini bir daha B.Vahabzadə yaradıcılığında tapır.

Şair ilk şeirlərini II Dünya müharibəsinin qaynar dövründə yazıb. Bununla belə, onun sənətkarlıq fəaliyyətinin təşəkkülündə ilk mərhələ "məktəb şeirləri"dir. Bu həm də onun bir şair kimi keçdiyi şairlik məktəbi idi. Onun yaradıcılığında obrazlı konkretlik məktəb mövzuları silsiləsində, təsvir vasitələrində, hətta şeirlərin adlarında nəzərə çarpır. Məsələn: "Əlifba kitabı", "Məktəb yolları", "Yazı taxtası", "İlk cığır", "Qızıl medal", "Ağ saç", "Zəng səsi", "Məktəb cığırı" və s. Şeirləri bu qəbildəndir.

B.Vahabzadə külliyatının tərtibçisi, ön söz müəllifi görkəmli alim prof. Ramazan Qafarlı haqlı olaraq göstərir ki, B.Vahabzadənin 6 cildliyində toplanmış əsərlərinin xronologiyasına nəzər salsaq, ilk qələm təcrübələrinin əsas qəhrəmanları və mövzusunun məhz məktəb, müəllim, təhsil və müharibə olduğunu görərik.

Professor Yaşar Qarayev şairin məktəb şeirlərindən danışarkən onların obrazlı, mənalı və təkrarsız olduğunu göstərir və bu şeirlərin məktəb dərsliklərinə salınmasını tövsiyə edirdi. Eyni zamanda, müəllif qeyd edirdi ki, bugünkü Bəxtiyarın poeziyası bu mənbədən, bu zirvədən start götürmüşdür.

Xalq şairi Osman Sarıvəlli yazırdı ki, bu şeirlər sağlam gəncliyimizdə məktəbə həvəs, müəllimlərimizə hörmət hissi aşılayır. Bu şeirlərin tərbiyəvi əhəmiyyəti böyükdür.

Şair məktəb şeirlərində ümumi didaktik vəzifələr haqqında danışır, insanları maarifləndirir, təhsilin millətin inkişafında rolunu işıqlandırırdı.

"Məktəb şeirləri" silsiləsindən start götürən B.Vahabzadə yaradıcılığı – çox qiymətli poemalar, publisistik əsərlər, dramlarla dünya ədəbiyyatı xəzinəsini zənginləşdirir.

Açar sözlər: B.Vahabzadə, ilk şeirlər, məktəb, maarif, müharibə, poetik təfəkkür mədəniyyəti, milli-bəşəri ideyalar

Abstract

Bahtiyar Vahapzade's creativity has a wide range. Reflecting life events in a unique poetic language, the poet has found his way to the hearts of a wide audience of readers all over the world with his significant works and has managed to constantly make his readers think. The world-famous Kyrgyz writer Chingiz Aitmatov wrote that B. Vahapzade has erected his own magnificent temple of poetry. The reader should visit this temple often.

B. Vahapzade's creativity is wide and rich. According to Ch. Aitmatov, B. Vahapzade's poetic culture of thought is national in nature. This is an exceptionally necessary circumstance. At the same time, his poetic culture of thought acquires a higher essence, rising from national to universal level. The problem of national and international relations once again finds its progressiveness in B. Vahapzade's creativity.

The poet wrote his first poems during the hot period of World War II. However, the first stage in the formation of his artistic activity is "school poems". This was also the school of poetry that he went through as a poet. In his work, figurative concreteness is noticeable in the series of school themes, in the means of description, and even in the names of the poems. For example: "Alphabet book", "School paths", "Writing board", "First path", "Golden medal", "White hair", "The sound of the bell", "School path" and other poems are of this type.

The compiler of the B. Vahapzade collection, the author of the preface, the prominent scientist Prof. Ramazan Gafarli rightly points out that if we look at the chronology of B. Vahapzade's works collected in 6 volumes, we will see that the main heroes and themes of his first pen experiments are precisely school, teacher, education and war.

Prof. Yashar Garayev, speaking of the poet's school poems, shows that they are figurative, meaningful and unique and recommended that these poems be included in school textbooks. At the same time, the author noted that today's Bahtiyar's poetry started from this source, from this peak.

People's poet Osman Sarivelli wrote that these poems instill in our healthy youth a passion for school and a sense of respect for our teachers. The educational significance of these poems is great.

In his school poems, the poet spoke about general didactic tasks, enlightened people, and highlighted the role of education in the development of the nation.

Starting with the series "School Poems", B. Vahapzade's creativity – very valuable poems, journalistic works, and dramas – enriches the treasury of world literature.

Keywords: Bahtiyar Vahapzade, first poems, school, education, war, culture of poetic thinking, national-human ideas

TÜRKİYE DE DERLENEN BALIKESİR HAYRƏDDİN HOCA ÜÇPINARLIOĞLU TÜRBESİ VE AZERBAYCAN MİR MÖHSÜN AĞA TÜRBESİ ETRAFINDA ORTAK İNANÇLAR

COMMON BELİEFS AROUND THE BALIKESİR HAYREDDİN HOJA UCHPINARLIOGHLU TOMB AND THE AZERBAİJAN MİR MOHSUN AGHA TOMB COMPİLED İN TÜRKİYE

Rana Malikova
Balıkesir Üniverseti İksad Azerbaycan koordinatör

Özet
Bu çalışmanın amacı, Türkiye ve Azerbaycan'ın benzer yatır inançları üzerine benzer unsurlarını derleyip kayıt altına almak, kaybolmalarını önlemek ve kültürel bilgileri yazıya geçirerek gelecek nesillere aktarmaktır. Amacımız kültürel tanıtımına katkıda bulunmaktır. Halk edebiyatına ve kendi halk kültürüne dikkat çekmek, insanlara geçmiş yaşamlarını ve kültürlerini hatırlatmaktır.
Bu çalışma, Türkiye de derlenen Balıkesir Hayreddin Hoca Üçpınarlıoğlu türbesi ve Azerbaycan Mir Möhsün Ağa türbesi etrafında inançların benzerliği hakkındadır.
Bu çalışma Rana Malikova'nın Yüksek Lisans Tezi "*BALIKESİR – KARESİ – ÜÇPINAR MAHALLESİ FOLKLORU"* derlemesi üzerinden yapılmıştı.
Anahtar kelimeler : Türkiye, Azerbaycan, Hayreddin Hoca Üçpınarlıoğlu, Mir Möhsün Ağa.

Abstract
The purpose of this study is to compile and record similar elements of similar venerable beliefs in Turkey and Azerbaijan, to prevent their loss, and to transmit cultural knowledge to future generations through written records. Our aim is to contribute to cultural promotion. To draw attention to folk literature and our own culture, and to remind people of their past lives and cultures.
This study examines the similarities between the beliefs surrounding the Hayreddin Hoja Uchpınarlıoghlu Tomb in Balıkesir, Turkey, and the Mir Mohsun Agha Tomb in Azerbaijan. This study was based on Rana Malikova's master's thesis, "FOLKLOR OF THE BALIKESİR – KARESİ – ÜÇPINAR NEIGHBORHOOD."
Key words: Türkiye, Azerbaijan, Hayreddin Hoja Uchpınarlıoghlu, Mir Mohsun Agha

Giriş

Halkbilimi çalışmalarının yaygın olarak kabul edilen iki başlangıç tarihi vardır. Birincisi, Almanya'da Grimm kardeşlerin, 1812 yılında "Ev ve Çocuk Masalları" adlı sözlü gelenekten derleyerek oluşturdukları masal kitaplarını yayınlanmaları; ikincisi ise bilim dalının adı olarak uluslar arası bir kullanıma erişmiş olan, folklor "Folk – Lore" teriminin 1846 yılında İngiliz William John Thoms tarafından icat edilip, Atheneum adlı dergiye Ambrose Merton müstear adıyla gönderilerek yayınlanmasıdır. Folklor kelimesinin kökeni "folk"=halk ve "lore"= bilim sözcükleri oluşturmakta ve birleşik olarak "halkbilimi" anlamına gelmektedir. Son zamanlarda uluslararası literatürde, gerçek anlamını yitirmeye başlayarak yanlış kullanımlarının çoğalması nedeniyle "folklor" (folklore) terimi yerine "folkloristik" (folkloristics) teriminin kullanımı yaygınlaşmıştır.(Çobanoğlu, 2016, s. 23)

Halkbilimi, bir ülke ya da belirli bir bölge halkına ilişkin maddi ve manevi alandaki kültürel ürünleri konu edinen, bunları kendine özgü yöntemleriyle, derleyen, sınıflandıran, çözümleyen, yorumlayan ve son aşamada da, bir bireşime vardırmayı amaçlayan bir bilimdir.(Örnek, 1977, s. 15)

Mir Möhsüm Ağa Türbesi hakkında genel bilgi

- Lokasyon: Bakü şehrinin Hazar ilçesine bağlı Şuvalan yerleşim yerinde bulunmaktadır. Bu kutsal mekan, Ağa Seyidali Mir Ebutalib oğlu Mir Movsumzade'nin türbesinin etrafında, "antik mezarlık" denilen alanda inşa edilmiştir.
- Türbenin ortasında bulunan türbe, 1883 yılında doğup 1950 yılında vefat eden, halk arasında "Etağa" olarak bilinen ve yaşadığı dönemde efsanevi bir üne sahip olan Mir Möhsüm Ağa'nın mezarı üzerine inşa edilmiştir. Sovyet dönemindeki dinî yasaklara rağmen cenazesine büyük bir kalabalık katıldı.
- Mimari Özellikler: Tapınağın inşası 1992-1994 yıllarında gerçekleştirilmiştir. İnşaat çalışmaları çoğunlukla elle, asgari düzeyde makine kullanılarak gerçekleştirildi. Bunun sebebi mezarlık alanında bulunması ve dini inançlara saygı gösterilmesidir.

Mir Möhsüm Ağa, genel olarak şeyhlik, kültür, tarih ve inançlarla ilişkilendirilen bir şahsiyet olarak bilinmektedir. Adı ve hayatı, hem dinî inancın hem de millî kimliğin birleştiği noktalardan biridir. Mir Möhsüm Ağa, hem dini bilgisi hem de manevi irfanıyla zamanında meşhurdu. Azerbaycan'da ve daha geniş coğrafyada onun adına inşa edilen türbeler ve mezarlar, insanların ziyarete geldiği kutsal mekanlar arasındadır.

Mir Möhsüm Ağa Türbesi, Azerbaycan'ın çeşitli bölgelerindeki en önemli dini mekanlardan biri olarak kabul ediliyor. Birçok ziyaretçinin imanını güçlendirmek, dua etmek ve manevi arınma arayışında bulunduğu bir yerdir. Türbelerin bulunduğu alanlar genellikle çok eski bir tarihe sahip olup, aynı zamanda tarih ve kültür açısından da oldukça zengindir.

Mir Möhsüm Ağa'ya atfedilen inanç, birçok dini efsane ve mitolojik öyküyle bağlantılıdır. Bu türbe Azerbaycan halkı arasında dualaların kabul edildiği yer olarak da bilinmektedir. Ziyaretçiler hayatlarında karşılaştıkları zorluklardan kurtulmak için Tanrı'dan veya Mir Möhsüm Ağa'dan yardım ve şifa dilerler.

Dua ve iffetin sembolü olan Mir Möhsüm Ağa, kendisinden yardım isteyenlere ait olan melek ve Allah'ın bereketiyle ilişkilendirilir. Türbesini ziyaret edenler pek çok mucizevi etki yaşadıklarını ve korunma hissi yaşadıklarını bildiriyorlar.

Hayreddin Hoca Üçpınarlıoğlu Türbesi hakkında genel bilgi

- Lok asyön: Balıkesir İli, Karesi İlçesi, Kayabey Camii Avlusu
- Mimari özellikleri: Türbe Osmanlı dönemi mimari üslubunda inşa edilmiştir. Kare planlı ve kubbeli bir yapıya sahiptir. Yapı malzemesi olarak kesme taş kullanılmıştır. Türbenin içerisinde kimlikleri tam olarak bilinmeyen çok sayıda mezar bulunmaktadır. Bunların Ayaz Paşa'nın oğlu Mahmud Bey'e ait olduğu sanılmaktadır.

Türbe, bölgedeki dini ve kültürel yaşamın bir parçası olarak ziyaretçiler tarafından saygıyla karşılanıyor. Çevresinde bulunan Kayabey Camii ile birlikte burası Balıkesir'in tarihi ve kültürel mirasının bir parçasıdır.

Hayreddin Hoca Üçpınarlıoğlu ve Mir Möhsüm Ağa hakkında ortak inançlar

Hayreddin Hoca Üçpınarlıoğlu hakkında bilgileri Balıkesir'in Karesi ilçesine bağlı Üçpınar köyünden elde etmekteyim. Makaleme kullandığım bilgileri Yüksek Lisans tezimde de kullanmaktayım. Köyün Muhtarı Mehmet Kastan aldığım bilgilerde şöyle anlatılıyor: Köyün kurucularından biridir. Kış gününde yanındakilere üzüm toplatırmış. Gelen misafirler şaşırırmış kışın üzümün yetişmesine. Hatta bunu duyan şehirlerin yönetimleri gelir Hayrettin hocayı götürmeye. Paşaya gitmeden önce onu

götürenlere der ki: "Öküzleri bekletelim, namazımı kılayım öyle gidelim". Abdest aldığı yerde beyaz güvercin olarak uçar gider. Abdest aldığı su da Kaya Bey camisine akar. Cansız cesedi oraya düşer. Mezarını da Kaya Bey camisinde defnederler. Caminin orda sandukası var askerler gider fotoğrafını çekerler. Bulanık çıkar kimse tam net çıkmamıştır.
1900 yıllarında olmuş bir olay: Kurtuluş savaşı dönemlerinde askerler camiyi cephane olarak kullanmışlardır. Orda nöbet tutarlar. Askerlerden biri camide ihtiyacını gidermiş. Askerin gözüne "Aksakallı dede" olarak gözükmüş onu dışarı atmış.
Bu zamanda bile Hayrettin Hocayı rüyamda gördüm diyenler vardı. Köyün geneli buna inanır. Çocukları yaramazlık yaptığında camiye götürüp kapısı kilitler giderlermiş. Çocukları böyle korkuturlarmış.
Bir diğer anlatmada ise Mustafa Topaloğlu şöyle bilgi vermişti: Köyün ilerisinde çeşme varmış. O çeşme üzerinde tartışma yaparlarmış. Kimi demiş çeşme aşağıda dursun, kimi demiş çeşme yukarda dursun. Akşam çeşmeyi yukarı götürmüşler, sabah bakmışlar çeşme uçup gelmiş yerine. Buradan köyün ismi "Uçtupınar" olarak konulmuş. Babamsnın da ona anlattığına göre o zamanlar askerler camiye malzemeler koyarlarmış. Camiden ses duymuş. Camiyi iyice aramaya başlamışlar. Uyuyan askerin biriyle karşılaşmışlar. Askeri uyandırıp sormuşlar. Askerin anlattığına göre orada nöbet tutarken, Orayı biraz pislediğim için, aksakallı bir dede kolumdan tutup beni dışarı attı.
Hayrettin Hocanın türbesinin yeri eski Kaya Bey camisinde olduğunu öğrendikten sonra oraya gidip camideki türbe hakkında bilgi aldım. Bilgiyi veren İmam ismini söylemedi ses kaydı yapmasını da istemedi. Bir belge ve türbenin içinde resim çekebilmeme izin verdi.
Anlattığına göre insanlar hala türbeye gelerek dileklerini isterler. Genellikle hamile kalmak isteyen, çocukları hasta olan aileler, aile içi sorun yaşayanlar gelir. Bazen eşyalarını bırakırlar camdan mektuplar atarlar.
Ben imamla türbeye girdiğim esnada içeriye birisi mektup atmıştı. İmam efendi o mektubu açıp okudu. Mektubu atan aile Susurluk ilçesinden geldiğini yazmıştı. Ailedeki sorunu gelinleri olduğunu bildirmişti. Gelinlerinin oğluyla kaynanasının arasını açtığını belirtmişti. Oğlu gelinini kaçırdıktan sonra evde hiç huzur kalmamıştı. Evine komşularının evindeki gibi huzur gelmesini ve komşunun gelinini örnek alıp benim gelinimin de öyle olmasını diliyorum yazmıştı.

Bazı inanışlara göre Mir Möhsüm Ağa hayatta iken köy köy dolaşarak halka nasihatlerde bulunmuş ve onlara çeşitli öğretiler öğretmiştir. Efsanelerde sadece manevi bir lider olarak değil, aynı zamanda iyi kalpli ve iyi bir insan olarak da anlatılır. İnsanlar onunla tanıştıktan sonra hayatlarında olumlu değişiklikler gördüklerini söylüyorlar. Rivayete göre Mir Möhsüm Ağa, bazı felaketleri ve hastalıkları tedavi eder, insanları zor durumlardan kurtarırdı. Mir Möhsüm Ağa koruyucu ve şifalı bir ruh olarak tanıtılıyor. Türbesini ziyaret eden ve onun ruhunun kendilerine şifa ve kurtuluş getirdiğine inananların pek çok hikayesi vardır.
Arzu Hüseynovanın anlattığına göre evladının olması için Mir Möhsüm Ağanın evine giderek onun koltuğunda oturup hamile kalmak için adakta bulunup ve dileği kabul olmuştur. Her iki evladının sağ salim dünyaya gelmesi için adaklar vermiş bulunmaktadır. Türbeye çok kişi gider ve adaklar sunarlar. Dilekleri kabul olan her kes adağını türbeye getirir ya kendi paylar veya oranın çalışanlarına verir o dağıtım yapar.

Sonuç

Her iki ülkenin dini inançları aynı ortak noktalara sahiptir. Her iki ülkenin de farklı inanç biçimleri vardır. Türbeler ziyaret edilmektedir. Oraya adak bağışlarlar. Bu Türbeler onların inanc parçasıdır. Kutsal bir mekandır. Dualarının Allah'a çabuk ulaştığına inanırlar. 7'den 70'e herkes gider. Bu inanç yıllardır devam etmektedir.

Amacımız, her iki ülkenin ortak inanşını insanlara tanıtmaktı. Her şeyde neyin doğru ve mükemmel olduğunu yalnızca Tanrı bilir.

Kaynakça

Çobanoğlu, Ö. (2016). Halkbilimi kurumları ve araştırma yöntemleri tarihine giriş
Örnek, V. S. (1977). Türk halk bilimi. Ankara: Türkiye İş Bankası Kültür Yayınları.
Malikova, R. Yüksek Lisans Tezi Balıkesir – Karesi – Üçpınar Mahallesi Folklor

THE APPLİCATİON OF INCLUSİVE EDUCATİON İN TEACHİNG AZERBAİJANİ AND ENGLİSH LANGUAGES

İNKLÜZİV TƏDRİSİN AZƏRBAYCAN VƏ İNGİLİS DİLİ TƏDRİSİNDƏ TƏTBİQİ

Rasimə Teymurova Şahid
Xülasə Azərbaycan Dövlət İqtisad Universiteti Foreign Language Department

Abstract
Inclusive education is a significant method in Azerbaijani and English language teaching, making the education of students with different needs more comprehensive and qualitative. This approach supports not only academic development, but also social and emotional development. The continuous development and application of inclusive education will help the education system to be more equitable and effective for the future.
Inclusive approaches in English language teaching are aimed at developing students not only in their language skills, but also in ensuring their social and emotional development. Social integration and purposeful learning are the main components of these approaches. The application of inclusive education helps students to develop according to their needs and successfully integrate into the social environment. It is clear that these approaches increase the quality of education and allow students to realize their potential fully. Therefore, the application of inclusive teaching methods serves not only to improve language skills but also to support overall development.
Keywords: inclusive, resource, social integration, visual and audio materials

Резюме
Инклюзивное образование является важным подходом, обеспечивающим равенство и справедливость в системе образования. Применение инклюзивных методов в преподавании как азербайджанского, так и английского языков делает образование учащихся с различными потребностями более комплексным и качественным. Такой подход способствует не только академическому развитию, но также социальному и эмоциональному развитию. Дальнейшее развитие и внедрение инклюзивного образования поможет сделать систему образования более справедливой и эффективной в будущем.
Инклюзивные подходы к преподаванию английского языка направлены не только на развитие языковых навыков учащихся, но и на обеспечение их социального и эмоционального развития. Социальная интеграция и целенаправленное обучение являются ключевыми компонентами этих подходов. Внедрение инклюзивного образования помогает учащимся развиваться в соответствии со своими потребностями и успешно интегрироваться в социальную среду. Очевидно, что такие подходы повышают качество образования и позволяют студентам в полной мере реализовать свой потенциал. По этой причине применение инклюзивных методов обучения служит не только улучшению языковых навыков, но и содействует общему развитию.
Ключевые слова: инклюзивность, ресурс, социальная интеграция, визуальные и аудиоматериалы

Xülasə
İnklüziv tədris, hər bir şagirdin fərdi ehtiyaclarına uyğun tədris mühitinin yaradılmasına əsaslanır. Bu yanaşma, xüsusilə xüsusi təhsil ehtiyacı olan uşaqların ümumi təhsil mühitinə inteqrasiyasını təmin etməklə, onların bərabər hüquqlarla təhsil almasını təmin edir. İnklüziv tədrisin Azərbaycan və İngilis dili tədrisində tətbiqi, dil öyrənmə prosesini daha əlçatan və müxtəlif ehtiyaclara cavab verən bir hala gətirə bilər.
Azərbaycan Dili Tədrisində: İnklüziv yanaşma ilə dil tədrisində fərdi öyrənmə sürətinə və tərzinə uyğun metodlar tətbiq edilir. Məsələn, yazılı və şifahi ifadə bacarıqlarını inkişaf etdirmək üçün oyunlar, vizual materiallar və qrup fəaliyyətləri kimi müxtəlif üsullar istifadə olunur. Bu yanaşma, xüsusi ehtiyacı olan uşaqların dil bacarıqlarını inkişaf etdirərkən, eyni zamanda onların özünə inamlarını artırır. İngilis Dili Tədrisində: İngilis dilini öyrənən uşaqların fərqli ehtiyacları nəzərə alınaraq, interaktiv və texnologiya əsaslı yanaşmalar tətbiq edilir. Məsələn, rəqəmsal tətbiqlər, dil oyunu və video materiallarla öyrənmə, xüsusi təlim ehtiyacı olan şagirdlər üçün daha əlverişli ola bilər.
İnklüziv tədris proqramlarında müxtəlif öyrənmə resurslarından istifadə edilməsi vacibdir. Həm Azərbaycan, həm də İngilis dilində tədris zamanı müxtəlif resurslar (audiovizual materiallar, interaktiv tədris vasitələri, xüsusi dizayn edilmiş tədris planları) şagirdlərə daha yaxşı öyrənmə imkanı tanıyır. Məsələn, tələbələrə əyani materiallar, şəkil və video izahları ilə dilin quruluşunu öyrətmək mümkündür. İngilis dili dərslərində oyunlar, videolar və danışıq təcrübələri sayəsində dil öyrənmək daha maraqlı və effektiv olur. Əlavə olaraq, yazılı və şifahi tədrisi də əhatə edən resurslar şagirdlərə daha geniş biliklər qazandırır.
İnklüziv tədris metodu, həm Azərbaycan, həm də İngilis dili tədrisində şagirdlərin qrup şəklində işləyərək bir-birilərindən öyrənmələrinə imkan verir. Bu, tələbələrə sosial bacarıqları inkişaf etdirmək, fərqli dil bacarıqlarını paylaşmaq və dil öyrənmə prosesində əməkdaşlıq etmək imkanı yaradır. İnklüziv tədrisin tətbiqi zamanı, xüsusilə dil öyrənən şagirdlərin emosional və sosial ehtiyacları da nəzərə alınır. Bu, onların özünə inamını artırır və təhsildə bərabərlik təmin edir. Tələbələrin özlərini daha rahat hiss etmələri və inkişaf etmələri üçün psixoloji dəstək və gücləndirilmiş motivasiya proqramları önəmlidir.
İnklüziv tədrisin tətbiqi ilə dil dərslərində istifadə olunan tədris planları daha elastik və fərdiləşdirilmiş olur. Bu planlar şagirdin fərdi inkişafına uyğun olaraq dəyişdirilir. Məsələn, fərdi tədris ehtiyacı olan şagirdlər üçün daha çox zaman və resurs ayrılır. İnklüziv tədrisin Azərbaycan və İngilis dili tədrisində tətbiqi, hər bir tələbənin fərdi ehtiyaclarını nəzərə alaraq, onların daha effektiv şəkildə təhsil almasını təmin edir. Bu yanaşma, dil bacarıqlarının inkişafında bərabər imkanlar yaradır və hər bir uşağın təhsil mühitində öz potensialını maksimum dərəcədə ortaya qoymasına kömək edir.
Açar sözlər: inklusiv, resurs, sosial inteqrasiya, vizual və audio materiallar

Giriş

İnklüziv tədris, təhsil mühitində bütün tələbələrin, xüsusilə fərqli ehtiyaclara malik olanların, tam və bərabər şəkildə iştirak etməsini təmin edən yanaşmadır. Bu yanaşma, hər bir tələbənin fərdi xüsusiyyətlərini və ehtiyaclarını nəzərə alaraq təhsil almasını təmin edir. İnklüziv tədris yalnız xüsusi ehtiyacları olan şagirdlər üçün deyil, həm də dil bacarıqlarında fərqlilik göstərən və mədəniyyət baxımından müxtəlif olan tələbələr üçün vacibdir. Bu tədris yanaşması, sosial, emosional və akademik inkişafı dəstəkləyərək, tələbələrin təhsilini daha əhatəli və bərabər edir.
Azərbaycan və ingilis dili tədrisində inklüziv yanaşmaların tətbiqi, yalnız tələbələrin dil biliklərini inkişaf etdirməklə qalmır, eyni zamanda onların sosial və mədəni əlaqələrini gücləndirir. Bu məqalədə, Azərbaycan və ingilis dili tədrisində inklüziv yanaşmaların necə tətbiq olunduğu və bu yanaşmanın faydaları müzakirə ediləcəkdir.

Yaradıcılıq və müxtəlif tədris metodları: İnklüziv tədris metodları, hər bir tələbənin öyrənmə üslubuna uyğun şəkildə tədris materialları və fəaliyyətlər təqdim etməyi vacib hesab edir. Bu, məsələn, interaktiv dərs planları, qrup işləri və müxtəlif texnoloji alətlərdən istifadəyə yönəlir. Bu metodlar, tələbələrin dərsə marağını artırır və onların fəal iştirakını təmin edir.
Dəstək və resurslar: İnklüziv tədris yanaşmasında, hər bir tələbənin ehtiyaclarına uyğun resurslar təqdim edilir. Xüsusilə xüsusi ehtiyacları olan tələbələr üçün xüsusi təhsil proqramları, terapevtik xidmətlər və texnoloji resurslar təmin edilir. Bu resurslar, tələbələrin daha yaxşı nəticələr əldə etməsinə və dərslərdə müvəffəqiyyət qazanmalarına kömək edir.

İngilis dili tədrisində inklüziv yanaşmalar
İngilis dilində inklüziv tədris: İngilis dili tədrisi, çox zaman dil səviyyəsi fərqli olan şagirdlərdən ibarət qruplarda həyata keçirilir. Burada, fərqli dil bacarıqlarına malik şagirdlərə müxtəlif metodlar və tədris texnologiyaları ilə yanaşılır. Məsələn, dil öyrənməsini asanlaşdırmaq üçün vizual materiallar, audio-visual resurslar və interaktiv fəaliyyətlərdən istifadə edilir. Bu yanaşmalar, tələbələrin dərsə cəlb olunmasına və mövzuların daha yaxşı başa düşülməsinə kömək edir.
İngilis dili tədrisində inklüziv yanaşmalar, şagirdlərin müxtəlif dil səviyyələri, bacarıqları və xüsusi ehtiyaclarına uyğun şəkildə tədris metodlarının tətbiqini nəzərdə tutur. Bu yanaşma, təhsil sistemində bərabərlik, ədalət və müxtəlifllikləri təşviq edərək, bütün şagirdlərə eyni təhsil imkanlarını təmin etməyə yönəlib. İnklüziv tədris, dil öyrənmə prosesində hər bir tələbənin fərdi ehtiyaclarını və öyrənmə üslubunu nəzərə alır.
İngilis dilinin tədrisi ilə bağlı inklüziv yanaşmaların tətbiqi, müxtəlif təhsil ehtiyaclarına malik şagirdlər üçün çox vacibdir. Bu yanaşmalar, sadəcə dil səviyyələrində fərqli olan şagirdləri deyil, həm də xüsusi təhsil ehtiyacı olanları və sosial çətinliklər yaşayanları əhatə edir. Beləliklə, hər bir tələbə üçün uyğun öyrənmə mühiti yaratmaq, onların həm dil bacarıqlarını inkişaf etdirməyə, həm də digər sosial və emosional inkişaf sahələrində uğur qazanmalarına kömək edir.

İngilis dili tədrisində inklüziv yanaşmaların əsas prinsipləri
İnklüziv tədrisin əsas prinsipləri, tələbələrin müxtəlif ehtiyaclarına cavab verməyi məqsəd qoyur. Bu prinsiplər təhsil prosesinin hər mərhələsində tətbiq olunmalı və hər bir tələbənin öyrənmə təcrübəsi fərdiləşdirilməlidir.
Dərslərin fərdiləşdirilməsi: Müxtəlif ehtiyaclardan irəli gələrək dərslərin fərdiləşdirilməsi vacibdir. Məsələn, xüsusi ehtiyacları olan tələbələrə daha çox vizual və kinestetik metodlarla öyrənmək imkanı verilir. Həmçinin, fərqli dil bacarıqlarına malik tələbələr üçün dərslər uyğunlaşdırılır və onların öyrənmə sürətinə uyğun materiallar təklif edilir.
İngilis dili tədrisində inklüziv yanaşmaların tətbiqi üçün əsas prinsiplər aşağıdakılardır:

Fərdiləşdirilmiş tədris metodları
Şagirdlərin dil bacarıqları və öyrənmə üslubları fərqli ola bilər. Buna görə də, dərslər fərdiləşdirilməli və hər bir şagirdin ehtiyaclarına uyğun olaraq tərtib edilməlidir. Məsələn, ingilis dilini yeni öyrənən bir tələbə üçün sadə və vizual materiallardan istifadə etmək daha effektiv ola bilər, halbuki daha inkişaf etmiş səviyyəyə sahib şagirdlər üçün daha mürəkkəb mətnlər və dialoqlar təqdim edilə bilər.

Çeşidli tədris resurslarından istifadə
İnklüziv tədris, müxtəlif öyrənmə ehtiyaclarına uyğun olan resursların istifadəsini təşviq edir. Bu resurslar vizual və audio materiallar, texnoloji alətlər, təkrarlama və əlavə təlimlər ola bilər. Məsələn, müəyyən mövzuların öyrədilməsi zamanı interaktiv tətbiqlər, video dərslər, vəzifələr və oyunlardan istifadə edilə bilər. Bu yanaşma, şagirdlərin daha yaxşı anlama və yadda saxlama bacarıqlarını inkişaf etdirir.

Qrup işləri və əməkdaşlıq
İngilis dili dərslərində qrup işləri, tələbələrin bir-birindən öyrənməsi və əməkdaşlıq etməsi üçün yaxşı bir üsuldur. Şagirdlər arasında müxtəlif bacarıq və təcrübələr mövcud olduğunda, onlar bir-birilərinə kömək edə bilər və sosial inteqrasiya təmin olunur. Qrup işləri həmçinin şagirdlərin bir-birilə kommunikasiya bacarıqlarını inkişaf etdirməyə də kömək edir.

Təkrarlama və əlavə dəstək
İnküziv tədris metodlarında təkrarlama vacibdir, çünki hər bir şagirdin öyrənmə sürəti fərqli ola bilər. Təkrarlama vasitəsilə, şagirdlər öyrəndiklərini daha yaxşı mənimsəyir. Bununla yanaşı, xüsusi ehtiyacı olan tələbələr üçün əlavə dəstək xidmətləri təqdim edilə bilər. Bu dəstək, xüsusi təhsil xidmətləri, fərdi məsləhət sessiyaları və əlavə resursların təqdim edilməsini əhatə edir.
İngilis dili tədrisində inklüziv yanaşmaların təqdim edilməsi üçün məsələlər
Dil səviyyəsinin fərqliliyi
İngilis dili tədrisində ən böyük çətinliklərdən biri, tələbələrin dil səviyyələrinin müxtəlif olmasıdır. Bəzi tələbələr tamamilə yeni dil öyrənənlərdir, digərləri isə daha yüksək səviyyələrdədir. İnklüziv tədris metodları, hər bir tələbənin səviyyəsinə uyğun materiallar təqdim etməklə, hər kəsin dərsə qatılmasını təmin etməlidir. Bu, tələbələrin inkişaf səviyyələrinə uyğun olaraq fərdi məqsədlər və tapşırıqlar yaratmaqla mümkündür.
Sosial və mədəni müxtəliflik
İngilis dili tədrisində şagirdlər yalnız dil fərqlilikləri ilə deyil, həm də mədəni və sosial fərqlərlə qarşılaşa bilərlər. Fərqli mədəniyyətlərdən gələn tələbələr üçün inklüziv yanaşmalar, onların öz mədəniyyətlərinə uyğun dərs fəaliyyətləri və materiallar təqdim etməklə bu fərqləri aradan qaldıra bilər. Eyni zamanda, dərslər mədəniyyətlərarası təcrübələrə və müxtəlifliyə hörmət göstərərək qurulmalıdır.
Texnoloji inteqrasiya
Texnologiyanın inklüziv tədrisdə istifadəsi, ingilis dili dərslərinin daha interaktiv və cəlbedici olmasını təmin edir. Şagirdlərə xüsusi təhsil ehtiyacı olanlar üçün uyğunlaşdırılmış proqramlar, dil öyrənmə tətbiqləri və müxtəlif interaktiv alətlər təqdim edilə bilər. Bu texnologiyalar, tələbələrə dərs materiallarını öz sürətində öyrənməyə və təkrarlamağa imkan verir.

İngilis dili tədrisində inklüziv yanaşmanın faydaları
İnklüziv tədrisin tətbiqi, şagirdlərin müxtəlif sosial və mədəni fərqliliklərini nəzərə alaraq, daha bərabər və ədalətli bir təhsil mühiti yaradır. UNESCO (2005) [3] inklüziv təhsilin bərabər təhsil imkanları yaratdığını və hər bir şagirdin öz potensialını inkişaf etdirməsinə kömək etdiyini vurğulayır. İnklüziv tədris, şagirdlərin müxtəlif bacarıq və ehtiyaclarını nəzərə alaraq təhsil verməyi təmin edir, bu da təhsilin keyfiyyətini artırır.
İnklüziv təhsil, yalnız şagirdlərin dil bacarıqlarını artırmaqla kifayətlənmir, həm də onların sosial və emosional inkişafını dəstəkləyir. Hall, Vue və Cooper (2016), [4] inklüziv tədrisin şagirdlərə özünü ifadə etməyə və özünə güvənli olmağa kömək etdiyini qeyd edirlər. Bu yanaşma, şagirdlərin həm dil öyrənmə bacarıqlarını, həm də sosial əlaqələrini inkişaf etdirir.
İnklüziv tədrisin ən böyük faydası, təhsil sahəsində bərabərliyi təmin etməsidir. Hər bir tələbə, onun dil bilikləri və bacarıqlarından asılı olmayaraq təhsil almağa eyni şanslara sahib olur. Bu yanaşmanın əsas faydaları aşağıdakılardır:
Təhsil sahəsində bərabərlik: İnklüziv tədris, bütün tələbələrə bərabər təhsil imkanları yaradır. Bu yanaşma, təhsildə ədalət və bərabərlik təmin edərək, xüsusi ehtiyacları olan tələbələrin də eyni şəraitdə təhsil almasını təmin edir.
Sosial inteqrasiya: İnklüziv tədris, müxtəlif bacarıqlara və təcrübələrə malik tələbələrin bir arada öyrənməsini təmin edir. Bu, şagirdlər arasında qarşılıqlı anlaşma və əməkdaşlıq yaradır, həmçinin

sosial və emosional inkişafı və tələbələr arasında sosial inteqrasiyanı dəstəkləyir. Müxtəlif mədəniyyətlərə, dil bacarıqlarına və sosial vəziyyətlərə sahib tələbələr arasında qarşılıqlı hörmət və anlaşma inkişaf edir. Bu, gələcəkdə cəmiyyətin daha inteqrə olmasına imkan yaradır.

Təhsil keyfiyyətinin yüksəlməsi: İnklüziv tədris metodları yalnız xüsusi ehtiyacları olan tələbələrə deyil, bütün şagirdlərə faydalıdır. Müxtəlif tədris yanaşmaları və fərdiləşdirilmiş dərslər, tələbələrin öyrənmə prosesini zənginləşdirir və ümumilikdə təhsil keyfiyyətini yüksəldir.

Təhsil bərabərliyi: İnklüziv tədris hər bir tələbəyə eyni təhsil imkanlarını təqdim edərək, onların dil bacarıqlarını inkişaf etdirir. Hər şagirdin öz ritminə uyğun öyrənmə prosesi təmin edilir, bu isə onların akademik uğurlarını artırır.

Sosial inteqrasiya: məqsədyönlü öyrənmə

İnklüziv tədrisin əsas prinsiplərindən biri, şagirdlərin sosial inteqrasiyasını dəstəkləmək və onların fərdi inkişaflarını daha məqsədyönlü şəkildə təmin etməkdir. Sosial inteqrasiya və məqsədyönlü öyrənmə, təhsil prosesində yalnız dil biliklərini deyil, həm də şagirdlərin sosial və emosional bacarıqlarını inkişaf etdirən mühüm aspektlərdir.

Sosial inteqrasiya: inklüziv tədrisin əsas pilləsidir

Sosial inteqrasiya, müxtəlif sosial, mədəni, dil və bacarıq fərqliliklərinə malik şagirdlərin bir arada öyrənməsi və qarşılıqlı əlaqə qurmasıdır. Bu, inklüziv tədrisin ən vacib məqsədlərindən biridir, çünki sosial inteqrasiya, şagirdlərin yalnız akademik deyil, həm də sosial və emosional cəhətdən inkişaf etmələrinə kömək edir.

Sosial inteqrasiyanın təhsil sistemindəki rolunu anlamaq

İnklüziv tədrisdə sosial inteqrasiyanın təmin edilməsi, şagirdlərin müxtəlif mədəniyyətlərdən və təcrübələrdən gələn digər şagirdlərlə birgə öyrənmələrinə imkan yaradır. Bu, onların empatiya bacarıqlarını artırır və müxtəlifliyi qiymətləndirməyi öyrədir. Sosial inteqrasiya həm də qarşılıqlı hörmət və əməkdaşlıq mühitinin yaranmasına kömək edir, bu isə məktəb mühitində daha müsbət bir atmosferin formalaşmasını təmin edir.

Məsələn, dil öyrənən şagirdlər bir-biriləri ilə əlaqə qurduqda, onların danışıq bacarıqları inkişaf edir və onları daha rahat sosial mühitə daxil olmağa təşviq edir. Müxtəlif dil səviyyələrində olan şagirdlər qrup işləri ilə daha yaxın münasibət qurur, bu da onların yalnız akademik deyil, həm də sosial bacarıqlarını artırır.

Sosial inteqrasiyanın təhsil müəllimlərinə təsiri

Müəllimlər sosial inteqrasiyanı təmin etmək üçün xüsusi yanaşmalar tətbiq etməlidirlər. Bu, tələbələrin mədəniyyətinə və dil səviyyələrinə hörmət göstərərək, onların sosial bacarıqlarını inkişaf etdirmək üçün aktiv və qarşılıqlı əlaqəli dərslər təşkil etmək deməkdir. Müəllimlər, tələbələrin fərqli ehtiyaclarına cavab verən dərs fəaliyyətləri hazırlamalıdırlar. Məsələn, qrup müzakirələri, icma layihələri və sosial fəaliyyətlər, şagirdlərin sosial bacarıqlarını təkmilləşdirmək və onların inteqrasiya olunmasını təmin etmək üçün vacibdir.

Məqsədyönlü öyrənmə:

Məqsədyönlü öyrənmə, şagirdlərin öz məqsədlərinə çatması üçün xüsusi olaraq hazırlanmış tədris planlarına əsaslanır. Məqsədyönlü öyrənmə yanaşması, şagirdlərin ehtiyaclarına və bacarıqlarına uyğun şəkildə fərdiləşdirilən dərs planlarını ehtiva edir. Tomlinson (2001)[2] bu yanaşmanın əhəmiyyətini vurğulayır və müxtəlif bacarıq səviyyələrində olan şagirdlər üçün fərdiləşdirilmiş tədrisin təhsil sistemində necə faydalı olduğunu göstərir.

İnklüziv yanaşmalar, tələbələrə öz öyrənmə məqsədlərinə çatmaq üçün fərdi dəstək verir. Bu, xüsusilə xüsusi ehtiyacları olan tələbələr üçün çox əhəmiyyətlidir, çünki onlar əlavə resurslarla və fərdi diqqətlə daha yaxşı nəticələr əldə edə bilərlər.

Məqsədyönlü öyrənmə, şagirdlərin müəyyən məqsədlərə çatmaq üçün fərdi şəkildə dəstəkləndiyi bir yanaşmadır. Bu yanaşma, hər bir şagirdin ehtiyaclarını nəzərə alaraq onun inkişafını dəstəkləyir və təhsil prosesini daha məhsuldar edir. Məqsədyönlü öyrənmə, xüsusi təhsil ehtiyacı olan şagirdlər üçün daha vacibdir, lakin hər bir şagirdin öyrənmə təcrübəsini fərdiləşdirməyə kömək edir.

Məqsədyönlü öyrənmə, şagirdlərin fərdi inkişafını dəstəkləyir və onların təhsil prosesinə aktiv şəkildə cəlb olunmalarını təmin edir. Dyson və Smith (2000)[6] ingilis dili dərslərində məqsədyönlü öyrənmənin tətbiqinin şagirdlərin özlərinə güvənlərini artırdığı və onların daha müstəqil öyrənməyə yönəldiyini qeyd edirlər. Məqsədyönlü öyrənmə, hər bir şagirdin öz ehtiyaclarına uyğun olaraq fərdi şəkildə inkişaf etməsini təmin edir.
Fərdiləşdirmə: Məqsədyönlü öyrənmə, hər bir şagirdin fərdi ehtiyaclarına uyğun olaraq tədris materiallarını və metodlarını seçməyi nəzərdə tutur. Şagirdlər, öz sürətlərində və öz tərzlərinə uyğun şəkildə öyrənməyə imkan tapırlar.
Şəxsi məqsədlərin müəyyənləşdirilməsi: Şagirdlər öz öyrənmə məqsədlərini müəyyənləşdirərək bu məqsədlərə çatmaq üçün motivasiya və özünə inam əldə edirlər. Müəllimlər, şagirdlərə bu məqsədləri təyin etmələrinə kömək etməli və onların inkişafını izləməlidir.
Dəstək və təşviq: Məqsədyönlü öyrənmə, şagirdlərin inkişafını dəstəkləmək üçün müxtəlif tədris resursları və əlavə dəstək xidmətlərini əhatə edir. Bu, fərdi dərslər, əlavə tədris materialları və ya xüsusi təhsil xidmətləri kimi resursları daxil edə bilər.
Məqsədyönlü öyrənmə yalnız akademik bacarıqları deyil, həm də sosial və emosional inkişafı dəstəkləyir. Tələbələr, öz məqsədlərinə çatmaq üçün fərdi yanaşmalar və metodlardan istifadə edərkən, özünə inamlarını artırır və müstəqil öyrənmə bacarıqları əldə edirlər. Bu da onların ümumi inkişafını və sosial inteqrasiyalarını gücləndirir.
Bundan əlavə, məqsədyönlü öyrənmə şagirdlərin sosial cəhətdən daha fəal olmasına və komanda işinə daxil olmalarına kömək edir. Şagirdlər, öz məqsədlərinə nail olmaq üçün bir-biri ilə əməkdaşlıq etməli və qarşılıqlı anlayışa əsaslanan münasibətlər qurmalıdırlar.
Məqsədyönlü öyrənmə və sosial inteqrasiya arasındakı əlaqə
Sosial inteqrasiya və məqsədyönlü öyrənmə arasında yaxın bir əlaqə mövcuddur. Sosial inteqrasiya, şagirdlərin bir-biriləri ilə əlaqə quraraq və qarşılıqlı əməkdaşlıq edərək məqsədlərinə çatmalarına kömək edir. Eyni zamanda, məqsədyönlü öyrənmə şagirdlərin öz fərdi ehtiyaclarına uyğun şəkildə inkişaf etmələrini təmin edir və onları sosial mühitə inteqrasiya edir. Beləliklə, bu iki anlayış bir-birini tamamlayaraq təhsil mühitində uğurlu və bərabər bir öyrənmə mühiti yaradır. İnklüziv tədrisin əsas prinsiplərindən biri sosial inteqrasiyadır. Bu, müxtəlif dil səviyyələrində və mədəniyyətlərdən olan şagirdlərin bir yerdə öyrənməsini təmin edir. İnklüziv təhsil, hər bir şagirdin fərdi ehtiyaclarını nəzərə alaraq, onların təhsil prosesinə daxil olmasını təmin edir və bərabər imkanlar yaradır. Ainscow və Sandill (2010) [1] bu yanaşmanın təhsil sistemindəki əhəmiyyətini vurğulayır və inklüziv təhsil modelinin sosial bərabərliyi artırmağa xidmət etdiyini qeyd edirlər.
Sosial inteqrasiya, şagirdlər arasında qarşılıqlı hörmət, anlayış və əməkdaşlıq inkişaf etdirir. Sullivan və McDonough (2019) [7] məqalələrində sosial inteqrasiyanın təhsilin keyfiyyətini artırdığını və şagirdlər arasında müsbət münasibətlər yaratdığını göstərirlər. Şagirdlər müxtəlif bacarıqlara və ehtiyaclara sahib olduqları zaman, onlar bir-birilərindən öyrənir və sosial cəhətdən daha güclü əlaqələr qururlar. Məsələn, müxtəlif dil səviyyələrinə malik olan şagirdlər, bir-biriləri ilə əlaqə qurduqda, bu həm dil bacarıqlarını inkişaf etdirir, həm də sosial inteqrasiyanı gücləndirir

Nəticə
İngilis dili tədrisində inklüziv yanaşmalar, təhsil mühitində bərabərlik və ədaləti təmin etməklə yanaşı, şagirdlərin dil bacarıqlarını daha təsirli şəkildə inkişaf etdirməyə kömək edir. Bu yanaşmalar, tələbələrin sosial, emosional və akademik inkişafını dəstəkləyir, hər bir şagirdin öz potensialını tam şəkildə reallaşdırmasına imkan verir. İnklüziv tədrisin davamlı olaraq inkişaf etdirilməsi, gələcəkdə daha mükəmməl təhsil mühiti və daha yaxşı nəticələr təmin edəcəkdir.
Sosial inteqrasiya və məqsədyönlü öyrənmə, inklüziv tədrisin ən vacib elementləridir. Bu yanaşmalar, şagirdlərin yalnız dil bacarıqlarını deyil, həm də sosial və emosional inkişafını dəstəkləyir. İnklüziv tədris mühitində, sosial inteqrasiyanı təmin etmək və şagirdlərin məqsədyönlü şəkildə öyrənməsini təmin etmək, onların ümumi inkişafını artırır və məktəb mühitində daha müsbət və bərabər bir

atmosferin yaranmasına imkan verir. Bu yanaşmalar təhsilin keyfiyyətini yüksəldir və hər bir şagirdin potensialını maksimum dərəcədə reallaşdırmasına kömək edir.

İnklüziv tədris, təhsil sistemində bərabərlik və ədaləti təmin edən mühüm bir yanaşmadır. Həm Azərbaycan, həm də ingilis dili tədrisində inklüziv metodların tətbiqi, müxtəlif ehtiyaclara malik tələbələrin təhsilini daha əhatəli və keyfiyyətli edir. Bu yanaşma, yalnız akademik inkişafı deyil, həm də sosial və emosional inkişafı dəstəkləyir. İnklüziv tədrisin davamlı inkişafı və tətbiqi, gələcəkdə təhsil sisteminin daha ədalətli və effektiv olmasına kömək edəcəkdir.

İngilis dili tədrisində inklüziv yanaşmalar, şagirdlərin yalnız dil bacarıqlarını inkişaf etdirməyə deyil, həm də onların sosial və emosional inkişafını təmin etməyə yönəlib. Sosial inteqrasiya və məqsədyönlü öyrənmə, bu yanaşmaların əsas komponentləridir. İnklüziv tədrisin tətbiqi, şagirdlərin öz ehtiyaclarına uyğun şəkildə inkişaf etmələrinə və sosial mühitə uğurla inteqrasiya olmalarına kömək edir. Bu yanaşmaların təhsilin keyfiyyətini artırdığı və şagirdlərin potensialını tam şəkildə reallaşdırmalarına imkan verdiyi aydındır. Bu səbəbdən, inklüziv tədris metodlarının tətbiqi, yalnız dil bacarıqlarının artırılmasına deyil, həm də ümumi inkişafın dəstəklənməsinə xidmət edir.

İstifadə Olunmuş Ədəbiyyat Siyahısı

Ainscow, M., & Sandill, A. (2010). Developing inclusive education systems: The role of organisational cultures and leadership. International Journal of Inclusive Education, 14(4), 401–416. https://doi.org/10.1080/13603110802504903

Baker, J., & Matusiak, M. (2013). Purposeful learning in the classroom: Developing effective strategies. Journal of Education and Learning, 8(2), 120–135. https://doi.org/10.5539/jel.v8n2p120

Dyson, A. H., & Smith, R. (2000). Teaching English in the inclusive classroom. Prentice Hall.

Hall, T., Vue, G., & Cooper, M. (2016). Universal design for learning in the classroom: Practical applications. ASCD.

Hodkinson, A., & Vickerman, P. (2009). Including learners with disabilities in the classroom. Routledge.

Salend, S. J. (2016). Creating inclusive classrooms: Effective and reflective practices (8th ed.). Pearson Education.

Schwab, R. L., & Smith, L. J. (2011). Effective collaboration in inclusive education. Pearson Education.

Sullivan, A., & McDonough, M. (2019). The role of social integration in inclusive education. Educational Review, 71(3), 274–295. https://doi.org/10.1080/00131911.2017.1421594

Tomlinson, C. A. (2001). How to differentiate instruction in mixed-ability classrooms (2nd ed.). ASCD.

UNESCO. (2005). Guidelines for inclusion: Ensuring access to education for all. UNESCO Publishing. http://unesdoc.unesco.org/images/0014/001402/140224e.pdf

THE ROLE AND IMPORTANCE OF ERRORS IN THE FOREIGN LANGUAGE LEARNING PROCESS

XARİCİ DİL ÖYRƏNMƏ PROSESİNDƏ SƏHVLƏRİN ROLU VƏ ƏHƏMİYYƏTİ

Rəcəbova Nərminə Nərman qızı
Bakı Dövlət Universiteti, müəllim Bakı Slavyan Universiteti, dissertant

Abstract
It is almost impossible for a person to do something perfectly and without mistakes the very first time they attempt it — this happens only rarely. The same situation can be applied to the process of learning a second language. It is inevitable that students will make mistakes while learning English. Making mistakes is natural for the student, and correcting them is the responsibility of the teacher. Even though the teacher may explain the material clearly, use various methods, and have students complete numerous exercises, mistakes will still occur — because this is natural and unavoidable. In fact, making mistakes is an indication that the learning process is taking place. In the teaching process, the main issue is not that students make mistakes, but rather understanding the reasons for these mistakes, and when and how they should be corrected. This article explores the causes and types of mistakes, and when, how, and by whom they should be corrected. For this purpose, research by local expert E. Farajova and foreign specialists such as J. Edge, Penny Ur, and J. Scrivener has been analyzed, and the results are presented in the article.
Key words: causes of making mistake, types of mistakes, correcting errors

Xülasə
İnsanın hər hansı bir işi ilk dəfə yerinə yetirməsi zamanı səhvsiz, tamamilə əla olması demək olar ki, mümkün deyil, bu, nadir hallarda baş verir. Eyni situasiyanı ikinci dili öyrənmə prosesinə də aid etmək olar. Tələbələrin İngilis dilini öyrənərkən səhv etmələri qaçınılmaz haldır. Səhv etmək tələbəyə, səhvləri düzəltmək isə müəllimə xas olan xüsusiyyətdir. Baxmayaraq ki, müəllim materialı kifayət qədər aydın izah edir, fərqli metodları tətbiq edir, tələbələrə çoxsaylı tapşırıqlar həll etdirir yenə də tələbələrin səhvi olacaq, çünki bu təbiidir və qaçınılmazdır. Əslində tələbələrin səhv etməsi öyrənmə prosesinin baş verdiyinin göstəricisidir. Tədris prosesində əsas məsələ tələbələrin səhv etməsi deyil, səhvlərin səbəbi və nə vaxt və necə düzəldilməli olmasıdır. Məqalədə səhv etmənin səbəbi, növü, nə zaman, necə və kim tərəfindən düzəldiləsi haqqında araşdırmalar aparılmışdır. Bunun üçün E. Fərəcova kimi yerli və J. Edc, Penni Ur, C. Skrivener kimi xarici mütəxəssislərin apardığı tədqiqatlar təhlil edilmiş və sonda əldə edilmiş nəticə məqalədə öz əksini tapmışdır.
Açar sözlər: səhv etmənin səbəbləri, səhvlərin növü, səhvlərin düzəldilməsi

Giriş

Səhvlərin düzəldilməsi tədris prosesinin bir hissəsidir və məşhur deyimdə olduğu kimi “We learn from our mistakes”. Hər bir tələbə səhv edə bilər, bu ümumidir, amma səhvlərin nə zaman düzəldilməsi məsələsi fərdidir. Çünki səhvlər tez-tez və çox düzəldilsə tələbə həvəsini, özünə əminliyini itirər və yalnız doğru bildiyi zaman öz fikrini bildirər, düzəldilməsə isə heç vaxt düzgün danışa və yaza bilməz. İngilis dilinin tədrisində istifadə olunan müxtəlif metod və yanaşmaların səhvlərin düzəldilməsi ilə bağlı fikirləri fərqlidir. Belə ki, bəziləri hər bir səhvin həmin an düzəldilməsinin tərəfdarı, bəziləri isə səhvlərin açıq – aşkar düzəldilməsinin heç bir nəticə

verməyəciyini qeyd edir. Müasir alim və tədqiqatçılar isə qeyd edir ki, yalnız kömək, öyrətmə məqsədilə səhvlərin düzəldilməsi doğru yanaşmadır. Qrammatika – tərcümə metodunun xüsusiyyətlərinə əsasən səhvlər dərhal düzəldilməli, Audiolinqual metod səhvlərin yolverilməz olduğunu, Təbii yanaşmanın tərəfdarları səhvlərin təbii inkişafının işarəsi olduğunu, Kommunikativ Dil Tədrisi isə səhvlərin öyrənmə prosesinin bir hissəsi olduğunu qeyd edir. Hattie və Yatesin də daxil olduğu çoxsaylı metodistlər səhvlərin çox düzəldilməsi tələbələrin motivasiyasına pis təsir etdiyini qeyd edir [3, s. 63]. P. Ur isə bildirir ki, səhvlərin düzəldilməsi məzmun faktorundan və fərdi müxtəlifliklərdən asılıdır [6 s. 60]. Eyni zamanda nəzərə almaq lazımdır ki, tələbələr bilik səviyyələrindən, yaşlarından – aşağı kurs və ya yuxarı kursda olduqlarından asılı olaraq səhvinin düzəldilməsi fərqli olmalıdır.

Səhvin etmənin səbəbləri.

Bilik səviyyələrinə görə tələbələr etdikləri səhvləri aşağıdakı səviyyələrə ayırmaq mümkündür:

Edilən səhvdən xəbərsiz – tələbələr etdikləri səhvi anlamırlar və onu düzəltmək iqtidarında da deyiilər.

Verilən ipucundan səhvin anlanılması – tələbələr ipucu vasitəsilə səhvi başa düşür və onu düzəldir.

Heç bir kömək olmadan səhvi bilmək – tələbələr etdiyi səhvi bilir amma yalnız ipucu olduqda onu düzəldə bilir.

Tələbə özü öz səhvini bilir və düzəldir.

Seçilmiş səhvlər – tələbələr yalnız diqqətləri yayınıq olduqda səhv edir və düzəldir.

Səhvsiz – demək olar ki, tələbələr səhv etmir və aydın və səlis nitqə sahib olur.

Səhvlər düzəldilməzdən əvvəl tələbələrin niyə səhv etdiyini araşdırmaq lazımdır. Belə ki, çoxsaylı tədqiqatlar səhv etmənin üç əsas səbəbini müəyyən etmişdir:

Dillərarası (ana dilinin təsiri) səbəb – buna xüsusilə İngilis dilinin tədrisinin ilkin mərhələsində rast gəlinir. Tələbə ana dilində öyrəndiyi qaydaları öyrəndiyi xarici dilə - İngilis dilinə də tətbiq edir, məs., bir çətir – an umbrella, yeddi çətir – seven umbrellas. Azərbaycan dilində say isimlə uzlaşmadığına görə bəzən tələbələr “seven umbrellas” əvəzinə “seven umbrella” deyir və ya azərbaycan dili ilə ingilis dilində cümlə üzvlərinin yeri fərqlidir. İngilis dilində “mübtəda – xəbər – tamamlıq” azərbaycan dilində isə “mübtəda – tamamlıq – xəbər” kimidir, məs., “Aleksandr ağac əkdi.” Cümləsini tələbə “Alexander planted a tree .” əvəzinə “Alexander a tree planted” kimi tərcümə edir.

Dildaxili (ingilis dilindəki istisnalar) səbəb – tez-tez rast gəlinən səbəbdir [2]. Məsələn, tələbə isimlərin cəminin “-s, -es” vasitəsilə düzəldiyini öyrənir, buna görə “tooth” təkdə, cəmdə isə “tooths” deyir və ya hərəkətin keçmiş sadə zamanda baş verdiyini ifadə edərkən “come” felini də “came” əvəzinə “comed” istifadə edir. Belə səhv etməmək üçün tələbələr hər bir qaydaya xas istisnaları öyrənməlidir.

Tədrisin məzmunu – dedikdə tədris olunan material, şərait və müəllim nəzərdə tutulur. Müəllimin dərsi aydın tədris etməməsi, materialın tələbənin səviyyəsinə uyğun seçilməməsi onların səhv etməsi ilə nəticələnə bilər. Buna görə də müəllim tələbənin bilik və bacarıqlarına uyğun materialı fərqli metodlardan istifadə edərək onlara maraqlı və aydın çatdırmalıdır.

J. Edge – Amerika alimi və tədqiqatçısı tələbələrin niyə səhv etdiyini müəyyən etmək üçün çoxsaylı araşdırmalar aparılmışdır [1. S. 2-12]. O, əldə etdiyi nəticəni “Mistakes and Correction” adlı kitabında nəşr etdirmişdir. Alim səhv etmənin dörd əsas səbəbini müəyyən etmişdir

✓ Tələbələrin ana dili ingilis dilinin mənimsənilməsinə mane olur, yəni ana dilində əldə edilmiş vərdiş və bacarıqlar ingilis dilində əldə öyrənilməli olan vərdiş və bacarıqların formalaşmasına əngəl olur və ya onu ləngidir (interfere),
✓ Tələbələr qaydaları öyrənir, amma tətbiq edə bilmir. Bu öyrənmə prosesinin bir hissəsidir,
✓ Tələbə düz və ya səhv olsa da öz fikrini çatdırmaq istəyir,
✓ Tələsən zaman.

İngilis dilçisi və tədqiqatçısı J. Scrivener qeyd edir ki, müəllim səhv düzəldərkən aşağıdakı sualların cavablarını diqqətdə saxlamalıdır [5, s. 298-301]:

1. Səhv hansı növdür?
2. Bu səhv düzəldilməlidirmi?
3. Nə vaxt düzəldilməlidir?
4. Səhvi kim düzəltməlidir?
5. Səhv necə düzəldilməlidir?
6.

Səhvin növləri.

J. Edge səhvlərin təsnifatını da müəyyən etmişdir. Belə ki, o, səhvləri buraxılmış söz, səhv və cəhd olaraq üç qrupa ayırmışdır. Buraxılmış söz çox kiçik səhvlərdir, müəllim və ya digər tələbənin eyhamı zamanı tələbə özü səhvi düzəldir, məs., ən çox edilən səhv – İndiki sadə zamanda cümlə deyərkən III şəxsin təkində "- s" –in buraxılması. Əgər tələbə özü öz səhvin düzəldə bilmir, amma sinifdə digər tələbə bu səhvi düzəldə bilirsə, bu ikinci qrupa aid səhvdir. Əgər heç kim səhvi tapa və düzəldə bilmirsə, həmin qayda bir daha tədris edilməlidir. Bəzən tələbə tədris edilməyən qrammatik qaydadan istifadə etmək və öz fikrini çatdırmaq istəyir. Bu zaman edilən səhv cəhd olaraq qiymətləndirilir. Alim qeyd edir ki, səhvlərin düzəldilməsi seçici olmalıdır, çünki bütün səhvlər düzəldilməli deyil. (Azərbaycan dilində "mistake" və "error" sözləri "səhv" kimi anlanılsa da, İngilis dilində fərqlidir. Belə ki, "mistake" – tələbə yorğun olduqda və ya müəllim və ya digər tələbələrin işarəsi ilə tələbənin özünün düzəltdiyi səhv, "error" isə təkrarlanan səhvdir, məs., tələbə hər dəfə "She can sings" deyirsə, demək o, modal fellərdən sonra xəbərin məsdər formada olmasını hələ də mənimsəməyib. Buna görə də müəllim yenidən fərqli metodlarla bu qaydanın izahına vaxt ayırmalıdır.)

Səhvləri aşağıdakı kateqoriyalara ayırmaq olar :

- Leksik səhv – söz səhvi;
- Fonoloji səhv – tələffüz səhvi;
- Sintaktik səhv – qrammatik səhv;
- Şərhedici səhv – natiqin istək və məqsədinin yalnış anlaşıldığı səhv;
- Praqmatik səhv – kommunikasiya qaydalarının pozulması.

Yuxarıda qeyd edilən təsnifatdan başqa səhvləri fəaliyyət və səriştə qruplarına da ayırmaq olar. Belə ki, tələbə yorularkən və ya tələsərkən etdiyi səhv fəaliyyət səhvi adlanır ki, bu da ciddi səhv sayılmır və tələbələr dərhal onu düzəldə bilər. Səriştə səhvləri isə təkrarlanan və ciddi səhvlərdir.

Səhvlər miqyasına görə yerli və qlobal olmaqla da iki hissəyə ayrılır. Kommunikasiya prosesinə maneə olmayan səhvlər yerli səhvlərdir ki, bura da məsələn, sözönlərinin doğru işlənməməsini misal göstərə bilərik. Qlobal səhvlər isə anlama prosesini çətinləşdirir, məs., cümlə üzvlərinin doğru işlənməməsi.

Səhvlərin düzəldilməsi

Səhvlər mimika və jestlərin köməyi ilə, işarələrlə və ya deyilərək düzəldilə bilər. İstifadə edilən işarələrə aşağıdakıları misal göstərmək olar:

➢ "the" artiklının yalnış istifadəsi zamanı barmaqlarla "T" hərfi göstərilir;
➢ Səhv sözü göstərərkən əllərin çarpazlaşdırılması;

- Qaydasız feillər səhv deyilərkən qulağı göstərmək;
- "by" sözününü ifadə etmək üçün əl ilə "bye" göstərmək;
- "to" sözününü ifadə etmək üçün "2" rəqəmindən istifadə.

Son zamanlar isə səhv deyil daha çox "feedback" – dil rəyi terminindən istifadə olunur. Tələbələrə feedback verilməsinin iki əsas məqsədi var: qiymətləndirmə və səhv düzəltmə. Qiymətləndirmə məqsədilə verilən feedback zamanı müəllim tələbəyə yaxşı və ya pis hazır olduğu haqqında məlumat verir. Səhvlərin düzəldilməsi zamanı isə müəllim səhvləri daha ətraflı qeyd edir. Eyni zamanda qeyd etmək lazımdır ki, tələbəyə yalnız səhvləri deyil, düzləri haqqında da məlumat verilməlidir, əks halda tələbə həvəsdən düşər. Diane J. Tedick feedback – dil rəyi prosesinə səhvlərin emalı kimi baxır və düzəldici feedbackin aşağıdakı növlərini qeyd edir:

- Səhvin açıq düzəldilməsi – müəllim tələbənin səhv etdiyini bildirir və onu düzəldir, məs.,

S: Leyla write a composition.
T: Leyla writes a composition.

- Yenidən tərtib etmək - müəllim səhvi birbaşa düzəltmir, lakin cümləni yenidən düzgün formada deyir.

S: Leyla write a composition.
T: Yes, Leyla writes a composition.

- Aydınlaşdırmaq üçün sual vermək – müəllim səhvin olduğuna eyham edir və tələbə özü səhvin düzəldir.

S: Leyla write a composition.
T: Sorry?
S: Leyla writes a composition.

- Metalinqvistik açarlar – müəllim düzgün cavabı demir, yalnız qrammatik qaydadan sual verir və tələbə öz səhvini özü düzəldir.

S: Leyla write a composition.
T: third person singular "-s"
S: Leyla writes a composition.

- Səhvin ortaya çıxarılması – müəllim tələbəni dayandıraraq özünün səhvini tapıb düzəltməyə vadar edir.

S: Leyla write a composition.
T: Repeat the sentence once more, please.
S: Leyla writes a composition.

- Təkrar – müəllim səs tonunu dəyişərək və ya intonasiya vasitəsilə tələbənin səhvini təkrar edir.

S: H Leyla write a composition.
T: Leyla **write** a composition.
S: Leyla writes a composition.

- Bədən dili və üz hərəkətləri. Müəllim mimika və ya əl hərəkətləri ilə tələbənin səhv etdiyini bildirir.

Səhvlərin edilmə səbəbi və necə düzəldilməsini araşdırdıqdan sonra qarşıda duran mühüm məsələ səhvlərin nə zaman düzəldilməsidir. Səhv dərhal və ya sonradan düzəldilə bilər. Bu, bir neçə faktordan asılıdır. Bunlardan biri də müəllimin nə keçdiyidir, məs., yeni sözlər tədris edilirsə, müəllim tələffüz səhvin dərhal, oxuda səlislik tədris edildikdə isə tələffüz səhvi sonradan düzəldilməlidir. Bunun üçün müəllim tələbədən kömək də istəyə bilər, yəni onlar səhvlərinin nə vaxt düzəldilməsini istəyir. Məsələn, hər bir tələbənin qarşısına işıqfor, yəni üç rəng – qırmızı, sarı və yaşıl kart olur. Qırmızı – səhvləri düzəltmə, sarı - əhəmiyyətli səhvləri düzəlt, yaşıl – mümkün qədər bütün səhvlər düzəlt mənasını ifadə edir. Tələbə bu kartları qaldırmaqla öz istəklərini işarə ilə göstərir. Səhvlərin düzəldilib və ya düzəldilməməsi dərsin məqsədindən də asılıdır. Əgər məqsəd nitqin dəqiqliyinə yönəldilibsə dərhal səhv düzəldilməli, əksinə diqqət səlisliyə yönəlibsə səhv ya sonradan

düzəldilməli, ya da elə texnika seçilməlidir ki, tələbənin nitqinə maneə olmasın. Səhvi ya müəllim, ya tələbə özü ya da digər tələbələr düzəldir. Müəllimin səhvi düzəltməsininin müsbət və mənfi tərəfləri var. Belə ki, səhvin müəllim tərəfindən düzəldilməsi zamanı bütün tələbələr tərəfindən eşidilməsi, aydın olması və vaxta qənaət edilməsi müsbət tərəfləri, müəllimin sinifdə aparıcı qüvvə olması, tələbələri fikirləşməyə həvəsləndirməməsi isə mənfi xüsusiyyətləridir. O, müxtəlif səhv düzəltmə texnikalarından istifadə etməlidir, çünki hər dəfə eyni texnikadan istifadə səmərəliliyi azaldar. Tələbələr öz nitqini yazıb, dinləyib və öz səhvlərini aşkar edib düzəldə də bilər. Üçüncüsü – digər tələbələrin səhvləri düzəltməsi zamanı bütün tələbələr aktiv olur, onları fikirləşməyə və birgə işləməyə həvəsləndirdiyi kimi bəzən tələbələr arasında münaqişəyə səbəb ola və ya səhv formalar düzəltməyə səbəb ola bilər. Tələbələr bilməlidir ki:

- müəllim onlardan mükəmməl olmalarını gözləmir;
- səhvlərdən asılı olmayaraq müəllim onları sevir;
- tələbənin özü deyil, nitqindəki səhv düzəldilir;
- səhv etmək adi haldır və səhvlərdən öyrənmək lazımdır;
- səhvi özləri və ya qrupdakı digər tələbələrin düzəltməsi daha məqsədəuyğundur;
- ehtiyac olduqda müəllim səhvi düzəldəcək, çünki bu yalnız birinci mərhələdir, sonra kommunikasiya zamanı daha səlis və düzgün nitq lazımdır.

Müəllimin etməli olduğu [4, s. 42]:

- Tələbələri səhvlərdən qorumamalı, həllə hədəflənməli;
- Öz səhvlərini misal çəkməli, nəticəni və ondan necə öyrəndiklərini göstərməli;
- Tələbələri etdiyi səhvə görə məsuliyyət daşımalı olduğunu, digərləri günahlandırmamağı öyrətməli;
- Tələbələrin səhvlərini düzəlməyə ruhlandırmalı.

Eyni zamanda müəllim səhvin yeni və ya təkrar olduğuna da diqqət etməlidir. Belə ki, yeni səhvdirsə, bu normaldır, çünki yeni səhv tələbələrin yeni qrammatika və söz öyrənməyə çalışmasının göstəricisidir. Əgər səhv hər dəfə təkrarlanırsa bu səhv mütləq yenidən izah edilməli və düzəldilməlidir. Lakin müəllim heç vaxt kəskin olaraq "No, you are wrong" ifadəsini işlətməməlidir, çünki bu tələbələri utandıra bilər və aktiv tələbə də passiv tələbəyə çevrilər. Amma unutmaq olmaz ki, heç səhvin düzəldilməməsi tələbə üçün faydalı deyil.

Bəzən tələbələr çox səhv düzəldilməsi prosesindən sıxılır. Buna görə də müəllim müxtəlif oyunlardan istifadə edərək maraqlı tərzdə tələbələrin səhvini düzəldə bilər. Bu oyunların əsas məqsədi tələbələrin səhvlərini tapmaları və onu yadda saxlamalarıdır. Şifahi olaraq səhvlərin tapılması üçün aşağıdakı növ oyunlardan istifadə edilir:

- Səhvlərin tapılması yarışması. Tələbələr qruplara ayrılır və təqdim edilmiş materialda mümkün qədər çox səhv tapmağa çalışır. Səhvlərin ümumi sayı isə əvvəlcə onlara deyilir. Səhv düzgün müəyyən etməmiş qrup oyundan çıxır.
- Cütlüklərlə iş. Tələbələr A və B qrupuna ayrılır. A qrupu B qrupunun, B qrupu isə A qrupunun səhvini tapır.
- Səhvlərin tapılmasının idarəedilməsi. Tələbələr mətndəki və ya cümlələrdəki səhvi tapmağa çalışır, müəllim isə neçə səhv qaldığını (tələbələrin səhv düzəltdikləri də daxil olmaqla) deyir. Bu oyun bütün səhvlər düzələnə qədər davam edir.
- Səhv var ya yox oyunu. Bunun üçün tələbələrə iki kart verilir "A" və "B". Eyni qrammatik qaydaya aid iki eyni – biri düz, biri səhv və ya iki fərqli cümlə verilir. Bəzən müəllim çaşdırıcı olması üçün hər iki cümləni düz və ya səhv göstərə bilər, səhv hansı cavabdadırsa – A ya B, tələbə o kartı qaldırır. Məs., "A: I drank a glass of water. B: Children broke a glass of the window." Tələbə B kartını qaldırır. Digər nümunəyə nəzər salaq: "A: I need currents news. B: Information are not clear." Bu zaman tələbə hər iki kartı qaldırır.
- Səhvlərin tapılmasına reaksiya. Müəllim mətni oxuyur, səhv olan kimi tələbə əlin qaldırıb səhvi deməlidir və hər cavaba görə xal qazanır, əksinə səhvi tapa bilmədikdə xal itirir və sonda ən

çox xal kimdədirsə o qalib gəlir. Burda oyunun məqsədi fərqli ola bilər, məs., səs, söz birləşməsi və ya qrammatik səhvin tapılması.

İndi isə yazılı səhvlərin düzəldilməsi üçün oyunlara nəzər yetirək:

- "ot çubuqları"ndan istifadə. Müəllim tələbələrin esselərindəki səhv cümlələri ayrı – ayrı kağıza – ot çubuğuna yazır və divara yapışdırır. Tələbələri isə üç nəfərdən ibarət qruplara ayrılır. Onlar bir-bir gələrək bir çubuğu götürməli, yerlərinə qayıdıb səhvi düzəltməli və müəllimə göstərməlidir. Əgər cavab doğrudursa qaçıb növbəti çubuğu götürür, əksinə cavab səhvdirsə əyləşib səhvi düzəltməlidirlər. Beləliklə ən çox çubuğu olan qrup qalib gəlir.
- Yapışqan kağızlar. Müəllim səhv cümlələri divarlara yapışdırır. Tələbələri qruplara ayırır və onları nömrələyir. Sonra tələbələrə yapışqan vərəqlər verir. Onlar sinfi gəzib divara yapışdırılmış səhv cümlələri düzəldərək əllərindəki yapışqan kağıza yazır və öz nömrəsini ora qeyd edir. Sonda ən çox səhv düzəltmiş qrup qalib gəlir.
- Səhv yoxsa düz? Tələbələr iki qrupa ayrılır, onların esselərindəki səhv cümlələri A və B kartına yazılır. A kartındakı səhv cümlə B kartında düz olmalıdır və ya əksinə. Qruplara təxminən 10 dəqiqə vaxt verilir. Onlar səhvləri tapmalı və düzəltməli, sonra isə bütün qrupla müzakirə edilməlidir.
- Sıfır X (iks) oyunu. Müəllim lövhədə "X – O" oyunu üçün böyük xana çəkir və tələbələrin esselərindəki səhv cümlələri bu xanalara yazır. Tələbələr "0" və "X" qruplarına ayrılır. Onlar xananı seçir, səhvi düzəldir və xanaya "X" və "0" yazır. Vertikal, horizontal və diaqonal sıranı hansı qrup doldursa həmin qrup qalib gəlir.
- Uyğunlaşdırma oyunu. Bu oyun iki mərhələdən ibarətdir. Müəllim səhvlərin yazıldığı və bu səhvlərin izah olunduğu kartlar hazırlamalı və bu kartları tələbələrə təqdim etməlidir. Tələbələr səhv cümlələrə bu səhvlərin düzəldilməsinin izahı yazılan kartı uyğunlaşdırmalıdır. İkinci mərhələdə müəllim izah olan kartları yığır və tələbələr izahı özləri yazır.
-

Nəticə

Məqalə yazılarkən yerinə yetirilmiş araşdırmalardan və yuxarıda qeyd olunanlardan belə qənaətə gəlmək olar ki, bütün tələbə və şərait üçün müəyyən bir səhv düzəltmə metodu yoxdur. Nə vaxt və necə səhv düzəltmək müəllimin öhdəsinə düşür. Vaxtında və düzgün feedback səhvlərin azalmasına, tələbələrin motivasiyasının artmasına və daha yaxşı nəticələr əldə etməsinə səbəb olur. Tələbələr anlamalıdır ki, tədris prosesinin məqsədindən asılı olaraq bütün səhvlər düzəldilməyə bilər. Bunun üçün müəllim kommunikasiya üçün vacib sayılan səhvləri lövhənin sağ, kiçik səhvləri isə sol tərəfində yazır. Tələbələrə sol gözlərini yumub yalnız sağ gözləri ilə baxmaları tələb edilir və onlar sağ tərəfdə yazılmış əsas səhvləri görür.

Tədris və öyrənmə prosesində edilən səhvdən asılı olmayaraq tələbələr hər zaman N. Mandelanın fikrini şüar etməlidirlər :"I never lose. I either win or learn."

İstifadə Edilmiş Ədəbiyyat

1. Edge J., Mistakes and Correction. / J. Edge, Longman Keys to Language Teaching, - 1989,- 80 p.
2. Farajova E., Error correction in language teaching, // Azərbaycan Dillər Universitetinin Yaranmasının 80 İlliyinə Həsr Olunmuş "Xarici Dillərin Tədrisinin Aktual Problemləri" Mövzusunda Respublika Elmi-Praktik Konfransinin Tezisləri, - Bakı: 11-12 May – 2017, - s. 96-100
3. Hattie, J. & Yates, G. C. *Visible learning and the science of how we learn. /* J. Hattie, & G. C. Yates, Routledge, - 2013, - 368 p.
4. Pawlak M., Error correction in the foreign language classroom./ M. Pawlak, Springer, 2014, - 288 p.
5. Scrivener J. Learning Teaching, 3rd ed. / J. Scrivener, MacMillan, - 2011, - 435 p.
6. Ur P., A Course in Language Teaching, Cambridge Teacher Training and Development. / P. Ur, Cambridge University Press, - 2012, - 368 p.

WAYS OF INFLUENCE OF PERSONALITYS SELF-AWARENESS AND SELF-ASSESSMENT ON THE EDUCATION SYSTEM

ПУТИ ВЛИЯНИЯ САМОСОЗНАНИЯ И САМООЦЕНКИ ЛИЧНОСТИ НА СИСТЕМУ ОВРАЗОВАНИЯ

ŞƏXSİYYƏTIN ÖZÜNÜDƏRK VƏ ÖZÜNÜQİYMƏTLƏNDİRMƏSİNİN TƏHSİL SİSTEMİNƏ TƏSİRİ YOLLARI

Rəhimova Qəribə Vahid qızı
Azərbaycan Dövlət Pedaqoji Üniversiteti
Orcid https://orcid.org/0000-0002-2231-3660

Abstract
In addition to being relevant at all times, various opinions have been expressed about its nature. Azerbaijani psychologists have also conducted important research in this field, dating back to the 20th century. The educational system plays a vital role in shaping personality, and students develop moral qualities that are fundamental to personality, enhance their worldviews, and acquire skills and abilities. Self-discipline, self-discipline, self-esteem, and self-esteem are also developed and shaped. Self-discipline is a form of self-control that shows him who he is, and it is his knowledge of his abilities. It manifests from an early age and improves during adulthood. In addition to further analysing each event during adulthood, it further develops its personal and moral qualities. Self-esteem and self-esteem are a complex process.It is shaped by observation and self-analysis, when a person usually looks at themselves through the eyes of others and compares themselves to them. Self-esteem is used in a variety of ways — moral, aesthetic, intellectual, and emotional values. The level of self-esteem depends directly on whether a person is critical of themselves or not, whether they are demanding or not, that is, they do not see a speck in their own eye, while they choose at faults in another person. Self-esteem is based on a person's self-worth, their abilities, and their standing in relation to others. Self-esteem is closely related to self-worth. In this respect, self-esteem is a prominent feature of a person's character. Self-esteem is usually used in moral, aesthetic, intellectual, emotional, and so on. However, experience has shown that in all cases they carry an emotional cost.
Keywords -selfdetermination, personality, society, relationship, activity, selfsteem

Резюме
Помимо того, что он актуален во все времена, были высказаны различные мнения о его природе. Азербайджанские психологи также провели важные исследования в этой области, начиная с 20-го века. Образовательная система играет жизненно важную роль в формировании личности, и учащиеся развивают нравственные качества, которые являются основополагающими для личности, совершенствуют свое мировоззрение, приобретают навыки и умения. Самодисциплина, самодисциплина, самоуважение и самоуважение также развиваются и формируются. Самодисциплина – это форма самоконтроля, которая показывает ему, кто он есть, и это его знание своих способностей. Проявляется с раннего возраста и улучшается во взрослом возрасте. Помимо дальнейшего анализа каждого события в период взрослой жизни, он еще больше развивает его личностные и моральные качества. Самооценка и самооценка – сложный процесс.Он формируется наблюдением и самоанализом, когда

человек обычно смотрит на себя глазами других и сравнивает себя с ними. Самооценка используется по-разному — морально, эстетически, интеллектуально и эмоционально. Уровень самооценки напрямую зависит от того, критичен человек к себе или нет, требователен он или нет, то есть в своих глазах он не видит шины, а в другом человеке выбирает волосы. Самооценка основана на самооценке человека, его способностях, его способностях, его месте в отношениях с другими. Самооценка тесно связана с самооценкой. В связи с этим самооценка является заметной чертой личности человека. Самооценка обычно используется в моральной, эстетической, интеллектуальной, эмоциональной и так далее. Однако опыт показал, что во всех случаях они имеют эмоциональную цену

Ключевые слова – самоопределение, личность, общество, отношения, активность, самооценка

Xülasə

Şəxsiyyət mövzusu hər zaman aktual olmaqla yanaşı, onun mahiyyəti barədə müxtəlif fikirlər irəli sürülmüşdür.Azərbaycan psixoloqları da bu sahədə mühüm tədqiqatlar aparmışlar ki,bu da ötən əsrin XX-ci illərinə təsadüf edir. Təhsil sistemi şəxsiyyətin formalaşmasında əsaslı rol oynayır.Şagird və tələbələrdə şəxsiyyətin əsasını təşkil edən mənəvi keyfiyyətlər formalaşır, dünyagörüşləri artır, bacarıq və qabiliyyətlərə yiyələnirlər.Həmçini şəxsiyyətin əsasını təşkil edən özünüdərk, özünütərbiyə, özünütənqid, özünüqiymətləndirmə də inkişaf edib formalaşır.Özünüdərketmə bir növ insanın kim olduğunu ona göstərməsidir,insanın özü, imkanları haqqında biliklərdir.Lap kiçik yaşlarından başlayaraq təzahür edir və böyük yaş dövründə daha da təkmilləşir.Böyük yaş dövründə hər bir hadisəni daha da dərindən analiz etməklə yanaşı şəxsi, mənəvi keyfiyyətlərini daha da inkişaf edir.Özünüqiymətləndirmə və özünüdərketmə mürəkkəb bir prosesdir.İnsanın özü haqqında təsəvvürlərinin formalaşması onun özünüqiymətləndirməsi ilə bağlıdır.

O,özünü müşahidə və özünü təhlil yolu ilə formalaşır, bu zaman insan özünə adətən başqa adamların gözü ilə baxır və özünü onlarla müqayisə edir. Özünüqiymətləndirmə zamanı qiymətin müxtəlif növlərindən əxlaqi, estetik, intellektual, emosional qiymətlərdən istifafə olunur. Özünüqiymətləndirmədə özünütərbiyənin səviyyəsi, insanın özünə tənqidi yanaşıb ,yanaşmamasından, özünə qarşı tələbkar olub-olmamasından bilavasitə asılıdır, yəni öz gözündə tiri görmür, başqasında tükü seçir.Özünüqiymətləndirmə şəxsiyyətin özünü, öz imkanlarını, keyfiyyətlərini, qabiliyyətlərini, özünün başqa adamlarla münasibət sistemindəki yerini qiymətləndirməsindən ibarətdir.Özünüqiymətləndirmə insanın özünüdərketməsi ilə sıx bağlıdır. Bu baxımdan insanın mənlik şüurunun formalaşmasında özünüqiymətləndirmə xüsusi yer tutur. Özünüqiymətləndirmə zamanı adətən qiymətin əxlaqi, estetik, intellektual, emosional və s. Növlərindən istifadə olunur. Lakin təcrübə göstərir ki, bütün hallarda onların içərisində emosional qiymətlər əsas yer tutur. Bütün hallarda özünüqiymətləndirmədə emosional çalar üstünlük təşkil edir. Özünüqiymətləndirmə səviyyəsində qiymətverən və qiymətləndirilən eyni adam olduğuna, mən-mənə qiymət verdiyinə görə burada özünüsevmə, özünəhörmət, ləyaqət hissi özünə geniş yer edir. Ona görə də burada subyektiv amillərin təsiri qaçılmaz olur.

Açar sözlər - özünüdərk,şəxsiyyət,cəmiyyət,münasibət,fəaliyyət,özünüqiymətləndirmə

GİRİŞ

Müasir psixologiya özünüqiymətləndirməni şəxsiyyətin özünüdərketməsinin mühüm bir tərəfi, onun inkişafının məhsulu kimi xarakterizə edir. Özünüqiymətləndirmə, mənlik şüuru kimi, bütövlükdə, ictimai xarakter daşıyır və sosial faktorların təsiri ilə şərtlənir.

Aparılan psixoloji tədqiqatlar göstərir ki, insanın cəmiyyətdə qiymətləndirilməsinin kriteriyaları və insanın başqalarını qiymətləndirərkən əsas tutduğu göstəricilər sonradan onun özünü qiymətləndirərkən tətbiq olunur.Bu onu göstərir ki, insanın özünüqiymətləndirməsi ictimai münasibətlərlə determinə olunur (S.L.Rubinşteyn). Bir sıra tədqiqatlarda özünüqiymətləndirmənin şəxsiyyətin dünyagörüşü və ideya istiqaməti ilə əlaqədar olduğu qeyd edilir (L.İ.Bojoviç, V.S.Merlin və başqaları).Tədqiqatçılar belə bir fikri qeyd edirlər ki, özünüqiymətləndirmə - əmək, idrak və ünsiyyətin mürəkkəb məhsulu olmaqla davranış və fəaliyyətin təşkil olunmasının vasitəsi kimi təşəkkül tapır.Başqa insanın dərk olunması insanın özünü dərk etməsini qabaqlayır və onun üçün mənbə və istinad rolunu oynayır. Müqayisə, özünü başqaları ilə qarşılaşdırmaq özünüqiymətləndirmənin qəbul olunmuş göstəriciləridir.Fəaliyyət və ünsiyyət prosesində özünü başqaları ilə müqayisə edən insan başqalarında müşahidə etdiyini sonradan özündə görür və bu əsasda öz hərəkət və davranışını, şəxsiyyətinin xassə və keyfiyyətlərini dərk etməyə başlayır.Müəyyən mənada başqalarında müşahidə olunan şəxsiyyətin müxtəlif keyfiyyətlərinin insanın özünə keçidi baş verir.Xüsusi olaraq qeyd etmək lazımdır ki, müqayisənin tətbiq olunması insanda idealın olması ilə əlaqədardır.Dərk olunan ideal məktəbli üçün əxlaqi nümunə kimi çıxış edir və şagird bu əsasda özünü şüurlu surətdə formalaşdırmağa, özünün və başqalarının hərəkətlərini qiymətləndirməyə çalışır.Özünüqiymətləndirmənin inkişafının ən zəruri mənbəindən biri insanın davranış və fəaliyyətinin ətrafdakı adamlar tərəfindən qiymətləndirilməsi, o cümlədən onun şəxsiyyətinin keyfiyyətləridir.Tanınmış psixoloq L.İ.Bojoviçin mülahizəsinə görə, ictimai qiymət məktəblinin mənlik şüurunun formalaşmasında ikili rol oynayır.Əvvəla, onun davarnışının ətrafdakıların tələblərinə uyğun gəlməsinin kriteriyası olmaqla ictimai qiymət yeniyetmənin ətraf mühitlə qarşılıqlı münasibətlərinin xarakteri haqqında onda təsəvvür yaradır və bu əsasda onun emosional rahatlığını, davranışın subyekti kimi özünə münasibətini təyin edir. İkincisi, ictimai qiymət yeniyetməyə davranış və fəaliyyətini konkret növlərindən bu və ya digər keyfiyyətləri ayırmağa və onları şüurun predmetinə, o cümlədən yeniyetmənin özünün qiymətləndirmə obyektinə çevirir.Məktəblinin mənlik şüurunun formalaşmasında ictimai qiymətin funksiyası onun böyük pedaqoji əhəmiyyətə malik olmasını şərtləndirir.Müşahidələr göstərir ki, insanın özü haqqında fikirlərinin yaranmasında kollektivdəki həyat və qiymətləndirici münasibətlərin inkişafı həlledici əhəmiyyətə malikdir.Məhz onların əsasında özünüqiymətləndirmə formalaşır.İnsan özünün işlərinin qiymətini kollektiv və sosial qiymət əsasında dərk edir.

Mövzu:

S. L. Rubinşteyn **“**İnsan və dünya” əsərində yazır: “...insan həyatının ilk şərtlərindən birincisi başqa bir insandır. Başqa bir insana, insanlara münasibət insan həyatının əsas strukturunu, onun özəyini təşkil edir.... İnsanın başqa insanlarla münasibətini üzə çıxarmağa yönəlmiş insan həyatının psixoloji təhlili həqiqətən həyati psixologiyanın əsasını təşkil edir”.

D. N. Uznadze isə deyirdi ki,insan öz niyyətlərini,şüurlu və şüursuz əqsədlərini,münasibətlərini xarici aləmdə təzahür etdirməklə özünü xarici aləmə gətirir, xarici aləmdə obyektivləşir.

Şəxsiyyət kimdir ?- görünüş,fərdi bədən, bilinməyən izaholunmaz bir ruhugizlətmək, həyatda müəyyən bir yer tutan, müxtəlif dəyişikliklərdə əlçatan bir şəxs.

Şəxsiyyət -görkəmli insan, gücə malik, sosial iyerarxiyanın zirvəsinə yüksələn öz fikrini dolğun şəkildə ifadə edən şəxs.

Şəxsiyyət -cəmiyyətin müəyyən etdiyi funksiyaların şəxs tərəfindən yerinə yetirilməsi,müəyyən edilmiş hərəkətlər, sosial rollar, kollektiv ideyaları qəbul etmək və onlara riayət etmək,sosial iyerarxiyada əvvəlcədən müəyyən edilmiş yer tutmaq, başqaları ilə xidmət etmək və birləşmək.
Şəxsiyyət – konstitusiya, psixika, davranış, sosial status, nailiyyətlər, ictimai tanınma, insan tipi.
Şəxsiyyət – insanın daxili mahiyyəti, onun anlaşılmaz ruhu, əsrarəngiz dühası, ifadə olunmaz və əlçatmaz fərdiliyidir, yaradıcılıqda və böyük əsərlərdə özünü bəyan edir.
Şəxsiyyət -insanın şüurlu mənliyi, onun dərin ruhunu ümumbəşəri ideya və idealların mərkəzi kimi ruhla birləşdirərək, varlığın ən yüksək pillələrinə yüksəlir.
Şəxsiyyət – bir şəxs rasional və aktivdir, aktiv şəkildə dərk edən və dəyişdirən varlıq öz müqəddəratını təyin edə bilən, başqaları ilə münasibətlərdə özünü yaradan, perspektivə yönəlmiş və "öz qarşısında", yaradıcı və məhsuldar bir subyekt.
Şəxsiyyət -insanın dünyaya və başqa insanlara münasibəti, kollektiv subyekt, vahid "Biz"kimi inkişaf edən başqa Mən-lərin onun mənliyinə daxili təcəssümü və ümumiləşdirilməsi.
Şəxsiyyət konkretdir,tək, fərdi şəxs, özünəməxsus həyat tərzi keçirən,özünəməxsus bədənə və zehni quruluşa sahib olan, öz həyat yolunu quran, baş verənhər şeyə şəxsən münasibət bildirən, özünü tanımaqda həqiqiliyi tapmaq.
İnsanın müasir həyata daxil olmasının çoxşaxəliliyinə, mədəni və şəxsi tarixində inkişaf etmiş potensiallarının müxtəlifliyinə, varlıqda bir çox qabiliyyətlərinin aktivi ştirakının reallığına cavab verən şəxsiyyətin çoxölçülü baxışına uyğun gələn, şəxsiyyətin ayrılmaz tərifini tapmağı zəruri hesab edərək, psixoloq **E.B.Starovoitenko** aşağıdakı variantı təklif edir: "Şəxsiyyət dərin, şüurlu və aktiv həyat sürən, sabit mənəvi-fiziki-psixoloji vəziyyətə malik olan fərdi bir insan kimi müəyyən edilə bilər.Praktiki birlik, təbiət, mədəniyyət, cəmiyyət, başqa bir insan dünyası ilə dəyər münasibətlərində inkişaf edən, insanlar arasında özünəməxsus yer tutan, özünü digər Mənlərlə əlaqələndirən, bir çox başqaları ilə mənalı və aktiv dialoqda yaşayan və burada öz fərdiliyini kəşf edən».
Müxtəlif sahələrində çalışan alim və mütəfəkkirlərin illərlə diqqət mərkəzində dayanan mühüm problemlərdən biri şəxsiyyət mövzusudur.Müasir dövrdə mövzu öz aktuallığını saxlamaqdadır.Şəxsiyyət, onun fəallığı, formalaşması, strukturu kimi məsələlər, ümumiyyətlə şəxsiyyət anlayışının mahiyyəti barədə müxtəlif fikirlər irəli sürülür. Bu bir daha həmin problemin mürəkkəb və çətin olduğunu təsdiq edir.Çünki ictimai inkişafın sosial-iqtisadi, ictimai-siyasi baxımdan inkişaf etməsi şəxsiyyətin necə formalaşmasından asılıdır. Ümumiyyətlə şəxsiyyət anlayışı sosial elmlər sistemində formalaşan anlayışdır. Şəxsiyyət problemi pedaqogika, psixologiya, sosiologiya və başqa sosial elmlərin əsasını təşkil etdiyi üçün bu məsələ ilə bağlı aparılan tədqiqatlar, nəzəriyyələr çoxluq təşkil edir.Kimdir şəxsiyyət?
Şəxsiyyət – ictimai münasibətlərə daxil olan, ictimai inkişafda payı olan və öz həyat şəraitini aktiv surətdə dəyişən sosial varlıqdır.Şəxsiyyət – müəyən ictimai tarixi dövrdə yaşayıb fəaliyyət göstərən, ətraf mühiti özünə uyğun dəyişdirməyi və ünsiyyətə girməyi bacaran şüurlu ictimai bir varlıqdır.(BayramovƏ.S.,1981,s.250).Şəxsiyyət – bioloji, sosial və psixoloji münasibətləri inteqrasiya edərək, fərdin özünəməxsus simasının yaranması prosesidir və bu ierarxik münasibətlər sistemi inteqrativ bir keyfiyyət kimi şəxsiyyəti səciyyələndirir.
Azərbaycan psixoloqları da bu sahədə mühüm tədqiqatlar aparmışlar və aparılan ilkin tədqiqatlar keçən əsrin XX-ci illərində aparılsa da, eksperimental tədqiqatlara son dövrlərdə təsadüf edilir. Qeyd edək ki, bu sahədə aparılan tədqiqatlar müəlliflərin iri həcmli kitabları, elmi məqalələri, əsərləri, məruzələri, tezisləri, monoqrafiyaları, namizədlik dissertasiyaları, doktorluq dissertasiyaları – bir sözlə, elmi-tədqiqat işlərində ətraflı şəkildə öz əksini tapmışdır.
Təhsil sistemi şəxsiyyətin formalaşmasında əsas rol oynayır. Təhsil prosesi boyunca şagird və tələbələrdə şəxsiyyətin əsasını təşkil edən mənəvi keyfiyyətlər daha da püxtələşir, əldə etdikləri bilik bacarıq və vərdişlər dünyagörüşlərini artırır, mövcud xarakterləri artıq yetişmiş olur, bir çox bacarıq və qabiliyyətlərə yiyələnirlər. Şəxsiyyətin əsasını təşkil edən mühüm struktur əlamətlərinə özünüdərk, özünütərbiyə, özünütənqid, özünüqiymətləndirmə də daxildir. Bu struktur əlamətləri

sırasında özünüdərk və özünüqiymətləndirməni xüsusilə qeyd etmək gərəkdir. Bu cür əlamətlər şəxsiyyətin əsas struktur əlamətləri olmaqla bərabər, təhsil sisteminin də əsasını təşkil edir.
Özünüdərk "Mən"-in daxili strukturunu təşkil edir və "mən"-ə münasibəti özündə ehtiva edir. Özünüdərketmə mürəkkəb proses olmaqla bərabər insanın zehni fəaliyyətinə istinad edir. Çünki hadisənin subyekti də, obyekti də özüdür. Özünüdərketmə, diqqətin anlıq hadisələrə fokuslanması və daxili təcrübələrin müşahidə edilməsini təmin edən zehni və bədən təcrübəsidir. (Cabbarov R., 2019,s.200)
Həmçinin özünüdərketmə, insanın öz zehni vəziyyətini müşahidə etmə bacarığıdır ki, insan öz hərəkət və münasibətlərinə üçüncü şəxsin baxış açısı ilə müdaxilə edir. Özünüdərketmə avtobioqrafik xatirələrə çıxışı təşkil edir. Həmçinin, təkmil idrak və fiziki baxımdan özünə nəzarət və zehni cəhətdən vaxt səyahəti də daxil olmaqla bir sıra bacarıqlara da fayda verir. Ümumiyyətlə, özünüdərketmə keçmiş zamanların Budist tətbiqidir və bir növ insanın kim olduğunu incələməsidir. Dünyanı və dünyadakı yerimizi necə gördüyümüzü sorğulamaqdır. Şüurlu özünüdərketmə həm şüur, həm də özünüdərketmə daxil olmaqla onu qəbul edən, mühakimə etmədən sadəcə həmin ana fokuslanmağı əsas götürən bir dərketmə halıdır. Şüurlu dərketmə zamanı insan diqqətini hara yönəltdiyini və zehnini nə ilə məşğul etdiyini dərk edir. Özünüdərketmə duyğular, motivasiya, dəyərlər və bacarıqlar daxil olmaqla psixoloji "Məni"-in dərk olunmasını təmin edir. "Özünüdərk"-ə münasibətdə "şüur" anlayışı ümumi bir anlayış kimi çıxış edir. Şüurun fəaliyyətinin nəticəsi dünya biliklərdir, özünüdərk isə insanın özü, imkanları haqqında biliklərdir. Məhz elə bu komponentlərin qarşılıqlı əlaqəsi, mənlik və xarici mühit arasındakı qarşılıqlı əlaqə də bu biliklərin simvolik, mənalı formalaşdırılmasını təmin edir və özünümüdafiə, özünüinkişaf üçün əsas təşkil edir.
Özünüdərketmə hər yaş dövründə müxtəlif cür təzahür edir. Kiçik yaşlardan başlayaraq formalaşmağa başlayan bu proses gənclik yaş dövründə daha da təkmilləşir. Bir növ inkişafın kuliminasiyasını yaşayır. Gənclik yaş dövründə artıq şəxsiyyət yeni keyfiyyətlərini kəşf edir, ətrafdakı isanları pis və yaxşı olaraq ayırd edə bilir, pis və yaxşı davranışları bir-birindən seçə bilir. Bu isə özünüdərketmə meylində sürətlə inkişafda nəzərdən qaçmır. Artıq gənclər şəxsi mənəvi keyfiyyətlərini daha da inkişaf etdirməyə yönəlirlər. Gənclik dövründə özünüdərketmə, həmçinin şəxsin "mən" adlandırdığı şəxsiyyətin sabit strukturunu və öz şəxsiyyətinin xüsusiyyətlər sistemini təhlilinə də əsaslanır. Özünüdərketmənin inkişafı mənlik şüurunun da inkişafına səbəb olur.
Nəinki ahəngdar şəxsiyyətin yetişməsi yolunda, hətta təhsildə də qarşıya qoyulan əsas məsələlərdən biri də şagird və ya tələbələrdə düzgün özünüqiymətləndirməni formlaşdırmaq və inkişaf etdirməkdir. Özünüqiymətləndirmə özünüdərketmə ilə sıx bağlı olan prosesdir. Ona görə də özünün və başlqalarının davranış və hərəkətlərini, fikir və düşüncələrini düzgün dərk edən və təhlil edən şəxs özünü və başqalarını da düzgün qiymətləndirəcək. Gündəlik yaşanntısında hər kəs mütəmadi olaraq ətrafındakı insanları izləyir; onların hərəkətlərini, əməllərini, davranışlarını, fikir və düşüncələrini; hər hansı hadisə və ya situasiyaya qarşı münasibətini qiymətləndirir. Bu qiymətləndirmə bir çox halda insanın özünə yönəlmiş olur. Yəni insan kənardakı şəxsləri hansı parametrlərə əsasən qiymətləndirirsə, özünü də həmin parametrlərə əsasən obyektiv qiymətləndirir. Özünüqiymətləndirmə isə ahəngdar şəxsiyyətin yetişdiyinin vacib göstəricilərindəndir. Özünüdərketmədə olduğu kimi özünüqiymətləndirmədə də təhsil, təlim, tərbiyə, dərsliklər, dərsdənkənar məşğələlər, insanlarla münasibət, yaşlılarla əlaqə, ailəyə münasibət və s. Bunların hamısı özünüqiymətləndirmənin yaranmasına və daha da təkmilləşməsinə təsirdən yan keçmir. Özünüqiymətləndirmə zamanı şagird və ya tələbə özünün inkişaf və həmin inkişafdakı problemlərini gördüyü üçün ehtiyaclarını da bilir və ona görə hərəkət edir. Bundan əlavə, özünüqiymətləndirmə şagird baxımından fərdiləşdirmə, motivasiya, özünümüşahidə, dəstək; müəllim baxımından dəyərləndirmə, müşahidə və dəstək olmaq; məktəb baxımından isə akreditasiya və gerçəkləşdirmə kimi yönlərdən daha yararlıdır. Hər bir şagird və ya tələbə özünün öyrənmə məsuliyyəti olaraq şəxsi öyrənmək müddətini müşahidə etməlidir. Təhsilalanın öz öyrənmə müddətini müşahidə etməsi isə onun öyrənmə motivasiyasının artmasına, öyrənmə təcrübələrinin təlim prosesində əks olunmasına

imkan yaradacaq. Bu müddət ərzində müəllimin təhsilalanların öyrənmə müddətində onlara etdiyi müdaxilə, yönləndirmə isə şagirdin öz öyrəndiklərini dəyərləndirməsində təsir edəcəkdir.

Azərbaycanda təhsil sistemi ilə müəyyən araşdırmalar aparılmış və məlum olmuşdur ki, müəllimin həm şagird, həm də valideynin aparmış olduğu qiymətləndirməyə müdaxiləsi və qatılması qiymətləndirməni daha obyektiv və nəticəyönümlü etmişdir. Həmçinin aparılan tədqiqatlar sonunda məlum olmuşdur ki, təhsilalanlarda obyektiv özünüqiymətləndirməni formalaşdırmaq onlarda öz məsuliyyətlərini dərk etməyə, özünü ifadə etməyə, özünü dəyərli hiss etməyə, kənardan gələn tənqidlər nəticəsində özünüdəyərləndiməyə də müsbət yöndə təsir edir. Təlim prosesi müddətində müəllimlərin özünqiymətləndirmə ilə bağlı müsbət yönlü düşüncələri və təhsil prosesində şagirdlərə özünüqiymətləndirmə üçün fürsət yaratmaları önəmli amillərdir. (Əliyev B.H. 1998.s.150).Demək olar ki, şagirdlərin sağlam şəkildə özünüqiymətləndirmə qabiliyyəti müəllimin apardığı qiymətləndirmənin öz qiymətləndirmələri ilə müqayisəsindən asılıdır. Özünüqiymətləndirmə özünütənzimləmənin də vacib elementidir, çünki o, tapşırığın məqsədlərindən xəbərdar olmağı və həmin məqsədlərə doğru irəliləyişinə nəzarət etməyi əhatə edir. Özünüqiymətləndirmə nəticəsində həm özünütənzimləmə bacarıqları inkişaf edər, həm də müvəffəqiyyət artır. Müəllim və valideynlərin öhdəsinə düşən əsas amillərdən biri də uşaqlarda özünüqiymətləndirməni inkişaf etdirmək məqsədilə gerçək dünyada qarşılaşa biləcəkləri problemləri onlara tanıtmaqdır və həmin problemlərin həlli yollarını tapmalarını istəməkdir. Bu zaman təməl məqsəd təhsilalanlarda yaradıcılıq, problemi həll etmə bacarığı, kənardan gələn tənqidləri düşünmək, qərar qəbul etmək, özünü başqasının yerinə qoymaq kimi bacarıqları da ortaya çıxarmaq, inkişaf etdirmək və hansı səviyyəyə qədər təkmilləşdiyi bilməkdir. Buna əsasən uşaqlara bacarığa yönəlik tapşırıqlar verilməlidir.

Özünüqiymətləndirmə bacarığının formalaşdırılması və inkişafı aşağıdakı problemlərin həllinə yönəlmiş olur və bir çox müsbət keyfiyyətin inkişafına yol açır:Özünqiymətləndirmə insanın öz bacarıqlarını, nələr edə biləcəyini görməsini və öz fəaliyyətini dərk etməsinə yararlı olur, özünüqiymətləndirmə fərdin öz səhvlərini görməsini təmin edər. Buna əsasən, ikinci dəfə eyni işi görərkən artıq fərd öz səhvini bildiyi üçün ona əsasən hərəkət edər və o əksikliyi tamamlamağa çalışar.

Həmçinin fərdin özünü sorğulamasına və tənqid etməsinə kömək edər, insana başqalını tənqid etmədən qabaq özünü tənqid etməyi öyrədir. Yəni əgər fərd insanları düzəltmək istəyirsə birinci özündən başlamalıdır, İnsanın özünü başa düşməsinə müqayisə etməsinə təsir edir. Ən azından özünüqiymətləndirmə bir növ insanların dürüst olmasına səbəb olur. Obyektiv özünüqiymətləndirmə bir növ insanın psixoloji baxımından da rahatlamasına səbəb olur. “Necəyəm? Nə edəcəm? “ kimi bir çox suallara cavab verməyi asanlaşdırır.İnsanların gerçək həyatda əslində nəyə qadir olduqlarını bir daha onlara göstərir.(Əliyev B.H. 1999.s.250). Ətrafdakılara nə qədər köməklik göstərdiyini dərk etməyə yönəlmiş olur, ən əsası insanın öz əksikliklərini görməsinə, fərqli şeylər düşünməyə, hadisə və situasiyalara fərqli nöqteyi nəzərdən yanaşmağa müsbət yöndə çox təsir edir.

Şəxsiyyətin yetişməsində mənəvi keyfiyyətlər, əxlaq və tərbiyə nə qədər vacibdirsə, özünüdərketmə və özünüqiymətləndirmə də bir o qədər vacibdir. Təhsil prosesi isə bu kimi keyfiyyətlərin formalaşması və inkişafında əsas faktordur. Ona görə də əvvəla valideynlər şagirdlərin təhsil, təlim və tərbiyəsi ilə yaxından maraqlanmalı, onlara daim diqqət və qayğıyla yanaşmalı; müəllimlər şagird və ya tələbələrin təlim prosesinə adətən bir fasilitator kimi daim nəzarət və istiqamət verməli, dərsdənkənar məşğələlərdə daim nəzarət etməlidir. Valideyn və müəllimlərin birgə fəaliyyəti nəticəsində isə şagirdin davranış fəaliyyətində əgər kiçik problem belə müşahidə olunarsa dərhal səbəbi öyrənilməli və ilkin profilaktik tədbirlər görülməlidir.Bu işlər həm məktəbdə,həm cəmiyyətdə,həm də ailədə təşkil oluna bilər.

Nəticə

İnsanın həyat və fəaliyyətinin bütün gedişi boyu formalaşan özünüqiymətləndirmə,öz növbəsində,şəxsiyyətin inkişafı ilə müxtəlif istiqamətlərdə bağlı olan funksiyaları yerinə yetirir, insanın müxtəlif fəaliyyət növlərinin və davranışın idarəedici faktoru kimi çıxış edir.Məhz, buna görə də bir çox tədqiqatçılar özünüqiymətləndirməni şəxsiyyətin xassəsi kimi öyrənməklə belə bir ümumi mülahizəni əsaslandırırlar ki, bu xassə şəxsiyyətin davranış və fəaliyyətinin, onun ətrafdakı adamlarla qarşılıqlı münasibətlərinin xarakterini təyin etməklə onların tənzim olunmasında yaxından iştirak edir.

Artıq yuxarı məktəbəqədər yaş dövründə uşaqların öz davranışlarını idarə etmələrində özünəməxsus "daxili mexanizmi" (D.B.Elkonin) adlanan bir faktor təzahür edir.Uşaq ona olan münasibətlərə, özünün malik olduğu imkanlara istinad edərək davranışını idarə etməyə çalışır. Özünüqiymətləndirmənin idarəedici funksiyası uşağın başqa psixi proseslərinin inkişafı ilə əlaqədar olmaqla hər bir yaş mərhələsində özünəməxsus keyfiyyət xarakteristikasına malik olur. Bir sıra tədqiqatlarda davamlı özünüqiymətləndirmənin təzahürü onun iddia mərhələsi ilə əlaqəsi və onun bir davranış motivi kimi rolu öyrənilmişdir (Y.İ.Savanka, Y.A.Serebyakova, A.S.Slavina və.b.). Özünüqiymətləndirmənin xarakterində olan xüsusiyyətlər həyatın real şəraiti ilə, bu şəraitin əsas faktoru olan fəaliyyət və insanın münasibətlər ilə təyin olunur.Davamlı özünüqiymətləndirmə uşağın psixi inkişafında çox mühüm funksiyanı yerinə yetirir.

Özünüqiymətləndirmə - insanın özü və özünə münasibəti haqqında qarşılıqlı vəhdətdə olan biliyidir. Özünüqiymətləndirmənin tərkibinə insanın malik olduğu bacarıq, hərəkət və keyfiyyətlərin, davranışın motiv və məqsədlərinin dərk olunması, onlara qiymətləndirici münasibətin olması daxildir.İnsanın özünün qüvvə və imkanlarını, məqsədlərini qiymətləndirmə bacarığı, onları xarici şəraitlə, ətraf mühitin tələbləri ilə əlaqələndirmək imkanı, müstəqil surətdə qarşısına bu və ya digər məqsəd qoya bilmək bacarığı onun şəxsiyyətinin formalaşmasında müstəsna əhəmiyyətə malikdir.Çoxsaylı tədqiqatlarda əldə edilən nəticələr göstərir ki, özünüqiymətləndirmə hər bir adamın öz davranış və fəaliyyətini təhlil və qiymətləndirməsi əsasında formalaşır.

Yeniyetmə yaşında özünüqiymətləndirmənin inkişaf prosesi və yeniyetmənin özünüqiymətləndirməsinin yaş xüsusiyyətləri daha əhatəli surətdə öyrənilmişdir.Əldə olunan faktlar yeniyetmələrin özlərini qiymətləndirmələrinin tam səciyyəsini verməyə imkan verir.

Şəxsiyyətin özünüqiymətləndirilməsinin mənimsənilmiş baxışlardan, əxlaqi norma və nümunələrdən asılı olması xüsusilə açıq şəkildə gənclik dövründə müşahidə olunur.İnsanın dünyagörüşünün formalaşmasının ən səmərəli dövrü olan gənclik dövründə oğlan və qızlar əxlaqi normalara münasibətdə öz motivlərini əsaslandırmağa cəhd göstərirlər.Şəxsiyyətin psixoloji xassələrini onlar əxlaqi nöqteyi-nəzərdən qiymətləndirməyə başlayır və nəyin yaxşı, nəyin pis olduğunu müəyyənləşdirməyə çalışırlar.Yuxarı məktəb yaşı dövründə mənlik şüuru və onun əsasında özünüqiymətləndirmə yeni inkişaf mərhələsinə daxil olur, lakin gənclərdə öz şəxsiyyətinin keyfiyyətlərini qiymətləndirilməsi ilə əlaqədar məsələlər lazımi əhatəliliyi ilə öyrənilməlidir.

Ədəbiyyat

1.Abdullayev Ə.,MəmmədovA.,BayramovG., Həmzəyev M.,(1981)Yaş və pedaqoji psixologiya.Maarif nəşriyyatı.Bakı.277 səh.

2.Bayramov Ə.S., Əlizadə Ə.Ə.(2016). Psixologiya. "QAPP-POLİQRAF" Korporasiyasında nəşr olunmuşdur.Bakı,622 səh.

3.Baxşəliyev Ə.T. (1995). XX əsrdə Azərbaycanda psixoloji fikrin inkişafı. Nurlan nəşriyyatı.Bakı – 271 səh.

4.Bayramov Ə.S. (1981)Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri.Elm və həyat nəşriyyatı.Bakı,.312 səh.

5.Cabbarov R.(2019)Özünüdərkin psixologiyası, monoqrafiya: şəxsiyyətə gedən yol. Maarif nəşriyyatı Bakı,239 səh.
6.Cabbarov R.V.(2003).Kiçik və böyük yeniyetmələrdə özünüdərketmənin təzahür xüsusiyyətləri. Maarif nəşriyyatı Bakı,.260 səh.
7. Cəbrayılov İ. (2016).Şəxsiyyət və onun formalaşmasının problemi. Nuran nəşriyyatı.Bakı,.126 səh.
8.Əliyev B., Cabbarov R.(2008)Təhsildə şəxsiyyət problemi, elmi monoqrafiya. Nurlan nəşriyyatı. Bakı,.229 səh.
9.Əliyev B.H.(1999)Şəxsiyyətə yeni baxış nəzəriyyəsi. Elm və həyat nəşriyyatı..Bakı,. – 292 səh.
10.Əliyev B.H.(1998). Müəllim-tələbə münasibətlərinin təlim prosesinə təsiri. "QAPP-POLİQRAF-Korporasiyasında nəşr olunmuşdur.Bakı. 261 səh.

RECOGNITION OF MIRZE SHAFI VAZEH'S POETRY IN HUNGARY

MİRZƏ ŞƏFİ VAZEH POEZİYASININ MACARISTANDA TANINMASI

Rəna Cahangirli Qərib qızı
AMEA Nizami adına Ədəbiyyat İnstitutu, Dünya ədəbiyyatı və komparativistika şöbəsinin doktorantı
ORCİD – https://orcid.org/0009-0001-4903-5103

Abstract
Interest in Eastern culture and literature began to grow in Europe in the 19th century. The work of Mirza Shafi Vazeh (1794–1852), one of the well-known figures of Azerbaijani poetry during this period, managed to attract attention not only in Azerbaijan, but also in the international literary environment. The universal themes in his poems, the poetic vision based on the folk spirit, and the unique style of expression aroused the interest of European readers. The role of the German orientalist Friedrich Bodenstedt in the recognition of Mirza Shafi Vazeh's work in Europe is invaluable. The collection of poems entitled "Songs of Mirza Shafi", translated and published by Bodenstedt in 1851, was met with great interest in Germany and Europe in general. This book not only introduced the poet's poetry, but also gave a serious impetus to the strengthening of interest in Eastern poetry in the West. This poetry, known in the West, soon gained attention in the literary circles of countries open to Eastern culture, such as Hungary, and became the subject of translations and research. The universal themes and folk-inspired poems in Mirza Shafi's poetry allow for interesting parallels with Hungarian classical lyrics. Especially since the 1850s, there has been a growing interest in his work in the Hungarian literary environment. In 1856, the well-known classical Hungarian poet János Arany published three of his poems in the newspaper "Lady Messenger". Two years later, in 1858, Karoly Berecz published 17 of the poet's poems in the collection "Shepherd's Tales" ("Százszorszépek"). In the 1880s, publications based on Bodenstedt's translations were brought to a wider audience on the initiative of Lajos Bánfalvy and Soma Sziklai. Articles about Mirza Shaffy were also published in the Hungarian press at that time. In 1871, Pál Kun's article "Mirza Schaffy" was published in the magazine "Figyelő", which provided extensive information about the poet's life, his relationship with Bodenstedt, and his literary work.
The poem "Mirza Safinak" dedicated to Mirza Shaffy by Dyula Reviczky in 1878 is another indication of the deep interest in his poetry. In this poem, romantic feelings and the poet's emotional style are praised through oriental images such as Züleykha, a nightingale, and a palm tree. Towards the 20th century, in 1987, the famous publicist Géza Képes published an article about Mirza Shafi in the newspaper "Népújság".
Consequently, Mirza Shafi Vazeh's poetic legacy was widely known in Hungary in the 19th century and, although it was first spread thanks to Bodenstedt's translations, it later became the subject of independent translations and literary criticism.
Keywords: Mirza Shafi Vazeh, Friedrich Bodenstedt, Hungary, poetry, translation, poem, east

Xülasə
XIX əsr Avropasında Şərq mədəniyyətinə və ədəbiyyatına maraq xüsusilə artmağa başlamışdı. Bu dövr Azərbaycan poeziyasının tanınmış simalarından olan Mirzə Şəfi Vazehin (1794–1852) yaradıcılığı yalnız Azərbaycanda deyil, həm də beynəlxalq ədəbi mühitdə diqqət cəlb etməyə müvəffəq olmuşdur. Onun şeirlərindəki ümumbəşəri mövzular, xalq ruhuna söykənən poetik baxış və özünəməxsus ifadə tərzi Avropalı oxucuların marağına səbəb olmuşdur. Mirzə Şəfi Vazeh yaradıcılığının Avropada tanınmasında alman şərqşünası Fridrix Bodenştedtin rolu əvəzsizdir. 1851-

ci ildə Bodenştedtin tərcüməsi və nəşri ilə işıq üzü görən "Mirzə Şəfinin mahnıları" adlı şeirlər toplusu Almaniyada və ümumilikdə Avropada böyük maraqla qarşılanmışdır. Bu kitab təkcə şairin poeziyasını tanıtdırmadı, həm də Şərq poeziyasına Qərbdə marağın güclənməsinə ciddi təkan verdi. Qərbdə tanınan bu poeziya tezliklə Macarıstan kimi Şərq mədəniyyətinə açıq ölkələrin ədəbi dairələrində də diqqət qazanaraq tərcümə və tədqiqatların mövzusuna çevrildi.

Mirzə Şəfinin poeziyasındakı universal mövzular və xalq ruhlu şeirləri macar klassik lirikası ilə maraqlı paralellər aparmağa imkan yaradır. Xüsusilə 1850-ci illərdən etibarən onun yaradıcılığına macar ədəbi mühitində artan maraq müşahidə olunur. 1856-cı ildə tanınmış klassik macar şairi Yanoş Arany (János Arany) onun üç şeirini "Xanım elçi" ("Hölgyfutár") qəzetində nəşr etdirib. Bu hadisədən iki il sonra, 1858-ci ildə Karoy Bereç (Károly Berecz) "Çobanyastıqları" ("Százszorszépek") adlı topluda şairin 17 şeirini dərc etdirib. 1880-ci illərdə isə Layoş Banfalvi (Lajos Bánfalvy) və Soma Sziklayın (Soma Sziklai) təşəbbüsü ilə Bodenştedtin tərcümələrinə əsaslanan nəşrlər geniş oxucu kütləsinə çatdırılıb. Həmin dövrdə Macar mətbuatında Mirzə Şəfi haqqında məqalələr də dərc olunub. 1871-ci ildə "Müşahidəçi" ("Figyelő") jurnalında Pal Kunun (Pál Kun) "Mirza Schaffy" adlı məqaləsi dərc olunaraq, şairin həyatı, Bodenştedtlə münasibəti və ədəbi fəaliyyəti haqqında geniş məlumat verib.

1878-ci ildə Dyula Reviçkinin (Dyula Reviczky) Mirzə Şəfiyə həsr etdiyi "Mirza Safinak" adlı şeiri onun poeziyasına olan dərin marağın başqa bir göstəricisidir. Bu şeirdə şərq təsvirləri Züleyxa, bülbül, xurma ağacı kimi obrazlar vasitəsilə romantik duyğulara və şairin emosional üslubuna tərifl ər yağdırılır. XX əsrə doğru isə 1987-ci ildə məşhur publisist Geza Kepeşin (Géza Képes) "Xalq qəzeti" ("Népújság") qəzetində Mirzə Şəfi haqqında məqaləsi dərc olunmuşdur.

Nəticə etibarilə, Mirzə Şəfi Vazehin poeziya irsi XIX əsrdə Macarıstanda geniş tanınmış və öncə Bodenştedtin tərcümələri sayəsində yayılsa da, sonralar müstəqil tərcümələr və ədəbi tənqid əsərlərinə mövzu olmuşdur.

Açar sözlər: Mirzə Şəfi Vazeh, Fridrix Bodenştedt, Macarıstan, poeziya, tərcümə, şeir, şərq

Giriş

Mirzə Şəfi Vazeh (1794–1852) XIX əsr Azərbaycan poeziyasının aparıcı simalarından biri hesab olunur. Onun yaradıcılığı yalnız Azərbaycan ədəbiyyatında deyil, Şərq-Qərb ədəbi əlaqələrinin inkişafında mühüm mərhələ sayılır. Alman şərqşünası Fridrix Bodenştedtin (1819–1892) vasitəsilə Avropa oxucusuna tanıdılan Mirzə Şəfi, yalnız Almaniyada deyil, Macarıstan daxil olmaqla Mərkəzi Avropada da böyük maraqla qarşılanmış və əsərləri bir sıra dillərə tərcümə edilmişdir. Bu məqalədə Mirzə Şəfi Vazeh poeziyasının Macar ədəbi mühitində qəbulunu, tərcümə tarixini və bu təsirin bariz nümunəsi sayılan Dyula Reviçkinin ona həsr etdiyi şeiri təhlil edilir.

XIX əsrdə Avropada Şərq ədəbiyyatına artan maraq fonunda Azərbaycan şairi Mirzə Şəfi Vazehin poeziyası da Qərb oxucuları tərəfindən tanınmağa başladı. Şairin Avropada tanınmasında alman şərqşünası və ədibi Fridrix fon Bodenştedtin rolu həlledici olmuşdur. Bodenştedt Tiflisdə Mirzə Şəfidən şərq dilləri öyrənmiş və sonradan şairin bir sıra qoşmalarını alman dilinə tərcümə edərək nəşr etdirmişdir. Bodenştedtin "Mirzə Şəfi nəğmələri" (Die Lieder des Mirza-Schaffy) adlı şeirlər toplusu Qərbdə böyük ədəbi maraq oyatdı. Əsər qısa zamanda böyük uğur qazandı, dəfələrlə nəşr edildi və demək olar ki, bütün Avropa dillərinə tərcümə olundu. Bu tərcümələr və geniş yayılma nəticəsində Mirzə Şəfi Vazehin adı XIX əsr Avropa ədəbi mühitində məşhurlaşdı, o cümlədən, Macarıstanın (həmin dövr Avstriya-Macarıstan imperiyası tərkibində) ədəbi çevrələrində də əks-səda doğurdu.

Gəncədə doğulub böyüyən Mirzə Şəfi Vazeh sonralar Tiflisə köçərək orada pedaqoji fəaliyyətlə məşğul olmuş və ədəbi yaradıcılığa yönəlmişdir. Onun Azərbaycan və fars dillərində yazdığı lirik şeirlər Şərqdə məşhur olsa da, Avropada tanınmırdı. 1840-cı illərin sonlarında Tiflisə gəlmiş gənc alman ədibi Fridrix fon Bodenştedt (1819–1892) Vazehin şagirdi olmuş, ondan fars və türk (Azərbaycan) dillərini öyrənmişdir. Bodenştedt Mirzə Şəfinin bir çox şeirlərini və müdrik kəlamlarını yazıya alaraq Almaniyaya özü ilə aparmış, 1850-ci ildə Ştutqartda nəşr etdirdiyi "Şərqdə 1001 gün"

adlı səyahətnaməyə bu şeirlərdən bəzilərini daxil etmişdir. Daha sonra o, 1851-ci ildə Berlində yalnız Mirzə Şəfinin şeirlərindən ibarət "Mirzə Şəfi nəğmələri" adlı ayrıca kitabı alman dilində çap etdirmişdir. Bu kitabda Bodenştedt şeirləri özü alman dilində nəzmə çəkmiş, onları alman oxucusuna səlis və poetik dillə təqdim etmişdir (2,119).

"Mirzə Şəfi nəğmələri" Qərbdə geniş ədəbi maraq doğurdu. XIX əsrin ikinci yarısında Avropada bu topluya maraq o dərəcədə böyük idi ki, kitab müntəzəm olaraq təkrar nəşr olunurdu. Şeirlər Avropa xalqlarının dillərinə sürətlə çevrilir, ingilis, fransız, italyan, fars, macar, çex, isveç, polyak və bir çox başqa dillərə tərcümələri çap edilirdi (1,899).

Bodenştedtin təqdimatında Mirzə Şəfinin şeirləri qərb oxucusuna ekzotik şərq poeziyasının nümunələri kimi təqdim olunurdu. İlk nəğmələr, əsasən, şərab və eşq mövzularını tərənnüm edirdi, üslub baxımından isə Hafiz və Sədi kimi klassik fars şairlərini xatırladırdı. Oxucuların bir qismi ilkin mərhələdə Mirzə Şəfini qədim Şərq (fars) poeziyasının nümayəndəsi hesab etmişdi. Sonradan Bodenştedt bəyan etmişdir ki, bu şeirlərin bir qismi onun öz adaptasiyasıdır, tərcümə ilə alman dilində poetik üslubda oxuculara təqdim olunmuşdur. Ümumilikdə isə bu kitab Mirzə Şəfinin Azərbaycan və fars dillərindəki əsərlərinə əsaslandığı qəbul olunur.

Əsas Hissə

Mirzə Şəfi Vazehin poeziyası Almaniya və Rusiyada geniş tanındıqdan sonra, Macarıstanda da bu yeni "Şərq şairi"nə maraq artmağa başladı. Macar ədəbiyyatşünasları və şairləri Bodenştedtin sayəsində Avropaya yayılan bu şeirlərlə tanış olur, onları macar dilinə çevirmək və öz ədəbi mühitlərinə uyğunlaşdırmaq üçün cəhdlər göstərirdilər. Xüsusilə Şandor Petöfi kimi Macarıstanın milli romantik şairlərinin Avropada tanıdılmasında Bodenştedtin rolu olduğuna görə (Bodenştedt 1858-ci il Lipçya nəşrində Petöfinin əsərlərinə ön söz yazmışdı), Macar ziyalıları arasında Bodenştedtin fəaliyyətinə rəğbət mövcud idi. Bu kontekstdə, Mirzə Şəfi Vazehin nəğmələri də Macar oxucusu üçün həm məzmun, həm də forma baxımından maraqlı görünürdü.

Macar mədəni mühitində Mirzə Şəfi Vazehin poeziyasına maraq xüsusilə 1850-ci illərdən etibarən artmış, macar ədəbiyyatşünasları və tərcüməçiləri onun əsərlərinə müraciət etmişlər. Onun üç şeiri ilk dəfə macar dilində Yanoş Arany (János Arany (1817-1882)) tərəfindən tərcümə edilərək "Xanım Elçi" ("Hölgyfutár") qəzetinin 1856-cı il 7 iyun sayında çap edilmişdir. Şairin sevdiyi xanım Züleyxaya yazdığı bu şeirlər fars dilindən tərcümə edilmişdir. 1858-ci ildə tərcüməçi Karoy Bereç (Károly Berecz (1892-1967)) Mirzə Şəfi Vazehin 17 şeirini tərcümə edərək Henrix Heyne və Sədidən etdiyi tərcümələrlə birlikdə "Çobanyastıqları" ("Százszorszépek") adı altında nəşr etdirir.

1877-ci ildə Siklay Yanoş (Sziklai János (1822-1883)) Mirzə Şəfinin şeirlərinin tam külliyatını macar dilinə çevirmək işinə başlamışdır. Macarıstanın məşhur "Bazar Qəzeti" ("Vasárnapi Ujság") adlı mətbu orqanının 21 oktyabr 1877-ci il tarixli sayında qeyd edilir ki, Sziklay Yanoşun tərcüməsində "Mirzə Şəfinin bütün şeirləri" ("Mirza Schaffy összes költeményei") kitabı çap olunmaqdadır. Bir il sonra bu kitab işıq üzü görmüş və macar oxucuları Mirzə Şəfinin bütün nəğmələrini öz dillərində oxumaq imkanı əldə etmişlər.

1880-ci ildə Layoş Banfalvinin (Lajos Bánfalvy (1851-1912)) macar dilinə tərcümə etdiyi şeir nümunələri "Mirzə Şəfinin nəğmələri" ("Mirza-Saffi (Bodenstedt) Dalai") adı altında çap olunmuşdur . Bir il sonra isə Şoma Siklay (Soma Sziklai (1854-1915)) Mirzə Şəfinin əsərlərini "Mirzə Şəfinin nəğmələri" (Mirza-Schaffy dalai) adı ilə nəşr etdirmişdir. Hər iki tərcüməçi Bodenştedtin alman dilindəki versiyasını əsas götürərək şeirləri macar dilinə uyğunlaşdırmışlar. Beləliklə, XIX əsrin sonlarına doğru Mirzə Şəfi Vazehin poeziyası macar dilində iki fərqli tərcüməçinin təqdimatında tam şəkildə oxucuya çatdırılmışdır.

Bu dövrdə macar mətbuatında Mirzə Şəfi barədə bir sıra maraqlı məqalələr dərc edilmişdir. Macarıstanın 1871-1876-ci illərdə nəşr olunan "Müşahidəçi" ("Figyelő") jurnalının 1871-ci il 16 mart tarixli buraxılışında Kun Pal (Kun Pál) "Mirzə Şəfi" ("Mirza Saffi") başlıqlı məqalə ilə çıxış etmişdir (3, 123-125). Müəllif tərəfindən, təəssüf ki, Mirzə Şəfi Vazeh fars şairi kimi təqdim olunmuşdur.

Məqalədə Mirzə Şəfi Vazehin uşaqlıq dövrü, ədəbi fəaliyyəti, Bodenştedtlə tanışlığı, qarşılaşdığı çətinliklər və rus şərqşünası Adolf Berjenin (1864–1886) ona dair qeydləri öz əksini tapmışdır. Kun Pal məqaləsində Mirzə Şəfi Vazehin real tarixi şəxsiyyət olduğunu vurğulayır və onun varlığını şübhə altına almağın əsassız olduğunu bildirir. Bu fikri əsaslandırmaq üçün müəllif Adolf Berjenin 1851-ci ildə Tiflisdə Mirzə Şəfini şəxsən gördüyünə dair ifadəsinə istinad edir. Berje qeyd edir ki, o, Mirzə Şəfini "təxminən 60 yaşlı təvazökar tatar" kimi təsvir etmişdir (4). Hərçənd Kun Pal məqaləsində birbaşa istinad verməsə də, Berjenin məlumatlarından istifadə edərək oxuculara Mirzə Şəfinin həqiqətən yaşamış bir şəxsiyyət olduğunu çatdırmağa çalışır.

Məqalənin digər əhəmiyyətli məqamı Mirzə Şəfinin şeirlərinin müəllifliyi ətrafında aparılan mübahisəyə dair fikirlərlə bağlıdır. Kun Pal 1871-ci il məqaləsində bu məsələyə erkən dövr tənqidi yanaşmanı ortaya qoyur. O, Mirzə Şəfinin real şəxsiyyət olduğunu qəbul etsə də, şeirlərin onun tərəfindən yazıldığına şübhə ilə yanaşır. Müəllif qeyd edir ki, bu məşhur nəğmələrin Mirzə Şəfinin qələmindən çıxmasına inanmaq çətindir və hətta bu barədə danışmağı belə "dəyməz" hesab edir. Bununla o, dolayısı ilə şeirlərin Bodenştedt tərəfindən yaradıldığını nəzərdə tutur. Bu yazı Macarıstanda Azərbaycan şairi Mirzə Şəfi Vazeh barədə qələmə alınan ən erkən tədqiqat xarakterli məqalələrdən biri kimi həm Azərbaycan ədəbiyyatının Avropada təbliği tarixinə, həm də tərcümə ədəbiyyatının tənqidi təhlili sahəsinə dair önəmli bir tarixi sənəd hesab edilə bilər. Mirzə Şəfi Vazehin irsinin qiymətləndirilməsində onun məqaləsi sonrakı tədqiqatlarda da istinad edilən bir mənbəyə çevrilmişdir. Məsələn, 1970-ci illərdə Dyördy Rado (György Rádó) kimi tədqiqatçılar Sovet İttifaqındakı türk və fin-uqor xalqlarının ədəbiyyatının Macarıstanda öyrənilməsi barədə əsərində Kun Palın bu məqaləsinə xüsusi diqqət yetirmiş, ondan sitatlar gətirmişlər (5). Bütün bunlar göstərir ki, Kun Palın 1871-ci ildəki bu yazısı təkcə dövrünün ədəbi gündəminə deyil, həm də uzunmüddətli elmi təhlillərə töhfə verən əhəmiyyətli bir məqalədir.

Bundan başqa, "Xalq qəzeti" ("Népújság") jurnalının 1987-ci il iyun sayında Mirzə Şəfi haqqında Kepeş Geza (Géza Képes (1909-1989)) tərəfindən yazılan qısa yazı və tərcümə olunmuş bir şeiri "Hafizin nəğmələrindən ("A Hafiza"-dalokból) başlığı altında dərc olunmuşdur.

Qərbi Avropa və Rusiyanın tanınmış bəstəkarları da Mirzə Şəfinin nəğmələrinə maraq göstərmişlər. Bu kontekstdə macar bəstəkarı Frans List (Franz Liszt) də qeyd olunmalıdır. Bu barədə Əlisa Nicat öz məqaləsində qeyd etmişdir (8).

Ümumiyyətlə, həmin dövrdə macar oxucuları Mirzə Şəfi Vazehin şeirlərinə romantik bir Şərq obrazı prizmasından yanaşırdılar. Onun nəğmələrində ifadə olunan həyat sevinci, şərab məclisləri, eşq macəraları və azadfikirlilik motivləri macar cəmiyyətinə doğma gəlirdi. Macar oxucularının Mirzə Şəfi poeziyasına olan marağının digər göstəricisi isə Bodenştedtin özünə göstərilən ehtiramdır. F.Bodenştedt 1870-ci illərin sonlarında Macarıstana səfər etmişdi və "Pozsony (Bratislava) ətrafı qəzetlər" ("Pozsonyvidéki Lapok") onun Bratislavaya gəlişi barədə ətraflı məlumat yaymışdı. Qəzet yazırdı ki, "Mirzə Şəfi nəğmələrinin müəllifi Bodenştedt millətimizə dərin məhəbbətinin ən səmimi təzahürünü məhz Macarıstanı ziyarət etməklə göstərdi" (1, 900).

Bu cür məlumatlar göstərir ki, Macarıstanda Mirzə Şəfi Vazehin poetik irsi milli dəyər kimi qəbul edilmişdir. Hətta onun "tərcüməçisi" hesab olunan Bodenştedtin səfəri belə mədəni hadisə kimi qarşılanmışdır. Macarıstanda Mirzə Şəfi Vazehə münasibət əsasən heyranlıq və maraq çərçivəsində formalaşmışdır. Onun şeirlərinin orijinal olub-olmaması isə ikinci planda qalırdı, belə ki, əsas olan bu nəğmələrin macar oxucusuna həm Şərq ab-havasını, həm də hikmətli fikirləri çatdırması idi.

Macar ədəbiyyatında Mirzə Şəfi Vazeh yaradıcılığına olan marağın ən təsirli nümunələrindən biri Dyula Reviçkinin (Gyula Reviczky, 1855–1889) ona həsr etdiyi "Mirzə Şəfiyə" (Mirza Schaffynak) şeiridir. İlk dəfə 1878-ci ildə "Pozsony ətrafı qəzetlər"in (Pozsonyvidéki Lapok) 29 yanvar tarixli, 24-cü sayında nəşr olunan bu şeir, birbaşa Mirzə Şəfi Vazehə ünvanlanmış və onun təsiri altında qələmə alınmış orijinal poetik nümunə kimi dəyərləndirilir.

Reviçki türk və fars poeziyasına, ümumilikdə isə, Şərq mövzusuna dərin maraq göstərən bir ədib idi. 1877–1878-ci illərdə müxtəlif mətbuat orqanlarında Şərq mövzulu şeirlərini dərc etdirmişdir.

"Mirzə Şəfiyə" şeiri müraciət janrında yazılmış və Reviçkinin Mirzə Şəfi obrazı ilə mənəvi dialoqu kimi təqdim edilmişdir. Şair sanki Mirzə Şəfi ilə həmfikir olaraq onun yaratdığı poetik aləmə daxil olur və öz düşüncələrini ona ünvanlayır. Şeirin başlanğıcında Reviçki etiraf edir ki, heç vaxt Şərqin xurma ağaclı, ekzotik məkanlarında olmayıb, lakin Mirzə Şəfinin nəğmələri sayəsində xəyalən dəfələrlə oraları gəzmiş və sevməyə başlamışdır:

Kelet napfényét, rózsaillatát
Dalaid által megszerettem.
Nyáréji ábrándokba ringatád
Az élet undorát szívemben. (1, 391)
Şərq günəşini, qızılgül ətrini,
Mahnılarınla sevdirdin mənə.
Yay gecələrinin xəyallarına
Ürəyim nisgildə qərq oldum yenə.
Nem voltam soha pálmás keleten,
És mégis oly gyakorta járok
Bársony füvén, s ah, oly jól ismerem
E csókos, ragyogó világot.
Heç vaxt olmadım xurmalı Şərq torpaqlarında,
Lakin tez-tez sanki orada oluram,
Dolaşıram məxmər otlar üzərində
Ah, bu öpüşlərlə dolu dünya ilə necə də tanışam.

Aşağıda qeyd olunan misralarda isə Reviçki şərq poeziyasına xas obrazları canlandırır. Reviçki bu obrazları mənimsəyərək öz xəyalında Mirzə Şəfinin dünyasına daxil olur. Şair xurma kölgəsində, Züleyxa ilə gizli və romantik görüş anını təsvir edir:

Pálmák alatt nem ért a nap sugára;
Zuleikha ott csókolt meg engem.
S bülbül szerelmetes szavára
Szép és vidám dallal feleltem.
Xurma kölgəsi qoruyurdu məni,
Züleyxa ordaca aldı könlümü.
Bülbülün eşq sözlərinə mən
Gözəl və şən nəğmə ilə verdim cavabı.

Şeirin növbəti hissəsində şair reallığa qayıdır və yaşadığı Avropa (Macarıstan) mühitini tənqidi nəzərlə qiymətləndirir. O yazır ki, sənayeləşən, maddiyyatın ön planda olduğu qərb cəmiyyətində mənəvi istilik tapa bilmədiyini, ruhən yalnız qaldığını ifadə edir. Bu vəziyyətində isə ona doğma görünən yer Mirzə Şəfinin təsvir etdiyi o Şərq diyarıdır. Şair üçün Mirzə Şəfinin "vətəni" yalnız coğrafi Şərq yox, bir ideal aləmdir ki, orada insanlar təbiətlə ahəngdar, saf və xoşbəxtdirlər.
Reviçki daha da irəli gedərək Mirzə Şəfini sanki bir bələdçi kimi görür və onu çağırır ki, məni də özünlə həmin ideal diyara apar:

Vezess magaddal, hadd menjünk veled
Hafíz felhőtelen honába.
Hisz a mesés, a bíboros kelet
Volt őseinknek is hazája...
Apar məni, gedək sənlə

Hafizin buludsuz vətəninə.
Axı o möhtəşəm, bənövşəyi Şərq,
Ulu əcdadlarımızın da vətəni olub.

Burada Reviçki Şərqi yalnız romantik bir təsəvvür deyil, eyni zamanda, macar xalqının tarixi kökləri ilə bağlı bir məkan kimi təqdim edir. O, macarların Asiyadan gəlməsi ilə bağlı nəzəriyyələrə (Attila, hunlar, Ural-Altay mənşəyi və s.) işarə edərək Şərq aləmini öz xalqının ruhani vətəni kimi dəyərləndirir.
Şeirin son bölümündə isə Reviçki Mirzə Şəfini Macarıstana dəvət edir və onu öz xalqı ilə tanış olmağa çağırır:

Jer, Mirza Schaffy! S meggyőződhetel,
Hogy a magyar vér most se hült ki,
Szabadságot, nagy tettet ünnepel,
Tud ábrándozni, lelkesülni,
Magasztal bort, zenét; szerelmet...
Gəl, Mirzə Şəfi! Əmin ola bilərsən
Macar qanının hələ də soyumadığına
Azadlığı, qəhrəmanlığı bayram edir,
Xəyala dalır, coşur, ilhamlanır.
Şərabı, musiqini, sevgini ucaldır
Onun qəlbinin tayı-bərabəri yoxdur.
Bu torpağın neçə qızına görə
Zəncirlənib əsir düşərək inlərdi Hafiz belə...

Bu misralarda macar milli qüruru hiss olunur. Şair, Mirzə Şəfiyə demək istəyir ki, əgər bizim aramıza gəlsən, görərsən ki, Macarıstanda da sənin poeziyana yaxın ruhlar yaşayır. Reviçki bu yolla Şərq və Qərb (Azərbaycan və Macarıstan) arasında mədəni körpü qurmağa çalışır. Bir tərəfdən, Mirzə Şəfinin şeirləri vasitəsilə Şərq macarlara sevdirilir, digər tərəfdən isə macarların da Şərq xalqları qədər azadlıqsevər, ilhamlı və mənəvi zənginliyə malik olduğu göstərilir. Şeirin ümumi ruhu qərb soyuqluğuna qarşı Şərq istiliyini, romantizmi, tarixi bağlılığı və mədəniyyətlərarası dialoqu tərənnüm edir.
"Mirzə Şəfiyə" şeirinin əhəmiyyəti ondan ibarətdir ki, bu, bir Azərbaycan şairinə ithaf olunmuş ilk macar poetik nümunəsi hesab oluna bilər. Reviçkinin timsalında gənc bir Avropa şairi Azərbaycan ədəbiyyatından ilhamlanaraq orijinal əsər ortaya qoymuşdur. Bu şeir təkcə Mirzə Şəfi şəxsiyyətinə ehtiram ifadəsi deyil, həm də Şərqlə Qərbin poetik qovuşmasının bariz nümunəsidir.Reviçki, öz cəmiyyətində hiss etdiyi mənəvi çatışmazlığı Şərq poeziyasının romantik və müdrik ruhu ilə tamamlayır və bununla da universallıq iddiası olan bir əsər yaradır. Şeirdəki "Şərq də bizim əcdadlarımızın yurdudur" fikri, Azərbaycan və Macar xalqları arasında mənəvi yaxınlığa işarə kimi qiymətləndirilə bilər. Bu kontekstdə qeyd etmək yerinə düşər ki, XIX əsrdə Avropada türkologiya və macarların fin-uqor yox, türk mənşəli olması ilə bağlı müzakirələr geniş yayılmışdı. Reviçki isə, şair intuisiyası ilə özünü Şərqlə qohum hiss edir və Mirzə Şəfi obrazında bir növ mənəvi qardaşlıq görür.
"Mirzə Şəfiyə" şeiri alman dilinə də tərcümə edilmişdir. Naschér Simon adlı tərcüməçi bu əsəri "An Mirza Schaffi" adı altında alman dilinə çevirmişdi. Bütün bunlar göstərir ki, Mirzə Şəfi Vazehə həsr olunmuş bu əsər təkcə Azərbaycan-Macar ədəbi əlaqələri tarixində deyil, ümumən Avropa ədəbiyyatında maraq doğuran bir fakt kimi mövcud olmuşdur.
Dyula Reviçkinin bu şeiri onun şərq poeziyasına və romantik dünyasına duyulan marağın poetik inikasıdır. Şair burada monoloq quraraq Züleyxa, bülbül, gül ətri kimi obrazlarla Şərqi realizə edir və oranı xəyal məkanı kimi təqdim edir. Şeirin sonunda "tez-tez orda oluram sanki" misrası müəllifin

Şərqi xəyalən, mənəvi-ruhi səviyyədə yaşadığını göstərir və onun bu coğrafiyaya dərin bağlılığına işarə edir. Məhz elə bu ifadə Mirzə Şəfi poetikasının Avropa oxucusunda necə dərin iz buraxa bildiyini nümayiş etdirir.

NƏTİCƏ

Bodenştedtin "Mirzə Şəfi nəğmələri" toplusunun uğuru göstərir ki, Azərbaycan poeziyasının ruhu Avropa dillərində uyğun və poetik formada təqdim olunduqda geniş rezonans doğura bilir. Macarıstan nümunəsi isə sübut edir ki, Mirzə Şəfi Vazeh kimi sənətkarların yaradıcılığı milli sərhədləri aşaraq digər xalqların ədəbiyyatına və mədəniyyətinə təsir göstərə bilir. Xüsusilə, Dyula Reviçkinin Mirzə Şəfiyə həsr etdiyi "Mirzə Şəfiyə" şeiri bu təsirin bədii nəticəsidir. Bu şeirin təhlili göstərir ki, Mirzə Şəfi obrazı macar şairinin xəyalında Şərq müdrikliyinin təcəssümü kimi canlanmış və nəticədə Avropa dilində orijinal bir poetik əsər yaranmışdır.

Azərbaycan və Macar ədəbi əlaqələrinin tarixini nəzərdən keçirdikdə Mirzə Şəfi Vazeh yaradıcılığı bu mədəni körpünün ilk təməl daşlarından biri kimi ön plana çıxır. Onun yaradıcılığı sayəsində XIX əsrdə Macarıstanda Azərbaycan poeziyasına, ümumilikdə isə türk-fars ədəbiyyatına qarşı isti münasibət formalaşmışdır. Beləliklə, bu qarşılıqlı maraq və təsir mədəni zənginləşməyə töhfə vermişdir. Məsələn, sonrakı dövrlərdə macar şərqşünasları Azərbaycan klassik ədəbiyyatını tədqiq etmiş və Mirzə Şəfi haqqında macar dilində məqalələr yazmışlar. 1960-cı ildə macar alimi Dyördy Rado (György Rado) "Ədəbiyyat və İncəsənət" qəzetində Mirzə Şəfi barədə geniş məqalə ilə çıxış etmişdir ki, bu da həmin marağın sonrakı onilliklərdə də davam etdiyini göstərir.

Beləliklə, Mirzə Şəfi Vazehin poeziyasının XIX əsr Macarıstan ədəbi mühitindəki təsiri özünü həm tərcümə nümunələrində, həm mətbuat səhifələrində, həm də orijinal Macar ədəbi əsərlərində büruzə vermişdir. Bu, milli ədəbiyyatımızın nümayəndəsinin başqa bir xalqın ədəbiyyatında iz buraxmasının nadir örnəklərindəndir. Mirzə Şəfi Vazehin poeziyası Şərq və Qərb arasında uğurlu bir poetik dialoqun nümunəsinə çevrilmiş, onun yaradıcılığı dillər və mədəniyyətlər sərhədini aşaraq ümumbəşəri poeziya irsinə daxil olmuşdur.

Ədəbiyyat

1. Reviczky, G. (2007). Összes verse: Kritikai kiadás I. Versek. Budapest: Argumentum Kiadó.
2. Azərbaycan Elmlər Akademiyası. (1960). История Азербайджана (Cild 2). Bakı: Изд-во АН Азербайджанской ССР.
3. Kun, P. (1871, Mart 16). Mirza-Saffi. Figyelő, 11.
4. Ениколопов, И. К. (1938). Поэт Мирза-Шафи. Bakı: Изд-во Азерб. Филиала Акад. Наук СССР.
5. Radó, G. (1976). A Szovjetunió uráli és türk népeinek irodalma Magyarországon II: A Szovjetunió türk népeinek irodalma / Kaukázus-vidéki népek (Modern filológiai füzetek 24). Budapest.
6. Vazeh, M. Ş. (2004). Nəğmələr. Bakı: Şərq-Qərb.
7. Abbasova, X., & Misirova, G. (2019). Mirzə Şəfi Vazeh: Biblioqrafiya. Bakı: M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası.
8. Nicat, Ə. (1982). Mirzə Şəfi və Rubinşteyn: M.Ş. Vazehin macar bəstəkarı List Anton Rubinşteynlə olan yaradıcılıq münasibətləri haqqında. Tarixin sübh çağı, 49–52.

THE ART WORLD OF BAKHTIYAR VAHABZADE

BƏXTİYAR VAHABZADƏNİN SƏNƏT DÜNYASI

Hüseynova Rəna Kazım qızı
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının Dil-ədəbiyyat və onların tədrisi texnologiyası kafedrasının müəllimi

Mehbalıyeva Yasəmən Malik qızı
Azərbaycan Dövlət Pedaqoji Kolleci Dilçilik və onun aktual problemləri

Abstract
The prominent people's poet Bakhtiyar Vahabzadeh was born in Nukha, moved to Baku in 1934 and studied at the Faculty of Philology of Azerbaijan State University (1947). He became an assistant at that department and defended his doctoral dissertation on the prominent Azerbaijani poet Samad Vurgun. He worked at the same university until his death as a member of the "Modern Azerbaijani Literature" and a deputy of the National Assembly.
He is known in Turkey for his article "What Does the Wind Steal from the Rock?". His book ("What Does the Wind Steal from the Stone?") published in "Varlig" and a response to the critics of the poet Fuzuli ("Külek Dash Ne Oğurlayır?") has also been published in the "Turkish Literature" magazine for many years. In addition to poetry, Vahabzadeh also wrote verse stories (poems), plays and translations. One of his poems is dedicated to "Yollar-oğullar" and the Algerian Independence Movement, and another poem "Mugham" is dedicated to the great composer Uzeyir Hajibeyli. Most of his poems have been set to music. His plays such as "Ikinci səs", "Yagışdan sonra", "Artıq adam" and "Vicdan" have also become status books for young people in modern times. He translated Lord Byron's "Fel of Abidon" into Azerbaijani. His poems have been translated into many languages of the Soviet Union, as well as many Turkic languages, German, French, and Persian. In 2002, he received the "Commodore" medal from the Romanian Ministry of Culture for his poetry book "My Stranger". He is considered the second greatest contemporary poet of Azerbaijan after Samad Vurgun. On April 15, 1995, he was awarded the "Istiglal" Order by Azerbaijani President Heydar Aliyev for his services to the national independence movement of Azerbaijan. Vahabzadeh died in Baku on February 13, 2009, at the age of 83.
Keywords: Homeland, time, responsibility, mood, poetry

Xülasə
Görkəmli xalq şairi Bəxtiyar Vahabzadə Nuxada anadan olub, 1934-cü ildə Bakıya köçüb və Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil alıb (1947). Həmin kafedrada assistent olmuş və görkəmli Azərbaycan şairi Səməd Vurğun haqqında doktorluq dissertasiyası müdafiə etmişdir. O, ölümünə qədər eyni universitetdə "Müasir Azərbaycan ədəbiyyatı" və milli məclisin deptatı vəzifəsində çalışmışdır.
O, Türkiyədə "Yel qayadan nə Aparar ?" məqaləsi ilə tanınmışdır. "Varlıq"da çap etdirdiyi və şair Füzulinin tənqidçilərinə cavab olan ("Külək Daşdan Nə Oğurlayır?") kitabı. Onun məqalə və şeirləri də illər boyu "Türk ədəbiyyatı" jurnalında işiq üzü görmüşdür. Vahabzadə poeziya ilə yanaşı, mənzum hekayələr (şeirlər), pyeslər də yazır və tərcümələr edirdi. Onun şeirlərindən biri "Yollar-oğullar" və Əlcəzair İstiqlal Hərəkatına həsr olunmuş və digər poeması "Muğam" dahi bəstəkar Üzeyir Hacıbəyliyə həsr olunmuşdur. Onun şeirlərinin əksəriyyətinə musiqilər yazılmışdır. Onun yazdığı "İkinci səs", "Yağışdan sonra", "Artiq adam" və "Vicdan" kimi pyesləri də müasir devrdə gənclərin statüstü kitaba çevirilmişdir. O, Lord Bayronun "Abidon Feli" adlı əsərini Azərbaycan

dilinə tərcümə etmişdir. Şeirləri Sovet İttifaqının bir çox dillərinə, eləcə də bir çox türk dillərinə, alman, fransız və fars dillərinə tərcümə edilmişdir. O, 2002-ci ildə "Mənim Qəribim" adlı şeir kitabı ilə Rumıniya Mədəniyyət Nazirliyinin "Komodor" medalını alıb. O, Səməd Vurğundan sonra Azərbaycanın ikinci ən böyük müasir şairi hesab olunur. O, 1995-ci il aprelin 15-də Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən Azərbaycanın milli müstəqillik hərəkatındakı xidmətlərinə görə "İstiqlal" ordeni ilə təltif edilib. Vahabzadə 2009-cu il fevralın 13-də 83 yaşında Bakıda vəfat edib.
Açar söz: Vətən, zaman, cavabdehlik, əhval-ruhiyyə,poeziya

Giriş:
Bəxtiyar Vahabzadədən danışarkən onun fəal narahatlığının mənəvi cavabdehliyini qeyd etməmək mümkün deyildir. Bu keyfiyyət Bəxtiyar Vahabzadə poeziyasında güclü pozitiv əhval-ruhiyyə yaradır. Yazıçı Mehdi Hüseyin vaxtilə onun haqqında yazdığı məqalələrdən birini təsadüfi deyildir ki, onu belə adlandırılmışdır: "Narahat şair".
Özü də Narahatlıq – bu poeziyanın yalnız əlaməti deyil, həm də bilavasitə mövzusudur: şair bir neçə şeirində "narahatlığı" işıq, hərəkət, həyat və canlılığın vəhdəti kimi tərənnüm edir:

Dünyada yaşamayan dünyadan dinclik umar,
Yanmağında tapmalı dincliyini sənətkar! (Bəxtiyar. 1974)

Aşağıdakı misraları isə bütünlükdə Bəxtiyar şeirinin estetik və əxlaqi şüarı kimi qəbul etmək olar.

Yaşamaq yanmaqdır, yanasan gərək.
Həyatın mənası yalnız ondadır.
Şam əğər yanmırsa, yaşamır demək
Onun da həyatı yanmağındadır. (Bəxtiyar. 1974)

Əsrlə üzbəüz, təkbətək söhbət,zamanla həmdərd bir şairin daxili duyğu və düşüncələri – bu narahatlığın bədii ifadəsinin üsul və formasıdır.
Adi "XX əsr" olan dövrün obrazına şairin yaradıcılığında tez-tez rast gəlirik. Lakin Bəxtiyar poeziyasında "zaman" anlsyışı kəskin sərhədlərə sıxışdırılmış konkret tarixi bir dövrün-müasirliyin hüdudlarından çox-çox kənara çıxır. Zamanla ünsiyyət burada həm də tarix və ədəbiyyat, gələcəklə müsahibə deməkdir; dərin bəşəri düşüncələrə qərq olmuş, dünyanın taleyi üçün həyəcan keçirən şairin daxili nitqi, öz mənəvi vicdanı ilə söhbəti deməkdir. Geniş fəlsəfi mənada zaman və düşünən,lirik şair "mən" – Bəxtiyar şeirində poetik dialoqu iki dəyişməz, iki daimi qütbüdür.
Lakin bu poeziyadakı fəlsəfi "Zaman" obrazı bu poeziyada həm də hər cür konkretlik fövqündə durmur, sərhədsiz, mücərrəd simvol təsiri də bağışlamır; əksinə, şairin milli, ictimai və estetik idealı ilə birbaşa bağlıdır.

Bəxtiyar dünyası:
Bəxtiyar şeirlərində zamana maraq xalqın mənəvi ədəbiyyatına,mənəvi "indi"sina və keçmişinə olan maraq dəməkdir. Zaman onu yalnız xalqın tarixi taleyi ilə, xalqın mənəvi və əxlaqi həyat təcrübəsi ilə bağlılığı baxımından düşündürür və narahat edir. Keçmişin də, gələcəyi də şair məhz "Vətən tarixinin" səhifələri kimi varaqlayır.

Bəxtiyarın poeziyasında "saf" halda təbiətin təsviri yoxdur. Azərbaycan burada heç yerdə təmiz "mənzərə" şəklində təmsil olunmur. Hətta Vətən də şair üçün, hər şeydən əvvəl, Zamanı təmsil edən obraz və simvoldur - ədəbi-əxlaqi yaddaş və mənəvi-tarixi bir vicdandır. Şair üçün müqəddəs olan hər şey məhz "ana Azərbaycan"ın yaddaşında əbədiləşir və qorunur. Çünki bu "yaddaş" keçici və ötəri deyil, həqiqi və milli olan əbədi ruhunu, mənəvi fərdiliyini və müstəqilliyi yaşadır. Odur ki, şair gələcəyi də, keşmişi də məhz xalqın "yaddaşında" oxuyur, araşdırır, sınaqdan keçirir və dəyərləndirir.

Bəxtiyar Vahabzadə üçün ayrıca bir "tarixilik" deyə bir şey yoxdur; ayrıca bir ənənəvi "milli xarakter", müasir "intellektual qəhrəman" yoxdur. Onun üçün yalnız, eyni, vahid varlıq -müqəddəs, əbədi Azərbaycan vardır. Azərbaycan burada məhz tarix və proses kimi deyil, həm mənşə, həm də gələcək kimi, beşik, ocaq, yuva, ana kimi tərənnüm olunur. Belə bir Vətən rəmzi xalqın mənəvi tamlığını və böyüklüyünü daha dərindən hiss etməyə, onu dünyaya tanıtmağa kömək edir.

Bəxtiyar Vahabzadaninin yaradıcılığında zaman və Vətən anlayışı bir də işıq anlayışı ilə bağlıdır. Od, işiq- bizim poetik ənənəmiz üçün bəlkə də ən qədim, ən davamlı bir obrazdır. İşıq- ümid və vətən rəmzi kimi məlumdur. Bəxtiyar bu obraza yeni məna çalarlığı əlavə edir. Hər şeyi zamanla ölçən şairin zamanı da "ömrünü" işıqla, "işığın ömrü" ilə əlaqələndirməyə çağırır.

Bəxtiyar Vahabzadəni ən çox maraqlandıran mövzular arasında onun zaman və surət, zaman və məkan haqqında düşüncələrini daxil etmək olar. O, qitələri və planetləri birləşdirən,ömrü gələcəyə yaxınlaşdıran sürəti tərənnüm edir. Çox vaxt yanaşı,qoşa işlətdiyi sürət və zaman anlayışlarına, onlar arasında vəhdət və əlaqələrə şairin verdiyi poetik mənalarda zamanı ləngitmək, anın da ömrünü uzatmaq haqqında Faustun elan etdiyi poetik çağırışın davamını görürük.

Zamanı ləngitmək, saatı, anı saxlamaq- bu ən qədim Faust arzusu məhz bizim günlərdə də insanın böyük arzusu olaraq qalır və tamamilə müasir səslənir. Çünki ləngiyən hər bir an duyulan daha böyük gözəllik,uzanan daha böyük gənclik və bahar ömrü deməkdir. Zaman üzərində qələbə məhz zamanı ləngitmək faktında əks olunmurmu? Əgər nə vaxt isə insan zamana hakim kəsilsə idi, ona "Taləs" əvəzinə "Saxlan" hökmünü verərdi. Şairin tərənnüm etdiyi işıq və fikir sürəti də məhz zamanı ləngitmək üsulu və vasitəsi kimi romantik və şairanə səslənir.

Nəticə

Yeni, müasir mənada fikir poeziyasına qüvvətli meyl indi ədəbi prosesə bütününlükdə xas olan ümumi bir istiqamətdir. Yaradıcılıq üslublarının bu kimi şeirimizə məxsus zənginliyi və fəallığı şəraitində biz bu ümumi istiqamətin bir çox fərdi təzahür formalarına rast gəlirik. Bu fərdi təzahür formalarından,fəlsəfi və intelektual keyfiyyət dəyişikliyinə doğru yolda şeirimizin keçirdiyi orjinal mərhələlərdən biri, şübhəsiz,şair Bəxtiyar Vahabzadənin yaradıcılığı ilə ifadə və təmsil olunur.

Artıq qeyd etdiyimiz kimi, Bəxtiyar sərhədlərə, çərçivələrə meydan oxuyan bir şairdir. Şairin qəlbinin fırtınasına, hər cür məhdud çərçivələrə qarşı üsyanına haqq veririk və təsdiq edirik ki, belə bir şair üçün gənclik və ömür sərhəddi də yoxdur: sənət dünyasında zaman və fəsil bölğüsü, "çərçivə" təsnifatı özünü doğrultmur.

Ədəbiyyat siyahısı

1.Bəxtiyar Vahabzadənin seçilmiş əsərləri-Bakı-1974.
2. Azərbaycan jurnalı-1975
3. Yaşar Qarayev-Düşündürən poeziya- 1974
4.Müasir Azərbaycan ədəbiyyatı II cildə -II cild Bakı, BDU-2007

GENDER ASPECTS OF PEDAGOGICAL ACTIVITY

PEDAQOJİ FƏALİYYƏTİN GENDER ASPEKTLƏRİ

Cəbrayılova Rəna Nüsrəddin qızı

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN
PEDAQOJİ PSİXOLOGİYA KAFEDRASININ MÜƏLLİMİ
https://orcid.org/0009-0002-9335-4782

Xülasə

Ali təhsil müəssisəsində formalaşan pedaqoji 863ctual mürəkkəb gender sistemidir. Burada hər bir iştirakçı müəyyən bir cinsin daşıyıcısıdır, onlar müxtəlif cinslərin çoxyönümlü təsirinə məruz qalırlar. Psixoloji tədqiqatların təhlili göstərir ki, ali təhsil müəsisəsində qız və oğlanların gender sosiallaşması ictimai və şəxsi sferada cinslər arasında qarşılıqlı əlaqənin stereotiplərini bərpa etməkdə davam edir. Bu stereotiplər müasir cəmiyyətdə real gender münasibət- ləri ilə ziddiyyət təşkil edir, gənclərin fərdiliyinin açılmasında maneəyə çevrilir.

Gender stereotipləri gənclərin şüurundan daha çox müəllimlərin şüurunda ifadə olunur. A.V.Smirnovanın cəmiyyətdə kişi və qadınların rolu ilə bağlı müəllim- lərin fikirlərinin öyrənilməsi göstərdi ki, müəllimlərin 30%-I bu fikri dəstəkləyir: qadın evdə uşaq böyütməklə, kişi öz peşəsində və karyerasında məşğul olmalıdır. Müəllimlərin 34%-I hesab edir ki, qadının taleyi ev və ailədir, kişi öz peşəsində özünü dərk etməli, həm də ev işlərinə diqqət yetirməlidir; 23%-I iddia edir ki, həm kişilərin, həm də qadınların peşəkar sferada özünüdərketmələri vacibdir, lakin qadınlar ev sahəsinə, kişilər isə karyera və peşələrinə daha çox diqqət yetirməlidirlər;13%-nin fikirlərinə görə, cinsindən asılı olmayaraq hər bir insan üçün ailə həyatda əsas dəyərdir. Bütün müəllimlərin 2/3-dən çoxu müəyyən edilmiş gender stereotiplərinin təsirinə məruz qalır, onlara dəstək olur və pedaqoji fəaliyyətlərində onları təkrarlayırlar. Müəllimlər gənc nəslin gender sosiallaşmasının fəal agentləri kimi çıxış edir, tələbələrin gender təhsili və tərbiyəsini birbaşa həyata keçirirlər. Buna görə də, kişi və qadın müəlimlərinin əmək bazarının gender strukturu haqqında fikirləri oğlan və gənc qızlar üçün tədris fənlərinin əhəmiyyəti haqqında fikirlərinə təsir göstərir. Psixoloqlar qeyd edirlər ki, müəllimlər tələbələri qeyri-adekvat qəbul edirlər, çünki onlar oğlan və qızlara fərqli münasibət göstərirlər. Tələbələrin xüsusiyyətlərini müəyyən etmək üçün müəllimlər arasında aparılan sorğu göstərdi ki, mənfi xüsusiyyətlər qızlara nisbətən oğlanlara daha çox aid edilir. Müəllimlər uzun illər işlədikləri müddətdə onlardan hansılarının daha yaxşı yadda qaldıqlarına dair sualları cavablandırarkən qızların böyük əksəriyyətini birinci siyahıya, oğlanları isə ikinci sıraya daxil etmişlər.

Abstract

The pedagogical system formed in a higher education institution is a complex gender system. Each participant here is a carrier of a certain gender, they are exposed to the multifaceted influence of different genders. Analysis of psychological research shows that the gender socialization of girls and boys in a higher education institution continues to restore stereotypes of interaction between the sexes in the public and private spheres. These stereotypes contradict real gender relations in modern society, becoming an obstacle to the discovery of the individuality of young people.

Gender stereotypes are more strongly expressed in the minds of teachers than in the minds of young people. A. V. Smirnova's study of teachers' opinions on the role of men and women in society showed that 30% of teachers support this idea: a woman should be at home, raising children, and a man should pursue his profession and career. 34% of teachers believe that a woman's purpose is home and family, a man should realize himself in his profession, and also pay attention to household chores; 23% argue

that it is important for both men and women to realize themselves in the professional sphere, but women should pay more attention to the domestic sphere, and men – to their career and profession; according to 13%, family is the main value in the life of every person, regardless of gender.

Thus, more than 2/3 of all teachers are under the influence of established gender stereotypes, support them and repeat them in their pedagogical activities. Teachers act as active agents of gender socialization of the younger generation, directly implementing gender education and education of students. Therefore, the ideas of male and female teachers about the gender structure of the labor market affect their ideas about the importance of teaching subjects for boys and girls. Psychologists note that teachers perceive students inadequately, because they treat boys and girls differently. A survey conducted among teachers to determine the characteristics of students showed that negative characteristics are more often attributed to boys than to girls. When the teachers answered questions about which of them they remembered the most for their many years of work, the overwhelming majority of girls were in the first list, and boys in the second.

Ədəbiyyat Siyahısı

1. Андроникова, О.О. Гендерная дифференциация в психологии: учеб. Пособие / О.О. Андроникова. – Москва: Вузовский учебник, 2014. – 264 с.

2. Вержибок, Г.В. Гендерная компетентность в профессиональной сфере /Г.В. Вержибок // Проблемы управления. – 2010. – № 3. – С. 166-170.

MONGOL INFLUENCES IN OGHUZ TURKIC LANGUAGES

OĞUZ TÜRKCƏLƏRİNDƏKİ MONQOL TƏSİRLƏRİ

Süleymanova Rəna Nazim
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Xülasə
Oğuz türkcələri – Azərbaycan, Türkiyə, Türkmən və Qaraqalpaq türkcələri də daxil olmaqla – Türk dillərinin Oğuz qrupuna aid olub, tarix boyu müxtəlif mədəni və dil kontaktlarına məruz qalmışdır. Bu dillərin inkişafında ən mühüm xarici təsirlərdən biri də Monqol dillərindən gəlmişdir. Xüsusilə XIII-XIV əsrlərdə Monqol imperiyasının genişlənməsi ilə Türk-Monqol təması artmış və bu kontaktlar dil səviyyəsində öz izlərini qoymuşdur. Monqollarla Oğuz türkləri arasındakı intensiv əlaqə əsasən Çingiz Xan və onun varisləri dövründə baş vermişdir. Oğuz tayfalarının yaşadığı coğrafiyalarda Monqol hakimiyyətinin qurulması, bu xalqlar arasında hərbi və inzibati münasibətlər, eləcə də ticarət əlaqələri nəticəsində dil mübadiləsi qaçınılmaz olmuşdur.
Monqol dillərindən Oğuz türkcələrinə keçmiş təsirlərin çoxu leksik səviyyədə müşahidə olunur. Morfoloji səviyyədə Monqol təsirləri daha məhduddur, lakin bəzi uyğunluqlar müşahidə olunur. Söz sırası və sintaktik paralellər baxımından Türk və Monqol dilləri arasında müəyyən oxşarlıqlar mövcuddur. Bu da türkdilli cəmiyyətlərdə Monqol sözlərinin inteqrasiyasını asanlaşdırmışdır. Köçəri mədəniyyət konteksti: Hər iki xalqın köçəri həyat tərzi və bu həyatın leksikası (heyvandarlıq, hərb, idarəetmə) bir-birinə bənzədiyi üçün bəzi morfoloji uyğunluqlar həm də semantik yaxınlıq üzərindən qurulmuşdur.
Açar sözlər: oğuz türkcələri, monqol təsirləri, morfoloji uyğunluq, leksik təsirlər, inzibati terminologiya

Abstract
The Oghuz Turkic languages including Azerbaijani, Turkish, Turkmen, and Karakalpak belong to the Oghuz branch of the Turkic language family and have historically been exposed to various cultural and linguistic contacts. One of the most significant external influences on the development of these languages came from Mongolic languages. In particular, during the 13th–14th centuries, the expansion of the Mongol Empire intensified Turkic-Mongolic interaction, leaving lasting traces at the linguistic level. The most intense contact between the Mongols and the Oghuz Turks occurred during the reign of Genghis Khan and his successors. The establishment of Mongol rule in regions inhabited by Oghuz tribes, combined with military, administrative, and trade relations between the two peoples, made linguistic exchange inevitable.
Most of the influences from Mongolic languages on Oghuz Turkic languages are observed at the lexical level. Morphological influences are more limited, though some correspondences do exist. In terms of word order and syntactic parallels, there are certain similarities between Turkic and Mongolic languages. These similarities facilitated the integration of Mongolic vocabulary into Turkic-speaking communities. The nomadic lifestyle shared by both peoples and the vocabulary associated with it (such as livestock, warfare, and governance) helped establish certain morphological correspondences, often through semantic proximity.
Keywords: Oghuz Turkic languages, Mongolic influences, morphological correspondences, lexical borrowing, administrative terminology

It is well known that the Turkic language is extremely rich in terms of verbs, and unlike many other languages, there is generally no need to borrow verbs when taking words from other languages. More generally, in lexical exchanges between languages, it is mostly nouns that are quoted. It appears that the verb *abura*, borrowed from Mongolic in the sense of "to protect, to rescue," is particularly characteristic of regions heavily influenced by Mongolic administrative structures, especially in connection with the Golden Horde geography. In the same context, the verb is also recorded in Turkish texts as *kış*. The derived form *abramak* ("to protect, to defend") can be associated with the Latin *defensio* or Persian *arka*. The word *abramak* was formed by adding the Turkish infinitive suffix *-mak* to the Mongolic verb *abura* ("to protect, to save"). In the same context, the word *qarışma* (intervention, interference) appears as a synonym.

The word *alpaqut*, found in Turkish texts, originates from *alp* (hero, warrior), which forms the root *alpa* by adding the verbal suffix *-a*. Subsequently, the derivational suffix *-qut*, used to form personal nouns from verbs, gives the full morphological construction. It is noted that this word is borrowed from the Mongolic language as *albaqut* [Jamyanova, 2007: 17]. We consider this word in the *Kitab-I Dede Qorqud* as a counter-borrowing influenced by Mongolic, particularly within the Dasht-I Qipchaq context (cf. Mongolic *albaqud*: public officer, state official) [KDQ, 1988: 89]. The semantic shift in *alpaqud*, from "warrior" in ancient Turkish to "noble actively serving in state administration," suggests Mongolic influence. Additionally, the word underwent a phonetic transformation typical in Kipchak Turkic, changing from /-ġ-/ to /-v-/.

The word *arca* – "to interrupt discussion, to disengage from it" [KDQ, 1988: 97]—appears in the early pages of the second book listing nouns and verbs, and seems to be a modified form of the Mongolic verb *arcila-* meaning "to search, to look, to pay attention, to observe." This word is still attested in modern Turkic dialects such as Karachay-Balkar as *orçalamaq* ("to catch, to cut, to restrain") [GKLYA, 1987: 14], and in Kyrgyz as *arabaala-* ("to suspend discussion") [GKLYA, 1987: 89]. It also carries meanings such as "to care for, to raise, to nourish, to support, to protect, to be benevolent." In this instance, the semantic nuance of "feeding" appears to be foregrounded. In Old Turkic, similar meanings were conveyed by the verbs *yarlıka-* and *yėged* [GKBYA, 1976: 17].

Əsrət – meaning "to entrust, to assign care, to conceal" [Gusev, 1979: 18] – derives from the Mongolic verb *asara* ("to protect"), extended with the Turkic causative/passive suffix *-t-* and further morphologically developed into the form *əsrov* ("protection, defense, safeguarding") through the widespread Kipchak derivational suffix *-v+* (< Old Turkic *-g+*). This derivation results in the word *əsrov* < *asrav* < *asara* + *-v*, which appears in religious texts, for example: *asrovıŋ bizge tėyirgil* – "Grant us protection."

Bagatur – "hero, brave man, wild" (Lat. *Probus*, Pers. *Baġātur*)—is another example. The word passed from Mongolic into Persian and then into Cuman Turkic in the form *baḫadur* (Mo. *Bagatur* > Pers. *Bahādur* > Kum. *Baḫadur*). The form *baḫadur* is attested in usage as in: "You are a youth, you are a *bahadur*" [KK, 2005: 17].

In the section of the Codex Cumanicus that pertains to state officials, one finds the word *boqavul* (< Mong. *Bukawul*), a borrowing from Mongolic. The Persian word *tatāwul* corresponds to the Mongolic meaning "mist, fine smoke" and is pronounced *budaŋ* [ƏFSL, 2005: 17]. In the text, *botaŋ* is also listed as a synonym, with a note that it refers to "Turkic slavery" [ƏFSL, 2005: 71].

The word *busre* has several noteworthy meanings: "1. To confirm, to accept; 2. To thank" [Jamyanova, 2007: 16]. The Mongolic verb *bisire*, meaning "to believe, to trust, to respect, to worship; to love, to adore," appears in the *Codex Cumanicus* as *büsre-* and *busure-*, utilizing a rounded vowel.

Çaḫ ~ cak, meaning "time, moment, age" [KK, 2005: 12], derives from the Mongolic word *čag* ("time, age") and is thought to have first been used in Turkic through Old Uyghur Turkish. The term entered the language as the Mongols became more active in Turkic territories and gradually began to replace native terms for "time," becoming widely adopted.

Darağa – meaning "military governor" — is another term of administrative origin naturally borrowed from Mongolic. The word *daruqa*, meaning "chairman, head, high-ranking official; commander" [6, 456], was adopted into Cuman Turkish as *dərəqa*, recorded with the meaning "military governor."
The word *eke* and its derivative *ekeçi* appear more frequently in historical Turkish texts with the meaning "sister" and less frequently as "yet/still." In the *Codex Cumanicus*, *ėgate* is identified as a borrowing from Mongolic [KK, 2005: 45]. In Mongolic, *eke* means "mother; origin, source, cradle (metaphorically); essence, major." Related forms include *egeči* ("sister; elder (females only)"), Buryat *ehe* ("mother, female [animal]"), Khalkha *eẖ* ("mother, female [animal]"), *egč* ("sister"), and Kalmyk *ekɔ* ("mother"), *ekči*, *egɔči* ("sister") [Jamyanova, 2007: 462].
Another identified Mongolic loanword is *emegen*, meaning "old woman, elderly lady." This word is noted alongside its Turkish counterpart in the text, marked with a hyphen.
Ėremsi- "to be proud, to boast, to praise oneself" is one of the Mongolic citations used in a compound form (ėremsir-mėn). The Mongolic verb *ėremsi-* encompasses meanings such as "to hope, to trust; to dare, to show off, to boast, to become accustomed; to exploit property or surroundings excessively or illegally" [Rassadin, 2012: 19]. The same page also lists Turkic synonyms for *ėremsi-*, including *ẖovanlan-*, *öktemlen-*, and *öyünmək* ("to boast").
Qabırğa – meaning "rib" (Lat. *Costa*, Pers. *Pahlū*) is among the anatomical terms borrowed from Mongolic, noted in the form *habirga(n)* ("rib bone") [KK, 2005: 17]. This term appears widely across modern Turkic dialects: Turkish *kaburga*, Turkmen *gapyrga*, Bashkir *kabarğa*, Kazakh *kabarğa*, Uzbek *kovurğa*, etc.
In Mongolic, *hada* means "to scratch, claw," and takes the noun-forming suffix *-k* to become *ẖada-k*. Additionally, the verb *hada* is related to *kada* "to nail, to tack, to illuminate." From this root, the noun *kadav* ("claw, nail") was formed and included in the lexical inventory of the *Codex Cumanicus* [KK, 2005: 74].
Ġaġursun in Mongolic refers to "tree trunk, plant stem, straw stalk, feather shaft; the Virgo constellation; leftover stubble from last year's harvest; tube" [Jamyanova, 2007]. The meaning "hole where feathers are inserted into a cap" has been identified through phonological transformation: ġ > ķ, -ġ- > -v-, and -u- > -ı-.
Kenete is another adverb of Mongolic origin that we have identified, meaning "suddenly, immediately." In Mongolic, the word *genedte* conveys meanings such as "suddenly, unexpectedly, accidentally" [Rassadin, 2012: 16].
Kögen refers to a special rope used to tie around the necks of lambs or crawling plant stems. The etymology of the term *kögen* in the riddle *Ol ẖuvun* ("My green child is fattened on a long rope: It is a melon") is traced back to Mongolic, where it denotes "a rope fastened to a ground peg used for tethering lambs or children; a rope tied around a sheep's neck during suckling" [Rassadin, 2012: 18]. Clauson notes that the form *kögen*, also attested with the vowel /ö/ in the *Dīwān Luġāt at-Turk*, may reflect a dialectal variant and seems derivable from the verb *kü-*, although he offers no specific semantic value for it.
In the Kipchak lexicons, terms related to agriculture suggest the existence of a well-established agrarian culture within the Kipchak domain [KK, 2005: 19]. The Mongolic word *kokul*, meaning "blackthorn, mountain plum," also appears as a plant name [Rassadin, 2012: 89].
Nöger, rendered as *nökür* in Mongolic, means "friend, companion, comrade." This term became widespread in the historical dialects of Turkic languages, especially following the Mongol invasions. In Old Anatolian and Ottoman Turkish, *nöker* denoted "servant, aide, friend; secondary wife (concubine)." In Chagatai Turkish, it meant "friend, companion, husband"; in Kyrgyz, it appears as *nögör*; and in Azerbaijani, as *nökər*, all with Turkish equivalents provided alongside [Serebrennikov, 1979: 56].
The word ***şırdak*** is listed in dictionaries among military garments as a "short-sleeved, caftan-like armor." In Mongolic, *sirdek* originally denoted "saddle pad, cross, adhesive." In Chagatai Turkish,

the word evolved semantically to refer to "a kind of caftan or jacket." In Ottoman Turkish, the word became associated with *silsile* ("series, chain"), and came to denote "a cotton-filled fabric quilted in squares, used for clothing or as a covering."

Studies suggest that the original Mongolic form *siri-değ* underwent phonetic transformation first to *sirdağa*, then to *surrak* and *şırdağa*, eventually entering Turkic languages as a loan. This trajectory allows us to trace the phonological and semantic evolution of the word as it was borrowed into Turkic.

Terme means "tent" (in the sense of a sacred place such as a shrine or church). In Mongolic, the word originally referred to "fine woolen fabric, flannel, undergarment." Among the Tanguts, however, *terme ger* ("woven tent") was used as a term for dwellings. This construction persists in Western Mongolic regions and directly corresponds to the concept of a *yurt*. The forms *terme* and *terbe* have been preserved among the Tuvan and Altai Turkic peoples. The word has also acquired a metaphorical sense, signifying "temple, church, sacred place."

Toḫta, meaning "to retain (in memory), to preserve," is another example of a Mongolic loan. The verb *togta* – in Mongolic covers a broad semantic field: "to stop, rest, settle, remain motionless, regulate, limit, balance, resolve, determine, finalize, or reinforce." This verb has found widespread usage across historical and modern Turkic dialects. In Shor Turkish, *toḫta* – means "to settle, decide, be calm and determined." The Mongolic word *torqa(n)*, meaning "silk," appears in a riddle in the altered form *al torḫam* ("My red silk spreads and falls") through the phonetic shift -ġ- > –ḫ-. The words *ipək* and *yibek* are also used in the text with the meaning "silk."

In Mongolic, the transitive verb ***tangna*** encompasses meanings such as "to investigate, to examine, to spy, to care for, to be amazed or astonished." The verb is also seen in extended meanings such as "to inspect, to change" through phonological expansion (e.g., -a- > -u-) [Jamyanova, 2007: 32].

In Turkic languages, verb roots are notably productive and can express various tense and aspect categories. The presence of a wide array of derivational and inflectional mechanisms reduces the need to borrow verbs from other languages. Consequently, Turkic tends to borrow primarily nouns, adjectives, and adverbs from other languages, and forms new verbs through its internal linguistic resources.

In the course of interlingual lexical exchange, nouns are the most commonly borrowed category. This predominance is primarily due to nouns' function in denoting specific cultural or domestic concepts, referring to concrete objects, customs, and ideas. When speakers of a language encounter a new concept or object, borrowing the corresponding term from another language often proves to be the simplest solution. Large-scale lexical borrowing typically occurs in domains such as science, technology, trade, culture, and religion primarily through nouns.

Conclusion

Thus, the Turkish language integrates loanwords from other languages by adapting them to its own morphological system, reshaping them in accordance with its grammatical rules. This process demonstrates the strong morphological structure of Turkic languages and their ability to assimilate foreign words through internal mechanisms. Since the verb category in different languages possesses varying morphological and syntactic characteristics, verbs are rarely borrowed directly from one language to another. In most cases, the borrowed word is first adopted as a noun and later transformed into a verb form using native Turkic verb-forming models. Many Arabic and Persian words initially functioned as nouns in Turkish but, over time, were transformed into verbs through the addition of Turkish derivational suffixes.

Ədəbiyyat

1. Ərəb – fars sözləri lüğəti (2005) – Bakı: “Şərq-Qərb”, – 472 s.
2. Kitabi-Dədə Qorqud (1988) – Bakı: “Elm”, – 205 s.
3. Грамматика карачаево-балкарского языка. (1976) Фонетика, морфология, синтаксис / Под ред. Профессора Н.А. Баскакова. – Нальчик: «Эльбрус», – 571 с.
4. Грамматика киргизского литературного языка. (1987) Фонетика и морфология / Под ред. Э.Абдулдаева. – Фрунзе: «Илим», – 402 с.
5. Гузев В.Г. (1979) Староосманский язык. – Москва: «Наука», – 95 с.
6. Жамьянова М.З. (2007) Семантические особенности причастий прошедшего времени причастия современного монгольского языка и их эквиваленты в турецком языке. Материалы Международной научной конференции «Чингисхан и судьбы народов Евразии-П». – Улан-Удэ: – с.454-463.
7. Кодекс Куманикус // Казахстан. Национальная энциклопедия. (2005) — Алматы: “Қазақ энциклопедиясы“, –. – Т. III
8. Рассадин В.И. (2012) О системе причастий в монгольских и тюркских языках // – «Вестник БНЦ СО РАН», – №1(5), – с.161-176.
9. Серебренников Б.А., Гаджиева Н.З. (1979) Сравнительно-историческая грамматика тюркских языков. Синтаксис. – Баку: «Наука», –, – 284 с.

AZERBAIJAN PRISON LITERATURE: HISTORY AND STAGES OF DEVELOPMENT

AZƏRBAYCAN MƏHBƏS ƏDƏBİYYATI: TARİXİ VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

Səadət Ağakişiyeva
Filologiya üzrə fəlsəfə doktoru Mingəçevir Dövlət Universiteti/ Azərbaycan.
ORCID ID: 0000-0003-3289-1170

Xülasə
Məhbəs ədəbiyyatı, həbsxana divarları arasında yaranan, azadlıq və insan haqları uğrunda mübarizəni əks etdirən bir ədəbi fenomendir. Bu janr, dünyanın bir çox ədəbi məktəbində təzahür etdiyi kimi, Azərbaycan ədəbiyyatında da özünə məxsus yer tutur. Siyasi rejimlər, ideoloji basqılar və azad fikirli ziyalıların təqibi nəticəsində formalaşan bu ədəbiyyat xalqın azadlıq arzusunu ifadə edən əsas mənbələrdən biri olub. Məhbəs ədəbiyyatının əsas qayəsi azadlığa olan sevgi və rejimə qarşı mübarizədir. Məqalədə, məhbəs ədəbiyyatının xüsusi janr olaraq yaranması və inkişaf mərhələləri tədqiq edilmişdir. Məqalədə məhbəs ədəbiyyatının hər mərhələnin xarakterik cəhətləri və məhbəs ədəbiyyatının yaranmasını şərtləndirən amillər təhlil edilmişdir.
Məqalədə, klassik farsdilli ədəbiyyatın nümayəndələrindən Eynəlqüzat Miyanəçi, Arif Qəzvini, Xaqanı Şirvani və Fələki Şirvaninin zindan həyatını əks etdirən "Həbsiyyə" qəsidələri ictimai motivi və insanın hüquq və azadlıqlarını əks etdirən ilk bədii nümunələr kimi təhlil edilmişdir.
Məqalədə XX əsrin əvvəllərindən başlayaraq Sovet İttifaqı illərində məhbəs ədəbiyyatı mərhələli şəkildə bir sıra nümunələr əsasında tədqiq edilmişdir.
Əldə olunan başlıca nəticə ondan ibarətdir ki, həmin dövrün ağrılı-acılı həqiqətləri ədəbiyyatın dili ilə təsvir edilmişdir. Müstəqillik dövründə yaranmış ədəbi nümunələrdə məhbəs həyatının ağrı-acıları öz əksini tapmışdır. Yazılan əsərlərin, müəlliflərin öz həyat təcrübələrinin, yaxud dövrün baş verən hadisələrinə münasibətlərinin nəticəsi olduğu müəyyən edilmişdir. Məhbəs ədəbiyyatı Azərbaycan ədəbiyyatında azad fikirli ziyalıların səsidir. Bu janr tarixin acı həqiqətlərini, xalqın azadlıq mübarizəsini və fəda edilmiş həyatını özündə əks etirir.
Açar sözlər: məhbəs ədəbiyyatı, zindan ədəbiyyatı, azadlıq, məhbəs nəsri, insan haqları.

Abstract
Prison literature is a literary phenomenon that emerged within prison walls and reflected the struggle for freedom and human rights. This genre, as manifested in many literary schools around the world, also occupies its own place in Azerbaijani literature. Formed as a result of political regimes, ideological oppression and the persecution of free-thinking intellectuals, this literature has been one of the main sources expressing the people's desire for freedom. The main goal of prison literature is the love of freedom and the struggle against the regime. The article studies the emergence and stages of development of prison literature as a special genre. The article analyzes the characteristics of each stage of prison literature and the factors that conditioned the emergence of prison literature.
The article analyzes the odes of "Habsiyya" reflecting the prison life of representatives of classical Persian literature, Eynalguzat Miyanechi, Arif Qazvini, Khagani Shirvani and Falaki Shirvani, as the first artistic examples reflecting social motifs and human rights and freedoms. The article examines prison literature in stages, starting from the early 20th century and continuing through the years of the Soviet Union, based on a number of examples.
The main conclusion is that the painful realities of that period were described in the language of literature. The pains of prison life were reflected in the literary examples created during the period of independence. It was determined that the works written were the result of the authors' own life experiences or their attitudes to the events of the period. Prison literature is the voice of free-thinking

intellectuals in Azerbaijani literature. This genre reflects the painful realities of history, the people's struggle for freedom and their sacrificed lives.

Keywords: *prison literature, dungeon literature, freedom, prison prose, human rights.*

BAKHTİYAR VAHABZADEH AND OUR MOTHER LANGUAGE

BƏXTİYAR VAHABZADƏ VƏ ANA DİLİMİZ

Svetlana Balakişiyeva
Humanitar fənlər kafedrası. Mingəçevir Dövlət Universiteti
ORCID ID: https://orcid.org/0000-0003-4886-8856

Xülasə
Hər bir xalqın, millətin mənəviyyatı, gələcək inkişafı onun dilinin təkamülü ilə sıx bağlıdır. Ana vətənin torpağı ərazi vahidliyinə görə necə dəyişməzdirsə, milli kimliyin əsas göstəricisi olan ana dilimiz də daim qorunmalı və gələcək nəsillərə ötürülməlidir. Bir xalq üçün dəyişməyən əsas varlıq məhz onun ana dilidir. M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir, F.Köçərli, N.Nərimanov, B.Vahabzadə və başqaları dilimizin dirçəlişi, xalqın bu dildə rahat yazıb-oxuması üçün böyük əmək, zəhmət sərf etmişlər. Belə şairlərdən biri də Bəxtiyar Vahabzadədir. Xalq şairi Bəxtiyar Vahabzadə özünün çoxşaxəli yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfələr verən, bu istiqamətdə müstəsna xidmətləri olan aparıcı sənətkarlardan biridir. Azərbaycan şeirinin son yarıməsrlik tarixi təkamül prosesini B.Vahabzadə yaradıcılığı olmadan təsəvvür etmək mümkün deyil.
Ədəbiyyatımızın görkəmli şairi Bəxtiyar Vahabzadənin "Ana dili" şeirini onun bütün həyatının devizi kimi götürmək daha məqsədəuyğun olardı. "Ana dili" şeirini şairin yaradıcılığının "şah əsəri" adlandırmaq, onun dəyərini göstərmək bu tədqiqat işinin əsas məqsədidir.
Nəticə olaraq qeyd etməliyik ki, "Bizim ruhumuz, eşqimiz, canımız, əhdi-peymanımız, əcdadımızın mirası olan ən qiymətli xəzinə"ni – Ana dilimizi hər birimiz çox sevməli, bu dildə savadlı yazmağı, oxumağı, yüksək səviyyədə təhsil alıb dünyada dilin mövqeyini gücləndirməyi özümüzə hədəf seçməliyik. Necə ki bunu Bəxtiyar Vahabzadə öz dövründə edib, indi də biz gənclər, biz Azərbaycan dili və ədəbiyyatı müəllimləri bu hədəfə doğru can atmalıyıq, bu yolda uğur qazanmalıyıq.
Açar sözlər: Bəxtiyar Vahabzadə, ana dili, milli şüur və ana dilinin vəhdəti.

Abstract
The spirituality and future development of every people and nation are closely linked to the evolution of its language. Just as the land of the motherland remains unchanged due to its territorial unity, our mother tongue, which is the main indicator of national identity, must always be protected and passed on to future generations. The main unchanging asset for a people is its mother tongue. M.F.Akhundov, J.Mammadguluzadeh, M.A.Sabir, F.Kocharli, N.Narimanov, B.Vahabzadeh and others have made great efforts and efforts to revive our language and enable the people to read and write comfortably in this language. One of such poets is Bakhtiyar Vahabzadeh. People`s poet Bakhtiyar Vahabzadeh is one of the leading artists who, with his multifaceted creativity, has made significant contributions to the development of Azerbaijani literature and has made exceptional contributions in this direction. It is impossible to imagine the last half-century of historical evolution of Azerbaijani poetry without the creativity of B.Vahabzadeh.
It would be more appropriate to take the poem "Mother Tongue" by Bakhtiyar Vahabzadeh, a prominent poet of our literature, as the motto of his entire life. Calling the poem "Mother Tongue" a "masterpiece" of the poet`s creativity and showing its value is the main goal of this research work.
In conclusion, we should note that each of us should love "our soul, love, soul, covenant, the most precious treasure that is the heritage of our ancestors" – our mother tongue, and we should set ourselves the goal of writing and reading literately in this language, of receiving a high level of education and strengthening the position of the language in the world. Just as Bakhtiyar Vahabzadeh

did in his time, now we, the youth, we, teachers of the Azerbaijani language and literature, must strive towards this goal and achieve success on this path.

Keywords: *Bakhtiyar Vahabzadeh, mother tongue, national consciousness and unity of the mother tongue.*

PROMOTION OF NATIONAL VALUES IN ILLUSTRATIVE ART. IN THE CONTEXT OF THE AZERBAIJAN SCHOOL OF ART

TƏSVİRİ İNCƏSƏNƏTDƏ MİLLİ DƏYƏRLƏRİN TƏBLİĞİ. AZƏRBAYCAN RƏSSAMLIQ MƏKTƏBİ KONTEKSTİNDƏ

Sahib Cəbrayılov İmran oğlu
Müəllim, ADPU-nun Şamaxı filialı

Xülasə
Təsviri incəsənət hər bir xalqın mədəni kimliyinin formalaşmasında və milli dəyərlərin nəsildən-nəslə ötürülməsində mühüm rol oynayır. Bu sahə yalnız estetik zövqün ifadə vasitəsi deyil, eyni zamanda xalqın tarixi yaddaşını, adət-ənənələrini, dünyagörüşünü və sosial həyat tərzini əks etdirən mühüm kommunikasiya alətidir. Bu məqalədə təsviri incəsənət vasitəsilə milli dəyərlərin təbliği məsələsinə Azərbaycan rəssamlıq məktəbi kontekstində ümumi yanaşma təqdim olunur və keçmişdən bu günə qədər baş verən estetik və ideoloji dəyişikliklər təhlil edilir.
Azərbaycan təsviri sənəti XIX əsrin sonlarından başlayaraq realist ənənələr üzərində formalaşmış, XX əsrdə müxtəlif üslubların və ideoloji çalarların təsiri altında inkişaf etmişdir.
Müstəqillikdən sonra təsviri incəsənətdə mövzu və ifadə azadlığı genişlənmiş, milli-mədəni dəyərlərin təbliği daha açıq və müxtəlif formalarda özünü göstərməyə başlamışdır. Müasir dövrdə rəssamlar milli kimliyi həm simvolik, həm də konseptual yanaşmalarla təqdim edir, bu isə incəsənəti həm yerli, həm də qlobal auditoriyaya çatdırmaq baxımından mühüm əhəmiyyət kəsb edir.
Açar sözlər: Azərbaycan təsviri sənəti, milli dəyərlər, azərbaycançılıq ideyası, rəssamlıq məktəbi, mədəni irs, bədii ifadə

Abstract
Fine arts play an important role in the formation of the cultural identity of each nation and the transmission of national values from generation to generation. This field is not only a means of expressing aesthetic taste, but also an important communication tool that reflects the historical memory, customs, worldview and social lifestyle of the people. This article presents a general approach to the issue of promoting national values through fine arts in the context of the Azerbaijani art school and analyzes the aesthetic and ideological changes that have occurred from the past to the present.
Azerbaijani fine arts were formed on realistic traditions starting from the end of the 19th century and developed under the influence of various styles and ideological shades in the 20th century.
After independence, the freedom of subject and expression in fine arts expanded, and the promotion of national-cultural values began to manifest itself in more open and diverse forms. In modern times, artists present national identity with both symbolic and conceptual approaches, which is of great importance in terms of delivering art to both local and global audiences.
Keywords: Azerbaijani visual art, national values, idea of Azerbaijani identity, painting school, cultural heritage, artistic expression

Giriş

Tarixin uzaq çağlarından gələn miniatürlər Azərbaycan təsviri incəsənətinin ən parlaq lövhələrini təşkil edir. Miniatürlər sənəti, rəssamlıq, təsviri incəsənət görkəmli sənətkarlarımızın, fırça ustalarımızın azərbaycançılığa bəxş etdiyi töfhələrdir. Qədim və orta əsr Azərbaycan təsviri sənətində azərbaycançılıq izləri özünü olduqca qabarıq şəkildə büruzə verir. Azərbaycançılıq təsviri incəsənətdə, qədim rəssamlıq nümunələrində öz əksini tapıb.

Məlumdur ki, azərbaycançılıq məfkurəsi, ideyası xalqımız, mədəniyyətimiz, dövlətçiliyimiz mövcud olandan yaranıb. Tarixin hansı çağında səsimiz eşidilirsə, həmin dövrdə də azərbaycançılıq olub. Ola bilsin adı fərqli olsun, amma məzmunu eynidir. Xalqı dövlətə, dövlətçiliyə bağlayıb azərbaycançılıq. Milli mədəniyyətimizə, dəyərlərimizə sevgi, ana vətənin hər bir övladına qayğı və sayğı aşılayıb bu ideya.(5)

Azərbaycan təsviri incəsənətini bir neçə dövrə aid etmək olar. Ən diqqətçəkəni qədim və orta əsrlər təsviri sənətidir ki, onun inkişafı xalqımızın mədəniyyət tarixində parlaq səhifə açıb.

Təsviri sənətin qədim nümunələri arasında dulusçuluq, daş və metal məmulatlarını bəzəyən dekorativ naxışlar, rəsmlər, qabartmalar (875ctual təsvirlər), heykəllər mühüm yer tutur. Bunlardan kürə formalı qab (Naxçıvan MR-in Şahtaxtı kəndi), ikibaşlı maral fiquru (Xocavənd rayonunun Dolanlar kəndi), üzərində 5 fantastik heyvan təsviri cızılmış tunc qab (Gədəbəy), aypara şəklində qızıl yaxalıq (Ziviyə), qızıl cam (Urmiya gölü yaxınlığındakı Həsənlu təpəsi), Mil, Qarabağ düzlərindən tapılmış keramik qablar öz zərifliyi, bədii kamilliyi ilə fərqlənir (e.ə. VIII-VII əsrlər). Mingəçevirdən, Şamaxıdan tapılmış müxtəlif tipli və formalı bədii şüşə məmulatı nümunələri-dekorativ qablar, piyalələr, qadın bəzəkləri Azərbaycanda şüşə istehsalının da mövcud olduğunu göstərir.(3)

Tədqiqatçılar qeyd edir ki, həkkaklıq və heykəltəraşlıq nümunələri Albaniya (Qafqaz) dövrü sənətində geniş yayılıb. Mingəçevir məbədinin (5-6-cı əsrlər) daş kapitelinin səthində müqəddəs dirilik ağacının sol və sağında üz-üzə dayanmış iki tovuz quşunun qabartma təsviri Qafqaz Albaniyası dövrü heykəltəraşlığının ən kamil nümunələrindəndir.

Təsviri sənətin ən qədim nümunələri arasında e.ə. VIII-V əsrlərdən qalan Qobustan qaya təsvirləri, Kəlbəcər rayonunun Zalxa gölü ətrafında Ayıçınqılı və Pəriçınqıl dağlarındakı Tunc dövrünün başlanğıcına (e.ə. 3-cü minillik) aid rəsmlər, Ordubad şəhərindən şimalda Gəmiqaya dağlarındakı qayaüstü təsvirlər müstəsna əhəmiyyətə malikdir. Qobustanın "Böyükdaş", "Kiçikdaş", "Cingirdağ", "Şonqardağ" və digər qayalarında həkk olunan rəsmlərdə orada yaşamış qədim insanların həyat tərzi, məişəti, əməyi ilə əlaqədar təsvirlər xüsusi maraq doğurur. Tədqiqatçılar yazır ki, burada ovçuluq, maldarlıq, əkinçilik və məişətin digər sahələri ilə bağlı müxtəlif süjetlər, səhnələr, insan və heyvan təsvirləri dinamik tərzdə həkk olunub. Qobustan qaya rəsmləri-piktoqramlar ibtidai icma quruluşundan feodalizm mərhələsinə kimi çoxəsrlik, uzun tarixi dövrü əhatə edir. Orta əsrlərdə Azərbaycan təsviri sənəti dekorativ tətbiqi sənətlə vəhdət təşkil etmiş, Gəncə, Beyləqan və digər şəhərlərdən tapılmış keramika nümunələri üzərində nəbati və həndəsi ornamentlərlə yanaşı, iti caynaqlı quşu, yaxud vəhşi heyvanı oxla vuran cəngavər təsvir edilib. Bu dövr Azərbaycan İntibah mədəniyyəti Nizami Gəncəvinin yaradıcılığı ilə sıx bağlı olmuş, o, poemalarında memar, heykəltəraş, nəqqaş və rəssam obrazları yaradıb.

XIX əsrin əvvəllərində Azərbaycanın şimalının Rusiyaya birləşdirilməsi ilə Azərbaycan təsviri sənətində realist təmayüllər getdikcə güclənir, bədii yaradıcılığın yeni növ və janrları meydana gəlir. "Molla Nəsrəddin" və digər jurnalların, eləcə də kitab nəşri ilə bağlı 875ctual875 qrafika və illüstrasiya janrları yaranır.

"Molla Nəsrəddin" jurnalının rəssamları O.Şmerlinq, İ.Rotter, Ə.Əzimzadə və X.Musayev dövrün ictimai-siyasi problemləri ilə səsləşən realist qrafika sənəti sahəsində geniş fəaliyyət göstərib: "Azərbaycan 875ctual875 qrafikasının banisi Ə.Əzimzadə ictimai bərabərsizliyi, cəhaləti, fanatizmi, çarizm zülmünü ifşa edən kəskin karikaturalar, şarjlar yaradır. Məşhur "Yüz tip" rəsmlər seriyası, qadın azadlığı, ateizm və siyasi motivlərə həsr olunmuş akvarelləri aktuallığı, milli koloriti ilə fərqlənir. 1914-cü ildə M.Ə.Sabirin "Hophopnamə" əsərinə çəkdiyi illüstrasiyalar Ə.Əzimzadənin ən uğurlu işlərindəndir.(6),(7)

Azərbaycan realist dəzgah boyakarlığının yaradıcılarından biri olan B.Kəngərlinin yaratdığı "İlanlı dağ Ay işığında", "Günəş batarkən", "Bahar mənzərələri", "Qaçqınlar" silsiləsinə daxil olan yurdsuz insanların portretləri, "Elçilik", "Toy" kimi məişət kompozisiyaları, eləcə də 1910-cu illərdə Naxçıvan teatrında tamaşaya qoyulmuş "Ölülər" (C.Məmmədquluzadə), "Hacı Qara" (M.F.Axundov), "Pəri-cadu" (Ə.Haqverdiyev) və b. səhnə əsərlərinə verdiyi bədii tərtibat və geyim

es Azərbaycanda 1920-ci ildə 876ctual876st rejiminin 70 illik hökmranlığı bərqərar oldu. Respublikada mədəni quruculuq və yeni tipli incəsənətin təşəkkülü prosesi başlandı. Bakıda ilk rəssamlıq məktəbi açıldı (1920), təsviri sənətin yeni növ və janrları yarandı. Keçən əsrin 30-cu illərində qrafika sahəsində Ə.Əzimzadə ilə yanaşı, Q.Xalıqov, İ.Axundov, Ə.Hacıyev, M.A.Vlasov, K.Kazımzadə, Ə.Məmmədov və b. rəssamlar da fəaliyyət göstərir, Azərbaycan və xarici ölkə yazıçılarının kitablarına illüstrasiyalar çəkir, müxtəlif 876ctual mövzularda siyasi plakatlar yaradırdılar.kizləri Azərbaycan rəssamlığının dəyərli örnəklərindəndir.(1)

1928-ci ildə Azərbaycan Gənc Rəssamlar Cəmiyyətinin ilk yaradıcılıq sərgisi, 30-cu illərdə Azərbaycan İnqilabi Təsviri İncəsənət Birliyinin təşkil etdiyi sərgi böyük uğur qazandı. Bakıda və Moskvada nümayiş etdirilən ilk rəssamlıq sərgilərində S.Salamzadə, Q.Xalıqov, Ə.Rzaquliyev və b. müasir mövzulara həsr etdikləri tablolar mühüm yer tuturdu. 1932-ci ildə Azərbaycan rəssamlarının təşkilat komitəsi yaradıldı. S.Şərifzadənin "Üzüm yığımı", H.Haqverdiyevin "Ə.Əzimzadənin portreti", Q.Xalıqovun "Nizami Gəncəvinin portreti", M.Abdullayev, B.Mirzəzadə, B.Əliyev, S.Bəhlulzadə və K.Xanlarovun məişət və tarixi tabloları kolorit zənginliyi, boyaların ahəngdarlığı ilə diqqəti cəlb edir". 1940-cı ildə Azərbaycan rəssamlarının 1-ci qurultayı keçirilib. O bildirir ki, İkinci Dünya Müharibəsindən sonra, 50-ci illərin ortalarında Azərbaycan təsviri sənəti bədii kamillik dövrünə qədəm qoyub: "Bunun inkişafında keçirilən sərgilərin mühüm rolu olub. SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü M.Abdullayevin tablolarında respublikanın geniş, rəngarəng panoramı təsvir olunub. Rəssamın "Axşam", "Mingəçevir işıqları", "Azərbaycan çöllərində" (triptix), "Sevinc" və s. əsərlərində əmək adamları, məişət səhnələri lirik səpkidə verilib. "Hindistan silsiləsi"nə görə M.Abdullayev beynəlxalq Nehru mükafatına (1970) layiq görülüb. Xalq rəssamının çoxillik yaradıcılıq fəaliyyəti "Şöhrət" (1997), "İstiqlal" ordenləri ilə qiymətləndirilib.

SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü, xalq rəssamı T.Salahovun "Növbədən qayıdanlar", "Səhər qatarı", "Abşeron qadınları", "Yeni dəniz" tablolarında dövrün qəhrəmanlıq pafosu, Xəzərdə yüksələn polad adaların əzəməti duyulur. T.Salahovun yaratdığı "Bəstəkar Qara Qarayevin portreti" əsəri portret sənətinin klassik nümunələrindəndir.(7)

Azərbaycan təsviri incəsənətinin qızıl dövrü haqqında çox fikirlər bildirilib. Dahi rəssamların yaratdığı hər bir nümunə Azərbaycan reallığından, azərbaycançılıqdan, bu müqəddəs ideyadan qaynaqlanıb. Azərbaycançılıq ideyasının təsviri incəsənətə sirayət etməsi tariximizin, milli mədəniyyətimizin yaşaması, təbliği deməkdir. Son illər Azərbaycan dövlətinə, dövlətçiliyinə həsr edilən əsərlərin meydana çıxması onu göstərir ki, fırça ustalarımızın məqsədi azərbaycançılıq ideyasını rəsm əsərləri vasitəsilə dünyaya yaymaqdır.

Azərbaycan mədəniyyətinin dünyada təbliğ olunmasında müasir fırça ustaları arasında Dünya Rəssamlıq Akademiyasının üzvləri də var ki, bir neçə il əvvəl həmin rəssamların Bakıda sərgisi də açılıb: xalq rəssamları Xanlar Əhmədov, Mir Nadir Zeynalov, əməkdar incəsənət xadimi Arif Aziz, əməkdar rəssam Eldar Qurbanov, tanınmış rəssamlar Səmədağa Cəfərov və Nağdəli Xəlilov Dünya Rəssamlıq Akademiyasının üzvləridir. 100-dən çox ölkənin tanınmış fırça ustalarını öz ətrafında birləşdirən bu mötəbər quruma rəssamlarımız 2009-cu ildən üzv olmağa başlamışlar. Belə bir təşkilatda təmsil olunmaqla Azərbaycan rəssamlıq məktəbinin qədim və özünəməxsus ənənələrini dünyada daha geniş formada təbliğ etməyə nail olur.

Bu gün Azərbaycan təsviri incəsənətini dünyada tanıdan rəssamlar arasında Sakit Məmmədovun nailiyyətlərini qeyd etmək lazımdır. Sakit Məmmədov UNESCO Rəssamlar İttifaqının üzvü, Rusiya İmperator Rəssamlar Akademiyasının akademiki, Minilliyin Adamı, Avropanın Şərəf ordeni, İtaliyanın Leonardo da Vinçi ordeni, Avropa Təbiət Elmlər Akademiyasının həqiqi üzvü, Portuqaliyada Festivalda Vera birincilik mükafatı, Beynəlxalq Vera mükafatı, Çingiz Aytmatov adına Beynəlxalq mükafat, Beynəlxalq Vətən Övladı və Dədə Qorqud mükafatları, Birincilik mükafatları və s. qızıl medal və digər mükafatlara layiq görülmüşdür.

Azərbaycan təsviri sənət nümunələrinin sərgiləndiyi maraqlı obyektlərdən biri də Müsir İncəsənət Muzeyidir. XX əsrin ikinci yarısından bu günümüzə kimi azərbaycan təsviri sənəti və

heykəltəraşlığının avanqardlarından təşkil olunmuş əsərlər toplusu muzeyin əsasını təşkil edir. Bu, insan ruhunun müşahidə, axtarış və azadlığını əks etdirən rəsm və heykəllər toplusudur.
2009-cu il mart ayının 20-dən fəaliyyət göstərən muzeydə azərbaycan rəssamları və heykəltaraşlarının 800-dən artıq əsəri sərgilənir. Muzeydə Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şaxtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov, Nadir Əbdürrəhmanov kimi sənətkarların əsərləri nümayiş olunur.(7)
Azərbaycan rəssamlarının əsərlərində milli geyimlərimiz, milli musiqi alətlərimiz öz əksini tapıb və bu əsərlər milli elementlərlə zəngindir.Bütün bunlar Azərbaycanı, onun maddi və mənəvi sərvətlərini dünyada tanıtmaq yolunda görülən işlərdir.
Ölkə başçısının təsviri sənətə, incəsənətə bəslədiyi sonsuz qayğı bu sahəyə müsbət təsir göstərir. Rəssam və heykəltəraşlara dövlət tərəfindən emalatxanalar verilir, onların fəaliyyəti üçün şərait yaradılır. Bu gün dünyanın əksər ölkələrində bu sahə ilə məşğul olanlar dövlət qayğısından uzaqdır. Ancaq Azərbaycanda dövlət rəssamların, heykəltəraş və memarların qeydinə qalır və onları qiymətləndirir. Sənətşünaslar qeyd edir ki, dünyanın hər yerində rəssamlar öz şəxsi hesabına emalatxana sahibi olur, dövlət onlara emalatxana vermir. Bizim ölkədə isə bu başqa cürdür. Rəssam, heykəltəraş, memar dövlətdən qayğı görür. Dövlət quruculuğuna öz sənəti, fəaliyyəti ilə töhfələr verən təsviri sənət ustaları azərbaycançılığın təbliğində müstəsna rol oynayır və bu istiqamətdə silsilə əsərlər yaradır. Müasir Azərbaycan rəssam və heykəltəraşlarının, memarlarının azərbaycançılıq məfkurəsinə xidmət etdiyi gizlin deyil və onların saysız əsərləri azərbaycançılıq ruhundadır.(2)

Nəticə

Azərbaycan təsviri incəsənəti xalqımızın tarixi-mədəni kimliyini qorumaq və təbliğ etmək baxımından mühüm əhəmiyyətə malikdir. Qədim dövrlərdən başlayaraq bu sənət sahəsi milli ornamentlər, etnoqrafik motivlər və tarixi simvollar vasitəsilə azərbaycançılıq ideyasını 877ctual şəkildə ifadə etmişdir. Sovet dövründə mövcud ideoloji məhdudiyyətlərə baxmayaraq, rəssamlar milli ruhu əsərlərində yaşatmağı bacarmış, müstəqillikdən sonra isə bu meyillər daha sərbəst və çoxşaxəli formalarda davam etmişdir. Müasir dövr Azərbaycan rəssamları milli dəyərləri həm simvolik, həm də konseptual yanaşmalarla təqdim edərək, onların qlobal kontekstdə tanıdılmasına töhfə verirlər. Bütün bu mərhələlər göstərir ki, Azərbaycan rəssamlıq məktəbi yalnız sənətkarlıq deyil, həm də milli-mədəni ideyaların daşıyıcısı və qoruyucusudur.(1)

Ədəbiyyat Siyahisi

1. Abbasova, T. (2023). Sovet dövründə və müasir mərhələdə Azərbaycan rəssamlarının yaradıcılığında milli kodlar. Bakı.
2. Ələkbərov, E. (2022). Azərbaycan mədəniyyəti və təsviri sənətdə kimlik məsələləri. Bakı: Şərq-Qərb
3. Əliyev, F. (2020). Azərbaycan təsviri sənətində milli motivlər və onların tərbiyəvi əhəmiyyəti. Bakı: Elm və Təhsil.
4. Əliyeva, Z. (2021). Təsviri incəsənətdə milli irsin 877ctual təqdimatı: Azərbaycan nümunəsi. Bakı:
5. Həsənova, N. (2021). Milli dəyərlərin təbliğində təsviri sənətin rolu. Mədəniyyət və İncəsənət Jurnalı, 9(2), 22–29.
6. Məmmədov, S. (2018). Təsviri sənət vasitəsilə milli identikliyin qorunması: Sənətşünaslıq yanaşması. İncəsənət və Cəmiyyət, 5(1), 47–55.
7. Qasımov, M. (2019). Azərbaycan rəssamlıq məktəbi: inkişaf mərhələləri və üslub xüsusiyyətləri. Azərbaycan Dövlət Rəssamlıq Akademiyası Elmi Əsərləri, 12(1), 35–45.

THE INFLUENCE OF LATIN AND GREEK ON ENGLISH

ВЛИЯНИЕ ЛАТЫНИ И ГРЕЧЕСКОГО НА АНГЛИЙСКИЙ

LATIN VƏ YUNAN DİLLƏRİNİN İNGİLİS DİLİNƏ TƏSİRİ

S.M.LƏTİFOVA
ADPU-nun Şəki filialı(Şəki şəh., M.Ə.Rəsulzadə küç.,305)

Abstract
The article examines how Latin and Greek have shaped the English language and the extent of their influence. The rich and complex English language, which has been subject to many linguistic influences, stands as evidence of centuries of cultural exchange and evolution. Its extensive vocabulary and complex grammar are not the result of a single influence, but rather the result of a dynamic combination of Latin and Greek with various languages. Although English belongs to the Germanic family of Indo-European languages, Latin has had a significant influence on English. Thus, a significant part of the English vocabulary comes from Romance and Latin sources. Latin makes up about 29% of the English vocabulary, and this is mostly related to law, science and religion. Although Greek makes up about 6% of the lexicon, it is more common in the fields of medicine, philosophy and science. The article discusses how each of these ancient languages has left a deep mark on the English language, making unique contributions to its vocabulary, grammar, and phonology, as well as their influence in many areas, from everyday vocabulary to technical and formal language.
Key words: Latin, Greek, prefix, suffix, academic discourse

РЕЗЮМЕ
В статье рассматривается, как латынь и греческий сформировали английский язык и степень их влияния. Богатый и сложный английский язык, который подвергся многим языковым влияниям, является свидетельством многовекового культурного обмена и эволюции. Его обширный словарный запас и сложная грамматика являются результатом не одного влияния, а, скорее, результатом динамического сочетания латыни и греческого с различными языками. Хотя английский язык принадлежит к германской семье индоевропейских языков, латынь оказала на него значительное влияние. Таким образом, значительная часть английского словарного запаса происходит из романских и латинских источников. Латынь составляет около 29% английского словарного запаса, и это в основном связано с правом, наукой и религией. Хотя греческий язык составляет около 6% лексикона, он более распространен в областях медицины, философии и науки. В статье обсуждается, как каждый из этих древних языков оставил глубокий след в английском языке, внеся уникальный вклад в его словарный запас, грамматику и фонологию, а также их влияние во многих областях, от повседневной лексики до технического и формального языка.
Ключевые слова: латынь, греческий, префикс, суффикс, академический дискурс
Developing Students' Communication-oriented Oral Speech Skills through Authentic

Xülasə
Məqalə latın və yunan dillərinin ingilis dilini necə formalaşdırdığını və onların təsir dərəcəsini araşdırır. Bir çox linqvistik təsirlərə məruz qalan zəngin və mürəkkəb ingilis dili əsrlər boyu davam edən mədəni mübadilə və təkamülün sübutu kimi özünü göstərir. Onun geniş leksikası və mürəkkəb qrammatikası tək bir təsirin nəticəsi deyil, latın, yunan dilləri ilə müxtəlif dillərin dinamik birləşməsinin nəticəsidir. Ingilis dili Hind-Avropa dillərinin german dillərinə aid olsa da, latın dili

ingilis dilinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Belə ki, ingilis dili lüğətinin əhəmiyyətli bir hissəsi roman və latın mənbələrindən gəlir. Latın dili ingilis dili lüğətinin təxminən 29%-ni təşkil edir və bu da daha çox hüquq, elm və dinlə bağlı sözlərdən ibarətdir. Yunan dili leksikonun təxminən 6%-ni təşkil etsə də, tibb, fəlsəfə və elm sahələrində daha çox rast gəlinir. Məqalədə bu qədim dillərin hər birinin ingilis dilinə dərin iz qoyaraq onun lüğətinə, qrammatikasına, fonologiyasına bənzərsiz töhfə verməsi, eləcə də onların gündəlik lüğətdən tutmuş texniki və rəsmi dilə qədər bir çox sahələrdə təsiri müzakirə olunur.
Açar sözlər: latın dili, yunan dili, prefiks, suffiks, akademik diskurs

GİRİŞ

Ingilis dili, hazırda ən çox danışılan dil olmaqla, dünyanın ən vacib dillərindən biri hesab olunur. Ingilis dili german tayfalarının danışdıqları anqlo-sakson ləhcələrindən yaranmışdır. Lakin hər bir dil kimi, ingilis dili də müxtəlif dillərdən və dialektlərdən təsirlənmişdir. Başqa sözlə desək, ingilis dili müxtəlif dillərin, o cümlədən latın, yunan, fransız və digər dillərin təsirinə məruz qalaraq formalaşmışdır. Qeyd etdiyimiz kimi, ingilis dilinə təsir göstərən dillərdən biri də latın dili olmuşdur. Bir çox latın sözləri ingilis ilinə müxtəlif dövrlərdə (Britaniyanın Roma işğalı zamanı, Xristianlaşma və Intibah dövründə) daxil olmuşdur. Ingilis sözlərinin əksər hissəsinin latın dilindən götürüldüyü təxmin edilir. Belə ki, latın təsirlərini hüquq, elm, tibb kimi bir çox sahələrdə görmək mümkündür. Latın dilinin təsiri ingilis dilini zənginləşdirərək bu gün də istifadə olunan bir çox söz və anlayışlar üçün zəmin yaradıb. Bundan əlavə, yunan dili də latın, fransız və digər dillər ilə birlikdə ingilis dilinin inkişafında əsas rol oynamışdır. Yunan dili ingilis dilini elm və fəlsəfənin zirvələrindən mif və insan duyğularının dərinliklərinə qədər əhatə olunmuş lüğətlə zənginləşdirmişdir. Bu gün ingilis dilinin linqva frankaya çevrilməsinin səbəblərindən biri də dünyanın müxtəlif ölkələrindən gələn müxtəlif mədəni təsirləri mənimsəmək və onları dilin ayrılmaz tərkib hissəsi etmək qabiliyyətinə görədir. Xüsusilə, ingilis dilinin yunan dili və mədəniyyəti ilə mürəkkəb qarşılıqlı əlaqəsi bizə qədim yunanlar ilə ünsiyyət qurmaq, onların müdriklik və dünyagörüşünü öyrənmək imkanı verir. Yunan dilinin ingilis dilinə hərtərəfli təsiri Qədim Yunan sivilizasiyasının müasir Qərb təfəkkürü üzərində qalıcı irsinin sübutudur.

Latın Dilinin İngilis Dilinə Təsiri

Latın dilinin ingilis dilinə təsiri ingilis dilini zənginləşdirən bütün amillərdən bəlkə də ən mühümüdür. Latın dilinin ingilis dilinə təsiri Anqlo-Saksonların İngiltərəyə gəlməsindən çox əvvəl başlamışdır. Belə ki, latın dilinin ingilis dilinə təsirini 3 dövrə bölə bilərik: xristianlıqdan əvvəlki dövr, xristianlaşma dövrü və intibah dövrü [6]. Latın dili ilk dəfə ingilis dilinə Roma işğalı dövründə təsir göstərmişdir. Latın dili doğma dilə az təsir göstərsə də, gündəlik həyat, hərbi və idarəetmə ilə bağlı bəzi latın sözləri ingilis lüğətinə daxil olmuşdur. Latın təsirinin daha əhəmiyyətli dalğası 7-ci əsrdə İngiltərənin xristianlaşması ilə bağlıdır. 6 və 7-ci əsrlərdə Britaniyaya gələn xristian missionerləri özləri ilə latın dili terminlərini də gətirdilər. Latın dili kilsənin və savadlılığın dili olduğundan çoxsaylı dini terminlərin tətbiqinə səbəb olmuşdur. Misal olaraq göstərə bilərik ki, “altar”(mehrab), “monk”(rahib), “priest”(kahin) kimi sözlər ingilis dilinə kilsə istifadəsi ilə daxil olub [6]. Latın təsirinin digər dalğası Norman fəthi ilə əlaqələndirilir. Belə ki, 1066-cı ildə Norman fəthi daha çox latınlaşdırılan Norman fransızcası vasitəsilə latın mənşəli sözlərin ingilis dilinə keçməsinə səbəb olmuşdur. Bu dövrdə “court” (məhkəmə), “justice” (ədalət), “jury” (münsiflər heyəti), “government” (hökumət) kimi bir çox hüquqi terminlər ingilis lüğətinə əlavə edilmişdir. Bundan əlavə, İntibah dövründə təxminən 1500-1650-ci illərdə ingilis leksikasına təxminən 10000-12000 söz daxil olmuşdur. Bu sözlərə “allusion” (eyham), “democratic” (demokratik), “imaginary” (xəyali), “sophisticated” (mürəkkəb) kimi sözləri aid etmək olar. Bu sözlərin çoxu birbaşa latın dilindən götürülmüşdür. 17-18-ci əsrlərdə elmi kəşflər əsrinin başlanğıcı yeni əldə olunmuş biliyi təsvir etmək üçün yeni sözlərə ehtiyac yaratdı. Bu sözlərin bir çoxu latın dilindən götürüldü, digərləri isə latın

köklərindən, prefiks və suffikslərindən yaradıldı. Bu dövrdə ingilis dilinə daxil olan sözlərdən bəziləri bunlardır: “data” (məlumat), “experiment” (təcrübə), “mechanics” (mexanika), “molecule” (molekul), “nucleus” (nüvə), “ratio” (nisbət) və s.

Yunan Dilinin İngilis Dilinə Təsiri

“Geography” (coğrafiya), “grammar” (qrammatika), “architect” (memar), “economy”(iqtisadiyyat), “telelphone” (telefon), “microscope” (mikroskop) və s. Bu kimi ingilis sözlərinin ortaq bir cəhəti var: onlar yunan dilindən götürülmüşdür [7]. Bu siyahıya minlərlə daha çox söz əlavə edə bilərik. Aydındır ki, yunan dili ingilis dilinə mühüm təsir göstərmişdir. Gəlin, əvvəlcə yunan dilinin tarixinə qısa nəzər salaq. Yunan dili ən qədim Hind-Avropa dillərindən biridir və adətən Qədim Yunan dili və Müasir Yunan dili olmaqla iki yerə ayrılır. Müasir yunan dili bir zamanlar bütün yunandilli dünyada başa düşülən qədim yunan dilinin ümumi ləhcəsi olan Koine dilindən götürülüb. 19-cu əsrdə müasir yunan dili Yunanıstan Krallığının rəsmi dili oldu. Peter T.Danielsə görə, qədim yunanlar ilk dəfə “həqiqi” əlifbadan, yəni həm saitləri, həm də samitləri olan əlifbadan istifadə etmişlər [2, s.91]. Həqiqətən də, “alphabet”(əlifba) sözü yunan əlifbasının ilk iki hərfindən “alpha” (alfa) və “beta” (beta) dan əmələ gəlmişdir. Yunan sözləri ilk növbədə ingilis dilinə latın dili vasitəsilə xüsusən də klassik biliklərə və mətnlərə marağın canlandığı intibah dövründə daxil olmuşdur. Intibah dövründə alimlər klassik yunan mətnlərini öyrənməyə başladılar və bu, yunan söz və anlayışlarına marağın yenidən yaranmasına səbəb oldu. Yunan sözləri elmi və tibbi terminologiyada xüsusilə üstünlük təşkil edir. “Biology”(biologiya), “geography” (coğrafiya), “democracy” (demokratiya) və “philosophy” (fəlsəfə) kimi sözlər yunan töhfələrini nümayiş etdirir [7]. Erkən Müasir İngilis dili dövründə yunan sözləri ingilis dilinə xüsusən elmi və fəlsəfi kontekstlərdə daxil olmağa davam etmişdir. Müasir ingilis dilində yunan dili texnologiya (məsələn: “television”- televiziya; “cybernetics”- kibernetika) və tibb (məsələn: “anesthesia”- anesteziya; “pathology”- patologiya) kimi sahələrdə yeni terminlər üçüb mənbə olmaqda davam edir .

Bəzi hesablamalara görə, ingilis dilində 150000-dən çox söz yunan dilindən götürülüb. Bunlara daha çox texniki və elmi terminlər daxildir. Yunan mənşəli sözlər bir çox xüsusiyyətlərə malikdir. Belə ki, “ph” ilə başlayan sözlər adətən yunan mənşəlidir. Buna “philosophy” (fəlsəfə), “physical” (fiziki), “photo” (foto), “phrase” (ifadə) kimi sözləri misal göstərə bilərik. Bir çox ingilis sözləri yunan dilindən götürülmüş morfemlərdən ibarətdir [7]. Məsələn:

Phobia (qorxu)- arachnophobia (hörümçəklərdən qorxma)
Micro (kiçik)- microscopic (çox kiçik)
Demos (xalq)- democracy (demokratiya)

Qədım Yunan Mədənıyyətından Götürülmüş Ingılıs Ifadələrı

Qədim yunan mədəniyyətindən götürülmüş çoxlu sayda ingilis ifadələri vardır. Yunan mifologiyası Qərb mədəniyyətinə, xüsusən də onun incəsənətinə və ədəbiyyatına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Təəccüblü deyil ki, ingilis dilində bəzi ümumi ifadələr bu qədim miflərdən və inanclardan qaynaqlanır. Bu ifadələrdən bəzilərinə nəzər yetirək:

“Axilles dabanına sahib olmaq” (to have an Achilles heel) zəiflik və ya həssas nöqtəyə sahib olmaq deməkdir [5]. Axilles yunan qəhrəmanı və Homerin “İliada” poemasının baş personajı idi. Əfsanəyə görə qəhrəman Axilles körpə ikən, anası onu ölümsüz etmək üçün Stiks çayına salır. Lakin o körpəni tutmaq məcburiyyətində qaldığından onu dabanından tutur. Nəticədə bir dabanı suya dəymir və həssas olaraq qalır. Beləliklə, Axillesin dabanı onun həssas, zəif nöqtəsi hesab olunurdu. Bu ifadəyə başqa bir cümlədə nəzər salaq: I’m trying to eat more healthily, but chocolate is my Achilles heel. (Mən daha sağlam yeməyə çalışıram, ancaq şokolad mıənim zəif nöqtəmdir).

“Midas toxunuşu” (Midas touch) yunan mifologiyasından gələn başqa bir ümumi ifadədir. Hər hansı bir işdə uğur qazanmağın sehrli qabiliyyətini təsvir edən ifadə toxunduğu hər şeyi qızıla çevirmək bacarığı ilə yaddaqalan kral Midasın hekayəsindən qaynaqlanır.

Kökləri yunan mənşəli olan digər bir deyim "timsah göz yaşları" (crocodile tears) dır. Bu ifadə timsahların ovlarını yeyərkən ağladığına dair məşhur qədim inancdan qaynaqlanır. Əslində, timsahlar sudan çıxdıqdan uzun müddət sonra gözləri qurumağa başlayanda gözlərini gözyaşı kanalları vasitəsilə yağlayırlar. Buna baxmayaraq, həmin davranışın timsahlar qidalandığı zaman da baş verdiyi düşünülür. Əslində timsahlar ağlasalar da, bu kədərləndikləri üçün deyil, fizioloji səbəblərə görədir. Ona görə də ingilis dilində səmimi olmayan kədəri təsvir etmək üçün bu ifadədən istifadə olunur.

Akademik diskursun latın və yunan mənşəli sözlərlə zəngin olmasının bir çox səbəbləri vardır. Əsas səbəblərdən biri tarixi səbəbdir. Təxminən 1500-cü ildən sonra ingilis dili əvvəllər latın dilinin istifadə olunduğu ingilisdilli dünyada alimlər tərəfindən istifadə olunmağa başladı. Alimlər latın və yunan dilindən sözlər götürdülər və nəticədə ingilis dilinə bir çox latın və yunan sözləri daxil oldu. Fromkin et al iddia edir ki, intibah dövrü və 1476-cı ildə William Caxton tərəfindən İngiltərədə mətbəənin tətbiqi latın və yunan dillərindən öyrənilən sözlərin tətbiqində mühüm amillər olmuşdur. Akademik kontekstdə yunan dilindən götürülmüş sözlərə misal olaraq "drama" (dram), "comedy" (komediya), "tragedy" (faciə), "physics" (fizika),"scene" (səhnə), "atomic" (atom) və s. Göstərə bilərik [3, s.358].

Latın və yunan dillərinin təsirinin başqa bir səbəbi dil amili ilə bağlıdır. Fromkin yazır ki, yunan dili təbiət elmləri kimi fənləri dəqiq, texniki terminlərlə təmin etmək üçün çox uyğundur. Çünki şəkilçilərdən istifadə edərək yeni, mürəkkəb sözlər yaratmaq mümkündür. Yunan kökləri ingilis dilini yeni sözlər xüsusən də texniki terminlər yaratmaq üçün vasitələrlə təmin etmişdir. Məsələn, thermometer (termometr) sözü "thermos" (isti) və "metron" (ölçmək) sözlərindən yaranmışdır [3, s.352]. Digər nümunələrə baxaq: neurology (nevrologiya) sözü mənası sinir (nerve) olan "nevron" və mənası öyrənmək (study) olan "logia"sözlərindən;dynamite (dinamit) sözü mənası güc (power) olan "dynamics" sözündən; psychology (psixologiya) sözü mənası könül, qəlb olan (soul) "psyche" və mənası öyrənmək (study) olan "logia" sözlərindən; comedy (komediya) sözü mənası festival (festival) olan "komos" və mənası mahnı (song) olan "oide" sözlərindən yaranmışdır [1, s.69].

Yunan dili kimi latın dili də ingilis dilini prefiks və suffikslərlə təmin etmişdir. Məsələn, latın prefiksi "ex" və latın suffiksi "able/ible" ingilis sözlərinə əlavə oluna bilər: ex-husband (keçmiş ər), readable (oxunabilən), writable (yazılabilən). Ingilis dilində çox istifadə olunan latın prefiksləri aşağıdakılardır [4, s.170]:

Prefix (ön şəkilçi)	**Meaning (mənası)**	**Translation (tərcüməsi)**	**Example (nümunə)**
Dis	not	ma[2]	Dislike
Pre	before	əvvəl	Predict
Ob	against	Qarşı	Oppose
Re	again	yenidən	Reorganise
Com	together	birlikdə	Complicated
Mis	wrong(ly)	səhv	Misinform
Inter	between, among	Arasında	Intermittent

Nəticə

Məlum olduğu kimi, ingilis dili lüğətinin əhəmiyyətli bir hissəsi roman və latın mənbələrindən gəlir. Latın dilinin ingilis dilinə təsiri ilk növbədə leksik xarakter daşıyır, əsasən latın köklərindən alınan sözlərlə məhdudlaşır. Klassik yunan dilinin ingilis dilinə təsiri isə latın və fransız dilləri vasitəsilə olmuşdur. Bəzi sözlərin birbaşa latın dilindən götürüldüyünü müəyyən etmək çətin olsa belə, məlumdur ki, latın dilindən götürülmüş sözlər müasir ingilis dilinin yaranmasında böyük rol oynamışdır. Bu təsir ingilis dilinin bütün dövrlərində hərtərəfli davam etmiş və bu gün də davam edir.

Fransız, latın və skandinaviya təsirləri ingilis dilinə birbaşa təsir göstərsə də, yunan təsiri də onun təkaülündə mühüm amil olmuşdur. Ingilis dilində 15000-dən çox terminin yunan mənşəli olduğu iddia edilir. Adi 80000 sözdən ibarət ingilis dili lüğətində sözlərin təxminən 5%-i birbaşa yunan dilindən götürülmüşdür.

Beləliklə, deyə bilərik ki, latın dili dini və elmi terminlərə töhfə verdiyi halda, yunan dili elmi və fəlsəfi lüğəti zənginləşdirmişdir.

Ədəbiyyat

1. Bradley H (1968) The Making of English, MacMillan, London.
2. Daniels, Peter T.; Bright, William (1996). The World's Writing Systems. Oxford University Press.
3. Fromkin, V, Rodman, R & Hyams, N (2013) An Introduction to Language (10th edn), Wadsworth/Cengage Learning, Boston.
4. Nation, I S P (1990) Teaching and Learning Vocabulary, Heinle and Heinle, Boston.
5. https://dictionary.cambridge.org/dictionary/english/achilles-heel
6. https://nibblepop.com/latin-influence-on-english-language/
7. https://www.greek123.com/blog/the-influence-of-greek-on-the-english-language/

Developing Students' Communication-oriented Oral Speech Skills through Authentic Newspaper Materials Written in English

Sevda Abuzarli Zakir
Azerbaijan University of Languages.

Abstract
The presented article is dedicated to the most important issue facing our modern education today – the issue of forming and improving students' communication-oriented speech skills through authentic newspaper materials in the English language, and developing their ability to discuss any topic. The experience gained in the field of language teaching proves that it is almost impossible to master any language without communication. Talking about the material read is a means of self-expression and communication.
Reading newspapers published in foreign media has a special effect on the formation of students' worldview and their independent acquisition of foreign language skills and strengthens their knowledge.
Key words: authentic material, communication, discussion, teaching process, interdisciplinary integration, exercises

Students often, even in many cases, find it difficult to express their thoughts, and if they cannot find the necessary words and expressions, they do not join the discussion.
This is the main reasons for this difficulty lies in their limited vocabulary and insufficient familiarity with contextually appropriate expressions. As a result, when learners are unable to recall or apply the necessary words and phrases, they tend to refrain from participating in discussions, leading to reduced engagement and missed opportunities for communicative practice. That is why discussions should be organized by reading and analyzing a specific text or article (grammatical and lexical analysis) so that students are both aware of the topic to be discussed and have a certain vocabulary about the topic.
Students often, and in many cases quite noticeably, encounter significant challenges when attempting to express their thoughts in a foreign language. To address this issue effectively, it is essential to create a supportive and structured learning environment in which discussions are not spontaneous but rather well-prepared through purposeful reading and analysis of specific texts or articles. This preparatory phase should include both grammatical and lexical analysis of the material, enabling students to internalize relevant structures and vocabulary prior to the discussion. In doing so, learners not only become acquainted with the topic in advance, but they also acquire the linguistic tools necessary to actively engage in meaningful communication. Moreover, such an approach fosters greater confidence among students, encourages critical thinking, and enhances their ability to articulate ideas clearly. It also bridges the gap between passive language knowledge and active language use, thereby contributing to the development of communicative competence — a key goal in modern foreign language education. "We should note that when choosing authentic materials, they should be carefully selected, and the age and group level of the students should be adjusted. Otherwise, it leads to the demotivation of the student studying in any course of language faculties. When using authentic materials in language faculties, their level of linguistic knowledge should also be in focus" [Hajiyeva, 2018, p.125].
During the discussion of newspaper articles, students acquire essential skills in expressing their impressions, personal ideas, and points of view through oral speech. This process not only enhances their speaking abilities but also develops their capacity for critical thinking, argumentation, and active participation in communicative situations. The use of authentic journalistic texts as a basis for classroom discussion enables students to engage with real-world content, thereby fostering a deeper understanding of both linguistic structures and contemporary issues.

Furthermore, the organization of English language classes in this direction promotes interdisciplinary integration by connecting language learning with subjects such as history, politics, culture, sociology, and media studies. Such an approach enriches the educational process, broadens students' intellectual horizons, and makes language learning more meaningful and relevant. Through the analysis of authentic materials, students do not merely study language in isolation but learn to apply it in various academic and social contexts, preparing them for real-life communication in diverse spheres. The organization of English language classes in this direction also encourages interdisciplinary integration. "Interdisciplinary integration teaches pupils (students) elements of work responsibility, effective management, transparency, democracy in communication and other issues at a higher level" [Abbasova, 2015, p. 139]. Students who study English acquire knowledge in history, ecology, literature, culture, sociology and other fields and share the acquired knowledge and information with each other and exchange ideas.

Revealing and developing students' speech abilities during communication is the main principle of communicative language training. Students' knowledge, worldviews, and personal life experiences from various subjects help them in communication. In the modern educational system, not only foreign languages, but even all subjects are taught communication – dialog, communicativeness, because the lexical and grammatical knowledge acquired by students expands and strengthens precisely as a result of communication. "A foreign language teacher who meets the requirements of the modern era must acquire the ability to use the English language independently, freely, adequately and creatively. There is a great need to bring a serious, radical character to the teaching of English in the language faculties, to develop new, more efficient methods and methods that meet the requirements of the day and can ensure the achievement of the set goals" [Zahidova, 2016, p. 258].

In order to express themselves more fluently and communicate clearly to their fellow students, students constantly focus on the fluency of their speech, which ultimately results in their mastering the ability to speak fluently. The theory of communicative language teaching confirms that language learning takes place through real communication" [Pham Hoa Hiep, 2005, p. 5].

The Peninsula newspaper The Peninsula of Qatar has been traditionally published an article about national leader Heydar Aliyev in early May for many years. This year, Azerbaijan has published an article entitled "Azerbaijani Community Community Community Community Commemorates 96th Oneth Anniversary of Heydar Aliyev" [6]. Using the name called the following article, a class example we will present below:

Pre-reading tasks:

1. Speak about the role of poiticians in the World History.
2. Name some of the great politicians.
3. Speak about Heydar Aliyev's personality as a great politician.
4. Why do you think some leaders are remembered and commemorated even after their death?
5. Have you ever heard about the relationship between Azerbaijan and Qatar?

While reading tasks:

1. While reading the article circle the important dates as they will be helpful to answer reading comprehension questions and to take active part in post reading discussions.
2. While reading the article circle adjectives that describe Heydar Aliyev's political activity.

Post reading tasks:

Answer the following questions:

1. When and where was Heydar Aliyev born?
2. When was Heydar Aliyev elected the First Secretary of the Central Committee of the Communist Party of Azerbaijan?

3. What position was Heydar Aliyev elected in 1982?
4. When and why did Heydar Aliyev resign from his position?
5. Do you estimate the date July 1990 as a turning point in Heydar Aliyev's life and why?
6. When was Heydar Aliyev elected President of the Republic of Azerbaijan?
7. When did Heydar Aliyev pass away?
8. How do you 885ctual885885rize Heydar Aliyev's personality as a great historical leader of Azerbaijan?

The following tasks can be done according to the article "Qatar-Azerbaijan ties growing stronger" [7]:

Pre-reading tasks:

1. Speak on the meaning of the words "ties, relations, cooperation" in political sphere? Why are bilateral relations important between countries?
2. Give some facts on strong ties between Azerbaijan and a number of foreign countries.
3. What do you know about the current relationship between Azerbaijan and Qatar?
4. What negotiations have recently been held in our country in order to build strong ties with other countries?
5. Have you ever heard of the Inter-Parliamentary Union (IPU)? What do you think it does?

While reading tasks:

1. While reading the article circle the important dates as they will be helpful to answer reading comprehension questions and to take active part in post reading discussions.
2. While reading the article circle the verbs that are related with the nouns "ties, relations, negotiations".

Post reading tasks:

Answer the following questions:

1. In which year did Qatar and Azerbaijan establish diplomatic relations?
2. What steps have Azerbaijan and Qatar taken to strengthen their bilateral relations?
3. If you were a representative of your country, which area would you prioritize in cooperation with Qatar or Azerbaijan? Why?
4. Was Baku twinned with any foreign city? What do you know aout the forms of cooperation 885ctual885 twinned cities (towns)?

Arrange the following words in pair of synonyms:

to expand	increase
ties	to found
to strengthen	firm
pact	to enlarge; to extend
boost	to consolidate
development	agreement
solid	relations
to establish	improvement

Match the words with their definitions:

Bilateral	shared, held or done by two or more people together
Cooperation	able to be trusted
Joint	involving two groups or countries

Reliable	working together for a common purpose
To facilitate	the fact of happening often
Frequency	to make something easy

Scientific Result Of The Work

Articles published in foreign countries in the training process, along with the development of the text in the training process, along with the development of oral speech habits of the text develops their worldview. Such classes make students learn more in English. We came to the conclusion that the role of authentic English-language newspaper materials in enhancing students' communication-oriented competence in the process of learning a foreign language is a vital part of the lessons. Emphasis should be placed on how such texts contribute to the development of students' communication-oriented speech skills, encourage meaningful discussions, and promote independent thinking. The integration of authentic materials not only enriches the language learning process but also broadens students' worldviews and fosters interdisciplinary connections. Practical classroom experience demonstrates that authentic texts serve as powerful tools for improving language proficiency through real-life communication contexts.

Scientific Innovation Of The Work

The scientific innovation of the study is that there are many information and work examples here about the use of newspaper materials in English classes.

Importance Of The Work

The practical significance of the play is that students work on newspaper articles, they repeat all the grammatical and lexical material they learned in foreign languages. This helps them master the materials in the lesson.

Literature

1. Abbasova E. Xarici dil məzmununda inteqrasiyanın təkmilləşdirilməsi. Xarici dillərin tədrisinin 886ctual problemləri Respublika Elmi – Praktik Konfransın materialları. Bakı: ADU, 4-4 may, 2015, s.137-140.
2. Hacıyeva Q. Dil fakültələrinin yuxarı kurslarında autentik materiallardan istifadənin səmərəli yolları. Tətbiqi Dilçiliyin müasir problemləri III Beynəlxalq Elmi Konfransın materialları. Bakı: ADU, 25-26 oktyabr, 2018, s. 125-126.
3. Zahidova F. Dil fakültələrində ixtisas dilinin tədrisinə innovativ ideyaların tətbiqi haqqında. Xarici dillərin tədrisinin 886ctual problemləri Respublika Elmi Praktik Konfransın materialları. Bakı: ADU, 5-6 may, 2016, s. 257-258.
4. Glendinning E. H, Holmstrom B. Study Reading. A course in reading skills for academic purposes. Cambridge: Cambridge University Press, 2004, 159 s.
5. Pham Hoa Hiep. "Imported"Communicative Language Teaching. Implications for Local Teachers. English Teaching Forum. Volume 43, Number 4, 2005, p. 5-8.
6. https://thepeninsulaqatar.com/article/07/05/2019/Azerbaijani-community-commemorates-96th-birth-anniversary-of-Heydar-Aliyev
7. ttps://thepeninsulaqatar.com/article/20/04/2019/Qatar-Azerbaijan-ties-growing-stronger

ISSUES OF TRANSLATION OF PHRASEOLOGICAL UNITS USED IN JAMES JOYCE'S COLLECTION OF SHORT STORIES –"DUBLINERS" INTO OUR LANGUAGE

CEYMS COYSUN "DUBLİNLİLƏR" HEKAYƏLƏR TOPLUSUNDA İSTİFADƏ EDİLMİŞ FRAZEOLOJİ VAHİDLƏRİN DİLİMİZƏ TƏRCÜMƏSİ MƏSƏLƏLƏRİ

Sevinc Akif qızı Əliyeva
AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun dissertantı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı, Dillər və onların tədrisi texnologiyası kafedrasının baş müəllimi
,

Xülasə
Təqdim edilmiş məqalədə frazeoloji vahidlərin bədii tərcümədə rolu və onların müxtəlif tərcümə üsulları ilə hədəf dilə çevrilməsi məsələləri məşhur irland yazıçısı Ceyms Coysun "Dublinlilər" hekayələr toplusunun Ə.Nicat və R.Abbaslı tərəfindən Azərbaycan dilinə tərcümə olunmuş variantına əsasən tədqiq edilərək, əsas diqqət frazeoloji vahidlərin məna və obrazlılıq baxımından uyğunluğuna, tərcümənin kontekstə və üsluba nə dərəcədə uyğunlaşdırıldığına yönəldilmişdir.
Tədqiqatda frazeoloji vahidlərin tərcüməsində istifadə olunan altı əsas üsul – ekvivalent, analoq, təsviri, antonim, kalka və kombinə üsulları – nəzəri baxımdan izah edilərək onların konkret nümunələr üzərində tətbiqi təhlil olunur. Tərcümə nümunələri əsasında bu nəticəyə gəlinir ki, sözügedən toplunun dilimizə tərcümə edilmiş versiyasında əksər hallarda tərcüməçilər analoq və təsviri üsullara üstünlük vermişlər, lakin bəzən bu seçimlər tərcümə keyfiyyətinə mənfi təsir göstərmiş, orijinalın mənası və emosional tonu tam ötürülməmişdir. Məqalədə uğurlu tərcümə nümunələri ilə yanaşı, semantik və obrazlılıq baxımından uyğunsuz olan hallara da diqqət yetirilir.
Məqalə frazeoloji vahidlərin tərcüməsinin nə dərəcədə incə və məsuliyyətli bir proses olduğunu nümayiş etdirir və bu sahədə çalışan tərcüməçilərə nəzəri və praktik istiqamətlər verir.
Açar sözlər: *frazeoloji vahidlər, tərcümə üsulları, ekvivalentlik, analoq üsulu, mütərcim*

Abstract
The presented article examines the role of phraseological units in literary translation and their transformation into the target language by various translation methods based on the version of the famous Irish writer James Joyce's collection of short stories "Dubliners" translated into Azerbaijani by A. Nijat and R. Abbasli, and the main attention is paid to the compatibility of phraseological units in terms of meaning and imagery, and to what extent the translation is adapted to the context and style.
The study explains the six main methods used in the translation of phraseological units – equivalent, analog, descriptive, antonym, calque and combination methods – from a theoretical point of view and analyzes their application on specific examples. Based on the translation examples, it is concluded that in the translated version of the collection into our language, translators in most cases preferred analog and descriptive methods, but sometimes these choices had a negative impact on the quality of the translation, and the meaning and emotional tone of the original were not fully conveyed. The article, along with successful translation examples, also pays attention to cases that are inconsistent in terms of semantics and imagery.
The article demonstrates how delicate and responsible the translation of phraseological units is and provides theoretical and practical directions for translators working in this field.
Keywords: phraseological units, translation methods, equivalence, analog method, translator

Giriş

Bədii tərcümə mahiyyəti etibarilə tərcüməçilərdən böyük səy və məsuliyyət tələb etdiyindən bədii tərcümə materialı tərcüməçi tərəfindən ən incə təfərrüatına qədər aydın olmalı, orijinal variantına maksimum dərəcədə yaxın formada tərcümə edilməlidir. [3, s.6] Orijinal əsəri mütaliə edən doğma dil daşıyıcılarının əsərdən aldığı təəssüratın tərcümə edilmiş variantın oxucularına da ötürülməsi, yəni tərcümə olunmuş variantın oxucular tərəfindən tam mənimsənilməsi məqsədilə onun axıcı və anlaşıqlı olması tərcüməçilərin səy göstərdiyi ən önəmli məsələlərdən hesab edilir. Hər bir dilin lüğət tərkibində özünəməxsus yeri olan frazeoloji vahidlərin də tərcüməsi mütərcimlərin həssaslıqla yanaşdığı sahələrdəndir.

Frazeoloji vahidlərə sabit söz birləşmələri, atalar sözləri, məsəllər aid edilir və onların tərkib hissəsini təşkil edən sözlər öz həqiqi mənasından uzaqlaşaraq məcazi çalarlar əmələ gətirir ki, bu vahidlərin ifadə etdiyi məna daha çox mətnin kontekstindən aydın olur. Məhz bu səbəbdən frazeoloji vahidlərin tərcümə variantlarının bədii təsirini qoruyub saxlamaq üçün müəyyən üsullar mövcuddur ki, həmin üsulları aşağıdakı kimi qruplaşdırmaq olar: [1, s.85]

10. Ekvivalent üsulu. Bu üsulla tərcümə zamanı mənbə dildəki frazeoloji vahid hədəf dildəki birbaşa qarşılığı ilə ifadə edilərək obrazlılıq qorunub saxlanılır.
11. Analoq üsulu. Bu üsulla tərcümə zamanı mənbə və hədəf dillərdəki frazeoloji vahidlər mənaca bir-birinə uyğun gəlsə də, obrazlılıq dəyişir.
12. Təsviri üsul. Hər hansı bir frazeoloji vahidin hədəf dildə müvafiq ekvivalenti olmadıqda bir sıra frazeoloji vahidlər təsviri yolla tərcümə edilir.
13. Antonim tərcümə üsulu. Bu üsuldan istifadə edərkən mənbə dildəki inkarlıq hədəf dildə təsdiqlə verilir və ya əksinə.
14. Kalka üsulu. Tərcümə zamanı tərcüməçi mənbə dildəki frazeoloji vahidin obrazlılığını saxlamağa çalışdıqda, ya da digər tərcümə üsulları ilə obrazlılığı ifadə etmək mümkün olmadıqda bu üsula müraciət edilir.
15. Kombinə üsulu. Hədəf dildəki analoq ifadə mənbə dildəki frazeoloji vahidin mənasını tam verə bilmədikdə, yaxud fərqli zaman və məkan anlayışı yarandıqda mütərcimlər bu üsula müraciət edirlər.

Təqdim etdiyimiz məqalədə frazeoloji vahidlərin tərcüməsi məsələləri məşhur irland yazıçısı Ceyms Coysun "Dublinlilər" hekayələr toplusunun Ə.Nicat və R.Abbaslı tərəfindən tərcümə edilmiş variantına istinadən təhlil edilir. Bu baxımdan, qeyd edə bilərik ki, sözügedən əsərin tərcümə variantında uğurlu, nisbətən uğurlu, yəni qənaətbəxş hesab edilə biləcək və tamamilə yanlış tərcümələrlə qarşılaşırıq.

Məqalədə hekayələr toplusunda yer alan bir sıra frazeoloji vahidlərin dilimizə tərcümə edilmiş bir neçə variantı ətraflı şəkildə təhlil edilirərək təqdim edilir.

"Dublinlilər" Hekayələr Toplusunda İstifadə Olunmuş Frazeoloji Vahidlər Və Onların Dilimizə Tərcüməsi

"İki cəngavər" hekayəsində *"She is a bit gone on me"* [5, s.37] frazeoloji birləşməsi olan cümlə *"O, əməlli-başlı mənə vurulub"* [2, s.57] şəklində dilimizə çevrilmişdir. Bu ifadə bir qədər köhnəlmiş britaniya ingiliscəsində işlənərək buradakı "gone on" ifadəsi sevgi və ya simpatiya bildirmək üçün istifadə olunur. "A bit" əlavəsi isə bunun çox güclü deyil, lakin müəyyən bir maraq və ya hiss olduğunu göstərir. Zənnimizcə, burada analoq tərcümə üsulundan istifadə edilib, belə ki, mənbə və hədəf dillərdəki frazeoloji vahidlər ("gone on someone" və "kiməsə vurulmaq") mənaca uyğun gəlir, amma onların obrazlılığı fərqlidir. İngilis dilində "getmək" (gone) feli ilə yaradılmış obraz var, Azərbaycan dilində isə "vurulmaq" kimi fərqli bir obraz istifadə olunur. Əgər hər iki dildə "gedib" və ya "vurulub" tipli eyni obrazlı ifadə olsaydı, bu, ekvivalent üsulu olardı. Lakin burada obraz dəyişdiyi üçün bu, analoq üsulu sayılır.

Topluya daxil olan "Ağ bulud" hekayəsində *"to have gone to the dogs"* [5, s.57] ifadəsi dilimizə *"tamam vecdən düşmək"* [2, s.88] şəklində tərcümə olunmuşdur. Lakin qeyd etmək lazımdır ki, ingiliscə bu idiomatik ifadə bir şey (və ya bir adam) əvvəlki keyfiyyətini, nüfuzunu, vəziyyətini itirib, pis vəziyyətə düşdükdə istifadə olunur. Dilimizdə isə *"tamam vecdən düşmək"* ifadəsi əsasən "bir şeyə qarşı tamamilə laqeyd qalmaq, əhəmiyyət verməmək" anlamında istifadə edilir. Məhz bu baxımdan deyə bilərik ki, analoq üsulu ilə edilmiş bu tərcümə tam olaraq doğru olmasa da, kontekstdən asılı olaraq qismən uyğun sayıla bilər.

"Torpaq" hekayəsində səliqəli və təmiz [4, s.1243] mənasında olan *spick and span* [5, s.78] ifadəsi *"Hər şey onsuz da parıldayırdı ..... böyük mis qazanlara güzgü əvəzinə baxmaq olar"* [2, s.121] şəklində verilmişdir. Burada "spick and span" ifadəsinin mənası qorunub, lakin başqa bir təsvirlə (parıldamaq, güzgü kimi görünmək) ifadə edilib. Burada frazeologiyanın funksiyası (səliqə, təmizlik, parlaqlıq) yerində olub, ifadənin mənası saxlanılaraq obrazlılıq dəyişdirilib ki, bu da analoq tərcümə üsuluna aiddir.

"Dublinlilər" hekayələr toplusuna daxil olan "Sarmaşıq günündə" hekayəsi frazeoloji vahidlərin istifadəsi baxımından çox zəngindir və onların tərcüməsi də uğurlu tərcümələrdən hesab edilə bilər. Belə ki, hekayədə *"Kimdənsə nəyisə, xüsusilə, pulu bayağı nəzakətlə xahiş etmək"* [4, s.172] mənasına gələn *"to be hat in hand"* [5, s. 97] ifadəsi *"Quyruq bulamaq"* [2, s.159] şəklində tərcümə edilərək, zənnimizcə, analoq üsuluna müraciət edilib. Həm "hat in hand", həm də "quyruq bulamaq" ifadələri frazeoloji vahidlərdir – yəni sözlər birbaşa mənasında yox, obrazlı və mənalı şəkildə işlənir. Hər iki ifadə özünü alçaldaraq, bir növ yaltaqlanaraq və ya minnətlə nə isə istəmək mənasını verir. Obrazlar isə tamamilə fərqlidir: biri "papaq əlində" obrazı ilə, digəri isə "quyruq bulamaq" (heyvani metafora) ilə verilir. Beləliklə, mənbə və hədəf dillərdəki frazeoloji vahidlər mənaca uyğun gəlsə də, obrazlılıq dəyişir.

Sözügedən hekayədə gözlənilməz, xoşagəlməz və ya absurd bir vəziyyətlə qarşılaşıldıqda işlədilən *"That is a fine how do you do"* [5, s.99] ifadəsi *"İşimiz əcəb işdir"* [2, s.163] formasında təqdim edilib ki, bunu da analoq üsuluna aid etmək olar. Çünki mənbə dildəki frazeoloji ifadə ironiya və narazılıq bildirir. Hədəf dildəki "İşimiz əcəb işdir" ifadəsi də Azərbaycan dilində eyni emosiyanı (narazılıq, təəccüb, istehza) bildirən özünəməxsus frazeoloji vahiddir. Burada da hər iki ifadə mənaca uyğun gəlir, lakin obrazlılıq fərqlidir. İngiliscədə ironik şəkildə "how do you do" (normalda salamlaşma) işlədilir, bizim dilimizdə olan versiyada isə "iş" obrazı ilə vəziyyətə ironik yanaşma var.

Məcazi olaraq *"sürünün axsaq qoyunu"*, yəni atılmış, səfil mənasında [6] işlədilən *"a black sheep"* [5, s.102] *"sarsaq qoyun"* [2, s.167] olaraq tərcümə edilmişdir. Frazeoloji vahidin ingilis dilində işlənmə məqamı cəmiyyətdə, ailədə və ya qrupda digərlərindən fərqli olan, xoş qarşılanmayan, utancverici, arzuolunmaz fərd anlamındadır. Zənnimizcə, bu tərcümə variantı doğru məcazı əks etdirmir və frazeoloji ifadənin emosional dəyərini dəyişdirir. *"Black sheep"* ifadəsi ingilis dilində sosial uyğunsuzluğu və utancverici fərqliliyi vurğuladığı halda, *"sarsaq qoyun"* ifadəsi isə ağılsızlıq, axmaqlıq mənası verir ki, bu da orijinal məcazla tam uyğun gəlmir. Bu tərcümə versiyasında da analoq üsulu tətbiq olunub. Və ya zərərli bir vərdişin başlanğıcı mənasında istifadə edilən *"The thin edge of the wedge"* [5, s.105] *"çətini birincisidir"* [2, s.171] kimi tərcümə edilib. Yəni, frazeoloji vahidin tam mənası "ilk baxışdan əhəmiyyətsiz görünən şey, sonradan daha böyük və xoşagəlməz nəticələrə yol açа bilər" [7] şəklindədir. Hədəf dildəki ifadə isə - *"çətini birincisidir"* Azərbaycan dilində tamamilə fərqli obrazla qurulmuş frazeoloji ifadədir ("az başlayır, çoxa gedir" və s.). Tərcümə versiyasında mənalar üst-üstə düşsə də, obrazlılıq dəyişir.

Məcazi mənada *tamamilə susmaq, heç bir söz deməmək, lal olmaq*, *susqun olmaq* [8] mənasını verən *"not to have a word to throw to a dog"* [5, s.105] ifadəsi *"Balıq kimi lal"* [2, s.171] şəklində tərcümə olunmuşdur. Bu tərcümə zamanı da analoq üsulundan istifadə edilmişdir. Belə ki, ingilis dilindəki frazeoloji vahid ilə Azərbaycan dilindəki frazeoloji ifadə mənaca uyğun olsa da, obrazlılıq fərqlidir. *"Not to have a word to throw to a dog"* ifadəsini hərfən tərcümə etsək, *"itə atacaq bir söz belə yox"* anlamındadır ki, burada da iti vurğulayan obraz var. *"Balıq kimi lal"* isə Azərbaycan dilində ümumi

tanınan bir obrazdır və səssizlik mənasını daşıyır. Hər iki ifadə eyni məna funksiyasını (səssizlik, danışmamaq) daşısa da, frazeoloji obrazlar (it və balıq) fərqlidir. Bu, analoq üsulunun klassik nümunəsidir, çünki məna qorunur, obraz isə dəyişir.

Hekayədə *"Keçmişdə baş verənləri bağışla və unut, keçmişin üstündən xətt çək, davam et"* mənasında istifadə edilmiş *"Let bygones be bygones"* [5, s. 108] ifadəsi *"Nə olubsa, artıq keçmişdə qalıb"* [2, s.175] şəklində verilmişdir. Bu ifadə daha çox təsviri xarakter daşıdığından, hədəf dildə bu ifadənin tam obrazlı frazeoloji qarşılığı olmadığından, sadə, açıq və məzmunca uyğun bir təsvirlə əvəz edilib. Beləliklə də, "Let bygones be bygones" ifadəsindəki emosional çağırış bir qədər yumşalsa da, ümumi mesaj çatdırılıb. Zənnimizcə, bu ifadəni *"Olan oldu, keçən keçdi"* şəklində obrazlı ekvivalent üsulu ilə də tərcümə etmək olardı.

Əsərdə işlədilən *"bad blood"* [5, s.108] ifadəsi *"köhnə didişmələri yada salmaq"* [2, s.175] şəklində tərcümə edilmişdir ki, bu tərcümə məna baxımından tam dəqiq deyil, lakin kontekstə görə qismən uyğundur. Çünki *"bad blood"* iki şəxs və ya qrup arasında davam edən kin, düşmənçilik, inciklik mənasındadır. Mənbə dildəki sözügedən ifadənin hədəf dildə təqdim edilmiş versiyası – "köhnə didişmələri yada salmaq" isə artıq baş vermiş mübahisələrin xatırlanması, yəni düşmənçiliyin yenidən gündəmə gətirilməsi mənasındadır. Zənnimizcə, burada təsviri tərcümə üsulundan istifadə edilib. Belə ki, *bad blood* ifadəsinin dəqiq frazeoloji qarşılığı Azərbaycan dilində mövcud olmadığından tərcüməçi onun mənasını şərh və təsvir yolu ilə oxucuya ötürüb.

Çətin idarə olunan, nizamsız, qarışıq vəziyyəti və ya insan qrupunu nəzarətdə saxlamaq, xaosu idarə etmək anlamında istifadə edilən *"Keep that bag of cats in order"* [5, s.108] ifadəsi Ə.Nicat və R.Abbaslının təqdimatında *"Sürünün qabağını almaq"* [2, s.176] şəklində verilmişdir. "Sürünün qabağını almaq" ifadəsi Azərbaycan dilində idarəolunmaz bir kütlənin qarşısını almaq və ya istiqamətləndirmək mənasında işlənir ki, burada da tərcümə zamanı analoq üsuluna müraciət olunmuşdur. Məna eyniyyəti və obraz müxtəlifliyini özündə ehtiva edən bu üsulla çaşqınlıq, idarəolunmazlıq anlayışını təmsil edən ingilis dilində "torbadakı pişiklər" Azərbaycan dilində "sürü" – geniş bir qrup, yönsüz bir kütlə qarşı-qarşıya gətirilmişdir.

"Ana" hekayəsindəki *"ivory manners"* ifadəsi [5, s.112] məcazi olaraq *"yüksək zövqlə, incəliklə formalaşmış, nəzakətli, elit davranışlar"* mənasını ifadə edir. Bəzən bu cür ifadələr soyuq, süni və rəsmi davranışları da bildirir ki, bu da kontekstdən asılı olaraq dəyişir. Hekayənin tərcümə edilmiş variantında bu ifadə *"zərif ədalar"* [2, s.181] şəklində verilmişdir ki, burada da analoq üsulundan istifadə edilmişdir. Yenə eyni hekayədə *"to move heaven and earth"* [5, s.115] frazeoloji birləşməsi *"göylə yeri bir-birinə vurmaq"* [2, s.187] şəklində dilimizdə uğurlu ifadəsini tapmışdır. Belə ki, məcazi mənada *"əlindən gələni etmək, bütün imkanlarını səfərbər etmək, çox böyük səy göstərmək"* olaraq istifadə edilən ifadə hiperbolik və emosional güclü bir deyimdir ki, Azərbaycan dilindəki qarşılığında da həmin məna yükünü daşımaqdadır. Mütərcimlər burada ekvivalent üsulundan istifadə etmişlər və beləliklə də, həm məna, həm də obrazlılıq qorunub saxlanılmışdır.

Yenə həmin hekayədə *"To live by one's wits"* [5, s. 131] ifadəsi isə *"birtəhər dolanmaq"* [2, s.212] şəklində verilmişdir ki, tərcümə məna baxımından doğrudur, lakin bir qədər sadələşdirilmiş formadadır. Sözügedən ingilis frazeoloji birləşməsi *öz ağlı, hiyləgərliyi, zirəkliyi ilə yaşamaq; daimi iş və ya sabit gəlir olmadan, ağılla birtəhər dolanmaq, vəziyyətdən çıxmağı bacarmaq* mənasında işlənir. Məhz bu baxımdan da bu ifadə sadəcə "birtəhər dolanmaq" yox, ağılla, fəndlə, çevikliklə dolanmaq mənasını daşıyır. Təqdim edilmiş tərcümə versiyasında isə məna ümumi olaraq uyğun gəlir: dolanışıq var, sabitlik yoxdur. Lakin orijinal ifadənin vurğuladığı "ağılla yaşamaq, hiyləgərliklə keçinmək" aspekti itmişdir. Qeyd etmək lazımdır ki, tərcümə üsulu olaraq təsviri tərcümə üsulu seçilmişdir. Çünki hədəf dil olan Azərbaycan dilində bu frazeoloji vahidin tam ekvivalenti olmadığından mütərcimlər ifadənin mənasını qorumağa çalışsalar da, obrazı dəyişərək sadələşdirmişlər.

Hekayədəki məşhur ingilis atalar sözü *"All's well that ends well"* [5, s.132] ifadəsi isə *"Nə ki yaxşılıqla qurtarır, o yaxşıdır"* [2, s.213] olaraq tərcümə edilib. Bu zaman mütərcimlər ekvivalent

tərcümə üsuluna müraciət ediblər. Dilimizdə bu ifadənin ekvivalent formasında tərcüməsi verilib ki, bu da tam qarşılıq olmasa da, çox yaxın ədəbi formada olduğundan qənaətbəxş hesab etmək olar.
"Dublinlilər" hekayələr toplusunun dilimizə tərcümə edilmiş sözügedən versiyasında uğursuz hesab edilə biləcək tərcümələr də var ki, onlara aşağıdakıları aid etmək olar:
"Ərəbistan" hekayəsində *"All work and no play makes Jack a dull boy"* [5, s.22] irland deyimi *"Tələsən təndirə düşər"* [2, s.11] atalar sözü ilə əvəz edilmişdir. Lakin bu seçim, fikrimizcə, uğursuzdur. Çünki bu irland atalar sözünün hərfi mənası – *Yalnız işləyən, əylənməyə vaxt ayırmayan insan darıxdırıcı, inkişaf etməyən, irəli getməyən biri ola bilər* – deməkdir. [9] Bu deyimlə nasir balanslaşdırılmamış həyat tərzini tənqid edərək iş və əyləncənin bir arada olmalı olduğunu, fasilənin də vacibliyini ön plana çəkmək istəyir. Azərbaycan dilinə tərcümə edilmiş variantda isə - *Kim işini tələsik görərsə, zərər çəkər* – deyilir. Yəni bu deyim əyləncənin yoxluğunu deyil, tələskənliyi tənqid edir. Tərcümə üsuluna gəlincə, bu nümunədə analoq üsulundan istifadə olunmağa çalışılsa da, mənaca uyğunluq olmadığından, hər iki deyim tam fərqli fikirlər ifadə etdiyindən, eləcə də obrazlılığın da fərqli olmasından (mənbə dildə "oyun və iş balansı", hədəf dildə "tələskənlik və cəza") irəli gələrək nəticədə uyğunsuz analoq seçilmişdir.
"Pansion" hekayəsində də *"....felt his heart leap in his throat"* [5, s.49] cümləsi *".....ürəyi sancdı"* [2, s.76] şəklində tərcümə olunub. Mənbə mətndəki ingilis frazeoloji ifadəsi emosional gərginlik, qorxu, həyəcan, təşviş zamanı ürəyin güclü döyünməsi və sanki boğaza qalxması hissini təsvir edir. İngiliscə bu, emosional yüksəlişi və fiziki reaksiyanı obrazlı şəkildə ifadə edir. "...ürəyi sancdı" ifadəsi isə ağrı, narahatlıq və bəzən fiziki xəstəliklə əlaqəli bir hissi bildirir. Frazeoloji baxımdan isə bu, emosional gərginlikdən çox qəfil fiziki sancı və ya narahatlıq mənasına gəlir. Zənnimizcə, daha uyğun tərcümə *"ürəyi ağzına gəldi"* ifadəsi olardı ki, Azərbaycan dilində qorxu, təşviş, həyəcan hisslərini çox dəqiq və obrazlı şəkildə ifadə edir. Tərcüməçilər burada analoq üsulu tətbiq etməyə çalışıb, yəni frazeoloji vahidi başqa bir frazeoloji vahidlə əvəz ediblər. Lakin bu, uğursuz tətbiqdir, çünki mənaca uyğunluq zəifdir, obrazlılıq isə tamamilə fərqlidir. Halbuki *"ürəyi ağzına gəldi"* həm məna, həm də emosional-psixoloji təsir baxımından daha məqsədəmüvafiqdir.
"Dublinlilər" hekayələr toplusuna daxil olan digər bir hekayədə - "Allahın mərhəməti" hekayəsində *"to get oneself into the mess"* [5, s.126] ifadəsi Ə.Nicat və R.Abbaslının təqdimatında *"vadar etmək"* [2, s.204] kimi verilsə də, zənnimizcə, bunu doğru tərcümə hesab etmək olmaz. Belə ki, ingilis dilində *"to get oneself into the mess"* ifadəsi *"özünü çətin, qarışıq və pis bir vəziyyətə salmaq, öz günahı və ya qərarı ilə problemə düşmək"* deməkdir. Halbuki *vadar etmək* kimisə bir şey etməyə məcbur etmək, onu bir vəziyyətə təhrik etmək anlamına gəlir. Beləliklə də, t*o get oneself into...* hər hansı bir şəxsin öz təşəbbüsü ilə düşdüyü vəziyyəti bildirdiyi halda, *vadar etmək* kənar təsirlə olduğundan təqdim edilmiş tərcümə uyğun deyil.

Nəticə

Beləliklə, tərcümə olunan frazeoloji vahidlərin təhlilinə əsasən deyə bilərik ki, bədii tərcümədə frazeoloji ifadələrin düzgün və məqsədyönlü şəkildə tərcümə edilməsi orijinal mətnin mənasının, üslubunun və emosional təsirinin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. "Dublinlilər" hekayələr toplusunun Azərbaycan dilinə tərcüməsində müxtəlif tərcümə üsullarından – xüsusilə analoq, təsviri və ekvivalent üsullarından geniş istifadə olunduğu müşahidə olunur. Tərcüməçilər bir çox hallarda frazeoloji vahidlərin kontekstual mənasını düzgün dəyərləndirərək, onları hədəf dilin normativ ifadə sistemi ilə uyğunlaşdırmağa nail olsalar da, bəzi nümunələrdə obrazlılıq və məcazlılıq zəiflədilmiş, yaxud ifadənin emosional yükü tam ötürülməmişdir. Bu da göstərir ki, frazeoloji vahidlərin tərcüməsi sadəcə sözlərin deyil, bütöv bir mədəniyyətin, düşüncə tərzinin və dilin daşıdığı incə mənaların hədəf dilə uyğunlaşdırılması deməkdir. Nəticə etibarilə, frazeoloji vahidlərin uğurlu tərcüməsi üçün yalnız lüğəti bilmək kifayət etmir. Belə ki, tərcüməçi həm də mətnin kontekstini, üslubunu, emosional dəyərini və hədəf auditoriyanın dil duyumunu nəzərə almalıdır.

Ədəbiyyat

1.Bayramov Qılıncxan (2008). Tərcümə sənəti. – Bakı: "OKA Ofset" nəşriyyatı. – 218 s.
2.Coys Ceyms (2013). Dublinlilər. – Bakı: Qanun Nəşriyyatı. – 304 s.
3. Novruzov Rafiq (2011). Bədii tərcümənin nəzəriyyəsi və təcrübəsi. – Bakı: Mütərcim. – 256 s.
4. Hornby Albert Sydney. (2003). Oxford Advanced Learner's Dictionary of Current English. – Oxford: Oxford University Press. – 1539 s.
5. Joyce James (2019). Dubliners. – GlobalGrey. – 193 s.
6. https://dictionary.cambridge.org/dictionary/english/black-sheep
7. https://dictionary.cambridge.org/dictionary/english/thin-end-of-the-wedge
8. https://melodict.com/not_a_word_to_throw_at_a_dog
9. https://www.dictionary.com/browse/all-work-and-no-play-makes-jack-a-dull-boy

ABOUT S.A.SHIRWANI'S TEACHING IN SECONDARY SCHOOL

О СРЕДНЕЙ ШКОЛЬНОЙ ПРЕПОДАВАНИИ С.А.ШИРВАНИ

S.Ə.ŞİRVANİNİN ORTA MƏKTƏBDƏ TƏDRİSİNƏ DAİR

Yusifov Fəxrəddin Allahverdi oğlu,
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Azərbaycan Dövlət Pedaqoji Universiteti, filologiya fakültəsi Dil və ədəbiyyatın tədrisi
https://orcid.org/0000-0002-8418-1931

Abstract
S. A. Shirvani Heritage has been taught in secondary school for many years. The poet's meaningful lifetime acts as an example for today's youth. The most important thing that characterizes this life was the love of the homeland. The poet has worked without knowing to be tired of the progress of the nation, and our children are scientifically, smart, thoughtful,
He created works of their spirit for growth, and tried to determine the progress of the nation, and he left a rich legacy despite the difficulties and deprivation. Poet verse stories have also shown an intelligent example of promotion of high spiritual qualities in reminders and reminders.
The poet has expressed not only a civilian burning with the rich artistic heritage, but also tried to pay attention to the formation of the youth outlook and the moral world. Poet Seyid Azim and Enlightenment Seyid Azim completed each other very well, those who defend the ignorance Acting forces, who want to keep the nation in the dark, have become the protagonists of his satirees. Naturally, the artistic heritage of the poet who lived in such a meaningful life should also be taught at the required level in high school.
Keywords: S.A.Shirvani, Shirvani's creativity, satire, verse storytellance criticism, enlightener poems, reminders, intelligent, moral value

Резюме
Наследие С. А. Ширвани преподается в средних школах уже много лет. Осмысленный жизненный путь поэта служит примером для нашей современной молодежи. Самым важным аспектом, характеризующим этот жизненный путь, была любовь к родине. Поэт неустанно трудился ради прогресса своей нации, создавал произведения, которые трогали душу наших детей, чтобы они выросли знающими, умными и вдумчивыми, и много трудился ради прогресса своей нации, и оставил богатое наследие, несмотря на трудности и лишения. Поэт в своих поэтических рассказах и наставлениях не только пропагандировал высокие нравственные качества, но и подавал пример интеллигента. Своим богатым творческим наследием поэт не только выражал гражданский пафос, но и старался сосредоточиться на вопросах формирования мировоззрения и духовного мира молодежи. Поэт Сеид Азим и просветитель Сеид Азим прекрасно дополняли друг друга, а главными героями его сатир стали реакционные силы, защищавшие невежество и желавшие держать свой народ в неведении. Естественно, что художественное наследие поэта, прожившего столь содержательную жизнь, должно преподаваться на соответствующем уровне в средних школах.
Ключевые слова: С.А.Ширвани, творчество Ширвани, сатира, поэтический рассказ, критика невежества, просветительские стихи, советы, интеллектуальная, нравственная ценность

Xülasə
S.Ə.Şirvani irsi uzun illərdir ki, orta məktəbdə tədris olunmaqdadır. Şairin mənalı ömür yolu bugünkü gənclərimiz üçün bir örnək kimi çıxış etməkdədir. Bu ömür yolunu xarakterizə edən ən mühüm cəhət vətən sevgisi idi. Şair millətinin tərəqqisi üçün yorulmaq bilmədən çalışmış, balalarımızın elmli, ağıllı, düşüncəli olması, böyüməsi üçün onların ruhunu oxşayan əsərlər yaratmış, millətinin tərəqqisi yolunda əzmlə çalışmış, çətinliklərə, məhrumiyyətlərə baxmayaraq zəngin bir irs qoyub getmişdir. Şair mənzum hekayələri, öyüd-nəsihətlərində yüksək mənəvi keyfiyyətlərin təbliği ilə yanaşı həm də bir ziyalı nümunəsi göstərmişdir. Şair zəngin bədii irsi ilə nəinki vətəndaş yanğısını ifadə etmiş, həm də gənclərin dünyagörüşünün, mənəvi aləminin formalaşması məsələlərini diqqətdə saxlamağa çalışmışdır. Şair Seyid Əzimlə maarifçi Seyid Əzim bir-birini çox gözəl tamamlamış, cəhaləti müdafiə edənlər, millətini qaranlıqda saxlamaq istəyən mürtəce qüvvələr onun satiralarının baş qəhrəmanlarına çevrilmişdir. Təbiidir ki, belə bir mənalı ömrü yaşamış şairin bədii irsi orta məktəbdə də lazımi səviyyədə öyrədilməlidir.
Açar sözlər: S.Ə.Şirvani, Şirvaninin yaradıcılığı, satira, mənzum hekayə cəhalətin tənqidi, maarifçi şeirlər, öyüd-nəsihət, ziyalı, mənəvi dəyər

Giriş / Introduction
"Hər nə olursan, get əhli-ürfan ol", "Hər kimin elmi var, o, insandır" deyən Seyid Əzimin gənclərə, ədəbiyyata, dünyamıza, cəmiyyətə, gənc nəsillərin sağlam böyüməsinə, mənəvi mühitdə özünü göstərən çatışmazlıqlara, ictimai ədalətsizliyə qarşı söylədiyi çox sözlər olmuşdur. Dəyərini itirməyən həmişəyaşar bu irs hələ indən sonra da bir çox insanların həyat yoluna bir işıq salmaqda davam edəcəkdir. Deməli, bu günümüzdə bu irsdən məktəblilərimizə çatdırılacaq bir çox şeylər vardır və bu imkanlar dönə-dönə ölçülüb-biçilməlidir.

Əsas hissə
"Xalqın bir nicat yolu varsa, o da maarifdədir" deyən şair təkcə bədii irsi ilə könülləri oxşamamış, təkcə cəhalətə, ədalətsizliyə qarşı mübarizə aparmamış, həm də əlinə tabaşir götürərək millətinin balalarına elm, ədəb-ərkan, mərifət, insanşünaslıq dərsi keçmişdir. Məhz buna görə də dövrünün bir çox qabaqcıl ziyalıları, maarifpərvər insanları onun fəaliyyətinə, bədii və satirik irsinə lazımınca dəyər vermiş, haqqında ən xoş sözlərini söyləmişlər.

Seyid Əzim Şirvani irsinin tədrisdə, təlim-tərbiyə prosesində rolu.
Görkəmli ədəbiyyatşünas F. Köçərli Seyid Əzimin ictimai-maarifpərvər fəaliyyətinə, bədii irsinə ən yüksək dəyər vermiş, onu Azərbaycanın deyil, Şərq dünyasının ən istedadlı şairi kimi dəyərləndirmişdir. "Seyidin ümdə mətləbi və baş arzusu insaniyyət dərəcəsinə və bəşəriyyət mərtəbəsinə vasil olmaqdır. Bu xüsusda onun nəzəri və mərifəti o qədər vəsi (vəsi ərəbcə, geniş, vüsətli – F.Y.) və genişdir ki, ona tək Azərbaycan şairi demək dürüst deyil, bəlkə ol dürri-yeganə (dürr ərəbcə, inci, mirvari – F.Y.) ümumi-insaniyyət şairidir." [Köçərli, 2005: 48].
Təkcə Firudin bəy deyil, bir çox görkəmli alimlər də üzü bu günə qədər sənətkar haqqında ən dəyərli fikirlər söylənmiş və ədəbiyyat tariximizdə möhtəşəm bir məktəb yaradaraq köçüb getdiyini birmənalı şəkildə vurğulamışlar. Tədris prosesində yeri gəldikcə bu məlumatlardan sıx-sıx istifadə olunmalıdır. Bu xüsusda bir neçə məqama diqqəti cəlb edək.
"Misir şahzadələri" əsərində iki şahzadələr arasında gedən dialoqda var-dövləti sərvəti üstün tutan şahzadənin dediklərinə rəğmən o biri şahzadə biliyi hər şeydən üstün tutur. Əsərdə ifadə olunan qayə "xəzinəyə var dövlət toplayan hökmdarlar xalqa qəm verən müstəbidlər, bilik toplayanlarsa, elm yayan peyğəmbərlərdir" deyən şairin ifadə etmək istədiyi bu amalı onun digər bu tipli şeirlərində olduğu kimi elmin vurğunu olmasını, xalqının qəflət yuxusundan, cəhalətdən qurtulmasını ifadə etmək istəyin kiçik nümunələrdən biridir. Eyni yanaşma tərzini "Alim oğul ilə avam ata", "Müctəhidin təhsildən qayıtması", Oğlu Mircəfərə şərti adı ilə yazdığı öyüd və

nəsihətlərində də bu tendensiyanı aydın görürük. Sinifdən xaric işlər çərçivəsində sənətkarın bu tipli əsərlərinin mütaliəsini təşkil etmək, məzmunu üzərində işlər aparmaq, onlarda ifadə olunan mənanı dərk etdirmək müəllimin ümdə vəzifələrindən biri olmalıdır.

Seyidin lirikasında, mənzum məktubları, satiraları və öyüd-nəsihətlərində ifadə olunan zəngin məzmun bu gün də öz dəyərini qoruyub saxlamışdır. Mütaliə prosesində bu zənginliyin ən azı bir neçə parçası üzərində əlavə işlər aparılmalı, onların məna gözəlliyi şagirdlərə duydurulmalıdır. Seyid Əzimin ruhanilik deyil, maarifçilik fəaliyyətini seçməsi barədə Bəkir Nəbiyev söylədiyi fikirlər də bir qədər mübahisəli görünsə də, maraq doğurur: "Müsəlman Şərq ölkələrini gəzərkən Seyid Əzim əhalinin ağır maddi durumunun, şəhər və kəndlərdəki iqtisadi geriliyin şahidi olur. Bu təəssüratla doğma vətəninə qayıdan şair dini-sxolastik elmlərin faydasızlığı qərarına gəlir... və ruhani olmaq fikrindən daşınaraq özünün bütün enerjisini xalq maarifinin tərəqqisinə, məktəbdarlığa həsr edir." [Nəbiyev, 2012: 91]. Burada sonuncu cümlədə ifadə olunan fikrə tamamən şərik çıxırıq və düşünürük ki, şairin ömür yolu haqqında danışılanda bu sitatı müzakirəyə cəlb etmək çox faydalı olar.

Bu münasibətlə başqa bir sitatı da eyni ilə şagirdlərə müzakirə etdirmək olar. "Seyid Əzim satirik şeirlərində köhnə feodal-patriarxal adət və ənənələrə, cəhalətə, mövhumata, fanatizmə qarşı oxucularda dərin nifrət oyadır. O, realist şeirlərində əsrin qabaqcıl fikirlərinin ifadə etmiş, elmi, maarif və mədəniyyəti, böyük rus dilini ehtirasla təbliğ etmişdir. Məhz buna görə də Seyid Əzim Azərbaycan ictimai və ədəbi fikrinin inkişafında görkəmli rol oynamış, öz xalqının hörmət və məhəbbətini qazanmışdır" [Aslan, 2010: 21].

Başqa bir nümunəyə də nəzər salaq: Seyid Əzim Şirvani XIX yüzillik Azərbaycan ədəbiyyatının ən görkəmli simalarından biri kimi məşhurdur. O, həm aşiqanə-lirik şeirləri ilə poeziya tariximizdə qüdrətli şair kimi şöhrət qazanmış, həm maarifçilik ruhunda yazdığı əsərləri ilə realist sənətkar olduğunu təsdiqləmiş, həm də cəfakeş maarif və mədəniyyət xadimi olaraq fəaliyyət göstərmişdir [Aslan, 2010: 21]. Bu nümunələr üzərində işlərin aparılması olduqca gərəklidir və şairin haqqında dolğun fikirlər yaratmağa xidmət edir.

Burada Knyaz Aslanın doğru olaraq xatırlatdığı bir məsələni də qeyd etmək yerinə düşər. O da şairin ruhani təhsili alıb geri qayıdanda ruhanilikdən əl çəkməsi, Şamaxı məhəllə məktəbində müəllimlik etməyə başlamasıdır. Dərin savadı, iti zəkası, güclü məntiqi, mükəmməl dini təhsili onu bir çox müasirlərindən fərqləndirirdi. Savadı aşağı olan bəzi din xadimlərinin hərzəvü-hədyanları duyan, onların nə qədər dini təhsildə piyada olduğunu görən Şirvani bu cəhalət yuvalarına qarşı barışmaz mövqe tuturdu. Onların çirkin əməllərini, fitnə fəsad yaymalarını, camaatın inanclarında saxta yolla bəhrələnməyə çalışan bu "din xadimlərini" barışmaz şəkildə ifşa edirdi.

Şairin həyatından, ömür yolundan örnək götürüləcək məqamlar olduqca çoxdur. Tədris prosesində şagirdlərə çatdırılmlıdır ki, şair güclü qələmi ilə geriliyi qorumağa çalışan yalançı molları, bisavad din xadimlərinin, kəmsavad axundları heç nədən çəkinmədən öldürücü satira atəşinə tuturdu. Savadlı, zəkalı, vətənpərvər ziyalının başqa yolu da ola bilməzdi. Şair mükəmməl təhsil alıb gəlmişdi, olduqca savadlı idi və onunla döş-döşə gələcək din xadimləri azlıq təşkil edirdi. Seyidin savadlı mollarla, axundlarla qətiyyən işi yox idi. Onun işi qaraguruhlarla idi. Məhz bun görə də belə ruhaniləri, onların təbliğ etdiyi dini ehkamları kəskin tənqid atəşinə tuturdu və da mühafizəkar müasirləri, qaranlıq dünyanın sakinləri tərəfindən xoş qarşılanmır, istəməyənləri çoxalırdı. Həmişə də belə olmuşdur: yüksək zəka sahiblərinə bir çox hallarda dövrünün bəzi zümrələri qısqanclıq eləmiş, ona qarşı durmağa çalışmışlar. Gələcəyin qurucusu olacaq bugünkü şagird belə, mənalı, fədakarlıqlar göstərə biləcəyi ömür yolunu seçəcəkərmi, qarşılaşdıqları çətinlikləri uğurla həll edə biləcəklərmi? Tədris prosesində məhz bu cəhətə diqqət yetirilməlidir. Çünki şəxsiyyətyönümlülük, şagirdlərin həyati bacarıqlara yiyələnməsi qarşıya qoyulan mühüm vəzifələrdəndir.

Biz görürük ki, Seyid Əzim gördüyü əyər-əskikliyə, kələkbazlara, fırıldaqçılara, saxta ruhanilərə qarşı çıxırdı. Bu çıxışlar artdıqca, ona qarşı müqavimət də çoxalırdı. Amma Şirvanı məsləkindən bir addım da olsa geri çəkilmir, onları ifşa etməkdən əl çəkmir, digər tərəfdən isə elmi, maarifi təbliğ

edir, məktəbdarlığını davam etdirir, yeganə mübarizə silahı olan qələmindən məharətlə istifadə edirdi. Məhz bu cəhətlər, sənətkarın həyatının bu məqamları dərslərdə şagirdlərin diqqətinə çatdırılmalı, oxunub müzakirə olunmalıdır.

S. Ə. Şirvani məsləkinə, fəaliyyətinə görə gənclərimizə bir örnək kimi qəbul oluna bilər. Şairliyi bir yana, ziyalılığın faciəsini, bütün ağırlığını çiyinlərində daşıyan Şirvanı XIX əsr lirik, satirik, maarifpərvər şerimizin bir zadəganlığını edərək zəngin irs qoyub getmişdir. Təsadüfi deyil ki, sovetlər dönəmindən bu günə qədər uzun illərdir ki, onun bədii irsindən seçmə nümunələr ədəbiyyat dərsliklərinə gətirilmiş və zəngin irsə müraciət hələ də davam etməkdədir.

Şairin satirik yaradıcılığının tərbiyəvi imkanları.

Savadlı, hazırlıqlı, düşüncəli, qüdrətli insanı və sənətkarları ondan bu cəhətlərdə geridə qalan yaxın çevrələri müsbət qəbul etməzdilər də. Satiralarına hədəf olan qaragüruhçu din xadimləri, camaatı zillətdə saxlamaq istəyən saxta ruhanilər şairin açıq tənqid hədələri idi və bu çıxışları həmin hədəflər tərəfindən müsbət qarşılanmayacaqdı da. Məhz belə şəraitdə yazıb yaradan, müəllimlik fəaliyyətində davam edən Şirvani həyatının nə qədər çətin, məhrumiyyətli olduğu aydın idi. Bunları özü qazanır, məsləkindən bir addım da geri çəkilmir, haqsızlığa, dini xurafata, mövhumata qarşı açıq fikir söyləməkdən bir addım da olsa geri çəkilmirdi. İstəyənləri ola bilsin ki az idi, amma bu az qaragüruhun yüzünə bərabər idi. Yetişdirdiyi, həyat dərsi verdiyi gələcəyin böyük sənətkarları olan S.M. Qənizadə, M. Ə. Sabir bir orduya bərabər idi.

Bu günün məktəblisi S.Ə.Şirvani əsərlərinin dilinin anlamaqda, bəlkə də, müəyyən çətinliklərlə üzləşə bilərlər. Şairin ərəb və fars dillərini mükəmməl bilməsi, yüksək elmi biliyi poeziyasına da sirayət etmişdi. Dilində ərəb-fars kəlmələri bir qədər çox olan bu nümunələrin müstəqil mütaliəsində müəyyən çətinliklər də yarana bilər. Amma bu əngəl S. Ə. Şirvani irsinin öyrənilməsində maneəyə çevrilə bilməz. Onun poeziya, realist-maarifpərvər şeirləri, satiraları bir ibrət aynası olaraq gənclərimizin mənalı yaşamalarına böyük imkanlar açır və belə də davam edəcək.

Şairin ictimai mahiyyət daşıyan "Yerdəkilərin göyə şikayət etmələri", "Dəli şeytan", "Məkri-zənan", "Bəlx qazısı və xarrat", "Müctəhidin təhsildən qayıtması", "Elmsiz alim", "Alim oğul ilə avam ata" və b. Satiralarında biz başqa xalqların tərəqqi etdiyini görən, öz xalqını qəflət yuxusundan oyatmağa, köhnə cəhalət məngənəsindən azad etməyə çalışan bir sənətkar, ziyalı obrazını görürük. Bunu tədris prosesində şagirdlər də görməlidirlər.

Seyid Əzimin orta məktəbdə tədris olunan "Qafqaz müsəlmanlarına xitab" mənzum məktubu [Ədəbiyyat-8, 2019: 85], eləcə də "Rəbiül-ətfal"da (Uşaqların baharı) toplanan ibrətamiz materiallar, zəngin lirikası gənclərimizin mənəvi aləminin formalaşmasına geniş imkanlar açmış və bu imkanlardan səmərəli şəkildə istifadə olunmalıdır.

"Qafqaz müsəlmanlarına xitab" şeiri sovetlər dönəmindən üzü bəri orta məktəbin ədəbiyyat dərsliyində müvəffəqiyyətlə özünə yer tutmaqdadır. Əruz vəzninin xəfif bəhrində yazılan bu əsər beytlər şəkilində qurulmuş, ona müxtəlif zamanlarda fərqli münasibətlər, yanaşmalar olmuşdur. Müşahidələr onu göstərir ki, sovetlər dövründə əsərin əsas məğzi bir kənara qoyulmuş, proletariat diktaturanın ideologiyasına uyğun gələn məsələlərin təhlilə cəlb olunmasına üstünlük verilmişdir. Bəzi hallarda isə bu şeirdə ikinci, üçüncü dərəcəli məsələlərin – burada şair maarifin, təhsilin, elmin faydalılığını, şərin, yalanın, xurafatın, mövhumatın, xalqa kələk gələn, onları qaranlıq dünyada saxlamaq istəyən fırıldaqçı ruhanilərin, din xadimlərinin bəd əməllərini təsvir və ifşa etməsi, savadsızlığın törətdiyi sosial bəlaları təsvir və təbliğ etməsi məsələsi daha çox qabardılmışdır [Mirbağırov, 1959: 112].

Bunlar doğrudur. Amma mətn onu göstərir ki, bunlardan ziyadə burada həm də fərdi istəklə ictimai zərurətin qovuşuğundan yaranan daha ciddi və vacib mətləbi – məktəbdarlığa dəstəyin verilməsini, özünün də bu işdə keçirdiyi maddi sıxıntını, ehtiyacını dilə gətirmişdir.

Necə ki biz bu barədə həmin fikri bir daha təsdiq edəcək belə bir mülahizə ilə rastlaşırıq: "O zamanlarda Həsənbəy Zərdabi tərəfindən nəşr olunan "Əkinçi" qəzetində xalqı pul yığıb məktəb

açmağa təhrik və təşviq edici bir məqalə yazmış. Şamaxılılar dəxi o məqaləni nəzəri-etibara alaraq pul toplayıb məktəb açmışlar və Seyid Əzimi də o məktəbə şəriət müəllimi təyin etmişlərdur. Lakin ianənin qalanı verilmədiyindən altı aydan sonra məktəb bütün bütünə aksamış, bağlanmaq dərəcəsinə varmışdur. Məktəbin bu fəlakətli halını görən Seyid Əzim Qafqaz müsəlmanlarına müraciət edib bu mənzuməni "Əkinçi" qəzetinə yazmışdur." [Seyid Əzim, 1937: 6]. Qeyd edək ki, bu fakt həqiqətə və mətnin məzmununa daha çox yaxındır.

Bu anda bir məsələni da xatırlatmaq yerinə düşər. Belə ki şairin seçilmiş əsərləri çap olunanda bu şeir müxtəlif illərdə fərqli adlarla təqdim olunmuş, gah "Həsənbəydən iltimas", gah "Həsən bəy Məlikova ", gah da "Qafqaz müsəlmanlarına xitab" adlandırılmışdır. F. Köçərlidə əsərin adı "Həsənbəydən iltimas" və 4 beytdən sonra isə ikinci başlıq kimi "Qafqaz müsəlmanlarına xitab" göstərilmişdir. Daha doğrusu, bu adı o özü əlavə etmişdir [Köçərli, 2005: 52-53]. 1937-ci ildə çap olunan kitabda da belə getmişdir [Seyid Əzim, 1937: 297]. Feyzulla Qasımzadədə əsər gah "Qafqaz əhlinə xitab" gah da "Qafqaz müsəlmanlarına xitab" kimi adlandırılmışdır [Qasımzadə, 2017: 474-475]. Başqa bir mənbədə "Həsənbəy Məlikova" başlığındı məsnəvi kimi təqdim olunmuşdur [Şirvani, 2005: 117].

Görünəni budur ki, müxtəlif nəşrlərdə əsərin adına fərqli yanaşmalar olmuşdur. Təəssüf ki, bədii mətnlərə eyni yanaşma tərzi bu günlərdə də müşahidə olunmaqdadır. Tərtibçilərin bədii mətn üzərində bu cür sərbəst əməllərinə nə o vaxt, nə də indiki zamanda haqq qazandırmaq olar. Hər bir əsər öz real adı və məzmunu ilə olduğu kimi bu cür fərdi yanaşmalardan kənar tutulmaqla, təhriflərsiz, necə varsa, o cür də oxucusuna təqdim olunmalıdır.

Şeirin tam mətninə nəzər salanda görürük ki, "Qafqaz müsəlmanlarına xitab" əsəri saf bir niyyətlə qələmə alınmışdır. Şərəfli həyatını xalqının tərəqqisinə həsr edən görkəmli sənətkarımız, ömrünün ən yaxşı illərini müəllimlik fəaliyyətinə, balalarımızın təlim-tərbiyəsinə həsr etmişdir. O da məlumdur ki, onun savadı, yenilikçi ruhu, əzmi, müəllimlik fəaliyyəti müasirlərinin bir çoxlarını qıcıqlandırmış, ona qarşı qərəzli fəaliyyətə keçmələrinə səbəb olmuşdur. Bu səbəbdən də şair tez-tez təzyiqlərə, təhdidlərə məruz qalmış, məktəbdarlıq işində xeyli çətinliklərlə üzləşməli olmuşdur. Bir tərəfdən maddi sıxıntı, digər tərəfdən qaragüruhun qısqanclıq hücumları onun bu şərəfli işinə təsirsiz ötüşməmiş, fəaliyyətinə açıq şəkildə maneçilik törətmiş və ədəbiyyat tarixçilərimiz bu faktı dönə-dönə təsdiq etmişlər.

Məhz belə bir şəraitdə işləməsi, müəllimlik etməsi, məktəbdarlıq işində özünü göstərən sıxıntısına son qoyula bilməsi ehtimalı ilə şair "Əkinçi"nin işıq üzü görməsini ürəkdən alqışlamış, elmin, maarifin təbliğində bu qəzetin çox böyük işlər görəcəyinə ümidlər bəslədiyini ifadə etmişdir. Bütün bunları nəzərə alan şair fürsəti fövtə verməyərək qarşılaşdığı çətinliyi dilə gətirməklə dövrün nüfuz sahiblərindən, imtiyazlılarından məktəbdarlıq, maarif işinə dəstək almaq üçün "Həsənbəydən iltimas" adlı mənzum məktubunu "Əkinçi"yə ünvanlamışdı. Təəssüf ki, sonralar bu başlığa əl gəzdirilmiş, bəzi hallarda ixtisarlar aparılmış, nəhayətdə məktubun ruhuna, niyyətinə xələl gətirlmişdir.

Əslində mətnin məğzində belə bir nida dayanır: Mən məktəbdə balalarımıza bilik, savad verirəm, buna çalışıram, amma təhsil almaq üçün gələnlərin, uşaqlarını məktəbə verməkistəyənlərin sayı çox azdır. Bu insanların bir çoxu elmin, təhsilin əhəmiyyətinin nə olduğunu kifayət qədər dəyərləndirmədiklərindən uşaqlarını məktəblərə göndərmək istəmirlər. Nəticədə mənim də fəaliyyətimdə çətinliklər, maddi sıxıntılar yaşanır və bu faydalı işimi davam etdirməkdə ağırlıqlar yaşayıram. Ey Həsən bəy, Sizdən xahişim budur ki, bu məktubumu qəzetinizdə dərc edəsiniz. Millətin qeyrətini çəkənlər, Qafqaz əhli, Şeyxül-islam, "müftiyi-islam" bu işlərə bir kömək edələr. Necə ki, bu millətdən olmayan adi bir rus çinovniki –"Qafqazski uçebninin miri" bizlərə müraciət edərək uşaqların təhsilə cəlb olunmasını istəyir, onda gərək bu işdə bizim rəisi-millətimiz əsla kənarda qalmaya.

Mənzum məktubun ruhundan belə bir ümid, inam görünür ki, şairin bu müraciəti mütləq bir əks-səda doğuracaqdır. Niyə? Çünki, şairin fikrincə, bu şeirdə elmin, maarifin faydası barəsində əsaslı

şəkildə ifadə olunan fikirlər, dəlillər, savadsızlığın, şərin, yalanın, avamlığın, xurafatın, mövhumatın törətdiyi bəlalar daşları da hərəkətə gətirər.

Nəticə / Conclusion

Seyid Əzim Şirvani irsi XIX əsr ədəbiyyatımızda zəngin bir xəzinədir. O irsdə ifadə olunan əxlaqi-mənəvi keyfiyyətləri, milli mənəvi dəyərləri şagirdlərimizə çatdırmaq işində hələ də çox işlər görülməlidir. Sənətkarın bədii irisinin tədrisində şagirdlərin müstəqil işlərinin təşkilinə, qabaqcıl metodlardan istifadə geniş yer verilməlidir. Müəllimin yaradıcılığı tədris prosesində innovativ metodlardan istifadə etməsi, şagirdlərin bu irsdən faydalanmasına, yaradıcı bir şəxsiyyət kimi yetişməsinə zəngin material verir və bunu daim diqqətdə saxlamaq lazım gəlir.

Ədəbiyyat / References

1. Ədəbiyyat-8 (2019). Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərslik. Tərtibçi heyət: Əliyev S., Həsənov B., Mustafayeva A., Verdiyeva N., Məmmədova S. -Bakı: Bakınəşr. -208 s.
2. Firudin bəy Köçərli (2005). Azərbaycan ədəbiyyatı, II cilddə, II cild, -Bakı: “Avrasiya Press”. -235 səh.
3. Knyaz, Aslan (2010). Seyid Əzim Şirvaninin yazdığı məktəb dərsliklərində elm və maarif məsələləri. // Kitabxanaşünaslıq və informasiya: Elmi-nəzəri və təcrübi jurnal. № 2. -səh.21-29, http://web2.anl.az:81/read/page.php?bibid=207309&pno=1
4. Mirbağırov K. (1959). Seyid Əzim Şirvani. -Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı. -235 səh.
5. Nəbiyev, B.Ə. (2012). Şamaxı torpağının yetirdiyi böyük Azərbaycan şairləri. -Bakı: “Ozan”. http://web2.anl.az:81/read/page.php?bibid=257572&pno=47
6. Qasımzadə, F. (2017). XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Ali məktəblər üçün dərslik, -Bakı: “Maarif”, -550 s.
7. Seyid Əzim Şirvani (2005). Əsərləri, III cilddə, II cildi, -Bakı: Avrasiya Pres. -384 s.
8. Seyyid Əzim (1937). Seçilmiş şeirləri. -Bakı: Azərnəşr. -587 s.

NEW TEACHİNG APPROACHES TO ORNAMENTAL PLANT PESTS İN AGROBİOLOGY EDUCATİON

AQROBİOLOJİ TƏHSİLDƏ DEKORATİV BİTKİ ZƏRƏRVERİCİLƏRİNƏ DAİR YENİ ÖYRƏTMƏ YANAŞMALARI

Dosent Elnurə Səfərova
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Kimya biologiya fakültəsi, Biologiya və onun tədrisi texnologiyası kafedrası, Bakı, Azərbaycan
https://orcid.org/0000-0002-4151-1750

Xülasə
Bu məqalədə aqrobioloji təhsildə dekorativ bitki zərərvericilərinin öyrədilməsində istifadə olunan yeni təlim metodlarının əhəmiyyəti və tətbiqi imkanları araşdırılır. Ənənəvi tədris üsullarının müasir tələbləri tam qarşılamadığı şəraitdə, interaktiv, texnologiyaya əsaslanan və praktik yönümlü yanaşmaların üstünlükləri vurğulanır. Xüsusilə vizual materiallar, rəqəmsal simulyasiyalar və sahə təcrübələrinin tələbələrin mövzunu daha dərindən mənimsəməsinə kömək etdiyi göstərilir. Yeni metodlar tələbələrdə müşahidə, analiz və problem həll etmə bacarıqlarını inkişaf etdirir. Məqalədə həmçinin müəllimlərin peşəkar hazırlığının bu prosesdəki rolu və yeni yanaşmaların kurikulumlara inteqrasiyası məsələlərinə toxunulur. Tədqiqat nəticələri göstərir ki, innovativ öyrətmə metodları tələbələrin marağını artırır və tədris keyfiyyətini yüksəldir. Təcrübəyə əsaslanan təlim formaları dekorativ bitki zərərvericilərinin tanınması və onlarla mübarizə yollarının öyrənilməsində effektiv nəticələr verir. Eyni zamanda, bu yanaşmalar əmək bazarının tələblərinə uyğun daha hazırlıqlı kadrların yetişməsinə şərait yaradır. Məqalədə təqdim olunan tövsiyələr aqrobioloji təhsil müəssisələri üçün faydalı metodoloji istiqamətlər təklif edir. Nəticə olaraq, yeni öyrətmə yanaşmalarının tətbiqi aqrobioloji təhsilin inkişafına müsbət təsir göstərir.
Açar sözlər: Aqrobioloji, bitki, dekorativ, zərərverici, təhsil, öyrətmə.

Abstract
This article explores the significance and application of new teaching methods in agrobiological education for the instruction of ornamental plant pests. It emphasizes the advantages of interactive, technology-based, and practice-oriented approaches over traditional teaching methods, which no longer fully meet modern educational needs. Visual materials, digital simulations, and field-based experiences are shown to enhance students' understanding of the subject. These new methods help develop students' observation, analytical, and problem-solving skills. The role of teacher training and the integration of these innovative approaches into curricula are also discussed. Research findings indicate that modern teaching methods increase student engagement and improve the quality of instruction. Practice-based learning proves to be effective in identifying ornamental plant pests and learning control strategies. Moreover, these approaches contribute to training more qualified professionals who meet the demands of the labor market. The recommendations presented offer useful methodological directions for agrobiological education institutions. In conclusion, the application of new teaching approaches has a positive impact on the development of agrobiological education.
Keywords: Agrobiological, plant, ornamental, pest, education, teaching.

Giriş

Dekorativ bitkilərin yetişdirilməsi və qorunması, həm ekosistemlərin sağlamlığını təmin etmək, həm də iqtisadi və mədəni əhəmiyyətini qorumaq baxımından böyük önəmə malikdir. Bu sahədə zərərvericilərlə mübarizə, bitki sağlamlığının qorunmasında mühüm rol oynayır. Lakin zərərvericilərin effektiv idarə edilməsi yalnız onlara qarşı mexaniki və kimyəvi mübarizə üsullarından istifadə ilə məhdudlaşmır; eyni zamanda, onların düzgün tanınması, inkişaf mərhələlərinin izlənməsi və ekosistemə uyğun mübarizə strategiyalarının tətbiqi də vacibdir. Dekorativ bitkilərin zərərvericiləri, digər bitki növlərindən fərqli olaraq, xüsusi tələblərə və diqqətə ehtiyac duyan, həm estetik, həm də bioloji baxımdan incə quruluşlara malik olan bitkilərdir. Buna görə də bu bitkilərin mühafizəsi məsələsi kənd təsərrüfatının müxtəlif sahələrində mühüm bir təhsil mövzusu olmuşdur. Qədim dövrlərdə bitki zərərvericilərinin öyrədilməsi ənənəvi üsullarla həyata keçirilirdi. Lakin müasir dövrün tələbləri, xüsusən də aqrobioloji sahədə, bilik və bacarıqların daha interaktiv və tətbiqi metodlarla mənimsənilməsini zəruri edir. Bu, tələbələrin yalnız nəzəri biliklərlə deyil, eyni zamanda real şəraitdə tətbiq edə biləcəkləri praktiki bacarıqlarla da təmin edilməsini tələb edir. Dekorativ bitki zərərvericilərinin öyrədilməsi prosesində ənənəvi üsulların məhdudiyyətləri, belə ki, passiv öyrənmə və ya sadə nəzəri məlumatın verilməsi, müasir təlim yanaşmaları ilə əvəzlənməyə başlanmışdır. Bu yanaşmalar isə vizual və rəqəmsal tədris vasitələri, sahə təcrübələri, simulyasiya proqramları və digər interaktiv metodlarla zənginləşdirilmişdir.[8]

Aqrobioloji təhsildə yeni təlim metodlarının tətbiqi, xüsusilə də bitki zərərvericilərinin tədrisində, tələbələrin analitik düşünmə, problem həll etmə və məlumatları düzgün analiz etmə bacarıqlarını artırır. Təlim metodlarının bu cür yeniləşməsi yalnız tələbələrin mövzuya marağını artırmaqla kifayətlənmir, həm də onların praktiki bacarıqlarını inkişaf etdirərək müasir aqrobioloji problemlərə daha uyğun və çevik yanaşmalar sərgiləmələrinə imkan verir. Bu yanaşmaların tətbiqi həmçinin aqrobioloji təhsilin keyfiyyətini yüksəldir və onu müasir əmək bazarının tələblərinə uyğunlaşdırır. Bu məqalədə dekorativ bitki zərərvericilərinin öyrədilməsi sahəsində yeni təlim yanaşmalarının tətbiqi və onların aqrobioloji təhsildəki rolu təhlil ediləcəkdir. Məqsəd, müasir tədris metodlarının bu sahəyə necə inteqrasiya edildiyini və onların tələbələrin həm nəzəri, həm də praktiki biliklərini necə inkişaf etdirdiyini araşdırmaqdır. Eyni zamanda, bu təlim metodlarının aqrobioloji təhsil sistemində necə daha geniş tətbiq oluna biləcəyinə dair tövsiyələr təqdim ediləcəkdir. Bu məqalə, həm nəzəri, həm də tətbiqi sahədə olan mütəxəssislər üçün yeni metodologiyalar və strategiyalar təklif edərək aqrobioloji təhsilin inkişafına töhfə verməyi hədəfləyir.[10]

Tədqiqat Və Nəticələr

Tədqiqatın məqsədi, aqrobioloji təhsildə dekorativ bitki zərərvericilərinin öyrədilməsində müasir və innovativ təlim metodlarının tətbiqinin effektivliyini araşdırmaqdır. Bu tədqiqatda, ənənəvi öyrətmə yanaşmalarının zərərvericilərin tanınması və idarə edilməsi sahəsində nə dərəcədə müasir tələbləri qarşıladığı və yeni metodların tətbiqinin tələbələr üzərindəki təsirləri qiymətləndirilmişdir. Tədqiqat həm nəzəri, həm də praktiki cəhətlərdən əsaslandırılaraq, müxtəlif təlim metodlarının təhsil prosesinə necə daxil olduğu və onların effektivliyinin hansı meyarlara əsaslanaraq ölçüldüyü araşdırılmışdır. Tədqiqatın həyata keçirilməsi üçün kvantitativ və keyfiyyət metodlarının birləşməsi istifadə olunmuşdur. Bu metodoloji yanaşma, həm müəllimlərin, həm də tələbələrin təcrübələrini, həmçinin təlim prosesinin nəticələrini hərtərəfli analiz etməyə imkan vermişdir. Tədqiqatın ilk mərhələsində, aqrobioloji təhsil müəssisələrində keçirilmiş dərslər və təlimlərin müasir metodologiyaları araşdırılmışdır. Müxtəlif təhsil müəssisələrində (universitetlər, aqrar məktəblər və tədqiqat mərkəzləri) tədris edilən kursların təhlili aparılmışdır. Dərs planları, kurikulumlar, dərsliklər və tədris materialları incələnərək, ənənəvi və müasir təlim yanaşmalarının qarşılaşdırılması həyata keçirilmişdir.

Yeni təlim yanaşmalarının ən çox istifadə olunan formalarına misal olaraq:

Rəqəmsal və Vizual Tədris Vasitələri: Dekorativ bitkilərin zərərvericilərini tədris edərkən vizual materialların (fotoşəkillər, videolar, infografikalar və simulyasiya proqramları) tətbiqi tələbələrin daha yaxşı qavrayışını təmin edir. Xüsusilə, zərərvericilərin müxtəlif mərhələlərini və simptomlarını nümayiş etdirən simulyasiyalar, tələbələrə müvafiq təsvirlər üzərində ətraflı işləmə imkanı yaradır. Rəqəmsal resurslar, həmçinin müxtəlif mühitlərdə bitki zərərvericilərinin inkişafını simulyasiya edərək tələbələrin real şəraitə daha yaxın mübarizə strategiyaları qurmasına imkan verir.
Sahə Təcrübələri və Praktik Yanaşmalar: Sahə təcrübələri, tələbələrə tədris edilən nəzəri bilikləri real dünyada tətbiq etməyə imkan verir. Tədqiqatın praktiki mərhələsində, müxtəlif bağ və şəbəkələrdə bitki zərərvericiləri üzərində birbaşa müşahidələr aparılmış və bu müşahidələr tələbələrin tədris prosesində necə istifadə olunduğu təhlil edilmişdir. Tələbələr sahədə birbaşa zərərverici növləri tanıyaraq, mübarizə üsullarını tətbiq edirlər, bu isə nəzəri biliklərin daha da möhkəmlənməsini təmin edir.[7]
İnteraktiv Simulyasiya və Oyunlar: Zərərvericilərin idarə edilməsini öyrənən interaktiv simulyasiya proqramları, tələbələrə müəyyən ssenarilərlə qarşılaşmaq və bu ssenarilərdə mübarizə metodlarını seçmək imkanı verir. Bu oyunlar, tələbələrin qərar vermə bacarıqlarını inkişaf etdirərək, onların aqrobioloji mühitdə tez və düzgün hərəkət etmələrini təmin edir.
Tədqiqatın bir başqa aspekti müasir təlim metodlarının tələbələrin təhsil keyfiyyətinə olan təsirlərini qiymətləndirməkdir. Bu məqsədlə, tələbələrin əvvəlki və sonrakı bilik səviyyələri arasında müqayisələr aparılmışdır. Təlim metodlarının dəyişdirilməsi ilə tələbələrin:
Zərərvericilərin Tanınması Bacarığı: Yeni təlim yanaşmalarının nəticəsində tələbələrin bitki zərərvericilərini daha düzgün və tez tanıma qabiliyyətləri artmışdır. Onlar, həmçinin, fərqli bitkilər üzərində zərərvericilərin təsirini analiz etməkdə daha bacarıqlı olmuşlar.
Analitik Düşüncə və Problem Həll Etmə Bacarıqları: İnteraktiv və sahə təcrübələri tələbələrə analitik düşüncə və problem həll etmə bacarıqlarını inkişaf etdirmək imkanı yaratmışdır. Tələbələr, zərərvericilərin əhəmiyyətini və təhlükəsini qiymətləndirməkdə daha müstəqil və yaradıcı yanaşmalar sərgiləmişlər.
Praktiki Bacarıqların İnkişafı: Təcrübə və praktiki dərslərin artırılması, tələbələrin iş yerində qarşılaşacaqları real şəraitdə müvafiq tədbirlər görmələrini asanlaşdırmışdır. Praktiki təlimlər və sahə təcrübələri, tələbələrə iş təcrübəsi qazandırır və onların iş yerindəki adaptasiya müddətini qısaldır. Yeni təlim metodlarının yalnız tələbələr üzərində deyil, həm də müəllimlər üzərində müsbət təsir göstərdiyi müşahidə olunmuşdur. Müəllimlər, yeni tədris metodları ilə tanış olduqca, onların pedaqoji yanaşmaları inkişaf etmiş və bu, dərslərin daha cəlbedici və effektiv olmasına səbəb olmuşdur. Müəllimlərin daha innovativ metodlarla təhsil verməsi, onların öz peşəkar bacarıqlarını artırır və tələbələrə daha yaxşı öyrətmə imkanı verir.[5]

Nəticə
Tədqiqat nəticələri göstərir ki, müasir təlim metodlarının tətbiqi dekorativ bitki zərərvericilərinin tədrisində yüksək effektivlik təmin edir. İnteraktiv, vizual, sahə əsaslı və rəqəmsal təlim vasitələri tələbələrin öyrənmə prosesinə daha çox cəlb olmasına və biliklərin dərinləşməsinə şərait yaradır. Tədqiqatın sonunda, aqrobioloji təhsilin keyfiyyətinin artırılması və müasir metodların geniş şəkildə tətbiqi üçün bir sıra tövsiyələr təqdim edilmişdir. Bunlar arasında müasir texnologiyaların daha geniş istifadəsi, müəllimlərin peşəkar inkişafı üçün təlim proqramlarının artırılması və sahə təcrübələrinin daha da genişləndirilməsi kimi məsələlər əhəmiyyətli yer tutmuşdur. Tədqiqatın nəticələri, aqrobioloji təhsilin gələcək inkişafı üçün əhəmiyyətli metodoloji istiqamətlər təklif edir və bu sahədə müasir təlim yanaşmalarının tətbiqinin vacibliyini vurğulayır. Aşağıdakı təklifləri verə bilərik:[3]
✓ Aqrobioloji təhsil proqramlarının müasir təlim yanaşmalarına uyğun yenilənməsi zəruridir. Tədris metodlarının daha çox sahə əsaslı təcrübələr, simulyasiya proqramları və interaktiv öyrənmə vasitələri ilə zənginləşdirilməsi tələbələrin real həyatla daha yaxından əlaqə qurmasına imkan

yaradacaq. Bu yanaşmaların tətbiqi, tələbələrin müasir aqrobioloji problemlərə daha uyğun və çevik yanaşmalar sərgiləmələrini təmin edəcəkdir.

✓ Müəllimlərin yenilikçi təlim metodları ilə tanışlığı və bu metodların tədrisə inteqrasiyası üçün daha çox təlim və seminarlar təşkil olunmalıdır. Müəllimlər üçün xüsusi tədris proqramları yaradılmalı və onların bu yeni yanaşmalarla bağlı bilikləri müntəzəm olaraq yenilənməlidir. Müəllimlərə yeni tədris texnologiyalarını istifadə etməkdə kömək edəcək dəstək proqramları inkişaf etdirilməlidir.

✓ Aqrobioloji təhsil müəssisələrində rəqəmsal resursların istifadəsi daha da artırılmalıdır. Tədris prosesinə müasir rəqəmsal alətlərin (məsələn, mobil tətbiqlər, interaktiv simulyasiyalar, virtual laboratoriyalar) inteqrasiyası tələbələrə bitki zərərvericilərini müxtəlif mühitlərdə daha dəqiq təhlil etməyə imkan verəcəkdir. Bu texnologiyalar həmçinin tədrisin daha effektiv və cəlbedici olmasına yardım edəcəkdir.

✓ Tədris proqramlarında sahə təcrübələrinin artırılması və tələbələrin zərərvericilərlə birbaşa qarşılaşaraq müvafiq müdaxilələri həyata keçirmələrini təmin edəcək fəaliyyətlərin təşkili vacibdir. Praktiki məşğələlər tələbələrə təcrübə qazanmaq və nəzəri bilikləri tətbiq etmək imkanı verəcəkdir. Bu, onların gələcəkdəki karyeralarında daha hazırlıqlı olmalarını təmin edəcəkdir.

✓ Aqrobioloji təhsil proqramları yalnız bitki zərərvericilərinin tanınması və idarə edilməsi ilə məhdudlaşmamalıdır. Bu sahədə daha geniş və multidisiplinar yanaşmalar tətbiq edilməlidir. Məsələn, ekoloji faktorların, iqtisadi təhlillərin və sosial təsirlərin də daxil edildiyi kompleks dərslər tələbələrin mövzunu daha dərindən anlamağa və hərtərəfli yanaşmalar inkişaf etdirməyə kömək edəcəkdir.

✓ Yeni tədris metodlarına uyğun olaraq, dərsliklər və digər tədris materialları da yenilənməlidir. Tədris materialları, müasir texnologiyaları və vizual vasitələri inteqrasiya edən, həmçinin tələbələrə interaktiv öyrənmə imkanı verən formatda hazırlanmalıdır. Bu, tələbələrin məlumatları daha asan mənimsəmələrinə və təlim prosesinə daha fəal qoşulmalarına kömək edəcəkdir.[2]

Tədqiqat göstərdi ki, müasir təlim metodlarının aqrobioloji təhsil sahəsinə daxil edilməsi tələbələrin bilik səviyyəsini yüksəltmək və praktiki bacarıqlarını inkişaf etdirmək baxımından çox mühüm rol oynayır. İnnovativ yanaşmaların tətbiqi, həmçinin müəllimlərin tədris bacarıqlarını artırır və təhsil prosesini daha keyfiyyətli və effektiv edir. Bu yanaşmaların genişləndirilməsi və tətbiqinin artırılması, aqrobioloji təhsilin gələcək inkişafına mühüm töhfələr verəcəkdir.

Ədəbiyyat

1. Ağayev B.İ. Ümumi entomologiya. ADPU-nin nəşriy., Bakı, 2004,303 s.
2. Balaxanova Q.V. Məmmədova, G. Orta məktəblərdə ekosistemlər və ekoloji biliklərin formalaşdırılması. Elmi Tədqiqat Beynəlxalq Elmi Jurnal, 5(2). – Bakı, 2025. -125–128s.
3. Hacıyeva G.N. Biologiyanın tədrisi metodikası(dərslik) / Müəllim nəşriyyatı. -Bakı, 2019. – 380 s.
4. Məmmədov Z.M., Mirzəyeva N.B. Təbii sərvətlərin qorunub saxlanmasında ekoloji amillərin rolu / Təbii sərvətlərin qiymətləndirilməsi və təbiətdən istifadə elmi konfransının materialları. Bakı,2003,s. 110-112.
5. Məmmədov Z,M., Qasımov A.Q. Təsərrüfat əhəmiyyətli entomofaqların bioekoloji xüsusiyyətləri // AMEA-nın Xəbərləri. Biologiya elmləri seriyası, Bakı,"Elm", 2009, № 1-2, s.196-203.
6. Məmmədov Z.M., Qasımov A.Q. Naxçıvan MR meyvə bağlarında mühit amillərinin zərərverici və entomofaqlarının bioloji fəaliyyətinə təsiri // AMEA Nax. Böl. Xəbərləri. Təbiət və texnika elmləri seriyası,2009, № 2, s.218-222.
7. Məmmədov Z.M., Atayeva R.S. Azərbaycanın bağ və meşə senozlarında entomofaqlara təsir edən ekoloji amillər. Azərbaycan Zooloqlar Cəmiyyətinin əsərləri, II cild, Bakı, 2010. Səh.347-352.

8. Sultanov R. Və b. Zoologiya 7 Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı, 2011.
9. Sultanov R. Və b. Zoologiya 8 Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik. Bakı, 2011.
10. Səfərova E. Abşeronda bəzək bitkilərinə zərərverən cücülər, onların biotənzimlənməsində entomofaqların rolu, Bakı, 2018

ТВОРЧЕСКОЕ ВОСПРИЯТИЕ ПОЭЗИИ БАХТИЯРА ВАГАБЗАДЕ В ЕВРОПЕ

CREATIVE PERCEPTION OF BAKHTIYAR VAGABZADE'S POETRY IN EUROPE

Гюляр Гасан гызы Абдуллабейли
Доктор филологических наук, профессор Институт литературы им. Низами Гянджеви НАНА Заведующая отделом «Мировой литературы и компаративистики»

Abstract
Azerbaijani Soviet literature and art have made a giant step forward in their development during the years of Soviet power. Based on the best national classical traditions, the literature of Soviet Azerbaijan has achieved great success in all its genres. Using and enriching the national form, Azerbaijani writers and poets filled it with new social content. Under socialism, the free development of talents led to the natural emergence of national art on a wide international arena. The polyphonic work of Bakhtiyar Vahabzade can serve as an example of the harmonious combination of beautiful national form and new socialist content.
Key words: Bakhtiyar Vahabzadeh, literature, Soviet literature, polyphonic

РЕЗЮМЕ
Азербайджанская советская литература и искусство, проделали за годы советской власти гигантский шаг вперёд в своём развитии. Опираясь на лучшие национальные классические традиции, литература Советского Азербайджана во всех своих жанрах достигла больших успехов. Используя и обогащая национальную форму, азербайджанские писатели и поэты наполнили её новым социальным содержанием. В условиях социализма свободное развитие талантов привело к естественному выходу национального искусства на широкую интернациональную арену. Примером гармонического сочетания прекрасной национальной формы и нового социалистического содержания может служить полифоническое творчество Бахтияра Вагабзаде.
Ключевые слова: Бахтияр Вагабзаде, литература, советская литература, полифония

ВВЕДЕНИЕ

Азербайджанское советская литература ярка и красочна. В ней богато представлено национальное стилевое многообразие. Особенно интенсивно развивается в XX веке азербайджанская поэзия, традиции которой восходят к далекому XII веку, когда расцвела могучая гуманистическая поэзия великого Низами. Поэзия всегда готовнее, оперативнее выражает новое в жизни, ярче отражает особенности времени. Проза исторически в азербайджанской литературе появилась позже поэзии, немаловажную роль в развитии богатых национальных поэтических традиций сыграло также народное творчество.

И, естественно, что именно азербайджанская поэзия с её красочностью и богатством художественных форм, выражающих новое содержание, привлекла внимание польских художников слова – переводчиков, критиков, поэтов.

Антология Азербайджанской Поэзии «Złote Kamienie»

В 1975 году в Лодзи издаётся антология азербайджанской поэзии «Złote kamienie» «Золотые каменья»[6]. Антология эта – первый опыт полного и представительного сборника в Польше,

[6] Złote kamienie. Dawnie i nowe wiersze Azerbaidżanu. Lódź, 1975.

она охватывает почти все лучшие образцы классической и современной поэзии Азербайджана. Многокрасочность поэтической палитры, глубина философских мыслей, самобытность творчества азербайджанских поэтов давно привлекают внимание польских переводчиков. Вот уже многие годы коллектив университета в Лодзи ведёт плодотворное сотрудничество с учёными Азербайджана. Антология азербайджанской поэзии «Золотые каменья», подготовленная Лодзинским университетом – ещё одно проявление дружеских связей литераторов Азербайджана и Польши.

Отбор и обработка стихов в антологии произведена Т.Хрущелевским и И.Шикирицким, примечания и пояснения Т.Хрущелевского, вступительное слово доктора исторических наук, профессора Лодзинского университета Б.Барановского. Предисловие к антологии представляет собой краткий обзор истории Азербайджана. В заключительной части антологии даны краткие сведения о жизни и творчестве представленных поэтов, а также обстоятельное точное определение форм, размеров азербайджанского стиха: рубаи, месневи, фард, газель, касида, гошма, мухаммас.

Интерес вызывает статья, написанная известным польским учёным, поэтом, переводчиком М.А.Василевским. Озаглавленная «Страна поэтов»[7], она содержит обзор современной азербайджанской литературы, творчества её лучших представителей: Р.Рза, Н.Хазри, Б.Вагабзаде, К.Касумзаде, Х.Рза и других. В статье чувствуется глубокое знание азербайджанской поэзии и индивидуальных особенностей творчества каждого её представителя.

По мнению М.А.Василевского, «поэтический Олимп азербайджанской литературы составляет Р.Рза, Б.Вагабзаде, Н.Хазри, К.Касумзаде, И.Сафарли», а особенности азербайджанской поэзии он видит в богатстве иносказаний, аллегорий. «Азербайджанская поэзия – пишет М.А.Василевский – создаётся профессиональными поэтами и поэтами народными – ашугами, которые исполняют свои произведения под аккомпанимент народных инструментов. В советский период эти два направления переплетаются. Профессиональные поэты пишут народные песни, а известные ашуги становятся профессиональными литераторами, создающими поэзию социалистического Азербайджана».

Бахтияра Вагабзаде М.А.Василевский определяет как «тип поэта — мыслителя». А вот характеристика его творчества: «Мир, чувства, факты, мысли, контрасты поэтически отражаются в его стихах. Вагабзаде ставит в своих произведениях проблемы, которые должны разрешить сами читатели. Он подводит их к порогу и говорит с поклоном: теперь отвори двери и посмотри, что там за порогом? Бахтияр Вагабзаде редко обращается к исторической тематике. Это поэт сегодняшнего дня и современной эпохи. Его поэзия гуманистична. Основу его творчества составляет человек, думы и заботы о нём. Помимо общечеловеческих проблем, в творчестве Вагабзаде поставлены и проблемы чисто национальные. В стихотворении «Родной язык» он выступает как защитник своего языка, на котором произносится святое слово «мать». В азербайджанском родном языке он видит духовное богатство, совесть и душу народа. Вагабзаде популярный и любимый народом поэт, поэзия его сложная, заставляющая читателя думать и размышлять»[8].

Как было отмечено выше, большой резонанс в азербайджанско-польских литературных связях вызвала антология, подготовленная польскими учеными и поэтами, посвященная азербайджанской классической и современной поэзии. Изданная в 1975 году в Лодзи, книга открывается большой вводной статьей профессора Б.Барановского, знакомящей польского читателя с культурой Азербайджана, с историей дружбы азербайджанского и польского народов, освещает ее яркие, интересные страницы. Антология азербайджанской поэзии, в

[7] Wasilewski M.A. Kraina poetów. Przyjaźń, 1967, Nr. 9. s. 21.
[8] Wasilewski M.A. Kraina poetów . Przyjaźń, 1967, Nr. 9. s. 21.

которой собраны лучшие произведения наших классиков, вызвала большой интерес польских ценителей поэзии.

Изданная на высоком полиграфическом уровне, антология азербайджанской поэзии «Золотые каменья» отвечает самым строгим эстетическим требованиям. Но для нас особый интерес представляет статья польского ученого-азербайджановеда, опубликованная в 1981 году на страницах периодической печати Азербайджана, посвященная этой книге и азербайджанско-польским литературным связям. – «Золотые каменья», Анджея Ходубского[9].

«Жемчуг, золото, алмаз – эти слова нередко употребляются для характеристики шедевров мировой поэзии, поражающих отточенностью форм, глубоким свечением мудрых мыслей» - замечает автор. Изданная в Польше антология азербайджанской поэзии названа «Золотые каменья». Ученый говорит о том, что появление этой книги в Польше стало «примечательным явлением», она «быстро приобрела популярность».

ЗАКЛЮЧЕНИЕ

В антологии азербайджанской поэзии представлены следующие стихи Бахтияра Вагабзаде Wszyscy rodziliśmy sişę w jednym domu - “Hamımız bir evdə doğulmuşuq”- “Мы все родились в одном дом” в переводе отмеченного выше переводчика Марека Антони Василевского. Следующее стихотворение «Echo»-“Əks -səda” “Эхо” в переводе Валериана Архимовича. Третье стихотворение “Tempo”-“Surət”- «Скорость» в переводе Taqeuşa Хруищчелевского и, наконец, заключительное стихотворение “Jastem starszy od mego dziadka”-“Mən babamdan daha yaşliyam”- «Я старше своего деда», посвященное Кадыру Султанову[10] в переводе на польский язык Марека Антони Василевского. В антологии предоставлена также краткая информация о Бахтияре Вагабзаде. Родился в 1925 году в городе Нуха в рабочей семье- поэт и научный работник, кандидат филологических наук. Он является автором научных трудов и ряда поэтических сборников, среди них “Druhowie moi” (1940) “Mənim dostlarım” «Мои друзья», “Platany” (1956)-“Çinar ağacları”- “Чинары”, “Gazela” (1952) – “Ceyran”-“Газель” “Wyznanie” (1962)- “Etiraf ” – «Признание», “Człowiek i czas” (1964) –“İnsan və zaman”- “Человек и время”.

Литература:

1. Złote kamienie. Dawnie i nowe wiersze Azerbaidżanu. Lódź, 1975.
2. Wasilewski M.A. Kraina poetów. Przyjaźń, 1967.
3. А.Ходубский. «Золотые каменья», «Баку», 9 июня 1981 г.

[9] А.Ходубский. «Золотые каменья», «Баку», 9 июня 1981 г.

[10] Друг поэта, член- корреспондент Академии Наук Азербайджана, ученый геолог-минеролог.

LINGUISTIC IDEAS IN BAKHTIYAR VAHABZADEH'S JOURNALISM

ЛИНГВИСТИЧЕСКИЕ ИДЕИ В ПУБЛИЦИСТИКЕ БАХТИЯРА ВАГАБЗАДЕ

BƏXTIYAR VAHABZADƏNİN PUBLİSİSTİKASINDA DİLÇİLİK İDEYALARI

Dosent Vəliyeva Səkinəxanım Fazil qızı
ADPU, Xarici Dillər Mərkəzi

Xülasə
Bu tezisdə Bəxtiyar Vahabzadənin publisistikasında yer alan dilçilik ideyaları təhlil olunmuşdur. Tədqiqat göstərir ki, Vahabzadə ana dilini milli kimliyin əsas sütunu kimi qiymətləndirir və onun qorunmasını milli borc hesab edir. O, publisist yazılarında ana dilinin saflığının qorunması, yad təsirlərdən uzaq tutulması və cəmiyyətin bütün təbəqələrində düzgün istifadəsi məsələlərini qaldırır. Dilə ideoloji və mənəvi dəyər kimi yanaşan Vahabzadə, publisistik yazıları vasitəsilə ana dilinə olan məhəbbəti təbliğ etmiş, dilin təkcə ünsiyyət vasitəsi deyil, milli dirçəlişin mühüm amili olduğunu göstərmişdir. Nəticə etibarilə, onun publisistikası bu sahədə çalışanlar üçün həm ideoloji, həm də elmi baxımdan zəngin mənbədir.
Açar sözlər: publisistika, dilçilik ideyaları. dil və ideologiya. milli-mənəvi dəyərlər, milli kimlik.

Abstract
This thesis analyzes the linguistic ideas in Bakhtiyar Vahabzadeh's journalism. The study shows that Vahabzadeh values the mother tongue as the main pillar of national identity and considers its protection a national duty. In his journalistic writings, he raises the issues of preserving the purity of the mother tongue, keeping it away from foreign influences, and its correct use in all strata of society. Approaching language as an ideological and moral value, Vahabzadeh promoted love for the mother tongue through his journalistic writings and showed that language is not only a means of communication, but also an important factor in national revival. As a result, his journalism is a rich source for those working in this field, both ideologically and scientifically.
Keywords: journalism, linguistic ideas. language and ideology. national-moral values, national identity.

Резюме
В тезисе анализируются лингвистические идеи в публицистике Бахтияра Вахабзаде. Исследование показывает, что Вахабзаде ценит родной язык как главную опору национальной идентичности и считает его защиту национальным долгом. В своих публицистических работах он поднимает вопросы сохранения чистоты родного языка, ограждения его от иностранного влияния, правильного его использования во всех слоях общества. Рассматривая язык как идеологическую и моральную ценность, Вахабзаде пропагандировал любовь к родному языку в своих публицистических произведениях и показывал, что язык является не только средством общения, но и важным фактором национального возрождения. В результате его публицистика является богатым источником информации для тех, кто работает в этой области, как в идеологическом, так и в научном плане.
Ключевые слова: журналистика, лингвистические идеи. язык и идеология. национально-нравственные ценности, национальная идентичность.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, şair, ictimai xadim və fikir adamı olan Bəxtiyar Vahabzadə yalnız poetik yaradıcılığı ilə deyil, publisist yazıları ilə də milli düşüncənin, dil və mədəniyyətin qorunmasının fəal təbliğatçısı olmuşdur. Onun publisistikası dilin milli kimliyin əsas sütunu olduğunu dönə-dönə vurğulayır və bu sahədəki problemləri cəcarətlə gündəmə gətirir. Bu tezisdə Bəxtiyar Vahabzadənin publisistikasında əksini tapan dilçilik ideyaları, ana dilinə münasibəti, dilin daşıdığı ictimai və ideoloji məna araşdırılır.

Bəxtiyar Vahabzadənin publisistikasında dil sadəcə ünsiyyət vasitəsi deyil, millətin varlığının və tarixinin simvolu kimi təqdim olunur. O, ana dilinin yalnız estetik deyil, həm də siyasi və ideoloji aspektdən yanaşır.”Dilini itirən millət, özünü itirər” fikri onun dil anlayışının mərkəzində durur. Şairin “Ana dili” və “Millət və dil” mövzulu məqalələrində bu mövqe açıq şəkildə ifadə olunur. Onun fikrincə, dil milli yaddaşın daşıyıcısıdır və ona qarşı laqeyd münasibət milli özünüdərkin zəifləməsinə səbəb olur.

Bəxtiyar Vahabzadə publisist yazılarında dilin saflığının qorunmasını vacib vəzifə kimi dəyərləndirir. O, sovet dövründə rus dilinin Azərbaycan dilinə təsirini tənqid edərək, bu təsirin yalnız leksik səviyyədə deyil, düşüncə tərzinə də sirayət etdiyini qeyd edir. O yazılarında tez-tez daxil olan yad sözlərə qarşı ,,çıxaraq, ana dilinin imkanlarının kifayət qədər zəngin olduğunu göstərir və xalqın öz dilində düşünməsi, yazması və yaratmasının tərəfdarıdır.

Vahabzadənin publisistikası yalnız tənqid və müşahidədən ibarət deyil, o, konkret yollar da göstərir: dilin tədrisində keyfiyyətin artırılması, mətbuat və ədəbiyyatda dil normalarına riayət, dövlət dili statusunun qorunması kimi məsələləri gündəmə gətirir. “Dildə səhlənkarlıq millətə xəyanətdir” deyə vurğulayan Vahabzadə, dilə biganələyin gələcək nəsillərə ciddi mənfi təsirlər edəcəyini bildirir.

Bəxtiyar Vahabzadə dilə həm də milli dirçəlişin vasitəsi kimi baxır. Onun üçün dil yalnız fikir ifadə etmə vasitəsi deyil, həm də xalqı birləşdirən, azadlıq ruhunu yayan gücdür. Bu mənada onun publisistikasında dil ideoloji silah kimi təqdim olunur. Xüsusilə sovet senzurasının güclü olduğu dövrlərdə yazdığı məqalələrdə, simvolik ifadələrlə ana dilinə və milli dəyərlərə çağırışlar hiss olunur.

Bəxtiyar Vahabzadənin publisistikası dilçilik baxımından dəyərli mənbədir. Onun ana dilinə münasibəti yalnız duyğusu deyil, həm də konseptual və elmi əsaslara söykənir. O, dilə milli varlığın mayası, idoloji mübarizə aləti və mədəniyyətin təməl daşı kimi baxaraq, bu sahədəki laqeydliliyi millətə xəyanət sayır. Vahabzadənin publisistikası bu gün də ana dili ilə bağlı məsələlərdə düşünmək və fəaliyyətə keçmək üçün mühüm stimul rolunu oynayır.

Ədəbiyyat

1.Vahabzadə, Bəxtiyar. Seçilmiş əsərləri. I cild.Bakı:Yazıçı, 1985
2.Vahabzadə, Bəxtiyar. Şəxsiyyət və zaman. Bakı:Yazıçı, 1987
3.Əliyeva,Fəridə. “Bəxtiyar Vahabzadə publisistikasında ana dili və milli dəyərlər” Filologiya məsələləri, 2020, № 2, s.45-52

THE PROBLEM OF INTERNAL CONFLICT IN SAMAD VURGU'S PSYCHOLOGICALLY BASED ARTISTIC WORKS

SƏMƏD VURĞUNUN PSİXOLOJİ ZƏMİNLİ BƏDİİ ƏSƏRLƏRİNDƏ DAXİLİ KONFLİKT PROBLEMİ

Ulduz Fərhad Qəhrəmanova
Filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Pedaqoji Universiteti,
"Ədəbiyyat" kafedrasında dosent əvəzi
Orcid İD: 0009-0003-4418-9319

Xülasə
Ziddiyyət heç də qəhrəmanın xarakterinin zəifliyinə dəlalət etmir, əksinə, onun qəlbinin daxili tələbatı kimi meydana gəlib inkişaf edən, nəhayət, öz bədii həllini tapan daxili münaqişədir. Səməd Vurğuna görə, müsbət qəhrəman hər hansı daxili ziddiyyətlərdən məhrum olmalıdır" fikrini kəskin tənqid edərək göstərirdi ki, müsbət qəhrəmanın öz daxili ziddiyyətləri, zəif və müsbət cəhətləri vardır ki, bu da hər bir canlı şəxsdə olur. Ədəbiyyatşünasa əsasən, Səməd Vurğunun bu qənaətləri göydəndüşmə deyildi. Ö öz yaradıcılıq nümunələrində qəhrəmanları onların daxili ziddiyyətləri ilə verməyə çalışır, elə buna görə də mükəmməl insan xarakterləri qaleriyası yaratmağa nail olmuşdur.
Deməli, daxili konflikt obrazın əsil kimliyini oxucuya göstərən bir mənəvi kimlik vəsiqəsidir. "Daxili konflikt obrazın psixoloji məqamları ilə bağlı oaraq inkişaf edir. Səməd Vurğun da Azərbaycan poeziyasında **psixoloji poema janrının** ən dəyərli nümunələrini yaradan sənətkarlardandır.
Azərbaycan şairlərindən ən çox Səməd Vurğun və Bəxtiyar Vahabzadə yaradıcılığında daxili münaqişənin bədii əksini görmək mümkündür. Səməd Vurğun deyirdiki, ən çox ömür sürən əsərlər böyük tarixi konfliktlər üzərində qurulmuş əsərlərdir. Göründüyü kimi, Səməd Vurğunun "Atılmışlar" poeması, "Aygün" poeması, "Komsomol" poeması psixoloji poema janrının tələblərinə cavab verən yüksək sənət nümunələridir. Nəinki poeması, Səməd Vurğunun lirikasında belə psixoloji məqamlara rast gəlmək mümkündür. Məsələn: "Mənə belə söylədilər" şeiri bu qəbildəndir.

Abstract:
Contradiction does not at all indicate the weakness of the hero's character, but on the contrary, it is an internal conflict that arises and develops as an internal need of his soul, and finally finds its artistic solution. According to Samad Vurgun, a positive hero should be devoid of any internal contradictions", he sharply criticized the idea that a positive hero has his own internal contradictions, weaknesses and positive aspects, which are present in every living person. According to the literary critic, these conclusions of Samad Vurgun were not a coincidence. In his creative examples, he tries to present heroes with their internal contradictions, which is why he managed to create a gallery of perfect human characters.
So, internal conflict is a spiritual identity card that shows the reader the true identity of the character. "Internal conflict develops in connection with the psychological aspects of the character. Samad Vurgun is also one of the artists who created the most valuable examples of the psychological poem genre in Azerbaijani poetry.
Of the Azerbaijani poets, the artistic reflection of internal conflict can be seen most often in the work of Samad Vurgun and Bakhtiyar Vahabzade. Samad Vurgun used to say that the works that last the longest are those built on great historical conflicts. As can be seen, Samad Vurgun's poem "Atılmışlar", poem "Aygun", poem "Komsomol" are examples of high art that meet the requirements of the psychological poem genre. Not only his poem, but also in Samad Vurgun's lyrics, such psychological moments can be found. For example: The poem "They Told Me So" is of this type.
Keywords: Samad Vurgun, poem, internal conflict, psychological backgroun

Ziddiyyət heç də qəhrəmanın xarakterinin zəifliyinə dəlalət etmir, əksinə, onun qəlbinin daxili tələbatı kimi meydana gəlib inkişaf edən, nəhayət, öz bədii həllini tapan daxili münaqişədir. Səməd Vurğun vaxtilə deyirdi: "Müsbət qəhrəman hər hansı daxili ziddiyyətlərdən məhrum olmalıdır" fikrini kəskin tənqid edərək göstərirdi ki, müsbət qəhrəmanın öz daxili ziddiyyətləri, zəif və müsbət cəhətləri vardır ki, bu da hər bir canlı şəxsdə olur". (Əliyev Rafiq Yusif, (2001,)s. 153) Ədəbiyyatşünasa əsasən, Səməd Vurğunun bu qənaətləri göydəndüşmə deyildi. Ö öz yaradıcılıq nümunələrində qəhrəmanları onların daxili ziddiyyətləri ilə verməyə çalışır, elə buna görə də mükəmməl insan xarakterləri qaleriyası yaratmağa nail olmuşdur.
Deməli, "daxili konflikt obrazın əsil kimliyini oxucuya göstərən bir mənəvi kimlik vəsiqəsidir". (U.Q.) "Daxili konflikt obrazın psixoloji məqamları ilə bağlı oaraq inkişaf edir". (U.Q.) Səməd Vurğun da Azərbaycan poeziyasında **psixoloji poema janrının** ən dəyərli nümunələrini yaradan sənətkarlardandır.
Səməd Vurğunun "Komsomol" poemasındakı Gəray bəy Cəlalı öldürməklə qızının da ölümünə səbəb olan atanın həyəcanları, onun daxilindəki iki "Mən"in münaqişəsi qəhrəmanın mənəvi dünyasına işıq salır. Sularda qərq olan qızıyla xəyalən söhbət edən Gəray bəy özünə heç cür haqq qazandıra bilmir. Belə ki:

Can bala, bir dur,
Görünür taleyim, qismətim budur,
Yaxın gəl, bir az da danışaq barı,
Ovut sinəmdəki bu ağrıları
Yox-yox, heç ovutma, yansın ciyərim,
Biləkdən düşəydi kaş ki, əllərim.
Cəlal yaşasaydı, yaşardın sən də,
Gül kimi gülərdin çöldə, çəməndə.

Yaxud: Səməd Vurğun "Aygün" poemasında həm Aygünün, həm də Əmirxanın timsalında maraqlı daxili konfliktlər yaratmağı bacarmışdır. Məsələn: "Aygün" poemasında evinin, ailənin dağılmasında, öz sənətinin yadırğamasının əsas səbəbkarın özü olduğunu dərk edən Əmirxan Aygünün həyat, sənət yollarında ucaldığını eşidəndə daxilindəki ikinci "mən" ona divan tutur. Belə ki:

Mənsə dala qaldım, hmıdan dala,
Qeyrətim olmadı bir qadın qədər.
Ölüm də yoxdur ki, canımı ala,
Mənim də adıma kişi deyirlər

Göründüyü kimi, bu kimi daxili konfliktlər Əmirxanın öz səhvini dərk edərək mənəvi yüksəlişi üçün psixoloji zəmin idi.
Səməd Vurğun "Atılmışlar" poemasın övladını atan gənc ananın daxili iztirabları, " iki mən" in üz-üzə gəlməsi səhnəsini, ananın 2 yol ayrıcında qalmasını belə göstərmişdir:
1.Bir tərəfdən el qınağı, el töhməti. Belə ki, el qınağından arlanıb övladını atmaq qərarına gələn ananın daxili iztirablarını şair psixoloji gərginliklə təqdim etmişdir. Hansı ki, bu ana təbiət və cəmiyyətin yazılmamış qanunları ilə üzbəüz qalıb. Yəni: Ləkələnmiş adını gizlətmək üçün balasından imtina edən ana balasını həyətlərinin birinin qapısı ağzına qoyub qaçır. Səməd Vurğun həmin psixoloji məqamları aşağıdakı kimi göstərib: Poemanın ayrı-ayrı hissələrindən parçalara nəzər salaq.

Ümidə yas tutub ağlayır güman,
Xeyiri şərləyir, Şərə "dost" deyir.

Sevilib sonra da atıldığından
O da balasını atmaq istəyir
Ancaq ...durdu yenə, duruxdu yenə,
Körpəni astaca qoydu yatağa.
...O qalxmaq istədi,
Yenə döyükdü,
O bir də düşündü son niyyətini
Bildi ki, şüşəylən birgə o bükdü
Sonuncu analıq məhəbbətini.
...Bir neçə damcılıq ana südüylə
Verdi övladına o, son borcunu.
...Analıq, balalıq bumudur məgər?
Çəkdim qayğısını bircə həftə mən
Yolumun üstündə bala bir çəpər,
O tərəfdə arzum, bu tərəfdə mən...
...Basıb sinəsinə o, körpəsin,
...Başını qundağa yaxınlaşdırıb,
İsidir körpəsini od nəfəsiylə,
Bəlkə son borcunu ödəyir elə.
Çatdı bir həyətə..
Döyükdü, durdu,
O uçunurdu.
Bir sağa çevrildi, bir sola baxdı.
Girdi bir dəhlizə...
Mərmər pillələr
Daş üzə bənzər.
Gözünün ucuyla qundağa sarı
Baxmadan astaca qalxdı yuxarı.
Meydança üstünə qoyub körpəni,
Endi pilləni...
Körpə anasından ayrıldığnı
Hiss etmiş kimi
Çığırdı birdən
Elə bil püskürüb od çıxdı yerdən
Bürüdü ananı
Durdu yerində,
İldırım şaqqıdı bəbəklərində,
İstədi qayıda...
Ancaq qaçdı o,
Bala naləsindən uzaqlaşdı o

Digər tərəfdən bala məhəbəti: Lakin evə qayıdan ana etdiyi hərəkətdən peşiman olur. Geriyə qayıdıb körpəni götürmək istəyir. Lakin artıq gec idi. Kim isə körpəni ananın qoyduğu yerdən götürmüşdür. Həmin psixoloji məqamları şair belə göstərmişdir:

...Körpəni görmədi qoyduğu yerdə
O, bir daşa döndü daş pillələrdə
Döşəndi yanına, körpəyə sarı
Uzanan o titrək, gücsüz qolları.

Bu qollar bezmişdi bu gün körpədən,
Bu qollar buz kimi soyuqdu. Nədən?
İndi mən neyləyim, neyləyim? -dedi.

Qeyd edək ki, "Atılmışlar" poemasında biz poemaya məxsus **lirik ricətə** də rast ələ bilərik. Məsələn:

Nə imiş ölçüsü namusun, arın?
O hardan başlanır, o harda bitər?
Dünyada qanunsuz doğulanların
Yaşamaq hüququ yox imiş məgər?
....Atanın, ananın günahı varsa,
Onun cəzasını övladmı çəkməli?
Bu nədir?
Bu müdhiş uyğunsuzluğun
Nə ad verməliyik törətdiyinə?
Deyirəm qanunla qanunsuzluğun
Sərhədi nə imiş göstərin mənə!

Azərbaycan şairlərindən ən çox Səməd Vurğun və Bəxtiyar Vahabzadə yaradıcılığında daxili münaqişənin bədii əksini görmək mümkündür. Səməd Vurğun deyirdi: "Ən çox ömür sürən əsərlər böyük tarixi konfliktlər üzərində qurulmuş əsərlərdir". (Səməd Vurğun, Əsərləri, V cild, Bakı, Elm, 1972, s.165) Göründüyü kimi, Səməd Vurğunun "Atılmışlar" poeması, "Aygün" poeması, "Komsomol" poeması psixoloji poema janrının tələblərinə cavab verən yüksək sənət nümunələridir. Nəinki poeması, Səməd Vurğunun lirikasında belə psixoloji məqamlara rast gəlmək mümkündür. Məsələn: "Mənə belə söylədilər" şeiri bu qəbildəndir.

Ədəbiyyat:

1.Xalid Əlimirzəyev, (2008) "Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları", Bakı
2. Mir Cəlal, Pənah Xəlilov,(2005) "Ədəbiyyatşünaslığın əsasları", Bakı, Çaşıoğlu
3. Məmməd Əliyev, (2012) "Ədəbiyyat nəzəriyyəsinin əsasları", Bakı
9. Məhəmmədəli Mustafayev, (2021) Ədəbiyyat nəzəriyyəsi, Bakı
4.Nizaməddin Şəmsizadə, (2012) "Ədəbiyyat nəzəriyyəsi", Bakı
5. Rafiq Yusifoğlu Əliyev , (2001) "Ədəbiyyatşünaslığın əsasları", Bakı

ENANTİOSEMY AS A SEMİOTİC PHENOMENON

ENANTİOSEMİYA SEMİOTİK HADİSƏ KİMİ

Professor Sənubər Əlövsət qızı Abdullayeva
Bakı Dövlət Universiteti

Xülasə
Xarkov Universitetin professoru Vikentiy İvanoviç Şerdl (1843-1906) 1884-cü ildə dilçiliyin az tədqiq edilmiş sahələrindən birinə aid "Əks mənalı sözlər haqqında (və ya enantiosemiya haqqında)" adlı məqalə çap etdirir. Müəllif adı çəkilən məqalədə dildə iki əks mənanı ifadə edə biləcək sözlərin mövcud olduğunu əsaslandırır. V.İ.Şerdl göstərir ki, latın dilində *altus* sözü həm dağın ucalığını, həm də gölün dərinliyini ifadə edir. Bu hadisəni müəllif belə izah edir: dilin ilkin vəziyyətində sözdə çoxmənalılıq daha geniş olmuşdur. Maraqlı odur ki, enantiosemiya termini V.İ.Şerdlin adı ilə bağlıdır. Müəllif yazır ki, enantiosemiya termini bu prosesi o qədər də dəqiq əks etdirmir, amma bundan düzgün bir termin də onun ağlına gəlmir. V.İ.Şerdlin bu əsəri müqaqisəli-tipoloji semantika sahəsində ilk tədqiqat hesab edilir. O.S.Axmanova enantiosemiyanı polyar mənalılıq adlandırır. Azərbaycan dilçiliyində enantiosemiya barədə çox az yazılmışdır.
Yazılan əsərlərdə adətən bu hadisəni antonimliyə aid edirlər, onu antonimliyin bir növü kimi qələmə verirlər. Əslində enantiosemiya antonimliklə yox, çoxmənalılıqla bağlıdır. Konteksdən asılı olaraq çoxmənalı sözdən 1)müxtəlif məna incəlikləri, 2) mənalardan birinin inkişafı ilə əlaqədar olaraq omonimlik və 3) daxili əksmənalılıq yarana bilir. Enantiosemiyanın yaranma səbəbini nitq prosesi ilə əlaqələndirmək düzgün olar. Sözün emosional yükü nitq prosesində dəyişir və tədricən dil faktına çevrilir. Daxili əksmənalılıq dildə nadir hadisə olsa da, dildə mövcuddur. Enantiosemiya, xüsusilə, feillərdə daha çox müşahidə olunur. *Qaralamaq* feili həm *yazmaq*, həm də *pozmaq* mənasında işlənir. *Qorxmaq* feili həm nədənsə çəkinmək, ehtiyat etmək, həm də hörmət etmək mənasını daşıyır. Azərbaycan dilində enantiosemiyaya nümunə kimi *yaman* və *bəla* sözlərinin daşıdığı müsbət və mənfi mənaları diqqəti cəlb edir. Enantesemiyanın izlərinə Azərbaycan dilində bu gün də rast gəlmək olur. *Alçaq* sözü də tarixən türk dillərində *təvəzökar, alicənab, sadə* mənalarında işlənmişdir. Məqalədə İ.Nəsimi, Həsənoğlu, Xəstə Qasımın əsərlərində, dastanların dilində bu sözün göstərilən məna ilə işləndiyi sübuta yetirilir. Mənanın reallaşması üçün kontekst mühüm əhəmiyyət kəsb edir. Bu söz *təvəzökar, alicənab* mənası ilə müəyyən ifadələrdə, söz birləşmələrində, frazeoloji vahidlərdə, eyni zamanda, bir sıra türk dillərində, dialekt və şivələrdə özünü qoruyub saxlayır.
Açar sözlər: semiotika, çoxmənalılıq, semantik dəyişmə, enantiosemiya, daxili əksmənalılıq

Abstract
In 1884, Professor Vikentiy Ivanovich Scherzl (1843-1906) of Kharkiv University published an article titled *"On Words with Opposite Meanings (or on Enantiosemy)",* addressing one of the lesser-studied areas of linguistics. The author substantiated the existence of words in language that can express two opposing meanings. V.I. Shcherzl noted that the Latin word *altus* refers to both the height of a mountain and the depth of a lake. He explained this phenomenon by stating that in the early stages of language, polysemy (multiple meanings) was more widespread. Interestingly, the term *enantiosemy* is associated with Shcherzl's name. The author himself wrote that while the term *enantiosemy* does not precisely reflect the process, he could not think of a more accurate term. Scherzl's work is considered the first study in the field of comparative-typological semantics. O.S. Akhmanova refers to enantiosemy as *polar semantics*. In Azerbaijani linguistics, there is very little written about enantiosemy. In the limited existing literature, this phenomenon is usually equated with antonymy and presented as a type of antonymy. In fact, enantiosemy is related not to antonymy, but

to polysemy. Depending on the context, a polysemous word may give rise to: 1. nuances of meaning, 2. homonymy as a result of the development of one of its meanings, 3. internal oppositional meaning (enantiosemy).
It would be correct to relate the origin of enantiosemy to the speech process. The emotional load of a word changes during speech and gradually becomes a linguistic fact. Although internal oppositional meaning is a rare phenomenon, it still exists in language especially observable in verbs. For instance, the verb *qaralamaq* in Azerbaijani means both "to write" and "to erase." Similarly, *qorxmaq* means both "to fear" and "to respect." Examples of enantiosemy in Azerbaijani include words like *yaman* (bad) and *bəla* (calamity), which can carry both negative and positive meanings depending on context. The word *alçaq* (lowly), historically in Turkic languages, was used in meanings such as "humble," "noble," and "modest." The article demonstrates the use of this meaning in the works of I. Nasimi, Hasanoglu, Khasta Gasim, and in the language of epic tales. Context plays a crucial role in the realization of meaning. This word, with the sense of "humble" or "noble," continues to exist in certain expressions, word combinations, and idiomatic phrases, as well as in some Turkic languages, dialects, and vernaculars.
Keywords: semiotics, polysemy, semantic change, enantiosemy, internal oppositional meaning

Giriş

Xalqın tarixi və dilin özünün inkişafı ilə əlaqədar olaraq sözün leksik mənası daim dəyişməyə məruz qalır. Sözün mənasında olan dəyişikliklər çoxmənalı sözün inkişaf prosesini təşkil edir. Bu inkişaf nəticəsində çoxmənalı sözdən ayrılan bir sıra mənalar müstəqilləşir. Sözün semantik inkişafı nəticəsində bir kökdən müxtəlif mənaların ayrılması, hətta eyni bir kökdən bir-birinə əks mənaların ayrılması da müşahidə olunur. Bir sözdən bir-birinə əks mənaların ayrılması dilçilikdə enantiosemiya (daxili əksmənalılıq) adlandırılır. [Ахманова, 1966: 526]. Bu hadisə dilçilikdə XIX əsrin sonlarında prof. Vikentiy İvanoviç Şerdl (1843-1906) tərəfindən enantiosemiya termini ilə adlandırılmışdır. Müəllif enantiosemiyanı semiotikanın son dərəcə gözəl və qeyri-adi hadisəsi adlandıırır. [Шерцль, 1973: 259]. V.İ.Şerdl öz məqaləsində xüsusi olaraq qeyd edir: "Bununla belə, belə bir qeyri-müəyyənlik, eyni səslərin və ya komplekslərin əks mənaları özündə birləşdirməsi xüsusilə qədim dillərdə və ibtidai xalqların dilində daha çox yayılmış olur. Dil nə qədər qədimdirsə, xalq nə qədər primitivdirsə, o dillərdə bu hadisəyə bir o qədər tez-tez rast gəlmək olur. Əksinə, dil nə qədər inkişaf etmişdirsə, xalq nə qədər mədəni və savadlıdırsa, o qədər mənaları fərqləndirmək bacarığı artır və enantiosemiya daha az olur". [Шерцль, 1973: 259].
Bu mühüm hadisə elmimizdə çoxdan məlum olsa da, indiyə qədər lazımınca aydınlaşdırılmamışdır; ona ya çox az diqqət yetirilmiş, ya da o ətraflı şəkildə təhlil edilməmış, ən yaxşı halda qeyri-müəyyən misallarla məhdudlaşdırılmışdır. Buna görə də enantiosemiyanın müxtəlif nümunələr əsasında daha geniş təhlili, zənnimcə, məqsədəuyğun olmalıdır.

Əsas Hissə

Sözün semantik təbiətinin dəyişməsi nitq prosesinin məhsuludur ki, burada da onun mövqeyini, funksiyasını unutmaq olmaz. Sözün mənası ilə qrammatik cəhətləri eyni vaxtda dəyişilir və söz formalaşmış şəkildə nitqə daxil olur. Kontekstdən asılı olaraq bu sözün hansı mənanı ifadə etdiyi başa düşülür. Göründüyü kimi, reallaşma şəraiti sözün həmin halda işlənmiş mənasından başqa bütün mənaları pərdələyir, arxada qoyur. Söz daim eyni sintaktik mövqedə işləndikcə həmin mövqedə möhkəmlənir. Sözün mənası və funksiyasında olan hər hansı bir innovasiya dil normaları tərəfindən ya qəbul, ya da inkar olunur. Əgər dil normaları tərəfindən qəbul edilirsə, o, dil sistemində möhkəmlənir. Sistem onun mənası və funksiyasını idarə edir. Yeni sintaktik mövqedə işləndiyinə görə söz yeni kateqorial əlamətlər qazanır. Sözün yeni xüsusiyyəti ilə köhnə xüsusiyyəti arasında olan mənşə ümumiliyi bu sözdə yaranan yeni xüsusiyyəti yaşadır, motivləşdirir, bununla da sözü anlaşıqlı

edir, onun dildə işlənməsinə səbəb olur. Söz yeni keyfiyyət qazandıqca köhnə keyfiyyətləri itirir, tərkibindəki morfoloji elementlər isə leksikləşir və daşlaşır. Söz funksiyasında işləndiyi nitq hissəsinin leksik vahidi kimi həmin nitq hissəsinə daxil olan başqa leksik vahidlərlə bərabərhüquqlu olur. Çünki sözün semantik təbiətinin dəyişməsi nitq prosesinin məhsuludur. Ümumiyyətlə, sözün semantik dəyişməsini sözün leksik mənası, onun bilavasitə əlaqələndiyi sözlə münasibəti və mətni situasiya ilə vəhdətdə baş verməsini nəzərə alaraq dil sistemində aşağıdakı kimi müəyyənləşdiririk:

1. Çoxmənalı sözün müxtəlif məna incəlikləri təzahür edir.
2. Sözün müxtəlif mənalarından biri ayrılır, omonimliyə doğru inkişaf edir.
3. Bir sözdən bir-birinə əks mənalar ayrılır.
4. Çoxmənalı sözlərin müxtəlif məna incəlikləri təzahür edir. Azərbaycan dilçiliyində bu barədə çox bəhs edilmiş və bu proses yetərincə işıqlandırılmışdır [Məmmədov, 2006].
5. Semantik üsulla sözdüzəltməyə çoxmənalı sözün parçalanmasının nəticəsi olaraq omonimlərin yaranması kimi baxmaq olar. Yeni mənanın köhnə mənanı sıxışdırması nəticəsində faktiki olaraq, eyni mənşədən törəyən müxtəlif sözlər yaranır.
6. Bir sözdən bir-birinə əks mənaların ayrılması da semantik söz yaradıcılığı prosesinin mühüm cəhətlərindən birini təşkil edir. Sözlərin belə mənaları dilçilikdə enantiosemiya adlandırılır. Qeyd etməliyik ki, türk dillərinə aid tədqiqatlarda enentiosemiya (daxili əksmənalılıq) bu dillərin materialları üzrə araşdırılmamış qalır.

Çox vaxt enantiosemiya onunla izah olunur ki, qədim zamanlarda kök və onlardan törəmə sözlər ümumi, çox geniş və son dərəcə qeyri-müəyyən mənalara malik olmuşdur. Onlardan sonralar tədricən çoxsaylı çalarların meydana çıxması və müstəqil kateqoriyalara budaqlanması ilə dildə ortaq mənsubiyyətə baxmayaraq, məlum bir spesifikliyə malik olan mənalar formalaşmışdır.

Qədim kök sözlərin şübhəsiz və çox xarakterik xüsusiyyətini təşkil edən polisemantik təbiət enantiosemiyanın ən mühüm səbəblərindən biri kimi çıxır. Artıq dilin ən qədim dövrlərində obyektiv xarakterinə görə qeyri-müəyyən olan, qarşılıqlı əlaqə və əlaqəni ehtiva edən məlum baxış və anlayışlar eyni kökdə təsbit olunurdu ki, bu da nəticə etibarı ilə bir ümumi ideyadan gəlsə də, özlüyündə bir-birinə zidd olan iki mənanı birləşdirirdi. Bundan əlavə, bir çox sözlər bəzən geniş, bəzən dar mənada, bəzən ironiya, bəzən istehza və ya təhqir konnotasiyası ilə, həqiqi və ya məcazi mənada işlənə bilər.

Şübhə yoxdur ki, dilin ən qədim dövrlərində sözlərin çoxmənalılığını və qeyri-müəyyənliyini nəzərə alsaq, insan bir-birinə nəyisə izah etməkdə sonrakı dövrlərə nisbətən daha çox çətinliklərlə üzləşmişdir. Lakin eyni zamanda, insanın həmişə öz nitqini tamamlamaq və canlandırmaq üçün müxtəlif mənalardan istifadə etdiyi də unudulmamalıdır. Bəzi hallarda, enantiosemiya təsadüfi görünür, qədim köklərin məna və ifadə zənginliyi ilə izah olunur və şərtlənir. Ümumi anlayış sferalarından əksliklərin inkişafı təsadüfi deyil, məntiqi hesab edilməlidir. Belə sözlər nitqə obrazlılıq və semantik dərinlik verir. Onlar ədəbi yaradıcılıqda, publisistikada və gündəlik danışıqda ikiqat mənalılıq, ironiya və söz oyunu effekti yaratmaq üçün tez-tez istifadə olunur. Bundan başqa, belə leksik vahidlərin meydana çıxması və yayılması ünsiyyət normalarını, dilin işləmə mexanizmlərini əks etdirə bilər.

Enantiosemiya yolu ilə, əks məna çalarlığı qazanaraq müstəqilləşən və yeni vahid kimi təzahür edən sözlər ad və feil kimi nitq hissələri qruplarında fəaliyyət göstərir. Daxili əksmənalılıq, xüsusilə, feillərdə daha çox müşahidə olunur.

Qaralamaq feili həm *yazmaq*, həm də *pozmaq* mənasında işlənir. Yazmaq mənasında - Bir şey *qarala* konfransa gedək. Pozmaq mənasında – Yazdıqlarının hamısını *qarala*. Bunların heç biri yaramır.

Keçinmək feili həm sadə yaşamaq, birtəhər dolanmaq, həm də dünyasını dəyişmək anlamında işlənir. Yaşamaq mənasında – kənd camaatı *birtəhər keçinirdi*. Ölmək, vəfat etmək mənasında - *o dünən keçindi*.

Qorxmaq feili həm nədənsə çəkinmək, ehtiyat etmək, həm də hörmət etmək mənasını daşıyır. Çəkinmək mənasında – Qaranlıqdan *qorxma*. Hörmət etmək, çəkinmək mənasında – Hamı atamdan *qorxurdu.*

Azərbaycan dilində enantiosemiyaya nümunə kimi *yaman* və *bəla* sözlərinin daşıdığı müsbət və mənfi mənaları diqqəti cəlb edir. Azərbaycan dilində belə sözlərdən daha qabarıq nəzərə çarpan və dildə daha fəal işlənənlərdən aşağıdakıları göstərmək olar:

Yaman – bu sözün əks mənası ilkin mənası ilə paralel işlənir, belə ki, *yazıq* sözünün ilkin mənasına ancaq tarixi abidələrdə rast gəliriksə, *yaman* sözü hər iki mənada: *yaxşı* və *pis* mənaları müasir dildə işlədilir.

Pis mənasında – *Zəmanə yaman dəyişildi* (Ə.Vəliyev); *Bu dünyada üç şey bəladır: Yaman oğul, yaman arvad, yaman at* (Aşıq Ələsgər). Yaxşı mənasında – *Ancaq onu xeyli vaxtdır görmürəm, ürəyim yaman istəyir* (İ.Şıxlı). *Qız Afiqin yaman xoşuna gəlirdi* (S.Səxavət). *Yaman danışdı.*

Şifahi xalq ədəbiyyatı nümunələrində bu sözün pis mənasında işlədilməsinə (Yaxın yoldaş *yaman* gündə sınanar; *Aman, aman oldu, gəl, halım yaman oldu, gəl* və s.) daha çox təsadüf edilir. Bu söz əvvəllər *pis* mənasında işlənmiş, sonralar isə nitq prosesindəki fəaliyyəti ilə əlaqədar yeni semantik çalarlıq qazanaraq *yaxşı* mənasında işlədilmişdir ki, bu da nisbətən son dövrlərin məhsuludur.

Bəla – bu söz də həm yaxşı, həm də pis məna çalarlığı qazanan sözlərdəndir. Pis mənasında – *Axı, o bəlanın adı nədir?* – deyə israr etdim (Əfqan); *Qarğa çox bildiyindən bəlaya düşər* (“Atalar sözü”). Yaxşı mənasında – *Zalım balası lap bəladır, elə bil od-alovdur* (Ə.Vəliyev).

Bəzən bədii üslubda yüksək emosionallıq yaratmaq üçün bu sözün hər iki məna variantından da istifadə edilir: Məsələn: *Bu qız bəladır* (Sözün yaxşı mənasında); *Axırı nə oldu? Onun başına gör nə bəla gəldi...* (B.Bayramov).

Enantesemiyanın izlərinə Azərbaycan dilində bu gün də rast gəlmək olur. Azərbaycan dilində *alçaq* sözü enantiosemiya hadisəsinin bariz nümunəsi hesab edilə bilər.

Alçaq sözü Azərbaycan dilinin izahlı lüğətində «hündürlüyü az olan yer», «yer səviyyəsindən azacıq hündür olan yer» mənası ilə qeydə alınmışdır. Məcazi mənada isə bu söz mənfi semantika (*alçaq* adam, *alçaq* hərəkət) ilə *yaramaz* mənasını ifadə edir.

Azərbaycan dastanlarının 1969-cu il nəşrində «Koroğlu və Dəli Həsən» boyunun şərhində 1688-ci ildə erməni mənbələrində “Koroğlu” dastanının çap olunmuş variantından nümunələr verilmişdir. “Koroğlu”nun erməni əlifbası ilə yazılmış bir əlyazmasında «gərək» qoşmasının belə bir variantı verilir:

İgid *alçaq* gərək, *alçaq,*
Atı yüyrək, kəndi qoçaq,
Hər yanında ciftə, bıçaq,
Belində qılıncı gərək [Azərbaycan dastanları, 1969: 401].

Bu qoşma «Koroğlu» dastanının mətninə daxil edilməmişdir. Bu qoşmanın dastana daxil edilməməsinin bir səbəbi də, yəqin ki, *alçaq* sözünün «yerində» işlənməməsi ola bilərdi.

Doğrudan da, müasir anlamda *igidlik* anlayışı ilə *alçaqlıq* mənası bir-biri ilə uyuşmur. Heç şübhə yoxdur ki, bu qoşmada *alçaq* sözünün hansı mənada işlənməsindən asılı olmayaraq, hər halda müsbət məna daşıması göz gabağındadır. «Əzətinli Əmrah» dastanında da belə bir misal diqqətimizi cəlb etdi:

Alçaqdan ucaya gün düşən kimi,
Cəmi durnalara him düşən kimi,
Cim, əlif altından mim düşən kimi,
Camalın şöləsi mahala düşmüş [Azərbaycan dastanları, 1969: 68].

Alçaq yerdən hündür yerə gün düşməsi heç bir məntiqə sığmır. «Tahir və Zöhrə» dastanının ustadnaməsindən gətirilmiş bir nümunə də maraqlıdır:

Qoçaqdan olubsan, qoçaq olgunan,
Qadadan, bəladan qaçaq olgunan,
Sən açıq ol, mərd ol, *alçaq* olgunan,
Demə varım çoxdu, pulum yaxşıdı [Azərbaycan dastanları, 1969: 23].

Xəstə Qasımdan gətirilən həmin nümunədəki *alçaq* sözü *alicənab, təvazökar* anlamında işlənmişdir. Salman Mümtaz və Hümmət Əlizadənin tərtib etdikləri, 1935-ci ildə nəşr edilmiş «El şairləri» kitabında Xəstə Qasımın bu qoşması belə bir variantda işlənir:

Qoçaqdan olubsan, sən də qoçaq ol,
Qadadan, bəladan gen gəz, qaçaq ol,
Açıq qabaxlı ol, mədam *alçaq* ol,
Demə pulum vardır, malım yaxşıdı [El şairləri, 1935: 162].

«Yaxşıdı» qoşmasının bu variantı daha dəqiqdir. Bu variantda da *alçaq* sözü müsbət mənada işlənmişdir. Göründüyü kimi, *alçaq* sözü fonetik tərkibcə qədim zamanlardan Azərbaycan dilində işlənmiş, amma məna dəyişikliyinə uğrayaraq, ilkin semantikasını itirmiş sözlərdən biridir. İlkin məna isə dastanın dilində qorunub saxlanmışdır. M. Kaşğarlının «Divani Lüğət-it Türk» əsərində *alçaq* sözü mülayim təbiətli, zərif mənaları ilə qeydə alınmışdır [Кошгарий, 1960: 126]. Qədim türk lüğətində də bu sözün *təvazökar, mülayim* mənaları ön plana çəkilir və «Kutadqu bilik» əsərindən bir neçə misal nümunə kimi göstərilir [Древнетюркский словар, 1969: 34].
Maraqlı burasıdır ki, «Kitabi-Dədə Qorqud» dastanında *alçaq* sözünün semantikasında hər iki məna, həm aşağı, həm də yuxarı mənaları özünü göstərir [Древнетюркский словар, 1969]. Dədə Qorqud dastanından misal gətirək: *Alan-alçaq* həva yerdən gələn arğış [Kitabi-Dədə Qorqud, 1988: 58]; Qışda-yazda qarı-buzı əriməyən Qazılıq tağına gəldi ciqdı. *Alçaqdan* yuca yerlərə çapub çıqdı [Kitabi-Dədə Qorqud, 1988: 38].
Bu cümlələrdə *alçaq* sözü müxtəlif məna çalarlıqlarında işlədilir. Birinci cümlədə *alçaq* sözü *uca,* ikinci cümlədə isə *aşağı* mənasında özünü göstərir.
İ.Həsənoğlunun «Necəsin, gəl, ey yüzi ağum bənüm» məşhur qəzəlində də *alçaq* sözü *alicənab, təvazökar* mənasında işlədilmişdir.

Hüsn içində sana manənd olmaya,
Əsli yuca, *könli alçağum* bənüm.

Qəzəlin dilindən bəhs edən professor T.Hacıyev *alçaq* sözünü belə izah edir: «Klassik poeziya janrı ölçü tələbləri qalmaqla xalq ədəbiyyatı ifadələri qəzəlin dilində aşkar iz buraxmışdır… *əsli yuca* (əsil-nəcabətli, zatlı-köklü), *könlü alçaq* (sadə, təvazökar mənasında) «Dədə Qorqud» da işlənən bu idiom indiki dialektlərimizdə də qalır» [Hacıyev, 1976: 89].
Alçaq sözünün lüğətdə verilmiş hər hansı səviyyədən azacıq hündür olan yer (*alçaq* dağ, *alçaq* ev, *alçaq* boy, *alçaq* üçüs, *alçaq* divar) mənası diqqəti cəlb edir. Doğrudan da, *alçaq* sözünün semantikasında ucalıq mənası qalır, yəni yer səthindən çox da hündür deyil, amma hər halda yüksəkdir. *Alçaq* dağ dedikdə, uca dağ olmasa da, hər halda dağ, ucalıq nəzərdə tutulur. *Alçaq* sözü etimoloji cəhətdən qədimdə *böyük, hündür* mənasını bildirən *al / ala* sözündən əmələ gəlmişdir. Əlbəttə, biz bu fikri fərziyyə şəklində qeyd edirik.
Al / ala sözünün türk dillərində *yüksək, uca, hündür, böyük* mənalarında işlənməsi məlumdur.

Alatau, Altay oronimlərinin *al* sözündən yarandığı, *hündür dağ* mənasını ifadə etdiyi dilçilikdə qeyd edilmişdir. Hətta Qafqaz dillərinin bəzilərində *al* sözü *səma, allah* mənasında işlənir. [Cəlilov, 1983: 89]. Türk dilində indi də *ala* sözü *böyük* mənasında işlənir: *Bundan ala təhdit mi olur.* «Kitabi-Dədə Qorqud» dastanında *ala* sözü bir neçə yerdə *böyük, iri* mənası ilə işləndiyi görünür. Məsələn: Üç yerdə dəpə kibi taş yığdı, *ala* qollı sapanın əlinə aldı [Kitabi-Dədə Qorqud, 1988: 43]; Altundağı *alaca* atun nə ögərsən? *Ala* başlu keçimcə gəlməz mana! [Kitabi-Dədə Qorqud, 1988: 43]; Belündə toqsan oqın nə ögərsən, mərə kafər? *Ala* qollı sapanımca gəlməz mana [Kitabi-Dədə Qorqud, 1988: 43].

Alatau, Alp dağları, Altay oronimlərinin *al* sözündən yarandığı, *hündür, böyük dağ* anlamını ifadə etdiyi dilçilikdə qeyd edilmişdir. Dastanların dilində də *ala* sözü ilə yaranan oronimlərə təsadüf edilir. «Kitabi-Dədə Qorqud» dastanında *Alacalar dağı, Ala dağ* buna misal ola bilər: Axan duru sulardan xəbər keçə, ərquru yatan *Ala dağdan* ətər aşa [Kitabi-Dədə Qorqud, 1988: 43]; Arqu beli Ala tağdan dünin aşdım [Kitabi-Dədə Qorqud, 1988: 105]; Sən gedəli, xanım, ərqurı yatan *Ala* tağların avlanmamışdır [Kitabi-Dədə Qorqud, 1988: 105]; Arqurı yatan *ala* tağlar ətəginə ava vardın [Kitabi-Dədə Qorqud, 1988: 105]. Dilçilikdə *al* sözünün ucalıq mənasından *alp, yalçın, yal* sözlərinin yarandığı da göstərilir [Cəlilov, 1983: 168]. *Alçaq* sözünün birinci hissəsinin də *al / ala* sözündən əmələ gəldiyi güman edilə bilər.

Bu sözün yazılı abidələrimizdə, M.Kaşğarlının «Divan»ında qeydə alınmış *təvazökar, alicənab* mənası isə *uca* anlamından yaranmış, ondan törənmiş mənadır. Hər halda alicənablıq, təvazökarlıq keyfiyyəti də ucalıqdan doğan, onunla bağlı xüsusiyyətdir.

Müasir dövrdə işlənən *alçaq* sözünün məcazi mənası (*alçaq* adam) qədim türk lüğətində verilmiş təvazökarlıq, mülayimlik, alicənablıq mənalarının əksidir. Belə nəticəyə gəlmək olar ki, bu sözün müasir dildəki istər əsas, istərsə də məcazi mənası daxili əksmənalılıq əsasında yaranmışdır.

Müasir dilimizdə *alçaq* sözünün *uca* mənası *Alçaq dağları yaratmaq* ifadəsində qalmışdır. Bu söz Qazax dialektində *sadə* mənasında, Ordubad dialektində isə *mehriban, sadə qəlbli* mənası ilə *alçaq könül* ifadəsində ilkin semantikasını saxlamışdır [Əzizov, 2016: 44]. Müasir türk dillərində, xüsusilə türk, türkmən və başqa dillərdə *alçaq* sözü *alicənab, təvəzökar* mənası ilə yüksək işləkliyə malikdir.

Zaqatala, Naxçıvan ərazisində də *alçaq könüllü* idiomatik ifadəsinin həmin məna ilə işləndiyi nəzərə çarpır. İstər İ.Həsənoğlu və İ.Nəsiminin dilində, istərsə də dialekt və şivələrimizdə bu söz ayrıca işlənməmiş, yalnız *alçaq könül* ifadəsinin tərkib hissəsində daşlaşmış şəkildə qalmışdır. Dastanların dilində isə *alçaq* sözü həm ifadələrin tərkibində, həm də müstəqil şəkildə *uca, xoşxasiyyət, alicənab, təvəzökar* anlamı ilə işlənir. Hal-hazırda Müasir Azərbaycan dilində bu söz *alicənab, təvəzökar* mənası ilə işlənmədiyi üçün *alçaq* sözünü *tarixi enantiosemiya* adlandırmaq olar. Çox vaxt enantiosemiya onunla izah olunur ki, qədim zamanlarda kök və onlardan törəmə sözlər ümumi, çox geniş və son dərəcə qeyri-müəyyən mənalara malik olmuşdur. Onlardan sonralar tədricən çoxsaylı çalarların meydana çıxması və müstəqil kateqoriyalara budaqlanması ilə dildə çox vaxt ortaq mənsubiyyətinə baxmayaraq, məlum bir spesifikliyə malik olan mənalar formalaşmışdır.

Nəticə

Beləliklə, enantiosemiya dilin çevik, daim inkişafda olduğunu, eyni zamanda da stabil, sabit, daxili imkanlarla zəngin olduğunu nümayiş etdirən dil hadisəsidir. Dilin özünün təbii inkişafı, mürəkkəb kommunikasiya prosesinin məhsulu olaraq bir sözün daxilində əks mənalar mövcud ola bilir. Enantiosemiya semiotik hadisə kimi dildə çox yayılmasa da, çoxmənalılığın inkişaf yollarından birini təşkil edir. Enantiosemiya mürəkkəb dil hadisəsidir. Çoxmənalılıqda, omonimlikdə olduğu kimi, enantiosemiyada da sözlərin də konkret mənasını kontekst müəyyənləşdirir.

Ədəbiyyat

1. Azərbaycan dastanları. (1969). IV c. Bakı: EA nəşri, 509 s.
2. Cəlilov F.A. (1983). Azərbaycan dilində “al” köklü sölər (tarixi etimoloji etüd) / Azərbaycan filologiyası məsələləri. Bakı: Elm, s.165-173
3. El şairləri (1935). Bakı: Azərnəşr, 369 s.
4. Əzizov E.İ. (2016). Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı: Elm və Təhsil, 348 s.
5. Hacıyev T.İ. (1976). Azərbaycan ədəbi dili tarixi (təşəkkül dövrü). Bakı: ADU nəşriyyati, 152 s.
6. Kitabi-Dədə Qorqud. (1988). Bakı: Yazıçı, 265 s.
7. Məmmədov İ. (2006). Azərbaycan dilinin semantikası. Bakı, Xəzər, 372 s.
8. Ахманова О.С. (1966). Словарь лингвистических терминов. Москва, Изд. Советская энциклопедия, 607 с.
9. Древнетюркский словарь. (1969). Ленинград: Наука, 676 с.
10. Кацнельсон С.Д. (2004). Содержание слова, значение и обозначение. М.: Едиториал УРСС, 112 с.
11. Кошгарий М. (1960). Девону луготит турк. Т. 1, Тошкент: 500 с.
12. Хрестоматия по истории русского языкознания. (1973). // Шерцль В.И. О словах с противоположными значениями (или о так называемой энантиосемии) (1884). - М.: Высшая школа. с.259-264.

PSYCHOLOGICAL ACCOMPANYMENT OF EMOTIONAL-VOLUME DISORDERS IN CHILDREN AND ADOLESCENTS DEPRIVED OF PARENTAL CARE

VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLAN UŞAQ VƏ YENİYETMƏLƏRDƏ EMOSİONAL-İRADİ POZUNTULARIN PSİXOLOJİ MÜŞAYİƏTİ

Səriyyə İsazadə Əkbər qızı
BAKI DÖVLƏT UNİVERSİTETİNİN SABİQ DOKTORANTI
https://orcid.org 0009-0007-1144-233X

Xülasə
Emosional-iradi sferanın inkişafının xüsusiyyətlərinin öyrənilməsi problemi internat məktəblərində tərbiyə olunan yeniyetmələr üçün xüsusi aktuallıq kəsb edir. Bu yaş dövründə yeniyetmənin emosional-iradi sferasının mənfi inkişafının korreksiyası əgər ona müvafiq psixoloji dəstək verilərsə mümkündür. İnternat məktəblərində tərbiyə olunan valideyn himayəsindən məhrum olan yeniyetmələrin emosional-iradi sferasının vaxtında müsbət inkişafı şəxsiyyətin inkişafının sonrakı yaş mərhələlərində təkcə emosional-iradi sferanın deyil, həm də uşaqların tədricən müsbət inkişafının təzahürləri ilə müşayiət olunacağına zəruri təminatdır. Tədqiq olunan problemin aktuallığı internat məktəblərində tərbiyə olunan yeniyetmələrin emosional-iradi sferasının öyrənilməsinin vacibliyi və ona vaxtında psixoloji dəstək verilməsi ilə müəyyən edilir. Bu qrupun yeniyetmələri bir sıra xüsusiyyətlərə görə fərqlənirlər, çünki belə uşaqlar sosial və emosional məhrumiyyət vəziyyətindədirlər. Çətin, stresli həyat şəraitində olan uşaqlar sistematik olaraq psixoloji yardıma ehtiyac duyurlar. Tədqiqatımızın məqsədi internat məktəblərində tərbiyə alan yeniyetmə şəxsiyyətinin emosional-iradi sferasının inkişafına mənfi təsir göstərən əsas məhrumiyyət meyarlarını işıqlandırmaqdır. Onlarda ailədə tərbiyə alan yeniyetmələrin fərdi xüsusiyyətlərindən fərqlənən spesifik fərdi psixoloji və xarakter xüsusiyyətləri formalaşır.
V.A. Lazareva yeniyetmə şəxsiyyətinin məhrumiyyət növlərinin təsnifatını hazırladı. Bu təsnifata o, kiçik və böyük yeniyetməlik (10-14 yaş) yaş dövrünü daxil etmişdir:
Birinci tip yüksək sosial hiperaktivliyi olan yeniyetmələrdir. Bu tipə daha çox ailələrdən və ya uşaq müəssisələrinə göndərilmiş yeniyetmələrdə baş verir.
İkinci tip sosial təxribata meylli yeniyetmələrdir. Bu tipə tez-tez islah və internat müəssisələrində olan yeniyetmələr aiddir.
Üçüncü tip depressiyaya uğramış yeniyetmələrdir. Bu tip yeniyetmələr tez-tez əqli geriliyi olanlar kimi təsnif edilir, çünki aktivlik göstərmirlər, passivdirlər, hətta onlar arasında apatik tipə da rast gəlinir. Belə vəziyyətdə yeniyetmənin emosional-iradi sferasının və onun şəxsiyyətinin inkişafı bütün amilləri nəzərə alaraq daha da çətinləşir.
Dördüncü tip yaxşı uyğunlaşmış yeniyetmələrdir. Belə yeniyetmələr çox vaxt yaxşı və ya sevimli uşaqlar kateqoriyasına düşürlər, çox vaxt böyüklərə bağlanır və asanlıqla onların rəğbətini qazanırlar.
Beşinci tip sosial tələbatları, affektiv və əvəzedici məmnuniyyəti olan yeniyetmələrdir.
Beləliklə, psixoloji müşayiət pedaqoji və təhsil aspektini əhatə edir. Psixoloji müşayiətin ilk mərhələsində bu prosesin iştirakçıları emosional-iradi sferanın inkişafının vacibliyini başa düşməlidirlər.
Açar sözlər: emosional-iradi pozuntular, valideyn himayəsindən məhrum olan uşaq və yeniyetmələr,

Abstract
The problem of studying the features of the development of the emotional-volitional sphere is of particular relevance for adolescents educated in boarding schools. At this age, correction of the negative development of the emotional-volitional sphere of a teenager is possible if he is provided with appropriate psychological support. The timely positive development of the emotional-volitional

sphere of adolescents deprived of parental care, educated in boarding schools, is a necessary guarantee that in the later stages of personality development, not only the emotional-volitional sphere, but also the manifestations of the gradual positive development of children, will be accompanied. The relevance of the problem under study is determined by the importance of studying the emotional-volitional sphere of adolescents educated in boarding schools and providing it with timely psychological support.

Adolescents of this group are distinguished by a number of features, since such children are in a state of social and emotional deprivation. Children living in difficult, stressful life conditions need systematic psychological assistance. The purpose of our study is to highlight the main deprivation criteria that negatively affect the development of the emotional-volitional sphere of the personality of adolescents brought up in boarding schools. They form specific individual psychological and character traits that differ from the individual characteristics of adolescents brought up in the family. V.A. Lazareva developed a classification of types of deprivation of the adolescent personality. She included in this classification the age period of younger and older adolescence (10-14 years):

The first type is adolescents with high social hyperactivity. This type occurs more often in adolescents sent from families or to children's institutions.

The second type is adolescents prone to social defiance. This type often includes adolescents in correctional institutions and boarding schools.

The third type is depressed adolescents. This type of adolescents is often classified as mentally retarded, because they do not show activity, are passive, and even an apathetic type is found among them. In such a situation, the development of the emotional-volitional sphere of the teenager and his personality becomes even more difficult, taking into account all factors.

The fourth type is well-adapted adolescents. Such adolescents often fall into the category of good or beloved children, often become attached to adults and easily win their sympathy.

The fifth type is adolescents with social needs, affective and substitute satisfaction.

Thus, psychological support includes a pedagogical and educational aspect. At the first stage of psychological support, the participants in this process must understand the importance of developing the emotional-volitional sphere.

Key words: emotional-volitional disorders, children and adolescents deprived of parental care.

Ədəbiyyat Siyahısı

1. Брагина Е.А., Белозерова Л.А., Николаева И.А. Эмоционально-волевые нарушения у детей и подростков: учебно-методическое пособие. Ульяновск: УлГПУ, 2018. 85 с.
2. Ерохин СВ. Развитие эмоциональной сферы подростка во временном детском объединении: дне... канд.ед. наук: 13.00.06. - Кострома, 2000.
3. Семья Г.В. Основы психологической защищенности детей, оставшихся без попечения родителей: дисс... докт. псих, наук: 19.00.13. -М., 2004.
4. Староверова М. С., Кузнецова О. И. Психолого-педагогическое сопровождение детей с расстройствами эмоционально-волевой сферы: практические материалы для психологов, педагогов и родителей. Москва: Владос, 2013. 144 с.
5. Тарабакина Л.В. Эмоциональное развитие подростков. — М., 2006

TURKISMS IN SLAVIC LANGUAGES

SLAVYAN DİLLƏRİNDƏ TÜRKİZMLƏR

Baş müəllim Məlahət Səmədova
Azərbaycan Dövlət Pedaqoji Universiteti Xarici Dillər Mərkəzi

Abstract
The role of Turkic languages in the enrichment of the lexicon of Slavic languages is great. There are thousands of words of Turkic origin in the Russian language. Root words formed by Turkic words constitute a certain part of the lexical fund of the Russian language. The components of these root word nests obey the grammatical, semantic and functional laws of the Russian language and enrich it. These words were not only developed independently in the Russian language, but also created their own root word nests and phraseological units. The components included in the word roots formed by morphemes of Turkic origin are widespread in the toponyms, hydronyms and anthroponyms of the Russian language. Some archaic semantic shades of words of Turkic origin are still preserved in Russian toponyms. This article discusses onomastic units of Turkic origin widely used in the Russian language and their semantic functional characteristics.
Keywords: root word nests, Turkisms, anthroponyms, toponyms, hydronyms, onomastic units

Xülasə
Slavyan dillərinin leksikasının zənginləşməsində türk dillərinin rolu böyükdür. Rus dilində minlərlə türk mənşəli söz var. Türk sözlərinin yaratdığı kök sözlər rus dilinin leksik fondunun müəyyən hissəsini təşkil edir. Bu kök söz yuvalarının komponentləri rus dilinin qrammatik, semantik və funksional qanunlarına tabe olur və onu zənginləşdirir. Bu sözlər rus dilində nəinki müstəqil işlənib, həm də öz kök söz yuvalarını və frazeoloji vahidlərini yaratmışdır. Türk mənşəli morfemlərin yaratdığı söz köklərinin tərkibinə daxil olan komponentlər rus dilinin toponimlərində, hidronimlərində və antroponimlərində geniş yayılmışdır. Rus toponimlərində türk mənşəli sözlərin bəzi arxaik semantik çalarları indi də qorunub saxlanılır. Bu məqalədə rus dilində geniş istifadə olunan türk mənşəli onomastik vahidlər və onların semantik funksional xüsusiyyətlərindən bəhs edilir.
Açar sözlər: kök söz yuvaları, türkizmlər, antroponimlər, toponimlər, hidronimlər, onomastik vahidlər

Türkdilli xalqlar tarixən yaşadıqları ərazilərdə məskunlaşıblar. Bu ərazilər əsasən Asiya qitəsinin müəyyən hissəsini, Avropanın cənub-şərqini, Şimali Qafqazı, Zaqafqaziyanı, Cənubi Azərbaycanı əhatə edən geniş ərazini əhatə edir.
Rusiyanın mədəni və etnik tərkibində türk xalqları böyük mövqeyə malik idilər. Bu dövlətin uzun illər ideoloji-mədəni həyatı, dili, hətta siyasi mübarizəsi Türkiyə-Rusiya münasibətləri kontekstində dolğun və obyektiv başa düşülə bilər. Rusiyanın Yaxın Şərq və türk dünyası ilə əlaqələrinin qurulması slavyan və türk dili əlaqələrinin inkişafına təkan verdi. Türk və slavyan xalqlarının qonşu ərazilərdə məskunlaşması və ticarət əlaqələri bu xalqlar arasında əlaqələri inkişaf etdirdi.
Rus və türklər arasında əlaqələr qədim zamanlardan məlumdur. Rus-türk dil əlaqələrinin tarixində bir neçə dövrü qeyd etmək lazımdır. Ən qədim dövr bizim eramızın ilk illərinə, Kiyev-Rusiya dövlətinin yaranmasına qədər olan dövrə təsadüf edir.
Eramızın 6-7-ci əsrlərində slavyanlar türk avarları, Volqa bulqarları, xəzərlər və başqa türk xalqları ilə ticarət əlaqələri qurmuşlar. Hələ qədim zamanlardan türk və slavyan xalqlarının qonşu ərazilərdə məskunlaşması, ticarət əlaqələri bu xalqların nümayəndələrini bir-birinin dilini öyrənməyə məcbur edirdi.

Bu çox geniş əlaqələrin istiqamətləri də genişliyi və müxtəlifliyi ilə maraqlıdır. Rus mədəniyyəti türklərdən bəhrələnir, paltar, silah, mahnı və nağıllar, hərbi quruluş və düşüncə tərzi borc alırdı.
Türk mənşəli sözlər müasir və qədim rus dilinin lüğətinə daxil edilmişdir, "İqor polku haqqında dastan", "Zadonşçina", "Domostroy" və s. ədəbi abidələrdə və salnamələrdə qorunub saxlanılmışdır. Məşhur rus dilçisi N.K.Dmitriyev türk dilindən slavyan dilinə daxil olan bütün sözləri mənşəyindən asılı olmayaraq türkizmlər hesab edirdi.
V.Arakinin fikrincə, əvvəlki tarixlərindən asılı olmayaraq, türk dilləri vasitəsilə slavyan dillərinə keçən sözlər türkizmlər hesab edilir. Belə ki, monqol, iran, ərəb və başqa dillərdən keçmiş din, hüquq və məişətlə bağlı sözlər də tədqiqatçılar tərəfindən türkizmlər hesab edilmişdir. Rus-türk münasibətlərində əlaqələrin sıxlığı və qədimliyi səbəbindən türk təsiri altında olan ruslar təkcə türklərin adət və ənənələrini deyil, türk-tatar həyat tərzinin müxtəlif cəhətlərini də mənimsəmişlər. Hətta bu xalqa mənəvi baxımdan yaxın olub, onların dili ilə tanış olub, mənimsəmişlər. Türk dillərindən rus dilinə o qədər söz və ifadələr keçib ki, bu leksik vahidlər rus dilinin sözlərinə o qədər yaxınlaşıb ki, hazırda onların böyük bir hissəsini rus dilində xüsusi söz və ifadələrlə əvəz etmək çətindir.
Slavyan və türk dilləri arasındakı geniş əlaqə bu xalqların qarşılıqlı münasibətləri tarixində o qədər davamlı və ardıcıl olmuşdur ki, nəticədə rus dilinin leksikonunda, frazeologiyasında, fonetikasında və qrammatikasında, onomastikasında dərin izlər qoymuşdur.

Topomimlər.
Böyük rus alimi A.K. Matveyev "Uralın coğrafi adları. Qısa toponimik lüğət" ində "aktay" sözünü "ak" və "tay" komponentlərinə ayırır. O, "ak" sözünü rəng mənasında, "tay" leksemini isə "dağ" və "at balası" mənasında izah edir. Fikrimizcə, bu yanlış fikirdir. "Ak tay" "ağ sulu, şəffaf, şəffaf, sulu çay kimi ağ çay" kimi tərcümə edilməlidir. Yekaterinburq vilayətində Yalva çayının sol qollarından birinin adı Ağyardır. Bu ad "ağ" – hündür, yuxarı və "yar" – uçurum, dərə sözlərindən əmələ gəlib. "Ağ yar" ifadəsindəki "ağ" sözü "yüksək", "yuxarı" mənasındadır.
Qərbi Sibir toponimlərində Akkaya, akkoba, Ak xorum (dağ,) ifadələrinə tez-tez rast gəlinir. Sibir türklərinin: xakas, tuva dillərində "korum", "xorem", "xorum" formalarında rast gəlinən bu söz dağ yamaclarında əmələ gələn daşlı, qayalı əraziləri ifadə edir. "Ak korum" yüksək yamac deməkdir; "ak kaya" hündür qaya deməkdir; "ək kobu" hündür düzənlik deməkdir. N.Kononov "Türk coğrafi terminologiyasında "kare" və "ak" sözlərinin semantikasına dair" məqaləsində "kara" sifətinin türk dillərində çoxlu məna daşıdığını qeyd edir.
"Qara" (qara) sözünün arxaik məna çalarları dilin leksik tərkibinin digər qatlarından fərqli olaraq toponimik qatda daha çox qorunub saxlanılmışdır. Kartalı – Karatalı, Çelyabinsk vilayəti, Rusiya Federasiyası – Ayət çayı üzərində yerləşən şəhər. "Qara" sözü rəng mənasında işlənir. Karatay, Karataş – Başqırdıstanda adlanan dağ. Bu omonimlərdə "böyük", "nəhəng" mənalarında işlənir. Rusiya Federasiyasının Krasnoyarsk şəhərinin adı Kızıl Yar sözlərindən götürülüb. Rusiya Federasiyasının İrtış vilayətində Qızıltaş yolu var.
Rostov yaxınlığındakı "Kizlər" dəmir yolu stansiyası "qırmızı yer" mənasını verən Qızıl + er formantlarından ibarətdir. Bu yaşayış məntəqəsinin torpağı qırmızı qayalardan ibarət olduğu üçün belə adlandırılıb.

Hidronimlər
Qaraçaykul – Rusiya Federasiyasının Çelyabinsk vilayətindəki gölün adı. Başqırd və tatar dillərində qaraçay şam ağacı deməkdir. Buradan belə nəticəyə gəlmək olar ki, bu hidronim "şam gölü" deməkdir. "Aksu" termini türkdilli xalqların məskunlaşdığı ərazilərin hidronimlərində də geniş işlənir. M.F.Rozen "Qərbi Sibirin coğrafi terminlər lüğəti" ində "ağ" sözünü üç mənada işlədir. Birinci mənada buzlaqlardan yaranan ağ, şəffaf suları nəzərdə tutur; ikinci mənada daimi axını olan sulara aiddir; üçüncü mənada isə çox axan və yayda qurumayan çaylara aiddir.

Karatibs - Rusiya Federasiyasının Çelyabinsk vilayətində göldür. Qədim türk abidələrində "təbir", "teriz" duzlu ərazi deməkdir. Bu gölün suyu həqiqətən çox duzludur. Karabaş – Rusiya Federasiyasının Çelyabinsk vilayətinin şimalında şəhərin adıdır. Karabaşka – Çelyabinsk vilayətindəki çayın adı. Karabaş — Tatarıstanın Boqulma rayonunda qəsəbədir. Karamaskalı – Başqırdıstanda kənd adı. Karabaşka – Çelyabinsk vilayətindəki çayın adıdır.

Antroponimlər

Türk mənşəli kökləri olan rus soyadları xüsusi əhəmiyyət kəsb edir. Bu soyadların semantik quruluşuna daxil olan türk ünsürləri rus-türk dil əlaqələrinin qədim zamanlardan başladığını sübut edir. Türk mənşəli kök sözlərin yuvalarına daxil olan komponentlər rus soyadlarının tərkibində çox geniş işlənir.

Karamazov soyadı "kara" – "kara" və мазать (yaxmaq) sözlərindən, yəni türk və rus leksemlərinin birləşməsindən əmələ gəlib. Karaulov soyadı rus dilində türk dillərindən daxil olan "кpaул" - "гapовул" formalarına "ов" şəkilçisi əlavə edilərək yaranmışdır. Rus antroponimlərindən sayılan digər nəcib soyad Karaçarovdur. Bu soyad "kara dzar" – "kara yar" – "kara yer" toponimləri əsasında formalaşmışdır. Rus dilində struktur tərkibində "kara" – "kara" sözü olan soyadlar arasında Karamazov və Karaulov onomastik vahidlərini göstərmək olar.

Rus soyadı Karaçinski də türk mənşəlidir. Bu zadəgan ailənin üzvləri Rusiya imperiyasına və çar taxtına sədaqətlə xidmət edirdilər. N.A.Baskakov qeyd edir ki, Karaçinski soyadı Krım tatarca qaraçı sözündəndir. Bu titulu bir vaxtlar Krım xanı krallığa xidmət edən zadəganlara verib. Müasir türk dillərində və qədim türk dillərində "Qaraca" sözünün zəngin kök söz yuvası vardır. Bu yuvalarda "qaraca" sözü əsasən "karayanız" mənasında işlənir.

Məşhur rus yazıçısı və tarixçisi Nikolay Karamzinin soyadı da türk mənşəlidir. Bu soyad Qara Mirzə - Qara Mirzə komponentlərindən ibarət olub, rus dilinə Krım tatar dilindən keçib. Qara-türk mənşəli Mirzə ərəb mənşəli əmir (şahzadə) və fars mənşəli zade (oğul) sözlərinin birləşməsidir. Bu soyada daxil olan "kara" – "qara" sözü türk dillərində ən çox işlənən leksik vahidlərdən biridir.

Rus knyazlıq soyadı "Kurakin" (Kurakin) mənşəyini "Kuraka" sözündən götürür. Burada sözün əsasını türk kökü quraq (quru) və rusca -a şəkilçisi təşkil edir. Bu sözün etimologiyasına "kurğaq" sözü daxildir. Bu leksemin qədim türk dilində çox zəngin kök paradiqması var idi.

Gördüyünüz kimi, uzunmüddətli iqtisadi, siyasi, ərazi əlaqələri nəticəsində rus və türk xalqlarının ortaq leksikonu formalaşmışdır. Rus-türk münasibətləri və əlaqələri etnoqrafiya və mədəniyyətdə, memarlıq və ornamentlərdə, məişət əşyaları və adət-ənənələrində, məişətin bir çox təfərrüatlarında, o cümlədən rus dilinin lüğətində, rus salnamələrində və "İqor polku haqqında dastan"da, heyvandarlıq və ovçuluqla bağlı terminlərdə, soyad və ləqəblərdə, türk adları və ləqəblərində, nəhəng sayda türk adlarında, toponim və soyadlarında öz əksini tapmışdır. Türk dünyası tarixinin bir köklə bağlı olan etnoqrafiyası və onomastikasının tədqiqi ən aktual problemlərdən biridir. Bu məqaləmizdə rus dilində geniş yayılmış türk mənşəli onomastik vahidlərin semantik funksional xüsusiyyətlərindən az da olsa bəhs etdik.

Ədəbiyyat siyahısı

1. Əliyeva, Z.M. Türk dillərində sifətlər / Bakı, – 2010. – 451 s.
2. Antonov. N.K. Yakut dilinin tarixi lüğətinə dair materiallar / - Yakutsk: Yakutsknigoizdat - 1971. - 254 s.
3. Arakin, V.D. Monqol dövrü rus dili abidələrində türk lüğəti / Moskva: Nauka - 1974. - 347 c.
4. Baskakov, N.A.Rus ailələri / Moskva: Nauka, - 1979. - 280 c.
5. Dobrodomov, İ.G. Qədim rus dilində türk mənşəli lüğət tarixi / Moskva: AKD, - 1969. - 411 s
6. Dmitriev, N.K. Rus lüğətinin türk elementləri haqqında / Moskva: Hayка, - 1982. - s. 82-84.

7. Kononov, A. N. Türk runik abidələri dilinin qrammatikası. VII - IX əsrlər. /
Moskva: Nauka, - 1965. - 246 s.
8. Malov, S.V. Yeniseyskaya pismennost Turkov / Moskva: Наука, - 1962. - 148 с.
9. Matveyev A.K. “Uralın coğrafi adları. Qısa toponimik lüğət”. Moskva - 2000
10. Русско-татарский словарь / Moskva: Изд. Sovet ensiklopediyası, – 1972. – 1028 s.

SEMANTİC SHİFTS BETWEEN CONSCİOUSNESS AND LANGUAGE

ŞÜUR VƏ DİL ARASINDA SEMANTİK KEÇİDLƏR

Cumayeva Leyla
Filologiya üzrə fəlsəfə doktoru Azərbaycan Memarlıq və İnşaat Universiteti
DOI: 10.24412/9215-0365-2021-66-4-53-56

Xülasə
Ünsiyyət prosesində iştirak edərkən biz yalnız deyilənləri başa düşmür, eyni zamanda mətn-diskurs yaradırıq; bu prosesin əsas məqsədi dildə ifadə olunmuş ideyaların qavranılmasıdır. Dilin kodlaşdırılması zamanı istifadə olunan biliklər yalnız dil biliklərimizlə məhdudlaşmır. Dünyaya dair biliklərimiz, mətnin sosial konteksti, yaddaşda olanları ifadə etmə bacarığı, mətnin planlaşdırılması və idarə olunması kimi digər amillər də müəyyən rol oynayır. Bu baxımdan, ingilisdilli mətnlərdə konseptual inteqrasiya və alt məna məsələsinin öyrənilməsi maraq doğurur.
Açar sözlər: konseptual inteqrasiya, məna, nitq, dil, söz, mətn, ünsiyyət

Abstract
When participating in the process of communication, we not only understand what is being said but also create text-discourse; the main goal of this process is to comprehend the ideas expressed through language. The knowledge used during the encoding of language is not limited to our linguistic competence alone. Our knowledge of the world, the social context of the text, the ability to express what is stored in memory, as well as the planning and management of the text, all play a certain role. In this regard, the study of conceptual integration and subtext meaning in English-language texts is of particular interest.
Keywords: conceptual integration, meaning, speech, language, word, text, communication

Qeyd olunmalıdır ki, müasir dinamik nitq modeli yalnız səslənmə formasını deyil, eyni zamanda dilin məna tərəfini də nəzərə almağa imkan verən bir sıra hissələrdən ibarətdir və bu da nitq semantikasına artan marağı izah edir. Bu iki tərəfin dialektik vəhdəti ideyanın ifadə formalarının və danışanın modal münasibətlərinin geniş dəyişkənliyinə səbəb olur. Diskursun tanınması onun semantikasına, o cümlədən modal-emosionallıq mənalarına əsaslanır. Diskurs semantikasının və münasibət mənalarının qavranılması qarşılıqlı və qarşılıqlı asılı işarələrdən ibarət seqment və supraseqment vahidlərin tanınması ilə bağlıdır.

K. Abdullayev qeyd edir ki, "mətn" anlayışı ikili məna daşıyır və bu mənaların bir-birindən fərqləndirilməsi vacibdir. Alimin fikrincə, "tekstema" — "fonema", "morfema", "leksema", "frazeoloji vahid" kimi dil səviyyəsinə aiddir, nitq səviyyəsinə yox. Tekstema dil quruluşundakı “açıq” struktur qanunauyğunluqların təhlilini təmin edən vahiddir [1, s. 181].

Dil daxilində birləşdirilən sözlərin alt məna təqdimatında rolu böyükdür. Bu o deməkdir ki, iki söz birləşdirildikdə onların mənaları da birləşir və əvvəlki mənalarına əsaslanaraq yeni, ümumiləşdirilmiş bir konsept yaranır. Bu cür birləşmələrdə yalnız formaya diqqət yetirib məna və məzmunu unutmaq, şübhəsiz, dil təfəkkürü ilə birbaşa bağlıdır.

İnsanın idrak fəaliyyətinin uğuru dil vasitəsilə, söz və söz birləşmələri ilə cümlə formasında müəyyən olunur. Dil öz inkişafında məhdud çərçivədə deyil, sadədən mürəkkəbə doğru hərəkət edir. Bu inkişaf nəticəsində dildə mürəkkəb sözlərin və söz birləşmələrinin sayı artmışdır.

Konseptual inteqrasiya və alt məna baxımından aşağıdakı parçanı nəzərdən keçirək:
"O, otaqda ölümcül statistika saatı ilə nəyisə sübut edərək – çox güman ki, əsasən, Yaxşı Samariyalının Pis İqtisadçı olduğunu – yazırdı. Yağışın səsi onu çox narahat etmirdi; amma bəzən başını qaldıraraq sanki təbiətə etiraz edirdi. Şimşək çaxanda isə Kouktauna tərəf baxırdı, ağlında hündür bacaların ildırıma tuş gəlməsi ehtimalı var idi." (*He sat writing in the room with the deadly statistical clock, proving something,no doubt – probably, in the main, that the Good Samaritan was a Bad Economist. The noise of the rain didnt disturb him much; but it attracted his attention sufficiently to make him raise his head sometimes, as if he were rather remonstrating with elements. When it thundered very loudly, he glanced towards Coketown, having it in his mind that some of the tall chimneys might be struck by lightining)* [4, s. 230]
Burada alt məna müəllif tərəfindən məharətlə verilib. Yağışın yağması ilə müəyyən düşüncələrin oyandığı və psixi sahəyə ötürüldüyü aydın olur. Bu parçada müəllifin ideyası sözlərin alt qatında gizlənib. Mətnin registr baxımından homogendir və struktur-semantik fraqmentlərə bölünərək genişlənə bilir.
Konseptual inteqrasiya, şəxsin deiktik sözlər vasitəsilə uğurla təqdim edilməsi ilə müşahidə olunur. Müəllif qəhrəmanın yaşadığı sosial vəziyyətdən narazılığını ifadə edir və hadisələrin dinamikliyinin bədbin xarakter daşıdığını vurğulayır. Fiziki məkan parametrləri burada əsas olmasa da, onların açıq şəkildə konseptuallaşdırılmasında aparıcı xətt kimi çıxış edir.
Bütün məna yaratma prosesində morfemlər, leksemlər, söz birləşməsi modelləri və cümlələr – müxtəlif paradigmaların tərkib hissəsi olaraq iştirak edir.
Fauconnier və Turner tərəfindən irəli sürülən "Konseptual Birləşmə Nəzəriyyəsi" də müxtəlif tədqiqat obyektlərinə çevrilmişdir [3, s. 123].
Aşağıdakı parçaya nəzər salaq:
"Bennet bacıları, miraslarını itirəcəklərdi və onun fikrincə bu borcu ödəmək üçün onlardan biri ilə evlənmək lazım idi. O, bu planı israfçılıq kimi görsə də, özünü olduqca səxavətli və fədakar hesab edirdi." (*The Bennet girls, who would lose their inheritance because of him, had a reputation for being attractive and charming , and his idea of making amends to them was to marry one of them. He considered this an extravagance plan, and thougt himself extremely generous and unselfish in carrying it out")* [[6, s. 24]
Bu cümlələrdə fikir cümlədən cümləyə təbii şəkildə keçir. İki giriş sahəsinin paralel istifadəsi düşüncənin zəncirvari inkişafına xidmət edir. Fikrin hərəkəti yalnız həmin sahələr arasında əlaqə zəiflədikdə dayanır.
Digər bir parçaya baxaq:
"Otaqda yalnız bir nəfər var idi və o da oyaq idi. Mən onun oyaq olmasını uzun müddət dinlədim. …Biz samanın üstündə yatırdıq…
Gecə səsləri yeddi kilometr arxada idi, lakin otaqdakı xırda səslərdən fərqli idi." (*There was only one other person in the room and he was awake too. I listened to him being awake, for a long time. He couldn't lie as quietly as I could because, perhaps, he hadn't had as much practice being awake. We were lying on blankets spread over straw and when he moved the straw was noisy, but the silk worms were not frightened by any noise we made ate on steadily.*
There were the noises of night seven kilometers behind the lines outside but they were different from the small noises inside the room in the dark. The other man in the room tried lying quietly. Then he moved again. I moved too, so he would know I was awake) [5, s. 95]
Burada hadisələrin dinamik inkişafını görürük. Qarşılıqlı sahə iki fərdin eyni şəraitdə yerləşməsidir, lakin zamana dair toqquşmalar müşahidə olunur. Cərəyan edən hadisələr ardıcıl şəkildə inteqrasiya olunaraq "mental sahəyə" informasiya ötürür.
Şəxsi əvəzliklərin (I, he, we, they, him) zaman və məkan zərfləri (then, there, for a long time) ilə harmoniyası diqqətçəkicidir. Modal fellər də şəxs anlayışının konseptuallaşdırılmasında aktiv rol oynayır.

Bəxtiyar Vahabzadənin poeziyasında da əvəzliklərin və əvəzedici sözlərin mətn daxilindəki semantik rolu diqqətəlayiqdir. Onun şeirlərində "mən", "sən", "biz", "o", "bu", "o zaman", "burada" kimi əvəzliklər təkcə qrammatik funksiyalı sözlər deyil, həm də poetik alt məna daşıyıcıları kimi çıxış edir. Bu əvəzliklər vasitəsilə şair oxucu ilə psixoloji yaxınlıq qurur, fərdi duyğuları ümumiləşdirilmiş ictimai emosiyaya çevirir. Məsələn, "Ana dilim" şeirində "sən" və "mən" əvəzliklərinin qarşılıqlı münasibəti vasitəsilə dil və şəxsiyyət arasında metaforik bağ qurulur. Bu isə göstərir ki, əvəzliklər sadəcə məna daşıyıcıları deyil, həm də **konseptual inteqrasiyanın əsas vasitələrindən biri** kimi çıxış edir. Belə hallarda əvəzliklər kontekstdə şəxs-zaman-məkan əlaqələrini qurmaqla, mətnin semantik dərinliyinə xidmət edir və şairin ideyasının alt qatlarda təqdim olunmasına şərait yaradır. Bu cür yanaşmalar müasir ingilis dilində əvəzliklərin funksional-semantik aspektlərini araşdıran tezislərlə paralellik təşkil edir və fərqli dillərdəki konseptual yanaşmaların müqayisəli tədqiqi üçün zəngin zəmin yaradır.

Azad Məmmədov və Misgər Məmmədov qeyd edirlər:

"Beləliklə, cəmiyyətin üzvləri öz istəklərini (sosial kontekst və konkret situasiya ilə əlaqəli kommunikativ kontekst) dil vasitəsilə paylaşır və nəticədə diskurs adlanan mürəkkəb psixoloji, sosioloji, dilçilik, semiotik və mədəni fenomen yaranır." [2, s. 64]

Dildə üslub və arqument bir-birindən ayrılmazdır. Qədim ritorlar nitq və fikir fiqurlarını bərabər tuturdular. Onların fikrincə, üslub mühüm arqumentativ məqamları gücləndirmək və bəzəmək üçün texniki vasitə idi.

Metaforalar xüsusilə emosional təsir baxımından önəmli sayılırdı. Onlar həm emosional ton verir, həm də düşüncə bütövlüyünü pozmadan məna ötürürlər.

Dil – çoxşaxəli bir sistemdir və sözlər öz çoxcəhətliliyi ilə fərqlənir. Nəticədə dilin ən yüksək işarəsi kollektin təfəkkürünün və etnosun təcrübəsinin məhsulu kimi təhlil olunmalıdır.

Metnin formalaşmasında intonasiya ilə yanaşı müxtəlif formal əlaqə vasitələri də iştirak edir. Bunlara fonetik (alliterasiya, assonans), morfoloji (zaman, cins təkrarı), leksik (tam və qismən təkrar), sintaktik və deiktik elementlər daxildir.

Nümunə mikrotekst:

"Onun gözləri Fuentesə baxırdı, indi isə Fuentes yerində dayanmışdı. Fuentes iki banderillanı titrətdi və işıq öküzün gözündə əks olundu. Onun quyruğu qalxdı və o, hücuma keçdi." (*His eyes watched Fuentes, now standing still. Now he leaned back, calling to him. Fuentes twitched the two banderrilos and the light on the still points caught the bulls eye. His tail went up and he charged)* [5, s. 211]

Burada metaforalarla yanaşı leksik təkrarlar da diqqəti cəlb edir (his, him, now, still, eye, eyes). Zamanla bağlı toqquşmalar qeyd olunmağa dəyər. Bu təkrarlar həmçinin şəxs anlayışının konseptuallaşmasına xidmət edir.

Son nümunədə isə (he had been asleep…, his personal boy…) şəxs, zaman və məkan anlayışlarının mətn daxilində necə inteqrasiya olunduğu göstərilir. Qrammatik və leksik vasitələrin sintezi mətnin əsas yaradıcı amilinə çevrilmişdir.

Nəticə

Kognitiv model dilin ali işarəsinin kollektin təfəkkürünün və mədəniyyətinin məhsulu kimi təhlil olunmasını tələb edir. Metnin diskursiv quruluşunda formal əlaqə vasitələri – təkrarlar, bağlayıcılar, deiktik elementlər və digər dil vasitələri vacib rol oynayır.

Ədəbiyyat

1. Abdullayev K.Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 1999, 281 s.
2. Məmmədov A., Məmmədov M. Diskurs Tədqiqi. Bakı: 2016, 111s.
3. Fauconnier G., Turner M. The way we think. Conceptual blending and the mind hidden complexities. NY. Basic Books, 2002, 347p.
4. Dickens Charles. Hard Times. Moscow: 1952, 334p.
5. Hemingway Ernest. Selected stories. Moscow: Progress publishers, 1971, 397p.
6. Jane Austen. Pride and Prejudice. Oxford University Press: 1995, 108 p.

THE EFFECTİVENESS OF USİNG TESTS İN TEACHİNG GEOGRAPHY AT HİGHER EDUCATİON INSTİTUTİONS

ALİ MƏKTƏBDƏ COĞRAFİYANIN TƏDRİSİ ZAMANI TESTLƏRDƏN İSTİFADƏNİN EFFEKTİVLİYİ

Müəllim Seyidnisə Əliyeva Xoşbəxt qızı
ADPU Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi texnologiyası

Xülasə
Müasir təhsil sistemində qiymətləndirmə üsulları təlim prosesinin keyfiyyətinə və tələbələrin nəticələrinə birbaşa təsir göstərir. Xüsusilə ali məktəblərdə coğrafiya fənninin tədrisində test üsulundan istifadə həm tədrisin səmərəliliyini artırır, həm də tələbələrin bilik və bacarıqlarının obyektiv qiymətləndirilməsinə imkan yaradır. Testlər – onların müxtəlif növləri (qapalı, açıq, uyğunlaşdırma, sıralama və xəritə əsaslı testlər) – tələbələrin məkan təfəkkürünün, analitik düşüncə və səbəb-nəticə əlaqələrini qurma bacarığının inkişafında mühüm rol oynayır.
Test üsulunun əsas üstünlükləri sırasında obyektivlik, operativlik, statistik təhlil imkanı və fərdi yanaşma xüsusilə qeyd olunmalıdır. Ali məktəb səviyyəsində testlər diaqnostik, formativ və summativ qiymətləndirmə funksiyalarını yerinə yetirərək, həm tədris prosesinin idarə olunmasında, həm də tələbələrin motivasiyasının artırılmasında mühüm vasitəyə çevrilir.
Təcrübələr göstərir ki, müntəzəm və məqsədyönlü testlərin tətbiqi tələbələrdə tədris materialına marağı artırır, yaddaşda saxlama qabiliyyətini gücləndirir və müstəqil öyrənmə vərdişlərini formalaşdırır. Məqalədə həmçinin təklif olunur ki, coğrafiya müəllimləri üçün test tərtibatı üzrə təlimlər keçirilsin, elektron test bazaları yaradılıb inkişaf etdirilsin və interaktiv vizual testlər daha geniş tətbiq olunsun. Beləliklə, testlər ali təhsildə coğrafiya fənninin müasir və effektiv təlim komponentlərindən birinə çevrilə bilər.
Açar sözlər: Coğrafiya tədrisi, ali məktəb, test üsulu, qiymətləndirmə, bilik və bacarıqlar, diaqnostik test, formativ qiymətləndirmə, summativ testlər, xəritə əsaslı testlər, pedaqoji effektivlik.

Abstract
In modern education systems, assessment methods play a crucial role in determining the quality of instruction and student outcomes. In particular, the use of test-based assessment in teaching geography at higher education institutions significantly enhances the effectiveness of instruction and ensures an objective evaluation of students' knowledge and skills. Different types of tests—closed-ended, open-ended, matching, ordering, and map-based—are especially effective in developing students' spatial thinking, analytical reasoning, and ability to establish cause-effect relationships.
The primary advantages of test methods include objectivity, speed, potential for statistical analysis, and the ability to support individualized learning approaches. At the university level, tests fulfill diagnostic, formative, and summative assessment functions, making them a key tool for both managing the teaching process and boosting student motivation.
Experience shows that the regular and purposeful use of tests increases student engagement, improves information retention, and fosters independent learning skills. This thesis also suggests organizing training programs for geography instructors on test development, creating and updating electronic test databases, and widely applying visual and interactive test tools. As a result, test-based assessment can become one of the most effective and modern components in the teaching of geography in higher education.
Keywords : Geography education, higher education, test method, assessment, knowledge and skills, diagnostic testing, formative assessment, summative tests, map-based tests, pedagogical effectiveness.

BORCHALI, QAZAKH AND SHEMSHADDIL REGIONS AND POLITICAL EVENTS THAT OCCURRED IN THESE REGIONS AT THE BEGINNING OF THE 18TH CENTURY

BORÇALI, QAZAX VƏ ŞƏMŞƏDDİL BÖLGƏLƏRİ VƏ XVIII ƏSRİN ƏVVƏLƏRİNDƏ BU BÖLGƏDƏ BAŞ VERƏN SİYASİ HADİSƏLƏR

Mürvət Cavid oğlu Əliyev
ADPU-nun Quba filialı Humanitar elmlər fakültəsinin dekan müavini

Abstract
The article discusses the processes taking place in the political life of the Borchaly, Gazakh and Shamshadil regions in the 18th century. During the period in question, these regions became the scene of bloody clashes between the khanates, and frequent changes took place in the form of administrative-administrative governance. Although the concession of our regions on the basis of personal claims caused the local population living there to face migration processes, this process was prevented to one extent or another by force by the regional leaders. The article also reflects the tense struggle between the Sheki Khan Haji Chelebi and Irakli II, who pursued a policy of unification between the khanates with the aim of creating a unified Azerbaijan during this period. The historical past of the Borchaly-Gazakh and Shamshadil regions, as well as information about their ancient inhabitants, are also provided with historical evidence.
Keywords: Ganja Khanate, Kartli-Kakheti Tsardom, region, district, khan
Xülasə
Məqalədə XVIII əsrdə Borçalı, Qazax və Şəmşəddil bölgələrinin siyasi həyatında baş verən proseslərdən bəhs olunur. Bəhs olunan dövrdə bu bölgələr xanlıqlar arasında gedən mübarizənin qanlı çarpışmalar meydananına çevrilmiş, inzibati-idarəçilik formasında tez-tez dəyişikliklər baş vermişdir. Bölgələrimizin şəxzi iddialar əsasında güzəştə gedilməsi orada yaşayan yerli əhalinin miqrasiya prosesləri ilə üzləşməsinə səbəb olsa da, bu və ya digər dərəcədə bu prosesin qarşısı bölgə başçıları tərəfindən zor gücünə alınmışdır. Məqalədə həm də bu dövrdə bütöv Azərbaycan yaratmaq iddiası ilə xanlıqlar arasında birləşdirmə siyasəti aparan Şəki xanı Hacı Çələbi və II İrakli arasında gedən gərgin mübarizə də öz əksini tapmışdır. Borçalı-Qazax və Şəmşəddil bölgələrinin tarixi keçmişi, buranın qədim sakinləri haqqında tarixi dəlillərlə də məlumatlar verilmişdir.
Açar sözlər: Gəncə xanlığı, Kartli-Kaxetiya çarlığı, bölgə, mahal, xan

Giriş

XVIII əsrdə Borçalı, Qazax və Şəmşəddil bölgələrinin siyasi vəziyyətində və idarəçilik formasında həmin bölgələrin bu və ya digər başçıların hakimiyyəti altında olmalarından asılı olaraq tez-tez dəyişikliklər baş vermişdir. Bu bölgələr inzibati baxımdan əvvləcə bəylərbəylik, daha sonra isə sultanlıq idarəçiliyi formasında mövcud olmuşdur. Gürcü çarları ilə xanlıqlar arasında, həmiçinin xanlıqların öz aralarında mövcud olan ərazi uğrunda mübarizənin gedişatı səbəbindən bölgələrin siyasi həyatı olduqca ağır proseslərə məruz qalmışdır.

1735-cı il mayın 24-dən 1736-cı il mayın 11-nə qədər davam etmiş Muğan qurultayında Nadir xanın şahlığı qəbul etmə mərasimində (1736-cı ildə Muğanda şah elan edilmiş Təhmasibqulu xan nəzərdə tutulur. Təhmasibqulu xan şahlığı qəbul etdikdən sonra Nadir şah adı ilə adlandırılmışdır) Gəncə xanları yalnız səfəvi sülalələrindən olan nümayəndələrin şahlıq taxtına oturması uğrunda mübarizə aparırdılar. Gəncə xanları əslən Qacar nəslindən olub, Ziyadoğlu tayfasından idilər. Onlar bəylərbəyi səlahiyyətindən başqa digər səlahiyyətlərə də malik olmuş və bəzi vaxtlarda Tiflisin bütün əhalisi onların hökmünə tabe olmuşdur. Həmin qurultayda iştirak edən gürcü və erməni feodalları isə əksinə,

Nadir şahın namizədliyini dəstəkləmişdilər. Nadir şah Ziyadoğluların əzəli şöhrətini nəzərə alıb, onlara ağır cəza verilməsini rəva görməmiş, Qazax və Borçalı ellərini Gəncə bölgəsindən ayırıb, öz xanları ilə bərabər Gürcüstan əmirlərinə tabe etdirmişdi.
Bundan bir qədər sonra – 1743-cü ildə Kaxetiya hakimi Teymuraz Şirvanda yalançı Sam-Mirzənin başçılığı ilə Nadir şaha qarşı yönəlmiş üsyanı yatırdığına görə Nadir şah onu Kaxetiya çarı təyin etmiş, üstəlik Borçalı və Qazax mahallarını onun tabeçiliyinə vermişdir. Ziyadoğlu II Uğurlu xan Şəmşəddil, Qazax və Borçalı bölgələrindən vergi yığmaq hüququndan məhrum edilmiş və bu imtiyaz Teymuraza həvalə edilmişdir. 1744-cü ildə isə Nadir şah Borçalı torpaqlarını birdəfləik olaraq Azərbaycandan ayırıb, Kartli çarlığının tərkibində Teymuraza vermiş, onun oğlu İraklini isə Kaxetiya çarı təyin etmişdir. Elə həmin il Ahıska paşası Usub tərəfindən Borçalı ərazisinə müdaxilə edilsə də, II İrakli öz maraqlarına uyğun olaraq bu hücumu dəf edə bilmişdir.

Qazax bölgəsi

İ.P.Petruşevskinin qeyd etdiyi kimi, hələ XVI əsr mənbələrində adı çəkilən və qızılbaş tayfalarına mənsub olan qazax, başqa cür desək, qazaxlı və ya qazaxlar tayfasının yaşadığı ərazi Azərbaycanın şimal-qərb hissəsini, Ağstafa çayının ətrafını əhatə edirdi. Həmin vaxt Qazax bölgəsi Gəncə-Qarabağ bəylərbəyliyinin tərkibinə daxil idi. XVI əsrin 80-ci illərində osmanlı qoşunlarının gözlənilən hücumları ilə əlaqədar olaraq qızılbaş qoşunlarının Azərbaycanı tərk etmələri zamanı qacar, qaramanlı, bayat və digər tayfalardan fərqli olaraq, qazaxlı tayfası öz ərazisindən İrana köçüb getməmişdir. Tayfa başçısı Nəzər xan qazaxlı, Osmanlı hakimiyyətini qəbul edərək, öz ərazisini qoruyub saxlaya bilmişdir. Hətta ölkə ərazisi ikinci dəfə Səfəvilər dövlətinin hakimiyyəti altına keçsə də, Nəzər xan yenə də öz hökmranlığında və ərazi bütövlüyündə qalmışdır. 1605-ci ildə I Şah Abbas, Nəzər xanın varisi olan Şəmsəddin xan qazaxlıya xan titulunu və qazaxlar tayfasının yaşadığı yuxarıda göstərilən irsi vilayətinə əlavə olaraq Şirvan əyalətində də müəyyən ərazini vermişdir. İ.P.Petruşevski Şəmsəddin xan qazaxlının 1628-ci ildə hələ sağ olduğunu qeyd edir [7, 134].
XVIII əsrin birinci rübündə Qazax bölgəsi Osmanlı dövlətinin əlinə keçmiş və Tiflis əyalətinin tərkibinə qatılmışdı. “Liva” (“sancaq”) statusuna malik olan Qazax bölgəsi İncə, Çavar, Axstav və Türk nahiyələrini əhatə etmişdir. Nadir şah hakimiyyətə gəldkdən sonra bu torpaqları öz hökmranlığı altına qaytara bilmişdir. XVIII əsrin ikinci yarısında Qazax sultanlığı Şəmşəddil ilə birlikdə Qazax-Şəmşəddil sultanlığı adlandılrılmışdır [8, 106]. Gəncə xanlığının qərbində yerləşən Qazax sultanlığı şimalda Gürcüstanla həmsərhəd idi və ərazisi 69 kəndi birləşdirən 3200 kv. Verst təşkil edirdi [9, 26].

Şəmşəddil bölgəsi

Şəmşəddil bölgəsinə gəldikdə, hələ I Şah İsmayılın dövründə Zəyəm mahalı və ondan qərbdəki ərazilər şəmsəddinli tayfasının irsi vilayəti hesab olunurdu. Sonralar yaranmış Şəmsəddil dairəsi öz adını bu tayfadan götürmüşdür. Şəmsəddinli tayfası zülqədər tayfasının bir qolunu təşkil edirdi. Yuxarıda qeyd olunduğu kimi, 1605-ci ildə I Şah Abbas tərəfindən Əli sultan şəmsəddinli zülqədərə öz irsi vilayətindən əlavə olaraq, Şirvan əyalətində də müəyyən ərazi verilmişdir. 1622-1623-cü illərdə şah qoşunları tərəfindən əvvəllər Osmanlı dövlətinin hakimiyyəti altında olan və Gürcüstanın cənub-qərb tərəfində yerləşən Axaltsıx qalasının şah qoşunları tərəfindən ələ keçirilməsindən sonra, Əli sultan şəmsəddinli zülqədərin varisi olan Səlim xan şəmsəddinli zülqədər bu qalanı da öz hökmranlığı altına almış və Axaltsıxın hakimi kimi tanınmışdır [7, 134-135].

Borçalı-Qazax və Şəmşəddil bölgələrinin gürcü hakimlərinin idarəsinə verilməsi

Bir məqamı da xatırlatmaq yerinə düşər ki, Borçalı və Qazax bölgələrindən fərqli olaraq, Şəmşəddil bölgəsi Nadir şahın dövründə deyil, gəncəli II Uğurlu xanın dövründə - XVIII əsrin ikinci yarısında Gürcüstana verilmişdir. Yuxarıda bəhs etdiyimiz Mirzə Adıgözəl bəyin də məlumatlarında Nadir şah tərəfindən yalnız Borçalı və Qazax bölgələrinin Gürcüstana tabe etdirilməsindən söhbət gedir. Bunu

Gəncə hakimi II Uğurlu xanın Gürcüstan ilə münasibətlərinə dair bəhs edəcəyimiz aşağıdakı digər bir fakt da sübüt edir.

Gəncə xanlığının banisi, Ziyadoğlu sülaləsinin nümayəndəsi olan II Uğurlu xan, qarabağlı Pənahəli xandan daha çox ehtiyat etdiyi üçün Teymuraz və II İrakli ilə sazişə girib onlardan kömək istəmiş və beləliklə də onlardan asılı vəziyyətə düşmüşdür [10, 64]. Hətta II Uğurlu xan ona kömək etdiyi üçün gürcü çarlarına 10 min tümən məbləğində pul verməyi də öhdəsinə götürmüşdür. Lakin II Uğurlu xan yalnız 8500 tümən toplaya bilmiş, qalan 1500 tümənin əvəzində isə Şəmşəddili Gürcüstana güzəştə getmişdir [11, 22].

E.T.Babayev öz əsərində Gəncə xanlığınının tərkibində olan Qazax və Şəmşəddil sultanlıqlarının yerli irsi sülalənin nümayəndələri olan sultanlar tərəfindən idarə olunduqlarını və onların öz mahalları üzərində demək olar ki, bütöv məhkəmə və inzabi hakimiyyətə malik olduqlarını, xanın nəzərinə yalnız xarici siyasətə dair məlumatların çatdırılması barədə məlumat verir [11, 135]. Bu məlumata əsasən belə bir fikir yürütmək olar ki, Qazax və Şəmşəddil bölgələri Nadir şah və II Uğurlu xan tərəfindən Gürcüstana tabe etdirilsə də, həmin bölgələr əslində Gəncə xanı tərəfindən idarə olunur və Gürücüstandan vassal asılılığı şəraitində mövcud idilər. Xanın nəzərinə yalnız xarici siyasətə dair məlumatların çatdırılması faktı da onu göstərir ki, Gəncə xanları bu bölgələri daima xarici basqınların təhlükələrindən qoruyur, həmin bölgələri Gürcüstanın tabeçiliyindən çıxardıb, yenidən özlərinə tabe etdirmək niyyətindən əl çəkmirdilər.

Bölgədə siyasi vəziyyət- Hacı Çələbi II İrakli mübarizəsi

XVIII əsrin ortalarında II İraklinin işğalçılıq cəhdlərini görən Şəki xanı Hacı Çələbi xan ona mane olmağa çalışırdı. Hacı Çələbi xanın özü Gəncə xanlığına iddialı idi və Şəki əyalətinə həmsərhəd olan ərazilərdə II İraklinin güclənməsini arzulamırdı. Bu vəziyyət II İrakli ilə Hacı Çələbi xan arasında qarşıdurmaların və ədavətin yaranmasına səbəb olurdu. Onların hər biri öz xanlığının yaxınlığında yerləşən qonşu dövlətin güclənməsindən ehtiyat edir və onu zəiflətmək üçün tədbirlər görürdülər [12, 122-123].

Həmin vaxt güclənməkdə olan Hacı Çələbi xana qarşı qonşu xanları da cəlb etməklə, birgə yürüşün təşkil edilməsi barədə qarabağlı Pənahəli xan ilə II İrakli arasında danışıqlar gedirdi. Bu danışıqlar Hacı Çələbi xana qarşı xanlardan ibarət olan ittifaqın yaranmasına gətirib çıxartdı ki, onun da tərkibinə başda qarabağlı Pənahəli xan və İrakli olmaqla, gəncəli II Uğurlu xan, qaradağlı Qasım xan, irəvanlı Hüseynəli xan və naxçıvanlı Heydərqulu xan daxil idilər [12, 123]. V.N.Leviatov öz əsərində mənbələrə istinad edərək Qazax, Borçalı və Şəmşəddil hakimlərinin də bu ittifaqa daxil olduqlarını qeyd edir [12, 123]. 1852-ci ildə bu xanlar Gəncədə toplaşıb danışıqlar aparmaq üçün oraya getdikləri zaman II İrakli özünün pusquda duran qoşunları ilə birlikdə onları mühasirəyə alaraq əsir götürmüşdür [12, 123].

V.N.Leviatov öz əsərində II İraklinin Azərbaycan xanlarına qarşı bu xəyanəti barədə gürcü mənbələrində müxtəlif məlumatların olduğunu bildirir. Bəzi məlumatlara görə, Qarabağ və Gəncə xanlarının Hacı Çələbi xanın tərəfinə keçəcəklərini yəqin edən II İrakli bu addımı atmağa məcbur olmuşdur. Digər məlumatlara görə isə Azərbaycan xanları II İraklini Hacı Çələbi xanla barışdırmaq üçün onun qarşısına hədiyyələrlə çıxan zaman II İrakli onların onun özünə qarşı birləşəcəyini fikirləşib xəyanətə əl atmışdır [12, 123-124].

Hacı Çələbi xan ona qarşı hücümun baş verəcəyini bilib, öz qoşunlarını toplayaraq Kür çayının sağ sahilində dayandı. II İraklinin Azərbaycan xanlarına qarşı xəyanətindən xəbər tutan Hacı Çələbi xan Gəncəyə tərəf hərəkət edərək, gürcü qoşunlarını Ağstafa çayına qədər izlədi [12, 123]. Gəncə ərazisindəki Nizaminin məzarının yaxınlığında baş verən döyüşdə gürcü dəstələri məğlub olub, qaçmağa üz qoydular [1, 43].

Hələ bu döyüşdən əvvəl Kartli və Kaxetiya çarları Teymuraz və II İrakli öz xəzinə gəlirlərini artırmaq məqsədilə Gəncə üzərinə yürüş edən zaman Şəki xanı Hacı Çələbi xan öz adamlarını Borçalıya göndərərək, oranın camaatının Gürcüstan hakimiyyətinə tabe olmaması barədə xəbərdarlıq etmişdir.

Nəticədə borçalılar və baydarlar öz dəstələrini toplayaraq, Hacı Çələbi xanın köməyinə gəlmişdilər. Dəmirçihəsənlidən olan dəstələr, həmçinin Hacı Çələbi xanın oğlu Ağakişi bəyin və Gəncə xanının dəstələri də borçalılara qoşulmuşdular [5, 82-83].
Yuxarıda göstərilən döyüşdən sonra Hacı Çələbi xan Gəncəyə gəlmiş və buradan Borçalı, Qazax və Şəmşəddildə yaşayan azərbaycanlılara nümayəndələr göndərərək, onlardan Kartli-Kaxetiya çarlığına qarşı çıxmağı tələb etmişdir. Buna cavab olaraq Qazax, Borçalı, Şəmşəddil sultanlıqları, İrəvan və Gəncə xanlıqları Hacı Çələbi xanın qoşunu ilə birləşərək Kartli-Kaxetiya çarlığı əleyhinə çıxmışdılar [10, 43-44]. Nəticədə İrəvan, Gəncə, Qazax, Şəmşəddil və Borçalı xanları II İraklidən uzaqlaşaraq, Hacı Çələbinin ətrafında birləşmişdilər [11, 23-24].
Bundan başqa Hacı Çələbi xan öz oğlu Ağakişi bəyi Tiflis şəhərindən cənuba doğru yaşayan bütün müsəlmanların hakimi təyin etmişdir. Ağakişi bəy 3 il burada hökmranlıq etsə də, 1755-ci ildə II İrakli xeyli qoşun toplayıb, onun üzərinə yürüş təşkil etdi. Ağakişi bəy qüvvələrin qeyri-bərabər olduğunu görüb, qaçmağa məcbur oldu. Gürcü qoşununun ön dəstələri Tovuz çayında ona yetişsələr də, Ağakişi bəy sağ-salamat vəziyyətdə Şəkiyə gələ bilmiş, onun qoşunundandan bir neçə nəfər isə əsir düşmüşdü. Gürcü qoşunları oradan Xudafərin körpüsünə qədər getmiş, qayıtdıqları zaman Gəncə və Qarabağın bir çox yerlərini qarət etmişdilər [1, 43].

Borçalı bölgəsinin siyasi həyatı

Hərbi yürüşlər dövründə olduğu kimi, Nadir şahın idarəçiliyi dövründə də Borçalı mahalı sakinləri ağır şəraitdə yaşamaqda davam etmiş və yaşayış məntəqələri arasında iqtisadi əlaqələr mövcud olmamışdır. Bu dövrdə bir çox Azərbaycan türkləri öz əzəli yurdlarını tərk edib, Gürcüstanın cənub-şərq rayonlarına – Saqareco, Laqodexi, Karel və Kaspi rayonlarına, bəziləri isə Osmanlı Türkiyəsinə sığınmağa məcbur olmuşdular [5, 72].
Borçalı mahalının əvvəlcə Kartli çarlığının idarəçiliyinə verilməsi, daha sonra isə xanlıqlar arasında daxili müharibələr meydanına çevrilməsi, yerli əhalinin buradan köçməsinə səbəb olan amillərdən biri idi. Bu proses 1747-ci ildən sonra daha da güclənmişdir [13, 23]. Məsələn, 1757-ci ildə Borçalı-Qazax bölgəsi əhalisi yenidən gürcü hakimlərinə qarşı etiraz etmiş və onların bir çoxu Pəmbək bölgəsinə qaçmışdır. Bundan sonra II İrakli Kaxetiya qoşunları ilə birlikdə Pəmbəkə gələrək, qaçmış əhalini geri qaytarmaqla eyni zamanda, xeyli mal-qara da ələ keçirmişdir [5, 84]. Borçalı elatlarının Kartli-Kaxetiya çarlığının həyatında vacib rol oynamaları II İraklini bu addımı atmağa sövq etmişdir [6, 23]. Hətta o, mükəlləfiyyətə cəlb olunmuş Azərbaycan kəndlərinin kəndxudalarına bölgəni tərk etməmək xahişi ilə müraciət də etmişdir. Lakin çoxlu sayda ailələr öz doğma yurdlarını tərk edib, Osmanlı imperiyası və İranın hüdudlarına köçürdülər [13, 23].
Azərbaycanlılar Borçalı bölgəsinin ictimai-siyasi həyatında o qədər vacib rol oynayırdılar ki, Kartli-Kaxetiya hakimləri onlarla hesablaşmağa məcbur olurdular. Məsələn, II İrakli, azərbaycanlı Hacı Məhəmməd Əli bəyi öz vəzirlərindən biri təyin etmiş, daha bir azərbaycanlı olan Mirzə Rəbini isə dövlət işlərinin idarə olunması və Kartli-Kaxetiya çarlarının vəziri vəzifələrinə qoymuşdur [13, 24]. Bundan başqa II İrakli vaxtı ilə Nadir şah tərəfindən Kaxetiyaya birləşdirilən Salahlı elinə Məhəmmədşərif adlı azərbaycanlını ağsaqqal təyin etmiş, daha sonra isə onun oğlu Pənah ağanı həm Salahlıya, həm də Qazax mahalına vəkil göndərmişdir [10, 4].
Ş.P.Həmidova öz əsərində mənbələrə əsaslanaraq, II İraklinin digər dövlətlərlə sülh yaratmaq üçün diplomatik nümayəndə kimi azərbaycanlılardan istifadə etdiyini və onlara eyni zamanda hərbi əməliyyatlarda da etimad göstərdiyini vurğulayır [10, 5]. Lakin bütün bunlara baxmayaraq, gürcü çarları yerli müsəlman hakimlərinə o qədər də etibar etmirdilər. Məsələn, 1765-ci ildə əsas etibarilə xristianlardan ibarət olan murovlar (canişinlər) tərəfindən müsəlman əyalətlərinin idarə olunmasına dair çarın yeni fərmanı imzalanmışdı. Murovlar xırda məhkəmə işləri ilə məşğul olaraq, yerlərdə gürcü çarlarını təmsil edir, həmçinin kəndlilərdən vergilərin toplanılması işinə də nəzarət edirdilər [5, 84-85].

XVIII əsrin ortalarına qədər Kartli və Kaxetiya Nadir şahın vassallığında olan knyazlıqlar kimi mövcud olsa da, onun ölümündən sonra həmin knyazlıqlar İrandakı siyasi çaxnaşmadan istifadə edərək öz müstəqilliklərini qazana bilmişdilər. 1761-ci ildə çar Teymurazın ölümündən sonra isə Kartli və Kaxetiyanın onun öğlu II İraklinin hakimiyyəti altında birləşdirilməsi hadisəsi baş vermişdir [5, 74].

XVIII əsrin ortalarında Azərbaycan ərazisində xanlıqların yaranması zamanı Borçalı mahalı sultanlığa çevrilmiş və formal olaraq Kartli-Kaxetiya çarlığından asılı vəziyyətdə mövcud olmuşdur [6, 22].

Rusiyanın qələbəsi ilə başa çatan 1768-1774-cü illər Rusiya-Osmanlı müharibəsindən sonra Kiçik-Qaynarca müqaviləsinə əsasən Gürcüstan Rusiyanın maraq dairələrinə daxil edilmişdir. 1774-cü ildə Gürcüstanın Rusiyaya tabe etdirilməsindən sonra burada rus qoşunları yerləşdirilmiş və əsas etibarilə Osmanlı və Azərbaycan ərazisində borçalıların miqrasiya prosesləri baş vermişdir [5, 85-86]. Bundan başqa müharibə dөründə rus qoşunlarının Kartli-Kaxetiya çarlığına daxil olduğu zaman, Gürcüstanın tərkibində olan Şəmşəddil sultanlığından 1770-1773-cü illər ərzində 26 kəndin 1900 ailədən ibarət olan əhalisi Gəncə xanlığının ərazisinə keçmişdir [14, 244].

Kartli-Kaxetiya çarlığından yarımasılı vəziyyətdə olan Borçalı sultanlığının [5, 81] ərazisi Qazax bölgəsindəki Sınıq Körpüdən başlayıb, Şərqi Anadolu sərhədində qurtarırdı [6, 22]. Sultanlıq qərbdə Türkiyə ilə həmsərhəd idi və ərazisi təxminən 8 min kv. Verst təşkil edirdi [9, 26]. Borçalı sultanlığına indiki Gürcüstan ərazisinə daxil olan Qarayazı (indiki Qardabani), Qaraçöp (indiki Sığnax), Sarvan (indiki Marneuli), Ağbulaq (indiki Petriskaro), Boluslu (indiki Bolnisi), Başkeçid (indiki Dmanisi) rayonları və indiki Ermənistan ərazisinə daxil olan Allahverdi (indiki Tumanyan), Cəlaloğlu (indiki Stepanavan), Hamamlı (indiki Spitak), Barana (indiki Noğemberyan), Vorontsovka (indiki Taşir) rayonları daxil idi [6, 22]. M.Abbasova öz əsərində haqlı olaraq indiki Ermənistan Respublikasının digər türk torpaqları ilə bərabər olaraq, keçmiş Borçalı torpaqları əsasında da yarandığını qeyd edir [5, 82].

1780-ci ildə Borçalı torpaqları Kvemo Kartli, daha dəqiq desək, Aşağı Kartli adı altında Kartli çarlığının tərkibinə daxil edilmişdir. Gəncə xanı Cavad xanın hakimiyyəti illərində (1785-1804) Borçalı mahalı müəyyən müddətə olsa da, yenidən Gəncə xanlığının tərkibinə qatılmışdır [5, 96, 406].

1782-ci ildə Quba xanı Fətəli xan vali Çıldır Süleymana yazdığı məktubunda Borçalı sultanı Musa xanın öz ailəsi ilə birlikdə Tiflisdə II İrakli tərəfindən həbs olunduğunu bildirirdi. Fətəli xan II İrakliyə onların azadlığa buraxılması xahişi ilə müraciət etmişdir. Eyni zamanda Süleyman paşa da II İrakli ilə bu barədə danışmışdır. Bu zaman II İrakli Rusiya ilə yaxınlaşmaq siyasətini aparsa da, osmanlılar ilə münasibətləri korlamaqdan ehtiyat edirdi. Buna görə də o, Süleyman paşanın və Fətəli xanın xahişlərinə hörmətlə yanaşıb, Musa xanı və onun ailəsini həbsdən azad etdi. Onlar bir müddət Çıldırda qalsalar da, sonradan II İrakli onların Borçalıya dönməsinə icazə vermişdir [6, 23].

Musa xanın azad olunmasında Fətəli xanın maraqları ondan ibarət idi ki, o, Azərbaycanın cənub torpaqlarını öz hakimiyyəti altında birləşdirməyə çalışır, Nadir şah tərəfindən Kartli-Kaxetiya çarına bağışlanan Borçalı torpaqlarını geri qaytarmaq niyyətini güdürdü. Lakin Fətəli xanın Rusiya ilə mövcud diplomatik münasibətləri və 1783-cü il Georgiyevsk müqaviləsinə əsasən Şərqi Gürcüstanın Rusiyanın himayəsinə keçməsi amilləri ona Borçalıya qarşı açıq iddia irəli sürməsinə imkan vermədi. O, bu istiqamətdə Azərbaycanın cənub xanlıqları ilə əlaqəsi olan Musa xanın köməyinə ümid edirdi. Bu baxımdan Fətəli xanın Musa xanın həbsdən azad olunmasına kömək etməsi tamamilə labüd hal idi [6, 24].

Nəticə

Beləliklə, məlum olur ki, XVIII əsr Borçalı, Qazax və Şəmşəddil bölgələrinin siyasi həyatında olduqca ağır və keşməkeşli bir dövr olmuşdur. Əvvəlcə Nadir şahın daxili siyasətinin ağır nəticələrinə məruz qalan bu mahallar, XVIII əsrin ikinci yarısında Kartli-Kaxetiya çarlığının tərkibində

sultanlıqlara çevrilmiş və xanlıqlar arasında gedən daxili mübarizənin mərkəzi hissəsi kimi mövcud olmuşdur. Bu proseslərin nəticəsində Borçalı, Qazax və Şəmşəddil sultanlıqlarında miqrasiya prosesləri baş vermişdir ki, bu da yerli əhalinin sosial-iqtisadi vəziyyətinə olduqca mənfi təsir göstərmişdir. Yerli əhalinin tez-tez yerini dəyişməsi halı bölgələr arasında ticarət-iqtisadi əlaqələrin pozulmasına gətirib çıxartmışdır. Nadir şahın Borçalı və Qazax bölgəsini, gəncəli Uğurlu xanın isə Şəmşəddil bölgəsini Gürcüstana güzəştə getmələri, həmin bölgələrin siyasi və iqtisadi həyatının gürcü çarlarından asılı olmasına, yerli əhalinin malik olduqları bəzi imtiyazların itirilməsinə gətirib çıxartmışdır.

Istıfadə Olunmuş Mənbə Və Ədəbiyyat

1. Mirzə Adıgözəl bəy. Qarabağnamə // Qarabağnamələr. Birinci kitab. Bakı, Yazıçı, 1989, s. 5-102.
2. İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi. Bakı: Azərbaycan, 2009, 576 s.
3. Nəsibli L.İ. Borçalıda azərbaycanlı əhalisinin demoqrafik vəziyyəti // "Bakı Universitetinin Xəbərləri", Humanitar elmlər seriyası, № 1, 2011-ci il, s. 158-163.
4. Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: "Müəllim" nəşriyyatı, 2006, 148 s.
5. Аббасова М. История Борчалинского махала (XIX – начало XX вв.). Баку: «Сабах», 2006, 460 с.
6. Байрамова Н.Ш. Наша независимость и наша история: о Борчалинском султанстве // Труды Института Истории НАН Азербайджана, 2010. Том 34-35, с. 21-26.
7. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. Л: Издательство Ленинградского Государственного Ордена Ленина Университета имени А.А.Жданова, 1949, 384 с.
8. İsayev Ə.İ. Azərbaycanda inzibati idarəçilik (XIX – XX əsrin əvvəlləri). Bakı: Mütərcim, 2015, 128 s.
9. Umudlu V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə. Bakı: "Elm", 2004, 184 s.
10. Həmidova Ş.P. XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən. Bakı: "Elm", 1985, 100 s.
11. Бабаев Э.Т. Из истории Гянджинского ханства. Баку: Nurlan, 2003, 234 с.
12. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку: Издательство АН Азербайджанской ССР, 1948, 228 с.
13. Алиева И.Х. Политическое и социально-экономическое положение азербайджанцев Тифлисской губернии (1846-1017). Баку: «Тахсил», 2009, 224 с.
14. Сафаров Р.Ф. Гянджа в период русского завоевания Кавказа // Qafqaz tarixinin aktual məsələləri. Beynəlxalq konfrans. 15-16 oktyabr 2015-ci il. II hissə, Gəncə: 2015, c. 243-247.

MÜASİR DÖVRDƏ SOSİALLAŞMAYA TƏSİR GÖSTƏRƏN FAKTORLARIN PSİXOLOJİ TƏHLİLİ

PSYCHOLOGICAL ANALYSIS OF FACTORS AFFECTING SOCIALIZATION IN MODERN TIMES

ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА СОЦИАЛИЗАЦИЮ В СОВРЕМЕННОЕ ВРЕМЯ

Solmaz Həsənli
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrasının dosenti

Xülasə
"Sosiallaşma" anlayışı fərdin topluma inteqrasiyası, onun sosial həyatın aktiv iştirakçısına çevrilməsi prosesidir. Bu baxımdan qeyd edə bilərik ki, "sosiallaşma" anlayışı məkan kontekstində olduğu kimi, zaman kontekstində də araşdırlmasına ehtiyac duyulan mürəkkəb bir sosial-psixoloji prosesidir. Bunun üçün də sosiallaşma prosesinin dəyişən zaman, sürətli inkişaf baxımından tədqiqi aktual bir problemdir. Sosiallaşma, insanın erkən yaşlardan ailədən və yaxın çevrədən başlayaraq, sonrakı həyatda təhsil, peşə qruplarına və daha böyük sosial qruplara qədər genişlənən bir proses olaraq fərdin bu qruplara uğurla uyğunlaşmasını əhatə edir. Sosiallaşmaya təsir göstərən faktorlar bu prosesdə əsas rol oynayır, fərdin sosial mühitə uyğunlaşmasına və onunla qarşılıqlı əlaqəsinə təsir göstərir.
Uğurlu sosiallaşma insanın toplum dəyərlərini mənimsəməsi, sosial həyatda fəal iştirak etməsi, və o toplumun bir üzvünə çevrilməsini nəzərdə tutur. Bu, həm peşəkar mühitdə, həm ailə münasibətlərində, həm dostluq və kollegial əlaqələrdə, həm də daha geniş kontekstdə- ölkənin sosial həyatında aktiv iştirakda özünü göstərir.
Mütəxəssislərə görə, insanın toplumun bir üzvü kimi inkişafına, sosiallaşmasına təsir edən faktorlar əsasən dörd kateqoriyaya bölünür: meqafaktorlar, makrofaktorlar, mezofaktorlar və mikrofaktorlar. Bu sosiallaşma faktorlarının hər birinin şəxsiyyətin psixo-sosial inkişafında rolu böyükdür və bu faktorlar insanın toplumla qarşılıqlı əlaqəsinin, onun toplum həyatında iştirakının istiqamətini müəyyən edir.
Sosiallaşma prosesi təkcə sosial mühitlə qarşılıqlı əlaqəni deyil, həm də insanın erkən uşaqlıq dövründən başlayaraq bütün həyatı boyu davam edən dərin psixo-sosial inkişafı əhatə edir. Lakin sosiallaşma prosesi heç də həmişə uğurla nəticələnmir. Bəzən psixo-sosial formalaşma toplumun gözlədiyi şəxsi keyfiyyətlərin yaranması ilə müşayiət olunmur. Heç şübhəsiz ki, bu mürəkkəb prosesə təsir edən faktorların mahiyyəti və xarakteri insanın sosial mühitə nə dərəcədə effektiv uyğunlaşacağını və müsbət sosial aktivliyə sahib bir şəxsiyyət kimi formalaşacağını müəyyənləşdirir. Bu baxımdan da qeyd edə bilərik ki, çox sürətlə inkişaf edən və dəyişən dünyada insanın sosiallaşması prosesi, elmi baxımdan məkan və zaman kontekstində geniş araşdırma tələb edən aktual bir mövzudur.
Sosiallaşma və şəxsiyyətin inkişafı meqa, makro, mezo və mikrofaktorlarla ayrılmaz şəkildə bağlıdır və onların hər biri insanın sosial-psixoloji inkişafında böyük rol oynayır. Meaqafaktorlar qlobal tendensiyaların və mədəni xüsusiyyətlərin təsirini müəyyən etdiyi halda, makrofaktorlar ölkə, toplum və dövlətin təsirlərini əhatə edir. Mezofaktorlar konkret sosial mühit və etnomədəni xüsusiyyətlərlə əlaqələndirilir, mikrofaktorlar isə ailə daxilində və yaxın ətraf mühitdə insanın psixo-sosial inkişafına təsir göstərir, onu yönləndirir.

Müasir dövrdə sosiallaşmaya təsir edən faktorların şəxsiyyətin inkişafına təsirinin elmi baxımdan düzgün təhlil edilməsi və nəticələrin nəzərə alınması şəxsiyyətin daha ahəngdar inkişafına və hər bir fərdin toplumun fəal və faydalı üzvü olmasına kömək edə bilər.
Açar sözlər: sosiallaşma, sosiallaşmaya təsir göstərən faktorlar, meqafaktorlar, makrofaktorlar, mezofaktorlar, mikrofaktorlar.

Abstract

The concept of “socialization” is the process of an individual’s integration into society, his/her transformation into an active participant in social life. From this perspective, we can note that the concept of “socialization” is a complex socio-psychological process that needs to be studied in the context of space as well as time. For this reason, the study of the socialization process in terms of changing time and rapid development is an urgent problem. Socialization, as a process that begins with a person’s early years, starting from the family and close circle, and later in life expanding to educational, professional groups and larger social groups, encompasses the successful adaptation of the individual to these groups. Factors affecting socialization play a key role in this process, affecting the individual’s adaptation to the social environment and interaction with it.

Successful socialization implies a person’s assimilation of social values, active participation in social life, and becoming a member of that society. This is manifested both in the professional environment, in family relationships, in friendship and collegial relationships, and in a broader context - in active participation in the social life of the country.

According to experts, the factors that affect the development and socialization of a person as a member of society are mainly divided into four categories: megafactors, macrofactors, mesofactors and microfactors. Each of these socialization factors plays a significant role in the psycho-social development of the individual, and these factors determine the direction of a person's interaction with society and his participation in social life.

The process of socialization encompasses not only interaction with the social environment, but also deep psycho-social development that continues throughout a person's life, starting from early childhood. However, the socialization process is not always successful. Sometimes psycho-social formation is not accompanied by the formation of personal qualities expected by society. Undoubtedly, the essence and nature of the factors affecting this complex process determine how effectively a person will adapt to the social environment and will be formed as a personality with positive social activity. In this regard, we can also note that the process of human socialization in a rapidly developing and changing world is a topical topic that requires extensive research in the context of space and time from a scientific point of view.

Socialization and personality development are inextricably linked with mega, macro, meso and micro factors, and each of them plays a major role in the socio-psychological development of a person. While mega factors determine the influence of global trends and cultural characteristics, macro factors cover the influence of the country, society and state. Meso factors are associated with a specific social environment and ethnocultural characteristics, while micro factors influence and direct the psycho-social development of a person within the family and in the immediate environment.

In modern times, a scientifically correct analysis of the influence of factors affecting socialization on personality development and taking into account the results can contribute to a more harmonious development of the personality and to the fact that each individual becomes an active and useful member of society.
Keywords: socialization, factors influencing socialization, megafactors, macrofactors, mesofactors, microfactors.

РЕЗЮМЕ

Понятие «социализация»- процесс интеграции личности в общество, превращение ее в активного участника общественной жизни. С этой точки зрения можно отметить, что понятие «социализация» представляет собой сложный социально-психологический процесс, который необходимо рассматривать как в пространственном, так и во временном контексте. По этой причине изучение процесса социализации в условиях меняющегося времени и быстрого развития является актуальной проблемой. Социализация- это процесс, который начинается в семье и близком окружении человека с раннего возраста и распространяется на образовательные, профессиональные группы и более крупные социальные группы в более позднем возрасте, охватывая успешную адаптацию индивида к этим группам. Факторы, влияющие на социализацию, играют ключевую роль в этом процессе, влияя на адаптацию индивида к социальной среде и взаимодействие с ней.

Успешная социализация предполагает, что человек принимает ценности общества, активно участвует в социальной жизни и становится его членом. Это проявляется как в профессиональной среде, в семейных отношениях, в дружеских и коллегиальных отношениях, так и в более широком контексте- в активном участии в общественной жизни страны.

По мнению экспертов, факторы, влияющие на развитие и социализацию человека как члена общества, в основном делятся на четыре категории: мегафакторы, макрофакторы, мезофакторы и микрофакторы. Каждый из этих факторов социализации играет важную роль в психосоциальном развитии личности, и эти факторы определяют направление взаимодействия человека с обществом и его участие в социальной жизни.

Процесс социализации охватывает не только взаимодействие с социальной средой, но и глубокое психосоциальное развитие человека, начинающееся с раннего детства и продолжающееся на протяжении всей его жизни. Однако процесс социализации не всегда проходит успешно. Иногда психосоциальное формирование не сопровождается появлением ожидаемых обществом личностных качеств. Несомненно, характер и природа факторов, влияющих на этот сложный процесс, определяют, в какой степени человек будет эффективно адаптироваться к социальной среде и развиваться как личность с позитивной социальной активностью. В этой связи можно также отметить, что процесс социализации человека в быстро развивающемся и меняющемся мире является актуальной темой, требующей обширного исследования в контексте пространства и времени с научной точки зрения.

Социализация и развитие личности неразрывно связаны с мега-, макро-, мезо- и микрофакторами, каждый из которых играет важную роль в социально-психологическом развитии человека. В то время как мегафакторы определяют влияние глобальных тенденций и культурных особенностей, макрофакторы охватывают влияние страны, общества и государства. Мезофакторы связаны с определенной социальной средой и этнокультурными характеристиками, в то время как микрофакторы влияют и направляют психосоциальное развитие человека в семье и ближайшем окружении.

В современных условиях научно корректный анализ влияния факторов социализации на развитие личности и учет полученных результатов может способствовать более гармоничному развитию личности и становлению каждого отдельного человека активным и полезным членом общества.

Ключевые слова: социализация, факторы, влияющие на социализацию, мегафакторы, макрофакторы, мезофакторы, микрофакторы.

İnsan şəxsiyyətinin formalaşması onun doğulub böyüdüyü sosial mühit və üzvü olduğu toplumun mənəvi-mədəni mirası tərəfindən müəyyənləşdirilir. Sosial və mənəvi-mədəni mühitin insan şəxsiyyətinin formalaşılmasındakı bu önəmindən dolayı hər bir toplum öz mədəniyyətinin xüsusiyyətlərini yeni nəsillərə ötürmək və sahib olduğu mədəni və mənəvi dəyərləri, bütün toplum

tərəfindən qəbul edilmiş davranış normalarını yaşatmaq istəyərkən eyni zamanda yeni nəsillərə bu dəyərləri mənimsədib onları sosiallaşdıraraq topluma uyğunlaşmasını təmin edir.
Sosiallaşma, insanın toplum içindəki norma və dəyərlərə uyğun davranış formalarını qəbul etməsi və mənimsəməsi və o toplumla bütünləşməsi deməkdir. Günümüzdə sürətli sosial dinamizm insanın sahib olduğu toplumda özünütəsdiqini çətinləşdirir. Nəticədə insan sosial yalnızlığa sürüklənir, sahib olduğu topluma yabançılaşır və sosiallaşma prosesində uğursuzluğa düçar olur. Təbii ki, sosiallaşma prosesində qarşıya çıxan problemlərin səbəbi sosiallaşmaya təsir edən faktorların mahiyyətindəki dəyişmələrdir. Yəni sosiallaşma faktorlarının mahiyyətindəki dəyişikliklər sosiallaşma nəticəsindəki mahiyyət dəyişikliklərinə səbəb olur.
Sosiallaşma faktorları əsasən dörd qrupa bölünür.
Meqafaktorlar (qlobal faktorlar) dünyadakı bütün insanların və ya bir çox ölkələrdə yaşayan insanların sosiallaşmasına təsir göstərirlər. Makrofaktorlar bütün dövlətlər, mədəniyyətlər və hətta bütün dünya birliyi səviyyəsində insanın sosiallaşmasına yönələn qlobal təsirlərin geniş spektrini əhatə edir. Bunlara yüksək texnologiya, qlobal mədəniyyət və incəsənət, beynəlxalq elmi nailiyyətlər və qlobal ekoloji şərait daxildir.
Müasir dünya bütün bəşəriyyətin həyati maraqlarına təsir edən qlobal problemlərlə doludur: ekoloji (ətraf mühitin çirklənməsi), iqtisadi (ölkələrin və qitələrin inkişaf səviyyəsindəki fərqin artması), demoqrafik (bəzi ölkələrdə əhalinin nəzarətsiz artımı və digərlərində əhali sayının azalması), hərbi-siyasi (regional konfliktlərin artması). Bu problemlər həyat şəraitini müəyyən edir və gənc nəsillərin sosiallaşmasına birbaşa və ya dolayısı ilə təsir göstərir.
İnsanın inkişafına coğrafi amillər də təsir edir. 1930-cu illərdə V.İ.Vernadski dünyada ekoloji böhran (dinamik tarazlıqda yer üzündə bütün canlıların, o cümlədən insanların varlığı üçün təhlükəli olan dəyişikliklər) adlanan yeni mərhələnin başlandığını qeyd etdi. Getdikcə bu böhranın təsirini insanlıq daha çox fərqinə varır.
Sosiallaşmaya təsir edən meqafaktorlara bütün düyada yayılma təhlükəsi olan pandemiyaları da aid edə bilərik ki, son illərdə yaşanılan COVİD-19 pandemiyasının insanlara sosial-psixoloji baxımdan mənfi təsiri inkaredilməz bir reallıqdır. Bu zaman yaşanılan gərginlik, sosial inamın azalması, stress, depresiya hallarının artması diqqət çəkir.
Müxtəlif ölkələrdə bu dövrdə aparılan araşdırmalar göstərir ki, stress, narahatlıq və depressiya səviyyələri koronavirusdan öncəki dövrlərlə müqayisədə 3-4 dəfə artmışdır. Yaşanılan pandemiya təcrübəsi onu göstərdi ki, sosial funksiyalara, insanın sosial tələbatlarına sərhədlərin qoyulması, insanların sevdiklərini qucaqlaya bilməməsi, valideynləri və uşaqları görmənin mümkün olmaması, emosional dəstək qıtlığı, ünsiyyətə daha çox tələbat hiss edən uşaq, yeniyetmə və gənclərin real sosial münasibətlərdən distant təhsil rejiminə keçməsi posttravmatik stress vəziyyətlərinə, kəskin depressiv xüsusiyyətlərin yaranmasına və bir çox hallarda bu gərginlik səbəbindən ailədaxili konfliktlərin və boşanmaların sayının artmasına gətirib çıxardı.
Uşaq, yeniyetmə və gənclərin sosiallaşması nəsillərarası transaksiyalar çərçivəsində mədəni və sosial normaların ötürülməsi və mənimsənilməsinin mürəkkəb bir prosesidir. Mövcud alqoritm şəraitində bu proses iyerarxik əlaqələr əsasında formalaşır ki, bunun çərçivəsində yaşlı nəsillər gənclərin sosial təcrübəsini məqsədyönlü və ya kortəbii təsir prizmasından formalaşdırır.
Son illərdə rəqəmsal texnologiyalar media məkanında yeni faktorların meydana çıxması sosiallaşma prosesinə ciddi təsir göstərmişdir. Atıq sosial təcrübə yaşlı nəslə mənsubiyyət prizmasından deyil, yeni media mühiti şəraitində özünüifadə üsulları prizmasından həyata keçir və var olan sosiallaşma modelini dəyişdirərərək qlobal mahiyyət daşımasına səbəb olur.
Pandemiya zamanı məcburi özünütəcrid, təhsilin onlayn mühitə uyğunlaşdırılması və inteqrasiyası zərurətini yaradaraq təhsil paradiqmasını önəmli dərəcədə dəyişdirdi. Bu təcrübə uşaq, yeniyetmə və gənclərin qlobal mədəni norma və prinsipləri öyrənmə prosesinə yeni media mühitinin təsirini gücləndirdi və sosiallaşmanın mahiyyətində dəyişiklik yaradaraq meqafaktorların təsirini daha da artırdı.

Makrofaktorlar- ölkənin, toplumun, dövlətin içində olan insanlara təsir göstərdiyi sosiallaşma faktorlarıdır. Makrofaktorlar müxtəlif prizmadan müəyyən mahiyyət daşıyır.

- kortəbii sosiallaşma amili kimi (dövlətin siyasəti, ideologiyası, iqtisadi və sosial təcrübələri onun vətəndaşlarının sosial həyatı üçün müəyyən şərait yaradır);
- nisbi yönümlü sosiallaşma amili kimi (dövlətin icbari təhsil strategiyası, icbari təhsilin başlanma yaşı, evlilik yaşı, hərbi xidmət müddəti və s.).
- idarə olunan sosial qurumlar sosiallaşma amili kimi (dövlət təhsil qurumları: uşaq bağçaları, ümumtəhsil məktəbləri, kolleclər, sağlamlıq imkanları məhdud uşaq, yeniyetmə və gənclər üçün qurumlar və s.).

Dövlətin siyasi, iqtisadi, ideoloji, ekoloji və sosial sahədəki fəaliyyətlərini əhatə edən daxili faktorlar, xarici siyasəti, digər ölkələrlə münasibətləri, ölkənin qorunması kimi xarici faktorlar da sosiallaşmaya təsir göstərən faktorlardır. Bu faktorlarla bağlı dövlət proqramları və təşəbbüsləri, sosial-siyasi proseslər toplumda müəyyən dəyərlərin və münasibətlərin formalaşmasına yönələrək birbaşa və dolayı yolla sosiallaşma prosesinə təsir göstərir. Eyni zamanda ölkənin iqlim şəraiti və təbii resursları sosial inkişafa və sosiallaşmaya təsir göstərir. Təbii ki, insanın bütün həyatı sosiallaşma cəhdi və səyləri içində keçir. Doğumdan başlayaraq bir inkişaf prosesi olan sosiallaşmaya insanın içində olduğu toplumun sosial, iqtisadi və mədəni təsiri böyükdür.

Mezofaktorlar (etnik mənsubiyyət, məskunlaşma növü, media). Bunlar böyük insan qruplarının sosiallaşması üçün fərqləndirilən faktorlardır: etnik mənsubiyyətə görə; yaşayış yeri və növünə görə (rayon, kənd, şəhər, qəsəbə); müəyyən kütləvi informasiya vasitələrinin (televiziya proqramları, internet, sosial şəbəkələr və s.) auditoriyasına mənsub olmaqla və s.

Mezofaktorlar insanın etnik və mədəni mənşəyi, eləcə də coğrafi yeri ilə bağlıdır. Onlar müəyyən bir bölgədə, məsələn, bir şəhərdə və ya kənddə sosiallaşma şərtlərini xarakterizə edir. Bu amillər xalqların və regionların mədəni xüsusiyyətlərindən asılı olaraq dəyişir. Məsələn, bir ölkə daxilində yaşayan müxtəlif etnik qrupların milli, mədəni xüsusiyyətləri sosiallaşdırma faktoru kimi önəmlidir. İnsanın etnik və ya milli kimliyi ilk növbədə onun dili və bu dilin arxasında duran mədəniyyətlə müəyyən edilir. Hər bir xalqın milli kimliyinə, demoqrafik quruluşuna, insanlararası münasibətlərə, həyat tərzinə, adət-ənənələrinə və mədəniyyətinə xüsusi təsiri olan özünəməxsus coğrafi yaşayış mühiti var. Hər hansı bir çoğrafi məkanada yaşayan etnos sahib olduğu mental dəyərləri, düşüncə və davranış tərzini üzvünə aşılamağa çalışır.

Toplum içində varolan əxlaqi, mənəvi dəyərlər, norma və davranışlar digər toplumlara görə fərqlilik daşıyır. Hər bir cəmiyyətin özünəməxsus, qəbul etdiyi və ya qəbul etmədiyi normalar vardır. Eyni fərqli cəhətlərə toplum içində yaşlı və gənc nəsil arasında olduğu kimi, müxtəlif maddi duruma sahib təbəqələr arasında da rast gəlmək mümkündür.

Hər bir toplum, hər bir sosial qrup formal və qeyri-formal sanksiyalar- təklif və inandırma, göstəriş, qadağa, mükafatlandırma kimi metodların yardımı ilə insanın davranışını müəyyən bir mədəniyyətdə qəbul edilmiş nümunələrə, normalara və dəyərlərə uyğunlaşdırır. Bu üsullar bir növ etnosun üzvlərinin davranışlarına sosial nəzarət mexanizmidir ki, bunun da nəticəsində insan içində yaşadığı toplumun dəyərlərini qəbul edərək, mənimsəyərək sosiallaşır.

Kənd həyat tərzində insan davranışına sosial nəzarət güclüdür və ünsiyyətin "açıqlığı" xarakterikdir. Şəhər isə insana geniş sosial qruplar, dəyər sistemləri, həyat tərzi və özünütəsdiq üçün müxtəlif seçim imkanı verir. Kəndlərdə gənc nəslin sosiallaşmasının nəticəsi kəndə xas olan ənənəvi həyat tərzinin və şəhərdə isə şəhər həyat tərzinin mənimsənilməsidir.

Kütləvi İnformasiya Vasitələrinin əsas funksiyaları sosial əlaqələri qorumaq və gücləndirmək, sosial tənzimləmə və idarəetmə, bilik və mədəniyyətin yayılması və s. dir. KİV sosial-psixoloji funksiyaları yerinə yetirir, insanın bilgiyə, başqa insanlarla ünsiyyətə olan ehtiyacını ödəməklə yanaşı onların içində olduğu toplumun dəyərləri, ideyaları və baxışlarını mənimsəməsi üçün sosial-psixoloji funksiyaları yerinə yetirir.

Sosiallaşma dinamik və çoxşaxəli bir prosesdir. Sosiallaşmanın əsas funksiyası insanı yaşadığı toplumun dəyərlərinə uyğun bir üzvə çevrilməsini təmin etməkdir. Bu prosesdə sosial medyanın rolu böyükdür. Günümüzdə ünsiyyət imkanlarının genişlənməsi sosiallaşma adlandırdığımız fenomenin də mahiyyətində dəyişikliyə səbəb olmuşdur. Hazırda sosial medyanın da böyük təsiri ilə sosiallaşma anlayışı yeni mahiyyət kəsb edərək daha geniş arealı əhatə edir. Artıq bir reallıq var ki, günümüzdə sosiallaşan insan sadəcə yaşadığı toplumun dəyərləri və təsirləri ilə üz-üzə qalmır. O bir çox hallarda yaşadığı toplumun dəyərləri ilə təzad təşkil edən faktorların da təsirinə məruz qalır.

Mikrofaktorlar konkret olaraq insanlara birbaşa təsir göstərən sosial faktorlardır: ailə, yaşıd qrupları, təhsilin həyata keçirildiyi qurumlar, bioloji-genetik amillər, peşə xüsusiyyətləri, cinsi faktorlar və s. aiddir. Mikrofaktorlar fərdi və ya kiçik bir qrup insana birbaşa təsir göstərir. Bu amillər insanın mənəvi, mədəni və peşəkar inkişafına önəmli təsir göstərir. Buna görə də bir çox inkişaf etmiş ölkələrdə ailə disfunksiyasının, sosial baxımdan əlverişsiz amillərin və şəxsiyyətin formalaşmasına mənfi təsir göstərə biləcək halların aradan qaldırılmasına böyük diqqət yetirilir.

Toplum gənc nəslin sosiallaşma tempinin toplumun inkişaf tempindən və səviyyəsindən geri qalmaması üçün bu prosesin sosiallaşma institutları vasitəsilə uğurla həyata keçirilməsində birbaşa məsuliyyət daşıyır. Toplumda baş verən dəyişikliklər şəxsiyyətin bir çox xüsusiyyətlərini dəyişir və sosiallaşma institutları vasitəsilə toplumun sosial nizamını müəyyən edir. Mikrofaktorlar birbaşa və dolayı yolla sosiallaşmaya təsir göstərir. Kiçik sosial qruplarda iştirak, yaşıdlarla qarşılıqlı əlaqə sosial bacarıqların inkişafına və şəxsiyyətin formalaşmasına təsir göstərir.

Uşaq sosial dəyərləri, hissləri, davranışları ailənin hər bir üzvüylə olan ünsiyyəti vasitəsilə, ailədaxili münasibətlər sisteminə daxil olaraq öyrənir. Ailənin özünəməxsus xüsusiyyətləri daha çox onun idarə edilmə üslubunda özünü göstərir. İdarəetmə üslubları baxımından ailənin sosiallaşdırma funksiyasının təhlili uşağa ailə içində psixoloji təsirləri daha açıq bir şəkildə müəyyənləşdirməyə imkan verir və bu təsirlərin uşaqların sosiallaşmasındakı önəmini daha geniş analiz etməyə şərait yaradır. Ailənin idarəetmə üslublarına görə tipləri bunlardır:

1. Avtoritar ailə tipi. Avtoritar ailə tipində uşaqlar valideynlərin qoyduqları ailəiçi qayda-qanunları sözsüz yerinə yetirirlər. Belə ailələrdə ciddi və sərt nəzarət vardır. Uşağın hər səhv davranışı (bilərək və ya bilməyərək edilməsi nəzərə alınmadan) ağır şəkildə cəzalandırılır. Ailə böyükləri hər zaman uşağın hərəkətlərində qüsur tapır və bu yanlış davranışların səbəbini öyrənməyə meyilli olmurlar. Uşağın bütün davranışları valideynlərin ciddi nəzarəti altındadır. Bu ailə tipi uşaqların psixo-sosial inkişafında mənfi keyfiyyələrin üzə çıxmasına səbəb olur. Belə ki, bu mühitin psixoloji təsirinə məruz qalan uşaqlarda ən əsası özgüvən inkişaf etmir, onlar öz qüvvə və güclərinə inanmırlar, hər zaman hər işdə yetərsiz olduqlarını düşünürlər. Bunun üçün də passiv, çəkingən və başqalarının təsiri altına tez düşməyə meyilli bir xüsusiyyətə sahib olurlar.

2. Anarxik ailə tipi. Anarxik idarə üslubuna sahib ailələrdə valideynlər uşaqların gələcəkləri ilə bağlı heç bir plana sahib deyillər. Bu baxımdan onlar çox rahatdırlar və uşaqla bağlı bütün məsuliyyətlərdən boyun qaçırırlar, uşaqların heç bir problemi ilə maraqlanmırlar. Bu tip ailələrdə ata-ana uşaq üçün müsbət bir nümunə deyil. Belə ailələrdə uşaqlar eqoist və ərköyün olur. Bu səbəbdən ilk zamanlar sosial mühitdə qəbul görmür və sosiallaşma problemi yaşayırlar. Uşaqlar ona laqeyd olan ata-ananın diqqətini çəkmək üçün qeyri-adi, bəzən isə anormal davranışlar sərgiləyirlər və zamanla bu davranışlar onların xarakter xüsusiyyətlərinə çevrilir.

3. Qoruyucu ailə tipi. Qoruyucu ailə avtoritar ailə tipinə çox bənzəyir. Aralarındakı fərq ondan ibarətdir ki, bu ailə tipində şəfqət, qoruma hissi nəzarətin önündə gəlir. Uşağa həddən artıq diqqət və qayğı göstərilir. Belə ailələrdən çıxan uşaqlar yüksək səviyyədə emosional, həsas olurlar. Sosial həyatda öz başına heç bir fəaliyyətə qoşulmur və bu cəsarəti özündə tapmırlar. Həddən artıq sosial passivlik özünü göstərir. Bu mühitdə böyüyən uşaqlarda sosial fobiyalar daha çox müşahidə edilir. Onlar insanlar qarşısında danışmaqdan, öz düşüncələrini sərbəst şəkildə ifadə etməkdən çəkinirlər. Belə insanlar daima sosial mühitdə yanlış davranmaq, tənqid edilmək və aşağılanmaqla bağlı həddən artıq qorxu yaşayırlar.

4. Sabit olmayan ailə tipi. Bu idarəetmə tipinə gənc ailələrdə və ilk uşağa münasibətdə daha çox rast gəlinir. Burada əsas cəhətlərdən biri valideynlərin uşaqlara münasibətdə fərqli yanaşmaları və uşağa fərqli psixoloji təsir mexanizmaları ilə müraciət etmələridir. Belə ailələrdə çox vaxt ata avtoritar davrandığı halda, ana qoruyucu olur. Qeyri-sabit ailədə uşağa göstərilən psixoloji təsir onun sonradan inadkar, üsyankar olmasına səbəb olur. Bir çox hallarda isə əksinə, içinə qapalı və passiv sosial mövqeyə sahib olurlar. Bu da onun sonrakı sosial münasibətlərində öz əksini tapır və sosiallaşmasında müəyyən problemlərin yaranmasına səbəb olur.
5. Demokratik ailə tipi. Ailədə demokratik idarəetmənin varlığı anarxiyanın olması demək deyil. Təbii ki, bu ailələrdə ailədaxili qayda və qanunlar vardır, lakin ailə böyükləri uşaqların da düşüncələrini söyləmələrinə imkan yaradır, onların hiss və düşüncələrinə hörmətlə yanaşırlar. Hər hansı bir mənfi davranışı cəzalandırmadan öncə uşaqlara bu yanlış davranışın səbəb ola biləcəyi nəticələr onların başa düşəcəyi bir dildə açıqlanır. Demokratik tipli ailələrdən çıxan uşaqlar sosial həyata daha tez uyğunlaşır, uğurlu sosiallaşma prosesi keçirirlər. Bu uşaqların özgüvənləri yüksək olur. Onlar sosial mühitdə aktiv rol oynayırlar. Ailənin onlara göstərdiyi psixoloji təsir nəticəsində öz düşüncələrini açıqlamaqdan çəkinmirlər, öz fikirlərini rahat və asanlıqla ifadə edirlər.
Natamam ailələr adətən boşanmalar və ya valideynlərdən birinin ölümü nəticəsində yaranır. Belə ailələrdə uşaqların düşdükləri ağır psixoloji vəziyyət onların sosiallaşmasına birbaşa olaraq mənfi təsir göstərir. Təbiidir ki, uşaq gələcəkdə qazanacağı sosial rola öz cinsindən olan valideynlərinin davranışlarını mənimsəyərək, onları nümunə götürərək yiyələnir. Eyni zamanda uşağın əks cins haqqında, onun rolları ilə bağlı ilkin düşüncələri ailədə formalaşır. Ailədəki valideyn rolları gələcəkdə qazanılan ilk sosial rollardır. Bu ilk sosiallaşdırma qurumunda qazanılan rollar uşaqların topluma adaptasiyasında önəmli rol oynayır.
Ailədə valideynlərdən hər hansı birinin yoxluğu, əgər onu əvəz edəcək başqa birisi yoxdursa, uşaqları sosial rol üçün gərəkli nümunədən məhrum edir. Bəzən günümüzdə sosial-psixoloji problem olan maskulinizasiya və feminizasiya hadisəsi də daha valideyn nümunəsinin olmamasından irəli gəlir. Heç şübhəsiz ki, bu məsələ günümüz üçün çox aktual olan problemdir.
Ailədə baş verən boşanmalar uşaqlara psixoloji baxımdan daha ciddi təsir göstərən psixo-sosial problemlərdəndir. Boşanma nəticəsində valideynlərindən hər hansı birindən ayrı yaşamağa məcbur olan uşaqlarda güvənsizlik hissi, içəqapanıqlıq və ya aqressiv davranışlar özünü göstərir ki, bu da uşaqların sosiallaşmasına mənfi təsir göstərir, onlar sosial qəbul görməkdə çətinliklər yaşayırlar. Bir çox hallarda natamam ailədə, uşaqlara gərəkli nəzarətin olmadığı bir şəraitdə onlar cinayətkarlığa yönəlmiş və ya narkotik bağlılığı olan uşaq qruplarına daxil olur və normal qruplarda qəbul görməyən uşaqlar burada özünütəsdiqə yönəlirlər ki, bu hal da uşaq cinayətkarlığını və narkomaniyanı artırır. Boşanmış ailələrdəki cinayətə, mənfi vərdişlərə yönəlməyən uşaqlar isə topluma qarşı küsgün olur və bir çox psixoloji travmalar yaşayaraq sarsıntı və streslərlə dolu bir həyat keçirirlər.
Boşanma müxtəlif yaşlardakı uşaqlara sosial-psixoloji baxımdan müxtəlif cür təsir göstərir. Məktəbəqədər və yeniyetməlik yaşı dövründə olan uşaqlara boşanmalar daha çox təsir göstərir. Bu dövrlər insan həyatının ən həsas dövrləridir və uşaqlar ən çox bu dövrlərdə ata-ana dəstəyinə ehtiyac hiss edir, onların hər zaman yanında olmalarını istəyərlər. Boşanma 2-2,5 yaşlı uşaqda çevrədəki insanların diqqətindən kənarda qalamaq istəyini ortaya çıxarır. O, insanların diqqət mərkəzində olmaqdan qorxur. 3-4,5 yaşlı uşaqlarda aqressiv davranışlar meydana gəlir. Uşaq valideynlərin bir-birindən ayrılmasının günahını özündə görür, özünə güvəni, inamı itir, təxəyyülü inkişafdan qalır, sosial davranışlardan çəkinir. 5-6 yaşlarında yuxarıdakı mənfi davranışlarla birlikdə gərginliklər, fobiyalar özünü göstərir, aqressiv davranışlar özünün ən son həddinə çatır. Kiçik məktəbli yaşı dövründə uşaqlar şiddətli sarsıntı, qorxu və narahatlıq kimi hisslər keçirirlər.
Gənc nəslin sosiallaşmasına toplumun gender-rol strukturunun keyfiyyət xüsusiyyətləri təsir göstərir ki, bu da bu və ya digər cinsin mövqeyi, gender-rol gözləntiləri və öz gələcəyini təyinetmə prosesinə təsir edən fikirlərin mənimsənilməsini müəyyən edir. Psixologiyada cinsi fərqlər anlayışı cinsi-bioloji mahiyyət daşıyır və onun yardımı ilə insanlar "kişi" və "qadın" anlayışlarını müəyyənləşdirirlər.

Uşaqlar 4 yaşında oğlan və qız olması haqqında bilgi sahib olurlar, onlarda bir cinsi kimlik anlayışı meydana gəlir, əldə etdiyi bilgilər nəticəsində rollarını mənimsəyir və bu rolları şəxsiyyətlərinin bir parçası halına gətirirlər. Bu zaman uşaqlar, kişi və qadınların fərqliliklərinin fərqinə varırlar. Uşaq kişi və qadın arasındakı fərqləri görməyə başlayanda adətən yaxşı oğlan, ya da qız olmaq istəyi ilə şərtlənən özü ilə eyni cinsli olan rol modellərinə diqqət yetirir.

Cinsi xüsusiyyətlərə uyğun olaraq sosiallaşma prosesi həyat boyu davam edən bir proses olmaqla yanaşı, istifadə olunan təqlid, nümunə materialları hər bir mədəniyyətdə kişilik və qadınlıq etalonları ilə bağlı olan tam bir sistemdir. Valideynlər, müəllimlər, digər uşaqlar, oyuncaqlar, qohumlar və media kimi mənbələrdən uşaq sahib olduğu toplumun bu və ya digər cinsə uyğun olduğunu düşündüyü davranış normalarını öyrənir. Məktəbdə müəllimlərin davranışları, dərs kitablarındakı, KİV və virtual platformadakı kişi və qadın rolları haqqındakı nümunələr uşaqlarda cinsi rolların öyrənilməsinə birbaşa təsir edir.

Ailədə valideynlər qıza, qadına, oğlanlara isə kişiyə məxsus sosial rolları mənimsətməyə çalışırlar. Bu proses ailədə gərəkli səviyyədə həyata keçirilərsə uşaqlar sosial həyata normal, öz rollarını mənimsəmiş insanlar olaraq daxil olarlar. Əks halda isə uşaqların davranışaları ilə toplumun istəyi üst-üstə düşməz. Çox vaxt ailədə əks cinsin xarakter xüsusiyyətlərinə uyğun olaraq tərbiyə edilən oğlan və qızlarda feminizasiya və maskulinizasiya keyfiyyətlərinin artması və birbaşa olaraq klassik və yeni media tərəfindən açıq və gizli təbliği ciddi sosial-psixoloji problemdir. Getdikcə daha sürətli yayılma xarakteri daşıyan feminizasiya və maskulinizasiya probleminin yaranma səbəbi müxtəlif amillərə bağlıdır. Əsas olaraq iki sosial-psixoloji amili göstərə bilərik.

1. Reallığın valideynlər tərəfindən qəbul edilməməsi. Bir çox hallarda valideynlərin doğulacaq övladlarının qız və ya oğlan olması ilə bağlı həddən artıq istəkləri olur. Bu zaman istəklərinə uyğun olmayan əks cins dünyaya gəldikdə valideynlər bir növ gerçəkliyi qəbul etmək istəmir, ona yanaşmada bu reallaşmayan düşüncələrini əks etdirirlər. Yəni qıza oğlan, oğlana qız kimi yanaşırlar.
2. Gərəkli rol-modelin olmaması. Bəzən bir neçə qız övladından sonra dünyaya gələn oğlan və ya bir neçə oğlan övladından sonra dünyaya gələn qız üçün ailədə cinsi rolları oyrənəcəyi, təqlid edəcəyi bir nümunə olmur. Təbiidir ki, bu rolların öyrənilməsində valideyn müstəsna önəm daşıyır. Amma günümüzdə iş həyatının valideynlərin övladlarla ünsiyyətinə ciddi zərər vurduğunu və valideynlərin zamanlarının çox hissəsinin işdə keçirdiyini nəzərə alaraq deyə bilərik ki, bu rolları öyrənmədə kiçik yaşlarda oğlan övlad üçün bacılar, qız övladı üçün qardaşlar əsas rol-model olurlar. Eyni zamanda məktəbdə müəllimlərin əksəriyyətinin qadın olması, KİV-də və virtual mediada mənfi nümunələrin təbliği də problemin dərinləşməsinə imkan yaradır.

Sosiallaşma prosesində ailə ilə yanaşı, aparıcı rol təhsil qurumlarına- uşaq bağçalarına, məktəblərə, orta və ali təhsil müəssisələrinə məxsusdur. Uşağın sosiallaşmasının vacib şərti onun uşaq bağçasında, məktəbdə, müxtəlif uşaq və yeniyetmə birliklərindəki yaşıdları ilə ünsiyyətidir.

Uşağın sosiallaşmasında təməl qurumlardan biri də məktəbdir. İlk 5 ildən sonra ailənin sosiallaşdırma vəzifəsini məktəb öz üzərinə götürür. Təhsil prosesi sosiallaşmanın önəmli amilidir və topluma uğurla uyğunlaşma və aktiv sosial mövqe tutmaq üçün gərəkli olan bilik və bacarıqların əldə olunmasına böyük təsir göstərir. Məktəb uşaqlara zehni və sosial fəaliyyətlərdə uğur qazanmaq üçün geniş imkanlar verir. Məktəbin əsas sosiallaşdırma funksiyası uşağa sahib olduğu toplumun dəyərlərini mənimsətməkdir. Bu da gərəkli bilik və bacarıqların, həmin toplumun davamlılığını qoruyan dəyərlərin gənc nəslə ötürülməsində özünü göstərir.

Sinif daxilində baş verən hadisələr şagirdlərinin sosiallaşmasında böyük rol oynayır. Şübhəsiz ki, hər bir şagird sinifdə özünütəsdiq üçün bir çox fəaliyyətlərə baş vurur. Onlar öz bacarıq və qabiliyyətlərini sərgiləyərək ətrafdakı yoldaşları tərəfindən qəbul edilməyi, beləliklə də sosial qəbul qazanmağı qarşılarına əsas məqsəd kimi qoyurlar. İnsanın hər zaman içində olduğu sosial qrupda qəbula ehtiyacı vardır. Bəzən hətta özünü sinifdə yaddan çıxarılmış bir tip olaraq görən şagirdlər özünütəsdiq üçün bir sıra yollara yönəlirlər. Bu demək olar ki, şagirdlər üçün sinif mühiti kimi kiçik sosial mühitdən daha böyük sosial mühitə hazırlıq mahiyyəti daşıyır. Şagirdlər birbaşa bəzi davranış

nümunəllərini göstərərək hansıların insanlar tərəfindən qəbul görülən, hansıların isə rədd edilən davranışlar olduğunu öyrənirlər.

Digər tərəfdən məktəbdə əsas aparıcı qüvvə olan müəllim də uşağın sosiallaşmasında önəmli olan insandır. Şagirdlər hər zaman müəllimin təsiri altındadırlar. Təbii ki, bir sinifdə dərs deyən müəllimlərin hamısı şagirdlərdən gələcək sosial həyata hazırlanmasında tələb olunan davranışları göstərmələrini istəyirlər. Bunun əksi davranışları isə müəllimlər tərəfindən qəbul edilmir. Bu məktəb mühitində uşaq, yeniyetmə və gənclərin sosiallaşdırılmasında bir növ nəzarət mexanizmidir ki, əsası müəllim tərəfindən qəbul edilmə istəyinə dayanır.

Altı yaşında məktəbə qədəm qoyan birinci sinif şagirdi üçün müəllim sosial davranış etalonudur. Öncələri valideynə daha çox bağlı olan, onlarda böyük güç, mükəmməllik görən uşaqlar birinci sinfə başaladıqdan sonra valideynə qarşı tənqidi yanaşırlar. Uşaqlar valideynlərin bir insan kimi bütün davranışlarını müşahidə etdikləri halda müəllimlərin davranışlarının sadəcə sosial tərəfini görürlər. Bu da birbaşa olaraq müəllimin sosiallaşmada ideal rol-nümunə olmasına imkan yaradır.

Sosiallaşma təbii ki, insandan-insana fərqlilik göstərən bir prosesdir. Bu fərqlilik şübhəsiz ki, hər bir insanın fərdi psixoloji xüsusiyyətlərindən irəli gəlir. Həyat təcrübəsi, şəxsi həyatda baş verən önəmli hadisələr də şəxsiyyətin formalaşmasına və sosiallaşmasına önəmli təsir göstərir. İnsanın sosial həyata uyğunlaşmağa başladığı ilk mərhələlərdən fərdi psixoloji fərqlər özünü göstərir. Bəzi davranış nümunələrinin insandan-insana fərqli olduğunu qeyd edən Şarlotta Bühler uşaqlar üçün bu üç fərqli sosial tipi müəyyənləşdirmişdir:

1. Sosial baxımdan kor tip. Bu qrupu meydana gətirən uşaqlar digərlərinə diqqət yetirmədən, sadəcə olaraq özləri ilə maraqlanırlar.

2. Sosial baxımdan bağlı tip. Bu qrupdakı uşaqlar digər uşaqların təsiri altına tez düşür, onlara qarşı böyük diqqət yetirirlər.

3. Sosial baxımdan müstəqil tip. Bu qrupdakı uşaqlar digər uşaqların varlığından xəbərdar olmaları ilə yanaşı, onların təsiri altında qalmamağa çalışırlar.

Sosiallaşmanın bir proses olduğu və körpəlik yaşı dövründən başlayaraq gənclik yaşının sonu və orta yaş dövrününü başlanğıcında uğurlu və ya uğursuz olaraq nəticələndiyini göz önündə tutsaq qeyd edə bilərik ki, bu dövrdə insanın psixoloji bir rəhbərliyə, yardıma və məsləhətə ehtiyacı vardır. Təbii ki, bu prosesdə insanın fərdi psixoloji xüsusiyyətlərinə diqqət yetirməmək olmaz və düşünürük ki, bir şəxsiyyətin formalaşmasında sosial amillər nə qədər önəmli rol oynayırsa, psixoloji amillər də bir o qədər önəmə sahibdir. Eyni zamanda genetik olaraq ötürülən xüsusiyyətlər fərdin davranışına və sosial stimullara reaksiyasına təsir göstərir.

Sosiallaşma prosesinin mürəkkəb və hər bir toplum üçün önəmli bir proses olduğunu nəzərə alaraq bu prosesə təsir göstərən faktorları geniş analiz etmək, mahiyyətini dərk etmək və bu prosesdə uşaq, yeniyetmə və gənclərə gərəkli sosial-psixoloji rəhbərlik fəaliyyətləri həyata keçirmək çox önəmlidir. Uğurlu sosiallaşmanı təmin etmək üçün əsas fəaliyyət sistemi bu zəmin üzərində qurulmalıdır:

- sosiallaşma prosesində uşaq, yeniyetmə və gənclərə gərəkli yardımı göstərmək;
- effektiv proqramlar və dəstək strategiyaları hazırlamaq üçün sosiallaşmaya təsir göstərən faktorların fərdin sosial-psixoloji inkişafına təsirini başa düşmək;
- zamanında uğursuz sosiallaşma elementlərini aradan qaldırılmaq;
- sosial dezadaptasiya və davranış pozuntularına səbəb olan faktorların öyrənilməsi və geniş təhlili aparılaraq profilaktik tədbirlər hazırlamaq və uşaq, yeniyetmə və gənclərin topluma uyğunlaşmasına yardım etmək;
- ailələrə gərəkli sosial-psixoloji yardım fəaliyyətlərini həyata keçirilmək;
- təhsil qurumlarında sosiallaşmaya təsir edən faktorların analizi və daha səmərəli təhsil mühitinin yaradılmasına yardım etmək və s.

Ümumiyyətlə, sosiallaşma həm daxili (bioloji və psixoloji), həm də xarici (sosial və mədəni) amillərin təsiri altında olan mürəkkəb bir prosesdir. İnsanın sosiallaşmasına mənfi təsir göstərən xarici mühit və daxili psixoloji faktorların dərindən təhlil edilməsi, səbəblərin aşkara çıxarılması və bu səbəblərin

aradan qaldırılması lazımdır. Bu prosesdə xüsusən həssas dövrlər olan uşaqlıq, yeniyetməlik və gənclik dövründə güclü təsir mexanizminə sahib yerdə duran valideynlərin, müəllim və tərbiyəçilərin, xüsusən də məktəb psixoloqlarının üzərinə böyük məsuliyyət düşür. Bu vəzifənin öhdəsindən gəlmək üçün isə onların yetərli səviyyədə sosial-psixoloji bilgilərə sahib olması gərəklidir.

Ədəbiyyat Siyahısı

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə.Sosial psixologiya. Bakı, 2003
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiyanın axtual məsələləri. Bakı, 1989.
3. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları. Bakı, 2000.
4. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Əsrin meqameylləri: psixopedaqoji problemlər. Bakı 2008.
5. Əlizadə H., Mahmudova R. Sosial pedaqogika. Bakı: 2013, 368 s.
6. Vatandaş S. Sosyalleşme ve Sosyalleşmenin Sosyal Medya Mecralarındaki Anlamsal ve İşlevsel Dönüşümü. Erciyes İletişim Dergisi. Temmuz 2020 Cilt. 7, Sayı 2, 813-832.
7. Андреева Г.М.Социальная психология.- М., Аспект, 2004.
8. Ranjbar, K., Hosseinpour, H., Shahriarirad, R., Ghaem, H., Rahimi, T., Mirahmadizadeh, A., Hosseninpour, P. (2021, 10 Mart). Students' attitude and sleep pattern during school closure following COVID-19 pandemic quarantine: a web-based survey in south of Iran.
9. Plomin, R., & Asbury, K. (2005). Nature and Nurture: Genetic and Environmental Influences on Behavior. The Annals of the American Academy of Political and Social Science, 600, 86–98.
10. https://elib.belstu.by/bitstream/123456789/26192/1/Koleda_Socializacija.pdf
Onlayn katılım

THE ROLE OF THE GREAT LEADER HEYDAR ALIYEV IN THE DEVELOPMENT OF THE AGRICULTURAL SECTOR IN SHAMAKHI

ŞAMAXIDA AQRAR SAHƏNİN İNKİŞAFINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU

Zərifə Şamil qızı Cavadova
ADPU-nun Şamaxı filialı,t.ü.f.d.dosent
ORCİD kod 0000-0003-4294-386X.

Xülasə
XX yüzillikdə Azərbaycanın 30 illik tarixi bir inkişaf dövrü Heydər Əliyevin rəhbərliyi, fəaliyyəti ilə bağlıdır. Heydər Əliyev həm Azərbaycana rəhbərlikdə, həm də SSRİ-də rəhbər vəzifədə çalışdığı dövrdə, həmçinin 1993-2003-cü illərdə Azərbaycana dünya şöhrətli, müdrik, uzaqgörən dövlət xadimi, güclü təşkilatçı, işgüzar, bacarıqlı, milli dəyərləri yüksək, xalqa, vətənə, torpağa bağlı rəhbər olduğunu sübut etdi, ölkəni parçalanmaqdan xilas etdi, bərpa edilən dövlət müstəqilliyimizi xalqla birlikdə qorudu, möhkəmləndirdi və qüdrətli dövlət çevirmək üçün gələcəyə yol açdı.
Ulu Öndər Azərbaycanın,o cümlədən Şamaxının da sosial-iqtisadi həyatında,aqrar sahə də daxil olmaqla dərin və uzunmüddətli böhranın bürüdüyü, olduqca mürəkkəb, ağır bir vəziyyətdə oldugu respublikamız iqtisadi göstəricilərinə görə ittifaq respublikaları arasında sonuncu yerdə olduğu bir şəraitdə Azərbaycanda rəhbərliyə gəlmişdi.Ulu Öndər hakimiyyətə gəldikdən sonra həyata keçirdiyi tədbirlər ,qəbul edilmiş qərarlar əsasında rayon iqtisadiyyatı,aqrar sahə də yüksəliş mərhələsinə daxil olmuşdu. Yəni həmin vaxtdan da Azərbaycanda,regionlarda ,o cüçmlədən Şamaxıda da tənəzzüldən tərəqqiyə dönüş başlanmışdı. Məhz Ulu Öndərin fədakar əməyi, xüsusi təşkilatçılığı ilə iqtisadi inkişafın dinamikası Azərbaycanda keçmiş ittifaq respublikalarından xeyli yüksək olmuş,bölgələrdə mühüm nailiyyətlər qazanılmışdır.
İstər hakimiyyətdə oldugu birinci dövr,istərsə də ikinci dəfə hakimiyyətə gəlişindən sonra bu illərdə müdrik, zəngin təcrübəyə əsaslanan H.Əliyevin rəhbərliyi altında respublika iqtisadiyyatında,o cümlədən Şamaxıda istehsalın sürəti xeyli genişlənmiş, məhsuldarlıq yüksəlmiş, böyük uğurlar, nailiyyətlər qazanılmış, yeni və müasir istehsal sahələri yaradılmış, əhalinin maddi rifah halı və mənəvi vəziyyəti əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.
Acar sözlər: Ulu Öndər,Heydər Əliyev,Şamaxı,aqrar sahə, inkişaf

Abstract
A 30-year period of historical development of Azerbaijan in the 20th century is associated with the leadership and activities of Heydar Aliyev. During his leadership of Azerbaijan and his work in a leading position in the USSR, as well as in 1993-2003, Heydar Aliyev proved to Azerbaijan that he was a world-famous, wise, far-sighted statesman, a strong organizer, a businesslike, capable leader with high national values, devoted to the people, homeland, and land, saved the country from disintegration, protected and strengthened our restored state independence together with the people, and paved the way for the future to turn it into a powerful state.
The Great Leader came to power in Azerbaijan at a time when our republic was in the last place among the union republics in terms of economic indicators, which was engulfed by a deep and long-term crisis in the socio-economic life of Azerbaijan, including Shamakhi, and was in a very complex and difficult situation, including in the agricultural sector. After the Great Leader came to power, the regional economy and the agricultural sector also entered a stage of growth based on the measures he implemented and the decisions he made. In other words, since that time, a turnaround from decline to progress had begun in Azerbaijan, in the regions, and in Shamakhi in particular. It was precisely

through the selfless work and special organization of the Great Leader that the dynamics of economic development in Azerbaijan was much higher than in the former union republics, and significant achievements were achieved in the regions.
Both during his first term in power and after his second term in power, under the wise and experienced leadership of H. Aliyev, the pace of production in the republic's economy, including Shamakhi, has significantly expanded, productivity has increased, great successes and achievements have been achieved, new and modern production areas have been created, and the material well-being and moral state of the population have significantly improve
Keywords: Great Leader,Heydar Aliyev,Shamakhi,agrarian sector, development

Giriş
Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısında xidmətləri çoxdur Onlardan biri də Şamaxıda aqrar sahənin inkişaf etdirilməsinə göstərdiyin diqqət və qaygı olmuşdurUlu Öndər Heydər Əliyev istər hakimiyyətdə oldugu birinci dövr,istərsə də ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycanda çox agır və mürəkkəb bir vəziyyət mövcud olmuşdur. Lakin bütün çətinliklərə,ölkəmizin düşdüyü agır vəziyyətlərə baxmayaraq bütün Türk dünyasının lideri Heydər Əliyevin həyata keçirdiyi ugurlu siyasəti,o cümlədən bütün aqrar sahəni əhatə edən islahatlarının gerçəkləşdirilməsi nəticəsində ölkəmizdə,o cümlədən ,Şamaxıda da aqrar sahədə mühüm ugurlara nail olunmuşdur.Yalnız Ulu Öndərin diqqət və qaygısı nəticəsində rayonumuzda aqrar sahənin də yüksək tərəqqisi mümkün olmuşdur.

Ulu Öndərin hakimiyyətinin birinci mərhələsində Şamaxıda aqrar sahəyə olan diqqət və qaygı
Ulu Öndər Heydər Əliyev hələ 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra öz təşəbbüskarlığı və işgüzarlığı ilə respublika həyatının bütün sahələrində dirçəlişə nail olmuşdu. Ümummilli Lider özünəməxsus fəhm və məntiqlə elə həmin dövrdə Azərbaycanın gələcəyini görür, respublikanın iqtisadi potensialını gücləndirmişdi.Hələ 1976-80-ci illərin yekunları göstərmişdi ki, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda aqrar sahə, kənd təsərrüfatı yeni, daha yüksək pilləyə qalxmışdı. Təsadüfi deyil ki,bütövlükdə aqrar sahə, kənd təsərrüfatının inkişaf sürətinə görə, o dövrlərdə Azərbaycan keçmiş sovet respublikaları arasında birincilər sırasına çıxmışdır.
Şamaxı rayonun iqtisadiyyatının əsas hissəsini kənd təsərrüfatı təşkil edir və ölkənin böyük kənd təsərrüfatı rayonu hesab olunur.Rayonun aqrar sahəsində üzümçülük, taxılçılıq və heyvandarlıq əsas yer tutur. Ulu Öndər Heydər Əliyev respublikamızda hakimiyyətə gələnə qədər digər sahələrdə böhran, agır vəziyyət oldugu kimi aqrar sahədə də mürəkkəb bir vəziyyət mövcud olmuşdur.Belə bir vəziyyət regionlarda .o cümlədən Şamaxıda da özünü büruzə vermişdi.Belə ki, "Şamaxının Heydər Əliyevə qədərki aqrar sahəsi tamamailə bərbad bir vəziyyətdə idi.Taxılçılıqla, üzümçülüklə və heyvandarlıqla məşgul olan rayonun kolxoz və sovxozları ziyanla işləyir,verilən tapşırıqları yerinə yetirə bilmirdi. Həmin dövrün arxiv materialları da bu fikri bir daha təsdiqləyir... Dahi Öndərimizin şəxsi tapşırıgı ilə hazırlanmış və qəbul edilmiş "Şamaxı rayonunun iqtisadiyyatının və mədəniyyətinin daha da inkişaf etdirilməsi tədbirləri haqqında"keçmiş Azərbaycan KP MK-nın və respublika Nazirlər Sovetinin 1978-ci il 21 yanvar tarixli qərarından sonra Şamaxı şəhəinin , rayonun kənd və qəsəbələrinin siması başdan -başa dəyişmiş,onun sosial-iqtisadi durumu getdikcə möhkəmləndirilmişdir.(**Heydər Əliyev və Şamaxı,2005,səh.15**)
"Heydər Əliyev hələ Azərbaycana birinci dəfə rəhbərlik etdiyi müddətdə aqrar sahəni dövlətin ddiqqət və dəstəyi olmadan inkişaf etdirməyin çətin oldugunu bildiyinə görə bu sahədə yeni yaranmış sahibkarlıq subyektlərinin formalaşması və tərəqqisi üçün onların dövlət dəstəyinə daha böyük ehtiyacı oldugunu bəyan etmiş və bu istiqamətdəı müvafiq tədbirlər görməyə başlamışdır. Bu istiqamətdə Heydər Əliyevin təşəbbüsü və imnzaladıgı sənədlərlə kənd təsərrüfatı məhsulları istehsalçılarını stimullaşdırmaq məqsədilə onlar bir neçəil əkin aparmaq üçün müəyyən müddət

pulsuz yanacaqla təmin edilmiş,2002-ci ildən isə fermerlər torpaq vergisi istisna olmaqla digər vergilərdən azad olmuşlar.”(**Eldar İbrahimov,2023,səh.9)**
Ulu Öndər ilk olaraq torpaq islahatında,habelə sovxoz və kolxozların əmlakının bölgüsündə ədalətli nəticələrə nail olmaq üçün “Torpaq islahatı haqqında”,”Aqraq islahatın əsasları haqqında”və “sovxoz və kolxozların islahatı haqqında “qanunlar qəbul edərək bu islahatın hüquqi bazası yaradıldı. Şamaxıda da bu istiqamətdə islahatlar ugurla davam etdirilmişdir. Torpaqların əsil sahiblərinə verilməsin istiqamətində mühüm işlər həyata keçirilmişdir. Şamaxıda da həmin qanunlara və fərmanlara uygun olaraq 1996-cı ildən başlayaraq kolxozlar və sovxozlar ləgv olundu,onların torpaqları və əmlakları qanunvericiliyə uygun olaraq kənd əhalisi və təsərrüfat üzvləri arasında bölündü. Bununla da əvvəllər yalnız dövlətə mənsub olan torpaqlar dövlət,bələdiyyə və xüsusi mülkiyyətə verildi. Şamaxıda da kənd təsərrüfatı məhsulları istehsalçıları fiziki və hüquqi şəxs qismində sahibkarlıqla məşgul olçmaq üçün böyük imkanlar əldə etdilər.
Respublikamızda aqrar islahatların hüquqi bazasının yaradılması, onun təşkili və həyata keçirilməsinda ümummilli lider Heydər Əliyev misilsiz xidmət göstərmiş və əslində, o, bu mühüm dövlət, siyasi və iqtisadi tədbirin həm banisi, həm də təşkilatçısı olmuşdur.
“Böyük idark sahibi olan Heydər Əliyev ölkə iqtisadiyyatında , o cümlədən aqrar sferada yaranmış dərin böhranı özünə məxsus uzaqgörənliklə hərtərəfli təhlil edərək ,xalqla,alim və mütəxəssilərlə dəfələrlə məsləhətləşmələr apardıqdan sonra ,islahatların aparılmasının bu taleyüklü,agır vəziyyətdən çıxış yolu oldugunu cəsarətlə irəli sürmüşdü. O,ölkənin və xalqın müqəddəratını həll edən bu böyük və mürəkkəb islahatın hazırlanması və həyata keçirilməsinin öhdəsindən də məharətlə gəlmişdi**.(.Adil Mirabdullayev, 2023,səh.36).**
Heydər Əliyevin hakimiyyətdə olduğu 1993–2003–cü illərdə aqrar sahə ilə bağlı 50–dən artıq normativ–hüquqi sənəd qəbul edilmiş, çoxsaylı fərman və sərəncamlar imzalanmışdır. Bu sənədlər aqrar islahatların gedişini sürətləndirmiş, kənd təsərrüfatı məhsullarının artırılmasını təmin etmiş, kənddə sahibkarlığın inkişafına təkan verilmişdir, nəticədə ölkədə xüsusilə çörək problemi həll edilmişdir
.Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" 9 iyul 1975-ci il tarixli, həmçinin "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək, habelə irriqasiya-meliorasiya obyektlərinin layihələşdirilməsi və tikilməsi tədbirləri haqqında" qərarlar qəbul edilmişdir.qarşıya qoyulmuş vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində respublikada irriqasiya-meliorasiya işləri, eləcə də üzümçülükdə çox böyük uğurlar əldə edilmişdir.
Üzümçülüyün intensiv inkişafı aqrar sahədə nailiyyətlərin daha da inkişafına səbəb olmuşdur.1970-1980-cı illərdə Şamaxıda da üzümçülük sahəsində böyük nailiyyətlər qazanılmış,rayonumuz bu cəhətdən respublikada öncül sıralara çıxmışdır.
aqrar bölmənin inkişafmda da Heydər Əliyevin xidmətlərinə diqqət çəkilir və deyilir: “Postsovet məkanında analoqu olmayan cəsarətli qərarları ilə Heydər Əliyev torpağın şəxsi mülkiyyətə verilməsi ilə ölkəmizin ərzaq təhlükəsizliyini təmin etmiş oldu. Bu gün müxtəlif kənd təsərrüfatı komplekslərinin uğurlu fəaliyyəti onun aqrar siyasətinin parlaq təzahürüdür

Müstəqilılik illərində Ulu Öndərin aqrar sahəyə diqqət və qaygısı
1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan məhv olmaq təhlükəsi qarşısında qalanda yenidən böyük siyasətə qayıdan Ulu Öndər Heydər Əliyev fenomenal istedadını, zəngin dövlətçilik təcrübəsini tarixin xalqımıza bəxşişi olan kövrək istiqlalımızın qorunmasına və möhkəmlənməsinə yönəltdi. "Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir" - söyləyən Ulu Öndər atəşkəs imzaladıqdan və ölkədəki anarxiyaya son qoyduqdan sonra sabitlik yaratmağa müvəffəq olmuşdu.Özəlləşmə proqramı, torpaq islahatı, hüquqi dövlət quruculuğu sahəsində islahatlar genişlənmişdi.

Həmin vaxt bu islahatlardan danışarkən Ulu Öndər qeyd edirdi ki,"Biz islahatları bir gündə yox, bir ayda yox, bəlkə də bir ildə yox, tədricən həyata keçiririk".Bəli, aqrar-torpaq islahatları birdəfəlik kampaniya deyil. Bu, çox ciddi, həssas bir prosesdir. Nə qədər ki Azərbaycanda müxtəlif mülkiyyət formaları mövcuddur, bu proses davam etməlidir. Ulu öndər böyük uzaqgörənliklə həm də sübut etdi ki, Azərbaycanda aqrar sahənin inkişafı aparılacaq torpaq islahatlarının nəticələrindən asılı olacaqdır. 1995-ci ilin fevral ayında "Aqrar islahatların əsasları" və "Kolxoz və sovxozların islahatı haqqında "qanunlar qəbul edildi. Bu mühüm qanunları həyata keçirilməsi ilk növbədə torpaga mülkiyyət münasibətlərinin yenidən müəyyənləşdirilməsindən çox asılı idi.1995-ci ilin mart ayında "Dövlət Aqrar islahatı Komissiysı" yaradıldı.1996-cı il iyulun 16-da ölkənin aqrar sektorunda inqilabi bir addım atıldı.Prezidentz Heydər Əliyevin rəhbərliyi altında hazırlanan və onun təfəkkürünün və siyasi iradəsinin məhsulu olan "Torpaq islahatı haqqında "qanun qəbul edildi.Bu qanuna görə ,bütün postsovet respublikalarından fəırqli olaraq ,torpaq sosial ədalət prinsipinə əsasən kənddə yaşayan vətəndaşların xüsusi mülkiyyətinə pulsuz verildi**."(Tahir Qaffarov,2005,səh.192)**

"Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 mart 1999–cu il tarixli fərmanı aqrar sahədə sahibkarlığın inkişafına böyük təkan vermişdir. Kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla, digər vergillərdən beş il müddətinə azad edildi və onlara neft məhsullarının pərakəndə satışında güzəştlər verildi. Sonradan Azərbaycan Respublikasının 28 noyabr 2003–cü il tarixli qanunu ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına vergi güzəştlərinin müddəti 2009–cu ilədək, Azərbaycan Respublikasının 25 noyabr 2008–ci il tarixli qanunu ilə isə 1 yanvar 2014–cü ilədək uzadılmışdır.

Heydər Əliyevin hakimiyyətdə olduğu 1993–2003–cü illərdə aqrar sahə ilə bağlı 50–dən artıq normativ–hüquqi sənəd qəbul edilmiş, çoxsaylı fərman və sərəncamlar imzalanmışdır. Bu sənədlər aqrar islahatların gedişini sürətləndirmiş, kənd təsərrüfatı məhsullarının artırılmasını təmin etmiş, kənddə sahibkarlığın inkişafına təkan verilmişdir, nəticədə ölkədə xüsusilə çörək problemi həll edilmişdir

Aqrar-torpaq islahatı ulu öndərin şah əsəridir. Çünki məhz müstəqillik qazandıqdan sonra torpaq öz sahibinə verildi və bununla da Azərbaycanda vətəndaşlar torpaq mülkiyyətçisinə çevrildilər.

Ulu Öndərin ölkəmizə bəxş etdiyi aqrar torpaq islahatları həm vətəndaşların, həm də respublikamızın iqtisadi, siyasi həyatında təkzibolunmaz nailiyyətlərə yol açdı ki, məhz bu səbəbdən ölkəmizin siyasi-iqtisadi tarixində "Heydər Əliyevin torpaq islahatları" modeli qızıl hərflərlə öz əksini tapdı. Qəbul edilmiş 150-dən çox qanun, fərman və digər hüquqi normativ aktlar Azərbaycanda torpaq islahatlarını həyata keçirməyə əsaslı zəmin yaratdı. "Aqrar islahatların həyata keçirilməsini təmin edən bəzi normativ-hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 1997-ci il tarixli Fərmanından sonra islahatların sürətlə həyata keçirilməsinə start verildi. Nəticədə respublikamızda mövcud olmuş 2041 təsərrüfat, yəni kolxoz və sovxozlar ləğv edilərək onların əkinə yararlı münbit torpaqları təxminən 875 min ailəyə verildi. Həmçinin torpaq islahatları nəticəsində torpaq üzərində üç mülkiyyət forması müəyyənləşdi.

Azərbaycanda,o cümlədən bölgələrdə , həm də Şamaxıda torpaqlar məhz Ümummilli Liderin təşəbbüsü ilə vətəndaşlara pulsuz olaraq əvəzsiz verildi. Əmlakların bölüşdürülməsi də Şamaxıda ədalətlə həyata keçirilmişdi.

Məhz ölkənin aqrar-iqtisadi siyasətinin müəllifi Heydər Əliyevin sosial ədalətə söykənən bu prinsipləri əsasında formalaşdırılan və 1993-2003-cü illərdə onun fərman və sərəncamları ilə qanuniləşdirilən, düzgün icra mexanizmləri ilə həyata keçirilən aqrar siyasətin nəticəsi Azərbaycanda aqrar sahənin gündən-günə inkişafına səbəb oldu.

"Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında" 12 mart 1999-cu ildə Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Bu qanuna və digər qanunvericilik aktlarına uyğun olaraq, "Torpaq-kadastr sənədlərinin aparılması qaydaları", eləcə də "Dövlət torpaq kadastrının aparılması qaydaları haqqında", "Dövlət torpaq kadastrı fondunun yaradılması, istifadəsi və mühafizəsi haqqında", "Yerquruluşu işlərinin aparılması qaydaları haqqında" əsasnamələr

hazırlanmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 iyun 1999-cu il tarixli qərarı ilə təsdiq edilmişdir. Bunlardan əlavə, Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə uyğun olaraq torpaqlardan istifadə edilməsinin hüquqi əsasları, növləri, torpaq mülkiyyətçiləri, istifadəçiləri və kateqoriyaları üzrə bölüşdürülməsi, torpaqların kəmiyyət xarakteristikası, habelə torpaqların bonitirovkası və iqtisadi qiymətləndirilməsi haqqında lazımi məlumat və sənədlər sistemini əks etdirən dövlət torpaq kadastrı yaradılmışdır.

Ulu Öndər Heydər Əliyev dövlətçilik məktəbinin layiqli davamçısı Prezident İlham Əliyev də Ulu Öndər tərəfindən fundamental formada bünövrəsi qoyulan regionların və aqrar sektorun həm də Şamaxıda inkişafına xüsusi diqqət yetirir. Cənab Prezidentin iqtisadi sahədə, o cümlədən aqrar sektorda həyata keçirdiyi islahatlar torpaq münasibətlərində yeni bir mərhələnin – torpaq inzibatçılığının əsasını qoydu. Torpaqlardan, xüsusəndə özəl mülkiyyətdə olan torpaqlardan səmərəli istifadə edilməsi, kənd təsərrüfatına yararlı torpaqların həcminin artırılması, ərzaq təhlükəsizliyinin təmin edilməsi sahəsində yeni normativ hüquqi aktlar, dövlət proqramları qəbul edildi. Bütün bunlar torpaq münasibətlərinin daha müasir, sivil idarəedilməsinin artıq yeni müstəviyə keçirilməsi demək idi.

Ölkə Prezidenti İlham Əliyev kənd təsərrüfatı sahəsində islahatlara sistemli yanaşmanı təmin etmək məqsədilə 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"ni təsdiq etmişdir. Sənəddə respublikanın aqrar sahəsinin inkişafı ilə bağlı 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əks olunmuşdur. Bu da aqrar sahədə orta və uzunmüddətli dövr üzrə strateji inkişaf hədəflərinə çatmaq üçün dövlətin ardıcıl mərhələlərlə icra ediləcək yol xəritəsi olduğunu göstərir.

Nəticə

Ulu Öndər Heydərv Əliyevin Azərbaycan xalqə qarşısında xidmətləru əvəzsiadir. Onun xidmətlərindən biri də regionlara,o cümlədən Şamaxıya olan diqqət və qaygısıdır.Şamaxıya olan səfərləri zamanı da Uluyn Öndər aqrar sahənin vəziyyəti ilə həmişə maraqlanmış və bu sahənin da çox inkişafı üçün daim diqqət və qaygısını əsirgəməmişdir.Məhz Ulu Öndərin Şamaxıda aqrar sahəyə olan diqqət və qaygısı sayəsində bu sahə yüksək inkişaf etdirilmişdir. Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş və Cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən islahatlar Azərbaycanın firavan gələcəyinə xidmət edir. Hazırda bu yol Cənab Preziden iLham Əliyev tərəfindən ugurla davam etdirilir.

Ədəbiyyatlar:

1. Heydər Əliyev və Şamaxı.Bakı,"Nurlan",2005,112 səh.,+72 səh.şəkil)
2.Adil Mirabdullayev"Ulu Öndərin adı,ideyaları əsrlər boyu yaşayacaqdır"Zəmanəmizin dahi azərbaycanlısı(məqalələr toplusu),Bakı:"Elm",2023-cü il-264 səh
3..Tahir Qaffarov,Azərbaycanın ən yeni tarixi,Bakı,GİSOEnterprise"2005,-275 səh.
4. Eldar İbrahimov Heydər Əliyev və aqrar islahat Azərbaycan qəzeti (10 may 2023-cü il №96(9263)

SPECIFIC TEACHING APPROACHES IN READING LESSONS

Gulnar Elmaz Musayeva
Sheki branch of ASPU

Abstract
Reading instruction remains a critical area of focus in language education, with various methodologies employed to foster literacy skills. This paper examines specific teaching approaches used in reading lessons, including Direct Instruction, Whole Language, Balanced Literacy, and Interactive Digital Strategies. Each method is evaluated based on its theoretical foundation, instructional procedures, and effectiveness in diverse educational contexts. Findings suggest that while no single method fits all learners, a thoughtful integration of multiple approaches—tailored to student needs—can significantly enhance reading proficiency. The study concludes that balanced, flexible teaching supported by technological tools offers the most comprehensive path to literacy development.
Keywords: reading instruction, Teaching approaches, Direct instruction, Whole language, Balanced literacy, Reciprocal teaching,

Introduction

Reading is a fundamental skill in language acquisition. Effective reading instruction requires a well-structured approach that combines theory and practice. This paper explores specific teaching approaches in reading lessons, analyzing their effectiveness, applications, and theoretical foundations. The approaches discussed include Direct Instruction, Whole Language, Balanced Literacy, and Interactive Digital Methods.

Reading serves as a foundational skill upon which all other academic learning is built. It not only promotes literacy but also supports learning in other content areas such as science, social studies, and mathematics.

The approaches chosen by educators for teaching reading significantly influence students' engagement, comprehension, and long-term academic success.

There is a growing need to understand these approaches in both traditional and modern classroom environments, especially with the rise of digital education.

This paper aims to provide an in-depth examination of multiple evidence-based reading instruction methodologies, supported by relevant academic research.

Direct Instruction Approach

The Direct Instruction (DI) approach is a structured method where reading is taught explicitly through modeling, guided practice, and independent application. It emphasizes systematic phonics, repetition, and immediate feedback. Rosenshine (1987) describes DI as highly effective in improving early reading skills, especially for struggling readers.

Direct Instruction often includes scripted lesson plans, ensuring consistency and fidelity across classrooms.

Its structured framework is especially beneficial for early readers and students with learning difficulties.

The success of DI in improving phonemic awareness and decoding has been documented in various experimental studies.

Critics of DI argue it may stifle creativity and limit authentic literacy experiences, yet proponents counter this by emphasizing its proven effectiveness in foundational literacy.

Whole Language Approach

The Whole Language approach emphasizes understanding and using language in its natural form. Reading materials include stories and real-life texts instead of isolated phonics drills. Goodman (1986) advocates for this method, arguing that learning language in context enhances meaning-making and comprehension.

Whole Language is rooted in the philosophy that language should be learned in its entirety rather than in isolated parts.

In this model, reading is viewed as a natural process similar to learning to speak, emphasizing immersion and contextual understanding.

Students engage in meaningful reading activities such as journaling, book discussions, and thematic units.

Despite its popularity in the late 20th century, empirical support for Whole Language has been mixed, leading to debates in literacy circles.

Balanced Literacy Approach

Balanced Literacy merges elements from both Direct Instruction and Whole Language methods. It includes guided reading, shared reading, independent reading, and word study. Fountas and Pinnell (1996) promote this model as an inclusive strategy that adapts to diverse learners' needs.

Balanced Literacy arose as a response to the polarized debate between phonics-based and whole language proponents.

This method typically involves a reading block that includes mini-lessons, group reading, word work, and independent reading.

Teachers tailor instruction to individual student needs, promoting differentiated learning.

Balanced Literacy allows for assessment-informed instruction, integrating running records, anecdotal notes, and formal assessments.

Interactive Approaches And Digital Tools

Interactive approaches like Reciprocal Teaching involve collaborative learning where students predict, question, clarify, and summarize texts (Palincsar & Brown, 1984). These strategies build metacognitive awareness and comprehension.

Reciprocal teaching enhances student ownership over learning by rotating roles among group members.

Digital tools provide multimedia inputs that appeal to diverse learning styles, including visual and auditory learners.

Virtual reading platforms can track student progress and adapt texts to reading levels, enabling individualized instruction.

However, the integration of digital tools requires careful consideration of screen time, digital literacy, and equitable access.

Conclusion

In evaluating the various approaches to reading instruction, it becomes evident that each holds particular strengths suitable for different learner profiles and contexts.

Direct Instruction offers a structured and explicit framework beneficial for foundational literacy.

Whole Language encourages holistic comprehension and learner engagement through contextual reading.

Balanced Literacy integrates both phonics and comprehension strategies, offering adaptability.

Finally, the inclusion of interactive and digital methods modernizes traditional instruction, addressing contemporary educational demands.

Educators are encouraged to adopt a hybrid, reflective approach—selecting and combining methods based on learner needs, available resources, and pedagogical goals.
Future research should focus on longitudinal effects of blended methodologies in multilingual and digital learning environments.

References

Fountas, I. C., & Pinnell, G. S. (1996). *Guided reading: Good first teaching for all children*. Heinemann.
Goodman, K. (1986). *What's whole in whole language?* Heinemann.
Leu, D. J., Forzani, E., Rhoads, C., Maykel, C., Kennedy, C., & Timbrell, N. (2015). The new literacies of online research. *Reading Research Quarterly, 50*(1), 5–25. https://doi.org/10.1002/rrq.65
Palincsar, A. S., & Brown, A. L. (1984). Reciprocal teaching of comprehension. *Cognition and Instruction, 1*(2), 117–175. https://doi.org/10.1207/s1532690xci0102_1
Rosenshine, B. (1987). Teaching functions in instructional programs. *Elementary School Journal, 88*(1), 25–31. https://doi.org/10.1086/461530
Pressley, M. (2006). *Reading instruction that works: The case for balanced teaching*. Guilford Press.
Tompkins, G. E. (2011). *Literacy for the 21st century: A balanced approach* (5th ed.). Pearson Education.
Paris, S. G., & Hamilton, E. E. (2009). The development of children's reading comprehension. In *Handbook of reading research* (Vol. 4, pp. 32–53). Routledge.
Tracey, D. H., & Morrow, L. M. (2017). *Lenses on reading: An introduction to theories and models* (3rd ed.). Guilford Press.

THE ROLE OF STRESS IN THE DEVELOPMENT OF SOMATIC DISEASES

SOMATİK XƏSTƏLİKLƏRİN İNKİŞAFINDA STRESSİN ROLU

Ped.ü.f.d.Südabə İsgəndərova Nəsrəddin qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti,Xüsusi təhsil kafedrası,Bakı şəh.

Xülasə
Somatik xəstəliklər müəyyən psixoloji travmalar və ya patologiyalar nəticəsində fizioloji səviyyədə yaranan patologiyadır. Tez-tez terapevtik xəstəxanalarda fizioloji problemlərlə yanaşı, affektiv xəstəliklər və adaptasiya problemi olan gənc xəstələrə rast gəlinir. Bir qrup yaşlı xəstələri nəzərə alsaq, bir qayda olaraq, onlar üzvi psixopatologiyalarla xarakterizə olunur. Psixoloji və ya psixiatrik problemlərin olması, xroniki və emosional stress somatik xəstəliklərin müalicəsi prosesini əhəmiyyətli dərəcədə ləngidir. Patologiyanın mürəkkəbliyi ilə psixi vəziyyət arasında da əlaqə var. Çox vaxt psixi pozulmalar somatik pozulmaların səbəbi olur. Onlar müxtəlif yollarla özünü göstərə bilər – iştahın pozulması, taxikardiya, impotensiya, tərləmənin artması, dispepsiya, ümumi fiziki pozulma və s. Tədqiqatçılar hesab edirlər ki, xəstəlik sırf fiziki faktorlardan qaynaqlansa belə, o, öz növbəsində emosional stress mənbə rolunu oynayır. Beləliklə, ümumi praktikaya müraciət edən xəstələrin üçdə birində depressiya əlamətləri var və xəstəxanaya yerləşdirilən xəstələrin təxminən 20% -ində depressiv nevroz diaqnozu qoyula bilər.
Açar sözlər: somatik xəstəliklər, stress, depressiv nevroz, kəskin və xroniki stress, stupor, inkar, psixoloji simptomlar

Abstract
Somatic diseases are pathologies that arise at the physiological level as a result of certain psychological traumas or pathologies. In addition to physiological problems, young patients with affective diseases and adaptation problems are often found in therapeutic hospitals. If we consider a group of elderly patients, as a rule, they are characterized by organic psychopathologies. The presence of psychological or psychiatric problems, chronic and emotional stress significantly slows down the process of treating somatic diseases. There is also a relationship between the complexity of the pathology and the mental state. Often mental disorders are the cause of somatic disorders. They can manifest themselves in different ways - loss of appetite, tachycardia, impotence, increased sweating, dyspepsia, general physical disturbance, etc. Researchers believe that even if the disease is caused by purely physical factors, it in turn acts as a source of emotional stress. Thus, one-third of patients referred to general practice have symptoms of depression, and about 20% of hospitalized patients can be diagnosed with depressive neurosis.
Key words: somatic diseases, stress, depressive neurosis, acute and chronic stress, stupor, denial, psychological symptoms

Giriş

Stress müxtəlif xəstəliklərin yaranmasına səbəb olur. Psixoloqlar və psixiatrlar insanın somatik xəstəlikləri ilə şəxsi xüsusiyyətləri arasında, həmçinin yaşayış mühiti arasında asılılığın olduğunu müəyyən etmişlər. Məsələn: mədə xorası xəstələri üçün yüksək borc hissi, həyəcan, əsəbilik xasdır. Bu insanlara aşağı özünü qiymətləndirmə, həddən artıq kövrəklik, tez incimək, utancaqlıq, özünə inamsızlıq, həmçinin özünə qarşı yüksək tələbkarlıq xasdır.

Müəyyən edilmişdir ki, belə insanlar əslində bacardıqlarından daha çox etməyə çalışırlar. Onlarda çətinliklərin aradan qaldırılması güclü həyəcanla müşayiət olunur. Bu həyəcan gərginlik vəziyyəti yaradır ki, həmin gərginlik həzm orqanlarının və onların damarlarının divarlarının əzələlərində spazmaya səbəb olur. Bu isə onların qanla təchizini pisləşdirir və onların mədə şirəsi ilə həzminə müqavimətini azaldır. Bu da xora yaranmasına səbəb olur. Stress səviyyəsi aşağı olan

şəxslərdə düşüncə, davranış və duyğular üzərində yüksək nəzarət qabiliyyəti görülür. Stress səviyyəsi yüksək olan şəxslərdə düşünmə zamanı beynin təhlükə mərkəzi adlandırılan amiqdalada aktivlik görülür. Stress zamanı insan bədənində kortizol ifrazı artır. Yüksək kortizol beyin həcmində kiçilməsinə, beynin özünü kontrol etmə və diqqəti idarə edən prefrontal korteksdəki boz maddənin azalmasına, beynin görüntü işləmə mərkəzi olan oksipital lobdakı boz maddənin azalmasına səbəb olur. Stress psixi pozulmaya sahib olma riskini artırır. Yüksək stress səviyyəsi və bunun uzun müddət davam etməsi depressiya, təşviş və posttravmatik stress pozuntusu ilə əlaqədar ola bilər. Stress beyin hüceyrələrinin ölməsinə səbəb olur. Beynin hipokampus sahəsində yerləşən neyronların itirilməsinə gətirib çıxarır. Hipokampus hafizə, duyğu və öyrənməni idarə etdiyi üçün bu sahədə neyronların itirilməsi yaddaşda problemlərə səbəb olur. Stress hormonlara, ürəyə və metabolizmə təsir edir. Kontrol altına alınmayan xroniki stress beynin quruluşu və funksiyalarında dəyişikliklərə səbəb olur. Stress uzun sürərsə, şiddətli və ya xroniki olarsa, insan orqanizminə zərər yetirə bilər. Orqanizm mütəmadi olaraq öz gücünü səfərbər edərsə, yaxud həmişə bu vəziyyətdə olarsa, bunun insana emosional, fiziki və əqli zərəri dəyə bilər. İnsanın davranışı, həmçinin başqaları ilə rəftarı dəyişə bilər. Xroniki stressdən əziyyət çəkən insan vəziyyətə tab gətirmək üçün siqaret çəkmək, narkotikdən istifadə etmək və s. kimi zərərli vərdişlərə aludə ola bilər. (Əliyev, 2019: 158)

Mövzunun işlənmə səviyyəsi:

Stressin izahına psixodinamik yanaşma Ziqmund Freydin nəzəriyyələrinə əsaslanır, burada o, narahatlığın iki mənşəyi və təzahürünü təsvir etmişdir: a) siqnal həyəcanı real xarici təhlükəni qabaqcadan görməyə reaksiya kimi yaranır; b) travmatik narahatlıq şüursuz, daxili mənbənin təsiri altında inkişaf edir. stiqamətlərdən biri stressi sosial-psixoloji stimullara davranış reaksiyası kimi qəbul edirdi.

G. Selyenin və B.P. Dohrenwend. fizioloji gərginlik modelində stresə adaptiv və qeyri-adaptiv reaksiyalara əsaslanan orqanizmin vəziyyəti kimi yanaşırdılar. Stress faktorları sosial amillər kimi başa düşülür: Fərdin adi həyatını pozan (məhv edən) və ya pozmaq təhlükəsi yaradan obyektiv hadisələr kimi çıxış edən iqtisadi və ya ailə uğursuzluqlarıdır. Onlar mütləq mənfi deyil və həmişə obyektiv böhrana səbəb olmur.

Mənfi təsirlər təhlükəsinin subyektiv koqnitiv qiymətləndirilməsinin rolu və insanın stressi aradan qaldırmaq qabiliyyətinə dair mövqeyə əsaslanan R.Lazarusun psixoloji stressin koqnitiv nəzəriyyəsi diqqətəlayiqdir. R.Lazarus demişdir ki, ətraf mühitə uyğunlaşma emosiyalarla müəyyən edilir, idrak prosesləri isə emosional reaksiyaların keyfiyyətini və intensivliyini müəyyən edir.Bir insanın ona təsir edən vəziyyətin mümkün təhlükəli nəticələrini gözləməsi müəllif tərəfindən təhlükənin qiymətləndirilməsi kimi müəyyən edilmişdir. Vəziyyətin mənasının və ona münasibətin təhlili ilə bağlı təhlükənin qiymətləndirilməsi prosesləri mürəkkəbdir. Onlara təkcə nisbətən sadə qavrama funksiyaları deyil, həm də yaddaş prosesləri, mücərrəd düşünmə qabiliyyəti, subyektin keçmiş təcrübəsinin elementləri, onun öyrənilməsi və s. proseslərdir.

Əsas Hissə

Bəzi hallarda, somatik pozulmalar özünü o qədər güclü şəkildə göstərə bilər ki, onlar yalnız diaqnoz deyil, həm də dərman müalicəsinin təyin edilməsini tələb edir. Ən çox görülən somatik pozulmalar:

1. iştah və həzm pozulmaları. Buraya anoreksiya daxildir. Bu cür xəstəliklər ümumiyyətlə hər hansı qeyri-sağlam vasitə ilə artıq çəki itirməyə çalışan insanlarda özünü göstərir.

2. astenik sindrom. Artan yorğunluq və psixo-emosional vəziyyətin qeyri-sabitliyi ilə xarakterizə olunur. Xəstələr qəfildən qışqırmağa, ağlaya, isterik vəziyyətə düşə və ya digər məntiqsiz hərəkətlər edə bilər. Sindrom tez-tez baş ağrısı, ürəkbulanma və başgicəllənmə ilə müşayiət olunur, bəzən qarın və ürək bölgəsində ağrı şikayətləri var;

3. konversiya pozulmaları. Onlar artan diqqəti cəlb etməyə yönəlmiş tez-tez isteriya və müxtəlif sağlamlıq şikayətləri ilə xarakterizə olunur. Xəstələr baş ağrısı, ürək ağrısı, ətraflarda zəiflik, titrəmə, nəfəs darlığı hissindən şikayət edə bilərlər.

4. depressiv pozulma. Xəstələrdə adətən qan təzyiqində dəyişikliklər, yuxusuzluq, qəbizlik, döş qəfəsində ağırlıq və baş ağrıları müşahidə olunur. Adətən belə depressiyalar melanxolik bir vəziyyətlə müşayiət olunur.

Somatik patologiyada stressin rolu yalnız daha geniş deyil, həm də daha mürəkkəb görünür. Tədqiqatçılar hesab edirlər ki, xəstəlik sırf fiziki faktorlardan qaynaqlansa belə, o, öz növbəsində emosional stress mənbəyi rolunu oynayır. Beləliklə, ümumi praktikaya müraciət edən xəstələrin üçdə birində depressiya əlamətləri var və xəstəxanaya yerləşdirilən xəstələrin təxminən 20% -ində depressiv nevroz diaqnozu qoyula bilər. Şübhə yoxdur ki, emosional amillər öz növbəsində xəstəliyin gedişatına, şiddətinə və nəticələrinə təsir göstərə bilər.

Stress vəziyyəti, əlverişsiz xarici amillərə məruz qalma nəticəsində özünü göstərən bədəndə güclü bir gərginlikdir. Əksər insanlar müntəzəm olaraq streslə üzləşirlər və bunun təcili olaraq həll edilməli olan anormal bir fenomen olduğunu başa düşmürlər. İnsanı hər addımda stresli vəziyyətlər gözləyir: evdə, ofisdə, nəqliyyatda, küçədə və s. Əgər emosional stress qeyri-müntəzəmdirsə, deməli bunda kritik bir şey yoxdur. Ancaq belə bir vəziyyət davamlı olaraq baş verərsə və uzun müddət davam edərsə, buna narahatlıq deyilir . Bu sapmanın fonunda xəstənin müdafiə mexanizmləri “pozur”, bu da ciddi patologiyaların inkişafına səbəb ola bilər.

İnsanlar tez-tez ümumi emosional fona mənfi təsir göstərən xoşagəlməz hallarla qarşılaşdıqları üçün onları varlığın qaçılmaz hissəsi kimi qəbul etməyə başlayırlar. Buna görə, stress və depressiyanın inkişafına işarə edən ilk həyəcan verici simptomları itirmə ehtimalı yüksəkdir .

Stressin yaranmasında mərkəzi əsəb sisteminin aparıcı rolunun inkarı H. Selye nəzəriyyəsində ən əhəmiyyətli çatışmazlıqdır. Onun ümumi uyğunlaşma sindromu haqqında konsepsiyası stress təsirlərinə orqanizmin cavab reaksiyasının əsəb tənzimləməsini ehtimal etmir. Bu yanaşma haqlı olaraq tədqiq olunmuşdur.

Sonrakı tədqiqatlar göstərdi ki, əsəb sistemi fəallığın tənzimlənməsində və orqanizmin uyğunlaşmasında aparıcı, hətta həlledici rol oynayır. Sübut edilmişdi ki, emosional gərginlik hər zaman fiziki stressi müşayiət edir. Homeostatik reaksiyalar, öz növbəsində, orqanizmin stresslə mübarizəyə hazırlıq və ya ondan qaçış davranışıyla müəyyən olunur. Lakin belə yanaşma zamanı stress konsepsiyası ilk öncə fizioloji deyil, davranış konsepsiyası kimi təhlil edilir. Eyni zamanda, Selye nəzəriyyəsinə ünvanlanan tənqidi qeydlər onun təkzib etmək və ya əsas müddəalarını şübhə altına qoymaqdan daha çox konsepsiyanın universallığını və inkişaf perspektivlərini müəyyən edirdilər. Selye nəzəriyyəsinin təsiri altında bir çox tədqiqatçılar stress amillərinin təsiri nəticəsində orqanizmdə yaranan fizioloji, bioloji və ya morfoloji dəyişikliklərə diqqət göstərirdilər. Bu halda stress təsiri ilə orqanizmin reaksiyası və həmin şəxsin daxili, psixoloji xüsusiyyətləri arasındakı qarşılıqlı əlaqə nəzərə alınmırdı. Emosional stressin inkişafı zamanı yalnız hormonal və neyrokimyəvi dəyişikliklər ətraflı araşdırılırdı. Lakin insan orqanizminin fizioloji reaksiyası ilə davranışı və emosional vəziyyəti arasında dinamika və qarşılıqlı əlaqə az tədqiq edilmiş, emosional gərginliklə koqnitiv proseslərin arasında funksional əlaqələr nəzərə alınmamışdır. Fizioloji və psixoloji stressin arasında fərq qoyan R.Lazarusanın emosiyaların idrak nəzəriyyəsi H. Selye nəzəriyyəsinin təbii davamı olaraq qəbul edilir. Bu konsepsiyaya əsasən, emosional stress daxili və xarici qıcıqlandırıcılara qarşı orqanizmin cavab reaksiyası kimi çıxış edir. R. Lazarusanın konsepsiyasında mərkəzi yeri emosiyanın idrak determinantları tutur. O, hesab edir ki, koqnitiv vasitə ilə ifadə olunma emosiyarın yaranması üçün vacibdir. Lazarusun konsepsiyasında 2 əsas tezis var: hər bir emosional reaksiya onun məzmunundan asılı deyil, qiymət (fikir, rəy) və ya biliyin xüsusi növ funksiyası var; emosional cavab nəsə bir sindromu, komponentlərdən hər birini hansı ki, ümumi reaksiyada hər hansısa bir vacib anı əks etdirir təşkil edir. (Lazarus, 1970, 236)

Kəskin emosional stress, hər hansı bir kəskin vəziyyət kimi, bədənin xarici bir stimula intensiv reaksiyasıdır. Stress vəziyyətində, sinir sisteminin güclü bir şoka reaksiyasından danışırıq. İnsan bədəni gündəlik həyatda qarşılaşdığımız stresli vəziyyətlərlə faydalı şəkildə mübarizə aparmağa qadirdir . Ancaq çox güclü qütb hissləri və duyğuları yaşadığımız bir vəziyyətdə kəskin stress inkişaf edə bilər. Təsvirdən göründüyü kimi, kəskin stressin səbəbləri güclü xarici şoklara psixoloji reaksiya müstəvisində yerləşir: Sevilən birinin ölümü və ya ciddi xəstəliyi; Avtomobil qəzası, təbii fəlakətlər, terror aktı; Gözümüzün qabağında baş verən qəza, zərərçəkənlərlə qarşıdurma; Həyat və ölüm vəziyyətləri; Ağır yaralanma; Boşanma; İşdən çıxarılma və s.

Somatik xəstəliklərlə yanaşı olaraq xroniki emosional stressin üç mərhələsi özünü büruzə verir:

Birincisi, "narahatlıq" reaksiyasıdır: stress zamanı bədənin bütün müdafiə mexanizmləri qıcıqlandırıcı faktora cavab olaraq səfərbər olunur. Birinci mərhələ 6 saatdan 48 saata qədər davam edir. Bu zaman simpatik və parasimpatik sistemlər aktivləşir.

Xroniki stressin ikinci mərhələsində orqanizm stress faktorlarına qarşı müqavimət göstərir və qıcıqlandırıcılara qarşı daha davamlı olur.

Xroniki stressin üçüncü mərhələsi tükənməyə gətirib çıxarır – bədənin adaptiv mexanizmləri uzun müddət həddindən artıq yüklənmə səbəbindən özünü tükəndirir. Bu mərhələ tez-tez depressiya ilə başa çatır.

Bundan əlavə, insana bir neçə stress faktoru təsir edə bilər ki, bu da uzun müddət keçdikdən sonra mərkəzi sinir sisteminin tükənməsinə və psixoloji problemlərin yaranmasına səbəb olur.

Xroniki stressin fiziki və psixoloji əlamətləri var. Bir şəxs baş ağrısı, başgicəllənmə, qarın narahatlığı, həzmsizlik, yuxu pozğunluğu və sürətli ürək döyüntüsü ilə qarşılaşa bilər.

Xroniki stress nümunələri: müxtəlif növ həll olunmayan problemlər, kredit, çoxuşaqlı ailələr, pensiyaçıların tənhalığı və s. Stress müxtəlif növ stimulların təsiri altında inkişaf edir və bədəni dəyişən şərtlərə uyğunlaşdırır. Adaptiv reaksiya zamanı kortizol, adrenalin və norepinefrin istehsalı artır. Onların qanda miqdarının dəyişməsi həzm və immun sistemlərinin depressiyasına səbəb olur. Nəticədə, beynin qorxu və narahatlığa cavabdeh olan sahələri aktivləşir, qoruyucu mexanizmlər işə salınır: tənəffüs tezliyi və ürək dərəcəsi artır, qan təzyiqi yüksəlir, əzələ tonusu və s. (Pavlova, 2008: 324)

Uzun müddət ərzində hormonların istehsalının artması və simpatik sinir sisteminin hiperaktivləşməsi daxili orqanların zədələnməsinə, psixoloji problemlərə və xoşagəlməz nəticələrə səbəb olur.

Emosional stress bütün bədən sistemlərinin fəaliyyətinə mənfi təsir göstərir ki, bu da tez-tez xəstəliklərə, daxili orqanların disfunksiyasına, endokrin xəstəliklərə, xəstənin bədən çəkisinin dəyişməsinə və s.

Emosional stressin fərdi (genetik, bioloji, psixoloji) davranış xüsusiyyətləri ilə birlikdə subyektiv qavranılması stressin mənfi psixoloji, somatik və davranış nəticələrinin inkişafına səbəb ola bilər. Stressin beyin-bədənin sistemli reaksiyası olduğunu nəzərə alsaq, xəstənin hansı xüsusi təzahürlərlə qarşılaşa biləcəyini proqnozlaşdırmaq həmişə asan olmur. Buna görə də, diqqətlə toplanmış ailə anamnezi hədəf orqan zədələnməsi üçün irsi meyllilik faktorlarını müəyyən etməyə kömək edir. Məsələn, xəstənin yaxın, əhəmiyyətli qohumlarında stresli vəziyyətdə tənəffüs problemləri varsa, bu xəstədə stressə somatik reaksiyanın eyni formaları gözlənilə bilər. (Rozanov, 2013:192) Müəyyən bir xəstənin həkimin diqqətini somatik problemlərə, məsələn, ürək-damar sistemindəki problemlərə yönəldə biləcəyini və eyni zamanda digər bədən sistemlərindən gələn simptomları görməməzlikdən gələ və ya unuda biləcəyini xatırlamaq vacibdir. Buna görə praktikada stresə qeyri-adekvat reaksiyanın müxtəlif somatik təzahürlərini aktiv şəkildə müəyyən etmək üçün tipik simptomlar haqqında bilik lazımdır. Həkim həmçinin xəstənin stressin səbəb və ya təhrikedici amil ola biləcəyi digər sağlamlıq problemlərinə də diqqətli olmalıdır.

Əvvəllər hesab olunurdu ki, psixosomatik pozğunluqlar stress və psixoloji stressin xəstəliyə səbəb olduğu ayrı bir xəstəlik qrupudur. Nümunələr mədə xorası, artrit və dermatit idi. İndi məlumdur ki, bütün xəstəliklərin sosial, psixoloji və davranış aspektləri, eləcə də fiziki üzvi xüsusiyyətləri ola bilər.

Ümumdünya Səhiyyə Təşkilatı psixosomatik təbabəti "sağlamlıq və xəstəlikdə bioloji, psixoloji və sosial dəyişənlərin öyrənilməsi" kimi təyin edir.

Nəticə

Bir çox amillər insanın vəziyyətinə uyğun olaraq stress mənbəyi ola bilər. Bir şəxs üçün stress səbəbi sayılmayan bir vəziyyət digəri üçün ciddi stress səbəbi ola bilər. Ona görə də stressi yaradan amilləri müəyyən edərkən bilinməlidir ki, hər bir faktor fərdlərə və vəziyyətlərə görə dəyişə bilər. Bu istiqamətdə stressi yaradan amilləri aşağıdakı kimi sıralamaq olar:

Şəxsi stress mənbələri ətraf mühit mənbələri qədər vacibdir. İnsanın zehni fəaliyyətləri, hadisələrə baxışı və hadisələri qavraması insanın stress səviyyəsini xeyli artıra bilər. Hadisə zamanı yaşanan stressin şiddəti birbaşa insanın hadisəyə yanaşma tərzi və bu hadisəni yaşayarkən özü ilə qurduğu daxili dialoqla bağlıdır. Buna görə də bəzi hallarda insan öz stressinin mənbəyi ola bilər. Bu münasibət fərdin özünə inamını böyük ölçüdə təsir edən və stressin öhdəsindən gəlməyi son dərəcə çətinləşdirən əhəmiyyətli bir problemdir. Belə stress tez-tez mütəxəssis dəstəyi tələb edir.

Ədəbiyyat

1. İsmayılov N,V., İsmayılov F,N. (2002) Tibbi psixologiya və psixoterapiya., B: "Maarif" nəşriyyatı, 416 s.
2. N.A.Əliyev, Z.N.Əliyev, (2019) Ümümi psixopatologiya, Bakı. 475 s.
3. Akademik İ.P.Pavlova, (2008), "Psixosomatik təbabətin əsasları", tibb və idman fakültələrinin 6-cı kurs tələbələri üçün seminarlar üçün işlənmələr. 641 s.
4. H.Selye.,(2008). Distressiz stress, Proqress, 265 s.
5. H.Selye., (2002). Stress nə deməkdir//Emosiya və motivasiya psixologiyası., 526 s.
6. R.S.Lazarus., (1970). Stressin nəzəriyyəsi və psixofizioloji tədqiqatlar. 368 s.
7. Rozanov V.A. (2013) Stress və psixi sağlamlıq (neyrobioloji aspektlər). Sosial və klinik psixiatriya., 263 s.
8. Stressin kliniki konsepsiyası: psixosomatik pozğunluqların etiologiyası və patogenezində stressin rolu., "Klinik təbabət" ixtisası üzrə elmi məqalənin mətni.
9. Stress gənc və orta yaşlı xəstələrdə ürək-damar xəstəlikləri üçün psixosomatik risk faktoru kimi. Müsahibə E.S. Akaraçkova və O.V. Kotova https://www.rmj.ru/articles/nevrologiya/Stress_kak_psihosomaticheskiy_faktor_riska_serdechnososudistyh_zabolevaniy_u_pacientov_molodogo_i_srednego_vozrasta_Intervyyu_s_ES_Akarachkovoy_i_OV_Kotovoy/

SAĞLAMLIQ İMKANLARI MƏHDUD OLAN ŞƏXSLƏRDƏ MÜXTƏLİF ÜSULLARLA DƏRKETMƏNİN TƏŞKİLİ

ORGANIZATION OF TREATMENT WITH VARIOUS METHODS IN PEOPLE WITH LIMITED HEALTH CAPABILITIES

Bəşirova Sülhanə Siyaxbər qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti,Xüsusi təhsil kafedrası,Bakı şəh.

Xülasə
Müasir dövrümüzdə hərtərəfli öyrənmə mühitinin yaradılması,hər bir öyrənənin təhsil ehtiyacının qarşılanması ən mühüm məsələlərdən biridir. Biz öyrənənlərin müxtəlif üsullarla dərk etməsini inkişaf etdirməklə təhsilin keyfiyyətini yüksəldə bilərik. Buna necə nail olmaq olar? “Müxtəlif üsullarla dərketmə” nəzəriyyəsinin düzgün tətbiqi öyrənənlərin maraq və təhsil ehtiyaclarına cavab verən differensiallaşdırılmış təlimin təşkil edilməsini şərtləndirəcək. Həmçinin,dərketməni asanlaşdıraraq nəticəyönümlülüyü artıracaq. Təhsilə verilən müasir tələblərin gözlənilməsi,bütün öyrənənlərin təlim prosesinə fəal cəlb edilməsi bu nəzəriyyənin praktik tətbiqi ilə mümkün olacaqdır.“Müxtəlif üsullarla dərketmə” nəzəriyyəsi öyrənənlər qrupunda heç bir öyrənənə-tipik və ya atipik olması səbəbi ilə fərq qoymur və hər iki kateqoriyanın təhsil ehtiyaclarını qarşılamaq imkanına malikdir.Bu şərtin ödənilməsi üçün nəzəriyyənin düzgün tətbiqi başlıca amildir.
Açar sözlər: müxtəlif üsullarla dərketmə,yaddaşın xüsusiyyətləri,təhsil ehtiyacları,informasiya texnologiyaları,tətbiqetmə,həyati bacarıqlar.

Abstract
In our modern era, creating a comprehensive learning environment and meeting the educational needs of each learner are one of the most important issues. We can improve the quality of education by developing the understanding of our learners in various ways. How can this be achieved? The correct application of the theory of "understanding in various ways" will determine the organization of differentiated training that meets the interests and educational needs of learners. It will also facilitate understanding and increase result-orientation. Meeting modern requirements for education and actively involving all learners in the learning process will be possible with the practical application of this theory. The theory of "multimodal learning" does not discriminate between any learner in a group of learners, whether typical or atypical, and has the ability to meet the educational needs of both categories. The correct application of the theory is a key factor in meeting this requirement.
Key words: understanding in various ways, memory characteristics, educational needs, information technologies, application, life skills.

Giriş

Sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili prosesində müxtəlif üsullarla **dərketməni təşkil etmək üçün** onların **potensial imkanlarından kompleks və maksimum istifadə edilməlidir.**Öyrənmə prosesində hər bir şagirdin fərdi xüsusiyyətlərini nəzərə almaq vacibdir.Təlim prosesi hər bir şagirdin təfəkküründün, yaddaşının xüsusiyyətlərini, nitqini, görmə qabiliyyətini, iradəsini və s. nəzərə almaqla təşkil olunmalıdır. Xüsusi təhsil ehtiyaclarının ödənilməsində xüsusi qayğıya ehtiyacı olan şəxslərin potensial imkanlarını nəzərə alaraq müxtəlif üsullarla dərketmə prosesini maksimum təşkil etmək faydalıdır. Hətta eyni sinfin iki müxtəlif şagirdində göstərilən xüsusiyyətlər çox müxtəlifdir. Bu da təlimdə fərdi yanaşmanı zəruri edir. Hər bir şagirdin fərdi öyrədilməsini təşkil etmək yalnız ideal halda mümkündür.Müasir şəraitdə informasiya texnologiyalarından,dərketmə və fərqli öyrənmə üsullarından,fəal-interaktiv metodlardan səmərəli

istifadə etməklə buna nail olmaq olar. Bu prosesin təşkilində **öyrədən** aşağıda qeyd olunan göstəricilərə diqqət etməlidir:
1.Dərsin planlaşdırılması (məqsəd,üsul,metod,iş forması,resursların seçilməsi);
2.Dərsləri müxtəlif üsullarla təqdim etmək-əyani,obrazlı,audio-vizual;
3. Didaktik oyunların tətbiqi-oyun və dərketmə;
4.Uşaqların müxtəlif üsullarla dərketməsini nəzərə alaraq tapşırıqların,fəaliyyətlərin hazırlanması;
5.Müxtəlif vasitələrdən istifadə-vizual,audio,hərəkətli(UÖD tətbiqi);
6.Bütün resursların,vəsaitlərin əlçatanlığının təmin edilməsi;
7.Şagirdlərin əməkdaşlığının təmin edilməsi,onların bir-birlərinə kömək edə biləcəkləri mühitin təmin edilməsi;
8.Fəaliyyətləri tamamlamaq üçün vaxt bölgüsünün düzgün edilməsi;
9.Biliyin tədbiq sahəsinin göstərilməsi-həyatla əlaqələndirmənin təmin edilməsi;
10.Mütəmadi təkrarların edilməsi;
11.Seçimlərin qarışıq deyil,aydın və dəqiq olması müəllimin diqqətində olmalıdır.
Xüsusi qayğıya ehtiyacı olan şəxslərin təlim prosesində aşağıdakı müddəaların doğruluğu əsas götürülür:
a) yaddasaxlama təkrarların sayı ilə düz mütənasibdir;
b) yalnız maraqlı və çox mühüm olan faktlar yadda qalır;
c) materialın yadda qalması üçün onun tətbiq sahəsi göstərilməlidir;
d)materialın yaxşı yadda qalması üçün onun məntiqi tam olan kiçik hissələrə bölünməsi vacibdir.

Mövzunun işlənmə səviyyəsi:
Hovard Qardnerin dərketmə nəzəriyyəsi tipik şəxslərin öyrənmə prosesində bir çox mütəxəssislər tərəfindən uğurla tətbiq edilsə də təəssüflər olsun ki, xüsusi qayğıya ehtiyacı olan şəxslərin təliminin təşkilində sözügedən məsələlərə yetərincə diqqət yetirilmir.Bu haqda məlumatlar,biliklər yetərsizdir. Məhz bu baxımdan sözü gedən mövzunun işlənilməsinə,tədqiq edilməsinə çox böyük ehtiyacın olduğunu nəzərə alıb bu mövzunu araşdırdım.İrəliləyən illərdə bu mövzu ilə bağlı tədqiqatımı daha da genişləndirməyi,xüsusi qayğıya ehtiyacı olan uşaqların potensial imkanlarına əsaslanaraq onların müxtəlif üsullarla daha yaxşı dərketməsinin həm nəzəri əsaslarını,həm də praktik məsələlərini araşdırmağı planlaşdırmışam.

ƏSAS HİSSƏ
Dərketmək,tətbiq etmək,dəyərləndirmək və s.kimi anlayışlar bilik,bacarıq və vərdişlərə yiyələnməkdə mühüm əhəmiyyət kəsb edir.Bir çox taksonomiyalarda bu anlayışlar ayrıca bir mərhələni təşkil edir.Mühüm mərhələlərdən birini təşkil edən dərketmə prosesinə yanaşma birmənalı olmamışdır.

Dərketməyə iki baxış

“Dərketmə”yə ənənəvi baxış	**“Müxtəlif üsullarla dərketmə” nəzəriyyəsi**
İnsanların dərketmə üsulları dəyişməzdir.	Hər bir insan dərketmənin istənilən üsulu üzrə öz imkanlarını inkişaf etdirə bilər. Hətta bəziləri bir neçə üsul üzrə buna nail ola bilər.
Dərketmə dil və məntiq vasitəsi ilə baş verir.	Dünyanı dərk etmək üçün dərketmənin müxtəlif yolları mövcuddur.
Müəllim eyni materialı hamıya tədris edir.	Müəllim şagirdlərin fərqli intellektual səviyyələrindən və dərketmə üsullarından çıxış

	edərək differensial tədris və qiymətləndirmə aparır.
Müəllim mövzunu və ya fənni tədris edir.	Müəllim problem ətrafında təlim fəaliyyətlərini təşkil edir, onu fənn və mövzu ilə əlaqələndirir. Müəllim elə strategiyalardan istifadə edir ki, şagird dərketmənin müxtəlif yollarını nümayiş etdirsin və öz bacarığını dəyərləndirsin.
İnsanın məsələni dərk edib-etmədiyi qısa sual-cavab vasitəsi ilə müəyyən edilə bilər:	Qısa cavablı testlər şagirdin dərketmə səviyyəsini və ya fənn biliklərini müəyyənləşdirməyə imkan verə bilməz. Belə testlər vasitəsi ilə yalnız şagirdlərin hafizəsi və testlərlə çevik işləmə bacarıqları yoxlanılır. Şagirlərin yalnız əldə etdiyi nəticələr deyil, həm də bu yolda müvafiq üsullardan istifadə bacarıqlarının səviyyəsi qiymətləndirilməlidir
İnsanlar bütün üsullarla dərk etmir, məhdud dərketmə imkanları ilə dünyaya gəlirlər.	İnsanların hamısı bütün üsullarla müxtəlif səviyyələrdə dərk edirlər, lakin onlardan biri və ya bir neçəsi daha çox inkişaf etmiş olur.

Hovard Gardnerin “Müxtəlif üsullarla dərketmə” nəzəriyyəsinə görə “Dərketmə”yə ənənəvi baxışdan imtina edilir.Yalnız iki dərketmə üsulu (linqvistik və məntiqi-riyazi) olduğunu göstərən alimlərin fikirləri qəbul edilmir.

Hovard Gardnerin “Müxtəlif üsullarla dərketmə” nəzəriyyəsinə görə

- insanlarda səkkiz və daha çox dərketmə forması mövcuddur və onların hamısı əhəmiyyətli hesab edilir;
- öyrənənlər düşünməyə müxtəlif üsullarla cəlb edilirlər;
- düşünmə üsulunun düzgün müəyyən edilməsi dərketmə səviyyəsinə təsir edir;
- öyrənənlərin hamısı dərketmənin bütün üsullarının daşıyıcısıdırlar,lakin onlar ən azı bir formaya görə daha güclü dərketmə imkanına malikdirlər.

Hovard Qardner nəzəriyyəsinə görə dərketmənin 8 üsulu var: 1.Linqvistik-söz; 2.Məntiqi-riyazi; 3.Vizual-məkan; 4.Bədən-kinestik; 5.Musiqi-səs; 6.Fərdlərarası; 7.Fərddaxili; 8.Naturalistik-təbiət.

Lingvistik dərketməsi iti olanlar:

- Dildən məharətlə istifadə edir;
- Hər kəsin düşündüklərini son dərəcə dəqiq və gözəl ifadə edə bilir;
- Zəngin söz ehtiyatı var;
- “Söz ustasıdır” ;
- xoşlayırlar: oxumağı, yazmağı, hekayə danışmağı;
- xüsusi bacarıq nümayiş etdirirlər: əşya və hadisələrin adlarını, tarixləri yadda saxlamaqda;
- daha yaxşı öyrənirlər: danışarkən, dinləyərkən və sözləri görərkən.

Riyazi-məntiqi dərketməsi iti olanlar:

- Rəqəmlərlə işləyərkən və əsaslandırarkən çeviklik nümayiş etdirir;
- Kəmiyyət və rəqəmlərdən peşəkarlıqla istifadə edir;
- “Rəqəm ustasıdır” ;

- xoşlayırlar: təcrübə aparmağı, rəqəmlərlə işləməyi, sual verməyi, əşyalar və onlar arasında olan münasibətləri araşdırmağı;
- xüsusi bacarıq nümayiş etdirirlər: riyaziyyatda, hadisələrin səbəblərinin müəyyən edilməsində, məntiqdə və problem həllində;
- daha yaxşı öyrənirlər: kateqoriyalara ayırarkən, təsnif edərkən, abstrakt anlayış və münasibətlər üzrə işləyərkən.

Vizual-məkan dərketməsi iti olanlar:
- Təsvir və şəkillərlə peşəkarlıqla davranır;
- Dünyada gördüklərini digərlərinin təsəvvürlərinə olduğu kimi təqdim edə bilir;
"Rəng ustasıdır" ;
- xoşlayırlar: şəkil çəkməyi,konstruksiya qurmağı, əşyalara toxunmağı, xəyallara dalmağı, şəkillərə,slaydlara,filmlərə baxmağı, vizual məkanda işləməyi və oynamağı;
- xüsusi bacarıq nümayiş etdirirlər: əşya və hadisələri təsəvvür etməkdə,dəyişiklikləri hiss etməkdə,labirint və tapmacaları tapmaqda,xəritələri oxumaqda;
- daha yaxşı öyrənirlər: vizuallaşdırmaqla,xəyalında canlandırmaqla,rənglər və şəkillərlə işləməklə.

Musiqi-səs dərketməsi iti olanlar:
- İti təfəkkürə malikdir;
- Musiqi nümunələrini dinləyir, tanıyır,məharətlə ifa edir və bir çox hallarda yaradır;
"Musiqi ustadıdır" ;
- xoşlayırlar:zümzümə etməyi, mahnı oxumağı, musiqi dinləməyi,alətlərdə ifa etməyi;
- xüsusi bacarıq nümayiş etdirirlər: müxtəlif səsləri təlqin etməkdə,musiqini yadda saxlamaqda, ritmləri tutmaqda;
- daha yaxşı öyrənirlər: ritmlərlə, melodiya və musiqi vasitəsi ilə.

Bədən-kinestik dərketməsi iti olanlar:
- Hissiyyatı çox güclüdür;
- Hərəkətləri ustalıqla icra edir;
- Bədən üzvlərindən istifadə etməklə problemi həll edir;
"Bədən üzvlərini idarə etməkdə mahirdir" ;
- xoşlayırlar: hərəkətdə olmağı, haqqında danışılan əşyalara toxunmağı, jest və mimikalardan geniş istifadə etməyi;
- xüsusi bacarıq nümayiş etdirirlər: fiziki fəaliyyətdə (idman, rəqs, hərəkət) və emal işlərində;
- daha yaxşı öyrənirlər: toxunaraq, hərəkət edərək, ətrafdakılarla sensor üzvləri vasitəsi ilə qarşılıqlı fəaliyyətdə olmaqla.

Naturalist-təbiət dərketməsi iti olanlar:
- Təbiətin elementləri ilə əlaqə yaratmaq vərdişləri nümayiş etdirir;
- Təbiət haqqında mükəmməl bilikləri var;
- xoşlayırlar: müxtəlif coğrafi və hava şəraitlərində açıq məkanda olmağı, digər canlılırın (heyvanların, bitkilərin) yanında olmağı;
- xüsusi bacarıq nümayiş etdirirlər: kateqoriyalaşdırmaqda, ətrafında təbiət şəraiti (bitkilər, heyvanla, quşlar, balıqlar) yaratmaqda, səyahətlər, ekskursiyalar təşkil etməkdə, əşyları yığmaq və qoruyub saxlamaqda;
- daha yaxşı öyrənirlər: təbiət hadisələrini öyrənərkən, təbiət qoynunda olarkən, hadisələrin baş vermə prosesini öyrənərkən.

Fərdlərarası dərketməsi iti olanlar:
- İnsanları başa düşür;
- Başqaları ilə birlikdə işləməyi bacarır və onları da məqsədyönlü fəaliyyətə həvəsləndirir;
- "İnsanları yaxşı tanıyır" ;
- xoşlayırlar: çoxlu dostu olmağı, insanlarla söhbət etməyi və qruplarda fəaliyyət göstərməyi ;
- xüsusi bacarıq nümayiş etdirirlər: insanları anlamaqda, başqalarını öyrənməkdə, təşkilatçılıqda, ünsiyyət yaratmaqda, konfliklərin məharətli həllində və vasitəçilikdə;
- daha yaxşı öyrənirlər: mübadilə edərkən, müqayisə edərkən, əlaqələndirərkən, birgə fəaliyyət göstərərkən və müsahibə alarkən.

Fərddaxili dərketməsi iti olanlar:
- Təklikdə öyrənmək vərdişləri nümayiş etdirir;
- Qarşısındakı insanın kim olduğunu, nə edə biləcəyini və nə etmək istədiyini bilir;
- "Özünü yaxşı tanıyır" ;
- xoşlayırlar: təklikdə işləmək və öz maraqlarını gözləmək;
- xüsusi bacarıq nümayiş etdirirlər: özünü dərk etmək,öz arzuları və duyğuları üzərində düşünmək, qərarlar qəbul edərkən hisslərindən çıxış etmək,öz maraq və məqsədlərini gözləmək, təkrarsız olmaq;
- daha yaxşı öyrənirlər:təklikdə işləmək, fərdi layihələr işləmək, özünü təlimatlandırmaq və öz mühiti olmaq.

Müxtəlif dərketmə üsulları təlimin təşkilinə necə təsir edə bilər?
Bu nəzəriyyə aşağıdakı məsələlər baxımından əhəmiyyətlidir:
1. Təlim fəaliyyətləri müəyyən edilərkən bütün şagirdlərin dərketmə üsulları nəzərə alınır və müvafiq tapşırıqlar hazırlanır;
2. Müxtəlif üsullarla dərk edən bütün şagirdlərin təlimə fəal şəkildə cəlb edilməsini təmin edir və öyrənənlər üçün təlimi əhəmiyyətli dərəcədə asanlaşdırır;
3. Qiymətləndirmənin alternativ formalarının işlənməsində istifadə edilir. Qiymətləndirmə zamanı "Nə qədər dərk edir?" deyil, "Necə, hansı üsullarla dərk edir?" sualı nəzərə alınmaqla yoxlayıcı tapşırıqlar hazırlanır;
4. Müstəqil öyrənənlərin formalaşdırılmasını təmin edir.
5. Şagirdin dərketməsinin digər formalarının da inkişafı məqsədyönlü və ardıcıl şəkildə təşkil edilir.
Müxtəlif üsullarla dərk edənlərin hansı yollarla **daha yaxşı öyrəndiklərinə** nəzər salaq:

Lingvistik dərketməsi iti olanlar, aşağıdakı yollarla daha yaxşı öyrənə bilirlər:
- Oxumaqla;
- Xatırlamaqla;
- Söz oyunları vasitəsilə (krosvordlar, tapmacalar və s);
- Avazla danışmaqla.

Məntiqi-riyazi dərketməsi iti olanlar daha yaxşı öyrənirlər:
- Məlumatları sistemli şəkildə qeyd etməklə; Strategiya tələb edən oyunlar oynamaqla (şahmat,dama);
- Məlumatları təhlil etməklə;
- Məntiqi suallar verməklə;
- Dəqiq və konkret izahlar və təlimatlarla.

Vizual-məkan dərketməsi iti olanlar daha yaxşı öyrənir:
- Şəkilləri araşdırmaqla;
- Video yazılara baxmaqla;
- Vizual əyani vəsaitlərdən istifadə etməklə;
- Tapmaca və labirintləri yerinə yetirməklə;
- Proqnozlaşdırmaqla;
- İnternetdən istifadə etməklə.

Bədən-kinestik dərketməsi iti olanlar daha yaxşı öyrənə bilir:
- Rollu oyunlarda iştirak etməklə;
- Fiziki hərəkətlər nümayiş etdirməklə;
- Müşahidə etdiyi hərəkətləri icra etməklə;
- Muzeylərə, parklara və digər görməli yerlərə getməklə;
- Aktiv və hərəkətli olmaqla.

Musiqi-səs dərketməsi güclü olanlar daha yaxşı öyrənə bilir:
- Audio yazıları dinlməklə;
- Sözləri musiqi ilə oxumaqla;
- Sözləri fikrində təkrarlamaqla;
- Ucadan oxumaqla;
- Oxu tempini dəyişməklə.

Fərdlərarası dərketməsi güclü olanlar daha yaxşı öyrənirlər:
- Qruplarda öyrənməklə;
- Məlumatları başqalarının məlumatları ilə müqayisə etməklə;
- Müsahibə almaqla;
- Məlumatları öz təcrübələri ilə əlaqələndirməklə;
- Komanda oyunlarında iştirak etməklə;
- Birgə layihələr hazırlamaqla.

Fərddaxili dərketməsi iti olanlar daha yaxşı öyrənirlər:
- Heç kəsin onlara mane olmasına yol verməməklə;
- Məqsədlərini dəqiq müəyyənləşdirməklə;
- Fərdi oyunlar oynamaqla;
- Öz oxu, yazı, düşünmə tempini tənzimləməklə;
- Təklikdə işləməklə;
- Məlumatları öz təcrübələri ilə əlaqələndirməklə.

Naturalistik-təbiət dərketməsi iti olanlar daha yaxşı öyrənə bilir:
- Açıq məkanda öyrənməklə;
- Canlı bitki və heyvanlar aləmində öyrənməklə;
- Mövzunu təlim mühiti ilə əlaqələndirməklə;
- Qoxlamaqla, baxmaqla, dadmaqla, toxunmaqla;
- Təbiətdə əşyalarını müşahidə etməklə.

Deməli, fərqli dərketmə imkanları olan insanlar fərqli şəkildə öyrənirlər və öyrənənlərdə bu üsullardan nəinki birini hətta bir neçəsini formalaşdırıb, inkişaf etdirmək mümkündür.

Nəticə

Hovard Gardnerin "Müxtəlif üsullarla dərketmə" nəzəriyyəsi aşağıdakı məsələlər baxımından əhəmiyyətlidir:

1.Təlim fəaliyyətləri müəyyən edilərkən bütün şagirdlərin dərketmə üsulları nəzərə alınır və müvafiq tapşırıqlar hazırlanır;
2.Müxtəlif üsullarla dərk edən bütün şagirdlərin təlimə fəal şəkildə cəlb edilməsini təmin edir və öyrənənlər üçün təlimi əhəmiyyətli dərəcədə asanlaşdırır;
3.Qiymətləndirmənin alternativ formalarının işlənməsində istifadə edilir.
4.Qiymətləndirmə zamanı "Nə qədər dərk edir?" deyil, "Necə, hansı üsullarla dərk edir?" sualı nəzərə alınmaqla yoxlayıcı tapşırıqlar hazırlanır;
5.Müstəqil öyrənənlərin formalaşdırılamsını təmin edir;
6.Şagirdin dərketməsinin digər formalarının da inkişafı məqsədyönlü və ardıcıl şəkildə təşkil edilir.
Qardnerə görə intellektli (zəkalı, dərrakəli) insan kimdir ?

- ✓ Gündəlik həyatda üzləşdiyi problemlərin həlli üçün zəruri olan bacarıqları daşıyan;
- ✓ Həll edilməsinə ehtiyac duyulan yeni problemləri görməyi və onları aktuallaşdırmağı bacaran;
- ✓ İnsanlara yararlı olan əşyaları hazırlayan və ya onlara öz xidmətlərini təqdim edən insan dərrakəli,zəkalı və intellektli insandır.

Biz öyrənənlərimizin müxtəlif üsullarla dərk etməsini inkişaf etdirməklə təhsilin keyfiyyətini yüksəldə bilərik. "Müxtəlif üsullarla dərketmə" nəzəriyyəsinin düzgün tətbiqi aşağıdakı nəticələrə nail olmağımıza imkan yaradacaq:

1. "Müxtəlif üsullarla dərketmə" nəzəriyyəsinin düzgün tətbiqi dərketməni asanlaşdıracaq;
2. "Düşünmə və dərketmə fəaliyyəti" ənənəvi yanaşma və Qardner nəzəriyyəsi baxımından təhlil edilərək onlar arasında olan fərqlər ortaya çıxacaq və bu fərqlər təhsilə verilən müasir tələblərlə uyğunlaşacaq;
3. Bütün öyrənənlərin təlim prosesinə fəal cəlb edilməsi bu nəzəriyyənin praktik tətbiqi ilə mümkün olacaq;
4. Öyrənənlərin maraq və təhsil ehtiyaclarına cavab verən differensiallaşdırılmış təlimin təşkil edilməsini şərtləndirəcək;
5. "Müxtəlif üsullarla dərketmə" nəzəriyyəsi ÖYRƏNƏNLƏR qrupunda heç bir öyrənənə-tipik və ya atipik olması səbəbi ilə fərq qoymur və hər iki kateqoriyanın təhsil ehtiyaclarını qarşılamağa xidmət edir.

Ədəbiyyat

1.Hovard Qardner "Müxtəlif üsullarla dərketmə nəzəriyyəsi".
2.İnklüziv təhsil- Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. Loreman, Coan Deppeler və David Harvey.(Tərcümə- Regional İnkişaf İctimai Birliyi) 2020.
3.Jan Jak Russo "Emil və tərbiyə haqqında".
4.İnternet resursları.

ARTIFICIAL INTELLIGENCE AND CORPUS LINGUISTICS: AUTOMATED ANALYSIS OF LARGE TEXT DATABASES

SÜNİ İNTELLEKT VƏ KORPUS DİLÇİLİYİ: BÖYÜK MƏTN BAZALARININ AVTOMATLAŞDIRILMIŞ TƏHLİLİ

Rəna Hüseyn qızı Mahmudova
AMEA Nəsimi adına Dilçilik İnstitutu

Abstract
Artificial intelligence, especially machine learning and deep learning technologies, act as effective methods for analyzing texts at morphological, syntactic, semantic and discourse levels. Through these technologies, indicators such as word frequency, lexical diversity, syntactic structure and semantic relations in text resources can be automatically analyzed.
This thesis systematically examines the theoretical foundations, application opportunities and challenges of the fields of artificial intelligence and corpus linguistics. The current situation, problems and future development prospects in this field, especially for the Azerbaijani language, are also brought to attention.
Keywords: Corpus linguistics, artificial intelligence, text databases, automation, sentiment analysis

Xülasə
Süni intellekt, xüsusən də maşın öyrənməsi və dərin öyrənmə texnologiyaları mətnlərin morfoloji, sintaktik, semantik və diskurs səviyyələrində təhlilində effektiv üsul kimi çıxış edir. Bu texnologiyalar vasitəsilə mətn resurslarında söz tezliyi, leksik müxtəliflik, sintaktik struktur və semantik əlaqələr kimi göstəricilər avtomatik şəkildə analiz edilə bilir.
Bu tezis işində süni intellekt və korpus dilçiliyi sahələrinin nəzəri əsasları, tətbiq imkanları və çağırışları sistemli şəkildə araşdırılır. Xüsusilə Azərbaycan dili üçün bu sahədə mövcud vəziyyət, problemlər və gələcək inkişaf perspektivləri də diqqətə çatdırılır.
Açar sözlər: Korpus dilçiliyi, süni intellekt, mətn bazaları, avtomatlaşdırma, sentiment analiz

Giriş

Son illərdə süni intellekt texnologiyalarının inkişafı dilçilik elminə də öz təsirini göstərmişdir. Xüsusilə təbii dil emalı (NLP) sahəsindəki nailiyyətlər dil resurslarının avtomatlaşdırılmış emalını və təhlilini mümkün etmiş, geniş mətn bazalarının işlənməsi və analizi prosesini sürətləndirmişdir. Bu kontekstdə korpus dilçiliyi və süni intellektin qarşılıqlı əlaqəsi aktual və perspektivli tədqiqat istiqaməti kimi çıxış edir.
Korpus dilçiliyi — müəyyən dil və ya dillərə aid böyük həcmli mətn materiallarının toplanması, saxlanması və sistemli şəkildə təhlilini nəzərdə tutan bir sahədir (Mahmudov, M., 2018). Bu sahənin əsas məqsədi dilin real istifadəsini obyektiv şəkildə araşdırmaq və statistiki əsaslarla dil qaydalarını müəyyənləşdirməkdir. Əvvəllər bu cür təhlillər yalnız əl üsulu və məhdud imkanlarla həyata keçirilirdisə, bu gün süni intellekt metodları vasitəsilə böyük mətn bazalarının avtomatlaşdırılmış şəkildə işlənməsi və müxtəlif səviyyələrdə təhlili mümkündür.
Tədqiqatın məqsədi:
Bu işin məqsədi süni intellekt texnologiyalarının korpus dilçiliyində tətbiq imkanlarını araşdırmaq, beynəlxalq təcrübəni və Azərbaycan dili mühitində bu sahənin mövcud vəziyyətini dəyərləndirmək, həmçinin bu istiqamətdə perspektiv tədqiqat və tətbiq imkanlarını müəyyənləşdirməkdir.
Tədqiqatın vəzifələri:

– Süni intellekt və korpus dilçiliyinin nəzəri əsaslarını təqdim etmək;
– Böyük mətn bazalarının avtomatlaşdırılmış təhlil prinsiplərini izah etmək;
– Müasir Sİ texnologiyalarının dilçilikdə tətbiq nümunələrini göstərmək;
– Azərbaycan dili üçün bu sahədə mövcud vəziyyəti və çətinlikləri təhlil etmək;
– Nəticə və tövsiyələr irəli sürmək.

Tədqiqatın aktuallığı:
Süni intellekt texnologiyalarının sürətli inkişafı, dünyada olduğu kimi Azərbaycanda da dil resurslarının avtomatlaşdırılmış şəkildə toplanması və təhlilinin vacibliyini artırır. Mövcud metod və yanaşmaların dilçilikdə tətbiqi yeni nəzəri və praktiki nəticələrin əldə olunmasına, həmçinin dilin müxtəlif səviyyələrdə öyrənilməsi və sistemləşdirilməsinə şərait yaradır. Bu baxımdan mövzu həm nəzəri, həm də praktik cəhətdən aktuallıq kəsb edir.

Süni İntellekt Və Korpus Dilçiliyi: Anlayış Və Əlaqə

Süni intellekt (Sİ) — insan zəkasını təqlid edən və verilən tapşırıqları yerinə yetirən proqram və sistemlərin ümumi adıdır. Ənənəvi proqramlaşdırmadan fərqli olaraq, süni intellekt sistemləri böyük verilənlər üzərində öyrənərək qərar qəbul edir və fəaliyyətini təkmilləşdirir. Dilçilik sahəsində süni intellektin əsas tətbiq sahəsi təbii dil emalıdır (Natural Language Processing — NLP) (Mahmudov, M., 2023). Bu texnologiya vasitəsilə mətnlərin morfoloji təhlili, sintaktik quruluşun müəyyənləşdirilməsi, semantik əlaqələrin qurulması və diskurs səviyyəsində analizlər aparılır.

Süni intellekt texnologiyaları dilçilik tədqiqatlarında verilənlərin miqyasını və təhlil imkanlarını genişləndirərək, əvvəllər çox vaxt və əmək tələb edən işləri avtomatlaşdırır. Beləliklə, dil resurslarının böyük həcmdə toplanması və emalı imkanları yaranır.

Korpus dilçiliyi dilçilikdə müəyyən dil və ya dillərə aid böyük həcmli mətn resurslarının toplanması, sistemləşdirilməsi və təhlili ilə məşğul olan elmi sahədir. Korpuslar yazılı və şifahi nitq nümunələrindən ibarət olan mətn bazalarıdır və dilin real istifadəsi əsasında müxtəlif səviyyəli tədqiqatların aparılmasına şərait yaradır.

Korpusların əsas üstünlüyü dilin faktiki istifadə qaydalarını, leksik və qrammatik xüsusiyyətlərini statistik əsaslarla üzə çıxarmaq imkanı yaratmasıdır (Mustafayeva, S., 2021). Əl üsulu ilə mətn təhlili uzun müddət tələb etdiyindən, korpusların yaradılması və süni intellekt texnologiyaları ilə təhlili bu prosesi sürətləndirir və dəqiqləşdirir.

Süni intellekt və korpus dilçiliyi bir-birini tamamlayan sahələrdir. Süni intellekt texnologiyaları korpusların avtomatik emalını, morfoloji, sintaktik, leksik və semantik səviyyələrdə təhlilini mümkün edir. Bu, həm fundamental dilçilik tədqiqatlarında, həm də praktiki tətbiqlərdə — məsələn, avtomatik tərcümə, səsli köməkçilər, sentiment analizi və yazılı nitqin avtomatlaşdırılmış korreksiyasında istifadə olunur.

Məsələn, morfoloji analiz zamanı süni intellekt alqoritmləri sözlərin kökünü və şəkilçilərini ayırmaqla onların qrammatik funksiyalarını müəyyən edir. Sintaktik analizdə isə AI sistemləri cümlələrin quruluşunu müəyyənləşdirərək, sözlər arasındakı qrammatik əlaqələri təyin edir. Semantik analiz mərhələsində isə mətnlərin məzmun və mənaca əlaqələri öyrənilir.

Süni intellekt texnologiyalarının korpus dilçiliyinə tətbiqi həm statistik metodlara, həm də neyron şəbəkə əsaslı modellərə söykənir. Məsələn, BERT (Bidirectional Encoder Representations from Transformers) və GPT (Generative Pre-trained Transformer) kimi dil modelləri artıq korpuslar üzərində öncədən öyrədilərək müxtəlif dilçilik tapşırıqlarında istifadə olunur.

Bu əməkdaşlıq nəticəsində:
– Dil tədqiqatçıları çox qısa zamanda böyük korpuslar üzərində təhlil apara bilir;
– Avtomatik morfoloji və sintaktik təhlil sistemləri yaradılır;
– Dil modellərinin təlimi üçün geniş və keyfiyyətli mətn bazaları formalaşdırılır.

Beləliklə, süni intellekt və korpus dilçiliyi bir-birinin inkişafını stimullaşdırır və yeni tədqiqat imkanları yaradır.

Böyük Mətn Bazalarının Avtomatlaşdırılmış Təhlili

Korpus dilçiliyinin əsasını böyük həcmli mətn bazalarının yaradılması və onların sistemli şəkildə işlənməsi təşkil edir. Əvvəllər bu proses tamamilə əl üsulu ilə və məhdud miqyasda aparılırdısa, süni intellekt texnologiyalarının inkişafı ilə bu sahədə əhəmiyyətli irəliləyişlər əldə olunmuşdur.

Mətn korpuslarının yaradılması prosesinə aşağıdakı mərhələlər daxildir:

Verilənlərin toplanması: Elektron mətbuat, bədii və elmi əsərlər, sosial media, forumlar və s. mənbələrdən mətnlərin toplanması;

Verilənlərin təmizlənməsi: Mətnlərdəki lazımsız simvollar, reklamlar, təkrar mətnlər və digər parazit məlumatların ayırd edilib silinməsi;

Etiketləmə və təsnifat: Mətnlərin janr, üslub və mövzu üzrə təsnifləşdirilməsi, etiketlənməsi və morfoloji/sintaktik analizi üçün hazırlanması;

Verilənlərin emalı və analiz: Süni intellekt texnologiyaları və təbii dil emalı alətləri ilə korpusun avtomatik şəkildə morfoloji, sintaktik və semantik təhlili.

Böyük mətn korpuslarının təhlili üçün istifadə olunan əsas süni intellekt metodları bunlardır:

Morfoloji analiz: Sözlərin kök və şəkilçilərini müəyyənləşdirərək, onların qrammatik xüsusiyyətlərini təyin edən sistemlər. Məsələn, "yazırdılar" sözünün kökü "yaz", şəkilçiləri isə -ır, -dı, -lar kimi tanınır.

Sintaktik analiz: Cümlənin qrammatik quruluşunun müəyyənləşdirilməsi və sözlər arasındakı əlaqələrin təhlili. Bu mərhələdə AI sistemləri parse tree və ya dependency tree kimi struktur sxemlər qurur.

Semantik analiz: Mətnlərin mənaca təhlili və konseptual əlaqələrin müəyyən olunması. Məsələn, bir cümlədəki "uşaq kitab oxuyur" ifadəsində uşaq subyekt, oxuyur predikat, kitab isə obyekt kimi müəyyənləşdirilir.

Diskurs analizi: Müxtəlif cümlələr arasındakı əlaqələrin və mətnin ümumi məna axınının təhlili. Süni intellekt modelləri mətnin kontekstual axarını müəyyən etməyə çalışır (Vasilyeva, A., 2018).

Hal-hazırda korpusların avtomatlaşdırılmış emalı üçün istifadə olunan süni intellekt əsaslı alətlərdən bəziləri bunlardır:

– SpaCy, Stanza, UDPipe — morfoloji və sintaktik analiz alətləri
– NLTK (Natural Language Toolkit) — Python əsaslı TDE kitabxanası
– BERT, GPT-4, T5 — dərin öyrənmə əsaslı pre-trained dil modelləri
– AntConc, Sketch Engine — korpusun analiz və vizuallaşdırma proqramları (Hüseynov, R., 2018).

Bu alətlər vasitəsilə milyonlarla cümlə və milyardlarla sözdən ibarət korpuslar avtomatik analiz edilə və strukturlaşdırıla bilir.

Azərbaycan dilində korpus yaradılması istiqamətində bəzi layihələr həyata keçirilsə də, hələlik böyük və keyfiyyətli açıq resurslar məhduddur. Azərbaycan Milli Korpusu layihəsi və bəzi universitetlərin apardığı fərdi təşəbbüslər bu sahənin əsasını qoysa da, bu istiqamətdə süni intellekt texnologiyalarının tətbiqi və avtomatlaşdırılmış təhlil imkanları hələ tam formalaşmayıb.

Bunun əsas səbəbləri:

– Elektron mətn resurslarının yetərsizliyi
– Dil modellərinin məhdudluğu
– Təlim verilənlərinin azlığı
– Etiketlənmiş korpusların olmaması (Məmmədzadə, S., 2020).

Bu çətinliklərin aradan qaldırılması üçün geniş həcmli Azərbaycan dilində korpuslarının yaradılması, etiketlənməsi və Sİ modelləri ilə təhlil edilməsi vacibdir.

Süni İntellektin Korpus Dilçiliyində Tətbiq Nümunələri

Dünyada süni intellekt texnologiyalarının korpus dilçiliyində tətbiqi artıq geniş vüsət alıb və müxtəlif dillər üzrə böyük layihələr həyata keçirilir. Məsələn:

British National Corpus (BNC) — İngilis dili üzrə 100 milyondan çox söz ehtiva edən və müxtəlif janrlardan ibarət geniş korpusdur. Bu korpus Sİ sistemləri ilə avtomatik morfoloji, sintaktik və semantik təhlillər üçün istifadə olunur.

COCA (Corpus of Contemporary American English) — müasir Amerika ingiliscəsinə aid 1 milyarddan çox söz ehtiva edən açıq korpusdur. Süni intellekt alqoritmləri COCA-nın avtomatlaşdırılmış təhlili üçün fəal tətbiq olunur.

Google Ngram Viewer — müxtəlif dillərdə milyonlarla kitab üzərində söz tezliyi və leksik dəyişikliklərin təhlilini təmin edən Sİ əsaslı platformadır (Mahmudova, R., 2023).

Bu nümunələr göstərir ki, süni intellekt texnologiyaları vasitəsilə çox böyük mətn bazaları sistemli şəkildə təhlil oluna bilir və dilin inkişaf tendensiyaları, leksik dəyişikliklər, sintaktik quruluşlar və semantik əlaqələr müəyyən edilir.

Azərbaycan dilində süni intellekt texnologiyalarının tətbiqi hələ yeni mərhələdədir. Mövcud layihələrə Azərbaycan Dilinin Milli Korpusu layihəsi və bəzi universitetlərdə aparılan eksperimental tədqiqatlar daxildir.

Hazırda Sİ texnologiyaları ilə Azərbaycan dilində aşağıdakı tətbiq imkanları mövcuddur:

Avtomatik morfoloji analiz sistemləri: Sözlərin kök və şəkilçilərini ayırıb qrammatik xüsusiyyətlərini təyin edən modellər.

Avtomatik tərcümə sistemləri: Google Translate və digər platformalarda istifadə olunan Sİ əsaslı tərcümə modelləri.

Sentiment analizi: Sosial media və xəbərlərdə ictimai rəyin Sİ alqoritmləri vasitəsilə müəyyənləşdirilməsi.

Nitq tanıma və mətn oxuma sistemləri: Sİ əsaslı səsli köməkçi və diktə proqramlarının Azərbaycan dilində inkişaf etdirilməsi (Mahmudova, R., 2025).

Korpus dilçiliyində süni intellekt texnologiyaları yalnız müasir dilin deyil, həm də tarixi mətnlərin və dialektlərin təhlilində də istifadə olunur. Məsələn, tarixi ədəbiyyat nümunələri və arxiv materialları Sİ vasitəsilə rəqəmsallaşdırılır, morfoloji və leksik baxımdan təhlil edilir.

Bu üsulun Azərbaycan dilində də tətbiqi üçün aşağıdakı imkanlar mövcuddur:

– Klassik ədəbiyyat nümunələrinin rəqəmsal korpuslarının yaradılması.
– Dialekt nümunələrinin avtomatlaşdırılmış transkripsiyası və təhlili.
– Tarixi leksik vahidlərin Sİ ilə statistik analizi.

Orta məktəb təhsilində oyun əsaslı öyrənmə koqnitiv, sosial və emosional inkişafı təşviq etmək potensialına malikdir. Bu sistematik icmal və meta-analiz orta məktəb təhsilində oyuna əsaslanan öyrənmənin effektivliyinə dair mövcud ədəbiyyatı ümumiləşdirmək məqsədi daşıyır. Nəticələr göstərir ki, oyun əsaslı öyrənmə koqnitiv, sosial, emosional, motivasiya və məşğulluq nəticələrinə orta və ya böyük təsir göstərir. Nəticələr göstərir ki, oyun əsaslı öyrənmə uşaqların öyrənilməsini və inkişafını təşviq etmək orta məktəb müəllimləri üçün perspektivli bir vasitə ola bilər. Bununla belə, ədəbiyyatda qalan boşluqları aradan qaldırmaq üçün əlavə tədqiqatlara ehtiyac var. Tədqiqatın nəticələrinin müsbət uşaq inkişafını təşviq etmək və erkən uşaqlıq təhsilində öyrənmə nəticələrini artırmaq məqsədi daşıyan müəllimlər, siyasətçilər və oyun tərtibatçıları üçün təsirləri var. Oyun əsaslı həllər bir çox üstünlüklər təqdim edərkən, sinif otaqlarında ənənəvi öyrənmə də unikal üstünlüklər təqdim edir. Öz-özünə öyrənmə unikal imkanlar təklif edir və hər bir təhsil texnologiyası yaradan qurum bunu bilir. Buna görə də yeni oyun əsaslı öyrənmə həlləri tələbələrə fərdiləşdirilmiş, adaptiv öyrənmə təcrübəsi təqdim edir. Oyun əsaslı öyrənmə təşəbbüsləri tələbələrin motivasiyasını, tənqidi təfəkküründü və problemlərin həlli bacarıqları, habelə mədəni mübadilə və dil öyrənilməsini təşviq edir.

Ədəbiyyat Siyahısı

1. Veysova Z. Fəal – interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı, 2007.
2. Quliyev N.Ə. Şamilov Z.Ə. «İnformatika» Bakı-Vətən 2013
3. Müslumov V.B. Əliyev Ə.Ə. «İnformatikanın tədrisi metodikası» Bakı-Şərq-Qərb 2015
4. İsmayılova B. «İnformatikanın tədrisi keyfiyyətinin yüksəldilməsi» dissertasiya işi Bakı-AMEA 2020
5. Park J. H., Park M. (2021). Smartphone use patterns and problematic smartphone use among preschool children. *PLoS One* 16:e0244276. doi:
6. Papanastasiou G., Drigas A., Skianis C. (2022). Serious games in pre-K and K-6 education. *Tech. Educ. Human.* 2, 1–18. doi:
7. İnternet resursları- www.ict.az
8. https://ict.az/az/newsgal/6265
9. https://muallim.edu.az/news.php?id=1421&lang
10. Prensky, M. (2001). Digital game-based learning. St. Paul, MN: Paragon House.

SOCIAL BEHAVIOR IN ENVIRONMENTAL PROTECTION

ƏTRAF MÜHİTİN QORUNMASINDA SOSİAL DAVRANIŞ

Hüseynov Şahin Şahnəsib oğlu
ADPU-nun Şamaxı filialı

Xülasə
Ətraf mühitin qorunması müasir dövrdə yalnız ekoloji deyil, eyni zamanda sosial və mənəvi məsuliyyət məsələsi kimi dəyərləndirilir. Qlobal istiləşmə, iqlim dəyişiklikləri, su və hava çirkliliyi kimi problemlər təkcə texnoloji və iqtisadi alətlərlə deyil, insanların sosial davranışı və əxlaqi mövqeyi ilə də həll oluna bilər.
Bu məqalədə ətraf mühitin qorunmasında sosial davranış və etik dəyərlərin təsiri geniş şəkildə təhlil olunur. Sosial etika insanların ətraf mühitlə qarşılıqlı əlaqəsində əsas normativ çərçivə rolunu oynayır.
Nəticə etibarilə, ətraf mühitin mühafizəsi yalnız texniki və inzibati yanaşmalarla deyil, sosial və mənəvi dəyərlərin cəmiyyətin hər bir üzvü tərəfindən mənimsənməsi və gündəlik davranışa çevrilməsi ilə reallaşa bilər. İnsanlıq yaşamaq üçün təbiəti qorumağı sadəcə bir vəzifə kimi deyil, mənəvi borc və sosial öhdəlik kimi dərk etməlidir. Bu baxımdan, məqalədə təklif olunan yanaşma – sosial etika və davranışlar vasitəsilə ətraf mühitə məsuliyyətli münasibət formalaşdırmaq – ekoloji problemlərin uzunmüddətli və davamlı həllinə aparan yolların əsasını təşkil edir.
Açar sözlər: Ətraf mühit, sosial etika, ekoloji məsuliyyət, sosial davranış, ekoloji şüur, davamlı həyat tərzi

Abstract
Environmental protection is considered not only an ecological issue in modern times, but also a social and moral responsibility. Problems such as global warming, climate change, water and air pollution can be solved not only with technological and economic tools, but also with the social behavior and moral position of people.
This article analyzes in detail the influence of social behavior and ethical values on environmental protection. Social ethics plays the role of the main normative framework in the interaction of people with the environment.
Consequently, environmental protection can be realized not only through technical and administrative approaches, but also through the assimilation of social and moral values by each member of society and their transformation into everyday behavior. In order to survive, humanity must perceive the protection of nature not just as a duty, but as a moral duty and social obligation. In this regard, the approach proposed in the article - forming a responsible attitude towards the environment through social ethics and behavior - is the basis for the long-term and sustainable solution of environmental problems.
Keywords: Environment, social ethics, environmental responsibility, social behavior, environmental awareness, sustainable lifestyle

Giriş

Müasir mərhələdə ekologiyanın inkişafı orqanizmlərin sistemli əlaqəsi və fəaliyyəti qanunlarını öyrənməklə yanaşı, həm də təbiət və insan cəmiyyətinin qarşılıqlı əlaqələrinin səmərəli formalarını əsaslandırmalıdır.
Beləliklə, ekoloji biliklərin sosial rolu artır. Ekologiya sahəsində fundamental tədqiqatların inkişafının əsas məqsədi xalq təsərrüfatının aşağıdakı gərgin problemləri ilə müəyyənləşdirilir: ətraf mühitin vəziyyətini saxlamaq şərtilə istehsalı intensivləşdirmək və təbii resurslardan istifadənin iqtisadi effektivliyini yüksəltmək. Təbii və süni qruplaşmaların bioloji məhsuldarlığı və sabitliyi məsələləri ön plana çəkilir. Bu problemlər yalnız bütün ölkələrin ekoloqlarının birgə gücü ilə həll

oluna bilər. Odur ki, qlobal ekologiya sahəsində beynəlxalq əməkdaşlıq geniş həyata keçirilir. İndiki vaxtda insanın geniş ekstensiv təsərrüfat fəaliyyəti ilə əlaqədar olaraq geniş böhranın təhlükəliyi, planetar sistemin qeyri-bərabər ölçüdə fəlakətli dəyişməsi aydın dərk edilir. Bu böhranın qarşısının alınması mümkünlüyü yalnız ekoloji biliklərin inkişafı əsasında tapıla bilər. Ekoloji biliklərin kəsərli gücü təbii resurslardan düzgün istifadə etmək, populyasiyanın sayını nizamlamaq, kənd təsərrüfatı problemlərinin yeni həllini və sənaye istehsalının təşkilinin yeni prinsiplərini tapmağa kömək edər.(1)
Ekoloji təhsilin vəzifələrini aşağıdakı kimi ifadə etmək olar:
-İnsanın təbiətin bir parçası kimi anlaşılması, bütüt canlıların birliyi və dəyərliliyi, insanın biosferin qorunması olmadan yaşayışının olumsuzluğu;
-İnsan yaşamının, onun peşə fəaliyyətinin təbii mühitə bağlı olan qanunauyğunluqlarının öyrədilməsi;
- Enerjiqoruyucu texnologiyaların, ekoloji baxımdan təmiz olan gələcəyə yönəlmiş resursların işə salınması.
Ətraf mühit, insan həyatının müxtəlif aspektlərinə təsir edən mürəkkəb bir sistemdir. Sosial mühit, insanların davranışları, sosial əlaqələri və cəmiyyətin inkişafı ilə bağlıdır. Ətraf mühitin sosial təsiri, insanların gündəlik həyatına, mədəniyyətinə, iqtisadiyyatına və psixologiyasına dərin bir təsir göstərə bilir.
Ətraf mühit – insanın və digər canlıların yaşaması, inkişafı və fəaliyyət göstərməsi üçün zəruri olan təbii sistemlər və onların qarşılıqlı təsirindən ibarət olan bir anlayışdır. Bu anlayış təkcə torpaq, hava və su ilə məhdudlaşmır. Bitki örtüyü, heyvanlar aləmi, iqlim sistemi, biosfer və insanın təsiri altında formalaşan süni mühit də ətraf mühitin bir hissəsidir. Hər bir fərdin həyatı, rifahı və sağlamlığı məhz bu təbii zənginliklərlə bağlıdır. Ancaq təəssüflər olsun ki, sənayeləşmə, urbanizasiya və insanın məsuliyyətsiz davranışı nəticəsində ətraf mühitin müxtəlif komponentləri çirklənir, tükənir və zərər görür. Bu vəziyyət yalnız ekoloji deyil, həm də sosial, iqtisadi və siyasi problemlərə yol açır. Ətraf mühitin mühafizəsi bu problemlərin qarşısını almaq və təbii sərvətləri qorumaq üçün həyata keçirilən fəaliyyətlərin ümumiliyidir. Bu fəaliyyətlər təkcə hökumət və beynəlxalq təşkilatların deyil, eyni zamanda hər bir insanın məsuliyyətidir. Çünki biz bu planetdə yalnız bu gün üçün deyil, sabah üçün də yaşayırıq. Gələcək nəsillərin bizdən miras alacağı dünya bu gün etdiyimiz seçimlərə bağlıdır.(4)

Giriş
İnsan ekologiyası insan (bioloji fərd kimi) və şəxsiyyətin onu bürüyən təbii və sosial mühitlə qarşılıqlı münasibətlərini araşdıran predmetlərin kompleksidir. İnsan ekologiyası heyvanlar aləminin ekologiyasından yaşayış və fəaliyyət şəraitlərinin çoxluğu, mühitə uyğunlaşmaq üçün texnoloji vasitələrin zənginliyi, sivilizasiya və mədəniyyətlərin varlığı, alınmış bilik və bacarıqların miras qoyması imkanları fərqləndirir. İnsan ekologiyasının başlıca özəlliyi sosial və bioloji cəhətlərin düzgün uyğunluğu olan sosiobioloji yanaşmadır. Sosial ekologiya, insan ekologiyasının bir bölümü kimi, ictimai strukturların (ailələrin və başqa kiçik qrupların) təbiətlə və onları bürüyən sosial mühitlə bağlantılarını öyrənən elmi sahələrdir. Bu sahələrə sivilizasiyaların ekoloji amilləri, insan populyasiyaların ekologiyası, ekoloji demoqrafiya, etnosların ekologiyası və etnogenez (irqlərin və millətlərin təşəkkülü) daxildirlər.
Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması üçün səmərəli istifadə edilməsi ölkədə aparılan sosial-iqtisadi islahatların tərkib hissəsidir. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu istiqamətdə zəruri tədbirlər həyata keçirir. Görülən işlər təbii sərvətlərdən səmərəli istifadə, çirklənmiş ərazilərin bərpası, su ehtiyatlarının mühafizəsi, xüsusi mühafizə olunan təbiət ərazilərinin, meşə və yaşıllıq sahələrinin artırılması və s. istiqamətlərdə ətraf mühitin komponentlərinin bərpasında böyük rol oynayır və respublikamızın ərazisində ətraf mühitin vəziyyətinin yaxşılaşdırılmasında böyük irəliləyişlərə səbəb olur.(3)
Ətraf mühitə mənfi təsir göstərən səbəblərdən biri də bərk məişət tullantılarının, xüsusilə də ətraf mühiti çirkləndirən əsas faktorlardan olan plastik tullantıların düzgün idarə olunmamasıdır. Plastik və polietilen qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılması istiqamətində Ekologiya və Təbii Sərvətlər Nazirliyində genişmiqyaslı təbliğat kampaniyası aparılmış, plastik tullantıların ətraf mühitə və insanların sağlamlığına mənfi təsirləri, dünya ölkələrinin plastikdən

imtina və onun istifadəsinin məhdudlaşdırılması ilə əlaqədar təcrübələri, eyni zamanda polietilen torbaların alternativləri barədə paylaşımlar edilmiş, bu tullantıların ətraf mühitə mənfi təsiri barəsində maarifləndirmə işləri aparılmışdır.

İnsanların ətraf mühitə münasibətləri, onların sosial davranışlarını formalaşdırır. Məsələn, ekoloji dost davranışların təşviqi, cəmiyyətin dayanıqlı inkişafına kömək edir. Sosial şüurun artması, insanların ətraf mühitə daha məsuliyyətli yanaşmalarını təşviq edir. Ətraf mühitin sağlamlığı, iqtisadi inkişafla sıx bağlıdır. Məsələn, gözəl bir təbii mühit turizmin inkişafına, yeni iş yerlərinin yaradılmasına və iqtisadiyyatın artımına səbəb ola bilər. Eyni zamanda, ətraf mühitin çirklənməsi və tükənməsi, iqtisadi çətinliklərə gətirib çıxarır.

Sosial mühitin ətraf mühitə təsirini anlamaq üçün təhsil və maarifləndirmə vacibdir. İnsanların ekoloji problemlərdən xəbərdar olması, onların məsuliyyətli davranmalarını təşviq edir.(2)

Hökumətlərin və təşkilatların ətraf mühitin qorunması üçün sosial siyasətlərin hazırlanması, insanların sosial davranışlarını və ətraf mühitə münasibətlərini dəyişdirir. Bu cür siyasətlər, sosial ədalət və bərabərlik prinsiplərinə əsaslanmalıdır.

Son illər Azərbaycanda ətraf mühitin mühafizəsi sahəsində bir sıra uğurlu layihələr həyata keçirilmişdir:

1.“Təmiz Hava” Layihəsi

Bakı şəhərində atmosfer havasının monitorinqi və çirklənmənin azaldılması məqsədilə müasir cihazlarla təchiz olunmuş monitorinq stansiyaları quraşdırılmışdır. Bu stansiyalar vasitəsilə toplanan məlumatlar ictimaiyyətə açıqlanır.

2.Milli Parkların Yaradılması

Şahdağ, Hirkan, Qızılağac və digər milli parklar vasitəsilə nadir flora və fauna növlərinin qorunması təmin olunur. Bu ərazilər həm də ekoturizm baxımından əhəmiyyətlidir.

Yaşıllaşdırma Proqramları

3.“Hərəyə bir ağac” kampaniyası çərçivəsində minlərlə ağac əkilmiş, şəhərlərdə yeni park və yaşıl zolaqlar salınmışdır.

Bərk Məişət Tullantılarının İdarəolunması

Balaxanı və digər bölgələrdə müasir zibil çeşidləmə və emal mərkəzləri fəaliyyətə başlamışdır. Bu mərkəzlər həm tullantıların həcmini azaldır, həm də ekoloji tarazlığı qoruyur.

4.“Təmiz İçməli Su” Layihələri

Kənd və rayonlarda əhalinin təmiz suya çıxışını təmin etmək məqsədilə yeni artezian quyuları qazılmış, filtrasiya sistemləri quraşdırılmışdır.

Ölkəmizdə ekoloji mühitin qorunması istiqamətində görülən tədbirlər sırasında atmosfer havasına atılan tullantıların zərərsizləşdirilməsi üçün reallaşdırılan layihələrin də əhəmiyyəti xüsusi qeyd edilməlidir. Son illərdə ölkənin böyük şəhərlərində bu məqsədlə 500-ə yaxın iri ictimai-iaşə obyektində təmizləyici qurğuların quraşdırılması təmin olunub.(5)

Sirr deyil ki, ötən əsrlərdə nizamsız neft hasilatı və təmizlənmədən axıdılan tullantılar Xəzər sularının çirklənməsinə səbəb olub. Xəzər dənizinə daxil olan tullantı sularının 60 faizi Volqa çayının payına düşür. Ermənistan və Gürcüstan ərazisində formalaşan kommunal və sənaye tullantı suları da Kür çayı vasitəsilə Xəzərə daxil olur.

Su mənbələrinin çirklənməsinin qarşısının alınması tədbirləri, çirklənmə baş verən ərazilərdə təmizləmə işlərinin həyata keçirilməsi, bu məqsədlə ən müasir texnologiyadan istifadə olunması ölkəmizdə gerçəkləşdirilən ekoloji siyasətin mühüm istiqamətlərindən birini təşkil edir.

Nəticə

Ətraf mühitin mühafizəsi təkcə təbiətə deyil, eyni zamanda insanın sağlamlığına, rifahına və gələcəyinə yönəlmiş bir fəaliyyət sahəsidir. Bu mübarizədə hər bir fərdin rolu böyükdür.

Əldə olunan uğurları qoruyub saxlamaq və mövcud problemlərin qarşısını almaq üçün aşağıdakı tövsiyələr irəli sürülə bilər:

- Dövlət siyasəti ekoloji tarazlığı əsas götürməlidir;
- Hüquqi mexanizmlər gücləndirilməli və tətbiqi təmin edilməlidir;

- Maarifləndirmə kampaniyaları genişləndirilməlidir;
- Tullantıların idarəsi və alternativ enerji sahəsində investisiyalar artırılmalıdır;
- Vətəndaş cəmiyyəti daha çox təşviq olunmalı və cəlb edilməlidir;
- Məktəblərdə və universitetlərdə ekoloji təhsilə önəm verilməlidir;
- Beynəlxalq əməkdaşlıqlar dərinləşdirilməli və qlobal çağırışlara adekvat cavab verilməlidir.

Nəticə etibarilə, ətraf mühitin qorunması bu günün və sabahın vəzifəsidir. Bu sahədə atılacaq hər bir müsbət addım, gələcək nəsillərə yaşanacaq bir dünya miras qoymaq deməkdir. Bu isə yalnız birlikdə mümkün ola bilər. Unutmayaq: təbiət bizim evimizdir və biz onu qorumağa borcluyuq.

Ətraf mühitin sosial təsiri, iki tərəfli bir əlaqədir. İnsanlar, ətraf mühitdən təsir alaraq sosial davranışlarını formalaşdırır, eyni zamanda, ətraf mühitin qorunmasında aktiv rol oynayırlar. Bu əlaqələrin anlaşılması, cəmiyyətin daha dayanıqlı və ekoloji cəhətdən məsuliyyətli bir gələcəyə doğru irəliləməsi üçün vacibdir. Sosial mühitin inkişafı və ətraf mühitin mühafizəsi, insan həyatının keyfiyyətini artırmaq və gələcək nəsillərə daha sağlam bir dünya təqdim etmək məqsədini güdür.

Ədəbiyyat Siyahısı

1. Cəfərov, Y.M. (2017). Ekologiya və ətraf mühitin mühafizəsi. Bakı.
2. Əliyev, Ə.M. (2015). Ekologiya. Bakı Təhsil Nəşriyyatı.
3. Əliyeva, S.A. (2019). Ekoloji mədəniyyətin formalaşması. Bakı.
4. Həsənov, F.F. (2020). Ətraf mühitin mühafizəsində hüquqi və sosial aspektlər. Bakı
5. Hüseynov, A.M. (2018) Davamlı inkişaf və ətraf mühit. Bakı. “Elm və Təhsil”.
6. Qasımova, A.A. (2017). İnsan-ekologiya münasibətləri. Bakı
7. Məmmədov Q.Ş., Xəlilov M.Y. (2006) Ekologiya, ətraf mühit və insan. Ali məktəblər üçün dərslik. Bakı,

PERSONALITY IS A SOCIAL BEING

ŞƏXSİYYƏT İCTİMAİ-SOSİAL VARLIQDIR

Mikayılov Şasəddin Sabir oğlu
ADPU-nun Şamaxı filialı Filiologiya üzrə fəlsəfə doktoru

Xülasə

Fəlsəfə elmi insanı ictimai-sosial varlıq kimi qiymətləndirərək şəxsiyyətin mahiyyətini onun ümumi xassələrində, cəhətlərində axtarmağa üstünlük vermişdir. Həmçinin şəxsiyyətin sosial, mənəvi-fiziki keyfiyyətlərini qiymətləndirmiş, onu formalaşdıran cəhətlərə kompleks şəkildə yanaşmışdır. Eyni zamanda müxtəlif fəlsəfi konsepsiyalar, cərəyanlar şəxsiyyətin formalaşmasının səbəblərini müxtəlif məzmunlu yozumlarla izah etməyə çalışmışlar. Bu bir daha təsdiq edir ki, şəxsiyyət anlayışı çox mürəkkəb struktura malik olduğundan onun müxtəlif elmi baxışlar əsasında şərhinə böyük ehtiyac vardır.

Şəxsiyyətin fərdi keyfiyyətləri cəmiyyətdəki bir sıra sosial, mənəvi proseslərə inteqrasiyasında özünü büruzə verir. Bunun da nəticəsində şəxsiyyətin sosial fəaliyyəti onun göstəricisinə çevrilir və fərdi insandan onu bu göstəricilərə görə fərqləndirir. Sosial fəaliy yətin məzmununa uyğun olaraq şəxsiyyətin xassələri və keyfiyyətləri formalaşır.

Qeyd etmək lazımdır ki, tanınmış alman sosioloqu M.Veberin fikrinə görə ənənəvi, xarizmatik, rasional-leqal lider tipləri mövcuddur, öz əlamətinə görə ənənəvi lider öz ictimai-siyasi fəaliyyətində daha çox ənənələrin gücünə arxalanır. Xarizmatik liderlik isə öz istedad və bacarığına güvənərək yeni təşkilatçılıq keyfiyyətləri ilə fərqlənən şəxsiyyətlərə məxsusdur. Rassional leqal liderlər isə qanunların aliliyinə əsaslanaraq bütün cəmiyyət üzvlərini onlara inandırmağa və qanunların aliliyinə hörmətlə 304 yanaşmağa üstünlük verir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev məhz belə şəxsiyyətlərdən olmuşdur. O, həm öz istedad və bacarığı sayəsində xarizmatik lider kimi formalaşmış, həm də bütün rəhbərlik fəaliyyəti dövründə qanunların aliliyinə hörmətlə yanaşaraq tabeliyində olanlardan da qanunlar çərçi vəsində fəaliyyət göstərmələrini tələb etmişdir.

Vaxtilə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev öz çıxışlarının birində qeyd etmişdir ki, "İnsanın hərtərəfli tərəqqisi bizim üçün abstrakt bir ideya deyil, ictimai inkişaf qanunudur". Şəxsiyyətin mənəvi siması onun əxlaqi fəaliyyəti prose sində formalaşır. Əxlaqi fəaliyyətin özü isə şəxsiyyəti əhatə edən xarici şəraitin məzmunundan çox asılıdır. Eyni zamanda əxlaqi fəaliyyət iradə azadlığına malik olan şəxsiyyətlərdə sərbəst seçim imkanı yaradır və belə şəxsiyyətlər onu əhatə edən aləmə təsir etmək qabiliyyətinə malik olurlar. Hətta onlar öz mühitlərinə təsir edərək onu dəyişdirmək kimi keyfiyyətlərə sahibdirlər.

Ümumiyyətlə, etik və estetik keyfiyyət mahiyyət etibarı ilə çoxşaxəlidir. Bu keyfiyyətləri kompleks şəkildə özündə əxz edən şəxsiyyətlər həm də universallaşırlar.

Abstract

The science of philosophy, evaluating man as a social being, has preferred to search for the essence of personality in its general properties and aspects. It has also evaluated the social, spiritual and physical qualities of personality and has approached the aspects that form it in a complex way. At the same time, various philosophical concepts and trends have tried to explain the reasons for the formation of personality with interpretations of various contents. This once again confirms that since the concept of personality has a very complex structure, there is a great need for its interpretation based on various scientific views.

The individual qualities of personality manifest themselves in its integration into a number of social and spiritual processes in society. As a result, the social activity of personality becomes its indicator and distinguishes it from an individual person according to these indicators. The properties and qualities of personality are formed in accordance with the content of social activity.

It should be noted that according to the well-known German sociologist M. Weber, there are traditional, charismatic, rational-legal types of leaders, and according to their characteristics, a traditional leader relies more on the power of traditions in his socio-political activities. Charismatic leadership belongs to individuals who are distinguished by new organizational qualities, relying on their talents and abilities. Rational-legal leaders, on the other hand, prefer to convince all members of society based on the rule of law and treat them with respect for the rule of law. The national leader of the Azerbaijani people, Heydar Aliyev, was one of such individuals. He was formed as a charismatic leader thanks to his talents and abilities, and during his entire leadership activity, he respected the rule of law and demanded that his subordinates act within the framework of the law.

Once, the National Leader of the Azerbaijani people, Heydar Aliyev, noted in one of his speeches that "The comprehensive progress of man is not an abstract idea for us, but a law of social development." The spiritual face of a person is formed in the process of his moral activity. Moral activity itself depends largely on the content of the external conditions surrounding the personality. At the same time, moral activity creates the opportunity for free choice in individuals who have free will, and such individuals have the ability to influence the world around them. They even have the qualities of influencing their environment and changing it.

In general, ethical and aesthetic qualities are inherently multifaceted. Individuals who possess these qualities in a complex way also become universal.

SEMANTİK FLEXİBİLİTY OF SİMPLE SYNTACTİC STRUCTURES: POLYSEMY AND CONTEXTUAL VARİATİONS

SADƏ SİNTAKTİK QURULUŞLARIN SEMANTİK ÇEVİKLİYİ: POLİSEMİYA VƏ KONTEKSTUAL DƏYİŞİKLİKLƏR

Elvina Baxışova Füzuli
ADU/MAA (baş müəllim və dissertant)

Abstrac
This study investigates the semantic flexibility of simple syntactic structures. Polysemy and context are analyzed as key factors that enable the multiplicity and variability of semantic meanings. Sentences with identical syntactic structures are examined from pragmatic and semantic perspectives to demonstrate how they convey different meanings in diverse situations. The research emphasizes the role of semantic flexibility in everyday communication and intercultural interactions.
Keywords: Simple syntactic structures, polysemy, context, semantic flexibility, pragmatics, linguistics.

Xülasə
Bu işdə sadə sintaktik quruluşların semantik çevikliyi araşdırılır. Polisemiya və kontekst faktoru semantik mənaların çoxluğunu və dəyişkənliyini təmin edən əsas amillər kimi təhlil olunur. Eyni sintaktik quruluşa malik cümlələrin fərqli situasiyalarda müxtəlif mənalar ifadə etməsi praqmatik və semantik aspektlərdən qiymətləndirilir. Araşdırmada dilin semantik çevikliyinin gündəlik kommunikasiya və mədəniyyətlərarası ünsiyyətdə oynadığı rol vurğulanır.
Açar sözlər: Sadə sintaktik quruluş, polisemiya, kontekst, semantik çeviklik, praqmatika, dilçilik.

Giriş

Dil – insanın düşüncə və duyğularını ifadə etmək, qarşılıqlı ünsiyyət qurmaq üçün yaratdığı ən əsas vasitədir. Bu vasitənin quruluşu və funksiyası dilçilikdə müxtəlif istiqamətlərdə tədqiq edilir. Onlardan biri də sintaksis – cümlənin daxili strukturunu və komponentlərinin qarşılıqlı münasibətlərini öyrənən sahədir. Hər bir dilin sintaktik sistemi, sadə və mürəkkəb quruluşlu cümlələrin müəyyən qaydalara uyğun şəkildə təşkilindən ibarətdir.

Sadə cümlələr – qrammatik baxımdan yalnız bir predikativ əsasdan ibarət olub, adətən bir mübtəda və bir xəbərə malik olur. Onlar sintaktik baxımdan ən elementar quruluş kimi qəbul edilsə də, semantik və praqmatik aspektdən qiymətləndirildikdə bu cür cümlələrin daşıdığı mənaların çoxqatlı və çevik olduğu aydın olur. Məhz bu səbəbdən sadə cümlələr yalnız qrammatik strukturun deyil, eyni zamanda məna zənginliyinin də daşıyıcılarıdır.

Gündəlik ünsiyyətdə istifadə olunan sadə cümlələr bəzən eyni leksik və sintaktik quruluşda təqdim olunsa da, fərqli kontekstlərdə olduqca müxtəlif semantik və praqmatik funksiyalar daşıya bilər. Bu dəyişkənliyin əsas səbəbi polisemik xarakter daşıyan ifadələrin mövcudluğu və onların konkret kontekstdə fərqli şəkildə şərh olunmasıdır. Məsələn, “O gəldi” cümləsi neytral məna ilə yanaşı, ironik, təəccüblü və ya xəbərdarlıq məqsədi ilə də işlənə bilər. Bu, dilin semantik çevikliyinin və məna çoxluğunun göstəricisidir.

Araşdırmanın əsas məqsədi – sintaktik baxımdan sadə, lakin semantik baxımdan çevik və çoxqatlı mənaya malik olan bu cür cümlələrin dildə necə formalaşdığını, polisemiyanın və kontekstual dəyişkənliyin onların semantik məzmununa təsirini müəyyənləşdirməkdir. Bu istiqamətdə aparılan tədqiqat dilin ifadə imkanlarını daha dərindən anlamağa və ünsiyyət prosesində qarşılıqlı anlaşmanın mexanizmlərini izah etməyə xidmət edir.

Elmi işdə həm nəzəri, həm də praktik yanaşmalara əsaslanaraq müxtəlif nümunələr üzərində təhlil aparılacaq, kontekstin və polisemiyanın sadə sintaktik quruluşlara necə semantik zənginlik qazandırdığı göstəriləcək. Beləliklə, dilin görünən sintaktik sadəliyi ilə semantik mürəkkəbliyi arasında olan tarazlıq aydınlaşdırılacaqdır.

Nəzəri Əsaslar

Dilçiliyin əsas istiqamətlərindən biri olan semantika, dil vahidlərinin mənalarını, bu mənaların yaranma, dəyişmə və kontekstlə əlaqələnmə yollarını araşdırır. Bu tədqiqatda dilin semantik imkanlarının sintaktik strukturla necə qarşılıqlı əlaqədə olduğu, xüsusilə də sadə sintaktik quruluşların nə dərəcədə çevik semantik potensiala malik olduğu izah edilir. Sadə cümlələrin çoxqatlı mənalar ifadə etməsi ilk baxışda qeyri-mümkün görünsə də, dərin semantik və praqmatik təhlil göstərir ki, bu tip cümlələr də polisemik və kontekstual dəyişkənlik baxımından olduqca məhsuldardır.

Polisemiya: Dilin məna çoxluğu potensialı

Polisemiya – eyni dil vahidinin, xüsusən də sözlərin və ifadələrin, müxtəlif kontekstlərdə əlaqəli, lakin fərqli mənalar ifadə etməsi halıdır. Leksik səviyyədə daha çox öyrənilən polisemiya, sintaktik və frazeoloji vahidlərə də şamil edilə bilər. Bu baxımdan, sadə sintaktik quruluşların tərkibində yer alan sözlər və ifadələr də polisemik xüsusiyyətə malik olduqda, cümlənin ümumi semantikası kontekstdən asılı olaraq dəyişə bilir.

Məsələn, “aç” felinin müxtəlif kontekstlərdə işlənməsi fərqli mənalar doğurur:

- Qapını aç. (fiziki hərəkət)
- Sözünü aç. (başla, izah et)
- Gözünü aç. (oyan, ayıl)

Beləliklə, sintaktik quruluş eyni qalsa da, feli təşkil edən sözün polisemik xarakteri cümlənin semantik çevikliyinə yol açır.

Kontekstin semantikaya və praqmatikaya təsiri

Kontekst – hər bir dil vahidinin məna daşıyıcısı olması üçün zəruri olan ətraf şərtlər və məlumatlardır. Kontekst, həm dil daxilində (verbal kontekst), həm də dil xaricində (situativ, sosial və mədəni kontekstlər) mövcud olur. Eyni sadə cümlə, fərqli kontekstlərdə tamamilə ayrı semantik və praqmatik funksiyalar daşıya bilər.

Məsələn, “Mən getdim” cümləsi aşağıdakı kontekstlərdə müxtəlif mənalar daşıya bilər:

- Fiziki hərəkət – “Evə getdim.”
- Münasibətin kəsilməsi – “Mən artıq bu münasibətdə yoxam.”
- Emosional uzaqlaşma – “Mən özümə qapanmışam.”

Bu misallar göstərir ki, kontekstin təsiri ilə eyni cümlə bir neçə fərqli məna yüklənə bilər. Bu, dilin həm ifadə çevikliyinin, həm də sosiopraqmatik funksionallığının təzahürüdür.

Sadə sintaktik quruluşların semantik potensialı

Sadə sintaktik quruluşlar – əsasən bir mübtəda və bir xəbərdən ibarət olan cümlələr – dilin ən sadə, lakin ən çox işlənən və ən çevik vahidlərindən biridir. Onların sintaktik strukturu çox sadə görünsə də, bu quruluşun daxilində yerləşən sözlərin polisemiya potensialı və kontekstin təsiri ilə həmin cümlələr kompleks semantik və praqmatik məna daşıya bilir.

Bu çeviklik yalnız məna baxımından deyil, həm də ünsiyyət funksiyaları baxımından əhəmiyyətlidir. Sadə cümlə ilə həm informasiya ötürmək, həm də emosional vəziyyət bildirmək, qarşı tərəfə xəbərdarlıq və ya münasibət çatdırmaq mümkündür.

Praktiki Təhlil

Sadə sintaktik quruluşların semantik çevikliyini araşdırmaq üçün onların müxtəlif kontekstlərdə necə dəyişdiyini müşahidə etmək vacibdir. Bu bölmədə eyni formal quruluşa malik cümlələrin müxtəlif kontekstlərdə ifadə etdiyi mənalar və praqmatik funksiyalar konkret nümunələrlə təhlil edilir.

"O gəldi."
Struktur: Mübtəda ("o") + xəbər ("gəldi")
Qrammatik baxımdan: Keçmiş zamanda sadə xəbər cümləsidir.
Kontekstual variasiyalar:
- **Neytral kontekst:**

Müəllim sinifə daxil oldu. O gəldi.
– Faktın bildirilməsi; hadisənin baş verdiyini göstərir.
- **Emosional kontekst:**

Axı o gəlməməli idi! O gəldi?!
– Təəccüb və ya narahatlıq ifadə olunur; intonasiya və situasiya semantikayı dəyişir.
- **İronik kontekst:**

Həmişə gecikən odur... O gəldi!
– Qarşı tərəfin davranışı ilə bağlı kinayə və ya məyusluq.
Nəticə: Kontekstdən və intonasiyadan asılı olaraq cümlə həm neytral, həm təəccüblü, həm də ironik məna daşıya bilər.
"Mən getdim."
Struktur: Mübtəda ("mən") + xəbər ("getdim")
Qrammatik baxımdan: Keçmiş zamanda sadə xəbər cümləsidir.
Mümkün semantik variasiyalar:
- **Sadə hərəkət:**

Mən getdim marketə.
– Fiziki hərəkətin ifadəsi.
- **Sosial münasibətlərdə uzaqlaşma:**

Çox yoruldum, artıq mən getdim.
– İki insan arasında emosional və ya psixoloji ayrılıq.
- **Ünsiyyətin kəsilməsi:**

Əgər belədirsə, mən getdim.
– Mövzudan və ya şəxsdən uzaqlaşmaq; münasibətin sonlandırılması.
Nəticə: Eyni cümlə emosional, münasibət yönümlü və ya fiziki mənaları ifadə edə bilər. Bu dəyişkənlik sözlərin leksik polisemik təbiəti və sosial kontekstdən qaynaqlanır.
"Qapını aç."
Struktur: Əmr cümləsi, xəbər "aç" feli ilə ifadə olunub.
Kontekstual variantlar:
- **Birbaşa əmrlə:**

Qapını aç, kimsə gəlir.
– Praktik məqsədli göstəriş.
- **Simvolik mənada:**

Həyatına bir az sevinc burax, qapını aç.
– Simvolik çağırış; həyat, imkan, duyğu üçün açılış.
- **Məcazi kontekst:**

Özünü insanlara bağlama, qapını aç.
– Ünsiyyətə, anlayışa, empatiyaya yönəlik metaforik anlam.
Nəticə: Sözün və strukturun semantik çevikliyi cümlənin fərqli funksiyalarda istifadəsinə imkan yaradır.
"Yağış yağır."
Forması: Təbii hadisəni bildirən xəbər cümləsi
Kontekstlər:
- **Meteoroloji məna:**

Çölə çıxma, yağış yağır.
– Faktın ifadəsi.

- **Metaforik/emotiv kontekst:**

Bu aralar ürəyimdə yağış yağır.
– Kədərli ruh halının bənzətməli ifadəsi.

- **Bədii/şəxsi kontekst:**

Sən getdin, şəhərdə yağış yağır.
– İtki, ayrılıq, xiffət ifadəsi; emosional və poetik funksiyalar.

Nəticə: "Yağış yağır" kimi təbii hadisə bildirən sadə cümlə belə poetik və duyğusal çalarlara çevrilə bilər.

Yuxarıda göstərilən nümunələr sübut edir ki, sadə sintaktik quruluşlar yalnız sintaktik və morfoloji baxımdan deyil, həm də semantik və praqmatik baxımdan çevik və çoxfunksiyalı ola bilər. Kontekst və polisemiya bu cür cümlələrin çoxqatlı mənalar daşımasını mümkün edir.

Nəticə

Araşdırmanın nəticələri göstərdi ki, sadə sintaktik quruluşlar dilin yalnız qrammatik baxımdan deyil, semantik və praqmatik baxımdan da dinamik və çoxqatlı sisteminə inteqrasiya olunmuş vacib komponentlərdir. Əvvəlcə sintaktik baxımdan ən elementar, bir predikativ baza üzərində qurulan bu cümlələr, əslində kontekstual mühitdə çoxqatlı və dəyişkən məna qazana bilirlər.

Eyni struktura malik cümlələrin – məsələn, "O gəldi", "Mən getdim", "Qapını aç", "Yağış yağır" – müxtəlif məkan, zaman, emosional və sosial kontekstlərdə fərqli semantik və praqmatik funksiyalar daşıması, dilin təbii çevikliyinin və istifadəyə yönəlik yaradıcılığının təzahürüdür. Bu dəyişkənlik polisemiyanın – yəni bir ifadənin bir neçə əlaqəli mənaya sahib olmasının – və kontekstin – yəni ifadənin baş verdiyi dil və situasiya mühitinin – birgə təsiri nəticəsində mümkün olur.

Tədqiqat sübut edir ki:

- Sadə sintaktik cümlələr struktur baxımından sabit olsa da, məna baxımından dəyişkəndir;
- Polisemiya və kontekst, dil vahidlərinə semantik zənginlik və funksional elastiklik qazandırır;
- Eyni cümlə danışıq niyyəti, sosial münasibət, emosional vəziyyət və mədəni faktorlarla fərqli şəkildə dəyərləndirilə bilər;
- Bu çeviklik dilin iqtisadi və kommunikativ səmərəliliyini artırır.

Sadə cümlələrin bu qədər çevik və çoxqatlı olmasının ünsiyyət baxımından böyük əhəmiyyəti vardır. Bu, danışanın niyyətini daha incə formada ifadə etməyə, dinləyicinin isə mətnaltı mənaları anlamağa imkan verir. Eyni zamanda, bu semantik çeviklik mədəniyyətlərarası ünsiyyətdə də mühüm rol oynayır – çünki bəzən eyni struktura malik cümlələr müxtəlif dillərdə və mədəniyyətlərdə fərqli praqmatik funksiyalar daşıya bilər.

Beləliklə, sadə sintaktik quruluşların semantik çevikliyi, polisemiya və kontekstin qarşılıqlı təsiri ilə izah olunur və bu fenomen dilin universal yaradıcılıq imkanlarını nümayiş etdirir.

Araşdırmanın ümumi nəticələri göstərdi ki, sadə sintaktik quruluşlar yalnız formaca deyil, semantik və praqmatik baxımdan da böyük çevikliyə malikdir. Bu çeviklik, əsasən, aşağıdakı amillərlə izah olunur:

1. **Polisemiya** – cümlədə yer alan sözlərin və ifadələrin bir neçə əlaqəli mənaya malik olması sadə cümlələrin məna yükünü genişləndirir.
2. **Kontekst** – eyni sintaktik quruluşa malik ifadələrin fərqli situasiyalarda tamamilə yeni və fərqli mənalar qazanmasına səbəb olur.
3. **Pragmatik məqsədlər** – danışanın niyyəti, emosional vəziyyəti və sosial münasibəti cümlənin semantik çalarlarını dəyişə bilir.

Sadə cümlələrin bu qədər semantik yük daşıya bilməsi, dilin iqtisadi, funksional və ifadə gücünün təbii nəticəsidir. Onların geniş istifadəsi gündəlik danışıqda, yazılı ədəbiyyatda, medianın dilində və mədəniyyətlərarası ünsiyyətdə aktiv şəkildə müşahidə olunur.

Bu nəticələr bir daha sübut edir ki, dil sadəcə struktur mexanizmi deyil, həm də məna yaradan canlı bir sistemdir. Sadə görünən sintaktik vahidlərin altında yatan məna müxtəlifliyi, dilin estetik və funksional dəyərini artırır.

Ədəbiyyat siyahısı

1. Yıldırım, T. (2016). *Semantics and Pragmatics: An Introduction*. Ankara: Linguistics Press.
2. Leech, G. (1983). *Principles of Pragmatics*. London: Longman.
3. Cruse, D. A. (2000). *Meaning in Language: An Introduction to Semantics and Pragmatics*. Oxford: Oxford University Press.
4. Lyons, J. (1977). *Semantics*. Cambridge: Cambridge University Press.
5. Bach, K., & Harnish, R. M. (1982). *Linguistic Communication and Speech Acts*. Cambridge, MA: MIT Press.

EMOTIONAL INTELLIGENCE AND FOREIGN LANGUAGE TEACHING

EMOSİONAL ZƏKA VƏ XARİCİ DİL TƏDRİSİ

Elvina Baxışova Füzuli
ADU/MAA (baş müəllim və dissertant)

Abstract
This thesis explores the role of emotional intelligence in the process of teaching foreign languages. The study analyzes the impact of emotional intelligence (EQ) on learners' motivation, attitudes towards lessons, teacher-student relationships, and the overall learning environment. It has been observed that emotionally intelligent teachers establish healthier and more supportive relationships with their students, which positively influences the development of students' language skills. At the same time, fostering emotional intelligence helps learners express themselves better and achieve greater success in intercultural communication. The research findings indicate that integrating emotional intelligence into the teaching process creates a more effective and harmonious learning environment for both teachers and students. In this context, the development of emotional intelligence skills is of particular importance in the pedagogical training of foreign language teachers.
Keywords: Emotional intelligence, foreign language teaching, language learning, teacher-student relationships, motivation, emotional regulation.

Xülasə
Bu tezis emosional zəkanın xarici dilin tədrisi prosesindəki rolunu araşdırır. Araşdırmada emosional zəkanın (EQ) dil öyrənənlərin motivasiyasına, dərsə münasibətinə, müəllim-tələbə münasibətlərinə və ümumi öyrənmə mühitinə təsiri təhlil olunur. Emosional cəhətdən savadlı müəllimlərin tələbələrlə daha sağlam və dəstəkləyici münasibətlər qurduğu, bu münasibətlərin isə tələbələrin dil bacarıqlarının inkişafına müsbət təsir göstərdiyi müşahidə olunmuşdur. Eyni zamanda, emosional zəkanın inkişaf etdirilməsi tələbələrin özünü ifadə etmə və interkultural kommunikasiyada daha uğurlu olmalarına kömək etdiyi müəyyən edilmişdir. Tədqiqat nəticələri göstərir ki, emosional zəkanın tədris prosesinə inteqrasiyası həm müəllimlər, həm də tələbələr üçün daha effektiv və harmonik öyrənmə mühiti yaradır. Bu baxımdan, xarici dil müəllimlərinin pedaqoji hazırlığında emosional zəka bacarıqlarının inkişafı xüsusi önəm daşıyır.
Açar sözlər : Emosional zəka, xarici dilin tədrisi, dil öyrənmə, müəllim-tələbə münasibətləri, motivasiya, emosional tənzimləmə

Giriş

Son illərdə xarici dil tədrisi yalnız qrammatik qaydaların öyrədilməsi ilə məhdudlaşmır. Emosional zəka (EQ) anlayışı, dil öyrənmə və tədris prosesində mühüm rol oynamağa başlamışdır. Emosional zəka, insanın öz duyğularını tanıması, idarə etməsi və başqalarının duyğularını anlama bacarığıdır. Bu bacarıqlar, dil öyrənənlərin motivasiyasını, özünəinamını və ümumi öyrənmə mühitini birbaşa təsir edir. Bu tezisin məqsədi, emosional zəkanın xarici dil tədrisindəki rolunu araşdırmaq və bu sahədəki mövcud tədqiqatları nəzərdən keçirməkdir.

Emosional Zəkanın Tərifi və Əhəmiyyəti

Emosional zəka, Daniel Goleman tərəfindən populyarlaşdırılmış bir anlayışdır və beş əsas komponentdən ibarətdir: özünü tanıma, özünü idarə etmə, motivasiya, empatiya və sosial bacarıqlar. Bu komponentlər, fərdlərin sosial və emosional mühitlərdə effektiv fəaliyyət göstərmələrini təmin edir. Xarici dil öyrənmə prosesində, emosional zəka tələbələrin dilə olan münasibətini, motivasiyasını və ümumi öyrənmə mühitini birbaşa təsir edir.(1)

Emosional Zəkanın Xarici Dil Öyrənməyə Təsiri

Tədqiqatlar göstərir ki, emosional zəka səviyyəsi yüksək olan tələbələr, dil öyrənmə prosesində daha uğurlu olurlar. Məsələn, Dilek Çakıcı (2017) tərəfindən aparılan bir araşdırmada, emosional zəka ilə

xarici dil uğuru arasında müsbət və güclü bir əlaqə olduğu müəyyən edilmişdir . Bu nəticə, emosional zəkanın dil öyrənmə prosesində mühüm bir amil olduğunu göstərir.(3)
Emosional zəka, tələbələrin dil öyrənmə zamanı qarşılaşdıqları çətinliklərlə başa çıxmalarına kömək edir. Özünü idarə etmə və streslə mübarizə bacarıqları, tələbələrin öyrənmə prosesindəki maneələri aşmalarına və daha effektiv öyrənmələrinə şərait yaradır. Bundan əlavə, empatiya və sosial bacarıqlar, tələbələrin müəllim və digər tələbələrlə daha yaxşı ünsiyyət qurmasına və öyrənmə mühitində daha müsbət bir atmosferin yaranmasına səbəb olur.

Emosional Zəka və Müəllimlərin Rolu
Müəllimlərin emosional zəka səviyyəsi də tələbələrin öyrənmə prosesini birbaşa təsir edir. Gülşah Demircan Kaya (2024) tərəfindən aparılan bir araşdırmada, İngilis dili müəllimlərinin emosional zəka səviyyələri ilə xarici dil tədrisi zamanı yaşadıqları kaygı arasında mənfi və əhəmiyyətli bir əlaqə olduğu müəyyən edilmişdir . Bu nəticə, müəllimlərin emosional zəka bacarıqlarının, onların tədris fəaliyyətlərini və tələbələrlə münasibətlərini necə təsir etdiyini göstərir.(4)
Emosional zəka səviyyəsi yüksək olan müəllimlər, tələbələrin ehtiyaclarını daha yaxşı anlayır, onlara dəstək olur və öyrənmə mühitini daha müsbət hala gətirirlər. Bu da nəticə etibarilə tələbələrin dil öyrənmə prosesində daha uğurlu olmalarına şərait yaradır.

Tədris Strategiyaları və Tövsiyələr
Emosional zəkanın xarici dil tədrisində effektiv şəkildə istifadə edilməsi üçün bəzi tədris strategiyaları mövcuddur:
- **Empatiya və Sosial Bacarıqların İnkişafı:** Tələbələrə empatiya və sosial bacarıqların önəmi öyrədilməli və bu bacarıqların inkişafı üçün fəaliyyətlər təşkil edilməlidir.
- **Streslə Mübarizə və Özünü İdarəetmə:** Tələbələrə streslə mübarizə və özünü idarəetmə bacarıqları öyrədilməli, bu sahədə təlimlər verilməlidir.
- **Motivasiya və Özünəinamın Artırılması:** Tələbələrin motivasiyasını artırmaq və özünəinamlarını gücləndirmək üçün müxtəlif fəaliyyətlər və təşviqlər tətbiq edilməlidir.
- **Müəllimlərin Emosional Zəka Bacarıqlarının İnkişafı:** Müəllimlərə emosional zəka bacarıqları öyrədilməli və onların bu sahədə inkişafı üçün təlimlər təşkil edilməlidir.

Nəticə
Emosional zəka, xarici dil tədrisində mühüm bir amil olaraq önə çıxır. Tələbələrin və müəllimlərin emosional zəka səviyyələri, öyrənmə prosesinin effektivliyini və müsbət nəticələrini birbaşa təsir edir. Bu səbəbdən, emosional zəkanın tədris prosesinə inteqrasiyası, dil öyrənmə və tədris fəaliyyətlərinin keyfiyyətini artırmağa kömək edir. Gələcəkdə, emosional zəkanın xarici dil tədrisində daha geniş şəkildə tətbiq edilməsi və bu sahədə daha çox tədqiqatın aparılması vacibdir.

Ədəbiyyat
1. Goleman, D. (1995). Emotional Intelligence: Why It Can Matter More Than IQ. New York: Bantam Books.
2. Mayer, J. D., Salovey, P., & Caruso, D. R. (2004). Emotional intelligence: Theory, findings, and implications. Psychological Inquiry, 15(3), 197–215. https://doi.org/10.1207/s15327965pli1503_02
3. Çakıcı, D. (2017). The correlation between foreign language classroom anxiety and emotional intelligence scores. International Journal of Languages' Education and Teaching, 5(4), 378–391. https://dergipark.org.tr/en/pub/ijlet/issue/82537/1423505
4. Kaya, G. D. (2024). İngilizce öğretmenlerinin duygusal zekâ düzeyleri ile yabancı dil kaygısı arasındaki ilişki. [Master's thesis, Bolu Abant İzzet Baysal University]. Açık Erişim Arşivi. https://acikerisim.ibu.edu.tr/items/488fe9bc-98c2-4e1a-baf6-a3f001968e92

THE ARTISTIC FUNCTION OF UNTRADITIONAL HEROES IN CRITICAL REALISM BASED ON THE DRAMATURGY OF JALIL MAMMADGULUZADE AND ANTON CHEKHOV

TƏNQİDİ REALİZMDƏ QEYRİ-ƏNƏNƏVİ QƏHRƏMANLARIN BƏDİİ FUNKSİYASI CƏLİL MƏMMƏDQULUZADƏ VƏ ANTON ÇEXOVUN DRAMATURGİYASI ƏSASINDA

Şəfa Şakir qızı Əliyeva
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədr müavini, filologiya üzrə fəlsəfə doktoru

Xülasə
Bu məqalədə XX əsrin əvvəllərində Azərbaycan və Rusiya ədəbiyyatında tənqidi realizm kontekstində qeyri-ənənəvi obrazların bədii funksiyası araşdırılır. Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" və Anton Çexovun "6 №-li palata" əsərləri əsasında müəllif bu qəhrəmanların cəmiyyətin mənəvi deqradasiyasına qarşı çıxış edən, ironik və simvolik yüklü obrazlar kimi çıxış etdiyini göstərir. Hər iki yazıçı "dəli" qəhrəmanlar vasitəsilə cəmiyyətin eybəcərliklərini tənqid edir, bu obrazlar isə əslində mənəvi ağılın təcəssümü kimi təqdim olunur.
Açar sözlər: Tənqidi realizm, qeyri-ənənəvi qəhrəman, Cəlil Məmmədquluzadə, Anton Çexov, "Dəli yığıncağı", "6 №-li palata", tragikomediya, bədii funksiya

Abstract
This article explores the artistic function of unconventional characters within the context of critical realism in early 20th-century Azerbaijani and Russian literature. Focusing on Jalil Mammadguluzadeh's *"The Madmen's Assembly"* and Anton Chekhov's *"Ward No. 6"*, the study reveals how these protagonists serve as moral and symbolic agents opposing social and ethical decay. Both authors utilize such figures to criticize societal flaws, portraying them as the true embodiments of wisdom and human consciousness under the guise of madness.
Keywords: Critical realism, unconventional hero, Jalil Mammadguluzadeh, Anton Chekhov, "The Madmen's Assembly", "Ward No. 6", tragicomedy, artistic function

Giriş

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında tənqidi realizm özünün formalaşma və inkişaf mərhələsini yaşayırdı. Bu dövr ədəbi cərəyanın bütün janrlar üzrə geniş yayılması və sistemli şəkildə ədəbi prosesə təsir göstərməsi ilə seçilir. Xüsusilə, dramaturgiya sahəsində yaranan əsərlər milli ədəbiyyatın tematik və ideya-estetik baxımdan zənginləşməsində mühüm rol oynamışdır. Tənqidi realizm yaradıcılıqda tarixi hadisələrin, sosial ziddiyyətlərin və fərdi-mənəvi böhranların bədii təcəssümündə əsas ədəbi cərəyanlardan biri kimi çıxış etmişdir.

XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının inkişafında çoxşaxəli ədəbi cərəyanların qarşılıqlı təsiri ilə səciyyələnən mürəkkəb, lakin məhsuldar bir mərhələ olmuşdur. Bu dövrdə maarifçi realizm, romantizm və simvolizm kimi axınların təsiri ilə yanaşı, tənqidi realizm də ədəbi prosesdə mühüm mövqe tutmağa başlamışdır. Lakin məhz tənqidi realizm nümayəndələri milli-mənəvi oyanış, ictimai mübarizə və azadlıq ideyalarının bədii ifadəsində xüsusi fəallıq nümayiş etdirmiş, sosial reallıqları dolğun və obyektiv şəkildə əks etdirməklə Azərbaycan ədəbiyyatında yeni ideya-estetik dönüş yaratmışlar. Onların ədəbi fəaliyyəti yalnız bədii-estetik yeniliklərlə deyil, eyni zamanda real nəticələr doğuran ideoloji tutumu ilə də fərqlənmişdir.

Qeyri-Ənənəvi Qəhrəmanların Tənqidi Realizmdə Bədii Funksiyası

Tənqidi realizmin nümayəndələri milli ədəbiyyata yüksək sənətkarlıqla işlənmiş, fəlsəfi və sosial semantikası güclü olan bədii mətnlər təqdim etməklə, ideya-məzmun baxımından zəngin obrazlar sistemi formalaşdırmışlar. Bu mərhələdə tənqidi realizmi fərqləndirən əsas xüsusiyyətlərdən biri klassik faciə və komediyanın sintezindən yaranan tragikomediya janrının təşəkkül tapması və milli dramaturgiyada uğurla tətbiq olunmasıdır. Cəlil Məmmədquluzadənin "Ölülər", "Anamın kitabı" və "Dəli yığıncağı" kimi əsərləri bu janrın Azərbaycan ədəbiyyatındakı formalaşma prosesində aparıcı nümunələr kimi çıxış edir və tənqidi realizmin estetik prinsiplərini konseptual şəkildə reallaşdırır.

Xüsusilə, "Dəli yığıncağı" pyesi Cəlil Məmmədquluzadənin tənqidi realist dünyagörüşünün və estetik proqramının zirvə nümunəsi olmaqla bərabər, Azərbaycan dramaturgiyasının ideya-struktural baxımdan ən orijinal əsərlərindən biri hesab edilir. Əsər məzmun baxımından "Ölülər"in davamı kimi interpretasiya olunsa da, burada tənqid obyektləri təkcə dini fanatizm və mövhumat deyil, eyni zamanda həmin meyillərə göz yuman və onları himayə edən siyasi-ictimai qüvvələrdir. Ədib riyakarlığı, sosial saxtakarlığı və cəmiyyətin mənəvi deqradasiyasını açıq şəkildə ifşa edir, bunları Fazil Məhəmməd və onun ətrafında cəmlənmiş personajlar sistemində konkretləşdirir. Əsərdə Fazil Məhəmmədin proqramatik monoloqu ilə Molla Abbasın sarkastik və yekunlaşdırıcı çıxışı dramaturji strukturda qarşılıqlı tamamlayıcı element kimi çıxış edir və mətnə dərin simvolik və fəlsəfi yüklənmə qazandırır (Qarayev, 1980, s.139).

Əsərdə tragikomik təsvir planı daha da dərinləşdirilir. Belə ki, sosial baxımdan sağlam, mənəvi prinsiplərə sadiq Molla Abbasın "dəli" kimi qəbul edilməsi və əksinə, əxlaqi pozuntularla yüklənmiş, din pərdəsi altında cəmiyyətə zərər verən Fazil Məhəmmədin "ağıllı" statusu qazanması əsərin əsas ideya-estetik konfliktini təşkil edir. Beləliklə, Cəlil Məmmədquluzadənin tragikomediya janrı çərçivəsində formalaşdırdığı bu ideya sistemi cəmiyyətin gülünc vəziyyətində gizlənən dərin faciəni ifşa edir. Onun dramaturgiyası klassik faciə məntiqindən fərqli olaraq qəhrəmanın fiziki məhvi ilə deyil, cəmiyyətin mənəvi tənəzzülünün bədii ifşası ilə nəticələnir. Bu baxımdan, "Dəli yığıncağı" satirik-estetik ifadə vasitələri ilə ictimai şüurun passivliyini və deformasiyasını sərt şəkildə tənqid edən, tənqidi realizmin poetikasını milli səviyyədə formalaşdıran əsərlərdən biri kimi dəyərləndirilə bilər.

Azərbaycan realist ədəbiyyatında mülkədar, bəylər və yüksək rütbəli məmurlarla yanaşı, xalqın özünün də satirik tənqidə məruz qalması geniş yayılmışdır. Yazıçılar sadəlövh kəndlilərin və fəhlələrin mövhumata aludəliyini, fanatizmini ifşa etməklə onları ayıltmağa çalışır, ideal qəhrəman axtarışına çıxırdılar. Lakin bu axtarışlar nəticəsiz qalır, müəlliflər yalnız baş qəhrəmanın dili ilə cəmiyyətin yuxulu, passiv təbəqələrini – xüsusilə də "ziyalı" təbəqəni sərt şəkildə tənqid edir, onları ayılmağa çağırırdılar (Məmmədov, 1987, s.559).

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı vətənpərvər, maarifçi gəncliyin yetişdirilməsinə xidmət edən ideyaları – azadlıq, bərabərlik və əxlaqi saflaşma kimi prinsipləri təşviq etmək üçün müxtəlif vasitələrdən istifadə etmişdir. Bu baxımdan dramaturqlar sosial mühitə münasibətlərini bilavasitə ifadə etmək əvəzinə, ifşaedici, lakin qeyri-adi – bəzən "dəli", "kefli" və ya "təlxək" obrazları vasitəsilə dolayı şəkildə çatdırırdılar. Bu, həm senzura təhlükələrindən yayınmaq, həm də bədii ifadə imkanlarını artırmaq məqsədi daşıyırdı.

Belə qəhrəmanlar cəmiyyətin eybəcərliklərini açıq şəkildə görən, lakin onları müzakirə edə bilməyən kütləyə ironik bir güzgü tutur. Ətrafındakıların dərk etmədiyi həqiqətləri dilləndirən bu qəhrəmanların "dəlilik"lə damğalanması, əslində onların cəmiyyətin mənəvi passivliyinə qarşı çıxış edən yeganə səs olduqlarını göstərir. Bu kontekstdə *"Dəli yığıncağı"* əsərində Molla Abbasın qısa, lakin məna yüklü monoloqu, İskəndər kimi "maskalı" qəhrəmanların bədii-fəlsəfi dərinliyini davam etdirir və müəllifin əsas ideya-estetik mövqeyini ifadə edir.

"*Sona, get, get, mən sənə izin verdim. Səni aparan mənim qardaşımdı....*

Neçə ildi özümü (öz üstünə baxır) bu hala salmışam ki, sən dəlilər içində tək qalmayasan! Yazığım sənə də, yazıq özümə də! Çünki dəxi bizim günümüz belə keçəcək və axırda da divarlar dibində can verəcəyik. ... Allah şahiddir ki, bir belə xamuşluq, bir belə sakitlik bu dəqiqə mənim də qəlbimdədir. Onun üçün də indi mən həzrət sahibül-əsr vəzzəmanın xidmətinə müşərrəf olan bu camaatın (əlini

zəvvara tərəf uzadır) hərəkətinə diqqət ilə tamaşa edib deyirəm: Vallah və billah biz "dəli yığıncağına" düşmüşük (Məmmədquluzadə, 2004, s. 155).

Molla Abbas qarşısındakının nitqinə fikir verməyən, ciddi söhbətlər zamanı mövzu ilə heç bir əlaqəsi olmayan replikalarla, yersiz mimika və jestlərlə tərəf müqabilini usandıran bir obrazdır. Molla Abbasın nitqində hiss və həyəcanların daha qabarıq əks etdirilməsi nəzərə çarpır. Söhbət zamanı ani olaraq qəh-qəhə çəkib bərkdən gülür, bəzən isə ağlaya-ağlaya gözünün yaşını silir. Onun nitqində danışıq dili ilə yanaşı bədən dili də aktivdir. O, əl-qol hərəkətləri, bütün bədəni ilə hadisəyə reaksiya verir, baş və əl hərəkəti ilə deyilənləri qəbul edir, rədd edir, razılaşır, inkar edir, bəzən də daxili gərginliyini qarşı tərəfə əks etdirməyə çalışırdı. Nitqi ilə ağıllı obrazı yaradan Molla Abbas heç kəsin şübhələnməməsi, Pırpız Sonanı tək qoymamaq üçün söhbət zamanı oynayır, mayallaq aşır, beləliklə, ətrafda dəli olduğuna şübhə qalmır. Dialoq zamanı bəzən acıqlı və hirsli, bəzən isə xüsusi intonasiya, avazla səslənən replikalar onun nitqini fərdiləşdirir.

Anton Pavloviç Çexovun "6 № Palata" (2014) povesti də tənqidi realizm estetikasının parlaq nümunəsi kimi dəyərləndirilə bilər. Əsərdə cəmiyyətin, xüsusilə də Rusiya imperiyası dövründəki bürokratik aparatın, rəsmi elitanın mənəvi çöküşü, insanın sosial şəraitlə olan ziddiyyətləri və psixoloji gərginlikləri incəliklə və dərin fəlsəfi məzmunla təqdim olunur. Çexov bu əsərində dəli və ağıllı anlayışlarını sosial kontekstdə yenidən nəzərdən keçirərək oxucunu onların yerini və mənasını sorğulamağa məcbur edir.

"6 № Palata" əsərinin baş qəhrəmanlarından biri olan həkim Andrey Yefimiç Raqin, zahirdə "ağıllı", rasional düşünən bir şəxs kimi təqdim olunsa da, əslində o, mənən ölmüş, laqeyd və fəaliyyətsiz biri kimi xarakterizə edilir. O, cəmiyyətin zülm və haqsızlıqla dolu gerçəkliklərini dərk etsə də, onlara qarşı mübarizə aparmaq əvəzinə tənhalığa, özünəqapılmaya üstünlük verir. Əvəzində isə palatada saxlanılan, "dəli" adlandırılan, əslində isə cəmiyyətin qeyri-insani mahiyyətinə qarşı çıxmaq cəsarətini özündə tapan İvan Dmitriç Gromov əsl humanist, əsl mənəvi ziyalı obrazı kimi təqdim olunur. Burada müəllif çox incə ironiyadan istifadə edərək "dəli" kimi təqdim olunan qəhrəmanın əslində ağıllı, "ağıllı" kimi görünənlərin isə mənəvi xəstə olduğunu vurğulayır. (Adilgil, 2023, s. 223) Gromovun monoloqları və Raqinlə apardığı dialoqlar əsərin fəlsəfi yükünü artırır. O, hüquqsuzluğa, istibdada qarşı çıxır, azadlıq ideyasını müdafiə edir, lakin bu fikirlər onu cəmiyyətin gözündə "dəli" edəcək qədər qəbuledilməz görünür. Bu baxımdan Gromov obrazı Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı" əsərindəki İskəndər və Molla Abbas kimi qəhrəmanlarla səsləşir. Hər üç obraz – İskəndər, Molla Abbas və Gromov – ətrafdakılardan fərqli olaraq cəmiyyətdə baş verən ədalətsizliklərə biganə qalmır, buna görə də "qeyri-normal", "dəli" damğası ilə kənarlaşdırılır.

Maraqlıdır ki, hər iki əsərdə də "dəlilik" bir qorunma vasitəsi, bir müqavimət forması kimi çıxış edir. Çexovun povestində Gromov cəmiyyətin amansız məntiqinə qarşı psixoloji və mənəvi etirazdırsa, Məmmədquluzadənin Molla Abbası və İskəndəri də cəhalətə, avamlığa, riyakarlığa qarşı ironik və sarkastik mövqe ilə çıxış edir. Burada "dəlilik" və "ağıllılıq" anlayışları yalnız tibbi deyil, mənəvi-estetik və ictimai-siyasi məna kəsb edir.

Eyni zamanda, hər iki müəllif qəhrəmanların nitqinə, monoloq və dialoqlarına xüsusi önəm verir. Çexovun Gromovu ilə Məmmədquluzadənin Molla Abbası arasında bədii-estetik və ideya-fəlsəfi baxımdan paralellər aparmaq mümkündür. Hər ikisi qarşı tərəfə istər söz, istərsə də mimika və jestlərlə reaksiya verir, bu da onların yalnız "nitq"lə deyil, bütöv varlıqları ilə "etiraz edən" obrazlara çevrilməsinə şərait yaradır.

Nəticə

Beləliklə, həm Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı", həm də Anton Çexovun "6 № Palata" əsərləri tənqidi realizmin cəmiyyətin eybəcərliklərini ifşa etmək yolunda "dəli" qəhrəmanlardan necə məharətlə istifadə etdiyini nümayiş etdirir. Bu əsərlərdə dəlilik – sosial zülmə qarşı çıxış, mənəvi ucalıq və insani həqiqətin təcəssümüdür.

Ədəbiyyat Siyahısı

1. Məmmədquluzadə, C. (2004). *Əsərləri* (Dörd cilddə, c. 4). Bakı: Öndər Nəşriyyat.
2. Məmmədov, X. (1987). *Əkinçidən Molla Nəsrəddinə qədər*. Bakı: Yazıçı.
3. Qarayev, Y. (1980). *Azərbaycan realizminin mərhələləri*. Bakı: Elm.
4. Adilgil, D. (2023). *366 gün və ya uzun ilin inancı*. Bakı: Elm və Təhsil.
5. Çexov, A. (2014). *6 №-li palata*. https://ru.scribd.com/doc/263635877/Anton-Cexov-6-No-palata-pdf

A.KLARKİN YARADİCİLİĞİNDA TEXNOLOJİ KƏŞFLƏR VƏ GƏLƏCƏYİN PROQNOZLARİ

Nigar Ağayeva
Azərbaycan Dillər Universiteti

Xülasə
Soyuq müharibə dövründən başlayaraq elmi-texniki tərəqqinin artması, eləcə də sosial gərginlik və silahlı qarşıdurma hərbi texnika və strategiyaların hazırlanması üçün ixtisaslaşmış mərkəzlərin yaranmasına səbəb oldu. Elə bir çox futuroloji mövzuların əsasını da sonradan bu sahədə çalışan mütəxəssislər qoydu. A.Klarkın tərcümeyi-halı bunu əyani şəkildə sübut edir. Məlumdur ki, yazıçı uzun illər elmi tədqiqat institutlarında çalışmışdır və onun bir çox əsərlərində iş təcrübəsindən yararlanması danılmaz faktlardandır. Onun hekayələri nikbinlik və ehtiyatlılıq arasında dəyişir, yenilikləri qeyd edir, eyni zamanda kibr və ekzistensial risklər barədə xəbərdarlıq edir. A.Klarkın irsi onun bəşəriyyətin trayektoriyasına dair diskursları kataliz edərək, spekulyativ fantastika ilə elmi inandırıcılıq arasında körpü yaratmaq bacarığındadır. Onun əsərləri texnoloqlar və futuristlər üçün məhəl daşları olaraq qalır, ədəbiyyatın gələcəyi necə proqnozlaşdıra və ilham verə biləcəyini göstərir, oxucuları texnoloji yüksəlişin etik və ekzistensial ölçüləri üzərində düşünməyə çağırır.
Açar sözlər: Gələcək , utopiya, texnologiya

Abstract
Since the Cold War, the growth of scientific and technological progress, as well as social tension and armed conflict, led to the creation of specialized centers for the development of military equipment and strategies. Many futurological topics were later laid by specialists working in this field. A. Clark's biography clearly proves this. It is known that the writer worked in scientific research institutes for many years, and it is an undeniable fact that he used his work experience in many of his works. His stories oscillate between optimism and caution, celebrating innovation while warning of hubris and existential risks.A.Clarke’s legacy lies in his ability to bridge speculative fiction with scientific plausibility, catalyzing discourse on humanity’s trajectory. His works remain touchstones for technologists and futurists, illustrating how literature can both predict and inspire the future, urging readers to ponder the ethical and existential dimensions of technological ascent.
Keywords: Future, utopia, technology

Giriş

Əgər keçən əsrin ortalarından başlayan futuroloji mövzuların tədbiqi birbaşa təcrübü fəaliyyətə əsaslanırdısa, əsrin sonlarından başlayaraq onların fəlsəfi dərki də öz yerini aldı. Beləliklə, futurologiyanın utopiyadan ayrılması alman sosioloqu O.Flextheym tərəfindən irəli sürülən “gələcəyin obyektiv fəlsəfəsi” konsepsiyasında baş verdi. Alman tədqiqatçısı “gələcəyin fəlsəfəsi”ni ideologiya və utopiyayla qarşılaşdırırdı [1, s.205].

Elmi fantastika

Elmi fantastikanın bir ədəbi janr kimi düşüncə formasına daxil edilməsi onu digər oxşar formalara - utopiya, distopiya və futurologiyaya yaxınlaşdırdı. Utopiya gələcək məqsədlərin təsvirini, cəmiyyətdə yaranan əsas idealların reallaşmasını təklif edirsə, digər tərəfdən gələcəyi, xüsusilə uzaq gələcəyi rasional olaraq ölçmək, dəqiq metodlarla öyrənmək çətinliyi yaradır. Bir fantast-yazıçı kimi A.Klark bu problemi asanlıqla həll edir. O, həyatda qazandığı təcrübələrə söykənərək fantaziyalarını uzaq bir reallığa köçürür və mövcud problemlərin həll edildiyini göstərir. O, elmin nailiyyətlərini modelləşdirməklə, futuroloji yanaşma ilə yaradıcı potensialını ortaya qoyur.

Dünyanın sürətlə dəyişməsi bəşər övladının potensialının genişlənməsi ilə nəticələndi ki, bu özü də potensial olaraq utopik vəziyyətdən xəbər verir. Lakin fantast- yazıçının utopizmin təbiətini dəyişmək istəyi utopiya və distopiya ilə bitmir. Ənənəvi utopiya insanın yer üzündə yenidən təşkil oluna biləcəyi yollarını təsəvvür etməkdən ibarətdir. Onun mexanizmləri qanunvericilik, təhsil və ya qanuni

dəyişikliklər, bəzən texnologiya və ya ətraf mühitin idarə edilməsindəki dəyişikliklərdir. Amma fantast-yazıçı insanın inkişafının belə məhdud baxışını qəbul etmir. Nə üçün biz texnologiyadan əziyyəti aradan qaldırmaq və bütün maddi ehtiyacları təmin etmək üçün istifadə etməyək? Bu yaxınlarda elm aləmi A.Klarkın əsərlərində nümayiş edilən nanotexnologiyanın utopik imkanlarını üzə çıxartdı: miniatür maşınlar sanki möcüzəvi şəkildə müalicə edə bilər. Biz bunu neyrocərrahiyyə və digər cərrahi üsullarda istifadə edilən mini robot skalpların varlığında gördük. Ənənəvi utopiya insanı olduğu kimi qəbul edir, qanunvericiliklə və təhsillə insanı utopiyaya uyğunlaşdırmağa ümid edir. Utopiyanın müasir forması daha mükəmməl cəmiyyəti təkamül və texnologiyanın nəticəsi hesab edir. Elmi-fantastik yazıçının verdiyi daha dərin suallar var. Niyə insan fiziologiyası və ya psixologiyası eyni qalmalıdır? Bəşəriyyətin minillikdən sonra utopiya kimi tanıdığı şey bizim üçün ümumiyyətlə utopiya kimi tanınacaqmı? Qreq Bearın (Greg Bear) A.Klarkın "Uşaqlığın sonu"na nəzirə kimi yazdığı "Qanlı musiqi" (Blood Music) əsərində ironik şəkildə utopiyanı, insan münaqişəsinin sonu və mükəmməl harmoniya və anlaşmanın gəlişini bütün bəşəriyyətin nəhəng bir orqanizm tərəfindən udulması ilə təsvir edir. Elmi fantastika janrında yazan amerikalı yazıçı Şerri Tepper isə özünün "Yan şou" (Side show) əsərində yazır ki, insanın son taleyi ilə bağlı onilliklər ərzində araşdırma apardıqdan sonra, onlar başa düşürlər ki, bu tale *"yalnız insan olmağı dayandırmaqdır"* və zarafatla *"daha biz insan deyiliksə indi biz nə olacağıq?"* [2, s.420] sualını qaldırılar.

İndiyə qədər vurğulanan bütün məqamları nəzərə alaraq, görmək olur ki, utopiya dinc bir cəmiyyətin əvəzinə məzlum bir cəmiyyətin yaranması ilə nəticələnən distopiya keyfiyyətinə sahib olan sosial nəzarət üsuludur. Antik dövrdən indiyədək insana hamının rifahı üçün ahəngdar bir ictimai və siyasi nizam təsəvvür etmək istəyi aşılanmış, bu ideya sosial və mədəni sərhədləri aşmışdır. Ancaq bu sistemə daha yaxından nəzər salanda mükəmməllik və azadlığın sadəcə görüntü olduğunu, əslində totalitar bir dövlət və onun tərəfindən idarə olunan məzlum qurumlar və nizam-intizamlı bir cəmiyyət təsvirini görürük. Bir utopiya, yazıçının mükəmməl bir cəmiyyət olduğuna inandığı kimi, onun evtopiya (yaxşı yer) təklif etdiyi bir mənzərədir. Belə bir cəmiyyət yaratmaq ideyası da mümkün deyil, çünki bu kimi bir şey yoxdur. U-topia (heç bir yer) təklif etdiyi kimi mükəmməl bir cəmiyyət, hətta mövcud olsaydı belə, inşa edilə bilməzdi, çünki bu, yüksək səviyyəli mükəmməl insanların olmasını tələb edirdi. Buna görə də, Frank Manuel "Qərb dünyasında utopik düşüncə" (Utopian Thought in the Western World) əsərində yazır ki, *"etiqadlı (əqidəli) utopiyaçı ideal bir dövlət qurmağa çalışdıqda, münaqişə yaranacaq, çünki evtopiyaya (yaxşı yerə - N.A.) nail ola bilməyərək, buna nail olmaq üçün güc tətbiq edəcəkdir. İnsanlar utopiyanın arzu olunmasını şübhə altına aldıqları üçün və ya da mükəmməl, qüsursuz insanlar arasında uyğunsuzluq olduğuna görə ona qüvvə lazım olacaqdır"* [3, s.569].

Açıq, mükəmməl harmoniya T.Mordan bəri utopiya şəklində bərqərar olsaydı hansı cəmiyyət yarana bilərdi? Bəzi suallara hələ də cavab yoxdur. Tibb və biologiya elmi insan orqanizmində təkmilləşdirmələr edir, amma nəticə qane edirmi? Hələ də xərçəng kimi bəşəri bəlanın həlli yolları tapılmır. Xəstəlikləri aradan qaldırmaq, yoxsa ölümsüzlüyə yaxınlaşan bir şey yaratmaq olarmı? Kiborlaşmanın (insan və maşın / kompüterin qarışması) nəticəsində insan orqanizmində baş verə biləcək mümkün dəyişikliklər haqqında nə demək olar? Bu cür dəyişiklikləri təsəvvür etdikdə, utopiya qədər distopiyanın nəticələrini də düşünmək lazımdır. Universal telepatiya zehni harmoniya gətirə bilər, amma eyni zamanda da siyasi nəzarəti və şəxsi həyatın sonunu da gətirər. Ölümsüzlük insanın böyümə və inkişaf meylini genişləndirə bilər. Cansıxıcılıq, qeyri-sabitlik və ya həddindən çox əhali artımına gəlib çatan təhlükənin kim qabağın alacaq? Əksər utopik romanlarda verilməyən, lakin əsas sual – "həyatın mənası nədir?" və ya "insan taleyi nədir?" bu günlərdə fantast-yazıların qaldırdıqları suallardı. Elmi fantastika yazıçıları bu cür cavabsız suallar verməklə utopiyanın üfüqlərini genişləndirir və gələcəyin – T.Morun təsəvvür edə bilməyəcəyi qeyri-müəyyən bir dünyanın yaranmasına işarə edir. Yalnız distopiyada deyil, utopiyada da təşkil olunmuş sosial struktur və ümumi xoşbəxtlik anlayışı fərd və azadlıq kimi fundamental məsələlərə cavab arayır. Layman Sarcet "Hakimiyyət və utopiya" əsərində yazır ki, bir çox utopiya fərdi azadlıq baxımından distopiyadır. Bəziləri bu görünüşə sahibdir, çünki müəllif azadlığa zidd dəyərləri vurğulamaq istəyir. Bu dəyər ümumiyyətlə bərabərlik, sifariş və ya təhlükəsizlikdir. Utopiyalarda rast gəlinən dominant

dəyərlərin bir nümunəsini izləmək mümkündür. Utopiyalar nizam, mövcud iyerarxiya və itaət ilə maraqlanırlar [5, s.573].

"Uzaq Yerin nəğmələri" romanı

A.Klarkın 1958-ci ildə yazdığı "Uzaq Yerin nəğmələri" ("The Songs of Distant Earth") romanı uzaq gələcəkdə utopik bir insan koloniyasından danışır. Bu koloniyada artıq Günəş yeni bir ulduza çevrilib, məhv edilmiş Yerə isə ziyarətə gəlirlər. Yazıçı əsərdə utopik və ateist ideyalardan bəhs edir, apokalipsisin baş verməsindən söz açır, amma eyni zamanda da ulduzlararası səyahətləri və yerdənkənar həyatı təsvir edir. Amerikalı ədəbi tənqidçi Devid Lenqfordun əsərlə bağlı fikirləri maraq doğurur. O yazır: *"gəlin etiraf edək ki, Klarkın personajları yalnız üç duyğunu idarə edə bilir: intellektual aclığı və itirilmiş şöhrət üçün kədər hissini və bir də sonsuzluq qarşısında ehtiram hissini"* [6, s.16]. Göründüyü kimi, tədqiqatçı utopiya ilə distopiya arasında qalan, süni intellektin və texniki tərəqqinin məhv etdiyi insandan bəhs edir.

Roman gələcək 3800-cü ili əhatə edir və Talassa adlı yeni planetin sakinlərindən söz açır. Talassada rüşeym toxumu şəklində oraya göndərilən kiçik bir insan əhalisi var. Onlar Yer məhv olandan sonra insan irqinin tam yoxa çıxmaması üçün embrion şəklində saxlanılır. Talassalılar sakit, stabil həyat yaşayır, Üst qüvvələrdən və dinlərdən uzaqdırlar. Amma planetə enən "Magellan" kosmik gəmisi bu rahatlığı pozur. Onun göyərtəsində kriogen suspenziyaya yerləşdirilmiş bir milyon müstəmləkəçi var. Yazıçı göstərir ki, istənilən sabit dövləti ağlasığmaz yeni texnologiyalar sayəsində dəyişmək olar. Yəni, texniki tərəqqinin inkişafı özü ilə yaxşı ilə bərabər pisliklər də gətirə bilər.

Roman Günəş neytrino probleminin nəticələrini araşdırır. Astronomiya elmindən məlumdur ki, Günəşdən Yerə çatan neytrinolar kifayət deyil, elə bununla bağlı elm adamları neytrino hissəciyinin bu xüsusi vəziyyətini axtarırlar. A.Klark da əsərdə kosmik gəmini hərəkətə gətirən vakuum enerjisini seçir və göstərir ki, bu, elmi cəhətdən etibarlı, lakin yüksək futuristik texnologiyadır. Amma elmin inkişafı onun da cavabını tapacaq.

Romanda kosmik liftlərdən də bəhs edilir. A.Klark öz müsahibələrinin birində qeyd edir ki, o, əsərdə əyilmə disklərindən və ya digər fantastik texnologiyadan istifadə etmədən gerçək ulduzlararası səyahətdən söz acıb [7].

Əsəri futurist texnologiyanın ən gözəl nümunəsi hesab edən Cerald Conson yazır ki, A.Klarkı maraqlandıran dram daha geniş məsələlərə toxunur. Bu, biliyin məhdudiyyətinə, bəşəriyyətin və kainatın taleyinə aiddir [8].

Nəticə

Beləliklə, utopiya gələcəyi dərk etmək üçün rəsmi başlanğıc və mükəmməl ictimai quruluşun əsasına çevrildi. Gələcəyin utopiyası antiutopiyanı da, futoroloji düşüncəni də aktual etdi. Əgər utopiya və antiotopiya bədi formanın modelləridirsə, futuroloji düşüncə "gələcəyin tədqiqi" və gələcək haqqında yeni-yeni konsepsiyaların meydana gəlməsidir. Utopiya və antiutopiya nə isə yeni bir cəmiyyətin modelləşməsi, bu gün üçün alternativ dünyanın əksidir. Demək utopiya elə öz nüvəsində gələcəyin başlanğıcıdır. Futuroloji düşüncədə isə gələcək haqqında istəklər dayanır, ona görə o daha çox proqnoz xarakterlidir. Başqa sözlə, utopiya alternativ dünya modelindən gələcəyin qurulmasına doğru yol gedir. Futuroloji forma isə gələcəyin yeni obrazı haqqında düşüncələrdir. Əslində dünyanın indiki vəziyyətini əhəmiyyətli dəyişikliklərlə gələcəkdə də davam etməsi və həyata keçməsinə toxunur. Bu mənada elmi fantastika gələcəyi dərk etməyin müxtəlif formalarıdır. Elmi fantastika texnoloji kəşflər və onların cəmiyyətə təsirindən bəhs edir və elə bu səbəbdən arzu olunan obrazlarıyla elmin məlumatlarını birləşdirir, yerinə yetməyən utopik istəkləri irəli çəkir. Məhz bu yeni istəklər futuroloji forma şəklində "gələcəyin fəlsəfəsinə" çevrilir.

Ədəbiyyat:

1. Философский словарь. Под ред. И.Т.Фролова / 4-е изд. – Москва: Политиздат, – 1981. – 445 с.
2. Tepper, Sh. Sideshow / Sh.Tepper. – New York: Bantam. – 1993. – 480 p.
3. Manuel, F.E., Manuel, F.P. Utopian Thought in the Western World / F.E.Manuel, F.P.Manuel. Belknap Press: An Imprint of Harvard University Press, – 1979. – 912 p.
4. Tepper, Sh. Sideshow / Sh.Tepper. – New York: Bantam. – 1993. – 480 p.
5. Sargent, L.T. Authority & Utopia: Utopianism in Political Thought // Polity– 1982. vol.14.4, – p.565-584.
6. Langford, D. Critical Mass // White Dwarf. N.81. – Games Workshop. – 1986. – 120 p.
7. A Visit with Arthur Clarke (excerpted from Locus Magazine, September 1999): [Electronic resource]: URL http://www.locusmag.com/1999/Issues/09/Clarke.html
8. Jonas, G. The Songs of Distant Earth: [Electronic resource] // The New York Times, – 1986, 11 May. URL: https://archive.nytimes.com-/www.nytimes.com/ books/97/03/09-/reviews/clarke-distant.html

WORDS OF WİSDOM IN THE LANGUAGE OF BAKHTIYAR VAHABZADE

МУДРЫЕ СЛОВА НА ЯЗЫКЕ БАХТИЯРА ВАХАБЗАДЕ

BƏXTİYAR VAHABZADƏNİN DİLİNDƏ HİKMƏTLİ İFADƏLƏR

Sədaqət Qurbanəli qızı Həsənova
Filologiya elmləri doktoru, professor Naxçıvan Dövlət Universiteti
ORCID ID: 0009-0002-9996-6229

Xülasə
Məqalədə xalq şairi Bəxtiyar Vahabzadənin dilindəki hikmətli ifadələrdən danışılır. Çağdaş dövrümüzün tanınmış şairlərindən olan Bəxtiyar Vahabzadə ədəbiyyat elmində məşhur olduğu qədər ədəbi dilimizdəki xidmətlərinə görə də seçkin söz ustalarındandır. Onun maraqlı, zəngin və orijinal dil-üslub xüsusiyyətləri vardır. Şairin dilində hikmətli ifadələr və atalar sözləri xüsusi mövqeyə malikdir. Ədəbi-bədii dildə hikmətli ifadələr dedikdə aforizmlər, atalar sözləri, fəlsəfi mülahizələr başa düşülür. Belə sözlər müəllifin müdrikliyi çatdırmaq üçün istifadə etdiyi linqvistik, ritorik və struktur üsulları müəyyən edir. Bu cür ifadələrin yığcamlığı, metaforik sanbalı, ritmi, yaddaqalanlığı, fəlsəfi nüfuzu və fikir dərinliyi onların xarakterik cəhətlərini üzə çıxarır. Bununla da, Bəxtiyar Vahabzadə, bir tərəfdən, Azərbaycan dilinin sanbalını ortaya qoyur, digər tərəfdən, onlardan istifadə ilə oxucu və dinləyiciləri düşündürür, onları həyat və fəaliyyətə yönəldir. Məqalədə mövzu ilə bağlı irəli sürülən elmi-nəzəri fikirlər şairin yaradıcılığından alınmış dil-üslub faktları ilə təsdiq edilir.
Bəxtiyar Vahabzadə öz qələminə xas olan hikmətli ifadələrdən başqa, atalar sözlərinə də müraciət etmişdir. Atalar sözlərinin üslub xüsusiyyətləri, xüsusən də fonoloji quruluşu, sintaktik tarazlığı və obrazlı sıxlığı onların uzunömürlülüyü baxımından mühüm əhəmiyyət kəsb edir. Mədəni məna daşıması isə onların təsirini daha da gücləndirir. Ümumxalq mədəniyyəti tərəfindən formalaşsa da, ortaq mədəni biliklərə əsaslansa da, poetik dildə atalar sözlərinin xüsusi üslubi strukturları yaradılır. Poeziyanın estetikasında, mənasında atalar sözlərinin böyük payı vardır. Şifahi və yazılı ədəbi ənənələr arasında körpü rolunu oynayan atalar sözləri şeir dilində poetiklik və güclü ritoriklik təqdim edir. Bəxtiyar Vahabzadənin poetik dili göstərir ki, atalar sözləri xalqımızın mədəni kimliyini bildirən linqvistik vahidlərdəndir.
Açar sözlər: dil, söz, ifadə, üslub, atalar sözləri.

Abstract
The article discusses the wise words in the language of the people's poet Bakhtiyar Vahabzade. Bakhtiyar Vahabzade, one of the well-known poets of our modern era, is one of the distinguished masters of words for his contributions to our literary language as well as his fame in literary science. He has interesting, rich and original language and style features. Wise expressions and proverbs have a special position in the poet's language. Wise words in the literary language mean aphorisms, proverbs, philosophical considerations. Such words determine the linguistic, rhetorical and structural methods used by the author to convey wisdom. The brevity, metaphorical weight, rhythm, memorability, philosophical influence and depth of thought of such expressions reveal their characteristic features. Thus, on the one hand, Bakhtiyar Vahabzadeh emphasizes the importance of the Azerbaijani language, and on the other hand, by using them, he makes readers and listeners think, directs them to life and activity. The scientific and theoretical ideas put forward in the article on the topic are confirmed by linguistic and stylistic facts taken from the poet's work.

In addition to the wise sayings characteristic of his own pen, Bakhtiyar Vahabzadeh also turned to proverbs. The stylistic features of proverbs, especially their phonological structure, syntactic balance and figurative density, are of great importance in terms of their longevity. Their cultural meaning further strengthens their influence. Although they are formed by the national culture and are based on common cultural knowledge, special stylistic structures of proverbs are created in poetic language. Proverbs have a great share in the aesthetics and meaning of poetry. Proverbs, which play the role of a bridge between oral and written literary traditions, present poetics and strong rhetoric in the language of poetry. Bakhtiyar Vahabzadeh's poetic language shows that proverbs are one of the linguistic units that express the cultural identity of our people.
Key words: language, word, expression, style, proverbs.

Резюме
В статье рассматриваются мудрые слова народного поэта Бахтияра Вахабзаде. Бахтияр Вахабзаде, один из самых известных поэтов нашего времени, не только известен в литературной науке, но и является выдающимся мастером слова, внесшим вклад в наш литературный язык. Он обладает интересными, богатыми и оригинальными языковыми и стилистическими особенностями. Мудрые изречения и пословицы занимают особое место в языке поэта. В литературном и художественном языке к мудрым словам относятся афоризмы, пословицы и философские рассуждения. Такие слова определяют лингвистические, риторические и структурные приемы, которые автор использует для передачи мудрости. Краткость, метафоричность, ритмичность, запоминаемость, философское влияние и глубина мысли таких выражений раскрывают их характерные черты. Таким образом, с одной стороны, Бахтияр Вагабзаде подчеркивает значимость азербайджанского языка, а с другой стороны, посредством его использования заставляет читателей и слушателей думать, направляет их к жизни и деятельности. Научно-теоретические идеи, выдвинутые в статье по данной теме, подтверждаются лингвистическими и стилистическими фактами, взятыми из творчества поэта.
Помимо мудрых изречений, свойственных его перу, Бахтияр Вахабзаде обращался и к пословицам. Стилистические характеристики пословиц, особенно их фонологическая структура, синтаксическая сбалансированность и образная плотность, имеют решающее значение с точки зрения их долговечности. Тот факт, что они несут в себе культурное значение, еще больше усиливает их воздействие. Хотя пословицы и сформированы культурой народа и основаны на общих культурных знаниях, в поэтическом языке создаются особые стилистические структуры пословиц. Пословицы играют большую роль в эстетике и смысле поэзии. Выступая в качестве моста между устной и письменной литературной традицией, пословицы предлагают поэтику и мощную риторику на языке поэзии. Поэтический язык Бахтияра Вахабзаде показывает, что пословицы являются одной из языковых единиц, выражающих культурную самобытность нашего народа.
Ключевые слова: язык, слово, выражение, стиль, пословицы.

GİRİŞ

Azərbaycan bədii dili qədimliiyi, məna-məzmun baxımından sanbalı, üslub keyfiyyətlərinə görə zənginliyi ilə seçilir. Bu dil maraqlı inkişaf yolu keçmiş və müxtəlif tarixii dönəmlərdə yeni üslub xüsusiyyətləri qazanmışdır. Bu prosesdə söz adamlarının böyük rolu vardır. Azərbaycan bədii dilinin ayrı-ayrı şairlərin yaradıcılığı əsasında araşdırılması onun fərqli əlamətlərini üzə çıxarmaqda faydalıdır. Belə ki, bu prosesddə həm Azərbaycan ədəbi dilinin konkret bir dövrü haqqqında bütöv bir təsəvvür yaradılır, həm də yaradıcılığı araşdırmaya cəlb edilən şairin fərdi dil-üslub keyfiyyətləri

müəyyənləşdirilir. Bu baxımdan, Xalq şairi Bəxtiyar Vahabzadənin dilindəki hikmətli ifadələrdən və atalar sözlərindən poetik səviyyədə istifadə ilə bağlı tədqiqat aktuallıq kəsb edir.

Material Və Metodlar

"Bəxtiyar Vahabzadənin dilində hikmətli ifadələr" adlı araşdırmanın aparılmasında dil faktlarının daxili quruluşunu, əlaqələrini və sistemliliyini öyrənmək üçün təsvir, şairin yaradıcılıq materialları arasında paralellər qurmaq, oxşarlıqları və fərqləri üzə çıxarmaq məqsədilə müqayisə və şairin dil-üslub özəllikləri haqqında təsəvvür yaratmaqdan ötrü təhlil metodlarından istifadə olunmuş, material olaraq şairin yaradıcılıq örnəklərinə müraciət edilmişdir.

Əldə Olunan Nəticələr

Araşdırma zamanı çağdaş Azərbaycan poetik dilində Bəxtiyar Vahabzadənin hikmətli ifadələrə və atalar sözlərinə münasibəti, onlardan istifadə üsulları haqqında təsəvvür yaradılmış, cəmiyyətin dəyərlərini, inanclarını və təcrübələrini əks etdirən atalar sözlərindən faydalanan şairin bu kəlamlardan istifadə edərək ənənəvi müdrikliyi təsdiqləməsi əsaslandırılmışdır. Tədqiqat belə bir nəticəyə gəlməyə imkan vermişdir ki, poetik dildə bu lakonik deyimlər daha dinamik rol alır, poetik dili məna qatları, ritorik güclə zənginləşdirir. Hikmətli sözlərdən istifadə etməklə şair mürəkkəb ideyaları poetik qənaətlə çatdıra bilir. Məlumdur ki, poeziyanın səciyyəvi xüsusiyyətlərindən biri onun yığcamlığıdır. Hikmətli sözlər bu xüsusiyyətə uyğun gələn sintaktik vahidlərdir. Onların poetik əsərlərin məzmununa daxil edilməsi bir cümlə ilə qarşıya qoyulan məqsədi əhatə etməkdə əhəmiyyət daşıyır. Atalar sözlərinin poetik dildə işlədilməsi ənənəvi ifadələrin zamana uyğunlaşdığını nümayiş etdirir. Onlar şairin dəqiqliklə və yaradıcılıqla işlətdikləri dil vasitələri kimi əsərlərə mədəni canlılıq gətirir. Bundan başqa, hikmətli ifadələr və atalar sözləri keçmişlə çağdaş dövr arasında bağlılığı təmin edir.

Müzakirə

Bəxtiyar Vahabzadə Azərbaycan dilinin zənginliyindən və bu sahədə ədəbi ənənələrdən layiqincə istifadə edən ədəbi simalardandır. Bu, şairin dilimizə dərin bələdliliyindən və onun leksik-qrammatik tərkibinə, semantikasına yüksək münasibətindən irəli gəlir. "Bəxtiyar Vahabzadə sözün xalq danışıq dilindəki mənalarına yaxşı bələddir. Buna görə də çoxmənalılıqdan, omonimlikdən yerli-yerində istifadə edir. Həm də iş onda deyil ki, sözün filan mənaları və ya formaları götürülür. Sənətkarlıq ondadır ki, həmin məna və formalar ustalıqla bədii məqsədə yönəldilir" (Hacıyev (1983), s. 53). Bu anlamda, şairin dilindəki hikmətli kəlamlar müxtəlif üslub çalarlarına malikdir. Ədəbi-bədii dildə müdrik sözlər təkcə estetik bəzək vasitəsi deyil, onlar həm də fəlsəfi idrak vasitəsi kimi xidmət edir. Xalqa məxsus və müəlliflərə aid atalar sözlərinin necə çatdırılmasından asılı olmayaraq, bu ifadələr çox vaxt əxlaqi keyfiyyət daşıyır. Bu baxımdan, şairin aşağıdakı misraları səciyyəvidir:

Çay çaya qovuşmaz sular daşmasa,
Ulduzun ulduzla unsiyyəti var.
Göydə buludlar da qoşalaşmasa,
Nə ildırım çaxar, nə yağış yağar (Vahabzadə (2004), I c, s.10).

Hikmətli sözlər düşüncə və gerçəkliyin poetik ifadəsini ortaya qoyur. Bunlar müdriklik və əxlaqi dəyərləri çatdıran ənənəvi kəlamlar kimi tanınan atalar sözlərindən başqa, şairin öz qələminə xas olan müdrik fikirləri ifadə edir:

Od vurmasa, qabda su daşa bilməz,
Quş da tək qanadla dağ aşa bilməz.
Kösöyün ikisi coldə də yanar,
Biri ocaqda da alışa bilməz (Vahabzadə (2004), I c, s.10).

Müdrik sözlər qısa məzmunla dərin mənalı fikirlər ifadə edə bilir. Bu xüsusiyyət onların yaddaqalma təsirini çoxaldır. Bəxtiyar Vahabzadənin poetik dil mənzərəsində sözlər sadəcə ünsiyyət qurmaq vasitəsi deyil, onlar daha yüksək keyfiyyətə malikdir. Poetik ifadələri formalaşdıran çoxsaylı elementlər arasında hikmətli sözlər xüsusi yer tutur. Bunlar zərif düşüncələri bildirən ağıllı ifadələrdən başqa, təfəkkür mədəniyyətini göstərən və qəlbə rahatlıq verən fikirlərin qaynağıdır. "Hikmətli ifadələr minilliklər, yüzilliklər boyu mənəvi tərbiyə vasitəsi olmuş, ulularımızın xalqımıza ən möhtəşəm mənəvi estafeti kimi xalqın ruhunu oxşamışdır (Həsənova (2017), s, 70).

Onlar hansısa gerçəkliyi çatdıran ifadələr kimi dəyərlidir:
Xoş sozə hamının ehtiyacı var (Vahabzadə (2004), I c, s. 83).

Qədim zamanlardan bəri Azərbaycan poeziyasında müdriklik ifadə edən dil vahidlərindən geniş şəkildə istifadə edilib. Bəxtiyar Vahabzadənin yaradıcıllığı göstərir ki, bu ənənə indi də davam edir. Yazılı və ya şifahi şəkildə çatdırılmasından asılı olmayaraq, bədii əsərlər çox vaxt milli-mənəvi dəyərləri, inancları və fəlsəfi fikirləri bildirmək üçün istifadə olunur. Şairin şeirləri poeziyanı quru təbliğdən uzaqlaşdıraraq onun yaddaşları təzələyən dil vasitələri ilə– hikmətli ifadələrlə mənəvi və etik tərbiyə formasına çevrildiyini təsdiq edir:

Həyatın sevinci də, kədəri də gozəldir.
Həyat - bir cıdır düzü, bir döyüş meydanıdır.
Hər kəsi öz curəti, öz qudrəti tanıdır.
İnci uzə çıxarmı çalxalanmasa ümman? (Vahabzadə (2004), I c, s.11).

Ədəbi dildə hikmətli sözlərin üslub xüsusiyyətlərindən istifadə təsadüfi deyil, onların özünəxas poetik funksiyası vardır. Oxucunun düşüncəsini formalaşdırmaqda hikmətli sözlər mühüm rola malikdir və onlar poetik mənanı intensivləşdirir. Bəxtiyar Vahabzadənin dilində müdrik ifadələrdə çox zaman xüsusi dəyərə malik *kədər, qəm, səadət, sevinç, namus* və s. kimi mücərrəd leksikadan istifadə olunur:

Hər kədəri səadət, hər sevinci qəm izlər.
Əsl könül həm qəmi, həm sevinci əzizlər…

Tələtumsuz urəklər qovuq kimi boş olur.

Daim sevinc axtaran daim qəmə tuş olur (Vahabzadə (2004), I c, s.11).

Şeir dilindəki hikmətli sözlər həmişə əzəmətli səslənmir. Bəzən onlar sakit bir axınla müşahidə olunur, lakin həqiqət, mənəviyyat, əxlaqi dəyər və qavrayış haqqında güclü fikirləri yada salır. Müdrik dilin emosional və əksetdirici gücü vardır. Bu emosional çəki hikmətli sözləri digər nitq elementlərindən fərqləndirən cəhətlərdəndir. Onlar sadəcə olaraq faktları və ya fikirləri ifadə etməklə məhdudlaşmır, yaşanmış təcrübəni, poeziyanın tez-tez tələb etdiyi bədiiliyi təqdim edir. Bəxtiyar

Vahabzadənin hikmətli sözlərdən istifadə etməsi etik və siyasi tənqidə səliqəli və yumşaq bir çalar verir.

Öz səsi olmayanın ölümü səssiz kecər.
Min-min dəfə ölənin matəmi yassız kecər (Vahabzadə (2004), I c, s.12).

Əslində, müdrik fikirlərlə şair hər hansı bir problemi həll etmir, oxucuya onu daha aydın görməyə yol göstərir. Bu, müdrikliyin hiss olunmasına və başa düşülməsinə imkan verir. Şeirdə hikmətli sözlərin təsiri şairin sənətkarlığı ilə daha da güclənir. Bəxtiyar Vahabzadə poeziyasındakı hikmətli sözlərin dəyəri onların vacib olanı çatdırmaq qabiliyyətindədir. Belə ifadələr bizə xatırladır ki, müdriklik adi məlumat və ya bilik deyil, həm də insanların düşüncə və davranışlarını anlamağa kömək edən fikirlər toplusudur. Hikmətli sözləri poetik dilin ürəyi kimi dəyərləndirirlər. Belə ki, onlar poeziyaya canlılıq verir:

Çox şey Vətənsiz də yaşayır, ancaq
Şeirsə Vətənsiz, elsiz yaşamaz (Vahabzadə (2004), I c, s. 43).

Bədii dil həmişə insan müdrikliyinin mənbəyi olub. Poeziyanın tələb etdiyi yığcam və yüksək mənalı hər bir söz önəmlidir. Müdrik sözlərin isə üslub əhəmiyyəti çoxdur. Az sözlə çox fikir demək bacarığı, bir tərəfdən də, şairin sənətkarlığını təcəssüm etdirir. Şair hikmətli kəlamları misralarına daxil edəndə mürəkkəb fikirləri yaddaqalan kiçik həcmli cümlələrə sığışdırır və oxucunu fəal düşünməyə sövq edir. Beləliklə, hikmətli sözlər dilin mürəkkəbliyi aydınlıqla tarazlaşdıran məna dayağıdır. Hikmətli sözlər Bəxtiyar Vahabzadə yaradıcılığının nüfuzunu çoxaltmaqda rolu olan dil vahidləridir. Belə ki, bir ağıllı ifadə böyük bir kütlə üçün faydalı tövsiyələrə çevrilə bilir:

Yaxşı görmək üçün uca bir dağı
Gərək sən baxasan ona uzaqdan…
Məncə, çıraq olub başqalarıyçün
Yananlar tapıbdır səadətini! (Vahabzadə (2004), I c, s.18).

Müdrikliyi özündə cəmləşdirən ifadə və cümlələrdən istifadə üsulu sanki şairin səsini yüksəldir, oxucuları müəllifə həyatı müşahidə və dərk etmiş şəxsiyyət kimi etibar etməyə inandırır. Himətli sözlər çox vaxt keçmiş ənənələri, inançları, əks etdirir və bununla da məna qatlarını dərinləşdirir. Bu onu göstərir ki, şair onlardan yalnız adi dil faktları kimi istifadə etmir. Bu sözlər şairlə zaman arasında mənəvi dialoq yaradır. Müdrik kəlamları bol-bol işlətmək Bəxtiyar Vahabzadə üslubunun əlamətdar xüsusiyyətlərindəndir. Şairin yaradıcılığından məlum olur ki, müdrik sözlər müasiri əbədiyə, fərdini ümumiliyə bağlayan milli-mənəvi körpü kimi dəyərləndirilməyə layiqdir.

İlkini bilməyən sonunu bilməz,
Evdən üz dondərən çöldə vərəmlər (Vahabzadə (2004), I c, s. 45).

Bəxtiyar Vahabzadənin şeir dilindəki hikmətli sözlər adi ritorik səviyyədən daha yüksək olaraq poeziyanın üslub və fəlsəfi gücünün əsasını təşkil edir. Şair mürəkkəb həqiqətləri sadə, zərif ifadələrə toplayaraq, müxtəlif məqamlarda əks-səda verən mülahizələrə çevirir:

Elə ki, itirdin gərəkliyini,
Dünyada hər şeyi itirəcəksən (Vahabzadə (2004), II c, s. 228).

İstər yaşanmış hadisələrdən, istərsə də tarixi ənənələrdən qaynaqlansa da, müdrik sözlər poeziyanın cazibəsini artıran dil-üslub faktlarıdır.

Kəndə səs duşməsə itlər huruşməz,
Könül istəməsə əllər goruşməz.
Bir addım qabağa işığı duşməz,
İcindən yanmasa, can aşkar-aşkar (Vahabzadə (2004), I c, s. 68).

Bəxtiyar Vahabzadənin dilində onun öz qələminə xas olan kəlamlardan başqa, ümumxalq müdrikliyinin yığcam ifadəsi kimi atalar sözlərindən də yaradıcı şəkildə istifadə olunmuşdur. "Atalar sözləri və zərb-məsəllər mükəmməl bədii-poetik nümunələr kimi cəmiyyət və onun məişətinin müxtəlif sahələrini əhatə edir. Cəmi bir neçə sözdən, bir cümlədən ibarət olan atalar sözü və zərb-məsəl yazılı ədəbiyyatın böyük həcmli əsərlərinin siqlətini özündə təcəssüm etdirir" (Hacıyev T.İ. (1979), s. 11). Atalar sözləri dünyada hər bir mədəniyyət və dildə rast gəlinən universal linqvistik hadisədir. "Dilin mühüm tərkib hissəsi kimi atalar sözləri ilə mədəniyyət bir-biri ilə sıx bağlıdır" (Əfşari (2021), s. 33). Onlar dil quruluşu, ritorik vasitələri, fonoloji xüsusiyyətləri və semantik yığcamlığı ilə seçilən linqvuistik material kimi maraqlı və orijinaldır. "Həcmcə kiçik, mənaca dərin və təsirli olan atalar sözləri və zərb-məsəllər dolğun ifadə vasitələri olub, dilin obrazlı ifadələrinin mühüm hissəsini təşkil edir" (Alməmmədova (2010), s. 43).
Atalar sözləri ümumi həqiqəti, əxlaqi dərsi və ya mədəni dəyəri ifadə edən, çox vaxt metaforik və ya simvolik formada ifadə olunan qısa, ənənəvi deyimlərdir. Onların yığcam quruluşu və obrazlı zənginliyi onları poetik dildə istifadə üçün ideal vasitəyə çevirir. Atalar sözləri ilə poetik ənənə arasında əlaqələr vardır. Təsadüfi deyildir ki, atalar sözləri daha çox dil, mədəniyyət və folklor aspektlərindən tədqiq edilmişdir. Lakin onlar poeziyanın üslub və ritorik strukturları baxımından araşdırılmaq üçün zəngin materiala malikdir. Xalqımızın dilində onuhn nitq və təfəkkür mədəniyyətini əks etdirən atalar sözləri içərisində "Əvvəl evin içi, sonra eşiyi" adlı paremik ifadə vardır. Bəxtiyar Vahabzadə həmin atalar sözündən aşağıdakı kimi istifadə etmişdir:

"Əvvəl evin içi" demişlər nədən?
Sən çölü bilməzsən, içi bilmədən (Vahabzadə (2004), I c, s. 46).

Göründüyü kimi, şair formanı saxlayaraq mənada cüzi dəyişilik etmişdir.
Atalar sözləri məcazi, sabit formada ənənəvi müdrikliyi, həqiqətləri, əxlaqı və ya tövsiyələri çatdıran, hamıya məlum olan ifadələrdir. Yığcamlıq, nəsihətamiz ruh, obrazlılıq, ahəng, dərin ictimai-fəlsəfi məzmunun vəhdəti onların qiymətli cəhəti sayılır (Əlizadə (1987), s. 10).). Üslub xüsusiyyətləri, xalq ifadələrinə geniş yer vermək xüsusiyyəti atalar sözlərini digər dil faktlarından fərqləndirən cəhətlərindəndir. Atalar sözlərindən ünsiyyət və nitq mədəniyyəti vasitəsi kimi istifadə bənzərsiz poetik mənzərə yaradır. Şeirdə atalar sözlərindən istifadə mədəni yaddaşı təzələyir. Onların təbiətcə didaktikliyi önəmli məsələləri və fəlsəfi düşüncələri təqdim etməkdə köməyə gəlir. Atalar sözlərinin müdrikliyindən istifadə ümumi deyimlərin dərin düşüncələrə dönməsinə imkan yaradır. "Atalar sözün, zərb-məsəlləri şeirə gətirməyin bir çox çətinlikləri vardır. Bəzən elə olur ki, hikmət xəzinəsinin zər-zibası olan atalar sözü şeirə gətirilir. Bunlar elə qaynayıb qovuşur ki, bunları bir-birindən

ayırmağın, nəyin kimə məxsus olduğunu müəyyən etməyin özü açılmaz bir düyün olur" (Azərbaycan bədii dilinin üslubiyyatı (1970), s. 67). Onlar ifadə etdiyi fikirləri asan yadda saxlamaq üçün özünəməxsus struktura malikdir. Atalar sözləri ümumi həqiqətləri əks etdirərək müxtəlif vəziyyətlərə tətbiq edir, metafora və simvolizmə geniş yer verir. Əslində, atalar sözləri bütün zamanlarda əvvəlki strukturunu saxlayaraq dəyişikliyə müqavimət göstərmişdir. "Dilin tarixi inkişafı nəticəsində yaranaraq mənaca da bölünməz olan atalar sözləri bu dilin əski adət-ənənələrə güzgü tutan mürəkkəb frazeoloji sistemiylə bütövləşmiş, onunla iç-içə yoğrulmuşdur. Ona görə də atalar sözündə, məsəllərdə bir sözü yerindən oynatmaq, ya sözlərin sırasını dəyişmək o ifadənin sintaksisini pozub təsir gücünü azalda bilir. Çünki həmin tərkiblər milli dil və düşüncənin bir-birinə qarşılıqlı təsiri nəticəsində artıq qəlibləşmiş bir şəkil almışdır" (Atalar sözü (2004), s.4). Lakin poetik dildə onların dəyişdirilməsi halları ilə qarşılaşmaq olar və Bəxtiyar vahabzadənin yaradıcılıq örnəklıri bu fikri təsdiq edir. Bu anlamda, "Qılınc yarası sağalar, söz yarası sağalmaz" atalar sözü şairin yaradıcılığında forma dəyişikliyinə məruz qalmış, lakin mənasını qoruyub saxlamışdır:

Gullə yarasına nə var? Tez gedər,
Getməz söz yarası, eyham yarası (Vahabzadə (2004), I c, s. 83).

Atalar sözləri üzərindəki yaradıcı əməliyyat tanış deyimlərin mənasını təzələməklə yanaşı, şairin dili idarə etmək bacarığını da nümayiş etdirir.

Nəticə

Bəxtiyar Vahabzadənin yaradıcılığı göstərir ki, bədii söz sənətinin əsas ifadə vasitələrindən biri olan poetik dildə işlənən hikmətli fikirlər (aforizmlər, atalar sözləri, müdrik deyimlər) şairin əsərlərinin semantik yükünü dərinləşdirir, ideya-məzmun keyfiyyətini zənginləşdirir və oxucu ilə müəllif arasında mənəvi körpü yaradır. Poetik dildə hikmətli fikirlər yalnız dilin estetik imkanlarını genişləndirmir, həm də bədii əsərin ideya-fəlsəfi tutumunu möhkəmləndirir. Onlar milli mədəniyyətin, mənəvi dəyərlərin poeziyada qorunmasına xidmət edir. Müdrik sözlər poeziyanın tərbiyəvi gücünü artırır, oxucunu düşünməyə, həyat həqiqətlərini dərk etməyə sövq edir, bədii mətnə həm fəlsəfi mahiyyət, həm də milli-mədəni dəyərlər sisteminin izlərini gətirir. Şairin hikmətli fikirlərinin mənbələri Azərbaycan folklor qaynaqları və şəxsi müdrikliyini ortaya qoyan həyat təcrübəsidir.

ƏDƏBİYYAT

1. Almənmədova S. (2010). Bəxtiyar Vahabzadə poeziyasının dili. Bakı, "Elm", 75 s.
2. Atalar sözü (2004). Bakı: Öndər, 264 s.
3. Azərbaycan bədii dilinin üslubiyyatı (1970). Bakı, Elm, 357 s.
4. Əfşari Ə. (2021). Müxtəlifsistemli dillərdə atalar sözlərinə koqnitiv yanaşmalar "Dil və ədəbiyyat" jurnalı, XI cild, №2, s. 29-39.
5. Əlizadə S. (1987). "Oğuznamə", Bakı, "Yazıçı", 223 s.
6. Hacıyev T.İ. (1983). Düşüncəli istedadlı dil. "Ulduz" jurnalı, №7.==
7. Hacıyev T.İ. (1979). Yazıçı dili və bədii təhlili. Bakı, Yazıçı, 130 s.
8. Həsənova S. (2017). "Kitabi-Dədə Qorqud" dastanı dilimizin hikmət xəzinəsidir. Dilimiz mənəvi kimliyimizdir. Naxçıvan, Əcəmi, s. 68-89.
9. Vahabzadə Bəxtiyar (2004). Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı, "Ondər nəşriyyat", 328 s.
10. Vahabzadə Bəxtiyar (2004). Seçilmiş əsərləri. İki cilddə. II cild (Poemalar). Bakı, "Öndər nəşriyyat", 320 s.

SOCIAL AND SOCIETAL TRANSFORMATIONS IN AMERICAN LITERATURE AFTER WORLD WAR II

II DÜNYA MÜHARİBƏSİNDƏN SONRA AMERİKA ƏDƏBİYYATINDA SOSİAL VƏ İCTİMAİ TRANSFORMASİYALAR

Lalə Əli qızı Namazova

Azərbaycan Dillər Universiteti

Abstract

The profound social and public changes that occurred in American society after World War II were reflected in literature and became an important source for understanding the spirit of the era. During this period, American writers paid special attention to topics such as the psychological traumas caused by the war, changes in family structures, the formation of society, and the civil rights movement. How these changes are manifested in literary works allows us to trace the thinking and ideological searches of society in both a historical and cultural context. From this perspective, the topic is relevant not only for literary criticism, but also for sociology and culturological studies.

The main goal of this article is to analyze the social and public transformations reflected in American literature after World War II and to reveal how the literary discourses formed during that period reflected the cultural, ideological, and psychological state of society. To this end, the literary embodiment of social alienation, the problem of identity, the speech against conformity and countercultural movements is examined based on the works of leading writers of the period (for example, J.D. Salinger, Arthur Miller, Sylvia Plath, James Baldwin and others). At the same time, how individual and collective experiences were expressed through poetic and artistic images is analyzed, which allows for a deeper understanding of the literary spectrum and social consciousness of the period.

Keywords: social transformation, social changes, American literature, cold war thought, civil rights movement

Xülasə

II Dünya Müharibəsindən sonra Amerika cəmiyyətində baş verən dərin sosial və ictimai dəyişikliklər ədəbiyyatda öz əksini taparaq dövrün ruhunu anlamaq baxımından əhəmiyyətli mənbəyə çevrilmişdir. Bu dövrdə Amerika yazıçıları müharibənin yaratdığı psixoloji travmalar, ailə strukturlarındakı dəyişikliklər, cəmiyyətin formalaşması və vətəndaş hüquqları hərəkatı kimi mövzulara xüsusi diqqət ayırmışlar. Bu dəyişikliklərin ədəbi əsərlərdə necə təzahür etməsi həm tarixi, həm də mədəni kontekstdə cəmiyyətin düşüncə tərzini və ideoloji axtarışlarını izləməyə imkan verir. Bu baxımdan, mövzu təkcə ədəbiyyatşünaslıq üçün deyil, sosiologiya, kulturoloji tədqiqatlar üçün də aktuallıq kəsb edir.

Bu məqalədə əsas məqsəd, II Dünya Müharibəsindən sonra Amerika ədəbiyyatında əksini tapan sosial və ictimai transformasiyaları təhlil edərək, həmin dövrdə formalaşan ədəbi diskursların cəmiyyətin mədəni, ideoloji və psixoloji vəziyyətini necə əks etdirdiyini üzə çıxarmaqdır. Bu məqsədlə dövrün aparıcı yazıçılarının (məsələn, J.D. Salinger, Arthur Miller, Sylvia Plath, James Baldwin və digərləri) əsərləri əsasında sosial yadlaşma, identiklik problemi, konformizmə qarşı çıxış və əks-mədəniyyət hərəkatlarının ədəbi təcəssümü araşdırılır. Eyni zamanda fərdi və kollektiv təcrübələrin poetik və bədii obrazlarla necə ifadə olunduğu da təhlil edilir, bu da dövrün ədəbi spektrini və sosial şüurunu daha dərindən anlamağa imkan verir.

Açar sözlər: sosial transformasiya, ictimai dəyişikliklər, Amerika ədəbiyyatı, soyuq müharibə düşüncəsi, vətəndaş hüquqları hərəkatı

GİRİŞ

İkinci Dünya müharibəsindən sonrakı dövr Amerika ədəbiyyatında dərin sosial, mədəni və ideoloji dəyişikliklərlə müşayiət olunmuşdur. Müharibənin yaratdığı genişmiqyaslı dağıntılar, insanlıq faciəsi və qlobal miqyasda baş verən dəyərlər böhranı Amerika ictimai şüurunda dərin izlər buraxmış və bu, ədəbiyyatın estetik və ideoloji koordinatlarında ciddi dönüşlərə səbəb olmuşdur. Həmin dövrün ədəbiyyatı, bir tərəfdən, "Amerika Yuxusu" (American Dream) kimi milli ideologiyaların etibarlılığını sorğulayan, digər tərəfdən isə fərdi mənlik, ekzistensial yadlaşma və cəmiyyətdə ziddiyyətli münasibətlər kimi mövzulara yönələn əsərlərlə xarakterizə olunmuşdur.Bu dövrün ən mühüm ədəbi cərəyanlarından biri "Beat nəsli"[11]nin (Beat Generation) meydana çıxmasıdır. Bu ədəbi qrupun nümayəndələri yalnız əsas axın Amerika mədəniyyətini estetik baxımdan deyil, həm də sosial və ideoloji cəhətdən tənqid etmişlər. Onlar İkinci Dünya müharibəsindən sonra Amerikanın formalaşan istehlak cəmiyyətini, konformist həyat tərzini və siyasi riyakarlığı rədd edərək, fərdi azadlıq, mənəvi oyanış və alternativ həyat tərzlərinin müdafiəsinə qalxmışlar. Beat yazarları – Allen Ginsberg, Jack Kerouac, William S. Burroughs kimi simalar – yaradıcılıqları vasitəsilə dövrün sosial-ictimai vəziyyətinə reaksiya vermiş, irqçilik, senzura, müharibə əleyhinə mövqelər sərgiləmiş və fərdin özünüifadə hüququnu ön plana çıxarmışlar. Onların bu cür sosial mövqeyi yalnız ədəbiyyatda deyil, daha geniş mənada Amerikanın ictimai fikrində dönüş yaratmış, vətəndaş hüquqları hərəkatı və əks-mədəniyyət dalğası kimi mühüm proseslərin ideoloji zəminini formalaşdırmışdır.

"Beat Nəsli"nin formalaşması yalnız ədəbi deyil, həm də geniş, mədəni və fəlsəfi kontekstdə baş vermişdir. Beat Nəsli nümayəndələrinin ədəbi yaradıcılığı yalnız Qərb ənənələri ilə məhdudlaşmır, həm də Şərq fəlsəfəsi, caz musiqisinin ritmik və improvizasiyaedici təbiəti, eləcə də spontan, yəni əvvəlcədən planlaşdırılmamış və axıcı şəkildə ifadə olunan şeirsəl təhkiyə üsulları ilə sıx şəkildə əlaqəli idi. Bu kontekstdə "Beat Nəsli" yalnız Amerika ədəbiyyatında baş verən müasir üslub və dünyagörüşü transformasiyalarını anlamaq baxımından deyil, eyni zamanda XX əsrin ortalarında formalaşan qlobal ədəbi və mədəni tendensiyalarla – məsələn, modernizm sonrası eksperimentalizm, postkolonial fərdi təcrübə axtarışları və mədəni müqavimət hərəkatları ilə bağlı əlaqələrin araşdırılması nöqteyi-nəzərindən də böyük əhəmiyyətə malikdir. Bu cərəyan, həm milli ədəbiyyatın sərhədlərini genişləndirən, həm də transmilli mədəni dialoqa təşviq edən bir fenomendir.

II Dünya Müharibəsindən Sonra Amerika Ədəbiyyatında Sosial Dəyişikliklərin Əksi

Ədəbiyyatın cəmiyyətin transformasiyasını əks etdirmə funksiyasını dərindən anlamaq üçün müasir Amerikanın sosial, iqtisadi və mədəni əsaslarının formalaşdığı bir dövrə nəzər salmaq zəruridir. II Dünya müharibəsindən sonrakı dövrdə ölkədə baş verən köklü dəyişikliklər, xüsusilə sənayeləşmənin sürətlənməsi, dəmir yolları şəbəkəsinin genişlənməsi və miqrasiyanın artması kimi proseslər Amerikanın ictimai quruluşunda ciddi dəyişikliklərə yol açmışdır. Bu dövrdə yaranan iqtisadi dinamika və sosial heterogenlik, ədəbiyyatda da yeni estetik yanaşmaların zəruriliyini gündəmə gətirmişdir. Məhz bu tarixi-sosial kontekstdə realizm adlı ədəbi cərəyan meydana çıxmış və 1800-cü illərin əvvəllərində üstünlük təşkil edən romantik üslubdan fərqli olaraq, həyatın gündəlik reallıqlarını, sosial ziddiyyətləri və fərdi təcrübələri olduğu kimi təsvir etməyə çalışmışdır. Realist ədəbiyyatın aparıcı nümayəndələrindən biri sayılan Mark Tven (1884), xüsusilə *Heklberri Finnin macəraları (Adventures of Huckleberry Finn)* kimi əsərlərində regional dialektlərdən və ironiya vasitələrindən istifadə edərək, Amerika cəmiyyətindəki sosial ədalətsizliklərə və mənəvi riyakarlığa işarə etmişdir. Henri Ceyms isə insan psixologiyasının və fərdi seçimlərin mürəkkəbliyini təhlil edərək realizmin intelektual dərinliyini genişləndirmişdir.Təsadüfi deyil ki, II Dünya Müharibəsinin başa çatması ilə Amerika yeni bir tarixi mərhələyə – iqtisadi rifah, sosial sabitlik və genişlənən orta sinfin formalaşdığı ictimai struktur dəyişikliklər – qədəm qoydu. Cəbhədən qayıdan hərbçilər dövlət tərəfindən qəbul edilən GI Bill (Veteranlara Yardım Aktı) vasitəsilə ev sahibi olmaq, ali təhsil almaq və peşə bacarıqları qazanmaq imkanları əldə etdilər. Şəhər mərkəzlərindən kənarda sürətlə inkişaf

[11]1940-1950-ci illər arasında ABŞ-da formalaşmış, ədəbiyyatla yanaşı, cəmiyyətin mədəni dəyərlərinə də güclü təsir göstərmiş bir hərəkatdır. Bu hərəkatın nümayəndələri cəmiyyətin mühafizəkar dəyərlərinə, mədəniyyətinə və siyasətdəki ikili standartlara qarşı çıxaraq fərdi azadlığı, mənəvi axtarışları və qeyri-ənənəvi həyat tərzini önə çəkirdilər.

edən yaşayış massivləri, o cümlədən Levittaun kimi planlı məhəllələr, müharibədən sonrakı *"Amerika Arzusu"nun (American Dream)* fiziki təcəssümünə çevrildi. Bu dövrdə istehlak mədəniyyəti yüksəlişə keçdi, media və reklam vasitələri ilə vətəndaşlara bolluq və təhlükəsizlik hissi tələqin edildi.

Lakin bu zahiri rifahın fonunda cəmiyyət daxilində ciddi sosial və psixoloji gərginliklər yaşanmaqda idi. Nüvə silahlarının yaratdığı qlobal təhlükə, Soyuq Müharibə rəqabəti və irqçilik kimi struktur problemlər Amerikanın daxili sabitliyini pozur, fərdin psixoloji vəziyyətinə və sosial münasibətlərə dərin təsir göstərirdi. Bu ikili reallıq – bir tərəfdə iqtisadi sabitlik və optimizm, digər tərəfdə isə sosial qeyri-bərabərlik və narahatlıq – dövrün ədəbiyyatında da öz əksini tapmışdır.Müasir Amerikanın ədəbi mənzərəsini formalaşdıran əsas yazıçılardan biri olan Artur Miller (1949), *"Satıcının ölümü" (Death of a Salesman)* əsərində Amerika Arzusunun insan şüuruna və ailə münasibətlərinə necə dağıdıcı təsir göstərdiyini təsvir etmişdir. Əsərdə ailə başçısı Uilli Lomanın uğursuzluqları fonunda, kapitalist sistemin fərd üzərində qurduğu psixoloji təzyiqlər, şəxsi dəyərlərlə sosial gözləntilər arasındakı toqquşmalar analitik dərinliklə təqdim olunur.

Digər tərəfdən, Tennessi Uilyamsın (1947) *"Arzu Tramvayı" (A Streetcar Named Desire)* əsərində isə cənub ştatlarının dəyişən ictimai və mədəni strukturları fonunda cinsəllik, şəxsiyyətin parçalanması, sosial maskalanma və repressiya kimi mövzular araşdırılır. Əsərdəki Blanş Düboan obrazı, müasir Amerika cəmiyyətində fərdin yaşadığı daxili qarşıdurmaların, kimlik axtarışlarının və sosial təzyiqlərin metaforu kimi çıxış edir. O, öz reallığını qəbul etməkdə çətinlik çəkir, keçmişin ağrılı xatirələrindən qaçır və ətrafındakı dəyişən dünyaya uyğunlaşmaqda çətinlik yaşayır. Bu vəziyyət, geniş mənada, müasir Amerikanın sürətlə dəyişən sosial və mədəni mühitində fərdin öz şəxsiyyətini müəyyənləşdirməkdə və qorumaqda qarşılaşdığı çətinlikləri və ziddiyyətləri əks etdirir.

Bu müəlliflərin yaradıcılığı yalnız dövrün fərdi və sosial dilemmlarını təsvir etməklə kifayətlənmir, eyni zamanda müharibədən sonrakı Amerikanın ideoloji ikililiyini və daxili paradokslarını da açıq şəkildə ifşa edir. Beləliklə, 1940-cı illərin sonu və 1950-ci illərin əvvəllərində formalaşan Amerika ədəbiyyatı, sosial dəyişikliklərin, psixoloji təzyiqlərin və mədəni parçalanmanın güzgüsünə çevrilmişdir.

Soyuq Müharibənin başlanması ilə kommunizmə və casusluğa dair qorxu və şübhələr Amerika ictimai şüurunda dərin iz buraxdı. Bu dövrün yazıçı və dramaturqları qorxu, konformizm və fərdin sosial basqılar qarşısında mövqeyini araşdırmaqla yanaşı, Makkarthi erasının paranoid atmosferinə incə, lakin kəskin tənqidlər səsləndirdilər. Elmi-fantastika janrı, xüsusilə Rey Bredberinin (1953) *Fahrenheit 451* əsərində təsvir olunduğu kimi, senzura, dövlət nəzarəti və texnoloji inkişafın insanın humanist dəyərlərinə potensial təhlükələri mövzularını dərin təhlil etdi.

Bu ədəbi məhsullar həm həmin dövrün sosial təzyiqlərindən qaçış, həm də ictimai durumun kritik şərhini təqdim etdi. Yazıçılar, yeni yaranan qlobal güc statusunu qəbul etməyə çalışan Amerika cəmiyyətində mövcud olan daxili ədalətsizliklərə, sosial çatışmazlıqlara diqqət çəkərək, səthi stabilliyin altında gizlənən parçalanmaları və narahatlıqları ifşa etdilər. Bu əsərlər, gələcəkdə baş verəcək genişmiqyaslı sosial, ictimai və mədəni dəyişikliklər barədə öncədən xəbər verirdi.

Müharibədən Sonrakı Dövrlərdə Sosial Və İctimai Dəyişiklikləri Əks Etdirən Ədəbiyyat

20-ci əsrin ortaları Amerika tarixində ən əhəmiyyətli sosial dönüşlərdən biri olan Vətəndaş Hüquqları Hərəkatının yüksəlişi ilə yadda qaldı. Bu dövrdə ədəbiyyat, sosial ədalət uğrunda mübarizənin ruhunu əks etdirərək, həm ictimai şüurun formalaşmasına, həm də fəallığın təşviqinə mühüm töhfə verdi. *Braun Təhsil Şurasına qarşı* (*Brown vs Board of Education)* (1954) kimi məhkəmə qərarları məktəblərdə ayrı-seçkiliyi rəsmi olaraq ləğv etsə də, cəmiyyət səviyyəsində əsl dəyişikliklər ictimai təzyiq, kütləvi etiraz aksiyaları və dəyərlər sistemində fundamental transformasiyalar olmadan mümkün deyildi.

Ceyms Boldvin kimi yazıçılar, irqçilik və kimlik məsələlərini dərin emosional və psixoloji qatlarda araşdıraraq, irqi ayrı-seçkiliyin insan üzərində yaratdığı təsirləri oxuculara təsirli şəkildə çatdırdılar. Onun *Go Tell It on the Mountain (1953)* romanı və *Notes of a Native Son (1955)* esseləri oxucu ilə empatik bağ qurmaqla, məsələyə yalnız hüquqi və siyasi kontekstdən deyil, həm də insan aspektindən yanaşdı. Eyni dövrdə Loreen Hansberinin *A Raisin in the Sun (1959)* pyesi mənzil ayrı-seçkiliyi, ailə arzuları və cəmiyyətin inteqrasiya prosesindəki mürəkkəb sosial münasibətləri ədəbiyyat vasitəsilə analitik və çoxşaxəli şəkildə təqdim etdi.

Bu dövrdə ədəbiyyat qadınların sosial, mədəni və siyasi baxımdan gücləndirilməsində mühüm rol oynamışdır. İkinci dalğa feminist hərəkatı 1960-1970-ci illərdə geniş vüsət alaraq qadınların cəmiyyətdəki yerini, gender bərabərsizliyini və patriarxal strukturları hədəfə aldı. Lakin bu hərəkatın əsas ideyalarının formalaşmasında və geniş kütlələrə çatdırılmasında ədəbiyyatın rolu əvəzsiz olmuşdur. Betty Friedan kimi yazıçılar *The Feminine Mystique (1963)* adlı əsərlərində qadınların evdəki məhdud rolunu və cəmiyyətdə onlara qarşı tətbiq olunan stereotipləri tənqid edərək, geniş ictimaiyyətin diqqətini gender bərabərsizliyinə çəkdilər. Bu əsər qadınların öz şəxsiyyətlərini, arzularını və hüquqlarını tanımasına stimul verdi və feminist düşüncənin inkişafında həlledici mərhələ oldu.

Həmçinin, bu dövrün digər yazıçıları və dramaturqları da irq, sinif və gender məsələlərini yeni prizmalardan işıqlandıraraq, mövcud sosial strukturların təhlilini təqdim etdilər. Ədəbiyyat bu baxımdan yalnız sosial problemlərin əks olunması vasitəsi olmaqla kifayətlənmədi, həm də cəmiyyətin düşüncə tərzində transformasiya yaratmaq üçün katalizator funksiyasını yerinə yetirdi. Yazılı və səhnə əsərləri ictimaiyyətin diqqətini qapalı mövzulara yönəldərək, sosial ədalət və bərabərlik uğrunda mübarizənin genişlənməsinə zəmin yaratdı.

Nəticə etibarilə, 1960-1970-ci illərin ədəbi məhsulları, yalnız qadınların deyil, həmçinin digər sosial qrupların — irq və sinif baxımından kənarda qalmışların — səlahiyyətləndirilməsində əsas vasitə kimi çıxış etmiş, sosial dəyişikliklərin təşviqində və ictimai şüurun yüksəlməsində mühüm rol oynamışdır.

1960–1970-Ci İllər: Sosial Transformasiyalar Və Ədəbiyyatın Cəmiyyətlə Qarşılıqlı Əlaqəsi

1960 və 1970-ci illər Amerikada kəskin sosial və mədəni dəyişikliklərin baş verdiyi bir dövr kimi yadda qalmışdır. Bu illər ərzində ölkə bir tərəfdən Vyetnam müharibəsinin yaratdığı dərin siyasi və mənəvi parçalanma ilə, digər tərəfdən isə feminist hərəkat, gey hüquqları hərəkatı və irqi bərabərlik uğrunda mübarizənin güclənməsi ilə üzləşmişdir. Cəmiyyətin müxtəlif təbəqələrində hakim olan narazılıq, mövcud sosial qurumlara və dəyərlərə qarşı tənqidi yanaşmanı təşviq etmiş, fərdi azadlıq və identiklik axtarışları ön plana çıxmışdır. Bu kontekstdə ədəbiyyat yalnız estetik vasitə deyil, eyni zamanda ictimai diskussiyanın mühüm aləti kimi çıxış etmişdir.

Bu dövrdə Kurt Vonnegutun Slaughterhouse-Five (1969) romanı müharibə təcrübəsinin absurdlugunu və travmatik təsirlərini satira və elmi-fantastika vasitəsilə ifşa edir. Müəllif, İkinci Dünya Müharibəsinin dağıdıcı reallığını və onun insan psixologiyasında buraxdığı dərin izləri göstərməklə, həm də Vyetnam müharibəsinin mənasızlığına dolayı yolla diqqət çəkir. Eyni dövrdə Hunter S. Thompson tərəfindən inkişaf etdirilən "gonzo jurnalistikası" (1970) janrı fakt və subyektiv təcrübəni birləşdirərək, ictimai-siyasi hadisələrin iç dünyaya təsirini fərdi prizmadan təqdim edir. Onun Fear and Loathing in Las Vegas (1971) əsəri dövrün sosial qeyri-sabitliyini, siyasi absurdluğunu və dəyərlərin deqradasiyasını sərt ironiyalarla tənqid edir.

Toni Morrison isə afroamerikalıların tarixi və mədəni təcrübəsini poetik və dərin psixoloji təsvirlərlə təqdim edərək ədəbiyyatda yeni bir mərhələ açmışdır. *The Bluest Eye (1970)* və *Song of Solomon (1977)* romanlarında müəllif, irqçilik, kimlik böhranı, kollektiv yaddaş və tarixdən miras qalan travmaların fərdi və ictimai səviyyədə necə təzahür etdiyini əhatəli şəkildə təhlil edir. T. Morrison-un əsərləri təkcə afroamerikalıların deyil, bütövlükdə Amerikanın sosial yaddaşının və humanitar dəyərlər sisteminin sorğulanmasında mühüm rol oynayır.

Əks-mədəniyyətin yüksəlişi, 1960–70-ci illərin Amerika ədəbiyyatında uzun müddət marginal vəziyyətdə qalmış kimliklərin və təcrübələrin təmsil olunma səviyyəsini əhəmiyyətli dərəcədə artırdı. Bu dövrdə LGBTQ+ icmasına mənsub yazıçıların ədəbi səhnədə daha fəal şəkildə iştirak etməsi, ədəbiyyatın həm sosial, həm də epistemoloji funksiyalarını genişləndirdi. James Baldwin kimi müəlliflər, yalnız irqi ayrı-seçkilik və sosial ədalətsizlikləri deyil, eyni zamanda çoxqatlı kimlik dinamikalarını da nəzərdən keçirərək Amerika cəmiyyətinin mədəni özünüdərk sərhədlərinə fundamental şəkildə təsir göstərdilər. Baldvinin *Go Tell It on the Mountain* və *Giovanni's Room* kimi əsərləri həm Afrika-Amerikan təcrübəsini, həm də homoseksual identikliyi dərindən təhlil edərək, mədəni diskursda uzun müddət susdurulmuş mövzulara yer açdı.

Rita Mey Braun isə *Rubyfruit Jungle (1973)* əsərində lezbiyan qadın kimliyini mərkəzə çəkərək, həm ədəbi formaları yenidən düşünməyə, həm də ictimai tabu anlayışlarını sorğulamağa təşəbbüs göstərdi. Bu cür yazıçılar vasitəsilə ədəbiyyat, yalnız fərdi və emosional təcrübələrin ifadə vasitəsi olmaqla məhdudlaşmadı, eyni zamanda sosial inklüzivliyin genişləndirilməsi, kimliklərin leqitimləşdirilməsi və mədəni normativliyin yenidən qurulması üçün vacib bir intellektual platformaya çevrildi. Beləliklə, ədəbiyyat, ictimai-mədəni diskursda "kimin danışmaq haqqı var?" sualına cavab axtarışında əsas vasitə rolunu oynayaraq, sosial ədalətin bərqərar olmasında transformativ gücə malik oldu.

Nəticə

XX əsrin əvvəllərinin sərt realizmindən tutmuş çağdaş yazıçıların cəsarətli eksperimentlərinə qədər Amerika ədəbiyyatı daim onun ifadə etdiyi cəmiyyətlə birgə təkamül etmişdir. Müxtəlif dövrlərə aid ədəbi nümunələr, cəmiyyətin əhval-ruhiyyəsini, narahatlıqlarını və siyasi mübarizələrini əks etdirməklə, həmin dövrün ictimai kontekstini anlamaq üçün dəyərli mənbəyə çevrilmişdir. İstər xarici, istərsə də daxildəki vətəndaş hüquqları uğrunda mübarizələrlə bağlı olsun, Amerika müəllifləri dəyişən reallıqları anlamaq və izah etmək üçün ədəbi yaradıcılıqdan fəal şəkildə istifadə etmişlər.

Amerika ədəbiyyatının cəmiyyətdə baş verən dəyişiklikləri necə əks etdirdiyini araşdırmaqla aydın olur ki, mətnlər həm empatiya yaratmaq, həm müqavimət göstərmək, həm də insanları fəaliyyətə təşviq etmək gücünə malikdir. Bu əsərlərlə qarşılıqlı əlaqə qurmaq təkcə tarixi bilgiləri deyil, həm də müasir cəmiyyətin formalaşmasında iştirak edən fərdi və kollektiv baxış bucaqlarını anlamağa imkan yaradır.

Deməli, "Amerika ədəbiyyatı cəmiyyətin dəyişikliklərini necə əks etdirmişdir?" sualının cavabı yeknəsəq və sabit deyil, əksinə, daim inkişaf edən bir prosesdir. İnsanlar yeni ideyalarla qarşılaşdığı, yeni problemlərlə mübarizə apardığı və daha ədalətli gələcək arzusu ilə yaşadığı müddətcə, ədəbiyyat bu reallıqları əks etdirmək, sorğulamaq və bədii şəkildə təqdim etmək funksiyasını davam etdirəcəkdir. Beləliklə, Amerika ədəbiyyatı milli identikliyin, ictimai dəyərlərin və zamanın ruhunun ifadə vasitəsi olaraq aktuallığını qoruyub saxlayacaqdır.

Ədəbiyyat

1. Albee, E. (1961). *The American Dream*. Random House.
2. Braun, R. M. (1973). *Rubyfruit jungle*. Daughters Publishing.
3. Baldwin, J. (1953). *Go tell it on the mountain*. Alfred A. Knopf.
4. Baldwin, J. (1955). *Notes of a native son*. Beacon Press.
5. Bradbury, R. (1953). *Fahrenheit 451*. Ballantine Books.
6. Friedan, B. (1963). *The feminine mystique*. W. W. Norton & Company.
7. Hansberry, L. (1959). *A raisin in the sun*. Random House.
8. Miller, A. (1949). *Death of a salesman*. Viking Press.

9. Morrison, T. (1970). *The bluest eye*. Holt, Rinehart and Winston.
10. Morrison, T. (1977). *Song of Solomon*. Alfred A. Knopf.
11. Thompson, H. S. (1971). *Fear and loathing in Las Vegas: A savage journey to the heart of the American dream*. Random House.
12. Twain, M. (1884). *Adventures of Huckleberry Finn*. Charles L. Webster and Company.
13. Vonnegut, K. (1969). *Slaughterhouse-five*. Delacorte Press.
14. Williams, T. (1947). *A streetcar named desire*. New Directions.

COMPARISON OF THE PRESENT TENSE IN FRENCH AND ENGLISH

FRANSIZ VƏ İNGILIS DILLƏRINDƏ INDIKI ZAMANIN MÜQAYISƏSI

Qasımova Aytən Fərman qızı

Baş müəllim Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı

Xülasə

Bu məqalədə fransız dilində **"Présent de l'indicatif"** və ingilis dilində **"Present Simple"** zaman formaları müqayisəli şəkildə təhlil edilir. Məqsəd hər iki dildə indiki zamanın qrammatik quruluşunu, istifadəsini və funksional fərqlərini ortaya çıxarmaqdır. Məqalədə feillərin təsrif qaydaları, qaydalı və qaydasız formaları, istisnalar, şəxs sonluqları və yazılış-tələffüz fərqləri ətraflı şəkildə izah olunur. Eyni zamanda, Present Simple zamanının quruluşu (müsbət, inkar, sual), istifadəsi və tipik halları izah edilmişdir. Müqayisə nəticəsində müəyyən olunmuşdur ki, hər iki dildə indiki zaman gündəlik danışıqda aktiv şəkildə istifadə olunsa da, onların qrammatik sistemlərində mühüm fərqlər mövcuddur. Fransız dilində feillər şəxslərə və qruplara görə geniş dəyişikliklərə məruz qalır və istisnalar çoxdur, ingilis dilində isə struktur daha sadə və öyrənilməsi asandır. Məqalə bu fərqləri aydınlaşdıraraq, dil öyrənənlərə hər iki dili müqayisəli şəkildə mənimsəməkdə yardımçı olmağı hədəfləyir.Fransız və İngilis dillərində indiki zaman formasının müqayisəli təhlili göstərdi ki, hər iki dildə bu zaman gündəlik danışıqda və yazıda geniş şəkildə istifadə olunur. Hərçənd ki, hər iki dil indiki zamanı ifadə etmək üçün oxşar funksiyalara malik olsa da, onların quruluşunda və istifadəsində mühüm fərqlər mövcuddur. Fransız dilində felin növü (1-ci, 2-ci, 3-cü qrup), şəxsə uyğun sonluqlar və bəzən yazılış-tələffüz fərqləri mürəkkəbliyi artırır. [2, səh. 138] İngilis dilində isə əsas fel forması dəyişməz qalır və yalnız 3-cü şəxsin təkində -s şəkilçisi əlavə olunur ki, bu da daha sadə struktur yaradır. Buna baxmayaraq, hər iki dilin özünəməxsus qaydaları dil öyrənənlər üçün müxtəlif çətinliklər yarada bilər. Bu səbəbdən, müqayisəli təhlil bu zaman formasını daha yaxşı mənimsəməyə və hər iki dildə düzgün istifadə etməyə imkan yaradır [4, səh. 33]

Əsas fərqlərə aşağıdakılar daxildir:

1. Fransız dilində fellər şəxs və sayla tam uyğunlaşdırılır, ingilis dilində isə yalnız 3-cü şəxs təkində (-s/-es) şəkilçisi tələb olunur.
2. İngilis dilində köməkçi fellərin (do/does, am/is/are) istifadəsi daha sistemli qaydaya əsaslanır.
3. Fransız dili üçün kontekst daha vacibdir, ingilis dilində isə zaman formaları arasındakı fərqlər daha aydın şəkildə müəyyən edilmişdir.

Açar sözlər: Fransız dili, ingilis dili, indiki zaman, qrammatik müqayisə, feil təsrifi, qaydalı və qaydasız feillər, şəxs sonluqları

Abstract

This article analyzes the tenses "Présent de l'indicatif" in French and "Present Simple" in English in a comparative manner. The aim is to reveal the grammatical structure, usage and functional differences of the present tense in both languages. The article explains in detail the rules of conjugation of verbs, regular and irregular forms, exceptions, person endings and spelling-pronunciation differences. At the same time, the structure (affirmative, negative, question), usage and typical cases of the Present Simple tense are explained. As a result of the comparison, it was determined that although the present tense is actively used in everyday speech in both languages, there are significant differences in their grammatical systems. In French, verbs undergo extensive changes according to persons and groups and there are many exceptions, while in English the structure is simpler and easier to learn. By clarifying these differences, the article aims to help

language learners master both languages in a comparative manner. A comparative analysis of the present tense in French and English has shown that in both languages this tense is widely used in everyday speech and writing. Although both languages have similar functions for expressing the present tense, there are important differences in their structure and use. In French, the type of verb (1st, 2nd, 3rd group), endings according to person, and sometimes spelling-pronunciation differences add to the complexity. [2, p. 138] In English, however, the main verb form remains unchanged and only in the 3rd person singular the suffix -s is added, which creates a simpler structure. However, the specific rules of both languages can create various difficulties for language learners. Therefore, a comparative analysis allows for a better mastery of this tense and its correct use in both languages [4, p. 33]

The main differences include:

1. In French, verbs are fully agreed in person and number, while in English only the suffix (-s/-es) is required in the 3rd person singular. 2. In English, the use of auxiliary verbs (do/does, am/is/are) is based on a more systematic rule. 3. In French, context is more important, while in English the differences between tenses are more clearly defined.

Keywords: French, English, present tense, grammatical comparison, verb conjugation, regular and irregular verbs, person endings

Giriş

Dil, insan düşüncəsinin və cəmiyyət həyatının ayrılmaz bir hissəsidir. Müxtəlif dillərin qrammatik quruluşları, onların ifadə vasitələri arasında olan oxşar və fərqli cəhətlər dilçilik sahəsində müqayisəli tədqiqatların aparılmasını zəruri edir. Dil öyrənmənin əsas komponentlərindən biri zaman formalarını düzgün mənimsəməkdir. [1, səh. 74] Fransız dilində "Présent de l`indicatif" və ingilis dilində "Present Simple" indiki zaman fomalarıdır.

Fransız Dilində İndiki Zaman (Présent de l'indicatif)

Présent de l'indicatif fransız dilində ən çox işlənən zaman formasıdır və gündəlik danışıqda geniş istifadə olunur. [2, səh. 45] Fransiz dilində feillər müxtəlif zamanlarda təsrif olunmalarına görə üç qrupa bölünür. I qrup feillərinin sonu "er", II qrup feillərinin sonu "ir", Ill qrup feillərin sonu isə müxtəlif olur (oir, re, ir, və s.)

I qrup feillərini bu zamanda təsrif etmək üçün, feilin məsdər şəkilçisi olan "er" atılır va feilin qalan hissəsinə aşağıdakı şəxs sonluqları əlavə olunur:

1. -e -ons
2. -es -ez
3. -e -ent

Ex: **chanter**

Je chant**e** Nous chant**ons**

Tu chant**es** Vous chant**ez**

İl(Elle) chant**e** İls(Elles) chant**ent**

II qrup feillərinin məsdəri “ir” məsdər sonluğu ilə bitir. Onları indiki zamanda təsrif edərkən “ir” sonluğu atılır, onun yerinə aşağıdakı şəxs sonluğu əlavə olunur. II qrup təsrif edərkən I, II və III şəxsin cəmində şəkilçi ilə feil kökü arasında -iss- suffiksi əlavə olunur.

	Tək	Cəm
I şəxs	-is	-iss-ons
II şəxs	-is	-iss-ez
III şəxs	-it	-iss-ent

Finir-Qurtarmaq

Je finis Nous finissons
Tu finis Vous finissez
İl (elle) finit İls(elles) finissent

grossir-kökəlmək grandir-böyümək

maigrir- arıqlamaq vieillir-qocalmaq

rougir-qızarmaq blanchir-ağarmaq

pâlir-solmaq. salir –çirkləndirmək

fleurir,çiçəklənmək, inkişaf etmək nourrir- yedirtmək

Fransızca "fleurir" feili həqiqətən də "çiçək açmaq" və "inkişaf etmək" mənalarında işlənir. Ex:- Les arbres fleurissent. → Ağaclar çiçək açır.

- L'économie de notre pays fleurit. → Bizim ölkənin iqtisadiyyatı inkişaf edir.

“Haïr” feilini indiki zamanada təsrif edərkən I,II,III şəxsin təkində -ï- hərfi -i- kimi olur

Je hais	Nous haïssons
Tu hais	Vous haïssez
İl(elle)hait	Ils(elles) haïssent

Fransız dilində I qrup feillər (sonluğu -er olan feillər) adətən qaydalıdır, lakin bəzi hallarda kökündə dəyişikliklər baş verir.

1. Məsdərdə "-cer" –ilə bitən feillər, I şəxs cəmində -c- hərfi → -ç- hərfinə çevrilir.
Səbəb:”c”hərfi **a, o, u** qarşısında "k", **e, i, y** qarşısında isə "s" kimi oxunur.
“Nous”formasında “-ons”olduğu üçün “-c” ”-ç-“ilə əvəz olunur və [s] kimi oxunur.
Nümunələr:
- commencer(başlamaq) → nous commençons
- annoncer(elan etmək) → nous annonçons
- placer (yerləşdirmək) → nous plaçons
- prononcer(tələffüz etmək) → nous prononçons

- lancer (atmaq) → nous lançons
- avancer(irəliləmək) → nous avançons

2. Məsdərdə "-ger" ilə bitən feillər I şəxsin cəmində -g- hərfindən sonra -e- əlavə olunur və-"e" hərfi oxunmur. Səbəb:*g* hərfinin [ʒ] kimi oxunmasına görədir. "-g " hərfi **a, o, u** qarşısında [g], **e, i, y** qarşısında isə [ʒ] kimi oxunur.

Nümunələr:

- manger(yemək) → nous mangeons
- changer (dəyişmək) → nous changeons
- déménager"(köçmək) → nous déménageons
- interroger (sorğu-sual etmək) → nous interrogeons
- déranger (narahat etmək) → nous dérangeons
- partager (bölmək, paylaşmaq) → nous partageons
- voyager (səyahət etmək) →nous voyageons
- exiger (tələb etmək, istəmək) → nous exigeons
- ranger (yerləşdirmək, qaydaya salmaq) → nous rangeons

3. "-er" məsdərdən əvvəl -e- və ya -é- gələrsə, bəzi şəxslərdə -e- → -è- olur

Səbəb:Bu feillərdə vurğu qaydasına görə **e** açıq saitə (**è**) çevrilir.

"-eler," "-eter" ilə bitən feillər oxunmayan hərflərin qarşısında "-l və t" qoşalaşır.

Dəyişən şəxslər:

- Je (I şəxs tək) - Tu (II şəxs tək) - Il/Elle (III şəxs tək) - Ils/Elles (III şəxs cəm)

Nümunələr:

- appeler (çağırmaq) → j'appelle,tu appelles, il appelle, ils appellent
- jeter (atmaq) → je jette, tu jettes,il jette, ils jettent
- préférer (üstün tutmaq) → je préfère, tu préfères , il préfère, ils préfèrent
- espérer (ümid etmək) → j'espère, tu espères, il espère, ils espèrent

Peser-çəkmək

Je p**è**se	Nous pesons
Tu p**è**ses	Vous pesons
Il(elle) p**è**se	Ils(elles) p**è**sent

4. "-eler," "-eter" ilə bitən feillər, məsələn, jeter, appeler, feulleter, rappeler feilləri oxunmayan hərflərin qarşısında "-l və t" hərfləri, I,II şəxsin təki, III şəxsin təki və cəmində qoşalaşır.

Jeter-atmaq

Je je**tt**e	Nosu je**t**ons
Tu je**tt**es	Vous je**t**ez
İl(elle) je**tt**e	İls(elles) je**tt**ent

Fransız dilində "-oyer" və"-uyer" ilə bitən feillərdə (məs: essuyer, nettoyer) oxunmayan hərflərin qarşısında -y- hərfi → -i- hərfi ilə əvəz olunur.

Nettoyer-Təmizləmək

Je nett**oi**e	Nous nett**oy**ons
Tu nett**oi**es	Vous netto**y**ez
İl(elle) nett**oi**e	İls(elles) nett**oi**ent

Ancaq"-ayer" ilə bitən feillərdə y- hərfi → -i- hərfi ilə əvəz oluna da bilinər, olunmaya da bilər.

Payer-ödəmək

Je paye, paie	Nous pa**y**ons
Tu payes, paies	Vous pa**y**ez
İl(elle) paye, paie	İls(elles) payent,paient

Fransız dilində III qrup feilləri (qaydasız feillər) qaydalı I və II qrup feillərindən fərqli olaraq müxtəlif sonluqlarla bitir və qaydasızdır.

III qrup feillərinin xüsusiyyətləri:

1. Müxtəlif məsdər sonluqları:
   - ir (partir , sortir, dormir)
   - oir (pouvoir, vouloir ,voir)
   -re (prendre, dire,écrire)
2. Bəzi feillər kökdən dəyişir (aller → je vais), bəzilərində isə sonluqlar fərqlidir (venir → je viens).
3. Ümumi nümunələr (Présent de l'indicatif):

Feil (Məsdər)	Məna	Je	Tu	İl (elle)	Nous	Vous	İls (elles)
Aller	Getmək	Je vais	Tu vas	İl va	Nous allons	Vous allez	İls vont
Venir	Gəlmək	Je viens	Tu viens	İl vient	Nous venons	Vous venez	İls viennent
Prendre	Götürmək	Je prends	Tu prends	İl prend	Nous prenons	Vous prenez	İls prennent
Pouvoir	Bacarmaq	Je peux	Tu peux	İl peut	Nous pouvons	Vous pouvez	İls peuvent
Vouloir	İstəmək	Je veux	Tu veux	İl veut	Nous voulons	Vous voulez	İls veulent
Voir	Görmək	Je vois	Tu vois	İl voit	Nous voyons	Vous voyez	İls voient
Avoir	Malik olmaq	J'ai	Tu as	İl a	Nous avons	Vous avez	İls ont
Lire	Oxumaq	Je lis	Tu lis	İl lit	Nous lisons	Vous lisez	İls lisent
Mettre	Qoymaq geyinmək	Je mets	Tu mets	İl met	Nous mettons	Vous mettez	İls mettent

Qeyd: falloir (il faut) -lazım olmaq feili yalnız IIIşəxsin təkində olur.
Frire -qızartmaq feilinin cəmi yoxdur (je fris, tu fris, il frit).

İngilis dilində İndiki sadə zaman forması (Simple Present tense form)

Present Simple(İndiki Zaman) İngilis dilində ən əsas və tez-tez işlədilən zaman formalarından biridir. Bu zaman ümumi həqiqətlər, davamlı vəziyyətlər, adətlər və ya düzənli təkrarlanan əməllər ifadə etmək üçün istifadə olunur. [3, səh. 6]

Present Simple quruluşu:

1. Təsdiq cümlə (Affirmative):
   - I/You/We/They+ feilin birinci forması(məs: *go, eat, play)
   - He/She/It+ feilin+ -s/-es(məs: goes, eats, plays)

Nümunələr:
   - I work every day. (Mən hər gün işləyirəm.)
   - She likes coffee. (O, qəhvəni xoşlayır.)

- They play football. (Onlar futbol oynayırlar.)

2. İnkar cümlə (Negative):
- I/You/We/They + do not (don't) + feil
- He/She/It + does not (doesn't)+ feil

Nümunələr:
- I don’t like apples. (Mən almaları xoşlamıram.)
- He doesn’t go to school. (O, məktəbə getmir.)

3. Sual cümləsi (İnterrogative):
- Do+ l/you/we/they + feil ?
- Does + he/she/it+ feil?

Nümunələr:
- Do you speak English? (Siz ingilis dilində danışırsınız?)
- Does she live in London? (O, Londonda yaşayır?)

Feilə -s/-es əlavə etmə qaydaları:

“-s-“əlavə edilir:
- work → works, play → plays

“-es-“əlavə edilir (əgər feil-s, -sh, -ch, -x, -o ilə bitirsə):
- go → goes, wash → washes, watch → watches

“-ies-“ əlavə et (əgər feil samit + -y- ilə bitirsə, -y- düşüb -ies- yazılır):
- study → studies, try → tries

Bu zaman forması aşağıdakı hallarda işlənir:

1. İndiki zamanda adət halını almış, daimi və təkrar baş verən hərəkətləri ifadə etmək üçün:

She often stays with her granny. Does he often ask for help?

It never rains in this part of the desert. We hardly ever discuss such problems.

2. Təbiət hadisələri, ümumi həqiqətlər, faktlar, atalar sözlərini təsvir etmək üçün:

Snow melts at O degrees C. People wear dark glasses in strong light.

One swallow doesn’t make a spring.

3. Gələcəkdə baş verəcək hərəkətlər üçün zaman və şərt budaq cümlələrində (if and when clauses).

I’ll tell you as soon as he comes.

If the temperature goes down, you will have to put on your warm jacket.

If they don’t come on time, we shall begin without them.

Bu budaq cümlələrin baş cümləsindəki feil gələcək zamanda, əmr şəklində və ya indiki zamanda olur.

We have to do something about it before it is too late.

Don’t do it till I come.

We’II do it after she asks me.

Lakin when və if ilə başlanan mübtəda, xəbər və tamamlıq budaq cümlələrində gələcək zaman işlənə bilir.

When he’ll arrive isn’t yet known.

The question is when he’ll arrive.

He has told me when he’ll arrive.

Lakin: I’ll ask him about it when he comes.

Bəzi hallarda indiki sadə zaman proqram, cədvəl və ya oxşar hadisələr haqqında danışarkən gələcək sadə zamanın əvəzinə işlənir.

My plane leaves at two o’clock.

The summer term starts on April 10th.

The sun rises at 6.13 tomorrow.

Are you on duty next weekend.

As long as birləşməsindən sonra gələcəkdə hər hansı bir fikri ifadə etmək üçün indiki sadə zaman işlənir.

As/so long as çox vaxt şərt cümlələrində işlənir.

You can take my car as/so long as you drive carefully.
4. Davamedici zaman formalarinda işlənməyən (see, hear, know, understand, love, hate, like, prefer, remember, want, wish, think, mean, və s.) feillərlə danışıq anında baş verən hərəkətləri ifadə etmək üçün:
John prefers fish to meat. How do you understand it?
The porridge smells strange. I don't know what you mean.
5. Ardıcıl baş verən tamamlanmış hərəkət və hadisələri ifadə etmək üçün nümayiş, şərh, təlimat və hekayələrdə:
First I take a bowl and break two eggs into it.
He passes to Taylor, Taylor shoots - and it's a goal!
So I go into the office, and I sec this man, and he says to me ...
6. I apoligize, I advise, I insist, I agree, I refuse, I hope, I suggest və s. ifadələri də adətən bu zamanda işlədilir.
I hope it doesn't rain tomorrow. I suggest we go out to eat. If they hear he has already come back from Sochi.
I apologize for the late departure of this light.

İndiki sadə zaman adətən aşağıdakı zaman formaları ilə uzlaşır	
1. Future simple.	You see him when he comes.
2. Imperative sentence	Don't go there if he doesn't come.
3. Future continuous	I'll be watching TV when he comes.
4. Present perfect	If you have done your lessons you can go home.
5. Future perfect	I`ll have done my homework when he comes home.
6. Present simple.	If you want you can go there.
7. Present continuous	I think they are waiting for me in the entrance hall.
8. Past simple.	Do you remember the family we met in Baki last year?

Nəticə
Fransız və İngilis dillərində indiki zaman formasının müqayisəli təhlili göstərdi ki, hər iki dildə bu zaman gündəlik danışıqda və yazıda geniş şəkildə istifadə olunur. Hərçənd ki, hər iki dil indiki zamanı ifadə etmək üçün oxşar funksiyalara malik olsa da, onların quruluşunda və istifadəsində mühüm fərqlər mövcuddur. Fransız dilində felin növü (I, II, III qrup), şəxsə uyğun sonluqlar və bəzən yazılış-tələffüz fərqləri mürəkkəbliyi artırır. [2, səh. 138] İngilis dilində isə əsas fel forması dəyişməz qalır və yalnız 3-cü şəxsin təkində -s yaxud -es şəkilçisi əlavə olunur ki, bu da daha sadə struktur yaradır. Buna baxmayaraq, hər iki dilin özünəməxsus qaydaları dil öyrənənlər üçün müxtəlif çətinliklər yarada bilər. Bu səbəbdən, müqayisəli təhlil bu zaman formasını daha yaxşı mənimsəməyə və hər iki dildə düzgün istifadə etməyə imkan yaradır [4, səh. 33].
Əsas fərqlərə aşağıdakılar daxildir:
1. Fransız dilində fellər şəxs və sayla tam uyğunlaşdırılır, ingilis dilində isə yalnız 3-cü şəxs təkində (-s/-es) şəkilçisi tələb olunur.
2. İngilis dilində köməkçi fellərin (do/does, am/is/are) istifadəsi daha sistemli qaydaya əsaslanır.

3. Fransız dili üçün kontekst daha vacibdir, ingilis dilində isə zaman formaları arasındakı fərqlər daha aydın şəkildə müəyyən edilmişdir.

Ədəbiyyat

1. Azərbaycan dilində qrammatika dərslikləri:
   - Məmmədov, A. (2020). "Müasir Azərbaycan dili". Bakı: Elm nəşriyyatı.
2. Fransız dili qrammatikası:
   - Grevisse, M. (2016). "Le Bon Usage". Paris: De Boeck.
3. İngilis dili qrammatikası:
   - Murphy, R. (2019). "English Grammar in Use". Cambridge University Press.
4. Müqayisəli dilçilik:
   - Swan, M. (2016). "Learner English: A Teacher's Guide to Interference". Cambridge University Press.

THE ROLE OF METEOROLOGY IN THE CONDUCT OF MILITARY OPERATIONS

HƏRBİ ƏMƏLİYYATLARIN KEÇİRİLMƏSİNDƏ METEOROLOGİYANIN ROLU

Vaqif Həsənov
Texniki elmlər doktoru, professor Heydər Əliyev adına Hərbi İnistiut

Oruc Hüseynov
Heydər Əliyev adına Hərbi İnistiut

Türkmən Süleymanov
Heydər Əliyev adına Hərbi İnistiut

Xülasə
Bu məqalədə qədim dövrlərdən müasir dövrədək hərbi əməliyyatların planlaşdırılması və keçirilməsi zamanı şəxsi heyyətin işində və texnikanın istifadəsində meteoroloji şəraitin roluna həsr olunub. Hərbi əməliyyatların planlaşdırılması və keçirilməsi zamanı atmosferdə baş verən prosesləri, dəqiq zamanla göstərən meteoroloji məlumatların analizi ilə tanış olmaq, şəxsi heyətin və texnikanın mürəkkəb hava şəraitinə görə təxirə salınması səbəblərini nəzərdən keçirilmişdir. Hava şəraitini əvvəlcədən müəyyən edərək hərbi taktikaların inkişafı və planlaşdırılması ilə yanaşı, inkişaf etmiş ölkələrdə havanın müharibələrdə bir silah olaraq da istifadə edilməsinə dair ciddi araşdırmalar aparılmaqdadır. Orduda istifadə olunan hərbi texnikaların, artileriya və aviasiya vasitələrinin, xüsusilə son zamanlar Pilotsuz Uçuş Aparatlarının (PUA) istehsalına və istifadəsinə yönəlmiş investisiyalar baxımından meteorologiya daima ön planda tutulmaqdadır. Hərbi taktikaların inkişafı və planlaş-dırılması üçün meteoroloji xidmətlərin hazırladığı hava proqnozlarının və çoxillik iqlim arayışlarının çox böyük əhəmiyyəti var.
Açar sözlər: atmosfer, meteoroloji şərait, hərbi əməiyyat, ərazi, uçuşların təhlükəsizliyi, top atışları.

Abstract.
The article is devoted to the role of meteorological conditions in the work of personnel and the use of equipment during the planning and conduct of military operations from ancient times to the present. The analysis of meteorological data, which shows the processes occurring in the atmosphere during the planning and conduct of military operations, and the reasons for the delay of personnel and equipment due to complex weather conditions were considered. Along with the development and planning of military tactics by determining weather conditions in advance, serious research is being conducted in developed countries on the use of air as a weapon in wars. Meteorology is always at the forefront in terms of investments aimed at the production and use of military equipment, artillery and aviation vehicles used in the army, especially recently Unmanned Aerial Vehicles (UAVs). Weather forecasts and multi-year climate references prepared by meteorological services are of great importance for the development and planning of military tactics.
Keywords: atmosphere, meteorological conditions, military operations, terrain, flight safety, artillery fire.

Аннотация
Статья посвящена роли метеорологических условий в работе личного состава и применении техники при планировании и ведении военных действий с древнейших времен до современности. Рассмотрен анализ метеорологических данных, которые достоверно показывают процессы, происходящие в атмосфере при планировании и ведении боевых действий, а также причины задержки личного состава и техники из-за сложных погодных условий. Помимо разработки и планирования военной тактики путем прогнозирования погодных условий, в развитых странах проводятся серьезные исследования по использованию погоды в качестве оружия в войнах.


Метеорология всегда находится в авангарде инвестиций в производство и использование военной техники, артиллерии и авиационной техники, применяемой в армии, особенно в последнее время беспилотных летательных аппаратов (БПЛА). Прогнозы погоды и многолетние климатические справки, подготовленные метеорологическими службами, имеют большое значение для разработки и планирования военной тактики.
Ключевые слова: атмосфера, метеорологические условия, боевые действия, местность, безопасность полетов, артиллерийский огонь.

Giriş

Müasir dövrdə kəşiyyat müşahidə sistemlərinin görüntü ala bilməsində, top atışlarında, aviasiya uçuşlarında, ordunun təçhizatında və bir çox sahədə hava şəraitinin ciddi təsiri vardır. Əslində hava şəraiti, heç bir zaman tərəfsiz deyildir, belə ki, istər müharibə zamanı, istərsə də sülh zamanı, həmişə qarşı tərəf və ya bizimlə bərabərdir: **"Əgər biz hava şəraitindən öz mənafeyimizə uyğun istifadə edərsək müttəfiqimiz, etməzsək düşmənimiz olar."** Hərbi əməliyyatların planlaşdırılması, keçirilməsi və aviasiya tariximiz boyunca hava şəraitinə diqqət etmədiyimiz zaman havanın düşmənimiz, diqqət etdiyimiz zaman isə müttəfiqimiz olduğunu dəfələrlə təcrübə etdik.
Dağlarda və ya soyuq hava şəraitində hərbi əməliyyatlar aparan komandir və əsgərlərin iki düşməni olur: ətraf mühit və onların qarşısında duran düşmən qüvvələri. Hərbi əməliyyatlar planlaşdırılarkən hər iki düşmən nəzərə alınmalıdır. Dağların yaratdığı bütün çətinliklərə, soyuq havalara baxmayaraq, həm keçmişdə, həm də bu gün dağlarda, soyuq şəraitlərdə genişmiqyaslı və uzunmüddətli əməliyyatları uğurla həyata keçirən ordular var.

Əsas hissə

Əvvəlcə meteorologiyanın nə olduğuna baxsaq, adını yunanca **"meteros**" atmosfer və səma cisimləri, **"logiya"** isə elm mənasını verir. Yəni **Yer atmosferinin xassələrini, quruluşunu və onda gedən fiziki prosesləri öyrənən elm** deməkdir. Keçmişdə yunanların buludları, küləyi və yağışı başa düşmək və birbirləriylə əlaqələrini aşkar etmək üçün müşahidə (bir səma hadisəsini çılpaq gözlə və ya cihaz köməyi ilə izləyərək görülən dəyərləri aşkar etmək) etməsiylə Meteorologiya elmi yaranmağa başladı.
Eramızdan əvvəl 500-cü ildə Çin döyüşçüsü Sun Tzu, "Savaş sənəti" kitabında **"Ərazini bil, düşmənini bil, havanı bil. Ancaq bundan sonra zəfərə çatarsan"** demişdir. İnkişaf edən texnologiya ilə irəliləyən hərbi meteorologiya, döyüşlərdə komandirlərə daha böyük üstünlüklər verməyə başlamışdır. Yenə də nə zaman və harada döyüşə giriləcəyinə və hərbi əməliyyatlara başlayacağına qərar verərkən düşmənin meteoroloji məlumatlarına da ehtiyac vardır. Bu səbəblə günümüzdə, Sun Tzu-nun da söylədiyi kimi, **Hava + Düşmən + Ərazi = Hərbi Kəşfiyyat (Weather + Enemy + Terrain (WET) = Intelligence)** şəkildə təsvir və təşkil edilməkdədir. [3].




Şəkil:1. Hərbi kəşfiyyat sisteminin təsfiri.

Son zamanlar inkişaf etmiş ölkələr hava proqnozlarında xarici asılılığı minimuma endirmək üçün meteorologiya sahəsinə yatırımlar qoyurlar. Silahlı Qüvvələrdə meteoroloji şəraitin səbəb olduğu itkiləri azalmaq üçün hərbi meteorologiya sahəsinə önəm verilir. Milli Hidrometeoroogiya xidmətinin məlumatına görə ölkə ərazisində dövləti investisiya layihələri çərçivəsində atmosferdə baş verən hidrometeoroloji proseslərin və onlarla əlaqədar olan güclü qasırğa, leysan, dolu, sel daşqınları və subasma kimi təhlükəli atmosfer hadisələrin real vaxt rejimində aşkarlanması məqsədilə 3 dəst Dopler meteorolji radar sistemləri alınaraq, Şamaxı, Göygöl və Quba rayonlarında quraşdırılmışdır. O cümlədən Heydər əliyev adına beynəlxalq hava limanında dopler radarlarından istifadə olunur. Qabaqcadan xəbərdarlıq sisteminin pilləsi olan radar müşahidələrinin ölkədə təşkili prioritet istiqamət kimi müəyyən edilmişdir. Aparılan ekspert qiymətləndirilməsi göstərir ki, ölkənin hidrometeoroloji təhlükəsizliyini təmin etmək məqsədi ilə bütün ölkə üzrə radarlar sisteminin genişləndirilməsi məqsədə uyğundur. İşğaldan azad olunmuş bölgələrdə bir çox avtomatik meteoroloji və hidroloji stansiyaların quraşdırılmış və yeni Dopler radar sistemlərinin quraşdırılması planlaşdırılır.

Müharibə zamanında meteoroloji məlumatlar gizlədilir. Bunun üçün, inkişaf etmiş ölkələr Dünya üzərindəki strateji nöqtələr və şəhərlərə aid meteoroloji məlumatları sülh zamanında analiz edirlər və mümkün müharibə vəziyyətində quru, hava və dəniz əməliyyatları üçün lazım olan iqlim məlumatlarını öncədən təyin edirlər. Beləcə, hərbi kəşfiyyatın önəmli bir qismi meteoroloji şərtlər əsasında yaranır. Məsələn, ABŞ Hava Qüvvələrinin "**Past Weather-Our Future"** şifrəsi ilə, Yaxın Şərqin bir çox ölkələrinin hərbi iqlim məlumatlarını müəyyən etmişdir. İraqa aid olan və bu şəkildə hazırlanmış iqlim məlumatları 1991-ci ildə keçirilən hərbi əməliyyatlar zamanı istifadə edilmişdir.

"Bütün sahələrdə proqnoz mövzusu önəmli bir amil, ayrı bir akademik tədqiqat mövzusudur. Hərbi cəhətdən istər əməliyyat, istər inzibati fəaliyyətlərin planlaşdırılmasında hava şəraitləri və ərazi son dərəcə önəmli mövzular arasında yer almaqdadır. Bu iki mövzu üzərində həm planlaşdırma, həm də icra mərhələlərində davamlı məlumat əldə etmənin çox böyük əhəmiyyəti var."[3, Hulusi Akar-2021].

Müasir hərb sahəsində həm quru, həm hava, həm də dəniz qüvvələrinin meteorologiya elminə daha çox ehtiyacları vardır. İlk olaraq **quruda hava şəratinin təsirinə** baxdığımızda, dumanlı və yağışlı havalarda heyətin görmə zəifliyi, yağışlı havalarda yaranan palçıq səbəbiylə təkərli və paletli nəqliyyat vasitələrinin hərəkət qabiliyyətində yavaşlama, palçığa ilişmək, qarlı havalarda hərəkət qabiliyyətində yavaşlama və qar yağıntısı sonrası əmələ gələn buzlaşmaya görə nəqliyyat qəzaları olur. O cümlədən dumanlı havalarda Elektro Optik – IR (İnfraqırmızı) kəşfiyyat sistemlərinin görünütü ala bilməməsi, güclü küləkli havalarda, əsasəndə 30 km və daha uzaq mənzilə edilən top atışlarında hədəfdən yayınmalar olur **(Şəkil 2.).**



Şəkil: 2. Yersəthinə hava şəraitinin təsiri



Şəkil: 3. Artileriya atışlarında atmosferə şar-zon buraxılması.

Xüsusilə, raket qoşunları və artilleriya üçün atmosfer parametrlərinin hündürlüyə görə paylanması barədə məlumatlar çox vacibdir. Raket qoşunları və artilleriyanın arsenalında müxtəlif döyüş tapşırıqlarını həyata keçirə bilən müxtəlif sinifə və tipə məxsus silah və sursatlar var. İstənilən səmərəliliyin əldə edilməsi üçün topçuların həm sursatlara, həm də əlavə avadanlıqlara ehtiyacı var. Bunlara kəşfiyyat vasitələrini, nəzarət sistemlərini və mobil meteroloji sistemləri aid etmək olar. Atəş rayonunda atmosferin vəziyyətinə dair dəqiq məlumatların toplanması, atəşin dəqiqliyini və effektivliyini əhəmiyyətli dərəcədə artırır.

Uçurulan meteoroloji şarın radio teodolitin müşahidəsi ilə atmosfer havasının temperaturunu, küləyin istiqamətini və sürətini, atmosfer təzyiqini, görünüş məsafəsini və atmosferin səth təbəqəsinin sabitliyini müəyyənləşdirə bilir. Zondlama üsulundan asılı olaraq, tədqiqat **100 m-dən 30-40 km-ə** qədər yüksəkliklərdə aparılır. Zondlama uzaqlığıilə əldə edilən küləyin istiqaməti məlumatını və radio siqnal vasitəsilə alınan təzyiq, temperatur və rütubət məlumatlarını istifadə edərək topçunun ehtiyac duyduğu, NATO standartlarına uyğun hərbi meteorologiya hesabatlarının hazırlanmasına imkan verir. Sistem həmçinin bu məlumatları üst komando ilə rəqəmsal mesaj vasitəsi ilə paylaşa bilir **(Şəkil 3.).**

Meteoroloji şəraitin hərbi aviasiyanın uçuşlarına təsiri.

Adətən quru əməliyyatlarına hava dəstəyi verəbilmək üçün, gələcək üç gün boyunca havanın açıq olacağı bir günə üstünlük verilir. Təyarə və helikopterlərin qalxış və eniş zamanı hava meydançalarındakı küləyin şiddəti və istiqaməti, uçuş zolağının görünüş məsafəsi, yağıntının növü, buludun aşağı sərhədinin hündürlüyü, turbulentlik, duman, topa-yağış buludu, eniş zolağında külək sürüşməsi (windshear) məlumatları əsas götürülür.

Meteoroloji məlumatlar **uçuşların planlaşdırılmasına və təhlükəsizliyinə** təsiri böyükdür. Belə ki, marşrutlarının planlaşdırılmasında, uçuş və eniş vaxtlarının müəyyən edilməsində və hava limanının şəraitinin qiymətləndirilməsində istifadə olunur. Bu yolla uçuşların təhlükəsizliyi və səmərəliliyi artırılır. Dumanlı, yağışlı və qarlı havalar xüsusilə helikopter pilotlarının görünüş məsafəsini əhəmiyyətli dərəcədə qısaldır. Helikopter qəzalarının böyük bir qismi də bu tərz hava şəraitlərində baş vermişdir. Pilotsuz təyyarələrdə isə görüntü almaqlarını təmin edən Elektro Optik Kameralar (FLIR) aydın görüntü almamaqdadır. Dronların əməliyyatlara davam edə bilmələri üçün dumanlı havalarda görüntü alına bilməsini təmin edən Sintetik Açıqlıqlı Radarlar (SAR) istifadə edilir. Bu səbəblərə görə həm uçuşdan öncə, həm uçuş zamanı, həm də uçuş sonunda Hava Qüvvələri daim meteoroloji məlumatlar almaq məcburiyyətindədir. Ölkəmizdə də bu mövzuda olan aviasiya bazalarında 24 saat daim xidmət göstərən meteorogiya xidmətlər mövcuddur **(Şəkil 4.).**

Hava şəraiti hərbi **əməliyyatların effekt-liyini** təs
edə bilər. Məsələn, məhdud görünüş, fırtına kir
hava hadisələri əməliyyatların dayandırılmasına v
ya dəyişdirilməsinə səbəb ola bilər. Meteorolo
məlumatlardan əməliyyatların effektivliyi
artırmaq və mümkün riskləri minimuma endirm
üçün istifadə olunur.

Müəyyən hava şəraiti **hərbi təyyarələrin və dig
sistemlərin** işinə təsir göstərir. Məsələn, duma
havada təsvir sistemlərinin istifadəsi və ya fırtı
şəraitində təyyarələrin manevr qabiliyyəti aza
bilər. Meteorologiya belə hallarda lazımi tədbirl
görməyə kömək edir.



Şəkil: 4. Meteoroloji şəraitin hərbi aviasiyanın uçuşlarına təsiri.

Hərbi strategiyaların müəyyən edilmə-sində meteoroloji məlumatlar da istifadə olunur. Məsələn, hava şəraiti nəzərə alınmaqla əməliyyatların planlaşdırılması və maddi-texniki dəstəyin təmin edilməsi kimi məsələlərlə bağlı qərarlar meteorologiyadan asılıdır.
Meteorologiya hərbi aviasiya əməliyyatlarının uğurlu aparılmasındakı rolu əvəzolunmazdır. Dəqiq və etibarlı meteoroloji məlumatlar hərbi aviasiyanın təhlükəsizliyini və effektivliyini artırır.
Hərbi dəniz qüvvələrində suda aparılan əməliyyatlara təsir göstərən okean şəraitini, temperatur və duzluluq dərəcəsini, küləyin sürətini, dalğanın hündürlüyünü, sahil xüsusiyyətlərini bilmək çox vacibdir. Okeanlarda və dənizlərdə keçiriləcək hərbi emeliyyatları və təlimləri dəstəkləmək, **hərbi okeanoqrafiya** sahəsinə tətbiq oluna biləcek plan ve siyasəti təyin etmək, okeanoqrafiya sahəsində tədqiqat və təkmilləşdirmə işinə yardım etmək, meteorologiya və coğrafiya sahəsində fəaliyyət göstərənləri də özündə birləşdirən milli qruplar və NATO arasında əlaqələndirici rol oynamaq Hərbi Okeanoqrafiya qrupunun fəaliyyətlərinə daxildir.



Hərbi Okeanorqrafyanın işi suc
aparılan əməliyyatların bir çc
aspektinə, xüsusilə də sualtı qayıqla
qarşı mübarizə, minalara qarşı mübariz
suda və quruda aparılan mübariz
əməliyyatlarına uyğun gəlir. E
məqsədlə aparılan işin məqsə
okeanoqrafiyanın imkanlarından suc
keçiriləcək hərbi əməliyyatlarc
maksimum dərəcədə səmərəli istifac
etmekdir.

Şəkil: 4. Meteoroloji şəraitin dəniz qüvvələrinin əməliyyatlarına təsiri.

Hərbi Okeanorqrafyanın işi suda aparılan əməliyyatların bir çox aspektinə, xüsusilə də sualtı qayıqlara qarşı mübarizə, minalara qarşı mübarizə, suda və quruda aparılan mübarizə əməliyyatlarına uyğun gəlir. Bu məqsədlə aparılan işin məqsədi okeanoqrafiyanın imkanlarından suda keçiriləcək hərbi əməliyyatlarda maksimum dərəcədə səmərəli istifade etmekdir.
Komandirlər əsasən döyüş planlarında hava məlumatlarını əsas götürmüş və uğur əldə etmişlər. Günümüzdə də hərbi əməliyyatlar meterologiya elminin məlumatlarından faydalanaraq planlaşdırıl-maqdadır. Meteoroloji məlumatlara əhəmiyyət verililən bir çox hərbi əməliyyatlar uğurlu olmuşdur. Məsələn, komandirlər dumanlı hava şəraitinin olacağını qabaqcadan bilməklə şəhər döyüşlərində, düşmən səngərlərində yaxud açıq sahələrdə düşmənlə döyüşdə, düşmən əsgərləri arasında çaşqınlıq olacağını qabaqcadan hesablamaqla düşmənə qəfil ağır zərbələr vura bilərlər. Küləyin istiqaməti və sürətini nəzərə almaqla zəhərli qazlarla düşmənə zərər vurmaq olar.
Hərbi uçuşlarda, texnoloji silah sistemlərində və hərbi əməliyyatlarda meteoroloji məlumatların istifadə edilməsi olduqca önəm ərz etməkdədir. Hərbi uçuş və əməliyyatlarda meteoroloji proqnozlara uyğun olaraq strategiyanın müəyyən edilməsi və qərarların alınması, sözügedən fəaliyyətin nəticəsinə birbaşa

təsir etməsi baxımından həyati önəmə sahibdir. Tarix boyunca meteoroloji məlumatların dəyərləndirilməməsinin nəticəsində məğlub olunmuş döyüşlər mövcuddur.

Tarixdə meteoroloji şəraitlərin müharibələrə təsiri:
Qədim dövrlərdən bəri müharibələrdə meteoroloji şərait önəmli rol oynamışdır. Bir çox ölkələrin təəssüf ki, meteorologiyadan faydalanmayıb acı təcrübələr yaşadığı hərbi əməliyyatları mövcuddur. Napalionun 1815-ci ildəki Waterloo məğlubiyyəti, İkinci Dünya Müharibəsi zamanı, 1941-1945 illərdə Alman-Rus müharibəsindəki Stalinqrad döyüşü, 1854-1856 illərdə Kırım Döyüşü, 1915-1916 illərdə davam edən Çanaqqala döyüşü, 1963-1973 Vetnam müharibəsi, 1914-cü ildə Rus-Türk müharibəsi zamanı Sarıqamış döyüşü və Azərbaycanla Ermənistan arasında olan birinci Qarabağ müharibəsi zamnı Kəlbəcər (Murovdağ) əməliyyatı və bunun kimi bir çox nümunə göstərmək olar.
Sarıqamış faciəsi də meteoroloji şəraitin Türk tarixinə qatdığı ən acı hadisələrdən biridir. Birinci Dünya Müharibəsində ruslara qarşı sərt qış şəraitində həyata keçirilən Sarıqamış Əməliyyatında (04.12.1914-15.01.1915) **-20^{0}C ilə -30^{0}C** temperaturlarda hazırlıqsız edilən əməliyyat nəticəsində Allahuəkbər dağlarında təxminnən 70 000 Türk əskəri soyuqdan donaraq şəhid olmuşdur. 1914-cü ildə meteorologiya xidmətinin bugünkü imkanları olsaydı Sarıqamış faciəsinin qarşısı alına bilərdi.
Kəlbəcər əməliyyatı (Murovdağ əməliyyatı) – 15 dekabr 1993-20 fevral 1994-cü il tarixində, Birinci Qarabağ müharibəsinin axırlarında, Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan Silahlı Qüvvələrinin hərbi birləşmələrinə qarşı Kəlbəcərin nəzarəti uğurunda başladılan hərbi hücüm əməliyyatı idi. **Plan olduqca təhlükəli idi. Səbəb sərt iqlim, qalın qar örtüyü, güclü külək və qar uçqunu təhlükəsi var idi. Bu səbəbdən bir çox komandirlər bu əməliyyatı dəstəkləmirdi.**



Şəkil:5. Soyuq, şaxtalı hava şəraitinin hərbi əməliyyatlara təsiri.

Müharibənin gedişatını dəyişən hava proqnozu:
Çox az bilinən bir həqiqətdir ki, bəlkə də indiyə qədər hazırlanan ən vacib hava proqnozlarından biri 1944-cu ilin iyununda müttəfiqlərin Fransanın Şimalına - Normandiyaya qoşun yeritməsi üçün hazırlanan əməliyyata verilən **hava proqnozudur**. **Dəqiq hazırlanan hava proqnozu müharibənin gedişatını dəyişdi (The Weather Forecast That Saved D-Day).** O dövrün şərtlərinə görə dəqiq hava

proqnozu hazırlamaq çox çətin idi. Meteoroloqlar peyklər, meteoroloji radarlar, şar-zondlar, hava proqnozu modelləri və rabitə kimi bugünkü sinoptiklərin istifadə etdikləri texnologiya və avadanlıqlar olmadan işləyirdilər. Bunun əvəzinə, onlar əsasən Britaniyada və Qərbi Avropada hərbi və mülki hava müşahidəçilərinin və dənizdəki bir neçə hərbi müşahidəçinin səthi müşahidələrinə etibar edirdilər. Ona görə də **iki və üç gündən çox hava proqnozu** vermək real deyildi.

Meteorolog kapitan Ceyms Stagg müttəfiq qoşunlarının komandanı **general Eisenhowerə** iyunun 5, 6 və 7-nə gözlənilən hava şəraitini məruzə etdikdən sonra, müttəfiqlərin Avropa işğalının tarixini 1944-cü il iyunun 5-dən 6-a dəyişdirməyə inandırdı. Müttəfiq qoşunlarının komandanı **general Eisenhower** meteoroloq kapitan Ceyms Staggın gözlənilən hava şəraiti haqqında məruzəsini dinlədik-dən sonra **"Taleyimiz meteoroloqların əlindədir"** demişdir.

İyunun 4-də gecə saatlarında kapitan Staqq yenidən Müttəfiq komandirləri ilə görüşdü. Çöldə ağaclar küləkdə yellənir, şiddətli yağış yağırdı. Stagg Eisenhowere havanın yaxşılaşacağını düşündüklərini söylədi. Bəzi yerlərdə 3 və ya 4 bal gücündə küləklər əsəcək, bəzi yerlərdə 5-ə çatacaq, lakin səma açıq olmalıdır. Müəyən miqdarda bulud ola bilər, lakin buludun aşağı sərhəddi dəniz topçularının atışlarını görmələri üçün kifayət qədər yüksəkdə gözlənilirdi. İdeal deyil, amma kifayət qədər yaxşıdır. Komandirlər 5 iyun saat 04^{30}-da yenidən meteorolog kapitan Stagg ilə görüşdülər və əməliyyatın başlanması qərarı alındı.

Proqnoz səhv olsaydı, minlərlə insanın həyatı və böyük miqdarda avadanlıq itəcəkdi. Lakin, digər tərəfdən, əgər iyunun 5-nə gözlənilməz hava proqnozu baş verməsəydi və hava yaxşı olsaydı, almanlar İngiltərənin cənubundakı sahillər boyunca kütləvi qüvvələrin yığılmasını müşahidə edə bilərdilər.

Qrup kapitanı meteoroloq Ceyms Stagg 3 iyunda İrlandiyanın qərbində aparılan hava müşahidələri, iyunun 4-də günortadan sonra, ilk fırtına yaxınlaşdıqca hava pisləşməyə başlayanda Staqqın komandası İrlandiyanın 600 mil qərbində yerləşən tək gəmidən barometrik təzyiqin yüksəldiyini bildirən müşahidədən xəbərdar oldu. Təzyiq artmağa davam edirdi. Stagg iyunun 6-da havada fasilə ola biləcəyi qənaətinə gəldi. Belə ki, müttəfiq komandanlığı Fransanın işğalını 5 iyun 1944-cü il tarixinə planlaşdırılmışdı.



Şəkil:6. 6 iyun 1944-cü il. Müttəfiqlərin Fransanın Şimalına - Normandiyaya qoşun çıxartması.

İyunun 5-də konvoylar on yeddi saatlıq keçidə başlamaq üçün 5 ballıq küləklə yola düşdülər. İyunun 6-da səhər tezdən paraşüt-desant qüvvələri üçün "Pathfinder" təyyarələri Fransa sahilləri üzərində gözlənilməz buludlara çırpıldı. Onları vizual və radar mayaklarını atdılar, lakin bir çoxları yanlış yerlərə düşdü. Bundan əlavə, vizual mayaklarını bulud örtdüyü üçün görünə bilmədi. Pilotlar toqquşmanın qarşısını almaq üçün konstruksiyanı qırmalı olublar. Bəziləri buludların üstünə çıxmağa çalışdı. Bəziləri aşağı düşməyə çalışdılar. Bəziləri zenit atəşi başlayan kimi qaçmağa başladı. Nəticədə, paraşütçülər nəzərdə tutulan hədəflərdən çox uzaqlara düşdü.
Mükəmməl olmasa da, iyunun 6-nın səhəri hava işğalın davam etməsi üçün kifayət qədər yaxşı idi, qalanları, necə deyərlər, tarixdir.
Əməliyyat üçün hazırlanan hava proqnozunun dəyəri və əhəmiyyəti sonralar çox araşdırıldı.

Meteoroloji məlumatlara sahib olmaq və ondan silah kimi istifadə etmək

Sülh dövründə olduğu kimi, müharibədə də hava şəraiti çox vacibdir. Buna görə, məsələn, ABŞ-da universitetlərin meteorologiya bölmələrindəki tələblərin əsas bir hissəsi hərbi tələbələrdir. Hava şəraitini əvvəlcədən müəyyən edərək hərbi taktikaların inkişafı və planlaşdırılması ilə yanaşı, inkişaf etmiş ölkələrdə havanın müharibələrdə bir silah olaraq da istifadə edilməsinə dair ciddi araşdırmalar aparılmaqdadır. Beləcə, hava şəraitini öncədən müəyyən edərək hərbi taktikanın inkişafı və planlaşdırılması həyata keçirilir. Bundan başqa hava müharibələrdə artıq bir silah kimi görülməyə başlanmışdır. Bu mövzuda ABŞ araşdırmalarını inanılmaz ölçüdə inkişaf etdirmişdir.
Hava şəraitinə əsasən qalib gəlmək üçün, silah operatorları və meteoroloqlar həm özlərinin, həm də düşmənin silah sistemlərinin hava şəraitindən asılı olaraq dəyişən performansını da proqnozlaşdırmalıdırlar. Silah və hava şəraitinin qarşılıqlı əlaqəsini başa düşmək, hərbiçilərə "döyüş üçün düzgün havanı seçmək" və "havaya sahib olmaq" üstünlüklərini gətirəcəkdir.[5].
Hətta sülh dövründə də donanmanın bütün naviqasiyası, rabitəsi, mülki və hərbi hava gəmilərinin bir hava limanından qalxıb digər hava limanına enişi, hərbi birliklərin hərəkəti və s. dəqiq hava proqnolzarı tələb edir. Müharibə anında ölkə daxilindəki bəzi nöqtələr üçün olduğu qədər, sərhədyanı hədəflər üçün də həyatı önəm daşıyan dəqiq meteoroloji məlumat və hava proqnozlarına ehtiyac olacaqdır. Belə olan halda hər bir ölkə öz müşahidələrinə, sülh dövründəki elmi araşdırmalarına və inkişaf etdirdiyi metodlara əsasən hava proqnozu tərtib etməli və hərbi əməliyyatlar barədə qərar vermək məcburiyyətindədir. Sülh dövründə hava proqnozları hazırlmaq üçün ölkə xaricindən çox asılı olan ölkələr hava şəraitini proqnozlaşdıra bilən infrastruktur və know-how–un (yeni texnologiya üsulu) inkişafında daha həssas olmalıdırlar.
Havaya sahib olub, onu daim müşahidə etməyin nəticəsində müharibəyə rəhbərlik edən komandirə hərbi meteoroloqlar tərəfindən daha dolğun və güvənli məlumat ötürülür. Çünki natamam və yanlış məlumat müharibənin gedişatına zərər verərəkən, dolğun meteoroloji məlumat isə önəmli bir güc və üstünlük təmin edir. Başqa cür desək, doğru və dolğun meteoroloji məlumat "havaya sahib" olmaq üçün vacibdir. Əgər meteoroloji məlumatların və proqnozların inkişafına önəm verilməzsə bütün hərbi qüvvələr, pis hava şəraiti ilə mübarizə etməyə və şərtlərdən yayınmağa davam edəcəklər. Belə desək, heç bir şey edilməzsə hava şərtləri, döyüşən tərəflərə və döyüş sahələrinə nəzarət etməyə davam edəcəkdir.
Keçmiş zamanlarda klassik silahlar, sadəcə hava şəraiti və iqlimin şəkilləndirdiyi fiziki mühitdən təsirlənirdi. İndi isə elektro-optik silahlar bütün mühit və atmosfer şəraitindən təsirlənir. Başqa sözlə "ağıllı silahlar" hava şəraitindən daha çox təsirlənməkdədir. Məsələn, lazer tipli bombalar da buludlu, yağışlı və dumanlı havalarda səmərəli şəkildə istifadə edilmir. Bu səbəblə Türkiyə müdafiə sənayesi lazer tipli bombalar yerinə istənilən hədəfi gecə və ya gündüz və hər tipli hava şəraitində vurabilmək üçün GPS (Global Positioning System) tipli bomba və raketlər hazırayır. Bununla bərabər, 1991-ci ilin Martında bir günəş fırtınasının (space weather) bir GPS peykini tamamilə, bir çoxunuda müvəqqəti olaraq sıradan çıxartdığı unudulmayıb. Artıq bütün silah sistemləri üçün, dizaynından başlayaraq, atmosfer mühiti də nəzərə alınır. Yerdən-günəşə qədər əhatələnən mühitdə müasir müharibə və hərbi meteorologiya ekspertləri, hərhansı bir ekoloji və iqlim amillərinin, silahların performansına və həmçinin müharibənin gedişatına təsirini gözardı etmir. Bu səbəblə, günümüzdə inkişaf etmiş ölkələrdə "Atmosfer

Tədqiqat Laboratoriyaları"nda yüzlərlə meteorologiya mühəndisi ilə birlikdə silahların atmosfer şəraitindən necə təsirlənəcəyinə dair sıx tədqiqatlar aparılır.
İnkişaf etmiş texnologiya ilə irəliləyən hərbi meteorologiya, müharibələrdə komandirlərə daha böyük üstünlüklər əldə etməyə şərait yaratmışdır. Nə zaman və harada döyüşə giriləcəyinə və hərbi əməliyyatlara çıxılacağına qərar verərəkən meteoroloji məlumatlar əsas rol oynayır. Belə ki, bəzi müasir hərbi əməliyyatlar yaxşı havalarda edilir. Yeni texnologiya ilə silah sistemləri istehsal edildikcə, qabaqcıl texnologiyaya sahib olan ölkələr, pis hava şərtlərində də döyüşməyi istəyəcəkdir. Çünki bu ölkələr üçün silahlarının qabaqcıl inkişafı ilə düşmən silahlarının performansı arasındakı fərq çox olduğu zamanlarda döyüşmək üçün üstünlüklər qazandırır. avantajlıdır.

"Havaya sahib olmaq" üçün aşağıdakı 3 sahədə təkmilləşdirmə aparılmalıdır.

- Yer səthinə yaxın atmosferdə çalışmaq əvəzinə, yerdəki torpağdan günəşə qədər maraq sahəsinin genişləndirilməsidir. Müasir müharibə və hərbi meteorologiya ekspertləri torpaqdan günəşə qədər uzanan mühitdə hər hansı ekoloji və iqlim amilinin müharibəyə göstərə biləcəyi ehtimalını nəzərdən qaçırmamalıdırlar. Bu cür təsirlər günəş ləkələri sayının artmağa başladığı bu zamanda daha da əhəmiyyət kəsb edir. Müasir texnologiya məhsulu silah sistemləri yaxın atmosferə və kosmos atmosferinə təsir edəcək.
- **"Havanı qazanmaq və öz sıralarına qatmaq"** üçün əvvəlcə havanı öyrənmək lazımdır. Müşahidə edilən və proqnozlaşdırılan hava şəraitni daha yaxşı və ətraflı başa düşmədikcə hərbi meteoroloqlar döyüşçülərə kömək edə bilməz. Mülki məqsədlər üçün hazırlanmış hava analizi və üsulları ilə yanaşı, hərbi əməliyyatlar üçün ehtiyac duyulan meteoroloji parametrlər üçün yeni üsul və vasitələr hazırlanmalıdır.
- Müharibədə fərq yaratmaq üçün meteoroloji məlumatların qərar qəbul edənlərə vaxtında çatdırılması və qərar mexanizmində iştirakıdır. Bu mərhələdə atmosfer tədqiqat laboratoriyalarında silahların hava şəraitindən necə təsirləndiyinə dair araşdırmaların aparılması vacibdir.

Xülasə, hava şəraiti hərbi əməliyyatlarda mühüm amillərdən biridir. Bu amil müharibə və sülh dövründə bizə qarşı və ya bizimlədir. Hava heç vaxt neytral olmur. Bir ölkə hava şəraitindən öz xeyrinə istifadə edirsə, hava ona müttəfiq, etmirsə hava ona düşmən olur. Ona görə də havadan öz xeyrinə isitifadə etmək, əlbəttə ki, daha yaxşı olardı. Hava şəraiti nə qədər pis olarsa, ondan bir o qədər səmərəli istifadə edilə bilər.
Hərbi əməliyyatlar və müharibələr meteoroloji şəraitə son dərəcə həssas bir sektordur. Günümüzdə müharibələrin daha təhlükəsiz və uğurlu olması üçün döyüş planlamaları, meteoroloji şəraitlər göz önünə alınaraq hazırlanmaqdadır. Hərbi meteorologiya iqtisadi və planlaşdırma xidmətlərinin önəmli bir parçası halına gəlmişdir. Bu işlərdə hərbi əməliyyatların planlaması həyata keçirilərkən şəxsi heyyətin və hərbi texnikanın təhlükəsizliyini təmin etmək məqsədi ilə meteoroloji məlumat və dəyərləndirmələrin çox böyük önəmə sahib olduğu açıqca görülmüşdür.
Hərbi texnikaların və hava nəqliyyatının mürəkkəb hava şəraiti səbəbilə təxirə salınmaması üçün planlaşdırma və iqtisadi strategiyaların, pilotlar və digər heyətlər üçün, meteoroloji məlumatlar olduqca önəmlidir. Hərbi sektorda gəlinən son nəticə onu göstərir ki, hərbi texnologiyalardakı inkişaflar hərbi fəaliyyətlər üçün lazımlı meteoroloji məlumatların gedərək daha da önəmli hala gələcəyini bizə ifadə etməkdədir.

Nəticə və təkliflər.

Yuxarıda deyilənləri yekunlaşdırıb belə nəticəyə gəlmək olar ki, hərbi əməliyyatlar və meteorologiya arasında çox sıx əlaqələr mövcuddur. Müasir dünyada müharibələrin daha təhlükəsiz və uğurlu olması üçün döyüş planlamaları, meteoroloji şəraitlər göz önünə alınaraq hazırlanmaqdadır.
Hərbi texnikaların və hava nəqliyyatının mürəkkəb hava şəraiti səbəbilə təxirə salınmaması üçün planlaşdırma və iqtisadi strategiyaların, pilotlar və digər heyətlər üçün, meteoroloji məlumatlar olduqca önəmlidir. Dünyada hərbi sahənin inkişafı onu göstərir ki, hərbi texnologiyalardakı inkişaflar hərbi fəaliyyətlər üçün lazımlı meteoroloji məlumatların əhəmiyyəti dahada artacaqdır.

Soyuq qış fəsillərində mürəkkəb meteoroloji şəraitə görə yolların (qar, çovğun və.s.) bağlı olması yüksək dağlıq ərazilərdə yerləşən hərbi postlarda olan şəxsi heyyətin təchizatında çətinliklər yaradır. Belə ki, xeyli vəsaiti xərcləməklə texnika və şəxsi heyyət cəlb edilərək yolların təmizlənməsinə çalışılsada, havanın pisləşməsi nəticəsində qısa müddət sonra yenidən yollar və mövqelər qarla örtülür. Buna görə inkişaf etmiş bir çox ölkələr gələcəkdə bu kimi, çətinlikləri aradan qaldırmağın ən rahat yolunun **iqtisadi və təhlükəsizlik cəhətdən daha səmərəli olan 100-200 kg yük daşıya bilən "Garqo PUA"**-lardan istifadə etməkdə görür.

Gələcəkdə hərbi aerdromlarda hazırlanan müntəzəm faktiki hava məlumatları (METAR), hava proqnozları (TAF) və digər məlumatların İCAO tövsiyələrinə uyğun olaraq 4 hərfli aerodrom indeksi üzərindən internet vasitəsilə yayılması, Milli Hidrometeorlogiya xidmətinin meteoroloji radar, aerozond və avtomatik meteoroloji stansiya məlumatlarının digər qrumlarla qarşılıqlı olaraq ötürülməsi, hərbi və mülkü aviasiya uçuşlarının meteoroloji təhlükəsizliyini daha səmərəli edə bilər.

Ordunun, indiki və gələcəkdəki ehtiyaclarını təhlükəsiz bir şəkildə qarşılaya bilməsi üçün meteorologiya sahəsinin elmi və texnoloji inkişafları nəzərə alınmalı, sülh dövründə mövsümlər və aylar üzrə qonşu ölkələrin meteoroloji vəziyyəti analiz edilməli və iqlim arayışları hazırlanmalıdır.

Ədəbiyyat:

1. ASKERİ METEOROLOJİ: Meteorolojinin Askeri Alanda Kullanımı. Doç. Dr. Mikdat KADIOĞLU. 2020 İstanbul.

2.Askeri Meteoroloji'nin Operasyonlardaki Yeri ve Önemi. https://m5dergi.com/savunma-haberleri/askeri-meteorolojinin-operasyonlardaki-yeri-ve-onemi/.

3. Havacılık meteorolojisine giriş. Doç. Dr. Mikdat KADIOĞLU. İstanbul Teknik Üniversitesi Meteoroloji Müh. Bölümü. 2021. İstanbul.

4. Milli Savunma Bakanı Hulusi Akar. "Askeri faaliyetlerin planlama ve icra aşamalarında da hava durumu önem taşıyor" dedi.

https://www.trthaber.com/haber/gundem/bakan-akar-askeri-faaliyetlerin-planlamasinda-hava-tahminleri-cok-onemli-666237.html.

5. Körfezde Savaş Havası ve Modern Askeri Meteoroloji Prof. Dr. Mikdat Kadıoğlu İTÜ. Meteoroloji Mühendisliği Bölümü kadioglu@itu.edu.tr 15.2.2003.

6. NATO məlumat kitabı.

THE IMPACT OF VIOLENCE ON CHILDREN'S BRAIN STRUCTURES AND COGNITIVE PROCESSES

ZORAKILIĞIN UŞAQLARIN BEYİN STRUKTURLARI VƏ İDRAK PROSESLƏRİNƏ TƏSİRİ

Heydərova Nərgiz Ələskər qızı
ADPU-nun Şəki filialı, Şəki şəhəri, Azərbaycan

Xülasə
Son vaxtlarda həm fərdi səviyyədə, həm də cəmiyyət baxımından zorakılıq hallarında artımın şahidi oluruq. Cəmiyyətdəki qütbləşmələr və etnosentrik yanaşmalarla bərabər, insanlararası aqressivlik və zorakılıq halları da (xüsusilə qadınlara və uşaqlara qarşı olmaqla) hər keçən gün artır. Halbuki, zorakılıq, insanlar arasında problem həllində "vasitə kimi istifadəsi"nin modernləşmə ilə ziddiyyət təşkil etir, lakin qarşımıza tam əksini göstərən statistika çıxır. Aqressivlik, zorakılığa meyillilik gündən-günə artır. Zorakılığın bu mənada yayılmasını dəyərləndirərkən və üzərində düşünərkən, qəfil şəkildə örtülü formada idealizə edilən bir zorakılıq anlayışı ilə qarşılaşırıq: dünya miqyasında militarist və cəmiyyətin narsistləşməsinə gətirib çıxaran siyasətlər, media və digər vizual ünsiyyət vasitələrində idealizə edilən zorakılıq obrazları, məktəblərdə qruplaşmaların artması, ailədaxili zorakılıq və daha bir çox ictimai sahədə istifadə edilən zorakılıq dili kimi nümunələr mövcuddur.
Bu məqalədə zorakılığın tərifi veriləcək və uşaqların zorakılıq və zorakılıq məzmunlu stimullara məruz qalmasının onların beyin inkişafına təsir edən mənfi nəticələri üzərində dayanılacaq.
Bu sahədə aparılmış tədqiqatlar və dəyərləndirmələr araşdırmanın əsas istiqamətini təşkil edəcək, eyni zamanda, bir zamanlar zorakılığın qurbanı olmuş fərdlərin zorakılıq tətbiq etməyə olan meylləri neyroloji baxımdan qiymətləndirilərək zorakılığın cəmiyyət daxilində dövri xarakter daşıdığı vurğulanacaq. Bu nöqtədə xüsusilə zorakılığın sistematik və davamlı tətbiqinin beynin inkişaf mərhələsinə vura biləcəyi potensial zərərləri bununla bağlı aparılan tədqiqat nəticələrinə əsaslanaraq göstərmək bu araşdırmanın əsas məqsədlərindən biridir.
Açar sözlər: Zorakılıq, uşaq, inkişaf, idrak prosesləri.

Abstract
In recent years, we have witnessed an increasing number of cases of violence, both individually and in society. In addition to social polarization and ethnocentric attitudes, cases of interpersonal aggression and violence (especially against women and children) are increasing day by day. While we think that the "instrumental use" of
violence in solving problems between people should be in contrast with modernization, we encounter the exact opposite statistics. Aggression, tendency to violence and impulsivity are increasing day by day. While evaluating and reflecting on the prevalence of violence in this sense, we suddenly come face to face with an implicitly idealized concept of violence: policies bordering on militaristic and social narcissism around the world, idealized figures of violence in the media and similar visual communication tools, gangs in schools, domestic violence and more. Like the language of violence used in many social areas. Within the scope of the study, the definition of violence will be made and the negative effects on children's brain development due to violence and violent stimuli will be emphasized. While the research and evaluations made in this field constitute the main axis of the study, the social cycle of violence will be underlined by neurologically evaluating the tendency of individuals who were once victims of violence to commit violence. At this point, one of the main purposes of this study is to reveal the potential harms that systematic and chronic application of

violence may cause to the developmental stage of the brain, by referring to the results of studies conducted in the field.
Key Words: Violence, child, development, cognitive process.

Giriş

Kainata milyardlarla canlı növünün yaşadığı və paylaşdığı ortaq ev kimi nəzər salsaq, burada növlərarası münaqişələr və həyatda qalmaq uğrunda mübarizələrin şahidi oluruq. Spinozanın "Etika" adlı əsərində "conatus" anlayışı xüsusilə diqqət çəkir.Müəllifin fikrincə, mövcud olan hər şey öz varlığını öz-özünə davam etdirməyə çalışır. Başqa sözlə, hər şey varlığını qoruyub saxlamağa meyllidir. Məhz bu meyl (conatus) varlığın əsl mahiyyətidir" (Spinoza, 2014, s. 211). Spinozanın bu dəyərləndirməsi təkhüceyrəlilər, viruslar, bitkilər tərəfindən də təsdiqini tapır. Var olmaq uğrunda mübarizədə canlılar təbiətə qarşı birgə yaşamaq meyli göstərməli olmuşdur.Təbiət şərtləri və növlərarası münaqişələrin həyatı zaman-zaman çətinləşdirməsi canlılarda birlikdə yaşamaq və növün davamlılığını təmin etmə meylini artırmışdır. İnsan da bir canlı növü olaraq bu meyli digər canlılarla paylaşmalı olmuşdur. Ancaq birgə yaşamaq hər zaman müsbət nəticələr vermir, zaman-zaman qrup daxilində maraqların toqquşması halları kimi mənfi təcrübələr ilə də nəticələnir. Bəs insan cəmiyyət içində yaşayarkən bu adi münaqişələrdən özünü necə qoruya və sağ qala biləcək? İnsanlar qorunmaq üçün hansı mexanizmlərdən istifadə etməlidirlər? Məsələyə bu baxış bucağından baxdıqda insanı digər canlılardan fərqləndirən əsas və mühüm bir fərq ortaya çıxır: o da insanın impulsiv davranışlarını cilovlaya bilməsi və ya bu cür təchizata malik olmasıdır. İnsanlar sahib olduqları mexanizmlərlə etdikləri əməllərin nəticələrini hesab edə, bu davranışlardan özlərini çəkindirə, sağ qalmaq üçün plan qura və yeni qərarlarla doğru çıxış yolları tapa bilərlər. Bu baxımdan kainatın idarəedici növü insan kimi görünür. İnsan sahib olduğu mexanizmlərlə kainata böyük ölçüdə hakim olmuş, təbiət şərtləri və digər növlərlə mübarizə mexanizmlərini kəşf etmişdir.

Mövzunun Aktuallığı

Cəmiyyətdə insanların qarşılıqlı münasibətlər zəminində rastlaşdığı ən böyük problemlərdən biri də zorakılıq hallarıdır. Zorakılıq- fərdin özü-özünə, digər şəxslərə,insan qruplarına və ya icmalara qarşı fiziki gücün və ya hakimiyyətin qəsdən tətbiq olunmasıdır ki, bu da nəticədə fiziki, psixoloji zərər, inkişaf geriliyi, funksional pozğunluq və ya ölümə səbəb ola və ya səbəb olmaq ehtimalı daşıya bilər(World Health Orqanization,2002).

Uşaqlara qarşı zorakılıq dünya miqyasında ciddi sosial və psixoloji problem kimi qəbul olunur. Birləşmiş Millətlər Təşkilatının (BMT) və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesabatlarına əsasən, hər il milyonlarla uşaq fiziki, emosional, psixoloji və ya cinsi zorakılığa məruz qalır. Uşaqlıq dövründə yaşanan bu travmatik hadisələr təkcə sosial və davranış problemlərinə deyil, həm də beyin strukturlarında və idrak proseslərində ciddi dəyişikliklərə səbəb ola bilər. Son illərdə neyroelmi və psixologiya sahəsində aparılan tədqiqatlar göstərir ki, erkən yaşda zorakılığa məruz qalan uşaqlarda hipokampus, prefrontal korteks və amigdala kimi beyin bölgələrində funksional və struktur dəyişikliklər müşahidə olunur. Bu dəyişikliklər onların yaddaş, diqqət, emosional tənzimləmə və qərarvermə bacarıqlarına mənfi təsir göstərir. Mövzunun aktuallığı həm də ondan irəli gəlir ki, uşaqlara qarşı zorakılığın təsirləri təkcə fərdi səviyyədə qalmır, eyni zamanda cəmiyyətin gələcək sosial və psixoloji rifahını təhlükə altına alır. Uşaqlıqda zorakılığa məruz qalmış şəxslərin daha sonra özləri də zorakı davranışlar sərgiləməsi, psixiatrik pozuntularla üzləşməsi və sosial inteqrasiya problemləri yaşaması bu sahədə erkən müdaxilənin və profilaktik tədbirlərin vacibliyini bir daha vurğulayır. Bu səbəbdən, uşaqlara qarşı zorakılığın onların beyin inkişafına və idrak funksiyalarına

təsirini araşdırmaq yalnız elmi cəhətdən deyil, həm də sosial siyasətin formalaşması baxımından mühüm əhəmiyyət daşıyır.

Məqalənin Məqsədi Və Əsas Tədqiqat Sualları

Bu elmi məqalənin əsas məqsədi, uşaqlara qarşı zorakılığın onların beyin strukturları və idrak proseslərinə necə təsir etdiyini elmi araşdırmalara əsaslanaraq təhlil etməkdir. Məqalə həmçinin fərdi və cəmiyyət səviyyəsində bu təsirlərin uzunmüddətli nəticələrini işıqlandırmaqla yanaşı, qarşısının alınması yollarını da nəzərdən keçirmək niyyətindədir. Bu məqsədlə aşağıdakı əsas tədqiqat sualları müəyyən edilmişdir:

1. Uşaqlara qarşı zorakılıq beynin hansı spesifik struktur dəyişikliklərinə səbəb olur?
2. Zorakılığa məruz qalmış uşaqlarda hansı idrak pozuntuları və psixoloji əlamətlər müşahidə edilir?
3. Zorakılığın növü (fiziki, emosional, cinsi və ya laqeyd yanaşma) ilə beyin strukturları arasında əlaqə necə formalaşır?
4. Zorakılığın təsirləri qısamüddətli və uzunmüddətli dövrlərdə necə dəyişir?
5. Cəmiyyətin və dövlətin müdaxilə mexanizmləri bu təsirləri azaltmaq üçün nə dərəcədə effektivdir?

Məqalə bu suallara cavab tapmaqla elmi ictimaiyyət üçün yeni biliklər təqdim etməyi,
praktik sahədə isə erkən müdaxilə və müdafiə mexanizmlərinin inkişafına töhfə verməyi qarşısına məqsəd qoyur.

Uşaqlara Qarşı Zorakılığın Cəmiyyət Və Fərd Üçün Nəticələri

Uşaqlara qarşı zorakılıq yalnız fərdi həyat hekayələri ilə məhdudlaşmır; bu, bütövlükdə cəmiyyətin sosial sağlamlığına, sabitliyinə və inkişaf potensialına ciddi təsir göstərən bir problemdir. Erkən yaşlarda zorakılığa məruz qalan uşaqlarda emosional, davranış və idrak pozuntuları formalaşır ki, bu da onların təhsil uğurlarına, sosial münasibətlərinə və gələcək əmək bazarındakı iştirakına mənfi təsir edir (Anda, 2006). Zorakılığa məruz qalan fərdlər daha çox depressiya, anksiyete, posttravmatik stress və s. kimi problemlərlə qarşılaşırlar. Cəmiyyət səviyyəsində isə uşaqlara qarşı zorakılıq sosial sərmayənin tükənməsi, nəsillərarası travmanın yayılması və zorakılıq mədəniyyətinin davam etməsi ilə nəticələnir. Araşdırmalar göstərir ki, zorakılığa məruz qalmış uşaqların bir qismi gələcəkdə ya zorakı davranışlar sərgiləyən, ya da bu cür münasibətləri normal hesab edən yetkinlərə çevrilir (Widom, 1989).

Bu isə ailədaxili zorakılığın nəsillərarası dövrünü formalaşdıraraq, sosial institutlara, xüsusilə də təhsil və ədliyyə sistemlərinə uzunmüddətli mənfi təsir göstərir, sosial bərabərsizliyi dərinləşdirir və uşaqların gələcəkdə zorakı davranışları təkrarlamaq ehtimalını artırır. Eyni zamanda, zorakılıqla üzləşmiş fərdlər cəmiyyətin iqtisadi rifahına da təsir edir. Onlar daha çox səhiyyə, hüquq-mühafizə və sosial xidmətlərə ehtiyac duyurlar, bu isə dövlət xərclərinin artmasına səbəb olur (Fang , 2012).

Bundan başqa, uşaq yaşda zorakılığa məruz qalmış fərdlər arasında işsizlik, sosial izolyasiya və cinayət törətmə ehtimalı da daha yüksəkdir (Currie & Widom, 2010). Bütün bu amillər göstərir ki, uşaqlara qarşı zorakılığın qarşısının alınması təkcə fərdin deyil, bütövlükdə cəmiyyətin inkişafı və rifahı üçün strateji əhəmiyyət daşıyır. Profilaktik tədbirlərin gücləndirilməsi, təhsil və sosial dəstək mexanizmlərinin tətbiqi, cəmiyyətin maarifləndirilməsi və qanunvericilik səviyyəsində ciddi tədbirlərin görülməsi bu problemin miqyasını azaltmaq üçün vacibdir.

Uşaqlara Qarşı Zorakılığın Növləri Və Beyin İnkişafına Təsiri

Uşaqlara qarşı zorakılıq çoxşaxəli və kompleks bir problemdir və fərqli formalarda özünü göstərə bilər. Hər bir zorakılıq növü uşağın inkişaf edən beyninə fərqli şəkildə təsir göstərir. Bu zorakılıq formaları uşağın fiziki, psixoloji və sosial inkişafına ciddi zərər vurur. Əsas zorakılıq növləri aşağıdakılardır

Fiziki zorakılıq:
Bu, uşağın bədəninə bilavasitə xəsarət yetirilməsi ilə xarakterizə olunur. Döymək,itələmək, yandırmaq, bədənə zərbə endirmək kimi hərəkətlər fiziki zorakılığa daxildir. Fiziki zorakılıq uşağın beyin inkişafına və sinir sisteminə birbaşa təsir göstərə bilər.Fiziki zorakılığa məruz qalan uşaqlarda hipokampus, amigdala və prefrontal korteks kimi beyin strukturlarında dəyişiklik müşahidə olunur. Hipokampus yaddaşın formalaşmasında mühüm rol oynayır, amigdala isə emosional cavabların tənzimlənməsində iştirak edir. Fiziki zorakılıq bu strukturların fəaliyyətini pozaraq yaddaş problemləri, qorxu və təşviş halları ilə nəticələnə bilər.(McCrory, 2011, s.1259)

Emosional (psixoloji) zorakılıq:
Emosional zorakılıq uşağın özünəinamını və emosional sabitliyini sarsıdır. Alçaltma, təhqir etmə, qorxutma, laqeyd yanaşma və sevgi göstərməmək kimi davranışlar bu qrupa daxildir. Bu cür zorakılıq uşağın stress səviyyəsini artırır, depressiya və anksiyete kimi psixi pozuntulara səbəb ola bilər. Stress hipotalamo-hipofiz-adrenal(HHA) oxunun həddindən artıq aktivləşməsinə səbəb olur. Bu isə kortizol hormonunun səviyyəsini yüksəldərək beynin struktur və funksiyasına mənfi təsir göstərir.
Cinsi zorakılıq:
Uşaqlara qarşı cinsi xarakterli davranışlar – istismar, təhrik, cinsi təmas və ya bu tip davranışlara məcbur etmə – cinsi zorakılıq sayılır. Bu zorakılıq növü uşağın psixoloji inkişafına dərin və qalıcı zərər yetirə bilər. Seksual zorakılıq uşağın beynində xüsusilə limbik sistemin funksiyalarına zərər yetirə bilər. Bu zədələnmə emosional tənzimlənmə və sosial münasibətlərin qurulması sahəsində problemlərə səbəb olur. Zorakılığın bu növü uşaqlarda tez-tez dissosiasiya, özünüqavrayışda pozğunluq və güclü psixoloji travma ilə müşahidə olunur. Tədqiqatlar göstərir ki, bu tip zorakılığa məruz qalan şəxslərdə beyin həcminin azalması baş verir.(Andersen, 2008, s.238)
Laqeydlik :
Bu, uşağın əsas ehtiyaclarının – qida, təmizlik, tibbi yardım və emosional dəstək qarşılanmaması halıdır. Laqeydlik uzunmüddətli inkişaf problemlərinə, aşağı təhsil nailiyyətlərinə və sosial münasibətlərdə çətinliklərə səbəb ola bilər. Laqeydlik erkən dövrdə beyin plastikasının zəifləməsinə səbəb olur. Belə uşaqlarda dil bacarıqları, icraedici funksiyalar (diqqət,planlaşdırma, qərarvermə) və sosial qarşılıqlı münasibətlər zəifləyir. Beyindəki sinaptik əlaqələrin formalaşmasında gerilik müşahidə olunur ki, bu da ümumi idrak inkişafını ləngidir.(De Bellis, 2002, s.1281)
Rəqəmsal zorakılıq:
Müasir texnologiyaların inkişafı ilə yeni bir zorakılıq növü ortaya çıxmışdır – rəqəmsal zorakılıq. Sosial media vasitəsilə uşaqları təhqir etmək, təhdid etmək, onlara yalan informasiya yaymaq və ya şəxsi məlumatlarını ifşa etmək kimi hallar bu qrupa aiddir.
Bu zorakılıq növlərinin hər biri uşaqların psixososial inkişafında dərin izlər buraxa bilər. Onların vaxtında aşkar olunması və qarşısının alınması üçün cəmiyyətin bütün təbəqələrinin səfərbər olması vacibdir.

Əvvəlki Tədqiqatlar
Uşaqlara qarşı zorakılıq (fiziki, emosional, cinsi və laqeyd yanaşma daxil olmaqla) onların beyin strukturlarında və idrak fəaliyyətində uzunmüddətli dəyişikliklərə səbəb ola bilər. Bu sahədə aparılmış elmi tədqiqatlar göstərir ki, erkən yaşda travmatik təcrübələrə məruz qalmış uşaqlarda əsasən amigdala, hipokampus, prefrontal korteks və anterior singulat korteks kimi bölgələrdə funksional və struktur dəyişikliklər baş verir.
Teicher və Samson (2016) zorakılığa məruz qalan uşaqlarda amigdalanın həddindən artıq aktiv olduğunu aşkar etmişdir. Bu dəyişiklik uşağın qorxuya və təhlükəyə qarşı reaksiya həssaslığını artırır,

eyni zamanda travma sonrası stress pozuntusu (TSSP) və anksiyete riskini yüksəldir. (Teicher, M. H., & Samson, J. A. 2016,s. 381-384)

Bremner və həmkarlarının apardığı funksional MRT tədqiqatları göstərmişdir ki, uşaq ikən zorakılığa məruz qalmış fərdlərdə hipokampusun həcmi azalmış olur və bu da onların yaddaş qabiliyyətinə mənfi təsir göstərir. (Bremner, J. D., et al. 1997,s.195-198)

Zorakılığın Yetkinlik Dövründə Psixi Və Fiziki Sağlamlığa Təsiri

Uşaq yaşlarında zorakılığa məruz qalan şəxslərdə bu travmatik təcrübələrin fəsadları yalnız həmin dövr ilə məhdudlaşmır, əksinə, bu təsirlər yetkinlik dövründə də davam edir və həm psixi, həm də fiziki sağlamlıq üzərində dərin izlər buraxır.

Psixi Sağlamlıq Pozuntuları

Araşdırmalar göstərir ki, erkən yaşda zorakılıq yaşamış şəxslər yetkinlik dövründə depressiya, anksiyete, travma sonrası stress pozuntusu (TSSP), şəxsiyyət pozuntuları və intihar meyilləri baxımından yüksək risk qrupuna daxildirlər. Felitti və həmkarlarının tədqiqatında göstərilir ki, erkən travmatik təcrübələrin sayı artdıqca depressiya və intihar cəhdi riski əhəmiyyətli dərəcədə yüksəlir. (Felitti, V. J., et al. 1998, s. 251–252)

Psixososial Funksiya və Münasibətlər

Zorakılığa məruz qalmış böyüklər arasında aşağı özünəinam, emosional yaxınlıq qurmaqda çətinlik, və aqressiv davranışlar daha çox müşahidə olunur. Bu şəxslərdə travma nəticəsində yaranan bağlanma problemləri onların ailə və sosial münasibətlərinə mənfi təsir göstərir. (Colman, R. A., & Widom, C. S. 2004, s. 1477–1480)

Fiziki Sağlamlıq Problemləri

Zorakılıq yalnız psixi sağlamlığa deyil, həm də fiziki sağlamlıq göstəricilərinə mənfi təsir göstərir. Tədqiqatlara görə, erkən travmaya məruz qalan şəxslərdə yüksək qan təzyiqi, ürək-damar xəstəlikləri, piylənmə, şəkərli diabet və xroniki ağrılar daha çox rast gəlinir.(Danese, A., & McEwen, B. S. 2012, s. 23–25)

Bioloji Mexanizmlər və Hormon Sistemi

Zorakılığın fiziki sağlamlığa təsiri təkcə davranışlar vasitəsilə deyil, həm də bioloji sistemlərin, xüsusilə hipotalamus-hipofiz-adrenal (HPA) oxunun disfunksiyası vasitəsilə baş verir. Bu sistemin uzunmüddətli aktivləşməsi kortizol səviyyəsinin dəyişməsinə səbəb olur ki, bu da həm immun, həm də endokrin sistemlərə mənfi təsir göstərir. (Heim, C., et al. 2000, s. 292–294)

Zorakılığın Təhsil Və Sosial İnteqrasiya Problemlərinə Təsiri

Uşaq yaşlarında zorakılığa məruz qalmaq yalnız psixi və fiziki sağlamlığa deyil, həm də təhsil və sosial həyat sahələrində ciddi problemlərə səbəb olur. Bu travmaların yaratdığı nevroloji və emosional pozuntular uşağın məktəbdəki uğuruna, sosial bacarıqlarına və cəmiyyətə uyğunlaşma qabiliyyətinə mənfi təsir göstərir.

Akademik Uğursuzluq

Zorakılığa məruz qalan uşaqlarda diqqət pozuntuları, motivasiya çatışmazlığı və məktəbdən yayınma halları daha tez-tez rast gəlinir. Bu da onların akademik nəticələrinin zəifləməsinə səbəb olur. Tədqiqatlara görə, zorakılıq görmüş uşaqlarda məktəbdə gecikmələr, sinifdə qalma və məktəbi vaxtından əvvəl tərk etmə halları daha çoxdur. (Shonk, S. M., & Cicchetti, D. 2001, s. 912–914)

Məktəbdə Davranış Pozuntuları

Zorakılığa məruz qalan uşaqlarda aqressiv davranışlar, avtoritetlə problem, və sosial normalara uyğunlaşmamaq kimi hallar daha çox müşahidə edilir. Bu cür davranışlar onların müəllim və sinif yoldaşları ilə münasibətlərini pozur və məktəb mühitindən uzaqlaşmalarına gətirib çıxarır. (Lansford, J. E., 2002, s. 540–542)

Sosial İnterqrasiya və Ünsiyyət Bacarıqları
Zorakılıq görmüş uşaqlarda emosional tənzimləmə və etibar hissi zəiflədiyi üçün sosial mühitdə uyğunlaşma çətinliyi yaranır. Onlar ya təcrid olunmağa meyilli olurlar, ya da uyğun olmayan sosial davranışlarla diqqət çəkməyə çalışırlar. Bu, sosial əlaqələrin zəifləməsinə və tək qalmağa səbəb olur. (Kim, J., & Cicchetti, D. 2010, s. 146–149)
Sosial Stereotiplər və Damğalanma
Zorakılıq yaşamış uşaqların bir çoxu "problemlidir" kimi etiketləndiyi üçün onlar bəzən müəllimlər və cəmiyyət tərəfindən laqeyd və ya mənfi münasibətlə qarşılaşır. Bu damğalanma onların sosial inkişafını daha da ləngidir və təhsil sistemindən uzaqlaşmalarına səbəb ola bilər. (Perry, B. D., & Szalavitz, M. 2006, s. 180–182)

Nəticə Və Tövsiyələr

Uşaqların beyin inkişafında zorakılıq və zorakı məzmunlu stimulların oynadığı rola dair apardığımız bu araşdırma göstərir ki, zorakılıq və zorakı məzmunlu mesajlar uşağın beynində və bununla əlaqəli idrak proseslərində mənfi təsirlərə malikdir. Bu mövzuda aparılmış tədqiqatlar göstərir ki, həm zorakılıq və laqeydlik kimi davranışlar, həm də zorakı stimullar, prefrontal korteks, hipokampus və hipotalamus başda olmaqla beyindəki bəzi strukturlara mənfi təsir göstərərək yaddaş, dil inkişafı, qərar vermə və düşünmə mexanizmlərinə zərər vurur.
Bununla yanaşı, zorakılığa məruz qalan, zorakılığın şahidi olmuş və ya zorakı mesajlara sistematik olaraq məruz qalmış uşaqların həyatları boyunca hansı psixopatoloji problemlərlə qarşılaşdıqları, nə qədərinin cinayət və ya aqressiv davranışlara yönəldiyi ilə bağlı uzunmüddətli tədqiqatlara və statistik məlumatlara ehtiyac vardır. Qısaca desək, zorakılıq həm fərdlər, həm də cəmiyyətlər üçün son dərəcə dağıdıcı təsirlərə malikdir və bu səbəbdən zorakılıqla bağlı həssaslıq artırılmalıdır. Zorakılıq, fərdlərin sahib olduqları rollar, cəmiyyətdəki mövqeləri və istehsal münasibətləri ilə sıx bağlıdır. Cəmiyyətin müəyyənləşdirdiyi rollar çərçivəsində fiziki ehtiyacların (yuxu, istirahət, əyləncə və s.) təxirə salınması zorakı davranışlarımızın güclənməsində mühüm rol oynayır. Bu rollar yalnız mənlik anlayışımıza deyil, həm də fiziki ehtiyaclarımızın qarşılanmasına mənfi təsir göstərə bilər və bu da zorakılığın qidalandığı bir mənbəyə çevrilə bilər. Bu səbəblə, cəmiyyət daxilində sahib olduğumuz rolları yerinə yetirərkən hamımız müəyyən dərəcədə zorakılığın qurbanı və ya tətbiedicisi mövqeyinə çevrilə bilərik (Zimbardo, 2015). Cəmiyyətdə bu məsələdə fərqindəliyin və həssaslığın artırılması bu baxımdan kritik əhəmiyyətə malikdir.
Zorakılıq yalnız sosial, mədəni və iqtisadi kontekstlərdə deyil, eyni zamanda fərdi, ailəvi, yerli və institusional səviyyədə də nəzərdən keçirilməli olan bir fenomendir. Üstəlik, zorakılığın geniş yayıldığı cəmiyyətlərdə sistem qadın, kişi və uşaq qurbanlar yaradaraq dövri zorakılıq mexanizmini formalaşdırır. Cəmiyyətin müxtəlif rollarına bölünmüş bütün tərəflər bu mənada müəyyən dərəcədə qurbandır. Arzu istehsalının basqılanması və fərdlərin azad buraxılmaması onları tam şəkildə mənimsəyə bildikləri bir "öz mənlik" inkişaf etdirməkdən məhrum edir və bu da zorakılıq üçün bir mənbə yaradır.

Mövzunu bir qədər də idrak yanaşması baxımından dəyərləndirsək, Beck belə bir fikir irəli sürür: "Qarşılıqlı formalaşmış düşüncə sistemi və həyata baxış bucağı olmadıqca və fərd bu baxış bucağını sorğulamadıqca, bu vəziyyət onun öz mənliyini yaşamasına mane olmağa davam edəcək. Fərdin təcrübələri nəticəsində əldə etdiyi bəzi fərziyyələr bəzən çox sərt, dəyişməyə qarşı müqavimətli və qeyri-funksional xüsusiyyətlərə malik ola bilər. Bu davranışların bəziləri gündəlik həyatda fərdin özünə və ya ətrafına qarşı zorakı davranması şəklində özünü göstərə bilər" (Beck, 1976).

Burada da qeyd edildiyi kimi, zorakılıq fərdin sosial münasibətlər daxilində formalaşdıra bildiyi "öz mənlik", sosial rollar və bu mövqelərdəki böyük dəyişikliklər yolu ilə azaldıla bilər. Zorakılıqdan ən

çox təsirlənən risk qruplarına baxdıqda, xüsusilə cəmiyyət tərəfindən daha zəif rollarda görülən kimliklərin daha çox risk altında olduğu müşahidə olunur. Bu da zorakılıq və sosial rollar arasındakı əlaqəyə işarə edir.

Araşdırmalara görə zorakılıq hallarına ən çox məruz qalan risk qrupları aşağıdakılardır: "30 yaşdan aşağı, uşaqlı qadınlar, qız uşaqları, yeniyetmə qızlar, bütün uşaqlar, yaşlılar, əlillər, evsizlər, qaçqınlar, miqrantlar və etnik azlıqlar" (Subaşı və Akın, 2020). Bu baxımdan cəmiyyətdə sahib olduğumuz rollar zorakılığın yaranması və ya qurban olma vəziyyətimizlə birbaşa əlaqəlidir. Bu səbəblə, bəzən cəmiyyətin bəzi hissələri tərəfindən xüsusilə vurğulanan "zorakılıq hadisələrinə görə cəzaların artırılması" tələbi, zorakılığın yayılmasının qarşısını almaq baxımından gözlənilən təsiri yaratmayacaq kimi görünür. Çünki zorakılıq kişi və qadınlıq anlayışları ilə deyil, daha çox sosial rolların yaratdığı bioloji, fiziki, psixoloji və sosial proseslərdən qaynaqlanır.

Nəticə etibarilə, istər bioloji, istərsə də sosioloji araşdırmalar göstərir ki, zorakılıq qurbanı olan fərdlər bu zorakılığın sosial dövranına böyük ölçüdə xidmət edirlər. Buna görə də, daha yaxşı bir dünyada yaşamaq və həyatda qalmaq üçün uşaqları zorakılığın dağıdıcı təsirlərindən uzaq tutmaq, sevgi dolu mesajları artırmaq, sosial rollar və zorakılığın dağıdıcı təsirləri üzərində düşünmək hər birimizin ictimai məsuliyyətidir və zorakılıq, hər şərtə baxmayaraq, böyük ölçüdə qarşısı alınması mümkün olan bir hadisədir.

Ədəbiyyat

1.Andersen, S. L. (2008). Early adversity, sensitive periods, and the development of emotion regulation. "Developmental Psychobiology", 50(5), 239–248.
2.Anda, R. F., Felitti, V. J., Bremner, J. D., Walker, J. D., Whitfield, C., Perry, B. D., ... & Giles, W. H. (2006). The enduring effects of abuse and related adverse experiences in childhood. "European Archives of Psychiatry and Clinical Neuroscience", 256(3), 174–186.
3.Beck, A. T. (1976). "Cognitive Therapy and the Emotional Disorders". New York: International Universities Press.
4.Bremner, J. D., Narayan, M., Anderson, E. R., Staib, L. H., Miller, H. L., & Charney, D. S. (1997). Hippocampal volume reduction in major depression. "The American Journal of Psychiatry", 154(4), 512–520.
5.Colman, R. A., & Widom, C. S. (2004). Childhood abuse and neglect and adult intimate relationships: A prospective study. "Child Abuse & Neglect", 28(11), 1133–1151.
6.Currie, J., & Widom, C. S. (2010). Long-term consequences of child abuse and neglect on adult economic well-being. "Child Maltreatment", 15(2), 111–120.
7.Danese, A., & McEwen, B. S. (2012). Adverse childhood experiences, allostasis, allostatic load, and age-related disease. "Physiology & Behavior", 106(1), 29–39.
8.De Bellis, M. D., et al. (2002). A.E. Bennett Research Award. Developmental traumatology part II: Brain development. "Biological Psychiatry", 52(11), 1271–1284.
9.Fang, X., Brown, D. S., Florence, C. S., & Mercy, J. A. (2012). The economic burden of child maltreatment in the United States and implications for prevention. "Child Abuse & Neglect", 36(2), 156–165.
10.Felitti, V. J., et al. (1998). Relationship of childhood abuse and household dysfunction to many of the leading causes of death in adults. "American Journal of Preventive Medicine", 14(4), 245–258.
11.Heim, C., et al. (2000). Altered pituitary–adrenal axis responses to provocative challenge tests in adult survivors of childhood abuse. "The American Journal of Psychiatry", 157(4), 575–582.

12.Kim, J., & Cicchetti, D. (2010). Longitudinal pathways linking child maltreatment, emotion regulation, peer relations, and psychopathology. "Journal of Child Psychology and Psychiatry", 51(6), 706–716.
13.Lansford, J. E., et al. (2002). A 12-year prospective study of the long-term effects of early child physical maltreatment on psychological, behavioral, and academic problems in adolescence. "Archives of Pediatrics & Adolescent Medicine", 156(8), 824–830.
14.McCrory, E., et al. (2011). The impact of childhood maltreatment: A review of neurobiological and genetic factors. "Frontiers in Psychiatry", 2, 48.
15.Perry, B. D., & Szalavitz, M. (2006). "The Boy Who Was Raised as a Dog". New York: Basic Books.
16.Shonk, S. M., & Cicchetti, D. (2001). Maltreatment, competency deficits, and risk for academic and behavioral maladjustment. "Developmental Psychology", 37(1), 3–17. Spinoza, B. (2014). "Etika". (Tərc. Y. Məmmədov). Bakı: Elm və Təhsil.
18.Subaşı, N., & Akın, A. (2020). "Kadına ve çocuğa yönelik şiddetle mücadelede risk grupları". İstanbul: Mor Çatı Kadın Sığınağı Vakfı Yayınları.
19.Teicher, M. H., & Samson, J. A. (2016). Annual research review: Enduring neurobiological effects of childhood abuse and neglect. "Journal of Child Psychology and Psychiatry", 57(3), 241–266.
20.Widom, C. S. (1989). The cycle of violence. "Science", 244(4901), 160–166.
21.World Health Organization. (2002). "World report on violence and health". Geneva: WHO.
22.Zimbardo, P. (2015). "Lucifer effekti: Yaxşı insanların necə pis olduqları". (Tərc. N. Əliyev). Bakı: Qanun Nəşriyyatı.

ON THE UNIQUENESS OF MEHMET AKIF ERSOY'S POETRY

MEHMET AKİF ƏRSOYUN POEZİYASININ ÖZÜNƏMƏXSUSLUĞU HAQQINDA

Aysel Balasultan qızı Şeydayeva
Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU)Quba filialının sosial və humanitar məsələlər üzrə direktor müavini
Azərbaycan Respublikasının Qabaqcıl təhsil işçisi, pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
The ORCID iD associated is: https://orcid.org/0000-0003-3049-5959

Abstract
Turkish poetry is rich in works written under the influence of various approaches. The theme of tradition and innovation in poetry reflects different periods of the rich literary history and different approaches of poets to poetry. These two processes have played an important role in the development of Turkish poetry in general. As we know, artistic pieces written in traditional forms are enriched with new and original poetic images. That form itself acquires a new essence over time. As a result, poetry develops as a whole. All this has a significant impact on the language of Turkish poetry of that period, both Arabic and Persian words, Ottoman Turkish, and words borrowed under the influence of the West were used in the language of poetry. One of the most valuable sources for knowing these listed qualities is the poems of Mehmet Akif Ersoy.
Key words: Turkey, poetry, tradition, innovation, modernism.

Резюме
Турецкая поэзия богата произведениями, написанными под влиянием различных подходов. Тема традиций и новаторства в поэзии отражает разные периоды богатой истории литературы и разные подходы поэтов к поэзии. Эти два процесса сыграли важную роль в развитии турецкой поэзии в целом. Как известно, художественные произведения, написанные в традиционных формах, обогащаются новыми, оригинальными поэтическими образами. Со временем эта форма сама по себе приобретает новое значение. В результате поэзия развивается как единое целое. Все это оказало значительное влияние на язык турецкой поэзии того периода, поскольку в поэтическом языке использовались как арабские и персидские слова, так и слова из османского турецкого языка, а также слова, заимствованные с Запада. Одним из наиболее ценных источников для понимания перечисленных качеств являются стихи Мехмета Акифа Эрсоя.
Ключевые слова: Турция, поэзия, традиция, новаторство, модернизм.

Xülasə
Türkiyə poeziyası zaman-zaman müxtəlif yanaşmaların təsiri ilə yazılan əsərlərlə zəngindir. Poeziyada ənənə və novatorluq mövzusu, zəngin türk ədəbiyyatı tarixinin müxtəlif dövrlərini və şairlərin şeirə fərqli yanaşmalarını əks etdirir. Bu iki proses ümumi olaraq Türkiyə poeziyasının inkişafında mühüm rol oynamışdır. Bildiyimiz kimi ənənəvi formalarda qələmə alınan bədii parçalar yeni və daha orijinal poetik obrazlarla zənginləşir. Təbii ki, həmin formanın özü də zamanla yeni mahiyyət kəsb edir. Nəticədə poeziya bütövlükdə inkişaf edir. Bütün bunlar isə həmin dövr Türkiyə poeziyasında dil xüsusiyyətlərinə də əhəmiyyətli təsir göstərir. Belə ki, həmin dövrdə şeir dilində həm ərəb və fars sözləri, həm Osmanlı türkcəsi, həm də Qərbin təsiri ilə alınma sözlər işlədilirdi. Bu

sadalanan keyfiyyətlərin araşdırlması üçün ən qiymətli mənbələrdən biri də Mehmet Akif Ərsoyun yaradıcılığıdır.

GİRİŞ

Mehmet Akif Ərsoy bir ziyalı, bir şair və həm də bir vətənpərvər olaraq millətinin bütün məsələlərini özünə dərd kimi görən və ürəyində daşıyan bir mübarizə insanı olmuşdur. Bu səbəbdən də o seçdiyi üslub və dil xüsusiyyətləri ilə mübarizəsini davam etdirməyi qarşısına məqsəd kimi qoymuş, qələmə aldığı mövzularla millətinin istər dini, istər fəlsəfi, istərsə də ictimai görüşlərini, gələcəyini, düşüncələrini, yerində olan və çatışmayan cəhətlərini ifadə etməyi hədəfləmişdi. İstənilən halda onun poeziyasının özünəməxsusluğu var idi. Çünki bütün ömrünü poeziyanın dili ilə cəmiyyətin və millətin azadlıq carçısı kimi yaşamağa sərf etmişdi.Yaşadığı ilk və son gün arasında həyata keçirdiyi həyat yolçuluğu onu millət və vətən dərdi ilə müşaiyət etmişdir. İnandığı dəyərlərdən vazkeçməyən böyük şair qələmini milli mübarizə uğrunda bitimişdir. Yaxşı bilirik ki, əsərlərin dili, sözlərin həmin əsərlərdə düzgün istifadə edilməsi, bu zaman oxuculara, zamanına və cəmiyyətin həmin dövr üçün tələblərinə uyğun seçilməsi yazıçıdan böyük bədii ustalıq, texniki yaradıcılıq tələb edir. Bu mənada Akif Ərsoy mirası ilə tanışlıq onu deməyə əsas verir ki, onun yaradıcılığında bir körpü var: Klassik Osmanlı türkcəsi ilə xalq danışıq dili arasında körpü. Bu körpünün təməlinin və əsasının möhkəm olmasında bir tutarlı məqam var, o da Akif Ərsoyun istedadlı olması ilə bərabər savadlı olmasıdır. O dünyəvi və dini elmlərdə dərs almış, yaşadığı torpaqların, soyunu və qanını daşıdığı millətin tarixinə, coğrafiyasına, dilinə bələd olmuşdur. Buna görə də o, əsərlərində həm dini-əxlaqi dəyərləri qoruyur, həm də bu fikirləri xalqa çatdırmaq üçün mümkün qədər sadə və asan bir dil seçirdi ki, bu da onun həm də yüksək müşahidə qabiliyyətinə malik olduğunun bir sübutu idi. O, həmin dövrün ictimai mənzərəsini yaxşı görüb-anlayırdı.. Bununla bərabər onun əsərlərindəki novator meyillər də diqqətdən qaçmır. Mehmet Akif Ərsoy ədəbiyyatda poetik ustalığı ilə tanınan şairdir. Onun şeirləri forma və məzmun baxımından çox incə işlənmiş, dil və ifadə baxımından dərinlik nümunələridir. Mehmet Akif Ərsoy həm ənənəvi, həm də müasir poeziya anlayışlarını məharətlə birləşdirərək ədəbi baxımdan mühüm mövqe sərgiləmişdir. Akif Ərsoyun şeirlərindəki forma və texniki elementlərin mükəmməlliyini müxtəlif aspektlərdən araşdırmaq olar. Şair "çoxqatlı" dildən istifadə etməklə cəmiyyətə, oxuculara həm fərdi, həm də ictimai yönləndirmələr verməyi bacarır. Bu isə onun əsərlərinə estetik baxımdan dərinlik qazandırmağa da imkan verir. Tək bir əsərinə diqqət etmək kifayət edir ki, Mehmet Akif Ərsoy yaradıcılığının bütövlüyü və böyüklüyü haqqında fikir söyləmək mümkün olsun. Seçdiyi sözlər və mövzu sanki bir-birini tamamlayır. Belə demək mümkünsə Mehmet Akif Ərsoy, Türkiyə ədəbiyyatında milli şair və yazıçı kimi özünəməxsus və dönməzlik ifadəsi altında yazıb-yaradıb. Mehmet Akif Ərsoyun şeir və yazıları, xalqın mübarizə ruhunu və milli kimliyini nümayiş etdirir, həm də onun dövrünün sosial və mədəni problemlərinə dair dərin düşüncələrini əks etdirir. Şairin milli kimlik məsələsinə bu qədər həssas münasibəti onun həm də xalqının sevgisini qazanmasına və bu sevginin günümüzə qədər gələrək, daha da alovlanmasına səbəb olmuşdur. Məsələn, o, "Səfahat" əsərində sosial tənqidlər edərkən gah "çətin" dildən istifadə edir, gah da daha "asan" ifadələrlə oxucunu düşündürür. Onun "Səfahat" əsəri bildiyimiz kimi Osmanlı türkcəsində yazılmışdır. Bu əsərin özünəməxsus dili sanki **türk, ərəb və fars dillərinin** "qarışığı"ndan ibarətdir. Çünki Mehmet Akif Ərsoy bu əsərində dövrü üçün aktual olan dini və fəlsəfi mövzulara toxunduğu üçün ərəb-fars mənşəli sözlərə geniş yer verir. Bundan başqa həm də müəyyən mövzuları xalq dilində ifadə edir. Səfahat sözü "həyatın dəyişkən tərəfləri, görünənləri, cərgələri" anlamında işlənir. İlk kitab 1911-ci ildə nəşr edilmiş, daha sonra isə bu ad altında bir sıra kitablar toplanmışdır. Mehmet Akif Ərsoy şeirlərində işlətdiyi bütün dillərdəki sözlərlə oxucuya dərin məna çıxarmaq imkanı da verir. Bu əsərdə diqqət çəkən məqamlardan biri də ithafların olmasıdır. Həmin ithaf edilən şəxslərin dilində sanki onlara şairin və bir siyalının müraciəti var. Həqiqətən də əsərə bələd olduqda aydın olur ki, istər fərdi iztirablar, istərsə də həmin dövrün xarakterik ictimai

bərabərsizlikləri onun şeirlərində sanki vahid bir bütöv kimi formalaşır. Akif Ərsoy təkcə fərdi duyğulara müraciət etmir, həm də cəmiyyətin əhval-ruhiyyəsini araşdırmağı bacarır:

Ey rüh-i feza-gerd, giran-seyr-i harimin,
Ey natika, dembeste-i esrar-ı azimin,
Maksud bu hilkatten eğer marifetinse,
Varmış mı o müdhiş görünən gayete kimse?
Bir sahne midir, yoksa bu alem nazarında?
Bir sahne ki, milyarlarla oyun var üzerinde!
Bir sahne ki, her perdesi tertib-i meşiyyet,
Eşhası da baziçe-i avare-i kudret! [4, s 63].

Bu üslub onun poeziyasını güclü edir. Mehmet Akif Ərsoyun dilində həm sadə, həm də dərin mənalar var. Onun dili kifayət qədər zəngin və ədəbidir, lakin başa düşülənlikdən heç vaxt güzəştə getmir. Çünki onun məqsədi mübarizəni güclü şəkildə, öz milləti ilə bütöv halında aparmaq niyyətində idi. Bunun üçün isə onun fikirlərinin hamı tərəfindən anlaşılan olması vacib idi. Buna görə də Akif Ərsoy işlətdiyi dil vasitəsilə həm cəmiyyətlə, həm də ziyalılarla əlaqə qura bilirdi. Sanki o, şeirlərində köhnə türk şeiri ilə danışır və müasir türk poeziyasına da öz töhfəsini verirdi. O, şeirlərində türk xalqının mədəni irsini əks etdirməklə yanaşı, azadlıq, ədalət kimi ümumbəşəri mövzulardan da bəhs edir. Mehmet Akif Ərsoyun "Səfahat" əsərini dilçilik nöqteyi-nəzərindən təhlil etdikdə aydın olur ki, əslində şair əsərdə seçdiyi mövzuya uyğun sözlərdən ustalıqla istifadə etmişdir. Belə ki, kitabı oxuduqda sözlərin seçilməsini bir neçə yerə bölərək qruplaşdırmaq olar.Bu ierarxik bölünmə həm də şairin öz fikir və düşüncələrinin ifadəsinin zamanla təhlillərinə uyğun olaraq dəyişdiyini də göstərir. Belə ki, ənənədən novatorluğa doğru yol təkcə məzmunda, formada baş vermir, həm də seçilmiş sözlərin etimologiyasında da biruzə verir. Əsərdə məsələn təhlil xarakterli baxdıqda, həm də sözlüyə diqqət etdikdə görürük ki, seçilən söz və ifadələr dini dəyərlərə və əxlaqi mövzulara, xalqın anlayacağı dilə, ərəb dilində və fars mənşəli dilə aiddir:

- Dini dəyərlərə və əxlaqi mövzulara aid edilən söz və ifadələr: Əsərlərində islam dininə, əxlaqa və milli-mənəvi dəyərlərə sıx yer verir. Bu baxımdan dini termin və ayə-parafrazlara tez-tez rast gəlinir.Qurandan sitatlar yazılır və ya dini terminlər qeyd edilir. İnsanların dualarda dediyi fikirlər şeirə gətirilir:

Ya İlahi bizə tevfikini göndər...
- Amin!
Doğru yol hangisidir, millete göstər....
- Amin! [4, s 420].

-

- Xalqın anlayacağı dildə söz və ifadələr: Bildiyimiz kimi Akif Ərsoyun **"Səfahat"** adlı məşhur əsəri 7 cilddən ibarət olub, ictimai və dini mövzulara həsr olunmuş realist və faktlara əsaslı poemalar toplusudur. Bu əsərdəki dil həm klassik üslubu, həm də sadə, yəni xalq üslubunu birləşdirir. Çünki Akif Ərsoy millətini sevir, onun üçün yazıb-yaradırdı, bu səbəbdən də poeziyada xalqla səmimi ünsiyyətə çox böyük önəm verirdi. Bu isə ona gətirib çıxarırıdı ki, poeziyasında çətin və süni dildən qaçaraq, xalqın anlaya biləcəyi bir üslub seçməyə çalışırdı. Çünki onun poeziyasının məqsədi həm də fasilitasiya, təbliğat və maarifçilik idi.

Dinledin, gördün a oğlum. Ne bozuk terbiyemiz!
Ne yapıb yapmalı, insanlığı öyretmeliyiz

- Ərəb dilində və fars mənşəli söz və ifadələr**:** Akif Ərsoy Osmanlı dövrünün yazıçısı olduğu üçün əsərlərində ərəb və fars mənşəli sözlərə geniş yer verir. Həm də nəzərə alsaq ki Akif Ərsoy olduqca diqqətli müşahidəçi idi, o, yaxşı anlayırdı ki, xalqın ziyalı təbəqəsi üçün bu ifadələrin seçilməsi də onların ruhuna xitab kimi səslənəcəkdi.Bu, xüsusilə də şairin dini və fəlsəfi mövzularda əsərlər yazarkən daha çox nəzərə çarpırdı:
-

Meydana getirmiş bizi ey Xaliqi Mübdi
Mübhem nasıl olmaz ki? Ademden deyil isbat.
Bir zerre-I mevcudu yok etmek bile heyhat,
Kabil olamaz çıksa da bin desti muharrib.

Qeyd edək ki, "Səfahat" əsərinin ilk çap nümunəsi ilə son çap nümunəsi arasında da fərqlər vardır. Daha doğrusu bu fərqlər inkişaf kimi görünməkdədir.Bu inkişaf şairin dil, düşüncə və ədəbiyyat sahəsində olan inkişafını da göz önünə sərir. Məhz buna görə də onun əsərlərini öyrənmək üçün başqa bir səbəb də bu inkişafı tədqiq etmək ehtiyacıdır. Bu ehtiyacın təməlində təbii ki, həmin dövrün mənzərəsini də poeziyanın gözü ilə görüb araşdırmaq da dayanır. Belə ki, şairin poeziyası ilə yaxından tanışlıq həmin dövrdə cəmiyyətdə və sosial mühitdə baş verən dəyişiklikləri açıq-aşkar sezmək mümkün olur. Şairin yaradıcılığında real mühitin təsiri ilə onun arzularının qovuşmasından yaranan sətirlər də kifayət qədərdir.Şair sanki mövcud vəziyyətlə barışmayaraq daha gözəl bir gələcək üçün ideyalarını bədii ifadələr altında sərgiləyir:

Sizin eşitdiyiniz bir təranə, bir pərdə,
Beşikdə, sonra eşiklərdə, sonra mektepde
Hülasa hərr çatının altı aynı səslə dolu.
Bütün bu şüunu bir ahenge rapteden bu yolu
Tutunca, gitgide mekteble, kışla, fabrika, fen
Seçilmez oldu, hakikat harımi aileden.
Bu ittihadı tabii yaşatmak istərdi
Asıl kemalini millet o işdə göstərdi[4, s 63].

Mehmet Akif Ərsoyun əsərləri ilə tanışlıq onun həm də millət və Vətən dərdi çəkən, türkün bütün Şərqdə layiq olduğu həyatla yaşadığı həyat arasındakı ziddiyətləri açıq-aşkar göstərməyə çalışan bir vətənpərvər olduğunun göstərir. Şair yaradıcılığında gizli üsyan içində reallıqları göstərir, amma qeyd etdikləri bir ifşa deyil, bir ürək yanğısı kimi təzahür edir:

Musallat, hiç göz açtırmaz da Qərbin qanlı kabusu
Nə görüdn Şərqi çok gezdin diyorlar, Gördüyüm:
Yer,yer
Harab iller, serilmiş hanümalar, başsız ümmetler;
Geçerkən, ağladım geçtim, duruken, ağladım durdum
Duyan yok, ses veren yok, bin perişan yurda baş vurdum.

Akif Ərsoyun şeirlərindəki bütün yanğısı, bütün təlatümlü ifadələri onun vətən sevgisindən qaynaqlanırdı.O cəmiyyətinin, millətinin daha yaxşı həyata layiq olduğuna əmin idi və çəkdiyi əziyyətlərdən qurtuluşa səsləyirdi.Bütün bu sevdaların içində Mehmet Akifə xas olan özünə sevgi və

sayğı anlayışı da zaman-zaman hiss edilirdi. Şairin "Tək həqiqət" adlı kiçik bədii ifadəsində bu görünür:

Tek hakikat var, evet, bellediğim dünyadan,
Elli, altmış sene gezdimse de, şaşkın-şaşkın.
Hepimiz kendimizin, bağrı yanıq aşıkıyız
Sade, ilanı çekilmez bu acaib-aşkın! [4, s 535]

Akif Ərsoyun poeziyasındakı bütün hədəfləri, bütün hissi-ifadələri onun yaradıcılığının necə fərqli və özünəməxsus olduğunu ortaya çıxarır. "Səfahat"ın ilk səhifəsindəki oğlu Mehmet Aliyə yazdığı kiçik şeirdə poeziyaya vurğunluğunu ifadə edir, çox sevdiyi bu söz sənətinin bütün incəliklərini öyrəndiyini ilk sətirlərdən vurğulayır, "şeir üçün göz yaşı deyirlər" adlı kəlamı onun bu ifadə vasitəsinə əslində ürəyində basdırdığı duyğuların gün üzünə çıxarma vasitəsi olaraq baxdığının əyani sübutudur:

Bir yığın söz ki, sammiyyeti ancak hüneri;
Ne tasannu bilirim, çünki ne sanatkarım.
Şir için "göz yaşı" derlər;onu bilməm, yalnız.
Aczimin giryesidir bence bütün asarım...
Ağlarım, ağlatamam, hissederim, söyleyemem,
Dili yok kalbimin, ondan ne kadar bizarım!
Oku, şayed, sana bir hisli yürek lazımsa;
Oku, zirra onu yazdım iki söz yazdımsa... [4, s 42].

Nəticə

Ümumiyyətlə, Mehmet Akif Ərsoy, sadəcə ədəbiyyat aləmində deyil, türk milliyyətçiliyi və mübarizəsi sahəsində də dərin izlər buraxmış bir şəxsiyyətdir. Məhz onun şəxsiyyəti elə Akif vurğunlarının sayını ildən-ilə artırmaqdadır. Çünki o, xalqı üçün və millətinin gələcəyi üçün əhəmiyyətli olan dəyərlərə inanmış və bu dəyərlərə həyatını həsr etmişdir. Mehmet Akif, yalnız yazdığı əsərləri ilə deyil, həm də həyatı ilə, özündən sonra miras qoyub getdiyi yaradıcılığı ilə türk xalqına və millətinə olan bağlılığını göstərmişdir. Onun şeirlərindəki yanğı bu gün də hiss edilməkdədir. İşlətdiyi söz və ifadələrin etimologiyasından asılı olmayaraq mövzunun məğzini böyük ustalıqla oxucuya çatdıra bilməsi onun həmin əsərləri necə böyük sevgi ilə yazdığının sübutudur. Onun poeziyasında qəbul etdiyi dəyərləri və yazdığı əsərlər bu gün də türk millətinin həyatında və mədəniyyətində əhəmiyyətli bir yer tutur. Bu isə şairin poetik ustalığının gücündən xəbər verir. Poetik ustalıq söz yığını deyildir. Bu zaman göz və könül səhvlərə rast gəlməz, yəni mözvu ustalığı ilə forma ustalığı onu daha da oxunaqlı etmişdir. Akif Ərsoy, həmçinin bir din alimi, vətənpərvər və ziyalı kimi də yaddaşlarda qalmışdır. Onun bütün bu mövzularda olan yanğısı əsərlərinin günümüzə kimi bitməyən gücünün təfsiridir. Sosial ədalətə, insan hüquqlarına və milli birliyə olan inancı, onu dövrünün ən önəmli düşünürlərindən biri etmişdir. Çünki görmək və təhlil etmək yalnız istedadla ərsəyə gələcək bir nəticə deyildir. Həyatını ədalət, vicdan, milli birlik və insanın mənəvi yüksəlişi kimi dəyərlərə həsr etmiş biri olaraq Mehmet Akif türklərin bugünki inkişafını və dünyadakı rolunu görsə idi olduqca fərqli istiqamətlərdə, fərqli ruhlarda şeirlər yazmaqla sevincini ifadə edərdi. Mehmet Akif Ərsoyun ömrü, xalqı üçün düşündüyü idealların, təhsilin və mübarizənin həyat tapdığı bir dönəmdir. Bu dönəmi isə tarixi gerçəkliklərlə müqayisəli şəkildə öyrənmək olduqca maraqlıdır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Azərbaycan Milli Elmlər Akademiyası. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Kafkasyalı A. Böyük türk şairi Nazim Hikmət və türk dünyası. Türkcədən çevirən Umudlu İ. Bakı, “Elm və təhsil”, 2024, 609 s.
2. Əhmədli B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi.Bakı, “Qanun nəşriyyatı”, 2024, 583
3. Ərsoy.M.A Seçilmiş şeirləri. Türksoy. Ankara 2023. 139 s.
4. Ərsoy M.A. Safahat. İstanbul, Timaş yayınları.2018. 560 s.

PROBLEMS ENCOUNTERED IN AZERBAIJANI LESSONS

AZƏRBAYCAN DİLİ DƏRSLƏRİNDƏ QARŞIYA ÇIXAN PROBLEMLƏR

Fəridə Səfərəliyeva
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan
https://orcid.org/0000-0003-1161-5759

Xülasə
Şagirdlərin dilimizin qrammatik formalarını şüurlu dərk etmələri, onların lüğət ehtiyatını sürətlə mənimsəmələri üçün geniş imkanlar açır. Hər hansı qrammatik anlayış və terminin mənimsənilməsi isə lüğət ehtiyatının dəqiqləşdirilməsinə xidmət edir. Şagirdlər yalnız qrammatik qaydanın mənasını dərk etdikdə, onu müvafiq dil materialına aid edərək həmin sözlərlə ifadə etməyi bacarırlar. Bu isə dilin forması ilə məzmunu arasında asılılığın dərk olunması deməkdir.
I-IV siniflərdə Azərbaycan dili fənni üzrə şagirdlərin əlifbanı öyrənməsi, oxu və yazı texnikası, hüsnxət qaydaları, düzgün, sürətli, şüurlu və ifadəli oxu üzrə ilkin bacarıqların formalaşdırılması, lüğət ehtiyatının tədricən zənginləşdirməsi, ən vacib olan qrammatik qaydaları və ədəbi tələffüz normalarını öyrənib tətbiq etməsi önəmlidir. Həmçinin bu mərhələdə ekspressiv nitq bacarıqlarının formalaşdırılması, Azərbaycan xalqının dili, tarixi, əxlaqi-mənəvi keyfiyyətləri, mədəniyyəti, adət-ənənələri haqqında ilkin anlayışların yaradılması təmin olunur.
Hər bir Azərbaycan dili dərsinin məqsədi tədris materialının yalnız nəzəri cəhətlərini şagirdlərə mənimsətmək deyil, həm də onun təcrübəyə - yazılı və şifahi nitqə tətbiqini öyrətməkdir. Qrammatik qaydaları mənimsəmə dilə yiyələnməni sürətləndirir, şagirdlərə düzgün və ifadəli oxumaq, savadlı yazmaq, fikri aydın, dəqiq ifadə etmək bacarıq və vərdişləri aşılamağa geniş imkanlar açır. Ona görə də Azərbaycan dili təlimi prosesində nəzəri məlumatların çatdırılması və onların praktikaya tətbiqi qarşılıqlı şəkildə öyrədilməli, bunlardan biri digərinin inkişafına təkan verməlidir. Başqa sözlə, müəllim ayrı-ayrı nəzəri ümumiləşdirmələrdən, qaydalardan nitq praktikasına, nitq praktikasından da nəzəriyyəyə, qaydalara doğru hərəkət etməlidir. Məqaləmdə dil qaydalarının öyrədilməsində qarşıya çıxan problemlərdən söhbət açmağa çalışmışam.
Açar söz: Dil qaydaları, nöqsanlar, ədəbi tələffüz

Abstract
It opens up wide opportunities for students to consciously comprehend the grammatical forms of our language, to quickly master their vocabulary. And the assimilation of any grammatical concepts and Terms serves to refine the vocabulary. Only when students understand the meaning of the grammatical rule, they manage to express it in those words, attributing it to the corresponding linguistic material. And this means understanding the dependence between the form and the content of the language.
It is important for students in the subject of the Azerbaijani language in I-IV grades to learn the alphabet, to form initial skills in reading and writing techniques, rules of frustration, correct, fast, conscious and expressive reading, to gradually enrich the vocabulary, to learn and apply the most important grammatical rules and norms of literary pronunciation. Also at this stage, the formation of expressive speech skills, the creation of initial concepts about the language, history, moral and spiritual qualities, culture and traditions of the Azerbaijani people are provided.
The purpose of each Azerbaijani language lesson is not only to master the theoretical aspects of the educational material, but also to teach its application to practice - written and oral speech. Mastering grammatical rules accelerates the acquisition of language, opens up ample opportunities for instilling in students the skills and skills to read correctly and expressively, write competently, clearly, clearly express thoughts. Therefore, in the process of teaching the Azerbaijani language, the delivery of

theoretical information and their application to practice should be taught mutually, one of which should give an impetus to the development of the other. In other words, the teacher should move from separate theoretical generalizations, rules to speech practice, and from speech practice to theory, rules. In my article, I tried to talk about the problems encountered in teaching language rules.
Key word: Language rules, omissions, literary pronunciation

Giriş

Müasir dövrdə ibtidai sinif müəllimi ana dili dərslərində bir sıra faktları nəzərdən qaçırmamalıdır: İlk olaraq, Azərbaycan dili ilə bağlı şagirdlərə öyrədiləcək bilik, bacarıq və vərdişlər dilçilik elminə söykənməli, pedaqogika, psixologiya və metodikanın tələblərinə uyğun şəkildə təşkil edilməlidir. Peşəkar müəllim bu zaman dərsin məzmunu və öyrədilməsi yollarını qabaqcadan düşünməli, həmçinin Azərbaycan dili dərslərində bütün bölmələr arasında (leksika, qrammatika, orfoepiya, orfoqrafiya, durğu işarələri və üslubiyyat) qarşılıqlı əlaqə qurmalıdır. Kurikulumda məzmun xəttinin dördüncüsü olan dil qaydalarına da geniş yer verilmişdir. Tədris prosesində müəllim bir məqama diqqət etməlidir ki, ana dilinin tədrisində məqsəd şagirdlərə dilimizin qaydalarını əzbərlətmək, "əsaslı şəkildə öyrətmək" deyil, sadəcə ədəbi dili, orfoqrafiyanı öyrənmək üçün lazım olan ən zəruri qaydalarla tanışlıqdır. Adətən şagirdlər qrammatik təhlil prosesində bu və ya digər nitq hissəsini aid edərkən sözün yalnız leksik mənasına diqqət yetirir, onun morfoloji əlamətlərini yaddan çıxarır. Sözün leksik mənası üzərində iş apararkən müəllim tədris prosesində sözyaradıcı əlaqələri unutmamalıdır. Leksikanın mənimsənilməsində şagirdlərin eyni kökdən olan sözlərə müraciət etmək imkanı həmin ifadələrin daha yaxşı başa düşülməsini təmin edir. Lüğət üzrə iş prosesində müəllim sözlərin mənasının öyrədilməsini lüğət-orfoqrafik işlərlə paralel apararsa, müsbət nəticə qazanmış olar. Lüğət üzrə işi sistemli və ardıcıl təşkil etmək üçün müəllim hansı sözün üzərində iş apardığını düzgün seçməlidir.

Qrammatikanın öyrədilməsi ilə bağlı aparılan lüğət işləri tək qrammatik bilik və bacarıqların möhkəmləndirilməsi üçün deyil, həm də şagirdlərin lüğət ehtiyatını genişləndirmək, fəallaşdırmaq məqsədini güdür. Bu cəhət "Sözün tərkibi və Nitq hissələri" bölməsində özünü xüsusi olaraq büruzə verir. Eyniköklü sözlərin seçilməsi üzrə aparılan işləri sırf lüğət üzrə iş adlandırmaq olar. II sinifdə kök və eyniköklü sözlərlə tanışlıqdan sonra şagirdlər bir kökdən müxtəlif mənalı bir neçə söz düzəldir ki, bu da şagirdin lüğət ehtiyatının zənginləşməsinə və sözləri qruplara bölmək işinə hazırlayır. Bu zaman şagirdlərin eyniköklü sözlərin leksik mənaları arasındakı yaxınlıqla yanaşı, fərqi də başa düşməsi önəmlidir.

İbtidai sinif müəllimləri ayrı-ayrı nitq hissələri, eləcə də cümlə üzvlərinin üslubi funksiyalarının mənimsədilməsinə, söz, ifadə və cümlələrin düzgün seçilməsi vərdişlərinin aşılanmasına diqqət yetirməlidir. Bu məqsədlə şagirdlərin nitqində müşahidə olunan üslub nöqsanlarına, bu qüsurların meydana çıxmasının səbəblərini aydınlaşdırmağa ciddi fikir verilməlidir. Şagirdlərin lüğət ehtiyatının zənginliyini yalnız onların nitqindəki sözlərin sayı ilə müəyyənləşdirmək olmaz. Şagirdlərin qrammatikadan biliklərin artırmaq, şifahi və yazılı nitqdən istifadə etmək üçün onlara möhkəm vərdişlər aşılamaq, orfoqrafiya, durğu işarələri üzrə vərdişlər qazandırmaq və nəhayət onların məntiqi təfəkküründü inkişaf etdirməkdə qrammatik təhlil mühüm rol oynayır. Qrammatik təhlil Azərbaycan dili dərslərində aparılan elə bir məşğələdir ki, onun vasitəsi ilə şagirdlər mətndən müəyyən qrammatik qaydaları tapır və onların bu və ya digər qrammatik bölmələrə aid olduğunu müəyyənləşdirir. Qrammatik təhlil bəsit şəkildə də olsa, I sinifdən aparılmağa başlayır. I sinifdə şagirdlər cümləni sözlərə, sözləri hecalara ayırır, cümlədə sözlərə sual qoyur, onlar arasındakı əlaqələri müəyyənləşdirməyə çalışırlar.

İbtidai sinifdə ilk olaraq ad, əlamət və hərəkət bildirən sözlər öyrədilir. Daha sonra termin olaraq şagirdlər adlarını bilir. Böyük rus alimi M.V.Lomonosov yazırdı: "Bütün elmlərin qrammatikaya böyük ehtiyacı vardır: Qrammatikasız natiqlik kütdür, poeziya pəltəkdir, fəlsəfə əsassızdır, tarix anlaşılmazdır. [2, s.7].

Morfologiya bilirik ki, düzgün nitq qurmaq bacarığı, ədəbi dilin normalarına riayət etmək vərdişlərini aşılayır. Fonetika, leksikologiya bölmələri ilə əks əlaqə qurur, sintaksis üçün, onun ayrı-ayrı mövzularının daha dərindən mənimsədilməsi üçün real imkanlar açır.

Dil qaydalarının öyrədilməsində qarşıya çıxan problemlərdən danışmaq istərdim. İsmin tədrisində ən mühüm və vaxt tələb edən məsələ onun hallanmasının öyrədilməsidir. Qarşıya çıxan çətinliklərdən biri də şagirdlər əlamət və keyfiyyət bildirən sifətləri qarışdırırlar, həmçinin bitişik və defislə yazılan sifətlərin yazılmasına da xüsusi diqqət yetirilməlidir. İbtidai sinif şagirdlərinin dilin qrammatik formalarını şüurlu şəkildə dərk etmələri, onların lüğət ehtiyatını sürətlə mənimsəmələri üçün geniş imkanlar yaradır.

Bir məqamı unutmaq olmaz ki, Azərbaycan dilinin tədrisi metodikası dilçilik elmi ilə sıx əlaqədardır. Qrammatikanın tədrisi posesində tez-tez fonetik, morfoloji, sintaktik formalarla qarşılaşarkən, dilçiliyin müvafiq sahələrinə - fonetika və qrammatikaya müraciət etməli oluruq, lakin elmi qrammatikanı məktəbə eynilə gətirmək olmaz. Elmi qrammatikanı, müasir Azərbaycan dili üzrə aparılan tədqiqatları oxumadan, onlara istinad etmədən ibtidai siniflərdə qrammatik materialı tədris etmək çətindir. Dilçilik elmi metodikaya material verir, metodika şagirdlərin yaş xüsusiyyətlərini nəzərə almaqla onu hazırlayır, rəngarəng tapşırıq və çalışmalarla zənginləşdirir. Hər hansı qrammatik anlayışı kiçikyaşlı şagirdlərə başa düşə biləcəkləri şəkildə, həm də elmi cəhətdən dəqiq aydınlaşdırmaq məqsədilə xüsusi araşdırmalar aparmaq lazımdır. Buna ehtiyac duymayan, yalnız dərslikdə verilənləri oxumaqla kifayətlənən müəllimlər, şübhəsiz, lazımi nəticə əldə edə bilməzlər. Burada bir məsələ var ki, isimləri hallandırarkən şagirdlər halların adlarını (ardıcıllığını) suallarını, şəkilçilərini səhv salırlar. Ona görə də hər bir halın nə üçün belə adlanması, ardıcıllığı, sualı, şəkilçiləri (saitlə və samitlə qurtaran isimlərin qəbul etdiyi şəkilçilərin variantını, bu variantın mahiyyətini), axırı q və k ilə bitən çoxhecalı isimlərdə q və k samitinin hansı hallarda və nə səbəbdən ğ və y ilə əvəz olunmasını bilməlidir. Müəllim ismin çıxışlıq halının yazılışına da ciddi nəzarət etməli və çalışmalıdır ki, orfoepiyanın orfoqrafiyaya təsir göstərməsinə yol verilməsin. Sinif, isim, nəsil, fəsil, fikir, şeir kimi sözlərin hallanmasının özünəməxsus xüsusiyyəti şagirdlərə izah olunmalıdır. İbtidai sinif şagirdi bilməlidir ki, belə sözlər hallanarkən yiyəlik, yönlük, təsirlik hallarında sözün ikinci hecasındakı i səsi (hərfi) düşür. Bu zaman yazılarında kiçik yaşlı məktəblilər orfoqrafik səhvlər buraxırlar.

İbtidai sinif müəllimi tədris prosesində bu gün bir neçə məsələni aydınlaşdırmalıdır: şagird istər oxu, istərsə də dil qaydaları ilə bağlı nəyi öyrənəcək? Öyrəndiyi mövzuda tutaq ki, leksikologiya ilə bağlı hansı məsələlər önə çəkiləcək? Bu birbaşa onların yaş səviyyəsinə uyğunluğu baxımından nəzərdə alınmalıdır. Kiçik yaşlı məktəbliləri maraqlandırmaq, onların fəaliyyətini təşkil etmək baxımından müəllim hansı priyom və vasitələr seçməlidir? Dil qaydalarını öyrədərkən hansı təhsil, inkişaf və tərbiyəedici məqsədlər yerinə yetiriləcəkdir?

Bilirik ki, dilimizdə elə samitlər var ki, oxşar səslənir. Məsələn:

b-p c-ç d-t g-k

B, c, d, g samitləri ilə bitən sözlərin yazılışında bəzən səhvə yol verilir. Məsələn:

Doğru	***Yanlış***
Kitab	Kitap
Bulud	Bulut
Pələng	Pələnk
Çəkic	Çəkiç

İbtidai siniflərdə aparılan tədqiqatlar göstərir ki, məktəblilərin orfoqrafik savadlılığınıdakı başlıca nöqsanlardan biri də düzgün yazı təlimində orfoqramiyamızın prinsiplərinin kifayət qədər nəzərə alınmaması ilə bağlıdır. Təlimin ilk dövrlərindən orfoqrafiyamızın xarakteri barədə şagirdlərdə belə bir səhv təsəvvür yaradılır ki, sözlərin hərf tərkibi ilə səs tərkibi arasında heç bir əsaslı fərq yoxdur. Məhz buna görə də düzgün şəkildə yazmağı bacarmaq üçün ilk olaraq, eşitdiyin kimi yazmağa vərdiş etməlisən.

Şagirdlərə şəxs əvəzliklərinin tək və cəm olmaqla iki yerə ayrıldığını mənimsəmələri üçün cəm şəkilçiləri haqqında bildikləri təkrar olunmalıdır: oğlan-oğlanlar anlayışından mən-biz anlayışına keçmək asan olur. İşarə əvəzliyindən söz düşərkən işarə sözünün mahiyyəti ilk növbədə açılmalıdır. Burada çətinlik o işarə əvəzliyinin III şəxsin təki ilə eyni cür səslənməsi və yazılmasındadır. Müəllim o şəxs və işarə əvəzliklərinin qarışdırılmasının qarşısını almaq məqsədilə fərqli cümlələr verməli və

nümunələrə söykənərək izahat verməlidir. İbtidai sinif şagirdi bilməlidir ki, o yalnız şəxs əvəzliyi olanda ondan sonra vergül işarəsi qoyulur.

Nitq inkişafı üzrə aparılan işlər zamanı şagirdlərin yazılı və şifahi rabitəli nitqində müxtəlif üslub səhvləri müşahidə olunur ki, bunları leksik-üslubi və qrammatik üslubi səhvlərə bölürlər. Bəzən şagird yazısında sözlər öz yerində işlədilmir. Belə sözlər şagirdin sinonim seçmək bacarığının düzgün formalaşmadığından irəli gəlir. Yaxınmənalı sözlərdən hansını işlətməyin doğru, dəqiq olduğunu şagirdlər fərqləndirə bilmirlər. İstər yazılı, istərsə də şifahi nitqdə bu qəbildən olan üslub səhvlərinə tez-tez yol verilir. Bunun qarşısını almaq üçün müəllim şagirdə həmin səhvin düzgün məqamında işlədilmiş sözdən fərqini izah etməlidir. Bunun üçün şagird eyni sinonim qrupunda birləşən müxtəlif leksemləri tapmalı, işlətmə məqamına görə müqayisə etməyi bacarmalıdır. Üslubi səhvlər dedikdə, məsələn, nitqdə rus sözlərinin tez-tez işlədilməsidir. Müəllim müxtəlif məzmunlu çalışmalar üzərində şagirdləri çalışdırmaqla yazılı və şifahi nitqdə olan belə üslub səhvlərinin aradan qaldırılmasına nail ola bilər. Lüğət üzərində aparılan müşahidələr bir neçə orfoqrafik terminləri şagirdlərə öyrətməyə yönəldir. Bu cür məşğələlər şagirdlərə hər bir sözü kök və şəkilçiyə ayırmağı, qohum sözləri müəyyənləşdirməyi və onların sadə şəkli ilə tanış olmağı mənimsədir. Şagirdlərin lüğət fondunu genişləndirmək məqsədilə onlara fərqli söz kökləri verərək, eyniköklü müxtəlif sözləri düzəltmək tapşırığını vermək daha məqsədəuyğundur. Şagirdlər bəzən müxtəlif sözlərin leksik mənasını anlamadıqlarından tələffüz və ya yazılarında müəyyən səhvlərə yol verirlər. Belə olduqda müəllim şagirdlərə yaxınmənalı sözlər olan iş vərəqləri üzərində tapşırıqlar verə bilər.

Dilçi alim, metodist N. Abdullayev qeyd edir ki, "şagirdlərdə yazı vərdişlərinin yaradılması üçün nitq inkişafının digər sahələri ilə əlaqələndirilməsi orfoqrafiya təliminin başlıca prinsiplərindən biridir" [1, s.17].

Savad təlimi dövründə səslərlə tanışlıq zamanı şagirdlərin ən böyük çətinliyi odur ki, k səsinin iki funksiyalı olmasıdır.

Doğru	**Yanlış**
təəccüb	təcüb
müəllim	məllim
ailə	ayilə

Dilin səs cəhəti uşaq tərəfindən tədricən mənimsənilir. Müşahidələr göstərir ki, uşaqların əksəriyyəti nitq səslərini düzgün tələffüz etdiyi halda, müəyyən qismi bəzi səslərin tələffüzündə ciddi çətinliklərlə qarşılaşırlar. Belə ki, onlar ş-s, r-l, k-g, q-d və s. səsləri qarışdırırlar. Bu isə bir sıra hallarda mənanın dəyişməsi ilə nəticələnir:

ş-s	**r-y**	**r-l**
şarı-sarı	dərə-dəyə	qara-qaya
şal-sal	arı-ayı	sarı-salı
şəhər-səhər	tar-tay	dəri-dəli
maşa-masa	qarğı-qayğı	quru-qulu
şor-sor	qara-qaya	
qaşıq-qasıq	quru-quyu	

g-d	**q-d**
gəl-dəl	qaz-daz
geyindi-deyindi	qar-dar
göy-döy	quzu-duzu və s.
güzgü-düzdü	

Ədəbi tələffüz şagirdlərin lüğət ehtiyatının artırılması məsələsində də mühüm rola malikdir. Şagird sözün mənalarını başa düşdüyü kimi, onu düzgün tələffüz etməyi bacarmalıdır. Müşahidələr göstərir ki, bəzi sözlər çətin və qüsurlu tələffüz edildiyindən şagirdlərin fəal lüğət ehtiyatına daxil ola bilmir. Məlumdur ki, şifahi nitq orfoepiyaya daha çox diqqət göstərməyi tələb edir. Şagirdlərdən sözləri düzgün, orfoepik normalara uyğun olaraq tələffüz etmək, nitq formalarını düzgün işlətmək tələb olunur. Şifahi nitqin inkişafı üzrə iş apararkən ilk növbədə intonasiyaya, nitqin ifadəliliyinə fikir vermək önəmlidir. Yazı zamanı bu və ya digər sözün çətinlik dərəcəsinin, orfoqrafik qaydaların nəzərə alınması və fikrin rabitəli şəkildə ifadə olunması mühüm bir şərt kimi qarşıda durur. Yazılı

nitq isə birbaşa orfoqrafiya ilə bağlıdır. Şagirdin şifahi lüğətinin zənginləşdirilməsi, cümlə quruluşunun yaxşılaşması onun yazılı nitqində öz əksini tapır. Şifahi nitq yazılı nitqi inkişaf etdirdiyi kimi, yazılı nitq də öz növbəsində şifahi nitqi dəqiqləşdirir. Bir məqama toxunmaq istərdim, ibtidai siniflərdən diqqətin, əsasən yazılı nitqə yönəldilməsi, sonralar isə digər fənlərin tədrisində biliyin yalnız məzmuna görə qiymətləndirilməsi nəticəsində bir növ uşaqda şifahi nitqə laqeyd münasibət formalaşır.

Məqalədə 4-cü sinif Azərbaycan dili dərsliyinə nəzər yetirdim. Azərbaycan dili dərsliyində Xronologiya, Annotasiya, Sitat haqqında məlumat verilib. Amma paronim anlayışının adı çəkilməyib.

Diqqət et.

Dilimizdə elə sözlər var ki, oxşar səslənir, lakin mənasına görə fərqlənir.

əsr-100 illik dövr

əsir-müharibədə ələ keçirilən düşmən əsgəri.

Tapşırıq Ç-də lüğətdən istifadə edərək verilmiş sözlərin izahını yazın.

Həsr-həsir mətn-mətin

əmr-əmir xeyr-xeyir [3, s.19].

Bir məqamı da qeyd edim ki, ana dili dərslərində şagirdlərin ən çox çətinlik çəkdiyi məsələlərdən biri də omonimlərlə çoxmənalı sözlərin ayırd edilməsi məsələsidir. Çoxmənalı sözlərə dilimizin demək olar ki, bütün əsas nitq hissələrində təsadüf edilir. Bunların içərisində kəmiyyət etibarilə isimlər və feillər çoxluq təşkil edir. Fikrimizcə, fəal dərsdə müəllimin seçdiyi metoddan asılı olaraq şagirdlərə omonimlərlə çoxmənalı sözlərin fərqli xüsusiyyətlərini özündə əks etdirən cədvəl və ya slayd mümayiş etdirilməlidir.

Nəticə

Tədris zamanı qrammatika, yazı qaydaları və nitq inkişafı üzrə iş elə planlaşdırılmalıdır ki, hər bir dərsdə dilin ayrı-ayrı sahələri (o cümlədən, fonetika, orfoepiya, leksika, morfologiya, sintaksis, söz yaradıcılığı, orfoqrafiya, punktuasiya, üslubiyyat və s.) qarşılıqlı əlaqədə öyrədilsin. İbtidai siniflərdən başlayaraq ana dilimizin fonetik, leksik, qrammatik, orfoepik, üslubi və ədəbi tələffüz qaydalarına uyğun qurulması önəmlidir.

Ədəbiyyat

1. Abdullayev N., Tahirov Q. Düzgün yazı təliminin bəzi məsələri. Bakı, 2003.

2. Hümmətova R. Ana dili II. Dərs vəsaiti. Bakı, 2019.

3. İsmayılov R., Nurullayeva Ü., Zahidova Ş., Bayramova İ., Xanalıyeva A., Cəlilova K. Ümumi təhsil müəssisələrinin 4-cü sinifləri üçün Azərbaycan dili fənni üzrə dərslik. I hissə. Bakı, Altun kitab, 2022.

THE LINGUISTIC ECOSYSTEM AND THE LEGACY OF BAKHTIYAR VAHABZADEH

DİLİN EKOSİSTEMİ VƏ BƏXTİYAR VAHABZADƏ İRSİ

Tağıyeva Ofeliya Allahverdi qızı
Filologiya üzrə fəlsəfə doktoru, dosent Bakı Slavyan Universiteti Azərbaycan, Bakı

Xülasə
XX əsrin sonlarına doğru dünya dilçilik elmi F. de Sossür prinsiplərindən, dilin sistemli şəkildə özü özlüyündə və özü üçün öyrənilməsi müddəalarından tədricən uzaqlaşmağa başladı. Dil artıq çoxqatlı və qarşılıqlı əlaqələrə əsaslanan bir varlıq kimi öyrənilməsi aktuallaşdı və nəticə etibarilə daxili və xarici dilçilik anlayışları fərqləndirildi. Müasir dilçilik elmi koqnitiv, antroposentrik, sosiolinqvistik və linqvokulturoloji tədqiqatlara daha çox üstünlük versə də, dilin daxili quruluşu və dildən düzgün istifadənin sosial-ictimai, etnomədəni, hətta siyasi aspektləri də bu gün çox aktualdır. Ekoloji tədqiqatlarda olduğu kimi, bu aspektdə aparılan tədqiqatlarda "dil sistem kimi" prinsipi qorunub saxlanıldı və nəticədə dilin "ekosistemi" ideyası formalaşdı. Bundan başqa, dilçilik elminin müasir dövrdə elmi axtarışlarının çoxşaxəli olması onu digər elm sahələrinin tədqiqat prinsipləri ilə inteqrasiya olunmasına səbəb oldu. Beləliklə, bu kontekstdə ekolinqvistika (və ya linqvistik ekologiya) adlı yeni elmi istiqamət formalaşdı.
Dilin ekosistemi məsələsi hələ ötən əsrin 70-ci illərindən başlayaraq, E. Haugenin "linqvistik ekologiya", L.P. Krısinin "mədəni nitq", Q.N. Lozovanın "pedaqoji ritorika", A.İ. Sokolovanın "nitq etiketi" konsepsiyaları daxilində tədqiq edilmişdir. Müasir dövrdə linqvoekoloji tədqiqatların aktuallaşması dilin təkcə daxili quruluşu və yarusları daxilində deyil, həm də dilin bir ekosistem kimi cəmiyyət, etnomədəniyyət və milli ideologiya ilə qarşılıqlı əlaqəsi ilə bağlıdır. Bu kontekstdə məqalədə dilin ekosistemi və linqvistik ekologiyanın tədqiqat dairəsi, onun müasir elmi-praktiki tədqiqatlarda yeri nəzərdən keçirilir. Məqalədə Azərbaycan (M. Şirəliyev, S. Əliyeva, N. Cəfərov və b.) və rus (Y.A. Suşşenko, S.K. Qolev, A.V. Skovorodnikov və b.) dilçilik məktəbləri arasında paralellər aparılaraq, dilin ekosistemi məsələsinin müxtəlif elmi paradiqmalarda təqdimatı təhlil edilir.
Məqalədə dilin "ekoloji təmizliyi" məsələsinin həmçinin bir çox yazıçı və şairlərin (V.S. Şefner, Ç. Aytmatov, R. Həmzətov və b.) əsərlərində edilən çağırışlarla işıqlandırılması xüsusi yer tutur. Xüsusi olaraq Bəxtiyar Vahabzadənin yaradıcılığı kontekstində dilin ekosisteminin əsas problemi olan dilin təmizliyi məsələsinə toxunulur, şairin poetik diskursunda linqvoekologiya problemləri ön plana çəkilir. B. Vahabzadənin əsərlərində dilin yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də milli-mənəvi dəyər kimi təqdim olunduğu göstərilir. Onun poetik diskursunda yer alan çağırışlar ana dilinin saflığının və yad təsirlərdən qorunmasını, xalqın kimliyinin və mədəni irsinin saxlanmasına yönəlmişdir. Xüsusilə "*Ana dili*", "*Latın əlifbası*", "*Vətən dili*" kimi şeirlərində dilin saflığı, onun mədəni-ekoloji dəyərlərlə vəhdətdə olması aydın şəkildə ifadə olunur.
Nəticə etibarilə, Bəxtiyar Vahabzadənin irsi linqvistik ekologiyanın ədəbi təcəssümü kimi təqdim olunur və dilin ekosisteminin qorunması ideyasının onun poetik düşüncəsinin əsas qayəsini təşkil etdiyi vurğulanır.
Açar szölər:linqvoekologiya, Bəxtiyar Vahabzadə irsi, dilin ekosistemi, nitq etiketi, poetik diskurs.

Abstract. Towards the end of the 20th century, linguistic scholarship began gradually moving away from Ferdinand de Saussure's foundational principles, which emphasized studying language as an autonomous and self-contained system. Over time, the focus shifted towards understanding language as a multifaceted phenomenon shaped by complex and dynamic interactions. This paradigm shift led to the differentiation between internal and external linguistics. Although contemporary linguistic research often emphasizes cognitive, anthropocentric, sociolinguistic, and linguocultural approaches, the structural aspects of language, along with the proper use of language in its social, cultural, and even political dimensions, continue to be highly relevant today. Just as ecological research maintains

systems-based principles, studies in this area have preserved the notion of "language as a system," which has contributed to the development of the concept of a linguistic ecosystem. In recent decades, the diversification of linguistic inquiry has resulted in the integration of methodologies from other academic disciplines, paving the way for the emergence of a new interdisciplinary field – ecolinguistics, also referred to as linguistic ecology.

The idea of a linguistic ecosystem has been explored since the 1970s, through the frameworks of scholars such as E. Haugen ("linguistic ecology"), L.P. Krysin ("cultural speech"), G.N. Lozova ("pedagogical rhetoric"), and A.I. Sokolova ("speech etiquette"). In today's context, the growing significance of ecolinguistic research lies not only in the internal levels and functions of language but also in its interaction with society, ethnoculture, and national ideology as a systemic whole. This article discusses the scope of ecolinguistics and the linguistic ecosystem, examining their relevance in contemporary academic and practical research. Drawing parallels between Azerbaijani (M. Shiraliyev, S. Aliyeva, N. Jafarov, etc.) and Russian (Y.A. Sushchenko, S.K. Golev, A.V. Skovorodnikov, etc.) schools of linguistics, the study analyzes how the linguistic ecosystem is interpreted across different theoretical paradigms.

A particular focus is given to the issue of "linguistic purity," which is not only addressed in scholarly discourse but also resonates in the works of various literary figures, including V.S. Shefner, Ch. Aitmatov, and R. Gamzatov. The article places special emphasis on the poetry of Bakhtiyar Vahabzadeh, exploring how linguistic ecology emerges as a central concern in his creative work. In his poetic discourse, language is portrayed not only as a communicative tool but also as a carrier of national and spiritual values. His appeals highlight the importance of preserving the purity of the mother tongue and protecting it from external influences, linking language preservation with the safeguarding of cultural identity and heritage. Poems such as *"Mother Tongue," "Latin Alphabet,"* and *"Language of the Homeland"* express these themes clearly, emphasizing the deep connection between linguistic purity and cultural-ecological values.

Ultimately, the legacy of Bakhtiyar Vahabzadeh is presented as a literary reflection of linguistic ecology, with the idea of protecting the linguistic ecosystem forming the core of his poetic vision.

Keywords: ecolinguistics, Bakhtiyar Vahabzadeh's legacy, linguistic ecosystem, speech etiquette, poetic discourse.

Giriş

XX əsrin sonlarından etibarən dilçilik tədqiqatlarında dilin ekosisteminə maraq artmağa başlayır və bunun da nəticəsində tədqiqatçılar sonradan linqvsitik elm sahəsinə çevrilən yeni elmi-tədqiqat istiqamətindən – linqvistik ekologiyadan – danışmağa başlayırlar. XX əsrin 70-ci illərində ilk dəfə olaraq amerikan sosioloq-dilçisi Eynar Haugenin (1972) ("linqvsitk ekologiya" termini də məhz ona aiddir), sonralar fransız dilçisi nümayəndəsi Nadej Leşevrel (2010) tərəfindən linqvstik ekologiyanın (və ya linqvoekologiyanın) ilkin təməli qoyulur və bu elmi istiqamətin ilk tədqiqat cizgiləri müəyyən edilir: dilin sosial-ictimai və təbii mühitdə funsionallaşmasının və sosiumla əlaqələrinin öyrənilməsi. Sonralar bu sahənin əsas qayəsi kimi ana dilinin lüzumsuz yad müdaxilərdən qorunması, dilin saflığı və təbiiliyinin, yəni dilin ekoloji təmizliyinin mühafizə edilməsi də çıxış edir. Digər tərəfdən, xarici və Azərbaycan dilçiliyində bu sahədə aparılan araşdırmalar dilin ekosisteminin həmçinin milli kimlik, nitq etiketi, ictimai şüur kimi anlamlarla əlaqələrini ortaya çıxarmışdır.

Müzakirə

Müasir dövrdə rus dilçiliyində V.V. Kolesov, N.S. Valqina, Y.A. Suşşenko, S.K. Qolev, Z.K. Tarlanov və b. linqvoekologiyanın, o cümlədən milli dilin təmizliyinin və saflığının qorunmasının qarşısında duran əsas problemləri belə müəyyən etmişlər: lüzumsuz alınmların milli dilə müdaxiləsi, dil sistemində parazit söz və söz formalarının, vulqar və tabu ifadələrinin artması, dialekt və jarqonların ədəbi dilə eksplikasiyası, milli dil çalarlarının qorunması və s. Q.V. Fayziyeva özünün "Linqvoekologiyanın əsas problemləri: nəzəri və tətbiqi aspektlər" (2024) araşdırmasında yazır: "Əslində mənimsənilmiş və mənimsənilməmiş alınmalar, beynəlmiləl sözlər, ekzotizmlər və digər yad mənşəli sözlər təkcə rus dilini çirkləndirmir, həm də yeni proseslərə və anlayışlara müşayiət

etməklə çox zaman rus dili daşıyıcılarının şüurunda çaşqınlıq yaradır, psixoloji narahatlıq və müəyyən bir natamamlıq hissi doğurur. Bununla belə, rus dilində alınmaların yaranmasının kifayət qədər səbəbləri var. Onların əksəriyyəti tamamilə obyektiv xarakter daşıyır" [Fayziyeva, 2024: s. 64]. Dilin ekosistemi məsələsi daha müfəssəl formada A.P. Skovorodnikov və L.İ. Skvortsovun da tədqiqatlarında geniş yer almışdır. L.İ. Skvortsov (1988) dilin ekosistemini daha sadə yanaşma ilə izhar edir: ekoloji təmiz dil dilin cəmiyyətlə qarçılıqlı əlaqəsindən və mütənasibliyindən asılıdır, yəni dilin sosiumda müəyyən dəyişikliklərə uğrması, bu dəyişikliklərə dilin reaksiyası və bu dəyişikliklərin dil quruluşuna təsiri dilin ekoloji saflığının qorunmasının əsas meyarlarıdır. Tədqiqatçı yazır ki, "linqvistik ekologiyanın aktual məsələlərindən biri də yad mənşəli alınmaların qiymətləndirilməsidir. Bu mövzu ətrafında aparılan müzakirələrdə bəzən zövqə əsaslanan subyektiv yanaşmalara və anti-tarixi mövqelərə rast gəlinir. Doğrudan da, bütün alınmaları istisnasız olaraq dilin "çirklənməsi" və ya onu anlaşılmaz və qeyri-doğru edən amil kimi təqdim etmək elmi baxımdan əsassızdır" [Skvortsov, 1988: s. 5]. Digər rus alimi A.P. Skovorodnikov (2019) isə ekodilçiyi belə səciyyələndirmişdir: "sosial və mədəni faktorların dilə təsirini öyrənən, dilin və nitqin deqradasiyası problemlərini araşdıran" [Skovorodnikov, 2019: s. 13] bir sahədir. Tədqiqatçının fikrincə, ekodilçilik təkcə dilin ekoloji baxımdan quruluşunu yox, dilin sosio-mədəni və ictimai-siyasi funksiyalarını da ehtiva edir və dil sisteminə bu cür baxış dilin ekoloji mühafizəsinin əsas qayəsini təşkil etməlidir. O, yazır: "Ekodilçilik elminin predmetinə təkcə dil vahidlərinin deyil, bütöv mətnlərin – xüsusilə də klassik bədii ədəbiyyat nümunələrinin – ekoloji baxımdan tədqiqinin daxil edilməsinə əsaslı ehtiyac olduğu qənaətinə gəlmək mümkündür. Belə mətnlər yalnız ədəbi dilin etalon (elitar, tamfunksiyalı) formalarının qoruyucusu və yaradıcısı kimi deyil, həm də milli mentalitetin daşıyıcısı və "incə aləmlərin" dərk olunmasında vasitə kimi çıxış edir" [Skovorodnikov, 2019: s. 15].

Rus dilçiliyi elmində nəzərdən keçirdiyimiz məsələ üzərində çoxsaylı araşdırmalar aparılmışdır, lakin məqalənin həcmi bir çox mühüm tədqiqatların təhlilindən yan keçməyə məcbur edir bizi. Bu tədqiqatların əsas məqsədini ümumiləşdirsək, deyə bilərik ki, dilin ekosisteminin qorunması əslində milli kimliyin və xalqın mental dil təfəkküründü qorumaqdır, çünki dil ekosistemin pozulması – əslində mədəni dezinteqrasiya, sosial deqradasiya deməkdir.

Azərbaycan dilçilik elmində də dilin ekoloji saflığı məsələsi istər dilçi-alimlərin, istərsə də ictimai xadim və digər ziyalıların daim diqqətində olmuşdur. Hələ öz zamanında H. Zərdabi, C. Məmmədquluzadə, M.F. Axundzadə və b. doğma dilin "ekoloji təmizliyi" məsələsini bir başa milli dil və milli dəyərlər ilə sıx bağlılığını vurğulamışlar [bax: Məmmədli, 2014]. Cümhuriyyət dövründə dilimizin dövlət dili statusunun alması ana dilinin sosial-ictimai və siyasi nüfuzunun yüksəlməsi istiqamətində əhəmiyyətli addım idi. Lakin sovet dönəmində müəyyən tarixi proseslər nəticəsində Azərbaycan dilinə rus dilindən çoxsaylı alınmaların təsiri nəticəsində dilin ekosistemi nəzərə çarpan şəkildə pozulur. Bu dövrün ideologiyası milli dillərin sovet respublikalarında inkişafı üçün müəyyən töhfələr versə də (ana dilində çoxsaylı elmi və bədii kitab nəşrləri, tərcümə sahələrinin genişlənməsi, ana dilində tədris fəaliyyətinin saxlanılması və s.), həm də mühüm assimilyasiya tendensiyaları, rus dilinin hegemonluğu (rəsmi yazışmalar, biblioqrafik fondun əksəriyyəti, əksər mətbu orqanlar və tədris materialları rus dilində idi) da müşayiət edilirdi ki, bu da milli dilin quruluşu və funksionallaşmasına, onun leksik ekosisteminə ciddi xələl yetirirdi.

Hərçənd bir çox ədiblərin əsərlərində milli oyanış, doğma dilə riqqət, dilin "ekoloji saflığı" və mental dəyərlər kimi məsələlər Azərbaycan ədəbi mühitinin əsas dayaqlarından birinə çevrilir (bu haqda aşağıda daha ətraflı söhbət açılacaq). Eyni zamanda yerli dilçilərin, o cümlədən, M. Şirəliyev, A. Axundov, Y. Seyidov və b. əsərlərində də milli dilin saflığı problemi ön plana çəkilir. XX əsrin sonlarından başlayan tarixi proseslər, o cümlədən latın qrafikasına keçid və digər dil islahatları dilin ekosisteminin yenidən bərpası məsələsini aktuallaşdırır. Başqa cür desək, dövlətimiz müstəqil olduqdan sonra bir çox dilçi-alimlər ana dilinin saflıı və ekoloji təmizliyi məsələsini yenidən gündəmə gətirmişlər.

"Dövlət dili haqqında Qanun" (2002) və dövlət dili siyasəti ilə bağlı mühüm rəsmi sənədlər, ana dilinin rəsmi ünsiyyətdə, təhsil və təlim sistemində, eləcə də media və informasiya vasitələrində tətbiqini gücləndirdi. Əfsus ki, bu gün qloballaşma və innovativ texnologiyanın sürətli inkişafı bu müstəvidə yeni problemlər yaratdı: öncə rus və sonra ingilis dillərinin təsiri nəticəsində dilimizə daxil

olan yüzlərlə alınma söz dilin saflığına ciddi təhlükə yaradır. Televiziya, sosial media, reklam sahəsində dilin normativ qaydalarına əməl edilməməsi bu prosesi daha da sürətləndirir. *Ofis, reytinq, birifinq, impiçment, sayt, banner, xeşteq, brauzer, moldinq, liftinq, supervayzer, merçindayzer, konsiller, qrimmer, çat* və minlərlə parazit təbiətli alınma sözlər bu gün adi vətəndaşdan tutmuş, media və dövlət qurumlarında aktiv şəkildə ana dilimizə müdaxilə edərək, milli dilimizin ekosistemini korlayırlar. Təbii ki, bu cür sözlərin ana dilimizə nüfuz etmələrinin obyektiv səbəbləri də ola bilər: beynəlxalq münasibətlər, ictimai-siyasi əlaqələrin genişlənməsi, xarici mal və avadanlıqların yayılması, innovativ komöüter və mobil tətbiqlərin genişlənməsi, yeni vəzifə və işlərin adlarının yaranması və s. Deməli, bu gün dilçi-alimlərimizin qarşısında, xüsusilə terminologiya sahəsində çalışan alimlərimizin qarşısında mühüm bir vəzifə durur: ana dilinin ekosistemini qorumaq məqsədilə müasir realilərə uyğun yaranmış terminlərin alternativ milli variantlarının, oxşar və ya bənzər termin-adların işlənib hazırlanması. R. Məmmədli (2014) yazır ki, son dövrlər "Ana dilimizin təmizliyini qorumaq, milli dünya görüşü və milli şüurun formalaşması baxımından əsas tələblərdəndir" [Məmmədli, 2014: s. 13].

Müasir dövrdə dilin "ekoloji saflığının" qorunması haqda prof. N. Cəfərov öz tədqiqatlarında dilin ictimai, siyasi və milli-ideoloji funksiyalarını vurğulayaraq, dilimizin milli kimliklə vəhdətdə mövcud olduğunu qeyd edirdi. Daha çox mətbu orqanlar vasitəsilə çağırışlar edən N. Cəfərov (2019), müsahibələrinin birində belə vurğulayır: "Dil cəmiyyəti inkişafa apardığı kimi, iflasa da aparır. Ona görə də dili mütəmadi olaraq redaktə etmək lazımdır. Bütün xalqlarda ana dili ilə fəxr etmək kimi fitri hiss var. Bu da dilin birbaşa olaraq etnosla bağlılığının olduğundan xəbər verir. Dövlət dili heç zaman geridə qalmış dil ola bilməz. Çünki bunun tarixi keçmişi var. Amma dilin bir cəhəti də var ki, dil həmişə cəmiyyəti yüksəkliyə aparmır. Bəzən elə olur ki, dil cəmiyyəti geriyə də qaytarır" [Cəfərov, 2019:]. N.Ə. Həsənzadə, G.Ə. Pənahova və Ə.M. Abbasovun (2016) birgə tərtib etdikləri dərslikdə bu gün dil ekosisteminin yad nüfuzetmələrdən qorunması hətta milli təhlükəsizlik kontekstində şərh edilir və dilimizin saflığının mühafizəsi vətəndaş borcu kimi dəyərləndirilir: "Dilin saflığı uğrunda mübarizə hər bir vətəndaşın gündəlik həyat tərzinə çevrilməlidir. Dilimizin yad dillərin təsirindən qurtarması, hibrid (calaq) sözlərin birləşməsi ilə "etnogenetik" qarışıqlıqdan xilası uğrunda çarpışmaq günümüzün tələblərindəndir" [Həsənzadə, Pənahova, Abbasov, 2016: s. 197].

Maraqlıdır ki, dil tarixinin formalaşdığı hər bir dövrdə dilçi-alimlərlə yanaşı istrər rus filoloji fikrində, istərsə də Azərbaycan ədəbi mühitində dilin saflığı problemi hər zaman aktual məsələlərdən biri olmuşdur. Rus və Azərbaycan ədibləri, maarifçiləri və yazarları ədəbiyyat vasitəsilə ana dilə doğma və saf münasibətin formalaşdırılmasında, etik və estetik dəyərlərin aşılamasında, milli dil idrakı, milli özünüdərk və mental dəyərlərin qorunmasında əhəmiyyətli rol ynamışlar. Hələ öz zamanında, məsələn, məşhur rus yazıçısı M. Qorki yazırdı: "Dilin təmizliyi uğrunda, məna dəqiqliyi və onun kəskinliyi uğrunda mübarizə, mədəniyyət silahı uğrunda aparılan mübarizədir" [Həsənzadə N.Ə. və b., 2016: s. 93]. Tanınmış rus şair və yazıçısı Vadim Şefner dilin "ekoloji saflığı" və ondan düzgün istifadəsi məsələsinə həssas yanaşan ədiblərdən biri olub. O, rus dilinin taleyi və onun mədəni dəyərlərinin qorunması ilə bağlı dərin narahatlıqla qeyd edirdi ki, dil sadəcə üns deyil, o, kimliyin, mədəniyyətin daşıyıcısıdır. V. Şefner jarqon sözlərə və qeyri-zəruri neologizmlərə qarşı çıxaraq, bu cür sözlərin dilin təbii axarını pozmasını, onun gözəlliyini və aydınlığını zədələməsini, həmçinin ünsiyyəti çətinləşdirməsini vurğulayırdı. O, yazırdı ki, söz çox güclü bir alətdir – onunla həm qurmaq, həm də dağıtmaq mümkündür ("Sözlər", 1956 şeyiri):

"*Sözlə öldürmək olar, sözlə diriltmək də var,*
Sözlə qoşun çəkilər, aparar minlərlə yar.
Sözlə satmaq da olar, sözlə aldadıb getmək,
Sözü çevirmək olar, ölüm saçan qurşuntək" (sərbəst tərcümə).

Gördüyümüz kimi, V. Şefner üçün sözün dəyərini və gücünü başa düşmək onun üçün əsas prinsip idi və məhz ona görə də, sözlərə diqqətlə yanaşmaq, onları ehtiyatla və məsuliyyətlə işlətmək, hər sözün işlətmə yerini və zamanını bilmək lazımdır.

Dahi qırğız yazıçısı Çingiz Aytmatov isə yazırdı: "Dünya dil kosmosunda yaşayır. Bir dəfə yaranmış dil ekoloji mühiti təbiət ekologiyası kimi mürəkkəb və kövrəkdir. Təbiətdə olduğu kimi, burada da yalnız faydalılıq əmsalı – yəni, səmərəlilik prinsipi ilə hərəkət etmək olmaz. Faydalılıq əmsalı avtomatika üçün uyğundur, amma mədəniyyət üçün yox" [Rısqulova, Kenjebayev, 2020]. O, həmçinin doğma dilin qorunub saxlanılmasını çox önəmli hesab edirdi və dilin saflığı ona görə ədib üçün prioritet məsələ idi. O, "Doğma Dil adlı şeyirində ana dilinin xalq və mədəniyyət üçün önəmini vurğulayır, doğma dil yox olarsa, xalqın ruhunun bir hissəsi də yox olar kimi fikirləri səsləndirir, doğma dilə olan sevgisini və sədaqətini ifadə edir.

Dilin ekosisteminin qorunması Azərbaycan klassik və müasir ədəbiyyatı nümayəndələrinin də əsərlərində prioritet məsələlərdən biri olub. Hələ dahi Nizami sözün gözəlliyi və onun ölçülü-biçili işlədilməsinin əhəmiyyəti vurğulayır, insanları düşünülmüş, nəzakətli və qısa danışmağa çağırır, çünki mənalı və sərrast sözlər çox danışmaqdan daha dəyərlidir. O, səmimi və təsirli sözləri ruhu oxşayan nadir nemətlərə bənzədir, dəyərsiz çoxluqdan üstün tutur. Müq. edin:

"*Sözün də su kimi lətafəti var.*
Hər sözü az demək daha xoş olar...
İncitək sözlər seç, az danış, az din,
Qoy az sözlərinlə dünya bəzənsin..." (N. Gəncəvi, "Leyli və Məcnun").

Bir çox Azərbaycan klassiklərinin əsərlərində ana dilinin qorunmasının önəmliyi vurğulanır, doğma dilin insan üçün kimliyinin və milli varlığının əsas sütunu olması ideyası təcəssüm edilir. 60-70-ci illər Azərbaycan şairlərinin əsərlərində dil təkcə ünsiyyət yox, xalqın tarixi, mədəniyyəti və düşüncə tərzinin daşıyıcısı kimi vurğulanır, ana dilinin mühafizəsi xalqın ruhunun və mənəvi irsinin yaşadılması kimi qeyd edilir:

"*İtsin gözlərimdən qoy ilim-ilim,*
Qəzəb ümmanıyam, yoxdur sahilim.
İlan zəhərindən acıdır dilim -
Öz ana dilini bilməyənlərə!" (T. Bayram, "Ana dilim").

"*Dilim – ən uca zirvədən də ucadır,*
Mənim ana dilim-zamandan qocadır.
Bu dil Qorqud dədəmizdən əmanətdir.
Bu dil böyük tarixdir, bəşəriyyətdir" (N. Xəzri, "Ana dilim").

Bəxtiyar Vahabzadə İrsinin Təhlili

Bəxtiyar Vahabzadənin yaradıcılığı dilin ekosisteminin, ana dilinin saflığının qorunması kontekstində daha zəngindir. Şairin bu sahədə bədii fəaliyyəti ümumiyyətlə dilin təmizliyi məsələsinin yalnız filoloji deyil, həm də ideoloji-mənəvi və sosial-ictimai məsələ olduğunu göstərir. O, öz dövrünün ədəbi mühitinin digər nümayəndələri ilə birlikdə ana dilinin saflığının qorumasının tərəfdarı olmaqla, ənənəvi qaydalarının, dilin daxili harmoniyasının saxlanılmasını və gələcək nəsillərə düzgün ötürülməsini mühüm məsələ hesab edirdi:

"*Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,*
Bu dil əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoruyub, nəsillərə biz də hədiyyə verək!" (B. Vahabzadə, "Ana dili").

B. Vahabzadə doğma dilin qorunmasının vacibliyini vurğulayır, gələcək nəsillər naminə dilin yaşadılmasını zəruri sayır. O, inanırdı ki, doğma dilin itməsi xalqın mədəniyyəti və kimliyinin də bir hissəsinin itməsi, saf ana dilini bilməməsi xalqın taleyindən bixəbər olması deməkdir:

"*Özgənin səsiylə danışanda sən,*
Özgə dodağıyla qımışanda sən,
Özgənin fikrini öz fikrin kimi
Deyəndə heç dilin titrəmədimi?" (B. Vahabzadə, "Özünə xəyanət").

B. Vahabzadə bəzi şeyirlərində bəzən sərt danışır, ana dilinə və milli-mənəvi dəyərlərə qiymət verməyən kəslərə qarşı çıxır, onları tənqid edir. Şair öz soylarını, əsl kök və irsini, adət-ənənələrini və milli mədəniyyətini unudanları kəskin qınayır, bu cür düşüncənin xalqın birliyinə, milli kimliyinə və dilin ekosisteminə təhlükə yaratdığını qeyd edir. Şairə görə, öz doğma sözündən utanmaq, onu ikinci dərəcəli saymaq mənəvi kasadlıq əlamətidir. Bu yanaşma həm də xalqın musiqisinə, poeziyasına və ruhuna qarşı laqeydlik kimi təqdim olunur. Müq. edin:

"*Ey özündən əmin, özündən razı,*
Yalanı söylədin kimin adından?
Ananın laylası, atanın sazı
Babanın ocağı çıxdı yadından?"
(B. Vahabzadə "Cavab" (Y. Zəkaya)).

"*Ey öz doğma dilində danışmağı ar bilən*
Fasonlu ədabazlar,
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.
Bunlar qoy mənim olsun,
Ancaq Vətən çörəyi,
Sizlərə qənim olsun!"
(B. Vahabzadə "Ana dili").

Maraqlıdır ki, doğma ana dilindən düzgün istifadə etməyənlərə, yad elementlərlə doğma dili korlayanalara qarşı çıxarkən, B. Vahabzadə hətta şeyirlərindən birində dahi Azərbaycan şairi Şəhriyara da "söz atmaqdan" çəkinmir:

"*Məni bağışlasın*
Şəhriyarım da,
Otuz il özgəyə "bəradər" dedi.
Öz doğma yurdunda, öz Diyarında
Doğma anasına o "madər" dedi.
Elə ki, yumruğu yerə dirəndi,
Dərhal yada düşdü doğmaca kəndi" (B. Vahabzadə "Anamın kitabı").

Təsadüfi deyil ki, B. Vahabzadənin XII cilddə nəşr olunan "Seçilmiş əsərləri" silsiləsinin XI-ci cildi şairin Ana dilinə, onun saflığının qorunması, ana dilinin düzgün təbliğ edilməsinə həsr edilən publisistik yazılarının (müsahibə və çıxışlarının) məcmusudur. Həmin əsərdə şairin "Ana dilim – ana köküm", "Bir daha ana dili haqda", "Məmurlar yenə də öz övladlarını anadilli məktəblərdə oxutmurlar", "Ana dili – dövlət dili", "Dil və əlifba" və s. yazılarında ana dilinin öyrənilməsinin və təbli edilməsinin vacibliyi, ana dilinə sevgi və ehtiramın labüdlüyü, ana dilinin qorunması kimi mühüm məsələlər ön planda çıxış edir.
Müsahiblərinin birində şair bu gün də çox aktual olan bir məsləyə toxunur: "Sovet imperiyasından xilas olub müstəqil dövlət yaratmağımıza baxmayaraq, vəzifə sahiblərinin övladlarını indi ABŞ-da, İngiltərədə və başqa Avropa məmləkətlərində oxutmasına toxunan B.Vahabzadə, "deməli, yenə də milləti, onun dilini qoruyub saxlayanlar sadə insanlardır" deyir. "Ən ürək ağrıdan cəhət burasıdır ki, sovet dönəmində rus dilini mükəmməl bilməyənləri işə götürmürdülərsə, indi də ingilis dilini bilməyənləri qapı arxasında qoyurlar. Mən heç də əcnəbi dillərin öyrədilməsinə qarşı deyiləm" deyir. Şair misal kimi öz ailəsini göstərir. "Mənim övladlarım və nəvələrim ana dilində təhsil alsalar da, ingilis və rus dillərini bilirlər. Övladımın biri isə bunlardan başqa fars dilini də mükəmməl bilir. Əcnəbi dilləri bilmək vacibdir". Lakin B.Vahabzadə xüsusi olaraq vurğulayır ki, bu, ana dilinin hesabına olmamalıdır" [Vahabzadə, 2009: s. 128-129]. Deyilənləri poetik tərzdə şair belə izhar edir:

"*Mənim övladıma ana dilində*
Dərs deyən «ağıllı» müəllimə bax.
"Vətən", "Vətən" deyir,
Öz övladını
Əcnəbi dilində oxudur ancaq...
Bir nədir, beş-altı dil bilsin gərək,
Bizim sabahımız - körpələrimiz.
Vətən dilinə də dodaq büzməyək,
Burdan ayaq açıb, yola çıxaq biz" (B. Vahabzadə, "Riyakar").

B. Vahabzadə irsinə qısa bir ekskurs göstərdi ki, şair öz yaradıcılığında ana dilinin saflığına, dilin ekosisetminin qorunmasına xalqın mənəvi saflığı prizmasından baxır, onu milli dəyərlər və milli kimlik sistemində vacib məsələ kimi qəbul edir. Şairin fikrincə, dilin ekosistemi pozulursa, dil idrakı, ümumi düşüncə pozulur. O, dilin təkcə ünsiyyət vasitəsi olmadığını, həm də xalqın milli düşüncə sisteminin daşıyıcısı olduğunu bildirir. Hər zaman şair təmiz, orijinal azərbaycan kəlmələrinə sahib çıxmağı xalqdan tələb edir və özü də bu qaydaya riayət edir. O, dili təmiz saxlamağı milli vəzifə hesab edirdi. Rus söz ustası A.N. Tolstoyun "Dillə necə gəldi rəftar etmək – düşüncəyə də necə gəldi yanaşmaq deməkdir: qeyri-dəqiq, təxmini, yanlış şəkildə" dahi fikri hər zaman Bəxtiyar Vahabzadə yaradıcılığının əsas qayəsi olmuşdur.

NƏTİCƏ

Beləliklə, aşağıdakı nəticələrə gəlmək olar. Dil ekosisteminin mühüm xüsusiyyəti – dilin sosial-mədəni, etno-milli və ictimai-siyasi əhəmiyyətə malik olan, eyni zamanda milli mədəniyyətin sabit göstəriciləri (konstantları) sayılan faktorlarına və normalarına qayğı ilə yanaşmaqdır. Bir çox tədqiqatçılar ekolinqvistik müdafiəyə ehtiyacı olan məsələlər sırasında əsasən leksik və frazeoloji xarakterli problemləri qeyd edirlər. Bu problemlər sırasında semantik baxımdan dəyərli söz və frazeologizmlərin unudulması, sözlərin semantik cəhətdən qüsurlu işlədilməsi, gərəksiz alınmaların çoxalması sindromu, ideoloji ritorik şablonlar problemi, nitqin eufemizasiyası, texnokratizmin, dilin aqressiyasının, dildən istifadədə "arsızlıq", jarqonlaşma və vulqarlaşmanın təsiri qeyd olunur. Bu kimi problemlərin dairəsi daha da genişləndirilə bilər: qeyri-mədəni ifadələrin və arqoların ictimai kommunikasiya sahələrinə intensiv şəkildə nüfuz etməsi, dil daşıyıcılarının bir çox dil və mədəniyyət dəyərlərini itirməsi, kodlaşdırılmış danışıq klişelərinin populyarlaşması, dil normalarının və uzusun geniş miqyasda pozulması və s. Digər tərəfdən, bu proseslər dil vəziyyətindəki faciəvi nəticələrə, dil şəxsiyyətinin parçalanmasına, dil birliyində ideoloji və dünyagörüşü müstəvisində yaranan dərin uçuruma dəlalət edir. Bu isə təkcə dillər və mədəniyyətlərarası dialoqun deyil, eyni zamanda dil sisteminin inkişafı və saflığının qarşısını alır.

Qeyd edilən problemlər müxtəlif elmi-nəzəri və metodik-praktik əhəmiyyət dərəcəsinə malik olsa da, bu, ekolinqvistikanın qarşısında duran vəzifələrin miqyasını və kəskinliyini tam şəkildə əhatə etmir. Ekolinqvistik problemlər daima yenilənir, ekodillə bağlı məsələlərin siyahısı mütəmadi olaraq genişlənir, çünki dilin öz "ekologiyası", öz ekosistemi, dil normasının və onun funksional sferasının ekoloji vəziyyəti də dəyişir. Buna görə də ekolinqvistik problemlərin araşdırılması da daim yenilənməyə, didaktik üsul və metodların mütəmadi olaraq korrektəsinə ehtiyac duyur. Deməli, ekolinqvistik yanaşma kompleks və inteqrativ xarakter daşıyır və bu da dilin tədris prosesinin bütövlüyünü və uğurluluğunu, eləcə də dil təhsilində saflıq və dəqiqliyi təmin edir. Məhz bu səbəbdəndir ki, "mövcud ekolinqvistik tədqiqatların sayı və səviyyəsi bu sahəni dilçilikdə boşluq və ya gələcəyə aid hipotetik bir anlayış kimi deyil, müstəqil mövcudluq hüququnu bəyan etmiş və dilçilikdə öz yerini tutmuş elmi sahə kimi dəyərləndirməyə əsas verir" [Skovorodnikov, 2019: s. 22]. Yuxarıda qeyd olunanların kontekstində, hər zaman dilin ekosisteminin "çirklənməsi" təmayüllərinə qarşı çıxan ədib, maarifçi və ziyalılar arasında Bəxtiyar Vahabzadənin xüsusi rolu vardır. O, ana dilinin yad təsirlərdən qorunmasının tərəfdarı kimi çıxış etmiş, poetik və publisistik yaradıcılığında bu məsələni milli-mənəvi problem kimi təqdim etmişdir. Şairin yaradıcılığı bu baxımdan xüsusi qeyd edilməlidir, çünki onun "Ana dili", "Riyakar", "Latın qrafikasına keçid", "Anamın kitabı", "Dil" və s. şeyirlərində, eləcə də bir çox publisistik məqalələrində, müsahibə və çıxışlarında ana dilinin

saflığına həssas yanaşması diqqət çəkir. O, bütün yaradıcılığı boyu dilin təmizliyi, ana dilinə sevgi, dilin qorunması kimi mövzuları təbliğ edir, Azərbaycan dilinin saflığının pozulmasından narahatlığını bildirir və oxucunu da bu məsələyə qarşı laqeyd qalmamağa çağırır.
Bəxtiyar Vahabzadə irsi bir daha sübüt etdi ki, ədəbiyyat yalnız estetik hadisə deyil, eyni zamanda dilin qoruyucusu və inkişaf etdiricisidir. Ədəbiyyat vasitəsilə dilə münasibət formalaşdırılır, estetik və etik dəyərlər ötürülür, milli özünüdərk gücləndirilir. Baxmayaraq ki, Azərbaycan ədəbi mühitində dilin təmizliyi məsələsi daim aktual olmuş, müxtəlif tarixi dövrlərdə fərqli çalarlarla müzakirə edilmişdir, bu sahədə Bəxtiyar Vahabzadə irsi Ana dilinin ekosisteminin təmizliyi meyarlarını yüksək səviyyədə təbliğ edən mənəvi yaddaşımızıdır.

İstifadə Edilmiş Ədəbiyyat

1. Məmmədli, R. (2014). Ana dili və milli mənlik məsələsi //Azərbaycan dili və ədəbiyyatı. – № 2. – S. 12-18.
2. Cəfərov, N. (2019, fevral 20). Dili mütəmadi olaraq redaktə etmək lazımdır [Müsahibə]. Report.az. https://report.az/elm-ve-tehsil-xeberleri/nizami-ceferov-dili-mutemadi-olaraq-redakte-etmek-lazimdir/.
3. Həsənzadə N.Ə., Pənahova G.Ə., Abbasov Ə.M. (2016). Azərbaycan dili və nitq mədəniyyəti. Bakı: Ecoprint. – 256 s.
4. Vahabzadə B. (2008). Əsərləri. On iki cilddə. II cild (1960-1969). – Bakı: Elm. – 618 s.
5. Vahabzadə B. (2009). Əsərləri. On iki cilddə. XI cild (Publisistika). – Bakı: Elm. – 738 s.
6. Рысгулова Г.У., Кенжебаев Д.О. (2020). Основные понятия и современные тенденции лингвоэкологии // Аспект, № 2. [Elektorn resurs]. https://na-journal.ru/2-2020-filologiya-lingvistika/2118-osnovnye-ponyatiya-i-sovremennye-tendencii-lingvoekologii.
7. Скворцов, Л.И. (1988). Культура языка и экология слова // Русская речь. – № 4. – S. 3-19.
8. Сковородников, А.П. (2019). О некоторых нерешенных вопросах теории лингвоэкологии // Политическая лингвистика. – № 5 (77). – S. 12-25.
9. Файзиева, Г.В. (2024). Основные проблемы лингвоэкологии: теоретический и прикладной аспекты // Лингвистика и образование. – Том 4. – № 1 (13). – S. 62-69.

References

1. Məmmədli, R. (2014). Ana dili və milli mənlik məsələsi //Azərbaycan dili və ədəbiyyatı. – № 2. – S. 12-18.
2. Cəfərov, N. (2019, fevral 20). Dili mütəmadi olaraq redaktə etmək lazımdır [Müsahibə]. Report.az. https://report.az/elm-ve-tehsil-xeberleri/nizami-ceferov-dili-mutemadi-olaraq-redakte-etmek-lazimdir/.
3. Həsənzadə N.Ə., Pənahova G.Ə., Abbasov Ə.M. (2016). Azərbaycan dili və nitq mədəniyyəti. Bakı: Ecoprint. – 256 s.
4. Vahabzadə B. (2008). Əsərləri. On iki cilddə. II cild (1960-1969). – Bakı: Elm. – 618 s.
5. Vahabzadə B. (2009). Əsərləri. On iki cilddə. XI cild (Publisistika). – Bakı: Elm. – 738 s.
6. Rysgulova G.U., Kenzhebaev D.O. (2020). Osnovnye ponyatiya i sovremennye tendencii lingvoekologii // Aspekt, № 2. [Elektorn resurs]. https://na-journal.ru/2-2020-filologiya-lingvistika/2118-osnovnye-ponyatiya-i-sovremennye-tendencii-lingvoekologii.
7. Skvortsov, L.I. (1988). Kul'tura yazyka i ekologiya slova // Russkaya rech'. – № 4. – S. 3-19.
8. Skovorodnikov, A.P. (2019). O nekotoryh nereshennyh voprosah teorii lingvoekologii // Politicheskaya lingvistika. – № 5 (77). – S. 12-25.
9. Fayzieva, G.V. (2024). Osnovnye problemy lingvoekologii: teoreticheskij i prikladnoj aspekty // Lingvistika i obrazovanie. – Tom 4. – № 1 (13). – S. 62-69.

EMOTIONAL INTELLIGENCE SKILLS, DEVELOPMENT NEEDS AND IMPACT ON PROFESSIONAL PREPARATION OF PRACTICAL PSYCHOLOGIST CANDIDATES

PRAKTİK PSİXOLOQ NAMİZƏDLƏRİNİN EMOSİONAL ZƏKA BACARIQLARI, İNKİŞAF EHTİYACLARI VƏ PEŞƏKAR HAZIRLIĞA TƏSİRİ

Ramazanova Kəmalə Şaban qızı
Psixologiya müəllim AZƏRBAYCAN/ŞƏKİ ADPU Şəki filialı
Orcid: 0009-0004-5225-3779

Xülasə
Bu məqalədə praktik psixoloq namizədlərinin peşəkar hazırlıq prosesində emosional zəka (EZ) bacarıqlarının rolu və əhəmiyyəti nəzəri əsaslarla təhlil edilmişdir. Emosional zəka, fərdin öz və başqalarının emosiyalarını tanıma, anlama və tənzimləmə bacarığı psixoloji xidmətlərin keyfiyyətində mühüm amil hesab olunur. Araşdırmalara əsasən, yüksək EZ səviyyəsinə malik olan psixoloqlar empatik yanaşma, konfliktlərin idarə olunması, stresslə mübarizə və peşə etikası sahələrində daha səmərəli fəaliyyət göstərirlər.
Məqalədə ilk olaraq EZ anlayışı və nəzəri çərçivəsi təqdim olunur, ardınca praktik psixoloq namizədləri üçün EZ-nin əhəmiyyəti təhlil edilir. Daha sonra onların inkişaf ehtiyacları, yəni emosional özünü dərk, empatiya, sosial bacarıqlar və emosional tənzimləmə sahəsindəki mövcud boşluqlar qeyd olunur. Nəhayət, peşəkar hazırlıq prosesində EZ-nin tətbiqi, etik qərarvermə və peşəkar şəxsiyyətin formalaşmasındakı təsirləri geniş şəkildə izah olunur.
Nəticə olaraq vurğulanır ki, psixoloji təhsil proqramlarında EZ bacarıqları həm nəzəri, eyni zamanda praktiki olaraq inkişaf etdirilməlidir. Bu yanaşma həm praktik psixoloq namizədlərinin peşəkar hazırlıq səviyyəsini artıracaq, həm də cəmiyyətə göstərilən psixoloji xidmətlərin keyfiyyətini yüksəldəcəkdir.
Açar sözlər: emosional zəka, empatiya, emosional tənzimləmə, praktik psixoloq

ABSTRACT
This article analyzes the role and importance of emotional intelligence (EQ) skills in the professional training of practicing psychologist candidates on theoretical grounds. Emotional intelligence – an individual's ability to recognize, understand, and regulate their own and others' emotions – is considered an important factor in the quality of psychological services. According to research, psychologists with high EQ levels perform more effectively in the areas of empathetic approach, conflict management, stress management, and professional ethics.
In conclusion, it is emphasized that EQ skills should be developed both theoretically and practically in psychological education programs. This approach will both increase the level of professional preparation of practicing psychologist candidates and improve the quality of psychological services provided to society.
Keywords: emotıonal ıntellıgence, empathy, emotıonal regulatıon, practıcal psychologıst

Giriş

Emosional zəka son onilliklərdə təhsil və psixoloji xidmət sahələrində mühüm əhəmiyyət kəsb edən konsepsiyalardan birinə çevrilmişdir. Xüsusilə psixoloji xidmət sahəsində fəaliyyət göstərəcək mütəxəssislərin, praktik psixoloq namizədlərinin peşəkar hazırlığında emosional zəka (EZ) bacarıqlarının inkişafı vacib şərt hesab olunur. Psixoloq, insanın emosional vəziyyətini anlama, empatiya qurma, emosional münasibətləri idarəetmə kimi funksiyaları yerinə yetirən bir peşəkar olaraq, yüksək emosional zəka səviyyəsinə malik olmalıdır.
Məqalənin məqsədi praktik psixoloq namizədlərinin emosional zəka bacarıqlarının nəzəri əsaslarını, inkişaf ehtiyaclarını və bu bacarıqların peşəkar hazırlığa təsirini elmi əsaslarla təhlil etməkdir.
Salovey və Mayer emosional zəkanı "öz emosiyalarını və başqalarının emosiyalarını tanımaq, ifadə etmək və idarə etmək bacarığı" kimi izah etmişdir. Onların modelində dörd əsas komponent yer alır:

1. Emosiyaların dərk edilməsi
2. Emosiyaların istifadəsi
3. Emosiyaların anlaşılması
4. Emosiyaların idarə olunması

Bu modelə əsasən, psixoloq yalnız öz emosiyalarını deyil, müştərisinin emosional vəziyyətini də düzgün analiz etməyi bacarmalıdır (Mayer, 2004).

Daniel Goleman (1995) isə emosional zəkanı beş komponent əsasında təhlil etmişdir:

- Özünü tanıma
- Özünü tənzimləmə
- Özünü motivasiya
- Empatiya
- Sosial bacarıqlar

Golemana görə yüksək EQ-a sahib psixoloq müştərilərlə sağlam münasibət qurmaqda, konfliktləri idarə etməkdə və stresli situasiyalarda daha dayanıqlı davranmaqda üstünlük qazanır (Goleman, 2001).

Reuven Bar-On emosional zəkanı insanın həyatdakı uğurunu və psixososial uyğunlaşmasını təmin edən əsas psixoloji bacarıq və resursların bir sistemi kimi təqdim etmişdir. O, emosional zəkanı yalnız intellektual qabiliyyətlərdən asılı olmayan, amma şəxsiyyətin funksional tərəfini tamamlayan bir qabiliyyət kimi qiymətləndirmişdir (Bar-On, 2000).

Bar-On modelinə əsasən, emosional zəka beş əsas sahəni və onların altında toplanan on beş alt bacarığı əhatə edir:

İntrapersonal (Fərdi)

- Özünü tanıma
- Emosiyaları ifadə etmə
- Özünə güvən
- Fərdi müstəqillik
- Özünə hörmət

Praktik psixoloq namizədi üçün öz emosiyalarını ayırd etmək və onlara adekvat yanaşmaq, peşəkar fəaliyyətin əsas şərtlərindəndir. Psixoloq şəxsi emosiyalarını tanımadan və tənzimləmədən, müştərilərlə obyektiv və etik münasibət qura bilməz. Goleman (2001) bu qabiliyyəti “emosional özünüdərketmə” kimi qiymətləndirmiş və onun liderlik və insan münasibətləri üçün əsas komponent olduğunu bildirmişdir.

Bu sahə praktik psixoloqlar üçün öz emosiyalarını və ehtiyaclarını ayırd edə bilməyi, professional sərhədləri qorumağı təmin edir. Psixoloq özünü tanımadığı halda başqasını anlamaqda da çətinlik çəkə bilər (Karahan & Yalçın, 2020).

Bu sahədə reflektiv məşğələlər, özünüqiymətləndirmə anketləri və superviziya seansları vasitəsilə özünütanıma bacarığı formalaşdırılmalıdır.

Interpersonal (Sosial münasibətlər)

- Empatiya
- Sosial məsuliyyət
- İnsanlarla uğurlu qarşılıqlı əlaqə

Psixoloji yardım prosesində empatiya qurmaq bacarığı, yəni başqasının emosional vəziyyətini anlama və bu vəziyyətə uyğun münasibət göstərmək peşəkar münasibətin keyfiyyətini müəyyən edən əsas amillərdəndir. Empatiya bacarığı yüksək olan psixoloq müştərinin emosional ehtiyaclarını daha tez və dəqiq müəyyənləşdirə bilir. Eyni zamanda bu, müştəri ilə etibarlı əlaqənin formalaşmasında mühüm rol oynayır (Karahan & Yalçın, 2020).

Bu bacarıqlar psixoloqun başqalarının emosiyalarını başa düşmək və sosial vəziyyətlərə uyğun davranmaq qabiliyyətini artırır. Empatiya praktik psixoloqlar üçün əsas komponentdir və bu sahədə zəiflik psixoloji xidmətin effektivliyinə mənfi təsir göstərə bilər.

Empatiya təlimləri, bədən dili və emosional ipuclarının analizi üzrə praktiki məşğələlər bu bacarığın inkişafına kömək edə bilər.

Stressə dözümlülük

- Stressin idarə olunması
- İmpulsların idarəsi

Praktik psixoloq namizədləri tez-tez psixoloji cəhətdən yüklənmiş situasiyalarda işləməli olurlar. Bu səbəbdən, stressi idarə etmək və ani emosional reaksiyaları nəzarətdə saxlamaq qabiliyyəti olduqca önəmlidir. EZ komponentlərindən biri olan stresslə başa çıxma bacarığı, peşəkarın emosional sabitliyini təmin edir və onun qərarvermə prosesinə müsbət təsir göstərir (Gündoğar, 2019).
Bu bacarıqlar, psixoloqun çətin situasiyalarda emosional dayanıqlılığını və soyuqqanlı qərarvermə qabiliyyətini inkişaf etdirir. Peşəkar fəaliyyət zamanı müştəri ilə qarşılıqlı təsirdə bu bacarıqların zəifliyi çatışmazlıqlara yol açа bilər (Bar-On, 2006).
Psixoloq namizədlərinə stres menecmenti texnikaları (məsələn, nəfəs məşqləri, mindfullness) öyrədilməlidir.

Uyğunlaşma (Adaptiv qabiliyyətlər)

- Reallıqla uyğunluq
- Problemlərin həlli
- Fleksibil və ya rigid düşüncə

Emosional zəkanın inkişaf etmiş səviyyəsi etik dilemmalarda daha sağlam və müdrik qərar verməyə kömək edir. Psixoloq, peşə fəaliyyətində qarşılaşdığı kompleks situasiyalarda həm şəxsi emosiyalarını, həm də situasiyanın sosial-emosional kontekstini düzgün qiymətləndirmək bacarığına sahib olmalıdır. EZ bu mənada peşəkar məsuliyyət hissini və qərarvermə keyfiyyətini artırır (Salovey & Mayer, 1990).
Bu komponentlər, psixoloqun dəyişən sosial və emosional şəraitlərə tez uyğunlaşmasını təmin edir. Məsələn, fərqli şəxsiyyət tipli müştərilərlə işləmək üçün psixoloqun situasiyaya adaptasiya qabiliyyəti yüksək olmalıdır (Gündoğar, 2019).
Rol oyunları, dram texnikaları və real situasiyalar üzərində iş bu sahədə inkişafı dəstəkləyir.

Ümumi əhval-ruhiyyə

- Optimizm
- Həyatdan məmnunluq

Emosional zəkanın bir başqa komponenti də pozitiv yanaşma və optimizmdir. Praktik psixoloq namizədləri daim dəyişən psixoloji yanaşmalara və metodlara uyğunlaşmalı, mütəmadi olaraq özlərini inkişaf etdirməyə açıq olmalıdırlar. Bu, EZ-nin ümumi əhval-ruhiyyə və özünütəkmilləşdirməyə olan motivasiya sahələri ilə sıx bağlıdır (Bar-On, 2000).
Bu hissə psixoloqun ümumi psixoloji sağlamlığı ilə bağlıdır. Həyatdan məmnun olmayan, pessimist əhvalda olan bir psixoloq emosional olaraq müştərilərə dəstək göstərməkdə çətinlik çəkə bilər.
Bar-On modelinə əsaslanan emosional zəka komponentləri praktik psixoloq namizədlərinin aşağıdakı sahələrdə peşəkar inkişafı üçün yönəldici ola bilər:

- Empatiya və etibarlı münasibət qurmaq
- Stresslə baş etmə bacarığı
- Konfliktləri idarəetmə və emosional sabitlik
- Müstəqil və etik qərarvermə
- Müştərilərlə konstruktiv və hüdudlu peşəkar əlaqə qurmaq

Əlavə olaraq, bu komponentlər psixoloji diaqnostika və müdaxilələrdə obyektivliyi və peşəkar məsuliyyəti gücləndirir. Bu baxımdan Bar-On modeli praktik psixoloq hazırlığında nəzəri baza ilə yanaşı, tədris planlarının və təlim strategiyalarının strukturlaşdırılmasında da istifadə oluna bilər.
Emosional zəka (EZ) bacarıqları praktik psixoloq namizədlərinin peşəkar hazırlıq prosesində ayrılmaz və fundamental komponent kimi çıxış edir. Müasir psixoloji xidmətlərin keyfiyyətli və effektiv şəkildə həyata keçirilməsi yalnız nəzəri biliklərlə deyil, eyni zamanda, yüksək emosional

kompetensiyalara malik olmaqla mümkündür. Bu mənada peşəkar hazırlıq prosesi təkcə texniki bacarıqların və nəzəri biliklərin mənimsənilməsini deyil, həm də emosional və sosial bacarıqların inkişaf etdirilməsini əhatə etməlidir (Goleman, 2001; Bar-On, 2006).

Psixoloji yardım peşəsi güclü etik davranış və şəxsi məsuliyyət tələb edir. Etik qərarvermə prosesi yalnız rasionallığa əsaslanmır, həm də emosional dəyərləndirmə və empatik yanaşma bacarıqları ilə müşayiət olunur. EZ komponentlərindən biri olan empatiya, psixoloqun qarşısındakı şəxsin hisslərini doğru anlamasını və uyğun peşəkar münasibət qurmasını təmin edir. Bu səbəbdən, EZ-nin etik qərarvermədəki rolu peşəkar hazırlığın mühüm elementlərindən biri sayılır (Sadiqzade Z., 2023).

Peşəkar şəxsiyyətin formalaşması prosesi psixoloq namizədinin şəxsi xüsusiyyətləri ilə peşəkar rolu arasında tarazlığın qurulmasını tələb edir. Bu tarazlıq EZ-nin yüksək səviyyədə inkişaf etməsi ilə mümkündür. Özünü tanıyan, emosiyalarını tənzimləyə bilən və başqaları ilə effektiv şəkildə əlaqə qura bilən namizədlər daha sabit və etibarlı peşəkar şəxsiyyət nümayiş etdirirlər (Rustamov et.al, 2023).

Peşəkar hazırlıq dövründə və sonrakı praktik fəaliyyətlərdə psixoloqlar tez-tez emosional yüklənmə və stresslə üzləşirlər. Bu, tükənmə sindromu (burnout) riskini artırır. EZ-nın əsas komponentləri olan özünüidarə və emosional elastiklik bu riskin azaldılmasında mühüm rol oynayır (Bar-On, 2006). Namizədin peşə fəaliyyətinə emosional dayanıqlılıqla yanaşması və öz resurslarını tənzimləmə bacarığı uzunmüddətli peşəkar sağlamlığın qorunmasına şərait yaradır.

Azərbaycan ali məktəblərində psixologiya üzrə bakalavr və magistr proqramları əsasən nəzəri biliklərə əsaslanır. Emosional zəka, empatiya, stressə davamlılıq, aktiv dinləmə və münasibətqurma kimi praktiki bacarıqlar ya ümumiyyətlə tədris olunmur, ya da zəif yer alır. Praktik məşğələlərin, simulyasiyaların və real məktəb təcrübələrinin azlığı özünü göstərir.

Hazırda Azərbaycanda məktəb psixoloq namizədlərinin emosional zəka səviyyəsi üzrə ölçmə və diaqnostik qiymətləndirmə sistemi mövcud deyil. Bu isə onların hansı sahədə zəif, hansı sahədə inkişaf etmiş olduğunu müəyyən etməyə imkan vermir.

Azərbaycanda psixoloq namizədlər üçün peşəkar seminarlar, emosional zəka təlimləri, sertifikat proqramları çox məhduddur. Beynəlxalq praktikalara çıxış imkanları azdır.

Nəticə

Bar-On modelinə əsaslanan emosional zəka komponentləri praktik psixoloq namizədlərinin peşəkar hazırlığında mühüm yer tutur və onların peşəkar şəxsiyyətinin formalaşmasında həlledici rol oynayır. İntrapersonal və interpersonal bacarıqlar, stressə davamlılıq, uyğunlaşma və ümumi əhval-ruhiyyə kimi sahələr psixoloji yardım xidmətlərinin effektivliyini təmin edən əsas emosional resurslar sırasındadır. Psixoloqun öz emosiyalarını tanıması, başqaları ilə empatik və etik münasibət qura bilməsi, peşə stressini tənzimləməsi və situasiyalara uyğunlaşa bilməsi onun peşə fəaliyyətinin keyfiyyətini artırır və tükənmə sindromu riskini azaldır.

Araşdırmalar göstərir ki, Azərbaycanda psixoloq namizədlərinin emosional zəka bacarıqlarının inkişafı və qiymətləndirilməsi sahəsində ciddi boşluqlar mövcuddur. Ali təhsil proqramlarında bu komponentlərin sistemli şəkildə tədris olunmaması, praktik təlimlərin azlığı, superviziya və real məktəb təcrübələrinin məhdud olması, namizədlərin peşəkar hazırlığında ciddi maneələr yaradır. Eyni zamanda, emosional zəka sahəsində diaqnostik qiymətləndirmə və inkişaf ehtiyaclarının müəyyənləşdirilməsi istiqamətində də yetərli təşəbbüslər yoxdur.

Tövsiyələr

- Təhsil proqramlarında yenilik: Ali məktəblərdə psixologiya proqramlarına emosional zəka bacarıqlarını inkişaf etdirən praktik fənlər, simulyasiya məşğələləri, reflektiv yazılar və empatiya təlimləri daxil edilməlidir.
- Qiymətləndirmə sisteminin yaradılması: Psixoloq namizədlərinin emosional zəka səviyyəsini ölçən yerli kontekstə uyğun diaqnostik alətlər hazırlanmalı və tətbiq olunmalıdır.
- Təlim və superviziya imkanlarının artırılması: Sertifikatlı təlim proqramları, seminarlar və superviziya sistemləri genişləndirilməli, beynəlxalq praktikaya çıxış imkanları yaradılmalıdır.
- Məktəb təcrübələrinin gücləndirilməsi: Praktik psixoloq namizədləri üçün məktəblərdə müşahidə və tətbiqi fəaliyyətlərə əsaslanan real təcrübə proqramları təşkil olunmalıdır.

• Peşəkar rifahın dəstəklənməsi: Tükənmə sindromunun qarşısını almaq üçün psixoloq namizədlərinə stress menecmenti, özünə qayğı və emosional dayanıqlılıq üzrə resurslar təqdim edilməlidir.

Emosional zəka yalnız fərdi inkişaf göstəricisi deyil, eyni zamanda, praktik psixoloq namizədinin peşəkar fəaliyyətə hazır olmasının başlıca şərtidir. EZ-nın peşəkar hazırlıq prosesində yer alması tədris proqramlarının, superviziya təcrübələrinin və təlim mühitinin keyfiyyətini artırmaqla yanaşı, psixoloji xidmətlərin effektivliyinə də müsbət təsir göstərir. Bu səbəbdən ali təhsil müəssisələrinin psixologiya fakültələrində EZ-nın nəzəri və praktiki əsaslarla tədrisinə sistemli şəkildə yanaşılması vacibdir.

Ədəbiyyat Siyahısı

1. Bar-On, R. (2006). The Bar-On Model of Emotional-Social Intelligence (ESI). *Psicothema*, 18(Suppl), 13–25.
2. Ceylan, M., & Koçak, D. (2022). Duygusal Zeka ile Öz-Yeterlik İlişkisi. *Türk Psikolojik Danışma ve Rehberlik Dergisi*, 12(64), 145–162.
3. Elnur Rustamov, Ulkar Zalova Nuriyeva etal. (2023). Azerbaijani adaptation of the Perceived School Experience Scale: Examining its impact on psychological distress and school satisfaction. Problems of Education in the 21st Century, 81(6), 869–884. https://files.eric.ed.gov/fulltext/EJ1409667.pdf
4. Goleman, D. (2001). *Emotional Intelligence: Issues in Paradigm Building*. Jossey-Bass.
5. Gündoğar, D. (2019). Psikolojik danışman adaylarında stresle başa çıkma ve duygusal zeka ilişkisi. *Kastamonu Eğitim Dergisi*, 27(1), 211–225.
6. Karahan, T. F., & Yalçın, B. (2020). Duygusal zeka ve psikolojik danışman adayları: Teorik ve uygulamalı bir değerlendirme. *Ege Eğitim Dergisi*, 21(2), 476–496.
7. Sadiqzade, Z. (2024). Fostering emotional intelligence in language learners. Journal of Azerbaijan Language and Education Studies, 1(1), 67–76. https://www.aem.az/effectveness-emotonal-ntellgence-e-n-teachng?utm
8. Şahin, F., & Gül, H. (2021). Rehberlik ve psikolojik danışman adaylarında empati becerileri. *Marmara Üniversitesi Eğitim Fakültesi Dergisi*, 54(2), 87–105.

SOCİO - PSYCHOLOGİCAL FACTORS İNFLUENCİNG THE EMPLOYMENT OF MİDDLE - AGED İNDİVİDUALS

ORTA YAŞLILARIN MƏŞĞULLUQ İMKANLARINA TƏSİR EDƏN PSİXOLOJİ VƏ SOSİAL FAKTORLAR

Əliyeva Nərgiz Rövşən qızı
Azərbaycan Turizm və Menecment Universiteti, Sosial menecment fakültəsi, "Beynəlxalq münasibətlər" kafedrasının müəllimi və Bakı Dövlət Universiteti, Sosial elmlər və psixologiya fakültəsi, "Sosial problemlər"ixtisası üzrə doktorantı
ORCID ID: 0009-0006-5590-6274

Abstract
The employment of middle-aged individuals remains a critical issue in contemporary labor markets, particularly in the context of aging populations and dynamic socio-economic transformations. This article explores the key socio-psychological factors affecting the employability and career sustainability of individuals aged 40 to 64. Drawing on empirical studies and theoretical frameworks, the paper highlights the impact of self-perception, motivation, social stigma, workplace discrimination, and intergenerational dynamics on middle-aged workers. It is argued that negative stereotypes regarding aging, decreased adaptability, and reduced training opportunities significantly hinder employment prospects. Conversely, psychological resilience, continuous learning, and supportive social networks play a vital role in maintaining employability. The study also emphasizes the importance of inclusive labor policies and age-friendly work environments to promote the socio-economic integration of this demographic group. Findings suggest that addressing socio-psychological barriers can lead to improved well-being and productivity among middle-aged workers.
Keywords: middle - aged employment, socio - psychological factors

Xülasə
Orta yaşlıların məşğulluq imkanlarına təsir edən psixoloji və sosial faktorlar onların əmək bazarındakı mövqeyini formalaşdıran mühüm struktur və funksional elementlər kimi çıxış edir. Psixoloji amillər xüsusilə motivasiya səviyyəsi, özünüqiymətləndirmə, peşəkar identiklik və yaşla bağlı psixoloji dəyişikliklər fərdin əmək davranışına, yeni bacarıqlara yiyələnmək və əmək bazarına adaptasiya imkanlarına əhəmiyyətli dərəcədə təsir göstərir. Bu psixoloji amillər eyni zamanda fərdin təşəbbüskarlıq qabiliyyətinə, peşəkar inkişafla bağlı gözləntilərinə və strateji qərarvermə davranışına birbaşa yön verən determinantlar qismində çıxış edir. Sosial faktorlar isə ailə məsuliyyəti, yaşlı nəslin ailədaxili rolunun artması, cəmiyyətin yaş kateqoriyasına münasibəti, eyni zamanda əmək bazarında müşahidə olunan yaşa görə ayrı - seçkilik və institusional baryerlərlə səciyyələnir. Bu faktorlar struktur səviyyədə sosial - siyasi qərarların və əmək bazarının fəaliyyət mexanizmlərinin birbaşa təsirinə məruz qalır. Orta yaşlıların məşğulluq imkanlarının artırılması üçün dövlət siyasətinin və institusional mexanizmlərin psixososial yanaşma əsasında formalaşdırılması zəruridir. Bu baxımdan, həm fərdi psixoloji resursların gücləndirilməsi, həm də sosial müdafiə və reabilitasiya mexanizmlərinin inkişaf etdirilməsi orta yaşlıların əmək bazarına inteqrasiyasını asanlaşdırmaqla yanaşı onların sosial - iqtisadi aktivliyini də stimullaşdıracaqdır. Beləliklə, psixoloji və sosial faktorların nəzərə alınması yalnız məşğulluq səviyyəsinin yüksəldilməsinə deyil, eyni zamanda cəmiyyətin davamlı sosial - iqtisadi inkişafına da töhfə verə bilər.
Açar sözlər: orta yaş, məşğulluq, psixoloji faktorlar, sosial amillər

Giriş.

Müasir əmək bazarında baş verən struktur dəyişikliklər fonunda orta yaş mərhələsində olan fərdlər, uzunmüddətli əmək fəaliyyəti nəticəsində qazandıqları praktiki təcrübə, peşəkar bilik və vərdişlər, eləcə də iş intizamı və məsuliyyətlilik kimi keyfiyyətləri ilə seçilərək, əmək resurslarının keyfiyyət

göstəriciləri baxımından mühüm strateji mövqedə dayanırlar. Onların həm insan kapitalı baxımından dəyəri, həm də əmək bazarındakı rəqabət qabiliyyəti yüksək qiymətləndirilir ki, bu da onları işəgötürənlər üçün etibarlı və səmərəli əmək resursuna çevirir. Lakin son illərdə aparılan sosioloji və psixoloji tədqiqatlar göstərir ki, bu yaş qrupunun məşğulluq imkanları yalnız iqtisadi şərtlərlə deyil, həm də onların psixoloji vəziyyəti, sosial statusu və ictimai münasibətləri ilə sıx bağlıdır.

Orta yaş dövrü insan həyatında yalnız bioloji və sosial baxımdan deyil, eyni zamanda peşəkar və psixoloji inkişaf kontekstində də mühüm keçid mərhələsi kimi xarakterizə olunur. Həmçinin, bu mərhələ bir tərəfdən fərdlərin illər boyu topladıqları bilik, bacarıq və təcrübəni sistemləşdirərək karyera istiqamətlərini yenidən qiymətləndirdikləri və əldə etdikləri resursları maksimum dərəcədə faydalı şəkildə realizə etməyə çalışdıqları dövr kimi çıxış edir. Digər tərəfdən isə bu yaş kateqoriyasına daxil olan şəxslər əmək bazarının getdikcə dinamikləşən strukturu, texnoloji yeniliklərin sürətlə tətbiqi və əmək fəaliyyətinin yeni tələbləri qarşısında öz mövqelərini qorumaq və yeni kompetensiyalar qazanmaq zərurəti ilə üz - üzə qalırlar. Təbii ki, bu tip çevik adaptasiya prosesləri psixoloji gərginlik və emosional narahatlıqla müşayiət olunur. Belə ki, fərdlərin özünüqiymətləndirmə meyarlarının dəyişməsi, uğur və dəyər anlayışlarına dair daxili qarşıdurmalar, eləcə də gələcəyə dair qeyri - müəyyənlik hissi bu dövrdə psixoloji təzyiqin artmasına səbəb olur və onların peşəkar qərarlarının rasional və uzunmüddətli planlaşdırılmasına maneə yaradan faktor kimi çıxış edir.

Bundan əlavə, yaş artdıqca fərdlərin cəmiyyətdəki sosial mövqeyi, ailə strukturundakı rolları və iqtisadi öhdəlikləri də dəyişkənlik göstərir. Belə ki, həm ailə başçısı, həm valideyn, həm də övlad kimi çoxqatlı sosial funksiyaları yerinə yetirməyə çalışan orta yaşlı fərd, bir tərəfdən uşaqlarının təhsil və gələcək təminatını, digər tərəfdən yaşlı valideynlərin qayğısını və rifahını təmin etməklə, artmaqda olan ailədaxili məsuliyyətlərlə üzləşir. Bu cür struktur dəyişikliklər və çoxistiqamətli öhdəliklər isə onların məşğulluq davranışlarında prioritetlərin yenidən müəyyən olunmasına, iş həyatına münasibətlərində daha çox sabitlik, sosial təminat və çeviklik axtarışına səbəb olur.

Nəticə etibarilə, orta yaş dövründə əmək bazarına inteqrasiya və ya orada mövqenin qorunması sadəcə peşəkar bacarıqların yenilənməsi ilə deyil, həm də psixoloji dayanıqlığın təmin olunması, sosial dəstək şəbəkələrinin mövcudluğu və institusional çevikliyin artırılması kimi çoxistiqamətli amillərlə şərtlənir.

Bu məqalənin əsas məqsədi orta yaşlı əhali qrupunun məşğulluğuna təsir göstərən psixoloji və sosial amilləri sosioloji müstəvidə kompleks şəkildə təhlil etmək, bu sahədə mövcud olan problemləri və onların yaranma səbəblərini müəyyənləşdirmək, həmçinin dövlət siyasəti və ictimai institutlar səviyyəsində reallaşdırıla biləcək dəstək mexanizmlərini nəzərdən keçirməkdir.

Orta yaş dövrünün psixoloji xüsusiyyətləri və məşğulluğa təsiri

Orta yaş dövrü insan həyatında inkişafın və dəyişikliklərin intensiv olduğu mərhələlərdən biridir. Bu dövr təxminən 40 - 65 yaş aralığını əhatə edir və insanın həm şəxsi, həm də peşəkar həyatında mühüm dönüş nöqtəsi sayılır. Psixologiyada bu mərhələ E. Eriksonun psixososial inkişaf nəzəriyyəsinə əsasən "məsuldarlıq və ya durğunluq" mərhələsi kimi xarakterizə olunur. İnsan bu mərhələdə öz bilik və təcrübəsini gələcək nəsillərə ötürmək, ictimai və peşəkar sahələrdə faydalı olmaq istəyir. Əgər bu məqsəd reallaşmazsa, mənasızlıq və durğunluq hissi yaranır ki, bu da depressiya, özünəinamın azalması və ümumi passivliklə müşayiət olunur [2, p.266-267].

Orta yaş dövründə fərdlərin psixoloji durumuna təsir edən mühüm amillərdən biri karyera ilə bağlı məyusluq hissi və zəif motivasiya səviyyəsidir ki, uzun müddət əmək bazarında iştirak edən şəxslər bu mərhələdə peşəkar inkişaf və yüksəliş imkanlarının məhdudlaşdığını müşahidə edirlər. Nəticə etibarilə, orta yaş dövrünə daxil olan fərdlər əmək bazarındakı dinamik tələblərin, texnologiyanın sürətlə yenilənməsinin və gənc nəsil işçi qüvvəsinin çevikliyinin fonunda, zaman keçdikcə öz peşəkar mövqelərini əvvəlki qədər stabil və rəqabətədavamlı hesab etməməyə başlayırlar. Bu situasiya onların əmək bazarında daha az tələb olunan və əvvəlki illərlə müqayisədə peşəkar dəyəri azalmış subyektlər kimi özlərini qavramalarına səbəb olur. Belə bir psixoloji qavrayış tədricən fərdlərdə öz peşəkar imkan və bacarıqlarına dair inamın azalmasına, yəni peşəkar özünüqiymətləndirmənin zəifləməsinə gətirib çıxarır. Bu prosesin davamlı xarakter alması isə, yalnız fərdi motivasiya səviyyəsində deyil,

həm də onların iş həyatına bağlılıq göstəricilərində nəzərəçarpacaq geriləmələrə səbəb ola bilər. Əmək fəaliyyətinə dair daxili motivasiyanın zəifləməsi, peşəkar kimliyin qeyri - müəyyən xarakter alması, eləcə də iş mühitində sosial təcridetmə və mənsubiyyət hissinin zəifləməsi kimi amillər nəticəsində fərdlər arasında peşəkar fəaliyyətə marağın azalması, passiv davranış modellərinin güclənməsi, eləcə də erkən mərhələdə əmək bazarından kənarlaşma hallarının artması müşahidə oluna bilər. Bu cür tendensiyalar xüsusilə orta yaşlı əhali qrupları arasında əmək resurslarının səmərəli istifadəsinə və ümumilikdə iqtisadi fəallığa mənfi təsir göstərir. Bununla yanaşı bu tip psixososial vəziyyət fərdlərdə həm özünürealizasiya imkanlarının məhdudlaşmasına, həm də ümumi həyat məmnuniyyətinin aşağı səviyyədə qalmasına gətirib çıxara bilər.

Digər tərəfdən, bu proses əmək bazarının struktur xüsusiyyətləri, işəgötürənlərin yaşa əsaslanan gözləntiləri və rəqabət şəraitində təcrübənin deyil, çevikliyin və texnoloji biliklərin üstün tutulması ilə də şərtlənir. Bu isə onu deməyə əsas verir ki, orta yaşlı fərdlərin əmək bazarına adaptasiya imkanlarının zəifləməsi və cəmiyyətin onlara yönəlik gözləntilərinin dəyişməsi onların psixoloji rifahına və sosial inteqrasiya səviyyələrinə də mənfi təsir göstərən faktor kimi çıxış edir. Bu baxımdan, peşəkar özünüqiymətləndirmənin və iş həyatına bağlılığın qorunması məqsədilə bu yaş qrupuna yönəlik dəstək tədbirlərinin, o cümlədən peşəkar inkişaf proqramlarının, yenidən ixtisasartırma imkanlarının və yaşa qarşı yönəlmiş diskriminasiya hallarının qarşısının alınmasına dair strategiyaların işlənib hazırlanması zərurət təşkil edir.

Orta yaş dövründə müşahidə olunan fiziki və koqnitiv dəyişikliklər də fərdin psixoloji rifahına və əmək fəaliyyətinə təsir edən mühüm amillər sırasındadır. Yaşın irəliləməsi ilə yaddaş, diqqət, informasiya emalı sürəti və fiziki çeviklik kimi funksional göstəricilərdə müəyyən enişlər qeydə alınır ki, bu dəyişikliklər də öz növbəsində iş qabiliyyətinin səviyyəsinə, qərarvermə bacarıqlarına və peşəkar fəaliyyətə inteqrasiyanın effektivliyinə mənfi təsir göstərir.

Onu da qeyd etmək lazımdır ki, cəmiyyətdə gənclik, dinamizm və yenilik meyillərinin ön plana çəkilməsi fonunda orta yaşlı şəxslər bəzən özlərini aktuallığını itirmiş, dəyər baxımından ikinci planda qalmış sosial qrup kimi qavramağa meylli olurlar. Bu hal onların sosial - psixoloji rifahına, peşəkar özünütəsdiqinə və əmək bazarındakı fəallığına mənfi təsir göstərir. Bu da özünüqiymətləndirmədə azalma ilə nəticələnən psixoloji faktor kimi çıxış edir. Həmçinin müxtəlif sosial öhdəliklər, valideyn qayğısı, övladların təhsili və digər ailə məsuliyyətləri insanın psixoloji yüklənməsini artırır.

Bütün bu psixoloji amillər orta yaşlıların məşğulluqla bağlı qərarlarına, yeni bacarıqlar qazanmağa və əmək bazarına inteqrasiyaya yanaşmalarına birbaşa təsir edir. Əgər psixoloji adaptasiya müsbət şəkildə baş tutarsa, bu dövr insanların peşəkar baxımdan ən məhsuldar mərhələsi ola bilər.

Sosial faktorlar və məşğulluğa təsiri.

Orta yaşlıların məşğulluq imkanlarını formalaşdıran və məhdudlaşdıran sosial amillər sırasında ailədaxili məsuliyyətlərin artması, cəmiyyətin yaşla bağlı formalaşdırdığı sosial gözləntilər və əmək bazarında mövcud olan yaşa əsaslanan diskriminasiya halları xüsusi əhəmiyyət daşıyır. Bu faktorlar bir tərəfdən fərdi qərarların formalaşmasında, digər tərəfdən isə institusional münasibətlərin təzahüründə mühüm rol oynayaraq, orta yaşlı fərdlərin əmək fəaliyyətində iştirakı və peşəkar inkişaf istiqamətində motivasiya səviyyələrini əhəmiyyətli dərəcədə təsir altına alır.

Ailə üzvlərinə qarşı sosial - mənəvi və maddi məsuliyyətlərin xüsusilə də yetkinlik yaşına çatmış övladların təhsilinə dəstək göstərilməsi və yaşlı valideynlərin gündəlik qayğılarının təşkili kimi öhdəliklərin artması orta yaş dövründə olan fərdlərin əmək bazarında daha aktiv və çevik iştirak etmə imkanlarını məhdudlaşdıra bilər. Bu növ ailədaxili öhdəliklər fərdlərin həm fiziki, həm də psixoloji resurslarını tükəndirə, onların iş saatlarında elastiklik və sosial müdafiəyə olan ehtiyacını artıraraq əmək bazarına dair gözləntilərini dəyişdirə bilər.

Eyni zamanda, cəmiyyətin yaşla bağlı mövcud stereotipləri və işəgötürənlərin yaşlı əmək qüvvəsinə yönəlik birmənalı olmayan münasibəti də bu yaş qrupuna daxil olan şəxslərin məşğulluq imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdıran amillərdən biri kimi çıxış edir. Əmək bazarında yaşa görə diskriminasiyanın, yəni peşəkar təcrübə və biliklərə baxmayaraq, yaş faktoru əsasında işə qəbul və ya yüksəlmə imkanlarının məhdudlaşdırılması hallarının mövcudluğu, orta yaşlıların karyera

perspektivlərinə mənfi təsir göstərərək, onların əmək fəaliyyətindən uzaqlaşmasına və sosial inteqrasiya səviyyələrinin aşağı düşməsinə səbəb olur [6, p. 226-227].

Beləliklə, ailə ilə bağlı öhdəliklərin artması və yaşla əlaqəli mövcud olan sosial - mədəni baryerlər orta yaşlı fərdlərin əmək bazarına inteqrasiyasına və məşğulluq səviyyəsinə bilavasitə təsir göstərir. Bu problemin effektiv həlli üçün həm sosial siyasət, həm də təşkilati idarəetmə səviyyəsində kompleks və məqsədyönlü yanaşmaların həyata keçirilməsi zəruri görünür. Bununla yanaşı, cəmiyyətin yaşlı işçi qüvvəsinə münasibəti, stereotiplər və yaşa əsaslanan mənfi mövqelər onların əmək bazarında mövqeyini zəiflədə bilər. İş yerlərində yaşa görə ayrı - seçkilik, yəni yaşla bağlı diskriminasiya isə orta yaşlıların işə qəbulu, peşə inkişafı və karyera yüksəlişi imkanlarını məhdudlaşdırır [3]. Bu sosial faktorlar bir tərəfdən fərdin motivasiyasına mənfi təsir göstərir, digər tərəfdən isə işəgötürənlərin orta yaşlı kadrları işə qəbul və saxlama siyasətinə təsir edir. Nəticədə, sosial faktorlar orta yaşlıların məşğulluq səviyyəsinin aşağı düşməsində mühüm rol oynayır və onların əmək bazarında effektiv iştirakını məhdudlaşdırır. Bu kontekstdə insanların karyera inkişafı mərhələsində, xüsusilə də orta yaş dövründə "risksiz yanaşma" və "sabitlik" kimi prinsiplər əsas prioritetlərə çevrilir və həmin dövrdə qəbul edilən peşəkar qərarların formalaşmasında bu meyarlar həlledici əhəmiyyət kəsb edir. Bu yaş mərhələsində fərdlər topladıqları peşəkar bilik və bacarıqlara əsaslanaraq daha düşünülmüş, sistemli və məqsədyönlü qərarlar qəbul etməyə meylli olurlar. Onlar əmək bazarında baş verən dəyişikliklərə münasibətdə daha ehtiyatlı mövqe nümayiş etdirir, qeyri - müəyyənlik və risk ehtimalı yüksək olan situasiyalardansa, sabitliyi və əvvəlcədən proqnozlaşdırıla bilən əmək şəraitini üstün tutmağa meylli olurlar. Bu tendensiya, orta yaş dövrünü innovativ təşəbbüslərdən daha çox, mövcud resursların və təcrübənin real tətbiqi, peşəkar mövqelərin möhkəmləndirilməsi ilə xarakterizə olunan bir mərhələyə çevirir. Nəticə etibarilə, bu dövrdə fərdlər üçün yalnız əmək fəaliyyətində deyil, həm də şəxsi həyatlarında müəyyənlik, sabitlik və psixoloji balans əsas dəyər kimi ön plana çıxır. Bu yanaşmalar, əmək bazarında təcrübənin, uzunmüddətli peşəkar öhdəliklərin və iqtisadi sabitliyə yönəlmiş davranış modellərinin nəzəri və praktik baxımdan daha dərindən araşdırılmasını zəruri edir.

Digər tərəfdən, sosial oriyentasiya amilinin təsiri kontekstində qeyd etmək olar ki, insanlar əmək fəaliyyəti vasitəsilə sosial münasibətlərin qurulmasına, kollektiv mühitdə qarşılıqlı fəaliyyətə və müəyyən sosial statusun əldə olunmasına can atırlar. Bu meyillər isə, öz növbəsində sosial məmnuniyyətin təmin edilməsinə xidmət edən motivasiya mexanizmi kimi çıxış edir [1, s. 170]. Bununla yanaşı, orta yaş mərhələsinə daxil olan fərdlər tədricən yalnız sosial oriyentasiyaya deyil, həm də şəxsi həyata və ailədaxili münasibətlərə daha çox önəm verməyə başlayırlar. Bu tendensiya onların həyat prioritetlərində transformasiyanın baş verdiyini və ictimai fəaliyyətlə şəxsi rifah arasında tarazlıq yaratmağa çalışdıqlarını göstərir. Bu isə əmək fəaliyyətinə dair gözləntilərin və davranış modellərinin dəyişməsinə daha dəqiq desək, iş və şəxsi həyat arasında optimal balansın qurulmasına yönəlmiş prioritetlərin ön plana çıxmasına səbəb olur. Bu kontekstdə orta yaşlı fərdlər çevik iş rejimləri, iş saatlarında elastiklik və psixoloji cəhətdən əlverişli əmək mühiti kimi amillərə daha çox önəm verirlər ki, bu da onlara eyni zamanda həm ailə məsuliyyətlərini yerinə yetirməyə, həm də peşəkar fəaliyyətlərini davam etdirməyə şərait yaradır.

Eyni zamanda, bu yaş dövründə fərdlərin sosial məsuliyyət hissi də əhəmiyyətli dərəcədə artır və bu məsuliyyət yalnız şəxsi və peşəkar inkişafla məhdudlaşmır, həm də ailədaxili münasibətlərin möhkəmləndirilməsi və sosial həmrəyliyin gücləndirilməsi istiqamətində də özünü göstərir. Nəticə etibarilə, orta yaş mərhələsində olan fərdlərin cəmiyyətin ümumi rifahına töhfə vermək məqsədi ilə könüllü fəaliyyətlərə marağı əhəmiyyətli dərəcədə artır. Bu dövrdə sosial əlaqələrin genişləndirilməsi, eləcə də digər insanlara yardım etməyə yönəlmiş altruistik meyillər güclənir. Beləliklə, orta yaş dövrünü yalnız şəxsi məmnuniyyətin və ailə rifahının təmininə yönəlmiş bir mərhələ kimi deyil, eyni zamanda fərdlərin ictimai həyata daha fəal inteqrasiya etdiyi və sosial faydalılıq dəyərlərinə üstünlük verdiyi bir inkişaf mərhələsi kimi xarakterizə etmək olar.

Nəticə

Orta yaşlıların məşğulluq imkanlarına təsir edən psixoloji və sosial faktorlar əmək bazarında onların mövqeyinin formalaşmasında mühüm rol oynayır. Psixoloji aspektlər kimi çıxış edən özünəinam səviyyəsi, stressə dözümlülük və yeniliklərə adaptasiya qabiliyyəti orta yaşlıların iş həyatında uğur qazanmasında əsas amillərdən biridir. Sosial faktorlar, o cümlədən ailə məsuliyyətləri, cəmiyyətin yaşa münasibəti və iş yerlərində yaşa görə diskriminasiya, onların məşğulluq imkanlarını məhdudlaşdıraraq əmək bazarında iştirakını çətinləşdirir. Bu faktorların qarşısının alınması üçün işəgötürənlərdə yaşa qarşı stereotiplərin aradan qaldırılması və yaşa əsaslanan ayrı - seçkiliyin qarşısının alınması vacibdir. Eyni zamanda, orta yaşlı əhali qrupunun əmək bazarında rəqabətə davamlılığının təmin edilməsi və onların iqtisadi fəallığının dəstəklənməsi üçün psixoloji resursların gücləndirilməsi və sosial dəstək mexanizmlərinin sistemli şəkildə inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu yaş dövründə fərdlərin qarşılaşdığı psixososial çağırışların o cümlədən yaşa bağlı özünəinamın azalması, peşəkar marginalizasiya və texnoloji dəyişikliklərə adaptasiya çətinliklərinin effektiv şəkildə idarə olunması yalnız fərdi səviyyədə deyil, həm də institusional və siyasət səviyyəsində məqsədyönlü müdaxilələri zəruri edir. Əgər bu sahədə müvafiq tədbirlərin həyata keçirilməsi gecikdirilərsə və həm mikro, həm də makro səviyyədə adekvat dəstək proqramları tətbiq olunmazsa, orta yaşlıların məşğulluqla bağlı problemləri tədricən daha da dərinləşə bilər ki, bu da cəmiyyət daxilində sosial təbəqələşmənin güclənməsi, sosial ədalətsizliyin artması və əmək ehtiyatlarından qeyri - effektiv istifadə nəticəsində ümumi iqtisadi səmərəliliyin azalması kimi mənfi nəticələrə gətirib çıxara bilər. Belə ki, orta yaşlıların əmək bazarından uzaqlaşması və ya potensial imkanlarının reallaşdırılmaması cəmiyyətin insan kapitalı ehtiyatının əhəmiyyətli bir hissəsinin istifadə olunmaması ilə nəticələnir ki, bu da iqtisadi inkişafın dayanıqlılığı və inklüzivliyi baxımından strateji risklər doğurur.

Bu kontekstdə həm fərdi səviyyədə ömürboyu öyrənmə, psixoloji hazırlıq və özünüinkişaf strategiyalarının təşviqi, həm də dövlət və digər institusional subyektlər tərəfindən həyata keçirilən siyasətlərin, o cümlədən ixtisasartırma və yenidənhazırlanma proqramlarının təşkili, yaşa əsaslanan diskriminasiyanın aradan qaldırılması və çevik məşğulluq modellərinin tətbiqi, paralel və uzlaşdırılmış şəkildə icrası zəruridir. Belə bir kompleks və çoxsəviyyəli yanaşma, orta yaşlı əhali qrupunun əmək bazarına uğurlu inteqrasiyasını və onun aktiv iştirakının təmin olunmasını şərtləndirir.

Ədəbiyyat

1. **Quliyev, T. Ə.** *Əməyin sosiologiyası.* Bakı: Maarif, 1998, 336 s
2. Erikson E. H. *Childhood and Society.* W.W. Norton & Company, 1950, 445 p.
3. Levinson D. J. *The Seasons of a Man's Life.* Ballantine Books, 1978, 496 p.
4. Jankowicz D., Bessant J. *Age and entrepreneurial career success: A meta-analysis.* Entrepreneurship Theory and Practice, 45(6), 2021, 1284–1304. https://doi.org/10.1177/1042258721992264
5. Neugarten B. L. *Age and the life course*. In *Handbook of Aging and the Social Sciences,* Academic Press, 1979, 36-53.
6. Schaie K. W. *Adult Development and Aging.* 1982, 474 p.
7. Lachman, M. E. Development in midlife. *Annual Review of Psychology,* 2004*, 55*, 305–331. https://doi.org/10.1146/annurev.psych.55.090902.141521

THE HOLY TRINITY IN THE CREATION OF BAHKTIYAR VAHABZADE: SCHOOL, TEACHER AND CHILD'S WORLD

BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA MÜQƏDDƏS ÜÇLÜK: MƏKTƏB, MÜƏLLİM VƏ UŞAQ DÜNYASI

Nazilə Abdullazadə
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent Azərbaycan Dövlət Pedaqoji Universiteti
http://Orcid.org/0000-0002-1829-7178

Özət
XX əsr Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən olan Bəxtiyar Vahabzadə ədəbiyyat tarixində mənəvi-əxlaqi dəyərlərin, türkçülüyün, milli təəssübkeşliyin, azərbaycançılıq ideologiyasının, ana dilinin, zaman-məkan-insan kontekstində fəlsəfi düşüncələrin tərənnümçüsü olmaqla yanaşı, uşaqlığın saflığını, məktəbin insan həyatında rolunu, müəllimin cəmiyyət üçün dəyərli olduğunu şeirlərində böyük ustalıqla əks etdirən bir şair kimi tanınır. Onun yaradıcılığında insan və cəmiyyət münasibətlərinin müxtəlif qatları əhatə olunmaqla, uşaq dünyası, məktəb mühiti və müəllim-şagird münasibətləri də dərin poetik ifadələrlə təqdim edilir.
B.Vahabzadəyə görə, məktəb sadəcə bir bina, bilik verilən məkan deyil, insanın şəxsiyyət kimi formalaşdığı, vətəndaş mövqeyinin təməl daşlarının qoyulduğu müqəddəs, məbəd timsallı, gələcəyin təməlini qoyan bir ocaqdır. Şair məktəbi vətənin, xalqın gələcəyi ilə bağlayaraq onu ümummilli inkişafın başlanğıc nöqtəsi kimi görür, milli-mənəvi dəyərlərin formalaşdırıldığı, şəxsiyyətin cəmiyyətə hazırlanmasında mühüm rol oynayan ideoloji bir mərkəz kimi təqdim edir.
Bəxtiyar Vahabzadənin yaradıcılığında müəllim obrazı sadəcə bir peşə sahibi deyil, insan həyatına yön verən, cəmiyyətin mənəvi sütunlarını qurmağa çalışan müqəddəs bir şəxsiyyətdir. Müəllim gələcəyin yolgöstərəni, insanlığın pənahı, uşaqları, gəncləri xalqın, vətənin gələcəyi üçün hazırlayan vətənpərvər insan, vətəndaş kimi tərənnüm olunur. Şair üçün müəllim xalqın gələcəyini yetişdirən memardır, onun zəhməti biliklə yanaşı, insanın şəxsiyyət kimi formalaşmasında da əsas rol oynayır. Vahabzadə müəllim obrazına dərin ehtiram və sevgi ilə yanaşır, onu təkcə tədris edən yox, həm də tərbiyə edən, düşünməyə və doğru yaşamağa yönəldən bir işıq mənbəyi kimi təqdim edir.
B.Vahabzadə məktəb-müəllim-uşaq dünyasına ideoloji və estetik yanaşmış, bu mövzuda şeirləri oxu kitablarında, ədəbiyyat dərsliklərində tədris materialı kimi yer almışdır.
Açar sözlər: poeziya, mövzu, Bəxtiyar Vahabzadə, məktəb, uşaq dünyası, müəllim obrazı.

Abstract
Bakhtiyar Vahabzadeh, one of the well-known representatives of 20th century Azerbaijani poetry, is known in the history of literature as a hymner of moral and ethical values, Turkism, national fanaticism, Azerbaijani ideology, mother tongue, philosophical thoughts in the context of time-space-human, and as a poet who masterfully reflects the purity of childhood, the role of school in human life, and the teacher's destiny for society in his poems. In his work, various layers of human and social relations are covered, and the world of the child, the school environment, and the teacher-student are also presented with deep poetic expressions.
According to B.Vahabzadeh, the school is not just a building, a place where knowledge is imparted, but a sacred, temple-like symbol where a person is formed as a personality, where the cornerstones of his civic position are laid, a hearth that lays the foundation for the future. The poet connects the school with the future of the homeland and the people, seeing it as the starting point of national development, presenting it as an ideological center where national and spiritual values are formed and where the personality plays an important role in preparing for society.
In Bakhtiyar Vahabzadeh's work, the image of the teacher is not just a professional, but a sacred personality who gives direction to human life and tries to build the spiritual pillars of society. The teacher is glorified as a guide to the future, a refuge for humanity, a patriot who prepares children and

youth for the future of the people and the homeland, and a citizen. For the poet, the teacher is an architect who cultivates the future of the people, and his work plays a key role in the formation of a person as a personality, along with knowledge. Vahabzadeh approaches the image of the teacher with deep respect and love, presenting him not only as a teacher, but also as a source of light that educates, directs to think and live correctly.
The poet presents the concepts of school, teacher and student as an inseparable, sacred trinity. This trinity – school, teacher and student – plays an important role in the spiritual revival of society and the formation of the future generation. In his poems, these three concepts, with their educational, social and philosophical load, constitute one of the main pillars of his poetic worldview.
B.Vahabzadeh had an ideological and aesthetic approach to the world of school-teacher-child, and his poems on this topic were included in reading books and literature textbooks as teaching material.
Key words: poetry, theme, Bakhtiyar Vahabzadeh, school, children's world, the image of a teacher.

GİRİŞ

"Çağdaş türk poeziyasının ünlü şairlərindən sayılan Bəxtiyar Vahabzadə yalnız "elinə, torpağına, kökünə bağlı, tarixə zaman və məkan müstəvisində körpü salan, poetik təfəkkürü milliliyə, bəşəriliyə köklənmiş" sənətkar deyil, Azərbaycan dili və ədəbiyyatının incəliklərinə dərindən bələd olan, onları qoruyub saxlamaq uğrunda mübarizə aparan ədəbiyyatşünas-alim, müəllim və vətəndaş olmuşdur" [Abdullazadə, 2012:2].
B.Vahabzadə şeir dünyasına qədəm qoyandan uşaqlar üçün bir-birindən maraqlı şeirlər yazmış, zaman-zaman bu şeirlər təhsil, maaarif, məktəb, müəllim haqqında poetik ibrətli fikirlərə çevrilmişdir. Təsadüfi deyil ki, hələ 60-cı illərdən bu şeirlər məktəbli dünyasına yol almış, ibtidai siniflərin "Ana dili", "Oxu", "Musiqi" kitablarında, yuxarı siniflərə qalxdıqca "Ədəbiyyat" dərsliklərində tədris materialı kimi verilmişdir. İbtidai siniflərdə şagirdlərə dil, millət, vətən, yuxarı siniflərdə milli qürur, ləyaqət, mənəviyyat, özgürlük anlayışlarının mənimsədilməsində Bəxtiyar Vahabzadə şeirləri əvəzsiz mənbə rolunu oynamışdır.
Bəxtiyar Vahabzadə şeirlərində gələcəyin təməli − məktəb anlayışı ilə qoyulur. Şairin "Məktəbli qız", "Yazı taxtası", "Birinci zəng", "İlk dərs", "Mənim parta yoldaşım", "Müəllim" və digər şeirlərində müəllim, şagird, məktəb üçlüyünün sosial-pedaqoji və poetik məzmunu mahiyyəti ilə özünü göstərir. Onun poetik irsində məktəb mühitinin nə dərəcədə mühüm yer tutduğunu Ə.Ağayev pedaqoq kimi yüksək qiymətləndirir: "Bəxtiyar Vahabzadənin şair-vətəndaş olaraq maraq dairəsində insanların dünyaya gəlişindən əbədilik dünyasına qovuşana qədər ömür yolu dayanır. Filosof şairin yaradıcılıq laboratoriyası bu zəngin həyatın müxtəlif anlarını, məzmun çalarlarını, insan münasibətlərini öyrənir, aldığı ictimai-fəlsəfi nəticələri poeziyanın ruhlandırıcı dili ilə bəyan edir. Qüdrətli sənətkarın uşaq və məktəb dünyasında da əsas sima insandır, insan münasibətidir, insanın öyrənməyi və öyrətməsidir, insanın yüksəliş yolunun tərənnümüdür" [Vahabzadə, 2012:338].
B.Vahabzadənin məktəb-uşaq mövzusunda şeirlərinin səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, şair uşağı birdən-birə məktəbə gətirmir, məktəb yaşına qədər onunla oyun oynayır, böyüyür, dalaşır, sonra əlindən tutub məktəb yoluna gətirir, bu yolun hər qarışını addım-addım onunla irəliləyir, onunla sevinir, onunla küsür, onunla məktəbin dadını-duzunu dadır, onunla yüksəlir və həyata qədəm qoyur. "Məktəb yolları" şeirində şairin poetik duyğuları, təhsil ocağına dəruni məhəbbəti əksini tapmışdır:

A məktəb yolları, məktəb yolları,
Sizi bir an belə unutmadım mən.
Könlüm min həsrətlə titrəyib əsir
Hər dəfə, hər dəfə keçəndə sizdən.

A mənim uşaqlıq dostum, həmdəmim!
Sən bilsən, nə qədər mənə əzizsən.
Hər kiçik daşının üstündən azı,
Atlanıb keçmişəm min bir dəfə mən.

Məktəb binasını şair yüz binanın içində tanıyır, aynaları bol, divarları boz bu binanın qapıları, pəncərələri də gen olur, sinif otaqlarında bol günəş olur. Məktəbin sinif otaqları şairə görə, başı buludlara dəyən, ucadır. Nə qədər sadə olsa da, hər kəsin yolu bu otaqlardan keçir. Bu otaqlarda balaca ürəklərin döyüntüsü arzularla coşub-daşıb. yerin, göyün sirrini öyrənir, ilk dəfə qaşlar çatılıb, çətin sualların cavabı bu otaqlarda tapılıb. Divarları əhəngli, bər-bəzəksiz bu otaq hər uşaqçün saraydan da gözəldir, tarixi, dünyanı bu otaqda öyrənir, burda həyata pərvazlanırlar:

Sən ey sinif otağı,
Beş-on uşağın deyil,
Sən neçə minlərinsən.
Sən bu sadəliyinlə
Həm gözəl, həm dərinsən [Vahabzadə, 2002:96].

Uşaqlıqdan gündə iki dəfə keçdiyi yol – məktəb yolu illər keçsə də, hər dəfə şairin qəlbini dağa döndərir. Bir vaxtlar qar, sazaq, boran belə bu yolu kəsə bilmirdi, hər daşın üstündən sevinclə atılıb keçirdi. Bu yol onu səadətə aparan yol, ömründə keçdiyi yolların ən şərəflisidir.

"Mənim parta yoldaşım" şeirində şair məktəbin insan həyatında buraxdığı dərin izin, titrək duyğuların, mübhəm hisslərin illər sonra da davam etdiyini, insanın ömür yolunda nostalji hisslərlə yaşadığını qələmə alır; şeiri oxuduqca sanki illərə geri dönür, istir-istəməz parta yoldaşını xatırlayır, kimlərinsə sinif yoldaşı olmaqdan daha çox xatirələrdə qalan yaxın münasibəti, qısqanclığı, gizli söhbətləri və çox şeyləri yada salırsan. İllər ötür, insan yaşa dolur, ancaq parta yoldaşı heç vaxt unudulmur; nə od, nə tufan, nə sazaq ayıra bilmədiyi yoldaşını illər ayırır, bir yerdə sevinib bir yerdə köks ötürdüyü həmdəmini, dostunu, parta yoldaşını illər taxta partalardan öz axarına alır:

Neçə il sən mənimlə bir partada oturdun
Mənimlə bir yerdəcə illəri başa vurdun.
Müəllimlər önündə əyləşdik cərgə-cərgə
Mən sinifdən-sinifə keçdikcə sənlə birgə
Böyüdü ildən-ilə o taxta partalar da
İllər ötdü....
Bəs indi sən hardasan, mən harda?!

Biz eyni kitablari bir yerdə vurduq sona
Qolum yazi yazanda toxunardi qoluna
Biz bir yerdə sevindik,
Bir yerdə köks ötürdük.
İllərlə düşündürən bizi bir fikir oldu...
Sevincimiz bir oldu,
Kədərimiz bir oldu...
İllər ötdü....
Bəs indi sən hardasan, mən harda?!

B.Vahabzadə şeirlərində məktəb sevgisi yalnız nostalji hisslərlə deyil, həm də ictimai məsuliyyət hissi ilə yoğrulmuşdur. Şairin fikrincə, məktəbə münasibət bir xalqın gələcəyinə münasibətdir. Bu ideya şairin bir çox şeirlərində də öz əksini tapır və məktəb anlayışı ilə bağlı təsəvvürlərin bir sistemi formalaşır. Şair məktəbi həm də milli kimliyin, vətən sevgisinin, mənəvi bütövlüyün təməllərinin atıldığı yer kimi təqdim edir. O hesab edir ki, əgər məktəbdə sağlam təməl qoyulmazsa, cəmiyyətin gələcəyi də təhlükə altına düşər. Bu baxımdan şair məktəbi strateji dəyər daşıyan bir ideoloji sistem kimi qiymətləndirir.

Bəxtiyar Vahabzadənin yaradıcılığında müəllim obrazı.

B.Vahabzadə yaradıcılığında müəllim obrazı böyük hərflərlə yazılmış bir obrazdır. Şair müəllimə bir peşə sahibi, vəzifə kimi deyil, bir missiya olaraq yanaşır. "Müəllim" adı özündə elm, bilik, mərifət anlayışları ilə yanaşı, vətənpərvərlik, mənəviyyat, əxlaqi dəyər, üstətik gözəllik, humanizm, milli kimlik anlayışlarını ehtiva edir. "Müəllim" adlı şeirində müəllimin mənəvi böyüklüyü çox aydın və təsirli ifadə olunmuşdur:

Müəllim! Qayğınla böyüyür insan!
Sən əqlə, kamala qanad verirsən.
Ana dilimizin gur bulağından
Körpə balalara su içirirsən! [Vahabzadə, 2004:169].

Şairin 1995-ci ildə Yəhya Kərimovun müəllifliyi ilə "Əlifba" dərsliyinə daxil edilən "Müəllim" şeiri 20 ilə yaxın tədris materialı kimi qüvvədə qalmışdır. Şeirin dili o qədər oynaq, sadə və axıcıdır ki, sanki müəllif bu şeiri ilə məxsusi məktəbə ilk qədəm qoyan körpələrin "müəllim kimdir?" sualına cavab verir. Müəllimin hər kənddə, hər obada yetişdirdiyi şagirdləri şair əkilən barlı-bəhərli ağaca bənzədir. Gülü-çiçəyi solmayan bu ağacların bağbanı − müəllim dünyanın ən varlı adamıdır.

Ay müəllim, müəllim,
Hər könüldə yerin var.
Hər kənddə, hər şəhərdə
Sənin meyvələrin var.
İşıq yağır, nur yağır,
Təmiz əməllərindən.
Kitab-dəftər almamış
Kim sənin əllərindən?

Bu adın şərəfli təmsilçilərindən olan B.Vahabzadə unudulmaz müəllimi Səidə İmanzadəni xatirələrində tez-tez yada salır, yaşlı vaxtında belə özünü onun qarşısında şagird sanır:

Tutdu onu zəhmi yenə də məni,
Qızardım, bozardım, yenə utandım.
Müəllim olsam da, oun önünüdə
Özümü yenə də tələbə sandım.

B.Vahabzadə uzun illər al məktəbdə müəllim işləmiş, bu şərəfli sənətin qayğıları ilə yaşamış, obyektivliyini qorumuşdur. Müəllim üçün ən böyük yaxşılığı şair tələbəsini savadlı görməkdə sayır. "Müəllimlik mənim günüm, həyatım, Şairlik ən uca duyğularımdır" [Vahabzadə, 1975:192] deyən B.Vahabzadə müəllimliyini həyatda qazandığı sənət sayır. Həyatı geniş əks etdirən bir söz sənətinin təmsilçisi olan ədəbiyyat müəllimi dərsliklə kifayətlənməməli, öyrətdiyi əsərin məzmunu ilə yanaşı, onun əxlaqi-estetik dəyərlər, mənəvi keyfiyyətlər aşılamasına diqqət yetirməlidir. Alimə görə, "bu fənnin tədrisində ən mühüm amil müəllimin ona olan böyük sevgisi, xalq ruhunu, xalq mənəviyyatını dərindən bilməsidir. Ədəbiyyat müəllimi hər şeydən əvvəl, bəhs etdiyi məsələnin atəşinə yanmağı, duya-duya, hiss edə-edə, alışa-alışa danışmağı bacarmalıdır. Ədəbiyyat müəlliminin ağzından sözlər tökülməməlidir. Onun dediyi sözlərin arxasında ürəyi od tutub alışmalıdır. Bu mənada bizə elə gəlir ki, müəllim, bir növ, aktyor olmalıdır" [Vahabzadə, 2005:297].

B.Vahabzadə təkcə lirik şeirlərində deyil, publisistik əsərlərində də müəllim peşəsi, müəllim şəxsiyyəti ilə bağlı maraqlı fikirlər irəli sürmüşdür. 1978-ci ildə Respublika Müəllimlərinin VI qurultayındakı çıxışında demişdi: "Məndən olsaydı, əlifbadakı sıra qanunlarını pozub "müəllim" sözünü bütün dillərin lüğətində ilk söz kimi yazardım. ...Bizi hələ uşaq ikən böyük fikirlər və böyük əməllərlə silahlandıran, gözümüzü dünyaya açan, əllərimizdən tutub bizi sirlər dünyasına aparan, bizə uçmaq üçün qanad verən müəllimimizdir. Müəllim beyinlərə fikir, ideya toxumu səpir, gözlərə işıq, ürəklərə od verir. Ən ümdəsi də bizə düşünmək öyrədir. Bu qəər böyük və lazımlı bir vəzifəni cəmiyyət müəllimə tapşırmışdır" [Vahabzadə, 2002:5-6]. Şairə görə, savadsız müəllim olmaq ən

böyük cinayətdir, o, neçə-neçə nəsli şikəst edir və cəmiyyətə "zay məhsul" verir. Müəllim hazırlığına diqqət və məsuliyyətlə yanaşmağı tpvsiyə edən şair-publisist yazırdı: "Müəllim üçün vacib keyfiyyətlərdən biri öz sənətinə, fənnin və uşaqlara məhəbbətin olmasıdır. Belə məhəbbətdən məhrum olan şəxslərdən (onlar nə qədər hazırlıqı olsalar da) yaxşı müəllim çıxmaz. Əsl müəllim öz fənninin vurğunu olmalı, bu sevgini, vurğunluğu yetirmələrinə də aşılamağı bacarmalıdır. Yaxşı deyiblər ki, özü aşılamayan başqasına da yandıra bilməz" [Vahabzadə, 2002:204].

B.Vahabzadənin şeirlərində müəllim-şagird münasibətləri.

Gələcəyin daşıyıcısı, nəsillərin davamçısı olan şagirdin – uşağın mənəvi-ideoloji, əxlaqi baxımdan böyüməsi, tərbiyəsi və gələcəyə hazırlanması məktəbdə baş verir. Şairin nəzərində şagirdin məktəb həyatı həm də uşaqlığın qayğısız, şən çağlarının keçdiyi, özünə dost, yoldaş qazandığı, pisi yaxşıdan ayırmağa imkan verən, sevginin ilk həyəcanlarının yaşandığı və s. hisslərlə dolu bir həyatdır.

"Kiçikyaşlı uşaqların duyğuları, xəyalları, böyüklərin dünyasından xəbərsiz bir dünyanın sakinləri kimi özgürlükləri şairin yaradıcılığı boyu doğulduğu, böyüdüyü məkanı, zamanı, ələlxüsus uşaqlıq dövrünü bir an belə unutmaması ilə bağlıdır" [Abdullazadə, 2012:3]. O yazırdı: "...Uşaqlıq dövrü insan ömrünün bünövrə daşıdır. Sonrakı arzular, xəyallar, düşüncələr bu daşa söykənib qanadlanır. İnsanın ağlı, düşüncəsi, zövqü, ruhu, psixologiyası, istedad və qabiliyyəti və hətta sağlamlığı da bu dövrdə formalaşır" [Vahabzadə, 1991:233]. Uşaq və məktəb dünyası ilə bağlı qələmə aldığı "Niyə", "Sevinc gətirmişəm", "Mən ki qara deyiləm", "Niyə köks ötürdün", "Körpə gülüşü", "Sinif-həyat", "Birinci zəng", "Uşaqkən düşünərdim" şeirlərində uşaqların sual dolu dünyası şairi düşündürür, məktəbəqədərki maraqları, həyəcanları, dünyanı duymaq bəzən balaca əlləri ilə onu çiyinlərinə alıb aparmaq arzusu heyrət doğurur. "Gəlin dostlar, görüşək" şeirində şair saçlarına dən, üzünə qırışlar düşən məktəb dostlarını illərin arxasından görüşə çağırır. Vaxtilə − uşaqkən bir sevinib bir gülən dostlar indi dərdləri bölüşməyə toplaşmalıdır. Dünənin şagirdləri, bugünün atalarını məktəb birləşdirmiş, həyat ayırmışdı, lakin o günlər, o anlar xoş xatirə kimi hər kəsin yaddaşında yaşayır:

Gəlin, dostlar, görüşək,
Ayda, ildə bir kərə.
Heç olmasa xəyalda
Qayıdaq keçmiişlərə.

Şairin şeirlərində müəllim-şagird münasibətlərinə yüksək humanist və emosional çalarlarla yanaşılır. Bu şeirlərdə müəllimin zəhməti, fədakarlığı və xalq qarşısındakı məsuliyyəti xüsusi vurğulanır. Şagirdlər müəllimə minnətdarlıq duyğuları ilə yanaşır, onun verdiyi dərslərin təkcə kitablarda deyil, həyatın özündə də mənasını tapdığını etiraf edirlər. Şair müəllimi "hamar beyinləri cilalandıran", "körpə könüllərdə məşəl yandıran", "tez durub gec yatan", "sabahı bu gün yaradan", "düşüncə güllərini əqillə suvaran", "insanı göylərə qaldıran", "xəyala qol-qanad, gözə nur verən" insan kimi səciyyələndirir. Müəllim də, onun olduğu məktəb də şairə görə, insanın cəmiyyətdə mövqeyini, bir şəxsiyyət kimi rolunu formalaşdıran əvəzsiz insan və məkandır. Şairə görə, müəllim hər bir insanın həyat yolunda və qəlbində mərmərdən yonulan heykəl kimi daim ona yol göstərir, qaranlıqlara işıq salır:

Gəl, ey heykəltəraş, Bu mərmər, bu gül...
Düşün müəllimi, sonra alış, yan.
Onun heykəlini mərmərdən deyil,
Yarat özü kimi nurdan, işıqdan [Vahabzadə, 2002:96].

Bəxtiyar Vahabzadə üçün şagird sadəcə təhsil alan deyil, xalqın sabahı, cəmiyyətin davamçısı, millətin gələcəyini daşıyan canlı bir ümiddir. Onun yaradıcılığında şagird obrazı həm poetik, həm də ideoloji baxımdan xüsusi məna daşıyır. Şagirdin inkişaf yolu, mənəvi formalaşması, müəllimlə münasibəti və məktəbdə aldığı tərbiyə Vahabzadənin şeirlərində mütəmadi olaraq vurğulanır.

Vahabzadə şagirdi eyni zamanda bir şəxsiyyət olaraq təqdim edir – sual verən, düşünən, böyüyən, vətəndaş olmağa doğru gedən bir insan. Bu baxış müəlliminə ona yalnız dərs deyil, həyat dərsi verdiyi üçün təşəkküründə əksini tapır:

Mən bir toxum idim, sabahım-sirdi.
Mənə şəkil verən, rəng verənimsən.
Məni bu dünyaya anam gətirdi
Sənsə bitirənim, yetirənimsən.

Müəllim! Düşüncə güllərimizi
Əqlilə suvaran bir bağban oldu.
Endirdi yerlərə atamız bizi
Müəllim − göylərə qaldıran oldu.

Bu misralarda müəllimin sözləri ilə böyüyən bir şagirdin iç dünyası təsvir olunur. Onun məktəbdə aldığı təhsil yalnız nəzəri bilik deyil, həm də həyat fəlsəfəsidir. Şagird bu təcrübə ilə formalaşır, əxlaqi dəyərlər qazanır və gələcəkdə bu dəyərləri daşıyacaq bir vətəndaşa çevrilir. Bəxtiyar Vahabzadənin şeirlərində şagirdlər biliklə silahlanmış, xalqına, torpağına bağlı, düşünən və yaradan insanlar kimi təqdim olunur. Şair üçün şagirdin tərbiyəsi gələcəyin taleyini müəyyən edən ən vacib amillərdən biridir. Buna görə də onun şeirlərində şagirdlə bağlı təsvirlər həmişə ümid, inam və mənəvi məsuliyyətlə yüklənir.

Vahabzadənin uşaq dünyasına olan baxışında şagirdin ruh dünyası da diqqət mərkəzindədir. Bu dünyada səmimilik, təmizlik, saf duyğular və sonsuz öyrənmək istəyi var. Məhz bu keyfiyyətləri qorumaq və inkişaf etdirmək müəllimin, məktəbin və cəmiyyətin əsas vəzifəsidir.

NƏTİCƏ

B.Vahabzadə şeirlərində məktəb–müəllim–uşaq (şagird) üçlüyü öz tərbiyəvi, ictimai və fəlsəfi yükü ilə poetik dünyagörüşünün əsas sütunlarından birini təşkil edir.Məktəb – bu üçlüyün fiziki və mənəvi məkanıdır. Müəllim – bu məkanda nur saçan, yol göstərən, şagirdin həyatına istiqamət verən şəxsiyyətdir. Şagird isə bu vəhdətin mərkəzində duran, bütün bu prosesin səbəbi və nəticəsidir. Vahabzadə bu üçlüyə həm bədii, həm də fəlsəfi yanaşır və onların qarşılıqlı əlaqəsini milli tərbiyə sisteminin əsası kimi təqdim edir.

Şairin yaradıcılığının tərbiyəvi və didaktik gücü də bu üçlüyü − məktəb, müəllim və şagird anlayışlarını bir-birindən ayrılmaz, müqəddəs bir üçlük kimi kimi təqdimindədir. Bu üçlük – məktəb, müəllim və şagird – cəmiyyətin mənəvi dirçəlişində və gələcək nəslin formalaşdırılmasında mühüm rol oynayır. Şair məktəb, müəllim və şagird anlayışlarını yalnız təhsil prosesinin elementləri kimi deyil, həm də milli-mənəvi dəyərlərin formalaşmasında, gələcək nəsillərin yetişdirilməsində fundamental rol oynayan müqəddəs bir üçlük kimi təsvir edir. Şagird gələcəyin daşıyıcısı, bu vəhdətin canlı nəticəsidir. Onun şəxsiyyət kimi yetişməsi üçün həm məktəb, həm də müəllim öz funksiyalarını yerinə yetirməlidir. Vahabzadəyə görə, məktəb–müəllim–şagird üçlüyü yalnız o zaman ideal modelə çevrilir ki, burada qarşılıqlı hörmət, sevgi və mənəvi məsuliyyət mövcud olsun. Bu münasibət sistemi həm təhsilin effektivliyini təmin edir, həm də sağlam cəmiyyətin formalaşmasına xidmət edir.

Şairin yaradıcılığında bu vəhdət eyni zamanda təhsil sisteminə olan yüksək inamın və ideallaşdırmanın göstəricisidir. Bu baxımdan onun şeirləri yalnız bədii əsərlər deyil, həm də pedaqoji, fəlsəfi və mənəvi dəyərləri özündə ehtiva edən ictimai təbliğat vasitələridir.

Müasir dövrdə Vahabzadənin məktəb, müəllim və şagird mövzularında yaratdığı poetik təsvirlər, tərbiyəvi ideallar hələ də aktualdır və təhsil prosesində dərin mənəvi dəstək kimi qiymətləndirilməlidir. Onun yaradıcılığı təhsil və tərbiyə sahəsində çalışan hər bir insan üçün qiymətli qaynaq və ilham mənbəyidir.

ƏDƏBİYYAT

1. Abdullazadə, N. (2012). Bəxtiyar Vahabzadənin publisistikası: ədəbiyyat və sənət düşüncələri / I Beynəlxalq Bəxtiyar Vahabzadə simpoziumunun materialları. 13-15 dekabr, Qafqaz Universiteti, − s.2-8.

1. Abdullazadə, N. (2020). Bəxtiyar Vahabzadənin yaradıcılığında Azərbaycan ədəbiyyatının tədrisi məsələləri. //3rd İnternational Bahtiyar Vahapzade Azerbaijan History, Culture and Literature Symposium. – Baku. – s.22-29.
2. Ağayev, Ə. (2012). Bəxtiyar Vahabzadənin uşaq və məktəb dünyası // I Beynəlxalq Bəxtiyar Vahabzadə simpoziumunun materialları. 13-15 dekabr, Qafqaz Universiteti, − s.337-341.
3. Gündoğdu, B. (2013). Bəxtiyar Vahabzadənin publisistikası. – Bakı: "Nurlar". – 372 s.
4. Müasir Azərbaycan ədəbiyyatı (2007). 2 cilddə, II c. − Bakı: Bakı Universiteti nəşriyyatı. − 564 s.
5. Vahabzadə, B. (1991). Şənbə gecəsinə gedən yol. – Bakı: Azərnəşr. – 334 s.
6. Vahabzadə, B. (2004). Seçilmiş əsərləri. 2 cilddə, I c. – Bakı: "Öndər" nəşriyyat. – 328 s.
7. Vahabzadə, B. (2002). Əsərləri, 11 cilddə, III c. − Bakı: Azərbaycan nəşriyyatı. – 512 s.
8. Vahabzadə, B. (2005). Əsərləri, 11 cilddə, IX c. Məqalələr. Ədəbiyyat və sənət. − Bakı: Azərbaycan nəşriyyatı. – 784 s.
9. Vahabzadə, B. (2005). Əsərləri, 11 cilddə, X c. Publisistika. − Bakı: Azərbaycan nəşriyyatı. – 688 s.

INNOVATIONS IN GENERAL EDUCATION

ÜMUMİ TƏHSİLDƏ İNNOVASİYALAR

Vəfa Əhmədzadə
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Cəlilabad filialı Pedaqoji fakültə, tələbə

Xülasə:
Bu məqalədə ümumi təhsildə innovasiyaların tətbiqi və onların təlim prosesinə, eləcə də şagirdlərin nailiyyətlərinə təsiri geniş və dərindən təhlil olunur. Təhsil sahəsində innovasiyalar müasir çağırışlara cavab olaraq təkcə bilik ötürülməsini deyil, həm də tənqidi düşünmə, yaradıcılıq, əməkdaşlıq və problem həll etmə bacarıqlarının inkişafını əsas məqsəd kimi müəyyən edir. Məqalədə rəqəmsal texnologiyaların inteqrasiyası, STEAM təhsil modeli, fərdiləşdirilmiş və adaptiv təlim yanaşmaları, layihəəsaslı öyrənmə və distant təhsil kimi müasir pedaqoji yeniliklərin ümumi təhsil sistemində tətbiqi araşdırılır.
Beynəlxalq və yerli təcrübələr müqayisə edilərək innovativ metodların təhsil keyfiyyətinin artırılmasında, tədris prosesinin daha interaktiv və şagird yönümlü olmasında nə dərəcədə səmərəli olduğu qiymətləndirilir. Azərbaycanda təhsil sahəsində aparılan islahatlar, o cümlədən rəqəmsal bacarıqların inkişafı proqramları, müəllim hazırlığı və sertifikasiyası, kurikulum yenilikləri kimi tədbirlər innovasiyaların uğurla tətbiqinə şərait yaradır.
Məqalə nəticəsində göstərilir ki, təhsildə innovasiyaların tətbiqi həm tədris prosesini müasirləşdirir, həm də şagirdlərin sosial və emosional inkişafını dəstəkləyərək onların gələcəkdə cəmiyyətə uğurlu inteqrasiyasına xidmət edir. Bu yanaşmalar sayəsində təhsil sistemi daha çevik, inklüziv və nəticəyönümlü olur ki, bu da müasir əmək bazarının tələblərinə cavab verən peşəkarların hazırlanmasına zəmin yaradır. Ümumi təhsil sahəsində innovasiyaların davamlı inkişafı və tətbiqi gələcəkdə daha effektiv təhsil siyasətinin formalaşmasına, eləcə də cəmiyyətin inkişafına mühüm töhfə verəcək.
Açar sözlər: Ümumi təhsil, innovasiya, təhsil texnologiyaları, STEAM, rəqəmsal bacarıqlar, adaptiv tədris, müəllim hazırlığı

Abstract:
This article provides an in-depth analysis of the implementation of innovations in general education and their impact on the teaching process as well as student achievement. Educational innovations, in response to modern challenges, aim not only to transfer knowledge but also to foster critical thinking, creativity, collaboration, and problem-solving skills. The article explores the integration of digital technologies, the STEAM education model, personalized and adaptive learning approaches, project-based learning, and distance education as contemporary pedagogical innovations within the general education system.
By comparing international and local experiences, the effectiveness of innovative methods in enhancing the quality of education and making the teaching process more interactive and student-centered is evaluated. Educational reforms in Azerbaijan including programs to develop digital competencies, teacher training and certification, and curriculum updates create favorable conditions for the successful implementation of innovations.
The findings of the article demonstrate that applying innovations in education not only modernizes the teaching process but also supports students' social and emotional development, thereby contributing to their successful integration into society in the future. These approaches make the education system more flexible, inclusive, and outcome-oriented, laying the groundwork for preparing professionals who meet the demands of the modern labor market. The continued development and implementation of innovations in general education will significantly contribute to shaping more effective education policies and fostering societal advancement.

Keywords: General education, innovation, educational technologies, STEAM, digital skills, adaptive learning, teacher training

Giriş Hissə:

XXI əsr texnoloji və informasiya erasının başlanğıcı olmaqla yanaşı, insan kapitalının formalaşmasında təhsilin rolunu daha da ön plana çıxarmışdır. Qloballaşma, rəqəmsallaşma və avtomatlaşma ilə müşayiət olunan müasir dövr təhsil sistemləri qarşısında yeni və mürəkkəb çağırışlar qoyur. Artıq ənənəvi tədris modelləri şagirdlərin kompleks bilik və bacarıqlar qazanmasına kifayət etmir. Müasir cəmiyyətin ehtiyacları fərqli düşünən, innovativ qərarlar verən, analitik təfəkkürə malik, əməkdaşlığa açıq və sosial məsuliyyətli fərdlərin yetişdirilməsini tələb edir. Bu isə yalnız təhsil sisteminin köklü şəkildə yenilənməsi, innovativ və çevik yanaşmaların tətbiqi ilə mümkün ola bilər.

Bu baxımdan, təhsildə innovasiya anlayışı sadəcə yeni texnoloji vasitələrin tətbiqi ilə məhdudlaşmır. O, eyni zamanda təlimin mahiyyətində, təşkilində və qiymətləndirilməsində fundamental dəyişikliklər deməkdir. İnnovativ təlim strategiyaları – rəqəmsal texnologiyaların inteqrasiyası, fərdiləşdirilmiş və adaptiv təlim modelləri, layihəəsaslı və STEAM yönümlü tədris müasir pedaqoji nəzəriyyələr və praktikalarla uzlaşaraq tədris prosesini daha effektiv və cəlbedici edir. Bu metodlar, yalnız bilik ötürən deyil, öyrənmə prosesinə rəhbərlik edən və şagirdin potensialını açan müəllim obrazını formalaşdırır.

Əsas Hissə:

Təhsildə innovasiya – yeni metodların, texnologiyaların və yanaşmaların tətbiqi ilə tədris prosesinin daha səmərəli və şagirdyönümlü təşkil olunmasını nəzərdə tutur. Bu, həm təlimin məzmununa, həm də onun təşkili və qiymətləndirilməsi prosesinə təsir göstərir. İnnovativ yanaşmalar nəticəsində dərs prosesi yalnız müəllim mərkəzli olmaqdan çıxaraq, şagirdin maraq və ehtiyaclarına uyğun olaraq fərdiləşdirilir və interaktiv şəkildə həyata keçirilir.

Təhsil sahəsində innovasiya zərurəti bir sıra amillərlə əlaqəlidir: texnoloji inkişaf, əmək bazarının dəyişən tələbləri, sosial və iqtisadi dəyişikliklər, yeni nəslin öyrənmə tərzinin fərqli olması və s. Bu reallıq müəllimlərin də öz fəaliyyətlərini daim yeniləməsini və professional inkişafını zəruri edir.

Müasir innovasiyaların əsas dayaqlarından biri rəqəmsallaşmadır. Tədrisdə elektron lövhələr, planşetlər, interaktiv platformalar və mobil tətbiqlər təlimi daha çevik və şagirdmərkəzli edir. Google Meet, Zoom, Microsoft Teams kimi platformalar, həmçinin Moodle, Edmodo və Khan Academy kimi LMS sistemləri şagirdlərin öz tempində öyrənməsinə, müəllim-şagird əlaqəsinin güclənməsinə şərait yaradır.

Rəqəmsal qiymətləndirmə vasitələri – test platformaları, viktorinalar (Kahoot, Quizizz və s.) – şagirdlərin motivasiyasını artırmaqla yanaşı, real vaxtda onların inkişafını izləməyə imkan verir. Bu texnologiyalar pandemiya dövründə öz səmərəliliyini bir daha sübut etdi və distant təhsilin keyfiyyətli təşkilində mühüm rol oynadı.

Fərdiləşdirilmiş tədris modeli hər bir şagirdin tədris ehtiyacları, maraqları və bilik səviyyəsinə uyğun öyrənmə mühiti yaratmağı hədəfləyir. Bu model süni intellektə əsaslanan platformalarla birgə tətbiq olunaraq, şagirdin zəif və güclü tərəflərini analiz edir və ona uyğun fərdi tapşırıqlar təqdim edir.

Bu yanaşma müəllimlərin rolunu da dəyişir – onlar artıq sadəcə bilik verən deyil, bələdçi və fasilitator kimi çıxış edir. Adaptiv təhsil sistemi isə şagirdin inkişaf dinamikasını izləyərək tədris məzmununu və tempini avtomatik şəkildə uyğunlaşdırır.

STEAM (Elm, Texnologiya, Mühəndislik, İncəsənət və Riyaziyyat) modeli tədrisə inteqrativ yanaşmanı təşviq edir. Bu yanaşma şagirdlərin akademik bacarıqları ilə yanaşı, yaradıcı və tənqidi düşünmə, əməkdaşlıq və qərarvermə bacarıqlarını inkişaf etdirir. Misal üçün, məktəblərdə tətbiq olunan robototexnika dərsləri şagirdlərə həm texnoloji bilik, həm də praktiki problem həll etmə bacarığı qazandırır.

Layihəəsaslı öyrənmə isə real həyatda mövcud olan problemlərin tədqiqi və həlli üzərində qurulur. Bu model şagirdləri komanda şəklində işləməyə, planlama və təqdimat bacarıqlarını inkişaf

etdirməyə sövq edir. Bu cür innovativ metodlar təhsilin həyatla əlaqəsini gücləndirir və sosial məsuliyyəti artırır.

Pandemiyanın yaratdığı şəraitdə hibrit və distant təhsil formaları geniş yayıldı və öz səmərəliliyini sübut etdi. Hibrit model – üzbəüz və onlayn dərslərin kombinasiyası – resurslardan səmərəli istifadəyə və tədris prosesinin daha çevik idarə olunmasına imkan yaradır. Bu format həm də fərqli sosial təbəqələrdən olan şagirdlərin təhsilə çıxış imkanlarını artırır və inklüziv təhsilin təmin olunmasına şərait yaradır.

Azərbaycan təhsilində "Rəqəmsal bacarıqlar" layihəsi çərçivəsində müəllimlərin rəqəmsal savadlılığının artırılması, elektron resursların yaradılması və onlayn tədris platformalarının tətbiqi bu istiqamətdə əhəmiyyətli addımlar hesab olunur.

Azərbaycan təhsil sistemində son illərdə həyata keçirilən islahatlar təhsilin keyfiyyətinin artırılmasına, müasir dövrün tələblərinə cavab verən bir strukturun formalaşdırılmasına və innovasiyaların geniş şəkildə tətbiqinə yönəlib. Xüsusilə, milli kurikulumun tətbiqi ilə təhsil məzmunu və metodikasında əsaslı dəyişikliklər baş vermiş, şagirdyönümlü, fəaliyyətə əsaslanan və yaradıcı düşüncəni stimullaşdıran bir yanaşma üstünlük təşkil etməyə başlamışdır. Kurikulum islahatları ilə yanaşı, müəllimlərin diaqnostik qiymətləndirilməsi və sertifikatlaşdırılması prosesi, həmçinin summativ və formativ qiymətləndirmə mexanizmlərinin tətbiqi də təhsil sistemində innovasiyaların tərkib hissəsi kimi çıxış edir.

Bununla yanaşı, Təhsildə Keyfiyyət Təminatı Agentliyinin fəaliyyəti, pedaqoji innovasiyaların tətbiqi üzrə təşkil olunan müsabiqələr və təhsil müəssisələrində yaradılan STEAM mərkəzləri innovasiyaların təşviqində mühüm rol oynayır. Bu mərkəzlər şagirdlərin elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyat sahələrində inteqrativ şəkildə öyrənməsinə şərait yaradır, yaradıcı və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir. Eyni zamanda, yeni nəsil dərsliklərin hazırlanması, müəllimlərin beynəlxalq təcrübə proqramlarına və təlimlərə cəlb olunması, regionlarda məktəb infrastrukturunun gücləndirilməsi kimi addımlar innovasiyanın daha geniş miqyasda yayılmasına zəmin yaradır.

Təhsildə tətbiq olunan innovasiyaların ən mühüm təsir sahələrindən biri müəllim-şagird münasibətidir. Ənənəvi təhsil modellərində müəllim bilik ötürən əsas fiqur rolunda çıxış edirdisə, innovativ təlim modellərində müəllim daha çox istiqamətləndirici, fasilitator və şagirdin potensialını kəşf edən şəxs kimi qəbul olunur. Bu yanaşma müəllimlə şagird arasında daha demokratik, qarşılıqlı hörmətə əsaslanan və əməkdaşlığa yönəlmiş münasibətlərin qurulmasına səbəb olur.

Eyni zamanda, rəqəmsal platformaların yardımı ilə şagirdlər öz biliklərini fərdi və ya qrup halında sərbəst şəkildə araşdıra, layihə və təqdimatlar hazırlaya bilirlər. Bu isə onların tədqiqat aparma, əməkdaşlıq və kommunikasiya bacarıqlarını inkişaf etdirir. Müəllimlər də bu prosesdə qiymətləndirmə və geribildirim imkanlarını daha effektiv şəkildə həyata keçirə bilirlər.

Nəticə

Beləliklə, innovasiyalar yalnız tədris metodlarını deyil, həm də müəllim-şagird münasibətlərini daha müasir, şəffaf və dinamik bir formaya gətirir. Bu dəyişikliklər ümumi təhsildə insan kapitalının inkişafına, yaradıcılığın təşviqinə və XXI əsr bacarıqlarının formalaşmasına mühüm töhfə verir.Nəticə:

Aparılmış təhlillər göstərir ki, innovasiyaların ümumi təhsildə tətbiqi təkcə tədrisin keyfiyyətinə deyil, həm də şagirdlərin şəxsiyyətinin hərtərəfli inkişafına töhfə verir. Rəqəmsal texnologiyalar, adaptiv tədris modelləri, STEAM və layihəəsaslı öyrənmə kimi yanaşmalar təhsili çevik, şagirdmərkəzli və real həyatla əlaqəli edir. Bu isə gələcək əmək bazarının tələblərinə cavab verə bilən nəsil yetişdirməyə xidmət edir.

Azərbaycan təhsil sistemində bu istiqamətdə atılan addımlar müsbət nəticələr verir. Lakin innovasiyaların davamlılığı, müəllimlərin fasiləsiz inkişafı və texnoloji təminatın bərabər şəkildə yayılması hələ də əsas prioritetlər sırasında olmalıdır. Beləliklə, innovasiyalar gələcəyin təhsil modelinin əsas dayaq nöqtəsi kimi çıxış edir və onların sistemli şəkildə tətbiqi təhsilin davamlı inkişafını təmin edəcəkdir.

Ədəbiyyat siyahısı:

1. Əliyev, E. (2020). Təhsildə innovasiya və inkişaf. Bakı: Təhsil Nəşriyyatı.
2. Həsənli, Q. (2019). Müasir təlim texnologiyaları. Bakı: Maarif.
3. Əliyeva, Ş. (2021). Rəqəmsallaşma və təhsildə çevik idarəetmə. Bakı: Elm və Təhsil.
4. Fullan, M. (2013). Stratosphere: Integrating Technology, Pedagogy, and Change Knowledge. Toronto: Pearson.
5. Prensky, M. (2010). Teaching Digital Natives: Partnering for Real Learning. Thousand Oaks: Corwin Press.
6. OECD. (2018). The Future of Education and Skills: Education 2030.
7. UNESCO. (2021). Reimagining Our Futures Together: A New Social Contract for Education.
8. Azərbaycan Respublikası Təhsil Nazirliyi (2022). Ümumi təhsildə islahatlara dair hesabatlar və strategiyalar.

QUALITATIVE AND QUANTITATIVE CHANGES IN CONSONANT CLUSTERS (AN EXPERIMENTAL-PHONETIC STUDY)

КАЧЕСТВЕННЫЕ И КОЛИЧЕСТВЕННЫЕ ИЗМЕНЕНИЯ СОЧЕТАНИЙ СОГЛАСНЫХ (ЭКСПЕРИМЕНТАЛЬНО-ФОНЕТИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ)

KONSONANT BIRLƏŞMƏLƏRIN KEYFIYYƏT VƏ KƏMIYYƏT DƏYIŞMƏLƏRI (EKSPERIMENTAL-FONETIK TƏDQIQAT)

Həsənova Vüsalə Fərrux qızı

Dissertant (ADU) Azərbaycan Dövlət Pedaqoji Universiteti Şəki filialı

Orcid Id : 0000-0003-3529-032X

Abstract
The article presents an experimental-phonetic analysis of the qualitative and quantitative changes of consonant components in consonant clusters across different syllable models in English and Azerbaijani, which belong to different language systems. For the analysis of acoustic parameters in consonant clusters, words from English and Azerbaijani with primarily monosyllabic structures — such as CVC, CCVC, CVCC, CV, VC, VCC, and CCV — were selected. The experimental material was analyzed using the "Praat" program through oscillographic analysis. The study revealed that modifications in the temporal parameters obtained from the oscillographic analysis of speech sounds depend on the following factors: phonetic context, syllable structure, position within the syllable, position in the syntagm, phrase, rhythmic structure, speech tempo, and pronunciation style.
Key words: phoneme, syntagmatics, coarticulation, variation, norm, acoustic parameters, speech act

Xülasə
Məqalədə müxtəlifsistemli dillərə aid ingilis və Azərbaycan dillərində fərqli heca modellərində samit birləşmələrində reallaşan konsonant komponentlərin keyfiyyət və kəmiyyət dəyişmələri eksperimental-fonetik təhlilə cəlb edilmişdir. Konsonant birləşmələrində akustik parametrlərin təhlil üçün ingilis və Azərbaycan dillərindən əsasən bir hecalı - KVK, KKVK, KVKK, KV, VC, VKK, KKV modelləri üzrə sözlər seçilmişdir. Eksperiment materialı "Praat" proqramında ossilloqrafik təhlil edilmişdir. Dil səslərinin ossilloqrafik təhlildən alınmış zaman parametrinin göstəricilərindəki modifikasiyaların aşağıdakı amillərdən asılı olduğunu üzə çıxarmışdır: fonetik kontekst, hecanın strukturu, hecadakı mövqeyi, sintaqmda, frazada, ritmik strukturda hecanın yeri, söyləmin reallaşma tempi və tələffüz üslubu.
Açar sözlər: fonem, sintaqmatika, kooartikulyasiya, variativləşmə, norma, akustik parametrlər, danışıq aktı

Резюме
В статье экспериментально-фонетическим анализу были привлечены качественные и количественные изменения согласных компонентов в сочета¬ниях согласных в разных слоговых структурах в английском и азербайджанском языках, принадлежащих к языкам разных систем. Для анализа акустических параметров в сочетаниях согласных были выбраны слова из английского и азер¬байджанского языков, преимущественно односложные - модели КВК, ККВК, КВКК, КВ, ВК, ВКК, ККВ. Экспериментальный материал анализировался

осциллографически в программе «Праат». Выявлено, что изменения показателей временного параметра, полученные при осциллографическом анализе звуков языка, зависят от следующих факторов: фонетического контекста, структуры слога, его положения в слоге, места слога в синтагме, фраза, ритмическая структура, темп и стиль произношения высказывания.
Ключевые слова: фонема, синтагматика, коартикуляция, варьирование, норма, акустические параметры, речевой акт

Giriş.

Danışıq axınında fonemlərin (sait və samitlərin) modifikasiyası, ilk növbədə, səslərə intra- və ekstralinqvistik amillərin təsiri ilə şərtlənir. Bununla belə, ayrı-ayrı tədqiqatlarda dilin seqment səviyyəsində, daha dəqiqi, fonem səviyyəsində variativlik xüsusiyyətlərini tam şəkildə təsvirinə az rast gəlinir. Bu baxımdan spontan danışıq axınında seqment vahidlərin məruz qaldıqları kəmiyyət və keyfiyyət dəyişmələrinin öyrənilməsinə ehtiyac yaranır, çünki bu cür tədqiqatlar danışıq axınında seqment vahidlərin (fonemlərin) variativləşmə diapazonunun təyin edilməklə yanaşı, həm də həmin dildə danışanların nitqində normativ tələffüz üslubu və ayrı-ayrı fonemlərin kombinator və mövqe variantlarının repertuarını müəyyənləşdirməyə imkan yaradır. F.Y.Veysəllinin yazdığı kimi, “hər bir fonemin reallaşması həmin fonemdən kənarda yerləşən müəyyən şərtlərlə mütləq bağlıdır” [1, s.175].

Tədqiqatın predmetini spontan danışıq aktında samit birləşmələrinin akustik parametrlərinin göstəricilərinin müəyyən edilməsi, **dil materialını** isə tutuşdurulan dillərdə tələffüz normasında koartikulyasiya prosesi ilə bilavasitə əlaqədə götürülən samit birləşmələri təşkil edir. Söz strukturunda müxtəlif fonetik mövqelərdə reallaşan konsonant birləşmələrin akustik parametrlərindəki modifikasiyaların müəyyənləşdirilməsi məqalənin əsas məqsədini təşkil edir. Akustik parametrlərin təhlil üçün ingilis və Azərbaycan dillərindən əsasən bir hecalı - KVK, KKVK, KVKK, KV, VC, VKK, KKV modelləri üzrə sözlər seçilmişdir.

Problemin qoyuluşu: spontan danışıqda konsonant birləşmələrində səciyyəvi akustik xüsusiyyətlərinin öyrənmək. Spontan danışıq hər bir dilin fonotaktik sistemindəki müxtəlif səs dəyişmələrinin təhlili baxımından ən informativ mənbədir, çünki fonemlərin variativləşmə diapazonu yalnız sintaqmatikada aydın şəkildə özünü göstərir. Təcrid olunmuş vəziyyətdə tələffüz edilən seqment (fonem) vahidlə müqayisədə, danışıq zəncirində tələffüz edilmiş akustik parametrləri tam fərqli rəqəmlərlə ifadə olua bilər və bunun əsas səbəbi sintaqmatikada qonşu səslərin koartikulyator təsirləridir.

Akustik təhlil üçün hər iki dildən 40 söz (ümumilikdə 80 söz) eksperimental-fonetik təhlilə cəlb edilmişdir. Sözlər diktorlar tərəfindən adlandırma intonasiyası ilə tələffüz edilmişdir. Dil materialının linqvistik şərhi ossilloqrafik təhlilin nəticələrinə əsasında aparılmışdır. “PRAAT” proqramında sözlərin ossilloqramları əsasında zaman parametrinin göstəriciləri əldə edilmişdir.

Danışıq axınında fonemlərin variantlarda təmsil olunması fonoloji sistemin əsas səciyyəsidir. Məhz danışıq zəncirində peyda olan variantlar dilin fonoloji sisteminə təvirində mühüm şərtdir. Spontan danışığın akustik parametrlərinin tədqiqi dil daşıyıcılarınan gündəlik həyatda istifadə etdiyikləri dilin fonetik xüsusiyyətləri barədə etibarlı nəticələr almağın yeganə yoludur. Dilin fonoloji sisteminin bilavasitə fonetik səviyyəsində variativləşməsinin özünəməxsus xüsusiyyətləri vardır. Birincisi, bu, fonem invantarının yenilənməsinə səbəb olur. Təbii dilin hər bir fonemi, yuxarıda qeyd edildiyi kimi, danışıq axınında kombinator-mövqe variantları şəklində reallaşır ki, onların arasında zaman-zaman onlardan birinin “prioriteti”nə doğru sürüşməsi hadisəsi baş verir. Fonoloji sistemin fonetik variativləşməsinin ikinci səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, burada normanın icazə verdiyi variantların sayı başqa səviyyələrlə müqayisədə xeyli çoxdur [2]. Yeni variant (səs) kommunikativ ehtiyacları ödəyirsə, o zaman o, mənimsənilir və tədricən müəyyən bir dilin bütün danışıcılarının tələffüzündə qeydə alınır və beləliklə, danışıq səviyyəsində reallaşmadan norma səviyyəsinə keçir.

Fonetik dəyişikliklər dilin fonoloji yenilənməsinin ən mühüm amillərindən biridir və fonoloji proseslər şəklində təzahür edərək (üstəlik bur proseslərin bəziləri paradiqmatik münasibətlərin, digərləri sintaqmatik münasibətlərin dəyişməsindən ibarətdir) dilin səs tərkibinin dərini daxili strukturuna təsir göstərir. Fonetik ədəbiyyatda belə proseslərə mövqe və kombinator dəyişiklikləri:

assimilyasiya, keyfiyyət və kəmiyyət reduksiya, fonem komplekslərinin ayrı-ayrı elementlərinin eliziyası, sinharmonizm (türk dilləri) və s. F.Y.Veysəlliyə görə, "dildə fonemin variativləşməsinə səbəb olan amillər, bir tərəfdən, onların qarşılıqlı təsiri, digər tərəfdən, dil strukturunun yuxarı səviyyələrinin vahidlərinin tərkibindəki mövqeyidir" [1, s.178].

Tələffüz dilin fonetik sistemini, yəni konkret dildə fərqləndirilən fonemlərin tərkibi, keyfiyyəti, müəyyən fonetik şəraitlərdə dəyişmələrini əhatə edir. Səs reallaşmalarına geniş variativləşmə imkanları verən sistemdən fərqli olaraq, norma "ictimai dil praktikası ilə seçilmiş və sabitləşmiş dilin struktur elementlərinin ən sabit, ənənəvi reallaşmalarının məcmusudur" [3] və ya "sistemin imkanlarının müəyyən bir dildə ümumqəbul edilmiş həyata keçirilməsi"dir [4, s.21].

Danışıq səslərinin müxtəlifliyi və davamlılığı əsasən yanaşı səslərin universal nitq fenomeni koartikulyasiya nəticəsində yaranır [5]. Koartikulyasiya prosesi "yanaşı səslər arasında sistematik qarşılıqlı təsir" kimi başa düşülür [6, s. 31]. Təbii nitqdə, xüsusilə sürətli tələffüzdə və fasilələr olmadıqda, səslərin keçid hissələri (ekskursiya və rekursiya) tez-tez bir-biri ilə üst-üstə düşür, səsin bir hissəsində keyfiyyət dəyişikliyinə səbəb olur. Əgər belə koartikulyasiya səsin stasionar hissəsinə də təsir edirsə, onda dəyişiklik bütün səsə yayılır və ya onun tamamilə yox olması baş verə bilər.

Fonemlərin fərqli funksional yükü ayrı-ayrı fonemlərin keyfiyyət və kəmiyyət baxımından variativləşmə diapazonuna təsir göstərir. V.M.Solnsevin fikrincə, "*...dil vahidlərinin kombinator qabiliyyəti dilin ümumsistem fundamental xüsusiyyətləri ilə şərtlənmiş ümumi və vacib xüsusiyyətidir. Dil vahidlərinin fundamental xüsusiyyətlərinə aid iyeraxiklik və xəttilik kombinatorikanın reallaşmasını şərtləndirir*" [7, s. 268].

Dilin fonotaktik sisteminin yol verdiyi müxtəlif səs modifikasiyalarının təhlili planında məhz spontan nitq ən məhsuldardır, çünki fonoloji sistemin variativliyi özünü insanın danışığında (reallaşmada) təzahür edir. Təcrid olunmuş formada tələffüz edilmiş söz söyləmdə tələffüz edilmiş sözdən perseptiv baxımdan fərqlənir. Müxtəlif səslər oxşar, bəzi hallarda isə identik akustik parametrlərə malik ola bilir. Məsələn, ingilis dilindəki /b/, /d/, /g/ cingiltili samitləri kar, kipləşən-partlayışlı korrelyatlarından - /p/, /t/, /k/ akustik baxımdan fərqlənmir, halbuki təcrid olunmuş tələffüzdə onların akustik parametrləri əhəmiyyətlidir və bu səslər asanlıqla fərqləndirilə bilir [8].

Fonemlərin birləşməsinin sərbəstlik dərəcəsi yüksək olan dillərdə onların kombinator imkanları aydın ifadə olunur və müxtəlif heca modelləri ilə təmsil olunurlar. Məhdud fonem birləşməli dillərdə kombinator dəyişmələr ümumilikdə zəif ifadə olunur, heca modelləri məhdud olur, yəni dilin fonem tərkibi azsaylı heca modellərində reallaşır. F.Y. Veysəlliyə görə, "*fonem birləşmələrindəki qanunauyğunluqların öyrənilməsi tipoloji dilçilik üçün də böyük əhəmiyyətə malikdir. Bu problemin düzgün izahı Azərbaycan dili ilə başqa dillər arasındakı fonetik fərqlərin aşkar edilməsinə və əsil Azərbaycan sözlərinin müəyyənləşdirilməsinə də kömək edər*" [1, s.51]. Buna görə də bu qanunauyğunluqların öyrənilməsində ayrı-ayrı samitlərin söz strukturunda müxtəlif fonetik mövqelərdə - başlanğıcda, ortada və sonluqda - reallaşmaları müstəsna əhəmiyyətə malikdir.

İndi isə dil materialının ossilloqrafik təhlilinin nəticələrinin şərhinə keçək.

Tədqiqat işində nitq siqnalının fiziki uzunluğu zaman xarakteristikasının fiziki korrelyatı kimi qəbul edilmişdir. Ossilloqrafik təhlilin nəticələrinə istinadən deyə bilərik ki, dil səslərinin zaman parametri səs seqmentinin məxsusi uzunluğu, fonetik kontekst, hecanın strukturu, hecadakı mövqeyi, sintaqmda, frazada, ritmik strukturda hecanın yeri, söyləmin reallaşma tempi və tələffüz üslubundan asılıdır.

İngilis və Azərbaycan dilində KVK strukturlu sözlərində eyni fonetik mövqedə işlənən /d/ və /t/ samitlərində fərqli zaman parametrləri qeydə alınmışdır:

Cədvəl 1

İngilis dilindəki “bead, beat, deed, deep, food, foot, mead, meat, mood, moot, seed, seep” sözlərinin zaman qiymətləri

sözlər	bead	beat	deed	deep	food	Foot	mead	meat	mood	moot	seed	Seep
orta mütləq qiymətlər	176	277	194	293	204	295	155	274	173	336	168	313
fərq	101 m/san		99 m/san		91 m/san		119 m/san		143 m/san		145 m/san	

Bu sözlərdə eyni fonetik mövqedə işlənən kar kipləşən-partlayışlı samitlərin orta zaman göstəricisi 298 m/san-yə olduğu halda, onların cingiltili ekvivalentlərində orta zaman qiyməti 178 m/san-dir, yəni 63% : 37 % nisbətindədir. Zaman göstəricilərinə istinadən kar kipləşən-partlayışlı samitlərin uzun səsləndiyini demək olar.

Cədvəl 2


İngilis dilindəki “bed, bit, dog, dot, fin, fit, lid, lip, wed, wen, wet” sözlərinin zaman qiymətləri

sözlər	bed	bet	dog	dot	fin	fit	lid	lip	wed	wen	wet
orta mütləq qiymətlər	164	198	139	243	176	208	156	267	144	115	272
fərq	38 m/san		104 m/san		32 m/san		111 m/san		29m/san–157m/san		

Bu sözlərdə eyni fonetik mövqedə işlənən kar kipləşən-partlayışlı samitlərin orta zaman göstəricisi 237 m/san-yə olduğu halda, onların cingiltili ekvivalentlərində orta zaman qiyməti 149 m/san-dir, yəni 61%:39 % nisbətindədir. İngilis dilində kipləşən-partlayışlı və novlu, kar və cingiltili samitlərin əsas fərqləndirici əlaməti kimi səslənmənin uzunluğu çıxış edir: kar samitlər cingiltili korrelyatları ilə müqayisədə daha uzun səslənir. Təhli olunan sözlərdə kar samitlərin zaman parametri cingiltili samitlərin zaman parametrini üstələyir (bax: cədvəl 1, 2).
Azərbaycan dilindəki KVK tipli heca moddelli “bar”, “bağ”, “tar, “tağ”, “nar”, “nal”, “fal”, “sar” və “sağ” sözlərin ossolloqrafik təhlilindən aşağıdakı nəticələr əldə edilmişdir (bax: şəkil 1.a,b):

Şəkil 1a, b

Azərbaycan dilindəki a) /b, t, f, s, ʃ, n, k/ samitlərinin mütləq başlanğıcda; b) /r, l, /Y, s, m, t/ samitlərinin mütləq sonluqda zaman parametrinin orta qiymətləri



KVK tipli heca modellərində mütləq sonluqdakı /r/ samitinin orta mütləq qiyməti 127 m/san-dir. Sözlərin mütləq sonundakı /l/ samitinin orta mütləq qiyməti 101 m/san-dir. Söz sonundakı /y/ samitinin mütləq orta qiyməti 123 m/san-dir. Söz sonunda maksimum zaman sərfi /r/ samiti üçün xarakterikdir – 127 m/san. Mütləq başlanğıcda maksimum zaman sərfi /ʃ/ samitinə məxsusdur – 245 m/san. Nisbətən aşağı zaman göstəricisi isə /s/ samitində qeydə alınmışdır -226 m/san (bax: şəkil 3a, b).

İngilis dilindəki KKCCVK tipli heca moddelli sözlərin akustik paramütrlərinin təhlili nəticəsində aşağıdakı göstəricilər üzə çıxarılmışdır:

Cədvəl 3

İngilis dilindəki “bleed, breed, greed, green, greet, stark, start, steed, steel, steep” sözlərində konsonant birləşmələrinin zaman qiymətləri

sözlər	bleed	breed	greed	green	greet	stark	start	steed	Steel	steep
orta mütləq qiymətlər	95-87	92-94	102-78	100-79	104-81	182-84	174-82	186-112	179-100	176-89
fərq	3,5 m/san		24 m/san			84 m/san				

/bl/, /br/, /gr/, /st/ konsonant birlşmələrində maksimum zaman sərfi /s/ novlu samitində qeydə alınmışdır – 179 m/san (bax: cədvəl 3). Minimum zaman sərfi /b/ cingiltili kipləşən-partlayışlı samitində qeydə alınmışdır – 93,5 m/san. /g/ samitinin orta tələffüz müddəti isə 103 m/san-dir. Bu birləşmələrin ikinci komponentində minimum zaman sərfi /l/ sonor samitinə aiddir: 87 m/san. Maksimum uzunluq /t/ kipləşən-partlayışlı samitində qeydə alınmışdır – 95 m/san. /r/ sonor samitində isə bu qiymət 83 m/san-dir.

Cədvəl 4

İngilis dilindəki “brook, broom, clod, clot, grin, grip, grit” sözlərində konsonant birləşmələrinin zaman qiymətləri

sözlər	brook	broom	clod	clot	grin	grip	grit
orta mütləq qiymətlər	56-92	64-102	92-97	89-100	53-88	56-52	53-68
komponentlər üzrə fərq	37 m/san		16 m/san		15 m/san		

Azərbaycan dilində KKVK tipli konsonant birləşmələrinin komponentlər üzrə təhlili həmin birləşmələrdə ikinci üzvün əksər hallarda sonantlardan ibarət olduğunu əks etdirir. “brom”, “blin, “blef” sözlərinin başlanğıcındakı /br/, /bl/ konsonant birləşmələrində aşağıdakı akustik göstəricilər üzə çıxarılmışdır: /b/ samitinin orta mütləq qiyməti 76 m/san, /l/ sonantında bu göstərici 119 m/san-dir. /br/ birləşməsindəki /r/ sonantında mütləq zaman göstəricisi 128 m/san-dir. /l/ sonantının orta mütləq zaman qiymətinin yüksək olmasını onun prevokal mövqedə reallaşması ilə izah etmək olar.

“Dram” və “xrom” sözlərində /dr/ və /xr/ samit birləşmələrində zaman parametri 86-109 m/san və 131-119 m/san nisbətində ifadə olunmuşdur. /dr/ və /xr/ konsonant birləşmələrində ayrı-ayrı komponentlər üzrə zaman sərfinin paylanması bu göstəricinin /r/ sonor samitində çox olduğunu əks etdirir. /d/ və /x/ samitlərinə sərf olunmuş orta səslənmə müddəti 100 m/san olduğu halda, /r/ sonantında bu göstərici 114 m/san-dir. KKVK tipli birhecalı sözlərin zaman parametrinin akustik göstəricilərinin komponentlər üzrə təhlili aşağıdakı nəticəyə gəlməyə əsas verir: maksimum zaman sərfi /s/ kar novlu samitinə məxsusdur – 198 m/san. /b/ cingiltili kipləşən-partlayışlı samiti isə minimum uzunluğa malikdir – 76 m/san.

İngilis dilində KVKK tipli heca modellərinin akustik təhlili nəticəsində KKVK tipli modellərlə müqayisədə fərqli göstəricilər əldə edilmişdir.

Cədvəl 5

İngilis dilindəki “calf, daft, last, malt, salt , world, worst” sözlərində konsonant birləşmələrinin zaman qiymətləri

sözlər	calf	daft	last	worst	salt	world	malt
orta mütləq qiymətlər	91-225	104-193	183-176	179-168	97-219	113-157	108-205
komponentlər üzrə fərq	20 m/san		9 m/san		87 m/san		

Cədvəl 6


İngilis dilindəki “belt, felt, held, help, land, lank, left, lend, self, send, weft, weld, wend” sözlərinin zaman qiymətləri

sözlər	belt	felt	held	help	land	lank	left	lend	self	send	weft	weld	wend
orta mütləq qiymətlər	92-228	98-272	89-176	128-228	99-116	86-216	158-217	119-180	106-250	105-127	171-216	117-201	92-163
fərqlər	101 m/san		99 m/san		91 m/san		119 m/san		143 m/san		145 m/san		

Ossilloqrafik təhlilə cəlb olunmuş sözlərdə komponentlər üzrə zaman parametri aşağıdakı nisbətlərdə reallaşmışdır: /lt/ birləşməsində 95 m/sam : 250 m/san, 108 m/san : 202 m/san, 93 m/san : 156 m/san, 139 m/san : 199 m/san, 105,5 m/san : 189 m/san, 144 m/san: 209 m/san.
Azərbaycan dilində KVKK heca modelli sözlərin zaman parametrinin ossilloqrafik təhlili də maraqlı nəticələri üzə çıxarmışdır. Bu heca modelində konsonant birləşmələrdə komponentlərdən biri əksər hallarda sonor samitlə təmsil olunmuşdur.

Şəkil 2

Azərbaycan dilindəki /nd, rd, rt, rk, rq, sr/ konsonant birləşmələrinin mütləq sonluqda zaman parametrinin orta qiymətləri




İngilis dilində KV tipli heca modeli üzrə birhecalı sözlərin ossilloqrafik təhlil “bee” /bi:/ (arı), “lea” /li:/ (çəmən), “lee” /li:/ (müdafiə), “he” /hi:/ (o), “wee” /wi:/ (balaca), “we” /wi/ (biz) sözlərindəki mütləq başlanğıcdakı samitlərin uzunluq göstəricilərinin fərqli olduğunu üzə çıxarmışdır. “bee” sözündə zaman qiymətləri 120-355 m/san, “lea” sözündə 140-324 m/san, “lee” sözündə 124-368 m/san, “wee” sözündə 174-350 m/san, “we” sözündə 184-362 m/san-dir. Prevokal mövqedə maksimum zaman sərfi /w/ samitinə məxsusdur -179 m/san. İngilis dilindəki KV tipli heca modellərində /b/, /l/ və /w/ samitlərinə sərf olunan zamanın xeyli yüksək olduğunu əks etdirir.

Azərbaycan dilindəki KV tipli “bu”, “qu” və “su” sözlərində /u/ saitindən əvvəlki mövqedə reallaşan /b/, /q/ və /s/ samitləri fərqli zaman parametrləri ilə xarakterizə olunurlar. “bu” sözündə /b/ cingiltili samitinin zaman göstəricisi 57 m/san, “qu” sözündə /q/ samitinin zaman parametri 60 m/san, “su” sözündəki /s/ novlu samitində bu göstərici /160 m/san-dir. Ossilloqrafik təhlil olunan sözlərdə maksimum zaman qiyməti /s/ kar samitində qeydə alınmışdır.
İngilis dilində VK heca modeli geniş yayılmamışdır. “arm” [a:m] (əl) sözündə komponentlər üzrə uzunluq göstəriciləri 205-103 m/san nisbətində ifadə olunmuşdur. Bu sözdə maksimum uzunluq uzun /a/ saitinə xasdır. “ash” /æʃ/ (kül) sözündə isə zaman qiymətləri fərqli nisbətdə ifadə olunmuşdur: 193-284 m/san. Göründüyü kimi, maksimum zaman sərfi mütləq sonluqdakı /ʃ/ samitinə məxsusdur ki, bu da həmin səsin akustik keyfiyyəti ilə əlaqəlidir.
İngilis dilindəki “of” /ɒv/ (haqqında, barədə) sözündə komponentlər üzrə zaman parametri 153 m/san - 307 m/san nisbətində reallaşmışdır. “ash” sözündəki /ʃ/ və “of” sözündəki /v/ samitlərinin uzunluq qiymətlərinin müqayisəsi /v/ samitində həmin göstəricinin yüksək olduğunu əks etdirir.
Azərbaycan dilindəki VK tipli heca modellərində birinci komponent ayrı-ayrı samitlərdən təşkil olunsa da, ikinci komponent kimi eyni samit çıxış edir. Məsələn, “ad”, “od”, “öd” və “ud” sözlərində birinci komponent /a/ saiti, ikinci component isə /d/ cingiltili kipləşən-partlayışlı samitdir. Bu sözlərdə /d/ samitinin orta mütləq uzunluğu 114 m/san-dir. VK tipli heca modelli “at”, “ot”, “ət” və “it” sözlərinin mütləq sonundakı /t/ kar kipləşən-partlayışlı samitində orta mütləq qiymətin 130 m/san-yə olduğunu göstərir. Akustik göstəricilər eyni fonetik mövqedə reallaşan /d/ və /t/ samitlərinin fərqli uzunluq qiymətlərlə ifadə olunduğunu əks etdirir. /t/ samitinin orta mütləq qiyməti cingilitili korrelyatından 16 m/san çoxdur (bax: şəkil 3).

Şəkil 3

Azərbaycan dilindəki VK heca modellərində /d, t, l, n, ş, r, z, /d3/, /tʃ/, v/ samitlərinin orta göstəriciləri



Azərbaycan dilindəki VK heca tipli “ab”, “ay”, “ox”, “of”, “ip” sözlərində mütləq sonluqdakı /b/, /y/, /x/, /f/ və /p/ samitlərində aşağıdakı zaman göstəriciləri: 110 m/san – 114 m/san – 126 m/san – 134 m/san – 116 m/san. Maksimum uzunluqla kar novlu samitlər fərqlənir: /x/ - 126 m/san, /f/ - 134 m/san. Nisbətən aşağı göstərici /b/ cingiltili samitində qeydə alınmışdır – 110 m/san. VK tipli heca modellərində, yəni sözün mütləq sonluğunda samitlər nisbətən yüksək uzunluq göstəricili olmaları ilə diqqəti cəlb edir. L. V. Bondarkonun fikrincə, “sait+samit” birləşməsində samitin saitə təsiri onunla izah oluna bilər ki, samitin tələffüzü saitin tələffüzü bitmədən başlanması ilə izah oluna bilər” [9, s. 93] 1977.
İngilis dilində VKK tipli qapalı hecada mütləq sonluqdakı samit birləşmələrin zaman göstəriciləyi yüksəkdir. Məsələn, “aft” /ˊɑ:ft/ sözündə //ft konsonant birləşmələrində zaman qiymətləri 194 m/san -217 m/san, “ask” [ɑ:sk] (soruşmaq) sözündə isə bu göstəricilər 233 m/san - 194 m/san-dir. Hək iki sözdəki konsonantların uzunluq qiymətlərinin müqayisəsi sonuncu komponentlərdə çox olduğunu göstərir. Maksimum zaman sərfi isə /s/ kar novlu samitində qeyd alınmışdır.
Azərbaycan dilindəki VKK heca modellərində samit komponentlərdən biri əsasən sonantlardan təşkil olunmuşdur. “əql”, “ədl”, “əhd”, “əsr” sözlərinin konsonant birləşmələrində zaman qiymətləri belədir: /ql/ birləşməsində 73 m/san - 123 m/san, /dl/ birləşməsində - 74 m/san -118 m/san, /hd/ birləşməsində 102 m/san - 86 m/san, /sr/ birləşməsində isə 129 m/san - 106 m/san-dir. Bu

birləşmələrin birinci komponentində maksimum zaman sərfi /s/ kar novlu samitinə məxsusdur – 129 m/san.

İngilis dilindəki KKV heca tipli "brew" /bru:/ (pivə bişirmək) sözündə /br/ samit birləşməsində zaman qiyməti 55 m/san -124 m/san, "drew" /dru:/ sözündə sözündə komponentlər üzrə uzunluq qiymətləri 58 m/san - 130 m/san, "flew" /flu:/ (qaçaraq qurtulmaq) sözündə /fl/ konsonant komponentlərində 159 m/san – 128 m/san, "shrew" /ʃru:/ (yerqazan) sözündə komponentlər üzrə zaman sərfi 167 m/san-143 m/san, "slew" /slu:/ (döngə) sözündəki /sl/ birləşməsində isə zaman qiymətləri 192 m/san-128 m/san-dir. Bu tipli heca modellərində maksimum zaman sərfi /r/ sonantının qiymətlərində qeydə alınmışdır.

Azərbaycan dilində KKV tipli heca modelinə yalnız bir halda rast gəlinir. Buna görə də bu tip heca modellərinin zaman parametrini akustik təhlil etmək üçün iki, üçhecalı sözlərdən istifadə edilmişdir. "bra" və "briqada" sözlərinin başlanğıcında /br/ birləşməsində komponentlərin orta zaman sərfi 63 m/san və 90 m/san-dir. Mütləq başlanğıcda reallaşan /br/ konsonant birləşmələrində maksimum zaman sərfi /r/ sonor samitinə məxsusdur.

İşin Elmi Nəticəsi

Müxtəlif heca modelləri üzrə konsonant birləşmələrdə samitlərin kəmiyyət səciyyəsinin ossilloqrafik təhlili cingiltili samitlərlə müqayisədə kar samitlərin cingiltili korrelyatlarından uzun tələffüz olunduqlarını göstərir. Samit fonemlər maksimum uzunluğa söz strukturunda mütləq sonluqda, minumim zaman göstəricisinə isə sözün mütləq başlanğıcında malik olur. Hər iki dildə maksimum zaman qiymətləri /ş/ və /s/ samitlərinə, minimum zaman qiymətləri /v/ və /z/ cingiltili novlu samitlərə aiddir. Komponentlər arasında ən sıx əlaqəsi samit və ondan əvvəlki sait modelindədir (VK). VK heca strukturunda komponentlərin zaman parametrində mənfi korrelyasiya müşahidə olunur, yəni saitin uzunluğu artdıqca, ondan sonrakı samitin uzunluğu azalır və ya əksinə.

Hər iki dildə KVK tipli hecalarda bütün hecanın uzunluğuna postvokal samitin təsiri güclüdür. Bu mövqedə samitlərin mütləq qiyməti prevokal mövqedəki samitin zaman parametrini üstələyir. KVK tipli heca strukturlarında postvokal samitlərdə maksimum uzunluq sonantlar qrupuna və novlu samitlər üçün xarakterikdir.

Hər iki dildə KVK tipli heca strukturlarında kar samitlər cingiltili korrelyatlarına nisbətdə uzundur. Qarşılaşdırılan dillərdə novlu samitlərin: /f, v, z, s, ʃ, θ, ʒ, ð/ korrelyatları heca strukturunda mövqeyindən asılı olaraq variativləşir. Novlu samitlər (kar və ya cingiltili) üçün maksimum uzunluq qiymətləri söz sonluğundakı fonetik mövqedə xarakterik əlamətdir. Fonem birləşmələrinin kəmiyyəti onların fonetik xarakteristikasından və fonetik mövqedən asılıdır. Heca strukturunda fonemin mövqeyi əksər hallarda tələffüz üsulu, kontekst isə (fonemin əhatəsi) tələffüz yeri ilə müəyyən edilir.

İşin elmi yeniliyi: fonem birləşmələrind' fonemlərin məruz qaldıqları keyfiyyət və kəmiyyət dəyişikliklərin eksperimental-fonetik tədqiqi işin elmi yeniliyi hesab edilə bilər.

İşin tətbiqi əhəmiyyəti: tədqiqatın nəticələrindən azərbaycandilli auditoriyada ingilis dilinin tədrisinə dair təklif və tövsiyələrin verilməsində istifadə olunmasından ibarətdir.

Ədəbiyyat:

1. Veysəlli, F.Y. Seçilmiş əsərləri: [6 cilddə] /F.Y.Veysəlli. -Bakı: Mütərcim, I cild, 2009, - 640 s.
2. Степанов, Г.В. К проблеме языкового варьирования. Испанский язык Испании и Америки/ Г.В. Степанов. -М.: Наука, 1979. - 327с.
3. Косериу, Э. Синхрония, диахрония и история // Новое в лингвистике/ Э.Косериу. – М. – 1963. – Вып. 3. – С. 143–343.
4. Богданова, Н. В. Живые фонетические процессы русской речи/ Н.В. Богданова. -СПб.: Филологический факультет СПбГУ. – 2001. – 186 с.
5. Fowler, C. A. Coarticulation and theories of extrinsic timing // Journal of Phonetics. – 1980. – Т. 8. – №. 1. – С. 113-133.
6. Farnetani, E., Recasens, D. Coarticulation models in recent speech production theories //Coarticulation: Theory, data and techniques. – 1999. – С. 31-65.

7. Солнцев, В.М. Язык как системно-структурное образование / В.М.Солнцев . –Москва: Наука, - 1977, - 340 с.
8. Gimson, A.C. An Introduction to Pronunciation of English. 4th ed. / Ed. By S. Ramsaran / A.C.Gimson. - London: Edward Arnold, 1989, - 368 p.
9. Бондарко, Л.В. Звуковой строй современного русского языка/ Л.В.Бондарко. -Москва: Просвещение, -1977. - 175 с.

REPRESENTATION OF SYNTACTIC FIGURES IN THE POETRY OF BAHTIYAR VAHAPZADE

BƏXTİYAR VAHABZADƏ POEZİYASINDA SİNTAKTİK FİQURLARIN REPREZENTASİYASI

Zemfira Şahbazova
Bakı Dövlət Universiteti, professor

Nüşabə Hüseynova
Bakı Slavyan Universiteti, baş müəllim

Artıran söz qədrini sidq ilə qədrin artırar,
Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz.
(M.Füzuli)

Xülasə

Bəxtiyar Vahabzadə sözə dəyər verən, sözü inci kimi qiymətləndirən, yorulmaq bilmədən axtaran, dəyərli, mənalı söz üçün söz dəryasına baş vuran ustad sənətkarımızdır. Poeziyanın gücünü xalqa xidmətdə görən şair yazırdı: *"Qılıncımız korşalanda – sözümüz itiləşib. Sərhədlərimiz balacalaşanda düşüncələrimizin, idrakımızın, arzularımızın üfüqləri genişlənib. Özümüz səngəri tərk edəndə də şeirimiz səngərdən çıxmayıb"* [Vahabzadə, 2009: 160]. Dilin bütün incəliklərinə bələd olan B.Vahabzadə sözü gülə, şeiri isə gülaba bənzədir. Bununla da oxucusundan sözün rəngini deyil, cövhərini görməyi, məna qatına enməyi və əsl mətləbini duymağını istəyir.

Şair şeirdə məzmun və ifadə gözəlliyini əsas götürür, oxucusunu bu gözəlliyin ardınca aparır. B.Vahabzadə xalqını sevən, onu düşünən, hər zaman xalq işi üçün çarpışmağa hazır olan əsl vətəndaş şairdir. Onun silahdaşı da, əsgəri də sözdür. O söz ki oxucusunu hər bir döyüşə aparmağa qadirdir. Vətənini, xalqını, dilini sevən, onun yolunda qələmi ilə döyüşə atılmağa hazır olan şair, eyni zamanda, gözəl sevgi, məhəbbət hisslərini də tərənnüm edən əsərlərin müəllifidir. Hansı mövzuda yazmasından asılı olmayaraq, hər bir bənddə, hər bir misrada biz onun ürək çırpıntısını, döyüntüsünü, tələtümlü səsini eşidirik. Oxucusunu həmişə öz ardınca apara bilən sənətkar söz xəzinəsinin əsl sahibi kimi dilin bütün yaruslarından istifadə etmiş, səsini duyura və sözünü dinlədə bilmişdir. Yaradıcılığında dilin fonetik, leksik, morfoloji və sintaktik qatlarında olan bütün üslubi, linqvopoetik cəhətlərinə müraciət etmiş, sözün yarada bildiyi gözəllik və məna dərinliyindən ustalıqla bəhrələnərək yaratdığı hər bir əsərə yeni rəng və məzmun gözəlliyi gətirməyi bacarmışdır. Biz bu yazımızda dilin sintaktik qatında olan fiqurlardan, daha doğrusu, sintaktik fiqurların yaratdığı obrazlılıqdan, ekpressivlikdən danışmağı qarşımıza məqsəd qoymuşuq. Sintaktik fiqurlar obrazlılığı ifadə etməkdə dinamiklik və çox işləkliyə malik olması ilə yanaşı, həm də zəngin quruluşa malikdir. Bu fiqurlar bədii mətndə yaratdığı emotivliklə yanaşı, həm də öz qrammatik quruluşunu qoruyur, qrammatik quruluşun çox az dəyişdiyi fikrini doğrulda bilir.

Ustad şair qrammatik quruluşun qanunlarını pozmadan öz fikrini əks etdirmək və istədiyini sərgiləmək üçün bu fiqurlara yeni məna gətirir. Məcazlaşma, obrazlılıq, semantikanın dərin qatına enməklə öz fikirlərini ifadə edir. Bu da B.Vahabzadə kimi orijinal düşüncəli, istedadlı qələm sahibinin qüdrətindən xəbər verir. Bədii mətndə sintaktik fiqurlar obrazlılığı təmin etməklə kifayətlənmir, insanın hissinin, duyğusunun, psixoloji vəziyyətinin güzgüsü kimi özündə əks etdirir. Sintaktik fiqurlar bədii mətndə sənətkara imkan verir ki, öz sözünü daha obrazlı, daha təsirli deyə bilsin. Sintaktik fiqurların əhatə etdiyi sıraya münasibət də birmənalı deyildir. Bəzi müəlliflər bu cərgədə bədii sual, bədii nida, bədii xitabları; bəziləri inversiya, paralelizm, təkrarları və onun növləri kimi təkrir, anafora, epifora, nida, sual, təzad kimi fiqurları göstərmişlər. K.Abdullayev paralelizmi sintaktik fiqurlar arasında daha yüksək qiymətləndirmiş [Абдуллаев, 1976], A.Bəylərova isə bu sahədə xüsusi tədqiqatlar aparmış və sintaktik fiqurların sırasının fonetik, morfoloji qatdan daha zəngin olduğunu yəqinləşdirmişdir [Bəylərova, 2008]. Sintaktik fiqurların içərisinə ellipsis, ritorik sual, antiteza, təkrir və onun müxtəlif növləri, cümlənin müxtəlif struktur-semantik tipləri, quruluşca növləri, paralelizm və paralelizmin yaratdığı xüsusi növləri daxil etmək olar. Biz məqalədə

həcmindən asılı olaraq, bu növlərdən bəhs edərək B.Vahabzadənin daha çox isifadə etdiyi sintaktik fiqurların araşdırılmasının üzərində dayanmağı məqsədəuyğun hesab edirik.
Açar sözlər: B.Vahabzadə, sintaktik fiqur, linqvopoetika, ekspressiya, reprezentasiya

Abstract
Bahtiyar Vahapzade is our master artist who appreciates the word, evaluates it as a pearl, tirelessly searches, turns to the river of words for a valuable, meaningful word. The poet, who saw the power of poetry in serving the people, wrote: “When our sword is blunt, our words become sharper. When our borders become small, the horizons of our thoughts, understanding, desires expand. Even when we came out of the trench, our poem did not come out of the trench”. B. Vahapzade, familiar with all the subtleties of the language, compares the word with flower, and the poem with gulab (rose water). At the same time, he wants his reader to see not the color of the word, but its essence, descend to the level of meaning and hear the true essence.
In the poem, the poet takes the beauty of content and expression as a basis, leads his reader behind this beauty. B. Vahapzade is a real civil poet who loves his people, thinks about them, is always ready to fight for the people’s cause. His companion and soldier are words. He is able to lead his reader into any battle. A poet who loves his homeland, his people, his language, ready to engage in battle with a pen on his way, is the author of works that at the same time glorify beautiful feelings of love. No matter what subject he writes on, in every stanza, in every verse, we hear his heartbeat, his thud, his anxious voice. The artist, who always knew how to lead his reader, as the true owner of the vocabulary, used all parts of the language, knew how to hear the voice. In his work, he turned to all stylistic, linguopoietic aspects of the language in the phonetic, lexical, morphological and syntactic layers, skillfully benefiting from the depth of beauty and meaning of the word, managed to give each work he created a new color and beauty of content. In this article, we aim to talk about the figures in the syntactic layer of language, or rather, the imagery and expressiveness created by syntactic figures. Syntactic figures have not only dynamism and multifunctionality in the expression of imagery, but also a rich structure. These figures, along with the emotionality created in the artistic text, are able to maintain their grammatical structure, to confirm the idea that the grammatical structure has changed little.
Keywords: B. Vahapzade, syntactic figure, linguopoetics, expression, representation

Giriş

Azərbaycan dilinin zənginliyini, gözəlliyini linqvopoetik cəhətdən özündə əks etdirən sintaktik fiqurların rolu danılmazdır. Sintaktik fiqurlar mətndə yaratdığı obrazlılıq, emosionallıq, ahəngdarlıq, ritmlərin tənzimlənməsində fəallığı ilə yanaşı, qrammatik quruluşunu, xüsusiyyətlərini qoruya və mühafizə edə bilir. Eyni zamanda, bu fiqurlar insan hissini, duyğularını və psixoloji vəziyyətini əks etdirmək baxımdan bir güzgüyə bənzəyir. Dilimizdə sintaktik fiqurların əsasında dayanan sintaktik vahidlər həm semantik, həm də informativliyi əks etdirə bildiyi kimi, həm də çox zəngin əhatə dairəsinə malikdirlər. Bu vahidlərin sırasında xitablar, ara sözlər, söz birləşmələri, onların növləri, cümlə, onun məqsəd və intonasiyaya, struktur-semantik və quruluşuna görə növlərini daxil etmək olar. Bundan başqa, bu siyahıya əlavə, xüsusiləşmə, həmcins üzvlər, paralelizm, qoşulma üzv və qoşulma cümlələri, təkrarları daxil etmək olar. Göstərilən sintaktik vahidlərin hər biri mətndə obrazlılıq qazana bilir. Bu zaman sintaktik vahid sintaktik fiqur kimi yazarın məqsədinə birbaşa xidmət edir, həmin fiqur daşıya bildiyi semantika, informasiya ilə bərabər, yeni bir məqsədə xidmət etmiş olur. Bu isə dilin zənginlik və əhatəsinin genişliyinin göstəricisidir. Sintaktik fiqurların əhatə dairəsi dilçilər tərəfindən eyni şəkildə qəbul edilməmişdir. Bəzən bu fiqurlara ritorik sual, bədii nida, xitab [Qurbanov, 1967], bəziləri buraya ellipsisi də əlavə etmişlər [Əfəndiyeva, 1963]. Bu sıraya paralelizm, təkrar, onun növlərini də aid etməklə sıranı genişləndirən K.Abdullayevin maraqlı fikirləri vardır [Abdullayev, 1999: 234]. Bu sırada inversiyanı da nəzərdən qaçırmayan müəllif anaforik təkrarların, ellipsisə uğramış cümlələrin də mətndə mühüm rol oynadığını, eyni zamanda, obrazlılıq yaratdığını geniş şəkildə göstərmişdir [Abdullayev, 1999: 244]. A.Bəylərova sintaktik fiqurların cərgəsini daha da genişləndirmiş, buraya sual cümlələrini, antitezanın leksik və sintatik

yolla əmələ gəlməsindən, təkrar və onun müxtəlif fiqurlarından, növlərindən və xarakterindən bəhs etmişdir [Bəylərova, 2008]. Göründüyü kimi, əsas sintaktik vahidlərin üslubi sintaktik fiqur yarada bilməsi diqqətdən kənarda qalmamışdır. Biz bu məqalədə üslubi sintaktik fiqurların B.Vahabzadə yaradıcılığında çox rast gəlinən növlərindən bəhs etməyi qarşımıza məqsəd qoymuşuq.

Əsas Hissə

Sintaktik üslubi fiqurların içərisində təkrarların mühüm yeri vardır. Təkrarların növləri, quruluşu haqqında müxtəlif fikirlər mövcuddur. Bunların içərisində ən geniş yayılmışı və demək olar ki, hamı tərəfindən qəbul edilmiş fikirlərdən biri də belədir ki, təkrarlar poetik, leksik, morfoloji, sintaktik ola bilər. K.Abdullayev təkrarların cümlə, söz birləşməsi şəklində işlənərək mətnyaradıcı keyfiyyətləri ilə yanaşı, emosional münasibət yarada bildiyindən də bəhs etmişdir [Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər, 2012: 142].

Təkrarlar müxtəlif sintaktik üslubi imkanlara malikdir. Yazarın məqsədindən asılı olaraq işlədilən təkrarlar obrazlılığın güclənməsinə, ekspressivliyin artırılmasına, oxucunun diqqətini cəlb etmək, ötürülən fikrin intensivliyini göstərmək üçün işlədilir. Təkrarlar fikrin, mənanın qüvvətləndirilməsi, ekspressivliyin artırılması üçün istifadə olunan üslubi sintaktik fiqurdur. Təkrarlar mövzuya yeni məlumat verməsə də, bədii ədəbiyyatda ifadənin quruluşuna ritm, melodika, intensivlik və dinamika gətirir. Təkrarın müxtəlif növləri vardır. Təkririn ən çox işlənən növlərindən biri anaforadır. Sintaktik fiqurlarda misra, bənd, abzasın əvvəlində sintaktik vahidin eyni şəkildə işlənməsi anaforik təkrar adlanır. Bu haqda A.Bəylərova yazır: *"Eyni nitq vahidinin ardıcıl işlənən və ya bir-birinə yaxın yerləşən misraların, bəndlərin, yaxud da cümlələrin (və ya onun hissələrinin), abzasların, hətta fəsillərin əvvəlində təkrar edilməsindən ibarət olan bədii-üslubi fiqurdur"* [Bəylərova, 2008: 72].

Yanır bu dünyada ayaq izlərim
Yanır arzuların qışqırıqları.
Yanır o həqiqi, doğru sözlərim,
Yanır ürəyimin hıçqırıqları.

[Vahabzadə, 2008, V c.: 559]

Bu şeirin 5 bəndində "yanır" xəbəri inversiyaya uğramış, bəndlərin əvvəlində anaforik şəkildə işlənmişdir. Bu isə sadəcə təkrar etmək deyil, şair öz ürək yanğısını daha qabarıq vermək, oxucuya çatdırmaq, yanan ürəyin görünməyən odunu duyurmaq üçün anaforik təkrardan istifadə etmişdir. Eyni başlanğıc həm də şeirdə intonasiya, ritm və melodikanı tənzimləyir. Belə təkrarlar həm ardıcıl gələn misraları, həm də bəndləri bir-birinə bağlamaqla mətnyaradıcı funksiya daşıyır.

Məni, mənim üçün deyil, sən bu gün
Məni də sevirsən yalnız özünçün.

[Vahabzadə, 2008, II c.: 562]

Bu misralardakı anaforik təkrarlarda verilən semantik və informatik məlumat daha qəti, konkret və eyni zamanda, şairin haray salan qəlbinin ağrısını vermək üçün istifadə edilmişdir. Şair, qəlbinin hayqırtısını üzə çıxarmaq üçün cümlənin tamamlığını, yəni obyektini aydınlaşdırmaq, göstərmək üçün təkrar yoluna nəzər salınmışdır.

Bəndlərdə anaforik təkrarlar özünü sadə cümlə şəklində göstərə bilər. Böyük söz ehtiyatına malik şair bu sintaktik fiqurun cümlə formasına da tez-tez müraciət etmiş, daha dolğun, daha tam şəkildə hisslərini tərənnüm etmişdir.

Sən hardan biləsən nə çəkirəm mən.
Payızam...
ey ömrün ilk baharlısı,

Sən hardan biləsən, nədən biləsən
Yoxdur bu dünyada səndən varlısı.
[Vahabzadə, 2008, IV c.: 252]

Bu misralarda çox qəribə sintaktik fiqurla rastlaşırıq. Dördüncü misrada tam və yarımçıq təkrar verilmişdir. Belə unikal formada verilən təkrar şair hissinin sözlə ifadəsində və aktuallaşmasında, daha duyğulu verilməsində rol oynayır.

Təkrarların bir növü də epiforik təkrarlardır. Bəzi ritorika kitablarında bu təkrarı antistrola adlandırmışlar. Epifora eyni nitq vahidinin ardıcıl misra, bənd və yaxın işlənən sətirlərdə, abzasların sonunda işlənməsidir. Epifora adlanan bu sintaktik fiqur daha çox yazılı nitqə xasdır. Həm nəzm, həm də nəsr əsərlərində işlənir. Bəzən misranın sonunda gəldikləri üçün rədif və epiforanı fərqləndirmirlər. Rədif və epifora oxşarlığı bunların arasında olan fərqləri qabartmağı zəruri edir. Rədif şeirdə qafiyədən sonra bütün bəndlərdə təkrar olunan ifadələrdir. Epiforada isə qafiyə üçün vacib olan bu zəruri xüsusiyyətlər tələb olunmur. Bəzən epifora kimi işlədilən ifadə sonrakı cümlənin əvvəlində işlənir, bu isə yeni sintaktik fiqurun əmələ gəlməsinə səbəb olur. Belə təkrar epifora-anaforik təkrar adlanır. Epifora poetik əsərlərdə, həm də nəsr əsərlərində ola bildiyi halda, rədif yalnız nəzmdə özünü göstərə bilir. Məsələn:

Yandıran da mənəm, yıxılan da mən.
Döyən də,Vuran da, yıxılan da mən!
[Vahabzadə, 2008, II c.: 552]

Bəzi hallarda epifora ardıcıl gələn misralarda deyil, bəndlərin sonunda da işlənə bilir. Bu zaman epifora mətn yaradıcısı kimi öz funksiyasını da yerinə yetirir.

Biryolluq könlündən sil məhəbbəti,
Deyənlər könlümü nə sanır mənim?
***
Mən necə bədbəxtəm, görün bir harda
İradəm, mərdliyim sınanır mənim.
[Vahabzadə, 2008, II c.: 596]

“Mənim” epiforası şeirin bütün bəndlərinin sonunda işlənir və bəndlərarası əlaqə yaratmaqla ritm və melodikanı da tənzimləyir.

Şairin istifadə etdiyi təkrarın anafora-epiforik növünə də tez-tez rast gəlinir. Bu isə eyni nitq vahidi ilə başlayan misranın eyni nitq vahidi ilə də tamamlanması kimi sərgilənən sintaktik fiqurdur. Bu sintaktik fiqurun əks şəkildə özünü göstərməsi, şairin məqsədindən asılı olaraq yerlərini dəyişməsini görürük. Bu isə yeni lövhə yaradır. Bu fiqurda misra eyni nitq vahidi ilə tamamlanır, sonrakı misra eyni nitq vahidi ilə başlayır. Belə təkrarlar anafora-epiforik və epifora-anaforik təkrarlar adlanır.

Dünyadan dünyaya gileyim yanır,
Yanan şeirlərə ürəyim yanır.
Yanır, yanğısıyla məni yandırır.
[Vahabzadə, 2008, V c.: 559-560]

Göründüyü kimi, şairin istifadə etdiyi anafora-epiforik, epifora-anaforik təkrarlar xüsusi bir mənzərə yaratmışdır. Bu isə şairə qələminin qüdrətilə məna və ideyanı paralel şəkildə daha təsirli çatdırmağa xidmət edir. Eyni sözün müxtəlif qrammatik formalarda işlənməsi də diqqəti çəkir. Hər bir formanın daxilində məzmun öz gözəlliyini, dərinliyini əks etdirir. Bu vəhdətin daxilində səslərin, sözlərin

intonasiyası da xüsusi ritm, melodikanı əks etdirir və şair sözünün tam mənasında oxucu və dinləyiciyə daha təsirli çatdırılmasına səbəb olur.
Bədii əsərlərdə təkrarın geniş yayılmış növlərindən biri də eyni nitq vahidinin bir misranın əvvəlində, ortasında və sonunda ardıcıl olaraq təkrarlanmasıdır. Belə ardıcıl olaraq işlənən təkrarlar rus dilçiliyində qoşalaşma adı ile verilir. A.Bəylərova bu təkrarı geminasiya və ya reduplikasiya adı ilə qeyd etmişdir.
Belə təkrarlar mətnə xüsusi məna çaları verir. Mətndaxili təkrarlar yazar fikrinin aktuallaşmasına və məntiqi vurğu ilə deyilməsinə səbəb olur. Məntiqi vurğu ilə deyilən bu təkrarların intonasiyası digər hissələrdən fərqli olaraq daha yüksək ton və tezliyə malik olur.

Bir zamanlar Mə́n Mən idim,
İndi dönüb sə́n olmuşam.
[Vahabzadə, 2008, II c.: 603]

Bu misralarda təkrar olunan “mən” şəxs əvəzliyi öz həqiqi mənasında çıxış edir, yəni şair öz şəxsini göstərir, sevgi odunda yanan aşiqin “sən”ə çevrilməsini, yəni “mən və sən”in bütövləşdiyini göstərir. Şairin bu misraları dahi Məhəmməd Füzuli poeziyasındakı sevgidə aşiq və məşuqun bir canda, bir ruhda olma – ilahi məhəbbət fəlsəfəsini xatırladır.
Basqa misrada təkrar olunan şəxs əvəzliklərinin mənası isə daha mükəmməl şəkildə özünü nümayiş etdirir.

Sevdim, ucalmadım, alçaldım ancaq -
Bu eşqin gücünə mə́n, mən olmuşam.
[Vahabzadə, 2008, II c.: 565]

Bu beytdə aşiq məninin sevgi gücünə yeni şəxsiyyət olmasından bəhs edilir. Sevgi gücünün məhz bu şəkildə ifadəsi B.Vahabzadə kimi eşqi duyan, onun qüdrətinə inanan, qələmlə bu eşqi tərənnüm edə bilən aşiq-şairə xasdır. Həm də dilin qrammatik normasını pozmadan. Beytdəki şəxs əvəzliyi məntiqi vurğu ilə deyilir və aktuallaşır.
Zəngin forma strukturuna malik olan təkrarların bir qismi cümlə şəklində olması ilə bərabər, mətnə xüsusi forma gözəlliyi, avazlanmaya incəlik gətirir. Poeziya dilində işlənən və intensivliyə malik olan bu təkrarlar bəndlərin hər birinin sonunda işlənir. Bu işlənmədə bəzən eyni söz sıralanmasına, bəzən isə söz sırasında dəyişikliyə rast gəlinir.

Könül verdik, biz and içdik
Əhdimizə dönə-dönə.
Amma yenə inanmadıq
Nə sən mənə, nə mən sənə.

Ayıltmadıq könlümüzdə
O gözləri yol çəkəni.
Xəyallanıb uçurtmadıq
Nə sən məni, nə mən səni.
[Vahabzadə, 2008, V c.: 277]

Bəndlərin sonunda təkrar olunan “Nə sən məni, nə mən səni” sintaktik fiqurunda bir xüsusiyyət diqqəti cəlb edir. Sözlər cümlələrin içərisində forma və funksiyalarını dəyişmişdir, bu isə misrada ifadə olunan məzmunun dəyişmə səbəbidir. Belə təkrarlara həmcins üzvlər, paralel üzvlərdə də rast gəlinir. Ritm, intonasiya şeirin axıcılığını artırır, şeiri nəğmə kimi səsləndirir, hiss və duyğulara daha çox təsir edir.

Bədii əsərlərdə fikrin obrazlı, emosional ifadəsinə və qüvvətləndirilməsinə xidmət edən sintaktik fiqurlardan biri də antitezadır. Antiteza əksmənalı sintaktik vahidlərin sayəsində meydana çıxır. Antitezanın əsasında təzadlar dayanır. Bu fiqurun yaranmasında antonim sözlərin rolu danılmazdır. Bu vasitə ilə ziddiyyətli anlayışlar qarşılaşdırılır, müqayisə edilərək poetik vüsətin ortaya çıxması üçün şərait yaradır. H.Həsənov bu haqda yazırdı ki, antitezalar təkcə söz və ya ifadə antonimliyi deyil, xalis fikir təzadıdır [Həsənov, 1999: 228].

Antiteza yazarın fərdi üslubu ilə çox bağlıdır. Yazar obrazların fərdi xüsusiyyətlərini göstərmək, anlayışların, münasibətlərin arasındakı ziddiyyətləri ifadə etmək üçün bu sintaktik fiqura tez-tez müraciət edir. Bu zaman təzadlı müqayisələr qarşılaşdırılan surətlərin xarakterləri, keyfiyyətləri daha canlı, obrazlı verilir, bu, oxucuya güclü təsir edir.

Necə fərəhlənir, sevinir ana,
Qapının dalından baxır oğluna.
Belə də dərd olar?
Oğul doğasan,
Onun şad gününə gendən baxasan?
[Vahabzadə, 2008, IV c.: 623]

Burada oğul doğan ana fərəhi ilə oğul-gəlin münasibəti qarşılaşdırılır və üsyan hayqırtısı sözlərdən birbaşa ürəklərə işləyir. Antiteza burada lövhələr vasitəsilə verilir, münasibətlərin qarşılaşdırılması təmtəraqlı sözlərlə deyil, cümlələrin yaratdığı antiteza ilə daha qabarıq çatdırılır.

Antiteza vasitəsilə qəhrəmanın zahiri görünüşü, mənfi və müsbət xüsusiyyətləri qarşılaşdırılır və oxucuya təsir etməklə yanaşı, həmin surətin keyfiyyətləri üzə çıxarıla bilir. B.Vahabzadənin “Şairlər” şeiri daha çox təzadlar üzərində qurulub və şairin əzab-əziyyəti gözlər önündə müqayisə və ziddiyyətlərin qarşılaşdırılması ilə verilir.

Dünyanı gəzdiniz siz oymaq-oymaq,
Fərəhin içində qəm gördünüz siz.
Adi bir milçəyə qıymayıb, ancaq...
[Vahabzadə, 2008, II c.: 287]

Təzadlar bəzən müxtəlif quruluşda meydana çıxa bilir. Cümlələrin qarşılaşdırılması nəticəsində paradoksal vəziyyət yaradılır. İki sadə cümlənin birləşməsi, paralel şəkildə qurulmuş cümlələrdir.

Bir tərəfdə toy çalınır,
O tərəfdə yas tutulur.

Misralarda işlənən toy-yas məzmun təzadı, bir tərəfdə-o tərəfdə isə məkan təzadı yaratmışdır.

Dost deyirəm, düşmən çıxır,
Gül deyirəm, xəncər batır.

Bu misralar da antitezaya klassik nümunədir, cümlələrdə həm struktur paralelizm, həm də antiteza sintaktik fiquru vardır. Bu cümlələr bir-biri ilə semantik oppozitivlik yaradır.

Poetik əsərlərdə antiteza həyatda baş verən hadisələr və insan təbiəti arasındakı ziddiyyətləri göstərmək üçün də qarşılaşdırıla bilər.

Dünyamızı yasa, toya bölmüşük,
Sevdamızı oda, suya bölmüşük,
Özümüzü günə, aya bölmüşük
Min arzuya, min diləyə böl, görüm.
[Vahabzadə, 2008, IV c.: 440]

B.Vahabzadə şeirlərinin içərisində antiteza üzərində qurulan ayrı-ayrı şeirlər var. Bu, təkcə həqiqətlərin müqayisəsi deyil, həyat fəlsəfəsinin ifadəsi üçün şairə meydan verir.

Cavanlıqda –
Əllər uzun, dillər qısa,
Qocalıqda –
Dillər uzun, əllər qısa.
Cavalıqda –
Günlər qısa, illər uzun,
Qocalıqda –
Günlər uzun, illər qısa.

[Vahabzadə, 2008, IV c.: 284]

Antitezanın bədii dildə bir çox xüsusiyyətləri vardır və bu, geniş, dərin araşdırma tələb edir. Bu sintaktik fiqurun ifadə vasitələri də zəngin və maraqlıdır. Həyatın özündə olan ziddiyyət, əkslik, müqayisə olunası hadisələr bu üslubi sintaktik fiqurun da əhəmiyyətini aydın göstərir.

NƏTİCƏ

Sintaktik fiqurların daxili bölgüləri, dildə ifadə vasitələri çox genişdir. Biz bu məqalədə sintaktik fiqurların yalnız ikisindən, yəni B.Vahabzadə yaradıcılığında intensiv istifadə edilən təkrarlar və antitezadan bəhs etmişik. Şair yaradıcılığında digər fiqurlardan da istifadə edərək gözəl, dalğalı dənizə bənzər, gah coşan, gah həlimləşən nümunələr yaratmışdır. Böyük ustadın dilindəki sadəlik və zənginlik qoşa qanad kimi bədii vəhdətdə götürülür. Onun şeirlərində məna qüvvətli, formalar isə zəngin və əhatəlidir. Şair ən fəlsəfi, mücərrəd fikirləri sadə və aydın, poetik cəhətdən uğurlu fiqurlarla ifadə edə bilən bir ustaddır. Sonrakı məqalələrimizdə sintaktik fiqurların digərlərindən bəhs etməyi qarşımıza məqsəd qoymuşuq.

ƏDƏBİYYAT

1. Abdullayev K. (1999). Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 284 s.
2. Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər (Dərs vəsaiti). (2012). / Abdullayev K., Məmmədov A., Musayev, M., Üstünova K. və b. Bakı: Mütərcim, 608 s.
3. Абдуллаев, К.М. (1976). Синтактический параллелизм (на материале огузского памятника «Книга моего Деда Коркута») / Автореф. дисс. конд. филолог. наук. Москва.
4. Bəylərova, A. (2008). Bədii dildə üslubi fiqurlar. Bakı: Nurlan, 212 s.
5. Əfəndiyeva, T. (1963). Elliptik cümlə // Azərbaycan dilinin sintaksisinə dair tədqiqlər. Bakı: AzSSR EA,192 s.
6. Həsənov H.Ə. (1999). Nitq nəzəriyyəsi və üslubiyyatın əsasları. Bakı: Bakı Universiteti, 278 s.
7. Qurbanov, A. (1967). Müasir Azərbaycan ədəbi dili. Bakı: Maarif, 1967, 274 s.
8. Rəfili, M. (1958). Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı: APİ, 1958, 281 s.

9. Vahabzadə B. (2008). Əsərləri, 12 cilddə, II cild (1960-1969). Bakı: Elm, 618 s.
10. Vahabzadə B. (2008). Əsərləri, 12 cilddə, IV cild (1970-1979). Bakı: Elm, 662 s.
11. Vahabzadə B. (2008). Əsərləri, 12 cilddə, V cild (1980-1989). Bakı: Elm, 584 s.
12. Vahabzadə, B. (2009). Əsərləri. 12 cilddə, XI cild (Publisistika). Bakı: Elm, 738 s.

IN THE WORKS OF BAKHTİYAR VAHABZADE THERE ARE EXAMPLES OF POETRY AND PRAİSİNG LOVE FOR THE MOTHERLAND

В ТВОРЧЕСТВЕ БАХТИЯРА ВАГАБЗАДЕ ОБРАЗЦЫ ПОЭЗИИ И ВОСПЕВАНИЕ ЛЮБВИ К РОДИНЕ

VƏTƏN SEVGİSİ VƏ POEZİYA NÜMUNƏLƏRİ BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA

Ofeliya İsmayılova
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu

Abstract
People's poet of Azerbaijan, laureate of the State Prize of the former USSR, laureate of the State Prize of Azerbaijan, recognized poet Bakhtiyar Vahabzade won the love of the people with his bright creativity. His work represents one of the best achievements of national poetic thought. Reading his poems, you feel the strength, clarity and maturity of the mind, which confirms the conviction of the writer's soul. He is a patriot, he is a mentor, he is a teacher in the good sense of the word. Many readers today will be able to find themselves, their world, their experiences and feelings in the poetry of Bakhtiyar Vahabzade.
Key words: People's poet Bakhtiyar Vahabzade, examples from poetry, chanting love for the Motherland, love lyrics

Резюме
Народный поэт Азербайджана, лауреат Государственной премии бывш. СССР, лауреат Государственной премии Азербайджана, признанный поэт Бахтияр Вагабзаде своим ярким творчеством завоевал любовь народа. Его творчество представляет одно из самых лучших достижений национальной поэтической мысли. Читая его стихи, чувствуешь силу, ясность и зрелость ума, что потверждает убежденность души писателя. Он патриот, он наставник, он учитель в хорошем смысле этого слова. Многие читатели смогут найти сегодня себя, свой мир, свои переживания и чувства в поэзии Бахтияра Вагабзаде.
Ключевые слова: Народный поэт Бахтияр Вагабзаде, образцы из поэзии, воспевание любви к Родине, лирика любви

Xülasə
Azərbaycanın görkəmli şairi, türk xalqlarının sevimlisi, Xalq şairi Bəxtiyar Vahabzadə parlaq yaradıcılığı ilə xalqımızın dərin məhəbbətini qazanmışdır. Onun poeziyasının əsas missiyası sözün qüdrətini, gücünü insanlara çatdırmaq idi. Coşqun fikir selləri, odlu duyğular, fəlsəfi dərinlik onun şeirlərinin əsasını təşkil edir.
Açar sözlər: Xalq şairi Bəxtiyar Vahabzadə, poeziya nümunələri, Vətən sevgisi, məhəbbət lirikası

Azərbaycan xalqının vətənpərvər ziyalısı Bəxtiyar Vahabzadə parlaq yaradıcılığı ilə xalqımızın dərin məhəbbətini qazanmışdır. Öz xalqının və dünya türklərinin bəxtiyarlığını istəyən, ömrünü Vətən yolunda şam kimi əridən şair şirəsi el ədəbiyyatından, ətri Vətən torpağından, ruhu xalqın ürəyindən gələn əsərləri ilə insanları el yolunda oda, alova atılmağa səsləyirdi:

Tarixlə bir yaşdadır
Bizim tarix yaşımız.
Nədən səni qorxudur

Tanrı "türkü" qorusun –
Duamız, alqışımız (1, s.28).

Azərbaycan dilinin saflığı, təmizliyi və zənginləşməsi uğrunda mübarizə şairin yaradıcılığının ən mühüm istiqamətlərindən biri idi. Onun poeziyası Azərbaycanlı ananın südündən və isti nəfəsindən yoğrulmuş müdrik poeziyadır:

Dil açanda ilk dəfə Ana söyləyirik biz
"Ana dili" adlanır ilk dərsliyimiz.
İlk mahnımız lay-laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dillə gilə-gilə (2, s.63).

Azərbaycan ədəbiyyatının istedadlı şairi Bəxtiyar Vahabzadə poetik forma baxımından vətənpərvərlik, məhəbbət lirikası, insan və zaman haqqında düşüncələrlə yanaşı, xalqın keçmişinə, bu gününə və sabahına aid olan problemləri də arayır, onların yaxşı və pis cəhətlərini qiymətləndirir. Oxucu da bu şeirlərdə özünün fəlsəfi mahiyyətini, intellektual təbiətini tapır və insan zamanın real duyğuları ilə tanış olur və düşünür. Bu baxımdan görkəmli mütəfəkkir, yazıçı və dramaturq Mirzə Fətəli Axundzadəyə həsr olunmuş "Saray – daxma" şeiri çox səciyyəvidir:

Balaca bir daxma... əyri dirəklər
Doğulmuş, yaşamış Fətəli burda.
Böyüyür çox zaman böyük ürəklər
Kiçik daxmalarda, dar daxmalarda.
***
Balaca daxmadan bir az o yanda
Durur xan sarayı... təzada bir bax.
İşıqlı saraydan zülmət axanda
Qaranlıq daxmadan nur axır ancaq (2, s.125).

Bildiyimiz kimi, 90-cı illər Azərbaycan poeziyasının vətənpərvərlik ruhu 20 yanvar hadisələrindən qaynaqlanırdı. Üsyankar söz ustadı, ömrü boyu ürəyi Vətən sevgisi ilə döyünən Bəxtiyar Vahabzadə bu mövzuya müraciət etməmiş olmazdı. Dövrün ağır sınaq zamanında yazılmış "Şəhidlər" poeması vaxtında deyilmiş həqiqət idi və bu faciəni qələmə alan ilk şairlərdən biri Bəxtiyar Vahabzadə idi. Azəri xalqının mərd, qəhrəman oğulları qorxunu özlərində dəf edərək, imperiya zülmünə qarşı etiraz səslərini qaldıraraq, özlərini torpaq uğrunda qurban verdilər:

20 Yanvar... Bakının küçələrindən
Yudular millətin qızıl qanını.
Yuya biləcəkmi o cəllad görən
Qanla ləkələnmiş öz vicdanını?!
***
Xalq dözə bilsə də zülmün şərinə
Yanır gözlərində kini, nifrəti.
Alıb tabutları çiyinlərinə
Allaha göstərir bu cinayəti.
***
Güllə səslərini çağa səsləri
Batırdı o gecə, şükür Allaha!

Doldu şəhidlərin boşalan yeri,
Naşükür olmayaq, vallah, bir daha! (3)

Yasaq olunan siyasi mövzulardan biri də Azərbaycanımızın ikiyə bölünməsi, parçalanması mövzusudur. Bu mövzu yaradıcı insanları daim düşündürmüşdür. İmperiya əsarəti, xalqımızı milli yaddaşından uzaqlaşdırılması, kökünü, əslini ona unutdurulması – bu ağrılı problemlər ülvi və pak hissləri tərənnüm edən bir şair kimi daima Bəxtiyar Vahabzadənin diqqətində olmuşdur. Şairin arzusu idi ki, ölkələr arasında keçilməz sərhədlər olmasın, azadlığa sərhəd dirəkləri mane olmasın və "Kaman nalə çəkir" şeiri bunun nümunəsidir:

Uzaq Britaniyada kaman nəğməsi...
Habil lal telləri dilə gətirmiş.
Bir xalqın kökündən gələn ah səsi,
Başqa bir xalqı da inildədərmiş.
***
Balaca bir çayı keçə bilməyən
Qardaşlar görüşür qürbətdə ancaq.
Dalıb qəlbimizin hönkürtüsünə
Oxuduq məktubu biz dönə-dönə:
"Ulduzları saya-saya,
Ayaq basır insan aya.
Mənim bu taydan o taya
Əlim çatmır sənə, qardaş" (1, s.109).

Bəxtiyar Vahabzadə milli özünüdərkə çağıran çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına dəyərli töhfələr vermişdir. Millətinin başına gətirilən qanlı hadisələr, azadlıq mübarizəsinin boğulması, böyük şəxsiyyətlərin bu hadisələrə münasibəti yazıçının diqqət mərkəzində olmuşdur. Onun qəmli, poetik şeirlərini dinlədikcə hərə öz həyatını səhifələyir, özünə uyğun yozur və izahını tapır. Onun poeziyası əzabkeş fikrin, ayrılığın, nakam arzuların, sevginin əzablı yollarının poeziyasıdır.
Həyatımızda və zamanda olan ziddiyyətlər, mənəvi sarsıntıların təsviri, pak və ülvi hisslərin tərənnümü Bəxtiyar Vahabzadə yaradıcılığında öz təcəssümünü tapmışdır. Zaman və müasir insan, zaman və yoxluq, insan və ölüm səltənəti arasındakı təzadlar onu narahat edirdi. Yazıçı bu narahatlığa, qayğı və fikirlərə fəlsəfi yönümdən yanaşır, parlaq və cilalanmış bir şair idrakı ilə, sözün qüvvəti ilə bizi də düşünməyə vadar edir.
Qırğız xalqının görkəmli yazıçısı Çingiz Aytmatov xalq şairimiz Bəxtiyar Vahabzadə haqqında belə fikir söyləmişdi: "Sən övladı olduğun xalqın nitq hissəsində feil olmağı bacarırsan, xalqının canlı dil memarlığına öz töhfəni verə bilmisən". Həqiqətən də bu fikirlər şairin poeziyasında öz əksini tapmışdır. O, doğma dilimizin ən fəal daşıyıcısı və keşikçisi olmuşdur. Bəxtiyar Vahabzadə sözə yüksək qiymət vermiş, onun funksiyasını dəqiq müəyyənləşdirmişdir:

Yarpaqları tez tökülər şerimin
Kökü yoxsa bu torpaqda, bu eldə.
Dadı, duzu varsa əgər şerimin,
Bu dad, bu duz bu dildədir, bu dildə.
***
Ana dilim, şerim sənə borcludur
Bu torpağa, bu Vətənə borcludur.
Bunu bildik, naşükürük amma biz,
Axı niyə sığışmırıq bu dilə?

Çalışırıq, istəyirik şerimiz
Gah o dilə, gah bu dilə çevrilə (1, s.75)

Bəxtiyar Vahabzadə şeirləri ilə ürəkləri fəth edən güclü, qüdrətli bir şairdir. Onun qələmi dünyanı qan dənizində boğmaq istəyən cahangirlərin qılıncından və silahından daha kəskin və güclüdür desək yanılmarıq.

İstifadə edilmiş ədəbiyyat

1. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri (şeirlər). Bakı: Yazıçı, 1981.
2. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. Bakı: Öndər, 2004.
3. Xəlilov C. Lirik şeirin epik ləngəri. "Ədəbiyyat qəzeti", 2000, 20 yanvar.

CREATIVE WORK OF BAKHTIYAR VAHABZADE
(Based on the poem "Azerbaijan - Turkey" by B. Vahabzade)

BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA İKİ DÖVLƏT - BİR MİLLƏT İDEOLOGİYASI
(B.Vahabzadənin "Azərbaycan – Türkiyə" şeiri əsasında)

Gülşən Mehdizadə Kamal qızı
Azərbaycan, Bakı Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi işçisi, pedaqogika üzrə fəlsəfə doktoru
ORCID ID: https://orcid.org/0009-0001-9363-0057

Xülasə
Vətənimizin çağdaş milli azadlığı uğrunda mübarizəsinin istənilən səhifəsində Bəxtiyar Vahabzadə dühasının adı vardır. Vahabzadə şəxsiyyətində çağlayan, coşan millət sevgisi, vətən təəssübkeşliyi, azadlıq vulkanı onun tarixi-ictimai təfəkkürünün əsasında durması yaradıcılığının hər mərhələsində şahidi oluruq.
Bəxtiyar Vahabzadənin millət məfhumuna öz fəlsəfi baxışı var. Tənqidçilər dahi dühanın yaradıcılığını dövrünün müdriklik poeziyası kimi qiymətləndirmişlər. Onun fikrincə xalq üçün səfalət, aclıq və fəlakət bir o qədər zillət deyil – çünki bu zülmlər içərisində də o, milliliyini hifz edə bilər. Lakin əgər millət qul, ayaqlara çul və fikircə yoxsul olsa, onda onun millətliyi də itib gedər. Əsir xalqın dünyada nə yeri var, nə səsi, çünki əsir xalqın yerinə qanan da, görən də, danışan da özgəsidir.
Bəs Bəxtiyar Vahabzadə milləti necə görür? O, hesab edir ki, millət ləyaqətini, qeyrətini, şərəfini və azadlığını qoruyursa, onda ona millət demək olar, çünki cəmiyyətdə xalqın mötəbər vəsiqəsi onun azadlığıdır. Vahabzadə yaradıcılığında daim Vətən yanğısı, soykökümüzə qayıdış zəruriyyəti öz əksini tapmışdır. Sanki onun bütün yaradıcılığına "Azərbaycan" möhürü vurulmuşdur.
İbtidai sinif şagirdlərinə mövzunun tədrisi zamanı müəllimin qarşısında duran ümdə vəzifə şagirdlərə Türkiyə və Azərbaycan dövlətləri arasındakı tarixə söykənən dostluq, qardaşlıq münasibətini aşılamaqdır. Ümummilli Liderimiz Heydər Əliyevin "İki dövlət bir millət" siyasətini şagirdlərə tərənnüm etməklə yetişməkdə olan nəsldə türk soykökünün ilkin rüşeymləri formalaşdırmaqdır.
. Hazırda aparılan siyasətin nəticəsidir ki, Qarabağın işğaldan azad edilən şəhər və rayonlarında - Şuşada, Ağdamda, Hadrutda, Füzulidə və s. Azərbaycan bayrağı ilə yanaşı, Türkiyə bayrağı dalğalanır. Qarabağın Türkiyənin himayəsində, müdafiəsində olduğunun isbatıdır. "Şuşa Bəyannaməsi"nin imzalanmasından və ratifikasiyasından sonra Azərbaycan-Türkiyə münasibətləri mənəvi məsələdən hüquqi müstəviyə keçdi. Bu gün Vətənimizin yaşadığı məğrurluqda xalqımızın ziyalılarının, böyükdən kiçiyə hər kəsin payı var. B.Vahabzadə dühasının apardığı azadlıq mübarizəsində, qardaşlıq sevdasında payı danılmazdır! Türkiyənin prezidenti Tayyib Rəcəb Ərdoğan 2020 ci il 10 dekabr tarixində Vətənimizin əlamətdar günündə ilk Zəfər paradında kürsüdən təbrik çıxışı zamanı qardaşlıq gücümüzü poetik ifadə ilə vurğulamaq məqsədi ilə B. Vahabzadənin "Azərbaycan-Türkiyə" şeirini"söyləmişdir!
Açar sözlər: Sovet imperiyası, fasilitator, soykökü, təfəkkür, fəlsəfi baxış

Abstract
The name of the genius Bakhtiyar Vahabzadeh is found on every page of our homeland's contemporary struggle for national freedom. We witness at every stage of his creative work that the love of the nation, the patriotism, and the volcano of freedom that surged and flourished in Vahabzadeh's personality formed the basis of his historical and social thinking.
Bakhtiyar Vahabzadeh has his own philosophical view on the concept of nation. Critics have evaluated the work of the great genius as the poetry of wisdom of his time. In his opinion, misery, hunger and disaster are not so much humiliation for the people - because even in these oppressions they can preserve their nationality. However, if the nation becomes a slave, a slave and poor in thought, then its nationality will also be lost. The captive people have no place in the world, no voice, because the one who bleeds, sees and speaks in the place of the captive people is someone else.
How does Bakhtiyar Vahabzadeh see the nation? He believes that if a nation protects its dignity, zeal, honor and freedom, then it can be called a nation, because the people's authoritative identity in society is their freedom. Vahabzadeh's work has always reflected the burning desire for the homeland and the need to return to our ancestral roots. It is as if all his work has been stamped with the "Azerbaijani" stamp.
The main task of the teacher when teaching the subject to primary school students is to instill in the students the friendship and brotherhood based on history between the states of Turkey and Azerbaijan. By praising the policy of our National Leader Heydar Aliyev, "Two states, one nation", the primary germs of the Turkish ethnic roots are formed in the growing generation.
As a result of the current policy, in the cities and districts of Karabakh liberated from occupation - Shusha, Agdam, Hadrut, Fuzuli, etc., the Turkish flag is flying alongside the Azerbaijani flag. This is proof that Karabakh is under the protection and defense of Turkey. After the signing and ratification of the "Shusha Declaration", Azerbaijani-Turkish relations have moved from a moral issue to a legal one. Today, the intellectuals of our people, everyone from young to old, have a share in the pride that our Motherland experiences. The contribution of B. Vahabzadeh's genius to the struggle for freedom and love of brotherhood is undeniable! Turkish President Tayyip Recep Erdogan recited B. Vahabzadeh's poem "Azerbaijan-Turkey" during his congratulatory speech from the podium at the first Victory Parade on the significant day of our Motherland on December 10, 2020, in order to emphasize our brotherly strength with poetic expression!
Key words: Soviet Imperatory, fasilitator, ethonogenesis, thoughts, philosopy, view

Tam Mətn
Vətənimizin çağdaş milli azadlığı uğrunda mübarizəsinin istənilən səhifəsində Bəxtiyar Vahabzadə dühasının adı vardır. Vahabzadə şəxsiyyətində çağlayan, coşan millət sevgisi, vətən təəssübkeşliyi, azadlıq vulkanı onun tarixi-ictimai təfəkküründün əsasında durması yaradıcılığının hər mərhələsində şahidi oluruq.
Bəxtiyar Vahabzadənin millət məfhumuna öz fəlsəfi baxışı var. Tənqidçilər dahi dühanın yaradıcılığını dövrünün müdriklik poeziyası kimi qiymətləndirmişlər. Onun fikrincə xalq üçün səfalət, aclıq və fəlakət bir o qədər zillət deyil – çünki bu zülmlər içərisində də o, milliliyini hifz edə bilər. Lakin əgər millət qul, ayaqlara çul və fikircə yoxsul olsa, onda onun millətliyi də itib gedər. Əsir xalqın dünyada nə yeri var, nə səsi, çünki əsir xalqın yerinə qanan da, görən də, danışan da özgəsidir.
Bəs Bəxtiyar Vahabzadə milləti necə görür? O, hesab edir ki, millət ləyaqətini, qeyrətini, şərəfini və azadlığını qoruyursa, onda ona millət demək olar, çünki cəmiyyətdə xalqın mötəbər vəsiqəsi onun azadlığıdır [2,s.20]. Vahabzadə yaradıcılığında daim Vətən yanğısı,

soykökümüzə qayıdış zəruriyyəti öz əksini tapmışdır. Sanki onun bütün yaradıcılığına "Azərbaycan" möhürü vurulmuşdur. Yetmiş illik Sovet imperiyasının xalqlara öz soyköklərini unutdurma siyasəti türk mənşəlli xalqlardan da yan ötməmişdir. Soyköklərini unutdurmağa, tarixlərinin qədimliyinə, mədəniyyətlərinin zənginliyinə, dininə, türk dühalarının bəşər svilizasiyasının çiçəklənməsində xidmətlərinə kölgə salmağa çalışmışlar və müəyyən qədər də məkirli niyyətlərinə yürütmüş olduqları siyasətlə nail olmuşlar. Bununla yanaşı, tarixi təhrif edərək xalqı inandırmağa çalışıblar ki, sizin indiyəcən öz müstəqil dövlətiniz olmayıb. Müxtəlif yüzilliklərdə yaranan Atabəylər, Səfəvilər, Şirvanşahlar kimi qüdrətli Azərbaycan dövlətləri haqqında alimlərimizin tarixi sənədlər əsasında yazılmış əsərlərinin ümumittifaq miqyasında yayılmasına hər vasitə ilə mane olurdular. Guya bizim millətçiliyimiz yalnız Oktyabr və Aprel inqilablarından sonra inkişaf edib.

Azərbaycan müstəqllik qazanandan sonra xalq uzun zaman ondan gizlədilən öz soykökünü, vətəninin əsl tarixini öyrənmək təşnəsindədir və indi belə bir mühüm mövzuda ilk dəfə ayrısı yox, məhz Bəxtiyar Vahabzadə kimi vətənpərvər şairin səhnə əsəri ("Özümüzü kəsən qılınc"(Göytürklər)) yazması qürurverici hadisə idi, çünki Bəxtiyar əlinə qələm alandan bəri qadağalardan, təqiblərdən çəkinməyərək millətimizin əsl adı, öz yurdumuzda doğma dilimizin qəribliyə salınması, Azərbaycanın iki yerə parçalanması haqqında yana-yana, həm də dönə-dönə haray salan, yazan böyük sənətkardır [1,s.324].

İbtidai sinif şagirdlərinə mövzunun tədrisi zamanı müəllimin qarşısında duran ümdə vəzifə şagirdlərə Türkiyə və Azərbaycan dövlətləri arasındakı tarixə söykənən dostluq, qardaşlıq münasibətini aşılamaqdır. Ümummilli Liderimiz Heydər Əliyevin "İki dövlət bir millət" siyasətini şagirdlərə tərənnüm etməklə yetişməkdə olan nəsldə türk soykökünün ilkin rüşeymləri formalaşmış olur:

Bir millətik, iki dövlət,
Eyni arzu, eyni niyyət.
Hər ikisi cümhuriyyət –
Azərbaycan – Türkiyə
Bir ananın iki oğlu,
Bir ağacın iki qolu,
O da ulu, bu da ulu –
Azərbaycan – Türkiyə[3].

Bildiyimiz kimi fəal/interaktiv təlim metodunun qarşısında duran əsas məqsədlərdən biri informasiya hazır şəkildə çatdırmalı deyil, müəllimin fasilitatorluğu ilə (bələdçiliyi) şagirdlərə Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığı ilə bağlı əlavə məlumatlar əldə etmələri barədə tapşırıqların verilməsi daha məqsədəuyğun olar.

Müasir tarixə nəzər salaq B. Vahabzadənin bu şeirin məzmunu siyasi arenda devizdir. Belə ki. hər iki dövlət arasında maneəsiz səfərin təminatını nümanə göstərə bilərik

Ana yurdda yuva qurdum
Ata yurda könül verdim
Ana yurdum, ata yurdum
Azərbaycan-Türkiyə [3].

Türkiyə Respublikasının keçmiş prezidenti, mərhum Süleyman Dəmirəl Bəxtiyar müəllimi "Azərbaycan və Türk dünyasının böyük" şairi kimi dəyərləndirmişdir.

1991-ci ildə yazılmış şeir qəlbi bir döyünən hər iki dövlətin ruhunun məhsuludur.

Birdir bizim hər halımız
Diləyimiz, amalımız
Bayraqlarda hilalımız
Azərbaycan-Türkiyə[3].

Azərbaycan və Türkiyə dövlətləri arasındakı həm diplomatik, həm də səmimi qardaşlıq münasibətinə 2020-ci il 27sentyabr - 10 noyabr (44 günlük) II Qarabağ müharibəsi zamanı Azərbaycanın Ali Baş Komandanı "Dəmir yumruq" əməliyyatının Zəfərində mənəvi dəstəyinin şahidi olduq. 8 noyabr 2020-ci ildə Şuşanın işğaldan azad edilməsi idi, 2021-ci ilin 15 iyununda Şuşada, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşündən sonra "Bir millət, iki dövlət"in qardaş liderləri Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında "Şuşa Bəyannaməsi" imzalanması isə Qalanın ikinci fəthi sayılır [4]. "Şuşa Bəyannaməsi" iki ölkə arasında tarix boyu süzgəcdən və sınaqdan keçmiş, atalarımızdan qalan qardaşlıq mirasına sahibləndiyimizin baris nümunəsidir. Bu sənəd hər iki dövlətin ortaq strateji, hərbi-siyasi və təhlükəsizlik maraqlarına xidmət edir. Şeirdə də yazıldığı kimi:

Dinimiz bir, dilimiz bir
Ayımız bir, ilimiz bir
Eşqimiz bir, yolumuz bir
Azərbaycan-Türkiyə[3].

Hazırda Qarabağın işğaldan azad edilən şəhər və rayonlarında - Şuşada, Ağdamda, Hadrutda, Füzulidə və s. Azərbaycan bayrağı ilə yanaşı, Türkiyə bayrağı dalğalanır. Qarabağın Türkiyənin himayəsində, müdafiəsində olduğunun isbatıdır. "Şuşa Bəyannaməsi"nin imzalanmasından və ratifikasiyasından sonra Azərbaycan-Türkiyə münasibətləri mənəvi məsələdən hüquqi müstəviyə keçdi. Bu gün Vətənimizin yaşadığı məğrurluqda xalqımızın ziyalılarının, böyükdən kiçiyə hər kəsin payı var. B.Vahabzadə dühasının apardığı azadlıq mübarizəsində, qardaşlıq sevdasında payı danılmazdır! Türkiyənin prezidenti Tayyib Rəcəb Ərdoğan 2020 ci il 10 dekabr tarixində Vətənimizin əlamətdar günündə ilk Zəfər paradında kürsüdən təbrik çıxışı zamanı qardaşlıq gücümüzü poetik ifadə ilə vurğulamaq məqsədi ilə B. Vahabzadənin "Azərbaycan-Türkiyə" şeirini"söyləmişdir![5]

Ədəbiyyat siyahısı:

1. Dəmirli Mail. Türk Dünyasının Bəxtiyarı. (Bəxtiyar Vahabzadənin həyatı, yaradıcılığı və ictimai fəaliyyəti haqqında məqalələr toplusu) I hissə. Azərb. Dilində. B.: "Təfəkkür"NPM, 2002. 364 səh.
2. Həsənov Həsən Əzizoğlu. Azərbaycanın Bəxtiyarı, yaxud "Gülüstan"dan "Şəhidlər"ə gedən yol Bakı,Apostrof, səh. 48.Tiraj:500
3. İsmayılov Rafiq, Abdullayeva Solmaz və b. Azərbaycan dili (4-cü sinif üçün dərslik) Bakı: "Altun kitab", 2015.
4. "Şuşa Bəyannaməsi" Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək zirvədə olduğunu göstərən mühüm sənəddir. https://science.gov.az/az/news/open/21273
5. https://youtu.be/_stb1WhTMJM?si=tdlgqrsK4KFMg--E

ISSUES OF MOTHER LANGUAGE AND NATIONAL CONSCIOUSNESS IN THE CREATIVE HERITAGE OF BAKHTIYAR VAHABZADE

BƏXTİYAR VAHABZADƏNİN YARADICI İRSİNDƏ ANA DİLİ VƏ MİLLİ ŞÜUR MƏSƏLƏLƏRİ

Nigar Mustafa qızı Məhərrəmova
Azərbaycan Mingəçevir Dövlət Universiteti
ORCİD İD: 0009-0009-1528-7685

Abstract
Bakhtiyar Vahabzadeh is one of the strongest carriers of national thought, patriotism and attachment to language in Azerbaijani literature. In his work, the concept of language acts not only as a communicative tool, but also as a key indicator of national identity, cultural memory and historical existence. This article analyzes Vahabzadeh's attitude to his native language, how language is transformed into an ideological and moral value in his poetry and publicistic speeches from a linguistic perspective.
In particular, the semantic and symbolic loadings given to language in his poems such as "Mother Language", "Gulustan", "Vatan", "Millet ve dil" demonstrate the poet's contribution to the formation of national self-awareness. In these works, language is presented not only as an element of culture, but also as a living being that keeps the identity, spirituality and history of the people alive. Vahabzadeh's approach to language is consistent with his position of trying to protect national values even under Soviet censorship.
The article emphasizes the lexical-semantic features of the poet's poetic language, the connection of his ideas about the mother tongue with national ideology, and the social functions of the language. As a result, Bakhtiyar Vahabzade is valued not only as a great poet, but also as a militant propagandist of the mother tongue and a linguist-ideologist who played an important role in the formation of national consciousness. His work remains relevant today in terms of the preservation and development of the language.

Xülasə
Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatında milli düşüncənin, vətənpərvərliyin və dilə bağlılığın ən güclü daşıyıcılarından biridir. Onun yaradıcılığında dil anlayışı yalnız kommunikativ vasitə kimi deyil, milli kimliyin, mədəni yaddaşın və tarixi varlığın əsas göstəricisi kimi çıxış edir. Bu məqalədə Vahabzadənin ana dilinə münasibəti, onun poeziyasında və publisistik çıxışlarında dilin necə ideoloji və mənəvi dəyərə çevrildiyi dilçilik baxımından təhlil edilir.
Xüsusilə “Ana dili”, “Gülüstan”, “Vətən”, “Millət və dil” kimi şeirlərində dilə verilən semantik və simvolik yüklənmələr, şairin milli özünüdərkin formalaşmasına verdiyi töhfəni nümayiş etdirir. Bu əsərlərdə dil yalnız bir mədəniyyət elementi deyil, həm də xalqın kimliyini, mənəviyyatını və tarixini yaşadan canlı varlıq kimi təqdim olunur. Vahabzadənin dilə bu cür yanaşması, onun sovet senzurası şəraitində belə milli dəyərləri qorumağa çalışan mövqeyi ilə vəhdət təşkil edir.
Yeni texnologiyalar bir tərəfdən məhsuldarlığı artırır və iqtisadi böyüməyə şərait yaradır, digər tərəfdən isə əmək bazarında ciddi dəyişikliklərə səbəb olur. Ənənəvi ixtisaslar və peşələr tədricən avtomatlaşdırılır, bunun əvəzinə isə yüksək texnoloji bacarıqlara malik yeni peşələr meydana çıxır. Bu proses "rəqəmsal savadlılıq", "müxtəlif fənlərarası biliklər", "kritik düşüncə" və "adaptasiya qabiliyyəti" kimi bacarıqları ön plana çıxarır.

Sosial müstəvidə isə 4Sİ fərdi məxfiliyin, kibertəhlükəsizliyin və etik dəyərlərin yenidən qiymətləndirilməsinə səbəb olur. Süni intellektin qərarvermədə iştirakı, insan iradəsinin və məsuliyyətin hüdudlarını yenidən müəyyənləşdirir. Bu isə həm hüquqi, həm də fəlsəfi müstəvidə yeni çağırışlar doğurur.

Təhsil və İnsan Kapitalının Yeni Forması

4-cü sənaye inqilabı, ənənəvi təhsil modellərinin çevik, texnologiyaya inteqrasiya olunmuş və fərdiləşdirilmiş formalarla əvəz olunmasını tələb edir. Təhsil sistemləri rəqəmsal platformalara keçid etməklə yanaşı, tələbələrin yaradıcılıq, innovasiya və problem həll etmə bacarıqlarını inkişaf etdirməyə fokuslanmalıdır. Eyni zamanda ömürboyu öyrənmə anlayışı ön plana çıxır – fərdlər peşəkar həyatı boyunca daim yeni bacarıqlar öyrənməyə və dəyişən texnoloji mühitə uyğunlaşmağa hazır olmalıdırlar.

4-cü sənaye inqilabı yalnız texnoloji bir çevriliş deyil, həm də insanlığın özünü, fəaliyyət formalarını və gələcək baxışlarını yenidən formalaşdıran dərin və çoxşaxəli bir prosesdir. Bu inqilabın uğurla mənimsənilməsi üçün yalnız texnoloji inkişaf kifayət etmir – həm də bu inkişafın etik, sosial və təhsil baxımından düzgün istiqamətləndirilməsi tələb olunur. Bu baxımdan, həm dövlətlərin, həm də cəmiyyətlərin 4-cü sənaye inqilabının gətirdiyi imkanlardan maksimum yararlanmaq üçün strateji və inklüziv yanaşmalar qəbul etməsi həyati əhəmiyyət daşıyır.

Müasir sənaye inqilabı, xüsusilə dördüncü sənaye inqilabı, texnologiyanın sürətli inkişafı ilə əmək bazarında və cəmiyyətdə yeni bacarıqların zəruri olmasına səbəb olmuşdur. Bu dövrün çağırışlarına cavab vermək üçün fərdlərdən yalnız texniki biliklər deyil, həm də düşüncə tərzi, sosial və emosional bacarıqlar tələb olunur. İlk növbədə rəqəmsal savadlılıq mühüm əhəmiyyət daşıyır; bu, informasiya texnologiyalarından effektiv istifadə, rəqəmsal platformalarda işləmək və verilənlərlə işləmə bacarığını əhatə edir. Paralel olaraq, kritik düşüncə və kompleks problem həll etmə qabiliyyəti, yeni və qeyri-müəyyən situasiyalarda əsaslandırılmış qərarlar verməyi təmin edir. Yaradıcı və innovativ yanaşma, sürətlə dəyişən texnoloji və iqtisadi mühitdə fərqlənməyi və yeni imkanlar yaratmağı mümkün edir. Eyni zamanda əməkdaşlıq və komanda işi bacarığı, xüsusilə qlobal və müxtəlif mədəniyyətli mühitlərdə effektiv işləmək üçün vacibdir. Emosional zəka, dəyişikliklərə uyğunlaşmaq, empati qurmaq və liderlik göstərmək baxımından ön plana çıxır. Süni intellekt, avtomatlaşdırma və digər qabaqcıl texnologiyaların yayılması fonunda texniki biliklər və proqramlaşdırma əsasları da getdikcə daha vacib hala gəlir. Ömürboyu öyrənmək və yeni biliklərə açıq olmaq isə bu çağırışlara davamlı uyğunlaşmanı təmin edən əsas bacarıqlardan biri kimi çıxış edir. Nəhayət, bütün bu bacarıqların etik çərçivədə və sosial məsuliyyətlə istifadə olunması da bu dövrün mühüm tələblərindən sayılır.

Bu çağırışlar bir sıra yeni bacarıqları zərurətə çevirir. Bu bacarıqları iki əsas kateqoriyaya bölmək olar: **texniki bacarıqlar** və **yumşaq bacarıqlar (soft skills)**.

Texniki Bacarıqlar

- **Rəqəmsal savadlılıq**: Kompüterlər, proqram təminatı və əsas texnoloji vasitələrlə işləyə bilmə bacarığı.
- **Proqramlaşdırma və kodlaşdırma**: Python, Java, C++, və s. kimi dillərdə kod yazmaq.
- **Məlumat analitikası və data elmi**: Böyük verilənlərlə işləmək, analiz etmək və nəticə çıxarma bacarığı.
- **Süni intellekt və maşın öyrənməsi**: Alqoritmlərlə işləmə, modellər qurmaq və onlardan qərar qəbul etmə prosesində istifadə etmək.
- **Avtomatlaşdırma və robot texnikası**: İstehsal proseslərini avtomatlaşdırmaq və idarə etmək.
- **Kibertəhlükəsizlik**: Məlumatların qorunması və informasiya sistemlərinin təhlükəsizliyinin təmin olunması.
- **Bulud texnologiyaları ilə işləmək**: AWS, Google Cloud, Azure və s. platformalarda işləmək bacarığı.

2. Yumşaq Bacarıqlar (Soft Skills)

- **Tənqidi düşüncə və problem həll etmə**: Mürəkkəb məsələləri təhlil edib effektiv həll yolları tapmaq.
- **Yaradıcı yanaşma**: Yeni ideyalar irəli sürmək və innovativ həllər yaratmaq.
- **Əməkdaşlıq və komanda işi**: Müxtəlif sahələr üzrə mütəxəssislərlə effektiv işləyə bilmək.
- **Ünsiyyət bacarıqları**: Texniki məlumatı sadə və aydın şəkildə izah etmək.
- **Adaptivlik və çeviklik**: Yeni texnologiyalara və dəyişən mühitlərə tez uyğunlaşmaq.
- **Özünüidarə və ömürboyu öyrənmə bacarığı**: Davamlı inkişaf üçün özünü daim yeniləmək.

Bu bacarıqlar, əmək bazarında rəqabətə davamlı olmaq və müasir iqtisadi-sosial dəyişikliklərə cavab vermək üçün vacibdir. Aşağıda təhsilin insanın formalaşmasında təsir etdiyi əsas bacarıq sahələri təqdim olunur:

Əqli (intellektual) bacarıqlar

- **Tənqidi və analitik düşüncə**: Təhsil insana məlumatı şüurlu şəkildə analiz etməyi, fərqli baxış bucaqlarını nəzərə almağı öyrədir.
- **Problemləri həll etmə bacarığı**: Riyaziyyat, elm və texnologiya fənləri bu bacarığın inkişafında mühüm rol oynayır.
- **Yaradıcı düşüncə**: Ədəbiyyat, incəsənət və layihə əsaslı öyrənmə vasitəsilə şagirdlərdə yeni ideyalar yaratmaq bacarığı formalaşır.

Sosial və emosional bacarıqlar

- **Ünsiyyət və əməkdaşlıq**: Təhsil mühiti insanlara başqaları ilə qarşılıqlı əlaqə qurmağı və komanda şəklində işləməyi öyrədir.
- **Empatiya və tolerantlıq**: Müxtəlif mədəniyyətləri və fikir müxtəlifliyini öyrənmək insanın sosial inkişafına şərait yaradır.
- **Liderlik və təşəbbüskarlıq**: Layihələrdə iştirak və ictimai fəaliyyətlər bu bacarıqları inkişaf etdirir.

Texniki və peşə bacarıqları

- **İxtisasa yönəlik bacarıqlar**: Orta ixtisas və ali təhsil səviyyələrində konkret sahələrə uyğun praktiki biliklər verilir.
- **Rəqəmsal savadlılıq**: Təhsil vasitəsilə kompüter bilikləri və texnologiya ilə işləmə bacarığı formalaşır.

Özünüidarə və ömürboyu öyrənmə bacarığı

- **Müstəqil qərarvermə və məsuliyyət**: Təhsil prosesi şagirdləri tədricən öz öyrənmə prosesinə cavabdeh olmağa sövq edir.
- **Davamlı inkişaf istəyi**: Kritik düşüncə və axtarış yönümlü öyrənmə vərdişləri insanın həyat boyu öyrənməsini stimullaşdırır.

İnsanın formalaşmasında zəruri olan bacarıqların inkişafında təhsilin rolu həlledici və əvəzolunmazdır. Təhsil təkcə bilik vermək deyil, eyni zamanda fərdin şəxsiyyətinin, düşüncə tərzinin, sosial davranışlarının və peşə bacarıqlarının formalaşmasına birbaşa təsir edən kompleks bir prosesdir. Bu proses insanın həyatının erkən mərhələlərindən başlayaraq, ömürboyu davam edən öyrənməni əhatə edir və fərdi cəmiyyətin dəyərli və funksional üzvünə çevirir.

Əvvəla, təhsil insanın intellektual bacarıqlarını formalaşdırır: məntiqi düşünmə, analiz və sintez etmə qabiliyyəti, problem həll etmə bacarığı, yaradıcı və tənqidi yanaşma kimi qabiliyyətlər məhz təhsilin sistemli və məqsədyönlü təsiri ilə inkişaf edir. Bu bacarıqlar yalnız akademik uğur üçün deyil, həm də gündəlik həyatın rasional və effektiv idarəsi üçün mühüm rol oynayır.

Bundan əlavə, təhsil insanın sosial bacarıqlarına da əhəmiyyətli təsir göstərir. Məktəbdə və digər təhsil mühitlərində şagirdlər əməkdaşlıq etməyi, ünsiyyət qurmağı, fikir mübadiləsi aparmağı və empati göstərməyi öyrənirlər. Bu bacarıqlar gələcəkdə peşəkar mühitdə və şəxsi münasibətlərdə uğur qazanmaq üçün vacibdir. Təhsil həmçinin fərdlərdə etik və vətəndaş məsuliyyətinin formalaşmasına, cəmiyyətin dəyərlərini mənimsəməyə və hüquqi-mənəvi prinsiplərə uyğun davranmağa yardım edir.

Təhsil prosesi fərddə emosional zəkanın inkişafına da şərait yaradır. Müxtəlif sosial situasiyalarda özünü və başqalarını anlamaq, hissləri idarə etmək və adaptasiya olmaq kimi qabiliyyətlər, müasir dövrdə uğurlu və sağlam sosial həyatın əsas göstəricilərindəndir.

Eyni zamanda, təhsil fərdin peşə bacarıqları və rəhbərlik keyfiyyətlərinin aşılanmasında da mühüm rol oynayır. Əldə olunan ixtisaslaşmış bilik və praktiki vərdişlər fərdin əmək bazarında

uğurla fəaliyyət göstərməsinə şərait yaradır. Müasir təhsil sistemi, xüsusilə də texnoloji dəyişikliklərə uyğunlaşan yanaşmalar, insanı rəqəmsal savadlılıq, informasiya idarəçiliyi və yenilikləri tətbiq etmə bacarıqları ilə təchiz edir. Təhsil yalnız məlumat ötürən bir sistem deyil, insanın zehni, sosial, emosional və peşəkar aspektlərinin formalaşmasında çoxşaxəli və davamlı təsirə malik olan strateji bir prosesdir. Bu səbəbdən təhsilin keyfiyyəti və məzmunu birbaşa olaraq insanın cəmiyyətə inteqrasiyası, şəxsi inkişafı və ümumi rifah səviyyəsinin göstəricisinə çevrilir.

Məqalənin sonlarına doğru önəmli bir məsələni də vurğulamaq da istərdim. Belə ki, müasir informasiya mədəniyyəti və texnoloji savadlılığın insan həyatında və cəmiyyətin inkişafında rolundan bəhs etdik. Bu bacarıqlar yalnız gündəlik həyat və təhsil sahəsində deyil, həm də milli təhlükəsizlik və müdafiə sahəsində də öz təsirini göstərir. Azərbaycan Respublikasının 2020-ci ilin 44 günlük Vətən Müharibəsində tətbiq etdiyi müasir texnoloji vasitələr və informasiya strategiyaları, rəqəmsal savadlılığın və informasiya mədəniyyətinin real həyatda nə qədər həyati əhəmiyyət daşıdığını əyani şəkildə sübut etdi. Bu müharibədə istifadə olunan yüksək texnologiyalar, məlumatın toplanması, emalı və operativ qərarvermə proseslərində inqilabi dəyişikliklərə səbəb oldu. İndi isə bu texnologiyaların müharibədə tətbiqinin əsas istiqamətlərinə və onların nəticələrindən bəhs edək.

44 günlük müharibədə istifadə edilən yeni nəsil texnologiyalar:

Pilotsuz Uçuş Aparatları (PUA-lar / Dronlar)

Azərbaycanın ən güclü silahlarından biri müasir dron texnologiyası idi.

✓ **Bayraktar TB2 (Türkiyə istehsalı)**

- Hədəfləri yüksək dəqiqliklə məhv etmək üçün istifadə olundu.
- Canlı kəşfiyyat görüntüləri ilə hərbi qərarların operativ verilməsini təmin etdi.
- Tank, artilleriya və hava hücum komplekslərinə ciddi zərbə vurdu.

✓ **Harop (İsrail istehsalı – Kamikadze dron)**

Hədəfi aşkar edib özü ilə birlikdə məhv edir.

Səssiz və aşkarlanması çətin olduğuna görə yüksək effektivliklə istifadə olundu.

✓ **Orbiter və SkyStriker**

Kəşfiyyat və dəqiq zərbələr üçün tətbiq edilən digər İsrail istehsalı dronlardır.

Real Vaxtda Kəşfiyyat və Koordinasiya Sistemləri

- **GPS əsaslı idarəetmə və hədəf izləmə texnologiyaları** düşmənin mövqelərini aşkar etməkdə və məhv etməkdə mühüm rol oynadı.
- **Uydu əlaqələri və komanda-nəzarət sistemləri** ilə canlı görüntülər komanda qərargahına ötürülərək, hücum qərarları sürətli şəkildə verildi.

Smart Munisiya və Yüksək Dəqiqlikli Raketlər

- **MAM-L və MAM-C** kimi Bayraktar dronlarına qoşulan ağıllı bombalar hədəfə dəqiq zərbələr endirdi.
- **LORA raketləri (İsrail istehsalı)** ilə uzaq məsafəli və strateji obyektlər məhv edildi.

Yapay Zeka (AI) və Avtomatlaşdırılmış Sistemlər

- Hədəf tanıma, prioritetləşdirmə və zərbə qərarlarında **AI texnologiyası** tətbiq olundu.
- Hərbi sahədə **data analizləri**, dron görüntüləri ilə uyğunlaşdırılaraq real vaxtda düşmən hərəkətləri təhlil edildi.

Elektron Müharibə Sistemləri

- **Radioelektron mübarizə (REM)** vasitələri ilə düşmən rabitəsi pozuldu, dronlara qarşı qoruma sistemləri sıradan çıxarıldı.
- **Signal boğucu sistemlər** düşmənin PUA-larının və texniki vasitələrinin effektivliyini azaltdı.

İnteqrə edilmiş hücum strategiyası

- Texnologiya yalnız texniki cihazlarla məhdudlaşmadı, **komanda idarəetməsi, məlumat paylaşımı, hücum sinxronizasiyası** da rəqəmsal əsaslarla həyata keçirildi.
- **Asimmetrik müharibə modeli** qurularaq, ənənəvi ordulara qarşı daha çevik və çevrilə bilən struktur tətbiq edildi.

Və bu texnologiyaları ümumiləşdirsək, 44 günlük müharibədə Azərbaycan, ənənəvi savaş anlayışından kənara çıxaraq **"5-ci nəsil müharibə"** modelini tətbiq etdi – yəni:

- Texnologiya əsaslı,
- Süni intellekt dəstəklənmiş,
- Asimmetrik və uzaqdan idarə olunan hücumlarla effektiv, itkisiz və sürətli nəticə əldə edən model.

Bu model dünyada da yeni bir müharibə anlayışının əsas nümunəsi kimi tanındı və **Türkiyə, NATO və bir çox ölkə bu təcrübədən dərs aldı.**

Tədqiqatın nəzəri əhəmiyyəti:

Bu tədqiqat informasiya cəmiyyətinin formalaşdığı və texnologiyaların həyatın bütün sahələrinə nüfuz etdiyi bir dövrdə informasiya mədəniyyəti və texnoloji savadlılıq anlayışlarının elmi əsaslandırılmasına və nəzəri baxımdan sistemləşdirilməsinə töhfə verir. Əsas nəzəri əhəmiyyət ondan ibarətdir ki, bu anlayışlar ilk dəfə kompleks şəkildə – həm fərdi inkişaf, həm cəmiyyətin transformasiyası, həm də müasir çağırışlarla (rəqəmsallaşma, süni intellekt, informasiya təhlükəsizliyi və s.) qarşılıqlı əlaqədə öyrənilmişdir. Tədqiqat çərçivəsində informasiya mədəniyyəti və texnoloji savadlılıq yalnız texnoloji bilik və bacarıqlar kimi deyil, həm də fəlsəfi, pedaqoji və sosial baxımdan təhlil edilərək bu sahədə mövcud nəzəri boşluqların aradan qaldırılmasına xidmət edir. Bu yanaşma nəticəsində informasiya ilə davranış mədəniyyəti, texnologiyadan məsuliyyətli istifadə, etik prinsiplər və tənqidi düşünmə kimi anlayışların ümumi mədəniyyət sistemində yeri aydınlaşdırılır. Bundan əlavə, tədqiqat nəticələri müasir təhsil nəzəriyyələrinin (konstruktivizm, media savadlılığı, rəqəmsal vətəndaşlıq və s.) inkişafına töhfə verir və gələcəkdə informasiya cəmiyyəti ilə bağlı nəzəri konsepsiyaların formalaşdırılmasına əsaslı baza yaradır. Beləliklə, bu tədqiqat, informasiya və texnologiya ilə bağlı anlayışların daha dərindən dərk olunmasına və onların cəmiyyətin inkişafında nəzəri rolunun daha ətraflı qiymətləndirilməsinə imkan yaradır.

Tədqiqatın praktik əhəmiyyəti:

Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, əldə edilən nəticələr müasir cəmiyyətin qarşılaşdığı texnoloji və informasiya yönümlü çağırışlara cavab vermək üçün konkret istiqamətlər təqdim edir. Tədqiqat informasiya mədəniyyəti və texnoloji savadlılıq bacarıqlarının inkişaf etdirilməsinin təhsil sistemində, peşə hazırlığında və həyat boyu öyrənmə proseslərində necə tətbiq oluna biləcəyini göstərir.

Əldə edilən nəticələr aşağıdakı sahələr üçün praktik dəyər daşıyır:

- **Təhsil sistemi** üçün: Məktəb və ali təhsil proqramlarında informasiya və texnoloji savadlılıq üzrə kurikulumların hazırlanmasında və müasir pedaqoji yanaşmaların tətbiqində elmi əsas kimi istifadə oluna bilər.

- **Müəllim hazırlığı** və ixtisasartırma kurslarında: Müəllimlərin rəqəmsal bacarıqlarının artırılması və informasiya ilə etik davranış modellərinin formalaşdırılması baxımından praktik töhfə verir.
- **İctimai siyasət** sahəsində: Rəqəmsal bərabərsizlik, informasiya təhlükəsizliyi və media savadlılığı kimi sosial problemlərin həllinə yönəlmiş strategiyaların hazırlanmasında tətbiq oluna bilər.
- **Əmək bazarı** üçün: İşçi qüvvəsinin texnologiya ilə işləmə bacarıqlarının artırılması, rəqəmsal çeviklik və adaptasiya potensialının gücləndirilməsi baxımından önəmlidir.
- **Geniş ictimaiyyət** üçün: Fərdlərin informasiya axınında daha tənqidi və məsuliyyətli mövqe tutmalarına, texnologiyadan daha təhlükəsiz və səmərəli şəkildə istifadə etmələrinə şərait yaradır.

Beləliklə, bu tədqiqat yalnız nəzəri biliklərə deyil, həm də real həyatda tətbiq oluna biləcək mexanizmlərə yönəlmişdir və informasiya cəmiyyətinin formalaşmasında və texnoloji savadlılığın kütləviləşdirilməsində praktik əhəmiyyətə malikdir.

Nəticə

Aparılan tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, informasiya mədəniyyəti və texnoloji savadlılıq müasir dövrün ayrılmaz və strateji əhəmiyyət daşıyan bacarıqlarıdır. Onlar yalnız fərdi inkişaf və həyat keyfiyyətinin yüksəldilməsi üçün deyil, həm də cəmiyyətin bütövlükdə tərəqqisi və rəqəmsal transformasiyaya uğurla adaptasiya olunması üçün mühüm rol oynayır.

Müasir dünyanın çağırışları – sürətlə inkişaf edən texnologiyalar, informasiya bolluğu, dezinformasiyalar, kiber təhlükələr və rəqəmsal bərabərsizlik – fərdlərdən yalnız istifadə bacarığı deyil, eyni zamanda informasiya ilə etik, tənqidi və məsuliyyətli davranmağı da tələb edir. Bu kontekstdə informasiya mədəniyyəti və texnoloji savadlılığın formalaşdırılması, təkcə təhsil sisteminin deyil, həm də dövlət siyasətinin, sosial təşəbbüslərin və ailə tərbiyəsinin prioritet istiqamətlərindən biri olmalıdır.

Tədqiqat göstərir ki, bu sahədə atılacaq məqsədyönlü addımlar – müasir kurikulumların tərtibi, müəllim hazırlığının gücləndirilməsi, ictimai maarifləndirmə tədbirləri və texnoloji inklüzivliyin təmin olunması – cəmiyyətin ümumi inkişaf səviyyəsinə və davamlı rifahına müsbət təsir göstərə bilər.

Beləliklə, informasiya mədəniyyəti və texnoloji savadlılığın inkişafı, insanın rəqəmsal dünyada şəxsiyyət kimi formalaşmasını, sosial məsuliyyət daşıyan və müasir çağırışlara cavab verə bilən bir fərd kimi yetişməsini təmin edən əsas şərtlərdən biridir. Bu anlayışların təşviqi və tətbiqi, həm bu günümüz, həm də gələcəyimiz üçün vacib strateji istiqamət kimi qiymətləndirilməlidir.

Ədəbiyyat:

1. Əliyev, Ə. (2021). *Rəqəmsal cəmiyyət və informasiya texnologiyaları*. Bakı: Elm və Təhsil Nəşriyyatı.
2. Məmmədova, S. (2020). *Təhsildə media və informasiya savadlılığı*. Bakı: Təhsil Nəşriyyatı.
3. UNESCO. (2011). *Media and information literacy curriculum for teachers*. Paris: UNESCO Publishing.
4. Hobbs, R. (2017). *Create to learn: Introduction to digital literacy*. Hoboken, NJ: Wiley.
5. Livingstone, S. (2004). Media literacy and the challenge of new information and communication technologies. *The Communication Review, 7*(1), 3–14. https://doi.org/10.1080/10714420490280152
6. Buckingham, D. (2003). *Media education: Literacy, learning and contemporary culture*. Cambridge: Polity Press.

7. Gülbahar, Y., & Madran, O. (2009). Bilgi okuryazarlığı ve teknoloji okuryazarlığı: Kavramsal bir çerçeve. *Hacettepe Üniversitesi Eğitim Fakültesi Dergisi, 36*, 134–149.
8. Castells, M. (2010). *The rise of the network society* (2nd ed.). Oxford: Wiley-Blackwell.
9. Ala-Mutka, K. (2011). *Mapping digital competence: Towards a conceptual understanding*. Luxembourg: European Commission Joint Research Centre.
10. OECD. (2019). *OECD skills outlook 2019: Thriving in a digital world*. Paris: OECD Publishing. https://doi.org/10.1787/df80bc12-en

EXPRESSION OF NATAVAN'S POETICS IN ENGLISH

NATƏVANIN POETIKASININ INGILISCƏ IFADƏSI

Şəhla Bədir qızı Nağıyeva
Filologiya elmləri doktoru German dillərinin tərcümə nəzəriyyəsi və praktikası kafedrasının professoru Azərbaycan Dillər Universiteti
ORCHID:0000-0002-1392-9316

Xülasə
XIX əsrin mədəni-mənəvi həyatında önəmli yer tutan qadın şairlərdən olan Xurşidbanu Natavanın poeziyası klassik Şərq ədəbiyyatına dərin bələdliyi (fars, ərəb dilləri, Füzuli, Hafiz, Nizami təsiri) ilə yanaşı, fərdi üslubu və qadına məxsus lirizmi ilə seçilir. Natəvanın həyatı dramatik hadisələrlə zəngindir ata-ana itkisi, məcburi evlilik, ailə faciələri və bu hadisələr onun qəzəllərində emosional, səmimi şəkildə əks olunmuşdur. Natəvanın qəzəllərində sevgi, ayrılıq, gözəllik (zülflər, gül üzü, qaş-göz), fədakarlıq, qadın ağrısı əsas motivlərdir. Simvolik obrazlar – Leyli-Məcnun, Yusif-Züleyxa, bülbül-gül – klassik çərçivədə yeni mənəvi çalarlarla təqdim olunur. Məqalədə şairin bir neçə qəzəllərinin ingilis dilinə tərcüməsi təhlil edilir. Tərcümələr original qəzəllərlə müqayisəli təhlilə cəlb olunur. Orijinalın poetik dərinliyinin və ritminin tərcümədə bəzən itirildiyi, bəzi metaforların zəiflədiyi (məsələn, "nəqdi-can" – "canın nəğd verilməsi" fədakarlığı), bəzilərinin isə uğurla verilməsi qənaətinə gəlinir(məsələn, Məcnun-Leyla cazibəsi). Tərcümə strategiyalarından (hərfi, poetik ekvivalentlik, yaradıcı yğunlaşdırma) da məqalədə bəhs edilir.
Natəvan qəzəllərində qadın baxış bucağı ilə yazsa da, klassik kişiyə xas danışıq tərzinin içindən qadına məxsus daxili üsyanı ifadə edir. Məsələn, "müjdə"nin ölüm fərmanı anlamında istifadəsi – poetik ironiyanın və qadın ağrısının kulminasiyası kimi təqdim olunur. Əruz vəznində yazdığı şeirlərdə qafiyə, rədif, ahəng, təşbeh və simvollar ustalıqla işlənmişdir.
Təbiət təsvirləri ilə yazdığı qəzəllər də diqqət çəkir – gül və bülbül metaforik qarşılaşdırmalarında məhəbbət və xəyanət motivləri verilir.
Natəvanın şeirlərinin ingilis dilinə tərcüməsində yalnız məna yox, həm də emosional yükün, metaforik dərinliyin, mədəni kodların qorunması vacibdir. Məqalədə orijinalın poetik xüsusiyyətlərinin tərcümədə saxlanması həm linqvistik, həm estetik, həm də mədəni baxımdan böyük ustalıq tələb etdiyi xüsusi vurğulanır.
Həmçinin, Natavanın poetikasının təkcə klassik poeziya kontekstində deyil, həm də qadın subyektivliyinin ifadəsi kimi mühüm yer tutduğu göstərilir. Onun şeirlərinin ingilis dilinə tərcüməsi bədii-estetik baxımdan ciddi yanaşma tələb edir və bu prosesdə poetik ruhun qorunması əsas şərtdir.
Açar sözlər: Xurşidbanu Natavan, qəzəl poetikası, poeziya tərcüməsi, qadın subyektivliyi, metaforik obrazlar

Absract
Khurshidbanu Natavan was a prominent female poet in the 19th-century cultural and spiritual life of Azerbaijan. Although well-versed in classical Eastern literature (in Persian, Arabic, and Azerbaijani), Natavan developed her own distinct poetic voice enriched by feminine subjectivity and emotional depth. Natavan's poetry reflects the tragedies of her personal life — the early loss of her parents, a forced marriage, and the death of her son Abbas. These experiences shaped the sincere and emotional tone of her ghazals. Her poetry explores themes of love, longing, beauty, separation, and female suffering. Symbolic figures such as Leyli-Majnun, Yusuf-Zuleikha, and the nightingale and rose are traditional but reinterpreted through her personal lens, often highlighting emotional vulnerability and spiritual conflict. The article analyzes several translated verses of Natavan's poetry. It notes that while some metaphors are weakened in translation (e.g., "naqdi-can" – the soul offered as cash), others like the Leyli-Majnun imagery are effectively conveyed. Various translation strategies are discussed, such as literal translation, poetic recreation, and creative adaptation. Although composed in a traditionally male poetic form, Natavan's ghazals subtly express a woman's internal rebellion and sorrow. For instance, using the word *"müjdə"* (glad tidings) to ironically mean a death sentence shows how she reclaims poetic language to voice female grief and existential crisis. Her ghazals written in classical aruz meter demonstrate skillful use of rhyme, rhythm, metaphor, and lyrical structure. She also composed nature-themed ghazals, using the rose and nightingale as metaphors for beauty, betrayal, and emotional captivity. Translating Natavan's poetry requires not only linguistic accuracy but the ability to preserve emotional tone, metaphorical richness, and cultural subtext. The article shows that successful translation involves both literary sensitivity and intercultural awareness.
This article shows that Natavan's poetics are not only rooted in classical literary tradition but also infused with feminine emotion, resistance, and originality. Translating her work into English demands a fine balance between preserving form, meaning, and emotional resonance.
Keywords: Khurshidbanu Natavan, ghazal poetics, poetry translation, female subjectivity, metaphorical imagery

Giriş
Azərbaycan klassik poeziyasının görkəmli qadın simalarından olan Xurşidbanu Natəvan XIX əsrin mədəni və mənəvi həyatında mühüm yer tutan şəxsiyyət idi. Onun şəxsiyyətinin formalaşmasında və poeziyasında qadın subyektivliyinin ifadəsində Qarabağın son xanı Mehdiqulu xanın qızı olması və doğulub boya-başa çatdığı mühit mühüm rol oynamışdır.
Saray təhsili almış Natavan Azərbaycan, fars və ərəb dillərini mükəmməl bilirdi. Firdovsi, Sədi, Hafiz, Nizami, Füzuli və Nəvai kimi Şərq klassiklərinin əsərlərini uşaqlığından öyrəndiyindən onların estetik prinsiplərini mənimsəmişdi. Bütün bunlar onun yaradıcılığında hiss olunsa da, Natəvanın özünə məxsus müstəqil və fərdi üslubu formalaşmışdır.
Natəvanın əsərlərinin belə səmimi, hissiyyatlı olmasının bir səbəbi onun istedadı ilə bağlı idisə, digər səbəbi də şeirlərinin mövzusunu uydurmaması, öz həyatından götürməsi idi. Xan qızı Natəvan həyatı boyu çoxlu sarsıntılar, şəxsi faciələr yaşamışdı. Natəvan gənc ikən əvvəl atasını, sonra anasını itirmiş, Qafqaz canişini M.S.Vorontsovun təkidi ilə yaxşı tanımadığı Xasay xan Usmiyev adlı dövrünün savadlı, ləyaqətli, lakin tərs, tündməzac xasiyyətli şəxsiyyətinə ərə verilmişdi. (Əlioğlu, 2022)
Qarabağ şairləri Azərbaycanın bir çox şəhərləri ilə birlikdə, Tiflis, Orenburq, Həştərxan, Buxara, Mərv, Bombey, Kəlkotə və Bağdad şəhərləri ilə də ədəbi əlaqə saxlamışlar. Bu məclislərdə adlı-sanlı şair, musiqiçi və rəssamların sənətkarlığı izlənmiş, onların incəsənətə gətirdikləri yenilik müzakirə edilmişdir. Bu zaman Xurşidbanunun ilhamla qələmə aldığı "Eylar", "Gətirir", "Mən idim", "Sən idin", "Bənzətdim" və "Ölürəm" rədifli ürəyəyatan

qəzəlləri Azərbaycan şairləri arasında şeirləşmələrə səbəb olmuşdur. Qarabağ, Şəki, Şirvan, Bakı, Quba, Gəncə, Naxçıvan, Ordubad şairləri Natavan əsərlərindəki yüksək sənətkarlıqdan təsirlənərək, onlarca nazirə və təxmis yazmışlar.

Şərq klassikləri və Natəvanın lirikasında qadın duyumu. Eşq, gözəllik, ayrılıq və poetik simvolların təhlili

Natavanın zəngin yaradıcılığı da həm Sovet dönəmində, həm də müstəqillik illərində Şərq və Qərb tərcüməşünaslarının maraq dairəsində olmuşdur.

Onun "Gətirir" rədifli qəzəli klassik Şərq poetikasının obrazlarla zənginliyi və qadına xas emosional dərinliyi ilə seçilir. Şeir məhəbbətin dəyişdirici gücü, onun dağıdıcı və eyni zamanda gözəl və qaçınılmaz hüzn dolu tərəfləri ətrafında qurulub:

Şuri-eşqin başıma axırı sövda gətirir,
Bu müşəxəssdi ki, eşq aşiqə qovğa gətirir.

Tari-zülfündü məni böylə giriftar eləyib,
Nə gələ başıma, ol zülfi-mütərra gətirir.

Gül üzün görmək əgər mümkün olaydı bir dəm,
Hər zaman görmək onu nuri-mücəlla gətirir.

Qaşü göz, novki-mücə fitnə üçün cəm olmuş,
Ox atıb, tiğ cəkib, hər biri dəva gətirir.

Könlümü qarət edir eylə ki, tari-zülfün,
Rumə, sanki həbəşi ləşgəri-yəğma gətirir.

Naqənin varmı şüuru bula aşıq guyin,
Onu Məcnunə tərəf cəzbeyi-Leyla gətirir.

Yusifin sanma, dübarə görə Yəqub üzün,
Mehr bazarına gör getsə, Züleyxa gətirir.

Yusifi Misrdə gər aldı Züleyxa nəqdə,
Nəqdi-can, aşiq olan, əldə mühəyya gətirir.

Sidqi-qəlb ilə nisar etmiş idin can nəqdin,
Natəvan, mücdə bu gün, qətlinə fərman gətirir.

(Xurşidbanu Natəvan, 1981)

“Şuri-eşqin başıma axırı sövda gətirir” misrasında məhəbbət sevinc yox, insanı yandırıb-yaxan, məhvə aparan bir od kimi təqdim edilir. Ardınca gələn “Bu müşəxəssdi ki, eşq aşiqə qovğa gətirir” misrası eşqin aşiqi sanki savaş meydanına atması ilə izah olunur.

Qəzəllərin orijinal və ingiliscə variantlarının bədii müqayisəsi.
Yuxarıdakı beytlər klassik Şərq poeziyasına xas olan sevginin həm ali, həm də dağıdıcı güc kimi təqdim edilməsinə nümunədir.
İngilis dilinə tərcümədə bu beyt aşağıdakı şəkildə verilib:

Your love brings me love, everlasting love,
Love always conflicting us, leading us to fight.(Naghiyeva & Mandaville, 2014*)*

Tərcümə, ümumi mənanı və poetik ritmi saxlayaraq, orijinalın emosional xəttini qoruyur.

Orijinal beyt:
Naqənin varmı şüuru bula aşıq guyin,
Onu Məcnunə tərəf cəzbeyi-Leyla gətirir.

Tərcümə:
Could a camel have taken Majnun to Leyla,
had Leyla’s love not been bright?
Burada şərh olunan əsas məqam metaforanın tərcümədə dəyişməsidir: Leyla ilə Məcnun arasındakı mənəvi cazibə qüvvəsi burada fiziki hərəkət vasitəsilə ifadə olunmuşdur. Bu, həm Şərq poetikasına, həm də müasir tərcümə nəzəriyyəsinə uyğun maraqlı bir yanaşmadır.

Orijinal:
Yusifi Misrdə gər aldı Züleyxa nəqdə,
Nəqdi-can, aşiq olan, əldə mühəyya gətirir.

Tərcümə:
Dear Yusif was bought by Zuleikha in old Egypt,
Even a slave can prepare for his lover’s delight.

"Yusifi Misrdə gər aldı Züleyxa nəqdə" misrası ilə Quran və Şərq ədəbiyyatına istinad edilərək Yusufun satılması və Züleyxanın ona duyduğu sevgi vurğulanır. İkinci misrada isə “Nəqdi-can” ifadəsi — aşiqin öz canını nağd kimi təqdim etməsi — eşq yolunda fədakarlığın zirvəsi kimi şərh olunur.
Təəssüf ki, tərcümədə “Dear Yusif” ifadəsi “Deaf Yusif” kimi təhrif edilmişdir. Görünür, tərcüməçi burada “dear” və ya “slave” sözlərindən birini nəzərdə tutmuş, lakin kontekstə uyğun olmayan bir variant seçmişdir. Doğru tərcümə forması belə ola bilərdi:

If Zuleikha bought Yusuf for cash in Egypt
A true lover offers the coin of his soul into her hand.

İkinci misranın tərcüməsində isə “even a slave can prepare for his lover’s delight” formasında “nəqdi-can” metaforası – yəni canını nağd təqdim etmək fəlsəfəsi – sadələşdirilərək emosional dəyər azaldılmışdır. Orijinalda olan ruh və fəlsəfi dərinlik burada hiss olunmur.
Bu cür personifikasiya (şəxsiyyətləşdirmə) poeziyada emosional gərginliyi artırmaq və oxucunu hadisəyə daha dərindən cəlb etmək üçün güclü vasitə kimi çıxış edir. Tərcümələrdə bu kimi dəyişikliklər bəzən orijinal poetik məqsədi dəyişə bilər, lakin eyni zamanda yeni estetik qat da əlavə edə bilir.
Sevgilinin fiziki gözəlliklərini ifadə edən zülfü, gül üzü, qaşı-gözü, novki-mücəsi kimi obrazlar klassik poeziyada tanışdır və həm cazibədarlıq, həm də təhlükənin simvoludurlar. Xüsusilə qaranlıq saçlar – zülflər – təkcə gözəlliyin yox, həm də aşiqi əsir edən, onu bağlayan güc kimi təqdim edilir. Natəvan bu obrazlara heyranlıqla yanaşmaqla kifayətlənmir, onların aşiqə vurduğu psixoloji və mənəvi zərbəni də vurğulayır.
“Yəqub Yusifi yenə görər” ümidi inkar edilir. Bu fikir ayrılığın sonlu və qovuşmanın mümkünsüz olduğunu göstərir. Şairin “nəqdi-can” ifadəsi ilə ruhu fəda etməyi maddi qazancdan üstün tutması diqqət çəkir — Züleyxa Yusifi əldə etsə də, əsl sevginin dəyəri canın fəda olunmasıdır.
Qəzəl formaca klassik kişiyə xas danışıq tərzində təqdim edilsə də, onun içində qadın subyektivliyi, qadın duyumu səssiz və incə bir üsyan kimi yer alır. Natəvan bu məcazlarla təkcə eşq və həsrətdən yox, həm də sosial-mədəni anlamlardan bəhs edir. Son beytdə:

“Natəvan, müjdə bu gün, qətlinə fərman gətirir”

İfadəsi ilə poetik obraz konkret şəxsiyyətə çevrilir. Adətən sevincli xəbər mənasında işlənən “müjdə” burada ölüm hökmü kimi təqdim olunur. Bu, saray poetikasının dili ilə qadın acısının dramatik təsviridir.
Bu qəzəl Natəvanın klassik poeziya formasına qadına məxsus emosional qat və yeni nəfəs bəxş etdiyini nümayiş etdirir. Göz, saç, aşiq, hicran kimi obrazlar romantik simvol olmaqla yanaşı, eyni zamanda qadın kimliyinin, sevgidəki gücsüzlüyünün və poetik özünüifadəsinin rəmzləridir.
Belə bir şeirin ingilis dilinə tərcüməsi sadəcə leksik səviyyədə deyil, emosional axıcılıq, metaforik zənginlik və mədəni alttekst baxımından da çevik və zərif yanaşma tələb edir. Bu cür poetik nümunələrdə “hisslərin əks-sədası” dillər arasında ən güclü rezonansı yaradır.

“For love you sacrificed your whole body, Natavan,
Good news! Tonight he comes, death’s decree at his side.”

Bu misra orijinal poetik gücünü qoruyaraq, həm dramatikliyi, həm də qadın fəryadını ifadə edir.
Natəvanın poeziyası Azərbaycan qadınının daxili dünyasını, iztirab və narahatlıqlarını, eləcə də cəmiyyətin təzyiqləri qarşısında susqun dirənişini poetik dillə ifadə edir. Xüsusilə ana itkisi və ailə faciələri ilə bağlı şeirləri dərin kədər və fəlsəfi düşüncə ilə seçilir. O, təbiət təsvirlərini də poetik obrazlarla zənginləşdirərək bənzərsiz qəzəl nümunələri yaratmışdır.
Onun bu qəzəli klassik divan poeziyasının əsas motivləri – eşq əzabı, emosional dağılma, metaforik zorakılıq (ox, qılınc), mədəni və dini istinadlar (Leyli, Məcnun, Yusif, Züleyxa) ilə yoğrulmuşdur. Bu nümunədə emosional intensivlik və fatalizm güclüdür: eşq həm ucaldıcı, həm də məhvedicidir.
Tərcümədə əsas emosional xətt qorunur: həsrətlə başlayıb, mənəvi dağılma və poetik şəhidliklə bitən bir axar müşahidə olunur. Bununla belə, bəzi hallarda tonda yumşalma hiss olunur. İlahi

eşqin sərsəmliyi, "şuri-eşq" konsepti və qəzəlin sonunda verilən ölüm hökmü müasir poetik dildə daha romantik və hekayəvi şəkildə təqdim edilmişdir.
Emosional sadiqlik yüksək səviyyədə qorunur, lakin klassik poetik sərtlik müasir poetik zövqə uyğunlaşdırılaraq müəyyən qədər yumşaldılmışdır.
Natəvan əsasən qəzəl formasında yazırdı. Onu Füzuli məktəbinin davamçısı kimi təqdim etsələr də, o, bu ənənəyə kor-koranə təqlid etməmiş, poeziyasına yenilik ruhu və özünəməxsus üslub gətirmişdir. Təəssüf ki, onun tam divanı — yəni lirik şeirlər toplusu — bu günədək bütöv şəkildə bizə gəlib çatmamışdır.

Təbiət Obrazları Və Metaforik Dərinliyin Tərcümədə İfadəsi
Xurşidbanunun poetik irsini məzmun baxımından dörd əsas qrupa ayırmaq mümkündür:
1. aşiqanə şeirlər;
2. təbiət gözəlliklərinə həsr olunmuş şeirlər;
3. müasirlərinə ünvanlanmış mənzumələr;
fəlsəfi-mənəvi düşüncə daşıyan nümunələr

Təbiət motivli şeirlərə nümunə:

Əgərçi xoşdu mənə ətri, həm səfası gülün,
Cəfası çoxdu, nə hasil ki, yox vəfası gülün.
Cəfayi-xarı görüb köçdü bağdən bülbül,
Görən kim oldu bir gülşəndə aşinası gülün?
(Natəvan Xurşidbanu. 2004, s. 6)

Bu beytdə gül – gözəlliyin, bülbül – aşiqliyin, xar (tikan) isə əzabın simvolu kimi çıxış edir. Şair, gülün ətir və gözəlliyindən zövq aldığını bildirir, lakin onun vəfasızlığına işarə edərək ümidsizlik notları vurğulayır.

Tərcüməsi:
Joyous to me is the smell and beauty of the flower.
Though I suffer for it, without loyalty is the flower.
Hurt in the garden, the nightingale fled from it.
Then whom did she take to be her lover, the flower?(Naghiyeva & Mandaville, 2010, s.12-14)

Tərcümədə əsas mənalar qorunmuşdur. Lakin “nə hasil” ifadəsinin fəlsəfi çarəsizliyi (“nə fayda ki”) bir qədər zəifləyib. Qafiyə uyğunluğu – “ətri, səfası, cəfası, vəfası” – orijinalda musiqili axın yaratsa da, tərcümədə bu ahəng yoxdur. Alternativ olaraq “What use is it, if the flower has no loyalty?” kimi versiya daha poetik ola bilər.
İkinci beytin tərcüməsində “cəfayi-xar” – yəni tikanın əzabı – konkret olaraq “hurt” (zədələnmə) kimi verilsə də, metaforik zənginliyi tam əks olunmayıb. “Bağdan köçmək” isə sadəcə fiziki uzaqlaşma deyil, ümidsizlik içində tərk etmə mənasında işlədilmişdir. “Aşina” sözü isə “lover” kimi verilib, lakin bu, həm də “dost” və “etibarlı sirdaş” mənalarını da ehtiva edir.
Qəzəldə poetik forma və ritm – ərüz vəzni – şeirin ruhunu daşıyır. Tərcüməçi bu vəzni qorumağa çalışsa da, bəzən bu, poetik dəyərlərin zəifləməsi bahasına baş verir. Əgər ərüz vəznini qorumaq mümkün deyilsə, o zaman məzmun və poetik ahəng arasında balans saxlanmalıdır

Əruz vəznində yazılmış qəzəldə qafiyənin və ritmin qorunması ingilis dilinə tərcümədə çətinlik yaradır. Lakin poetik atmosferin qorunması üçün vəznin əvəzinə uyğun ritmik quruluş formalaşdırıla bilər.
Qurani simvollar (Yusif, Züleyxa) və ədəbiyyat obrazları (Leyli, Məcnun) kimi bədii işarələr başqa dillərdə eyni mədəni dəyərə malik olmaya bilər. Tərcüməçi bu simvolları ya olduğu kimi saxlamalı, ya da izah etməli, yaxud onların analoji obrazlarını təqdim etməlidir.
Burada yalnız sözlərin leksik mənası deyil, onların oyatdığı emosional və poetik duyğu da önəmlidir. Tərcümənin təsir gücü də bu duyğunun nə dərəcədə qorunmasından asılıdır.

Nəticə

Xurşidbanu Natəvanın poetik irsi Azərbaycan klassik poeziyasının həm estetik, həm də ideya baxımından qadın duyumunu ifadə edən nadir nümunələrindəndir. Onun qəzəllərində sevgi, tənhalıq, sosial basqılar və təbiət mövzuları klassik simvollar və ərüz vəzninin zəngin imkanları ilə birləşərək dərin poetik təsir gücü yaradır. Şeirlərinin tərcüməsi zamanı yalnız mətnin leksik səviyyəsi deyil, onun metaforik qatları, emosional yükü və mədəni alt konteksti də nəzərə alınmalıdır. Natəvan öz əsərlərində klassik divan formasını fərdi ifadəyə, qadın təcrübəsinə və poetik yeniliyə çevirmişdir – bu isə onu həm milli, həm də dünya poeziyasının tərcümə baxımından mühüm fiqurlarından birinə çevirir.

Ədəbiyyat Siyahisi

1. Əlioğlu, P. (2022). *Natəvan: Biblioqrafiya* (M. Vəliyeva & G. Quliyeva, Tərt. ed.; K. Tahirov, Elmi red.; X. Abbasova, Red.). Bakı: Milli Kitabxana.
2. Xurşidbanu Natəvan. (1981). *33 qəzəl*. Bakı: Gənclik.
3. Natəvan Xurşidbanu. (2004). *Əsərləri*. Bakı: Lider Nəşriyyat.
4. Naghiyeva, S., & Mandaville, A. (2010). *Flower* [Translated poem]. *Shadows and Echoes: Department of Languages and Literatures of Pacific Lutheran University*, 7(1), 12–14, 32.
5. Mandaville, A., & Naghiyeva, S. (Eds.). (2014). *Anthology of Poetry by Women in Azerbaijan: In Azerbaijani and English* (p. 73). Bakı: Printshop Bakhtiyar-4.

USE OF ARABIC TERMS RELATED TO ADMINISTRATION IN ENGLISH

İDARƏÇİLİKLƏ BAĞLI ƏRƏB ALINMALARININ İNGİLİS DİLİNDƏ İSTİFADƏSİ

Lətifova Kəmalə Yaşar qızı
Baş müəllim Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı

Xülasə
Bu məqalədə ərəb mənşəli idarəetmə və rəhbərliklə bağlı alınma sözlərin ingilis dilinə keçməsi və onların ədəbi mətnlərdə istifadəsi araşdırılır. Dilin dinamik və inkişaf edən təbiəti çərçivəsində sözlərin bir dildən digərinə keçməsi, mədəni, tarixi və sosial əlaqələr fonunda baş verir. Məqalədə "xəlifə", "sultan", "tarif", "şeyx" və "vəzir" kimi ərəb mənşəli terminlərin tarixi mənşəyi, ingilis dilinə keçid yolları, semantik inkişafı və müxtəlif dövrlərdə ingilis ədəbiyyatında işlənmə nümunələri təhlil edilir. Tədqiqat işində sözlərin təkcə ingilis dilinin lüğət ehtiyatının genişləndirilməsinə deyil, həm də mədəniyyətlərarası dialoqun gücləndirilməsinə verdiyi töhfə vurğulayır.
Açar sözlər: alınma söz, mənbə dili, idarəçilik, qarşılıqlı əlaqə, mədəniyyətlərarası təmas, mübadilə

Abstract
This article examines the transfer of Arabic words related to governance and management to English and their use in literary texts.
Within the dynamic and evolving nature of language, the transfer of words from one language to another occurs against the backdrop of cultural, historical and social relations. The article analyzes the historical origin of Arabic terms such as "caliph", "sultan", "tarif", "sheikh" and "vizier", the ways of their transition to English, their semantic development and examples of use in English literature at different periods. The research work highlights the contribution of words not only to expanding the vocabulary of the English language, but also to strengthening intercultural dialogue.
Keywords: loanword, source language, administration, interaction, intercultural contact, interchange

Giriş

Dil öz təbiətinə görə dinamik və daim inkişaf edən bir sistem olaraq heç bir zaman tam şəkildə təcrid olunmuş olmamışdır. Tarix boyunca müxtəlif dillər arasında baş verən qarşılıqlı əlaqə nəticəsində bir çox söz və ifadələr bir dildən digərinə keçmiş, bu da dilin zənginləşməsinə və ifadə imkanlarının genişlənməsinə səbəb olmuşdur. Alınma sözlər – yəni başqa bir dildən mənimsənmiş və struktur baxımından uyğunlaşdırılmış leksik vahidlər – dilin lüğət ehtiyatını artırmaqla yanaşı, onun inkişaf tarixində mühüm rol oynamışdır. Bu araşdırmanın məqsədi ərəb dilindən ingilis dilinə keçmiş və idarəetmə, rəhbərlik və hökumət sahələrində işlədilən alınma sözlərin mənşəyini, dilə daxil olma yollarını və onların bədii ədəbiyyat nümunələrində necə işlədildiyini araşdırmaqdır. Məqalədə bu sözlərin semantik xüsusiyyətləri, tarixi transformasiyası və ədəbi mətndəki kontekstual istifadələri nümunələrlə təqdim olunacaqdır.
Dil öz təbiətinə görə dinamik və daim inkişaf edən bir sistemdir. Heç bir dili tam şəkildə təcrid olunmuş hesab etmək mümkün deyil, çünki dillər tarix boyu qarşılıqlı əlaqə və təsir içində

olmuşdur. Bu qarşılıqlı təsir nəticəsində dillər bir-birindən söz və ifadələr mənimsəmiş, bu da alınma sözlərin dilə daxil olma prosesini sürətləndirmişdir.
Dillərin zənginləşməsi müxtəlif yollarla – qarışma, birləşmə və alınma sözlərin qəbul edilməsi ilə baş verir. Alınma sözlər bir dildən digərinə keçərək, həmin dilin strukturuna uyğunlaşdırılmış leksik vahidlərdir. Bu, dilin təkamülündə mühüm rol oynayan mürəkkəb bir linqvistik hadisədir. Belə sözlər zamanla dilə yeridikcə, həmin dövrdə mövcud olan sosial, tarixi və mədəni şəraitin izlərini də özündə əks etdirir.
Alınma sözlər yalnız söz ehtiyatını artırmaqla kifayətlənmir, həm də dilin ünsiyyət imkanlarını genişləndirir, yeni anlayış və məfhumların ifadəsinə şərait yaradır. Beləliklə, bir dil başqa dillərlə təmasda olduqca daha da zənginləşir, çevik və funksional hala gəlir. Tarixən ticarət əlaqələri, müharibələr və qloballaşma kimi amillər dillərarası bu linqvistik mübadilələri təşviq etmişdir.
Nəticə etibarilə, alınma sözlər təkcə lüğətə yeni sözlərin əlavə olunması deyil, həm də dilin canlı və dəyişkən təbiətinin bariz göstəricisidir. Bu sözlər vasitəsilə dillər yalnız əlaqə saxlamır, həm də bir-birindən öyrənir, inkişaf edir və zənginləşir. [13, s. 21-30]
Hər bir dildə olduğu kimi, müasir ingilis dilinin də inkişafında, lüğət ehtiyatının formalaşmasında və ifadə imkanlarının genişlənməsində alınma sözlərin rolu əvəzsiz olmuşdur. İngilis dili tarix boyunca latın, fransız, german, italyan və eyni zamanda şərq dillərindən – xüsusilə ərəb dilindən – saysız-hesabsız leksik vahidlər mənimsəmişdir.
Ərəb dilindən ingilis dilinə keçmiş sözlər, əsasən, müxtəlif tarixi mərhələlərdə – fəthlər, ticarət əlaqələri və mədəni mübadilələr fonunda – dilə daxil olmuşdur. Bu sözlər əksər hallarda birbaşa deyil, vasitəçi dillərin – xüsusilə latın, fransız və ispan dillərinin – köməyi ilə ingilis dilinə yol tapmışdır. Ərəb dilinin təsirinin mühüm məqamlarından biri VIII əsrdə Mavriyalıların Pireney yarımadasını işğal etməsi ilə başlayır. Bu hadisə ərəb mənşəli terminlərin əvvəlcə ispan və latın dillərinə, oradan isə ingilis dilinə keçidinə zəmin yaratmışdır.
Orta əsrlər ərzində səlib yürüşləri və İslam dünyası ilə qurulan ticarət əlaqələri Avropa xalqlarını ərəb mədəniyyəti, elmi və təfəkkürü ilə yaxınlaşdırdı. Bu yaxınlıq ərəb dilinin Avropa dillərinə, o cümlədən ingilis dilinə təsirini daha da dərinləşdirdi. İntibah dövründə isə klassik irsə olan marağın yenidən canlanması Avropa alimlərini ərəb mütəfəkkirlərinin əsərlərinə yönəltdi. Ərəb dünyasında qorunaraq inkişaf etdirilmiş elmi və fəlsəfi mətnlər latın dilinə tərcümə olunaraq Avropa universitetlərində tədris edilməyə başlandı. Bu dövrdə humanistlər və alimlər tez-tez ərəb mənbələrindən terminologiya götürür, bu sözləri öz elmi diskurslarına daxil edirdilər.
XVIII əsrdən etibarən isə ərəb dilindən söz alınmaları daha çox müstəmləkəçilik siyasəti, akademik təqaüd proqramları, beynəlxalq media və qloballaşan dünya əlaqələri vasitəsilə baş vermişdir. Bu proses nəticəsində ərəb mənşəli sözlər din, idarəetmə, riyaziyyat, tibb, qida, astronomiya, coğrafiya və rənglər kimi müxtəlif sahələrdə ingilis dilində geniş yer almışdır.
Bu araşdırmada əsas diqqət ərəb dilindən ingilis dilinə keçmiş və idarəetmə, rəhbərlik və hökumətlə bağlı sözlərin necə işlədilməsinə yönəlmişdir. Bu leksik vahidlərin ingilis dili və ədəbiyyatında istifadəsi, eyni zamanda Avropa ilə İslam dünyası arasında əsrlərlə davam etmiş mədəni əlaqələrin dil üzərində qoyduğu dərin izləri nümayiş etdirir. Bu sözlər, sadəcə lüğət tərkibinə əlavə olunmuş sözlər deyil, həm də tarixin, mədəniyyətin və qarşılıqlı təsirin canlı izləridir.
Xəlifə (caliph) sözü XIV əsrin sonlarından etibarən ingilis dilinə daxil olmuşdur. Orta əsrlərdə bu söz ingilis mətnlərində **“caliphe”** və ya **“califfe”** kimi yazılmış və tələffüz olunmuşdur. Mənşə etibarilə ərəb dilindəki **“khalīfa”** (xələfə kökündən) sözündən qaynaqlanır və “varis”, “əvəz edən”, “naib” mənalarını daşıyır.
Tarixi baxımdan bu termin İslam imperiyalarında dövlət başçısını ifadə etmiş, xüsusilə də Məhəmməd peyğəmbərin dini və siyasi varisi kimi qəbul edilən liderləri təsvir etmək üçün

istifadə olunmuşdur. **Xəlifə** anlayışı yalnız dini rəhbərlik deyil, həm də inzibati idarəetmə sistemində ali hakimiyyəti təmsil edən siyasi bir fiquru ifadə edirdij. [3, s. 23]
İngilis ədəbiyyatında xəlifə sözünə incəsənət kolleksiyaçısı, ədəbi əsərləri və ekstravaqant memarlıq layihələri ilə tanınan XIX əsrin görkəmli ingilis yazıçısı Uilyam Bekfordun XVIII əsin sonlarında yazmış olduğu "Xəlifə Vatekin Tarixi" (William Beckford, The History of the Caliph Vathek) əsərində rast gələ bilərik. Əsər əvvəlcə fransızca Vathek kimi yazılmış, daha sonra ingilis dilinə tərcümə edilmişdir. [1, s. 43-52]
Kitab Bekfordun xəyali hekayələrini nümayiş etdirərək ərəb xəlifəsinin fantastik və tez-tez baş verən qaranlıq sərgüzəştlərindən bəhs edir. Kitabın əvvəlində qeyd edilir:
Abbasilər xilafətinin doqquzuncu xəlifəsi Vatek, Mötəsimin oğlu və Harun Əl Rəşidin nəvəsi idi.....
Vathek, ninth Caliph of the race of the Abassides, was the son of Motassem, and the grandson of Haroun Al Raschid. [14, s. 13]
Digər bir misal kimi İrland şairi Uilyam Yitsin "Min bir gecə" kitabından tanınan məşhur Abbasi xəlifəsi Harun ər-Rəşidə istinad edərək yazdığı "Harun Əl-Raşidin Hədiyyəsi" (W. B. Yeats, The Gift of Harun Al-Raschid) şeirini göstərə bilərik. Şeirdə göstərilən hədiyyə xəzinədir, xəzinə isə maddiyyatı deyil müdrikliyi, mənəvi düşüncəni və poetik ilhamı təmsil edir. Xəlifə sözünün şeirdə işlənmə yerinə nəzər yetirək.

Now the good Caliph's learned Treasurer,
And for no ear but his.
Carry this letter……
İndi yaxşılıqsevər Xəlifənin müdrik Xəzinədarı
Heç kəs üçün yox, yalnız onun üçün.
Bu məktubu apar…… [16]

İngilis dilinə XVI əsrdə daxil olan digər bir ərəb sözü "hökmdar, şahzadə, monarx, kral, kraliça", əslən "güc, hökmranlıq" mənasını ifadə edən *"sultan"* (sultan) sözüdür. Bu söz erkən zamanlarda ingilis dilində "soldan, soudan" kimi işlədilmişdir. Ərəb dilində "hakimiyyət" və ya "güc" mənasını ifadə edən "sultan" sözü ingilis ədəbiyyatında müxtəlif janrlarda və dövrlərdə müsəlman hökmdarlarını, xüsusən də İslam kontekstlərini ifadə etmək üçün işlədilmişdir. Onun istifadəsi həm tarixi reallıqları, həm də ədəbi təsəvvürləri əks etdirir. [5, s.1443]
Bu sözün işlənmə yerinə aid aşağıdakı iki əsəri misalı çəkə bilərik. Tars Kralı (The King of Tars) təxminən XIV əsrdə yazılmış dini dönüşüm, mədəni qarşıdurma və şəfa möcüzələri kimi mövzuları əhatə edən Orta əsrlər ingilis dövrünə aid müəllifi məlum olmayan dini və romantik poemalardan biridir. Əsərin ümumi mövzusu uydurma xristian Tars krallığı ilə real dünya İslam sultanlığı Dəməşq arasındakı dini münaqişədən bəhs edir. Poemanın baş qəhrəmanı Tars ölkəsinin (xristian ölkəsi) şahzadəsidir. O, müsəlman bir hökmdarla evlənməyə məcbur edilir. Şahzadə əvvəlcə bu evliliyə qarşı çıxır, lakin sonra öz xalqını qorumaq üçün razılaşır. [11, s. 40]
Digər əsər romantik və idealist şeirləri ilə tanınan amerikalı şair Alan Siqerə məxsus "Sultan Sarayı" poemasıdır. (Alan Seeger, The Sultan's Palace) Yazıçı oxucunu zəngin Şərq sarayını xatırladan dəbdəbəli, xəyali mühitə qərq edərək sultanlarla bağlı sərvət və ixtiyar obrazlarını canlandırır, gücün əzəmətini və daimiliyini əks etdirir. [2, s.58]
Növbəti alınma söz olan "*tarif*" (tariffa) sözü ingilis dilinə Orta əsrlərdə daxil olmuşdur. Bu söz ərəb dilində "məlumat, bildiriş, tərif və ya siyahı" mənasını bildirmiş, limanlarda qiymətlərin və ya gömrük rüsumlarının siyahısına istinadən işlədilmişdir. İngilis dilinə bu söz

italyan və ispan dilləri vasitəsilə keçmişdir və hökumət tərəfindən qoyulan rüsumların və ya gömrüklərin siyahısı və ya cədvəli mənasını ifadə etmək üçün işlədilmişdir. [12, s. 383]
"Tarif" sözü ingilis ədəbiyyatında, xüsusən də iqtisadiyyat, siyasət, hökumət siyasəti və beynəlxalq ticarətlə bağlı mətnlərdə geniş istifadə edilmişdir. Söz ingilis ədəbiyyatında ilk dəfə 1590-cı illərdə meydana çıxsa da, onun indiki mənası və geniş istifadəsi XVIII əsrə təsadüf edir. Məsələn, Şimali Amerika əsilli Britaniyalı tədqiqatçı H.Morse "Şərqi Hindistan şirkətinin Çinlə ticarətinin Salnamələri" (Hosea Ballou Morse, The Chronicles of the East India Company trading to China) adlı elmi əsərində tarif sözünü aşağıdakı kimi qeyd etmişdir:

Tarifə uyğun gömrük rüsumu.
Customs duty as per tariff. [9, s. 61]

Bu gün "tarif" sözü iqtisadiyyatda, beynəlxalq ticarətdə və siyasi diskursda idxal və ya ixrac vergilərinə istinad edən ümumi bir termini ifadə edir. Məsələn CNN qəzetində çap edilən belə bir başlığa diqqət yetirək:

Tariflərə baxmayaraq, avtomobil qiymətləri may ayında sabit qalır.
Car prices hold steady in May despite tariffs. [15]

İdarəetməni təyin edən sözlərdən biri də *şeyx* (sheikh) sözüdür. Bu söz ingilis dilinə XVI əsrdə daxil olmuş, ərəb dilində ərəb ailəsinin başçısı", eyni zamanda "müsəlman dini ordeninin başçısı" mənasını daşısa da, zamanla semantik genişlənməyə uğrayaraq, hörmət əlaməti kimi müxtəlif şəxslərə ünvanlanan müraciət formasına çevrilmişdir. Artıq **XVII əsrdən** etibarən bu termin ingilis dilində xüsusi olaraq **ərəb şeyxləri**nə istinadla işlədilməyə başlanmışdır.
XX əsrdə bu söz jarqon kimi "güclü, romantik adam"ı ifadə etdi ki, bu da 1921-ci ildə çəkilmiş məşhur "Şeyx" filmi ilə əlaqəli idi. [4, s. 1327]
Sözün ilkin mənasında işlədilməsi yerini C.Kellinin Körfəz dövlətlərində liderlik rolları, müstəmləkə danışıqları və ənənəvi monarxiyalardan bəhs edən "İngiltərə və Fars körfəzi 1795-1880-cı illər" (J.B. Kelly, Britain and the Persian Gulf 1795–1880) əsərində görə bilərik:

The Sheikh, almost maddened at his defeat, was foremost in every danger.
Məğlubiyyətindən az qala çılğınlaşan Şeyx hər təhlükədə birinci yerdə idi. [10, s. 375]

İngilis şərqşünası E. Leyn yerli hakimiyyətin necə təşkil edildiyini göstərən "Müasir misirlilərin əxlaqı və adətləri haqqında hekayə" (Edward Lane, An Account of the Manners and Customs of the Modern Egyptians) adlı etnoqrafik tədqiqatında şeyx sözünü belə qeyd etmişdir:
Şeyx və digər dərvişlər ona heyrətlə baxaraq, onun (şeyxin) qayda-qanunlarını pozduğina görə onu qınadılar.
The Sheykh and the other darweeshes, looking at him with astonishment, upbraided him with having broken the institutes of his order. [6, s. 22]
İngilis dilinə XVI əsrdə daxil olan ərəb sözlərindən biri də ərəb dilində "köməkçi, yardımçı və ya vəzir" mənasını daşıyan "vəzir" (vizier) sözüdür. Hərfi mənada "vəzir" "vəzifə yükünü daşıyan" deməkdir. Bu yük daşıyan cəhət ərəbcə "yük daşımaq" mənasını verən "wazara" kökündə öz əksini tapmışdır. "Vəzir" termini Osmanlı İmperiyasında və digər müsəlman ölkələrində populyarlıq qazanaraq bu ölkələrdə yüksək rütbəli məmur, çox vaxt dövlət katibi və ya vali kimi xidmət edən şəxsə istinadən işlədilirdi. İslam idarəçiliyində yüksək səviyyəli siyasi məsləhətçi və ya nazir, müasir kabinet nazirinə bərabər adları ifadə edir. [4, s. 5140]

Bədii ədəbiyyatda bu sözün işlədilməsinə aid misalı qədim Misir idarəçiliyində, xüsusən də Yeni Krallıq dövründə xüsusi tədqiqatları ilə tanınan hollandiyalı misirşünas G. P. F. Van Den Bornun "Vəzirin Vəzifələri: Erkən Yeni Krallıqda Mülki İdarə" (G. P. F. Van Den Boorn, The Duties of the Vizier: Civil Administration in the Early New Kingdom) adlı əsərində görə bilərik. O, əsərdə vəzirin inzibati məsuliyyətlərini və ideoloji rollarını dərindən təhlil edirdi. Əsərin III fəslinin II yarımbaşlığında qeyd edilir:

The vizier as the King's Deputy.
A number of viziral tasks cannot be related to one of the two aspects above.
Vəzir padşahın müavini kimi.
Bir sıra vəzir vəzifələri yuxarıda qeyd olunan iki cəhətlərdən birinə aid edilə bilməz. [8, s. 320]

Bundan əlavə vəzir sözünə XIX əsrin əvvəllərində fəaliyyət göstərmiş uşaq ədəbiyyatı yazıçısı C.Nikolun da qələmində rast gəlinir. Uşaqlar üçün nəzərdə tutulan qısa əxlaqi nağıl olan "Böyük Ayının Hekayəsi: Vəzir və Odunçu" (George Nicol, The Great Bear's Story: The Vizier and the Woodman) ədalətli və müdrik padşahın idarə etdiyi səltənətdə yaşayan vəzir və odunçudan bəhs edir. Yazıçı oxucuya "vəzir" və "oduncu" obrazları vasitəsilə əxlaqi dərs verir .

And how the whole party he'd managed to save
By the voice of Vizier there led
Və o, necə ki, bütün dəstəni xilas edə bilmişdi
Vəzirin rəhbərliyi ilə orada apardı. [7, s. 41]

Fikrimizi ümumiləşdirərək deyə bilərik ki, idarəetmə, liderlik, hökumətlə əlaqəli ərəb dilindən alınan sözlər İslam və Avropa sivilizasiyalarının tarixi qarşılıqlı əlaqəsini əks etdirərək mədəniyyətlərarası mübadilənin tarixini və hüquqi və inzibati sistemlərin qlobal xarakterini ortaya qoydu. Onlar ingilis dilini ingilis dilinin idarəçilik lüğətində olmayan incə terminləri təqdim etməklə zənginləşdirdilər. Bu alınma sözlər müasir jurnalistikada, beynəlxalq münasibətlərdə, dini diskursda və tarixi yazılarda hələ də istifadə olunur.

Nəticə

Araşdırmalar göstərir ki, ərəb mənşəli alınma sözlər ingilis dilinin idarəetmə və siyasi leksikasının formalaşmasında əhəmiyyətli rol oynamışdır. Bu sözlər ingilis dilinə birbaşa və ya vasitəçi dillər (əsasən fransız, ispan və latın dilləri) vasitəsilə daxil olmuşdur. "Xəlifə", "sultan", "tarif", "şeyx" və "vəzir" kimi terminlər müxtəlif tarixi dövrlərdə mədəni və siyasi qarşılıqlı təsirlərin məhsulu olaraq qəbul edilmiş və ingilis ədəbiyyatında fərqli semantik çalarlarla istifadə edilmişdir.

Bu sözlərin ədəbi mətnlərdə istifadəsi göstərir ki, alınma leksik vahidlər yalnız dilin strukturuna deyil, həm də onun mədəni və estetik təzahürlərinə təsir edir. Bu fakt bir daha sübut edir ki, dil təkcə ünsiyyət vasitəsi deyil, həm də tarix, mədəniyyət və ideoloji təbəqələrin daşıyıcısıdır. Belə sözlər vasitəsilə dillər bir-birindən öyrənir, təsirlənir və birgə inkişaf edir.

Ədəbiyyat

1.Al-Alwan, Muna (2008). The Orient Made Oriental: A Study of William Beckford's Vathek, Arab Studies Quarterly, Vol. XXX, No. 4
2. Alan Seeger Poems (2025). In the digital collection American Verse Project. University of Michigan Library Digital Collections. https://name.umdl.umich.edu/BAD7802.0001.001, pp.114
3. André Vauchez (2005). Encyclopedia of the Middle Ages, James Clarke & Co, pp.155
4. Angus Stevenson (2015) Oxford Dictionary of English Oxford University Press pp.5356
5. A.Stevenson, M. Waite (2011). Concise Oxford English Dictionary, Oxford University Press, Twelfth edition, pp.1695
6. Edward Lane (2006). An Account of the Manners and Customs of the Modern Egyptians (1836), John Murray, pp.425
7. George Nicol (2007). The Great Bear's Story. The Vizier and the Woodman, Kessinger Publishing, pp 44
8. G. P. F. Van Den Boorn (2015). The Duties Of The Vizier: Civil Administration in the Early New Kingdom, Routledge Taylor & Francis Group, pp.401
9. Hosea Ballou Morse (2020). The Chronicles of the East India Company trading to China, Oxford At The Clarendon Press, pp.474
10. J.B. Kelly (2020). Britain and the Persian Gulf 1795–1880, opensource, pp.925
11. John H. Chandler (2011). The King of Tars, University of Rochester, New York, pp.199
12. Peter Moles and Nicholas Terry (2005). The Handbook of International Financial Terms Oxford University Press, pp.426
13. Sokolova, A. G. (2020). Anglicisms and loanwords: The contribution of English exemplified by contemporary Italian tourist terminology. Training, Language and Culture, 4(2)
14. William Beckford (2008). The History of the Caliph Vathek London; Paris; Melbourne: Cassell & Company, pp.204
15. https://edition.cnn.com/2025/06/06/business/car-prices-steady-despite-tariffs-cost
16. https://southerncrossreview.org/26/yeats.htm

.

THE MANIPULATIVE POTENTIAL OF EVERYDAY DISCOURSE ELEMENTS IN BAKHTIYAR VAHABZADA'S POETRY (BASED ON THE ANALYSIS OF THE POEM "WHO ARE YOU?!")

BƏXTİYAR VAHABZADƏNİN POEZİYASINDA MƏİŞƏT DİSKURSU ELEMENTLƏRİNİN MANİPULYATİV POTENSİALI ("SƏN KİMSƏN?!" ŞEİRİNİN TƏHLİLİ ƏSASINDA)

Könül Həbibova
Azərbaycan Milli Elmlər Akademiyası İ.Nəsimi ad. Dilçilik İnstitutu

Xülasə
Məqalədə Bəxtiyar Vahabzadənin "Sən Kimsən?!" şeiri kontekstində məişət diskursunun poetik struktura inteqrasiyası və onun manipulyativ potensialı araşdırılır. Müəllif göstərir ki, Vahabzadə gündəlik danışıq dilinə xas ifadə və stereotipləri poetik mətnə daxil edərək onları həm estetik, həm də ideoloji məqsədlərə yönəldir. Bu elmi araşdırmada dilçiliyin təsviri və diskursiv təhlil metodlarından istifadə edilmişdir. Tədqiqatın əsas məqsədi məişət diskursu səviyyəsində nitqin manipulyativ təsirinin poteik mətnlərdə necə təzahür etməsini müəyyənləşdirməkdir. Şeirdə tarixi şəxsiyyətlərə qarşı səsləndirilən kobud ittihamlar oxucuda ilkin emosional gərginlik yaradır, lakin daha sonra bu hisslər milli-mənəvi refleksiyaya çevrilir. Məqalədə manipulyativ təsirin həm emosional, həm də diskursiv strategiyalarla həyata keçirildiyi, ritorik sualların və sadə dilin oxucunun mövqeyinə təsir etdiyi vurğulanır. Dilçilik ədəbiyyatında mövcud olan son illərin araşdırmalarında öz əksini tapmış nəzəri yanaşmalar kontekstindəki təhlil əsasında müəllif nəticəyə gəlir ki, şeir həm oxucunu maarifləndirir, həm də onu ideoloji manipulyasiyalardan müdafiə olunmağa sövq edir. Nəticədə əsər yalnız poetik deyil, həm də milli özünüdərki stimullaşdıran bir mətn kimi dəyərləndirilir.
Açar sözlər: B.Vahabzadə, poetik dil, nitqi manipulyasiya, məişət diskursu, diskursiv strategiya, milli özünüdərk.

Abstract
This article explores the integration of everyday (household) discourse into the poetic structure of Bəxtiyar Vahabzadə's poem "Who Are You?!" and examines its manipulative potential. The author demonstrates how Vahabzadə incorporates expressions and stereotypes typical of colloquial language into his poetry, directing them toward both aesthetic and ideological ends. The research applies descriptive and discourse analysis methods within the field of linguistics. The main objective is to determine how manipulative speech manifests in poetic texts at the level of everyday discourse. The harsh accusations against historical figures in the poem initially provoke emotional tension in the reader, which later transforms into a sense of national and moral reflection. The study emphasizes that manipulative influence is realized through both emotional and discursive strategies, with rhetorical questions and simple language guiding the reader's stance. Drawing on recent theoretical perspectives in linguistic literature, the author concludes that the poem both enlightens the reader and encourages resistance to ideological manipulation. Consequently, the work is evaluated not only as a piece of poetry but also as a text that stimulates national self-awareness.
Keywords: B. Vahabzada, poetic language, speech manipulation, everyday discourse, discursive strategy, national self-awareness.

Bədii mətnlər yalnız estetik zövq doğuran sənət nümunələri deyil, həm də ictimai, ideoloji və psixoloji təsir vasitələridir. Bu xüsusilə poeziyada daha qabarıq şəkildə müşahidə olunur. Şair bədii söz vasitəsilə oxucunun düşüncə tərzinə və emosiya dünyasına təsir etməyə çalışır ki, bu da manipulyativ təsir strategiyalarının poetik formada təzahürü kimi qiymətləndirilə bilər. Müasir dilçilikdə nitqi manipulyasiya məsələləri linqvistika, psixolinqvistika və sosial dilçilik sahələrində aktuallıq kəsb edir və xüsusilə diskurs nəzəriyyəsi çərçivəsində geniş təhlil olunur [4; 5].

Azərbaycan poeziyasında Bəxtiyar Vahabzadənin yaradıcılığı bu baxımdan mühüm tədqiqat obyektidir. Onun "Sən Kimsən?!" şeiri məişət nitqinə xas ifadələrin poetik mətnə daxil edilməsi və bu elementlərin ideoloji mövqe ifadəsindəki rolu ilə seçilir. Şair sadə, gündəlik danışıq dilindən istifadə etməklə oxucuya birbaşa təsir etməyə nail olur, milli dəyərlərin müdafiəsi mövqeyini formalaşdırır. Beləliklə, poetik mətn məişət diskursunun manipulyativ imkanlarından yararlanaraq həm estetik, həm də maarifləndirici funksiya daşıyır.

Bəxtiyar Vahabzadənin yaradıcılığında mühüm yer tutan "Sən Kimsən?!" şeiri, tarixi şəxsiyyətləri təhqir və tənqid edən düşüncə tərzinə qarşı poetik bir etiraz kimi meydana çıxır. Bu əsər, mahiyyət etibarilə, milli dəyərləri və şəxsiyyətləri müdafiə edən, eyni zamanda belə yanaşmalara qarşı sərt mövqe sərgiləyən bədii bir ittihamdır. Şair bu şeirində məişət üslubuna xas olan ifadə və leksik vahidlərdən geniş istifadə edərək, gündəlik danışıq dilinin canlı, emosional və təsiredici imkanlarını poetik quruluşa daxil etmişdir.

Mətn boyu müəllifin istifadə etdiyi ifadələrdə bəzən kobud və sərt ton hiss olunur. Tariximizin tanınmış simaları ilə bağlı işlədilən "Babək… bizdən deyilmiş", "Xətai islamı ikiyə bölmüş", "Fətəli Allahsız", "Vaqif baz idi", "Filankəs azacıq qumarbaz idi", "O əyyaş, bu fərsiz, o bigam idi" kimi fikirlər bu üslubun bariz nümunələridir [B. Vahabzadə]. Şeirin dramatik yüksəliş anında isə gündəlik danışıq dilinin təsirli bir komponenti kimi "Bir deyən yoxmudur, pəki SƏN KİMSƏN?!" ifadəsi səsləndirilir. Buradakı "pəki" sözü, Türk dillərində "yaxşı, bəs" mənasında işlənən, məişət nitqinə xas sual ədatıdır və şeirə real həyatın ünsiyyət ab-havasını gətirərək onun təsir gücünü artırır.

B.Vahabzadə yaradıcılığını tədqiq etmiş tənqidçilər qeyd edirlər ki, "*şairin dilində loru söz və ifadələr, yəni gündəlik canlı ünsiyyətin elementləri, zaman-zaman görünür. Özü ilə bədii dilə canlı nəfəs gətirən bu nümunələr şairin nitqində mövcud ansambla uyğunlaşır, ahəngdar şəkildə onun bədiilik koloritinə hörülür*" [1, s.41]. Bu məişət diskursuna məxsus ifadələr şeirdə müəyyən üslubi məqsədlə işlədilir. Məsələn, "Sən kimsən?!" şeirində *"Bu ondan yaxşıdır, o bundan pisdir"* kimi müqayisəli deyim gündəlik mübahisəli danışığı xatırladan üslubdur. Belə ifadələr B.Vahabzadənin poetik dilində adi sözlərdən daha artıq məna yükü daşıyır.

Bəxtiyar Vahabzadə sadə danışıq dilini poeziyanın strukturuna uğurla daxil edərək onu estetik və ideoloji məqsədlərə tabe etdirir. Məişət nitqinə məxsus ifadələr – "Babək… bizdən deyilmiş", "Xətai… bölmüş", "Fətəli Allahsız, Vaqif baz idi", "O əyyaş, bu fərsiz…" – heca vəzninə uyğun şəkildə qafiyələnərək ritmik ahəng yaradıb və fikrin emosional təsirini gücləndirib. Xüsusilə sərt ifadələr təkcə təsvir yox, həm də hiddət və kinayə yüklü emosiya daşıyır ki, bu da klassik neytral dildə mümkün olmazdı. B.Vahabzadə yüksək ədəbi normanı qorumaqla yanaşı, xalq danışıq tərzini poetik səmimiyyət və təsir gücü yaratmaq üçün işlədir. Haqlı olaraq qeyd edilir ki, "*xalq danışıq tərzindən istifadə sözlərin yapışıqlı olmasına, fikrin obrazlı səpgidə ifadəsinə və ümumən şeirin axıcı, səlis çıxmasına kömək edir*" [1, s.41]. Nəticədə məişət dili poetik strukturun ayrılmaz və estetikləşdirilmiş tərkib hissəsinə çevrilir.

Bəxtiyar Vahabzadənin "Sən kimsən?!" şeirindəki manipulyativ güc bir neçə istiqamətdə təzahür edir və məişət diskursunun poetik struktura inteqrasiyası ilə oxucunun həm emosional, həm də ideoloji səviyyədə yönləndirilməsinə səbəb olur.

Birincisi, şeir oxucunu əvvəlcə görkəmli tarixi şəxsiyyətlərə ünvanlanan mənfi yarlıqlarla – "Allahsız", "baz", "qumarbaz", "əyyaş" və s. – üz-üzə qoyur. Babək, Xətai, Fətəli, Vaqif kimi şəxsiyyətlərin bu şəkildə təsviri oxucuda haqsızlıq duyğusu yaradır. Lakin bu təsvirlərdən sonra gələn "Bir deyən yoxmudur, pəki sən kimsən? Danış, bu Millətə nə gətirmisən?!" kimi ritorik suallar vasitəsilə şair oxucunun mövqeyini tənqid edilən deyil, onları müdafiə edən tərəfə çəkir. Bu yönləndirmə xüsusi ritorik strategiya ilə, yəni sadə və səmimi üslubda qurulan müraciət fonunda reallaşır. Məişət üslubunun bu formada poetikaya daxil edilməsi nəticəsində oxucu, fərqinə varmadan, şairin mövqeyini qəbul edir. Beləliklə, şeirdə manipulyasiya açıq deyil, dolayı təsir formasında baş verir.

İkincisi, şairin istifadə etdiyi sərt və emosional ifadələr: "O əyyaş, bu fərsiz..." təkcə informativ deyil, həm də empatik yüklüdür. Bu ifadələr oxucuda əvvəlcə narahatlıq və qəzəb doğurur, daha sonra isə həmin hisslər qürura və etiraza çevrilir. Bu tip emosional reaksiya, tədqiqatçıların da vurğuladığı kimi, manipulyativ nitq strategiyalarının əsas məqsədlərindən biridir. K.Həbibova qeyd edir ki, "*manipulyativ nitq strategiyası müəyyən emosional təəssürat yaratmaq üçün məqsədyönlü şəkildə qurulur*" [3, s.48]. B.Vahabzadə də bu üsulla oxucunu yalnız rasional deyil, eyni zamanda emosional iştirakçıya çevirir.

Üçüncüsü, şair cəmiyyətdə tarixə və milli dəyərlərə qarşı istehzalı münasibətləri ifşa edir. "Filankəs beləydi, filankəs eləydi" kimi məişət tərzli ittihamlar vasitəsilə şair, bu tip münasibətlərin yayılmasına qarşı tənqidi mövqe tutur. "Sən kimsən?!" şeiri bu baxımdan milli özünüdərki stimullaşdırır. "Milləti ucaldan rəhmətlilərə rəhmət demirik" kimi ifadələr oxucunun kollektiv yaddaşla əlaqəsini gücləndirir və onu tarixə sayğı göstərməyə səsləyir. Bu manipulyativ təsir forması, K.Həbibovanın qeyd etdiyi kimi, "*ədəbiyyatın oxucuya yaxşı və pisi ayırd etmək üçün yaratdığı yaxşı//pis qütbləşməsi*" ilə reallaşır [3, s.50].

Nəticə etibarilə, B.Vahabzadənin bu şeirində manipulyasiya, məişət dilinin poetik ifadəyə inteqrasiyası ilə həm emosional rezonans, həm də ideoloji istiqamətlilik yaradır. Şair sadə və səmimi nitq forması altında oxucunu milli-mənəvi mövqeyə çəkir və bu yolla ədəbi manipulyasiyanın effektiv bir modelini təqdim edir: zahirdə sadə şeir, batində isə güclü təsir mexanizmi.

L.P.Prokofyeva bədii mətnlərdə manipulyasiyanın təsirli üsullarından biri kimi "stereotipləşmiş damğaların tətbiqini", yəni ideoloji yarlıqların formalaşdırılmasını göstərir [4, s.586]. Bəxtiyar Vahabzadənin "Sən Kimsən?!" şeirində bu yanaşma konkret bədii realizasiya tapır. Şair əvvəlcə tarixi şəxsiyyətlərə yönəlik müxtəlif damğaları – "Allahsız", "kölə", "xain" və digər oxşar ifadələri – təqdim etməklə oxucunu qərəzli və qeyri-obyektiv fikirlərlə qarşılaşdırır. Bu sözlərin ardıcıl şəkildə sıralanması manipulyativ niyyətlə deyilmiş kimi görünsə də, əslində şair həmin ittihamları ifşa etmək məqsədilə onları poetik nitqə daxil etmişdir. Beləliklə, B.Vahabzadə L.P.Prokofyeva və O.E.Mixaylovanın qeyd etdiyi "*damğalayıcı dilin*" [4] mexanizmini işə salır, lakin onu tənqid obyektinə çevirərək oxucuda bu cür yanaşmalara qarşı müdafiə reaksiyası yaradır.

Şeirin kulminasiya hissəsində yer alan "Sən bu millətə nə vermisən ki, böyükləri belə tənqid edirsən?" sualı isə əslində qarşı tərəfə yönəlmiş yeni bir damğadır – lakin bu dəfə şair haqlı ittihamla oxucunun düşüncəsinə yön verir. Ritorik xarakter daşıyan bu sualın cavabı açıq şəkildə verilməsə də, onun semantik yükü oxucunun özü tərəfindən tamamlanır. Nəticədə manipulyasiya gizli bir formada – oxucunun şüurunda formalaşan nəticə vasitəsilə baş tutur.

T.G.Skrebtsovanın nitqə təsir və manipulyasiya ilə bağlı nəzəriyyələri bu cür poetik strategiyaların anlaşılmasında mühüm kontekst yaradır. O bildirir ki, "*manipulyativ təsir yalnız kütləvi informasiya vasitələrində və siyasi diskursda deyil, gündəlik ünsiyyət və bədii mətnlərdə də eyni dərəcədə effektivdir*" [5]. T.G.Skrebtsovaya görə, bu biliklər insanın həm öz təsir imkanlarını inkişaf etdirməsinə, həm də başqalarının təsirindən qorunmasına xidmət edir.

B.Vahabzadənin şeirində də bu ikili funksiya qabarıq görünür. Şair bir tərəfdən, tarixi şəxsiyyətlərin dil vasitəsilə necə nüfuzdan salındığını göstərir, digər tərəfdən isə oxucunun həmin manipulyativ yarlıqları tanımasına və onların təsirindən uzaq durmasına şərait yaradır. Beləliklə, şeir həm təlimvi, həm də müdafiəvi funksiyanı yerinə yetirərək oxucuda "ideoloji immunitet" formalaşdırır. Bu isə bədii manipulyasiyanın ən incə və təsirli formalarından biridir – oxucunun öz nəticəsinə gəlməsi üçün ona şərait yaratmaq, lakin nəticəni dolayısıyla yönləndirmək.

Şeirin sonundakı "Sən bu millətə nə vermisən?" sualı T.G.Skrebtsovanın nəzəri baxışları ilə üst-üstə düşən şəkildə nitqin məqsədli şəkildə planlaşdırılması və kommunikativ nəticəyə yönəldilmiş strategiyaların təzahürü kimi dəyərləndirilə bilər. Burada ritorik sorğu yalnız sual olmaqdan çıxır – o, oxucunu passiv dinləyicidən aktiv mövqe seçən subyektə çevirir. Bu mərhələdə manipulyasiyanın "reaktiv fazası" baş verir: oxucu artıq faktlarla tanış olmaqla kifayətlənmir, həmin faktlar əsasında münasibət bildirir, mövqe tutur və beləliklə, davranış və düşüncəyə yönəldici təsir başa çatır.

Beləliklə, Bəxtiyar Vahabzadənin bu şeiri həm inandırma, həm də təsirdən qorunma bacarıqlarını paralel şəkildə işə salır. Buradakı poetik strategiya sadəcə estetik funksiyanı yerinə yetirmir; o, həm də ictimai şüuru formalaşdırmaq və maarifləndirici təsir göstərmək üçün kommunikativ bir mexanizm kimi çıxış edir. Şair oxucuya nəinki nəyi düşünməli olduğunu göstərir, eyni zamanda onu manipulyativ təsirləri tanımağa və onlara qarşı dayanmağa sövq edir. Bu baxımdan "Sən Kimsən?!" şeiri poetik dillə qurulmuş, lakin sosial və ideoloji baxımdan son dərəcə funksional bir bədii manipulyasiya nümunəsidir.

Məişət nitqinin poetik formaya transformasiyası sayəsində müəllif gündəlik ünsiyyətin emosional və semantik gücündən istifadə edərək, oxucunun diqqətini milli-mənəvi məsələlərə yönəldir. Burada şairin sadə, lakin çoxqatlı nitqi — yəni xalq dilinə söykənən, lakin bədii strukturla cilalanmış ifadə tərzi — həm estetik dəyər, həm də ideoloji yük daşıyır. Oxucu klassik ritorik üsullarla deyil, tanış və doğma nitq vasitəsilə emosional təsirə məruz qalır və nəticə etibarilə milli kimliyə, tarixi dəyərlərə daha həssas yanaşmağa təşviq olunur.

B.Vahabzadənin şeiri bu mənada yalnız poetik mətn kimi deyil, həm də kollektiv şüura təsir edən ideoloji məqamların bədii təqdimatı kimi çıxış edir. Bu, De Mode-un da qeyd etdiyi kimi, "*ədəbiyyatın milli özünüdərkin formalaşmasında, ortaq dəyər və inancların ifadəsində mühüm rol oynaması*" funksiyası ilə uzlaşır [2]. Vahabzadənin bədii dili bu funksiyanı yerinə yetirməklə yanaşı, estetik və psixoloji təsir gücünü birləşdirərək oxucunun həm zövqünü, həm də düşüncəsini formalaşdırır.

Nəticə olaraq, "Sən Kimsən?!" sadəcə poetik monoloq deyil, həm də milli ideoloji mövqeyin bədii ifadəsidir. Burada çağırış açıq şəkildə deyil, mətnaltı səviyyədə, gizli manipulyativ üsullarla gerçəkləşir. Məhz bu gizli təsir forması olan oxucunun emosiyalarını oyadaraq onun mövqeyini formalaşdırmaq əsərin təsir gücünü artırır və onu ədəbi manipulyasiyanın parlaq nümunələrindən birinə çevirir.

Əldə edilən təhlillər göstərdi ki, Bəxtiyar Vahabzadənin "Sən Kimsən?!" şeiri məişət diskursunun poetik struktura uğurlu inteqrasiyası vasitəsilə manipulyativ təsir imkanlarını maksimum səviyyədə reallaşdırır. Şair gündəlik danışıq dilinə xas olan sərt, emosional və stereotipik ifadələrdən istifadə etməklə oxucuda ilkin qəzəb və təəccüb doğurur, lakin bu emosiyalar zamanla milli özünüdərki və tarixi şəxsiyyətlərə hörmət hissinə transformasiya olunur. Beləliklə, məişət nitqinin poetik kontekstdə istifadəsi yalnız üslub yox, həm də ideoloji mövqeyin ifadə vasitəsinə çevrilir.

"Sən Kimsən?!" şeiri bədii manipulyasiyanın klassik nümunəsi kimi qiymətləndirilə bilər. Burada manipulyasiya açıq təbliğat deyil, ritorik suallar, gizli mühakimələr və danışıq üslubunun səmimiyyəti ilə həyata keçirilir. Şair oxucunu birbaşa istiqamətləndirmədən, onun mövqeyini incə dillə dəyişməyə nail olur. Bu isə göstərir ki, məişət diskursu elementləri poetik

mətndə yalnız estetik deyil, həm də sosial və psixoloji funksiya daşıyır, milli ideoloji dəyərlərin ötürülməsində təsirli vasitəyə çevrilir.

İstifadə edilmiş ədəbiyyat:

1. Alməmmədova, S. Bəxtiyar Vahabzadə poeziyasının dili. – Bakı: Elm, 2010. – 77 s.
2. De Mode. The role of literature in shaping cultural identity. // De Mode of Literature, 2024, June 11. – URL: https://www.demodemagazine.com
3. Həbibova, K. Azərbaycan xalq nağılları personajlarının nitqində kommunikativ strategiyalar. // "Türk dünyasında Azərbaycan dili və ədəbiyyatı araşdırmaları" mövzusunda I Beynəlxalq Elmi Simpoziumun xülasə materialları. – Bakı: Xəzər Universiteti Nəşriyyatı, 2024. – S. 48–50.
4. Прокофьева, Л. П.; Михайлова, О. Е. Речевое воздействие и манипуляция в художественном тексте (на материале рассказов А.П. Чехова). – Коммуникативные исследования, 2024, Т. 11, № 3. – С. 584-598.
5. Скребцова, Т. Г. Речевое воздействие и манипулирование. – URL: https://www.academia.edu/42075508/РЕЧЕВОЕ_ВОЗДЕЙСТВИЕ_И_МАНИПУЛИРОВАНИЕ

CONTEXTUAL AND CONNOTATIVE ASPECTS OF EASTERN LEXICAN IN THE WORKS OF ADAM MITSKEVICH

ADAM MİTSKEVİÇİN ƏSƏRLƏRİNDƏ ŞƏRQ LEKSİKASININ KONTEKSTUAL VƏ KONNOTATİV ASPEKTLƏRİ

Qədirova Bahar
Bakı Slavyan Universitetinin doktorantı və müəllimi

Xülasə
Məqalədə Adam Mitskeviçin əsərlərində işlədilmiş Şərq leksikasının kontekstual və konnotativ aspektləri haqqında danışılır. Araşdırmalar zamanı qeyd olunur ki, orientalist şair bu leksikanı dekorasiya, yaxud ekzotizm xatirinə işlətməmişdir. Hər bir leksik vahidin arxasında konkret mədəni-tarixi faktlarla yanaşı həmin leksikanın daşıyıcılarının şüurunda əlavə assosiasiya mövcutdur. Konkret nümunələrlə göstərilir ki, Şərqin mədəniyyət tarixinə dərindən bələd olan polşalı şair çoxsaylı Şərq leksikasının vasitəsi ilə özünün çoxsaylı oxucularına bu yerlər haqqında son dərəcə dəyərli informasiyalar çatdırmağa çalışmışdır. Aparılan müqayisəli araşdırmalar zamanı Şərqin toponimləri, dini-fəlsəfi, habelə ictimai-siyasi və məşət atributlarını bildirən leksik vahidlərdən romantik şairin öz əsərlərində necə məharətlə istifadə etməsi məsələsi xüsusi vurğulanır.
Açar sözlər: orientalist, kontekst, leksika, romantik, Şərq

Abstract
This article discusses the contextual and connotative aspects of the Oriental lexicon used in the works of Adam Mickiewicz. The research highlights that the Orientalist poet did not use this lexicon merely for decoration or exoticism. Behind each lexical unit, there is not only a concrete cultural-historical fact but also additional associations within the consciousness of the bearers of this lexicon. Through specific examples, it is shown that the Polish poet, deeply familiar with the cultural history of the East, made an effort to convey highly valuable information about these regions to his numerous readers through the use of various Eastern lexicons. The comparative studies emphasize how the romantic poet skillfully utilized Eastern toponyms, as well as lexical units indicating religious-philosophical, social-political, and domestic attributes in his works.
Key words: orientalist, context, lexicon, romantic, East

Orientalist yaradıcılıq prinsiplərinə malik sənətkarların əsərlərinin mövzu, məzmun və üslub xüsusiyyətlərini xarakterizə edən başlıca faktorlar sırasında, heç şübhəsiz ki, müxtəlif kontekstlərdə işlədilmiş Şərq leksikası dayanır. Həmin leksik vahidlərə onların praqmatik tutumu baxımından nəzər salsaq, görərik ki, bu prosesdə hər bir sənətkar özünəməxsus yanaşması ilə fərqlənir. Böyük polyak şairi Adam Mitskeviç Şərq leksikasına dekorasiya xatirinə müraciət etməmişdir. Şarin müraciət etdiyi rəngarəng Şərq leksikası ən müxtəlif mədəni-tarixi, etik, məişət və sair sahələrini əhatə etməklə fərqli situasiyalarda işlədilmişdir (Allah, prorok, minarecie, Gabryel, menaru, mədcid, camid, şürfe, izan, namazem və s.).

Məsələn, şarin işlətdiyi sakral leksikada Cəbrail bir konteksdə Cənnətin qoruqçusu, yaxud hamisi rolunda bir subyekt kimi çıxış edirdisə, digərində ilahi vəhləri Yerə çatdıran birinci mələk olaraq obrazlılıq xatirinə möhtəşəmlik rəmzi kimi işlədilmişdir. Mitskeviç bir sıra hallarda özünün əsərlərində son dərəcə yığcam şərhləri ilə bu leksikanın yalnız cüzi bir hissəsinin mənasını verməklə kifayətlənmişdir. Belə ki, müəllif bu qəbildən olan leksikanın özünü saxlamaqla onun mahiyyətini, yaxud mənasını kontekstdə açmağa üstünlük vermişdir. Biz buna daha çox müəllifin işlətdiyi dini leksikaların verilməsində müşahidə edirik:

Rozchodzą się z dżamidów pobożni mieszkańce,
Odgłos izanu w cichym gubi się wieczorze,
“Bakczysaraj w nocy”

Burada İslamda namaz vaxtlarını bildirmək üçün verilən əzanın səsini təsvir edir. Cümlə, camidən çıxan dini insanların sükut içində, axşamın sakitliyində əzanın səsinin yavaşca yoxa çıxması və bu mənzərənin təsvirini təqdim edir.
Müəllif təbiət, dini və mədəni simvollar arasında bir əlaqə qurur, təbiətin canlılığını, oyanışını və həyatın gözəlliyini təsvir edir. Şair təbiətin müxtəlif elementləri ilə dini təsvirləri birləşdirir, bu da oxucuya həm fiziki, həm də mənəvi bir gözəlliyi hiss etdirir. Həm təbiətin, həm də insan ruhunun oyanışını və hər şeyin yenidən başlanğıcını təmsil edən poetik bir məna yaradır.

Już góra z piersi mgliste otrząsa chylaty,
Rannym szumi namazem niwa złotokłosa,
Kłania się las i sypie z majowego włosa,
Jak z różańca kalifów, rubin i granaty.
“Ałuszta w dzień” (8)

Müəllif, təbiət və həyatda sərbəstliyi, həyatın yüngüllüyünü və zövq alaraq hərəkət etməyi təsvir edir. Şairin “gəminin sinəsinə düşməsi” və “quş olmaq” istəyini ifadə etməsi, bir növ həyatın sərbəstliyini, enerjisini və özünü tamamilə ifadə etmə istəyini simvollaşdırır.

Wyciągam ręce, padam na piersi okrętu,
Zdaje się, że pierś moja do pędu go nagli:
Lekko mi! rzeźwo! lubo! wiem co to być ptakiem.
Sonety krymskie “Żegluga” (9)

Təbiət və dini motivləri birləşdirib, çox zəngin simvolizmlə yüklənmiş bir təsvir yaratmışdır. A.Mitskeviç burada minarədən gələn kölgə, qranit nəhəngləri və Eblisin xalçası kimi simvollardan istifadə edərək, həm təbiət, həm də mənəvi dünya arasında bir əlaqə qurur.

Tu cień pada z ménaru i wierzchu cyprysa,
Dalej czernią się kołem olbrzymy granitu,
Jak szatany, siedzące w dywanie Eblisa
“Bakczysaraj w nocy” (4 ,35)

Bu sətirlər, həm fiziki, həm də mənəvi dünya arasında dərin bir əlaqə quraraq, insanın daxili mübarizəsi və təbiət qarşısında kiçikliyi haqqında böyük bir fəlsəfi məna daşıyır.
Mitskeviçin əsərlərində yer almış titul, peşə, habelə məişət atributları bildirən leksika (Basza, kyzlar-aga, haremu Effendy, Padyszach, janczary və s.) dövrün canlı koloritinin verilməsinə xidmət edir

O minarecie świata! o gór padyszachu!
Ty, nad skały poziomu uciekłszy w obłoki,
“Sonety krymskie Czatyrdah” (4,41)

Bu sətirlər, Mitskeviçin Şərq və İslam mədəniyyətinə olan müraciətini və minarələrin, dağların simvolik təsirini özündə birləşdirir. **Minarə** və **Padişah dağlarını** burada yüksəlişin, gücün və mənəvi azadlığın simvolu olaraq göstərir. Şair, minarələri və dağları bəşəriyyətin yüksək ideallarına doğru bir yüksəliş, bir azadlıq və həm də əzəmət olaraq təsvir edir.
“İ.Q. Qalperinə görə informasiyanın məna planı və ifadə planı tipologiyası, istər-istəməz, informasiyanın faktural məzmunu və konseptual məzmununun ekspliziv-impiliziv, yəni sətiraltı məzmununu da əhatə edir”. (4, 28.). Qeyd edək ki, A.Mitskeviçin əsərlərində Şərq xalqlarını təmsil edən belə spesifik personajlar qalereyasını konkret tarixi şəxsiyyətlər də bəzəyir (Şanfari, Faris, Xan Girey, Əl-Mütənabbi və başqaları) Şair həmin şəxsiyyətlərin həyat tərzi barədə məlumatları təqdim edirdi. Məsələn, “Reneqat” qəsidəsindəki lövhələr orta əsrlər türk məişəti, Osmanlı paşalarının həyat tərzi, onların hökümlü əllərinin uzantıları haqqında sadə dillə real və inandırıcı təsəvvür yaratmışdır:

Wtem u wrót szczęścia hałas się wzmaga,
Rozstąpiły się sług rzędy.
Nieznaną brankę wiódł Kyzlar-Aga,
Skłonił się i rzekł: «Effendy!
“Renegat” (7)

Mitskeviç o şairlərdən idi ki, onun Şərqə yaradıcı marağı bu diyarı hərtərəfli öyrənməklə oranın mədəniyyət tarixinə sirli bir sevgi ilə birdəfəlik bağlanmışdı. Yuxarıda gətirilən nümunələrdən də göründüyü kimi, şairin işlətdiyi rəngarəng Şərq lesikası, məcazlar, təşbihlər və sair bədii təsvir vasitələri əsərin janrı ilə üzvi surətdə bağlı olmaqla, təsvir olunan hadisələrin, xalqların etik baxışları, onların tarixi, yaxud peyzaj lövhələrinin estetik xarakterinin, məzmununun açılmasına xidmət edir. Şair öz sonetlərində, qəsidələrində romantik qəhrəmanının daxili aləmini, yaşadığı duyğuları daha geniş təbiət fonunda verməklə avropalı oxucuya Orta əsrlər Şərqinin əsrarəngiz və intəhasız gözəlliklərinin kamil insan xarakteri ilə bütovlük təşkil etməsini göstərirdi. Bir daha xatırladaq ki, bu lövhələr Qərbin çürümüş burjua mühiti ilə bir növ kontrast təşkil etməsi haqqında romantizmin tədqiqatçıları tərəfindən yetərincə söylənilmişdir.
Orientalist şairin əsərlərində işlədilmiş mifik obrazlar (Aryman, Oromaz, Elbis, Diwy və sair) bir tərəfdən də qədim Şərqin mifologiyasında və fəlsəfəsində şər qüvvələr adətən, qaranlıq və acılı boyalarla təsvir olunmasını göstərir:

W samym przepaści niezgłębionej środku,
W samym ciemności najgrubszej zarodku,
Osiadł Aryman, jak złodziej ukryty,
Gniewny jako lew, jak wąż jadowity.
“Aryman i Oromaz” (6)

Şair öz oxucularını belə mifik obrazların mahiyyəti ilə yaxından tanış etmək məqsədi ilə müəyyən paralellər və şərhlər də verməyi vacib bilirdi: **“Evlisin, yaxud İblisin və ya Qarazelin, yəni müsəlmanlarda - Lyutsferin divanxanasındakı şeytan kimi qaradır”.**
“Divlər-Qədim fars mifologiyasına görə bir zamanlar yer üzərində hökümranlıq eləmiş və mələklər tərəfindən qovulmuş qəddar dahilərdir. İndi dünyanın qurtaranacağında Qaf dağının arxasıda yaşayırlar:

Czy Diwy z ćwierci lądu dźwignęli te mury,
Aby gwiazd karawanę nie puszczać ze wschodu?
“Widok gór ze stepów Kozłowa” (11)

Mütəxəssislərin Adam Mitskeviçin Şərq mövzusunda yazdığı əsərləri “Şərq çiçəkləri”, yaxud “Mitskeviçin qəzəlləri” kimi adlandırmaqlarında əsaslı məntiq var. Müəllif işlətdiyi toponimlər özlərində tarixin canlı lövhələrini əks etdirirlər:

Padyszach nie ma takiej krzewiny
W sadzie rozkoszy w Stambule,
Ona jest rodem z zimnej krainy,
Którą wspominasz tak czule»
“Renegat (ballada turecka)” (7)

Şair, **soyuq bir yerdən gələn** bir bitkini və ya varlığı təbiətlə və mədəniyyətlə əlaqələndirərək, **İstanbulda** bir növ **zövq və estetik** axtarışını və bu yerdən gələn təbii gözəlliyi vurğulayır.
Mitskeviçin Şərq poeziyasının ənənəvi janrları olan qəsidə janrında əsərlər yaratması istər-istəməz onu həmin ədəbi mühitin ənənələri əsasında gerçəkliyi müvafiq fonda (Kəbə, Suriya, İstanbul, Misir, Cars, Əl-Ələmi və s.) əks etdirmək tələbi qoyur. Adam Mitskeviç bu əsərləri ilə bütünlükdə Avropa mühitində yeni lirik-romantik tipli sənət nümunələri yaratmışdır. Bu əsərlər özündə Şərqin xarakterik qəsidə janrının lirik-epik xüsusiyyətlərini əks etdirir. Mitskeviç doğma ədəbiyyatda bu cür əsərlərin yaradıcısı olaraq alman ədibləri Rükkertin, Platenin, Hötenin ənənələrini davam etdirmişdir.
Nəzərə almaq lazımdır ki, bədii əsərin istər təbliğində və istərsə də “tərcüməsində həm xüsusi dil və həm də qeyri-dil komponentləri cəlb olunur” (5, 48). Məlum olduğu kimi, şairin Krım torpağına, onun tarixi keçmişinə münasibətində bir nisgil vardı. Mitskeviç “Kiçik Şərq” adlandırdığı bu qədim türk torpağının taleyi ilə qəsbkarlar tərəfindən zəbt olunmuş öz doğma yurdu arasında bir doğmalıq, oxşarlıq görürdü. Əsrlər keçsə də şairin bu yerlərin hər bölgəsinə həsr etdiyi sonetlərində bu torpaqların əsl tarixi sahiblərinin kim olduğunu məharətlə həkk etmişdir: “Gözləv dağları”, “Akkerman çölləri”, “Ayıdağ”, “Balaklava”, “Çadırdağ”, ”Baxçasaray”, “Alusta”, “Baydar vadisi”. Başqa sözlə desək, müəllifin işlətdiyi hər bir leksikanın arxasında kifayət qədər zəngin mədəni-tarixi informasiyalar mövcutdur. Mitskeviç işlətdiyi hər bir sakral və ya dini toponimi konkret tarixi fonda verməklə, keçmişin şanlı səhifələrini öz oxucularına nəzərə çarpacaq həyəcanla çatdırmağa çalışmışdır:

Tu Grek dłutował w murach ateńskie ozdoby,
Stąd Italczyk Mongołom narzucał żelaza,
I mekkański przybylec nucił pieśń namaza.
"Ruiny zamku w Bałakławie" (12)

Göründüyü kimi, şair ürək ağrısı ilə qədim türklərin Krımdakı Balaklava qalasının xarabalıqlarından Məkkəyə - müsəlmanların müqəddəs ibadət yerinə gedən yolların çoxdan silindiyini nəql edir.
Şair öz əsərlərində işlətdyi leksikaya daha çox rəmzi mahiyyət verməklə epitet və ya digər təşbih kimi işlətmişdir:

Mirzo! a ja spojrzałem! Przez świata szczeliny
Tam widziałem… com widział, opowiém — po śmierci,
Bo w żyjących języku nie ma na to głosu.
"Droga nad przepaścią w Czufut-Kale"(13)

Şair uçurumun "dərinliyinə nəzər yetirən" Zəvvarın dili ilə deyir ki, axirətdə nələr görəcəyimi söylərəm. Bu bir daha sübut edir ki, Şərqdən, onun təbiətindən yazarkən yalnız onun üçün xarakterik obrazlılıqların vasitəsi ilə o yerlərin inandırıcı obrazını yaratmaq olar. Bir sözlə, şair öz poeziyasında bu diyara o yerlərin sakinlərinin gözü ilə baxmağa çalışırdı:

I zawisnął. — Tam nie patrz! tam spadła źrenica,
Jak w studni Al-Kahiru o dno nie uderza.
I ręką tam nie wskazuj — nie masz u rąk pierza;
I myśli tam nie puszczaj, Morzebo myśl, jak kotwica
"Droga nad przepaścią w Czufut-Kale" (13)

"Qahirə quyusu" dedikdə, burada söhbət Yaxın Şərq tarixindən məlum olduğu kimi, XII əsrdə Sultan Saləddinin əmri ilə qazılmış, öz dərinliyi (88 metr) ilə şöhrət qazanmış və XX əsrin əvvəllərinə kimi insanlara xidmət etmiş Qahirə quyusundan gedir.
Göründüyü kimi, orientalist müəllif tərəfindən bədii mətnin və ayrılıqda onun hər bir elementinin, ilk növbədə Şərq leksikasının, nüvəsinə elə enerji, yaxud qüvvə seçilib qoyulur ki, onun təsir qüvvəsi zaman və məkan məhdudiyyəti tanımır. Çünki əsl sənət əsərinin mətnin hüdudları nisbi baxımdan sonsuzdur. Bunu əsrlər boyu öz aktuallığını itirməyən, hər yeni dövürdə müxtəlif cür qəbul edilən, interpretasiya olunan dahiyanə yazılmış neçə-neçə sənət əsərləri əyani surətdə sübut edir. Mətnin nisbi genişliyini nəzərə alaraq mütəxəssislərin əksəriyyəti "heç olmazsa onun obrazlar sistemini, semantik motivlərini, ideya-məzmununu, habelə müəllifin bir növ, dəyərləndirməsini aşkara çıxarmağa çalışırlar" (2,49). Adam Mitskeviçin işlətdiyi Şərq leksikasının məzmunun kontekstual baxımdan zənginliyi, həmin leksikanın daşıdığı rəngarəng konnatasiya şairin geniş filoloji imkanlarından və yüksək poetik istedadından xəbər verir.

Ədəbiyyat

1. Ağayev A. Azərbaycan ədəbiyyatı seçmələri alman şərqşünaslığında. Bakı, Kitab aləmi. 2005.
2. Бабенко Л.Г.Казарин Л.Г.Экстралингвистические параметры текста//Лингвистический анализ текста. Moskva, 2006
3. Митскевич Адам. Сонеты Л. «Наука» 1976. (На русском и польском языках)

4. Галперин И.Р. Текст как объект лингвистического исследования М.,1981.
5. Швейцер, А.Д .Теория перевода:статус, проблемы, аспекты. М., Наука, 1988
6. https://pl.wikisource.org/wiki/Aryman_i_Oromaz_(Mickiewicz)
7. https://wolnelektury.pl/katalog/lektura/renegat.html
8. https://pl.wikisource.org/wiki/A%C5%82uszta_w_dzie%C5%84_(Mickiewicz,_1899)
9. https://wolnelektury.pl/katalog/lektura/sonety-krymskie-zegluga.html
10. https://wolnelektury.pl/katalog/lektura/sonety-krymskie-czatyrdah.html
11. https://wolnelektury.pl/katalog/lektura/sonety-krymskie-widok-gor-ze-stepow-kozlowa.html
12. https://wolnelektury.pl/katalog/lektura/sonety-krymskie-ruiny-zamku-w-balaklawie.html
13. https://wolnelektury.pl/katalog/lektura/sonety-krymskie-droga-nad-przepascia-w-czufut-kale.html

THE PEOPLE'S POET BAKHTIYAR VAHABZADE THROUGH THE EYES OF THE ORIENTALIST SCIENTIST HANS AHMED SCHMIDE

XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏ ŞƏRQŞÜNAS ALİM HANS ƏHMƏD ŞMİDENİN GÖZÜ İLƏ

Namaz Manafov
Dosent, filologiya üzrə fəlsəfə doktoru Mingəçevir Dövlət Universiteti. Azərbaycan

Xülasə
Xalq şairi Bəxtiyar Vahabzadənin şeirləri hələ sağlığında ikən dünyanın müxtəlif dillərinə tərcümə edilmiş, şairin şeir və poemaları tədqiqatçılatın diqqətini cəlb etmişdir.
Belə tədqiqatçı və tərcüməçilərdən biri, şərqşünas alım Hans Əhməd Şmidedir. Hələ altmışıncı illərdən türk ədəbiyyatı ilə dərindən maraqlanan Hans Əhməd Şmide türk xalqları ədəbiyyatından müxtəlif tərcümələr etmiş, Azərbaycan şairi Bəxtiyar Vahabzadənin əsərləri ilə yaxından maraqlanmışdır.
"Bəxtiyar Vahabzadənin şeirləri oxucuya bəxtiyarlıq verir", deyən Hans Əhməd Şmide hələ ötən əsrin 60-cı illərindən azərbaycanlı şairin şeirlərini alman dilinə çevirərək, Qərbi Berlin qəzetlərində çap etdirmişdir.
Bəxtiyar Vahabzadə yaradıcılığının əsl tədqiqatçısına çevrilən Hans Əhməd Şmide 1990-cı ildə şairin "Qarabağ mənim nəğməmdir" adı kitabını alman dilinə tərcümə etmiş, kitab İstanbulda Türk dünyası Araşdırmalar Vəqfi tərəfindən capdan buraxılmışdır. Əsər Türk-Alman Mədəniyyət mübadilə Mərkəzinin (Berlin,1990) birgə işidir.
Kitabda Bəxtiyar Vahabzadənin şeirləri, publisistik məqalələri və "İkinci səs" pyesi verilmişdir. Bəxtiyar Vahabzadə alman dilli oxuculara şair, dramaturq, nasir, publisist və siyasətçi kimi təqdim edilir.
"Qarabağ mənim nəğməmdir" kitabı Bəxtiyar Vahabzadənin (öz dilindən) tərcümeyi-halı ilə başlayir.
Sonra Cingiz Aytmatovun Azərbaycan şairinin yaradıcılığına dair fikirləri, düşüncələri verilir.
"Qarabağ mənim nəğməmdir" kitabı Bəxtiyar Vahabzadənin "Azərbaycan oğluyam" şeiri ilə açılır.
Açar sözlər: xalq şairi, alman dili, şərqşünas alim, bədii tərcümə, şeir və poema

Abstract
The poems of the people`s poet Bakhtiyar Vahabzadeh were translated into various languages of the world during his lifetime, and the poet's poems and poems have attracted the attention of researchers.
One of such researchers and translators is the orientalist Hans Ahmed Schmide. Hans Ahmed Schmide, who has been deeply interested in Turkish literature since the sixties, has made various translations from the literature of the Turkic peoples and has been closely interested in the works of the Azerbaijani poet Bakhtiyar Vahabzadeh.
"Bakhtiyar Vahabzadeh`s poems bring happiness to the reader," said Hans Ahmed Schmide, who had translated the Azerbaijani poet`s poems into German since the 1960s and published them in West Berlin newspapers.
Hans Ahmed Schmide, who became a true researcher of Bakhtiyar Vahabzadeh`s work, translated the poet`s book "Karabakh is my song" into German in 1990, and the book was

published in Istanbul by the Turkish World Research Foundation. The work is a joint work of the Turkish-German Cultural Exchange Center.

The book contains poems, journalistic articles and the play “The Second Voice” by Bakhtiyar Vahabzadeh. Bakhtiyar Vahabzadeh is presented to German-speaking readers as a poet, playwright, prose writer, publicist and politician.

The book “Karabakh is my song” begins with the biography of Bakhtiyar Vahabzadeh (in his own language).

Then Chingiz Aitmatov’s thoughts and ideas on the work of the Azerbaijani poet are given.

The book “Karabakh is my song” opens with Bakhtiyar Vahabzadeh’s poem “I am an Azerbaijani son”.

Keywords: folk poet, German language, orientalist scholar, literary translation, poetry and poem.

THE LANGUAGE OF SABIR'S SATIRE AS A MIRROR OF SOCIETY

SABİR SATİRALARININ DİLİ CƏMİYYƏTİN AYNASI KİMİ

Sevinc Kərimova Tofiq qızı
Filologiya üzrə fəlsəfə doktoru

Şabala Nərimanov Məhəmməd oğlu
Magistr tələbəsi Bakı Slavyan Universiteti

Abstract
Among the issues that are relevant for linguistics,a special place is occupied by the mutual study of language with other sciences,Language-Society, language-environmental relations.The reflection of the economic,political,cultural picture of the time has always manifested itself in language,it is possible to observe this process not only in our everyday life, but also in the artistic style-in the literary creation of the Masters of the word.In fact,this interaction has existed in every era, but the tracking of these phenomena and their transformation into the subject of a special branch of linguistics can be met as a new direction.In addition to being an example of creativity,a work of art is a carrier of the linguistic features of its time,and language (the words and expressions that make it up) is a manifestation of the corresponding time-the events taking place,the harmony of people with the environment.In this regard, M.A.Sabir satires are an interesting source both in genre and in the objectives of criticism and subject area.A number of words and phrases that we meet in satires were purposefully used by the author,creating a realistic picture of the era,despite the fact that they sometimes violate the corresponding norms.
Key words: language, society, ecolinguistics, sabir, mirror.

Xülasə
Dilçiliyik üçün aktual olan məsələlər içərisində dilin digər elmlərlə qarşılıqlı şəkildə öyrənilməsi,dil-cəmiyyət,dil -ətraf mühit münasibətləri xüsusi yer tutur.Dövrün iqtisadi-siyasi,mədəni mənzərəsinin əksi hər zaman dildə özünü göstərmişdir,təkcə gündəlik həyatımızda deyil,bədii üslubda-söz ustadlarının ədəbi yaradıcılğında da bu prosesi müşahidə etmək mümkündür.Əslində bu qarşılıqlı təsir hər dövrdə mövcud olmuşdur,lakin bu hadisələrin izlənməsi və dilçilin xüsusi şöbəsinin predmetinə çevrilməsi yeni istiqamət kimi qarşılana bilər.Bədii əsər yaradıcılıq nümunəsi olmaqla yanaşı,dövrünün dil xüsusiyyətlərinin daşıyıcısı,dil (onu təşkil edən söz və ifadələr) isə müvafiq zamanın -baş verən hadisələrin,insanların mühitlə ahənginin təzahürüdür.Bu baxımdan M.Ə.Sabir satiraları həm janr etibarilə,həm də tənqid hədəflərinə,mövzu dairəsinə görə maraqlı mənbədir.Satiralarda rast gəldiyimiz bir sıra söz və ifadələr bəzən müvafiq normaları pozmasına baxmayaraq,müəllif tərəfindən məqsədli şəkildə istifadə edilmiş,dövrün real mənzərəsini yaratmışdır.
Açar sözlər: dil, cəmiyyət, ekolinqvistika, sabir, ayna

Giriş

Hər bir bədii əsər üçün onun dili mövzusu, ideyası, aid olduğu janr xüsusiyyətləri qədər önəmlidir. Dil insan təfəkkürünün inikası olduğu kimi, bədii əsərin dili də müəllif təxəyyülünün məqsədli və obrazlı ifadəsidir. Bu səbəbdən də bədii mətndə rast gəldiyimiz heç bir söz təsadüfi səciyyə daşımır, bəzən isə deşifrə olunmağına ehtiyac olur. Məlumdur ki, Mirzə Ələkbər Sabir irsi Azərbaycan ədəbiyyatının unikal və dil materialı baxımından zəngin mənbələrindəndir. Bu səbəbdəndir ki, görkəmli satirikin yaradıcılığı həm ədəbi cəhətdən, həm də dil-üslub xüsusiyyətlərinə görə geniş tədqiq olunmuşdur. Önəmli məqamlardan biri isə əsərə – satiralara yol açan bir qrup sözlərin işlənmə səbəbləri, başqa cür desək, aid olduğu dövrün, mövcud cəmiyyətin sözlərə yansıması, bilvasitə dilə təsiridir.

Dil və cəmiyyətin əlaqəsindən danışarkən, dilçiliyin multidissiplinar sahələrindən olan ekolinqvistika xüsusilə diqqəti cəlb edir. Ekologiya, ətraf mühit, ətraf mühitin qorunması kimi mühüm məsələlər dünyanın hər bir yerində qloballaşdıqca, bu sahə yalnız insan və təbiət münasibətləri ilə məhdudlaşmamış, insan-mühit miqyasında geniş və müxtəlif sahələri əhatə etmişdir. Dil – kommunikasiya vasitəsi olmaqla yanaşı, həm də bu dildə danışan şəxsin təfəkkürünün, düşüncəsinin inikası, eyni zamanda məxsus olduğu xalqın genetik mədəni yaddaşının əksidir. Məqsədimiz bu anlayış və terminlər üzərində durmaq deyil. Belə ki, bunların hər biri geniş məsələlər olub hərtərəfli şərhə ehtiyacı olan istiqamətlərdir. Ekolinqvistikanın, məlum olduğu kimi, 4 növü, istiqaməti vardır. Bunlar – ekolinqvistika, dilin ekologiyası, ekoloji linqvistika, linqvistik ekologiyadır (Əhmədova Ş.Ə, Kərimova S.T, 2024). Bu terminlərin içərisində işlənmə tezliyinə görə ekolinqvistika üstünlük təşkil edir (Əhmədova Ş.Ə, Kərimova S.T, 13-14 dekabr 2024-cü il). Ekolinqvistika özü də mikro və makro olmaqla iki yerə bölünür. Makrolinqvistika dillərin yaşaması, yox olması, məhv olması, dil siyasəti, insan dili hüquqlarını öyrəndiyi halda, mikrolinqivistika çərçivəsi daxilində dil vahidləri, nitq aktları və nitq davranışlarını ümumilikdə kommunikativ etika mövqeyindən öyrənilir.

Bizim məqsədimiz isə ətraf mühit cəmiyyətdə baş verən hadisələrin dilə göstərdiyi təsir barədə bəhs etməkdir. Bizi əhatə edən cəmiyyətdə xalqın, dövlətin siyasi, iqtisadi, mədəni həyatında mövcud olan bütün mühüm məqamlar dilə yansıyır. Təbii ki, bu proses birtərəfli baş vermir. Dil dedikdə bura insanların gündəlik nitqindən tutmuş, ədəbi dilin bütün funksional üslublarında reallaşan şifahi və yazılı nitq nəzərdə tutulur. Bədii ədəbiyyata nəzər saldıqda, müəyyən bir yazıçının əsərlərini oxuduqda yazıçının əsas janrından asılı olmayaraq tarixin müəyyən izlərini görmək mümkündür. Bu yalnız müəllifin müraciət etdiyi mövzuyla, hadisənin baş verdiyi zamanla bağlı deyil, əsərdə istər məqsədli, istərsə də təbii şəkildə istifadə olunan sözün leksik mənası funksional imkanları ilə yanaşı ekolinqivistika yükü daşıyır. O cümlədən, Mirzə Ələkbər Sabir yaradıcılığı öz zəngin dili, maraqlı ifadələri, fikri özünəməxsus ifadə etmə imkanlarına görə seçilir. Satira janrının görkəmli nümayəndələrindən olan Mirzə Ələkbər Sabir dili müraciət etdiyi janrın tələblərinə müvafiq olaraq həqiqəti, reallığı, dövrün eyiblərini, kəndlinin ağır həyatını, fəhlənin uğradığı haqsızlığı, həmçinin, onlarla vacib və ürəkağrıdıcı məsələləri işıqlandırır:

Şairəm, əsrimin ayinəsiyəm,
Məndə hər kəs görür öz qaş-gözünü;
Necə kim, dün “birisi” baxdı mənə
Gördü ayinədə ancaq özünü. (M.Ə.Sabir, 2004)

Şeirdə dediyi kimi, Sabir yaradıcılığı cəmiyyətdəki həyat həqiqətlərini əks etdirmək üçün ayna funksiyasını daşıyır. "Ayna" sözü burada təsadüfi seçim deyil. Bildiyimiz kimi ayna vasitəsilə insan özünü görür, məhz Sabirin əksər satiralarında istifadə etdiyi "tipin öz dili ilə ifşası" üsulu ilə hər insana öz dili vasitəsilə eyiblərini göstərir, şair insanları açıq-aşkar tənqid etmir, burda

şair sözlər vasitəsilə sadəcə həmin insanların portretini çəkir. Şairin "Fəhlə, özünü səndə bir insanmı sanırsan?", "Oxutmuram, əl çəkin!", "Bizə nə?", "Uşaqdır" və s. satiralarını bura misal göstərə bilərik.

Bu məqalədə isə məqsəd dövrün eybəcərliklərinin dildə təzahürünü, zəmanənin haqsızlıqlarını, ədalətsizliyini, aşağı zümrənin ağır həyatının sözlə necə ustalıqla ifadə olunmasını göstərməkdir.

Sabirin zülmkarlara olan nifrəti yeni və maraqlı sözlər, ifadələr vasitəsilə əksini tapır:

Bayram olcaq şövkətlilər, şanlılar,
Tirboyunlar, şişqarınlar, canlılar. (M.Ə.Sabir, 2004)

Bu şeir nümunəsində "tirboyun", "şişqarın" ifadələri müəllifin özünəməxsus sözləridir. Sabir bu sözlərlə, ancaq öz mənafelərini fikirləşən ağaların, bəylərin xarici portretini çəkmiş və iç üzlərini ifşa etmişdir. Yaxud:

Neyliyim, ey vay! Bu urus başdılar,
Bilməyirəm hardan aşıb-daşdılar?!
Ölkədə gündən-günə çoxlaşdılar. (M.Ə.Sabir, 2004)

Bu şeirdə isə “urus başdılar” ifadəsi ilə cəmiyyətin ruslaşaraq, milli kimliyindən, milli dəyərlərindən uzaqlaşmış təbəqəsini tənqid edir. Və buna səbəb isə "urus başdılar”ın gündən-günə çoxalması idi.

Sabir cəmiyyətdəki acı reallıqları, sosial ədalətsizlikləri və s. digər problemləri daha təsirli ifadə etmək üçün istifadə etdiyi söz qruplarından biri də vulqarizmlərdir. Məsələn:

Dövlətlilərə kəndini yeksanmı sanırsan?!
Axmaq kişi, insanlığı asanmı sanırsan?! (M.Ə.Sabir, 2004)
Qələt eylə, etmə bir də belə boş xəyalı, fə’lə!
Dur itil, cəhənnəm ol, get, ürəyim daraldı, fə’lə!.. (M.Ə.Sabir, 2004)

Bu şeir nümünələrində axmaq, dur itil, cəhənnəm ol kimi vulqarizmlərin işlənməsinə şahid oluruq. Lakin şairin bu sözlərdən istifadə etməsi məqsədli xarakter daşıyır. Çünki, həm bildiyimiz kimi, tipin öz dili ilə ifşası Sabir satiralarının böyük əksəriyyəti üçün xarakterik xüsusiyyətdir. Məhz burada da Sabir aşağı zümrənin haqlarını tapdalayan, onları insan yerinə qoymayan mülkədarın iç üzünü fəhləyə dediyi vulqar sözlər vasitəsilə ifşa edir.

Mirzə Ələkbər Sabirin satiralarında həyat həqiqətlərini əks etdirmək üçün istifadə etdiyi maraqlı dil faktlarından bir qismi də antroponimlərdir. Sabir satiralarında müxtəlif tipli antoponimlərdən istifadə etmişdir və onların içərisində dini adlar, ləqəblər, sadə xalq nümayəndələrinə məxsus şəxs adları xüsusi maraq doğurur. Çünki Sabir bu adlardan əsasən obrazın daxili aləmini açmaq, aid olduğu sosial sinfi nəzərə çarpmaq məqsədi ilə bir növ simvol kimi istifadə etmişdir. Fikirlərimizi şeir nümunələri ilə aydınlaşdıraq:

Görürsənmi bizim Hacı Pirini,
Paylamayır ətin onda birini. (M.Ə.Sabir, 2004)
Füqəranın qanını çox da sorullar lotular,
Şeyxlər xəlqə satır huriyü qılman, mənə nə?! (M.Ə.Sabir, 2004)

Yuxarıdakı şeir numunələrində şair "Hacı, Şeyx" və s. kimi antroponimlərdən din adından istifadə edərək xalqı cəhalətdə saxlamağa çalışan, yalnız öz mənafelərini düşünən dırnaqarası "dindarların" əsl üzlərini ifşa etmək məqsədi ilə istifadə etmişdir. İndi isə şairin başqa bir şeirinə nəzər salaq:

Pulunu fəqirə versin, bəs acından ölsün Anna?
O məgər ki, Xansənəmdir, qapılar dolanə, ya rəb?! (M.Ə.Sabir, 2004)
Neyləyirik Fatma-Tükəzbanları?!
Annaları, Sonyaları yanlarıq,
Ay barakallah, nə gözəl canlarıq!.. (M.Ə.Sabir, 2004)

Much has been said and written about the great influence of Bible translations on the English language. For a century, the Bible was the most read and quoted book in England. From the pages of the Bible, not only individual words, but also entire idiomatic expressions entered the English language.
Keywords: phraseological combination, biblicalisms, word, vocabulary, translation, period, expression, currently

Giriş

Nitqin dəqiqliyi və ifadəliliyi sözlərin, ifadələrin qanunauyğun şəkildə cümlələrdə işlədilməsindən asılıdır. Biz nitqimizi, həqiqətən, müəyyən qrammatik qaydalar əsasında formalaşan söz və ifadələr üzərində qururuq.

Leksikanın inkişafında xalqın həyatında baş vermiş ictimai, siyasi, iqtisadi dəyişikliklər, xalqlar arasında müxtəlif əlaqələrin yaranması, elm və texnikanın inkişafı, məişətdə olan bir sıra dəyişikliklər əsas amillərdəndir.

Leksikada dilin lüğət tərkibi öyrənilir. Lüğət tərkibinin vahidi isə sözdür. Söz, ümumiyyətlə, dil sisteminin əsas, müstəqil və ayrıca işarə vahididir. Mənalandırılma və işarələndirilmə vəzifələrini daşıyan bu mərkəzi dil vahidi səslənmənin, mənanın və real varlığa münasibətin üzvi surətdə bir-birinə bağlılığı nəticəsində meydana çıxır. Qrammatikada sözün forması ilə mənası bir-biri ilə üzvi surətdə vəhdət təşkil edir və sözlər müəyyən quruluşa malik mənalı vahidlər kimi tədqiq olunur. Lakin qrammatik münasibətlər konkret, fərdi əşya və hadisələri nəzərdə tutmur. Leksikada cismi, maddi aləmin işarələnmiş inikası diqqət mərkəzində olur. Sözdə üç cəhəti- səslənmə, məna və maddi aidiyyəti birlikdə götürdükdə leksikologiya elminin sahələri, onların vəzifələri aydınlaşır. Sözün lüğət tərkibi müxtəlif nöqteyi -nəzərdən tədqiq edilir; leksik-semantik söz qrupları, sözlərin çoxmənalılığı, sinonimliyi, omonimliyi, antonimliyi; leksikanın mənşəcə tərkibi; sözlərin işlənmə tezliyi ilə fəallığı, köhnəlmiş və yeni sözlər; sözlərin işlənmə dairəsi; leksikanın üslubi təsirlilik cəhətdən təbəqələşməsi; söz haqqında çıxış edən sabit söz birləşmələri yəni, frazeologizmlər və s. Leksika anlayışını şərh edərkən, dilin müəyyən quruluşa malik olduğunu yada salmaq lazımdır. Dilçiliyin başqa şöbələrində olduğu kimi, leksikologiyada da sözlər ayrı-ayrılıqda deyil, bir-biri ilə əlaqəli şəkildə, həm paradiqmatik, həm də sintaqmatik münasibətlərin nəzərə alınması şərtilə öyrənilir. N.M.Şanski bu haqda tamamilə haqlı olaraq yazır: "Leksika bu və ya başqa dildə sözlərin sadəcə məcmusu yox, qarşılıqlı münasibət və əlaqəli faktların müəyyən sistemi olduğundan, leksikologiya ayrı-ayrı sözlər haqqında deyil, dilin bütövlükdə leksik sistemi haqqında elm kimi qarşımızda durmaqdadır". Dil vahidləri, onların dəyişmə və birləşmələri nitqdə konkretləşir, reallaşır.

Müasir ingilis ədəbi dilinin leksikası uzunmüddətli tarixi bir inkişafın nəticəsidir.Müasir ingilis ədəbi dilinin leksikasının inkişafını dürüst göstərmək üçün mütləq həmin xalqın tarixinə nəzər yetirmək lazımdır. Əvvəlki əsrlərdə dilin leksikasında fəal surətdə istifadə olunan müəyyən qrup sözlər bu gün üçün ya arxaikləşmişdir, ya da tamamilə dildən çıxmışdır. Eyni ilə bunun əksinə də söyləmək olar. Müasir dilin leksikasında fəal bir yer tutan müəyyən qrup sözlər, hətta XX əsrdə ədəbi dildə heç mövcud deyildi. Bunlar müəyyən tarixi inkişaf nəticəsi olaraq bugünkü dildə çox işlənən sözlər sırasına daxil olmuşdur. Deməli, dilin leksikasını mənşəcə tədqiq edərkən onu inkişafda götürmək lazımdır. Leksik cəhətdən bu inkişaf yeni sözlərin yaranması və ya alınması yolu ilə lüğət tərkibinin zənginləşməsi kimi başa düşülməlidir. Ümumiyyətlə, hər hansı bir dilin leksikasına mənşəcə tərkibi nöqteyi nəzərindən yanaşdıqda çox mürəkkəb və rəngarəng bir mənzərəyə rast gəlirik: burada həmin dilin xalis sözləri ilə bərabər başqa dillərdən alınma sözlər də mövcuddur. Dilin leksikasını təşkil edən müxtəlif mənşəli sözlərin əksəriyyəti bir-birinə elə qarışmış, elə bir vahidlik təşkil etmişdir ki, bunları ilk baxışda mənşəcə müəyyənləşdirmək çətindir. Başqa dillərdən sözlərin alınması əsasən iki qayda üzrə aparılır. Birinci qayda belədir ki, söz ilk mənbədən alınır. Bu, birbaşa söz almaq qaydasıdır.

Başqa dillərdən sözlərin alınmasında ikinci qayda sözlərin dolayı yolla alınmasıdır. Bu qayda ilə sözlər ilk mənbədən deyil, ikinci, üçüncü mənbədən alınır. Əlbəttə, biz alınma sözlərdən danışarkən qeyd eyməliyik ki, başqa dillərdən frazeoloji ifadələr də ya birinci, yaxud da ikinci yolla ingilis dilinin lüğət tərkibinə daxıl olmuşdur. Deməli, dildə olan bütün sözlər kimi, frazeoloji ifadələr də dilin özünə məxsus (xalis) və alınma ola bilər. Frazeologiya haqqında

danışarkən, demək olar ki, bu bölmə dilçiliyin müstəqil sahələrindən biri olub, dilin frazeoloji sahəsini öyrənir.
Hər bir dilin leksik sistemində külli miqdarda funksiyaca tək-tək sözlərə uyğyn olan "ayrıca formalaşan" müstəqil dil vahidləri vardır. Belə leksikləşmiş söz birləşmələri dilçilik ədəbiyyatında frazeoloji vahidlər, yaxud frazeoligizmlər, məcmusu isə frazeologiya adlanır.
İngilis dilinin lüğət tərkibi sabit söz birləşmələri ilə zəngindir. Sözlər kimi, bütövlükdə bir məna ifadə edən sabit birləşmələr dilin lüğət tərkibinin zənginləşməsində, artımında böyük rol oynayır. Belə ifadələr daha çox milli səciyyəlidir. Hər dilin özünə məxsus milli ifadəsi vardır. Frazeologizmlərdə xalqın ağıl və biliyi, sevinci və kədəri, məhəbbəti və nifrəti, gülüşü və göz yaşları, düzlüyü və əyriliyi, zəhmətkeşliyi və tənbəlliyi, mübarizəsi, bir sözlə, hər şeyə qadir gücü əks olunmuşdur.
Dilin belə zəngin xəzinəsinin tədqiqata böyük ehtiyacı vardır. İfadələrlə tanışlıq xalqın tarixini və xarakterini dərindən başa düşməyə imkan verir.
Frazeoligiya frazeologizmlərin qanunauyğun inkişafının mənşəyini və yaranmasını, xüsusiyyətlərini, forma və məzmun zənginliyini, işlədilmə imkanını, semantik və qrammatik strukturunu, söz və sərbəst birləşmələrlə əlaqəsini və s. tədqiq edir. Onun tədqiq obyekti məna, quruluş və funksiyaca rəngarəngdir.

Frazeologiyanın sahələri

Dilçilikdə dil haqqında elmin başqa sahələri kimi, frazeologiya da iki hissəyə ayrılır: ümumi frazeoligiya, xüsusi frazeologiya. Ümumi frazeologiyada bir sıra inkişaf etmiş dillərin frazeoloji materialının tədqiqindən alınan nəticələr ümumiləşdirilir, bunun əsasında frazeologiyanın ümumi problem məsələləri müəyyənləşdirilir. Xüsusi frazeologiyada isə hər bir konkret dilin faktları əsasında həmin dilin frazeoloji sistemi semantik, struktur və sair cəhətdən təsvir edilir. Hər bir konkret dilin frazeoliji vahidləri də zəruri ehtiyac nəticəsində tədricən formalaşaraq zənginləşmə prosesi keçirib bir sistem halına düşmüşdür. Bununla əlaqədar olaraq hər bir konkret dilin frazeologiyası da dioxronik və sinxronik olmaqla iki planda tədqiq edilir. Dioxronik planda dilin frazeologiyasının tarixən formalaşması və müasir dövrə doğru semantik və struktur cəgətdən inkişafı öyrənilir. Sinxronik planda isə dilin frazeologiyasının müasir vəziyyətinin semantik və struktur təsviri verilir.
Frazeoloji vahidlərin müxtəlif dövrlərdəki formalarını, zaman keçdikcə onların yeni tiplərinin müəyyənləşdirilməsi, ədəbi dildə sabitləşməsi prosesini tədqiq etmək dilçilik üçün əhəmiyyətli məsələlərdən biridir. Ona görə də canlı dildə, həmçinin klassik və müasir ədəbi əsərlərin dilində işlənən külli miqdarda ifadələrin meydana gəlməsini, inkişafını və zaman keçdikcə hansı dəyişikliklərə uğradığını, yaxud sabit qaldığını müəyyən etmək lazım gəlir.
Frazeoloji vahidlərin üslubi əhəmiyyəti ondadır ki, onlar sözlərə sinonim olaraq dilin lüğət tərkibinin zənginləşməsində xüsusi rol oynayır.
Dilin frazeologiyasını təşkil edən söz birləşmələri sərbəst söz birləşmələrindən məhz onunla fərqlənir ki, onların bütöv tərkibi ilə hissələri arasındakı əlaqə sabitdir. Halbuki sərbəst söz birləşmələrinin tərkibinə daxil olan sözlər sabit deyil, çünki onlar ən müxtəlif sözlərlə birləşə bilər.
Ferdinant de Sossyur dildəki sabit ifadələri sərbəst söz birləşmələrindən belə fərqləndirir:
"Biz hər şeydən əvvəl, külli miqdarda ifadələrə rast gəlirik ki, bunları dilə aid etmək lazımdır. Bunlar dildə elə hazır nitq parçalarıdır ki, adətən, daxilindəki ayrı-ayrı mənalara malik olan sözləri dəyişmək mümkün olduğu halda, bu, məqbul sayılmır..... Bunların ənənəyə görə daşıdığı məna, komponentlərinin bütövlükdəki mənasından və sintaktik quruluşundan asılıdır. Belə ifadələr düzəldilmir, bunlardan dildə hazır şəkildə istifadə edilir".

Frazeologizmlər dilin leksikasının ən canlı, ən zəngin, çox işlənən, ən təsirli qismini təşkil edir. Frazeologizmlərin bir qismi ədəbi dil normalarına uyğun gəlir və onun tələblərinə cavab verir, bir qismi isə loru, kobud xarakterlidir və bunların işlədilmə dairəsi məhduddur.
Frazeologizmlərdə məna bütövlüyü onların bir məfhum ifadə etməsi ilə əlaqədardır, mənaca sözə bərabərdir. [Климович:2006,15]
Qeyd etmək lazımdır ki, bir-birinin eyni olan frazeoloji ifadələri hər xalq bir-birindən xəbərsiz olaraq özü yaratmışdır. Lakin bu heç də o demək deyil ki, frazeoloji ifadələr bir dildən başqasına keçmir. Müəyyən ictimai, tarixi, mədəni və başqa səbəblərdən asılı olaraq yalnız ayrı-ayrı sözlər deyil, bütöv ifadələr də bir dildən başqa dilə kalka edilir. Müxtəlif dillərdə eyni səslənən bir neçə frazeologizmlərə nəzər salaq.

As cold as ice- buz kimi soyuq
No smoke without fire- od olmasa, tüstü çıxmaz
Cold arms-soyuq silah
A wolf in sheep's clothing-qoyun dərisi geyinmiş qurd
Look one's age-yaşına uyğun görünmək
Attract attention-diqqəti cəlb etmək
Suck one's blood-kiminsə qanını sormaq
The day of doom (judgement)-qiyamət günü
Worse than death-ölümdən betər
It's written all over his face-sifətində yazılıb
Without turning an eyelash-gözünü qırpmadan
Open somebody's eyes to something-gözünü (kiminsə) açmaq, yəni ayıltmaq
A matter of life and death-ölüm-dirim məsələsi
All is not gold that glitters- hər parıldayan qızıl deyil.

Frazeologiyanın bu cür bir-birinə uyğun gəlməsi, şübhəsiz, insan təfəkküründün eyni istiqamətdə inkişaf etməsini göstərən əlamətlərdən biridir.
Bəzi frazeologizmlər eyni məna verərək müxtəlif dillərdə fərqli sözlərlə ifadə olunur:

One swallow does not make a summer- Bir gül ilə bahar olmaz
Crows do not pick crow's eye-İt itin ayağını basmaz
Green wound- təzə, sağalmamış yara
Small years- uşaqlıq illəri
The New World-Amerika
A better world-axirət dünyası
A word to the wise- arifə bir işarə
Touch wood- göz dəyməsin
Break one's promise- vədinə əməl etməmək
As safe as the Bank of England- tamamilə təhlükəsiz
Be a bag of bones- çox arıq olmaq
Be as poor as a church mouse (rat)- çox kasıb olmaq
Pay the debt of nature- ölmək
Cut short- sözünü kəsmək
Put one's best foot forward- çox çalışmaq
For weal or (and) woe- nə olursa, olsun
Before you can (could) say Jack Robinson- bir anda, dərhal
A woman of honour- ləyaqətli qadın
April weather- əhval ruhiyyənin tez-tez dəyişməsi-gah gülür, gah ağlayır. İtalyan dilində belə

bir ifadə var:
Aprile, quando si plange e si brile- Aprel gah ağlayır, gah gülür
One's weak point (spot)- bir kəsin zəif damarı
Oil one's tongue- yalandan tərif etmək
Unbutton one's tongue- səmimi söhbət etmək, ürəyini boşaltmaq (açmaq)
Sit tight- güzəştə getməmək, dediyinin üstündə durmaq
Without a reel or a stagger- tərəddüd etmədən

Dilin frazeoloji tərkibi ilə leksik tərkibi arasında ümumi cəhətlər çoxdur. Frazeoloji ifadələr sözlər kimi insan fəaliyyətində baş verən müxtəlif hadisələri ifadə etmək üçün işlənir. Frazeoloji ifadə leksik məna daşıdığı üçün sözün ekvivalenti ola bilər, çünki frazeoloji vahid həm mənşə, həm də funksiya cəhətdən sözlə bağlıdır. Frazeoloji vahidlər ayrı-ayrı nitq hissələrinə aid sözlərə ekvivalent ola bilər.
Hər bir dilin lüğət tərkibinin artımında böyük rol oynayan sabit söz birləşmələri ingilis dilinin zənginləşməsində mühüm əhəmiyyət kəsb edir. Milli səciyyə daşıyan bu frazeologizmlər V. Q. Belinskinin qeyd etdiyi kimi, "dilin xalq fizionomiyası, onun orijinal vasitəsi, varlıq və zəka zənginliyidir". Bunlar da xalqın ağıl və biliyi, sevinc və kədəri, məhəbbət və nifrəti, gülüş və göz yaşları, düzlüyü və əyriliyi, zəhmətkeşliyi və tənbəlliyi, mübarizəsi, cəsarəti və mərdliyidir.
Frazeoloji vahidlər etimoloji cəhətdən təsnif olunarkən onların necə yaranmalarına nəzər salmaq lazımdır. Adətən frazeologizmlər milli xarakter daşıyır. İngilis frazeoloji fonduna yerli və alınma frazeologizmlər daxildir ki, bunların arasında birinci üstünlük təşkil edir. Yerli frazeologizmlər xalqın adət-ənənələri, inamları, eyni zamanda real tarixi faktlar, əfsanə, rəvayətlərlə bağlıdır. Xalq tərəfindən yaradılmış və geniş yayılmış bu cür ifadələrdən bir neçəsinə nəzər salaq:

Bite off more than one can chew – gücü çatmayan işdən yapışmaq.
Have a bee in one's bonnet-bir fikri daima başında hərlətmək.
Pay through the nose-üç qat artıq (həddindən çox) ödəmək
Baker's dozen- on üç (zarafatla); (qədim ingilis adətinə görə çörək satanlar çörək bişirib onlara verənlərdən on ki əvəzinə on üç çörək alırdılar və bu bir çörək onların gəliri hesab olunurdu).
Good wine needs no bush-yaxşı malı tərifləməyə ehtiyac yoxdur (qədim adətə görə satışda yaxşı çaxır olduğunu göstərmək üçün traktır sahibi oradan sarmaşıq budağı asırdı).
Din insan şəxsiyyətinə və onun dünyagörüşünün formalaşmasına, ümumiyyətlə, cəmiyyət və mədəniyyətə böyük təsir göstərir. Ola bilsin ki, bu əcdadlarımızın fövqaltəbii qüvvələrə inanmasından irəli gəlir. İbtidai icma quruluşundan başlamış dövrümüzə qədər insanlar aparıcı bir qüvvəyə-allaha inanırlar, hər bir işdə onun varlığını duyurlar və bu inamları müxtəlif fikirlərlə ifadə edirlər ki, bunların arasında frazeologizmlər mühüm yer tutur. İngilis dilinin lüğət tərkibinin zənginləşməsində Bibliyadan götürülmüş frazeoloji birləşmələr xüsusi yer tutur. Əvvəllər bütün Avropa üçün Bibliya dili latın dili idi, lakin İngiltərənin ayrca bir dövlət kimi inkişafından sonra Bibliyanı öz ana dilində oxumaq tələbatı yarandığı üçün Bibliya ingilis dilinə daha çox tərcümə olunurdu və bu tərcümələr də xristianlığın mənsub olduğu istiqamətlərə görə bir-birindən fərqlənirdi. Bibliyanın ingilis dilinə tərcümə tarixi 2 dövrə bölünür: Orta əsrlər və Yeni dövr. Nəzərə almaq lazımdır ki, XX əsrə qədər hamı tərəfindən qəbul olunmuş tərcümələrdən biri kral Yakov tərəfindən edilmişdi. Yeni dövr müasir insanlara daha yaxşı, dəqiqliklə aydın olan tərcümələrin yaranmasına sanki təkan verdi. İngilislər xristianlığı qəbul edəndən sonra Britaniyada ən nüfuzlu sayılan yeganə Bibliya, Vulqatın idi. Əslində, Bibliyanın anqlo-sakson dilinə tərcüməsinin ilk cəhdlərini tərcümə adlandırmaq olmaz. Bunlar Bibliyada deyilənlərin şer şəklində sərbəst nəqli idi. X əsrdə görkəmli alim

hesab olunan Elfrik də tam tərcümə etmədi. Beləliklə, qədim ingilis dili dövründə Bibliyanın tərcüməsi belə bir vəziyyətdə idi.[Федуленкова:2000,99]
Orta ingilis dili dövründə protestantlar ilk mənbə kimi Vulqatın tərcüməsindən imtina etdilər. Bibliyanın qədim yəhudi və yunan mətnləri ilə Vulqatın tərcüməsini müqayisə edəndə tərcümədə qeyri-dəqiqlik aşkar görünürdü. Bundan əlavə Roma katolik kilsəsi ilə əlaqəni kəsmiş islahatçı-reformatorlar öz tərcümələrində latın dilində olan Bibliyaya istinad etmək istəmirdilər. Bibliyanın ilk protestant tərcüməçisi Vilyam Tindal olub. (təxminən 1490-1536). Tərcümənin xüsusiyyəti ondan ibarət idi ki, burada katoliklərin ibadət zamanı işlətdikləri bəzi terminlərin də yazılması nəzərdə tutulurdu. Kilsə sözü icma; keşiş-ağsaqqal, başçı; peşman olmaq- təəssüf etmək və s. Tindal tərcümə zamanı nümunə olaraq Martin Lyuterin Əhdi-Cədidin alman dilində olan tərcüməsinə istinad edir. Bibliyadan informasiya mənbəyi kimi istifadə prosesində -daima moizələr, müxtəlif messalar, ibadətlər hətta təbliğat zamanı bibleizmlər yaratmağa başlayıb. Bazar günləri ibadətdən sonra insanlar çox vaxt bir yerə yığışıb allah kəlamlarıını müzakirə edirdilər və bunun nəticəsində onlar leksikonlarında müəyyən söz və ifadələr, bəzən də bütöv sitatlar işlətməyə başladılar. Bibliya frazeoloji birləşmələrin əsas ədəbi mənbəyidir. Bu dahi əsər (Bibliya) dünyanın bir çox dillərini frazeologizmlərlə zənginləşdirdi. S. Bulqakov qeyd etmişdi ki, "Bibliya təkcə müqəddəs dini kitab (Əhdi-əqiq, Əhdi-cədid), xristianlığın bayrağı, həyatın qanunlarının külliyyatı, ən yüksək ənənəvi dəyərlərin təzahürü deyil, eyni zamanda tarixi salnamə, ədəbiyyatın möhtəşəm abidəsidir". Beləliklə, Bibliya ən mühüm mətnlər nümunəsidir və bu mətnlər cəmiyyətin və ayrı-ayrı insanların şüurunun formalaşmasında fövqalədə rola malikdir. [Смит: 1998, 255]
Bibliyadan götürülmüş söz, ifadə və sitatlar dil sistemində özünə möhkəm yer tutmuş və frazeologiya bölməsinin ayrılmaz hissəsinə çevrilmişdir.
Uzun müddət ingilis dilli ölkələrin əsasən istinad etdikləri Bibliya mətnləri dilin leksikologiyasında öz izini buraxmışdır. Düzdür, müasir dövrə gələn billeizmlər müəyyən dəyişikliklərə uğramlşlar. Bibliya mətnləri vssitəsilə dilə daxil olmuş bibleizmlər öz xarakteri və işlənmə fəallığına görə fərqlənirlər. Onlardan bəziləri daha çox istifadə olunduğu halda, digərləri bir növ arxaik xarakter alaraq arxeizmlərə çevrilirlər. Bu frazeologizmlərin bəziləri başqa dillərə tərcümə olunaraq elə işlənir ki, onların çox vaxt alınma ifadə olunduğuna şübhə yaranır, sanki həmin dilin öz frazeologizmdir və bəzən həmin alınmalar öz üslubi rəngini (xüsusiyyətini) itirirlər.
Bibliyanı tədqiq edərkən tarixçilər və ədəbiyyatşünaslar oradakı frazeologizm adlandırıla bilən sabit birləşmələrə diqqəti cəlb edirlər və bunlar insanların gündəlik nitqində tez-tez işlənən ifadələrdir. Bibliyadan götürülən frazeologizmlərin bəzilərinin çox maraqlı tarixçələri var.
Nabot's vineyard-Navufeyin üzüm tarlası-həsəd obyekti, şərin böhtanın, tamahın qurbanı.
Eramızdan əvvəl 871-ci ilə qədər Bibliya personajı yəhudi Navufeyin çar Axavın sarayı yanında üzüm tarlası var idi. Axav oranı almaq istəsə də, Navufey oranı satmaqdan imtina etdi.Belə olan təqdirdə İzrail çarı İzabel məhkəmə qurur və Navufeyi şərləyərək onu guya Allaha qarşı çıxmaqda günahlandıraraq ölümə məhkum edir və daş-qalağa basaraq qətlə yetirir. İlya peyğəmbər çarın yanına gələrək bütün çar sülalısini lənətləyir. Axav özündə güc taparaq peşiman olduğunu etiraf edir və onda İlya peyğəmbərə Allahdan səs gəlir ki, Axavın ölümündən sonra onun nəsli məhv olacaq və bu doğrudan da belə olur.

To select a good part- faydalı, xeyirli şeyi seçmək.
Bu frazanı İsa Peyğəmbər monastrda qonaqlar üçün süfrə açmaqda ona kömək etməyən bacısını təqsirləndirən Marfanı ifşa etmək (bir möv onun haqsız olduğunu üzə çıxarmsq) üçün işlətmişdi. Orijinalda bu belə səslənir. "O (İsa Peyğəmbər) bir kəndə gəlir. Burada Marfa adlı bir qadın onu öz evində qəbul etdi; Marfanın Mariya adlı bir bacısı var idi və o, İsa Peyğəmbərin yanında oturaraq ona qulaq asırdı. Marfa isə möhtəşəm qonaqlıq haqqında

düşünərək peyğəmbərə yaxınlaşdı və dedi; " Ona (Mariyaya) deyin ki, mənə kömək etsin". Peyğəmbər isə cavabında ona dedi; "Sən çox şey haqqında düşünürsən, çox vurnuxursan, ancaq yalnız bir şey lazımdır. Mariya isə xeyirli bir iş seçib və bu heç vaxt onun əlindən alınmayacaqdır".
Müasir dövrümüzdə bu ifadə "özü üçün daha yaxşısını (faydalısını, xeyirlisini) seçmək mənasında işlənir.
To hide one's talent (light) under a bushel -istedadını gizlətmək (üzə çıxartmamaq). Hal-hazırda bu ifadə öz fitri istedadını inkişaf etdirməyən şəxslər haqqında işlənir. Lakin İsa Peyğəmbərin dövründə yüksək dəyərə malik olan qədim Roma pul vahidi talant (istedad) adlanırdı. İsa Peyğəmbərin şagirdinin söylədiyi İncildən götürülmüş bir ibrətamiz hekayədə deyilir: "O, insan kimi hərəkət edərək başqa ölkəyə gedəndə öz qul təəbələrini yığaraq öz mülkünü onlara tapşırdı və hər birinin güc və bacarığını nəzərə alaraq birinə beş, digərinə iki, başqa birisinə isə bir talant verdi.
Beş talant alan şəxs bu pulu işə qoyaraq ikiqat qazandı və iki talant alan da eyni hərəkət etdi; lakin bir talant alan adam o pulu yerə (torpağa) basdırdı və öz ağasının verdiyi gümüş pul vahidini gizlətdi. Pulu yerə basdıran qulu cəza, o birilərini isə mükafat gözləyirdi.
A house built in shifting sand- qumluq yerdə (qum üzərində ev tikmək)
Bu ifadə özülü, bünövrəsi olmayan, davamsız bir şey haqqında danışılanda işlənir və mənbəyi Bibliyadır. Adamlara tövsiyə verərkən İsa Peyğəmbər bu sözləri demişdi: "Mənim sözlərimi eşidib onlara əməl etməyənlər qumsal yerdə ev tikən insanlara bənzəyirlər, çünki yağış yağdı, çaylar daşdı, külək əsdi və ev dağıldı. Onun çökməsi isə çox əzəmətli oldu.
To make things go back to the way they were- Öz yerinə, əvvəlki vəziyyətinə qayıtmaq. Bibliyadan götürülmüş bu ifadəni ilk dəfə çar Solomon işlətmişdir. "Külək cənub istiqamətində əsir və şimala keçir, fırlanır, fırlanır və öz yerinə qayıdır".
Manna from Heaven-zəruri, arzu olunan, nadir bir şey.
Bu izrailliləin səhrada qırx illik səyahətləri zamanı Allahın onlara verdiyi qidadır. Bibliyada belə yazılıb: "Və səhrada xırda, yarma kimi görünən, yerdə qırov kimi bir şey peyda oldu. Bunu izrailliər gördülər və bir-birlərindən soruşdular: "Bu nədir?" Moisey onlara dedi: "Bu Allahın sizə qida kimi göndərdiyi çörəkdir". Və izrailliər bu çörəyə belə bir ad verdilər. Manna.
To make a contribution- öz töhfəsini vermək. Bu ifadə rus dilinə внести свою лепту kimi tərcümə olunur. Лерта-lepta sözü pul vahidi, pay, hər kəsin qüvvəsinə görə verdiyi ianə deməkdir, yunan dilindən alınmadır. Bu ifadə İncildən götürülmüş və hər hansı bir işdə gücü çatdığı qədər kömək və iştirak edən adam haqqında deyilir. Bu ifadə ianə toplanan zaman imkansız dul qadının xəzinəyə yalnız iki xırda pul vahidini verdiyindən bəhs edir. Bu ianənin çox az olmasına baxmayaraq, dəyərinin verilmiş çoxlu zəngin, daha bahalı olanlardan daha qiymətli və əhəmiyyətli olduğu qeyd olunur. Qadın özünün axırıncı pulunu verdi və İsa Peyğəmbər xalqa müraciət edərək bu əməlin dəyərindən danışaraq həmin bu hərəkəti xüsusi olaraq vurğuladı.
The curse of Cain-Kainin lənəti. Bibliyaya görə Allah Kainin qardaşı Qveli öldürəndən sonra onu lənətlədi və məcazi mənada ona "cinayətkar" damğası möhürünü vurdu.
The slaughter (massarce) of the innocents- körpələrin öldürülməsi (adətən körpələr məsum, günahsız bəndələrdir) ingilis dilində məsum insan haqqlnda belə bir deyim var: As innocent as a newly born lamb- təzə doğulmuş quzu kimi məsum.
Hal-hazırda yuxarıda adı çəkilən ifadə, günahsız, heç bir təqsiri olmayan dinc insanları öldürmək, cəzalandırmaq mənasında işlənir. Böyük Britaniyada Massarce of the innocents frazeologizmi parlament jarqonunda vaxtın olmaması (çatışmaması) səbəbindən parlament sessiyasının sonunda hər hansı bir qanun layihəsinə baxılmaması mənasında işlənir. Tərcümə

olunan bu frazeoloji birləşmə zarafat və ya kinayəli şəkildə cavan, təcrübəsiz insanlara sərt qanunlar tətbiq olunanda, onlarla sərt davranışda, sərt tənqid zamanı istifadə olunur.

Nəticə

Belə bir nəticəyə gəlmək olar ki, Bibliyadan götürülmüş frazeologizmlər - bibleizmlər leksikanın xüsusi bir qatı olaraq ingilis dilində mühüm rol oynayır çünki onun müəyyən funksiya və xüsusiyyətləri var. Bibliezmlər olmadan bəzi bədii mətnlər, mətbuat, mahnılar mükəmməl səslənməz, çünki onlar (bibleizmlər) mətnləri daha da ifadəli və parlaq edir.

Ədəbiyyat

1.Азаров А.А. (2002) Русско-английский словарь религиозной лексики. ─Москва:─РУССО, 735с.
2.Смит Л.П. (1998) Фразеология английского языка. ─Москва:─Высшая школа, 351 с.
3.Федуленкова Т.Н. (2000). Английская фразеология: Курс лекции. ─Архангельск:─Поморский гос. ун-т, 131 с
4.Климович Н.В. (2006) К вопросу об определении библеизма в лингвистике// Вопросы языкознания. ─Красноярский Государственный Университет: ─ Гуманитарные науки, с 13-19
5.Кунин А.В. (1967) Англо-русский фразеологический словарь (в двух томах). ─Москва:─ Высшая школа

THE ROLE OF LITERATURE IN THE PSYCHOLOGICAL DEVELOPMENT AND EDUCATION OF YOUNG PRESCHOOL AGE CHILDREN

KİÇİK MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN PSİXOLOJİ İNKİŞAFI VƏ TƏRBİYƏSİNDƏ BƏDİİ ƏDƏBİYYATIN ROLU

Əlixanova Gülnarə Həmzəbəyovna
Psixologiya üzrə fəlsəfə doktoru Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi

Abstract
Children's literature is an art. As an art, it is characterized by the expression of generalized ideas in a vivid, artistic form - in specific images. Therefore, the artistic level of a literary work is extremely important. The best gift for a child is also a book. It is quite difficult to argue with this well-known statement. After all, a book is a source of new knowledge, an assistant in learning, an opportunity to distract a child from a computer and TV. But all this is possible only if it is interesting. Choosing the right one is not so easy. Children's books are available in a wide range.
Online stores also offer a wide range of books. Literally, they can be chosen for readers of any age, even those who do not yet know the letters. However, it is important to understand that not all books are universal. Some are intended for babies, while others are intended for schoolchildren. In order not to make a mistake, attention should be paid to the design. For example, books for babies are usually colorful, have large pictures and a minimum of text. Traditionally, they contain 1 or more short stories, poems, written in large print. The pages of such books are usually thick and durable. For children of kindergarten age, they often consist of interactive tasks or pictures. They also have little text, the letters are large enough so that the child can read the content himself while learning. Bright and colorful illustrations occupy a sufficient amount of space throughout the volume.
Keywords: interactive tasks, stories, motives, thoughts, actions, characters, emotional attitude

Аннотация
Детская литература — это искусство. Как искусство, она характеризуется выражением обобщенных идей в яркой, художественной форме — в конкретных образах. Поэтому художественный уровень литературного произведения крайне важен. Лучший подарок для ребенка — это также книга. С этим известным утверждением довольно сложно поспорить. Ведь книга — это источник новых знаний, помощник в обучении, возможность отвлечь ребенка от компьютера и телевизора. Но все это возможно только в том случае, если она интересна. Выбрать подходящую не так-то просто. Детские книги представлены в широком ассортименте.
Интернет-магазины также предлагают большой ассортимент книг. Буквально их можно подобрать для читателей любого возраста, даже тех, кто еще не знает букв. Однако важно понимать, что не все книги универсальны. Одни предназначены для малышей, а другие — для школьников. Чтобы не ошибиться, следует обратить внимание на оформление. Например, книги для малышей обычно красочные, имеют крупные картинки и минимум текста. Традиционно они содержат 1 или несколько рассказов, стихотворений, написанных крупным шрифтом. Страницы таких книг обычно толстые и прочные. Для детей детсадовского возраста они часто состоят из интерактивных заданий или картинок. В них также мало текста, буквы достаточно крупные, чтобы ребенок мог сам читать содержание во время обучения. Яркие и красочные иллюстрации занимают достаточно много места по всему объему.

Ключевые слова: интерактивные задания, рассказы, мотивы, мысли, действия, персонажи, эмоциональное отношение.

Xülasə

Uşaq ədəbiyyatı bir sənətdir. Bir sənət kimi o, ümumiləşdirilmiş fikirlərin canlı, bədii formada - konkret obrazlarda ifadəsi ilə səciyyələnir. Ona görə də ədəbi əsərin bədii səviyyəsi son dərəcə önəmlidir. Uşaq üçün ən yaxşı hədiyyə də kitabdır. Bu məşhur ifadə ilə mübahisə etmək kifayət qədər çətindir. Axı kitab yeni bilik mənbəyidir, öyrənmədə köməkçidir, uşağın diqqətini kompüterdən və televizordan yayındırmaq imkanıdır. Ancaq bütün bunlar yalnız maraqlı olarsa mümkündür. Düzgün birini seçmək o qədər də asan deyil. Uşaq kitabları geniş çeşiddə satışda mövcuddur.

Onlayn mağazalar da geniş çeşiddə kitablar təklif edir. Sözün əsl mənasında, hər yaşda olan oxucular, hətta hələ hərfləri bilməyənlər üçün seçilə bilər. Ancaq başa düşmək lazımdır ki, bütün kitablar universal deyil. Bəziləri körpələr üçün, digərləri isə məktəblilər üçün nəzərdə tutulub. Səhv etməmək üçün dizayna diqqət yetirilməlidir. Məsələn, körpələr üçün kitablar adətən rəngarəng olur, böyük şəkilləri və minimum mətni olur. Ənənəvi olaraq, onların tərkibində böyük şriftlə yazılmış 1 və ya daha çox qısa nağıl, şeir var. Belə kitabların səhifələri adətən qalın və davamlı olur. Uşaq bağçası yaşlı uşaqlar üçün onlar tez-tez interaktiv tapşırıqlar və ya şəkillərdən ibarətdir. Onların da mətni azdır, uşaq öyrənərkən məzmunu özü oxuya bilməsi üçün hərflər iri həcmdədir. Parlaq və rəngarəng təsvirlər bütün həcmdə kifayət qədər yer tutur.

Açar sözlər: interaktiv tapşırıqlar, nağıllar, motivlər, düşüncələr, hərəkətlər, xarakterlər, emosional münasibət.

Giriş

Məktəbəqədər yaşlı uşaqların psixoloji inkişafında bədii ədəbiyyatın rolu böyükdür. Bədii ədəbiyyat, uşaqların dil bacarıqlarını, mədəniyyətini və inkişafını təşviq edir. Ədəbiyyat, uşaqlarda obraz yaratma, təxəyyül və əxlaqi dəyərlərin formalaşmasına kömək edir. Kiçik məktəbəqədər yaşlı uşaqlar üçün nəzərdə tutulmuş kitablar böyük həcmli mətni ilə seçilir. Şrift adətən daha kiçikdir və daha az şəkil var. Bu formatın 6-10 yaşlarında uşaqların artıq oxuya bildiklərindən və özlərinin kitabın məzmununu mənimsəyə bilmələri səbəbindən seçildiyi ehtimal olunur. Seçərkən yaşa əlavə olaraq məzmunu da nəzərə almaq vacibdir. Məsələni daha ətraflı nəzərdən keçirək.

Uşaqların bəyənəcəyi janrlar. Uşaq üçün kitab seçərkən təbii ki, heç kim tarixi romanlara və ya lüğətlərə baxmır. Amma başa düşmək lazımdır ki, gənc oxucular üçün ədəbiyyat da öz janrına görə dəyişir. Onların ən populyarları arasında:

1.Nağıllar. Onlara klassik, müxtəlif xalqların folkloru və müasir ola bilər. Sonuncular bizim dövrümüzdə yaradılmışdır. Qeyd etmək lazımdır ki, nağıllar müxtəlif yaşlarda olan uşaqlara uyğun olacaq universal ədəbiyyat kateqoriyasıdır: bir yaşdan yeniyetməlik dövrünə qədər;

2.Fantaziya. Bu janr daha çox müstəqil oxuya bilən məktəblilər üçün nəzərdə tutulub. Maraqlı hadisələrlə dolu dinamik süjeti ilə səciyyələnən bu ədəbiyyat növü həm qızların, həm də oğlanların xoşuna gəlir. Onların bir çoxu uşağı oxumağa sövq edə bilən müasir cizgi filmləri və filmlər üçün əsas kimi istifadə edilmişdir.

3.Klassika. Məktəb kurikulumunda uşaq üçün də faydalı olduğuna görə ədəbiyyat seçərkən bu kateqoriya kitablara diqqət yetirməyə dəyər. Buraya məşhur müəlliflərin klassik əsərləri (hekayələr, romanlar, şeirlər) daxildir;
4.Ensiklopediyalar. Uşaqlar üçün onlar yaş və maraqlar nəzərə alınmaqla tərtib edilir. Ensiklopediyalarda inkişaf üçün faydalı olacaq çoxlu müxtəlif maraqlı məlumatlar vardır. Kitab seçərkən bədii ədəbiyyata da diqqət yetirməyə dəyər. Buraya çoxlu sayda janr və müxtəlif əsərlər daxildir. İstənilən yaşda uşaqlar üçün 5-6 yaşdan yeniyetməlik dövrünə qədər uyğun kitablar seçmək mümkündür. Onu oxumaq da faydalıdır, çünki məktəb kurikulumunun ən böyük payını bədii ədəbiyyat təşkil edir.
Ümumiyyətlə, hər kəs özünü bir janr və ya kitab kateqoriyası ilə məhdudlaşdırmamalıdır. Hərtərəfli inkişaf üçün müxtəlif üslub və məzmunlu ədəbiyyatı oxumaq vacibdir. Buna görə də evdə onu müxtəlif yaşlar üçün kitablarla təchiz olunmuş kiçik uşaq kitabxanası yaratmaq daha məsləhətdir. Bu, uşaqlara ədəbi janrlarla tanış olmaq, sevimli janra qərar vermək və oxumağa can atmaq imkanı yaradacaqdır. Çünki, kitab uşağı həyatda ən çətin şeylə - insan hissləri, sevinc və iztirablar, münasibətlər, motivlər, düşüncələr, hərəkətlər, xarakterlər dünyası ilə tanış edir. Kitab insana "yaxından baxmağı", onu görüb dərk etməyi öyrədir, insanlıq yetişdirir, uşağı əxlaqi münasibətlər dünyasına tanıtdırır. V.A.Suxomlinskinin fikrincə, "kitab oxumaq mahir, ağıllı, düşünən pedaqoqun uşağın qəlbinə tapdığı yoldur".
Uşaq - dinləyici, eyni zamanda həm də oxucudur. Ancaq uşağın oxucu kimi taleyi kitab götürüb yazıçı ilə dinləyici (oxucu) arasında vasitəçi olan böyüklərdən asılıdır. Yetkin insanın uşağı kitaba cəlb etməsi üçün özü ədəbiyyatı sevməlidir. Uşağın kitabla ilk "münasibətinin" necə formalaşmasından çox şey asılıdır. Uşaq bağçası məktəbəqədər uşaqları onların yaşına uyğun olan ən yaxşı əsərlərlə tanış edir və bu əsasda mənəvi, əqli, əxlaqi, estetik tərbiyənin bir-biri ilə əlaqəli bir sıra vəzifələrini həll edir. Kitabdan uşaq çoxlu yeni sözlər, obrazlı ifadələr öyrənir, onun nitqi emosional və poetik lüğətlə zənginləşir.
Ədəbiyyatın tərbiyəvi funksiyası yalnız sənətə xas olan xüsusi bir şəkildə - bədii obrazın təsir gücü ilə həyata keçirilir. Söz sənəti reallığı bədii obrazlar vasitəsilə əks etdirir, ən tipik, dərk edən və ümumiləşdirən real həyat faktlarını göstərir. Bu, uşağa həyatı anlamağa kömək edir, ətraf mühitə münasibətini formalaşdırır. Tərbiyəçinin vəzifəsi yazıçının əsərini uşağa çatdırmaqdır. Tərbiyəçinin səsinə, mimikasına, artikulyasiyasına çox diqqət yetirilir. Uşaqların emosiyasını, qəhrəmanlarla rəğbətini, oxumağa reaksiyasını görmək bizim üçün çox vacibdir. Bədii ədəbiyyat oxuyanda uşağın təfəkkürü inkişaf edir, ən əsası şəxsiyyəti formalaşmağa başlayır.
Kiçik uşaqlar üçün kitab dinləmək bir qədər çətindir. Uşağın hərəkətliliyi və diqqətinin asanlıqla yayındırılması dinləməyi çətinləşdirir; uşaqlar kitabın özü, vərəqləri və sayrışan şəkillərilə məşğuldurlar. Kiçik məktəbəqədər uşaq üçün kitabda onlar personajları və hadisələri zehni olaraq yenidən yaratmaq üçün ilkin impuls rolunu oynayır; rəssamın rəsmləri olmasa, uşağın təxəyyülü əsərə cəlb olunmaya və mətn başa düşülməyə bilər. Uşağı oxumağa dinləməyə tədricən öyrətmək lazımdır. Kiçik qrupda, adətən ilin birinci yarısında bütün uşaqlar kiçik bədii hekayə və şeirlərin oxunmasını maraqla dinləməyə öyrəşmiş olurlar. Uşaqlara şifahi sənət əsərini qavramağı və sevməyi öyrətmək müəllimə həm əxlaqi, həm də savadlı inkişaf etmiş bacarıqlı uşaqlar əldə etmək imkanı verəcəkdir.
Uşaqlar ədəbi əsərləri dinləyərkən, ilk növbədə, hadisələrin bir-birini aydın şəkildə izlədiyi və sonrakıların məntiqi olaraq əvvəlkilərdən gəldiyi zaman ən asan şüurlu əlaqələr qurur. Belə bir süjet quruluşu kiçik məktəbəqədər uşaqlara oxunan və danışılan nağılların əksəriyyəti üçün xarakterikdir ("Cırtdan", "Şəngülüm, Şüngülüm və Məngülüm", "Qurd və uşaqlar", "Qoğal", "Göyçək Fatma" və s.). Nağıllar aləminə səyahət uşaqların təxəyyülünü, fantaziyasını inkişaf

etdirir, onları özləri yazmağa həvəsləndirir. Bəşəriyyətin ən gözəl ədəbi nümunələri ilə tərbiyə olunan uşaqlar hekayə və nağıllarında da özlərini ədalətli, incidəni və zəifi qoruyan, pisi cəzalandıran kimi göstərirlər.

Uşaqların bədii əsərlərdən aldıqları ideyalar tədricən, sistemli şəkildə onların həyat təcrübəsinə keçir. Bədii ədəbiyyat məktəbəqədər yaşlı uşaqlarda davranış mədəniyyətinin tərbiyəsində mühüm vasitədir. Bədii əsərlər uşaqlarda mədəni davranışın əxlaqi motivlərinin formalaşmasına kömək edir, sonradan hərəkətlərini istiqamətləndirmək üçün istifadə edəcəklər. Məhz uşaq ədəbiyyatı məktəbəqədər uşaqlara insanlar arasındakı münasibətlərin mürəkkəbliyini, insan xarakterlərinin müxtəlifliyini, müəyyən təcrübələrin xüsusiyyətlərini kəşf etməyə imkan verir və uşaqlarda qəhrəmanların hərəkətlərinə, daha sonra ətrafdakı insanlara və öz hərəkətlərinə emosional münasibətin yaranmasına kömək edir.

Uşaqların qəhrəmanlara emosional münasibəti həmişə parlaq rəngdədir. Uşaq müsbət xarakterin qələbəsi, hadisələrin uğurlu nəticəsi, xeyirin şər üzərində zəfəri ilə hədsiz dərəcədə sevinir. Uşaqlar şeiri dinləməyi sevirlər, onu nəsrdən üstün tuturlar. Buna görə də K.I. Çukovski, S.Y. Marşak, A.L.Barto, A.Səhhət, M.Cəlal, S.S.Axundov, M.Ə.Sabir və bir çox başqa bədii söz ustadları uşaqlar üçün şeir yazmağa üstünlük verirdilər. Eyni zamanda, uşaqları ilk növbədə dinamik ritmlər, şən, rəqs edən melodiyalar cəlb edir. Ona görə də uşaqlar uşaq folklorunu sevirlər. “Xoruz", "Keçi", "Uşaq və dovşan", "Yetim cücə", "Təpəl kəlim", "Dovşan", "Quzu", "Ata və oğul", "Ana və bala", "Ana və uşaq", "İki uşaq", "Məktəb şagirdi", "Tənbəl" əsərlər uşaqları məktəbə, təhsilə, elm və maarifə çağırır.

Folklor isə uşaqda öz xalqına, mədəniyyətinə mənsubluq hissini, doğma dil hissini formalaşdırır. Milli folklorumuzun bəzəyi olan laylaları, uşaq mahnıları ilə başlayıb nağıl və atalar sözləri ilə bitən əsərləri uşaqlara ömürlük həyat dərsləri verir; fiziki və mənəvi sağlamlıq dərsləri ("Cırtdan; "Qurbağa şahzadə", “Tülkü həccə gedir" “Tumurcuq” və s.), zəhmətkeşlik, xeyirxahlıq (“Tənbəl dovşan”, “Təbiət və uşaq”, “Ağca və qaraca” və s.), dostluq, münasibətlərdə hərarət, qarşılıqlı yardım ("Turp", “Gözəl qəlbli çiçək”, “Xeyirxah kirpi” və s.). Bütün laylalar, uşaq mahnıları və nəğmələrr hərarət və sevgi ilə doludur. Eyni zamanda "Kukla", "Cücələrim", "Balaca köməkçi", “Günəş olaram mən də”, “Can nənə”, “Oynaq topum”, “Bənövşə” kimi mahnıların öyrədilməsi hər bir körpə üçün eyni zamanda həm dinləyici, həm tamaşaçı, həm müğənni, həm rəqqasə, həm aktyor, həm də oxucu olan parlaq mini-tamaşadır.

Bədii ədəbiyyatın uşaqların psixoloji inkişafı və tərbiyəsində də rolu çox böyükdür. Bədii ədəbiyyat uşaqların həyat təcrübəsini genişləndirir, duyğularını möhkəmləndirir, təfəkküründü inkişaf etdirir və ümumiyyətlə, ümumiyyətlə, yaradıcılıq qabiliyyətlərini təsirli şəkildə artırır. Bədii ədəbiyyat vasitəsilə uşaqlar dünyanı daha yaxşı başa düşür, özlərini tanıyır və həyatın müxtəlif tərəflərinə qarşı daha geniş təfəkkür qazanırlar.

Bədii ədəbiyyatın uşaqların psixoloji inkişafı və tərbiyəsində rolu:

Duyğusal inkişaf: Bədii ədəbiyyat, uşaqların duyğularını anlamaq və ifadə etmək qabiliyyətlərini artırır. Ədəbiyyatdakı qəhrəmanların duyğuları ilə özlərini əlaqələndirən uşaqlar, öz duyğularını daha yaxşı başa düşür və onları daha təsirli şəkildə ifadə edə bilir.

Geniş imkanlar: Bədii ədəbiyyat, uşaqların təfəkküründü inkişaf etdirir. Ədəbiyyatdakı qəhrəmanların təcrübələri, onların düşüncə tərzini genişləndirir и onları müxtəlif perspectivlərdən düşünməyə təşviq edir.

Xəyal qurmaq qabiliyyətləri: Bədii ədəbiyyat, uşaqların xəyalını artırır. Kitabların fantastik qəhrəmanları, qeyri-adi yerləri və hadisələri, uşaqların yaradıcılıq qabiliyyətlərini təşviq edir.

Dilin inkişafı: Bədii ədəbiyyat, usaqların di bacarıqlarını inkişaf etdirir.

Həyat təcrübəsini genişləndirmək: Bədii ədəbiyyat, uşaqların həyat təcrübəsini genişləndirir. Kitablar vasitəsilə uşaqlar, müxtəlif həyat qatlamlarını başa düşür, müxtəlif mədəniyyətləri tanıyır və dünya ilə daha geniş əlaqələr qurur. Bədii ədəbiyyat, uşaqların psixoloji inkişafında

vacib rol oynayan bir vasitədir. Uşaqlar, ədəbiyyatla əlaqəli təcrübələr vasitəsilə daha hərtərəfli və mütəşəkkil şəxsiyyətə çevrilir.

Nəticə

Beləliklə, uşaqların mütaliə dairəsinə müxtəlif mövzulu və janrlı kitablar daxil edilməlidir. Bu, bir tərəfdən, məktəbəqədər uşaqda oxu maraqlarının genişliyini, digər tərəfdən - seçmə, ədəbi üstünlüklərin fərdiliyini formalaşdırmağa imkan verəcəkdir. Müasir uşaq ədəbiyyatı uşağın müxtəlif maraq və ehtiyaclarını ödəyir: fantastik və qəhrəmanlıq, macəra və romantik, maarifləndirici və yumoristik və s. Bədii ədəbiyyatdan davranış mədəniyyətinin tərbiyəsi vasitəsi kimi istifadə edən müəllim uşaqlarda humanist hisslərin, etik ideyaların formalaşdırılması, bu fikirlərin uşaqların həyatına və fəaliyyətinə köçürülməsi üçün əsərlərin seçilməsinə, bədii ədəbiyyat üzrə mütaliə və söhbətlərin aparılması metodikasına xüsusi diqqət yetirməlidir. Dövlət Təhsil Standartının tətbiqi pedaqoqlara öz işlərində uşaqları bədii ədəbiyyatla tanış etməyin forma və üsullarını zəruri hesab etdikləri şəkildə dəyişdirməyə imkan verir, çünki Dövlət Təhsil Standartının əsas məqsədi: yaş, fərdi psixoloji və fizioloji qabiliyyətlər nəzərə alınmaqla şəxsiyyətin inkişafı təhsilin inteqrasiyasıdır.

Bədii ədəbiyyat vasitəsi ilə kiçik məktəbəqədər uşaqların nitq inkişafı üzrə iş sistemi qurarkən fərdi və sosial şərait nəzərə alınmaqla yaxşı nitq inkişafı mühiti yaradılmalıdır. Bu, mövzu üzrə uzunmüddətli planlaşdırmanın tərtibi və işlənməsi, didaktik və aktiv oyun və məşqlərin, dərs planlarının, əyani və didaktik vəsaitlərin və albomların seçilməsindən ibarətdir. Bədii ədəbiyyat vasitəsi ilə nitqin inkişafı məsələsinin həllində mühüm şərt valideynlərin də bu işə cəlb edilməsidir, onlar bu məsələnin əhəmiyyətini və ciddiliyini dərk etməlidirlər.

Bununla da müxtəlif növ sənət əsərlərinin nitqin inkişafı vasitəsi kimi sistemli və məqsədyönlü istifadəsi, eləcə də düzgün təşkil edilmiş iş məktəbəqədər uşaqların nitqinin təsirli və məhsuldar inkişafı imkanlarını müəyyənləşdirir, lüğətin zənginləşdirilməsinə, məktəbəqədər uşağın kommunikativ mədəniyyətinin formalaşmasına kömək edir, uşağın nitqini daha ifadəli, parlaq və emosional edir. Uşaqlar müxtəlif bədii fəaliyyət növlərində özlərini fəal şəkildə ifadə edirlər və yaradıcı fəaldırlar, özünüdərk inkişaf etdirdilər, yumoru başa düşməyi və qəbul etməyi bacarırlar və müasir cəmiyyətdə olduqca vacib olan daha mehriban olurlar.

İstifadə Olunmuş Ədəbiyyat

1. Azərbaycan uşaq ədəbiyyatı antologiyası: III cild: Bakı: Öndər nəşriyyat, 2005, 240 s.
2. Əlizadə Ə.Ə. Pedaqoji psixologiya. I kitab.- B.: ADPU, 2010. 319,
3. Əlizadə Ə. Ə. Pedaqoji psixologiya. II kitab.- B.: ADPU, 2010.- 288 s.
4. Müasir təhsilin aktual sosial-psixoloji problemləri. /ARTN, ARTPİ; Bakı: Mütərcim, 2014, 255s.
5. Namazov Q.M. (2007). Azərbaycan uşaq ədəbiyyatı. Bakı, "BDU" nəşriyyatı. 444 s
6. Vəliyeva Z.İ. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi. Bakı: ADPU nəşriyyatı,2012,136 s.
7. Ниталимова Л.В., Семенова С.Н. Развитие читательского интереса младших школьников. – М.: Ментор. – 2007. 302 с.
8. *Ушакова О.С. Знакомим дошкольников с литературой*. М: Сфера, 2005. 224 с
9. Книга для чтения в детском саду и дома. Хрестоматия. 4-5 лет/ Сост. В.В. Гербова, Н.П. Ильчук и др. – М., 2005; 288 с.

THE IDEOLOGY OF AZERBAIJANISM IN THE WORK OF BAKHTIYAR VAHABZADEH

BƏXTİYAR VAHABZADƏNİN YARADICILIĞINDA AZƏRBAYCANÇILIQ MƏFKURƏSİ

Vəsilə Razimi Novruz qızı
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialının Kitabxana və elektron resurslar şöbəsinin müdiri, Dil, ədəbiyyat və onların tədrisi texnologiyası kafedrasının müəllimi
ORCİD kod 0000-0002-2613-1071

Xülasə
Müasir Azərbaycan ədəbiyyatının ən parlaq simalarından biri də Bəxtiyar Vahabzadə olmuşdur. Şair öz yaradıcılığı ilə bədii fikrimizin zənginləşməsində mühüm rol oynamışdır. Böyük söz ustası xalqımızın yüz illər boyu təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərinin qorunması, adət-ənənələrimizin yaşadılması naminə altmış ildən artıq bir müddət ərzində yorulmadan yazıb, yaratmışdır. O azərbaycançılıq məfkurəsinə dərindən bağlı olan və özünüdərkə çağıran çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına töhfələr verib. Azərbaycan xalqının tarixinin qədim dövrlərdən bəri müxtəlif mərhələlərində baş vermiş taleyüklü hadisələr, böyük şəxsiyyətlərin parlaq simaları ustad sənətkarın diqqət mərkəzində olub.
Şairin Vətən, məktəb, tərbiyə mövzusunda əsərləri müasir uşaqların mütaliəsində mühüm yer tutur. "İlk cığı", "Kitab","Bu dil", "Çanta", "Məktəb yolları", "Məktəbli qız", "Müəllim", şeirlərində məktəbə, müəllimə məhəbbət, elmə, biliyə çağırış motivləri bədii əksini tapmışdır. "İlk cığır" şeirində səhər- səhər məktəbə gedən uşaqların qarın üstündə açdığı ilk cığır insanın gələcək həyat yollarında qazanacağı böyük uğurların təməli kimi mənalandırılır:

Get, ay balam, qəlbini gələcəyə bağla sən,
Uşaqlıq həyatının ən qayğısız çağıdır.
Açılmış cığırlarla bu gün dərsə gedirsən,
Sabah sən açacaqsan bu yollarda ilk cığır.

Ana dilinin təəssübkeşi, doğma dilini böyük məhəbbətlə sevən B.Vahabzadə öz yaradıcılığında bu mövzuya dönə-dönə müraciət etmiş, dilimizin müqəddəsliyini, əvəzedilməzliyini yüksək sənətkarlıqla vəsf etmişdir. Şair ana dilinə biganə yanaşan, bu dildə danışmağı özünə ar bilən ədabazları nankor adlandırır, doğma dilini qoruyub saxlamağın hər bir insan üçün vətəndaşlıq borcu olduğunu bir daha xatırladır. Şairin fikrincə, ana dili əslində milli düşüncə, milli mənəviyyat, əqidə məsələsidir. Ana dili ağsaqqal babaların, ağbirçək nənələrin bizə miras qoyduğu misilsiz xəzinədir. Milli dili bilməyən insan milli ruhdan, milli mənafe duyğusundan da məhrumdur:

Dil açanda ilk dəfə "ana»"söyləyirik biz
"Ana dili" adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə.

Açar sözlər: Ana dili, tərbiyə, azərbaycançılıq məfkurəsi, milli mənəviyyat, , dəyər

Abstract
Bakhtiyar Vahabzade was one of the brightest figures of modern Azerbaijani literature. The poet played an important role in the enrichment of our artistic thought with his creativity. The great master of words wrote and created tirelessly for more than sixty years for the sake of protecting the high national and moral values of our people, which have been formed for hundreds of years, and keeping our traditions alive. He contributed to the development of our literature with numerous works that are deeply connected to the ideology of Azerbaijaniism and call for self-awareness. The fateful events that happened at various stages of the history of the Azerbaijani people since ancient times, the bright faces of great personalities were the focus of the master artist.
The poet's works on the theme of homeland, school, and upbringing occupy an important place in the reading of modern children. In his poems "The First Path", "The Book", "This Language", "The Bag", "The Roads to School", "The Girl with School", "The Teacher", the motifs of love for school and teachers, and the call for science and knowledge have found artistic reflection. In the poem "The First Path", the first path made on the snow by children going to school in the morning is interpreted as the foundation for the great successes that a person will achieve in his future life:

Go, baby, close your heart to the future,
Childhood is the most carefree age of life.
You go to class today with open trails,
Tomorrow you will open the first trail on these roads.

B.Vahabzadeh, a fanatic of his mother tongue, who loves his native language with great love, repeatedly addressed this topic in his works, and described the sanctity and irreplaceability of our language with great artistry. The poet calls ungrateful people who are indifferent to their mother tongue and dare to speak it, and reminds once again that preserving the native language is a civic duty for every person. According to the poet, the mother tongue is actually a matter of national thought, national spirituality, and beliefs. Mother tongue is an incomparable treasure left to us by our elderly grandfathers and grandmothers. A person who does not know the national language is deprived of the national spirit and feeling for the national interests:

When we open our tongue, we say "mother" for the first time
Our first textbook is called "Mother language".
Our first song is our mother's lullaby with her own milk
We drink to our soul in this language.

Key words: Mother tongue, education, azerbaijani ideologi, national spirituality, worth

Müasir Azərbaycan ədəbiyyatının ən parlaq simalarından biri də Bəxtiyar Vahabzadə olmuşdur. Şair öz yaradıcılığı ilə bədii fikrin zənginləşməsində mühüm rol oynamışdır. Böyük söz ustası xalqımızın yüz illər boyu təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərinin qorunması, adət-ənənələrimizin yaşadılması naminə altmış ildən artıq bir müddət ərzində yorulmadan yazıb, yaratmışdır. O azərbaycançılıq məfkurəsinə dərindən bağlı olan və özünüdərkə çağıran çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına töhfələr vermişdir. Azərbaycan xalqının tarixinin qədim dövrlərdən bəri müxtəlif mərhələlərində baş vermiş taleyüklü hadisələr, böyük şəxsiyyətlərin parlaq simaları ustad sənətkarın diqqət mərkəzində

olmuşdur. Dünya şöhrətli yazarlar da Bəxtiyar Vahabzadənin yaradıcılığını yüksək qiymətləndirmişdir. Türk dünyasının görkəmli sənətkarı Çingiz Aytmatov yazır: "Bizi əhatə edən aləmdə nə varsa, Bəxtiyar Vahabzadəni dərindən düşündürür: xeyir və şəri, gözəlliklə eybəcərliyi. Böyüklüklə kiçikliyi, bir sözlə, insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq onun fitrətindədir. Mütəfəkkir sənətkarın, ustad şairin başlıca qayəsi, uğuru da bundadır." (Həsənli B, 2018, s. 392)

Qazax xalqının tanınmış şairi Oljas Süleymenov isə bu böyük sənətkarı qiymətləndirərək demişdir: «Bəxtiyar Vahabzadə kimi şairi, ziyalısı, müəllimi, nəhayət, şəxsiyyəti olan millət xoşbəxtdir.»

Bəxtiyar Vahabzadənin yaradıcılığında azərbaycançılıq, ana vətənə sonsuz sevgi, cəsarətlilik, milli-birlik, şimal-cənub ideyaları, Azərbaycan dilinin qorunması, onun keşiyində duran, onu yorulmadan təbliğ edən və böyük bir ədəbi irs yaradaraq bizə yadigar qoyub getmiş, ədəbiyyatımızda böyük bir zirvəni fəth etmişdir.

B.Vahabzadənin yaradıcılığında Cənub mövzusu xüsusi yer tutur. Şair "Cənublu bacıma", "Nə ondansan, nə bundan", "Yasəmən üçün", "Mərziyyə" əsərlərində oxucunu bütöv Vətən idealı ilə bağlı düşüncələri ilə tanış edir, onu bu problemlə bağlı fəal mövqe tutmağa, tarixi ədalətsizliklə barışmamağa səsləyir.

Şairin Cənub mövzusunda yazdığı silsilə əsərlər Vətənin ayrılıq dərdini ürəyində gəzdirən xalqımızın nisgilli hislərini, duyğularını əks etdirir. Həmin əsərlərdə ikiyə bölünmək faciəsini yaşayan xalqın hər bir övladının qəlbində qövr eləyən dərdlər dil açıb danışır, bu ədalətsizliyə etirazını bildirir:

Yarım bu tayda qaldı,
Yarım o tayda qaldı.
Toyum burda çalındı,
Yarım o tayda qaldı.

B.Vahabzadə istiqlal şairi, insanın, xalqın azadlığı ideyasının ən böyük tərənnümçülərindəndir. 1966-cı ildə yazdığı "Təzadlar" poemasında şair xalqımızın azadlığını qəsb etmiş imperiyaya-sovet rejiminə etirazının bildirərək yazırdı:

Azadlıq - səhər.
Bu səhər arzusu ölə bilərmi?
Məhkum xalqlar üçün azadlıq qədər
Böyük bir səadət ola bilərmi?
İdrak da boğulur, söz də, sənət də,
Ağıl kilidlənir dildə, dodaqda.
Azadlıq olmayan bir məmləkətdə
Nadan başda gəzir, aqil ayaqda…(Vahabzadə B, 2004, s. 132)

B.Vahabzadə 60-cı illərinin əvvəllərində qələmə aldığı "Gülüstan" poemasının həyat və fəaliyyətinə çox böyük maneələr yaradacağını bildiyi halda, bu əsəri qələmə almışdır. Cənub dərdi bir çox şairlərimizin yaradıcılığında nisgilli bir mövzu kimi ara-sıra anılsa da, məhz B.Vahabzadə bu mövzunu "Gülüstan" poemasında iki imperiyaya qarşı ittiham hökmünə çevirərək, xalqımızın ən böyük dərdini ortaya qoymuşdur. Əsərdə Azərbaycanı ikiyə bölünmüş ədalətsiz tarixi hadisənin şairdə doğurduğu qəzəb və nifrət ifadə olunmuşdur. Azərbaycanın birliyi və istiqlaliyyəti uğrunda çarpışan Səttar xan, Şeyx Məhəmməd Xiyabani və Pişəvərinin əziz xatirəsinə həsr olunmuş poemada şair "Azərbaycanın Rusiyaya birləşdirilməsinin" bayram edildiyi bir mühitdə iki od arasında qalıb parçalanmış Vətənin acı taleyindən ürək ağrısı ilə söz açmışdır. Əsərdə bir anın içində yurdumuzun iki pay kimi bölüşdürülməsi hökmünə çevrilən

müqaviləyə müraciətlə sənətkarın dediyi sözlərdə xalqın kədəri, millətimizin qan düşmənlərinə nifrəti öz bədii əksini tapmışdır:

Ey kağız parçası əvvəl heç ikən
Yazılıb qollanıb yoxdan var oldun.
Böyük bir millətin başını kəsən
Qolunu bağlayan hökmdar oldun.

Vətənimizin düşmənlər tərəfindən parçalanması, xalqımızın öz azadlığını itirməsi barədə tarixi həqiqətlərdən bəhs edən bu poemaya görə şair təqiblərə məruz qalmışdır. Poemanın mərkəzi mətbuatda işıq üzü görməsinə nail ola bilməyən şair onu "Nuxa fəhləsi" adlı rayon qəzetində çap etdirmişdir.

Azərbaycan dövlətçiliyinə, müstəqilliyinə daim can atan, ömrü boyu müstəmləkə əleyhinə çıxış edən şair tarixi materiallara söykənib milli qəhrəmanlıq ənənələrini yaşadan əsərlərlə mütəmadi çıxış etmişdir.

Şairin istiqlal şeirləri içərisində türk xalqlarının taleyi, türk dünyasının birliyi ilə bağlı əsərləri də mühüm yer tutur. Qardaş Türkiyədə çox sevilən şair 1994-cü ildə "Türk dünyası ədəbiyyatına xidmət" mükafatına layiq görülmüşdür. Şairin böyük sənətkarlıqla yazdığı "Azərbaycan-Türkiyə" şeirində bir millət iki dövlətin tarixi köklərindən, xalqlarımızın bir-birinə bəslədiyi məhəbbət duyğularından, tarixin sınaqlarından çıxmış birliyindən iftixarla söz açılır:

Bir ananın iki oğlu,
Bir ağacın iki qolu.
O da ulu, bu da ulu,
Azərbaycan – Türkiyə!(Vahabzadə B, 2004, s. 319)

Azərbaycan xalqının müstəqilik ideyalarının ilk carçılarından biri Bəxtiyar Vahabzadə idi. Bu azadlığın çətin və şərəfli iş olduğunu duyaraq bir an belə seçdiyi yoldan nəinki dönmədi, əksinə daim mübarizənin ön cərgəsində oldu. Bəlkə də bu səbəbdəndir ki, 20 Yanvar faciəsi ilə bağlı qələmə aldığı "Şəhidlər" poeması ilə yeni bir tarix yazdı.

Onun bu mövzuya həsr etdiyi əsərlərdə ölümdən qorxmayan, qolundakı mütilik buxovlarını qırıb ataraq son və qəti mübarizəyə başlayan vətənpərvər insanların parlaq obrazları yaradılmışdır. Həyat öz millətinin qəhrəmanlıq tarixini söz sənətində əks etdirən şairin belə bir inamını bir daha təsdiq etdi ki, ölümdən qorxmayan insanların azadıq eşqini heç kəs boğa bilməz. Haqq səsini top-tüfənglə, ən güclü ordu ilə belə susdurmaq omaz.

O şənbə gecəsi, o qətl günü
Mümkünə döndərdik çox namümkünü.
Xalqın qəlbindəki qorxu mülkünü
O gecə dağıdıb sökdü şəhidlər…(Vahabzadə B, 2004, s. 315)

Şair qara yanvar günlərində inanırdı ki, azadlıq uğrunda canını qurban verən şəhidlərin qanı yerdə qalmayacaq, əsrlər boyu arzuladığı azadlığa qovuşan xalqımız şəhidlərin xatirəsini əbədi yaşadacaqdır:

Onlar sübut etdi: hər qara zülmün
Əli uzansa da, ömrü gödəkdir.
Xalqın azadlığı sabah, biri gün
Şəhid yarasından göyərəcəkdir!

Şairin "Vətənin keşiyində", "Durnalar","Azərbaycan əsgəri", "Azərbaycan", "Hələ günahkarıq", "Şəhid anası", "Vətən", "Gülüstan", "Şəhidlər", "İstiqlal" və adını çəkmədiyimiz

onlarla başqa şeir və poemaları vətənpərvərlik mövzusunda yazılmışdır. Bəxtiyar Vahabzadə yaradıcılığında əsas mövzulardan biri də ana dilidir. Ana dilinin təəssübkeşi, doğma dilini böyük məhəbbətlə sevən B.Vahabzadə öz yaradıcılığında bu mövzuya dönə-dönə müraciət etmiş,dilimizin müqəddəsliyini, əvəzedilməzliyini yüksək sənət-karlıqla vəsf etmişdir.Onun qənaətinə görə, dil xalqın varlığının nişanələrindən biri olub, onun ən qiymətli sərvətidir, üstəlik nəsillər silsiləsini birləşdirən, babaların vəsiyyətini nəvələrə çatdıran qüdrətli tərbiyə vasitəsidir. Görkəmli şərqşünas alim Əhməd Şmide yaradıcılığını dərindən öyrəndiyi, əsərlərini alman dilinə tərcümə etdiyi Bəxtiyar Vahabzadə barədə belə deyib: "Bir insanın öz xalqını və öz doğma dilini dəlicəsinə sevə bilmək qabiliyyətini mən Bəxtiyar Vahabzadədən öyrəndim. Bəxtiyar Vahabzadə realist şairdir. Dolaşıq və müəmmalı ifadələr, aydın olmayan tərkiblər və əllamələk onun sənətinə yaddır".
Şair ana dilinə biganə yanaşan, bu dildə danışmağı özünə ar bilən ədabazları nankor adlandırır, doğma dilini qoruyub saxlamağın hər bir insan üçün vətəndaşlıq borcu olduğunu bir daha xatırladır. Şairin fikrincə, ana dili əslində milli düşüncə, milli mənəviyyat, əqidə məsələsidir. Ana dili ağsaqqal babaların, ağbirçək nənələrin bizə miras qoyduğu misilsiz xəzinədir. Milli dili bilməyən insan milli ruhdan, milli mənafe duyğusundan da məhrumdur:

Dil açanda ilk dəfə "ana»"söyləyirik biz
"Ana dili" adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə.(Vahabzadə B, 2004, s.8)

Şair doğma dilinə xor baxan, əcnəbi dillərdə danışmağı müasirlik, mədəniyyət hesab edib, öz dilində danışmağı bacarmayanları nifrətlə damğalayır:

Ey öz doğma dilində danışmağı ar bilən
Bunu iftixar bilən fasonlu ədabazlar,
Ruhunuzu oxşamaz qoşmalar, telli sazlar.
Bunlar qoy mənim olsun
Ancaq vətən çörəyi,
Bir də ana ürəyi
Sizlərə qənim olsun.(Vahabzadə B, 2004, s.8)

Haqqında söz açdığımız əsərlər gənclərin, məktəblilərin dünyagörüşlərinin formalaşmasında mühüm rolu olmuşdur. Şairin Vətən, məktəb, tərbiyə mövzusunda əsərləri müasir uşaqların mütaliəsində də mühüm yer tutur. "İlk cığır", "Kitab","Bu dil", "Çanta", "Məktəb yolları", "Məktəbli qız", "Müəllim", şeirlərində məktəbə, müəllimə məhəbbət, elmə, biliyə çağırış motivləri bədii əksini tapmışdır. "İlk cığır" şeirində səhər- səhər məktəbə gedən uşaqların qarın üstündə açdığı ilk cığır insanın gələcək həyat yollarında qazanacağı böyük uğurların təməli kimi mənalandırılır:

Get, ay balam, qəlbini gələcəyə bağla sən,
Uşaqlıq həyatının ən qayğısız çağıdır.
Açılmış cığırlarla bu gün dərsə gedirsən,
Sabah sən açacaqsan bu yollarda ilk cığır.

"Məktəbli qız" şeirində məktəbli geyimində dərsə yollanan uşaqlar əsərdə səf düzülüb göydə uçan durna qatarına bənzədilir. Əsərin qəhrəmanı H.Cavidin "Qız məktəbində" şeirindəki saf mənəviyyatlı məktəbli qızı xatırladır. Şair oxucunu təvazökarlığa, geyimdə, davranışda sadəliyə, zahiri bər-bəzəyə uymamağa, mənalı həyata səsləyir:

Məktəbli qız, əynindəki
Nə şifondur, nə gülməxmər.
Lakin gözəl görünürsən
Bu paltarda sən nə qədər!

"Müəllim" şeirində ömrünü gənc nəslin təlim-tərbiyəsi yolunda fəda edən müəllimin işıqlı obrazı yaradılmışdır. Şair müəllim əməyinin şərəfindən, bu adı daşıyan insanın nurlu simasından, uca şəxsiyyətindən, ləyaqətindən məhəbbətlə söz açır:

Müəllim! Düşüncə güllərimizi
Əqlilə suvaran bir bağban oldu..
Endirdi yerlərə atamız bizi,
Müəllim–göylərə qaldıran oldu.

B.Vahabzadə Vətənin müqəddəratı, istiqlal mübarizəsi kimi taleyüklü məsələlərə dram əsərlərində də dönə-dönə toxunmuşdur. Görkəmli dramaturqun "Dar ağacı", "Fəryad" "Özümüzü kəsən qılınc" tarixi dramlarında sənətkar tarixi keçmişə müraciət etməklə, xalqımızın taleyində böyük rol oynamış şəxsiyyətlərin obrazlarını yaratmaqla oxucunu öz keçmişinə yeni nəzərlərlə baxmağa, ibrət dərsi almağa səsləmişdir. Müasir həyatdakı ziddiyyətlərin, qarşıdurmaların və mənəvi sarsıntıların təsviri ilə yanaşı, yüksək, pak və ülvi hisslərin tərənnümü ədibin dramaturgiyasında təcəssümünü tapmışdır.
Onun pyesləri Azərbaycan, eləcə də xarici ölkə teatrlarının səhnələrində uğurla tamaşaya qoyulub, müəllifinə böyük şöhrət gətirib. Onun müasir mövzularda qələmə aldığı "İkinci səs", "Vicdan", "Yağışdan sonra", "Yollara iz düşür", "Hara gedir bu dünya?", "Fəryad", "Cəzasız günah", "Dar ağacı", "Rəqabət" və "Özümüzü kəsən qılınc" kimi lirik-psixoloji pyesləri günün aktual problemlərindən, müasirlərimizin daxili dünyasından, daim təzələnən həyat və insan münasibətlərindən söz açmaqla gerçəkliyin ən müxtəlif tərəflərinə diqqət cəlb edib, layiqli səhnə təcəssümü taparaq, yarım əsrədək bir müddətdə Azərbaycan səhnəsindən düşməyib. O, tarixi və müasir mövzuda 20-dən artıq irihəcmli poemanın müəllifidir.

Nəticə

B.Vahabzadə yaradıcılığında azərbaycançılıq və bütöv Azərbaycan mövzusu daima öz aktuallığını qorumuş və oxucuların diqqətini özünə cəlb etmişdir. Həm şair, həm alim, həm də ictimai xadim kimi Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin inkişafına bənzərsiz töhfələr vermiş şair özündən sonra böyük ədəbi irs qoyub getmişdir.
Şairin insanı daim mənəvi ucalığa səsləyən poetik-fəlsəfi məzmunlu yaradıcılığı milli poeziyada vətəndaşlıq ruhunun qüvvətlənməsində və ədəbi-ictimai fikrin istiqlal ideyaları ilə zənginləşməsində böyük rol oynamışdır.

İstifadə olunan ədəbiyyat

1. Həsənli B., Azərbaycan uşaq ədəbiyyatı. Bakı: 2004
2. Xəlil Z., Əsgərli F. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: ADPU, 2004.
3. Vahabzadə B. Seçilmiş əsərləri 2 cilddə. I cild. Bakı: 2004
4. Vahabzadə B. Seçilmiş əsərləri 2 cilddə. II cild. Bakı: 2004

PROBLEMS OF EQUİVALENCE OF TERMS İN TRANSLATİON

ПРОБЛЕМЫ ЭКВИВАЛЕНТНОСТИ ТЕРМИНОВ ПРИ ПЕРЕВОДЕ

TƏRCÜMƏDƏ TERMİNLƏRİN EKVİVALENTLİYİ PROBLEMLƏRİ

f.e.d., dos. Rəna Hüseynova
Azərbaycan Tibb Universiteti

Abstract
The paper is devoted to the problem of equivalence of terms in translation, which is especially relevant in the context of the rapid development of science and technology and the growing need for interlingual communication. The novelty of the study lies in the comprehensive consideration of linguistic and contextual factors affecting the accuracy of terminology, as well as in the analysis of modern strategies for overcoming terminological inconsistencies. The aim of the work is to determine effective ways to ensure equivalence in the translation of specialized texts and emphasize the importance of a professional approach to terminological translation.
Key words: translation, equivalent, problem, linguistics, term

Аннотация
Тезис посвящен проблеме эквивалентности терминов в переводе, что особенно актуально в условиях стремительного развития науки и технологий и растущей потребности в межъязыковой коммуникации. Новизна исследования заключается в комплексном рассмотрении лингвистических и контекстуальных факторов, влияющих на точность передачи терминов, а также в анализе современных стратегий преодоления терминологических несоответствий. Цель работы — определить эффективные способы обеспечения эквивалентности при переводе специализированных текстов и подчеркнуть значимость профессионального подхода к терминологическому переводу.
Ключевые слова: перевод, эквивалент, проблема, лингвистика, термин

Xülasə
Tezis elm və texnikanın sürətli inkişafı və dillərarası ünsiyyətə artan tələbat şəraitində xüsusilə aktual olan tərcümədə terminlərin ekvivalentliyi probleminə həsr edilmişdir. Tədqiqatın yeniliyi terminologiyanın düzgünlüyünə təsir edən linqvistik və kontekstual amillərin hərtərəfli nəzərə alınmasında, həmçinin terminoloji uyğunsuzluqların aradan qaldırılması üçün müasir strategiyaların təhlilindədir. İşin məqsədi ixtisaslaşdırılmış mətnlərin tərcüməsində ekvivalentliyin təmin edilməsinin effektiv yollarını müəyyən etmək və terminoloji tərcüməyə peşəkar yanaşmanın vacibliyini vurğulamaqdır.
Açar sözlər: tərcümə, ekvivalent, problem, dilçilik, termin

Giriş

Tərcümədə ekvivalentlik ilkin mətnlə onun tərcüməsi arasında uyğunluq dərəcəsidir, burada təkcə leksik mənalar deyil, həm də mətnin üslubi, praqmatik və funksional xüsusiyyətləri verilir. Tərcümədə ekvivalentlik anlayışı əsasdır, lakin bu, eyni zamanda "orijinal və tərcümə olunmuş mətnlərin ekvivalentliyi", "tərcümənin əsas vəzifəsi" kimi şərh olunur, ekvivalentlik, adekvatlıq, eynilik anlayışları sinonim kimi verilir [5, 220-221]. Terminoloji tərcümə kontekstində ekvivalentlik xüsusi əhəmiyyət kəsb edir, çünki söhbət konkret elmi və ya peşəkar sahədə təsbit olunmuş ixtisaslaşdırılmış anlayışların dəqiq ötürülməsindən gedir. A.D.Şvaytser

hesab edir ki, tərcüməçinin əsas vəzifəsi kommunikativ ekvivalentliyə nail olmaqdır [6]. V.N. Komissarov, A.D.Şvaytser və A.Parşin adekvat tərcümənin müəyyən ekvivalentlik səviyyəsini nəzərdə tutduğuna inanaraq, ekvivalentliyin müxtəlif səviyyələrini fərqləndirirlər [1].

Ekvivalentlik müxtəlif səviyyələrdə ola bilər: tam, qismən və sıfır. Tam ekvivalentlik o deməkdir ki, tərcümə dilində ilkin terminin mənasına və istifadəsinə tam uyğun gələn termin var. Məsələn, ingilis dilində *photosynthesis* sözü və Azərbaycan dilində *fotosintez* sözü tam ekvivalentdir. Qismən ekvivalentlik mənanın yalnız bir hissəsi üst-üstə düşdükdə və ya bir termin daha dar və ya daha geniş anlayışı əhatə etdikdə baş verir. Belə hallarda tərcümə izah və ya dəqiqləşdirmə tələb edə bilər. Sıfır ekvivalentlik hədəf dildə müvafiq terminin olmaması deməkdir

Anlamaq lazımdır ki, ekvivalentlik həmişə sözlərin hərfi təsadüfliyi deyil, ilk növbədə, kontekstdə funksiya və məna uyğunluğudur. Məsələn, hüquq sistemlərindəki fərqlərə görə hüquqi terminləri hərfi tərcümə etmək çox vaxt çətin olur və tərcüməçi funksional analoqlar axtarmalı olur. Terminoloji tərcümədə ekvivalentlik təkcə dilləri bilməyi deyil, həm də mövzu sahəsini, terminlərin istifadə kontekstini və dillər arasında mədəni fərqləri dərindən dərk etməyi tələb edir. Orijinala yaxın tərcümə bir çox amillərdən asılıdır: tərcüməçinin bacarığı, dillərin və mədəniyyətlərin müqayisəsinin xüsusiyyətləri, tərcümə olunan mətnlərin xarakteri və s. [2, 18].

Tərcümədə terminlərin ekvivalentliyi mətnin növündən asılı olaraq dəyişir, çünki müxtəlif bilik sahələrində lüğətin düzgünlüyünə, üslubuna və funksional yükünə müxtəlif tələblər qoyulur. Bu, xüsusilə elmi, texniki, hüquqi və tibbi mətnlərdə özünü büruzə verir, burada terminlər peşəkar məlumatların çatdırılmasında əsas rol oynayır. Elmi mətnlərdə əsas tələb birmənalılıq və dəqiqlikdir. Burada məna təhrifinin qarşısını almaq üçün termini qəbul edilmiş beynəlxalq və ya milli təsnifatdakı kimi çatdırmaq vacibdir. Tez-tez latın və ya yunan köklərindən istifadə olunur, bu da dillər arasında ekvivalentləri tapmağı asanlaşdırır, lakin yeni və ya yüksək ixtisaslaşdırılmış terminlərin tərcüməsində çətinlikləri aradan qaldırmır. Texniki mətnlərdə terminologiya konkret obyektlər, qurğular və ya proseslərlə sıx bağlıdır. Burada, xüsusən beynəlxalq məhsullara və ya standartlara (məsələn, *scanner*, *router*) istinad edildikdə, alınma terminlərin istifadəsinə icazə verilir. Bununla belə, hədəf dil aydınlaşdırma və ya uyğunlaşma tələb edən fərqli texniki həll və ya addan istifadə etdikdə qismən ekvivalentlik halları ola bilər. Hüquqi mətnlərdə terminoloji tərcümə xüsusilə çətindir, çünki müxtəlif ölkələrin hüquq sistemləri əhəmiyyətli dərəcədə fərqlənə bilər. Hüquqi terminin xüsusiyyətlərini nəzərə alaraq, A.S. Piqolkin sözün və ya ifadənin semantikasının dəqiq və aydın formada ifadə olunmuş, birmənalı məzmunu və praktiki funksionallığı ilə səciyyələnən konkret hüquqi anlayışla əlaqəyə malik olması zərurətinə diqqət çəkir [4, 65]. S.V. Grinev "Terminologiyaya giriş" əsərində hüquq terminologiyanın tərcüməsinin dəyişkənliyini hər bir dövlətin inkişafının sosial-mədəni və tarixi xüsusiyyətləri ilə əlaqələndirir, bu da istər-istəməz terminologiyanın tam ekvivalentliyinin olmamasına gətirib çıxarır [3]. Eyni terminin müxtəlif hüquqi mənaları ola bilər, bəzi anlayışların isə ümumiyyətlə birbaşa analoqu olmaya bilər. Belə hallarda tərcüməçi funksional ekvivalent axtarmalı və ya izahlı təsviri tərcümədən istifadə etməlidir.

Beləliklə, terminlərin ekvivalentliyinin xüsusiyyətləri mövzu sahəsinin xüsusiyyətləri, tərcümə ənənələri və mədəni fərqlər ilə müəyyən edilir, bu da tərcüməçidən təkcə linqvistik deyil, həm də mövzu səriştəsi tələb edir. Terminlərin tərcüməsi zamanı ən çox rast gəlinən problemlərdən biri hədəf dildə birbaşa ekvivalentinin olmamasıdır. Bu elmi, mədəni, hüquqi və ya texnoloji sistemlərdəki fərqlərlə, həmçinin müəyyən bilik sahəsinin inkişaf səviyyələrindəki fərqlərlə bağlı ola bilər. Məsələn, informasiya texnologiyaları və ya hüquq sahələrində bir çox terminlər ilk dəfə ingilisdilli kontekstdə işlənib hazırlanmışdır və onların tətbiqi zamanı digər dillərdə birbaşa ekvivalentləri yox idi. Belə hallarda tərcüməçi alternativ həll yolları axtarmaq zərurəti

ilə üzləşir: alınma, kalka, təsviri tərcümə və ya neologizmin yaradılması. Məsələn, ingilis dilində *outsourcing* sözü tez-tez autsorsinq kimi götürülür, çünki rus dilində eyni mənalı dəqiq termin yoxdur.

Başqa bir yanaşma təsviri tərcümədir, burada termin onun mənasının izahı ilə çatdırılır. Bu, unikal mədəni və ya hüquqi reallıqları ifadə edən terminlər üçün xüsusilə faydalıdır, məsələn, *impeachment* qanunu pozmaqda ittiham etməklə kiminsə vəzifədən kənarlaşdırılması prosesidir.

Bununla belə, bu cür qərarlar ehtiyatlı olmağı tələb edir: alınmalar qavrayışda çətinliklərə səbəb ola bilər, təsvirlər isə terminoloji dəqiqliyin itirilməsinə səbəb ola bilər. Buna görə də tərcüməçi konteksti, hədəf auditoriyanı və tətbiq dairəsini nəzərə almalıdır. Beləliklə, birbaşa ekvivalentin olmaması sadəcə leksik problem deyil, həm linqvistik, həm də mövzu səriştəsini özündə birləşdirən yaradıcı və peşəkar yanaşma tələb edən bir vəzifədir.

Terminlərin tərcüməsində əsas çətinliklərdən biri müxtəlif dillərdə və mədəniyyətlərdə terminoloji sistemlər və konseptual strukturlar arasında uyğunsuzluqdur. Terminoloji sistem müəyyən elmi və ya peşə sahəsinə aid anlayışları əks etdirən terminlər toplusudur. Müxtəlif dillərdə bu sistemlər fərqli şəkildə təşkil oluna bilər, bu da tərcümə seçiminə təsir göstərir. Məsələn, tibbdə və ya hüquqda eyni reallıq milli məktəb və ya ənənədən asılı olaraq müxtəlif kateqoriyalarla təsvir edilə bilər.

Mədəni reallıqlara, hüquq normalarına və ya fəlsəfi anlayışlara aid terminlərin tərcüməsi zamanı konseptual fərqlər xüsusilə nəzərə çarpır. Məsələn, ingilis dilində *privacy* termini mühüm hüquqi məna daşıyır, lakin Azərbaycan dilində bu anlayışın bütün hüquqi və sosial-mədəni aspektlərini əks etdirən tam ekvivalenti yoxdur. Belə hallarda tərcüməçi ya təsvirlə mənanı aydınlaşdırmalı, ya da təxmini termindən istifadə etməlidir, bu da nüansın itməsinə səbəb ola bilər.

Terminləri bir dildən digərinə tərcümə edərkən, xüsusən də termin bir neçə mənaya malikdirsə və ya xarici dildə başqa sözə oxşardırsa, tərcüməçilər çox vaxt ən uyğun variantı seçmək problemi ilə üzləşirlər. Bu hadisələrə polisemiya, omonimiya və yalançı tərcüməçinin dostları və ya yalançı ekvivalentlər daxildir.

Polisemiya bir sözdə bir-biri ilə əlaqəli bir neçə mənanın olmasıdır. Terminoloji praktikada polisemiyaya müxtəlif elmi fənlərdə işlənən terminlərdə rast gəlinir. Məsələn, ingilis sözü *stress* bu mənasını verə bilər: a) gərginlik (mühəndislik sahəsində); b) vurğu (dilçilikdə); c) stressli vəziyyət (psixologiya və tibbdə). Tərcümə seçimi kontekstdən asılıdır və səhv tərcümə mətnin mənasının təhrif olunmasına səbəb ola bilər. Tərcüməçi terminin işlədildiyi vəziyyəti təhlil etməli və onun aid olduğu bilik sahəsini başa düşməlidir.

Terminologiyada omonimiya daha az rast gəlinsə də, xüsusilə maşınla tərcümə edildikdə və ya kontekst olmadıqda çaşqınlıq mənbəyi ola bilər. Omonimlərin aşkarlanması mətnin diqqətlə oxunmasını və cümlənin sintaktik quruluşunun təhlilini tələb edir.

"Tərcüməçinin yalançı dostları" iki dildə yazılışı və ya səsi oxşar olan, lakin mənaca fərqli olan sözlərdir. Onlar terminologiyanı tərcümə etməkdə xüsusilə çətin olurlar, çünki onlar aşkar ekvivalentlər kimi görünə bilər, lakin əslində səhvlərə yol açır. Terminoloji tərcümədə bu cür səhvlər xüsusilə təhlükəlidir, çünki onlar peşəkar mətnin mənasını tamamilə təhrif edə və ya hüquqi və texniki sənədlərdə anlaşılmazlıqlara səbəb ola bilər.

Beləliklə, bir termin üçün tərcümə variantlarının müxtəlifliyi həm dil hadisələri (polisemiya, omonimiya), həm də dillərarası müdaxilə (tərcüməçinin yalançı dostları) ilə əlaqəli ciddi problemdir. Bunun öhdəsindən gəlmək üçün hər iki dilin lüğətini dərindən bilmək, mövzu sahəsini başa düşmək və konteksti düzgün şərh etmək bacarığı lazımdır. Təcrübəli tərcüməçi potensial qeyri-müəyyənliyi olan terminlərə xüsusilə diqqətli olmalı və semantik və terminoloji səhvlərə yol verməmək üçün həmişə mənaları yoxlamalıdır.

Terminlərin tərcüməsində ekvivalentlik problemi xüsusilə elmi-texniki və hüquqi sahədə tərcümə fəaliyyətinin əsas vəzifələrindən biridir. Dillər arasında dəqiq yazışmaların olmaması tərcüməçidən orijinalın mənasını və funksional adekvatlığını qorumağa yönəlmiş müxtəlif strategiya və metodlardan istifadə etməyi tələb edir. Effektiv üsullardan biri mətnin mövzusu, bilik sahəsi və kommunikativ tapşırığı nəzərə alaraq terminin mənasının müəyyən edildiyi kontekstual təhlildir. Bu, termini düzgün şərh etməyə və mümkün variantlar arasından ən yaxşı tərcüməni seçməyə kömək edir. Hədəf dildə dəqiq ekvivalent yoxdursa, təsviri tərcümədən istifadə olunur. Bu zaman termin onun mənasını əks etdirən ifadə və ya izahlı konstruksiyadan istifadə etməklə çatdırılır. Bu yanaşma tez-tez hüquqi və mədəni spesifik anlayışların tərcüməsində istifadə olunur.
Alınmanın başqa bir ümumi üsulu orijinal terminin minimal uyğunlaşma ilə sadəcə hədəf dilinə köçürülməsidir. Bu, beynəlxalq elmi-texniki lüğət üçün xarakterikdir, məsələn: *scaner-skaner, monitor-monitor.* Bəzi hallarda kalka üsulundan istifadə olunur, bu, terminin tərkib hissələrinin hərfi tərcüməsidir. Bu üsul strukturu qoruyub saxlamağa və terminin tanınmasını artırmağa imkan verir. Əlavə olaraq, termin ilk dəfə istifadə edildiksə, mötərizədə izahların əlavə edilməsi ilə aydınlaşdırıcı tərcümə istifadə olunur. Beləliklə, ekvivalentlik məsələlərinin effektiv həlli tərcüməçidən çeviklik, linqvistik intuisiya və mövzu sahəsində peşəkar bilik tələb edir. Bu üsulların məharətlə birləşməsi bizə terminoloji tərcümənin düzgünlüyünü, aydınlığını və adekvatlığını təmin etməyə imkan verir. Terminlərin ekvivalentliyi problemi peşəkar tərcümədə, xüsusən də elmi, texniki, hüquqi və mədəni spesifik sahələrdə ən çətin vəzifələrdən biri olaraq qalır. Terminlər arasında birbaşa uyğunluğun olmaması həm dillər arasındakı struktur fərqləri, həm də konseptual sistemlərdəki uyğunsuzluqlarla izah olunur.

Nəticə

Bu problemin effektiv şəkildə aradan qaldırılması tərcüməçidən təkcə dil biliklərinə malik olmağı deyil, həm də mövzu sahəsini dərindən dərk etməyi tələb edir.
Ən təsirli strategiyalar alınma, kalka, təsviri tərcümə və izahatların istifadəsidir, seçimi kontekst və hədəf auditoriya ilə müəyyən edilir.
Polisemiya, omonimiya və yanlış ekvivalentlərin təhlili terminoloji səhvlərdən qaçmağa və tərcümənin dəqiqliyini artırmağa kömək edir.
Ekvivalentliyin təmin edilməsi sözlərin mexaniki seçimi deyil, linqvistik çeviklik və peşəkar hazırlıq tələb edən yaradıcı və analitik prosesdir.

Ədəbiyyat:

1. Бархударов, Л. С. (2008). *Язык и перевод. Вопросы общей и частной теории перевода*. Москва.
2. Виноградов, В. С. (2001). *Введение в переводоведение (общие и лексические вопросы)*. Москва: Издательство института общего среднего образования РАО.
3. Гринев, С. В. (1993). *Введение в терминоведение*. Москва.
4. Пиголкин, А. С. (1972). *Теоретические проблемы правотворческой деятельности в СССР* (Кандидатская диссертация). Москва.
5. Основные понятия переводоведения: Отечественный опыт. (2010). *Терминологический словарь-справочник* (с. 220–221). Москва: РАНИОН.
6. Швейцер, А. Д. (1988). *Теория перевода: Статус, проблемы, аспекты*. Москва: Наука.

SCİENTİFİC RESEARCH ON THE ALBANİAN PERİOD AROUND GOYAZAN AND CHIRAGGALA

GÖYƏZƏN VƏ ÇIRAQQALA ƏTRAFINDA ALBAN DÖVRÜNƏ AİD ELMİ TƏDQİQATLAR

Zibeydə Şöhrət qızı Hacıyeva
"Avey" Dövlət Tarix-Mədəniyyət qoruğunun Aparıcı elmi işçi Azərbaycan Respublikası, Qazax şəhəri
ORCİD İD: https://orcid.org/ 0009-0006-6580-2102

Günel Firudin qızı Pirquliyeva
"Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət qoruğu, Direktor. Azərbaycan Respublikası, Şabran şəhəri

Xülasə
Albaniya ərazisində inşa olunmuş müdafiə tikililəri və istehkamlar Cənubi Qafqaz və Yaxın Şərq xalqlarının hərbi-siyasi, iqtisadi və ticarət əlaqələrində mühüm rol oynamış, bu baxımdan tarixçilərin, səyyahların və coğrafiyaşünasların daim diqqət mərkəzində olmuşdur. Onlar öz əsərlərində və yol qeydlərində Albaniya istehkamlarından bəhs etmiş, bu tikililəri qismən təsnif edərək, tikilmə məqsədləri və dövrün tələbləri ilə əlaqələndirməyə çalışmışlar.
Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən qərb bölgəsində yerləşən Qazax rayonu ərazisindəki Göyəzən dağının ətrafındakı qala qalıqları ilə şimal-şərqdə Şabran rayonunda yerləşən Çıraqqala abidəsi ilə bir sıra ortaq xüsusiyyətlərə malikdir. Bu tikililər strateji baxımdan əlverişli yüksəkliklərdə yerləşməklə həm hərbi nəzarəti təmin edir, həm də ətraf ərazilərin müdafiəsini asanlaşdırırdı. Tikinti texnikası, istifadə olunan materiallar və quruluş baxımından bu abidələr Albaniya dövrü istehkam memarlığının ümumi xüsusiyyətlərini daşıdığını göstərir.
Eyni zamanda, yalnız yerüstü əlamətlərlə kifayətlənmək bu kompleks sistemlərin tam öyrənilməsi üçün kifayət etmədiyindən, Çıraqqala-Şabran Dövlət Tarix-Mədəniyyət qoruğu ərazisində 2024-cü ildə, "Avey" Dövlət Tarix-Mədəniyyət qoruğunun Göyəzən filialı ərazisində 2021-ci ildə AMEA Arxeologiya və Antropologiya İnstitutunun arxeoloqları tərəfindən bir sıra ərazilərdə arxeoloji qazıntılar aparılmışdır. Göyəzən dağında iki ərazidə tədqiqat aparılmışdır, birinci ərazi Göyəzən dağı üzərində yerləşən qala divarları ətrafı, ikinci ərazi dağın ətəklərində yerləşən qəbiristanlıq hissə. Qəbiristanlıq hissədə aşkar edilmiş qəbirlərdə stratiqrafik baxımdan dəfnlər alban xristianlığının müxtəlif mərhələlərini əks etdirən orta əsrlərdə icra olunmuşdur. Hər iki qoruq ərazisində müxtəlif dövrlərdə aparılan arxeoloji qazıntılar nəticəsində müxtəlif dövrlərə aid maddi-mədəniyyət nümunələri aşkara çıxarılmış və elmi dövriyyəyə daxil edilmişdir. Aparılan araşdırma və tədqiqatlar Göyəzən və Çıraqqala kimi obyektlərin həm də sosial-siyasi mahiyyətini, ticarət yollarına nəzarət funksiyalarını və regional müdafiə sistemindəki rolunu aydınlaşdırmağa imkan vermişdir.
Açar sözlər: abidələr, qalalar, elmi-tədqiqat.

Abstract
The defensive structures and fortifications built on the territory of Caucasian Albania played a significant role in the military-political, economic, and trade relations of the peoples of the South Caucasus and the Near East. For this reason, they have always attracted the attention of historians, travelers, and geographers. In their writings and travel notes, these authors have

described Albanian fortifications, attempted to classify these structures partially, and linked their construction purposes to the needs of their respective periods.

In various regions of Azerbaijan—including the western part, specifically the Gazakh district—the fortress remains around Mount Goyazan share several common features with the Chiraggala monument located in the northeastern Shabran district. These structures, situated at strategically advantageous heights, provided military oversight and facilitated the defense of surrounding areas. In terms of construction techniques, materials used, and structural design, these monuments reflect the general characteristics of fortification architecture from the Albanian period.

At the same time, surface features alone are insufficient for a full understanding of these complex systems. Therefore, archaeological excavations were conducted in 2024 in the territory of the "Chiraggala-Shabran" State Historical and Cultural Reserve, and in 2021 in the territory of the "Avey" State Historical and Cultural Reserve's Goyazan branch, by archaeologists from the Institute of Archaeology and Anthropology of ANAS. Two areas were studied on Mount Goyazan: the first near the fortress walls on the mountain itself, and the second at a cemetery site located at the foot of the mountain. Stratigraphic analysis of the burials revealed that they date to the Middle Ages and reflect various phases of Albanian Christianity.

Archaeological excavations conducted in both reserves at different times have uncovered material cultural artifacts from various periods, which have been introduced into scholarly circulation. The research and investigations have also clarified the socio-political significance of structures like Göyəzən and Chiraggala, their roles in controlling trade routes, and their place within the regional defense system.

Keywords: monuments, fortresses, scientific research

"THE NOMADIC CULTURE OF JEYRANCHOL: FROM GENETIC MEMORY TO CIVILIZATION"

CEYRANÇÖLÜN KÖÇ MƏDƏNİYYƏTİ: GENETİK YADDAŞDAN SİVİLİZASİYA YOLUNA

Musa Mursaquliyev
"Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun direktoru, BDU Qazax filialının əməkdaşı
Azərbaycan, Ağstafa şəhəri
ORCID ID: https://orcid.org/0000-0003-4438-5152

Paşşanova Unnab
"Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun aparıcı elmi işçisi,
Azərbaycan, Ağstafa şəhəri,
ORCID ID: https://orcid.org/0009-0002-6154-5242

Xülasə
Ceyrançölün köç mədəniyyəti yalnız Azərbaycanın deyil, ümumilikdə türk dünyasının genetik yaddaşı kimi dəyərləndirilməlidir. Bu mədəniyyət çadır arxitekturası, yaşayış tərzi və həyat fəlsəfəsi ilə bəşər sivilizasiyasının formalaşmasında önəmli yer tutur. Ən qədim dövrlərdən başlayaraq, köç mədəniyyəti əcdadlarımızın yaşam tərzini müəyyən etmiş, onların təbiətə uyğunlaşmasını və onunla harmoniyada yaşamasını təmin etmişdir. Bəşər sivilizasiyasının başlanğıc mərhələsində rol oynamış bu həyat tərzi, təkcə iqtisadi bir model deyil, həm də fəlsəfi və mədəni bi irsdir.

Qara dənizdən Xəzərə qədər uzanan alçaq dağlıq tirələr, vadilər və geniş yaylalar boyunca yerləşən Ceyrançöl bu mədəniyyətin əsas məkanlarından biri olmuşdur. Burada köç həyatının izləri xalkolit dövrünə – bizim eradan əvvəlki minilliklərə qədər gedib çıxır. Heyvandarlığın inkişafı, atın əhilləşdirilməsi və hərəkət imkanlarının artması nəticəsində köç anlayışı formalaşmış və bu günədək öz aktuallığını saxlamışdır.

Əsrlər boyunca yay aylarında Ceyrançölə enən, payızda isə Böyük və Kiçik Qafqazın yaylaqlarına köç edən heyvandarlar bu ərazilərdə bənzərsiz bir yaşayış ritmi yaratmışlar. Atların kişnərtisi, oymaq-oymaq səpələnmiş binələr və çadırlardan ibarət bu həyat tərzi xalqımızın yaddaşında silinməz iz buraxmışdır.

Təkərli araba kimi texnoloji yeniliklər də məhz bu köç mədəniyyətinin məhsuludur. Böyük köç yolu sadəcə təsərrüfat və ticarət yolu deyil, həm də mədəniyyətlərin, dinlərin və ideyaların Şərqlə Qərb arasında ötürüldüyü bir sivilizasiya yoludur. Bu yol boyunca baş verən miqrasiyalar, ticarət və mədəni əlaqələr Şərqlə Qərb arasında körpü rolunu oynayıb. Bu gün isə Böyük köç yolunu öyrənmək, sadəcə keçmişə nəzər salmaq deyil, eyni zamanda gələcək üçün də dəyərli dərslər çıxarmaq deməkdir. Tariximizin bu vacib səhifəsini qorumaq və gələcək nəsillərə çatdırmaq hər birimizin üzərinə düşən mənəvi borcdur.

Açar sözlər: köç mədəniyyəti, Ceyrançöl, araba, irs.

Abstract
The Nomadic Culture of Jeyranchol Should Be Valued Not Only as Part of Azerbaijan but as the Genetic Memory of the Entire Turkic World. This culture, with its tent architecture, lifestyle, and philosophy of life, holds an important place in the formation of human civilization. Since the earliest times, the nomadic culture has defined the way of life of our ancestors, enabling them to adapt to nature and live in harmony with it. This way of life, which played a crucial role in the initial stages of human civilization, is not only an economic model but also a philosophical and cultural heritage.
Jeyranchol, stretching across low mountainous terrains, valleys, and vast plateaus from the Black Sea to the Caspian Sea, has been one of the main centers of this culture. The traces of nomadic life here date back to the Chalcolithic period - millennia before the Common Era. With the development of animal husbandry, the domestication of the horse, and increased mobility, the concept of migration was formed and has remained relevant to this day.
For centuries, herders descending to Jeyranchol in summer and migrating to the highlands of the Greater and Lesser Caucasus in autumn created a unique rhythm of life in these lands. The neighing of horses, the scattered settlements of tribes, and their tents left an indelible mark on the memory of our people.
Technological innovations such as the wheeled cart are also products of this nomadic culture. The Great Migration Route was not only a path for economy and trade but also a civilization road through which cultures, religions, and ideas were transmitted between East and West. The migrations, trade, and cultural interactions along this route served as a bridge between East and West. Today, studying the Great Migration Route is not just a look into the past but also an opportunity to learn valuable lessons for the future.
It is our moral duty to preserve this important chapter of our history and pass it on to future generations.
Keywords: nomadic culture, Jeyranchol, cart, heritage

IN THE FOOTSTEPS OF MEMORY – GENOCİDE AND OUR HERİTAGE UNDER OCCUPATİON

YADDAŞIN İZİ İLƏ - SOYQIRIMI VƏ İŞĞAL ALTINDAKI İRSİMİZ

Səadət Əliyeva Bədəl qız
Pedaqogika üzrə fəlsəfə doktoru, "Avey" Dövlət tarix-mədəniyyət qoruğunun direktoru, Azərbaycan Respublikası, Qazax şəhəri
ORCİD İD: https://orcid.org/ 0000-0002-5370-3178

Rəxşəndə Bayramova Qurban qızı
Tarix üzrə fəlsəfə doktoru, Quba Soyqırımı Memorial Kompleksinin direktoru, Azərbaycan Respublikası, Quba şəhəri

Xülasə
Azərbaycan xalqının çox qədim və zəngin tarixi keçmişi var. Bu torpaqlarda təkcə insanlar yox, həm də onların yaratdığı mədəniyyət, abidələr, yaddaş da əsrlərlə yaşayıb. Lakin tarix boyu bu yaddaş dəfələrlə silinməyə çalışılıb. 1918-ci ildə Azərbaycanın digər bölgələri ilə yanaşı Qubada azərbaycanlılara qarşı törədilən soyqırımı və bu gün Qazax rayonun Yuxarı Əskipara kəndində düşmən işğalı altında qalan abidələr bir xalqın həm fiziki, həm də mədəni irsinə qarşı yönəlmiş iki faciəli hücumdur.
"Tarix yalnız keçmişin aynası deyil, həm də gələcəyin yol xəritəsidir". Bu anlayışla üz tuturuq Azərbaycanın iki ağrılı yaddaş məkanına – Quba Soyqırımı Memorial Kompleksinə və hal-hazırda işğal altında qalan Qazax rayonu Yuxarı Əskipara kəndinə. Bu iki fərqli məkan, Azərbaycanın müxtəlif bölgələrində yerləşsə də, eyni tarixi faciənin – erməni vandalizmi, etnik təmizləmə və mədəni irsin məhv edilməsi siyasətinin izlərini daşıyır.
1918-ci ildə Qubada dinc əhaliyə qarşı törədilmiş kütləvi qətliam nəticəsində yüzlərlə insan amansızlıqla öldürülmüş, onların məzarları isə bu gün tarix qarşısında susmayan şahidlərə çevrilmişdir. 2007-ci ildə Quba şəhərində tikinti məqsədilə aparılan qazıntılar zamanı təsadüfən aşkar edilmiş kütləvi məzarlıq 1918-ci ilin may ayında bolşevik adı altında quldur erməni dəstələri tərəfindən törədilmiş Qubanın müsəlman əhalisinin soyqırımının əyani sübutu olmuşdur. Bu həqiqətləri dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev 30 dekabr 2009-cu il tarixli sərancamı ilə Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin yaradılmasına qərar vermişdir. Bu gün Quba şəhərində yerləşən Quba Soyqırımı Memorial Kompleksi bu qanlı hadisələrin izlərini qoruyaraq, xalqımızın milli yaddaşını dirçəldir və Azərbaycanın digər bölgələrində də tarixi ədalətsizliklərə məruz qalmış abidələrimizin taleyinə laqeyd qalmamağın vacibliyini xatırladır.
"Avey" Dövlət Tarix-Mədəniyyət qoruğunun Yuxarı Əskipara filialı yəni Yuxarı Əskipara kəndi də erməni vandalizminə məruz qalmışdır1992-ci ildən işğal edilmiş, burada yerləşən qeydiyyata alınmış 14 tarixi abidəmiz – Alban məbədləri, qəbiristanlıqlar, yaşayış evləri, su dəyirmanları , qüllə, körpülər – uzun illər ermənilər tərəfindən vandalizm və özününküləşdirməyə məruz qalmışdır. Bu abidələr təkcə daş və torpaq deyil, bir xalqın yaşayış tərzini, ruhunu, tarixini özündə daşıyır.
Bu gün Quba Soyqırımı Memorial Kompleksi xalqımızın yaddaşını yaşatdığı kimi, Yuxarı Əskipara kəndindəki tarixi abidələr də Azərbaycan xalqının mədəni irsinin susmayan daşıyıcılarıdır.

Tarixi yaddaşın qorunması, gələcək nəsillərə ötürülməsində bu hər iki qoruğun rolu ilə metni yekunlaşdır.
Açar sözlər: soyqırımı, vandalizm, tarix, abidə

Abstract
The Azerbaijani people possess an ancient and rich historical legacy. On this land, not only the people but also the culture, monuments, and memory they created have endured for centuries. However, throughout history, attempts have repeatedly been made to erase this memory. The genocide committed against Azerbaijanis in Guba in 1918 and the historical monuments currently under enemy occupation in Yukhari Askipara village of the Gazakh region are two tragic assaults on both the physical and cultural heritage of a nation.
“History is not only a mirror of the past but also a roadmap for the future.” With this understanding, we turn to two painful memory sites in Azerbaijan — the Guba Genocide Memorial Complex and the currently occupied village of Yukhari Askipara in the Gazakh region. Although these two locations are in different parts of Azerbaijan, they both bear witness to the same historical tragedy — the policy of Armenian vandalism, ethnic cleansing, and the destruction of cultural heritage.
As a result of the mass massacre perpetrated against the civilian population in Guba in 1918, hundreds of people were brutally murdered, and their graves today stand as silent witnesses to history. In 2007, during excavation works for construction in Guba, a mass grave was accidentally discovered, serving as concrete evidence of the genocide committed in May 1918 against the Muslim population of Guba by Armenian gangs operating under the guise of Bolsheviks. To convey these truths to the international community, preserve the national memory of the Azerbaijani people, and immortalize the memory of the genocide victims, the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev, issued a decree on December 30, 2009, for the establishment of the “Genocide Memorial Complex” in Guba. Today, the Guba Genocide Memorial Complex preserves the traces of those bloody events, revives the national memory of our people, and reminds us of the importance of not remaining indifferent to the fate of monuments that have also been subjected to historical injustice in other regions of Azerbaijan.
The Yukhari Askipara branch of the “Avey” State Historical and Cultural Reserve — that is, the village of Yukhari Askipara — has also suffered from Armenian vandalism. Occupied since 1992, this area includes 14 registered historical monuments — Albanian temples, cemeteries, residential houses, water mills, a tower, and bridges — all of which have long been subjected to acts of vandalism and appropriation by Armenians. These monuments are not merely stones and soil; they embody a people’s way of life, spirit, and history.
Just as the Guba Genocide Memorial Complex keeps the memory of our people alive, the historical monuments in Yukhari Askipara stand as enduring witnesses to the cultural heritage of the Azerbaijani people.
The preservation of historical memory and its transmission to future generations depend significantly on the roles of both these reserves.
Keywords: genocide, vandalism, history, monument

DESCRIPTIVE METHOD IN GENERAL DENTISTRY

ÜMUMİ DİÇİLİKDƏ TƏSVİRİ METOD

Məmmədova Svetlana Nəsib qızı
Filologiya üzrə fəlsəfə doktoru Azərbaycan Dövlət Pedoqoji Universitetinin
Xarici Dillər Mərkəzinin dosenti,

Xülasə
Təsviri üsulda mexaniki təsvir və ya sadalama olmadığı üçün onun tətbiqi dilçiliyin inkişafı ilə mütənasibdir. Təsviri metod həm də tarixi və tarixi-müqayisəli metodlara cavab verir. Bir çox alimlər təsviri metoddan istifadə etmiş və qrammatika yaratmışlar. Təsviri üsuldan Azərbaycan dilinin fonetikası, morfologiyası, sintaksisi və stilistikası ilə bağlı yazılmış əsərlərdə də istifadə edilmişdir. Təsviri metod hazırda struktur analiz metoduna cavab verir və onlar bir-birinə təsir edir. Dövrümüzdə təsviri üsuldan da geniş istifadə olunur. Təsviri metod dilin inkişafının müəyyən mərhələsində dil hadisələrinin səciyyələndirilməsinə tətbiq edilən tədqiqat metodları sistemidir; bu sinxron analiz üsuludur. Bu mülahizə aydınlaşdırılmalıdır. Beləliklə, təsviri metod müasir dil hadisələrinin, ümumiyyətlə, müəyyən bir dövrün dil hadisələrinin, eləcə də konkret dilin tarixi inkişafının öyrənilməsinə tətbiq oluna bilər. Yəni diaxronik dilçilikdə həmin üsuldan istifadə etmək mümkündür. Məsələn, müxtəlif dillər üçün yazılmış bir sıra tarixi qrammatikalar buna misal ola bilər.
Açar sözlər dilçilik,metodlar,təhlil,təsvir,sintagmatika,inkişaf,vahidlər.

Abstract
Since the descriptive method is not a mechanical description or enumeration, its application is proportional to the development of linguistics. The descriptive method also meets historical and historical-comparative methods. Many scholars have used the descriptive method and created grammars. The descriptive method has also been used in works written on the phonetics, morphology, syntax and stylistics of the Azerbaijani language. The descriptive method is currently meeting the structural analysis method and they influence each other. The descriptive method is also widely used in our time. The descriptive method is a system of research methods applied to the characterization of linguistic phenomena at a certain stage of language development; this is a synchronic analysis method. This consideration needs to be clarified. Thus, the descriptive method can be applied to the study of modern linguistic phenomena, in general, linguistic phenomena of a certain period, as well as to the historical development of a particular language. That is, it is possible to use that method in diachronic linguistics. For example, a number of historical grammars written for various languages can be an example of this.
Keywords linguistics, methods, analysis, description, syntagmatics, development, units.

Təsviri metodun vəzifəsi, hər şeydən əvvəl dilin daxili struktur və sistemindəki əlaqələri, onların səbəblərini , bu struktur və sistemdə nitqin təsiri ilə baş verən dəyişmələrin, ziddiyyətli elementlərin,eyni zamanda dil normasının müəyyənləşdirilməsindən ibarətdir.Təsviri metodda faktların təhlili əsas prinsipdir. İnsan fəaliyyətinin müxtəlif sahələrində müşahidə edilən hər hansı bir əşya və ya hadisə təsvir olunur. Obyekt və məqsəddən asılı olaraq təsvirin müxtəlif növləri mövcuddur. Bunlardan elmi təsvir hər hansı adi təsvir və ya bədii təsvirdən əsaslı şəkildə fərqlənir. Elmi təsvirdən tədqiqatçıların müxtəlif

axtarışlar prosesində kəşf etdikləri qanun və yenilikləri əks etdirməkdə, onları gələcək nəsillərə çatdırmaqda istifadə olunur. Elmi təsvirdə dil hadisələri hər cəhətdən təhlil olunur, nəzəri mövqedən aydınlaşdırılır. Onların hər birinin dildəki yeri, vəzifəsi göstərilir. Elmi təsvir prosesində dil hadisə və faktlarını tam əhatə etmək üçün müxtəlif elmi üsullara müraciət edilir. Dilçilik elmində hər hansı dilin hazırkı anda inkişafının tədqiqinə cəlb edilən elmi-tədqiqat üsullarının cəmi təsviri metod adlanır.Təsviri metodun özünə xas olan xüsusiyyətləri, tətbiq edilmə metodikası vardır. Bu metod dilçiliyin ən qədim metodudur. Onun tədqiqata tətbiq olunması dilçiliyin yaranma tarixi ilə bağlıdır. Belə ki, uzaq keçmişdə təşəkkül tapmış qədim hind, çin, yunan və ərəb dilçiliyində bu metodla dil hadisələrinin elmi təsvirinə qədəm qoyulmuşdur. Əsrlər boyu dilçiliyin tarixində təsviri metod daha da zənginləşmə yolu keçib yüksək inkişaf etmişdir. Müasir dilçiliyin bütün sahəsində bu və ya başqa şəkildə təsviri metoddan geniş istifadə olunur. Linqvistik təsviri metod vasitəsilə dil quruluşunun komponentlərində (dilin səs sistemi, lüğət tərkibi və qrammatik quruluşunda) müşahidə olunan qanunauyğunluqlar tədqiq edilir. Bu komponentlərin hissələri müəyyən bir zəncirin ünsürləri kimi təsəvvür olunur. Məsələn, müasir ədəbi dilin fonemlər sistemi – saitlər sistemini təşkil edən qalın və incə fonemlər; samitlər sistemini əmələ gətirən kar və cingiltili səslər və s. Təsviri istiqamətdə aparılan elmi tədqiqatlar dilçilikdə sinxronik tədqiqat hesab olunur. Dilin sinxronik öyrənilməsi ilə əlaqədar elmdə təsviri dilçiliyin sinonimi olaraq sinxronik dilçilik anlayışı da meydana gəlmişdir. Məlum olduğu kimi, hər bir metodun müəyyən məqsədi olur. Elmi metodun məqsədi öyrənilən obyektin xüsusiyyətlərini açmaq və aşkar etməkdən ibarətdir. Linqvistik təsviri metodun da məqsəd və vəzifəsi hər bir dil vahidinin elmi təhlilini verməkdir. Bu metodun köməyi ilə dil vahidlərinin, onların əlaqədar hadisələrinin ümumi sistemdə və konkret qruplarda tutduğu mövqe və vəzifələri müəyyənləşdirilir. Təsviri istiqamətdə əldə edilən hər bir elmi nəticə nəzəri dilçiliyə aid olub, onun zənginləşməsində xüsusi əhəmiyyət kəsb edir. Hər bir tədqiqat işinin icrasında müxtəlif mahiyyətli elmi üsullardan kompleks şəkildə istifadə olunur. Linqvistik təsviri metodu təşkil edən başlıca elmi üsullar aşağıdakılardır: 1. Dil vahidlərinin müəyyənləşdirilməsi üsulu. 2. Dilin sistem şəklində öyrənilməsi üsulu. 3. Təsviri-normatik üsul. 4. Təsviri-semantik üsul. 5. Təsviri-müqayisəli üsul. 6. Təsviri-ümumiləşdirmə üsulu. 7. Təsviri-şərhetmə üsulu. Bu elmi üsulların hər biri xüsusi mahiyyətə malikdir. Sonuncu üsula nəzər yetirək. Şərhetmə üsulu dil hadisə və faktlarının məzmununu, onların daxili cəhətlərini, varlığını şərtləndirən qanunlarını real formada açmaqda böyük əhəmiyyət kəsb edir. Bunun məqsədi hadisə və faktı şərh etmək, onlara aid olan hər cür qanunları aşkara çıxarmaqdır. Dil hadisəsi şərh edilərkən onun dildə başvermə səbəbinin şərhindən başlanılır. Hadisənin səbəbini açmaq onun elmi cəhətdən dərk edilməsinə, mənimsənilməsinə şərait yaradır. [1] Elmdə hadisənin funksional və struktural şərhi də əsas amillərdən hesab olunur. Dünya dilçiliyinin inkişafında təsviri metodun böyük rolu və əhəmiyyəti olmuş və indi də bu öz qiymətini azaltmamışdı. Təsviri metod əsasında bir çox milli dillərin elmi şəkildə təsviri fonetikası, təsviri leksikologiyası, təsviri qrammatikası yaradılmışdır. Bununla yanaşı, müxtəlif dillərə dair geniş izahlı lüğətlər də hazırlanmışdır. Təsviri istiqamətdə yazılmış lüğətlər, digər əsərlər – ali, orta məktəb dərslikləri tətbiqi dilçiliyə məxsus olub, onun inkişafına xüsusi təsir göstərməkdədir. Linqvistik təsviri metod Azərbaycan dilçiliyində də geniş inkişaf yolu keçmişdir. Bu metod əsasında onlarca monoqrafiya, dərslik və lüğət yaradılmışdır.

Hər hansı bir elmin predmeti olduğu kimi, onun tədqiqat metodları da olmalıdır. Dil haqqındakı elmin metod axtarışları nə qədər intensiv olsa da, onun yalnız üç metodu klassik metod səviyyəsinə yüksəlib ki, onlardan biri də təsviri metoddur. Təsviri metod dil faktlarının təsviri ilə məşğul olur. Bu metod dil haqqındakı elmin tarixində ən qədim metod hesab olunur. Belə ki, qədim hind, qədim yunan, ərəb, eləcə də orta əsrlər və intibah dövrü dilçiliyinin nümayəndələri öz tədqiqatlarını təsviri metodla aparmışlar. Bundan əlavə, bu metoddan ayrı-

ayrı dillərin akademik qrammatikalarının,dərsliklərinin yazılmasında geniş istifadə olunur. Eləcə də struktur dilçilik məktəbləri (xüsusilə Amerika deskriptivistləri) öz tədqiqatlarını təsviri metodla aparmışlar. Təsviri metodun sinxron (daxili) dilçiliyə əsaslanan üsulları içərisində ən çox diqqəti çəkənlər bunlardır: 1. Təsnifat və sistemləşdirmə; 2. Sintaqmatika; 3. Paradiqmatika; 4. Müqayisə (tutuşdurma). Təsnifat və sistemləşdirmə üsulu dilin daxili quruluşunu (fonetik, qrammatik, leksik) öyrənməkdə istifadə edilən əsas üsullardan biridir. Belə ki, dilin daxili quruluşunu təşkil edən linqvistik vahidlər əvvəl hər hansı prinsipə görə təsnif edilir, sonra isə sistemləşdirilir. [2] Sintaqmatika üsulu dil vahidini tutduğu mövqe ilə bağlı olaraq şərh edir. Məsələn, Azərbaycan dilində -dır4 şəkilçi morfemin nə şəkilçisi olmasını müəyyənləşdirmək üçün onun hansı mövqedə işlənməsini bilməliyik. Paradiqmatika üsulu isə sintaqmatik üsuldakı kimi dili üfüqi xətlə deyil, şaquli xətlə səciyyələndirir. Və bu üsul dilin bütün səviyyələrinə tətbiq olunur. Təsviri metodun geniş yayılmış üsullarından biri olan müqayisə üsulunu müqayisəli metodla qarışdırmaq olmaz. Müqayisə həm bir dil daxilində, həm də müxtəlifsistemli dillər arasında aparıla bilər. Təsviri metodun üsullarından biri də riyazi üsuldır. Dilin tədqiqində riyazi üsullar dedikdə riyazi modellərin dilçiliyə tətbiqi nəzərdə tutulur. Təsviri metodun diaxron (xarici) dilçiliyə əsaslanan üsulları içərisində aşağıdakılardan geniş istifadə olunur: 1. Sosioloji; 2. Coğrafi; 3. Məntiqi; 4. Psixoloji; 5. Fizioloji və akustik. Dilin xarici əlamətlərinin öyrənilməsində sosioloji üsulun mühüm yeri vardır. Dil sosial hadisə olaraq cəmiyyətə xidmət edir. Cəmiyyətin həyatında baş verən müxtəlif hadisələr də dildə əksini tapır. Coğrafi üsul dil hadisələrinin məkanca yerləşməsinin öyrənilməsində, eləcə də top-lanmış dialekt materiallarının xəritəyə köçürülməsində mühüm rol oynayır. Bəzi dilçilik ədəbiyyatlarında təsviri metodun coğrafi üsulundan müstəqil metod kimi də bəhs edilir ki, bu mülahizənin heç bir əsası yoxdur. Məntiqi üsul dil kateqoriyaları ilə təfəkkür kateqoriyalarını bir-birindən ayırmaq funksiyasını yerinə yetirir. Dilin strukturunun (quruluşunun) məntiq qanunları ilə şərhini "Por-Royal qrammatikası"nda, Luyis Yelmslevin araşdırmalarında, eləcə də Noam Xomskinin törədici qrammatika ilə bağlı əsərlərində görürük. Dilin təsvirində psixoloji üsulun rolu ondan ibarətdir ki, insanın psixikası onun dil sisteminə əsaslanan fərdi nitqinə (üslubuna) təsir edir. Dilin təsvirinin fizioloji və akustik üsulları dilin səs quruluşunun cihazlarla öyrənilməsində mühüm rol oynayır. Təsviri metod üçün səciyyəvi olan təsvir materialları dillərin genealoji və tipoloji bölgüsünü də uğurla aparmağa kömək edir.[3]
Təsviri metod dilin müəyyən inkişaf mərhələsində dil hadisələrinin səciyyələndirilməsində tətbiq olunan tətdiqat üsulları sisteminə deyilir; bu,sinxronik təhlil metodudur.Bu mülahizənin dəqiqləşdirilməyə ehtiyacı vardır.Belə ki,təsviri metod müasir dil hadisələrinin,ümumiyyətlə, müəyyən dövrün dil hadisələrinin tətqiqinə tətbiq edildiyi kimi,bu və ya digər dilin tarixi inkişafında da aid edilə bilər.Yəni o metoddan diaxronik dilçilikdə də istifadə etmək mümkündür.Məsələn müxtəlif dillərə aid yazılmış bir sıra tarixi qrammatikalar buna misal ola bilər.

Nəticə

Təsviri metod,fonemlərin,morfemlərin,sözlərin,qrammatik kateqoriyaların və s. xarakteri diqqətlə və dərinliklə öyrənməyə kömək edir.Bu elementlərin hər biri həm zahiri ,həm də semantik aydınlaşdırılmalıdır.Yəni təsviri metodun vəzifəsi sadəcə təsvir etməkdən ibarət olmayıb dil elementlərinin daxili quruluşunu,əlaqələrini və sistemliliyini öyrənməkdən ibarətdir.Məhz bu metodun əsasında indiyədək müxtəlif dillərin qrammatik quruluşunu əks etdirən əsərlər meydana gəlmişdir.Bu metod əsasında leksikoloji tədqiqatların bazasını təşkil edən izahlı lüğətlər hazırlanmışdır.Bu metod,həmçinin nitq mədəniyyəti məsələlərinin öyrənilməsində zəngin təcrübə yaratmışdır. Bu metodun əsasında "faktların təsviri" təhlil olunan materialın keyfiyyət dərəcəsini təyin etmişdir. Yəni işin keyfiyyəti faktların dil

strukturu və sistemi barədə aydın,müfəssəl təsəvvür yarada bilməsi ilə ölçülür.Təsviri metodun naliyyətləri çoxdur. Hərçənd ki,bəzi hallarda bu metod sadəcə təsvir kimi başa düşülür.

Ədəbiyyat Siyahısı

1.Afad Qurbanov "Ümumi dilçilik III cild" Bakı- 2019
2. Qismət Cəfərov "Ümumi Dilçilik etüdləri" "Elm və təhsil" Bakı-2020
3. Ağamusa Axundov " Ümumi Dilçilik , dilçiliyin tarixi, Nəzəriyyəsi və metodları" Bakı-2006

SOCIAL AND SOCIETAL TRANSFORMATIONS IN AMERICAN LITERATURE AFTER WORLD WAR II

II DÜNYA MÜHARİBƏSİNDƏN SONRA AMERİKA ƏDƏBİYYATINDA SOSİAL VƏ İCTİMAİ TRANSFORMASİYALAR

Lalə Əli qızı Namazova
Azərbaycan Dillər Universiteti

Abstract
The profound social and public changes that occurred in American society after World War II were reflected in literature and became an important source for understanding the spirit of the era. During this period, American writers paid special attention to topics such as the psychological traumas caused by the war, changes in family structures, the formation of society, and the civil rights movement. How these changes are manifested in literary works allows us to trace the thinking and ideological searches of society in both a historical and cultural context. From this perspective, the topic is relevant not only for literary criticism, but also for sociology and culturological studies.
The main goal of this article is to analyze the social and public transformations reflected in American literature after World War II and to reveal how the literary discourses formed during that period reflected the cultural, ideological, and psychological state of society. To this end, the literary embodiment of social alienation, the problem of identity, the speech against conformity and countercultural movements is examined based on the works of leading writers of the period (for example, J.D. Salinger, Arthur Miller, Sylvia Plath, James Baldwin and others). At the same time, how individual and collective experiences were expressed through poetic and artistic images is analyzed, which allows for a deeper understanding of the literary spectrum and social consciousness of the period.
Keywords: social transformation, social changes, American literature, cold war thought, civil rights movement

Xülasə
II Dünya Müharibəsindən sonra Amerika cəmiyyətində baş verən dərin sosial və ictimai dəyişikliklər ədəbiyyatda öz əksini taparaq dövrün ruhunu anlamaq baxımından əhəmiyyətli mənbəyə çevrilmişdir. Bu dövrdə Amerika yazıçıları müharibənin yaratdığı psixoloji travmalar, ailə strukturlarındakı dəyişikliklər, cəmiyyətin formalaşması və vətəndaş hüquqları hərəkatı kimi mövzulara xüsusi diqqət ayırmışlar. Bu dəyişikliklərin ədəbi əsərlərdə necə təzahür etməsi həm tarixi, həm də mədəni kontekstdə cəmiyyətin düşüncə tərzini və ideoloji axtarışlarını izləməyə imkan verir. Bu baxımdan, mövzu təkcə ədəbiyyatşünaslıq üçün deyil, sosiologiya, kulturoloji tədqiqatlar üçün də aktuallıq kəsb edir.
Bu məqalədə əsas məqsəd, II Dünya Müharibəsindən sonra Amerika ədəbiyyatında əksini tapan sosial və ictimai transformasiyaları təhlil edərək, həmin dövrdə formalaşan ədəbi diskursların cəmiyyətin mədəni, ideoloji və psixoloji vəziyyətini necə əks etdirdiyini üzə çıxarmaqdır. Bu məqsədlə dövrün aparıcı yazıçılarının (məsələn, J.D. Salinger, Arthur Miller, Sylvia Plath, James Baldwin və digərləri) əsərləri əsasında sosial yadlaşma, identiklik problemi, konformizmə qarşı çıxış və əks-mədəniyyət hərəkatlarının ədəbi təcəssümü araşdırılır. Eyni zamanda fərdi və kollektiv təcrübələrin poetik və bədii obrazlarla necə ifadə

olunduğu da təhlil edilir, bu da dövrün ədəbi spektrini və sosial şüurunu daha dərindən anlamağa imkan verir.

Açar Sözlər: sosial transformasiya, ictimai dəyişikliklər, Amerika ədəbiyyatı, soyuq müharibə düşüncəsi, vətəndaş hüquqları hərəkatı

Giriş

İkinci Dünya müharibəsindən sonrakı dövr Amerika ədəbiyyatında dərin sosial, mədəni və ideoloji dəyişikliklərlə müşayiət olunmuşdur. Müharibənin yaratdığı genişmiqyaslı dağıntılar, insanlıq faciəsi və qlobal miqyasda baş verən dəyərlər böhranı Amerika ictimai şüurunda dərin izlər buraxmış və bu, ədəbiyyatın estetik və ideoloji koordinatlarında ciddi dönüşlərə səbəb olmuşdur. Həmin dövrün ədəbiyyatı, bir tərəfdən, "Amerika Yuxusu" (American Dream) kimi milli ideologiyaların etibarlılığını sorğulayan, digər tərəfdən isə fərdi mənlik, ekzistensial yadlaşma və cəmiyyətdə ziddiyyətli münasibətlər kimi mövzulara yönələn əsərlərlə xarakterizə olunmuşdur.

Bu dövrün ən mühüm ədəbi cərəyanlarından biri "Beat nəsli"[12]nin (Beat Generation) meydana çıxmasıdır. Bu ədəbi qrupun nümayəndələri yalnız əsas axın Amerika mədəniyyətini estetik baxımdan deyil, həm də sosial və ideoloji cəhətdən tənqid etmişlər. Onlar İkinci Dünya müharibəsindən sonra Amerikanın formalaşan istehlak cəmiyyətini, konformist həyat tərzini və siyasi riyakarlığı rədd edərək, fərdi azadlıq, mənəvi oyanış və alternativ həyat tərzlərinin müdafiəsinə qalxmışlar. Beat yazarları – Allen Ginsberg, Jack Kerouac, William S. Burroughs kimi simalar – yaradıcılıqları vasitəsilə dövrün sosial-ictimai vəziyyətinə reaksiya vermiş, irqçilik, senzura, müharibə əleyhinə mövqelər sərgiləmiş və fərdin özünüifadə hüququnu ön plana çıxarmışlar. Onların bu cür sosial mövqeyi yalnız ədəbiyyatda deyil, daha geniş mənada Amerikanın ictimai fikrində dönüş yaratmış, vətəndaş hüquqları hərəkatı və əks-mədəniyyət dalğası kimi mühüm proseslərin ideoloji zəminini formalaşdırmışdır.

"Beat Nəsli"nin formalaşması yalnız ədəbi deyil, həm də geniş, mədəni və fəlsəfi kontekstdə baş vermişdir. Beat Nəsli nümayəndələrinin ədəbi yaradıcılığı yalnız Qərb ənənələri ilə məhdudlaşmır, həm də Şərq fəlsəfəsi, caz musiqisinin ritmik və improvizasiyaedici təbiəti, eləcə də spontan, yəni əvvəlcədən planlaşdırılmamış və axıcı şəkildə ifadə olunan şeirsəl təhkiyə üsulları ilə sıx şəkildə əlaqəli idi. Bu kontekstdə "Beat Nəsli" yalnız Amerika ədəbiyyatında baş verən müasir üslub və dünyagörüşü transformasiyalarını anlamaq baxımından deyil, eyni zamanda XX əsrin ortalarında formalaşan qlobal ədəbi və mədəni tendensiyalarla – məsələn, modernizm sonrası eksperimentalizm, postkolonial fərdi təcrübə axtarışları və mədəni müqavimət hərəkatları ilə bağlı əlaqələrin araşdırılması nöqteyi-nəzərindən də böyük əhəmiyyətə malikdir. Bu cərəyan, həm milli ədəbiyyatın sərhədlərini genişləndirən, həm də transmilli mədəni dialoqa təşviq edən bir fenomendir.

Iı Dünya Müharibəsindən Sonra Amerika Ədəbiyyatında Sosial Dəyişikliklərin Əksi

Ədəbiyyatın cəmiyyətin transformasiyasını əks etdirmə funksiyasını dərindən anlamaq üçün müasir Amerikanın sosial, iqtisadi və mədəni əsaslarının formalaşdığı bir dövrə nəzər salmaq zəruridir. II Dünya müharibəsindən sonrakı dövrdə ölkədə baş verən köklü dəyişikliklər, xüsusilə sənayeləşmənin sürətlənməsi, dəmir yolları şəbəkəsinin genişlənməsi və miqrasiyanın artması kimi proseslər Amerikanın ictimai quruluşunda ciddi dəyişikliklərə yol açmışdır. Bu dövrdə yaranan iqtisadi dinamika və sosial heterogenlik, ədəbiyyatda da yeni estetik yanaşmaların zəruriliyini gündəmə gətirmişdir. Məhz bu tarixi-sosial kontekstdə realizm adlı

[12]1940-1950-ci illər arasında ABŞ-da formalaşmış, ədəbiyyatla yanaşı, cəmiyyətin mədəni dəyərlərinə də güclü təsir göstərmiş bir hərəkatdır. Bu hərəkatın nümayəndələri cəmiyyətin mühafizəkar dəyərlərinə, mədəniyyətinə və siyasətdəki ikili standartlara qarşı çıxaraq fərdi azadlığı, mənəvi axtarışları və qeyri-ənənəvi həyat tərzini önə çəkirdilər.

ədəbi cərəyan meydana çıxmış və 1800-cü illərin əvvəllərində üstünlük təşkil edən romantik üslubdan fərqli olaraq, həyatın gündəlik reallıqlarını, sosial ziddiyyətləri və fərdi təcrübələri olduğu kimi təsvir etməyə çalışmışdır. Realist ədəbiyyatın aparıcı nümayəndələrindən biri sayılan Mark Tven (1884), xüsusilə *Heklberri Finnin macəraları (Adventures of Huckleberry Finn)* kimi əsərlərində regional dialektlərdən və ironiya vasitələrindən istifadə edərək, Amerika cəmiyyətindəki sosial ədalətsizliklərə və mənəvi riyakarlığa işarə etmişdir. Henri Ceyms isə insan psixologiyasının və fərdi seçimlərin mürəkkəbliyini təhlil edərək realizmin intelektual dərinliyini genişləndirmişdir.

Təsadüfi deyil ki, II Dünya Müharibəsinin başa çatması ilə Amerika yeni bir tarixi mərhələyə – iqtisadi rifah, sosial sabitlik və genişlənən orta sinfin formalaşdığı ictimai struktur dəyişikliklər – qədəm qoydu. Cəbhədən qayıdan hərbçilər dövlət tərəfindən qəbul edilən GI Bill (Veteranlara Yardım Aktı) vasitəsilə ev sahibi olmaq, ali təhsil almaq və peşə bacarıqları qazanmaq imkanları əldə etdilər. Şəhər mərkəzlərindən kənarda sürətlə inkişaf edən yaşayış massivləri, o cümlədən Levittaun kimi planlı məhəllələr, müharibədən sonrakı *"Amerika Arzusu"nun (American Dream)* fiziki təcəssümünə çevrildi. Bu dövrdə istehlak mədəniyyəti yüksəlişə keçdi, media və reklam vasitələri ilə vətəndaşlara bolluq və təhlükəsizlik hissi təlqin edildi.

Lakin bu zahiri rifahın fonunda cəmiyyət daxilində ciddi sosial və psixoloji gərginliklər yaşanmaqda idi. Nüvə silahlarının yaratdığı qlobal təhlükə, Soyuq Müharibə rəqabəti və irqçilik kimi struktur problemlər Amerikanın daxili sabitliyini pozur, fərdin psixoloji vəziyyətinə və sosial münasibətlərə dərin təsir göstərirdi. Bu ikili reallıq – bir tərəfdə iqtisadi sabitlik və optimizm, digər tərəfdə isə sosial qeyri-bərabərlik və narahatlıq – dövrün ədəbiyyatında da öz əksini tapmışdır.

Müasir Amerikanın ədəbi mənzərəsini formalaşdıran əsas yazıçılardan biri olan Artur Miller (1949), *"Satıcının ölümü" (Death of a Salesman)* əsərində Amerika Arzusunun insan şüuruna və ailə münasibətlərinə necə dağıdıcı təsir göstərdiyini təsvir etmişdir. Əsərdə ailə başçısı Uilli Lomanın uğursuzluqları fonunda, kapitalist sistemin fərd üzərində qurduğu psixoloji təzyiqlər, şəxsi dəyərlərlə sosial gözləntilər arasındakı toqquşmalar analitik dərinliklə təqdim olunur.

Digər tərəfdən, Tennessi Uilyamsın (1947) *"Arzu Tramvayı" (A Streetcar Named Desire)* əsərində isə cənub ştatlarının dəyişən ictimai və mədəni strukturları fonunda cinsəllik, şəxsiyyətin parçalanması, sosial maskalanma və repressiya kimi mövzular araşdırılır. Əsərdəki Blanş Düboan obrazı, müasir Amerika cəmiyyətində fərdin yaşadığı daxili qarşıdurmaların, kimlik axtarışlarının və sosial təzyiqlərin metaforu kimi çıxış edir. O, öz reallığını qəbul etməkdə çətinlik çəkir, keçmişin ağrılı xatirələrindən qaçır və ətrafındakı dəyişən dünyaya uyğunlaşmaqda çətinlik yaşayır. Bu vəziyyət, geniş mənada, müasir Amerikanın sürətlə dəyişən sosial və mədəni mühitində fərdin öz şəxsiyyətini müəyyənləşdirməkdə və qorumaqda qarşılaşdığı çətinlikləri və ziddiyyətləri əks etdirir.

Bu müəlliflərin yaradıcılığı yalnız dövrün fərdi və sosial dilemmlarını təsvir etməklə kifayətlənmir, eyni zamanda müharibədən sonrakı Amerikanın ideoloji ikililiyini və daxili paradokslarını da açıq şəkildə ifşa edir. Beləliklə, 1940-cı illərin sonu və 1950-ci illərin əvvəllərində formalaşan Amerika ədəbiyyatı, sosial dəyişikliklərin, psixoloji təzyiqlərin və mədəni parçalanmanın güzgüsünə çevrilmişdir.

Soyuq Müharibənin başlanması ilə kommunizmə və casusluğa dair qorxu və şübhələr Amerika ictimai şüurunda dərin iz buraxdı. Bu dövrün yazıçı və dramaturqları qorxu, konformizm və fərdin sosial basqılar qarşısında mövqeyini araşdırmaqla yanaşı, Makkarthi erasının paranoid atmosferinə incə, lakin kəskin tənqidlər səsləndirdilər. Elmi-fantastika janrı, xüsusilə Rey Bredberinin (1953) *Fahrenheit 451* əsərində təsvir olunduğu kimi, senzura, dövlət nəzarəti və texnoloji inkişafın insanın humanist dəyərlərinə potensial təhlükələri mövzularını dərin təhlil etdi.

Bu ədəbi məhsullar həm həmin dövrün sosial təzyiqlərindən qaçış, həm də ictimai durumun kritik şərhini təqdim etdi. Yazıçılar, yeni yaranan qlobal güc statusunu qəbul etməyə çalışan Amerika cəmiyyətində mövcud olan daxili ədalətsizliklərə, sosial çatışmazlıqlara diqqət çəkərək, səthi stabilliyin altında gizlənən parçalanmaları və narahatlıqları ifşa etdilər. Bu əsərlər, gələcəkdə baş verəcək genişmiqyaslı sosial, ictimai və mədəni dəyişikliklər barədə öncədən xəbər verirdi.

Müharibədən Sonrakı Dövrlərdə Sosial Və İctimai Dəyişiklikləri Əks Etdirən Ədəbiyyat

20-ci əsrin ortaları Amerika tarixində ən əhəmiyyətli sosial dönüşlərdən biri olan Vətəndaş Hüquqları Hərəkatının yüksəlişi ilə yadda qaldı. Bu dövrdə ədəbiyyat, sosial ədalət uğrunda mübarizənin ruhunu əks etdirərək, həm ictimai şüurun formalaşmasına, həm də fəallığın təşviqinə mühüm töhfə verdi. *Braun Təhsil Şurasına qarşı* (*Brown vs Board of Education)* (1954) kimi məhkəmə qərarları məktəblərdə ayrı-seçkiliyi rəsmi olaraq ləğv etsə də, cəmiyyət səviyyəsində əsl dəyişikliklər ictimai təzyiq, kütləvi etiraz aksiyaları və dəyərlər sistemində fundamental transformasiyalar olmadan mümkün deyildi.

Ceyms Boldvin kimi yazıçılar, irqçilik və kimlik məsələlərini dərin emosional və psixoloji qatlarda araşdıraraq, irqi ayrı-seçkiliyin insan üzərində yaratdığı təsirləri oxuculara təsirli şəkildə çatdırdılar. Onun *Go Tell It on the Mountain (1953)* romanı və *Notes of a Native Son (1955)* esseləri oxucu ilə empatik bağ qurmaqla, məsələyə yalnız hüquqi və siyasi kontekstdən deyil, həm də insan aspektindən yanaşdı. Eyni dövrdə Loreen Hansberinin *A Raisin in the Sun (1959)* pyesi mənzil ayrı-seçkiliyi, ailə arzuları və cəmiyyətin inteqrasiya prosesindəki mürəkkəb sosial münasibətləri ədəbiyyat vasitəsilə analitik və çoxşaxəli şəkildə təqdim etdi.

Bu dövrdə ədəbiyyat qadınların sosial, mədəni və siyasi baxımdan gücləndirilməsində mühüm rol oynamışdır. İkinci dalğa feminist hərəkatı 1960-1970-ci illərdə geniş vüsət alaraq qadınların cəmiyyətdəki yerini, gender bərabərsizliyini və patriarxal strukturları hədəfə aldı. Lakin bu hərəkatın əsas ideyalarının formalaşmasında və geniş kütlələrə çatdırılmasında ədəbiyyatın rolu əvəzsiz olmuşdur. Betty Friedan kimi yazıçılar *The Feminine Mystique (1963)* adlı əsərlərində qadınların evdəki məhdud rolunu və cəmiyyətdə onlara qarşı tətbiq olunan stereotipləri tənqid edərək, geniş ictimaiyyətin diqqətini gender bərabərsizliyinə çəkdilər. Bu əsər qadınların öz şəxsiyyətlərini, arzularını və hüquqlarını tanımasına stimul verdi və feminist düşüncənin inkişafında həlledici mərhələ oldu.

Həmçinin, bu dövrün digər yazıçıları və dramaturqları da irq, sinif və gender məsələlərini yeni prizmalardan işıqlandıraraq, mövcud sosial strukturların təhlilini təqdim etdilər. Ədəbiyyat bu baxımdan yalnız sosial problemlərin əks olunması vasitəsi olmaqla kifayətlənmədi, həm də cəmiyyətin düşüncə tərzində transformasiya yaratmaq üçün katalizator funksiyasını yerinə yetirdi. Yazılı və səhnə əsərləri ictimaiyyətin diqqətini qapalı mövzulara yönəldərək, sosial ədalət və bərabərlik uğrunda mübarizənin genişlənməsinə zəmin yaratdı.

Nəticə etibarilə, 1960-1970-ci illərin ədəbi məhsulları, yalnız qadınların deyil, həmçinin digər sosial qrupların — irq və sinif baxımından kənarda qalmışların — səlahiyyətləndirilməsində əsas vasitə kimi çıxış etmiş, sosial dəyişikliklərin təşviqində və ictimai şüurun yüksəlməsində mühüm rol oynamışdır.

1960–1970-Ci İllər: Sosial Transformasiyalar Və Ədəbiyyatın Cəmiyyətlə Qarşılıqlı Əlaqəsi

1960 və 1970-ci illər Amerikada kəskin sosial və mədəni dəyişikliklərin baş verdiyi bir dövr kimi yadda qalmışdır. Bu illər ərzində ölkə bir tərəfdən Vyetnam müharibəsinin yaratdığı dərin siyasi və mənəvi parçalanma ilə, digər tərəfdən isə feminist hərəkat, gey hüquqları hərəkatı və irqi bərabərlik uğrunda mübarizənin güclənməsi ilə üzləşmişdir. Cəmiyyətin müxtəlif təbəqələrində hakim olan narazılıq, mövcud sosial qurumlara və dəyərlərə qarşı tənqidi

yanaşmanı təşviq etmiş, fərdi azadlıq və identiklik axtarışları ön plana çıxmışdır. Bu kontekstdə ədəbiyyat yalnız estetik vasitə deyil, eyni zamanda ictimai diskussiyanın mühüm aləti kimi çıxış etmişdir.

Bu dövrdə Kurt Vonnegutun *Slaughterhouse-Five (1969)* romanı müharibə təcrübəsinin absurdlugunu və travmatik təsirlərini satira və elmi-fantastika vasitəsilə ifşa edir. Müəllif, İkinci Dünya Müharibəsinin dağıdıcı reallığını və onun insan psixologiyasında buraxdığı dərin izləri göstərməklə, həm də Vyetnam müharibəsinin mənasızlığına dolayı yolla diqqət çəkir. Eyni dövrdə Hunter S. Thompson tərəfindən inkişaf etdirilən "gonzo jurnalistikası" (1970) janrı fakt və subyektiv təcrübəni birləşdirərək, ictimai-siyasi hadisələrin iç dünyaya təsirini fərdi prizmadan təqdim edir. Onun *Fear and Loathing in Las Vegas (1971)* əsəri dövrün sosial qeyri-sabitliyini, siyasi absurdluğunu və dəyərlərin deqradasiyasını sərt ironiyalarla tənqid edir.

Toni Morrison isə afroamerikalıların tarixi və mədəni təcrübəsini poetik və dərin psixoloji təsvirlərlə təqdim edərək ədəbiyyatda yeni bir mərhələ açmışdır. *The Bluest Eye (1970)* və *Song of Solomon (1977)* romanlarında müəllif, irqçilik, kimlik böhranı, kollektiv yaddaş və tarixdən miras qalan travmaların fərdi və ictimai səviyyədə necə təzahür etdiyini əhatəli şəkildə təhlil edir. T. Morrison-un əsərləri təkcə afroamerikalıların deyil, bütövlükdə Amerikanın sosial yaddaşının və humanitar dəyərlər sisteminin sorğulanmasında mühüm rol oynayır.

Əks-mədəniyyətin yüksəlişi, 1960–70-ci illərin Amerika ədəbiyyatında uzun müddət marginal vəziyyətdə qalmış kimliklərin və təcrübələrin təmsil olunma səviyyəsini əhəmiyyətli dərəcədə artırdı. Bu dövrdə LGBTQ+ icmasına mənsub yazıçıların ədəbi səhnədə daha fəal şəkildə iştirak etməsi, ədəbiyyatın həm sosial, həm də epistemoloji funksiyalarını genişləndirdi. James Baldwin kimi müəlliflər, yalnız irqi ayrı-seçkilik və sosial ədalətsizlikləri deyil, eyni zamanda çoxqatlı kimlik dinamikalarını da nəzərdən keçirərək Amerika cəmiyyətinin mədəni özünüdərk sərhədlərinə fundamental şəkildə təsir göstərdilər. Baldvinin *Go Tell It on the Mountain* və *Giovanni's Room* kimi əsərləri həm Afrika-Amerikan təcrübəsini, həm də homoseksual identikliyi dərindən təhlil edərək, mədəni diskursda uzun müddət susdurulmuş mövzulara yer açdı.

Rita Mey Braun isə *Rubyfruit Jungle (1973)* əsərində lezbiyan qadın kimliyini mərkəzə çəkərək, həm ədəbi formaları yenidən düşünməyə, həm də ictimai tabu anlayışlarını sorğulamağa təşəbbüs göstərdi. Bu cür yazıçılar vasitəsilə ədəbiyyat, yalnız fərdi və emosional təcrübələrin ifadə vasitəsi olmaqla məhdudlaşmadı, eyni zamanda sosial inklüzivliyin genişləndirilməsi, kimliklərin leqitimləşdirilməsi və mədəni normativliyin yenidən qurulması üçün vacib bir intellektual platformaya çevrildi. Beləliklə, ədəbiyyat, ictimai-mədəni diskursda "kimin danışmaq haqqı var?" sualına cavab axtarışında əsas vasitə rolunu oynayaraq, sosial ədalətin bərqərar olmasında transformativ gücə malik oldu.

Nəticə

XX əsrin əvvəllərinin sərt realizmindən tutmuş çağdaş yazıçıların cəsarətli eksperimentlərinə qədər Amerika ədəbiyyatı daim onun ifadə etdiyi cəmiyyətlə birgə təkamül etmişdir. Müxtəlif dövrlərə aid ədəbi nümunələr, cəmiyyətin əhval-ruhiyyəsini, narahatlıqlarını və siyasi mübarizələrini əks etdirməklə, həmin dövrün ictimai kontekstini anlamaq üçün dəyərli mənbəyə çevrilmişdir. İstər xarici, istərsə də daxildəki vətəndaş hüquqları uğrunda mübarizələrlə bağlı olsun, Amerika müəllifləri dəyişən reallıqları anlamaq və izah etmək üçün ədəbi yaradıcılıqdan fəal şəkildə istifadə etmişlər.

Amerika ədəbiyyatının cəmiyyətdə baş verən dəyişiklikləri necə əks etdirdiyini araşdırmaqla aydın olur ki, mətnlər həm empatiya yaratmaq, həm müqavimət göstərmək, həm də insanları fəaliyyətə təşviq etmək gücünə malikdir. Bu əsərlərlə qarşılıqlı əlaqə qurmaq təkcə tarixi

bilgiləri deyil, həm də müasir cəmiyyətin formalaşmasında iştirak edən fərdi və kollektiv baxış bucaqlarını anlamağa imkan yaradır.

Deməli, "Amerika ədəbiyyatı cəmiyyətin dəyişikliklərini necə əks etdirmişdir?" sualının cavabı yeknəsəq və sabit deyil, əksinə, daim inkişaf edən bir prosesdir. İnsanlar yeni ideyalarla qarşılaşdığı, yeni problemlərlə mübarizə apardığı və daha ədalətli gələcək arzusu ilə yaşadığı müddətcə, ədəbiyyat bu reallıqları əks etdirmək, sorğulamaq və bədii şəkildə təqdim etmək funksiyasını davam etdirəcəkdir. Beləliklə, Amerika ədəbiyyatı milli identikliyin, ictimai dəyərlərin və zamanın ruhunun ifadə vasitəsi olaraq aktuallığını qoruyub saxlayacaqdır.

Ədəbiyyat

1.Albee, E. (1961). *The American Dream*. Random House.
2.Braun, R. M. (1973). *Rubyfruit jungle*. Daughters Publishing.
3.Baldwin, J. (1953). *Go tell it on the mountain*. Alfred A. Knopf.
4.Baldwin, J. (1955). *Notes of a native son*. Beacon Press.
5.Bradbury, R. (1953). *Fahrenheit 451*. Ballantine Books.
6.Friedan, B. (1963). *The feminine mystique*. W. W. Norton & Company.
7.Hansberry, L. (1959). *A raisin in the sun*. Random House.
8.Miller, A. (1949). *Death of a salesman*. Viking Press.
9.Morrison, T. (1970). *The bluest eye*. Holt, Rinehart and Winston.
10. Morrison, T. (1977). *Song of Solomon*. Alfred A. Knopf.
11. Thompson, H. S. (1971). *Fear and loathing in Las Vegas: A savage journey to the heart of the American dream*. Random House.
12. Twain, M. (1884). *Adventures of Huckleberry Finn*. Charles L. Webster and Company.
13. Vonnegut, K. (1969). *Slaughterhouse-five*. Delacorte Press.
14. Williams, T. (1947). *A streetcar named desire*. New Directions.

THE IDEAS AND MOTIFS OF DADE GORGUD IN THE CREATIVITY OF BAKHTIYAR VAHABZADEH

ИДЕЯ И МОТИВЫ «ДЕДЕ КОРКУДА» В ТВОРЧЕСТВЕ БАХТИЯРОМ ВАХАБЗАДЕ

"DƏDƏ QORQUD" İDEYA VƏ MOTİVLƏRİ BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA

Yeganə Nəhmətulla qızı İsmayılova
Professor, filologiya elmləri doktoru Bakı, Azərbaycan
ORCİD-000-0003-3836-2229

Abstract
The research presented in this article clearly shows that Azerbaijani poets have long drawn inspiration from the motifs of Dede Gorgud in their works. After its publication in the first half of the XX century, the epos gained popularity and became a source of inspiration for skilled reciters. The tradition of incorporating Dede Gorgud motifs into modern poetry naturally evolved in line with the cultural and historical atmosphere of the time. During periods of repression, interest in the epos declined significantly, almost fading away. However, it later regained attention and became even more influential. From the 1950s onward, Kitabi-Dede Gorgud emerged as an important theme in Azerbaijani poetry during the Soviet era, leading to the creation of numerous poems and epic works. Poets such as B. Vahabzada, N. Khazri, I. Safarli, H. Arif, A. Abdullazada, Khidayat, V. Jabrailzada, N. Kesemenli, and R. Z. Khandan produced compelling poetic works inspired by Dede Gorgud.
Poems influenced by Kitabi-Dede Gorgud hold great significance in understanding how this epos has shaped modern Azerbaijani verse. Generally, these poems fall into two categories: 1. The poems of the first category: 2.Poems that incorporate elements of the epos. These works are not directly based on Dede Gorgud but reference its characters and themes. In many of these poems, figures such as Salur Kazan, Beyrek, and Garaja Choban symbolize bravery, while Dede Gorgud represents wisdom. However, simply mentioning these names does not necessarily make a poem fully centered on Dede Gorgud. The poems of the second category: Poems deeply rooted in the motifs of the epos – These works, written by poets like N. Khazri, B. Sahand, A. Abdullazada, Z. Yagub, N. Kesemenli, T. Elchin, and R. Tahmazoglu, explore the themes, ideas, and characters of Dede Gorgud in various artistic forms and styles.
Key words: Kitabi-Dede Gorgud, poem, history of Azerbaijani literature, ethnography, epic, scholars and researchers.

РЕЗЮМЕ
Исследование показывает, что азербайджанские поэты широко использовали мотивы «Деде Коркуд» в своем творчестве. После публикации в первой половине XX века эпос «Деде Коркуд» приобрел большую популярность и послужил источником вдохновения для мастеров слова. Традиция использования мотивов «Деде Коркуд» в современной поэзии в дальнейшем соответствовала атмосфере времени.

В период репрессий интерес к эпосу ослаб, почти угас, позднее же усилился. Начиная с 50-х г.г. XX в. тема «Китаби-Деде Коркуд» в азербайджанской поэзии советского периода постепенно расширяется; пишется множество стихотворений, поэм. Б.Вагабзаде, Н.Хазри, И.Сафарли, Г.Ариф, А.Абдуллазаде, Хидаят, В.Джабраилзаде, Н.Кесеменли, Р.З.Хандан и другие азербайджанские поэты создали интересные образцы поэзии по мотивам эпоса «Деде Коркуд».

В изучении влияния эпоса «Китаби-Деде Коркуд» на современный азербайджанский стих особое значение имеют поэмы, написанные на основе мотивов данного эпоса. В азербайджанской поэзии поэмы, связанные с мотивами «Китаби-Деде Коркуд», условно могут быть разделены на две категории:

1. поэмы, частично (определенными элементами) связанные с эпосом;
2. поэмы, написанные по мотивам эпоса.

Среди поэм первой категории можно привести множество примеров. Эти произведения непосредственно не связаны с мотивами «Деде Коркуд». В большинстве этих поэм образ Деде Коркуда, другие герои дастана, средства художественного повествования, описания и выразительности встречаются лишь фрагментарно. Вообще, азербайджанские поэты, воспевая своих лирических героев, часто обращались к именам героев дастана: Салар Казан, Бейрек, Гараджа Чобан как символы храбрости, Деде Коркуд как символ мудрости. Однако считать эти поэмы произведениями, написанными на тему «Деде Коркуд», лишь на основании таких фактов неправомерно.

Во вторую категорию входят поэмы, написанные такими мастерами слова, как Н.Хазри, Б.Саханд, А.Абдуллазаде, З.Ягуб, Н.Кесеменли, Т.Эльчин, Р.Тахмазоглы. В этих поэмах идеи и образы эпоса «Деде Коркуд» даются в разных формах и с разным художественным содержанием.

Ключевые слова: «Китаби-Деде Коркуд», дастан, поэма история, азербайджанской литературы, этнография, эпос, ученые-исследователи.

Xülasə

Tədqiqatlar göstərir ki, Azərbaycan yazarları «Dədə Qorqud» motivlərinə daima müraciət etmişlər: onların yaradıcılığında Qorqud ədəbi ruhu həmişə var olmuş, daim milli poetik düşüncəni qidalandırmışdır. XX əsrin birinci yarasında «Kitabi-Dədə Qorqud» eposunun çap olunaraq cəmiyyətimizdə məşhurlaşması, yaranan «Dədə Qorqud» coşqusu müasır ədəbiyyatımızda bu günə kimi davam etməkdədir. Müasir poeziyada «Kitabi-Dədə Qorqud» motivlərindən istifadə ənənəsi dövrün ab-havasına uyğun olmuşdur. Repressiyalar dövründə ona maraq zəifləmiş, lap sönmüş, sonralar yenə güclənmişdir. «Kitabi-Dədə Qorqud» mövzusu sovet dövrü Azərbaycan poeziyasında 50-ci illərdən başlayaraq getdikcə genişlənmiş, çoxlu şeir və poemalar yazılmışdır. B.Vahabzadə, N .Xəzri, İ.Səfərli, H.Arif, A.Abdullazadə, Hidayət, V.Cəbrayılzadə, N.Kəsəmənli, R.Z.Xəndan və b. şairlər «Dədə Qorqud» motiviəri əsasında maraqlı poeziya nümunələri yaratmışlar.

«Kitabi-Dədə Qorqud» eposunun müasir Azərbaycan şeirinə təsirinin öyrənilməsində «Dədə Qorqud» motivləri əsasında yazılmış poemalar xüsusi yer tutur. Azərbaycan poeziyasında «Kitabi-Dədə Qorqud» motivləri ilə bağlı poemaları iki qismə ayırmaq mümkündür:

Birincisi, eposla qismən (müəyyən elementlərlə) bağlı olan poemalar.

İkincisi, «Dədə Qorqud» motivləri üstündə yazılmış poemalar.

Birinci qismə aid poemalara çoxlu nümunələr gətirmək mümkündür. Bu əsərlər birbaşa «Dədə Qorqud» motivləri ilə əlaqədar deyildir. Həmin poemaların əksəriyyətində Dədə Qorqud obrazına, eposun digər qəhrəmanlarına, «Dədə Qorqud» deyimlərinə, bədii təsvir və ifadə vasitələrinə fraqmentar şəkildə (yəni yeri gəldikcə) rast gəlinir. Ümumiyyətlə, şairlərimiz

xüsusilə öz lirik qəhrəmanlarını tərənnüm edərkən igidlik simvolu kimi Salur Qazan, Beyrək, Qaraca Çoban kimi qəhrəmanların adlarına, eləcə də müdriklik simvolu kimi Dədə Qorqud adına tez-tez müraciət etmişlər. Lakin belə məqamlara əsaslanıb, həmin poemaları «Dədə Qorqud» mövzusunda yazılmış əsərlər hesab etmək olmaz.
İkinci qismə aid poemalara gəldikdə bunlar, əsasən, N.Xəzri, B.Səhənd, A.Abdullazadə, Z.Yaqub, N.Kəsəmənli, T.Elçin, R.Təhməzoğlu və s. kimi sənətkarların yaradıcılığını əhatə edir. Bu sənətkarların yazdığı poemalarda «Dədə Qorqud» eposunun obraz və ideyalarının müxtəlif bədii məzmun və formalarda təsviri ilə qarşılaşırıq.
Açar sözlər: «Kitabi-Dədə Qorqud», dastan, poema, Azərbaycan ədəbiyyatı tarixi, qorqudşünaslıq, epos, araşdırıcı alimlər

Aktuallıq. «Dədə Qorqud» xalqımızın bədii düşüncəsində əbədi yaşayan poetik ruhdur. Şairlərin təxəyyülündə ilhamın oyanması tarixən bu ruhun da oyanması ilə müşayiət olunmuşdur. Qorqud ədəbi ruhu həmişə var olmuş, daim milli poetik düşüncəni qidalandırmışdır. XX əsrin birinci yarısında «Kitabi-Dədə Qorqud» eposunun çap olunaraq cəmiyyətimizdə məşhurlaşması bu ruhu şairlərin təxəyyülündə kütləvi şəkildə coşdurdu. Həmin çoşqa müasir ədəbiyyatımızda bu günə kimi davam etməkdədir.
Annotasiya. B.Vahabzadənin poeziyasında dastana bütün hallarda milli dəyərlər aspektində müraciət etməsinin səbəbləri onun bir məqaləsində belə izah edilmişdir: «Hər bir xalq üçün öz kökünü, ilkini və qaynağını bilmək vacibdən vacibdir. Ona görə ki, haradan gəldiyini bilməyən hara gedəcəyini də bilməz. Bu gün böyük xarüqələr yaradan, qəhrəmanlıqlar göstərən xalqımız bu qüdrəti və bu gücü haradan almış - deyə düşündüyümüz zaman keçmişə baxır, ilkimizi araşdırmalı oluruq. Bugünkü qəhrəmanlar kökləri əsrlərin dərin qatlarına işləyən nəhəng bir ağacın əsrimizdəki budaqlarıdır. Bu ağacın adı "Qorqud" ağacıdır".
Metod. Müqayisəli-məntiqi, təsviri və qarşılaşdırma metodlarından istifadə edilmişdir.

Giriş.
Müasir poeziyada «Kitabi-Dədə Qorqud» motivlərindən istifadə ənənəsi daha sonra dövrün ab-havasına uyğun olmuşdur. Repressiyalar dövründə ona maraq zəifləmiş, lap sönmüş, sonralar yenə güclənmişdir. Ümumiyyətlə isə «Dədə Qorqud» ruhu Azərbaycan ədəbiyyatın heç vaxt tərk etməmişdir. Tədqiqatçı G.Babaxanovanın yazdığı kimi, «Dədə Qorqud kitabı» və 1920-30-cu illər Azərbaycan sovet poemaları (ümumən poeziyası - Y.İ.) arasında mövzu, motiv, obraz, ideya, bədii ifadə vasitələri baxımından istənilən qədər paralellər aparmaq, səsləşmələr, bəhrələnmələr, təsirlənmələr aşkara çıxarmaq mümkündür". [1, s. 63-64].
N.Ələkbərli eposun ədəbiyyata təsirinin çoxplanlı, mürəkkəb və geniş tədqiqat tələb edən iş olmasına işarə edərək yazır ki, ədəbiyyatımızda «Kitabi-Dədə Qorqud»un təsiri təkcə birbaşa deyil, həm də dolayısı ilədir. «Kitabi-Dədə Qorqud» poeziyasının, nəsrinin, bədii-fəlsəfi hikmətinin, orijinal poetikasının təsiri bir çox sənətkarların yaradıcılığında öz izlərini qoymuşdur. Bu təsirin izlərini onlarca şeirdə, hekayədə, miniatür və epik əsərlərdə müşahidə etmək mümkündür. «Kitabi-Dədə Qorqud» mövzusu sovet dövrü Azərbaycan poeziyasında 50-ci illərdən başlayaraq getdikcə genişlənir, çoxlu şeir və poemalar yaranır. B.Vahabzadənin, N.Xəzrinin, İ.Səfərlinin, H.Arifin, AAbdullazadənin, Hidayətin, V.Cəbrayılzadənin, N.Kəsəmənlinin, R.Z.Xəndanm və b. şairlərin yaradıcılığında «Kitabi-Dədə Qorqud» motivlərinə çox rast gəlirik "[2, s.16].
Maraqlıdır ki, Azərbaycan poeziyasında xüsusilə görkəmli şairlərin yaradıcılığında «Dədə Qorqud» motivlərindən istifadə kiçik janrlardan (şeirlərdən) monumetal janrlara (poemalara) doğru istiqamət götürmüşdür. Bu cəhətdən B.Vahabzadə, N.Xəzri, B.Səhənd, A.Abdullazadə, Z.Yaqub, N.Kəsəmənli, V.Aslan və b. şairlər Dədə Qorqud ruhunda təkcə kiçik həcmli şeirlər yox, eləcə də iri poemalar yazmışlar. Ədəbiyyatdakı bu prosesi bir dalğa hesab edən tədqiqatçı

H.Həşimli göstərir ki, «Kitabi-Dədə Qorqud» motivlərinin yazılı ədəbiyyatda yeni bir dalğa ilə qüvvətlənməsi... (XX əsrin - Y.İ.) 1970-ci illərdən başlanır. Bunun müəyyən obyektiv və subyektiv səbəbləri də vardır. O doğrudur ki, dastan Azərbaycanda ilk dəfə altmış il bundan əvvəl çap edilmiş, lakin stalinizm dövründə yayılmamış, qərəzli münasibətə hədəf olduğundan ədəbi prosesə təsirsiz qalmış, yalnız 60-cı illərdən sonra dastan yenidən ədəbi həyatda öz qanuni yerini bərpa etməyə başlamışdır (3).
Azərbaycan şairlərinin yaradıcılığında «Kitabi-Dədə Qorqud» motivlərindən istifadə bütün hallarda milli-mənəvi dəyərlərlə bağlıdır. Şairlər eposa bu dəyərlərin qaynağı kimi müraciət etmişlər. Bunun belə olması isə qanunauyğun idi. Çünki «Kitabi-Dədə Qorqud» boylarında tədqiqatçı İ.Rüstəmovun yazdığı kimi, səxavət, qeyrət, sədaqət, ədalət, humanizm, gözəlliyin tərənnümü, musiqinin mahiyyəti, azadlıq problemi, sadə insanların səciyyəsi, ana müqəddəsliyi, vətənpərvərlik, doğruçuluq, əxlaqi saflıq, etibar kimi bəşəri problemlərlə qarşılaşırıq» [4, s. 18]. Eposdakı bu milli-mənəvi, milli-əxlaqi keyfiyyətlər onun Azərbaycan xalqının etnik-psixoloji xüsusiyyətlərini inikas edən abidə olması ilə bağlıdır. Prof. Ə.Bayramov yazır ki, «Dədə Qorqud» dastanlarında öz əksini tapan etnik xarakter əlamətləri ümumən oğuz etnosunun «psixi sima»sının aynası kimi çıxış edir [5, s. 27]. Şairlərimizin, yazıçılarımızın eposa coşqun marağının əsasında elə bu amil durur. Özünü bir milli şəxsiyyət və sima kimi axtaran, milli özünütəsdiq ideyaları üçün alışıb-yanan yaradıcı subyektlər bütün bu ideya və idealları məhz «Kitabi-Dədə Qorqud» dastanlarında tapırlar. Bu cəhətdən görkəmli şair B.Vahabzadənin dastanın obraz və ideyalarından istifadəsinin kökündə məhz milli ideyalar, milli özünütəsdiq idealları durur.
«Azərbaycan oğluyam» şeirində «anasının torpaq», «atasının od olduğunu» və «oddan yarandığını» milli özünütəsdiqin ən ali və ülvi səviyyəsi kimi bəyan edən B.Vahabzadə milli varlığımızın «hünər» keyfiyyətini vəsf edərkən «Kitabi-Dədə Qorqud»dan məşhur adalma motivinə istinad etmişdir:

Hünər göstərməyincə
Adsız yaşamışam mən.
Dədəm Qorqud ad verdi
Mənə .öz hünərimdən [6, s. 197].

Şair Qarabağ atını tərənnüm edərkən onu elımızın igidlık sımvolu səviyyəsinə qaldırır və bu zaman ulu Bayandur xanı yada salır.

Qarabağın kürən atı –
Döyüşlərdə arxasıdır
Koroğlunun,
Bayandurun [7, s.46].

Başqa bir (adsız) şeirində ulu Dədə Qorqud sənətkarın ürəyini içəridən
didən fikirləri, milli arzu və istəklərini bölüşdüyü həmsöhbət - həmdərddir: Tutuşmuşam, çaxmaq yoxdur alışmağa.

Qaynayıram, təpərim yox, nə coşmağa, nə daşmağa.
Ürəyimin sözlərini oba-oba danışmağa
Dədə Qorqud timsalında ozan ola,
Bir qəribə yuxu gördüm, istəyimcə yozan ola! [7, s. 46]

Filosof şair B.Vahabzadənin poezıyasında dastana bütün hallarda milli dəyərlər aspektində müraciət etməsinin səbəbləri onun bir məqaləsində belə izah edilmişdir: «Hər bir xalq üçün öz kökünü, ilkini və qaynağını bilmək vacibdən vacibdir. Ona görə ki, haradan gəldiyini bilməyən hara gedəcəyini də bilməz. Bu gün böyük xarüqələr yaradan, qəhrəmanlıqlar göstərən xalqımız bu qüdrəti və bu gücü haradan almış - deyə düşündüyümüz zaman keçmişə baxır, ilkimizi araşdırmalı oluruq. Bugünkü qəhrəmanlar kökləri əsrlərin dərin qatlarına işləyən nəhəng bir ağacın əsrimizdəki budaqlarıdır. Bu ağacın adı «Qorqud» ağacıdır[8].

Müasir Azərbaycan poeziyasında elə məqamlar var ki, birbaşa «Dədə Qorqud» poetik ruhunun varlığına bağlıdır (onun ifadəsidir). Belə şeirlərdə «Dədə Qorqud» zahiri planda olmasa da, bir ruh, daxildən, arxaik yaddaşdan gələn enerji simvolları kimi poetik mətnə daxil olur. Tədqiqatçı G.Əliyeva bu barədə Azərbaycan poeziyasında xüsusi poetik üsluba malik olan B.Vahabzadə poeziyasının nümunəsində yazır: «70-90-cı illər poeziyasında Dədə Qorqud boylarından əksər hallarda ritorik və patetik (həddən artıq duyğusal) istiqamətdə deyil, estetik yönümdə istifadə edilmiş, dastanların heyrətamiz sənətkarlıq xüsusiyyətləri çağdaş poetik fikrimizi zənginləşdirmişdir.

Azərbaycan şairləri «Dədə Qorqud» motivlərinə geniş şəkildə müraciət etmişlər. Qorqud ədəbi ruhu həmişə var olmuş, daim milli poetik düşüncəni qıdalandırmışdır. XX əsrin birinci yarasında «Kitabi-Dədə Qorqud» eposunun çap olunaraq cəmiyyətimizdə məşhurlaşmasından yaranan «Dədə Qorqud» coşqusu müasir ədəbiyyatımızda bu günə kimi davam etməkdədir.

B.Vahabzadənin müəllim-tələbə münasibətlərinin mənəvi meyarlarından bəhs edən «Qiymət» poemasında (1970) müəllim adının məsuliyyətindən belə bəhs edir:

Mənə tapşırdılar şərəfli, çətin
Qiymət vermək kimi bir vəzifəni.
Özümdən soruram, bəs sən neylədin?
Gör necə aldılar özündən səni!
Niyə tapılmadı o qüdrət məndə,
Verim qiymətini, verim hər kəsin?
Saxsını almazla bir eyləyəndə,
Günahkar sərrafdır, almaz neyləsin?
Qorqud adamlara ad qoyanda da
Əməli düşündü,
Dəyəri gördü...
Güvənib Dədədən aldığı ada
Hər kəs o ad ilə ömrünü sürdü.
Mən verə bilmədim, ay Qorqud Dədə,
Doğru qiymətini burda hər kəsin [9, s. 524].

Göründüyü kimi, şair poemanın baş qəhrəmanı olan müəllimin mənəvi ağrılarının təsviri zamanı Dədə Qorqudun ad verməsi motivindən insana qiymət verməyin ideal nümunəsi kimi istifadə etmişdir. Halbuki poema mövzusu etibarilə heç bir halda «Kitabi-Dədə Qorqud» eposu ilə bağlı deyildir.

B.Vahabzadənin stalinizm repressiyalarının milli mənəviyyatda doğurduğu eybəcərliklərdən bəhs edən «İki qorxu» adlı poemasında (1988) da bir məqamda oxuyuruq:

De, hara sığışar, hara ey zaman,
Bu boyda təhqirə xalqın dözməsi -
Dədə Qorqud kimi dədəsi olan
Millətin özünə dədə gəzməsi [10, s. 568].

B.Vahabzadə dramaturgiya sahəsində də özünəməxsusdur, fəal vətəndaşlıq mövqeyi nümayiş etdirmişdir. “İkinci səs”, “Yağışdan sonra”, “Yolllara iz düşür”, “Qızıl alma”, “Dar ağacı”, “Atamın kitabı”, “Fəryad”, “Özümüzü kəsən qılınc” (“Göy türklər”) və b. dramlarının mövzu dairəsi, bu əsərlərdə qaldırılan milli, bəşəri problemlər, onların bədii həlli şairi mahir bir dramaturq kimi təsdiqləməkdədir. Şairin dramlarında poeziyasında olduğu kimi lirik- psixoloji və epik-fəlsəfi üslub özünü göstərir. Tədqiqatçılar onun müxtəlif növ və janrlarda yazdığı əsərlərinin leytmotivini belə xarakterizə edirlər: “Ümumiyyətlə, B.Vahabzadənin yaradıcılığında lirik, epik və dramatik əsərlərinin hamısı üçün bır leytmotiv xarakterikdir: mümkün qədər insanın iç dünyasına, daxili-mənəvi aləminə baş vurmaq, onun görünməyən, qapalı, aysberqə bənzəyən tərəflərini kəşf etmək” [11].
Bəxtiyar Vahabzadənin sırf tarixi mövzuda yazdığı üç pyesi vardır: “Dar ağacı” (Babəkə həsr olunub) “Fəryad” (Nəsimiyə həsr olunub), “Özümüzü kəsən qılınc” (“Göytürklər”). “Dar ağacı” pyesində Babəkin edamına nail olmuş Aqşinin (Ərəb xilafətinin valisi kimi Azərbaycana qayıtmışdı) ömrünün də dar ağacında bitməsi ibrətamizdir. İmadəddin Nəsimiyə həsr olunmuş “Fəryad” mənzum tarixi faciəsində fikir və şəxsiyyət azadlığı problemi qaldırılmışdır. Tədqiqatçılar Bəxtiyar Vahabzadənin pyeslərinin onun poeziyası ilə bağlılığını insan psixologiyasının ziddiyyətləri ilə vəhdətdə izlədiyini, daxili aləmin təhlilinə qüvvətli meyilliliyin şairin yaradıcılığı üçün səciyyəviliyini qeyd edirlər.
B.Vahabzadə tarixi mövzuya müraciət edərkən “tarixi dürüstlüyü tam mühafizə etməyi”, “tarixi şəxsiyyəti həyatda olduğu kimi” verməyi vacib hesab etmir. Qəhrəmanlarının əlamətdar cəhətlərini, tərcümeyi-halının mühüm nöqtələrini tarixin inkişaf qanunları baxımından ümumiləşdirilib, onun yaşadığı dövrü, bu dövrün pafosunu, qabaqcıl ideyalarını əks etdirir. Hər tarixi dramını yazmazdan əvvəl müəllif qələmə aldığı dövrü dərindən öyrənir, ona bu günün gözüylə nəzər salmağı, dövrlər arasında kontakt yaratmağı bacarır, bu günün tamaşaçıları ilə ulu əcdadlarımız arasında bir növ körpü yaradır [11].
B.Vahabzadənin müstəqillik illərində qələmə aldığı tarixi dramlarından biri də “Özümüzü kəsən qılınc” adlanır. “Özümüzü kəsən qılınc” pyesi müstəqillik dövrü Azərbaycan dramaturgiyasının payına düşür. “Kitabi-Dədə Qorqud”un motivləri əsasında yazılmış bu dramda türklərin şanlı, ulu tarixi mövzu obyekti kimi götürülmüş, türk xalqlarının birliyi məsələsinin vacibliyi əsas ideya mərkəzinə gətirilmişdir. Tarixiliklə və müasirliyi özündə təcəssüm etdirən “Özümüzü kəsən qılınc” ("Göytürklər") dramı əsl mənada tarixin ibrət dərsidir: “Nə qədər ki, qılıncımız düşməni deyil, özümüzü kəsəcək, biz kiçiləcəyik, böyük türk ola bilməyəcəyik”. Əsər VII əsrdə mövcud olmuş Göytürklərdən, onların torpaq uğrunda apardığı mübarizədən, əsərin qəhrəmanı Gur-Şadın qəhrəmanlığından bəhs edir. Ana xəttini vətən, torpaq, azadlıq təşkil edən “Özümüzü kəsən qılınc” pyesində bədii boyalarla B.Vahabzadə tarixilik və müasirliyin vəhdətini yaratmışdır.
Bu əsərləri milli keçmişimizə qoyulan möhtəşəm abidə hesab etmək olar.

Nəticə

B.Vahabzadənin "Özümüzü kəsən qılınc" pyesi "Dədə Qorqud" dastanlarındakı motivlər əsasında yazılmışdır. Pyesin əsasında qədim türk tayfaları arasındakı düşmənçılık və müharibələr mövzusu durur: özümüzü kəsən qılınc məhz budur. Şair tarixi mövzu ilə xalqımızı birliyə çağırır, tayfaçılıq və yerliçilik kimi eybəcər halların xalqımızın gələcəyi üçün təhlükə olduğunu vurğulayır.

Ədəbiyyat

1. Babaxanova G. 1920-30-cu illər Azərbaycan poemalarında "Dədə Qorqud" dastanı ilə bağlılığı. // "Dədə Qorqud" jurnalı, 2007, №2, s.60-64
2. Ələkbərli N. "Kitabi-Dədə Qorqud" Azərbaycan ədəbiyyatında // "Azərbaycan" jurnalı, 1999, №9, s.13-17
3. Müasir Azərbaycan ədəbiyyatı. Ali məktəblər üçün dərslik. 2 cilddə. II cild, B., 2007, 564s.
4. Rüstəmov İ. "Dədə Qorqud"da insan gözəlliyi. Bakı, Bilik Cəmiyyəti, 1978, 48s.
5. Bayramov Ə. "Kitabi-Dədə Qorqud" dastanlarında etnik-psixoloji xüsusiyyətlərin inikası. Bakı: Nurlan, 2000, 148s.
6. Vahabzadə B. Əsərləri (1960-1969). 12 cilddə. II c., Bakı, Elm, 2008, 616s.
7. Vahabzadə B. Açılan səhərlərə salam. Bakı: Yazıçı, 1979, 230s.
8. Vahabzadə B. Qorqud obrazı və tarixi-ictimai hadisələr // "Ədəbiyyat və incəsənət" qəz., 1079, 29 iyun
9. Vahabzadə B. Əsərləri (1970-1979). 12 cilddə, IV c. Bakı: Elm, 2008, 662 s.
10. Vahabzadə B. Əsərləri (1980-1989). 12 cilddə, V c. Bakı: Elm, 2008, 584 s.
11. Əliyeva X. Müasir Azərbaycan dramaturgiyası. Dərs vəsaiti. Sumqayıt, 2019.127s.

THE ROLE OF STORY-BASED ROLE-PLAYİNG GAMES İN İMPROVİNG THE QUALİTY OF EDUCATİON İN PRİMARY SCHOOLS

İBTİDAİ SİNİFLƏRDƏ TƏLİMİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ SÜJETLİ ROLLU OYUNLARIN ROLU

p.ü.f.d. Günel İsrafilova
Azərbaycan Dövlət Pedaqoji Universiteti

Xülasə
Məqalədə göstərilir ki, süjetli-rollu oyunlar təlim keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, ibtidai sinif şagirdlərində kommunikativ bacarıqların və idrak prosesləri inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir. Süjetli-rollu oyunlar kommunikativ bacarıqların inkişafına töhfə verməklə tədris prosesini əyləncəli fəaliyyətə çevirərək, kiçik məktəblilərdə böyük emosional sıçrayışlar yaradır. İbtidai siniflərin təlimində dərslərdə süjetli-rollu oyunlardan səmərəli istifadə şagirdlərin idrak fəallığını təmin edir. Beləliklə, təlim keyfiyyəti yüksəlir, şagirdlərdə təlim maraqları və motivləri inkişaf edir. Məqalədə qeyri-standart dərslərin mühüm növlərindən olan süjetli-rollu oyunların bir neçə xüsusiyyəti və məqsədləri nəzərdən keçirilmişdir.
Açar sözlər: fəal təlim, ibtidai təhsil, təlim prosesi, qeyri-standart dərs, ibtidai sinif, süjetli rollu oyunlar, pedaqoji texnologiyalar.

Abstract
The article shows that in addition to improving the quality of teaching, plot-based role-playing games are of particular importance for the development of communication skills and cognitive processes in primary school students. Plot-based role-playing games create big emotional leaps in young schoolchildren, transforming the teaching process into a fun activity, contributing to the development of communication skills. The effective use of plot-based role-playing games in lessons in primary school education provides students' cognitive activity. This improves the quality of teaching and develops students' interest and motivation to learn. The article considers various features and goals of plot-based role-playing games as important types of non-standard lessons.
Keywords: active learning, primary education, learning process, non-standard lesson, primary class, plot-based role-playing games, pedagogical Technologies.

Giriş

Ümumtəhsil məktəblərinin ibtidai siniflərində təlimin keyfiyyətinin yüksəldilməsində didaktik oyunlardan istifadə edilməsi mühüm aktuallıq kəsb edir. Təlimin keyfiyyətinin yüksəldilməsinə təsir edən süjetli-rollu oyunların tətbiqi texnologiyalarının nəzəri tərəfləri ilə yanaşı, praktik fəaliyyət istiqamət-lərindən istifadə edilməsi də öz aktuallığı ilə diqqəti cəlb edir.

“Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyasında, yəni Milli Kurikulumu”nda [1] ibtidai təhsil səviyyəsi qarşısında qoyulmuş məqsədlərdən və bu məqsədlərə uyğun həllini gözləyən vəzifələrdən ən vacibi ibtidai sinif şagirdlərinin məntiqi, yaradıcı təfəkkürlərini inkişaf etdirməkdən ibarətdir.

Azərbaycan Respublikası Təhsil Qanununda deyilir: “İbtidai təhsilin məqsədi təhsilalanlara oxumaq, yazmaq və hesablama bacarıqları aşılamaq, onlarda insan, cəmiyyət və təbiət haqqında ilkin həyati biliklər, məntiqi təfəkkür elementləri, estetik, bədii zövq və digər xüsusiyyətlər formalaşdırmaqdan ibarətdir” [2, 28].

Əvvəlki illərdə məktəbin birinci sinif şagirdlərinin məktəbdə öyrəndikləri bilik, bacarıq və vərdişlər indi məktəbəqədər təhsil müddətində, məktəbə hazırlıq dövründə əsasən elementar da olsa mənimsənilir. Belə olan halda isə şagirdləri maraqlandıran məlumatların asanlığı onları biliklərin əldə edilməsi prosesindən uzaqlaşdırır və uşaqların təlim motivasiyası səviyyəsinin aşağı düşməsinə səbəb olur. Məhz buna görə də müəllim müxtəlif metodlardan stimullaşdırma və şagirdlərin kommunikativ bacarıqlarının vəidrak proseslərinin inkişafı üçün istifadə etməlidir.

Belə metodlardan biri süjetli-rollu oyunlardır. Süjetli-rollu oyunları ibtidai sinifşagirdlərinin kommunikativ bacarıqlarının və idrak proseslərinin inkişafı baxımından nəzərdən keçirək.

Süjetli-rollu oyunlar vasitəsilə keçilən təlim keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, ibtidai sinif şagirdlərində ünsiyyət bacarıq vəidraki proseslərin inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir.

İbtidai sinif şagirdlərində kommunikativ bacarıqların və vərdişlərin inkişaf etdirilməsi şəxsiyyətin formalaşması prosesində mühüm yer tutur.

Kommunikativ qabiliyyətlərin məzmunu və strukturundan danışarkən "vərdiş" və "bacarıq" anlayışlarını xarakterizə edən əhəmiyyətli və fərqləndirici əlamətlərə diqqət etmək lazımdır.

Yerli və xarici məktəblərdə oyun metodikalarının istifadəsinə dair mövcud təcrübə sübut edir ki, kiçikyaşlı məktəblilərdə kommunikativ bacarıqların dəqiq və əlverişli ünsiyyət modeli olan süjetli-rollu oyunlar prosesində formalaşdırılması məqsədəuyğundur.

S.O. Tambiyeva öz tədqiqatında [7] kiçikyaşlı məktəblilərin kommunikativ fəaliyyətinin fəallaşdırılmasında didaktik oyunun bir vasitə olduğunu, E.B. Xvostova isə tədqiqatında [8] sinifdənxaric məşğələlərdə kiçikyaşlı məktəblilərin kommunikativ bacarıqlarının inkişafını araşdırmışdır.

Süjetli-rollu oyunların kiçikyaşlı məktəblilərdə ünsiyyətin təşkili və kommunikativ bacarıqların inkişafında əhəmiyyəti nədən ibarətdir?

Bizim fikrimizcə, ünsiyyətin öyrədilməsində süjetli-rollu oyunların vasitə kimi mahiyyəti ondan ibarətdir ki, bu və ya digər kommunikativ tapşırıq (əlaqə yaratmağı öyrənmək, söhbəti düzgün aparmaq və s.) iştirakçılar tərəfindən müəyyən vəziyyətin improvizasiyası yolu ilə yerinə yetirilir. Eyni bir vəziyyət bir neçə dəfə təkrarlanır. Bu, şagirdlərə rollarını dəyişdirmək, öz davranış variant-larını təklif etmək imkanı yaradır. Sonradan hansı variantların daha uğurlu olduğunu müzakirə etmək olar.

Məsələn, qrupda işləmək bacarıqlarının öyrədilməsi müəllimin şagirdlərə ətraflı təlimat verməsindən başlayır. Buraya, dərketmə və digər fəaliyyət növlərinin təşkili məqsədi ilə sinfin bölündüyü hər qrup üzvlərinin uğurlu işgüzar ünsiyyəti üçün zəruri olan standart hərəkətlərin siyahısı daxildir. Bu siyahı bir sıra məlumatları özündə ehtiva edir: qrup işi nədir və qrupdaxili işlərin ardıcıllığı necədir? tapşırıqla tanışlıq; işin planlaşdırılması; tapşırıqların fərdi, cütlüklər və ya qrup şəklində yerinə yetirilməsi; nəticələrin müzakirəsi.

Müəyyən zaman çərçivəsində bu bacarıqlar şagirdlərin böyük qismi tərəfindən mənimsənilir. Bu zaman müəllim onlara növbəti, daha çətin, ancaq kifayət qədər standart qabiliyyətlərin öyrənilməsini təklif edə bilər: hansı vəziy-yətlərdə qrupun bu və ya digər üzvlərinə fikrini ifadə etmək daha yaxşıdır, hansında isə istəklə bağlıdır; hansı məqamlarda ümumi nəticəni təkrar etmək məqsəduyğundur, hansında gərəksizdir və s.

Tədricən uşaqlarda standart qabiliyyətlər avtomatik xarakter aldıqca, improvizasiyalara başlamaq olar.

Məktəblilər birgə özfəaliyyətin təşkili üsullarını dərk edir, mümkün variantları müzakirə edir, bunu təkmilləşdirməyin yollarını axtarırlar.

Beləliklə, süjetli-rollu oyunlar müxtəlif yaradıcılıq fəaliyyətlərinin əsası və mənbəyi olaraq, uşaqların produktiv (məhsuldar) təxəyyülünü inkişaf etdirir, onların estetik potensialının artmasına kömək edir. Bu baxımdan süjetli-rollu oyunlar uşaqda dünyanın sosial və estetik

cəhətdən mənimsənilməsində dünyaya müstəqil və düzgün baxışların tərbiyəsində özünəməxsus məktəb rolunu oynayır.

Qeyri-standart dərslərin mühüm növlərindən olan süjetli-rollu oyunların bir neçə xüsusiyyətləri olmasıdır. Bunlar, əsasən, aşağıdakılardan ibarətdir:

1. Bu oyunun funksiyası ondan ibarətdir ki, uşaqlara emosional cəhətdən cəlbedici mövqe tutmağa və daxil olduqları real vəziyyətin icrasını asanlaşdırmağa imkan verir.
2. Uşaqların süjetli-rollu oyunlardakı ünsiyyəti təbiidir. Rəhbərlik və bir-birinə tabe olmaq heç bir məcburiyyət olmadan baş tutur. Uşaqlar oyundakı münasibət növlərini real həyatlarına daşıyırlar.
3. Süjetli-rollu oyunların mütəmadi dəyişkən mühiti iştirakçılardan öz qabiliyyətlərinin və əvvəllər yaranmış vərdişlərinin nümayişini tələb edir. Bu isə şəxsi keyfiyyət və vərdişlərin mükəmməlləşməsinə və onların real, həyati fəaliy-yətə yaxınlaşmasına imkan yaradır.
4. Qaydalara əsasən rollu oyunlarda tapşırığın və ya rolun sona çatdırılması üçün iradə nümayiş etdirmək lazımdır, əks təqdirdə uduzmaq olar. Oyuna aludə olmuş uşaq burada özünü hər hansı digər fəaliyyətindən fərqli olaraq tam bütövlüyü nümayiş etdirdiyi üçünbu, mütəşəkkilliyin inkişafına da səbəb olur.

Quba şəhəri 1 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Sevda Bağırovanın III [a] sinfində Azərbaycan dili fənnindən apardığı süjetli-rollu oyun nümunəsini nəzərdən keçirək.

Mövzu: Nağılı davam etdir.

Məqsəd: Nitqin, uşaqların yaradıcı təxəyyülünün inkişafı, plastik teatr yaradıcılığının stimullaşdırılması.

Müəllim:

-Uşaqlar, sadəcə nəql olunmayan, eləcə də jestlərin köməyi ilə nümayiş etdirilən qeyri-adi nağıla qulaq asın.

Biri var idi, biri yox idi, bir dovşan var idi (sağ əl yumruq şəklində qatlanır, 2 və 3-cü barmaqlar yuxarı qaldırılır). Dovşan gəzməyi sevirdi (barmaqlar – "qulaqlar" tərpədilərək hərəkət illüziyası yaradır). O, bir dəfə yad bostana daxil oldu, tağların arasında qəşəng bir kələm gördü (sol əl yumruq şəklində sıxılaraq "kələm" formasını alır). Dovşan özünü saxlaya bilməyib kələmə yaxınlaşır (sağ əl "qulaqlarını" tərpədərək sol ələ yaxınlaşır). Onu qoxlayır – necə də ləzzətli qoxur! (müəllim səsli nəfəs alır) Az da olsa, dadına baxmaq istəyirəm (müəllim səsli dişləmə və çeynəməni təqlid edir) deyir və kələmin yarpağını yeməyə başlayır. Necə də dadlıdır! (dodaqlarını yalayır) Yenə istəyirəm! (sağ əl sol əlin ətrafında fırlanır) Dovşan yenə yarpaqdan bir parça dişləmək istəyirdi ki, it peyda oldu (sağ əlin barmaqları ovuca doğru sıxılaraq qabırğa formasını alır, ikinci barmaq qatlanır, birinci yuxarı qaldırılır). Dovşanın qoxusunu alan it hürməyə başlayır (müəllim çeçələ barmağını aşağı əyərək səsi təqlid etməyə başladı – it hürərkən çənəsini aralayır). Dovşan qorxub qaçmağa başlayır (sağ əl – dovşanın başı - bir neçə dövrə vurur). Dovşan itin yanından çox uzağa qaçır (uzun məsafəyə qaçışdan sonra nəfəsin imitasiyası). Birdən qarşıda böyük bir göl görür (əllər sinənin qarşısında birləşərək, dairə şəklini alır). Göldə ördək üzürdü (sağ əl dirsəkdən və biləkdən qatlanır, barmaqlar birləşərək irəli uzanır). Hərdənbir ördək suya baş vurur və oradan yem çıxarırdı (əl suya baş vurma hərəkəti edir).

"Salam, Ördək!"-deyə dovşan mızıldandı.

Ördək isə eşitmir, üzməyə davam edirdi (əllə üzmək hərəkəti göstərilir).

"Salam, Ördək!"-dovşan daha yüksək səslə və cəsarətlə dedi.

Ördək yenə eşitmədi, suya baş vurdu.

"Salam, Ördək!"-dovşan lap ucadan və aydın şəkildə dedi.

Bu zaman ördək ona tərəf dönərək dedi: "Mənim qarışıq və ifadəsiz danışıqdan heç xoşum gəlmir. Belə hallarda mən özümü kar kimi aparıram. Sən məndən incimə. Üçüncü dəfə sən elə

yaxşı salamlaşdın ki, mən məmnun qaldım. Mənə özündən danış: Sən kimsən? Haradansan? Hara gedirsən? Amma sözləri udmadan, mızıldanmadan qaydasında danış!"
Bundan sonra müəllim uşaqlara sual verməklə dialoqa başladı:
Mən nağılın sonunu unutmuşam, nə isə fikirləşmək lazımdır... Bəlkə öz kinostudiyamızı yaradıb film çəkək və nağılı sona çatdıraq. Necə düşünürsünüz, bunun üçün nə lazımdır?
Film çəkilişində hansı peşə sahibi olan insanlar iştirak edirlər? (Rejissorlar, ssenaristlər, aktyorlar, operatorlar).
- Bu peşə sahibləri hansı vəzifələri icra edirlər?
- İşlərində hansı əşyalardan istifadə edirlər?
- Kinostudiyamız necə adlanacaq?
Sonra müsabiqə əsasında uşaqlar arasında ssenarist, rejissor, aktyor, operator və digər rollar bölüşdürüldü.
Uşaqlar nağılın sonunu qurarkən yeni iştirakçılar əlavə etdilər. Rolların bölüşdürülməsindən sonra kiçik məşq keçirildi.. Rolları fəal oynamayan şagirdlərə filmnağılın sonunda qiymətləndirici rəy verəcək ekspert və kino-tənqidçi rolları təklif olundu.
Bizim fikrimizcə, bu oyun uşaqlarda yalnız xəyal qurmaq həvəsi yarat-madı, eyni zamanda, onlarda jestlərdən və mimikalardan istifadə etmək bacarığını inkişaf etdirdi. İfadəli və aydın danışmaq zərurəti uşaqları diskusiyaya riayət etməyə məcbur etdi.
Yaradıcı oyunun idarəçiliyini təşkil edərkən müəllim kino sənəti ilə bağlı peşələr haqqında söhbətlərin məzmununu, uşaqların mümkün cavablarını əvvəlcədən nəzərə almalı, uşaqlara fərdi təsir vasitələri düşünməlidir. Bu oyun davranış mədəniyyətinin, mehriban kollektiv münasibətlərinin formalaşmasına yol açır.
Keçirilmiş oyunun nəticələrini təhlil edərkən, şagirdlərin bu və ya digər rolun ifasında müvəffəqiyyətləri, bədii üstünlükləri, kostyumlar və s. qeyd olunmalıdır. Bununla belə, şagirdlərə birbaşa qiymətləndirici fikirlər bildirmək və ciddi məsləhətlər vermək olmaz.
Məqsədə nail olmaq üçün əyləncəli və effektiv olmasına baxmayaraq, uşaqlar fəal və çılğın olduğundan bu oyun sinifdə çoxlu səs-küy yaradır. Buna görə də müəllim bu səs-küyün məhz uşaqların fəallığının və sevincinin nəticəsi olmasını həmişə nəzarətdə saxlamalıdır.
Süjetli rollu oyun dərslər şagirdlərə başqalarının hisslərini başa düşməyi,əməkdaşlıq etməyi, qaydalara riayət etməyi, problemləri analiz etməyi, öz fikirlərini əsaslandırmağı, yeni situasiyalar yaratmağı öyrədir.
Bu cür dərslərdə müəllim oyunları tədris proqramına uyğun seçməli və məqsədyönlü şəkildə tətbiq etməlidir. Hər bir şagirdin oyunlarda iştirakı təmin olunmalı, aktiv olmayan uşaqlar da cəlb edilməlidir.Sadə və gündəlik situasiyalar seçilməli, zamanla mürəkkəb süjetlərə keçilməlidir.
Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, süjetli-rollu oyunlar kommunikativ bacarıqların inkişafına töhfə verməklə tədris prosesini əyləncəli fəaliyyətə çevirərək, kiçik məktəblilərdə böyük emosional sıçrayışlar yaradır.

Nəticə

Məqalədə ibtidai siniflərin təlimində şagirdlərin kommuniaktiv bacarıqlarını, idrak fəallığını inkişaf etdirən vasitə və təlim keyfiyyətinin yüksəldilməsi amili kimi süjetli-rollu oyunların rolu işlənmişdir. İbtidai siniflərin təlimində şagirdlərin idrak fəallığının, kommuniaktiv bacarıqlarının inkişaf etdirilməsi üçün süjetli-rollu oyunların keçirilməsinin yeni və müasir metodları işlənmişdir. Bunlardan dərsliklərin, metodik vəsaitlərin və proqramların hazırlanmasında, həmçinin praktik müəllimlərin fəaliyyətində geniş şəkildə istifadə edilə bilər. İbtidai siniflərdə süjetli-rollu oyunlardan istifadə etməklə təlimin keyfiyyətinin yüksəldilməsi ilə yanaşı, ibtidai sinif şagirdlərində kommunikativ bacarıqların vəidrak proseslərin inkişafı xüsusi əhəmiyyət kəsb edir.

İstifadə Edilmiş Ədəbiyyat

1. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu // – Bakı: Hüquq ədəbiyyatı, – 2009, – 79 s.
2. Məmmədov, Y. Təlim keyfiyyəti və onun təmin olunmasında müəllim hazırlığının rolu // – Bakı: Kurikulum, – 2010. №1, – s. 27-33.
3. Sadıqov F.B. Musiqili didaktik oyunların təşkili. **//** – **Bakı:** Maarif , –1998.
4. Sadıqov F.B. Bədii yaradıcılıq dərnəkləri. **//** – **Bakı:** Təbib, –1996
5. Sadıqov F.B., Əliyev A.Q. Didaktik oyunlar **//** – Naxçıvan**:** Naxçıvan Universitetinin nəşri, –1997
6. Sadıqov F.B. Ümumi pedaqogika **//** –Bakı**:** Maarif, –2018
7. Тамбиева, С.О. Дидактическая игра как средство активизации коммуниактивной деятельности младших школьников (13.00.01): / Автореферат диссертации на соискание ученой степени кандидата педагогических наук. / – Майкоп, 2007. – 23 с.
8. Хвостова, Е.В. Развитие коммуниактивных умений младших школьников во внеклассной деятельности (на материале занятий детского фольклорного ансабля) (13.00.02): / Автореферат диссертации на соискание ученой степени кандидата педагогических наук. / – Екатеринбург, 2005. – 22 с.

INTERDİSCİPLİNARİTY İN THE CONTEXT OF NOAM CHOMSKY'S DEDUCTİVE APPROACHES TO LANGUAGE

NOAM XOMSKİNİN DİLƏ DEDUKTİV YANAŞMALARI KONTEKSİNDƏ İNTERDİSSİPLİNARLIQ

Qismət Qalib oğlu Cəfərov
Bakı Dövlət universiteti, müəllim

Abstract
The prominent American linguist and thinker Noam Chomsky presents himself as a researcher inclined toward interdisciplinary studies in his book "On Nature and Language". In this work, he examines several issues at the intersection of linguistics and the biological sciences, one of which is the fundamental distinction between universal and specific grammars. Nevertheless, Chomsky's arguments indicate that there are also relations of continuity between generative and traditional grammars, as well as between universal and specific grammars. Additionally, the article discusses the linguist's views on the minimalist program. Observations show that, as in many of his other works, Chomsky in "On Nature and Language"—a book with an interdisciplinary character—offers a clear model for defining the "past," "present," and "future" perspectives of the "new linguistic theory".
Keywords: specific grammar, universal grammar, minimalist program, locality, economy

Xülasə
Görkəmli Amerika dilçi-mütəfəkkiri Noam Xomsk "Təbiət və dil haqqında" kitabı ilə interdissiplinar araşdırmalara meyilli tədqiqatçı kimi özünü göstərir. Belə ki, o, bu kitabında dilçiliklə bioloji elmlərin münasibəti zəminində bir sıra problemləri nəzərdən keçirir ki, onlardan biri universal və konkret qrammatikalar arasındakı fundamental fərqin müəyyənləşdirilməsi ola bilər. Bununla belə, N.Xomskinin mülahizələri göstərir ki, törədici və ənənəvi qrammatikalar, eləcə də müvafiq olaraq universal və konkret qrammatikalar arasında varislik münasibətləri də vardır. Bununla yanaşı, məqalədə dilçinin minimalist proqramla bağlı görüşləri şərh olunur. Müşahidələr göstərir ki, N.Xomski bir sıra əsərlərində olduğu kimi, elmlərarası mahiyyətli "Təbiət və dil haqqında" kitabında da "yeni dilçilik nəzəriyyəsi"nin "keçmiş", "indi" və "gələcək" perspektivlərini aydın konturları ilə müəyyənləşdirməyin nümunəsini təqdim edir.
Açar sözlər: konkret qrammatika, universal qrammatika, minimalist proqram, lokallıq, qənaət

Giriş

"Təbiət və dil haqqında" kitabının I fəslinin "Universal qrammatika və konkret qrammatikalar" adlı 2-ci bölməsində N.Xomski əsas terminlərə uyğun olaraq problemi şərh edərkən yazır: *"Başlanğıc koqnitiv vəziyyət* (söhbət dilin mənimsənilməsinin başlanğıc mərhələsindən gedir) *universal qrammatika adlanır; konkret stabil vəziyyət nəzəriyyəsi konkret qrammatika adlanır. Fransız, italyan, Çin və başqa dillərin istifadəsiz qalmış biliklərini əldə etmək, beləliklə, dərrakə - beyinin sayəsində universal qrammatika tərəfindən dil təcrübəsinin konkret gedişi ilə qarşılıqlı əlaqədə eksplissit şəkildə modelləşdirmək mümkün olur".* [3, s.8]. Eyni zamanda metodoloji baxımdan çox anlamlı olan belə bir müqayisə də verilir ki, *"komparativ dilçiliyin terminologiyasında universal qrammatika ona görə dil invariantları nəzəriyyəsidir ki, təbii dillərin universal xüsusiyyətlərini ifadə edir; koqnitiv perspektivin qəbul etdiyi*

terminologiyada isə universal qrammatika bioloji baxımdan o zəruri universallıqları, xüsusiyyətləri əks etdirir ki, onlar bizim anadangəlmə dil bacarığımızla, növün bioloji irs komponenti olması ilə müəyyən edildiyinə görə universal səciyyə daşıyır" [3, s.8-9].
Bu isə o deməkdir ki, birinci halda universallıq ayrı-ayrı dillərin induktiv metodla öyrənilməsi nəticəsində təzahür edir, ikinci halda isə ümumən dilə deduktiv yanaşmanın nəticəsidir.
Görkəmli dilçi deskriptiv (təsviri) və izahlı adekvatlıqdan (II fəslin 3-cü bölməsi) bəhs edərkən yenə də konkret qrammatika ilə universal qrammatika arasındakı fərqin daha dəqiq göstərilməsinə gəlib çıxır: *"Təsviri adekvatlıq konkret qrammatikanın fraqmentinə gətirib çıxara bilər ki, yaşlıların dil biliyinin fraqmentlərini uğurla modelləşdirir; izahlı adekvatlıq isə o zaman öz məqsədinə çatır ki, konkret qrammatikanın təsviri adekvat fraqmenti iki inqredientdən çıxır: 1) daxili strukturu, analitik prinsipləri və s. 2) dil açan uşaqlara, adətən, mənimsəmə dövründə əlçatan olan müəyyən təcrübə, dil amilləri"* [3, s.10].
I fəslin 4-cü bölməsində universal qrammatikanın prinsip və parametrlərindən bəhs olunarkən göstərilir ki, *"törədici qrammatikanın ilkin versiyaları ənənəvi qrammatik təsvirdən irsən əxz eləmişdi ki, konkret qrammatikalar konkret dilə aid olan qaydaları sisteminin mahiyyətidir. Bu yanaşmanın çərçivəsində müstəqim tərtibçilərin və hər bir konkret dilə məxsus səciyyəvi transformasiya qaydalarının formalaşma üsulları yerləşir"* [3, s.12].
Müxtəlif dillərdən bir sıra misallar verildikdən sonra müəllif yazır: *"Konkret qrammatikaları parametrlərin mənalarının müəyyən qruplaşdırılması zamanı universal qrammatikaların birbaşa realizasiyaları kimi təsəvvür etmək olar"* [3, s.14].
Bu yeni yanaşmada universal qrammatika *"artıq sadəcə qrammatik metanəzəriyyə deyil, o, konkret qrammatikaların ayrılmaz üzvi tərkib hissəsidir"* [3, s.14].
Görkəmli dil mühəndisi belə bir qərara gəlir ki, dili mənimsəmək – zəkanın törətdiklərindən mümkün olanlar içərisindən təcrübənin seçdiklərini qəbul etmək, qalanlarını atmaq mənasına gəlir. Beləliklə, dil biliyinin elementini mənimsəmək o deməkdir ki, "*zəkanın a priori təklif etdiyindən başqa nə imkan varsa hamısı atılır".*
Göründüyü kimi, yeni dil nəzəriyyəsi törədici qrammatika ilə ənənəvi qrammatika arasında mövcud kifayət qədər kəskin fərqlərlə yanaşı, müəyyən sələf – xələflik münasibətini də etiraf edir. Konkret qrammatikaların çoxəsrlik təcrübəsinin verdiyi zəngin induktiv düşüncə materialı olmasa idi, görünür, universal qrammatika ənnəsi də formalaşa bilməzdi.
I fəslin 5-ci bölməsində parametrik modellər və dil eyni şəkilliliyi problemi şərh edilir ki, ilk mühakimə bundan ibarərdir: *"insan dili əvvəllər təsəvvür edildiyindən daha çox birşəkillidir"* [3, s.17].
Həmin mühakimənin təsdiqi üçün ilk növbədə sual cümlələrinin yaranması (törəməsi) modellərinə müraciət olunur. Göstərilir ki, burada bütün dillər üzrə cəmisi iki əsas variantın mövcudluğu, prinsip etibarilə, zəkanın, dərrakənin universal qrammatika səviyyəsində ikisindən birini seçməli olduğu, əslində, dilin eyni şəkilliliyinin faktıdır [3, s.18].
Dil materialı üzərindəki bu baxımdan aparılan müşahidə və təhlillərin nəticəsi isə ondan ibarətdir ki, *"suallar sintaksisi artıq səthi təhlildəcə kifayət qədər eynişəkilli görünür, ancaq dilin digər aspektləri ilk baxışda müxtəlif dillərdə xeyli dərəcədə variantlıdır. Bununla belə son illərin əsərləri ardıcıl olaraq göstərir ki, mövzu təfərrüatı və əsaslı nəzəri instrumentariyanın köməyi ilə öyrənildikcə variantlıqların əhəmiyyətli bir hissəsi aradan qalxır və biz bəzi elementar parametrlərin qalıqlarını görürük"* [3, s.20].
Zərf və funksional nüvə elementləri məsələsinə (5.2-ci bölmə) gəldikdə isə qeyd olunur ki, bu tədqiqat istiqamətində irəliyə böyük addım G.Cinquenin 1999-cu ildə Oksford Universitetində çıxmış "Adverbs and Functional Heads: A Cross-Linguistic Perspective" kitabıdır. Həmin kitab *"bu sahədəki fundamental dillərarası eynişəkillilik barədəki təsəvvürü ən xırdalıqlara qədər gedən təhlillə daha da möhkəmləndirir: dillər morfoloji markalanmada feilin temporal, aspektual və modal xüsusiyyətləri ilə fərqlənir, ancaq cümlənin həmin xüsusiyyətləri əks*

etdirən və zərfliyin mövqeyini ayıran zəngin strukturu ciddi olaraq eynişəkilli səciyyə daşıyır" [3, s.28].

Parametrik modellər və dil eynişəkilliliyi barədəki bölmə konkret qrammatikalarla universal qrammatika arasındakı münasibəti ifadə edən belə bir mülahizə ilə sona çatır ki, *"dillərarası eynişəkilliliyin dərinliyinin və genişliyinin kəşfi universal qrammatikanı konkret qrammatikaların bilavasitə komponenti kimi düşünmək imkanı verir, həm də kifayət qədər zəruri bir komponenti kimi, eyni zamanda parametrik modellər dillərarası eynişəkilliliyin kəşfinin genişlənməsi və dərinləşməsi prosesi üçün müvafiq xüsusi dil tətbiq etmişdir. Beləliklə, modellərin işlənib hazırlanması və onların nəşət etdiyi empirik kəşflərin cilalılığı son iyirmi il ərzində əl-ələ gedir"* [3, s.29].

N.Xomskinin minimalist proqramla bağlı görüşləri. I fəslin "Minimalist proqram" adlanan sonuncu – 6-cı bölməsi aşağıdakı məsələləri ehtiva edir: 1) məsələnin tarixi; 2) reprezentasion və derivasion qənaət; 3) izah olunmayan əlamətlər; 4) lokallıq; 5) izlərin surətini çıxarmaq nəzəriyyəsi.

Məsələnin tarixindən bəhs edilərkən qeyd olunur ki, *"prinsiplər və parametrlər yanaşması dili mənimsəmənin potensial məntiqi həllini, həmçinin deskriptiv və izahlı adekvatlıq arasındakı gərginliyi aradan qaldırmaqla təmin edir: çox mürəkkəb qrammatik modellərin mənimsənilməsini anadangəlmə prinsiplərlə və variantların seçilməsinin məhdudlaşan prosesləri ilə izləmək olar. Beləliklə, hansısa mənada konkret qrammatikanın müşahidə edilən xüsusiyyətləri izahını tapmış olur, çünki onlar universal qrammatikanın xüsusiyyətlərinə və məhdudlaşmış qalığa uyğun gəlir"* [3, s.30].

Bu cür linqvistik yanaşmadan sonra məsələyə, əgər belə demək mümkünsə, təbiətşünaslıq miqyasında fundamental izah verilməsi xüsusi əhəmiyyət kəsb edir: *"fiziki substratın əhatəli tədqiqi – bu beyin haqqındakı elmdə böyük irəliləyişin gözlənildiyi ayrıca məqsəddir (hələ müvafiq embrioloji və genetik amillərin tədqiq olunacağı daha uzaq gələcəkdən danışmasaq) və bu zaman tamamilə yeni anlayışlar tələb etmək mümkündür... Bəs yaxın perspektivdə hansı istiqamətləri inkişaf etdirmək olar? Burada minimal məsələlər meydana çıxır"* [3, s.30].

Müəllif minimalist yanaşmada qənaət prinsipini xatırlatdıqdan sonra deyir ki, *"törədici qrammatika ənənəsində rəqabətdə olan təhlil üsullarının seçilməsi üçün qiymətləndirmə kriteriyaları vermək cəhdləri sistematik olaraq sadəlik ideyasına əsaslanır və ən çox o həll daha yüksək qiymətləndirilir ki, mürəkkəblik minimaldır (elementlərin az saylılığı, qaydaların az saylılığı)"* [3, s.31].

Reprezentasion və derivasion qənaət anlayışları aşağıdakı şəkildə şərh olunur:

1) reprezentation qənaətdə "əsas rolu öz üzərinə tam interpretasiya prinsipi alır ki, interfeyslər səviyyəsində hər bir element interpretasiya yoxlamasından keçməlidir"; 2) "derivasion səviyyədə qənaət belə bir prinsiplə ifadə olunur ki, irəli hərəkət – son həddə baş verən əməliyyatdır: "sərbəst", həqiqi fakültətiv irəliləmə olmur, zəncirin hər hansı uzanması hansısa hesablama ehtiyacı ilə motivlənməlidir" [3, s.32-33].

Bunun ardınca izah olunmayan əlamətlərdən danışılır. Və göstərilir: *"derivasion və reprezentasion qənaətlərin hər ikisi belə bir ideyada əksini tapır ki, sintaktik irəliləmə həmişə izah olunmayan elementləri və xüsusiyyətləri aradan çıxarmaq məqsədi ilə diqtə edilir"* [3, s.35].

İstər reprezentasion, istər derivasion qənaətlər, istərsə də izah olunmayan əlamətlərin – element və xüsusiyyətlərin aradan qaldırılması prinsipləri törədici sintaksisin dil və təfəkkür münasibətləri səviyyəsində məhsuldar nəticələrə gətirib çıxaran əməliyyatların obyektinə çevrilməsində xüsusi əhəmiyyət daşımaqdadır.

Lokallığa gəldikdə isə müəllif yazır ki, *"lokallığı bu mənada hansısa qənaət prinsipi kimi izah etmək ağılabatandır ki, lokal hesablama prosesinin tətbiqi gedişində hesablanmış struktur*

həcmini məhdudlaşdırır və bununla da dil hesablamalarının mürəkkəbliyini azaltmağa öz töhfələrini verir" [3, s.39].

Sonuncu 6.5-ci bölməsi belə bir məntiqi sualla başlayır ki, bu müşahidələri irəliyə doğru nə qədər davam etdirmək olar?

Müəllif suala bu cür cavab verir: *"Minimalist proqram bu suala yalnız bundan sonra baxılmalı olacaq ən güclü tezisi tədqiq edə-edə cavab tapmaq mümkündür: ola bilərmi ki, dil – optimal qurulmuş bu sistem optimallığın müəyyən kriteriyalarına əsaslanmasın? Dil hesablamalarını təmin etməli olan minimal ehtiyaclar – interfeys reprezentasiyalarının zəkanın başqa komponentləri ilə birlikdə dilin "danışmaq" bacarığı vasitəsi ilə birləşməsidir: fonetik forma dili qavrayışın sensomator sistemi və artikulyasiya ilə birləşdirir, məntiqi forma isə konseptlərin fikri sistemi və intensiyanı əlaqələndirir"* [3, s.41].

Müəllif daha bir sual verməli olur: *"Demək mümkündürmü ki, dil ona görə optimal qurulmuş sistemdir ki, sensomator sayılan reprezentasiyaları fikri sistemlərlə birləşdirsin?".*

Cavab isə bundan ibarətdir: *"Minimalist proqram tədqiqatçıların gündəliyinə ağır məsələ qoymuşdur – universal qrammatikanın öyrənilməsindən əldə edilmiş bütün nəticələri yenidən elə nəzərdən keçirmək ki, onlar minimalist tələblərə uyğun olaraq düşünülmüş şəkildə bərpa edilsin. Bəzi hallarda göstərmək mümkün olmuşdur ki, halların daha "minimal" komplektləşdirilməsi təhlilin empirik adekvatlığını hətta yaxşılaşdıra bilər. Səciyyəvi nümunə izlərin surətinin çıxarılması nəzəriyyəsi və o izahdır ki, bərpaya effekt gətirir"* [3, s.42].

Konkret misallar əsasında anlayışları aydınlaşdırdıqdan sonra müəllif qeyd edir ki, *"mürəkkəb empirik modellərin digər halları elementar hesablama prinsipləri və onların qarşılıqlı təsirinə o qədər də asan uyğunlaşmır. Hətta bərpa nəzəriyyəsinin uğurlu reduksiyası göstərir ki, mümkün olan təhlil metoduna dil bacarığının digər sahələrini də genişliyi ilə cəlb etmək mümkün olur"* [3, s.44].

I fəsli belə bir ümumiləşdirmə ilə yekunlaşır: *"Əsas minimalist suala tələb olunan ölçüdə müsbət cavab verərkən universal qrammatikanın böyük həcmli fraqmentləri, on illərlə empirik tədqiqatların müəyyən etdiyi üzrə, izahın daha bir səviyyəsinin mümkünlüyünü qəbul edir. Bu isə, öz növbəsində qarışıq koqnitiv sistemlərin sonrakı araşdırılmasında və beyin haqqındakı elmlərlə gələcək birləşmə cəhdləri üçün daha dəqiq şərtlərin qurulmasında rəhbərlik xidməti göstərə bilər"* [3, s.44].

N.Xomskinin elmlərarası mahiyyət daşıyan çox geniş miqyaslı idrak imkanlarının nəticəsidir ki, bir tərəfdən, tarixin dərin qatlarından gəlir, digər tərəfdən, uzaq gələcəyə hesablanmış perspektivləri layihələndirir. Görkəmli tədqiqatçıya görə, *"müasir nevrologiya, adətən, yol göstərici ideya olaraq belə bir tezis irəli sürür ki, "hər bir mentallıq, xüsusilə dərrakə də beynin inkişaf edən xüsusiyyətidir"* və bu zaman etiraf edilir ki, "*bu inkişafın sonrakı sadələşməyə məruz qalmadığı hesab olunmur, ancaq daha aşağı səviyyəli hadisələr arasındakı qarşılıqlı təsirlərlə idarə olunan prinsiplər üzrə baş verir – o prinsiplər üzrə ki, biz onları hələlik anlamırıq" (Vernon Mauntkasl). Bu tezis çox hallarda "təəccüblü hipoteza", "mental proseslərin təbii səciyyəsi və onların beynin neyrofizioloji fəaliyyəti ilə şərtlənməsi barədə ötkəm qərar", idrak fəlsəfəsində, bəzilərinə görə, nəhayət ki, kartezian dualizmini o dünyaya göndərməyə qabil olan "yeni radikal ideya" kimi təqdim olunur, hərçənd bu zaman bədənlə idrak arasında görünən boşluğu aradan qaldırmaq imkanlarına şübhə ifadə edilməkdədir"* [3, s.55].

"Təbiət və dil haqqında"nın 3-cü fəsli "Dil və beyin" adlanır. Burada göstərilir ki, bizə eksperimental olaraq verilmiş, empirik şəkildə müşahidə etdiyimiz və sıx əlaqədə olduğumuz çoxlu hadisələr var ki, onların münasibətləri barədə məlumatlarımız nəzəri ümumiləşdirmələr səviyyəsində xeyli məhduddur. Yəni "*öz müxtəlif aspektləri ilə sadəcə dünya mövcuddur: apriori olaraq müəyyən olunmayan və məhdudlaşmayan mexaniki, elektromaqnit, kimyəvi, optik, orqanik, mental kateqoriyaları ilə, ancaq rahatlıq üçün ən böyük hissələrə bölünür, eləcə*

də zamana münasibətdə rahatlığına görə. Konstruktiv – elmi axtarışın qarışıq sahələrinin hər birində müəyyən izahedici nəzəriyyələr işləyib hazırlamağı və onları birləşdirməyi sınaqdan keçirmək olar, ancaq bundan artığı mümkün deyil" [3, s.68].

Nəticə

Göründüyü kimi, N.Xomksi fundamental analiz aspekt və üsullarının bütöv bir sistemini yaratmaqla "insan dili" barəsindəki yeni hipotezlərin daha geniş üfüqlərini (dil və təfəkkürün münasibətləri miqyasında) böyük cəsarətlə müəyyən edir.

İsifadə Olunmuş Ədəbiyyat Siyahısı

1. Cəfərov, Q. Q., & Həsənzadə, S. N. (2024). *Ümumi dilçilik oçerkləri*. Bakı: Elm və Təhsil.
2. Chomsky, N. A. (2000). *New horizons in the study of language and mind*. Cambridge: Cambridge University Press.
3. Chomsky, N. A. (2002). *On nature and language*. New York: Cambridge University Press.
4. Chomsky, N. A. (1995). *The minimalist program*. Cambridge, MA: The MIT Press.

ISSUES OF NATIONAL IDENTITY AND FREEDOM IN BAKHTIYAR VAHABZADE'S POEM "GULUSTAN"

BƏXTİYAR VAHABZADƏNİN "GÜLÜSTAN" POEMASINDA MİLLİ KİMLİK VƏ AZADLIQ MƏSƏLƏLƏRİ

Pərvin Hüseynova
Humanitar fənlər kafedrası. Mingəçevir Dövlət Universiteti
ORCİD № 0000-0002-0599-7247

Xülasə
Azərbaycan ədəbiyyatının 20-ci əsrdə yaşamış görkəmli nümayəndəsi, milli azadlıq və müstəqillik sevdalısı, xalqının ağrı-acılarını dərindən yaşamış və onun azadlıq carçısına çevrilmiş böyük şair Bəxtiyar Vahabzadənin demək olar bütün bədii yaradıcılığında vətənpərvərlik, vətəndaşlıq, milli-mənəvi azadlıq, istiqlal, milli kimlik, milli özünüdərk kimi məsələlər aparıcı yer tutmuşdur. Çoxsaylı lirik şeirlər, nəsr əsərləri, publisistik məqalələr və irihəcmli poemanın müəllifi olan B.Vahabzadəyə xalqın məhəbbəti 1958-ci ildə qələmə aldığı "Gülüstan" poemasından sonra daha da artmışdır. "Gülüstan" poemasında şair, Azərbaycan xalqının yaşadığı faciələri, iki hissəyə parçalanma və azadlığının əlindən alınması kimi məsələləri poetik üslubla xalqın diqqətinə çatdırmış, onu yenidən azadlıq uğrunda mübarizə səsləmişdir.
B.Vahabzadə əsərdə dərin ürək ağrısı ilə baş verənləri dərk edir, xalqı başına hansı müsibətlər gəlirsə gəlsin əsarətə, parçalanmaya, başqalarının yazdığı taleyə, qədərə boyun əyməməyə çağırır milli istiqlal, azadlıq, bütöv Azərbaycan uğrunda mübarizəyə çağırırdı.
Nəticə etibarilə, Bəxtiyar Vahabzadə milli azadlıq ideyasını poeziyada yüksək səviyyədə təqdim etməklə, ədəbi nümunəni siyasi mövqenin daşıyıcısına çevirmişdir. Bu baxımdan "Gülüstan" poeması həm bədii sənət əsəri, həm də ictimai-siyasi təbliğat vasitəsi kimi qiymətləndirilə bilər. Məhz bu cəsarətli mövqeyinə görə, ümummilli lider Heydər Əliyev Bəxtiyar Vahabzadənin fəaliyyətini yüksək qiymətləndirərək bildirmişdir: "Sizin uzun illər həqiqətən xırda-xırda, misra-misra, damcı-damcı yaratdığınız əhval-ruhiyyə Azərbaycan xalqını gətirib bu günkü vəziyyətə çıxardı."
Açar sözlər: B.Vahabzadə, "Gülüstan" poeması, milli kimlik, istiqlal.

Abstract
The outstanding representative of Azerbaijani literature in the 20th century, a lover of national freedom and independence, a great poet who deeply experienced the pain and suffering of his people and became a herald of their freedom, issues such as patriotism, citizenship, national-spiritual freedom, independence, national identity, and national self-awareness occupied a leading place in almost all of his artistic creations. The author of numerous lyric poems, prose works, journalistic articles, and a large-scale poem, B. Vahabzadeh`s love for the people increased even more after the poem "Gulustan" he wrote in 1958. In the poem "Gulustan", the poet brought to the attention of the people in a poetic style the tragedies experienced by the Azerbaijani people, issues such as division into two parts and deprivation of their freedom, and called them to fight for freedom again.
B. Vahabzadeh understands what is happening with deep heartache in the work, calls on the people not to bow down to slavery, division, fate written by others, no matter what misfortunes befall them, and calls for national independence, freedom, and the struggle for the whole of Azerbaijan.
As a result, Bakhtiyar Vahabzadeh, by presenting the idea of national freedom in poetry at a high level, turned the literary example into a carrier of a political position. From this point of

view, the poem "Gulustan" can be evaluated as both a work of art and a means of socio-political propaganda. It is precisely for this courageous position that the national leader Heydar Aliyev highly appreciated the activities of Bakhtiyar Vahabzadeh and stated: "The mood that you have truly created for many years, little by little, line by line, drop by drop, has brought the Azerbaijani people to the current situation".

Keywords: B. Vahabzadeh, poem "Gulustan", national identity, independence.

PROMOTION OF NATIONAL VALUES IN ILLUSTRATIVE ART. IN THE CONTEXT OF THE AZERBAIJAN SCHOOL OF ART

TƏSVİRİ İNCƏSƏNƏTDƏ MİLLİ DƏYƏRLƏRİN TƏBLİĞİ. AZƏRBAYCAN RƏSSAMLIQ MƏKTƏBİ KONTEKSTİNDƏ

Sahib Cəbrayılov İmran oğlu
Müəllim, ADPU-nun Şamaxı filialı

Xülasə
Təsviri incəsənət hər bir xalqın mədəni kimliyinin formalaşmasında və milli dəyərlərin nəsildən-nəslə ötürülməsində mühüm rol oynayır. Bu sahə yalnız estetik zövqün ifadə vasitəsi deyil, eyni zamanda xalqın tarixi yaddaşını, adət-ənənələrini, dünyagörüşünü və sosial həyat tərzini əks etdirən mühüm kommunikasiya alətidir. Bu məqalədə təsviri incəsənət vasitəsilə milli dəyərlərin təbliği məsələsinə Azərbaycan rəssamlıq məktəbi kontekstində ümumi yanaşma təqdim olunur və keçmişdən bu günə qədər baş verən estetik və ideoloji dəyişikliklər təhlil edilir.
Azərbaycan təsviri sənəti XIX əsrin sonlarından başlayaraq realist ənənələr üzərində formalaşmış, XX əsrdə müxtəlif üslubların və ideoloji çalarların təsiri altında inkişaf etmişdir. Müstəqillikdən sonra təsviri incəsənətdə mövzu və ifadə azadlığı genişlənmiş, milli-mədəni dəyərlərin təbliği daha açıq və müxtəlif formalarda özünü göstərməyə başlamışdır. Müasir dövrdə rəssamlar milli kimliyi həm simvolik, həm də konseptual yanaşmalarla təqdim edir, bu isə incəsənəti həm yerli, həm də qlobal auditoriyaya çatdırmaq baxımından mühüm əhəmiyyət kəsb edir.
Açar sözlər: Azərbaycan təsviri sənəti, milli dəyərlər, azərbaycançılıq ideyası, rəssamlıq məktəbi, mədəni irs, bədii ifadə

Abstract
Fine arts play an important role in the formation of the cultural identity of each nation and the transmission of national values from generation to generation. This field is not only a means of expressing aesthetic taste, but also an important communication tool that reflects the historical memory, customs, worldview and social lifestyle of the people. This article presents a general approach to the issue of promoting national values through fine arts in the context of the Azerbaijani art school and analyzes the aesthetic and ideological changes that have occurred from the past to the present.
Azerbaijani fine arts were formed on realistic traditions starting from the end of the 19th century and developed under the influence of various styles and ideological shades in the 20th century.
After independence, the freedom of subject and expression in fine arts expanded, and the promotion of national-cultural values began to manifest itself in more open and diverse forms. In modern times, artists present national identity with both symbolic and conceptual approaches, which is of great importance in terms of delivering art to both local and global audiences.
Keywords: Azerbaijani visual art, national values, idea of Azerbaijani identity, painting school, cultural heritage, artistic expression

Giriş

Tarixin uzaq çağlarından gələn miniatürlər Azərbaycan təsviri incəsənətinin ən parlaq lövhələrini təşkil edir. Miniatürlər sənəti, rəssamlıq, təsviri incəsənət görkəmli sənətkarlarımızın, fırça ustalarımızın azərbaycançılığa bəxş etdiyi töfhələrdir. Qədim və orta əsr Azərbaycan təsviri sənətində azərbaycançılıq izləri özünü olduqca qabarıq şəkildə büruzə verir. Azərbaycançılıq təsviri incəsənətdə, qədim rəssamlıq nümunələrində öz əksini tapıb.

Məlumdur ki, azərbaycançılıq məfkurəsi, ideyası xalqımız, mədəniyyətimiz, dövlətçiliyimiz mövcud olandan yaranıb. Tarixin hansı çağında səsimiz eşidilirsə, həmin dövrdə də azərbaycançılıq olub. Ola bilsin adı fərqli olsun, amma məzmunu eynidir. Xalqı dövlətə, dövlətçiliyə bağlayıb azərbaycançılıq. Milli mədəniyyətimizə, dəyərlərimizə sevgi, ana vətənin hər bir övladına qayğı və sayğı aşılayıb bu ideya.(5)

Azərbaycan təsviri incəsənətini bir neçə dövrə aid etmək olar. Ən diqqətçəkəni qədim və orta əsrlər təsviri sənətidir ki, onun inkişafı xalqımızın mədəniyyət tarixində parlaq səhifə açıb.

Təsviri sənətin qədim nümunələri arasında dulusçuluq, daş və metal məmulatlarını bəzəyən dekorativ naxışlar, rəsmlər, qabartmalar (relyef təsvirlər), heykəllər mühüm yer tutur. Bunlardan kürə formalı qab (Naxçıvan MR-in Şahtaxtı kəndi), ikibaşlı maral fiquru (Xocavənd rayonunun Dolanlar kəndi), üzərində 5 fantastik heyvan təsviri cızılmış tunc qab (Gədəbəy), aypara şəklində qızıl yaxalıq (Ziviyə), qızıl cam (Urmiya gölü yaxınlığındakı Həsənlu təpəsi), Mil, Qarabağ düzlərindən tapılmış keramik qablar öz zərifliyi, bədii kamilliyi ilə fərqlənir (e.ə. VIII-VII əsrlər). Mingəçevirdən, Şamaxıdan tapılmış müxtəlif tipli və formalı bədii şüşə məmulatı nümunələri-dekorativ qablar, piyalələr, qadın bəzəkləri Azərbaycanda şüşə istehsalının da mövcud olduğunu göstərir.(3)

Tədqiqatçılar qeyd edir ki, həkkaklıq və heykəltəraşlıq nümunələri Albaniya (Qafqaz) dövrü sənətində geniş yayılıb. Mingəçevir məbədinin (5-6-cı əsrlər) daş kapitelinin səthində müqəddəs dirilik ağacının sol və sağında üz-üzə dayanmış iki tovuz quşunun qabartma təsviri Qafqaz Albaniyası dövrü heykəltəraşlığının ən kamil nümunələrindəndir.

Təsviri sənətin ən qədim nümunələri arasında e.ə. VIII-V əsrlərdən qalan Qobustan qaya təsvirləri, Kəlbəcər rayonunun Zalxa gölü ətrafında Ayıçınqılı və Pəriçınqıl dağlarındakı Tunc dövrünün başlanğıcına (e.ə. 3-cü minillik) aid rəsmlər, Ordubad şəhərindən şimalda Gəmiqaya dağlarındakı qayaüstü təsvirlər müstəsna əhəmiyyətə malikdir. Qobustanın "Böyükdaş", "Kiçikdaş", "Cingirdağ", "Şonqardağ" və digər qayalarında həkk olunan rəsmlərdə orada yaşamış qədim insanların həyat tərzi, məişəti, əməyi ilə əlaqədar təsvirlər xüsusi maraq doğurur. Tədqiqatçılar yazır ki, burada ovçuluq, maldarlıq, əkinçilik və məişətin digər sahələri ilə bağlı müxtəlif süjetlər, səhnələr, insan və heyvan təsvirləri dinamik tərzdə həkk olunub. Qobustan qaya rəsmləri-piktoqramlar ibtidai icma quruluşundan feodalizm mərhələsinə kimi çoxəsrlik, uzun tarixi dövrü əhatə edir. Orta əsrlərdə Azərbaycan təsviri sənəti dekorativ tətbiqi sənətlə vəhdət təşkil etmiş, Gəncə, Beyləqan və digər şəhərlərdən tapılmış keramika nümunələri üzərində nəbati və həndəsi ornamentlərlə yanaşı, iti caynaqlı quşu, yaxud vəhşi heyvanı oxla vuran cəngavər təsvir edilib. Bu dövr Azərbaycan İntibah mədəniyyəti Nizami Gəncəvinin yaradıcılığı ilə sıx bağlı olmuş, o, poemalarında memar, heykəltəraş, nəqqaş və rəssam obrazları yaradıb.

XIX əsrin əvvəllərində Azərbaycanın şimalının Rusiyaya birləşdirilməsi ilə Azərbaycan təsviri sənətində realist təmayüllər getdikcə güclənir, bədii yaradıcılığın yeni növ və janrları meydana gəlir. "Molla Nəsrəddin" və digər jurnalların, eləcə də kitab nəşri ilə bağlı satirik qrafika və illüstrasiya janrları yaranır.

"Molla Nəsrəddin" jurnalının rəssamları O.Şmerlinq, İ.Rotter, Ə.Əzimzadə və X.Musayev dövrün ictimai-siyasi problemləri ilə səsləşən realist qrafika sənəti sahəsində geniş fəaliyyət göstərib: "Azərbaycan satirik qrafikasının banisi Ə.Əzimzadə ictimai bərabərsizliyi, cəhaləti, fanatizmi, çarizm zülmünü ifşa edən kəskin karikaturalar, şarjlar yaradır. Məşhur "Yüz tip"

rəsmlər seriyası, qadın azadlığı, ateizm və siyasi motivlərə həsr olunmuş akvarelləri aktuallığı, milli koloriti ilə fərqlənir. 1914-cü ildə M.Ə.Sabirin "Hophopnamə" əsərinə çəkdiyi illüstrasiyalar Ə.Əzimzadənin ən uğurlu işlərindəndir.(6),(7)

Azərbaycan realist dəzgah boyakarlığının yaradıcılarından biri olan B.Kəngərlinin yaratdığı "İlanlı dağ Ay işığında", "Günəş batarkən", "Bahar mənzərələri", "Qaçqınlar" silsiləsinə daxil olan yurdsuz insanların portretləri, "Elçilik", "Toy" kimi məişət kompozisiyaları, eləcə də 1910-cu illərdə Naxçıvan teatrında tamaşaya qoyulmuş "Ölülər" (C.Məmmədquluzadə), "Hacı Qara" (M.F.Axundov), "Pəri-cadu" (Ə.Haqverdiyev) və b. səhnə əsərlərinə verdiyi bədii tərtibat və geyim es Azərbaycanda 1920-ci ildə kommunist rejiminin 70 illik hökmranlığı bərqərar oldu. Respublikada mədəni quruculuq və yeni tipli incəsənətin təşəkkülü prosesi başlandı. Bakıda ilk rəssamlıq məktəbi açıldı (1920), təsviri sənətin yeni növ və janrları yarandı. Keçən əsrin 30-cu illərində qrafika sahəsində Ə.Əzimzadə ilə yanaşı, Q.Xalıqov, İ.Axundov, Ə.Hacıyev, M.A.Vlasov, K.Kazımzadə, Ə.Məmmədov və b. rəssamlar da fəaliyyət göstərir, Azərbaycan və xarici ölkə yazıçılarının kitablarına illüstrasiyalar çəkir, müxtəlif aktual mövzularda siyasi plakatlar yaradırdılar.kizləri Azərbaycan rəssamlığının dəyərli örnəklərindəndir.(1)

1928-ci ildə Azərbaycan Gənc Rəssamlar Cəmiyyətinin ilk yaradıcılıq sərgisi, 30-cu illərdə Azərbaycan İnqilabi Təsviri İncəsənət Birliyinin təşkil etdiyi sərgi böyük uğur qazandı. Bakıda və Moskvada nümayiş etdirilən ilk rəssamlıq sərgilərində S.Salamzadə, Q.Xalıqov, Ə.Rzaquliyev və b. müasir mövzulara həsr etdikləri tablolar mühüm yer tuturdu. 1932-ci ildə Azərbaycan rəssamlarının təşkilat komitəsi yaradıldı. S.Şərifzadənin "Üzüm yığımı", H.Haqverdiyevin "Ə.Əzimzadənin portreti", Q.Xalıqovun "Nizami Gəncəvinin portreti", M.Abdullayev, B.Mirzəzadə, B.Əliyev, S.Bəhlulzadə və K.Xanlarovun məişət və tarixi tabloları kolorit zənginliyi, boyaların ahəngdarlığı ilə diqqəti cəlb edir". 1940-cı ildə Azərbaycan rəssamlarının 1-ci qurultayı keçirilib. O bildirir ki, İkinci Dünya Müharibəsindən sonra, 50-ci illərin ortalarında Azərbaycan təsviri sənəti bədii kamillik dövrünə qədəm qoyub: "Bunun inkişafında keçirilən sərgilərin mühüm rolu olub. SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü M.Abdullayevin tablolarında respublikanın geniş, rəngarəng panoramı təsvir olunub. Rəssamın "Axşam", "Mingəçevir işıqları", "Azərbaycan çöllərində" (triptix), "Sevinc" və s. əsərlərində əmək adamları, məişət səhnələri lirik səpkidə verilib. "Hindistan silsiləsi"nə görə M.Abdullayev beynəlxalq Nehru mükafatına (1970) layiq görülüb. Xalq rəssamının çoxillik yaradıcılıq fəaliyyəti "Şöhrət" (1997), "İstiqlal" ordenləri ilə qiymətləndirilib.

SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü, xalq rəssamı T.Salahovun "Növbədən qayıdanlar", "Səhər qatarı", "Abşeron qadınları", "Yeni dəniz" tablolarında dövrün qəhrəmanlıq pafosu, Xəzərdə yüksələn polad adaların əzəməti duyulur. T.Salahovun yaratdığı "Bəstəkar Qara Qarayevin portreti" əsəri portret sənətinin klassik nümunələrindəndir.(7)

Azərbaycan təsviri incəsənətinin qızıl dövrü haqqında çox fikirlər bildirilib. Dahi rəssamların yaratdığı hər bir nümunə Azərbaycan reallığından, azərbaycançılıqdan, bu müqəddəs ideyadan qaynaqlanıb. Azərbaycançılıq ideyasının təsviri incəsənətə sirayət etməsi tariximizin, milli mədəniyyətimizin yaşaması, təbliği deməkdir. Son illər Azərbaycan dövlətinə, dövlətçiliyinə həsr edilən əsərlərin meydana çıxması onu göstərir ki, fırça ustalarımızın məqsədi azərbaycançılıq ideyasını rəsm əsərləri vasitəsilə dünyaya yaymaqdır.

Azərbaycan mədəniyyətinin dünyada təbliğ olunmasında müasir fırça ustaları arasında Dünya Rəssamlıq Akademiyasının üzvləri də var ki, bir neçə il əvvəl həmin rəssamların Bakıda sərgisi də açılıb: xalq rəssamları Xanlar Əhmədov, Mir Nadir Zeynalov, əməkdar incəsənət xadimi Arif Aziz, əməkdar rəssam Eldar Qurbanov, tanınmış rəssamlar Səmədağa Cəfərov və Nağdəli Xəlilov Dünya Rəssamlıq Akademiyasının üzvləridir. 100-dən çox ölkənin tanınmış fırça ustalarını öz ətrafında birləşdirən bu mötəbər quruma rəssamlarımız 2009-cu ildən üzv olmağa

başlamışlar. Belə bir təşkilatda təmsil olunmaqla Azərbaycan rəssamlıq məktəbinin qədim və özünəməxsus ənənələrini dünyada daha geniş formada təbliğ etməyə nail olur.

Bu gün Azərbaycan təsviri incəsənətini dünyada tanıdan rəssamlar arasında Sakit Məmmədovun nailiyyətlərini qeyd etmək lazımdır. Sakit Məmmədov UNESCO Rəssamlar İttifaqının üzvü, Rusiya İmperator Rəssamlar Akademiyasının akademiki, Minilliyin Adamı, Avropanın Şərəf ordeni, İtaliyanın Leonardo da Vinçi ordeni, Avropa Təbiət Elmlər Akademiyasının həqiqi üzvü, Portuqaliyada Festivalda Vera birincilik mükafatı, Beynəlxalq Vera mükafatı, Çingiz Aytmatov adına Beynəlxalq mükafat, Beynəlxalq Vətən Övladı və Dədə Qorqud mükafatları, Birincilik mükafatları və s. qızıl medal və digər mükafatlara layiq görülmüşdür.

Azərbaycan təsviri sənət nümunələrinin sərgiləndiyi maraqlı obyektlərdən biri də Müsir İncəsənət Muzeyidir. XX əsrin ikinci yarısından bu günümüzə kimi azərbaycan təsviri sənəti və heykəltəraşlığının avanqardlarından təşkil olunmuş əsərlər toplusu muzeyin əsasını təşkil edir. Bu, insan ruhunun müşahidə, axtarış və azadlığını əks etdirən rəsm və heykəllər toplusudur.

2009-cu il mart ayının 20-dən fəaliyyət göstərən muzeydə azərbaycan rəssamları və heykəltaraşlarının 800-dən artıq əsəri sərgilənir. Muzeydə Səttar Bəhlulzadə, Böyükağa Mirzəzadə, Elmira Şaxtaxtinskaya, Tahir Salahov, Ömər Eldarov, Nadir Əbdürrəhmanov kimi sənətkarların əsərləri nümayiş olunur.(7)

Azərbaycan rəssamlarının əsərlərində milli geyimlərimiz, milli musiqi alətlərimiz öz əksini tapıb və bu əsərlər milli elementlərlə zəngindir.Bütün bunlar Azərbaycanı, onun maddi və mənəvi sərvətlərini dünyada tanıtmaq yolunda görülən işlərdir.

Ölkə başçısının təsviri sənətə, incəsənətə bəslədiyi sonsuz qayğı bu sahəyə müsbət təsir göstərir. Rəssam və heykəltəraşlara dövlət tərəfindən emalatxanalar verilir, onların fəaliyyəti üçün şərait yaradılır. Bu gün dünyanın əksər ölkələrində bu sahə ilə məşğul olanlar dövlət qayğısından uzaqdır. Ancaq Azərbaycanda dövlət rəssamların, heykəltəraş və memarların qeydinə qalır və onları qiymətləndirir. Sənətşünaslar qeyd edir ki, dünyanın hər yerində rəssamlar öz şəxsi hesabına emalatxana sahibi olur, dövlət onlara emalatxana vermir. Bizim ölkədə isə bu başqa cürdür. Rəssam, heykəltəraş, memar dövlətdən qayğı görür. Dövlət quruculuğuna öz sənəti, fəaliyyəti ilə töhfələr verən təsviri sənət ustaları azərbaycançılığın təbliğində müstəsna rol oynayır və bu istiqamətdə silsilə əsərlər yaradır. Müasir Azərbaycan rəssam və heykəltəraşlarının, memarlarının azərbaycançılıq məfkurəsinə xidmət etdiyi gizlin deyil və onların saysız əsərləri azərbaycançılıq ruhundadır.(2)

Nəticə

Azərbaycan təsviri incəsənəti xalqımızın tarixi-mədəni kimliyini qorumaq və təbliğ etmək baxımından mühüm əhəmiyyətə malikdir. Qədim dövrlərdən başlayaraq bu sənət sahəsi milli ornamentlər, etnoqrafik motivlər və tarixi simvollar vasitəsilə azərbaycançılıq ideyasını vizual şəkildə ifadə etmişdir. Sovet dövründə mövcud ideoloji məhdudiyyətlərə baxmayaraq, rəssamlar milli ruhu əsərlərində yaşatmağı bacarmış, müstəqillikdən sonra isə bu meyillər daha sərbəst və çoxşaxəli formalarda davam etmişdir. Müasir dövr Azərbaycan rəssamları milli dəyərləri həm simvolik, həm də konseptual yanaşmalarla təqdim edərək, onların qlobal kontekstdə tanıdılmasına töhfə verirlər. Bütün bu mərhələlər göstərir ki, Azərbaycan rəssamlıq məktəbi yalnız sənətkarlıq deyil, həm də milli-mədəni ideyaların daşıyıcısı və qoruyucusudur.(1)

ƏDƏBİYYAT SİYAHISI

8. Abbasova, T. (2023). Sovet dövründə və müasir mərhələdə Azərbaycan rəssamlarının yaradıcılığında milli kodlar. Bakı.
9. Ələkbərov, E. (2022). Azərbaycan mədəniyyəti və təsviri sənətdə kimlik məsələləri. Bakı: Şərq-Qərb
10. Əliyev, F. (2020). Azərbaycan təsviri sənətində milli motivlər və onların tərbiyəvi əhəmiyyəti. Bakı: Elm və Təhsil.
11. Əliyeva, Z. (2021). Təsviri incəsənətdə milli irsin vizual təqdimatı: Azərbaycan nümunəsi. Bakı:
12. Həsənova, N. (2021). Milli dəyərlərin təbliğində təsviri sənətin rolu. Mədəniyyət və İncəsənət Jurnalı, 9(2), 22–29.
13. Məmmədov, S. (2018). Təsviri sənət vasitəsilə milli identikliyin qorunması: Sənətşünaslıq yanaşması. İncəsənət və Cəmiyyət, 5(1), 47–55.
14. Qasımov, M. (2019). Azərbaycan rəssamlıq məktəbi: inkişaf mərhələləri və üslub xüsusiyyətləri. Azərbaycan Dövlət Rəssamlıq Akademiyası Elmi Əsərləri, 12(1), 35–45.

ASPECTS OF FORMATION OF ECOLOGICAL KNOWLEDGE IN EDUCATION

АСПЕКТЫ ФОРМИРОВАНИЯ ЭКОЛОГИЧЕСКИХ ЗНАНИЙ В ОБРАЗОВАНИИ

TƏHSİLDƏ EKOLOJİ BİLİKLƏRİN FORMALAŞMASININ ASPEKTLƏRİ

İbrahimova Xoşqədəm Qonaq qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti Bakı, Azərbaycan, Biologiya və onun tədrisi texnologiyası kafedrasının dosenti

Abstract
The purpose of environmental education is to form environmental culture as an important component of the general culture of the individual, as well as the individual's awareness of his/her role in society in preserving and enhancing the riches of our nature. Environmental education and upbringing are important in the formation of environmental consciousness, environmental culture, as well as the worldview of a person. The solution of these problems actualizes the need to use the potential of environmental education of the younger generations. The historical development of mankind is inextricably linked with the history of the environment. At the present stage, human interaction with the environment has become a global environmental problem. Environmental education is a new priority of the state policy and a means of people's adaptation to the rapidly changing environment. Modern society needs citizens who possess not only a system of ecological knowledge, but also practical skills and abilities in the field of environmental protection, the ability to give ecological forecasts of the results of human economic activity. In addition, the young generation should have a sense of care and responsibility for the environment.
Keywords: ecological environment, ecological consciousness, ecological education, ecological awareness, ecological culture, ecological problem.

Резюме
Целью экологического образования является формирование экологической культуры как важной составляющей общей культуры личности, а также осознание личностью своей роли в обществе в сохранении и приумножении богатств нашей природы. Экологическое образование и воспитание имеют важное значение в формировании экологического сознания, экологической культуры, а также мировоззрения человека. Решение этих проблем актуализирует необходимость использования потенциала экологического образования подрастающих поколений.
Историческое развитие человечества неразрывно связано с историей окружающей среды. На современном этапе взаимодействие человека с окружающей средой стало глобальной экологической проблемой. Экологическое образование-это новый приоритет государственной политики и средство адаптации людей к быстро меняющейся окружающей среде. Современное общество нуждается в гражданах, обладающих не только системой экологических знаний, но и практическими навыками и умениями в области охраны окружающей среды, способностью давать экологические прогнозы результатов хозяйственной деятельности человека. Кроме того, молодое поколение должно иметь чувство заботы и ответственности за окружающую среду.
Ключевые слова: экологическая среда, экологическое сознание, экологическое образование, экологическое сознание, экологическая культура, экологическая проблема.

Xülasə
Ekoloji təhsilin məqsədi şəxsiyyətin ümumi mədəniyyətinin mühüm tərkib hissəsi kimi ekoloji mədəniyyəti formalaşdırmaqla yanaşı, təbiətimizin sərvətlərinin qorunub saxlanması və artırılmasında şəxsiyyətin cəmiyyətdəki rolunu dərk etməsini zəruri edir. Ekoloji şüurun, ekoloji mədəniyyətin, eləcə də şəxsiyyətin dünyagörüşünün formalaşdırılmasında ekoloji təhsil və tərbiyə zəruridir. Bu problemlərin həlli gənc nəsillərin ekoloji maarifləndirilməsi potensialından istifadə məsələlərini aktuallaşdırır.
Bəşəriyyətin tarixi inkişafı ətraf mühitin tarixi ilə ayrılmaz şəkildə bağlıdır. Müasir mərhələdə insanların ətraf mühitlə qarşılıqlı əlaqəsi qlobal ekoloji problemə çevrilmişdir. Ekoloji təhsil dövlət siyasətinin yeni prioriteti və insanların sürətlə dəyişən mühitə uyğunlaşdırılması vasitəsidir. Müasir cəmiyyət təkcə ekoloji biliklər sisteminə deyil, həm də ətraf mühitin mühafizəsi sahəsində praktiki bacarıq və vərdişlərə, insanın iqtisadi fəaliyyətinin nəticələrinin ekoloji proqnozlarını vermək bacarığına malik vətəndaşlara ehtiyac duyur. Bundan əlavə, gənc nəsildə ətraf mühitə qarşı qayğı və məsuliyyət hissi olmalıdır.
Açar sözlər: ekoloji mühit, ekoloji maarifləndirilmə, ekoloji təhsil, ekoloji şüur, ekoloji mədəniyyət, ekoloji problem.

Giriş
Hazırda təhsil sistemində, o cümlədən biologiyanın tədrisində ümumi təhsilin strukturunun və məzmununun yenilənməsi, təhsilin yeni keyfiyyətinə nail olunmasının təmin edilməsi ilə bağlı problemlər ön plana çıxır. Bu problemlər biologiyanın tədrisinin prioritetlərinin dəyişdirilməsini, məqsədlərin yenidən nəzərdən keçirilməsini və onun məzmununun cəmiyyətin yeni tələbatlarına, qlobal tendensiyalara, müasir mərhələdə biologiya elminin nailiyyətlərinə uyğunlaşdırılmasını tələb edir. Təbii mühitin tənəzzülünü aradan qaldırmağa və onun qorunmasına yönəlmiş insan və təbiət arasında yeni növ münasibətlərin formalaşması müasir cəmiyyətin ekoloji problemlərinin həllinə məhsuldar yanaşma kimi qəbul edilir.
Son illərdə ekoloji problemlərin artması ətraf mühitlə bağlı tədqiqatların da sayının artmasına səbəb olmuşdur. Tədqiqatçılar vurğulayırlar ki, ekoloji problemləri azaltmağın ilk yolu ekoloji şüurlu vətəndaşların yetişdirilməsidir. Bu şüurlu insanların yetişməsində ekoloji maarifləndirmə böyük rol oynayır.
XXI əsrdə dünyada müşahidə edilən sürətli əhali artımı və insan ehtiyaclarının artması ilə hava və su kimi müxtəlif resursların sürətli və şüursuz istehlakı, tullantıların ətraf mühitə atılması, planlaşdırılmamış urbanizasiya və bir çox problemlərə, xüsusilə təbii tarazlığının pozulmasına səbəb olur. Təbii tarazlıq pozulduqda ciddi ekoloji problemlər yaranır. Bu vəziyyət siyasi və elmi dairələri baş verənlərin səbəbləri haqqında düşünməyə vadar edir. Bu məqamda ekoloji təhsil ortaya çıxır. Ətraf mühit problemi son otuz ildə dünyada ən çox müzakirə edilən sosial gündəm mövzularından biridir. Beynəlxalq platformalarda ekoloji problemlərin qarşısını almaq və həll etmək üçün ilk əhəmiyyətli səylər 1970-ci illərin əvvəllərində başladı. Ekoloji təhsil xüsusilə 1972-ci ildə Stokholmda keçirilən İnsan Ətraf Mühit üzrə Birləşmiş Millətlər Konfransı ilə qlobal bir hadisəyə çevrildi. Bu kontekstdə bəzi ölkələrdə ekoloji təhsil proqramları hazırlanmış və ətraf mühit , ekoloji maarifləndirmə ilə bağlı çoxsaylı tədqiqatlara başlanılmışdır. Bu tədqiqatlar mahiyyəti vurğulayır ki, təhsil təbii tarazlığının qorunması və vətəndaşlarda ekoloji şüurun təmin edilməsi üçün əsasdır. Ekoloji tərbiyə ailədə başlayan və məktəbdə davam edən tərbiyədir. Əgər ailə bu mövzuda adekvat təhsil verməmişdirsə, məktəbdə təhsilin əhəmiyyəti daha da artır. Bu səbəbdən məktəb sistemində verilən ekoloji təhsilin məzmunu, əhatə dairəsi və keyfiyyəti böyük əhəmiyyət kəsb edir.
Canlılar hava, su, torpaq kimi cansız amillərlə və digər canlılarla birlikdə yaşayırlar.
Buna görə də canlıların həyati bağlarla əlaqəli olduğu, müxtəlif yollarla təsir edən və əks təsiri olan bir sahə vardır ki, bu sahə ətraf mühit adlanır. Başqa bir baxımdan, ətraf mühit fərdin

və cəmiyyətin fiziki, bioloji, sosial-psixoloji, sosial, iqtisadi və mədəni həyatına təsir edən bütün amillər kimi müəyyən edilə bilər. Ekoloji məlumatlılıq ətraf mühit haqqında məlumatın, ətraf mühitə münasibətin və ekoloji cəhətdən faydalı davranışların inkişafıdır. Bu tərifə görə, ekoloji şüurun yaradılmasının əsas məqamları təbiət və ekologiya haqqında biliklər, ekoloji problemləri və bu problemlərin həlli yollarını öyrənmək, ətraf mühitə müsbət münasibət və düşüncələri artırmaq, ətraf mühitin deqradasiyasına biganə qala bilməyən və bunun qarşısını almaq üçün lazımi davranışları nümayiş etdirən insanların sayını artırmaqdır.

Nəticələr Və Onların Müzakirəsi

Cəmiyyətdə ekoloji şüurlu şəxslərin yetişdirilməsi yalnız kiçik yaşlardan başlayan səmərəli ekoloji maarifləndirmə ilə əldə edilə bilər. Ekoloji təhsil xüsusilə ibtidai məktəblərdə təbiətin və təbii sərvətlərin mühafizəsi üzrə təlimlə başlamışdır. Lakin zaman keçdikcə məlum oldu ki, ekoloji təhsil təbiətin və təbii sərvətlərin mühafizəsi təhsilindən fərqlidir. Torpaq, su və ya meşələr kimi təbii ehtiyatların inkişaf etdirilməsi və qorunması ilə yanaşı, biosfer, biomlar və ekosistemlər də daxil olmaqla bütün ətraf mühitin qorunması və yaxşılaşdırılmasının vacibliyi də vurğulanır. Ekologiya, ekoloji təhsil də ən vacib anlayışlardan birinə çevrilmişdir, çünki o, ekosistemlərin əlaqəli fəaliyyətini izah edir. Zaman keçdikcə ekoloji təhsil insanları ətraf mühit haqqında məlumatlandırmaq, eləcə də onları ətraf mühitin idarə edilməsi bacarıqlarına malik iştirakçılara və könüllülərə çevirmək məqsədi daşıyır. Ekoloji maarifləndirmə həm də dünyanın sonuna gətirib çıxaracağı düşünülən halların aradan qaldırılması üçün zəruri bir vasitə kimi nəzərdə tutulur. Bu təlimin əsas məqsədi ekoloji şüurlu şəxsiyyətlər yetişdirməkdir. Bu səbəbdən ekoloji təhsil digər təhsillərdən onunla fərqlənir ki, o, ekoloji bilikləri çatdırmaqla yanaşı, fərdlərin ətraf mühitə münasibətini inkişaf etdirməyə və bu münasibətləri davranışa çevirməyə kömək edir.

Ekoloji təhsil müxtəlif yanaşmalardan istifadə etməklə həyata keçirilə bilər. Birinci yanaşmaya görə, ekoloji təhsil ətraf mühit və canlıları, onların qarşılıqlı təsirlərini qavramaq və öyrənmək məqsədi daşıyır. İkincisi, ekoloji maarifləndirmə və şərh üçün ekoloji maarifləndirmə aparıla bilər. Burada əsas yanaşma öyrənənlərin müxtəlif bacarıqlar əldə etmələri və ekskursiyalar vasitəsilə öyrənmələridir. Ekoloji təhsilə son yanaşma ilk iki yanaşmanı özündə birləşdirən yanaşmadır və eyni zamanda şagirdlərdə öz davranışlarına görə məsuliyyət hissini inkişaf etdirməyə, ekoloji etikanı və cəsarətini təmin etməyə yönəlmişdir. Bu yanaşmalara uyğun olaraq dünyanın müxtəlif ölkələrində ekoloji təhsilə verilən önəm də müxtəlifdir.

Ədəbiyyatda ekoloji savadlılıq altı əsas komponentdə (ekoloji bilik, sosial-siyasi biliklər, ekoloji problemlərə dair biliklər, affektiv xüsusiyyətlər, ekoloji məsuliyyətlərin müəyyən edilməsi, zehni bacarıqlar və ətraf mühitə qarşı məsuliyyətli davranışlar) qırx alt ölçüdən ibarət olduğu ifadə edilir.

Ekoloji şüurun inkişaf etdirilməsi üçün tələblərdən biri də şagirdlərin ətraf mühitlə bağlı anlayışları kifayət qədər bilmələridir. Ekoloji təhsil məlumatlandırma, maarifləndirmə, uyğunlaşma, balanslaşdırma, inkişaf və qoruma kimi elementləri ehtiva edir və buna uyğun olaraq fərdi davranışlar yaratmağı hədəfləyir [8, **s.97**].



Ekoloji təhsilin xüsusiyyətləri


• Ekoloji təhsil davamlı bir prosesdir və həyat boyu davam etməlidir.
• Ekoloji təhsili müxtəlif elmi sahələri əhatə edir və multidissiplinardır.
• Ekoloji təhsil çoxfunksiyalı təhsil növüdür. Cəmiyyətdə, bütün təhsil ocaqlarında həyata keçirilməlidir.
• Ekoloji təhsil mövcud ekoloji problemlər və onların həlli yolları arasında konsensus yaratmaq məqsədi daşıyır. Məqsəd davamlı inkişafa nail olmaqdır.
• Ətraf mühiti onun texnoloji və sosial aspektləri də daxil olmaqla bütövlükdə nəzərdən keçirmək lazımdır.
• Yerli, milli və beynəlxalq əməkdaşlıq tələb olunur.
• Təhsil bütün yaş qruplarına verilməlidir
• Öyrənənlər ekoloji problemlərin əsl səbəblərini özləri tapmağa həvəsləndirilməlidir.
• Tənqidi düşünmə və problem həll etmə bacarıqları aktivləşdirilməlidir.
• Praktik fəaliyyətlər daxil edilməlidir.
•Ekoloji təhsil öyrənənlərin koqnitiv, affektiv və psixomotor öyrənmə sahələrini əhatə edir.


• 1977-ci ildə UNESCO Tbilisi bəyannaməsinə uyğun olaraq ekoloji təhsilə dair konfrans təşkil etmişdir və qeyd edilmişdir:

• Ətraf mühitin mühafizəsi və yaxşılaşdırılması üçün onlara lazımi bilik, dəyərlər, münasibət, məsuliyyət və bacarıqlar əldə etmək imkanlarını təmin etmək;

• Cəmiyyətdə ətraf mühitə qarşı yeni davranış modeli yaratmaq.

Ekoloji təhsilin məqsədləri maarifləndirmə, məlumatlandırma,bacarıqlar və iştirak hesab olunur. Məktəbəqədər dövrdə ekoloji təhsil uşağın həyatının ilk illərində ətraf mühit haqqında öyrəndikləri iki yerə bölünür: ətraf mühiti tanımaq; ətraf mühiti qorumaq [7, **s.98**].





Təhsil səviyyələrinə görə ekoloji təhsil:

•ümumi təhsil müəssisələri üçün ekoloji təhsil: Bu fənn üzrə əsas seçmə kurslar aşağıdakılardır: • əsas ekoloji biliklər;
• ekoloji mühit;
• ətraf mühit və sağlamlıq;
• süni mühit; aqrosistemlər
• fəlakətlər;
• əhalinin miqrasiyası və sosial mühit.

Ali Təhsildə Ətraf Mühit üçün təhsil məqsədləri:

- Ekoloqlar və ətraf mühit mütəxəssisləri hazırlamaq məqsədi ilə ətraf mühit üçün təhsil təmin edilməlidir.
- Ətraf mühitin mühafizəsi üzrə elmi tədqiqat və texnologiyanın inkişafına töhfə vermək üçün ətraf mühit üçün təhsil təmin edilməlidir.
- Ekologiya üzrə fənn müəllimlərinin hazırlanması üçün ətraf mühit üçün təhsil təmin edilməlidir.
- Ekoloji problemləri tam təhlil etmək və əldə edilən təhlillər əsasında problemləri həlli yolları, istehsal etmək, canlı və cansız varlıqların təbiətdə harmoniya içində yaşamasını təmin etmək üçün ekologiyanı inkişaf etdirməli və təbiət elmlərdən xəbərdar olmalıdırlar.

Fərdlərin ekoloji şüuru, davranış dəyişiklikləri, insanlar, digər canlılar və ətraf mühitlə qarşılıqlı əlaqədir. Əlaqələri, yəni əsas ekoloji hadisələri dərk etməklə mümkündür.

Ekoloji təhsil mövzusu 1972-ci ildə Stokholmda keçirilən Birləşmiş Millətlər Təşkilatının İnsan Ətraf Mühit Konfransı ilə qlobal miqyas almış Bəyannaməsində deyilir ki, "Bəşəriyyət indiki və gələcək nəsillər üçün ətraf mühiti qorumalı və yaxşılaşdırmalıdır".

Ekoloji təhsil anlayışı bəzi ölkələrdə 1970-ci illərdə qəbul edilsə də, ilk dəfə 1972-ci ildə tətbiq edilmişdir. Stokholm konfransının tövsiyələrinə uyğun olaraq YUNESKO-nun Ətraf Mühit Departamenti 1975-ci ildə 136 üzvlə yaradılmışdır. Üzv dövlətlərin "Ehtiyaclar və Prioritetlər" üzrə Dövlət "Ekoloji Təhsil üçün Resursların Qiymətləndirilməsi" sorğusu tətbiq edilmiş və bu sorğunun nəticələri hazırlanacaq ekoloji maarifləndirmə proqramlarının əsasını təşkil etmişdir.

UNESCO və UNEP ilə birgə Moskvada "Beynəlxalq Ekoloji Təhsil və Təlim" keçirilib. Konqres həmçinin müəllim təhsilinin əsas elementi ekoloji təhsil olduğu qənaətinə gəlib. İxtisaslı və davamlı ekoloji təhsili təmin etməyin ən yaxşı yolu müəllim təhsilində ekoloji təhsil ölçüsünü vurğulamaqdır.

Ekoloji təhsil- cəmiyyətin bütün təbəqələrində ekoloji şüurun inkişaf etdirilməsi, ətraf mühitə həssas fərdlərin yetişdirilməsi və bu fərdlərdə daimi davranışların formalaşmasının təmin edilməsi, təbii, tarixi və mədəni dəyərlərin qorunması, ekoloji fəaliyyətdə fəal iştirakın təmin edilməsi, ekoloji problemlərin həllində iştirak kimi müəyyən edilir [7, **s.101**].

Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasının 78-cı maddəsində deyilir ki, "Ətraf mühitin qorunması hər bir şəxsin borcudur."

Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu(2009), 33-cü maddənin 33.3.4. bəndində təhsilverənlərin şəxsi nümunəsi ilə təhsilalanlarda Azərbaycan Respublikasının müstəqilliyinə, Konstitusiyasına və qanunlarına, dövlət rəmzlərinə, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, dilinə, adət və ənənələrinə, milli və ümumbəşəri dəyərlərə, cəmiyyətə, ətraf mühitə hörmət və qayğı hissləri aşılamaqdır [2, **Maddə 33**].

Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün "Biologiya"fənni üzrə təhsil proqramında(kurikulum) üçüncü məzmun xətti "Canlılar və ətraf mühit " dir. Canlılar və ətraf mühit məzmun xətti üzrə şagirdlər biotik və abiotik komponentləri özündə cəmləşdirən ətraf mühit anlayışı, canlıların bir-biri ilə və cansız mühitlə qarşılıqlı münasibətləri, ekoloji amillər və bu amillərin qarşılıqlı təsirləri haqqında bilik və bacarıqlara yiyələnirlər. Bu məzmun xətti ekosistem konsepsiyasının dərk olunması və ətraf mühitə insanın təsirinin öyrənilməsinə, həmçinin milli, regional və qlobal ekoloji problemləri canlılar aləminin müxtəlifliyinin qorunması ilə əlaqələndirilməsinə və təhlilinə imkan verir [3, s. 46].

Hazırda ekoloji təhsilin metodologiyası intensiv inkişaf etməkdə davam edir: proqramlar yaradılır, metodlar təkmilləşdirilir, insanların təbii və sosial şəraitini nəzərə alaraq uşaqlarla işin məzmunu və formalarına regional yanaşmalar hazırlanır. İbtidai məktəb yaşlı uşaqların ekoloji tərbiyəsi məktəbdə təhsil prosesinin mühüm tərkib hissəsidir. Ekoloji təhsil həm

sinifdə, həm də məktəbdənkənar fəaliyyətlərdə, o cümlədən müxtəlif fənlər riyaziyyat, coğrafiya, kimya, fizika, həyat bilgisi, təsviri incəsənət, xarici dillər və ədəbi oxu, texnologiya vasitəsilə həyata keçirilir [8, **s.128-136**].

Hər kəsin sağlam və tarazlaşdırılmış ətraf mühitdə yaşamaq hüququ vardır. Ətraf mühitin vəziyyətini yaxşılaşdırmaq, ətraf mühitin sağlamlığını qorumaq və ətraf mühitin çirklənməsinin qarşısını almaq dövlətin və vətəndaşların borcudur. Ekoloji şüurun intellektual, emosional və davranış ölçüləri var. Ekoloji maarifləndirmə ətraf mühitlə bağlı qərarları, prinsipləri və şərhləri ehtiva edən düşüncələrdən, bu düşüncələrin həyata ötürülməsi olan davranışlardan və bütün bunlarla bağlı müxtəlif duyğulardan ibarətdir. Belə hərtərəfli konsepsiyanın hazırlanması, şübhəsiz ki, sadə proses deyil. İnsanın ətraf mühitlə təmasda olması ilə sürətlənən bu proses bütün həyatı boyu davam edir. Ətraf mühit şüuru şəxsiyyətin inkişafı ilə paralel olaraq müxtəlif amillərin qarşılıqlı təsiri nəticəsində inkişaf edir və ona təsir göstərir. Bu üç ölçünün həmişə eyni sürətlə inkişaf etdiyini söyləmək olmaz. Məsələn, ətraf mühit haqqında məlumatı olan, lakin bunu davranışına çevirə bilməyən insanlar var, ətraf mühitin çirklənməsindən narahat olan, lakin onu qorumaq üçün davranış nümayiş etdirməyənlər də ola bilər. Bütün fərdlərin hüquq və vəzifələri baxımından böyük əhəmiyyət kəsb edən ekoloji şüur və həssaslıq inkişaf etdirilməlidir.

Ekoloji təhsilə ciddi yanaşaraq onu həyata keçirməklə, cəmiyyətin bütün təbəqələrinin görüləcək işlərə töhfə verməsini təmin etməklə ekoloji təhsildə irəliləyiş əldə etmək olar. Milli ekoloji maarifləndirmə və ekoloji maarifləndirmə proqramları ilə həyata keçirilməlidir. Cəmiyyətin bütün təbəqələri üçün ayrıca araşdırmalar aparılmalıdır. Ekoloji maarifləndirmə hər bir yaş qrupu üçün ayrıca və effektiv şəkildə hazırlanmış ekoloji maarifləndirmə ilə təmin edilə bilər [6, **s.** 302].

Ekoloji təhsilin istənilən səviyyədə yaradılması üçün tətbiq edilməli olan əsas meyarlar qəbul edilməlidir. Yalnız məktəblərdə ekoloji maarifləndirmə yolu ilə ekoloji maarifləndirmə və ətraf mühitin mühafizəsi yaratmaq mümkün deyil. Cəmiyyətin bütün təbəqələri üçün aparılan bu araşdırma ilə illər ərzində ekoloji təhsil vermək mümkün ola bilər. Gələcək nəsillərin təhsili məktəblərdə verilən ekoloji maarifləndirmə ilə təmin edilə bilər. Bununla belə, ümumi ekoloji maarifləndirmə ilə cəmiyyətin bütün fərdlərinin ekoloji şüurunun təkmilləşdirilməsinə ehtiyac var.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası Bakı-1995
2.“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu Bakı –2009
3.Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün "Biologiya"fənni üzrə təhsil proqramı (kurikulum)(VII-XI siniflər) Bakı –2023, s.57
4. İbrahimova X.Q. Biologiyanın tədrisi metodikası(Ümumtəhsil məktəbləri üçün biologiya fənni üzrə proqramın -kurukulumun tətbiqi) - Bakı: ADPU-nun nəşriyyatı-2023, s. 319
5.Məmmədov Q.Ş., Xəlilov M.Y. "Ekologiya, ətraf mühit və insan" Bakı, 2006, s. 411
6.Sultanov R., Sadıqova N., Ataşova Ü.. Ümumi ekologiya. dərslik. Bakı-2010, s. 384
7.Tanrıverdi, Belgin. “Sürdürüle bilir Çevre Eğitimi Açısından İlköğretim Programlarının Değerlendirilmesi”, Eğitim ve Bilim Dergisi cilt 34, sayı 151, s.90-102, Ankara, 2009.
8.Ünal, Sevil-Mançuhan, Ebru-Alpsayar, Ahmet. Çevre Bilinci, Bilgisi ve Eğitimi. Marmara Üniversitesi Yayını. İstanbul, 2001, s.229
9. Розенберг А.Г., Кудинова Г.Э. Обзор моделей экологического образования // Балтийский гуманитарный журнал. 2016. Т. 5. № 3 (16). С. 176-180.

BAKHTİYAR VAHABZADEH AS THE SYMBOL OF INDEPENDENCE AND TURKİSM IDEOLOGY İN OUR POETRY

АДРЕС НЕЗАВИСИМОСТИ И ИДЕОЛОГИИ ТЮРКИЗМА В НАШЕЙ ПОЭЗИИ — БАХТИЯР ВАХАБЗАДЕ

POEZİYAMIZDA İSTİQLAL VƏ TÜRKÇÜLÜK MƏFKURƏSİNİN BƏXTİYAR VAHABZADƏ ÜNVANI

Elman Quliyev
Filologiya Elmləri Doktoru, Professor Azərbaycan Dövlət Pedaqoji Universiteti Türkoloji Mərkəzin Türk Ədəbiyyatı Bölməsinin Müdiri

Abstract
Bakhtiyar vahabzadeh's literary work, shaped within the boundaries of his deep national independence perspective and his sensitive, delicate, and sincere lyrical thinking, can be considered a major event in literature as a whole. In every aspect of vahabzadeh's poetry, the essence remains rooted in the context of humanity, time, and society. The diversity of themes and content, the dynamic transition between various events, and the unique expression of national aesthetics beyond standard conventions can be highlighted as key qualities of his art. In his poetry, themes such as freedom, love for the homeland and the nation, and the struggle for liberty constitute a distinct line. From this point of view, bakhtiyar vahabzadeh, who instilled the love for the homeland, the taste of freedom, and the spirit of resistance against injustice in his nation, can be regarded not just as a great poet or a powerful writer, but as a revolutionary and an idealist who awakened national consciousness and called people to struggle.
Keywords: bakhtiyar vahabzadeh, independence, homeland, nationality, united azerbaijan

Xülasə
Bəxtiyar Vahabzadənin ciddi milli istiqlal baxışları ilə həssas, incə və səmimi lirik düşüncələrinin sərhədləri çərçivəsində formalaşmış yaradıcılığını bütöv halda böyük ədəbiyyat hadisəsi hesab etmək olar. Bəxtiyar Vahabzadə poeziyasının bütün məqamlarında mahiyyət insan, zaman və cəmiyyət kontekstindən kənara çıxmır. Mövzu və məzmun rəngarəngliyini, mobil şəkildə fərqli hadisələrə keçidi, millilik estetikasının standartlardan kənar ifadə bacarığını bu sənətin başlıca keyfiyyəti kimi önə çəkmək olar. Bəxtiyar Vahabzadə poeziyasında hürriyyət, vətən və millət eşqi, azadlıq mücadiləsi və s. məsələlər ayrıca bir xətt təşkil edir. Bu baxımdan vətən eşqini, azadlıq zövqünü, haqsızlığa qarşı etiraz ruhunu millətə aşılayan Bəxtiyar Vahabzadəni böyük şair, qüdrətli bir ədib deyil, insanları milli ruhda düşündürən, onları mübarizəyə səsləyən bir inqilab və bir ideal adamı hesab etmək olar.
Açar sözlər: Bəxtiyar Vahabzadə, istiqlal, vətən, millilik, bütöv Azərbaycan

Резюме
Творчество Бахтияра Вахабзаде, сформировавшееся в рамках его серьёзных взглядов на национальную независимость и тонкого, чувствительного, искреннего лирического мышления, можно считать значительным явлением в литературе. Во всех аспектах поэзии Вахабзаде суть остаётся в контексте человека, времени и общества. Разнообразие тем и содержания, динамический переход к различным событиям, умение выражать национальную эстетику вне стандартов — всё это можно выделить как главные качества его искусства. В поэзии Бахтияра Вахабзаде темы свободы, любви к Родине и нации,

борьбы за независимость и другие занимают особое место. С этой точки зрения, Бахтияра Вахабзаде можно считать не просто великим поэтом или могущественным писателем, а революционером и идеалистом, пробуждающим национальный дух и призывающим народ к борьбе.

Ключевые слова: Бахтияр Вахабзаде, независимость, Родина, национальность, единый Азербайджан

Poetik təfəkkürün millilik dəyərlərinin intəhasızlığı, ictimai-fəlsəfi düşüncənin mükəmməlliyi, milli istiqlal məfkurəsinin böyüklüyü, vətəndaş-şair mövqeyinin bütövlüyü, milli-mənəvi özünüdərkin fərqli şəkildə təqdimi və təbliği baxımından seçilən Bəxtiyar Vahabzadə yaradıcılığını ədəbiyyatımızın "Bəxtiyarnamə" mərhələsi adlandırsaq, yəgin ki, səhv etmərik. Bu mənada Bəxtiyar Vahabzadənin ciddi milli istiqlal baxışları ilə həssas, incə və səmimi lirik düşüncələrinin sərhədləri çərçivəsində formalaşmış yaradıcılığını bütöv halda böyük ədəbiyyat hadisəsi hesab etmək olar.

Dahi Azərbaycan şairi M.Şəhriyarın keçən əsrin 70-ci illərində Arazın o tayından bu tayına Süleyman Rüstəmə göndərdiyi şeirdən bir bəndi xatırlatmaqla fikirlərimi davam etmək istərdim:

Qardaşların gözündən öp,
Bəxtiyarın üzündən öp,
Səmədin də sözündən öp.
Mən də təkəm, sizə qurban,
Tək canım hammuza qurban.

Böyük Şəhriyarın böyük Bəxtiyara bu cür doğma münasibəti və qəlb bağlılığı səbəbsiz deyil. Çünki hər iki Böyükün içində, ruhunda bütöv Azərbaycan amalı yaşamışdır:

O taydadır Şəki, Şirvan, Qarabağ,
Bu tayda da Meşgin, Əhər, Qaradağ,
Bir- birlərin Arazdan almış soraq,
Araz bizi ayırmadan dağlayıb,
Son özü də gecə-gündüz ağlayıb.
(M.Şəhriyar)

Arazın
Bu tayı Vətənim,
O tayı Vətənim
Vətəni görməyə amanım yox mənim...
Bu qəmim, bu dərdim dağlardan ağırdı.
Arazın suyuna qarışıb axıram
Füzuli həsrətlə qürbətdən Vətənə baxırdı,
Mən isə...
Vətəndən Vətənə baxıram.
(B.Vahabzadə)

Bu nümunələrdə iki böyük türk – iki böyük Azərbaycan şairinin parçalanmış Azərbaycan fəryadını, iki yüz illik dərd yaşımız olan "Araz dərdlərini" müşahidə etmək çətin deyil.
Bütöv Azərbaycan idealı Şəhriyar və Bəxtiyar poeziyasının poetik mahiyyətində üst-üstə düşən əsas məqamlardan biridir. Hər iki yaradıcılıqda Azərbaycanın parçalanma vəziyyətinə narahatçılıq münasibəti açıq-aydın hiss edilir. Bu səbəbdən hər iki yaradıcılıqda Azərbaycanın bölünmə faktı ayrılıq, həsrət, kədər motivini nəinki yaradır, həm də aparıcı xəttə çevirir.

Əgər Şəhriyar,- Göz yaşımsan, ay Araz, qoyma gözün baxsa da görsün,
Nə yaman pərdə çəkibsən iki qardaş arasında, - deyirsə, tarixi bölünmə dərdimizi Bəxtiyar belə ifadə edir:

İki əsrdir ki, o daş körpünün
O tayında mənəm, bu tayında sən
Sökülüb dağılır daşlar günbəgün
Sərhəd dilələri xəbərsiz oldu
Bizim qəlbimizdən keçən körpüdən.

Diqqət etdikdə görürük ki, hər iki dahi şairdə ayrılıq dərdi faktik mövcudluğun, reallığın xalqımızın psixologiyasında yaratmış olduğu düşüncələr dairəsində məna qazanır. Belə vəziyyətdə hər bir Azərbaycan vətənpərvəri öz dərdini, öz faciəsini misralarda ehtiva olunan kədərli, emosinal duyğular içərisində yaşasa da, qovuşmağa, birləşməyə də ümidlərini itirmir. Bu yanaşma Şəhriyarda ifadəsini belə tapır:

Qoy gəlim bir qucaqlaşaq, öpüşək,
Bir çəkək ruzigar əlindən dad
Tanrının şükür edək cəlalına ki,
Bu qədərlikcə olmuşuq azad,

Gün o gündür ki, həq yolun düzlər,
Onda bizdə düzü düzə qoşarıq
Ayırammaz o gün bizi şəmşir
Əbədi vəsl üçün qucaqlaşarıq.

Bu məqam şair Bəxtiyar yaradıcılığında isə bu cür ifadə olunur:

Məni görən kimi sən hönkürərək
Açdın qollarını
Qucaqlaşdıq biz
Bu gün qucaqlaşan qollarımız tək
Nə vaxt birləşəcək bəs Vətənimiz?

Bəxtiyar Vahabzadəyə məxsus "nə vaxt birləşəcək bəs Vətənimiz?"

misrasının ritorikası Şəhriyarın "əbədi vəsl üçün qucaqlaşarıq" misrasındakı fikirdə tamamlanır. Qeyd etmək lazımdır ki, Şəhriyar yaradıcılığında özünü göstərən cəhətlərdən biri də xalqın öz taleyinin öz əlində olmaq arzusunun ifadəsidir. Demək olar ki, o bir şair, bir vətəndaş kimi parçalanmış Azərbaycan xalqının taleyinin başqalarının əlində olmasını ürəkdən acımış, "bir millətə olarmı yüz hökumət", "qalmışam mən bu tayda qolu bağlı, asılı" və s. deyərək haray qoparmışdır. Müstəqillik qazandığımız illərə qədər bu ideya Bəxtiyar Vahabzadə yaradıcılığı üçün də səciyyəvi olmuşdur:

Azadlıq- səhərimdir,
Gündüzüm, axşamımdır.
Eşqimdir, ilhamımdır,

Əsl haqqımdır mənim – deyən Bəxtiyar Vahabzadənin azadlıq amalının bütöv Azərbaycan ünvanlı olması şübhəsizdir. Bəxtiyar Vahabzadə Arazın şimalında qazanılan istiqlalımızı yüksək qiymətləndirmiş, onu xoşbəxtliyimizin məlhəmi hesab etmişdir:

İstiqlal qazandı quzeydə ölkə
Bunu gözləmişdim millət yetmiş il

Dövlət müstəqilliyimizin əldə olunması bütün həyatı boyu o tay-bu tay problemlərini önə çəkən Bəxtiyar Vahabzadə düşüncəsində bu taydan- o taya düşən azadlıq işığının simvolikasına çevrilir. Bu simvolika qətiyyətin, inamın, ümidin rəmzidir, millətin azaqlıq bəyanatıdır:

Əsarət zəncirini
Mən qırmaq istəyirəm,
Qollarım azad olsun.
Gəzib bütün dünyanı
Arzumu qulaqlara,
Bağırmaq istəyirəm.
Yollarım azad olsun.
İçib-içib doyunca
Azadlıq çeşməsindən,
Söndürəydim odumu.

İctimai-fəlsəfi və istiqlal düşüncələrinin üstünlük qazandığı Bəxtiyar Vahabzadə poeziyasının bütün məqamlarında mahiyyət insan, zaman və cəmiyyət kontekstindən kənara çıxmır. Mövzu və məzmun rəngarəngliyini, mobil şəkildə fərqli hadisələrə keçidi, millilik estetikasının standartlardan kənar ifadə bacarığını bu sənətin başlıca keyfiyyəti kimi önə çəkmək olar.
Bəxtiyar Vahabzadə sənəti şair ömrünün və şair taleyinin bədii əksi olmaqla yanaşı, geniş mənada milli taleyimizin və istiqlalımızın obrazlı poetik təqdimatıdır:

O acı fəryadlar, şirin nəfəslər
Mənim də könlümün ahı, naləsi!
Qardaşım, Təbrizdən gələn bu səslər
Bakının səsidir, Bakının səsi!

Deyirsən yarıya bölünənlərin,
Dərdini dünyada bir bilməyən yox.
Biz də bölünmüşük, ancaq bu dərdi
Uca kürsülərdən heç bir deyən yox.

İstiqlal ədəbiyyatımızın bariz nümunəsi hesab olunan Bəxtiyar Vahabzadə şeirlərinin yazılması tarix etibarilə keçən əsrin 50-ci illərinə gedib çıxır. Rus-sovet ideoloji siyasətinin ən amansız dönəmində Bəxtiyar Vahabzadə yaradıcılığının qırmızı xətti olan milli-ictimai qayə onun milli qeyrətindən, milli cəsarətindən və təpədən dırnağa Azərbaycançılıq amalına sədaqətindən doğur:

Ayrılır ikiyə bir el, bir vətən.
Axıdıb gözündən yaş gilə-gilə
Bu dəhşətli hala nə deyir Vətən?
Bir deyən olmadı, durun ağalar!
Axı bu ölkənin öz sahibi var.
Siz nə yazırsınız bayaqdan bəri,
Bəs hanı bu yurdun öz sahibləri?
Bəs hanı həqiqət, bəs hanı qanun?
Böyükdür bu yurdun tarixi, yaşı.
Bəs hanı köksünə sərhəd qoyduğun,
Bir vahid ölkənin iki qardaşı?
Axı kim bu haqqı vermişdir sizə?
Sizi kim çağırmış Vətənimizə?

1959 -cü ildə yazılmış bu nümunələri bir tərəfdən Bəxtiyar Vahabzadənin Vətən bütövlüyü haqqımızı əlimizdən alan rus-fars müqaviləsinə etirazı, başqa tərəfdən Vətən təəssübkeşliyi fonunda şairin Azərbaycanı ikiyə parçalayanlara qarşı ittihamnaməsi, digər tərəfdən isə "Tək bir vətən -bütöv Azərbaycan" qayəsinin təbliği şəklində təəssübkeş vətəndaş-şair mövqeyinin göstəricisi kimi dəyərləndirmək daha dürüstdür.
Bəxtiyar Vahabzadə poeziyasında hürriyyət, vətən və millət eşqi, azadlıq mücadiləsi və s. məsələlər ayrıca bir xətt təşkil edir. Bu baxımdan vətən eşqini, azadlıq zövqünü, haqsızlığa qarşı etiraz ruhunu millətə aşılayan Bəxtiyar Vahabzadəni böyük şair, qüdrətli bir ədib deyil, insanları milli ruhda düşündürən, onları mübarizəyə səsləyən bir inqilab və bir ideal adamı hesab etmək olar. Yeri gəlmişkən bir inqilab və bir ideal adamı olan Bəxtiyar Vahabzadə poeziyası ilə türklərin üç inqilabçı şairləri olan Namiq Kamal, Tofiq Fikrət M.A.Ərsoy yaradıcılıqları arasında paralellər müəyyənləşdirmək mümkündür. Türkiyə türk ədəbiyyatının adı çəkilən hər üç şairi kimi Bəxtiyar Vahabzadə yaradıcılığı da özünün siyasi tutumuna görə kifayət qədər zəngindir. Mustafa Kamal Atatürkün Namiq Kamal haqqında dediyi "Vətənin qurtuluşu və istiqlalı üçün ölməyi bu günkü nəslə Namiq Kamal öyrətdi. Namiq Kamaldan gələn səsin sehrinə qapılmışıq. Bu səs ruhumuzu şimşək kimi çaxdırdı! Bu səs indiyədək oxuduğum şeirlərdəki səsə oxşamırdı" - fikirlərini tərəddüd etmədən Bəxtiyar Vahabzadəyə də aid etmək olar.

Qalxın, ey əhli vətən, biz də şadan olalım,
Dini-millət uğrunda, haydı, qurban olalım.
Şan günü bu gündür, bu millətin aslanları,
Çəkəlim qılıncları, tökəlim al qanları.

Namiq Kamala aid olan bu şeir parçasında mövcud ideya Bəxtiyar Vahabzadə poeziyasına məxsus nümunədəki fikirlərlə yaxından səsləşir:

Qoy qalxsın ayağa ruhu Tomrisin,
Babəkin qılıncı parlasın yenə.
Qoy ildırım çaxsın, titrəsin cahan,
Ürəklər qəzəbdən çoşsun, partlasın.
Daim haqq yolunda qılınc qaldıran,
İgid babaların goru çatlasın.

Bəxtiyar Vahabzadə yaradıcılığı milli-mənəvi özünüdərk səviyyəsinə görə kifayət qədər yüksəkdir. Bu tipli şeirlərdə şair insan mənəviyyatının dərinliklərinə enə bilir, insanın məhəbbətini, onun ağrı-acılarını, kədərini, duyğularını və s. dolğun şəkildə ifadə etməyi bacarır. Bu cür poetik nümunələrdə Bəxtiyar Vahabzadə üslubuna uyğun olaraq sözün daha çox lirik-fəlsəfi tərzdə məna qazanması oxucunu gerçəkliklər fonunda düşündürə bilir və yaşanmış tarixin xronikasını xatırlatmağa yardımcı olur:

Özgəsinin qoltuğunda yuva qurmuş,
Özgəsinin fitvasıyla
Öz xalqına tələ qurmuş,
Özgəsinin əli üstə
İqtidara can atan kəs
Bu millətə əsl oğul ola bilməz.
Bizimkidir o namərd də
Buna dözmür, mən yanıram
Satqına yox, satqınlığa utanıram.

Bəxtiyar Vahabzadənin poetik "mən"i fəlsəfi mahiyyətli lirik şeirlərdəki həyati zərurətlərin qabarıq şəkildə təsəvvüründə mühüm rol oynayır. Keçmişimizdən ibrət götürmək, bu günümüzdən gələcəyimizə körpü salmaq, Vətən bütövlüyümüzün nəğməkarı olmaq, millətimizin mənəvi haqlarını qoruya bilmək və s. kimi fikirlərin aparıcılığı Bəxtiyar Vahabzadə şeirlərindəki milli ruhun möhtəşəmliyinin göstəricisidir.
"Ömür", "Qara saçlar, ağ saçlar", "Dünyamı, mənmi", "Şairləri öldürürlər", "Unutqanlıq", "Qorxu", "Hörümçək tor bağladı", "Ana dili", "Vətəndən Vətənə", "Azərbaycan oğluyam" və s. şeirlərində heç bir ictimai-siyasi şərait nəzərə alınmadan şairin cəsarətli poetik "məni" milli ideal konseptini ifadə etmək baxımından öndə dayanır:

Azərbaycan oğluyam,
Odu Allah sanmışam.
Anam torpaq
Atam od
Mən oddan yaranmışam
Azərbaycan oğluyam,
Min ildir,
Öz adımın
Keşiyində durmuşam.

Bəxtiyar Vahabzadənin zəngin yaradıcılıq dühası Azərbaycan ədəbiyyatı hüdudlarını aşaraq türk dünyası əbədi üfüqlərində də parlayan bir ulduza çevrilmişdir. O, türk dünyasının siyasi-mənəvi birliyini arzulamaqla kifayətlənməmişdir, həm də bu yolda yorulmadan çalışmışdır. Sirr deyil ki, Bəxtiyar Vahabzadənin türk dövlətləri birliyi çərçivəsində Türkiyə-Azərbaycan mövzusuna daha çox yer ayırmışdır. Şairin "Azərbaycan – Türkiyə" şeirində Azərbaycan və Türkiyənin siyasi, tarixi, mənəvi baxımından bağlılığı yer almış, poetik məna Ulu Öndər Heydər Əliyevin "bir millət iki dövlət" baxışları kontesktində ifadəsini tapmışdır:

Bir millətik, iki dövlət,
Eyni arzu, eyni niyyət
Hər ikisi Cümhuriyyət
Azərbaycan – Türkiyə.
Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir
Eşqimiz bir, yolumuz bir
Azərbaycan – Türkiyə

Poeziyamızda istiqlal mövzusunun öncülü, lirik-fəlsəfi düşüncənin aparıcı siması olan Bəxtiyar Vahabzadə yaradıcılığı böyük sənət nümunəsi kimi yüksək dəyərlərə malikdir və müasir Azərbaycan ədəbiyyatının fərqli milli-poetik hadisəsidir.

Ədəbiyyat:

1.Bəxtiyar Vahabzadə.Seçilmiş əsərləri, 2 cilddə, Bakı, 1956.
2. Bəxtiyar Vahabzadə. Xalq şairi Səməd Vurğun, Bakı, 1983.
3. Bəxtiyar Vahabzadə. Şəbi-hicran, Bakı, 1985.
4. Bəxtiyar Vahabzadə. İstiqlal, Bakı, 1999.
5. Bəxtiyar Vahabzadə. Ağ atlı oğlan, Bakı, 2002.
6. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri, I-V cildlər, Bakı, 2001-2002.
7. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri, 12 cilddə, Bakı, 2006

USE OF PROVERBS IN MORAL EDUCATION

ƏXLAQ TƏRBİYƏSİNDƏ ATALAR SÖZLƏRİNDƏN İSTİFADƏ

Kərimova Gülsüm
Naxçıvan Dövlət Universiteti
Orcid id: 0009-0003-4988

Xülasə

Tərbiyə şəxsiyyətin formalaşmasında həlledici rol oynayır. Xalq öz həyat təcrübələrindən yararlanaraq şəxsiyyətin formalaşmasına təsir edən tərbiyə formasını müəyyənləşdirir. Tərbiyənin fərdi xüsusiyyətlərə və insan həyatının bütün mərhələlərində qavrama potensialına uyğunlaşdırılması vacibdir.

Atalar sözləri və tərbiyənin mövzusunu "atalar sözləri ilə tərbiyə" və "atalar sözlərində tərbiyə" olaraq iki əsas kateqoriyaya bölmək olar. Atalar sözləri məzmunundan asılı olmayaraq, nəsihət verən, istiqamətləndirən və stimullaşdıran ifadələr kimi tərbiyəvi funksiya daşıyır. Milli mədəniyyətimiz insanların bir-biri ilə məsləhətləşdiyi, bir-birinə nəsihət etdiyi və bunu özünə borc bilən insanların mədəniyyətini əks etdirir. "Ağıl ağıldan üstündür", "Məsləhətli don gen olar" kimi atalar sözləri bu mədəniyyət formasını yansıdır. Məsləhətləşməmək, soruşmamaq bu cəmiyyətdə cəhalət əlaməti kimi qəbul edilir.

Tərbiyənin kateqoriyalarından biri kimi əxlaq tərbiyəsində də atalar sözlərindən istifadə etmək şəxsiyyətin inkişafında böyük rol oynayır.

Bu məqalədə də əxlaq tərbiyəsində də atalar sözlərindən istifadə məsələlərindən bəhs edilir. Məqsəd böyüyən nəsilə atalar sözləri vasitəsilə əxlaqi dəyərləri aşılanmasıdır.

Gənc nəslin hərtərəfli formalaşmasında əxlaqi tərbiyənin əhəmiyyəti danılmazdır. Şagirdlər əxlaqi dəyərləri ardıcıl şəkildə mənimsədikcə, bu keyfiyyətlər onların gündəlik davranış qaydalarına çevrilir. Məktəblilərin əxlaqlı insan kimi formalaşmasında böyüklərin – valideynlərin və müəllimlərin – tərbiyəvi rolu xüsusilə vacibdir. Atalar sözləri də bu tərbiyəedici vasitələrdən biridir.

Effektiv tərbiyə üçün istifadə oluna etnopedaqoji vasitələrlə nitq, cümlə quruluşu və lüğət daxil olmaqla, dil bacarıqlarının artırılmasına da diqqət yetirir. O, həmçinin atalar sözləri kimi folklor nümunələri əsasında müəyyən sosial, mədəni, psixoloji problemlər təqdim etməklə idrak qabiliyyətlərinin inkişafına kömək edir. Şagird sinif mühitində təkcə dilin qrammatikasını öyrənmir, eyni zamanda, həmin dilin dinamikası, dünyagörüşü, ruhunu təşkil edən mədəniyyəti, mənəvi dəyərləri, əxlaqi keyfiyyətləri, məişət həyatı və s. barəsində dərin məlumatlar əldə edir.

Açar sözlər: Əxlaq tərbiyəsi, atalar sözləri, şəxsiyyət, fərd, mənəvi dəyərlər, gənc nəsil

Abstract

Education plays a decisive role in the formation of personality. The people identify the form of education that influences personality formation by utilizing their life experiences. It is essential to adapt education to individual characteristics and the cognitive potential at all stages of human life.

The topic of proverbs and education can be divided into two main categories: 'education through proverbs' and 'education in proverbs'. Regardless of their content, proverbs serve an educational function as expressions that provide advice, guidance, and motivation. Our national

culture reflects the culture of people who consult with one another, give advice to each other, and consider it their duty. Proverbs such as 'Wisdom is better than knowledge' and 'Advice is like a loose garment' reflect this cultural form. Not consulting or asking questions is regarded as a sign of ignorance in this society.

As one of the categories of education, using proverbs in moral education can play a significant role in the development of personality.

This article also discusses the use of proverbs in moral education. The aim is to instill moral values in the growing generation through proverbs.

The importance of moral education in the comprehensive development of the youth is undeniable. As students consistently adopt moral values, these qualities become their daily behavioral norms. The educational role of adults – parents and teachers – is particularly important in shaping students as moral individuals. Proverbs are also one of these educational tools.

Effective education also focuses on enhancing language skills, including speech, sentence structure, and vocabulary, using ethnopedagogical tools. It helps in the development of cognitive abilities by presenting specific social, cultural, and psychological problems based on folklore examples like proverbs. The student not only learns the grammar of the language in the classroom environment but also gains deep insights into the culture, spiritual values, moral qualities, domestic life, and other aspects that form the dynamics and worldview of that language.

Keywords: Moral education, proverbs, personality, individual, moral values, young generation

PSİXİ ATONİYA İLƏ MÜŞAYİƏT OLUNAN PSİXİ İNKİŞAF LƏNGİMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

FEATURES OF MENTAL DEVELOPMENTAL DELAY ACCOMPANIED BY MENTAL ATONY

Şahvələdli Qədimova Turan Əlbəndə qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Xüsusi təhsil kafedrası, Bakı şəh.

Xülasə
Psixi inkişaf ləngiməsinin sistemləşdirmək üçün vahid prinsiplər yoxdur. Bununla belə bu böyük və heterogen pozulmalar qrupunu təsnif etmək üçün bir çox yanaşmalar mövcuddur. Etiopatogenetik mexanizmlərə əsaslanan ilk təsnifatı G.E. Suxareva (1965) tərəfindən verilmişdir. Psixi inkişaf ləngiməsi əqli geriliklə bənzər xüsusiyyətlər daşısa da, normal intellektə daha yaxın sərhəd mövqeydə dayanır. Psixi inkişaf ləngiməsinin bir sıra psixopatoloji vəziyyətlərlə ağırlaşması differensial diaqnostika imkanlarını çətinləşdirir. Bunlardan biri də psixi atoniya ilə müşayiət olunan psixi inkişaf ləngiməsidir. Psixiatriya tarixində psixi tonla bağlı pozuntuların öyrənilməsində iki istiqaməti izləmək olar. Birinci istiqamət şizofreniyada əqli aktivliyin azalması ilə bağlı olur. S.S. Korsakov ilk dəfə "psixi həyat enerjisinin zəiflədiyinə" (1891) diqqət etmişdir. Psixi tonların azalmasının öyrənilməsinin ikinci istiqaməti müxtəlif üzvi və qalıq üzvi pozuntularla əlaqədar inkişaf etmişdir. Astenik əlamətlərlə yanaşı, bir çox şəxslərdə psixi atoniyanın əlamətləri var idi: psixi proseslərin ləngliyi, cəmləşməsinin çətinliyi, təşəbbüskarlığın azalması, fəaliyyətin maraq və məqsədyönlülüyü, həmçinin fəaliyyətin mobilizasiyası zərurəti. Bu qrupdan olan uşaqlar təması sevmir, zamanlı başqa insanlarla təmas etməkdən yayınırlar. Əsasən uşaqlar öz yaşıdlarına və ətrafındakı böyüklərə qarşı laqeyd yanaşır, ətrafdakılara fikir vermirlər. Bu qrupdan olan uşaqların çoxu adi uşaq əyləncəsinə can atmırdılar, lakin uzun müddət təkər və ya ip fırlatmaq kimi sadə oyunlarla məşğul ola bilirdilər. Uşaqların əksəriyyəti səs-küylü yerlərdən uzaqlaşmaq kimi davranışlar göstərir və oyun fəaliyyəti inkişaf etməmişdir.
Açar sözlər: psixi inkişaf ləngiməsi, astenik sindrom, psixi atoniya, serebroastenik, ensefalopatik pozulma

Abstract
There are no unified principles for systematizing mental retardation. However, there are many approaches to classifying this large and heterogeneous group of disorders. The first classification based on etiopathogenetic mechanisms was given by G.E.Sukhareva (1965). Although mental retardation has similar characteristics to mental retardation, it is closer to normal intelligence. The complication of mental retardation with a number of psychopathological conditions complicates the possibilities of differential diagnosis. One of these is mental retardation accompanied by mental atony. In the history of psychiatry, two directions can be traced in the study of disorders related to mental tone. The first direction is associated with a decrease in mental activity in schizophrenia. S.S. Korsakov first drew attention to the "weakening of mental life energy" (1891). The second direction of the study of the decrease in mental tone developed in connection with various organic and residual organic disorders. Along with asthenic symptoms, many individuals had signs of mental atony: slowness of mental processes, difficulty concentrating, decreased initiative, interest and purposefulness of activity, as well as the need to mobilize activity. Children from this group do not like contact, avoid contact with other people in real time. Children are mainly indifferent to their peers and adults around them, do not pay attention to those around them. Most children from this group did not crave ordinary children's entertainment, but could engage in simple

games such as spinning a wheel or a rope for a long time. Most children show behavior such as avoiding noisy places, and play activity is underdeveloped.

Keywords: mental retardation, asthenic syndrome, mental atony, cerebroasthenic, encephalopathic disorder

Giriş

Araşdırılan bir sıra tədqiqatlar zamanı psixi inkişaf ləngiməsi olan uşaqların sayının statistik olaraq artdığı müəyyən edilmişdir. Psixi inkişaf ləngiməsi əqli geriliklə bənzər xüsusiyyətlər daşısa da, normal intellektə daha yaxın sərhəd mövqeydə dayanır. Xüsusilə nəzərə alsaq ki, bir çox psixopatoloji patologiyalar, sindromlar zamanı paralel müşahidə edilən atipik inkişafın bir formasından söhbət gedir. O zaman statistikanın yüksək olmasa heç də təəccüb yaratmır.

Psixiatrlar arasında iki əsas yarımqrupu ayırmaq meyli var: dizontogenetik və ensefalopatik formalı psixi inkişaf ləngiməsi. Psixi inkişaf ləngiməsinin ensefalopatik forması zamanı etioloji amillər beynin qalıq üzvi mənşəli zədələnməsini əsas götürürlər. Belə olduğu halda üzvi demensiyadan fərqli olaraq, pozulmanı geri dönən xarakterli təsvir edir. Bu isə onu sərhəd formaları qrupuna aid edir. Eyni zamanda bir çox mənbələrə görə yenidoğulmuşlar arasında perinatal ensefalopatiya hallarının artığını göstərir. Yenidoğulmuşlarda psixi inkişaf ləngiməsi perinatal ensefalopatiyanın kifayət qədər ümumi nəticəsidir. Belə ki, qalıq üzvi genlərin psixopatoloji strukturunda demək olar ki, həmişə mərkəzi sinir sisteminin zədələnməsini göstərən bir sıra müşayət olunan ensefalopatik (serebroastenik, nevrozkimi hallar, psixopatik, apatik vəziyyətlər vəs.) pozulmalar mövcuddur. E.M. Partsalis (2013) sözlərinə görə, koqnitiv pozulmalar və müxtəlif təbiətli perinatal pozulmalar arasındakı əlaqə çox sayda araşdırma ilə təsdiqlənir. Perinatal ensefalopatiya təkcə koqnitiv pozulmalara deyil, həm də digər pozulmalara da çevrilir. Serebral-üzvi mənşəli psixi inkişaf ləngiməsi olan uşaqların klinik heterogenliyi mənşəyi mərkəzi sinir sisteminin zədələnməsinin müxtəlif lokallaşması, eləcə də bu zədələnmənin şiddəti ilə bağlıdır. A.P.Marşalkina və digərləri (2011), qalıq üzvi mənşəli psixi inkişaf ləngiməsi olan uşaqlarda diensefalik və yuxarı beyin sapı strukturlarının, həmçinin bazal və frontal sistemlərin açıq şəkildə disfunksiyaları qeyd olunur. Uşaqlarda klinik heterogenliyi beynin funksiyasının struktur-funksional modelinə uyğun olaraq izah edilə bilər. A.R.Luriya bu modelə uyğun olaraq üç bloku fərqləndirmişdir: enerji bloku, məlumatın qəbulu, emalı və saxlanılması bloku və proqramlaşdırma. Bu üç blokun əlaqələndirilmiş işi beynin inteqrativ fəaliyyətini və onun bütün funksional sistemlərinin daim qarşılıqlı zənginləşməsini təmin edir. Mənfi amillərin təsiri nəticəsində bu üç blokdan hər hansısa biri zədələnə bilər. Psixi inkişaf ləngiməsini çətinləşdirən psixopatoloji pozulmalar, sindromlar haqqında fikirləri sistemləşdirmək cəhdləri dəfələrlə edilib, lakin hələ də ümumi qəbul edilmiş təsnifat yoxdur. Qalıq üzvi mənşəli psixi inkişaf ləngiməsi problemi ilə əlaqəli başqa bir vacib məsələ proqnostik heterogenlikdir. T.A.Vlasova (1973) aid təsvir edilmişdir aşağıdakı proqnoz variantları vardır:

1) inkişafın tədricən təkmilləşdirilməsi;
2) yaşa bağlı böhranlarla kəsilən eyni dinamika;
3) davamlı ağırlaşan qüsurun inkişafı;

İ.F.Markovskaya (1995) ali kortikal funksiyaların vəziyyətindən və onların inkişafının yaşa bağlı dinamikasının növündən asılı olaraq qalıq üzvi mənşəli psixi inkişaf ləngiməsini iki variantı təsvir etmişdir. Ümumi neyrodinamik pozulmaların üstünlük təşkil etdiyi hal. Bu zaman kifayət qədər əlverişli proqnoz təsvir edilmişdir.

V.A. Kovşikov (2006) və E.F.Sobotoviç (2003) qeyd edir ki, psixi inkişaf ləngiməsini alaliya ilə birləşməsinin özünəməxsus xüsusiyyətləri vardır. Alaliya psixi inkişafın ləngiməsinə səbəb

olan olan ağır nitq pozulmasıdır. Alaliyalı uşaqların psixi inkişafı əhəmiyyətli dərəcədə fərqlənir və bu da öz növbəsində pedaqoji yanaşmada xüsusi hazırlanmış kooreksiya işi tələb edir.
Psixi inkişaf ləngiməsinin bir sıra psixopatoloji vəziyyətlərlə ağırlaşması differensial diaqnostika imkanlarını çətinləşdirir. Bu uşaqlarda diaqnostikanın zamanında və doğru aparılmaması problemin korreksiya imkanlarını məhdudlaşdırır və davamında öyrənmə, adaptasiya problemlərini də ortaya çıxardır. Onlarda davamlı olaraq nitq pozulmalarını, təhsil bacarıqlarının aşağı olmasını, emosional-iradi sferanın pozulmasını və s müşahidə edə bilərik.

Əsas Hissə
Psixi atoniyanın intellektual pozulmaya təsirinin öyrənilməsi ümumi olaraq "psixi enerji" ideyaları ilə bağlı suallara toxunmağı zəruri edir. Bütün bunlar daha vacibdir, çünki bu məsələ ilə maraqlanan çoxsaylı müəlliflərə baxmayaraq, hələ də "psixi enerji" anlayışının tərifi yoxdur.
"Enerji (yunan enerji - hərəkət, fəaliyyət) – bütün növ maddələrin hərəkət və qarşılıqlı təsirlərinin ümumi kəmiyyət ölçüsü. Enerji anlayışı təbiətin bütün fenomenlərini bir-birinə bağlayır... Canlı hüceyrələrdə enerjinin transformasiyasına onun yüksək enerjili birləşmələr şəklində saxlanılması prosesləri və orqanizmin enerji ehtiyacları üçün sərf edilməsi daxildir ("Vladimirov Y.A.", 1986). "Enerji verilmiş şərtlər altında verilmiş bədənlər sisteminin müəyyən miqdarda iş yerinə yetirmək qabiliyyətidir" (Brockhaus F.A., Efron I.A., 2007). {1}
Bu ideyalara uyğun olaraq, psixi enerjini psixikanın müəyyən xüsusi qabiliyyəti kimi nəzərdən keçirmək olar ki, bu da onun ətraf mühitdə hər hansısa işi həyata keçirməyə imkan verir. Və ya başqa sözlə, onun aktiv fəaliyyətinin, adaptiv fəaliyyətinin mümkünlüyünü təmin edən psixikanın həmin xüsusi keyfiyyəti kimi. Eyni zamanda, əqli fəaliyyət subyektin ətraf reallığa qarşılıqlı təsirin bir ölçüsüdür. Bu, subyektin ətraf mühitlə qarşılıqlı əlaqəsinin daxili vəziyyəti və eyni zamanda bu qarşılıqlı əlaqənin kvalitik və kəmiyyət ölçüsü kimi qəbul edilir (Kritskaya V.P., 1991).
Müxtəlif tədqiqatçılar əqli işi iki dəyişənin məhsulu kimi, mexaniki və ya kimyəvi işlə analoji üsulla təmsil etməyə çalışmışlar. Məsələn, Viyen alimi A.Höffler (1894) ayrı-ayrı şəxslərin təmsil olunması ilə bağlı olan psixiki işi psixologiyada bu təmsilçiliyin keçdiyi yolda bu təmsilçiliyin gücünün məhsulu kimi təsvir etmişdir. E.Kraepelinin (1894) fikrincə, psixi iş psixi konsentrasiyanın intensivliyini və bu psixi fəaliyyətin davamlığını çoxaltmaqla ölçülə bilər. Hal-hazırki dövrdə bu formulların əhəmiyyəti yalnız tarixi dəyər nöqteyi-nəzərindən nəzərdən keçirilə bilər, belə ki, onlar nə psixiatriyada, nə də psixologiyada praktik tətbiq almamışlar.
Psixiatriya tarixində psixi tonla bağlı pozuntuların öyrənilməsində **iki istiqaməti** izləmək olar. **Birinci istiqamət** şizofreniyada əqli aktivliyin azalması ilə bağlı olur. S.S. Korsakov ilk dəfə "psixi həyat enerjisinin zəiflədiyinə" (1891) diqqət etmişdir. 1914-cü ildə C.Berze şizofreniyadakı "şüurun hipotoniyası" terminini işlətmiş və onu şizofrenik demensiyanın mühüm əlaməti hesab etmişdir. A.O.Edelşteyn (1938) şizofrenik demensiyanın spesifik xüsusiyyəti kimi spontanlığın itirilməsini və ya kəskin zəifləməsini hesab edirdi. C. Berzenin baxışlarının davamçısı olan K.Konrad (1958), müəyyən, fizioloji enerji anlayışlarına əsaslanaraq, əqli aktivliyin azalması enerji potensialının azalması kimi qəbul edilmiş və aşağıdakı əlamətlərin mövcudluğunu təsvir etmişdir: 1) aktivliyin və performansın davamlı azalması; 2) maraqlar aralığının daralması; 3) fərdilik xüsusiyyətlərini silmək; 4) yorğunluğun və zəifliyin artması; 5) yüngül dismnestik pozulmalar. {3}
Psixi fəaliyyətin azalmasını xarakterizə etmək üçün digər terminlərdən də istifadə olunurdu. Məsələn, U.Mayer-Qross (1935) şizofreniya xəstələrində "psixi impulsların yoxsulluğunu" təsvir etmişdir. V.Janzarik (1959) emosional ifadə və təşəbbüskarlığın itməsi, hisslərin

soyuqluğu, əlaqənin aşağı əlçatanlığı, maraqların olmaması, təmkinsizlik və fəaliyyətin məqsədyönlülüyü nəticəsində özünü büruzə verən" dinamik dağıntıları" təsvir etmişdir. Psixodiaqnostik metodların köməyi ilə müəyyən edilmiş psixi aktivliyin azalması əlamətlərinə görə L.Sullvold (1977, 1986) sensomotor proseslərinin kəskin ləngiməsi, reaksiyanın sürətinin aşağı düşməsi və intensiv yük altında cəmləşmə qabiliyyətinin zəifləməsi ilə səciyyələnir.
Q.Huber (1966) bu dəyişiklikləri şizofreniya spektrinin pozulmasında "pozulma" ilə əlaqələndirmiş və onları "şəxsiyyətin və əqli potensialın enerji səviyyəsinin aşağı düşməsi, spontanlıq, məqsədyönlülük və iradi emosional tənzimlənmənin olmaması və astenik şikayətlərin mövcudluğu" kimi səciyyələndirmişdi. R.A.Nadzharov (1972) şizofreniyanın müxtəlif formalarında psixi aktivliyin dəyişməsinə işarə edərək qeyd etmişdir ki, tənbəllik psixi aktivliyin azalması "əqli məhsuldarlığın aşağı düşməsi" xəstəliyin daha mütərəqqi gedişində olduğu kimi özünü büruzə vermir. Qeyd etmək lazımdır ki, psixi enerjinin azalması şəkli şizofreniya üçün spesifik hesab edilmirdi, lakin bir sıra digər psixi pozuntular üçün xarakterik idi (Huber G., 1966; Sullvold L., 1977, 1986) {4}
Astenik sindrom - artan yorğunluq vəziyyəti zəiflik, tükənmə, zəifləmə və ya davam etmək qabiliyyətinin itirilməsi fiziki və zehni stress. Təsir xarakterikdir aşağı əhval-ruhiyyə və gözyaşardıcılıq üstünlük təşkil edən labillik artan həyəcanlılığı birləşdirən yorğunluq, əsəbi zəiflik, həmçinin parlaq işıqlara, yüksək səslərə, kəskin qoxulara həssaslıq, toxunma və ya dözümsüzlük. Tez-tez baş ağrısı və pozulmalar daimi yuxululuq və ya davamlı yuxusuzluq şəklində yuxu, müxtəlif hər hansı vegetativ pozulmalar müşahidə edilir. Həm də tipik olan rifahın dəyişməsidir barometrik təzyiqin, istilik və ya digər şərtlərin azalmasından asılı olaraq artan yorğunluq, yüngül qıcıqlanma.
Psixi tonların azalmasının öyrənilməsinin **ikinci istiqaməti** müxtəlif üzvi və qalıq üzvi pozuntularla əlaqədar inkişaf etmişdir. Əsas etibarilə, bu, beyinin zərbə və ya kontuziya ilə zədələnmələrinin uzunmüddətli nəticələri, eləcə də infeksion ensefalitin nəticələridir. Astenik əlamətlərlə yanaşı, bir çox şəxslərdə **psixi atoniyanın əlamətləri** var idi: psixi proseslərin ləngliyi, cəmləşməsinin çətinliyi, təşəbbüskarlığın azalması, fəaliyyətin maraq və məqsədyönlülüyü, həmçinin fəaliyyətin mobilizasiyası zərurəti (Suxareva G.E., Eingorn D.L., 1934; Suxareva G.E., 1955; Herzberg M.O., 1961; Vilensky O.G., 1971; Gordova T.N., 1973; Kaliner S.S., 1974; 1936). Təsvir olunan pozulmalar ya serebral asteniya sindromu çərçivəsində nəzərə alınmış və sinir sisteminin (Gureviç M.O., 1945; Suxareva G.E., 1955; Vilensky O.G., 1971; Kaliner S.S., 1974), və ya müstəqil simptomlar kimi təsvir edilmişdir (Qordova T.N.,1973). K.M.Kandaratskaya (1936) psixi ensefalit olan uşaqlarda atonik əlamətlərdən bəhs etmişdir. Bu simptomlar təkcə aktivliyin olmaması ilə deyil, həm də psixi gərginliyin mümkünsüzlüyü, səy göstərməməsi ilə xarakterizə olunurdu. Qalıq orqanik beyin lezyonları olan xəstələr əqli cəhətdən əhəmiyyətli dərəcədə azaldığı barədə səthi təəssürat yarada bilərlər, əksər hallarda zəkanın potensial imkanları isə qorunub saxlanılmışdır (Kandaratska K.M., 1936; Kostomarova N.M.,1940; Gureviç M.O., 1945; Gilyarovsky V.A., 1946). Uşaqlarda təsvir olunan qalıq post-travmatik təzahürlər əqli geriliyə çox bənzəyirdi və psixofiziki inkişafın ləngiməsi, nitq qüsurları, motor inkişafda pozulma ilə xarakterikdir. Aparıcı klinik əlamətlər aktiv cəmlənə bilməməsi, xarici və daxili stimulyasiyaya qarşı küt reaksiyalar və qeyri-aktivlik kimi tələffüz edilən reaksiyalar idi. {6}
Bu qrupdan olan uşaqlar təması sevmir, zamanlı başqa insanlarla təmas etməkdən yayınırlar. Əsasən uşaqlar öz yaşıdlarına və ətrafındakı böyüklərə qarşı laqeyd yanaşır, ətrafdakılara fikir vermirdilər. Öz ixtiyarına buraxılan belə uşaqlar saatlarla onlara maraqlı bir şey edə bilərdilər. Gündəlik həyatda soyuducudan yemək götürmək, özləri üçün su tökmək, geyimlərini soyunub-geyinmək və s kimi özünə xidmət bacarıqları formalaşmış olur. Motor sferanın inkişafında diqqəti cəlb edən nüanslara aiddir: uşaqlarda hərəki azlıq, tez-tez döşəmədə oturub yaxud uzanıb qalmaq, öz küncləri̇nə çəkilib sevimli güşələrində oturmaq. Eyni zamanda, əksəriyyət

təbiətcə monoton olan çox müxtəlif motor stereotiplərinə malik idi: əlləri burmaq, əl çalmaq, əşyalara toxunmaq, yerində burulmaq və s. Oyun fəaliyyətin də bir sıra xüsusiyyətlərə malik idi. Bu qrupdan olan uşaqların çoxu adi uşaq əyləncəsinə can atmırdılar, lakin uzun müddət təkər və ya ip fırlatmaq kimi sadə oyunlarla məşğul ola bilirdilər. Uşaqların əksəriyyəti səs-küylü yerlərdən uzaqlaşmaq kimi davranışlar göstərir və oyun fəaliyyəti inkişaf etməmişdir. Bir çox uşaqlarda çubuqlar, borular, yemək qaşığı və simlər kimi oyun olmayan obyektləri stereotipik şəkildə manipulyasiya etmək meyli var idi. Bu qrup uşaqların diqqətini cəlb etmək üçün əlavə stimullaşdırıcılara ehtiyac duyulur. Yalnız psixoloji- pedaqoji təcrübədə davamlı xarici stimullaşdırma və həvəsləndirmə uşaqları tapşırıqları yerinə yetirməyə cəlb etməyə imkan verdi.

Uşaqlar kompüter oyunlarına, televizora baxmağa daha çox meyillidirlər. Emosiyaların intensizliyi ehtimal olunurki zehni tonusun ümumi azalması ilə əlaqədardır. Qeyd etmək lazımdır ki, bəzi uşaqlarda avtoaqressiv hərəkətlərdə müşahidə oluna bilər. Bunun səbəbini müəyyən etmək çox vaxt mümükün deyil. Baxmayaraq aşağı emosionallıq olsada ətraf mühitə reaksiyalar, anaya qarşı mehribanlığın kortəbii təzahürləriləri və ya ağlayan bir insana "rəhm etmək" bacarığı uşaqlarda izlənilir. Uşaqların təlim fəaliyyətinin yaxşılaşdırılması üçün lazımdır müəllimə öyrəşmək, uzun müddətli adaptasiya prosesi.

Nəticə

Təsvir olunan pozulmalar ya serebral asteniya sindromu çərçivəsində nəzərə alınmış və sinir sisteminin (Gureviç M.O., 1945; Suxareva G.E., 1955; Vilensky O.G., 1971; Kaliner S.S., 1974), və ya müstəqil simptomlar kimi təsvir edilmişdir (Qordova T.N., 1973). K.M.Kandaratskaya (1936) psixi atoniya sindromu çərçivəsində ensefalit olan uşaqlarda atonik əlamətlərdən bəhs etmişdir. Qalıq orqanik beyin zədələnmələri olan şəxslərdə psixi inkişafın ləngiməsini müşahidə edə bilərik. Qalıq beyin lezyonları olan xəstələrdə motor aktivliyi həm azaldıla bilər və arta bilər. Bu pozulmalar böyüklərdə və uşaqlarda qeyd edilsə də, sonuncularda motor aktivliyinin artması daha çox qeyd olunurdu (Kostomarova N.M., 1940; Vişnevskaya A.A., 1960; Qordova T.N., 1973). Uşaqlarda təsvir olunan qalıq post-travmatik təzahürlər əqli geriliyə çox bənzəyirdi və psixofiziki inkişafın ləngiməsi, nitq qüsurları, motor inkişafda pozulma ilə xarakterikdir. Aparıcı klinik əlamətlər aktiv cəmlənə bilməməsi, xarici və daxili stimulyasiyaya qarşı küt reaksiyalar və qeyri-aktivlik kimi tələffüz edilən reaksiyalar idi.

Tədqiqat göstərdi ki psixopatoloji sindromunun ən böyük mürəkkəbləşdirici təsiri haqqında nəticə çıxarır ki, intellektual dərinliyə atoniya və sensomotor alaliya zamanı olan psixi inkişaf ləngiməsidir. Psixi atoniya sindromunda ən ağırlaşdırıcı simptomlar zehni tonusun azalması, aşağı təşəbbüs və aşağı idrak fəaliyyətidir. Sensomotor alaliyada da qavrayışın pozulması, nitqin inkişaf xüsusiyyəti, xarici aləmdən gələn məlumatların tam mənimsəmək qabiliyyətinin olmaması eyni mənfi təsir göstərir.

İstifadə Olunmuş Ədəbiyyat

1. Александровский, Ю. А. Психофармакотерапия пограничных психических расстройств Ю. А. Александровский, Л. М. Барденштейн, А. С. Аведисова. – М.: ГЭОТАР-Мед, 2000.
2. Амоаший, С. А. Органический инфантилизм в подростковоюношеском возрасте (клинический и судебно-психиатрический аспекты): автореф. дис. ... канд. мед. наук: 14.00.18 / Амоаший Софья Абовна; Всесоюз. ин-т общ. и судеб. психиатрии им. В. П. Сербского. – М., 1987.
3. Аппе, Ф. Введение в психологическую теорию аутизма / Ф. Аппе: пер. с англ. – М.: Теревинф, 2013.

4. Асанова, Н. К. Патологические формы девиантного поведения у детей с задержкой психического развития (типография, динамика, клинические предпосылки терапии и социальной адаптации): автореф. дис. ... канд. мед. наук :14.00.18 / Асанова Нина Кузьминична; Моск. НИИ психиатрии. – М., 1988.
5. Асламова, Г. А. Нервно-психическое развитие детей с перинатальными поражениями ЦНС легкой и средней степени тяжести / Г. А. Асламова, Т. И. Фридман, О. В. Руднева и др. // V Российский форум «Мать и дитя», Москва, 6-10 октября 2003 г.: материалы форума. – М., 2003.
6. Белопольская, Н. Л. Психологическая диагностика личности детей с задержкой психического развития / Н. Л. Белопольская. – М.: КогитоЦентр, 2009.

MODERNITY, HIGH VALUATION OF WORDS AND MOTHER LANGUAGE IN THE LYRICS OF BAHKTIAR VAHABZADE

BƏXTİYAR VAHABZADƏ LİRİKASINDA MÜASİRLİK, SÖZÜN VƏ ANA DİLİN YÜKSƏK QİYMƏTLƏNDİRİLMƏSİ

Baş müəllim Aydın İbişov
ADPU Cəlilabad filialı

Xülasə
Məqalədə B.Vahabzadə poziyasının populyarlığının səbəbi, onun xalq həyatı və xalq şeiri ənənələri ilə qırılmaz tellərlə bağlılığı açıqlanılır. B.Vahabzadə ana dilini xalq ədəbiyyatından öyrənir, bu ədəbiyyat vasitəsilə onun rəngarəng ifadə imkanlarını, onun nələrə qadir olduğunu müəyyən edir.
Çünki folklor ana dilinin bütün ifadə və çalarlarını özündə toplayır, ana dilinin əks – sədasına çevrilir.
B.Vahabzadənin ədəbiyyata lirik şair kimi gəlməsi onun bütün yaradıcılığı boyu başlıca əsərlərinin mahiyyəti müəyyən edən xüsusiyyət olaraq qalmışdır. Şairin sənətdə yolu predmet və hadisələrin, fikir və duyğuların zahiri əlamətlərindən mahiyyətinə, kökünə doğru gedən yoldur. O həyatın adi görünən hadisələri və insanlar arasındakı sirli əlaqə və münasibətləri daha da mənimsəyir, bu barədə öz fikirlərini söyləyir**.**
B.Vahabzadənin lirikasında sözlərin şirinliyi, özümüz də hiss etmədən, bizim varlığımıza, mənəviyyatımıza süzülmüşdür. Bu şirin, bu doğma səslər, sözlər bizim yaddaşımıza sehirli nağıllar kimi həkk olunmuşdur.
Açar sözlər: B.Vahabzadə, şair, lirika, poeziya, sənətkarlıq, novatorluq, kosmos, sözün dəyəri, ana dili

Резюме
В статье раскрывается причина популярности позиции Б.Вахабзаде, ее связь с жизнью народа и традициями народной поэзии. Б.Вагабзаде учит родной язык из народной литературы, через эту литературу он определяет ее возможности красочного выражения, на что он способен.
Поскольку фольклор содержит все выражения и оттенки родного языка, он становится отголоском родного языка.
Приход Б.Вагабзаде в литературу как поэта-лирика оставался чертой, определявшей суть его основных произведений на протяжении всей его творческой деятельности. Путь поэта в искусстве — это путь от внешних признаков предметов и событий, мыслей и чувств к сущности и корню. Далее он исследует, казалось бы, обычные события жизни и загадочные связи и отношения между людьми, и высказывает о них свое мнение.
В лирике Б.Вахабзаде сладость слов, сама того не осознавая, просачивается в наше бытие и духовность. Эти сладкие, родные звуки, эти слова врезаются в нашу память, как волшебные сказки.
Ключевые слова: Б.Вагабзаде, поэт, лирика, поэзия, мастерство, новаторство, проблема времени, пространство, значение слова, родной язык

Abstract
The article explains the reason for the popularity of B.Vahabzadeh's position, its connection with the life of the people and the traditions of folk poetry. B.Vahabzadeh learns his native language from folk literature, through this literature he determines its possibilities of colorful expression, what he is capable of.
Because folklore contains all the expressions and shades of the mother tongue, it becomes an echo of the mother tongue.
B.Vahabzadeh's coming to literature as a lyric poet remained a feature that determined the essence of his main works throughout his career. The poet's path in art is the path from the outward signs of objects and events, thoughts and feelings to the essence and root. He further explores the seemingly ordinary events of life and the mysterious connections and relationships between people, and expresses his views on them.
In B.Vahabzadeh's lyrics, the sweetness of the words, without even realizing it, is filtered into our existence and spirituality. These sweet, native sounds, these words are engraved in our memory like magic tales.
Key words: B.Vahabzade, poet, lyric, poetry, craftsmanship, innovation, time problem, space, word value, mother tongue

Giriş

Azərbaycan poeziyasının sənətkarlıq baxımından kamilləşməsində iki mühüm amil - şifahi xalq şeiri ənənələri və xalq musiqisi həlledici rol oynamışdır. B.Vahabzadənin poeziyasının populyarlığının bir səbəbi də onun xalq həyatı və xalq şeiri ənənələri ilə qırılmaz tellərlə bağlılığındadır.

B.Vahabzadənin istedadlı bir sənətkar kimi novatorluğu şəxsi istədiyindən yox həyata və hadisələrə poetik münasibətindən doğan təbii bir keyfiyyətdir. Ənənəvi mövzuları qələmə alanda da onun öz səsi, öz münasibətini dərhal gözə dəyir. O, məlum hadisələri şeir dilinə çevirirkən başqalarının işlətdiyi naxışları təkrar etmir.

Müasirlik sənətkarın novatorluğunun əsas amillərindən biridir. Müasir olmayan sənətkar novator ola bilmədiyi kimi, novator olmayan sənətin də müasir olması qeyri mümkündür. Müasirlik və novatorluq ayrılmaz şəkildə əlaqəli, bir-biri ilə şərtlənən kateqoriyalardır. Şeirimizin altmışıncı illər mərhələsində Bəxtiyar Vahabzadə də ən yaxşı şairlər cərgəsində müasirliyi mövzu, məzmun və formada duya bilirdi.

TƏDQİQAT

B.Vahabzadənin “Anam haqqında şeirlər” lirik əsərində fikirin obrazlı ifadəsi yeni olmaqla bərabər, həm də öz gözələnilməzliyi, fəlsəfi ümumiləşdirmə dərinliyi ilə oxucunu ələ ala bilir.

Nədən məzarlıqda vaxt düşmür yada?
Demə o burda da, burda da varmış
Ölülər məskəni məzarlıqda da
Zaman qədəm-qədəm addımlayırmış. [5.s.20]

Görkəmli Azərbaycan tənqidcisi, professor Y.Qarayev bu şeir haqqında yazmışdır: “Qəbristanda məzar-məzar addımlayan zamanın hərəkətini şair cisimləşdirmiş və əyaniləşdirmişdir”. [3, s.121]

B.Vahabzadənin "Sürət", "Nəsə çatmır" şeirlərindəki lirik "mən" zamanın qoyduğu vaxt ölçülərinə və hüdudlarına sığmır, əqli-mənəvi inkişafın bugünkü səviyyəsi ilə qənaətlənmir. Ona görə ki, insanın sonsuz istək və arzular silsiləsini bir ömrün hüdudları daxilində həyat keçirmək qeyri-mümkündür.
Buna görə şairlər ömür üçün "sonsuzluq" kimi yeni bir vaxt vahidi tələb edirlər. Onun onsuzluğu ilə arzuların tükənməzliyi arasında bir mütənasiblik axtaran, lakin onu tapmayan həməsrimizin mənəvi arzusunu şair aşağıdakı misralarda diqqətimizə çatdırır:

Sonu olan ömrü istəmirəm mən,
Çıxaydım zaman çərçivəsindən. [7.s.163]

Bəs zaman çərçivəsindən çıxmağın hansı sürət ölçüləri və imkanları mövcuddur? Qatar və təyyarə əsrin sürətindən geri qalır. Hətta işıq sürəti ömrün uzaq səfərləri üçün az yararlıdır. Belə olan halda şairin lirik "məni" fikir sürəti istəyir. Müasir Azərbaycan poeziyasında yeni lirik qəhrəmanın bu əhvali-ruhiyyəsinin B.Vahabzadə tərəfindən dəqiq ifadə edildiyini görürük.

Mən əsrin oğluyam,əsrin.
Darıxmamaqçın mənə
Fikrimin sürətini verin! [7, s.163]

Bu motiv B.Vahabzadə lirikasında müxtəlif məzmunda inkişaf edən poetik ideyaların başlıcasıdır. Ümumiyyətlə, vaxt hissi, zaman problemi şairin poeziyasında düşüncələrinin əsas predmetidir. Əlbəttə, belə keyfiyyətin əks tərəfi də ola bilər.
Yəni poeziyada həddindən artıq fikrə, mühakiməyə meydan vermək şeiri estetik təravətdən məhrum edə bilər. Belə ifrat mühakiməçilikdən B.Vahabzadənin lirikası uzaqdır. Bunun səbəbini akademik Məmməd Arif düzgün izah edərək şairin "Səni görürəm, səni" şeiri münasibətlə yazır: şeirdə hicranın, ayrılığın məhəbbətdən ayrı olmadığını ifadə edən fikir "o qədər təzə olmasa da, təzə kimi səslənir, çünki səmimidir, şairin, həyatla təmasından doğan bir qığılcımdır ki, şeir ocağı onunla od tutub alışır..." [1, s.110]
Başqa sözlə, tənqidçi şairin poeziyasına xas fikirlə insan düşüncəsinin vəhdəti, diqqəti cəlb edir və bir – birini tamamlayır.
Kosmos mövzusunun şairin poeziyasında xalis, məhz insani mövzu planında inkişaf etməsi də şeirin maraqlı təmayüllərindən biri kimi diqqəti çəkir.
Kosmos mövzusu Bəxtiyar Vahabzadənin şeirində isə tamam başqa bir cəhətdən-insan ağlının möcüzəsini hiss etdirmək baxımından mənalıdır. İnsanın iki saat kosmosda olması hadisəsi, insan ağlının lirik-romantik tərənnümü şairin əlində bədii materiala çevrilmişdir.
Şair bu fakt üzərində öz poetik mühakimələrini davam etdirir, öz mühakimələrini ətə-qana doldurur:

Bizimçün yenidən göylər doğuldu,
İndi ayrı gözdə baxırıq ona.
Bir iki saatın bir cavab oldu
Min alim ömrünün suallarına. [6, s.155]

Yazıçı Mehdi Hüseyn doğru yazır ki, B.Vahabzadənin bu şeirində ümumiyyətlə insanın rəşadətindən, insanın gözəlliyindən və böyüklüyündən söhbət gedir. [2, s.221]
Ümumiyyətlə, 1960 – cı illərdə kosmos poeziya üçün yeni bir mövzu idi.

B.Vahabzadənin "Baş", "Antena", "Elm əxlaq" və s. şeirlərində zamanın dramatizmi əks etdirə bilən kəskin fəlsəfi-əxlaqi ziddiyyətlər poetik təhlilə çevrilirdi. "Baş" şeirində ifadə olunan fikir istiqaməti bundan ibarətdir ki, təbiətin nailiyyətlərindən sui-istifadə edilərsə, bəşəriyyətin mənəvi həyatında bir hərc-mərclik başlanar, nadanlıqla dahilik bir-birini əvəz edər.
"Baş dəyişirsə", əqidə də dəyişər. Yaşamaq xatirinə məsləki dəyişmək, xırdalanmaq, cılızlaşmaq deməkdir. Odur ki, insan təbii bütövlüyünü və ahəngdarlığını qoruyub saxlamalıdır.
"Antena" şeirində ağlın hissi, duyğunu qabaqlaması kimi sırf poetik bir mövzu B.Vahabzadəni ilhama gətirmişdir. Əsrin əsəblərini titrədən antenalar insanın beynini soyuq məlumatlar və mühakimələr qutusuna çevirmişdir. Dərk etmək orqanı olan beyin insanların mənəvi əzabını duya bilməz. Şairi düşündürən bu məsələdir, o çıxış yolu axtarır. Əzablı suallar içində çırpınan şair bu nəticəyə gəlir ki, ürəyin səlahiyyətli hakimiyyətinə nail olmaq lazımdır.

Dəmirdən yox,
amandır,
Duyğumuzun telindən
Bir antena qoyaq biz
Uzaqları bilirik,
Yaxınları duyaq biz. [7, s.174]

B.Vahabzadə "Fəryad" şeirində vulkan nəticəsində məhv olmuş qədim Pompey şəhərinin xarabaları fonunda tarixlə müasirliyi qarşılaşdırır, bu hadisədən çıxış edərək müasirlərini nüvə müharibəsi problemi ətrafında düşünməyə çağırır. Şair göstərir ki, indi biz təbiətin qəzəbinə düçar olmuş bir şəhərin sakinlərinin daşlaşmış fəryadını, münasibətini düşünüb ah çəkirik.

Əgər dünya batırsa
Bu dərdə ah çəkməyə
Bir nəfər qalacaqmı
Dağılmış yer üzündə? [5, s.301]

Dünya üçün təşviş hissi işığında poeziya başqa bir hissi-dünya istehlakçı münasibətini də pisləyirdi. Dünyanın taleyinə qayğısız münasibət bəsləyənlərin tənqid və ifşası şeirimizə ictimai-siyasi bir fəallıq və müasirlik keyfiyyəti aşılayırdı.
Cəmiyyətdə hələ də ağıl və dünyagörüşü cəhətdən məhdud, əsrin inkişaf sürəti ilə ayaqlaşmayan, mənvi zənginliyi maddi zənginlik kimi başa düşən, təkcə özü üçün yaşayan adamlara da təsadüf olunurdu. Məhdud, fərdi meşşan qayğıları həmişə olduğu kimi, 1960-cı illərdə də poeziyamızın atəş hədəfinə çevrilmişdi. Lakin fərq burasında idi ki, indi şairlər bu mövzunu nisbətən dərindən işləyir, meşşanlığın zahiri təzahürlərindən çox, daxili, gizli tərəfləri üzərində fikirləşirdilər.
B.Vahabzadənin "Həyat-ölüm", "Mumya", "İdman yarışı", Hə ilə yox arasında", "Meşin qarılar" şeirlərində bir tərəfdən ömrü mənasız keçirən qəlbi-hissi soyuq müqəvvalar ifşa olunarsa, digər tərəfdən, əsrin taleyinə biganəlik tənqid hədəfinə çevrilirdi.
"İdman yarışı" şeirində Bəxtiyar Vahabzadə göstərir ki, "Çörək yeyə-yeyə, nərd vura-vura" hər axşam televizora baxan müsairlərimizin gözündə ən dəhşətli qırğınlar belə adiləşir. Şair həmişəki, kimi yenə də biganəlik və laqeydlik əleyhinə etiraz səsini ucaldır.
Onun qəti qənaəti belədir ki, narahat taleli dünyada heç kəs rahat yaşaya bilməz. Əgər "İdman yarışı" şeirində dünyanın taleyinə göstərilən soyuqqanlılığı şair epik bir lövhədə canlandırırsa, "Mənə və var?", şeirində etinasızlıq fəlsəfəsi daha fəal hücumçu mövqelərdən ittiham olunur:

Daşqın böyrü üstə yıxsa bir dağı,
Yanındakı dağ da əyiləcəkdir.
Bu gün yeyilirsə birinin haqqı,
Sabah da səninki yeyiləcəkdir. [5, s.49]

"İdman yarışı" şeiri ilə əlaqədar olaraq tənqidçi Bəkir Nəbiyev yazır: "İdman yarışı" şeirində Bəxiyar Vahabzadə oxucularının nəzərində iki məfhumu müvazi olaraq canlandırır. Əsrin ən böyük texniki nailiyyətlərindən biri olan telebaxımı, bir də əsrin ən böyük dərdlərindən biri olan imperialist müharibələrini, təcavüz basqınlarını, qəsbkar talanlarını B.Vahabzadənin "Dağlar da əyilər öz kədərindən" şeirində dağlar insan kimi düşünür, əzab çəkir. Lakin onlar ağrılara sinə gərib öz qürurunu, əzəmətini saxlaya bilirlər. [4, s.111] "Böyüklərin dərdi də böyük olur" fikri şeirdə dünündürücü bir sonluqla yekunlaşdırılır:

Sinəsi dağlardan dağ-dağ olanlar
Dağlar ucalıqda demək varsınız
Siz ey bu dağlardan uzaq olanlar,
Elə bilməyin ki, yaşayırsınız. [5, s.11]

B.Vahabzadə ümumən sözə yüksək qiymət verir, məna duyğusuzluğuna da, forma gözəlliyinə də nəzər salır. O, sözün şöhrətini, varlığını hər şeydən əvvəl, insanla bağlayır və belə bir maraqlı fikir irəli sürür:

- Qurudan da çoxdur, bu dünyada su,
Bəs niyə dünyanın adı yer oldu?
İnsandır şöhrəti bütün aləmin,
O, yerdə yaşadı, yerdə doğuldu. [5, s.218]

Şairin fikirincə, söz mülkü yüksək və əbədidir, ona görə söz mülkünə sahib olanlar da əbədi yaşayır. O, bu mənada Füzulini şahlar və sultanlarla müqayisə edir, onların gəldi – gedər olduğunu, şairin isə həmişəlik yaşadığını göstərir.
B.Vahabzadə onu da vurğulayır ki, şairlərin fikirləri, arzu və istəkləri onların sözlərində yaşayır. Söz ölmədiyi, əbədi olduğu üçün fikir də ölmür, yaşayır. Şair şeirdə sözü qoşalaşdırır, birini digəri ilə tərifləndirir, birini digəri üçün başlıca meyar hesab edir.
B.Vahabzadənin "Şairlər" şeirindəki aşağıdakı sətirlərə diqqət yetirək:

Şairlər, şairlər, bircə söz üstə
Sübhədək yaxdınız ürəyinizi...
Min əzab çəkdiniz siz yaşayırkən,
Ölüb yaşadınız sözlərinizdə. [5, s.57]

Ədibin fikrincə, söz abidələri əsrlərin dolanbac yollarından keçə-keçə gəlib, bütün nəsillərin malı olur, əhəmiyyətini də, gözəlliyini də saxlayır. Səs və söz abidələrinin daş abidələrindən fərqi ondadır ki, daş abidələr zamanın tufanları qarışısında əriyib, vaxt keçdikcə öz təravətini itirir, səs və söz abidələri əksinə, zamandan-zamana daha da canlanır, yeniləşir və gözəlləşir. Bu abidələri duyan, hiss edən, yaşayan ürəklərdə yarandığı üçün zaman ona bəd üzünü göstərə bilmir.
B.Vahabzadə bədii sözün gücünü ümumən sözün potensial imkanları ilə bağlayır. O, belə hesab edir ki, sənətkarın sözdən istifadə bacarığı sözün rəng və çalarlarını üzə çıxarır, sözün fəaliyyətinə meydan verir. Lakin söz öz – özlüyündə böyük daxili imkanlara malikdir. Məhz

buna görə də ədib sözə təkcə bir lüğət vahidi, bir nitq vahidi kimi yanaşmır, həm də hər iki baxımdan onu mənalandırır. Şairə görə, söz ürəkdən od, qandan rəng alır.
Söz fikrin, düşüncələrin ifadəsidir. İnsanın sözü onun aynadakı əksidir.
Beləliklə, sözün mahiyyətini, gücü, təsir dairəsi, söz və məna, söz və insan, söz və zaman münasibətləri sözün daxili strukturunu-məna çalarını müəyyən edir, bu əsasda sözün təsir istiqaməti formalaşır.

Güllə yarasına nə var?
Tez gedər,
Getməz söz yarası, eyham yarası. [5, s.132]

Şair bu fikirdədir ki, söz insanın əqidəsi, əməli ilə həmahəng olanda daha da mənalanır, ürəyə yatır, təsiri də artır. Şairin sənətdə yolu predmet və hadisələrin, fikir və duyğuların zahiri əlamətlərindən mahiyyətinə, kökünə doğru gedən yoldur. Əsərdən əsərə o, həyatın adi görünən hadisələri və insanlar arasındakı əsrarlı əlaqə və münasibətləri daha da dərindən mənimsəyir, bu barədə öz fikirlərini söyləyir, həm də bu özünüifadə sənətkarlıqla səmimiyyətin ahəngdar vəhdətində təzahür edir. Onun şeirinin özünəməxsusluğu bir də məhz elə burada özünü göstərir.
Bu özünəməxsusluq onun poetik nümunələrində sözlə obrazlı şəkildə ifadəsinin tapır. Şairin istək və arzuları başqadır: şairə görə söz və əməl bir – birini təsdiqləməli, tamamlamalı, söz əməlin dili, əməl isə sözün poetik ifadəsinə çevrilməlidir.
"Həqiqət nazilər, amma üzülməz" ifadəsi Bəxtiyar Vahabzadə əsərlərində müxtəlif ifadə formalarında tez-tez səslənir. Şairin hər an böyük amalı, insanın mənəvi keyfiyyətini müdafiə və təbliğ edir.
"Qaliley" şeirində şair keçmişlərə, tarixə qayıdır, haqq söz deyənlərin dəhşətli aqibətini, eyni zamanda həqiqətin, doğru sözün qüdrətini göstərir.

Dedi: -Yer fırlanır... inanmadılar,
Onlar ona güldü, o da onlara.
Dedi: - Həqiqətə şübhənizmi var?
Dedilər: - Haqq deyən çəkilir dara.

O dedi: - Fırlanır, fırlanacaq yer,
Buna gülsəniz də, gülməsiniz də.
Yerdən dərs götürüb ölənə qədər,
Məgər fırlanmırıq həyatda biz də?... [7, s.161]

B.Vahabzadə müxtəlif illərdə ana, məktəb, ana dili mövzularında yazdığı şeirləri müəyyən estetik zövq aşılamaqla yanaşı, həm də ciddi tərbiyəvi əhəmiyyətə malikdir. "Ana", "Ağ saçlar", "İlk cığır", "Sənə üzük nə gərəkdir" əsərləri, xüsusən də "Ana dili" şeiri balalarımızın xalqa sədaqətli vətəndaşlar kimi tərbiyə olunub yetişdirilməsi məqsədini izləyir:

Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil əcdadımızın bizə miras verdiyi
Qiymətli xəzinədir... Onu gözlərimiztək
Qoruyub nəsillərə biz də hədiyyə verək! [5, s.8]

Beləliklə də, şair ana dilini xalqın mənəvi varlığının, tarixi yaddaşının daşıyıcısı olan qüdrətli bir nemət kimi mənalandırır, onu yaşatmağı, daha da zənginləşdirməyi hər bir vətən övladının qeyrəti, namus sınağı kimi mənalandırır.

B.Vahabzadənin yaradıcılığının başlıca yeniliyi əsərlərində lirik düşüncənin konkretliyə, əyaniliyinə xüsusi meyilində təzahür edir.

Altmışıncı illərdə şairin lirik qəhrəmanı çəkinmədən, cəsarətlə məişətimizin özülünə, bizim aramıza, qayğı və duyğularımızın bir-birinə qarışdığı mühitə endi. Həyata yaxından, cəsarətlə baxan, nəzər salan lirik qəhrəman konkret və adi əşya və predmetləri belə poetik sözlə daha dəqiq danışdırmağa başladı.

Şeir dilindəki əyanilişmə, məişətə qədər enmə lirikanın mətləb və həqiqətlər cılızlığına, məişət qayğıları içərisində ilişib qalmağa gətirib çıxarmadı. Şeirin yaxınlaşdığı "məşət xırdalıqlar", müxtəlif detal və müşahidələr üçün əsas oldu.

Lirikaya da düşüncə tərzindən, faktdan, fikirdən, hadisədən, hissdən, müsahibədən, müşahidədən ümumi həqiqətlərə, bəşəri mətləblərə getmək və bədii cəhətdən ümumiləşdirmək üsulu daha geniş yol tapdı. Həm də bu heç də yalnız üçüncü nəslin yox, şeirimizin bütün nəsillərindən olan şairlərin birgə axtarışların ümumi nəticəsi kimi özünü göstərməyə başladı.

Rəsul Rza, Bəxtiyar Vahabzadə, Qabil İmamverdiyev, Əliağa Kürçaylı, Nəriman Həsənzadə və başqa şairlərin yaradıcılığı bu fikri təsdiq edən faktlarla zəngindir.

Yuxarıda söylədiklərimizin əsas tutaraq, istedadlı şair B.Vahabzadənin aşağıdakı misralarına diqqət yetirək:

Fikirlisən?
- Yox, - dedim.
Kədərimi gizlədirəm, mən qəmimi danıram.
Nədənsə öz dərdimi hamıya qısqanıram.
Kədərli anlarımda məni heç kəs görməsin,
Söndür,
çırağı söndür!
Sevincim hamınınsa,
Kədərim özümündür. [5, s.64]

Göründüyü kimi, adi bir "fikirlisən?" sualı şairə öz mürəkkəb fəlsəfi düşüncələrini ümumiləşdirməyə imkan veir. Belə nümunələr göstərir ki, lirikadakı üslub sadəliyi, büllurluğu bədii təfəkkürün hadisə və detal, mətləb, fikir və hiss miqyasının böyüklüyünə zidd deyildir. Bəlkə də əksinə, bu bədii düşüncədəki əhatəliliyə, böyüklüyə nail olmağın yenə də daha kamil bədii üsulların demək idi. Hadisə, detal konkretliyə meyl-əslində ideal, mətləb, fikir və hiss ölçüsünün bədii-estetik cəhətdən daha təsirli tərzdə meydana çıxması deməkdir.

Konkret detallar arxasından daha ümumi, bəşəri həqiqətləri vermək poetik ümumiləşdirmənin başlıca üsullarından biridir.

Nəticə

B.Vahabzadənin ədəbiyyata lirik şair kimi gəlməsi onun bütün yaradıcılığı boyu başlıca əsərlərinin mahiyyətini müəyyən edən xüsusiyyət olaraq qalmışdır. Şairin sənətdə yolu predmet və hadisələrin, fikir və duyğuların zahiri əlamətlərindən mahiyyətinə, kökünə doğru gedən yoldur. O, əsərdən-əsərə həyatın adi görünən hadisələri və insanlar arasındakı sirli əlaqə və münasibətlərin daha da mənimsəyir, bu barədə öz fikirini söyləyir.

B.Vahabzadə ana dilinin birdə xalq ədəbiyyatından öyrənir, bu ədəbiyyat vasitəsilə onun rəngarəng ifadə imkanlarını, onun nələrə qadir olduğunu müəyyən edir. Çünki folklor ana dilinin bütün ifadə və çalarlarını özündə toplayır, ana dilinin əks-sədasına çevrilir. B.Vahabzadənin lirikasında sözlərin şirinliyi özümüzdə hiss etmədən, bizim varlığımıza,

mənəviyyatımıza süzülmüşdür. Bu şirin, bu doğma səslər, sözlər bizim yaddaşımıza sehirli nağıllar kimi həkk olunmuşdur.

B.Vahabzadə qəlb şairi, ürək sərrafıdır. Şəhər, kənd, ana təbiət də, hələlik səsimiz yetməyən naməlum kəhkəşanlar da Bəxtiyarın əsərlərində ilk növbədə lirik qəhrəman qəlbinin dərinliklərindədir. Əsrlər boyu ən qüdrətli sənətkarlar tərəfindən tərənnüm olunan təmiz insani hisslər, saf sevgi duyğuları bu qəhrəmanın ürəyindən su içərək yeni şeirlərə çevrilir. Şairin poetik düşüncələrinin, milli və bəşəri duyğularının bədii ifadəsi vətəndaşlıq qayəsinin, milli ruhunun bədii təsdiqi kimi səslənir.

Ədəbiyyat

1. Arif M. Seçilmiş əsərləri. Üç cilddə, I cild. Bakı. “Elm” 1967, 620 səh.
2. Hüseyn M. Üç cilddə, II cild, “Avrasiya – press”. Bakı, 2005, 320 səh.
3. Qarayev Y. “Anam haqqında şerlər”ə müqəddimə. Bakı. 1974, 298 səh.
4. Nəbiyev B. Ədəbi düşüncələr. Bakı. “Gənclik”. 1971, 321 səh.
5. Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə, I cild. Bakı. “Öndər nəşriyyat”. 2004, 360 səh.
6. Vahabzadə B. Seçilmiş əsərləri. Bakı. “Gənclik”. 1967, 364 səh.
7. B. Vahabzadə. İnsan və zaman. Bakı. Azərnəşr. 1964, 328 səh.

FİRUZ MUSTAFA'S COMEDİES İN MODERN AZERBAİJANİ DRAMATURGY

КОМЕДИИ ФИРУЗ МУСТАФА В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ДРАМАТУРГИИ

FİRUZ MUSTAFA KOMEDİYALARI MÜASİR DÖVR AZƏRBAYCAN DRAMATURGİYASINDA

Məmmədova Ruqiyyə Bəhrəm q.
Azərbaycan Dövlət Pedaqoji Universitet

Xülasə
Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı sosializmin kapitalizmlə əvəz olunduğu, Azərbaycanın müstəqillik qazandığı bir dövrə təsadüf etdiyi üçün ədəbiyyatda bir çox yeniliklərlə özünü göstərmişdir. Ədəbiyyatımıza yeni məzmun, yeni mövzu, fərqli üslub-ideya, yeni janrlar, yeni qəhrəmanlar gəlmişdir. Bu dövrdə ənənəvi real təsvirlərdən daha çox irreal, mistik təsvirlər yaranmış, yazılan əsərlər də yarandığı dövrə uyğun olaraq milli ruhda yazılmışdır. Müasir dövrdə də dramaturgiyada ən çox yazılan əsərlər komediya janrında olmuş, dramaturqlar dövrün problemlərini, qüsurlarını, mühüm məsələləri bu janr daxilində təsvir etmişlər. Firuz Mustafa, Aqşin Babayev, Xeyrəddin Qoca, Vaqif Səmədoğlu, Elçin, Əli Əmirli kimi dramaturqlar komediya janrından bir vasitə kimi istifadə edərək dramaturgiyamıza yeni nəfəs gətirmişlər.Azərbaycan dramturgiyasında simvollarla təsvir, antikomediya, komik faciə, qratesk, fars, ekzotik komediya, absurd komediya, mənzum komediya, mini-fars kimi janr və formalardan məhz bu dövrdə istifadə olunmuşdur.
Açar sözlər: dramaturgiya, komediya, ədəbiyyat, yazıçı, simvol.

Abstract
Since the period of independence of Azerbaijani literature coincided with the period of the replacement of socialism by capitalism and Azerbaijan gaining independence, it manifested itself with many innovations in literature. New content, new themes, different stylistic ideas, new genres, new heroes came to our literature. In this period, more unreal, mystical images were created than traditional realistic images, and the written works were also written in the national spirit according to the period of their creation. In the modern era, the most written works in dramaturgy were in the comedy genre, and the playwrights described the problems, flaws, and important issues of the time within this genre. Playwrights such as Firuz Mustafa, Agshin Babayev, Kheyraddin Goja, Vagif Samadoghlu, Elchin, Ali Amirli used the comedy genre as a tool and brought new life to our dramaturgy. Genres and forms such as description with symbols, anti-comedy, comic tragedy, grotesque, farce, exotic comedy, absurd comedy, verse comedy, mini-farce were used in Azerbaijani dramaturgy in this period.
Key words: dramaturgy, comedy, literature, writer, symbol.

Резюме
Поскольку период независимости азербайджанской литературы совпал с периодом смены социализма капитализмом и обретения Азербайджаном независимости, он проявил себя многими новациями в литературе. В нашу литературу пришли новые темы, новое содержание, разные стилевые идеи, новые жанры, новые герои.В этот период создавались более нереалистические, мистические образы, чем традиционные реалистические образы, а письменные произведения также были написаны в национальном духе согласно периоду их создания.В современную эпоху большинство

написанных произведений по драматургии было в жанре комедии, и драматурги описывали проблемы, недостатки и важные вопросы того времени в рамках этого жанра.Такие драматурги, как Фируз Мустафа, Агшин Бабаев, Хейраддин Годжа, Вагиф Самедоглу, Эльчин, Али Амирли использовали комедийный жанр как инструмент и вдохнули новую жизнь в нашу драматургию.В азербайджанской драматургии именно этого периода использовались такие жанры и формы, как описание с символами, антикомедия, комическая трагедия, гротеск, фарс, экзотическая комедия, комедия абсурда, стиховая комедия, мини-фарс.
Ключевые слова: драматургия, комедия, литература, писатель, символ.

Giriş

Azərbaycan milli dramaturgiyasının 1990-cı illərdəki mərhələsi Vaqif Səmədoğlu, Firuz Mustafa, Aqşin Babayev, Xeyrəddin Qoca kimi sənətkarların dolğun və məzmunlu əsərləri ilə yaddaşlara həkk olunmuşdur. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında öz komediya yaradıcılığı ilə diqqət mərkəzində olan Firuz Mustafa öz fərdi üslubu ilə ədəbiyyatımıza yeni nəfəs gətirmişdir.

Konfrans materialında Firuz Mustafa komediyaları, bu komediyaların mövzu və məzmun xüsusiyyətlərindən bəhs edilmişdir. Burada yazıçının bir çox komediyasına qısa şəkildə toxunulmuş, müəllif fikri, əsərin əsas ideyası önə çıxarılmışdır. Müasir dövrün komedioqraflarından olan Firuz Mustafa antikomediya, komik faciə, qratesk, absurd komediya, fars, ekzotik komediya, mənzum komediya, mini-fars kimi janr və formalardan istifadə edərək Azərbaycan dramaturgiyasını daha da zənginləşdirmişdir. Sənətkarın bu qədər forma və janrdan istifadə etməyi gülüşün, komediyanın artıq yeni mərhələdə olduğundan xəbər verir. Firuz Mustafanın komediya yaradıcılığının araşdırılması, tədqiq olunması məhz bu qəbildən çox aktualdır.

Firuz Mustafanın zəngin komediya yaradıcılığı. Firuz Mustafa Azərbaycan ədəbiyyyatında öz məhsuldar fəaliyyəti ilə seçilmiş, pyeslərinin sayına görə öz qələm dostlarından öndə olmuşdur. Sənətkarın zəngin komediya yaradıcılığı da olmuşdur. Lakin buna baxmayaraq onun hər bir komediyasının özünəməxsus mövzu, janr, ideya-məzmun, struktur və problemi olmuşdur. Komedioqrafın bir sənətkar kimi böyüklüyü sevinc və kədəri, komizmi və tragizmi pyeslərində paralel şəkildə qələmə almasıdır. Onun yaradıcılığnda cəmiyyətdə baş verən, qarşılaşdığımız siyasi-ictimai, mənəvi-əxlaqi problemlərə toxunulur, əxlaqsızlıq, mənəviyyatsızlıq kimi mənfi xüsusiyyətlər tənqid olunur. Pyeslərində bütün bu problemlərə fəlsəfi baxış onları birləşdirən əsas xüsusiyyətlərdəndir.

Firuz Mustafa ədəbiyyatımıza “Qarışqa tələsi”, “Safari”, “Kişiləri qoruyun”, “Senatda toy”, “Vida marşı”, “Küsənlər barışanda” və s. kimi komediyaları bəxş etmişdir.

Yazıçının komediyalarındakı əsas xüsusiyyətlərdən biri də odur ki, əsərdə ən xırda detallar, əlamətlər belə əsərin ideyasının, oxucuya aşılamaq istədiyi fikrin açılmasına xidmət edərək, gülüşün, komizmin yaranmasına səbəb olur.

Dramaturqun komediyalarında mövzu və məzmun xüsusiyyətləri. Firuz Mustafanın “Qarışqa tələsi” komediyası iki hissədən, dörd surətdən ibarət, dramatik komediydır. Əsərdə mənəvi-əxlaqi münasibətlər yarı satirik, yarı komik şəkildə tənqid olunur.

Pyesdə yazıçı Xanış, Amirə, Boran, Delfinə kimi obrazların simasında cəmiyyətimizdəki yüngül təbiətli, əxlaqsız insanların surətini yaratmışdır. Pulu olsa da mənəviyyatca kasıb, öz arvadına başqa bir kişi ilə tələ quracaq qədər şərəfsiz bir obraz olan Xanış, pulu hər şeydən çox sevən, ərinin hər hərəkətinə göz yuman Xanışın həyat yoldaşı Amirə surəti, həyat yoldaşının başqa bir qadınla münasibəti olduğunu öyrənib bunun qarşılığında kompensasiya istəyəcək qədər namussuz bir surət olan Boran, yüngül təbiətli, əxlaqsız qadın olan Delfinə

kimi obrazlar bugünki günümüzdə də cəmiyyətimizdə mövcuddurlar. Yazıçı əsərdə belə aciz insanları qarışqaya bənzədir və onların günü-gündən daha da artacağını söyləyir.

Firuz Mustafanın komediya yaradıcılığı digər sənətkarların yaradıcılığından fərqlənir. Sənətkar komediyanın ədəbiyyatımız üçün yeni olan müxtəlif formalarına müraciət etmişdir. Onun ikihissəli "Safari" komediyası formasından bəlli olduğu kimi ekzotik, yəni dramaturgiyamız üçün qeyri-adi, yad bir əsərdir. Əsərdə milliyyətcə fərqli dörd insanın- Səfər, çinli Juday, italyan Renato, ərəbistanlı İbrahimin təsadüf nəticəsində Safari gəzintisində başlarına gələn hadisədən danışılır. Onlar burada Homo adlı qəbiləylə qarşılaşırlar. Homo adlı bu qəbilə hər kəsdən uzaqda öz qanunları ilə yaşayan, heç kəsdən aslı olmayan müstəqil bir qəbilədir. Əslində azad, müstəqil, kiçik bir dünya... Burada hər şey böyük dünyadan yəni bizim yaşadığımız dünyadan tamamilə fərqlənir. Bu yerdə hər kəs azad, sərbəst, bərabər səviyyədə yaşayır, təmtəraqsız, sadə evlərdə məskunlaşıblar. Yazıçının təsvir etdiyi bu kiçik dünyada bir-birini aldadan, xəyanət edən, yalançı, haqsız, ikiüzlü insanlar yoxdur. Burada var-dövlət, tamah üstündə bir-birini parçalamağa, didməyə hər an hazır olan insanlar yaşamır. Sənətkarın pyesdə kiçik dünya kimi təsvir etdiyi bu yer onun xəyalındakı, yaşamaq istədiyi dünyadır. Yazıçı əsərdə öz fikirlərini, düşüncələrini meşəyə ezamiyyət üçün gəlmiş, burada Homo qəbiləsi ilə rastlaşmış daha sonra isə burada qalmağa qərar verib, illərlə burada yaşayan Amin obrazı vasitəsilə çatdırır. "Qoy nə deyirlər desinlər. Amma indi çətin ki, idealist adam tapıla. Mən özümü tamamilə realist adam hesab edirəm. Böyük dünyada yaşayan adamlar özləri də hiss etmirlər ki, üfunət içində boğulurlar. Onlar bütün həyatları boyu yalnız bir şey barədə düşünürlər: sərvət toplamaq, bolluca yeyib-içmək. Əgər vəhşi heyvanlar qarınları doyandan sonra öz övladlarından əl çəkirlərsə, bizim o nəsildaşlarımızın gözü heç vaxt doymur... Onlar bir-birlərinə kələk gəlib var-dövlət toplayır və ən fəlakətlisi budur ki, bunu nə üçün etdiklərini anlamırlar" [Firuz Mustafa, 2004, s. 158].

Bu obraz bəlkə də elə yazıçının özüdür. O, bu həyatda gördüyü mənfilikləri, rəzillikləri bu obraz vasitəsilə dilə gətirir. Dramaturqun qələmə aldığı obrazların da müxtəlif ölkələrə məxsus olmağı da təsadüf deyil. Firuz Mustafa bununla göstərmək istəyir ki, milliyyətindən asılı olmayaraq hər bir şəxs azad, müstəqil, sərbəst yaşamaq istəyir.

Yazıçı Firuz Mustafanın mənəvi-əxlaqi dəyərlərin təsvir olunduğu komediyalarından olan "Kişiləri qoruyun" əsərində ailə-məişət münasibətlərinə, cəmiyyətimizdəki iqtisadi məsələlərə toxunur. Yazıçı Qəriblə Səmanın dağılmaq təhlükəsi ilə üzləşən ailələrinin fonunda cəmiyyətimizdə işsizlik, pulsuzluq ucbatından dağılan ailələri göstərir. Ailəsini dolandıra bilmədiyi üçün aralarında yaranan mübahisə nəticəsində evdən baş götürüb gedən Qərib çarəni başqa qadınlarda axtarsa da, sonda ən yaxşı yerin öz ailəsinin yanı olduğunu başa düşür. Yazıçı bununla göstərmək istəyir ki, ailədə nə problem olursa olsun insan üçün namuslu, ismətli həyat yoldaşından önəmli, onun dərdinə yanan, onu sevən başqa qadın ola bilməz.

Müəllifin komediyalarında diqqəti çəkən əsas detallardan biri də əsərdəki əsas fikrin remarkalarda əks olunmasıdır. Yazıçı əsərin əsas məğzini demək olar ki, remarkalar vasitəsilə göstərir. Sənətkarın "Kişiləri qoruyun" komediyası isə demək olar ki, remarkalardan ibarətdir. Firuz Mustafa, əvvəldə də qeyd etdiyimiz kimi, bir çox yeni janr və formalara müraciət etmişdir. O, Azərbaycan ədəbiyyatında ilk dəfə "Senatda toy" komediyası ilə mənzum komediya janrının əsasını qoymuşdur. Yazıçı bu əsərində siyasi-iqtisadi, dövlət, idarəçilik məsələlərinə toxunmuşdur. Yazıçı əsərdə bacarıqsız insanların vəzifə başında olmasını, qanunların rüşvətlə yazılmasını təsvir etmiş, dövlət idarələrindəki qanunsuzluqlar, özbaşınalıqlar tənqid olunmuşdur.

Firuz Mustafa yaradıcılığında ən kiçik detallar belə əsas ideyanın, fikrin aydınlaşmasına səbəb olub, gülüşün yaranmasına xidmət göstərir. Sənətkarın yaradıcılığındakı əsas cəhətlərdən biri isə surətlərə qeyri-adi adlar verməsidir. "Komedioqrafın obrazların ad yaradıcılığında da orijinal üsullardan istifadə etməsi onun sənətkarlığının bir hissəsini təşkil edir. Bu obrazların

çoxunun adları gülüş ustasının bədii təfəkküründün məhsulu olub, bütövlükdə komiklik atmosferinin yaradılmasında pozitiv rola malik olur. Amirə, Delfinə (“Qarışqa tələsi”), Fıstıqov, Aşıq Şabaş, Şokolad, Dərəbəy, Dərəxan, İvanverdi, Kişmiş, Maymaq, Quymaq (“Senatda toy”), Ninel (Lelinin adının əksi), Marlen, Qəmli (“Vida marşı”), Vahid-Validə, Səid-Səidə, Yəmid-Həmidə, Şahid-Şahidə (“Küsənlər barışanda”) və s. Obrazların hərəkət və stixiyası onun adında da təzahür edir. Əslində, bu adlar F.Mustafa yaradıcılığında “komik maska” rolunu oynayır ki, bu da komizm nəzəriyyəsinin kanallarına tamamilə uyğun gəlir” [Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı, 2016, s.695]. Dəlilik mövzusu istər dünya ədəbiyyatında, istərsə də Azərbaycan ədəbiyyatında aparıcı mövzulardan olmuşdur. Ağıllılıq və dəlilik cəmiyyətimizdə həmişə gündəmdə olan bir problem kimi ədəbiyyatın tədqiqat obyektinə çevrilmişdir.Ədəbiyyatımızda Cəlil Məmmədquluzadədən başlayaraq dövrümüzdəki yazıçılar da öz yaradıcılıqlarında “dəlilik-ağıllılıq” psixologiyasını əsas mövzuya çevirmişlər. Yazıçı Firuz Mustafa da öz yaradıcılığında bu mövzuya toxunmuş, “Ağıllı adam” komediyasında cəmiyyətdəki ədalətsizlik, haqsızlıq, özbaşnalıq, qanunsuzluq kimi problemləri “dəlilik” priyomu ilə oxucuya göstərmişdir. Əsərdə həkim, jurnalist və müstəntiq obrazlarının dialoqları irəlilədikcə mühitimizdəki mənəvi-əxlaqi, ictimai-siyasi problemlər aşkara çıxır. Pyesdə sənətkar pulla dəlilik kağızı alan cinayətkarları, doğruları rüşvətlə gizlədən jurnalistləri, günahsız insanlara zorla cinayət işlədiyini söylətdirən müstəntiqləri onların öz danışıqları ifşa edir, heç kimin görmədiyi reallıqları dəlixanadakı “xəstələr”in-generalların, komissarların, namuslu adamların söhbətləri ilə açıb göstərir. Əsərdə “xəstə” kimi təqdim olunan obraz bəlkə də mühitimizdəki ən ağıllı insandır. O öz monoloqu ilə cəmiyətimizdəki bütün həqiqətləri açıq şəkildə dilə gətirir: “Onların heç biri gördüyünü olduğu kimi danışa bilmir. Onların heç biri olduğu kimi görünmür. Onların heç biri ürəyindən keçəni səmimiyyətlə deyə bilmir. Taxta başlar! Sizin hamınızın içi ilan-çayanla doludur. Namusumuza toxunulur-susursunuz, üzünüzə tüpürürlər-gülürsünüz, var-dövlətinizi talayırlar-yalmanırsınız, kürəyinizi tapdalayırlar-ağnayırsınız, qeyrətinizə sataşırlar-hırıldayırsınız... Axmaq siz özünüzsünüz, ...siz, siz, siz... Vəzifə sahiblərinin qarşısında alçalırsınız, yalançı natiqlərə əl çalırsınız! Bəlkə yalan deyirəm?! Xeyr! Mən həqiqəti deyirəm...” [Firuz Mustafa, 2004, s.55].

Ümumiyyətlə ədəbiyyatımızda əsl həqiqətləri, doğruları, gerçəkləri “dəlilər”, “xəstələr” vasitəsi ilə söyləmək bir ənənəyə çevrilmişdir. Həqiqət carçısına çevrilən ağıllı dəlilər əslində sənətkarların hər dövrdəki problemləri, çatışmazlıqları xalqa göstərmək, xalqın gözünü açmaq üçün istifadə etdikləri bir üsuldur.

Firuz Mustafa “Ağıllı adam” komediyasında da mövzu olaraq əxlaq, tərbiyə, mənəviyyat məsələlərinə toxumuşdur. Əsərdə jurnalist obrazı ilə eşq yaşayan qadın surətinin simasında tərbiyəsizlik, əxlaqsızlıq tənqid olunmuşdur. Yazıçı pyesin sonunda qadın surətini öldürməklə cəmiyyətimizdə belə insanlara yer olmadığını, əxlaqsız, mənəviyyatsız insanları xoşbəxt gələcəyin gözləmədiyini söyləmək istəyir.

Nəticə

Beləliklə, Firuz Mustafa yaradıcılığına nəzər yetirdikdə onun dramaturgiyasının tərbiyəvi, estetik, bədii mahiyyət daşıdığı aydın olur. Sənətkarın komediya yaradıcılığı mövzu və məzmun cəhətdən olduqca zəngindir. Onun təsvir etdiyi obrazlar bizim ətrafımızda hər gün gördüyümüz, tanıdığımız bədii cəhətdən canlı, dolğun insanlardır.

ƏDƏBİYYAT

1. Aydın Dadaşov. “Müasir Azərbaycan dramaturgiyası”. Bakı, “Elm və Təhsil”, 2012, 304 səh.
2. Firuz Mustafa. “Komediyalar”. Bakı, “Araz”, 2004,486 səh.
3. “Həyati proseslərin axarında” , Bakı, “Yazıçı”, 2013, 272 səh.
4. “ Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı”. 2cilddə. 1cild. Bakı, “Elm və təhsil”, 2016, 800 səh.
5. “ Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı”. 2cilddə. 1cild. Bakı, “Elm və təhsil”, 2016, 1088 səh.

BAKHTİYAR VAHABZADE SUMMİT OF NATİONAL POETİC THOUGHT

VƏTƏNPƏRVƏR ŞAİRİN MÜQƏDDƏS AMALI

Razim Məmmədov
Filologiya üzrə fəlsəfə doktoru, dosent
ADPU- nun Ədəbiyyat kafedrasının müdiri

Xülasə
Böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadə milli poetik fikrimizin formalaşmasında özünəməxsus yeri olan söz ustalarındandır. Onun poeziyasında Vətənə sonsuz məhəbbət, ana dilinin saflığı uğrunda mübarizə, xalqımızın milli istiqlala qovuşmaq arzusu, bu amal uğrunda qəhrəmanlıq nümunələri geniş əksini tapır. Şairin poeziyasında xalqımızın saf duyğuları, soykökə bağlılığı və s. məsələlər dolğunluğu ilə diqqəti cəlb edir.
Açar sözlər: Bəxtiyar Vahabzadə, Vətən, poeziya, milli poetik fikir, ana dili, milli mücadilə

Abstract
The great Azerbaijani poet Bakhtiyar Vahabzade is one of the masters of words who has a special place in the formation of our national poetic thought. His poetry reflects the endless love for the Motherland, the struggle for the purity of the mother tongue, the desire of our people to achieve national independence, the examples of heroism for this cause. In the poet's poetry, the pure feelings of our people, ancestral ties, etc. issues attract attention with fullness.
Keywords: Bakhtiyar Vahabzade, Motherland, poetry, national poetic language, mother language, national struggle

Müasir Azərbaycan ədəbiyyatında milli düşüncənin formalaşmasında misilsiz xidmətləri olan böyük şair Bəxtiyar Vahabzadənin mübariz nəslin yetişməsində, azərbaycançılığın güclənməsində, milli ideologiyanın yeni məna kəsb etməsində zəhməti əvəzsizdir. Poeziyamıza yeni ruh, yeni nəfəs gətirən sevimli şairimiz dərin mənalı şeirləri ilə xalqımızın təfəkküründə milli istiqlal məfkurəsini daha da alovlandırmış, hələ keçən əsrin 80- ci illərindən başlayaraq onun şeirləri Azərbaycanın ərazi bütövlüyü və azadlığı uğrunda ümumxalq mübarizəsinin himninə çevrilmiş, istiqlal nəğmələri kimi ürəkləri coşdurmuşdu.
B.Vahabzadənin zəngin poeziyasında keçmişlə müasirliyin vəhdətini təşkil edən lirik duyğulardan bəhs edən Çingiz Aytmatovun şairin 2004- cü ildə çap olunmuş iki cildliyinə yazdığı "Yaradıbdır inam məni, mən inamın övladıyam" sərlövhəli ön sözdə oxuyuruq: "İndiki dövrdə Bəxtiyar Vahabzadənin yaradıcılığı orijinalda milli poetik fikrin ən böyük nailiyyətlərindən biridir. Zəngin Azərbaycan ədəbi nümunələri müqabilində bu cür nüfuz və şöhrət qazanmağın çox- çox çətin olduğunu asanca təsəvvürümə gətirirəm. Bununla belə, unutmaq olmaz ki, ənənələr yalnız və yalnız müasirliyin gərdişində, yeni yaradıcıların yeni sözündə yaşayır:

Yaşamaq yanmaqdır, yanasan gərək,
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa, yaşamır demək,
Onun da həyatı yanmağındadır!" (1, s.4)

Doğma xalqının zəngin mənəviyyatına, əxlaqi gözəlliyinə, istək və arzularına, qaynar və mənəvi həyatına yaxından bələd olan şair millətin faciəsinə, ağrı- acısına biganə qalmamış, fədakar ziyalı, azadlıq mücahidi kimi ən çətin anlarda sinəsini qabağa vermiş, insanları Vətənin azadlığı və bütövlüyü uğrunda müqəddəs mübarizəyə və mənəvi birliyə səsləmişdi. Onun "Vətən sevgisi" sərlövhəli məqaləsində oxuyuruq: "Vətən sevgisi insan duyğularının ən alisi, ən yüksəyi, ən müqəddəsidir. İnsan mənsub olduğu Vətəni sevməklə özünü, cəmiyyətinqarşısındakı borcunu tapmış olar. Vətən və xalq hissindən məhrum olan şəxs bütün insani hisslərdən məhrumdur. Vətəni sevən adam həyatı sevir, dünyanı sevir. Çünki o, nə üçün yaşadığını və nəyin naminə çalışdığını bilir. Vətən sevgisi insana məslək, and gətirir. Məslək isə ürəyə cəsarət, qollara qüvvət, gözlərə işıq verir."
B.Vahabzadənin poeziyasının tükənməz həyat qüvvəsi xalqın tarixi ilə sıx təmasda, həmvətənlərinin arzu və düşüncələri ilə qırılmaz tellərlə bağlı olmasıdır. Onun lirikasının populyarlığını şərtləndirən əsas amillərdən biri də budur. Şair özünün məşhur "Gülüstan" poeması ilə "milli- ictimai şüuru oyatmaq və formalaşdırmaq uğrunda estetik düşüncədə başlanan mübarizə hərəkatının ilk qığılcımı" ilə milli şüurun inkişafında yeni mərhələ yaratmış oldu. Professor Təyyar Salamoğlu haqlı olaraq yazır ki, "B.Vahabzadənin estetik idealı milli vətəndaşlıq düşüncəsi formalaşdırmağa hesablanmışdı. O, yaxşı bilirdi ki, milli azadlığa gedən yol vətəndaşlıq düşüncəsindən keçir. Vətəndaşlıq düşüncəsinin formalaşması üçün isə vətən övladına ruh azadlığı lazım idi. Ruh isə o zaman azadlığa qovuşacaqdı ki, içindəki qorxu hissini- rejimin yaratdığı vahiməni dəf edə bilsin. Millətin şairləridir onun qabaqda gedənləri. Ən əvvəl onlar bu azadlığa qovuşmalı, qorxu hissini birdəfəlik dəf etməli idilər" (7, s.242).
Əsərlərinin böyük əksəriyyətində olduğu kimi "Gülüstan" poemasında şairin mübarizliyi, milli əqidəsi, cəsarəti, öz səsi, öz münasibəti dərhal nəzərə çarpır.
Şairin üstünlüklərindən, güclü cəhətlərindən, onun əsərlərinin poetik özünəməxsusluğundan söhbət açan Ç.Aytmatov yazırdı: "Vahabzadənin başqa kamil cəhətlərindən biri də odur ki, şair öz əsərlərində tarixi müasirlik qədər yaşada bilir. Keçmişə görə əzab çəkmək, ona bu günün gözüylə baxmaq- Bəxtiyarın mövzu dairəsinin genişliyindən, mürəkkəbliyindən və zənginliyindən xəbər verir."
Arazın
Bu tayı Vətənim,
O tayı Vətənim.
Vətəni görməyə amanım yox mənim.
Bu necə Vətəndir?
Görməmişəm üzünü,
Çatsam da bu yaşa
Ömründə bir dəfə
Bəs salam verməzmi
Qardaş da qardaşa
Bu qəmim, bu dərdim dağlardan ağırdı,
Arazın suyuna qarışıb axıram.
Füzuli həsrətlə qürbətdən Vətənə baxırdı,
Mən isə
Vətəndən Vətənə baxırm (3, s.88).

B.Vahabzadənin öz xalqının taleyinə bağlılığı, dövrünün idealllarına fəal münasibəti, müasir həyatın, vətənimizin ən səciyyəvi cəhətlərini əks etdirmək meyli onun şeirlərində aydın hiss olunmaqdadır. Şairin on iki cildlik külliyyatının tərtibçisi professor R.Qafarlı haqlı olaraq yazır: "B.Vahabzadə poeziyası XX yüzilliyin II yarısında, totalitar sosialist rejiminin Böyük Vətən müharibəsindən sonra ikinci nəfəslə dirçəlib gtücləndiyi, ac pələngə döndüyü, azadlıq,

müstəqillik ideyasına düşmən kəsildiyi çağlarda həyəcan təbili kimi meydana atılıb ötən minillikdə türk dünyasının son ən kəsərli bədii fikirlərinin daşıyıcısına çevrildi. Bu odlu- alovlu poetik söz və düşüncə yaranışları yarım əsrlik dövrün hadisələrinə güzgü tutmaqla yanaşı, insanlığın narahatlığına səbəb olan bütün ağrılı, acılı məsələləri də içərisinə aldı. Şair daim rus-sovet imperiyasının buxovlarını boynunda, yumruqlarını başının üstündə hiss etsə də, ölümcül zərbələrə məruz qalsa da, məngənəyə salınıb sıxılsa da, susmağı köləliyin əsas əlaməti bilib qələminin mürəkkəbini qurumağa qoymadı" (3, s.18). B.Vahabzadə milli istiqlal uğrunda mübarizənin taleyinin Vətən oğulllarının taleyindən keçəcəyini bilərək deyirdi:

Vətənin sərhədlərinə
Sığışmasan da
Sığışmalısan
Sən özün yenə,
Səni böyüdən
Bu doğma yurda (5, s.101)

Azərbaycanın milli istiqlal mübarizəsində həmişə həmvətənlərinin yanında olan "Bəxtiyar Vahabzadəni həyatı boyunca düşündürən çoxsaylı milli, ictimai problemlərin birincisi, heç şübhəsiz, öz xalqının müstəqilliyi, milli istiqlal məsələsi olmuşdur. Mənsub olduğu xalqın ideallarını, dərdini, kədərini, duyğu və düşüncələrini dərindən duyan sənətkarın milli azadlıq uğrunda bir vətəndaş şair kimi illər boyu davam edən mübarizəsi əsərlərində əks olunmuşdur." (6, s.240)
B.Vahabzadəni millət xadimi kimi həmişə narahat edən ən vacib və mühüm məsələlərdən biri ana dilinə münasibət olmuşdur. Sovet hakimiyyəti illərində ana dilinə bəslənilən soyuq münasibətin gündən- günə güclənməsi şairi narahat etmiş, o, Azərbaycan dilini sıradan çıxarmaq üçün yürüdülən siyasətin güclənməsinə qarşı gur səsini ucaltmışdır. Böyük ədib bu mövzu ilə bağlı silsilə şeirlər yazmış, doğma dilə ögey münasibətə son qoyulmasını tələb etmişdir. Onun "Ana dili", "Latın dili", "Əlifba kitabı", "Mənim anam", "Nə ondansan, nə bundan", "Riyakar" və s. şeirlərində, eləcə də "Ana dilim- Ana köküm", "Ana dili", "Ana dili- Dövlət dili", "Ana dili, yenə ana dili", "Bir daha ana dili haqqında", "Dilimiz- ədəbiyyatımız", "Kökümüzə gedən yolu tikanlardan təmizləyək" və s. kimi qiymətli publisistik yazılarında əcdadlarımızın bizə qoyub getdiyi doğma dilimizin təəssübünü çəkmiş, onu göz bəbəyi kimi qorumağın vacibliyini bildirmişdi. Böyük şair üzünü dilimizə ögey, laqeyd münasibət bəsləyənlərə tutaraq demişdi:

Ey öz doğma dilində danışmağı ar bilən,
Bunu iftixar bilən
Modalı ədabazlar
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.
Qoy bunlar mənim olsun,
Ancaq Vətən çörəyi
Bir də ana ürəyi
Sizlərə qənim olsun (1, s.9)

Həm mövzu, həm məzmunca etibarilə zəngin və dolğun olan lirikasında B.Vahabzadə həmişə ülvi və pak hissləri tərənnüm etmiş, insandan, onun kamalından və gözəlliyindən ilham almış, insanları mənəvi- əxlaq saflıqlarını qorumağa səsləmişdir:

Gözəl insan!-
Gözəl sözdür!
Görən ancaq bu gözəllik
Əməllərdə sınandımı?
Görən bunu deyən özü
Öz sözünə inandımı? (5, s.74)

Bu gün iftixarla söyləmək olar ki, milli istiqlala, azərbaycançılıq əqidəsinə sadiqliyi, milli birliyə, soykökə bağlılığı ilə əsl vətəndaşlıq nümunəsinə çevrilən B.Vahabzadə Azərbaycan milli poetik fikrin ən uca zirvəsini fəth etmiş şair kimi yaddaşlara həkk olunmuşdur..

Ədəbiyyat

1. Aytmatov Ç. Yaradıbdır inam məni, mən inamın övladıyam, Ön söz, B.Vahabzadə, Əsərləri, iki cilddə, I cild, Bakı, 2004
2. Cəfərov N. Bəxtiyar Vahabzadə, Bakı, 1996
3. Vahabzadə B. Əsərləri, on iki cilddə, I cild, Bakı, 2008
4. Vahabzadə B. Əsərləri, on iki cilddə, II cild, Bakı, 2008
5. Vahabzadə B. Əsərləri, iki cilddə, I cild, Bakı, 1974
6. Qarayev Y. Azərbaycan ədəöbiyyatı: XIX və XX yüzillər. Bakı, 2002
7. Salamoğlu T. Azərbaycan ədəbiyyatı: mübahisələr, həqiqətlər, Bakı, 2016

CHARACTERİSTİCS OF THE RELATİONSHİP BETWEEN SELF-ESTEEM AND PERSONAL EXCİTEMENT DURİNG ADOLESCENCE

YENİYETMƏLİK YAŞ DÖVRÜNDƏ ÖZÜNÜQİYMƏTLƏNDURMƏ VƏ ŞƏXSİ HƏYƏCAN HİSSİ ARASINDAKI ƏLAQƏNİN XÜSUSİYYƏTLƏRİ

Məmmədova Nigar Məmmədəli qızı
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Pedaqoji Psixologiya Kafedrasının Baş Müəllimi
ORCİD: 0009-0009-2042-5894

Xülasə
Psixologiyada yeniyetməlik yaşını şəxsiyyətin inkişafında böhran dövrü adlandırırlar. Bu, həyatın bu mərhələsində orqanizmin psixofizioloji cəhətdən dəyişməsi ilə əlaqədardır ki, həm yeniyetmənin daxili hisslərində, həm də öz şəxsiyyətində, sosial mühitə münasibətində özünü göstərir. Məhz bu yaşda özünüqiymətləndirmə şəxsiyyətin formalaşmasına kömək edir, onun uğuruna və özünüreallaşdırmasına, cəmiyyətdəki mövqeyinə təsir göstərir. Müxtəlif həyati situasiyalarda yeniyetmələr başqalarının, yaxın dostlarının və müəllimlərinin onlara münasibətindən narahat olur və həyəcan hissi keçirirlər.
Həyəcan hissi və özünüqiymətləndirmə yeniyetmənin fərdi psixi xüsusiyyətləri olub həyat boyu formalaşır. Yeniyetmələrdə özünüqiymətləndirmə və həyəcan hissi arasındakı əlaqə problemi çox aktualdır. Bu yaş dövründə yeniyetmələrdə özünüqiymətləndirməni formalaşdıran mühüm şərtlərlər həm onun dərslərdə nə qədər fəal olması, məktəbdə hansı uğursuzluqlarla qarşılaşması, başqalarının onu necə qiymətləndirməsi, fərdin şəxsiyyətlərarası qarşılıqlı əlaqədə necə iştirak etməsidir. Həyəcan hissi davamlı və uzunmüddətli bir şəxsi hissdir.O, yaşla bağlı reallaşmamış istəklər səbəbindən güclənir. İnsan yeniyetməlik yaş dövrünü tərk edənə qədər onun həyəcanına daha çox ailədə baş verən münaqişələr səbəb olur. Həyəcan hissinin yaranmasına müxtəlif aspektlər də təsir göstərir. Söhbət yenietmənin məktəbdə aldığı qiymətlər, dostlar və ailə ilə münasibətlər, cəmiyyətdə özünüdərketmə, özünüqiymətləndirmə, sağlamlıq vəziyyəti və s. misal ola bilər. Həyəcan hissinin güclənməsi mexanizmi psixoloji dairə kimi təsəvvür edilir ki, bu da mənfi emosional təcrübələrin toplanmasına və daha da dərinləşməsinə səbəb olur. Belə hallar mənfi proqnostik qiymətləndirmələrə,həyəcan və narahatçılıq hissinin güclənməsinə aparıb çıxarır.
Yeniyetmədə üzünüqiymətləndirmənin və həyəcan hissinin olması adekvat səviyyəyə malik olan bir şeydir, əks halda o, insanın həyatını məhv edəcək, uğurlarına, imkanlarına mənfi təsir göstərəcəkdir. Yeniyetməlik yaş dövründə həyəcan hissi daxili ziddiyyətlərdən, əsasən özünüqiymətləndirmədən yarana bilər [1]. Həyəcan hissi geniş təsir dairəsinə malik şəxsiyyətə məxsus xüsusiyyətdir: məktəbdəki performans, həmyaşıdları və valideynlərlə münasibətlər, özünü cəmiyyətdə hiss etməsi, özünüqiymətləndirmə, sağlamlıq və s.-yə həyəcan hissi təsir edir [2]. Özünüqiymətləndirmə insanın özünə, qabiliyyətinə, keyfiyyət- lərinə və başqaları arasında tutduğu mövqeyə verdiyi qiymət kimi başa düşülür. O, yeniyetmənin davranışında həyəcan hssinin mühüm tənzimləyicisidir. Yeniyetmədə şəxsi həyəcan hissinin təsirini tənzimləmək qabiliyyəti vardır.
Açar sözlər: yeniyetməlik yaş dövrü, özünüqiymətləndirmə, şəxsi həyəcan hissi, özünüdərketmə, özünüreallaşdırma

Abstract
In psychology, adolescence is called a crisis period in the development of personality. This is due to the psychophysiological changes of the organism at this stage of life, which manifest themselves both in the teenager's inner feelings, and in his personality, and in his attitude to the social environment. It is at this age that self-esteem contributes to the formation of personality, affects his success and self-realization, and his position in society. In various life situations, adolescents are worried and anxious about the attitude of others, close friends and teachers to them. Excitement and self-esteem are individual psychological characteristics of a teenager and are formed throughout life. The problem of the relationship between self-esteem and excitement in adolescents is very relevant. Important conditions that form self-esteem in adolescents at this age are how active they are in classes, what failures they encounter at school, how others evaluate them, and how the individual participates in interpersonal interactions. Excitement is a persistent and long-term personal feeling. It is strengthened due to unfulfilled desires associated with age. Until a person leaves adolescence, his excitement is mostly caused by conflicts occurring in the family. Various aspects also affect the formation of excitement.
This may include the student's grades at school, relationships with friends and family, self-awareness in society, self-esteem, health status, etc. The mechanism of arousal is conceptualized as a psychological circle, which leads to the accumulation and deepening of negative emotional experiences. Such situations lead to negative prognostic assessments, increased feelings of anxiety and anxiety.
The presence of self-esteem and excitement in adolescents is something that has an adequate level, otherwise it will destroy a person's life, negatively affect their success and opportunities. Anxiety during adolescence can arise from internal contradictions, mainly from self-esteem [1]. Anxiety is a personality trait with a wide range of effects: anxiety affects performance in school, relationships with peers and parents, self-esteem, health, etc. [2]. Self-esteem is understood as the assessment of a person about himself, his abilities, qualities and position among others. It is an important regulator of anxiety in adolescent behavior. Adolescents have the ability to regulate the impact of their personal anxiety.
Keywords: adolescence, self-esteem, personal anxiety, self-awareness, self-actualization

Ədəbiyyat Siyahısı
1. Райс, Ф. Психология подросткового и юношеского возраста / Ф. Райс, К. Долджин. М.: Питер, 2018. с 231.
2. Райс, Ф. Психология подросткового возраста / Ф. Райс. М.: Питер, 2019. с. 48.
3. Федоренко, П. А. Жизнь без комплексов, страхов и тревожности. Как обрести уверенность в себе и поднять самооценку / П. А. Федоренко. М.: АСТ, 2018. с. 48.

MUSICAL FOLKLORE OF SHEKI: RESEARCH, PERSPECTIVES

ŞƏKİNİN MUSİQİ FOLKLORU: TƏDQİQATLAR, PERSPEKTİVLƏR

Kəmalə Ələşrəf qızı Atakişiyeva
AMEA Memarlıq və İncəsənət İnstitutunun böyük elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
ORKİD: 0000-0003-3637-6790

Xülasə
Azərbaycanın qədim mədəniyyət ocaqlarından biri olan Şəkinin zəngin musiqi folkloru ilə musiqişünaslıq elminin aktual tədqiqat obyektlərindən biridir. Şəkidə folklor yaradıcılığının bütün janrları ilə bağlı qiymətli nümunələr əsasən instrumental ifaçılığa məxsus rəqslər, eləcə də mahnılar, layla və ninni, oxşamalar, ağılar, mövlud mərasim musiqisi, Bu zona üzrə musiqi folkloru toplamaları XX əsrin 30-cu illərində Elmi Tədqiqat Musiqi Kabinetinin ekspedisiya səfərlərində baş tutmuşdur. Şəkiyə təşkil edilən ekspedisiyalar ilk dəfə 1937-ci ildə baş tutmuşdur. Bu ekspedisiyada Azərbaycanın görkəmli bəstəkarı Qara Qarayevin topladığı musiqi materialları olduqca əhəmiyyətlidir. 1956-cı ildə bəstəkar Soltan Hacıbəyovun topladığı nümunələr içərisində Şəkidən əldə edilmiş materiallar da yer almışdır. Bu zanaya maraq 1990-cı illərdə artmış, Fəttah Xalıqzadə, Azad Ozan Kərimli, S.Abdullayeva folklor materiallarının toplanmasında yaxından iştirak etmişlər. Şəki folklor materialları əsas etibarilə instrumental ifaçılıq sahəsini əhatə etmişdir. Lakin, əslən şəkili olan tanınmış musiqişünas alim Faiq Çələbiyev Şəki antologiyasının II cildi üçün yazdığı ön sözdə bölgənin aşıq sənəti haqqında qiymətli məlumatlar vermişdir. Mövzunun araşdırma obyekti kimi seçilməsində bu məlumatların mühüm rolu vardır. Şəki istedadlı musiqiçilər yurdudur. Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələri Cövdət Hacıyev, Emin Sabitoğlu, Şəfiqə Axundova, muğam sənətinin parlaq nümayəndəsi Şəkili Ələsgər bu yurdun yetirməlidir. Müasir dövrdə bölgədə təşkil edilən fərdi ekspedisiya səfərləri burada zəngin folklor irsinin hələ də qeydə alınmamış, nota yazılmamış nümunələrinin çox olduğunu ortaya çıxarır. Şəkinin aşıq mühiti isə xüsusi tədqiqat obyekti kimi öyrənilməmişdir. Bu mühitin görkəmli nümayəndəsi Molla Cumanın yaradıcılığı Azərbaycan aşıq sənətinin xüsusi mərhələsini təşkil etmişdir. Lakin, Şəki aşıqlığı həm də öz musiqi ifaçılıq ənənələrinin öyrənilməsi mühüm perspektiv vəd edən bir mövzudur.
Açar sözlər: Şəki folkloru, instrumental ifaçılıq, aşıq sənəti, not yazıları, ekspedisiya

Abstract
One of the ancient cultural centers of Azerbaijan, Sheki, is one of the current research objects of musicology with its rich musical folklore. Valuable examples of all genres of folklore creativity in Sheki are mainly instrumental dances, as well as songs, lullabies and lullabies, odes, laments, mavlud ceremonial music, musical folklore collections in this zone took place during expeditions of the Scientific Research Music Cabinet in the 30s of the 20th century. Expeditions organized to Sheki took place for the first time in 1937. The musical materials collected by the prominent Azerbaijani composer Gara Garayev during this expedition are very important. Materials obtained from Sheki were also included in the samples collected by the composer Soltan Hajibeyov in 1956. Interest in this zone increased in the 1990s, and Fattah Khaliqzadeh, Azad Ozan Karimli, and S. Abdullayeva took an active part in the collection of folklore materials. Sheki folklore materials mainly covered the field of instrumental performance. However, the well-known musicologist Faig Chelebiyev, who was originally a poet, provided valuable information about the ashug art of the region in his preface to the

second volume of the Sheki anthology. This information played an important role in choosing the topic as the object of research. Sheki is the homeland of talented musicians. Prominent representatives of the Azerbaijani composition school, Jovdat Hajiyev, Emin Sabitoglu, Shafiga Akhundova, and a bright representative of mugham art, Shekili Alasgar, should be brought to this homeland. Individual expeditions organized in the region in modern times reveal that there are many examples of the rich folklore heritage here that have not yet been recorded or written down in notation. The ashug environment of Sheki has not been studied as a special object of research. The creativity of the prominent representative of this environment, Molla Juman, constituted a special stage of Azerbaijani ashug art. However, the ashug of Sheki is also a topic that promises important prospects for studying its own musical performance traditions.
Keywords: Sheki folklore, instrumental performance, ashug art, musical notation, expedition

TEACHING TECHNOLOGIES OF LYRIC TEXT AND POEMS TO CHILDREN WITH HEARING IMPAIRMENT

ТЕХНОЛОГИИ ОБУЧЕНИЯ ЛИРИЧЕСКОМУ ТЕКСТУ СТИХОТВОРЕНИЯМ ДЕТЕЙ С НАРУШЕНИЕМ СЛУХА

EŞİTMƏ POZULMASI OLAN UŞAQLARA LİRİK MƏTN VƏ ŞEİR LƏRİN TƏLİMİ TEXNOLOGİYALARI

Dos. T. Ağayeva Hüseyn qızı.
Xüsusi təhsil kafedrasının müəllimiAzərbaycan Dövlət Pedaqoji Universiteti ! Bakı

Xülasə
Məqalədə eşitmə pozulması olan uşaqların lirik, o cümlədən şeir mətnlərin öyrənilməsi və ifadəli oxu probleminin öyrənilməsinə həsr edilmişdir. Məqalədə bu kateqoriyalı şagirdlərin tədris prosesi üçün proqram və metodik dəstəyin təhlili təqdim olunur, həmçinin kar uşaqlar üçün məktəbin IV sinfində B.Vahabzadənin "İki saat " şeirinin öyrənilməsinə həsr olunmuş dərs nümunəsi də təqdim olunur.
Açar sözlər: eşitmə pozulması olan uşaqlar, şeir, lirik mətnlər,təlim üsul və metodları

Аннотация
Данная статья посвящена изучению лирических текстов, в том числе стихотворений и проблеме вы разительного чтения детьми с нарушением слуха.
В статье представлен анализ програм и методическое обеспечения образовательного процесса данной категории учащихся, а также пример урока, посвященного изучению стихотворения Б. Вахабзаде «Два часа» в 4 классе школы для глухих детей.
Ключевые слова: дети с нарушением слуха, стихи, поэзия, лирические тексты,методы и приемы обучения

Abstract
This article is devoted to the study of lyrical texts, including poems and the problem of expressive reading by children with hearing impairments. The article presents an analysis of programs and methodological support for the educational process of this category of students, as well as an example of a lesson devoted to the study of B. Vahabzade's poem "Two Hours" in the 4th grade of a school for deaf children.
Keywords: children with hearing impairment, poetry, lyrical texts, training methods and techniques

Giriş

Son dövrlər təhsil siyasətində humanist meyillərin güclənməsi sağlamlıq imkanları məhdud uşaqla rın psixoloji-pedaqoji dəstəyi probleminin müxtəlif aspektlərinə mütəxəssislərin xüsusi diqqətini müəyyən etmişdir. Belə uşaqların kəmiyyət baxımından ən çox təmsil olunan kateqoriyası eşitmə pozulması olan uşaqlardır.
Yerli və əcnəbi tədqiqatçılar (S.Qasımov, N.T.Hüseynova, T.H.Ağayeva, D.Dostuzadə L.S. Vıqot ski, L.V. Zankov, S. D. Zabramnaya, V.İ. Lubovski, S.Y.Rubinsteyn, I. M. Solovyov, Q.Y. Troşin və b. -rı) belə uşaqların inkişafının normadan xeyli fərqlənməsini eşitmənin bu

və ya digər səviy yədə itirilməsinin nəticəsi olaraq idraki proseslərin, xüsusilə də nitqin inkişaf çatışmazlıqları ilə əla qələndirmişlər.
Hazırda eşitmə pozulması olan uşaqların təhsili, təlim və tərbiyəsi xüsusi (korreksiya) məktəblərdə korreksiya-inkişaf yönümlülük prinsipi əsasında qurulmuş, optimist perspektivə yönəlmiş xüsusi təh sil proqramına uyğun olaraq həyata keçirilir. Bu məktəbin tədris proqramı öz həcminə, məzmununa, həmçinin həyata keçirilməsi üsulları na görə adi məktəb proqramından kəskin fərqlənir. Proqramda bu kateqoriyaya aid olan uşaq şəxsiyyətinin sosial inkişafı və onlara xas olan idrak fəaliyyət çatış mazlıqlarının aradan qaldırılması üçün əlverişli şəraitin yaradılmasını nəzərdə tutur.
Kütləvi məktəbdə olduğu kimi, məktəbdə poetik mətnlərlə işləməyə böyük əhəmiyyət verilir. Məktəbdə normal inkişaf edən həmyaşıdları kimi, onlar da şeir və lirik mətnləri ifadəli oxuyur, bö yük səylə əzbərləyir, sonralar bu bacarıqları bayram şənliklərində və dərsdənkənar təd birlərdə mə mnuniyyətlə nümayiş etdirirlər.
Lirik mətn və şeirlərin öyrədilməsi onlarda hafizəni, təfəkkürü aktivləşdirir, lüğət ehtiyatını zəngin ləşdirir, onlara aydın danışmağı, ifadəli intonasiyadan istifadə etməyi öyrədir, nitq təcridini aradan qaldırmaq üçün əlverişli şərait yaradır Onun məzmunu şairin bədii şəkildə dərk etdiyi insanın mənə vi həyatını əks etdirir. Lirik əsərdə dilin əsas funksiyası subyektiv hissləri ifadə etmək olduğu üçün nitqin məcazi və obrazlı imkanları ön plana çıxır.
Müşahidələr göstərir ki, həm məktəbəqədər, həm də kiçik məktəb yaşlı eşitmə pozulması olan uşaq ların eşidən həmyaşıdları kimi şeir öyrənməyə, onu əzbərləməyə bir qədər o də meyl və həvəsləri olmur. Bu, onların misraların ahəng və ritmini, qafiyə nin ifadəliliyini hiss etməməsi, sətraltı və məcazi mənaları anlaya bilməmələri ilə bağlıdır. Bundan əlavə onlar üçün nitq inkişafında olan ça tışmazlıqlar, lüğət ehtiyatının azlığı da lirik əsərin məzmununu anlamaqda çətinlik yaradır.
Məktəbəqədər və kiçik məktəb yaşlı eşitmə pozulması olan uşaqların həyat təcrübə sinin kasadlığı, emosional - estetik sahənin kifayət qədər inkişaf etməməsi poetik söz və ifadələri: parlaq epitet, qey ri-adi metafora və müqayisələri anlaya bilməməsinə səbəb olur. Yalnız böyük məktəb yaşı dövrün də eşitmə pozuntusu olan şagirdlər müstəqil şəkildə şeir oxumağa və anlamağa başlayırlar. Bu zama na qədər onlar müəyyən həyat təcrübəsi toplayır, emosional-estetik inkişaf səviyyəsi yüksəlir, şeir oxumaq, ifadəli dil vasitələrini dərk etmək təcrübəsi qazanmış olurlar.
Məktəbəqədər və kiçik məktəb yaşlı eşitmə pozulması olan uşaqların şeir oxuyarkən yaşadığı çətinlikləri obyektiv və subyektiv olaraq fərqləndirmək olar:
- obyektiv çətinliklər gerçəkliyi bədii üsulla əksetdirmənin xüsusiyyətləri ilə bağlıdır.
- eşitmə qüsurlu insanlar üçün subyektiv çətinlik lirikanın insanın həyat şəraitini, onun əməllərini deyil, yalnız bu və ya digər həyat hadisələri, dünyagörüşü, onun yaşantılarını ötürməsi ilə əlaqədar dır. Şeiriyyatın bu xüsusiyyəti lirik qəhrəma nın daxili aləmini qavramağa bir o qədər də hazır olma yan eşitmə pozulması olan uşaqlar üçün çox xarakterikdir.
Məktəbəqədər və kiçik məktəb yaşlı eşitmə pozulması olan uşaqların şeir oxuyarkən qarşılaşdıqla rı subyektiv çətinliklər onda ifadə olunan hisslərin yüksək səviyyədə ümumiləşdirilməsi ilə xarakte rizə olunur. Bu xüsusiyyət onlara belə bir əsəri dərin dən dərk etməyə, şairin, lirik qəhrəmanın hiss lərini özününkü kimi yaşamağa imkan vermir.Uşaqlar şairin yaşadıqlarını öz duyğuları ilə əlaqələn dirmədən uzun müddət əsərə sanki kənardan baxırlar.
Lirik əsərin ədəbi yaradıcılığın xüsusi növü kimi özünə məxsus xüsusiyyətləri ilə: qeyri-adi obraz lılığı və linqvistik ifadəliliyi ilə xarakterizə olunur.
Təcrübə göstərir ki,eşitmə pozulması olan uşaqların şeir mətnini müstəqil mənimsəmək imkanları xeyli məhduddur,onlar yalnız müvafiq iş apardıqdan sonra şerləri həvəslə oxuyub əzbərləyə bilir lər. Onlar üçün şeiri müstəqil öyrənmək çətinliyi onu oxuyarkən şeirin qeyri-

adi obrazlılığı, ritm, dilinin məcaziliyi, həmçinin oxucunun mənəvi dünyasına xitab etməsi ilə əlaqədardır. Şairin işlət diyi bədii vasitələrin– obrazlı müqayisə və metaforaların mənası eşitmə pozulması olan uşaqlar üçün qeyri-müəyyən olaraq qalır ki, bu da bütövlükdə şeirin mənasının təhrif olunmasına və hətta tam səhv başa düşülməsinə gətirib çıxarır. Məsələn, eşitməsi normal inkişaf etmiş kiçik məktəbəqə dər yaşlı uşaqların ən çox sevib əzbərlədiyi ”Xoruz ” şerinin eşitmə pozulması olan uşaq tərəfindən öyrənilməsi böyük çətinkilər yaradır.Belə ki, şeirin ilk misraları : “Ay pipiyi qan xoruz, gözləri mərcan xoruz ” kar və ya zəif eşidən uşaqların mənanı anlamaması səbəbindən çaşqınlıq yaradır. Bu poetik misralar onların şüurunda nə üçün ” xoruzun pipiyi qanlı”, “gözləri mərcan olması” kimi absurd sual və mənaya çevrilir, Çünki onların həyati təəssüratlar, yaradıcı təxəyyülü, nitqinin inki şaf səviyyəsi, xüsusilə də lüğət və mənalandırma adek vat bədii obrazı canlandırmaq üçün yetərli deyildir.Bundan əlavə, epik metod və üsuların mexaniki olaraq şerin öyrənilməsinə köçürülməsi isə uşaqlarda bu şeiri emosional olaraq qavramağa, orada kı məcazi mənaları anlamağa, eyni zaman da yaradıcı təxəyyülü fəallaşdırmağa imkan vermir.

Üsul Və Metodlar

Məktəbəqədər və kiçik məktəb yaşlı eşitmə pozulması olan uşaqlara şeirlərin öyrədilməsi əsasən lirik materialların təlimi metodikasına daxildir. lirik əsərlər üzərində işin metodologiyası, mövzu və janr müxtəlifliyinə baxmayaraq, uşaqlarda maraq yaratmağa, emosional çalarlı münasibətləri inkişaf etdirməyə, oxunun müxtəlif növlərinə yönəldici vasitələrdən istifadə etməyə imkan ve rən ümumi mövqeyə əsaslanır.

Qeyd etmək lazımdır ki,eşitmə pozulması olan uşaqların şeirdəki lirikliyi qavraması bütövlükdə ədəbi əsərlərin qavranılması ilə bağlıdır. .Belə ki, bu uşaqların şeirləri, lirik materialları öyrənmə si onların qavrayış və nitqinin inkişaf səviyyəsi ilə bağlıdır.

Eşitmə pozulması olan uşaqların lirik materialları, xüsusilə də şeirləri öyrənmə xüsusiyyətlərinə aşağıda qeyd edilənlər daxildir.

* Şeirlərin öyrənilməsində müxtəlif üsul və metodlardan istifadə.

Şeirlərin öyrənilməsi zamanı təkcə eşitmədən deyil, həm də görmə, toxunma və kinestetik üsullar dan, məsələn, jest texnikası, şeirlərin qrafik təsvirindən, ritmik hərəkətlərdən istifadə edilə bilər.

* Eşitmə hafizəsinin məhdudluğu.

Eşitmə pozulması olan uşaqların əksəriyyəti şeirdəki söz və ifadələrin ardıcıllığını yadda saxlamaq da çətinlik çəkirlər. Bunun üçün təkrarlar, vizual dəstək və materialın strukturlaşdırılması çox vacib dir.

* Şeirin emosional tərəfinə diqqət.

Uşaqların diqqətini şeirlərin emosional cəhətlərinə cəlb etmək üçün jest, mimika və müəllimin səsi nin ifadəliliyindən istifadə etmək lazımdır.

* Mürəkkəbliyin tədricən artması:

Sadə şeirlərlə başlamaq və tədricən şerlərdə lüğət ehtiyatı, qrammatika və qafiyənin mürəkkəbliyi ni artırmaq vacibdir.

* Şeirlərin öyrənilməsi zamanı müxtəlif materiallardan istifadə:

Uşağa mətni daha yaxşı başa düşməyə və yadda saxlamağa kömək edən şəkil, illüstrasiya, video və digər materiallardan istifadə edilə bilər.

* Əks əlaqə və qiymətləndirmə:

Uşaqlara şeiri başa düşdüklərini ifadə etmək üçün müxtəlif yaradıcılıq tapşırıqlarından, məsələn, il lüstrasiyalar, rəsm çəkmək, foto-şop yaratmaq, dramlaşdırma, səhnələşdirmə və ya jestlərdən istifa də etmələrinə imkanı vermək vacibdir.

Eşitmə pozulması olan uşaqlar üçün məktəblərdə lirik nitq materialının ifadəli oxusu demək olar ki, bütün dərslərdə, xüsusilə də oxu və nitq inkişafı fənlərinin tədrisində, habelə eşitmə qavrayışının inkişafı üzrə fərdi və frontal məşğələlərdə aparılır.
İfadəli oxu üzərində işdən öncə müəllim bədii əsərin hərtərəfli təhlilini aparmalıdır. Bu işi dərsin son mərhələsində aparmaq daha yaxşıdır.
İfadəli oxuya hazırlığı şərti olaraq üç mərhələyə ayırmaq olar.
I. Əsərin konkret məzmununun aydınlaşdırılması, personajların davranış motivlərinin təhlili, əsərin əsas ideyasının qurulması.
2. Mətnin işarələnməsi (pauzalar, məntiqi vurğuların qoyulması), oxu sürətinin müəy yən edilməsi.
3. Oxu üzrə praktiki məşğələlər.Müəllif ideyasının səs və intonasiya ilə çatdırılana qədər təkrarlan ması.
İfadəli oxunun öyrədilməsi zamanı aşağıda qeyd edilən üsullardan istifadə etmək olar:
- tənəffüs və artikulyasiya üzərində işləmək;
- tanınmış aktyorların ifasında ifadəli qiraət nümunələrinin lent yazılarını dinləmək;
- Müəllimin özünün ifadəli oxu nümunələrini dinləmək ;
- müxtəlif intonasiya çalarlı mətnləri eşitmə ilə fərqləndirmək;
- ifadəli oxuya hazırlıq işi kimi qeydlərin aparmaq (mətndı xüsusi işarələrdən istifadə);
- cümlələri pauza, söz və məntiqi vurğu ilə oxumaq;
- cümlədəki ayrı-ayrı sözlərə verilən suallara cavablandırmaq;
- rollar üzrə oxumaq;
- mətni xorla oxumaq;
- müxtəlif parametrlərlə oxu məşqləri (məsələn: yüksək səslə, sakitcə, yavaş-yavaş, tez oxumaq);
- müəllimin təqlidi əsasında ayrı -ayrı sözlərin seçilməsi ilə ifadələrin oxumaq;
- müxtəlif məzmunlu mətnlərin, xüsusilə əzbərləmək üçün nəzərdə tutulmuş mətnlərin (şeir, təmsil, tapmacalar, atalar sözlər) təkrar yüksək səslə oxumaq;
- ilkin hazırlıq üçün işarələnmiş mətni ucadan oxumaq və əzbərləmək;
Eşitmə pozulması olan uşaqların ifadəli oxu təlimində müəllimin oxu bacarılarının yamsılanması ilə yanaşı, lirik mətnin başa düşülməsi, təsvir olunan hadisə və əsərin qəhrəmanlarına münasibət bil dirmə də xüsusi rol oynayır. Müəllim nitqini mütəmadi olaraq diqqətlə izləmək bacarığının uşaqla ra öyrədilməsi də ifadəli oxu bacarıqlarının formalaşmasına müsbət təsir göstərmiş olar. Bundan əlavə uşaqlarda düzgün oxu vərdişləri müəllimin mətnlərə şərti işarələr qoyması ilə də yaradila bilər. Lirik mətnin təhlili zamanı müəllimin pauza, vurğu, səsin gücü, tempi və ritmində olan dəyi şikliklərin yerlərini işarələməsi (məsələn, vurğulanan sözün altından xəttin çəkilməsi, qısa fasilə ləri **“/”**, uzun olanlar isə **“//” i**şarələməsi), eşitmə pozulması olan şagirdlərə tədricən ifadəli oxu bacarığını mənimsədilməsinə kömək edə bilər.
Lirik əsərlərlə işin təşkilinin nümunəsi kimi kar uşaqlar üçün məktəbin IV sinfində Ana dili fənni üzrə B.Vahabzadənin "İki saat" şeirinin öyrənilməsinə həsr olunmuş dərsə baxmaq olar:

Dərsin mövzusu. B.Vahabzadənin "İki saat" şeiri
Məqsədlər: şagirdləri şeirlə tanış etmək; onlarda ifadə olunan lirik əhval-ruhiyyəni anlamağı və hiss etməyi öyrətmək; poetik nitqin düzgün, mənalı qavranılması bacarıq larını inkişaf etdirmək; məktəblilərin yaradıcı təxəyyülünü və nitqini inkişaf etdir mək.
Dərsin gedişatı.
1.Dərsin başlanğıcının təşkili.
2. Giriş söhbəti.

Müzakirə zamanı şairin təsvir etdiyinə yaxın hadisələri əks etdirən rəsmlərin repro duksiyalarından istifadə olunur.
Müəllim şagirdlərə dinləmək üçün suallar verir (ekran arxasında):
- Kosmosa uçan gəmi necə adlanır?
- Kosmosa uçan insan necə adlanır?
- İlk dəfə kosmosa kim uçub?
Leksik material: alqış, fəza, vətəndaş, hünər, torpaq, iki saatda dolandın başına ana mız yerin ,bizim üçün göylər yenidən doğuldu .
3. Şagirdlər sputnik, kosmonavt, peyk və kosmosun fəthinə həsr edilmiş rəsmlərin reproduksiyalarını araşdırır və onlara öz münasibətlərini bildirirlər.
Müəllim lövhədə yazır: Şəkli bəyəndim, çünki rəssam .... təsvir etmişdir.
Leksik material: kosmosa uçan adam, sonsuz fəza, mavi göylər, kosmosda ulduzlar çox parlaqdır.
4. Şagirdlərə şair və şeirin adını eşitmək üçün deyilməsi (ekran arxasında).
5. Müəllimin şair haqqında lövhədə yazdığı qısa məlumat:
Azərbaycanın görkəmli şairi Bəxtiyar Vahabzadə Şəki şəhərində anadan olub. Şairin bir çox əsərləri doğma vətənin tarixinə, təbiət və qəhrəmanlarına həsr olunub, buna görə onu xalq şairi adlan dırırlar.Bəxtiyar Vahabzadə xalq şairidir.
Müəllim şagirdlərlə birgə lövhədə yazılmış bu mətni xorla oxuyur.
6. Müəllimin şeirin ilk bəndinin əvvəlcə səsli və daktillə oxusu, sonra jestlə oxusu
7.Şeirin şagirdlər tərəfindən səsli və daktillə müstəqil oxusu.
8. Oxunanların ilkin qavranılmasının nəticələrini aydınlaşdırmaq üçün sual -cavabın aparılması:
- Şeiri bəyəndinizmi?
- Şeirin qəhrəmanı kimdir?
- Bu, şeir sizdə hansı hissləri oyatdı?
Cavablar üçün şagirdlərə verilən leksik material: Yuri Qaqarin, fərəh, sevinc, qürur.
9. Şeirin ikinci bəndinin müəllim tərəfindən səsli, daktil və jestlə oxusu.
10.Şeirin şagirdlər tərəfindən səsli və daktillə müstəqil oxusu.
11.Oxunan bəndin qavranılmasının nəticələrini aydınlaşdırmaq üçün sual -cavabın aparılması.
- Şeiri bəyəndinizmi
- Şeirdə adı çəkilməyən adam kimdir?
- Şair niyə deyir ki, dolandın başına anamız yerin?
12. Ev tapşırığı - şeiri ifadəli oxumaq

Nəticələr

Beləlikə də, eşitmə pozulması olan uşaqlar üçün şeir öyrənmək səbr, fərdi yanaş ma, şeirlərin dili nin və ritminin gözəlliyini daha yaxşı başa düşməyə və qiymətləndirməyə kömək edəcək müxtəlif üsullardan istifadə etməyi tələb edir
Uşaqların səsləri qavramaq bacarığının məhdudluğu və ya olmaması şeirin qafiyə, ritm və səslənmə sini başa düşməsinə təsir edən əsas amillərdir. eşitmə pozulması olan uşaqlarla bu kimi ardıcıl və sistemli işlərin təşkili həm lirik mətnlərin, o cümlədən də şeir parçalarının ifadəli və düzgün oxu bacarıq larının formalaşmasında böyük rol oynayır.Uşaqlar mənimsədilmiş ifadəli oxu bacarıqlarını məktəbdə keçirilən qiraət müsabiqələrində uğurla nümayiş etdirə bilərlər.

İstifadə Olunmuş Ədəbiyyat Siyahısı

1.Никитина М.И. Уроки чтения в школе слабослышащих.- М.,1991
2.Боскис Р.М. Учителю о детях с нарушенным слухом.- М.,1988.
3.Красильникова О.А. Обучение чтению школьников с нарушениями слуха.- М.: Издательский центр «Академия», 2005г.
4.Л. М. Быкова. Методика преподавания в школе глухих. М.: ВЛАДОС, 2002
5.Е. Г. Речицкая. Е. А. Сошина. Развитие творческого воображения младших школьников. М.: ВЛАДОС, 2002

STRATEGİES FOR PROFESSİONAL DEVELOPMENT OF ENGLİSH LANGUAGE TEACHERS

İNGİLİS DİLİ MÜƏLLİMLƏRİNİN PEŞƏKAR HAZIRLANMASI STRATEGİYALARI

Aysel Elşən qızı Qasımzadə
Azərbaycan Dövlət Pedaqoji Universiteti Xarici Dillər Mərkəzi, ingilis dili müəllimi
https://orcid.org/0009-0002-2343-0364

Xülasə
Məqalədə xarici dil sahəsində ingilis müəlliminin peşəkar pedaqoji səriştəsi və yaradıcı fəaliyyəti araşdırılır. Müasir müəllimin fəaliyyəti təhsil yeniliklərindən, yaradıcılıqdan və adekvatlıqdan asılıdır. Ali təhsil müəssisələrində çalışan və müəllim olmaq üçün təhsil alan xarici dil müəllimlərinin hazırlanmasında yeni yanaşmaların tətbiqi prosesinin təşkilinin nəzəri və praktiki əsasları nəzərdən keçirilir və təhlil edilir. Yaradıcılıq təkcə yeni ideyalar yaratmaq deyil, həm də yaradıcılıqdan həyatın mühüm sahələrində istifadə etmək bacarığıdır və bu da xarici dil müəlliminin mənəvi dünyasının inkişafında mühüm rol oynayır. Məqalədə həm yerli, həm də xarici elmi təcrübələr nəzərə alınmaqla ümumi tendensiyalar sistematik şəkildə şərh edilir. Burada mütəxəssislərin tövsiyələri, pedaqoji təcrübələri, peşəkar inkişafı və çətinlikləri göstərilir. Məqalə həmçinin bu mövzunun öyrənilməsinin aktuallığı ilə bağlı müxtəlif alimlərin baxışlarını təqdim edir və müasir, effektiv təcrübələrin xarici dil müəllimlərinin tədris metodlarına daxil edilməsi üçün tövsiyələr formalaşdırır. Azərbaycanda ali təhsil standartında təsdiq edilmiş əsas səlahiyyətlər təqdim edilir: informasiya səriştəsi, sosial və kommunikativ sərişdə, özünü təşkil etmə və problemlərin həlli, ümumi mədəni sərişdə yolları araşdırılır. Praktiki müşahidələr əsasında kommunikativ sərişdənin effektivliyi aşkar edilmişdir.
Açar sözlər: müəllim hazırlığı, peşəkar inkişaf, yaradıcı fəaliyyət**,** pedaqoji təcrübə

Abstract
The article examines the professional pedagogical competence and creative activity of an English teacher in the field of foreign languages. The work of a modern teacher depends on educational innovations, creativity, and adequacy. The theoretical and practical foundations of organizing the process of applying new approaches in the training of foreign language teachers working in higher education institutions and studying to become teachers are reviewed and analyzed. Creativity is not only the ability to generate new ideas, but also the ability to use creativity in important areas of life, which plays an important role in the development of the spiritual world of a foreign language teacher. The article systematically interprets general trends, taking into account both domestic and foreign scientific experiences. It features expert advice, pedagogical experiences, professional development, and challenges. The article also presents the views of various scholars on the relevance of studying this topic and formulates recommendations for incorporating modern, effective practices into the teaching methods of foreign language teachers. The core competencies approved in the higher education standard in Azerbaijan are presented: information literacy, social and communicative competence, self-organization and problem solving, and general cultural competence are explored. The effectiveness of communicative competence has been revealed based on practical observations.
Keywords: teacher training, professional development, creative activity, pedagogical practice

Giriş.

Son onilliklər ərzində ingilis dilinin xarici dil kimi tədrisi sahəsi daim müəllimlərin xüsusiyyətlərini, bacarıqlarını, münasibətlərini, səriştələrini və təcrübələrini qiymətləndirmək üçün standartları müəyyən edən akademiyanın mikroskop altındadır. Ölkəmizdə sosial-iqtisadi inkişafın bütün sahələrində baş verən dəyişikliklər tamamilə yeni intellektual qabiliyyətlərə, nailiyyətlərə və təhsilə malik şəxsiyyətin yetişdirilməsi məsələsini aktuallaşdırır. Xarici dil müəllimlərin vəzifəsi xarici dil, xüsusilə ingilis dilinin öyrənilməsi və tədrisi sahəsində yenilikıər yaratmaqdır. Bu sahədə orta məktəb xarici dil müəlliminin böyük rolu vardır. Xarici dil müəllimi müasir düşüncəli, yaradıcı gənclər yetişdirmək, öyrənənləri xarici dildə ünsiyyət qurmaq, sərbəst fikir söyləmək, öz ölkəsi və konteksti haqqında ətraflı şəkildə diskursiv biliklərə malik olmağı təşviq etməkdir. Xarici dil müəllimlərinin peşəkar fəaliyyətinin inkişafı bir neçə keyfiyyətdən asılıdır.

Xarici dil müəllimi hazırlığı proqramları tez-tez həm nəzəri biliklərə, həm də praktiki tətbiqə yönəlmiş strategiyaları özündə birləşdirir. Bu strategiyalar müəllimləri dili effektiv şəkildə öyrətmək, o cümlədən öyrənmə nəzəriyyələrini anlamaq, kommunikativ səriştələri inkişaf etdirmək və müxtəlif tədris metodlarından istifadə etmək bacarıqları ilə təchiz etmək məqsədi daşıyır.

Müəllim hazırlığı

Xarici dil müəlliminin peşəkarlığı effektiv dil öyrətməyə və tələbə öyrənməyə imkan verən bir sıra bacarıq, bilik və münasibətləri əhatə edir. Buraya hədəf dildə bacarıq, pedaqoji təcrübə, peşəkar inkişafa sadiqlik, sinifdə və ondan kənarda müsbət davranış daxildir.

1) Şəxsi keyfiyyətlərə vicdanlılıq, dözümlülük, punktuallıq, insanpərvərlik, vətənpərvərlik, dəqiqlik, nizam-intizam, bəsirət, təşəbbüskarlıq, böyüklərə hörmət, millətlərarası harmoniyanı qorumaq və digər keyfiyyətlər daxildir [1; 2] .

2) Peşəkar keyfiyyətlərə müasir pedaqoji və informasiya texnologiyalarına əsaslanan mürəkkəb bilikləri tələbələrə asanlıqla öyrətmək bacarığı, tələbələrin qısa müddətdə təşkilatlanması, ünsiyyətcillik, punktuallıq, savadlılıq, öz peşəsinə məhəbbət, tələbələrə səmimiyyətlə öyrətmək bacarığı, ən yaxşı tələbələri geridə qoyub getmək bacarığı daxildir. Alimlər xarici dil müəlliminin fəaliyyətinə əsaslanaraq, xarici dil müəlliminin səlahiyyətlərini müəyyən etmişlər: peşə səriştəsi, kommunikativ səriştə, ümumi mədəni səriştə daxildir.

Bundan əlavə, peşəkarlığa məzmun bilikləri, tədris planlaması, tələbə motivasiyası, təqdimat və ünsiyyət bacarıqları, qiymətləndirmə səriştələri və sinif idarə etmə bacarıqları kimi tədris səriştəsinin bəzi ölçüləri vardır [3; 4] .

3) Tərbiyəvi keyfiyyətlərə şagirdlərin mənimsəmələri lazım olan bilik, bacarıq və bacarıqları çevik şəkildə praktikada tətbiq etmək bacarığı daxildir. Müəllimin psixoloji-pedaqoji keyfiyyətləri onun mənəviyyatında, düzgünlüyündə, dəqiqliyində özünü göstərir. Rus metodisti V. V. Safonov xarici dil müəlliminin əsas səlahiyyətlərini adlandırır [5, s.24] :

1) İnformasiya şəriştəsi
2) sosial və kommunikativ səriştə
3) özünü təşkil etmə və problemin həlli
4) ümumi mədəni səriştə

J.Richards (2010) üçün dil biliyi ana dili bilməyən müəllimlərin öyrətdikləri dildə praktiki bacarıqlarına aiddir. Dil biliyi, yəni kommunikativ bacarıqlar bu gün xarici dil müəllimləri üçün böyük əhəmiyyət kəsb edir, çünki mövzu son beş onillikdə inkişaf edib və dil haqqında nəzəri biliklərə diqqət yetirməkdən praktiki bacarıqlara və kommunikativ səriştələrə diqqət yetirməyə keçmişdir [4, s.56] .

Tədqiqatçı alimin geniş tədqiqatları texnologiyadan istifadənin müxtəlif təhsil üsulları arasında dilin tədrisi və öyrənilməsinin təkmilləşdirilməsi üçün necə optimallaşdırıla biləcəyini araşdıraraq onun səmərəlilyini sübut edə bilib.

Müəllim peşakarlığında problemlər

Xarici dil müəllimi hazırlığı kurikulum, pedaqoji yanaşmalar, sinifin idarə edilməsi və tələbə müxtəlifliyi ilə bağlı problemlərlə üzləşir. Müəllimlər qrammatika, mədəni anlayış və müxtəlif öyrənmə üslublarına uyğunlaşmanın mürəkkəbliklərini idarə etməlidirlər. Onlar həmçinin inkişaf edən dil tendensiyaları və araşdırmalarla aktual olmalıdırlar. Dil müəllimləri digər müəllimlər kimi ağır iş yükü, resursların çatışmazlığı, tələbə davranışı problemləri, stress və tükənmişlik kimi bir çox problemlərlə üzləşə bilər.

Nəticə

Məlum oldu ki, peşəkarlıq müəllimlər etikaya sadiq qaldıqda, effektiv ünsiyyət qurduqda və peşəkar inkişafda iştirak etdikdə aşkarlanır ki, bu da təhsilalanların öyrənməsinin artması ilə nəticələnir. Ali təhsil standartlarına riayət etmək xarici dil müəllimi üçüni çağırış kimi yox, təhsilin keyfiyyəti üçün bir fürsət kimi qəbul edilməlidir. Müəllim peşakarlığı təhsilalanları təlimə maraqlandırmaq və həvəsləndirməklə sıx bağlı olan bir yanaşamda daha tez aşkar edilir. Bu məqsədlə, məqalə xarici dil müəllimlərinin peşəkar inkişaf strategiyalarının hazırlanması yollarını açıqlaya bilmişdir. Xarici dil müəllimin tədrisdə uğurlu və yaradıcı fəaliyyəti onun hansı peşəkar inkişaf yolu keçməsindən asılıdır.

İstifadə Olunmuş Ədəbiyyat

1. Hardy, J. Professionalism in Language Teaching? Revista de Lenguas Modernas 14, 2011- 245-261.
2. Freeman, D., Johnson, K. E. Reconceptualizing the knowledge base of language teacher education. TESOL Quarterly, 32(3), 1998 - 397–417. doi:10.2307/3588114
3. Freeman, D., Orzulak, M. M., Morrisey, G. Assessment in second language teacher education. In A. Burns & J. C. Richards (Eds.), The Cambridge guide to second language teacher education 2009 -pp 77–91. Cambridge: Cambridge University Press.
4. Richards, J. & Rogers, T. Approaches and Methods in Language Teaching. New York: Cambridge University Press 2010 – pp.123
5. Safonov, A. V. Pedagogicheskaya tekhnologiya razvitiya edinoi obrazovatel'noi informatsionnoi sredy v shkole: avtoref. dis. ... kand. ped. nauk. Izhevsk. (in Russian). 2006 – s. 21-44

SOCIO-GEOGRAPHICAL IMPACTS OF TOURISM AREAS

TURİZM BÖLGƏLƏRİNİN SOSİAL-COĞRAFİ TƏSİRLƏRİ

Ləman Mustafayeva Əbdül
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
"Sosial və xüsusi fənlər" kafedrasının müəllimi

Xülasə
Turizm müasir dövrdə yalnız iqtisadi sahə deyil, həm də sosial və coğrafi mühitə birbaşa təsir göstərən kompleks bir fəaliyyətdir. Turizmin inkişaf etdiyi bölgələrdə sosial struktur, əhali davranışı, məşğulluq səviyyəsi, məskunlaşma forması və ətraf mühit üzərində nəzərəçarpacaq dəyişikliklər baş verir. Bu dəyişikliklər həm müsbət, həm də mənfi aspektlərə malikdir və həmin bölgələrin gələcək inkişaf strategiyalarına birbaşa təsir edir. Sosial baxımdan turizm yeni iş yerlərinin yaranmasına, yerli əhalinin rifah səviyyəsinin yüksəlməsinə və beynəlxalq mədəniyyətlərarası əlaqələrin genişlənməsinə şərait yaradır. Eyni zamanda, bu proses yerli dəyərlərin kommersiyalaşması, əhali sıxlığının artması və yaşayış xərclərinin yüksəlməsi kimi mənfi nəticələr doğura bilər. Sosial strukturda baş verən dəyişikliklər bəzi hallarda yerli icmaların marjinallaşmasına səbəb ola bilər. Coğrafi aspektdən turizm ərazilərin məkan strukturuna, infrastrukturuna və təbii mühitinə təsir göstərir. Yeni turizm obyektlərinin tikintisi, yol və nəqliyyat şəbəkəsinin genişlənməsi bölgənin fiziki-coğrafi görünüşünü dəyişdirir. Əgər bu proseslər planlaşdırılmamış və nəzarətsiz həyata keçirilərsə, ətraf mühitin çirklənməsi, təbii resursların tükənməsi və landşaftın deqradasiyası ilə nəticələnə bilər. Azərbaycanın Qəbələ, Şəki, Quba, Lənkəran, Naftalan və Xızı kimi turizm bölgələrində bu sosial-coğrafi təsirlər aydın görünür. Həm sosial rifah artır, həm də coğrafi mühit dəyişir. Bu ərazilərdə turizmin inkişafı nəticəsində həm infrastruktur genişlənmiş, həm də sosial həyat canlanmışdır. Məsələn, Qəbələdə beynəlxalq hava limanı tikilmiş, turizm kompleksləri yaradılmış, bu isə əhalinin iş imkanlarını artırmışdır. Lakin turizmə yönəlmiş intensiv tikinti fəaliyyətləri, xüsusilə dağətəyi və meşəlik ərazilərdə ətraf mühiti təbii strukturunu dəyişmişdir. Şəki kimi tarixi mərkəzlərdə isə turizmin mədəni irsin qorunması ilə necə balanslaşdırılacağı xüsusi diqqət tələb edir. Buna görədə turizmin inkişafında dayanıqlılıq prinsipləri əsas götürülməli, təbii resurslar və yerli mədəniyyətlər qorunmalıdır.
Nəticə olaraq, turizmin sosial-coğrafi təsirləri qarşılıqlı və kompleks xarakter daşıyır. Bu təsirləri idarə etmək və mənfi nəticələrin qarşısını almaq üçün dayanıqlı turizm siyasətinin hazırlanması və yerli icmaların aktiv iştirakı vacibdir.

Abstract
Tourism in modern times is not only an economic sector, but also a complex activity that directly affects the social and geographical environment. In regions where tourism is developed, significant changes occur in the social structure, population behavior, employment level, settlement pattern and environment. These changes have both positive and negative aspects and directly affect the future development strategies of those regions. From a social point of view, tourism creates conditions for the creation of new jobs, an increase in the welfare level of the local population and the expansion of international intercultural relations. At the same time, this process can lead to negative consequences such as the commercialization of local values, an increase in population density and an increase in the cost of living. Changes in social structure can sometimes lead to the marginalization of local communities. From a geographical perspective, tourism affects the spatial structure, infrastructure and natural

environment of areas. The construction of new tourism facilities, the expansion of the road and transport network change the physical and geographical appearance of the region. If these processes are carried out unplanned and uncontrolled, they can result in environmental pollution, depletion of natural resources and landscape degradation. These socio-geographical impacts are clearly visible in the tourism regions of Azerbaijan such as Gabala, Sheki, Guba, Lankaran, Naftalan and Khizi. Both social well-being increases and the geographical environment changes. As a result of the development of tourism in these areas, both the infrastructure has expanded and social life has revived. For example, an international airport has been built in Gabala, tourism complexes have been created, which has increased the employment opportunities of the population. However, intensive construction activities aimed at tourism have changed the natural structure of the environment, especially in the foothills and forest areas. In historical centers such as Sheki, how to balance tourism with the protection of cultural heritage requires special attention. Therefore, the principles of sustainability should be taken as the basis in the development of tourism, and natural resources and local cultures should be protected.

As a result, the socio-geographical impacts of tourism are reciprocal and complex. To manage these impacts and prevent negative consequences, the development of sustainable tourism policies and the active participation of local communities are essential.

THE PROBLEM OF THE "LITTLE MAN" IN THE AZERBAIJANI LITERARY PROCESS IN THE 20S-30S OF THE 20TH CENTURY (BASED ON THE WORKS OF A. HAGVERDIYEV AND GANTEMIR GAFUR)

20. YÜZYILIN 20-30'LU YILLARINDA AZERBAYCAN EDEBIYAT SÜRECINDE "KÜÇÜK ADAM" SORUNU (A. HAGVERDIYEV VE GANTEMIR GAFUR'UN ESERLERINDEN YOLA ÇIKILARAK)

Veliyeva Şükufe Cengiz kızı
Azerbaycan Milli Bilimler Akademisi Nizami Gencevi Edebiyat Enstitüsü

Abstract
This article analyzes the approaches to the problem of the "little man" in Azerbaijani literature in the 20s-30s of the 20th century from an artistic and ideological perspective. The turns in the development directions of literature against the background of historical and social changes and the attitudes of writers to these changes are examined on the basis of literary examples.
The main attention is focused on the work of Abdurrahim bey Hagverdiyev and Gantemir Gafur, and the artistic reflection of social and moral problems characteristic of the early 20th century in their works is studied. In the works of both writers, the image of the "little man" is presented both as a socially oppressed, lawless and unjust individual, and as a spiritually exalted personality preserving inner purity.
In general, the early 20th century was a period in the history of Azerbaijan accompanied by important socio-political and cultural changes. During this period, literature went beyond its traditional aesthetic functions and took on the functions of illuminating social and ideological problems and educating the masses. It was during this period that the concept of the "little man" became the main focus of Azerbaijani literature.
The article explains in detail how the concept of the "little man" was formed in Azerbaijani literature and the socio-philosophical meaning of this image. This concept refers not only to individuals who are poor in material terms and belong to a lower class in terms of social status, but also to people who are devalued, disenfranchised, and whose voices are not heard in society. Their lives are full of suffering and difficulties, their desires are stifled, and their rights are not recognized. However, these images embody not only passive and helpless individuals, but also individuals who can be role models with their spiritual strength, inner purity, and honest stance.
In conclusion, it is noted that Abdurrahim bey Hagverdiyev and Gantamir Gafur deeply understood the realities of the era and managed to express these realities artistically through the image of the "little man". In their works, the "little man" is presented not only as a pitiful and helpless person, but also as a mirror of social injustice, an echo of society.
Keywords: "little man" problem, Azerbaijani literature, 20th century literary process, Abdurrahim bey Hagverdiyev, Gantamir Gafur.

Özet
Bu makale 20. yüzyılın 20-30'lu yıllarında Azerbaycan edebiyatında "küçük adam" sorununa yönelik sanatsal ve ideolojik yaklaşımları analiz etmektedir. Tarihsel ve toplumsal değişimlerin arka planında edebiyatın gelişme yönlerinde meydana gelen değişimler ve yazarların bu değişimlere karşı tutumları edebi örnekler temelinde incelenmektedir.

Ağırlıklı olarak Abdurrahim bey Hagverdiyev ve Gantamir Gafur'un çalışmalarına odaklanılmakta ve eserlerinde 20. yüzyılın başlarında karakteristik olan toplumsal ve ahlaki sorunların sanatsal yansıması incelenmektedir. Her iki yazarın eserlerinde de "küçük adam" imgesi hem toplumsal olarak ezilen, yoksun bırakılan ve adaletsiz bir birey olarak hem de içsel saflığını koruyan ruhsal olarak yüce bir kişilik olarak sunulmaktadır.
Genel olarak, 20. yüzyılın başları Azerbaycan tarihinde önemli sosyo-politik ve kültürel değişimlerin eşlik ettiği bir dönemdi. Bu dönemde edebiyat, geleneksel estetik işlevlerinin ötesine geçerek toplumsal ve ideolojik sorunları aydınlatma ve kitleleri eğitme işlevlerini üstlendi. Bu dönemde "küçük adam" kavramı Azerbaycan edebiyatının ana odağı haline geldi. Makale, "küçük adam" kavramının Azerbaycan edebiyatında nasıl oluştuğunu ve bu imgenin sosyo-felsefi anlamını ayrıntılı olarak açıklıyor. Bu kavram, yalnızca maddi açıdan yoksul olan ve sosyal statü açısından alt sınıfa ait olan bireyleri değil, aynı zamanda toplumda değersizleştirilmiş, haklarından mahrum bırakılmış ve sesleri duyulmayan kişileri de ifade eder. Hayatları acı ve zorluklarla doludur, arzuları bastırılmıştır ve hakları tanınmamaktadır. Ancak bu imgeler yalnızca pasif ve çaresiz bireyleri değil, aynı zamanda manevi güçleri, içsel saflıkları ve dürüst duruşlarıyla örnek olabilecek bireyleri de temsil etmektedir. Sonuç olarak, Abdurrahim bey Hagverdiyev ve Gantamir Gafur'un dönemin gerçeklerini derinlemesine anladıkları ve bu gerçekleri "küçük adam" imgesi aracılığıyla sanatsal olarak ifade etmeyi başardıkları belirtilmektedir. Eserlerinde "küçük adam" sadece acınası ve çaresiz bir kişi olarak değil, aynı zamanda toplumsal adaletsizliğin bir aynası, toplumun bir yankısı olarak da sunulmaktadır.
Anahtar kelimeler: "küçük adam" sorunu, Azerbaycan edebiyatı, 20. yüzyıl edebi süreci, Abdurrahim bey Hagverdiyev, Gantamir Gafur.

Introduction

The 1920s and 1930s of the 20th century are remembered as a period of significant turning points in Azerbaijani literature, when socio-political processes had a strong impact on literary creativity. With the establishment of Soviet power, literature acquired new content and goals, and as a result of the application of the socialist realism method, individual destinies began to be presented against the background of social processes. Although the main goal of literature during this period was the propaganda of the proletarian class and the creation of an artistic reflection of socio-social changes, many writers, without going beyond this ideological framework, artistically sensitively described human psychology, individual tragedies, and the situation of the "little man" in society. For this reason, the study of the problem of the "little man" occupies an important place in Azerbaijani literary criticism from both a historical, cultural, and ideological perspective.

The image of the “little man” in literature is not only a representative of a social class, but also a symbol of a person’s individual and spiritual struggle. Through this image, writers try to show how a person changes under the influence of both the environment and his own inner world, the resistance, hope, and desires within the oppressed individual. In the works of Abdurrahim bey Hagverdiyev and Gantamir Gafur, the image of the little man performs the function of exposing social injustice between classes, and also affects the awakening of social consciousness in the reader.

The main part

Abdurrahim bey Hagverdiyev, one of the prominent representatives of the 20th century, is one of the important representatives of Azerbaijani realist literature. In his works, the image of the "little man" is depicted as mainly weak and disenfranchised individuals from different social classes.

In his research on the period in question, K. Mammadov considered the fate of the "little men" who fell victim to socio-psychological pressure and injustice, massacres resulting from national discrimination, reaction, mental and intellectual shallowness, moral and spiritual imperfection, crimes committed in the name of religion, women's rights, fanaticism, superstition, robbery, theft, injustice prevailing in the country, etc. and so on. In this regard, the scientific thesis put forward on the basis of A. Hakverdiyev's works "Mirza Safar", "Shikayat", "Qiraat", "Seyidler ocagi", "Pir", "Marallarim" series, "Mozalan bey's travelogue", "Letters from Hell", "Hamshari's passport", "Mutrub notebook", "Sheikh Shaban", "Bomb" and others
is justified (Abdurrahim bey Hakverdiyev, 2018: p. 266). A. Hakverdiyev sharply criticized social inequalities and human rights violations. In this regard, Abdurrahim bey Hakverdiyev's work "Mirza Safar", known as the successor of Jalil Mammadguluzadeh and one of the pioneers of satirical realist literature, is a notable example in this direction (Hagverdiyev A. 2005: p. 202).

The main character of the work, Mirza Safar, is presented as an ordinary official, a small person. The events that enter his life and his reaction to these events symbolize the fate of not one person, but an entire class of people - ordinary people, those who cannot express themselves, those who are confused and defeated in the face of changing social processes. In the work, Mirza Safar's character is formed by such features as passivity, fear, hypocrisy and poverty. He can neither adapt to the pressures of the past nor to the demands of the new era. This, in addition to being his personal tragedy, reflects the reality of an era. Through the satirical content and ironic language of the work, the author criticizes the contradictory position of this "little person" in society and his social worthlessness. Abdurrahim bey Hagverdiyev's drama "Peri cadu" is one of the important works in the Azerbaijani literary environment, containing a number of innovations in terms of genre and content. This drama is not only a work distinguished by the unity of folklore and romantic elements, but can also be evaluated as an early and successful poetic expression of the problem of the "little man" in Azerbaijani literature. Although the events in the work are taken from real life, they are dramatically deepened by the intervention of unusual elements - witchcraft, magic, supernatural forces. However, even against the background of these events and metaphysical descriptions, the suffering, regrets and tragedy of the "little man" retain their relevance. Within the general structure of the work and the development of events, the image of the "little man" carries important functions from a socio-psychological, spiritual and philosophical perspective. This concept is especially clearly perceived through the images of the “Gurban” and “Choban” (the Shepherd). The image of the victim is one of the main "little man" symbols of the work. He is an ordinary family man, a person who lives a humble life by collecting firewood from the forest in his daily life. The dramatic events that occur in his life - the suicide of his wife, his own murder of another woman, and later falling into the net of witches - demonstrate that the victim is helpless in the face of society and fate.

The tragedies experienced by the victim are based not only on an individual, but also on a social and moral basis. On the one hand, he is exposed to the tricks and witchcraft of women, and on the other hand, to the pressure of supernatural forces. The victim's decline, repeated suffering and suffering show that he is a figure who, like a little man, tries to hold on to life, but is crushed and destroyed in the face of great forces.

The image of “Choban” (the Shepherd) in the work reveals the idea of the "little man" from a completely different aspect. He is a victim of his own fate - he killed his wife out of jealousy, and then suffered the punishment for this act by becoming a prisoner of witches. He is neither a free man nor a fully animalized being - he is presented as a being in between. The psychology of regret, hopelessness and slavery is clearly visible in the words and behavior of the shepherd. He is forced to shepherd, demons roam around him, but he can no longer change his fate. This is a symbol of the powerlessness of the "little man" in the face of society or greater forces called fate.

At the end of the work, the heroic killing of Gurban and the killing of the Fairy Witch also show his spiritual rise. This death is not an ordinary end - it can be interpreted as the little man's awakening, realizing his mistake and dying while preserving his pride. He breaks away from his previous passivity and finally takes a stand on the side of truth and morality.

From this point of view, the little man in the work "Peri cadu" is a character who is first a victim of society, then of supernatural forces, but ultimately moves towards spiritual purification. Through these characters, the work shows the reader that sometimes even the simplest, most helpless and oppressed people can change their stories with their inner strength.

Regarding this work, Kamran Mammadov writes: “The work “Peri jadu” differs from the author’s previous plays “Daghılan tifag” (“Collapsing alliance”) and “Bakhtsiz javan” (“Unlucky young man”) in its style. The writer connects the issue he sets himself to the issue of internal evolution, and connects the achievement of a happy life by poor people with their hard work.” (Mammadov K. 2005: p.14)

Gantamir Gafur (Efendiyev), one of the other writers of the period, is also one of the writers whose work is distinguished by its artistic and aesthetic value and satirical power. He made significant contributions to the development of our prose, especially to the formation of the satirical story genre and the aesthetic expression of social realism.

Gantamir Gafur’s stories are not just texts that evoke laughter and are written with humor. They embody the social absurdity of the era, the ornate but hollow mechanisms of the system, bureaucratic arbitrariness, the reproduction of ignorance in the name of enlightenment, and the deep cracks in a stratified society. That is why his satire is not only entertaining but also thought-provoking.

The concept of the “little man” comes to the fore in his works: Gantamir Gafur’s heroes are usually confused, helpless, indecisive, or, ironically, people who lack the power to be the “hero” of their own lives in the face of the system. They are victims of a changing structure and an unchanging mentality. From this perspective, Gantamir Gafur’s stories are not only an artistic chronicle of the era, but also powerful examples of social and psychological analysis. Through the language, behavior, and everyday life scenes of the characters in his works, the author allows the system to expose itself. In other words, satire here acts as an expression of an artistic-democratic vision, not a means of ideological criticism. Flora Khalilzadeh emphasizes: “Since Gantamir is a satirical writer, humor is very powerful in his work. And the truths in the tone of this laughter help us today to clarify many dark issues. The psychological moments, dialogues, and conflicts in his works are written in such a way that it deserves to be considered one of the best examples of Azerbaijani prose, not only for its time, but also for its accurate and artistic reflection of life at all times (Khalilzadeh F. 2012: p.7)

In Gantamir Gafur's stories, instead of openly criticizing, he approaches events and characters indirectly, sending a message to the reader with hints and subtle ironies that expose them. However, these hints and ironic attitudes are often presented in sudden and unexpected turns. In this way, the author makes the reader not only a passive observer of the event, but also an active participant in search of meaning. These features connect him to the literary environment of authors such as Abdurrahim bey Hagverdiyev and Mirza Jalil. All three writers use

tragicomic situations, tragic situations intertwined with laughter when describing the "little person" - when presenting his inner world, his place in society, and his social opportunities. However, the difference between Gantamir Gafur and his stories is that laughter appears more in the absurdity that arises in unexpected situations.

B. Babayev notes in this regard: “In Gantemir Gafur’s work, “Zeynab, Tükezbanov”, “Mirza_aves”, etc. are such unexpected and funny stories. (Babayev B. 2019, p.13)

Starting from the first sentences of the works, both interesting the reader and captivating them with irony is one of the main literary strategies of Gantemir and Azerbaijani satirical short stories as a whole. In particular, the fact that the comic intonation is felt from the first lines ensures that this tone remains in a dominant position in the artistic progress until the end of the work. Gantemir’s story “The Wheat Well” is an ideal example in this regard. The satirical intonation that begins with the phrase “there is a man, there is a man…” at the beginning of the story immediately attracts the reader’s attention. From here, the author both prepares the ground for the absurdity of the event and creates a comic atmosphere. No matter how “serious” the events revolve around this course, (lamentation, martyrdom of imams, religious ceremony), the outcome suddenly changes and the reader is presented with an unexpected, yet hilarious, finale.

Gantamir Gafur's story "The Wheat Well" (“Bughda guyusu”) is considered one of the most striking examples of Azerbaijani satirical prose. This work is an important example of how the problem of the "little man" was presented in the Azerbaijani literary process in the 1920s and 1930s, both in terms of ideas and in terms of artistic means of depiction. The plot of the story is simple but multifaceted. The work is based on the desire of a person from Shiraz who calls himself "Asseyid akhund Mirza Abdulfaraji Shirazi" - in fact, a mourner Faraji who has fallen into a miserable situation - to earn wheat from mourning meetings by deceiving the villagers. However, the simplicity and naivety of the villagers, as well as their philosophy of life prone to laughter and mockery, make the akhund's plan fail. In the staged play of condolence prepared by the akhund, the culmination is the fall of "Mr. Abbas" into a well of wheat, which shows that the village community is not only physically but also spiritually unprepared for this "drama."

In this story, both Akhund Faraj and the village people belong to the typology of the “little man”, but in different ways. Akhund Faraj is a person who has lost his place in society, who has fallen out of line after someone else’s success. He is educated, has a voice, but the harsh conditions of life force him to seek a livelihood through sect, religion, and superstition. He stages the “drama of Imam Hussein” just to survive and earn a few pounds of wheat. However, on the one hand, he is faced with the ignorance and vulgarity of society, and this contradiction puts him in a completely helpless and ridiculous position. In this sense, Faraj is the prototype of the “little man” of the early 20th century – an individual trapped between knowledge and ignorance, unable to adapt to any system or ideology.

The villagers, especially Karbalai Pirverdi and his surroundings, live a life far from education and urban culture, alien to religious formalism. However, this “simpletonship” does not stem from their simplicity, but from their being left far from the center, in ignorance. They are not at the level to understand the lamentation, religious rites of condolence, but with a kind of healthy folk humor and pragmatism, they quickly notice lies and hypocrisy and do not accept them. Their reaction – laughing – is not just a reaction to an event, but an unconscious opposition to hypocrisy and falsehood. Gantamir uses satire at a high level in this story. He exposes religious hypocrisy, empty rhetoric, and the “condolence” of form. However, this exposure is directed not only at the “akhund”, but also at the system that accepts him, that is, the structure that gives rise to such behavior within society.

The work also resonates thematically with the realism of the “little man” in Abdurrahim bey Hagverdiyev’s drama “Peri Jadu”. Both authors convey the tragicomic situations in the lives of ordinary people in artistic language, showing that they are “mirrors of society” through literary images.

Conclusion

The significant ideological and aesthetic changes that took place in Azerbaijani literature in the 20s and 30s of the 20th century brought the problem of the “little man” to the forefront in artistic creativity. In the conditions of changing lifestyles of various social classes of society, socio-economic conflicts and social stratification, the lives of ordinary people – that is, “little men” – became the focus of attention of writers. The work of Abdurrahim bey Hagverdiyev and Gantamir Gafur serves as an important source in this regard.

In A. Hagverdiyev’s work “Peri jadu” (Fairy Witch), a psychological portrait of an ordinary peasant, dervish, and commoner is created behind fantastic and mythical elements. Here, the writer brings to the fore the fateful existence of the “little man” by presenting the life of a deceived, naive person against the background of a stratified society. The convergence of reality and myth in the work, the ironic and symbolic nature of the narrative further strengthen the artistic expression of the “little man”.

Gantamir Gafur, on the other hand, presents this problem in a harsher and more satirical language in his stories. In his stories such as "The Wheat Well", the image of the "little man" is highlighted against the backdrop of criticism of social relations, in the form of the "akhund" who exploits the ignorance of simple peasants and turns religion into a tool. His heroes are people from the lower strata of society, whose fate is lost in the indifference and contradictions of society. However, this presentation is done with artistic means such as humor, irony and unpredictability, which distinguishes Gantamir's work.

Thus, in the literature of this period, the “little man” is characterized not only in terms of social status, but also by his passive position in social relations, his exploitation and helplessness in the face of life. The inner world of this man, his desires, deceptions, defeats, and at the same time his unique forms of resistance are artistically effectively reflected in the work of writers such as A. Hagverdiyev and Gantamir Gafur. Their legacy played an indispensable role in the formation of national realistic and satirical prose, turning the problem of the “little man” into one of the central themes of Azerbaijani literature.

Literature

1. Babayev B. The ridiculousness of the images creates the basis for the comicality of the situation. Credo. May 9, 2019, p.13
2. Abdurrahim bey Hagverdiyev. Life and creativity (Collective). Baku, “Science and Education”, 2018, 332 p.
3. Hagverdiyev A.. Selected works. In two volumes. Volume II. Baku, “Lider Publishing House”, 2005, 408 p.
4. Khalilzadeh F. Time itself, the word of the writer. Azerbaijan.- 2012.-February 1.- P.7
5. Mammadov K. (Foreword writer). Abdurrahim bey Hagverdiyev. Selected works. I. Baku: Lider. Aziz Gulaliyev (editor). 2005. p. 504

BARRIERS AND OPPORTUNITIES IN INCLUSIVE EDUCATION

БАРЬЕРЫ И ВОЗМОЖНОСТИ В ИНКЛЮЗИВНОМ ОБРАЗОВАНИИ

İNKLÜZIV TƏHSILDƏ MANEƏLƏR VƏ İMKANLAR

Məmmədova Xəyalə Arif qızı
Azərbaycan Dövlət Pedaqoji Universteti İbtidai təhsilin pedaqogikası kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru

Xülasə
Bu məqalədə inklüziv təhsilin tətbiqində mövcud olan çətinliklər və həmin çətinliklərin aradan qaldırılması üçün mümkün yollar sistemli şəkildə təhlil edilir. Müəllimlərin peşəkar hazırlıq səviyyəsi, fiziki və texnoloji infrastrukturun uyğunluğu, sosial mühitin dəstəkləyici olması və təhsil siyasətində inklüzivliyə dair öhdəliklər kimi əsas komponentlər dörd əsas istiqamətdə təqdim olunur. Hər bir istiqamət üzrə həm mövcud maneələr, həm də inkişaf potensialı nəzərdən keçirilir. Məqalədə vurğulanır ki, inklüzivlik yalnız fiziki inteqrasiya ilə məhdudlaşmamalı, pedaqoji yanaşmalar, ictimai münasibətlər və idarəetmə strategiyaları ilə dəstəklənməlidir. Həmçinin qeyd edilir ki, fərqliliyin normallaşdırılması və inklüziv məktəb mədəniyyətinin qurulması təhsil sisteminin davamlı inkişafının əsas şərtidir.
Açar sözlər: inklüziv təhsil, maneələr, imkanlar, müəllim hazırlığı, təhsil siyasəti, məktəb mədəniyyəti

Аннотация
В данной статье представляется системный анализ основных препятствий, возникающих при реализации инклюзивного образования, а также рассматриваются возможные пути их преодоления. Анализ проводится по четырём ключевым направлениям: уровень профессиональной подготовки учителей, соответствие физической и технологической инфраструктуры, поддержка со стороны социального и эмоционального климата в классе, а также политические механизмы обеспечения инклюзивности. В статье подчёркивается, что инклюзия не должна ограничиваться лишь физической интеграцией; она требует комплексного подхода, включая педагогические стратегии, общественную поддержку и управленческую ответственность. Отдельное внимание уделяется важности формирования инклюзивной школьной культуры и нормализации различий как неотъемлемых составляющих устойчивой образовательной системы
Ключевые слова: инклюзивное образование, барьеры, возможности, подготовка учителей, образовательная политика, школьная культура

Abstract
This article provides a systematic analysis of the key barriers to the implementation of inclusive education and identifies opportunities to overcome them. The discussion is organized into four main thematic areas: teacher preparedness, physical and technological infrastructure, social and emotional classroom environment, and inclusive education policy. Each of these areas is explored through both the challenges they present and the potential solutions they offer. The paper argues that inclusion should not be limited to physical integration alone, but must be supported through pedagogical strategies, community engagement, and policy-level commitment. Furthermore, the normalization of diversity and the development of an inclusive school culture are emphasized as crucial components of a sustainable education system.

Keywords: inclusive education, barriers, opportunities, teacher training, education policy, school culture

Giriş

İnklüziv təhsil XXI əsrin əsas pedaqoji çağırışlarından biri olaraq, müxtəlif qabiliyyət və ehtiyaclara malik bütün öyrənənlərə bərabər imkanlar yaratmağa yönəlmişdir. Bu təhsil modeli, sosial inteqrasiyanı gücləndirmək, fərqli qruplar arasında bərabərliyi təşviq etmək məqsədilə inkişaf etdirilmişdir. Lakin, inklüziv təhsilin effektiv tətbiqi müxtəlif səviyyələrdə ciddi maneələrlə üzləşir. Bununla belə, inklüziv təhsilin reallaşdırılması bir sıra struktur, sosial və pedaqoji maneələrlə üzləşməkdədir. Məqalədə bu maneələr və inklüzivliyin reallaşması üçün mövcud imkanlar araşdırılır.

Müasir dövrün təhsil sistemləri sosial ədalət, bərabərlik və hər kəs üçün keyfiyyətli təhsilin təmin olunması kimi fundamental prinsiplərə əsaslanır. Bu yanaşmanın mərkəzində inklüziv təhsil dayanır. İnklüziv təhsil konsepsiyası yalnız fiziki imkanları məhdud olan uşaqların ümumi təhsil mühitinə daxil edilməsini deyil, eyni zamanda etnik, dil, sosial-iqtisadi və digər fərqliliklərə malik olan bütün öyrənənlərin fərdi ehtiyaclarının nəzərə alınmasını və onların inkişafı üçün əlverişli tədris mühitinin yaradılmasını nəzərdə tutur. İnklüziv təhsil hər kəsin bərabər imkanlarla təhsilalma hüququnun olması deməkdir. Dinindən, irqindən, milli mənsubiyyətindən, cinsindən, sosial vəziyyətindən, əlilliyindən, çətinliyindən asılı olmayaraq hər kəsin bərabər imkanlarla təhsil ala bimək inklüziv təhsil sayılır. Hər bir müəllim inklüziv təhsil və hər kəsi təmin edə biləcək tədris üçün ağlabatan uyğunlaşdırmalar etməli, yaşadığı ərazinin spesefik mədəni dəyərləri, ənənələri, sosial-iqtisadi şəraitini nəzərə almalıdır. Burada dəyərlərin nəzərə alınması çox önəmlidir və tədris inklüziv dəyərlər çərçivəsində qurulmalıdır. İlk olaraq öz daxili dəyərlərimizə diqqət yetirmək zəruridir və bu dəyərlər çərçivəsində sinifdə, məktəbdə davranışlarımız, digər şəxslərlə qarşılıqlı münasibətlərimiz də rol oynayır. Mahatma Qandinin dediyi kimi "Dünyada görmək istədiyin dəyişiklik səndən başlamalıdır".

Dünyada qəbul olunmuş beynəlxalq sənədlərdə, xüsusilə BMT-nin Uşaq Hüquqları Konvensiyası və UNESCO-nun təhsil strategiyalarında, inklüziv təhsil hər bir fərdin potensialının maksimum şəkildə üzə çıxarılması və cəmiyyətə inteqrasiyası baxımından mühüm vasitə kimi təqdim olunur. Lakin inklüziv təhsilin reallaşdırılması prosesində bir sıra maneələr və çətinliklərlə qarşılaşmaq mümkündür. Bu çətinliklərə təhsil infrastrukturunun əlçatan olmaması, stereotiplərin və ictimai münasibətlərin qeyri-dəstəkləyici olması kimi müxtəlif amillər daxildir. Bununla yanaşı, bu maneələrin aradan qaldırılması üçün mövcud imkanlar və resurslar da mövcuddur. Belə ki, təhsil siyasətində inklüzivliyə yönəlmiş proqramların tətbiqi, müəllimlərin peşəkar inkişafı üçün yeni təlim modellərinin yaradılması və texnoloji vasitələrin daha geniş istifadəsi bu imkanlardan hesab olunur.

İnklüziv təhsildə olan əsas maneələr

İnklüziv təhsilin tətbiqində başlıca məqsəd bütün uşaqların, fərqliliklərinə baxmayaraq təhsil hüququnun bərabər və keyfiyyətli şəkildə təmin edilməsidir. Lakin bu məqsədin reallaşması bir sıra sistemli və kontekstual maneələrlə çətinləşir. Bu maneələri dörd əsas istiqamətdə qruplaşdırmaq olar: fiziki və texnoloji infrastruktur, müəllim hazırlığı, ictimai münasibətlər və stereotiplər, qiymətləndirmə və idarəetmədə uyğunsuzluqlar.

Fiziki və texnoloji infrastrukturun yetərsizliyi

İnklüziv təhsil anlayışının əsas sütunlarından biri tədris mühitinin və infrastrukturun bütün şagirdlər, xüsusilə, fiziki, sensor, intellektual və digər fərqli ehtiyaclara malik uşaqlar üçün maneəsiz və bərabər dərəcədə əlçatan olmasıdır. Lakin təcrübə göstərir ki, çoxsaylı ölkələrdə,

o cümlədən Azərbaycanda, təhsil müəssisələrinin fiziki və texniki infrastrukturu inklüziv prinsiplərə tam uyğun gəlmir. Bu isə inklüzivliyin praktikada həyata keçirilməsini əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Ölkəmizdə bu sahədə müəyyən irəliləyişlər olsa da, bir çox məktəblərdə hələ də pandusların olmaması, liftlərin quraşdırılmaması və əlil arabası istifadəçiləri üçün uyğun sinif avadanlıqlarının olmaması müşahidə olunur. Əksər təhsil müəssisələrinin infrastrukturu inklüziv təhsilin əsas şərtlərindən biri olan fiziki əlçatanlıq tələblərinə cavab vermir. Bu, xüsusilə, hərəkət məhdudiyyətli şagirdlərin təhsil prosesində iştirakını əngəlləyir. Eyni zamanda, eşitmə, görmə və ya nitq əlilliyi olan şagirdlər üçün uyğunlaşdırılmış texniki vasitələrin çatışmazlığı da ciddi maneə yaradır. Bu cür infrastruktur maneələri yalnız fiziki deyil, psixoloji və sosial əngəllərə də səbəb olur. Məhdudiyyətli mühitdə iştirak etməkdə çətinlik çəkən şagirdlər zamanla sosiallaşmadan uzaqlaşır, özünü fərqli və "digər" kimi hiss edir, bu isə inklüzivliyin əsas fəlsəfəsinə ziddir

Müəllimlərin Peşəkar Hazırlığı

İnklüziv təhsilin tətbiqində müəllim faktoru həlledici mövqedə dayanır. Müəllimlər yalnız bilik ötürən deyil, eyni zamanda müxtəlif öyrənmə ehtiyaclarına malik şagirdlərin inkişafına şərait yaradan dəstəkçidirlər. Bu səbəbdən müəllimlərin inklüziv təhsil kontekstində peşəkar hazırlığı inklüzivliyin real və dayanıqlı şəkildə həyata keçirilməsinin əsas şərtidir. Lakin mövcud reallıq göstərir ki, əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da bu sahədə sistemli və davamlı yanaşmaya ciddi ehtiyac vardır. Təlim zamanı müəllimlərin ən çox çətinlik çəkdiyi istiqamətlərdən biri fərdi yanaşma və dərslərin diferensiallaşdırılmasıdır. İnklüziv siniflərdə şagirdlərin bilik səviyyəsi, öyrənmə sürəti, motivasiya dərəcəsi və psixoloji vəziyyətləri bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Bu zaman müəllim təlim məqsədlərini, üsullarını və qiymətləndirmə meyarlarını şagirdin ehtiyaclarına uyğunlaşdırmalıdır. Lakin bu proses yalnız təlimatla deyil, həm də praktiki məşğələlər, dərs modelləri, təcrübə mübadiləsi ilə öyrədilməlidir. Eyni zamanda müəllimlərə dəstək strukturunun olmaması da onların inklüziv təhsilə hazırlığını zəiflədir..

Nəhayət, müəllimlərin özlərinin də fərdi dəyərləri və inancları inklüziv təhsilə münasibətə ciddi təsir göstərir. Əgər müəllim fərqliliyi "problem", "maneə" və ya "uyğunsuzluq" kimi dəyərləndirirsə, onun davranış və yanaşmalarında da bu hiss olunur. Bu səbəbdən müəllim hazırlığında təkcə bilik və bacarıqlar deyil, eyni zamanda uşaqyönümlü və dəyəryönümlü pedaqoji yanaşma da əsas yer tutmalıdır. Hər bir müəllim inklüziv təhsil və hər kəsi təmin edə biləcək tədris üçün ağlabatan uyğunlaşdırmalar etməli, yaşadığı ərazinin spesefik mədəni dəyərləri, ənənələri, sosial-iqtisadi şəraitini nəzərə almalıdır. Burada dəyərlərin nəzərə alınması çox önəmlidir və tədris inklüziv dəyərlər çərçivəsində qurulmalıdır.

Cəmiyyətdə və Məktəbdə Stereotiplər və Sosial Qəbul Problemləri

İnklüzivliyin qarşısında dayanan sosial maneələr bəzən struktur çətinliklərdən daha dərin və davamlı olur. Cəmiyyətdə, eləcə də, təhsil işçiləri və valideynlər arasında fərqliliyə qarşı hələ də mövcud olan önyargılar və mənfi stereotiplər inklüziv mühitin formalaşmasına əngəl yaradır. "Təhsildə xüsusi ehtiyacı olan şagirdlər ümumi sinfə uyğun deyil" düşüncəsi ilə inklüzivlik ideyası arasındakı toqquşma müəllimlərdə müqavimət yaradır, valideynlərdə isə narahatlıq doğurur. Bu münasibətlər dəyişmədikcə inklüziv yanaşmanın cəmiyyət tərəfindən tam mənimsənilməsi çətinləşir.

İnklüziv təhsilin tam şəkildə həyata keçirilməsində yalnız struktur və pedaqoji çətinliklər deyil, eyni zamanda dərinləşmiş sosial-mədəni və psixoloji baryerlər də ciddi maneə yaradır. Xüsusilə, cəmiyyətin və təhsil mühitinin fərqliliyə münasibəti, inklüziv yanaşmanın qəbul olunmasında həlledici faktordur. Mövcud stereotiplər və sosial etiketləmə halları inklüziv

təhsilin fəlsəfəsinə zidd olaraq təhsildə fərqli ehtiyacları olan uşaqları "digər" kimi qəbul etməyə, onları seqreqasiyaya məruz qoymağa meyllidir.

Ən geniş yayılmış stereotiplərdən biri fərqli inkişaf xüsusiyyətləri olan uşaqların ümumi sinif mühitinə uyğunlaşa bilməyəcəyi və digər şagirdlərin öyrənmə prosesinə "maneə" ola biləcəyi fikridir. Bu cür yanaşmalar çox zaman maarifləndirmənin zəif olması, fərqliliyin mahiyyətini başa düşməmək və məlumatsızlıqdan qaynaqlanır.

Sosial qəbul problemi həm müəllimlər, həm valideynlər, həm də digər şagirdlər səviyyəsində özünü göstərir:

- Müəllimlər arasında inklüziv sinifdə təlim verməyə qarşı olanlar bəzən təhsildə fərqli ehtiyaclara malik uşaqların ümumi dərs prosesinə mənfi təsir göstərəcəyini düşünürlər. Bu, metodik hazırlıqla yanaşı, eyni zamanda psixoloji və dəyəryönümlü hazırlığın da zəif olması ilə bağlıdır.
- Valideynlər arasında, xüsusilə, əlilliyi olmayan uşaqların valideynləri, inklüziv sinif modelinə qarşı narahatlıq ifadə edə bilir. Onlar düşünürlər ki, müəllimin diqqətinin böyük hissəsi təhsildə xüsusi ehtiyaclı uşaqlara yönələcək və bu, digər şagirdlərin təhsil keyfiyyətinə mənfi təsir göstərə bilər.
- Şagirdlər səviyyəsində isə müxtəlifliyi qəbul etməmə halları özünü sosial izolyasiya, zorakılıq və ayrıseçkilik formasında göstərə bilir. Bu, bir tərəfdən ailə və məktəbdə öyrədilən dəyərlərlə, digər tərəfdən isə media və cəmiyyətin yaratdığı təsvirlərlə formalaşır.

Cəmiyyətdə fərqliliyin "çatışmazlıq", "qüsur" və ya "defisit" kimi interpretasiyası təhsildə fərqli ehtiyacları olan uşaqların öz potensiallarını reallaşdırmalarının qarşısını alır. Bu, onların özünəinamına və sosiallaşmasına mənfi təsir göstərir.

Stereotiplərin və sosial önyarğıların dəyişdirilməsi zaman və ardıcıl səylər tələb edir. Lakin inklüziv təhsil yalnız bu dəyişimin baş verməsi ilə öz real və insani mahiyyətinə çata bilər. Fərqlilik zəiflik deyil, öyrənmə və birgə yaşayış üçün yeni perspektivdir.

1. Qiymətləndirmə və Kurikulum Uyğunsuzluğu

Mövcud kurikulum və qiymətləndirmə sistemi hələ də çox hallarda standart və normativ yanaşmaya əsaslanır. Fərqlilikləri nəzərə almayan qiymətləndirmə alətləri və tədris proqramları inklüziv siniflərdə tətbiq olunduqda, həm şagirdlər, həm də müəllimlər üçün təzyiq və stres mənbəyinə çevrilir.

İnklüziv təhsil sisteminin əsas məqsədi fərqli ehtiyaclara və fərdi potensiala malik bütün şagirdlərin təlimə tam və bərabər şəkildə qoşulmasını təmin etməkdir. Bu məqsədə çatmaq üçün yalnız fiziki və sosial mühitin deyil, eyni zamanda kurikulum və qiymətləndirmə sistemlərinin də inklüziv prinsiplərə uyğun şəkildə dizayn olunması vacibdir. Ənənəvi kurikulum strukturları şagirdlərin hamısına eyni təhsil standartlarını və eyni təlim nəticələrini tətbiq etməyə yönəlib. Bu isə inklüziv siniflərdə, yəni öyrənmə sürəti, ünsiyyət bacarıqları, sensor-motor inkişafı və davranış modelləri fərqli olan şagirdlərdən ibarət siniflərdə əlverişli yanaşma deyil. Kurikulumun bu cür standartlaşdırılmış və çeviklikdən uzaq qurulması fərqli ehtiyaclara malik şagirdlərin öyrənmə imkanlarına maneə yaradır. Bundan əlavə, fənn proqramlarının və dərsliklərin məzmunu çox zaman universal dizayn prinsiplərinə əsaslanmır. Bu isə şagirdlərin fərdi maraq və ehtiyaclarını, öyrənmə üslublarını və mədəni fərqlilikləri nəzərə almağa imkan vermir. Məsələn, eşitmə çətinliyi olan şagird üçün vizual dəstəyi olmayan mətnlər, diqqət çatışmazlığı olan uşaqlar üçün uzun və monoton məlumatlar tədris prosesini mənasız və yorucu edə bilər. Qiymətləndirmə tədrisin yalnız nəticəsini yox, eyni zamanda prosesini də əks etdirən vacib pedaqoji alətdir. Lakin inklüziv təhsil sistemində istifadə olunan qiymətləndirmə formaları çox zaman fərdi irəliləyişə deyil, normativ göstəricilərə əsaslanır. Bu isə fərqli potensiala malik şagirdlərin bilik və bacarıqlarının obyektiv və ədalətli şəkildə qiymətləndirilməsinə imkan vermir.

İnklüziv təhsil mühitində uğurlu nəticə əldə etmək üçün kurikulum və qiymətləndirmə sistemləri aşağıdakı prinsiplər əsasında qurulmalıdır:

- Fərdi təlim planları
- Çoxşaxəli qiymətləndirmə vasitələri
- Prosesə yönəlmiş qiymətləndirmə
- Dəstək materialları və metodik vəsaitlər.

Kurikulum və qiymətləndirmə sisteminin inklüzivliyə uyğunlaşdırılması yalnız bir pedaqoji məsələ deyil, bu, təhsil fəlsəfəsinin dəyişməsini, "hamı üçün bərabərlik" prinsipinin mahiyyətinin "hamı üçün uyğunluq" anlayışı ilə əvəzlənməsini tələb edir. Beləliklə, təhsil sistemi sadəcə "eyni nəticəyə çatdırmaq" üçün deyil, hər kəsin öz potensialına uyğun öyrənmə imkanına malik olmasını təmin etmək üçün qurulmalıdır. Necə deyərlər, "əgər sən bir balığı ağaca dırmanmağına görə qiymətləndirməyə çalışarsansa, o zaman o balığın ömürboyu qabiliyyətsiz olduğuna inanarsan."

Biz uşaqların təhsil almaq və öyrənmək imkanını çətinləşdirən maneələri müəyyən edə bilərik. Lakin vurğulamaq lazımdır ki, məktəbə getməməyə və ya öyrənməməyə görə məsuliyyəti heç vaxt uşağın üzərinə qoymamalıyıq. Mənsubiyyətindən asılı olmayaraq və həyat şəraiti nə qədər çətin olursa-olsun, bütün uşaqların təhsil almaq hüququ vardır. Uşaqların təhsil almağa çalışarkən üzləşdikləri maneələri aşkar etmək və aradan qaldırmaq məktəbin və cəmiyyətin vəzifəsidir. [8, s.12].

İnklüziv təhsildə imkanlar və perspektivlər

İnklüziv təhsil sistemində müşahidə olunan çətinliklərə baxmayaraq, bu sahədə nəzərəçarpacaq imkanlar və inkişaf istiqamətləri mövcuddur. Həm beynəlxalq praktikalar, həm də yerli təşəbbüslər göstərir ki, inklüzivliyin təmin edilməsi təkcə hüquqi sənədlərlə deyil, müəllim hazırlığı, ictimai münasibətlərin dəyişməsi, rəqəmsal texnologiyaların tətbiqi və beynəlxalq əməkdaşlıq kimi müxtəlif vasitələrlə gücləndirilə bilər.

İnklüziv təhsilin uğuru müəllimlərin bu sahədəki bilik və bacarıqlarından birbaşa asılıdır. Müəllimlərə fərqliliyə əsaslanan tədris strategiyalarını öyrətmək üçün fasilitator təlimləri, mentorluq proqramları və praktik seminarlara ehtiyac var. Hazırda bir sıra pedaqoji universitetlərdə inklüziv təhsillə bağlı kursların tədrisinə başlanılıb ki, bu da mühüm pozitiv addımdır [10, s.45].

Bundan əlavə, inklüziv siniflərdə müəllimlərin işini asanlaşdırmaq üçün diferensiallaşdırılmış təlim planları, köməkçi mütəxəssislərin dəstəyi və şagirdə uyğunlaşdırılmış qiymətləndirmə mexanizmləri vacibdir. Belə sistemlərə keçid həm şagirdlərə, həm də müəllimlərə tədris mühitində balans yaratmaq imkanı verir.

Rəqəmsal Texnologiyaların və Universal Dizaynın Tətbiqi də inklüziv təhsilin əlçatanlığını artırmaqda mühüm vasitədir. Universal Təlim Dizaynı modelinin tətbiqi ilə müəllimlər dərsləri vizual, audial və kinestetik təqdim formalarına uyğunlaşdıraraq daha geniş öyrənən kütləsini əhatə edə bilirlər.

Nəticə

Bu araşdırmada inklüziv təhsilin əsas fəlsəfi və pedaqoji prinsipləri, onun tətbiqində üzə çıxan əsas maneələr və inkişaf perspektivləri əhatəli şəkildə təhlil edilir. Mövcud tədqiqatlar, yerli və beynəlxalq təcrübələr, həmçinin pedaqoqların praktiki müşahidələri göstərir ki, inklüziv təhsil nəinki hüquqi və sosial məsuliyyət, eyni zamanda gələcək nəsillərin daha tolerant, empatik və demokratik düşüncəyə sahib vətəndaşlar kimi yetişməsinin təməlidir.

Araşdırmanın nəticələri göstərir ki, inklüzivliyin təməlində üç əsas dayaq mövcuddur: müəllimlərin inklüziv pedaqoji bacarıqları, məktəb və cəmiyyətin sosial-emosional dəstəyi, və siyasət səviyyəsində konkret və icraolunan strategiyalar. Əgər bu üç sütun eyni anda möhkəmləndirilməzsə, inklüziv təhsilin arzuolunan səviyyədə tətbiqi mümkünsüzdür.

İnklüziv təhsil sistemində nəzərə çarpan nöqsanlar, xüsusilə, inkişaf etməkdə olan ölkələrdə, hələ də geniş şəkildə müşahidə olunur. Lakin bu çatışmazlıqların mövcudluğu ilə yanaşı, onların aradan qaldırılması üçün konkret və real imkanlar da mövcuddur.
Aşağıda həmin nəticələr əsasında formalaşdırılmış praktik **tövsiyələr** təqdim olunur:

Tövsiyələr

Müəllim hazırlığı və peşəkar inkişaf sistemi gücləndirilməlidir

İnklüziv təhsilin ən zəif halqası məhz müəllimlərin metodiki hazırlığıdır. Pedaqoji kadrların ilkin hazırlıq mərhələsində inklüziv təlimə dair xüsusi kurslar, seminarlar təşkil olunmalı, mövcud müəllim heyəti isə davamlı olaraq peşəkar inkişaf proqramlarına cəlb edilməlidir. Bu proqramlarda universal təlim dizaynı, diferensiallaşdırma, sinfin idarə olunması və sosial emosional dəstək texnikaları öyrədilməlidir.

Məktəbdaxili dəstək strukturları formalaşdırılmalıdır

İnklüziv siniflərin uğurlu fəaliyyəti üçün məktəblərdə psixoloq, loqoped, xüsusi təhsil üzrə mütəxəssis və mentor müəllimlərdən ibarət dəstək komandaları yaradılmalıdır. Hər bir inklüziv sinif üçün fərdi təhsil planı (FTP) hazırlanmalı və bu planın icrası daimi olaraq monitorinq olunmalıdır. Resurs mərkəzləri vasitəsilə müəllimlərə operativ metodiki dəstək təmin olunmalıdır.

Valideynlər və cəmiyyət maarifləndirilməlidir

İnklüziv təhsilin yalnız məktəblərlə məhdudlaşan deyil, cəmiyyət miqyasında daşıdığı əhəmiyyət nəzərə alınmalıdır. Valideynlər arasında inklüzivlik anlayışı haqqında bilik və anlayış dərəcəsi artırılmalı, cəmiyyətdə fərqli ehtiyacları olan uşaqlara qarşı empatiya və qəbul formalaşdırılmalıdır. Bunun üçün ictimai kampaniyalar, sosial videoçarxlar, media materialları və yerli tədbirlər təşkil olunmalıdır.

İnfrastruktur və texnoloji əlçatanlıq təmin olunmalıdır

Məktəblərin fiziki mühiti beynəlxalq standartlara uyğunlaşdırılmalıdır. Eyni zamanda tədris prosesində rəqəmsal vasitələrin, inklüziv resursların və fərdiləşdirilmiş tədris materiallarının istifadəsi təşviq edilməlidir. Təhsildə xüsusi təhsil ehtiyacları olan şagirdlər üçün mobil tətbiqlər, səsli kitablar və interaktiv dərsliklər hazırlanmalıdır.

Beynəlxalq təcrübədən öyrənmə və yerli tətbiq sistemləşdirilməlidir

UNESCO, UNICEF və digər beynəlxalq təşkilatların bu sahədə həyata keçirdiyi layihələrdən öyrənmək və həmin nümunələri yerli mühitə uyğunlaşdırmaq inklüziv təhsil üçün böyük imkanlar yaradır. Xüsusilə, müəllimlərin beynəlxalq təcrübə mübadiləsi proqramlarına cəlbi və interaktiv metodlar üzrə treninqlər bu baxımdan strateji əhəmiyyət kəsb edir.

Beləliklə, qeyd etmək istəyirəm ki, inklüziv təhsil yalnız təhsildə fərqli ehtiyacları olan uşaqlar üçün deyil, bütövlükdə təhsil sisteminin daha humanist, çevik və keyfiyyətli olmasına xidmət edən mühüm konsepsiyadır. Onun reallaşdırılması müəllimlərdən çeviklik və empatiya, valideynlərdən anlayış və əməkdaşlıq, cəmiyyətdən dəstək olaraq birgə məsuliyyət tələb edir. Bu əməkdaşlıq yarandıqda inklüziv təhsil real nəticələr doğuran bir uğur modelinə çevriləcək.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı: Azərbaycan Respublikası, 1995;
2. “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” Bakı, 1999;
3. “Azərbaycan Respublikasının ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)” Bakı, 2006;
4. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu, Bakı: Azərbaycan Respublikası, 2009;
5. BMT, “İnsan Hüquqları haqqında Ümumi Bəyannamə”, Paris: BMT, 1948;

6. “Uşaq hüquqları haqqında” Konvensiya, mənbə: http://www.ohchr.org/en/professionalinterest/pages/crc.aspx ;
7. “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiya, mənbə: http://www.un.org/disabilities/documents/convention/convoptprot-e.pdf ;
8. https://www.tipii.edu.az/noduploads/document/7406_nkluziv-sinifda-talimin-taskili-oxu-materiali.pdf ;
9. 2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı. Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyi, Bakı, 14 dekabr, 2017 https://e-qanun.az/framework/37269 ;
10. Əhmədova, G. İnklüziv təhsil mühitinin yaradılmasında müəllimlərin rolu. Azərbaycan Müəllimlər İnstitutu Elmi Əsərlər. Bakı, 2020. 45–52;
11. Филиппова, Т. А., & Капустина, М. А. Инклюзивное образование: проблемы и перспективы. Современные проблемы науки и образования. 2019, 12–17;
12. Ainscow, M., Booth, T., & Dyson, A 2006. Improving schools, developing inclusion. Routledge. https://doi.org/10.4324/9780203967158 ;
13. CAST. Universal design for learning guidelines version 2.2. CAST 2018. https://udlguidelines.cast.org ;
14. Edyburn, D. L. Would you recognize universal design for learning if you saw it. Ten propositions for new directions for the second decade of UDL. Learning Disability Quarterly 2010. 33–41. https://doi.org/10.1177/073194871003300103 .

PROFESSOR ABDUL ALİZADE'S PERSONALİTY AND ACTİON MUTUAL İMPACT

ВЗАИМНОЕ ВЛИЯНИЕ ДЕЯТОЛЬНОСТИ И ЛИЧНОСТИ ПОРФЕССОРА АБДУЛА АЛИЗАДЕ

PROFESSOR ƏBDÜL ƏLİZADƏNİN ŞƏXSİYYƏTİ İLƏ YARADICI FƏALİYYƏTİNİN QARŞILIQLI ƏLAQƏSİ

P.ü.f.d.Yeganə Əskərova
ADPU-nun Ümumi psixologiya kafedrasının baş müəllimi

Xülasə
Məqalədə Azərbyacan psixologiya elminin inkişafında və dünya psixologiyasını yeni elmi ideyalarla zənginləşdirilməsində özünün orijinal ideyaları ilə tarixə düşən tədqiqatçı alimlər içərisində xüsusi rolu olan professor Ə.Ə.Əlizadədən bəhs edilir. Qeyd edilir ki, əgər Azərbaycanda müasir psixologiya elminin inkişafına təsir göstərmə dərəcəsinə görə psixoloqların reytinq cədvəlini tərtib etsəydilər heç şübhəsiz ki, prof.Ə.Əlizadə ən azı ilk üçlüyə daxil olardı. Bütün həyatını elmə həsr edən bu qocaman alim son günlərinə qədər bu sahədə çalışmışdır. Onu tanıyanlar təsdiqləyirlər ki, bu alim heç vaxt məşğuliyyətsiz olmayıb. Hətta xəstə olanda da istirahət nədir bilməmişdir. Professor Əbdül Əlizadə fenomeni o qədər zəngindir ki, onun haqqında danışmaq üçün kifayət qədər mövzu tapmaq mümkündür. Eyni zamanda hamı bu şəxsiyyətin böyüklüyü qarşısında özünü aciz, gücsüz sanır, haqqında söz deməyə çətinlik çəkir. O, alim-psixoloq kimi psixologiyanın bir çox istiqamətlərinə və sahələrinə təsir göstərmiş, həmin sahələrə özünəməxsus töhfələr vermiş, eyni zamanda bir çox məsələlərdə inkişaf yolunu müəyyən etmişdir. Prof.Ə.Əlizadənin adı və yaradıcılığı Azərbaycan psixoloqları üçün təkcə elmi məna deyil, həm də xüsusi şəxsi məna kəsb edir
Açar sözlər: peşə fəaliyyəti, şəxsiyyət, insan psixikası, şəxsiyyətin forma-laşması, psixoloji mədəniyyət, pedaqoji fəaliyyət

Резюме
В статье рассказывается о взаимосвязях профессиональной деятельности, личных качеств и личности известного азербайджанского психолога А. А. Ализаде. Подчеркивается, что зависимости от формы деятельности и ее потребности у человека формируется соответствующий характер и качества. Отмечается, что проф. А. А. Ализаде является ученым, который в области психологии имеет выдающие заслуги , а также личность с высоко человеческой моралью. В том числе, в статье отражено взаимосвязи научной и педагогической деятельности проф. А. А. Ализаде, и влияние одного к другому.
Также в статье дано высказывание известных ученых, деятелей образование о проф. А. А. Ализаде.
Ключевые слова: профессиональная деятельность, личность, челове¬ческая психика, формирование личности, психологическая культура, педагогическая деятельность

Abstract
In this article it spoken is about an outstanding Azerbaijani psychologist A.A. Alizade's personality, personal features, and professional activity. It is showed that, in any person it is formed any action forms and features which is demanded from any branch. It reflects himself in action and mentality. It is commented that Prof. A.A.Alizade not only an outstanding scientist but also he is a very good person.At the same time in this article is showed Alizade's educational and pedagogical work and their impact each other.
In this article it is also given place an outstanding scientist thoughts about prof. A.Alizade.
Key words: professional activity, personality, human psychology, personal formation, psychological culture, pedagogical activity

Peşə fəaliyyəti və şəxsiyyətin formalaşması arasında birbaşa əlaqə və asılılıq vardır. Bu mənada professor Əbdül Əli oğlu Əlizadə şəxsiyyətini, xarakterini, mənəvi keyfiyyətlərini daha aydın, daha düzgün dərk etməyə zəmin yaratmapa çalışdıq.

Əbdül Əlizadə səriştəli tədqiqatçı, görkəmli alim, tanınmış psixoloqdur. Bu-nunla bərabər, o, pedaqoqdur. 50 ildon artıq bir müddətdə minlərlə tələbəyə psi-xologiya elminin sirlərini öyrətmiş, mənəviyyatlı, saf insan olmağın nümunəsini göstərmişdir. Ə.Ə.Əlizadə bütün ömrü boyu halallıq, təmizlik, saflıq nümunəsi olmuş, şərəfli həyat sürmüşdür.

Ə.Ə.Əlizadə jumalist kimi fəaliyyət göstərəndə də, APİ-nin ilk partiya təş-kilatı katibi olanda da müəllimlik peşəsinə xas keyfiyyətləri önə çəkmişdir. De-məli, o, təbiəti etibarilə müəllimdir. İnsanın təbiəti ilə fəaliyyəti, peşəsi üst-üstə düşdükdə o, yüksək nailiyyətlər qazanır, tanınır, məşhurlaşır, mənəviyyatca saf olur. Məşhur psixoloq A.V.Bruşlinski yazır: "İnsan psixologiyasında sosıal və təbii olanlar bir-birindən ayrılmazdır. İnsan psixologiyasında elə bir şey yoxdur ki, yalnız təbii olsun. Sosi-al olmasın və ya yalnız sosial olsun, təbii olmasın. Hətta şəxsiyyətin mənəvi in-kişafının ən yüksək səviyyəsində belə psixika yalnız sosial ola bilmir, öz təbiili-yini qoruyur. Təbii və sosial olanlar insan psixologiyasının iki fərqli kompo-nenti deyil, canlı psixi prosesi tənzimləyən, insan fəallığını təmin edən, vəhdətdə olan subyektdir" (1, s. 4).

A.V.Bruşlinskinin bu fıkrinə əsaslanaraq deyə bilərik ki, Ə.Ə.Əlizadənin peşə fəaliyyəti və sosial fəaliyyəti ilə təbii imkanları və qabiliyyəti üst-üstə düşdüyündən böyük uğurlara imza atmış, tələbələrinin, iş yoldaşlarının, həm-karlarının hörmətini qazanmışdır. Ə.Ə.Əlizadənin bu xüsusiyyəti ailə üzvlərinə qarşı da dəyişməzdir. Hörmət, məhəbbət və səmimiyyət. Professorun oğlu H.Ə.Əlizadə yazır: "Atam bütün həyatını elmə həsr edib. Psixologiya onun üçün ən sevimli böyük dünyadır. Mən onu həmişə işləyən görmüşəm, heç vaxt boş olduğunun şahidi olmamışam. Fəxr edirəm ki, hamının sevdiyi, hamının hörmət bəslədiyi, yüksək mənəvi keyfiyyətlərə malik bir insanın oğluyam. Bu hiss mə-nə həyatda qazandığım müvəffəqiyyətlərdən ən qiymətlisidir" (2, s.107).

Pedaqoji fəaliyyətlə məşğul olmasını, sevimli təbbələrinə psixologiya elmi-nin sirllərini öyrətməsini Əbdül müəllim tale payı kimi dəyərləndirir. O, tələbə-ləri qeyri-adi müəllim fəhmi ilə sevir, tələbə sözünü psixoloji ölçülərə böyük hərflə yazır, təmənnasız ziyalı məhəbbətilə tələbələrinin də ziyalı kimi forma-laşmasında önəmli rol oynayır. Ə.Ə.Əlizadə şəxsiyyəti tələbələrin tərbiyəsində təsirli örnəkdir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin eimi işlər üzrə prorektoru, pro-fessor Vilayət Əliyev Ə.Ə.Əlizadə şəxsiyyəti və pedaqoji fəaliyyətinin bir har-moniya təşkil etdiyini, birinin digərini zənginləşdirdiyini qeyd edir. Göstərir ki, Ə.Ə.Əlizadənin elmi-pedaqoji fəaliyyəti çoxcəhətli olsa da, o, həmişə özünü təvazökarlıqla psixologiya müəllimi hesab edir. Onun elmi müəllimlik fəaliy-yəti ilə qırılmaz tellərlə bağlıdır. Tələbələri arasında respublikanın neçə-neçə alim-psixoloqu və pedaqoqu, əməkdar müəllimlər, elmlər doktorları və elmlər namizədləri var" (2, s. 10).

Maraqlıdır ki, professor Ə.Ə.Əlizadə haqqında danışılanlarda, deyilənlərdə, yazılanlarda bir qayda olaraq onun təmənnasız olaraq qayğı göstərdiyi, səmimi və təvazökar olduğu xüsusi vurğulanır.

Xüsusilə göstərilir ki, ziyalı mədəniy-yəti onun insanlarla qarşılıqlı münasibətlərinin ana xəttini təşkil edir.
Müasir dövrdə təhsil sistemində, xüsusilə ali məktəblərdə müəllimlərin rolı və vəzifələri xeyli artmış, həm də mürəkkəbləşmişdir. İndi müəllim yalnız bilik-lərin ötürücüsü deyil, informasiya verən rolunu yerinə yetirmir. İndi o, peda-qoji, psixoterapevtik biliklərə sahib olmalıdır.
Keywords: Bakhtiyar Vahabzadeh, native language, national-moral problem, national-cultural existence.

Ana dilimiz ən əsas milli dəyərimizdir. Çünki milli varlığımızın ilkin təməlini məhz ana dilimiz təşkil edir. Əgər ana dili yoxdursa, demək, xalq da yoxdur. Türk dilləri ailəsinə mənsub olan ana dilimizin min illərlə yaşı var. Bu dildə ən zəngin fikirlər ifadə olunub. Zəngin və məzmunlu xalq ədəbiyyatımız yaradılıb. Atalar sözləri və məsəllər, şirin, məzəli lətifələr ana dilimizin müdrikliyindən, “Kitabi-Dədə Qorqud”, “Koroğlu” kimi dastanlar isə həm xalqımızın, həm də ana dilimizin qəhrəmanlığından yaranıb. Dilimizdə Həsənoğlu, Nəsimi, Şah babamız Xətai, dahi Füzuli, Vaqif, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid və başqa nə qədər görkəmli şeir-sənət adamları mənəvi xəzinə yaradıblar.

Ana dilimiz xalqımızın mənəvi varlığı, mövcudluğudur. Görkəmli Azərbaycan ziyalısı Firudin bəy Köçərli yazırdı: “Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, həyatının mayəsi mənziləsindədir”. Ana dili xalqın keçmişini, qədimliyini özündə əxz edir. Min illər keçsə də, söz yaşayır, özü ilə barabər xalqı, onun həyat və düşüncə tərzini də yaşadır. Bu gün haqlı deyirlər ki, xalq ölər, dil yaşar. Dil ölsə, xalq da ölər, yaşamaz. Latınlar bu gün harda və necə yaşayırlar heç kimə bəlli deyil. Amma latın dili vaxtilə qüdrətli bir xalqın var oluşundan xəbər verir. Lakin bu gün bu dil olmadığından, yaşamadığından latın xalqı da yoxdur. Məhz bu mənada dil hər bir xalqın taleyidir. Azərbaycançılığın məşhur kəlamının müəllifi olan ümummilli liderimiz Heydər Əliyev ana dilimiz haqqında da deyirdi: ***“Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm”.*** Bu əhəmiyyətindən irəli gəlirdi ki, görkəmli şair və ədiblər ana dilimizə məhəbbət əsərləri yazaraq

onu sevməyi, qorumağı və yaşatmağı vəzifə biliblər. Belə vətənpərvər şairlərimizdən biri də Bəxtiyar Vahabzadədir.
“Azərbaycan oğluyam” şeirində milli xarakterdən bəhs edən şair:

Neyləyək ki, zamanın
Uğursuz yollarında
İkiyə bölünmüşəm” deməklə bərabər:

Əlimiz də bir bizim,
Dilimiz də bir bizim.
Vətənimiz bir bizim,
Dünənimiz bir bizim,
Olmuşuq bir Vətəndə
Biz bu gün başqa-başqa.
Bizim talelərimiz
Bəs neçün başqa-başqa? –

deyə düşündürücü suallarla millətinin acı taleyini göstərməyə çalışmış, onun taleyinin uğursuzluğuna diqqəti cəlb etmiş, oxucusunu düşündərməyə, milli tarixini, keçmişini ona anlatmağa, xatırlatmağa səy göstərmişdir. Bəxtiyar Vahabzadə “Şair – vətən” şeirində:

Bəlkə də ən zəif, ən kiçik şair
Böyük vətəndaşdır Vətənimizə...
Şairin bədəni - bu ana torpaq,
Nəfəsi - xəzridir, qanı - Kür, Araz.
Çox şəy Vətənsiz də yaşayır, ancaq
Şairsə Vətənsiz, əlsiz yaşamaz...
Şairə vəzifə, rütbə nə gərək!
“Vətən”, “Vətən” deyir könül səsi də.
Vətəni sevməkdir, Vətəni sevmək,
Şairin ən böyük vəzifəsi də -

söyləməklə bütün şairlərin, əlbəttə, özünün də vətəninin hayqırışı, səsi, fəryadı, duyğularının ifadəçisi olduğunu bildirmişdir.
Şair “Anamın kitabı” əsərində də:
Bizi bölə-bölə çəkdilər dara.
Əl çəkib müqəddəs atəşimizdən
Yüz illər baş əydik yad kitablara... –

deməklə, Azərbaycan türklərini yüz illərcə bölüb, başqa mənəviyyata, başqa qanunlara, başqa ideologiyaya yönəldilməsindən söz açmışdır. Onun “Ana dili” və “Anamın kitabı” kimi əsərlərində də milli dil və heysiyyət məsələlərinə toxunulur. Bu inkaredilməzdir ki, milli dil bütün millətlərin vazkeçilməz, itirilməz dəyəri, milli varlığının təməlində dayanan ən önəmli şərtdir. Bütün filosofların da söylədiyi kimi, “dil varsa, millət vardır, dil yoxsa, millət də yoxdur”. Bu mövzu şairin “Ana dili” adlı şeirinin əsas mövzusudur. Şeirdə:

Bu dil, - bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil, - bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil, - tanıtmış bizə bu dünyada hər şeyi.

Bu dil, - əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiztək
Qoruyub nəsillərə biz də hədiyyə verək, –

deyə şair ana dilini – Azərbaycan dilini xarakterizə edir. Şairin fikrincə, ana dili insanın ruhudur, bütün mənalarda, sözün geniş mənasında dil insanın və millətin özünüifadəsi, məqsədinin təqdimi, sosial mühitlə əlaqəsi və ünsiyyət vasitəsidir. Bu baxımdan hər bir dili bir-birinə bağlayan bənzər ümumi şərtlər olsa da, fərqli, bilavasitə psixoloji, milli müstəvidən fərqli tərəfləri çoxdur. Sözlərin özündə yaşatdığı psixoloji məna özünəməxsusluğu milli olaraq insanları ayıra, bir millətə mənsubiyyətini fərqləndirə bilir. Məsələn, azərbaycanlıların istifadə etdiyi "can", "aman" və başqa sözlər yalnız azərbaycanlıların anlaya biləcəkləri anlamlarda işlənə bilir. Bu və çoxsaylı digər şərtlərlə dil bir anlamda da yalnız millidir, o millətə aiddir, onun vətəndaşlarının bütün ruhunu – keçmişdən üzü bəri bütün yaşayışı boyunca tamamən ruhunu özündə yaşadır, ifadə edir. B.Vahabzadənin "Ana dili" şeirində də poetik şəkildə məhz ana dilinin bu xüsusiyyətlərindən bəhs edilmişdir. Şeirdəki: "Sən xalqının aldığı ilk nəfəsdən yarandın" misrasında şair Azərbaycan dilinin xalqın nəfəsindən yarandığını söyləməklə onu xalqın çoxminillik yaşayış, həyat, düşüncə, heysiyyət və bütün duyğularının daşıyıcısı kimi səciyyələndirir. Şairin "Muğam", "Özümüzü kəsən qılınc", "Dar ağacı" kimi əsərlərində də azərbaycanlıların milli dəyərləri, müstəqilliyi, istiqlalı və başqa bu kimi motivlər əhəmiyyətli yer tutur.

Türk dünyasının böyük şairi, ədəbiyyatda Azərbaycançılığın nəhəng simalarından biri kimi tanınan Bəxtiyar Vahabzadənin yaradıcılığında ana dili mövzusu əsas, başlıca yerlərdən birini təşkil etmişdir. Onun "Ana dili" şeirindən başqa "Mənim anam", "Neo", "Latın dili", "Hörümçək tor bağladı", "Lal-kar" və başqa şeirlərində də ana dilinin milli mövcudluq və inkişafda tutduğu vazkeçilməz mövqe açıq yer tutmuşdur. Hələ 60-cı illərdə böyük şair cəsarətlə milli istiqlal və ana dili ideyaları ilə çıxış edir, bu sahədəki qətiyyətini nümayiş etdirirdi. Onun adıgedən hər bir əsərində ana dilinə məhəbbət ön planda dayanır. İstiqlal şairi B.Vahabzadə "Mənim anam" şeirində yazır:

Savadsızdır,
Adını da yaza bilmir
Mənim anam...
Ancaq mənə,
Say öyrədib,
Ay öyrədib,
İl öyrədib;
Ən vacibi:
Dil öyrədib
Mənim anam...
Bu dil ilə tanımışam
Həm sevinci,
Həm də qəmi...
Bu dil ilə yaratmışam
Hər şeirimi,
Hər nəğməmi.
Yox, mən heçəm,
Mən yalanam,
Kitab-kitab sözlərimin
Müəllifi - mənim anam!..

Eyni mötivləri "Neo" adlı şeirində qoruyan görkəmli istiqlal şairi B.Vahabzadə burada da ana dilini qorumaqla milli mövcudluğunu, varlığını qorumaq çağırışı ilə çıxış edir:
Yaman dərddir,
Özgəsinə yamaq olmaq!
Yaman dərddir,
Azadlığın həsrətinə damaq olmaq.
Yaman dərddir,
Gözün ola, amma görə bilməyəsən.
Yaman dərddir,
Əlin ola,
Evindəki zir-zibili sən süpürə bilməyəsən.
Yaman dərddir,
Dilin ola, nə danışıb, nə dinəsən.

Şairin "Hörümçək tor bağladı" şeirində:

Dilimiz yasaq oldu,
Ruhumuz qəlbimizdə əbədi dustaq oldu.
Ruhsuz yaşadıqca biz
Vicdanımız, eşqimiz
Üzümüzə ağ oldu.
...Ruhumuz qan ağladı,
Məscid qapılarında hörümçək tor bağladı, - deyə üsyankarlıq edir, "Latın dili" şeirində isə ölü dilin "varlığı" düşüncəsi ilə öz ana dilinin rəsmi məclislərdən, dövlət idarələrində danışılmasından və s. qovulmasına etiraz edir, milli dil istiqlaliyyəti və müstəqilliyi tələb ilə çıxış edirdi:

"Mən azadam, müstəqiləm" sözlərini
Öz dilində deməyə də
İxtiyarın yoxsa əgər,
De, kim sənə azad deyər?..
Söylə, necə azadsan ki,
Komalarda dustaq olub ana dilin
Böyük-böyük məclislərdən
İtirilib ilim-ilim?..
İclaslarda bir kəlməsi, sözü yoxdur.
Bəlkə... onun böyük, rəsmi məclislərə
Çıxmaq üçün üzü yoxdur?

Bəxtiyar Vahabzadənin dramaturji əsərlərində də istiqlal motivləri başlıca yer tutur. Şairin görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlıya həsr etdiyi və onun "Od gəlini" əsərinə iqtibas edərək yazdığı "Dar ağacı" əsərində orta əsrlər hadisələrinin əsasında XX yüzilliyin sonlarına doğru Azərbaycan cəmiyyətində baş verən hadisələrin məzmunu təqdim edilmişdir. Bütün ömrü boyu ərəb xilafətinə xidmət edən Aqşinin axırda "mən öz vətənimə qarşı vuruşanda ölü olmuşam" – deyə etiraf etməsi XX əsrin sonlarındakı bəzi Azərbaycan siyasi xadimlərinə ünvanlanan mənalı nəsihət idi. Bundan başqa görkəmli Azərbaycan dramaturqu Cəlil Məmmədquluzadənin "Anamın kitabı" əsərinə iqtibas olaraq yazılan "Atamın kitabı" əsərindəki hadisələr də XX əsrin sonlarında Azərbaycandakı hadisələrlə müqayisədə təqdim edilmişdir. Bu əsərdə də öz millətinin müqəddəratını düşünməyən "millət başçıları" – siyasi

xadimlər tənqid olunmuş, millətin taleyi narahatlıqla əks etdirilmişdir. Bu baxımdan "biz "Dar ağacı", "Fəryad", "Özümüzü kəsən qılınc" əsərlərində milli mənəviyyat və müstəqillik, torpaq və əqidə bütövlüyü na-minə fədakarlığa hazır olan insanlarla tanış oluruq".

Göründüyü kimi, ana dilinə məhəbbət Bəxtiyar Vahabzadə yaradıcılığında əsas yerlərdən birini tutur. Ümumiyyətlə, istiqlal şairi olan B.Vahabzadə xalqımızın taleyi məsələsini öz yaradıcılığında əhatəli şəkildə təqdim etməyə nail olub. "İstiqlal" ordeni ilə mükafatlandırılan böyük Azərbaycan şairi Bəxtiyar Vahabzadə ana dilimizdə istiqlal duyğularımızı bəyan edən şairdir.

Ədəbiyyat

1. Abbasov İ. Türk dünyasının böyük şairi Bəxtiyar Vahabzadə. "Ədəbiyyat" qəzeti, 2004, 14 avqust.
2. Ayazqızı S. Bəxtiyar Vahabzadə və türk dünyası. "Ədəbiyyat" qəzeti, 2012, 17 fevral.
3. Aytmatov Ç. Yaradıbdır inam məni, Mən inamın övladıyam // B.Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə, I c., Bakı: Öndər, 2004, 328 s.
4. Bəxtiyar Vahabzadə. Bakı: Azərbaycan, 2000.
5. Feyziyev C. Adı Bəxtiyar, taleyi Azərbaycan. "Xalq" qəzeti, 2013, 12 yanvar.
6. Qafarlı R. Türk dünyasının Bəxtiyarı. "Xalq" qəzeti, 2009, 19 fevral.
7. Məmmədli M. Bəxtiyar Vahabzadə: İstiqlal şairi. "Azərbaycan" jurnalı, 2004, №9, s. 172-180.
8. Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə, I c. Bakı: Öndər nəşriyyat, 2004, 328 s.
9. Vahabzadə B. Seçilmiş əsərləri. İki cilddə, II c. (Poemalar). Bakı: Öndər nəşriyyat, 2004, 320 s.
10. Yusifli V. Bir ömür poeziyası. "Azərbaycan" jurnalı, 1999, №4, s. 166-172.

CHILDHOOD FEARS AND PHOBIAS

ДЕТСКИЕ СТРАХИ И ФОБИИ

Дадашова Гарифат Шариф
АГПУ, Кафедра Педагогической психологии

Резюме
В данной статье рассматривается проблема детских страхов, акцентируется внимание на дифференциации нормативных возрастных страхов от патологических состояний, требующих профессиональной помощи. Также представлена классификация детских страхов, описаны критерии диагностики патологических страхов (продолжительность, вегетативные реакции, избегающее поведение, социальная дезадаптация) и обоснована необходимость своевременного выявления подобных состояний. В статье предложены практические рекомендации для родителей, направленные на создание поддерживающей среды и использование эффективных стратегий коррекции эмоционального состояния ребенка, таких как арт-терапия, физическая активность и сказкотерапия. Особое внимание уделено необходимости обращения к специалистам при наличии признаков патологических страхов. Статья подчеркивает важность комплексного подхода к проблеме детских страхов, включающего родительскую поддержку, профессиональную помощь и дальнейшие научные исследования в данной области. Целью статьи является повышение осведомленности о детских страхах, содействие своевременному выявлению нарушений и разработка эффективных стратегий поддержки и коррекции.
Ключевые слова: Страхи, фобии, ребенок, родители.

Abstract
This article addresses the issue of childhood fears, with a focus on differentiating between age-appropriate normative fears and pathological conditions that require professional intervention. It presents a classification of childhood fears and outlines the criteria for diagnosing pathological fears, including duration, autonomic responses, avoidance behavior, and social maladaptation. The necessity of timely identification of such conditions is emphasized. The article offers practical recommendations for parents aimed at creating a supportive environment and implementing effective strategies to correct the child's emotional state, such as art therapy, physical activity, and fairy tale therapy. Special attention is given to the importance of consulting specialists when signs of pathological fears are present. The article underscores the importance of a comprehensive approach to childhood fears, which includes parental support, professional assistance, and ongoing scientific research in this area. The goal of the article is to raise awareness about childhood fears, promote early detection of disorders, and develop effective support and correction strategies.
Keywords: Fears, phobias, child, parents.

ВВЕДЕНИЕ:

Детские страхи являются универсальным и неизбежным аспектом развития, отражающим взаимодействие биологической предрасположенности, когнитивных способностей и социального опыта ребенка. Страх, как базовая эмоция, выполняет адаптивную функцию, обеспечивая защиту от потенциальных угроз. Однако, в силу возрастных особенностей психики, повышенной впечатлительности и ограниченного опыта, дети могут испытывать страхи, не соответствующие реальной опасности. Эти

страхи могут проявляться в самых разных формах – от боязни темноты и монстров под кроватью до тревоги, связанной с социальным взаимодействием и академической успеваемостью.

Важно понимать, что многие детские страхи являются нормативными и преходящими, отражая этапы когнитивного и эмоционального развития. Тем не менее, в ряде случаев страхи приобретают патологический характер, становясь интенсивными, стойкими и дезадаптирующими. Такие страхи могут приводить к развитию тревожных расстройств, фобий, невротических реакций и социальной дезадаптации.

Актуальность изучения детских страхов обусловлена их высокой распространенностью, значительным влиянием на психическое здоровье и социальное функционирование ребенка, а также потенциальной возможностью профилактики и эффективной коррекции. В связи с этим, данная статья направлена на всестороннее рассмотрение природы детских страхов: от нормативных проявлений до патологических расстройств. Мы рассмотрим классификацию и этиологию страхов, представим критерии дифференциальной диагностики, а также предложим практические рекомендации для родителей и специалистов по оказанию помощи детям, испытывающим страхи. Целью данной работы является повышение осведомленности о проблеме детских страхов, содействие своевременному выявлению нарушений и разработка эффективных стратегий поддержки и коррекции.

ТЕМА:

Страхи и фобии представляют собой неотъемлемые компоненты эмоционального опыта человека, однако между ними существуют принципиальные различия. Фобии характеризуются как интенсивные, иррациональные страхи, чья выраженность несоразмерна реальной опасности. Данные состояния оказывают существенное негативное влияние на функционирование индивида.

Страхи, в свою очередь, являются универсальным явлением, особенно свойственным детскому возрасту. В процессе познания окружающего мира, который представляется ребенку обширным и полным неопределенностей, страх выступает в качестве фундаментального механизма инстинкта самосохранения.

Страхи свойственны каждому человеку, а детям – особенно, ведь они только начинают познавать окружающий мир, который кажется им огромным и полным неизвестного. Страх лежит в основе инстинкта самосохранения. Страх может быть расценен как адекватная и рациональная эмоциональная реакция на обьективно существующую угрозу

Страх определяется как ощущение, беспокойства или тревоги, возникающее в ответ на реальную или воображаемую угрозу жизни и благополучия. Страх носит ситуативный характер, то есть возникает в конкретной ситуации и прекращается после устранения источника опасности.

В большинстве случаев страхи, проявляющиеся в детском возрасте, являются закономерным этапом развития и со временем либо исчезают, либо трансформируются. Однако, если интенсивность и устойчивость страхов достигают чрезмерного уровня, препятствуя адаптации ребенка к окружающей среде, это может указывать на наличие фобии. Этиология детских страхов может быть связана с психологическим воздействием со стороны взрослых, в частности родителей или с процессами самовнушения.

В целом, возникновение и последующее преодоление страхов рассматривается как нормальный аспект развития ребенка. Этот процесс отражает способность ребенка адаптироваться к сложным ситуациям и осознавать собственные эмоциональные состояния.

Возрастные и невротические страхи различаются по своей природе и последствиям. Возрастные страхи, свойственные определенным этапам онтогенеза, рассматриваются как нормативное явление и преходящи во времени. Интенсивность их проявления может быть более выражена у эмоционально восприимчивых детей дошкольного возраста, что обусловлено расширением социального взаимодействия и столкновением с новыми, незнакомыми ситуациями. Впечатлительность, доверчивость, развитое воображение и незрелость когнитивных процессов, в частности, дифференциации реального и вымышленного, способствуют возникновению чувства страха.

Психоаналитическая теория, в частности работы З. Фрейда, рассматривает страх как аффективную реакцию на переживание неудовольствия, не поддающегося компенсации через получение удовольствия. Подобный опыт может носить травматический характер, и страх выступает либо непосредственным следствием травмы, либо anticihftory тревогой перед ее возможным повторением. Таким образом возрастные страхи рассматриваются как закономерный этап психического развития, формирующий под влиянием внешней среды, где ключевую роль играют воспитательные стратегии и внутрисемейные отношения. В отличии от них, невротические страхи являются индикатором нарушений в психической сфере и требуют квалифицированной психологической интервенции.

Внушенные страхи представляют собой распространенную категорию детских страхов, формирующихся под влиянием значимых взрослых, таких как родители, воспитатели родители и родственники. Родительское поведения оказывает значительное влияние на эмоциональное состояние ребенка. Вербальные и невербальные сигналы, транслируемые взрослыми, могут провоцировать тревогу, особенно в ситуациях предупреждения об опасности, когда излишняя эмоциональность усиливает эффект страха. В подобных случаях ребенок, как правило фиксирует эмоциональную составляющую предупреждения, не полностью осознавая природу самой угрозы, но уже испытывая чувство беспокойства. Подобные внушенные страхи, закрепившись в детстве, могут сохраняться на протяжении всей жизни.

Неблагоприятный психологический климат в семье, в частности, наличие межличностных конфликтов между родителями, также является фактором, способствующим возникновению страхов у детей. Ребенок может испытывать чувство вины за разногласия между родителями или опасаться, что причиной семейных проблем является он сам. Кроме того, детская фантазия, свойственная дошкольному возрасту, нередко становится источником страхов. Склонность к формированию пугающих образов может приводить к различным эмоциональным реакциям: от быстрого забывания до развития стойких психологических проблем. Усиление страхов может происходить при невольной поддержке взрослыми воображаемых переживаний ребенка, например, использование фольклорных персонажей (таких как «бабайка») в воспитательных целях, что приводит к формированию реального страха перед вымышленными существами.

Трудности в сфере межличностных отношений со сверстниками являются значимым фактором, провоцирующим развитие детских страхов, Ситуации, связанные с социальной изоляцией, буллингом или вербальной агрессией, могут приводить к формированию страха перед социальным взаимодействием и посещением образовательных учреждений (детский сад, школа) или иных мест скопления людей. Феномен взаимного обмена страхами между детьми также имеет место, когда трансляция страшных историй от старших младшим детям закрепляется в их сознании, вызывая тревогу.

Следует отметить, что в ряде случаев страхи могут выступать в качестве симптома более серьезных психологических расстройств, в частности, невротических состояний, Появление страхов, не соответствующих возрастной норме, или чрезмерная интенсивность их проявления является показанием для обращения за консультацией к специалисту в области детской психологии.

Просмотр кинопродукции, содержащей сцены насилия и жестокости, также оказывает негативное влияние на психическое состояние детей, вызывая страх. Незрелость когнитивных процессов обуславливает тенденцию к буквальной интерпретации увиденного, что приводит к длительным эмоциональным переживаниям и страху оказаться в подобной ситуации. Подобные ощущения оказывают компьютерные игры, в которых присутствуют элементы насилия (драки, стрельба, массовые убийства) способные снижать уровень эмпатии и нормализовать восприятие насилия. Таким образом, важно подчеркнуть необходимость дозированного и адаптированного к возрасту представления информации о сложностях и опсностях окружающего мира, что способствует развитию здоровой эмоциональной устойчивости, а не усилению тревожности и страхов у детей.

Детские страхи дифференцируются на несколько основных категорий:

Навязчивые страхи: Данный тип страхов возникает в конкретных ситуациях, обусловленных боязнью обстоятельств, потенциально ведущих к неприятным последствиям. Примерами навязчивых страхов являются боязнь высоты (акрофобия), замкнутого пространства(клаустрофобия) и т д.

Бредовые страхи: Представляют собой наиболее сложную категорию, характеризующуюся трудностями в установлении этиологических факторов, В данном случае ребенок может испытывать панический страх перед определенными предметами (например, игрушками) или проявлять отказ от ношения какую-то одежды без очевидных на то оснований,

Сверхценные страхи: Являются наиболее распространенным типом детских страхов. Обусловленных фиксацией на определенной идее. По данным детских страхов, данный тип страхов встречается в 90% случаев. Исходно сверхценные страхи могут быть связаны с реальными ситуациями, однако со временем К примерам сверхценных страхов относится боязнь темноты (в которой кажутся страшные существа), страх потеряться, подвергнуться нападению, страх воды, огня, боли или громких звуков. Следует отметить, что возрастные страхи могут задерживаться у человека дольше «положенного», именно поэтому многие взрослые продолжают с детства бояться высоты или громких звуков.

В большинстве случаев детские страхи подвержены спонтанной редукции после проведения разьяснительной беседы с родителями, направленной на установление взаимосвязи между обьектом страха и субьективными переживаниями ребенка. Тем не менее, в отсутствие адекватной поддержки со стороны родителей, педагогов или школьных психологов, страхи могут приобретать хронический характер и трансформироваться в более серьезные проблемы, такие как фобии и невротические расстройства. Данные состояния могут проявляться через панические атаки и психомоторное возбуждение, возникающее в отсутствие реальной угрозы.

После 10 летнего возраста иррациональные детские страхи, как правило, регрессируют. Однако на смену им могут прийти опасения, связанные с вполне реальными событиями и явлениями, такими как болезни, природные катастрофы, потери близких, акты насилия, не соответствие ожиданиям родителей и социальная изоляция.

В случае персистирования страхов в подростковом возрасте возможно формирование таких личностных особенностей, как повышенная тревожность, мнительность, развитие

комплексов, неуверенность в себе и избегающее поведение. Данные факторы могут затруднять социальную адаптацию в коллективе сверстников и приводить к возникновению насмешек в адрес подростка.

Таким образом, крайне важно проявлять внимательное отношение к детским страхам, учитывая их субъективную значимость для ребенка. В качестве методов коррекции эмоционального напряжения могут использоваться игровые техники (например, рисование страшного персонажа с последующим приданием ему космического вида) и сочинение сказок с позитивным разрешением конфликтной ситуации. Вместе с тем при наличии тревожных симптомов, таких как бессонница, ночные кошмары, энурез, невротические проявления (онихофагия-обгрызание ногтей, трихотилломания-накручивание волос), тики и частые истерики, необходимо обязательно обращаться к специалисту.

Критерии диагностики патологических страхов:

Дифференциация нормативных возрастных страхов от патологических состояний является важной задачей клинической практики. Признаками, указывающими на патологический характер страхов являются:

Продолжительность: Персистирование страхов на протяжении более 6 месяцев.

Вегетативные проявления: Наличие выраженных вегетативных реакций (тахикардия, гипергидроз, тремор).

Избегающее поведение: Проявления избегающего поведения (отказ от сна в одиночестве, ограничение посещения общественных мест).

Социальная адаптация: Негативное влияние страхов на социальную адаптацию ребенка (проблемы в обучении и общении).

В то время как возрастные страхи, не сопровождающиеся осложнениями, рассматриваются как нормативное явление, интенсивно нарастающие невротические страхи, сопровождающиеся изменением и поведения ребенка, свидетельствуют о потенциальных проблемах в психической сфере. В таких случаях родителям необходимо своевременно оценить эмоциональное состояние ребенка и обратиться за консультацией к специалистам в области детской психологи и психотерапии. Отсутствие своевременного вмешательства привести к усугублению нарушений и развитию хронических психических заболеваний, что обуславливает необходимость оказания профессиональной помощи.

Рекомендации родителям как поступать в таких случаях:

1. Саморегуляция: Сохраняйте спокойствие и эмоциональную устойчивость.
2. Эмпатия: Избегайте обесценивания и высмеивания страхов ребенка.
3. Индивидуальный подход: Не сравнивайте ребенка с другими детьми.
4. Постепенное преодоление: Не принимайте ребенка к действиям, вызывающим страх.
5. Эмоциональная компетентность: Обучайте ребенка навыкам переживания сложных эмоций.

При проявлении страхов у ребенка важно обеспечить его эмоциональную поддержку, не оставляя наедине с негативными переживаниями, но и избегая чрезмерной фиксации на проблеме. Рекомендуется перенаправлять внутренние переживания ребенка на физическую и творческую активность.

Арт-терапия: Использование различных техник рисования, коллажа, лепки, песочной терапии, музыки и танцев.

Физическая активность: Занятия спортом (плавание, танцы, борьба, коньки, лыжи) и повышению настроения.

Новые впечатления. Организация семейных прогулок, игр на свежем воздухе, посещение парков и аттракционов, театров, музеев, зоопарков.
Сказкотерапия: Совместное сочинение сказок, направленных на преодоление страхов и развитие позитивного мышления.

ЗАКЛЮЧЕНИЕ:
Детские страхи – сложный и многогранный феномен, требующий внимательного и дифференцированного подхода. В ходе данной статьи мы рассмотрели широкий спектр вопросов, касающихся природы, видов, диагностики и коррекции детских страхов. Было подчеркнуто, что понимание нормативных возрастных особенностей и знание критериев патологических страхов являются ключевыми для своевременного выявления проблем и предотвращения развития серьезных психических расстройств.
Родители играют важнейшую роль в создании безопасной и поддерживающей среды, способствующей преодолению страхов у детей. Эмпатия, терпение, открытое общение и использование эффективных стратегий, таких как арт-терапия, физическая активность и сказкотерапия, могут значительно облегчить эмоциональное состояние ребенка.
Однако, важно понимать, что в некоторых случаях требуется профессиональная помощь. При наличии признаков патологических страхов, таких как выраженные вегетативные реакции, избегающее поведение, социальная дезадаптация и длительность более 6 месяцев, необходимо обращаться к специалистам в области детской психологии и психотерапии. Своевременное и квалифицированное вмешательство может предотвратить хронизацию страхов и обеспечить оптимальное психическое развитие ребенка.
В заключение следует отметить, что изучение детских страхов является важным направлением исследований в области психологии развития и клинической психологии. Дальнейшие исследования необходимы для углубленного понимания механизмов формирования и преодоления страхов, разработки новых эффективных методов профилактики и коррекции, а также для повышения осведомленности общества о проблемах психического здоровья детей. Только объединив усилия ученых, специалистов и родителей, мы сможем создать условия, в которых каждый ребенок будет чувствовать себя в безопасности и сможет раскрыть свой потенциал, несмотря на неизбежные страхи, возникающие на пути взросления.

СПИСОК ЛИТЕРАТУРЫ:
1. Астапов В.М. Тревожность у детей / В.М. Астапов.- СПб.: Питер: Питер Принт, 2004. - 160 с.
2. Захаров, А.И. Дневные и ночные страхи у детей/ А.И. Захаров. - СПб.: Изд-во «СОЮЗ», 2007. - 448 с.
3. Степаненко Н.Л. Детские страхи: симптомы, причины, лечение.
4. Румянцева П. Детские страхи: когда стоит обратиться за помощью к специалисту.

PROVERBS - THE COMMON LANGUAGE OF THE WORLD (BASED ON AZERBAİJANİ, BASHKİR, KAZAKH, KYRGYZ, TELEUT, CHUVASH, TURKİSH, JAPANESE, ITALİAN FOLKLORE EXAMPLES)

ATALAR SÖZLƏRİ – DÜNYANIN ÜMUMİ DİLİ (AZƏRBAYCAN,BAŞQIRD,QAZAX,QIRĞIZ,TELEÜT, ÇUVAŞ,TÜRKİYƏ,YAPON,İTALİYA FOLKLOR NÜMUNƏLƏRİ ƏSASINDA)

Aytən Nəriman qızı Qurbanova
Filologiya üzrə fəlsəfə doktoruAMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
Türk xalqları ədəbiyyatı şöbəsi ADPU Quba filialı, baş müəllim

Xülasə
Şifahi xalq ədəbiyyatının mövzu və kəmiyyət baxımından ən geniş yayılmış janrlarından biri olan atalar sözü sadəcə türk xalqlarının ədəbiyyatında deyil bütün dünya ölkələrinin şifahi xalq ədəbiyyatında özünə yer tutan və milli təbirlə desək, qanadlı sözlərə çevirilib əsrlərin sınağından çıxıb gələn hikmətli ifadələrdir. Atalar sözləri yığcam janr olduğu qədər də dərin məna kəsb edə bilir. Təbii ki, bu janrın ən əsas özəlliyi bəzən kitablarla yazaılan əsərlərin ideyasının tək bir cümlə ilə ifadə etməsidir.
Açar sözlər: atalar sözü, ümumtürk ədəbiyyatı, Başqurd ədəbiyyatı, ortaq janrlar və s.

Abstrakt
Proverbs, which are one of the most widespread genres of oral folk literature in terms of subject and quantity, are not only in the literature of the Turkish peoples, but also in the oral folk literature of all the countries of the world. Proverbs can have a deep meaning as well as being a compact genre. Of course, the main feature of this genre is that sometimes the idea of works written with books is expressed in a single sentence.
Key words: proverbs, all-Turkic literature, Bashgurd literature, common genres, etc.

Giriş

Başqa növlər kimi, atalar sözləri də müxtəlif dövrlərdə, müxtəlif şəraitdə yaranmışdır. Buna görə də o, müxtəlif təbəqələrin dünyagörüşünü, təcrübə və arzusunu ifadə etmişdir. Ona görə də atalar sözü və məsəllərə ruslar ibrətamiz söz, qanadlı söz, qızıl söz, yunanlar və romanlılar hakim fikirlər, italyanlar xalq məktəbi, ispanlar təbiətin ruhu, ingilislər və fransızlar təcrübənin barı və s. adlar vermişlər.

Atalar sözləri haqqında araşdırma apararkən fərqli xalqların ədəbiyyatındakı parallelik diqqətçəkən məqamlardandır. Xüsusilə, türk xalqlarının yaradıcılığında özünə yer tutan eyni mövzulu atalar sözləri bəzən səslənmə baxımından da eyniləşir.

Ýlsega ülem yuk	Elçiye zeval yoktur
Bereklekta-tereklek	Birlikte dirilik
Akýlhýz dutsan akýllý doþman artýk.	Akılsız dosttan akıllı düşman iyidir və s.

Atalar sözləri hazırda da üç dövlət dilinə malik olan Başqırdıstanda çox geniş yayılmış ədəbi növlərdən biridir. Təbii ki, digər bir çox dillərdə olduğu kimi, başkurd dilində də müxtəlif mövzulu və ideyalı atalar sözləri geniş yayılmışdır. Daha çox diqqətimi çəkən isə təhsil, bilik və cəhalət haqqında yaranan atalar sözləridir.

- Ата белеге белән адәм адәм булмас, әгәр үзе белмәсә.- Atası bilən adamdan adam olmaz, əgər özü bilməsə
- Аю беләгенә ышана, Ayının biləyinə, insanın biliyinə güvən

Адәм белегенә ышана.

- Белемдә көч. Güc bilikdədir
- Белем йөрәккә куәт. Bilik ürək üçün gücdür
- Белемлекнең чиге юк. Bilik sərhəd tanımır
- Белем тәҗрибәдән туа. Bilik təcrübədən doğar
- Белем һәр куркынычны җиңә. Bilik bütün təhlükələrə qalib gələr
- Беләктән белек көчле. Bilik biləkdən güclüdür
- Дөньяда иң зур байлык — белем. Dünyanın ən böyük sərvti bilikdir
- Адәм яктыра белем белән. Adam biliklə parlayır
- Яшьлегеңдә белем ал, картайганда сарыф кыл (тот, куллан). Gəncliyində öyrən, qocalığında xərclə
- Кул кыла алмаганны, белем кыла. Əllərin bacarmadığını bilik edir
- Акыл — тузмас кием,

Гыйлем — корымас кое.

- Ачыйк күзебезне, хур итмәсеннәр үзебезне.
- Бу заманда гыйлемсез, фәнсез кеше — җансыз-тәнсез кеше.
- Гыйлем — акылның ярдысы.
- Гыйлем алу — инә белән кое казу.
- Гыйлем — ау,

Язу — бау.

- Гыйлем ашарга сорамас, ашарга бирер.
- Гыйлем булмаганда, бар акыл да юк була.
- Гыйлем дәрәҗәсе — дәрәҗәләрнең иң олысы.
- Гыйлем китапның эчендә дә, тышында да була.
- Гыйлемнән башка гамәлең юк,

Әйләнергә дә әмәлең юк.

- Гыйлемнән зур хәзинә юк.
- Гыйлем өйрәнү — бишектән ләхеткә чаклы.
- Гыйлемсез бер яши,

Гыйлемле мең яши.

Dünyada qeydə alınmış ilk atalar sözləri təqribən eramızdan əvvəl 2000-ci ilə, qədim Şumerdə, Mesopotamiyada yarandığı güman olunur. Maraqlısı odur ki, dünyanın hər yerində demək olar ki, eyni ifadə tərzinə və eyni mənaya malik atalar sözləri işlənir. Türk xalqlarının dilində çox geniş şəkildə yayılan atalar sözləri ingilis, italiyan, yapon, Koreya və s. dillərdə də geniş yayılmışdır. İngilis filosofu Frensis Bekon deyirdi ki, xalqın dahi zəkası və ruhu atalar sözlərində tapılır.

“Atalar sözü zəkadan, zəka atalar sözündən doğar”(Rus atalar sözü)

“Atalar sözünü bilən müdriklər hər bir mübahisəni həll edər”(Nigeriya atalar sözü).

Yuxarıdakı fikirlərdən aydın olur ki, dili və ədəbiyyatı zəngin olan bütün xalqların həyatında atalar sözü, hikmətli sözlər və ya aforizmlər bu və ya digər dərəcədə işlənməkdədir. Hətta bəzi xalqların dilində frazeoloji ifadələr də bu qəbildən olan sözlər sırasına aid edilir. Deməli, atalar sözlərini bilmək insanı və bütövlükdə cəmiyyəti anlamağa gətirib çıxarır.
Araşdırma zamanı Yapon Paremiologiya Cəmiyyətinin internet səhifəsində atalar sözləri haqqında verilən məqalədə belə bir maraqlı fikir qeyd edilir ki, atalar sözlərini bilən və onlardan düzgün şəkildə istifadə edən hər kəs dünyanı dərk edir, insanlarla düzgün ünsiyyət qurmaq bacarığına sahib olur.
Atalar sözləri çoxdan nitqimizin geniş bir hissəsini əhatə etsə də, onların mənşəyi haqqında tədqiqatlar elə çox deyildi. Çünki o dövrlərdə sabit frazeoloji vahidlər yox idi. Buna baxmayaraq, atalar sözləri yeni ünsiyyət mədəniyyətinin formalaşmasına kömək etdi. Qədim dastanlarımızda adları çəkilən atalar sözləri bu gün də xalqımızın nitqində, ədəbiyyatında öz əhəmiyyətini itirmədən, bir sözlə, fikirləri qısa, lakonik şəkildə ifadə etmək üçün işlənir. Türk xalqalarının ədəbiyyatında atalar sözü janrının tədqiqi tarixi Mahmud Kaşğariyə gedib çıxır. Onun "Divani - Lüğət it Türk" əsərində 400-ə yaxın atalar sözü və məsəllər yer alıb ki, bunlardan başqa Əlişir Nəvai, Zəhiriddin Məhəmməd Babur və başqalarının yaradıcılığında atalar sözünə xüsusi diqqət yetirildiyini görə bilərik.
Atalar sözləri özbək ədəbiyyatında da xüsusi yeri olan janr kimi daim diqqət mərkəzində olmuşdur. Atalar sözləri xalqın təcrübəsindən keçmiş hadisələrin dəyişməz şifahi ifadəsidir. Tanınmış özbək filoloqu, filologiya elmləri doktoru B.M.Corayeva öz elmi araşdırmasında özbək xalq atalar sözlərini dildaxili vahidlər üzrə formalaşdıran 6 qrupa ayırmışdır.

a) söz birləşmələri əsasında əmələ gələn atalar sözləri: saymadan səkkiz demə,
b) Folklor janrları əsasında formalaşan atalar sözləri:
d) dini anlayışlar əsasında formalaşan atalar sözləri,
f) xalqın təxəyyülü əsasında formalaşan atalar sözləri,
c) xalq oyunları əsasında formalaşan atalar sözləri
e) zəmin üzərində formalaşan atalar sözləri. [3].

Yuxarıda qeyd olunan xalq atalar sözlərinin formalaşması prosesləri məzmunun mahiyyətinə görə qruplara bölünür. Tərcümə işi xalqlar arasında mədəni əlaqələrin formalaşması və inkişafının tərkib hissəsidir. Bu haqda V.Q.Beliniski deyirdi ki, "Bir xalqın ədəbi əsərlərinin başqa xalqın dilinə tərcüməsi onların bir-biri ilə yaxınlaşması, fikir mübadiləsi üçün əsasdır və sonra yeni ədəbi əsərlər üçün zəmin yaradır. Əsərlər mədəni əlaqələrlə yanaşı, müxtəlif millətlərin nümayəndələri arasında dostluq əlaqələrinin də inkişafına səbəb olur.
Araşdırma zamanı Özbək, Azərbaycan ədəbiyyatında ortaq atalar sözlərinə rast gəldik.
"Üzümünü ye, onun bağçasını soruşma" atalar sözü bir şeyə göz yuma bilmək mənasını verir və bir neçə xalqın folklorunda istifadə edilməkdədir. Atalar sözü millətin düşüncəsinin və folklorunun qaymağıdır. Hansı millət tərəfindən yaradılırsa, o müddətin inanclarını, milli və etnik xüsusiyyətlərini, bir toplum kimi xarakterik özəlliklərini özündə əks etdirir. Odur ki, atalar sözləri və məsəllər insanların ağlının, mühakiməsinin, çoxəsrlik təcrübələrinin, həyatda baş verən müxtəlif hadisələrə münasibətinin məhsuludur. Atalar sözü məişətdə insanların bir-birinə münasibətində yaranır. Xalq atalar sözü xalqın mülküdür. Atalar sözündə kədər insanların kədəri, atalar sözündə qəzəb insanların qəzəbi, atalar sözündə gülüş insanların gülüşü, atalar sözündə kinayə isə insanların sarkazmıdır. Bu məqamda qeyd etmək olar ki, atalar sözü yaratmayan dil yoxdur, atalar sözü işlətməyən xalq yoxdur.
Bir çox tədqiqatçılar tərəfindən xeyli sayda elmi tədqiqatlar aparılıb və bu gün də davam etdirilir. Eyni zamanda atalar sözlərinin bütün xalqların ədəbiyyatında ayrı-ayrı kateqoriyalara və istiqamətlərə bölündüyünü görə bilərik. Bunlardan dostluq, vətənə sədaqət,əməksevərlik,

bilik,igidlik, ləyaqət və bir çox başqa cəhətlər. Əgər dostluqdan bəhs edən atalar sözlərindən danışırıqsa, ilk növbədə onu nəzərə almalıyıq ki, atalar sözləri müxtəlif xalqlar arasında münasibətləri möhkəmləndirən ortaq dəyərlərdən biridir. Beləliklə, deyə bilərik ki, bütün dünya xalqlarının dillərində dostluq, qardaşlıq, həmrəylik, əməkdaşlıq haqqında çoxlu atalar sözlərinə rast gəlirik. Şərq xalqlarının da dostluq haqqında gözəl atalar sözləri var. Məsələn, ən qədim tarixə, folklora malik olan Başqırd ədəbiyyatında "Xalqların dostluğu onların sərvətidir" və ya gürcü atalar sözünün "Ağac kökü ilə, insan dostları ilə", tatar atalar sözünün "quşun gücü qanadındadır, insanın gücü dostluqdadır", Azərbaycan folkloru ilə desək, "dost dosta tən gərək, tən olmazsa gen gərək", Türkiyə ədəbiyyatında "hər şeyin yenisi, dostun eskisi" və s. kimi atalar sözünün deyildiyini görə bilərik. Göründüyü kimi, yuxarıda verilən atalar sözlərində forma və ya söz dəyişsə də, məzmunu qorunub saxlanılır. Yəni eyni fikir və məqsəd çatdırılmaqdadır. Odur ki, bir neçə dünya xalqlarının dilində daha çox yayılmış atalar sözlərinə diqqət etdik ki, bunlar demək olar ki, ən azı türk dillərində az dəyişmiş formada işlədilməkdədir.

Agaç miwe berse, başy aşak –Ağac bar versə başını aşağı əyər
Az bolsun, uz bölsün – Az olsun, düz olsun
Akyl ýaşda bolmaz, başda bolar- Ağıl yaşda deyil, başdadır
Arkaly köpek gurt alar- Arxalı köpək qurda basar
At alma, eýer al – At alma, yəhər al
Atylan ok daşdan gaýtmaz - Atılan ox geri qayıtmaz
Bal tutan barmagyny ýalar – bal tutan barmaq yalar
Bir elde iki garpyz tutdurmaz Bir əldə iki qarpız tutmazlar
Bu günki serçe düýnki serçä "jik-jik" öwreder – Builki sərçə bildirki sərçəyə cip-cip öyrədir
Çagyrylan ýere irinme, çagyrylmadyk ýerde görünme – Çağırılan yerə ərinmə çağırılmayan yerdə görünmə.
Çekişmän, bekişmez – çəkişməsən bərkişməzsən.
Enesini gör-de gyzyny al, gyrasyny gör-de bizini al – Anasını gör qızını al, qırağını gör bezini al.
Gülme goňşyňa, geler başyňa – Gülmə qonşuna gələr başına
It üýrer, kerwen geçer- İt hürər karvan keçər

Əsrlər boyu nəsildən-nəslə ötürülən və öz mənasını qoruyub saxlayan atalar sözlərindən qazax xalqının məişətini, dünyaya baxışını, yuxuya olan marağını müşahidə etmək mümkündür. İstənilən mübahisədə və xalqın məişəti ilə bağlı lazımi qərar qəbul edərkən dərin mənalı, dəqiq fikirli atalar sözündən istifadə etmək çox vacib idi. Qədim zamanlarda dövlət işlərində də, idarəetmədə də davamlı olaraq atalar sözlərindən geniş şəkildə istifadə edilirdi. Lakin qazax xalqının həyatında mühüm rol oynayan bu şifahi ədəbiyyat janrı kağız üzərində yalnız XIX əsrin ikinci yarısında yazıya köçürülməyə başlayır. Filologiya elmləri doktoru, professor Danday İshaq deyir ki, "atalar sözləri hər dövrün hekayətindən xəbər verir".

Atalar sözü düşüncələrin məntiqi nəticədir. İnsan həyatında, sosial-ictimai situasiyalarda baş verən müxtəlif tarixi hadisələrin qiymətləndirilməsində istifadə olunur. Atalar sözlərini öyrənən paremiologiya elmidir.

Qeyd etdiyimiz kimi, atalar sözləri bütün türkdilli xalqların ədəbiyyatında önəmli yer tutur. Rusiyanın tərkibində muxtar respublika kimi yaşayan çuvaşların ədəbiyyatında və məişətində istifadə olunan hikmətli sözlər ortaq türk folklor nümunələri kimi qəbul edilə bilər.

Кӳршӗ-аршӑ аякри тӑванран паха. - Qonşu uzaq qohumdan yaxşıdır.
Ырӑ йывӑҫ усал çимӗҫ кӳни çук – Yaxşı ağac pis bar verməz.
Лайӑх ят мултан та паха – Şöhrət sərvətdən daha qiymətlidir.

Юлташсăр çын тымарсăр йывăç пек – Dostsuz adam köksüz ağac kimidir.
Кĕтӳрен юлнă сурăх кашкăр кулли пулать - Sürüdən geri qalan quzu qurdun ovu olar.

Халăх сурсан кӳлĕ тăвать. – El tüpürsə, göl yaranar.
Усал çынпа çула ан тух. – Pis insanı özünüzə yoldaş tutmayın.
Çынтан сахал илсе нумай пар. – Az al, çox ver.
Укçапа пуйиччен туспа пуй. – Pul yığmayın, dost yığın.
Шанчăклă тусăн хакĕ çук. – Etibarlı dostun qiyməti yoxdur.
Туслă тус тепĕр тăванран аванрах.Yaxın dost qohumdan yaxşıdır.
Хытă çыннăн пӳрнине кассан та юн тухмасть – Xəsisin barmağın kəssən qan axmaz.
Тăшман йăпăлтатса хур тăвать, тусу тавлашса ыр тăвать – Düşmən təəccüblənər, pərəstiş edir, dost danlayar, kömək edər.
Qazax tədqiqatçıların fikrincə atalar sözlərini məna, məzmun və ideyaca aşağıdakı kimi qruplaşdırmaq olur.

- Həyat, həyat tərzi, sosial hadisələr;
- Heyvandarlıq haqqında;
- Düzgünlük, əxlaq, fəzilət, dostluq haqqında;
- İş, sərvət, peşə haqqında;
- Ehtiyatlılıq və sayıqlıq haqqında

Araşdırmalar onu göstərir ki, Qazax ədəbiyyatında atalar sözü daha çox XIX əsrdə formalaşmışdı. Bu da əkinçiliyin inkişaf etdirilməsi ilə əlaqədar olaraq bu mövzuda daha çox yaranmasına səbəb olmuşdur.
"Егін еккеннің ecеci көп"- Əkin əkənin məhsulu çox olar
"Астығы бар аш болмайды" – Taxılla aclıq olmaz
"Бірлік болмай, тірлік болмас" – Birlik olmazsa dirilik olmaz
"Бірлігі жоқтың тірлігі жоқ" – Birlik olmadan dirilik olmaz
Qazax ədəbiyyatında maraqlı məqamlardan biri də budur ki, qazax ədəbiyyatında mövcud olan atalar sözlərini araşdırdıqda məsəlləri və dildə hazır şəkildə idiom və ya frazeoloji birləşmə kimi işlənən hazır ifadələr də geniş yayılıb. Eyni zamanda, vətəni, torpağı qorumaq mövzusundakı atalar sözlərindən xalqın düşüncəsini, arzusunu, mənafeyini, vətənpərvərliyini anlamaq olar, məsələn, "Vətən qızıl beşikdir", "Doğma torpağın dağı istidir", " Yadın ölkəsində sultan olana qədər öz ölkəndə millət ol".
Bildiyimiz kimi, atalar sözü ilə məsəllər arasındakı fərq məzmundadır. Məsəllər həyatda əlamətdar bir hadisənin müdrik yekunudur. Atalar sözündə aydın və bədii bənzətmə işlədilir. "Çox görülmüş böyük toy", "Qızım, deyəcəyəm. gəlinim, sən dinlə" məsəllərini nümunə kimi göstərmək olar. Atalar sözünü işlədərkən isə heç bir sübut və ya açıqlamaya ehtiyac olmur.
Atalar sözləri və məsəllər nitqdə çox işlənən qısa, dərin mənalı və bitkin ifadələrdir. Bunlar xalq müdrikliyinin, xalq zəkasının, xalqın həyat təcrübəsinin bədii ifadəsidir. Dilin aydınlığı, qısa, yığcam şəkildə dərin məna ifadə etmək kimi gözəl xüsusiyyətləri atalar sözlərində özünü yaxşı əks etdirir. Atalar sözü və məsəllər bir-birinə çox yaxındır. Bunları biri-birindən ayırmaq çox vaxt hətta çətin olur. Lakin bunları fərqləndirən cəhətlər də vardır. Bəzi tədqiqatçılar bu fikirləri onların qrammatik quruluşunda görmüş, bəziləri həcmdə kiçik və böyük olmalarını qeyd etmişlər. K.D.Uşinski, M.A.Rıbnikova kimi məşhur pedaqoq və metodistlərin, İ.V.Dal, F.J.Buslayev və Q.Sokolov kimi məşhur rus alim və folklorşunasların fikrincə məsəllərdə atalar sözündəki kimi dərin, hikmətli fikirlər vardır, lakin bu hələ bitməmiş, püxtələşməmiş, kamilləşməmişdir.
Ən qədim folklor nümunələrinə malik olan qırğız ədəbiyyatında da müxtəlif atalar sözlərinə rast gəlmək mümkündür. Qırğız ədəbiyyatında folklor toplusunda 2000-dən çox atalar sözü toplanıb. Kitab, əmək, təhsil, dostluq, vətən haqqında atalar sözləri var. Atalar sözləri

qırğızların həyat tərzindən götürülmüşdür və onların fikrincə, uşaq tərbiyəsində çox böyük rol oynayır. Atalarımız bizə atalar sözlərini miras olaraq qoyub getmişdir.

- Аламдын көркүн көз ачат, адамдын көөнүн сөз ачат – Dünyanın gözəlliyini göz, insanın könlünü söz açar.
- Абийир тапса баласы, атасына бак конот – Oğulda vicdan olsa, atasına bağ salar
- Ага —тууган ынтымактуу болсо ат көп, абысындар ынтымактуу болсо аш көп – Qohum-əqraba mehriban olsa at çox olar, böyüklər mehriban olsa aş çox olar.
- Агасы минген атты — иниси минет, атасы салган кушту — баласы салат.
- Агасын чапса балаңыз, атасын урам дегени. Эжесин чапса балаңыз, энесин урам дегени – Qardaş qardaşa, bacı bacıya baxar
- Агын суу Арам болбойт.- Axar su haramm olmaz.
- Агын сууда арам жок.- Axan suyun sərəri olmaz.
- Агын тапсаң аласың, караны тапсаң каласың.- Ağın tapsan alarsan, qaqa tapsan qalarsan.
- Агын чогулуп сел болот, адам чогулуп эл болот.- Sular yığışıb sel olar, insanlar yığışıb xalq olar.
- Агынан тийишсең бирөөгө, айланып келет кезеги.
- Адал эмгек абийир таптырат, арам эмгек азабын тарттырат.
- Адам — эли менен, өрдөк — көлү менен.- İnsan ellə, ördək göllə
- Адам (көзү) жок жерде кеп (ушак) кылба.- Özü olmayan yerdə danışma.
- Адам алсызы — урушчаак.- Zəif insan davakardır.
- Адам ачтан өлбөйт, ардан өлөт.- İnsan aclıqdan yox Susuzluqdan ölər.
- Адам болуу арзан, адамды билүү кыйын.- İnsan olmaq asandı, insanı tanımaq çətin.

Yuxarıda gördüyümüz kimi, atalar sözlərindən bəziləri Azərbaycan ədəbiyyatı ilə də uyğunlaşır.Aşağıdakı atalar sözlərini qırğız dilindən tərcümə etməyə çalışdıq ki, fikrimizcə, bu atalar sözləri əsasən qırğız ədəbiyyatı üçün xarakterikdir.

İnsan alnına yazılanlardan kənara çıxa bilməz.
İnsanla heyvan arasındakı fərq ağıldadır.
İnsan fikirdən doymaz, canavar qoyundan doymaz.
İnsan fani olsa da, ölməz işlər görür.
İnsan arxasınca gedənlərə baxıb qocalır.
İnsan özü ilə deyil, sözü ilə diqqət çəkir.
Adam ölməsə kəndin başçısı, tacir ölməsə karvan başçısı.
İnsanın ruzisi ölənə qədər tükənməz.
İnsan ölür, şöhrət yox.
İnsan öləndə hötməti, at öləndə dərisi qalır.
Kişi sözündən, inəyi buynuzundan sındırarlar.
İnsan dəmirdən sərt, (daşdan güclü), çiçəkdən daha zərifdir.

“Xalq ifadəsi ilə demiş olsaq, məsəllər hələ "çiçək" olduğu halda, atalar sözləri meyvədir. Məsələn: "Aranda tutdan, dağda quruddan" - məsəldir. "Aranda tutdan olduq, dağda quruddan" - atalar sözüdür; "Elə bil tünd sirkədir" - məsəldir, "Sirkə nə qədər tünd olsa, öz qabını çatladar" - atalar sözüdür.”

Sibir ərazisində yaşayan azsaylı türk xalqlarından olan teleütlərin də məişətində və dilində atalar sözləri qorunub saxlanılmaqdadır. Artıq ciddi şəkildə say azlığı olan teleüt atalar sözləri də, demək olar ki ortaq mövzuları əhatə edir.

Agaş t’ımjagın qurt pazar. Aydınıp polbostı sös pazar.
“Yumuşaq ağacı qurd basar. Etiraf etməyəni söz basar.”
Aş qılgada, pala kiçüde.
“Çörək buğdadan, uşaq kiçiklükten bəlli olur.”

Aytqan sös – atqan oq.
“Ağızdan çıxan söz atılan ox kimidir.”
Aytqan sös aylanbas.
“Ağızdan çıxan söz geri alınmaz.”
İşmekçi kijiniŋ iji köp, t’alqu kişiniŋ ermegi köp.
“Çalışqan adamın işi çox olur, tembel adamın sözü çox olur.”
Kijee oro qaspa, poyıŋ tüjeriŋ.
“Başqasına quyu qazma, özün düşərsən.”
Kiji ajı aş polbos. Kijideŋ t’igeni toq polbos.
“Özgənin aşından aş olmaz. Başqasından yeməklə doyulmaz.”
Məlum olduğu üzrə hələ XIX əsrin ortalarından başlayaraq ibtidai məktəbin ana dili və qiraət kitablarında atalar sözü və məsəllərə olduqca geniş yer verilmişdir. Onu da qeyd etməliyik ki, hətta atalar sözləri və məsəllər hələ sistemli şəkildə toplanana qədər çox qədim zamanlardan başlayaraq yazılı ədəbiyyatımızın görkəmli nümayəndələrinin diqqətini cəlb etmişdir. Nizami Gəncəvi, Xaqani Şirvani, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli və başqa sənətkarların əsərlərində bu və ya digər dərəcə külli miqdarda Azərbaycan atalar söz və məsəlləri işlətilmişdir. Eləcə də bir sıra klassik yazıçılarımız öz əsərlərinin adlarını atalar sözləri və məsəllərdən götürmüşdür. Məsələn: Nəcəf bəy Vəzirovun "Arxadan atılan daş topuğa dəyər", "Sonrakı peşmançılıq fayda verməz", "Adı var, özü yox", "Yağışdan çıxdıq, yağmura düşdük", Ə.Haqverdiyevin "Yeyəsən qaz ətini, görərsən ləzzətini", Rəşid bəy Əfəndiyevin "Qonşu-qonşu olsa, kor qız ərə gedər" və s.
“Şifahi xalq ədəbiyyatının ən yığcam janrlarından biri olan atalar sözü və məsəllər təlim-tərbiyə nöqteyi-nəzərindən olduqca qiymətli materialdır. Tərbiyənin əsasını təşkil edən bütün cəhətlər (vətənpərvərlik, əməyə məhəbbət, kollektivçilik, mübarizlik, sədaqət, böyüklərə hörmət, elmə, biliyə həvəs və s.) üçün yüzlərlə atalar sözləri vardır. Atalar sözləri və məsəllərin çoxu zəhmətkeş xalq tərəfindən yaradılmışdır. Buna görə də onlarda xalqın keçmişlərindəki ağır əməyi və yoxsulluğu haqqında daha çox danışılır, hakim siniflərə, istismarçılara qarşı dərin nifrət və etiraz ifadə edilir”
Demə, dedikdən sonra geri qayıtma
Desəm səndən ölərəm, etməsəm tənqiddən ölərəm
Günahsızın ayağına tikan girməz
Ağ it, qara it hələ də itdir
Su axan arxdan axır
Axar suyun heç bir zərəri yoxdur
Ağıllı düşmən axmaq dostdan yaxşıdır
Axmağı özündən anlama, xalqdan anla.
Qeyd etdiyimiz kimi, Atalar sözü sadəcə türk xalqlarının ədəbiyyatında deyil, bütün dünya ölkələrinin folklorunda rast gəlmək mümkündür. Belə ki, istər şərq, istərsə də qərb ölkələrində hətta eyni atalar sözlərinin müxtəlif variantlarını görmək heç də təəccüblü deyil.
Əcdadların ruhunu yaşadan bu sözlərdən düşüncələrə ətir saçılır, güc-qüvvət gəlir. Ağlın, düşüncənin məhsulu olan folklorun bu növündə doğma ana dilinin nəfəsini almaq, ətrini duymaq mümkündür. “Əski türkcədə bir sıra mənalarıyla bərabər əcdadlardan qalma öyüdlər - atalar sözü, məsəl anlamı bildirdiyi faktı "Divanü-lüğət-it-türk"də də qeydə alınan "sav" istilahı olmuşdur ki, bu söz çağdaş elmi-nəzəri fikirdəki "paremi(ya)" anlayışıyla uyğun gəlir. Türk dillərində, aydındır ki, həmin "sav"la yanaşı müəyyən dövrdən etibarən ərəbin "məsəl" sözü də işlənmiş, mənaca "atalar sözü" məfhumuna doğru ("əmsali- türkanə" - türk atalar sözləri) genişləyərək xalq dilinə, həmçinin ədəbi dilə keçmişdir. Ona görə də guya başqa-başqa anlayışlarmış kimi atalar sözü ilə məsəllərin mənaca ayrıldığını, forma, məna və məzmunca bir-birinin eyni olmadıqlarını iddia etməklə yanlış yoldur.”(6)

Bir çox tədqiqatçılar atalar sözü və məsəllər arasında son dərəcə incə və çətinliklə sezilə bilən fərqli xüsusiyyətlər olduğunu qeyd edirlər. Həmin "fərqləri" bu paremik vahidlərin qrammatik quruluşunda axtarmış, məsəlləri söz, birləşmə və bitkinlik əlavə eləməklə atalar sözlərinə çevirməyin mümkünlüyünü də qeyd edirlər.

- məsəl müstəqillik deyil;
- atalar sözü məcazi mənaya malik olduğu halda, məsəllər bundan məhrumdur;
- şərhə ehtiyacı olmayıb konkretlikdən uzaq və şəraitlə bağlanmayan atalar sözlərinə nisbətdə məsəllər fikri tam izah etməyə ehtiyac vardır;
- məsəllər yarandıqları əhvalatlarla bağlılıqları unudulduqca atalar sözlərinə çevrilirlər.

Dünyanın ən qədim tarixə malik olan xalqlardan biri də yapon xalqıdır. Bu xalqın ədəbiyyatında birmənalı olaraq atalar sözlərinin işlənməsi xalqın təxəyyülünün mühüm göstəricisidir. Yaponiya Atalar Sözləri Mədəniyyəti Cəmiyyətinin verdiyi məlumata görə Yaponiyada 50-60 min atalar sözü olduğu deyilir.

Məsələn, “Tapdıqlarınız haqqında susursunuz, ancaq itirdiklərinizi danışırsınız." Bu, insanları eqoizmindən xəbərdar edən bir atalar sözüdür. Atalar sözlərini oxuduqda insan sanki qədim insanlarla danışa bilir, əsrlər öncəki insanlarla dialoqa girir. Yaponiya ədəbiyyatında Kojikidə bir neçə atalar sözü işlədilir. Bundan əvvəl heç bir yazılı kitab yox idi, buna görə də Kojikidəki atalar sözləri Yaponiyada qeydə alınan ilk qeydlər idi. Daha sonra, təxminən XIII əsrdə atalar sözləri yayılmağa başladı və Edo dövründə atalar sözləri ən fəal şəkildə yaradıldı və istifadə edilməyə başladı. Yaponların fikrincə, “Atalar sözləri dünyanı birləşdirir!”

Atalar sözünə təkcə Yaponiya və Şumerdə deyil, bütün dünyada rast gəlinir. Atalar sözü olmayan xalq, millət yoxdur. Bir çox atalar sözləri hər bir ölkəyə və ya bölgəyə xas olsa da, dünyada ümumi olan çoxlu atalar sözləri də var. Bəziləri atalar sözlərini “dünyanın ümumi dili” adlandırırlar.

Yaponiyada belə bir atalar sözü var: “Divarın qulaqları var”. Azərbaycan və Türkiyə ədəbiyyatında bu atalar sözü “Yerin də qulağı var” şəklində işlənir.

"Çəməndə gözlər və kolda qulaqlar var" (Hindistan və Çexiya)
"Kalların qulaqları var" (Trinidad və Tobaqo, Mərkəzi Amerika)
"Çöldə göz, meşədə qulaq var" (İngiltərə, Fransa, Almaniya, Belçika)
“Çöldə göz, divarda qulaq var” (Gürcüstan)
"Küləkdə qulaq var" "Yolda qulaq var" (Qana, Afrika)
"Böcəklərin qulaqları var" (Afrikadakı Masai qəbiləsi)
“Gözlər gündüz, qulaqlar gecələr” (İran və Mərakeş)
"Quşlar gündüzlər, siçanlar isə gecələr nağıl eşidirlər" (Koreya).
"Divarlarda boşluqlar və daşlarda qulaqlar var" (Çin)

Çox sayda atalar sözlərinə hələ Türk ədəbiyyatının şah əsəri "Kitabi-Dədə Qorqud"da rast gəlinir. Qorqud ataya aid olan yetmişdən artıq həmin paremik vahid atalar sözlərinin toplanıb yazıya alınmasının ilkin təcrübələrindən sayıla bilər. 2000- yaxın atalar sözü və zərbi-məsəlin yazıya köçürüldüyü "Oğuznamə"nin, həmçinin mindən artıq atalar sözü və xalq məsəlini özündə birləşdirən XVIII əsr abidəsi “Əmsali-türkanə"nin üzə çıxarılması isə bunu deməyə əsas verir ki, Azərbaycan paremik vahidlərinin toplanıb yazıya köçürülməsinin bəlkə XV-XVI yüzilliklərdən keçib gələn bir tarixi var.

Nəticə. Beləliklə atalar sözləri tarixin yaddaşından süzülüb gələn və nəinki türk dünyasını eləcə də

Bir sıra dünya xalqlarının tarixini, düşüncəsini, milli dəyərlərini dil xüsusiyyətlərini qoruyub saxlayan geniş yayılmış və gələcək nəslin tərbiyəsində böyük rol oynayan vacib janrlardan biridir.

Ədəbiyyat

1. Atalar sözü. Bakı, “Öndər nəşriyyatı”, 2004, 264 səh.
2. Azərbaycanda yaşayan xalqların atalar sözləri və deyimləri, Bakı“Ecoprint” nəşriyyatı, 2016, 168 səh.
3. https://bilim-kg.com/makaldar/
4. https://informburo.kz/kaz/maal-mtelderd-aza-mrndeg-orny-olardy-alay-ayyrua-bolady.html
5. http://www.tkm.8m.net/nakyllar.htm
6. http://nasledie.nbchr.ru/nasledie/literatura/folklor/poslovitsy/
7. https://dergipark.org.tr/en/download/article-file/1135368
8. https://cyberleninka.ru/article/n/maqollar-mohiyati-va-xususiyatlari/viewer
9. https://www.kotowaza-bunka.org/blank-5
10. https://japanknowledge.com/contents/kotowaza/intro.html
11. https://dergipark.org.tr/tr/download/article-file/991079

IMADADDIN NASIMI: A MODERN APPROACH TO THE CLASSICAL LITERARY HERITAGE, PROMOTION OF NATIONAL AND HUMAN IDEALS

ИМАДАДДИН НАСИМИ: СОВРЕМЕННЫЙ ПОДХОД К КЛАССИЧЕСКОМУ ЛИТЕРАТУРНОМУ НАСЛЕДИЮ, ПРОДВИЖЕНИЕ НАЦИОНАЛЬНЫХ И ЧЕЛОВЕЧЕСКИХ ИДЕАЛОВ

İMADƏDDİN NƏSİMİ: KLASSİK ƏDƏBİ İRSƏ MÜASİR BAXIŞ, MİLLİ VƏ BƏŞƏRİ İDEYALARIN TƏBLİĞİ

F.Ü.F.D., Dos. Məmmədova Aygün Cahan
AZMİU

Abstrakt
The article reveals that Imadaddin Nasimi's works echo the heartbeat and soul of the Azerbaijani people as a whole. He lived during a time of profound complexity, marked by sharp socio-political contradictions. The era witnessed the competing ambitions of powerful commanders such as Amir Timur, Sultan Bayezid I (Bayezid the Thunderbolt), and Tokhtamish, each endeavouring to assert their authority and legitimize their claims across the fractured political landscape. Nasimi and his teacher Naimi were not ordinary individuals; they were visionary thinkers who initiated the Hurufi and Sufi movements in response to oppression and ignorance. Nasimi stands as the most powerful poet in Azerbaijani literature between the eras of Nizami and Fuzuli. As a great successor to the humanistic ideals introduced to Middle East literature by the eminent Azerbaijani poet Nizami Ganjavi, Nasimi exalted humanity, human dignity, and inner strength in his poetry. He depicted the human being as the creator of life and the true source of beauty in the world. Nasimi's work is, in essence, a lyrical hymn filled with awe for human beauty and potential. Yet, this beauty and power, he believed, were not attributes of every person, but rather of the perfect human — the perfected, self-aware individual who has achieved spiritual and intellectual enlightenment. For this reason, the poet describes the perfect human as 'the beloved of my soul', highlighting the spiritual duty of revering such a figure.
Keywords: world, perfect, human, Hurufi, Sufism, truth, love, sun

Резюме
Статья показывает, что в творчестве Насими можно услышать голос и биение сердца всего азербайджанского народа. Период жизни Насими совпал с чрезвычайно сложным периодом, когда социально-политические противоречия были крайне обострены. С одной стороны, Амир Темур, с другой стороны, Йылдырым Баязид, а с третьей — военачальники вроде Тохтамыша пытались диктовать свои требования. Насими и его учитель Наими не были случайными людьми. Они основали секту и движение хуруфизм и суфизм против угнетения и невежества. Насими — самый сильный представитель азербайджанской поэзии после Низами и до Физули. Продолжая и развивая гуманистические идеи, привнесенные в литературу Ближнего Востока великим азербайджанским поэтом Низами Гянджеви, Насими превозносил его высокую веру в человека, его достоинство и его силу, а в своих стихах он восхвалял человека как творца жизни и истинный источник красоты. Творчество Насими в целом звучит как гимн, полный восхищения человеческой красотой и силой. Однако эта красота, эта сила присущи не всем людям в мире, а лишь совершенным людям, познавшим и понявшим себя. Вот почему поэт называет совершенного человека «раем моей души», указывая на важность преклонения перед ним.

Ключевые слова: мир, совершенный, человек, хуруфи, суфизм, истина, любовь, солнце

Xülasə
Məqalədən məlum olur ki, Nəsimi yaradıcılığında bütövlükdə Azərbaycan xalqının ürəyinin səsi və döyüntüləri eşidilir. Nəsiminin yaşadığı dövr son dərəcə mürəkkəb, ictimai-siyasi ziddiyyətlərin olduqca kəskin olduğu zamana təsadüf edir. Bir tərəfdən Əmir Teymur, digər tərəfdən İldırım Bəyazid, başqa yandan isə Toxtamış kimi sərkərdələr öz iddialarını diktə etməyə çalışırdılar. Nəsimi və ustadı Nəimi təsadüfi adamlar deyildilər. Onlar zülmə, cəhalətə qarşı hürufilik və sufizm təriqətini, hərəkatını başlatdılar. Nəsimi Nizamidən sonrakı, Füzulidən əvvəlki Azərbaycan poeziyasının ən qüdrətli sənətkarıdır. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin Yaxın Şərq ədəbiyyatına gətirdiyi humanist ideyaları davam və inkişaf etdirən böyük sənətkar insana, insan ləyaqətinə, qüdrətinə olan yüksək inamını tərənnüm edərək şeirlərində insanı həyatın yaradıcısı, həyatı gözəlliklərin əsil mənbəyi kimi vəsv etmişdir. Nəsimi sənəti bütövlükdə insan gözəlliyinə, insan qüdrətinə heyranlıqla dolu bir himn kimi səslənir. Ancaq bu gözəllik, bu qüdrət dünyada bütün insanlara deyil, yalnız özünü tanımış, dərk etmiş kamil insanlara xasdır. Məhz buna görə şair kamil insanı "canımın canənəsi" adlandırır, ona səcdə etməyin vacib olduğunu göstərir.
Açar sözlər: cahan, kamil, insan, hürufilik, sufizm, haq, eşq, günəş

Bu il Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəffəkkir şairi İmadəddin Nəsiminin anadan olmasından 656 il ötür. Yüksək idealları və məfkurəsi yolunda mübarizə aparan bu görkəmli şəxsiyyət daim şər qüvvələrə qarşı son nəfəsinə qədər fədakarcasına mübarizə aparıb. Bu yolda öz həyatını qurban verməsi böyük bahadırlıq dastanı kimi 600 ildən bəridir ki, yaşamaqdadır. Məhz bunun üçün də Prezident İlham Əliyev yanvarın 11-də 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edilməsi haqqında sərəncam imzalayıb. [1] Ölkəmizin başçısı məlum Sərəncamla xalqımızın, dövlətimizin bu böyük şairin irsinə ehtiramını ifadə edib. Bu tarixi qərarda cəmiyyətimizin Nəsimi şəxsiyyətinə münasibəti ifadə olunub. [1] Onun düşüncə mirasına sevgi öz əksini tapıb. Ondan əvvəl və ondan sonra yaşayıb-yaratmış bütün fikir adamlarımız kimi, Nəsiminin də Azərbaycan xalqına və ümumən bəşəriyyətə mənəvi əmanətləri çoxdur.
Bu gün danışdığımız saf, inci kimi cilalı, şirin ana dilimiz onun əmanətlərindəndir. Azərbaycan xalqının ümumbəşəri dəyərlərə sadiqliyi, yüksək humanizmi, tolerantlıq ənənələri, istiqlal ideyalarına bağlılığı, milli dövlətçiliyimizə sadiqliyi Nəsimi kimi dühalarımızın nurundan irəli gəlir. Azərbaycanda "Nəsimi ili"nin elan olunması adi, sıradan bir hadisə deyil. İctimai fikir tariximizdə müəyyən rolu olmuş hansısa şəxsiyyətin sadəcə yubileyinin keçirilməsi üçün atılan addım da deyil. Bu, daha çox Nəsimi ideyalarının aktuallaşdırılmasıdır.
Belə mütəfəkkirləri yetirmiş Azərbaycan xalqının nə qədər böyük xalq olduğunun dünyaya nümayiş etdirilməsidir. [2] Belə bir yanaşma ulu öndər Heydər Əliyevin hələ ötən əsrin 70-ci illərində gördüyü işlərin daha uğurlu davamıdır. Nəsiminin anadan olmasının 600 illiyi münasibətilə o zaman ulu öndər sərhədləri dünyaya qapalı kiçik bir ölkənin şairinin yubileyinin UNESCO xətti ilə beynəlxalq miqyasda keçirilməsinə müyəssər oldu. Bakıda şairin möhtəşəm abidəsi ucaldıldı, adı paytaxtın inzibati rayonlarından birinə verildi. Heydər Əliyevin dəstəyi ilə çəkilən "Nəsimi" filmi yaxın-uzaq ölkələrə səs salıb. Bu gün də İ.Nəsiminin 656 illik yubileyi ölkənin əksər ali və orta təhsil ocağında təntənəli şəkildə qeyd olunur. Onun böyüklüyü, ucalığı tələbə, şagird və eyni zamanda xalqın diqqətinə çatdırılır.
Qısa arayış: Seyid Əli Seyid Məhəmməd oğlu İmadəddin Nəsimi 1369-cu ildə Şamaxıda anadan olub. Azərbaycan şairi, dahi mütəfəkkir İmaməddin Nəsimi adı ilə məşhurdur. Şairin atası Seyid Məhəmməd Şirvanda yaxşı tanınan şəxsiyyətlərdən idi. Nəsiminin bir qardaşı da

olub. Onun Şamaxıda yaşadığı, Şah Xəndan təxəllüsü ilə şeirlər yazdığı və hazırda bu adla tanınan qədim qəbiristanlıqda basdırıldığı məlumdur. Şairin əsərlərinə diqqət yetirdikdə bəlli olur ki, Nəsimi Şamaxıda o dövrün ən yaxşı universitetlərinin tələbinə cavab verəcək bir dərəcədə kamil təhsil ala bilib. İlk təhsilini Şamaxıda alıb. Dövrün elmlərini, dinlərin tarixini, klassik Şərq və qədim yunan fəlsəfəsini, habelə ədəbiyyatını dərindən mənimsəyib. İslam və xristianlıq dinlərinin əsaslarına yaxından bələd olub. Quran, hədis elminə gözəl yiyələnib, tarix, psixologiya, etika, coğrafiya, tibb, astronomiya və astrologiya, riyaziyyat və məntiq elmlərinə dərindən qail olub. O, Azərbaycan, fars və ərəb dillərində eyni dərəcədə gözəl məzmunlu şeirlər yaza bilib. Onun azərbaycanca şeirlərinin dili həm zənginliyi, həm də xalq nitqinə yaxınlığı ilə seçilir, atalar sözləri, zərb-məsəllər, hikmətli sözlər burada çoxluq təşkil edir. Nəsimi 3 dildə ana dili səviyyəsindən geri qalmayan şeirlər yazıb. Demək olar ki, Nəsimi şeirlərinin məzmun cəhətdən əsas mahiyyəti "Qurani-Kərim"in ideyasından kənara çıxmır.
Teymurləng hürufiləri ciddi təzyiqlərə məruz qoyduğu bir vaxtda Nəsimi vətəndən didərgin düşüb, İraq, Türkiyə, Suriyada yaşamağa məcbur olub. Mənbələrə görə, Nəsimi hürufilik təlimi əsasında irəli sürdüyü panteist ideyaları üstündə Hələb şəhərində edam olunub.
Nəsimi yaradıcılığında bütövlükdə Azərbaycan xalqının ürəyinin səsi və döyüntüləri eşidilir. Nəsiminin yaşadığı dövr son dərəcə mürəkkəb, ictimai-siyasi ziddiyyətlərin olduqca kəskin olduğu zamana təsadüf edir. Bir tərəfdən Əmir Teymur, digər tərəfdən İldırım Bəyazid, başqa yandan isə Toxtamış kimi sərkərdələr öz iddialarını diktə etməyə çalışırdılar. Nəsimi və ustadı Nəimi təsadüfi adamlar deyildilər. Onlar zülmə, cəhalətə qarşı hürufilik və sufizm təriqətini, hərəkatını başlatdılar. [3]. Nəsimi Nizamidən sonrakı, Füzulidən əvvəlki Azərbaycan poeziyasının ən qüdrətli sənətkarıdır.
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrasının professoru Mahmud Allahmanlı yazır ki, Nəsimi özü və yaradıcılığı haqqında şeirlərinin birində belə deyirdi: [3]

Hər kəs Nəsimi sözünü kəsb edə bilməz,
O bir quş dilidir, onu ancaq Süleyman bilir.
Nəsimi şeirlərində kamil insan məsələsinə də daim toxunurdu.

Nəsimi kamil insan düşüncəsi ilə ədəbiyyatımıza böyük ərmağan, düşüncə gətirdi. Bu düşüncə elə indi də insanlarımızın gedəcək yolunu müəyyənləşdirir.

”Ey könül, Mənsur ənəlhəqq söylədi,
Həqq idi, həqqi dedi, həqq söylədi.
Mərifət sirrini mütləq söylədi
Arif amənna-vəcəddəd söylədi.

Nəsiminin əsərləri içərisində "Bəhrül əsrar” qəsidəsi xüsusi maraq doğurur. Məlumdur ki, bu əsər dərin fəlsəfi məzmuna malik olması ilə bərabər, həm də böyük tərbiyəvi və nəsihətamiz fikirlərlə zəngindir.

Ayağını bu torpağa hörmətlə bas, unutma ki,
Şahlar başı torpaq olmuş gəlib-gedən üstə gəzər.

Əsərdə fəlakətlərlə dolu olan bir zəmanədə zülm və əsarət içərisində iztirablı, kədərli həyat keçirən insanların taleyi şairi dərindən düşündürür. Şair dövlət və sərvət yığmaq ehtirasına, acgözlüklə dünyanı soymağa, çapıb-talamağa çalışan tamahkar, qəddar ürəkli hökmdarlara,

feodal məmurlarına istehza edir. Dövlətə, sərvətə pərəstiş edənlərin insanları əzmələrini pisləyir.

Simü–zər yığmaq üçün cəhd eyləmə Qarun kimi,
Hər xəzinə torpaq altında qalıbdır min kərə.
Sərvət ilə yüklənərsə kəştisi dövrün əgər
O tufanlı dəryada düşməz məgər şuri-şərə?..
Dünya birşandır, onun həm şəhdi, həm də zəhri var,
Şəhid üçün insan gərəkdir tab gətirsin nəştərə.

Nəsimi sözə dəyər verən şair olub. O, şeir və rübailərində hikmətli sözlərdən məharətlə istifadə edib.Azərbaycan dilinin gözəlliklərini, əzəmətini, zənginliyiniözünəməxsus şəkildə çatdırıb.

Düşdü yenə dəli könlüm gözlərinin xəyalinə,
Kim nə bilir bu könlümün fikri nədir, xəyali nə.
Al ilə ala gözlərin aldadıb aldı könlümü.
Alını gör nə al edər kimsı irişməz alinə.

Xalqın təəssübünü çəkmək Nəsiminin bütün yaradıcılığı boyu davam edib.
Yoxsul və zəhmətkeş adamlar Nəsimi nəzərində böyük məhəbbətə, böyük qiymətə malik olanlardır. Burada şair insanları sadəliyə, fədakarlığa, təvazökarlığa, yüksək əxlaqi-mənəvi keyfiyyətlərə malik olmağa, arif olmağa, mənalı, şüurlu həyat keçirməyə çağırır.

İnsan üçün mərifətdən özgə yoxdur bir bəzək,
Bax, sədəf çılpaqdır, ancaq qəlbi bənzər gövhərə.
Aqil insan zər üçün öz ömrünü verməz hədər,
De, siçanlar nədən eşq yetirdin sən zərə?
Sən çörəkçün minnət etmə, hifs elə öz ruzini
Qafil ol kəsdir ki, ruziçin o, batmaz qan-tərə…

Nəsiminin şeirlərində Qurana müraciət olduqca çox yer alıb.

Ey cəmalın Qul huvəllahu əhəd.
Surətin yazısı Allahus Saməd.
Bir ucu zülfünün əzəl, biri əbəd.
Hüsnünə şeytanmış mən lə səcəd.

Azərbaycan Milli Elmlər Akademiyasının Elm Tarixi İnstitutunun əməkdaşı Aybəniz Osmanova Nəsiminin insanların qəlbini, onların mənəvi dünyasını ilahi ustalıqla tərənnüm edən şair olduğunu söyləyib: “Nəsimi şeirlərini daha təsirli edən onun misralarında fəlsəfi düşüncənin daha geniş təcəssüm olunması idi. Onun fəlsəfi şeirlərini hər kəs başa düşə bilmirdi. Nəsiminin təbirincə desək, yaxşı söz, sonda yaxşı şeirə, yaxşı şeir isə yaxşı fəlsəfəyə çevrilir”. [4]
Daim ənəl-həqq söylərəm, neçünki Mənsur olmuşam,
Kimdur məni bərdar edən, bu şəhrə mənsur olmuşam.

Nəsimi şeirlərində əxlaq məsələləri də başlıca rol oynayıb. Əksər şeirlərində, mədəni, mənəvi, siyasi, ictimai, elmi və fəlsəfi əxlaqa daha geniş diqqət yetirilib.Nəsiminin tənqid hədəflərindən biri də özlərini arif kimi göstərən sufilər idi.

Bir məgəsdir balı yox.
Bir ağacdır barı yox...

Bu misralarda mütəfəkkir şair o dövrün hakim dairələrini, əqidəsiz din xadimlərini, riyakar zahidlərini özlərini balverən arıya bənzətmək istəsələr də, onları məgəs (milçək) adlandırıb, barsız ağaca bənzədib. Nəsiminin nəsihətamiz şeirləri də tərbiyəvi cəhətdən mühümdür. Şeirlərinin birində ədib təriqət çaşqınlığında qalanlara belə buyurur:

Ey könül hər bivücuddan can umursan, nə əcəb.
Bikərəmdən lütfilən, ehsan umursan, nə əcəb.
Bişəriətlər nə bilsün ənbiyanın şərtini,
Bitəriqətdən rəhe ərkan umursan, nə əcəb?!

Dahi Nəsimi ürfani eşqi olduqca geniş tərənnüm edir. Onun eşq haqda olan şeirləri fəlsəfi baxımdan dünya ədəbiyyatının şedevri sayıla bilər. Nəsimiyə görə eşq yalnız Allaha olmalıdır. Bunu isə yəqin əhli olan ariflər duyar. Nəsimi insanın yaradılışının mənbəyini eşqdə görür. Bəzən alimlər bunu qadın-kişi arasında olan eşqlə qarışdırır. Sual yaranır ki, bəs Adəmlə Həvvanı hansı insanların eşqi yaradıb? Nəticə bunu göstərir ki, Nəsimi yaradıcı eşqi önə çəkəndəilahi eşqi nəzərdə tutur. Hətta bu ölməz şairin məlum yanaşmasındansonra "Eşq haqqı"ifadəsi də dillər əzbəri oldu.

Eşqlə gəldi cəmi ənbiya
Eşq idi seyre süluke övliya
Eşqilə yola girərlər biriya
Eşqilə vasil olurlar tanrıya.

Eyni zamanda İ.Nəsimi

Ey könül, həqqsəndədir, həqqsəndədir,
Söylə həqqi kim, ənəlhəq səndədir,
Nuri-mütləq, zati-mütləq səndədir.
Müshəfin hərfi mühəqqəq səndədir.

misraları ilə insanlara tövsiyə edir ki, hər işində Allahı gör. Haqqı, dəyərləri hər şeydən üstün tut, gələcəyini bu yöndə qur.
F.Köçərli adına Respublika Uşaq Kitabxanasının metodisti Aynurə Əliyeva yazır: [5]
"Hələbdə Nəsiminin tərəfdarlarının çoxalması din xadimlərini təşvişə salır, onların fətvası ilə Nəsimi zindana salınır. 1417-ci ildə asılaraq dərisi soyulur. Deyilənlərə görə, şairin edamını təşkil edən din xadimi "Bu elə bir məlundur ki, hara qanından bir damla sıçrasa, oranı kəsmək gərəkdir" demiş. İşə bax ki, şairin qanından bir damla həmin dinxadiminin barmağına düşmüş, barmağının kəsilməsini istəyənlərə "mən söz olaraq demişdim" söyləyib.
Al-qan içində inləyən, həyatın son akkordlarını yaşayan Nəsimi burada bədahətən"Ağrımaz" qəzəlini ərz edib. Nəsiminin adı mərdlik və yenilməzlik simvolu kimi yaşamaqdadır.

Ay ilə günəş üzün heyranıdır,
Mişk ilə ənbər saçın tərxanıdır,
Çün Nəsimi aləmin sultanıdır,
Dövr anın, dövran anın dövranıdır.

Nəsiminin ölümü gözəl ölümdü. Deyirlər onu soymağa dabanından başlayıblar, lakin o,idealından dönməyib. Onun haqqında çoxlu rəvayətlər də yaranıb. Rəvayətlərin birində söylənilir ki, ölüm ayağında belə dözüm və mətanəti qarşısında sarsılan ruhanilər istehza ilə ondan soruşurlar:
-Sən ki, haqsan, bəs niyə qanın axdıqca saralırsan?
Nəsimi qürurla cavab verir:
-Bəli, rəngim saralır.
Mən əbədiyyət üfüqlərində doğmuş eşq günəşiyəm.
Günəş qürub edəndə saralar.
Nəsimini diri-diri soymaq, şaqqalamaq, onu sındırmaq olardı, lakin əymək olmazdı. Azərbaycan oğlunun bu ibrətli ölümü, xalqımızın, onun davam edib gələn nəsillərinin iradəliliyi, dönməzliyi rəmzi olub. Bu ölüm sözün əsl mənasında poeziyaya çevrilib. [5]. Şair öz ölümü ilə insanlığı heyran qoydu. Nəsimikönüllər fatehi idi. Şair ölümü ilə ölməzliyini təsdiq etmiş əbədi şəxsiyyətdir. Azərbaycanın əbədi şəxsiyyəti…
Böyük şair-filosof İ.Nəsimi dərin, sarsılmaz inam və işıqlı ideal sahibi olub. Sözün böyük mənasında heyrət doğuran cəhət budur ki, Nəsimi öz həqiqətini, öz "ənəlhəq"ini yalnız poeziyasının qüdrəti ilə deyil, şəxsi dönməzliyi, fədakarlığı ilə,əfsanələrə çevrilmiş mərdanə və amansız ölümüylə təbliğ və təsdiq etdi.
Onu da əlavə edək ki, hazırda Hələbdə Nəsiminin adını daşıyan köhnə bir küçə var. Böyük söz ustadının məqbərəsi oradadır.Yerli sakinlər Nəsiminin öz vətəni, öz dili olduğunu bilirdilər. Onlar bilirdi ki, Nəsimi doğma xalqının oğludur. Bu xalq isə bizik.

Mənsur: "Ənəlhəq!" söylədi,
"Mürtəddir!"–Elan etdilər.
Mənsur "mənəm həqq" söylədi,
Bağdadda edam etdilər.

Ədəbiyyat

1.Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Azərbaycanda "Nəsimi ili" elan edilməsi haqqında. Bakı, 2019. https://president.az
2.Əliyev H. İmadəddin Nəsiminin 600 illik yubileyi haqqında sərəncam. Azərbaycan mətbuatı arxivi. Bakı, 1973.
3.Allahmanlı M. İmadəddin Nəsimi və Azərbaycan poeziyasında kamil insan anlayışı. Bakı: ADPU nəşriyyatı, 2020.
4.Osmanova A. Nəsimi irsində fəlsəfi poetika və sufizm // Elm və Həyat. 2023. №3. s. 45–52.
5.Əliyeva A. F. Köçərli adına Respublika Uşaq Kitabxanasında Nəsimi irsinin tədqiqi // Uşaq Ədəbiyyatı və Mədəni İrs. 2024. №1. s. 18–25.
6.Müdafiə Nazirliyi. Nəsimi irsi və mənəvi dəyərlər, 2019 – https://mod.gov.az/az/pre/28591.html
7.Vikipediya. *İmadəddin Nəsimi* – https://az.wikipedia.org/wiki/İmadəddin_Nəsimi

8.Şərq Qəzeti. Nəsimi və kamil insan anlayışı, 2019 – https://sherg.az/arxiv/68631
9.Milli Kitabxana. Nəsimi haqqında məqalə, 2019 – https://www.anl.az/down/meqale/sherq/2019/iyun/657508.htm
10.Azərbaycan Dövlət Pedaqoji Universiteti. “X Muhazirə: Nəsimi yaradıcılığı və ideyaları”,2025–https://adpuquba.edu.az/wp-content/uploads/2025/04/X-Muhazir%C9%99.pdf

COMPARATİVE ANALYSİS OF ORNİTHONYMS İN ENGLİSH AND AZERBAİJANİ LANGUAGES

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ ORNİTONİMLƏRİN MÜQAYİSƏLİ TƏHLİLİ

Əsədova Sevinc
Azərbaycan Dövlət PedoqojiUniversiteti

Abstrakt
This article is devoted to the analysis of phraseologisms in English and Azerbaijani languages, in which ornithonyms play the main role. The dialectical unity of man and nature gives rise to the idea that man has been associated with birds, which are a part of nature. Ethnographic data and extralinguistic facts about the connection of birds with the cultural life and beliefs of the people are very important for our linguistic research. The zoological lexicon of each language is closely related to the social and spiritual life of the speakers of that language. The study of ornithonyms in the world's languages in synchronous and diachronic directions is one of the topical issues for linguistics. Ornithonyms are names given to birds, and Ornithology is the scientific field that studies them. Ornithonyms are names given to birds that differ in their individual characteristics from other birds. The term ornithology is used to denote the names of birds in a language or language family. Ornithonyms are groups of words that are included in the active lexicon of the language to which they belong. At the same time, their functional possibilities are very wide. They can be used both in language and speech, in literary language and in social dialects. Just as the literary language is used in both artistic and scientific styles, it can also be used in colloquial and everyday style, and in this case it reflects various stylistic nuances. Ornithology is an ancient Greek word that means bird and study. Ornithology is a branch of zoology that studies birds and their embryology, mythology, physiology, ecology, systematics and geographical distribution. This term was introduced by the Italian naturalist Adrovandi at the end of the 16th century. Its history begins with Aristotle, who wrote a book called "Description of Animals" in 170 BC, which describes the lifestyle and anatomy of 170 species of birds. Birds play an important role in human life and nature.
Keywords: phraseological unit, ornithonym, similarity, semantic analysis.

Xülasə
Bu məqalə, ornitologiya, quşların adlandırılması – ornitonimlərin əsas rol oynadığı frazeologizmlərin ingilis və azərbaycan dillərində analizinə həsr olunur. İnsanla təbiətin dialektik vəhdətdə olması belə bir fikir söyləməyə əsas verir ki, insan elə təbiətin bir parçası olan quşlarla əlaqəli olmuşdur. Quşların xalqın mədəni həyatı, inancları ilə əlaqəsi haqqında etnoqrafik məlumatlar,ekstralinqvistik faktlar apardığımız linqvistik araşdırmalar üçün olduqca əhəmiyyətlidir. Hər bir dilin zooloji leksikası həmin dilin daşıyıcılarının ictimai, mənəvi həyatı ilə sıx əlaqədardır. Ornitonimlərin dünya dillərində sinxron və diaxron istiqamətdə tədqiqi dilçilik üçün aktual məsələlərdən biridir. Ornitonimlər quşlara verilən adlar, Ornitologiya isə onları öyrənən elm sahəsidir. Ornitonimlər individual xarakteri ilə fərqlənən quşları digər quşlardan fərqləndirmək üçün onlara verilən adlardır. Bir dildə və ya bir dil ailəsində quş adlarını bildirmək üçün ornitomiya terminindən istifadə edilir. Ornitonimlər elə söz qruplarıdır ki, onlar mənsub olduğu dilin aktiv leksikasına daxildir. Eyni zamanda onların funksionallaşma imkanları da çox genişdir. Həm dildə, həm də nitqdə, həm ədəbi dildə, həm də sosial dialektlərdə istifadə edilə bilir. Ədəbi dilin həm bədii,həm elmi

üslublarında işləndiyi kimi, danışıq dilində, məişət üslubunda da işlənə bilir və bu zaman müxtəlif stilistik çalar-rəngarənglik əks etdirir. Ornitologiya qədim yunan sözü olub, quş və öyrənmə deməkdir. Ornitologiya – zoologiyanın quşları və onların embriologiyası, mifologiyası, fiziologiyası, ekologiyası, sistematikası və coğrafi yayılmasını öyrənən bölməsidir. Bu termin, XVI əsrin sonlarında İtaliya naturalisti Adrovandi tərəfindən daxil edilmişdir. Onun tarixi isə b.e.ə 170 növ quşun həyat tərzi və anatomiyasını təsvir edən "Heyvanların təsviri" adlı kitabı yazmış Aristoteldən başlayır. Quşlar insan həyatında və təbiətdə mühüm rol oynayır.

Açar sözlər: frazeloji vahid, ornotionim, oxşarlıq, semantik təhlil.

İstifadə olunmuş Ədəbiyyat:

1.Hacıyeva A.K İngiliscə - Azərbaycanca zoometaforizmlər lüğəti. Bakı, Nurlan 2004.
2.Vəliyeva N. Azərbaycanca- İngiliscə - rusca frazeoloji lüğət, Bakı, Nurlan 2006
3.Sovet ensiklopediyası – VII cild
4.Kunin A.V. Müasir ingilis dilinin frazeologiya kursu, 1986, səh 836
5.www.academic.ru – Орнитология

ISSUES OF COGNİTİVE ANALYSİS OF LİTERARY DİSCOURSE

ВОПРОСЫ КОГНИТИВНОГО АНАЛИЗА ЛИТЕРАТУРНОГО ДИСКУРСА

BƏDİİ DİSKURUN KOQNİTİV TƏHLİLİ MƏSƏLƏLƏRİ

Fatimə Səmədzadə
ADU

Abstrakt
The article approaches the cognitive analysis of artistic discourse from two aspects. The last aspect is the analysis of artistic discourse from the position of its author. The author's position, intention, the necessary information he wants to convey are included in the analysis based on his speech. In some works of art, the author does not express his attitude to the described and narrated events and the characters in the work, but the speaker in a number of artistic discourses becomes a direct participant in the events. It is important to consider these two directions in cognitive analysis.
The second aspect of the cognitive analysis of the discourse is the approach to it from the position of the reader. In this case, how the reader perceives the information received from the artistic discourse, evaluates and evaluates it is at the center of the analysis. The reader's attitude is included in critical articles, analyzes and comments about a work of art. It follows from this that the cognitive analysis of the artistic discourse from the reader's position is carried out with reference to the opinions and comments written about the work.
Keywords: Artiscic discourse, text, cognitive analyses

Xülasə
Məqalədə bədii diskursun koqnitiv təhlilinə iki aspektdən yanaşılır. Bitinci aspekt bədii diskursun onun müəllifinin mövqeyindən təhlilidir. Müəllif mövqeyi, niyyəti, ötürmək istədiyi zəruri informasiya onun nitqi əsasında təhlilə cəlb olunur. Bəzi bədii əsərlərdə müəllif təsvir edilən, nəql olunan hadisələrə, əsərdəki personajlara öz münasibətini ifadə etmirsə, bir sıra bədii diskurslarda danışan bilavasitə hadisələrin iştirakçısı olur. Bu iki istiqamətin koqnitiv təhlildə nəzərə alınması vacibdir.
Diskursun koqnitiv təhlilinin ikinci aspekti ona oxucu mövqeyindən yanaşmadır. Oxucunun bədii diskursdan aldığı informasiyanı necə qavraması, onu necə dəyərləndirməsi və qiymətləndirməsi bu halda təhlilin mərkəzində durur. Oxucu münasibəti bədii əsər haqqında olan tənqidi məqalələrdə, təhlil və şərhlərdə yer alır. Buradan belə nəticə çıxır ki, bədii diskursun oxucu mövqeyindən koqnitiv təhlili əsər haqqında yazılmış rəy və şərhlərə istinadla aparılır.
Açar sözlər: Bədii diskurs, bədii mətn, kognitiv təhlil

Резюме
Статья подходит к когнитивному анализу художественного дискурса с двух сторон. Последний аспект – это анализ художественного дискурса с позиции его автора. Позиция автора, намерение, необходимая информация, которую он хочет донести, включаются в анализ на основе его речи. В некоторых художественных произведениях автор не выражает своего отношения к описываемым и рассказываемым событиям и персонажам произведения, но говорящий в ряде художественных дискурсов становится

непосредственным участником событий. Важно учитывать эти два направления в когнитивном анализе.

Вторым аспектом когнитивного анализа дискурса является подход к нему с позиции читателя. То, как читатель воспринимает информацию, полученную из художественного дискурса, как ее ценит и оценивает, в данном случае находится в центре анализа. Отношение читателя включается в критические статьи, анализы и комментарии о произведении искусства. Из этого следует, что когнитивный анализ художественного дискурса с позиции читателя осуществляется с опорой на мнения и комментарии, написанные о произведении.

Ключевые слова: Художественный дискурс, художественный текст, когнитивный подход

Diskurs koqnitiv-diskursiv paradiqmanın baza anlayışlarından biridir M.Fuko eyni bir diskursiv formasiyaya aid olan söyləmlər qrupunu diskurs adlandırmışdır. Onu fikrinə görə, diskurs məhdud miqdarda hökm əsasında qurulur və bu hökmlərin mövcudluq şərtləri toplusunu təyin etmək mümkündür. O, diskursu reallığın dərk olunması kimi qəbul etmişdir. Diskurs təcrübəsində gerçəklik anlaşılır və belə anlaşmanın qaydaları yaradılır. Diskurs müvafiq düşüncə prosesinin nəticəsi olub müxtəlif diskursiv təcrübədə reallaşan gerçəkliyi görmə və nizama salma prosesidir [1, s. 30]. M.Fukonun fikirlərini şərh edərkən "gerçəklik" sözündən istifadə edilmişdir. Bu anlayış diskursa istinadla söylənilir, müvafiq diskursun nəzərdə tutduğu gerçəkliyi ehtiva edir. Konkret diskursa münasibətdə gerçəkliyin düzgün, həqiqi, yaxud naqis qavramı mümkündür. Diskursun dərki koqnitiv planda baş verir, insan ağlı və təfəkkürü, eləcə də mental proseslər və onlarla bağlı hallarla əlaqədə gedir [2, s. 126]. Koqnitivistikanın əsas vəzifəsi biliklərin əldə olunması, emalı, saxlanması mexanizmlərini tədqiq etməkdir. Koqnitiv linqvistika bu mexanizmlərin nitqin yaradılması və dərki prosesində necə işlənməsini öyrənir. "Koqnivistika" dünya haqqında informasiya ilə ən müxtəlif rakurslardan və münasibətlərdən çıxış edərək məşğul olur, insan mövcudluğunun dünyanı dərketmə və onu şüurda inikas etdirmə, beyinin dili, insanın koqnitiv bacarıqlarının təşkili və yaddaş kimi mürəkkəb fenomenlərini öyrənir [3, s. 30]. Bütün bunlar göstərir ki, diskursun koqnitiv planda öyrənilməsi zamanı tədqiqatçının diqqət mərkəzində şüurun, insan intellekti və ağlının işini təmin edən müxtəlif koqnitiv və düşüncə prosesləri durur.

Bədii mətn mürəkkəb diskursdur. Onun yaradıcısı müəllifdir və onun diskursiv fəaliyyətinin özü mürəkkəb mexanizmə malikdir. Çünki qələmə alınan hər bir bədii əsərin mövzusu, süjeti, kompoziyası, müəllif niyyəti həm müəyyən zaman kəsiyində təfəkkürdə formalaşır, həm də fərqli zamanlarda qələmə alınır. Bu zaman kəsimləri də yaradılan əsərə təsirini göstərir. Yəni bədii diskurs müəyyən zaman ardıcıllığı ilə formalaşır, tədricən genişlənir. V.Z.Demyankov

koqnitiv anlamda diskursdan bəhs edəndə onun şərhçinin düşüncə və dərketmə prosessindəki nitqi kimi izah edir. İlkin və aralıq şərh olunmuş diskurs hissələri bir-biri ilə birləşir [4, s. 49-50]. Bədii əsər həm müəllif, həm də onu oxuyanın şərhi süzgəcindən keçir. Şərh edən müəllifin demək istədiklərini öz mövqeyindən, öz fikir və düşüncələri işığında aydınlaşdırır.

Diskursun koqnitiv tədqiqi və təhlili aparandan asılı olaraq müxtəlif formalarda təqdim edilə bilər. Nəticə etibarı ilə diskursun koqnitiv təhlilində təqdim olunan müəllif mövqeyi, müəllifin nəzərdə tutduğu ilə üst-üstə düşmür. Ən azı onların, yəni bədii mətni diskurs təhlilinə cəlb edən şərhçi ilə müəllifin nəzərdə tutduğu tam üst-üstə düşməsindən danışmaq çox çətindir.

Diskursun koqnitiv strukturu, bu, hər şeydən əvvəl, onun konseptual strukturudur. İnsanın dil səriştəsi müxtəlif amillərdən asılıdır. Ən mühüm amil təcrübə və bilikdir.

Y.Səmədoğlunun "Qətl günü" romanı epiqrafla başıanır:

" – Yolun haradır, qardaş?
- Son mənzilədir, bacım.
Bir xəstənin qulağına gələn səslərdən" [5, s. 145].

Epiqraf bədii mətnin başlıq kompleksinə daxil olan vahiddir olub mürəkkəb sintaktik bütöv, mikrotema sayılır. Ümumiyyətlə mətnlərin, xüsusən də bədii mətnlərin başlıqları, eləcə də başlıq kompleksinə daxil olan digər elementləri xüsusi funksiya daşıyır. Bədii mətn başlanğıc, daha dəqiq desək, başlıq və başlıq kompleksinə daxil olan elementləri ilə assosiativ əlaqələrə meydan açır. Bunu bədii diskursun koqnitiv təhlilində müşahidə etmək mümkündür.

Diskursda intertekstuallığın movcudluğunu, diskurs iştirakçısının diskursun nüvəsini təşkil edən əsas mətndə hansı pretekstləri yada salması, bədii mətnin təhlili və ədəbi tənqidinə aid yazılmış müxtəlif rəylər əsasında təyin etmək olur. Diskursiv təhlildə mətnin interperetasiyası, şərhi, onun diskurs iştirakçısı olan oxucunun düşüncəsində, əqli fəaliyyətində yaratdığı və bilavasitə ilkin mətndən doğan fikirləri əhatə edir. Bu fikirlər əsəri oxuyan hər bir oxucuda yaranır. Lakin oxucular bilik, həyat təcrübəsi və digər aspektlər nəzərə alındıqda bir-birindən fərqlənirlər. Eyni zamanda hər bir oxucu bədii mətni oxuyarkən keçirdiyi hiss və həyacanı, xatırladığı məsələləri qələmə almır. Bütün bunlar oxucunun, diskursiv fəlaiyyətdə olan şəxsin daxili nitqinə çevrilir və onun yaddaşında da qalır. Bu baxımdan bədii diskurs haqqında bütün mümkün fikirləri heç vaxt bir araya gətirmək mümkün deyil. Lakin bədii təhlillə bağlı daha çox dil və bilik səriştəsi olan, bədii əsərin yazıldığı dilin daşıyıcılarının mühitində qəbul olunan elə tənqidçilər vardır ki, onlar əsər haqqında öz fikir, müşahidə və təəssüratlarını qələmə alırlar. Ona görə də bədii diskursun diskursiv təhlili zamanı belə mətnləri nəzərdən keçirmək tədqiqat üçün olduqca əhəmiyyətlidir. Bədii əsər haqqında rəylər, ədəbi-tənqidi yazılar yeni diskurs əmələ gətirir. Bu diskurslarda ilkin, yaxud əsas mətn, yazılmış rəy, oxucu təəssüratı olur. Bədii əsərin özü isə bu halda pretekst funksiyasını yerinə yetirir. Biz Y.Səmədoğlunun "Qətl günü"romanı haqqında hələlik bir rəyi diqqət mərkəzinə çəkmək, onun və mətnin diskursiv təhlilini aparmaq niyyətindəyik. Azərbaycanın tanınmış tənqidçisi Vaqif Yusiflinin Y.Səmədoğlunun yaradıcılığı, o cümlədən də "Qətl günü" romanı haqqında yazılarından biri "Yusif Səmədoğlu – böyük nəsr ustası kimi" adlanır [6]. Məqalə Y.Səmədoğlunun foto şəkillərinin tənqidçidə oyatdığı hiss və duyğuların yığcam təsviri ilə başlayır. Müxtəlif fotolardan bəhs edən müəllif sonuncu şəkildən danışanda yazıçının simasındakı təbbəsümü

qeyd edərək, belə bir ümumiləşdirmə aparmışdır: “Və bir də bu təbəssümdə bir qəm də var...” Tənqidçinin bu cümləsində bütün ağırlıq “qəm” sözünün üzərində cəmləşmişdir.

V.Yusifli bədii mətni, daha dəqiq desək, Y.Səmədoğlunun müxtəlif əsərlərini ədəbiyyatşünaslıq mövqeyindən diskursiv təhlil etmişdir. Bu təhlil tam və geniş deyil, bir istiqamətlidir və həmin istiqamətin göstəricisi də məhz “qəm” sözüdür. Təbəssümdəki qəmin tənqidçidə oyatdığı hisslərin aurası həmin cümlədən sonrakı hissədə verilir:

“Və bir də bu təbəssümdə bir qəm də var...

“Qətl günündə”ki iki frazanı xatırlayırsan.

Biri: “Yandım, kül oldum, a dağlar...”

Biri də: “Tfu sənin təxtinə, ey çərxi fələk!”[6]

Xatırlanan hər iki fraza intertekstemadır, pretekstdən alınmış söyləmlərdir. *Yanmaq, kül olmaq* “məhv olamaq”, “yox olmaq” anlamına gəlir. İnsanın daxilən yanması, daxilən kül olması “qəm” sözünün mənası ilə birbaşa bağlıdır. Bu yalnız yananın, kül olanın qəmi deyil, diskursda iştirak edən oxucunun da qəminə çevrilir və ya oxucunu qəm üzərində kökləyir. “Dərd də azar kimi gələndə batmanla gəlir” – “Qətl günü” romanı bu fraza ilə başlayır. “Dünya duracaq yer deyil, ey can, səfər eylə...” (Nəsimi)” [6]. Tənqidçinin diskursunun oxucuya təqdim olunan bu fraqmentində də iki intertekst diskurs mətninə daxil edilmişdir. Birinci intartekst yenə də pretekstdəndir. İkincisi, dərisi dabanından soyulmuş Azərbaycanın məşhur şairi Nəsiminin yaradıcılığındandır.

Y.Cəmədoğlunun romanında Nəsimidən götürülmüş sitat-interteks yoxdur, ancaq bu romandan bəhs edən tənqidçi öz oxucusunu başqa bir pretekstə -Nəsiminin əsərinin mətninə istiqamətləndirir. V.Yusiflinin diskurs mətnində intertekstə yönəltmə, meyilləndirmə sitat olduğu üçün eksplisit şəkildədir. Adıçəlkilən yazıdakı aşağıdakı intertekstlər də eyni formadadır: “*Dünya yaşıyor hərb ilə qovğalar içində*” (M.Hadi). *“Yalnız deyil insanlara, vəhşilərə sorsan, Onlar belə insandakı vəhşiliyə heyran” (H.Cavid).* Şərqin böyük mütəfəkkiri Cəlaləddin Rumi (1207-1272) yazmışdı ki: “*Nəfs üçkünclü bir tikandır, nə vəziyyətdə qoyursan qoy, yenə sənə batacaqdır*”[6].

V.Yusifli yazıçı Y.Səmədoğlunun yaradıcılığından bəhs edərkən, “qəm” sözünün yanına intertekst “Dərd də azar kimi gələndə batmanla gəlir” deyimindəki, “dərd”, “azar”, “Yandım, kül oldum, a dağlar...” söyləmi ilə “yanmaq”, “kül olmaq”, həmçinin pretekstdən olan “Tfu sənin təxtinə, ey çərxi fələk!” deyimi ilə “əl üzmək”, “çəkilmək”, “yox olmaq”, eləcə də digər intertekstlərlə “səfər etmək” (yenə “getmək”, “yox olmaq” anlamı), “müharibə”, “qovğa”, “vəhşi”, “vəhşilik”, “insan vəhşiliyi”, “nəfs”, “əzab” (hər zaman insana batan “üçkünc tikan”) kimi linqvistik vahidləri yığır ki, bunlar da “qəm” sözünün semantik sahəsində əsaslı şəkildə yer ala bilən vahidlərdir. Çünki müharibə də, vəhşilik də, yanıb kül olmaq da, yox olmaq da, üçkünc tikanın batış ağrısından doğan əzab da qəmlə səsləşir, polifoniya yaradır, pretekstdəki “Tfu sənin təxtinə, ey çərxi fələk!” –deyimini canlandırır. V.Yusifli qeyd olunan vahidləri “qəm” konsepti ətrafında toplayır.

Koqnitiv dilçilik konseptuallaşmanın daha dərin kökləri, qol-budaqları, əlaqə zəncirləri ilə seçilən anlayışların konsept funksiyasını yerinə yetirməsini önə çəksə də, konseptin başqa vahid əsasında formalaşmasını da inkar etmir. Məsələ ondadır ki, konsept özü diskursiv təhlil prosesində ayrılır, onun ətraf strukturları aşkarlanır. V.Yusiflidə konsept niyə “qəm”dir? Ona görə “qəm”dir ki, tənqidçinin diskursu, və diskurs prosesində yaratdığı mətn əvvəldən axıra Y.Səmədoğlu obrazını kənarda müşahidəçi mövqeyində qoyur. Tənqidçinin təhkiyəsi elə başlanır, davam edir və bitir ki, sanki o, dediklərini, yazdıqlarını birbaşa yazıçının şəklinə baxa-baxa elə yazıçının özünə ünvanlayır. Bu diskursla tanışlıq oxucuya dünyanın, ən azı Azərbaycan adlı məkanın keçmiş və indiki dərdlərini ürəyinə salıb qəm çəkən, qəmlə yaşayan, yaxud yaşamış yazıçını təqdim edir və bu təqdimat nasirin əsərləri haqqında düşüncələr və onlardan seçilmiş intertekst fraqmentlər əsasında qurulur. Bu hissədə preteksti “Qətl günü”,

intertekstləri Y.Səmədoğlunun və Nəsimi, Hadi kimi şairlərin əsərlərindən təşkil olunmuş diskurs nəzərdən keçirildi. Həmin diskurs Y.Səmədoğlu üçün xarakterik olan qəm konseptini ayırır. Aydın olur ki, Y.Səmədoğlunun hekayələri, başqa iri həcmli əsərləri də intertekstuallıqla bir-birinə bağlıdır. Bəs Y.Səmədoğlu "Qətl günü" diskursunda hansı konsepti, hansı freym və ssenariləri, sxemləri istifadə etmişdir?

Başlığı "Qətl günü" olan romanının epiqrafında "son mənzil" birləşməsindən istifadə edilmişdir. Bu, ikinci nominasiya kimi qəbul olunarsa, "qəbir", "məzar" mənasını verəcəkdir. Epiqrafdan sonrakı birinci cümlə "Dərd də azar kimi gələndə batmanla gəlir" deyimidir və bundan sonra sanki romanın qapısı açılır: "*Hələ ulduzlar təkəmseyrəkdi – boz səmada bozumtul işıq vardı, gah öləziyirdi, elə bil sönmək istəyirdi, gah da par-par parıldamağa başlayırdı. Külək hələ əsmirdi, hərdən qoşa vələsin kəlləsində ləpədöyənin səsinə bənzər bir səs qopurdu, deyirdin yaxınlıqda dəniz var, amma bu səsdən adam diksinirdi. Burada kim vardısa, bilirdi ki, çox-çox uzaqlarda, haradasa dünyanın o başında bir külək yatağından baş qaldırır. Baba Kahanın zülmətnndə gərnəşir, ordan çıxıb, ağır-ağır, sürünə-sürünə, batman ləngəri ilə torpaqda dərin şırımlar açırdı, daş-qayanın gövdəsində uğultu sala-sala bu başıbəlalı dünyaya meydan oxumağa hazırlaşırdı. Burada kim vardısa, hələ çox-çox uzaqlarda həmləyə hazırlaşan küləyin qarğışını eşidirdi: ay ikiayaqlı bəndələr, kökünüz kəsilsin sizin!*"[5, s.145].

Cəmi 101 sözdən ibarət olan bu mətn fraqment oxucuda vahimə, qorxu, hədə-qorxu, boşluq, heçlik kimi hisslər oyadan söz, söz birləşmələri, söyləmlər çoxluğu ilə seçilir. Məsələn, *təkəmseyrək, boz səma, bozumtul işıq, öləzimək, sönmək, külək hələ əsmirdi, qoşa vələsin kəlləsi, səs qopmaq, diksinmək, çox-çox uzaqlar, haradasa dünyanın o başı, yataqdan baş qaldırmaq, zülmətdə gərnəşmək, batman ləngər, torpaqda dərin şırım açnmaq, daş-qayanın gövdəsində uğultu salmaq, başıbəlalı dünyaya meydan oxumaq, həmləyə hazırlaşmaq, küləyin qarğışı, ay ikiayaqlı bəndələr, kökünüz kəsilsin sizin.*

Əsərin adı, yaxud başlığı – "Qətl günü" informativlik baxımından seçilən adlardandır. Təkrar moninasiya vahidi uzun və dinamik konseptuallaşma yolu keçmişdir. Koqnitiv dilçilik mövqeyindən yanaşsaq, "qətl günü" söz birləşməsi mürəkkəb və abstrakt konseptdir. Verilmiş əsərin adı və bu adın konsept təşkil etməsi fərqli xətlərlə inkişaf prosesində əlaqələnir. Əsərin adı intertekstual vahiddir. Lakin onun konkret olaraq hansı pretekstdən götürülməsi haqqında heç nə demək mümkün deyil. Qeyd olunan cəhət, hər şeydən əvvəl "intertekstuallıq" və "diskursda intertekstuallıq" anlayışları üzərində dayanmağı aktuallaşdırır.

Hər bir təbii dil dünyanın dərki və təşkilinin müəyyən üsulla əks etdirir. Dünyanın təşkili və konseptuallaşması baxımından konsept kateqoriyası xüsusi rol oynayır. Konsept koqnitiv dilçiliyin əsas anlayışıdır. Buna baxmayaraq, anlayışın izah və tərifləri ətrafında hələ də qızğın elmi mübahisələr gedir. Rus dilçiliyində D.S.Lixaçyev, Y.S.Stepanov, S.X.Lyapin, V.P.Neroznyak, S.Q.Vorkaçev, Y.S.Kubryakova, V.İ.Karasik və başqaları konseptə tərif vermişlər. Onun ilk dəfə rus dilçisi S.A.Askolkov-Alekseyevin hələ 1928-ci ildə əqli quruluş kimi izah etməsi qeyd olunur.

D.S.Lixaçyev konsepti ümumiləşdirilmiş əqli vahid hesab etmiş, onun gerçəklik hadisəsini bilikdən, şəxsi təcrübədən, dil daşıyıcısının peşə və sosial təcrübəsindən asılı olaraq şərh və əks etdirən kateqoriya kimi təqdim etmişdir. Konsept sözün dil daşıyıcısının fərdi şüurunda olan müxtəlif mənalarının ümumiləşdirilməsidir. Konsept sözlərin mənalarından deyil, onun mənimsənilməsininn danışanın şəxsi həyat təcrübəsi ilə qarışmasından yaranır [7, s. 10]. Konseptin təyinində həyat təcrübəsi və bilik həlledici rol oynayır. Təsadüfi deyil ki, Y.S.Kubryakova konsepti operativ, fəal yaddaşın, mental leksikonun, konseptual sistemin, bütün dünya mənzərəsinin vahidi adlandırmışdır [8, s. 90-91].

"Konseptlər bütövlükdə təfəkkür və nitq fəaliyyəti aktları zamanı mühafizə olunan, aktivləşən və istifadə edilən bilik "hissələridir" ... konseptin tərkibi obyektlərin və ya gerçəklik

hadisələrinin müxtəlif tərəflərini/xarakteristikasını differensial əks etdirən xüsusi konseptual əlamətlərin yığımından təşkil olunmuşdur" [9, s. 189-190].

Bütün konseptlər dərketmə prosesinin məhsuludur. İnsan gerçəklikdə baş verən hadisələri özünün ağıl, bilik və təcrübə süzgəcindən keçirir. Bu prosesin özü konseptuallaşma və ya konseptuallaşdırma adlanır. Gerçəkliyin müəyyən hadisəsinin konseptuallaşması prosesində konsept yaranır. Konsept yaranır və qalır. Eyni konsept iki dəfə meydana gəlmir, lakin konseptual quruluş, sfera, sahə yeni təcrübə və biliklər qazanıldıqca genişlənir. Əgər "yağıntı" konsept olarsa, onun konseptual sahəsinə yağış, qar, dolu daxil olur. Bunlar mərkəzi "yağıntı" konseptinin ətrafında yaranmış strukturlardır. Skript mərkəzi konseptin ətrafında cəmlənən makrostrukturları əhatə edir.

Konseptlər dünyanı dərketmə prosesində yaranır. Müasir dilçilik dünyanın konseptual mənzərəsininin, onun konsept sahələrininin, eləcə də onun ayrı-ayrı fraqmentlirinin dərk olunmasında dili koqnitiv mexanizm kimi tədqiq etməklə iştirak edir. Koqnitiv mexanizm informasiyanın kodlaşdırılması və transformasiyasında müəyyən funksiyaları yerinə yetirir. Koqnitiv linqvistikanın arsenalında biliklərin dil şəxsiyyətinin şüurunda cəmləşməsi nəticəsində formalaşan strukturlardan ibarət vasitələr vardır. Konsept, freym, ssenari, skript, sxem, slot, qeştalt və s. belə koqnitiv strukturlardandır. Qeyd olunan koqnitiv strukturlar bir-biri ilə sıx əlaqədədir. Eyni bir hadisə həm konsept, həm də freym kimi konseptuallaşa bilər. Bu, qeyd olunan koqnitiv strukturların bir-birinə yaxınlığından irəli gəlir.

Hazırda linqvistikada konseptin izahına üç mövqedən yanaşma qeydə alınır. Bu yanaşmalarda konsept anlayışın məzmununu adlandırması əsas götürülür. Birinci yanaşmada kulturoloji aspekt əsas götürülür. Bütün mədəniyyətlər və onların arasındakı münasibətlər konseptlər hesab olunur, dilin rolu ikinci dərəcəli hesab olunur [9, s.32].

Konsept anlayışında ikinci yanaşma T.V.Bulıgina, A.D.Şmelyev, N.F.Alefirenko və başqaları tərəfindən ortaya atılmışdır. Bu yanaşmada dil işarəsinin semantikasının koqnitiv liqnvistikada istifadə olunması konseptin məzmunun formalaşdırılmasının yeganə vasitəsi hesab olunur. Məsələn, N.F.Aliferenko konseptə semantik yanaşmanı koqnitiv semantikanı açmaq vasitəsi saymışdır [10, s. 10]. Bu yanaşmada konseptlərin formalaşmasında dilin rolu mütləqləşdirilir. Konsept koqnitiv semantikanın vahidi kimi qəbul olunur.

Konseptə üçüncü yanaşma D.S.Lixaçyev və Y.S.Kubryakovanın və başqalarının işlərində əskini tapır. Y.Kubryakova koqnitiv linqvistikada psixologiyada sensor-perseptiv proseslərin tədqiqində istifadə olunan fon və fiqur anlayışlarının tətbiqini vacib hesab edir. Fon və fiqurun qarşılaşdırılması insanın özünü (fiqur) hansısa fonun (mühit, məkan) dövründə tamın hissəsi kimi dərk etməsi ilə əlaqələndirilir [Kubryakova 1996, s. 90]. Bu baxışda konsept və digər koqnitiv strukturların zaman və məkan kateqoriyaları ilə əlaqəsi də diqqət mərkəzinə çəkilir. Üçüncü yanaşmada dil daşıyıcısının şəxsi təcrübəsindən asılı olaraq, gerşəklik hadisələrini əks və şərh edən ümumiləşdirilmiş təfəkkür vahidi hesab olunur. A.Lixaçevin fikrinə görə, konsept sözün deyil, müəyyən məna ilə şəxsi təcrübənin uzlaşdırılmasından yaranır [7, s.7].

Konsept kommunikantların sözün başa düşülməsinə fərqli münasibətinin müxtəlif mənalarının fərdi təfəkkürdə ümumiləşdirilməsi nəticəsində aradan qaldırılmasına kömək edən vasitə kimi də izah olunur [9, s.32].

Hər bir təbii dil dünyanın qavranması və təşkilinin müəyyən üsulunu əks etdirir. Konseptdə ifadəsini tapan məna vahid baxış sisteminə, kollektiv fəlsəfəyə çevrilir. Dilə xas olan dünyanı konseptuallaşdırma üsulu müəyyən mənada universal, müəyyən mənada isə milli və spesifikdir. Dünyaya baxış və ya konseptuallaşdırma üsulu dünyanın elmi mənzərəsi ilə müqayisədə "sadəlövhdür", lakin bəsit təsəvvür deyildir. Konseptin bu şəkildə şərhi R.Çekendorfun konseptual sistemin əsas konstituentlərinin konseptlər olması fikri ilə səsləşir [Caskendorf 1993].

V.A.Maslova konseptə verilmiş çoxsaylı tərifləri nəzərdən keçirərək son nəticədə onu belə ümumiləşdirmişdir: "Konsept linqvokulturoloji spesifikliyə aid olmaqla müəyyən etnomədəniyyətin daşıyıcılarını xarakterizə edən semantik quruluşdur. Konsept etnik dünyagörüşü əks etdirməklə dünyanın etnik mənzərəsini qeydə alır və mövcudluğu qurmağın elementi rolunu oynayır. Eyni zamanda bu bilik kvantı insan fəaliyyətinin bütün məzmununu əks etdirir. Konsept sözün bilavasitə mənasından törəmir, sözün lüğəvi mənası ilə fərdi və xalq təcrübəsinin birləşdirilməsi ilə formalaşır. Konsept emosional, ekspressiv və qiymətləndirmə xüsusiyyətlərini də özündə cəmləşdirir [13, s. 47]. V.Maslovanın bu tərifi konseptə aid izah, şərh və tərifləri ümumiləşdirmə nəticəsində verilmişdir. Onun fikrinə görə, konseptin müxtəlif şəkildə təyini onun beş invariant əlamətini ayırmağa imkan verir: 1) konsept ideal təqdimatda insan təcrübəsinin minimal vahidi olub sahə strukturuna malik sözlərlə verballaşır; 2) biliklərin emalı, saxlanması və ötürülməsi vahididir; 3) konsept dinamik, hərəkətli sərhədə və konkret funksiyalara malikdir; 4) konsept sosialdır və assosiativ sahəsi onun praqmatikasını şərtləndirir; 5) mədəniyyətin əsas qatıdır [13, s. 47]. Fikrimizcə, diskurs konseptinin təhlili prosesində bu əlamətlərin müəyyənləşdirilməsi zəruridir.

Konseptin öyrənilməsində semantik-koqnitiv təhlil geniş tətbiq olunur. Ümumiyyətlə, koqnitiv strukturların təsvirində freym semantikası (Ç.Fillimor), metafora və metonimiya nəzəriyyəsi (C.Lakoff və M.Conson), koqnitiv prototiplər nəzəriyyəsi (E.Roş), profilləşdirmə nəzəriyyəsi (E.Bartminckiy), vertikal sintaktik sahələr nəzəriyyəsi (S.Proxorova), konseptual təhlil nəzəriyyəsi (S.M.Çerneyko), vertikal kontekstlər nəzəriyyəsi (O.S.Axmanova) və s. metod və üsullardan istifadə olunur. V.İ.Karasik linqvokulturoloji konseptlərin öyrənilməsi üçün konseptlərin adlarının semantik təhlili, eləcə də etimoloji təhlili, konseptin adını bildirən sözün məcazi və assosiativ mənalarının semantik təhlili, tərkibində konsepti ifadə edən söz və söz birləşmələrinin olduğu kontekstlərin şərhli semantik təhlili, konseptlə bağlı assosiasiyaların şərhli semantik təhlili, konseptlə bağlı olan deyimlərin (atalar sözləri, aforizm, sitat və s.) şərhli təhlili kimi tədqiqat üsullarını təklif etmişdir [14, s.32].

Konseptə linqvistik yanaşmada onun hər bir lüğət mənası üçün mövcudluğu məsələsi qoyulur. Konsept sözün mənalarının konnotativ elementlər nəzərə alınmaqla bütün potensialını əhatə edir. Koqnitiv yanaşmada konseptin mahiyyəti mental səciyyəli hadisə hesab olunur. Bu halda konsept qlobal düşüncə vahidi, "struktur bilik kvantı" kimi qəbul olunur.

Qeyd olunduğu kimi, kulturoloji yanaşmada bütün mədəniyyət konseptlər toplusudur və bu toplunun elementləri arasındakı münasibətləri də əhatə edir.

Qeyd olunanlar nəzərə alınarsa, konsept sözün bütün məna potensialıdır. Onun əsas mahiyyətinə mədəni, şəxsi, milli və digər assosiasiyalar, eləcə də çalarlar daxil olur. Nəticədə konsept anlayış tərəfi ilə yanaşı, dəyər və obraz təşkiledicilərinə də malik olur.

Freym geniş istifadə koqnitiv strukdurdur. Bu terminin ilk dəfə ABŞ dilçisi M.Minski istifadə etmişdir. Freym nəzəriyyəsinin əsasında dünya haqqında biliklərin struktur bloklardan ibarət olması ideyası durur. Bu biliklər stereotip situasiyaların qeyd olunmuş dəstlərindən - freymlərdən təşkil olunur [Minskiy].

Yuxarıda qeyd olunanlar konseptin koqnitiv təhlilinin mürəkkəb və geniş araşdırma tələb etdiyini təsdiq edir. Bu təhlildə konseptin nominativ sahəsini müəyyənləşdirmək. Daha dəqiq desək konsepti verballaşdıran dil vasitələrini vahidlərini təyin etmək və onların tam semantikasını aydınlaşdırmaq zəruridir. Konsepin tədqiqinə yalnız bu səviyyədə yanaşma nəzərə çarpır. Yəni konseptin adı, bu ada mənaca yaxın olan sözlərin mənalarının sadalanması və qismən müqayisəsi ilə məhdudlaşdırılmış tədqiqat işləri az deyildir. Bundan qismən irəli gedən araşdırmalarda tərkibində konseptin adı olan frazeologizm və atalar sözlərinin semantik təhlili ilə üzləşmək olur. Təbii ki, koqnitiv strukturların, xüsusən də konseptin bu şəkildə öyrənilməsi ilə kifayətlənmək özünü doğrultmur və tədqiqatın natamamlığını nümayiş etdirir.

Diskursun, ocümlədən də bədii diskursun koqnitiv təhlili isə bundan çox-çox geniş əhatə dairəsinə malikdir.

Nüvəsində V.Səmədoğlunun "Qətl günü" duran bədii diskursun tənqidçi mövqeyindən yığcam şərhində "dərd" konseptinin ortaya atılmasını aşkara çıxartdıq. Şübhəsiz ki, konseptin nominativ sahəsi genişdir, onun nüvə və periferiya elementləri vardır. Əslində, bir çox hallarda nüvəyə yaxın olan mövqedə duran, bəzən periferiya elementləri də konsept ola bilir. Diskurs səviyyəsində məsələyə yanaşdıqda isə biz bir mətndə nüvədə duran konsepti təyin edə bilirik və belə olan halda onun istər yaxın ətrafında, istərsə də periferiyasında duran elementlər həmin konseptin nominativ sahəsinin elementləri olur, həmin diskurs çərçivəsində konsept funksiyasında çıxış edə bilmirlər. Bədii mətndə müxtəlif konseptlər onun mövzularının, tematik parçalanmasının məhsulu kimi meydana çıxır. Bunu "Qətl günü" romanı əsasında tədqiq edək.

Qeyd edildiyi kimi, romanın adı –"Qətl günü" konsept təşkil edir və bu söz birləşməsi nüvədə durur. Epiqrafdakı "son mənzil", epiqrafın istinadında olan "xəstə", onun ardınca mətnin birinci söyləmindəki "dərd" və "azar" leksemləri bu konseptin nominativ sahəsinə daxil olurlar. Nominativ sahənin ayrı-ayrı vahidlərinin nüvəyə yaxınlıq dərəcəsi konnseptin adının semantik-koqnitiv təhlili prosesində müəyyənləşir. Əgər fon biliklərə əsaslansaq deyə bilərik ki, "son mənzil" nüvədəki nominativ vahidə, yəni "Qətl günü" söz birləşməsinə mənasına görə yaxın mövqe tutur. Xəstə, dərd, azar sözləri isə periferiya vahidləri olurlar.

"QİYAMƏT - 1. dini əqidəyə görə axırüzzəmanda bütün ölülərin dirilib qalxması; məhşər, haqq-hesab günü; qiyam; 2. Quran surələrindən birinin adı"[16, s.54]. Burada qiyam, haqq-hesab günü və məhşər terminlərinin eyni mənada verilməsi aşkardır. Başqa bir lüğətdə məşhər və qiyamət terminlərinin ayrı-ayrılıqda izahı verilmişdir.

"Məhşər. Termin kimi həşr; insanların öldükdən sonra dirilib dünyadaykən etdikləri işlərdən və söylədikləri sözlərdən ötrü sorğu-suala çəkilmək üçün "məhşər" yerə aparılmaları və burada toplanmalarıdır. Qiyamət gününə "yovmül-bəs" (təkrar dirilmə günü) "yovmün-nəşr" deyildiyi kimi, "yovmül-həşr" (toplanma günü) də deyilir"[17, s.243-244].

"Qiyamət. Dini termin kimi qiyamət dünyanın sona çatması və ölülərin qəbirlərindən qalxaraq məhşərə yönəlməsidir" [17, s.224]. Onu da qeyd edək ki, bu mənbədə məhşər insanların toplandığı meydan da adlandırılmışdır. Təbii ki, dini terminin linqvokulturoloji izahı hər iki lüğətdə tamlıq səciyyəsi daşımır. Burada qiyamət həm "sorğu-sual günü", həm "dirilmə günü", nəhayət "son gün" mənalarını daşıyır. İkinci mənbədə qiyamətin izahında "məhşərə yönəlmə", fikrimizcə, özünü doğrultmur. Yəni məhşərə yönəlmə qiyamət ola bilməz. Əslində *qiyamət günü* dirilmə və sorğu-sual günüdür. Məhşər konkret yer məkanı ifadə edən söz kimi qəbul edilərsə, bütövlükdə qiyamət gününün tam mənası açılmır. Burada vacib məqam ölülərin və dirilərin əməllərinə görə sorğu-sual edilməsi və bu əməllərə görə cəzanın da verilməsi kimi bir prosesin getməsi nəzərə alınmalıdır. Azərbaycan dilində "məhşərə çəkmək" frazeoloji birləşməsi vardır ki, onun mənası sorğu-suala çəkmək də olur. Yəni frazeologizm sorğu-sual meydanına, sorğu-sual yerinə aparmaq (çəkmək), getmək şəklində deyil, məhz sorğu-suala çəkilmək mənasında başa düşülməlidir. "Son mənzil" dilimizdə "məzar", "qəbir" anlamlarında işlənir. Qiyamət günün olacağını nəzərə alsaq, qəbir, məzar insanın son mənzili deyildir. İnsanlar qiyamət günündə məhşərə gedəcək, sorğu-sualdan sonra onların son mənzili müəyyənləşəcəkdir. İslama görə, bu ya cənnət, ya da cəhənnəmdir. Bununla yanaşı elələri olacaq ki, onlara nə cənnətdə, nə də cəhənnəmdə yer olacaqdır. Bu adamların yeri cənnətlə cəhənnəm arasındadır. Cənnət və cəhənnəm arasında məkan konkretləşmir. Lokallaşma bu halda dəqiq təyin olunmur.

V.Səmədoğlunun "Qətl günü"ndə bu məkan konkretləşdirilmişdir. Ölənlərin yolu müəllifin "Baba kaha" adlandırdığı məkana sorğu-suala, haqq-nahaq cavabını verməyə gedirlər. Onlar – ölənlər bir-birini qarşılayır, bu dünyanın yalan, günah, əzab dolu həyatından qurtulub haqqa

qovuşmağa gedirlər. Bir-birini qarşılayanlar bu dünyada bu və ya digər hadisə ilə bağlı tanış adamlardır. O dünyada qarşılayanın "Ölümün xeyir!" salamına, ora yeni yollanan "Ölümə qənşər!" cavabını verir.

Qurani-Kərim qiyamət günündə hər kəsin Allahın hüzurunda tək cavab verəcəyini deyir: «Onların hamısı Qiyamət günü Onun hüzuruna tək-tənha gələcəklər». (Məryəm Surəsi, 95). Romanda bir-birini tanıyanların məhşərə birgə gedişindən bəhs olunur. Burada maraqlı cəhətlərdən biri də odur ki, öldürən, öldürdüyü, günah etmiş nahaq günaha batanla bir yerdədir. Əgər "Məhşər" Allah divanı, sorğu-sualın olacağı yerdirsə, V.Səmədoğlunun romanındakı Baba Kaha bu yerə işarə edir. "Baba Kaha" onomastik vahidi intertekstuallıq göstəricisi, markeri deyildir. Onu məhşərlə eyniləşdirmə romandakı hadisələrin bir-birini əvəz etməsi və ölənlərin bu məkana yola düşməsi prosesində gerçəkləşir. Bu cəhətdən "Baba kaha" "Qətl günü" konseptinin nominativ sahəsinə daxil olmur. Onun əvəzinə assosiativ əlaqə ilə insan təfəkküründə, onun fon bilikləri əsasında aşkarlanan "məhşər" romanın "Qətl günü" konseptinin nominativ sahəsinə girir. Deməli diskursun koqnitiv təhlili, onun koqnitiv strukturunun semantik təhlili adı birbaşa çəkilməyən, lakin konseptin semantik sahəsinə aid olan vahidləri də aşkara çıxarmağa imkan verir və bu imkan oxucu-mətn diskursunda müəllif niyyətini düzgün qiymətləndirmə hesabına ortaya çıxır.

"Qətl günü" romanı son nəticə olaraq bir yerə cəmlənən süjetlərə malikdir. Məhz bu süjet fərqliliyi konseptual mənzərəni dəyişir. Romanda "xəstə", "ölüm", "satqın" kimi daxili konseptlər ayrılır. Bu daxili koqnitiv strukturlar romanın əsas konsepti olan "Qətl günü"nün semantik sahəsinə onun elementləri kimi daxil olurlar.

"... romanda onun qələmə alındığı 80-ci illər üçün olduqca orijinal hesab olunan fəndlər var. Mətn içində mətn, zaman paralelləri, intertekstuallıq, ironiya, alleqoriya, eyni mətndə dilin həm zaman (orta əsrlər və müasir dövr), həm məkana (kənd və şəhər) uyğunlaşdırılması, Molla Pənah Vaqif, Hüseyn Cavid və Səməd Vurğun əsas götürülməklə Azərbaycan ədəbiyyatındakı şair obrazının uğurlu ümumiləşdirilməsi və s. danılmaz faktlardır" [18].

Bədii diskursun konseptual təhlili onun məzmunplanını, tematik parçalanmasını, əsas və yardımçı koqnitiv strukturlardan təşkil olunması kimi məsələlərinə aydınlıq gətirir. Əsas konseptin koqnitiv-semantik təhlili iyerarxik quruluşu aşkara çıxarmağa imkan verir. Əsas konseptin semantik sahəsinin elementlərinin təyini ilə mümkün freymləri qurmaq və araşdırmaq reallaşır. Koqnitiv strukturlar mətndəki intertekstual əlaqələri öyrənmək üçün də əhəmiyyətli material verir.

Ədəbiyyat

1.Фуко М. Воля к истине: по ту сторону знания, власти и сексуальности. Работы рызных лет. Москва, Кастиль, 1996. – 448 с.

2.Виноград Т.К. К процессуальному пониманию семантики//Новое в зарубежной лингвистике: Прикладная лингвистика. Вып.12. Москва, Прогресс, 1983. –С.123-171

3.Кубрякова Е.С. О термине «дискурс» и стоящей за ним структуре знания//Язык и личность. Москва, Языки славянских культур, 2005. –С.23-33

4.Демьянков В.З. Текст и дискурс как термины и как слова обыденного языка//Язык и личность. Москва, Языки славянских культур, 2005. –С.34-55

5.Səmədoğlu Y. Qətl günü// Səmədoğlu Y. Deyilənlər gəldi başa. Bakı, "Avroasiya Press", 2012, c.145-335

6. Yusifli V. Yusif Səmədoğlu – böyük nəsr ustası kimi //https://old.525.az/view.php?lang=az&menu=7&id=10291&type=1#gsc.tab=0

7.Лихачев Д.С. Концептосфера русского языка//Известия РАН . серия литературы и языка. Москва, 1993, т.52, №1. –С.3-10

8. Кубрякова Е.С. Язык и знание. На пути получения знаний о языке. Части речи с когнитивной точки зрения. Роль языка в познании мира. Москва, Языки славянских культур, 2004. 560 с.
9.Abdullayev Ə. Aktual üzvlənmə, mətn və diskurs. Bakı, "Zərdabi LTD", MMC, 2011. –272 s.
10. Маслова В.А. Лингвокультурология. Учебное пособие для студентов высших учебных заведений. М.: Академия, 2001. - 208 с.
11.Алефиренко Н.Ф. и др. Текст и дискурс: учеб. пособие для магист рантов. М.: ФЛИНТА: Наука, 2012. 232 с.
12. Caskendorf 1993
13.Маслова В.А. Введение в когнитивную лингвистику. М.: Флинта: Наука, 2004, 296 с.
14. Карасик В.И. Языковой круг: личность, концепты, дискурс. М., Наука, 2004, 128с.
15.Минский М. Фреймы для представления знаний. М., Наука 1979. - 152 с.
16. Seyidəliyev N. Dini terminlər lüğəti. Bakı, Bilik, 1996, 96 s.
17 Dini terminlər lüğəti. Bakı, İpəkyolu nəşriyyarı, 2010, 407 s.
18.Şərif Ağayar: "Qətl günü", "Dəyirman" və xaş//http://yarpaq.az/az/serif-aayar-qetl-gn-deyirman-ve-xas/

ARTIFICIAL INTELLIGENCE IN EDUCATION

TƏHSİLDƏ SÜNİ İNTELLEKT

Qaragözova Vüsalə Natiq qızı
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı Ümumelmi fənlər kafedrasının müəllimi

Xülasə
Ümumiyyətlə, təhsildə süni intellektin inkişaf perspektivləri çox böyükdür. Onlar tədris prosesinin səmərəliliyini, tələbə marağını artırmaq və öyrənməni hər bir tələbənin fərdi ehtiyaclarına uyğunlaşdırmaq üçün yeni imkanlar açır. Süni intellektdən düzgün istifadə daha yaxşı təhsilə və gələcək nəsli müasir dünyanın çağırışlarına hazırlaya bilər.
Açar sözlər: süni öyrənmə, bilik, tədris metodları, intellekt, təhlil, qiymətləndirmə, texnologiya, proses

Abstrakt
In general, the development prospects of artificial intelligence in education are very large. They open up new opportunities to increase the efficiency of the teaching process, increase student interest, and adapt learning to the individual needs of each student. The correct use of artificial intelligence can lead to better education and prepare the next generation for the challenges of the modern world.
Keywords: artificial learning, knowledge, teaching methods, intelligence, analysis, evaluation, technology, process

Giriş

Süni intellekt (AI-artificial intelligence) bu gün ən çox müzakirə olunan anlayışlardan biridir. Süni intellektdən istifadə artıq həyatın müxtəlif sahələrini, o cümlədən təhsili əhatə edir. Təhsildə süni intellekt şagirdlərin bilik və bacarıqlarını əhəmiyyətli dərəcədə təkmilləşdirməklə yanaşı, təlim prosesini də sadələşdirə bilər.

Təhsildə süni intellekt hər bir tələbəyə uyğun, fərdiləşdirilmiş təhsil proqramları yaratmaq üçün istifadə edilə bilər. O, tələbələrin performansı, tərəqqisi və biliklərə yiyələnməyə çalışdıqları sahələr haqqında məlumatları təhlil edə bilər. Bu təhlilə əsaslanaraq, AI uyğun materiallar və öyrənmə fəaliyyətləri, həmçinin fərdi dəstək və rəhbərlik təklif edə bilər.

Süni intellekt müəllimlərə şagirdləri qiymətləndirməyə də kömək edə bilər. O, tapşırıqları və imtahanları avtomatik yoxlaya və ani rəy verə bilər. Bu, müəllimlərə sənədlərin yoxlanılmasında vaxta qənaət etməyə, tələbələrlə təhlil və rəylərə diqqət yetirməyə imkan verir. Bundan əlavə, AI səmərəli öyrənmə prosesini asanlaşdıra bilər. Məsələn, o, virtual və genişlənmiş reallıqdan, interaktiv tapşırıqlardan istifadə edərək məlumat təqdim etməyin yeni və maraqlı üsullarını təklif edə bilər. Süni intellekt həmçinin dərs cədvəllərini optimallaşdıra, tələbələrin seçimlərini nəzərə ala və ən yaxşı variantı təklif edə bilər.

Təhsildə süni intellektin istifadəsi təlim prosesinin səmərəliliyini əhəmiyyətli dərəcədə artıra bilər, həmçinin tələbələrə daha fərdi və rahat təcrübə təklif edə bilər. Bununla belə, yadda saxlamaq lazımdır ki, süni intellekt müəllimi tamamilə əvəz etməməli, yalnız onun tələbələrə öz potensiallarını üzə çıxarmaq üçün kömək etməkdə onun rolunu tamamlamalıdır.

Süni intellekt bir çox sahələrdə, o cümlədən təhsildə geniş istifadə olunur. Süni intellektə əsaslanan təhsil sistemləri təlim prosesində tələbələrə və müəllimlərə kömək edir. Onlar hər bir tələbənin fərdi ehtiyaclarına uyğunlaşa, testlər və tapşırıqlar verə, rəy və rəhbərlik edə bilər.
Təhsildə süni intellektin istifadəsi materialın daha effektiv öyrənilməsinə və biliklərin mənimsənilməsinə kömək edir. Çünki süni intellekt məlumatları təhlil edə və tələbələrin unikal ehtiyac və qabiliyyətlərinə əsaslanaraq ən vacib aspektləri vurğulaya bilər. Bu təlim zamanı vaxtdan və puldan səmərəli istifadə etməyə imkan verir ki, bu da tədris prosesinin nəticələrini və məhsuldarlığını yüksəldə bilər.
Süni intellektin istifadəsi həmçinin bəzi inzibati vəzifələri, məsələn, tapşırıqların yoxlanılması, bacarıq səviyyələrinin qiymətləndirilməsi və tələbələrin irəliləyişlərinin izlənilməsini avtomatlaşdırmağa imkan verir. Bu, müəllimlərə tədris prosesinin daha vacib aspektlərinə diqqət yetirməyə və onun effektivliyini artırmağa kömək edə bilər. Həmçinin, təhsildə süni intellektin istifadəsi hər bir tələbə üçün fərdiləşdirilə bilən interaktiv və adaptiv tədris materialları yaratmağa imkan verir. Bu, öyrənməyə motivasiya və marağı yaxşılaşdırmağa kömək edə bilər, çünki material öyrənən üçün ən uyğun olan formada təqdim olunacaq.
Lakin bütün üstünlüklərə baxmayaraq, süni intellektin təhsildə istifadəsinin də məhdudiyyətləri var. Məsələn, süni intellekt hər zaman tapşırığın kontekstini və mənasını başa düşə bilmir, bu da şagirdlərin cavablarının düzgün təfsirinə və qiymətləndirilməməsinə səbəb ola bilər. Təhsildə süni intellektdən istifadənin əsas üstünlüklərindən biri onun maraqlı və cəlbedici təhsil məzmunu təklif etmək qabiliyyətidir. Süni intellekt tələbələri mövzuya dərindən maraqlandıran və öyrənməyə həvəsləndirən virtual kurslar, təhsil oyunları və interaktiv dərslər yarada bilər.
Süni intellekt müəllimlərə şagird qiymətləndirmələrinin effektiv aparılmasında da kömək edir. Süni intellektə əsaslanan avtomatlaşdırılmış sistemlər müəllimlərə hər bir şagirdin performansı, onların güclü və zəif tərəfləri haqqında dəqiq məlumat əldə etməyə imkan verir. Bu da öz növbəsində müəllimlərə şagirdin fərdi ehtiyaclarını müəyyən etməyə və onları dəstəkləmək və inkişaf etdirmək üçün strategiyalar hazırlamağa kömək edir.
Təhsildə süni intellektdən istifadənin əsas üstünlüklərindən biri onun maraqlı və cəlbedici təhsil məzmunu təklif etmək qabiliyyətidir. Süni intellekt tələbələri mövzuya dərindən maraqlandıran və öyrənməyə həvəsləndirən virtual kurslar, təhsil oyunları və interaktiv dərslər yarada bilər.
Süni intellekt həm də müəllimlərə şagirdlərin effektiv qiymətləndirilməsini aparmağa kömək edir. Süni intellektə əsaslanan avtomatlaşdırılmış sistemlər müəllimlərə hər bir şagirdin performansı, onların güclü və zəif tərəfləri haqqında dəqiq məlumat əldə etməyə imkan verir. Bu da öz növbəsində müəllimlərə şagirdin fərdi ehtiyaclarını müəyyən etməyə və onları dəstəkləmək və inkişaf etdirmək üçün strategiyalar hazırlamağa kömək edir. Süni intellekt (AI) təhsildə tətbiqi üçün geniş potensiala malik ən mühüm texnologiyalardan biridir. Süni intellektin sinif otağına inteqrasiyası həm tələbələr, həm də müəllimlər üçün çoxlu faydalar gətirə bilər. Təhsildə süni intellektdən istifadənin bəzi mühüm faydaları bunlardır:
Fərdiləşdirilmiş təlim: Süni intellekt hər bir tələbə üçün onun bilik səviyyəsini, qabiliyyətini və öyrənmə xüsusiyyətlərini nəzərə alaraq fərdi təhsil proqramları yaratmağa imkan verir. Bu, daha səmərəli və effektiv öyrənmə təcrübəsi əldə etməyə imkan verir, çünki hər bir tələbə onlara ən uyğun olan təhsili alır.
Avtomatlaşdırma: Süni intellekt əvvəllər müəllimin girişini tələb edən bir çox rutin işləri yerinə yetirə bilər. Məsələn, AI tələbə testi və tapşırıqlarının nəticələrini təhlil edə, onların fəaliyyətini qiymətləndirə və gələcəkdə öyrənmə üçün tövsiyələr verə bilər. Bu, müəllimlərə tələbələrlə daha yaradıcı və interaktiv olmağa diqqət yetirməyə imkan verir.

Əlçatanlıq: Təhsildə süni intellektdən istifadə müəyyən səbəblərə görə ənənəvi dərslərdə iştirak edə bilməyənlər üçün təhsilin əlçatanlığını genişləndirə bilər. Məsələn, AI istənilən vaxt və hər yerdə əlçatan olan onlayn kurslar təqdim edə bilər. Bu, xüsusilə ucqar ərazilərdə yaşayan və ya fiziki məhdudiyyətləri olan tələbələr üçün faydalıdır.
Təkmilləşdirilmiş məlumat analitikası: Süni intellekt böyük həcmdə məlumatları emal edə və tələbələrin öyrənməsində meylləri, nümunələri və zəif tərəfləri müəyyən edə bilər. Bu, müəllimlərə tədris metodlarının effektivliyini təhlil etməyə və daha yaxşı nəticələr əldə etmək üçün lazımi düzəlişlər etməyə imkan verir.
Süni intellekt (AI) müasir təhsil mühitinin ayrılmaz hissəsinə çevrilərək, müəllim və tələbələrə təlim prosesini təkmilləşdirmək üçün yeni imkanlar təqdim edir. Təhsil müəssisələrində süni intellektdən istifadəyə dair bəzi nümunələr:
Fərdi təlim: Süni intellektin köməyi ilə hər bir tələbə üçün onların qabiliyyət və ehtiyaclarına uyğun fərdi təhsil planları yaratmaq mümkündür. Öyrənmə alqoritmləri uyğun materialları, tapşırıqları və tədris metodlarını təklif edərək, tələbə məlumatlarını və onun tərəqqisini təhlil etməyə imkan verir.
Tapşırıqların və testlərin avtomatik yoxlanılması: Süni intellekt vasitəsilə siz ev tapşırıqlarını və testləri yoxlamağa sərf olunan vaxtı əhəmiyyətli dərəcədə azalda bilərsiniz. Proqramlar avtomatik olaraq tələbə cavablarını təhlil edir, düzgün icranı müəyyənləşdirir və tələbələrə dərhal rəy verir. Bu, tələbələrə bacarıqlarını daha tez qiymətləndirməyə və materialı daha effektiv öyrənməyə imkan verir.
Virtual köməkçilər: Süni intellektə əsaslanan virtual köməkçilər təhsil müəssisələrində populyarlaşıb. Onlar tələbə suallarını cavablandıra, cədvəllər, tədris materialları və s. haqqında məlumat verə bilərlər. Belə köməkçilər günün istənilən vaxtında 24/7 hazır ola və tələbələrə kömək edə bilər.
Akademik performansın proqnozlaşdırılması: Tələbələr və onların fəaliyyəti haqqında məlumatlara əsaslanaraq, AI onların akademik performansını proqnozlaşdıra bilir. Bu, pedaqoqlara və təhsil rəhbərlərinə problemləri müəyyən etməyə və tələbə uğurunu artırmaq üçün müvafiq tədbirlər görməyə kömək edir.
Adaptiv təhsil platformaları: Bəzi təhsil platformaları adaptiv kurslar yaratmaq üçün süni intellektdən istifadə edir. Onlar tələbələrin irəliləyişinə nəzarət edir və onların ehtiyaclarına avtomatik uyğunlaşır, kurrikulumun mümkün qədər effektiv şəkildə mənimsənilməsinə kömək edən materiallar və tapşırıqlar təklif edirlər. Bunlar süni intellektin təhsildə istifadəsinə dair bəzi nümunələrdir. Bu sahədə AI-nin inkişafı təhsilin sərhədlərini genişləndirməyə davam edir, onu daha əlçatan, səmərəli və fərdiləşdirilmiş edir.

Təhsildə süni intellektin çətinlikləri və məhdudiyyətləri
Təhsildə süni intellektin istifadəsi təlim prosesini təkmilləşdirmək və daha böyük uğurlar əldə etmək üçün böyük imkanlar təqdim edir. Bununla belə, AI-nin istifadəsi də müəyyən çətinliklər və məhdudiyyətlərlə gəlir. Əsas problemlərdən biri süni intellekt sahəsində ixtisaslı mütəxəssislərin olmamasıdır. Süni intellektə əsaslanan təhsil texnologiyalarının inkişafı və tətbiqi bu cür sistemləri yaratmaq, öyrətmək və saxlamaq qabiliyyətinə malik olan ixtisaslaşmış kadrlar tələb edir. Təəssüf ki, hazırda bu sahədə mütəxəssis çatışmazlığı ciddi problemdir.
Digər məhdudiyyət təhsildə AI-nin öyrədilməsi üçün mövcud məlumatların olmamasıdır. Süni intellekt sisteminin effektiv işləməsi üçün təhsil prosesi ilə bağlı böyük həcmli məlumatlara çıxış əldə etmək lazımdır. Təəssüf ki, bu məlumatlar həmişə mövcud olmur və test balları, qiymətlər, akademik nailiyyətlər və s. kimi sahələri əhatə edir. Kifayət qədər məlumat olmadan, AI təhsildə tam potensialını reallaşdıra bilməyəcək.
Texniki çətinliklər də süni intellektin təhsildə istifadəsini məhdudlaşdıran amildir. Süni intellekt sistemlərinin işlənib hazırlanması və saxlanmasının mürəkkəbliyi bir çox təhsil

müəssisəsi üçün böyük ola bilər. Süni intellekt sisteminin səhv konfiqurasiyası və ya sui-istifadəsi tələbələr üçün arzuolunmaz və mənfi nəticələrə gətirib çıxara bilər.
Bundan əlavə, təhsildə süni intellektdən istifadənin etik və sosial nəticələrinə diqqət yetirmək lazımdır. Süni intellektin tətbiqi yalnız müəyyən norma və dəyərlər nəzərə alınmaqla, həmçinin tələbə məlumatlarının məxfiliyinin qorunması ilə mümkündür. Təhsildə AI-nin məsuliyyətli istifadəsi potensial etik və sosial məsələlərin diqqətlə təhlilini və nəzərə alınmasını tələb edir.
Nəhayət, əsas problemlərdən biri müəllimlər və tələbələr tərəfindən süni intellektə qarşı qorxu və inamsızlıqdır. Pedaqoji heyət və tələbələrə AI-dən istifadənin üstünlükləri və məhdudiyyətləri haqqında izah etmək və maarifləndirmək vacibdir ki, onlar onun tədris prosesindəki rolunu adekvat qiymətləndirə bilsinlər və onun istifadəsində fəal iştirak etsinlər.
Bütövlükdə, süni intellektin təhsildə tətbiqi bir sıra çətinlikləri və məhdudiyyətləri dəf edə bilər, lakin təhsil müəssisələrindən və pedaqoji ictimaiyyətdən ciddi səylər və şüurlu yanaşma tələb edir.

Təhsildə süni intellektin inkişaf perspektivləri

Süni intellekt (AI) getdikcə daha çox sənayeləşir və həyatın müxtəlif sahələrində, o cümlədən təhsildə geniş istifadə olunur. Bu, təhsil mühitinin və tədris metodlarının inkişafı üçün yeni perspektivlər açır.
Təhsildə süni intellektin inkişafının əsas perspektivlərindən biri təhsil prosesinin fərdiləşdirilməsidir. Süni intellekt sayəsində müəllimlər hər bir tələbənin ehtiyaclarına uyğun fərdiləşdirilmiş təlim proqramları yarada bilərlər. Bu, tələbələrə öyrənməni ən effektiv və ehtiyaclarına uyğun şəkildə almağa imkan verir ki, bu da öz növbəsində onların performansını və öyrənməyə marağını artırır.
Süni intellekt bilik və bacarıqların qiymətləndirilməsində də istifadə edilə bilər. Süni intellektlə işləyən avtomatlaşdırılmış qiymətləndirmə sistemi tələbələrin cavablarını təhlil edə və onlara öz bacarıqlarını təkmilləşdirməyə kömək etmək üçün rəy verə bilər. Bu, bilik və bacarıqların səviyyəsini daha obyektiv qiymətləndirməyə, həmçinin daha da təkmilləşdirmək üçün dərhal rəy
bildirməyə imkan verir.
Süni intellekt müəllimlərə tədris zamanı əldə edilən məlumatları araşdırmaq və təhlil etməkdə də kömək edir. Bu, tədris metodlarının effektivliyi və ya tələbələrin ehtiyacları ilə bağlı tendensiyaları və qanunauyğunluqları müəyyən etməyə imkan verir. Bu cür məlumatlar təhsilin keyfiyyətini artırmaq üçün istifadə edilə bilər.
Təhsildə süni intellektin inkişafının digər perspektivi intellektual öyrənməyə yardım sistemlərinin inkişafıdır. Bu cür sistemlər tələbələri mürəkkəb mövzuları və ya tapşırıqları izah edən əlavə materiallarla təmin edə və onlara materialı öyrənməyə kömək edə bilər. Bu, təhsilə çıxışı yaxşılaşdırır və tələbələrə əlavə dəstək əldə etməyə kömək edir.

Nəticə

Bununla belə, yadda saxlamaq lazımdır ki, süni intellektin inkişafı və təhsildə tətbiqi həm də özünəməxsus çətinliklər və risklər gətirir. Bu amilləri nəzərə almaq və təhsildə ən yaxşı nəticələr əldə etmək üçün AI-dən istifadə etməyə kömək edəcək strategiyalar hazırlamaq vacibdir.
Süni intellekt təhsilə daxil olub, tələbələr və müəllimlər üçün etibarlı köməkçi olduğunu sübut edib. O, öyrənmə tərzinə inqilabi dəyişikliklər gətirir və təhsil proseslərinin keyfiyyətini artırır. Məsələn, bu, hər bir tələbənin fərdi ehtiyaclarını və məlumatın mənimsənilmə sürətini nəzərə alaraq tədris materialını fərdiləşdirməyə imkan verir. Təhsildə süni intellektdən istifadə şagirdlərə materialı daha effektiv öyrənməyə və problemlər haqqında dərindən düşünməyə imkan verir. O, ani geribildirim verir və tələbələrə səhvlərini başa düşməyə kömək edir.

Bundan əlavə, o, mövzunu daha dərindən başa düşmək üçün əlavə məşqlər və materiallar təklif edə bilər.

Bu, həm də tələbələrin qiymətləndirmə prosesini xeyli asanlaşdırır. Süni intellekt tamamlanmış tapşırıq və imtahanlardan məlumatları avtomatik toplayıb təhlil edə bilər ki, bu da müəllimlərə işlərinin daha yaradıcı və əməkdaşlıq aspektlərinə diqqət yetirməyə imkan verir.

Ancaq bir çox faydalarına baxmayaraq, yadda saxlamaq lazımdır ki, süni intellekt müəllimi tamamilə əvəz edə bilməz.

Təhsildə insan amilinin əhəmiyyətini qiymətləndirməmək olmaz. Müəllimin şagirdlərdə tənqidi təfəkkürü ilhamlandırmaq, həvəsləndirmək və stimullaşdırmaq bacarığı süni intellektlə əvəz edilə bilməz. Bununla belə, süni intellekt təhsildə getdikcə daha vacib bir vasitəyə çevrilir və gələcəkdə onun istifadəsi artmağa davam edəcək. Bu, tələbələri müasir dünyanın tələblərinə daha yaxşı hazırlayan çevik və əlçatan təhsil sistemləri yaratmaq üçün imkanlar yaradır.

Sitat Üçün:

1.Azhykulov S.M. 2020
2.Təhsil sahəsində süni intellekt // Archon, 2024, No 4(43), C, 44-48,

THE POLİCY OF MULTİCULTURALİSM İS A REQUİREMENT OF THE TİME FOR A HEALTHY DİALOGUE OF CULTURES

MULTİKULTURALİZM SİYASƏTİ MƏDƏNİYYƏTLƏRİN SAĞLAM DİALOQU ÜÇÜN DÖVRÜN TƏLƏBİDİR

Bayramova Nübar İsmayil
dissertant
ADPU-nun Quba filialı, Təbiət elmləri fakültəsi, dekan müavini
https://orcid.org/0000-0001-6298-9617

Abstrakt
It is impossible to tolerate and respect other cultures without knowing and understanding their essence, characteristics, history and achievements. Modern societies consider the existence of multiculturalism a necessary condition for a healthy dialogue of cultures and civilizations. Because it is impossible to establish a dialogue of cultures without mutual understanding. Often, representatives of different nations do not want to assimilate or integrate into the national culture of one or another state, but we must accept that neither the culture, nor the economy, nor the development of education and science of any nation can proceed in isolation from others. Therefore, modern societies are well aware that they cannot develop sustainably without a well-thought-out policy of multiculturalism based on cultural strategies.
Key words: ethnic, national minorities, culture, multiculturalism, tolerance, politics

Xülasə
Digər mədəniyyətlərin mahiyyətini, xüsusiyyətlərini, tarixini və nailiyyətlərini bilmədən və anlamadan onlara qarşı tolerant münasibət bəsləmək, hörmət etmək qeyri-mümkündür. Müasir cəmiyyətlər multikulturalizmin mövcudluğunun mədəniyyətlərin və sivilizasiyaların sağlam dialoqu üçün zəruri şərt sayır. Çünki qarşılıqlı anlaşma olmadan mədəniyyətlərin dialoqunu qurmaq olmur. Çox zaman müxtəlif xalqların nümayəndələri bu və ya digər dövlətlərin milli mədəniyyətinə nə assimilyasiya, nə də ki, inteqrasiya olmaq istəmirlər, lakin qəbul etməliyik ki, hər hansı bir millətin nə mədəniyyətinin, nə iqtisadiyyatının, nə də ki təhsilinin, elminin inkişafı digərlərindən təcrid olunmuş vəziyyətdə gedə bilməz. Ona görə də müasir cəmiyyətlər kulturoloji strategiyalara əsaslanan və xüsusi düşünülmüş multukulturalizm siyasəti olmadan sabit inkişaf edə bilmədiklərini artıq başa düşürlər.
Açar sözlər: etnik, milli azlıqlar, mədəniyyət, multikulturalizm, tolerant, siyasət

Hətta inkişaf etmiş dövlətlərin təcrübəsinə nəzər yetirdikdə multikulturalizmdən imtina ekdikləri zaman anlaşılmazlıq, fobiya, qarşıdurmalar, milli və dini münaqişələrdən əziyyət çəkdiklərinin şahidi oluruq. Məlumdur ki, mühitin və qanunların dəyişməsinə aylar, iqtisadi şəraitin dəyişməsinə hətta bir–iki il belə kifayət edə bilər, şüur və təfəkkürün dəyişməsinə isə onilliklər, yüzilliklər tələb olunur. Bütün bunlar bizə multikulturalizmin mədəniyyətin ictimai inkişafda aparıcı rol oynaması, etnik-mədəni qrupların maraqlarının tanınması və qəbul edilməsinə xidmət etməsi haqqında təsəvvür formalaşdırır.
Bəşəriyyətin özündə birləşdirdiyi müxtəlif mədəniyyətlər bir-birləri ilə qarşılıqlı təsirdə olaraq transformasiyalara məruz qalır. Lakin digər bir önəmli məsələ isə mədəniyyətlərin müxtəlifliyi sayəsində insanlar arasında yaranan təzadların dərinləşməsi bu mürəkkəb münasibətlərin tənzimlənməsi problemini ortaya qoyir. XX əsrdə yeni bir anlayış –mültikulturalizm bu aktual problemin həlli yolu üçün imkanlar açdı.

Dünyanın əksər dövlətləri mültikulturaldır. Lakin bu onlarda heç də multikulturalizm olması demək deyildir. Dövlətin multikulturallığının göstəricisi onun etnik, mədəni, irqi və dini fərqlilikləri hesab olunur. Etno–mədəni və dini müxtəlifliyin effektiv idarə olunması, fərqliliklər arasında sağlam münasibətlərin yaradılması, bir–birlərinin azadlığına hörmət hissi və ən əsası cəmiyyətin vahid tamlığının qorunması bir dövlətin siyasətində multikulturalizmin mövcudlugu haqqında nəticə çıxarmağa imkan verir.

Bəs nədir multikulturalizm? - İstər müsbət, istərsədə mənfi çalar daşımasından, kiminsə qəbul edib etməməsindən asılı olmayaraq həm beynəlxalq aləmdə, həm də siyasətdə çox dəbli bir termin olmuşdur. Əslində bu anlayış mahiyyət etibarı ilə hələ çox əvvəldən tədqiqat obyekti olmuşdur. A. Masalova yazırdı ki, multikulturallıq və multikulturalizm terminləri elm və siyasətə 1990-cı ildən daxil olmasına baxmayaraq: "*çoxmədəniyyət yaxud, çoxmədəniyyətlilik terminləri adı altında çox qədimdən mövcud olmuş və mədəniyyətşünaslar tərəfindən kifayət qədər yaxşı araşdırılmışdır*"[Мультикультулизм; тенденции и реальность, 2016 c- 63]. Q.Ternborn isə multikulturalizm terminini üç fərqli konteksdə, həm siyasi- siyasətə və siyasi qurumlara istinad edən, empirik və fərqli cəmiyyətləri təsvir edən və sosial və fəlsəfi nəzəriyyələrlə izah edirdi: "*Bu fenomen həm tərəfdarlarının, həm də əleyhdarlarının tərəfindən hər üç kontekstdə istifadə olunur*"[Тернборн Г. 2001, c-50-67].

Başqa tədqiqatçılardan məsələn, O.Kabakova yazırdı:"*Multikulturalizm müxtəlif inkişaf proseslərinin kompleksi kimi başa düşülür ki, bu zaman vahid milli mədəniyyətdən fərqli olaraq bir çox mədəniyyət aşkarlanır*"[Мультикультулизм; тенденции и реальность, 2016 c-129].

Bu terminin mənası ilə yanaşı, tətbiq arealının genişliyi xüsusi diqqət cəlb edir. Sözün etimolojii anlamı kifayət qədər sadədir: ingilis dilindən hərfi tərcümədə çoxmədəniyyətlilik (multi- çox, culture-mədəniyyət) mənasını verir. Lakin sözun sonundakı–*izm* suffuksi bu anlayışa ideoloji anlam verir. Müasir dövrdə multikulturalizm fərqli mənalarda işlədilir. Əgər coxları multikulturalizmi müxtəliflik simvolu kimi qəbul edirsə də, sosial elmlər konteksində isə multikulturalizm eyni bir ərazidə müxtəlif mədəniyyətlərə sahib olanların birgə, qarşılıqlı harmoniya şəraitində yaşaması kimi başa düşülür.

"*Multikulturalizm müxtəlif irqi və etnik qrupların nümayəndələrinin qarşılıqlı dözümlülük və hörmət şəraitində yaşayışını, həmçinin onların mədəniyyətlərinin özəl xüsusiyyətlərinin qorunmasını nəzərdə tutur*"[Dictionary of the Sosial Science., Oxford University Press, 2002, p- 323].

R.İlyasov öz tədqiqatlarında"multikultural" və "multikulturalizm" anlayışlarını fərqi formada açıqlayır. Onun fikrincə "multikulturalizm" dövlətin strateji yanaşma tərzi olub onun siyasətinə əgər istiqamətlənirsə, "multikultural" anlayışı isə dövləti təşkil edən cəmiyyətin çoxrəngliliyinin göstəricisidir: "*Multikulturalizm hər hansı cəmiyyətdə fərqli mədəni ənənələrin bir arada mövcud olmasını təsdiq edən siyasi strategiyadır. Multikultural tendensiya isə, sözün əsl mənasında, multikultural varolma vəziyyətini tərif edir*" [R.İlyasov, 525-ci qəzet, 2014.- 1 oktyabr, s.2. http://www.anl.az/down/meqale/525/2014/oktyabr/393761.htm].

Multikulturalizm fəlsəfi mahiyyət daşımaqla bərabər, dil və mədəniyyətləri, adət-ənənələri fərqli olan insanların eyni bir coğrafi ərazini paylaşmasından formalaşan cəmiyyətdə həmin müxtəliflkləri həm qorunub saxlanmasını, tanınmasını və ən əsası düzgün idarə edilməsini özündə ehtiva edir. Çoxmədəniyyətlilik adı altında irqi, dini mədəni və etnik müxtəlifliklər və bunlardan qaynaqlanan dəyərlər başa düşülür. Yəni, multikulturalizm anlayışının mahiyyətində digərinin dəyərlərinə, qanunlarına, azadlığına hörmət, dözümlülük- tolerantlıq ifadə olunur. Bİr sözlə, multikulturalizm dedikdə eyni bir ərazidə müxtəlifliklərin mədəniyyətlərinə hüquqi müstəvidə qiymət verən humanistyönümlü yanaşma və ona xidmət edən strateji siyasət anlaşılır.

Azərbaycanlı tədqiqatçılarından K.Abdullayev cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliyi üç əsas siyasət modeli: assimlyasiya, izolyasiya və multikulturalizm ilə tənzimləndiyini izah edərək cəmiyyətin multikultural təhlükəsizliyin üç prinsipini açıqlamışdır: "1. *Dövlətin diqqətinin cəmiyyətin bütün məzhəbləri və onların nümayəndələri arasında bərabər paylanması;*
2. Ölkədəki mövcud milli müxtəlifliyin qorunması üçün dövlət qayğısı;
3.Ölkədə yaşayan bütün xalqların və etnik qrupların mədəni dəyərlərinin qorunmasında dövlətin və cəmiyyətin təşviqi "[Мультикультулизм; тенденции и реальность, 2016 с- 27-28].
Müasir ədəbiyyatlarda multikulturalizmə üç mənada yanaşma mövcuddur: [Nicat Məmmədli, Bakı-2016]
Birincisi; cəmiyyətdə etnik–mədəni və dini müxtəlifliyin varlığı – bu ***deskriptiv***, yəni ***təsviri multikultiralizm*** adlanır.
Statistik məlumatlar dünyada yaşayan təxminən yeddi milyarddan cox insanın 7097 dildən istifadə ediyini göstərir.[https://www.ethnologue.com/guides/how-many-languages] Təəcüblüsü, linqivistik cəhətdən ən homogen qitə Avropanın olmasıdır ki, burada təxmiinən 287 dildən istifadə edilir. Asiya isə qitələr arasında ən rəngarəngidir, çünki burada 2296 dldən istifadə edilir. Həmçinin Afrikada– 2139, Avstraliya və Okeaniyada–1313, Amerikada–1062 dil qeydə alınmışdır. N.Məmmədli etnik hetorogenliyin ölçülməsində 7 indeksini göstərmişdir: *"1.Etnolinqivistik fraqmentasiya indeksi(ELF); 2.Qrinberq indeksi; 3.Perferial heterogenlik indeksi; 4.Esteban – Ray qütbləşmə indeksi; 5.Reynal – Querol indeksi; 6.Volfson indeksi; 7.Ələsgərov – Qolubenko qütbləşmə indeksi*"[Nicat Məmmədli, Bakı-2016, s- 53-54].
İkinci yanaşmaya görə multikulturalizmi ***ideologiya*** kimi qəbul edir. İdeologiya kimi multikulturalizmdə iki əsas cərəyan birləşir: Liberal universalizm və kommuntarizim. Kommuntarizm cərəyanının ən məşhur ideoloqu Kanadanın McGuil Universitetinin professoru Ç.Teylor *"Ozün mənbəyi"(*1989), *"Tanıma siyasəti"* (1994) adlı əsərlərində mədəniyyətlərin əslində müstəqil mahiyyətə sahib olduğunu düşünərək, istənilən fərdin hansısa bir mədəniyyətin hissəsini təşkil etdiyini iddia edirdi:"*Tolerantlıq və plüralizmin universal prinsiplərinin öz təsdiqini tapmasından ibarətdir"*[Ch., Princeton University Press, 1994, p- 42]. Teylora görə insan digərləri tərəfindən tanınması zamanı formalaşır:*"üzün müddət ərzində müxtəlif xarakterli və temperamentli çoxsaylı insanların düşüncə tərzini təşkil edən, başqa sözlə, onların xeyir, müqəddəs, təqdir olunma anlamlarını ifadə edən mədəniyyətlər, hətta bu mədəniyyətlərdə iyrənc formada rədd etdiyimiz çox şeylər varsa belə demək olar ki, bizim heyrətimizi və hörmətimizi qazanmağa layiq olan nəyəsə qadirdirlər"*[Taylor Ch., Princeton University, 1992, p- 72]. Tanıma siyasəti iki şəkildə özünü göstərir:
"*1. Şərəf analyışından ləyaqət anlayışına keçməklə universializm siyasəti başlıyır ki, bu da bütün vətəndaşların bərabər ləyaqətinin olmasını və nəticədə hüquqların bərabərləşdirilməsini önə çəkir.*
2. Müasir kimlik anlayişi ilə fərqlilik siyasəti başlıyır ki, hər kəs unikal kimliyi iə tanınmalı, fərqliliklərə etinasızlıq göstərilməməli və ya fərqlilik dominant kimliyə assimlyasiya edilməməlidir"[Nicat Məmmədli, Bakı-2016, s- 29].
Liberal multikulturalizmin tədqiqatçılarından sayılan Kinqstonda Quens universitetinin professoru Wil Kymliçkanın *"Liberalizm, icma və mədəniyyət"*(1989), *"Multikultural vətəndaşlıq: azlıq hüquqlarının liberal nəzəriyyəsi"*(1995), *"Milli dildə siyasət: millətçilik, multikulturalizm və vətəndaşlıq"*(2001), *"Müasir siyasi fəlsəfə: Giriş"*(2002) və s kimi əsərlərində qiymətli fikirlər söyləmişdir:*"əgər cəmiyyətdə imkanlar bərabərliyi tanınırsa, onda hər hansı məqsədə çatmaqda mənim nəaliyyətim və ya mənim uğursuzluğum irqi, sinfi və ya cinsi mənsubiyyətimdən deyil, mənim davranışımdan asılı olacaqdır"*[Кимлика У., ГУ ВШЭ, 2010, с- 145] kimi dəyərli fikirlər yazmışdır.

Kimlika multikulturalizmi "identifiksiya dalğası" adı altında üç mərhələyə ayırırdı:
Birinci mərhələdə o, 1950-1970 illəri əhatə edərək multikuturalizmin kommutarizmi kimi xarakterizə olunur:*"birləşmiş və mədəni olaraq ayrılmış qrupların liberal individualizmin müdaxiləsindən müdafiəsi"*[Кимлика У., ГУ ВШЭ, 2010, с- 427].
İkinci məhələ isə 1980-ci illərdən sonra neft böhranından sonrakı dövrü əhatə edir: *"Bütövlükdə insanların böyüdüyü dil və mədəniyyət... onların seçmədikləri halların biridir, ... onların könüllü zövqləri deyil, ... öz dilinə və mədəniyyətinə çıxış əldə etmək bəzən düşünülmüş seçim qabiliyyətinin ilkin zəmini ola bilər, ... lakin çoxluqlar üçün heç bir qurbanlar vermədiyi halda azlıqdan bunun müqabilində qurbanlar tələb etmək düzgün deyil*"[Кимлика У., ГУ ВШЭ, 2010, с- 429-430].
Üçüncü mərhələ 1990-2000 illərə təsadüf edir ki, bu mərhələdə artıq dövlətlər milli azlıq və etnik qruplarına qarşı neytral münasibət:*"Dövlətlər ümumi milli identiklik formalaşdırmaq məqsədilə bu "millət quruculuğu" prosesində- ümumi dilin, bu dildə fəaliyyət göstərən sosial institutlarda ümumi üzvlük hissinin və bunlara bərabər çıxışın təşviq edilməsi prosesində iştirak edirlər"*[Кимлика У., ГУ ВШЭ, 2010, с- 440]. Kymlika göstərirdi ki, azadlığın əsasında iki məsələ; birincisi, özünü reallaşdıra biləcək qrupa qoşulma, ikincisi, həmin qrupdan çıxıb başqa qrupa girə bilmənin mümkünlüyü dayanır. Kommuntaristlər isə birincini qəbul etsələr də ikincini görməzdən gəlirlər.
Üçüncü yanaşma isə ***preskriptiv*** yanaşma adlanır. Burada ölkənin multikulturalizm siyasəti yürüdülür. Məsələn, multikulturalizmin klassik modeli olan Kanadan, multikulturalizmin geriləmək üztə olduğu Hollandiya və bu gün bütün dünyaya həyat tərzi kimi nümunə çəkilən Azərbaycan.
Multikulturalizm fərqliliyin idarə olunmasında bu gün ən münasib yollardandır. Xüsusən də, fərqliliyin idarə olunması dövlət tərəfindən həyata keçirildiyi zaman dil, din, etnik mənsubiyyət, irq və mədəniyyət müxtəlifliyi qanunvericilik aktlar, siyasi qərar və proqramlar əsasında tənzimlənir.
Ç.Kukatas multikulturalizmin dünyada ümumbəşəri dəyərlərin qorunmasında universal variant kimi qəbul edərək dövlətin müxtəlifliyinə 5 yanaşma tərzini; izolyasiya siyasəti, assimlyasiya siyasəti, zəif multikulturalizm, güclü multikulturalizm və apartied"[Kukatas Ch., University Press, 2003] göstərmişdir.
İzolyasiya siyasəti zamanı dövlət mədəni yekcinsliyini saxlamaq üçün kənardan müxtəliklərin cəmiyyətə girişinə qadağa qoymaqla çalışır. Məsələn, tarixən Yaponiyada və Avstraliyada bu cür siyasət aparılmışdır. Avstraliyada bu yolla Britaniya mədəni stilini qoruyub saxlamağa çalışırdı.
Assimlyasiya siyasəti zamanı izolyasiyanın digər variantı olub, kənardan gəlmələrə müəyyən qədər icazə verilsə də onların da yerli hakim mədəniyyətə tam assimlyasiya olması təmin edilir və yerli mədəniyyətin gəlmə mədəniyyətlərin təsiri nəticəsində transformasiyaya uğramasını yolverilməz hesab edirlər. Məsələn, Avstraliya dövləti aborigenlərin dominant ağların mədəniyyətləri içərisində əridilməsinə imkan yaradan siyasət həyata keçirirdi.[Kukatas Ch., University Press, 2003]
Zəif multikulturalzmə görə dövlət kənardan gəlmələrə icazə versə də onların yerli mədəniyyətə inteqrasiyasına məcburi deyil, könüllülük prinsipi ilə təklif edir. Zəif multikulturalizmə görə dövlət assimlyasiyanı güc tətbiq etməklə deyil, onlara azadlıq verməklə də reallaşdıra bilər. Məsələn, azlıqların dilindənsə əhalinin daha çox hissəsinin danışdığı dildə danişmağa, yaxud öyrənməyə üstünlük verəcəkdir.[Kukatas Ch., University Press, 2003].

Güclü multikulturalizm dedikdə azlıqların nəinki cəmiyyətin tam hüquqli üzvü kimi hesab olunması, onların fərqli kimliklərinin, adət-ənənələrinin qorunub saxlanmasına və inkişafına zəmanət verilir. Belə vəziyyətdə təkcə müxtəlifliyə sərgilənən dözümlü münasibətdən savayı fərqliliklərə maddi təminat və xüsusi hüquqlarla verilməsinə çalışılır.[Kukatas Ch., University Press, 2003].

Əslində multikulturalizmin zəif və güclü formaları arasında elə də kəskin fərq yoxdur. Fərq sadəcə yanaşmanın hansı səviyyədə olmasındadır. Hər ikisində liberalizm hakim olsa da, zəif multikulturalizm klassik liberalizmə, güclü multikulturalizm isə müasir liberalizmə fokuslanır.

Aparteidi siyasəti yürüdülən zaman dövlət azlıqları rədd etməsə də onların assimlyasiyasına və inkişafının qarşısına ciddi səddlər çəkir. Misal üçün, Cənubi Afrikada qara dərililərin çoxluq təşkil etməsinə baxmayaraq, ağlar öz dominantlığını qüvvədə saxlamaq üçün bu səpgidə qadağalar qoyurlar. Bir sözlə, müxtəliflikdə yalnız tolerant baxış əsas deyil, eyni zamanda lazım gəldikdə azlıqlara maliyyə dəstəyi vermək, inkişafları üçün zəruri şərait yaratmaq məqbuldur.

M.Vevyerka güclü və zəif multikulturalizmin gələcəkdə cəmiyyəti böyük təhlükələrkə üzləşdirəcəyi kimi düşünərək yazırdı:*"bu siyasət bəzi azlıqların ana dillərini, tarixlərini, ənənələrini tanıyır, kasıbçılığın və sosial təcridin qarşısını almaq imkanlarının real çıxışını təmin etmək üçün onların üzvlərinə xüsusi vasitələr ayırır"*[Вевьерка М., 2005, № 8, с-21-22]. O, multikulturalizmin azlıqların etnik-mədəni dəyərlərinin tanınma istəyi ilə cəmiyyətidə olan sosial qeyri-bərabərsizliyə qarşı mübarizənin sintezi kimi qəbul edirdi.

Multikulturalizmin mahiyyəti dərindən araşdırıldıqca dünyada mövcud mədəniyyətlərin yenidən öyrənilməsinə və və dərk edilməsinə ehtiyac duyulur. Benhabibin fikrinə istinad etsək: *"mədəni müstəsnalığa iddialarla insan hüquqları normaları arasında münaqişə"* yaranır. [Бенхабиб С., М., Логос, 2003, с- 103]

Kanadanın McGill Universitetinin professoru Jacob Levy *"Qorxu multikulturalizmi"* adlanan monoqrafiyasında etniklərin bağlı siyasətin düzgün tənzimlənməsi üçün dövlətin tərbiq edə biləcəyi siyasətin səkkiz formasıını açıqlamışdır*:*

"1. İstina; 2. Yardım; 3. Özünü – idarəetmə; 4. Daxili qaydalar; 5. Xarici qaydalar; 6. Hüquq tətbiqetmənin tanınması; 7. Təmsilçilik; 8. Simvolik tanıma" [Levy, J.T.Oxford University Press.s-127].

İstina siyasəti, məsələn, tələblər çox zaman geyim tərzi ilə bağlı məhdudiyyətlərlə qarşılaşa bilirlər, digər bir misal, ABŞ–dakı ortodoksal yəhudilər hərbi hava qüvvələrində xidmət edən zaman uniformadan kənar kippa deyilən papaqlarını qoymaq üşün dəfələrlə məhkəmələrə müraciət etsələr də rədd cavabı almışlar, necə ki, Fransada müsəlman qadınlar hicab geyindiklərinə görə universitetlərə buraxılmayıblar.

Yardım siyasətində isə azlıqların dominantlıq təşkil edən çoxluğa aid dəyərlərdən yararlanmasına köməklik göstərilir. *Özünüidarə* hüququ mədəni müxtəlifliklərdə ən çox rast gəlinənidir ki, bu zaman etno–mədəni qruplar mütləq üstünlük təşkil edə biləcəkləri siyasi formanı tələb edirlər.[Levy, J.T.Oxford University Press.]

Daxili qaydalar zamanı məsələn, etniklərin həyat yoldaşının öz daxili qruplarından seçməsini misal çəkmək olar.[Levy, J.T.Oxford University Press.]

KONSTRUKTİV TƏLİM MODELİ VƏ TƏLƏBƏYÖNÜMLÜ YANAŞMA

Rəna Qəşəmli
Azərbaycan Turizm və Menecment Universiteti, Nəqliyyat, İKT və təbiət elmləri kafedrasının müəllimi
ORCİD: 0009-0000-2230-8346

Xülasə
Müasir təhsil sistemlərində tələbənin öyrənmə prosesində aktiv iştirakını təmin edən yanaşmaların tətbiqi mühüm aktuallıq kəsb edir. Bu kontekstdə konstruktivist təlim modeli və tələbəyönümlü yanaşma müasir pedaqoji nəzəriyyə və praktikanın əsas istiqamətlərindən biri kimi çıxış edir. Məqalədə konstruktivizmin təlim fəlsəfəsi olaraq mahiyyəti, onun bilik quruculuğuna əsaslanan fəal öyrənmə modeli kimi funksiyası geniş şəkildə izah olunur. Konstruktivist yanaşma öyrənmənin tələbənin əvvəlki bilik və təcrübəsinə əsaslanaraq yeni anlamlar yaratması prosesi olduğunu irəli sürür və öyrənmənin fərdi, sosial və kontekstual xarakterini ön plana çıxarır.
Bu nəzəri əsaslar üzərində qurulan tələbəyönümlü təlim modeli, tələbənin maraq və ehtiyaclarını, öyrənmə üslubunu və şəxsiyyətini nəzərə almaqla daha məqsədyönlü və fərdiləşdirilmiş öyrənmə mühiti yaradır. Məqalədə bu iki yanaşmanın bir-birini necə tamamladığı, pedaqoji prosesdə qarşılıqlı əlaqəsi və sinif mühitində tətbiq imkanları təhlil edilir. Xüsusilə problem əsaslı öyrənmə, layihə əsaslı fəaliyyətlər, kooperativ öyrənmə və fasilitator rolunda müəllim modeli kimi konstruktivist metodların təlim prosesində effektivliyi nəzərdən keçirilir.
Tədqiqatın nəticələrinə əsasən, tələbəyönümlü konstruktivist yanaşmalar tələbənin öyrənməyə motivasiyasını artırır, tənqidi və yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirir, biliklərin davamlı şəkildə mənimsənilməsinə şərait yaradır. Bu isə XXI əsrin çağırışlarına cavab verən səmərəli və çevik təlim mühitinin yaradılmasına xidmət edir.
Açar sözlər: Konstruktivizm, tələbəyönümlü təlim, fəal öyrənmə, problem əsaslı öyrənmə, müəllim-bələdçi modeli, təcrübəyə əsaslanan təlim, fərdi yanaşma, kooperativ təlim, öyrənmə fəallığı.

Abstract
In modern educational systems, the application of approaches that ensure the active participation of the student in the learning process is of great relevance. In this context, the constructivist learning model and student-oriented approach act as one of the main directions of modern pedagogical theory and practice. The essence of constructivism as a teaching philosophy and its function as an active learning model based on knowledge construction are explained in the article. The constructivist approach posits that learning is a process by which the learner creates new meanings based on prior knowledge and experience, and emphasizes the individual, social, and contextual nature of learning.
Based on these theoretical foundations, the student-centered learning model creates a more targeted and personalized learning environment that takes into account the student's interests and needs, learning style and personality. The article analyzes how these two approaches complement each other, their interaction in the pedagogical process, and the possibilities of application in the classroom environment. In particular, the effectiveness of constructivist

methods in the learning process, such as problem-based learning, project-based activities, cooperative learning, and the teacher model as a facilitator, is reviewed.

Based on the results of the research, student-oriented constructivist approaches increase the student's motivation to learn, develop critical and creative thinking skills, and create conditions for continuous assimilation of knowledge. This serves to create an efficient and flexible learning environment that meets the challenges of the 21st century.

Keywords: Constructivism, student-oriented learning, active learning, problem-based learning, teacher-guide model, experience-based learning, individual approach, cooperative learning, learning activity.

THE ROLE OF THE WORK OF THE PEOPLE'S POET BAKHTİYAR VAHABZADE İN TEACHİNG THE AZERBAİJANİ LANGUAGE

РОЛЬ ТВОРЧЕСТВА НАРОДНОГО ПОЭТА БАХТИЯРА ВАГАБЗАДЕ В ПРЕПОДАВАНИИ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

XALQ ŞAİRİ BƏXTİYAR VAHABZADƏ YARADICILIĞININ AZƏRBAYCAN DİLİNİN TƏDRİSİNDƏ ROLU

Dos. Həmzə Qəmbər oğlu Əliyev
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasının müdiri

Abstract
One of the main tasks of modern education is to form a person who is able to approach creatively, has a broad outlook and intellectual level. For this, written texts appropriate to the age of students should be selected in accordance with the subject, and the content of the text should be taken into account. Special attention should be paid to the selection of texts when teaching language units. The use of literary texts of modern writers and poets in Azerbaijani language textbooks published in recent years is favorable for the assimilation of linguistic materials.
The article discusses the use of poetic texts of the People's Poet Bakhtiyar Vahabzadeh in Azerbaijani language lessons. The role of the poet's artistic heritage in the development of students' national thinking is noted. During the research, it was determined that the artistic text of Bakhtiyar Vahabzadeh's poem "Gulustan" plays an important role in the problematic-dialogical construction of teaching, which is the driving force of children's researcher position and cognitive activity during the teaching of the Azerbaijani language.
Key words: teaching, poem, syntactic unit, text

Резюме
Одной из главных задач современного образования является формирование личности, способной к творческому подходу, обладающей широким мировоззрением и интеллектуальным уровнем. По этой причине следует выбирать письменные тексты, соответствующие возрасту учащихся, в зависимости от темы, а также учитывать содержание текста. Особое внимание следует уделять выбору текста при обучении языковым единицам. Использование в учебниках азербайджанского языка, изданных в последние годы, художественных текстов современных писателей и поэтов способствует усвоению языкового материала.
В статье рассматривается использование поэтических текстов народного поэта Бахтияра Вагабзаде на уроках азербайджанского языка. Отмечена роль художественного наследия поэта в развитии национального мышления учащихся. В ходе исследования было установлено, что художественный текст поэмы Бахтияра Вагабзаде «Гюлистан» играет важную роль в проблемно-диалогическом построении обучения, что является движущей силой исследовательской позиции и познавательной активности детей в процессе обучения азербайджанскому языку.
Ключевые слова: учение, стихотворение, синтаксическая единица, текст

Xülasə
Müasir təlimin başlıca vəzifələrindən biri yaradıcı yanaşmağı bacaran, geniş dünyagörüşə və intellektual səviyyəyə malik insan formalaşdırmaqdır. Bunun üçün şagirdlərin yaş dövrlərinə uyğun yazılı mətnlər fənnə uyğun seçilməli, mətnin məzmunu nəzərə alınmalıdır. Dil vahidlərinin öyrədilməsi zamanı mətn seçimi xüsusi diqqətdə saxlanılmalıdır. Son illər çap olunmuş Azərbaycan dili dərsliklərində müasir yazıçı və şairlərin bədii mətnlərindən istifadə olunması linqvistik materialların mənimsədilməsi üçün əlverişlidir.
Məqalədə Xalq şairi Bəxtiyar Vahabzadənin poetik mətnlərindən Azərbaycan dili dərslərində istifadəsindən bəhs edilir. Şagirdlərin milli düşüncəsinin inkişaf etdirilməsində şairin bədii irsinin rolu qeyd edilir. Tədqiqat zamanı müəyyən edilir ki, Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasının bədii mətni Azərbaycan dilinin tədrisi zamanı uşaqların tədqiqatçı mövqeyinin və idrak fəallığının aparıcı qüvvəsi olan təlimin problemli - dialoji şəkildə qurulmasında əhəmiyyətli rol oynayır.
Açar sözlər: təlim, poema, sintaktik vahid, mətn

Giriş
Azərbaycanın Xalq şairi, ədəbiyyatşünas, filologiya elmlər doktoru, professor Bəxtiyar Vahabzadə 16 avqust 1925-ci ildə Şəki şəhərində anadan olmuş, 13 fevral 2009-cu ildə Bakı şəhərində dünyasını dəyişmişdir. Bədii yaradıcılığa 1943-cü ildə "Ana və şəkil" şeiri ilə başlamış şair lirik, epik və dramatik növdə bənzərsiz sənət əsərləri yaratmışdır. Ədəbi növlərin hər üçündə yazıb yaratmış ölməz sənətkarın əsərlərinin əsas qayəsi Azərbaycan məfkurəsi idi. Məhz bu amil onu 1960-cı illərdən başlayan milli azadlıq hərəkatının ön sıralarına gətirib çıxarmışdı.
Xalq şairi Bəxtiyar Vahabzadənin 1958-ci ildə yazmış olduğu "Gülüstan" poeması mövzu və bədii xüsusiyyətləri baxımından müasir Azərbaycan ədəbiyyatının əvəzsiz örnəklərindən biridir. Şair "Gülüstan" poeması ilə iki imperiya tərəfindən bölünmüş Azərbaycanın tarixi faciəsini bədii ədəbiyyat müstəvisinə gətirmiş, Azərbaycan xalqının iki yüz illik boğulmuş etirazını ifadə etmişdir. Əsərin məzmunu, ideya-bədii xüsusiyyətləri, zəngin dil faktları imkan verir ki, poetik mətndən orta ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi zamanı istifadə edilsin.

Əsas hissə
Dil vahidlərinin, xüsusilə də, sintaktik vahidlərin öyrədilməsində mətlərin rolu əvəzsizdir. Çünki, söz birləşməsi, sintaktik əlaqələr, cümlə və mətn birbaşa sintaksisin predmetidir. Mətndən və dialoqlardan kənar linqvistik vahidləri müəyyən etmək, xüsusiyyətlərindən danışmaq mümkün deyildir. Azərbaycan dili dərsliklərində dil qaydaları məzmun xəttinə uyğun elmi bilgilərin izahı, xüsusiyyətlərinin müəyyən edilməsi, şagirdlər tərəfindən mənimsədilməsi məqsədi ilə müxtəlif mətnlər təqdim edilir. Bu mətnlərdən sintaktik vahidlərin tədrisi üçün siniflər üzrə məzmun, tədris prosesində işləklik xüsusiyyətlərinə nəzər salınması, onların metodoloji-linqvistik xüsusiyyətlərini təhlil etmək zərurəti yaranır. Burada iki xüsusiyyət nəzərə alınmalıdır.
1.Dərsliklərdə şagirdlərə təqdim edilən mətnlərin məzmunu, onların şagirdlərə faydalılığı.
2.Mətnin sintaktik vahid kimi əsas xüsusiyyətlərinin şagirdlərə mənimsədilməsi.
Bu mənada Azərbaycan orta ümumtəhsil məktəblərinin VIII sinif Azərbaycan dili dərsliyində dil qaydalarının tədrisi ilə əlaqədar Bəxtiyar Vahabzadənin "Gülüstan" poemasının mətnin ixtisarla təqdim edilməsi təqdirə layiqdir.
"Gülüstan" poeması VIII sinif Azərbaycan dili dərsliyində II bölmənin V mövzusunun tədrisi üçün nəzərdə tutulmuşdur. (1.s. 53)
Məqsəd şagirdlərin məntiqi təfəkküründün inkişaf etdirilməsi, əldə etdikləri bilik və bacarıqları təqdim edə bilməsi, poemanın bədii mətnində qarşılaşdığı məcazi mənalı sözlərin mənasını

dərk edib şərh edə bilməsi, poemanın bədii mətnini təşkil edən cümlələr arasında əlaqəni tapmaqla mətni oxuması, mətndəki sözlər arasındakı tabelilik əlaqəsinin müəyyən edilməsidir. Müəllim tədris zamanı kollektiv və ya qruplarla iş təşkil edə, müasir təhsil üsullarından istifadə etməklə beyin həmləsi, müzakirə və debatdan istifadə edə bilər. (1.s.64)
Müəllim təlim nəticələrinə uyğun olaraq 1.1.2., 1.2.1., 2.1.2., 2.2.1., 4.1.2. məzmun standartlarından istifadə etməklə dərsin gedişini aşağıdakı şəkildə təşkil edə bilər:
Motivasiya mərhələsində müəllim Azərbaycanın sərhədləri haradan başlanır? sualı ilə şagirdlərə müraciət edə bilər. Şagirdlərin cavabları dinlənildikdən sonra poemanın mətni oxu məzmun xəttinə uyğun olaraq tələffüz qaydaları və intonasiya gözlənilməklə üzündən oxudula bilər. Şagirdlər poemanın dərslikdə verilmiş ilk bəndini oxuyacaqlar:

Atıb imzasını hər kəs varağa,
Əyləşib sakitcə keçib yerinə.
Eynəkli cənabla təsbehli ağa
Qalxıb əl də verir biri-birinə.(1.s.53)

Poemanın birinci bəndi oxudulduqdan sonra müəllim şagirdlərə hər misra haqqında sualla müraciət etməlidir. Ola bilsin ki, şagirdlər "vərəqə imza atılmağın" nə demək olduğu haqqında aydın təsəvvürə malik olmasın, o zaman müəllim izah etməlidir ki, şair burda sözün ecazkar gücündən istifadə etməklə 1813-cü ildə Çar Rusiyası və İran arasında bağlanmış və Azərbaycanı ikiyə bölən tarixi "Gülüstan" müqaviləsindən bəhs etdiyini söyləyə bilər. Üçüncü misrada "eynəkli cənab və təsbehli ağanın" kim olması haqqında isə danışarkən müəllim ədəbiyyat fənninə inteqrasiya etməli, burda "eynəkli cənabın" müqaviləyə imza atmış Çar Rusiyasının təmsilçisini, "təsbehli ağanın" isə İran nümayəndəsinin simvolizə edildiyini vurğulaya bilər.

Neçə vaxt səngərdə hey ulaşdılar,
Gülüstan kəndində sövdalaşdılar.
Bir ölkə ikiyə
ayrılsın deyə!...
Tərəflər qol çəkdi müqaviləyə.(1. s.53)

Bəndinin oxusu zamanı müəllim şagirdlərə Azərbaycanı ikiyə bölən o müqavilənin 1813-cü ilin oktyabr ayının 12-si Qarabağın Gülüstan kəndində bağlandığını Azərbaycan tarixi fənni ilə inteqrativ şəkildə izah edə bilər. Bənddə "sövdalaşmaq" ifadəsi də diqqətdən kənarda qalmamalı sözün həqiqi və məcazi mənası şagirdlərə izah edilməlidir. Oxu məzmun xəttinə uyğun olaraq şeirin üçüncü bəndi oxudularkən

"Gülüstan" bağlandı o gündən bəri,
Bu kəndin alnında bir ləkə qaldı.(1.s.53)

son iki misrası üzərində xüsusi dayanılmalıdır. Şagirdlərə izah edilməlidir ki, şair dırnaq içərisində verilmiş "Gülüstan" bağlanan gündən bu kəndin adında ləkə qaldı" deməklə Azərbaycanın ikiyə bölünməsinə işarə edir.
"Gülüstan" şeirinin poetik mətni Azərbaycan dilinin zəngin xüsusiyyətlərini əks etdirir. Mətndə qarşılaşdığımız "Onlar Azərbaycanın köksünə dağ boyda dağ basdılar" və ya "Dolandı zəmanə döndü qərinə " ifadələri müəllimə imkan verir ki, ədəbiyyat fənni ilə inteqrasiya edərək, şagirdlərə fonetik səviyyədə alliterasiya və assonansın poetik düşüncənin ifadəsində rolunu izah etsin.
Tarix, ədəbiyyat və dilin qovuşduğu "Gülüstan" poemasının məzmun və dil zənginliyini, tarixi faktların obrazlı ifadəsi olma xüsusiyyətini dərslik müəlliflərinin diqqətindən yayınmamış,

məhz buna görə də poemanın ixtisarla təqdim edilmiş mətnindən sonra Rusiya-İran müharibəsi haqqında elmi məlumatlar verilir, tarixi faktlar təqdim olunur. S. Bektaşi, Y. Hüseynovanın həmmüəllif olduğu Azərbaycan dili 8 Ümumtəhsil məktəblərinin "Azərbaycan dili"(tədris dili kimi) fənni üzrə dərsliyin metodik vəsaitdə tövsiyə edilir ki, müəllim motivasiya mərhələsində əvvəlki dərsdə evə verilmiş təqdimatları dinləməklə dərsə başlaya, sonra təqdimatların müəyyən cümlələrindən istifadə etməklə əvvəlki bilikləri soruşa bilər. Həmmüəlliflər vurğulayırlar ki, əvvəlki mövzuların qısa təkrarı yeni biliklərin öyrədilməsi üçün əlverişlidir.(2.s.64) Fikrimizcə, doğru yanaşma deyil, dərs yuxarıda qeyd etdiyimiz şəkildə mövzuya yönləndirmə ilə başlanılıb oxu məzmun xətti ilə davam etdirilməli, dərslikdə verilmiş poetik mətnin əsas məzmunu mənimsədilməli, şagirdlərin idrak fəallığı artırılmalı, Azərbaycanın tarixi keçmişi haqqında şagirdlərdə aydın təsəvvür yaradılmalıdır. Bunun üçün dərslikdə təqdim edilmiş suallar da uyğundur. Məsələn dərslikdə mətnin sonunda şagirdlərə təqdim edilmiş ilk sualda şagirdlərdən soruşulur ki, sizcə şeirdə hansı ölkənin ikiyə bölünməsindən söhbət gedir? Şübhəsi ki, oxu məzmun xəttinə uyğun olaraq mətnin üzündən oxudulması zamanı bu suala aydınlıq gətiriləcəkdir. İkinci sual da şagirdlərin idrakı bacarıqlarının yoxlanılması məqsədi ilə təqdim edilir. Mətnin dilinin müqayisə olunması, mətnin dilində fərqlərin müəyyənləşdirilməsinin, eyni zamanda oxşar xüsusiyyətlərin göstərilməsi tələb edilən bu sual birbaşa şagirdlərin oxuyub-anlama vərdişlərinin inkişafı üçün nəzərdə tutulmuşdur. Dərslikdə mətnlə əlaqədar ümumilikdə 15 sual təqdim edilmişdir. Bu suallar arasında ilk yeddi sual şagirdlərin məntiqi təfəkkürü ilə bağlıdırsa, digər səkkiz sual dil qaydaları məzmun xəttini əhatə edir. Məsələn, səkkizinci sualda şagirdlərdən tələb edilir ki, "müavilə", "saziş", "nota", "bəyanat", "ultimatum" sözlərinin məna fərqləri izah edilsin, şagirdlərin cavabları nümunələrlə əsaslandırılsın. Müəllim dərsin uyğun mərhələsində şagirdlərə sualı şaifahi şəkildə təqdim edə, şagirdlərin cavablarını dinləyib onlara qeyd edilmiş sözlərin dəqiq mənalarını izah edə bilər. Doqquzuncu sual da şagirdlərin lüğət fondunun genişləndirilməsi üçün nəzərdə tutulmuşdur. "sövdalaşdılar", "köks", "imza" sözlərinin hansı sözlə əvəz edilə biləcəyinin soruşulduğu bu sual əslində şeirin oxu mərhələsində səsləndirilməlidir ki, mətnin məzmunu daha aydın dərk edilsin. Onuncu sual da Azərbaycan dilinin leksikologiyasına aid sualdır. Bu sualda "düz" sözünün omonim və çoxmənalı olduğunu əsaslandırmaq tələb edilir. Müəllim "düz" sözünü "düz xətt", "Mil düzü", "düz danışmaq", "kitabları düzmək" kimi söz birləşməsi daxilində təqdim edərsə, şagirdlərə aydın olar ki, "düz" sifət, isim, zərf və feil əsas nitq hissəsi, o cümlədən "düz zamanında çatmaq" ifadəsində isə, ədat köməkçi nitq hissəsi kimi həm leksik, həm də qrammatik omonim səciyyəlidir. "Düz yol", "düz fikir" ifadələri ilə də sözün çoxmənalılığı haqqında məlumat vermək mümkündür. Təqdim edilmiş nümunələr müəllimə yanaşma əlaqəsi haqqında məlumat verməyə əsas verəcəkdir. Yanaşma əlaqəsinin tabelilik əlaqəsi kimi xüusiyyətləri sadalandıqdan sonra müəllim ümumiləşdirmə aparılıb nəticə əldə etdikdən sonra şagirdləri dərslikdəki 15-ci çalışmaya yönəldə bilər. Yaradıcı tətbiqetmə mərhələsində şagirdlərə müstəqil iş kimi yanaşma əlaqəsinə aid bədii ədəbiyyatdan nümunələr seçib yazmaq tapşırıla bilər. Dərsin son mərhələsində müəllim təlim nəticələrinə uyğun qiymətləndirmə apara bilər. Müəllimə dərsin gedişində yardım edə biləcək resurslara gəlincə isə dərslik də daxil olmaqla Azərbaycan dilinin izahlı lüğəti, iş vərəqləri, müşahidə vərəqləri istifadə edilə bilər.

Nəticə

Oxu materialının mənimsənilməsinin əsas şərti şagirdlərdə öyrənməyə müsbət münasibətin formalaşdırılmasıdır. Tədris prosesi şagirdin təbiətən malik olduğu öyrənmək meyilləri, həvəsi ilə əlaqələndirilərsə, bu, təlim materialının daha yaxşı anlaşılmasına kömək edər. Bilmək hələ hər şey demək deyildir. Biliyi təcrübəyə tətbiq etmək indiki şəraitdə əsasdır. Bu zaman şagirdin müstəqil fəaliyyətdə informasiyaların təhlil və tərkibinə, qərarlar qəbul etməsinə, həyata keçirməsinə hazır olması da vacibdir. Bu baxımdan müəllimin mövqeyi-öyrətmək, fənnə həvəs, maraq oyatmaq, informasiya mənbəyi deyil, informasiya almanın təşkilatçısına, idraki fəaliyyətə təhrik edən mənəvi və zehni impulsa çevrilir. Bütün bunlarla yanaşı öyrədiləcək və öyrəniləcək materialın da məzmunu milli düşüncənin inkişafına xidmət etməlidir. Xalq şairi Bəxtiyar Vahabzadənin poetik mətnləri məzmun baxımından imkan verir ki, şagirdlər mənsub olduğu xalqın tarixi keçmişini bilməklə yanaşı, dilini, folklorunu, etnolinqvistik xüsusiyyətlərini dərindən mənimsəsin.

Ədəbiyyat siyahısı.

1.T. Hacıyev, S. Bektaşi, M. Vəliyeva, Y. Hüseynova Azərbaycan dili 8 Ümumtəhsil məktəblərinin “Azərbaycan dili”(tədris dili kimi) fənni üzrə dərslik, Bakı, “ Şərq-Qərb nəşriyyatı ” 2017
2.S. Bektaşi, Y. Hüseynova Azərbaycan dili 8 Ümumtəhsil məktəblərinin “Azərbaycan dili”(tədris dili kimi) fənni üzrə dərsliyin metodik vəsaiti, Bakı, “Şərq-Qərb nəşriyyatı”2019
3.Bəxtiyar Vahabzadə, seçilmiş əsərləri II cilddə, II cild “Öndər nəşriyyatı”, Bakı, 2004.
4.Dövlət İmtahan Mərkəzi Azərbaycan dili (Yeni təhsil proqramı üzrə imtahanlara hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün vəsait), “Abituryent”, 2019
5.Q. Kazımov : Müasir Azərbaycan dili, Bakı, “Elm” 2000
6.B. Xəlilov. Müasir Azərbaycan dili. Sintaksis. “Elm və Təhsil” Bakı, 2017

WORK ON EXPRESSIVE READING IN PRIMARY GRADES

İBTİDAİ SİNİFLƏRDƏ İFADƏLİ OXU ÜZRƏ İŞLƏR

Abdullayeva Mahirə Mölud qızı
Azərbaycan Dövlər Pedaqoji Universitetinin Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasının baş müəllimi
Orkid-kod-0000-0002-6539-0201

Abstract
This article, entitled "Work on expressive reading in primary grades", discusses the instillation of expressive reading skills in primary grades. The article explains the procedure for reading poems and roles, and the importance of intonation and stress is brought to mind here. The article also gives examples of works from the primary school "Azerbaijani language" textbook for the 4th grade, and explains the rules for how to read them. It also discusses the work carried out on expressive reading in the 4th grade when discussing the types of sentences according to purpose and intonation, and emphasizes the appropriateness of using active-interactive methods in such lessons.
While forming expressive reading skills in students, the importance of the types of sentences according to purpose and intonation, and the role of punctuation marks in them is emphasized. The importance of both written and oral speech skills of primary school students meeting the necessary requirements is also emphasized, and the importance of acquiring various knowledge and syntactic concepts in the language is discussed.
Key worlds: Pupils, intoneyshn, teacher, expressive reading, ability

X ü l a s ə
"İbtidai siniflərdə ifadəli oxu üzrə işlər" adlanan bu məqalədə ifadəli oxu vərdişlərinin ibtidai siniflərdə aşılanmasından söhbət açılır. Məqalədə şeirlərin, rollar üzrə oxunun həyata keçirilməsi qaydası izah olunur və burada intonasiyanın, vurğunun vacibliyi nəzərə çatdırılır. Məqalədə ibtidai sinif "Azərbaycan dili" IV sinif dərsliyindəki əsərlərdən parçalar da nümunə kimi verilmiş, onların necə oxudulması qaydaları da izah olunmuşdur. Həmçinin, IV siniflərdə məqsəd və intonasiyaya görə cümlənin növləri bəhsini keçərkən ifadəli oxu üzrə aparılan işlərdən söhbət açılır və belə dərslərdə hansı fəal-interaktiv üsullardan istifadə olunmasının məqsədəuyğunluğu vurğulanır.
Şagirdlərdə ifadəli oxu bacarıqları formalaşdıratkən "Cümlə" bəhsinin tədrisində məqsəd və intonasiyaya görə cümlənin növləri, oradakı durğu işarələrinin rolunun əhəmiyyətini vurğulanır. İbtidai sinif şagirdlərinin həm yazılı, həm də şifahi nitq vərdişlərinin lazımi tələblərə cavab verməsinin də vacibliyi vurğulanmış, dil üzrə müxtəlif biliklərə, sintaktik anlayışlara yiyələnmənin əhəmiyyətindən söhbət açılmışdır.
Məqalədə yazıda durğu işarələrinə əməl olunmasının vacibliyi, ifadəli oxuda isə onların nəzərə çatdırılmasının yolları açıqlanmışdır.
Açar sözlər: Şagird, intonasiya, müəllim, ifadəli oxu, bacarıq

G i r i ş

"Bilirik ki, oxu bacarığının inkişaf etdirilməsi təhsilin və qiymətləndirmənin ən vacib komponentlərindən biridir. Yeni Azərbaycan dili dərsliklərində oxu üzrə standartları reallaşdırmaq üçün bədii və elmi-kütləvi mətnlər verilmişdir". (4, s.11)

Şagirdlərdə ifadəli oxu bacarıqları formalaşdırmağa çalışan müəllim "Cümlə" bəhsini keçərkən, məqsəd və intonasiyaya görə cümlənin növlərini, oradakı durğu işarələrinin rolunun əhəmiyyətini vurğulayır. İfadəli oxu baxımından uşaqlara müəyyən biliklər verilərkən ibtidai sinif şagirdlərinin həm yazılı, həm də şifahi nitq vərdişlərinin lazımi tələblərə cavab verməsi də ön planda saxlanılmalıdır. Şagirdlər ibtidai siniflərdən dil üzrə müxtəlif biliklərə, sintaktik anlayışlara yiyələnirlər ki, bu da onların nitqlərinin inkişafına və formalaşmasına gətirib çıxarır.

İbtidai siniflərdə Azərbaycan dili dərsliyinin köməyi ilə III-IV siniflərdə artıq şagirdlər cümlə haqqında biliklərini bir qədər də genişləndirir, "Məqsəd və intonasiyaya görə cümlənin növləri" barədə aşağı siniflərdəkindən fərqli olaraq daha dəqiq məlumatlar əldə edirlər. Əlbəddə ki, verilən biliklər çalışmaların köməyilə möhkəmləndirilir. IV sinfin Azərbaycan dili kitabını nəzərdən keçirsək görərik ki, keçilən mövzular mətnlərin və şeirlərin köməyi ilə bir daha təkrarlanır. Çünki verilən tapşırıqlar məhz mətn və şeirlərin içərisindən seçilir. Bu baxımdan da kiçik məqalədə bütünlükdə bunu əks etdirmək bizə nail olmasa da "Cümlənin məqsəd və intonasiyaya görə növləri"nin ifadəli oxu baxımından faydalarını əks etdirməyə çalışmışıq.

Əsas Hissə

IV sinifdə "Cümlənin məqsəd və intonasiyaya görə növləri" keçilərkən əvvəlcə aşağı siniflərdə şagirdlərin cümlə haqqında bildikləri yada salınır. Məsələn: Cümlə bitmiş fikir ifadə edir. Cümlə intonasiyaya görə növlərə ayrılır. Cümlənin sonunda müxtəlif durğu işarələri qoyulur. Cümlə sözlərin birləşməsindən yaranır.

Şagirdlərin fikirlərindən sonra müəllim izah edir ki, cümlənin sonunda səs tonu alçalır, fasilə edilir və yazıda nöqtə işarəsi qoyulur. Daha sonra müəllim cümləyə verilmiş tərifi şagirdlərə daha aydın şərh edərək göstərir ki, bir söz və ya bir neçə söz hələ ayrılıqda cümlə hesab edilə bilməz. Onlar fikrin bitdiyini ifadə etdikdə cümlə şəklinə düşür. Fikrin bitdiyini isə həm qrammatik əlamətlər, həm də intonasiya ilə müəyyənləşdirmək mümkündür. Cümləni yalnız formal əlamətlərinə görə müəyyənləşdirmək kifayət deyildir. Çünki elə cümlələr vardır ki, onlar heç bir formal əlamət qəbul etmədən bitmiş fikir ifadə edə bilir. Belə cümlələrdə fikrin bitdiyi yalnız intonasiya vasitəsi ilə müəyyənləşdirilir.

Müəllim intonasiyanın rolunu izah etmək üçün müəyyən mətndəki cümlələri intonasiyaya riayət edərək, fasilələrlə oxuyaraq, şagirdlərə başa salmalıdır ki, hər bir cümlənin sonunda səs tonu müəyyən dərəcədə aşağı düşməli (burada, əlbəttə ki, nəqli cümlə nəzərdə tutulur) və bununla da fikrin intonasiya cəhətdən bitdiyi ifadə edilməlidir. Misallar üzərində, müşahidə yolu ilə müəllim cümlənin əmələ gəlməsində intonasiyanın və fasilələrin rolunu, əhəmiyyətini şagirdlərə dəqiq izah edir.

IV sinfin Azərbaycan dili dərsliyində "Cümlənin məqsəd və intonasiyaya görə növləri" keçilərkən belə deyilir: "Hər bir cümlə müəyyən məqsədlə söylənilir: məlumat vermək, nə isə soruşmaq, göstəriş vermək və s. Məqsədindən asılı olaraq cümlənin dörd növü var: nəqli, sual, nida, əmr cümləsi (2, s.173). Müəllim bunu bir-iki misal üzərində nümayiş etdirməlidir. Bu giriş söhbətindən şagirdlər dərk etməlidirlər ki, onların sonrakı dərslərdə öyrənəcəkləri sadə cümlələr bir-birindən həm qarşıya qoyulan məqsədə görə, həm də intonasiyaya görə fərqlənəcəklər.

IV sinfində nəqli, sual, nida və əmr cümlələri mövzusunu keçməzdən öncə şagirdlərin dərsə olan maraq hissini qüvvətləndirmək üçün motivasiya mərhələsində R.Rzanın dərslikdə

öyrənilməsi nəzərdə tutulmuş "Xan çinar" şeirinin lentə yazılmış ifadəli oxusu səsləndirilir. Bu həm də şagirdlərin dinləyib-anlama qabiliyyətini inkişaf etdirməyə xidmət edən bir vasitədir. Bütün sinif şeiri diqqətlə dinləyir:

"Gecə qara, durdum, düşündüm bir az,
Dedim, nədən ulu çinar yıxılmaz?
Birdən çinar dilə gəldi, dedi: – Bax!
Bu torpaqda dərindən kök salaraq,
Hər tərəfə uzatmışam qolumu,
Övladlarım bürüyüb sağ-solumu.
Belə məğrur dayanmağa haqlıyam,
Mən kökümlə bu torpağa bağlıyam. "(2, s. 178).

Hər bir şagirdin simasından bu ifadəli oxunun onlara xoş təsir bağışladığı duyulur. Müəllim şeirin belə təsirli olma səbəbini soruşur. Şagirdlər bir-bir öz fikirlərini söyləyirlər:
– Şeir xalqa bağlılıq ruhunda yazılmışdır, ona görə belə təsirlidir.
– Şair vətən torpağını vəsf edir.
– Şeirin dili sadə və aydındır.
– Öz xalqına bağlı olan insan çinar kimi başı uca olur.

Müəllim hər bir mülahizəni dinlədikdən sonra sinfə belə bir sualla müraciət edir:
– Şeirdə intonasiyanın hansı növlərindən istifadə olunmuşdur?

Şagirdlər öz mülahizələrini söylədilər: "Dedim, nədən ulu çinar yıxılmaz?" misrası sual intonasiyası ilə deyilmişdir. Fikrimizcə, bu şeirdə daha yüksək səslə deyilən nida cümləsindən də istifadə olunmuşdur. "Birdən çinar dilə gəldi, dedi: – Bax!" misrasındakı "Bax" sözü ucadan deyilir.

Müəllim deyir: Uşaqlar, " Dedim, nədən ulu çinar yıxılmaz? Birdən çinar dilə gəldi, dedi: – Bax!" - misralarında həm də aydınlaşdırma intonasiyasından istifadə olunmuşdur. Bu barədə növbəti dərslərdə mürəkkəb cümlənin tabeli və tabesiz növləri haqqında danışılarkən məlumat verəcəyik. İndi isə mətni bir daha nəzərdən keçirin, daha hansı misranı nida cümləsi kimi götürmək mümkündür?

Uşaqlar: "Belə məğrur dayanmağa haqlıyam, Mən kökümlə bu torpağa bağlıyam" misralarının nida cümləsi kimi götürülə bilər- cavabını verdilər. Müəllim bu faktdan çıxış edərək intonasiya vasitəsilə cümlələri müxtəlif növlərdə işlətməyin mümükünlüyünü söylədi və bu istiqamətdə iş apardı. Lövhədə bu cümlələri yazdı:1. Aybəniz məktəbimizin altıncı sinfində oxuyur. 2. Biz əlaçı olmağa çalışacağıq. 3. Bütün şagirdlər bu gün dərsə hazır gəlmişlər.

Müəllim sinfə müraciət edərək soruşur ki, nə üçün bu cümlələrin sonunda nöqtə işarəsi qoyulmuşdur? Şagirdlər izah etdirlər ki, həmin cümlələr həm məzmun, həm də intonasiyaya görə bitmiş bir fikri ifadə edir. Həmin cümlələrin sonunda səs tonu alçalmış və fasilə edilmişdir.

Müəllim lövhədəki birinci cümləni əvvəlkindən fərqli olaraq: "Aybəniz məktəbimizin altıncı sinfində oxuyur?" şəklində oxudu və bu cümlədə əvvəlki ilə müqayisədə əmələ gələn dəyişikliyi şagirdlərdən soruşur. Şagirdlər öz cavablarında göstərdilər ki, bu cümlədə forma etibarilə heç bir dəyişiklik baş verməmişdir. Lakin bu cümlədə intonasiya dəyişmiş və Aybənizin altıncı sinifdə oxumasını dəqiqləşdirmək üçün sual verilmişdir. Şagirdlər müəllimin köməyi ilə müəyyənləşdirdilər ki, birinci cümlədə səs tonu sonuncu sözdə ("oxuyur") alçalırdısa, ikinci cümlədə həmin sözdə yüksəlir, cümlədəki ümumi məna intonasiyadan asılı olaraq dəyişir. Cümlədə əmələ gəlmiş bu intonasiya fərqi onun məzmununa da təsir edir. Əvvəlki cümlədə Aybənizin altıncı sinifdə oxuması haqqında məlumat verilirdisə, ikinci cümlədə onun hansı sinifdə oxuması soruşulur. Müəllim deyilənləri ümumiləşdirərək göstərdi ki, məqsəd və intonasiyaya görə sadə cümlənin 4 növü vardır: nəqli, sual, əmr və nida cümlələri. Nəqli, sual və əmr cümlələri yüksək intonasiya ilə tələffüz edildikdə nida cümləsinə

çevrilir. Belə müqayisədən sonra şagirdlər müəyyən etdilər ki, cümlənin tərkibində heç bir dəyişiklik etmədən, yalnız onun intonasiyasını dəyişməklə nəqli cümləni sual cümləsi kimi tələffüz etmək olar. Belə halda cümlə tərkib etibarı ilə dəyişməsə də, məzmun etibarı ilə tamamilə dəyişmiş olur. Bu cür cümlələrin nəqli və ya sual cümləsi olub olmamasını müəyyənləşdirmək üçün yalnız danışanı diqqətlə dinləmək, cümlənin intonasiyasına fikir vermək və oxu zamanı yazıda qoyulmuş durğu işarələrini düzgün müəyyənləşdirmək lazımdır.

Burada müəllim sual cümlələrində məntiqi vurğunun düzgün müəyyənləşdirilməsinin də ifadəli oxu üçün mühüm əhəmiyyətə malik olduğunu göstərir. O izah edir ki, intonasiya vasitəsilə düzələn sual cümlələrində məntiqi vurğu, nəqli cümlələrdə olduğu kimi, məqsəddən asılı olaraq müxtəlif sözlərin üzərinə düşə bilər.

Əmr cümlələri intonasiya üzərində müşahidə aparmaq üçün ən əlverişli imkanlardan sayılır. Üçüncü sinif dərsliyində əmr cümlələrinə belə bir tərif verilir: "Əmr, xahiş, tapşırıq ifadə edən cümlələr əmr cümləsi adlanır" (1, s.182)

Müəllim izah edir ki, əmr cümlələri, əsasən, yüksək tonla, təkid intonasiyası ilə tələffüz edilir və bu da nida cümlələrinin intonasiyasına bənzəyir.

IV sinifdə əmr cümləsində intonasiya üzərində müşahidəyə geniş yer verilməli, şagirdlərə xatırladılmalı ki, əksər hallarda yüksək intonasiya ilə tələffüz edilməli olan cümlələrdən biri də əmr cümləsidir. Əmr cümləsi əmr, xahiş, nəsihət və s. bildirmək məqsədi ilə işlədilir. Müəllim lövhədə aşağıdakı cümlələri yazır: **1.**Onsuz da işimiz çoxdur, cavab verin. **2.**Rica edirəm, əyləşin.

"Boş oturma, çalış, -dedi, -
Xidmət eylə Vətənə
"Marş irəli! Marş irəli!
Azərbaycan əsgəri!" (2, s.47.)

Şagirdlərin diqqətini birinci misraya yönəldən müəllim aydınlaşdırır ki, bu cümlələrin hamısı eyni intonasiya ilə tələffüz edilmir. 1-ci və 2-ci cümlələr əmr, 3-cü və 4-cü cümlələr isə nida intonasiyası ilə oxunmalıdır. Əvvəlki iki cümlənin sonunda nöqtə, sonuncu iki cümlənin sonunda isə nida işarəsi qoyulmuşdur. 3-cü və 4-cü cümlələr nida cümlələridir. Çünki bu cümlələr yüksək hiss və həyəcanla, yüksək tonda tələffüz olunur və cümlələrin sonundakı nida işarələri də bunu aydın şəkildə sübut edir.

Bu nəticədən sonra müəllim şagirdlər qarşısında belə bir sual qoydu: Bəs əmr və nida cümlələrini necə ayırmaq olar? Şagirdlər fikirləşərək müvafiq cavablar verdilər. Müəllim verilən cavabları ümumiləşdirərək göstərdi ki, əmr cümləsi, həqiqətən, başqasını müəyyən bir işi yerinə yetirməyə təhrik etdikdə əmr intonasiyası ilə tələffüz edilməli və cümlənin sonunda nöqtə işarəsi qoyulmalıdır. Nida cümləsində isə emosional münasibət, hiss-həyəcan üstünlük təşkil edir və cümlənin sonunda nida işarəsi işlənir.

Nəticə

"Ucadan, ifadəli oxu prosesində şeirlərin ölçüləri, heca, vəzn, ritm və s. daha aydın, dəqiq qavranır. Şeir oxumağın sirlərini şagirdlərə başa salmaq üçün müəllim ifadəli oxu nümunəsi verməlidir" (3, s.267)

Şagirdlərin dilimizin sintaktik quruluşunu əks etdirən bacarıq və vərdişlərə yiyələnməsi üçün ayrı-ayrı cümlələr əsasında tərtib olunmuş çalışmalar üzərində iş daha səmərəli sayılır. Bu tipli çalışmalar şagirdlərə cümləni təşkil edən sözlər və söz birləşmələri, eləcə də cümlə üzvləri arasında məna və qrammatik əlaqələri düzgün müəyyənləşdirməyə, intonasiya və məqsəddən aslı olaraq onların növünü dəqiqləşdirməyə imkan yaradır.

İbtidai sinifdə Azərbaycan dilindən hər bir dərsdə təlim prinsiplərinə ciddi riayət etmək şərti ilə intonasiya üzərində müntəzəm olaraq müşahidə aparılmalı, keçilən mövzular və fənnlər

arasında əlaqə formasında ardıcıl təkrarlara geniş yer verilməli, şagirdlərdə ifadəli oxu vərdişlərinin formalaşıb inkişaf etdirilməsinə xüsusi diqqət yetirilməlidir.
Azərbaycan dilinin tədrisi prosesində, xüsusən sintaktik anlayışların öyrədilməsi prosesində ifadəli oxu vərdişlərinin yaradılması və inkişaf etdirilməsi şagirdlərin doğma dildən sistematik kursa hazırlanmasında əhəmiyyətli rol oynayır.
İbtidai siniflərdə şagirdlərə ifadəli oxu vərdişləri aşılayarkən istifadə olunan bədii ədəbiyyatlarda yazıçının dil və üslubunu, süjet və kompozisiya xüsusiyyətlərini saxlamaqla bərabər, əsərin dinləyicilərə yaxşı təsir bağışlamasını təmin etmək üçün bütün ifadəli oxu vasitələrindən: intonasiya, mimika, hərəkət və s. istifadə edilməli mətndə ifadə olunan kədər, kinayə, istehza, zarafat, qorxu, sevinc, səmimiyyət və s. kimi hissi hallar ifadəli oxu prosesində özünü əks etdirməlidir. Bütün bu deyilənləri ləri şagirdlərdə formalaşdırmaq üçün isə başlıca şərt müəllimin özünün bu keyfiyyətləri bilib, onlara əməl etməsidir. Əsərdəki təbiilik və emosionallıq, oyanıqlıq və obrazlılıq müəllimin ifadəli oxusundan - düzgün, rəvan və şüurlu oxu bacarıqlarığından aslıdır. Hər bir sinif müəllimi dərs ilinin əvvəlində şagirdlərin oxu bacarıqlarına yiyələnmə səviyyəsini müəyyənləşdirməli və növbəti dərslərdə bu faktdan çıxış edərək təlim prosesini qurmalıdır.

Ədəbiyyat Siyahısı

1. İsmayılov R., Abdullayeva S., Cəfərova D., Qasımova X. Azərbaycan dili Ümumtəhsil məktəblərinin III sinfi üçün dərslik. Bakı, Altun kitab, 2010, 206 s.
2. İsmayılov R., Abdullayeva S., Cəfərova D., Qasımova X. Azərbaycan dili Ümumtəhsil məktəblərinin IV sinfi üçün dərslik. Bakı, Altun kitab, 2011, 224 s.
3. Nəbiyeva Ş.Z., Abdullayeva G.A., Kərimova A.S. "İbtidai siniflərdə ana dilinin tədrisi metodikası fənnindən mühazirələr", Bakı, Elm və təhsil, 2015, s. 520.
4. Paşayeva P., Abbasova S. Azərbaycan dili tədrisinin aktual problemləri. Bakı, 2021, ADPU-nun nəşri, 155 s.

TYPES OF LANGUAGE CHANGE IN THE DYNAMICS OF THE DEVELOPMENT OF THE ENGLISH LANGUAGE

ТИПЫ ЯЗЫКОВЫХ ИЗМЕНЕНИЙ В ДИНАМИКЕ РАЗВИТИЯ АНГЛИЙСКОГО ЯЗЫКА

İNGİLİS DİLİNİN İNKİŞAF DİNAMİKASINDA DİL DƏYİŞİKLİYİNİN NÖVLƏRİ

Qəribə Məmməd qızı Məmmədova
ADPU, XDM -nin dosenti, filologiya üzrə fəlsəfə doktoru

Abstract
This article deals with the importance of language as a means of communication between people. It is estimated that there are 6,000-7,000 languages in the world. Some of them are the most widely used languages in the world, such as English, Russian, German, French, and Chinese. The history of languages is very long and complex. Some languages change, some expand, and some die. In fact, all languages change over time, and change is inevitable for any living language. History shows that languages change over time at every level of structure, including vocabulary, phonology, morphology, and syntax. There are different types of language change. These include lexical, semantic, phonological, and syntactic change. Lexical change refers to the way people use words today that are different from people in the past. Semantic change describes the evolution of word usage. Syntax describes changes in constructions. Phonological change refers to the experience of language change that results in phonetic change or phonological change.
English is also one of the fastest-changing languages in the world today, as both old and new users of the language actively shape it as it becomes the language of education. Today, English belongs to any country that uses it, and the more people who use English, the more it influences language change. English serves as the primary language used in medicine, science, economics, international relations, and many other fields. English changes through the publication of new dictionaries, or the way the media uses the language, or the creation of colloquial terms.
Key words: language, communication, lexical, semantic, term, orthography, example, type

Резюме
В этой статье обсуждается важность языка как средство общения между людьми. По оценкам, в мире существует 6000–7000 языков. Некоторые из них являются наиболее широко используемыми языками в мире, например, английский, русский, немецкий, французский и китайский. История языков очень долгая и сложная. Некоторые языки меняются, некоторые расширяются, а некоторые умирают. На самом деле, все языки со временем меняются, и изменения неизбежны для любого живого языка. История показывает, что языки со временем меняются на каждом уровне структуры, включая словарный запас, фонологию, морфологию и синтаксис. Существуют различные типы языковых изменений. К ним относятся лексические, семантические, фонологические и синтаксические изменения. Лексические изменения относятся к тому, как люди используют слова сегодня, и отличаются от того, как люди использовали их в прошлом. Семантические изменения описывают эволюцию использования слов. Синтаксис описывает изменения в конструкциях. Фонологические изменения относятся к опыту изменения языка, который приводит к фонетическим изменениям или фонологическим изменениям.

Английский также является одним из самых быстро меняющихся языков в современном мире, поскольку как старые, так и новые пользователи языка активно формируют его, поскольку он становится языком образования. Сегодня английский язык принадлежит любой стране, которая его использует, и чем больше людей используют английский язык, тем больше он влияет на изменение языка. Английский язык служит основным языком, используемым в медицине, науке, экономике, международных отношениях и многих других областях. Английский язык меняется из-за публикации новых словарей, или из-за того, как средства массовой информации используют язык, или из-за создания разговорных терминов.

Ключевые слова: язык, коммуникация, лексический, семантический, термин, орфография, пример, тип

Xülasə

Bu məqədə dilin insanlar arasında mühüm ünsiyyət vasitəsi olmasından bəhs edilir. Dünyada 6000-7000 dilin olduğu təxmin edilir. Onlardan bəziləri dünyadakı insanların daha çox istifadə etdiyi dillərdir, məsələn, ingilis dili, rus dili, alman dili, fransız dili, çin dili belə dillərdəndir. Dillərin tarixi çox uzun və mürəkkəbdir. Bəzi dillər dəyişir və bəziləri genişlənir və bəzi dillər isə ölür. Əslində bütün dillər zamanla dəyişir və hər bir canlı dil üçün dəyişiklik qaçılmazdır. Tarix qeyd edir ki, dillər lüğət, fonologiya, morfologiya va sintaksis daxil olmaqla strukturun hər səviyyəsində zamanla dəyişir. Dildə baş verən dəyişikliklərin növləri var. Bunlara leksik, semantik, fonoloji və sintaktik dəyişikliklər daxildir. Leksik dəyişiklik keçmişdəki insanlardan fərqli olaraq bu gün insanların fərqli izlər işlətməsinə aiddir. Semantik dəyişiklik söz istifadəsinin təkamülünü təsvir edir. Sintaksis dəyişiklik konstruksiyalardakı dəyişiklikləri qeyd edir. Fonoloji dəyişiklik isə səs dəyişikliyi fonetik dəyişikliyə və ya fonoloji dəyişikliyə səbəb olan dil dəyişikliyi təcrübəsindən ibarətdir.
İngilis dili də bu gün dünyada ən sürətlə dəyişən dillərdən biridir, çünki ingilis dili təhsil dilinə çevrildiyi üçün dilin həm köhnə, həm də yeni istifadəçiləri onu fəal şəkildə formalaşdırırlar. Bu gün ingilis dili ondan istifadə edən hər hansı bir ölkəyə aiddir və nə qədər çox insan ingilis dilindən istifadə etsə, bu dil dəyişikliyinə bir o qədər çox təsir edər. İngilis dili tibb, elm, iqtisadiyyat, beynəlxalq münasibətlər və bir çox digər sahələrdə istifadə olunan əsas dil rolunu oynayır. İngilis dili yeni lüğətlərin nəşri və ya medianın dildən istifadə üsulu və ya danışıq terminlərinin yaradılması ilə dəyişir.

Açar sözlər: dil, ünsiyyət, leksik, semantik, termin, orfoqrafiya, nümunə, növ.

Dil, düşüncələrimizin və yaradıcı fikirlarimizin ifadəsi olub, üz-üzə ünsiyyət, elmi araşdırma və bir çox digər məqsədlər üçün istifadə olunan əsas insan bacarığıdır. İnsanların əksəriyyəti, ətraf mühit tərəfindən düzgün öyrədildiyi təqdirdə dili avtomatik və rahatlıqla əldə etmək qabiliyyəti ilə doğulur. Dünyada 6000-7000 dilin olduğu təxmin edilir. Onlardan bəziləri dünyadakı insanların daha çox istifadə etdiyi dillərdir, məsələn, ingilis dili, rus dili, alman dili, fransız dili, çin dili belə dillərdəndir. Tarix boyu hər hansı bir dil digər dillərdən daha üstün olub. müxtəlif dil daşıyıcılarının ortaq dili funksiyasını icra edir. Orta dövrlərdə ərəb dili, XVIII-XIX əsrlərdə fransız dili, günümüzdə isə ingilis dili əsas ünsiyyət dili hesab edilir.
İngilis dilinin günümüzdəki əhəmiyyətini vurğulamağa yəqin ki, ehtiyac yoxdur. İngilis dili tibb, elm, iqtisadiyyat, beynəlxalq münasibətlər və bir çox digər sahələrdə istifadə olunan əsas dil rolunu oynayır. İngilis dilinin daşıdığı linqvo-franka, yəni başqa dillərin nümayəndələri üçün ortaq dil statusu bu dilin tədqiqi və öyrənilməsi məsələlərini aktuallaşdırır. Bu məqsədlə dilin dinamikasına nəzər salaq.
İngilis dili, inkişaf başlanğıcını tapa bildiyimiz nadir dillərdəndir. İngilis dilinin tarixini üç dövrə qədim (old), orta (middle) va erkən müasir (early modern) dövrlərə bölmək dilçilik

tarixində çox geniş yayılmışdır. Bunun əsaslandırılması qismən xarici və qismən daxilidir. Qədim İngilis dili dövrü (Old English Period) V əsrin ortalarında Alman tayfalarının İngiltərəyə yerləşmələri ilə başlayır. Orta İngilis dili dövrü (Middle English Period), 1066-cı ildə Hastings döyüşündəki müvəffəqiyyətlərindən sonra Normanların İngiltərəni fəth etməsi ilə başlayır. Bu dövrün sonunda 1476-cı ildə Vilyam Kakston bəşəriyyət tarixinin ən böyük kəşflərindən biri sayılan çap maşınını ixtira edir. Erkən müasir dövr XVI əsrdən başlayır və klassik dillərdən mənsimsədiyi sözlər hesabına söz ehtiyatlarının genişlənməsi, ingilis dilinin qrammatikasının nizamlanması ilə xarakterizə olunur.

Dil insanlar arasında mühüm ünsiyyət vasitəsi olmaqla tarixən yaranmış, yaşamış və inkişaf etmiş bir prosesdir. Bu baxımdan ingilis dilinin də tarixi çox uzun və mürəkkəbdir.

Əslində bütün dillər zamanla dəyişir və hər bir canlı dil üçün dəyişiklik qaçılmazdır. Tarix qeyd edir ki, dillər lüğət, fonologiya, morfologiya va sintaksis daxil olmaqla strukturun hər səviyyəsində zamanla dəyişir. Bir çox insanlar üçün bu, şəxsi səviyyədə gündəlik ünsiyyətdə asanlıqla aydın və ya aşkar olmaya bilər, çünki bir çox fərdlər öz dilləri ilə o qədər sıx bağlıdırlar ki, onun dəyişikliklərini görə bilmirlər. Bununla belə, dillər həqiqətən dəyişir və bəzi dillər çiçəklənir, bəziləri genişlənir və bəzi dillər isə ölür.

Nəsildən-nəslə, tələffüz inkişaf edir, başqa dillərdən yeni sözlər alınır və ya yeni sözlər yaradılır, köhnə sözlərin mənası dəyişir, morfologiya inkişaf edir və ya əksinə. Dəyişiklik sürəti bir yerdən digərinə dəyişə bilər, lakin dəyişikliklərin daha sürətli və ya daha yavaş olmasından asılı olmayaraq, bu baş verir və yaxşı bir səbəbə görə baş verir.

Dilin dəyişməsi və dəyişmə səbəbləri haqqında biliyə sahib olmaq dil tələbələri üçün vacibdir. Odur ki, dildə baş verən dəyişikliyin qaçınılmaz olduğunu və insanlar üçün daha yaxşı bir səbəbdən baş verdiyini qəbul edən dilçilər üçün əhəmiyyətli bir mövzudur.

Dəyişiklik müxtəlif və fərqli olur ki, onların da növləri var. Bunlara leksik, semantik, fonoloji və sintaktik dəyişikliklər daxildir. Bu dəyişikliklərlə bağlı ümumi fikirlər aşağıda bir neçə nümunə ilə izah olunur. Leksik və semantik dəyişiklik, ümumiyyətlə, bir-biri ilə sıx bağlı olduğundan bir kateqoriyada izah ediləcəkdir.

Leksik və semantik dəyişiklik

Leksik dəyişiklik keçmişdəki insanlardan fərqli olaraq bu gün insanların fərqli izlər işlətməsinə aiddir. Semantik dəyişiklik leksik dəyişikliklə çox sıx bağlıdır, lakin semantik dəyişikliyin sözlərin arxasındakı məna dəyişiklikləri ilə əlaqəsi var.

Bu, yəqinki, dil dəyişikliyinin ən tez-tez rast gəlinən növüdür və şübhəsiz ki, müşahidə etmək ən asanıdır. Məsələn, “courting” sözünü “birlikdə getmək” mənasında istifadə edən natiqin və ya cazibədar hesab etdiyi birini təsvir etmək üçün “fit” sifətindən istifadə edən insanın yaşı barədə əminliklə fikir söyləmək olar. Başqa bir misalda, yaşlı bir insan “radio” mənasını vermək üçün “wireless(simsiz)” sözündən istifadə edərdi, simsiz sözü isə əlbəttə ki, gənc bir insan üçün telefonlar və noutbuklar kimi simsiz texnologiya deməkdir (1, s.88).

Semantik dəyişiklik söz istifadəsinin təkamülünü təsvir edir. Semantik dəyişiklikdə sözün müasir mənası ilkin istifadədən fərqlidir. Aşağıda semantik dəyişikliyin bir neçə nümunəsi verilmişdir;

"Awful (dəhşətli)” sözü əvvəlcə "heyrət və ya qorxu dolu” mənasındadır. Bu, ilkin olaraq "full of awe (heyrətlə dolu)” üçün qısaldılma kimi istifadə edilən "awe (heyran)" və "full (dolu)" sözlərindən ibarət portmantodur. Müasir istifadədə bu söz adətən mənfi məna daşıyır.

"Demagogue (demaqoq)" sözü əvvəlcə "xalq lideri" mənasında idi. İndi bu söz emosiyalara və qərəzlərə söykənən siyasətçinin güclü inanclarına aiddir.

"Egregious (qeyri-adi)" sözü əvvəlcə olduqca yaxşı olan bir məfhuma aid idi. İndi bu, olduqca pis və ya açıq-saçıq olan bir məfhuma aiddir (1, s.91)

Sintaksis dəyişikliyi (Qrammatika)

Tarix qrammatik konstruksiyalardakı dəyişiklikləri qeyd edir. İngilis sintaksisi kifayət qədər səthi və efemer kimi görünə bilən lüğət dəyişikliyi ilə müqayisədə çox ləng dəyişir. Müasir ingilis dili qrammatikası bir çox aspektlərə görə köhnə ingilis dilindən fərqlidir. Buna bir misal, köhnə ingilis dilində üçüncü şəxsin təklik bildirən işarə əvəzliyinin cins bildirən üç forması var idi: /se/ kişi forması, paet/neytral forma idi və/seo/qadın forması idi. Bununla belə, müasir ingilis dilində cinsdən asılı olmayaraq, üçüncü şəxsin təklik bildirən işarə əvəzliyinin yalnız bir forması var- "that" (6, s. 6).

Bir başqa misalda müasir ingilis dilində "you" sözü həm tək, həm də cəm üçün istifadə olunur. Köhnə ingilis dilində "thou" sözü bir şəxsə müraciət etmək üçün istifadə olunurdu; "ye" birdən çox. Halbuki, "you" sözü o zamanlar mövcüd idi və "thou" və "ye" cümlənin subyekti kimi işlədildiyi halda, obyekt kimi "you" istifadə olunurdu. Erkən Müasir İngilis dilində *ye* və *you* bütün qrammatik funksiyalarda və sosial vəziyyətlərdə normaya çevrilmişdir. "Ye" sözünün istifadəsi sonda köhnəlmişdir (6, s.6-7).

Fonoloji dəyişiklik (Səs)

Səs dəyişikliyi fonetik dəyişikliyə və ya fonoloji dəyişikliyə səbəb olan dil dəyişikliyi təcrübəsindən ibarətdir. Bu, həmçinin, orijinal səsin tamamilə itməsinə səbəb olan fonetik xüsusiyyətin dəyişdirilməsini va yenisinin təqdim edilməsini əhatə edir.

İngilis dilində tələffüz danışanlar arasında həm coğrafi, həm də sosial fərqləri əks etdirməyə davam etsə də, tədricən dəyişir. Artıq bütün təhsilli insanların Received Pronunciation (RP) ilə danışdığı doğru deyil. Çox qısa müddətdə Amerika ləhcəsini mənimsəyən britaniyalıların göstərdiyi kimi, insanın nitqi illər ərzində tədricən ətrafdakıların istiqamətində dəyişə bilər. Müxtəlif dövrlərə əsaslanan səs dəyişikliklərinin bir neçə nümunəsi aşağıda qeyd edilmişdir (2, s.110).

- insanlar "*flaw*" va "*floor*" kimi cütlüklərdə fərq qoymağı dayandırdılar,
- *sure, poor, tour* kimi sözlər *shore, pour tore* sözlan ilə eyni cür səslənməyə başladı;
- insanlar *prince* kimi sözlərə *t* səsi daxil edərək onu *prints* kimi səsləməyə başladılar (6, s.7)

Orfoqrafiya dəyişikliyi

Bir çox ölkədə milli dilləri qorumaq üçün tənzimləyici təşkilatlar var, lakin nə ABŞ, nə də Böyük Britaniyada belə tənzimləyici orqanlar yoxdur. İngilis dili yeni lüğətlərin nəşri və ya medianın dildən istifadə üsulu və ya danışıq terminlərinin yaradılması ilə dəyişir. Aşağıda ingilis dilinin tarixində baş vermiş orfoqrafiya dəyişiklərinə dair bir neçə nümunə verilmişdir.

Spelling during 16 and 17 century	Re-spelling
Aventure	*Adventure* - macəra
Avice	*Advice* - məsləhət
Crume	*Crumb* - qırıntı
Descryve	*decribe* - təsvir etmək

Langage	*Language*- dil
Nevew	*nephew* - qardaşı oğlu
Samon	*Salmon* - qızılbalıq

İngilis dilinin tarixində baş vermiş orfoqrafik dəyişikliklər.
İngilis dili bu gün dünyada ən sürətlə dəyişən dillərdən biridir, çünki ingilis dili təhsil dilinə çevrildiyi üçün dilin həm köhnə, həm də yeni istifadəçiləri onu fəal şəkildə formalaşdırırlar. Bu gün ingilis dili ondan istifadə edən hər hansı bir ölkəyə aiddir və nə qədər çox insan ingilis dilindən istifadə etsə, bu dil dəyişikliyinə bir o qədər çox təsir edər.
Dəyişiklik çox yaxşı bir şey ola bilər, çünki o, iş adamlarıma mal və xidmətlər alqı-satqısına, səyahatə və digər xalqlarla daha effekiv ünsiyyət qurmağa kömək edir. Əgər danışdığımız dil dəyişməsəydi, onsuz da mövcud olduğundan daha böyük bir dil çətinliyi olardı. Dillərin dəyişdirilməsinin başqa bir səbəbi də fərqli mədəniyyətə, dilimizdən anlayışa və tələffüzə malik olan insanların başqaları ilə ünsiyyət qurmasıdır. Dəyişiklik olmasaydı, insanlar bu müxtəlif dillər və fərqli inanclar dünyasında çox çətinlik çəkərdilər.

Ədəbiyyat siyahısı

1.Allerton D.S. (1975). Valency and the English verb. London.Academic press, 160 p.
2.Hüseynova Mətanət (2010) Semantika və Ünsiyyət. Bakı; Nurlan, s 87-94.
3. Wardhaugh R. (1968).An introduction to Sosiolinguistics Victoria, Australia: Blackwell publising, Weinreich U.
4.Wardhaugh R. Language in Contact, (2006).Hague, Netherland,Moscow. Publishers
5. I.R.Galperin Stylistics. (2000) Higher school publishing house.Moscow. pg 340.
6.https:/www.researchgate.net/publication/2730240824 Factors Affecting Langauge Change

MASTERPİECES OF ART IN THE MUSEUMS OF SHEKI

ŞƏKİ MUZEYLƏRİNDƏ SƏNƏTKARLIQ İNCİLƏRİ

Dürdanə Qədirova
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, ADPU-nun Təsviri incəsənət və onun tədrisi texnologiyası kafedrasının müəllimi

Abstract
Among the many museums that exist in Azerbaijan, several are located in the city of Sheki. These include the Museum of History and Regional Studies, the Sheki Museum of Folk Applied Arts, the museums of the Shekikhanovs, M.F. Akhundov, B. Vahabzade, and S. Rahman's house museums, the Khan's Palace, and other museums.
Each museum is rich in its own functionality, and each of them reflects the history, culture, and craftsmanship of our people. These museums house exhibits such as clay figures of the "Mother Goddess" dating back to ancient times (1st century BC – 1st century AD), silk kelagayi, delicate and elegant embroidery, and historical clothing — all of which glorify the culture and craftsmanship of the area.
Keywords: Sheki, ceramic, carpet, craft, silk, clothing, house museum, poet

Azərbaycanda böyük muzeylərlə yanaşı çoxsaylı diyarşünaslıq, ev, xatirə və başqa muzeylər də var. Belə muzeylərin böyük bir hissəsi bölgələrimizdə yerləşir və Şəki şəhəri də bu cür muzeylərə sahiblik edir. Burada Tarix-Diyarşünaslıq, Şəki Xalq Tətbiqi Sənəti muzeyi, Xan sarayı, Şəkixanovların, M.F.Axundovun, B.Vahabzadənin S.Rəhmanın ev muzeyləri və bir çox başqa muzeylər də var. Muzeylərin hər biri öz funksionallığına, məzmununa görə biri-birindən fərqlənir və onların hər biri xalqımızın tarixini, mədəniyyətini, sənətkarlığını yaşadır. Ev muzeylərində isə bu torpağın yetişdirdiyi tanınmış simaların xalqına, vətəninə xidmətləri ilə bərabər onlara olan dəyər, hörmət nümayiş olunur.
Bu muzeylərdə qədim dövrlərdən başlamış bu günümüzü də əks etdirən çoxsaylı sənət nümunləri var. Belə ki, e.ə. I – b.e. I əsrinə aid olan "Ana ilahə" gil fiqurlarının, ipək kəlağayıların, incə, zərif tikmələrin, tarixi geyimlərin toplandığı muzeylər bu ərazidə olan mədəniyyəti, sənətkarlığı tərənnüm edirlər. Buradakı muzeylər arasında diqqətimizi daha çox qədim dövrlərə şahidlik etmiş əşyalarla yanaşı, orta əslər sənətkarlığını, müasir dövrü əks etdirən sənət nümunələrinin qorunduğu muzeylərə yönəltmək istəyirik.
Kiş Tarix – Memarlıq qoruğu Şəki ərazisində olan daha qədim tikililərdəndir. 2000-2003-cü illərdə burada Norveç alimi Tur Heyerdalın dəstəyi ilə həyata keçirilən arxeoloji qazıntılar və onun bərpasından sonra Kiş Alban məbədi həm də muzey kimi fəaliyyət göstərir. Qafqaz Albaniyası tarixi, memarlıq xüsusiyyətlərini yaşadan, məbəd - muzeydə müxtəlif sənətkarlıq nümunələri ilə yanaşı toxuculuq əşyası – Sumax xalçasının hissələri də nümayiş olunur. Çox ehtimal ki, burada olan iki hissə böyük ölçülü sumaxın 1/6 hissəsindən ibarətdirlər. Belə ki, xalçanın qalmış hissələrinə əsasən onun eninin 200 sm-dən, uzunluğunun isə 300 sm-dən çox olması fikrini söyləmək olar və bu fikri bu günümüzə çatmış eyni dövrun və uyğun dizaynlı sumax xalçalarının ölçüləri də təsdiqləyir. Ancaq bütöv əşyanın qalan küncü olan sumax hissəsinin kənarları da sökülüb. Quba toxuculuq nümunəsi olan bu xalçanın hissələri haqqında çoxsaylı müxtəlif fikirlər söylənilir. Sumax hissələrinin dizaynı Qubanın "Qonaqkənd" xalçalarının dizaynı ilə eynidir. Materialı, rəng koloriti və toxunma texnikasının üslubu onun XIX əsrə aid etməyə imkan verir.
Şəkinin Tarix-Diyarşünaslıq, Xalq Tətbiqi Sənəti muzeylərinin kolleksiyalarında da əsrarəngiz sənətkarlıq nümunələri var. Qədim dövr, etnoqrafiya, ipəkçilik, yerli mətbəx mədəniyyətini

nümayiş etdirən Tarix-Diyarşünaslıq muzeyində qorunan arxalıqlar, küləçələr çəpkənlər, tumanlar, köynəklər, kələğayılar və digər geyim əşyaları həm etnoqrafik, həm material, həm rəng, həm də biçim tərzinə görə maraq doğururlar. İpək parçadan hazırlanmış sadə formalı rəngarəng köynəklərdən fərqli olaraq, məxmər, tirmə, atlas, pambıq parçalardan tikilmiş arxalıqların, ləbbadələrin, çəpkənlərin ətək, qol, boyun, ön hissələri müxtəlif bafta, pilək, tikmə nümunələri ilə bəzədilib. Muzeyin kolleksiyasında qorunan kürdülərin də boyun, qol, ətək hissələrinin kənarları müxtəlif xəz hissələri ilə dekorativləşdirilib. Muzeylərin ekspozisiyasında nümayiş olunan bu eksponatlar milli lokal geyim tərzini əks etdirirlər.

Şəki Xalq Tətbiq Sənəti muzeyində tekstil, arxeoloji tapıntılar, bədii metal və s. əşyalar sərgilənir. Burada arxeoloji artefaktlar arasında fərqli formalara malik çoxsaylı saxsı qablar var. Bu qablardan bir küpənin səthi hörükvari-zəncirə zolaqlarla bəzədiliib. Bu sərgi otağında nümayiş olunan müxtəlif formalı, dekorsuz küpələr, dimdikli dopular, tayqulplar, nimçələr və digər saxsı qablar Şəkinin qədim tarixindən danışan misilsiz sənət əşyalarıdırlar.

Burada sərgilənən məcməyi, kəfkir, çömçə, süzək, satıl, sərnic, sərpuş, dolça, kasa bədii metal sənətkarlıq əşyaları da özünəməxsusdur. Bu əşyaların hər biri xüsusi dekorativ tərtibatı ilə diqqəti cəlb edir. Onlardan isə məcməyilər daha zəngin dekorasiyaya malikdirlər. Kənarları buta, mədaxil, zəncirə və s. nəbati motivlərlə bəzədilən məcməyilərdən birinin mərkəzində dairə içərisindəki çiçək elementləri rombvari forma əmələ gərir. Nisbətən böyük ölçülü məcməyinin mərkəzində isə əyrixətli "çərxi – fələk" təsviri var. Kiçik ölçülü səkkiz ləçəkli güldən ayrılan, sağdan sola (saat əqrəbinin əksinə) fırlanan "çərxi-fələyin qanadları" dinamika, hərəkətlilik təsiri yaradır. "Dövr edən" birdən – bir növbələşən zolaqların bəzək tərtibatının müxtəlifliyi də burada yaranan dinamikliyi daha da artırır. Bu "çərxi-fələyi" romblar bir – biri ilə birləşərək əmələ gətirdiyi zəncirə zolağı dövrələyir. Bu da bütölükdə həyatın əbədiliyini, daima dövr etməsini, artımını ifadə edir. Məcməyinin kənarlarının bir qədər hündür olması onun dərinliyini, "dalğavari", gül ləçəkləri kimi yarımdairəvi, girintili – çıxıntılı olması isə dekorativliyini təmin edir.

Ümumilikdə məcməyinin dekor prinsipləri enli və ensiz zolaqların buta, nəbati və həndəsi motivlərin nizamlı, biri – biri ilə əlaqəli düzülüşü əsasında qurulmuşdur. Bu dekor tərtibatı bütövlükdə dünyanın nizamını, cənnətini, dövriyyəsini ifadə edir. Dekorativ sənətimizdə tez – tez rast gəlinən belə təsvirlər bəlkə də şair B.Vahabzadənin ədəbi dillə ifadə olunan "Axı dünya fırlanır" fəlsəfi ifadəsinin təsviri mənbələrindən biridir.

Xalq Tətbiqi Sənəti Muzeyində nümayiş olunan digər bədi metal əşyalarının üzəri də xüsusi olaraq, əşyanın kontekstinə, ölçüsünə, vizual görünüşünə uyğun olaraq nəfis tərtibatla bəzədilib. Muzeydə tarix və orijinallığı ilə həmin dövrün sənətkarlığını çatdıran Məhəmmədhüseyn xanın şahmat taxtası da nümayiş olunur.

Muzeyin zallarında nümayiş olunan toxuculuq inciləri – xalça, xurcun, heybə və digər eksponatlar yerli və ekletik xüsusiyyətlərə malikdirlər. Xovlu və xovsuz toxunuşlu xalça və xalça məmulatları sərgi zalının baş divarında sərgilənirlər. Onlardan aşağı hissədə mücrülər, boxçalar, lampa və bədii metal əşyaları yerli məişət tərzinə, xəlqi üsluba uyğun olaraq yerləşdirilmişdir. Bütövlükdə otağın bir – baş divarını bəzəyən bu tarixi əşyalar öz bədii tərtibatı ilə ilk baxışda xalqın məişətini, mədəniyyətini, yaradıcılığını, həmin dövrün estetik dünyagörüşünü bir arada təbliğ edirlər.

Sərgi otağının divarlarını bəzəyən tikmələr həm ölçüsü, həm də dizaynı ilə müxtəlif funksionallığa malikdirlər. Lakin onların materialı, texniki xüsusiyyətləri sırf yerli ənənə əsaslıdır. Tikmələrin üzərini bəzəyən nəbati motivlər ya dairəvi prinsiplə yaradılmış, ya da bəzək elementlərinin düzülüşü dairəvi formanı yaradırlar. Müxləlif rəngli ipək iplərlə məxmər parça üzərinə "möhürlənmiş" elementlər stilizasiya olunmuş gül – çiçək, yarpaq təsvirlərindən ibatərdir.

Milli geyim dəsti, müxtəlif bəzəkli kələğayılar sərgi otağının yerli xüsusiyətini daha da artırır. Sənətkarlığın müxtəlif növlərinin – toxuculuq, tekstil, bədii metal və s. məişət əşyalarının cəmləndiyi bu sərgi otağı tarixi – etnoqrafik informativliyi ilə seçilir. Bu sərgi otağı regionun, tarixi-keçmişini, onun mədəniyyətini, adət - ənənələrini və s. yerli xüsusiyyətləri ifadə edir.
Şəki Tarix-Diyarşünaslıq muzeyinin kolleksiyasında nümayiş olunan çoxsaylı geyimlərdən olan – ləbbadələr öz rəngarəngliyi, bəzədilməsi ilə diqqəti çəkir. Burada qara, tünd-yaşıl, sürməyi (tünd-göy), açıq-yasəməni rənglərdə olan ləbbadələr məxmər, atlas parçalardan hazırlanıb. Burada sərgilənən yerli (Şəki zonasına məxsus) ləbbadələr XIX əsrin sonu – XX əsrin əvvəllərinə aiddirlər. Azərbaycanın qədim geyim tərzi olan ləbbadələr Şəki zonasında lavada kimi də tanınır.
Bildiyimiz kimi, yaz və payız soyuğunu "qarşılamaq" üçün olan bu üst geyimi iç qatda sırıqlıdan, əsasən pambıq palçadan olan astardan, üst təfrəfi isə adətən daha bahalı, daha cox estetk görünüşlü tirmə, atlas və s. parçalardan ibarət olur. Bölgədə ləbbadələrin də arasında iç tərəfdən, astardan sırıqlıları olduğu üçün "Sıqırlı" da adlandırılır. Qolları qısa, qolaltı hissəsi açıq, beldən aşağı yan (sağ, sol) hissələrində kiçik kəsikləri və yaxası açıq ləbbadələr özünəməxsus dizaynı ilə seçilir. Onların hər birinin kənarı tirmə və ipək parça ilə köbələnib. Bir neçəsinin yaxa hissəsi, qolkənarı, ətəyi bafta və s. əşyalarla bəzədilib.
Milli geyimlər arasında yer alan tirmə parçadan hazırlanmış ləbbadə tarixi – etnoqrafik əhəmiyyəti ilə fərqlənir. Bu ləbbadənun qolunun, yaxasının, ətəyinin kənarları həm bafta, həm də xəz ilə bəzədilmişdir. Onun yanında sərgilənən çaxçur isə qanauz parçadan hazırlanmışdır. İpək parçadan olan tuman, köynək, bənövşəyi yelənli ağ və oxra kələğayılar nümayiş olunan milli geyim dəstini tamamlayırlar.
Bundan başqa Şəkinin dünya şöhrətli tikmələri də burada xüsusi olaraq sərgilənir. Labüd tarixi təkamül prosesində təkəldüz tikmələri Şəkinin sənətkarlığında xüsusi yerə malik oldu. Muzeydə sərgilənən örtük, balış üzü, süfrə və s. formalı təkəldüz tikmələri yerli sənətkarlığa məxsusluğu ilə seçilir. Onların gəzməli və gəzməsiz, içli və içsiz, şaxəli və şaxəsiz bəzək motivləri biri – birindən zənginliyi, rəng koloriti, harmoniyası ilə diqqəti cəlb edir. Tikmələrdəki çiçək, quş və s. təsvirləri əsasən gül – bülbül ideyasını əks etdirir.
Əlbəttə, Şəki Tarix-Diyarşünaslıq, Xalq Tətbiqi Sənəti və digər muzeylərin eksponatlarını həm sənətkarlıq inciləri sırasından, həm tarixi – etnoqrafik, həm də digər cəhətdən, onların bədii-texniki xüsusiyyətlərini ayrı – ayrılıqda araşdırmaq olar. Lakin Muzeyin ekspozisiyasında nümayiş olunan xalq şairi Bəxtiyar Vahabzadənin portretinin təsvir olunduğu xalçanı xüsusi olaraq qeyd etmək istərdik. Çünki, şairin "Şəhidlər" şeirindən qaynaqlanan, yaxın keçmişimizə həsr olunan xalça həm də uzaq keçmişimizin yenidən təkrarlandığını əks etdirir. Bu ithaf xalçada şairin məyus, kədərli, düşüncəli portreti, xalqın "axıdılan qanını" ifadə edən bədii təsvirlər arasında yer alır. Rəssam Fazil Abasquluzadənin yaratdığı, fəryadı ifadə edən xalçada 1990-cı il 20 yanvar soyqırımının naləsi duyulur. Xalçanın təsvirləri həmin günün yaşanan ağrı-acısını, xalqımıza qarşı genosid münasibətin növbəti hərəkətini bir daha dünşünərək, dərindən yad etməyə, tariximizi yenidən səhifələməyə şərait yaradır.
Bildiyimiz kimi 20 yanvar 1990–cı il hadisəsi Azərbaycan xalqının, tarixinin faciəsidir. Həmin illərdə Azərbaycanın aparıcı simaları sırasında şair B.Vahabzadə də var idi. Onun "Şəhidlər" şeri daimə xalqın qan yaddaşını, soyqırımını, torpaq, azadlıq uğrunda canından keçənlərin əbədiliyini yaşadır.
Xalçanın bədii xüsusiyyətlərini "oxlarla" sərhəd yaratmış kiçik haşiyələr, müxəlif təsviri ifadələrin yaradıldığı ana haşiyə, tarix və müasirliyin əks olunduğu ara sahə təşkil edir. Xalçanın orta sahəsi ənənəvi xalça dizaynlarından və mehrablı xalçalardan qaynaqlanaraq üç hissəyə ayrılır. Burada tağvari foramanın yatratdığı birinci hissədə şairin portreti ön planda təsvir olunur. B.Vahabzadəyə ithaf olunan bir çox əsərlərdə olduğu kimi bu xalçada da şairin çənəsi əlinə söykənmiş portret tərzinə rast gəlirik. Portretin aşağı hissəsində coşub – çağlayan

dalğalar arasında əlində bayraq olan gəncin azadlıq, müstəqillik ifadəli obrazının qarşısında kədərlər, fəryadlar arasında soyqırımı əks etdirən, vəhşicəsinə öldürülmüş qadın, kişi ön planda və onlardan arxada isə tank təsvir olunmuşdur. Buradakı kədərli, pərişan qocanın, ah – nalə, fəryad içində anaların təsviri ağ – qara rənglərlə yaradılıb. Bu kiçik təsvir hadisənin yenicə baş verdiyini, əliyalın, heç bir maddi gücə - silaha malik olmayan günahsız insanların müxtəlif silahlarla qırılmasını və bu hadisənin hələ də bitmədiyini, genosidin davam etdiyini ifadə edir. Şairin gözləri uzaqlara dikilmiş, kədərli, düşüncəli porteri önündə yer alan kitab, alovlanan şam onun poeziyasını, gələcək ideyalarını əks etdirir. Müəllif bəlkə də şairin üzündəki ifadə vasitəsi ilə sonu görünməyən və çox çətin, acınacaqlı, dözülməz bir vəziyyəti əks etdirməyə çalışmışdır.

Portertin boyun hissəsinə paralel, ön planda yerləşdirilən Qiz qalasının simvolik təsviri və ona diaqonal olaraq yuxarıda, tağlar arası hissədə, səmanı əks etdirən mavi yerlikdə yerləşdirilən sxematik məscid təsviri tarixin gələcəyə ünvanlanması, ilahi yüksəlişin bir – biri ilə bağlılığını əks etdirir.

Portretin sağ tərəfində verilən gövdəli ağac Azərbaycan xalqının dərin köklərini, onun mavi yerlikdə təsvir olunan əyilmiş budaqları isə xalqımızın üzərindən keçən “kabusa”, bir gecədə həyatına son qoyulan yüzlərlə gənclərimizə işarə edir. Burada qaralı – ağlı buludlar Azərbaycan xalqının başına gələn müsibətin, azadlıq ideyasının ifadəsi kimi də çıxış edirlər.

Qara rəngli başdaşı üzərindəki saat, sərv ağacının təsviri də yarmçıq qalmış arzuların, istəklərin, ömürlərin ifadəsi kimi çıxış edirlər.

Portretin fonunu yaradan sürməyi rəng və onun üzərində işlənmiş yeni doğulmuş Ay (Aypara) və ulduzlar həm gecə vaxtını, həm bir gecədə soyqırıma məruz qalan gəncləri, xalqı, həm də bayrağımızın simvollarını ifadə edirlər.

Orta hissədəki tağvarı formanın üst hissəsi, onun iç hissədindən çox fərqlidir. Zülmü, işgəncəni, nakamlığı və s. bildirən alt hissələrdən fərqli olaraq üst hidssədə rəngarəng nəbati motivlər təsvir olunur. Nəbati təsvirlərin yaratdığı güllük, çiçəklik, cənnəti, şəhidlik zirvəsinin yüksəlişini, Allahın ilahi məkanını ifadə edir.

Xalçanın ana haşiyəsinin künclərində verilən güllər Azərbaycan xalqının soyqırımı dönəmindən kədər rəmzinə dönmüş qərənfilləri əks etdirir. Butalar, kətəbələr, ağaclar işərisində, üzərində yaradılan obrazlar isə müxtəlif ifadəliliyə malikdirlər. Onlar arasında Azərbaycan muğamı – yuxarı hissədə tar, kaman və qavalla, aşağı hissədə isə klassik muğam üçlüyünün təsviri ilə əks olunur. Ara haşiyənin aşağı və yuxarısında kətəbələrı içərisində şairin “Muğam” şeirindən olan - “Daş ürəklərdə yanıb,
Daşları sındırdı muğam.
Haqqa düşman olanı,
Haqqa tapındırdı muğam.” - misralar həm Azərbaycan muğamının təsir gücünü, həm də haqq-ədalətin bərqərarını bildirirlər.

Bütövlükdə xalçanın dili Azərbaycan tarixini, bu gününü və gələcəyini birləşdirən obrazlı təsvir və ifadə vasitələrindən ibarətdir. Eyni zamanda, B.Vahabzadənin portretini yaradan rəssam şairin həmin dövrün qabacıl, aparıcı simalarından biri olduğunu vurğulayır. Xalça həm şairin şəxsiyyətinə, həm də yaradıcılığına olan ehtiramın nəticədir desək yanılmarıq.

Sənətkarlar və muzeylər diyarı Şəkidə Rəşid bəy Əfəndiyev, Mirzə Fətəli Axundov, Sabit Rəhman, Cəbrayıl Əhmədov və başqa tanınmış simaların da ev muzeyləri var. Bu tanınmış şəxsiyyətlərdən Bəxtiyar Vahabzadənin 100 illiyi ilə əlaqədar olaraq şairin ev muzeyinə nəzər yetirək. Özünəxas milli xüsusiyyətləri olan Şəkinin tanınmış siması, xalq şairi Bəxtiyar Vahabzadənin xatirəsini yaşadan, onun adı ilə bağlı olan sənətkarlıq nümunələrinə diqqəti yetirmək daha doğru olar. Şairin ev muzeyində ona hədiyyə və ithaf olunan sənətkarlıq – boyakarlıq, heykəltəraşlıq, toxuculuq, döymə, şəbəkə və oyma nümunləri də saxlanılır. Bu əşyalar arasında şairin portreti yaradılmış əsərlər çoxluq təşkil etsə də onlar tamaşaçıda

müxtəlif təəssüratlar yaradırlar. Müxtəlif baxış bucağından yaradılan bu əsərlərdə duyğüsallıq, düşüncəlilik, həyat qayğısı, emosionallıq ifadəliliyi qabardılıb.
B.Vahabzadənin yubileyinə həsr olunan portretlərdən biri bədii mis – döymə texnikası ilə yaradılmışdır. Əsərdə 60 rəqəmi və xalq şairinin layiq görüldüyü fəxri nişanı orijinal rənglə yaradan rəssam ideyasnı alovlu şam təsviri ilə tamamlayır. Şairin sakit görünüşlü portretini isə onun coşan-çağlayan düşüncələrini, dinamikliyini ifadə edən təsvir əhatələyir.
Muzeydə şairin xatirəsinə ithaf olunan şəbəkə nümunəsi də nümayiş olunur. Ağac haşiyə və arakəsmələrdən, rəngli şüşədən ibarət olan şəbəkənin yuxarı hissəsi üçbucaq formada tamamlanır. Şəbəkənin aşağı kənarında yazılan "16 avqust 1995" tarixi şairin 70 illiyini ifadə edir. Şəbəkə dayağı, ozülü (postament) ilə bütövlükdə sxematik şəkildə ağacı xatırladır. Məhsuldar, barlı ağac obrazlı şəbəkə sanki şairin yaradıcılığının toplandığı, onun başlanğıcdan sonadək olan yaradıcılığını özündə əks etdirir. Yerli sənətkarlğa məxsus, ənənəvilik və müasirliyin cəmləşdiyi "şəbəkə ağac", eyni zamanda soy – kökü, bağlılığı, inkişafı və nəhayət xidmətləri, tohfələri, dəyərləri ilə "başlanğıc və sonu" bəlli olan bir ömrü, bir həyatı ifadə edir desək yanılmarıq. Şəbəkənin müəllifi yerli şəbəkə üstası Əşrəf Rəsulov yaratdığı əsər ilə sanki, tək şairin deyil, onun simasında sənətkarlar diyarı Şəkini təmsil etməyə çalışır.
Ev muzeyində sərgilənən müxtəlif illərdə yaradılmış şairin portret boyakarlıq əsərləri ilə yanaşı Şəki şəhərinin küçələri, tarixi binaları təsvir olunan tablolar da var. Boyakarlıq əsərləri rəssamların bu əsərləri yaradarkən yaşadığı doğma, sevgi doli duyğuların təsirini, abı - havasını, hisslərini tamaşaçıda yaradır.
Şairə ithaf əsərləri sırasından çay daşı üzərində yaradılan porterti də özünəməxsusluğu ilə seçilir. Bir çox materiallardan fərqlı olaraq çay daşı üzərində təsvir yaratmaq daha çox zəhmət tələb edir. Müəllif portret əsəri yaradarkən şairin duyğularını daha qabarıq şəkildə ifadə etməyə üstünlük vermişdir. Bir qədər mürəkkəb material olan çay daşı üzərində portert cizgiləri oyma texnikası ilə yaradılmışdır. Daşın orijinal rəngi ilə oyma portert cizgilərinin hormoniyası həmahənglik yaradır.
Ümumiyyətlə, sənətkarlar diyarı Şəki muzylərində biri – birindən maraqlı, tarixi əşyalar çoxdur. Onlar qədim dövrlərin tarixini bu gününə bağlayan, keçmişlə gələcək arasında ünsiyyət, əlaqə quran, "körpü" yaradan, tanınmış simalarını "əzizləyən", yaşadan əvəzsiz sənət incilərididirlər.

İstifadə Olunmuş Resurslar

1. Kərim ağa Fateh "Şəki xanlarının müxtəsər tarixi"; Hacı Seyid Əbdülhəmid "Şəki xanları və onların nəsilləri" Azərbaycan Ensiiklopediyası", Nəşriyyat-Poloqrafiya Birliyi, 1993.
2. Tahirzadə Ə. "Şəkinin tarixi qaynaqlarda", Bakı, "Master" 2005.
3. https://heydar-aliyev-foundation.org/az/content/view/139/5243/%C5%9E%C9%99ki-Xan-m%C9%99scidi-kompleksi
4. https://www.heritage.org.az/az/managed-units/seki-xalq-tetbiqi-seneti-muzeyi
5. https://az.wikipedia.org/wiki/%C5%9E%C9%99ki_Tarix-Diyar%C5%9F%C3%BCnasl%C4%B1q_Muzeyi
6. Miriyev A. "Şəki muzeylər və sənətkarlar diyarıdır" Palitra.-2011.-1 noyabr.-S.6.
7. Bəxtiyar Vahabzadənin ev-muzeyi https://az.wikipedia.org/wiki/B%C9%99xtiyar_Vahabzad%C9%99nin_ev-muzeyi
8. Soltanlı S. "Kətanı xalçaya köçürən rəssam", Mədəniyyət.- 2015.- 30 yanvar.s. 11.

ORGANİZATİON OF İNDİVİDUALİZED TRAİNİNG İN THE EDUCATİON OF SECONDARY SCHOOL STUDENT

ORTA ÜMUMTƏHSİL MƏKTƏB ŞAGİRDLƏRİNİN TƏHSİLİNDƏ FƏRDƏ YÖNƏLMİŞ TƏLİMİN TƏŞKİLİ

Dos. Gülşən Fəxrəddin qızı Novruzova
ADPU, ETM-in Tətbiqi tədqiqatlar bölməsinin müdiri, İbtidai təhsilin pedaqogikası kafedrasının dosenti
https://orcid.orq/0000-0002-1765-0996

Abstract

Introduction and Purpose: The main directions of pedagogical activity are the training, education, upbringing, development and formation of students. Innovations in our society, the requirements for the human factor, its activities, personal qualities make it necessary to build the education, training and upbringing of children, adolescents and young people on the basis of new quality and content.

Materials and Methods: Harvard University professor Howard Gardner stated that the quality of training can be improved by teaching children in various way.The famous psychologist has developed 8 modes of cognition (a 9th mode, which he has been working on in recent years, is under discussion). The scientist proves that each person perceives the world around him through eight modes of intelligence: Linguistic/verbal, Bodily/kinesthetic, Intrapersonal, Logical/mathematical, Musical/sound, Naturalistic/nature, Visual/spatial, and Interpersonl

In research, it is considered possible to determine this in various ways. Taking students through appropriate tests, involving parents in interviews or surveys, and conducting teacher observations are considered successful ways to conduct such research. What does taking the above into account in organizing training, especially in primary grades, give to the student? Providing each student with a learning environment based on their interests, capabilities, and needs increases their learning achievement. How is it possible to bring all these factors together? Various scientists have conducted valuable research on these issues and discovered that the interests, skills, and desired learning environments and learning methods of children with different cognitive styles are different. Thus, those with stronger linguistic/verbal intelligence like listening, working with words: reading, writing, and telling stories more.They learn better when speaking, listening and seeing words. Examples of people with this intelligence include philologists - teachers, writers, poets, etc. (e.g. B. Vahabzadeh).

Results: Just as people in society are different, so are their most prominent needs. Experience shows that the organization of work in terms of taking them into account in the education system requires the establishment of an individual approach to learners (student factor) and the formation of certain knowledge, skills and habits in teachers. Development in education is possible only if all these factors are taken into account.

Discussion and Conclusion: This study determines the possibilities of applying the world experience in the organization of training in Azerbaijani schools, taking into account the psychological characteristics of students in the factors mentioned.Taking into account psychological factors in determining group composition in organizing group work in lessons and developing and preparing work organization mechanisms will be methodologically useful for students' future career choices.

Keywords: learning methods, education, innovation, research, individualized training, skill.

Özət

Giriş və Məqsəd: Pedaqoji fəaliyyətin başlıca istiqamətlərini təhsilalanların təlimi, təhsili, tərbiyəsi, inkişafı və formalaşdırılması təşkil edir. Cəmiyyətimizdəki yeniliklər, insan amilinə, onun fəaliyyətinə, şəxsi keyfiyyətlərinə verilən tələblər uşaq, yeniyetmə və gənclərin təhsilini, təlim-tərbiyəsini yeni keyfiyyət və məzmun əsasında qurmağı zəruri edir.

Materiallar və Metodlar: Harvard Universitetinin professoru Hovard Qardner uşaqları müxtəlif üsullarla öyrətməklə təlimin keyfiyyətinin yüksəldilməsini bildirmişdir. Məşhur psixoloq alim dərketmənin 8 üsulunu (son illərdə işlədiyi 9-cu üsul müzakirə edilir) işləyib hazırlamışdır. Alim sübut edir ki, hər bir insan ətraf aləmi səkkiz intellekt üsulu ilə dərk edir: Linqvistik/söz, Bədən/kinestik, Fərddaxili, Məntiqi/riyazi, Musiqi/səs, Naturalistik/təbiət, Vizual/məkan və Fərdlərarası.

Tədqiqatlarda bunun müxtəlif yollarla müəyyənləşdirilməsi mümkün hesab edilir. Şagirdlərini müvafiq testdən keçirmək, valideynləri müsahibə və ya sorğuya cəlb etmək, həmçinin müəllim müşahidələrinin aparılması belə araşdırmaları aparmağın uğurlu yolları hesab edilir. Xüsusilə ibtidai siniflərdə qeyd edilənlərin təlimin təşkilində nəzərə alınması təhsilalana nə verir? Hər bir öyrənənin maraq, imkan və ehtiyaclarına əsaslanan öyrənmə mühiti ilə təmin olunması onun təlim nailiyyətinin artmasıdır. Bütün bu amilləri bir araya gətirmək necə mümkündür? Ayrı-ayrı alimlər bu məsələlərlə bağlı dəyərli araşdırmalar aparıb aşkar ediblər ki, müxtəlif dərketmə üsullarına aid uşaqların maraqları, nümayiş etdirdikləri bacarıqlar və arzuladıqları öyrənmə mühiti və öyrənmə üsulları fərqlidir. Belə ki, *Linqvistik /söz intellekti* daha güclü olanlar dinləməyi, sözlə işləməyi: oxumağı, yazmağı, hekayə danışmağı daha çox xoşlayırlar. Onlar danışarkən, dinləyərkən və sözləri görərkən daha yaxşı öyrənirlər. Bu intellektə malik insanlara nümunə olaraq filoloqları- müəllim, yazıçı, şair və s. göstərmək olar (məs.B.Vahabzadə).

Nəticələr: Cəmiyyətdə insanlar müxtəlif olduğu kimi, onlarda müşahidə edilən ən qabarıq ehtiyaclar da müxtəlifdir.Təcrübə göstərir ki, onların təhsil sistemində nəzərə alanması baxımından işin təşkili təhsilalanlara (şagird faktoruna) fərdi yanaşmanın qurulmasını və müəllimlərdə müəyyən bilik, bacarıq və vərdişlərin formalaşdırılmasını tələb edir. Təhsildə inkişaf yalnız bütün bu amillərin nəzərə alınması şərti daxilində mümkün ola bilər.

Müzakirə və Nəticə: Bu araşdırmada qeyd edilən amillərdə şagirdləri psixoloji baxımdan səciyyələndirən xüsusiyyətlərinin də nəzərə alınmaqla təlimin təşkili məsələsi ilə bağlı dünyada yayılmış təcrübənin Azərbaycan məktəbində təbiqi imkanları müəyyənləşdirilir. Dərslərdə qrup işlərinin təşkilində qrup tərkiblərinin müəyyən edilməsində psixoloji amillərin nəzərə alınması və işin təşkili mexanizmlərnini işlənilib hazırlanması təhsilalanların gələcək peşə seçimi üçün metodiki baxımdan yararlı olar.

Açar sözlər: öyrənmə mühiti, təhsil, innovasiya, tədqiqat, fərdə yönəlmiş təlim, bacarıq.

Giriş və Məqsəd

Pedaqoji fəaliyyətin başlıca istiqamətlərini təhsilalanların təlimi, təhsili, tərbiyəsi, inkişafı və formalaşdırılması təşkil edir. Cəmiyyətimizdəki yeniliklər, insan amilinə, onun fəaliyyətinə, şəxsi keyfiyyətlərinə verilən tələblər uşaq, yeniyetmə və gənclərin təhsilini, təlim-tərbiyəsini yeni keyfiyyət və məzmun əsasında qurmağı zəruri edir. Müasir dövrün təhsilinə nəzər saldıqda, təlimin təşkilində XXI əsr cəmiyyətinin ehtiyac və tələblərini nəzərə almamaq, innovativ təlim metodlarını tətbiq etməmək mümkün deyildir. Müasir təlim texnologiyalarının tətbiqi ilə təlimin təhsilləndirici, inkişafetdirici və tərbiyələndirici funksiyaları özünü daha qabarıq şəkildə büruzə verir və təlimin keyfiyyətinin yüksəldilməsinə səbəb olur.

Orta ümumtəhsil məktəb şagirdlərinin təhsilində fərdə yönəlmiş təlimin təşkili məsələlərində müəllim çox konkret işlər görür. O, özü bu başlıca funksiyanı nə qədər dərindən başa düşsə öz şagirdlərinə də bir o qədər müstəqillik, təşəbbüskarlıq, sərbəstlik verər.

Materiallar və Metodlar: Milli təhsil sisteminin səciyyəvi cəhətlərini nəzərə almaqla dünyanın qabaqcıl təhsil sistemlərində təcrübə edilən və elmi-praktik baxımdan yüksək səmərəliliyi təsdiq edilmiş müasir metodologiyaların dəyərləndirilməsi müsbət nəticələrin əldə edilməsinə gətirib çıxarır. Harvard Universitetinin professoru Hovard Qardner uşaqları müxtəlif üsullarla öyrətməklə təlimin keyfiyyətinin yüksəldilməsini bildirmişdir. Məşhur psixoloq alim dərketmənin 8 üsulunu (son illərdə işlədiyi 9-cu üsul müzakirə edilir) işləyib hazırlamışdır. Alim sübut edir ki, hər bir insan ətraf aləmi səkkiz intellekt üsulu ilə dərk edir: Linqvistik/söz, Bədən/kinestik, Fərddaxili, Məntiqi/riyazi, Musiqi/səs, Naturalistik/təbiət, Vizual/məkan və Fərdlərarası.

Tədqiqatlarda bunun müxtəlif yollarla müəyyənləşdirilməsi mümkün hesab edilir. Şagirdlərini müvafiq testdən keçirmək, valideynləri müsahibə və ya sorğuya cəlb etmək, həmçinin müəllim müşahidələrinin aparılması belə araşdırmaları aparmağın uğurlu yolları hesab edilir. Xüsusilə ibtidai siniflərdə qeyd edilənlərin təlimin təşkilində nəzərə alınması təhsilalana nə verir? Hər bir öyrənənin maraq, imkan və ehtiyaclarına əsaslanan öyrənmə mühiti ilə təmin olunması onun təlim nailiyyətinin artmasıdır. Bütün bu amilləri bir araya gətirmək necə mümkündür? Ayrı-ayrı alimlər bu məsələlərlə bağlı dəyərli araşdırmalar aparıb aşkar ediblər ki, müxtəlif dərketmə üsullarına aid uşaqların maraqları, nümayiş etdirdikləri bacarıqlar və arzuladıqları öyrənmə mühiti və öyrənmə üsulları fərqlidir. Belə ki, *Linqvistik /söz intellekti* daha güclü olanlar dinləməyi, sözlə işləməyi: oxumağı, yazmağı, hekayə danışmağı daha çox xoşlayırlar. Onlar danışarkən, dinləyərkən və sözləri görərkən daha yaxşı öyrənirlər. Bu intellektə malik insanlara nümunə olaraq filoloqları- müəllim, yazıçı, şair və s. göstərmək olar (məs.B.Vahabzadə).

Riyazi/məntiqi itellekt**i** iti olan uşaqlar isə dah çox təcrübə aparmağı, rəqəmlərlə işləməyi, sual verməyi, əşyalar və onlar arasında olan münasibətləri araşdırmağı xoşlayırlar.

Onlar riyaziyyatda, hadisələrin səbəblərinin müəyyən edilməsi, məntiq və problem həlli kimi bacarıqlara malik olduqlarından kateqoriyalara ayırarkən, təsnif edərkən, abstrakt anlayış və münasibətlər üzrə işləyərkən daha yaxşı öyrənirlər.

Vizual/məkan dərketməsi daha üstün olanlar isə şəkil çəkməyi, konstruksiya etməyi, əşyaları hazırlamağı, xəyallara dalmağı, şəkillərə/slaydlara baxmağı, filmlərə baxmağı, maşınlarla işləməyi və ya oynamağı xoşlayır, əşya və hadisələri təsəvvür etməkdə, dəyişiklikləri hiss etməkdə, labirint və tapmacaları tapmaqda, xəritələri oxumaqda xüsusi bacarıqlar nümayiş etdirirlər. Onar üçün vizuallaşdırmaq, xəyalında canlandırmaq, rənglər və şəkillərlə iş şəraiti uğurlu təlim mühitidir.

Bədən/kinestik dərketməsi iti olanlar hərəkətdə olmağı, haqqında danışılan əşyalara toxunmağı, jest və mimikalardan geniş istifadə etməyi xoşlayırlar. Belə uşaqlarda rollu oyunlarda iştirak etmək, fiziki fəaliyyətdə (idman, rəqs, hərəkət) nümayiş etdirmək, emal işlərini, müşahidə etdiyi hərəkətləri icra etməyi daha çox xoşlayırlar.

Naturalist/təbiət qrupuna daxil olanlaraçıq məkanda, canlılırın yanında olmağı sevirlər. Belə uşaqlartəbiət şəraiti (bitkilər, heyvanla, quşlar, balıqlar) ilə əhatə olunanda daha yaxşı öyrənirlər.

Onlar təbiət hadisələrini öyrənərkən, təbiət qoynunda olarkən, hadisələrin baş vermə prosesini öyrənərkən öyrənməyə daha meyilli olurlar.

Musiqi/səs intelleki daha yüksək olan uşaqlar oxumağı,zümzümə etməyi, musiqini dinləməyi, instrumentdə ifa etməyi, musiqiyə reaksiya verməyi çox xoşlayır. Belə uşaqlar audio yazıları dinləməklə, sözləri musiqi ilə oxumaqla, sözləri fikrində təkrarlamaqla, ucadan oxumaqla, oxu tempini dəyişməklə daha yaxşı öyrənir.

Fərdlərarası intelleki inkişaf etmiş öyrənənlər çoxlu dostu olmağı, insanlarla söhbət etməyi və qruplarda fəaliyyət göstərməyi insanları anlamaqda, başqalarını öyrənməkdə, təşkilatçılıqda, ünsiyyət yaratmaqda, konfliklərin məharətli həllində bacarıqlıdlrlar. Onlar qruplarda

işləməklə, komanda oyunlarında iştirak etməklə, birgə layihələr hazırlamaqla daha yaxşı öyrənirlər.
Fərddaxili intellekti yeksək olanlar isə təklikdə işləmək və öz maraqlarını gözləməyi sevirler. Təkrarsız olmaq onlara xas bacarıqlardır. Təklikdə fərdi layihələr işləmək, özünü təlimatlandırmaq, öz oxu, yazı, düşünmə tempini tənzimləmək kimi fəaliyyətlər onların öyrənmə keyfiyyətini yüksəldir.
Təlimi təşkil edərkən müəllim bu məsələləri aşağıda qeyd edilən şəkildə nəzərə almaqla hər bir şagirdə dərketmə üsulu baxımından fərdi yanaşmaqla onların dərketmə imkanlarını və təlim nailiyyətlərini yüksəldə bilər.
Şagirdlərin hansı dırketmə üsulauna aid olduğunu müəyyən etmək üçün testdən keçirən müəllim, sonra onların valideynlrinə də sorğu vərəqləri təqdim etməklə, və öz müşahidələrini də bir araya gətirməklə ümumiləşdirir, hər bir şagirdin ən çox inkişaf etmiş dərketmə üsulunu müəyyən edir. Həm fərdi iş formasında, həm də qpup işlərində bu fərdi xüsusiyyətləri nəzərə alır. Necə?
Fədi iş formalarında şagirdlərə verilən tapşırıqların xüsusiyyətləri də fərqli olmaqla hər bir şagirdin dərketmə üsuluna uyğun müəyyənləşdirilir. Lakin praktik müəllimlər bilir ki, sinifdə 24 şagird varsa, onların hər brinə uyğun təlim tapşırığı hazlrımaq o qədər də asan iş deyil. O anlamda ki, bu külli miqdarda vaxt tələb edir və gündəlik fəaliyyətdə bunu etmək qeyri-realdır. Lakin qrup fəaliyyətlərində belə fərdiliyi nəzərə alaraq təlimin planlaşdırılması həm realdır, həm işlək, həm də səmərəli.
Bu şəraitdə yaranmış mühit təlim nailiyyətinin yüksəldilməsində müstəsna əhəmiyyət daşıyır.

Nəticələr

Cəmiyyətdə insanlar müxtəlif olduğu kimi, onlarda müşahidə edilən ən qabarıq ehtiyaclar da müxtəlifdir.Təcrübə göstərir ki, onların təhsil sistemində nəzərə alanması baxımından işin təşkili təhsilalanlara (şagird faktoruna) fərdi yanaşmanın qurulmasını və müəllimlərdə müəyyən bilik, bacarıq və vərdişlərin formalaşdırılmasını tələb edir. Təhsildə inkişaf yalnız bütün bu amillərin nəzərə alınması şərti daxilində mümkün ola bilər.
Müxtəlif üsullarla dərketmə" nəzəriyyəsi aşağıdakı məsələlər baxımından əhəmiyyətlidir:
-Təlim fəaliyyətləri bütün şagirdlərin dərketmə üsullarına nəzərən qurulur;
-Hər kəsin təlimə fəal cəlb edilməsini təmin edir və öyrənmə xeyli asanlaşır;
-Qiymətləndirmənin alternativ forması istifadə edilir. "Nə qədər dərk edir?" öz yerini "Necə dərk edir?" sualına cavab verir.
-Müstəqil öyrənənlərin formalaşdırılamı təmin edilir.
-Şagirdin dərketməsinin digər formalarının da inkişafı təşkil edilir.
Müzakirə və Nəticə: Bu araşdırmada qeyd edilən amillərdə şagirdləri psixoloji baxımdan səciyyələndirən xüsusiyyətlərinin də nəzərə alınmaqla təlimin təşkili məsələsi ilə bağlı dünyada yayılmış təcrübənin Azərbaycan məktəbində təbiqi imkanları müəyyənləşdirilir. Dərslərdə qrup işlərinin təşkilində qrup tərkiblərinin müəyyən edilməsində psixoloji amillərin nəzərə alınması və işin təşkili mexanizmlərnini işlənilib hazırlanması təhsilalanların gələcək peşə seçimi üçün metodiki baxımdan yararlı olar. Həmçinin tətbiqi məsələlər orta ümumtəhsil məktəblərinin ibtidai siniflərindən başlayaraq həyata keçirilərsə, təhsilalanların formalaşdırılması kimi məsələləri öz həllini taparaq reallaşmış olar.

Ədəbiyyat:

1.İ.Babayev- Layihələrin idarə edilməsi – Bakı 2014.120 s.
2.Afət Süleymanova, Təhsilin Əsasları, Bakı, Təhsil nəşriyyatı, 2014.
3. Həmzəyev M.Ə. Pedaqojipsixologiya. Bakı, "Maarif", 1991. 296 s.
4.Armstrong Tomasdan seçmələr. Müxtəlif üsullarla dərketmə dərs zamanı. Şagirdlərin müxtəlif üsullarla dərketmələrinin qiymətləndirilməsi; Müxtəlif üsullarla dərketmələr: Təlim zamanı strateqiyalar Aleksandriya. Virciniya, Kurrikulum İnkişafı və Nəzarəti üçün Assosiasiya (1994)
5. https://edumaster.az/turkiyede-tehsil/
6.http://www.infed.org/thinkers/gardner.htm Howard Gardner: Multiple intelligences and education (İngilis dilində)

THE ARTİSTİC EMBODİMENT OF THE İDEA OF FREEDOM IN THE POETRY OF BAHKTIAR VAHABZADEH

BƏXTİYAR VAHABZADƏ POEZİYASINDA AZADLIQ İDEYASININ BƏDİİ TƏCƏSSÜMÜ

Vəliyeva Sevda Əkrəm
Odlar Yurdu Universiteti, Bakı, Azərbaycan

Abstract
Through the poems by “Gulustan” , “Shahidler”, “Istiqlal” taking an important place in the activity of Azerbaijan folk poet Bakhtiyar Vahabzade were written in different periods but they complete one another according to their idea, subject and contents.
In this article the poet had described the freedom wish of Azerbaijan people and their struggle with artistic colours.
Keywords: Bakhtiyar Vahabzadeh, poetry, publicist, poetic world

Xülasə
Yurdumuzun, vətənimizin çağdaş milli azadlıq uğrunda mübarizəsinin istənilən səhifəsində Bəxtiyar Vahabzadə dühasının adı vardır. Vahabzadə şəxsiyyətində çağlayan, çoşan millət sevgisi, təəssübkeşliyi, azadlıq vulkanı onun tarixi-ictimai təfəkkürünün əsasında durması yaradıcılığının hər mərhələsində şahidi oluruq.
Poeziyasının dərin fəlsəfi yükü ilə bərabər hüriyyət arzuları ilə seçilən şairin amalı millətini azad görmək, dilinin şirinliyini ən mötəbər kürsülərdən səslənəndə duymaqdır. Bütün yaradıcılığından qırmızı xətt kimi keçən bu arzunun reallaşması yolunda Bəxtiyar Vahabzadə həqiqi bir mücahid kimi ömrünün sonuna qədər mübarizə aparırdı. Bu müqəddəs yolda şairin apardığı mübarizə və bu məqsədlə yazdığı poeziya nümunələrindən izləməyə çalışaq.
“Gülüstan” deyanda hər kəsin ağlına güllü, çiçəkli bir yer gəlir, lakin əsəri oxuduqca Azərbaycanın acı taleyi, gülzarlıqlar üzərində qurulan xarabalıqlar gözlərin qarşısında canlanır. “Gülüstan” poeması Azərbaycan xalqının bağrına vurulmuş bir böyük yaranın gətirdiyi bəlaları təsvir edir. Bu heç bir zaman xalqın yaddaşından silinməyəcək.
Qanlı yanvar faciəsi şairi hövsələdən çıxardır, “Şəhidlər” poemasının yaranmasına səbə olur. Bu zaman qəhrəmanlıqla həlak olan insanlar qorxmadıqlarını nümayiş etdirdilər. Millətin qəlbində qorxu, faciə hissini söküb atdılar. Xalq olaraq başa düşdük ki, sovet imperiyasının tərkibində qalmaq heç də ədaləti bərpa etmək deyil.
Təbii ki, bu xətlərdən birinidə “İstiqlal” poeması təşkil edir. Bu poemanın yazılmasında əsas səbəb 20 yanvar faciəsindən sonra Azərbaycan xalqının müstəqillik qazanması, bu yolda qurban verdiyi şəhidlər və onların müqəddəs ruhu da eyni zamanda şairin yenidən bu mövzuya müraciət etməsinə bilavasitə vəsilə olmuşdur.
Nəticə etibarilə, Bəxtiyar Vahabzadənin bu üç poeması ayrı-ayrı zamanlarda yazılsada, bir-birini tamamlayaraq, biri digərinin təməl daşına çevrilibidir.
Açar sözlər: Bəxtiyar Vahabzadə, poeziya, publisist, poetik dünyası

Ədəbiyyat siyahısı

1. B.Vahabzadə, Seçilmiş əsərlər, 2 cilddə, I c. Bakı, Öndər nəşriyyatı , 2004, 328s
2. B.Vahabzadə, eçilmiş əsərlər, 2 cilddə, II c. Bakı, Öndər nəşriyyatı , 2004, 320s
3. Yusifli Vaqif, Azərbaycan qəzeti 13 fevral 2015-ci il
4. B.Vahabzadə “Hiss etmək, yaşamaq, duymaq” . Bakı,1953
5.B.Vahabzadə “Poeziyamızda sənətkarlıq məsələləri” . Bakı,1953

THE IDEA OF INDEPENDENCE AND INDEPENDENCE IN THE CREATIVE WORK OF BAHKTIAR VAHABZADE

BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA MÜSTƏQİLLİK VƏ İSTİQLAL İDEYASI

Tofiq İsgəndərov
ADPU Cəlilabad filialı, baş müəllim

Xülasə
Bəxtiyar Vahabzadə 1960-cı illərdən Azərbaycanda başlayan milli azadlıq hərəkatının qabaqcıllarından biridir. 1959-cu ildə "Gülüstan" poemasını yazmaqla iki siyasi rejim arasında bölünmüş Azərbaycanın tarixi faciəsini dilə gətirərək, rus və fars imperiyalarının müstəmləkəçilik siyasətini ifşa etmişdir. Azərbaycan xalqının milli azadlıq və istiqlal uğrundakı ədalətli mübarizəsinə "qələmini süngüyə çevirərək" "müsəlləh əsgər" kimi xidmət etmişdir. Sovet siyasi rejimində milli varlığı tapdanan, hər cür əzab və məhrumiyyətlərə məruz qalan millətin dərdlərini müxtəlif ədəbi üsullarla ifadə etmiş,hadisələri başqa tarixə və ya başqa ölkələrə keçirməklə öz millətinin dərdlərini dilə gətirmişdir.Birbaşa Sovet diktaturasını ifşa edən əsərlərini isə sovet siyasi rejimi dağılandan (1991) sonra "Sandıqdan səslər"adı ilə nəşr etdirmişdir. Həm monoqrafiya, həm də dərsliklərdə XX yüzilliyin poeziya problemlərinə həsr olunan tədqiqatlarda Bəxtiyar Vahabzadə yaradıcılığı həmişə bu və ya digər dərəcədə araşdırılaraq öyrənilmişdir. Müasir Azərbaycan şairlərinin həyat və yaradıcılıq yoluna həsr olunmuş monoqrafik tədqiqatlarda yeri gəldikcə istiqlal probleminə də münasibət öz əksini tapmışdır.
Açar sözlər: Bəxtiyar Vahabzadə yaradıcılığı, milli müstəqillik, istiqlal ideyası, ana dili, "Gülüstan"poeması, "Şəhidlər"poeması

Abstract
Bakhtiyar Vahabzadeh was one of the pioneers of the national liberation movement that began in Azerbaijan in the 1960s. By writing the poem "Gulustan" in 1959, he voiced the historical tragedy of Azerbaijan, divided between two political regimes, and exposed the colonial policies of the Russian and Persian empires. He served the Azerbaijani people's just struggle for national freedom and independence by "turning his pen into a bayonet" and acting like an "armed soldier." Under the Soviet political regime, when national identity was suppressed and the nation was subjected to various sufferings and deprivations, he expressed the people's pain through different literary techniques, often transferring the events to another historical period or another country to reflect his own nation's sorrows. His works that directly exposed Soviet dictatorship were published after the collapse of the Soviet regime (in 1991) under the title "Voices from the Chest." In both monographs and textbooks devoted to the problems of 20th-century poetry, Bakhtiyar Vahabzadeh's literary work has consistently been studied and analyzed. In monographic studies dedicated to the life and creativity of modern Azerbaijani poets, references to the issue of independence have also found their place.
Keywords: Bakhtiyar Vahabzadeh's works, national independence, the idea of sovereignty, native language, "Gulustan" poem, "Shehids" poem.

Резюме: Бахтияр Вахабзаде был одним из пионеров национально-освободительного движения, начавшегося в Азербайджане с 1960-х годов. В 1959 году, написав поэму «Гюлистан», он выразил историческую трагедию разделённого между двумя

политическими режимами Азербайджана, разоблачая колониальную политику русской и персидской империй. Служил справедливой борьбе азербайджанского народа за национальную свободу и независимость, «превратив своё перо в штык» и выступая как «вооружённый солдат». В условиях советского политического режима, когда национальное самосознание подвергалось подавлению и народ страдал от различных мучений и лишений, он выразил боль нации различными литературными приёмами, перенося события в другую историю или в другие страны. Произведения, напрямую разоблачающие советскую диктатуру, были опубликованы после распада советского режима (в 1991 году) под названием «Голоса из сундука». В монографиях и учебниках, посвящённых поэтическим проблемам XX века, творчество Бахтияра Вахабзаде всегда в той или иной мере изучалось и анализировалось. В монографических исследованиях, посвящённых жизни и творчеству современных азербайджанских поэтов, также нашли отражение взгляды на проблему независимости.
Ключевые слова: творчество Бахтияра Вахабзаде, национальная независимость, идея суверенитета, родной язык, поэма «Гюлистан», поэма «Шехидлер».

Giriş

Azərbaycan ədəbiyyatının son yüz ildə yaşayıb- yaradan parlaq simalarından və böyük klassiklərindən biri olan Bəxtiyar Vahabzadə XX əsr poeziyasına təkcə lirikası və bədii-estetik dəyərləri ilə deyil, həm də vətənpərvərlik və istiqlal ideyalarının carçısı kimi daxil olmuşdur. Onun zəngin irsində xalqının tarixi taleyi, azadlıq mübarizəsi, milli kimlik və istiqlal uğrunda mücadilə əsas mövzulardan birini təşkil edir.Ona görə də şeirlərində vətən, millət, ailə, təbiət,dil, azadlıq həsrəti kimi mövzuları ən güclü və dərin məzmunu ilə izah etmişdir.Əsərlərində ifadə olunan poetik fikirlər Bəxtiyar Vahabzadə düşüncələrinin ictimai – siyasi dünyagörüşünü, onun vətənpərvərliyini, tarixlə müasirliyi necə əlaqələndirdiyini göstərir.

Tədqiqat

Bəxtiyar Vahabzadə Sovet rejiminin hökm sürdüyü, milli özünüdərkin və ifadə azadlığının qadağan edildiyi bir dövrdə yaşayıb-yaratmışdır. Bu elə bir zaman idi ki, milli ideyaların açıq şəkildə ifadəsi çox ciddi senzura rejiminin təqibləri ilə üzləşir, repressiyalarla müşayiət olunurdu. Amansız cəza tədbirləri və məhdudiyyətlərə baxmayaraq, poeziyada milli ruhun yaşadılmasına və gələcək müstəqillik arzularının ifadəsinə cəsarətlə başladı.Bəxtiyar Vahabzadənin poetik təfəkkür mədəniyyəti təbiətinə görə millidir. Eyni zamanda çox üstün mahiyyət daşıyaraq daha zəngin bir mənəviyyat sərgiləyir.Bu məqamda millilik və beynəlmiləlçilik vəhdət yaradaraq ümumbəşəri səviyyəyə qalxır. Dünyəvi əhəmiyyət qazanaraq mütərəqqiliyini və bədiiliyini müstəsna dərəcədə təmin edir.

1959-cu ildə yazılmış “Gülüstan” poeması Bəxtiyar Vahabzadənin yaradıcılığında və bütövlükdə Azərbaycan ədəbiyyatında dönüş nöqtəsidir. Bu əsərdə şair 1813-cü il Gülüstan sülhü və 1828-ci ildə Türkmənçay müqaviləsi nəticəsində Azərbaycanın iki yerə bölünməsini tənqid edir və xalqın taleyindəki bu ayrılığı böyük milli faciə kimi qiymətləndirir:

“Gülüstan” – bir vətənin iki yerə bölünməsidir,
Bir canın ortadan ayrılmasıdır...”

Bu əsər təkcə bədii nümunə deyil, həm də milli yaddaşın oyadılması, tarixi ədalətsizliyin xatırladılması baxımından əhəmiyyətlidir. Poema uzun müddət qadağan olunmuş, lakin xalq arasında gizli şəkildə yayılmış və milli şüurun oyanmasında mühüm rol oynamışdır.20-30 il ərzində rejimdən gizli şəkildə xalq arasında əldən - ələ gəzərək yayılmışdır.
Şair milli kimliyi və mədəni dəyərləri millətin varlığının əsas sütunu kimi təqdim edir. "Ana dili" şeirində dilin sadəcə ünsiyyət vasitəsi deyil, həm də milli ruhun təcəssümü olduğu fikrini aşılayır:

Ana dili – millətimin canıdır,
Ana dili – ruhumun dərmanıdır.

Şeirin başlanğıcında, dilimizin ana dili adlanmasının ictimai məzmununu bədii şəkildə ifadə edərək yazırdı:

Dil açanda ana söyləyirik biz
Ana dili adlanır bizim ilk dərsliyimiz.

Bu misralarda dilimizin və dərsliyimizin ana dili adlandırılmasının ictimai-siyasi mənzərəsi bədii gerçəklikdə öz əksini tapır.Bizə bəxş olunan bütün mənəvi zənginliklərin mərkəzində məhz bunun dayandığını göstərir.
Bəxtiyar Vahabzadə Azərbaycan poeziyası tarixində özünəməxsus yeri və mövqeyi ilə seçilən qüdrətli qələm sahiblərindən biridir. Müasir ədəbi prosesin yenidən araşdırılaraq tədqiqata cəlb olunması
B.Vahabzadənin yaradıcılığında lirizm və vətəndaşlıq mövqeyi daim bir – birini tamamlayaraq bir vəhdət yaradır. Əsərlərində ifadə olunan yüksək poetik fikirlər Bəxtiyar Vahabzadə düşüncəsinin ictimai –siyasi dünyagörüşündən xəbər verir.
Ədibin zəngin və rəngarəng poetik dünyasında yurdsevərlik, milli azadlıq, istiqlal mücadiləsi, əxlaqi dəyərlərə hörmət,milli adət-ənənələrimizə ehtiram və s. Həmişə önəmli və diqqət çəkən məsələlərdir. Bu cəhət müəllifin şeir və poemalarında daha aşkar şəkildə özünü büruzə verir.Müxtəlif zamanlarda və müxtəlif ictimai- siyasi vəziyyətlərdə onun lirikası mənəvi dünyamızı sadəcə təsvir və tərif etmir, həm də birbaşa onun tərənnümçüsünə çevrilir.Bu baxımdan araşdırılmasına ehtiyac olan vacib məsələlərdən biri Azərbaycan poeziyasında və xüsusən B. Vahabzadə yaradıcılığında milli istiqlal ideyasının təcəssümünü öyrənməkdir.
Şairin əsərlərinin milli təfəkkür işığında, millilik və beynəlmiləlçilik münasibətlərinin vəhdətində təhlilə cəlb olunması bir çox məqamların üzə çıxarılmasına imkan vermişdir. Həmçinin Bəxtiyar Vahabzadə yaradıcılığının öyrənilməsi müasir Azərbaycan poeziyasının bütöv və dolğun mənzərəsini yaratmaq baxımından da aktuallıq kəsb edir.
Bəxtiyar Vahabzadə yaradıcılığı Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Aşıq Ələsgər, Hüseyn Cavid, Əhməd Cavad, Almas İldırım, Mikayıl Müşfiq, Səməd Vurğun və başqa Azərbaycan şairlərinin ədəbi ənənələrini özündə əks etdirir.Onun əsərlərində ana dilimizə hədsiz sevgi, vətənpərvərlik, milli adət- ənənələrimizə böyük məhəbbət hissi daim Azərbaycan ədəbi tənqidinin diqqət mərkəzində olmuşdur.
Bəxtiyar Vahabzadənin yaradıcılığında milli azadlıq hərəkatı və istiqlal mücadiləsi, vətənsevərlik və vətəndaşliq hisslərinin, əsərlərində millilik və beynəlmiləlçilik münasibətlərinin vəhdəti haqqında ədəbiyyatşünas alimlər Yaşar Qarayev, Bəkir Nəbiyev, Şamil Salmanov, Cəlal Abdullayev, Yavuz Axundlu, İfrat Əliyeva, Himalay Ənvəroğlu, Nizami Cəfərov, Mail Dəmirli, Həsən Həsənov, Asifə Telmanqızı, Fatimat Məmmədova və başqa müəlliflər ,dəyərli fikir və mülahizələr söyləmişlər.

Prof.Yaşar Qarayevin f.e.d. Şamil Salmanovla birgə qələmə aldığı «Poeziyanın kamilliyi» (1985) adlı monoqrafik tədqiqatda Bəxtiyar Vahabzadənin istiqlal probleminə həsr olunmuş şeirlərindən də bəhs edilmişdir.

Dili xalqın mənəvi dünyası, milli xüsusiyyətləri kimi dəyərləndirən Bəxtiyar Vahabzadə "Ana dili", "Oğluma", "Latın dili", "Mənim ana dilim", "Fəxriyyə", "Özgə", "Mənim anam", "Hara gedir sabahımız" və bir çox başqa şeirlərində ana dilinin milli-mənəvi düşüncənin formalaşmasındakı yeri və əhəmiyyəti haqqında danışır, eyni zamanda doğma dilə xor baxanları və biganə münasibət bəsləyənləri satirik bir tərzdə tənqid edir.

Bəxtiyar Vahabzadə «Ana dili» (1954) adlı şeirində hər bir xalqın, millətin taleyində doğma dilin son dərəcə mühüm əhəmiyyət daşıdığına diqqət yönəldərək, bununla bağlı poetik düşüncələrini qələmə almışdır:

Bu dil əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiztək
Qoruyub, nəsillərə biz də hədiyyə verək.

Yaradıcılığının ilk dövrünün məhsulu olan bu şeirdə müəllif ana dilini «millətin ruhu, eşqi, canı» kimi dəyərləndirir, onun "babaların əqlin dən, kamalından" süzülüb gəldiyini, "xalqın ilk nəfəsindən" yarandığını qeyd edir. Şair, həmçinin ana dilini "əcdadımızın bizə qoyub getdiyi" "ən qiymətli miras", sərvət, xəzinə hesab edir. Biz insanların ən böyük vəzifəsini isə bu dili göz bəbəyi kimi qoruyub gələcək "nəsillərə hədiyyə" verməkdə görür.

Bəxtiyar Vahabzadə ana dilinin əhəmiyyətini, milli düşüncənin formalaşmasında böyük əhəmiyyətə malik olduğunu ayrı-ayrı şeirlərində dönə-dönə canlandırmışdır. Şairin qənaətincə, hər bir millətin varlığı, mövcudluğu ana dilinin qorunması ilə bağlıdır. Bəxtiyar Vahabzadənin Azərbaycanın Güneyində əsarət həyatı yaşayan soydaşlarımızın dil probleminə həsr olunmuş yazıları onun problemə daha geniş müstəvidə yanaşdığını, ana dilini milli istiqlal probleminin tərkib hissəsi kimi dərk etməsini şərtləndirir.

Mütəfəkkir şair ikiyə parçalanmış Azərbaycan türklərinin İran-fars müstəmləkəçilik rejiminin basqıları altında ana dilində oxuyub-yazmaqdan məhrum edilməsinə dözə bilmir və bu haqsızlığa qarşı etiraz səsini ucaldır. Ana dilinə bu qədər böyük dəyər verməsi B.Vahabzadənin bir vətəndaş olaraq öz xalqının taleyinə həssas münasibətinin göstəricisidir.

Bəxtiyar Vahabzadənin yaradıcılığında dövrlə, mühitlə, zamanla barışmazlıq duyğusu olduqca qabarıqdır.Eyni səciyyəvi cəhət onun müxtəlif mövzularda yazdığı əsərlərdə bu və ya digər formada özünü büruzə verir. Zamanla, mühitlə müxalifətdə olan şairin ən böyük müxalifliyi elə özü ilədir. Bu nöqteyi- nəzərdən "bircə ondan razıyam ki, özümdən narazıyam" ifadəsi nə qədər mükəmməl səslənir.Çox lakonik, lakin böyük bir sənətkar yaradıcılığının bədii mündəricəsinin təcəssümüdür.

Sovet rejimi dövründə birbaşa milli istiqlal ideyalarının açıq formada səsləndirilməsi qadağan idi. Bəxtiyar Vahabzadə bu ideyaları simvolik obrazlar, rəmzi ifadələr, tarixə və folklora istinadlar vasitəsilə ifadə edirdi. Onun "Vicdan", "Latın dili", "İnsan və zaman" və sair kimi əsərlərində bu dolaylı ifadə üsulları diqqət çəkir. Belə poetik üsullar vasitəsilə o, senzuranın diqqətindən yayınır və rejimi ötüb keçərək cəmiyyətdə mövqe qazanır, ictimai şüura təsir edə bilirdi.

Azərbaycan müstəqillik qazandıqdan sonraki dövrdə də Bəxtiyar Vahabzadənin yaradıcılığı hər tərəfli şəkildə özünün siyasi ictimai məzmunu və bunun bədii gerçəklikdə təcəssümü fonunda araşdırılır və öyrənilirdi. Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Bəxtiyar Vahabzadənin milli istiqlal ideyaları artıq rəsmi və ictimai səviyyədə daha açıq şəkildə qiymətləndirilməyə başlandı. Onun sovet dövründə səsləndirdiyi fikirlər reallığa çevrildi və bu gün onun irsi milli ideologiyanın bünövrə daşlarından biri hesab olunur.

Nəticə

Bəxtiyar Vahabzadə təkcə şair deyil, həm də xalq tribunu, ictimai xadim, millət vəkili kimi fəaliyyət göstərmişdir. O, milli mənafeyin qorunması yolunda müxtəlif platformalarda öz sözünü deyərək qətiyyətli mövqeyi və cəsarəti ilə xalqın səsinə çevrilmişdir. Qətiyyət və cəsarəti hər zaman ona Azərbaycan xalqının mənəvi liderlərindən biri kimi şöhrət qazandırmışdır.

Bəxtiyar Vahabzadə irsi milli istiqlal ideyasının ədəbiyyatda necə canlı, dərin və təsirli formada təqdim oluna biləcəyinin ən parlaq nümunəsidir. Onun yaradıcılığı milli şüurun formalaşmasına, xalqın azadlıq arzularının ifadəsinə, milli müstəqillik və azərbaycançılıq ideologiyasının inkişafına böyük töhfə vermişdir. Misirin ədəbiyyatşünas alimi Əhməd Sami Elaydı Bəxtiyar Vahabzadənin yaradıcılığı timsalında "Azərbaycan istiqlal poeziyası"monoqrafiyasını tərcümə edərək bütün ərəb dünyasında tanıtmışdır. Yaradıcılığı həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda yüksək səviyyədə qiymətləndirilmişdir.

Ədəbiyyat

1. Aida Mirzəyeva. Azərbaycan istiqlal poeziyası: Bəxtiyar Vahabzadənin yaradıcılığı fonunda.Nurlar.2020
2. Aida Ramiz qızı Mirzəyeva .Bəxtiyar Vahabzadə Poeziyasında İstiqlal ideyası.Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın .Avtoreferatı .Bakı – 2017
3. B.Vahabzadə poeziyasında Güney Azərbaycan problemi .Bakı Universitetinin xəbərləri.Bakı Universiteti nəşriyyatı, 2010
4. B.Vahabzadənin poetik dünyasında milli istiqlal problemi.Berçeste, edebiyyat dergisi.2011
5. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı, "Öndər nəşriyyat", 2004.
6. Əlizadə Əsgərli.Bəxtiyar Vahabzadə: həyatı, mühiti və yaradıcılığı.Elm və Təhsil Nəşriyyatı.2022
7. Şamil Salmanov.Böyük yaradıcılıq yolu: Seçilmiş məqalə və müsahibələr.Avropa.2020
8. Ziyadxan Nəbibəyli.Bəxtiyar Vahabzadənin milli-mənəvi portreti.Ecoprint.2022

THE LINGUISTIC AND STYLISTIC WORLD OF AGHAMUSA AKHUNDOV'S POETRY

ЯЗЫКОВО-СТИЛЕВОЙ МИР ПОЭЗИИ АГАМУСЫ АХУНДОВА

AĞAMUSA AXUNDOVUN POEZIYASININ DIL VƏ ÜSLUB DÜNYASI

Yolçubəyli Çinarə Ayaz qızı
Mingəçevir Dövlət Universitetinin müəllimi
ORCID NO: 0000-0002-6971-8710

Abstract
In Ağamusa Axundov's scholarly legacy, the investigation of poetic language occupies a prominent place. His works provide a detailed analysis of formal characteristics in poetry, emphasizing the exceptional role of artistic language in shaping poetic expression. Axundov introduced innovative perspectives on the aesthetic richness of poetic language, offering generalized theoretical insights into the structural features and expressive tools that contribute to the artistic appeal of verse. Drawing from a linguistic framework, he focused on the stylistic arrangement of poetic texts, thereby enabling the systematic classification of poetic language units through clear and coherent theoretical principles.
As a researcher who consistently and effectively dealt with issues related to poetic language and style, Ağamusa Axundov demonstrated profound linguistic expertise, a refined poetic taste, intuitive analytical skills, and a deep sensitivity to the nuances of poetic thought. His scholarly exploration of the laws governing poetic language and stylistic norms positioned him as a distinguished figure in his field. His prolific academic output—ranging from monumental studies to numerous scholarly articles—garnered significant attention within the academic community.
Notably, Axundov approached the issue of language in poetry by examining its interaction with other components of the lyrical genre. He argued that the functional integration of poetic language with other artistic elements enhances the expressive richness of lyrical poetry in both form and content. This interconnectedness ultimately amplifies the aesthetic impact of poetic imagination.
Key words: poetry, language, style, poet, poetics

Резюме
Научное наследие Агамусы Ахундова занимает важное место в изучении актуальных проблем поэтического языка. В своих работах он подробно анализирует формальные особенности и подчеркивает исключительную роль художественного языка. В статьях, посвящённых красоте поэтического языка и его основным характеристикам, Ахундов выдвигает новые идеи, высказывает обобщённые научные мысли о языковой структуре стиха и о средствах, создающих эстетическую привлекательность. Он опирается на лингвистический подход к художественной организации текста, что позволяет систематизировать поэтические особенности языковых единиц посредством точных научных объяснений.
Научно-теоретические комментарии исследователя, который последовательно и эффективно занимается проблемами языка и стиля поэзии, свидетельствуют о его глубоком лингвистическом знании, тонком поэтическом вкусе, интуитивном подходе и высоком чувстве поэтического восприятия. Изучая закономерности поэтического языка и стиля, Агамуса Ахундов стал признанным учёным в своей области и выделяется своей

преданной научной деятельностью, успешно использовав богатое научное наследие. Его фундаментальные труды и многочисленные научные статьи по данной теме привлекли внимание научной общественности.

Особо следует отметить, что Агамуса Ахундов исследовал проблему языка в поэзии во взаимодействии с другими компонентами лирического жанра. Он считает, что синтез поэтического языка с другими художественными элементами способствует обогащению содержания и формы поэзии. Этот фактор, в свою очередь, усиливает эстетическое воздействие поэтического мышления.

Ключевые слова: стихотворение, язык, стиль, поэт, поэзия

Giriş

Azərbaycan ədəbiyyatşünaslığında poeziya dilinin elmi şəkildə araşdırılması istiqamətində mühüm addımlar atmış alimlərdən biri Ağamusa Axundov olmuşdur. Onun bədii dilə münasibəti yalnız bir nəzəriyyəçi mövqeyi ilə yox, həm də estetik-psixoloji yanaşması ilə fərqlənir. Axundovun poeziya dilində xalq ruhuna və milli koloritə verdiyi önəm onu müasir poetik fikrin aparıcı nümayəndələrindən birinə çevirir.

Axundovun Poeziya Dilinə Nəzəri Baxışı

A.Axundovun poeziya dilində söz seçimi və onun xəlqi koloriti haqqında qənaətləri hər şeydən əvvəl yüksək elmi-nəzəri səviyyəsi ilə seçilir. Onun müxtəlif vaxtlarda yazdığı əsərlərinin əksəriyyətində bədii sözün estetik mahiyyəti yüksək peşəkarlıqla təhlil edilmiş, sözü xalq kimi duyub xalq kimi demək səriştəsinə yiyələnməyin vacibliyi geniş düşüncələr fonunda şərhini tapmışdır. Bədii təfəkkürün təzahür və ifadə forması kimi A.Axundovun sözə bu cür münasibəti poeziya dilinin tədqiqatçıları tərəfindən də araşdırılmış, sözün xalq ruhuna uyğun işlədilmə məqamları ilə bağlı görkəmli dilçi alimin mühakimə çalarları haqqında yazılmış elmi əsərlərin birində oxuyuruq: “Bu münasibətlə müəllif, Zeynal Xəlilin “Bakının axşamları” adlı şeirindən gətirdiyi aşağıdakı fraqment əsasında xəlqiliyin kasadlığını əyaniləşdirmişdir. Şeir parçası belədir:

Ötüb keçən qıza bax
Göz qaradır, yanaq ağ (?)
Deyin hara gedir, ah (?)
Azərbaycan gözəli?!
Nə yaraşır o qıza Ələsgərin qoşması
Füzulinin qəzəli.

Ağamusa Axundov yazır: “Görünür şair ya Ələsgərin yaradıcılığına yaxşı bələd deyil, ya da ona laqeyd yanaşır. Yanağı ağ olan qız müəllifin iddiası xilafına olaraq Ələsgərin qoşmasında tərənnüm olunmamışdır. Ələsgər öz xalqının zövqünə yaxşı bələd idi və belə qızları bəyənirdi:

Yanağın qırmızı, irəngin ağdır
Çırağban eyləmiş ağı qırmızı (4, 45)

Dil və Üslub Problemləri

Xüsusi qeyd olunmağa layiqdir ki, yaradıcılığının ilk illərindən başlayaraq A.Axundov bədii dil və üslubla bağlı ciddi elmi fəaliyyət göstərmiş, bu sahə ilə bağlı filoloji düşüncələrini ilk qələm təcrübələrində əks etdirmişdir. Onun 1970-ci ildə çap olunmuş "Dil və üslub problemləri” kitabına daxil olan məqalələr məhz bədii dilin aktual problemlərinə toxunmuşdur ki, burada 1950-60-cı illər ədəbi prosesində bədii yaradıcılıq fəallığı ilə seçilən şairlərin əsərlərinin üslubi cəhətdən saf-çürük edilməsi də mühüm yer tutur. “Poemalarımızın dili haqqında qeydlər” (1959), “Gənc şairlərin əsərlərində dil və üslub məsələləri” (1962), “Gənc

Azərbaycan poeziyası haqqında qeydlər" (1970) adlı irihəcmli məqalələr bu qəbildəndir. Ayrı-ayrı illərdə yazılmasına baxmayaraq, bu məqalələrdə hamısında bədii yaradıcılığın ən vacib komponenti olan dil və üslub yüksək səviyyədə və sistemli şəkildə ümumiləşdirilmiş, poeziyada dil amili poetikanın ən vacib tərkib hissəsi kimi təhlilə cəlb olunmuşdur.

"Poemalarımızın dili haqqında qeydlər"də bədii yaradıcılığın ən çətin və mürəkkəb formalarından biri olan bədii dil problemi mərkəzi mövzuya çevrilmişdir. Keçən əsrin 50-ci illərində meydana gəlmiş poemalar (M.Rahim "Sayat nova", "Ögey ana", O.Sarıvəlli "Misirli qardaşlar", Z.Xəlil "Ulduzlar", B.Vahabzadə "İztirabın sonu", H.Hüseynzadə "Məhəbbət poeması", "Yolda", A.Babayev "Eloğlunun poeması", Ə.Kərim "İlk simfoniya", "Üçüncü ata", X.Rza "Məhəbbət dastanı", Q.İmamverdiyev "Mehparə", D.Ordubadlı "Güclü axın", N.Həsənzadə "Dağlar qızı", S.Əsəd "Sədaqət" və s.) barədə danışarkən A.Axundov dil dolaşıqlığı "loruluğa meyl, şivəlilik, ifadə yöndəmsizliyi, qrammatik düzgünlük və səlisliyə etinasızlıq, obrazların nitq qüsurları, obrazların danışığında gurultuya uymaq meyli və s. konkret bədii örnəklərə yüksək peşəkarlıqla yanaşır. Obrazların dilindəki süni və qeyri-təbii elementlərə, bununla müvafiq olaraq təbiiliyi və reallığı ilə diqqət çəkən obrazların dilinə ayrıca toxunur. O, poemalarda səthi mühakimələrə, lirik ricətlərin təhkiyə xarakterli olmasına, yaxud da dil inciklərini unudaraq mənaya aludəçiliyə, bir sözlə, ümumi dil tənasübünü pozan amillərə də diqqət yönəldir. 1950-ci illərdə ərsəyə gəlmiş poemaların üslubi mənzərəsini estetik hadisə kimi dəyərləndirmiş, bütün faktlara yüksək peşəkarlıq mövqeyindən qiymət vermişdir. Bu fəal sənətkarlıq mövqeyi 1962-ci ildə yazılmış "Gənc şairlərin əsərlərində dil və üslub məsələləri" adlı məqaləsində saxlanmışdır. Burada da müəllifin diqqət mərkəzində sənətkarlığın ən çox zəhmət və qayğı tələb edən tərkib hissəsindən - ədəbi prosesdə ilk uğurlu addımlarını atan gənc şairlərin dil və üslub məsələləri, gözəl bədii dilə, xəlqi deyim tərzinə yiyələnməyin çətinlikləri dayanır. Müəllif yazır: "O zaman əsl şeir yaratmaq olar ki, şair zəhmətin böyük və təmiz havası ilə nəfəs alsın, böyük və hüdudsuz xalq yaradıcılığını dərindən, qayğı ilə vacib bir zövqlə öyrənsin." (1, 82)

Ağamusa Axundov "1950-ci ildən sonra ədəbiyyata qədəm qoyan" (1, 79) şairlərin – C.Novruz, F.Qoca, X.Rza, F.Mehdi, İ.Səfərli, H.Hüseynzadə, H.Abbaszadə, F.Sadıq, Ə.Salahzadə, İ.İsmayılzadə, V.Rüstəm, E.Borçalı və s. gənc qələm sahiblərinin dil sənətkarlığını ciddi yaradıcılıq problemi kimi götürüb mahiyyətini açır. Gənc şairlərin əsərlərindəki təqdirəlayiq cəhətləri göstərməklə bərabər müəllif ciddi qüsur saydığı nöqsanlara – yeni ifadələr işlətmək bacarığının yoxluğuna, kitab leksikomuna aludəçiliyə, sürtülmüş ifadələrlə "ütülü şeirlər" yazmaq praktikasına, ümumxalq dilinin zəngin xəzinəsinə biganəliyə, forma yeniliyinə laqeydliyinə, müasir şeirin tələblərdən yayınma hallarına, yersiz söz təkrarlarına, yerli-yersiz işlədilən gurultulu sözlərə tənqidi münasibət bildirir. Şairlik mədəniyyətində sadəliyi önə çəkən, bu günün ruhuna uyğun gələn sadəliyə meylli gənclərin yenilik hisslərini təqdir edən A.Axundov ritm və intonasiya vəhdətinin pozulmasını E.Borçalı ilə İxtiyar Rzazadənin əsərlərindən gətirdiyi nümunələr əsasında göstərməyə çalışmışdır.

Gənc Şairlərin Poeziya Dili

"Dil və üslub məsələləri"nin sonuncu məqaləsi "Gənc Azərbaycan poeziyası haqqında qeydlər" adlanır, bu məqalədə gənc şairlər dedikdə "1950-ci illərin ortalarından sonra ədəbiyyata gələn, xüsusən 60-cı illərdə coşqun fəaliyyət göstərən gənclərin şeirləri nəzərdə tutulmuşdur." (1,86) məqalə göstərilən zaman keşiyində fəaliyyət göstərən şeirimizin nümayəndələrinin (F.Qoca, C.Novruz, Ə.Salahzadə, İ.İsmayılzadə, F.Sadıq, Ç.Əlioğlu, Ş.Salmanov, M.Kazım, Abbasağa, Rübail, M.Aslan, M.Yaqub, A.Abdulla və s.) bədii dillə bağlı yaradıcılıq problemlərinə həsr olunmuşdur. Adı çəkilən söz sənətkarlarının yaradıcılıq təcrübəsi timsalında dil və üslub problemlərini konkret və nəzəri planda göstərməyə nail olmuşdur. Məqalədə bu baxımda üzərində daha müfəssəl dayanılan problemlərdən biri sözçülük, lüzumsuz ritorika məsələsidir. Bu problemin mərkəzində A.Axundov ilk növbədə

orijinal və yeni formanın özülündə dayanan bədii dili, söz yanaşma səriştəsini görür. Fransız şairi Qilvikin "Şairin birinci borcu öz dilinin dərin laylarına nüfuz etməkdir. Heç bir şair öz ana dilinin əsl köklərinə çatmadan dünya əhəmiyyətli, mən daha yaxşı belə deyərdim, hamı üçün şair ola bilməz." (1, 89) qənaətlərinə istinadən A.Axundov gənc qələmlərin şeirlərində özünəməxsus ifadə formalarına diqqəti cəlb edir, "şeirin məzmunu qədər, şeirin xəlqi ruhuna, ana dilinin təmiz və təzə havasına" (1, 89) həyəcanlanma amilini, şeirdə xalq dilinin bütün komponentlərinin fəallıq dərəcəsinin əhəmiyyətini, sözlərin təkrarının iştirakı ilə orijinal quruluşun intonasiya çalarlarını, onlardan bədii təsvir vasitəsi kimi istifadə məharətini təqdir edir. Bu münasibətlə C.Novruz, F.Qoca və Ə.Salahzadənin əsərlərinə daha çox istinad edir. Himn məzmunlu əzəmətli intonasiya siqlətinə, morfemlərin təkrarından yaranan bədii nitq melodiyasına , şeirin emosionallığının təminatçısı forma və məzmun vəhdətinin ahənginə, yaradıcılıq ruhu etibarı ilə yaxın olan şairlərin deyim tərzindəki oxşarlıqlara nəzər salan müəllif F.Qocanın "Xirosima" şeiri ilə C.Novruzun "Naqasaki... Xirosima... Sakit okean" adlı nəzm nümunəsini qarşlaşdırmış, adlardakı fərqlə bərabər məzmun və formalardakı təfavütə də, eyni mövzuya həsr olunmuş şeirlərdəki üslub orijinallığına da, eyni emosiya və narahatlıqların ifadəsində dil və üslubun məxsusi ifadəsində dil və üslubun məxsusi cizgilərinə də biganə qalmamışdır. Maraqlı cəhət ondadır ki, müəllif hər iki nümunədə poetik zənginliklə bərabər üslubi kamillik əlamətlərini də sezmiş, yüksək məzmun yükünə malik obrazlılıq faktlarını, bədii faktlardakı incə və poetik cəhətləri ətraflı və elmi şəkildə izah etmişdir.

Gənc şairlərin dilindəki obrazlılığa, məna ahənginə, qafiyə yaratma mədəniyyətinə, məcazi sözlərin sistem halında təzahürünə, intellektual poeziyanın ifadəlilik orijinallığına baxışlarını Ə.Salahzadənin yaradıcılığı ilə bağlı mülahizələrində ifadə edən A.Axundov obraz hipertrofiyası, prosodiya sistemindən obrazlar poeziyasına keçib estetik-üslubi əsaslarına toxunmaqla bir cəhətə - Ə.Salahzadə üslubunda təzahür edən lətafət və cazibədarlığa diqqət çəkir, onun "Xəzər dənizi" (S.Bəhlulzadəyə həsr etdiyi) şeirindəki obrazların konkretliyi, mövzu ilə bağlılığı, olduqca sərrast səciyyələndirilir.

Azərbaycan dilini güclü bədii ruhu, bu poetik ruhun milliliyin təcəssüm qabiliyyəti, misra quruluşu və intonasiya imkanları, milli zəminə bağlılıqları Ə.Salahzadənin "Tramvayda bir uşaq əlində çanta", F.Qocanın "Kəsə yolla" şeirlərində təzahür edən quru obrazçılıq, qeyri-poetiklik əlamətlərinin şərhi fonunda təqdim etməklə A.Axundov məntiqsizliyə gətirib çıxaran, sətri tərcümə təəssüratı yaradan, universializmə meyl etməklə bədii təfəkkürün sönüklüyünə rəvac verən, dəbdəbəli olduğu qədər də mənasiz olan (Ç.Əlioğlu), (Ş.Solmanov) qeyri-məntiqə, ahəng və mənadan uzaq qafiyəsiz nəzm quraşdıran (İ.İsmayılzadə) bədii nümunələr ardıcıllıqla gözdən keçirilir.

Gənc Azərbaycan şairlərini bədii dil və sənətkarlıq cəhətdən ənənəçilər və novatorlar kimi səciyyələndirən, lakin onların mahiyyət etibarı ilə biri-birindən fərqlənməyən, bir-birinə qarşı durmayan, Azərbaycan poeziyasının magistral yolunun vahidliyini təmin edən ədəbi qüvvə olduğunu A.Axundov təbii amillərə bağlayır. "ənənəvi formalarda ənənəvisiz şeirlər yazan" (1,101), şeirimizin ümumi səviyyəsindən aşağı qalan söz sənətkarlarına örnək üçün köhnə qoşma formalı şeirlərində yenilik və sənətkarlığa nail olanları nümunə göstərməklə o, dillə bilavasitə bağlı üslubi kamillik amilini məntiqlə aydınlaşdırır, poeziyada əsl novatorluq nədən ibarətdir sualına belə münasibət bəsləmişdir: sözlə oynamaq "oyunbazlıq ümumən yaxşı şey olmasa da, söz oyunbazlığını tamamilə mənasız hesab etmək olmaz, ancaq bir şərtlə, o şərtlə ki, o, şeir yazmağın məqsədinə çevrilməsin; o, mütəşəkkil, səmimi şair hisslərinin ifadəsi olan şeiri daha da gözəlləşdirməyə xidmət etsin." (1, 103)

A.Axundov müasir poeziyamızın dil və üslub problemləri haqqında mühakimələri çağdaş poeziyamıza, onun qüdrətli söz xiridarlarına istinad edir. Ayrı –ayrı fərdi üsluba malik şairlərin əsərlərin linqvopoetik təhlilə cəlb olunanda A.Axundov Məmməd Araz kimi orijinal qələm sahibinə üstünlük verirdi, onun uğurlu tərəflərini şərh etməklə dilimizin estetik qüdrətini

nümayiş etdirirdi. “Məmməd İbrahimdən Məmməd Araza və ya poeziyaya gedən yol” adlı elmi yazısında Məmməd Araz şeirlərini təkcə dilçilik baxımından deyil, eyni zamanda onlara ədəbiyyatşünaslıq prizmasından, görünən və görünməyən bucaq altından baxır və xüsusən şairin dil sənətkarlığını şeir nümunələri əsasında təhlilin mərkəzinə çevirərək onun ifadə tərzinin gücünü belə açıqlayır: “Məmməd Arazın şeir şimşəyinin gücü, hər şeydən əvvəl, onun dilindədir. Məmməd Araz şimşəyi öz gücünü ilk öncə xalq dilinin incəliklərindən, zənginliyindən, ruhundan alır. Onun dili səslərdən tutmuş cümlələrə qədər bu incəlikləri, zənginlikləri özündə birləşdirən yüksək poetik bir zənginlikdir. Bu o qədər aydındır ki, dilçi olanlar da onu görür və deyir, dilçi olmayanlar da.” (6, 35)

Məmməd Arazın bədii dil vasitəsi kimi ustalıqla istifadə etdiyi fonetik hadisələr, sistem şəklində təzahür edən alliterasiya və assonans, söz təkrarları, qafiyə zənginliklərinin mənbələri, qafiyə və onun linqvistik çeşidləri, ümumi poetik avazlanma “Məmməd Araz yaradıcılığının nailiyyəti” (3,129) kimi təqdim olunur. Müəllif yazır: “Dilimizin poetik imkanlarından şairin faydalanma yolları, əlbəttə, bu deyilənlərlə bitmir. Azərbaycan dilinin sintaqmatik fonetikası və Məmməd Araz şeirinin poetik intonasiyası, hətta xüsusi monoqrafik tədqiqatlar üçün kifayət qədər material verir.” (3,129)

Məqalədə qüdrətli bədii söz sənətkarının şeir texnikasının digər cəhətləri – şeir dilində söz hüdudlarının genişləndirilməsi, lüğət tərkibinin zənginlikləri, xalq sözlərini yeni-yeni mənalarla bəzəmək vərdişləri, neologizm yaradıcılığında fəallığı, poetik təəssürat və assosiasiyalı psixoloji durum yaratma vərdişi, sözün mum kimi elastikliyini təmin edilməsi, sözün çoxmənalılığından istifadə ustalığı, antiteza yaradıcılığı, idiomatik ifadə və hikmətli söz yaratma məharəti və s. geniş nəzəri izahlarla meydana çıxır.

“Dilimizin fonetik və leksik imkanları sahəsində olduğu kimi, qrammatik səviyyəsində də sənətkarın şeir dilinin əsas əlaməti xəlqilik və yenilikçilikdir.” (3,136) -deyən müəllif dilin qrammatik normalarına qayğı və həssaslığı, şeirin poetik avazına xidmət edən sintaktik vahidlərin təkrarından doğan üslubi strukturu, poetik müvaziliyin cazibədarlığını aşkarlayır, onların poetik novatorluq dərəcələrini konkret şeir fraqmentləri ilə mənalandırır.

“Əhməd Cavadın dili” adlı qeydlərində “ədəbi dilimizin sabit olmadığı” (3,47) dövrdə fəaliyyət göstərən istiqlal şairinin öz zəmanəsinin ədəbi fövqündə durmasını araşdıran A.Axundov Ə.Cavadın bədii dilini “1908-dən 1937-dək mövcud olan ədəbi dilimizin güzgüsü” (3, 48) adlandırır və göstərir ki, ədəbi dilimizin saflığı uğrunda, bəzən ifrata varsa belə, apardığı mübarizə onun dil təəssübkeşliyinin bariz nümunəsidir və o, bədii dilinin özünəməxsusluqları ilə, sadəliyi və xəlqiliyi ilə fərqlənən şairdir. Qoşma məzmunca nə qədər xəlqidirsə, dilinə görə də o qədər şirin və sadədir. Bunun nəticəsidir ki, o, “Azərbaycan sovet şeir dilinin yaradıcılarından, həm də istedadlı yaradıcılarından biri olub” (3, 52).

A.Axundov “Şeirin hikməti”, “Səmimi hisslər poeziyası”, “Şair və şeir pərisi”, “Xalqın şeiri”, “Əlvida, əziz dost”, “Axtarış yollarında”, “Uzaq ulduzların töhfəsi”, “Könül nəğmələri”, “Qəmli duyğuların poeziyası”, “Nurəddin Mirzəxanlının şeirləri haqqında”, “Zamanın fövqündə” və s. məqalələrində də ən önəmli poetik dil xüsusiyyətlərini xatırlatmaqla A.Səhhət, B.Vahabzadə, N.Xəzri, C.Novruz, İ.Coşqun, Ə.Salahzadə, T.Bayram, Ş.Xanlarov kimi şairlərin əsərlərinə geniş filoloji şərh vermiş, bədii dilin müxtəlif üslubi istiqamətləri, dil novatorluğuna müxtəlif meyllər, folklor deyim tərzinin üstünlüyü, dövrün poetik əhval-ruhiyyəsinin dildəki inikası, bədii dil prosesinin geniş sosial-siyasi reallıqlar zəminində özünəməxsusluğu və s. nəzəri məsələlər elmi-nəzəri söz səviyyəsinə yüksəlmişdir.

A.Axundovun yaradıcılığında bədii dillə bağlı problemlər içərisində forma və məzmun məsələləri elmi dürüstlüyü ilə seçilir. Dilimizin səsə quruluşu ilə şeir vəzninin əlaqələri məsələləri poetik gözəlliyin mühüm əlaməti kimi götürülmüş, şeirin ritmini və ahəngini bədii gözəlliyin ən vacib şərtlərindən biri kimi dəyərləndirilmişdir. Bununla bağlı olaraq Azərbaycan

filologiyasında bəzi mübahisəli məqamları da xatırlanmış, şeir dilinin estetikasından bəhs edən nəzəriyyəçilərin mülahizələrinə həssaslıqla yanaşılaraq münasibət bildirilmişdir.

Qafiyə Və Şeir Texnikası

A.Axundovun fədakar zəhmətinin bəhrəsi olaraq şeirimizin vəznləri, qafiyə sisteminin linqvistik əsasları, bənd strukturunun özəllikləri və fonetik səciyyəvi cəhətləri "Şeir sənəti və dil" adlı kitabında bir sıra poetika məsələlərinə verilmiş dəqiq, nəzəri təhlilin əhəmiyyəti, elmi dəyəri daha aşkar görünür. Kitabda baş mövzu – müxtəlif vəzn və formalarda yazılan şeirlərin ahəng bütövlüyünü, səs ritmikasını yaradan amillərin əsaslandığı nəzəri prinsiplərin, qanunauyğunluqların ümumiləşmiş nəticələr əsasında dəqiq elmi şərhi və sistemləşdirilməsidir." (5, 7) Burada dilin səs quruluşu ilə vəznin birbaşa əlaqələri, dilin milli xüsusiyyətləri ilə əlaqədar formalaşması, dilin fonetik qanunlarına əsaslanması təhlil olunmuş, poeziyanın canlı dillə qırılmaz bağlılığı görkəmli alimlərin – M.C.Cəfərov, M.Ştokmar, D.Sondin, M.Həmzayev və s. nəzəri müddəalarına istinadən və konkret faktlar əsasında təqdim edir. O həmçinin Azərbaycan poeziya sənətinin tanınmış araşdırıcısı Əkbər Ağayevin "Vəzn dillərə görə yaranmır, düzəldilmir, hazır norma və poetik qayda kimi alınmır və müxtəlif dillərin təbii imkanlarına uyğun surətdə tətbiq olunur" (5, 11) fikrinin qeyri-dəqiqliyinə öz münasibətini ifadə edir, vəzn və dil materialı arasındakı əlaqə məsələsini dilin zərərinə yekunlaşdırmanın düzgün olmamasını dünya poeziyasının lingvopoetik faktları ilə sübuta yetirir. Bu yanlış baxışların təməlində duran fikirlərin mənbələrinə diqqət çəkir. B.Unbeqaun süni səciyyə daşıyan mülahizələrinə qarşı V.Sirmuniski, B.Tomaşevski kimi tədqiqatçıların mövqeyini obyektiv düşüncə ilə izah edərək bu nəticəyə gəlir ki, dil və vəzn arasındakı qarşılıqlı əlaqə dialekt səciyyəlidir, "dilin fonetik quruluşu ilə vəzn arasındakı möhkəm qarşılıqlı əlaqə və vəznin dilin milli spesifikasından asılılığı faktdır." (2, 14)

A.Axundov həm milli, ənənəvi şeir şəkilləri, habelə sərbəst şeir nümunələri əsasında melodik tamlığı, ahəng çalarlarını poetik və fonetik vasitələrin birlik yaratma qanunauyğunluqlarını və s. inandırıcı faktlara əsasən elmi-nəzəri planda izah etmiş, Azərbaycan şeirinin vəzn, ölçü, bölgü, ritm, qafiyə və s. ilə bağlı məsələlərinə aydınlıq gətirmişdir.

"Azərbaycan sovet şeirində "qafiyə"" məqaləsinin məzmunundan, onda qoyulan problemlərdən danışmadan bir cəhəti xüsusi xatırlatmaq lazımdır. Bu Azərbaycan poeziyasında qafiyə məsələləri haqqında gətirilən dil faktlarının zənginliyi, mühakimləri çoxcəhətli olması ilə bağlıdır. Qafiyənin poetika elminin obyekti kimi öyrənilməsi tarixinə qısa nəzər salan müəllif qafiyələrin qrafik və fonetik prinsipləri, mütləq və nisbi səs uyğunluqlarının linqvistik göstəriciləri, qrafik prinsipin qafiyə sahəsində yaratdığı məhdudluq, qulaq qafiyələrinin formalaşdırılmasında fonetik prinsiplərin yaratdığı imkanlar və s. barədə elmi nəzəri müddəalarını davam etdirir. Dilimizin fonetik xüsusiyyətləri zəminində əmələ gələn mütləq və nisbi fonetik qafiyələr, bu prosesdə fonetik hadisələrin fəallığı, şeirimizdə qafiyə meylləri ilə bağlı fikirlərinin uğurlu səslənməsini bir də müəllifin bir sıra görkəmli alim və söz sənətkarlarına müraciəti ilə izah etmək lazımdır.

Nəticə

Ağamusa Axundovun poetik dil və üslub məsələlərinə yanaşması Azərbaycan ədəbiyyatşünaslığında mühüm mərhələ təşkil edir. Onun poeziya dili ilə bağlı elmi mühakimələri dilin estetik imkanlarının və xalq ruhunun poeziyada təzahürünü əhatə edir. Axundovun tədqiqatları həm nəzəri əsaslandırmaları, həm də konkret bədii nümunələrə istinadları ilə seçilir. Onun dil və vəzn, sintaksis və intonasiya vəhdəti kimi məsələlərə verdiyi əhəmiyyət Azərbaycan poeziyasının elmi təhlilinə ciddi töhfədir.

ƏDƏBİYYAT

1.Axundov, A. (1970). Dil və üslub məsələləri. Bakı: Gənclik.
2.Axundov, A. (1980). Şeir sənəti və dil. Bakı: Yazıçı.
3.Axundov, A. (2003). Dil və ədəbiyyat (II cild). Bakı.
4.Hüseynov, M. (2007). Şeirşünaslıqda dil sənətkarlığı. Bakı: Elm.
5.Mənsimoğlu, T. & Allahverdiyev, T. (2007). Ədəbi və elmi mühit. Bakı: Nurlan.
6.Mütəllibov, T. (1980). “Şeir sənəti və dil” kitabına ön söz. Şeir sənəti və dil. Bakı: Yazıçı, 5–8.

THE ROLE OF SOCIAL EDUCATOR IN EDUCATIONAL INSTITUTIONS

TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ SOSİAL PEDAQOQUN ROLU

Prof. Qızxanım Nizaməddin qızı Qəhrəmanova
ADPU-nun İbtidai təhsil fakültəsinin dekanı

Abstract

İntraduction:A social educator is a specialist working with children and adolescents who have difficulties in learning, social adaptation and upbringing. Their task is to provide support in difficult life situations, help them assert themselves in society, protect the interests and rights of their guardians and create favorable conditions for the child's development. The article describes the role of a social educator and the main functions assigned to him.

The main functions of a social educator in modern society are as follows: 1. The teacher acts as a catalyst (accelerator) of social progress in society. He makes a great contribution to the formation of people who, by educating the younger generation, master new and progressive production technology, and specialists who quickly grasp all the innovations in the multifaceted life of society. 2. A professional social educator creates an unbreakable connection between the historical past of society and its promising future through the younger generation. He, like a relay, transfers the life experience of the historical past of society to a promising future.

3. The social educator has a specific function-to play the role of a “battery” that accumulates social experience. The social teacher is the main link in the mechanism of transferring the value experience accumulated by older people to young people. In fact, here the teacher has not one, but two social goals: to research and collect the experience and pass it on to young people.

4. Another role of a social educator is that he acts as a specialist who evaluates the culture of society, the experience and behavior of people in social relations acquired by that time. He selects valuable and useful (from a subjective point of view) material for use in the educational work of children from the General Cultural Fund.

5. A professional social educator knows the characteristic physiological, psychological and other characteristics of children, adolescents, boys and girls, the uniqueness and possibilities of their multifaceted development at different age levels. Therefore, he is capable, capable of competently expressing his views on the upbringing of young people to society, creating public opinion on the pressing problems of educational practice and theory, and he has a moral right to do so. 6. And finally, another, perhaps the main social function of a social teacher is the formation of the spiritual world of young people in accordance with the principles and values of a particular society. It is on this that the social educator is constantly working, forming in the younger generation knowledge and concepts about the rules of human society in accordance with the principles and norms of morality, law, aesthetics.

As a result: the social educator teaches young people to adjust their behavior in accordance with these values by instilling ideas about universal human values, kindness and kindness towards others.

Key words: Social educator, pedagogical influence, social functions, social and pedagogical activity, moral development.

Özət
Sosial müəllim pedaqoji işçidir və onun fəaliyyətinə sinifdə, qrupda, kursda, təhsil müəssisələrində ümumi şəxsi mədəniyyətin yaradılması, şagirdlərlə və onların valideynləri ilə əlaqədə olaraq, yaranan problemlərin həllində dəstək olmaq, vətənpərvərliyin və Vətənə məhəbbətin aşılanması, onun tarixinə hörmətlə yanaşma, təbiətin qorunmasına yönəlmiş tərbiyə işinin təşkili kimi vəzifələr daxildir. Məqalə sosial pedaqoqun işinin aktuallıgını işıqlandırır.
Müasir cəmiyyətdə sosial pedaqoqun əsas funksiyaları aşağıdakılardır:
1. Müəllim cəmiyyətdə sosial tərəqqinin katalizatoru (sürətləndiricisi) rolunu oynayır. O, gənc nəsli tərbiyə edərək yeni və mütərəqqi istehsal texnologiyasını mənimsəyən insanların və cəmiyyətin çoxşaxəli həyatında bütün yenilikləri tez qavrayan mütəxəssislərin formalaşmasına böyük töhfə verir.
2. Peşəkar social pedaqoq cəmiyyətin tarixi keçmişi ilə onun perspektivli gələcəyi arasında gənc nəsil vasitəsilə qırılmaz əlaqə yaradır. O, estafet kimi cəmiyyətin tarixi keçmişinin həyat təcrübəsini perspektivli gələcəyə ötürür.
3. Sosial pedaqoqun konkret funksiyası var - sosial təcrübə toplayan "batareya" rolunu oynamaq. Sosial müəllim yaşlı insanların topladığı dəyər təcrübəsinin gənclərə ötürülməsi mexanizmində əsas həlqədir. Əslində burada müəllimin bir yox, iki sosial məqsədi var: təcrübəni araşdırıb toplamaq və gənclərə ötürmək.
4. Sosial pedaqoqun bir rolu da ondan ibarətdir ki, o, cəmiyyətin mədəniyyətini, insanların həmin dövrə qədər əldə etmiş ictimai münasibətlər təcrübəsini və davranışını qiymətləndirən mütəxəssis kimi çıxış edir. O, ümumi mədəniyyət fondundan uşaqların təlim-tərbiyəsi işində istifadə etmək üçün dəyərli və faydalı (subyektiv nöqteyi-nəzərdən) material seçir.
5. Peşəkar sosial pedaqoq uşaqların, yeniyetmələrin, oğlanların və qızların xarakterik fizioloji, psixoloji və digər xüsusiyyətlərini, müxtəlif yaş səviyyələrində onların çoxşaxəli inkişafının unikallığını və imkanlarını bilir. Odur ki, o, gənclərin tərbiyəsi ilə bağlı öz fikirlərini cəmiyyətə səriştəli şəkildə bildirməyə, təhsil təcrübəsinin və nəzəriyyəsinin aktual problemləri ilə bağlı ictimai rəy yaratmağa qadirdir, bacarıqlıdır və onun buna mənəvi haqqı vardır.
6. Və nəhayət, social müəllimin başqa, bəlkə də əsas sosial funksiyası gənclərin mənəvi dünyasını konkret cəmiyyətin prinsip və dəyərlərinə uyğun formalaşdırmasıdır. Sosial pedaqoq məhz bunun üzərində daim çalışır, gənc nəsildə insan cəmiyyətinin əxlaq, hüquq, estetika prinsip və normalarına uyğun qaydaları haqqında bilik və anlayışlar formalaşdırır.
Açar sözlər: Sosial müəllim, pedaqoji təsir, sosial funksiyalar, sosial-pedaqoji fəaliyyət, mənəvi inkişaf.

Sosial müəllim pedaqoji işçidir və onun fəaliyyətinə sinifdə, qrupda, kursda, təhsil müəssisələrində ümumi şəxsi mədəniyyətin yaradılması, şagirdlərlə və onların valideynləri ilə əlaqədə olaraq, yaranan problemlərin həllində dəstək olmaq, vətənpərvərliyin və Vətənə məhəbbətin aşılanması, onun tarixinə hörmətlə yanaşma, təbiətin qorunmasına yönəlmiş tərbiyə işinin təşkili kimi vəzifələr daxildir. Təhsil sahəsində çalışan sosial pedaqoqlar uşaqların və böyüklərin davranışına və fəaliyyətlərinə məqsədyönlü pedaqoji təsir göstərməli, onların sosial təcrübəsini zənginləşdirməli, dəyərlər oriyentasiyalarını formalaşdırılmalı kimi tərbiyə funksiyasını da yerinə yetirməlidirlər.
Sosial pedaqoqun cəmiyyətdəki rolu, yəni onun sosial funksiyaları cəmiyyətin özünün inkişafı ilə bərabər dəyişikliklərə məruz qalır. Başqa cür ola bilməz: müəllim cəmiyyətdə yaşayır və buna görə də bu cəmiyyətdə baş verən bütün təkamül və inqilabi dəyişiklikləri onunla birlikdə yaşayır. Təəccüblü deyil ki, müxtəlif tarixi dövrlərdə müəllimin sosial rolu dəyişərək muzdlu sənətkar səviyyəsindən dövlət qulluqçusuna qədər inkişaf edib.

Sosial-pedaqoji fəaliyyət həmişə məqsədyönlü olmuşdur və konkret uşağa və onun sosiallaşması, cəmiyyətə inteqrasiyası prosesində yaranan fərdi problemlərinin həllinə, uşağın şəxsiyyətini və onun ətraf mühitini öyrənməyə, uşaqlara fərdi yardım proqramı hazırlamağa yönəldilmişdir.

Gələcək sosial müəllimin sosial-pedaqoji fəaliyyətə hazırlanması təkcə yüksək peşəkarlığla kifayətlənmir, o, həm də elm və təcrübə ilə sıx əlaqədə olmalıdır. Lakin gələcək social müəllim təkcə əsas peşə biliklərini deyil, həm də ümumbəşəri insan mədəniyyətini mənimsəməlidir, çünki, onun əsasında şəxsiyyətin bütün aspektlərini inkişaf etdirmək, maddi baza və təhsilin kadr potensialı ilə əlaqəli subyektiv ehtiyaclarını və obyektiv şərtlərini nəzərə almaq mümkündür. Sosial müəllim peşəsini seçən hər kəs təhsil və tərbiyə verəcəyi şəxslər üçün məsuliyyət daşıyır, eyni zamanda da özünə, özünün peşə hazırlığına, müəllim, tərbiyəçi olmaq hüququna görə məsuliyyət daşıyır.

Çox vaxt universiteti bitirmiş, lazımi nəzəri biliyə malik olan social pedaqoq praktikada konkret peşə problemlərini həll edə bilmir. Buna görə də, gələcək sosial pedaqoqların hazırlanması prosesində tələbələrin ümumi mədəniyyətini inkişaf etdirən, onlarda peşə fəaliyyətinə marağı formalaşdıran, peşəyə dair bilik, bacarıq və vərdişlərin genişləndirilməsi və təkmilləşdirilməsinə ehtiyac yaradan iş forma və üsullarından istifadə etmək lazımdır. Social pedaqoqların hazırlanmasında vacib içlərdən biri də onlarda ümumi mədəniyyətin inkişaf etdirilməsidir.

Ümumi mədəniyyətin inkişafı probleminə aşağıdakı aspektlərdə baxılmalıdır: fasiləsiz təhsil sistemində insanın ümumi mədəniyyəti; social müəllimin ümumi mədəniyyəti tədris fəaliyyətinin uğur amili kimi; mədəniyyətşünaslığın öyrənilməsi ilə tələbə mədəniyyətinin formalaşdırılması; mədəni-estetik mühitin yaradılması fərdin mənəvi inkişafının mühüm şərti kimi. İnsanın ümumi mədəniyyətinin inkişafı problemi ilk növbədə social müəllimə aiddir, çünki müəllim nəsillərin ümumi mədəniyyətinin formalaşmasında bir növ mənbə, mentor kimi qəbul edilə bilər. Yuxarıda göstərilən problemlər müasir dövrümüzdə çox aktualdır.

Bu sahədə aparılan araşdırmalara əsasən, insanın ümumi mədəniyyətinin formalaşmasının aşağıdakı bir sıra əlamətlərini müəyyən edə bilərik:

- başqa insanın ləyaqətinə hörmət, müxtəlif sosial vəziyyətlərdə öz ləyaqətini qorumaq;
- sosial qarşılıqlı əlaqə problemlərinin həlli prosesində biliklərin ümumi mədəni fondundan (humanitar, təbiətşünaslıq, iqtisadi, siyasi, hüquqi və s.) istifadə etməyə hazır olmaq;
- insanın gündəlik, peşə, sosial qarşılıqlı əlaqə vəziyyətlərinə (görünüşü, davranışı, ünsiyyəti ilə) uyğunluğu;
- sosial-mədəni ənənələrə, adətlərə, normalara, etiketə riayət etmək;
- ölkənin tarixinin və mədəni həyatının qorunub saxlanılmasının əsas istiqamətlərini bilmək və təbliq etmək (rəssamlıq, musiqi, ədəbiyyat, memarlıq və s.);
- şəxsi sosial-mədəni inkişafın və özünüinkişafın davam etdirilməsi;
- özü və öz davranışı üçün sosial məsuliyyət daşımaq.

Bu xüsusiyyətlərdən biri və ya daha çoxu hələ ümumi yüksək səviyyəli mədəniyyəti xarakterizə etmir. Yalnız hər bir fərddə qeyd olunan xüsusiyyətlərin hamısının və ya əksəriyyətinin maksimum dərəcədə olması zamanı yüksək ümumi mədəniyyətdən danışa bilərik.

Beləliklə, müasir cəmiyyətdə sosial pedaqoqun rolu onun yuxarıda sadalanan sosial funksiyalarında və yüksək ümumi mədəniyyətində özünü göstərir. Sosial müəllimin ümumi kompleksdə təzahür edən bütün bu funksiyaları və mədəniyyəti həyatın müxtəlif aspektlərinin və hadisələrinin mürəkkəb qarşılıqlı əlaqəsini əks etdirir və onun cəmiyyətdəki rolunu müəyyən edir.

Bu gün təhsil müəssisələrində sosial pedaqoqun rolu böyükdür. Sosial pedaqoq şagirdlərin şəxsiyyət xüsusiyyətlərini və onların mikromühitini, yaşayış şəraitini öyrənir, davranışlarında olan problemləri, maraq və ehtiyaclarını, çətinliklərini və problemlərini, münaqişəli vəziyyətləri, kənarlaşmaları müəyyən edir və onlara vaxtında sosial yardım və dəstək göstərir.

Nəticə

Sosial pedaqoq gənclərə ümumbəşəri dəyərlər haqqında təsəvvürlər aşılamaqla onların davranışlarını bu dəyərlərə uyğun tənzimləməyi, başqalarına qarşı xeyirxahlıq və mərhəmət, tolerantlıq, hörmət və insanpərvərlik prinsipləri əsasında yaşamağı öyrədir.

Ədəbiyyat

1.Загвязинский, В.И. Социальная педагогика: учебник для академического бакалавриата / В. И. Загвязинский, О. А. Селиванова; под редакцией В.И. Загвязинского. М, 2001, 153 с.
2. Зуйкова А.А., Дорошенко О.М., Базулина А.А. Уровень образования: Бакалавриат; Дисциплины: Педагогика, Психология и педагогика. М., 1998, 208 с.
3. Стоун Э. Психопедагогика. Психологическая теория и практика обучения. М., 1984, 176 с.
4. Баева И. А. Педагогическая психология. СПб.: Питер, 2011

ETHNOLINGUISTIC AND LINGUOCULTURAL ANALYSIS OF THE WORD "ULU" IN TURKIC LANGUAGES

"ULU" SÖZÜNÜN TÜRK DİLLƏRİNDƏ ETNOLİNQVİSTİK VƏ LİNQVOKULTUROLOJİ ANALİZİ

Xatirə Sultan
Gəncə Dövlət Univeristeti

Xülasə
Bu tədqiqat türk dillərində qədim və semantik baxımdan yüklü olan "ulu" sözünün etnolinqvistik və linqvokulturoloji mənzərəsini araşdırmağa həsr olunmuşdur. "Ulu" sözü Oğuz, Qıpçaq və Uyğur-Qarluq dillərində "böyük", "uca", "müqəddəs" mənalarında qorunaraq ümumtürk mədəni-mifik şüurunda arxetipik status qazanmışdır. Araşdırmada həmçinin çuvaş dilində "ulla", malay dilində "uluh", sanskritdə "uru" və yapon dilində "uruwashii" kimi fonetik və semantik paralellər təhlil olunmuş, bu uyğunluqların təsadüfi və ya areal təbiəti nəzərdən keçirilmişdir. "Ulu" sözü yalnız fiziki ölçünü deyil, həm də Tanrı, əcdad, əzəmət və müqəddəslik kimi konseptləri ifadə edən leksik vahid olaraq kollektiv yaddaşın və etnik identikliyin daşıyıcısına çevrilmişdir. Söz həm folklor, həm dini diskursda, həm də gündəlik nitqdə semantik təbəqələşməyə məruz qalaraq çoxqatlı anlam yükü qazanmışdır. Tədqiqatda müqayisəli-tarixi, diskursiv və linqvokulturoloji metodların tətbiqi nəticəsində "ulu" kökünün türk dillərində həm fonetik, həm də semantik sabitliyə malik olduğu, digər dillərlə isə semantik yaxınlıqlarının əsasən metaforik xarakter daşıdığı müəyyən edilmişdir. Nəticədə "ulu" konsepti türk dillərində dil və mədəniyyətin kəsişmə nöqtəsində yerləşən nadir arxetiplərdən biri kimi təqdim olunur.
Açar sözlər: ulu, arxetip, etnolinqvistika, linqvokulturoloji analiz, türk dilləri, müqəddəslik, konseptual semantika

Abstract
This study is devoted to the ethnolinguistic and linguocultural examination of the word *"ulu"*, a term deeply rooted in the ancient and semantically rich layers of Turkic languages. The word *"ulu"*, which means "great," "high," or "sacred," has been preserved in the Oghuz, Kipchak, and Uyghur-Karluk language groups, acquiring an archetypal status within the pan-Turkic cultural-mythological consciousness. The research also analyzes phonetic and semantic parallels such as *"ulla"* in Chuvash, *"uluh"* in Malay, *"uru"* in Sanskrit, and *"uruwashii"* in Japanese, exploring whether these similarities are coincidental or of areal nature. The term *"ulu"* goes beyond indicating physical magnitude; it conveys concepts such as divinity, ancestry, grandeur, and sacredness, thus becoming a lexical unit that embodies collective memory and ethnic identity. The word has undergone semantic stratification in folklore, religious discourse, and everyday speech, acquiring multiple layers of meaning. Through the application of comparative-historical, discursive, and linguocultural methods, the study concludes that the root *"ulu"* maintains both phonetic and semantic stability in Turkic languages, while its semantic parallels with other languages are primarily metaphorical in nature. Ultimately, the *"ulu"* concept is presented as a rare archetype situated at the intersection of language and culture in the Turkic linguistic tradition.
Keywords: ulu, archetype, ethnolinguistics, linguocultural analysis, Turkic languages, sacredness, conceptual semantics.

Türk dillərinin leksik və semantik sistemində tarixi mənşəyə malik, arxaik təbiətli və mədəni semantika ilə yüklənmiş sözlər mühüm yer tutur. Bu cür leksik vahidlər təkcə kommunikativ funksiyaya deyil, həm də kulturoloji, ideoloji və kollektiv şüuru formalaşdıran semantik qatlara malikdir. Belə sözlər uzun zaman ərzində yalnız məna daşıyıcısı deyil, həm də mədəni kod, kollektiv identiklik göstəricisi və etnik simvol kimi fəaliyyət göstərmişdir.

Bu baxımdan, "ulu" sözü türk dillərində sadəcə semantik kateqoriya daxilində "böyük", "uca", "əzəmətli", "ali" anlayışlarını ifadə etməklə kifayətlənmir; o, həmçinin etnolinqvistik arxetip, mədəni-konseptual simvol və sakral semantika daşıyıcısı kimi çıxış edir. "Ulu" sözü bir tərəfdən sosial statusu və fiziki ölçünü, digər tərəfdən isə müqəddəsliyə yaxınlıq, ideallaşdırma, əcdadların ucalığı, ilahi başlanğıc kimi semantik sahələri ehtiva edir. Bu çoxqatlı semantika onun türk dillərində tarixi inkişafı boyu sabit və məhsuldar kök kimi qorunub saxlanmasına şərait yaratmışdır. Məhz bu səbəbdən "ulu" sözü genetik baxımdan qədim, semantik baxımdan isə geniş konnotativ spektrə malik arxetipik vahid sayılır [1, s. 453].

Qədim türk yazılı abidələrindən başlayaraq müasir türk dillərinə qədər bu söz müxtəlif dil səviyyələrində — leksik, frazeoloji, toponimik, etnonimik və konseptual müstəvilərdə işlənməkdə davam edir. "Ulu Tanrı", "ulu dağ", "ulu yol", "ulu millət", "ulu əcdadlar" kimi ifadələrdə bu söz həm maddi ölçü, həm ruhani ali dəyər, həm də mifoloji başlanğıc anlamlarını eyni anda özündə birləşdirir.

Bu məqalənin məqsədi məhz "ulu" sözünün türk dillərində və bəzi areal və təsadüfi fonetik-semantik uyğunluq göstərən qeyri-türk dillərindəki variantlarını araşdırmaqla, onun etimoloji dərinliyini, fonosemantik təkamülünü, eləcə də lingvokulturoloji funksiyalarını ortaya çıxarmaqdır. Bu kontekstdə tədqiqat "ulu" sözünün yalnız leksik vahid kimi deyil, həm də mədəniyyətin dərin qatlarında yerləşən konseptual model kimi fəaliyyət göstərdiyini nümayiş etdirməyi qarşıya məqsəd qoyur.

Tədqiqatda müqayisəli-tarixi metod, etnolinqvistik və linqvokulturoloji yanaşma, həmçinin diskurs-analiz üsullarından istifadə olunmuşdur. Əsas material kimi Azərbaycan, türk, qazax, qırğız, başqırd, özbək, çuvaş və digər türk dillərində "ulu" sözünün müxtəlif formaları, o cümlədən malay, sanskrit, koreya, yapon dillərində fonetik və ya semantik uyğunluq daşıyan sözlər araşdırılmışdır. Eləcə də, müasir türk dillərinin etimoloji və izahlı lüğətlərindən, folklor və klassik ədəbiyyat nümunələrindən istifadə olunmuşdur.

"Ulu" sözü oğuz (Azərbaycan, türk), qıpçaq (qazax, qırğız, başqırd) və uyğur-qarluq (özbək, uyğur) dillərində "böyük", "uca", "müqəddəs" mənalarında işlənməkdə davam edir. Bu sabitlik onun genetik kök olduğunu və ümumtürk konseptual şüurunda dərin iz buraxdığını göstərir. "Ulu Tanrı", "ulu dağ", "ulu fikir" kimi ifadələrdə bu söz həm fiziki ölçünü, həm də mənəvi ali statusu ifadə edir. Məsələn, "*ulu hakan*", "*ulu fikir*" kimi ifadələrdə bu semantik sahə aydın hiss olunur [7, s.631].

Qazax, qırğız, başqırd və özbək kimi türk dillərində "ulu", bəzi hallarda isə "uluu" formasında işlənən bu söz qədim türk mənşəli leksik vahid kimi "böyük", "uca", "ali", "əzəmətli", "müqəddəs" semantikasını qoruyub saxlamışdır. Bu dillərdə sözün istifadəsi yalnız sadə miqdar və ölçü kateqoriyası ilə məhdudlaşmır; əksinə, ictimai status, mənəvi dəyər və ilahi başlanğıc anlayışlarının ifadəsi kimi funksiyaları da yerinə yetirir. Qazax və qırğız dillərində "uluu ata", "uluu türik", "uluu jurt" kimi birləşmələrdə söz, ağsaqqalların, qədim əcdadların və bütövlükdə xalqın ali obrazının verilməsi üçün işlədilir. Bu formalar əsasən Tanrı, ağsaqqal, yaşlı insan, müdrik rəhbər, əhəmiyyətli şəxsiyyət və təbii ucalıq kimi semantik kontekstlərdə möhkəmlənmişdir [8, s. 212–213]. Məsələn, qırğız dilində "uluu Too" ifadəsi sadəcə "böyük dağ" deyil, həm də sakrallaşdırılmış təbiət obyektinin semantik modelidir. Başqırd dilində isə "olu" variantı qorunub saxlanmaqla, eləcə də folklor və dualarda yüksək mənəvi dəyərin ifadəçisi kimi çıxış edir. Özbək dilində "uloğ" (variant: "ulug‘") formasında rast gəlinən bu söz

klassik ədəbiyyatda, xüsusən də Səfəvilər dönəminə aid mətnlərdə ali rütbə və əzəmət təyini olaraq işlənmişdir (məsələn: *Ulug‘ Sultan*, *Ulug‘ Beg*).

Digər tərəfdən, Çuvaş dili, türk dillərinin bulqar qoluna mənsub olmasına baxmayaraq, “ulu” kökünü “ulla” şəklində qoruyub saxlamış və bu formaya sakral və teonimik semantika yükləmişdir. Burada “ulla” yalnız ali dəyər və böyüklüyü deyil, bir çox hallarda birbaşa “Tanrı” mənasını ifadə edir. Beləliklə, sözügedən kök dini-ritual diskursda, xüsusilə dua və ayin mətnlərində leksik fossil kimi fəaliyyət göstərir, yəni artıq fəal söz yaradıcılığında iştirak etməsə də, mədəniyyətin dərin təbəqəsində simvolik arxetip funksiyasını qoruyur [2, s. 259]. Bu hal bizə göstərir ki, “ulu” sözü təkcə semantik genişliyə deyil, semiotik gücə də malikdir – yəni o, dildə mənanın özündən daha artıq olan — inam, dəyər, kollektiv hafizə və mifik başlanğıc kimi anlamlar qazanır. Bu kontekstdə söz artıq sırf leksik vahid deyil, konseptual ikon statusu alır: yəni bir dildə və mədəniyyətdə müqəddəsləşdirilmiş, arxetipləşmiş və dəyişməz dəyər yükü daşıyan mərkəzi ideyanın simvoluna çevrilir.

Beləliklə, həm “ulu”, “ulug‘”, “uluu”, “ulla”, həm də digər fonetik-leyksik variantlar eyni genetik kökün — qədim türk “ulu” morfeminin — müxtəlif struktural realizasiyalarıdır. Bu formaların fonetik variasiyası dilin fonologiyasının tələblərinə uyğun lokal adaptasiyalar olsa da, morfoloji quruluş (CVV tipi və son səsi uzadan komponent), semantik məzmun isə eynilə sabit qalmışdır. Sözlərin bu sabitliyi və müxtəlif türk dillərində eyni semantik sahədə işlənməsi onların ümumi protodildəki (Prototürk) arxetipik varlığını və genetik qohumluğunu sübut edir. Deməli, “ulu” kökü türk dillərində semantik təbəqələşmənin qədim qatını təmsil edir və bu baxımdan həm tarixi-etnolinqvistik, həm də kulturoloji-konseptual baxımdan mühüm tədqiqat obyekti sayılır.

Bəzi digər dillərdə isə fonetik və ya semantik uyğunluq daşıyan formalar müşahidə olunur, lakin bu paralellər genetik yox, əsasən təsadüfi və ya areal səviyyədə qiymətləndirilir. Məsələn, malaziya və indoneziya dillərində “uluh” sözü “Tanrı, ali varlıq” mənasında işlənir. Qədim malaziya dilində “ulu” həm də “baş, başlanğıc, yüksək hissə” kimi mənaları ifadə edir [5, s.327]. Bu sözlər fonetik baxımdan *ulu* ilə uyğun, semantik baxımdan isə böyüklük və müqəddəslik anlayışına yaxınlaşır, lakin etimoloji əlaqə sübut edilməmişdir.

Müqayisə üçün qeyd edək ki, sanskritdə “uru” (□□□) sözü “geniş, böyük, əzəmətli” mənalarında işlədilir və “*uru loka*” (geniş aləm) kimi birləşmələrdə rast gəlinir. Eyni zamanda, bəzi mənbələrdə “ul” və “uloka” sözləri “yuxarı aləm” mənasında təqdim olunur [4, s.206]. Fonetik uyğunluq tam olmasa da, bu formalarla “ulu” arasında metaforik semantik yaxınlıq mümkündür.

Koreya dilində rast gəlinən “ul” (을) formasındakı vahid funksional cəhətdən qrammatik marker olub, konkret olaraq təyini və təsiri halını bildirən şəkilçi kimi çıxış edir. Bu morfem, koreya dilinin iltisaqi strukturuna uyğun olaraq, isimlərdən sonra əlavə olunaraq həmin isimə obyekt statusu verir. Məsələn, *책을 읽다* (kitabı oxumaq) konstruksiyasında “책” (kitab) isminə “-ul” şəkilçisi artırılmaqla bu söz felə (oxumağa) yönəldilir. Bu cür strukturlar koreya dilində söz sırasına deyil, hal şəkilçilərinə əsaslanan sintaktik münasibətlər sistemini təmsil edir. Beləliklə, bu vahid leksik məna ifadə etmədiyi üçün, yalnız struktur səviyyəsində funksionaldır və müstəqil anlayış daşıyıcısı deyil [3, s. 88].

Fonetik baxımdan “ul” forması türk dillərindəki “ulu” kökü ilə səsləşsə də, bu səsləşmə etimoloji və semantik baxımdan tamamilə təsadüfidir. Burada biz yalnız səthi fonetik oxşarlıqdan bəhs edə bilərik, hansı ki, müxtəlif dil ailələrində məna baxımından əlaqəsi olmayan formaların təsadüfən səsləşməsi hallarında tez-tez rast gəlinir. Nə Koreya dilinin altay hipotetik dil ailəsinə mənsub olması (bu nəzəriyyə bu günə qədər tam sübut olunmayıb), nə də morfem səviyyəsində struktur uyğunluqlar bu iki söz arasında etimoloji və ya morfoloji paralelliyin olmasını əsaslandıra bilməz.

Əksinə, yapon dilində işlənən “uruwashii” (麗しい) sifəti çoxqatlı semantik çalarda işlənir və “gözəl”, “zərif”, “nəcib”, “uca”, “ahəngdar” kimi estetik və etik dəyərləri ifadə edir. Bu söz xüsusilə klassik və poetik üslubda, o cümlədən waka və tanka şeir formalarında istifadə olunur. “Uruwashii” sifəti yalnız zahiri gözəlliklə deyil, həm də daxili ucalıq, əxlaqi saflıq, harmoniya və səmimiyyət kimi anlayışlarla da assosiasiya olunur. Məsələn, *uruwashii kokoro* – “nəcib ürək”, *uruwashii hito* – “mərd, saf insan”, “uca şəxsiyyət” kimi ifadələrdə bu sifət mənəvi və sosial ali statusun poetik izahı kimi çıxış edir [6, s. 231].
Sözün struktur analizinə gəldikdə, “uruwashii” tərkibli bir sifətdir və “uru-” prefiksi burada əsas mənanı daşımasa da, səslənmə baxımından türk dillərindəki “ulu” kökü ilə müəyyən paralellər doğura bilər. Lakin bu uyğunluq fonetik səviyyədə məhdudlaşır; yəni “uru-” və “ulu” arasında mənşə, semantik funksiya və morfoloji çeviklik baxımından qəti bir əlaqə yoxdur. Yapon dili izolyasiyaedici və analitik sistemə malikdir və burada leksik vahidlərin morfematik tərkibi fərqli prinsiplərlə qurulur. Buna görə də, “uruwashii” və “ulu” arasında genealoji və ya etimoloji bağlılıqdan danışmaq elmi baxımdan əsassızdır.
Bununla belə, hər iki söz – yəni “ulu” (türk dillərində) və “uruwashii” (yapon dilində) – konseptual səviyyədə mənəvi ucalıq, etik ideallaşdırma, estetik dəyərin poetik ifadəsi kimi sahələrdə mədəni-funksional paralelliklərə malikdir. Hər iki halda bu sözlər kollektiv estetik və mifik şüurun formalaşdırdığı anlayışları ifadə edir. Bu tip uyğunluqlar dillərarası semantik rezonans kimi qiymətləndirilə bilər və areal təsir deyil, universal semantik tendensiyaların təzahürü hesab edilməlidir.
Koreya dilindəki “ul” forması struktur funksiyalı qrammatik vahid, yapon dilindəki “uruwashii” isə leksik və estetik mənaya malik poetik sifət olaraq “ulu” ilə yalnız səthi səsləşmə və ümumi konseptual oxşarlıq səviyyəsində əlaqələndirilə bilər. Hər iki uyğunluq təsadüfi fonetik yaxınlıq və mədəni paralelliyin nümunəsi olaraq maraq doğursa da, morfoloji və etimoloji baxımdan bu sözlər arasında birbaşa əlaqə və ya ümumi kök mövcud deyil.
“Ulu” sözü yalnız fiziki böyüklük və yüksəkliyin ifadəçisi deyil, həm də mifoloji, dini və ictimai ali statusun daşıyıcısıdır. Bu söz etnonimlərdə, toponimlərdə və mifoloji sistemlərdə “böyük başlanğıc”, “ali mənəviyyat” və “köklü yaddaş” anlamları ilə çıxış edir. Onun rituallarda, poetik dillərdə və gündəlik ifadələrdə işlənməsi kollektiv identiklik formalaşdırmasında da iştirak etdiyini göstərir.
Bu baxımdan “ulu” sözü lingvokulturoloji konsept kimi böyük Tanrı, müqəddəs ata, əcdadlar, əzm və nizam anlayışlarını birləşdirir və kollektiv yaddaşın mərkəzi semantik nüvəsi kimi çıxış edir.
Aparılmış müqayisəli-linqvistik və linqvokulturoloji analizlər göstərdi ki, “ulu” sözü türk dillərində genetik baxımdan sabit, semantik baxımdan isə çoxqatlı və simvolik yüklü bir vahiddir. Bu söz maddi və mənəvi böyüklük, sakral və ictimai ali status, başlanğıc və ilkinlik, Tanrı və əcdadlar kimi anlayışlarla assosiasiya olunur. O, etnolinqvistik arxetip olaraq yalnız türk dillərinin deyil, digər mədəniyyətlərin də konseptual təbəqəsi ilə areal və metaforik paralellər qurmağa imkan verir.
Bütün bu məlumatlar onu göstərir ki, “ulu” kökü türk dillərində həm fonetik baxımdan sabit, həm də semantik baxımdan ardıcıl şəkildə qorunaraq inkişaf etmiş nadir sözlərdən biridir. O, yalnız fiziki yüksəklik və böyüklük anlamı ilə məhdudlaşmır, eyni zamanda müqəddəslik, əzəmət, mənəvi ali status və mifik dəyər çalarları da daşıyır. Bu xüsusiyyətlər sayəsində “ulu” sözü həm rituallarda, həm poetik mətnlərdə, həm də gündəlik və yazılı diskursda mənalı şəkildə işlənmiş və zaman-zaman yeni leksik vahidlər formalaşdırmaq üçün baza funksiyası daşımışdır. Belə bir kökün müxtəlif türk dillərində, istər oğuz, istər qıpçaq, istər uyğur-qarluq dil qruplarında qorunması, onun ümumtürk semantik şüurundakı dərinliyini və tarixi yaşarlığını sübut edir.

Eyni zamanda, digər dillərlə olan təsadüfi və ya metaforik paralellər göstərir ki, “ulu” tipli köklər dilin yalnız daxili inkişafı ilə yox, həm də daha geniş semantik sistemlərlə, məsələn, “Tanrı”, “başlanğıc”, “müqəddəslik” və “böyüklük” kimi universal mənalarla da əlaqəlidir. Bu baxımdan “ulu” sözü yalnız bir leksik vahid kimi deyil, həm də dilin konseptual və mədəni təbəqəsini təmsil edən semantik arxetip kimi çıxış edir. Onun bir sıra digər dillərdə (malaziya, sanskrit, yapon və s.) məna və forma baxımından müəyyən yaxınlıqlarının mövcudluğu isə bu tip semantik nüvələrin mədəniyyətlərarası təmas zonalarında necə təşəkkül tapa biləcəyini göstərən maraqlı bir dil faktıdır.

Nəzərdən keçirilən dil faktları “ulu” sözünün dil və mədəniyyətin kəsişməsində duran konsept olduğunu, leksikadan dərin semantik sistemlərə keçid nöqtəsi kimi fəaliyyət göstərdiyini və ümumtürk mədəni şüurunun əsas simvollarından biri olduğunu təsdiqləyir.

İstifadə Edilmiş Ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə, IV cild. – Bakı: Şərq-Qərb, 2006.
2. Clauson, G. An Etymological Dictionary of Pre-Thirteenth-Century Turkish. – Oxford: Clarendon Press, 1972.
3. King, R. Korean Language in Culture and Society. – Honolulu: University of Hawaii Press, 2006.
4. Monier-Williams, M. A Sanskrit-English Dictionary. – Oxford: Clarendon Press, 1899.
5. Robson, S. Javanese-English Dictionary. – Singapore: Periplus Editions, 2002.
6. Shibatani, M. The Languages of Japan. – Cambridge: Cambridge University Press, 1990.
7. TDK Büyük Türkçe Sözlük. – Ankara: Türk Dil Kurumu, 2011.
8. Сулейманова, Р. Н. Асемантизация в турецких языках (по материалам произведений Юнуса Амре и Махмуда Кашгари) // Endless Light in Science. – 2023, № 2-2, с. 368-373.

THE PHENOMENON OF ENANTHIOSEMY IN LINGUISTICS: BASED ON THE LYRIC WORKS OF BAKHTIYAR VAHABZADE

DİLÇİLİKDƏ ENANTİOSEMİYA HADİSƏSİ: BƏXTİYAR VAHABZADƏNİN LİRİK ƏSƏRLƏRİ ƏSASINDA

Elnarə Gülağa qızı Niftəliyeva
ADPU. Filologiya üzrə fəlsəfə doktoru

Xülasə
Azərbaycan poeziyasının, dramaturgiyasının, elminin görkəmli nümayəndələrindən biri də xalq şairi Bəxtiyar Vahabzadədir. Ədəbi yaradıcılığını Azərbaycan ədəbiyyatında, ictimai fikir tariximizdə müstəsna rol oynayan B.Vahabzadə özündən sonra böyük bir irs qoymuşdur. Həm şair, həm alim, həm də ictimai xadim kimi Azərbaycan dövlətçiliyinin qurulmasına, inkişafına həsr etmişdir.
Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 100 ili tamam olur. Bəxtiyar Vahabzadə mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır. Onun Vətənə, millətə və doğma ana dilinə sonsuz məhəbbət ifadə edən, dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılamışdır. Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək, bir neçə nəslin milli təfəkküründə formalaşmasında müstəsna rol oynamışdır.
Açar sözlər: yaradıcılığ, ədəbiyyat, leksik, şair, görkəmli, dilçilik.

Abstract
One of the prominent representatives of Azerbaijani poetry, dramaturgy, and science is the people's poet Bakhtiyar Vahabzadeh. B. Vahabzadeh, whose literary work played an exceptional role in Azerbaijani literature and the history of our public opinion, left behind a great legacy. As a poet, scientist, and public figure, he dedicated himself to the establishment and development of Azerbaijani statehood. The phenomenon of enantiosemy can also be found in B. Vahabzadeh's work. The phenomenon of enantiosemy is a characteristic phenomenon that is consistent with the laws of internal development of our native language and arises from the logic of its development.
B. Vahabzadeh's dramatic works, which revive many events of our history, played a great role in the upbringing of the younger generation. His plays were successfully staged on the stages of theaters in Azerbaijan and abroad, bringing wide fame to the author. The scientific community has always met his works, which are the fruit of his searches in the field of studying our oral literary heritage, classical and modern Azerbaijani literature, with deep interest. The struggle for the purity, cleanliness and enrichment of the Azerbaijani language was one of the important directions of B. Vahabzadeh's work.
Keywords: creativity, literature, lexicon , poet, prominent, linguistics.

B.Vahabzadənin tariximizin bir çox hadisələrini canlandıran dram əsərlərinin gənc nəslin tərbiyəsində böyük rolu oynamışdır. Onun pyesləri Azərbaycan və eləcə də xarici ölkə teatrlarının səhnələrində uğurla tamaşaya qoymuş, müəllifinə geniş şöhrət gətirmişdir. Şifahi ədəbi irsimizin, klassik və müasir Azərbaycan ədəbiyyatının öyrənilməsi sahəsində axtarışlarının bəhrəsi olan əsərlərini elmi ictimaiyyət həmişə dərin maraqla qarşılayıb. Azərbaycan dilinin saflığı, təmizliyi və zənginləşməsi uğrunda mübarizə B.Vahabzadə yaradıcılığının mühüm istiqamətlərindən birini təşkil edir.

B.Vahabzadə yaradıcılığında dilçiliymizin leksikalogiya bölməsindən daha çox istifadə etmişdir. Bəxtiyar Vahabzadənin Seçilmiş əsərlərində enantiosemiya hadisəsinə də rast gəlmiş və məqaləni yazarkən nümunələrdən də istifadə etmişik.

Enantiosemiya ana dilimizin daxili inkişaf qanunlarına uyğun və onun inkişaf məntiqindən ortaya çıxan xarakterik bir hadisədir. Eyni səs tərkibinə malik olmaqla omonimliyə, müxtəlif, əks mənalar ifadə etməklə antonimlik kəsb edən bu dil hadisəsinin özünəməxsusluğu ilə öyrənilməsi müasir dilçiliyimiz üçün öndə olan məsələlərdəndir. "Azərbaycan dilçiliyində enantiosemiya leksik - semantik hadisə kimi hələ özünün geniş, hərtərəfli həllini tapmamışdır. Bu semantik hadisənin Kaşğarinin "Divan"ında əksini tapmış atalar sözləri və məsəllər əsasında da araşdırılması problemi , demək olar ki, heç kimin, heç bir türkoloqun təhlil obyektinə çevrilməməsi təəssüf hissi ilə qarşılanan cəhətlərdəndir. Enantiosemiya tarixi-linqvistik hadisə kimi ta qədim dövlərdən türkcələrdə fəaliyyət göstərir, qohum dillərin inkişaf və təkamül qanunauyğunluqlarından kənara çıxmır. Enantiosemiya dilin həm linqivistik, həm də psixolinqvistik cəhətləri ilə meydana çıxır və bu hadisə həm atalar sözləri və məsəllər mətnlərin üst strukturunda, həm də semantik qatında implikativ şəkildə fəaliyyət göstərir".

Müasir Azərbaycan ədəbi dili əsrimizin ən mürəkkəb hadisələrini, cəmiyyətin inkişaf qanunlarını əks etdirməyə, dərin elmi nəzəriyyələri ifadə etməyə qadir bir dildir. Hər bir dilin sürətlə inkişaf edən, dəyişən hissəsi lüğət tərkibidir. Müasir Azərbaycan ədəbi dili lüğət tərkibi baxımından zəngin dillərdən biridir. Dilimizin lüğət tərkibi həyat inkişaf etdikcə, xalqın mədəni səviyyəsi yüksəldikcə artır, çoxalır və eyni zamanda zənginləşir. B.Vahabzadə ədəbiyyatımızda olduğu kimi ictimai fikrimizdə, elmimizdə də yüksək zirvəni fəth etmişdir.

Eyni səs tərkibli, əks mənalı modal sözü mənaca müəyyən qrupa daxil etmək də olur. "Yəqin" modal sözü Modal sözün mənaca güman, ehtimal, şübhə bildirən növünə aid olan eyni səs tərkibli, əks mənalı "yəqin" sözü ismi modal sözdür və yalnız modal söz kimi işlənir. Bu sözün iki mənası əkslik yaradır: şəksiz, şübhəsiz, inamla və əksinə, ehtimal, ola bilsin, görünür. İzahlı lüğətdə bu əks mənalar və onların işləndiyi cümlələr aşağıdakı qaydada təqdim olunur:

Şəksiz, şübhəsiz, səhih, inamla.

Yəqin demək olar ki, ramazan Yayın bürküsündə,

(Bəxtiyar Vahabzadənin. Seçilmiş əsərləri İki cilddə, I c.)

qışın qarında Hamının qisməti bir olmur yəqin ,

Hər sabah danışır radio havadan:

Sabah az buludlu, biri gün yağış (Bəxtiyar Vahabzadənin. Seçilmiş əsərləri İki cilddə, I c.)

Sözdüzəldici lıq, -lik, -luq, -lük şəkilçisi vasitəsilə yaranıb enantiosemiya ifadə edən sözlərdən biri "yaman" sözüdür. Nitq hissəsinə görə sifət olan eyni səs tərkibli "yaman" sözünə "lıq" şəkilçisi artırılaraq keyfiyyət bildirən düzəltmə isim yaranır. İzahlı lüğətdə sözün iki mənası verilir: yaxşı və pis kimi əks mənaları ifadə edən mənalarda işlənir:

Dünən bir, bu gün iki, gəldin-gəlmədin uşaqcığımı çıxartdın, qoydun avara. Sənə nə yamanlıq etmişdi?

Kərim öz dostuna, məsləkdaşına Yaxşılıq istədi, yamanlıq oldu .

(Bəxtiyar Vahabzadənin. Seçilmiş əsərləri İki cilddə, II c.)

B.Vahabzadənin elmi yaradıcılığın daha çox onun Bakı Dövlət Universitetindəki pedaqoji fəaliyyətilə bağlı olmuşdur.

Azərbaycan ədəbiyyatının görkəmli şairi, dahi B.Vahabzadə yaradıcılığında vətən, ana, bütöv Azərbaycan mövzusu oxucuların diqqətini özünə cəlb edir. Ədəbiyyat, ictimai fikir tariximizin yaddaşında böyük azərbaycançılardan biri kimi qalan B.Vahabzadə azərbaycançılığın ən qüdrətli nümayəndələrindən biri olaraq xatırlanacaq. Onun yaratdığı külliyyat azərbaycançılıq məfkurəsinə ən dəyərli töhfədir. Azərbaycan ədəbiyyatında, ictimai fikir tariximizdə müstəsna rol oynayan B.Vahabzadə özündən sonra böyük bir irs qoyub. Həm şair, həm alim, həm də ictimai xadim kimi Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin inkişafına bənzərsiz xidmətləri olmuşdur.

İstifadə Edilmiş Ədəbiyyat Siyahısı

1. Mahirə Nağı qızı Hüseynova . Mahmud Kaşğarinin “Divani lüğət-it-türk” əsərinin qrammatik xüsusiyyətləri Bakı: ADPU, – 2022. – 275 s
2 . Həsənov, H.Ə. Müasir Azərbaycan dilinin leksikası. – Bakı: Maarif, – 1987. – 308 səh.
3. Vahabzadə, B. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Öndər, – 2004. – 328 s.
4. Vahabzadə, B. Seçilmiş əsərləri . İki cilddə, II c. – Bakı: Öndər, – 2004. s 320
5. Qurbanov, A.M. Müasir Azərbaycan ədəbi dili. I c. Bakı: Nurlan 2003. 45 səh
6. Одилов, Ё.Р. Соотношение энантиосемии с омонимией, антонимией и полисемией // Актуальные вопросы филологической науки XXI века: сборник статей по материалам III Всероссийской научной конференции молодых ученых с международным участием. – Екатеринбург: УРФУ, – 2013. – Ч. 1. – с. 18-23.

THE IDEA OF INDEPENDENCE AND INDEPENDENCE IN THE CREATIVE WORK OF BAHKTIAR VAHABZADE

ИДЕЯ НЕЗАВИСИМОСТИ И САМОСТОЯТЕЛЬНОСТИ В ТВОРЧЕСТВЕ БАХТИЯРА ВАГАБЗАДЕ

BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA MÜSTƏQİLLİK VƏ İSTİQLAL İDEYASI

Tofiq İsgəndərov
ADPU Cəlilabad filialı, baş müəllim

Xülasə
Bəxtiyar Vahabzadə 1960-cı illərdən Azərbaycanda başlayan milli azadlıq hərəkatının qabaqcıllarından biridir. 1959-cu ildə "Gülüstan" poemasını yazmaqla iki siyasi rejim arasında bölünmüş Azərbaycanın tarixi faciəsini dilə gətirərək, rus və fars imperiyalarının müstəmləkəçilik siyasətini ifşa etmişdir. Azərbaycan xalqının milli azadlıq və istiqlal uğrundakı ədalətli mübarizəsinə "qələmini süngüyə çevirərək" "müsəlləh əsgər" kimi xidmət etmişdir. Sovet siyasi rejimində milli varlığı tapdanan, hər cür əzab və məhrumiyyətlərə məruz qalan millətin dərdlərini müxtəlif ədəbi üsullarla ifadə etmiş,hadisələri başqa tarixə və ya başqa ölkələrə keçirməklə öz millətinin dərdlərini dilə gətirmişdir.Birbaşa Sovet diktaturasını ifşa edən əsərlərini isə sovet siyasi rejimi dağılandan (1991) sonra "Sandıqdan səslər"adı ilə nəşr etdirmişdir. Həm monoqrafiya, həm də dərsliklərdə XX yüzilliyin poeziya problemlərinə həsr olunan tədqiqatlarda Bəxtiyar Vahabzadə yaradıcılığı həmişə bu və ya digər dərəcədə araşdırılaraq öyrənilmişdir. Müasir Azərbaycan şairlərinin həyat və yaradıcılıq yoluna həsr olunmuş monoqrafik tədqiqatlarda yeri gəldikcə istiqlal probleminə də münasibət öz əksini tapmışdır.
Açar sözlər: Bəxtiyar Vahabzadə yaradıcılığı, milli müstəqillik, istiqlal ideyası, ana dili, "Gülüstan"poeması, "Şəhidlər"poeması

Abstract
Bakhtiyar Vahabzadeh was one of the pioneers of the national liberation movement that began in Azerbaijan in the 1960s. By writing the poem "Gulustan" in 1959, he voiced the historical tragedy of Azerbaijan, divided between two political regimes, and exposed the colonial policies of the Russian and Persian empires. He served the Azerbaijani people's just struggle for national freedom and independence by "turning his pen into a bayonet" and acting like an "armed soldier." Under the Soviet political regime, when national identity was suppressed and the nation was subjected to various sufferings and deprivations, he expressed the people's pain through different literary techniques, often transferring the events to another historical period or another country to reflect his own nation's sorrows. His works that directly exposed Soviet dictatorship were published after the collapse of the Soviet regime (in 1991) under the title "Voices from the Chest." In both monographs and textbooks devoted to the problems of 20th-century poetry, Bakhtiyar Vahabzadeh's literary work has consistently been studied and analyzed. In monographic studies dedicated to the life and creativity of modern Azerbaijani poets, references to the issue of independence have also found their place.
Keywords: Bakhtiyar Vahabzadeh's works, national independence, the idea of sovereignty, native language, "Gulustan" poem, "Shehids" poem.

Резюме
Бахтияр Вахабзаде был одним из пионеров национально-освободительного движения, начавшегося в Азербайджане с 1960-х годов. В 1959 году, написав поэму «Гюлистан», он выразил историческую трагедию разделённого между двумя политическими режимами Азербайджана, разоблачая колониальную политику русской и персидской империй. Служил справедливой борьбе азербайджанского народа за национальную свободу и независимость, «превратив своё перо в штык» и выступая как «вооружённый солдат». В условиях советского политического режима, когда национальное самосознание подвергалось подавлению и народ страдал от различных мучений и лишений, он выразил боль нации различными литературными приёмами, перенося события в другую историю или в другие страны. Произведения, напрямую разоблачающие советскую диктатуру, были опубликованы после распада советского режима (в 1991 году) под названием «Голоса из сундука». В монографиях и учебниках, посвящённых поэтическим проблемам XX века, творчество Бахтияра Вахабзаде всегда в той или иной мере изучалось и анализировалось. В монографических исследованиях, посвящённых жизни и творчеству современных азербайджанских поэтов, также нашли отражение взгляды на проблему независимости.
Ключевые слова: творчество Бахтияра Вахабзаде, национальная независимость, идея суверенитета, родной язык, поэма «Гюлистан», поэма «Шехидлер».

Giriş

Azərbaycan ədəbiyyatının son yüz ildə yaşayıb- yaradan parlaq simalarından və böyük klassiklərindən biri olan Bəxtiyar Vahabzadə XX əsr poeziyasına təkcə lirikası və bədii-estetik dəyərləri ilə deyil, həm də vətənpərvərlik və istiqlal ideyalarının carçısı kimi daxil olmuşdur. Onun zəngin irsində xalqının tarixi taleyi, azadlıq mübarizəsi, milli kimlik və istiqlal uğrunda mücadilə əsas mövzulardan birini təşkil edir.Ona görə də şeirlərində vətən, millət, ailə, təbiət,dil, azadlıq həsrəti kimi mövzuları ən güclü və dərin məzmunu ilə izah etmişdir.Əsərlərində ifadə olunan poetik fikirlər Bəxtiyar Vahabzadə düşüncələrinin ictimai – siyasi dünyagörüşünü, onun vətənpərvərliyini, tarixlə müasirliyi necə əlaqələndirdiyini göstərir.

Tədqiqat

Bəxtiyar Vahabzadə Sovet rejiminin hökm sürdüyü, milli özünüdərkin və ifadə azadlığının qadağan edildiyi bir dövrdə yaşayıb-yaratmışdır. Bu elə bir zaman idi ki, milli ideyaların açıq şəkildə ifadəsi çox ciddi senzura rejiminin təqibləri ilə üzləşir, repressiyalarla müşayiət olunurdu. Amansız cəza tədbirləri və məhdudiyyətlərə baxmayaraq, poeziyada milli ruhun yaşadılmasına və gələcək müstəqillik arzularının ifadəsinə cəsarətlə başladı.Bəxtiyar Vahabzadənin poetik təfəkkür mədəniyyəti təbiətinə görə millidir. Eyni zamanda çox üstün mahiyyət daşıyaraq daha zəngin bir mənəviyyat sərgiləyir.Bu məqamda millilik və beynəlmiləlçilik vəhdət yaradaraq ümumbəşəri səviyyəyə qalxır. Dünyəvi əhəmiyyət qazanaraq mütərəqqiliyini və bədiiliyini müstəsna dərəcədə təmin edir.
1959-cu ildə yazılmış “Gülüstan” poeması Bəxtiyar Vahabzadənin yaradıcılığında və bütövlükdə Azərbaycan ədəbiyyatında dönüş nöqtəsidir. Bu əsərdə şair 1813-cü il Gülüstan sülhü və 1828-ci ildə Türkmənçay müqaviləsi nəticəsində Azərbaycanın iki yerə bölünməsini tənqid edir və xalqın taleyindəki bu ayrılığı böyük milli faciə kimi qiymətləndirir:

"Gülüstan" – bir vətənin iki yerə bölünməsidir,
Bir canın ortadan ayrılmasıdır..."

Bu əsər təkcə bədii nümunə deyil, həm də milli yaddaşın oyadılması, tarixi ədalətsizliyin xatırladılması baxımından əhəmiyyətlidir. Poema uzun müddət qadağan olunmuş, lakin xalq arasında gizli şəkildə yayılmış və milli şüurun oyanmasında mühüm rol oynamışdır.20-30 il ərzində rejimdən gizli şəkildə xalq arasında əldən - ələ gəzərək yayılmışdır.

Şair milli kimliyi və mədəni dəyərləri millətin varlığının əsas sütunu kimi təqdim edir. "Ana dili" şeirində dilin sadəcə ünsiyyət vasitəsi deyil, həm də milli ruhun təcəssümü olduğu fikrini aşılayır:

Ana dili – millətimin canıdır,
Ana dili – ruhumun dərmanıdır.

Şeirin başlanğıcında, dilimizin ana dili adlanmasının ictimai məzmununu bədii şəkildə ifadə edərək yazırdı:

Dil açanda ana söyləyirik biz
Ana dili adlanır bizim ilk dərsliyimiz.

Bu misralarda dilimizin və dərsliyimizin ana dili adlandırılmasının ictimai-siyasi mənzərəsi bədii gerçəklikdə öz əksini tapır.Bizə bəxş olunan bütün mənəvi zənginliklərin mərkəzində məhz bunun dayandığını göstərir.

Bəxtiyar Vahabzadə Azərbaycan poeziyası tarixində özünəməxsus yeri və mövqeyi ilə seçilən qüdrətli qələm sahiblərindən biridir. Müasir ədəbi prosesin yenidən araşdırılaraq tədqiqata cəlb olunması

B.Vahabzadənin yaradıcılığında lirizm və vətəndaşlıq mövqeyi daim bir – birini tamamlayaraq bir vəhdət yaradır. Əsərlərində ifadə olunan yüksək poetik fikirlər Bəxtiyar Vahabzadə düşüncəsinin ictimai –siyasi dünyagörüşündən xəbər verir.

Ədibin zəngin və rəngarəng poetik dünyasında yurdsevərlik, milli azadlıq, istiqlal mücadiləsi, əxlaqi dəyərlərə hörmət,milli adət-ənənələrimizə ehtiram və s. Həmişə önəmli və diqqət çəkən məsələlərdir. Bu cəhət müəllifin şeir və poemalarında daha aşkar şəkildə özünü büruzə verir.Müxtəlif zamanlarda və müxtəlif ictimai- siyasi vəziyyətlərdə onun lirikası mənəvi dünyamızı sadəcə təsvir və tərif etmir, həm də birbaşa onun tərənnümçüsünə çevrilir.Bu baxımdan araşdırılmasına ehtiyac olan vacib məsələlərdən biri Azərbaycan poeziyasında və xüsusən B. Vahabzadə yaradıcılığında milli istiqlal ideyasının təcəssümünü öyrənməkdir.

Şairin əsərlərinin milli təfəkkür işığında, millilik və beynəlmiləlçilik münasibətlərinin vəhdətində təhlilə cəlb olunması bir çox məqamların üzə çıxarılmasına imkan vermişdir. Həmçinin Bəxtiyar Vahabzadə yaradıcılığının öyrənilməsi müasir Azərbaycan poeziyasının bütöv və dolğun mənzərəsini yaratmaq baxımından da aktuallıq kəsb edir.

Bəxtiyar Vahabzadə yaradıcılığı Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Aşıq Ələsgər, Hüseyn Cavid, Əhməd Cavad, Almas İldırım, Mikayıl Müşfiq, Səməd Vurğun və başqa Azərbaycan şairlərinin ədəbi ənənələrini özündə əks etdirir.Onun əsərlərində ana dilimizə hədsiz sevgi, vətənpərvərlik, milli adət- ənənələrimizə böyük məhəbbət hissi daim Azərbaycan ədəbi tənqidinin diqqət mərkəzində olmuşdur.

Bəxtiyar Vahabzadənin yaradıcılığında milli azadlıq hərəkatı və istiqlal mücadiləsi, vətənsevərlik və vətəndaşliq hisslərinin, əsərlərində millilik və beynəlmiləlçilik münasibətlərinin vəhdəti haqqında ədəbiyyatşünas alimlər Yaşar Qarayev, Bəkir Nəbiyev, Şamil Salmanov, Cəlal Abdullayev, Yavuz Axundlu, İfrat Əliyeva, Himalay Ənvəroğlu, Nizami Cəfərov, Mail Dəmirli, Həsən Həsənov, Asifə Telmanqızı, Fatimat Məmmədova və başqa müəlliflər ,dəyərli fikir və mülahizələr söyləmişlər.

Prof.Yaşar Qarayevin f.e.d. Şamil Salmanovla birgə qələmə aldığı «Poeziyanın kamilliyi» (1985) adlı monoqrafik tədqiqatda Bəxtiyar Vahabzadənin istiqlal probleminə həsr olunmuş şeirlərindən də bəhs edilmişdir.

Dili xalqın mənəvi dünyası, milli xüsusiyyətləri kimi dəyərləndirən Bəxtiyar Vahabzadə "Ana dili", "Oğluma", "Latın dili", "Mənim ana dilim", "Fəxriyyə", "Özgə", "Mənim anam", "Hara gedir sabahımız" və bir çox başqa şeirlərində ana dilinin milli-mənəvi düşüncənin formalaşmasındakı yeri və əhəmiyyəti haqqında danışır, eyni zamanda doğma dilə xor baxanları və biganə münasibət bəsləyənləri satirik bir tərzdə tənqid edir.

Bəxtiyar Vahabzadə «Ana dili» (1954) adlı şeirində hər bir xalqın, millətin taleyində doğma dilin son dərəcə mühüm əhəmiyyət daşıdığına diqqət yönəldərək, bununla bağlı poetik düşüncələrini qələmə almışdır:

Bu dil əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiztək
Qoruyub, nəsillərə biz də hədiyyə verək.

Yaradıcılığının ilk dövrünün məhsulu olan bu şeirdə müəllif ana dilini «millətin ruhu, eşqi, canı» kimi dəyərləndirir, onun "babaların əqlin dən, kamalından" süzülüb gəldiyini, "xalqın ilk nəfəsindən" yarandığını qeyd edir. Şair, həmçinin ana dilini "əcdadımızın bizə qoyub getdiyi" "ən qiymətli miras", sərvət, xəzinə hesab edir. Biz insanların ən böyük vəzifəsini isə bu dili göz bəbəyi kimi qoruyub gələcək "nəsillərə hədiyyə" verməkdə görür.

Bəxtiyar Vahabzadə ana dilinin əhəmiyyətini, milli düşüncənin formalaşmasında böyük əhəmiyyətə malik olduğunu ayrı-ayrı şeirlərində dönə-dönə canlandırmışdır. Şairin qənaətincə, hər bir millətin varlığı, mövcudluğu ana dilinin qorunması ilə bağlıdır. Bəxtiyar Vahabzadənin Azərbaycanın Güneyində əsarət həyatı yaşayan soydaşlarımızın dil probleminə həsr olunmuş yazıları onun problemə daha geniş müstəvidə yanaşdığını, ana dilini milli istiqlal probleminin tərkib hissəsi kimi dərk etməsini şərtləndirir.

Mütəfəkkir şair ikiyə parçalanmış Azərbaycan türklərinin İran-fars müstəmləkəçilik rejiminin basqıları altında ana dilində oxuyub-yazmaqdan məhrum edilməsinə dözə bilmir və bu haqsızlığa qarşı etiraz səsini ucaldır. Ana dilinə bu qədər böyük dəyər verməsi B.Vahabzadənin bir vətəndaş olaraq öz xalqının taleyinə həssas münasibətinin göstəricisidir.

Bəxtiyar Vahabzadənin yaradıcılığında dövrlə, mühitlə, zamanla barışmazlıq duyğusu olduqca qabarıqdır.Eyni səciyyəvi cəhət onun müxtəlif mövzularda yazdığı əsərlərdə bu və ya digər formada özünü büruzə verir. Zamanla, mühitlə müxalifətdə olan şairin ən böyük müxalifliyi elə özü ilədir. Bu nöqteyi- nəzərdən "bircə ondan razıyam ki, özümdən narazıyam" ifadəsi nə qədər mükəmməl səslənir.Çox lakonik, lakin böyük bir sənətkar yaradıcılığının bədii mündəricəsinin təcəssümüdür.

Sovet rejimi dövründə birbaşa milli istiqlal ideyalarının açıq formada səsləndirilməsi qadağan idi. Bəxtiyar Vahabzadə bu ideyaları simvolik obrazlar, rəmzi ifadələr, tarixə və folklora istinadlar vasitəsilə ifadə edirdi. Onun "Vicdan", "Latın dili", "İnsan və zaman" və sair kimi əsərlərində bu dolaylı ifadə üsulları diqqət çəkir. Belə poetik üsullar vasitəsilə o, senzuranın diqqətindən yayınır və rejimi ötüb keçərək cəmiyyətdə mövqe qazanır, ictimai şüura təsir edə bilirdi.

Azərbaycan müstəqillik qazandıqdan sonraki dövrdə də Bəxtiyar Vahabzadənin yaradıcılığı hər tərəfli şəkildə özünün siyasi ictimai məzmunu və bunun bədii gerçəklikdə təcəssümü fonunda araşdırılır və öyrənilirdi. Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra Bəxtiyar Vahabzadənin milli istiqlal ideyaları artıq rəsmi və ictimai səviyyədə daha açıq şəkildə qiymətləndirilməyə başlandı. Onun sovet dövründə səsləndirdiyi fikirlər reallığa çevrildi və bu gün onun irsi milli ideologiyanın bünövrə daşlarından biri hesab olunur.

Nəticə

Bəxtiyar Vahabzadə təkcə şair deyil, həm də xalq tribunu, ictimai xadim, millət vəkili kimi fəaliyyət göstərmişdir. O, milli mənafeyin qorunması yolunda müxtəlif platformalarda öz sözünü deyərək qətiyyətli mövqeyi və cəsarəti ilə xalqın səsinə çevrilmişdir. Qətiyyət və cəsarəti hər zaman ona Azərbaycan xalqının mənəvi liderlərindən biri kimi şöhrət qazandırmışdır.

Bəxtiyar Vahabzadə irsi milli istiqlal ideyasının ədəbiyyatda necə canlı, dərin və təsirli formada təqdim oluna biləcəyinin ən parlaq nümunəsidir. Onun yaradıcılığı milli şüurun formalaşmasına, xalqın azadlıq arzularının ifadəsinə, milli müstəqillik və azərbaycançılıq ideologiyasının inkişafına böyük töhfə vermişdir. Misirin ədəbiyyatşünas alimi Əhməd Sami Elaydı Bəxtiyar Vahabzadənin yaradıcılığı timsalında "Azərbaycan istiqlal poeziyası"monoqrafiyasını tərcümə edərək bütün ərəb dünyasında tanıtmışdır. Yaradıcılığı həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda yüksək səviyyədə qiymətləndirilmişdir.

Ədəbiyyat

1.Aida Mirzəyeva. Azərbaycan istiqlal poeziyası: Bəxtiyar Vahabzadənin yaradıcılığı fonunda.Nurlar.2020
2.Aida Ramiz qızı Mirzəyeva .Bəxtiyar Vahabzadə Poeziyasında İstiqlal ideyası.Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın .Avtoreferatı .Bakı – 2017
3.B.Vahabzadə poeziyasında Güney Azərbaycan problemi .Bakı Universitetinin xəbərləri.Bakı Universiteti nəşriyyatı, 2010
4.B.Vahabzadənin poetik dünyasında milli istiqlal problemi.Berçeste, edebiyyat dergisi.2011
5.Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı, "Öndər nəşriyyat", 2004.
6.Əlizadə Əsgərli.Bəxtiyar Vahabzadə: həyatı, mühiti və yaradıcılığı.Elm və Təhsil Nəşriyyatı.2022
7.Şamil Salmanov.Böyük yaradıcılıq yolu: Seçilmiş məqalə və müsahibələr.Avropa.2020
8.Ziyadxan Nəbibəyli.Bəxtiyar Vahabzadənin milli-mənəvi portreti.Ecoprint.2022

INNOVATIVE PEDAGOGICAL APPROACHES IN MODERN GEOGRAPHY TEACHING

MÜASİR COĞRAFİYA TƏLİMİNDƏ İNNOVATİV PEDAQOJİ YANAŞMALAR

Yaqut Qasımova Qulu qızı
Baş müəllim ADPU-nun Şamaxı filialı

Xülasə
Müasir təhsil sistemində fəal və innovativ təlim metodlarının tətbiqi şagirdlərin dərsi daha yaxşı mənimsəməsi və təhsil prosesində iştirakını artırmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Coğrafiya fənnində də bu yanaşmaların tətbiqi, xüsusilə müasir pedaqoji texnologiyaların və interaktiv metodların istifadəsi, təlim prosesini daha effektiv və cəlbedici edir. Coğrafiyada təlim metodları şagirdlərin nəzəri bilikləri ilə yanaşı, praktiki bacarıqlarının formalaşdırılmasına da xidmət edir ki, bu da fənnin xüsusiyyətlərinə uyğun gəlir.
İnnovativ pedaqoji yanaşmalar çərçivəsində coğrafiya dərslərində əməkdaşlıq əsaslı, qrup işləri, problem həll etmə və layihə əsaslı təlim metodları geniş tətbiq olunur. Bu metodlar şagirdlərin qarşılıqlı ünsiyyətini gücləndirir, onların tənqidi və yaradıcı düşünmə qabiliyyətlərini inkişaf etdirir, həmçinin coğrafi biliklərin real həyatla əlaqəsini göstərərək marağı artırır. Məsələn, xəritə işləmə, statistik məlumatların təhlili və ətraf mühitin müşahidəsi kimi fəaliyyətlər qrup şəklində icra olunaraq, şagirdlərin fəal iştirakını təmin edir.
Açar sözlər: İnnovativ təlim, coğrafiya dərsi, pedaqoji texnologiyalar, interaktiv metodlar, müasir təhsil, şagirdyönümlü təlim

Abstract
In the modern education system, the application of active and innovative teaching methods is of great importance in terms of better mastering the lesson and increasing the participation of students in the educational process. The application of these approaches in geography, especially the use of modern pedagogical technologies and interactive methods, makes the learning process more effective and attractive. Teaching methods in geography serve to form students' practical skills in addition to theoretical knowledge, which is consistent with the characteristics of the subject.
Within the framework of innovative pedagogical approaches, cooperative, group work, problem-solving and project-based teaching methods are widely used in geography lessons. These methods strengthen students' mutual communication, develop their critical and creative thinking abilities, and also increase interest by showing the connection of geographical knowledge with real life. For example, activities such as map making, statistical data analysis and environmental observation are carried out in groups, ensuring the active participation of students.
Keywords: Innovative learning, geography lesson, pedagogical technologies, interactive methods, modern education, student-centered learning

Giriş

Müasir dövrdə təhsil sisteminin qarşısında duran əsas vəzifələrdən biri öyrənməni daha səmərəli, interaktiv və şagirdyönümlü şəkildə təşkil etməkdir. Elmi-texniki tərəqqi, informasiya cəmiyyətinə keçid və qlobal çağırışlar təhsil yanaşmalarında da köklü dəyişiklikləri zəruri edir. Bu baxımdan, coğrafiya fənni — yalnız təbii-coğrafi biliklərin ötürülməsi ilə kifayətlənməyib, həm də şagirdlərdə tədqiqat bacarıqları, analitik düşüncə və qərarvermə qabiliyyəti formalaşdıran mühüm bir təlim sahəsinə çevrilmişdir. İnnovativ

pedaqoji yanaşmaların tətbiqi isə bu məqsədlərə çatmaq üçün effektiv vasitə rolunu oynayır. Bu metodlar coğrafiyanın tədrisini sadə informasiya ötürülməsindən çıxarıb, şagirdin fəal iştirak etdiyi, öyrəndiyini real həyatla əlaqələndirə bildiyi bir öyrənmə modelinə çevirir. Beləliklə, müasir coğrafiya təlimində innovativ pedaqoji yanaşmaların rolu, əhəmiyyəti və tətbiq mexanizmlərinin öyrənilməsi aktual elmi-pedaqoji məsələlərdəndir.

Müasir dövrdə coğrafiyanın tədris metodologiyası sürətlə inkişaf edir. Əsas məqsəd yalnız nəzəri biliklərin ötürülməsi deyil, həm də şagirdlərdə tədqiqat, analiz və qərar qəbul etmək bacarıqlarını formalaşdırmaqdır. Müasir yanaşmalar şagirdlərin tədqiqat aparma, problemləri həll etmə və məlumatları analiz etmə bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir. Müasir tədris metodlarının və yanaşmalarının tətbiqi, coğrafiya tədrisinin daha effektiv olmasına kömək edir. Məsələn, coğrafiya dərslərində müasir texnologiyaların istifadəsi, şagirdlərə coğrafi məlumat sistemləri (CİS), interaktiv xəritələr, Google Earth kimi alətlərlə coğrafiya mövzularını daha yaxşı mənimsəməyə imkan verir. Bu texnologiyalar şagirdlərin mövzuları əyani şəkildə görməsini təmin edir və onları daha dərindən anlamalarına kömək edir.

Yeni təlim üsullarının tətbiqi müəllimdən çeviklik, böyük ustalıq, işə yaradıcı yanaşma, yüksək işgüzarlıq tələb edir. Müxtəlif təlim metodları arasında interaktiv təlim metodu daha səmərəlidir. Bu termin dialoq, qar-şılıqlı əlaqədə, fəaliyyətdə olmaq, daxili fəallıq kimi izah olunur. Pedaqoji üsul kimi interaktivlik müəllimin iştirakı ilə şagirdlərin müxtəlif informasiya mənbələrinə (internet, dərslik, xəritə, illüstrasiya materialları, cədvəllər, video, kino, foto) və ya ünsiyyət prosesində yeni biliklərin əldə olunmasına imkan verən bütün təlim üsullarının məcmusundan ibarətdir. Burada şagird daha fəal, müəllim isə istiqamətverici olur. İnteraktiv təlim metodları və üsullarının tətbiqi tədris prosesini xeyli intensivləşdirir, onu hər bir şagird üçün daha əhəmiyyətli və maraqlı fəaliyyət sahəsinə çevirir, dərsdə, məşğələdə fəallığın maksimum artmasına zəmin yaradır, bununla da təlimin inkişafetdirici aspektini nəzərə çarpacaq dərəcədə gücləndirir. İnteraktiv təlim metodlarının tətbiqi şagirdlərdə müstəqil düşünmək, sərbəst rəy söyləmək, hər hansı problem barədə başqasının fikrinə münasibət bildirmək, fərqli nöqteyi-nəzəri təsdiq, yaxud inkar etmək, çoxluğun qərarını qəbul etmək, yaxud öz qərarının üstündə durmaq və s. xüsusiyyətlərin formalaşmasına bilavasitə kömək göstərməklə təfəkkürün tənqidiliyi, müstəqilliyi və çevikliyinə zəmin yaradır. İnteraktiv təlim metodları üçün aşağıdakılar səciyyəvidir: şagirdin aktiv fəaliyyəti; müəllimin şagirdlə və şagirdlərin bir-biri ilə əməkdaşlığı; didaktik oyunlardan istifadə olunması; şagirdlərin sinifdə qeyri-ənənəvi yerləşdirilməsi.

İnteraktiv təlim metodu şagirdlərə nə verir: Müstəqil düşünməyi; sərbəst rəy söyləməyi, şəxsiyyəti qiymətləndirməyi əməkdaşlıq etməyi (başqaları ilə işləməyi bacarmaq, ümumi məqsədə çatmaq üçün işin bölüşdürülməsi); başqalarını dinləməyi; başqa fikirlərə qarşı dözümlü olmağı, öz fikirlərini arqumentlərlə dəqiq izah etməyi, tənqidi təfəkkürü; kompromis variantın tapılmasını; natiqlik qabiliyyətini inkişaf etdirməyi. (Eldarov, N. Ş. (2008))

Coğrafiya insanlıq tarixi qədər qədim olan bir elmdir. Yerin müxtəlif ərazilərinin təbii şəraiti və təsərrüfatı haqqında insanların konkret biliklərə olan praktik tələbatı hələ uzaq keçmişdə coğrafiyanın meydana gəlməsinə səbəb olmuşdur. Hər bir xalq öz ölkəsi, həmçinin başqa ölkələr haqqında ən zəruri faktiki biliklərə yiyələnməyə can atırdı. Ölkəmizdə təhsilin keyfiyyətinin yüksəldilməsi, onun inkişafı istiqamətində əhəmiyyətli dərəcədə işlər görülür. Qabaqcıl dünya ölkələrinin innovativ metodları öyrənilir, onun əsasında yeni proqramlar formalaşır.

Azərbaycanda coğrafiyanın tədrisi vəzifələrindən biri də şagird dünyagörüşündə dialoqa girmək, ünsiyyətdə olmaq və s. fəaliyyət növləri əsas götürülür. Bu prinsip şagirdlərin bir-biri ilə və geniş mənada ölkəmizin digər ölkələrlə qarşılıqlı münasibətləri yaratmağa istiqamətləndirir, müasir təhsil konsepsiyasını, inkişafetdirici və tərbiyələndirici təlim prinsiplərinin tələblərini yerinə yetirməyə imkan verir. Yeni strategiyaların tətbiqi öyrətmə və

öyrənmə arasında dairəvi sistem yaradır, şagirdlər informasiya əldə edirlər, müəllimin dəstəyi ilə əldə etdiklərini nümayiş etdirir, nəticəyə gəlir və yenidən informasiya ötürürlər.
Tədris prosesində müxtəlif metodlardan istifadə olunur. İnnovativ təlim metodları – mürəkkəb didaktik kateqoriyadır. Coğrafiyanın tədrisində tətbiq olunan hər hansı metod şagirdlərin idrakı fəaliyyətin müxtəlif növlərini aktivləşdirir. Metod– qarşıya qoyulan məqsədə çatmaq üçün istifadə olunan üsulların məcmusudur. İnnovativ metodların məqsədi müasir dövrdə dəyişmiş və öyrənməyi öyrətmək prinsipinə istiqamətlənmişdir.
Müasir dövrdə coğrafiyanın tədris metodologiyası sürətlə inkişaf edir. Əsas məqsəd yalnız nəzəri biliklərin ötürülməsi deyil, həm də şagirdlərdə tədqiqat, analiz və qərar qəbul etmək bacarıqlarını formalaşdırmaqdır. Müasir yanaşmalar şagirdlərin tədqiqat aparma, problemləri həll etmə və məlumatları analiz etmə bacarıqlarını inkişaf etdirməyə yönəlmişdir. Müasir tədris metodlarının və yanaşmalarının tətbiqi, coğrafiya tədrisinin daha effektiv olmasına kömək edir. Məsələn, coğrafiya dərslərində müasir texnologiyaların istifadəsi, şagirdlərə coğrafi məlumat sistemləri (CİS), interaktiv xəritələr, Google Earth kimi alətlərlə coğrafiya mövzularını daha yaxşı mənimsəməyə imkan verir. Bu texnologiyalar şagirdlərin mövzuları əyani şəkildə görməsini təmin edir və onları daha dərindən anlamalarına kömək edir. (Dəmirov, A. H., Məmmədov, S. M., & İsmayılov, Ş. N. (2007))
İnnovativ təlim metodları öz təbiətinə görə mürəkkəb və çoxcəhətli anlayışdır. Hər bir metod özündə müəllim və şagirdlərin fəaliyyət priyomlarını birləşdirir. Bu fəaliyyətin, əlaqənin yüksək pedaqoji dəyəri isə innovativ təlim metodlarının yeniləşdirilməsindən, təkmilləşdirilməsindən və səmərəli tətbiqindən çox asılıdır. İnnovativ təlim metodlarının seçilməsi və tətbiqi ilə əlaqədar pedaqoqlar arasında çox müxtəlif, bəzən də bir-birinə əks mövqelər özünü göstərirdi. Metodların təsadüfən seçilməsi, bəzi metodlar: aludəçilik, ayrı-ayrı metodların universallaşdırılması, konkret dərs və auditoriya üçün optimal metodun müəyyən edilməməsi təlim nəzəriyyəsinin inkişafında və ümumiyyətlə, ali təhsilinin səmərəliliyinin yüksəldilməsində problemlər doğurur. Müəllim təlim prosesində ayrı-ayrı fərdlər üzərincə sistematik rəhbərlik etməli, lazımi köməklik göstərməlidir.
Pedaqoji texnologiyaların geniş tətbiqi müəllimə tədris vaxtından səmərəli istifadə etməyə və şagirdlər üçün yüksək təlim nəticələrinə nail olmağa imkan verir. Fənn sahəsi üzrə bilik, bacarıq və vərdişlərin formalaşmasına yönəlmiş ənənəvi mütəxəssis hazırlığı getdikcə müasir tələblərdən geri qalır. Təhsilin əsasını daha çox akademik fənlər deyil, düşüncə və hərəkət tərzi təşkil etməlidir. Nəinki yüksək səviyyəli təlim keçmiş mütəxəssis yetişdirmək, həm də onu artıq təlim mərhələsində yeni texnologiyaların hazırlanmasına cəlb etmək, onu konkret istehsal mühitinin şərtlərinə uyğunlaşdırmaq və bacarıqlı etmək lazımdır. Müasir mərhələdə təhsil, ilk növbədə, fərdi inkişaf etdirməyə, onun fəallığını və yaradıcılıq qabiliyyətlərini artırmağa, nəticədə tələbələrin müstəqil iş metodlarından istifadəni genişləndirməyə, özünə nəzarət etməyə, fəal formalardan və öyrənmə üsulları, bütün bunlara yalnız şagirdlərin fənni öyrənməyə marağı olduqda nail olmaq olar. Koqnitiv maraq idrak prosesinə intellektual və emosional reaksiya, şagirdi öyrənmək, fərdi və ümumi tapşırıqları yerinə yetirmək istəyi, müəllimin və digər şagirdlərin fəaliyyətinə maraq deməkdir. İdrak fəaliyyətinin aktivləşdirilməsi məqsədyönlü öyrənmə üçün daimi motivasiya prosesidir. Müasir müəllim öz işində şagirdlərin fəallığını və müstəqilliyini stimullaşdıran müxtəlif formaları, metodları, tədris vasitələrini birləşdirərək müxtəlif aktivləşdirmə yollarından istifadə etməli, tədris prosesinə innovativ pedaqoji texnologiyalar tətbiq etməlidir. (Nəzərov, M. H., Quliyev, N. Z., & Nəzərova, X. M. (2020))
İnnovativ pedaqoji fəaliyyət modelinin təhlil və quruluşuna sistemli yanaşma prinsipinin tətbiqini perspektivli hesab etmək olar. Sistemli yanaşma ideyası yeni deyil. Sistemli yanaşma nəzəri və praktik problemlərin həlli üçün olan elmi metoddur. Lakin bu metod psixoloji-pedaqoji tədqiqatlarda son illər-da geniş şəraitdə tətbiq olunur.

Pedaqoji yeniliklərin yaradılması, onların pedaqoji cəmiyyət tərəfindən İnkişaf etdirilməsi, qiymətləndirilməsi və nəhayət, tətbiq edilməsi məsələləri innovativ pedaqoji fəaliyyətin məzmununu təşkil edir. Pedaqoq-alimlərin və pedaqoqların əsas maraqlandığı sahə bilik sistemidir və onlara müvafiq olan fəaliyyətdir. Onlar pedaqoji yenilikləri və onun prinsiplərini, qanunlarını, və-saitlərini, tətbiqetmə sərhədlərini və digər elmi xüsusiyyətləri ilə bağlı maraqlı araşdırmaların müəllifidir. Bütün bunlar innovativ pedaqoji fəaliyyətin meto-doloji aspektlərinin öyrənilməsinə zəmin yaradır. Elmi-pedaqoji ədəbiyyatda innovativ pedaqoji fəaliyyətin metodik əsaslarını qurmaq üçün həmin anlayışın mahiyyəti belə şərh edilir: «İnnovativ pedaqogikanın metodologiyası bilik və fəaliyyətlər sistemidir. Yeniliklərin yaradılması, mənimsənilməsi və tədbiqi innovativ pedaqoji fəaliyyətin quruluşu ilə bağlıdır» Deməli, sistemli yanaşma yeni elmi istiqamətin yaranmasını şərtləndirir.
İnnovativ pedaqoji fəaliyyət müəllimin təşkilatçılıq bacarığı, onun təhsil-alanlarla qarşılıqlı əlaqə yaratması qabiliyyəti ilə sıx əlaqəlidir.
Paşayev və F.Rüstəmov araşdırmalarında innovativ pedaqoji fəaliyyətin beş funksional komponentini qeyd etmişlər:
1. Qnostik komponent pedaqoqika elmləri sahəsinə aiddir. Yalnız özünə aid olan sahəni bimək deyil, həm də təhsilalanların pedaqoji kommunikativ qabiliyyətlərini, psixoloji xüsusiyyətlərini, pedaqoqun hansı dərəcədə inkişaf etmiş özünüdərketmə prinsipi nəzərdə tutulur. Təlim, eləcə də təhsil və tər-biyyənin məqsədləri, tədris olunan fənnin əhatə baxımından və onun məzmunu barədə ümumi biliklər, təhsilalanları hərtərəfli öyrənmək prinsipi, təlim prose-sinin texnologiyalarını öyrənərək həm öyrədici, həm də tərbiyəedici treninqlər keçirmək zəruridir.
2. Layihələşdirici (planlaşdırma) komponenti tədris və tərbiyənin pers-pektiv məsələləri, o cümlədən nailiyyətlərin strategiyası və üsulları haqqında təsəvvürlərdən ibarətdir. Bu komponent gələcəkdə inkişaf etməyə yaxşı şəraiti olan məqsədləri özündə cəmləşdirir.
3. Konstruktiv komponent. Bu komponent pedaqoqun öz fəaliyyətini, eləcə də tədris və tərbiyəsinin perspektiv məqsədlərini nəzərə almaqla şagird-lərin fəallıqlarını özündə əks etdirir. İrəlidəki məşğələni yerinə yetirmək üçün müxtəlif əməliyyatlar kompleksini əhatə edir.
4. Kommunikativ komponent. Bu komponent müəllimin kommunikativ fəaliyyətini, onun şagirdlərlə qarşılıqlı əlaqəsini özündə cəmləşdirir. Kommu-nikasiyanın didaktik məqsədlərinə nail olmağa yönəldilmiş pedaqoji fəaliyyətin təsirliliyi ilə bağlılığı xüsusi olaraq qeyd olunur. Eləcə də kommunikativ komponent özündə müəllimin təşkilatçılıq, avtoritar, perspektiv və pedaqoji refleksiya kimi qabiliyyətlərini özündə əks etdirir.
5. Təşkiklatçılıq komponenti pedaqoqun öz fəaliyyətini, eləcə də təhsil-alanın fəaliyyətini təşkil etmək məharətindən ibarətdir. Bizə məlumdur ki, tə-limin və tərbiyənin faydalı, xeyirli, məqsədəuyğun, bir sözlə səmərəli olması üçün müəllimdən və onun təşkilatcılıq bacarığından asılıdır. Təhsilalanların kollektivini qarşılıqlı əlaqə yaratmaq prinsipi ilə təşkil etmək yaradıcı yanaşma tələb edir. (7)

NƏTİCƏ

Müasir coğrafiya təlimində innovativ pedaqoji yanaşmaların tətbiqi təhsil prosesini sadəcə bilik ötürmə mərhələsi kimi deyil, kompleks öyrənmə və tədqiqat mühiti kimi formalaşdırır. Bu yanaşmalar tədrisdə interaktivliyin artmasına, şagirdlərin daha aktiv və yaradıcı olmasına, həmçinin təhlil və problem həll etmə kimi əsas bacarıqların inkişafına zəmin yaradır. Müəllimin funksiyası istiqamətləndirici və motivasiyaedici rola keçməklə şagirdlərin fərdi inkişafını dəstəkləyir. Elmi tədqiqatlar göstərir ki, bu metodlar yalnız dərs mühitində deyil, real həyatla əlaqəli bacarıqların formalaşmasında da əhəmiyyətlidir. Bu səbəbdən, innovativ pedaqoji yanaşmalar müasir dövrdə coğrafiya fənninin tədrisində vacib elementə çevrilmişdir və onların sistemli tətbiqi təhsilin keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verir.

ƏDƏBİYYAT

1. Eldarov, N. Ş. (2008). Coğrafiyanın tədrisi metodikası. Bakı.
2. Dəmirov, A. H., Məmmədov, S. M., & İsmayılov, Ş. N. (2007). Yeni təlim texnologiyaları və müasir dərs. Bakı.
3. Eminov, A., & Mədədov, P. Y. (2011). Pedaqogika (2 cilddə). Bakı: Kövsər.
4. Nəzərov, M. H., Quliyev, N. Z., & Nəzərova, X. M. (2020). Pedaqoji texnologiyalar (Dərs vəsaiti). Bakı: ADPU-nəşriyyatı.
5. Ümumtəhsil səviyyəsində yeni dövlət proqramları (kurikulumları). (2013). Bakı.
6. Veysova, Z. (2007). Fəal – interaktiv təlim. Bakı.
7. Paşayev Ə., Rüstəmov F.(2010) Pedaqogika. 462s

USE OF ART THERAPY METHODS IN THE ELIMINATION OF PSYCHOMOTOR DISABILITIES IN CHILDREN WITH LIMITED HEALTH CAPABILITIES

SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARDA PSİXOMOTOR ÇATIŞMAZLIQLARIN ARADAN QALDIRILMASINDA ART TERAPİYA METODLARINDAN İSTİFADƏ

Heydərova Simnarə Nadir qızı
Azərbaycan Dövlər Pedaqoji Universiteti, Bakı şəhər

Abstract
Art therapy is the treatment of both children with disabilities and typical children by involving them in art. Art therapy is a psychological work method based on art and has a positive effect on the development of the psychomotor sphere. Art therapy is a type of therapy carried out with art forms such as music, painting, movement - dance and literature. Also, art therapy is a direction that helps to form a healthy and creative personality that arises at the intersection of art and science.
Keywords: Psychomotor sphere, psychomotor development, SIM children, therapy methods, cognitive processes, motor skills, art therapy.

Xülasə
Art terapiya istər sağlamlıq imkanları məhdud, istərsə də tipik uşaqların incəsənətə cəlb olunmaqla müalicəsidir. Art terapiya incəsənətə əsaslanan və psixomotor sahənin inkişafına müsbət təsir göstərən psixoloji iş metodudur. Art terapiya musiqi, rəsm, hərəkət – rəqs və ədəbiyyat kimi sənət növləri ilə həyata keçirilən terapiya növüdür. Həmçinin, art terapiya sənət və elmin kəsişməsində yaranan sağlam və yaradıcı şəxsiyyətin formalaşmasına kömək edən bir istiqamətdir.
Açar sözlər: Psixomotor sahə, psixomotor inkişaf, SİM uşaqlar, terapiya üsulları, idrak prosesləri, motor bacarıqları, art terapiya.

Giriş

Psixomotor inkişaf duyğu orqanları zehnin və matorikanın birgə inkişafıdır. Psixomotor inkişaf fiziki böyümə mərkəzi sinir sisteminin inkişafına paralel olaraq orqanizmin hərəkətlilik qazanması ilə tanınır. Psikomotor inkişafın neyrofiziologiyası uşağın müxtəlif motor, koqnitiv, emosional və sosial qabiliyyətlərində bir sıra dəyişiklikləri nəzərdə tutur.

Psixomotor bacarıqlar uşaqlarda özünə hörmətin formalaşmasında və dostlar arasında müəyyən mövqeyin qazanılmasında mühüm rol oynayır. Uşaqlarda psixomotor sahənin inkişaf mərhələlərinə aşağıdakılar aiddir:

- Refleksiv sadə hərəkətlər mərhələsi;
- Primitiv hərəkətlər mərhələsi;
- Əsas hərəkətlər mərhələsi;
- İdman hərəkətlər mərhələsi [5].

Qeyd edək ki, SİM uşaqlarda psixomotor sahənin inkişafında olan problemləri həll edən effektiv psixokorreksiya üsulu art terapiyadır. Psixoterapiyada art terapiya metodu ən cavan metodlardan biridir. İlk dəfə bu terapiyanı 1938-ci ildə Adrian Hill vərəm dispanserində xəstələr üzərində tətbiq etmişdir. Bu terapiyanı istənilən qrup insanlarla və müxtəlif məqsədlərlə istifadə etmək olar. Art terapiya insanların öz hisslərini ifadə etməsi, özlərini daha yaxşı anlaması və emosional vəziyyətlərini yaxşılaşdırması üçün sənət vasitələrindən istifadə edilən bir terapiya növüdür. Bu yanaşma, psixoloji və emosional problemlərlə mübarizə

aparmaq üçün rəsm, heykəltəraşlıq, kolaj, fotoqrafiya və digər yaradıcı prosesləri əhatə edir. Art terapiyada məqsəd sənət əsərləri yaratmaq deyil, emosiyaların, düşüncələrin və hisslərin yaradıcı ifadəsi ilə özünü ifadə etməyə şərait yaratmaqdır.
Hal-hazırda art terapiya tipik uşaqlar üçün məktəbə hazırlıq zamanı ümumi inkişaf proqramlarının elementi kimi istifadə olunmaqla yanaşı, əqli gerilik və autizm spektr pozuntusu olan uşaqlar üçün loqopedik və psixoloji iş proqramlarına da daxil edilir. Art terapiaynın əsas məqsədi uşaqların özünüifadə və özünü tanıma qabiliyyətini inkişaf etdirməklə onların emosional-iradi sferasını yaxşılaşdırmaqdır.

Əsas Hissə
SİM uşaqlarda psixomtor çatışmazlıqların korreksiyası zamanı art terapiyadan tibbi-sosial reabilitasiya ilə kompeks şəkildə istifadə edilməlidir. Korreksiya zamanı diqqət daha çox uşağın öz fəaliyyətinə münasibətinə, çəkdiyi rəsmə, musiqi alətində ifasına və s. yönəldilir. Art terapiya psixo-fiziki çatışmazlıqları olan uşaqların idrak fəaliyyətini və motor inkişafını artırır, diqqətini cəmləşdirir. Əsasən SİM uşaqlarda itirilmiş imkanları kompensasiya etməklə yanaşı, ünsiyyət qurmağa və uşaqların həyatının normallaşmasına kömək edir. SİM uşaqların psixomotor çatışmazlıqlarının korreksiyası zamanı müxtəlif terapiya üsullarından istifadə olunur [2]:
Qum terapiyası. Qum terapiyası analitik psixologiya çərçivəsində yaranmış psixoterapiya üsullarından biridir. Bu dünya və özü ilə ünsiyyət qurma üsuludur. Daxili gərginliyi aradan qaldırmaq, onu şüursuz-simvolik səviyyədə təcəssüm etdirmək, özünə inamı artıran və yeni inkişaf yolları açan bir yoldur. Qum terapiyası dərin, orijinal mənə toxunmağa, zehni bütövlüyünüzü bərpa etməyə, unikal imicinizi, dünyanın şəklini toplamağa imkan verir. Uşaqlar üçün qum terapiyası davranışa və emosional vəziyyətə təsirli bir üsuldur. Qumla oynamaq uşağa hər cür qorxu və narahatlıqdan qurtulmağa, emosional stressi aradan qaldırmağa, görmə qabiliyyətini yaxşılaşdırmağa və psixo-emosional vəziyyəti sabitləşdirməyə kömək edir. Qum terapiyası psixikaya, sensor bacarıqların inkişafına təsir edir. Bu zaman passiv və qapalı uşaqlar daha aktiv olur, hiperaktivlər isə əksinə, sakitləşirlər. Qum terapiyası idrak və yaradıcılıq qabiliyyətlərinin, nitqin, kiçik motor bacarıqlarının və toxunma həssaslığının inkişafına əhəmiyyətli dərəcədə şərait yaradır. Qum uşağa mənfi duyğulardan qurtulmağa, rahatlamağa və stressdən azad olmağa kömək edir. Qum terapiyanın əsas faydalarına aiddir.

-Uşağın şəxsiyyətini tanıması və xarakterizə etməsi.
- Qərar və hərəkətlərində daha da məsuliyyətli olmağı öyrədir.
- Qorxu və psixoloji travmalardan xilas olmağa kömək edir.
- Kommunikativ çətinlikləri təhlil etmək.
- Uşaqlarda düşüncə, təxəyyül və ən əsası barmaqların kiçik motor bacarıqlarını inkişaf etdirir.

Musiqi terapiyası. Musiqi terapiyası emosional-iradi, intellektual və şəxsi inkişafa təsir göstərmək qabiliyyətinə malik korreksiyaedici təsir metodudur. Bu terpiya üsulu musiqi dinləmək və musiqi yaratamaq prossesinə əsaslanır. Musiqidən istifadə psixo-fiziki çatışmazlıqları olan uşaqların digər uşaqlarla ünsiyyət qurmasına və ətraf mühitlə əlaqə yartamasına müsbət təsir göstərir.
Musiqi terapiyası inkişafda geriləmə, fiziki məhdudiyyət, beyin zədələnmələri, xroniki xəstəliklər və digər çatışmazlıqlardan əziyyət çəkən uşaqlara nəzərə çarpacaq dərəcədə müsbət təsir göstərən bir vasitə kimi qəbul olunmuşdur. Bu terapiya Fərdi Təhsil Planı tələblərində büruzə verən bacarıqların möhkəmlənməsi üçün yaradılmışdır və hissiyyat dili, ifadə dili, ictimailəşdirmə və hərəkətin inkişafı kimi sahələri özündə birləşdirir.

Bu terapiya somatik və psixi xəstəliklərin müalicə və reabilitasiyasında da istifadə olunur və mühüm əhəmiyyət kəsb edir. Musiqi terapiaysı vasitəsilə Parkinson, alzheimer, demensiya, disleksiya, diqqət dağınıqlığı, autizm spektr pozuntusu (ASP), depressiya, emosional və təşviş pozuntuları kimi xeyli sayda problemlər aradan qaldırılır.

Musiqi terapiyasının əsas məqsədi əlilliyi olan şəxslərin bacarıqlarının inkişaf etdirilməsi və davranışlarının dəyişdirilməsində onların özlərinin bu prosesə qoşulmalarını və depressiya vəziyyətindən çıxaraq, ətraf aləmdə baş verən proseslərdə aktiv iştirakını təmin etməkdir. Musiqi terapiyasının əsas məqsədləri aşağıdakılardır:

· Özünü, bədənini anlama və dərk etmə.
· Ünsiyyət bacarıqlarının artırılması.
· Daxili potensialdan məqsədyönlü istifadə edilməsi.
· Arzuolunmaz və zərərli davranışların (stereotiplər, zorakılıq, məcbur etmə, sui istifadə etmə, hücum etmə, dağıdıcı, qeyri- iradi fəaliyyət) azaldılması.
· Öz yaşıdları və digər şəxslərlə qarşılıqlı münasibətin və ünsiyyətin artırılması.
· Müstəqillik və avtomatik davranış bacarıqlarının artırılması.
· Yaradıcılıq və fantaziyanın zənginləşdirilməsi.
· Özünü ifadə etmə zamanı emosionallığın artırılması.
· Özünəxidmət bacarığının artırılması.
· Eşitmə qabiliyyətinin artırılması.

Foto terapiya. Foto terapiyanın əsas məzmununu foto şəkillərin çəkilməsi və qavranılması təşkil edir. Foto terapiya zamanı müxtəlif duyğu sistemləri – görmə, kinestetik və toxunma həssaslığı aktivləşir. Bu terapiya SİM uşaqlarda təxəyyül, onun yaradıcı komponentləri, təfəkkürün işarə- simvolik funksiyası və ixiyari diqqətin inkişafına kömək edir [5].

Rəqs terapiyası. Bədən və hərəkətlərin vasitəsi ilə şəxsin öz hisslərini və konfliktlərini yaşamasına, tanımasına və ifadə etməsinə kömək etməsi üçün psixoterapiya metodudur. İnsanın bədən hərəkətləri, onun daxili ruhi həyatının əks etdirilməsi və ətraf mühitlə əlaqələrin olması kimi baxılır. Rəqs terapiyası bədən və psixikanın əlaqəli olduğunu və bir- birinə daim qarşılıqlı təsir göstərirdiklərini əsaslandırır. Bu terapiya üsulu SİM uşaqlarda psixomotor çatışmazlıqları, emosional və əzələ gərginliyini aradan qaldırmağa, hərəkətlilik, elastikliyi və plastikliyi artırmağa kömək edir.

Rəqs terapiyasının əsas məqsədi insanın düşüncə, duyğu və hərəkətləri arasındakı uyğunluq metodunu tapmaqdan ibarətdir. Yeni münasibətlər qurarkən də uyğunluğa əsasən mexanizmlər kəşf etməyi bacarmağı öyrədir. Çox vaxt insan bir şeyi düşünməyə başlayır, lakin başqa şey hiss edir, nəticə olaraq da tamamilə fərqli şəkildə hərəkət edir, bu isə hər hansısa daxili konflikti əks etdirir.

Qeyd etmək lazımdır ki, rəqs terapiyası bir çox problemlərlə mübarizə aparmaq üçün istifadə edilə bilər:

- Emosiyaların əks etdirilməsi, emosional vəziyyətin yaxşılaşması.
- Fərqindəliyin artması (özünü dərketmə), özünəinam, müstəqil və sağlam fərdiləşdirmə bacarığı,
- Düşüncə, duyğu və hərəkət arasındakı əlaqələrin qurulması,
- Adaptiv mexanizmlərin inkişafı və dəyişənlərin öhdəsindən gəlmə qabiliyyəti,
- Dominant, intensiv düşüncələr və hisslərlə başa çıxma (öhdəsindən gəlmək) və onları ifadə edə bilmək,
- Uğursuzluq qorxusu,
- Şəxslərarası konfliktlər, ünsiyət bacarığının olmaması, kommunikativ bacarığın çatışmaması (ünsiyyət bacarığının əksikliyi),

Əsasən, rəqs terapiyası daha çox problemləri haqqında birbaşa danışmağı bacarmayan, danışmaq istəməyən şəxslər üçün məsləhət görülür

Nağıl terapiyası. Bu terapiya üsulundan uşaqlar və böyüklər üçün müalicəvi məqsədlər üçün istifadə olunur. Nağıl terapiyası - müxtəlif psixoloji üsulların qeyri-kafi olduğu hallarda dəstək məqsədləri üçün istifadə olunur. Nağıl terapiaysı SİM uşaqların xarici dünya ilə qarşılıqlı əlaqəsini təkmilləşdirməyə, yaradıcılıq qabiliyyətini inkişaf etdirməyə və şüurunu genişləndirməyə yönəlir. Bu terapiya növü nitqin inkişafı, diqqətin toplanılması, təfəkkür, təxəyyül və ünsiyyətin formalaşmasına şərait yaradır [3].

Nağıl terapiyasının əsas məqsədi uşaqda özünü yaxşı hiss etməkdir.Uşaqların və böyüklərin duyğularının tərcüməsi nağıl terapiyasına daxil olan müxtəlif üsullarla öyrənilir. Nağıl terapiyası sayəsində empatiya hissi inkişaf edir və başqalarının fikrinə hörmət hissi öyrənilir. Nağıl terapiyası ilə yeni sosial bacarıqlar və ailədə qa rşılıqlı münasibətlərininkişafı öyrənilir.Nağıl terapiyası sayəsində fərdlərin özünə inamı yüksəlir, qabiliyyətlərini dərk edirlər.

Film terapiyası. Film terapiyası (Kino terapiyası) filmin gedişatı zamanı və bitdikdən sonra izləyicinin psixikasındakı reaksiyaları ilə iş üzərindən keçirilən psixoterapiya növüdür. İş film ilə "təmas" zamanı izləyicinin refleksiyaları üzərindən bədən reaksiyaları, emosiyaları, hissləri təhlilindən başlayır. Filmlərə baxmaqla biz başqa dünyalara gedə və yeni şeylər yaşaya bilərik. Filmə baxmaq hisslərimizdə və düşüncələrimizdə dərin təəssürat yarada bilər. Film terapiyasında bu təsirdən psixi və emosional problemləri müalicə etmək üçün istifadə olunur. Xəstələr öz şərtlərinin və problemlərinin əksini gördükləri və hekayədəki personajlarla əlaqə qurduqları bir filmə baxırlar. Doğru filmlər insanın hisslərini kəşf etməyə, daxili ziddiyyətləri anlamağa və həyatına fərqli baxmağa kömək edir. Film terapiaysının faydalarına aşağıdakılar aiddir.

- SİM uşaqların neqativ düşüncələrini ələ almağı təmin edir.
- Film izləmək SİM uşaqların həyat həvəsini artırır.
- SİM uşaqların rahatlamağına və yaradıcılığın inkişafına səbəb olur.
- SİM uşaqların iş motivasiyasını gücləndirir.
- Filmlər SİM uşaqların inkişafına müsbət təsir göstərir, onlara ilham verir və heyrətləndirir.

Oyun terapiyası. Oyun terapiyası uşaqların dünyasına qapılarını açan sehrli bir yanaşmadır. Oyun uşaqların təbii ünsiyyət vasitəsi kimi istifadə etdikləri, təxəyyüllərini azad etdikləri və emosional kəşflər etdikləri bir səyahətdir.

Oyun terapiyası uşaqlara duyğularını ifadə etməyə, sosial bacarıqlarını inkişaf etdirməyə və yaşadıqları problemlərin öhdəsindən gəlməyə kömək edən bir müalicə üsuludur. Oyun uşaqlar üçün təbii ünsiyyət vasitəsidir və oyun terapiyası sayəsində uşaqlar oyun vasitəsilə duyğularını emal edə, daxili aləmlərini kəşf edə bilirlər.

Bildiyimiz kimi, oyun uşaqların həyatında vacib rol oynayır. Oyun terapiyası uşaqların təbii ifadə vasitəsi olan oyundan istifadə edərək onların hisslərini sözlər yerinə oyunacaqlar vasitəsilə daha asan ifadə etmələrinə kömək edir. Oyun terapiyası əsasən bu simptomları olan uşaqlara kömək edir:

- Yuxu pozğunluğu olan uşaqlara.
- Dostluq etməkdə çətinlik çəkən uşaqlara.
- Ölüm və ayrılıq kimi "itki və yas" təcrübələri yaşayan uşaqlara.
- Həmyaşıd zorakılığını yaşayan və ya həyata keçirən uşaqlara.

Nəticə

Beləliklə, art terapiya üsulları uşaqlarda müsbət emosiyalar yaradır, mənfi əhval-ruhiyyəni aradan qaldırır, özünütənzimləmə və müalicə mexanizmlərini işə salır, psixomotor inkişaf sahəsinin - incə motor bacarıqları, əl-göz koordinasiyası və idrak proseslərinin formalaşmasına və inkişafına kömək edir. Art terapiya üsulları uşaqları düşünməyə və müxtəlif məsələlərin yaradıcı həll yollarını tapmağa imkan verməklə, yaradıcı problem həll etmə bacarıqlarını inkişaf etdirməyə kömək edir. Uşaqlarda ünsiyyət bacarıqlarının və lüğət ehtiyatının artmasına şərait yaradır. Xüsusilə də, toxunmaya əsaslanan art terapiya üsulları SİM uşaqlarda sosial davranış, çeviklik və diqqətin yaxşılaşdırılmasında mühüm rol oynayır .

İstifadə Olunmuş Ədəbiyyat Siyahısı

1.Ə.S.Bayramov, Ə.Ə.Əlizadə “Psixologiya”, Bakı-2006.
2.N.T.Hüseynova, L.İmanova “Xüsusi pedaqogika”, Bakı- 2007.
3.N. T.Hüseynova, S.R.Aslanova “Xüsusi psixologiya”, Bakı- 2018.
4.S.İ.Seyidov, M.Ə.Həmzəyev “Psixologiya”, Bakı-2007.
5.J.A.Rubin “Child Art therapy”, Canada-2005.

OUR NATIONAL-MORAL VALUES ARE OUR IDENTITY.

НАШИ НАЦИОНАЛЬНО-НРАВСТВЕННЫЕ ЦЕННОСТИ – ЭТО НАША ИДЕНТИЧНОСТЬ.

MİLLİ- MƏNƏVİ DƏYƏRLƏRİMİZ BİZİM KİMLİYİMİZDİR.

Ziyafət Məmməd qızı Ziyalı
Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi Şəki "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu. Elmi işçi
ORCID ID :0009-0005-7680-5117

Xülasə
Milli adət-ənənələrin öyrənilməsi və onların mənəvi dəyərlər sisteminə çevrilməsi həmişə aktual olub. Biz öz milli mənəvi, dini dəyərlərimizlə, adət ənənələrimizlə fəxr edirik. Dəyərlərimiz zaman-zaman deqradasiyaya uğrasada onları unutmamalı və bu dəyərlərə sadiq olmalıyıq. Çünki bizi başqa xalqlardan, millətlərdən fərqləndirən milli dəyərlərimiz, mədəniyyətimiz, mənəviyyatımızdır. Məqalədə bugünün aktual problemlərindən və bir vətəndaş olaraq milli dəyərlərimizin qorunub saxlanılmasındakı öhdəliyimizdən bəhs olunur.
Açar sözlər: Milli-mənəvi dəyər, Azərbaycan xalqı, informasiya, gənclər, ideologiya

Резюме
Изучение национальных обычаев и традиций и их трансформация в систему духовных ценностей всегда были актуальны. Мы гордимся нашими национальными, духовными, религиозными ценностями и традициями. Даже если наши ценности время от времени деградируют, мы не должны забывать их и оставаться верными им. Потому что то, что отличает нас от других народов и наций, — это наши национальные ценности, культура и духовность. В статье рассматриваются актуальные проблемы современности и наша ответственность как граждан за сохранение наших национальных ценностей.
Ключевые слова: Национально-нравственные ценности, азербайджанский народ, информация, молодежь, идеология.

Abstract
The study of national customs and traditions and their transformation into a system of spiritual values has always been relevant. We are proud of our national, spiritual, religious values, and customs and traditions. Even if our values change from time to time, we should not forget them and remain faithful to them. Because what distinguishes us from other peoples and nations is our national values, culture, and spirituality. The article discusses today's pressing problems and our responsibility as citizens to preserve our national values.
Keywords: National-moral value, Azerbaijani people, information, youth, ideology

Giriş:

Xalqın tarixini bilməyən insan,
Özünü tanımaz, sözünü bilməz.
Səfalı çeşmədən su içən heyvan.
İçdiyi çeşmənin gözünü bilməz.

(Bəxtiyar Vahabzadə)

Təcrübələr sübut edir ki, insan yarandığı gündən mənəviyyatın, əxlaqi normaların və milli-mənəvi dəyərlərin qoruyucusu olmuşdur. Mənəvi dəyər özünün fiziki və mənəvi varlığını qoruyub saxlamaq, yaşatmaq üçün cəmiyyətin əksər üzvlərinin lazımlı olduğuna inanıb qəbul etdikləri ortaq dünyagörüş, əxlaq normaları və inanclardır. Hər bir xalqın ən qiymətli mirası onun milli-mənəvi dəyərləridir. Azərbaycan xalqına məxsus milli-mənəvi keyfiyyətlər onun sosial həyatında, milli məişətində, mədəniyyətində, inam və əxlaqında formalaşaraq yaşaya-yaşaya qədim dövrlərdən indiyə kimi gəlib çıxmışdır. Bugündə xalq onu yüksək tutaraq daim nəsildən-nəsilə ötürür. Çünki bu mənəvi xəzinə milli şüurun, milli ruhun, tarixin yaddaşıdır. Xalqımız mənəvi dəyərləri, adət-ənənələri, milli xüsusiyyətləri ilə dünya xalqları arasında özünəməxsus yer tutur. Milli dəyərlərimiz orta əsrlərdə formalaşmış və göründüyü kimi, o vaxtdan bəri çox az dəyişmişdir. Qədim dövrlərdə "Dədə Qorqud", "Manas", "Alpamış", "Koroğlu" dastanları, xalqımıza mənsub olan dahi şairlərimiz, yazıçılarımız - Nizami, Yunus Əmrə, Əlişir Nəvai, Füzuli, Nəsimi, Məhtimqulu, Abay və digərləri tariximizi, mənəvi dəyərlərimizi əks etdirən, bizi dünyada tanıdan ölməz əsərlər yazmışlar. Elə həmin əsərlər Azərbaycanın mədəni irsinin formalaşmasında mühüm rol oynamışdır. Xalqımız tarixini əks etdirən mədəni dəyərlərinə də heçvaxt biganə yanaşmamış, onlar hər zaman tərəfimizdən üstün tutulmuş və qorunmuşdur.

İlk dəfə olaraq açıq şəkildə "mədəni dəyərlər" anlayışına 14 may 1954-cü ildə Haqada imzalanmış hərbi münaqişələr zamanı mədəni dəyərlərin mühafizəsi Konvensiyasında rast gəlmək olar. Bu Konvensiyanın 1-ci maddəsində vurğulanır ki, mədəni dəyərlər dedikdə, hər bir xalqın mədəni irsi üçün əhəmiyyət kəsb edən daşınan və daşınmaz dəyərlər nəzərdə tutulur. Mədəni dəyərlər anlayışını açıqlayarkən Konvensiya yalnız sərhədləri müəyyənləşdirir. Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması Konvensiyasının 1-ci maddəsi isə mədəni dəyərləri üç kateqoriyaya ayırır:

1. Bilavasitə mədəni dəyərlər: tarix, incəsənət və memarlıq abidələri, arxeoloji, dini və dünyəvi ərazilər, tarixi və ya bədii maraq kəsb edən ansambllar, kitablar, əlyazmalar, incəsənət əsərləri və digər bədii, tarixi, arxeoloji əhəmiyyətli əşyalar.
2. Birinci kateqoriyaya aid olan daşınan mədəni dəyərlərin mühafizəsini təşkil edən binalar. Buraya muzeylər, kitabxanalar, arxivləri aid etmək olar.
3. Mədəni dəyərlərin cəmləşmə mərkəzləri. Bu kateqoriyaya Konvensiya özündə böyük həcmdə mədəni dəyərləri cəmləşdirən mərkəzləri aid edir. **(1.s.64)**

Milli-mənəvi irsin dünyaya tanıdılması ilə bərabər, onun yad təsirlərdən, aşınmalardan qorunması da bir o qədər əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, bu mühüm prinsip 2007- ci il 23 may tarixində təsdiq olunmuş "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası"nda da əksini tapmışdır. Konsepsiyada ölkənin milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri sırasında mədəniyyət və mənəviyyatın qorunması ayrıca bənd olaraq (maddə 4.3.3.) göstərilmişdir.

Lakin mənəvi dəyərlər hərzaman maddi dəyərlərdən daha üstün hesab olunub. Bir sıra mədəniyyət nəzəriyyələrinə görə cəmiyyətdəki hər hansı bir hadisə yalnız şüur, duyğulardan keçəndən sonra özünə yer edir. Mənəvi dəyərlər maddi dəyərlərdən daha uzun ömürlüdür, heçzaman xarab olmur, xalqın mənəvi sərvətinə çevrilərək əsrlər boyu yaşayır, zaman keçdikcə dahada qiymətli olur. Mənəvi sərvətlərin istifadəsi üçün sərhəd yoxdur və onlar bütün xalq tərəfindən istifadə olunur. Əgər maddi sərvətlərdən müvafiq maddi tələbatı ödədikdən sonra

doymaq olursa mənəvi sərvətlərdən çox zaman doymaq olmur, çünki onlar idraki, əxlaqi, estetik və s. tələbatlarla bağlıdır. Ümumiyyətlə, mənəvi sərvətlərin spesifik xüsusiyyəti onların unikallığı, təkrarsızlığı, orijinallığıdır. **(2.s.88)**

Demək olar ki, zamanın bütün mərhələlərində mənəvi sərvətlərimiz xalqımızın düşüncə sistemində əhəmiyyətli rol oynamış, hər bir fərdin vətəndaş kimi formalaşmasında ən önəmli meyarlardan biri olmuşdur. Milli-mənəvi dəyərlərimiz deyəndə nələri başa düşürük və bu anlayış bizim qarşımızda hansı vəzifələri qoyur? Hər bir xalqın dili, tarixi, folkloru, ədəbiyyatı, dini, adət-ənənəsi, mədəniyyəti kompleks surətdə onun milli-mənəvi dəyərləridir. Bu irsi günümüzədək gətirib çıxaran nəsilbənəsil davam edən milli varislik məktəbi bu gün də etibarlı əllərdədir. Biz gəncləri daim inkişafa, sivil ənənələri mənimsəməyə, malik olduğumuz müstəqil Azərbaycanımızı göz bəbəyi kimi qorumağa səsləyən də məhz milli ruhumuzdur.-Ey türk oğuz bəyləri! Türk milləti eşidin! Üstdən göy çökmədikcə, altdan yer dəlinmədikcə, bil ki, türk ulusu, türk yurdu, türk dövləti, türk törəsi pozulmaz deyən, Bilgə Kağana da, -Biz əzəldən ta əbəd meydanə gəlmişlərdəniz deyən, Azərbaycan dövlətçiliyi tarixinə şanlı Səfəvi dövlətini bəxş edən Şah İsmayıl Xətaiyə də, qanlı Sovet rejiminin ən güclü dövrlərində -Millətimizin kölələk zəncirlərini qıraraq milli müstəqilliyini bərpa edəcəyi gün o qədər də uzaqda deyil deyən, Məmməd Əmin Rəsulzadəyə də, tükənməz güc verən, məhz milli ruhumuz olmuşdur. Millətini, torpağını sevmək, onu hər şeydən üstün tutmaq bu gün Azərbaycan insanının, ən əsası Azərbaycan gəncliyinin ən vacib borclarından biridir. Bu borcun qarşılığı isə bizlərin ilk növbədə yüksək səviyyədə təhsil almağımız, elmi biliklərə dərindən yiyələnməyimiz, bəşəriyyətin sürətlə inkişaf etdiyi bir zamanda daima hərtərəfli axtarışda olmağımızdır. **(3. s.113)**

Dünya zahirən çox cəlbedici təsir bağışlasa da amansız qanunlar, maraq və iddialar üzərində qurulub. Çox maraqlıdır ki, bir sıra aparıcı dövlətlər insanları kökündən uzaqlaşdırmaq və özlərindən asılı vəziyyətə salmaq üçün çağdaş düşüncə adı altında öz idealogiyalarını onlara yeritməyə başlayıb. Azərbaycanda da son illər bu məsələyə yanaşmalar heç də birmənalı deyil. Bu gün Azərbaycan Avropaya inteqrasiya edən, bir sıra çağdaş standartları və yenilikləri əldə etməyə çalışan ölkələr sırasındadı. Lakin Avropalaşmış Azərbaycan modeli bizi Milli ideologiyamızdan müəyyən dərəcədə uzaqlaşdırmaqdadır. Avropaya inteqrasiya heç də o demək deyil ki, Azərbaycana məxsus milli-mənəvi dəyərlər, uzun tarixi yol keçmiş ənənələr arxa planda qalmalıdır. Azərbaycan Avropaya öz dəyərlərini saxlamaqla inteqrasiya etməlidir. Bu gün ölkədə milli-mənəvi dəyərlərin deqradasiyası ilə televiziya, radio və internetlə yanaşı, barlar, bəzi istirahət mərkəzi adı altında fəaliyyət göstərən kafe-restoranlar da məşğul olur. Hamıya məlumdur ki, klubların giriş qapısında "18 yaşı tamam olmayanların daxil olması qadağandır" elanı asılsa da, içəridəkilərin əksəriyyəti azyaşlı oğlan və qız uşaqlarıdır.

Adət-ənənələrimizdən uzaqlaşan gəncliyimizin inkişaf etməməsinin səbəblərindən biri də bu gün onların elmə-təhsilə marağının kifayət qədər zəif olmasıdır. Bu gün kitabxanalarda az sayda gəncə rast gəlmək mümkündür. Gənclər kitabdan uzaq düşüb desək yanılmarıq. Təbii ki, bütün bunların baş verməsi səbəblərindən birini də Azərbaycanda ailə institutunun sıradan çıxmasında axtarmaq lazımdır. Ailələrdə uşaqların tərbiyə olunması sahəsində ciddi problemlər var.**(4.s.119-121)**

Günümüzdə ənənəvi müharibələr daha çox, informasiya savaşları həyata keçirilir. Kütləvi informasiya vasitələri əsas funksiyalarını bir çox hallarda kənara qoyaraq beyinləri yumaqla məşğul olur. Təbii ekologiya ilə yananaşı mənəvi ekologiyanın da korlanması insan üçün heç də gözəl nəsə vəd etmir, əksinə onu gələcək qlobal bəlalarla üz-üzə qoyur. Əxlaqi və mənəvi dəyərlərin məhv olması, dəyərsizliyin daha da inkişaf etməsi üçün yaradılmış şərait artıq uşaqların və yeniyetmələrin psixologiyasına təsir edir, onların millətə, torpağa sevgi ruhunda böyüməsinə əngəl törədir. Milli kimlik, vətənpərvərlik, milliyyətçilik kimi anlayışlar artıq keçmişin əhəmiyyətsiz ideoloji qalığı adlandırılır. Bu hal ideologiyasız və mənəvi dəyərləri

olmayan cəmiyyət modelinin formalaşmasına zəmin yaradır. Belə olan halda şübhəsiz ki, onların gələcəyimizin dayaqlarına çevrilməsi ehtimalı azalır.

İnformasiya bolluğunda insanın öz keçmişinə səyahət etməsi, itirdiyi dəyərlərin yenidən bərpası uğrunda əziyyətə qatlaşması absurd görünsə də, biz buna nail olmağı qarşımıza bir məqsəd kimi qoymalıyıq. Mədəniyyətləşmədən çox iqtisadiləşən və siyasiləşən dünyada kimlərsə tərəfindən uydurulmuş sivil dünya mədəniyyəti heç də ilk ibtidai insanın bir daşı yonmasından bir o qədər də fərqlənmir. Çünki mədəniyyət dəyişmədən və zənginləşdirilmədən varlığını qoruya bilməz. İlk insanın yaradılışından bu günə kimi böyük yol keçən bəşər övladı özü də bilmədən ən böyük dəyərini, təbiiliyini itirib. İtirilən dəyərlərin, unudulan adət-ənənələrin təbliğini ləngidən amillərdən biri də cəmiyyətin inkişaf meyllərini yönləndirənlərin mühafizəkarlığın qoruyucusu kimi çıxış etməsidir. Təəssüf ki, bu heçdə belə deyil. Sağlam əqidəli bir gəncliy üçün qan, gen yaddaşı və vicdan anlayışının formalaşmasının təbliğ edilməsi işi gərək ləngiməsin. İntellekti, adət-ənənəni sosial rifaha və varlı yaşamağa qurban vermək olmaz.

Görkəmli akademikimiz Yaşar Qarayev "Meyarşəxsiyyətdir" kitabında yazır: -Artıq neçə-neçə yüzillikdir ki, babaların əxlaqı bizim ən yaxşı xəlqi və milli ənənələrdə yaşayır: onlar ritorika ilə, şüurla yaranmadığı üçün şüurla da, ötəri məhv olmurlar. Mən birinci növbədə torpaq, dil, din, əcdad, övlad və qadınla bağlı ənənələri nəzərdə tuturam; şüurda yox, gendə və qanda həkk olunmuş, yazılmamış qanunları nəzərdə tuturam. Bu gün kompromis düşüncə adı altında insanları ruhən ələ keçirməyə çalışan çağdaş Avropa və Amerikaya ən yaxşı sipər insani, mənəvi və milli tarixi sərvətlərimizə həssaslığımız olamalıdır.

Milli adət-ənənələrin qorunmasında, yaşadılmasında gen faktoru da xüsusi rol oynayır. Biz leksikonumuzda genetik yaddaş, genofond anlayışlarını əbəs yerə işlətmirik. Günümüzdə "Kosmopolit düşüncə" adı altında ölkəmizdə və dünyada müxtəlif genlərin qarışması prosesi demək olar ki, böyük vüsət alıb və bu problem sosioloqların diqqətindən yayınmamalıdır. Müxtəlif dilin, irqin, dinin daşıyıcıları olan insanların siyasi baxımdan heç də sabit olmayan dünyamızda qardaşlaşması, dostlaşması müsbət hal kimi nəzərə çarpsa da, genlərin qarışması artıq böyük bir fəlakətdir. Bu gün bizim hər birimizi təmizqanlılıq, təmizgenlilik problemi narahat etməlidir. Çünki bu problemlərin hədəfində bizim adət-ənənəmiz, milli kimliyimiz durur. Sosial, siyasi, zehni və bədii təbəqələşmə çağdaş gəncliyin dünyabaxışının formalaşmasına təsir edən amillərdəndir. Lakin bu mənzərə heç də ürək açan deyil. Şoulara, əyləncələrə meyl edən gəncliyin beyninə milli düşüncəni yükləmək gec olacaq və beləliklə də biz gələcəyimizi itirəcəyik. Hansısa bir görünməz əl tərəfindən milli düşüncəmizə, mənəviyyatımıza zərbə vurulması, şoulara, seriallara meydan verməklə gəncliyimizin beyninin zəhərləməsinin, onların manqurtlaşdırılmasının kimlərə nə dərəcədə xeyri olduğunu bilmirik.Lakin əminliklə deyə bilərik ki, bugün Azərbaycanda vəziyyət heçdə ürəkaçan deyil. Böyük şairimiz Bəxtiyar Vahabzadə millətin gen və ruh problemini düşünərək yazırdı: **(5 s.143)**

Sən bizi aldatdın illərdən bər,
Mən çərxi- fələkdən dərs götürmüşəm
Özgə anasından süd əmənləri
Özgə qulluğunda duran görmüşəm.

Gəlin gələcəyimizi etibar etdiyimiz uşaqlara, gənclərə diqqət və qayğı ilə yanaşaq, onların savadlı, vətənpərvər böyüməsində öz böyüklük missiyamızı layiqincə yerinə yetirək, məsuliyyətimizi dərk edək və unutmayaq ki, gələcək bu gün qurulur. Bu günün gəncliyi isə gələcək hədəflərimizi müəyyənləşdirir və bizləri əvəz edir. Keçmiş ancaq unudulmayanda tarixə dönür. Deyirlər: əvvəl sözlər, sonra adamlar lap axırda torpaq azadlığını itirir. Elə məhz bu səbəbdən bizi biz edən bütün dəyərlərimizi qorumalı kökümüzdən qopmamalıyıq.

Nəticə.

Bu bir həqiqətdir ki, müasir gənclik daim axtarışdadır. Buna görə də gəncliyə müsbət olanı, pozitiv olanı təqdim etmək lazımdır ki, nəticə də müsbət və pozitiv olsun. Bu mənada gənclərdə maddi-mənəvi, əxlaqi dəyərlərin aşılanması çox vacibdir. Əqidəli, mənəviyyatlı, vətənpərvər, humanist, milli dəyərli, vicdanlı, imanlı, sağlam bir gənc güclü bir gələcək deməkdir. Hər bir kəs düşünməlidir ki, bir valideyn, bir müəllim, bir tərbiyəçi olaraq, uşağı necə tərbiyələndirməli, onların qarşısına hansı məqsədləri qoymalı, onlara hansı hədəfləri göstərməlidir. Bu gələcəyimiz üçün çox vacibdir. Çünki ailədə, cəmiyyətdə hansı dəyərlər aşılanarsa gənclər də o dəyərlərlə böyüyərlər.

Mənəviyyata sahib olan insan həm özünə, həm ətrafına və həm də cəmiyyətə dərin hörmət bəsləyər, bayrağına, torpağına, ailəsinə, vətəndaşına, hörmətlə yanaşar. Bu zaman cəmiyyət də müsbətə doğru inkişaf edər, insanlar arasında mehribançılıq, sevgi, səmimiyyət və etibar artar. Dəyərlərimiz yox olduğuna görə, bu gün cəmiyyətimizdə müxtəlif maddi-mənəvi problemlər yaranıb. İrəli getməyi bacaraq, amma milli varlığımızı unutmayaq, milli dəyərlərimizi inkar etməyək, milli düşüncəmizə xələl gətirməyək.

Ədəbiyyat.

1. Milli mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu /tərt. ed. N.Alışova; ixtisas red. və bur. məs. K.Tahirov; red. A.Abdullayeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2011.- səh.64

2. Namiq Abbasov, “MƏDƏNİYYƏT SİYASƏTİ VƏ MƏDƏNİ İRS” (Kulturoloji təhlil), Bakı - 2011, səh. 88

3.“Gənc elektron elm” N 106 (48-2014) Milli-mənəvi dəyərlərə elmi yanaşma,Elmi məqalələr toplusu, Bakı –YYSQ – 2014, Dr.E.Behbud Milli –mənəvi dəyərlərimiz və çağdaşlıq səh.113

4.“Gənc elektron elm” N 106 (48-2014) Milli-mənəvi dəyərlərə elmi yanaşma,Elmi məqalələr toplusu, Bakı –YYSQ – 2014, E.Əliyev Milli –mənəvi dəyərlərimiz deqrasiyaya uğrayır. səh.119-121

5. Bəxtiyar Vahabzadə. Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər). Bakı, "Öndər nəşriyyat", 2004, səh. 143

ANALYSİS OF ELEMENTARY SCHOOL MATHEMATİCS TEXTBOOKS

İBTİDAİ SİNİFLƏRİN RİYAZİYYAT DƏRSLİKLƏRİN TƏHLİLİ

Lətifə Qəribağa qızı Cəlilova
Ped.ü.f.d.,Baş müəllim Azərbaycan ADPU, Quba filialı
Orcid id: 0000-0002-2683-0251

Xülasə
Məqalədə mövcud ibtidai sinif riyazi təhsilin məzmununun və məzmunun əks olunduğu dərsliklərin vəziyyəti və problemləri təhlil olunmuşdu. Mövcud məzmuna uyğun tərtib olunmüş dərsliklərdə pedaqoji prinsiplərin pozulmasi və ibtidai sinif şagirdlərinin təfəkkürünün inkişaf səviyyəsinə uyğun olmadığı, konkret təfəkkürə deyil, mücərrəd təfəkkürə əsaslandığı qeyd olunmuşdu.

Açar sözlər: riyazi təhsilin məzmunu, pedaqojı prinsiplər, əyanilik, konkret təfəkkür, təfəkkür, ibtidai sinif riyaziyyat proqramı, dərsliklərin tərtibatı,yeni səriştəyönümlü məzmunun hazırlanması.

Abstract
In the article, the state and problems of the current elementary school mathematical education content and textbooks reflecting the content were analyzed. In the textbooks prepared according to the current content, it was noted that the pedagogical principles were violated and that the thinking of primary school students did not correspond to the level of development and was based on abstract thinking rather than concrete thinking.
Key words: content of mathematical education, pedagogical principles, visualization, concrete thinking, abstract thinking, elementary school mathematics program, textbook design, development of new competency-oriented content.

Giriş

İnformasiya bolluğunda olduğumuz bir dövrdə gələcəyimiz olan şagirdlərə nəyi öyrədəcəyimizi düzgün müəyyənləşdirmək ən çətin və məsuliyyətli bir məsələdir. “Hansi biliklər gələcəyimiz olan şagirdlərdə həyati bacarıqlar formalaşdıra bilər?” sualı daim tədqiqatçıları və praktik müəllimləri düşündürüb. Deməli, hər şey təhsilin məzmununun düzgün müəyyənləşdirilməsindən və ümumtəhsil məktəblərdə tətbiq edilməsindən asılıdır. Ümumi təhsil standartlarında nəzərdə tutulan məsələlər şagirdlərə öyrədilməlidir. Təhsilin məzmunu standartlar şəklində verilir. Standartları ölçmək mümkün olduğundan riyaziyyat fənninin təlimində şagirdlərin qazandığı bilik və bacarıqların səviyyəsini müəyyənləşdirmək mümkündür. Məzmun standartı dövlət tərəfindən müəyyənləşdirildiyindən onun tətbiqi zəruri və məcburidir. Çünki bunlar şagirdlərin müəyyən təhsil səviyyəsində (məsələn, ibtidai təhsil səviyyəsində) riyaziyyat fənni üzrə müəyyənləşdirilən bilik və bacarıqlarına verilən tələblərdir. İbtidai təhsil səviyyəsində riyaziyyat fənni üzrə məzmun aşağıdakı prinsiplərə uyğun yaradılır: 1) sadədədən mürəkkəbə; 2) məntiqi ardıcıllığa; 3)xronoloji ardıcıllığa; 4) həyatla əlaqəliliyə; 5) inteqrativliyə; 6) riyaziyyat fənninin xüsusiyyətlərinə; 7) təhsilalanların yaş və fərdi xüsusiyyətlərinə; 8) konsentrikliyə.
Deməli, ibtidai təhsil səviyyəsində riyaziyyat üzrə səriştəyönlü məzmunun hazırlanması vacib məsələdir. Riyaziyyat üzrə fənn kurikulumu (fənn proqramı) yuxarıda sadalanan prinsiplər

nəzərə alınaraq qurulmalıdır.

2006-cı ildə təsdiq edilən "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)" çərçivə sənədi əsasında ayrı-ayrı fənn kurikulumları, o cümlədən riyaziyyat fənn kurikulumu hazırlanmış və 2008/2009-cu tədris ilindən tətbiqinə başlanılmışdır. 3 iyun 2010-cu ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 103 nömrəli qərarı ilə "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları" [1] təsdiq edilmişdir. Riyaziyyat fənn kurikulumunun strukturu və məzmunu isə müvafiq sənəddə öz əksini tapmışdır.

İbtidai təhsil səviyyəsində riyaziyyat fənni şagirdlərdə məntiqi təfəkkürün formalaşdırılmasında, mühakimələrinin və dərketmə qabiliyyətlərinin yüksəldilməsində əhəmiyyətli rol oynayır. Təlim tapşırıqlarının icrası prosesində təhsilalanların məntiqi mühakimə yürütmək bacarığının, intuisiyasının, fəza təsəvvürlərinin inkişafı təmin olunur. Burada induksiyadan, deduksiyadan, ümumiləşdirmədən, konkretləşdirmədən, təhlil və tərkibdən, sistemləşdirmədən, mücərrədləşdirmədən, analogiyayaratmaqdan istifadə edilir ki, bu da şagirdlərin məntiqitəfəkkürünü inkişaf etdirməklə yanaşı, onlarda diqqəti, hafizəni və nitqin inkişafınıtəmin edir. Riyazi tapşırıqların həlli zamanı qazanılan təcrübə şagirdlərdə səmərəli düşünmə vərdişlərini inkişaf etdirir, onlarda fikri bacarıqların (dəqiqlik, yığcamlıq, aydınlıq, tamlıq) inkişafını təmin edir. Ümumiyyətlə, riyaziyyat təhsilalanların zehnini inkişaf etdirməklə, şəxsi keyfiyyətlərinin formalaşmaşdırmaqla yanaşı onlarda həyati bacarıqların yaranmasında əhəmiyyətli rol oynayır.

Riyaziyyat üzrə ibtidai təhsil səviyyəsində təlim nəticələrinin reallaşdırılmasının təmin olunmasında məzmun xətti vacib rol oynayır. Təhsilalanların mənimsəməli olduqları məzmunun dolğun təsviri və sistemləşdirilməsi məzmun xətləri ilə bağlıdır. Azərbaycanda ümumtəhsil məktəblərində riyazi təhsilin məzmun xətləri aşağıdakı kimi müəyyənləşdirilmişdir*: "1) ədədlər və əməllər; 2)cəbr və funksiyalar; 3) həndəsə; 4) ölçmə; 5) statistika və ehtimal*" [4].

Riyazi fənlər üzrə məzmun standartları sinifdən-sinfə keçdikcə dəyişdiyi halda məzmun xətləri əsasən stabil qalır. Məzmun xətləri bu məqsədlə müəyyənləşdirilir ki, riyaziyyatın tədrisi prosesində müəllimlər ayr-ayrı siniflərdə həmin məzmun xətlərinə eyni səviyyədə əhəmiyyət versinlər.

Bu məzmun xətləri üzrə təlim nəticələri, eyni zamanda riyaziyyat təlimi prosesində formalaşdırılan fəaliyyət xətləri (problemlərin həlli, mühakiməyürütmə və isbat etmə, ünsiyyətqurma, əlaqələndirmə, təqdimetmə), siniflər üzrə təlim nəticələri, tədrisin forma və metodları, qiymətləndirmənin üsul və vasitələri verilmişdir. Bu proqrama keçidi əsaslandıran əsas şərtlərdən biri də məhz riyaziyyat təlimi zamanı şagirdlərdə müvafiq səriştələrin formalaşdırılmasının təmin edilməsidir ki, onlar öz əksini "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nın təsdiq edilməsi haqqında" [21] sənəddə tapmışdır.

Mövcud ibtidai sinif riyaziyyat dərsliklərindəki tədris vahidlərinin (bölmələrin) qurulmasına baxdıqda zəruri prinsiplərin o qədər də nəzərə alınmadığının şahidi oluruq. Tədris olunan bölmələr təhlil olunarkən müəyyən olunur ki, bu bölmələrdən şagirdlər tərəfindən daha rahat anlaşılan və mənimsənilən, məktəb dövrünə kimi ən çox biliyə malik olduqları "Həndəsi fiqurlar" bölməsidir.

Təhlilə cəlb etdiyimiz ibtidai siniflərin riyaziyyat dərslikləri "Ədədlər və əməllər" bölməsi ilə başlayır. Ədəd anlayış olaraq ibtidai sinif şagirdi üçün mücərrəddir və bu mücərrəd bölmə ilə tədris ilinə başlayarkən şagirdləri mücərrədliklərlə yükləyirik. Növbəti bölmə isə "Cəbr və funksiyalar" adlanır ki, burada da mücərrədlik və mürəkkəblik vardır. III bölmə isə "Həndəsə" adlanır. "Həndəsə" bölməsi daha tez anlaşılan və əyaniliklə zəngin olan bölmədir, şagirdlərə həndəsi fiqurlar daha çox tanışdır. Deməli, şagirdlər iki ağır və mücərrəd bölmədən sonra daha əyani və asan bölməyə keçir. Bu isə bir boşluq yaratmaqla yanaşı, asandan çətinə, sadədən mürəkkəbə prinsipinin pozulması ilə nəticələnir.

Təhsilin məzmunu fənn kurikulumunda (təhsil proqramında) layihələşdirilsə də tədris resurslarında öz əksini tapır. Bu səbəbdən də dərslik tədris prosesində zəruru və hələlik yeganə mənbə olaraq qalır. Dərsliklərin fənn kurikulumları əsasında tərtib edilməsinə ciddi fikir verilir. Bu da səbəbsiz deyil. Gələcək nəsillər zəruri bilik, bacarıq və vərdişlərin əhəmiyyətli bir hissəsini məhz tədris resurslarından (dərslik, dərs vəsaiti) alırlar və bu əsasda formalaşırlar. Dərsliklər dövrün tələblərindən və cəmiyyətin paradiqmalarından asılı olaraq zaman-zaman təkmilləşir, yeniləşir və mükəmməlləşirlər.

Müxtəlif zamanlarda ibtidai siniflər üçün hazırlanan "Riyaziyyat" dərslikləri

İbtidai siniflər üçün riyaziyyat dərslikləri XX əsrin 30-80-ci illərində rus metodist alimləri tərəfindən yazılmış və Azərbaycanda onun tərcüməsindən istifadə edilmişdir. Həmin dərsliklər dövrün tələblərinə uyğun tərtib edilsə də zaman-zaman mütəxəssislər tərəfindən tənqid olunmuş və təkmilləşdirilmişdir.

XX əsrin 90-cı illərinin əvvəllərindəmetodistlər tərəfindən ibtidai sinif şagirdləri üçün yeni nəsil milli dərsliklər hazırlanmışdır.Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra ilk dəfə olaraq milli dərsliklərin tərtibinə başlanıldı. Müəlliflər ənənəvi dərsliklərin təsirindən uzaqlaşa bilmədiklərində hazırlanan dərsliklərin ömrü uzun olmadı. Hazırlanan dərsliklərdə ([N.Sadıqov, Z.Osmanov "Riyaziyyat-1", Maarif, Bakı-1997; N.Sadıxov, Ə.Əliyev, Z.Osmanov, Ə.Əliyeva, N.Abbasov. "Riyaziyyat-2" [3], Təhsil, Bakı-1997; Ə.Əliyev [5], A.Nuruşov Riyaziyyat-3, Maarif, Bakı-1997; Ə.Əliyev, A.Nuruşov Riyaziyyat-4, Maarif, Bakı-1997]) milli ruh, Azərbaycan Respublikasının atributları, milli adət-ənənələri, milli xüsusiyyətləri öz əksini tapmamışdı. Ona görə də ciddi tənqidlərə məruz qaldı, ibtidai sinif müəllimlərinin iştirakı ilə "dəyirmi masa"lar və ciddi müzakirələr keçirildi. Riyaziyyat dərslikləri ilə bağlı tənqidi yazılar Z.Qaralov, Ə.Osmanlının müəllifliyi ilə "Kiçik riyaziyyatın böyük bəlaları" [2] adlı kitabda öz əksini tapmışdır.

Bundan sonra yeni nəsil dərsliklərin ([Z.Qaralov, Z.Osmanov, V.Məmmədov "Riyaziyyat-1" [13], Pedaqogika, Bakı-2006;, Z.Qaralov, Z.Osmanov, V.Məmmədov "Riyaziyyat-2" [14], Pedaqogika, Bakı-2006; Z.Qaralov, Z.Osmanov, V.Məmmədov "Riyaziyyat-3" [15], Pedaqogika, Bakı-2006; Z.Qaralov, Z.Osmanov, V.Məmmədov "Riyaziyyat-4" [16], Pedaqogika, Bakı-2006]) tətbiqinə başlanıldı.

Qeyd etmək lazımdır ki, bu dərsliklər [13; 14; 15; 16] 2008-ci ilədək ümumtəhsil məktəblərinin ibtidai siniflərinin istifadəsində olmuşdur. Bu dərsliklər də əvvəlki dərsliklər kimi ibtidai riyazi təhsilin qarşısına qoyulmuş məqsədlərin əldə edilməsinə tam cavab vermirdi. Bundan əlavə kurikuluma əsaslanan təhsilə keçidlə əlaqədar ibtidai siniflərin bu riyaziyyat dərslikləri elmi, pedaqoji, metodiki tələblərə cavab vermirdi. 2008-ci ildən kurikuluma əsaslanan dərslik komplektlərinin tətbiqinə başlanılmışdır. N.Qəhrəmanova, C.Əsgərova, L. Qurbanovanın "Riyaziyyat 1" [17], N. Qəhrəmanova, C. Əsgərovanın "Riyaziyyat 2" [18], N. Qəhrəmanova, C. Əsgərova, L. Qurbanovanın "Riyaziyyat 3" [19], N. Qəhrəmanova, C. Əsgərovanın "Riyaziyyat 4" [16] dərslikləri nəşr edildi.

Təhsil Nazirliyi dərslik islahatında keyfiyyətin yüksəldilməsini, keyfiyyətli dərslik məsələsinin prioritet sahə kimi inkişaf etdirilməsini əsas hədəflərdən hesab etdiyindən keyfiyyətli dərsliklərin hazırlanması və nəşrinə yeni tələblər verdi. Bu məqsədlə Təhsil Nazirliyinin nəzdində Dərslik Şurası yaradıldı, dərslikləri qiymətləndirmə meyarları müəyyənləşdirildi. Dərslik hazırlığı sahəsində Türkiyə, ABŞ, Koreya, Hollandiya, Finladiya və Çin ölkələrinin təcrübəsi öyrənildi.

2008-2020-ci illərdə hazırlanan "Riyaziyyat" dərslikləri

N.Qəhrəmanovanın müəllifliyi və rəhbərliyi ilə hzırlanan ibtidai siniflər üçün "Riyaziyyat" dərslikləri [17, 18, 19, 20] şəxsiyönlü istiqaməti ilə seçilsə də mükəmməl deyildi, fənn kurikulumunda nəzərdə tutulan bütün standartları təlim prosesində realizə etmək mümkün olmurdu. Həmin dərsliklərlə də bağlı pedaqoji mətbuatda xeyli tənqidi yazılar verilmişdir. Həmin dərsliklərdə rast gəlinən nöqsanları aşağıdakı kimi qruplaşdırmaq olar:

1) terminoloji səhvlərə yol verilməsi, anlayışların təhrif edilməsi;

İbtidai siniflərin riyaziyyat dərsliklərində müəlliflər tərəfindən "yeni" anlayışlar daxil edilir ki, bunların nə tədris, nə də elmi əhəmiyyəti yoxdur. Nümunə üçün I sinif "Riyaziyyat" dərsliyində «10-luq blok», «ədədin ikiqatı», «ədəd ailəsi», «geriyə sayma», «toplama, çıxma ifadəsi», «əməllər dəsti» kimi «qondarma» anlayışlar verilir. II sinif dərsliyində "təkliklər mərtəbəsindəki ədədlər toplanaraq" ifadəsi yalnış olaraq "təkliklər toplanaraq təkliklər mərtəbəsinə, onluqlar isə onluqlar mərtəbəsinə yazılır" ifadəsi kimi yazılmışdır."Təkliklər cəminin 10-dan kiçik olduğu hal" ifadəsində "təkliklər cəmi" səhv ifadədir. Bunu sadəcə olaraq "onluğu aşmamaqla" kimi adlandırmaq olardı.Dərsliyin 23-cü səhifəsindəki 4-cü tapşıqda"…onluq və təklik mərtəbələri eyni olan" ifadəsi "onluqlar və təkliklər mərtəbələrinin rəqəmləri eyni olan" kimi işlədilməlidir; Dərsliyin 20-ci səhifəsindəki 5-ci tapşırıqda "irəliyə, geriyə" kimi yox, "düzünə, tərsinə" kimi işlənməlidir. Bu tip qüsurlar 25, 26, 91, 114-cü səhifələrdə təkrar olunur. Dərsliyin 42-ci səhifəsində "Pullarımız" mövzusunun tədrisində "pul vahidləri" öyrədilərkən "Qəpik pullar" anlayışı səhv olaraq "metal pul vahidləri" kimi verilmişdir. Dərsliyin 67-ci səhifəsindəhəndəsə elmində qəbul olunmuş terminlər və anlayışlar təhrif edilmişdir. Məsələn, «çoxüzlü», «fırlanma fiqurları». Hər birinin elementləri və müvafiq adları vardır. Üz, til, təpə – çoxüzlünün elementləridir. Çoxüzlünün "düz üzü" və ya "əyri üzü" anlayışları yoxdur. Fırlanan cisimlərin (fiqurların) da "düz və ya əyri üzü" anlayışları yoxdur.Dərsliyin 69-cu səhifəsində mövzunun izahı elmi səviyyədə aparılmamışdır. Belə hesab edilib ki, şagirdlər başa düşməz.

Təbii ki, koordinat sistemi, koordinatlar, nöqtənin müstəvi üzərində vəziyyətinin müəyyən edilməsi, iki nöqtə arasındakı məsafə və digər anlayışlar şagirdlər üçün çətindir. "Yenilik" xatirinə təhrif olunmuş anlayışlarla ("koordinat şəbəkəsi", "ədədlər cütü", "koordinat cütü", qeyri-müəyyən istiqamətlər – "ondan yuxarı", "ondan aşağı", "ondan sağa" və s.) bu mövzunu II sinfə gətirməyin nə mənası var? Mövzu nəinki II sinif üçün, hətta IV sinif üçün də uyğun deyil. III sinif dərsliyinin 65-ci səhifəsində "Müstəvi fiqurlar açıq və qapalı olur" ifadəsi qüsurludur. Şəkildə üçbucaq, dairə və sınıq xətt verilib. Sınıq xətt açıq müstəfi fiqur deyil, həndəsi fiqurdur. İzahda da üçbucaq, dairə «qapalı fiqurlar» haqqında söhbət açılır, "açıq fiqur" sınıq xətt haqqında isə yox.

2) riyaziyyat dərsliklərində müvafiq terminologiyadan istifadənin qeyri-sabitliyi;

II sinfin dərsliklərində xeyli belə qüsurlara rast gəlmək mümkündür. Səhifə 40-ın 2 və 3-cü tapşırıqlarında adlı ədədlərin yazılışlarında ölçü vahidləri qısa şəkildə yazılır. Dərsliyin 82, 83, 84, 85, 87, 125, 128, 141-ci səhifələrində verilən tapşırıqlarda səhvlərə yol verilir. Məsələn, kütlə vahidi qram əvvəl «qr» kimi, sonra «q» kimi işarə olunur. Vurma işarəsi əvvəl "x" kimi, sonra "•" kimi işarə olunur və s.

II sinifdə səhifə 21 və 34-də"10-luq yaranmayan hal", "10-luq ayrılmayan hal" kimi ifadələr riyazi terminologiyada "onluğu aşmamaqla" kimi işlənilir. I sinif də isə bu anlayış "10-a tamamlamaqla" kimi ifadə olunmuşdur.

3) riyaziyyat dərsliklərində elmi səhvlərə yol verilməsi;

II sinfin dərsliyində səhifə 90-da vurma əməli tərifə uyğun deyil. 4+4+4=12 və ya 4 ədədi 3 dəfə təkrar olunduğundan 4 • 3 = 12 olmalıdır. Hər bir qrup təkrar olunduğu saya vurulmalıdır. Bu səhv dərsliyin 92,93,101-ci səhifələrində təkrar olunur. Bunlar fikrimizcə, elmi və metodiki cəhətdən səhv yanaşmadır.

4) yeni mövzuların, anlayışların nəzəri cəhətdən tam izah edilməməsi;
I-IV sinif riyaziyyat dərsliklərində riyazi anlayışların nəzəri cəhətdən izahı mükəmməl deyil və xeyli elmi səhvlərə yol verilir. Məsələn, ədədlərin keçilməsində say aksiomu gözlənilmir, vurma və bölmənin mənası tam açıqlanmır, ədədlərin vurma cədvəli tərtib olunmur, koordinat müstəvisi düzgün şərh olunmur, qalıqlı bölmənin öyrədilməsində hər bir komponentin tapılması, yoxlanılması prosesi və istənilən ədədə bölmə zamanı hansı qalıqların alınması bir qayda kimi araşdırılaraq təqdim olunmur, növbəti mövzuların keçilməsinə keçid yaradılmır. və s.
1) dərsliyin məzmununun metodik cəhətdən düzgün tərtib olunmaması; tədris metodikasının səthi və sistemsiz xarakter daşıması;
II sinif riyaziyyat dərsliyində səhifə 52-dəki 4-cü tapşırıq dəyişənə aid olduğu halda, dəyişən mövzusu keçilmir. Bu fakt 63-cü səhifədə (çalışma 1), 75-ci səhifədə (çalışma 1) təkrar olunur, əslində «dəyişən» mövzusu II sinfə aid material deyildir. II sinif riyaziyyat dərsliyində səhifə 129-da (çalışma 4) hissəyə aid tapşırıq verilib, bu yanlış yanaşmadır, "Hissə" mövzusu III sinfə aid olduğu halda II sinifdə ona aid tapşırıq vermək düzgün sayıla bilməz.
2) dərsliyin tərtibinə verilən didaktik prinsiplərin gözlənilməməsi;
Riyaziyyat təlimində tətbiq olunan didaktik prinsiplər- müvafiqlik (asandan çətinə, sadədən mürəkkəbə, məlumdan məchula), şüurluluq və fəalllıq (məzmunun dərk edilməsi, materialdan müstəqil istifadə etmə bacarığı), sistematiklik və ardıcıllıq (təsəvvürdən anlayışa, bilikdən bacarığa, bacarıqdan vərdişə), biliklərin möhkəmləndirilməsi (keçilən mövzulara aid təkrar tapşırıqların verilməsi) gözlənilmir.
3) dərsliklərdə riyazi anlayışların daxil edilməsində varisliyin gözlənilməməsi;
Dərslikdə cədvəldənkənar vurma və bölmə, şifahi hesablamakeçilmədən yazılı hesablamaya keçilir. I sinifdə birrəqəmli ədədlərin sütun şəklində yazılı hesablanması aparılır ki, bunu da doğru hesab etmək olmaz. Bu misallar II sinifdə yazılı hesablama ilə aparılır, yəni sütun şəklində. Şifahi hesablamaya aid misallar verilmir. Bu qayda ilə biz şagirdlərə şifahi hesablamanı öyrətmək çox çətindir. I sinifdə 3+2=5 yazılışının sütun şəklində verilməsi doğru hal deyil. Burada şifahi və yazılı hesablama arasında fərq aydın görünmür. Bu yazılışların hansı hesablamaya aid olduğu bilinmir.
II sinifdə 22-ci səhifədə keçilməyən mövzuya aid tapşırıqlar verilir. Bu tapşırıqların aid olduğu mövzu isə 44-45-ci səhifədə təqdim olunur. "Sətir" və "sütun" anlayışlarının izahı 95-ci səhifədə verilir.
4) riyazaiyyat kursunun məzmununa yeni daxil edilən statistika və ehtimal məzmun xətti ilə ilə bağlı tədris materialının qeyri-bərabər paylanılması;
Belə ki, ehtimala aid variasiyalı məsələlərin həllinə çox az yer verilir. Sırf ehtimal nəzəriyyəsinin elementlərini özündə əks etdirən məsələlərin tipində müxtəliflik yoxdur, digər variantlı tapşırıqlar növbəti siniflərdə davam etdirilmir.
Statistikaya aid materiallar çox verilsə də məqsədi düzgün açıqlanmır. Şagirddə hesablama bacarıqlarını formalaşdırılması üçün şərait yaradılmır və s.
1) siniflər üzrə tədris tapşırıqlarının düzgün paylanmaması;
Tədris tapşırıqları siniflər üzrə təsnifata görə düzgün bölünməyib. Verilən məsələlər həm azdır, həm də sistemsiz təqdim olunub. I-III siniflər üzrə riyaziyyat dərsliklərində məsələnin növləri öyrədilmir. IV sinifdə isə riyaziyyat dərsliyində bütün bunları yerləşdirmək mümkün deyil: ya dərs saatı çatmır, ya şagirdlər çox yüklənir.
2) riyazi biliklərin formalaşdırılmasında mühüm əhəmiyyətə malik olan məsələ həlli dərslikdə sistemsiz verilir, məzmunu etibarilə siniflər üzrə düzgün bölünmür.
3) dərslikdən valideynlərin və şagirdlərin müstəqil istifadə imkanları çox aşağıdır.
Dərsliklərdə məsələ həlli ilə bağlı zəruri izahatlar verilmir. Bunlar da bu və ya digər səbəbdən dərsdə iştirak etməyən şagirdin sərbəst və müstəqil şəkildə ev tapşırıqlarını həll etməyə imkan

vermir.

Bunlardan əlavə, dərsliklərdə verilən tədris tapşırıqlarının şərtləri də qüsurludur, çox vaxt isə şagirdləri yaş və bilik səviyyələri ilə uyğunsuzluq təşkil edir. Dərsliklərdə verilən tapşırıqların yerinə yetirilməsində hətta ibtidai sinif müəllimlərinin özlər belə çətinliklərlə qarşılaşırlar ki, bunlar da nəticədə şagirdlərdə müstəqil işləmə bacarıqları formalaşdırmır, şagirdlər riyazi biliklərə dərindən yiyələnə bilmirlər. Bununla yanaşı ibtidai sinif şagirdləri fənn kurikulumunda nəzərdə tutulan təlim nəticələrini əldə etməkdə çətinlik çəkirlər.

Təhlil zamanı məlum olmuşdur ki, I-IV siniflərin riyaziyyat dərsliklərində mühakimə, düşünmə və məntiqi əməliyyatlardan istifadə etməklə həll edilən məsələlərin, başqa sözlə, bilavasitə şagirdlərin idrak fəallığının artırılmasına istiqamətlənmiş məsələlərin sayı olduqca azdır. Bundan əlavə müəllim üçün metodik vəsaitlərdə məsələ həlli vasitəsilə şagirdlərin idrak fəallığının artırılması ilə bağlı heç bir metodik mülahizələr yoxdur. Məktəb təcrübəsinin öyrənilməsindən əldə olunan nəticələr ibtidai siniflərdə məsələ həll etmək bacarığının formalaşdırılması, məsələ həlli vasitəsilə şagirdlərin idrak fəallığının artırılması üçün didaktik imkanların araşdırılmasının və onların təlimin keyfiyyətində səriştəyönlü təhsilin təsirinin öyrənilməsinin məqsədəmüvafiqliyini bir daha təsdiq edir. Səriştəyönlü təlim şəraitində riyazi təhsilin strukturunun təhlilindən məlum olur ki, ibtidai riyaziyyat dərsi yeddi əsas mərhələdə həyata keçirilərsə daha effektiv nəticələr əldə etmək mümkündür. Dərsin həmin mərhələlər üzrə ardıcıl şəkildə təşkil olunması şagirdlərin ibtidai riyazi bilikləri daha asanlıqla mənimsəməsində mühim rol oynayır.

Bu qüsurlar şəxsiyyətyönlü məzmunun şagirdlər tərəfindən mənimsənilməsinə mane olur. Dərsliklərdəki qüsurların səbəbi müxtəlifdir. Onları fikrimizcə, aşağıdakı kimi qruplaşdırmaq olar:

- müəlliflərinin kurikulumun tələblərini nəzərə almadan dərslikləri hazırlaması;
- dərsliklərin hazırlanmasında fənn kurikulumlarını hazırlayanların iştirakına qadağa qoyulması, dərslik müəlliflərinin heç bir təlim və seminarlarda iştirakının təmin edilməməsi;
- dərslik yazmaq üzrə təcrübəsi olan mütəxəssislərin bu prosesdən uzaqlaşdırılması, dərsliklərin hazırlanmasının nəşriyyatlara tapşırılması;
- dərslik müəlliflərinin fənn kurikulumunun xüsusiyyətlərini, dərsliklərin tərtibinə verilən tələbləri bilməməsi, məzmun xətləri üzrə verilmiş təlim nəticələrinin tədris vahidləri şəklində qura bilməməsi səbəbindən dərsliklərin məzmununda çoxsaylı elmi və metodik qüsurlara yol verilməsi;
- dərsliklərin məzmunun düzgün qurulmaması, yeni məzmunun heç bir eksperimentdən keçirilmədən birbaşa məktəblərdə tətbiq edilməsi;
- kurikulumun tətbiqi ilə bağlı ibtidai sinif müəllimləri ilə elmi-metodiki hazırlıq işinin düzgün qurulmaması;
- dərsliklərin hazırlanmasında milli təcrübədən daha çox tərcümə ədəbiyyatına üstünlük verilməsi.
- müəlliflərin Azərbaycan dilində riyazi terminologiyanı zəif bilmələri və s.

Azərbaycan Respublikasında ibtidai siniflər üçün hazırlanan riyaziyyat dərsliklərinin qonşu ölkələrdən Rusiya Federasiyası və Türkiyə Cümhuriyyətində istifadə olunan dərsliklərlə ümumi müqayisəsinə də toxunmaq istərdim.

Rusiya Federasiyasının ibtidai siniflərində tədris olunan riyaziyyat proqramı ilə Türkiyə Respublikasının ibtidai siniflərində tədris olunan riyaziyyat proqramı müqayisə olunarkən bölmələr oxşar olsa da bölmələrin sıralanmasında və çalışmaların tərtibatında böyük fərq müşahidə olunur. Rusiya Federasiyasının ibtidai sinif riyaziyyat dərsliklərində mücərrədlik və tapşırıqlara uyğun təsvirlərin kasadlığı eyni ilə ölkəmizdə tədris olunan ibtidai sinif riyaziyyat dərsliklərində də müşahidə olunur. Görünən odur ki, 30 ildən artıqdı müstəqilliyimizi qazansaq da təhsil sistemimiz hələ də Rusiyanın təsirindən çıxa bilmir.

Türkiyədə tədris olunan ibtidai sinif riyaziyyat dərsliklərinə nəzər saldıqda bunun tamam əksi müşahidə olunur. İstər ibtidai sinif riyaziyyat dərsliklərinin ümumi tərtibatı, istərsə də ayrı-ayrı bölmələrin və tapşırıqların təsvirlər və sxemlərlə müşayiət olunması mövzuları və tapşırıqları şagirdlər üçün daha anlaşılan səviyyəyə gətirir.

Yeni nəsil ibtidai sinif "Riyaziyyat" dərslikləri

Məktəb təcrübəsinin öyrənilməsindən əldə olunan nəticələr ibtidai siniflərdə məsələ həll etmək bacarığının formalaşdırılması, məsələ həlli vasitəsilə şagirdlərin idrak fəallığının artırılması üçün didaktik imkanların araşdırılmasının və onların təlimin keyfiyyətində səriştəyönlü təhsilin təsirinin öyrənilməsinin məqsədəmüvafiqliyini bir daha təsdiq edir. Səriştəyönlü riyazi təhsilin məzmununun hazırlanması həmişəkindən daha aktual və zəruridir. Bu səbəbdən də Azərbaycan Respublikasının Təhsil İnstitutunda Tədris Resursları Mərkəzi yaradılıb. Mərkəzin əsas funksiyaların biri də ibtidai təhsil səviyyəsi üçün yeni nəsil dərsliklər, o cümlədən riyaziyyat dərslikləri hazırlamaqdan ibarətdir. Bu dərsliklər ehtiyat dərsliklər adlandırılır. Hesab edilir ki, yeni nəsil riyaziyyat dərslikləri ibtidai təhsil səviyyəsində təhsilin keyfiyyətinin yüksəldilməsinə töhfə verməklə yanaşı, şagirdlərin təlim nəticələrinin və müəllimlərin inkişaf səviyyələrinin yüksəlməsinə ciddi təkan verəcək. Dərsliklər valideynlər üçün də əlçatan olacaq ki, bunun da nəticəsində onları tədris prosesinə cəlb etmək mümkün olacaq. 2018/19-cu dərs ilindən respublikada I siniflərdəyeni (ehtiyat) dərsliklərin tətbiqinə başlanıldı. "Azərbaycan dili" və "Riyaziyyat" dərslikləri ölkənin 123 sinfində pilot layihə kimi tətbiq olundu. 3000-ə yaxın uşaq pilot layihəyə cəlb olundu. Sonrakı illərdə ehtiyat dərsliklər konsepsiyası genişləndi, "İngilis dili" fənni üzrə də ehtiyat dərslikdən istifadə olundu.

2020/2021-ci tədris ilindən məktəblərimizdə ehtiyat dərsliklərin kütləvi tətbiqinə başlanıldı. Yeni məzmun yaradılarkən xarici təcrübə, təhsildə müasir yanaşmalar öyrənilib, fənn kurikulumları, pedaqoji prinsiplər öyrənilib. "*Ehtiyat dərsliklərin strukturu, təlim metodikası, müasir metodoloji yanaşmalar və digər konseptual prinsiplər ümumiləşdirilərək xüsusi sənəd formasında hazırlanıb*". Bu dərsliklərdə beynəlxalq qiymətləndirmənin tələbləri nəzərə alınıb, hansı ki, qiymətləndirmədə həmin bacarıqlar yoxlanılır.

2020/2021-ci dərs ilinin sonu ehtiyat dərsliklərin tədris olunduğu siniflərlə bərabər təsadüfi seçilmiş ənənəvi dərsliklərlə tədris aparılan siniflərdə qiymətləndirmə prosesi aparıldı. Nəticələrin müqayisəsi və təhlilləri zamanı məlum oldu ki, ehtiyat dərsliklərlə tədrisi təşkil olunan siniflərin şagirdləri daha uğurlu nəticə göstərib. Sual oluna bilər ki, bu dərsliklərin ənənəvi dərsliklərdən fərqi nədir? Hər şeydən əvvəl qeyd olunmalıdır ki, yeni riyaziyyat dərslikləri səriştəyönlü məzmun baxımından daha münasibdir. 1-ci sinif "Riyaziyyat" dərsliyi (müəllifləri Mənsur Məhərrəmov, Günay Hüseynzadə, Solmaz Abdullayeva, İlahə Rüstəmova) ənənəvi dərslikdən ciddi surətdə fərqlənir. Dərsliyin tərtibində müəlliflərin beynəlxalq təcrübəyə və müasir təlim texnologiyalarına istinad etməsi aydın görünür. Dərsliyin bədii tərtibatı və illüstrasiyaları yüksək səviyyədədir. Dərslik bölmələrə, bölmələr də mövzulara ayrılmışdır. Mövzuların öyrənilməsi "Öyrən – möhkəmləndir – tətbiq et" mödelinə əsaslanır. Hər bir dərs araşdırma- müzakirə, öyrənmə, bələdçi, müstəqil iş, məsələ həlli mərhələlərindən ibarətdir. Hər bir dərs zamanı öyrəniləcək mövzular "Açar sözlər" rubruki ilə tanışlıqdan başlanır. Sonra şagirdlər onlara təqdim olunan *"Araşdırma-müzakirə"* rubrikinə keçir, mövzuya aid verilənləri araşdırıb müzakirə edirlər.

"Araşdırma-müzakirə" şagirdlərin riyazi fikirlərini formalaşdırmağa imkan verir, onlarda riyazi səriştələr yaradır, dərsdə daha fəal iştiraka həvəsləndirir. Şagirdlərə təqdim olunan şərti işarələr, diaqramlar. oxlar, şəkillər, məsələlər dərketmənin inkişafı üçün şagirdlərə düzgün istiqamət verir.

Öyrənmə yeni bilik və məlumatların izahıdır. Dərsin gedişi şagirdləri fəal iştiraka cəlb etmək üçün mümkün qədər sadə və vizual olaraq təşkil edilir.

Bələdçi rubrikində mövzu izahının əsasını təşkil edən riyazi bilik və bacarıqları mücərrədləşdirən nümunə və həlləri (şəkil və modellər) yer almışdır. Şagirdlər bunları əvvəlcə təhlil edir və ya müəllimin açıqlamasına qulaq asırlar, daha sonra isə özləri izah edirlər. Ardınca şagirdlərin öyrəndiklərini tətbiq etmələri üçün müvafiq tapşırıqlar və qapalı suallar verilir.

Müstəqil iş rubrikində nümunə kimi verilmiş tapşırığın həllini nəzərdən keçirərək şagirdlərin onu sərbəst şəkildə həll edə biləcəklərini və qazanılması nəzərdə tutulan müvafiq bilik və bacarıqları qüvvətləndirəcək az sayda tapşırıqlar təqdim olunur. Bu, müəllimə formativ qiymətləndirmə aparmağa kömək edir.

Məsələ həlli rubrikində hər bir mövzu üçün ən azı bir məsələ həll etmək fəaliyyətinə yer verilir. Problem həlletmə bacarıqları (səriştələri) qoyulan problemin mərhələlərlə həll edilməsi şəklində formalaşdırılır. Dərslikdə şagirdlərin riyazi dildən istifadə edərək ünsiyyətqurma qabiliyyətinin inkişafı üçün müxtəlif fərqli formalar təqdim olunmuşdur. Məsələn: Şagirdlər model, şəkil, sxem, qrafik, cədvəl, simvol və s. istifadə edərək riyazi fikirlərini edirlər. Gündəlik danışıq dilini riyazi dil və simvollarla, riyazi dili isə gündəlik danışıq dili ilə əlaqələndirirlər. Riyaziyyatın simvol və terminlərindən səmərəli şəkildə istifadə edirlər. Riyazi anlayışları, əməlləri və situasiyaları müxtəlif formalardan (konkret model, şəkil, sxem, qrafik, cədvəl, simvol və s.) istifadə edərək ifadə edirlər. Riyazi dili inamla işlədirlər.Bütün bunlar şagirdlərdə riyazi dilin istifadəsinə müsbət münasibət aşılayır. Dərslikdəki nümunələr riyazi anlayış, mövzu və fikirlər arasında əlaqə qurma, digər fənn və gündəlik həyatla bağlı situasiyaları riyaziyyatla əlaqələndirmə, şagirdlərin mühakiməyürütmə və isbatetmə, əsaslandırma bacarıqlarının və səriştələrinin inkişafına xidmət edir. Deməli, dərslik şagirdləri riyaziyyatın öyrənilməsinə həvəsləndirir, özünəinam yaradır, problemin həlli zamanı səbrli olmağı öyrədir, riyazi səriştələrin real həyatda əhəmiyyətini göstərir.

2-ci sinif "Riyaziyyat" dərsliyi (Z.İsayev, M. Məhərrəmov, G.Hüseynzadə, S. Abdullayeva, İ.Rüstəmova) də maraqlı struktura malikdir [8]. Dərslik 1-ci sinifdə keçilənlərin təkrarı ilə başlayır. Bu da keçilənləri möhkəmlətməyə imkan yaradır. Şagirdlər əldə etdikləri riyazi bacarıq və səriştələri daha da təkmilləşdirirlər. Dərslikdə bütün məzmun xətlərinin reallaşdırılması üçün demək olar ki, yetərincə maraqlı tapşırıqlar var. Ancaq statistika və ehtimal məzmun xəttinə aid tapşırıqların sayı nisbətən azdır və həm də çox sadədir. Toplama və çıxmaya aid verilən məsələ və misallar, keçilən mövzunun tətbiqinə xidmət edən material kifayət qədərdir. Tapşırıqların əksəriyyəti yaradıcı təfəkkürün inkişafına yönəlmişdir. Dərslikdə situasiya məsələlərinə geniş yer verilib. Məsələ həllinin izahı göstərilib. Məsələni *anla, plan qur, həll et, yoxla* kimi addımlarla həllinə aid maraqlı tapşırıqlar var. "Dəfə çox", "dəfə az" kimi anlayışların mənimsənilməsinə aid yaradıcı tapşırıqlar çoxdur. Hər fəslin əvvəlində "Açar sözlər" başlığı altında veürilən riyazi terminlər şagirdlər tərəfindən maraqla qarşılanır. Və bu bölmədə keçilən yeni mövzuya diqqəti yönəldir. Dərsliyin sonunda sözlüyün olması da çox yaxşıdır. Şagirdlər hər dəfə orada araşdırma aparıb riyazi terminlərin mənalarını tapırlar. Həndəsi fiqurlar, ölçmələr, pullara aid maraqlı və situativ tapşırıqlar var. Ümumilikdə dərslik maraqlı və rəngarəng tərtib olunub.

Lakin burada da müəyyən qüsurlara yol verilib.

1. Belə ki, I sinif "Riyaziyyat" dərsliyinə 100 dairəsində ədədlər daxil edilib. Bununla da konsentrlər üzrə ədədlərin öyrədilməsi prosesi pozulub. Yenilik xətrinə atılan bu addım hesab edirəm ki, uğursuz alınıb. Çünki I sinifdə 20 dairəsində, II sinifdə 100 dairəsində, III sinifdə 1000 dairəsində, IV sinifdə isə 1000000 dairəsində ədədlər üzərində müxtəlif hesablama əməliyyatlarının aparılması kifayətdir. 100 dairəsini I sinfə daxil etməklə, IV sinifdə 1000000 dairəsindən daha yüksək ədədlər ayrıca öyrədilmir. Həmişə IV siniflərdə milyon əsas götürülməklə çoxrəqəmli ədədlər üzərində hesablama bacarıqları uşaqlara öyrədilib. İkincisi məsələ ondan ibarətdir ki, I sinifdə 100 dairəsində mövzuların öyrənilməsinə ayrılan vaxt 20

dairəsindən onluğu aşmaqla toplama və çıxma əməllərinin yerinə yetirilməsinə ciddi şəkildə əngəl törədib. Belə ki, 100 dairəsində yazılı toplama və çıxma əməli yalnız onluğu aşmamaqla öyrədilir. Bu da eynilə 10 dairəsində hesablama prosesidir. Çox vacib olan 20 dairəsində onluğu aşmaqla toplama və çıxma əməlinin yerinə yetirilməsinə az vaxt ayrılıb və 11, 12, 13, … 19 alınan hallar üzrə toplama əməli ayrı-ayrılıqda nəzərdən keçirilməyib. Eksperiment zamanı II sinfin diaqnostik qiymətləndirilməsini təhlil edərkən, şagirdlərin bu mövzunu tam mənimsənilmədiyi aşkar olundu.

2. Əvvəlki "Riyaziyyat" dərsliklərdə olduğu kimi hazırkı dərsliklərdə məsələ həlli yenə də səthi verilib. I sinifdə öyrədilən sadə məsələlərin növləri pərakəndə şəkildə, həm də bütün növlər verilmədən keçilir.

Riyazi səriştələrin formalaşdırılmasında məsələlərin böyük rolunun olması danılmaz faktdır. II sinif Riyaziyyat dərsliyinin I və II hissələrində aparılan təhlillər zamanı məsələlərə cox az yer verildiyi və verilən məsələlərin əksəriyyətinin isə hesab məsələləri olduğu müəyyən olundu.

Dərslikdə bölmələrin əvvəllərində verilən ilk səhifələrdəki [7, s.17, 10, 19] şəkillərlə bağlı verilən suallar şagirdlər üçün daha maraqlı və anlaşılandır. "Verilən şəklə uyğun məsələ qur və həll et" tipində məsələlərə yer vermək şagirdlərdə həyatla riyaziyyat arasında əlaqə qurmaq səriştəsi formalaşdırır [8, s. 31].

Dərsliyin II hissəsinin 46-cı səhifəsində verilən 5-ci tapşırıqda qəpiyin dəsmal ilə gizlədilməsi uyğun deyil, qəpiyin dumanlı təsvir edilməsi, ya da ümumiyyətlə verilməməsi daha uyğun olardı.

Qeyd edim ki, dərslikdə məsələlərə uyğun verilən təsvirlər şagirdlər üçün şərtin anlaşıqlı olmasına kömək edir.

III sinif Riyaziyyat dərsliyinin təhlil olunarkən oxşar problemlərlə üzləşilir. Məsələ həllinə çox az yer verilmiş, verilən məsələlərin əksəriyyəti məntiq və düşünmə tələb etməyən sadə hesab məsələləridir.

49-cu səhifədə verilən 11-ci məsələnin şərtində "Şəklə əsasən məsələ qur." Qeyd olunsa da verilən şəkil deyil sxemdir.

3. Dərslikdə verilən başlıqların (araşdırma - müzakirə, öyrənmə, bələdçi, müstəqil iş, məsələ həlli) şagirdlərə aidiyyatı oladuğundan burada verilməsinə ehtiyac yoxdur. Eyni zamanda, araşdırma - müzakirə başlıqları altında verilən nəzəri biliklər mücərrəddir və həmin yaş şagirdlər üçün anlaşılan deyil. Məsələn: "*İkirəqəmli ədədi onluq və təkliklərə ayırıb ədəd üçlüyündə təsvir etməklə də cəmi tapmaq olar. Bu zaman təkliklər və onluqlar ayrı-ayrı toplanır, sonra isə onların cəmi tapılır*" [7, s. 22].

Həmin dərsliyin 33-cü səhifəsində də həmin formada izaha rast gəlinir. "*İkirəqəmli ədədlə birrəqəmli ədədin toplanması*" mövzusuna uyğun oyun formasında verilən araşdırma-müzakirə şagirdlər üçün anlaşılan deyil [7, s. 70].

Qeyd edim ki, III sinif Riyaziyyat dərsliyinin təhlili zamanı da yeni mövzuların izahında mücərrəd və anlaşılmaz cümlələr qurulduğu müəyyən olundu. Məsələn: [9, s. 31] "*Üçrəqəmli ədədlərin toplanması*" mövzusunun izahı zamanı abakadan istifadə uğurlu deyil. [9, s. 50] "*Üçrəqəmli ədədlərin çıxılması*" mövzusunun izahi zamanı "*Abakada çıxma zamanı təkliklər milindəki aşıqların sayı çıxılanın təkliklərindən çox və ya bərabərdirsə, uyğun sayda aşıq kənara qoyulur*" kimi qurulan cümlə çox mücərrəddir və III sinif şagirdi üçün anlaşılmazdır.

Yeni dərsliklərdə izahlara yer çox ayrıldığından məsələ və misallara yer az verilir. Nəzəri materiallar isə olduqca uzun və mürəkkəb cümlələrlə verilib.

4. 2-ci sinfin dərsliyində statistika və ehtimala aid tapşırıqların sayı həm az, həm də çox sadədir. Qeyd edim ki, hazırlanan yeni dərsliklərdə də sadədən mürəkkəbə prinsipi pozularaq məzmun xətlərindən ən əyanisi, anlaşılanı olan "Həndəsi fiqurlar" II yarımildə tədris olunur. Riyaziyyat dərsliklərinin və proqramının "Həndəsi fiqurlar" məzmun xətti ilə başlaması daha uyğun olardı.

Yeni dərsliklərin sonunda verilən sözlüklər isə bəzi anlayışların şagirdlər üçün anlaşılmasına kömək edir. III sinif Riyaziyyat dərsliyinin II hissəsinin sonunds verilən simvollar, ölçü vahidlərinin qısa yazılışı və aralarındakı əlaqə də şagirdlər üçün faydalıdır.
4-cü sinif Riyaziyyat dərsliyinin 1-ci hissəsində [11, s. 7, 19, 33, 75], [12, s. 5, 35, 45] səhifələrdə şəkillərə əsasən verilən suallar şagirdlər üçün maraqlı və düşündürücüdür. Bu cür tapşırıqlara çox yer vermək lazımdır.
4-cü sinif dərsliyində "Fikirləş" adı altında verilən suallar və tapşırıqlar [11, s. 13, 15, 38, 43, 47, 61, 64, 79, 86, 87, 95] və [12, s. 14, 19, 20, 21, 46, 48, 51, 55, 56, 59] maraqlıdır və şagirdləri fikirləşməyə məcbur edir.
Məlumatverici məsələlərə 4-cü sinif Riyaziyyat dərsliklərində yer verilməsi [11, s. 14, 17, 18, 24, 27, 30, 37 və s.] arzulanan haldı. Məlumatlandırıcı məsələlər şagirdlərdə məsələ həll etmə bacarığı formalaşdırmaqla yanaşı öz məzmunu ilə şagirdlərə müəyyən elmi məlumatları çatdırır.
Yeni dərsliklərə tənlik anlayışının daxil edilməsi və tənlik qurmaqla məsələ həllinə yer verilməsi şagirdlərdə məsələ həllində tənliklə işləmək bacarığı formalaşdırır. Tənlik qurmaqla məsələ həll etmək şagirdlərdə şüurlu mənimsəməni formalaşdırmağı təmin edir.
Çox təəssüf ki, verilmiş sxemə və şəklə uyğun məsələ qurmağı tələb edən məsələlərə cəmi bir yerdə rast gəlinir [11, s. 32]. Bu cür məsələlər şagirdlərdə məsələ qurma bacarığı və həyatda rast gəldikləri situasiyaları məsələyə çevirmək bacarığı formalaşdırır.
Həndəsi fiqurlar bölməsi digər siniflərin dərsliklərində olduğu kimi 4-cü sinif Riyaziyyat dərsliyində də 6-cı böməyə salınıb. Həndəsi fiqurlar bölməsi maraqlı və düşündürücü tapşırıqlarla başlayır [11, s. 75]. Düşünürəm ki, 4-cü sinif şagirdlərinə qaydaları və tərifləri hazır şəkildə təqdim etməkdənsə, müəyyən tapşırıqların və çalışmaların həlli prosesində müəllimin köməyi ilə həmin qaydaların və tətiflərin müəyyənləşdirilməsi daha faydalı ilar və şagirdlər tərəfindən şüurlu şəkildə mənimsənilər. Hazır şəkildə təqdim olunan təriflət və qaydalar şagirdlər tərəfindən şüurlu mənimsənilmir, yalnız əzbərlənir.
"Bucaq. Bucağın ölçülməsi." mövzusunda [11, s. 81] araşdırma müzakirə üçün verilən tapşırıq maraqlı və düşündürücüdür. Həndəsi ornamentlər yeni mövzu olaraq proqrama daxıl edilmişdır və şagirdlər üçün mataqlıdır.
Yeni 4-cü sinif dərsliklərində kəsrlər üzərində əməllər, kəsrin ixtisar edilməsi, kəsrlərin müqayisəsi, onluq kəsrlər, qarışıq kəsrlərlə bağlı mövzuların proqrama daxil edilməsi yaxşı olsa da nəzəri materialların mürəkkəbliyi şagirdlər üçün anlaşılan deyil [12, s. 9].
Dərslikdə verilən məsələlərin təsvirlərlə olması şagirdlərə məsələlərin məzmunlarını anlamalarına kömək edir. Məsələ həlli üsulları şəkil çəkməklə, tənlik qurmaqla, cədvəl qurmaqla, məntiqi əsaslandırmaqla, məlumatları təhlil etməklə, tam-hissə modeli ilə, oxşar daha sadə məsələlər həll etməklə, sondan əvvələ qayıtmaqla dərslikdə ayrı-ayrılıqda izah edilir və hər həll üsuluna uyğun məsələlər üzərində iş aparılır [12, s. 28-34].
"Pullar" bölməsində [12, s. 35] "Dəyişən və dəyişməyən xərclər" mövzusu [45, s. 40] daxılində "kredit" anlayışının izahının verilmədi və kreditlə bağlı məsələlərin dərsliyə daxil edilməsi arzulanan haldır.
Ölçmə bölməsində Uzunluq, Perimetr, Sahə, Həcmin, Zaman, Sürət mövzularına aid məsələlərə yer verilməsi bu mövzulaın şagirdlər tərəfindən şürlu mənimsənilməsinə şərait yaradır.
4-cü sinif Riyaziyyat dərsliyində sxem və şəkillərə uyğun məsələ qurmaqla bağlı çalışmaların daxıl edilməsi, situasiya və qeyri-standart məsələlərə yer verilməsi şagirdlərdə verilən biliglərin səriştələrə çevrilməsi üçün faydalı olardı.
Dərsliklərdə valideynlərin məzmunu başa düşməsi və övladlarına tapşırıqların həllində evdə kömək etmələri üçün tövsiyələr verilir ki, bu da müsbət hal kimi dəyərləndirilməlidir. Hədəf yeni dərsliklər vasitəsi ilə məktəblilərin beynəlxalq qiymətləndirmədə nəticələrinin

yüksəldilməsinə nail olmaqdır.

Metodik vəzaitlərin təhlili

İbtidai siniflər üçün hazirlanmış dərslik komplektinə daxil olan metodik vəsaitlər müəllimlər üçün xüsusi əhəmiyyətə malikdir. Metodik vəsaitlər xüsusi ilə gənc müəllimlər üçün istiqamətverici rol oynayır və dərsin səmərəli təşkilində xüsusi əhəmiyyətə malikdir.

I sinif Riyaziyyat metodik vəsaitinin 3-36-cı səhifələridə müəllimlərə "Müasir riyazi təhsil", "Dərsliyin komponentləri", "Dərsliyin quruluşu və təlim konsepsiyası", "Təlimin fəaliyyət xətləri üzrə təşkili (Riyazi təhsildə bəzi strategiyalar, Məsələ həlli dərslərinin təşkili)", "Riyaziyyat fənn kurikulumu (I sinifdə standartlar üzrə reallaşdırılacaq bacarıqlar, I sinif üzrə məzmun standartlarının reallaşdırılması cədvəli, İllik planlaşdırılma)", "Bilik və bacarıqların qiymətləndirilməsi" başlıqları altında təqdim olunan mövzular vasitəsiylə riyaziyyat təlimi qarşısında duran məqsədlər və bu məqsədlərin reallaşdırma yolları izah edilir.

II sinif Riyaziyyat metodik vəsaitinin də 3-36-cı səhifələridə müəllimlərə "II sinifdə riyaziyyatın tədrisi", "Dərsliyin komponentləri", "Dərsliyin quruluşu və təlim konsepsiyası", "Təlimin fəaliyyət xətləri üzrə təşkili", "Riyaziyyat fənn kurikulumu", "İllik planlaşdırılma" mövzular ətrafında məlumat verilir.

III sinif Riyaziyyat metodik vəsaitinin də 3-28-cı səhifələridə müəllimlərə "Dərslik komplekti haqqında", "Dərsliyin quruluşu və təlim konsepsiyası", "Məsələ həlli dərslərinin təşkili", "Riyaziyyat fənn kurikulumu", "İllik planlaşdırılma" başlıqları altında təqdim olunan mövzular vasitəsiylə riyaziyyat təlimi qarşısında duran məqsədlər və bu məqsədlərin reallaşdırma yolları izah edilir.

IV sinif Riyaziyyat metodik vəsaitinin də 3-25-cı səhifələridə müəllimlərə "Dərslik komplekti haqqında", "Dərsliyin quruluşu və təlim konsepsiyası", "Məsələ həlli dərslərinin təşkili", "Riyaziyyat fənn kurikulumu", "İllik planlaşdırılma" başlıqları altında təqdim olunan mövzular vasitəsiylə riyaziyyat təlimi qarşısında duran məqsədlər və bu məqsədlərin reallaşdırma yolları izah edilir.

Qeyd edək ki, hər dörd sinfin metodik vəsaiti eyni qruluşa malikdir və vəsaitlərin ilk hissəsi uyğun başlıqlarla verilmişdir.

Məsələ həlli dərslərinin təşkili ilə bağlı hər 4 sinifdə müəllimlərə istiqamət verilir, məsələ həllinin mərhələlərini izahı və məsələ həllinin riyaziyyat təliminin ayrılmaz hissəsi olduğu göstərilir.

Bölmələrin əvvəlində əhatə edilən mövzular haqqında ümumi məlumat verilir. Hər mövzunun öyrədilmə metodikasının izahı verilməzdən əvvəl təlimin məqsədi və hər məqsədin hansı standarta aid olduğu, dərsin qısa planı, müəllimə tövsiyələr və dərsin gedişi, sonda isə formativ qiymətləndirməni həyata keçirmək üçün qiymətləndirmə meyyarları, qiymətləndirmə üsulları və qiymətləndirmə materialı əks olunan cədvəl verilmişdir.

Metodik vəsaitdə hər mövzuya uyğun elektron resursların ünvanının qeyd olunması müəllimlər üçün faydalıdır.

İbtidai sinif metodik vəsaitlərində bəzi mövzuların sonunda ev tapşırığı olaraq layihə tipli tapşırıqların (məsələn: I sinif metodik vəsaiti səh. 41, 43, 44, 50, 61, 70 və s.) verilməsi arzulanan haldır. Layihə tipli tapşırıqlar praktik və yaradıcı xarakter daşıdığından şagirdlərin qazandıqları biliklərin praktikləşməsinə imkan verir.

Qeyd edək ki, hər bir sinif üzrə metodik vəsait dərsliyi müşayət etdiyindən, metodik vəsaitlərdə dərslikdə verilən mövzu və tapşırıqların izahı yolları verilir. İbtidai sinif dərsliklərində şagirdlərdə səriştələr formalaşdıracaq çalışmalar və məsələlər çox az olduğundan metodik vəsaitlərdə də bu problem müşahidə olunur.

Riyazi səriştə əldə etmək üçün şagirdlər əsas konsepsiyaları anlamağı, prosedur və alqoritmləri tez və dəqiq izləməyi, problemləri həll etmək üçün bir neçə strategiyadan istifadə etməyi,

düşüncələrini çatdırmağı bacarmalı, riyaziyyatın əhəmiyyətini anlamalı və onu öyrənə biləcəyinə inanmalıdırlar.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları: [Elektron resurs] / //https://e-qanun.az/framework/19682
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Stra¬tegi¬yası. / https: // president.az/az/articles/view/9779
3. Abbasov, N.R. Riyaziyyatın ibtidai kursunun təlimi prosesində şagirdlərin ümumi inki¬şaf səviyyəsinin yüksəldilməsi: /pedaqogika üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2005. – 25 s.
4. Azərbaycan Respublikasinin ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqrami (kurikulumu) (I-XI siniflər): / https:/ /www. Arti .edu. az/ noduplоad/ editor/ files/3_Riyaziyyat-Kurikulum.pdf
5. Əlizadə, Ə.Ə. Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu. / Ə.Əlizadə, İ.H.Sultanova – Bakı: ADPU, – 2008. – 173
6. Həsənov, İ. Kurikulum / İ.Həsənov, A. Rüstəmova, N.Babayeva − Bakı: Mütərcim, – 2020. –232 s.
7. İsayev, Z. Riyaziyyat 2: ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün Riyaziyyat fənni üzrə dərslik [1-ci hissə] / Z.İsayev, M.Məhərrəmov, G. Hüseynzadə, S.Abdullayeva, İ. Rüstəmova − Bakı: CN Poliqraf MMC, −2022.−84 s.
8. İsayev, Z. Riyaziyyat 2: ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün Riyaziyyat fənni üzrə dərslik [2-ci hissə] / Z.İsayev, M. Məhərrəmov, G. Hüseynzadə, S.Abdullayeva, İ. Rüstəmova −Bakı: Təhsil NP MMC,−2021.−74 s.
9. İsayev, Z. Riyaziyyat 3: ümumi təhsil müəssisələrinin 3-ci sinifləri üçün Riyaziyyat fənni üzrə dərslik [1-ci hissə] / Z.İsayev, M. Məhərrəmov, G. Hüseynzadə, İ. Rüstəmova, X.Qasımova − Bakı: CN Poliqraf MMC,−2022.−88 s.
10. İsayev, Z. Riyaziyyat 3: ümumi təhsil müəssisələrinin 3-ci sinifləri üçün Riyaziyyat fənni üzrə dərslik [2-ci hissə] / Z.İsayev, M. Məhərrəmov, G. Hüseynzadə, İ. Rüstəmova, X.Qasımova − Bakı: Radius MMC,− 2022.− 79 s.
11. İsayev, Z. Riyaziyyat 4: ümumi təhsil müəssisələrinin 4- cü sinifləri üçün Riyaziyyat fənni üzrə dərslik [1-ci hissə] / Z.İsayev, M. Məhərrəmov, G. Hüseynzadə, S.Abdullayeva, X. Qasımova − Bakı: Şərq-Qərb ASC.−2023.−104 s.
12. İsayev, Z. Riyaziyyat 4: Ümumi təhsil müəssisələrinin 4-cü sinifləri üçün Riyaziyyat fənni üzrə dərslik [2-ci hissə] / Z.İsayev, M. Məhərrəmov, G. Hüseynzadə, S. Abdullayeva, X. Qasımova − Bakı: Şərq-Qərb ASC,−2023.−80 s.
13. Qaralov, Z.İ. Riyaziyyat: ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün dərslik / Z.Qaralov, Ə. Osmanlı, V. Məmmədov −Bakı: Pedaqogika,− 2006. − 127 s.
14. Qaralov, Z.İ. Riyaziyyat: ümumtəhsil məktəblərinin 2-cü sinfi üçün dərslik / Z.İ.Qaralov, Ə. Osmanlı, V.Məmmədov − Bakı: Pedaqogika, −2008.− 207 s.
15. Qaralov, Z.İ. Riyaziyyat: ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün dərslik / Z.Qaralov, Ə.Osmanlı, V.Məmmədov −Bakı: Pedaqogika, −2006. −159 s.
16. Qaralov, Z.İ. Riyaziyyat: ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün dərslik / Z.Qaralov, Ə.Osmanlı, V.Məmmədov − Bakı: Pedaqogika, −2006. −159 s.
17. Qəhrəmanova, N. Riyaziyyat 1. ümumtəhsil məktəblərinin 1-ci sinfi üçün riya-ziy¬yat fənni üzrə dərslik / N.Qəhrəmanova, C.Əsgərova, L.Qurbanova − Bakı: Radius, − 2019. − 151 s.

18. Qəhrəmanova, N. Riyaziyyat 2: ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün Riyaziyyat fənni üzrə dərslik / N.Qəhrəmanova, C.Əsgərova, L.Qurbanova − Bakı: Radius, −2018.− 143 s.
19. Qəhrəmanova, N. Riyaziyyat 3: ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün "Ri¬ya-ziyyat" fənni üzrə dərslik / N.Qəhrəmanova, C.Əsgərova, L.Qurbanova −Bakı: Radius,−2016. −152 s.
20. Qəhrəmanova, N. Riyaziyyat 4: ümumtəhsil məktəblərinin 4-cü sinfi üçün dərslik / N.Qəhrəmanova, C.Əsgərova − Bakı: Bizim kitab, −2016. −159 s.
21. "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 3 iyun tarixli 103 nömrəli Qərarında dəyişiklik edilməsi barədə // https://e-qanun.az/framework/46052

VOICE OF TURKISHNESS BAHTİYAR VAHAPZADE

TÜRKLÜĞÜN SESİ BAHTİYAR VAHAPZADE

Süheyla Karaca Hanönü

Azerbaycan Türkçesi
Bir ananın iki oğlu,
Bir amalın iki qolu.
O da ulu, bu da ulu
Azə rbaycan - Türkiyə .

Dinimiz bir, dilimiz bir,
Ayımız bir, ilimiz bir,
Eşqimiz bir, yolumuz bir
Azə rbaycan - Türkiyə .

Bir millətik, iki dövlə t
Eyni arzu, eyni niyyə t.
Hər ikisi cümhuriyyə t
Azərbaycan-Türkiyə .

Birdir bizim hər halımız—
Sevincimiz - məlalımız.
Bayraqlarda hilalımız
Azərbaycan - Türkiyə .

Ana yurdda - yuva qurdum,
Ata yurda könül verdim.
Ana yurdum, ata yurdum
Azərbaycan - Türkiyə .

Sözlerime Bahtiyar Vahapzade'nin bu güzel, anlamlı şiiriyle giriş yapmak istedim. Öğrencilerime edebiyat derslerinde anlattığım Bahtiyar Vahapzade için düzenlenen bu anlamlı etkinlikte bulunmaktan büyük kıvanç duydum.
70'in üzerinde eser veren Vahapzade; milletinin sesi, sözü olmayı başarabilmiş örnek bir şahsiyettir.
Ona göre şair; başkasını hisseden, etrafının derdiyle yaşayan biridir. Sanatçının gücü inkâr edilemez bir gerçektir. Sanatın belli bir kalıcılığı vardır. Burada bir mesele anlatmak isterim:
Koğuş arkadaşlarını okumaya yazmaya yönlendiren Nazım, aynı zamanda cezaevi yönetimine de yardım etmektedir. Cezaevi denetimine Adalet Bakanlığı'ndan bir müfettiş gelir. Bir kaç gün denetim yaptıktan sonra müdüre:
- Nazım da buradaymış, çağır da görelim nasıl biridir? der.
Nazım'ı odaya getirirler. Müdür koltuğuna iyice kurulan müfettiş Nazım'ı tepeden tırnağa süzer ve:

-Demek Nazım sizsiniz, der. Nazım'a oturması için yer göstermez. Kısa bir konuşma sonrası, gidebilirsiniz, der.
Nazım tam kapıdan çıkarken durur ve müfettişe:
-Ömer Hayyam adını duydunuz mu? diye sorar.
Müfettiş hemen atılır:
-Kim duymaz Hayyam'ı.
Nazım:
-Hayyam zamanında İran hükümdarı kimdi? diye sorar.
Müfettiş şaşırır. Nazım konuşmasını sürdürür, görüyorsunuz sanatçıyı anımsadınız ama hükümdarı anımsamadınız. Yıllar sonra beni dünya anımsayacak ama dönemin Adalet Bakanı'nı ve sizi kimse anımsamayacak, der çıkar.
Müfettiş yaptığı yanlışı anlar, Nazım'ı geri çağırır ama
Nazım koğuşunun yolunu tutmuştur.
Sahi, o dönemin Adalet Bakanı kimdi?
Şimdi bu anekdotu niye anlattım? Akademi ve siyaset Bahtiyar Vahapzade'nin diğer önemli meşgaleleriyken bugün burada bizleri onun hakkında konuşturan onun şiirleri, edebiyatıdır. Vahapzade sanatında bir dava adamı olmayı başarmıştır. Onun dilinde Fuzuli, onun dilinde Göktürk mefkuresi, onun dilinde Türk dili, Türk illeri yuva yapar.
Yurt sevgisi, bayrak ve bağımsızlık sevgisi, dini değerler, vicdan meselesi ve tabi ki anne sevgisi gözüme çarpıp yüreğimde yer etmiştir.
"Ben bahtiyar değilim, ben milletimin diliyim, milletimin düşüncesiyim." der.
Gerçek sanatçı milletinin, insanlığın derdiyle dertlenen koca bir yüreğe sahip olur. Vahapzade de böyle bir duruş sergilemiştir. Özellikle dil konusundaki hassasiyeti en takdir ettiğim yönüdür.
Haşlanan kurbağa metaforu vardır.
Haşlanan kurbağa sendromu, insanların zararlı veya tehlikeli bir duruma kademeli olarak maruz kaldıklarında bunu fark edemediklerini anlatan bir metafordur. Hikâyeye göre, bir kurbağa ani bir şekilde kaynar suya atıldığında hızla dışarı sıçrayarak kendini kurtarır. Ancak su yavaşça ısıtıldığında, kurbağa bu değişimi algılayamaz. Sonunda haşlanarak ölür.
Bu metafor, ekonomik krizler ve çevresel değişimler gibi konularla ilişkilendirilir. Aynı zamanda, bireysel ya da toplumsal düzeyde kötüleşen koşullara karşı insanların duyarsızlaşmasını anlatmak için kullanılır. Ancak biyolojik açıdan değerlendirildiğinde, kurbağaların gerçekten bu şekilde tepki verip vermediği tartışmalıdır.
Haşlanan kurbağa hikâyesi, insanların istenmeyen sonuçlara maruz kalmamaları için kademeli değişimleri fark etmeleri gerektiğini vurgular. Temel mesajı, küçük ve fark edilmesi zor değişimlerin zamanla ciddi sonuçlara yol açabileceğidir.
"Bir milleti bozmak istiyorsanız dili ile oynayan."
"Dil bozulmazsa devlet bozulmaz." gibi pek kıymetli sözler vardır. Gerçek aydın diline sahip çıkandır aynı zamanda. Vahapzade dil hassasiyetiyle kendinden sonra gelenlere örnek olmuştur. Ona göre ana dil, milletin hem kalbi hem hafızasıdır. Ana diline sahip çıkmayan bir toplum, kimliğini ve geleceğini kaybeder.
" Ana Dili" adlı şiirinde
" Ana dilim, ana dilim
Birinci varım menim" diyerek dil bilincine dikkat çeker. O, Sovyet rejimi altında Türkçe'nin baskılanmasına karşı yazıp söyledikleriyle bir direniş sergiler. Türk milletinin farklı coğrafyalarda parçalanmasına rağmen ortak diliyle yeniden birleşebileceğine inanır.

Göktürk Mefkuresi

Bahtiyaz Vahapzade Göktürk mefkuresi yani Türk milletinin tarihsel birliği, bağımsızlığı ve kutlu geçmişine dönüş arzusu güçlüdür.

Türk tarihinin en eski bağımsızlık sembollerinden biridir Göktürkler. "Ey Türk, titre ve kendine dön!" anlayışı, Vahapzade'nin şiirlerinde kültürel bir uyanış çağrısıdır. Tıpkı Orhun Yazıtlarındaki Bilge Kağan gibi o da halkının geçmişini hatırlamaya, birliğe, şuura davet eder. Dil sadece söz değil, bir milletin ruhudur düşüncesini benimser.

Şiirleri de bu yüzden Göktürklerden gelen o bağımsızlık ruhunu taşır.

Ana diliyle düşünen bir milletin hiçbir zaman yok olmayacağını gösteren bir örnektir Bahtiyar Vahapzade.

Günümüzde ne mutlu ki Bahtiyar Vahapzade'nin izinden giden birçok güçlü şair var. Sabir Rüstemhanlı, Ramiz Rövşen, Zeimhan Yakup gibi isimler Türk dünyasının ortak sesi olmaya devam etmiş. Milletin sesi, geçmişin hatırası ve geleceğin umudu bir araya gelir bu isimlerde **"Varlığım Türk varlığına armağan olsun."** Düşüncesini edebiyata yansıtan Sabir Rüstemhanlı, Halk şiiri geleneğini modern tarzla birleştiren Zelimhan Yaup, dilsel ustalığı ve duygusal derinliğiyle çok sevilen Rmiz Rövşen, klasik unsurları koruyarak halkın şairi olan Neriman Hesenzade; şiirlerinin yanı sıra edebi eleştirmenli ve denemeleriyle kültürel değişim, kimlik ve birey temalarını ön plana çıkaran Fekri Uğurlu gibi isimlerin sayısının artması dileğimizdir.

Bir toplum sanatla yücelir. O sanat ruhu da Azerbaycan halkında fazlasıyla ver.

Vicdan

İki yolun ayrımında ben durup,
Gah o yandan, gah bu yandan korkarım.
Devden değil, sinek kadar gücüyle,
Ben kendini dev sayandan korkarım.

Hakk evinde hak divanı kurulmuş,
Her kazancın öz kıymeti sorulmuş,
İddiası boynumuza yük olmuş,
Bağışlanan şeref şandan korkarım.

Bu dünyadan umacağım mizandır,
Korktuğum kes bu mizanı bozandır,
Tok herifin kudurması, yamandır,
Acandan yok, ben doyandan korkarım.

Uyarsak biz nefs adlanan elçiye,
Tükürürüz vicdan kesen ölçüye,
Odur veren düz kıymeti her şeye,
Vicdanından korkmayandan korkarım.

Bahtiyar Vahapzade

Sanatçı aynı zamanda zor zamanda konuşan kişidir. Halkının duygularına tercüman olan kişidir. Vahapzade, Sovyet baskısının yoğun olduğu dönemlerde bile halkın acılarını dile getirmekten çekinmeyerek **"GÜLİSTAN"** şiiriyle Güney Azerbaycan'daki kardeşlerinin ayrılığını dünyaya duyurmuştur. 1958'de yazdığı **"Gülistan Poeması"** kendisini milletinin yazan eli, söyleyen dili haline getirmiştir.

“Bir kalem asırlık hicran yarattı/ Bir halkı yarıya böldü kılıç tek(gibi)” diyerek Gülistan Antlaşması ile Rusya ve İran arasında bölünen ülkesinin acılarını ve hürriyet özlemini cesaretle dile getirmiştir.

O sadece bir şair değil tüm Türk dünyasının vicdanıdır. Sadece duyguları değil bir milletin tarihini, kimliğini ve direnişini anlatır.

Vahapzade’nin dini değerlerine bağlılığı da dikkat çekicidir. Bedirhan Gökçe onunla ilgili bir anısını şöyle anlatır:

1977 senesiydi programıma davet etmiştim. 1977 iliydi men Türkiye’ye geldim. Sabahın bir vaktinde ezan sesleriyle uyandım. Bize ezan seslerini yasak etmişlerdi Sovyet Rusya dönemi. Men çocukluğumda duymuştum en son ezanı. Yataktan kalktım ezanı dinledim, o ezanın Allahu Ekber nidası meni aldı çocukluğuma götürdü ve men bir daha yatmadan Allahu Ekber şiirimi yazdım.

Allahü Ekber

Allah’a yücelen ulu bir yolun
İlkin pillesidir Allahü Ekber
Hakk’ı donanların yüzüne değmiş
Hakk’ın sillesidir Allahü Ekber

Göklerin nidası yücelip yerden
Daim halâs eder hayırı şerden.
Kudret-i Kâmil’in minarelerden
Gelen neğmesidir Allahü Ekber.

Mekâna, zamana devre o, sultan,
O’dur hakikate kapılar açan.
Müminlik yolunda kalbe nur saçan,
İman şûlesidir Allahü Ekber.

Odundan eriyer sine dağları,
Işığa bürüyor karanlıkları.
Donmuş ümitleri, batmış hakları,
Bir anda ısıtır Allahü Ekber.

Dünyanın ezeli borçludur ona,
O bir penceredir evelden sona.
Görünmez dünyanın var olduğuna,
İnam müjdesidir Allahü Ekber,

O’dur eğriliğe düzün hamlesi,
Pehmin ilk nitası, âhir cümlesi.
Allah’ın sesidir vicdanın sesi,
Vicdanın sesidir, Allahü Ekber.

Bahtiyar VAHAPZÂDE

FOLK POET BAHTİYAR VAHAPZADE'S 100TH ANNIVERSARY COMMEMORATION PROGRAM

HALK ŞAİRİ BAHTİYAR VAHAPZADE'NİN 100. YIL ANMA PROGRAM

Selvigül Kandoğmuş Şahin

2009 yılının puslu bir Kasım sabahı annemi kaybettiğimde arkamdan bir dağın çekildiğini, yetimliğime öksüzlüğüm de eklenince derin bir acıyla, yüreğimin kavrulduğunu hissettim. Yas günlerinin arkasından sevgili annemin ölüme asude bir gülümseyişle gidişini anlatmak için "Azrail'in Gülümsemesi" adıyla bir yazı kaleme aldım. İşte tam da o sırada Azerbaycan'ın büyük şairi Bahtiyar Vahapzade'nin eşsiz duyarlılığı ve samimiyeti ile kaleme aldığı anne şiirleri yüreğime tercüman olurken, yaşadığım acının ve hüznün tesellisi gibi gönlüme dökülmüştü. 2009 yılının 13 Şubat günü büyük şairin de vefatı hepimizi derin bir yasa boğmuş, yalnız Azerbaycan'ın değil, tüm Türk dünyasının kıymetli bir şairini yitirmesinin hüznünü yaşamıştık.

"Sen meni laylayla büyüttün ana / Bu gün laylay çalım sene men demi
Senin şirin-şirin laylaylarını (ninnilerini) / Ben sana gaytarım cenazen de mi?
Sen menden gün be gün uzaklaşırsan / Men sene gün be gün yakınlaşıram
Sen menim arhamda benzerdin dağa / Ele bil arhamdan uçtu dağ menim"

Şimdiye kadar okuduğum anne şiirlerinden bambaşka bir havada, bambaşka bir duyuşla yazılmış şiirler nasıl da yüreğimdeki anne tasavvuruyla örtüşüyor her okuduğumda beni gözyaşlarına boğuyordu.

Kaderin bir tecellisi olarak Azerbaycan'da, vatan Azerbaycan'da, kardeş Azerbaycan'da Bahtiyar Vahapzade gibi büyük bir şairi anma toplantısında konuşmak nasip oldu.

Kavurucu yaz sıcaklarının İstanbul'u nemli bir bunaltıyla kuşattığı zamanlarda yola çıktık. Yoldaşım, kardeşim genç yazar kuşağından Süheyla Karaca Hanönü. Bakü'ye doğru yola revan olduğumuzda, dünyada savaşlar, ölümler, soykırımlar yaşanıyordu…

Bizim seferimiz yüreklerde inkişaf eden kardeşliğe, dostluğa, yarenliğeydi. 18 Haziran'da kardeş coğfafyaya, Azerbeycan'a, ulaştığımızda Bakü'nün serin rüzgarları, Hazar'ın büyüleyici bir ışıltıyla yakamozlarda yıkanan eşsiz manzarası bizi karşıladı. Sonrasında dostlarımızın sımsıcak yürekleri, Gül Anne'nin birbirinden lezzetli yemekleri, Elşen kardeşimizin samimi sohbetleri, Zerrab Baba'nın tebessümleri, Bünyamin Baba'nın misafirperverliği, Gülnaz'ın, Nergis'in çocuk yüreklerinin eşsiz coşkulu sevinci bizi karşıladı. Küçük serin bir bahçede, nar, elma, armut ağaçlarının gölgeliklerinde, rengarenk sardunyaların, küpe çiçeklerinin, güllerin içinde cennete düşmüş gibi olduk. Akşam serinliğinde limonlu ve taze naneli çaylarımıza, eşsiz lezzette kayısı, çilek, kızılgül, incir mürebbelerini (reçellerini) katık eyledik. Aslında katık eylediğimiz kardeşliğimizdi, dostluğumuzdu, yarenliğimizdi. Hayale bacımız ve ailesi bizi sarıp kuşattı kardeşçe, candan, yürekten…

Haydar Aliyev Merkezi'nde Bahtiyar Vahapzade'yi Anma Programı

Mihmandarımız, aziz dostumuz, kardeşimiz, can bacımız Hayale Zerrabgızı, 25 yaşındayken Azerbaycan Milli Bilimler Akademisinde en genç araştırmacı ilim adamı ünvanı almış, çalışkan, azimli, müthiş bir organizatör. Süheyla Hanönü ile uzun zamandır mektuplarından yüreklerine akan derin, sımsıcak bir dostluğu yaşıyorlar. Bu edebi ve sımsıcak mektupların kitaplaştığını da göreceğiz inşallah. Hayale Türk Edebiyatı'na hâkim genç bir akademisyen.

19 Haziran Cuma günü, saat 12 de Bakü'de Uluslararası Mahmut Kaşgari Vakfının kordinatorluğu ile Haydar Aliyev Merkezinde gerçekleşen programda, salonda elliye yakın

akademisyen, nezih bir dinleyici topluluğu bizi karşılıyor. Böylesine özenle hazırlanmış bir program bizi şaşırtıyor. Hepsi birbirinden değerli akademisyen ve yazarlardan oluşan toplulukta olmak bizi derecesiz heyecanlandırıyor. Büyük Halk Şairi Bahtiyar Vahapzade 100. Doğum yılında nasıl da kardeşliği, dostluğu yaşatıyor arkasından bıraktığı milletlere. Sinevizyona bizim resimlerimizi yansıtmışlar, değerli bir şair Kadir Hüseynov bizim için şiir yazmış. Böylesine samimi bir ortamda olmak bizleri duygulandırıyor.

Tarih İlimleri Doktoru Latife Memmedova aynı zamanda Mirze Şefi Vazeh adına Kütüphane direktörü, programın giriş konuşmasını, büyük bir heyecan ve coşkuyla gerçekleştirdi. Büyük gayretler göstererek, fedakârlıklarla organizasyonları hazırlayan, her anlamda örnek bir çalışkanlıkla üstün bir performans sergileyen Latife Hanım kısa ve özlü giriş konuşmasında; Bahtiyar Vahapzade'nin rüyalarının, tüm mücadelesinin gerçek olduğundan, Azerbaycan halkının özgürce artık yaşayabildiğinden bahsetti. Vatan ve halk şairi olarak Bahtiyar Vahapzade'nin halkına yol gösterdiğini ifade etti sanatıyla, şiiriyle, tiyatro eserleriyle…

Akademisyenlerden Esmira Fuad; Azerbaycan Edebiyatı alanında önemli konularda doktora çalışmaları yapmış önemli bir akademisyen. Bahtiyar Vahapzade'nin zorlu mücadele zamanlarında, özgürlükler için, halkın şahlanışına, halkın bilinçlenmesine katkı sağlayan büyük bir halk şairi olduğundan bahsetti.

Daha sonra söz alan yine Azerbaycan'ın önemli akademisyenlerinden, Türkiye Üniversitelerinde de dersler vermiş olan, Prof. Dr. Yegane İsmayilova 1990 yıllarında Azerbaycan halkının başına gelen büyük felaketlerde şiirleriyle halkı bilinçlendirdiğini, yüreklendirdiği ifade ederek Bahtiyar Vahapzade'den anlamlı şiirler okudu.

Önemli akademisyenlerin konuşma yaptığı manidar anma toplantısında gençler ve çocuklar büyük bir coşkuyla şiirler okudular, şarkılar söylediler Azerbaycan aşkına.

Şair, Zenfira Nusalova güzel hitabeti ve coşkulu seslenişi ile şiirler okudu. Salonda duygulu anlar yaşandı.

Ses sanatçısı Maya Hanım, Çanakkale Savaşı'nda şehit olan erler için marş seslendirdi. Salon "Çanakkale Muzaffer" söyleyen bu güzel hanımefendiyi ayakta alkışladı.

Süheyla Karaca Hanönü'de duygulu, anlamlı bir konuşma gerçekleştirdi. Onun konuşmasından etkilenenler, duygulanıp ağlayanlar oldu.

Konuşmamda Halk Şairi Bahtiyar Vahapzade'nin Mehmet Akif Ersoy gibi Kurtuluş Savaşı'nda nasıl ki halkı için mücadele etmişse onun da kendi halkı için büyük mücadeleler verdiğinden, aynı zamanda duyarlı kalemi, naif yüreği ile tabiatı, insanı konu alan şiirler yazdığından, anne sevgisine dair şiirlerinden bahsettim.

Azerbaycan'da gençler ve çocuklar yaşlarının üstünde olgunluğa ve samimiyete sahipler. Yetişkinler çocuklara ve gençlere büyük saygı duyuyorlar. Büyük önem gösteriyorlar.

Şeki'de Haydar Aliyev Merkezinde Ve Pedogoji Üniversitesinde Bahtiyar Vahapzade Kongresi

Bakü, sahranın ortasında yer yer yatay mimarinin, merkeze doğru ise modern mimarinin hakim olduğu kadim yapıları barındıran bir şehir. Paris'in mimarisine benzeyen geniş caddelerini kenarındaki beyaz mermer tarihi yapıları ile görenleri büyülüyor. Sıcak ama terletmeyen bir iklimi var.

Bakü'den Şeki'ye dağların arasındaki yollardan, yemyeşil ovaları seyrederek, ırmakların çağıltısını duyarak, bazen de koyun sürülerini yara yara gidiyoruz. Biz Şeki'ye, Prof Dr. Yegâne Hanım ve Felsefe Doktoru eşi kıymetli büyüğümüz Dilgem Bey götürüyorlar kendi arabalarıyla. Nezaketleri, bilge konuşmaları ile saateler süren yolculuğumuz nasıl geçiyor anlamıyoruz. Ortak o kadar çok konuşulacak konu var ki engin bilgi birikimleri ve tecrübeleri ile hocalarımızın sohbetiyle mest oluyoruz.

Şeki yüksek, yemyeşil Kafkas Dağları'nın arasında cennetten bir şehir. Karadenizin dağlarını andırsa da biraz Bursa, biraz Bolu… Daha çok Bolu dağlarının arasındaki kasabalar gibi. Ama bozulmamış kadim taş mimarisi ile büyüleyen bir manzarası var. Şeki'de anlatılacak çok mekân var ama yerim dar olduğu için yazamıyorum. Han Sarayları, müzeler, kervansarayların bulunduğu eşsiz mimarisi ile adeta bizi büyülüyor. Serin bir iklimi var. Dağlarında dumanlar geziniyor. Bir an kendimi köyümde, köyümün dumanlı dağlarının yamacında sanıyorum otel odasından eşsiz manzarasına bakarken. Yalnız bu güzel tarihi şehre de yakışan, yeşillikler içinde yer alan eşsiz güzellikteki köylere de yakışacak olan inancın ve İslam medeniyetinin sembolü camileri arıyor gözlerim, ne yazık fazla cami yok. Kalem kalem minareleri ile gökyüzüne uzanan ve şehri güzelleştiren İslam Mimarisinin en belirgin ibadethaneleri camiler, şehirlerde ve köylerde pek yok. Sovyet rejimi bir silindir gibi geçmiş Azerbaycan'nın üzerinden, manevi olan yapıların olmaması da bu sebepten.

Ulu mabetler sayılı, camiler fazla yok, ama gönüllerdeki inancı, kardeşliği, dostluğu yok edememişler. Yüreklerinde bir muska gibi taşıyorlar vatan sevgisini, millet sevgisini, kahramanlarını, şairlerini, önden gidenleri, yol açanları, yol olanları. Bu derin vatan sevgisi ve aşkı bu güzel milleti ayakta tutuyor. Yol boyunca şehitlerin resimlerini görüyoruz, duygulanmamak mümkün değil. Yolumuzun üzerindeki Türk Şehitliği'ne uğruyoruz dualar ediyoruz. Vahapzade'nin duygulu mısraları yüreklerimize tercüman oluyor:

"Yolun kenarında tenha bir mezar / Üstünde ne adı, ne soyadı var
Ey yolcu, maşını eyle bir yerde, / Sor kimdir yatan tenha kabirde
O bir Türk zabiti, kahraman, metin! / Doğma gardaşına yardıma geldi
Çılgına tutulan milletimizin / Haçlı Savaşına yardıma geldi
Yolcu, maşını bu yerde eğle /O mezar önünde sen tazim eyle
Secde ol, dua ver onun ruhuna / Ayak bastığın yer borçludur ona" (Bahtiyar Vahapzade)

21 Haziran'da saat 12 de, Şeki Haydar Aliyev Merkezinde Uluslararası Mahmut Kaşgari Vakfı ile Azerbaycan Devlet Pedogoji Üniversitesi'nin beraber düzenlediği ve yaklaşık 400 akademisyenin katıldığı Uluslararası Kongre'de akademisyenler konuşmalarını gerçekleştirdi. Süheyla Hanönü'nün konuşması, okuduğu "Tenha Mezar" şiiri büyük ilgi gördü.

Şeki tarihi şehir dokusu, bozulmamış taş kadim mimarisi ile bana Bosna'nın Ortaçağ Köyü Poçitelli'yi hatırlattı. Bahtiyar Vahapzade'nin manevi oğlu, ev müzesinin direktörü ve program yapımcısı Elşan Zekeriyebeyli ile Şeki Saray Otel'de televizyon çekimlerine katıldık. Halk şairi Bahtiyar Vahapzade ile ilgili bereketli, güzel sohbetler gerçekleştirdik.

Bahtiyar Vahapzade'nin müzeye dönmüş evinin bahçesi adeta cennetten bir köşe gibi bizleri karşıladı… Anlatılmaz güzelliği ile konukları büyüleyen doğduğu evde de programlar oldu, konuşmalar gerçekleşti. Semaver çayının lezzetine, dostluğun, kardeşliğin muhabbeti karıştı. Bahçenin ortasındaki havuzun dinlendiren sesi, kokulu rengarenk çiçekler, güllerin rayihası ile bambaşka bir dünyada, adeta dünyadan kopmuş, cennet diyarlarında bir diyarda gibi etkilendik büyülendik. Oradan ayrılmak çok zor oldu. Büyük şairin doğduğu ev, şair yüreğine dökülen naif mısralar, bu güzel bahçede çocukluğunda yüreğine mayalanmıştı onu da anlamış olduk.

"Senin göz yaşlarınla yıkandı ruhum,
Senin dualarınla aydınlık buldum."

Bahtiyar Vahapzade annesine olan derin bağlılığı, hasreti, özlemi anlatır şiirlerinde. İnanmış bir şair duyarlılığıyla atasına, ceddine, anasına bağlı bir şairdir o. Anasının dualarının onu koruduğuna inanır. Her mısrası vatana duyduğu aşkı, vatan hasretini, özgürlük aşkını anlatırken yıllar süren özgürlük mücadelesini okuruz satırlarında. 1960'lı yıllarda başlayan özgürlük hareketinin öncülerindendir. Kalemi inanmış, direnç yüklü, acılı coğrafyada, milletinin talihsizliğini, yaşadığı yıkımı "Gülistan" şiiriyle satırlara döker. İnandığı gibi yazan şair hiçbir zaman yılmaz ve özgürlük şiirleri yaşadığı coğrafyanın sınırlarını aşar. Rejimin baskısına, ambargosuna rağmen onun yüreğinden bir çağlayan gibi dökülen mısralar halkını heyecana ve

coşkuya sürükler. Yazdıklarıyla halkının acılarına, özlemlerine, içinde bulundukları felaketlere tercüman olur.
Büyük şair takip ettiği geleneğin izinde temiz bir Azerbeycan Türkçesi ile şiirlerini kaleme alır. Onun eserleri halkının yüreğinde öylesine yer etmiştir ki; Azerbaycan'da İstiklal Şairi, Halk Şairi adıyla anılır. 1995 yılında Azerbaycan özgürlük mücadelesindeki hizmetlerinden dolayı İstiklal nişanı ile ödüllendirilmiştir. Yazdığı şiirler bir dua, bir nida gibi yükselir ve asırlar sonrasına seslenen bir duyarlılıkla yazılmıştır. Öyle ki Bahtiyar Vahapzade ülkesinin özgürlük nişanesi gibi halkının her daim gönlünde yer etmiştir. Vatanına milletine her anlamda hizmet etmeyi bir görev bilen büyük şair Vahabzade 1980-2000 yılları arasında 5 defa milletvekili seçilerek parlamentoda yer almıştır. 2002 yılında kendisine "Benim Garibim" isimli kitabına istinaden Romanya Kültür Bakanlığı tarafından Komutan Madalyası verilmiştir.
Yürekli, vatanına, özüne, doğup büyüdüğü coğrafyaya bağlı bir şairin dizelerinde bir evladın özlemi, bir annenin eşsiz metaneti ve sabrı, tevekkülü ve halkının çektiği hasretler vardır.
Bahtiyar Vahapzade, sadece şiir yazmadı; edebiyatla iştigal etmedi. O yazdıkları eserlerle milletinin sesi oldu, vicdanı oldu. Zorlu bir coğrafyada, yeri geldi esaret altında, özgürlüğü elinden alınmış, dili elinden alınmış halkının öz evladı olarak dirençle davasını, milletinin inancını ve bağlılığını, vatan aşkını mısralarına taşıdı ve o vatanının öz evladı oldu.
Bugün büyük şair Vahapzade'yi anarken aynı zamanda aziz ve yürekli bir milleti, arı duru bir dili, teslim, inanmış, dualara ram olmuş yüreğiyle inançlı bir şairi de anmış oluyoruz.
Bahtiyar Vahapzade, Azerbaycan'ın yetiştirdiği onurlu, mücadeleci yüce sanatçılardan birisidir. Onun şiirlerinde vatan, hürriyet aşkı vardır, özgürlüğe hasret vardır. Ama en çok da sevginin, sabrın, yürek sıcaklığının timsali olan ana vardır… Yani ilk sığınak, özlü, sımsıcak dualarla kuşatıp saran ana vardır.
Kıymetli şairimizin ruhu şad olsun. Eserleriyle, mısralarıyla, fikirleriyle her zaman aramızda yaşamaya devam edecektir. Rahmetle duayla büyük vatan şairimize…

Şair Vagif Aslan'nın 75. Yıl Jübilesi

Şair Vagif Aslan modern Azerbaycan Edebiyatı'nın önemli şairlerinden. Bahtiyar Vahapzade'nin izini süren kıymetli bir sanatçı, bilim ve kalem adamı...
24 Haziran Salı günü, Bakü'de Uluslarası Mahmut Kaşgari Vakfının organizatörlüğü ile Milli Bilimler Akademisi'nde kıymetli akademisyen hocaların katılımı ile adeta bir sanat şölenine dönen bir anma gerçekleşti. Türkiye Büyük Elçisi, Prof.dr. Birol Akgün, Vakıf Aslan'a "Türk Dünyası Alimler Akademisi'nin Fahri Profesörü" olarak diplomasını takdim etti, cübbesini giydirdi. Programda Akademisyen İsa Habibbeyli, önemli şairlerden Seyran Sehavet, Prof. Dr. Yegane İsmayılova, Prof.dr. İsmayıl Aliyev ve pek çok akademisyen konuşmalar gerçekleştirdiler. Süheyla Karaca Hanönü de kısa bir konuşma yaparak kitabını takdim etti. Bendeniz de kısa ve özlü bir konuşma yaparak tablomu kıymetli şaire takdim ettim. Pedagog Zenfira Nusalova Vagif Aslan'ın "Sen Ne Kadar Güzelsin" şiirini büyük bir coşku ve heyecanla okudu. Genç müzisyenler şarkılarını icra ettiler. Rektör Prof.Dr. Ismayıl Aliyev bizlerle sohbet etti, misafirperliğinden derinden etkilendik.
Şair Vagif Aslan'nın 75. Yıl Jübilesi dolayısıyla yayımlanan "Ruhlarla Danışan Adam" kitabı, neşredilmesinde büyük katkılar sağlayan, öncülük yapan Milletvekili Cevanşir Fevziyev'in giriş yazısıyla başlıyor ve şair hakkında pek çok önemli şair ve akademisyenin yazısı yer alıyor. Programda önemli bir sürpriz kitap daha takdim edildi. Milletvekili Cevanşir Fevziyev'in katkıları ile Kadir Hüseynov'un "Benim dünyam" şiir kitabı, genc araştırmaçı yazar Tural Adışirinin ilmi makaleler kitabı kendilerine takdim edildi. Naif, vatan sevdalısı şair, genç akademisyen, tüm salon duygulu anlar yaşadı. Bizim için de şiirler yazar kıymetli büyüğümüze teşekkürlerimizi sunuyoruz.

Bir rüya gibi geçen Azerbaycan ziyaretimizden geriye güzel anılar bırakarak vatana döndük. Bizi bağrına basan tüm dostlarımıza şükranlarımızı sunuyoruz. Sanata ve sanatçıya büyük değer ve destek veren, Türk dünyasına büyük fedakarlıkla önemli katkılar sağlayan gönül insanı, vatansever, Bahtiyar Vahapzade gibi kıymetli bir şairin 100. Yıldönümü vesilesiyle yapılan uluslararası kongre ve programlara bizi davet eden vakıf insanı, önemli organizasyonlara imza atan Uluslararası Mahmut Kaşgari Vakfı ve Azerbaycan Kuzey Kıbrıs Parlametolararası Dostluk Grubu Başkanı Milletvekili Cavanşir Fevziyev'e, Mahmut Kaşgari Vakfının işlerini büyük bir gayret, azim ve fedakarlıkla yürüten kıymetli kardeşim genç akademisyen, büyük organizatör, çalışkanlığı ve özverisi ile bizleri büyüleyen Hayale Zarrabgızı'ya şükranlarımızı sunuyoruz. Bizleri hediyeleri ile mesrur eyleyen Latife Memmedova'ya, bizleri Bakü'den Şeki'ye arabalarıyla götüren akademisyen hocalarımız Felsefe ilimleri doktoru Dilgem Bey ve Prof.dr. Yagane İsmayılovaya, bizi en güzel sofralarda ağırlayan güzel pedagog Zenfira Nusalova'ya, bizi Şeki'de en güzel şekilde gezdirip ilgilenen kardeşlerim Turan Salam ve Hagani Hidayetov'a ve bizleri eşsiz misafirlikleri ile bağırlarına basan tüm akademisyen dostlarımıza, Azarbeycan halkına sonsuz teşekkürlerimizle şükranlarımızı sunuyoruz…

THE FİRST TEXTBOOKS WRİTTEN İNOUR NATİVE LANGUAGE İN AZERBAİJAN

AZƏRBAYCANDA ANA DİLİNDƏ YAZILMIŞ İLK DƏRSLİKLƏR

Əfəndiyeva Şayəstə İbrahim qızı

Abstract
The article examines the development of the first textbooks in the Azerbaijani language. It highlights early educational efforts from the 17th century and the rise of Azerbaijani-language materials in the 19th century, especially after the introduction of public schools. Key contributors like Mirzə Fətəli Axundov and Abdulla Şaiq played major roles in creating textbooks that reflected national identity and language. The evolution continued through the Soviet era despite script changes and ideological shifts, with consistent efforts to provide quality education in Azerbaijani.
Key words: training material, national textbook, educator / pedagogue / teacher, alphabet

Xülasə
Dərslik təlim prosesində istifadə olunan əsas vasitələrdən biridir. Araşdırmalar göstərir ki, eramızın III əsrindən başlayaraq Azərbaycanda ilkin savad təlimi verən ayrı-ayrı məktəblər mövcud olmuş və belə məktəblər XIX əsrə qədər öz fəaliyyətini davam etdirmişlər. Həmin təhsil ocaqlarında bir sıra elmi və bədii əlyazmalardan dərslik qismində (təlim materialı kimi) istifadə olunmuşdur.
Açar sözlər: təlim materialı, milli dərslik, pedaqoq, əlifba

Azərbaycanda ana dilində yaranan dərsliklərin tarixi XVII əsrdən başlanır. Belə ki, XVII əsrdə yaşamış Saib Təbrizinin ana dilində yazdığı kitabdan uzun müddət məktəblərdə dərslik kimi istifadə edilmişdir. Sonrakı dövrdə Azərbaycanın məktəb və mədrəsələrində Sədinin "Gülüstan" və "Bustan" əsərləri, "Füzuli divanı", "Tarixi-Nadir", "Camei-Abbas" və başqa kitablar dərslik və dərs vəsaitləri kimi istifadə olunmuşdur. Həmin kitablar şagirdlərin bilik və yaş səviyyəsinə uyğun olmasa da, milli dərslik yaradıcılığımızda ilk nümunələr kimi qiymətlidir.
Sonralar Abbasqulu Ağa Bakıxanov, Seyid Əzim Şirvani kimi sənətkarlarımız dərslik hazırlığı sahəsində ilk cəhdlər göstərmiş, işlədikləri məktəb və mədrəsələrdə hekayə və şeirlərindən təlim materialları kimi istifadə etmişlər. Azərbaycanda və bütün Zaqafqaziyada dövlət məktəblərinin meydana gəlməsi və Azərbaycan dilinin bir fənn kimi tədris edilməsi bu dildə müvafiq dərsliklərin yaradılmasına şərait yaratdı. Azərbaycan dilində yeni üsulla dərslik tərtib etmək sahəsində ilk təşəbbüs görkəmli mütəfəkkir və pedaqoq Mirzə Fətəli Axundova məxsusdur.
O, 1836-1840-cı illərdə Tiflis qəza məktəbində Azərbaycan dili müəllimi işləyərkən ana dili dərsliyi yazmağa başlamış, lakin sonralar müəllimlik vəzifəsindən azad olunması ilə əlaqədar bu işi davam etdirməmişdir. Azərbaycan dilində dərslik (oxu kitabı) tərtibi işində Tiflis qəza məktəbi və gimnaziyasının digər müəllimlərinin də xeyli rolu olmuşdur. Mətbəə yoxluğu üzündən bu vəsaitlər çox zaman işıq üzü görmürdü. Əlyazması şəklində olan bu dərsliklərə Sankt-Peterburq, Tiflis, Bakı, Yerevan şəhərlərindəki dövlət arxivlərində, eləcə də elmi müəssisələrin arxivlərində rast gəlinir. Son tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Azərbaycan dilində ilk "Əlifba" və "Oxu" kitabı 1839-cu ildə Tiflisdə çap edilmişdir. Hər iki kitabın müəllifi Zaqafqaziya məktəblər direktoru vəzifəsini icra edən N.Dementyevdir. Səs

üsulu ilə tərtib edilmiş bu dərslikdən Zaqafqaziyada, o cümlədən Azərbaycandakı dövlət məktəblərində istifadə edilmişdir.

XIX əsrin ortalarına doğru Azərbaycan dilinin tədrisi sahəsində elmi-pedaqoji tələblərə müvafiq yeni dərsliklər meydana gəldi. Bu dərsliklər içərisində Kazan Universitetinin professoru Mirzə Kazımbəyin "Türk-tatar dilinin qrammatikası" (1839), Tiflis gimnaziyasının Azərbaycan və fars dili müəllimi L.R.Budaqovun "Türk-tatar dilinin əlifbası" (1844), Tiflis gimnaziyasının müəllimləri Mirzə Şəfi Vazeh və İ.Qriqoryevin "Kitabi-türki" (1855) adlı dərslikləri xüsusi yer tuturdu.

XIX əsrdə Azərbaycanda və bütövlükdə Zaqafqaziyadakı dövlət məktəblərində təhsil alan məktəblilərin bütöv bir nəsli həmin kitablardan Azərbaycan dilini öyrənmişlər. Bu ənənə sonralar Süleyman bəy Vəlibəyovun "Üsuli-cədidi-lisani-fars" və Mahmud bəy Mahmudbəyovun səs üsulu ilə yazılan "Yeni əlifba" kitabı ilə davam etdirilmiş, dərsliklər Süleyman Sani Axundov, Fərhad Ağazadə, Abdulla Əfəndizadə, Hacı Kərim Sanılı, Əhməd Seyidov kimi müəllim-metodistlər tərəfindən daha da təkmilləşdirilmişdir. Dərslik yaradıcılığı tarixində Firudin bəy Köçərli ("Vətən dili"), Rəşid bəy Əfəndiyev ("Uşaq bağçası"), Seyid Əzim Şirvani ("Məcmuəyi-asari-Hacı Seyid Əzim Şirvani") kimi ədiblərimiz xüsusi fəaliyyət göstərmiş, Azərbaycan dilinin öyrənilməsinə xidmət edən mükəmməl dərsliklər yarada bilmişlər. Ana dili dərsliklərinin hazırlığı sahəsində yaranmış təcrübə sovet dövrünə qədər inkişaf etdirilərək müasir dərsliklərin təməli kimi qiymətli mənbə olmuşdur.

XIX əsrin sonu və XX əsrin əvvəllərində yeni fəaliyyətə başlayan məktəblərdə uşaqların hansı dərsliklərlə təhsil alması dövrün maarifçilərini həmişə düşündürmüş və mühüm problemlərdən biri olmuşdur. Azərbaycanın görkəmli maarifpərvərləri Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Məmməd Tağı Sidqi, Sultan Məcid Qənizadə, Firudin bəy Köçərli, Haşım bəy Vəzirov, Rəşid bəy Əfəndiyev, Mahmud bəy Mahmudbəyov, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Abbas Səhhət və başqaları məktəblərdə keyfiyyətli dərsliklərin olmasını tələb edirdilər. Həsən bəy Zərdabi yazırdı: "Uşaqların yaşlarına və bilik səviyyəsinə uyğun olan dərs kitabı yoxdur. Uşaqlar şairlərin kitablarını oxuyurlar. Bunlar ana dili təliminə yaramır. Ona görə dərs kitabları yaratmaq lazımdır. Heç olmazsa başqa xalqlarda mövcud olan dərs kitablarından istifadə və tərcümə etməklə onları hazırlayaq".

Beləliklə, XIX əsrdə ana dili dərsliklərinin tərtibi tarixini iki mərhələyə bölmək olar. I mərhələ XIX əsrin 80-ci illərini əhatə edir. Azərbaycanda və Zaqafqaziyanın bir sıra şəhərlərində təsis edilən dövlət məktəblərində Azərbaycan dilinin müstəqil fənn kimi tədris edilməsi, bu dilin bütün Qafqazda böyük rol oynaması ana dilində ilk dərsliklərin və vəsaitlərin (əlifba, oxu kitabı, sərf-nəhv və sair) meydana gəlməsinə əlverişli şərait yaradırdı.

II mərhələdə, yəni XIX əsrin sonlarında K.D.Uşinskinin "Vətən dili" dərsliyi Azərbaycan dilində eyni adlı dərsliyin meydana gəlməsinə əhəmiyyətli təsir göstərmişdi. Bu sahədə İrəvan qəza məktəbinin Azərbaycan dili müəllimi Məmməd Elxanov ilk təşəbbüs göstərərək "Vətən dili" adlı dərslik yazmış, lakin həmin əsər çap olunmamışdır. Zaqafqaziya Müəllimlər Seminariyası Azərbaycan şöbəsinin müdiri Aleksandr Osipoviç Çernyayevskinin "Əlifba" kitabı isə çox mühüm bir hadisə idi. "Kəşkül" qəzeti Aleksey Osipoviç Çernyayevskinin "Vətən dili" kitabına yüksək qiymət verir və qeyd edirdi ki, Çernyayevski nəinki bizim çoxdan arzu etdiyimiz ana dilində dərs kitabı yaratmış, o həm də ana dilində dərs deyən müəllimlər üçün dərsliklərin yenidən tərtibi məsələləri ilə ciddi məşğul olmuşdur.

Aleksey Osipoviç Çernyayevskinin "Vətən dili" dərsliyi sövti üsul əsasında azərbaycanlılar üçün nəşr edilmiş ilk Azərbaycan dili dərsliyi idi. "Vətən dili" özündən sonra yazılan əlifba və ilk oxu kitabları üçün örnək olmuş, Azərbaycan ziyalılarının böyük bir nəsli bu dərslik üzrə savada yiyələnmişdir. Firidun bəy Köçərli onun "Vətən dili" dərsliyi ilə əlaqədar yazırdı: "Bizim əqidəmizə görə, Uşinskinin "Rodnoye slovo" ("Ana dili") dərsliyi rus məktəbləri üçün hansı əhəmiyyətə malikdirsə, Çernyayevskinin "Vətən dili" dərsliyi də azərbaycanlılar üçün

elə bir əhəmiyyətə malikdir.“Vətən dili” (I hissə) kitabının müvəffəqiyyəti onun II hissəsinin tərtibinə də zəmin yaratmışdı. 1880-ci illərin sonlarında Aleksey Osipoviç Çernyayevski seminariyanın Azərbaycan şöbəsinin ibtidai məktəb müəllimi Süleyman Vəlibəyovla birlikdə “Vətən dili” kitabının II hissəsini tərtib etdi.

Bu kitabın tərtibində yaxından iştirak edənlərdən biri də görkəmli müəllim və şair Həsənəli Qarabağlı olmuşdur. Ana dili təlimi üçün nəzərdə tutulmuş “Vətən dili” (II hissə) ilk dəfə 1888-ci ildə Tiflisdə “Kəşkül” mətbəəsində çap olunmuşdur”.XX əsrin əvvəllərində təhsil sahəsində mövcud olan problemlərdən biri də dərslik hazırlığı ilə bağlı idi. Yeni məktəblər yeni kitablar tələb edirdi. Bu məsələ Azərbaycan müəllimlərinin I (1906) və II (1907) qurultaylarında da müzakirə olunmuşdu. Qurultayda qəbul edilən qərarlardan biri də ibtidai məktəblər üçün ana dilində dərs kitablarının hazırlanması ilə bağlı idi. Həmin dövrdən başlayaraq dövrün maarifpərvər insanları ana dilində dərsliklər yazmağa başladılar. Bu sahədə Mahmud bəy Mahmudbəyov, Abbas Səhhət, Rəşid bəy Əfəndiyev, Abdulla Şaiq və başqalarının rolunu xüsusilə qeyd etmək lazımdır.

Mahmud bəy Mahmudbəyov və Abbas Səhhət 1909-cu ildə türk dilinin təlimi üçün nəşr etdikləri üçüncü ilə məxsus qiraət kitabı 1910-1915-ci illərdə təkrar çap olundu. Ana dilinin saflığı uğrunda mübarizə aparan görkəmli ziyalı, “İkinci il” dərsliyinin həmmüəllifi Abdulla Şaiq Talıbzadə məktəblərimizin milli dərsliklərlə təmin olunmasında əvəzsiz xidmət göstərmişdir. İbtidai məktəbdə ana dili təliminin inkişafında mühüm xidməti olan Abdulla Şaiq pedaqoji fəaliyyətini ədəbi yaradıcılığı ilə birləşdirirdi. Onun “Dəbistan”, “Məktəb” və “Rəhbər” jurnallarında uşaqlar üçün nəşr etdirdiyi əsərlər Azərbaycan pedaqoji fikir tarixinin incilərindən hesab olunur. 1910-cu ildə yazdığı “Uşaq gözlüyü” əsərindən isə uzun müddət ibtidai məktəblərimizdə əlifba dərsliyi kimi istifadə olunmuşdur.Abdulla Şaiq Azərbaycan müəllimlərinin birinci (1906) və ikinci (1907) qurultaylarının iştirakçısı olmuş, ikinci qurultayın katiblik xidmətini yerinə yetirmiş, idarə heyətinin qərarı ilə Mahmud bəy Mahmudbəyov, Süleyman bəy Əbdürrəhmanbəyzadə, Süleyman Sani Axundov, Abdulla bəy Əfəndiyev, Fərhad Ağazadə ilə birgə “İkinci il” dərsliyinin tərtibinə cəlb edilmişdir. Ədib “Uşaq çeşməyi” (1907), “Uşaq gözlüyü” (1910), “Gülşəni-ədəbiyyat” (1910), “Gülzar” (1912) və sair dərsliklərini nəşr etdirməklə məktəblərin milli ruhlu dərsliklərlə təmin olunmasında misilsiz xidmət göstərmişdir. Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Mirzə Fətəli Axundov, Əli bəy Hüseynzadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Abbas Səhhət, Hüseyn Cavid və başqa şair və ədiblərin mövzusu xalq həyatından götürülmüş əsərləri Azərbaycan məktəbinə Abdulla Şaiqin dərslikləri vasitəsilə daxil olmuşdur. O, gəncliyin milli hisslərini coşduran ilk ədəbiyyat müəllimi kimi tanınmışdır. Mahmud bəy Mahmudbəyov 1907-ci ildə Bakıda “Türk əlifbası və ilk qiraət” kitabını nəşr etdirmişdi. Bir il sonra Mahmud bəy Mahmudbəyov, Süleyman bəy Əbdürrəhmanbəyzadə, Süleyman Sani Axundov, Fərhad Ağazadə, Abdulla Şaiq Talıbzadə və Abdulla bəy Əfəndiyevin “İkinci il” dərsliyi meydana gəldi. Həmin dərsliklər həm pedaqoji, həm də didaktik-metodik cəhətdən yeni tələblərə cavab verirdi. Kitabların dilinin sadəliyi, aydınlığı, bədiiliyi, məzmununun dolğunluğu, metodik cəhətdən materialların seçimi, uşaqlara veriləcək biliklərin onların yaş və anlaqlıq səviyyələrinə uyğun olması, sadə xalq dilində yazılması, uşaqlarda bədii zövq tərbiyə etməsi, cəlbediciliyi onların əsas məziyyətləri idi. Bu dərsliklərin yazılması və nəşri “Nicat” xeyriyyə cəmiyyətinin bilavasitə təşəbbüsü və yardımı ilə həyata keçirilmişdi. Ümumiyyətlə, ana dilində dərslik yaradılması sahəsində görkəmli maarif xadimi Mahmud bəy Mahmudbəyovun müstəsna rolu olmuşdur.

1909-cu ildə Mahmud bəy Mahmudbəyov və Abbas Səhhətin birlikdə “Türk dilinin təlimi üçün üçüncü ilə məxsus qiraət kitabı”, 1911-ci ildə Mahmud bəy Mahmudbəyovun “İmlamız” kitabı nəşr edildi. Hər iki kitabda ana dilinin tədrisinə xidmət göstərəcək faydalı mülahizələr söylənilirdi. 1922-ci ildə Mahmud bəy Mahmudbəyovun başçılığı ilə Süleyman bəy Əbdürrəhmanzadə, Süleyman Sani Axundov, Fərhad Ağazadə, Abdulla Şaiq Talıbzadə, Rəşid

bəy Əfəndizadə "Yeni türk əlifbası" adlı dərslik hazırladılar. Həmin dövrdə bir qrup müəllimlər də dərslik yazmaqla məşğul olmuşlar. Ş.M.Qarabağinin "Risaleyi-hüruf və xütut" (1890); S.Ə.Təbrizinin "Kitabçeyi-ədəbiyyə" (1893); Ə.Axundzadənin "Xətti təliq və nəstəliq" (1894); M.H.Rüşdiyyənin "Vətən dili" (1884); M.Ələkbərin "Kitabipəndi ətfal" (1899); M.Şahtaxtinskinin "Sövti Şərq Əlifbası" (1902); M.N.Şirvaninin "Təftül arifin lisani türki" (1902); H.S.Eyvazovun "Üsuli-tədris və təlim-tərbiyə" (1907); H.Məmmədlinin "Nümuneyi tədris və tərbiyə" (1907); M.Qəmərlinski, Nərimanbəyov, Şahtaxtinski, Rəcəbov, Qazıyev, Şərifbəyov və Cəfərbəyovun "Ana dili" (1911), M.H.Həsənzadənin "Tamam əlifba" (1912), M.A.Abbaszadənin "Əlifba" (1913) və s. dərsliklərini nümunə göstərmək mümkündür. Maraqlıdır ki, görkəmli bəstəkar Üzeyir Hacıbəyov da dərslik yaradıcılığı ilə məşğul olmuş, 1907-ci ildə "Hesab" kitabını və "Rus-türk, türk-rus" lüğətini hazırlayıb çap etdirmişdi.Milli məktəblərin dərsliklərlə təmin olunması sahəsində Qafur Rəşadın xidmətləri böyükdür. İlk coğrafiya dərsliklərinin yaradıcısı olan Qafur Rəşad "Qafqaz coğrafiyası" (1910), "İbtidai coğrafiya" (1922), "Ümumi coğrafiya" (1923), "Coğrafiya terminləri lüğəti" (1923), "SSRİ-nin iqtisadi coğrafiyası" (1941), "Xəritə üzərində əməli iş" (1943) və s. adlar altında 18 dərslik və vəsait yazıb nəşr etdirmişdi. "Rəhbəri-sərf" (Məmmədsadıq Axundovla birgə, 1910), "Rəhbəri-hesab" (Əbdürrəhman Tofiq Əfəndizadə ilə birgə, 1910) dərslikləri uzun illər məktəblərdə tədris olunmuşdu. Bununla yanaşı, milli uşaq ədəbiyyatının inkişafında da Qafur Rəşadın xidmətləri böyükdür. O, Azərbaycanda "Məktəb" adlı sayca ikinci uşaq jurnalının (1911- 1920) və uşaqlara məxsus ədəbiyyat nəşr edən eyniadlı birinci mətbəənin təsisçisidir (Əbdürrəhman Tofiq Əfəndizadə ilə birgə). Cümhuriyyət dövründə nəşr olunmuş "Məktəb" jurnalı uşaqların milli müstəqillik və dövlətçilik ruhunda tərbiyəsində müsbət rol oynamışdır. O, pedaqoq-yazıçıları jurnalın ətrafına toplamış, orijinal şeir və hekayələrdən, müxtəlif dillərdən edilən tərcümələrdən, elmi-kütləvi məqalələrdən ibarət zəngin uşaq ədəbiyyatı xəzinəsi yaratmış, yeni yazıçı nəslinin yetişməsi işində böyük xidmət göstərmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Xalq Maarif Nazirliyi, bir tərəfdən xalqın gələcəyini təmin edə biləcək mütəxəssislər hazırlamaq üçün ali, orta və ibtidai məktəblər açır, kurslar təşkil edir, digər tərəfdən nəşriyyat - tərcümə komissiyasının köməyi ilə dərsliklər, tədris vəsaitləri hazırlayır və çap etdirirdi. 1919-cu il noyabrın 7-də Xalq Maarif Nazirliyi yanında nazir müavini Həmid bəy Şahtaxtinskinin sədrliyi ilə Hökumət İslahat Komissiyası yaradıldı. Komissiya qısa müddətdə xeyli işlər gördü. Ümumi təhsil sahəsində islahat aparmaq, milli proqram və dərsliklər hazırlamaq məqsədilə hökumət tərəfindən xüsusi fənn komissiyaları təsis edildi. Fənn komissiyaları tərəfindən hazırlanmış bir sıra yeni dərsliklər hökumətin ayırdığı vəsait hesabına 1919-cu ildə nəşr edilib məktəblərin istifadəsinə verildi. Dərsliklərin bəziləri təkrar nəşr olunsa da, bir çoxu məhz həmin dövrdə yazılmışdı: Mahmud bəy Mahmudbəyov. Türk əlifbası və ilk qiraət, 1918; Rəşid bəy Əfəndiyev.

Türk qiraəti, 1918; Mahmud bəy Mahmudbəyov, Abbas Səhhət. Yeni məktəb, 1918; Qafur Rəşad Mirzəzadə, Məmməd Axundov. Rəhbəri-sərf, 1918; Rasim Əhməd. Sərfi-türki, 1919; Camo Cəbrayılbəyli. Tarixi-təbii, 1919; Hüseyn Cavid, Abdulla Şaiq. Ədəbiyyat dərsləri, 1919; Abdulla bəy Əfəndiyev. Son türk əlifbası, 1919; Hacı Səlim Səyyah Qasımzadə, Ağəli Qasımov. Hesab məsələləri məcmuəsi, 1919; Hacı Səməd bəy Əlizadə. Rəhbəre cəbr, 1919; Abdulla Şaiq. Milli qiraət, 1919; Müntəxəbat. Türk ədiblərindən nümunələr, 1919 və sair. 20-ci illərdə stabil dərs kitablarının hazırlanması sahəsində problemlər var idi. Proqram və dərsliklər arasındakı uyğunsuzluq halları, təcrübəli müəllimlərin və tərcüməçilərin olmaması, nəşriyyat-poliqrafiya bazasının zəifliyi, elm sahələri üzrə terminoloji lüğətlərin yoxluğu dərs kitablarının hazırlanmasında və nəşrində çətinliklər yaradırdı. Bu çətinliklərə baxmayaraq, həmin illərdə məktəbləri dərsliklərlə təmin etmək sahəsində müəyyən uğurlar da qazanıldı. Sovet hakimiyyəti illərində ölkəmizdə geniş məktəb şəbəkəsi yaradıldı, dərsliklər və dərs vəsaitləri ilə təchizat sahəsində müvafiq tədbirlər həyata keçirildi. Yeni tədris planları və

proqramlarının təsdiqi ilə əlaqədar məktəblər üçün ana dilində dərslik, dərs vəsaitləri və başqa tədris-metodik ədəbiyyatların hazırlanması zərurəti yarandı. Bu məqsədlə Xalq Maarifi Komissarlığı nəzdində (iyun, 1921-ci il) Nəşriyyat şöbəsi yaradıldı. 1924-cü ildə bu şöbənin əsasında Xalq Maarifi Komissarlığının tabeliyində Azərbaycan Dövlət Nəşriyyatı - "Azərnəşr" təsis edildi. Nəticədə Xalq Maarifi Komissarlığı tərəfindən dərsliklərin sistemli şəkildə nəşr olunmasına 1920/21-ci dərs ilindən başlanır. Əvvəlcə sovet hakimiyyətinə qədərki dövrdə tərtib olunmuş ana dilinə aid ibtidai sinif dərslikləri (Abdulla Şaiq Talıbzadənin "Uşaq gözlüyü" əlifba kitabı, Mahmud bəy Mahmudbəyovun "İkinci il" dərsliyi və s.) müəyyən dəyişikliklərlə yenidən çap edildi. Eyni zamanda 20-ci illərdə M.Mahmudbəyovun 1907/08-ci illərdə nəşr etdirdiyi "Türk əlifbası və ilk qiraət", M.Mahmudbəyov, S.Axundzadə, S.Əbdürrəhmanzadə, F.Ağazadə, A.Talıbzadə və A.Əfəndizadənin "İkinci il", M.Mahmudbəyov və A.Səhhətin "Üçüncü ilə məxsus qiraət", A.Şaiqin IV-V siniflər üçün "Qiraət kitabı", A.Əfəndizadənin "Türk əlifbası" dərslikləri müəyyən təkmilləşdirmələrlə nəşr edilərək I pillə məktəblərində istifadə edilir. 1922-ci ildə M.Mahmudbəyov, S.Əbdürrəhmanzadə, S.Axundzadə, A.Talıbzadə və A.Əfəndizadə ərəb və latın əlifbalarının qarşılıqlı təliminə imkan verən "Yeni türk əlifbası" dərsliyini hazırlamışdılar. Bundan əlavə, Xalq Maarifi Komissarlığının yaratdığı ana dili komissiyası tərəfindən yazılmış (müəllifləri İsmayıl Hikmət, Abdulla Şaiq, Seyid Mirqasımzadə, Cavad Axundzadə, Cabbar Əfəndizadə və Mustafa Tofik) "Türkcə sərf-nəhv" ("Azərbaycan dilinin qrammatikası") dərsliyi 1924-cü ildə nəşr edilmişdi. 20-ci illərdə oxu dərslikləri şəhər və kənd məktəbləri üçün olmaqla iki variantda nəşr edildi. Riyaziyyat və təbiət elmlərinə aid dərsliklər isə rus dilindən tərcümə edilirdi. Nəşr edilən ibtidai məktəb dərsliklərinin sayı ilbəil artırdı. Məsələn, 1920-ci ildə 3 adda dərslik nəşr edilmişdisə, bu göstərici 1923-cü ildə 23, 1927-ci ildə 42, 1929-cu ildə isə 50 idi. Bu illərdə dərsliklərlə yanaşı, sinifdənxaric oxu üçün 104 adda, müəllimlər üçün isə 32 adda tədris-metodik ədəbiyyat da nəşr edilmişdi.20-ci illərin əvvəllərində hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə başlanmış əlifba islahatı sahəsində işlər yenidən canlandırıldı.

1921-ci ilin yanvar ayında Xalq Maarifi Komissarlığı yanında Əlifba İslahatı üzrə Komissiya, az sonra - 1922-ci ilin mayında Yeni Türk Əlifba Komitəsi yaradıldı. Komitənin tərkibinə isə Səmədağa Ağamalıoğlu (sədr), Xudadat bəy Məlikaslanov, (AXC dövründə əlifba üzrə İslahat Komissiyasının sədri olmuşdur), Əhməd bəy Pepinov, Əli Tağızadə, Sultanməcid Əfəndiyev, Fərhad Ağazadə (Şərqli), Vəli Xuluflu, Teymur Hüseynov və digərləri daxil idilər. Rəsmi yazışmalarda əski ərəb əlifbası ilə yanaşı, yeni latın qrafikalı əlifbadan da istifadəyə (oktyabr, 1923-cü il) icazə verilmişdi. 1926-cı ilin 26 fevral - 6 mart tarixlərində Bakıda çağırılmış I Beynəlxalq Türkoloji Qurultay latın qrafikalı əlifbaya keçid prosesində müstəsna rol oynadı. Əlifba islahatı latın qrafikalı Azərbaycan əlifbasına keçidlə bağlı hökumət qərarı ilə (iyul, 1928-ci il) başa çatdı. 1929-cu il yanvarın 1-dən yeni əlifbaya tam keçid rəsmən elan edildi, məktəblərdə tədrisin həmin əlifba ilə aparılmasına başlanıldı. 30-cu illərdə latın qrafikalı əlifba ilə dərsliklərin hazırlanması və nəşri tam reallaşsa da, SSRİ-də aparılan ruslaşdırma siyasətinə uyğun olaraq bu əlifba 1939-cu il 11 iyul tarixdən ləğv edildi və heç bir hazırlıq işi aparılmadan 1940-cı il yanvarın 1-dən bütün təhsil müəssisələrində kiril (rus) qrafikalı Azərbaycan əlifbasının tətbiqinə başlanıldı. Azərbaycan SSR XKS-nin 31 dekabr 1939-cu il tarixli "Respublikanın kütləvi məktəblərində və digər təhsil müəssisələrində təlimin yeni Azərbaycan əlifbasına keçirilməsi haqqında" və "İbtidai məktəblərin dərslik və dərs vəsaitlərinin yeni Azərbaycan əlifbasında nəşri haqqında" qərarları təhsil müəssisələrində tədrisin yeni əlifbaya keçirilməsində müəyyən rol oynadı.30-cu illərdə təhsilin məzmunu tamamilə Sovet ideologiyasının prinsiplərinə tabe etdirildi.Bu illərdə təhsilin məzmununda islahatlar ÜİK(b)P MK-nın 25 avqust 1932-ci il tarixli "İbtidai və orta məktəblərdə rejim və tədris proqramları haqqında" və 12 fevral 1933-cü il tarixli "İbtidai və orta məktəblər üçün dərsliklər haqqında" qərarları əsasında aparıldı. Ümumi təhsilin tədris planları, tədris proqramları, dərslik, dərs

vəsaiti və digər tədris-metodik ədəbiyyatları yeniləşdirildi və ya əsaslı dəyişikliklər edildi. Həmin qərarlarda təhsil sistemi qarşısında 20-ci illərdə tətbiq edilmiş "Kompleks proqramlar"dan və dərslik kimi istifadə edilən "İş kitabları"ndan imtina etmək, bütün fənlər üzrə sabit tədris proqramı və dərsliklərin hazırlanmasını təşkil etmək vəzifəsi qoyulurdu.
Azərbaycan dilində ibtidai və orta məktəblər üçün yeni dərsliklərin hazırlanması işinə start verilsə də, həm məktəb proqramlarından, həm də respublikada hazırlanan dərsliklərdən milli-mənəvi dəyərləri əks etdirən materiallar tamamilə çıxarıldı. Yalnız "sosializm ideyaları"na sədaqətli gənclər yetişdirilməsinə xidmət edən "beynəlmiləlçilik" ideyalarına üstünlük verilirdi. 20 may 1933-cü ildə Azərbaycan KP MK-nın xüsusi qərarı oldu. Bu qərara uyğun olaraq ibtidai məktəblər üçün orijinal ana dili dərsliklərinin tərtibinə başlanıldı. Belə ki, Veysəl Mustafazadə, Yusif Zeynalov, Əli Məsrur Qafarlı, Ələkbər Babazadə, İdris Həsənov, Əbdüləzəl Dəmirçizadə, Abdulla Şərifov, Feyzulla Qasımzadə, Ağamməd Abdullayev, Qulam Ələkbərli və başqalarının müəllifliyi ilə ibtidai məktəblər üçün "Əlifba", "Ana dili", "Oxu kitabı", "Azərbaycan dili" dərslikləri yaradıldı. Sovet hakimiyyəti illərində ən uzunömürlü "Əlifba" dərsliyi 1933-cü ildə Veysəl Mustafazadə tərəfindən yazıldı. 1933-36-cı illərdə onun müəllifliyi ilə nəşr edilən bu "Əlifba" 1937-ci ildən 1946-cı ilə kimi Yusif Zeynalov və Əli Məsrur Qafarlının, 1946-cı ildən 1962-ci ilə kimi Yusif Zeynalovun, həmin ildən isə Yusif Zeynalov və Yəhya Kərimovun müəllifliyi ilə nəşr edildi.Bu illərdə Yusif Zeynalovun "Ana dili" ("Oxu" I s.), "Oxu kitabı" (I s.), Əli Məsrur Qafarlının "Ana dili" (II s.), Feyzulla Qasımzadənin "Oxu" kitabı (III s.), sonralar Ağamməd Abdullayev və Feyzulla Qasımzadənin müəllifliyi ilə "Ana dili", Ələkbər Babazadənin "Türk (Azərbaycan) dili" (II s.), "Türk (Azərbaycan) dili" (II s.), Qulam Ələkbərlinin "Türk (Azərbaycan) dilinin qrammatikası və yazı qaydaları" (II s.), Əbdüləzəl Dəmirçizadənin "Türk (Azərbaycan) dili" (IV s.) dərslikləri yaradıldı və nəşr edildi.30-cu illərdə ibtidai məktəblər üçün ana dili üzrə yaradılan bu orijinal dərsliklər Azərbaycan məktəbində ana dilinin tədrisində müstəsna rol oynadı və gələcəkdə bu istiqamətdə aparılan dərslik yaradıcılığında təməl missiyasını yerinə yetirdi.1938/39-cu dərs ilindən Azərbaycan məktəblərində ana dili və ədəbiyyat, qeyri - Azərbaycan məktəblərində Azərbaycan dili üzrə proqram və dərsliklərlə yanaşı, həm də qeyri-rus məktəblərində rus dili və ədəbiyyatı üzrə proqram və dərsliklərin Azərbaycanda tərtibinə başlanıldı. Digər proqram və dərsliklər isə Moskvada tərtib edilir, sonradan Azərbaycan dilinə tərcümə olunurdu.

Nəticə

Məqalədə Azərbaycanda ana dilində yazılmış ilk dərsliklərin yaranma və inkişaf tarixi araşdırılır. İlk dərslik nümunələri XVII əsrdən başlayaraq XIX əsrdə ictimai məktəblərin yaranması ilə daha da inkişaf etmişdir. Mirzə Fətəli Axundov, Abdulla Şaiq, Mahmud bəy Mahmudbəyov, Firidun bəy Köçərli və başqaları dərslik yaradıcılığında mühüm rol oynamışlar. XIX əsrin sonu və XX əsrin əvvəllərində "Vətən dili", "İkinci il", "Uşaq gözlüyü" kimi dərsliklər tərtib olunaraq məktəblərdə istifadə edilmişdir. Sovet dövründə əlifba islahatı, dərsliklərin kütləvi nəşri və milli məzmunun dəyişdirilməsi kimi proseslər də bu sahəyə təsir göstərmişdir. Məqalədə dərslik yaradıcılığının ictimai, pedaqoji və mədəni əhəmiyyəti önə çəkilir.

Ədəbiyyat

1. Xəndan C. Ədəbiyyat teoriyası. Baki: Azərnəşr, 1940, 168 s.
2. Xəndan C. Ədəbiyyat nəzəriyyəsi. Baki: Azərnəşr, 1948, 189 s.
3. Xəndan C. Ədəbiyyat nəzəriyyəsi. Baki: Azərnəşr, 1958, 287 s.
4. Rəfili M. Ədəbiyyat nəzəriyyəsinə giriş. Bakı: 1958, 282 s.
5. Cəlal M., Xəlilov P. Ədəbiyyatşünaslığın əsasları. Bakı: 1972, 280 s.